Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Elm və Ali Təhsil üzrə
Dövlət Agentliyi

ADNSU
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

NASCO

bp

NORM
əsl sement

nobel energy

"Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş DOKTORANTLARIN VƏ GƏNC TƏDQİQATÇILARIN XXVIII RESPUBLİKA ELMİ KONFRANSI

NASCO XXVIII

16-17 dekabr

ADNSU

2025

Bakı, Azərbaycan

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ PHŞ

“Konstitusiya və Suverenlik İli"nə həsr olunan "Doktorantların və Gənc Tədqiqatçıların XXVIII Respublika Elmi Konfransı (NASCO XXVIII)

16-17 dekabr 2025

II CİLD

Bakı-2025

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ PHŞ

“Konstitusiya və Suverenlik İli”nə həsr olunan Doktorantların və Gənc Tədqiqatçıların XXVIII Respublika Elmi Konfransı (NASCO XXVIII)” – NASCO 2025. II cild (sosial və humanitar elmlər) mövzusunda respublika elmi-praktik konfransının materialları // – Bakı: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), – 16–17 dekabr 2025, – 1124 s.

Materiallardan istifadə zamanı istinad zəruridir. https://nasco.asoiu.edu.az/

©ADNSU

TƏŞKİLAT KOMİTƏSİ

AD VƏ SOYAD	VƏZİFƏ
Emin Əmrullayev (sədr)	Azərbaycan Respublikasının elm və Təhsil Naziri
İdris İsayev	Azərbaycan Respublikası elm və Təhsil Nazirinin müavini
Mətin Kərimli	Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri
Rüfət Əzizov (sədr müavini)	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Rektoru
Ülkər Səttarova	Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Direktoru
Elnur Əliyev	Nazirin müşaviri, Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru vəzifəsini müvəqqəti icra edən
Nicat Məmmədli	Nazirin müşaviri
Azər Abizadə	Nazirin müşaviri
Rauf Orucov	Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri
Turxan Süleyman	Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin müdiri
Səbuhi Rzayev	Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri
Afət Sadıqova (elmi katib)	Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin baş məsləhətçisi
Rza Məmmədov	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tədris məsələləri üzrə prorektoru
Elviz İsmayılov	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru vəzifəsini müvəqqəti icra edən
Tahir Məmmədli	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorunun müşaviri
Nəsibə Əmirbəyova	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorunun müşaviri
Xülya Sabirli	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri
Elmar Quliyev	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Layihələrin idarə olunması şöbəsinin müdiri

Elm Komitəsi

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin əməkdaşları

Rza Məmmədov
Elviz İsmayılov
Tahir Məmmədli
Nəsibə Əmirbəyova
Ülviyyə Abbasova
Fərid Ağayev
Naməd Paşayev
Elman İskəndərov
Sevinc Məmmədxanova
Əli Hikmət Əhmədov
Aydın Əliyev
İlham Rüstəmov
Araz Əliyev

Lalə Bəkirova
Vaqif Seyidov
Zərifə Əfəndiyeva
Sakit Rəsulov
Şahin İsmayılov
Hüseyn Qurbanov
Nərminə Əliyeva
Yunis Qəhrəmanlı
Fariz Əmirov
Ələkbər Həsənov
Tahir Cabbarov
Sevda Əliyeva
Sakit Abbasov
İbrahim Həbibov

Elbrus Əhmədov
Sevinc Mirzəyeva
Ələsgər Əliyev
Qəzənfər Süleymanov
Arif Ələkbərov
Məzahir Babayev
Camal Mustafayev
Müqəddəs Əzizzadə
Namiq Gəncəyev
Xülya Sabirli
Ələsgər Əliyev
Akif Əlizadə
Nazilə Rəhimova

Katiblik

Əli Əli-zadə	Elm Departamentinin Direktoru
Valeh Cəfərov	Elmi Analitika və Qiymətləndirmə Şöbəsinin müdiri
Kamran Heydərov	Baş mütəxəssis
Mehriban İsmayılova	Baş mütəxəssis
Turan Cabbarova	toplunun məsul katibi
Aynurə Quliyeva	Mütəxəssis

MÜNDƏRİCAT

FƏLSƏFƏ, TARIX, SOSIOLOGIYA VƏ SƏNƏTŞÜNASLIQ

ƏKBƏROVA Arzu İqbal *Türkiyə, İraq və Suriyanin transsərhəd su siyasətləri: əməkdaşlıq və münaqişə dinamikası…*	14
KƏRİMLİ Aynur İbrahim *Azərbaycan Xalq Cümhuriyyəti tarixi 1970-ci illər Türkiyə tarixşünaslığında……*	22
ŞADİYEVA Aytac Şixəli *XX əsrin sonunda Yaponiyanın Azərbaycanda geosiyasi maraqları.....*	28
MƏMMƏDLİ Balamirzə Aydın *ABŞ-nin Qarabağ probleminə münasibəti Azərbaycan tarixşünaslığında.....*	32
ŞƏMİYEVA Bəsdi Hikmət *Ali təhsilin demokratikləşməsi: keyfiyyətli idarəetmənin təkmilləşdirilməsinin əsas məqsədi kimi.....*	37
BABAZADƏ Əli Siyab *Səfəvilər dövründə İrəvan bölgəsinin etnik-dini tərkibindəki dəyişikliklərin dini, siyasi və iqtisadi aspektləri.....*	48
MƏMİYEVA Elza İlqar *Türk Dövlətləri Təşkilatı tarixi türk mirasının qlobal fenomenologiyası kimi.....*	56
SHUKURLU Asmar Vugar *Development of cultural cooperation between Kazakhstan and Azerbaijan: historical roots and modern prospects……*	62
YUSİFLİ Faig Mubariz *Music and the brain: physiological effects of music on human psychology……*	74
ƏLİYEVA Firuzə Nadir *Gender əsaslı zorakılığa məruz qalmış şəxslərlə sosial işin təşkili……*	82
PAŞAYEVA Gülnar Nadirhüseyn *İnformatika elminin yaranma tarixinə qısa nəzər.....*	86
YUSİFOVA Günel Etibar *Asiya ölkələri (Hindistan, İran, Əfqanıstan, Pakistan) ilə Azərbaycan SSR arasında mədəni əlaqələr tarixi kontekstdə.....*	92
MUSTAFAYEVA Kəmalə Kamandar, HACIZADƏ Bayram *Bayram Hacızadənin beynəlxalq karikatura müsabiqələrində və sərgilərdə uğurları.....*	100
ALIYEVA Laman Arif *The initial phase of Great Britain's Middle East policy……*	109
HÜSEYNOVA Ləman Dünyamalı *Azərbaycan qadınının Sovet konstitusion hüquqlarının icra mexanizmi.....*	119
TALIBOVA Leyla Zulfugar *The second period of activity of a Caucasian Muslim émigré in Turkey……*	125
ƏSGƏRZADƏ Mədinə Ehtibar *Müharibədən sonra insan konsepsiyası: sosial müdafiə baxımından yanaşma.....*	130
QURBANOVA Mirvari Zakir *1980-88-ci illərdə Ermənistan SSR-dən azərbaycanlıların deportasiyasının səbəbləri və prosesə təsir göstərən amillər.....*	139
KƏRİMOVA Nərgiz Tofik *XX əsrin 30-cu illərində Azərbaycan SSR-də mətbuatın cəmiyyətə ideoloji təsirləri.....*	141
QAFARLI Nərgiz Musa *İraqda 1991-ci il şiə üsyanı və səbəbləri.....*	147
HEYDƏROVA Nərmin Məzəddin *Career and family balance, the role of modern Azerbaijani women……*	153

RZAZADƏ Nuranə Namiq *Azərbaycan qobelen sənətində modernizm meylləri: Ədhəm Yusubov yaradıcılığı nümunəsində*.....	157
MIRZAKHANLI Ganira Eldeniz *Constructing Azerbaijan's humanitarian image through the Heydar Aliyev foundation: values, narratives, and cultural diplomacy strategies*……..	161
AGHALAROVA Ramila Ramiz *The development of legal mechanisms for supporting veterans and families of martyrs in independent Azerbaijan*……	168
GURBANOV Rauf Rafail *The impact of the Shusha and Moscow Declarations on Azerbaijan's security policy*……	171
ADISHOVA Sarishan Nail *The 1920s-1930s stage of the popular resistance movement in Zangezur: main goals, methods of struggle*……	180
HASANOVA Sabina Rasim *Azerbaijan–Slovakia partnership: diplomatic and regional perspectives*……..	186
SÜLEYMANOVA Səma Seymur *Rəqəmsal inqilab və tarix dərsləri: tədrisdə yeni üfüqlər*.....	191
BÜNYATOVA Şəms Ənvər *Dayanıqlı inkişaf məqsədlərinin praqmatik həqiqət konsepsiyası kontekstindən təhlili*.....	199
ABBASOVA Sevinc Hikmət *XIX əsrin sonu - XX əsrin əvvəllərində Dərbənddə mədəni-maarif mühiti: ictimai dəyişikliklər və təhsil*.....	207
MƏMMƏDLİ Ülfər Əlirza *Etnik münaqişələr və onun təhlükəsizliyə təhdidi*.....	214
ƏLIYEVA Nəzrin Rais qızı *Milli suverenlik, sosial inteqrasiya və sosial işin strateji funksiyaları:azərbaycan modeli*……	221
ORUCOVA Lamiyə Rafiq *Intellektual inkişafdan ideoloji təqibə: sovet dövründə azərbaycan qadinlari (1920-1941)*….	229
HANG Qu *Digital technology empowers international social work*……	236
QULİYEV Səbuhi Mütalif *44 Günlük müharibə və informasiya cəbhəsi: qərb mediasında qərəzlilik və reallığın təhrifləri*……	243
NADİRSOY Faiq Nadir *Türkiyə QHT-lərinin azərbaycanın müstəqilliyinin ilk dövrlərində dəstəyinin və əlaqə mexanizmlərinin diplomatik əlaqələrdə rolu*.....	248
RÜSTƏMOVA Xədicə Rüstəm *Tarix dərslərində ekzistensial düşünmə bacariqlarinin formalaşdirilmasinda müəllimin rolu*……	255
MƏMMƏDOVA Səmayə Siruz *Türk xalqlarının musiqisində "Küy" janrının tarixi, strukturu və təkamülü*.....	260
BAĞIR Zeynəb İlqar *İraq Türkman musiqi irsinin etnik identitetin formalaşmasında funksional rolu*.....	267
SADIQOV Kənan Qəzənfər *Tar ifaçiliğinda müasir yanaşmalar: şəhriyar imanovun "7 məqam" kompozisiyasinin ifaçiliq xüsusiyyətləri*……	274

FILOLOGIYA

ABDULLAYEVA Səadət Rəis *Onlayn medianın monitorinqində süni intellekt texnologiyalarının tətbiqi: imkanlar və çağırışlar*.....	281
ABDULLAYEVA Xəyalə Rəmiyəddin *Rəqəmsal Dövrdə Azərbaycan və İngilis Siyasətçilərinin Nitqlərinin Diskurs Təhlili*	287
ALİYEVA Gunay Dunyamali *Public discourse in the age of digital communication: a cognitive-linguistic perspective*....	292
ASHRAFOVA Ilaha Allahverdi *Lexical, grammatical and stylistic features of English borrowings in modern French (based on media materials)*……	299
BABAŞLI Esmira Nəcəf *Azərbaycan dilinin tədrisində musiqi ilə inteqrasiya*……..	304
BAGHIROVA Parvana Alovsat *Between tongues: how multilingualism shapes everyday interaction*……	310
BALAKİŞİYEVA Svetlana Arif *Çoxmədəniyyətli mühitdə effektiv işgüzar kommunikasiya:problemlər və həlli strategiyaları*	317
DAĞTUMAS Sərvanə Xanalı *Mədəni kodların dekonstruksiyası: Elvin Bakiroğlunun "Novruz sayıqlamaları" şeirində postfolklor və folklorun emosional qatları*.....	327
ƏHMƏDOVA İlahə Şahin *Latin Amerikası magik realizminin postsovet ədəbi təfəkkürünə təsiri*……..	333
ƏLƏKBƏROVA Adilə Vüqar *Dil sistemində innovativ tendensiyalar: struktur və funksional aspektlər*……..	341
ALAKBAROVA Nurana Vugar, IBRAHİMOV Farhad Astan, HEYDAROVA Shahana Shahin *Official business documents in linguistics*……	346
ƏLİYEVA Lamiyə Əlizamin *Azərbaycanda uşaq ədəbiyyatının təşəkkülündə dərsliklərin rolu (XIX əsrin sonu XX əsrin əvvəlləri)*.....	351
ƏLİYEVA Əsmər Seyfəddin *Culıan Barns yaradıcılığında əsas konsepsiyalar*.....	357
ƏLİYEVA Səbinə Namik *Rəqəmsal transformasiya dövründə təhsil siyasətinin çağırışları*.....	366
ƏLIZADƏ Nərmin Sərxan *Qarabağ Zəfəri və Azərbaycan poeziyasında yeni poetika*……..	372
FƏRHADOVA Gülçöhrə İsfəndiyar *Süni intellekt və ingilis dilinin zənginləşməsi: rəqəmsal dövrdə lingvistik təkamül*	378
HASANOVA Farida Mehman, RUSTAMOVA Sakina Zaur *Analysis of Azerbaijani students' grammatical errors in the use of French past tenses*…….	379
HÜMMƏTZADƏ Gülyaz Namiq *Azərbaycan şifahi və yazılı ədəbiyyat nümunələrində ata-oğul münasibətləri*……	386
İBIŞLI Fidan Məmmədbağır *2000-ci illər Azərbaycan nəsrində mifin intertekstual transformasiyası*……..	394
ISAYEVA Fidan Yunis, ISAYEVA Leman Yunis *Language and education in multilingual societies: challenges and perspectives*……	401

IZZATLI Sabina Vagif *Shifting from problem-focused to solution journalism: the role of emerging technologies in content production*……..	408
KARIMOVA Parvana Namig *The reflection of national ideology in poetry: in the context of mammad araz's creative work*	415
KAZIMOVA Roya Elkhan *The integration of artificial intelligence(ai) in analysis of phraseological units: case study of Azerbaijani-English, German-Azerbaijani materials*……	419
MƏMMƏDLİ Nərgiz Sulduz *Diskurs analizi və fərdlərin subyekt mövqelərinin kontekstual quruluşu*.....	421
MƏMMƏDOVA Afaq Afiq *Qarabağ müharibəsi mövzulu bədii əsərlərin nəşr və redaktəsi: nəzəri və praktik problemlər*	427
MƏMMƏDOVA Röya Zakir *Qərbi Zəngəzur toponimlərinin etnolinqvistik xüsusiyyətləri və milli kimliyin qorunmasında rolu*	432
MƏMMƏDOVA Sona Elşən *Ədəbiyyatın tədrisində yeni məzmun xətlərinin əhəmiyyəti*.....	439
MURSALOVA Vəfa Əmrah *Dil və ətraf-mühit dəyişikliklərinin qarşılıqlı əlaqəsinə ekolinqvistik yanaşma*.....	444
MUSTAFAYEVA Nəzrin Cavanşir *Uşaqda ana dilinin mənimsənilməsi: linqvo-psixoloji baxış*.....	453
MUSTAFAYEVA Ülviyyə Ənvər *Media və ictimai diskursun nəzakətlilik üzərindəki təsiri*.....	462
NARIMANOVA Chinara Rahim *Western perspectives on Hurufism and Sufism in the poetry of Imadaddin Nasimi*……	466
NASIROVA Gulshan Bayram *Semantic and pragmatic elements in English publicistic texts*……..	473
POLADOVA Günay İlham *Dilçilikdə mətn və onun bəzi xüsusiyyətləri haqqında (Azərbaycan və İnglis dillərinin materialları əsasında)*……..	480
QASIMOVA Jalə Elçin *Yeni media və dil: blogların və sosial şəbəkələrin Azərbaycan dilinə təsiri*.....	483
QƏHRƏMANOVA Röya Nadir *Azərbaycan Şivələrində qədim türk mənşəli sözlərdə kəmiyyət kateqoriyasinin tarixi inkişaf xüsusiyyətləri*….....	487
GARIBOVA Gunel Aydin *New media as an important aspect of public relations in crisis management*……..	492
QULİYEVA Şəbnəm Azər *Milli kimlik və vətənpərvərlik tərbiyəsində qəhrəmanlıq dastanlarının didaktik əhəmiyyəti*	498
GULUZADE Turkan Ali *Thematic continuity and development in linguistic textbooks*……..	506
RÜSTƏMOVA Yeganə Heybət *Azərbaycan atalar sözlərində sözün təsiri və gücü*.....	513
RZAYEVA Ramilə Elşad qızı *Bədii mətnlərdə ziddiyyətli ifadələr və onların mənası*.....	516
SƏFƏRLİ Vüsalə Novruz *Müasir ingilis dilində zaman və məkan bildirən sözlərin semantikası*.....	522
SAFARZADE Amina Enver *Storytelling as a pedagogical tool for developing listening and speaking skills*……..	526

SƏFƏRZADƏ İlahə Rəşad *Mehriban Vəzirin "Ağabəyim ağa Cavanşir" romanında tarixi həqiqət və bədii şərtilik.....*	535
535TƏHMƏZOVA Günay Yaqub qızı *Müxtəlifsistemli dillərdəki siyasi diskursda istifadə olunan evfemizmlər……..*	541
YAHYAZADA Nigar Sadig *Second Language Acquisition and Error Analysis: Pedagogical Implications for English Learning in Azerbaijan……..*	548
ZALOVA Sünbül Mehman *Rəqəmsal mediada «deepfake» texnologiyalarının rolu, problemləri və üstünlükləri.....*	557
ZEYNALLI Jalə Elşən *Əski türk toplumlarından cümhuriyyətə: türk mədəniyyətində bərabərlik arxetipi və tarixi transformasiyalar.....*	564
ZEYNALOV Cavid Firdovsi *Rəqəmsal transformasiya: 21. əsrdə media savadlılığı və informasiya davranışlarının gərəkliliyi*	571
ЗАМАНОВА Айсу Джалил *Проблема потери универсальных нравственных принципов (на материале рассказа т. толстой «соня»)*	578
ИСМАИЛОВА Сона Тариел *Самореализация женщины в романе "Учитель" Шарлотты Бронте.....*	586
Ян Сюэ *Роль и влияние социальных медиа в медиаобразовании Китая и Азербайджана.....*	592
PSİXOLOGİYA BÖLMƏSİ	
ABBASLI Aysel İlyas *Müasir informasiya mühitinin yeniyetmələrin aqressiv davranişlarina təsiri və psixoprofilaktik yanaşmalar……..*	601
ALIŞANLI Aytən İlham *Məhkumlarda emosional intellektin gender xüsusiyyətləri.....*	602
BAKIXANOVA Xavərxanım Ağamehdi *İntellekt əmsalı (iq) və emosional intellektin (ei) müqayisəli təhlili.....*	607
ƏHMƏDLİ-ŞİRİNOVA Lamiyə Pənah *Autizm spektr pozuntusu zamanı art terapiya modellərinin tətbiqi və səmərəliliyi.....*	614
ƏLİZADƏ Aygün Yaşar *Psixologiya elmində süni intellektin yüksəlişi və insan amilinin transformasiyası*	619
İBRAHİMOVA Şəhla Aqil *Psixodinamik yanaşmanın əsas müddəaları və inkişafı.....*	626
KƏRİMLİ Turan Abdulxalıq *Gənclərin məsuliyyət hissinin formalaşmasında sosial fəallığın rolu.....*	637
KƏRİMOV Aydın Xalid *İnsan intellekti və süni intellekt bacarıqlarının müqayisəli təsviri.....*	642
MƏMMƏDOV Dilqəm Məzahir *Şəxsiyyətin davranışının hərəkətverici qüvvələri kimi şemaların psixoloji dinamikası.....*	652
MÜTƏLLİMZADƏ Aytən Sabir *Bloqerlərdə özünüqiymətləndirmə və iddia səviyyəsinin öyrənilməsi (pilot araşdırma).....*	656
NƏBİYEVA İlahə Sulduz *Gənclərin sosial mediadan istifadəsinin onların özünüqiymətləndirməsinə təsiri.....*	666
NİFTƏLİYEVA Nərgiz Nazim *Şəxsiyyətlərarası münasibətlərdə emosional intellektin əhəmiyyəti.....*	675

ÖLMEZ ALİ Ümit *Autizm spektr pozuntulu şəxslərə tətbiq edilən diaqnostika vasitələrinin müqayisəli təhlili....*	689
QASIMOVA Cəmilə Qabil *Uşaqlarda utancaqlığın inkişaf dinamikası və psixoloji aspektləri.....*	696
QULIYEVA Raziyə Elxan *Koqnitiv davranış terapiyasinin digər psixoterapiya istiqamətləri ilə müqayisəsi……..*	700
АЛИЕВА Гезель Самед *Влияние оценки в образовании на психологию учащихся: мотивация и тревожность....*	706
ГАСАНОВ Табриз Забит *Периодизация жизненного цикла семьи в научном дискурсе: критика критики жизненного цикла семьи и методологическое обоснование периодизации……..*	713

PEDAQOGİKA

ALIYEV Huseyn Fizuli *Emerging digital practices supporting student-centered learning in education during Covid-19*	726
ALLAHVERDIYEVA Ulkar Yashar *Male and female leaders: analysis of transformational, transactional & laissez-faire leadership styles……..*	734
BABAYEVA Ayşən Ramiz *Uşaqlarda humanist dəyərlərin inkişaf etdirilməsində valideynlərin və tərbiyəçi-müəllimlərin şəxsi keyfiyyətlərinin təsiri.....*	742
BAĞIROVA Gülay Şahsuvar *Ədəbiyyat fənni üzrə təhsil proqramı və dərslik komplektlərinin yenilənməsi: nəzəri və praktiki aspektlər.....*	745
BAYRAMOVA Latafat Mehman *Possibilities and ways of using informational texts…….*	754
CAVADOVA Alvina Arif *Müasir siniflərdə rəqəmsal kimya: STEAM təlimində micro:bit əsaslı təcrübələr……..*	766
CƏFƏROVA Səyarə Sahib *İbtidai təhsildə milli və bəşəri dəyərlərin aşılanması: sistemli yanaşma və pedaqoji strategiyalar.....*	769
CÜMŞÜDOVA Nərmin Qalib *Ali təhsildə tələbələrin özünühazirliğinin təkmilləşdirilməsində süni intellektin rolu……..*	779
ƏHMƏDLİ Nigar Fəxrəddin *Təhsil sistemində süni intellekt vasitəsi ilə real zamanlı öyrənmə analitikası.....*	785
ƏHMƏDLİ Əsmər Neymət qızı *Layihə əsasli öyrənmə vasitəsilə məktəblilərdə ekoloji məsuliyyət və dayaniqli davranişin formalaşdirilmasi.....*	794
ƏKBƏROVA Aygün Ağaverdi *Liderlik modellərinin müəllimlərin motivasiyasina təsiri……..*	803
ƏLIYEV Amid Məhəmməd *Ali təhsildə təhsil alanların qiymətləndirilməsində süni intellekt: müasir yanaşmalar və çətinliklər (2020-2024).....*	807
ƏLIYEVA Günay Cəmil, ƏLIYEVA Şahsənəm Rəşid *Rəqəmsal tədrisdə innovativ metodlarin tələbələrin bacarıqlarının inkişafina təsiri: empirik və analitik yanaşmalar.....*	813

ƏLİYEVA Leyla İsa *Azərbaycan dilinin tədrisi metodikası elmində leksikologiya bölməsinin tədrisi problemləri*	821
Əliyeva Oksana Səmid *Süni intellektə əsaslanan qərar qəbuletmə modelləri və təhsil müəssisələrinin inkişafi*.....	827
ƏLİYEVA Şahsənəm Rəşid, ƏLİYEVA Günay Cəmil *İnformatika fənninin fənlərarası inteqrasiyasının metodik əsaslari və tətbiqi*.....	835
ƏLIZADƏ Səbinə Vahid *İngilis dili dərslərində təlimdə kreativ yanaşmanin tətbiqi: innovativ metodlar və şagirdlərin yaradıcılıq bacarıqlarının inkişafi*.....	848
ƏSƏDOVA Zeynəb Möylə *Ədəbiyyat dərslərində C.Məmmədquluzadənin həyat və yaradıcılıq yolunun tədrisi imkanları*.....	855
GOU Yuyuan *The influence and challenges of Confucius Institutes in China-Azerbaijan joint educational activities*.....	861
HACIYEVA Nuridə Rəhman qızı *Azərbaycan romantiklərinin əsərlərində təhsil və tərbiyə prinsipləri*.....	870
HƏSƏNLİ Nərmin Rizvan *Öyrənmə modellərinin tətbiqində müəllimin rolu*.....	875
HƏSƏNOVA Elmira Vahid *İbtidai sinif şagirdlərinin sosiallaşmasında texnologiyanın rolu*.....	879
İMANZADƏ Günay Samiq *Ali məktəblərin aşağı kurslarında ingilis dilinin tədrisində sorğu-əsaslı təlimin psixoloji əsasları*.....	887
ISGANDAROVA Ilaha Hamza *Equality principles in the Constitution of Azerbaijan and gender equality education in secondary schools*.....	897
İSMAYILOVA Nərgiz Nəvazi *Ümumtəhsil məktəblərinin idarə olunmasında müasir yanaşmalar*.....	904
KAZIMLI Fəridə Elçin *İnformasiya cəmiyyətində elektron ali təhsil sistemləri*.....	910
KƏRIMOVA Aytən Elxan *Fizikanın tədrisi metodikasında Azərbaycan alimlərinin elmi irsi*.....	915
KƏRİMOVA Elvira Haqverdi *Şagird təlim prosesinin subyekti kimi*.....	925
KNYAZOVA Gültəkin Yusib *Təhsil sistemi iştirakçılarının Sosial Rifahı və Psixososial dəstəyin rolu*.....	933
MAMMADOVA Gunel Mahammad *Prospective primary school teachers' perspectives on the teaching profession and their future expectations*.....	941
MEHDIYEVA Mehin Vəsfi *Azərbaycan və Türkiyə ali təhsil sistemlərinin müqayisəsi*.....	947
MƏMMƏDOVA Ayşən Kənan *Öyrənmə çətinliyi olan uşaqların qarşılaşdığı əsas problemlər*.....	955
MƏRDANOVA Nərmin Ceyhun *Məktəbəqədər inklüziv qruplarda inkişafetdirici təlim mühitinin təşkilinin elmi-pedaqoji prinsipləri*.....	962
MİKAYILOVA Gülşən Ehtibar *Riyaziyyat fənninin ibtidai pillədə tədrisinə hazırlıqda interaktiv resurslardan istifadə imkanları*..	965
MİRZƏZADƏ Vəfa Azad *İnteqrativ dərslərin şəxsiyyətyönümlü təlimdə yaradıcı düşünməni stimullaşdırma imkanları*...	972

MUSAYEV Javid Vekil *The impact of inclusive education on the academic and emotional development of students without disabilities*……..	980
NƏSIROVA Reyhan Rəşid *Psixologiya fənninin tədrisində təlimə kreativ yanaşma pedaqoji problem kimi*.....	989
NIFTALIYEVA Nigar Nasir *The ımpact of prospective primary school teachers' preparation for diagnostic activities during the pedagogical practicum on the dynamics of educational development*.....	997
NOVRUZOVA Xəyalə Nüsrət *Məktəbəqədər təhsil müəssisələrində monitorinq keyfiyyətin göstərici amili kimi*.....	1004
NURİYEVA Gülər Qismət *Neyropedaqoji innovasiyalar: müasir təhsildə yeni metodlar və texnologiyalar*.....	1010
ORUCƏLİYEVA Şəkər Şahlar *Məktəbəqədər təhsildə inklüzivlik: uşaq şəxsiyyətinin sosiallaşması*.....	1018
PAŞAYEVA Gülnarə Həzi qızı *VI-IX siniflərdə diferensiallaşmanin təlim prosesinə təsiri*	1023
QASIMOV Emil Emin *Riyaziyyatin tədrisində rəqəmsal platformalar və süni intellekt alqoritmlərinin sintezi*.....	1027
QƏDIMLI Kamilə Sakit *L.Viqotski "Yaxın inkişaf zonası" nəzəriyyəsinin strategiyalı oxuda tətbiqi*.....	1033
QULİYEVA Aytən Elçin *Təhsil marketinginin pedaqoji universitetlərdə rolu: Azərbaycan və beynəlxalq təcrübə*.....	1037
QULİYEVA Səmayə Akif *İdmançı tələbələr üçün ingilis dili dərslərində effektiv auditoriya idarəetmə strategiyaları*.....	1041
RAMAZANOVA Nigar Vəli qızı *Pedaqoji təcrübə x-xı sinif şagirdlərində sağlam həyat tərzinin formalaşdırılması vasitəsi kimi*	1049
RASULOVA Ayshan Asad *Institutional convergence and policy innovation: three decades of Azerbaijan-Turkey educational relations*……..	1053
SADIQOVA Sabina Oktay qızı *Şagirdlərdə ekoloji mədəniyyətin formalaşdirilmasinda müəllimin kompetentliyinin rolu və pedaqoji əhəmiyyəti*……	1062
ŞAHVƏLƏDLİ QƏDİMOVA Turan Əlbəndə *Kəkələmə psixoloji problem kimi*.....	1069
ŞİRƏLİYEVA Mehriban Əli *Student organizations and their influence on university management*……..	1077
SULEYMANOVA Aytan Vidadi *Comparative analysis of cognitive interplay of artificial intelligence in Azerbaijan's interactive pedagogy*……	1082
UĞURLU Şəbnəm Tofiq *Rəqəmsal mühitdə ingilis dili müəllimlərinin peşəkar inkişafının təşkili*.....	1089
VERDIYEVA Mehbanu Əlimurad *Pedaqoji kadr hazırlığında peşə səriştəliliyinin formalaşması problemləri*.....	1096
ЛИУ Яна *Реорганизация межкультурного класса: практика и рефлексия интеграции образовательных концепций Китая и Азербайджана*.....	1100
ПУ Дань *Возможности внедрения инклюзивного образования в средних школах Китая*.....	1106
ТАГИЕВА Эллада Савай *Языковая подготовка будущих учителей физического воспитания: проблемы и решения (на основе разработки темы "таэквондо")*.....	1115

FƏLSƏFƏ

TARIX

SOSIOLOGIYA

VƏ

SƏNƏTŞÜNASLIQ

DOİ: 10.32010/AEYF6969

TÜRKIYƏ, İRAQ VƏ SURIYANIN TRANSSƏRHƏD SU SIYASƏTLƏRI: ƏMƏKDAŞLIQ VƏ MÜNAQIŞƏ DINAMIKASI

Arzu İqbal ƏKBƏROVA
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0000-0002-6361-4697
E-mail: akberova.ar@gmail.com

Xülasə: Araşdırma, Fərat və Dəclə çaylarına tərəflərin münasibətinin tarixi inkişafını araşdırmaqla yanaşı, prosesə qoşulan aktorların sayının artmasını və problemin müxtəlif beynəlxalq səviyyələrdə müzakirə edilməsinə yönələn təşəbbüsləri müəyyənləşdirməyi hədəfləyir. Bu səbəbdən tədqiqat, Suriya və İraqın transsərhəd su siyasətlərində mövcud ziddiyyətləri təhlil etməklə yanaşı, Türkiyənin digər sahilyanı dövlətlərin maraqlarına münasibətdə sərgilədiyi yanaşmanı da ortaya qoymağı məqsəd qoyur.
Türkiyənin transsərhəd su siyasəti İraq və Suriya ilə münasibətlər çərçivəsində tədqiq edilir, eyni zamanda su siyasətinin beynəlxalq münasibətlər sistemində geosiyasi və hüquqi ölçüləri təhlil edilir. Bildirmək vacibdir ki, Dəclə və Fərat çayları Türkiyə üçün milli təhlükəsizlik, enerji və regional təsir baxımından olduqca vacibdir. Bu səbəbdən də mənşəyi Türkiyədə olan su resurslarının paylanması və istifadə edilməsi məsələsində əsas məsuliyyət və qərarvermək hüququna malikdir.
Tədqiqat zamanı su siyasətində əsas dayaq kimi Cənub – Şərq Anadolu Layihəsi (GAP) əsas diqqətdə tutulur. Eyni zamandan Fərat və Dəclə çayları üzərində inşa olunan bəndlər və su qurğuları regionun iqtisadi inkişafını hədəfləyir. Lakin Türkiyənin milli inkişafın nəticəsi kimi gördüyü bu layihə Suriya və İraqda su axının azalmasından yaranan narahatlıq səbəbilə etirazla qarşılanır. Tərəflər arasında uzun müddət qismən razılaşmalar əldə edilsə də, regionda baş verən münaqişələr və digər siyasi xarakterli məsələlər tam həllin əldə olunmasına mane olmuşdur.
Araşdırma keyfiyyətli metodologiya əsasında aparılmış və əldə olunan nəticələr Suriyanın və İraqın mövcud siyasətinin real olmayan, güzəştsiz və Türkiyəni ittiham edən mövqelər üzərində qurulduğunu göstərmişdir. Tədqiqat həmçinin ortaya qoyur ki, Türkiyənin mövqeyi digər sahilyanı ölkələrin hüquqlarının qorunması, ciddi zərərin qarşısının alınması və sudan rasional istifadə prinsiplərinə əsaslanır. Bununla yanaşı, Türkiyənin su ehtiyatları baxımından nisbətən əlverişli mövqedə olması gələcəkdə də məsələnin mübahisəli olma ehtimalını artıran amillərdən biri kimi qiymətləndirilir.
Açar sözlər: Suriya, İraq, Türkiyə, Transsərhəd Su, Fərat və Dəclə

TRANSBOUNDARY WATER POLİCİES OF TURKEY, IRAQ AND SYRİA: DYNAMİCS OF COOPERATİON AND CONFLİCT

Arzu Iqbal AKBAROVA
Baku State University
Orcid: https://orcid.org/0000-0002-6361-4697
E-mail: akberova.ar@gmail.com

Abstract: The study aims not only to examine the historical development of the parties' attitudes toward the Euphrates and Tigris rivers but also to identify the increasing number of actors involved in the process and the initiatives directed toward discussing the issue at various international levels. Therefore, the research seeks to analyze the existing contradictions in Syria's and Iraq's transboundary water policies while also revealing Türkiye's approach to the interests of other riparian states.
Türkiye's transboundary water policy is examined within the framework of its relations with Iraq and Syria, while also analyzing the geopolitical and legal dimensions of water policy in the international relations system. It is important to note that the Tigris and Euphrates rivers are of great significance for Türkiye in terms of national security, energy, and regional influence. Therefore, Türkiye holds the main responsibility and decision-making authority regarding the distribution and utilization of these water resources originating within its territory.
The study primarily focuses on the Southeastern Anatolia Project (GAP) as the main pillar of Türkiye's water policy. At the same time, the dams and water facilities constructed on the Euphrates and Tigris rivers aim to promote the region's economic development. However, this project, which Türkiye considers a result of national development, has been met with opposition from Syria and Iraq due to concerns about reduced water flow. Although partial agreements have been reached between the parties over time, regional conflicts and other political issues have prevented a comprehensive solution from being achieved.
The research, conducted using a qualitative methodology, found that the existing policies of Syria and Iraq are based on unrealistic, uncompromising, and accusatory positions toward Türkiye. The study also reveals that Türkiye's stance is grounded in the principles of protecting the rights of other riparian countries, preventing significant harm, and ensuring the rational use of

water. Additionally, Türkiye's relatively advantageous position in terms of water resources is considered one of the factors that may continue to make the issue contentious in the future.
Keywords: Syria, Iraq, Türkiye, Transboundary Water, Euphrates and Tigris.

ТРАНСГРАНИЧНАЯ ВОДНАЯ ПОЛИТИКА ТУРЦИИ, ИРАКА И СИРИИ: ДИНАМИКА СОТРУДНИЧЕСТВА И КОНФЛИКТОВ

Арзу Игбал АКБАРОВА
Бакинский государственный университет
Orcid: https://orcid.org/0000-0002-6361-4697
Электронная почта: akberova.ar@gmail.com

Резюме: Исследование направлено не только на изучение исторического развития отношения сторон к рекам Евфрат и Тигр, но и на выявление увеличивающегося числа акторов, вовлечённых в процесс, а также инициатив, направленных на обсуждение проблемы на различных международных уровнях. Таким образом, исследование стремится проанализировать существующие противоречия в трансграничной водной политике Сирии и Ирака, а также выявить подход Турции к интересам других прибрежных государств.

Трансграничная водная политика Турции рассматривается в контексте её отношений с Ираком и Сирией, при этом анализируются геополитические и правовые аспекты водной политики в системе международных отношений. Важно отметить, что реки Тигр и Евфрат имеют огромное значение для Турции с точки зрения национальной безопасности, энергетики и регионального влияния. Поэтому Турция обладает основным правом и ответственностью в вопросах распределения и использования водных ресурсов, берущих начало на её территории.

В исследовании особое внимание уделяется проекту Юго-Восточной Анатолии (GAP) как главному элементу водной политики Турции. В то же время строительство плотин и водных сооружений на реках Евфрат и Тигр направлено на экономическое развитие региона. Однако этот проект, который Турция рассматривает как результат национального развития, вызывает протесты со стороны Сирии и Ирака из-за опасений по поводу сокращения водного потока. Несмотря на то, что между сторонами были достигнуты частичные соглашения, региональные конфликты и другие политические факторы препятствовали достижению полного решения проблемы.

Исследование, основанное на качественной методологии, показало, что существующая политика Сирии и Ирака строится на нереалистичных, жёстких и обвинительных позициях в отношении Турции. В то же время установлено, что позиция Турции основана на принципах защиты прав других прибрежных государств, предотвращения серьёзного ущерба и рационального использования водных ресурсов. Кроме того, относительно выгодное положение Турции с точки зрения водных ресурсов рассматривается как один из факторов, способных в будущем сохранять спорный характер данного вопроса.
Ключевые слова: Сирия, Ирак, Турция, трансграничные воды, Евфрат и Тигр

Giriş

Transsərhəd su problemi Yaxın Şərqin ən mühüm və strateji əhəmiyyətli məsələlərindən biridir. Fərat və Dəclə çayları üzərində formalaşan transsərhəd su problemi uzun illərdir Suriya, İraq və Türkiyə arasında mübahisə predmetidir. Tərəflərin bu məsələyə yanaşmaları ciddi şəkildə fərqlənir. Belə ki, Suriya və İraq Fərat və Dəclə çaylarını "beynəlxalq çaylar", Türkiyə isə "transsərhəd su çayları" kimi qiymətləndirir. Bu çayların hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı mövqelərdəki fərqlər, xüsusilə paylaşma və istifadənin prinsiplərinə dair ziddiyyətlər regiondaxili münasibətlərdə mühüm gərginlik yaradır.

Məsələyə yanaşan hər bir tərəf öz mövqeyini əsaslandırmaq üçün müxtəlif hüquqi, tarixi və siyasi arqumentlərdən istifadə edir. Dünyada suya olan tələbatın sürətlə artması, su ehtiyatlarının azalması, əhali artımı, urbanizasiya və sənayeləşmə prosesi mövcud vəziyyəti daha da mürəkkəbləşdirir. Bu faktorlar transsərhəd su problemini beynəlxalq siyasətdə gələcəkdə də aktuallığını qoruyacaq mühüm məsələlərdən biri kimi önə çıxarır.

Araşdırmanın məqsədi. Bu araşdırmanın məqsədi sahilyanı ölkələrin keçmişdən günümüzə qədər apardıqları su siyasətlərini təhlil etməklə problemin gələcək potensial ölçülərini üzə çıxarmaqdır. Bu çərçivədə ayrı-ayrı ölkələrin arqumentləri nəzərdən keçirilir, mövcud problemli sahələr nümunəvi tədqiqatlarla əsaslandırılır.

Tədqiqatın gedişində əvvəlcə Suriyanın Fərat və Dəclə çayları ilə bağlı iddiaları, məsələnin tarixi və hazırkı vəziyyəti araşdırılır. Daha sonra İraqın mövqeyi və iddiaları müzakirə edilir. Nəhayət, digər sahilyanı ölkələrin irəli sürdüyü arqumentlərə Türkiyənin cavabları və mövqelərinin müqayisəli təhlili aparılır.

Suriya və Transsərhəd Su Problemi. Suriya, Osmanlı imperiyasının süqutundan sonra Fransa

mandatı əsasında formalaşmış və 1946-cı ildə müstəqilliyini əldə etmiş Yaxın Şərq dövlətlərindən biridir. 1963-cü ildən etibarən Baas Partiyası hakimiyyətdə olmuş, bu partiyanın liderlərindən biri olan Bəşər Əsəd 2000–2024-cü illərdə ölkəni idarə etmişdir. 2024-cü ilin sonlarında Əsəd rejiminin devrilməsi və Baas Partiyasının fəaliyyətinin dayandırılması ilə ölkədə keçid mərhələsi başlamışdır (Al Jazeera, 2025).

Uzun illər ərzində Suriya ABŞ və Avropa İttifaqı ilə münasibətlərində gərginliklər yaşamış, eyni zamanda İran və Rusiya ilə strateji müttəfiqlik əlaqələri saxlamışdır. İsraillə bir neçə dəfə silahlı münaqişələrə cəlb olunmuş, Livan üzərində isə dolayı siyasi təsir göstərmişdir. Türkiyə ilə münasibətlər isə əsasən su resurslarının bölüşdürülməsi, Hatay vilayəti və təhlükəsizlik məsələləri səbəbindən gərgin olmuşdur.

Hazırkı dövrdə Suriya yeni siyasi sistem qurmaq mərhələsində olsa da, transsərhəd su resursları məsələsində Türkiyə və İraq kimi oxşar mövqeləri qorumağa davam edir. Hələ 1939 -cu il mayın 19-da Türkiyə ilə Fransa arasında Suriyanı da əhatə edən protokol imzalanmışdır. Bu protokola əsasən, iki ölkə arasındakı sərhəd Asi çayının ən dərin hissəsi olan Afrin çayı və bu suların sərhəddən keçdiyi Karasu çayı boyunca müəyyən edilmiş, həmçinin suların iki ölkə arasında bərabər şəkildə paylaşılması nəzərdə tutulmuşdur.

Suriyanın mövqeyinə görə, Fransa 1939-cu ildə Hatayı Türkiyəyə verməklə İkinci Dünya müharibəsində müttəfiqlərinə dəstək göstərmişdir. Nəticədə Türkiyə-Suriya sərhədi Hatayın şimalından keçmişdir. Bu səbəbdən Suriyanın iddiasına görə, Asi çayı transsərhəd su hövzəsi deyil (Zehir, 2003). Bu yanaşmaya əsaslanaraq, Suriya Hatayı öz ərazisi, Asi çayını isə milli su resursu hesab edir və onun paylaşılmasına razılıq vermir.

1939-cu il müqaviləsinə əsasən, Orontes (Asi) çayının sularının iki ölkə arasında bərabər şəkildə bölüşdürülməsi nəzərdə tutulsa da, faktiki vəziyyət Suriyanın istifadəsi səbəbindən Türkiyənin çaydan heç bir pay almaması ilə nəticələnmişdir. Hazırda həmin çaylar Türkiyə ərazisində demək olar ki, qurumuş vəziyyətdədir. Belə bir şəraitdə nəinki bərabər, hətta qismən paylaşma imkanı da real olaraq aradan qalxmışdır.

Suriya ilə Türkiyə arasında transsərhəd su problemi, xüsusilə bəndlərin tikintisi prosesində aktuallaşmış və uzun müddət PKK terror təşkilatının fəaliyyəti ilə əlaqələndirilmişdir. Bu dövrdə Suriya Türkiyəyə qarşı "terror kartı"ndan istifadə etmişdir. Eyni zamanda, Suriya Türkiyənin Keban, Karakaya, Atatürk bəndləri və GAP (Cənub-Şərq Anadolu Layihəsi) kimi iri miqyaslı layihələrinə qarşı çıxmış, bu layihələr nəticəsində su itkisinə məruz qaldığını və çay sularının Türkiyə tərəfindən çirkləndirildiyini iddia etmişdir. Suriya transsərhəd su probleminin həllini üç ölkənin – Türkiyə, Suriya və İraqın – iştirakı ilə imzalanacaq çoxtərəfli sazişdə görür və bu istiqamətdə mövqeyini müdafiə edir. Onun iddiasına görə, problemin davamlı həlli yalnız hər üç tərəfin razılığı və imzası ilə qüvvəyə minəcək beynəlxalq müqavilə çərçivəsində mümkündür. Suriya hesab edir ki, 1987-ci il Protokolunun müddəti başa çatmış, köhnəlmiş və artıq ölkənin artan tələbatını qarşılamır. Bu səbəbdən yeni hüquqi çərçivənin yaradılması və sularla bağlı yeni razılaşmanın imzalanması zəruri hesab olunur (Denk, 1997). Bu mövqedən çıxış edən Suriya və İraq yeni razılaşma təşəbbüsləri ilə Türkiyəyə əlavə öhdəliklər yükləməyə və bu vasitə ilə onun üzərində siyasi üstünlük qazanmağa yönəlmiş siyasətlər həyata keçirmişdir.

Bundan əlavə, Suriyanın hərbi hava qüvvələrinə məxsus təyyarələrin Türkiyə hava məkanında mülki bir türk təyyarəsini vurduğu və Suriyanın PKK terror təşkilatına verdiyi dəstəyə cavab olaraq, Türkiyə Prezidenti Turgut Özal 1987-ci ildə "Suriya PKK-ya yardım edərsə, suyunu kəsəcəyik" bəyanatını vermişdir (Köni, 1994). Daha sonra Türkiyə, Suriyanın PKK-ya dəstəyini və Abdullah Öcalana sığınacaq verməsini dayandırmaq məqsədilə məcburi diplomatiyadan istifadə etmişdir. 1996-cı ildə Türkiyə Suriyaya diplomatik nota təqdim edərək bildirmişdir ki, "Suriya öz ərazisində PKK və Öcalana sığınacaq verdiyi müddətcə Türkiyənin Suriyaya qarşı bütün tədbirləri görmək hüququ var və bu hüquq istənilən anda həyata keçirilə bilər."

Beləliklə, Türkiyə Suriyaya qarşı aşağı intensivlikli müharibə strategiyası çərçivəsində su amilindən siyasi-diplomatik təzyiq vasitəsi kimi istifadə etməyə hazır olduğunu nümayiş etdirmişdir.

Suriya uzun müddətdir Fərat və Dəclə çayları ilə bağlı Türkiyəyə qarşı iddialar irəli sürməkdədir. Bu yolla o, bir tərəfdən öz mövqeyini beynəlxalq ictimaiyyətə çatdıraraq qəbulunu möhkəmləndirməyə çalışır, digər tərəfdən isə sulardan istifadəyə dair etirazlar və təhdidlər yaradaraq Türkiyənin hüquqlarını təkzib etməyə əsaslanan siyasətlər həyata keçirir.

Türkiyə ilə Suriya arasında diplomatik münasibətlər tarixi baxımdan ziddiyyətli olmuş, Bəşər Əsəd dövrünə qədər hər iki ölkə arasında davamlı gərginlik müşahidə edilmişdir. Bununla belə, 2009–2010-cu illərdə iki dövlət arasında münasibətlərdə yaxınlaşma prosesi baş vermişdir. Bu inkişafda ABŞ-ın Suriyaya qarşı yeritdiyi "cilovlama siyasəti"nin mühüm rol oynadığı qeyd edilə bilər. ABŞ-ın təzyiqi nəticəsində Suriya Türkiyə ilə əlaqələrini gücləndirərək özünün məhdud beynəlxalq manevr imkanlarını genişləndirməyə çalışmışdır.

Lakin 2011-ci ildə Ərəb baharı nəticəsində Suriyada baş qaldıran etirazların zorakılıqla və hərbi güc tətbiqi ilə yatırılması iki ölkə arasında münasibətləri yenidən gərginləşdirmişdir. Nəticədə, tərəflər arasında imzalanmış Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Sazişi dayandırılmış, qarşılıqlı ittiham xarakterli bəyanatlar səsləndirilmişdir. Bu dövrdə, Suriyanın yenidən PKK terror təşkilatına dəstək verdiyi və onu öz ərazisinə dəvət etdiyi barədə iddialar da gündəmə gəlmişdir.

Eyni zamanda, Suriya İsrail–Suriya sülh danışıqları prosesində Fərat və Dəclə çayları ilə bağlı mübahisəni diplomatik rıçaq kimi istifadə edərək ABŞ-ın dəstəyini qazanmağa çalışmışdır. Bu məqsədlə Dəməşq İsrailin su ehtiyatlarından istifadəsini Türkiyənin Fərat və Dəclə çaylarından daha çox su buraxması məsələsinə bağlamış, bununla da həm ABŞ-ı, həm də İsraili Ankaraya təzyiq göstərməyə yönəltməyə cəhd etmişdir (Yıldız, 2000).

Bununla belə, Suriyanın ABŞ ilə münasibətləri uzunmüddətli qarşıdurma fonunda davam etmişdir. Xüsusən də 2001-ci il 11 sentyabr hadisələrindən və Ərəb baharından sonra ABŞ-ın Suriyaya yanaşması daha da sərtləşmişdir. ABŞ Suriyanı "terroru dəstəkləyən və beynəlxalq hüquqa zidd fəaliyyət göstərən qanunsuz dövlət" kimi qiymətləndirmişdir. Əks halda, ABŞ və İsraillə münasibətləri yaxşılaşdıran, su məsələsində onlarla əməkdaşlıq edən bir Suriya Türkiyə üçün ciddi təzyiq və münaqişə mənbəyinə çevrilə bilərdi.

Suriyanın transsərhəd su siyasətinin əsas arqumentlərindən biri problemin beynəlxalq platformalarda gündəmə gətirilməsidir. Dəməşq rəhbərliyi transsərhəd su problemini təkbaşına həll edə bilməyəcəyini qəbul edir və buna görə də məsələni regional və qlobal müstəviyə çıxarmaq, müxtəlif ittifaqlar vasitəsilə mövcud balansı dəyişmək siyasəti aparır. Suriya hökumətinin iddiasına görə, su ilə bağlı hüquqi normalar müəyyən edilməli və onların hüquqi həlli Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) vasitəsilə təmin olunmalıdır. Bu yanaşmaya əsasən, tərəflər arasında aparılacaq danışıqlarda beynəlxalq müşahidəçilərin iştirakı vacib hesab olunur. Suriya BMT-ni məsələnin həlli üçün məsləhətləşməli əsas qurum kimi qəbul edir və mövzunun əhatəsini genişləndirməyə çalışır. Bununla yanaşı, BMT ilə yanaşı, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və Ərəb Liqası kimi aktorların da prosesə cəlb edilməsinə səy göstərilir (Özkösedağ, 2006).

Lakin BMT-nin indiyə qədərki fəaliyyət təcrübəsi nəzərə alındıqda, bu təşkilatın problemin həllində mühüm mərhələ ola biləcəyi ehtimalı zəif görünür. Üstəlik, transsərhəd sularla bağlı beynəlxalq hüquq normalarının hələ də kodlaşdırma mərhələsində olması BMT-nin vasitəçiliyindən kompromis gözləməyin çətin olduğunu göstərir. Beynəlxalq Ədalət Məhkəməsinin (ICJ) məsələyə müdaxilə imkanları da məhduddur. İlk növbədə, məhkəməyə müraciət üçün tərəflərin razılığı tələb olunur; əgər tərəflərdən biri müraciət etməzsə, Məhkəmə prosesə müdaxilə edə bilməz. Bundan başqa, müvafiq beynəlxalq hüquq normaları tam müəyyənləşmədiyindən, məhkəmənin hansı əsaslarla qərar verəcəyi də qeyri-müəyyən qalır. Bu şəraitdə Türkiyə, Dəməşq və Bağdaddan fərqli olaraq, BƏM-i problemin həll platforması kimi qəbul etmir və beynəlxalq müşahidəçilərin iştirakı ilə aparılacaq danışıqlara üstünlük vermir. Ankara hesab edir ki, məsələ dövlətlər arasında birbaşa danışıqlar yolu ilə tənzimlənməlidir. Suriya isə əksinə, Türkiyənin sudan siyasi təzyiq vasitəsi kimi istifadə etdiyini iddia edir və problemin beynəlxalq təşkilatlar vasitəsilə arbitraj yolu ilə həll edilməsinin vacibliyini vurğulayır. Bu səbəbdən Suriya beynəlxalq aləmdə Türkiyənin mövqeyini zəiflədə biləcək təşəbbüsləri gündəmə gətirməyə çalışır.

Eyni zamanda son illərdə Türkiyə–Suriya münasibətlərindəki siyasi və hərbi narazılıqlar, Fərat və Dəclə çaylarının paylaşdırılması üzərindəki dialoqu zəiflətmiş, regional əməkdaşlıq mexanizmlərinin iflasına gətirib çıxarmışdır. Su resursları bu kontekstdə yalnız ekoloji və iqtisadi məsələ deyil, həm də **geosiyasi təzyiq vasitəsi** kimi ön plana çıxmışdır (Zeitoun, M., Mirumachi, N., & Warner, J. , 2017).

Transsərhəd su məsələsinə İraqın yanaşması

Transsərhəd su mübahisəsinin digər tərəfi olan İraq da Suriya ilə bənzər şəkildə Türkiyənin su siyasətinə qarşı iddialar irəli sürür. Hər iki dövlət ümumilikdə Ankaraya qarşı ortaq mövqe tutmağa meylli olsa da, İraq beynəlxalq müzakirələrdə fərqli arqumentlər səsləndirir. Xüsusilə, Bağdad Dəclə çayının sularının bölüşdürülməsi məsələsində Suriyanın iştirakını qəbul etmir və bu çayı yalnız Türkiyə ilə ikitərəfli müzakirə predmeti hesab edir.

Bağdadın mövqeyinə görə, İraq Fərat və Dəclə çayları üzərində qədim suvarma ənənəsinə əsaslanaraq müəyyən hüquqlar əldə etmişdir. Bu hüquqlar iki istiqamətdə qiymətləndirilir. Birincisi, tarixi kontekstdə formalaşmış hüquqlardır, çünki Fərat və Dəclə çayları minilliklər ərzində Mesopotamiya torpaqlarına həyat vermişdir. Hazırda İraq 1,9 milyon hektar kənd təsərrüfatı sahəsini həmin çayların suları ilə suvarır. İkincisi isə, ölkənin bu ərazilərin suvarılması məqsədilə çoxsaylı istismar obyektləri və irriqasiya infrastrukturu inşa etməsi ilə bağlıdır. Bu, mövcud irriqasiya sistemi və onun texniki qurğuları ilə ifadə olunan ikinci ölçünü təşkil edir (Türkiyə Xarici İşlər Nazirliyi, 1996).

Beləliklə, İraqın mövqeyi əsasən "ənənəvi tarixi hüquqlar" prinsipinə əsaslanır. İraq iddia edir ki,

Mesopotamiya hövzəsinin əhalisi əsrlər boyu Fərat və Dəclə çaylarının sularından istifadə etmiş və bu istifadə nəticəsində həmin çaylar üzərində "qazanılmış hüquq" formalaşmışdır. Buna görə də Bağdad hökuməti hesab edir ki, Türkiyənin bu sular üzərində həyata keçirdiyi layihələr və axının tənzimlənməsi həmin tarixi hüququn pozulması deməkdir və bu, beynəlxalq hüquq baxımından yolverilməzdir (Saltürk, 2006). Suriya kimi, İraq da Fərat və Dəclə çaylarını beynəlxalq sular kimi qəbul edir və bu səbəbdən Türkiyənin bu sular üzərində mütləq suverenliyini rədd edir. Bunun əvəzində, çayların sahilyanı dövlətlərin ehtiyaclarına uyğun şəkildə ədalətli bölüşdürülməsini tələb edir. İraq, Türkiyədən daha çox su tələb edir və Türkiyənin Fərat və Dəclə çaylarına nəzarət etməsindən ciddi narahatlıq duyur. Bu çərçivədə Bağdad, Türkiyənin öz suveren hüquqlarına məhəl qoymadan həyata keçirdiyi layihələrdən imtina etməsini tələb edir və məsələni beynəlxalq təşkilatlar vasitəsilə həll etməyin vacibliyini vurğulayır.

2003-cü ildəki İkinci Körfəz Müharibəsi zamanı infrastrukturun dağıdılması İraq üçün böyük iqtisadi çətinliklər yaratdı. Müharibə nəticəsində bəzi bəndlər tamamilə məhv oldu, digərləri isə ciddi şəkildə zədələndi. Zərər yalnız bəndlərlə məhdudlaşmadı, həm də elektrik stansiyaları, suvarma nasosları, kanallar, irriqasiya infrastrukturu və digər su təsərrüfatı sistemləri də dağıntılardan təsirləndi. Bundan əlavə, müharibə müdaxiləsi, xüsusilə də ilkin mərhələlərdə, suyun həm kəmiyyətinə, həm də keyfiyyətinə mənfi təsir göstərdi. Bu isə əhali ilə yanaşı, kənd təsərrüfatı bitkilərinə, heyvanlara və geniş suvarma sahələrinə ciddi ziyan vurdu. Nəticədə, İkinci Körfəz Müharibəsi dövründə transsərhəd su problemi İraq üçün prioritet məsələ olmaqdan çıxdı. Lakin müharibədən sonrakı dövrdə həmin problem yenidən gündəmə gətirilərək ölkənin xarici siyasətində mühüm yer tutmağa başladı.

2005-ci ilin mayında İraqın baş naziri İbrahim Cəfərinin Ankaraya səfəri Türkiyə mətbuatında ümumən müsbət qiymətləndirilmiş və iki ölkə arasında ümumi anlaşmanın mövcudluğundan bəhs edilmişdir. Bununla belə, Cəfərinin BMT tərəfindən hazırlanaraq imzalanması üçün açılan "Beynəlxalq Su Axarlarının Qeyri-Naviqasiya Məqsədləri üçün İstifadəsinə dair Konvensiya"ya istinad etməsi Türkiyə tərəfdə narahatlıq doğurmuşdur (Tarhanlı, 2005).

İraq, Türkiyənin Dəclə çayı üzərində yeni obyektlər inşa etməsinə qarşı çıxaraq bunun su ehtiyatlarının azalmasına və öz hüquqlarının pozulmasına səbəb olacağını iddia edir. Həmçinin, o, danışıqlar vasitəsilə minimum su axınının müəyyənləşdirilməsi məsələsinə də etiraz edir. Lakin nəzərə alınmalıdır ki, Dəclə çayı hövzəsi genişmiqyaslı suvarma əkinçiliyi üçün əlverişli deyil. Türkiyə bu çay üzərində əsasən elektrik enerjisi istehsalı məqsədilə bəndlər inşa edir. İraqın irəli sürdüyü iddiaların əksinə olaraq, Türkiyənin tikdiyi bəndlər Dəclə çayının su ehtiyatlarını tənzimləmək funksiyasını daşıyır və nəticə etibarilə İraqın maraqlarına da xidmət edə bilər.

Suriya kimi, Bağdad administrasiyası da su probleminin həlli üçün riyazi paylaşma prinsipinə əsaslanan müəyyən təkliflər irəli sürmüşdür (Xarici İşlər Nazirliyi, 1996):

- Əvvəlcə hər bir ölkə mövcud, tikilməkdə olan və planlaşdırılan layihələr üzrə öz su tələblərini ayrıca təqdim etməlidir;
- Dəclə və Fərat çayları üzrə hidroloji məlumatlar qarşılıqlı şəkildə müzakirə olunmalıdır;
- Su Məsələləri üzrə Birgə Texniki Komitə bütün bu məlumatları topladıqdan sonra, hər bir çay üçün ayrı-ayrılıqda, əvvəlcə istismarda olan layihələrin, daha sonra tikilməkdə olan layihələrin və sonda isə planlaşdırılan layihələrin suya olan tələbatını müəyyən etməlidir.

İraq ardıcıl şəkildə Türkiyəni öz hüquqlarını pozmaqda ittiham edir və demək olar ki, bütün beynəlxalq platformalarda bu iddianı gündəmə gətirməyə çalışır. Lakin Suriyanın mövqeyində olduğu kimi, İraqın arqumentləri də bir çox hallarda həqiqətə uyğun deyil və əsassız xarakter daşıyır. Əslində, Bağdad Dəclə çayının sularından demək olar ki, məhdudiyyətsiz şəkildə faydalanır, eyni zamanda isə Fərat çayından mümkün qədər çox su götürməyə yönəlmiş siyasət həyata keçirir. İraq tərəfi Türkiyəni Atatürk bəndinin ilkin doldurulma mərhələsində onları vaxtında xəbərdar etməməkdə və suyun miqdarını öhdəlikdən aşağı səviyyəyə endirməklə beynəlxalq hüququ pozmaqda günahlandırmışdır. Bağdad administrasiyasının iddiasına görə, Türkiyə yeni bəndlər və hidrotexniki qurğular inşa etməklə aşağı axarda yerləşən dövlətlərin mənafelərini zərbə altına alır (Bilgiç, 2006).

İraqın Baş nazir Nuri əl-Malikinin rəhbərlik etdiyi hökumət isə xüsusilə 2011-ci ilin sonlarından etibarən Türkiyəni İraq üçün potensial təhlükə kimi qiymətləndirdiyini bəyan etmişdir. Maliki hökumətinin bu açıqlamaları müəyyən mənada İkinci Dünya Müharibəsi sonrası ritorikanı xatırladır.

Ümumilikdə, Türkiyənin su siyasətində su idarəçiliyi, milli ehtiyaclar və hidroelektrik layihələr üstünlük təşkil edərkən, İraq su kəsintilərini strateji bir məsələ olaraq təqdim edir və beynəlxalq platformalarda hüquqlarını müdafiə etməyə çalışır. Bu dinamika, yalnız suyun bölgədəki bərabər bölgüsünü deyil, həm də diplomatik qarşılıqlı təsirləri və güc balansını yenidən formalaşdırma potensialını da gündəmə gətirir.

Türkiyənin Transsərhəd Sularla Bağlı Siyasəti və Yanaşmaları

Türkiyənin xarici siyasəti əsasən sülhün qorunmasına və mehriban qonşuluq münasibətlərinə üstünlük verir. Bu siyasət təkcə qonşu dövlətlərlə deyil, ümumilikdə beynəlxalq münasibətlərdə də özünü göstərir. Türkiyənin transsərhəd su siyasəti də məhz bu prinsiplər əsasında formalaşmışdır. Bu yanaşmaya uyğun olaraq, Ankara Fərat və Dəclə çaylarının sularından istifadə məsələsində İraq və Suriyanın tələblərinə mümkün qədər müsbət münasibət göstərməyə çalışır və bununla da regional sabitlik və sülhə töhfə verməyi hədəfləyir. Bu çərçivədə Türkiyə Yaxın Şərqdə mövcud su böhranının aradan qaldırılması üçün "Sülh Suyu Layihəsi" və "Manavqat Su Layihəsi" kimi təşəbbüslərə start vermişdir. Lakin hər iki halda bölgə ölkələri Türkiyənin yanaşmasına uyğun gələn, real və həll yönümlü alternativlər təqdim etmədiyindən, su problemi tam həllini tapmamışdır. Ümumiyyətlə, Türkiyə transsərhəd və beynəlxalq sularla bağlı siyasətini daim "yaxşı qonşuluq münasibətləri" prinsipi əsasında qurmuş və sahilyanı ölkələrlə əməkdaşlığa önəm vermişdir (Kibaroğlu, 2005).

Türkiyənin su siyasətinin mühüm istiqamətlərindən biri suya "silah" kimi yanaşmamaq və ondan təzyiq vasitəsi kimi istifadə etməmək prinsipidir. Qərbin zaman-zaman irəli sürdüyü tələblərə baxmayaraq, həm Körfəz müharibələrindən əvvəl, həm də sonra Türkiyə sudan qonşu ölkələrinə qarşı heç vaxt silah kimi istifadə etməmişdir. Ankara suyu XXI əsrin əvəzolunmaz strateji resursu hesab edir və onu iqtisadi-sosial inkişafın, həmçinin ərzaq təhlükəsizliyinin əsas elementi kimi qiymətləndirir. Eyni zamanda, Avropa İttifaqına üzvlük danışıqları və regional proseslər nəzərə alınmaqla, dəyişən şərtlərə uyğun yeni su siyasətləri formalaşdırılır.

Bununla yanaşı, yaxın 20–25 ildə su qıtlığının potensial olaraq ciddi böhrana çevrilə biləcəyi proqnozlaşdırılır və Türkiyə bu ehtimala uyğun siyasətlər işləyib hazırlamaqdadır. Lakin mövcud vəziyyətə dair tənqidlər də az deyil. O dövrdə energetika və təbii sərvətlər naziri Hilmi Gülər qeyd etmişdir: "Hazırda hidravlik gücümüzün yalnız 35%-dən istifadə edirik. Hər il dənizlərə 3–5 milyard dollarlıq enerji axıdılır. Təəssüf ki, səhv siyasət və ya siyasətsizlik səbəbindən su ehtiyatlarımızdan yetərincə faydalana bilmirik" (Ünsal, 2010). Bu açıqlama, mövcud siyasətin qeyri-adekvatlığını və su resurslarına kifayət qədər strateji yanaşmanın olmadığını göstərir. Beləliklə, suyun həyati resurs olduğu nəzərə alınarsa, ondan silah kimi istifadə edilməsi Türkiyənin xarici siyasət prinsiplərinə ziddir. Türkiyə daha çox idealist yanaşma sərgiləyərək, öz maraqlarından əvvəl insan ehtiyaclarını və regional sabitliyi ön planda tutur.

Türkiyənin transsərhəd su siyasətinin əsas prinsiplərindən biri tək hövzə siyasətidir. İraq və Suriya isə bu yanaşmaya qarşı çıxır. Ankara Fərat və Dəclə çaylarını vahid hövzə kimi qəbul edir, çünki bu çaylar eyni bölgədən başlayır, yaxın ərazilərdən axır və Fars körfəzinə tökülməzdən əvvəl birləşir. Bundan əlavə, 1980-ci illərin ortalarında İraq Tərtər kanalını tikərək bu iki çayı süni şəkildə birləşdirmişdir (Dursun, 2006). Türkiyə, həm çayların təbii, həm də süni şəkildə birləşməsinə və onların suvarmaqda olduğu torpaqlara əsaslanaraq, yaranan hövzəni vahid hövzə hesab edir və tək hövzə siyasətini dəyişməz prinsip kimi irəli sürür. Ankara bu çayları birlikdə nəzərdən keçirərək transsərhəd su probleminin həllinə təkliflər səsləndirsə də, İraq və Suriya bu yanaşmanı rədd etmişdir. Hər iki ölkə bildirmişdir ki, çaylarla bağlı məsələlər ayrı-ayrılıqda həll olunmalı və Türkiyənin təklifi onlar üçün məqbul deyil (Üste, 1998). Əgər Türkiyənin arqumenti qəbul olunarsa, Suriya Dəclə və Orontes çayları ilə bağlı mövqeyini itirəcək, eyni zamanda Fərat çayına töhfə verməyən və ümumi illik suyun 64,4%-ni əldə etməyə çalışan İraq da öz sövdələşmə gücünü itirəcək. Bu səbəbdən Türkiyənin təklifi hər iki ölkə tərəfindən rədd edildi.

Transsərhəd su məsələlərində aşağı axın sahilyanı dövlətlər olan Suriya və İraq ardıcıl şəkildə Türkiyənin öz sularında obyektlər inşa etməsinə qarşı çıxırlar. Hər iki ölkə iddia edir ki, Türkiyə bu obyektləri tikməklə onların su ehtiyatlarını azaldır və suların keyfiyyətinə ziyan vurur. Türkiyə isə əksinə, bu təşəbbüslərin onun mütləq suverenliyi çərçivəsində həyata keçirildiyini müdafiə edir. İraq və Suriya uzun müddət GAP (Cənub-Şərqi Anadolu Layihəsi) çərçivəsində aparılan layihələri tənqid etmişdir. GAP Türkiyənin transsərhəd su siyasətinin əsas dayağı olduğundan, layihənin və bu kontekstdə Atatürk Barajının Türkiyənin xarici siyasəti baxımından təhlili əhəmiyyətlidir. Əvvəllər bu çaylarla həmsərhəd olan ölkələr su məsələlərində əməkdaşlıq edirdilərsə, GAP-ın tikintisinə başlanması münasibətlərin gərginləşməsinə və əməkdaşlığın yerini rəqabət və münaqişəyə buraxmasına səbəb oldu. GAP layihəsindən sonra İraq və Suriya Türkiyəyə qarşı tənqidlərini gücləndirdi. Hər iki ölkə bəndlərin tikintisi zamanı kifayət qədər su almadıqlarını, suların çirkləndiyini və kənd təsərrüfatı torpaqlarına ziyan dəydiyini iddia etdi. Lakin Atatürk bəndinin ilkin doldurulma mərhələsində İraq və Suriya heç bir itki yaşamamışdır; əksinə, Türkiyə 1987-ci il protokolunda öhdəliyindən daha çox su ayırmışdır. Buna baxmayaraq, hər iki ölkə su tələbatlarını artıraraq cəmi 700 m^3/san səviyyəsinə çatdırmışdır.

GAP (Cənub-Şərqi Anadolu Layihəsi) regionun su probleminin tarixi inkişafında mühüm rol oynayır. GAP layihəsinə qədər sahilyanı ölkələr daşqınlara və quraqlıqlara qarşı əməkdaşlıq edirdilərsə, layihənin həyata keçirilməsindən sonra onlar su resursları uğrunda mübarizəyə qoşulmuşlar (Denk, 1997). GAP-

ın quraqlıq və daşqınlarla bağlı faydaları təkcə Türkiyəyə deyil, bütün bölgəyə aiddir, çünki layihə quru dövrlərdə su mənbəyi, həddindən artıq axınlar zamanı isə daşqınların qarşısını alan təhlükəsizlik klapanı funksiyasını yerinə yetirir. Buna görə də, İraq və Suriyanın iddialarının əksinə olaraq, Türkiyə GAP-ın onlar üçün də faydalı olduğunu vurğulayır. Ankara hesab edir ki, GAP quraqlıq, daşqın və regionun iqliminin tənzimlənməsi baxımından digər sahilyanı ölkələr üçün müsbət xarici təsirlərə malikdir.

Türkiyə həmçinin Suriya ilə bağlı tənqidlərini irəli sürür. Ankara iddia edir ki, Suriya Orontes çayının sularını çirkləndirir və bununla Türkiyəyə ziyan vurur. Həmçinin, Suriya bənd qapılarını açaraq suyu boşaltdıqda Türkiyəni əvvəlcədən xəbərdar etməyib ki, bu da kənd təsərrüfatı sahələrinə və əkin sahələrinə ziyan gətirib. Türkiyə Suriyanın transsərhəd sularla bağlı qeyri-sabit davranış göstərdiyini, Fərat çayından daha çox su tələb etdiyini və Orontes çayındakı sulardan Türkiyənin faydalanmaq hüququnu rədd etdiyini iddia edir (Dalar, 2010).

Türkiyə, Fərat və Dəclə çaylarının statusu ilə bağlı siyasətində, qlobal səviyyədə bütün aspektləri əhatə edən universal beynəlxalq müqavilənin olmadığını vurğulayır və bu çayların "beynəlxalq sular" deyil, "transsərhəd sular" hesab edildiyini müdafiə edir (Xarici İşlər Nazirliyi, 2012). Həqiqətən, Fərat və Dəclə çaylarını beynəlxalq sular kimi tənzimləyən universal hüquqi norma mövcud deyil və onların hüquqi statusu mübahisəlidir.

Türkiyə üçün bu çaylar transsərhəd sulara aiddir və ölkə yuxarı axar sahilyanı dövlət olaraq transsərhəd sular üzərində tam səlahiyyətə malik olduğunu iddia edən mütləq suverenlik prinsipinə sadiqdir. Ankara hesab edir ki, bu çaylar onun suveren ərazisindən qaynaqlandığı üçün istifadəsində prioritetə malikdir və bu suların beynəlxalq mübahisə obyekti olmadığı, hüdudlarından kənarda yerləşən dövlətlərin yalnız azad sulardan faydalana biləcəyi vurğulanır. Buna baxmayaraq, Türkiyə mütləq suverenlik prinsipini tam sərt şəkildə tətbiq etmir və ondan yumşaldılmış formada istifadə edir; yəni çayın faydalarını bölüşən tərəf kimi çıxış edir. Ankara həmçinin İraq və Suriyanın "qazanılmış hüquqlar" tezisini qəbul etmir. Türkiyə hesab edir ki, qazanılmış hüquqlar yalnız ortaq sulardan ədalətli istifadə meyarlarından biri ola bilər və yeganə müəyyənedici amil ola bilməz.

Nəticə

Transsərhəd su problemi sadəcə su ilə bağlı məsələ deyil, əsasən siyasi xarakter daşıyır. Bu gün transsərhəd su problemi regional gündəmin ən vacib və aktual məsələlərindən biri kimi diqqət mərkəzindədir. 2003-cü il İkinci Körfəz Müharibəsinin regional təsirlərinin, xüsusən İraqda aradan qalxması, su probleminin daha da ön plana çıxmasına səbəb olur. İraqın müharibədən sonrakı bərpası, Suriyaya beynəlxalq ictimai təzyiqin azalması və "Ərəb Baharı" hadisələrinin sona çatması transsərhəd su məsələsinin bu ölkələr tərəfindən daha aktiv şəkildə gündəmə gətirilməsinə yol açır.

Keçmişdən bu günə qədər Türkiyədən başqa sahilyanı ölkələrin su siyasətlərinə nəzər salsaq, onların suya tələbatı davamlı olaraq artırdığını və suyu əməkdaşlıq mənbəyindən çox münaqişə mənbəyi kimi istifadə etdiklərini görürük. Suyun strateji əhəmiyyəti, regionun coğrafi xüsusiyyətləri və İraq və Suriyanın həyata keçirdiyi siyasətlər suyun sahilyanı ölkələr arasında potensial münaqişə mənbəyinə çevrilmə riskini artırır. Suyun tələbatının artması və tərəflərin sayının çoxalması fonunda transsərhəd su məsələləri ilə bağlı coğrafi, siyasi və hüquqi qeyri-müəyyənliklər Türkiyə və region üçün ciddi təhlükəsizlik probleminin yaranması ehtimalını gücləndirir. Qeyri-müəyyənliyin təhlükəsizlik problemi yaratmadığını və ya münaqişə riski daşımadığını iddia etmək real deyil. Buna görə də Türkiyənin beynəlxalq səviyyədə öz mövqeyini müdafiə etməsi və təhlükəsizlik risklərini minimuma endirmək məqsədilə transsərhəd su məsələlərində xarici siyasətini iqtisadi, diplomatik, hüquqi və texniki tədbirlərlə dəstəkləməsi böyük əhəmiyyət kəsb edir.

Türkiyə transsərhəd su məsələlərini regionda maraqları olan böyük dövlətlərin təşəbbüsünə buraxmadan, əhatə dairəsini genişləndirərək idarə etməlidir. İqtisadi, siyasi və hərbi baxımdan gücləndikcə, Ankara bu məsələləri həll etmək imkanlarını artıracaq. Bununla belə, konjonktura şəraitinin inkişafı məsələnin idarə olunmasını çətinləşdirə və hətta münaqişə ehtimalını yüksəldə bilər. Türkiyəni Fərat və Dəclə sularının idarə olunmasında problem həll etməyə qadir bir ölkə hesab etmək tam dəqiq olmaz. Çünki ölkə bu məsələdə əsas aktor kimi çıxış edir və digər sahilyanı dövlətlərlə müqayisədə su ehtiyatları ilə bağlı daha çox fədakarlıq və güzəştlər etməyə məcburdur. Əgər su ehtiyatları o qədər məhdud olarsa ki, sahilyanı ölkələrin tələblərini minimum səviyyədə belə ödəyə bilmirsə, o zaman Türkiyə problem yaratmaqda, münaqişədə tərəf tutmaqda və güzəştə getməməkdə ittiham oluna bilər. Bu baxımdan, regional sülh və sabitliyin qorunması məsuliyyətinin Türkiyənin üzərinə qoyulması, ölkə üçün həm xarici siyasət, həm də təhlükəsizlik baxımından ciddi çətinliklər yarada bilər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Al Jazeera. (2025, January 30). *Syria's Baath party dissolved: What happens next?* https://www.aljazeera.com/news/2025/1/30/syrias-baath-party-dissolved-what-happens-next

2. Bilgiç, E. (2006). *Su sorunu: Fırat, Dicle ve Asi nehirleri örnekleri.*

https://dergipark.org.tr/tr/pub/assam/issue/48907/578215

3. Dalar, M. (2010). Asi Nehri'nin Türkiye-Suriye ilişkileri üzerindeki etkisi ve geleceği. *Ortadoğu Analiz, 2*(15), 106–113.

4. Denk, E. (1997). Ortadoğu'da su sorunu bağlamında Dicle ve Fırat (pp. 19–20).

5. Dursun, A. (2006). *Kutsal topraklar ve paylaşılmayan sular: Fırat ve Dicle* (pp. 128–129).

6. Kibaroglu, A., Klaphake, A., Kramer, A., Scheumann, W., & Carius, A. (2005). *Cooperation on Turkey's transboundary waters.* The German Federal Ministry for Environment, Nature Conservation and Nuclear Safety, 9–12.

7. Köni, H. (1994). Su sorununun siyasal boyutları. In N. Akmandor, H. Pazarcı & H. Köni (Eds.), *Ortadoğu ülkelerinde su sorunu* (pp. 55–71).

8. Saltürk, M. (2006). Orta Doğu'da su sorunu ve Türkiye açısından incelenmesi. *Güvenlik Stratejileri Dergisi, 2*(3), 21–38.

9. Tarhanlı, T. (2005, May 24). Irak'la ilişkiler. *Radikal Gazetesi.* http://www.radikal.com.tr/haber.php?haberno=153645&tarih=24/05/2005

10. T.C. Dışişleri Bakanlığı, Stratejik Araştırmalar Merkezi. (1996). Water issues between Turkey, Syria and Iraq. *Perceptions: Journal of International Affairs, 1*(2), 1–15.

11. Ünsal, İ. (2010). Hidroelektrik potansiyelimiz ve enerji politikalarımız (pp. 66–70). https://inis.iaea.org/records/m7gaj-07h36/files/41103127.pdf

12. Yıldız, Y. G. (2000). *Global stratejide Ortadoğu: Krizler, sorunlar ve politikalar* (pp. 196–197).

13. Zehir, C. (2003). Türkiye'nin uluslararası su politikaları ve sınıraşan sular. In Z. Şen & S. Sırdaç (Eds.), *Suyumuzun geleceği ve Türkiye su politikaları* (pp. 101–130).

14. Zeitoun, M., Mirumachi, N., Warner, J., Kirkegaard, M., & Cascão, A. (2019). Analysis for water conflict transformation. *Water International, 45*(2), 1–20.

DOİ: 10.32010/XHVC6924

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİ 1970-Cİ İLLƏR TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

Aynur İbrahim KƏRİMLİ
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/my-orcid?orcid=0009-0002-0353-8829
E-mail: aynurkarimli0@gmail.com

Xülasə: Bu məqalədə 1970-ci illərdə Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif aspektləri üzrə tədqiqatlar araşdırılır. Azərbaycan tarixində unikal bir hadisə olan Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsi həmişə təkcə yerli deyil, həm də xarici tarixçilərin diqqətini cəlb edən bir tədqiqat mövzusu olmuşdur. Xarici tarixçilər arasında türk tarixçiləri xüsusi qeyd olunmağa layiqdirlər. Dost ölkəmiz olan Türkiyənin tarixçiləri üçün Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsi həmişə aktual olub. Türk tarixçilərinin diqqətini cəlb edən digər bir cəhət də Azərbaycan Xalq Cümhuriyyətinin Şərqdə yaranan ilk demokratik Türkiyə respublikası olmasıdır. Cümhuriyyət tarixini öyrənən türk tarixçiləri üçün əsas mənbə 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin işğalından sonra vətənlərindən qaçmağa məcbur olan Azərbaycan ziyalılarının əsərləri olmuşdur. Təbii ki, əvvəlki illərlə müqayisədə 1960-1970-ci illərdə türk tarixçiləri tərəfindən Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsi xeyli genişlənmişdir. Məqalədə qeyd olunan demək olar ki, hər bir əsər ADR-in elan edilməsi, Qafqaz İslam Ordusu tərəfindən Bakının azad edilməsi, 1918-ci ilin martında ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğın və Birinci Dünya Müharibəsində məğlub olduqdan sonra Osmanlı Türk Ordusunun Azərbaycandan çıxarılması və Mudros müqaviləsinin məcburi imzalanması məsələlərinə toxunur. Qeyd olunan demək olar ki, hər bir əsərdə Azərbaycana hərbi yardım və Türkiyə ordusunun Bakının azad edilməsində iştirakı məsələsinə xüsusi toxunulur. Müəlliflər qeyd edirlər ki, bu yardım Azərbaycanla Osmanlı İmperiyası arasında bağlanmış Batum Dostluq və Əməkdaşlıq Müqaviləsinin 4-cü maddəsinə uyğun olaraq göstərilib. Məqalədə toxunulan digər vacib məsələ isə müsəlman əhalisinin ermənilər tərəfindən zülm edilməsidir. Müəlliflər Osmanlı Türk Ordusunun Azərbaycana gəlməsinin səbəblərindən birinin bu zülmün qarşısını almaq olduğunu qeyd edirlər.
Açar sözlər: tarixşünaslıq, Qafqaz, Türk ordusu, Bakı, Şərq Cəbhəsi

HISTORY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC IN TURKISH HİSTORİOGRAPHY IN 1970S

Aynur Ibrahim KARİMLİ
Baku State University
Orcid: https://orcid.org/my-orcid?orcid=0009-0002-0353-8829
E-mail: aynurkarimli0@gmail.com

Abstract: This article discusses the research of various aspects of the history of the Azerbaijan Democratic Republic in Turkish historiography in the 1970s. The study of the history of the Azerbaijan Democratic Republic, which is a unique event in the history of Azerbaijan, has always been a research topic that has attracted the attention of not only local historians but also foreign historians. When it comes to foreign historians, especially Turkish historians, one can especially mention them. For historians of our friend country, Türkiye, the study of the history of the Azerbaijan Democratic Republic has always been relevant. The fact that the Azerbaijan Democratic Republic was the first democratic Turkish republic to emerge in the East is another aspect that has attracted the attention of Turkish historians. The primary source for Turkish historians studying the history of the republic was the works written by Azerbaijani intellectuals who were forced to emigrate from their homeland after the invasion of the Azerbaijan Democratic Republic in April 1920. Naturally, compared to previous years, the study of the history of the Azerbaijan Democratic Republic by Turkish historians expanded in the 60s-70s of the 20th century. Almost every one of the works mentioned in the article touches upon the issue of the proclamation of the ADR, the liberation of Baku by the Caucasian Islamic Army, the massacres committed by Armenians against Azerbaijanis in March 1918, the departure of the Ottoman Turkish army from Azerbaijan, which was defeated in the First World War and forced to sign the Mudros Treaty. Almost every one of the works mentioned specifically touches upon one point, the issue of military assistance to Azerbaijan and the participation of the Turkish army in the liberation of Baku. The authors note that this assistance was carried out in accordance with the fourth article of the Batum Treaty on friendship and cooperation signed between Azerbaijan and the Ottoman state. Another main issue highlighted is the oppression practiced by Armenians against the Muslim population. The authors indicate that one of the reasons for the arrival of the Ottoman Turkish army in Azerbaijan was to prevent this oppression.
Keywords: historiography, Caucasus, Turkish army, Baku, Eastern Front

ИСТОРИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ 1970 ГГ. В ТУРЕЦКОЙ ИСТОРИОЛОГИИ

Айнур Ибрагим КЕРИМЛИ
Бакинский Государственный Университет
Orcid: https://orcid.org/my-orcid?orcid=0009-0002-0353-8829
Электронная почта: aynurkarimli0@gmail.com

Резюме: В данной статье рассматриваются исследования различных аспектов истории Азербайджанской Демократической Республики в турецкой историографии 1970-х годов. Изучение истории Азербайджанской Демократической Республики, являющейся уникальным событием в истории Азербайджана, всегда было исследовательской темой, привлекающей внимание не только местных, но и зарубежных историков. Говоря о зарубежных историках, следует особо отметить турецких историках. Для историков нашей дружественной страны Турции изучение истории Азербайджанской Демократической Республики всегда было актуальным. Еще одним аспектом, привлекающим внимание турецких историков, является тот факт, что Азербайджанская Демократическая Республика была первой демократической Турецкой республикой, возникшей на Востоке. Основным источником для турецких историков, изучающих историю республики, служили труды азербайджанской интеллигенции, вынужденно покинувшей родину после вторжения в Азербайджанскую Демократическую Республику в апреле 1920 года. Естественно, что по сравнению с предыдущими годами изучение истории Азербайджанской Демократической Республики турецкими историками в 60-70-х годах XX века значительно расширилось. Практически в каждой из упомянутых в статье работ затрагиваются вопросы провозглашения АДР, освобождения Баку Кавказской исламской армией, резни, учинённой армянами против азербайджанцев в марте 1918 года, вывода из Азербайджана Османской турецкой армии, потерпевшей поражение в Первой мировой войне и вынужденной подписать Мудросский договор. Практически в каждой из упомянутых работ конкретно затрагивается вопрос военной помощи Азербайджану и участия турецкой армии в освобождении Баку. Авторы отмечают, что эта помощь осуществлялась в соответствии с четвёртой статьей Батумского договора о дружбе и сотрудничестве, заключённого между Азербайджаном и Османским государством. Другим важным вопросом, затронутым в статье, являются притеснения мусульманского населения со стороны армян. Авторы указывают, что одной из причин прибытия Османской турецкой армии в Азербайджан было предотвращение этих притеснений.
Ключевые слова: историография, Кавказ, турецкая армия, Баку, Восточный фронт

Giriş

Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri olan Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsi yarandığı vaxtdan bugünə kimi Azərbaycan tarixçiləri ilə yanaşı, həm də xarici tarixçilərin diqqətini çəkən mövzulardan olmuşdur. Mövzunun Türkiyə tarixşünaslığında xüsusi əhəmiyyət kəsb etmişdir. Bunun səbəbi kimi üç əsas cəhəti qeyd etmək olar: coğrafi yaxınlıq; iki dövlətin əhalisinin etnik baxımdan qohumluğu və iki dövlət arasındakı əlaqələrin həm 1918-1920-ci illərdə, həm də müasir dövrdə yüksək səviyyədə olması. Son dövrlərdə iki ölkənin daha da yaxınlaşması bunun aktuallığını daha da dərinləşdirir. XX əsrin 60-70-ci illərində Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti tarixinin araşdırılması əvvəlki illərlə müqayisədə daha zəngindir.

1970-ci illər Türkiyə tarixşünaslığına ümumi baxış

Qeyd olunan illərdə dövrün ayrı-ayrı məsələləri ilə bağlı Türkiyə tarixçiləri dəqiq konsepsiyalar yaratdılar. Bu konsepsiyalar Cümhuriyyətin yaranması, Osmanlı dövlətinin Azərbaycana göstərdiyi yardım, AXC-nin süqutu məsələləridir. Türkiyə tarixşünaslığında əsasən, Cümhuriyyətin yaranmasında “türk amili”ni qəbul edənlər türk qoşunlarının Bakıya gəlişini qardaşlıq yardımı hesab edirlər. Fahir Armaoğlu, Ahmet Hazer Hizal, Şerafettin Erel, Akdes Nimet Kurat bu fikri qəbul edirdilər. Buna baxmayaraq, həmin müəlliflər arasında da Osmanlının həyata keçirdiyi Azərbaycan siyasətinin məqsədlərində fikir ayrılıqları vardır. Türkiyə tarixşünaslığında olan digər bir baxış da vardı. Bu yanaşmaya görə bir qisim tarixçilər “qardaşılıq yardımı” konsepsiyasını qəbul edirlər, amma eyni zamanda bu yardımda Osmanlı dövlətinin müəyyən siyasi məqsədlər güddüyünü də inkar etmirdilər. Bu tarixçilərdən biri də F.Armaoğlu idi. O, yazır ki “28 may tarixindən sonra Azərbaycan Osmanlı dövlətinə arxalanırdı. Bu vəziyyət Ənvər paşa başda olmaqla Osmalı dövlətinin rəhbərlərinə böyük üfüqlər açdı. Bakını azad etdikdən sonra Türküstana və Orta Asiya türklərini imperiyanın sərhədləri içərisinə alaraq Pantürkist birliyini qurmaq onların əsas məqsədi idi (Ağayev,1993).

Cümhuriyyət tarixinin araşdırılması

XX əsrin 70-ci illərində Azərbaycan Xalq Cümhuriyyəti haqqında yazılmış əsas əsərlərdən biri Hüseyn Baykara tərəfindən qələmə alınmış “Azerbaycan istiklal mücadelesi tarihi” adlı kitabdır. H.Baykara bolşevizmə qarşı olan şəxslərin sürgün edildiyi illərdə Türkiyəyə gələrək yaradıcılığını

İstanbulda davam etdirmişdi. İstanbul Vəkillər Kollegiyasının hüquqşünaslarından biri olan H.Baykaranın Azərbaycanın istiqlal mübarizəsindən ətraflı bəhs edən "Azerbaycan istiklal mücadelesi tarihi" əsəri 1975-ci ildə İstanbulda nəşr olunmuşdur. Bolşevik şovinizminin hökm sürdüyü illərdə yazılan bu əsərdə Azərbaycanın azadlıq mübarizəsinin inkişaf prosesi ətraflı şəkildə araşdırılmışdır. Müəllif bu araşdırmasında Azərbaycanın çağdaş tarixinə işıq salır, çar rejiminə qarşı mübarizəni və bolşevik inqilabından sonra qısamüddətli Azərbaycan istiqlal tarixindən ətraflı bəhs edir. Bolşevizmə qarşı çıxan türk ziyalı və tarixçilərinin səsinin ciddi şəkildə kəsildiyi, sürgündə olduğu SSRİ dönəmində yazılan bu əsəri, həm də mühüm bir cəsarətin məhsulu hesab etmək olar.

H.Baykaranın "Azerbaycan İstiklal mücadelesi tarihi" adlı əsəri Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutunun araşdırılmasını əhatə edən mühüm tarixi tədqiqat əsərlərindən biridir. Əsərdə əsasən Azərbaycanın Çar Rusiyası dönəmindəki vəziyyəti, 1917-ci il fevral və oktyabr inqilablarından sonra yaranmış şərait, Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması, ordu quruculuğu, maarif və mədəniyyət sahəsindəki işlər, Azərbaycanla Osmanlı dövləti arasında olan əlaqələr, Bakının azad olunması, XI Qızıl Ordunun Bakıya daxil olması kimi vacib məlumatlar öz əksini tapmışdır. Həmin dövrdə Azərbaycanda bu mövzuda yazmağa məhdudiyyətlər qoyulmuşdu. Ona görə də müəllifin bu əsəri xaricdə yaşayan azərbaycanlıların mübarizə tarixini öyrənməsində mühüm rol oynayıb. Əsər arxiv sənədləri, dövrün qəzetləri, Cümhuriyyət hökuməti sənədlərinə, Osmanlı və Qərb mənbələrinə istinad etdiyinə görə dəyərli mənbə hesab olunur. Tədqiqat əsərində müəllif özündən əvvəl aparılan tədqiqat işlərindən və özünün analitik izahlarından istifadə etmişdir. Bu baxımdan tədqiqat işi yalnız sənəd toplusu deyil, həm də təhlil əsəridir.

Əsər əlli yeddi fəsildən ibarət olub, ilk doqquz fəsilində Azərbaycanın iqtisadiyyatı izah edilir. Müəllif əsərinin on və on üçüncü fəsillərində Azərbaycandakı siyasi hərəkatlardan yazır. Bu fəsillərdə Azərbaycanda müstəqillik elan olunana qədər yaradılmış siyasi təşkilatlar və partiyalar haqqında məlumat verilir, Azərbaycandakı siyasi hərəkatların 1901-ci ildə Bakıda "Rusiya Sosial Demokratik Birliyi"nin yaradılması ilə başlandığını vurğulayır. Daha sonra o qeyd edir ki, 1904-cü ildə "Hümmət" sosialist partiyası, ikinci siyasi partiya isə 1905-ci ildə, inqilab günlərində və intensiv erməni hücumları şəraitində Əhməd Ağayev tərəfindən "Difai" adı ilə yaradılmışdı. H.Baykara öz əsərində 1905-ci il rus-yapon müharibəsi və birinci rus inqilabı haqqında geniş məlumat verir. Birinci Rus inqilabının Azərbaycana təsirlərinin təsvir olunduğu on yeddinci fəsildə müəllif göstərir ki, bütün rus əsir xalqlarında olduğu kimi Azərbaycanda da azadlığın ilk həyəcanlı günlərinin təsiri ilə siyasi hərəkat başlamışdı. Tədqiqat əsərində bu mühitdə formalaşmış bir nümayəndə heyətinin çara yazdığı "milli arzular ərizəsi"nin tam mətnini görə bilərik. Hazırlanmış "milli arzular ərizəsin"dən aydın olur ki, o zaman Azərbaycanda insanlar istər ictimai, istərsə də siyasi arenada bir çox məsələlərdə məhdudiyyətlərə, ikili standartlara məruz qalmışdılar. İyirmi doqquz və otuzuncu fəsillərdə isə Müsavat partiyasının yaranması, Məhəmməd Əmin Rəsulzadənin həyatı və şəxsiyyəti geniş təsvir olunur. Məlum olduğu kimi, Azərbaycanın müstəqilliyinin əldə edilməsində Müsavat partiyasının mühüm yeri var. Əsərin otuz yeddi-qırx üçüncü fəsillərində Azərbaycanda istiqlaliyyətin elan edilməsindən bəhs edilir. Müəllifin fikrincə, bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra Azərbaycan istiqlal mübarizəsi fəallaşmışdı. Nəticədə uzun sürən mübarizədən sonra 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın müstəqilliyi elan edildi (Baykara, 1975).

H.Baykara qırx yeddinci fəsildə Mudros sülh müqaviləsinin imzalanması ilə Osmanlı ordusunun regionu tərk etməsi, lakin bu dəfə də ingilislərin Bakını işğal etdiklərini qeyd edir (Baykara, 1975). Müəllif bununla qeyd etmək istəyir ki, Birinci Dünya Müharibəsində məğlub olan Osmanlı imperiyası Mudros barışığını imzalamalı oldu. Bu barışığın şərtlərinə əsasən isə türk ordusu Azərbaycanı və Qafqazı tərk etmək məcburiyyətində qaldı.

XX əsrin 70-ci illərdə nəşr olunan digər bir əsər olan "Türk devrim tarihi" (1971) kitabıdır. Giriş və dörd fəsildən ibarət olan bu kitabın ikinci fəsilində "Şərq cəbhəsi" başlığı ilə olan hissədə Mudros sülh müqaviləsinin (30 oktyabr 1918-ci il) imzalanmasından sonra türklərin Qafqazdan çıxması və bundan sonra ermənilərin həmin ərazilərdə yaşayan müsəlmanlara qarşı qətliam törətməsinin qarşısıalınmaz fakt olduğu qeyd olunur. Bu qətliamın az da olsa qarşısını almaq üçün müsəlman və türklərin sıx yaşadığı ərazilərdə yerli Şuralar yaradılmışdı. Onlar arasında iki əsas Şura fərqlənirdi.Onlardan biri mərkəzi Qarsda olan "Cənub-qərbi Qafqaz müvəqqəti hökuməti", digəri isə mərkəzi Naxçıvanda yaradılan Şura hökuməti idi. Gözlənildiyi kimi türk ordusu ərazini tərk edən kimi qətliamlar başlamış və bəzi ərazilər ermənilər tərəfindən işğal edilmişdi. Bu işğal və qətliamın qarşısı 1920-ci il 3 dekabr tarixində Gümrü sülh müqaviləsinin imzalanması ilə alınmışdı. (Türk devrim tarihi, 1971). Müəllifin burada qeyd etmək istədiyi məqam odur ki, ermənilər əllərinə fürsət düşdüyü hər an müsəlmanları qətlə yetirirdi. Bu da Osmanlı dövlətini müəyyən tədbirlər görməyə vadar edirdi.

Qeyd olunan dövr Türkiyə tarixşünaslığında yer alan başqa bir əsər Feyzi Aküzüm tərəfindən yazılan "M.Resulzadeye göre çeşitli cepheleri ile Azerbaycan istiklal mücadelesi" (1977) adlı tədqiqat işidir.

İrihəcmli olmayan bu əsər adından da göründüyü kimi bioqrafik əsərdir. Əsər M.Rəsulzadənin həyatı və müstəqillik uğrunda mübarizəsinə həsr olunmuşdur. M.Rəsulzadə haqqında məlumat verən müəllif yazır ki, ruhani ailəyə mənsub olan M.Rəsulzadə hələ kiçik yaşlarından etibarən Azərbaycanda baş verən siyasi hadisələrdən kənarda qalmamış, çar Rusiyasının müstəmləkəçilik siyasətinə qarşı çıxmışdır. İstər Anadoluda, istərsə də Azərbaycanda mövcud olan türkçü cərəyanlara böyük marağının olması onu Azərbaycanın müstəqillik mübarizəsində ön cəbhələrdə olmasına gətirib çıxarmışdı (Aküzüm,1977). Müəllif bununla M.Rəsulzadənin türkçü olduğunu və müstəqilik uğrunda mübarizə aparanların də məhz onlardan olduğunu vurğulayır. Müəllif 28 may 1918-ci ildə Cümhuriyyətin elan olunması və istiqlal bəyannaməsi haqqında məlumat verir.

1970-ci illərdə yazılmış növbəti bir əsər "Türk devrim tarihi ve Kurtuluş savaşı (1918-1923)" adlı kiçik həcmli kitabdır. Giriş və dörd fəsildən ibarət olan əsərdə müəyyən qədər Azərbaycan haqqında məlumatlara rast gəlmək olar. Kitabça Hərbi Hava Qüvvələrinin polkovniki Refik Yurtseven tərəfindən hazırlanmış və Müharibə Tarixi İdarəsinin səlahiyyətli şuraları tərəfindən nəzərdən keçirildikdən sonra nəşr edilmişdir. Qeyd olunanlara görə türk orduları Mudros sülh müqaviləsinin müddəalarına uyğun olaraq İranın şimal-qərbini və Qafqazı boşaltmağa başlayanda Qafqaza Şimali Qafqaz, Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları daxil idi. Türk ordusu gözlənilən təxliyyəni başa vuran kimi ermənilər Gümrü və Üçmüədzin ərazilərini, Arpaçay və Araz çaylarının sahillərini, Iğdırın ətraf rayonlarını zəbt edərək, sərhədlərimizə qədər uzanaraq türk xalqına sözlə ifadə olunmaz vəhşiliklər etməyə başladılar. Bu yerlərdə ermənilərə qarşı qəti əməliyyat həyata keçirilənə qədər yerli əhali hücumlardan qorunmaq üçün müxtəlif yerlərdə təşkilatlanmağa məcbur oldu (Yurtseven,1976). Müəllif burada, Mudros barışığının imzalanmasından sonra yaranan şəraitdən ermənilərin istifadə etməsini vurğulayır.

Müəllif eyni zamanda Mudros barışıq müqaviləsinin müddəalarına görə, türk orduları qeyd olunan əraziləri boşaltdıqdan sonra türk xalqına qarşı erməni zülmünə son qoyulması, Şərq bölgəsində təhlükəsizlik və asayişin bərqərar olması, Qərbdə aparılacaq döyüşlər üçün qüvvələrin bu cəbhədən çıxarılması zəruri idi. Bundan əlavə, Rusiya ilə inkişaf edən siyasi münasibətləri yaxşılaşdırmaq üçün birbaşa əlaqə lazım idi. Bu kimi hallar Şərq cəbhəsində ermənilərə qarşı qəti əməliyyatın aparılmasını zəruri edirdi. Buna görə də Şərq cəbhəsi əməliyyatları 1920-ci ilin sonuna qədər davam etdi. Nəhayət, böyük qələbə qazanıldı və 1920-ci il dekabrın 3-də Gümrü müqaviləsi imzalandı (Yurtseven, 1976).

XX əsrin 70-ci illərində yazılan başqa bir əsər Şevket Süreyya Aydemir tərəfindən qələmə alınan "Makedonyadan Asiyaya Enver paşa (1914-1922)" adlı kitabdır. Bu əsəri də araşdırarkən Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif aspektləri haqqında müəyyən məlumatlar əldə etmək olar. Müəllifin verdiyi məlumata əsasən Osmanlı ordusu nəhayət köhnə sərhədlərinə çatdıqdan və 1878-ci il Berlin müqaviləsi ilə ruslara verilən Qars, Artvin, Ərdəhan kimi keçmiş ərazilərini azad etdikdən sonra plan Cənubi Qafqaza hərəkət edərək Azərbaycana çatmaq idi. Ənvər paşa bu iş üçün Şimali Afrikadan qardaşı Nuri bəyi dəvət etdi. Əmisi Xəlil paşa isə o zaman artıq bu cəbhəyə gəlmişdi və Şərq Orduları Qrupunun komandanı təyin edilmişdi. Bu o demək idi ki, indi Cənubi Qafqazın, Azərbaycanın, Şimali Qafqazın və bəlkə də ondan da başqa əməliyyatlar Ənvər paşa, əmisi və qardaşının əlində cəmləşmişdi (Aydemir,1985). Ş.S.Aydemir burada başqa əməliyyatlar dedikdə Tehran və Türküstan ərazilərində də aparacağı məlumatlara işarə edir. Rəsmi sənədlərdən istifadə edərək yazan müəllif qeyd edir ki, Nuri Paşanın sonradan ona verilən İslam Ordusu Komandanlığı və onun tabeliyində olan əməliyyat yekunlaşana qədərki inkişafı ilə bağlı hazırladığı hesabat və ya xatirənin surəti mövcuddur. "Kafkas İslam Ordusu Harekatı" başlıqlı bu xatirədə başlığını daşıyır. Əsli hər halda əski hərflərlə yazılmış olan bu sənədin əldəki nüsxəsi, yeni hərflərlə yazılmışdır. Lakin daktilo ilə yazanın oxuya bilməyib boş buraxdığı yerlər, Nuri paşanın əl yazısı ilə ve yeni hərflərlə doldurulmuşdu. Bu yazılarda Qafqaz İslam Ordusunun əməliyyatı əvvəldən axıra qədər ümumiləşdirilir. Həmin sənəddə türklərin Azərbaycana gəliş səbəbi öz əksini tapmışdır: "1918-ci il martın 18-də Bakıda ermənilər və ruslar tərəfindən müsəlmanlara qarşı qırğınların törədildiyi aşkar olunduğu üçün hərəkatımızı sürətləndirməli olduq. 6-cı Ordudan olan heyətimizi qismən tamamlayıb, 8 aprel 1918-ci ildə Mosuldan ayrıldıq. Yol boyu təchizat çətinliyi üzündən iyirmi-otuz nəfərlik qruplar halında 1918-ci il mayın 9-da Revandizə, 12 may 1918-cı ildə İranın Savuşbulak bölgəsinə, 1918-ci il mayın 19-da isə Təbrizə gəldik. 1918-ci ilin mayın 25-də təbrizdən hərəkət edərək iyunun 3-də Araz çayını keçdik" (Aydemir, 1985). Müəllif bu sənəddəki məlumatlara diqqəti çəkməklə bildirir ki, türk ordusu yaranmış vəziyyətlə əlaqədar olaarq Azərbaycana gəlmək məcburiyyətində qalmışdır. Sənəddə Araz çayının qeyd olunması da əbəs yerə deyildi belə ki, Araz çayı İranla Rusiya Qafqazı arasında sərhəd idi. 1918-ci il yanvarın əvvəllərində Şimali Afrikadan yola düşən Nuri bəy (paşa) Anadolu, Suriya və İraq üzərindən İrana keçərək İslam Ordusunun ilk dəstələri ilə birgə 1918-ci il iyunun 3-də Cənubi Qafqaza ayaq basdı. Onların gəldiyi ərazi Ermənistanla Azərbaycan arasında mübahisəli ərazi olan Zəngəzur rayonu ilə həmsərhəd

idi. O zaman ermənilər hər yerdə idi. Həqiqətən də 6-cı Ordu Urmiya ərazisində ermənilərlə döyüşürdü. Urmiyada ingilis qüvvələri də olub, ermənilərə kömək edirdi. Nuri Paşanın Qafqaz Azərbaycanında ilk seçdiyi əməliyyat mərkəzi Gəncə olmuşdur. Gəncəyə çatmaq üçün Zəngəzurun şərqində və Qarabağ kimi ermənilərin dayaq yerləri olan ərazilərdən yan keçmək lazım idi. Bakı isə o zaman Qafqazın ən xaotik şəhəri idi. Bolşevik Komitəsi şəhərə nəzarəti ələ keçirmişdi. Şəhəri Şaumyan adlı ermənin başçılıq etdiyi yerli İnqilab Komitəsi tutmuşdu (Aydemir, 1985).

Qeyd olunan illərdə nəşr olunan digər bir əsər türk tarixçisi Akdes Nimet Kurat tərəfindən qələmə alınan "Türkiye ve Rusya" əsəridir. Müəllifin **"Türkiye ve Rusya: XVIII. yüzyıl sonundan Kurtuluş savaşına kadar Türk-Rus İlişkileri (1798–1919)"** adlı əsəri Türkiyə tarixşünaslığında mühüm mənbələrdən biri hesab olunur. Əsər bu mövzuda türkcə yazılmış ilk geniş və sistemli tədqiqat işlərindən biridir. 1970-ci ildə çap olunmuş Azərbaycan və Türkiyə tarixi baxımından nadir mənbələrdəndir. Müəllif əsərini yazarkən Osmanlı arxivləri, Rusiya sənədləri, Qərb mənbələrindən istifadə etmişdir. Bu da təbii ki, əsərin ciddi bir araşdırma işi olduğunu göstərir. Bu dəyərli tədqiqat işi həmçinin Türkiyə və Azərbaycanda bu sahədə olan sonrakı araşdırmalara zəmin yaratmışdır. A.N.Kurat xüsusilə türk-rus münasibətləri, Osmanlı tarixi mövzularında dərin araşdırmalar aparıb. Müəllifin bu əsərində 1798-ci ildən 1919-cu ilə qədər olan dövr, yəni XVIII əsrin sonlarından başlayaraq Osmanlı-Rusiya müharibələri, Qafqaz uğrunda mübarizə və Birinci Dünya Müharibəsi dövrü əhatə olunur. A.N.Kuratın **bu dəyərli** əsərində **Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920)** mövzusu ayrıca bölmə kimi geniş olmasa da, **Türkiyə-Rusiya münasibətləri kontekstində** Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif istiqamətləri ilə bağlı diqqəti çəkən məlumatlar öz əksini tapmışdır. Belə ki, 1917-ci il rus inqilabından sonra Qafqazda yaranmış vəziyyət, 1918-ci ilin 28 may tarixində Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması və bundan sonrakı müddətdə Osmanlı imperiyasının dəstəyi, Cümhuriyyətin beynəlxalq vəziyyəti, Osmanlı və Azərbaycan münasibətləri haqqında kifayət qədər geniş məlumatlar əldə etmək olar. A.N. Kurat göstərir ki, Azərbaycan öz istiqlaliyyətini elan etdikdən sonra Osmanlı dövləti ona ilk dəstək verən dövlət oldu. Lakin Osmanlı imperiyasının Mudros sülh müqaviləsindən sonra regiondan çəkilməsi Azərbaycanın yenidən çətin vəziyyətə düşməsinə səbəb oldu. Bu irihəcmli tədqiqat əsəri həm Türkiyə-Rusiya münasibətləri, həm də Qafqaz, Azərbaycan və ümumilikdə, Şərqi Avropadakı siyasi vəziyyəti anlamaq üçün çox dəyərli bir qaynaqdır.

Müəllif yazır ki, türklərin Azərbaycana nə zaman gəlməsi haqqında dəqiq məlumat yoxdur. Lakin onun qənaətinə görə, ola bilsin ki, Qafqaz cəbhəsində ruslar zəifləməyə başlayanda Ənvər paşa bu haqda düşünməyə başlamışdı. Batum konfransında isə bu haqda dəqiq qərar qəbul edilmişdi. Əsərdə A.N.Kurat eyni zamanda Batum şəhərində 4 iyun 1918-ci ildə Osmanlı dövləti ilə Azərbaycan arasında imzalanan müqavilənin dördüncü maddəsinə əsasən Osmanlının Azərbaycana hərbi yardım etməsi haqqında öhdəlik götürdüyünü yazır. Buna istinadən Azərbaycan hökumətinin Bakının düşmən işğalından qurtarılması üçün hərbi yardım tələb etdiyini vurğulayır (Kurat,1970). Tarixçi bununla bildirir ki, türklərin Azərbaycana gəlişi müqaviləyə əsaslanır və bu, sülh şəraitində deyil Bakı işğal altında olduğu çətin bir şəraitdə baş verdi.

A.N.Kurat həmçinin Stepan Şaumyanın başçılığı ilə azərbaycanlılara qarşı edilən zülm haqqında da məlumat verir. Belə ki, Moskva mərkəzi hökuməti, xüsusən də Cozef Stalin Bakının Rusyanının tərkib hissəsi olduğu və nəyin bahasına olursa olsun Rusiyanın tərkibində qalması haqqında Şaumyana təlimatlar verirdi. O da buna görə şəhərdə ciddi tədbirlər görmüşdü, ən əsası da müsəlmanların ayağa qalxmasına imkan vermirdi (Kurat,1970).

Müəllifin **"Türkiye ve Rusya: XVIII. yüzyıl sonundan Kurtuluş savaşına kadar Türk-Rus İlişkileri (1798–1919)"** adlı irihəcmli əsərində Bakının azad olunması uğrunda mübarizə ətraflı şəkildə təsvir olunmuşdu. A.N.Kurat bu dəyərli əsərində Azərbaycan Cümhuriyyətinin elan olunması haqqında adlı ayrıca başlıq altında məlumat vermişdir. O, Bakının türklər tərəfindən azad olunmasının türk mətbuatında sevinclə qarşılanaraq yer alması haqqında qeyd edərək yazır: "Yeni gün qəzetinin 21 sentyabr 1918-ci il tarixli nömrəsində Azərbaycan mülkiyyətinə tam sahib oldu". Digər qəzetlərdə də oxşar məqalələr çap olunmuşdu (Kurat,1970). Bununla, tarixçi türklərin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayır.

Tarixçi A.N.Kuratın xüsusi qeyd etdiyi məqamlardan biri də Azərbaycan 28 may 1918-ci ildə İstiqlaliyyətini bəyan etdikdən dərhal sonra Osmanlı dövləti onun müstəqilliyini rəsmi tanımış və yuxarıda qeyd olunduğu kimi 4 iyun tarixində isə iki dövlət arasında dostluq haqqında Batum müqaviləsi imzalanmışdı. Qısa müddət sonra isə İstanbulda Azərbaycan səfirliyi təsis olundu. Beləliklə, bu dövrdə müstəqilliyini elan edən ilk türk dövləti Azərbaycan oldu. Bu yolda isə əsas rol oyanayan dövlət Osmanlı oldu. A.N.Kurat bununla Osmanlı dövlətinin hər zaman yanımnda olduğunu göstərir. A.N.Kurat əsərində həmçinin böyük dövlətlərin diqqət mərkəzində olan Bakı nefti məsələsindən də ətraflı şəkildə bəhs edir. Müəllif yazır ki, almanların Qafqazda öz mənfəətləri vardı. Bunlardan ən vacibi Bakı neftinin çox hissəsinə sahib olmaq idi. Buna görə də alman hökuməti tərəfindən Bakıya türklərin daxil olması,

əlbəttə ki, arzu edilmirdi. Çünki belə olan halda Bakı neftinin türklər tərəfindən mənimsənilməsindən qorxurdular.Bunun üçün Almaniya müəyyən tədbirlər gördü. Bu məsələdə almanlar gürcülər və ruslarla müəyyən razılığa gəldi. Əsas razılıq ruslarla oldu. Belə ki, 27 avqust 1918-ci ildə Berlində Brest-Litovsk sülh müqaviləsinə əlavə bir müqavilə imzalandı. Müqavilənin on dördüncü maddəsinə əsasən türk qüvvələri Kür çayını keçməmələri, yəni Azərbaycan ərazisinə dail olmalarının qarşısının alınması nəzərdə tutulmuşdu. Türklərin məhz bu tarixə qədər Bakıya daxil ola bilməmələrinin əsas səbəbi məhz almanların Batum-Tiflis-Bakı dəmiryolundan türklərə hərbi ləvazimatlar və əsgərlərin keçidinə imkan verməmələri olmuşdu. İyul ayının sonları və 5 avqust tarixlərində türklərin Bakı əməliyyatında uğur qazanmamalarının səbəbi məhz hərbi avadanlıqların çatışmazlığından oldu. Təbrizdən lazımi qədər avadanlıqlar gətirildikdən sonra türk ordusu 14-15 sentyabr tarixində Bakını azad etməyə müvəffəq oldular (Kurat,1970). Bu əsərində o, Bakının azad olunması zamanı həyəta keçirilən hərbi əməliyyatlar haqqında geniş məlumat verir.

A.N.Kurat da ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qətliamlardan yazırdı. Türklərin, almanların Bakı ilə bağlı siyasətləri ilə yanaşı ingilislərin planlarından yazan müəllif qeyd edir ki: "Bakının türklərin və ya almanların əlinə keçməsi ingilislər üçün pis nəticələnə bilər. Belə ki, almanlar və türklər Bakı neftinə sahib olduqdan sonra, neft borularla Batuma göndərilərək alman iqtisadiyyatının böyük məfəət əldə etməsinə gətirib çıxaracaqdı. Bununla yanaşı Ənvər paşanın pantürkist planlarının gerçəkləşməsinə yol açılacaq , buradan da Türkistana irəliləməyə və Hinditsanın təhlükə altına düşməsi demək idi. Buna görə də, Bakıya türklərin gəlişinə mütləq şəkildə əngəl olunmalı idi. Bakı azad edildikdən sonra təbii olaraq osmanlı- Rusiya münasibətlərinin pisləşməsi haqqında yazan müəllif, qeyd edir ki, Sovet Rusiyasının 20 sentyabr 1918-ci il tarixli notasında həm Evliyeyi-selasenin, Batum, Qars və Ərdahanın Osmanlı dövlətinə ilhaqını tanımadığını, həm də Brest-Litovsk müqaviləsinin qüvvədən düşdüyünü bildirmişdi (Kurat, 1970).

A.N.Kuratın əsərində həmçinin Mudros müqaviləsinin imzalanmasına aparan yol və imzalanması da geniş şərh olunur. 1918-ci ilin avqust-sentyabr aylarında Qafqazda apardığı uğurlu əməliyyatlar Osmanlının son çırpınışları idi. Müttəfiqi Almaniy da müqavimətin son mərhələsində idi. Bolqarıstan 30 sentyabrda müqavilə imzalayaraq müharibədən çıxmışdı. Növbə Osmanlı dövlətinə gəlmişdi. Bolqarların müharibədən çıxması ilə onsuz da yaxşı vəziyyətdə olmayan Osmanlının vəziyyəti daha da pisləşdi (Kurat,1970). Nəhayət, 30 oktybar 1918-ci ildə Mudros barışığını imzalayaraq müharibədən çıxdı. Digər mənbələrdə də qeyd olunduğu kimi Mudros barışığına əsasən Osmanlı dövləti Azərbaycanı və bütün Qafqazı tərk etməli oldu. Bu da öz növbəsində Azərbaycanda vəziyyətin yenidən pisləşməsi və 1920-ci il 28 aprel tarixində isə istilası ilə nəticələndi.

Nəticə

Məqalədə qeyd olunan əsərlərə nəzər yetirsək müəyyən fərqlərin oluğunu aydın şəkildə görə bilərik. Lakin əsərlərin demək olar ki, hər birində Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması məsələsinə toxunulmuş, Bakınının Qafqaz İslam Ordusu tərəfindən azad olunması, 1918-ci il mart ayında ermənilərin azərbaycanlılara qarşı törətdiyi qətliamlar, Birinci Dünya Müharibəsində məğlub olan və Mudros barışığı imzalamaq məcburiyyətində qalan Osmanlı türk ordusunun Azərbaycanı tərk etməsi haqqında məlumatlara yer verilmişdir. Bu Əsərlərdə qeyd olunan əsas məqam isə türk ordusunun Azərbaycana gəlişinin səbəbinin göstərilməsidir. Belə ki, müəlliflər qeyd edir ki, türk odusu Azərbaycana 1918-ci il 4 iyun tarixində iki dövlət arasında imzalanmış dostluq haqqında Batum müqaviləsinin dördüncü maddəsinə əsasən hərbi yardım göstərmək məqsədi ilə gəlmişdi. H.Baykara "Azerbaycan istiklal mücadelesi tarihi" adlı tədqiqat əsərində digərlər müəlliflərin yazdığı əsərlərdən fərqli olaraq qeyd olunan məsələlərlə yanaşı, o dövrdə Azərbaycandakı siyasi, iqtisadi, sosial vəziyyət haqqında, eləcə də Azərbaycanın coğrafiyası haqqında geniş məlumat vermişdir.

Tarixşünaslığımız baxımından dəyərli olan bu əsərlərin hər birinin daha dərindən araşdırılması gələcəkdə vacib olan məsələlərdəndir.

ƏDƏBIYYAT SIYAHISI:

1. Ağayev, İ. (1993). 1917-1920-ci illər Azərbaycan tarixi Türkiyə tarixşünaslığında: tarix üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı.
2. Aküzüm, F. (1977). M.Resulzadeye göre çeşitli cepheleri ile İstiklal mücadelesi, Ankara.
3. Aydemir, Ş. S.(1985). Makedonyadan Asiyaya Enver paşa (1914-1922), İstanbul: Evrim matbaacılık ltd.
4. Baykara, H(1975). Azerbaycan istiklal mücadelesi tarihi, İstanbul.
5. Kurat, A.N. (1970). Türkiye ve Rusya, Ankara.
6. Türk devrim tarihi. (1971). Ankara: Genelkurmay Basım Evi.
7. Yurtseven, R. (1976). Türk devrimi ve Kurtuluş savaşı (1918-1923). Ankara: Genelkurmay Basım Evi.

DOİ: 10.32010/GCEC8005

XX ƏSRİN SONUNDA YAPONİYANIN AZƏRBAYCANDA GEOSİYASİ MARAQLARI

Aytac Şixəli ŞADİYEVA
Bakı Dövlət Universiteti
Orsid: https://orcid.org/0009-0007-5637-5740
E-mail: shinetomydarkness@gmail.com

Xülasə: Bu mövzu müasir dövr baxımından çox aktualdır. Ölkəmizin zəngin təbii sərvətləri hər zaman Yaponiya tərəfinin diqqət mərkəzində olmuşdur. Şərqi Asiya regionunun ən inkişaf etmiş ölkələrindən biri olan Yaponiyanın, xüsusilə 90-cı illərdən başlayaraq, Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanla maraqlanması regionun gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycanla Yaponiya arasındakı münasibətlər çoxşaxəli olub, tarixən dərin köklərə malikdir. Orta əsrlər dövründə belə, bu iki ölkə arasında diplomatik və ticarət əlaqələrinin mövcudluğu barədə mənbələr vardır. Hətta Yaponiya imperatorları Səfəvi şahlarına qiymətli hədiyyələr göndərmişdir. XX əsrdə, Azərbaycan 71 il SSRİ tərkibində olmasına baxmayaraq, yapon mütəxəssislərinin yardımı ilə ölkədə infrastruktur layihələri həyata keçirilmişdir. Bakı şəhərində Yaponiya ilə əməkdaşlıq nəticəsində "AZON" zavodu inşa edilmişdir. 1991-ci ildə müstəqilliyini əldə edən Azərbaycanı ilk tanıyan dövlətlərdən biri Yaponiya olmuşdur. Azərbaycanla diplomatik münasibətlərin 30-cu ildönümü münasibətilə Yaponiya səfirliyinin təşəbbüsü ilə 2022-ci il "Azərbaycan-Yaponiya Dostluq İli" elan edilmişdir. Ölkəmizin zəngin neft və qaz ehtiyatları Yaponiya ilə iqtisadi münasibətlərin əsas faktorudur. Buna görə Yaponiya Azərbaycandan əsasən neft məhsulları idxal edir. Siyasi münasibətlər isə hər iki ölkənin oxşar tarixi taleyindən irəli gəlir. Bir sıra beynəlxalq məsələlərdə mövqeləri üst-üstə düşən Azərbaycan və Yaponiya müharibə və zorakılığı pisləyir, bir-birinin ərazi bütövlüyünü dəstəkləyir, münaqişələrin sülh yolu ilə həllinə üstünlük verir. Qarşılıqlı çoxtərəfli əlaqələrin inkişafı Avrasiya iqtisadi tərəqqisinə təkan verir. Eyni zamanda Yaponiya da Azərbaycanla sıx əlaqələr qurmaqda fəal maraqlıdır. Bu əlaqələrin əsasını Yaponiyanın geosiyasi maraqları təşkil edir. Bu maraqlar fonunda siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlıq davamlı genişlənməkdədir. Burada 1991–2000-ci illər arasında Yaponiyanın Azərbaycandakı geosiyasi maraqları da ətraflı araşdırılmışdır.
Açar sözlər: Azərbaycan, Yaponiya, Ümumilli lider, Heydər Əliyev, geostrateji

ГЕОПОЛИТИЧЕСКИЕ ИНТЕРЕСЫ ЯПОНИИ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XX ВЕКА

Айтадж Шихалы ШАДИЕВА
Бакинский государственный университет
Orcid: https://orcid.org/0009-0007-5637-5740
E-mail: shinetomydarkness@gmail.com

Резюме: Данная тема является чрезвычайно актуальной в современном контексте. Богатые природные ресурсы нашей страны всегда привлекали внимание Японии. Будучи одной из наиболее развитых стран региона Восточной Азии, Япония, особенно начиная с 1990-х годов, проявляет особый интерес к Азербайджану — лидеру Южного Кавказа, что имеет большое значение для будущего региона. Между Азербайджаном и Японией установились многоаспектные отношения, имеющие глубокие исторические корни. Уже в средневековье существовали дипломатические и торговые связи между этими двумя странами. Императоры Японии даже отправляли шахам Сефеви ценные подарки. Несмотря на то, что в XX веке Азербайджан в течение 71 года входил в состав СССР, при содействии японских специалистов в стране реализовывались инфраструктурные проекты. В Баку при сотрудничестве с Японией был построен завод «АЗОН». В 1991 году Япония стала одним из первых государств, признавших независимость Азербайджана. По случаю 30-летия дипломатических отношений между странами посольство Японии инициировало объявление 2022 года «Годом дружбы Азербайджана и Японии». Богатые нефтяные и газовые ресурсы Азербайджана служат ключевым фактором экономического сотрудничества с Японией, которая в основном импортирует азербайджанские нефтепродукты. Политические отношения основываются на схожей исторической судьбе обеих стран. В ряде международных вопросов позиции Азербайджана и Японии совпадают: обе страны осуждают войны и насилие, поддерживают территориальную целостность друг друга и отдают предпочтение мирному урегулированию конфликтов. Развитие взаимных многосторонних связей способствует экономическому прогрессу Евразии. В то же время Япония проявляет активный интерес к укреплению отношений с Азербайджаном, что объясняется её геополитическими интересами. На этом фоне сотрудничество в политической, экономической и культурной сферах продолжает расширяться. В работе подробно исследуются геополитические интересы Японии в Азербайджане в период с 1991 по 2000 годы.
Ключевые слова: Азербайджан, Япония, Национальный лидер, Гейдар Алиев, геостратегия.

JAPAN'S GEOPOLITICAL INTERESTS IN AZERBAIJAN AT THE END OF THE 20TH CENTURY

Aytaj Shikhali SHADIYEVA
Baku State University
https://orcid.org/0009-0007-5637-5740
E-mail: shinetomydarkness@gmail.com

Abstract: This topic remains highly relevant in the contemporary era. The abundant natural resources of our country have consistently attracted Japan's attention. As one of the most developed countries in the East Asian region, Japan's growing interest in Azerbaijan—a leading country in the South Caucasus—since the 1990s holds significant importance for the region's future. The relations between Azerbaijan and Japan are multifaceted and have deep historical roots. Historical sources indicate that diplomatic and trade connections between these two countries existed even during the medieval period. Japanese emperors once sent valuable gifts to the Safavid shahs. Despite Azerbaijan's 71-year incorporation into the USSR during the 20th century, infrastructure projects were realized with the assistance of Japanese specialists. The "AZON" factory in Baku was constructed as a result of cooperation with Japan. Japan was among the first countries to recognize Azerbaijan's independence following its declaration in 1991. In celebration of the 30th anniversary of diplomatic relations, the Japanese Embassy initiated the declaration of 2022 as the "Azerbaijan-Japan Friendship Year." Azerbaijan's rich oil and gas reserves are the primary factors underpinning its economic relations with Japan, which mainly imports oil products from Azerbaijan. Political relations between the two countries are rooted in their similar historical experiences. Azerbaijan and Japan share aligned positions on numerous international issues: both condemn war and violence, support each other's territorial integrity, and prioritize peaceful conflict resolution. The development of mutual multilateral relations contributes to the economic progress of Eurasia. Concurrently, Japan actively seeks to strengthen its ties with Azerbaijan, driven by its geopolitical interests. Against this background, cooperation in political, economic, and cultural spheres continues to expand steadily. The study also examines in detail Japan's geopolitical interests in Azerbaijan between 1991 and 2000.
Keywords: Azerbaijan, Japan, National Leader, Heydar Aliyev, Geostrategy

Giriş

Şərqi Asiya regionunun aparıcı ölkələrindən olan Yaponiya hər zaman Cənubi Qafqazda, xüsusən də Azərbaycanda gedən geosiyasi, sosial, iqtisadi proseslərlə yaxından maraqlanmışdır. Azərbaycanla Yaponiya arasındakı əlaqələrin kökü Orta əsrlərə gedib çıxır. Hətta Yaponiya imperatorları tərəfindən Səfəvi şahlarına bahalı hədiyyələr göndərilmişdir (Məmmədli, 2025). Tarixin sonrakı dövrlərində fərqli inkişaf yollarına daxil olan bu iki ölkə arasında uzun müddət yaxın əlaqələr olmamışdır. Nəhayət, Azərbaycan SSRİ-nin tərkibində olarkən, 1956-cı ilin oktyabrında SSRİ-nin Yaponiya ilə diplomatik münasibətlər qurması ilə Azərbaycanla Yaponiya arasında dolayı yolla olsa belə, diplomatik münasibətlər yenidən aktuallaşmışdır (*Geosiyasət*, 2025). Bununla paralel olaraq, Yaponiyanın Azərbaycanda olan geosiyasi maraqları yenidən öz aktuallığını qazanmışdır.

Azərbaycanda Yaponiyanın geosiyasi maraqlarını təhlil etməzdən qabaq, gəlin bu terminə nəzər salaq. Ümumiyyətlə, geosiyasət termini hər hansı bir dövlətin başqa bir dövlətlə olan münasibətlərini coğrafi anlayışları əsas götürərək qurması nəzərdə tutulur. Geosiyasət elminin obyekti və subyekti haqqında mübahisələr isə, 100 ilə yaxındır ki, davam edir (Kərimov, 2017).

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1969–1982-ci illərdə Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrlərdə Azərbaycanla Yaponiya arasında siyasi, iqtisadi əməkdaşlıq əlaqələri daha da genişlənmişdir. Yaponiyanın Azərbaycanın geosiyasi maraqlarının dərinləşməsi 1991-ci ildə ölkəmizin müstəqillik əldə etməsi ilə sıx bağlıdır. O dövrdən etibarən iki ölkə arasında mədəniyyət, diplomatiya, elmi-texniki əməkdaşlıq sahələrində formalaşan təcrübə, qarşılıqlı etimad və hörmət bu münasibətlərin inkişafında mühüm rol oynayıb.

Nəzəriyyə

Yaponiya, müstəqilliyini elan edən Azərbaycanı tanıyan ilk dövlətlərdən biri olmuşdur. 1991-ci il dekabrın 28-də Yaponiya hökumətinin Azərbaycan Respublikasının müstəqilliyini rəsmən tanıması ölkəmiz üçün vacib siyasi nailiyyət idi. 1992-ci ilin sentyabrında isə iki ölkə arasında diplomatik əlaqələr quruldu (*Geosiyasət*, 2025). Bu, Yaponiya hakimiyyət dairələrinin Azərbaycanın siyasi proseslərinə hər zaman diqqətlə yanaşdığını göstərir. Lakin, Sovet İttifaqından ayrılan yeni müstəqil dövlətlərlə, o cümlədən Azərbaycanla münasibətlərinin ilkin mərhələsində Yaponiya ehtiyatlı siyasət yürüdürdü (Avdaliani, 2020). Bunun səbəbi Yaponiya kapitalının fəal nüfuz etməsi və ölkənin əsas sənaye sahələrinin Yaponiya iqtisadiyyatına bağlılığı, eləcə də Rusiya ilə ərazi mübahisələrinin Tokio hökumətini ehtiyatlı davranmağa məcbur etməsi idi.

Buna baxmayaraq, Yaponiya Cənubi Qafqaz regionuna marağını sürətlə artırdı və bu maraq

Azərbaycanla əlaqələrin dərinləşməsinə səbəb oldu. Zaman keçdikcə proses nizamlanmağa başladı, Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirdikcə, Yaponiya ilə əlaqələr daha sərbəst və qarşılıqlı maraqlar əsasında inkişaf etdi. Bu əlaqələrin dərinləşməsində rəsmi Tokionun regionda nəqliyyat dəhlizlərinin təkmilləşdirilməsi, xüsusilə Azərbaycan və Gürcüstan ərazisindən keçən, Xəzər və Qara dənizləri birləşdirən nəqliyyat infrastrukturuna verdiyi önəm mühüm rol oynadı (Avdaliani, 2020).

Ümumilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycan-Yaponiya münasibətləri daha da sistemli və səmərəli xarakter aldı. Yaponiya hökumətinin Cənubi Qafqaz regionunda aparıcı ölkə hesab etdiyi Azərbaycana qarşı artan marağı, 1997-ci ildə keçmiş baş nazir Ryutaro Haşimotonun elan etdiyi "Avrasiya diplomatiyası" konsepsiyasında öz əksini tapdı. Bu konsepsiyaya əsasən, SSRİ ilə ABŞ arasında soyuq müharibənin sona çatmasından sonra beynəlxalq münasibətlərdə köklü dəyişikliklər baş vermiş və Yaponiya Asiya-Sakit Okean regionuna istiqamətlənmiş diplomatiyasını fəallaşdırmalı idi. Burada məqsəd, tarixi "Böyük İpək Yolu" boyunca uzanan Çin, Rusiya, Mərkəzi Asiya və Qafqaz ərazilərini əhatə edən "Avrasiya siyasəti"nin həyata keçirilməsidir. Bu sənəddə Azərbaycana xüsusi önəm verilmişdir (*Geosiyasət*, 2025).

Sənəddə ölkəmizə xüsusi münasibətin əks olunması, bir tərəfdən Azərbaycanın zəngin təbii sərvətləri ilə əsrlər boyu diqqət çəkməsi və Yaponiyanın geosiyasətində mühüm yer tutması ilə bağlıdırsa, digər tərəfdən isə Ümummilli lider Heydər Əliyevin dünya dövlətləri, o cümlədən Yaponiya ilə dərin diplomatik və siyasi əlaqələr quraraq ölkəmizin beynəlxalq nüfuzunu yüksəltməsi ilə bağlıdır.

"Avrasiya diplomatiyası" çərçivəsində Yaponiya 1990-cı illərdən başlayaraq, Azərbaycan–Ermənistan Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş azərbaycanlı qaçqınlara ərzaq və digər ləvazimat yardımı etmişdir (Reader's Forum, 1999).

Yaponiyanın "Avrasiya diplomatiyası" adlı yeni xarici siyasət doktrinasında Azərbaycanla əlaqələrin üç əsas istiqaməti müəyyənləşdirilmişdir:

1. gələcəkdə möhkəm və qarşılıqlı etimad üzərində qurulan siyasi dialoqun inkişaf etdirilməsi;
2. təbii ehtiyatların dərin öyrənilməsi və bu sahədə iqtisadi əməkdaşlığın gücləndirilməsi;
3. nüvə silahlarının yayılmasının qarşısının alınması, demokratikləşmə və stabilləşmə vasitəsilə regionda sülhün təmin olunması (*Geosiyasət*, 2025).

Göründüyü kimi, bu doktrinanın ikinci bəndi – təbii ehtiyatlarla bağlı hissə birbaşa geosiyasətlə əlaqəlidir. Azərbaycanın zəngin neft və qaz ehtiyatları Yaponiyanı bu sahəyə fəal şəkildə cəlb edir. Yaponiyanın 1994-cü ildə Azərbaycan hökuməti və dünyanın aparıcı neft şirkətləri ilə imzaladığı "Əsrin müqaviləsi" və onun davamı olaraq 2017-ci ildə imzalanmış "Yeni əsrin müqaviləsi"ndə iştirak etməsi, Azərbaycanın əsas neft-qaz yataqlarında payçı kimi yer alması məhz geosiyasi maraqlardan irəli gəlir.

Yaponiya bu iki ölkə arasındakı münasibətləri daha da dərinləşdirmək üçün xarici siyasətində ənənəvi diplomatik alətlərdən biri olan "çek kitabçası diplomatiyası"ndan – yəni rəsmi inkişaf yardımı şəklində iqtisadi yardımdan istifadə etmişdir (Dadashova, 2025).

Yaponiyanın "Avrasiya diplomatiyası" strategiyasını hazırlayarkən mütəxəssislər əsasən aşağıdakı məqamları nəzərə alıblar:

1. Xəzər dənizində, xüsusilə Azərbaycan sektorundakı zəngin neft və qaz ehtiyatları Yaponiyanın enerji resursları bazarında strateji əhəmiyyətə malikdir;
2. Azərbaycanın kommunikasiya xətləri vasitəsilə Avrasiya regionunda, həm Şimal-Cənub, həm də Şərq-Qərb istiqamətlərində körpü funksiyasını icra etməsi potensialı vardır;
3. Mərkəzi Asiya suveren dövlətlərinin və Cənubi Qafqaz ölkələrinin dövlət quruculuğu prosesində Yaponiyanın fəal rolu regionda, o cümlədən Rusiya, Çin, Türkiyə və İran kimi qonşu ölkələrdə Yaponiyanın siyasi və iqtisadi təsirinin artırılmasına şərait yaradır (*Geosiyasət*, 2025).

Yaponiyanın Azərbaycandakı geosiyasi maraqları, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irəli sürdüyü "Böyük İpək Yolu" ideyası ilə sıx bağlıdır. Bu səbəbdən Yaponiyanın bu təşəbbüsə dəstək verməsi və maraqlarının Azərbaycanın maraqları ilə üst-üstə düşməsi təbiidir. Yeni İpək Yolu Yaponiyadan başlayaraq Çin və Mərkəzi Asiyanı əhatə edir, Xəzər dənizindən və Azərbaycanın ərazisindən keçir. Heydər Əliyevin də vurğuladığı kimi, "Yaponiya bu yolun ən şərq nöqtəsində, Azərbaycan isə ortasında yerləşir". 1998-ci ilin yanvarında Yaponiyanın Nazirlər Kabineti tərəfindən qəbul edilən "Böyük İpək Yolunun Diplomatiyası Fəaliyyət Proqramı" bu strategiyanın əsas istiqamətlərini əhatə edir (*Geosiyasət*, 2025).

Bu da göstərir ki, Yaponiya Azərbaycanı İpək Yolunun önəmli iştirakçısı kimi qəbul edir və Azərbaycanın möhkəmlənməsi Avropa və Asiyanın bir sıra ölkələrinin diqqət mərkəzindədir. Bu kontekstdə Azərbaycanla Yaponiyanın iqtisadi və siyasi əlaqələrinin inkişafı "Avrasiya diplomatiyası" strategiyasında xüsusi yer tutur. Yaponiya Cənubi Qafqaz regionunda əsas strateji tərəfdaş kimi məhz Azərbaycana önəm verir. Məhz bu səbəbdən 2000-ci ildə Yaponiya hökuməti regionda ilk səfirliyini məhz Azərbaycanda açmışdır (*Geosiyasət*, 2025).

"Avrasiya diplomatiyası" sənədinin qəbulundan sonra Yaponiya ilə Azərbaycan arasında enerji sektorunda əməkdaşlıq daha da güclənmişdir. 1998-ci il martın 10-da iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi barədə xüsusi saziş imzalanmışdır. Bu saziş çərçivəsində Yaponiyanın kapitalı ilə Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və digər şəhərlərdə bir çox müəssisələr müasirləşdirilmişdir. Yaponiya Azərbaycana böyük həcmdə güzəştli kreditlər və qrantlar ayırmışdır. Məsələn, "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının tikintisi və layihələndirilməsinə 165 milyon dollar, "EP-300" etil-polietilen zavodunun qurulmasına isə 75 milyon dollar kredit verilmişdir. Bundan əlavə, tibb avadanlıqlarının alınması üçün qrant layihələri həyata keçirilmişdir. Ərzaq məhsullarının istehsalının inkişafı məqsədilə Yaponiya Azərbaycana 3 milyon 250 min dollar, səhiyyə sahəsində isə 1,7 milyon dollar məbləğində humanitar yardım göstərmişdir (Məmmədli, 2025).

1998-ci ilin 17 yanvarında Yaponiya Beynəlxalq İqtisadi Əməkdaşlıq Fondunun nümayəndə heyəti ilə görüşdə Heydər Əliyev Azərbaycanın Yaponiya ilə əməkdaşlığa xüsusi önəm verdiyini qeyd etmiş, iki ölkənin bütün fəaliyyət sahələrində yaxşı tərəfdaş olma imkanlarını vurğulamışdır. Yaponiya nümayəndə heyətinin rəhbəri Akiro Nişiqaki əməkdaşlığın inkişafı üçün maksimum səylər göstərəcək vədini vermişdir. Bu görüş iki tərəfli əməkdaşlığa güclü stimul yaratmışdır.

Heydər Əliyevin 1998-ci il fevralın 24-dən 28-nə qədər Yaponiyaya ilk rəsmi səfəri yalnız iki ölkə arasında münasibətləri deyil, həm də Azərbaycanın Şərqi Asiya dövlətləri ilə siyasi və iqtisadi əlaqələrində yeni mərhələ açmışdır. Bu səfər zamanı Azərbaycan Dövlət Neft Şirkəti ilə Yaponiya tanınmış şirkətlərinin, o cümlədən "İtoçi", "Niçimen", "Mitsui", "Mitsubishi", "Tomen", "Sumitomo", "Marubeni" kimi firmaların prezidentləri arasında işgüzar görüşlər keçirilmişdir. Nəticədə Azərbaycan Yaponiya üçün etibarlı biznes tərəfdaşına çevrilmişdir (*Geosiyasət*, 2025).

Qeyd etmək lazımdır ki, Yaponiya şirkətləri investisiyalarını dövlət tərəfindən zəmanət verilən, risk səviyyəsi aşağı olan ölkələrə yönəltməyə üstünlük verirlər. Yaponiyanın qiymətləndirməsinə əsasən, Azərbaycan artıq belə ölkələr siyahısına daxil olmuşdur. Yapon iş adamları da bildirirlər ki, dövlətin verdiyi zəmanətlər onların Azərbaycanda fəaliyyət göstərmək üçün inamını artırmışdır.

Nəticə

Yuxarıda qeyd olunanlara əsasən ümumiləşdirmək olar ki, Azərbaycan hər zaman Yaponiyanın yaxından maraqlandığı ölkələr sırasında olmuşdur. İki ölkənin tanışlığı hələ Orta əsrlərə gedib çıxsa da, Yaponiyanın uzun müddət özünü qapalı ölkə elan edərək beynəlxalq aləmdən təcrid etməsi bu münasibətlərin inkişafına müəyyən qədər mane olmuşdur. Lakin bu, heç vaxt Yaponiyanın Azərbaycandakı geosiyasi maraqlarını azalda bilməmişdir.

SSRİ dövründə Yaponiya ilə iqtisadi, siyasi və mədəni əlaqələr inkişaf etməyə başlamışdır. Nəhayət, 1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra Yaponiyanın geosiyasi maraqları fonunda iki ölkə arasındakı münasibətlər daha da genişlənmişdir.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Yaponiya Azərbaycanla daha sərbəst və fəal şəkildə münasibətlər qurmağa başlamışdır. Buna 1997-ci ildə Yaponiyanın Baş naziri Ryutaro Haşimoto tərəfindən qəbul edilən və Yaponiyanın yeni xarici siyasət doktrinası olan "Avrasiya diplomatiyası" sənədi də mühüm təsir göstərmişdir.

Nəticədə, 1991–2000-ci illərdə Yaponiya Azərbaycanla geniş iqtisadi və sosial əlaqələr qurmaqla öz geosiyasi maraqlarını təmin etmişdir.

ƏDƏBİYYAT SIYAHISI:

1. Avdaliani, E. (2020, January 29). *Political and economic interests of Japan in South Caucasus: Perspectives of cooperation*. Caucasus Watch. https://caucasuswatch.de/en/insights/political-and-economic-interests-of-japan-in-south-caucasus-perspectives-of-cooperation.html

2. Dadashova, F. (2025, January 13). *Japan's renewed interest in the Middle Corridor: Has it faded?* Top-Center Analytics. https://top-center.org/en/analytics/3710/japans-renewed-interest-in-the-middle-corridor-has-it-faded

3. Geosiyasət. (2025, February 11). *Vikipediya*. https://az.wikipedia.org/wiki/Geosiyas%C9%99t

4. Kərimov, R. (2017, June 20). *Azərbaycan–Yaponiya münasibətləri: Tarixi imkanlar və perspektivlər*. 1news.az. https://1news.az/az/news/20170620053855096-Azerbaycan-Yaponiya-munasibetleri-Tarixi-imkanlar-ve-perspektivler

5. Məmmədli, A. (2025, June 9). *Yaponiya Azərbaycanın etibarlı tərəfdaşıdır*. Azerbaijan-news.az. https://www.azerbaijan-news.az/az/posts/detail/yaponiya-azerbaycanin-etibarli-terefdasidir-1677099707

6. Reader's Forum. (1999, March 7). *View from Japan*. Azer.com. http://azer.com/aiweb/categories/magazine/73_folder/73_articles/73_japan.html

DOİ: 10.32010/JJMO2004

ABŞ-NİN QARABAĞ PROBLEMİNƏ MÜNASİBƏTİ AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA

Aydın Balamirzə MƏMMƏDLİ
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0007-4506-4840
E-mail: balamirzamammadli@gmail.com

Xülasə: Bu məruzənin məqsədi dünyanın yeganə fövqəldövləti sayılan ABŞ-nin uzun illər xalqımızın ağrılı yeri olmuş Qarabağ probleminə münasibətini Vətən tarixşünaslığında kontekstində təhlil etməkdir. Mövzunun aktuallığı ondan ibarətdir ki, müstəqilliyin ilk onilliklərində Qarabağ problemi Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən biri olmuş, ABŞ isə regionda mühüm vasitəçi və təsir gücünə malik dövlət kimi diqqət mərkəzində dayanmışdır. ABŞ-nin Qarabağ məsələsində tutduğu mövqeyin Azərbaycan tarixşünaslığında necə işıqlandırılması indiyədək öyrənilmədiyindən hazırki məruzə bu sahədə ilk addımdır. Tədqiqatda müasir Azərbaycan tarixşünaslığındakı çoxsaylı monoqrafiya və məqalələr əsas mənbə kimi istifadə olunmuşdur. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan tarixşünaslığında ABŞ-nin mövqeyi həm tənqidi rakursda qiymətləndirilmiş ("907-ci düzəliş", vasitəçilik siyasətində praktik addımların azlığı və s.), həm də ABŞ-nin vasitəçilik təşəbbüslərinin regionda sülhün bərpasına potensial töhfələri qeyd edilərək müsbət qiymətləndirilmişdir.
Açar sözlər: ABŞ, Qarabağ problemi, vasitəçilik missiyası, Ki-Vest danışıqları, İkinci Qarabağ müharibəsi, tarixşünaslıq.

THE ATTITUDE OF THE UNITED STATES TO THE KARABAKH PROBLEM IN AZERBAIJANI HISTORIOGRAPHY

Mammadli Aydin BALAMIRZA
Baku State University
Orcid: https://orcid.org/0009-0007-4506-4840
E-mail: balamirzamammadli@gmail.com

Abstract: The purpose of this article is to analyze the attitude of the United States to the Karabakh problem, which has been a sore spot for our people for many years, in the context of the Azerbaijani historiography. The relevance of the topic lies in the fact that in the first decades of independence, the Karabakh problem was one of the priority directions of the foreign policy of Azerbaijan, and the United States was in the center of attention as an important mediator and influential state in the region. Since the way how the United States' position on the Karabakh issue is illuminated in Azerbaijani historiography, has not been studied so far, this article is a first step in this field. Numerous monographs and articles in modern Azerbaijani historiography were used as the main sources in the study. The research revealed that the position of the United States in Azerbaijani historiography was assessed both critically ("Section 907", the lack of practical steps in the mediation policy, etc.), and positively, noting the potential contribution of the United States' mediation initiatives to the restoration of peace in the region.
Keywords: United States, Karabakh problem, mediation mission, Key West negotiations, Second Karabakh War, historiography.

ОТНОШЕНИЕ США К КАРАБАХСКОЙ ПРОБЛЕМЕ В АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИОГРАФИИ

Мамедли Айдын БАЛАМИРЗА
Бакинский Государственный Университет
Orcid: https://orcid.org/0009-0007-4506-4840
Электронная почта: balamirzamammadli@gmail.com

Резюме: Целью данной статьи является анализ отношения США к Карабахской проблеме, которая на протяжении многих лет была больным местом для нашего народа, в контексте азербайджанской историографии. Актуальность темы заключается в том, что в первые десятилетия независимости Карабахская проблема была одним из приоритетных направлений внешней политики Азербайджана, а США находились в центре внимания как важный посредник и влиятельное государство в регионе. Поскольку то, как позиция США по Карабахскому вопросу освещается в азербайджанской историографии, до сих пор не изучалось, данная статья является первым шагом в этом направлении.

В качестве основных источников в исследовании были использованы многочисленные монографии и статьи в современной азербайджанской историографии. Исследование показало, что позиция США в азербайджанской историографии оценивалась как критически («поправка 907», отсутствие практических шагов в посреднической политике и т.д.), так и позитивно, отмечая потенциальный вклад посреднических инициатив США в восстановление мира в регионе.

Ключевые слова: США, Карабахская проблема, посредническая миссия, переговоры в Ки-Уэсте, Вторая карабахская война, историография.

Giriş

XX əsrin 90-cı illərində ABŞ-nin Qarabağ probleminə münasibəti

ABŞ ilə münasibətlərin qurulduğu illər Azərbaycanın ciddi çətinliklərlə üzləşdiyi dönəmə, xüsusilə I Qarabağ müharibəsi dövrünə təsadüf edir. Həmin vaxt Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün aparıcı dövlətlərin dəstəyinə nail olmaq xarici siyasətin prioritetinə çevrilmişdi. ABŞ münaqişənin ilk günündən ATƏM, xüsusilə Minsk qrupu çərçivəsində sülh yolu ilə həllinə tərəfdar olduğunu bəyan etdi. Apreldə Vaşinqton vəziyyəti ətraflı öyrənmək üçün senator D.Dekonsininin başçılığı ilə Bakıya nümayəndə heyəti göndərdi. Azərbaycan tarixşünaslığında bu, kəşfiyyat missiyası kimi şərh olunur. E.Nəsirov səfərin mahiyyəti ilə bağlı yazır: "*...Məqsəd Azərbaycanın daxili və xarici siyasətinin əsas konturları ilə tanış olmaq, yaxın qonşularla münasibətlərinin səviyyəsi haqqında dəqiq və səhih məlumat toplamaq idi*" (Nəsirov, 2000: 45). Oxşar mövqedən çıxış edən Ə.Həsənovun fikrincə, məqsəd ABŞ-nin Azərbaycanla bağlı gələcək xarici siyasət konturlarını müəyyənləşdirmək idi (Həsənov, 1998: 145-146). İ.Musa da səfəri "kəşfiyyat missiyası" adlandırır (Musa, 2011: 507).

Dekonsinin missiyasının ikitərəfli münasibətlərə müsbət, yoxsa mənfi təsir göstərdiyini isə hadisələrin sonrakı gedişatına nəzər saldıqda müəyyənləşdirmək olar. Belə ki, səfərdən bir ay sonra – 1992-ci ilin mayın 19-da ABŞ Dövlət Departamentinin verdiyi bəyanatda: "*ABŞ hər hansısa bir ərazinin statusunun zorakılıq yolu ilə dəyişdirilməsinə razı olmayacaqdır*" kimi mühüm bir məqamın vurğulanması göstərdi ki, Vaşinqton müəyyən həqiqətləri öyrənib və obyektiv mövqedən çıxış edir. Lakin erməni işğalının qarşısının alınması istiqamətində ABŞ-nin ciddi praktik addımlar atmaması və bəyanatlarla kifayətlənməsi təəssüf doğuran məqam idi. Halbuki, bundan cəmi iki il əvvəl – 1990-cı ilin avqustunda Küveytin işğalı zamanı ABŞ işğalçının dərhal və qeyd-şərtsiz çıxmasını tələb etmiş, bu tələb cavabsız qaldıqda isə ABŞ-nin rəhbərliyi altında 42 ölkədən ibarət koalisiya yaradılaraq 1991-ci ilin yanvarında İraq ağır məğlubiyyətə uğradılmışdı.

Digər tərəfdən, 1992-ci il oktyabrın 24-də ABŞ Konqresində qəbul olunmuş "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsi ("907-ci düzəliş") ABŞ-nin Qarabağ problemində ədalətli möqveyinə xələl gətirən hadisə oldu. Vətən tarixşünaslığında "907-ci düzəliş" bir tərəfdən, erməni lobbisinin güclü təsirinin, bir tərəfdən o vaxtkı Azərbaycan hökumətinin səriştəsiz xarici siyasətinin, bir tərəfdən isə ABŞ-nin ikili standartlara əsaslanan birtərəfli mövqeyinin nəticəsi kimi qiymətləndirilir. Tədqiqatçıların fikrincə, bu düzəliş Azərbaycanı beynəlxalq yardımdan məhrum etməklə, müharibə şəraitində olan ölkəni daha da çətin vəziyyətə salmışdır. Həmin dönəmdə yalnız müdrik dövlət xadimi Heydər Əliyevin hələ Naxçıvan MR Ali Məclisinin sədri olduğu dönəmdə göstərdiyi səylər, ABŞ-nin yeni prezidenti Bill Klintona məktub göndərməsi ikitərəfli münasibətlərdə gərginliyin azaldılmasında müəyyən rol oynamışdı. Təsadüfi deyildir ki, M.Qasımlı 1993-cü ilin aprelin 6-da ABŞ Dövlət Departamentinin Kəlbəcərin işğalını pisləyən bəyanat verməsini, ABŞ-nin təsiri ilə BMT TŞ-nın 822 saylı qətnamə qəbul etməsini bunun nəticəsi kimi qiymətləndirir (Qasımlı, 2015: 163). Heydər Əliyevin 1993-cü il iyunun 24-də prezident səlahiyyətlərini icra etməyə başlayan kimi yeni praqmatik xarici siyasət kursuna keçməsi ABŞ-nin siyasətində Azərbaycanın maraqlarına zidd olan cəhətlərin aradan qaldırılmasında böyük rol oynadı, Azərbaycan-ABŞ münasibətləri ardıcıl xarakter alaraq yeni mahiyyət kəsb etməyə başladı.

1994-cü ilin mayın 4-də ABŞ Prezidenti Bill Klintonun irimiqyaslı xarici siyasət təşəbbüsü olan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına Azərbaycan da qoşuldu. Vətən tarixşünaslığında bu hadisə çox vaxt Azərbaycanın Qərblə əməkdaşlıq imkanlarının genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması baxımından yüksək qiymətləndirilir (Abbasbəyli, 2011: 300; Həsənov, 2005: 508; Nəsirov, İskəndərov, 2018: 84 Babaoğlu, 2010: 553). Bir sıra müəlliflər isə əsas diqqəti təhlükəsizlik amilinə yönəldirlər. Məsələn, R.Axundovun fikrincə: "*SNT proqramına qatılmaqla ümumavropa təhlükəsizlik məkanına qoşulan Azərbaycan Rusiya-Ermənistan alyansına qarşı NATO "çətiri" qoymaq şansı əldə etdi*" (Axundov, 2014: 127). X.Mehdiyeva Azərbaycanın bu proqrama qoşulmasını ərazi bütövlüyünü qorumaq imkanlarından biri kimi nəzərdən keçirir (Mehdiyeva, 2019: 32). S.Qaraşova ölkəmizin öz təhlükəsizliyini daha etibarlı şəkildə

təmin etmək imkanı qazandığını vurğulayır (Qaraşova, 2018: 288). Ş.Məmmədov bunu təhlükəsizlik problemlərinin həllində NATO-nun təsir mexanizmlərindən istifadə etmək üçün real imkanlar yaratması kimi qiymətləndirir (Məmmədov, 2018: 97). Lakin fikrimizcə, sözügedən proqrama qoşulma Azərbaycanın dünyanın ən nüfuzlu alyansı ilə institusional əməkdaşlığının əsasını qoysa da, kollektiv təhlükəsizlik təminatı verməsini söyləmək çətindir. Çünki alyansı təsis edən Vaşinqton müqaviləsinin 5-ci maddəsi yalnız üzv-dövlətlərin müdafiəsini nəzərdə tutur. İkinci Qarabağ müharibəsi zamanı NATO-nun hər hansı bir müdaxilə etməməsi də bunu təsdiq edir. Buna görə də, hesab edirik ki, SNT çərçivəsində NATO ilə əməkdaşlığı hərbi-strateji deyil, daha çox siyasi-diplomatik əhəmiyyət kəsb edən hadisədir.

Azərbaycan-ABŞ münasibətlərində dönüş nöqtəsi yaradan "Əsrin müqaviləsi" Vaşinqtonun Qarabağ probleminə münasibətinin obyektiv səmtə yönəlməsində xüsusi rol oynadı. Bu müqavilə bir tərəfdən Qərbdən investisiya axınını təmin edərək, Azərbaycanı qlobal enerji sisteminə cəlb edərək strateji tərəfdaşlıq üçün maddi zəmin yaratdı, digər tərəfdən, ABŞ-nin Azərbaycana siyasi dəstəyinin qarantına çevrildi. Əgər əvvəllər Qarabağdakı münaqişə ilk növbədə Rusiyanın həll etməli olduğu lokal xarakterli "postsovet böhranı" kimi qəbul edilirdisə, "Əsrin müqaviləsi" vəziyyəti kökündən dəyişdi: Azərbaycan transmilli korporasiyaların və böyük güclərin maraq obyektinə çevrildi. Azərbaycanda siyasi sabitliyin qorunub saxlanması Vaşinqton üçün yeni çağırışa çevrildi: çünki əks təqdirdə enerji layihələri ciddi təhdidlə üzləşə bilərdi. Ona görə də, ABŞ ATƏT-in Minsk prosesində daha fəal iştirak etməyə başladı, 1994-cü ilin dekabrında Qarabağ problemi ilk dəfə sammit səviyyəsində (Budapeşt sammiti) gündəmə gətirildi.

1994-1995-ci illərdə ABŞ Konqresində "Penni layihəsi" (Nümayəndələr palatasının deputatı Timoti Penni tərəfindən) və "Helms layihəsi"nin (senator Cessi Helms tərəfindən) irəli sürülməsinə Azərbaycan tarixşünaslığında xüsusi diqqət yetirilir. Çünki bu layihələr 907-ci maddənin qüvvədə qalmasına rəğmən, ABŞ tərəfindən ölkəmizə hökumət xətti ilə humanitar yardımların göstərilməsini nəzərdə tuturdu. Lakin hər iki layihə erməni lobbisinin müqaviməti ilə üzləşərək təxirə salınmışdı. Buna rəğmən, Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan diplomatiyası öz fəaliyyətini dayandırmadı və nəticədə 1996-cı ilin yanvarında konqresmen Çarlz Vilsonun təklifi ilə "Azərbaycana birbaşa humanitar yardım göstərilməsi haqqında" qanun layihəsi bəyənildi və ABŞ Prezidenti B.Klinton tərəfindən imzalanır. Tarixşünaslıqda "Vilson düzəlişi" kimi tanınan bu qanun layihəsi əvvəlki kimi ABŞ-nin Azərbaycana yalnız QHT və şəxsi xeyriyyəçi təşkilatlar vasitəsilə humanitar yardım göstərəcəyini təsbit etsə də, burada mühüm fərqli məqam var idi. Yəni söhbət ABŞ-nin dövlət yardımından gedirdi. Elə buna görədir ki, Penni və Helms layihələri kimi, Vilson düzəlişinə də erməni lobbisi güclü müqavimət göstərmiş, amma öz məkrli niyyətinə nail ola bilməmişdi. Bu baxımdan, Vilson düzəlişi çox vaxt Azərbaycan diplomatiyasının erməni lobbisi üzərində qələbəsi kimi qiymətləndirilir. Tarixçi E.Arif bu hadisənin Azərbaycan-ABŞ münasibətlərində dönüş yaratdığını yazır (Arif, 2018: 209).

XXI əsrin əvvəllərində ABŞ-nin Qarabağ probleminə münasibəti: Ki-Vest danışıqları

2001-ci ildə Corc Buşun (oğul) hakimiyyətə gəlişi ilk anlardan Vaşinqtonun Cənubi Qafqaz və Xəzər regionlarına artan diqqəti ilə müşayiət olundu. Buş administrasiyası regionda təhlükəsizlik probleminin əhəmiyyətini lazımınca dərk etdiyindən, onun diqqət yetirdiyi ilk məsələlərdən biri Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçiliyi ələ almaq cəhdləri oldu. 2001-ci ilin aprelində Florida ştatının Ki Vest şəhərində ABŞ dövlət katibi Kolin Pauellin iştirakı ilə Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan Prezidenti Robert Köçəryan arasında 4 günlük qızğın danışıqlar aparıldı. Lakin böyük gözləntilərə baxmayaraq, Ki Vest görüşü lazımi nəticə vermədi. Vətən tarixşünaslığında bir sıra tarixçilər (məsələn, Z.Muradova) bunu Ermənistan rəhbərliyinin qeyri-konstruktiv mövqe sərgiləməsi amili ilə izah edirlər (Muradova, 2023: 179).

Qərb tarixşünaslığı daha bir fərqli məqama – Vaşinqtonun münaqişənin həllinə ciddi siyasi kapital yatırmağa hazır olmaması məsələsinə diqqət yetirir və bunu regionda enerji və geosiyasi maraqların ABŞ üçün prioritet olaraq qalması, Qarabağ probleminin isə ikinci dərəcəli əhəmiyyət daşıması ilə izah edir. Bu baxımdan, Tomas de Vaal, Brenda Şaffer, Lourens Broers kimi tədqiqatçılar belə hesab edir ki, Ki Vest danışıqları sadəcə olaraq ABŞ-nin texniki vasitəçi kimi uğursuz cəhdlərindən biridir (Ваал де, 2005: 353-355; Shaffer, 2002: 57-58; Broers, 2019: 289-290).

Bununla belə, Vətən tarixşünaslığında danışıqların müəyyən əhəmiyyət kəsb etməsi qənaətinə gəlinir. Belə ki, F.İsmayılov onu ABŞ-nin təqdirəlayiq təşəbbüsü və "*Dağlıq Qarabağ konfliktinin həlli strategiyasında yeni səhifənin açılması*" kimi qiymətləndirir (İsmayılov, 2001: 101). G.Quliyeva hadisənin əhəmiyyətini ABŞ mətbuatında Ermənistanın işğalçı dövlət olması fikrinin qəti surətdə formalaşmasına ciddi təsiri baxımından yüksək dəyərləndirir: "*ABŞ mətbuatında, məsələn "New York Times" qəzetinin 6 aprel sayında belə bir məlumat getdi ki, Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal edilib*" (Quliyeva, 2010: s.156). Müəllif qeyd edir ki,

bu hal Ermənistanda böyük qəzəb doğurmuş və iş o yerə çatmışdı ki, erməni mətbuatı ABŞ qəzetlərini "qərəzli" mövqe tutmaqda ittiham etməyə başlamışdı. Bu baxımdan, B.Hüseyn vurğulayır ki, Ki Vest danışıqları heç bir real nəticəyə gətirib çıxarmasa da, Azərbaycan həqiqətlərinin bütün dünyaya yayılması, Ermənistanın təcavüzkarlığının nəticələrinə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək mümkün oldu (Hüseyn, 2013: 139).

İkinci Qarabağ müharibəsi və ABŞ-nin mövqeyi

Vətən tariximizin ən mühüm səhifələrindən olan İkinci Qarabağ müharibəsində Azərbaycanın parlaq qələbə qazanaraq öz ərazi bütövlüyünü bərpa etməsi zamanı ABŞ-nin mövqeyinə tarixşünaslıqdakı münasibət diqqəti cəlb edir. ABŞ 44 günlük müharibədə neytral mövqe sərgiləmişdir ki, Minsk qrupunun həmsədri kimi belə mövqe obyektiv və konstruktiv idi. Bu baxımdan, ABŞ-nin müharibə zamanı Azərbaycanın daxili işinə müdaxilə etməməsi Vətən tarixşünaslığında müsbət hal kimi qiymətləndirilir. B.Sonam ABŞ-nin mövqeyindən bəhs edərkən Minsk qrupunun amerikalı sabiq həmsədri Riçard Hoqlandın səsləndirdiyi: "*Beynəlxalq hüquqa görə, Ermənistan başqa bir suveren dövlət olan Azərbaycanın ərazisinə soxulub və işğal edib*" – fikrinə istinad edir (Sonam, 2022: 161). Digər tərəfdən, bir sıra tədqiqatçılar ABŞ-nin İkinci Qarabağ müharibəsində passiv mövqe tutmasına tənqidi yanaşırlar. Məsələn, professor Aygün Attar yazır ki, enerji mənbələri ilə zəngin olan Azərbaycanın ərazi bütövlüyü və sabitliyi ABŞ üçün əhəmiyyətli olsa da, Vaşinqtonun Qarabağ məsələsində fəal rol oynamasına mane olan ölkənin daxili siyasi dinamikası oldu (Attar, 2021: 126). Müəllif "daxili siyasi dinamika" dedikdə, 2020-ci ilin payızında ABŞ-da keçirilən prezident seçkiləri və bu səbəbdən ölkənin siyasi elitasının əsasən seçki kampaniyası ilə məşğul olmasını nəzərdə tutur. Beləliklə, ABŞ-nin əsas məqsədinin Ermənistanın xeyrinə olan status-kvonu, yəni atəşkəsi təmin etmək olduğunu qeyd edən müəllifin fikrincə, buna səbəb seçki prosesində erməni elektoratının fəallığının nəzərə alınması idi. Oxşar mövqedən çıxış edən E.Vahabova vurğulayır ki, prezident seçkiləri ərəfəsində ABŞ Cənubi Qafqazda müharibənin yenidən başlanmasında maraqlı deyildi (Vahabova, 2023: 89).

Vətən tarixşünaslığında ABŞ-ın İkinci Qarabağ müharibəsi zamanı neytral və passiv mövqeyinə rəğmən, qalib Azərbaycan ordusunun döyüş təcrübəsini öyrənməyə, təhlil etməyə başlamasına da xüsusi diqqət yetirilir. Belə ki, silahlı qüvvələrimizin tətbiq etdiyi strategiya ABŞ-ın hərbi elitasının diqqətini özünə cəlb edərək onda böyük maraq hissi doğurmuş, amerikalı strateqləri Hava Hücumundan Müdafiə (HHM) sistemlərinin inkişaf etdirilməsinin həyati əhəmiyyəti barədə düşünməyə vadar etmişdir. Hərbi tarixçi Nurulla Əliyev öz monoqrafiyasında amerikalı general C.Makkonvilin fikirlərinə istinadən yazır: "*44 günlük müharibə zamanı PUA-lardan aktiv istifadə edilməsi ABŞ ordusunun modernləşdirilməsinin zəruriliyi və HHM sistemlərinin inkişafının vacibliyi məsələsini meydana çıxarıb*" (Əliyev, 2021: 590). Müəllif həmçinin qeyd edir ki, müharibədə Azərbaycan ordusunun zərbə PUA-ları və "intiharçı dron"lardan istifadə taktikası ilə qısa zamanda düşmənin zirehli texnikasını məhv etməsi, Ermənistanın 30 il ərzində qurduğu istehkamları sıradan çıxararaq sürətlə Qarabağın içərilərinə doğru irəliləməsi amerikalılarda heyrət hissi ilə yanaşı, "gələcək müharibələrdə Çinin və Rusiyanın ABŞ-a qarşı oxşar taktikadan istifadə edəcəyi" qorxusu yaratmışdır.

Nəticə

Beləliklə, tarixşünaslıq təhlilinə əsasən belə qənaətə gəlmək olar ki, ABŞ-nin Qarabağ probleminə münasibətində tarixən müəyyən dəyişikliklər baş versə də, bütövlükdə o, Azərbaycanın ərazi bütövlüyü prinsipinə əsaslandığından obyektiv xarakter daşımışdır. ABŞ-nin bu məsələdə mövqeyinin ümumilikdə sülh və təhlükəsizliyin təmin edilməsinə əsaslandığı son hadisələr də təsdiq edir: Azərbaycan və Ermənistan arasında sülh sazişi mətninin paraflanmasının 2025-ci ilin avqustun 8-də məhz ABŞ-nin vasitəçiliyi ilə Ağ Evdə baş tutması, Vaşinqtonun regional sabitliyin əsas təminatçısı və investorunlarından birinə çevrilməsi, "907-ci düzəliş"in nəzərdə tutduğu məhdudiyyətlərin aradan qaldırılması, Tramp marşrutu (TRIPP) kimi tanınan nəqliyyat dəhlizinin hazırlanması, enerji, texnologiya və müdafiə sahələrində Azərbaycan-ABŞ əməkdaşlığının genişləndirilməsi belə hadisələrdəndir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Abbasbəyli, A.N. (2011). Dünya siyasəti. Bakı: Nurlar.
2. Axundov, R.R. (2014). Azərbaycan-NATO əməkdaşlığının hərbi-siyasi aspektləri. Siyasi elmlər üzrə fəlsəfə doktoru dis. Bakı.
3. Arif, E. (2018). Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Naxçıvan: Əcəmi NPB.
4. Attar, A. (2021). Qarabağ zəfəri: 44 günün pərdəarxası. Bakı: Azərbaycan Dövlət Tərcümə Mərkəzi.
5. Babaoğlu, H. (2010). Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: Çinar-Çap.
6. Broers, L. (2019). Armenia and Azerbaijan: Anatomy of a Rivalry. Edinburgh: Edinburgh University Press.
7. Əliyev, N.A. (2021). Vətən müharibəsində Azərbaycanın qələbəsi. Bakı: Afpoliqraf.

8. Həsənov, Ə.M. (1998). Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr.
9. Həsənov, Ə.M. (2005). Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: "Azərbaycan" nəşriyyatı.
10. Hüseyn, B.V. (2013). ABŞ-ın Cənubi Qafqaz siyasətində neft amili. Siyasi elmlər üzrə fəlsəfə doktoru dis. Bakı.
11. İsmayılov, F.C. (2001). Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı.
12. Qaraşova, S.A. (2018). ABŞ-Rusiya: postsovet məkanı uğrunda mübarizə. Bakı: Səda.
13. Qasımlı, M.C. (2015). Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı: Mütərcim.
14. Quliyeva, G.M. (2010). Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. Siyasi elmlər üzrə fəlsəfə doktoru dis. Bakı.
15. Mehdiyeva, X.E. (2019). NATO ilə Cənubi Qafqaz ölkələri arasında əməkdaşlığın səviyyəsi və perspektivləri. Elm və İnnovativ Texnologiyalar, №10, s.27-40.
16. Məmmədov, Ş.A. (2018). Azərbaycan Respublikasının ABŞ-la münasibətləri: siyasi təhlil. Siyasi elmlər üzrə fəlsəfə doktoru dis. Bakı.
17. Muradova, Z.B. (2023). Heydər Əliyev və Qarabağ. Bakı: Orxan NPM.
18. Musa, İ. (2011). Azərbaycanın xarici siyasəti: [3 hissədə]. H.3. Bakı: Bakı Universiteti.
19. Nəsirov, E.X. (2000). Azərbaycan Respublikası-ABŞ münasibətləri (1991-1997-ci illər). Tarix üzrə fəlsəfə doktoru dis. Bakı.
20. Nəsirov, E.X., İskəndərov X. (2018). Ulu Öndər Heydər Əliyevin NATO siyasəti. Milli Təhlükəsizlik və Hərbi Elmlər, №1 (4), s.83-92.
21. Shaffer, B. (2002). Borders and Brethren: Iran and the Challenge of Azerbaijani Identity. Massachusetts: MIT Press.
22. Sonam, B.R. (2022). Zəfər – 44 günlük Qarabağ müharibəsi. Bakı: Adiloğlu.
23. Vahabova, E.S. (2023). Beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ-Azərbaycan Respublikası əməkdaşlığı (2001-2021). Bakı: Füyuzat.

DOİ: 10.32010/LLRA2525

ALİ TƏHSİLİN DEMOKRATİKLƏŞMƏSİ: KEYFİYYƏTLİ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS MƏQSƏDİ KİMİ

Bəsdi Hikmət ŞƏMİYEVA
Bakı Dövlət Universiteti
Orcid: 0009-0000-5926-8704
E-mail: basti.shamy@gmail.com

Xülasə: Məqalədə Azərbaycan ali təhsil sistemində keyfiyyətli idarəetmənin təkmilləşdirilməsi və demokratik prinsiplərin tətbiqi məsələsi tədqiq edilmişdir. Məqsəd ali təhsildə iştirakçılıq, şəffaflıq, akademik azadlıq və idarəetmənin muxtariyyətinin artırılması yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş strategiyaların müəyyənləşdirilməsidir. Təhlil zamanı Avropa universitetlərinin, xüsusilə Skandinaviya ölkələrinin təcrübəsi araşdırılmış, tələbə yönümlü idarəetmə və demokratik qərar qəbuletmə mexanizmlərinin keyfiyyətə təsiri göstərilmişdir. Məqalədə həmçinin Azərbaycan universitetlərinin mövcud vəziyyəti qiymətləndirilmiş, mərkəzləşdirilmiş idarəetmə, İctimai Şuraların fəaliyyətinin zəifliyi və strateji planlaşdırmanın məhdudluğu kimi əsas problemlər qeyd edilmişdir.
Açar sözlər: Ali təhsil, demokratik idarəetmə, keyfiyyətli idarəetmə, UBOT, iştirakçılıq, şəffaflıq, təhsil siyasəti

---

DEMOCRATICIZATION OF HIGHER EDUCATION: AS THE MAIN GOAL OF IMPROVING QUALITY MANAGEMENT

Basdi Hikmet SHAMIYEVA
Baku State University
Orcid: 0009-0000-5926-8704
E-mail: basti.shamy@gmail.com

Abstract: The article examines the issue of improving quality management and implementing democratic principles in the Azerbaijani higher education system. The aim is to identify strategies aimed at improving the quality of education by increasing participation, transparency, academic freedom and autonomy of management in higher education. During the analysis, was examined the experience of European universities, especially Scandinavian countries, and the impact of student-oriented management and democratic decision-making mechanisms on quality was shown. The article also assessed the current state of Azerbaijani universities, and noted the main problems such as centralized management, the weakness of the activities of Public Councils, and the limitations of strategic planning.
Keywords: Higher education, democratic governance, quality governance, UBOT, participation, transparency, education policy.

ДЕМОКРАТИЗАЦИЯ ВЫСШЕГО ОБРАЗОВАНИЯ: КАК ОСНОВНАЯ ЦЕЛЬ СОВЕРШЕНСТВОВАНИЯ УПРАВЛЕНИЯ КАЧЕСТВОМ

Басди Хикмет ШАМИЕВА
Бакинский государственный университет
Orcid: 0009-0000-5926-8704
Электронная почта: basti.shamy@gmail.com

Резюме: В статье рассматривается вопрос совершенствования управления качеством и внедрения демократических принципов в систему высшего образования Азербайджана. Целью является выявление стратегий, направленных на повышение качества образования путем повышения участия, прозрачности, академической свободы и автономии управления в сфере высшего образования. В ходе анализа был изучен опыт европейских университетов, особенно скандинавских стран, и показано влияние управления, ориентированного на студентов, и демократических механизмов принятия решений на качество. В статье также дана оценка текущему состоянию азербайджанских университетов и отмечены основные проблемы, такие как централизованное управление, слабость деятельности общественных советов и ограничения стратегического планирования.
Ключевые слова: высшее образование, демократическое управление, управление качеством, UBOT, участие, прозрачность, образовательная политика

Giriş

Müasir dövrdə ali təhsil cəmiyyətin inkişafında strateji əhəmiyyət kəsb edir, çünki o, yalnız bilik və peşəkar bacarıqların ötürülməsini təmin etmir, həm də fərdin intellektual potensialının formalaşmasına, milli və qlobal səviyyədə sosial dəyişikliklərin istiqamətləndiril-məsinə xidmət edir.

Ali təhsilin keyfiyyəti həm fərdin həyat keyfiyyətini müəyyən edir, həm də cəmiyyətin sosial-iqtisadi və mədəni inkişaf dinamikasına birbaşa təsir göstərir. İnsan kapitalının strateji resursa çevrildiyi XXI əsrdə təhsilin rolu daha da artır; bilik, yaradıcılıq və səriştə əsasında formalaşan fərdlər yalnız milli iqtisadiyyatın inkişafına töhfə vermir, həm də ölkələrin beynəlxalq rəqabət qabiliyyətini gücləndirir. [3, s.66-72]

Bu kontekstdə ali təhsil müəssisələrinin idarəetmə təcrübələrinin demokratikləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Demokratik prinsiplərin tətbiqi universitetlərin akademik muxtariyyətini möhkəmləndirməklə yanaşı, onların sosial məsuliyyətini və cəmiyyətlə qarşılıqlı əlaqələrini dərinləşdirir. Belə bir idarəetmə modeli yalnız institusional prosedurların icrasından ibarət deyil; o, bütün maraqlı tərəflərin qərar qəbuletmə prosesində bərabərhüquqlu iştirakını, şəffaflığı, kollektiv məsuliyyəti və yüksək motivasiyanı təmin edən institusional mədəniyyətin formalaşmasına xidmət edir.

Araşdırmanın aktuallığı qloballaşma və informasiya cəmiyyətinə keçid şəraitində daha da artır. Sürətlə dəyişən əmək bazarı tələbləri, ömürboyu öyrənmənin zəruriliyi və tələbələrin fərdi inkişaf imkanlarına yönəlmiş təhsil ehtiyacları ali təhsilin idarəetmə modellərinin çevik və demokratik olmasını tələb edir. Eyni zamanda, milli kimlik və dövlətçilik prinsiplərinin gücləndirilməsi, insan hüquqlarına hörmət və sosial məsuliyyətin təşviqi ali təhsil müəssisələrinin əsas missiyası kimi ön plana çıxır.

Araşdırmanın məqsədi ali təhsil müəssisələrində keyfiyyətli idarəetmənin təkmilləşdirilməsi ilə demokratik dəyərlərin inteqrasiyasının qarşılıqlı təsirini araşdırmaq, universitetlərin inkişafına və yüksək keyfiyyətli təhsil mühitinin formalaşmasına təsir mexanizmlərini müəyyənləşdirməkdir. Bu baxımdan, iş ali təhsildə demokratikləşmə prosesinin həm təhsil keyfiyyətinə, həm də sosial-iqtisadi və mədəni inkişaf göstəricilərinə necə təsir etdiyini ətraflı təhlil etməyə imkan verir.

Metodologiya

Tədqiqat ali təhsil müəssisələrində (ATM) keyfiyyətli idarəetmənin demokratikləşdirilməsi prosesini araşdırmaq məqsədilə nəzəri və empirik yanaşmalardan istifadə etmişdir. Tədqiqatın əsas məqsədi demokratik idarəetmə prinsiplərinin tətbiqinin ali təhsilin keyfiyyətinə təsirini müəyyən etməkdir. Tədqiqat metodikası üç əsas istiqamətdə qurulmuşdur:

- Azərbaycan və Avropa universitetlərinin idarəetmə təcrübələrinə dair mövcud ədəbiyyat incələnmişdir. Bu çərçivədə Bolonya Prosesi, Skandinaviya modelinə əsaslanan tələbə yönümlü idarəçilik, Keyfiyyət Təminatı (KT) və Ümumi Keyfiyyət İdarəetməsi (TQM) prinsipləri araşdırılmışdır. [4]
- Ali təhsil sahəsində dövlət strategiyaları, qanunvericilik aktları və keyfiyyət təminatı üzrə sənədlər təhlil edilmişdir. Xüsusilə Azərbaycan Respublikasının "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və TKTA-nın akkreditasiya qaydaları tədqiqatın hüquqi və institusional çərçivəsini müəyyən etmişdir.
- Avropa universitetlərinin demokratik idarəetmə təcrübələri, xüsusilə Skandinaviya ölkələri (İsveç və Finlandiya) və Polşa universitetlərinin (SGH) təcrübəsi müqayisəli təhlil edilmişdir. Bu yanaşma Azərbaycan universitetlərinin mövcud mərkəzləşmiş idarəetmə strukturları ilə demokratik prinsiplərin inteqrasiyasını qiymətləndirməyə imkan vermişdir.

Tədqiqat həmçinin keyfiyyətli idarəetmənin təkmilləşdirilməsi üzrə konkret təkliflərin hazırlanması üçün əsaslı analitik yanaşmadan istifadə etmişdir. Təkliflər UBOT-un səlahiyyətləri, qrup qərar qəbulu, tələbə və işəgötürənlərin iştirakçılığı, şəffaflıq və keyfiyyət mədəniyyətinin təşviqi kimi sahələr üzrə formalaşdırılmışdır.

Nəticələr

Tədqiqatın nəticələri göstərir ki, ali təhsildə keyfiyyətli idarəetmənin demokratikləşdirilməsi bir sıra mühüm üstünlüklər yaradır:

- UBOT-un (Universitetin Büdcə və Təşkilati Təhlükəsizliyi Şurası, digər adı ilə Universitetin Müşahidə Şurası) demokratikləşdirilməsi və rektorun strateji səlahiyyətlərinin artırılması universitetlərin öz fəaliyyətlərini daha müstəqil və şəffaf şəkildə həyata keçirməsinə imkan verir. Hökumətin tərəfdaş rolunu qəbul etməsi muxtariyyətin qorunmasını dəstəkləyir.
- Kurikulum və tədris proqramlarının hazırlan-masında tələbələrin, akademik heyətin, məzunların və işəgötürənlərin iştirakının təmin olunması, proqramların çevikliyinin artırılması təhsil keyfiyyətini yüksəldir və tələbələrin motivasiyasını gücləndirir. Yeni Akkreditasiya Qaydaları bu prosesin rəsmiləşdirilməsini təmin edir.
- Keyfiyyət təminatı proseslərinin daxili və xarici qiymətləndirmələrlə dəstəklənməsi, elektron akkreditasiya sistemlərinin tətbiqi və kadr siyasətinin şəffaflaşdırılması institusional keyfiyyət mədəniyyətinin inkişafına xidmət edir.
- Təhsildə bərabərlik, ədalət, dürüstlük, paylaşma və iştirak kimi prinsiplərin tətbiqi tələbələrin sosial

məsuliyyətini artırır, etik davranış və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. Tədqiqat və innovasiya mədəniyyətinin təşviqi tələbələrin praktiki bacarıqlarını və yaradıcılıq potensialını yüksəldir.

• Skandinaviya və digər Avropa universitetlərinin tələbə yönümlü idarəçilik təcrübəsi Azərbaycanda ali təhsilin demokratikləşdirilməsi üçün praktik çərçivə təqdim edir. Bu model UBOT-un struktur dəyişiklikləri, qrup qərar qəbulu, şəffaf informasiya axını və demokratik prinsiplərin kurikulumlara inteqrasiyasını təmin edir.

Beləliklə, tədqiqat sübut edir ki, demokratik idarəetmənin tətbiqi ali təhsil müəssisələrinin idarəetmə keyfiyyətini yüksəldir, şəffaflığı və hesabatlılığı təmin edir, tələbələrin və digər maraqlı tərəflərin iştirakını artırır, həmçinin etik və sosial səriştələrin inkişafına töhfə verir. Bu nəticələr Azərbaycan ali təhsil sistemində demokratik idarəetmə prinsiplərinin geniş tətbiqinin vacibliyini və effektivliyini təsdiqləyir.

Müzakirə

Müasir cəmiyyətdə ali təhsilin demokratikləşməsi və keyfiyyətli idarəetmə ilə əlaqəsi. Müasir dövrdə ali təhsil cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafında həlledici rola malikdir. Ali təhsil müəssisələri yalnız bilik və bacarıqların ötürülməsi ilə məhdudlaşmır, həm də intellektual potensialın formalaşmasına, milli və qlobal səviyyədə sosial dəyişikliklərin istiqamətləndirilməsinə xidmət edir. Təhsil prosesinin keyfiyyəti həm fərdin həyat səviyyəsini, həm də bütövlükdə cəmiyyətin inkişaf dinamikasını müəyyən edir. Yüksək keyfiyyətli ali təhsil insanın bacarıqlarını üzə çıxarmaqla yanaşı, onun sosial dəyərlərə sadiq, yaradıcı düşüncəyə malik, ictimai həyatın fəal üzvü kimi formalaşmasına şərait yaradır.

İqtisadi inkişaf baxımından ali təhsilin rolu xüsusilə nəzərə çarpır. Bu gün insan kapitalı ölkələrin ən səmərəli istehsal faktoru hesab olunur. Bilik, yaradıcılıq və peşəkar səriştə əsasında formalaşan insan potensialı milli iqtisadiyyatların davamlı inkişafını təmin edən əsas gücdür. XXI əsrin qlobal iqtisadiyyatında təhsilə edilən investisiyalar strateji prioritet kimi qəbul edilir və ali məktəblərin hazırladığı mütəxəssislərin bilik və bacarıqları dövlətlərin beynəlxalq rəqabət gücünü müəyyən edən amillərə çevrilir. Bu mənada ali təhsil yalnız fərdi karyera uğurlarının deyil, həm də milli iqtisadi və sosial inkişafın fundamental dayaqlarından biri kimi çıxış edir.

Qloballaşma şəraitində ali təhsilin funksiyaları daha da genişlənmişdir. Sənaye mərhələsindən informasiya cəmiyyətinə keçid universitetlərin iqtisadi və sosial rolu artırmış, onları bilik istehsalının və yeniliyin əsas mərkəzinə çevirmişdir. Müasir dövrdə ömürboyu öyrənmə zərurəti ön plana çıxır. Əmək bazarında tez-tez dəyişən tələblərə uyğunlaşmaq üçün təhsil sisteminin çevikliyi, yeni bilik və bacarıqların mənimsənilməsinə imkan verməsi vacib şərtə çevrilmişdir. Bununla yanaşı, ali təhsil təkcə peşəkar hazırlıq deyil, həm də müasir vətəndaşın formalaşdırılması missiyasını daşıyır. İnsan hüquqlarına hörmət edən, demokratik dəyərlərə sadiq, ekoloji və sosial məsuliyyətini dərk edən fərdlərin yetişdirilməsi ali məktəblərin əsas məqsədlərindən biridir. [9, s.12-19]

Milli kimlik və dövlətçilik baxımından da ali təhsilin əhəmiyyəti danılmazdır. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununda qeyd olunduğu kimi, ali təhsil vətənpərvərlik ruhunda tərbiyə olunmuş, milli-mənəvi dəyərlərə sadiq, yaradıcı və müstəqil düşüncəyə malik vətəndaşların yetişdirilməsini hədəfləyir. Bu missiyanın həyata keçirilməsi ali təhsil müəssisələrinin muxtariyyətini, eləcə də beynəlxalq əməkdaşlıqların gücləndirilməsini tələb edir. Bolonya Prosesi çərçivəsində aparılan islahatlar məzunların bilik və bacarıqlarının beynəlxalq standartlara uyğunlaşdırılmasına, təhsilin keyfiyyətinin yüksəldilməsinə və ölkənin qlobal akademik mühitə inteqrasiyasına şərait yaradır.

Müasir dövrdə ali təhsil müəssisələrinin idarəetmə təcrübələrinin demokratikləşdirilməsi universitetlərin inkişafı və keyfiyyətli təhsil mühitinin formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Demokratikləşmə prosesi, əslində, ənənəvi idarəetmə mexanizmlərinin çevrilərək universitetlərin bütün fəaliyyət sahələrində həqiqi demokratik idarəetmə prinsiplərinə əsaslanan bir modelə uyğunlaşdırılması deməkdir. Bu, yalnız idarəetmənin effektivliyini artırmaqla kifayətlənmir, həm də universitetlərin akademik muxtariyyətini, sosial məsuliyyətini və cəmiyyətlə qarşılıqlı əlaqələrini möhkəmləndirir. Həqiqi demokratik idarəetmə, universitetin fəaliyyətindən birbaşa və ya dolayı yolla təsirlənən bütün tərəflərin qərar qəbuletmə prosesində iştirakını nəzərdə tutur. [11, s.1491-1504] Bu modeldə fakültə üzvləri, tələbələr, məzunlar, dövlət qurumları və özəl sektor nümayəndələri bərabər hüquqlarla müzakirə və qərarvermə prosesinə cəlb olunur. Beləliklə, idarəetmədə şəffaflıq təmin edilir, müxtəlif baxışların toqquşması nəticəsində daha optimal həll yolları tapılır və kollektiv məsuliyyət mühiti formalaşır. Demokratikləşmə universitetlərin təhsil keyfiyyətinə də birbaşa təsir göstərir. Bu yanaşma, tələbələrin yalnız bilik əldə edən passiv iştirakçılar deyil, həm də tədris prosesində aktiv tərəfdaşlar kimi çıxış etməsinə imkan yaradır. Tələbələrin seçim azadlığına hörmət, onların sevdikləri sahələrdə özlərini sınamasına şərait yaratmaq, öyrənmə motivasiyasını gücləndirir və nəticə etibarilə təhsilin keyfiyyətini

yüksəldir. Bu cür yanaşma həm də universitetlərin beynəlxalq səviyyədə rəqabətədavamlı olmasına xidmət edir, çünki yaradıcı düşüncə və müstəqil qərarvermə bacarıqlarına malik məzunlar qlobal əmək bazarında daha yüksək mövqelərə sahib olurlar. İdarəetmədə demokratik prinsiplərin tətbiqi universitetlərin inzibati və maliyyə muxtariyyətini dəstəkləyir. Əksər hallarda universitetlərin birbaşa hökumət və ya müəyyən idarəetmə şuraları tərəfindən sərt şəkildə yönləndirilməsi onların sərbəst fəaliyyətini məhdudlaşdırır. Halbuki demokratik idarəetmə universitetlərin öz daxili resurslarını idarə etmək, ümumi vizyon formalaşdırmaq və bütün maraqlı tərəflərin iştirakı ilə qərarlar qəbul etmək imkanlarını genişləndirir. Bu, həm də açıq ünsiyyət, əməkdaşlıq və komanda işini təşviq edir ki, bu da uzunmüddətli inkişaf üçün vacib şərtdir.

Akademik fəaliyyətin demokratikləşdirilməsi kurikulumun hazırlanması və təkmilləşdirilməsi sahəsində də mühüm rol oynayır. Müasir universitetlərdə kurikulum yalnız müəllimlərin deyil, həm də tələbələrin, məzunların və ictimai maraqlı tərəflərin iştirakı ilə formalaşdırılmalıdır. Belə bir yanaşma bərabərlik, ədalət, dürüstlük, etimad və iştirak kimi dəyərlərin tədris prosesinə inteqrasiya edilməsinə imkan yaradır. Bu dəyərlərin sistemli şəkildə tətbiqi tələbələrin daha xoşbəxt, yaradıcı və məsuliyyətli şəxsiyyətlər kimi yetişməsinə şərait yaradır. Əlavə olaraq, kurikulumun çevikliyi tələbələrə öz maraqlarına uyğun fənlər seçmək imkanı verir ki, bu da öyrənmə prosesində motivasiyanı artırır.

Maliyyə və sosial təsirlər baxımından da demokratikləşmə mühüm nəticələr doğurur. Universitetlər yalnız hökumətin idarə etdiyi strukturlar deyil, ictimaiyyətlə və özəl sektorla tərəfdaşlıq edən açıq təşkilatlar kimi fəaliyyət göstərməlidirlər. Hökumətlərin rolu burada nəzarətçi deyil, dəstəkçi və tərəfdaş mövqeyində olmalıdır. Vergi siyasətləri vasitəsilə universitetlərin korporasiyalar və yüksək gəlirli fərdlər tərəfindən maliyyələşdirilməsi stimullaşdırıla bilər. Belə bir yanaşma universitetlərin maliyyə dayanıqlığını artırmaqla yanaşı, onların sosial məsuliyyətini də gücləndirir.

Ali təhsil müəssisələrində keyfiyyətli idarəetmə ilə demokratik dəyərlərin tətbiqi arasında üzvi və qarşılıqlı təsir mexanizmi mövcuddur. Müasir tədqiqatlar göstərir ki, universitetlərin idarəetməsində demokratik prinsiplərin reallaşdırılması yüksək keyfiyyətli təhsilin formalaşması, rəqabətqabiliyyətli insan kapitalının yetişdirilməsi və ali məktəbin beynəlxalq nüfuzunun artması üçün həlledici əhəmiyyət daşıyır.

Demokratik idarəetmə, ali təhsildə keyfiyyət təminatı sisteminin yalnız inzibati prosedurlardan ibarət olmadığını, əksinə, bütün maraqlı tərəflərin aktiv iştirakı ilə həyata keçirilən, şəffaflıq və hesabatlılıq prinsiplərinə əsaslanan institusional bir mədəniyyət olduğunu ortaya qoyur. Bu baxımdan, səlahiyyət və məsuliyyətin bölüşdürülməsi, qərar qəbuletmə prosesində kollektiv iştirak, tələbə, müəllim, işəgötürən və dövlət nümayəndələrinin prosesə bərabərhüquqlu qoşulması keyfiyyətli idarəetmənin mühüm dayaqlarındandır.

Keyfiyyət mədəniyyətinin formalaşması da demokratik mühitlə sıx bağlıdır. Açıq ünsiyyətə, qarşılıqlı etimada və sosial tərəfdaşlığa əsaslanan universitet mühiti həm akademik əməkdaşlığı gücləndirir, həm də keyfiyyət anlayışının bütün qurum daxilində ortaq dəyərə çevrilməsinə şərait yaradır. Bu istiqamətdə müəllim və inzibati heyətin maarifləndirilməsi, tələbələrin qərar qəbuletmə mexanizmlərinə cəlb olunması, təhsil proqramlarının bərabərlik, ədalət, vicdan və dürüstlük kimi demokratik dəyərlərlə zənginləşdirilməsi xüsusi əhəmiyyət daşıyır.

Keyfiyyətli idarəetmənin əsas məqsədi yalnız peşəkar səriştələri deyil, həm də vətəndaşlıq şüurunu və sosial məsuliyyəti özündə birləşdirən məzunların hazırlanmasıdır. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununda da qeyd olunduğu kimi, ali təhsilin vəzifəsi demokratiya prinsiplərinə, insan hüquq və azadlıqlarına hörmət edən, milli-mənəvi dəyərlərə sadiq, yaradıcı düşünən vətəndaş yetişdirməkdir. Bu baxımdan, demokratik idarəetmə modeli təkcə universitetlərin keyfiyyətini yüksəltməklə kifayətlənmir, həm də ölkənin sosial və institusional həyatında demokratikləşmə prosesinə mühüm töhfə verir.

Beləliklə, ali təhsil müəssisələrində keyfiyyətli idarəetmə ilə demokratik dəyərlərin sintezi uzunmüddətli inkişaf strategiyasının əsasını təşkil edir. Demokratik prinsiplərin tədris mühitinə və təşkilati mədəniyyətə inteqrasiyası əməkdaşlığı, məsuliyyəti və motivasiyanı artırmaqla təhsil keyfiyyətinin yüksəlməsinə xidmət edir və nəticədə həm milli, həm də qlobal miqyasda rəqabətqabiliyyətli universitet modelinin formalaşmasına gətirib çıxarır.

Ali təhsildə demokratikləşmənin nəzəri aspektləri. Müasir dövrdə ali təhsil müəssisələrinin idarəetməsinin demokratikləşdirilməsi təkcə inzibati və akademik proseslərin təkmilləşdirilməsi deyil, həm də cəmiyyətin demokratik dəyərlərinin möhkəmləndirilməsi və sosial transformasiya üçün mühüm vasitə kimi çıxış edir. Təhsil və demokratiya arasında dərin əlaqə mövcuddur, çünki yüksək keyfiyyətli təhsil sistemləri insanın şəxsi və vətəndaş kimi formalaşmasına, eləcə də cəmiyyətin demokratik inkişafına birbaşa təsir göstərir. Bu proses fərdin intellektual potensialının üzə çıxarılmasına, yaradıcı və müstəqil düşüncənin inkişafına, həmçinin sosial

məsuliyyət və vətəndaşlıq şüurunun formalaşmasına şərait yaradır. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu da ali təhsilin əsas məqsədini demokratiya prinsiplərinə, insan hüquqlarına hörmət edən, milli-mənəvi dəyərlərə sadiq və yaradıcı düşüncəyə malik vətəndaşların yetişdirilməsi kimi müəyyən edir ki, bu da ali təhsilin sosial əhəmiyyətini daha da gücləndirir.

Demokratik prinsiplərin ali təhsil müəssisələrində tətbiqi, iştirakçılıq, bərabərlik və şəffaflıq anlayışlarının inteqrasiyası vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Bu yanaşma yalnız idarəetmənin formalaşmasını deyil, həm də kurikulumun hazırlanması, akademik qərarların qəbul edilməsi və tələbələrin təhsil prosesində aktiv tərəfdaş kimi iştirakını əhatə edir. Tələbələrin seçmə azadlığına hörmət, onların maraqlarına uyğun fənləri seçə bilməsi və öyrənmə motivasiyasının gücləndirilməsi ali təhsilin keyfiyyətini artırmaqla yanaşı, məzunların beynəlxalq əmək bazarında rəqabət qabiliyyətini yüksəldir.

Qloballaşma şəraitində ali təhsil müəssisələrinin idarəetmə modelləri beynəlxalq standartlarla uyğunlaşdırılmaqla həm də müasir universitetlərin muxtariyyətini və səmərəliliyini gücləndirir. Bolonya prosesi çərçivəsində aparılan islahatlar, desentralizasiya və akademik muxtariyyətin təşviqi, həmçinin Avropa Ali Təhsil Məkanında keyfiyyət təminatı prinsiplərinin tətbiqi ali məktəblərin fəaliyyətini daha şəffaf, hesabatlı və demokratik edir. Beynəlxalq təcrübələr göstərir ki, idarəetmədə iştirakçı modellərin tətbiqi universitetlərin keyfiyyətli idarəetmə və yüksək akademik standartlara nail olmasına imkan yaradır.

Bu baxımdan ali təhsildə demokratikləşmə yalnız institusional idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi ilə məhdudlaşmır, həm də universitetlərin sosial məsuliyyətini və cəmiyyətlə qarşılıqlı əlaqələrini möhkəmləndirir. Demokratik idarəetmə modelinin inteqrasiyası, bütün maraqlı tərəflərin qərar qəbuletmə prosesində aktiv iştirakını təmin etməklə kollektiv məsuliyyət və şəffaflıq mühitini formalaşdırır. Eyni zamanda, bu model ali təhsildə keyfiyyət mədəniyyətinin qurulmasına, demokratik dəyərlərin akademik və təşkilati həyatın ayrılmaz hissəsinə çevrilməsinə xidmət edir və bununla da ali təhsil müəssisələrində keyfiyyətli idarəetmə ilə demokratik dəyərlərin inteqrasiyası həm milli, həm də qlobal səviyyədə rəqabətqabiliyyətli və davamlı universitet modelinin formalaşmasını təmin edir, cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafına həlledici töhfə verir. [13, s.1046-1050]

Ali təhsildə demokratik idarəetmənin əsas prinsipləri. Ali təhsil müəssisələrində demokratik idarəetmənin əsas prinsipləri aşağıdakılardır:

- Şəffaflıq və hesabatlılıq;
- Müəllim, tələbə və idarə heyətinin qərarvermə prosesində iştirakı;
- Sosial ədalət və bərabər imkanların yaradılması;
- Avtonomiya və akademik azadlıqların qorunması.

Ali təhsil müəssisələrinin idarəetməsinin demokratikləşdirilməsi, ali təhsildə keyfiyyətin yüksəldilməsi və universitetlərin davamlı inkişafı üçün əsaslı bir vasitə hesab olunur. Bu proses müasir idarəetmə təcrübələrinin demokratik prinsiplərə uyğunlaşdırılmasını, universitetlərin fəaliyyətində şəffaflıq, hesabatlılıq, iştirakçılıq və bərabərlik kimi dəyərlərin möhkəmləndirilməsini ehtiva edir. Demokratik idarəetmə universitetlərin yalnız akademik keyfiyyətini artırmaqla kifayətlənmir, həm də onların sosial məsuliyyətini gücləndirir, cəmiyyətlə qarşılıqlı əlaqələrini möhkəmləndirir və tələbələrin və müəllimlərin fəal iştirakını təmin edir.

Müasir ali təhsil sistemlərində şəffaflıq və hesabatlılıq ali təhsilin keyfiyyətli idarə olunmasının əsas komponentləri kimi çıxış edir. Keyfiyyət təminatı mexanizmləri vasitəsilə universitetlərin daxili və xarici qiymətləndirmələri şəffaflığı təmin edir və qəbul edilmiş qərarlar barədə ictimaiyyətin məlumatlandırılması universitetlərin hesabatlılığını gücləndirir. Bu yanaşma tələbələrin və ictimaiyyətin məlumatlı idarəetmə qərarlarının qəbul edilməsində fəal iştirakını təmin edir. Həmçinin, demokratik idarəetmə universitetin bütün maraqlı tərəflərinin, o cümlədən tələbələr, müəllimlər, valideynlər, işəgötürənlər və dövlət nümayəndələrinin qərar qəbuletmə prosesinə aktiv şəkildə cəlb olunmasını nəzərdə tutur. Maraqlı tərəflərin konsensus yolu ilə qərar qəbul etməsi, qrup şəklində müzakirələr və kollektiv qərarvermə universitetlərin daha səmərəli və optimal idarə olunmasına, həmçinin təhsil keyfiyyətinin yüksəlməsinə xidmət edir. Kurikulum hazırlanmasında iştirak və yeni Akkreditasiya Qaydaları çərçivəsində təhsilalanların və işəgötürənlərin nümayəndələrinin qiymətləndirmə prosesinə cəlb olunması bu prinsiplərin reallaşdırılmasının nümunəsidir.

Eyni zamanda, təhsil gənc nəslin şəxsi, ideoloji və vətəndaş kimi inkişafını dəstəkləyir və gələcəkdə etik, məsuliyyətli vətəndaşların formalaşmasına şərait yaradır.

Azərbaycan ali təhsil sistemində demokratikləşmənin istiqamətləri. Azərbaycan Respublikasında ali təhsil sahəsində inkişaf strategiyaları əsasən Keyfiyyətin İdarə Edilməsi (KİE) və Keyfiyyət Təminatı (KT) prinsiplərinə söykənir. Bu məsələlər Azərbaycan Respublikasının Prezidenti, Cənab İlham Əliyevin 2013-cü il tarixli Sərəncamı ilə

təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin keyfiyyətini başlıca strateji prioritet kimi müəyyən etmişdir. Bu strategiya "əlçatanlıq – keyfiyyət – səmərəlilik" şüarı ətrafında qurulmuş və Azərbaycan ali təhsilinin beynəlxalq rəqabətə davamlılığının artırılmasına yönəlmişdir. [7] Aparıcı beynəlxalq təhlillər göstərir ki, ölkənin ali təhsil müəssisələrinin reytinq göstəricilərinin yüksəldilməsi, həmçinin təhsilin beynəlxalq rəqabət qabiliyyətinin təmin edilməsi vacibdir. Strateji yanaşma müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, sərişte və təcrübəyə malik insan kapitalının əmək bazarına çıxışını dəstəkləmək üzərində qurulmuşdur. Bu istiqamətdə KT sisteminin qurulması, tələbə qəbulu qaydalarının təkmilləşdirilməsi, universitetlərdə keyfiyyətin təminatı mərkəzlərinin yaradılması və məzunların işlə təmin olunmasına xidmət edən karyera mərkəzlərinin fəaliyyəti ciddi uğurlar əldə etmişdir. Eyni zamanda, Azərbaycan 2015-ci ildən Ali Təhsildə Keyfiyyətin Təminatı üzrə Avropa Reyestri (EQAR) üzvü seçilmiş, bu isə Avropanın aparıcı universitetlərinin təcrübəsinin ölkəyə gətirilməsinə şərait yaratmışdır.

Ali təhsil müəssisələrində Keyfiyyət Təminatı Sistemi (KTS) təhsilin keyfiyyətinin saxlanması və inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. KTS, ATM-lərin beynəlxalq reytinqinin formalaşmasında və rəqabət üstünlüyü əldə etməsində vacib rol oynayır. Bu sistem daxili və xarici qiymətləndirmə proseslərini əhatə edir. Daxili KT universitetin rəhbərliyi, bütün fəaliyyətləri və maraqlı tərəfləri əhatə edən nəzarət mexanizmi kimi fəaliyyət göstərir, keyfiyyət anlayışının institusional mədəniyyətə çevrilməsini təmin edir. Xarici KT və akkreditasiya prosesi isə Azərbaycan kontekstində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) vasitəsilə həyata keçirilir. TKTA həm akkreditasiya, həm də daxili KT sistemlərinin qurulmasında metodiki dəstək verir. Akkreditasiya prosesi beynəlxalq standartlara uyğunlaşdırılmışdır; 2020-ci ildə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası qaydaları" Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlarla (ESG) uzlaşdırılmışdır. Keyfiyyətin idarə edilməsinin əsas metodologiyası isə Ümumi Keyfiyyət İdarəetməsi (TQM) prinsiplərinə əsaslanır ki, bu da təlimin yaxşılaşdırılmasını və xərc səmərəliliyinin artırılmasını hədəfləyir. [10, s.350-357]

İştirakçı idarəetmə modellərinin tətbiqi ali təhsil sistemində keyfiyyətin təmin olunması və demokratik dəyərlərin möhkəmləndirilməsi baxımından mühüm imkanlar yaradır. Demokratik idarəetmə prinsipləri fəaliyyətlərdən birbaşa və ya dolayısı ilə təsirlənən bütün insanların idarəetmədə iştirakını və sərbəst səs verməsini təmin edir. Universitetin maraqlı tərəfləri tələbələr, valideynlər, gələcək işəgötürənlər, hökumət və akademik heyəti əhatə edir. İştirakçı idarəetmə səlahiyyət və məsuliyyətin bölüşdürülməsini, qrup qərar qəbulu mexanizmini əhatə edir; beləliklə, maraqlı tərəflərin qərarlara cəlb olunması həm qərarın tətbiqi üçün dəstəyi artırır, həm də keyfiyyəti yüksəldir. Yeni Akkreditasiya Qaydaları vasitəsilə bu iştirak rəsmi mexanizmə çevrilir və təhsil müəssisəsinin fəaliyyətinin qiymətləndirilməsi zamanı müstəqil ekspertlərlə yanaşı işəgötürənlərin və tələbələrin nümayəndələrinin də prosese cəlb olunması təmin edilir. Proqram akkreditasiyası zamanı tədrisin məzmununun əmək bazarının tələblərinə uyğunluğu yoxlanılır və işəgötürənlərin rəyinin kurikuluma inteqrasiyası üçün əsas zəmin yaradılır.

Lakin ATM-lərin keyfiyyətli idarəetməyə keçidində bir sıra problemlər mövcuddur. Mərkəzləşmiş idarəetmə və muxtariyyət çatışmazlığı universitetlərin sərbəst fəaliyyətinə maneə törədir, çünki bir çox universitetlərin əsas inzibati və akademik funksiyaları sahiblər, Müşahidə Şurası və hökumət tərəfindən nəzarət edilir. Bu problem post-Sovet ölkələrinin təhsil sistemlərində xüsusilə müşahidə olunur və desentralizasiya islahatlarının vacibliyini vurğulayır. Şəffaflıq və hesabatlılığın zəifliyi keyfiyyət mədəniyyətinin formalaşmasına mənfi təsir göstərir, innovasiya və institusional təkmilləşməni zəiflədir, təhsilin nəticələrinin sosial ehtiyaclarla uyğunluğunu azaldır. Tələbə iştirakının məhdudluğu və narazılığı isə uyğun olmayan tədris materialları, əmək bazarına hazırlığın aşağı səviyyəsi, qeyri-kafi pedaqoji dəstək və qərəzli qiymətləndirmə sistemi ilə bağlıdır. Ənənəvi sovet təhsil sistemi tələbənin passiv fəaliyyətini nəzərdə tutduğundan, bu yanaşma insan kapitalının səmərəsini azaldır və təhsildən məmnuniyyətin aşağı olmasına səbəb olur. Bu problemlərin həlli üçün şəffaf seçim prosesləri, administrativ və pedaqoji heyətin müəssisə daxili keyfiyyət standartları ilə nizamlanması tövsiyə edilir.

Ali təhsildə keyfiyyətli idarəetmənin təkmilləşdirilməsi yolları. Ali təhsildə keyfiyyətli idarəetmənin təkmilləşdirilməsi məqsədilə demokratik idarəetmə prinsiplərinin tətbiqi vacibdir. Avropa universitetlərinin təcrübəsi, xüsusilə Skandinaviya ölkələrinin modeli, iştirakçı idarəetmənin təhsilin keyfiyyətinə necə təsir etdiyini açıq göstərir. Tarixi baxımdan Avropada ali təhsil müəssisələri milli dövlətlərin maliyyələşdirməsi və kollegial orqanlar tərəfindən idarə olunmağa meylli olmuşdur. Lakin Bolonya Prosesi və artan hesabatlılıq tələbləri universitetlərin idarəetmə strukturlarında əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklərin nəticəsində ikili idarəetmə strukturları daha inteqrasiya olunmuş, rollar və məsuliyyətlər rəsmiləşdirilmiş, qərar qəbulu prosesləri şəffaf və hesabatlı hala gətirilmişdir.

Polşada Varşava İqtisadiyyat Məktəbi (SGH) nümunəsi bu islahatların praktik nəticələrini göstərir. 1989-cu ildən sonra aparılan dəyişikliklər fakültələrin ləğvi, tədris proqramlarında sərbəstlik, tələbələrin mühazirəçiləri seçmək hüququ və universitetin idarəetməsində demokratikləşməni gücləndirilməsini əhatə etmişdir. Akademik liderlər beynəlmiləlləşməni keyfiyyətin yüksəldilməsi baxımından strateji prioritet kimi qiymətləndirirlər. Portuqaliya universitetlərində isə keyfiyyətin idarə edilməsinin inteqrasiyası hüquqi çərçivə tərəfindən dəstəklənir və keyfiyyət təminatı siyasətinin tətbiqini asanlaşdırır. Ümumiyyətlə, Avropa universitetlərində idarəetmə mədəniyyəti keyfiyyətin, ünsiyyətin və əməkdaşlığın təşviqi yolu ilə təşkilati mükəmməlliyə nail olmağa yönəlmişdir. [14]

Skandinaviya ölkələrində ali təhsil sistemi demokratiya və keyfiyyət məsələlərinə xüsusi yanaşması ilə fərqlənir. Nordik ənənədə keyfiyyət anlayışı təlim və tədris proseslərinə, qarşılıqlı əlaqəyə və tələbə yönümlü fəaliyyətə daha çox diqqət yetirir. İsveçin Keyfiyyətə Nəzarət üzrə Milli Agentliyinin (HSV) qiymətləndirmə modelində ali təhsil əsasən tələbəyə fokuslanır, demokratik dəyərlər bərabərlik və iştirakçılıq prinsiplərini əhatə edir. Helsinki Universiteti nümunəsində isə yüksək keyfiyyətli tədqiqat və təhsilin inkişafı, beynəlxalq əməkdaşlığın təşviqi və tələbələrin sosial məsuliyyətə yönəldilməsi diqqət mərkəzindədir. Tələbə İttifaqı və digər müştəri yönümlü qurumların fəaliyyəti universitetin tələbələrə göstərdiyi xidmətlərin keyfiyyətini artırır və sosial məsuliyyətin həyata keçirilməsini təmin edir. Ali təhsil proqramlarının çevikliyi və tələbələrin ixtisas seçim imkanları da öyrənmə keyfiyyətini yüksəldir.

Azərbaycan universitetləri isə Bolonya Prosesinin tətbiqi və Keyfiyyət Təminatı Agentliyinin yaradılması ilə beynəlxalq standartlara inteqrasiya yolundadır. Lakin mövcud mərkəzləşmiş idarəetmə praktikaları demokratik idarəetmə prinsiplərinin tam tətbiqini zəruri edir. İştirakçılığın genişləndirilməsi, səlahiyyət və məsuliyyətin bölüşdürülməsi, qrup qərar qəbulu prinsiplərinin inzibati və akademik fəaliyyətlərə inteqrasiyası vacibdir. Yeni Akkreditasiya Qaydaları bu istiqamətdə ilkin addımlar atmış, işəgötürənlərin və tələbələrin nümayəndələrinin qiymətləndirmə prosesinə cəlb olunmasını təmin etmişdir. Muxtariyyətin təmin edilməsi də vacibdir; universitetlər müstəqil fəaliyyət göstərməli, hökumət isə rəhbər deyil, tərəfdaş rolunu üzərinə götürməlidir.

Ali təhsilin keyfiyyətini artırmaq üçün proqramlar çevik olmalı, tələbələrə ixtisas və kurs seçimində sərbəstlik verilməlidir. Bu, motivasiyanı artıraraq təhsilin effektivliyini yüksəldir. Eyni zamanda, demokratik dəyərlər, bərabərlik, ədalət, dürüstlük, iştirakçılıq kurikulumlara daxil edilməli, bu da tələbələrin etik və sosial səriştələrinin inkişafına xidmət etməlidir. [5, s.111-115] Şəffaflıq və kadr siyasəti də diqqətdə saxlanmalı, inzibati və pedaqoji heyət üçün açıq seçim prosedurları tətbiq edilməlidir. Akkreditasiya edən qurumların qərarlarının ictimaiyyətə açıqlanması şəffaflığı möhkəmləndirir. Bu prinsiplərin kollektiv və ardıcıl tətbiqi Azərbaycan universitetlərinin yüksək keyfiyyətli təhsilə, rəqabətqabiliyyətli kadr hazırlığına və demokratik idarəetmə modelinə keçidini təmin edə bilər.

Müəllif tərəfindən aparılmış sorğu və onun nəticələri

1) Ali təhsilin idarəedilməsi üzrə demokratikləşməni hansı sözlə xarakterizə edərdiniz? (məs. əlçatanlıq, bərabərlik, iştirakçılıq, şəffaflıq və s.) Demokratikləşmə prosesi ali təhsil müəssisələrində keyfiyyət göstəricilərinə hansı dərəcədə təsir göstərir?

Professor Şahlar Əsgərov bildirir ki, məktəb və müəllimə yanaşmada administrativ və demokratik baxış mövcuddur. Bsirincidə hər kəs nazirliyin göstərişlərinə əməl edir, ikincidə isə nazirlik müəllim və tələbəyə dəstəkçi olur. Onun fikrincə, rektor ali təhsildə əsas fiqurdur və uğurlu təyinat vacibdir. Əvvəllər rektor seçimi qismən demokratik mexanizmlərlə nəzərdə tutulsa da, bu gün ali məktəblərdəki İctimai Şuralar ictimai nəzarətdə yetərincə səmərəli deyil və onların Nazirlik yanında İctimai Şura ilə birgə fəaliyyəti zəruridir. [2]

Qeyd olunan nümunə ilə yanaşı, bir çox təhsil ekspertlərinin verdiyi cavabları ümumi təhlil etdikdə aydın olur ki, ali təhsil idarəetməsində demokratikləşmənin əsas göstəricisi qərarvermə prosesində iştirakçılığın genişləndirilməsidir. Mənim fikrimcə, bu iştirakçılıq yalnız formal prosedur kimi qalmamalı, həm də institusional idarəetmə mədəniyyətinə çevrilməlidir. Belə olduqda, demokratikləşmə yalnız sənədlərdə yox, gündəlik fəaliyyətlərdə və qərarların qəbulunda da öz əksini tapır ki, bu da təhsilin keyfiyyətinə birbaşa müsbət təsir göstərir.

Ekspertlər qeyd edirlər ki, Azərbaycan ali təhsil sistemində əsas problem demokratik mexanizmlərin ümumiyyətlə mövcud olmaması deyil, onların effektiv işləməməsidir. Mən bu arqumentlə razıyam, çünki formal olaraq qurulmuş şuralar və komitələr bəzən yalnız simvolik funksiyaya malik olur və qərarların qəbulunda real təsir göstərə bilmir. Bu problemi aradan qaldırmaq üçün, demokratik mexanizmlərin səlahiyyətləri aydın müəyyən edilməli, maraqlı tərəflərin iştirak səviyyəsi artırılmalı və qərarvermə prosesinə sistemli şəkildə inteqrasiya edilməlidir. Belə yanaşma həm şəffaflığı gücləndirir, həm də ali təhsil müəssisələrində keyfiyyət mədəniyyətinin formalaşmasına töhfə verir.

2. Demokratik idarəetmədə gördüyümüz tələbə-müəllim-valideyn-rəhbərlik mexanizmi hansı səviyyədə tətbiq olunur və demokratikləşmə prosesinə necə təsir edir?

İlqar Orucov qeyd edir ki, "Təhsil Nazirliyi yanında yaradılan İctimai Şura ictimai nəzarəti gücləndirərək müzakirələr, görüşlər və vətəndaş müraciətlərinin həlli vasitəsilə nazirliklə ictimaiyyət arasında əməkdaşlığı inkişaf etdirib". [6]

Bu sualın cavablarının ümumi analiz etsək, görə bilərik ki, bir çox ekspertlər idarəetmədə "İdarəetmə Şuraları"nın fəaliyyətinin gücləndirilməsini vacib hesab edirlər. Fikrimizcə, bu, ali təhsil müəssisələrinin şəffaflığını və hesabatlılığını artırmaq üçün əsas amillərdən biridir. İdarəetmə sistemi daxili və xarici tərəflər üzrə təşkil olunub, daxili tərəf müəllimlər və tələbələrdən, xarici tərəf isə valideynlər, rəhbərlik və digər maraqlı tərəflərdən ibarətdir. Xarici tərəflərin sərbəst rəy və təklif bildirməsi təhsilin cəmiyyətin tələblərinə uyğunlaşdırılmasına yardımçı olsa da, akademik keyfiyyətin qorunması məqsədilə daxili tərəfin fəaliyyətinə birbaşa müdaxilə etməsi təhlükəli ola bilər.

Əlavə olaraq, idarəetmə şuralarının effektivliyi üçün onların vəzifələri və səlahiyyətləri dəqiq müəyyən edilməli, qərarvermə prosesində həm iştirakçılıq, həm də peşəkarlıq prinsipləri tarazlaşdırılmalıdır. Məsələn, tələbələrin və müəllimlərin kurikulum və tədris metodlarına dair təklifləri nəzərə alınmalı, lakin yekun qərarlar akademik heyət və rektor tərəfindən verilməlidir. Bu yanaşma həm demokratik prinsipləri gücləndirir, həm də təhsilin keyfiyyətinə mənfi təsirin qarşısını alır. İdarəetmədə balansın qorunması, xarici tərəflərin təşviqi və daxili tərəfin akademik müstəqilliyinin təmin edilməsi, ali təhsildə demokratik idarəetmənin və keyfiyyətli təhsilin inkişafı üçün əsas şərtdir. Bu, həm şəffaflığı, həm də institusional etibarlılığı artıraraq, universitetlərin uzunmüddətli rəqabətqabiliyyətini təmin edir.

2) Demokratik idarəetmənin xüsusiyyətlərindən hesab edilən akademik azadlığın tətbiq edilməsi halında sonda hesabatlılıq və nəticəyönümlülük arasında uyğun balansı necə yaratmaq olar?

Professor Hamlet İsaxanlı qeyd edir ki, *"Akademik azadlıq mövzuların müzakirəsinə şərait yaratmaq, amma onların təbliğini qadağan etməkdir, universitet avtonomiyası isə tam müstəqilliyi və özünüidarəetməni təmin edir. O bildirir ki, Sovet dövründə akademiyalar ideoloji və texniki məqsədlərə xidmət etsə də, postsovet məkanında böhrana uğradı, halbuki Polşa, Gürcüstan və Pribaltika layihə əsaslı maliyyələşmə ilə sistemi səmərəliləşdirdilər və bu gün tədqiqat institutları universitetlərlə birləşərək həm tədris, həm də elmlə məşğul olur".* [2]

Ekspertlər hesab edirlər ki, akademik azadlıq təhsilin obyektivliyinin təmin edilməsi və tədrisin effektivləşdirilməsi prosesində mühüm rol oynayır. Lakin bu azadlıq tələbələrdə məsuliyyətsizlik hissinin formalaşmasına səbəb olmamalıdır. Bunun qarşısını almaq üçün akademik azadlıq sistemli və planlı şəkildə həyata keçirilməli, tələbələrə məsuliyyətli davranış prinsipləri aşılanmalıdır.

Eyni zamanda ekspertlər vurğulayırlar ki, həddindən artıq nəzarət keyfiyyətli təhsilin təmin edilməsinə və tələbələrin sərbəst düşüncə qabiliyyətinin inkişafına mənfi təsir göstərə bilər. Təhsil prosesində balansın qorunması, yəni tələbələrin azadlığının təmin edilməsi ilə keyfiyyətli nəzarətin və idarəetmənin birləşdirilməsi əsas prioritetdir.

Bu kontekstdə keyfiyyətin qiymətləndirilməsi üçün obyektiv göstəricilərdən istifadə edilməlidir. Hesabat dövrünün sonunda akademik nəticələr və şəffaflıq göstəriciləri sistemli şəkildə təhlil olunmalı, təhsil müəssisələrinin performansı və demokratik idarəetmə prinsiplərinin tətbiqi qiymətləndirilməlidir. Bu yanaşma həm təhsilin keyfiyyətini artırır, həm də universitetlərin fəaliyyətində şəffaflığı təmin edir, iştirakçı idarəetmə mexanizmlərinin effektivliyini gücləndirir.

Fikrimizdə akademik azadlıq və məsuliyyətli idarəetmə bir-birini tamamlamalıdır. Yəni yalnız sərbəstlik verməklə deyil, eyni zamanda tələbələr və akademik heyət üçün konkret qaydalar və şəffaf qiymətləndirmə mexanizmləri də tətbiq edilməlidir. Əks halda, azadlıq kaotik vəziyyət yarada və təhsilin keyfiyyətinə zərər verə bilər və Azərbaycan ali təhsilində demokratikləşmə prosesində əsas prioritet universitetlərin muxtariyyətini və qərarvermə səlahiyyətlərini artırmaq olmalıdır. Rektorların seçimi, təhsil prosesinin çevikliyi və tələbə iştirakının gücləndirilməsi yalnız formal tədbirlər olmamalıdır, onların real təsiri olmalıdır. Bundan əlavə, akademik nəticələrin qiymətləndirilməsi və şəffaf hesabat mexanizmləri hər bir universitet üçün bir növ "sınaq lövhəsi" rolunu oynayır. Yəni azadlığın və kreativliyin təhsil prosesinə gətirdiyi fayda yalnız nəticələr və performans göstəriciləri ilə ölçülə bilər. Əgər nəticələr və şəffaflıq təmin olunursa, bu həm tələbələrin, həm də müəllimlərin məsuliyyətli və aktiv iştirakını təmin edir. Qısacası demokratik idarəetmə və akademik azadlıq bir-birindən ayrı funksiyalar deyil; onlar yalnız birgə tətbiq olunduqda təhsilin keyfiyyətinə real təsir göstərə bilər. Mən hesab edirəm ki, bu yanaşma həm təhsildə innovasiya, həm də tələbələrin sosial və etik yetişməsi üçün ən səmərəli modeldir.

3) Ali təhsilin demokratikləşməsi prosesində keyfiyyətli idarəetmənin təkmilləşdirilməsi

sahəsində qarşılaşdığımız ən böyük çətinliklər hansılardır? (məs. siyasi, bürokratik, maliyyə və s.) Bu kimi çətinliklərin aradan qaldırılması üçün təkliflərniz nələrdir?

İlqar Orucov bildirir ki, ali təhsildə idarəetmə sistemi təkmilləşdirilmiş, köçürmələr elektronlaşdırılmış, "SABAH" qrupları peşəkar kadr hazırlığına töhfə vermiş, ali təhsilə əlçatanlıq və tələbələrin sosial müdafiəsi gücləndirilmiş, ikili diplom proqramları tətbiq olunmuş və Təhsil Tələbə Krediti Fondu isə bərabər imkanlar yaradaraq təhsilin əhatəsini genişləndirmişdir. [6]

Professor Nizami Xuduyev qeyd edir ki, müstəqilliyin ilk illərində təhsildə özfəaliyyət və hərc-mərclik nəticəsində ali məktəblər ciddi böhran yaşamış, nizam-intizam pozulmuş, maddi-texniki baza dağılmış və tələbələr siyasi məqsədlərə alət edilmişdir. Onun fikrincə, uzunmüddətli strategiyanın reallaşmaması vəziyyəti daha da ağırlaşdırmış, lakin Avropaya inteqrasiya fonunda təhsilin inkişafı üçün milli səviyyədə konkret hədəflər müəyyənləşdirilməli, planlı tərəqqi keyfiyyətli dəyişikliklərə yol açа bilər. [8]

Kamran Əsədov qeyd edir ki, Azərbaycan təhsil sistemi hələ də ənənəvi metodlara əsaslanır və tələbələrə hazır bilik ötürməyə üstünlük verir, halbuki qlobal təcrübə tənqidi düşüncə, yaradıcılıq və dəyərlərin öyrədilməsini önə çəkir. Onun sözlərinə görə, məqsəd müstəqil və məsuliyyətli vətəndaş yetişdirməkdir; Yaponiyada ilk illərdə qiymətlərin olmaması buna nümunədir. Ekspert vurğulayır ki, ali təhsildə nəzəriyyədən çox praktiki bacarıqlara yönəlmək və təhsili əmək bazarının tələbləri ilə uzlaşdırmaq vacibdir, çünki məzunların təxminən 35%-i ixtisası üzrə işlə təmin olunmur. Bu isə demokratik və tələbəyönümlü idarəetmənin vacibliyini göstərir. [1]

Bu suala verilmiş cavabları dərindən analiz etdikdə, aydın olur ki, Azərbaycan ali təhsil sistemində demokratik idarəetmənin inkişafını əngəlləyən əsas maneələr daha çox sistem səviyyəsində yaranır. Bu, yalnız fərdi universitetlərin və ya konkret rektorların fəaliyyəti ilə izah edilə bilməz; problemin kökü idarəetmənin struktur və strategiya səviyyəsində mövcudluğundadır.

Birinci baxışa əsasən, hələ də idarəetmədə uzunmüddətli strateji planların olmaması ali təhsilin inkişafını ciddi şəkildə məhdudlaşdırır. Əgər universitetlərin inkişafına dair aydın və müstəqil strategiyalar mövcud deyilsə, rektorların və akademik heyətin təşəbbüsləri müvəqqəti və təsadüfi xarakter daşıyır. Bu, həm tələbə yönümlü tədrisin təşkili, həm də akademik azadlıq prinsiplərinin qorunması baxımından ciddi çatışmazlıqlar yaradır.

İkinci baxışa görə, pedaqoji çevikliyin zəif olması, yəni proqramların və tədris metodlarının yeni çağırışlara uyğun şəkildə çevik şəkildə yenilənməməsi, tələbələrin tənqidi düşünmə qabiliyyətlərinin inkişafına mane olur. Kamran Əsədovun da qeyd etdiyi kimi, ənənəvi metodlar faktların əzbərlənməsinə üstünlük verir və öyrənmə motivasiyasını aşağı salır. Əgər pedaqoji çeviklik artırılarsa, tələbələr öz öyrənmə prosesinə daha çox müdaxilə edə, fərdi maraqlarını inkişaf etdirə və əmək bazarının tələblərinə uyğun bacarıqlar qazana bilərlər. [12]

Üçüncü aspect, tənqidi yanaşmalara qarşı immunitetin zəif olması akademik azadlıq və demokratik idarəetmə prinsiplərinin tətbiqinə mane olur. Hamlet İsaxanlının vurğuladığı kimi, akademik azadlıq yalnız müzakirə və təhlili deyil, həm də məsuliyyətlə yanaşmanı tələb edir.

Beləliklə, sistem səviyyəsindəki maneələrin aradan qaldırılması üçün strateji planlamanın möhkəmləndirilməsi, pedaqoji çevikliyin artırılması və tənqidi yanaşmalara hörmətin təmin edilməsi vacibdir. Bu üç istiqamət bir-birini tamamlayaraq, ali təhsil müəssisələrində keyfiyyətli və demokratik idarəetmənin formalaşmasına xidmət edə bilər.

4) Ali təhsilin demokratikləşməsində beynəlxalq təcrübəni nəzərə alsaq, sizcə, hansı ölkənin təcrübəsi bizim üçün ən uyğunu olar? Və həmin təcrübə yerli şəraitə necə uyğunlaşdırıla bilər?

Ekspert Kamran Əsədov vurğulayır ki, təhsilin əsas məqsədi qlobal düşünən, lakin yerli problemləri həll edə bilən vətəndaşlar yetişdirməkdir; Sinqapur nümunəsində olduğu kimi, tələbələr həm müasir texnologiyaları və beynəlxalq dilləri mənimsəməli, həm də milli kimliyi qoruyub saxlamalıdırlar. Onun sözlərinə görə, təhsil insan həyatında ən böyük sərmayədir və məqsəd yalnız imtahan nəticələri deyil, həm də problemləri həll edə bilən, yaradıcı və məsuliyyətli nəsil formalaşdırmaqdır. [1]

İlqar Orucova görə isə, "*Ümumi təhsilin keyfiyyətini yüksəltmək və məzmun islahatlarını dərinləşdirmək tələbi dərsliklərin hazırlanması siyasətinə yeni baxış gətirib. Təhsilin məzmun komponenti kimi formalaşdırılan dərsliklərin yaradılması sahəsində Sinqapurun qabaqcıl təcrübəsi Azərbaycanda tətbiq edilməyə başlanıb. Bu təcrübənin tətbiqi xüsusilə təbiət fənləri üzrə təhsil proqramlarının yenilənməsinə, yeni nəsil dərsliklərin formalaşdırılmasına və çağırışlara cavab verəcək modern dərslik sisteminin qurulmasına imkan yaradacaq."* [6]

Bildiyimiz kimi, ölkəmizdə ali təhsil sistemində son dövrlərdə beynəlxalq təcrübənin tətbiqi sahəsində mühüm addımlardan biri Avropa Ali Təhsil Məkanına (Bolonya prosesi) inteqrasiya olub. Ekspertlər

beynəlxalq təcrübənin tətbiqi məsələsində xüsusilə Sinqapur modelini vurğulayırlar. Onlar hesab edirlər ki, Sinqapurun təhsil sistemi yalnız faktların öyrədilməsi ilə kifayətlənmir, eyni zamanda tələbələrin tənqidi düşünmə, yaradıcılıq və praktiki bacarıqlarının inkişafına fokuslanır. Bu, Azərbaycanın ali təhsil sistemində də tələb olunan keyfiyyət standartlarının yüksəldilməsi baxımından əhəmiyyətlidir. Lakin beynəlxalq təcrübənin tətbiqində əsas prinsip mexaniki kopyalamadan uzaq olmaqdır. Hər bir təcrübə yerli şəraitə uyğunlaşdırılmalı, milli mədəniyyət, sosial-iqtisadi faktorlar və mövcud akademik infrastruktur nəzərə alınmalıdır. Məsələn, Sinqapur modelinə əsaslanaraq dərsliklərin və tədris proqramlarının yenilənməsi uğurlu nəticələr verə bilər, lakin bu proqramların yerli müəllim və tələbə resursları, dil və metodoloji imkanlarla uyğunlaşdırılması zəruridir.

Nəticə və təkliflər

Ali təhsil müəssisələrində keyfiyyətli idarəetmənin təkmilləşdirilməsi, idarəetmənin demokratikləşdirilməsi ilə birbaşa bağlıdır. Demokratik idarəetmə prinsiplərinin tətbiqi ali təhsilin keyfiyyətinin yüksəldilməsi və universitetlərin yüksək səviyyəli institusional performans göstərməsi üçün vacibdir. Bu məqsədlə Azərbaycanda ali təhsilin inkişafı üçün aşağıdakı məsələlərin nəzərə alınması məqsədəuyğundur:

• **Qərarvermə mexanizmlərinin demokratikləşdirilməsi və idarəetmənin muxtariyyətinin təmin edilməsi:** Səlahiyyətin və məsuliyyətin bölüşdürülməsi, qrup şəklində qərar qəbul edilməsi və üfüqi şəbəkə tipli təşkilati strukturun yaradılması ali təhsilin keyfiyyətinə birbaşa təsir göstərir. UBOT-un bütün maraqlı tərəfləri təmsil etməsi və rektoru ən yaxşı namizədlər arasından seçməsi, ona universitetin strateji siyasətlərini icra etmək üçün tam səlahiyyət verilməsi idarəetmənin demokratikləşdirilməsini təmin edir. Qeyd edək ki, UBOT strateji idarəetmə orqanı kimi fəaliyyət göstərir və universitetin qanunvericiliklə və nizamnamə ilə müəyyən edilmiş əsas strateji qərarlarının qəbul edilməsində mərkəzi rol oynayır. UBOT-un tərkibi müxtəlif maraqlı tərəfləri əhatə edir: dövlət orqanlarının nümayəndələri, akademik heyət, tələbələr, məzunlar, işəgötürənlərin nümayəndələri və xüsusi ekspertlər. Bu geniş təmsilçilik universitetin idarəetmə prosesində iştirakçılığın təmin olunmasına və qərarların daha şəffaf və demokratik olmasına imkan yaradır. UBOT-un funksiyaları universitetin strateji planlaşdırılması və nəzarətindən başlayaraq rektorun seçilməsi və fəaliyyətinin qiymətləndirilməsinə, maliyyə və büdcə məsələlərinə, akademik və inzibati siyasətlərin təsdiqinə qədər geniş sahəni əhatə edir. UBOT, həmçinin universitetin bütün fəaliyyətinin maraqlı tərəflər qarşısında hesabatlı olmasını təmin edir və ali təhsil müəssisələrinin akademik və inzibati muxtariyyətini qoruyur. Bu baxımdan, UBOT-un mövcudluğu və effektiv fəaliyyəti ali təhsildə keyfiyyətli idarəetmə və demokratik prinsiplərin tətbiqi üçün əsas şərtlərdən biridir. Əlavə olaraq, UBOT-un demokratikləşdirilmiş modeli universitetlərdə səlahiyyət və məsuliyyətin bölüşdürülməsi, qrup qərar qəbuletmə mexanizmlərinin tətbiqi və üfüqi şəbəkə təşkilati strukturlarının formalaşdırılması ilə ali təhsilin keyfiyyətinin yüksəldilməsinə birbaşa təsir göstərir. Bu, həm universitetin daxili idarəetmə mədəniyyətini, həm də tələbə və akademik heyətin fəaliyyətini stimullaşdırır, qərarların tətbiqində dəstək yaradır və ali təhsilin beynəlxalq standartlara uyğunlaşmasını təmin edir. Hökumət universitetlər üçün rəhbər deyil, tərəfdaş rolunu oynamalı, maliyyə dəstəyini artırmalı, amma fəaliyyətin müstəqillik və azadlıq prinsiplərinə müdaxilə etməməlidir.

• **İştirakçılığın gücləndirilməsi və keyfiyyət təminatı prosesində maraqlı tərəflərin rolunun artırılması:** Kurikulumun demokratik prinsiplər əsasında hazırlanması və CIC-də UBOT, fakültə üzvləri, tələbələr, dövlət və özəl qurumlar, məzunlar, cəmiyyət və hökumət nümayəndələrinin iştirakının təmin edilməsi proqramların keyfiyyətini və sosial əhəmiyyətini artırır. Təhsil proqramlarının tələbələrə sevdikləri ixtisas və kursları seçmək imkanı verəcək qədər çevik olması onların motivasiyasını və öyrənmə keyfiyyətini yüksəldir. Yeni Akkreditasiya Qaydalarına uyğun olaraq işəgötürənlərin və tələbələrin nümayəndələrinin qiymətləndirmə prosesinə cəlb edilməsi və proqram akkreditasiyası vasitəsilə tədrisin əmək bazarının tələblərinə uyğunluğunun qiymətləndirilməsi iştirakçılığın artırılması və keyfiyyətin təmin edilməsi üçün əsasdır.

• **Şəffaflıq, hesabatlılıq və keyfiyyət mədəniyyətinin təşviqi:** İnzibati və pedaqoji heyət üçün şəffaf seçim proseslərinin tətbiqi tədris keyfiyyətinə müsbət təsir göstərir və mənfi institusional mədəniyyətin qarşısını alır. Rəhbərliyə qəbul edilmiş heyətin müəssisə daxili keyfiyyət standartları ilə uyğunlaşdırılması, səlahiyyətlərin akademik göstəricilər və səriştələrə əsaslanması idarəetmədə effektivliyi təmin edir. Keyfiyyət təminatından məsul şəxslərin qərar və tövsiyələrinin əsas götürülməsi toksik mühit və maraq toqquşmalarını azaldır. Keyfiyyət anlayışının institusional mədəniyyətə çevrilməsi və bütün işçilərin iştirakının təmin edildiyi təlimlər və məlumatlandırma tədbirlərinin keçirilməsi sosial tərəfdaşlıq və əməkdaşlığı gücləndirir. Təhsil müəssisələrinin fəaliyyətinə dair məlumatların ictimaiyyətə açıq təqdim olunması və elektron akkreditasiya

sistemlərinin tətbiqi şəffaflığın artırılmasına və idarəetmənin rəqəmsallaşdırılmasına xidmət edir.

• **Təlim prosesinə demokratik dəyərlərin inteqrasiyası:** Təhsil proqramlarına bərabərlik, ədalət, dürüstlük, paylaşma və iştirak kimi demokratik dəyərlərin daxil edilməsi tələbələrin etik və sosial məsuliyyətini inkişaf etdirir. Tədris prosesində tənqidi təfəkkür, problem həll etmə, yaradıcılıq və analitik bacarıqların inkişafına yönələn metodların tətbiqi tələbələrin bilik və bacarıqlarını artırır. ATM-lərin tədris və tədqiqat fəaliyyətlərini stimullaşdırması, tədqiqat və innovasiya mədəniyyətini təşviq etməsi tələbələrin problem həll etmə və analitik bacarıqlarının inkişafını dəstəkləyir. Beləliklə, qərarvermə mexanizmlərinin demokratikləşdirilməsi, iştirakçılığın gücləndirilməsi, şəffaflıq və keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsi, təlim prosesinə demokratik dəyərlərin inteqrasiyası Azərbaycan ali təhsil müəssisələrində keyfiyyətli idarəetmənin əsas istiqamətləri kimi çıxış edir. Bu prinsiplərin ardıcıl və kollektiv tətbiqi universitetlərin yüksək keyfiyyətli təhsil təqdim etməsinə və rəqabətqabiliyyətli kadr hazırlığına şərait yaradır.

ƏDƏBIYYAT SIYAHISI:

1. Əsədov, K. Azərbaycan təhsil sistemi hələ də ənənəvi metodologiyaların təsirindədir // Tehsil.biz, 1 yanvar 2025. [Elektron resurs] :https://www.tehsil.biz/news/az/80903/Kamran-sdov-Azrbaycan-thsil-sistemi-hl-d-nnvi-metodologiyalarn-tsirinddir (əlyetənlik tarixi: 30.09.2025).

2. **Gürüz, K. Akademik azadlıq və universitet** avtonomiyası: bu, necə olmalıdır? // Ayna. – 13 fevral 2011. – [Elektron resurs] :https://news.milli.az/society/36883.html (əlyetənlik tarixi: 30.09.2025).

3. Həsənzadə, R. Ali təhsil müəssisələrində keyfiyyətin təmin olunmasında akkreditasiyanın rolu // Azərbaycan məktəbi, № 2 (703), 2023. – S. 66–72.

4. Muştaqov, Ə. Ali təhsil müəssisələrində keyfiyyətin təmin edilməsində keyfiyyət təminatı sistemi və akkreditasiya amili // III. İqtisadiyyat və İdarəetmə Sahəsində Magistr və Doktorantların Beynəlxalq Elmi Konfransı, 4–7 iyun 2021, Gəncə, Azərbaycan.

5. Nəzərov, M. Təhsilin keyfiyyətinin idarə edilməsinin sosiomədəni aspektləri = Socio-cultural aspects of quality management of education = Eğitimin kalite yönetiminin sosyolojik yönleri // Cilt / Volume 2, Sayı / Issue 3. – 2019. – P. 111–124. – E-ISSN: 2667-4688.

6. Orucov, İ. Təhsilimizin uğurları gələcəyimizin təminatıdır // YeniMedia, 2 avqust 2021. [Elektron resurs] : https://yenimedia.net/2021/08/02/t%C9%99hsilimizin-ugurlari-g%C9%99l%C9%99c%C9%99yimizin-t%C9%99minatidir-ilqar-orucov/ (əlyetənlik tarixi: 30.09.2025).

7. Talibova, E. Ali təhsil müəssisələrində keyfiyyət təminatı strategiyaları // XI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu, Bakı, 11–13 iyun 2024.

8. Xudiyyev, N. Azərbaycanın müasir təhsil sistemi: problemlər, düşüncələr, mülahizələr // Yeni Azərbaycan, 6 dekabr 2012. [Elektron resurs] : https://www.yeniazerbaycan.com/Elm_e10820_az.html (əlyetənlik tarixi: 30.09.2025).

9. Barrett, A. M., Chawla-Duggan, R., Lowe, J., Nikel, J., Ukpo, E. The concept of quality in education: a review of the 'international' literature on the concept of quality in education // EdQual Working Paper, No. 3. – 2006. – 23 p. – University of Bristol, UK; University of Bath, UK.

10. Gora, A. A., Popa, I., Ștefan, S. C. Quality management in higher education system: a literature review // Proceedings of the 12th International Management Conference "Management Perspectives in the Digital Era", Bucharest, Romania.- November 1–2, 2018. – P. 350–357.

11. Kabak, K. E., Tüysüz, F., Kuzaliç, D., Şen, A. Democratization of university management for quality higher education // Procedia – Social and Behavioral Sciences, 2012. – Vol. 58. – P. 1491–1504.

12. Nagymzhanova, K. M., Aikenova, R., Dzhanbubekova, M. Z., Magavin, S. S., Irgebaeva, N. M. The importance of educational quality management in improving student's capital = La importancia de la gestión de calidad educativa para mejorar el capital humano estudiantil // Revista ESPACIOS, 2018. – Vol. 39, № 30. – ISSN 0798-1015.

13. Rezeanu, O. M. The implementation of quality management in higher education // Procedia – Social and Behavioral Sciences, 2011. – Vol. 15. – P. 1046–1050.

14. Wysocka, K., Jungnickel, C., Szelągowskarudzka, K. Internationalization and quality assurance in higher education // Management, 2022. – Vol. 26, No. 1. – DOI: 10.2478/manment-2019-0091.

DOİ: 10.32010/PIBI3069

SƏFƏVİLƏR DÖVRÜNDƏ İRƏVAN BÖLGƏSİNİN ETNİK-DİNİ TƏRKİBİNDƏKİ DƏYİŞİKLİKLƏRİN DİNİ, SİYASİ VƏ İQTİSADİ ASPEKTLƏRİ

Əli Siyab BABAZADƏ
Bakı Dövlət Universiteti, doktorant
Azərbaycan Universiteti, müəllim
ORCID: 0009-0007-6072-8780
E-mail: ali.babazade@au.edu.az

Xülasə: Bəhs olunan məqalədə Səfəvi dövründə Azərbaycanın İrəvan bölgəsində etnik-dini dəyişikliklərin dinamikası izlənilmiş və bu dəyişikliklər dini, siyasi və iqtisadi aspektdən ətraflı təhlil edilmişdir. Araşdırmalar göstərir ki, Səfəvi dövründə İrəvan bölgəsinin etnik xəritəsi rəngarəng olmuş, bu coğrafiyada yaşayan və azlıq təşkil edən qeyri-müsəlman əhaliyə orta əsrlər üçün xarakterik olmayan tolerant münasibət mövcud olmuşdur. Səfəvilər dövründə İrəvan bölgəsinin etnik-dini tərkibi mürəkkəb və dəyişkən bir dinamikaya malik olmuşdur. Bu dəyişikliklərin arxasında duran başlıca amillər dini siyasət, siyasi hərbi qarşıdurmalar və iqtisadi maraqlar idi. Hər üç amil bir-biri ilə sıx əlaqədə olaraq bölgənin demoqrafik mənzərəsini formalaşdırmışdır. Səfəvilər dövründə İrəvan bölgəsinin etnik-dini tərkibi daimi dəyişiklik vəziyyətində idi. XVI əsrin əvvəlində burada tarixən formalaşmış birgəyaşayış (müsəlman çoxluq və erməni azlıq) mövcud idisə, əsrin ortalarında sürgün və köçürmələr nəticəsində demoqrafik boşluqlar yaranmış, əsrin sonunda isə qismən yeni tarazlıq bərqərar olmuşdu. Bütün bu proseslərdə dini tolerantlıq siyasəti erməni icmasının varlığını qoruyub saxlamağa şərait yaratmış, iqtisadi maraqlar onları yeni coğrafi məkanlara dağıtmış, siyasi müharibələr isə həm məhv, həm də yenidən məskunlaşdırma ilə nəticələnmişdir. İrəvan bölgəsinin tarixi demoqrafiyasına dair bu araşdırma göstərir ki, etnik-dini tərkib statik olmayıb, əksinə, dövlət siyasəti və regional geosiyasi hadisələrdən asılı olaraq dəyişkənlik göstərir. Səfəvi dövründə baş vermiş bu dəyişikliklər sonrakı əsrlərdə – İrəvan xanlığı və Rusiya imperiyası dönəmində bölgənin dini-etnik durumuna bir baza hazırlamışdır. Məsələn, XVIII əsrin sonu və XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin böyük hissəsi müsəlmanlardan ibarət idi və ermənilər sayca azlıq təşkil edirdi ki, bu, Səfəvi dövründən miras qalmış vəziyyət idi. Eyni zamanda, ermənilərin regionda tamamilə yox olmayıb toplu halda yaşaması (Eçmiədzin kilsəsinin orada mövcudluğu və s.) da Səfəvilərin tolerant siyasətinin nəticəsi idi. Səfəvi şahlarının Osmanlı dövləti ilə müharibələrin gedişatı zamanı zamanı gələcəkdə bölgədə demoqrafik dəyişikliklərə səbəb olacaq qərarları, iqtisadi yüksəlişi təmin etmək üçün həyata keçirdikləri köçürmə siyasəti və s. səbəblər bölgənin etnik-dini tərkibinin dəyişilməsində müəyyən rol oynamışdır.
Açar sözlər: İrəvan, Səfəvi, etnik, etnik-dini, etnokonfessional, əhali, köçürmə, status

RELIGIOUS, POLITICAL AND ECONOMIC ASPECTS OF CHANGES IN THE ETHNIC-RELIGIOUS COMPOSITION OF THE IRAVAN REGION DURING THE SAFEVIDS

Ali Siyab BABAZADE
Doctoral student, Baku State University
Teacher, University of Azerbaijan
ORCID: 0009-0007-6072-8780
E-mail: ali.babazade@au.edu.az

Abstract: The dynamics of ethnic changes in the Yerevan region of Azerbaijan in the Safavid period were watched in the Safavid, and these changes were analyzed in detail in religious, political and economic aspect. Studies show that during the Safavid, the ethnic map of the Iravan region was colorful, and the non-Muslim population living in this geography has been a non-Muslim population for medieval. During the Safavid, the ethnic and religious composition of the Iravan region had a complex and changeable dynamics. The main factors behind these changes were religious policy, political military conflicts and economic interests. All three factors have formed a demographic view of the region in close contact with each other. During the Safavid, the ethnic and religious composition of the Iravan region was in a situation. At the beginning of the 16th century, there was a historicism (Muslim majority and Armenian minority), as a result of exile and transfers in the middle of the century, and in the century, in the century, in the century, and in the century, in the middle of the century, partially established a new balance. In all these processes, the policy of religious tolerance has created conditions for preserving the presence of the Armenian community, and the economic interests destroyed them into new geographical locations, and political wars have resulted in both destruction and re-settlement. This study of the historical demographer of the Iravan region shows that there has been an ethnicity static, but the opposite, indicates variability depending on state policy and regional geopolitical events. These changes

in the Safavid period have developed a base in the next centuries - the Iravan khanate and the religious and ethnic situation in the region during the Russian Empire. For example, in the end of the 18th century and in the early 19th century, the largest part of the Iravan khanate was a minority, which was inherited from the Safavid period. The decisions of the Safavid kings will lead to demographic changes in the region during the course of wars during the Ottoman state will lead to demographic changes in the region, the transfer policy implemented to ensure economic rise, etc. The reasons played a role in the change in the ethnic and religious composition of the region.
Keywords: Yerevan, Safavid, ethnic, ethno-religious, ethno-confessional, population, resettlement, status.

РЕЛИГИОЗНЫЕ, ПОЛИТИЧЕСКИЕ И ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ ИЗМЕНЕНИЙ В ЭТНО-РЕЛИГИОЗНОМ СОСТАВЕ ИРЕВАНСКОГО РЕГИОНА В ЭПОХУ СЭФЕВИДОВ

Али Сияб БАБАЗАДЕ
Бакинский государственный университет
ORCID: 0009-0007-6072-8780
Электронная почта: ali.babazade@au.edu.az

Резюме: В статье прослеживается динамика этнорелигиозных изменений в Иреванском регионе Азербайджана в период Сефевидов и проводится их подробный анализ с религиозной, политической и экономической точек зрения. Исследования показывают, что в период Сефевидов этническая карта Иреванского региона была разнообразной, а к немусульманскому населению, проживающему в этой географической зоне и составляющему меньшинство, относились толерантно, что нетипично для Средневековья. Этнорелигиозный состав Иреванского региона в период Сефевидов имел сложную и изменчивую динамику. Основными факторами этих изменений были религиозная политика, военно-политические конфликты и экономические интересы. Все три фактора были тесно связаны друг с другом и формировали демографический ландшафт региона. В период Сефевидов этнорелигиозный состав Иреванского региона постоянно менялся. В начале XVI века существовало исторически сложившееся сосуществование (мусульманское большинство и армянское меньшинство), но в середине века в результате изгнаний и переселений возникли демографические разрывы, а к концу века частично установилось новое равновесие. Во всех этих процессах политика религиозной толерантности создавала условия для сохранения армянской общины, экономические интересы рассеивали её в новых географических точках, а политические войны приводили как к уничтожению, так и к переселению. Данное исследование исторической демографии Ереванского региона показывает, что этнорелигиозный состав не был статичным, а колебался в зависимости от государственной политики и региональных геополитических событий. Эти изменения, произошедшие в период Сефевидов, подготовили основу для религиозно-этнической ситуации региона в последующие столетия – во времена Иреванского ханства и Российской империи. Например, в конце XVIII – начале XIX веков большинство населения Иреванского ханства составляли мусульмане, а армяне составляли численное меньшинство, что унаследовано от сефевидского периода. В то же время, тот факт, что армяне не исчезли полностью из региона и проживали в нём в большом количестве (наличие Эчмиадзинской церкви и т. д.), также являлся результатом политики толерантности Сефевидов. Решения сефевидских шахов во время войн с Османской империей, приведшие в будущем к демографическим изменениям в регионе, проводимая ими переселенческая политика, обеспечивающая экономический рост, и другие причины сыграли определённую роль в изменении этнорелигиозного состава региона.
Ключевые слова: Ереван, Сефевиды, этнический, этнорелигиозный, этноконфессиональный, население, расселение, статус

Giriş

İrəvan bölgəsinin etnik və dini tərkibinin Səfəvilər dövrü boyunca keçirdiyi dəyişikliklərin dinamikasının öyrənilməsi tarixi-coğrafi baxımdan xüsusi aktuallıq daşıyır. XV-XVII əsrlərdə Osmanlı-Səfəvi müharibələrinin Qafqazda cərəyan etməsi və İrəvanın bu qarşıdurmaların mərkəzində yerləşməsi bölgədə ciddi demoqrafik inkişafa və ya geriləməyə səbəb olmuşdur. İrəvan, Səfəvi dövlətinin əsas inzibati vahidlərindən biri – Çuxur-Səəd bəylərbəyliyinin mərkəzi kimi – siyasi, iqtisadi və strateji əhəmiyyətə malik idi. Dolayısıyla Səfəvi dövründə burada baş vermiş etno-konfessiyonal dəyişikliklər sonrakı dövrlərdə, xüsusilə bölgənin Rusiya imperiyasına keçidi ərəfəsindəki etnodemoqrafik mənzərəni anlamaq üçün vacib zəmin yaradır.

Tədqiqatın məqsədi Səfəvilər hakimiyyəti illərində İrəvan vilayətinin əhalisinin etnik-dini tərkibində baş verən dəyişikliklərin səbəblərini və mahiyyətini üç mühüm aspektdə təhlil etməkdir: dini siyasət (xüsusilə qeyri-müsəlman təbəələrə münasibət və tolerantlıq siyasəti), siyasi amillər (xüsusilə Osmanlı-Səfəvi qarşıdurmasının və sərhəd şəraitinin təsiri) və iqtisadi faktorlar (ticarət maraqları naminə həyata keçirilən köçürmələr və onların nəticələri). Bu məqsədlə, tədqiqat həm yerli, həm də xarici mənbələrə – Azərbaycan, Osmanlı arxiv sənədlərinə, müasir tarixçilərin araşdırmalarına və Avropa səyyahlarının

müşahidələrinə – əsaslanır. Problemin məhz kompleks yanaşma ilə öyrənilməsi onun çoxşaxəli dinamikasını üzə çıxarmağa imkan verir. Mövzu üzrə indiyədək aparılmış tədqiqatlar məhdud olsa da (əsasən regional tarix kontekstində), təqdim olunan iş tarixi materialları geniş tutumda təhlil edərək İrəvan bölgəsində Səfəvi dövründə cərəyan edən demoqrafik proseslərin ümumi mənzərəsini yaratmağa çalışır.

- istifadəçi ilə aparat və proqram təminatı arasında qarşılıqlı əlaqə vasitələri - istifadəçi interfeysi (Xəlilov, Həsənova, 2014).

İnformatika elminin yaranması və inkişafında rolu olan alimlər

Dünyanın texnika elmləri sahəsində bir çox məşhur alimi informatika elminin yaranması və inkişafına misilsiz töhfələr vermişdir.

Onlardan biri dünyanın ən tanınmış alimlərindən olan, "kompüter elminin atası" hesab edilən ingilis alimi Alan Türinqdir. Onun 1936-cı ildə təklif etdiyi və hazırda bütün ümumi təyinatlı kompüterlərin modeli sayılan mücərrəd "Türinq hesablama maşını" alqoritm anlayışını formalaşdırmağa imkan vermişdir. Bu hesablama maşını həm nəzəri, həm də təcrübi tədqiqatlar zamanı istifadə olunmuşdur.

Ən müasir kompüterlərin arxitekturasını vermiş ABŞ riyaziyyatçısı Con fon Neyman kompüter elmləri sahəsində ən tanınmış alimlərdən biridir. O, oyunlar nəzəriyyəsinin əsasını qoymuşdur. Çoxluqlar nəzəriyyəsi, həndəsə, operatorlar nəzəriyyəsi, riyazi iqtisadiyyat və s. sahələrə böyük töhfələr vermişdir. Elk kompüterlər olan ENIAC və EDVAC-ın texniki imkanlarının daha da artırılmasında fəal iştirak etmişdir (John von Neumann biography).

İnformatika sahəsində məşhur alimlərdən biri də Tim Berners-Li-dir. Böyük Britaniyalı mühəndis Massaçusets Texnologiya İnstitutunun professorudur. O, 1990-cı ildə ilk veb-müştəri (web client) və server proqramını yazmışdır Tim Berners-Li həmçinin Ümumdünya Hörümçək Torunun (World Wide Web) banisidir (Tim Berners-Li biography).

Dünyaca tanınmış azərbaycanlı alim Lütfi Zadə də kompüter elminin inkişafında əvəzsiz xidmətləri olan şəxsiyyətlərdəndir. Alimi bütün dünyaya tanıdan və istehsalatda geniş tətbiq olunan, o cümlədən, dünya elminə inqilabi yeniliklər gətirən qeyri-səlis məntiq (Fuzzy Logic) nəzəriyyəsi olub. Bu nəzəriyyə riyaziyyatın əsası olan ikili coxluq anlayışına yeni ifadə vermişdir: qeyri-səlis coxluq. 1950-ci ildə L.Zadənin süni intellekt nəzəriyyəsinə dair ilk elmi məqalələrdən olan "Düşünən maşınlar: Elektrik mühəndisliyinin yeni sahəsi" adlı əsəri çap olunmuşdur.

Nəticə

Çağdaş dövrümüzdə müasir texnologiyaları təkcə müəyyən sferalarda deyil, həm də həyatın gündəlik sahələrində çox mühüm yer tutur. Kompüterlər elm və təhsil, biznes, idarəetmə və insan fəaliyyətinin digər sahələrində geniş tətbiq olunur. İnformasiyanın həcminin durmadan artması ilə əlaqədar olaraq öz fəaliyyətini informasiya sahəsi ilə bağlayanların sayı getdikcə daha da artır ki, bu da müvafiq sahənin tarixinin araşdırılmasını zəruri edir. Nəzərə almaq

lazımdır ki, cəmiyyətin dünyada elmi-texniki sahədə gedən inkişafa adekvat olaraq irəliləməsi üçün orta və ali təhsil müəssisələrində informatikanın daha dərindən öyrənilməsi zəruridir. Dünyada informatika elminin yaranma tarixi ilə bağlı aparılan tədqiqatlar bu elmin hər bir dövlətin gələcək inkişafında və cəmiyyətin həyatında nə qədər vacib rol oynadığını bir daha sübut edir. Ölkəmizdə də bu sahənin yaranması və inkişafı mürəkkəb bir tarixi dövrü əhatə edir. İnformatika elminin meydana gəlməsi, kompüter texnologiyalarının, proqramlaşdırma və s. sahələrin inkişafında alim və mütəxəssislərimizin əvəzsiz xidmətləri olmuşdur. Bu baxımdan belə nəticəyə gəlmək olar ki, Azərbaycanda da informatikanın yaranması tarixinin, onun inkişaf mərhələlərinin araşdırılması mühüm vəzifələrdəndir.

ƏDƏBİYYAT SIYAHISI:

1.Астапова А.Ю. (2021). История развития информатики как фактор развития общества. Available from: https://school-science.ru/11/4/46877 [accessed 10 September 2025].

2.Abbasov. Ə, M., Əliyev.T.A. (2010). Azərbaycanda informatikanın təşəkkülü, 5, 3-171.

3.Bu gün dünya şöhrətli alim Lütfi Zadənin anadan olmasının 100 ili tamam olur (2021). Available from: https://ict.az/az/news/5687 [accessed 13 September 2025].

4.Əliquliyev. R.M. (2013). Görkəmli alim, bacarıqlı təşkilatçı. "İnformasiya Cəmiyyəti problemləri" jurnalı, 3-6.

5.Əliyev. Ə. (2014). İnformatika eliminin tarixi, predmeti, məqsədi və onun cəmiyyətdəki rolu və vəzifələri. Available from: https://noteaz.wordpress.com/2014/03/16/informatika-elmininn-tarixi-predmeti [accessed 17 June 2025].

6.Goldstine H. H., Wigner.E.P. (2001). The Scientific Work of John von Neumann, Historical and Biographical Reflections and Syntheses, 123-126.

7.Heydərov.H.M. (2021). DİO-da informasiyanın idarə edilməsi fənninin strukturu, predmeti, məqsəd və vəzifələri, 30, 1-30.

8.Xəlilov. M., Həsənova N. (2014). İnformatika. Bakı Universiteti Nəşriyyatı, 5, 1-410

9.İnformatikanın, hesablama texnikası və İKT-nin meydana gəlməsi, təşəkkül tarixi və Azərbaycandakı müasir vəziyyəti. (2016). Available from: https://az.wikibooks.org [accessed 03 October 2025].

10. John von Neumann Biography. Available from: https://www.britannica.com/biography/John-von-Neumann [accessed 08 August 2025].

11. Колин. К. К. (2011). Информатика как наука: история и перспекитвы развития. Открытое образование, 2, 77-88.

12. Kərimov S.Q., Həbibullayev S.B., İbrahimzadə T.İ., "İnformatika" kitabı, Bakı – 2011, 434 s.

13. Qasımov, V. Ə. (2005). İnformatikanın əsasları [Dərs vəsaiti]. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, 86 s.

14. Myoken. Y. (2008). Overview of ICT Strategy in Japan. MIC, White Paper Information and Communication in Japan, 3, 1-15.

15. Pashayeva. G. Emergence and development stages of informatics in Azerbaijan // – Problems of Information Society, 2024, №1, – p. 72-85

16. Pashayeva, G. (2025). Formation and development of the information society in Azerbaijan (1969-2003 years). Problems of Information Society, 16(1), 85-93. https://doi.org/10.25045/jpis.v16.i1.10

17. Развитие и современное состояние сектора ИКТ в мире и России, https://studbooks.net/2151808/ekonomika/razvitie_sovremennoe_sostoyanie_sektora_mire_rossii

18. Tim Berners-Lee Biography. Available from:https://www.w3.org/People/Berners-Lee/ [accessed 23 July 2025].

19. Zakari. I. (2006). History of computer and its generations, 3, 1-1

DOİ: 10.32010/HVKD2115

ASİYA ÖLKƏLƏRİ (HİNDİSTAN, İRAN, ƏFQANISTAN, PAKİSTAN) İLƏ AZƏRBAYCAN SSR ARASINDA MƏDƏNİ ƏLAQƏLƏR TARİXİ KONTEKSTDƏ

Günel Etibar YUSİFOVA
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0004-5226-0514
E-mail: gu_nel@yahoo.com

Xülasə: Təqdim olunmuş məqalədə, Azərbaycan SSR ilə Hindistan, İran, Pakistan və Əfqanıstan arasında mövcud olmuş mədəni əlaqələrin tarixi keçmişinə nəzər salacağıq. Bu əlaqələrdən biri xalqlar arasında qarşılıqlı münasibətlərin yaranması, bir-birini anlamasıdır. Bu münasibətlər əlbəttə ki, mədəni əməkdaşlıq nəticəsində yaranmışdır. Tədqiqatda göstərilir ki, bu əməkdaşlıqlar yalnız XX əsrdə sovet hakimiyyətinin mövcud olduğu illərdə yaranmamış, qədim tarixi, ortaq mədəni, mənəvi bağlılıq əsasında yaranaraq qarşılılıqlı əlaqələrin inkişafına səbəb olmuşdur. Hər bir ölkə ilə Azərbaycanın qədim tarixi əlaqələri olmuşdur. Bu əlaqələr ədəbiyyat, fəlsəfi görüşlər, musiqi, rəssamlıq, memarlıq və digər sahələrdə geniş əməkdaşlıqlar, mübadilələr formasında idi. Xalqların mədəni qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri ictimai inkişafın təbii qanunudur və əksinə hər hansı bir xalqın təcrid olunması onun inkişafını ləngidir, mədəniyyətini yoxsullaşdırır, xalqlar və dövlətlər arasında dinc ünsiyyətə mane olur (Qasımlı, 2005). Ölkələr arasındakı mədəni əlaqələrin tarixi konteksti yalnız mədəni mübadilələrlə kifayətlənməyib, eyni zamanda bu proseslərin nə zaman və hansı ictimai şəraitdə olduğunu da özündə əks etdirir. Sovet hakimiyyəti dövründə Azərbaycanda mədəni əlaqələr sovet ideologiyasının bir hissəsi olsa da, mədəni əlaqələr milli mənsubiyyətin və beynəlxalq mədəniyyətlərin yaranmasına şərait yaratmışdır. Bu tədqiqat işinin aparılması fərqli formada olan mədəni təsirlərin milli mədəniyyətin tərkibində necə yarandığını anlamağa şərait yaradır. Azərbaycan SSR özünün əlverişli coğrafi mövqeyinə, tarixinə və mədəni irsinin zənginliyinə görə Qərb və Şərq ölkələri ilə mədəni əlaqələrin qurulmasında mühüm rol oynamışdır. Azərbaycan SSR-in Hindistan, İran, Pakistan və Əfqanıstan ilə yaranan mədəni münasibətlərin tarixi konteksti haqqında araşdırma aparmaq olduqca aktual mövzudur. Bu ölkələrlə Azərbaycan arasında mədəni əlaqələrin tarixinin obyektiv, düzgün və hərtərəfli araşdırılması Asiya ölkələri ilə münasibətlərin daha da möhkəmlənməsinə və Azərbaycan Respublikasının xarici siyasətinin strateji məqsədlərindən birinə çevrilməsi üçün vacibdir.
Açar sözlər: Azərbaycan SSR, mədəni əlaqələr, Hindistan, tarixi kontekst, Pakistan, ədəbi mübadilələr, İran, Əfqanıstan

CULTURAL RELATIONS BETWEEN ASIAN COUNTRIES (INDIA, IRAN, AFGHANISTAN, PAKISTAN) AND AZERBAIJAN SSR IN HISTORICAL CONTEXTS

Gunel Etibar YUSIFOVA
Baku State University
Orcid: https://orcid.org/0009-0004-5226-0514
E-mail: gu_nel@yahoo.com

Summary: The article explores the historical background of the cultural connections that existed between the Azerbaijani SSR and the countries of India, Iran, Pakistan, and Afghanistan. One of these connections was the growth of mutual relations and understanding between peoples, which naturally emerged as a result of cultural cooperation. The study demonstrates that these collaborations were built upon deep-rooted historical, cultural, and spiritual connections, leading to the strengthening of mutual relations—not merely as a product of the Soviet Union's influence in the 20th century. Azerbaijan shares a long and rich history with each of these nations. Over time, these relationships evolved into close cooperation and exchange across various fields such as music, painting, architecture, philosophy, literature, and others. The interaction and mutual influence among peoples represent a natural law of social development. In contrast, isolation hinders a nation's progress, diminishes its cultural value, and complicates peaceful communication between peoples and states (Gasimli, 2005, p. 18). Beyond cultural exchanges, the historical background of international relations also reveals the social context in which these interactions took place. Although shaped by Soviet ideology, Azerbaijan's cultural relations during the Soviet era contributed significantly to the advancement of both national and international cultures. Through this research, we gain insight into how diverse cultural influences shape the development of national culture. Owing to its strategic geographic position, historical background, and rich cultural heritage, the Azerbaijani SSR played a pivotal role in establishing cultural connections with both Western and Eastern countries. Researching the historical background of cultural relations between the Azerbaijani SSR and India, Iran, Pakistan, and Afghanistan is of great importance. A precise, comprehensive, and objective examination of these historical ties is essential for further strengthening Azerbaijan's relations with Asian countries and for aligning them with the strategic objectives of the Republic of Azerbaijan's foreign policy.

Keywords: Azerbaijan SSR, cultural relations, India, historical context, Pakistan, literary exchanges, Iran, Afghanistan

КУЛЬТУРНЫЕ СВЯЗИ МЕЖДУ СТРАНАМИ АЗИИ (ИНДИЯ, ИРАН, АФГАНИСТАН, ПАКИСТАН) И АЗЕРБАЙДЖАНСКОЙ ССР В ИСТОРИЧЕСКОМ КОНТЕКСТЕ

Гюнель Эхтибар ЮСИФОВА
Бакинский государтсвенный университет
Orcid: https://orcid.org/0009-0004-5226-0514
Электронная почта: gu_nel@yahoo.com

Резюме: В представленной статье мы рассмотрим историческое прошлое культурных связей, существовавших между Азербайджанской ССР и Индией, Ираном, Пакистаном и Афганистаном. Одним из таких связей является возникновение взаимоотношений и взаимопонимания между народами. Эти связи, конечно же, возникли в результате культурного сотрудничества. Исследование показывает, что это сотрудничество возникло не только в годы советской власти в XX веке, но и формировалось на основе древних исторических, общих культурных и духовных связей, что привело к развитию взаимоотношений. Азербайджан имел древние исторические связи с каждой страной. Эти связи были в форме широкого сотрудничества и обменов в области литературы, философских взглядов, музыки, живописи, архитектуры и других областях. Культурное взаимодействие и взаимовлияние народов является естественным законом общественного развития, и наоборот, изоляция любого народа замедляет его развитие, обедняет его культуру и препятствует мирному общению между народами и государствами (Гасымлы, 2005, с.18). Исторический контекст культурных связей между странами не ограничивается только культурными обменами, но и отражает, когда и в каких социальных условиях происходили эти процессы. Хотя культурные связи в Азербайджане в советский период были частью советской идеологии, культурные связи создавали условия для формирования национальной идентичности и интернациональных культур. Проведение данной исследовательской работы позволяет понять, как культурные влияния различных форм формируются в составе национальной культуры. Азербайджанская ССР, благодаря своему выгодному географическому положению, истории и богатству культурного наследия, сыграла важную роль в установлении культурных связей со странами Запада и Востока. Исследование исторического контекста культурных связей Азербайджанской ССР с Индией, Ираном, Пакистаном и Афганистаном является весьма актуальной темой. Объективное, корректное и всестороннее изучение истории культурных связей этих стран с Азербайджаном важно для дальнейшего укрепления отношений со странами Азии и превращения их в одну из стратегических целей внешней политики Азербайджанской Республики.
Ключевые слова: Азербайджанская ССР, культурные связи, Индия, исторический контекст, Пакистан, литературные обмены, Иран, Афганистан

Giriş

Asiya ölkələri ilə Azərbaycan SSR arasında mədəni əlaqələrin kökləri olduqca qədim tarixə malikdir. Tarixi faktlardan da aydın görsənir ki, mədəni əlaqələrin yaranması, münasibətlərin möhkəmlənməsi qədim dövrlərə, eləcə də orta əsrlər dövrünə kimi gedib çıxıb. İnsan cəmiyyətində baş verən və yaranan mühüm əlaqələrdən biri xalqlar arasında qarşılıqlı münasibətlərin yaranması, bir-birini anlamasıdır. Bu münasibətlər əlbəttə ki, mədəni əməkdaşlıq nəticəsində yaranmışdır. Beynəlxalq əlaqələrə daxil olan iqtisadi, siyasi əlaqələrlə yanaşı mədəni əlaqələr xalqlar, ölkələr arasındakı mənəvi bağlılığın inkişafında çox mühüm rol oynayır. Ölkələr incəsənət, ədəbiyyat, idman, rəssamlıq, musiqi, turizm sahəsində bir-biri ilə əməkdaşlıq edərək mədəniyyətlərin inkişafına böyük töhfələr verir. Çünki xalqların mədəniyyəti öz aralarında deyil, digər xalqlarla paylaşdıqda inkişaf edir. Bunu tarix hər zaman göstərmişdir.

Azərbaycan və Hindistan arasında qurulan əlaqələrin ilkin tarixindən

Azərbaycanın Asiya ölkələri ilə mədəni münasibətləri çox qədim çağlara söykənir. İlk növbədə onu qeyd etmək istərdim ki, Azərbaycan və Hindistan dünyanın qədim sivilizasiyalarının beşiyi olmuşlar. Eyni zamanda hər iki ölkə zəngin maddi-mədəni irsin formalaşdığı və qorunduğu ərazilər kimi tanınır. Tarix boyunca hər iki ölkə bir-biri ilə ticarət, mədəni əlaqələr baxımından sıx əlaqədə olmuşdular. Azərbaycan və Hindistan arasındakı mədəni, ticari əlaqələrin qədim tarixi əlaqələrini arxeoloji, etnoqrafik məlumatlar əsasında öyrənə bilirik və ilk münasibətlər məhz ticarətlə əlaqədar yaranmışdır. Məsələn, bunu arxeoloji qazıntılar zamanı Azərbaycan ərazisindən hindlilərə məxsus olan kauri balıqqulaqlarının tapılması sübut edir. Bu balıqqulaqları daha çox Qobustan, Abşeron, Mingəçevir, Sarıtəpə və digər ərazilərdə tapılmışdır. Sual verilə bilər ki, Xəzər dənizində də balıqqulaqları var niyə bu Xəzər faunasına deyil, hindlilərə aid edilib? Çünki kauri balıqqulaqları Sakit və Hind okean hövzəsinə məxsusdur və bundan mübadilə vasitəsi kimi Hindistan və ona yaxın olan ölkələrdə qədim dövrlərdən başlayaraq orta əsrlərə qədər istifadə

edilmişdir (Aşşurbəyli, 1990). Azərbaycana isə İran vasitəsilə gəlib çatmış və talisman, bəzək əşyası kimi istifadə edilmişdir. Qədim və orta əsrlərdə Azərbaycan və Hindistan arasında mövcud olan iqtisadi-ticari əlaqələr mədəni münasibətlərin genişlənməsinə mühüm təsir göstərmişdir. Bu mədəni münasibətlərə incəsənət, ədəbiyyat, musiqi, fəlsəfi ideyaların yayılması, eləcə də səyahətçilərin fəaliyyəti və digər sahələri daxil etmək olar. Azərbaycan və Hindistan əlaqələrindən danışarkən burada böyük rol oynayan şairlərdən, ədəbiyyatdan bəhs etmək lazımdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın intibah dövrü şairlərindən Nizami Gəncəvi və Xaqani Şirvaninin əsərləri nəinki Azərbaycanda, eləcə də Hindistan, Orta Asiya və digər ölkələrdə maraqla qarşılanmışdır. Dünyanın müxtəlif ölkələrindən olan şairlər, eləcə də məşhur hind şairi Əmir Xosrov Dəhləvi də Nizaminin Xəmsəsinə nəzirələr yazmışdır. Əmir Xosrov Dəhləvi Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasından təsirlənərək bu mövzuda yeni bir əsər yazmışdır. Dəhləvi fars dilində yazıb yaratmış və poetik toplusunu "Pəncgənc" adlandırmışdı. Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan "Yeddi gözəl" poeması şairin hind mədəniyyətinə olan diqqətinin bariz nümunəsidir. Yeddi gözəl poemasında hind şahzadəsi olan Firakin gözəlliyini vəsf edərək ay işığının hind qızının gözəlliyi qarşısında qaranlığa büründüyünü göstərmişdi (Ömərov, 2014). Azərbaycan və Hindistan arasında mədəni əlaqələrin yaranmasında dahi şairimiz Nizami Gəncəvinin əvəzsiz rolu olmuşdur. Onun əsərlərində Hindistanla bağlı motivlərə rast gəlinir. Xəmsəyə daxil olan "İskəndarnamə" poemasının böyük hissəsi hind fəlsəfəsi düşüncəsinə, mədəniyyətinə həsr olunub. Bildiyimiz kimi, İskəndərnamə poeması II hissədən ibarətdir. I hissə hesab edilən "Şərəfnamə" -də (Şöhrət kitabı) İsgəndərin Hindistana yürüşləri, İsgəndərin Keydu ilə məktublaşmaları və digər səfərləri əks olunmuşdur. II hissə "İqbalnamə" (Xoşbəxtlik kitabı) İsgəndərin hind müdriki ilə söhbəti, yenidən Hindistana və Çinə olan yürüşündən bəhs edilib (Aşşurbəyli, 1990). Nizami Gəncəvi qədim hind ədəbi abidələrinə yaxından tanış idi. O, özünün 2-ci əsəri olan "Xosrov və Şirin" poeması üzərində çalışarkən qədim hind ədəbi abidəsi olan "Pançatanta"-nın (5 kitab) motivlərindən istifadə olunduğu ehtimal edilir.

Nizami Gəncəvidən sonra Xaqani Şirvani də hind fəlsəfəsinə və ədəbi münasibətlərin yaranmasına böyük maraq göstərmişdir. O, hind fəlsəfəsinin yayılıb genişlənməsinə böyük səy göstərmişdir**.** Özünün poeması olan "Şiniyyə"-ni Hindistana həsr etmiş və bu mədəniyyətin yayılmasına töhfə verməyə çalışmışdır. Görkəmli Azərbaycan şairi Məhəmməd Füzuli də hind mədəniyyətinə böyük maraq göstərmişdir. Onun diqqət mərkəzində olan mövzularından biri hind müsəlmanlarının həyatı olmuşdur. M.Füzulinin "Ənisül-qəlb" poemasında hind fəlsəfəsinə dair biliklərin dərinliyi öz əksini tapır.

Azərbaycan-Hindistan ədəbi əlaqələrindən bəhs edərkən dünyaşöhrətli hind ədəbi abidəsi olan "Kəlilə və Dimnə"-dən də bəhs etmək lazımdır. Bu əsər 1809-cu ildə Azərbaycan dilinə tərcümə edilmişdi. Əvəz Əli Səfiqulu oğlu əsərin tərcüməsini öz öhdəsinə götürmüş, sonrakı illərdə də "Kəlilə və Dimnə" əsəri dəfələrlə tərcümə edilərək nəşr edilmişdir. "Kəlilə və Dimnə" əsəri Azərbaycan həyatı ilə o qədər səsləşir ki, xalqımız bu əsərə özünün ədəbi abidəsi qədər böyük ehtiramla yanaşır (Həbibbəyli, 2019).

Azərbaycan-Hindistan əlaqələrinin tarixiliyini göstərən amillərdən biri də onlar arasında daim ticari əlaqələrin olması idi. Belə ki, XV əsrdə Azərbaycanın bir sıra şəhərlərində (Bakı, Təbriz, Şamaxı) hind tacirlərinin karvansarayları var idi. Onlardan XV əsrə aid olan biri müasir dövrdə də qorunub saxlanılan və İçərişəhərdə yerləşən Multan sarayını göstərmək olar. Belə ki, ərəblərin VII əsrdə Azərbaycanı istila etməsinə qədər "Atəşgah" hindlilərin ziyarətgahı idi. Ərəb istilasından sonra bu ərazilərdə İslam dini yayılmağa başlamış, atəşpərəstlər isə təqib edilmişdi. Bundan sonra atəşpərəstlər ölkəni tərk etməli olur. Məbəd isə çox baxımsız qalır. XVIII əsrdə ticarət yollarının inkişaf etdirilməsi ilə hindlilərin yenidən Azərbaycana gəlişi artmağa başlamışdı. Hind tacirləri XVIII əsrdə Bakının Suraxanı ərazisində yerləşən, hindlilər üçün ibadətgah məskəni olan "Atəşgah" məbədini bərpa etdilər və onların məbədi kimi qorunub saxlanılır. 1950 və 1970 -ci illərdə İndira Qandinin Azərbaycana səfərləri olmuş və bu səfərləri zamanı "Atəşgah" məbədini ziyarət etmişdi.

XVI əsrdə Hindistanda Böyük Moğol imperatorluğunun əsası qoyuldu. Bu imperiya Hindistanda mədəniyyətin çiçəklənməsinin yeni mərhələsini qoydu. XVI əsrin sonu XVII əsrin əvvəllərində Moğol imperatoru Əkbər şahın hakimiyyəti dövründə Azərbaycan ilə ticari, iqtisadi əlaqələr intensivləşdi. Lakin bu dövrdə baş verən Səfəvi-Osmanlı müharibələri nəticəsində Azərbaycan ərazisindən çoxsaylı şair, heykəltəraş, alim, rəssamlar başqa ölkələrə köç edərək həmin ölkələrdə yaradıcılıqlarını davam etdirmişdilər. Onların bir qismi də Hindistanda məskunlaşmışdılar, çünki bu ölkədə onların fəaliyyəti üçün heç bir məhdudiyyət qoyulmamış, hətta bu ölkənin zənginliyi bura köç edənlərin diqqətini çəkmişdir. Azərbaycanlı şairlər içərisində Saib Təbrizi, Məsihi, İbrahim Ordubadi, Məhəmməd Sadıq Təbrizi Moğol imperatoru Cahanşahın dövründə Hindistana gəlmişlər, öz əsərlərində hind xalqı, ölkənin zəngin və ecazkar təbiəti haqqında yazmışdılar. Azərbaycan-Hindistan ədəbi əlaqələri XIX əsrdə də davam etmişdi. Azərbaycanın görkəmli dramaturqu M.F.Axundovun

"Kəmalüddövlə məktubları" ədəbi əlaqələrin davam etdirilməsinə dair bariz nümunələrindən biridir. Bu əsərdə hind şahzadəsi Kəmalüddövlə ilə Cəlalüddövlə arasındakı yazışmalardan bəhs edilib.

Mədəni əlaqələrin bir forması olan memarlıq sahəsində əlaqələrin qurulması hələ Moğol imperiyası dövründə inkişaf etmişdir. Moğol imperiyasının hakimiyyəti dövründən başlayaraq memarlıq şəhərsalma sahəsində bir-birindən bəhrələnmişdilər. Memarlıq əlaqələrinin inkişaf etməsi Humayun şahın dövrünə təsadüf edir. Çünki o, Səfəvilərin Təbriz, Ərdəbil, Qəzvin kimi şəhərlərində olmuş, bu şəhərlərin memarlıq abidələri marağını cəlb etmişdi. Nəticədə öz vətəninə qayıdarkən azərbaycanlı bir neçə memarı özüylə aparmışdı. Məhz bu memarlardan Ağa Mizək Mirzə Qiyas Dehlidə Humayun məqbərəsini tikmişdi. Bu məqbərə Aqrada yerləşən "Tac-Mahal" məqbərəsinin prototipi olmuşdur.

Memarlıqla yanaşı, rəssamlıq sahəsində də əlaqələrin qurulduğunu göstərən faktlar var. Belə ki, Azərbaycandan olan rəssamlar Hindistanda miniatür rəssamlıq sənəti ilə məşğul olan rəssamların bədii fəaliyyətinə ciddi təsir göstərmişdilər. Moğol hakimiyyəti dövründə hökmdarlar öz saraylarında hindlilərlə yanaşı İran və azərbaycanlı rəssam, xəttat, şairləri saxlayırdılar. Babur şahdan sonra hakimiyyətə gələn Humayun xan bir müddət Səfəvi sarayında yaşayıb. Çünki o, əfqan hökmdarı Şir xan tərəfindən məğlub edildikdən sonra ölkəsini tərk etməli olur. Səfəvi hökmdarı Təhmasib onu yüksək səviyyədə qarşılayıb qonaq etmişdi. Humayun xan geri qayıdarkən Mir Səid Əli Təbrizini və Xoca Əbduc Səməd Şirazini özü ilə Hindistana gətirmişdi. Bu iki şəxsiyyət Baburilərin miniatür sənətinin əsasını qoymuşdular. Mir Səid Əli Təbrizini "Dövlətin nadiri" adlandıran Humayun şah onu uzun illər baş saray rəssamı kimi sarayda fəaliyyət göstərməsini təmin etmişdi. Azərbaycan və Hindistan arasında musiqi sahəsində yaranan əlaqələr Humayun şahın dövrünə təsadüf edir. Çünki Azərbaycan muğamı olan Humayun məhz Humayun şahın Səfəvilər sarayında yaşadığı dövrdə özü tərəfindən bəstələndiyi deyilir. Biz bu muğamda hind musiqisinin motivlərini eşidə bilərik. Eləcə də, Mahur hindi musiqisi də Azərbaycan və Hindistan arasında musiqi sahəsində əlaqələrin olduğunu göstərir. Musiqi sahəsindəki əməkdaşlıq XX əsrdə də davam etmişdi. 1954-1957-ci illərdə Hindistanın vitse-prezidenti Radxakruşman, Hindistanın SSRİ-dəki səfiri Krişna Memon Azərbaycana səfər etmişdilər (Aşşurbəyli, 1990). Qonaqlar Azərbaycanın Tarix muzeyinə Hindistanın xalq musiqi alətlərini hədiyyə etmişdilər. Bura daxil idi- tambur, sard, tabla, fleyta, naqura və s. Çoxəsrlik tarixi əlaqələr Azərbaycan və Hindistan arasında musiqi sahəsində də qədimilikdən başlayaraq orta əsrlər dövründə inkişaf etmiş və bugünə qədər də davam edir.

XVIII-XIX əsrlərdə Azərbaycanla Hindistan arasında əlaqələr kəsilməyə başlamışdı. Bunun əsas səbəbi bu dövrdə Hindistanın İngiltərə tərəfindən işğal edilərək müstəqilliyini itirməsi olmuşdur. Azərbaycanlı xeyriyyəçi Hacı Zeynəlabdin Tağıyev hind müsəlmanlarına maliyyə yardımı edərək onların fars dilində "Hablülmətin" (səmimi dostluq) qəzetini çap etdirmələrinə vəsilə olmuşdur. XX əsrdə Sovet hakimiyyəti yarandıqdan sonra əlaqələr yenidən bərpa olunmağa başladı. Hindistanın ingilis müstəmləkəçəliyindən qurtulması nəticəsində öz müstəqilliyini əldə etdi. Azərbaycan SSR də SSRİ-nin tərkibində Hindistanla olan əlaqələrini bərpa etdi. Bu dövrdə də ədəbiyyat, incəsənət, rəsm, musiqi, təhsil sahəsində əməkdaşlıqlar qurulurdu. Bu dövrdə kitab nəşri, mübadiləsi sahəsində əməkdaşlıqlar genişlənmişdir. XX əsrin 30-cu illərində görkəmli hind yazıçısı Rabindranat Taqorun "Fəlakət" və "Ədəbiyyat nəğmələri" kimi əsərləri hind dilindən tərcümə olunub çap edilərək Azərbaycan oxucularına təqdim edilmişdi. Taqorla yanaşı, digər hind yazıçılarının Xacə Əhməd Abbas, Prem Çandın əsərləri Azərbaycanın "Azərnəşr" nəşriyyatı tərəfindən Azərbaycan dilində çap olunmuşdu. Bu işlər qarşılıqlı şəkildə davam etmiş, eləcə də Azərbaycan əsərləri də hind dilində hind oxucularına təqdim edilmişdi. Kitab çapı və mübadiləsi barəsində olan əməkdaşlıq hər zaman aktual olmuş, 1960-cı illərdə də bir çox hind yazıçı və şairlərinin əsərləri, "Mahabbarata", "Ramayana" kimi epik əsərlər, hind fəlsəfəsinə dair ədəbiyyatlar Azərbaycan dilində nəşr olunmuşdu. Çünki hər iki ölkənin ədəbi yaradıcılığı bir-biri üçün həmişə maraqlı olmuşdu. 1946-cı ildə Sovet-hind Mədəni Əlaqələr Cəmiyyəti yaradılmış, 1947-ci ildə Azərbaycanın xarici ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti təşkil edildikdən sonra Azərbaycan və Hindistan əməkdaşlıqları yenidən genişlənməyə başladı. Azərbaycanın görkəmli şair və yazıçıları Səməd Vurğun, Mirzə İbrahimov öz əsərlərində hind xalqının həyatını təsvir etmişdilər. S.Vurğunun "Zəncinin arzuları" poemasında azadlıq arzusu ilə yaşayan hind xalqının həyatı təsvir olunmuşdu. M.İbrahimov bir neçə il Hindistanda yaşamış, hindlilərin azadlıq hərəkatı haqqında "Candranın üsyanı" adlı povestini həsr edərək hindlilərin azadlıqları üçün necə mübariz xalq olduğunu, necə mübarizə apardıqlarını qeyd etmişdi. Mədəni əlaqələrin inkişafında kinonun da mühüm təsiri olmuşdu. Məşhur hind aktyoru olan Rac Kapurun çəkildiyi bütün filmlər Azərbaycan izləyiciləri tərəfindən rəğbətlə qarşılanırdı. Həmçinin Rəşid Behbudovla Rac Kapur arasında olan dostluq münasibətlərinin dərinliyi bu iki xalq arasında olan əlaqə və əməkdaşlıqların bariz nümunəsidir.

Azərbaycan və İran arasında çoxəsrlik mədəni irs tarixindən.

Azərbaycan və İran bir-biri ilə qonşu olduğu üçün onlar arasında mədəni, siyasi, iqtisadi əlaqələr qədim dövrlərə dayanır. Coğrafi yaxınlıq və ortaq tarixi köklər sayəsində bu münasibətlər, diplomatik əlaqələrdən asılı olmayaraq daim mövcud olmuşdur. Ortaq dini dəyərlər, mənəvi baxımdan bir-birinə olan yaxınlıq və ortaq zəngin tarixi bağlılığın olması iki ölkəni bir-birinə yaxınlaşdırmışdır. Tarixən Azərbaycan, xüsusilə də onun cənub bölgələri qədim dövrlərdən başlayaraq İranın mədəni təsir sahəsinə daxil olmuşdur. Çünki mövcud olan bir sıra qədim dövlətlər məsələn, Manna, Midiya, Əhəməni, Parfiya, Sasanilər kimi qədim dövlətlərin mövcudluğu nəticəsində oxşar mədəni ənənələr yaranmışdı. Bu dövrə aid memarlıq nümunələri, yazı sistemləri və dini inanclar eləcə də Zərdüştlük bu təsirin bariz nümunələrindəndir. Azərbaycan III əsrdə Sasani imperiyasının tərkibinə qatılmış və bu onların mədəniyyətinin, incəsənətinin qarşılıqlı şəkildə inkişafına səbəb olmuş, hətta bir-birinə güclü təsir belə etmişdilər. Sasanilərin tərkibində olduğu zaman fars dili Azərbaycanda da üstün statusda idi və bir çox yerli ədiblər öz əsərlərini məhz bu dildə yazırdılar. Yazılı abidələrdən bugünümüzə kimi gəlib çatanlardan biri Mişkinşəhr və Təxti-Süleyman ərazilərində aparılmış tədqiqatlar nəticəsində aşkarlanmışdır. Epiqrafik abidələrdən Salmas şəhərindən 30 km şərqdə yerləşən "Xani-Taxta" kəndində qaya üzərindəki təsvir tədqiqatçılar tərəfindən aşkar edilmişdir. Lakin bu təsvirin bir çox hissəsi artıq silinmiş, yalnız bir hissəsində şahənşah, bir atlı və iki piyada təsviri qalmışdır. F. Zarreyə görə qayaüstü relyefdə I Ərdəşir və onun oğlu I Şapur təsvir edilmişdir (Qasımova, 2007). Fars dilinin Azərbaycanda əsas yazı dili olmasını sübut edən digər fakt isə Mişkinşəhrdən cənubda yerləşən Varavi şəhərində tapılmış daş üzərində farsdilli kitabə tapılmışdı və bu kitabə II Şapurun hakimiyyəti dövrünə aid olmuşdur. Bu tapıntılar həmin dövrdə fars dilinin yazı dili kimi funksiyasını bir daha sübut edir.

Orta əsrlər dövründə Azərbaycanda incəsənətin bir sıra sahələri inkişaf etmişdir. Bu sahələr içərisində zərgərlik, oyma sənəti ön plana çıxmışdı. Bu sənətkarlıq mərkəzlərinin fəaliyyətini biz həm yazılı mənbələrdə, həmçinin arxeoloji qazıntılar zamanı tapılan dekorativ tətbiqi sənət eksponatları ilə təsdiq edə bilirik. Məsələn, Şamaxıdan III əsrə aid zərli gümüş döyrənin, VI-VII əsrə aid Bakıdan tapılmış zərli gümüş kuzənin, Lənkərandan vəhşi qoç təsvir edilmiş gümüş döyrənin tapılması bu sahənin inkişafını sübut edir. Bu tapıntılar həm də onu göstərir ki, Sasani imperiyası ilə mədəni bağlılığı olan ölkələrin incəsənətində zərdüşt Allahlarının müxtəlif heyvan və quş formalarında təsviriləri geniş yayılmışdır. Zərdüşt dini Azərbaycanda da bir dövr dövlət dini kimi mövcud olmuşdur.

Memarlıq sahəsində də olan bağlılığın tarixi qədim dövrlərə dayanır. Midiya, Əhəməni, Sasanilər dövründəki abidələr ilk ortaq nümunələr kimi səciyyələnir. Bu abidələrə misal olaraq qala divarlarını, sarayları, məbədləri göstərə bilərik. Zərdüştlüyə aid məbədlər çartağ formasında inşa edilirdi. Çartağ-kvadratşəkilli, həcm baxımından kub olan 4 girişli tikili tromplar üzərindəki gümbəzlə örtülürdü (Məmmədzadə və Qasımova, 2007). Azərbaycan və İranın mədəni münasibətləri VII əsrdən başlayaraq yeni mərhələyə qədəm qoydu. Bildiyimiz kimi, bu dövr İslam dininin geniş yayılması ilə üst-üstə düşür. Nəticədə İslam yalnız dini deyil, eyni zamanda fəlsəfi fikir baxımından hər iki ölkənin mədəniyyətində oxşar dəyərləri daha da genişləndirdi. İslam dininin yayılması ilə həm Azərbaycanda, həm də İranda İslam memarlığı yaranmışdı. Bu iki ölkə arasındakı mədəni əlaqələrin yüksək zirvəyə çatdığı dövr isə Səfəvilərin hakimiyyəti dövrüdür, yəni XVI-XVIII əsrləri əhatə edən dövr. Səfəvi imperiyası Azərbaycan və İran ərazisində mövcud olmuş, nəticədə bu dövrdə Azərbaycan və İran arasında mədəni, incəsənət, din sahələrində əlaqələr yaranmış, qarşılıqlı münasibətlərin qurulması bu xalqların mədəni inkişafına böyük təsir etmişdir. İlk öncə onu qeyd etmək lazımdır ki, Səfəvilər dövründə Azərbaycan və fars dilləri əsas dillər olaraq həm dövlət işində, həm də danışıq dilində istifadə edilirdi. Səfəvi dövlətinin yaradıcısı Şah İsmayıl Xətai və digər şairlər şeirlərini Azərbaycan dilində yazaraq xalq ədəbiyyatını inkişaf etdirirdilər. Lakin fars dili də diplomatiyada geniş istifadə edilən dil idi. İran ədəbiyyatına xas olan klassik əsərlər Azərbaycanda da sevilirdi. Səfəvilər dövründə şiəliyin geniş yayılması Azərbaycan və İran arasında dini birlik yaratmışdı. Bu dini əlaqələrin genişlənməsi hər iki xalqda ümumi dini məktəblərin, dini mərasimlərin yaranmasına səbəb olmuşdu. Azərbaycan və İran şəhərlərində memarlıq sahəsində də münasibətlər formalaşırdı. Təbriz, Şamaxı, İsfahan kimi şəhərlərdə məscid, türbə, karvansaralar tikilmişdi. XVI əsrdə Təbriz miniatür məktəbinin yaradılması bu münasibətlərin daha da dərinləşməsini göstərirdi. Bu dövrdə Azərbaycan rəssamları öz sənət əsərləri ilə Yaxın və Orta Şərq ölkələrinin diqqətini çəkmişdilər. Təbriz miniatür məktəbi 1530-1550-ci illərdə yüksək inkişaf mərhələsinə qədəm qoymuşdu. Miniatür məktəbi Azərbaycan və İranın tarixi keçmişini dirçəltməyi ilə səciyyələnirdi. Azərbaycan rəssamlarının İran miniatür məktəbləri ilə yaradıcılıq əlaqələri daha da sıx və hərtərəfli idi. Hələ XVI əsrin I yarısında Təbriz məktəbinin Şiraz miniatür məktəbinə təsiri güclü hiss olunurdu (Salamzadə, Kərimov, Əfəndiyev, Onullahi, 2007). Səfəvilər dövründə xalçaçılıq da inkişaf etmişdi.

Bu dövrdə toxunmuş 2 xalça dünyaca məşhurdur və muzeylərdə qorunub saxlanılır. Onlardan biri "Şeyx Səfi" (Ərdəbil) məscidi üçün hazırlanmış xalçadır ki, Nyu-York şəhərində yerləşən "Metropoliten" muzeyindədir. Digəri isə 1539-cu ildə Təbrizdə toxunmuş olan Şeyx Səfi xalçasıdır. Hal-hazırda Londonda yerləşən Viktoriya Albert muzeyində qorunur. Bu xalça özünün əsrarəngizliyi ilə dünyanın ən iri xalçası statusunu qazanıb.

XIX əsrdə Azərbaycan Rusiya və İran arasında gedən müharibələrin nəticəsində 2 hissəyə parçalandı. Şimal hissə Rusiyaya, Cənub hissə isə İranın təsir dairəsinə düşdü. Bu bölünməyə baxmayaraq, hər iki tərəfdə yaşayan azərbaycanlıların dil, din, adət-ənənələri eyni səviyyədə idi. İranın farslaşdırma siyasətinə baxmayaraq cənubdakı soydaşlarımız öz dil və mədəniyyətlərini qoruyub saxlamışdılar. XX əsrin dövri mətbuatından olan bir sıra qəzet və jurnallar-Əkinçi, Molla Nəsrəddin Cənubi Azərbaycanda da geniş oxucu kütləsi tərəfindən maraqla oxunulurdu. Şəhriyarın Azərbaycan dilində yazdığı "Heydərbabaya salam" poeması, "Türkcə divanı" Azərbaycanda çapdan çıxmışdı. Şəhriyarın Azərbaycan dilində yazdığı əsərlər mədəni əlaqələrin canlı varisi olmuşdur. XIX-XX əsrlərdə Azərbaycan teatr, musiqisi İranda maraqla qarşılanan incəsənət sahələrindən idi. Azərbaycanın görkəmli maarifçiləri Həsən bəy Zərdabi, Ü.Hacıbəyli, C.Məmmədquluzadənin ideya və fikirləri Cənubi Azərbaycandakı türkdilli əhali arasında geniş yayılmışdı. Muğam həm İran, Həm də Azərbaycanda da inkişaf etmiş, hər iki xalqın musiqiçiləri, xanəndələri qarşılıqlı şəkildə səfərlər etmişdilər.

Qısa nüddətdə münasibətlərin daha da möhkəmlənməsi müxtəlif şəhərlərdə diplomatik nümayəndəliklərin açılmasına səbəb olmuşdur. Tehranda Azərbaycan səfirliyi, Təbrizdə Baş Konsulluq, Rəşt konsulluğu, Ənzəli, Məşhəddə vitse-konsulluq, Xoy və Əhərdə də konsul agentlikləri yaradılmışdı. Hüseyn Cavidin "Şeyx Sənan", "İblis", "Peyğəmbər" pyesləri, M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah" tamaşaları Təbrizdən başqa İranın Tehran, Məşhəd, Xoy və digər şəhərlərində də səhnələşdirilmişdi (Manafova, 2008). XX əsrin 20-ci illərində mədəni əlaqələrin bu ölkələr arasında qurulmasında Bakıda keçirilən Şərq xalqlarının I qurultayı da böyük rol oynamışdır. Sovet hakimiyyəti Azərbaycanda qurulduqdan sonra bütün xarici əlaqələr mərkəzin razılığı ilə diplomatik müstəvidə aparılırdı. Lakin buna baxmayaraq, mədəni münasibətlər məhdud çərçivədə saxlanılırdı. Bu münasibətlərə həm ədəbi əlaqələr, həm təhsil sahəsi daxil idi. Azərbaycanda "Şərqşünaslıq fakültəsində İran şöbəsi açılmışdı və fars dilinin, İran tarixinin, ədəbiyyatının tədrisi aparılırdı. İran şairi Əbülqasim Firdovsinin 1000 illik yubileyi 1934-cü ildə keçirilmiş və bu iki xalq arasındakı mədəni əlaqələrin inkişafına müsbət təsir etmişdi. Ə.Firdovsinin "Şahnamə" əsəri Azərbaycan dilinə tərcümə olunaraq Bakıda çap edilmişdi. Bu tədbirə İrandan Səid Nəfisinin rəhbərliyi ilə nümayəndə heyəti gəlmişdi. II Dünya müharibəsi illərində İran bitərəf olduğunu elan etdikdən sonra sovet hökuməti qoşunlarını Cənubi Azərbaycan ərazisinə yerləşdirdi və bu qoşunun tərkibində Azərbaycan diviziyaları da var idi (77, 396, 402). SSRİ-İran Mədəni Əlaqələr Cəmiyyəti 1943-cü ildə Təbrizdə yaradıldı. Bu cəmiyyətin mədəni əlaqələrin inkişaf etdirilməsində böyük əməyi vardır. 1946-cı ildə Təbriz şəhərində Azərbaycan dram teatrının açılması rejissor Hidayət Əfəndiyevin adı ilə bağlıdır. 40-cı illərdə Azərbaycan musiqiçilərindən Rəşid Behbudov, Sara Qədimova, Xan Şuşinski, Əlövsət Sadıqov, Hacı Məmmədov və digərlərinin İranın bir sıra şəhərlərinə Xoy, Maku, Təbrizə qastrol səfərləri olmuşdur. Artıq Mədəni Əlaqələr Cəmiyyətinin İranın 40-dan çox şəhərində filialları açılmışdı. Bu şöbələr Azərbaycan və İranın mədəni əməkdaşlığının inkişaf tempinə güclü təsir göstərmişdi. 1963-cü ildə Moskvada yaradılan SSRİ-İran Mədəni Əlaqələr Cəmiyyəti Azərbaycan ilə İranın mədəni əməkdaşlığına müsbət təsir göstərmişdi.

Pakistan ilə Azərbaycan arasında mədəni münasibətlər

Azərbaycan və Pakistan arasında mədəni əlaqələrin tarixi bu ölkələrin ortaq dini və mədəni dəyərlərə malik olması, bu iki ölkə arasında siyasi, iqtisadi, hərbi sahələrdə olduğu kimi mədəni sahədə də çox tarixi əlaqələrin olduğunu göstərir. İslam dini və Şərq mədəniyyəti bu iki ölkə arasındakı əlaqələri daha da yaxınlaşdırmışdı. Pakistan və Azərbaycan arasında münasibətlərin tarixiliyinə nəzər salsaq, onu qeyd etmək lazımdır ki, Pakistan Hindistanın tərkibindən 1947-ci ildə Böyük Britaniyanın Hindistanı 2 hissəyə bölməsi ilə çıxdı. Müstəqil Pakistan Respublikası yaranana kimi bu ərazi tarix boyu mövcud olan bir sıra dövlətlərin ərazisində olmuşdur. Azərbaycan və Pakistan arasında ilk əlaqələr İpək yolu, ticarət yollarının salındığı dövrlərə gedib çıxır. Bu da daha çox ticarətlə bağlı olmuşdur. Pakistan müstəqillik qazandığı dövrdə isə Azərbaycan SSRİ-nin tərkibində idi. Müstəqil xarici siyasət yürüdə bilməməsinə baxmayaraq, mədəni əlaqələrini inkişaf etdirə bilirdi. Daha bir məsələ Hindistan ilə Pakistan arasında mübahisə doğuran ərazi olan Kəşmir beynəlxalq məsələyə çevrilmiş, bu münaqişənin həllinə münasibət bildirən digər ölkələr isə öz siyasi baxışlarından çıxış etmişdilər. SSRİ Kəşmirin Hindistanın tərkib hissəsində olmağını dəstəkləyirdi, ona görə də ABŞ-nin müdafiə etdiyi Pakistanla bir qədər məsafəli siyasət yürüdürdü. Siyasi münasibətlərdən fərqli olaraq, SSRİ Pakistan ilə olan mədəni münasibətlərin bəzi

sahələrində əməkdaşlıqlar edirdi. Bura daxil idi- ədəbi, incəsənətin müxtəlif sahələri kino, rəssamlıq. Azərbaycan klassik ədəbiyyatının nümayəndələri olan Nizami, Füzulinin əsərləri Pakistanda da sevilirdi. Ortaq dəyərlər bu iki ölkə arasındakı münasibətlərə də təsir göstərmişdi. XX əsrin əvvəlində Pakistanda taun xəstəliyi geniş yayılmışdı. Azərbaycanlı xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev qardaş ölkəyə mənəvi yardımını etmiş və Avropadan peyvənd alıb Pakistana göndərmişdi.

Azərbaycan SSR ilə Pakistan arasında mədəni inteqrasiyanın əsası XX əsrin 60-cı illərində daha da intensivləşdi. Mirzə Fətəli Axundovun 150 illik yubileyi keçirilən zaman Pakistandan da nümayəndə heyəti gəlmişdi. Lenin mükafatçısı olan Əhməd Fəna da bu tədbirdə iştirak etmişdi. Əhməd Fəna çıxışında Axundovun ideyalarını yalnız Azərbaycan xalqının deyil, digər şərq ölkələrinin də yazıçısı olduğunu bildirmişdi. Artıq XX əsrin 60-cı illərindən başlayaraq kino, ədəbiyyat, rəssamlıq, kitab, musiqi sahəsində əlaqələr genişlənməyə başlamış, hər iki ölkənin nümayəndələri bir-birinə səfərlər etmiş, keçirilən festival, dekadalarda iştirak etmişdilər. Bu əlaqələrin daha da möhkəmlənməsində böyük rolu olan Sovet-Pakistan Mədəni Əlaqələr Cəmiyyətinin 1966-cı ildə Bakıda yaradılması təkan olmuşdur. Bu cəmiyyətin intensiv fəaliyyəti Azərbaycan-Pakistan mədəni əlaqələrinin tarixi keçmişini öyrənməyə başlamış, mövcud dövrdə əlaqələri möhkəmləndirmişdi. Pakistandan Azərbaycana nümayəndə heyəti gəlmiş, onlara Camruddin Pradxanın da daxil olduğu Şərqi Pakistan Qanunvericilik Məclisinin nümayəndələri Bakı və Sumqayıta səfərlər etmiş, Azərbaycan mədəniyyəti ilə yaxından tanış olmuşdular. Siyasi xadimlərin Azərbaycana səfərləri olmuş, Azərbaycanın tarixi, mədəniyyəti ilə yaxından tanış olmuşlar. Belə səfərlərdən biri də 1962-ci ildə Pakistan Milli Məclisinin sədri Fəzlullah Kadar Çourinin adı ilə bağlıdır. Əməkdaşlığın möhkəmlənməsində atılan addımlardan biri Azərbaycanlı elm, incəsənət xadimlərinin Pakistanın bir sıra şəhərlərinə Lahor, Karaçi şəhərlərinə turistik səfərlərinin etməsi olmuşdur. Kino sahəsində əməkdaşlıqlardan biri də 1965-ci ildə Pakistanın məşhur rejissoru Henri Cayasen Azərbaycana səfər etməsidir. Azərbaycan incəsənət xadimləri ilə bilik, sənət mübadiləsi aparmışdır. 1969-cu ildə Bakıda keçirilən VI Beynəlxalq Moskva kino festivalına müxtəlif ölkələrdən olan rejissorlar, aktyorlar, prodüserlər, jurnalistlər gəlmişdi. Onların içərisində Pakistandan gələn Səlahəddin Əbu Xalid, İmam Səid Həsən, Şahzad İqbal Həsənin adlarını qeyd etmək lazımdır. Şövkət Ələkbərova Pakistanda 1966-cı ildə keçirilən musiqi festivalında iştirak etmişdir. Elm xadimlərindən aşıq Pənah Pənahov, filologiya elmləri doktoru prof. Fərhad Zeynalov Pakistanın Karaçi şəhərinə səfərlər etmiş, elmi əlaqələrin inkişafına kömək olmuşlar. Elmi mübadilələrin aparılmasında Azərbaycan alimi F.Zeynalovla Karaçi universitetində fəaliyyət göstərən Məhəmməd Samirin diskussiyaları böyük töhfədir.

Əfqanıstan və Azərbaycan arasında tarixi əlaqələr

Azərbaycan və Əfqanıstan arasında tarixi əlaqələr çox qədim tarixə söykənir. Əfqanıstan ərazisində müxtəlif illərdə və dövrlərdə dövlətlər, imperiyalar mövcud olmuşdu. Çünki Əfqanıstan ərazisinin strateji mövqeyinin əlverişli olması müxtəlif dövrlərdə mövcud olan imperiyalar tərəfindən işğal edilməsi ilə nəticələnirdi. Bu imperiyaların, dövlətlərin tərkibində olarkən Əfqanıstan Azərbaycan ilə diplomatik, mədəni əlaqələr qura bilirdi. Orta əsrlərdə mövcud olan Samanilər dövlətinin dövründə Əfqanıstan onun tərkibində idi və bu ölkənin dövründə fars dili və ədəbiyyatı geniş yayılmış, bu öz təsirini Azərbaycana da göstərmişdi. Bu dövrdə Azərbaycanla dil, islam dini və fəlsəfi baxışları və elm sahəsində əlaqələr genişlənmişdi. Belə ki, XI əsrdə mövcud olan Qəznəvilər dövlətin vaxtında azərbaycan və əfqan xalqı arasında ilk münasibətlər yaranmışdı. Sultan Mahmud Qəznəli Oğuz türklərinə Xorasan məsələsində kömək olmağa çalışırdı. Nəticədə bu xalqlar arasında mübadilələrə səbəb olmuşdu. Hər iki xalqın şair və alimləri bir-biri ilə mübadilələr aparmış və Azərbaycan şairləri Qəznəvilər dövlətində yüksək nüfuza sahib idilər. XIV-XV əsrlərdə mövcud olan Teymuri imperiyası dövründə də mədəni münasibətlər mövcud idi. Belə ki əfqan şəhəri olan Herat və Təbriz şəhərləri arasında müxtəlif sahələrdə- musiqi, ədəbi, memarlıq, miniatür məktəb sahəsində əlaqələr var idi. Teymurilərlə Azərbaycan arasında mədəni əlaqələrin inkişaf etdirilməsində Azərbaycanın şairləri Kişvəri, Həbibinin özbək şairilərindən isə Əlişir Nəvainin böyük xidmətləri olduğunu xüsusi qeyd etmək lazımdır. Moğol imperiyası dövründə Azərbaycanla birbaşa mədəni əlaqələr olmasa da bəzi məsələlərdə, məsələn fars dili əsas dövlət dili idi ki, bu dil Azərbaycan və Əfqanıstanda da istifadə olunurdu. Azərbaycanın görkəmli şairləri Nizami Gəncəvi və onun "Xəmsə"-si Baburilərdə tanınırdı. Yenidən münasibətlərin yaranması Hotakilərin adı ilə bağlıdır. Hotaki nümayəndəsi Şah Əşrəf Hotaki XVIII əsrdə Təbrizdən Azərbaycana yürüş etmişdir. 1722-ci ildə İsfahan hotakilər tərəfindən işağal edildi və bu Səfəvi mədəniyyətinə güclü zərbə vurdu. Bu münaqişə XVIII əsr boyu davam etmişdi. Bu hərbi toqquşmalara, hücumlara baxmayaraq, iki xalq arasında hər hansı əsaslı münasibətlər, əməkdaşlıqlara dair az faktlar var. XVIII əsrdən XX əsrin 70-ci illərinə qədər, yəni Sovet qoşunlarının Əfqanıstana hərbi təcavüzünün başlanmasına qədər Azərbaycan və Əfqanıstan

arasındakı əlaqələrə dair məlumatlar çoxdur. Çünki Əfqanıstanın müxtəlif hökmdarları Azərbaycana xüsusi maraq göstərmişdilər. XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti yarandığı dövrdə Əfqanıstanla diplomatik əlaqələr mövcud olmuş, əlaqələrin mövcüdluğu AXC-nin süqutuna qədər davam etmişdir. AXC rəhbərliyinin əsas məqsədlərindən biri müsəlman ölkələri ilə həmrəylik nümayiş etdirmək və onlarla siyasi və mədəni əlaqələr qurmaq idi. Sovet hökuməti Azərbaycanda qurulandan sonra Azərbaycan müstəqil xarici siyasət yürütmək hüququndan məhrum olmuş, xarici ölkələrlə mədəni əməkdaşlıq qurmağa çalışırdı. Sovet hakimiyyəti dövründə Əfqanıstanla qurulan əlaqələr daha çox humanitar məqsəd daşımışdır.

XX əsrin 50-60-cı illərindən başlayaraq mədəni əlaqələri hər iki ölkə genişləndirməyə başlamışdır. Müxtəlif sahələrdə görüşlər, əməkdaşlıqlar qurulurdu. Nümunə olaraq aşağıdakıları göstərmək olar. 1959-cu ilin oktyabrın axırlarında Əfqanıstandan olan müğənnilər Bakıya konsert verməyə gəldilər. Azərbaycanlı müğənnilərlə birgə onlar iki konsert verdilər. İlk konsert televiziyada canlı verilmişdir (Qasımlı, 2005). 1966-cı ildə keçirilən musiqi həftələrində Rəşid Behbudov Əfqanıstanda konsert vermişdir. XX əsrin 60-cı illərinin sonunda Azərbaycan rəssamlarının əsərləri Əfqanıstanda sərgi şəklində nümayiş etdirilmişdi.

Nəticə

Azərbaycan SSR ilə Asiyanın Hindistan, İran, Əfqanıstan və Pakistan kimi ölkələri ilə mövcud olan mədəni əlaqələri yalnız sovet hakimiyyəti dövrünü əhatə etməmişdir. Bu əlaqələr qədim tarixə malikdir ki, bunu biz ortaq dəyərlər-din, dil, tarix, mədəniyyət kimi mühüm faktorlarda görmüş olduq. Qədim zamanlardan başlayan bu mədəni əməkdaşlıqlar Sovet hakimiyyəti qurulandan sonra yeni mərhələyə qədəm qoymuş, dövlət səviyyəsində münasibətlərin inkişafı davam etdirilmişdir. Azərbaycan SSR-in Asiya ölkələri ilə mədəni əlaqələri ortaq tarixi irsinin və sivilizasiyalararası dialoqun bir ifadəsinə çevrilmişdir. Müasir dövrdə bu tarixi əlaqələrin tədqiq olunması, araşdırılması, Azərbaycan Respublikasının xarici ölkələrlə mədəni əlaqələrinin formalaşmasında və Asiya regionu ilə münasibətlərində strateji baxımdan mühüm əhəmiyyət daşıyır. Tarixi mədəni münasibətlərin elmi şəkildə öyrənilməsi keçmişin daha obyektiv dərk edilməsinə və gələcək mədəni inteqrasiyanın düzgün formalaşdırılmasına xidmət edir. 318.

ƏDƏBİYYAT SİYAHISI:

1. Ашурбейли, С.Б. (1990). Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку, Элм, с. 27-126.
2. Həbibbəyli, İ. (2019). Azərbaycan-Hindistan ədəbi-mədəni əlaqələri. Müqayisəli Ədəbiyyatşünaslıq, 1, s. 3–6.
3. Гасымлы, М. Дж. (2005). Азербайджан в международных культурных связях (1946-1990 гг.). Тбилиси, изд. Артануч, с.18-67.
4. **Qasımova, S.** (2007). II cild. In N. Vəlixanlı (Məs. red.), *Azərbaycan tarixi* (7 cilddə). Bakı, Elm, s.104.
5. Manafova, M. C. (2008). Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri. Bakı, Sabah, s.5-6. Məmmədzadə, K., və Qasımova, S. (2007). Memarlıq və şəhərsalma. İn N. Vəlixanlı, Azərbaycan tarixi (cild 2). Bakı, Elm, s.115-125.
6. Ömərov, V. (2014, fevral 21). Azərbaycan Hindistan mədəni əlaqələri. 525-ci qəzet, s.15.
7. https://www.anl.az/down/meqale/ses/2014/fevral/354063.htm
8. Salamzadə, Ə., Kərimov, K., Əfəndiyev, R., & Onullahi, S. (2007). 16–17 əsrlərdə Azərbaycan mədəniyyətində incəsənət və memarlıq. In O. Əfəndiyev (Məs. red.), Azərbaycan tarixi VII cilddə (cild 3). Bakı, Elm, s. 27

DOİ: 10.32010/ITSX9151

BAYRAM HACIZADƏNİN BEYNƏLXALQ KARİKATURA MÜSABİQƏLƏRİNDƏ VƏ SƏRGİLƏRDƏ UĞURLARI

Kəmalə Kamandar MUSTAFAYEVA
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının doktorantı Elmi rəhbər: Bayram Hacızadə - Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Əməkdar İncəsənət xadimi, professor
ORCID 0009-0001-4166-8838
E-mail: kamalamustafazadeh@gmail.com

Xülasə. Məqalədə, karikaturaçı rəssam Bayram Hacızadənin beynəlxalq karikatura müsabiqələrində, festival və biennalilərdə qazandığı uğurları, mükafatları, karikaturaçı rəssamların Bayram Hacızadə haqqında fikirləri yer almışdır. Beynəlxalq aləmdə və respublikada baş verən ictimai-siyasi hadisələri, gündəlik həyatın ümumi mənzərəsini öz yaradıcılığında əhatəli və çoxşaxəli şəkildə təsvir edən karikaturaçı rəssamın əsərləri bütün dövrlərdə özünün mövzu müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi, aktuallığı və müasirliyi ilə seçilmişdir. Rəssamın ölkəmizdə və xaricdə təşkil olunmuş sərgilərdə nümayiş olunmuş karikaturalarının mövzu müxtəlifliyindən, onun yaradıcılığında beynəlxalq aləmdə baş verən qloballaşma, ekologiya, terrorizm, işğal və gündəlik həyat hadisələrinin satirik təcəssümündən bəhs edilir. Ölkənin və cəmiyyətin yaşadığı siyasi böhran, torpaqlarımızın işğalı, sosial, iqtisadi və mədəni problemlər B.Hacızadənin yaratdığı əsərlərin mövzu və forma biçiminə təsir etmiş, yaradıcılığının ümumi inkişaf istiqamətini və bədii təzahür formalarını müəyyənləşdirmişdir. Yeni ifadə tərzi, yeni formalar axtarışında olan karikaturaçı rəssam milli dəyərlərə, milli kökə istinad edərək yaratdığı əsərlər müasir dövrümüzün ictimai-siyasi və mədəni mənzərəsini əks etdirən aynasıdır. Rəssamın qrafikasına xas olan konturların plastik həlli, formaların incəliklə işlənməsi, ştrixləmə vasitəsi ilə maraqlı işıq-kölgə effektinə nail olunması karikaturalarının özünəməxsus cəhəti kimi üzə çıxaraq, təqdim olunan əsərləri baxımlı edir. Bayram Hacızadənin beynəlxalq karikatura təşkilatları ilə əməkdaşlığı, eləcə də ictimai fəaliyyəti, yaradıcılığında çeşidli problemlərin işıqlandırılması istiqamətində səmərəli addımları qeyd olunur. Məqalədə, rəssamın çoxşaxəli yaradıcılığı, fəaliyyətinin müxtəlif dövrlərində işləyib hazırladığı müxtəlif mövzulu karikaturaları və satirik rəsmləri təhlil edilir.
Açar sözlər: karikatura, müsabiqə, sərgi, beynəlxalq, tənqid, qrotesk, yaradıcılıq, rəssam

BAYRAM HAJIZADE'S SUCCESSES IN INTERNATIONAL CARTOON COMPETITIONS AND EXHIBITIONS

Kamala Kamandar MUSTAFAYEVA
Doctoral student of Azerbaijan State Art Academy
Bayram Hajizadeh
Academic supervisor
Doctor of Philosophy in Art Studies, Honored Worker of Arts, Professor

Abstract: The article contains the achievements and awards of cartoonist Bayram Hajizade in international caricature competitions, festivals and biennials, and the opinions of cartoonists about Bayram Hajizade. The works of the caricaturist, who depicts the social and political events in the international world and the republic, the general picture of everyday life in his creativity in a comprehensive and multifaceted manner, have been selected for the variety of topics, the variety, relevance and modernity of the means of artistic representation in all periods. The artist's caricatures presented in exhibitions organized in our country and abroad are discussed about the variety of topics, the satirical embodiment of globalization, ecology, terrorism, occupation and everyday life events in his work. The political crisis experienced by the country and society, the occupation of our lands, social, economic and cultural problems affected the subject and form of the works created by B. Hajizade, and determined the general development direction of his creativity and the forms of artistic expression. The caricaturist, who is in search of a new way of expression, new forms, referring to national values and national roots, creates works that reflect the socio-political and cultural landscape of our modern era. The plastic solution of contours typical of the artist's graphics, the delicate processing of forms, and the achievement of an interesting light-shadow effect by hatching are revealed as a unique aspect of his caricatures, making the presented works attractive. Bayram Hajizade's cooperation with international caricature organizations, as well as his public activities and effective steps towards the illumination of various problems in his creativity, are noted. In the article, the multifaceted creativity of the artist, his caricatures and satirical paintings with different themes developed in different periods of his activity are analyzed.
Keywords: caricature, competition, exhibition, international, criticism, grotesque, creativity, artist

УСПЕХИ БАЙРАМА ГАДЖИЗАДЕ НА МЕЖДУНАРОДНЫХ КОНКУРСАХ И ВЫСТАВКАХ МУЛЬТФИЛЬМОВ

Камала Камандар МУСТАФАЕВА
Докторант Азербайджанской Государственной Академии Художеств

Байрам ГАДЖИЗАДЕ
Научный руководитель
Доктор Философии в Области Искусствоведения
Заслуженный Деятель Искусств, Профессор

Резюме:. В статье приведены достижения и награды художника-карикатуриста Байрама Гаджизаде на международных конкурсах карикатуры, фестивалях и биеннале, а также мнения художников-карикатуристов о Байраме Гаджизаде. Произведения карикатуриста, комплексно и многогранно изображающие в своем творчестве общественно-политические события в международном мире и республике, общую картину повседневной жизни, отобраны за многообразие тем, разнообразие, актуальность и современность средств художественного изображения во все периоды. Карикатуры художника, представленные на выставках, организуемых в нашей стране и за рубежом, обсуждают разнообразие тем, сатирическое воплощение в его творчестве глобализации, экологии, терроризма, оккупации и событий повседневной жизни. Политический кризис, переживаемый страной и обществом, оккупация наших земель, социальные, экономические и культурные проблемы повлияли на тематику и форму произведений, созданных Б.Гаджизаде, определили общее направление развития его творчества и формы художественного творчества. выражение. Карикатурист, находящийся в поисках нового способа выражения, новых форм, обращаясь к национальным ценностям и национальным корням, создает произведения, отражающие социально-политический и культурный ландшафт нашей современной эпохи. Свойственное графике художника пластическое решение контуров, тонкая обработка форм, достижение интересного светотеневого эффекта штриховкой раскрываются как уникальная сторона его карикатур, делающая представленные произведения привлекательными. Отмечается сотрудничество Байрама Гаджизаде с международными карикатурными организациями, а также его общественная деятельность и эффективные шаги по освещению различных проблем в его творчестве. В статье анализируется многогранное творчество художника, его карикатуры и сатирические картины различной тематики, разработанные в разные периоды его деятельности.

Ключевые слова: карикатура, конкурс, выставка, международный, критика, гротеск, творчество, художник.

Giriş

Azərbaycan təsviri sənətinin ayrılmaz tərkib hissəsi olan karikatura janrının cəmiyyətdə tanınması və inkişafı istiqamətində əvəzsiz xidmətlər göstərmiş rəssamlarımız müstəqillik dövrünün ilk illərindən ölkəmizi beynəlxalq sərgilərdə, müsabiqələrdə, mötəbər tədbirlərdə layiqincə təmsil etmişlər. Seçdikləri peşəyə, xidmət etdikləri sənətə sevgi ilə yanaşan karikaturaçı rəssamlarımızın beynəlxalq aləmdə, eləcə də ölkənin ictimai-siyasi və mədəni həyatında baş verən hadisələri özündə əks etdirən əsərləri mövzu aktuallığı, yüksək bədii səviyyəsi ilə seçilir, müasir yanaşma tərzi və orijinal rəssam tapıntısı ilə diqqət çəkir.

Mətn

"XX əsrin səksəninci illərində yaranmış nisbi yaradıcı azadlıqdan bəhrələnmiş rəssamlar sırasında Bayram Hacızadənin adı bugünkü zaman distansiyasından aydın görünməkdədir. Bir qərinəni əhatə edən Bayram Hacızadə yaradıcılığında çoxsaylı mövzuların səmimi, tamaşaçısını tam inandıra biləcək bədii-satirik yozumunu görmək olar. Bu, rəssamın sənətə gəlişində və sahə seçimində yaradıcı insan kimi gələcəkdə rastlaşa biləcəyi çətinliklərə hazır olduğunu və öz işinə əminliyini bir daha sübut edir" [5, s. 3].

Əməkdar incəsənət xadimi, sənətşünas alim Ziyadxan Əliyevin öz həmkarı haqqında söylədiyi bu fikirlər dəqiq və obyektivdir. Həqiqətən də Bayram Hacızadə keçən əsrin 80-ci illərindən, Sovet senzurasının mövcud olduğu mürəkkəb siyasi şəraitdə özünün siyasi və məişət mövzulu karikaturaları, eləcə də təbliğat və təşviqat xarakterli rəsmləri ilə dövri mətbuat səhifələrində çıxış etməyə başlamışdır. Müəllifi olduğu əsərlərdə rəssam, bəşəri, ekoloji və sosial problemləri işıqlandırmış, ölkədə mövcud olan əyintilərə və eybəcərliklərə qarşı çıxaraq, bu nöqsanları gündəmə gətirmiş, irticaçı ideologiya, təcavüzkar siyasət, cəmiyyətin inkişafına mane olan ünsürləri tənqid atəşinə tutaraq ifşa etmişdir.

Müstəqililk dövründə yeni inkişaf mərhələsinə qədəm qoymuş Azərbaycan satirik qrafikasının tədqiqi, bu sahədə uğurla fəaliyyət göstərən B.Hacızadə yaradıcılığının araşdırılması, faktiki materialların təhlili onu deməyə əsas verir ki, bu illər rəssamın müasir, eyni zamanda milli- mənəvi köklərə bağlı olan yeni ruhlu əsərləri ilə yadda qalmışdır. Karikaturaçı rəssam B.Hacızadənin müxtəlif mövzuları əhatə edən, özündə sarkazm, tənə və ironiya daşıyan əsərlərində məzmunun ideyası milli maraqlar baxımından işlənmiş, süjetin seçimində daha çox mətnaltı mənanın ifadəliyinə üstünlük verilmişdir ki, bu da satiranın kəskinləşməsi, istehzanın mahiyyətinin dərinləşməsi ilə müşayiət olunurdu. Tədqiq etdiyimiz bu dövrdə dünya rəssamlarının, eləcə də B.Hacızadənin yaradıcılığında əsas yerlərdən birini tutan "beynəlxalq dil"də danışan yeni ruhlu karikaturaların, müasir məzmunlu rəsmlərin çoxluq təşkil etdiyinin şahidi oluruq. Bəzən "sözsüz" karikatura adlandırdığımız bu rəsmlər karikaturaçılarımızın beynəlxalq sərgi və müsabiqələrdə iştirakını asanlaşdırır, onlara özlərini ifadə üçün yeni yaradıcılıq imkanları açır desək, həqiqəti söyləmiş olarıq. Bu karikaturalarda süjet aydın və anlaşıqlı tərzdə təqdim edildiyindən əlavə şərhə ehtiyac duyulmur. Müəllifdən yüksək peşəkarlıq və xüsusi hazırlıq tələb edən bu rəsmlərdə tənqid hədəfini süjet xəttində göstərilən vizual təsvirdə yox, onun əsasında çıxarılan məntiqi nəticədə axtarmaq lazımdır. Bu isə öz növbəsində rəssamın qarşısına orijinal və lokal ifadə vasitələrindən maksimum istifadə etməklə, bir vizual təsvirlə iki və daha artıq mətnaltı mənanın ifadəsinə nail olmaq, tamaşaçıya daha artıq informasiya ötürmək və s. bu kimi vəzifələr qoyur. Bu vəzifələrin öhdəsindən layiqincə gələn, tamaşaçını özünün müasir məzmunlu əsərləri ilə düşündürən B.Hacızadənin yaradıcılığı və bu sahədəki fəaliyyəti diqqətəlayiqdir. Daim yenilik axtarışında olan rəssamın müasir dövrlə səsləşən, yüksək bədii səviyyəsi ilə seçilən, "beynəlxalq dil"də danışan əsərləri bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

Müstəqillik dövrünün ilk illərindən beynəlxalq karikatura müsabiqələrində və sərgilərində özünün "beynəlxalq dil"də danışan "sözsüz" karikaturaları ilə uğurla iştirak edən B.Hacızadənin əsərləri ABŞ, Almaniya, Belçika, Bolqarıstan, Çin, Efiopiya, Fransa, Hindistan, İran, İsrail, İtaliya, Kipr, Koreya, Kuba, Polşa, Rumıniya, Rusiya, Serbiya, Suriya, Türkiyə, Ukrayna, Yunanıstan və digər ölkələrdə qızıl, gümüş və bürünc medallara, yarışmanın xüsusi mükafatı və diplomlarına layiq görülmüşdür. Beynəlxalq karikatura müsabiqələri və festivallarında otuzdan artıq mükafat qazanmış B.Hacızadənin yüzdən artıq əsəri müxtəlif kataloqlarda, albom və kitablarda dərc olunmuşdur [5, s. 4; 16; 10, s. 308; 11, s. 328].

Tanınmış karikaturaçı rəssam B.Hacızadənin 2005-ci ildə Çində təşkil olunmuş "Lenq- Mu" beynəlxalq karikatura müsabiqəsində qızıl medala, İsraildə keçirilən XI beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, 2007-ci ildə Kubada, beynəlxalq yumor və qrafika biennalesində I yerə və yarışmanın "Siyasi karikatura" nominasiyasında xüsusi mükafata, ABŞ- da "Tamaşaçı rəğbəti" nominasiyası üzrə xüsusi mükafata, Kiprdə, "Pulya" beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, İsraildə, "Hayfa" beynəlxalq karikatura müsabiqəsində "Ən orijinal karikatura" nominasiyasında xüsusi mükafata, Türkiyədə, "Yılmaz Güney" mədəniyyət və incəsənət festivalında münsiflər heyyətinin xüsusi mükafatına, 2009-cu ildə ABŞ-da, beynəlxalq siyasi karikatura müsabiqəsində I yerə və yarışmanın xüsusi mükafatına, Polşada, "Jake-bede" beynəlxalq karikatura

müsabiqəsində bürünc medala, Bolqarıstanda, "Kavarna" beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, 2010-cu ildə, İranda IX beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, 2011-ci ildə Hindistan, Rusiya, Yunanıstan, Ukrayna və İranda keçirilən beynəlxalq karikatura müsabiqələrində yarışmanın xüsusi mükafatlarına, 2014-cü ildə Suriyada beynəlxalq karikatura müsabiqəsində qızıl medala və yarışmanın "Uğur" xüsusi mükafatına, eləcə də 2018-2019-cu illərdə Çində, Çexiyada, Suriyada və Kiprdə keçirilən beynəlxalq karikatura müsabiqələrində xüsusi mükafatlara və fəxri diplomlara layiq görülmüşdür [16; 9, s. 12; 2, s. 17].

B.Hacızadənin beynəlxalq müsabiqələrdə qazandığı uğurlar haqqında Azərbaycan Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağaəli İbrahimov yazır: "ABŞ-da təşkil olunan "Davenport" beynəlxalq karikatura müsabiqəsində B.Hacızadənin yarışmanın qızıl və eyni zamanda bürünc medallarını qazanması, Kubada keçirilən beynəlxalq yumor və qrafika biennalesində I yerə və müsabiqənin "Siyasi karikatura" nominasiyasında xüsusi mükafata layiq görülməsi, Çində keçirilən, 80 ölkədən minlərlə rəssamın qatıldığı "Lenq-Mu" beynəlxalq karikatura müsabiqəsində II və III yerə, eləcə də Suriyada təşkil olunmuş beynəlxalq müsabiqədə qızıl medala və "Uğur" mükafatına layiq görülməsi, əlbəttə ki, bir yaradıcı insan kimi B.Hacızadənin uğurudur. Bu hadisə eyni zamanda müasir Azərbaycan karikaturasının ölkəmizdə inkişafını, beynəlxalq aləmdə tanınması və təbliğini sübut edən mühim amil kimi qəbul edilməlidir" [15; 9, s. 12].

B.Hacızadənin əsərlərinin təhlili onu deməyə əsas verir ki, rəssamın yaradıcılığını səciyyələndirən xüsusiyyətlərindən biri də onun əsərlərinin mənəvi-psixoloji tutuma, eyni zamanda beynəlmiləlçi bədii-ruha malik olmasıdır. Müraciət etdiyi və təsvirə gətirdiyi ən müxtəlif mövzuların aktuallığına və müasir bədii həllinə görə hər bir ölkədə mətnsiz və izahatsız anlaşılması da onun əsərlərinin məkansız və zamansız olmasını sübut edir.

2009-cu ildə ABŞ-da təşkil olunmuş, dünyanın ən mötəbər yarışmalarından biri olan "Davenport" beynəlxalq karikatura müsabiqəsində B.Hacızadənin qızıl medala layiq görülmüş əsəri də özünün mənəvi-psixoloji tutumuna görə diqqət çəkir. Bu karikaturada həyatın haqsızlıqlarından, insanların riyakarlığından, bəlkə də səfalətdən və ya xəyanətindən zara gəlmiş bir insanın intihar səhnəsini görmək olar. Burada müxtəlif, boğazına kəndir keçirib özünü asmağa hazır olan insanın ayağının altında stul və ya hər hansı bir əşya əvəzinə onun sədaqətli dostunu– onun itini təsvir etmişdir. Rəsmdən aydın olur ki, dünyadan artıq bezmiş bu insanı sözün hər mənasında həyata bağlayan yeganə varlıq–ancaq onun itidir. Ömrünün son anında, bəlkə də müəyyən tərəddüdlərinə son qoymaq məqsədi ilə öz yegənə dostunu yoxlamaq qərarına gələn bu insan, əlindəki sümüyü itə atır. Sədaqət və etibar simvolu olan itin, onu həyata bağlayan yeganə canlının öz sahibini atıb sümük arxası ilə qaçmayacağına ümid edən qəhrəman, bu dəfə də yanılır… Bir parça sümüyü görən it dərhal öz sahibini qoyub, yeməyin arxasınca qaçır və əlbəttə ki, bununla da kəndir çəkilir və əsərin qəhrəmanının həyatına son qoyulur. Bəlkə də həyatda, müasir dövrümüzdə tez-tez rastlaşdığımız, bəlkə də artıq alışdığımız xəyanət mövzusuna rəssam, öz əsərində acı gülüş qataraq, bu səhnəni tamaşaçıya çox fərqli bir vəziyyətdə və gözlənilməz formada təqdim etmişdir [5, s. 54; 9, s. 12] (şək.1).

"Adı dünyanın tanınmış karikatura ustaları ilə yanaşı çəkilən Bayram Hacızadənin sənəti həsədaparıcı dərəcədə insanidir desək, həqiqəti söyləmiş olarıq. Həyat hadisələrinə müxtəlif, hətta ən kəskin münasibətində belə, rəssamın tənqid etdiyi insanları sevdiyi, onların halına acıdığı, onlarla həmdərd olduğu, gördükləri və çəkdiklərinin qarşılığında duyğulandığı aydın görünür. Dünya şöhrətli karikatura ustası Oleq Karpoviç (Belarus) onun yaradıcılığındakı bu keyfiyyətləri belə qiymətləndirir: "Bayram Hacızadənin sənət dili sülh və tolerantlıq dilidir. Onun hər bir əsərində sevgi və dostluq, sülh və barış mesajını asanlıqla duymaq olar. Bu isə çox böyük istedaddır". Həqiqətən də belədir.

Rəssamın incə müşahidə qabiliyyətindən xəbər verən çoxsaylı karikaturalarında onun baş verənlərə, insanların davranışlarına çox diqqətlə, həssaslıqla – nüfuzedici şəkildə göz qoyduğu aydın duyulur" [5, s. 4].

Eyni fikiri İsrailli karikatura ustası Boris Erenburq da təsdiqləyərək bu haqda yazır: "Bayram Hacızadənin karikaturalarının ana xəttini tolerantlıq, səmimiyyət, sağlam düşüncə, bugünkü mürəkkəb dünyamızda o qədər də aktual səslənməsə də - xalqlar dostluğu, insani münasibət və bu kimi yüksək keyfiyyətlər təşkil edir. Həmkarımız, tanınmış rus karikatura ustası Mixail Zlatkovski Bayrama heykəl qoymaq təklifi ilə çıxış etmişdir. Düşünürəm ki, ehtiyac yoxdur. Bayram hər bir əsəri, hər bir yeni kitabı, hər yeni proyekti ilə öz-özünə artıq heykəl qoyub" [17; 10, s. 89].

Karikatura sahəsində artıq öz sözlərini demiş bu böyük şəxsiyyətlərin fikirləri B.Hacızadə yaradıcılığı, onun iç dünyası, həyata və hadisələrə baxışı haqqında bir mənzərə yaradır, desək yanılmarıq. Həqiqətən də rəssamın müəllifi olduğu, insanlığı, alicənablığı alqışlayan, xalqlar, insanlar arasında olan dostluq körpüsünü yandırmamağa çağıran karikaturaları kifayət qədərdir.

Şəkil 1. Bayram Hacızadə - Sədaqətli dost karikaturalarında onun baş verənlərə, insanların davranışlarına çox diqqətlə, həssaslıqla – nüfuzedici şəkildə göz qoyduğu aydın duyulur" [5, s. 4].

Şəkil 2. Bayram Hacızadə - Sədaqətli həyat yoldaşı

Bu rəsmlər sırasında yaxınları tərəfindən unuulan məhbus (Çin, 2005), kitabı qızıla bərabər tutan ziyalı (Koreya, 2006), təbiəti məhv edən, dünyanı fəlakətə sürükləyən insanlara öz hiddətini bildirən meymunlar (ABŞ, 2007), futbol oyunundan zövq alan terrorçular (Çin, 2007), xilası dostluqda görən ruhanilər (Kuba, 2007), dünya malında gözü olmayan sənət adamları (İsrail, 2007), həyatdan bezib, ölümə razı olan qocanın həyat yoldaşının sədaqəti (İsrail, 2008), ölümdən əvvəl məhkumu doyunca yedizdirən cəlladlar (Çexiya, 2008), oğul arzusu ilə yaşayan kişi (Türkiyə, 2008), təzyiqlərə, qadağalara dözməyib sərhədləri dağıdan köməksiz insan (Luksemburq, 2008), möcüzələrə inanan sadəlövh hindular (Rusiya, 2008), səhrada səsinin eşidilməsinə ümid edən ərəb (Avstriya, 2008), uca binalar arasında qalmış yeganə ağacı qoruyan qoca (Efiopiya, 2009), döyüş silahlarını bir qarın çörəyə dəyişən Don Kixot (Kipr, 2009), məğlubiyyətdən zara gəlmiş futbolçu (İtaliya, 2009), son dəqiqəyə qədər danışıqlar masasını tərk etmək istəməyən diplomat (Slovakiya, 2010), alma ağacını məhv etməyə ürəyi gəlməyən hərbiçi (Ukrayna, 2016), Darvin nəzəriyəsini qəbul edən rahib (Yunanıstan, 2016), şəkil çəkdirməyə can atan çadralı qadınlar (Belarus, 2016), ən son anda belə öz insanlığını itirməyən Roma əsgəri (Fransa, 2016), keşişlərə və rahiblərə kömək göstərməyə çalışan Karlo ata (İspaniya, 2017), cəbhə bölgəsində özünə ev şəraiti düzəltmiş zabit (Suriya, 2019) və digər qəhrəmanları müəllifin özü

kimi son ana qədər insana, onun kamalına, sağlam fikirin, məntiqi düşüncənin zəfər çalacağına inanır" [12, s. 79] (şək.2).

Hər bir rəssamın yaradıcılığında bədii vasitələrin özünəməxsus tətbiqi ilə yaranmış üslubun, dəst-xətinin ilk baxışdan tanınması onun yaradıcı "mən"inin formalaşmasının göstəricisidir. "B.Hacızadə üçün də belə yaradıcı "mən"in yaranması və tədricən cilalanması da önəmli məsələlərdəndir" [5, s. 9]. Rəssamın, tamaşaçını güldürən və düşündürən, özünün mövzu aktuallığı və məzmununa görə diqqət çəkən əsərlərinin təhlili onun artıq kamilləşmiş, özünəməxsus qrafik üslubuna sahib olduğunu təsdiqləyir. Qrafikanın bədii-texniki ifadə imkanlarından bütünlüklə bəhrələnən B.Hacızadənin satirik lövhələrində istifadə etdiyi incə cizgilər rəssamın özünəməxsus üslubu, onun bədii tapıntıları kimi qiymətlidir. Bəzən bu əsərlər ofort və ya ksiloqrafiya texnikasında işləndiyi təəssüratını yaratsa da, əslində bu, B.Hacızadənin dəzgah qrafikası texnikalarının bədii xüsusiyyətlərindən yaradıcılıqla faydalanmasının nəticəsi kimi qəbul olunmalıdır.

Bu əsərlər sırasında "Müasirlik", "İstedadlı rəssam", "Mətbuat", "Lombartda", "Urbanizasiya", "Neft kəməri" Rodenin məşhur "Mütəfəkkir" və Rembrandtın "Səfil oğulun qayıtması"nın "müasir versiyası", ekoloji tarazlığı pozan, yer üzünü cəhənnəmə döndərənlərdən yaxa qurtarmağa çalışanların buludlara pənah aparmasını yumorla gündəmə gətirən "Ümid işığı", Ç.Darvin nəzəriyyəsi mövzusunda işlənib hazırlanmış "Sən bizdən deyilsən", "Bu da sonu...", A.Eynşteynin kəşfinin nəticələrini acı gülüşlə işıqlandıran "Ağır nəticə", insan xisləti və sədaqətsizlik mövzusunda işlənmiş, tamaşaçıda təəssüf doğura biləcək "Sədaqətli dost", "Dustaqxanada" və s. bu kimi satirik lövhələri bədii həqiqətlərin obrazlı yozumuna görə doğrudan da qiymətlidir (şək.

Şəkil 3. Bayram Hacızadə - Neft kəməri



Şəkil 4. Bayram Hacızadə - Çarlz Darvin

Bayram Hacızadə müsahibələrinin birində müxbirin "Beynəlxalq karikatura müsabiqələrində mükafat qazanmış əsərləriniz sırasında ən dəyərlisi hansıdır?" sualını belə cavablandırmışdır: "Əlbəttə ki, mənim üçün hər bir karikaturam doğmadır. Hər birinin öz yeri, öz tarixçəsi var. Amma, deyə bilərəm ki, 2007-ci ildə ABŞ- da təşkil olunmuş beynəlxalq karikatura yarışmasında "Tamaşaçı rəğbəti" nominasiyasında xüsusi mükafata layiq görülmüş "Darvin nəzəriyyəsinə yox!" adlı karikaturam mənim üçün daha qiymətlidir. Səbəbi - bu rəsmin məhz tamaşaçıların, sıravi amerikalıların səs çoxluğu ilə bəyənilib, seçilməsi və beynəlxalq müsabiqənin "tamaşaçı rəğbəti" xüsusi mükafatına təqdim edilməsi olmuşdur. Bu mükafat mənim üçün çox böyük əhəmiyyət kəsb edir. Qeyd etməliyəm ki, "Davenport" beynəlxalq yarışması çox nüfuzlu və ciddi tərkibli münsiflər heyəti olan müsabiqələrdən biridir. Uzun illərdir ki, bu müsabiqədə əsas mükafatları ABŞ və ya avropa karikaturaçıları qazanırdılar. Bu baxımdan Azərbaycan təmsilçisinin bu beynəlxalq müsabiqədə mükafat alması mənim üçün həm gözlənilməz, həm də sevindirici hal idi" [3, s. 14; 16].

Rəssam B.Hacızadənin bu karikaturasının mövzusu aktual, ideyası isə orijinaldır. Karikaturanın süjet xətti Çarlz Darvinin insanların meymundan yaranması nəzəriyyəsi üzərində qurulmuşdur. Rəsmdə, ön planda Ç.Darvinin heykəlini, heykəlin ətrafında isə alimə öz etirazlarını xüsusi formada bildirən meymunları görmək olar. Arxa planda isə amosferə zəhərli qazlar buraxan, qara tüstüləri havaya yüksələn çoxlu sayda zavod, fabrik və atom elektrik stansiyaları təsvir olunmuşdur. Təbiəti zəhərləyən, ekologiyanı məhv edən bu müasir zavodların fəaliyyəti əslində bütün planetin faciəsi olduğunu bədii vasitələrlə tamaşaçıya çatdırmağa çalışan müəllif, bu fəlakətin insanların törətdiyini acı gülüşlə gündəmə gətirmişdir. Sözsüz də anlaşılan bu rəsmdən aydın olur ki, təbiətin bir hissəsi olan meymunlar planetə vurduqları ziyanın nəticələrini insanlardan fəqli olaraq anlayır və dərk edirlər. Onların, Ç.Darvinin abidəsinin önünə gəlib, öz hiddətlərini ona bu cür bildirməklərinin səbəbi də alimin "insan meymundan yaranıb" nəzəriyyəsi ilə etirazları olmuşdur. Bir qrup meymun "insanlar bizdən törəməyib, onların bizə heç bir aidiyyatı yoxdur, bizdən törənənlər belə iş tutub, təbiəti bu hala gətirməzdilər" deyərək, "biz insanlardan imtina edirik!" şüarları ilə alimin bu nəzəriyyəsinə öz haqlı etirazlarını bildirirlər. Karikaturaçının rəssamın seçdiyi mövzu xarakter etibarilə ciddi problemi gündəmə gətirir, faciənin əsl mahiyyətinə nüfuz edərək, onu acı gülüşlə tamaşaçıya çatdırır (şək.4).

Uzun illər "Kirpi" satirik jurnalının bədii redaktoru vəzifəsində çalışmış, görkəmli karikatura ustası Adil Quliyev (Adil Elçin) Bayram Hacızadənin yaradıcılığı və ictimai fəaliyyəti haqqında yazır: "Bayram Hacızadənin istedadı çoxşaxəlidir. O, Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin sədri, Azərbaycan Rəssamlar İttifaqının rəyasət heyətinin və jurnalistlər birliyinin üzvüdür. Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyasında Azərbaycan qrupunun prezidentidir. Bu gün Bayram tanınmış karikaturaçı rəssam olmaqla yanaşı, Azərbaycan sənətşünaslığının ən parlaq şəxsiyyətlərindən biridir. Təəssüf hissi ilə deməliyəm ki, bu günə kimi B.Hacızadədən başqa, Azərbaycan karikaturasını əsaslı şəkildə araşdıran, təhlil və təbliğ edən sənətşünas olmamışdır. Onun, çox böyük sevgi ilə işləyib hazırladığı karikaturalarının beynəlxalq sərgilərdə və müsabiqələrdə mükafatlara layiq görülməsi, müəllifi olduğu kitablar, dərsliklər, monoqrafiyalar və albomların nəşri və geniş şəkildə yayılması dünya ictimaiyyətinə Azərbaycan karikaturasını tanıtmağa, ölkəmizin təbliğinə və əlbəttə,

bu janrın inkişafına xidmət edir" [5, s. 10; 15]. Həqiqətən də B.Hacızadənin beynəlxalq sərgi və müsabiqələrdə uğurları və qələbələri, eyni zamanda karikatura sənətinin, tarixinin tədqiqi və təbliği sahəsində Azərbaycan sənətşünaslığına verdiyi töhfələr əvəzsizdir. Tədqiqatçı-rəssam XX əsr Azərbaycan təsviri sənətinin inkişafında böyük rolu olmuş Ə.Əzimzadə ənənələrini yaşadan rəssamların yaradıcılığını araşdırmaqla, bu nadir və mübariz sənət növünü tanıtmaqla, təbliği ilə məşğul olmaqla, həm də özünün bu sahədə baş verən proseslərə dərindən bələd olduğunu nümayiş etdirmişdir. Həqiqətən də bu gün, B.Hacızadənin məhsuldar və səmərəli fəaliyyəti sayəsində geniş beynəlxalq ictimaiyyətin Azərbaycan karikaturası, onun tarixi və müasir dövrdə yeni inkişaf mərhələləri haqqında məlumat almaq imkanları yaranmışdır.

Dünya və İran karikaturasının tanınmış simalarından biri olan rəssam Şahram Rezai Bayram Hacızadə haqqında belə yazır: "Bu böyük və dəyərli müəllimimizin sayəsində dünya Azərbaycan karikatra tarixi, eləcə də müasir Azərbaycan karikatura sənəti ilə tanış oldu" [7, s. 36]. Tanınmış karikatura ustasının bu fikri ilə razılaşmaya bilmərik. B.Hacızadənin son illər ərzində Azərbaycanda və dünyanın bir çox ölkələrində "Azərbaycan karikaturası" başlığı altında təşkil etdiyi sərgilər, yeni nəşrlərin təqdimatı, tanınmış karikatura ustaları ilə görüşlər iranlı həmkarı Şahram Rezai söylədiyi kimi – həqiqətən də Azərbaycan karikaturasının beynəlxalq aləmdə tanınması və təbliği istiqamətində atılmış mühüm addımlardandır.

B.Hacızadənin təşkilatçılığı ilə həyata keçirilən bu tədbirlərdə, sərgi və müsabiqələrdə dünyanı və ölkəmizi narahat edən problemlər, müharibə, terrorizm, seperatizm, torpaqlarımızın işğalı, xalqımızın üzləşdiyi haqsızlıqları əks etdirən, ekstrizmi və təcavüzü ifşa edən karikaturalar "İşğala son!" başlığı altında nümayiş olunmuş, xalqımızın haqq səsi beynəlxalq ictimayyətə çatdırılmışdır [4, s. 22].

Bu istiqamətdə apardığı məhsuldar və səmərəli fəaliyyətinə, karikatura sənətinin öyrənilməsi, tədqiqi və təbliği, bu janrın inkişafında göstərdiyi xidmətlərə görə karikaturaçı rəssam Bayram Hacızadə 2007-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları tərəfindən "Əməkdar İncəsənət Xadimi" fəxri adına layiq görülmüşdür [1, s. 1; 3, s. 2].

"2018-ci ildə 50-illik yubileyi münasibəti ilə Bayram Hacızadə Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilmişdir. Bu xoş müjdənin önəmli cəhəti Azərbyacan sənətkarının bu nüfuzlu elmi-yaradıcı quruma xarici ölkələrdən seçilən ilk karikaturaçı rəssam olması idi. Qənaətimizcə, 260 illik mövcudluğu ərzində bilavasitə klassik sənət sahələri təmsilçilərinin fəaliyyətini dəyərləndirməyə üstünlük verən akademiyanın bu dəfə öz sıralarına satirik rəsm – karikatura ustasını qəbul etməsi ilk növbədə B.Hacızadənin öz yaradıcılığında klassik karikaturaya onun yeni bədii-estetik nəfəs verməsi ilə bağlı olmuşdur.

Rusiya Rəssamlıq Akademiyasında keçrilən təqdimetmə mərasimində Rusiya Rəssamlıq Akademiyasının prezidenti, SSRİ xalq rəssamı, akademik Zurab Sereteli Azərbaycanlı rəssamın yaradıcılığını yüksək qiymətləndirmiş, ona uğurlar arzulamışdır. Tədbir zamanı SSRİ xalq rəssamı

Tahir Salahov çıxış edərək, Bayram Hacızadəni görkəmli Sovet-rus rəssamı Boris Yefimovdan sonra bütün post-sovet məkanında karikaturanı tədqiq və tədris edən, bu janrın inkişafında və cəmiyyətdə tanınmasında ciddi fəaliyyəti ilə seçilən ikinci şəxs adlandırmışdır" [5, s. 17; 12, s. 91].

Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin sədri Bayram Hacızadənin məhsuldar fəaliyyəti nəticəsində 2005-2022-ci illərdə ölkəmizdə və onun hüdudlarından uzaqlarda 50-dən artıq beynəlxalq sərgi və karikatura müsabiqəsi uğurla keçirilmişdir [13, s. 9]. Qeyd etməliyik ki, layihə rəhbəri və təşkilatçısı Bayram Hacızadə olan "Molla Nəsrəddin" beynəlxalq karikatura müsabiqəsinə hər il əllidən artıq ölkədən yüzlərlə karikaturaçı rəssam qatılır. Bu isə Azərbaycanın çox yaxın gələcəkdə beynəlxalq karikatura mərkəzinə çevrilmə ehtimalını artırır, desək yanılmarıq. Təsadüfi deyil ki, "Molla Nəsrəddin" beynəlxalq karikatura müsabiqəsi beynəlxalq karikatura təşkilatları federasiyası tərəfindən səsvermənin obyektivlyi və təşkilatı məsələlərin yüksək səviyyəsinə görə ən yüksək balla – 5 ulduzla qiymətləndirilmişdir.

Bu haqda FECO-nun prezidenti xanım Merlin Pole yazır:

"Sevindirici haldır ki, bu gün dünyada ciddi karikatura təşkilatları da vardır və onlar karikaturaçıların hüquqlarının qorunması kimi çox həssas və incə məsələyə diqqətlə yanaşır, xüsusi əhəmiyyət verirlər. Bu mənada Bayram Hacızadənin rəhbərliyi altında Azərbaycanda keçirilən "Molla Nəsrəddin" beynəlxalq karikatura müsabiqəsinin adını çox böyük sevinc hissi ilə ən mötəbər, ciddi və əhəmiyyətli müsabiqələrdən biri kimi çəkərdim. Artıq üçüncü ildir ki, Azərbaycanda beynəlxalq karikatura müsabiqəsi elan edilir və müvəffəqiyyətlə keçirilir. Bu müsabiqənin şərtləri FECO-nun qaydaları ilə tam uyğun gəlir və bu səbəbdən də "Molla Nəsrəddin – 2010" karikatura müsabiqəsi bizim tərəfimizdən ən yüksək qiymətə - beş ulduza layiq görülmüşdür. Əminəm ki, bizim azərbaycanlı həmkarımız qazandıqları bu yüksək nüfuzu gələcəkdə də qoruyub saxlayacaqlar" [8, s. 84].

Yaradıcılıq axtarışları prosesində bədii yetkinlik mərhələsinə yüksəlmiş, davamlı olaraq öz üzərində

çalışan B.Hacızadənin bu illər ərzində Ərdəbildə, "Fədək" Mədəniyyət kompleksinin sərgi salonunda "Dolanbac küçələr", Təbrizdə, karikatura muzeyində "Müasir Azərbaycan karikaturası", Əskişəhərdə, Anadolu Universitetinin Karikatura muzeyində "Azərbaycandan sevgilərlə", Kiyevdə, Taras Şevçenko adına Milli muzeydə "Satirik qrafika" ("Сатирическая графика"), Minskdə, Yakub Kolas dövlət memorial muzeyində "Sözsüz" ("Без слов"), İstanbul karikatura evində "Bayram Hacızadə", Yekaterinburqda, bədii sərgi salonunda "Dünya karikatura ustaları" ("Мастера мировой карикатуры"), muzey sərgi kompleksində "İronik qrafika" ("Ироничная графика"), Barselonada, "Mezanina" incəsənət mərkəzində "Cartoons", Poltava muzey mərkəzinin sərgi salonunda "Karlyuka", Hayfada, "Tveriya" sərgi qaleriyasında "Tolerantlıq", eləcə də Bakıda, Əzim Əzimzadə ev muzeyində "Əzimzadənin davamçıları", Muzey Mərkəzində "Hophopnamə", Milli İncəsənət muzeyində "Müasir karikatura", Şamaxıda "M.Ə.Sabir – 150" və digər fərdi sərgiləri də təşkil olunmuşdur [14, s. 22; 16].

Dünya karikaturasının klassiklərindən sayılan, rəssam və nəzəriyyəçi Vladimir Kazanevski yazır: "Bayram Hacızadənin Rusiya, Belarus, Türkiyə, İspaniya, İsrail, İran və Ukraynada keçirilən yubiley sərgilərini alıqışlayırıq. 2018-ci ildə Bayram Hacızadənin Kiyevdə Taras Şevçenko adına Milli Muzeydə təşkil olunmuş "Satirik qrafika" ("Сатирическая графика") adlı fərdi sərgisi şəhər ictimaiyyətinin marağına səbəb olmuşdur. Onun böyük sevgi ilə işləyib hazırladığı hər bir əsərində rəssamın qəlbini oxumaq, iç dünyasına daxil olmaq mümkündür. Sanki hərarətli Bakı günəşi kimi işıq saçan bu lövhələrinin hər birində incə yumor, sətiraltı tənqid, ciddi fəlsəfə aydın görünür. Peşəkar rəssam əlinin məhsulu olan bu karikaturalarda məzmun, ideya, mövzu aktuallığı, hədəfin düzgün seçilməsi dəqiq və düzgündür. Təsadüfi deyil ki, onun əsərləri yüzlərlə beynəlxalq karikatura müsabiqələrinin kataloqlarında yer alıb. Rəssam çoxlu sayda beynəlxalq mükafatlara, titullara, fəxri diplomlara layiq görülüb. Mən bunu bir neçə dəfə demişəm və təkrar etmək istəyirəm: "Bayram Hacızadə dünya karikatura sənətinin inkişafını sürətləndirməyə qadir bir qüvvədir" [1, s. 16; 14, s. 3].

2017-ci ildə Türkiyə Karikaturaçılar Assosiyasiyasının təşkilatçılığı ilə İstanbulda keçirilən Bayram Hacızadənin fərdi sərgisində çıxış edən Türkiyə Karikaturaçılar
Assosiyasiyasının sədri Mətin Pekər rəssamı karikatura janrının inkişafı istiqamətindəki səmərəli fəaliyyətini yüksək qiymətləndirmiş, onun barış və tolerantlıqdan qaynaqlanan yaradıcılığını xüsusilə vurğulamışdır. "Bayram Hacızadə müasir dünya karikaturasında bir hadisədir. Onun müasir dildə danışan, hər birimiz üçün anlaşıqlı olan sülh və insanlara sevgi ilə aşılanmış karikaturaları öz dərin fəlsəfəsi, rəssam işi, mövzu aktuallığı baxımından kamil sənət əsəridir. Bayram Hacızadə tək Azərbaycanın və türk dünyasının yox, dünya karikatura sənətinin çox önəmli simalarından biridir". Bu tədbirdə Bayram Hacızadə Türkiyə Karikaturaçılar Assosiyasiyasının fəxri üzvü seçilmiş, ona dünya karikatura sənətinin inkişafında göstərdiyi xidmətə görə xüsusi diplom və fəxri fərman təqdim olunmuşdur [12, s. 81].

Ömrünün son illərini İsraildə yaşamış, görkəmli karikatura ustası Adil Quliyev Bayram Hacızadənin İsraildə təşkil olunmuş fərdi sərgisi haqqında öz təəssüratları ilə bölüşür: "Hayfa şəhər meriyası və İsrail Karikaturaçılar Birliyinin təşəbbüsü ilə Bayram Hacızadənin İsraildə təşkil olunmuş fərdi sərgisi böyük təntənə ilə keçirilmişdi. İsrail-Azərbaycan dostluğuna, karikatura sənətinin təbliğinə xidmət edən bu sərgi şəhər ictimaiyyəti tərəfindən maraqla və rəğbətlə qarşılanmışdı. Təsadüfi deyil ki, "Az.In.News" mətbuat agentliyinə müsahibəsində "Sholumi" mərkəzinin rəhbəri Şayl Simon Tov demişdir: "Hər birinizə bu sərgini diqqətlə seyr etməyi tövsiyyə edirəm - əsl incəsənətlə təmasda olacaqsınız". Təsadüfi deyil ki, sərgi üçün İsrail Karikaturaçılar Assosiyasiyasının hazırladığı afişalar "Наш Байрам" ("Bizim Bayram") başlığı ilə çap olunmuşdur. Hesab edirəm ki, bu, israilli həmkarımızın həmyerlimizə dostluq münasibətinin və rəğbətinin göstəricisidir" [12, s. 82].

Elə dünyanın digər ölkələrindən olan karikaturaçı rəssamlar da B.Hacızadənin məhsuldar və nəhayətsiz fəaliyyəti haqqında yüksək fikirlər söyləmişlər. Mixail Zlatovskinin (Rusiya) "Bu cür xeyirxah bir adama heykəl qoymaq üçün elə indi vəsait toplamağı təklif edirəm. Azərbaycan mədəniyyətinə bu cür mücahidi olmasına görə qibtə edirəm", Andrey Feldşteynin (ABŞ) "Hər bir ölkəyə belə bir fədakar gərəkdir, təcili belə bir adamın klonlaşdırılmasına başlamaq lazımdır", Boris Erenburqun (İsrail) "Azərbaycan karikaturası və karikaturaçılarının bəxti gətirib ki, onların belə bir lideri vardır", Gennadi Çeqodayevin (Rusiya) "Bayram Hacızadənin səmərəli işi sayəsində Bakının dünyanın daha bir yumor paytaxtına çevriləcəyinə inanıram", Rəhim Əsgər (İran) "Bayram Hacızadənin məqsədyönlü və səmərəli fəaliyyətinin nəticəsində dünya "Molla Nəsrəddin" satirik jurnalını, zəngin ənənələri olan Azərbaycan karikatura tarixinin dünəni və bu günü ilə nəhayət ki, tanış oldu", Viktor Boqoratın (Rusiya) "Bayram kimi vətəndaşı olan ölkəyə qibtə edirəm", Hüseyn Çakmak (Kipr) Bayram Hacızadə ilə nə qədər fəxr etsək, yenə də azdır", "Marat Veliaxmetovun (İspaniya) "Axı bu insanı necə sevməmək olar?" və s. bu məzmunlu fikirlər rəssamın yaradıcılığına və fəaliyyətinə verilən layiqli qiymətdir [5, s. 17; 17; 15].

Dünyanın tanınmış karikatura ustaları, Rusiyadan İqor Smirnov, Stanislav Aşmarin, Aleksandr Şmidt, Ukraynadan Oleq Qutsal, Valeri Momot, Belarusdan Anatoli Qarmaza, Marina Qorelova, Türkiyədən Yurdagün Göker, Atila Özər, İsmayıl Kar, ABŞ-dan Jen Sorenson, Almaniyadan Marlen Pole, Fransadan Bernard Bouton, Jean Marle Bertin, Serbiyadan Zoran Matic Mazos, İtaliyadan Aleksandro Qatto, İrandan Sevda Cənnəti, İsraildən Sergey Sıçenko, Yaponiyadan Yuko Şimizu, Bolqarıstandan Valentin Giorgiyev, Makedoniyadan Cordan Pop- İliyev, Ruminiyadan Juliyan Pena-Pai, Çindən Leng Mu, Sudandan Talal Nayer və digərlərinin bakılı həmkarları haqqında söylədikləri çox yüksək fikirlər hər birimizin qəlbini qürurla doldurur [6, s. 44].

Bu gün öz yaradıcılıq zirvəsindən arxaya – etdiklərinə qürurla baxmağa haqqı çatan Bayram Hacızadənin ürəkdən bağlandığı karikatura sənətinə təmənnasız xidməti onun məhsuldar və səmərəli fəaliyyətində öz əksini tapır. Bütün yaradıcılığı boyu Azərbaycan milli karikatura ənənələrini uğurla davam etdirən, bədii-estetik yozuma malik beynəlmiləl ruhlu əsərlərində özünün yaradıcı-vətəndaş mövqeyini sərgiləyən Bayram Hacızadə bu gün haqlı olaraq beynəlxalq karikatura aləmində müasir Azərbaycan karikatura sənətinin lideri kimi tanınır.

Nəticə

Haqqında danışdığımız dövrdə, tanınmış karikatura ustası B.Hacızadənin beynəlxalq müsabiqələrdə və sərgilərdə nümayiş olunan satirik əsərlərində mövzu aktuallığı, beynəlmiləlçilik ruhu, problemə yanaşma aspektinin yeniləşməsi tendensiyası ilə qarşılaşırıq. Bu illər ərzində, rəssam, zəngin yaradıcılıq prosesləri zamanı ərsəyə gətirdiyi satirik lövhələrində maraqlı obrazlar qalereyası yaratmağa müvəffəq olmuşdur. Obrazlı ifadə tərzi, satirik qrafikanın tükənməz imkanları, obrazların təsvir variantları və qrotesk həddi, karikaturanın bədii estetik kəsəri üzərində daima yaradıcılıq axtarışları aparan B.Hacızadə milli karikatura sənətimizin beynəlxalq aləmdə tanınması və təbliği istiqamətində müvəffəqiyyətlə çalışmış, ölkəmizin hüdudlarından kənarda təşkil olunmuş beynəlxalq karikatura sərgilərində və müsabiqələrində Azərbaycanı layiqincə təmsil etmişdir.

ƏDƏBIYYAT SIYAHISI

1. "Azərbaycan" qəzeti // Bakı: "Azərbaycan" nəşriyyatı - 16 may - 2007.
2. "Biz və karikatura" jurnalı // Bakı: "Çaşıoğlu" nəşriyyatı – 2006 - № 1 - 24 s.
3. "Biz və karikatura" jurnalı // Bakı: "Çaşıoğlu" nəşriyyatı – 2007 - № 4 - 24 s.
4. Əliyev Z. Azərbaycan incəsənəti II-III cild / Bakı: "Letterpress" nəşriyyatı – 2011 - 146 s.
5. Əliyev Z. Azərbaycanın karikaturaçı rəssamları - Bayram Hacızadə / Bakı: "Azəri-Dizayn" nəşriyyatı – 2018 - 80 s.
6. Əliyev Z. Əzim Əzimzadənin davamçıları / "Qobustan" sənət toplusu // Bakı: Azərbaycan Yazıçılar Birliyinin nəşriyyatı – 2010 - № 2.
7. Hacızadə B. "Multikulturalizm və karikatura" / Bakı: "Bestpack" mətbəəsi – 2018 - 210 s.
8. Hacızadə B. "Neft və karikatura"/ Bakı: "Azəri-dizayn" nəşriyyatı – 2010 - 388 s.
9. Məhərrəmli Q. "Azərbaycanlı rəssamın ABŞ zəfəri" / "Zaman" qəzeti // Bakı: "Zaman- Azər" mətbəəsi – 2009 - №1-2 - 16 s.
10. Mustafayeva K. "Bayram Hacızadə yaradıcılığında mövzu müxtəlifliyi" // - Naxçıvan: 2022 - AMEA-nın Naxçıvan bölməsi. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu - ISSN 2311- 8482 "Axtarışlar" jurnalı - Cild 16, № 2 (42) - "Tusi" nəşriyyatı - 330 s.
11. Mustafayeva K. "Beynəlxalq dildə danışan "sözsüz" karikaturalar" elmi məqalə // - Bakı: AMEA "Filologiya və sənətşünaslıq" elmi məcmuəsi – 2023 - 363 s.
12. Mustafayeva K. "Müasir Azərbaycan karikatura sənəti" / Magistr dərəcəsi almaq üçün dissertasiya // - Bakı – 2020 - 101 s.
13. Nərimanqızı N. "Sadəliyin rəng yozumu" // - Bakı: "Mədəniyyət" qəzeti – 2009 - 8 iyul.
14. Казаневский В. "Сатирическая графика – Байрама Гаджизаде" // - Киев: 2016 - 24 s.
15. https://www.azercartoon.com
16. https://www.azercartoon.com/prizes.htm
17. https://www.cartoonblues.com/forum/

DOİ: 10.32010/QQBO3259

THE INITIAL PHASE OF GREAT BRITAIN'S MIDDLE EAST POLICY

Laman Arif ALIYEVA
Baku State University
Orcid: https://orcid.org/0009-0003-3249-5546
E-mail: aliyevalaman09@gmail.com

Abstract: Britain's Middle East policy started to play an important role in the foreign policy of the Empire starting in the late 18th century, after the Napoleonic invasion of Egypt and establishment of the brief French rule the Middle East. The British policy in the region mainly aimed to protect the Imperial Road to India and maintain the balance of power in Europe, preventing any other European power increase the sphere of influence in the Middle East region. When Napoleon invaded Egypt in 1798 taking advantage of weakening Ottoman Empire, Britain made an alliance with Ottomans and helped them to defeat France. In the XIX century, Britain pursued three main goals in the Middle East: to secure access to the trade routes in the Eastern Mediterranean, to keep stability in Iran and the Persian Gulf, and to ensure the integrity of the Ottoman Empire. The main aim behind the first two aims was to protect and secure the sea and land routes to India, which were becoming increasingly vital to both the British economy and its imperial interests. The third goal was related to the problem of preserving the existence of the Ottoman Empire, both to inflame great power competition and to the general contested atmosphere that Western imperialist expansion had created in the Middle East region. The imperial rivalry against Russian Empire was another crucial factor shaping British foreign policy in the Middle East region. In the second half of the XIX century, British influence in the region increased significantly, especially in Egypt. Opening of the Suez Canal formed Britain a new goal in the Middle East. Nevertheless, the discovery of oil in the Middle East changed the fate of the region eventually in the early XX century.
Keywords: Middle East, Great Britain, Imperial Road, Suez Canal, Eastern Question, Great Game, Middle Eastern oil.

BÖYÜK BRİTANİYANIN YAXIN ŞƏRQ SİYASƏTİNİN İLKİN MƏRHƏLƏSİ

Ləman ƏLİYEVA
Baki Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0003-3249-5546
E-mail: alivalaman09@gmail.com

Xülasə: İngiltərənin Yaxın Şərq siyasətinin ilkin təzahürləri 18-ci əsrin sonlarında formalaşmağa başlamış və 20-ci əsrin əvvəllərinə qədər davam etmişdir. Bu, ilk növbədə Hindistana gedən İmperiya yolunu qorumaq və Avropadakı güclər balansını saxlamaq məqsədi daşıyırdı. Bu siyasətin kökləri Osmanlı İmperiyasının tədricən zəifləməsindən istifadə edən Napoleonun Misirə hücumu ilə Fransanın Yaxın Şərqdə mövqeyini daha da gücləndirdiyi dövrə uzanır. 1798-1882-ci illər arasında İngiltərə Yaxın Şərqdə üç əsas məqsəd güdürdü: Şərqi Aralıq dənizindəki ticarət yollarına çıxışı təmin etmək, İran və Fars körfəzində sabitliyi saxlamaq və Osmanlı İmperiyasının bütövlüyünü təmin etmək. İlk iki məqsədin arxasında duran əsas məqsəd həm Britaniya iqtisadiyyatı, həm də onun imperiya maraqları üçün getdikcə həyati əhəmiyyət kəsb edən Hindistana gedən dəniz və quru yollarını qorumaq və təmin etmək idi. Üçüncü məqsəd həm böyük güclərin rəqabətində öz yerini tutmaq, həm də Osmanlı İmperiyasının varlığını qoruyub saxlamaq problemi ilə bağlı idi. Rusiya imperiyasına qarşı imperiya rəqabəti İngiltərənin Yaxın Şərq regionunda xarici siyasətini formalaşdıran digər mühüm amil idi. XIX əsrin ikinci yarısında İngiltərənin bölgədəki təsiri xüsusilə Misirdə xeyli artdı. Süveyş kanalının açılması ilə İngiltərənin Yaxın Şərqdə yeni hədəfi formalaşdı. Buna baxmayaraq, Yaxın Şərqdə neftin kəşfi nəhayət, XX əsrin əvvəllərində regionun taleyini dəyişdi.
Açar sözlər: Yaxın Şərq, Böyük Britaniya, İmperiya Yolu, Süveyş kanalı, Şərq məsələsi, Böyük Oyun, Yaxın Şərq nefti.

НАЧАЛЬНЫЙ ЭТАП ПОЛИТИКИ ВЕЛИКОБРИТАНИИ НА БЛИЖНЕМ ВОСТОКЕ

Лямань АЛИЕВА
Докторант Бакинского Государственного Университета
Orcid: https://orcid.org/0009-0003-3249-5546
Электронная почта: aliyevalaman09@gmail.com

Резюме: Первые проявления ближневосточной политики Великобритании начали формироваться в конце XVIII века и продолжались до начала XX века. Её целью, прежде всего, была защита Имперского пути в Индию и поддержание баланса сил в Европе. Корни этой политики уходят ещё дальше, когда Наполеон, воспользовавшись постепенным ослаблением Османской империи, укрепил Францию и установил её влияние на Ближнем Востоке, совершив

наполеоновское вторжение в Египет. В период с 1798 по 1882 год Великобритания преследовала на Ближнем Востоке три основные цели: обеспечить доступ к торговым путям Восточного Средиземноморья, обеспечить стабильность в Иране и Персидском заливе и обеспечить целостность Османской империи. Главной целью первых двух целей была защита и обеспечение безопасности морских и сухопутных путей в Индию, которые становились всё более важными как для британской экономики, так и для её имперских интересов. Третья цель была связана с проблемой сохранения Османской империи, что разжигало конкуренцию великих держав и способствовало общей атмосфере противостояния, созданной западной империалистической экспансией на Ближнем Востоке. Соперничество империи с Российской империей было ещё одним важнейшим фактором, определявшим британскую внешнюю политику на Ближнем Востоке. Во второй половине XIX века британское влияние в регионе значительно возросло, особенно в Египте. Открытие Суэцкого канала определило для Великобритании новую цель на Ближнем Востоке. Тем не менее, открытие нефти на Ближнем Востоке в конечном итоге изменило судьбу региона в начале XX века.

Ключевые слова: Ближний Восток, Великобритания, Имперский путь, Суэцкий канал, Восточный вопрос, Большая игра, ближневосточная нефть.

Introduction

The term "Middle East" is based on a region between the Ottoman based "Near East" and China based "Far East". When this term was used by an American naval officer and historian - Alfred Thayer Mahan for the first time in his article "The Persian Gulf and international relations", Mahan called the area between Mediterranean Sea and India as the Middle East. The Middle East region, which covers the southwest of the Asian continent is defined geographically as a region stretching from Egypt to Iran and from Turkey to Yemen. The Middle East region has a unique place in world politics from the perspective of geopolitics [Mahan, 1902]. The Ottoman Empire ruled these lands for more than 600 years and reached the peak of its power during the reign of Sultan Suleiman the Magnificent. The first interactions of the European states with the Ottoman Empire dated back to the 16th century, when Ottoman sultans gave commercial privileges called capitulations to European merchants including the Venetian, the English, and the French etc. The terms of the capitulations were negotiated over the next centuries for several times, and each time European commercial privileges extremely increased. That brought the economic decline of the Ottoman Empire and foreign control in every sphere.

In the 17th century, the Ottoman Empire ruled over a vast multicultural territory in southeastern Europe, Western Asia, and North Africa - up to Algeria. Facing with internal upheavals and external pressure, Ottoman Empire later weakened due to the influence of unsuccessful domestic and foreign policies. By the 19th century, the Ottoman Empire had lost its former power, and its territory had decreased due to land losses. Examples of this include a declining economy, emptying of the treasury, a weakened army, and increased foreign interference in state affairs. During this period, the influence of the Ottoman Empire over the Arab provinces had also weakened to some extent. European countries, who wanted to take advantage of the political power vacuum in Mesopotamia, aimed to establish economic and strategic dominance here.

Initial phase of the Western factor in the Middle East covers the period starting from the late 18th century to early 20th century. However, the rise of Western imperialism in the Middle East was accompanied by economic, cultural, and territorial decline in the Ottoman lands. Along with other European powers, England's interest in the Middle East increased during this period. At this time, European territorial demands to Ottoman realm can be divided into three parts: Russia wanted the Straits, the Bosporus, and the Dardanelles; France wanted Syria, especially the coastal area and Palestine; Britain wanted Iraq, because of the access to Persian Gulf and India.

At the turn of the 19th and 20th centuries, Great Britain, known as the "Land on which the sun never sets", had become the most powerful empire in the world as the greatest winner of age of discoveries. Undoubtedly, Great Britain had taken a position almost at the center of global politics. It was possible to see the manifestation of English policy in all parts of Eurasia and Africa. Nevertheless, the most important colony and source of income of England, the leader in the world's seas, was India. With the start of the East India Company's activities in India in 1600, the process of turning this territory into a British colony began. To protect this important colony, England pursued a policy of increasing its influence in the surrounding regions which brought imperial rivalry alongside. The confrontation between Russia and England, which was studied in foreign literature under the name of the "Great Game" in Central Asia, including Afghanistan and Iran, is the greatest example of this. The huge lands between Europe and India were especially important both in terms of geostrategy and raw materials. Thus, these lands under Ottoman rule fell into the sphere of interest of Great Britain [Fromkin, 2020].

First stage of British integration in the Middle East

From the beginning of the 19th century, Britain's Middle East policy became an integral part of the empire's overall foreign policy strategy. Two main factors played an influential role in the formation of this policy. The first was the defense of India and the provision of lines of communication - to protect India, the most geopolitically valuable colony of the British Empire, from threats of European powers. The second was the preservation of the international balance of power under the idea of "Eastern Question" - to manage the consequences of the weakening of the Ottoman Empire and prevent the region from being controlled by other great powers - especially Russia and France.

This preliminary period of Great Britain's Middle East policy can be divided into several stages. In the first period Britain's first aim in the region was not acquiring direct control over the region, it was more directed to ensure commercial interests, providing imperial security. It should be mentioned that Britain's first strategic influence on the region began when the imperial route was established. Located between the Europe and India, Middle East's geostrategic importance for the Great Britain significantly increased with the foundation of Imperial Road to India. Its importance for Great Britain was high for both strategic and militaristic way. India was the "jewel in the crown" of the British Empire, both for its economic value and its geopolitical weight. The route was essential for economic integration of Britain into eastern world: cotton, tea, opium, and later oil flowed along this

corridor. At that point, the Middle East was considered as a strategic buffer against Britain's European rivals [Armaoğlu, 2020].

Bütün bunlara baxmayaraq, Azərbaycan qadınları yeni hökumətin onlara verdiyi hüquqların mahiyyətini hələ tam dərk edə bilmirdilər. Çünki, məhz Azərbaycanda feodal-patriarxal qalıqların əhali arasında güclü təsiri qadın məsələlərinin həllinə mane olurdu. Qanunvericilikdə qadınların kişilərlə bərabər hüquqlarına baxmayaraq, qadınların əksəriyyəti hələ də ictimai, siyasi və mədəni həyatdan kənarda idi. Respublikada erkən nikah, çoxarvadlılıq və bu kimi ənənələr qalmışdı ki, bu da Azərbaycan qadınların həyat fəaliyyətində çətinliklər yaradırdı.

1920-ci ilin noyabrında bütün respublikada yaradılmağa başlayan qadın idarələri Azərbaycanda qadın məsələlərinin həllində həlledici rol oynadı. Bu, qadınlar arasında yeni, əvvəllər eşidilməyən iş forması idi. Belə şöbələr MK, Bakı Komitəsi, rayon partiya komitələri yanında mövcud idi. Qadın şöbələri qadınların azad edilməsində, onların yeni həyat quruculuğuna cəlb olunmasında çox fəal rol oynadılar. Onlar bu illərdə partiya təşkilatları tərəfindən qadınlar arasında kütləvi işin əsas forması olan qadın nümayəndə yığıncaqlarını çağırır, kurslar, xüsusi qadın məktəbləri, klublar, peşə artelləri, emalatxanalar təşkil edirdilər. (Muraova, 2007) Azərbaycanda da bu şöbələr fəaliyyət göstərmiş, xüsusilə kənd yerlərində qadınların hüquqlarını tanımasına və onlardan istifadə etməsinə yardım etməyə çalışmışdır.

Lakin görülən işlər nəzərdə tutulan işlərin sadəcə olaraq başlanğıcı idi. Fərmanların, qanunların, əsasnamələrin qəbulu hələ qadınların faktiki bərabərliyinə nail olmaq demək deyildi. Bu qanunvericilik aktları əhali arasında geniş təşkilati, izahat, maarifləndirmə işi aparılmaqla həyata keçirilməli idi.

1921-ci il aprelin 5-də Şərq xalqları və qadınlar arasında iş üzrə təşkilatçıların ilk Ümumrusiya konfransı oldu. Burada Kommunist Partiyasının Şərq xalqlarının qadınları arasında apardığı iş, yığıncaq müəyyən edir ki, onlar arasında iş hələ kifayət qədər inkişaf etdirilməyib. Bu səbəbdən konfransda Şərq xalqlarının qadınları arasında işin fövqəladə əhəmiyyətini nəzərə alaraq, yerli partiya komitələrinə Şərq xalqlarının qadınları arasında işə ən ciddi diqqət ayırmağı tapşırıldı, idarələrinin bu istiqamətdə fəaliyyətini maksimum dərəcədə inkişaf etdirilməsi vurğulandı.

Konfransda Şərq xalqlarının qadınları arasında iş üç əsas istiqamətdə aparılan məsələlər qeyd olundu: 1) Şərq xalqları qadınlarının işi iqtisadi azadlığa əsaslanmalı, sənətkarları, müvafiq artelləri, həmkarlar ittifaqlarını cəlb etməklə, habelə onların azadlığı ideyasını təbliğ etməklə, buna quldarlıq və mütəşəkkil qisas sisteminə qarşı mübarizə yolu ilə nail oluna biləcəyini göstərməklə həyata keçirilməlidir. 2) Mədəni-maarif işinin əsasını məktəblərin, klubların və digər mədəni-maarif müəssisələrinin təşkili təşkil etməlidir. 3) Kommunizm ideyalarının təbliği və təbliğinin bütün növləri, habelə sovet quruculuğunda qadınların əməli iştirakı vasitəsilə qadın kütlələrinin kommunist tərbiyəsi üsulunda işə cəlb edilməlidir. (Kommunistka, 1961) Bu siyasət qadınların savadlanması və ictimai həyata inteqrasiyası baxımından mühüm rol oynadı, lakin ənənəvi cəmiyyətlərdə köklü dəyişikliklər baş versə də, yuxarıdan məcburiyyət yolu ilə tətbiq olunurdu. Bu da uzunmüddətli sosial gərginliklərə səbəb oldu. Qadınlar hüquqi cəhətdən azad olsa da, real həyatda tez-tez ikinci planda qalır, əsasən təbliğat məqsədilə istifadə olunurdular.

XX əsrin 20-ci illərində çoxarvadlılıq, erkən nikahlar, çadır, kəbin, şəriət məhkəmələri ləğv edildikdən sonra qadınların sosial vəziyyəti tam olaraq dəyişmədi."Kommunist" qəzetinin 1928-1929-cu illərdəki nəşrlərin gündəlik xəbərlərində qadın qətlləri ilə bağlı məlumatlar dərc edilirdi. Bu, siysətin bəzi hallarda "zorakı" yolla yeridilməsini göstərirdi. Ümumilikdə, psixoloji səviyyədə, qadınların siyasi və ictimai fəallığı ilə bağlı fikirlər kişi əhalisinin böyük əksəriyyətini dərindən narahat edirdi. Əsrlər boyu kişilər məişət sahəsini qadınların fəaliyyəti üçün yeganə qanuni meydan hesab etməyə adət etmişdilər. Bu kişilər üçün arvadlarının öhdəliyini və diqqətini xarici dünya ilə bölüşmək anlayışı çox təhlükəli idi.

1927-1928-ci illərdə Azərbaycanda qadınları ictimai həyata cəlb etmək üçün mədəni hücum siyasəti başlandıqda, fəal qadınlara qarşı hücumlar da artdı. 1920-ci illərdə Kommunist Partiyasının siyasəti daha mülayim idi, artıq 1926-1928-ci illər arasında bu siyasət inandırma və təbliğat işindən hədə-qorxu, təqib və cəzalandırmaya doğru dəyişdi. Bu siyasət dəyişimi müsəlman qadınlarına qarşı daha pis hücumlara səbəb oldu. Azərbaycanda düşmənçilik reaksiyalarının kulminasiya nöqtəsi 1930-cu ilin yanvarında Bakıdan olan evdar qadın Səriyyə Xəlilovanın atası tərəfindən qətlə yetirilməsi oldu. Bu hadisə qadınların azadlığı uğrunda mübarizədə dönüş nöqtəsi idi. Onun dəfn olunduğu gün ümummilli matəm günü elan olundu və Bakıda qadınlara qarşı zorakılığa etiraz olaraq kütləvi nümayiş keçirildi. (Feridah, 2002)

"Kommunistka" (1927-ci il) qəzetində "Azərbaycanda" adlı məqalədə qeyd olunur : *"Azərbaycanda qadınların azad edilməsində böyük, inqilabi nailiyyət çoxarvadlılığı və erkən nikahları ləğv edən və türk qadınlarına hər cəhətdən kişilərlə bərabər*

hüquqlar verən Ailə və Nikah Məcəlləsidir. Sovet Ailə və Nikah Məcəlləsi tətbiq edildikdə, şəriət qanunları ilə ziddiyyət təşkil edir və köhnə ilə yenisi toqquşduqda, qurban qadın olur. Son iki ildə Azərbaycanda bu zəmində qadın qətli halları tez-tez baş verir. Bununla belə, Sovet hökuməti öz orqanları vasitəsilə qadın hüquqlarının pozulması hallarına ayıq-sayıq nəzarət edir və günahkarları ciddi şəkildə cəzalandırır. Onlara bu çətin işdə köməklik göstərmək üçün Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və rayon icraiyyə komitələri yanında zəhmətkeş qadınların güzəranının yaxşılaşdırılması komitələri təşkil edilmişdir." (Kommuniska, 1927) Komitələrin vəzifəsi aşağıdakılardan ibarətdir: müvafiq sovet orqanları vasitəsilə qadınlara öz hüquqlarını müdafiə etməkdə köməklik göstərmək; gündəlik həyatı öyrənmək və təcrübələri əsasında qadın hüquqları ilə bağlı qanunlara əlavə və dəyişikliklərlə bağlı qanunverici orqanlara konkret təkliflər vermək və onların işlənib hazırlanmasında iştirak etmək; əməyin uçotu şöbələrinin və digər aidiyyəti orqanların işində iştirak etməklə, işləyən qadınların istehsalata cəlb edilməsinə kömək etmək, habelə işləyən qadınların iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün artel və emalatxanalar təşkil etmək.

1927-ci ildə Azərbaycanda qəbul olunan ilk cinayət məcəlləsində qəsdən adam öldürməyə görə cəza, cinayətin xüsusiyyətlərindən asılı olaraq, 5 ildən 10 ilədək azadlıqdan məhrum etmə və ya ölüm cəzası ilə müəyyən edilirdi. Yeni Cinayət Məcəlləsi RSFSR-in 1926-cı il Cinayət Məcəlləsi əsasında hazırlanmışdı. Bu, Azərbaycan SSR-in hüquq sisteminin əsasını təşkil edirdi və cinayət hüququnu tənzimləyirdi. Bolşeviklər Azərbaycanda qadın qətllərinin səbəbini müsəlman kəndlilərinin qadınların hüquq bərabərliyini həzm edə bilməməsindən irəli gəldiyini göstərirdilər. (4; v.6)

1926-1927-ci illərdəki qadınlarla bağlı bəzi cinayət işlərinə nəzər yetirək:

1. İş N 552-1926. Bakı şəhərində yaşayan 26 yaşlı Əli Paşa oğlu sentyabrın 17-də öz evində bacısı Rübabə Paşa qızını qətlə yetirib (başını kəsərək qanını içib). Şəhər məhkəməsi CM-nin 142-ci maddəsinin 2-ci bəndinə əsasən ölüm hökmü çıxarır. Ali Məhkəmə isə ölüm cəzasını ləğv edib, 9 il azadlıqdan məhrum etmə cəzasını 5 ilə əvəz edib.

2. İş N 736-1926. Şamaxı rayonunda 40 yaşlı Mamed Surxay oğlu ikinci həyat yoldaşı Sahibə Baba qızını gecə saatlarında dəyirmanı təmir etmək adıyla evdən çıxarmış və kəndin yolunda xəncərlə qətlə yetirmişdir. Rayon məhkəməsi CM-nin 142-ci maddəsinin 2-ci bəndinə əsasən ölüm hökmü çıxarır. Lakin Ali Məhkəmə ölüm hökmünü 10 il azadlıqdan məhrum etmə cəzasını 5 il azadlıqdan məhrum etmə ilə əvəz edib.

3. İş N 128- 1926. 1923-cü ildə Quba rayonunda 36 yaşlı Cəmaləddin Fərzəli oğlu həyat yoldaşı Seyid xanım Mir Sadıq qızı ilə mübahisə zamanı bərk alət ilə başından vuraraq onu qətlə yetirmişdir. Rayon məhkəməsi CM-nin 149-cu maddəsinə əsasən Cəmaləddini 6 il müddətinə azadlıqdan məhrum etmişdir. Lakin, 26 aprel 1924-cü il tarixli amnistiyaya əsasən, həbs müddəti yarıya qədər azalır. 11 iyul 1925-ci il amnistiyaya əsasən isə cəza müddəti 2 il də azalmışdır. (2; v.28-29)

Bu kimi 24 cinayət hadisələri arxiv materiallarda qorunub saxlanılır. Qadın qatillərin cəza müddəti ya azaldılır, ya da amnistiya qərarı ilə qısa müddət ərzində azadlığa buraxılır. Cəmiyyətdə baş verən bu gərgin proseslər artıq Sovet hökumətini narahat etməyə başlayır.

Bu məişət cinayətlərinin təhlili onu göstərir ki, bu proses zəifləmir əksinə intensivləşməyə doğru gedir. Hökümət başa düşür ki, belə halların aradan qaldırmaq üçün mədəni-maarif tədbirlərindən istifadə etmək lazımdır. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən SSR Amnistiya aktı qəbul olunana qədər Azərbaycanda qadın qatillərə qarşı amnistiyanın tətbiq edilməməsi tapşırılır. (4; v.7).

Arxiv sənədləri onu göstərir ki, iki il ərzində vəziyyət dəyişməz olaraq qalır. 1928-ci ildə Azərbaycan Əməkçi Qadınlar Plenumunda qadın cinayətlərinin qarşısını almaq və ona qarşı mübarizə üçün yenidən təkliflər irəli sürülür. Əvvəki il ilə müqayisədə bu mübarizəni gücləndirmək lazım idi:

-Qadınların mənafelərinin müdafiəsi baxımından onların ailə nigahı, qəyyumluq və cinayət qanunlarının izahı sahəsində ictimai təşkilatların maarifləndirmə işini gücləndirmək

-Qadınların qətli ilə bağlı məhkəmə araşdırmalarının aparılması

-Qadınların öldürülməsinə görə cəzaların real şəkildə icra olunmasını və məhkumlara vaxtından əvvəl azad edildikdə Əmək Məcəlləsində nəzərədə tutulmuş bütün güzəştlərin son dərəcə ehtiyatla tətbiq edilməsi üçün tədbirlər görmək və s. (3; v.2)

Məişət cinayətlərinə yeni dair qanunvericilik aktları qəbul edildi. 1928-ci il 15 yanvar tarixində qüvvəyə minmiş yeni Cinayət Məcəlləsində qadınlarla bağlı müvafiq maddələr əks olunmuşdur:

-Yetkinlik yaşına çatmayanların nişanlanması

-Nikah yaşına çatmayan şəxslə nikah olması

-Çoxarvadlılıq

-Qadının emansipasiyası və hüquqlarının təzahürü nəticəsində öldürülməsi

-Qadını ərə getməyə məcbur etmək

-Qadın alveri

-Qadının oğurlanması

-Nikahlı qadının qaçırılması

-Qan davasına görə qəsdən adam öldürmə. (2; v. 70)

Bu cinayətlər 5 il müddətinə azadlıqdan məhrum edilir, əgər bu hallar yenidən təkrarlanarsa cinayət törədən şəxs 3 ildən artıq olmayaraq ağır cəza ilə cəzalandırılırdı. Lakin bu məhkəmə proseslərinin icrasında da boşluqlar var idi. Patriarxal cəmiyyətin strukturu qadın hüquqlarının əsl mahiyyətinin dərk edilməsini çətinləşdirirdi və bu proses uzun zaman tələb edirdi. Bütün bunlara cavab olaraq yeni islahatlara başlanıldı.

Qadınlar arasında işin gücləndirilməsində mühüm mərhələ SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti tərəfindən 1928-ci il yanvarın 11-dən 16-dək Moskvada çağırılan Qadınların Hüquqlarını Müdafiəsi üzrə Qadınlar Komitəsinin I Ümumittifaq Konfransı oldu. Konfransada məişət cinayətlərinə, Şərq qadın kooperativlərinin təşkilinə dair hesabatlar dinlənildi. İclasda belə qənaətə gəlindi ki, yerli komissiyalar öz fəaliyyətləri ilə işləyən qadınların faktiki emansipasiyasına və hüquqlarının müdafiəsinə gedən yolu xeyli asanlaşdırıblar. (1;v.21) Qadınların əmək və yaşayış şəraitinin yaxşılaşdırılması üzrə Komissiyaların II Ümumittifaq Konfransı da mühüm əhəmiyyət kəsb edirdi. , 1929-cu il oktyabrın 3-dən 9-dək Moskvada baş tutan iclasın mühüm məsələlərindən biri qadınların təhsili və qadın kütlələri arasında savadsızlığın aradan qaldırılması idi. (Muradova, 2007)

Nəticə

1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının qurulması ilə qadınların hüquqi statusunda mühüm dəyişikliklər baş verdi. 1936 və 1977-ci il Sovet Konstitusiyalarında qadınların kişilərlə hüquqlara malik olması təsbit edilmişdir. Qadınlara seçki hüququ verildi, əmək fəaliyyəti, təhsil alma, sosial təminat və ictimai-siyasi həyatda iştirak etmək imkanları artırıldı. Bu hüquqların icrası müstəqil dövlət qurumları və qadın təşkilatları tərəfindən həyata keçirilirdi. Lakin praktiki cəhətdən bu hüquqların tam reallaşması bir sıra ilə problemlər müşahidə edildi. Patriarxal düşüncə tərzi, fərdi ailə modeli və bölgələrdə dini təsirlərin qalıqları qadınların hüquqlarından tam istifadə etməsinə mane olurdu. Hüquqların konstitusional şəkildə tanınması əhəmiyyətli olsa da, onların real həyata keçməsi üçün həm hüquqi mexanizmlər, həm də cəmiyyətin mental baxışında dəyişikliklər tələb olunurdu. Cəmiyyətin ənənəvi dəyərləri qadınların azad hüquqlarını qəbul etməyə hazır deyildi. Xüsusilə kənd yerlərində dini və patriarxal münasibətlər qadınların məktəbə getməsinə, işləməsinə və ictimai həyata qatılmasına ciddi maneələr yaradırdı. Ailə başçıları qadınların hüquq qazanmasını ailə strukturuna təhlükə kimi görürdülər. Dövlətin qadınlarının azadlığı və hüquqlarının təmin edilməsinə yönəlmiş radikal addımları – baş örtüyü və dini kəbinin ləğv edilməsi, nikah yaşının dəyişdirilməsi və bu kimi qərarlar bəzi hallarda cəmiyyətdə ciddi müqavimətə səbəb olurdu. Bu siyasət qadınların "azadlaşdırılması" kimi təqdim olunsa da, əksər hallarda zorakı metodlarla aparılırdı. Nəticədə bəzi bölgələrdə qadınlar daha çox təzyiqə məruz qalaraq hüquqlarından istifadə etməyə çəkinirdilər. Lakin bütün bu çətin proseslərə baxmayaraq, qadınların hüquq müdafiəsi təmin olundu, təhsil imkanları artırıldı, əmək fəaliyyəti ilə məşğul olaraq iqtisadi müstəqillik əldə etdilər.

ƏDƏBİYYAT SSİYAHISI:

1. Azərbaycan Respublikası Dövlət Arxivi.f.3316.s.23.iş.481
2. ARDA.f. 379.s.1.iş.1509
3. ARDA.f.379.s.1.iş.1878
4. ARDA.f.379,s.1.iş.1965
5. Cümhuriyyətə işıq saçan qadınlar. (2024). MİMTA YAYIMLARI. 19.
6. Декреты Азревкома. Сборник документов.(1988) Б.Азернешр. **488-493**
7. Мурадова А. Вовлечение женщин Азербайджанской ССР в органы государственной власти. (2007) Монография 7 п.л. Баку, Нурлан. 25, 32, 45
8. Коммунистка.(1926) В Азербайджане. №4.53
9. Коммунистка. (1921) Работа коммунистических партий среди женщин народов Востока**.** №12-13. 61
10. Гассиев И.К. Решение женского бопроса в республиках бывшего советского востока (20-30-е годы XX века). (2005) Монография. 170
11. Feridah H. (2002). Azeri women in transition. Women in soviet and post-soviet Azerbaijan. 144.
12. anl.az/el/emb/Konstitusiya_suverenlik/pdf/1921.pdf. 1-2, 16, 164.

DOİ: 10.32010/WBDK9081

THE SECOND PERIOD OF ACTIVITY OF A CAUCASIAN MUSLIM ÉMIGRÉ IN TURKEY

Leyla Zulfugar TALIBOVA
Azerbaijan State Pedagogical University
Orcid: 0009-0000-9053-7087
E-mail: leyla.talibova@adpu.edu.az

Abstract: The founder of the Azerbaijan Democratic Republic and a key player in the Azerbaijani national movement, Mammad Amin Rasulzade, is examined in this essay during his second exile (1949–1955).
Rasulzade re-engaged with the émigré community after his return to Türkiye in 1949, focusing on political awareness, intellectual collaboration, and cultural rebirth among Caucasian Muslims. The paper investigates how the political discourse in the region was shaped by broader anti-communist emotions and the ideological milieu of post-war Türkiye , as represented in Rasulzade's activities. The paper emphasizes Rasulzade's contribution to the development of a transnational Azerbaijani identity based on liberal nationalism and Turkic solidarity, drawing on historical archives, émigré publications, personal correspondence, and modern periodicals. Additionally, the study places Rasulzade's ideas into the Turkish right's intellectual networks, demonstrating his impact on both émigré communities and Türkiye's.The study also places Rasulzade's ideas within the Turkish right's intellectual circles, demonstrating his impact on émigré communities and Türkiye's changing view of the Caucasus. The article advances our knowledge of Cold War-era ideological relationships and the dynamics of diaspora nationalism by illuminating this little-known time of his exile.
Keywords: Mammad Amin Rasulzade,Turkiye,exile,Azerbaijani Cultural Society,Caucasian muslim, Azerbaijan Journal

---

QAFQAZ MÜSƏLMAN MÜHACIRININ TÜRKIYƏDƏ FƏALIYYƏTININ IKINCI DÖVRÜ

Leyla Zülfüqar TALIBOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Orcid: 0009-0000-9053-7087
E-mail: leyla.talibova@adpu.edu.az

Xülasə: Bu məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu və Azərbaycan milli hərəkatının aparıcı simalarından biri olan Məmməd Əmin Rəsulzadənin ikinci mühacirət dövrü (1949–1955) təhlil olunur. 1949-cu ildə Türkiyəyə qayıtdıqdan sonra Rəsulzadə mühacir cəmiyyətində yenidən fəallaşaraq, Qafqaz müsəlmanları arasında siyasi maarifləndirmə, intellektual əməkdaşlıq və mədəni dirçəliş məsələlərinə xüsusi önəm vermişdir. Məqalədə Rəsulzadənin fəaliyyəti vasitəsilə regionda siyasi diskursun necə formalaşdığı və bu proseslərin II Dünya müharibəsindən sonrakı Türkiyənin ideoloji mühiti, eləcə də geniş yayılmış antikommunist ritorika ilə necə üst-üstə düşdüyü araşdırılır. Arxiv materialları, mühacir nəşrləri, şəxsi yazışmalar və dövrün mətbu orqanları əsasında aparılan təhlil göstərir ki, Rəsulzadənin fəaliyyəti azərbaycanlılar arasında liberal millətçilik və türk həmrəyliyinə əsaslanan transmilli kimliyin formalaşmasında mühüm rol oynamışdır. Bundan əlavə, araşdırmada Rəsulzadənin ideyaları Türkiyənin sağ intellektual çevrələri kontekstində nəzərdən keçirilir və onun həm mühacir icmalarına, həm də Türkiyədə Qafqaza dair dəyişən təsəvvürlərə təsiri vurğulanır. Onun bu az öyrənilmiş mühacirət dövrünü işıqlandırmaqla məqalə, Soyuq Müharibə dövrünün ideoloji əlaqələri və diaspor millətçiliyinin dinamikasına dair dərinləşdirilmiş anlayışa töhfə verir.
Açar sözlər: Məmməd Əmin Rəsulzadə, Türkiyə, mühacirət, Azərbaycan Kültür Dərnəyi, Qafqaz müsəlmanı, "Azərbaycan" jurnalı

ВТОРОЙ ПЕРИОД ДЕЯТЕЛЬНОСТИ КАВКАЗСКОГО МУСУЛЬМАНСКОГО ЭМИГРАНТА В ТУРЦИИ

Лейла Зулфугар ТАЛЫБОВА
Азербайджанского государственного педагогического университета
Orcid: 0009-0000-9053-7087
Электронная почта: leyla.talibova@adpu.edu.az

Резюме: В данной статье рассматривается фигура Мамед Амин Расулзаде — основателя Азербайджанской Демократической Республики и ключевого деятеля азербайджанского национального движения — в период его второй эмиграции (1949–1955 гг.). Вернувшись в Турцию в 1949 году, Расулзаде вновь активизировал свою деятельность в эмигрантской среде, сосредоточив внимание на политическом просвещении, интеллектуальном сотрудничестве и культурном возрождении среди мусульман Кавказа. Статья анализирует, как политический дискурс в регионе формировался под влиянием широкой антикоммунистической риторики и идеологической атмосферы послевоенной Турции, что отражалось в деятельности Расулзаде. На основе архивных материалов, эмигрантских изданий, личной переписки и современных периодических источников подчеркивается вклад Расулзаде в формирование транснациональной азербайджанской идентичности, основанной на либеральном национализме и тюркской солидарности. Кроме того, исследование рассматривает идеи Расулзаде в контексте интеллектуальных кругов турецкой правой, демонстрируя его влияние как на эмигрантские сообщества, так и на меняющееся восприятие Кавказа в Турции. Освещая этот малоизвестный период его эмиграции, статья вносит вклад в более глубокое понимание идеологических связей времён холодной войны и динамики диаспорального национализма.
Ключевые слова: Мамед Амин Расулзаде, Турция, эмиграция, Азербайджанское культурное общество, журнал «Азербайджан».

Introduction

For Caucasian émigrés in Turkey, the post-war period was a pivotal period in their political and intellectual lives. Mammad Amin Rasulzade (1884–1955) became one of
the diaspora's most important individuals, renowned for his lifetime commitment to the fight for Azerbaijani independence and the union of Turkic and Muslim peoples. In 1949, Rasulzade returned to Turkey, where he lived out the latter years of his life, following years of political exile in Europe, which included stays in Poland, Germany, and Iran. In addition to being a time of personal settlement, this second homecoming was also a time of increased
academic involvement, artistic output, and ideological activism—especially in reaction to the Cold War's growing bipolar international order.**Materials**

The main subject of this essay is Rasulzade's public and cultural activities from 1949 to 1955. He was actively involved in émigré

networks during this time, particularly through the Azerbaijan Cultural Society (Azerbaycan Kültür Derneği), which provided a forum for the Azerbaijani and larger Caucasian diaspora in Türkiye to preserve their national identity and cultivate political consciousness.

In order to spread his ideas across political and ideological divides, he also kept up intellectual discussions with Turkish nationalists. Through an examination of Rasulzade's writings, public speeches, and organizational efforts, this study looks at how his work helped to maintain a shared memory of Azerbaijani statehood while traveling abroad. It maintains that the post-war geopolitical realignment, the emergence of Cold War ideological conflicts, and the ongoing attempts of stateless nations to establish themselves through intellectual and cultural diplomacy must all be taken into consideration while analyzing Rasulzade's last years. The article offers fresh insight into a little-known aspect of Rasulzade's life and the larger experience of Caucasian Muslim émigrés in mid-20th-century Türkiye by taking a global approach that combines political history with cultural and diaspora studies.

Method

Using a qualitative historical method, this study examines émigré cultural organizations in post-war Turkey by combining textual interpretation, archival analysis, and contextual analysis.

Archival materials, records of the Azerbaijan Cultural Society, journals including the Azerbaijan Journal, and works written by Mammad Amin Rasulzade between 1949 and 1955 are among the main and secondary sources used in this study.

Rasulzade's lectures, monographs, and essays, including Modern Azerbaijani Literature (1950s), The Azerbaijani Poet Nizami (1951), and The Contemporary History of Azerbaijan (1951), as well as speeches that were broadcast on the Voice of America, are among the primary documents that were examined. Historical and biographical research by Turan (2016),

Yagublu (2015), and Shimshir (2012) supplemented these materials.

In order to identify major developments in Rasulzade's intellectual and cultural achievements throughout his second exile, the methodology focuses on content analysis and thematic interpretation. The study intends to shed light on how émigré leaders managed limitations on political expression through cultural and educational channels by placing these findings within the larger ideological and political context of Cold War Turkey.

Main Part. Among the Caucasus Muslim émigrés who found refuge in post-war Turkey, Mammad Amin Rasulzade emerged as a central leader, rebuilding the Azerbaijani political émigré movement from the ground up after his return in 1947. The conditions under which this work had to be done were extremely complicated. Rasulzade was well aware of the necessity of bringing these people together under a single organization. But he also realized that in the current political environment, it was impossible to start a politically oriented movement because Turkish authorities were suspicious of such endeavors. His capacity to pursue an overt political agenda in Turkey was severely curtailed by this restriction.

Rasulzade was forced by this fact to concentrate his efforts on cultural and educational endeavors in an effort to increase historical awareness and provide these émigrés a fresh feeling of national identity.

Taking these factors into account, M. A. Rasulzade decided to begin his activities in Turkey by establishing a purely cultural organization. On February 1, 1949, the founding meeting of the Azerbaijani Cultural Society (Azerbaycan Kültür Derneği) was held, at which Rasulzade was elected honorary chairman. The Society's Charter emphasized that it would not engage in politics, and its primary objectives were defined as the study and promotion of Azerbaijani culture and history, the publication of books, journals, and newspapers devoted to these themes, the organization of cultural events, and the provision of both material and moral assistance to Azerbaijani émigrés in need. (1, p. 2)

The Azerbaijan Cultural Association, founded by Mehmet Altunbay, Dr. Hamit Ataman, and Aziz Alpaut, set forth its primary mission to collect, study, and disseminate knowledge about Azerbaijan's history and culture. The organization sought to publish books, journals, and newspapers, organize cultural gatherings, and provide both financial and moral assistance to Azerbaijanis in need. Furthermore, the association's statute emphasized promoting Azerbaijan's historical, economic, and artistic heritage, commemorating national and historical events, and supporting these initiatives through various forms of publication such as books, magazines, and brochures.(2,p. 7)

During this period, Rasulzade was also deeply engaged in intellectual and creative work. He continued his research in literary studies, cultural analysis, and history, which resulted in several influential publications in the late 1940s and early 1950s, including *Garlands of Azerbaijani Culture* (*Azerbaycan Kültür Çelenekleri*), *Modern Azerbaijani Literature*(*Çağdaş Azerbaycan Edebiyyatı*), and *The Contemporary Azerbaijani History* (*Çağdaş Azerbaycan Tarihi*). These works further reinforced his role not only as a political émigré leader but also as a cultural and intellectual figure who significantly contributed to the preservation and development of Azerbaijani identity in exile.(2, p 230)

The Contemporary History of Azerbaijan (Ankara, 1951), published as the fourth issue in the series of publications by the Azerbaijan Culture Association. This work is the published version of a lecture he delivered on May 28, 1950, at the Ankara People's House. The book recounts the events that unfolded in Azerbaijan following the Russian occupation, focusing particularly on the struggles and resistance movements led by Azerbaijani Turkic nationalists. (4.p 82) It should be noted that during those years, M. A. Rasulzade published a number of valuable articles on modern Azerbaijani literature. In his work *Modern Literature of Azerbaijan*, published in the 1950s, he discussed the creativity of writers such as Huseyn Javid, Ahmad Javad, Jafar Jabbarli, and others. Among this series of studies, special attention should be given to his monograph *The Azerbaijani Poet Nizami*, which he wrote on the occasion of the 800th anniversary of the great poet. (5, p 79)

However, some pro-Soviet officials objected to several of the book's claims during the publication process because they believed they were anti-Russian. Due to the difficult wartime circumstances, however, the book was not published in 1951, under Minister Tevfik İleri's leadership, the book was eventually published under the Ministry of National Education's sponsorship.

For the book to be published, they insisted that certain sections be taken out. Rasulzade responded, saying, "Great Nizami wrote those lines, not me. Removing them is not my or anyone else's right! (6, p 82) Rasulzade became more and more aware of the urgent necessity for an Ankara-based periodical publication following the founding of the Azerbaijan Culture Association. Driven by this need, he vigorously promoted the establishment of a newspaper or journal.

Azerbaijan, a publication that would act as the official voice of the émigré Azerbaijani intellectual community, was successfully founded as a result of his efforts. Hamid Ataman was among the 100 students

sent to Europe for higher education, after the victory of the

Azerbaijan Democratic Republic, while studying at the Faculty of Medicine at the University of Berlin, where news of the Soviet occupation of Baku on April 27, 1920, profoundly affected him. Despite these hardships, with the financial and moral support of his brother Temimdar Bey, Ataman successfully completed his medical studies and practiced as a surgeon in Berlin before relocating to Turkey. By the late 1930s, he had established himself as a physician in Ankara, where he also became actively involved in the Musavat Party's émigré network.After World War II, Dr. Ataman played a vital role in assisting Azerbaijani refugees who had been compelled to resettle in Turkey. Beyond providing material support, he worked tirelessly to mobilize these émigrés around the ideals of national independence and freedom, thereby contributing to the continuation of Azerbaijan's political and cultural legacy in exile. Later, a thorough description of Dr. Hamid Ataman's leadership in coordinating the Azerbaijani émigré population in Turkey was published in the Azerbaijan journal. Under his leadership, the Ankara-founded Azerbaijan Cultural Society carried out its cultural and educational goals with a well-thought-out program and organized events. The journal's first issue, published on April 1, 1952, had the slogan "Turkify, Modernize, Islamize," which reflected the early Azerbaijani nationalist movement's intellectual heritage. Its cover stated that it was a "Monthly Cultural Journal," and the headline "Unity is Strength" was later added. It had a map of the Azerbaijan Democratic Republic on the cover and identified Dr. Ahmad Yashat as the editor in charge. An editorial statement announcing the Society's intention to broaden its cultural reach through this small but important journal began the first issue, which was 16 pages wide (7, p. 44).

Another important example of his intellectual activity was his article *Long Live the Turkish Republic*. In 1953, on the 35th anniversary of Azerbaijan's independence, Rasulzade addressed the Azerbaijani people through the radio station *Voice of America*, once again affirming his commitment to the ideals of national independence and cultural preservation (8,p. 272).

Results

According to the analysis, Rasulzade strategically shifted from overt political involvement to cultural and educational participation during his second exile (1949–1955). Due to restrictions imposed by Turkish authorities who were suspicious of political groups, Rasulzade focused his efforts on promoting intellectual unity and cultural awareness among Azerbaijani and other Muslim émigrés who were Caucasian. Rasulzade assisted in the founding of important publishing and cultural projects through the Azerbaijani Cultural Society, such as the publication Azerbaijan Journal, which was initially published on April 1, 1952, and later became the official organ of the intellectual community of émigrés. Its tagline, "Turkify, Modernize, Islamize," was reminiscent of Azerbaijani nationalism in the early 20th century. A transnational Azerbaijani identity based on liberal nationalism and Turkic unity was fostered by the publication and its initiatives. Rasulzade's dual roles as a cultural thinker and political leader were further represented in his intellectual work during this period. His research on Azerbaijani literature and history, particularly on poets such as Huseyn Javid and Nizami Ganjavi, bolstered the émigré community's intellectual and moral base. His publications persisted in spreading among Turkish academic and émigré networks in spite of censorship efforts, strengthening the bond between Azerbaijani culture and larger Turkic civilization.

Discussion

According to the research, Rasulzade's second exile marked an immense shift in the development of diaspora nationalism among Turkish Muslims of Caucasian descent. Rasulzade skillfully converted cultural expression into a vehicle for intellectual opposition and national preservation despite being denied a political platform. His actions demonstrate how, in some situations, artistic institutions may operate as models for political mobilization. Through his emphasis on literary creation, cultural education, and social solidarity, Rasulzade made guaranteed that Azerbaijani identity would endure within the larger Turkish sociopolitical context. As a result, the Azerbaijan Cultural Society served as a bridge for intercultural understanding between Turkish society and émigrés as well as a steward of historical memory. Furthermore Rasulzade's trust in the ability of the written word to preserve national consciousness beyond boundaries was also reflected in the founding of the Azerbaijan Journal. His adherence to the idea of "unity through culture" was consistent with the anti-communist liberal nationalism that characterized Turkish intellectual debate throughout the Cold War.

Conclusion

Rasulzade's impact on the development of transnational Azerbaijani identity is further highlighted by this time period. He helped to create an intellectual network that combined Islamic principles, Turkic unity, and democratic ideals by working with Turkish nationalists and other émigré leaders. In addition to preserving Azerbaijani culture, this network positioned it as a component of a broader anti-Soviet and pan-Turkic cultural revival. Fundamentally, Rasulzade's second exile serves as an example of the flexible tactics employed by stateless intellectuals who, when confronted with political drawbacks, employed cultural diplomacy to rethink

nationalism and maintain collective identity across space and time.

REFERENCES:

1.Turan, R. (2016). Mammad Amin Rasulzade and the struggle for national identity. *International Journal of Turkish Literature, Culture and Education, 5*(3), 1182–1203. Turkey. 2.Turan, R. (2016). *Türkiye'de bir Azerbaycancılık ocağı: Azerbaycan Kültür Derneği*.

Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, *5*(3), 1182–1203.

3. Şimşir, S. (2012). The life and personality of Mehmet Emin Resulzade. Istanbul.

4. Alieva Sevinc (Sevindzh Alieva). Mehmet Emin Rasulzade Düşününde Kafkasya Birliği ve Ermeniler. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi, 2024(2-Mehmet Emin Resulzade), s. 220-236.

5. Şimşir, S. (2012). The life and personality of Mehmet Emin Resulzade. Istanbul.

6. Y agublu, N. (2015). *Encyclopedia of Mammad Amin Rasulzade*. Moscow: Elm Press. 7.Tahirli, A .(2002).Azərbaycan Mühacirət mətbuatı.Baku.GAP Paligraph Press. 8.Balaev, A. (2009). *Mammad Emin Rasulzade (1884–1955)*. Moscow: Elm Press.

DOİ: 10.32010/NFJE5129

MÜHARIBƏDƏN SONRA INSAN KONSEPSIYASI: SOSIAL MÜDAFIƏ BAXIMINDAN YANAŞMA

Mədinə Ehtibar ƏSGƏRZADƏ
Sosial iş kafedrasının doktorantı, Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0003-2788-8134
E-mail: m.asgarzade@yandex.com

Xülasə: Müharibə məfhumu dünyanın siyasi xəritəsinin dəyişməsi ilə müşahidə olunan, cəmiyyətin sosial, psixoloji və iqtisadi həyatına çoxşaxəli təsir göstərə bilən kompleks bir proses kimi dəyərləndirilməlidir. Post-münaqişə nəticəsində ortaya çıxan dağıntı və humanitar böhranlar, şəxsin yaşayış səviyyəsinə mənfi şəkildə təsir göstərir və cəmiyyətin davamlılığı, o cümlədən sosial sabitliyi üçün təhlükə yaradır. Post-müharibə dövründə insan anlayışı fərdin sosial rifahının bərpası, eyni zamanda sosial inteqrasiyanın, kollektiv həmrəyliyin və cəmiyyətin ardıcıl inkişafın təmin olunmasını nəzərdə tutur.
Psixoloji kontekstdə müharibənin ağır nəticələri şəxsdə kəskin travmatik sindromlarının yaranması ilə müşayiət edilir. Bu şəxslərdə post-travmatik stress pozuntusu, intihara meyillilik, depressiv hallar, aqressiv davranış formaları və sosial izolyasiya və s. nəzərə çarpır. Travmalar müxtəlif forma və ölçülərdə kollektiv səviyyəyə ötürülərək "kollektiv şüur" və "kollektiv yaddaş" fenomenlərini gücləndirir. Bu isə gələcək nəsillərin sosiallaşma prosesinə mənfi təsir göstərərək etimad böhranına və ictimai sabitliyin zəifləməsinə səbəb olur. Sosial aspektdə müharibənin təsiri icmaların parçalanması, ailə institutlarının dağılması və məcburi köçkünlük kimi hallar vasitəsilə özünü göstərir. Sosial kapitalın deqradasiyası, qarşılıqlı inamın azalması və sosial birliyin zəifləməsi cəmiyyətin sosial strukturunda dərin disfunksiyalara səbəb olur. Qadınlar, uşaqlar, yaşlılar və əlilliyi olan şəxslər kimi həssas qruplar isə daha çox risk altında qalaraq sosial siyasətin əsas hədəfinə çevrilir. Sosial inteqrasiyanın uğursuzluğu post-münaqişə cəmiyyətlərində marginalizasiya və yeni gərginliklər üçün şərait yarada bilər.
İqtisadi ölçüdə isə müharibə əmək bazarının zəifləməsinə, iş yerlərinin azalmasına, infrastrukturun sıradan çıxmasına və dövlət büdcəsinin hərbi xərclərə daha çox ayrılmasına gətirib çıxarır. İnsan kapitalının itirilməsi və əhalinin güzəranının pisləşməsi uzunmüddətli inkişaf perspektivlərini təhlükə altına alır. Sosial təminat institutlarının artan yükü dövlətin resurslarını məhdudlaşdırsa da, eyni zamanda sosial müdafiə sistemlərinin möhkəmləndirilməsini qaçılmaz edir.
Sosial müdafiə konsepsiyası bu baxımdan müharibədən sonra insanın həyat keyfiyyətinin bərpası üçün əsas strateji alət rolunu oynayır. Onun mahiyyəti yalnız maddi yardımlarla məhdudlaşmır; psixoloji reabilitasiya proqramlarının təşkili, səhiyyə xidmətlərinin əlçatanlığı, təhsil və peşə hazırlığı imkanlarının genişləndirilməsi, məşğulluq imkanlarının artırılması, əmək bazarına reinteqrasiya və sosial bərabərliyin təmin olunması da bu sistemin mühüm tərkib hissələridir. Sosial müdafiənin hüquqi əsası beynəlxalq hüquq normalarına, insan hüquqları haqqında konvensiyalara və milli qanunvericiliyə əsaslanır. İnstitusional baxımdan isə dövlət qurumları ilə yanaşı beynəlxalq təşkilatlar, donor institutları və qeyri-hökumət təşkilatları bu sistemin həyata keçirilməsində və monitorinqində mühüm rol oynayır.
Bundan əlavə, post müharibə dövründə insan anlayışının araşdırılması psixoloji, sosial və iqtisadi perspektivləri özündə birləşdirən kompleks yanaşma tələb edir. Sosial müdafiə isə şəxs və sosial qrupların həyat şəraitinin düzəlməsi, cəmiyyətdə sosial sabitliyinin bərqərar edilməsi və dövlətin strateji inkişafının təmin olunması üçün mühüm əhəmiyyət daşıyır. O, həm sosial siyasətin açarı, həm də sabitliyin qorunması və ardıcıl inkişafın əsas təminat mexanizmi kimi çıxış edir.
Açar sözlər: post-müharibə, sosial müdafiə, müharibə iştirakçıları, reinteqrasiya, məşğuluq və təhsil imkanları

UNDERSTANDING THE HUMAN CONCEPT IN POST-CONFLICT SOCIETIES THROUGH THE LENS OF SOCIAL PROTECTION

Madina Etibar ASGERZADE
PhD Student, Department of Social Work, Baku State University
Orcid: https://orcid.org/0009-0003-2788-8134
E-mail: m.asgarzade@yandex.com

Abstract: The notion of war should be approached not merely as a factor in reshaping the political map of the world, but as a complex process with multidimensional effects on the social, psychological, and economic spheres of human life. The destruction and humanitarian crises arising in the aftermath of conflict negatively influence individual living standards and create risks for social stability and long-term societal resilience. In this context, the concept of the "post-war human" encompasses not only the restoration of individual welfare but also the broader objectives of social reintegration, collective solidarity, and sustainable development.
From a psychological perspective, the consequences of war are often manifested through severe traumatic syndromes. Individuals may experience post-traumatic stress disorder (PTSD), suicidal tendencies, depression, aggressive behavior, and social isolation. Traumatic experiences are transferred to the collective level, reinforcing phenomena such as "collective

memory" and "collective consciousness." This transmission poses challenges for future generations, contributing to crises of trust and weakening overall social stability. In the social dimension, the effects of war are evident in the disintegration of communities, the collapse of family structures, and forced displacement. The erosion of social capital, declining mutual trust, and the weakening of social cohesion produce deep dysfunctions within the social fabric. Vulnerable groups—such as women, children, the elderly, and persons with disabilities—face heightened risks and thus become the primary focus of social policy. Failure in social reintegration may lead to marginalization and new tensions in post-conflict societies.

Economically, war results in the weakening of labor markets, loss of employment opportunities, destruction of infrastructure, and increased allocation of state budgets to military expenditures. The erosion of human capital and the deterioration of living conditions jeopardize long-term development prospects. While the growing burden on social protection institutions strains state resources, it simultaneously makes the strengthening of social protection systems indispensable.

Within this framework, the concept of social protection emerges as a key strategic instrument for restoring the quality of life in post-war contexts. Its scope extends beyond financial assistance to include psychological rehabilitation, access to healthcare, expansion of educational and vocational opportunities, enhancement of employment prospects, labor market reintegration, and the promotion of social equity. The legal foundation of social protection is grounded in international legal norms, human rights conventions, and national legislation. Institutionally, it is implemented not only by state bodies but also through the involvement of international organizations, donor institutions, and non-governmental actors that provide both resources and oversight.

Accordingly, the study of the "post-war human" requires a comprehensive approach that unites psychological, social, and economic perspectives. Social protection thus plays a critical role in improving the living conditions of individuals and groups, re-establishing social stability, and securing the strategic development of the state. It functions both as an essential instrument of social policy and as a core mechanism for sustaining peace and ensuring long-term development.

Keywords: post-war, social protection, war participants, reintegration, employment and educational opportunities.

ПОНИМАНИЕ ЧЕЛОВЕКА В УСЛОВИЯХ ПОСТКОНФЛИКТНОГО ОБЩЕСТВА СКВОЗЬ ПРИЗМУ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ

Мадина Этибар АСКЕРЗАДЕ
Бакинский государственный университет
Orcid: https://orcid.org/0009-0003-2788-8134
Электронная почта: m.asgarzade@yandex.com

Резюме: Феномен войны следует рассматривать как сложный процесс, сопровождающийся изменениями на политической карте мира и оказывающий многогранное воздействие на социальную, психологическую и экономическую жизнь общества. Последствия постконфликтного периода, проявляющиеся в разрушениях и гуманитарных кризисах, негативно отражаются на уровне жизни населения, создавая угрозу общественной устойчивости и социальной стабильности. В послевоенное время понятие «человек» приобретает особое значение, подразумевая восстановление социального благополучия личности, а также обеспечение социальной интеграции, коллективной солидарности и поступательного развития общества.

В психологическом измерении тяжелые последствия войны выражаются в формировании острых травматических синдромов. У пострадавших наблюдаются посттравматическое стрессовое расстройство, склонность к суицидальному поведению, депрессивные состояния, агрессивные формы поведения и социальная изоляция. Полученные травмы могут передаваться на коллективный уровень, усиливая феномены «коллективного сознания» и «коллективной памяти». Это, в свою очередь, оказывает отрицательное воздействие на процесс социализации будущих поколений, усиливая кризис доверия и ослабляя общественную стабильность.

В социальном контексте война приводит к распаду сообществ, разрушению института семьи и явлению вынужденного переселения. Утрата социального капитала, снижение уровня взаимного доверия и ослабление социальной сплочённости вызывают серьёзные дисфункции в структуре общества. Уязвимые группы — женщины, дети, пожилые люди и лица с ограниченными возможностями — подвергаются наибольшему риску и становятся приоритетными объектами социальной политики. Недостаточность мер по социальной интеграции в постконфликтных обществах может привести к маргинализации и формированию новых очагов напряженности.

Экономическое измерение последствий войны проявляется в ослаблении рынка труда, сокращении рабочих мест, разрушении инфраструктуры и перераспределении государственных ресурсов в пользу военных расходов. Потеря человеческого капитала и ухудшение уровня жизни населения подрывают долгосрочные перспективы устойчивого развития. Повышенная нагрузка на институты социальной защиты ограничивает ресурсы государства, но одновременно делает неизбежным укрепление систем социальной поддержки.

Концепция социальной защиты в данном контексте выступает как стратегический инструмент восстановления качества жизни после войны. Её содержание не ограничивается лишь материальной помощью; в неё включаются программы психологической реабилитации, доступность медицинских услуг, расширение образовательных и профессиональных возможностей, повышение уровня занятости, реинтеграция на рынок труда и обеспечение социальной справедливости. Правовую основу системы составляют международные правовые нормы, конвенции о правах человека и национальное законодательство. На институциональном уровне в её реализации и мониторинге

участвуют не только государственные структуры, но и международные организации, донорские институты и неправительственные объединения.

Таким образом, исследование феномена человека в послевоенный период требует комплексного подхода, включающего психологические, социальные и экономические перспективы. Социальная защита, в свою очередь, играет ключевую роль в улучшении условий жизни отдельных лиц и социальных групп, обеспечении общественной стабильности и поддержке стратегического развития государства. Она одновременно является инструментом социальной политики и важнейшим механизмом сохранения устойчивости и поступательного развития общества.

Ключевые слова: послевоенный период, социальная защита, участники войны, реинтеграция, занятость и образовательные возможности

Giriş

“Müharibə” fenomeni fərdin həm fiziki, həm də psixi sağlamlığına ən ağır şəkildə təsir göstərən məfhumlardan biridir. “Postmüharibə dövründə insan” anlayışı həm nəzəri, həm də praktik baxımdan mühüm əhəmiyyət daşıyır. O, fərdin psixoloji sabitliyinin qorunması, cəmiyyətə reinteqrasiyasının təmin olunması və maddi rifahının yaxşılaşdırılması ilə yanaşı, ümumilikdə cəmiyyətin ardıcıl inkişafının təmin edilməsinə yönəlmiş kompleks yanaşmanı özündə birləşdirir.

Müharibələr psixoloji, sosio-mədəni, iqtisadi və s. kimi bir çox konteksdə cəmiyyətinin inkişaf ahəngini pozur. Silahlı münaqişələrin səbəb olduğu zorakılıq, ölüm, infrastrukturun dağılması, qaçqınlıq və məcburi köçkünlük, yaxınların itirilməsi və s. kimi halların təsiri altında insanların mental sağlığına ciddi şəkildə ziyan dəyir. Müharibədən sonrakı dövrdə bir çox şəxslərdə post-travmatik stress pozuntusu (PTSP), suisidal davranışlar, yuxusuzluq, depressiya, aqressiv hərəkətlilik və özünü cəmiyyətdən təcrid etmə halları müşahidə olunur. Müharibənin səbəb olduğu psixoloji travmaların təsiri həm fərdi, həm də kollektiv səviyyədə özünü göstərir. Belə ki, postmüharibə dövründə yaranan “kollektiv travma” sindromunun cəmiyyətin gələcək nəsillərinə ötürülməsi ictimai sabitlik və sosial etimadın formalaşmasında ciddi maneələr törədir. Müharibənin ağır fəsadları iqtisadi məzmunda özünü daha çox göstərir. İş yerlərinin məhv edilməsi, əmək bazarının deqradasiyası, infrastrukturun dağıdılması, işsizliyin artması, və dövlət büdcəsinin əsas hissəsinin hərbi xərclərə ayrılması əhalinin rifah səviyyəsinin zəifləməsinə gətirib çıxarır. Cəmiyyətin əsasını təşkil edən insan kapitalının məhv edilməsi iqtisadi tənəzzülə, sosial təminat institutlarının yükünün artmasına, o cümlədən əhalinin həyat keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Beləliklə, müharibələr iqtisadi böhrana səbəb olmaqla yanaşı, iqtisadi sabitlik və uzunmüddətli inkişaf perspektivlərini risk altına alır.

Postmüharibə dövründə insanın həyat şəraitinin yaxşılaşdırılması təkcə fərdi səylərlə deyil, dövlətin və ictimai institutların məqsədyönlü siyasəti ilə mümkündür. Belə ki, müharibə nəticəsində cəmiyyətin müxtəlif sahələrində yaranan tənəzzülün aradan qaldırılması dövlətin sosial siyasətinin ən prioritet istiqamətlərindən birini təşkil edir. Nəticədə, dövlətin sosial müdafiə konsepsiyası bu konteksdə

mühüm əhəmiyyət kəsb edir. Sosial müdafiə dedikdə, şəxsin sosial hüquqlarının qorunması, Azərbaycan

Respublikası Konstitusiyasında təsbit edilən layiqli həyat səviyyəsini təmin edilməsi, və əhalinin ən həssas qruplarının müdafiəsini təmin edən çoxşaxəli sistem nəzərdə tutulur.

Post-müharibə dövründə sosial müdafiə mexanizmləri

Sosial müdafiə mexanizmlərinin səmərəliliyini qiymətləndirmək üçün statistik məlumatların təhlili mühüm əhəmiyyət kəsb edir. Bu təhlil sosial dəstəyə daha çox ehtiyac duyan qrupların müəyyən edilməsinə və dövlət proqramlarının təsir gücünün ölçülməsinə imkan yaradır. Sosial müdafiə maddi yardım, psixoloji reabilitasiya proqramları, tibbi xidmətlərinin əlçatanlığı, təhsil imkanlarının genişləndirilməsi və peşə təlimləri vasitəsilə əmək bazarına inteqrasiya və sosial həmrəyliyi özündə birləşdirir. Sosial müdafiə postmüharibə dövründə cəmiyyətin sabitliyini möhkəmləndirmək və sosial bərabərliyi təmin etmək üçün strateji bir alətdir.

Sosial müdafiənin mahiyyəti müxtəlif istiqamətlərdə özünü göstərir:

İqtisadi aspekt – sosial müdafiə gəlir bölgüsündə balansı təmin edir, yoxsulluğun azaldılmasına və həyat səviyyəsinin yüksəlməsinə şərait yaradır.

Siyasi aspekt – güclü sosial müdafiə mexanizmi dövlətin vətəndaş qarşısında öhdəliklərini və legitimliyini gücləndirir.

Sosioloji aspekt – sosial müdafiə cəmiyyət daxilində birlik, bərabərlik və qarşılıqlı anlaşmanın formalaşmasına töhfə verir.

Hüquqi aspekt – sosial müdafiə insan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi konstitusion müstəvidə qorunur.

Cəmiyyətin sosial quruluşu insanların iqtisadi imkanları, sosial mövqeyi və həyat şərtləri əsasında formalaşır. Bu struktur daxilində müəyyən qruplar daha zəif mövqedə olur və onların sosial müdafiəyə olan ehtiyacı digər qruplardan üstünlük təşkil edir. Həssas qrupların düzgün müəyyənləşdirilməsi sosial siyasətin istiqamətinin dəqiq qurulması üçün zəruridir.

Sosial müdafiə anlayışı müharibədən zərər görən müxtəlif sosial qrupların – qazilərin, əlilliyi olan şəxslərin, şəhid ailəsi üzvlərinin, qadınların, uşaqların və məcburi köçkünlərin sosial təhlükəsizliyini təmin etməklə yanaşı, onların cəmiyyətə tamhüquqlu inteqrasiyasına da şərait yaradır. Sosial müdafiə institutu həm fərdlərin həyat səviyyəsini yüksəldir, həm də dövlətin sosial legitimliyini gücləndirir, ictimai etimadın bərpa edilməsinə və uzunmüddətli sülhün təmin edilməsinə xidmət göstərir.

Bundan əlavə, sosial müdafiə konsepsiyası müharibədən sonra fərdin həyat şəraitinin yaxşılaşdırılması, cəmiyyətin fundamental sabitliyinin qorunması və dövlətin sosial inkişafının təmin olunması üçün vacib rol oynayır. Beləliklə, sosial müdafiə post-münaqişə dövründə yalnız sosial siyasətin aləti deyil, həm də sülhün qorunması və davamlı inkişafın əsas təminat mexanizmi kimi çıxış edir.

Müharibənin ağır nəticələri şəxsin həyatının istənilən sahəsinə təmas edərək onun sosial statusu, psixoloji vəziyyəti, iqtisadi imkanları və hüquqi davranışlarına dərin şəkildə təsir edir. Müharibə insan tələfatına səbəb olur. Belə ki, qeyd olunub ki, 1988-2024-cü illər ərzində 3493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb. Həmçinin 4435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib (https://qafqazinfo.az/news/detail/indiyedek verdiyimiz-sehidlerin-sayi-aciqlandi-462196). 44 gün davam edən müharibədə ağır artilleriya atəşləri nəticəsində uşaqlar, qadınlar və qocalar daxil olmaqla ümumilikdə 94 mülki şəxs öldürülmüş, 400-dən çox mülki şəxs yaralanmış, eyni zamanda 2908 Azərbaycan əsgəri şəhid olmuş, mindən çox əsgər yaralanmış, 6 nəfər itkin düşmüşdür (https://44days.info/az/martyr).

Postmüharibə dövründə "insan" fenomeninin nəzəri aspektlərinin öyrənilməsi sosial müdafiə modelinin hüquqi və institusional əsaslarının təhlilini tələb edərək cəmiyyətin bütövlükdə sosial inteqrasiya prosesi və "müharibədən sonra insan" konsepsiyasının elmi diskursdakı yerini müəyyənləşdirir. Bu kontekstdə müharibədəb sonrakı dövrdə fərdlərin və cəmiyyətlərin üzləşdiyi çoxşaxəli çağırışların izahı üçün kompleks nəzəri çərçivələrə ehtiyac duyulur.

Müharibədən sonrakı dövrdə insan amilinin qorunması və onun sosial müdafiəsinin təmin olunması dövlətin sosial siyasətinin əsas prioritetlərindən biri kimi çıxış edir. Azərbaycanda 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar şəhid ailələrinin, qazilərin, müharibədən zərər görən digər qrupların sosial təminat və psixososial dəstəyə olan ehtiyacını ön plana çıxarmışdır. Bu ehtiyacların qarşılanması üçün dövlət tərəfindən bir sıra institusional mexanizmlər formalaşdırılmışdır.

Post-müharibə dövründə 2021-ci ilin yanvar ayından "YAŞAT" Fondu yaradılmışdır. Fondun məqsədi "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanının 3.1-ci bəndində qeyd olunan şəxslərin (bundan sonra – şəxs) sosial müdafiəsi sahəsində dövlətin həyata keçirdiyi tədbirlərə əlavə dəstək verilməsidir (Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı).

Post-konflikt dövrdə sosial müdafiə məfhumunun institusional və hüquqi bazası, dövlətin və beynəlxalq qurumların sosial məsuliyyətinin həm normativ-hüquqi, həm də praktiki mexanizmlərlə möhkəmləndirilməsi zərurəti üzərində qurulur. Bu anlayışın hüquqi əsası beynəlxalq humanitar hüququn baza prinsiplərinə, insan hüquqları ilə bağlı beynəlxalq konvensiyalara, o cümlədən milli qanunvericiliyin sosial təminata dair müddəalarına əsaslanır. Hazırda dövlətin üzərinə düşən əsas öhdəlik müharibə iştirakçılarının və onların ailə üzvlərinin sosial təminatını təşkil etmək, eyni zamanda onların cəmiyyətə inteqrasiya prosesini sürətləndirməkdən ibarətdir. Bu dəstək mexanizminin birbaşa hədəf qrupu şəhid ailəsi üzvləri, müharibə iştirakçıları, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və onların ailə üzvləridir. Bu sahədə atılan addımlar müharibənin sosial-iqtisadi və humanitar nəticələrinin yumşaldılması, sosial ədalətin bərpası və əhalinin həyat keyfiyyətinin minimum təminat standartlarına uyğun şəkildə qorunmasına yönəldilmişdir.

Müharibədən sonrakı dövrdə ən vacib məsələlərdən biri şəxsin və müharibədən təsirlənən müxtəlif sosial qrupların cəmiyyətin baza strukturuna reinteqrasiya edilməsidir. Bu isə, həm iqtisadi siyasət mexanizmlərini, həm də sosial həmrəylik, vətəndaş iştirakçılığı və mədəni identikliyi özündə ehtiva edir. Sosial inteqrasiya nəzəriyyələrindən biri olan, Dürkeyminin həmrəylik konsepsiyası müharibədən sonra kollektiv yaddaşın və ümumbəşəri dəyərlərin formalaşmasının vacibliyini vurğulayır. Parsonsun struktur-funksional yanaşması isə, cəmiyyətin tarazlığının və davamlılığının sosial institutların koordinasiyalı fəaliyyəti nəticəsində mümkün olduğunu göstərir. Müasir nəzəriyyələr post-müharibə dövründə fərdlər arasında ictimai etimadın və qarşılıqlı həmrəyliyin bərpasının sosial inteqrasiyanın mühüm şərti olduğunu ifadə edir. Heç şübhəsiz, Vətənin müdafiəsində, torpaqlarımızın işğaldan azad edilməsində canından və sağlamlığından keçən insanların ailəsinə

xüsusi diqqət və qayğı göstərilməsi həm dövlətin, həm də cəmiyyətin vəzifəsi, borcu və şərəf işidir ("İki sahil" qəzeti, "Müharibə veteranlarına növbəti sosial dəstək")

Müharibə iştirakçıları, ailə üzvlərini və ya evlərini itirmiş mülki şəxslər, həmçinin məcburi köçkünlər kimi müxtəlif sosial qrupların cəmiyyətə inteqrasiyası təkcə fərdi səviyyədə deyil, kollektiv səviyyədə də ciddi institusional müdaxilə tələb edir. Azərbaycanda 2025-ci ilin ilk rübünə qədər müharibə veteranlarının sayı **184 574 nəfər, müharibə** ilə əlaqədar əlilliyi olan şəxslərin sayı isə **19 520 nəfər olmuşdur** (Dövlət Statistika Komitəsi, 2025). Sosial inteqrasiya prosesinin ardıcıllığının pozulması və ya bütövlüklə həyata keçirilməməsi müxtəlif sosial parçalanmalara, marginalizasiya və konfliktlərin yaranmasına gətirib çıxara bilər, prosesin uğurlu icraatı isə uzunmüddətli əmin-amanlığın, davamlı inkişafın və sosial həmrəyliyin təmin olunmasına zəmin yaradacaqdır.

Müharibə veteranı dedikdə, nəzərdə tutulur:

İkinci dünya müharibəsi illərində döyüşən orduda (donanmada), partizan birləşmələri tərkibində, gizli fəaliyyətdə Vətənin müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş, habelə başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində və keçmiş SSRİ Silahlı Qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri və müşavirləri kimi iştirak etmiş şəxslər; Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslər; 1944-cü il yanvarın 1-dən 1951-ci il dekabrın 31-dək Ukraynanın, Belorusiyanın, Baltikyanı respublikaların ərazisində quldur dəstələrinə qarşı silahlı mübarizədə iştirak etmiş şəxslər; Azərbaycan Respublikasının ərazisində daimi yaşayan, ikinci dünya müharibəsi illərində xarici ölkələrin ərazisində milli orduların, partizan dəstələrinin tərkibində faşist Almaniyasına, onun müttəfiqlərinə və imperialist Yaponiyaya qarşı döyüş əməliyyatlarında iştirak etmiş şəxslər; İkinci dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri; 1941 — 1945-ci illərdə keçmiş Sovet ordusunda (donanmasında), daxili işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçular; İkinci dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə və 2022-ci ilin yanvarın 1-dən etibarən, "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adının verilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2021-ci il tarixli 3088 nömrəli Sərəncamına əsasən 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövrdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adının və "Azərbaycan Respublikasının müharibə veteranı" vəsiqəsinin verilməsi, habelə "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin edilməsi və ödənilməsi şamil edilir (**Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanunu). Müharibə iştirakçılarının maddi qayğılarının aradan qaldırılmasında onların sosial təminat məsələləri ön plana çəkilir. Belə ki, "**Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilmiş və onun aylıq məbləği 80 manat müəyyən olunmuşdur (Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı). Həmçinin Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən, habelə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədarsağlamlıqlarını itirərək əlilliyi müəyyən edilmişşəxslərin mərdlik və şücaətlərini qeyd edərək onların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə "Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilmişdir (Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı).

Sosial elmlərdə "müharibədən sonrakı dövrdə insan" konsepsiyası, post-konflikt cəmiyyətlərin öyrənilməsində mərkəzi kateqoriyalardan biri kimi qəbul edilir və bu anlayış yalnız fərdin müharibədən sonrakı travma ilə mübarizəsini deyil, həm də bütövlükdə cəmiyyətin sosial strukturlarında baş verən transformasiyaları əhatə edir. Sosiologiyada bu anlayış fərdi və kollektiv kimliklərin dəyişməsini, sosial stratifikasiya sistemində yaranan münasibətləri və kollektiv şüurun formalaşmasını təhlil etməyə imkan verir. Psixologiyada isə bu məfhum travma sonrası sosial adaptasiya, psixoloji reabilitasiya və ictimai dəstək mexanizmləri ilə əlaqələndirilir. Antropologiya elmi müharibədən sonra insanın mədəni identikliyi, ənənələrin transformasiyası və simvolik strukturların yenidən qurulmasını araşdırır. Politologiya fənnində "müharibədən sonra insan" anlayışı, vətəndaş-sosial münasibətlərin təmini, demokratik institutların

möhkəmlənməsi və post-konflikt dövlətlərin legitimlik problemləri kontekstində izah edilir. Nəticədə, bu konsepsiya təkcə humanitar yox, həm də sosial, siyasi və mədəni baxımdan çoxhissəli bir araşdırma sahəsi kimi çıxış edir və müharibədən sonrakı dövrdə insan amilinin nəzəri izahında fundamental əhəmiyyət kəsb edir.

Müharibədən sonrakı dövrdə şəxsin həyatının sosial müdafiə konsepsiyasından təhlili, fərdlərin iqtisadi rifahını təmin etməklə yanaşı, onların mental sağlamlığı, sosial inteqrasiyası və cəmiyyətə tamhüquqlu reinteqrasiyasını əhatə edən mürəkkəb və çoxşaxəli bir proses kimi ön plana çəkilir. Sosial müdafiə mexanizmləri, müharibədən zərər görən şəxslərin ehtiyaclarını sistemli şəkildə təmin edərək cəmiyyətin sabitliyini qorumaq və sosial həmrəyliyi bərpa etmək üçün strateji əhəmiyyətə malikdir. Bu zaman fərqli qrupların – müharibə veteranları, müharibə səbəbindən əlilliyi olan şəxslər, keçmiş məcburi köçkünlər və digər qrupların sosial, iqtisadi, mədəni ehtiyaclarının fərqli və kompleks səciyyəsi nəzərə alınmalıdır.

Müharibə iştirakçıları və müharibə əlilliyi olan şəxslər üçün sosial müdafiə mexanizmlərinin effektivliyi yalnız maddi rifahının qorunması ilə kifayətlənmir, belə ki, bu konsepsiya sözügedən kateqoriyanın fiziki sağlamlığının bərpası, psixoloji reabilitasiyası və cəmiyyətə yenidən inteqrasiyası ilə sıx bağlıdır. Sosial ödəniş sistemləri, səhiyyə xidmətləri, psixoloji dəstək layihələri və məşğulluq imkanları kimi kompleks tədbirlər birlikdə həyata keçirilməli və fərdlərin həm qısa, həm də uzunmüddətli ehtiyacları qarşılanmalıdır. Dövlətin müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığı nəticəsində yaradılan institutlar, həmin kateqoriyaya mənsub şəxslərin ictimai statusunun bərpasını təmin edən hüquqi və institusional çərçivəni formalaşdırır. Səhiyyə xidmətləri müharibədən sonra insanın həyat şəraitinin yaxşılaşmasımda və onun cəmiyyətə tamhüquqlu şəkildə inteqrasiyası olmasında həyati rol oynayır. Bu siyasət yalnız fiziki əlillik halları ilə məhdudlaşmayaraq psixi travma, sosial izolyasiya və iqtisadi asılılıq kimi mürəkkəb problemləri özündə ehtiva edir. Reabilitasiya proqramları tibbi dəstək, peşə hazırlığı kursları, sosial məsləhət xidmətləri və psixoloji yardım tədbirlərini əhatə etməli, fərdlərin cəmiyyətə inteqrasiyasını sistemli şəkildə təmin etməlidir. Bu sahədə dövlət və bir sıra beynəlxalq təşkilatların qarşılıqlı koordinasiyalı əməkdaşlığı, əlilliyi olan şəxslərin normativ-hüquqlarının qorunması, özünəinamın bərpası və sosial iştirakçılığın təşviqini təmin edir.

Müharibənin ağır nəticələri yalnız hərbi xidmət keçirilən ərazilərlə özünü göstərmir, müharibədən eyni zamanda mülki əhali və müharibə iştirakçılarının ailə üzvləri, yaxınları da təsirlənir. Bu kateqoriyaya aid olan qadın və uşaqların sosial müdafiəsi, post-münaqişə dövründə insan hüquqlarının qorunması və onların cəmiyyətə qazandırılma prosesində xüsusi əhəmiyyət kəsb edir, çünki bu qruplar həm fiziki, həm psixoloji, həm də sosial baxımdan ən həssas kateqoriyalardandır. Sosial müdafiə termini bu qrupların təhsil, məşğulluq səhiyyə, psixoloji yardım, maddi dəstək və s. kimi sahələrində xüsusi ehtiyaclarını nəzərə almalıdır. Qadınlar və uşaqlar üçün reabilitasiya və sosial müdafiə proqramlarının sistemli şəkildə tətbiqi, onların həm fərdi inkişafını, həm də cəmiyyətə reinteqrasiyasını təmin etməklə, sosial həmrəyliyin bərpasına və post-müharibə dövründə uzunmüddətli sülhün qorunmasına töhfə verir. Eyni zamanda, bu qrupların müdafiəsi cəmiyyətdə gender bərabərliyi və uşaqların hüquqlarının qorunması prinsiplərinin möhkəmləndirilməsinə xidmət edir.

Müharibədən sonrakı dövrdə quruculuq və cəmiyyətə inteqrasiya prosesi fiziki sağlamlığın təmin edilməsi və iqtisadi rifahın bərpası ilə yanaşı, fərdlərin psixoloji, emosional və sosial funksiyalarının bərpasını, onların cəmiyyətlə qarşılıqlı əlaqələrinin normalizasiyasını tələb edən kompleks və çoxhissəli bir prosesdir. Post-müharibə dövründə insanın adaptasiya imkanları fərdi xüsusiyyətlər və cəmiyyətin dəstəkləyici mexanizmləri ilə olduqca bağlıdır. Çünki, konflikt sonrası adaptasiya yalnız psixoloji reabilitasiya ilə məhdudlaşmır, o, həm də dövlət, sosial institut, icmalar təmin olunan sistemli dəstək vasitəsilə reallaşdırılır.

Müharibədən sonra fərdlərdə müşahidə olunan post-travmatik stress pozuntusu (PTSP), şəxsin həm kognitiv, həm emosional, həm də davranış səviyyəsində funksionallığını əhəmiyyətli dərəcədə dəyişir və onların cəmiyyətlə əlaqələrində uzunmüddətli problemlər yaradır. PTSP əlamətləri – yuxusuzluq, xatirələrin təkrarlanması, halüsinasiya, hiperhəssaslıq, cəmiyyətdən təcrid olunma, emosional izolyasiya, depressiya və aqressiv davranış – yalnız insanların mental vəziyyətini yox, eyni zamanda onların sosial fəaliyyəti və icma ilə qarşılıqlı əlaqələrini ciddi şəkildə zəiflədir. Bütün bunlara əsasən sosial dəstək mexanizmləri təkcə tibbi və psixoloji yardımla məhdudlaşmamalı, o həm də şəxslərin sosial inteqrasiyasını təmin edən geniş və çoxpilləli strategiyalarla müşayiət olunmalıdır. Sosial dəstəyin effektivliyi, şəxsin yaxınları, ailə üzvləri, icma və dövlət tərəfindən koordinasiyalı şəkildə təmin edilən reabilitasiya proqramları, peşə təlimləri və məşğulluq və təhsil imkanları ilə birləşdiyi zaman daha da artır. Bu yanaşma yalnız fərdlərin travma sonrası psixoloji dayanıqlığını gücləndirmir, həm də onların cəmiyyətə reinteqrasiyasını sürətləndirir və uzunmüddətli sosial sabitliyin təmin olunmasına xidmət edir.

Bundan başqa, beynəlxalq təcrübələr göstərir ki, PTSP ilə mübarizə aparan fərdlərin sosial dəstək şəbəkələrinə inteqrasiyası, onların həm məşğulluq

fəaliyyətinə, həm təhsilə, həm də icma həyatına aktiv şəkildə qoşulmasına şərait yaradır. Cəmiyyətdə birlik və bərabətliyin bərpasını sürətləndirir. Sosial dəstək həm fərdi, həm də kollektiv səviyyədə müsbət nəticələr doğurur, çünki fərdlərin sosial təcridinin qarşısını alaraq, post-münaqişə dövründə sosial gərginliyi və ziddiyyətləri azaltmağa xidmət edir.

Metod

Müharibədən zərər görən insanların cəmiyyətə reinteqrasiyası psixoloji adaptasiya ilə yanaşı, təhsil, əmək bazarı və cəmiyyətin müxtəlif sahələrinə tamhüquqlu və davamlı şəkildə daxil olmalarını tələb edən mürəkkəb bir prosesdir. Təhsil sahəsində fərdlərin əvvəlki bilik səviyyəsinə uyğunlaşdırılması, xüsusi tədris proqramları, peşə hazırlığı və bacarıqların yenilənməsi proqramları onların koqnitiv funksiyalarının bərpası və sosial iştirakçılıq potensialının yüksəldilməsi üçün həyati əhəmiyyət kəsb edir.

Şəxsin əmək bazarına inteqrasiyası maddi təminat, fərdlərin psixoloji sabitliyi və sosial statusunun bərpası üçün olduqca vacibdir. Məşğulluğa dəstək kampaniyaları, yeni iş yerlərinin yaradılması, peşə hazırlığı kurslarının təşkili, fərdlərin sosial funksiyalarını bərpa edir və onların icma həyatına aktiv şəkildə qoşulmasına töhfə verir. Sosial həyatın bərpası isə dostluq və həmrəylik əlaqələrinin yenidən qurulması, ictimai tədbirlərdə iştirak, könüllü fəaliyyət və icma əsaslı proqramlarda iştirak vasitəsilə reallaşır. Bu proseslər yalnız fərdlərin deyil, həm də cəmiyyətin davamlı sabitliyi, sosial inteqrasiya səviyyəsi və post-müharibə sülhünün davamlılığı üçün vacib şərtdir.

Yenidən cəmiyyətə inteqrasiya prosesində mühüm faktor, fərdlərin travma sonrası psixoloji vəziyyətinin nəzərə alınması və sosial dəstək mexanizmlərinin onların ehtiyaclarına uyğun şəkildə adaptasiya olunmasıdır. Bu yanaşma, yalnız fərdlərin sosial fəaliyyətini bərpa etməklə kifayətlənmir, həm də uzunmüddətli sosial stabilliyi və ictimai etimadı gücləndirir.

Post-müharibə dövründə sosial institutların – ailə, icma və dövlətin – dəstəkləyici rolu psixoloji və sosial adaptasiya prosesinin əsas sütunlarından biri kimi çıxış edir. Ailə institutu fərdlərin emosional dayanıqlığını və sosial bərpasını təmin edən ilkin dəstək şəbəkəsi kimi fəaliyyət göstərir; bu, həm travma sonrası stressin azalmasına, həm də fərdlərin sosial fəaliyyətə adaptasiyasına birbaşa təsir edir. İcma institutları, fərdlərin sosial şəbəkələrə reinteqrasiyasını təmin etmək, sosial həmrəylik və etimadın bərpasını təşviq etmək, icma əsaslı reabilitasiya və sosial fəaliyyət proqramları vasitəsilə onların ictimai fəaliyyətlərini gücləndirmək funksiyasını yerinə yetirir. Dövlət isə qanunvericilik, sosial müdafiə proqramları, psixoloji və tibbi xidmətlərin təşkili, məşğulluq və təhsil proqramları ilə bu prosesi sistemli və koordinasiyalı şəkildə dəstəkləyir.

Sosial institutların inteqrasiya olunmuş rolu yalnız fərdlərin adaptasiyasını təmin etməklə kifayətlənmir, həm də cəmiyyətin dayanıqlı inkişafını, sosial etimadın bərpasını və uzunmüddətli sülhün qorunmasını təmin edən strateji şərtləri formalaşdırır. Əlavə olaraq, sosial institutların effektiv fəaliyyəti, fərdlərin travma sonrası psixoloji dayanıqlığını artırmaqla yanaşı, onların ictimai fəaliyyətlərdə fəal iştirakını və icma həyatına reinteqrasiyasını sürətləndirir ki, bu da post-münaqişə cəmiyyətində sosial stabilliyin və qarşılıqlı etimadın bərpasını birbaşa təmin edir.

Müharibədən sonrakı dövrdə sosial müdafiə sahəsində dövlətlərin səmərəli strategiyalarının və institusional mexanizmlərinin inkişafı yalnız milli səviyyədə deyil, həm də beynəlxalq təcrübələrin öyrənilməsi və uyğunlaşdırılması ilə sıx bağlıdır. Post-konflikt dövründə fərdlərin sosial, psixoloji və iqtisadi bərpası, cəmiyyətin dayanıqlı inkişafının təmin olunması, həmçinin sosial inteqrasiya və etimadın bərpası, yalnız dövlətin daxili siyasəti ilə məhdudlaşmır; burada beynəlxalq hüquqi çərçivələr, humanitar yardım mexanizmləri, donor təşkilatlar və regional əməkdaşlıq təcrübələri mühüm rol oynayır. Azərbaycan kimi post-münaqişə ölkələri üçün beynəlxalq modellərin öyrənilməsi və yerli kontekstə adaptasiyası, sosial müdafiənin effektivliyinin artırılması, institusional mexanizmlərin möhkəmləndirilməsi və müharibədən zərər çəkmiş fərdlərin reinteqrasiyasının təmin olunması baxımından həyati əhəmiyyət daşıyır.

Beynəlxalq təcrübə göstərir ki, müharibədən sonrakı sosial müdafiə sistemlərinin uğuru, yalnız fərdlərə maddi yardımın göstərilməsi ilə ölçülmür, həm də onların sosial, psixoloji və iqtisadi bərpasını təmin edən çoxşaxəli və koordinasiyalı strategiyaların tətbiqi ilə birbaşa bağlıdır. ABŞ, Almaniya, Kanada, Türkiyə və Avropa İttifaqı ölkələrində post-münaqişə dövrü üçün hazırlanmış sosial müdafiə modelləri, müharibədən zərər çəkmiş fərdlərin tibbi xidmətlər, psixoloji dəstək, peşə hazırlığı, məşğulluq imkanları və sosial reinteqrasiya proqramlarına çıxışını təmin edən kompleks mexanizmləri əhatə edir. Beynəlxalq təcrübələr göstərir ki, bu proqramlar yalnız humanitar məqsədlərlə məhdudlaşmır, həm də sosial stabillik, icma həmrəyliyi, uzunmüddətli sülh və sosial ədalətin bərpası üçün strateji rol oynayır. Həmçinin, bu təcrübələr göstərir ki, beynəlxalq donor təşkilatları və qeyri-hökumət institutları ilə koordinasiyalı əməkdaşlıq, resurs təminatı və monitorinq mexanizmlərinin qurulması, sosial müdafiə sistemlərinin davamlı və effektiv fəaliyyətini təmin edən əsas amillərdən biridir.

Azərbaycan üçün müharibədən sonrakı dövr, həm sosial bərpa, həm də dövlətin institusional və hüquqi mexanizmlərini gücləndirmə baxımından strateji əhəmiyyət kəsb edir. Dövlət proqramları, veteranlar və qazilərin sosial təminatı, əlillik və reabilitasiya xidmətləri, məcburi köçkünlər və qaçqınların reinteqrasiyası, həmçinin müharibədən zərər çəkmiş mülki şəxslərin sosial müdafiəsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsini əhatə edir. Azərbaycan təcrübəsi göstərir ki, sosial müdafiə siyasətinin effektivliyi yalnız maliyyə resurslarının ayrılması ilə deyil, həm də hüquqi bazanın möhkəmləndirilməsi, institusional koordinasiya və cəmiyyətin bütün səviyyələrində sosial inteqrasiya mexanizmlərinin tətbiqi ilə ölçülür. Dövlət proqramları, sosial yardım və kompensasiyalar, tibbi və psixoloji xidmətlər, peşə hazırlığı və məşğulluq təşviqi, eləcə də təhsil və sosial reinteqrasiya proqramları bir-biri ilə koordinasiyalı şəkildə həyata keçirilməli, müharibədən zərər çəkmiş fərdlərin həyat keyfiyyətinin yüksəldilməsi və cəmiyyətə tamhüquqlu reinteqrasiyası təmin olunmalıdır.

Post-müharibə dövründə sosial müdafiə sahəsində regional və beynəlxalq əməkdaşlıq, yalnız resurs təminatı və texniki dəstək baxımından deyil, həm də sosial siyasət strategiyalarının planlaşdırılması, təcrübə mübadiləsi və institusional gücləndirmə baxımından mühüm rol oynayır. Azərbaycan üçün regional əməkdaşlıq imkanları, xüsusilə qonşu ölkələr və beynəlxalq təşkilatlarla koordinasiyalı layihələrin həyata keçirilməsi, müharibədən zərər çəkmiş fərdlərin sosial reinteqrasiyası və cəmiyyətin dayanıqlı bərpası üçün vacib bir platforma yaradır. Beynəlxalq əməkdaşlıq çərçivəsində donor təşkilatları, BMT agentlikləri, beynəlxalq humanitar fondlar və qeyri-hökumət qurumları ilə əlaqələrin gücləndirilməsi, sosial müdafiə sistemlərinin institusional və maliyyə baxımından möhkəmləndirilməsinə, həmçinin proqramların davamlılığının təmin olunmasına xidmət edir.

Bu əməkdaşlıq həm də beynəlxalq hüquq və standartların yerli sosial müdafiə siyasətinə uyğunlaşdırılmasına imkan yaradır, fərqli ölkələrin post-münaqişə təcrübələrinin öyrənilməsi, adaptasiyası və tətbiqi ilə Azərbaycan sosial müdafiə sistemlərinin effektivliyini artırır. Regional və beynəlxalq təcrübənin sistemli inteqrasiyası, müharibədən zərər çəkmiş fərdlərin sosial müdafiəsini yalnız humanitar baxımdan təmin etməklə kifayətlənmir, həm də uzunmüddətli sülhün, sosial inteqrasiyanın və cəmiyyətin dayanıqlı inkişafının təmin olunmasına strateji töhfə verir.

Nəticə

Müharibədən sonrakı dövrdə sosial müdafiə sahəsində dövlətlərin səmərəli strategiyalarının və institusional mexanizmlərinin inkişafı yalnız milli səviyyədə deyil, həm də beynəlxalq təcrübələrin öyrənilməsi və uyğunlaşdırılması ilə sıx bağlıdır. Post-konflikt dövründə fərdlərin sosial, psixoloji və iqtisadi bərpası, cəmiyyətin dayanıqlı inkişafının təmin olunması, həmçinin sosial inteqrasiya və etimadın bərpası, yalnız dövlətin daxili siyasəti ilə məhdudlaşmır; burada beynəlxalq hüquqi çərçivələr, humanitar yardım mexanizmləri, donor təşkilatlar və regional əməkdaşlıq təcrübələri mühüm rol oynayır. Azərbaycan kimi post-münaqişə ölkələri üçün beynəlxalq modellərin öyrənilməsi və yerli kontekstə adaptasiyası, sosial müdafiənin effektivliyinin artırılması, institusional mexanizmlərin möhkəmləndirilməsi və müharibədən zərər çəkmiş fərdlərin reinteqrasiyasının təmin olunması baxımından həyati əhəmiyyət daşıyır.

Azərbaycan üçün müharibədən sonrakı dövr, həm sosial bərpa, həm də dövlətin institusional və hüquqi mexanizmlərini gücləndirmə baxımından strateji əhəmiyyət kəsb edir. Dövlət proqramları, veteranlar və qazilərin sosial təminatı, əlillik və reabilitasiya xidmətləri, məcburi köçkünlər və qaçqınların reinteqrasiyası, həmçinin müharibədən zərər çəkmiş qadın və uşaqların sosial müdafiəsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsini əhatə edir. Azərbaycan təcrübəsi göstərir ki, sosial müdafiə siyasətinin effektivliyi yalnız maliyyə resurslarının ayrılması ilə deyil, həm də hüquqi bazanın möhkəmləndirilməsi, institusional koordinasiya və cəmiyyətin bütün səviyyələrində sosial inteqrasiya mexanizmlərinin tətbiqi ilə ölçülür. Dövlət proqramları, sosial yardım və kompensasiyalar, tibbi və psixoloji xidmətlər, peşə hazırlığı və məşğulluq təşviqi, eləcə də təhsil və sosial reinteqrasiya proqramları bir-biri ilə koordinasiyalı şəkildə həyata keçirilməli, müharibədən zərər çəkmiş fərdlərin həyat keyfiyyətinin yüksəldilməsi və cəmiyyətə tamhüquqlu reinteqrasiyası təmin olunmalıdır.

Təkliflər

Müharibələrin təsirləri yalnız strateji və iqtisadi sahələrlə məhdudlaşmır, bu proseslər insanların ictimai və psixoloji rifahına da əsaslı şəkildə təsir göstərir. Müharibə səbəbindən əlilliyi olan şəxslər və qazilər, hərbi əməliyyatlarda iştirak etmələrinə görə həm fiziki, həm də mənəvi cəhətdən zərə görən şəxslər kimi, cəmiyyətin xüsusi diqqət və dəstəyinə ehtiyac duyur. Müharibədən sonra müharibə iştirakçılarının cəmiyyətə inteqrasiyasiyasındakı ən mühüm amillərdən biri onların məşğulluq imkanlarının artırılmasıdır. Onların cəmiyyətə inteqrasiyası və məşğulluğa cəlb olunması, dövlətin sosial siyasətinin ən prioritet istiqamətlərindən biri olaraq qiymətləndirilir və eyni zamanda insan hüquqlarının qorunması və sosial ədalətin təmin edilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Müharibə iştirakçılarının məşğulluq imkanlarının artırılması məqsədilə xüsusi proqramların həyata keçirilməsi

məqsədəuyğun hesab olunardı "Məşğulluq Marafonu" modeli əsasında. "Qazi Marafonu" kimi təşəbbüslər bu kontekstdə innovativ bir model kimi təqdim oluna bilər. Bu proqramın əsas məqsədi müharibə iştirakçılarının peşə bacarıqlarının inkişafı, əmək bazarında rəqabət qabiliyyətinin artırılması və cəmiyyətə adaptasiyasının sürətləndirilməsi mühüm yer tutur. Bu təşəbbüslər, eyni zamanda, dövlət və özəl sektor arasında qarşılıqlı əməkdaşlığı gücləndirərək müharibədən zərər görən şəxslərin iqtisadi cəhətdən azadlığına şərait yaradır. Belə tədbirlər yalnız məşğulluq imkanlarının yaradılmasını təmin etmir, həm də veteranların digər şəxslərlə və bütövlükdə cəmiyyətlə əlaqəsini gücləndirərək onların rifah səviyyəsinin yüksəlməsinə şərait yaradır.

Fiziki məhdudiyyətləri olan müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin gündəlik həyat fəaliyyətlərini müstəqil icra etmələri üçün texnoloji və sosial innovasiyaların tətbiqi əhəmiyyətlidir. Məsələn, görmə məhdudiyyəi olan şəxslər üçün beynəlxalq təcrübədə tətbiq olunan xüsusi təlim keçmiş bələdçi itlərin ölkəyə gətirilməsi, onların müstəqil hərəkət imkanlarını əhəmiyyətli dərəcədə artıra bilər. Bu cür dəstək həmçinin psixoloji rahatlıq təmin edir və sosial aktivliyə təşviq edir. Bundan başqa, müasir texnologiya vasitələri – sensorlu cihazlar, ağıllı naviqasiya sistemləri, səsli köməkçi proqramlar – müharibə səbəbindən əlilliyi olan şəxslərin ictimai mühitdə sərbəst və təhlükəsiz hərəkətini təmin edir. Bu texnoloji həllər, şəxslərin fərdi ehtiyaclarına uyğunlaşdırılabilən xüsusiyyətləri ilə onların gündəlik həyat keyfiyyətini artırır və cəmiyyətə adaptasiyanı sürətləndirir, o cümlədən bu tip texnoloji sosial dəstək mexanizmləri müasir inklüziv sosial siyasətin əsas elementləri kimi qiymətləndirilə bilər.

Belə təşəbbüslərin tətbiqi yalnız müharibədən zərər görən şəxslərin həyat şəraitini yaxşılaşdırmaqla kifayətlənmir, həm də cəmiyyətin sosial həmrəyliyini və inklüzivlik prinsiplərini gücləndirir. Müharibə əlillərinin və veteranların sosial inteqrasiyası, onların həm iqtisadi, həm də psixoloji resurslarının inkişafını təmin etməklə, dövlətin sosial siyasətinin effektivliyini artırır. Nəticədə, bu şəxslərin cəmiyyətə aktiv qatılması sosial ədalətin təmin edilməsinə və inklüziv inkişaf modelinin möhkəmlənməsinə xidmət edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2. Dövlət Statistika Komitəsi, 2025

3. "İki sahil" qəzeti, "Müharibə veteranlarına növbəti sosial dəstək", 2023.

4. Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

5. Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərəAzərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı

6. Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanunu

7. https://qafqazinfo.az/news/detail/indiyedek-verdiyimiz-sehidlerin-sayi-aciqlandi-462196

https://44days.info/az/martyrs/

DOİ: 10.32010/QDZW9223

1980-88-Cİ İLLƏRDƏ ERMƏNİSTAN SSR-DƏN AZƏRBAYCANLILARIN DEPORTASİYASININ SƏBƏBLƏRİ VƏ PROSESƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Mirvari QURBANOVA
Bakı Dövlət Universitetinin doktorantı,
C.Naxçıvanski adına hərbi liseyin müəllimi
ORCİD İD 0009-0008-7248-1559
E-mail: mirvariqurbanova@mail.ru

Xülasə: Məqalədə Ermənistan SSR-də yerli azərbaycanlı əhaliyə qarşı həyata keçirilən etnik təmizləmə siyasətinin əsasında duran bəzi siyasi nüanslar və rəhbərliyin qərarlarının mahiyyəti araşdırılır. Aparılan siyasətin, qəbul olunmuş qeyri odekvat qərarların azərbaycanlıların hüquqlarının necə əllərindən alınmasına xidmət etdiyi göstərilir. Regionda etnik cəhətdən homogen dövlət yaratmaq üçün silsilə şəklində həyata keçirilən proseslərin bir hissəsi şərh olunur.
Açar sözlər: azərbaycanlıların sıxışdırılması, deportasiya, şahidlərin xatirələri.

OF AZERBAIJANS FROM THE ARMENIAN SSR IN 1980-88 REASONS FOR DEPORTATION AND FACTORS AFFECTING THE PROCESS

Mirvari GURBANOVA
is a doctorate student of Baku State University,
a teacher of military high school named after J. Nakhchivanski
ORCID ID 0009-0008-7248-1559
E-mail: mirvariqurbanova@mail.ru

Abstract: The article examines the political factors underlying the policy of ethnic cleansing against the Azerbaijani population in the Armenian SSR and analyzes the nature of the decisions adopted by the leadership. It demonstrates how the pursued policy and biased decisions contributed to the deprivation of Azerbaijanis of their fundamental rights. The study also discusses the processes implemented to create an ethnically homogeneous state in the region.
Keywords: persecution of Azerbaijanis, massacres, testimonies of witnesses

Giriş

Sovet İttifaqının süqutuna doğru aparan tarixi proseslər daxilində 1980-ci illərdə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların kütləvi deportasiyası uzun tarixi kökləri olan etnik təmizləmə siyasətinin məntiqi nəticəsi və son mərhələsi idi. Bu proses təsadüfi deyil, mərkəzi sovet rəhbərliyinin milli siyasəti, yenidənqurma (perestroyka) şəraitində əldə etdiyi fürsətdən istifadə edən erməni milliyətçi-daşnak qruplarının vəhşilikləri, Azərbaycan SSR rəhbərliyinin qeyri-qəti mövqeyinin nəticəsi idi. Təxminən 250 min azərbaycanlının tarixi vətənlərindən qovulması ilə nəticələnən bu deportasiya, yalnız Ermənistan SSR-də demoqrafik vəziyyəti əsasından dəyişdirmədi, Azərbaycanın Qarabağ bölgəsində münaqişənin alovlanmasına, müharibənin başlamasına və ərazilərin Ermənistan tərəfindən işğalına gətirib çıxardı.

XX əsrin əvvəllərindən Ermənistan SSR-də azərbaycanlılara qarşı başladılan deportasiya siyasəti 1980-ci illərdə özünün son mərhələsinə qədəm qoydu. Mixail Qorbaçov başda olmaqla imperiya siyasətini ciddi-cəhdlə davam etdirən qrup Moskvada əsas postları ələ keçirdikdən sonra öz siyasi və qrup məqsədlərinə uyğun olaraq Qafqazda milli ədavəti qızışdırmağa, erməni milliyətçiliyini dəstəkləməyə başladılar. Bu zaman həyata keçirilən yenidənqurma (perestroyka) və açıqlıq (qlasnost) siyasəti Ermənistan SSR-də millətçi-şovinist qrupların təşkilatlanmasına imkan yaratdı. XX əsrin 80-ci illərinin ortalarından başlayaraq Ermənistan SSR-də qatı erməni millətçilərinin siyasi sərbəstliyi artdı. Bu qüvvələr illərlə gizli şəkildə mövcud olan etnik təmizləmə ideyalarını, monoetnik dövlət yaratmaq xülyalarını çəkinmədən açıq şəkildə reallaşdırmağa başladılar, azərbaycanlı əhaliyəq qarşı təzyiqləri gücləndirdilər. Azərbaycanda isə ermənilər vasitəsilə təxribatçı addımlar atmağa başladılar. Qarabağda yaşayan ermənilər Moskvaya ardıcıl məktublar göndərməyə başladılar. Mixail Qorbaçov isə erməni millətçilərinin hay-küyündən Azərbaycan SSR-ə qarşı təzyiq vasitəsi kimi istifadə edirdi. 1988-ci il martın 3-də Qorbaçov Siyasi büroya bu mövzu ilə bağlı aldıqları xəbərdarlıqları görməməzlikdən gəlməyin səhv

olduğunu bildirdi: *"Burada heç nəyi sadələşdirməməliyik və özümüzü də tənqid etməliyik. Mərkəzi Komitə son üç ildə Dağlıq Qarabağ məsələsi ilə bağlı beş yüz məktub aldı. Bu məsələyə kim diqqət yetirdi? Biz yalnız adi cavablar verdik".*

Ermənistandan azərbaycanlıların tam təmizlənməsi üçün bəhanə lazım idi. 1988-ci ilin fevral ayında əvvəldən hazırlanmış ssenari əsasında millətçi ermənilər tərəfindən həyata keçirilmiş "Sumqayıt hadisələri" Ermənistan SSR-də azərbaycanlılara qarşı vəhşiliklərin törədilməsi üçün bəhanə oldu. Təzyiqlərin və azərbaycanlılara qarşı vəhşiliklərin güclənməsi onların öz yurdlarından sıxışdırılaraq, qovulmasına gətirib çıxartdılar.

Azərbaycan SSR rəhbərliyinin atdığı addımlar isə sadəcə görüntü yaratmaq məqsədi güdürdü. 1988-ci ilin aprel ayının 13-dən 15-dək Ermənistan SSR-də yaşayan azərbaycanlıların vəziyyətini öyrənmək və onların qarşılaşdığı problemləri həll etmək məqsədilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Ramiz Mehdiyevin başçılığı ilə İrəvana göndərilən nümayəndə heyəti faktiki olaraq heç bir ciddi dəyişikliyə nail ola bilmədi. Nümayəndə heyəti Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Karen Dəmirçyanla iki dəfə görüşdü. Lakin ortaya ciddi mövqeyin qoyulmaması Ermənistanın daha rahat şəkildə davranmasına səbəb oldu. Görüşlər zamanı Karen Demirçyanın azərbaycanlılara qarşı zorakılıqların dayandırılacağı və onların təhlükəsizliyinin təmin ediləcəyinə dair vədləri sadəcə protokola hesablanmış ümumi sözlər idi. Azərbaycanlı tədqiqatçı V.Ağamalıyeva yazır ki, verilən bu vədlərə baxmayaraq, azərbaycanlılara qarşı edilən zorakılıqların və onların məcburi deportasiyasının qarşısı alınmamışdı.

Ermənistanda mətbuat, radio və televiziya kanallarında azərbaycanlılara qarşı nifrət təbliğatı gücləndirildi. Apardığımız araşdırmalar zamanı həmin dövrdə Ermənistan SSR-də yaşamış çoxsaylı şahid ifadələri göstərir ki, o zaman nəinki təhsil müəssisələrində hətta digər ictimai yerlərdə də azərbaycanlılar təhqir olunur, döyülürdü. Hal-hazırda Şamaxı rayonunun Kəlləxana kəndində yaşayan, 01.09.1965 tarixində İcevan rayonunun Polad kəndində anadan olan Nəbiyev Sarvan Səftər oğlunun xatirələrinə əsasən, ev-eşiyindən, torpağından məhrum edilmiş bu insanlar yeni yerlərə alışmaq və həyatlarını yenidən qurmaq məcburiyyətində qalmışdılar. 1988-ci ilin noyabr ayında erməni-rus qüvvələri Azərbaycan əhalisini avtobuslara dolduraraq onları Qazax rayonunun sərhədinə göndərmiş, həmin insanların bütün varidatı və mülkləri kəndlərində qalmışdı. Bu hadisədən dörd ay əvvəl Alacıqqaya adlı kənddə ermənilər bir qadını güllələyərək öldürmüşdülər. Əhali nə qədər şikayət etsə də, bu şikayətlərə heç kim baxmamışdı. Ermənilər əhaliyə elan edirdilər ki, müqavimət göstərib getməyən hər kəsin taleyi qadın kimi olacaqdır. Savan Nəbiyevin dediklərindən: "*Əhalini köçürən zaman, kəndlilərdən biri, Rüstəmov Yaqub Rüstəm oğlu, digərlərindən ayrı düşmüşdü. Ermənilər onu tutaraq rayon mərkəzinə apardılar və orada onu dörd gün döyüb işgəncələr verdilər. Bir həftədən sonra rus əsgərlərinin köməyi ilə onu geri ala bildik. Lakin, o, bir həftə sonra Qazax rayonunda vəfat etdi. Həkimlər onun daxili orqanlarının zədələndiyini bildirdilər. Yaqub Rüstəmov Ağstafa rayonunda dəfn olundu".*

Belə şahid ifadələri yüzlərlədir və onların hər birində göstərilən motivlərin sistemli araşdırılması XX əsrin 80-ci illərinin sonlarında həyata keçirilən prosesin sistemli etnik təmizləmə olduğunu söyləməyə imkan verir. Yuxarıda aparılan təhlillər nəticəsində bir sıra qənaətlərə gəlmək mümkündür. Əvvəla aydın olur ki, etnik təmizləmə prosesinə Moskvanın mərkəzi rəhbərliyinin, xüsusilə Mixail Qorbaçovun erməni milliyətçilərinin tələblərindən Azərbaycana təzyiq vasitəsi kimi istifadə etmək siyasəti və problemə qeyri-obyektiv yanaşması etnik təmizləmə prosesi üçün əlverişli şərait yaratmışdır. İkincisi, perestroyka ilə əlaqədar yaranmış nisbi siyasi azadlıq mühiti, Ermənistanda monoetnik dövlət xülyası quran radikal milliyətçi qrupların fəaliyyətini aktivləşdirmiş və onlara azərbaycanlılara qarşı nifrət təbliğatını genişləndirməyə imkan vermişdir. Üçüncüsü, süni şəkildə yaradılan və provokasiya xarakteri daşıyan Sumqayıt hadisələri kimi bəhanələrdən istifadə edərək, azərbaycanlı əhaliyə qarşı sistematik zorakılıq, təhqir və hədələr tətbiq edilmişdi. Dördüncüsü, Azərbaycan SSR rəhbərliyinin mövqeyinin qeyri- qəti və səmərəsiz olması, Ermənistan tərəfindən verilən vədlərin pozulmasına və deportasiya prosesinin qarşısının alınmamasına səbəb olmuşdu. Nəticədə, azərbaycanlı əhali öz ata-baba yurdlarından qovulmuş, onların maddi-mədəni irsi məhv edilmiş, ələ keçirilmiş, toponimlər dəyişdirilmişdi. Bu, yalnız bir etnik qrupa qarşı tətbiq edilmiş insanlıq əleyhinə cinayət deyil, həm də regional sabitliyi pozan, minlərlə insanın taleyini dəyişdirən və iki qonşu xalq arasında dərin uçurum yaradan faciəli bir proses olmuşdu.

ƏDƏBIYYATLAR SİYAHISI:

1. Waal, T. Black garden. Armenia and Azerbaijan through Peace and War / T.De Waal. -New York & London: New York University Press , -2003. -337 s.

2. Ağamalıyeva, V. Qərbi Azərbaycanda ermənilərin törətdiyi vəhşiliklər / – Bakı: SkyG, –2017. –205 s.

DOİ: 10.32010/DWJP8185

XX ƏSRİN 30-CU İLLƏRİNDƏ AZƏRBAYCAN SSR-DƏ MƏTBUATIN CƏMİYYƏTƏ İDEOLOJİ TƏSİRLƏRİ

Nərgiz Tofik KƏRİMOVA
Baki Dövlət Universiteti
ORCİD.ORG/0000-0002-7751-5104
E-mail: nargizkarimova60@gmail.com

Xülasə: Cari tədqiqatın məqsədi Sovet dövrünün repressiyalarına dair ədəbiyyata töhfə vermək üçün spesifik bir istiqaməti – repressiyanın XX əsrin 30-cu illərində yerli mətbuatda necə işıqlandırıldığını araşdırmaqdır. Məqalədə 30-cu illərin mətbuatını, xüsusilə "Kommunist" qəzetinin yazılarını təhlil etmiş və dövrün mövcud tədqiqatları əsasında "Repressiya dövründə ictimai rəyin formalaşmasında mətbuatın rolu nədən ibarət idi?", "Cəmiyyətin baş verən proseslər qarşısında səssiz qalmasının səbəbləri nələr idi?" suallarına cavab tapmağa çalışmışıq.
Açar sözlər: repressiya, mətbuat, kommunist, səssizlik spiralı, qolçomaq, donos

---

IDEOLOGICAL INFLUENCES OF THE PRESS ON SOCIETY IN THE AZERBAIJAN SSR IN THE 1930S

Nargiz Tofik KARIMOVA
Baku State University
HTTPS://ORCİD.ORG/0000-0002-7751-5104
E-mail: nargizkarimova60@gmail.com

Abstract: The aim of the current study is to contribute to the literature on Soviet-era repressions by investigating a specific direction — how repression was covered in the local press in the 1930s. In the article we analyzed the press of the 1930s, particularly articles in the newspaper Kommunist, and, based on contemporary research of the period, attempted to answer the questions "What was the role of the press in shaping public opinion during the repression?" and "What were the reasons for society's silence in the face of these events?"
Keywords: repression; press; Kommunist; spiral of silence; sycophancy; denunciation.

ИДЕОЛОГИЧЕСКОЕ ВЛИЯНИЕ ПЕЧАТИ НА ОБЩЕСТВО В АЗЕРБАЙДЖАНСКОЙ ССР В 1930-Е ГОДЫ

Наргиз Тофик КЕРИМОВА
Бакинский государственный университет
HTTPS://ORCİD.ORG/0000-0002-7751-5104
Электронная почта: nargizkarimova60@gmail.com

Резюме: Целью настоящего исследования является внесение вклада в литературу о репрессиях советского периода через изучение конкретного направления — того, как репрессии освещались в местной прессе в 1930-е годы. В статье мы проанализировали прессу 1930-х годов, в частности материалы газеты Коммунист, и на основе существующих исследований эпохи попытались ответить на вопросы «Какова была роль прессы в формировании общественного мнения в период репрессий?» и «Каковы были причины молчания общества перед происходившими событиями?»
Ключевые слова: репрессии; пресса; Коммунист; спираль молчания; подхалимство; доносительство

Giriş

1917-ci il Oktyabr inqilabından sonra bolşeviklər hakimiyyəti ələ keçirdi və SSRİ-də XX yüzilin 20-30-cu illərində totalitar cəmiyyətin formalaşmasına yönəldilmiş çoxlu qanunlar qəbul edildi. Sosialist dövlət qurmaq məqsədi ilə yaradılan yeni rejimin əsas xüsusiyyətlərindən biri də siyasi repressiya idi. Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsinin (ÜMİK) 10 avqust 1922-ci il tarixli dekreti inzibati qaydada sürgün barədə, 16 oktyabr 1922-ci il tarixli dekreti isə müəyyən kateqoriyalı şəxslərin məhkəməsiz məhkum edilməsi və hətta güllələnməsi barədə idi. Bolşeviklər təkcə siyasi qrupları deyil, həm də ümumi əhali arasında "təhlükəli" hesab etdikləri şəxsləri hədəf almışdılar.

Stalinin hakimiyyəti dövründə Sovet İttifaqında siyasi repressiyalar daha da şiddətləndi. 1920-ci illərin sonlarında Stalin Kommunist Partiyası daxilində, orduda və cəmiyyətdə real və ya potensial düşmənləri aradan qaldırmaq üçün ardıcıl təmizləmə kampaniyaları başlatdı. 1936-1938-ci illəri əhatə edən Böyük Təmizləmə dövrü bu repressiyaların ən ağır mərhələsi hesab olunur. Bu illərdə milyonlarla insan həbs olundu, QULAQ düşərgələrinə göndərildi və ya məcburi etiraflar və saxta məhkəmə prosesləri nəticəsində güllələndi (Robert Conquest "Great Terror", Anne Aplebaum "Gulag: A History"). Bu dövr yalnız Sovet elitasını məhv etmədi, həm də cəmiyyətdə genişmiqyaslı qorxu atmosferi yaratdı və hər cür etirazı boğaraq Sovet cəmiyyətini Stalinin hakimiyyətinə tam itaət əsasında yenidən formalaşdırdı.

Repressiyalar dövrü ilə bağlı araşdırılmayan sənədlər, açılmayan səhifələr çoxluq təşkil etdiyinə, sovet dövrünün sərt rejimində yazılan tarix reallığı əks etdirmədiyinə görə yeni və obyektiv tədqiqatların aparılmasına, mövzuya yeni yanaşmaların gətirilməsinə ehtiyac vardır. Həmçinin mətbuatda yazıların vahid ideologiya çərçivəsində hazırlanması və dövrün tələbinə uyğun işıqlandırılması nəticəsində cəmiyyətdə yaranan əks-sədanın prosesə ciddi təsir göstərdiyini nəzərə alaraq, bu istiqamətdə tədqiqatın aparılması vacib hesab olunmuşdur.

Cari tədqiqatın da məqsədi məhz Sovet dövrünün repressiyalarına dair ədəbiyyata töhfə vermək üçün spesifik bir istiqaməti – repressiyanın yerli mətbuatda necə işıqlandırıldığını araşdırmaqdır. Bunun üçün konkret olaraq bir dövlət seçilib - Azərbaycan. Seçimin əsas səbəbi məqalə müəllifinin bu ölkədən olması və tədqiqat materiallarına əlçatanlıq olub. Belə ki, Azərbaycan da digər Sovet dövlətləri kimi XX əsrin 20-30-cu illərində repressiyadan zərər çəkib. Qurbanların sayı haqqında Zeynalov "Totalitar sovet cəmiyyəti: tarixin ibrət dərsləri (Azərbaycan SSR XX əsrin 20-50-ci illərində)" kitabında qeyd edir ki, repressiyalar XX əsrin 20-ci illərindən başlansa da, 1937-ci ildən etibarən "konveyer üsulu"na keçmiş, yəni kütləviləşmiş və nəticədə sadəcə iki il ərzində SSRİ-də "böyük terror"un qurbanlarının sayı 5-7 milyon nəfər olmuşdur. Digər mənbədə Bünyadov yazır ki, 1937-1938-ci illərdə təxminən, 70-80 min Azərbaycan ziyalı nümayəndəsi məhv edildi... Hər bir xalq düşməninə məhkəmə zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı (tək-tək hallarda 20 dəq.).

Burada vacib bir məqamı qeyd etməliyik ki, qurbanların sayı haqda məlumatların hazırlanmasına XX yüzilliyin 80-ci illərinin sonunda başlanılmış və bu sahədə "Аргументы и факты" qəzetinin böyük rolu olmuşdur (Zeynalov, 2017). Lakin nəzərə almaq lazımdır ki, stalinizm həmin dövrdə öz cinayətlərini müxtəlif yollarla gizlədirdi. Sənədlərdə saxtalaşdırılmalara yol verilməsi, sürgün və ya repressiya olunanların qeydiyyatının düzgün və ya ümumiyyətlə aparılmaması repressiya qurbanlarının sayı haqqında dəqiq fikir söyləməkdə çətinlik yaradır (Qasımov, 2020).

Hadisələrin mətbuatda necə işıqlandırıldığını öyrənməkdə məqsədimiz 30-cu illərdə mətbuatın Azərbaycanın ictimai-siyasi həyatına ideoloji təsirini, mətbuat vasitəsilə cəmiyyətin necə nəzarətdə saxlanmasını və ictimai rəyin necə formalaşdırıldığını əhatəli şəkildə araşdırmaq, tarixi reallıqların mətbuatda necə təhrif olunduğunu aydınlaşdırmaqdır. Bu məqsədlə tədqiqat zamanı "Repressiya dövründə ictimai rəyin formalaşmasında mətbuatın rolu nədən ibarət idi?", "Repressiyalar mətbuat vasitəsilə cəmiyyətə necə təqdim olunurdu?", "Necə olur ki, bu qədər cinayətin baş verdiyi bir dövrdə xalq səssiz qalır?", "Xalqın baş verən faciənin miqyasından xəbəri yox idi, yoxsa baş verən hadisələri yeni sistemin "tələb"i kimi qəbul edirdi?" kimi suallara cavab axtarmağa çalışacağıq.

Tədqiqat sualları:

-Repressiya dövründə ictimai rəyin formalaşmasında mətbuatın rolu nədən ibarət idi?

-Mətbuat vasitəsilə təqdim olunan məlumatların cəmiyyətə ideoloji təsirləri nələr idi?

-Cəmiyyətin baş verən proseslər qarşısında səssiz qalmasının səbəbləri nələr idi?

Mətbuatın ictimai rəyə təsiri

Kütləvi informasiya vasitələri, xüsusilə media bütün dövrlərdə hansı mövzuların gündəm olacağını müəyyənləşdirən və ictimai rəyin formalaşdırılmasında rol oynayan ən təsirli siyasi güc hesab olunur. Cəmiyyət ancaq kütləvi kommunikasiya vasitələri ilə daxili əlaqəsini təmin etdiyinə görə kütləvi informasiya vasitələri üzərində nəzarət çox vaxt ictimai rəy üzərində hakimiyyət kimi qəbul edilir (Atabek, 2002).

Hətta bu, o qədər təsirli bir vasitədir ki, Elizabet Noel-Noyman "Səssizlik spiralı" nəzəriyyəsində media tərəfindən təbliğ olunan fikirlərin fərdlərin tənqidi fikirlərini necə boğa bildiyini göstərir. Noel-Noymana görə insanlar cəmiyyətdən təcrid olunmaqdan qorxduqları üçün öz düşüncələrini, seçimlərini və istəklərini ifadə edə bilmir, dəyişdirir və ya özlərini susmağa məcbur hiss edirlər. Alternativ baxışların səssizləşdirilməsi, digərlərinin isə daha çox danışmaq cəsarəti qazanması nəticəsində səssizlik spiral kimi yayılır. Hətta bəzən danışan azlığın yüksək səsi, susan çoxluğu üstələyə bilir. Nəticədə mediada tez-tez istifadə olunan fikirlər bir çox hallarda insanlar tərəfindən cəmiyyətin fikirləri kimi qəbul edilir.

Stalin dövründə müstəqil jurnalistikanın demək olar ki, aradan qalxması, mediaya sərt nəzarət mexanizmləri, "Pravda", "İzvestiya" və "Zarya Vostoka" kimi qəzetlərin bolşevik ideologiyasının rəsmi sözçüsü funksiyasını yerinə yetirməsi və səssizlik spiralı dövlət tərəfindən idarə olunan təbliğatla vəhdət təşkil edərək cəmiyyətin hadisələrə yanaşmasını yenidən formalaşdırırdı.

Psixoloq R.Mey "Özünü axtaran insan" kitabında qeyd edir ki, bir hökumət xalqın azadlığını əlindən almaq istəyəndə, ilk növbədə xalqın içindəki nifrəti üzə çıxarıb, bu nifrəti seçdikləri qrupa yönəldir və kollektiv düşmən obrazının yaradılmasına xidmət edən ideoloji kampaniyalarda mexanizm kimi istifadə edir. Əks halda insanlar ya üsyan edər, ya kütləvi şəkildə psixoz vəziyyətinə düşər, ya da psixoloji baxımdan "ölü" və cansız hala gələrək nə xalq, nə də əsgər kimi faydalı ola bilərlər. Repressiyalar dövründə bu nifrət cəmiyyətin içindən seçilən hədəflərə - "xalq düşmən"lərinə qarşı yönəldilmişdi. Azərbaycan SSR-də "Kommunist" və "Bakinski Raboçiy" kimi nəşrlər də mərkəzdən tapşırılan təlimatları dəqiq icra edərək "xalq düşmən"lərini ifşa edir, kütləvi həbs və güllələnmələrə haqq qazandırır, ictimai dəstək formalaşdırırdılar.

"Kommunist" qəzetinin hələ 1929-cu il yanvarın 18-də "Qolçomaqlar proletar məhkəməsi qarşısında", "Qolçomaqların qabağı alınır", "Fırıldağın qabağı alınmalı", "Üstü açılmalıdır" kimi başlıqlarla dərc olunan yazılarında varlı kəndlilər düşmən kimi təqdim olunur, qolçomaqların ictimai nüfuzu aşağı salınır, xalqı onlara qarşı düşmən edirdilər (Kommunist, 1929, № 2).

Şəkil 1. "Qolçomaqlar proletar məhkəməsi qarşısında"

Qolçomaklar proletar mahqamasi karşısında

Şəkil 2. "Qolçomaqların qabağı alınır", "Fırıldağın qabağı alınmalı"

Kolçomakların kabağı alınır

Fırıldağın kabağı alınmalı

Bu dövrdə "xalq düşməni" obrazı həm psixoloji, həm də ideoloji təzyiq vasitəsi olaraq təqdim edilirdi. İnqilabçılar, çarizmin dəhşətli işgəncələrinə məruz qalmış insanlar stalinizm rejimi qarşısında sarsılır, təslim olurdular. Onların təslim olmağının bir səbəbi yaşadıqları işgəncələrin psixoloji nəticələri idisə, digər səbəbi isə mənəvi cəhətdən sarsılmaları idi. Adamları xalqın adından "xalq düşməni" kimi ittiham edir, mənəvi cəhətdən sındırırdılar. Belə çıxırdı ki, onları Stalin yox, xalq ittiham edirdi. Bütün bunlara görə adamlar əyilir, sarsılırdılar. Hətta həbsxana divarları arasında məhv olanlar da bəzən "Stalin yoldaşa eşq olsun!" deyə qışqırırmışlar (Yaqubov, 1990).

1930-cu ilin fevralında keçirilmiş Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin sovet quruculuğu məsələlərinə həsr olunmuş müşavirəsində Ə.Qarayevin sözləri diqqət çəkir. O, qeyd edir ki, kənd ilə sıx bağlı olan qolçomağı sürgün etmək üçün onu kənddə təcrid etməyə, bir sinif kimi ləğv etməyə çalışmalıyıq. Kütlələri elə hazırlamalıyıq ki, qolçomaqlar yoxsul və ortabab kəndlilərin dayısı və ya əmisi olsa belə, onları sinfi düşmən kimi qəbul etsinlər (Cəfərov, 2008).

1930-cu il yanvarın 11-də "Pravda" qəzetinin "Qolçomaqları bir sinif kimi məhv etmək günün vacib məsələsidir" adlı dərc olunmuş baş məqaləsi kənddə repressiyaların geniş vüsət almasına səbəb olur. Məqalədə "qolçomağa həyat uğrunda yox, ölüm uğrunda müharibə elan etmək və nəticədə onu yer üzündən silmək" kimi fikirlərə geniş yer verilir (Страницы истории советского общества, факты, проблемы люди. М.: Политиздать, 1989 стр.242).

Şəkil 3. "Qolçomaqları bir sinif kimi məhv etmək günün vacib məsələsidir"

Цена номера 5 коп.
Всесоюзная Коммунистическая Партия (больш.).
ПРАВДА
Орган Центр. Ком. и Моск. Ком. ВКП (б)
МОСКВА, 9, Тверская, 48
В 1930 году ГАЗЕТА ВЫХОДИТ НЕПРЕРЫВНО.
Суббота, 11 января 1930 г., № 11 (4456).
Ликвидация кулачества как класса становится в порядок дня.
350 ТЫСЯЧ БЕЗРАБОТНЫХ В АВСТРИИ.
КОМПАРТИЯ ПРИЗЫВАЕТ ПРОЛЕТАРИАТ К БОРЬБЕ.

1930-cu il aprelin 3-də Stalin "Pravda" qəzetində "Kolxozçu yoldaşlara cavab" adlı məqaləsində qolçomaqların Sovet hakimiyyətinin düşməni olduğunu, onlarla sovet hakimiyyəti arasında sülh olmadığını, qolçomaqlar barəsində siyasətin onları bir sinif kimi ləğv etmək olduğunu yazırdı. Stalinin bu çağırışı ilə Azərbaycanda on minlərlə kəndli "qolçomaq" adı ilə həbs edildi, sürgün edildi, güllələndi.

Şəkil 4. "Kolxozçu yoldaşlara cavab"

ПРАВДА
Орган Центр. Ком. и Моск. Ком. ВКП(б)
НЕПРЕРЫВНО.
ОТВЕТ ТОВАРИЩАМ КОЛХОЗНИКАМ.

ÜİK(b)P Cənubi Qafqaz (Zaqafqaziya) Ölkə Komitəsinin birinci katibi Beriya 1934-cü il avqustun 19-da "Pravda" qəzetində böyük məqalə ilə çıxış edərək, orada Zaqafqaziya şəhərlərində, ilk növbədə Bakıda və Kirovabadda (Gəncədə) sosializmin düşmənlərinin, "əks-inqilabçıların", trotski-zinovyevçi qrupların ifşa edilməsi haqqında məlumat verirdi. Bu məqalədə irəli sürülən ideya əslində Azərbaycanda görkəmli, qabaqcıl partiya, hökumət, təsərrüfat və mədəniyyət, elm xadimlərini məhv etməyə bir çağırış idi (Zeynalov, 2017).

1936-cı il avqustun 19-da ÜİK(b)P Zaqafqaziya Diyar Komitəsinin birinci katibi L.Beriyanın "Pravda" qəzetində "Sosializm düşmənlərinin külünü göyə sovurmalı" adlı məqaləsi dərc olunmuşdu. Bu məqalə Azərbaycanda da görkəmli partiya, dövlət, elm və mədəniyyət xadimlərinə kütləvi divan tutulmasına, onların təmizlənməsinə çağırış idi.

Nəzərə almaq lazımdır ki, mətbuat yalnız "xalq düşmənləri"ni hədəfə almaqla kifayətlənmirdi. Kamran Əliyev 30-cu illərin qəzetlərində görkəmli şəxsiyyətlərin ölümləri ilə bağlı verilmiş yubiley materialları ilə əhalinin hər gün rastlaşdığı ölüm hökmləri arasında paralellər apararaq qeyd etmişdir ki, qəzetlər ölümə münasibəti adiləşdirir və bu vasitə ilə "ölüm" sözü adamların həyatına və nitqinə daha məhsuldar şəkildə daxil olurdu. Belə ki, 1937-ci ildə "Ədəbiyyat qəzeti" A.S.Puşkinin ölümünün 100, C.Cabbarlının ölümünün 2, M.Y.Lermontovun ölümünün 96, A.Bakıxanovun ölümünün 90 illiklərini təntənə ilə qeyd edirdi. Hətta maraqlıdır ki, bu dövrdə M.Ə.Sabirin anadan olmasının 75 illiyini qeyd etmək mümkün olduğu halda, məhz ölümünün 25 illiyi daha geniş təbliğ olunurdu (Qasımov, 2020).

Donosların sosial davranışa çevrilməsi

1934-cü ildə Kirovun öldürülməsindən sonra vəziyyət daha da ciddiləşir. Ali təhsil ocaqlarında divarlara yapışdırılan plakatlarda "sinfi düşmənlər hələ də aramızda gizlənə bilmişdir" kimi fikirlər yazılırdı. Bunun nəticəsi olaraq hamı bir-birindən şübhələnməyə, uzaq qaçmağa başlayırdı. R.Meyin də qeyd etdiyi kimi cəmiyyətin qarışıqlıq dövrlərində insanlar "köksüzlük" problemi yaşayır və "suda boğulan saman çöpündən yapışar" məntiqi ilə özlərini təhlükəsiz hiss etmək üçün hakimiyyətə və mövcud qurumlara sığınmağa meyilli olurlar. Bu dövrdə insanlar donoslardan həm rəqib gördüklərini, sevmədiklərini vurmaq, həm özlərini sığortalamaq, mümkün təqiblərdən yaxa qurtarmaq üçün istifadə edirdilər. Həmçinin cəmiyyətdə aparılan təbliğatlar da donosların geniş yayılmasına ciddi təsir göstərirdi. Belə ki, özlərini cəmiyyətin tərəfkeşi, dəstəkçisi kimi göstərən donosçuların bir çoxunun təhlükəsizlik orqanlarına göndərdiyi məktublar məlumat verməkdən daha çox ittiham aktı olmuşdur (Qasımov, 2020).

1937-ci ilin mayında keçirilmiş XXII Bakı Partiya konfransının tribunasından Bağırov bir sıra partiya və hökumət rəhbərlərinin "ideyaca darmadağın edilməsi" üçün hücuma keçərək onları "burjua millətçiliyində günahlandırırdı". Beləliklə, 1937-ci ildə Azərbaycanda vicdanlı, təcrübəli, görkəmli kadrlara, elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı böhtançı ərizələrin toplanması kampaniyası başlamışdı. Bu böhtançı ərizələr əsasında 70 mindən çox adam sürgün edilmiş, 3-4 min kəndli isə məhv edilmişdir. Təkcə 1937-ci ildə Azərbaycanda "xalq düşməni" kimi 29 min nəfər güllələnmişdi (Azərbaycan tarixi VII cild, 2000).

Bu dövrdə Azərbaycan Moskvaya ən çox donos göndərən regionlardan biri idi. Donoslar o qədər geniş yayılmışdı ki, yalnız Azərbaycan prokurorluq orqanları 1937-ci ildə 68.035 şikayət məktubu almış və 20.000 insanın işini məhkəməyə göndərmişdi. On minlərlə insan formal hüquq prosedurlarına riayət edilmədən ölümə və ya həbs düşərgələrinə məhkum olunmuşdu (Баберовски, "Враг есть везде. Сталинизм на Кавказе" p.788).

1938-ci il aprelin sonunda Bağırov Molotovdan rəsmi məktub almışdı. Həmin məktubda yalnız 1937-ci ilin ikinci yarısında Azərbaycandan 1477, 1938-ci ilin ilk üç ayında isə 699 şikayət məktubunun alındığı yazılmışdı (Баберовски, "Враг есть везде. Сталинизм на Кавказе" p.787) Molotov Bakıya göndərdiyi məktubda istehza ilə Azərbaycanda ayrıca donos nazirliyinin fəaliyyət göstərib, göstərmədiyini soruşurdu (S.İsayev).

Azərbaycan prokurorluğu Molotovun tələbindən sonra ona hesabat verirdi ki, 1938-ci ilin birinci ayında 15.000 əsassız həbs olunmuş insan həbsdən azad edilib, yüzlərlə donosçu isə bunun əksinə həbs olunub (Баберовски, "Враг есть везде. Сталинизм на Кавказе" p.789)

15 noyabr 1938-ci ildə SSRİ Xalq Komissarları Sovetinin və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin direktivi ilə "üçlük"lərin fəaliyyətinə xitam verildi. 17 noyabr tarixli "Həbslər, prokuror nəzarəti və istintaqın aparılması haqqında" qərarla isə kütləvi həbslərin və sürgünlərin dayandırılmasına siqnal verildi. Ölkənin qüdrətini və Stalinin nüfuzunu təhlükə altında qoyan "Böyük təmizləmə" başladığı kimi mərkəzləşdirilmiş şəkildə də başa çatdırıldı.

Nəticə

Müasir dövrdə ölkələrin avtoritar təzyiqlərdən qurtulması, həmçinin texnologiyanın inkişafı ilə bir çox mənbələrin əlçatan olması tarixi proseslərin yenidən

araşdırılması, obyektiv qiymətləndirilməsi və müasir yanaşmaların formalaşması üçün geniş imkanlar yaradır. Baş verən tarixi hadisələrin, xüsusilə repressiya nümunəsində, cəmiyyətə fərqli təqdim olunması, cəmiyyətin manipulyasiya edilərək mövcud olmayan "real"lığa inandırılması, bir çox hallarda etdiklərinin doğru olduğuna inandırılması faciənin miqyasını daha da genişləndirmişdir.

Sözsüz ki, repressiyanın baş verməsinin təkcə ictimai rəydən və ya cəmiyyətin reaksiyasından asılı olduğunu düşünmək doğru olmazdı. Mövcud sistem repressiyaların baş verməsini qaçınılmaz edirdi. Amma cəmiyyətin təbliğatlar vasitəsilə idarəolunması nəticəsində formalaşan ictimai rəy "xalq düşmən"lərinə olan mənfi münasibətə, repressiya qurbanlarının sayının artmasına, milli dəyərlərə yanaşmanın dəyişməsinə, milli kimlik məsələsinin zədələnməsinə səbəb oldu. Nəticədə, ictimai rəy, ictimai rəyin formalaşdırılmasında xüsusilə mətbuatın oynadığı rol tarixi proseslərin gedişatına birbaşa təsir göstərdi və repressiyanın miqyasını daha da genişləndirdi.

ƏDƏBİYYAT SİYAHISI

1. "Kommunist" qəzeti
2. "Pravda" qəzeti. (n.d.). Электронная библиотека. https://electro.nekrasovka.ru/books/6303632
3. Aplebaum, A. (2004). Gulag: A history. Anchor Books.
4. Atabek, N. (2002). Kamuoyu: Basında kamuoyu araştırmaları. Kurgu Dergisi, (19), 223–238.
5. Atay, O. (2022, January). Sovyetler Birliği'nde uygulanan kolektivizasyon politikaları ve repressiya döneminde Azerbaycan basını (1930–1939). Iğdır Üniversitesi Sosyal Bilimler Dergisi
6. Azərbaycan tarixi. (2000). Cild VII.
7. Bünyadov, Z. (2017). Qırmızı terror.
8. Cəfərov, C. (2008). Azərbaycan kəndi kollektivləşdirmə illərində: 1920-ci illərin sonu–30-cu illər.
9. Conquest, R. (1968). The great terror. Oxford University Press.
10. Həsənov, C. (1989, July 14). Kollektivləşmə və tarixi həqiqət. Ədəbiyyat və incəsənət, (28/2371).
11. İbişov, F. (1996). Azərbaycan kəndində sosial-siyasi proseslər (1920–1930).
12. İsayev S. Azərbaycanda Böyük Terror və Bağırovun rolu. Baku Research Institute. https://bakuresearchinstitute.org/azerbaycanda-boyuk-terror-ve-bagirovun-rolu-2/
13. İsmayılov, E. (2015). Azərbaycanda "böyük terror"un tarixi.
14. Qasımov, C. (2020). Siyasi repressiya: həyatda və ədəbiyyatda.
15. May, R. (2022). Kendini arayan insan.
16. Noelle-Neumann, E. (1984). The spiral of silence. University of Chicago Press.
17. Yaqubov, N. (1990). Ağrılı ömürlər.
18. Zeynalov, İ. (2017). Totalitar sovet cəmiyyəti: Tarixin ibrət dərsləri (Azərbaycan SSR XX əsrin 20–50-ci illərində).
19. Баберовски, "Враг есть везде. Сталинизм на Кавказе"
20. Страницы истории советского общества, факты, проблемы люди. М.: Политиздать, 1989.

DOİ: 10.32010/CXZF7362

İRAQDA 1991-Cİ İL ŞİƏ ÜSYANI VƏ SƏBƏBLƏRİ

Nərgiz Musa QAFARLI
Bakı Dövlət Universitetinin doktorantı
Orcid: https://orcid.org/0009-0004-8225-8976
E-mail: qafarli18@bk.ru

Xülasə. 1991-ci ildə Körfəz müharibəsinin başa çatmasından sonra İraqda iki böyük üsyan baş verdi. Kürd üsyanı həm ictimaiyyət, həm akademik dairələr, həm də siyasətçilər arasında geniş diqqət (və dəstək) qazandı. Lakin cənubda baş verən şiə üsyanı bu qədər diqqət görmədi və əlbəttə, daha az dəstək aldı. Hər iki hərəkatın nəticələri də ciddi şəkildə fərqləndi; kürdlər tam uğur qazanmasalar da, müəyyən dərəcədə muxtariyyət əldə etməyə nail oldular. Digər tərəfdən, cənubdakı şiə üsyanı isə amansızcasına yatırıldı. Bu məqalədə şiə üsyanı zamanı baş verən hadisələr, bu hərəkatın tarixi səbəbləri araşdırılır. Bu üsyan xalq narazılığının iqtisadi, sosial və siyasi köklərini göstərir. İraqdakı şiə əhali nisbi yoxsulluqla yanaşı, bir çox hallarda mütləq yoxsulluq şəraitində yaşayırdı. Şiələrin baxış bucağından yanaşsaq, bu üsyan "rasional seçim" nəticəsi kimi də qiymətləndirilə bilərdi – onların gələcəyini təmin etmək üçün ən doğru seçim rejimə qarşı çıxmaq idi. Nə qədər zəifləmiş olsa da, şiələr arasında nisbətən möhkəm bir ictimai birlik mövcud idi ki, bu da inqilabi təşkilatlanma üçün baza rolunu oynayırdı. İraqda şiələrin narazılığı azlıq tərəfindən idarə olunan bir çoxluğun etirazı kimi qiymətləndirilə bilər. İraqda ərəb şiələr əhalinin təxminən 54 faizindən çoxunu təşkil edirlər. Şiələr həm başqaları tərəfindən, həm də özləri tərəfindən fərqli və ayrıca bir qrup kimi qəbul olunurlar. İraqdakı şiələr əhalinin əksəriyyətini təşkil etsələr də, tarix boyu idarəçilikdən də kənarda qalmışdılar. İstər Osmanlı idarəçiliyi dövründə, istər ingilis mandat rejimi zamanı, istərsə də müstəqil İraq dövləti yarananda sonra şiələr istədikləri hüquqları ala bilmədilər, buna görə də zaman-zaman hakimiyyətə qarşı öz etirazlarını bildirdilər və bu etirazların kulminasiya nöqtəsi 1991-ci ildə baş verən böyük şiə üsyanı olmuşdur.
Açar sözlər: İraq, şiə müxalifəti, üləma, Səddam Hüseyn, Bəəs partiyası

THE 1991 SHIA UPRISING IN IRAQ AND ITS CAUSES

Nargiz Musa GAFARLI
PhD student at Baku State University
Orcid: https://orcid.org/0009-0004-8225-8976
E-mail: qafarli18@bk.ru

Abstract. Following the end of the Gulf War in 1991, two major uprisings broke out in Iraq. The Kurdish uprising received widespread attention and support from the public, academia, and policymakers alike. However, the Shia uprising in the south did not receive nearly as much attention or support. The outcomes of the two movements also differed significantly: although the Kurds did not achieve full success, they did manage to secure a degree of autonomy. On the other hand, the Shia uprising in the south was brutally suppressed. This article explores the events that occurred during the Shia uprising and investigates the historical causes behind the movement. The uprising reveals the deep-rooted economic, social, and political grievances of the population. The Shia community in Iraq was living under conditions of relative—and in many cases, absolute—poverty. From the Shia perspective, rebellion against the regime could be considered a "rational choice"—the best possible path for securing their future. Despite their marginalization, the Shia retained a relatively cohesive social structure, which provided a foundation for revolutionary organization. The discontent of the Shia in Iraq can be interpreted as the protest of a majority ruled by a minority. Arab Shia constitute more than 54% of Iraq's population. Although Shia are recognized by others—and see themselves—as a distinct and separate group, they have historically remained excluded from governance. Whether under Ottoman rule, the British Mandate, or after the establishment of an independent Iraqi state, the Shia have been unable to obtain the rights they sought. As a result, they repeatedly expressed their discontent with the ruling authorities, culminating in the major Shia uprising of 1991.
Keywords: Iraq, Shia opposition, ulama, Saddam Hussein, Ba'ath Party

---

ШИИТСКОЕ ВОССТАНИЕ В ИРАКЕ В 1991 ГОДУ И ЕГО ПРИЧИНЫ

Наргиз Муса ГАФАРЛИ
Аспирант Бакинского государственного университета
Orcid: https://orcid.org/0009-0004-8225-8976
Электронная почта**:** qafarli18@bk.ru

Аннотация. После окончания войны в Персидском заливе в 1991 году в Ираке вспыхнули два крупных восстания. Курдское восстание привлекло широкое внимание и получило поддержку со стороны общественности, научных кругов и политиков. Однако шиитское восстание на юге страны не получило ни такого внимания, ни аналогичной поддержки. Результаты этих двух движений также значительно различались: хотя курды и не добились полной победы, им удалось получить определённую степень автономии. С другой стороны, шиитское восстание на юге было жестоко подавлено. В данной статье рассматриваются события, произошедшие во время шиитского восстания, а также исследуются исторические причины этого движения. Восстание выявило глубокие экономические, социальные и политические проблемы, вызывающие недовольство населения. Шиитское сообщество в Ираке жило в условиях относительной, а во многих случаях — и абсолютной нищеты. С точки зрения самих шиитов, восстание против режима могло рассматриваться как «рациональный выбор» — наилучший способ обеспечить своё будущее. Несмотря на маргинализацию, шииты сохраняли относительное общественное единство, которое стало основой для революционной организации. Недовольство шиитов в Ираке можно интерпретировать как протест большинства, управляемого меньшинством. Арабские шииты составляют более 54% населения Ирака. Хотя шииты признаются другими — и сами себя воспринимают — как отдельная и отличающаяся группа, они на протяжении всей истории оставались исключёнными из системы управления. Будь то в период османского правления, в годы британского мандата или после создания независимого иракского государства, шииты так и не смогли добиться желаемых прав. В результате они неоднократно выражали своё недовольство властями, кульминацией чего стало крупное шиитское восстание 1991 года.
Ключевые слова: Ирак, шиитская оппозиция, улемы, Саддам Хусейн, партия Баас

Giriş

XIX əsrdə İranda olan tərəfdarlarının iqtisadi dəstəyi sayəsində İraqdakı iranlı dini fiqurlar şiələrin yaşadığı cənubi İraqın dirçəlməsində mühüm rol oynamışdılar. Bu, xüsusilə də Kərbəla və Nəcəf kimi iki əsas müqəddəs şəhər üçün keçərli idi. Hər iki şəhər təkcə dini baxımdan yox, həm də iqtisadi cəhətdən ətraf bölgələr üçün mərkəzə çevrilmişdi. Bununla yanaşı, İranda dini qurumlarla bağlı baş verən hadisələr İraqdakı şiələrə də təsir göstərməkdə davam edirdi. İran Məşrutə İnqilabı İraqda alimlərin siyasi fəallığının artmasına səbəb oldu. XX əsrin əvvəllərində İraq üləmaları xüsusilə İslam ölkələrinə qarşı xarici müdaxilələrə qarşı cihad çağırışlarında fəal olmuşdular.(Cline, 2000, s.45) Bu fəallıq 1920-ci ildə baş verən Britaniyaya qarşı üsyanda öz kulminasiya nöqtəsinə çatmışdı. Bu üsyanda həm şiə, həm də sünni alimlər fəal şəkildə iştirak etmişdilər.

Müasir İraq dövləti qurulduqdan sonra şiə üləmalarının nüfuzu tədricən azalmağa başladı. Bu, bir qədər də İraqda ali dini liderin kim olacağı ilə bağlı yaşanan mübahisələrlə əlaqəli idi. Üləmalar siyasi fəallıqlarını davam etdirsələr də, bu fəaliyyətlər ümumilikdə nəticəsiz qaldı. Onların ardıcıl siyasi uğursuzluqları həm hökumətlə münasibətlərini pisləşdirdi, həm də siyasi baxımdan zəif olduqlarını göstərdi. Hökumət də buna cavab olaraq 1920-ci illərdə bir sıra iranlı dini liderləri ölkədən çıxartdı ki, bu da dini təbəqə içərisində parçalanmalara və zəifliklərə səbəb oldu. Bunun nəticəsində tayfa liderləri dini liderlərə nisbətən daha çox əhəmiyyət qazandılar və müqəddəs şəhərlərin (Kərbəla və Nəcəf) İraq siyasətindəki rolu azaldı. Eyni zamanda iqtisadi məsələlər də üləmaların zəifləməsində mühüm rol oynadı. İranla müqayisədə İraqda dini mülklər və vəqflər həm miqyas, həm də dəyər baxımından daha zəif idi. 1920-1930-cu illərdə şiə dini vəqfləri getdikcə hökumətin nəzarətinə keçdi və üləmaların nəzarətindən çıxdı.(Cline, 2000, s.47) Bəlkə də daha vacibi odur ki, İraqda üləmaları dəstəkləyəcək güclü şiə tacir sinfi formalaşmamışdı. XIX əsrdə İraq iqtisadiyyatı əsasən tranzit ticarətinə əsaslanırdı və ölkəyə ciddi iqtisadi fayda gətirmirdi. Ümumiyyətlə, İraqdakı tacirlər çox da zəngin deyildilər. Üstəlik, İraqda əsas tacir sinfi tarixi olaraq şiələrdən ibarət deyildi. 1938-1939-cu illərdə Bağdad Ticarət Palatasının statistikalarına əsasən, İraqdakı ən mühüm tacir qrupu yəhudilər idi, şiə tacirlər isə xeyli azlıq təşkil edirdi. İsrailin yaranması ilə 1940-cı illərin sonlarında yəhudi tacirlərin rolu azalsa da, onların yerini əsasən sünni iraqlılar doldurdu. Təbii ki, bəzi tanınmış şiə tacirlər var idi, lakin əsas məsələ ondadır ki, İraqda tacir sinfi müstəqil bir güc kimi formalaşmamışdı və İranla müqayisədə hökumət qarşısında daha zəif idi. Dini

qurumlar iqtisadi və siyasi dəstək üçün müstəqil şiə tacir sinfinə güvənə bilmirdilər. Elə bir sübut da yoxdur ki, şiə tacirləri ilə üləmalar arasında ortaq maraqlar var idi və ya tacirlər ulamalara ciddi dəstək göstərirdilər. Nəticədə, bir çox yüksək səviyyəli İraq müctəhidləri (dini liderlər) xaricdən, xüsusilə İrandan maddi dəstək almağa məcbur qalırdılar ki, bu dəstək də daim sabit olmurdu. 1930-cu illərdə bəzi şiə tayfalarının ayaqlanması hadisələri baş versə də, ümumilikdə üləmalar 1930-cu illərdən 1950-ci illərin əvvəllərinə qədər sakit davranırdılar. Bu tendensiya İranın Qum şəhərində yaşayan ali müctəhid Məhəmməd Burucirdinin 1950-ci ildə verdiyi qərarla daha da gücləndi. O, bütün şiə üləmalarının siyasi fəaliyyətdə iştirakını qadağan etdi və siyasətlə məşğul olanları dini cəhətdən təcrid etməklə hədələdi. Lakin bu dövrdə həm şiə əhalisini, həm də üləmaları narahat edən mühüm bir məsələ – İraq Kommunist Partiyasının (İKP) yüksəlişi ortaya çıxdı. Bir çox şiənin aşağı sosial-iqtisadi təbəqəyə aid olması, onları üləmaların zəif səfərbərlik səylərinə baxmayaraq, İKP-yə meylləndirdi. İKP ümumilikdə şiələrdən ibarət olmasa da, xüsusilə aşağı təbəqələrə mənsub şiələr partiyada geniş şəkildə təmsil olunurdular. İKP fəalları Bağdada köç edən şiələr arasında ideoloji təbliğat üçün ciddi vaxt və səy sərf edirdilər. Üləmalar açıq şəkildə kommunist partiyanın yüksəlişini Britaniya təsirində olan hökumətin hərəkətlərindən daha ciddi bir təhlükə kimi görürdülər. Üləmalar, legitimliyi şübhə altında olan bir hökumətlə belə əməkdaşlıq etməyə hazır idilər, əgər bu, daha böyük bir düşmən olan kommunizmə qarşı mübarizəyə xidmət edirdisə.

Monarxiyanın devrilməsi və 1958-ci ildə ordu zabiti Əbdül Kərim Qasimin hakimiyyətə gəlməsi, şiələrin anti-kommunist hərəkatını və hökumət əleyhinə tendensiyalarını birləşdirdi. Qasim, öz hakimiyyətini möhkəmləndirmək üçün İKP-dən istifadə etdi və kommunistlərin hökumətə təsiri əhəmiyyətli dərəcədə artdı. Artıq yalnız kommunistlərə qarşı deyil, həm də hökumətə qarşı ittihamlar səsləndirilirdi. Qasim rejimi, əslində, şiələrin bir sıra ehtiyaclarını qarşılamağa çalışırdı – məsələn, Kərbəlada ucuz mənzillərin tikintisi və su sisteminin yenilənməsi, cənub bölgələrində yeni yolların çəkilməsi və şiələrin hökumət və ordu daxilində təşviqi. Buna baxmayaraq, üləmalar hökumətə İKP-nin gücünü azaltmaq üçün təzyiqləri davam etdirdilər. Bu təzyiqlər, bir-birinin ardınca verilən dini fətvalarla müşayiət olunurdu. Bu fətvalarda kommunizmə inanmaq "ən böyük günahlardan biri" kimi qiymətləndirilirdi; kommunist müsəlmanların ibadətlərinin Allah tərəfindən qəbul olunmayacağı deyilir; kommunist qəssabdan ət almaq və bir müsəlman atasından olan kommunistin irs alması qadağan edilirdi. Üləmaların təzyiqi nəticəsində Qasim İKP-yə verdiyi dəstəyin böyük hissəsini geri çəkdi. Nəticədə, əsasən sünni bölgələrdə olan "bir neçə min" kommunist partiya üzvü və tərəfdarı öldürüldü və ya qaçmağa məcbur oldu.(Wiley, 1992, s.10)

1963-cü ildə Qasim rejimi hərbi zabitlər və Bəəs Partiyası tərəfindən təşkil olunan çevrilişlə devrildi. Çevrilişə cavab olaraq çoxsaylı İKP üzvləri və tərəfdarları küçələrə çıxdılar. Yeni hökumət "kommunist" sayılanlara qarşı hücumlar həyata keçirdi – təxminən 10,000 nəfər həbs edildi və bir çoxu edam olundu. Şiə ruhaniləri bu anti-kommunist tədbirlərdə fəal iştirak etdilər və "kommunist" müqavimətini yatırmaqda hökumətə yardım etdilər. Yeni hökumət isə uzunömürlü olmadı və 1963-cü ilin noyabrında ərəb milliyyətçisi ordu zabitləri tərəfindən devrildi. 1963–1968-ci illər arasında İraqa Əbdülsəlam Arif, onun ölümündən sonra isə qardaşı Əbdürrəhman Arif rəhbərlik etdi. Bu rejim özəl müəssisələrin geniş miqyaslı milliləşdirilməsini həyata keçirdi. Bu, şiə üləmalarının ciddi narazılığına səbəb oldu – həm İslam prinsiplərinə görə, həm də ona görə ki, milliləşdirilən bir çox müəssisələr şiələrə məxsus idi və onlar şiə dini qurumlarına maddi dəstək verirdilər. Bu milliləşdirmə nəticəsində üləmalar daha bir mühüm maliyyə mənbəyini itirdilər. 1968-ci ilin iyulunda Bəəsçilər yenidən hakimiyyəti ələ keçirdilər və Əhməd Həsən əl-Bəkr prezident oldu. Qısa müddət ərzində isə Səddam Hüseyn rejimdə əsas güc mərkəzinə çevrildi, baxmayaraq ki, 1979-cu ilə qədər rəsmi olaraq prezident olmadı. Bəəs rejimi faktiki olaraq başlanğıcından etibarən şiə dini qurumları ilə açıq qarşıdurma içində idi. Hökumətin konkret addımları daha sonra daha ətraflı izah olunacaq, lakin burada önəmli məqam budur ki, hökumət şiələrin mümkün üsyanlarını yatırmaq üçün aqressiv və sərt tədbirlər gördü. Bu isə bəlkə də üsyanı yatırmaqdan çox, müqaviməti təşviq etdi. Hökumətin şiələrə qarşı birbaşa tədbirlərindən əlavə, Bəəs rejimi ümumilikdə dini şiələr və üləmalar üçün daha geniş bir təhlükə idi. Rejim ölkəni sekulyarlaşdırmaq (dünyəviləşdirmək) siyasətini güclü şəkildə vurğulayırdı.1980-1988-ci illəri əhatə edən İran-İraq müharibəsi illərində isə şiə üləmalarının bir hissəsi İrana gedərək orda İraq İslam İnqilabi üzrə Ali Şurasını yaratdı, lakin üləmaların əksəriyyəti İraqda qalaraq sakit mövqe tutdular. Ümumiyyətlə şiələr müharibə illərində əsasən vətənpərvər mövqe nümayiş etdirdilər. Şiə müqaviməti Körfəzi Müharibəsinin sonundan etibarən ən intensiv formasını aldı, əslində Tehran mərkəzli üsyan rəhbərliyi qrupu olan İslam İnqilabı üzrə Ali Şuranın uğurlu bir Şiə üsyanı üçün strateji planı "böhran zamanı ardıcıl siyasi nümayişlər seriyası"ndan ibarət idi.(Fischer,1980, s.50)

Bundan sonra əhalinin rejimə qarşı birləşdirilməsi və ordunun müxalifət tərəfinə çəkilməsi nəzərdə tutulurdu; yalnız bu mərhələlərdən sonra silahlı üsyan baş verməli idi. Lakin Körfəz Müharibəsi dövründə və dərhal ondan sonra baş verən hadisələrin sürətli gedişatı bu strategiyanı qüvvədən saldı. Küveyt ərazisinə hücum edən İraq qüvvələrinin – Respublika Qvardiyası bölmələri istisna olmaqla – demək olar ki, hamısı Koalisiya qüvvələrinin hava və quru hücumları qarşısında dağıldı. İraq hərbi qüvvələri arasında vahidlik və nizam-intizam demək olar ki, tamamilə məhv oldu.

1991-ci ilin fevral ayının sonuna qədər cənubi iraqlılar, darmadağın olmuş bir İraq ordusunu və "üfüqün o tərəfində" duran, sayca və texnoloji baxımdan üstün Koalisiya qüvvələrini müşahidə etdilər.(Louer, 2012, s.30) Cənub bölgəsində sanki bir hakimiyyət boşluğu yaranmışdı və bu mart ayında şiələrin əhalinin əksəriyyətini təşkil etdiyi bölgələrdə silahlı üsyanın baş verməsinə təkan verdi. Əslində 1991-ci il mart üsyanı şiə mərcəiyyətin də hazırlıqsız yaxalamışdı, bu da yeni alovlanan üsyanın xaotik gedişində özünü göstərəcəkdi. Əsas çıxışlar ilk olaraq 2 mart tarixində Bəsrədə başladı.(Khadduri, 1995, s.75) Məlumatlara görə, Bəsrə ətrafındakı toqquşmalara əsasən geri çəkilən əsgərlər rəhbərlik edirdi və bölgədəki demək olar ki, bütün əsgərlər üsyana qoşulmuşdu. Dezerterlər də bu prosesdə əhəmiyyətli rol oynamışdılar. Döyüşlər şəhərdən-şəhərə sürətlə, lakin əlaqəsiz şəkildə yayıldı. 5 mart tarixinə qədər cənubi İraqda ondan çox şəhərin üsyançıların nəzarətində olduğu bildirilirdi. 7 martda vəziyyət o qədər ciddiləşdi ki, rejim ictimai şəkildə narazılıqları etiraf etdi. Hökumətin narahatlığını daha da göstərən bir addım olaraq, Səddam Hüseyn daxili təhlükəsizlik orqanlarının rəhbəri vəzifəsinə əmisi oğlunu təyin etdi və ölkədəki demək olar ki, bütün xarici jurnalistləri çıxardı. Ölkənin həm şimalına, həm də cənubuna qalan Respublika Qvardiyası bölmələri göndərildi və paytaxt Bağdadda da ictimai təhlükəsizlik tədbirlərinin gücləndirildiyi bildirildi. Bəzi şiddətli döyüşlərə baxmayaraq, hökumət cənubdakı üsyanı nisbətən tez bir zamanda yatırmağa nail oldu. 16 mart tarixində Səddam Hüseyn, vəziyyətin nəzarətdə olduğunu düşünərək, İraq ictimaiyyətinə müraciət etdi və əvvəlki qarışıqlığın miqyasını dolayı yolla təsdiq edərək onu "kin dolu xəyanətkar sürüləri" və "doğru yoldan azmış dəstələr"in fəaliyyəti kimi təqdim etdi. Hökumət mediası rejimin sabitliyinə olan inamı əks etdirərək, həm şahidlərin, həm də üsyanda iştirak edənlərin "qətl, qarət, oğurluq və binaların, maşınların və hökumət qurumlarının yandırılması" barədə "müsahibələrini" yayımladı. 28 mart tarixinə qədər hökumət cənubda üsyançıların nəzarətində olan bütün şəhərləri geri almışdı. 30 martda isə vəziyyətin kifayət qədər sakitləşdiyinə inanaraq, Respublika Qvardiyasının bölmələrini şimala – kürd üsyanına cavab vermək üçün – köçürməyə başladığı bildirilirdi. Döyüşlər hər iki tərəfin böyük qəddarlığı ilə yadda qaldı. Qərb mediasının əsas diqqəti hökumət qüvvələrinin törətdiyi vəhşiliklərə yönəlsə də, üsyançıların bir qismi öz paylarına düşən vəhşilikləri törətmişdilər. Üsyançıların bu hərəkətləri o qədər həddini aşmışdı ki, müxalifətlə əlaqəli olan yüksək rütbəli bir İraq ruhani alimi daha insani davranış və lüzumsuz qətllərə son qoyulması üçün fətva (dini hökm) vermişdi. Hökumət qüvvələri isə üsyançılardan heç də az, bəlkə də daha qəddar davranmışdılar. Üsyançı və mülki vətəndaşlara qarşı çoxsaylı kütləvi edamlar və vəhşiliklər barədə məlumatlar yayılmışdı. (Tripp, 2007, s.60) Bu bölgədəki xaotik vəziyyət səbəbilə, üsyançıların sayı və ümumi itkilərlə bağlı rəqəmlər çox fərqlidir. Bəzi mənbələrə görə, yalnız Kərbəla şəhəri ətrafında 50,000-ə yaxın üsyançı mövcud idi. Müxalifət nümayəndəsi isə rejimə qarşı döyüşən döyüşçülərin sayının 125,000-ə qədər olduğunu iddia etmişdi. İraq İslam İnqilabı üzrə Ali Şura üsyan başladıqdan sonra İrandan İraqa "bir neçə min" əsgər göndərmişdi. Lakin onların iştirakı döyüşlərin nəticəsinə ciddi təsir etməmişdi. Üsyançı qüvvələrin dəqiq sayı məlum olmasa da, iğtişaşların çox geniş yayıldığı aydın görünürdü. Döyüşlərdə ölənlərin sayı da qeyri-müəyyən olaraq qalır. Bölgəni hadisələrdən qısa müddət sonra gəzmiş bir ərəb həkimi 50,000–60,000 nəfərin həlak olduğunu təxmin etmişdi. Qarışıqlığın bir göstəricisi də döyüşlərdən sonra İrana üz tutan iraqlı qaçqınların yüksək sayı idi. Aprelin əvvəlində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı İranda, əsasən cənub bölgələrindən gəlmiş, 50,000 iraqlı qaçqını rəsmi olaraq qeydiyyata almışdı. Ölkə daxilində yerindən didərgin düşmüş iraqlıların sayı isə yəqin ki, bundan da çox idi. Digər tərəfdən, üsyanın gedişi zamanı İraq daxilində ən mühüm rol oynayan üləma ayətullah əl-Xoyi idi. Ayətullah əl-Xoyi üsyan zamanı şiə icması arasında həm mənəvi lider, həm də siyasi-strateji təsir göstərən bir fiqur idi. O, üsyan baş verəndə "müsəlmanların torpağını qorumaq", "müqəddəs yerləri müdafiə etmək", insanların əmlak və hörmətinin, dövlət institutlarının qorunması kimi dini və əxlaqi prinsipləri vurğulayan bəyanatlar vermişdir. Xoyi üsyanın mənəvi-ideoloji rəhbərliyi ilə yanaşı, strateji istiqamətləndirilməsini də həyata keçirirdi. O, şiə bölgələrində yerli idarəetmə strukturlarının yaradılmasını təşviq etmiş, bölgə xalqı arasında "Ümumi Müqəddəs Komitə" kimi bir orqanın formalaşdırılmasını dəstəkləmişdir. Bu komitələr üsyan epizodlarında ictimai, dini və sosial qaydaların qorunması məqsədi daşıyırdı. Xoyi xalqı təşviq edirdi

ki, üsyanın nəticəsində intiqam, zorakılıq və yağma halları baş verməsin. O, şiələrdən islahat, qanunun aliliyi və bütün İraq xalqı arasında ədalətin təmin edilməsini tələb etmişdir.

Üsyan yatırıldıqdan sonra, Bağdad rejimi tərəfindən Xoyi və ailə üzvləri, tələbələri, tərəfdarları həbs edilmişdir.(Naksh, 1994, s.223). Bu üsyan zaman yaranan qarışıqların əsas səbəblərindən biri bu idi ki, İraq müxalifətinin əvvəlki (və sonrakı) birləşmə cəhdlərinə baxmayaraq, üsyan zamanı şiə rəhbərliyi və üsyançılar yalnız şiələrə aid məqsədləri gündəmə gətirmişdilər. Üsyan zamanı ən çox səslənən şüar "Cəfəri (şiə) hakimiyyəti" olmuşdu. Üstəlik, İraq İslam İnqilabı üzrə Ali Şurası üsyanın başlanmasından xeyli sonra prosesə rəhbərlik etməyə başladıqda, onların hərbi komandanlığı belə bir əmr vermişdi: "Bütün üsyançı qüvvələr şuranın əmrlərinə tabe olmalı və yalnız doğru islam ideyaları yayılmalıdır…" Bununla yanaşı, şübhəli Bəəs Partiyası üzvlərinin və əməkdaşların geniş miqyaslı edamları, şiələrin yalnız şiə hökuməti çağırışları potensial qeyri-şiə müttəfiqlərlə əməkdaşlıq imkanlarını məhdudlaşdırdı. Daha da əhəmiyyətlisi, effektiv planlaşdırma və liderliyin olmaması üsyançı fəaliyyətin Bağdada yayılmasına imkan vermədi. Bağdaddakı bəzi şiə bölgələrində kiçikmiqyaslı narazılıqlar qeydə alınsa da, rejim bunları asanlıqla nəzarət altına aldı. Bütün bunlara baxmayaraq 1991-ci il üsyanı tək bir hadisə kimi qiymətləndirilməməlidir. Bu, İraqdakı şiə narazılıqlarının uzun tarixinin zirvə nöqtəsi idi.

Əvvəlki çıxışlar ilə müqayisədə 1991-ci ildə şiə üsyanının daha genişmiqyaslı olmasının bir neçə səbəbi var idi. İlk növbədə, 1991-ci ildə İraq ordusunun son dərəcə qısa müddət ərzində demək olar ki, tamamilə dağılması rejimin müxalifəti boğmaq gücünün qalmadığı təəssüratını yaratmış ola bilər. Ən azı, ordunun bu qədər nizamsız vəziyyətdə olması üsyanın qarşısını almaq üçün rejimin vaxt itirməsinə səbəb olmuş və bu da üsyançılara təşkilatlanmaq və səfərbər olmaq üçün müəyyən zaman qazandırmışdır. Bundan əlavə, üsyanın baş verdiyi ərazilərə müttəfiq qüvvələrin çox yaxın olması üsyançılarda ABŞ və ya digər xarici qüvvələrin onların tərəfində müdaxilə edəcəyi ümidi yaratmış ola bilər. Həmçinin bölgədə çoxlu sayda İraq əsgərləri və fərarilərinin olması hərbi təlim keçmiş qüvvələrin mövcudluğunu təmin etmişdir. Xarici təbliğatın fərqli xarakteri də müəyyən dərəcədə rol oynamış ola bilər.

Körfəz Müharibəsi zamanı ABŞ təbliğatı nisbətən dar məqsədlər üzərində qurulmuşdu: əsas çağırış İraq xalqının Səddam Hüseyni devirməsi idi, lakin İraqın suverenliyi və vahid dövlət kimi qalması zəruriliyi də vurğulanırdı. Digər tərəfdən, İran təbliğatı daha sərt və genişmiqyaslı idi — rejimin tamamilə məhv edilməsini tələb edirdi. İranın bu qədər kəskin və düşmən ritorikası əslində Bağdad rejiminin işinə yaramış ola bilər; çünki bu, İraq rejiminə İranın bütün İraq dövlətini məhv etmək niyyətində olduğunu iddia etmək imkanı yaratmışdı. İran–İraq müharibəsi dövrünə aid qeyri-rəsmi məlumatlara əsasən, o dövrdə çoxlu sayda iraqlı, o cümlədən şiələr, İranın təhdidinə qarşı İraq millətini qorumaq üçün rejimi dəstəkləməli olduqlarına inanmışdılar. Nəhayət, cənub İraq hər iki müharibənin əsas döyüş bölgələrindən biri olmuşdu və bu bölgədə böyük dağıntılar yaşanmışdı. İraqda müstəqil sorğu aparan qurumların olmaması səbəbindən bu faktın ölçülməsi çətindir, lakin ehtimal olunur ki, cənubdakı şiələr və digər iraqlılar Səddam Hüseynin hərbi sərgüzəştlərindən o qədər bezmişdilər ki, silahlı üsyan da daxil olmaqla, onun hakimiyyətini davam etdirməsinə alternativ olan istənilən yol daha üstün görünürdü. (Louer, 2008, s.20).

Üsyanın uğursuz olmasının da bir sıra səbəbləri var idi,üsyanın təşkilati tərəfinin zəif olmasından, fikirayrılıqlarından əlavə şiələrin üsyanı Qərb tərəfindən dəstəklənməmişdir.Çünki Qərb dövlətləri, şiələr bu üsyanda dağınıq şəkildə hərəkət etsələr də, onları İraq üçün potensial bir güc olaraq görürdülər. Qərb dövlətləri İraqın İran kimi bir şiə dövlətinə çevrilməsindən ehtiyat etdikləri üçün, şiələrə verilən dəstək zəif olmuşdur. 1992-ci ildə 32-ci paralelin cənubunda İraq Hərbi Hava Qüvvələrinə məxsus təyyarələrin uçuşu qadağan edilmişdir. Bu ərazilər Kərbəla, Nəcəf, Nasiriyyə, Əmara və Bəsrə şəhərlərini əhatə edirdi. 1996-cı ildə ABŞ birtərəfli olaraq bu xətti 33-cü paralelə çəkmişdir. Bu addımın məqsədinin Səddam Hüseynin qonşu ölkələrə hücum gücünü zəiflətmək və ABŞ-ın bu hücumların qarşısını alma gücünü artırmaq olduğu bildirilmişdir. Bu tədbirlərin İranın bölgədəki nüfuzunu zəiflətmək üçün atıldığı qeyd edilir. Nəticədə, bölgədəki şiə bölgələrində Səddam Hüseynin yenidən hakimiyyətini bərpa etməsinə Qərb göz yummuşdur. Birinci Körfəz Müharibəsindən sonra Səddam Hüseyn şiələrə qarşı təzyiqlərini davam etdirsə də, onların könlünü almaq üçün bəzi siyasətlər həyata keçirmişdir. Dini simvolları və dini həyatı təşviq edən siyasətlər yürütmüş, şiələrə idarədə daha çox yer verməyə başlamışdır. Həzrət Əlinin doğum gününü "İraqın Milli Bayramı" elan etmişdir. Lakin yenə də ona isti yanaşmayan liderlərə qarşı təzyiq siyasətindən əl çəkməmişdir. 1994-cü ildə Nəcəf dini hövzəsinin alimlərindən olan Ayətullah Əli əl-Sistaninin mədrəsəsini bağlamış və ona ev dustaqlığı cəzası vermişdir. 1999-cu ildə isə şiə cəmiyyətində nüfuz sahibi

olan Məhəmməd Sadiq əs-Sədr iki oğlu ilə birlikdə suiqəsd nəticəsində öldürülmüşdür.

ƏDƏBİYYAT SİYAHISI:

1. Cline, L. E. (2000). The Prospects of the Shia Insurgency Movement in Iraq. Journal of Conflict Studies, 20(2), 44–67.
2. Fischer, M. (1980). Iran: From Religious Dispute to Revolution. Wisconsin: University of Wisconsin Press.
3. Khadduri, M. (1995). The Gulf War: The Origins and Implications of the Iraq–Iran Conflict. New York: Oxford University Press.
4. Louer, L. (2008). Transnational Shia Politics: Religious and Political Networks in the Gulf. London: Hurst.
5. Louer, L. (2012). Shiism and Politics in the Middle East. London: Hurst.
6. Mabon, S. (2012). The Battle for Bahrain: Iranian-Saudi Rivalry. Middle East Policy, 19(2), 84–97.
7. Nakash, Y. (1994). The Shi'is of Iraq. Princeton: Princeton University Press.
8. Tripp, C. (2007). A History of Iraq (3rd ed.). Cambridge: Cambridge University Press.
9. Wiley, J. K. (1992). The Shia Revivalist Movement in Iraq: Historical Background and Political Impact. Middle East Studies Association Bulletin, 26(1), 7-18.

DOİ: 10.32010/FRQD2401

CAREER AND FAMILY BALANCE, THE ROLE OF MODERN AZERBAIJANI WOMEN

Nərmin Məzəddin HEYDƏROVA
Naxçıvan Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0000-2948-9389
E-mail: nerminheyderova5@gmail.com

Abstract: Modern Azerbaijani women play a pivotal role in the nation's social and economic development. They strive to excel professionally while upholding family values and fulfilling responsibilities as wives, mothers, and daughters. Balancing these traditional and contemporary roles requires significant effort and support.

Today, Azerbaijani women are making notable strides in various sectors, including politics, business, education, and healthcare. However, managing both career aspirations and family obligations can present challenges. To maintain this balance, supportive mechanisms are essential. Flexible work arrangements, accessible childcare facilities, and social welfare programs can aid women in harmonizing their professional and personal lives. For instance, initiatives that promote gender equality and provide support for working mothers have been highlighted as beneficial.

Historically, Azerbaijani society has placed great emphasis on family values. In contemporary times, women endeavor to preserve these traditions while asserting their independence and pursuing professional growth. Promoting gender equality and facilitating women's access to leadership positions are crucial steps toward societal advancement. The increased participation of women in business, science, and politics positively influences the overall progress of the nation. Notably, women's representation in elected bodies has seen significant growth, reflecting their active involvement in societal development.

Technological advancements and evolving societal demands have further influenced women's roles. They are now integral not only within the family unit but also in governance and innovative projects. Despite these advancements, women continue to face challenges such as unequal opportunities in the workplace, wage disparities, and the ongoing struggle to balance work and family life. Addressing these issues requires a collective effort to eliminate harmful stereotypes and promote a culture that supports women's aspirations.

In conclusion, modern Azerbaijani women significantly contribute to the country's socio-economic development through their roles in both family and professional spheres. Their success is bolstered by the support of society, the state, and their families. Ensuring gender equality, providing opportunities for women to assume leadership positions, and strengthening social support mechanisms are vital for enabling women to thrive in both their careers and personal lives.

Key words: career and family balance, gender equality, professional development, social support mechanisms, traditional values and modernity

---

KARYERA VƏ AİLƏ BALANSI: MÜASİR AZƏRBAYCAN QADININ ROLU

Nərmin HEYDƏROVA
Naxçıvan Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0000-2948-9389
E-mail: nerminheyderova5@gmail.com

Xülasə: Müasir Azərbaycan qadınları ölkənin sosial və iqtisadi inkişafında mühüm rol oynayırlar. Onlar peşəkar sahədə uğur qazanmağa çalışarkən, eyni zamanda ailə dəyərlərini qoruyur və həyat yoldaşı, ana və övlad kimi vəzifələrini yerinə yetirirlər. Bu ənənəvi və müasir rolları balanslaşdırmaq əhəmiyyətli səylər və dəstək tələb edir.

Hazırda Azərbaycan qadınları siyasət, biznes, təhsil və səhiyyə kimi müxtəlif sahələrdə əhəmiyyətli irəliləyişlər əldə edirlər. Lakin karyera hədəfləri ilə ailə öhdəliklərini birləşdirmək çətin ola bilər. Bu balansı qorumaq üçün dəstək mexanizmləri vacibdir. Fleksibil iş rejimi, əlverişli uşaq baxımı xidmətləri və sosial rifah proqramları qadınların peşəkar və şəxsi həyatlarını uyğunlaşdırmasına kömək edə bilər.

Tarixən, Azərbaycan cəmiyyəti ailə dəyərlərinə böyük önəm vermişdir. Müasir dövrdə qadınlar bu ənənələri qoruyarkən, müstəqilliklərini təsdiq edir və peşəkar inkişaflarını davam etdirirlər. Gender bərabərliyinin təşviqi və qadınların liderlik mövqelərinə çatmasının təmin edilməsi cəmiyyətin irəliləməsi üçün vacib addımlardır. Qadınların biznes, elm və siyasətdəki iştirakı ölkənin ümumi inkişafına müsbət təsir göstərir.

Texnoloji tərəqqi və dəyişən cəmiyyət tələbləri qadınların rollarını daha da genişləndirib. Onlar artıq yalnız ailə daxilində deyil, həm də idarəetmə və innovativ layihələrdə fəal iştirak edirlər. Buna baxmayaraq, qadınlar hələ də iş yerində bərabər imkanlar, maaş

fərqləri və işlə ailə həyatını balanslaşdırmaq kimi çətinliklərlə üzləşirlər. Bu məsələlərin həlli, zərərli stereotiplərin aradan qaldırılması və qadınların istəklərini dəstəkləyən bir mədəniyyətin təşviqi ilə mümkündür.
Nəticə olaraq, müasir Azərbaycan qadınları həm ailə, həm də peşə sahəsində mühüm töhfələr verərək ölkənin sosial-iqtisadi inkişafına qatqı təmin edirlər. Onların uğuru cəmiyyətin, dövlətin və ailələrin dəstəyi ilə güclənir. Gender bərabərliyinin təmin edilməsi, qadınlara liderlik mövqelərinə çatmaq üçün imkanların yaradılması və sosial dəstək mexanizmlərinin gücləndirilməsi, qadınların həm karyera, həm də şəxsi həyatlarında uğur qazanmasına şərait yaradır.
Açar sözlər: karyera və ailə balansı, gender bərabərliyi, peşəkar inkişaf, sosial dəstək mexanizmləri, ənənəvi dəyərlər və müasirlik.

КАРЬЕРА И СЕМЕЙНЫЙ БАЛАНС: РОЛЬ СОВРЕМЕННЫХ АЗЕРБАЙДЖАНСКИХ ЖЕНЩИН

Nərmin HEYDƏROVA
Naxçıvan Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0000-2948-9389
E-mail: nerminheyderova5@gmail.com

Резюме: Современные азербайджанские женщины играют ключевую роль в социальном и экономическом развитии страны. Они стремятся к профессиональному успеху, сохраняя семейные ценности и выполняя обязанности жён, матерей и дочерей. Балансировка этих традиционных и современных ролей требует значительных усилий и поддержки.
Сегодня азербайджанские женщины добиваются значительных успехов в различных сферах, включая политику, бизнес, образование и здравоохранение. Однако совмещение карьерных устремлений и семейных обязанностей может быть сложным. Для поддержания этого баланса необходимы поддерживающие механизмы. Гибкий график работы, доступные детские учреждения и программы социального обеспечения могут помочь женщинам гармонизировать их профессиональную и личную жизнь.
Исторически азербайджанское общество придавало большое значение семейным ценностям. В современности женщины стремятся сохранить эти традиции, одновременно утверждая свою независимость и стремясь к профессиональному росту. Продвижение гендерного равенства и содействие доступу женщин к лидерским позициям являются важными шагами на пути к прогрессу общества. Увеличение участия женщин в бизнесе, науке и политике положительно сказывается на общем развитии страны.
Технологические достижения и изменяющиеся требования общества также влияют на роли женщин. Они являются неотъемлемой частью не только семейной жизни, но и управления, а также реализации инновационных проектов. Несмотря на эти достижения, женщины продолжают сталкиваться с проблемами, такими как неравные возможности на рабочем месте, разница в оплате труда и трудности в балансировании работы и семейной жизни. Решение этих проблем требует коллективных усилий по устранению вредных стереотипов и продвижению культуры, поддерживающей стремления женщин.
В заключение, современные азербайджанские женщины вносят значительный вклад в социально-экономическое развитие страны через свои роли как в семье, так и в профессиональной сфере. Их успех поддерживается обществом, государством и семьями. Обеспечение гендерного равенства, предоставление возможностей для женщин занимать лидерские позиции и укрепление механизмов социальной поддержки являются ключевыми для того, чтобы женщины могли успешно реализовываться как в карьере, так и в личной жизни.
Ключевые слова: баланс карьеры и семьи, гендерное равенство, профессиональное развитие, механизмы социальной поддержки, традиционные ценности и современность.

Introduction

In contemporary Azerbaijani society, women play a pivotal role in both professional and family spheres. Their active participation significantly contributes to the nation's social and economic development. Balancing career ambitions with family responsibilities, however, presents unique challenges that require thoughtful navigation.

Azerbaijani women have made remarkable strides across various sectors, including politics, business, education, and healthcare. They constitute 50.1% of the national population, with 48.2% of the economically active population being women. Notably, 77.6% of those employed in health and social services are women, underscoring their significant role in these fields.

Despite these achievements, challenges persist, particularly in the public sector, where women's representation remains limited. Approximately 30% of women work in the public sector, while 70% are in the private sector. This disparity highlights ongoing gender gaps in certain professional domains.

Modern Azerbaijani women often find themselves navigating the complex task of balancing career aspirations with family duties. This dual responsibility can lead to difficult choices, especially during critical career junctures, where prioritizing family needs may impact professional progression. The struggle to maintain this balance is a common theme among women globally, reflecting broader societal debates about gender roles and expectations. (Aliyev, M. 2015)

The Azerbaijani government has implemented policies aimed at supporting women's participation in the workforce. Maternity leave policies, including extended durations and job security upon return, are among the measures designed to assist women in balancing work and family life. However, challenges such as limited access to quality childcare services persist, particularly for lower- and middle-income families, indicating a need for further support mechanisms.

Achieving gender equality is crucial for empowering women to excel in both professional and personal realms. Efforts to eliminate traditional stereotypes and promote supportive cultural norms are essential. Encouraging women's leadership and participation in decision-making processes contributes to more balanced and progressive societal development. Educational initiatives and public awareness campaigns play vital roles in transforming societal attitudes toward gender roles.

Azerbaijani women significantly contribute to the nation's development through their active engagement in both family and professional life. Ensuring that they have the support and opportunities to thrive in both areas requires continued efforts toward policy development, societal change, and the promotion of gender equality. By addressing existing challenges and fostering an environment that values women's contributions, Azerbaijan can further enhance the well-being of its society as a whole.

Mainly Part

In contemporary Azerbaijani society, women play a crucial role in both family and professional spheres. They strive to excel in their careers while maintaining traditional family responsibilities. This dual role often leads to challenges in balancing personal and professional life. Understanding the dynamics of this balance is essential for promoting gender equality and supporting women's empowerment in Azerbaijan.

1. Socio-demographic participation of Azerbaijani women

Azerbaijani women actively participate in various sectors, contributing significantly to the nation's development. According to the State Statistical Committee, as of early 2020, women constituted 50.1% of the total population and 48.6% of the economically active population. In education, women make up 80.7% of teachers in general education institutions, 78.9% in secondary specialized institutions, and 54.7% in higher education institutions. In healthcare, 66.0% of doctors and 58.2% of researchers are women. However, their representation in leadership positions is limited, with only 28.5% in public service and 21.7% among entrepreneurs. Notably, among 64 district executive heads, only one is a woman, and there are no female ministers or city executive heads.

2. Challenges in achieving work-life balance

Balancing career ambitions with family duties presents significant challenges for Azerbaijani women. Cultural expectations often prioritize women's roles as primary caregivers, leading to societal judgments when they pursue demanding careers. The lack of accessible and affordable childcare services exacerbates this issue, making it difficult for women to fully engage in the workforce. Consequently, many women experience stress and guilt, feeling torn between professional commitments and family obligations. (Karimova, N., & Ismayilova, L. 2017)

3. Societal perceptions and stereotypes

During the period since the establishment of diplomatic relations between Azerbaijan and Slovakia, the parties have managed to form a model of cooperation based on mutual trust in various fields. Political dialogue has continued on a stable development path, and cooperation in the economic, energy and humanitarian spheres has expanded dynamically. Slovakia has begun to act as an important partner of Azerbaijan, especially in strategic areas such as energy security and diversification of transport routes.

Deepening economic cooperation, implementing joint investment projects and increasing trade turnover are among the main goals for the coming years. At the same time, the participation of Slovak companies in reconstruction and infrastructure projects in the liberated territories of Azerbaijan can provide additional impetus to future relations.

Joint projects implemented in the fields of education and culture serve to strengthen mutual understanding and rapprochement between peoples. Expanding academic exchange programs and deepening cooperation in the field of scientific research are important in terms of turning humanitarian relations into a strategic component.

Taking into account all these factors, it can be said that Azerbaijan-Slovakia relations will develop further in the future, and this partnership model, which plays the role of a bridge between the European and South Caucasus regions, will be further strengthened. The policy and diplomatic activity of both countries based on mutual interests create the basis for this process.

REFERENCES:

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. (n.d.). İkitərəfli münasibətlər – Slovakiya. Last accessed: April 12, 2025, from https://mfa.gov.az
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (n.d.). Rəsmi statistik göstəricilər. Last accessed: April 12, 2025, from https://stat.gov.az
3. Məmmədov, F. (2019). Avropa İttifaqı və Cənubi Qafqaz ölkələri: əməkdaşlıq perspektivləri. Qanun Nəşriyyatı. 272 səh.
4. SOCAR. (n.d.). Azərbaycan Respublikası Dövlət Neft Şirkəti. Last accessed: April 12, 2025, from https://socar.az
5. Slovakiya Xarici və Avropa İşləri Nazirliyi. (n.d.). Official portal. Last accessed: April 12, 2025, from https://mzv.sk
6. European Commission. (2022). EU-Azerbaijan: Strategic Partnership in Energy. Last accessed: April 12, 2025, https://ec.europa.eu/commission/presscorner/detail/en/ip_22_4602
7. Embassy of the Republic of Azerbaijan to the Slovak Republic. (n.d.). Diplomatic Relations. Last accessed: April 12, 2025, https://bratislava.mfa.gov.az
8. Əliyeva, S. (2023). Azərbaycan-Slovakiya münasibətlərinin inkişaf perspektivləri. Azərbaycan Diplomatik Araşdırmalar Jurnalı, 12(3), 45–58.
9. Hüseynov, T. (2022). Slovakiya ilə iqtisadi əməkdaşlığın genişlənməsi: imkanlar və çağırışlar. İqtisadiyyat və Siyasət, 8(2), 33–47.
10. Məmmədli, A. (2021). Avropa İttifaqı çərçivəsində Azərbaycan-Slovakiya əlaqələrinin inkişafı. Beynəlxalq Münasibətlər və Diplomatiya, 5(1), 22–36.

DOİ: 10.32010/EHIJ5875

RƏQƏMSAL İNQİLAB VƏ TARİX DƏRSLƏRİ: TƏDRİSDƏ YENİ ÜFÜQLƏR

Səma Seymur SÜLEYMANOVA
Müəllim, Mingəçevir Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0004-8248-7752
E-mail: sama.suleymanova@mdu.edu.az

Xülasə: Müasir dövrdə rəqəmsal texnologiyaların təhsil sahəsinə sürətli inteqrasiyası təlim-tədris prosesinin mahiyyətini dəyişdirərək yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur. Bu xüsusilə tarixin tədrisində özünü daha aydın göstərir. Tarixi biliklərin ötürülməsi uzun illər ənənəvi dərs üsulları ilə həyata keçirilsə də, rəqəmsal alətlərin tətbiqi nəticəsində bu sahədə həm məzmun, həm də metod baxımından ciddi yeniliklər meydana gəlmişdir. İnteraktiv platformalar, süni intellekt əsaslı proqramlar, mobil tətbiqlər və multimedia resursları şagirdlərin öyrənmə təcrübəsini daha dinamik, maraqlı və fərdiləşdirilmiş hala gətirir. Bu cür texnologiyalar tarixi hadisələrin vizual materiallarla təqdim edilməsinə, xronoloji ardıcıllığın daha aydın dərk olunmasına və analitik düşünmə bacarıqlarının inkişafına mühüm töhfə verir.
Eyni zamanda, rəqəmsallaşmanın gətirdiyi imkanlarla yanaşı müəyyən çağırışlar da mövcuddur. Texnoloji bərabərsizlik, müəllimlərin peşəkar hazırlıq səviyyəsi və rəqəmsal mühitdə informasiya təhlükəsizliyi kimi məsələlər bu prosesdə nəzərə alınmalıdır. Bununla belə, rəqəmsal təhsil mühitində müəllimlər analitik platformalardan istifadə edərək şagirdlərin akademik irəliləyişini izləyə və onların potensialını daha effektiv şəkildə üzə çıxara bilirlər.
Tarixin tədrisində rəqəmsal texnologiyaların tətbiqi həm öyrənmənin keyfiyyətini yüksəldir, həm də biliklərin gələcək nəsillərə daha müasir, əlçatan və davamlı şəkildə ötürülməsini təmin edir. Bu baxımdan, rəqəmsal savadlılığın artırılması, texnoloji infrastrukturun gücləndirilməsi və müəllimlərin rəqəmsal pedaqogikaya uyğun hazırlanması təhsilin davamlı inkişafı üçün zəruri amillər kimi çıxış edir.
Əlavə olaraq, rəqəmsal texnologiyalar tədris prosesində həm müəllim, həm də şagirdin rolunu yenidən müəyyənləşdirir. Müəllimlər artıq yalnız bilik ötürən deyil, öyrənmə prosesini yönləndirən və dəstək verən bələdçiyə çevrilirlər. Şagirdlər isə passiv dinləyici olmaqdan çıxaraq, öz biliklərini araşdıran, təhlil edən və tətbiq edən fəal öyrənən rolunu mənimsəyirlər. Rəqəmsal alətlər vasitəsilə əməkdaşlıq və qrup işi daha da asanlaşır, bu da kollektiv öyrənməni təşviq edir. Eyni zamanda, süni intellekt əsaslı sistemlər şagirdlərin fərdi öyrənmə sürətini və maraq dairəsini nəzərə alaraq tədris materiallarını uyğunlaşdırır, nəticədə öyrənmənin səmərəliliyi və davamlılığı artır.
Açar sözlər: təhsil, rəqəmsal texnologiya, interaktivlik, öyrənmə prosesi, metodlar

DIGITAL REVOLUTION AND HISTORY LESSONS: NEW HORIZONS IN TEACHING

Sema Seymur SULEYMANOVA
Teacher, Mingachevir State University
Orcid: https://orcid.org/0009-0004-8248-7752
E-mail: sama.suleymanova@mdu.edu.az

Summary: In the modern era, the rapid integration of digital technologies into education has transformed the essence of the teaching and learning process, giving rise to new approaches. This is particularly evident in the teaching of history. While the transmission of historical knowledge has long relied on traditional classroom methods, the application of digital tools has introduced significant innovations in both content and methodology. Interactive platforms, AI-based programs, mobile applications, and multimedia resources make students' learning experiences more dynamic, engaging, and personalized. Such technologies contribute significantly to presenting historical events visually, clarifying chronological sequences, and developing analytical thinking skills.
At the same time, alongside the opportunities provided by digitalization, certain challenges exist. Issues such as technological inequality, teachers' professional preparedness, and information security in digital environments must be considered. Nevertheless, in a digital learning environment, teachers can utilize analytical platforms to monitor students' academic progress and more effectively uncover their potential.
The application of digital technologies in history teaching enhances the quality of learning and ensures that knowledge is transmitted to future generations in a modern, accessible, and sustainable manner. In this regard, increasing digital literacy, strengthening technological infrastructure, and preparing teachers for digital pedagogy are essential factors for the sustainable development of education.
Additionally, digital technologies redefine the roles of both teachers and students in the learning process. Teachers are no longer mere knowledge transmitters but become guides who direct and support the learning process. Students shift from being passive listeners to active learners who explore, analyze, and apply their knowledge. Collaboration and group work are further facilitated

through digital tools, promoting collective learning. AI-based systems also adapt teaching materials to students' individual learning pace and interests, thereby increasing the efficiency and sustainability of learning.
Keywords: education, digital technology, interactivity, learning process, methods

ЦИФРОВАЯ РЕВОЛЮЦИЯ И УРОКИ ИСТОРИИ: НОВЫЕ ГОРИЗОНТЫ В ОБУЧЕНИИ

Сема Сеймур СУЛЕЙМАНОВА
Преподаватель, Мингачевирский Государственный Университет
Orcid: https://orcid.org/0009-0004-8248-7752
Электронная почта: sama.suleymanova@mdu.edu.az

Резюме: В современную эпоху стремительная интеграция цифровых технологий в сферу образования трансформировала суть учебного процесса, способствуя формированию новых подходов. Это особенно заметно в преподавании истории. Несмотря на то, что передача исторических знаний долгое время осуществлялась с помощью традиционных методов, применение цифровых инструментов внесло значительные новшества как в содержание, так и в методику обучения. Интерактивные платформы, программы на основе искусственного интеллекта, мобильные приложения и мультимедийные ресурсы делают учебный процесс более динамичным, интересным и индивидуализированным. Эти технологии значительно способствуют визуальному представлению исторических событий, лучшему пониманию хронологической последовательности и развитию аналитического мышления.
Вместе с тем, наряду с возможностями, предоставляемыми цифровизацией, существуют определённые вызовы. Следует учитывать такие вопросы, как технологическое неравенство, профессиональная подготовка преподавателей и информационная безопасность в цифровой среде. Тем не менее, в цифровой образовательной среде преподаватели могут использовать аналитические платформы для отслеживания академического прогресса учащихся и более эффективного раскрытия их потенциала.
Применение цифровых технологий в преподавании истории повышает качество обучения и обеспечивает передачу знаний будущим поколениям современным, доступным и устойчивым образом. В этом контексте повышение цифровой грамотности, укрепление технологической инфраструктуры и подготовка преподавателей к цифровой педагогике являются необходимыми факторами устойчивого развития образования.
Кроме того, цифровые технологии переопределяют роль как преподавателей, так и учащихся в учебном процессе. Преподаватели перестают быть лишь передатчиками знаний и становятся наставниками, направляющими и поддерживающими процесс обучения. Учащиеся переходят от пассивного восприятия информации к активному освоению знаний, исследованию, анализу и применению полученной информации. Цифровые инструменты также облегчают сотрудничество и групповую работу, способствуя коллективному обучению. Системы на основе искусственного интеллекта адаптируют учебные материалы с учётом индивидуального темпа обучения и интересов учащихся, что повышает эффективность и устойчивость учебного процесса.
Ключевые слова: образование, цифровые технологии, интерактивность, процесс обучения, методы

Giriş

Texnologiya, gündəlik həyatı asanlaşdıran və insan fəaliyyətinin bütün sahələrində istifadə olunan vasitələrin ümumi adıdır. İstər kənd təsərrüfatı və sənaye, istərsə də ticarət, maliyyə, səhiyyə, müdafiə, elm, təhsil, idman və əyləncə olsun – hər birində texnologiyanın imkanlarından faydalanırıq. Artıq elə bir sahə yoxdur ki, orada texnoloji məhsullardan istifadə edilməsin. 1936-cı ildə hazırlanmış ilk proqramlaşdırılabilən kompüter isə müasir dövrdə rəqəmsallaşmanın başlanğıc nöqtəsi kimi qəbul edilir. Texnoloji inkişafın sürəti yalnız məişət və sosial münasibətlərə deyil, təlim metodologiyasına da təsir göstərmişdir. Bu inkişaf tarix fənninin tədrisinə ənənəvi üsullarla yanaşı, yeni üsullar, metodlar əlavə etmişdir. Əvvəllər yalnız kitabxana fondlarında, arxiv otaqlarında və muzeylərin məhdud mühitində mövcud olan mənbələr bu gün rəqəmsallaşdırma prosesi nəticəsində qlobal elmi ictimaiyyət üçün daha əlçatan olmuşdur. Elektron arxivlər, rəqəmsal kataloqlar, beynəlxalq verilənlər bazaları və coğrafi informasiya sistemləri tədqiqatçının mənbələrlə işləmək vərdişlərini yenidən formalaşdırır, onlarda tədqiqat işinə həvəs yaradır. Bu eyni zamanda tədris prosesinə də yeni töhfələr verir.

Tarix yalnız keçmişin öyrənilməsi deyil, öyrənilən keçmiş təcrübələrdən dərs çıxararaq gələcəyin düzgün bünovrəsinin qurulmasıdır. Bu baxımdan da tarix fənni şagird və tələbələrdə milli kimlik, vətəndaşlıq mövqeyi, tənqidi düşünmə qabiliyyətinin formalaşmasında əvəzsiz rol oynayır. Tarixin tədrisi zamanın çağırışlarına uyğunlaşmalı, müasir informasiya mühitinə inteqrasiya olunmalıdır. Rəqəmsal texnologiyalar tarixi hadisələrin daha aydın, vizual və interaktiv şəkildə təqdim edilməsinə imkan verir. Virtual reallıq (VR), rəqəmsal arxivlər, elektron dərsliklər və interaktiv platformalar və xəritələr vasitəsilə öyrənənlər keçmiş hadisələri yalnız mətn

kimi deyil, həm də vizual-emosional müstəvidə qavrayırlar.

Digər tərəfdən, rəqəmsal texnologiyalar tədris prosesində müxtəlif çətinlikləri də gündəmə gətirir. İnformasiyanın hədsiz çoxluğu, onun etibarlılıq problemi, müəllimlərin rəqəmsal bacarıqlarının bəzən yetərsizliyi bu sahədə müəyyən məhdudiyyətlər yaradır. Buna görə də mövzunun öyrənilməsi yalnız texniki imkanların təsviri ilə məhdudlaşmamalı, həm də pedaqoji və metodoloji baxımdan geniş şəkildə təhlil olunmalıdır. Bu məqalənin məqsədi müasir rəqəmsal texnologiyaların tarixin tədrisinə təsirini müxtəlif aspektlərdən araşdırmaq, onların imkan və məhdudiyyətlərini dəyərləndirməkdir. Məqalədə həm nəzəri əsaslara, həm də tətbiqi təcrübələrə yer veriləcək, müxtəlif ölkələrin və Azərbaycan təhsil sisteminin nümunələri müqayisəli şəkildə təhlil olunacaqdır. Nəticədə rəqəmsal texnologiyaların tarixin tədrisinə gətirdiyi üstünlüklər və yaratdığı çətinliklər müəyyən ediləcək, gələcəkdə bu sahədə atıla biləcək addımlara dair tövsiyələr irəli sürüləcəkdir.

Tədqiqatın metodologiyası. Bu tədqiqatda əsas məqsəd rəqəmsal texnologiyaların tarixin tədrisinə təsirini nəzəri və praktik aspektlərdən təhlil etmək, bu prosesin üstünlüklərini və mövcud çətinliklərini müəyyənləşdirməkdir.

Tədqiqat **nəzəri-təhlil və müqayisəli-analitik** metodlara əsaslanmışdır.

- **Nəzəri-təhlil metodu** vasitəsilə rəqəmsallaşma, interaktiv tədris və konstruktivist yanaşma ilə bağlı elmi mənbələr, yerli və xarici tədqiqat işləri öyrənilmişdir.
- **Müqayisəli-analitik metod** isə Azərbaycan təhsil sistemində və digər ölkələrdə (xüsusilə Avropa İttifaqı və Türkiyə nümunələri) aparılan rəqəmsal təhsil təşəbbüslərinin müqayisəli təhlili üçün istifadə edilmişdir.
- Məqalədə **sənəd analizi metodu** da tətbiq olunmuşdur – Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin hesabatları, FATİH və EBA layihələri araşdırılmışdır.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, tarix fənninin rəqəmsallaşması konstruktivist pedaqoji model kontekstində təhlil edilmiş və bu prosesin Azərbaycan təhsil sistemində tətbiq perspektivləri müəyyənləşdirilmişdir.

Rəqəmsal texnologiyaların tarixin tədrisinə təsiri. Rəqəmsallaşdırma ən sadə şəkildə "analog materialların kompüter mühitində saxlanılması üçün rəqəmsal formata çevrilməsi" prosesi kimi tərif olunur (Karakaş və digərləri. 2009). Bu gün biliklərin, sənədlərin, kitab və jurnalların elektron platformalara köçürülməsi rəqəmsallaşmanın cəmiyyətə təsirini daha aydın göstərir. Bu proses məlumat əldə etmə imkanlarını genişləndirir və əvvəlki məhdudiyyətləri aradan qaldırır.

Artıq 21-ci əsrdə texnologiyadan kənarda düşünmək mümkün deyil. Texnologiyanın verdiyi imkanlarla müxtəlif sahələrdə rəqəmsal keçid baş vermişdir. Keçmişdə mənbələrə əlçatanlıq baxımından çoxsaylı çətinliklər mövcud idi və bu da sosial-iqtisadi baxımdan bərabər imkanların formalaşmasına mane olurdu. Hazırkı dövrdə isə bu çətinliklərin böyük bir hissəsi aradan qalxmış, texnologiyadan asılılıq güclənmiş və daha geniş miqyasda bərabər imkanlar təmin olunmuşdur. Rəqəmsal texnologiyalar yayılmadan öncə əksər işlər insan əməyinə əsaslanırdı. Lakin rəqəmsallaşma prosesi sayəsində bir çox işlər avtomatlaşdırılaraq daha az əmək sərfi ilə icra oluna bilir (Sürer G.A, 2020)

Təhsil sahəsində rəqəmsal yeniliklər ənənəvi təhsil modelini dəyişərək yeni bir mərhələnin əsasını qoymuşdur. Bu isə müəllimlərin məsuliyyət və funksiyalarında da dəyişikliklərə yol açmışdır. Rəqəmsal texnologiyalar təhsili auditoriya və sinif divarlarından çıxararaq evlərə daşıyır, məkan anlayışını ortadan qaldırır. Əvvəllər təhsil yalnız müəyyən fiziki mühitlə məhdudlaşırdısa, indi hər bir fərdin yaşadığı məkana daşınabiləndir. Üz-üzə tədris yavaş-yavaş yerini rəqəmsal platformalara verməkdədir. Bununla yanaşı, rəqəmsal transformasiya üçün öyrənmənin ömür boyu davam edən bir proses olduğu qəbul edilməlidir. Müasir texnologiya yalnız məktəblərdə deyil, həm də ailə, müəllim, mütəxəssis və mentorlar arasında əlaqə quraraq daha çevik öyrənmə imkanları təqdim edir. Şəxsi və simulyasiya olunmuş tədris proqramlarının isə tələbələrin mürəkkəb problemləri həll etməsində və sosial məsələlərə yanaşmasında daha effektiv olacağı vurğulanır.

Cəmiyyətin inkişafı ilə paralel olaraq təhsil və pedaqogika sahəsində də yeni tələblər meydana gəlir. Bu tələblər pedaqoji prosesin daim təkmilləşdirilməsini, məzmun, forma və metodlarda yenilənmələrin həyata keçirilməsini zəruri edir. Pedaqoji sistemin inkişafı əsasən iki istiqamətdə aparılır: intensiv və ekstensiv.

İntensiv inkişaf mövcud resurslardan daha səmərəli istifadə etməklə həyata keçirilir. Məsələn, müasir metodların tətbiqi vasitəsilə şagirdlərdə müstəqil öyrənmə bacarıqlarının formalaşdırılması və onların özünütəhsilə yönləndirilməsi intensiv yanaşmaya nümunədir. Ekstensiv inkişaf isə əlavə vaxt və vəsaitin prosesə cəlb olunmasını nəzərdə tutur. Bu yola misal olaraq təlim müddətinin uzadılması və proqramların genişləndirilməsi göstərilə bilər. Lakin pedaqoji təcrübə göstərir ki, çox zaman ekstensiv yola müraciət etmədən də hədəflərə nail olmaq mümkündür.

Pedaqoji prosesdə yeniliklərin miqyası müxtəlif ola bilər: müəyyən metod və formaların təkmilləşdirilməsi,

yeni texnologiyaların tətbiqi və ya bütövlükdə təhsil sisteminin modernləşdirilməsi. Hazırda Azərbaycanda aparılan islahatlar bu dəyişikliklərin bariz nümunəsidir. Təhsilin maddi bazasının möhkəmləndirilməsi, təlim-tərbiyə prosesinin məzmun və metodikasının yenilənməsi, müəllim-şagird münasibətlərində və idarəetmədə müşahidə olunan dəyişikliklər bunu təsdiqləyir. Milli dövlət quruculuğunun başlanması ilə birlikdə pedaqoji nəzəriyyədə və təcrübədə uzun illər hökm sürən stereotiplərin köhnəldiyi aydın oldu. Bu dövrdə yeni pedaqoji konsepsiyalar və nəzəri yanaşmalar irəli sürüldü. Milli dəyərlərlə ümumbəşəri prinsiplərin sintezi əsasında formalaşan yeni pedaqoji təfəkkür təhsil sisteminin inkişafına güclü təsir göstərməyə başladı.

Müasir pedaqogikanın qarşısında duran əsas vəzifələrdən biri şagirdin şəxsiyyət kimi formalaşdırılmasıdır. Bu məqsədlə təlimin inkişafetdirici, tərbiyəedici və diaqnostik funksiyalarının genişləndirilməsi xüsusi önəm kəsb edir. Bu dəyişikliklər nəticəsində pedaqogikanın metodoloji əsasları, nəzəriyyələri və praktik strukturları yenidən dəyərləndirilmiş, harmonik şəxsiyyətin yetişdirilməsi ən aktual məsələ kimi ön plana çıxmışdır. (Nəzərov A. 2012)

Son illərdə tədris prosesində baş verən rəqəmsallaşma, xüsusilə də Covid-19 pandemiyası dövründə, dərs metodlarının sürətli dəyişməsinə səbəb olmuşdur. Əslində tarix elminin rəqəmsallaşması təhsil prosesindəki rəqəmsallaşmadan daha əvvəldən başlamışdır. Tarixi mövzulu film, serial və sənədli filmlərlə başlayan bu proses, sosial media və video platformalarının inkişafı ilə daha da güclənmişdir. Bununla belə, internetdə yayılan, lakin mənbə dəqiqliyi təsdiqlənməyən məlumatlar geniş auditoriyalara sürətlə təsir göstərməkdədir.

Müasir dövrdə təhsildə texnologiyanın istifadəsi öyrənməni daha interaktiv və zəngin bir təcrübəyə çevirmə potensialına malikdir. Tarix dərslərində yalnız ənənəvi dərs vəsaitləri, məsələn dərsliklər deyil, həmçinin atlaslar, xəritələr və vizual materiallar da istifadə olunur. Bu vasitələr şagirdlərin tarixi və coğrafi hadisələri kontekst daxilində daha yaxşı anlamaqlarına kömək edir, çünki tarix məkan və zaman kontekstindən kənarda tam dərk edilə bilməz.

Əlavə olaraq, bəzi dərsliklərin mürəkkəbliyi və əvvəlcədən müəyyən tarix biliklərinə istinad etməsi öyrənmə prosesini çətinləşdirə bilər. Bu səbəbdən interaktiv və vizual alətlər tarixi biliklərin daha əlçatan və anlaşılır olmasını təmin edir. İnsanlıq tarixi boyunca vizual öyrənmə təhsildə mühüm rol oynamışdır; mağara rəsmlərindən başlayaraq müasir multimedia tətbiqlərinə qədər vizual vasitələr məlumatın ötürülməsini gücləndirmiş və öyrənməni asanlaşdırmışdır. Rəqəmsal dövrdə kompüterlər və internet isə vizual materialların həm miqyasını, həm də əlçatanlığını əhəmiyyətli dərəcədə artırmışdır. Texnologiyanın inkişafı yaxın gələcəkdə tarix tədrisinin daha da optimallaşdırılmasına imkan verəcəkdir. Məsələn, sürətlə inkişaf edən vizual yaradıcı süni intellekt texnologiyaları ilə müəllimlər tarixi məzmunu daha asan vizuallaşdırmaq, animasiya və videolar hazırlamaq imkanına malik olacaqlar. Tarixi filmlər, sənədli filmlər və animasiyalar tələbələrə keçmiş hadisələri vizual və interaktiv şəkildə yaşamağa şərait yaradır, bu da tarixi biliklərin daha effektiv mənimsənilməsinə kömək edir.

Tarixi öyrənmədə yalnız rəqəmsal vizual materiallar deyil, həm də konkret tarixi məkanlar və eksponatlar böyük rol oynayır. Muzeylər, antik şəhərlər və tarixi abidələr tarixi hadisələri və həyat tərzini daha aydın görməyə imkan verir. Ənənəvi öyrənmə üsullarının bu vizual və fiziki resurslarla birləşdirilməsi öyrənmənin effektivliyini artırır. Gələcəkdə virtual reallıq texnologiyaları bu təcrübəni daha da zənginləşdirəcəkdir. Tələbələr antik şəhərlərin indiki və ya keçmiş görünüşünü virtual olaraq araşdıra, interaktiv simulyasiyalar vasitəsilə tarixi şəxsiyyətlərlə qarşılıqlı əlaqədə ola biləcəklər. Məsələn, 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsini virtual səyahətlə canlı müşahidə edə biləcəklər. Bu texnologiyalar tarix tədrisini daha dinamik, interaktiv və şagirdyönümlü edir, öyrənmə prosesini zənginləşdirir.

Müasir tədris mühitləri getdikcə daha çox şəxsiyyətyönümlü yanaşma əsasında qurulur. Belə mühitlər şagirdlərin yalnız müstəqil fəaliyyətini deyil, həm də qarşılıqlı əməkdaşlığını dəstəkləyir. Bu yanaşma onlara əvvəlki biliklərini yeni təcrübələrlə əlaqələndirmək imkanı verir. Rəqəmsal texnologiyalar və kompüterlər isə bu cür dərslərin təşkilində müəllimlərə geniş imkanlar yaradır.

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı tədris prosesində yeni metod və vasitələrin tətbiqini zəruri etmişdir. L. V. Voronkovanın araşdırması bu baxımdan tarixin tədrisində multimedia texnologiyalarının pedaqoji potensialını ətraflı şəkildə göstərir. Müəllifin fikrincə, multimedia mühiti yalnız məlumat ötürmə vasitəsi deyil, həm də müəllim və öyrənən arasında interaktiv əməkdaşlığın təşkil olunduğu dinamik tədris sistemidir. (Voronkova, L. V. 2020.)

Multimediyalı tədris mühiti tarixi biliklərin təqdimatını vizual, səsli və interaktiv resurslarla zənginləşdirir. Bu cür mühit tələbələrdə tarixi hadisələrin səbəb-nəticə əlaqələrini daha dərindən anlamağa, hadisələri xronoloji ardıcıllıqla izləməyə və öz fikirlərini sübutlara əsaslanaraq formalaşdırmağa şərait yaradır. Voronkova multimedia texnologiyalarını pedaqoji fəaliyyətin mühüm tərkib hissəsi kimi

dəyərləndirir və onların tətbiqinin tələbələrin informasiya-kommunikasiya bacarıqlarının, tənqidi düşünmə qabiliyyətinin və peşəkar müstəqilliyinin inkişafına xidmət etdiyini vurğulayır. Bu yanaşma müəllimlərin də yeni tədris metodları — interaktiv mühazirə, virtual seminar, onlayn müzakirə və layihə işləri vasitəsilə təlimin keyfiyyətini yüksəltməsinə imkan verir.

Müəllifin yaratdığı modeldə multimedia mühiti yalnız texniki resursların toplusu kimi deyil, həm də təlimin psixoloji, kommunikativ və təşkilati aspektlərini özündə birləşdirən kompleks pedaqoji sistem kimi təqdim olunur. Belə bir inteqrasiya tədrisin fərdiləşdirilməsinə, təlim motivasiyasının artmasına və tarixi biliklərin praktik tətbiqinə şərait yaradır.

Bu tədqiqatın nəticələri göstərir ki, müasir rəqəmsal texnologiyaların məqsədyönlü və sistemli tətbiqi tarix dərslərini ənənəvi mətn əsaslı tədrisdən çıxararaq interaktiv öyrənmə mühitinə çevirir. Nəticədə, tarix fənni yalnız məlumat ötürən deyil, həm də yaradıcılıq və analitik düşünmə bacarıqlarını formalaşdıran fənnə çevrilir.

Kompüterlər öyrənənlərə məlumat toplamaq, mənbələri seçmək, araşdırma aparmaq və şəxsi nəticələrə gəlmək imkanı verir. Beləliklə, şagirdlər öz fəaliyyətini istiqamətləndirən, müstəqil qərar qəbul edən subyektlərə çevrilirlər. Bu isə konstruktivizmin əsas prinsipi olan – biliklərin öyrənən tərəfindən aktiv şəkildə qurulması – ilə tam uyğunluq təşkil edir.

Multimedia proqramları və müxtəlif rəqəmsal resurslar şagirdlərə mətn, təsvir, səs və video vasitəsilə tarixi hadisələri dərk etməyə imkan verir. Bu isə müxtəlif öyrənmə tərzlərinə uyğun fərdiləşdirilmiş öyrənmə imkanlarını təmin edir. Həmçinin şagirdlər texnologiyadan yalnız fərdi öyrənmə vasitəsi kimi deyil, həm də ünsiyyət və əməkdaşlıq platforması kimi istifadə edə bilirlər. İnternet, e-poçt, forumlar və sosial şəbəkələr vasitəsilə onlar həmkarları ilə müzakirələr aparır, ideyalarını bölüşür və yeni biliklərini möhkəmləndirirlər. Bu proses konstruktivist mühitin əsas elementlərindən olan kooperativ öyrənməni gücləndirir.

Müəllimlərin rolu isə dəyişir: onlar artıq bilik ötürən deyil, öyrənmə prosesini yönləndirən və vasitəçi rolunu oynayan şəxsə çevrilirlər. Müəllimlər rəqəmsal mühitdə şagirdlərin fərdi təcrübələrini kurikulum məzmunu ilə müqayisə edir, onların əvvəlki biliklərinin yeni öyrənmə təcrübələrinə necə təsir göstərdiyini müəyyənləşdirirlər. Beləliklə, tədris prosesi daha çox şagirdin fəal iştirakı və təcrübəsinə əsaslanan konstruktivist modelə yaxınlaşır.

Digər tərəfdən, rəqəmsal texnologiyalar real həyatdan məlumat toplamaq, problemləri həll etmək və kritik düşünmə bacarıqlarını inkişaf etdirmək üçün də geniş imkan yaradır. Şagirdlər yalnız mövcud məlumatları qəbul etmir, həm də öz ideyalarını yaradır, paylaşır və hətta dərc edir. Bu isə onları passiv öyrənəndən aktiv bilik yaradıcısına çevirir ki, bu da konstruktivizmin əsas hədəflərindən biridir. (Əliyeva F., Məmmədova Ü. 2014)

Nəticə etibarilə, kompüterlər və rəqəmsal resurslar tədris mühitini köklü şəkildə dəyişərək şagirdlərin müstəqilliyini, əməkdaşlığını və bilik qurma bacarığını gücləndirir. Bu isə konstruktivist pedaqoji yanaşmanın təməl prinsiplərini reallaşdırmaq üçün mühüm vasitədir.

Leyla Mustafazadənin araşdırması müasir təhsil sistemində informasiya və internet texnologiyalarının əhəmiyyətini, həmçinin onların tədris prosesinə inteqrasiyasını elmi əsaslarla təhlil edir. Müəllifin fikrincə, bu gün təhsilin əsas məqsədlərindən biri şagirdləri müxtəlif formalarda informasiyanı axtarmaq, emal etmək və tətbiq etmək bacarığı ilə təmin etməkdir. Bu bacarıqlar informasiya cəmiyyətində formalaşan yeni təhsil mədəniyyətinin əsas komponentidir və müasir dövrdə peşəkar fəaliyyətin təməl şərtinə çevrilmişdir. (Mustafazadə, L. A. 2018).

Məqalədə göstərilir ki, internet və telekommunikasiya sistemləri təhsildə biliklərin ötürülməsi, paylaşılması və idarə olunmasında mühüm rol oynayır. Müəllif bu sistemləri yalnız texniki vasitə kimi deyil, həm də pedaqoji interaktiv mühit kimi dəyərləndirir. Belə mühitlərdə müəllim və şagird arasında əlaqə elektron poçt, virtual siniflər, onlayn müzakirələr və video-konfranslar vasitəsilə qurulur. Bu, xüsusilə tarix kimi humanitar fənlərdə, tarixi hadisələrin vizual təqdimatı və interaktiv diskussiya mühitinin yaradılması üçün geniş imkanlar açır. Tədqiqatda həmçinin qeyd olunur ki, internet texnologiyaları tədris prosesində müstəqil öyrənmə, virtual laboratoriyalar, multimedia resursları, hipermətn və hipermedia sistemləri kimi elementlərin istifadəsinə şərait yaradır. Bu texnologiyalar vasitəsilə şagirdlər yalnız məlumat alıcısı deyil, həm də bilik istehsalçısına çevrilir. Tarix dərslərində bu cür rəqəmsal platformalar (məsələn, interaktiv xəritələr, virtual muzeylər, tarixi simulyasiyalar və test sistemləri) şagirdlərdə tarixi düşünmə, məntiqi əlaqə qurma və analitik təhlil bacarıqlarını inkişaf etdirir.

Mustafazadənin fikirlərindən belə nəticə çıxır ki, rəqəmsal və internet texnologiyalarının səmərəli istifadəsi tədrisin keyfiyyətini artırmaqla yanaşı, təhsilalanlarda informasiya mədəniyyətini, kommunikasiya bacarıqlarını və özünütəhsil vərdişlərini formalaşdırır. Bu yanaşma, müasir tarix təliminin məqsədləri ilə tam uzlaşır, çünki rəqəmsal texnologiyalar tarixi biliklərin təqdimatını daha interaktiv, vizual və şagirdyönümlü hala gətirir. Leyla Mustafazadənin tədqiqatı göstərir ki, rəqəmsal və internet texnologiyalarının tədrisə inteqrasiyası sadəcə

texniki yenilik deyil, həm də pedaqoji paradigma dəyişikliklərinin əsasını təşkil edir. Tarixin tədrisində bu texnologiyalardan istifadənin məqsədi — şagirdin öyrənmə prosesində aktiv iştirakını təmin etmək, fərdi tədris trayektoriyasını dəstəkləmək və biliklərin tənqidi analizini inkişaf etdirməkdir.

Təhsildə rəqəmsal transformasiya prosesi. Avropa İttifaqının 2021–2027-ci illər üçün hazırladığı Rəqəmsal Təhsil Fəaliyyət Planı (Digital Education Action Plan) təhsil sistemlərində rəqəmsal texnologiyaların məqsədyönlü və davamlı tətbiqini təmin etməyə yönəlmişdir. Sənədin əsas məqsədi bütün Avropa ölkələrində rəqəmsal transformasiyanın təhsil siyasətinə inteqrasiyasını gücləndirmək, məktəblərdə bərabər imkanlar yaratmaq və müəllimlərin rəqəmsal kompetensiyalarını inkişaf etdirməkdir.

Bu planın praktiki hissəsində tədris müəssisələrində texnologiyanın istifadəsi iki əsas istiqamətdə təsvir edilir:

1. Rəqəmsal hazırlığın artırılması – məktəblərin texniki avadanlıqlarla, yüksək sürətli internetlə və onlayn tədris platformaları ilə təmin olunması;
2. Pedaqoji yeniliklərin təşviqi – müəllimlərin rəqəmsal alətlərdən istifadə bacarıqlarının artırılması və interaktiv tədris metodlarının tətbiqi.

Planın həyata keçirilməsi zamanı Avropa Komissiyası bir sıra uğurlu təcrübə nümunələrini qeyd edir. Məsələn, **SELFIE** adlı qiymətləndirmə aləti məktəblərə öz rəqəmsal imkanlarını dəyərləndirməyə və inkişaf planı hazırlamağa imkan verir. Eyni zamanda eTwinning platforması vasitəsilə müxtəlif ölkələrdən müəllimlər və şagirdlər birgə layihələr həyata keçirərək mədəni və tarixi mövzular üzərində əməkdaşlıq edirlər. Bu cür layihələr tarix fənninin öyrədilməsində transmilli və interaktiv öyrənmə mühitinin formalaşmasına töhfə verir.

Sənəddə həmçinin pandemiya dövründə rəqəmsal təhsilin rolu xüsusi vurğulanır. COVID-19 təcrübəsi göstərmişdir ki, ənənəvi təhsil sistemləri çevik rəqəmsal mühitlərlə dəstəklənmədikdə, tədrisin davamlılığı təhlükə altına düşür. Bu səbəbdən plan çərçivəsində hibrid və məsafədən öyrənmə modellərinin inkişafı strateji prioritet kimi müəyyən edilmişdir. Tarix fənninin tədrisi baxımından bu sənədin tövsiyələri mühüm əhəmiyyət daşıyır. Rəqəmsal platformalar və interaktiv texnologiyalar – məsələn, virtual muzeylər, rəqəmsal arxivlər, 3D simulyasiyalar və onlayn mənbələr – tarixi hadisələrin daha əyani və dinamik şəkildə təqdiminə imkan verir. Bu yanaşma tələbələrdə **tarixi düşünmə, analitik təhlil və mənbə tənqidi bacarıqlarının** inkişafını təşviq edir.

Nəticə etibarilə, Avropa İttifaqının Rəqəmsal Təhsil Fəaliyyət Planı təhsildə rəqəmsal texnologiyaların tətbiqini yalnız texniki proses kimi deyil, həm də pedaqoji innovasiya və sosial inklüzivlik mexanizmi kimi nəzərdən keçirir. Bu model tarixin tədrisində rəqəmsal vasitələrin istifadəsinin həm metodoloji, həm də sosial təsirlərini anlamaq üçün əhəmiyyətli təcrübə nümunəsi rolunu oynayır. (European Commission. 2020).

Türkiyədə FATİH layihəsi çərçivəsində 2012-ci ildə "Eğitim Bilişim Ağı" (EBA) tətbiqi qurulmuşdur. Tarix müəllimlərinin fikirləri əsasında EBA tətbiqinin öyrənmə və tədris mühitinə təsiri araşdırılmışdır. Tədqiqat iştirakçılarının EBA ilə bağlı fikir və təcrübələrini öyrənmək məqsədilə yarı strukturlu açıq suallar hazırlanmış və tətbiq olunmuşdur. Araşdırmada iştirak edən müəllimlərin fikrincə, EBA tətbiqi 9-cu sinif tarix dərsi proqramı ilə uyğun gəlir, dərs məqsədlərini dəstəkləyir və bir neçə duyğu orqanına müraciət etməklə biliklərin mənimsənilməsini asanlaşdırır. Bununla yanaşı, EBA tətbiqinin dərs məzmunu ilə uyğun olduğu və məzmunu zənginləşdirdiyi, lakin bəzən məlumatların səthi olduğu müşahidə olunmuşdur. Öyrənmə və tədris prosesinə baxıldığında, EBA tətbiqi mövzuların möhkəmlənməsi üçün imkan yaradır, aktiv iştirak etməyə şərait təmin edir, dərsdəki fəaliyyətləri dəstəkləyir, öyrənmə prosesini asanlaşdırır və biliklərin uzunmüddətli saxlanmasına kömək edir. Qiymətləndirmə aspektində isə müəllimlər, EBA-nın tələbələrin nailiyyətini artırdığı və özünüqiymətləndirmə bacarıqlarını inkişaf etdirdiyi qənaətindədirlər. Ən böyük tənqidlərdən biri məzmunun yetərincə zəngin olmamasıdır. Digər tənqidlər arasında texnoloji infrastrukturu yaxşılaşdırmaq, animasiyaların sayını artırmaq, dərs videolarının keyfiyyətini yüksəltmək, standart dərs izahının olmaması və EBA dizaynının qarışıqlığını aradan qaldırmaq kimi məsələlər yer alır. Təkliflər arasında isə EBA məzmununun zənginləşdirilməsi, sayt daxilində interaktiv oyunlar və animasiyaların yerləşdirilməsi və platformanın dizaynında müəyyən təkmilləşdirmələrin aparılması vurğulanır. (Yıldırım, M., Doğan, B. 2023).

Bu nəticələr göstərir ki, rəqəmsal təhsil platformaları həm dərs məqsədlərinə uyğunluğu, həm də öyrənmə effektivliyini artırmaq baxımından əhəmiyyətlidir, lakin məzmunun keyfiyyətinin və texnoloji infrastrukturun inkişaf etdirilməsi tələb olunur. Azərbaycanda da təhsilin rəqəmsallaşdırılması prosesi artıq başlamış, lakin bu istiqamətdə hələ də genişmiqyaslı işlər görülməlidir. Təhsildə rəqəmsal transformasiya texnologiyaların dərs və öyrənmə proseslərinə inteqrasiyasını nəzərdə tutur. Bu proses bir neçə əsas istiqaməti əhatə edir: **rəqəmsal resurslar** (elektron dərsliklər, multimedia materialları, onlayn

platformalar**),** texnologiyanın istifadəsi (virtual reallıq, süni intellekt, robot texnologiyaları, simulyasiyalar**),** onlayn və distant təhsil modelləri**, həmçinin** rəqəmsal savadlılığın artırılması (şagirdlər və müəllimlərin texnologiya istifadəsi bacarıqları).

Azərbaycan təhsil sistemində bir sıra müsbət addımlar atılmışdır. "Rəqəmsal bacarıqlar" layihəsi şagirdlərə kompüter proqramlaşdırması və rəqəmsal savadlılıq üzrə biliklər verməkdədir. COVID-19 pandemiyası zamanı yaradılmış "Virtual məktəb" və digər onlayn platformalar təhsilin fasiləsizliyini təmin etmişdir. Eyni zamanda, məktəblərin internet şəbəkəsinə qoşulması və müasir texnologiyalarla təminatı sahəsində də işlər görülür. Bununla belə, sistemli və genişmiqyaslı yanaşmalara hələ də böyük ehtiyac vardır.

Rəqəmsal transformasiya təhsil prosesinə bir sıra üstünlüklər gətirir. Fərdi yanaşmanın təmin edilməsi ilə süni intellekt texnologiyaları şagirdlərin fərdi ehtiyaclarına uyğun tədris proqramlarının hazırlanmasına imkan yaradır. Rəqəmsal resurslar vasitəsilə dərs materiallarına istənilən vaxt və yerdən çıxış mümkündür, virtual reallıq və multimedia texnologiyaları isə dərsləri daha interaktiv və yadda qalan edir. Onlayn platformalar şagirdlərin beynəlxalq layihələrdə iştirakını təmin edir və digər ölkələrdən həmyaşıdlarla əməkdaşlıq etməyə şərait yaradır.

Buna baxmayaraq, rəqəmsal transformasiya bir sıra çağırışlarla da müşayiət olunur. İnfrastruktur problemləri, texnologiyadan effektiv istifadə edə bilən müəllimlərin azlığı və şəhər-kənd yerləri arasında rəqəmsal bərabərsizliyin mövcudluğu əsas məhdudiyyətlərdəndir.

Azərbaycan təhsil sisteminin rəqəmsallaşmasını daha da inkişaf etdirmək üçün bir sıra tədbirlər vacibdir. Bunlara milli rəqəmsal strategiyanın hazırlanması**,** texnoloji infrastrukturun genişləndirilməsi, müəllimlərin davamlı rəqəmsal təlim proqramları ilə dəstəklənməsi və yerli tədris proqramlarına uyğun rəqəmsal resursların yaradılması daxildir. (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, 2025).

Nəticədə, rəqəmsal transformasiya yalnız texnologiyanın tətbiqi deyil, həm də təhsil fəlsəfəsində köklü dəyişiklikləri nəzərdə tutur. Azərbaycan təhsil sistemi bu prosesə uyğunlaşaraq gələcək nəsilləri qlobal rəqabətə hazırlamaq üçün innovativ yanaşmaları tətbiq etməli, rəqəmsal savadlılığı və texnologiya inteqrasiyasını prioritet kimi müəyyən etməlidir. Bu yanaşma həm region, həm də qlobal səviyyədə Azərbaycanın təhsil sisteminin mövqeyini gücləndirə bilər və gələcəyin təhsil modelini rəqəmsal biliklər üzərində qurmağa imkan verir.)

Nəticə və təkliflər

Araşdırma göstərdi ki, rəqəmsal texnologiyaların tədrisə inteqrasiyası tarixin öyrədilməsində həm məzmunun, həm də metodikanın yenilənməsinə səbəb olur. İnteraktiv və multimedia resursları öyrənmə prosesini fəallaşdırır, şagirdlərdə tənqidi və yaradıcı düşünmə bacarıqlarını formalaşdırır. Rəqəmsallaşma nəticəsində müəllim-şagird münasibətləri dəyişmiş, müəllim bələdçi və fasilitator rolunu almışdır. Lakin texnoloji bərabərsizlik, müəllimlərin rəqəmsal bacarıqlarının yetərsizliyi və məzmun keyfiyyətinin fərqliliyi kimi məhdudiyyətlər hələ də qalmaqdadır. Azərbaycan təhsil sistemində atılan addımlar (Virtual məktəb, "Rəqəmsal bacarıqlar" layihəsi və s.) bu istiqamətdə müsbət başlanğıc təşkil etsə də, davamlı və sistemli strategiyaya ehtiyac var.

Bu araşdırma əsasında bir neçə təklif irəli sürmək olar:

1. **Müəllimlərin rəqəmsal pedaqogikaya uyğun hazırlanması:** Müəllimlər üçün davamlı onlayn sertifikat proqramları yaradılmalıdır.
2. **Tarix fənninə uyğun milli rəqəmsal platforma hazırlanması:** Virtual muzey, interaktiv xəritə və 3D tarix simulyasiyalarını özündə birləşdirən **"e-Tarix" platforması** yaradıla bilər. Burada həm yerli, həm də dünya tarixinin rəqəmsal arxivləri toplansın.
3. **Süni intellektin tədrisə inteqrasiyası:** Tarix dərslərində şagirdlərin maraq dairəsinə uyğun fərdiləşdirilmiş tapşırıqlar təqdim edən **AI-assistent** modelləri tətbiq oluna bilər. Bu, öyrənməni fərdiləşdirilmiş və adaptiv hala gətirər.
4. **Rəqəmsal bərabərsizliyin azaldılması:** Region məktəblərinin texnoloji təminat səviyyəsi artırılmalı, pulsuz tədris resurslarına çıxış genişləndirilməlidir.
5. **Tədqiqat və innovasiya mərkəzlərinin yaradılması:** Universitetlərdə "Rəqəmsal tarix və təhsil texnologiyaları laboratoriyası" fəaliyyət göstərməli, yerli kontent və tətbiqlər hazırlanmalıdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. (2025). *2024–2025-ci tədris ili rəqəmlərdə – Hesabat.* https://edu.gov.az/az/hesabatlar/22236-1

2. Əliyeva, F., Məmmədova, Ü. (2014). *Müasir təlim texnologiyaları* (s. 54–68). Bakı: Təhsil.

3. European Commission. (2020). *Digital Education Action Plan 2021–2027: Resetting education and training for the digital age (COM(2020) 624 final).* Brussels: European Commission. https://education.ec.europa.eu/focus-topics/digital-education/action-plan

4. Karakaş, Y. (2019). *Dijitalleşmenin modern gündelik hayata yansımaları ve Hikikomori örneği* [Yüksek lisans tezi].

5. Mustafazadə, L. A. (2018). İnternet texnologiyalarının inkişafı və təhsildə tətbiqi [Development of internet technologies and their application in education]. *Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri, 85*(8), 319–322.

6. Nəzərov, A. (2012). *Müasir təlim texnologiyaları* (s. 35–40). Bakı: Təhsil.

7. Sürer, G. A. (2020). Eğitimde dijitalleşme çağı. *Kapadokya Eğitim Dergisi.*

8. Voronkova, L. V. (2020). Мультимедийная среда учебной дисциплины «Методика преподавания истории» как средство формирования общепрофессиональных компетенций бакалавров педагогического образования [Multimedia environment of the discipline "Methods of teaching history" as a means of forming general professional competencies of bachelors of pedagogical education]. *Ученые записки Орловского государственного университета имени И. С. Тургенева, 3*(88), 150–157.

9. Yıldırım, M., Doğan, B. (2023). Tarih öğretmenlerinin görüşleri doğrultusunda EBA uygulamasının öğrenme/öğretme ortamına etkileri. *Eğitim Teknolojileri Araştırmaları Dergisi, 12*(1), 45–62.

10. https://evrimagaci.org/gelecegin-siniflari-yeni-teknolojiler-ve-dijitallesme-tarih-egitiminde-nasil-kullanilabilir-16976

DOİ: 10.32010/EGBI7125

DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNİN PRAQMATİK HƏQİQƏT KONSEPSİYASI KONTEKSTİNDƏN TƏHLİLİ

Şəms Ənvər BÜNYATOVA
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0000-0003-1451-8372
E-mail: shams.bunyatova@gmail.com

Xülasə: Universal etik normalar bəşəriyyət üçün fundamental və məcburi xarakterli prinsiplərdir. Başqa sözlə, onları bütün insanlar üçün eyni dərəcədə əhəmiyyətə malik ümumbəşəri dəyərlər kimi tərif etmək mümkündür. "İnsan hüquqlarına və insan ləyaqətinə hörmət, qanunun aliliyi, ədalət, bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi" kimi ali məqsədləri əhatə edən Birləşmiş Millətlər Təşkilatının 2030 Gündəliyi açıq şəkildə bu cür normalara əsaslanan dünyanı nəzərdə tutur. Bu ideallar əsrlərlə mövcud olan etik-fəlsəfi prinsiplər ilə paralellik təşkil edir. Bununla yanaşı, Dayanıqlı İnkişaf Məqsədləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən (1948) başlayaraq Minilliyin İnkişaf Məqsədlərinə (2000-2015) qədər onilliklərin qlobal mənəvi konsensusu əsasında hazırlanmışdır. İnsan hüquqları, bərabərlik, yoxsulluq və qorxudan azadlığa dair öhdəliklərə istinad etməklə, DİM-lər inkişafı təkcə iqtisadi layihə deyil, mənəvi imperativ kimi çərçivələyir. Bu məqalə DİM-in həqiqət iddialarını və normativ əsaslarının praqmatizmin nəzəriyyəsi perspektivindən qiymətləndirmək məqsədi daşıyır. Burada "həqiqət" anlayışının praqmatik epistemologiya çərçivəsində, xüsusilə praqmatizmin klassik nümayəndələri olan Uilyam Ceyms və Con Dyui tərəfindən necə başa düşüldüyü təhlil olunaraq bu anlayışın DİM-in normativ-praktik strukturuna necə tətbiq oluna biləcəyi müzakirə olunacaq. Həqiqətin mahiyyəti ilə bağlı ənənəvi fəlsəfi nəzəriyyələrdən fərqli olaraq, praqmatizm həqiqəti fəaliyyət kontekstində, onun nəticələri vasitəsilə müəyyən edən yanaşmadır. Buna görə də, DİM-in nəzərdə tutduğu məqsədlərin "həqiqəti" və ya etibarlılığı onların praktiki tətbiqi və arzu olunan nəticələrin olub-olmaması əsasında yoxlanıla bilər. Bu məqalədə əvvəlcə praqmatist həqiqət nəzəriyyəsinin əsas prinsipləri təqdim olunacaq. Həmçinin praqmatik həqiqət nəzəriyyəsi və DİM-in prinsiplərinin oxşar cəhətlərinə diqqət yetiriləcək, eyni zamanda xüsusilə, Gender Bərabərliyi (Məqsəd 5) və İqlim Fəaliyyətinin (Məqsəd 13) praqmatist qiymətləndirməsi aparılacaqdır. Habelə, DİM çərçivəsində Azərbaycan reallığında həyata keçirilən tədbirlərə nəzər salınaraq praqmatizm idealına uyğunluğu təhlil olunacaqdır.

Açar sözlər: praqmatizm, DİM, həqiqət, instrumentalizm, fayda, dayanıqlılıq

---

ANALYSIS OF SUSTAINABLE DEVELOPMENT GOALS FROM THE CONTEXT OF PRAGMATIC TRUTH CONCEPTION

Shams Anvar BUNYATOVA
Baku State University
Orchid: https://orcid.org/0000-0003-1451-8372
E-mail: shams.bunyatova@gmail.com

Absract: Universal ethical norms are fundamental and binding principles for humanity. In other words, they can be defined as universal values of equal significance for all people. The United Nations 2030 Agenda envisions a world based on such norms, encompassing high objectives such as "respect for human rights and human dignity, the rule of law, justice, equality, and non-discrimination." These ideals align with long-standing ethical-philosophical principles. Furthermore, the Sustainable Development Goals (SDGs) were developed based on the global moral consensus built over decades, starting from the Universal Declaration of Human Rights (1948) and continuing through the Millennium Development Goals (2000-2015). By referring to commitments to human rights, equality, and freedom from want and fear, the SDGs frame development not merely as an economic project but as a moral imperative. This article aims to evaluate the truth claims and normative foundations of the SDGs from the perspective of pragmatist theory. Here, the concept of "truth" will be analyzed within the framework of pragmatic epistemology, particularly how it is understood by the classical pragmatist representatives, William James and John Dewey, and how this concept can be applied to the normative-practical structure of the SDGs. Unlike traditional philosophical theories of the nature of truth, pragmatism defines truth within the context of action, determined through its consequences. Therefore, the "truth" or validity of the goals envisioned by the SDGs can be tested based on their practical application and whether the desired outcomes are achieved. This article will first present the basic principles of the pragmatist theory of truth, highlight the similarities between the pragmatist theory of truth and the principles of the SDGs, and will focus on the pragmatist evaluation of Gender Equality (Goal 5) and Climate Action (Goal 13). Additionally, it will examine the measures taken in Azerbaijan within the SDG framework and analyze their alignment with the pragmatist ideal.

Keywords: pragmatism, SDGs, truth, instrumentalism, utility, sustainability.

АНАЛИЗ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ В КОНТЕКСТЕ ПРАГМАТИЧЕСКОЙ КОНЦЕПЦИИ ИСТИНЫ

Шамс Анвар БУНЯТОВА
Бакинский Государственный Университет
Орхидея: https://orcid.org/0000-0003-1451-8372
Электронная почта**:** shams.bunyatova@gmail.com

Резюме: Универсальные этические нормы — это основные и обязательные принципы для человечества. Другими словами, их можно определить как универсальные ценности, одинаково важные для всех людей. 2030 годовая программа Организации Объединенных Наций предполагает мир, основанный на таких нормах, охватывающих высокие цели, такие как "уважение к правам человека и человеческому достоинству, верховенство закона, справедливость, равенство и недопущение дискриминации". Эти идеалы соответствуют многовековым этическим и философским принципам. Кроме того, Цели устойчивого развития (ЦУР) были разработаны на основе глобального морального консенсуса, сформировавшегося за десятилетия, начиная с Всеобщей декларации прав человека (1948 года) и продолжая через Цели развития тысячелетия (2000–2015). Ссылаясь на обязательства по правам человека, равенству, свободе от нужды и страха, ЦУР рассматривают развитие не просто как экономический проект, но как моральный императив. В этой статье ставится цель оценить утверждения о правде и нормативные основы ЦУР с точки зрения прагматистской теории. Здесь концепция "истины" будет проанализирована в рамках прагматической эпистемологии, особенно того, как она понимается классическими прагматистами, такими как Уильям Джеймс и Джон Дьюи, и как эта концепция может быть применена к нормативно-практической структуре ЦУР. В отличие от традиционных философских теорий природы истины, прагматизм определяет истину в контексте действия, определяемую через его последствия. Следовательно, "истина" или обоснованность целей, предусмотренных ЦУР, могут быть проверены на основе их практического применения и достижения желаемых результатов. В статье будут представлены основные принципы прагматистской теории истины, рассмотрены сходства между прагматистской теорией истины и принципами ЦУР, а также проведена прагматистская оценка Цели 5 (Равенство полов) и Цели 13 (Действия по климату). Кроме того, будет проанализирована деятельность, проводимая в рамках ЦУР в Азербайджане, и ее соответствие прагматистской идее.

Ключевые слова: прагматизм, ЦУР, истина, инструментализм, полезность, устойчивость.

Giriş

Praqmatizmin həqiqət anlayışı.

Termin kimi kökləri Protoqorun fəlsəfəsinə qədər gedib çıxan “praqma” sözü fəaliyyət göstərmək, tətbiq etmək mənasını verir. Praqmatistlər üçün dünyanın təbiəti haqqında sabit fikirlər, dini bilik və inanc da daxil olmaqla, həqiqətin mahiyyətinə dair mütləq iddialar şübhəli hesab edilir və tərəqqinin qarşısını alan maneələr kimi qəbul olunur. Empirik tədqiqat üsullarına əsaslanan praqmatistlər üçün həqiqətin plüralist mahiyyəti keçərlidir. Bu mənada plüralizmin tərəfdarları kimi praqmatistlər fəlsəfədə, dində və insan davranışında mütləqiyyətin bütün formalarına qarşı çıxırlar, digər tərəfdən isə empirizmə olan bağlılığına görə, praqmatizm konkret və əldə edilə bilən məqsədlərə fokuslanır.

Praqmatiklər üçün həqiqət özlüyündə dəyişkən, kollektiv xarakterli olmaqla birlikdə, tam anlamı ilə heç zaman mücərrəd bir anlayış deyil və həmişə etik və praktik fəaliyyətlə birbaşa bağlıdır. Beləliklə, praqmatizmə görə, insan təcrübəsindən kənar heç bir transsendent, obyektiv bilik mənbəyinin olmaması ideyası həqiqətin müvəqqəti xarakterini dəstəkləyir. Başqa sözlə, bütün bilik formaları onlardan daha yaxşısı meydana çıxana qədər müvəqqəti olaraq etibarlı hesab olunsa da, onların hər biri rasional araşdırma və kollektiv əsaslandırma ilə mümkün olan davamlı təkmilləşməyə tabedir. Beləliklə, praqmatistlər həqiqətin insanların həyatını yaxşılaşdırmağa necə dəstək ola biləcəyini öyrənməyə çalışırlar

Praqmatist epistemologiyaya əsasən, gerçəklik sabit, mütləq bir struktur deyil, əksinə daima dəyişən və yenilənən praktiki proseslərdə formalaşır. Bu mənada, o gələcək nəticələrə fokuslanması baxımından proqnoztik, insanın ətrafındakılarla münasibəti sayəsində hər səfərində yeni həqiqətləri əldə etməsi iddiası baxımından isə təkamülçü fəlsəfədir deyə bilərik. XIX əsrdə Ç.Pirs və U.Ceymsin başçılığı ilə ABŞ-da meydana çıxan, C.Dyuinin əsərləri ilə tanınan və XX əsrin əvvəllərində məşhurlaşan bu fəlsəfi cərəyana əsasən, bilik faydalı olduğu müddətcə həqiqətdir. Başqa sözlə, praqmatizm bir inancın həqiqət dəyərini onun material dünyaya, gerçəkliyə uyğunluğunda deyil, praktiki uğuru, faydasında görür. Ümumilikdə, praqmatizmin təməl prinsipi “metod yox, nəticədir” şəklində ifadə edə bilərik (Wells, 1986). İnsanın mahiyyətinə dair teleoloji yanaşma və praktikaya metodoloji bağlılıq praqmatist fəlsəfənin, xüsusilə U.Ceyms praqmatizminin açar anlayışlarıdır (Suckiel, 2003). Bu mənada praqmatizm doqmatik prinsiplərə, abstrakt nəzəriyyələrə deyil, prosesin

nəticəsinə fokuslanmağı təklif edir (James, 1907). Pirs və Dyui bu baxımdan, həqiqəti sorğulamanın nəticəsi kimi qəbul edirlər, yəni bir iddia yalnızca sınandıqdan sonra "doğru" və "yanlış" kimi dəyərləndirilə bilər. Korrespondent nəzəriyyənin həqiqət anlayışını isə nominal doğrular və faydasız adlandıran praqmatistlərə görə, bu həqiqətlər insanlara real həyatda bələdçilik edə bilmir. Nəticə etibarilə, praqmatizm "həqiqət nədir" sualını "həqiqətin faydası nədir" sualı ilə əvəzləyir. Bu baxış bucağı dəyərlər və normalar sahəsinə də tətbiq oluna bilər: hansısa etik prinsip və ya sosial məqsəd insanların ehtiyaclarına cavab verdiyi, həyatlarında müsbət dəyişikliklərə yol açdığı müddətcə mənalı və doğrudur. Yəni, praqmaztizmin müdafiə etdiyi fikir ondan ibarətdir ki, etik prinsiplər və ya sosial ideallar mütləq deyil, təcrübə ilə sınaqdan keçirilməli və təkmilləşdirilməsi mümkün "dəyişgən fərziyyələr"dir. Bu prinsiplər əsasında problemə yanaşsaq, qlobal və normativ layihə olan Dayanıqlı İnkişaf Məqsədlərini sabit doqmalar toplusu kimi deyil, praktikada sınanıla biləcək məqsəd və siyasi tədbirlər toplusu kimi qiymətləndirmək olar.

Ç.Pirs "Fikirlərimizi açıqlamağın yolları" adlı əsərində fəlsəfəsinin əsasını təşkil edən "pragmatik maksimumu"nu belə təsvir edir: "Praktik təsiri ola biləcək fikirləri nəzərə alarkən, təsəvvür etdiyimiz obyektin bu təsirlərə sahib olduğunu qəbul edirik. O zaman gözlənilən təsirlər haqqında düşüncəmiz, obyektə dair düşüncəmizin bütünüdür." Bunu daha sadə dildə belə izah edə bilərik ki, düşüncənin həqiqiliyi, onun yaratdığı nəticələrdən qaynaqlanır. Yəni, bir obyektin və ya fikrin mənasını, ondan əldə etdiyimiz təsirlərlə, onun effekti ilə ölçürük. Bu anlamda Pirsin praqmatizmi bir növ "məna nəzəriyyəsi"nə də toxunur. Məsələn, Alan Leturnonun qeyd etdiyi kimi Pirsə görə, iqlim dəyişikliyi nəzəriyyəsi onun problemlə bağlı ehtimal etdiyi proqnozlar baxımından məna kəsb edir. Eynilə bu düşüncə tərzini ümumi DİM-ə tətbiq etmək mümkündür.

Uilyam Ceymsin praqmatizmi Pirsin tərzindən müəyyən dərəcədə fərqlənir. Ceymsə görə, bir fikirin həqiqiliyi onun istifadəyə yararlılığındadır. Yəni əgər ideya faydalıdırsa, deməli həqiqətdir, həqiqətdirsə, deməli faydalıdır. Filosof bu fikrini "həqiqətin nəğd dəyəri" metaforu ilə açıqlayır: bir düşüncənin həqiqəti eynilə pulun dəyəri kimi onun iş qabilliyyətində, yəni gündəlik həyatda necə istifadə olunuduöuna adekvatdır (Bilgin, 2010). Beləliklə, Ceymsin nəticə yönümlü praqmatizmi Bentamın utilitarianizm fəlsəfəsi ilə bənzərlik təşkil edir.

Pirsin praqmatizmi elmi, Ceymsin praqmatizmi isə psixoloji yanaşmaya meyl etdiyi halda, bu nəzəriyyənin digər nümayəndəsi Con Dyui əksər hallarda sosial praqmatist adlandırılır. Öz fəlsəfəsini "instrumentalizm" kimi təqdim edən Dyuinin əsas tövhəsi demokratik kontekstə biliyin-həqiqətin sosial meyarının vurğulanması olmuşdur (Canard, 2011). O biliyi bəşəriyyətin ətraf mühitə və cəmiyyətə uyğunlaşması üçün istifadə etdiyi alət kimi dəyərləndirirdi.

XXI əsrin praqmatizm fəlsəfəsinin görkəmli nümayəndəsi Alan Leturnoya görə isə, praqmatizm inandığımız şeylər, ideoloji həqiqətlər deyil, vacib olan nəticələr və ona aparan vasitələrdir. Praqmatist təsirli görünmək üçün formal düşüncələr və prosedurlara yönəlmiş şəxs deyil, əksinə praqmatizm məna, həqiqət fəlsəfəsi, "məqsədlərə və onlara çatmaq vasitələrinə dair aktiv fəaliyyətdir" (Letourneau, 2010).

XXI əsrin həqiqət modeli kimi Dayanıqlı İnkişaf Məqsədləri: Praqmatik perspektivdən təhlili.

Ümumilikdə, praqmatizm doqmatizm əleyhinə çıxış edən, həqiqət anlayışını fəaliyyət və təcrübə üzərində inşa edən fəlsəfədir. Cefri Yorkun izah etdiyi kimi, "praqmatik qərar vermə mexanizmi hal-hazırda bilinən həqiqətlər və bu həqiqətlərin gələcəkdəki nəticələrini diqqətə almağa fokuslanıb" (York, 2009). Beləliklə, bu perspektivi DİM-ə tətbiq etsək, onlar bu günün həqiqətləri, reallıqları kimi qəbul edilməli və hər kəs problemlərin aradan qaldırılması üçün kiçik belə olsa addımlar atmağa təşviq olunmalıdır. Deyilənləri nəzərə alaraq, davamlılıq konsepsiyasını başa düşmək üçün praqmatik həqiqət nəzəriyyəsini anoloji yanaşma kimi istifadə etmək məqsədə uyğundur. Xüsusilə, Pirsin həqiqət anlayışı ilə dayanıqlılıq ideyasını əlaqəli şəkildə təhlil olunmasını müxtəlif aspektlərdən izah etmək olar:

1. "Korrespondensiya"dan "transformasiya"ya keçid. Qərb fəlsəfəsi Aristoteldən bu yana, xüsusilə, Dekartın da güclü təsiri ilə həqiqəti düşüncə ilə subyektdən kənardakı gerçəklik arasındakı korrespondensiya kimi ələ almışdır. Başqa sözlə həqiqətin klasssik formulu onun xarici aləmlə uyğunluğuna, ekvivalentliyinə əsaslanır. Halbuki, praqmatist kosepsiya həqiqətə təcrübə və fəaliyyət nəticəsində əldə olunan, eyni zamanda daimi inkişafda olan bir anlayış kimi yanaşır. Bu isə öz növbəsində birbaşa DİM-in davamlılıq prinsipi ilə əlaqələndirilə bilər. Beləliklə, davamlılıq daimi inkişafa, dəyişən şərtlərə cavab verən, daimi yeni bilik və təcrübələri mənimsəyən proses kimi qəbul edilməlidir. Yəni ona statik deyil, dəyişən dünyaya uyğunlaşan, gələcəyə yönəlmiş məqsədlər cəmi kimi baxmaq olar.

2. İnkişaf edən və sorğulayan cəmiyyətin araşdırma müddətində kritik rolunun vurğulanması. Praqmatist yanaşmada, xüsusilə Pirsin fəlsəfəsində həqiqətə sadəcə fərdi kəşf deyil, sorğulayan cəmiyyətin kollektiv səylərinin, bilik-həqiqət axtarışının nəticəsi kimi baxılır. Əsas etibarilə, tənqidi şüura malik tədqiqatçılardan ibarət cəmiyyət modelini dəstəkləyən

Pirsin bu fikri DİM çərçivəsində insanların bu proqramı həqiqətən dərk edərək, universal həqiqət kimi qəbul etmələri istiqamətində interpretasiya oluna bilər. Məsələn, Kay Li (Lee, 1993) elmi tədqiqatlardan istifadə edərək dayanıqlı siyasət modelini daha da yaxşılaşdırmağa çalışan siyasətçilər üçün epistemoloji cəmiyyətlərin formalaşmasını, beləliklə də dünyanın resusrlarının daha yaxşı idarəçiliyinə fürsət yaradacağını iddia edir. Bu mənada, DİM-in əsas elementi kimi davamlılıq, ictimai məqsəd olmalı, təkcə hökumətlər və ya kooperasiyalar tərəfindən qəbul edilən qərarlarla deyil, fərdlər, icmalar və müxtəlif maraqlı tərəflərin birgə hazırlanmış əməkdaşlıq həlləri ilə formalaşmalıdır. Burada davamlılıq cəmiyyətin davamlı olaraq sorğuladığı, rəy bildirdiyi və birlikdə qərarlar qəbul etdiyi bir proses kimi başa düşülür. Həmçinin, ictimaiyyətin iştirakı və tənqidi düşüncə prinsipi davamlılığa nail olmaq üçün əsas faktorlardandır. Habelə, DİM təkcə cəmiyyət üçün deyil, tək-tək fərdlər üçün son məqsəd olmalıdır. Yorkun da ifadə etdiyi kimi ekoetika insanlar tərəfindən "eudomonia" (son məqsəd kimi xoşbəxtlik) səviyyəsində qəbul olunmalı, onların vərdişlərinin bir hissəsi kimi başa düşülməlidir (York, 2009). Yəni ümumilikdə, DİM cəmiyyətdən təcrid olunmuş siyasi tədbirlər deyil, insanların xarakterinin bir elementinə çevrilməlidir.

3. Davamlılığın praqmatik həqiqətə uyğun tərifi. DİM və praqmatik həqiqət konsepsiyasını vəhdətdə təhlil ediriksə, dayanıqlılıq və davamlılığın adekvat tərifi praqmatizmin həqiqət anlayışını əhatə etməli, sosial, ekoloji və iqtisadi dəyişikliklərə uyğunlaşmalı və davamlı olaraq inkişaf etməlidir. Davamlılıq cəmiyyətlərin və ekosistemlərin ehtiyaclarını nəzərə almalı, sadəcə müvəqqəti deyil, uzunmüddətli həllər təklif etməlidir. Bu, Pirsin həqiqətə yanaşmasında olduğu kimi, sadəcə nəzəri həqiqəti axtarmaq deyil, sosial və ekoloji reallığa əsaslanan, daim təkmilləşən və sınaqdan keçirilən yol xəritəsinin cızılmasını tələb edir (Norton, 1999).

Beləliklə, həqiqətin praqmatik dərk edilməsinin DİM ilə əlaqələndirilməsi, inkişaf etməkdə olan və sorğulayan cəmiyyətin prosesə rəhbərlik etməsi, dəyişikliyə adaptasiyası və davamlı innovasiyaların ardınca getməsinin vacibliyini vurğulayır. Davamlılıq sabit bir məqsəd deyil, sosial əməkdaşlıq və təcrübə vasitəsilə təkmilləşən bir proses hesab edilməlidir. Bu yanaşma aspektindən davamlılıq sadəcə bir nəticə kimi deyil, cəmiyyətlər, iqtisadi və ekosistemlərin daim inkişaf edən və bir-biri ilə əlaqəli dinamikası kimi təhlil olunur.

Norveçin Baş Naziri Qro Harlem Brundtlandın rəhbərlik etdiyi "Ortaq Gələcəyimiz" kimi də tanınan "Brundtland Hesabatı" 1987-ci ildə BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Ümumdünya Komissiyası tərəfindən dünyanın və ətraf mühitin mühafizəsini prioritetləşdirmək üçün sosial və iqtisadi inkişaf siyasətlərinin zəruriliyini vurğulamışdır. Bu zaman həll yolu kimi isə "davamlı inkişaf" anlayışından istifadə edilmişdir. Konsepsiya fundamental olaraq gələcək nəsillərin ehtiyaclarının ödənilməsi və onların rifahı nəzərə alınmaqla sosial inkişafın planlaşdırılması yolu ilə təbii ehtiyatlardan istifadə kimi müəyyən edilmişdir. Konsepsiyanın təklif edilməsindən beş il sonra, 1992-ci ildə "Gündəlik 21", ölkələrin davamlı və ədalətli gələcək qurmağa borclu olduqları prinsipləri əks etdirən Rio Bəyannaməsində qlobal fəaliyyət planı kimi qəbul edildi. Hazırda bir çox təşkilatın davamlılıq kontekstində prioritet hesab etdiyi "Gündəlik 2030: Dayanıqlı İnkişaf Məqsədləri" 2015-ci ildə BMT-nin Davamlı İnkişaf Konfransında qəbul edilmiş və üç əsas problemi həll etmək üçün 17 məqsəd, 169 hədəf müəyyən edilmişdir: ifrat yoxsulluğa son qoymaq, iqlim dəyişikliyi ilə mübarizə, ədalətsizlik və bərabərsizliyə qarşı mübarizə. Məqsəd 2030-cu ilə qədər davamlı inkişafa nail olmaq idi (Gedikkaya Bal et., 2022). Bu hədəflər, "heç kimi kənarda qoymamaq" ("leave no one behind") prinsipini rəhbər tutaraq, ümumi rifaha nail olmaq və planeti qorumaq üçün bütün ölkələrin atmalı olduğu addımları müəyyənləşdirən hərtərəfli tədbirlər sistemidir. Eyni zamanda hər məqsəd bir sıra altməqsədləri və göstəriciləri özündə ehtiva edir. Məsələn, gender bərabərliyi (DİM 5) qadınların qərar qəbulunda iştirakından başlayaraq qadınlara qarşı zorakılığa son qoyulmasına qədər müxtəlif alt məqsədləri, iqlim fəaliyyəti (DİM 13) isə iqlim siyasətlərinin inteqrasiyası və əhatə dairəsinin genişləndirilməsi kimi alt məqsədləri əhatə edir. Bu strukturda DİM-lər mücərrəd ideallar deyil, ölçülə bilən və izlənilə bilən hədəflər kimi tərtib edilmişdir.

DİM-lərin normativ ölçüsü ümumbəşəri dəyərlərə əsaslanır. Bərabərlik, ədalət, insan ləyaqəti və ətraf mühitin davamlılığı kimi anlayışlar DİM-lərin məğzini təşkil edən fundamental prinsiplərdir. Məsələn, SDG 5 "gender bərabərliyinə nail olmaq, qadınlar və qızların müxtəlif sahələrdə güclərinin biruzə verilməsi" məqsədini ortaya qoyur, onun əsasında dayanan normativ iddia isə gender bərabərliyinin bütün situasiyalarda doğruluğunu göstərmək istiqamətindədir. Eynilə, SDG 13, "iqlim dəyişikliyi ilə mübarizə üçün təcili tədbirlər" çağırışı ilə, iqlim böhranına biganə qalmamağın əxlaqi imperativ olduğunu nəzərdə tutur. Bununla belə, bu normativ iddialar həm də praktiki nəticələrə əsaslanır: Birləşmiş Millətlər Təşkilatının mətnlərində tez-tez bildirilir ki, "gender bərabərliyi təkcə fundamental insan hüququ deyil, həm də dinc, firavan və davamlı dünya üçün əvəzsiz əsasdır". Bu fikir etik prinsip (bərabərlik hüquqdur) ilə əməli nəticə arasında bağ qurur (bu, sülh

və rifahın şərtidir). Eynilə, iqlimlə bağlı fəaliyyətin zəruriliyi elmi məlumatlar və onun sosial təsirləri ilə dəstəklənir, məsələn, planetin yaşamaq qabiliyyətinin qorunub saxlanılmasının gələcək nəsillərin rifahı üçün vacib olduğu arqumenti ilə dəstəklənir.

Bu baxımdan DİM-i texnokratik və rasionalist perspektivlərə əsaslanan pozitivist-praqmatik bilik nəzəriyyəsinə söykənir. Burada pozitivizm "reallığın empirik yoxlanılma yolu ilə aşkar edilə bilən, səbəb-nəticə qanunları idarə olunduğu bilik nəzəriyyəsi" (Fischer, 1998) kimi başa düşülür. Kris Hartli DİM-i 21-ci əsrin "modern layihəsi" kimi təsvir edərək, onların maarifçilik ruhlu universalist rasionallığı və beynəlxalq əməkdaşlığın məntiqini əks etdirdiyini bildirir (Hartley, 2020). Həqiqətən də, DİM-lərin həyata keçirilməsi qlobal səviyyədə standartlaşdırılmış göstəricilərin monitorinqi və elmi məlumatlara əsaslanan siyasətlərin həyata keçirilməsi ilə bağlıdır.

Lakin onu da qeyd etmək vacibdir ki, ümumbəşəri standartlar qoyan DİM-in yerli reallıqlar və müxtəlif dəyərlərlə toqquşması ehtimalı yüksəkdir. Məsələn, bütün ölkələrə vahid hədəflər və göstəricilər tətbiq edilərkən yerli şərait və ya mədəni fərqlər adekvat şəkildə nəzərə alınmaya bilər. Buna görə də, son illərdə standartlaşdırılmış məlumat və siyasət çərçivələri ilə DİM-lərin lokallaşdırılması prosesində yerli maraqlı tərəflərin iştirakı arasında gərginliyin yarandığı vurğulanır (Hartley, 2020).

Məhz bu nöqtədə praqmatist yanaşma DİM-in tətbiq olunmasında iştirak, çeviklik və sınama-öyrənmə prinsiplərinə üstünlük verilməsini təklif edir. K. Hartli Foresterin "tənqidi praqmatizm" konsepsiyasına istinad edərək, DİM-in uğurlu nəticələnməsinin şərtləri kimi iştirakçılıq və tənqidi öyrənmə prosesinə əsaslanmasını müdafiə edir. Tənqidi praqmatizm siyasətin formalaşmasında həm prosesə, həm də nəticəyə diqqət yetirən yanaşmadır; həqiqət iddialarına şübhə ilə yanaşmaqla yanaşı, müxtəlif maraqları və dəyərləri nəzərə alır; və maraqlı tərəflərin qərarların qəbulunda fəal iştirakına üstünlük verir. Belə perspektiv DİM-lərin icra mexanizmlərində "hamıya uyğun, tək doğru" həll yolu axtarmaq əvəzinə, sınama-yanılma metodu ilə inkişafı, davamlı olaraq rəyləri nəzərə alma prinsipi əsasında siyasətin qurulması və irəliləyişi təşviq edir. Həqiqətən də, Foresterin fikrincə, tənqidi praqmatizm mürəkkəb və qeyri-müəyyən ictimai problemlərin həllində "biz həqiqətən nə edə bilərik?" sualına diqqəti cəmləməyi və dərin fikir ayrılıqlarına baxmayaraq, effektiv birgə fəaliyyət imkanlarının araşdırılmasını tələb edir. Bu perspektiv DİM-lərin qlobal miqyasda müəyyən edilmiş məqsədlərini hər bir cəmiyyət üçün praktiki olaraq əlçatan komponentlərə bölməyi və icra zamanı yaranan problemlərə uyğun olaraq onlara çevik şəkildə yenidən baxılmasını dəstəkləyir (Forester, 2013).

Digər tərəfdən, "dayanıqlılıq" anlayışı əvvəllər daha çox təbii sistemin yenidən qurulması potensialını yüksəltməyə doğru yönəlmişdisə, artıq gələcək nəsillərə ötürülə bilən daha ədalətli və firavan dünyanı təsvir edən sosial təkamülün açarı hesab olunur (Dyllick & Hockerts, 2001). Praqmatik nöqteyi-nəzərdən yanaşsaq, bir-birilə qarşılıqlı əlaqə və təsirdə olan davamlılığın üç ölçüsünün - iqtisadi, ekoloji və sosial - eyni vaxtda yerinə yetirilməsi uzunmüddətli davamlılıq məqsədləri üçün zəruridir (Dyllick & Hockerts, 2001).

Beləliklə, DİM-in normativ və praktiki strukturu bir yandan universal həqiqətləri müəyyən edərkən, digər tərəfdən onların müvəffəqiyyət ehtimallarını və həyata keçirilmə strategiyalarını müəyyənləşdirir. Həqiqətin praqmatist konsepsiyası isə bu prinsiplərə kənardan tənqidi baxış imkanı verir, yəni "bu məqsədlər doğrudurmu?" sualını "bu məqsədlər praktikada fayda verirmi? Gözlənilən nəticələri verirmi?" sualı ilə əvəz edir.

Praqmatist Perspektivdən Gender Bərabərliyi (DİM 5).

DİM 5: Gender Bərabərliyi bütün qadınların və qızların ictimai və şəxsi həyatın bütün sahələrində bərabər hüquq və imkanlara malik olmasını təmin etmək məqsədi daşıyır. Bu məqsəd normativ qaydaya əsaslanır: gender bərabərliyi mahiyyət etibarilə dəyərlidir və əvəzolunmazdır. Klassik əxlaq nəzəriyyələrində bu iddia ədalət prinsipinə ("insanlar bərabər dəyərdədir" müddəasının doğruluğuna). Bununla belə, praqmatist həqiqət anlayışı gender bərabərliyinin dəyərini və "doğruluğunu" onun praktiki nəticələrinə əsaslandırmağı təklif edir. Bu baxımdan "Gender bərabərliyi niyə lazımdır?" sualının cavabı "bərabərliyə nail olmaq cəmiyyətdə faydalıdır və müsbət nəticələr verir" ola bilər. Həqiqətən də, Birləşmiş Millətlər Təşkilatının qeyd etdiyi kimi, qadınların səlahiyyətlərinin artırılması və bərabər iştirakı dinc və firavan cəmiyyətin qurulmasında mühüm rol oynayır. Bərabərliyin olmadığı halda sosial resursların bir hissəsi və qadınların istedadları istifadəsiz qalır, iqtisadi inkişaf və demokratik təmsilçiliyin qarşısı alınmış olur. Buna görə də, praqmatik nöqteyi-nəzərdən gender bərabərliyinin əsl dəyəri onun qəbul edilməsinin praktikliyindən, yəni geniş sosial faydalarından irəli gəlir.

DİM 5-İ bu mənada Uilyam Ceymsin "həqiqət inancın praktiki nəticələri ilə ölçülür" anlayışına tətbiq etsək, əgər bu inanca uyğun hərəkətlər (məsələn, qadınların təhsili, siyasi iştirak və məşğulluğu üçün imkanların yaradılması) sosial həyatda nəzərəçarpacaq irəliləyişlərə səbəb olarsa, "qadınlar kişilərlə bərabər hüquqlara malik olmalıdırlar" inamı praqmatik cəhətdən əsaslandırılır. Həqiqətən də, qadınların səlahiyyətlərinin artırılmasının nəticələrinə dair

çoxsaylı tədqiqatlar göstərmişdir ki, bu, iqtisadi artımı sürətləndirir, ailənin rifahını artırır, uşaqların təhsil və sağlamlıq göstəricilərini yaxşılaşdırır. Bu onu deməyə əsas verir ki, praqmatik nöqteyi-nəzərdən gender bərabərliyi məqsədi faydalı nəticələr verəcəyi dərəcədə "doğru" sayıla bilər.

Con Dyuinin perspektivindən məsələyə baxsaq, demokratik cəmiyyət yalnız bütün fərdlərin bərabər iştirakı və hər kəsin təmsilçiliyi ilə problemlərin həll edildiyi mühitdə inkişaf edə bilər. Bu kontekstdə gender bərabərliyi sadəcə mənəvi imperativ deyil, demokratik və məhsuldar cəmiyyəti mümkün edən şərtdir. Dewey-nin əxlaqi prinsipləri empirik sınaqdan keçirməsi anlayışına uyğun olaraq, gender bərabərliyi istiqamətində atılan addımların gətirdiyi transformasiya daim izlənilməli və siyasətlər buna uyğunlaşdırılmalıdır. Məsələn, əgər ölkədə qadınların siyasi iştirakını artırmaq üçün kvotalar tətbiq edilirsə, bu təcrübənin nəticələri (qadınların qərar qəbul etmə proseslərinə təsiri, qanunların qadın hüquqlarını nə dərəcədə qoruması və s.) araşdırılmalıdır; gözlənilən irəliləyiş əldə olunmazsa, metod dəyişdirilməlidir. Həqiqətin fəaliyyətlə reallaşdığı praqmatik prinsipə görə, bərabərliyə yönəlmiş siyasətin uğuru onların etibarlılığının ölçüsünə çevrilir.

Azərbaycan timsalına nəzər saldıqda praqmatist yanaşmanın izlərini daşıyan nəticələri görmək mümkündür. Son illər ölkədə qadınların ictimai həyatda rolunun artırılması istiqamətində əməli addımlar atılır. Məsələn, parlamentdə qadınların təmsilçiliyinin artırılması, yüksək vəzifələrdə qadınların olması, vətəndaş cəmiyyəti layihələri vasitəsilə qadınların liderliyinin təşviqi kimi tədbirlər öz bəhrəsini verməyə başlayıb. Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın himayəsi ilə həyata keçirilən sosial proqramlar qadınların təhsil, səhiyyə və iqtisadi həyatda səlahiyyətlərinin artırılmasına öz töhfəsini verir.

Praqmatist nöqteyi-nəzərdən gender bərabərliyi siyasətinin legitimliyi onların effektivliyindən asılıdır. Bu mənada bərabərlik prinsipi mücərrəd "həqiqət" kimi deyil, sosial həyatı yaxşılaşdırmaq vasitəsi kimi görünür və əgər gender bərabərliyi cəmiyyət həyatını stabilləşdirməyə şərait yaradırsa, bu, praqmatik nöqteyi-nəzərdən onun ən güclü əsaslandırmasıdır.

Praqmatist Perspektivdən İqlim Fəaliyyəti (DİM 13).

DİM 13: İqlim Fəaliyyəti, iqlim dəyişikliyinin təxirə salınmaz və qlobal böhran olduğuna əsaslanaraq, bütün ölkələri bu təhlükəyə qarşı təcili tədbirlər görməyə çağırmaq məqsədi daşıyır. İqlim dəyişikliyi elmi tədqiqatlarla təsdiqlənməsi və onun təsirlərinin gündəlik həyatda belə hiss olunması baxımından o, elmi həqiqət kimi təhlil oluna bilər. Məsələn: atmosferdə istixana qazlarının yığılması planetin temperaturunu yüksəldir və iqlim sistemində təhlükəli dəyişikliklərə səbəb olur. Buna görə də, "iqlim fəaliyyəti zəruridir" təklifi fiziki reallıq haqqında təsdiqlənmiş məlumatlar əsasında qurulmuşdur. Lakin bu fikrin qlobal siyasi arenada əhəmiyyətinin artması onun normativ akt kimi qəbul edilməsindədir. Başqa sözlə, DİM 13 sadəcə olaraq, iqlim dəyişikliyinin həqiqət olduğunu bildirmir o, iqlim dəyişikliyi ilə mübarizə aparmadığımız təqdirdə insanlığın taleyinin təhlükədə olduğunu vurğulayır. Bu məqamda, məsələyə praqmatizmin aspektindən baxsaq, bir tərəfdən elmi məlumatların praktiki dəyərinə nəzər salaraq, digər tərəfdən isə passiv müşahidənin mənfi nəticələrinə əsaslanaraq iqlim fəaliyyətininin həqiqiliyini qiymətləndirmək mümkündür. Qeyd etdiyimiz kimi, praqmatist epistemologiya iddianın həqiqiliyi onun səbəb olduğu nəticələr ilə ölçülür. Beləliklə, məsələn: "Karbon emissiyalarını azaltmalıyıq" ifadəsinin həqiqiliyi bu prinsipə uyğun qərarların (bərpa olunan enerjiyə keçid, meşələrin qırılmasının dayandırılması və s.) gözlənilən müsbət nəticələri verib-verməməsi ilə yoxlanılacaq. Yəni qlobal temperatur artımının qarşısının alınması, iqlim fəlakətlərinin (daşqınlar, quraqlıqlar, ekstremal hava hadisələri) müəyyən mənada azaldılması, ekosistemlərin qorunması və bununla da bəşəriyyətin təhlükəsizliyinin təmin edilməsi kimi məqsədlərə doğru DİM 13 çərçivəsində atılan addımlar nəticəsində belə nəticələr, hətta uzunmüddətli perspektivdə də əldə oluna bilərsə, deyə bilərik ki, iqlim fəaliyyəti məqsədi praqmatik olaraq əsaslandırılmışdır. Əks halda, qlobal birlik iqlim böhranına qarşı kostruktiv fəaliyyət göstərə bilməsə və alınan qərarlar yetərli olmasa, biz bunun nəticələrini öz gözlərimizlə görəcəyik. Bu halda, DİM 13 öz praqmatik əhəmiyyətini itirrəcək.

Con Dyuinin yanaşmasını nəzərə alsaq, belə mürəkkəb problemdə empirik əsaslandırma və kollektiv fəaliyyət əsasdır. Brayan Norton, ətraf mühiti qoruma layihələrində təcrübəyə əsaslanan praqmatizm və dəyərlərin müxtəlifliyi, həmçinin lokal şərtləri nəzərə alan "adaptiv metod"un balanslı tətbiqini vacib hesab edir. Çünki hər iki yanaşma iştirakçıların fərqli ehtiyaclarını nəzərə alaraq vahid məqsədə çatmağı hədəfləyir. Beləliklə, Norton bu metodun ideoloji enviromentalizmin yol açdığı qütbləşmənin qarşısının ala biləcəyi fikrini və proqramların praqmatik olmasını müdafiə edir.

Digər praqmatik ölçü çoxsahəli və çoxtərəfli əməkdaşlığa ehtiyacdır. İqlim dəyişikliyi o qədər geniş problemdir ki, onun həlli iqtisadiyyat, texnologiya, cəmiyyət və siyasətin birgə səylərini tələb edir. 2024-cü ildə Azərbaycanın ev sahibliyi etdiyi COP29 (BMT-nin İqlim Dəyişikliyi üzrə 29-cu Konfransı) çərçivəsində başlanmış Bakı Təşəbbüsü bu baxımdan praqmatist təfəkkürün nümunəsi kimi qəbul edilə bilər.

Bu təşəbbüs iqlim fəaliyyətini gücləndirmək üçün maliyyə, investisiya və ticarət siyasətlərini iqlim məqsədləri ilə uyğunlaşdırmaq məqsədi daşıyırdı. Həmçinin Bakı Təşəbbüsü nümayiş etdirdi ki, iqlimlə bağlı fəaliyyətin uğurlu olması üçün mücərrəd öhdəliklərdən kənarlaşaraq, konkret addımlar atmaq vacibdir. Praqmatik olaraq, bu təşəbbüs iqlim fəaliyyətini real dünya şərtləri ilə əlaqələndirir. Belə ki, bəzi hallarda inkişaf etməkdə olan ölkələrin maliyə bazası kifayət qədər olmadıqda, qlobal iqlim hədəflərinin kağız üzərində qalacağı ehtimalını yaradır. Bu mənada, Bakı Təşəbbüsü tərəfindən vurğulanan siyasətin uyğunluğu prinsipi (ticarət, investisiya və iqlim siyasətinin qarşılıqlı dəstəyi) praqmatist yanaşmanı əks etdirir: müxtəlif siyasət sahələrinə bütöv şəkildə müraciət etmək praktikada effektiv nəticələrə nail olmaq üçün vacibdir. Praqmatizm həm də iqlim fəaliyyətində yerli bilik və təcrübənin vacibliyini vurğulayır. Vahid qlobal formul əvəzinə, hər bir icma öz reallıqlarına uyğun hansı siyasətin işlədiyini tapmaq üçün proqramları sınaqdan keçirməlidir. Məsələn, fərqli tərəflər biomüxtəlifliyi müxtəlif perspektivlərdən dəyərləndirir. Bəziləri biomüxtəlifliyin insanlıq üçün dəyərini məqsəd kimi görür, digərləri sosial ədalət və mədəni dəyərlər baxımından, bir başqaları isə iqtisadi dayanıqlılıq kontekstindən onun qorunması məqsədini güdür (Robinson, 2011). Müvafiq olaraq, nümunə kimi Conservation International təbiəti mühafizə üzrə QHT ilə Braziliyanın yerli əhalisi Kayapo ilə əməkdaşlığını göstərə bilərik. QHT-nin məqsədi müstəsna biomüxtəlifliyi qorumaq, yerli qrupun məqsədi isə torpaqlarını təcavüzdən qorumaq idi (Chernela, 2005). Bu, C. Foresterin (Forester, 2013) təklif etdiyi tənqidi praqmatizmə uyğun olaraq, qərar qəbuletmə proseslərində yerli maraqlı tərəflərin iştirakını da əhatə edir. Məsələn, bir sahil qəsəbəsində iqlim siyasətinin proqramları tətbiq ediləcəksə, balıqçılar, fermerlər, qadınlar, gənclər – bütün sosial qruplar prosesə daxil edilməlidir; bu iştirak həyata keçirilən tədbirlərin yerlərdə aktual olub-olmamasını və onların əhali tərəfindən qəbul edilib-edilməyəcəyini müəyyən etmək üçün unikal vasitədir. Nortonun dili ilə desək, praqmatizm cəmiyyəti tədricən konsensusa yönləndirməyi vəd edən metoddur (Norton, 2025). Çünki yalnız bu yolla verilən təklifləri "dəyirmi masa mühitindən" çıxara və real həllərə çevirə bilərik.

Bu yanaşma həm də Pirsin praqmatizmi ilə əlaqələndirilir ki, "həqiqət müvafiq icma daxilində araşdırma prosesi ilə müəyyən edilir". Həqiqət bir cəmiyyətin paylaşılan təcrübəsi vasitəsilə süzülür. Nəticə etibarilə, DİM 13 kontekstində həqiqətin praqmatik dərk edilməsi iqlim böhranı ilə mübarizəni statik öhdəlikdən dinamik öyrənmə prosesinə çevirir. Bu perspektiv bəşəriyyəti iqlim dəyişikliyi qarşısında çevik və yaradıcı tədbirlər planı hazırlamağa dəvət edir. Burada həqiqət son nəticə deyil, kollektiv təcrübə çərçivəsində davamlı olaraq qurulan bilik sistemi kimi başa düşülür. Nəhayət, praqmatizmin həqiqət nəzəriyyəsi DİM-ə mütləq nikbinliklə deyil, tənqidi optimizm aspektindən yanaşır. Praqmatizm dəyərlərin və məqsədlərin əhəmiyyətini, vacibliyini qəbul edir, lakin onların həqiqi mənasını və dəyərini praktikada yerinə yetirilmələri perspektivindən qiymətləndirir. Praqmatizm "Dayanıqlı inkişaf" diskursuna bəşəriyyətin konkret problemlərini həll edə bildiyi və konkret nəticələr əldə etdiyi təqdirdə həqiqət kimi qəbul edir. Buna görə də, praqmatizmə əsasən, DİM-lərin uğuru əsasən onların verdiyi faydadan asılıdır. Başqa sözlə, əsas məsələ "nə işə yarayır, nə yaramır?" sualına alınan cavabdadır.Eyni zamanda, yuxarıdakıları nəzərdən keşirsək, belə bir nəticəyə gəlmək mümkündür ki, praqmatizm DİM-in əsas devizi olan "heç kimin kənarda qalmaması" prinsipinin nəzəri və praktiki ifadəsini özündə əks etdirir. Beləliklə də, həm ayrı- ayrı cəmiyyətlərin nümayəndələri üçün, həm də qlobal miqyasda hər kəs üçün faydalı hədəflərin utilitar və praqmatik prinsiplər əsasında qurulmasını təşviq edir. Azərbaycan kontekstindən nəzərdən keçirildikdə, ölkənin DİM-ə nail olmaq səylərinə praqmatist sosial öyrənmə prosesi kimi baxmaq olar. İstər inkişaf planlarında, istərsə də beynəlxalq platformalarda ifadə olunan vədlər praktikada sınaqdan keçirilir. Ölkənin 2030-cu il hədəflərinə doğru atdığı hər addım həm də "tətbiq oluna bilən həqiqət" axtarışının bir hissəsidir. İstər gender bərabərliyi, istər iqlim fəaliyyəti, istərsə də sadəcə qurumlar olsun, hər bir məqsəd praktikada sınanır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Bilgin, Ö. (2010). William James pragmatizmine eleştirel bir yaklaşım. *İlahiyat Fakültesi Dergisi, 15*(1), 163-182.

2. Canard, F. (2011). W. E. Deming, pragmatism, and sustainability. *17th Annual International Deming Research Seminar*, 1-17.

3. Chernela, J. (2005). Response to "A challenge to conservationists." *World Watch*, March/April, 11-12.

4. Dyllick, T., & Hockerts, K. (2002). Beyond the business case for corporate sustainability. *Business Strategy and the Environment, 11*, 130–141. https://doi.org/10.1002/bse.323

5. Fischer, F. (1998). Beyond empiricism: Policy inquiry in post-positivist perspective. *Policy Studies Journal, 26*(1), 129-146. https://doi.org/10.1111/j.1541-0072.1998.tb01929.x

6. Forester, J. (2013). On the theory and practice of critical pragmatism: Deliberative practice and

creative negotiations. *Planning Theory, 12*(1), 5-22. https://doi.org/10.1177/1473095212448750

7. Gedikkaya Bal, P., Ayas, M. Ö., Bozaykut, T., Yavuz Tiftikçigil, B., & Afacan Fındıklı, M. (2022). Sürdürülebilir kalkınma bağlamında uluslararası üniversite sıralama indeksleri ve Türkiye'deki üniversiteler. *Doğuş Üniversitesi Dergisi, 238*(1), 331-349. https://doi.org/10.31671/doujournal.1035962

8. Hartley, K. (2020). The epistemics of policymaking: From technocracy to critical pragmatism in the UN Sustainable Development Goals. *International Review of Public Policy, 2*(2), 233-244.

9. James, W. (1907). *Pragmatism: A new name for some old ways of thinking*. New York: Longman Green and Co.

10. Lee, K. (1993). *Compass and Gyroscope*. Covelo, CA: Island Press.

11. Letourneau, A. (2010). Pour une éthique de l'environnement inspirée par le pragmatisme : L'exemple du développement durable. *VertigO – La revue en sciences de l'environnement, 10*(1), avril 2010.

12. Norton, B. G. (1999). Pragmatism, adaptive management, and sustainability. *Environmental Values, 8*(4), 451–466. https://doi.org/10.3197/096327199129341914

13. Robinson, J.G. (2011). Ethical pluralism, pragmatism, and sustainability in conservation practice. *Biological Conservation, 144*, 958–965. https://doi.org/10.1016/j.biocon.2010.09.010

14. Suckiel, E.K. (2003). *William James'in pragmatik felsefesi* [The Pragmatic Philosophy of William James]. Çev. C. Türer. İstanbul: [Publisher].

15. Wells, H.K. (1986). *Emperyalizmin Felsefesi Pragmatizm* [The Philosophy of Imperialism: Pragmatism]. Çev. Tahsin Yılmaz. İstanbul: [Publisher].

16. York, J.G. (2009). *Pragmatic decision-making and its application to climate change action*. Journal of Policy Science, 22(1), 45-58.

DOİ: 10.32010/GMLW2203

XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ DƏRBƏNDDƏ MƏDƏNİ-MAARİF MÜHİTİ: İCTİMAİ DƏYİŞİKLİKLƏR VƏ TƏHSİL

Sevinc Hikmət ABBASOVA
Bakı Dövlət Universitetinin doktorantı,
Azərbaycan Dillər Universitetinin müəllimi
ORCID ID: https://orcid.org/0009-0001-1528-0151
E-mail: sevincabbasova1899@gmail.com

Xülasə: XIX əsrin sonu - XX əsrin əvvəllərində Dərbəndin sosial-mədəni mühiti öz rəngarəngliyi və ənənəvi və yeni dəyişikliklərin vəhdəti ilə seçilirdi. Bu dövr Rusiya imperiyasının siyasəti, iqtisadi inkişafı və cəmiyyətdə baş verən dəyişikliklərlə bağlı həm daxili proseslərin, həm də xarici amillərin yaratdığı mühüm dəyişikliklər dövrü idi. Bu dəyişiklər sosial-mədəni həyatın bütün sahələrində olduğu kimi, təhsil sahəsinə də təsir etmişdi. Çar Rusiyasının işğalına qədər Dərbənddə də ənənvi müsəlman təhsil sistemi hakim idi. Təhsil mədrəsələr, mollaxanalarda təşkil olunurdu. XIX əsrin sonlarından etibarən Rusiya hakimiyyəti sadiq yerli elitanı formalaşdırmaq üçün dünyəvi təhsil sistemini fəal şəkildə tətbiq etməyə başladı. Xalq Maarif Nazirliyinə tabe olan ibtidai xalq məktəbləri – qəza məktəbləri meydana çıxdı, burada dünyəvi fənlər və rus dili öyrədilirdi. Buna baxmayaraq, dini məktəblərin fəaliyyətinə də icazə verilirdi, lakin, burada da rus dilinin tədris olunması əsas şərt kimi irəli sürülmüşdü. Bunun əsas səbəbi, əhalinin dini xüsusiyyətlərinə toxunub onları hakimiyyətdən narazı salmaq əvəzinə, rus hökumətinə sadiq müsəlman təbəqənin formalaşması istəyi idi. Bildiyimiz kimi, Dərbənd əhalisinin etnik tərkibinə görə etnokonfessional region olmuşdur ki, bu da təhsil sistemində də özünü göstərirdi. Belə ki, burada müsəlman məktəbləri ilə yanaşı yəhudi və xristianlara məxsus məktəblər də fəaliyyət göstərirdi. 1891-ci ilə aid tarixi mənbəyə görə Dərbənddə 16 məktəb mövcud olmuşdur. Dərbənddə müsəlman qızlar üçün məktəb açılmış, XX əsrin əvvəllərindən həmin məktəb gimnaziyaya çevrilmişdir. XIX əsrin ikinci yarısından Dərbənddə kitabxanalar yaradılmışdır. İlk kitabxana Cümə məscidinin nəzdində yaradılmış kitabxana hesab olunur. XIX srin sonlarında burada həmçinin, ictimai kitabxanalar və oxu zalları da fəaliyyətə başlamışdır. Sonradan sovet hakimiyyəti illərində XX əsrin 30-cu illərindəki siyasi repressiyalar zamanı həmin kitabxanalar dağıdılmışdır. Bəhs etdiyimiz dövrdə çar rusiyasının müstəmləkəçilik siyasəti təhsil sisteminə təsir etsə də, Dərbənddə maarifin inkişafının qarşısını ala bilməmiş, əksinə ictimai dəyişikliklərin təsiri ilə inkişaf etmişdir.
Açar sözlər: Dərbənd, təhsil, qəza məktəbləri, çar Rusiyası, dini məktəblər

---

CULTURAL AND EDUCATIONAL ENVIRONMENT IN DERBAND IN THE LATE 19TH - EARLY 20TH CENTURY: SOCIAL CHANGES AND EDUCATION

Sevinj Hikmet ABBASOVA
PhD student at Baku State University,
Teacher at Azerbaijan University of Languages
ORCID ID: https://orcid.org/0009-0001-1528-0151
E-mail: sevincabbasova1899@gmail.com

Abstract*:* The socio-cultural environment of Derbent in the late 19th and early 20th centuries was distinguished by its diversity and the unity of traditional and new changes. This period was a period of significant changes caused by both internal processes and external factors related to the politics, economic development and changes in society of the Russian Empire. These changes affected the field of education, as well as all areas of socio-cultural life. Until the occupation of Tsarist Russia, the traditional Muslim education system prevailed in Derbent. Education was organized in madrasahs and mullahs. From the end of the 19th century, the Russian authorities began to actively implement the secular education system in order to form a loyal local elite. Primary public schools - district schools - subordinate to the Ministry of Public Education appeared, where secular subjects and the Russian language were taught. Despite this, religious schools were also allowed to operate, but here too the main condition was the teaching of the Russian language. The main reason for this was the desire to form a Muslim class loyal to the Russian government, rather than touching on the religious characteristics of the population and making them dissatisfied with the authorities. As we know, Derbent was an ethno-confessional region due to the ethnic composition of the population, which was also reflected in the education system. Thus, along with Muslim schools, Jewish and Christian schools also operated here. According to a historical source from 1891, there were 16 schools in Derbent. A school for Muslim girls was opened in Derbent, and from the beginning of the 20th century, that school was transformed into a gymnasium. Libraries were established in Derbent from the second half of the 19th century. The first library is considered to be the one established under the Juma

Mosque. At the end of the 19th century, public libraries and reading rooms also began to operate here. Later, during the political repressions of the 1930s of the 20th century, during the years of Soviet rule, those libraries were destroyed. Although the colonial policy of Tsarist Russia affected the education system during the period we are discussing, it could not prevent the development of education in Derbent; on the contrary, it developed under the influence of social changes.
Keywords: Derbent, education, district schools, Tsarist Russia, religious schools.

КУЛЬТУРНАЯ И ОБРАЗОВАТЕЛЬНАЯ СРЕДА В ДЕРБЕНДЕ В КОНЦЕ XIX - НАЧАЛЕ XX ВЕКА: СОЦИАЛЬНЫЕ ИЗМЕНЕНИЯ И ОБРАЗОВАНИЕ

Севинж Хикмет АББАСОВА
Бакинский государственный университет
ORCID ID: https://orcid.org/0009-0001-1528-0151
E-mail: sevincabbasova1899@gmail.com

Резюме : В конце XIX – начале XX веков социокультурная среда Дербента отличалась разнообразием и единством традиционных и новых изменений. Этот период был периодом значительных перемен, вызванных как внутренними процессами, так и внешними факторами, связанными с политикой Российской империи, экономическим развитием и изменениями в обществе. Эти изменения затронули сферу образования, а также все сферы социально-культурной жизни. До оккупации царской Россией в Дербенте господствовала традиционная мусульманская система образования. Обучение было организовано в медресе и муллах. С конца XIX века российские власти начали активно внедрять светскую систему образования с целью формирования лояльной местной элиты. В системе Министерства народного просвещения появились начальные народные школы – уездные училища, где преподавались светские предметы и русский язык. Тем не менее, деятельность религиозных школ также была разрешена, но и здесь преподавание русского языка выдвигалось в качестве главного условия. Главной причиной этого было стремление сформировать лояльный российскому правительству мусульманский класс, а не затрагивать религиозные особенности населения и вызывать его недовольство. Как известно, Дербент был этноконфессиональным регионом в силу этнического состава населения, что отражалось и на системе образования. Так, наряду с мусульманскими школами здесь действовали еврейские и христианские. Согласно историческому источнику 1891 года, в Дербенте было 16 школ. В Дербенте была открыта школа для мусульманских девочек, которая с начала XX века была преобразована в гимназию. Библиотеки в Дербенте появились со второй половины XIX века. Первой считается библиотека при Джума-мечети. В конце XIX века здесь также начали действовать общественные библиотеки и читальни. Позднее, в период политических репрессий 1930-х годов XX века, в годы советской власти, эти библиотеки были уничтожены. Хотя колониальная политика царской России и влияла на систему образования в рассматриваемый нами период, она не могла помешать развитию образования в Дербенте; напротив, оно развивалось под влиянием общественных изменений.
Ключевые слова: Дербент, образование, уездные училища, царская Россия, духовные училища

Giriş

Maarifin və məktəblərin tarixinin tədqiqi cəmiyyətin mənəvi tərəqqi prosesini, onun müasir mədəniyyətin zirvələrinə doğru mütərəqqi irəliləyişini izləməyə imkan verir. Təhsilin vəziyyəti insan cəmiyyətinin inkişafının bütün mərhələlərində mənəvi inkişaf səviyyəsinin həlledici göstəricisi olmaqla mühüm elmi, tərbiyəvi və praktik əhəmiyyətə malikdir. Dərnbənddə təhsil standartlarını və çar Rusiyasının apardığı təhsil siyasətinin nəticələrini təhlil etmək üçün həm dünyəvi, həm də müsəlman təhsilinin tarixini öyrənmək lazımdır. Qeyd edək ki, burada dünyəvi təhsilin formalaşması və inkişafı birbaşa Rusiyanın Qafqazdakı siyasi maraqları ilə əlaqəli idi. Nəzərə almaq lazımdır ki, baxılan dövrdə təhsil sisteminin inkişafı çar hökumətinin digər ərazilərdə olduğu kimi, Dərbənddə də öz siyasi mövqelərini möhkəmləndirmək və ümumrusiya iqtisadi-siyasi həyatının orbitinə yenicə qədəm qoymuş və başqa dinə etiqad edən xalqları öz tərəfinə çəkmək istəyi ilə ən sıx əlaqədə baş vermişdir. Tədqiqatın aktuallığı müxtəlif etno-konfessional və mədəni ənənələrin kəsişdiyi Qafqazda mühüm təhsil mərkəzi kimi Dərbəndin tarixi-pedaqoji təcrübəsinin hərtərəfli öyrənilməsi zərurətindən irəli gəlir. Nəzərdən keçirilən dövrdə Dərbənddə təhsilin vəziyyətinin təhlili bizə yerli cəmiyyətlə Rusiyanın idarəetmə sistemi arasında qarşılıqlı əlaqənin qanunauyğunluqlarını anlamağa, eləcə də regionun intellektual elitasının formalaşmasının xüsusiyyətlərini müəyyən etməyə imkan verir. Mədəni irs, milli kimlik və mədəniyyətlərarası dialoq məsələlərinə müasir marağı nəzərə alaraq, Dərbənddə təhsil prosesinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Mövzunun araşdırılmasında əsas məqsəd XIX əsrin sonu - XX əsrin əvvəllərində Dərbənddə təhsil sisteminin vəziyyətini və inkişafını təhlil etmək, Rusiya imperiyasının təhsil islahatlarının və yerli ənənələrin şəhərin təhsil mühitinin formalaşmasına təsirini müəyyən etməkdir.

Dərbənd çar Rusiyasının tərkibində. Qədim tarixə malik Azərbaycanın tarixi ərazilərindən biri də Dərbənddir. Müxtəlif mənbələrdə bununla bağlı məlumatlar verilmişdir. Azərbaycanın şimal qapısı, istehkam xətti rolunu oynayan bu qədim ərazimiz, həmçinin, mühüm mədəniyyət mərkəzlərindən biri olmuşdur. Sasani imperiyasının və ondan asılı vəziyyətə düşmüş Albaniyanın əsas müdafiə zolağını, hərbi qapısını təşkil edən Dərbənd VII-VIII əsrlərdə ərəblərin hücumu, ərəb-xəzər toqquşmalarında da hücumlara məruz qalmışdır. Ərəb xilafətinin süqutu ilə dövlətçiliyimiz bərpa edilmiş və Dərbənd Şirvanşahlar dövlətinin ərazisinə daxil olmuşdur. XIII əsrdə monqolların daha sonra isə Əmir Teymur və Toxtamışın hücumlarına məruz qalsa da, öz mövqeyini qoruyub saxlamışdır. 1538-ci ildə Şirvanşahlar dövləti Səfəvilərə tam tabe edildikdən sonra Dərbənd Səfəvilərin inzibati ərazisinə aid olmuşdur. 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Əfşarlar imperiyası xanlıqlara parçalanmışdır ki, yaranan xanlıqlardan biri də Dərbənd xanlığı olmuşdur (Abdullayev, 2016)

XIX əsrdə Azərbaycan torpaqları rus-Qacar müharibələr nəticəsində işğala məruz qalmış və bu iki imperiya arasında bölüşdürülmüşdür. Belə ki, 1806-cı ildə general Qudoviçin komandanlığı altında olan rus qoşunları Dərbəndi işğal etdi. İnzibati baxımdan burada 1812-ci ildə Dərbənd əyaləti təşkil edildi (Azərbaycan tarixi, 2007). 1813-cü il oktyabrında I rus-Qacar müharibəsinin yekunu olaraq imzalanmış Gülüstan sülh müqaviləsinin şərtlərinə görə, Dərbənd çar Rusiyasının ərazisi olaraq qəbul edildi. 10 aprel 1840-cı il "Əsasnaməsi"nə əsasən, Dərbənd inzibati baxımdan qəzaya çevrildi və yeni təşkil edilmiş Xəzər vilayətinin inzibati tərkibinə daxil edilmiş oldu. Lakın rus çarının verdiyi 1846-cı il "Əsasnaməsi" ilə Dərbənd quberniyası yaradıldı (Azərbaycan tarixi, 2007). Bu quberniya 1846-cı ildən 1860-cı ilə qədər mövcud olmuşdur. 1813-cü ildə ruslar Dağıstanı işğal etsələr də, Şeyx Şamilin başçılığı ilə Rusiyaya qarşı aparılan azadlıq mübarizəsi idi. 1860-cı ildə Şamilin rəhbərliyi ilə çar Rusiyasına qarşı aparılan Şimali Qafqaz xalqlarının mübarizəsinin zəifləməsi və başa çatması bu ərazilərin çarizmin nəzarətinə keçməsinə səbəb oldu. Bununla da, həmin il Dağıstan vilayəti yaradıldı və Dərbənd də bu vilayətin inzibati tərkibinə daxil edilmiş oldu. 1865-ci ildə burada aqrar islahat keçirildi, islahata görə, feodal-zadəganlara məxsus torpaqlar kəndlilərə paylandı (Ağasiyev, 2023). Bunun nəticəsində də yerli feodalların iqtisadi gücü zəiflədildi, bu, əslində yerli mülkədarların əhali arasında nüfuzunu zəiflətməklə, onların hər hansı müqavimətdə birliyinin qarşısını almaq üçün hökumət üçün vacib idi.

Dərbənddə etnik və demoqrafik vəziyyət. XIX əsrin sonu – XX əsrin əvvəllərində Dərbəndin əhalisinin tərkibi çoxmillətli və dini cəhətdən qarışıq idi. Rus işğalının başa çatmasından sonra Dərbəndə ermənilər yerləşməyə başladılar. 1810-cu il ilin iyulun 18-nə olan məlumatda Dərbənddə 28 erməni (56 nəfər) və 59 yəhudi(166 nəfər) ailəsi olduğu göstərilir. Şəhərin yerdə qalan əhalisini, 1435 ailə (3953 nəfər) olmaqla türklər (azərbaycanlılar) təşkil etdiyi bu məlumatda qeyd edilmişdir. 1824-cü il siyahıyaalmasında Dərbənd şəhəri əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılardan ibarət olduğu qeyd edilmişdir. Dərbənd komendantı polkovnik Rozenfeld tərəfindən 1830-cu il aprelin 22-də "Dərbənd əyaləti əhalisinin sayı haqqında cədvəl" hazırlanmış, sənəddə Dərbənd və ətrafında yaşayan ailələrin 93.9 % -i və əhalinin 93.84 %-i azərbaycanlılardan ibarət olduğu öz əksini tapmışdır (Ağasiyev, 2023). 1886-cı ildə Dərbənddə əhalinin siyahıya alınmasından əldə edilən məlumatlardan aydın olur ki, şəhərin 8994 nəfərlə əhalinin cəmisi 58.98% -ni azərbaycanlılar təşkil etmişdir. şəhərin ümumi əhalisinin sayı 15.265 olmuş, yəhudilər-16.82, ruslar-10.23 və ermənilər isə 5.73% yerdə qalan hissəni başqa xalqların nümayəndələri tutmuşdur. 1891-ci ilə aid məlumatlarda Dərbənd əhalisinin 15.265 nəfər olması, onlardan 16 nəfəri lüteran, 201 nəfər katolik, 875 erməni-qriqoryan, 1319 provoslav, 2490 yəhudi və böyük əksəriyyəti - 10243 nəfəri müsəlman olmuşdur (Ağasiyev, 2023). Artıq XIX əsrin sonunda çar Rusiyasının "parçala, hökmranlıq et" siyasətinə uyğun olaraq, azərbaycanlıların sayı azalmışdı. Mənbələrdən məlum olur ki, 1897-ci ildə burada 14 etnos yaşamışdır. Ən çoxsaylı xalq158.550 nəfər avarlar, 121.375 nəfər darginlər, 94.596 nəfər kürinlər, 51.209 kumıklar və tatarlar (azərbaycanlılar) 32.143 nəfər olmuşdur. Beləliklə, 1897-ci ildə sayına görə, azərbaycanlılar 5-ci idi və ümumi əhalinin təqribən 5,6 %-ni təşkil etmişdir. 1926-cı ildəki statistik məlumatlardan aydın olur ki, Dərbənd dairəsinin əhalisi 20479 nəfər qeydə alınmışdır ki, azərbaycanlılar Dərbənd dairəsində 14496 nəfər təşkil etmişdir ki, bu da ümumi əhalinin 77%-i olmuşdur (Ağasiyev, 2023).

Çar Rusiyasının təhsil islahatlarının Dərbənddə təhsilin inkişafına təsiri. Dərbənd yerləşdiyi coğrafi mövqeyinə görə müxtəlif dövrlərdə hərbi-strateji baxımdan əhəmiyyətli ərazi olmaqla yanaşı, Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən biri olmuşdur. XIX əsrdə çar Rusiyasının tərkibinə qatıldıqdan sonra buradakı mədəniyyət ənənə ilə dünyəvi-müasirliyin sintezinə çevrilmiş oldu. Bu, özünü müxtəlif sahələrdə göstərdiyi kimi təhsil sahəsində də büruzə vermişdir. Bəhs edilən dövrdə Dərbənd çar Rusiyasının inzibati vahidi kimi imperiya ərazisində baş verən sosial-iqtisadi dəyişiklərdən kınarda qalmamışdır. Dövrün iqtisadi-sosial dəyişikləri Dərbəndin də inkişafına təsir etmişdir. Bütün bu dəyişikliklər Dərbənddə ictimai həyata da öz təsirini göstərmiş, elm və təhsil də dövrün inkişaf tendensiyasına və imperiyanın xarakterinə uyğun dəyişikliklərə məruz qalmışdır. Qeyd edək ki, çar Rusiyasının işğalına qədər Dərbənddə ənənəvi təhsil sistemi mövcud idi. Məscidlərin nəzdində olan mədrəsə və mollaxanalarda tədris həyata keçirilirdi. Həmçinin, paralel olaraq kilsə və sinaqoqlarda dərslər xristian və yəhudilər

üçün mövcud idi. Dərbənd Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra da XIX əsrin 30-cu illərinə kimi dini mərkəzlərin nəzdində olan belə məktəb və mədrəsələr öz fəaliyyətlərini davam etdirirdilər (Akhmetova, 2025). Çar Rusiyası əvvəllər dövlət tərəfindən maliyyə ayırmasa da, onların işinə qarışmırdı, bunun bir neçə səbəbləri var idi: əvvəla belə məktəblərin maddi təminatı yerli əhalinin üzərinə düşürdü ki, dövlətin vəsait xərcləməsinə ehtiyac qalmırdı. İkincisi, Qafqazda baş vermiş milli-azadlıq hərəkatı rus hökumətinə sübut etmişdi ki, yerli xalqın ənənələrinə qarşı kəskin qərarlar qəbul etmək, onların itaətini çətinləşdirəcəkdi. Odur ki, yerli əhalini rus hökumətinin ətrafında birləşdirmək üçün aparılacaq islahatlar və müstəmləkə xarakterli qərarlar müəyyən islahatlar yolu ilə tədricən həyata keçirilməsi nəzərdə tutulmuşdu. Digər tərəfdən həyata keçirilən tədbirlərin ümumimperiya qanunları ilə vahid şəkildə tənzimlənməsi planlaşdırılırdı ki, bunu da tənzimləmək müəyyən vaxt aparırdı.

1834-cü ildə rus çarı I Nikolayın fərmanına görə, rus hökumətinə tabe olmayan bütün məktəblər bağlanmalı idi. 1835-ci il 12 may tarixli Əsasnamə əsasında Dərbənddə rus qəza məktəbi açılması haqqında qərar qəbul edildi. Dərbənddə açılmış 30 nəfərlik üçsinifli qəza məktəbi Dağıstandakı ilk rus təhsil müəssisəsi idi,o, 16 noyabr 1837-ci ildə fəaliyyət göstərməyə başladı. Qafqazın digər ərazilərində olduğu kimi, Dərbənddəki bu məktəb də rus hökumətinə sədaqətli şəxslərin yetişdirilməsini nəzərdə tuturdu. Eyni zamanda məktəbin fəaliyyəti tələbələri Tiflis gimnaziyasında təhsillərini davam etdirməyə hazırlamaq məqsədi daşıyırdı. Aşağıdakı cədvəldə təqdim olunan məlumatların təhlili illər ərzində Dərbənd məktəbində şagirdlərin sayında kəmiyyət və keyfiyyət dəyişikliklərinin dinamikasını izləməyə imkan verir: (Хаджиалиев, 2011).

	İllər				
	1838	1848	1868	1878	1888
Tələbələrin ümumi sayı	35	57	84	125	116
Onlardan zadəganların, məmurların və bəylərin övladları	14	20	17	31	28
Digər siniflərdən olan vətəndaşların uşaqları	21	37	67	94	88
Pravoslav		9	41	60	51
Erməni		27	31	53	31
Müsəlmanlar		21	12	7	25
Yəhudilər				5	1
Kənd sakinləri					8

Onun fikrinə görə, əhalinin inancına toxunmadan, əksinə buna loyal yanaşaraq, rus hökumətinə sadiq vətəndaşlar yetişdirmək daha məqsədəuyğun idi. Bu nöqteyi-nəzərdən rus hökuməti ənənəvi dini məktəbləri təhsilin yayılması, rus dilinin və dövlət ənənələrinin təbliği üçün mərkəz kimi istifadə etməyə çalışırdılar. Müsəlman məktəbi ideyası da məhz bu səbəbdən qaynaqlanırdı. Bu baxımdan M.S. Vorontsov Qafqazın müsəlman əhalisi arasında rus təhsilinin yayılması üçün əməli tədbirlər gördü. 1847-48-ci illərdə o, Tiflisdə yalnız bütün sosial siniflərdən olan müsəlman uşaqları üçün "onların inanclarının qanunları haqqında biliklərə yiyələnmək və icma həyatında onlara lazım olan dərəcədə rus dilini öyrənmək" məqsədi ilə xüsusi müsəlman məktəbi yaratdı (Akhmetova, 2025). 1848-ci ildə Dərbənddə, Temir-Xan-Şurada da belə bir məktəb açıldı. Müsəlman məktəbinin təşkilati işi rus şərqşünas alimi N.Xanikova həvalə edilmişdi. Şagirdlər məktəb binasında yaşayırdılar və dövlət dəstəyi ilə təmin olunurdular. Tətil üçün iki yay ayı ayrılmışdı və bu aylarda şagirdlər evə göndərilirdi. Yerli əhalinin mənfi reaksiyasından ehtiyatlanaraq və "bu qurumun ilkin uğurlarına xələl gətirən hər hansı əhval-ruhiyyə oyatmaq istəməyən" əmr verildi ki, rus dilini öyrənmək məcburi deyil, rus dilini bilən, müsəlmanlara rus dilinin qaydalarını öyrədə bilən bir şəxs tapılsın. Tələbələrə rus dilini öz mülahizələri ilə öyrənmək hüququ verildi. Eyni zamanda tələbələri rus dilini öyrənməyə cəlb etmək məqsədilə Tiflis məktəblərinin nizamnaməsinə uyğun olaraq kursu bitirənlərə verilən güzəştlər diqqətə çatdırılırdı. Bunun müəyyən təsiri oldu. Qısa müddətdə bəzi tələbələr rus dilini kifayət qədər tez öyrənməyə və səlis yazıb-oxumağa başladılar.

Şimali Qafqaz xalqlarının çoxlu nümayəndələri təhsil almaq üçün Dərbəndə axışırdılar. Məktəbdə məktəb yaşlı uşaqlarla yanaşı 23-25 yaş arası gənclər də iştirak edirdi. 1849-cu ildə məktəbə 64 şagird daxil olmuşdu ki, onlardan 43-ü ərəb dili ilə yanaşı, rus dilini də öyrənirdi. 1854-55-ci illərdə məktəbdəki şagirdlərin sayı 20 nəfərə qədər azaldı və bu, onun saxlanmasının məqsədəuyğunluğunu şübhə altına aldı. Xəzəryanı bölgədəki qoşunlara komandanlıq edən knyaz Orbeliani məktəbin Dərbənddən Şuraya köçürülməsini təklif etdi və onun qərarı dövlət tərəfindən dəstəkləndi. Qeyd edək ki, bu qərarı bu şəkildə əsaslandırırdılar ki, Temirxan-Şura yaxınlığında çoxlu müsəlman mötəbərləri və xidmətçi zabitləri var ki, onların övladlarının ərəb və rus dillərində təlimə ehtiyacı var. Bundan başqa, Dərbənddə uşaqlar yayın qızmar istisindən xəstələnirlər ki, bu da bəzən ailələrin övladlarını buraya təhsil almaq üçün göndərməsinə mane olur. Knyaz Orbelianinin arqumentləri 1855-ci il yanvarın 15-də Dərbənd məktəbinin bağlanması üçün

kifayət qədər əsas oldu. Nəticədə 1861-ci ildə Müsəlman məktəbi Temir-Xan-Şurada açılan dağlıq qəza məktəbinin tərkibinə daxil oldu və Dərbənd-Şura məktəbinə çevrildi. Bu məktəb çar hökumətinin əsas məqsədinə tamamilə nail olmasına imkan verməsədə, onlarla yerli əhali ilk təhsilini burada aldı.

1870-ci il martın 26-da xalq maarif naziri D.A. Tolstoy "Rusiyada yaşayan qeyri-rusların təhsili ilə bağlı tədbirlər haqqında" əsasnaməni təsdiq etdi. Onun fikrincə, Rusiya hüdudlarında yaşayan bütün qeyri-rusların təhsilinin son məqsədi, şübhəsiz ki, ruslaşdırma və rus xalqına inteqrasiya olmalı idi. Buna müvafiq olaraq, Dərbənddə rus qəza məktəbi 1 iyun 1877-ci ildə üçsinifli şəhər məktəbinə, 1898-ci ildə isə dördsinifli məktəbə çevrildi. 1902-ci ildə Bakı quberniyasının və Dağıstan vilayətinin xalq məktəblərinin direktoru Dərbənddəki dördsinifli qəza məktəbinin beşsinifli məktəbə çevrilməsini təklif etdi. Lakin o vaxt Dərbənddə yeni tipli oğlanlar gimnaziyasının və kənd təsərrüfatı məktəbinin açılması məsələsinə baxıldığı üçün Dərbənd şəhər dövlət idarəsinin səlahiyyətli nümayəndələrinin iclası buna ehtiyac olmadığı haqqında qərar qəbul etdilər (Hacıyev, 2018).

Qeyd edək ki, XIX əsrin ikinci yarısında Dərbənddə qızlar da təhsilə cəlb edilmişdir. Belə ki, 1864-cü ilin sentyabrında Dərbənddə qızlar üçün məktəb açılmışdı. bu məktəbin açılmasında şəhər rəisi E.Q.Camarcidzenin həyat yoldaşı bilavasitə təşəbbüs irəli sürmşüdür. Məktəb onun səyləri nəticəsində fəaliyyət göstərmişdir. 1900-cü ildə Dərbənddə qadınlar üçün gimnaziya təşkil edilmişdir (Hacıyev, 2018).

XX əsrin əvvəllərində Dağıstanda təhsil sisteminin inkişafına və fəaliyyətinə töhfə verən dövlət siyasətində müəyyən tendensiyalar aşkar edildi. Təşkilati cəhətdən Dağıstan məktəbləri Bakıda yerləşən Bakı-Dağıstan Xalq Məktəbləri Müdirliyinə tabe idi. Direktor və bir müfəttişdən ibarət idarə heyətinin normal fəaliyyətini təmin edə bilməməsi əsas gətirilərək, 1907-ci ildə təhsil müəssisələrinin fəaliyyətinə, müəllim və şagirdlərin bütövlüyünə nəzarət etmək və nəzarət etmək vəzifəsi daşıyan vahid müfəttişdən ibarət Dağıstan vilayətinin Xalq Məktəbləri Müfəttişliyinin yaradılmasına səbəb oldu (Расулов, 1987). Dağıstanda dünyəvi təhsilin qurulmasında və inkişaf etdirilməsində çar hökuməti ilk növbədə Qafqazdakı geosiyasi maraqlarını güdürdü. Təhsil sahəsində hökumətin bütün fəaliyyəti bir ümumi tel ilə əlaqələndirildi - bölgənin yerli intellektual, dini və məişət xüsusiyyətlərini Rusiyanın ümumi maraqları ilə uzlaşdırmaq, və tədricən, zorakılıq olmadan, məktəbin köməyi ilə, yerli əhalini rus dövlətçiliyi ətrafında sıx birləşdirmək əsas məqsəd idi.

XX əsrin əvvəllərində 20.000 əhalisi olan Dərbənddə ilk orta məktəb 1902-ci ildə açılmışdır. Şəhərdə orta məktəb açılması ilə bağlı yazışmalar bir neçə il davam etmişdir. Vilayətin hərbi qubernatoruna və Qafqaz Təhsil İdarəsinə ünvanlanmış ərizələrində Dərbənd şəhər rəhbərliyi dəmir yolunun çəkilməsinin Dərbənd əhalisini xeyli artırdığını qeyd edirdi. Onlar vurğulayırdı ki, orta məktəbin olmaması yerli gənclərin təhsil almasını çətinləşdirir. Əvvəlcə Dərbənddə oğlanlar üçün gimnaziyanın açılması nəzərdə tutulurdu. Şəhər bütün siniflər tam formalaşana qədər ilk beş il ərzində zəruri hesab edilən gimnaziyanın saxlanması üçün bütün xərcləri öz üzərinə götürməyi, gimnaziya üçün binanın tikintisini şəhərin öz vəsaiti hesabına inşa etməyi öhdəsinə götürürdü. Həmçinin, gimnaziya binası üçün üçün pulsuz torpaq sahəsi ayırmağı, öz binası tikilənə qədər şəhər gimnaziya üçün şəxsi binanın icarə haqqını öz üzərinə götürdüyünhü qeyd edirdi. 1902-ci il iyulun 13-də Dərbənd Şəhər Dövlət İdarəsinin fövqəladə iclası Qafqaz Maarif Dairəsinin müvəkkilinin təqdimatı ilə Dərbəndin ehtiyaclarına daha çox uyğun olduğu üçün nəzərdə tutulan gimnaziyanın əvəzinə real məktəb açılmasını xahiş etmək qərarına gəldi (Hacıyev, 2018). 1902-ci ilin avqustunda Xalq Maarif Nazirliyi Dərbənddə real məktəbin açılmasına icazə verdi, bir şərtlə ki, şəhər öz vəsaiti hesabına məktəbin binalarını, belə binalara hüququ olan məmurlar üçün mənzillər və məktəbin ləvazimatları ilə təmin etməyi və məktəbin təhsil haqqını öz üzərinə götürsün. Şəhər məclisinin 27 avqust 1902-ci il tarixli qərarı ilə Dərbənd real məktəbində 1902/03-cü tədris ilindən başlayaraq bütün siniflər üçün təhsil haqqı ildə 20 rubl müəyyən edildi. Dərbənd real məktəbi hazırlıq, birinci və ikinci siniflərlə açıldı. Açılış ilində 91 şagird qəbul edildi və altı sinfi bitirən birinci məzun sinfi 1907-ci ildə, yeddinci, əlavə sinfi isə 1908-ci ildə bitirdi. Birinci Dünya Müharibəsi başlayanda (1914) real məktəbin altı sinfini 122 şagird, yeddinci sinfi isə əlavə olaraq 935 şagird bitirdi. Kənd əhalisi şəhər məktəblərindən praktiki olaraq məhrum idi. Dərbənd Şəhər Dövlət İdarəsi iclasının 2 sentyabr 1903-cü il tarixli 147 saylı qərarına əsasən, Dərbənd real məktəbinə Dərbənd şəhər sakinlərinin övladlarına və Dərbənddə daimi yaşayan şəxslərə üstünlük verilirdi (Хаджиалиев, 2011).

Dərbənd real məktəbi yarandığı ilk gündən xeyli çətinliklərlə üzləşdi. Sinif otaqları dar idi, ventilyasiya yox idi, bəziləri zəif işıqlandırılmışdı və arxiv sənədinə görə, "bütün dəhliz boyu nizamsız" idi. Yalnız 1912-ci ildə real məktəb üçün xüsusi binanın tikintisinə başlanıldı. O, 1916-cı ildə tamamlandı. İlk illərində məktəbdə yerli müsəlman əhalidən az sayda uşaq oxuyurdu. 1905-ci ildə məktəbdə oxuyan 182 şagirddən yalnız 36-sı, yəni 20%-dən azı yerli

müsəlmanların uşaqları idi. Yalnız 1909-cu ildə məktəbdə ibtidai və kiçik hazırlıq sinifləri açılanda yerli müsəlman əhalidən olan uşaqların sayı bir qədər artaraq 1910-cu ildə ümumi şagird kontingentinin 28%-nə çatdı.1914-cü ildə Dərbənd real məktəbində 14 sinif var idi və 448 şagird oxuyurdu. Məktəbdə iyirmi doqquz müəllim çalışırdı. Məktəbdə kitabxana və oxu zalı, fizika və təbiət tarixi kabinetləri, fizika və kimya laboratoriyaları, rəsm, tarix, coğrafiya və ibtidai təhsil üçün bir neçə xüsusi kabineti olan şagird kitabxanası, əl işləri və musiqi dərsləri var idi. 1907-ci ildə məktəbdə tələbə nəğmə orkestri yaradılmışdır (Адухов, 2012).

Bölgədə peşə məktəbləri açmaq cəhdləri hələ 1890-cı illərdə edilib. Vilayət rəhbərliyi TemirXan-Şurada peşə məktəbi və Dərbənddə kənd təsərrüfatı məktəbi açmaq niyyətində idi. Dərbənddə kənd təsərrüfatı məktəbinin açılması zərurəti XIX əsrin sonu - XX əsrin əvvəllərində bağçılıq, üzümçülük və tərəvəzçiliyin əhəmiyyətli inkişafı ilə diktə edildi ki, bu da şəhər sakinləri üçün həyati mənbə idi. 1904-cü ildə Dərbənddə şərabçılıq, bağçılıq və üzümçülük məktəbi açıldı (Hacıyev, 2018). Məktəbə ilk növbədə şəhərin dövlət idarəsi dəstək verirdi. Dövlət xəzinəsindən məktəbin saxlanması üçün ildə cəmi 3300 rubl ayrılırdı. Məktəbə ən azı 14 yaşında, kənd və şəhər məktəblərində ikiillik kursları bitirmiş və fiziki əməyə qadir olan yeniyetmələr qəbul olunurdu. Hazırlıq sinfinin açılması ilə ibtidai məktəbi bitirmiş 12 yaşlı oğlanları qəbul etməyə başladı. Məktəb ümumi təhsili bağçılıq, tərəvəzçilik, üzümçülük üzrə praktik məşğələlərdən ibarət idi. Dərbənd Şərabçılıq, Bağçılıq və Üzümçülük Məktəbini bitirən tələbələr "Təhsilli bağban və şərabçı" diplomu əldə edirdilər.

1905-1907-ci illər inqilab dalğasının təzyiqi altında Dağıstan vilayətinin hərbi qubernatoru general-leytenant Tixonov 1907-ci il yanvarın 30-da Temir-Xan-Şura, Petrovsk və Dərbənd şəhərləri üçün məcburi fərman imzaladı. Orada nəzərdə tutulmuşdu ki, "17 yaşına çatmamış ticarət və sənətkarlıq müəssisələrində çalışan işçilər iki saatlıq nahar fasiləsindən asılı olmayaraq həftə içi hər gün üç saat dərsə buraxılırlar". Bu dəfə saat 10:00-dan 13:00-a qədər polislə dövlət idarəsi arasında razılaşma əsasında müəyyən edilib. Bu qərar təhsil orqanlarının fəaliyyətinin canlanmasına müsbət təsir göstərdi. Xalq Təhsili Nazirliyinin tabeliyində olan məktəblərin şəbəkəsi yavaş-yavaş inkişaf edirdi (Адухов, 2012).

XX əsrin əvvəllərində Stavropol gimnaziyasında Dağıstan vilayətindən olan dağlılar üçün dövlət tərəfindən maliyyələşdirilən 35 vakansiya, Bakı Real Məktəbində isə 10 vakansiya açıq qaldı. Bu məktəblərdə, eləcə də Temir-Xan-Şura, Dərbənd və Petrovsk orta məktəblərinin məzunlarının bir qismi ölkə üzrə universitet və institutlarda təhsillərini davam etdirə bildilər. Qeyd edək ki, Temir-Xan-Şura və Dərbənd real məktəblərinin məzunları ali təhsil müəssisələrinə, xüsusən də ali məktəblərə daxil olmaqda çətinliklə üzləşiblər. Real Məktəblərdə klassik dillər - latın və yunan dilləri öyrədilmirdi və universitetdə təhsillərini davam etdirmək üçün realistlərdən əlavə olaraq latın dilini öyrənmələri tələb olunurdu. Belə ki, 1913-cü ilə qədər Dərbənd real məktəbinin əlavə olaraq latın dilini öyrənmiş 20-dən çox məzunu ali məktəbə qəbul imtahanlarından keçə bilmişdi (Расулов, 1987).

Dərbənd yəhudi icmasının öz təhsil sistemi var idi: dini məktəblər əsasən sinaqoqların nəzdində fəaliyyət göstərirdi, XX əsrin əvvəllərində isə dünyəvi yəhudi məktəbləri də yaradılmışdı. Qeyd edək ki, Dərbənddə yaşayan yəhudi əhali əsasən, dağ yəhudiləri idi, lakin 1860-cı ildən Avropadan gələn aşkenazi yəhduilərinin Dərbənddə də məskunlaşmasına icazə verilmişdi. 1900-cü ildə Dərbənddəki dörd sinaqoqdan biri Aşkenazi idi. 1904-cü ildə ravvin Yaşaiyo Rabinoviç tərəfindən Dağ Yəhudiləri Məktəbi açıldı. Yəhudi məktəbləri həm dini, həm də dünyəvi fənləri öyrədə bilərdi (Расулов, 1987).

Nəticə. XIX əsrin sonu və XX əsrin əvvəllərində Dərbəndin təhsil sistemi ənənələrin və yeniliklərin, dini əsasların və dövlət islahatlarının, yerli kimliyin və Rusiya imperiya siyasətinin təsirinin mürəkkəb qarşılıqlı təsirini əks etdirir. Bu mərhələdə Dağıstanın və bütün Qafqazın mühüm mədəniyyət mərkəzi olan şəhərdə ənənəvi təhsilin sabit formaları olan dini məktəblər mövcud idi. Eyni zamanda, Dərbəndin Rusiya imperiyasının təhsil sisteminə daxil olması təhsil prosesinin strukturunda və məzmununda mühüm dəyişikliklərə səbəb oldu. Beləliklə, qeyd etmək olar ki, Dərbənddə dünyəvi təhsilin inkişafı 1837-ci ildə Dərbənddə ilk dünyəvi məktəbin yarandığı vaxtdan başlamışdır. XIX əsrin son rübünə qədər dünyəvi məktəblərin yaradılması təşəbbüsləri ilk növbədə fərdi şəxslərdən gəlirdi. Bu dövrün dünyəvi məktəbləri çox vaxt qısa ömürlü olurdu. Dünyəvi təhsil prosesi hələ ki davamlılığa əsaslanmırdı. Bölgənin genişlənən müstəmləkəçilik miqyası və onun XIX əsrin ikinci yarısında əldə etdiyi yeni keyfiyyət xüsusiyyətləri böyük əhəmiyyət kəsb edirdi. Bu, Dərbənddə orta təhsil sisteminin yaradılması məsələsini gündəmə gətirdi. Bu məsələnin həllində mərkəzi dövlət orqanları və yerli özünüidarəetmə qurumları, ictimai strukturlar və xeyriyyə təşkilatları böyük rol oynamışdır. Dərbənd və ümumilikdə, Dağıstanda orta məktəblərin yaradılması cəmiyyətin savadlı kadrlara olan tələbatını tam ödəyə bilmədi, yerli əhalini regiondan kənarda, Şimali Qafqazda və Rusiyada gimnaziya və ali təhsil müəssisələrində oxumağa vadar etmişdir. Çar Rusiyası təhsil sahəsində islahatlar həyata keçirdi ki, buna uyğun yeni məktəblər açıldı. Lakin bu islahatlar müstəmləkə

xarakteri daşıyırdı: yerli əhalinin imperiya mədəni məkanına inteqrasiyasına, dini və milli kimliyin zəiflədilməsinə, Rusiya hökumətinə sədaqətinin aşılanmasına yönəlmişdi. Çarın maarif siyasətinin ideoloji dayaqlarına baxmayaraq, onun nəticələrinə müstəsna olaraq mənfi baxmaq olmaz. Rus məktəbləri və müəllim hazırlığı kursları Dərbəndlilərin bir çoxuna sistemli təhsil almağa, imperiyanın müxtəlif şəhərlərində təhsillərini davam etdirməyə imkan verdi.

ƏDƏBİYYAT SIYAHISI:

1. Ağasiyev, İ. (2023) Dərbənd əhalisi (1806-2010-cu illərdə əhalinin sayı və etnik tərkibinin dinamikası). Bak "Nəşriyyat" şöbəsi,

2. Azərbaycan tarixi. (2007)Yeddi cilddə. IV cild (XIX əsr). Bakı, "Elm".

3. Abdullayev, M. Azərbaycan tarixi. (2016) Bakı. "Bakı Universiteti".

4. Hacıyev, N. (2018) XIX əsrin əvvəllərində Dərbənd şəhərində təhsilin tarixindən. *Bakı, Geostrategiya, aylıq ictimai-siyasi, elmi-populyar jurnal,. №2 (44), – s. 34-37.*

5. Akhmetova E. (2025) The Development of Islamic Religious Education in Russia over Centuries. Religionspädagogische Beiträge. *Journal for Religion in Education 48 (2025) 1, 1–15;* https://doi.org/10.20377/rpb-327

6. Адухов М.Д.(2012) Формирование системы светского образования в Дагестане в XIX - начале XX века. https://superinf.ru/view_helpstud.php?id=5488&utm_source

7. Расулов, Д. М. (1987) История Дербента в XIX — начале XX века. Махачкала.

8. Хаджиалиев К.И. (2011) Становление светского образовательного пространства Дагестана в конце 19 – начале 20 века. *Вестник Дагестанского государственного университета. 2011. Вып. 4, с.160-165*

DOİ: 10.32010/IHLG8276

ETNİK MÜNAQİŞƏLƏR VƏ ONUN TƏHLÜKƏSİZLİYƏ TƏHDİDİ

Ülfər Əlirza MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin doktorantı
Orcid: 0000-0002-5389-1869
E-mail: Ulfermemmed@gmail.com

Xülasə: Müasir beynəlxalq münasibətlər sistemində etnik müxtəliflik həm sosial zənginlik, həm də potensial təhlükə mənbəyi kimi çıxış edir. Tarixi təcrübə göstərir ki, uzun müddət birgəyaşayış və tolerantlıq şəraitində yaşamış cəmiyyətlər belə müəyyən siyasi, iqtisadi və ideoloji təsirlər altında etnik zəmində qarşıdurmalara sürüklənə bilirlər. Bu proseslərin dərinləşməsində millətçi ideologiyaların yüksəlişi, resurs və hakimiyyət uğrunda mübarizə, tarixi travmalar və xarici müdaxilələr mühüm rol oynayır. Xüsusilə, radikal millətçilik və hegemonluq iddiaları "böyük dövlət" və "tarixi torpaqların bərpası" kimi ideoloji şüarlar vasitəsilə etnik kimlikləri siyasi alətə çevirir. Nəticədə "üstünlük" və "ərazi iddiası" kimi düşüncələr formalaşaraq sülh imkanlarını zəiflədir, zorakı toqquşmalar, etnik təmizləmə və soyqırımı kimi ağır humanitar fəsadlara gətirib çıxarır. Azərbaycanın da tarixən erməni təcavüzünə məruz qalması bu mövzunun ölkəmiz üçün də elmi və praktiki baxımdan öyrənilməsini zəruri edir.
Məqalə radikal millətçilik və hegemonluq siyasəti fonunda formalaşan etnik münaqişələri və onların regional və beynəlxalq təhlükəsizlik sisteminə təsirini araşdırır. Tədqiqatın əsas məqsədi etnik münaqişələrin yalnız milli kimlik və ideoloji zəmində deyil, həm də siyasi, iqtisadi və geosiyasi maraqların qarşılıqlı təsiri nəticəsində meydana gəldiyini göstərməkdir. Məqalədə **tarixi-təhlil, müqayisəli analiz** və **nəzəri yanaşmaların tətbiqi** metodları ilə aparılan təhlillər sübut edir ki, kimlik siyasətinin manipulyasiyası, sosial bərabərsizliyin dərinləşməsi və xarici güclərin müdaxiləsi etnik qarşıdurmaları daha da genişləndirir. Bu isə təkcə daxili sabitliyi deyil, həm də regional və qlobal təhlükəsizlik sistemlərinin bütövlüyünü sarsıdır. Nəticə etibarilə, etnik münaqişələr müasir dövrdə beynəlxalq təhlükəsizlik üçün ən ciddi təhdidlərdən biri olaraq qalır. Onlar humanitar fəlakətləri qaçılmaz edir, dövlətlərarası güvənsizliyi artırır və beynəlxalq sistemdə sabitliyin pozulmasına yol açır. Problemin həlli istiqamətində erkən xəbərdarlıq mexanizmlərinin gücləndirilməsi, profilaktik diplomatiyanın tətbiqi, beynəlxalq hüquqi alətlərin səmərəli işlədilməsi və etnik qruplar arasında etimadın bərpası xüsusi əhəmiyyət kəsb edir. Bu tədbirlər təkcə münaqişələrin qarşısının alınmasına deyil, həm də regional sabitliyin və beynəlxalq təhlükəsizlik sisteminin davamlılığının təmin edilməsinə xidmət edə bilər.
Açar sözlər: etnik münaqişə, millətçilik, təhlükəsizlik, beynəlxalq münasibətlər, regional sabitlik

ETHNIC CONFLICTS AND THEIR THREAT TO SECURITY

Ulfar Alirza MAMMADLI
PhD Candidate, Baku State University
Orcid: 0000-0002-5389-1869
E-mail: Ulfermemmed@gmail.com

Abstract: In the contemporary international relations system, ethnic diversity serves both as a source of social richness and a potential source of threat. Historical experience demonstrates that even societies that have long coexisted peacefully and in tolerance can, under certain political, economic, or ideological influences, be drawn into ethnic conflicts. The escalation of these processes is largely driven by the rise of nationalist ideologies, struggles over resources and power, historical traumas, and foreign interventions. In particular, radical nationalism and hegemonic ambitions transform ethnic identities into political instruments through ideological slogans such as "great power" and "restoration of historical lands." Consequently, notions of "superiority" and "territorial claim" emerge, undermining prospects for peace and leading to violent clashes, ethnic cleansing, and genocide with severe humanitarian consequences. Given Azerbaijan's historical experience of Armenian aggression, this issue holds both academic and practical importance for the country.
This article examines ethnic conflicts arising in the context of radical nationalism and hegemonic policies, and their impact on regional and international security systems. The main objective of the study is to demonstrate that ethnic conflicts emerge not only from issues of national identity and ideology but also from the interplay of political, economic, and geopolitical interests. Through the application of historical-analytical, comparative, and theoretical approaches, the study shows that the manipulation of identity politics, deepening social inequalities, and the interference of external powers significantly exacerbate ethnic tensions. This, in turn, undermines not only internal stability but also the integrity of regional and global security systems. Consequently, ethnic conflicts remain among the most serious threats to international security in the modern era. They make humanitarian crises inevitable, increase distrust between states, and contribute to instability in the international system. Addressing this problem requires strengthening early warning mechanisms, implementing preventive diplomacy, ensuring the

effective operation of international legal instruments, and restoring trust among ethnic groups. These measures can not only help prevent conflicts but also promote regional stability and ensure the sustainability of the international security system.
Keywords: ethnic conflict, nationalism, security, international relations, regional stability.

ЭТНИЧЕСКИЕ КОНФЛИКТЫ И ИХ УГРОЗА БЕЗОПАСНОСТИ

Ульфяр Алириза МАМЕДЛИ
Докторант Бакинского государственного университета
ORCID: 0000-0002-5389-1869
Электронная почта: Ulfermemmed@gmail.com

Резюме: В современной системе международных отношений этническое разнообразие выступает как источник социального богатства, так и потенциальной угрозы. Исторический опыт показывает, что даже общества, долгое время жившие в условиях сосуществования и толерантности, под влиянием определённых политических, экономических и идеологических факторов могут быть втянуты в этнические конфликты. В углублении этих процессов важную роль играют рост националистических идеологий, борьба за ресурсы и власть, исторические травмы и внешние вмешательства. Особенно радикальный национализм и стремление к гегемонии посредством идеологических лозунгов, таких как «великая держава» и «восстановление исторических земель», превращают этническую идентичность в политический инструмент. В результате формируются представления о «превосходстве» и «территориальных притязаниях», которые ослабляют возможности для мира и приводят к насильственным столкновениям, этническим чисткам и геноциду. Историческое подвергание Азербайджана армянской агрессии делает изучение данной темы особенно актуальным с научной и практической точек зрения для нашей страны.
В статье рассматриваются этнические конфликты, формирующиеся на фоне радикального национализма и политики гегемонии, а также их влияние на региональную и международную систему безопасности. Основная цель исследования — показать, что этнические конфликты возникают не только на основе национальной идентичности и идеологических факторов, но и в результате взаимодействия политических, экономических и геополитических интересов. Проведённый анализ с применением историко-аналитического, сравнительного и теоретического методов показывает, что манипуляция политикой идентичности, углубление социального неравенства и вмешательство внешних сил способствуют дальнейшему расширению этнических противостояний. Это подрывает не только внутреннюю стабильность, но и целостность региональной и глобальной систем безопасности. Таким образом, этнические конфликты остаются одной из самых серьёзных угроз международной безопасности в современном мире. Они делают гуманитарные катастрофы неизбежными, усиливают недоверие между государствами и способствуют нарушению стабильности в международной системе. Для решения проблемы особое значение имеют усиление механизмов раннего предупреждения, применение превентивной дипломатии, эффективное использование международно-правовых инструментов и восстановление доверия между этническими группами. Эти меры могут способствовать не только предотвращению конфликтов, но и обеспечению устойчивости региональной стабильности и международной системы безопасности.
Ключевые слова: этнический конфликт, национализм, безопасность, международные отношения, региональная стабильность

Giriş

Soyuq Müharibənin sona çatması dünya siyasətində sülh, sabitlik və beynəlxalq əməkdaşlığa dair yeni ümidlər doğursa da, XX əsrin son onilliklərində baş verən hadisələr bu optimizmin reallıqla ziddiyyət təşkil etdiyini göstərdi. İdeoloji qarşıdurmaların zəifləməsi ilə beynəlxalq sistemdə yaranan boşluğu etnik, dini və mədəni ziddiyyətlər doldurdu. Beləliklə, qarşıdurmaların xarakteri dəyişərək ideoloji müstəvidən kimlik əsaslı müstəviyə keçdi. Millətçiliyin yüksəlişi, etnik özünüdərkin güclənməsi və qloballaşmanın doğurduğu kimlik böhranı bir çox regionlarda separatizm meyllərini dərinləşdirdi və etnik münaqişələrin artmasına zəmin yaratdı. Elə buna görə də Ted Robert Gurr qeyd edir ki, dünyadakı mövcud dövlətlərin sayı ilə potensial ulus-dövlətlərin sayı arasında mövcud fərq beynəlxalq sistemi etnik və millətçi qarşıdurmalar üçün yüksək potensiala malik mühitə çevirir. Bu fərq, bir tərəfdən,

milli suverenlik prinsipi ilə etnik özmüəyyənetmə hüququ arasında gərginlik yaradır, digər tərəfdən isə etnik azlıqların hüquqları ilə dövlətlərin bütövlüyü arasında ziddiyyətləri dərinləşdirir. Soyuq Müharibənin sona çatması bu gərginliyin açıq qarşıdurmalara çevrilməsində katalizator rolunu oynamışdır (Gurr, 1998). Ian Clark-ın (Clark, 1999.) qeyd etdiyi kimi, kimlik, millətçilik, insan haqları və demokratikləşmə kimi anlayışların Soyuq Müharibədən sonra qlobal miqyasda yayılması, etnik münaqişələrin beynəlxalq münasibətlərin əsas komponentlərindən birinə çevrilməsinə səbəb olmuşdur. Bu baxımdan millətçilik təkcə mədəni kimliyin ifadə forması deyil, həm də beynəlxalq təhlükəsizliklə sıx bağlı siyasi fenomendir. Empirik

məlumatlar da bu tendensiyanı təsdiqləyir. 1989-cu ildən sonra dövlətlər arasında aparılan müharibələrin sayı azaldığı halda, əksinə, dövlət daxilindəki silahlı qarşıdurmaların sayı sürətlə artmışdır (David, 1997).

Lakin bütün bunlarla yanaşı, Soyuq Müharibənin sona çatması ilə etnik qarşıdurmalar beynəlxalq gündəmdə daha çox görünür hala gəlsə də, bu, problemin yeni yaranması demək deyil. Ted Robert Gurr və Barbara Harff-ın (Gurr, T. R., & Harff, B, 1994) da qeyd etdiyi kimi, etnik qarşıdurmaların artması təkcə Soyuq Müharibənin sonu ilə bağlı deyil, əksinə, bu tip münaqişələr 1950-ci illərdən etibarən ardıcıl şəkildə artma meyli göstərmişdir. "Minorities at Risk" məlumat bazasının təhlilləri göstərir ki, 1995–2000-ci illər arasında baş verən silahlı qarşıdurmaların 60%-dən çoxu etnik motivli olmuşdur (Scherner, 2003: 102). Beləliklə, təqdim olunan məqalə millətçiliyin transformasiyası, milli hisslərin xarici güclər tərəfindən manipulyasiya olunması və bu proseslərin nəticəsində etnik münaqişələrin yaranması ilə onların regional və beynəlxalq təhlükəsizlik sistemlərinə təsirini araşdırır. Həmçinin məqalədə Cənubi Qafqaz regionunda baş vermis etnik münaqişədəndə bəhs edilmişdir.

Millətçiliyin mahiyyəti və onun etnik münaqişələrə çevrilməsi. Millətçilik anlayışı insan cəmiyyətlərinin siyasi və mədəni inkişafında ən mühüm ideologiyadan biri kimi çıxış edir. Onun əsas mahiyyəti xalqın siyasi iradəsini ifadə etmək, milli birliyi qorumaq və öz müqəddəratını təyin etmək hüququnun təmin edilməsindən ibarətdir. Millətçilik, ümumilikdə, ortaq dil, din, tarix və mədəni kimlik üzərində formalaşan kollektiv şüurun siyasi təzahürü kimi meydana çıxır. Bu mənada o, həm dövlət quruculuğu, həm də milli kimliyin qorunması baxımından mühüm tarixi funksiyaya malikdir. Lakin millətçilik həmişə birləşdirici rol oynamır. XIX əsrdə milli dövlətlərin təşəkkülünü təşviq edən pozitiv ideya kimi qəbul edilən millətçilik, XX əsrdə bəzi hallarda siyasi sabitliyə və regional təhlükəsizliyə təhdid yaradan destruktiv faktora çevrilmişdir. Post-imperiya məkanlarında yeni dövlətlərin formalaşması bu ideologiyanın iki əsas növünü– **vətəndaş** və **etnik millətçiliyi** – ön plana çıxarmışdır. Vətəndaş millətçiliyi fərdləri etnik və dini mənsubiyyətindən asılı olmayaraq bərabər hüquqlu vətəndaş kimi qəbul edir və daha inklüziv xarakter daşıyır. Etnik millətçilik isə ulusu mənşə, dil və mədəni kimlik üzərində quraraq, etnik mənsubiyyətə əsaslanan eksklüziv siyasətlərin formalaşmasına yol açır (Ryan, 1997). Bu model radikallaşdıqda digər etnik qrupların sıxışdırılması, zorla assimilyasiyası və hətta fiziki məhv edilməsi kimi proseslərə gətirib çıxarır. Belə hallarda millətçilik öz ilkin mahiyyətini itirərək hegemonluq və etnik üstünlük vasitəsinə çevrilir. Millətçiliyin bu destruktiv transformasiyası çox zaman tarixi hadisələrin təhrif olunmuş təqdimatı, mifləşdirilmiş milli yaddaş və "tarixi ədalətin bərpası" iddiaları ilə müşayiət olunur. "İntiqam" və "əvəzini alma" kimi populist şüarlar etnik qarşıdurmaların legitimləşdirilməsində geniş istifadə edilir. Həm daxili, həm də xarici siyasi qüvvələr bu vəziyyəti manipulyasiya edərək gərginliyi öz maraqları naminə dərinləşdirirlər. Təsadüfi deyildir ki, Anthony D. Smith millətçiliyi həm **mədəni dirçəliş**, həm də **siyasi manipulyasiya** forması kimi xarakterizə edir (Smith, 1994). Onun fikrincə, millətçilik bir tərəfdən milli həmrəyliyi gücləndirir, digər tərəfdən isə "biz" və "onlar" qarşıdurmasını formalaşdıraraq etnik ziddiyyətlərin dərinləşməsinə şərait yaradır.

Etnik münaqişələr çox vaxt millətçiliyin destruktiv formaya çevrilməsi nəticəsində yaranır və sosial, siyasi, tarixi balansın pozulması ilə sıx bağlı olur. Belə balans pozulduqda etnik qruplar öz kimliklərini qorumaq, hüquqlarını müdafiə etmək və siyasi statuslarını dəyişmək məqsədilə separatist və ya müdafiə yönümlü hərəkatlara baş vururlar. Millətçilik və etnik münaqişələr arasındakı əlaqə müxtəlif nəzəri çərçivələrdə izah olunur: (Yılmaz, R., & İsmayılov, E. 2011)

Primordialist yanaşma – millətçiliyi insanların təbii və dəyişməz etnik kimlik hissindən doğan fenomen kimi şərh edir. Burada etnik fərqlər insan təbiətinin ayrılmaz hissəsi sayılır və münaqişələrin əsas səbəbi kimi qiymətləndirilir. **Instrumentalist yanaşma** – etnik fərqlərin özlüyündə qarşıdurma yaratmadığını, lakin siyasi elitalar tərəfindən manipulyasiya edildikdə münaqişə potensialının ortaya çıxdığını vurğulayır. Bu yanaşmada millətçilik hakimiyyət uğrunda mübarizədə siyasi alətə çevrilir. Nümunə olaraq qeyd edək ki, Tomas de Waal göstərir ki, Azərbaycan və ümumilikdə Cənubi Qafqaz kontekstində millətçilik ideyası tez-tez geosiyasi maraqların toqquşduğu mühitdə manipulyasiya obyektinə çevrilmişdir. 1980-ci illərin ortalarından etibarən regionda etnik münasibətlərin kəskinləşməsi həm Ermənistanda, həm də Azərbaycanda paralel şəkildə baş vermiş və müəyyən siyasi dairələr tərəfindən məqsədli şəkildə alovlandırılmışdır (De Waal, 2008). Xüsusilə Rusiyanın bölgədəki siyasəti, o cümlədən Qarabağ məsələsindəki rolu, etnik qarşıdurmaları öz təsir aləti kimi istifadə etməsi ilə seçilir. Moskva ayrılıqçı qüvvələri dəstəkləməklə regiondakı balansı pozmuş və bununla da regional sabitliyə dolayısı ilə mənfi təsir göstərmişdir (Caşın, 2010). **Modernist yanaşma** – Ernest Gellner, Eric Hobsbawm və Benedict Anderson tərəfindən irəli sürülmüş bu nəzəriyyəyə əsasən, millətçilik sənayeləşmə, kapitalizm və modern dövlətin formalaşması ilə əlaqələndirilir. Bu çərçivədə millətçilik sosial konstruksiya olaraq elitalar tərəfindən milli həmrəyliyi süni şəkildə yaratmaq və dövlət

legitimliyini möhkəmləndirmək üçün istifadə olunan vasitə kimi izah edilir.

Bundan əlavə, **Milton Esman** etnik plüralizm nəzəriyyəsində etnik qarşıdurmaları cəmiyyətdə müxtəlif qrupların maraqlarının toqquşması ilə əlaqələndirir. **Liberal** yanaşma daxili struktur problemlərini və bərabərsizliyi, **realist** yanaşma isə regional maraqları və xarici müdaxiləni əsas səbəb kimi göstərir. Sosial elmlər çərçivəsində qorxu, stereotiplər, demoqrafik dəyişikliklər və etnik simvolların təhlükədə olması da münaqişələri dərinləşdirən amillər kimi dəyərləndirilir. Elita manipulyasiyasına dair yanaşmalarda (Snyder, Rothchild, Lake, Gagnon) vurğulanır ki, siyasi elitalar etnik qorxu və nifrət üzərində manipulyasiya apararaq öz hakimiyyətlərini möhkəmləndirməyə çalışırlar. **Simvolik yanaşma** isə tarixi hadisələr və mədəni simvolların etnik qarşıdurmaların alovlanmasında mühüm rol oynadığını qeyd edir (Yılmaz, R., & İsmayılov, E. 2011).

Nəticə etibarilə, millətçilikdən etnik münaqişəyə gedən yolun mahiyyəti ondan ibarətdir ki, müəyyən sosial və siyasi şərtlər daxilində millətçilik ideologiyası birləşdirici gücdən dağıdıcı amilə çevrilə bilir. İqtisadi qeyri-bərabərlik, siyasi təmsilçilikdə ədalətsizlik, tarixi yaddaşın manipulyasiyası və xarici güclərin maraqları bu transformasiyanı daha da dərinləşdirir.

Etnik Münaqişələr və onların təhlükəsizliyə təhdidi. Etnik münaqişələr uzun müddət dövlət daxilindəki silahlı qarşıdurmaların alt kateqoriyası kimi səthi şəkildə qiymətləndirilmişdir (Brown, 1993, s. 3). Halbuki bu tip münaqişələr həm iki və ya daha çox etnik qrup arasında, həm də dövlətlə müəyyən etnik qrup arasında baş verə bilər (Brown, 1993; Stavenhagen, 1996.). Bu, onların həm daxili sabitlik, həm də beynəlxalq təhlükəsizlik baxımından çoxşaxəli və mürəkkəb xarakter daşıdığını göstərir.

Petro Nikolaeviç Şixirev etnik qarşıdurmaların gedişini dörd mərhələdə təsvir edir:

Romantik mərhələ – Tərəflər qələbə qazanacaqlarına və qarşı tərəfi tamamilə təsirsiz hala gətirə biləcəklərinə inanırlar. **Realist mərhələ** – Qarşı tərəfi zərərsizləşdirməyin asan olmadığı aydınlaşır və ilkin qələbə düşüncəsi sual altına alınır. **Çıxılmaz mərhələ** – Qarşıdurmanın həlli getdikcə çətinləşir, tərəflər yorulur, lakin güzəştə getməkdən imtina edirlər. **Ümidin itirilməsi mərhələsi** – Tərəflər qarşıdurmanın hər iki cəbhəyə zərər verdiyini anlayaraq dialoq və danışıqlara meyil göstərirlər (Ağayev, 2019). Bu etnik qarşıdurmaların mürəkkəb bir proses olduğunu sübut edir.

Etnik qarşıdurmaların yayılma və nümunə effektləri adlanıdırlan mexanizmləri var. "Yayılma effekti" adlandırılan mexanizm bir bölgədəki etnik münaqişənin oxşar demoqrafik və siyasi quruluşa malik digər regionlara sirayət etməsini ifadə edir. Digər tərəfdən, "nümunə effekti" isə bir etnik qrupun mərkəzi hakimiyyətə qarşı mübarizəsinin fiziki yaxınlıqdan asılı olmayaraq digər qruplar üçün örnək halına gəlməsini nəzərdə tutur (Yılmaz, 2006; Yılmaz, 2007.). Eyni zamanda etnik və milli kimliklər statik deyil, dinamik sosial konstruksiyalardır. Onlar sosial dəyişikliklərə qarşı həssasdır və zamanla yeni formalar alır. "Digər" qrupun tarixi faciələrə görə məsul tutulması, düşmən obrazında təqdim edilməsi və milli çərçivədə azlıqlara bərabər hüquqların tanınmaması halları etnik gərginliyi daha da dərinləşdirir. Bununla da, etnik qarşıdurmalar regional və beynəlxalq sülh və təhlükəsizliyə birbaşa təhdid yaradan proseslərə çevrilir. Aşağıdakı kimi sıralaya bilərik.

1. Suverenlik və dövlətlərin sabitliyinə təhdid

Etnik qarşıdurmaların irəli sürdüyü ayrılıqçı iddialar dövlətlərin suverenliyini və mövcudluğunu sorğulayan amillər kimi çıxış edir. Bu, mövcud dövlətlər sistemini sarsıda və regiondakı digər dövlətlər üzərində də əks-səda yarada bilər (Kaufmann, 1996.). Dövlətlərin təhlükəsizlik məsələlərində qarşılıqlı asılılıq yüksək olduqda, bu əks-sədalar daha güclü hiss olunur.

2. Daxili qarşıdurmaların dövlətlərarası münaqişələrə çevrilməsi

Daxili etnik qarşıdurmalar irredantist siyasətlər vasitəsilə dövlətlərarası münaqişələrə çevrilə bilər (Carment & James, 1997). Belə hallarda, bir dövlət daxilində baş verən qarşıdurmalar digər dövlətlərin yaranan səlahiyyət boşluğundan faydalanaraq etnik qruplara dəstək verməsinə şərait yaradır (Kaufmann, 1996). Xüsusilə zorakılıq altında olan etnik qrupların "qardaş dövlətlər"ə yönəlmiş hərəkətləri regional gərginliyi artırır.

3. Daxili və regional yayılan qarşıdurmalar

Etnik qrupların dövlət sərhədləri boyunca dağınıq yerləşməsi daxili qarşıdurmaların regional yayılmasına zəmin yaradır. Sərhəd boyunca etnik bağlılıq yüksək olan yerlərdə ayrılıqçı hərəkətlərin inkişaf potensialı daha yüksək olur və bu, regional sabitliyə təhdid yaradır. Beləliklə, etnik qarşıdurmalar, həll olunmamış sərhəd münaqişələri və ölkədaxili problemlərin yenidən üzə çıxma riskini artırır. Regional yayılma həm də lokal qarşıdurmaların digər ölkələrdə təkrarlanma potensialını artırır. Bu baxımdan, dövlət-daxili qarşıdurmaların regional yayıldığı yerlərdə etnik kimliyə əsaslanan gərginliklər həm də yayılmanın baş verdiyi ölkədə qarşıdurma riskini gücləndirir.

4. İnsan hüquqları pozuntuları və humanitar fəsadlar

Etnik qarşıdurmaların yaratdığı soyqırımı aktları, etnik təmizləmə və miqrasiya məsələləri yalnız humanitar fəlakətlərə deyil, eyni zamanda beynəlxalq diqqət və müdaxiləyə səbəb olur (Kaufmann, 1996).

Bu proses daxili və beynəlxalq qarşıdurmalar arasındakı sərhədi bulanıqlaşdırır. Hərbi şəraitdə baş verən şiddət daxili köçlərə, qaçqın axınlarına, humanitar təcili vəziyyətlərə və silah, insan və narkotik qaçaqçılığı, habelə terrorizm kimi regional və beynəlxalq sabitliyi zədələyən digər problemlərə yol açır.

5. Xarici müdaxilə imkanlarının artması

Daxili etnik qarşıdurmalar xarici dövlətlərin müdaxilə imkanlarını artırır. Müxtəlif qruplara dəstək verilməsi və regional maraqların toqquşması qarşıdurmanın genişlənməsinə şərait yaradır.

6. Qaçqın axınları və humanitar təzyiqlər

Şiddət və etnik təmizləmə nəticəsində qaçqın axınları yaranır ki, bu da qonşu ölkələrdə humanitar təzyiqləri artırır və regional sabitliyi zəiflədir.

7. Transsərhəd təhlükələr və etimadsızlıq

Etnik qarşıdurmalar transsərhəd terrorizm, silah və insan qaçaqçılığı kimi riskləri artırır və qonşu dövlətlər arasında etimadsızlıq yaradır.

Beləliklə, etnik qarşıdurmalar yalnız lokal və dövlət-daxili problem olaraq qalmır, həm də regional və beynəlxalq təhlükəsizliyə ciddi təhdid yaradır. Onların nəticələri dövlət suverenliyinin sarsılması, regional gərginliyin artması və humanitar fəlakətlər şəklində özünü göstərir. Buna görə də etnik qarşıdurmaların qarşısının alınması və idarə olunması həm milli, həm də beynəlxalq səviyyədə prioritet məsələdir.

Cənubi Qafqaz regionun da etnik münaqişələr. Etnik münaqişələrdən ən çox əziyyət çəkən bölgələrin başında Cənubi Qafqazı xüsusi qeyd etməliyik**.** Cənubi Qafqaz regionu — yəni Azərbaycan, Ermənistan və Gürcüstanı əhatə edən coğrafi-siyasi məkan — etnik, dini və mədəni müxtəlifliyin yüksək olduğu, lakin bu müxtəlifliyin çox vaxt siyasi ziddiyyətlərə çevrildiyi bir regiondur. Tarixi baxımdan bu ərazi imperiyalar arasında geosiyasi toqquşma sahəsi olmuş, region Fars və Bizansdan tutmuş Osmanlı və Rus imperiyalarına qədər bir çox imperiyanın yüksəlişinə və süqutuna şahidlik etmiş, onların hər biri Qafqazın sosial və siyasi mənzərəsində öz izini qoymuşdur (Gazi, 2025) . Bu səbəbdən regionda formalaşan millətçilik hərəkatları yalnız daxili kimlik məsələləri ilə deyil, həm də xarici güclərin rəqabəti və müdaxilələri ilə sıx şəkildə bağlı olmuşdur. XX əsrin sonlarında, xüsusilə Sovet İttifaqının dağılması ilə, Cənubi Qafqazda millətçilik ideologiyası yenidən canlanmış və siyasi legitimliyin əsas mənbələrindən birinə çevrilmişdir. SSRİ dövründə formal olaraq basdırılan etnik kimliklər 1980–1990-cı illərdə yenidən güclənmiş, bu da bölgədə separatizm və qarşıdurma meyllərini artırmışdır. Məsələn, Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi, Gürcüstandakı Abxaziya və Cənubi Osetiya münaqişələri etnik millətçiliyin destruktiv formalarının ən bariz nümunələridir (Cornell, 2002). Lakin, bu münaqişələrin kökündə təkcə etnik fərqlilik deyil, həm də siyasi resurslara nəzarət, tarixi ədalətsizlik iddiaları və regional güclərin təsir maraqları dayanır. Hər üç dövlətin milli ideologiyalarında "tarixi torpaq", "itirilmiş ərazilərin qaytarılması" və "milli haqların bərpası" kimi diskurslar mühüm yer tutur. Bu diskurslar ictimai yaddaşda etnik "digəri"nin demonizasiyasına və "biz–onlar" qarşıdurmasının dərinləşməsinə səbəb olmuşdur. Cənubi Qafqazdakı etnik münaqişələrin struktur xüsusiyyətlərindən biri də geosiyasi xarakter daşımasıdır. Regionda Rusiya, Türkiyə, İran və Qərb dövlətlərinin rəqabəti millətçilik hərəkatlarının daxili dinamikasına bilavasitə təsir göstərmişdir. Məsələn, Rusiya öz təsir dairəsini qorumaq üçün bəzi etnik hərəkatları dəstəkləmiş, Qərb dövlətləri isə "öz müqəddəratını təyinetmə" və "insan haqları" prinsiplərini önə çəkmişdir. Nəticədə, etnik münaqişələr təkcə milli identiklik məsələsi deyil, həm də beynəlxalq siyasətin aləti halına gəlmişdir (Herzig, 1999). Eyni zamanda, regionda iqtisadi qeyri-bərabərlik və siyasi təmsilçilikdə ədalətsizlik də millətçiliyin radikallaşmasını stimullaşdıran amillərdəndir. Post-sovet keçid dövründə iqtisadi dağınıqlıq və dövlət institutlarının zəifliyi etnik qruplar arasında etimadsızlıq mühitini gücləndirmişdir. Bu isə, xüsusilə də etnik azlıqların yaşadığı ərazilərdə, separatizm və qarşıdurma riskini artırmışdır. Bundan başqa, Cənubi Qafqazda etnik münaqişələrin dərinləşməsində tarixi yaddaşın manipulyasiyası və mədəni simvolların siyasiləşdirilməsi mühüm rol oynamışdır. Ermənistan və Azərbaycanda "soyqırım", "etnik təmizləmə" və "tarixi haqlar"la bağlı rəvayətlər kollektiv şüurda travmatik yaddaş formalaşdırmış və bu yaddaş müasir dövrdə siyasi mobilizasiya vasitəsinə çevrilmişdir.

Bu baxımdan, Cənubi Qafqaz kontekstində millətçilik sadəcə milli kimliyin ifadə forması deyil, həm də geosiyasi rəqabət, siyasi legitimlik və tarixi travmaların davamı kimi çoxqatlı bir prosesdir. Bölgədəki etnik münaqişələr, mahiyyətcə, millətçiliyin destruktiv potensialının sosial, siyasi və beynəlxalq səviyyədə necə alovlana biləcəyini göstərən empirik nümunələrdir.

Nəticə

Etnik və dini münaqişələr müasir dünyanın ən kəskin və dağıdıcı problemlərindən biri olaraq qalır. Onlar siyasi mənzərədə böyük dəyişikliklərə, humanitar böhranlara və uzun müddətli münaqişələrə yol açır, çoxlu insanın həyatını itirməsinə və infrastrukturun məhv olmasına səbəb ola bilər. Soyuq Müharibənin sona çatması ilə birlikdə etnik, dini və milli kimliklərlə bağlı yaranan etibarsızlıqlar təhlükəsizlik məsələlərində daha önəmli rol

oynamışdır. Bu etibarsızlıqlar bir çox hallarda dövlət-daxili qarşıdurmalarla nəticələnmiş və sərhəd aşan təsirləri regional və beynəlxalq təhlükəsizlik üçün ciddi problem yaratmışdır. Avtonomiya axtarışında olan böyük dövlət qurmaq xülyasına dalan və ya mövcud dövlətdən ayrılmaq məqsədi güdən etnik qrupların varlığı xarici müdaxilə imkanlarını artırır, sabitlik qorxusu və qonşu dövlətlər arasında təhlükəsizlik dilemması yaradır, qaçqın və terrorizm problemlərinə yol açır. Etnik münaqişələrin etnik təmizləməyə və yaxud soyqırıma çevrilməsi həm milli, həm də beynəlxalq səviyyədə ciddi təhlükəsizlik təhdidləri yaradır.

Beləliklə, Soyuq Müharibədən sonrakı dövrdə beynəlxalq münasibətlərin əsas problem sahələrindən biri kimi formalaşan etnik münaqişələr, millətçiliyin transformasiyası, kimlik siyasətlərinin dərinləşməsi, geosiyasi rəqabət, tarixi travmalar və sosial bərabərsizliyin dərinləşməsi ilə sıx bağlıdır. Bu münaqişələr çox zaman geosiyasi rəqabət, xarici müdaxilələr və ideoloji manipulyasiyalarla daha da mürəkkəbləşir. Nəticədə, etnik zəmində baş verən qarşıdurmalar yalnız lokal səviyyədə deyil, həm də regional və qlobal təhlükəsizlik sisteminə təsir göstərir. Bu etnik münaqişələrdəndə ən çox əziyyət çəkən region Qafqaz olmuşdur.

Təkliflər

1. **Erkən xəbərdarlıq sistemlərinin gücləndirilməsi:**

2. Etnik gərginliklərin ilkin mərhələdə aşkarlanması üçün qabaqlayıcı monitorinq mexanizmləri inkişaf etdirilməlidir. Sosial media, yerli ictimai təşkilatlar və təhlükəsizlik qurumları vasitəsilə məlumat toplanmalı, potensial münaqişə riskləri müəyyən edilərək vaxtında preventiv tədbirlər görülməlidir.

3. **Beynəlxalq hüquqi mexanizmlərin effektivliyi:**

4. BMT, Beynəlxalq Cinayət Məhkəməsi və digər beynəlxalq institutlar etnik təmizləmə və insan haqları pozuntularının qarşısının alınmasında daha operativ və təsirli rol oynamalıdır. Hüquqi çərçivələr həm cəza mexanizmlərini, həm də münaqişələrin qabaqlanmasına yönəlmiş proaktiv tədbirləri əhatə etməlidir.

5. **Regional əməkdaşlıq və dialoq mexanizmləri:**

6. Dövlətlər və regional qurumlar arasında qarşılıqlı etimadın artırılması məqsədilə davamlı dialoq platformaları, birgə monitorinq sistemləri və əməkdaşlıq təşəbbüsləri yaradılmalıdır. Bu, yalnız dövlətlərarası deyil, həm də dövlət-daxili etnik qruplar arasında sülh və sabitliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

7. **Humanitar müdaxilə və mülki əhalinin qorunması:**

8. Təcili humanitar yardım planları hazırlanmalı, qaçqın və məcburi köçkünlərin hüquqlarının qorunması təmin edilməli, fövqəladə vəziyyətlərdə sürətli və koordinasiyalı müdaxilə mexanizmləri işlək vəziyyətdə olmalıdır. Bu tədbirlər həm lokal, həm də regional səviyyədə sabitliyin qorunmasına xidmət edəcəkdir.

9. **Etnik dialoq və barışıq təşəbbüsləri:**

10. Uzunmüddətli sabitliyin təmin edilməsi üçün etnik qruplar arasında dialoq və barışıq təşəbbüsləri əsas vasitə kimi tətbiq edilməlidir. Təhsil proqramları, mədəni mübadilə və gənclər ilə qadın təşkilatlarının təşəbbüsləri vasitəsilə qarşılıqlı anlaşma və tolerantlıq təşviq edilməlidir.

11. **Sosial-iqtisadi inteqrasiya və ədalət:**

12. Etnik qruplar arasında bərabərsizliklərin azaldılması məqsədilə sosial və iqtisadi inkişaf proqramları həyata keçirilməli, iş imkanları, təhsil və səhiyyə xidmətlərinə bərabər çıxış təmin edilməlidir. Azlıqların cəmiyyətə tam inteqrasiyası üçün inklüziv siyasətlər gücləndirilməlidir.

13. **Mediada məsuliyyət və informasiya siyasəti:**

Media orqanları nifrət nitqlərinin qarşısını almaq üçün balanslı və obyektiv məlumat yaymalı, informasiya texnologiyaları vasitəsilə etnik stereotiplərin və provokativ mesajların yayılmasının qarşısını almalıdır.

14. **Elmi tədqiqat və məlumat bazasının yaradılması:**

15. Etnik qarşıdurmaların səbəblərini, nəticələrini və risk faktorlarını araşdıran tədqiqatlar təşviq edilməli, etibarlı məlumat bazaları yaradılaraq mütəxəssislər və qərarvericilər üçün əsas resurs kimi istifadə edilməlidir. Bu, münaqişələrin idarə olunması və preventiv siyasətlərin hazırlanmasında mühüm rol oynayacaqdır.

16.

ƏDƏBIYYAT SİYAHISI:

1. Ağayev, V. (2019). *Etnik milliyetçilik bağlamında Kosova ve Karabağ sorunlarının karşılaştırılması* (Yayımlanmamış yüksek lisans tezi). Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü, Edirne, 105

2. Brown, M. E. (1993). The causes of internal conflict: An overview. In M. E. Brown et al. (Eds.), *Nationalism and ethnic conflict* (pp. 3–25). MIT Press.

3. Caşın, A. (2010). Russia's influence in the Caucasus: Ethnic politics and regional stability. *Caucasus Review, 12*(3), 320–340.

4. Caşın, M. H. (2010). ABD'nin Kafkasya politikasında Rusya ile ortaklık ve rekabet paradoksunun olası gelişmelerini anlamak. In T. Arı

(Ed.), *Orta Asya ve Kafkasya* (pp. 325–383). MKM Yayıncılık.

5. Carment, D., & James, P. (1997). International politics of ethnic conflict: New perspectives on theory and policy. *Global Society, 11*(2), 205–232.

6. Clark, Ian, Globalization and International Relations Theory, Oxford University Press, New York, 1999.

7. Cornell, S. E. (2002). *Small nations and great powers: A study of ethnopolitical conflict in the Caucasus.* Routledge, 65(01), 140 - 262

8. De Waal, T. (2008). *Black garden: Armenia and Azerbaijan through peace and war* (Revised ed.). New York University Press

9. Gazi, T. (2025). *Historical conflicts of the Caucasus: The impact of political borders on societies*. *Acta Globalis Humanitatis et Linguarum*, 2(1), 165–172.

10. Gurr, T. R. (1993). *Minorities at risk: A global view of ethnopolitical conflicts.* United States Institute of Peace Press.

11. Gurr, T. R. (1998). Communal conflicts and global security. In C. W. Kegley Jr. & E. R. Wittkopf (Eds.), *The global agenda: Issues and perspectives* (pp. 197–207). McGraw Hill.

12. Gurr, T. R., & Harff, B. (1994). *Ethnic conflict in world politics.* Westview Press.

13. Herzig, E. (1999). *The new Caucasus: Armenia, Azerbaijan and Georgia.* Royal Institute of International Affairs, 165

14. Kaufmann, C. (1996). Possible and impossible solutions to ethnic civil wars. *International Security, 20*(4), 136–175.

15. Ryan, S. (1997). Nationalism and ethnic conflict. In B. White, R. Little, & M. Smith (Eds.), *Issues in world politics* (pp. 157–178). Macmillan Press.

16. Scherner, C. P. (2003). *Ethnicity, nationalism and violence: Conflict management, human rights and multilateral regimes.* Ashgate Publishing.

17. Smith, A. D. (1998). *Nationalism and modernism: A critical survey of recent theories of nations and nationalism.* Routledge.

18. Stavenhagen, R. (1996). *Ethnic conflicts and the nation-state.* Macmillan Press.

19. Yılmaz, M. E. (2006). Soğuk Savaş sonrası dönemde "sınır içi" etnik çatışmalar. *Uluslararası Hukuk ve Politika, 2*(6), 17–30.

20. Yılmaz, M. E. (2007). *Soğuk Savaş sonrası dönemde etnik çatışmalar: Etnik çatışmaların nedenleri ve etnik barışın tesisi.* Nobel Yayın Dağıtım.

21. Yılmaz, R., & İsmayılov, E. (2011). *Etnik çatışma teorileri ışığında Dağlık Karabağ sorunu.* Bilgesam Yayınları

DOI: 10.32010/CTDZ9839

MİLLİ SUVERENLİK,SOSİAL İNTEQRASİYA VƏ SOSİAL İŞİN STRATEJİ FUNKSİYALARI:AZƏRBAYCAN MODELİ

Nəzrin Rais qızı ƏLIYEVA
Bakı Biznes Universiteti
0009-0006-0811-7870
Neliyeva305@gmail.com

Xülasə: Bu məqalədə milli suverenlik anlayışının sosial siyasət və sosial işin inkişafı ilə qarşılıqlı əlaqəsi Azərbaycan kontekstində təhlil olunur. Tədqiqatın məqsədi milli suverenliyin sosial rifah, sosial ədalət və inklüzivlik prinsipləri ilə uzlaşmasını elmi əsaslarla araşdırmaqdır. Araşdırma deskriptiv-analitik yanaşmaya əsaslanaraq dövlət proqramları, sosial islahatlar və rəsmi statistik məlumatların (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2023) müqayisəli təhlilinə söykənir. Nəticələr göstərir ki, sosial dövlət konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar əhalinin sosial təminatının yaxşılaşmasına, marjinallaşmış qrupların inteqrasiyasına və sosial işin strateji funksiyalarının genişlənməsinə səbəb olmuşdur. Xüsusilə, sosial işin koordinasiyaedici və adaptasiyaedici rolu sosial təhlükəsizliyin və rifahın qorunmasında mühüm mexanizm kimi çıxış edir. Məqalə Azərbaycanın sosial siyasət modelinin davamlı inkişaf məqsədləri (SDG) kontekstində elmi və praktik baxımdan dəyərləndirilməsini təmin edir.
Açar sözlər: milli suverenlik, sosial siyasət, sosial iş, sosial inteqrasiya, sosial rifah, Azərbaycan modeli

---

NATIONAL SOVEREIGNTY, SOCIAL INTEGRATION AND STRATEGIC FUNCTIONS OF SOCIAL WORK: THE AZERBAIJAN MODEL

Nazrin Rais ALIYEVA
Baku Business University
0009-0006-0811-7870
Neliyeva305@gmail.com

Abstract: This article analyzes the interrelation between the concept of national sovereignty and the development of social policy and social work in the context of Azerbaijan. The aim of the study is to scientifically examine the alignment of national sovereignty with the principles of social welfare, social justice, and inclusivity. The research is based on a descriptive-analytical approach and relies on a comparative analysis of state programs, social reforms, and official statistical data (State Statistical Committee of the Republic of Azerbaijan, 2023). The findings indicate that the reforms implemented within the framework of the social state concept have contributed to the improvement of social security, the integration of marginalized groups, and the expansion of the strategic functions of social work. In particular, the coordinating and adaptive role of social work serves as an essential mechanism for maintaining social security and welfare. The article provides a scientific and practical assessment of Azerbaijan's social policy model within the context of the Sustainable Development Goals (SDGs).
Keywords: national sovereignty, social policy, social work, social integration, social welfare, Azerbaijan model

---

НАЦИОНАЛЬНЫЙ СУВЕРЕНИТЕТ, СОЦИАЛЬНАЯ ИНТЕГРАЦИЯ И СТРАТЕГИЧЕСКИЕ ФУНКЦИИ СОЦИАЛЬНОЙ РАБОТЫ: АЗЕРБАЙДЖАНСКАЯ МОДЕЛЬ

Назрин Раис кызы АЛИЕВА
Бакинский Бизнес Университет
0009-0006-0811-7870
Neliyeva305@gmail.com

Резюме: В данной статье анализируется взаимосвязь между понятием национального суверенитета и развитием социальной политики и социальной работы в контексте Азербайджана. Цель исследования — научно изучить согласованность национального суверенитета с принципами социального благосостояния, социальной справедливости и инклюзивности. Исследование основано на дескриптивно-аналитическом подходе и опирается на сравнительный анализ государственных программ, социальных реформ и официальных статистических данных (Государственный комитет по статистике Азербайджанской Республики, 2023). Результаты показывают, что реформы, реализованные в рамках концепции социального государства, способствовали улучшению социальной защиты населения, интеграции маргинализированных групп и расширению стратегических функций социальной работы. В частности, координирующая и адаптационная роль социальной работы выступает важным механизмом обеспечения социальной безопасности и благополучия. Статья предоставляет научную и

практическую оценку модели социальной политики Азербайджана в контексте Целей устойчивого развития (ЦУР).
Ключевые слова: национальный суверенитет, социальная политика, социальная работа, социальная интеграция, социальное благосостояние, азербайджанская модель

Giriş

Qadınlar arasında maariflənmə ideyalarının geniş şəkildə yayılmasında heç şüphəsiz ki, dövrü mətbuatın da çox böyük rolu olmuşdur. Azərbaycan Kommunist Partiyasının katibi vəzifəsini icra edən Əli Heydər Qarayev, bu partiyanın Qadınlar Qolundan çıxış edən Ayna Sultanova və "Kommunist" qəzetinin redaktoru vəzifəsində çalışan Həbib Cəbiyev 1923-cü ildə qadınların inkişafında mətbuatın gücünü anlayaraq "Qadın Nəşrləri Şöbəsi"nin yaradılmasına təşəbbüs göstərərək məqsədlərinə nail oldular (İmanzadə, 1957). Qısa müddət ərzində isə Azərbaycan qadınlarının sosial, mədəni və siyasi həyata fəal şəkildə qatılmalarını təmin etmək məqsədi ilə "Şərq qadını (1923-1938)" jurnalının nəşri barədə qərar qəbul edildi. Jurnal şərqdə məşəl kimi parlamışdır. 1938-ci ildən etıbarən jurnal "Azərbaycan qadını" adı ilə nəşr edilmişdir. Birinci nömrənin üz qabığında üç müsəlman qadın təsvir edilib. Birinci

qadının ayaqlarında zəncir, üzündə pərdə təsvir edilmiş, ikinci qadının örtüyü bir qədər açılmış, üçüncü qadının örtüyü isə tamamilə çıxarılaraq şərq tərəfə işarə edilmişdir (Kizir, 2024; Uçar, 2022).1930-cu ildən başlayaraq "Şərq Qadını" jurnalı abunə qəbuluna başladı, abunə qiyməti üç ay 50 qəpik, altı ay 1 manat, bir illik isə 2 manat idi ("Şərq Qadını", 1929).

Sovet rejimində təhsil, yeni ideologiyanın ictimaiyyət tərəfindən qəbulu və bəyənilməsinin təmin edilməsində həlledici rol oynayacaq, eyni zamanda onu cəmiyyətə aşılayacaq mütəxəssislərin yetişdirilməsinə xidmət edəcəkdi. Buna görə də Sovet İttifaqının qurulmasından dərhal sonra hərtərəfli təhsil siyasəti başladıldı. Başladılan hərtərəfli təhsil siyasətində sovet rejimi Azərbaycan qadınlarını sovet kommunist ideologiyasının təsir dairəsinə daxil etmək üçün onların təhsilinə xüsusi önəm verirdi.Qadınlar üçün evdə savadsızlığın aradan qaldırılması məqsədi ilə kurslar yaradıldı. Bakıdakı Ə.Bayramov adına qadınlar klubunu xüsusi qeyd etmək lazımdır. 1926-1932-ci illər arasında klubun göstərdiyi səylər nəticəsində 150 minə yaxın qadın arasında savadsızlıq aradan qaldırıldı (Kabaoğlu, 2018). Azərbaycan qızlarına ali təhsil vermək üçün 1921-ci ildə Bakıda məktəbəqədər təhsil institutu yaradıldı. İlk ildə auditoriyalara cəmi 30 qız qəbul edildi. İnstitut 1922-ci ildə Ali Pedaqoji Qadınlar İnstitutuna çevrildi.1924-cü ildə bu institutu ilk dəfə 17 tələbə qız bitirdi. Bu məzunlar Gövhər Usubova, Sənubər Əyubbova, Səkinə Səfərzadə, Südabə Əlizadə, Humay Atakişizadə, Nəzirə Pipinova, Fatma Tutayuq, Mələk Axundzadə, Şövkət Sadıqzadə, Şirin Qiyasbəyli, Gülruh Qazızadə, Şahuza Xızırbəyli, Sürəyya Xələfzadə, Müqədnisə Qiyasbəyli, Xanımana Məmmədzadə, Xədicə Şahtaxtlı, Tutu Hacızadə idi ki, onlar Azərbaycanda ali pedaqoji təhsil diplomu alan ilk azərbaycanlı qızlar oldu (Gəncəli, 2001).Azərbaycanın savadlı və ziyalı qadınlarının böyük bir hissəsi bu dövrdə yetişmiş, həm ölkə daxilində, həm də xaricdə təhsil alaraq özlərini inkişaf etdirmişdir. 1937-ci ildən etibarən ali məktəblərdə fransız və ingilis dillərini tədris edən Sara Balabəy qızı Aşurbəyli, 1956-cı ilə qədər müəllim vəzifəsində çalışaraq "Lenin" ordeni ilə təltif olunan H. B. Zərdabinin qızı Qəribsoltan Xanım dövrün maarifli qadınları sıralarında idi (Baş red:Vəliyev, 2002). Nazlı Tahirova sovet dövründə 1922-1928-ci illər arasında Naxçıvanda qızlar pedaqoji texnikumunun, savad kurslarının, Ordubadda qadınlar klubunun yaradılmasında xüsusi fəallıq göstərərək ömrünün yarım əsrdən çox hissəsini Naxçıvan bölgəsində xalq təhsilinin inkişafına sərf etmişdir. Dövrün digər savadlı qadınlarından biri də H. B. Zərdabinin həyat yoldaşı Hənifə Xanım öz müəllimlik fəaliyyəti ilə qadın təhsilində mühüm addımlar atmışdır (Gəncəli, 2001). Atası ilə bərabər Lənkaran bölgəsində məktəb və kurslar açaraq qızları təhsilə cəlb edən Məryəm Bayraməlibəyova 1925-ci ildə Moskvada keçirilmiş Birinci Ümumittifaq Müəllimlər Qurultayında iştirak etmişdi. O, burada Azərbaycan müəllimlərini təmsil edərək həyəcanlı nitqi ilə çıxış etmişdir. Həmçinin 1926-cı ildə Azərbaycan Müəllimlərinin Birinci Qurultayında da öz yerini almışdır (Məmmədov, 1975; Kərimov və Əsədova, 2019; Orucova, 2024).

Azərbaycan qadınları sovet hakimiyyəti illərində təhsillə yanaşı əmək fəaliyyətində də aktiv olaraq yaradılmış imkanlardan ictimaiyyətin, dövlətin və cəmiyyətin mənafeyi naminə səmərəli istifadə etdilər. Sovet dövrünün əsas nailiyyətləri qadınların müəllimlik, tibb, mühəndislik və başqa bu kimi peşələrə yiyələnmələri idi. Qadınların ictimai həyata və istehsalata cəlb edilməsi yeni sovet cəmiyyətinə nail olmaq yolunda atılan ən mühüm addımlardan biri idi. Bu dövrdə Azərbaycan qadınları sənayedə, pambıq və ipək fabriklərində aktiv işçi qüvvəsi olaraq çalışırdı. 1925-ci ildə 15,6 min qadın Azərbaycan SSR sənayesində işləyirdi. Toxuculuq, yüngül və qida sektorunda çalışan bütün zəhmətkeşlərin 11,7-24,5 faizini qadınlar təşkil edirdi. Eyni zamanda neft sənayesində iki min qadın çalışırdı ki, onların da əksəriyyəti qulluqçu vəzifəsini icra edirdi.Bu zəhmətkeş qadınlardan biri olan Məryəm Anqubazova 1936-cı ildən Balakəndə tütünçülük sahəsində çalışmış və göstərdiyi yüksək göstəricilərə görə "Sosyalist İşçi Lideri" adını almışdır. Həlimət Balayeva da 1932-ci ildən həmin rayonda "Moskva" tütünçülüyündə çalışmış, "Lenin" ordeniylə təltif edilmişdir. 1933-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş Manya Kərimova Goranboy rayonunda təsər-rüfatlarda çalışmış, göstərdiyi zəhmətə görə üç dəfə "Lenin" və "Şərəf" ordeni ilə təltif edilmişdir. Azərbaycanda iki əl ilə pambıq yığımı hərəkatını başladan, iki dəfə "Sosyalist Əməyi Qəhrəmanı" adına layiq görülmüş məşhur pambıq ustası Bəsti Bağırova sovet dövründə öz əməyi ilə dövlətə böyük töhfələr verən Azərbaycan qadınlarından biri idi (Orucova, 2024).1928-1929-cu illərdə sənayedə çalışan qadınların sayı 870 nəfərə çatmışdı. 1930-cu ildə isə dəmir yollarında işləyən qadınların sayı 900 nəfərə çatmışdı. Ümumilikdə, 1932-ci ilin sonunda istehsalatda çalışan qadınların sayı 23.412 nəfər idi (İmanzadə, 1957).

Kənd təsərrüfatında, fabriklərdə, neft sektorunda çalışan Azərbaycan qadınları ilə bərabər təhsil alaraq həkim, müəllim, mühəndis kimi fəaliyyət göstərən qadınların da sayı artmışdı. Digər yandan da dövlət

qulluqçusu vəzifəsini icra edərək siyasi arenada şöhrət qazanan, hətta aviasiya sahəsində ad çıxarmış Azərbaycan qadınları, Sovet İttifaqının həm iqtisadi, həm də siyasi qüdrətini inkişaf etdirmək üçün böyük səylər göstərmişdir. Azərbaycanda elmlər doktoru adını alan qadın ginekoloq Adilə Şahtaxtinskaya sovet dövrünün ən tanınmış qadın həkimlərindən biri idi. 1931-ci ildə ali tibb dərəcəsi almış və mikrobiologiya üzrə elmi tədqiqatlar aparan Nabat Nərimanova, stomatoloq kimi fəaliyyət göstərən Ayna Əhmədbəyova kimi həkim qadınlar Azərbaycanda səhiyyənin inkişafında əvəzsiz xidmətləriylə yadda qalmışdır. Azərbaycanın ilk qadın alimləri arasında oftalmoloq Ümnisə Musabayeva və Sona İbrahim qızı Rəhimova da olub. Sona Rəhimova İsveçrənin Lozanna Univer-sitetini, sonra isə Sankt-Peterburqda Qadın Tibb İnstitutunu əla qiymətlərlə bitirib. O, oftalmologiya sahəsində uğurlufəaliyyətinə görə 1941-ci ildə Nobel mükafatına layiq görülüb (Gəncəli, 2001; Orucova, 2024). Leyla Məmmədbəyova aviasiya sahəsində ciddi uğurlar qazanıb. O, Bakıda və Moskvada aviasiya məktəblərində oxumuş, 1934-cü ildə paraşütçülük üzrə Zaqafqaziya çempionu olmuşdur. Züleyxa Seyidməmmədova da bu dövrdə aviasiya təhsili almış, II Dünya Müharibəsi illərində təyyarə komandiri vəzifəsində çalışmış, 500-dən çox uçuş həyata keçirmişdir (Baş red:Vəliyev, 2002).

Azərbaycan qadınlarını dövlət idarəçiliyinə cəlb etmək, onların tam hüquqlu sovet vətəndaşı kimi siyasi şüurunu artırmaq şübhəsiz ki, sovet hökumətinin başlıca siyasəti idi. Bu dövrdə Azərbaycan qadınlarının təşkil etdiyi qurultaylar da onların siyasi həyatda yer almaq istəklərindən xəbər verirdi. 1921-ci ildə başlayan bu qurultaylar 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etdikdən sonra da davam etdi.İlk dəfə Azərbaycan Qadınlarının I Qurultayında "Bütün Şərq Qadınlarına Müraciət" yekdilliklə qəbul edildi (Red: Quliyev, 1976). Həmçinin eyni ildə qəbul edilən Konstitusiyaya görə Azərbaycan qadınları seçki hüququ qazandı. Növbəti illərdə qəbul olunan Konstitusiyalarda da qadınların bu hüququ öz yerini aldı (Конституция Азербайджанской ССР, 1927; Orucova, 2024). Qadınların sovet işlərində iştirakına müha-fizəkarların qarşı çıxmasına baxmayaraq, seçkiqabağı kampaniyalarda qadınların sayı ildən-ilə artırdı. Bu artım xüsusilə Şəki, Quba və Göyçay rayonlarında nəzərə çarpmışdır (Azərbaycan Respublikası Dövlət Arxivi, f. 137, siy. 1, iş 115, s. 130).1938-ci il iyunun 24-də Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirildi. Bu seçkilərdə Azərbaycan SSR Ali Sovetinə seçilən 310 deputatdan 52-si Azərbaycan qadını idi (Первая сессия Верховного Совета Азербайджанской ССР первого созыва, 1939). Kübra Fərəcova, Çimnaz Aslanova, Xanımana Sadıqova, Şahnabat Nəsibova, Səmayə Zamanova və digər maarifli Azərbaycan qadınları Ali Sovetə seçilən ilk qadınlarımız idi (Gəncəli, 2001; Orucova, 2024).

Azadlıqdan təqibə: repressiyanın hədəfində Azərbaycan qadınları. Baxmayaraq ki, sovet dövründə qadınlar üçün yaradılmış azad yaşayış mühitindən, onun təhsil və məşğulluq imkanlarından mövzu açsaq da, bu dövlətin işğalçı və müstəm-ləkəçilik siyasətinin qadınların, xüsusən də maarifçi və bilikli Azərbaycan qadınlarının dünəninə, bu gününə və gələcəyinə vurduğu zərbələr cəmiyyətə təsirsiz qalmamışdır.

Leninin ölümündən sonra 1924-cü ildə Stalinin hakimiyyətə gəlməsi tarixdə bənzəri olmayan repressiyalar, əsassız edamlar və sürgünlər dövrünün başlanğıcı oldu (Bünyadov, 1993). Acı həqiqət idi ki, "xalq düşməni" və ya "sovet düşməni" adı ilə həbs edilən, sürgün edilən, öldürülən Azərbaycanlılar arasında dövrün maarifçi qadınları da var idi. Nəticədə isə Azərbaycan qadınlarının maarifçilik ənənəsini davam etdirmək imkanları məhdudlaşdırılmış, onların milli kimlik uğrunda mübarizəsi dərindən sarsılmışdır. Sibirə, Qazaxıstana, Orta Asiyaya sürgün olunan bu qadınların böyük əksəriyyəti mövcud rejim və ideologiyaya qarşı təhdid yaradacaq zəkaya sahib idilər (Orucova, 2024).

Şübhəsiz ki, AXC-nin qurucusu Məhəmməd Əmin Rəsulzadənin həyatında mühüm rol oynayan anası, həyat yoldaşı və qızı sərt təqiblərin qurbanı idi. Anası Maral Xanım və həyat yoldaşı Ümbül Banu Xanım Qazaxıstana sürgün edilmiş və orada hər ikisi həlak olmuşdur. Qızı Lətifə Xanım da eyni aqibəti yaşamış və uşaqları ilə birlikdə sürgünə göndərilmişdir(Yaqublu, 2015).

Bu dövrdə Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq, Böyükağa Talıblı, Tağı Şahbazi kimi "xalq düşməni" adı ilə şərlənərək həbsə atılan ədəbiyyat xadimləri arasında Azərbaycanın İstiqlal şairi Ümmügülsüm Sadıqzadə və onun yazıçı həyat yoldaşı Seyid Hüseyn də var idi. 1937-ci ildə 37 yaşında haqsız hökmün nəticəsində ilk öncə Bayıl həbsxanasında saxlanılmış, ardından Mordova vilayəti Temlaq düşərgəsinə sürgün edilmişdir (Hüseynzadə, 2005). Hətta o zaman qəzetlərin birində çıxan "Başqası" başlıqlı yazıda Ümmügülsüm xanımla bağlı belə fikirlər yer alırdı:

"Bizim borcumuz düşmənlərimizi tanımaqdır... Ümmügülsüm kimi bayquşların ağzını qırmızı möhürlə möhürləmək, zəhərini içinə buraxmaq, qəflətlərini gözlərindən silmək. Haqqa yaxınlaşana qədər bu zərbə altında qıvrılsınlar!" (Salamoğlu,

2012). "Ayrılıq" şeirində isə acı hisslərini bu sətirlərlə bildirib:

"Mən saralıb sollam qərib əllərdə,
Sözüm dastan olar bütün dillərdə.
Gözüm qaldı çiçəklərdə, güllərdə,
Gül dərmədim, düşdüm çəmənayrısı,
Sürgünəm, düşgünəm, vətənayrısı." (Salamoğlu, 2012).

1926-cı ildə Bakıda I Türkologiya Qurultayının keçirilməsinə maraqlıdır ki, sovet hökuməti hansı səbəblərə əsasən icazə verdi? Çünki sovetlərin türk xalqalarını bir araya gətirən bu qurultayı təşkil etməkdə məqsədi onların əsl düşmənlərinin kimlər olduğunu aydınlaşdırmaq və həbs olunacaqlara "millətçi", "pantürkist", "xalqdüşməni" damğası vurmaq idi. Qurultayda iştirak edən 131 nümayəndə arasında yeganə qadın olan Ayna Sultanova 1938-ci ildə Stalin repressiyasının qurbanı oldu. Bir zamanlar "Lenin partiyasının sədaqətli qızı" adıyla tanınsa belə o da digər ittiham olunanlar kimi əksinqilabi millətçi təşkilatın üzvü olmaqla, Azərbaycan MK katibinə terror hazırlayan qrupa rəhbərlikdə günahlandırılır (Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, pr № 3753.10). Azərbaycanda qadın hərəkatının öncüsü, Bakıda qadın klubunun yaradıcılarından biri, iki dəfə "Lenin" ordeni, "Oktyabr inqilabı" ordeni ilə təltif edilən Ceyran Bayramova da çox təəssüfki, Stalin zülmə məruz qalan maarifpərvər Azərbaycan qadınlarından olmuşdur. "Xalq düşməni"nin həyat yoldaşı olmaqda günahlandırılan qadın, özünün sadiq kommunist olduğunu sübut etməyə nə qədər çalışsa da heç kim ona inanmırdı, daha doğrusu, inanmaq istəmirdi (Nizamiqızı, 2012). Dövrün qurbanlarından biri də maarifçi müəllim Mədinə xanım Qiyasbəyli olmuşdur. Mədinə xanım Sovet İttifaqı dövründə təhsil sahəsində fəal şəkildə çalışan Azərbaycan qadını idi. Lakin sovet hökuməti öz mənafeləri üçün çalışan bu maarifpərvər qadını ağır ittihamlarla həbs etdi. 1936-cı il dekabrın 7-də Mədinə Xanımın əleyhinə *"1897-ci il təvəllüdlü vətəndaş Qiyasbəyli qeyri-qanuni inqilabi və ideoloji təşkilatın üzvüdür"* ifadəsi ilə hesabat hazırlandı. Bir gün sonra Mədinə xanım həbs olundu. On iki dəfə məhkəmə qarşısına çıxarıldı və 26 sentyabr 1937-ci ildə edam hökmü oxundu. Hökm sentyabrın 28-nə keçən gecə həyata keçirildi. Ölümündən cəmi 9 il sonra o, bəraət qazandı (Bünyadov, 2004; Orucova, 2024). Bir zamanlar Ə. Bayramov adına qadınlar klubunun direktoru, "Şərq Qadını" jurnalının redaktoru və Azərbaycan MİK Qadınlar şöbəsinin müdürü kimi müxtəlif vəzifələrdə çalışan Gülarə Qədirbəyova da həm bu dövrün intellektual qadını, həm də mövcud rejimin qurbanı idi. Onun qələminin məhsulu olan "Bir Sarayın Tarixi" əsəri bütünlüklə milli ruhda yazılması və xalq düşməni kimi tanınan Hüseyn Cavid və Əhməd Cavadla yaxınlığı onun həbsinə səbəb olumuşdur (Gəncəli, 2001).

Bəhs olunan dövrdə Sovet İttifaqından minlərlə qadın saxta ittihamlarla həbs edilərək uydurma məhkəmələrin hökmü ilə Qazaxıstan səhralarına sürgün edilib. Dövrün ziyalılarının həyat yoldaşları, qızları, bacıları və həmçinin özləri ziyalı olan bu qadınlar sürgün edilərək Qazaxıstanda Akmola şəhərində 26-cı məntəqə adlanan ərazidə yerləşdirildi. Qadınların bəziləri körpələriylə, bəziləri hamilə olaraq bura gəldikləri halda bir çoxu da düşərgələrdəki əsgərlərin vəhşi ehtiraslarına məruz qaldı. Nəticədə qeyri-qanuni təxminən 1500-ə yaxın uşaq dünyaya gəldi. Düşərgədə sürgün həyatı yaşayan bu qadınlara da orada nəzarət məqsədi ilə saxlanılan itlər üçün nəzərdə tutulan yeməklər verilib. Müəllim, həkim, yazar, siyasi xadim olaraq fəaliyyət göstərən ziyalı qadınlar bu cür təhqirlərə illərlə dözmək məcburiyyətində qalıb (Qəhrəmanlı, 2019).

Nəticə və Təkliflər

Araşdırmanın nəticələri göstərir ki, SSRİ dövründə Azərbaycan qadınlarının həyatında paradoksal reallıq mövcud idi. Qadınların sosial həyatda aktiv iştirak etməsi və dövlətin sərt nəzarəti ilə üzləşməsi prossesi paralel olaraq davam edirdi. Bir sözlə, "İntellektual inkişafdan ideoloji təqibə" keçid prossesi zamanı qadınların fəaliyyəti həm nümunəvi nailiyyət, həm də dərs çıxarılacaq ziddiyyətli sınaqlarla xarakterizə olunmuşdur.

Tədqiqatın nəticələri təsdiqləyir ki, qadınların bu dövrdəki missiyası və məsuliyyətləri yalnız rejimin siyasəti ilə deyil, həm də təbii sosial-mədəni şəraitlə, ənənələrlə və individual yanaşmalar ilə formalaşmışdır. Bu nöqteyi-nəzərdən qadınların təcrübələrini sadəcə "zərərçəkən" və ya "tam müstəqil" aspektindən qiymətləndirmək yerinə, onların öz vəziyyət və imkanlarını da hesaba almaq zəruridir.

Bu araşdırma əsasında bir neçə təklif irəli sürmək olar: Digər Sovet Respublikalarının qadınları ilə Azərbaycan qadınlarının həyatı müqayisəli şəkildə araşdırıla bilər və hətta Atatürk dönəmi Türk qadınlarının intelektual və peşəkar inkişafı ilə paralel olaraq regional təhlil aparıla bilər. Qadınların xatirələri, məktub və memuarları toplanaraq tədqiqata daxil edilə bilər. Müasir dövrdə gender bərabərliyinə həsr edilmiş araşdırmalarda qadınların sovet dövründə ailə və sosyal həyat arasında tarazlıq yaratma cəhdləri sosioloji prizmadan təhlil edilərək günümüzdə aktual olan bu mövzuya yeni baxış bucaqları gətirə bilər.

Beləliklə, məqalə Azərbaycan qadınlarının yaşadıqları inkişaf və məhdudiyət arasındakı tarixi

balansı təhlil etməklə, həm keçmişi ən aydın şəkildə anlamağa, həm də gələcək araşdırmalara konseptual-metodik baza baxımından dəstək verməyə kömək edəcək. Ümidvaram ki, bu araşdırma sahəyə öz töhvəsini verəcək və gələcək araşdırmalar üçün fərqli və müasir elmi baxış bucağı təqdim edəcək.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Dövlət Arxivi. (f. 137, siy. 1, iş 115, s. 130).
2. Первая сессия Верховного Совета Азербайджанской ССР первого созыва (18–22 июня 1938 г.): Стенографический отчет. (1939). Баку, с. 31.
3. Bünyadov, Z. (1993). *"Qırmızı terror"*, Bakı: Azərbaycan dövlət yayınları.
4. Bünyadov, Z. (2004). *"Stalin Döneminde KGB Arşivlerinde Kırmızı Terör"*, Çev. Sebahattin Şimşir, Kültür Sanat Yayıncılık, İstanbul, s. 68-69.
5. Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi. (pr № 3753.10). Ayna Sultanovanın istintaq işi [Arxiv sənədi].
6. Gəncəli, S. (2001). *"Qadın, gözəllik və ülvüyyət",* Azerbaycan yayınları, Bakı.
7. Hüseynzadə, A. (2005). *"İstiklal Şairi Ümmügülsüm"*, Çaşıoğlu yayınları, Bakı, s. 47.
8. İbrahimova, G. İ. (2009). "Qadın Klubları (1920-1930-cu illər)", *Bakı Universtetinin xəbərləri, Humanitar elmlər seriyası*, (4), s. 99-104.
9. İmanzadə, S. (1957). *"Oktyabr sosialist inqılabı və Azərbaycanda qadın azadlığı"*, Azərnəşr yayınları, s. 25.
10. Kabaoğlu, S. Q. (2018). "Azerbaycan kadınlarının eğitimi: tarih ve modernlik", *Turkish Studies*,(19) s.1523-1536.
11. Kərimov, B. və Əsədova, N. (2019). *"Görkəmli Maarifçi Məryəm Bayraməlibəyova – Məlik Yeganova (MATM-da Saxlanılan Əlyamaları və Məktubları Əsasında)"*, Milli Azərbaycan Tarix Muzeyi, Bakı, s. 175-186
12. Kizir, E. K. (2024). "Azerbaycan'da sosyalist bir kadın dergisi: "Şark Kadını (1923-1938)", *Türk dünyası araştırmaları dergisi*, (268), s. 51-68.
13. Конституция (Основной закон) Азербайджанской Социалистической Советской Республики (Утвержденная Всеазербайджанским Съездом Советов V созыва 26 марта 1927 года). (1927). Баку.
14. Qaffarov, T. (red.). (2008). "*Azərbaycan tarixi. Aprel 1920 – İyun 1931"* (Cild 6). Bakı: Elm.
15. Qəhrəmanlı, N. (2019). "Stalin dönəmində sönən həyatlar: Azərbaycan qadınlarının sürgün həyatı", *TÜRÜK uluslararası dil, edebiyat ve halkbilimi araştırmaları dergisi*, (19), s. 165-179
16. Газета "Известия ВРК…". (1920, 30 апреля). № 2.
17. Quliyev, C. (red.). (1976). *"Azərbaycan Sovet ensiklopediyası"* (Cild 1). Bakı: Azərbaycan Sovet ensiklopediyası nəşriyyatı.
18. Məmmədov, S. (1975*). "Tərəqqi yollarında"*, Azerbaycan dövlət nəşriyyatı, Bakı, s. 12.
19. Nizamiqızı, H. (2012, 5 oktyabr). "Kübar qadının puç arzuları", *Mədəniyyət qəzeti*.
20. Nuruzadə, Ş. (2010). *"XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait"*, Bakı Xəzər Universteti yayınları, s. 53-55.
21. Orujova, L. (2024). *"Atatürk dönemi Türkiye Cumhuriyeti ve Azerbaycan Sovyet Sosyalist Cumhuriyeti'nde kadınların toplumsal, kültürel ve siyasal hayattaki yeri (1920-1938)"*. (Yüksek Lisans Tezi, Bursa Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü Tarih Anabilim Dalı Türkiye Cumhuriyeti Tarihi Bilim Dalı). Bursa, s.128-170.
22. Salamoğlu, T. (2012). *"Muasir Azərbaycan Ədəbiyyatı"*, Azərbaycan Dövlət Pedaqoji Universteti yayınları, Bakı, s, 97-108.
23. "Şərq qadını". (1929, 12 dekabr). *"Şərq qadını" məcmuəsi üçün abunə qəbuluna başlanmışdır*- başlıqlı yazı. Bakı.
24. Uçar, B. T. (2022). *"Şark Kadını dergisinin dil incelemesi"*, (yüksek lisans tezi, Nevşehir Hacı Bektaş Veli Üniversitesi Sosyal Bilimler Enstitüsü Çağdaş Türk Lehçeleri ve Edebiyatları Ana Bilim Dalı) Nevşehir.
25. Vəliyev, İ. (baş red.). (2002). *"Azərbaycan qadın ensiklopediyası"*. Bakı: NPB.
26. Yaqublu, N. (2015). *"Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası"*, Azərbaycan kültür dərnəyi yayınları, Ankara, s. 42.
27. Первая сессия Верховного Совета Азербайджанской ССР первого созыва (18–22 июня 1938 г.): Стенографический отчет. (1939). Баку, с. 31.

DİGİTAL TECHNOLOGY EMPOWERS İNTERNATİONAL SOCİAL WORK

Qu HANG
Baku State University, Department of Social Work,
https://orcid.org/0009-0004-5479-0500
1018602664@qq.com

Abstract: Digital technology, as the most revolutionary and disruptive innovation force of the 21st century, is reshaping various aspects of human society at an unprecedented speed and scale. This change is not only reflected in the technological aspect, but also profoundly affects human production methods, lifestyles, and ways of thinking. As the core engine and key driving force for promoting comprehensive progress in the global economy, politics, culture, and society, digital technology is redefining the development trajectory and civilization form of human society. With the development of digital technology globalization, international social work is facing many new challenges and opportunities. The rapid development of digital technology has provided strong impetus for innovation and change in international social work. This article focuses on empowering international social work with digital technology, exploring its applications in core practice areas such as cross-border immigration and refugee services, public health and end-of-life care, international community governance, international cultural exchange, international education exchange and sharing, international animal protection, global economic development and common prosperity, and analyzing its profound impact. By studying the specific practices of digital technology in international social work, we aim to reveal how it reshapes the global governance system, drives regional economic cooperation, and empowers public services and social equity. At the same time, pay attention to ethical challenges in the application of digital technology, such as the global game between data security and privacy protection, technological risks and labor rights reconstruction, and propose corresponding response strategies. Finally, looking ahead to the future, the path for further development of international social work through the use of digital technology includes strengthening global collaboration on technical standards, investing in digital infrastructure and talent development, and advocating for "open source ethics" and technology inclusiveness, in order to promote international social work towards an inclusive digital civilization.
Keywords: digital technology, empowerment, international, social work, field.

ЦИФРОВЫЕ ТЕХНОЛОГИИ РАСШИРЯЮТ ВОЗМОЖНОСТИ МЕЖДУНАРОДНОЙ СОЦИАЛЬНОЙ РАБОТЫ

Цюй Хан
Бакинский государственный университет,
докторант кафедры социальной работы,
https://orcid.org/0009-0004-5479-0500
1018602664@qq.com

Резюме. Цифровые технологии, как самая революционная и разрушительная инновационная сила XXI века, трансформируют все аспекты человеческого общества с беспрецедентной скоростью и масштабами. Эти изменения не только проявляются на техническом уровне, но и оказывают глубокое влияние на человеческий образ производства, жизни и мышления. Будучи центральным двигателем и ключевой движущей силой глобального прогресса во всех областях экономики, политики, культуры и общества, цифровые технологии переопределяют траекторию развития и цивилизацию человеческого общества. В условиях глобализации цифровых технологий международное сообщество сталкивается со многими новыми вызовами и возможностями. Быстрое развитие цифровых технологий дает мощный импульс инновациям и изменениям в работе международного сообщества. В этой статье основное внимание уделяется расширению возможностей цифровых технологий для международного сообщества, углубленному изучению их применения в основных областях практики, таких как транснациональные услуги по миграции и беженцам, общественное здравоохранение и хоспис, международное управление сообществами, международные культурные обмены, международные образовательные обмены и обмен, международная защита животных и глобальное экономическое развитие и общее богатство, а также анализу их глубокого воздействия. Изучая конкретную практику цифровых технологий в работе международного сообщества, мы показываем, как они могут изменить систему глобального управления, стимулировать региональное экономическое сотрудничество и расширить возможности государственных служб и социальной справедливости. В то же время мы обращаем внимание на этические проблемы в применении цифровых технологий, такие как глобальная игра безопасности данных и защиты конфиденциальности,

технологические риски и реконструкция трудовых прав и интересов, и предлагаем соответствующие стратегии реагирования. Наконец, глядя в будущее, международное сообщество работает с цифровыми технологиями для достижения пути дальнейшего развития, включая укрепление глобальной синергии технологических стандартов, инвестиции в цифровую инфраструктуру и подготовку кадров, а также пропаганду « этики с открытым исходным кодом» и универсальности технологий для продвижения работы международного сообщества к инклюзивной цифровой цивилизации.
Ключевые слова: цифровые технологии, расширение прав и возможностей, международная, социальная работа, полевая.

RƏQƏMSAL TEXNOLOGİYA BEYNƏLXALQ SOSİAL İŞƏ GÜC VERİR

Qu HANG
Bakı Dövlət Universiteti,
sosial iş kafedrası,
https://orcid.org/0009-0004-5479-0500
1018602664@qq.com

Xülasə. Rəqəmsal texnologiya 21-ci əsrin ən inqilabi və çevirici innovasiya qüvvəsi olaraq, insan cəmiyyətinin bütün aspektlərini misilsiz sürət və miqyasda yenidən formalaşdırır. Bu çevrilis təkcə texnoloji səviyyədə özünü göstərməklə kifayətlənmir, həm də insanın istehsal üsulu, yaşayış tərzi və düşüncə quruluşunu dərin şəkildə təsirləndirir. Qlobal iqtisadiyyat, siyasət, mədəniyyət və sosial sahələrin hər birində hərtərəfli tərəqqini təşviq edən əsas mühərrik və həlledici hərəkətverici qüvvə kimi, rəqəmsal texnologiya insan cəmiyyətinin inkişaf trayektoriyası və mədəniyyət formasını yenidən müəyyən edir. Rəqəmsal texnologiyanın qloballaşması ilə beynəlxalq sosial iş yeni çətinliklər və fürsətlərlə üzləşir. Rəqəmsal texnologiyanın sürətli inkişafı beynəlxalq sosial işdə innovasiya və dəyişiklik üçün güclü təkan təmin edir. Bu məqalə, rəqəmsal texnologiyanın beynəlxalq sosial işə güc verməsinə diqqət yetirərək, onun transmilli miqrasiya və qaçqın xidmətləri, ictimai sağlamlıq və palliativ qulluq, beynəlxalq icra idarəetməsi, beynəlxalq mədəni mübadilə, beynəlxalq təhsil mübadiləsi və paylaşımı, beynəlxalq heyvan mühafizəsi və qlobal iqtisadi inkişaf ile ümumi rifah kimi əsas praktik sahələrdəki tətbiqini araşdırır və onun gətirdiyi dərin təsirləri təhlil edir. Rəqəmsal texnologiyanın beynəlxalq sosial işdəki konkret praktikasını öyrənmək vasitəsilə, onun qlobal idarəetmə sistemini necə yenidən formalaşdırdığını, regional iqtisadi əməkdaşlığı necə hərəkətə gətirdiyini və ictimai xidmətlər ile sosial ədaləti necə gücləndirdiyini aşkara çıxarır. Eyni zamanda, rəqəmsal texnologiyanın tətbiqi prosesindəki etik problemlərə, məsələn, məlumat təhlükəsizliyi və məxfilik mühafizəsinin qlobal rəqabəti, texnoloji risklər və əmək hüquqlarının yenidən qurulması kimi məsələlərə diqqət yetirir və müvafiq cavab strategiyaları təklif edir. Nəhayət, gələcəyə baxaraq, beynəlxalq sosial işin rəqəmsal texnologiya vasitəsilə daha da inkişaf etdirmə yollarını, o cümlədən texnoloji standartların qlobal uyğunlaşdırılmasının gücləndirilməsini, rəqəmsal infrastruktur və insan resurslarının inkişafına investisiyanın artırılmasını və "açıq mənbəli etika" ilə texnoloji bərabərliyin təşviq edilməsini nəzərdə tutaraq, beynəlxalq sosial işi qapsayıcı rəqəmsal mədəniyyətə doğru irəlilətməyi müzakirə edir.
Açar sözlər: Rəqəmsal texnologiya, Gücləndirmə, Beynəlxalq, Sosial iş, Sahə.

Intradaction

In an era of deepening globalization, digital technology is rapidly reshaping the social work landscape, especially in the field of international social work. It not only expands the scope of social work, but also improves the efficiency and quality of services. With the help of cutting-edge technologies such as big data analysis, artificial intelligence, and cloud computing, digital technology makes cross-border cooperation more convenient and efficient.

1.The important tasks and missions of international social work under the background of globalization

In the context of globalization, the importance of the role of international social workers has far exceeded the provision of direct services. They have become a bridge of communication between different countries and cultures, promoting the positive development of the global society. They organize international seminars, forums, etc. to build a platform for communication and learning for social workers from various countries, and promote international exchange and sharing of social work knowledge and practical experience. These activities have not only enhanced the professionalism and influence of international social work, but also promoted innovation and progress in this field. In this process, the professional qualities and humanistic care of international social workers have been fully demonstrated, and they have interpreted the value and significance of international social work with practical actions. The heavy responsibility

and mission of international social work can be reflected in the following aspects (Figure 1):



Figure 1 The important tasks and missions of international social work under the background of globalization

（1）

（2）International social work is first and foremost responsible for promoting global social justice and equality.

Workers in this field are concerned with and committed to solving global social problems, including poverty, racial discrimination, gender inequality, and environmental degradation. They use professional methods and concepts of social work to provide ideas and solutions for solving the above problems. Through cooperation with international organizations, government agencies, and non-governmental organizations, international social workers promote the formulation and implementation of more just and equal policies, and contribute to the harmony and progress of global society. In this process, the sense of responsibility and mission of international social workers are fully demonstrated, and they contribute their wisdom and efforts to world peace and a better future.

（3）International social work also shoulders the responsibility of cultivating global citizenship awareness.

Through cross-border education and promotion activities, social workers encourage people to understand and respect lifestyles and values from different cultural backgrounds across borders, thereby cultivating a new generation of citizens with a global perspective and sense of responsibility. This cross-cultural communication and cooperation can help eliminate biases and misunderstandings, and enhance understanding and tolerance in the global society. The international community also actively participates in the reform and improvement of the global governance structure, promoting the democratization, transparency, and efficiency of the global governance system through advocacy and participation in the formulation and implementation of international rules. In this process, social workers not only play a supervisory and evaluative role, but also actively propose improvement suggestions, contributing wisdom to the optimization and improvement of the global governance system.

（4）The responsibility of international social work in addressing global social issues and promoting cross-border cooperation.

With the acceleration of globalization, social workers need to possess cross-cultural sensitivity and a global perspective. For example, the United Nations High Commissioner for Refugees' "2024 Global Trends Report" shows that as of May 2024, the number of forcibly displaced people worldwide has reached 120 million, setting a new historical high. In response to global humanitarian crises, the agency has taken various measures, not only providing life-saving supplies, shelter, and mental health support services, but also focusing on addressing long-term needs such as livelihoods and education. In addition, it utilizes artificial intelligence technology to predict the situation of displaced persons in West Africa and the Sahel region, analyze the impact of climate change, and provide guidance for practical assistance (Ma Yun, 2024). The Global Digital Compact adopted at the United Nations Future Summit (2024) emphasizes the role of digital technology in promoting sustainable development, and the international community needs to use technology empowerment to coordinate resources to address issues such as climate change and migration crises.

（4）International social work shoulders the responsibility and mission of bridging governments, non-governmental organizations, and civil society of various countries.

International social workers promote consensus and jointly address global challenges through information sharing, experience exchange, and project collaboration. In the context of globalization, the responsibility and mission of international social work are even more significant. It should not only focus on the well-being of individuals, but also strive to build a community with a shared future for mankind, in order to promote the harmony and development of the global society. For example, through digital technology platforms, social workers can more effectively organize and mobilize global resources to provide emergency assistance to disaster stricken areas and educational and medical support to impoverished populations. These efforts not only reflect the professionalism of international social work, but also highlight their unique value in solving social problems.

2、The core practice areas of digital technology in international social work

The practical purpose of digital technology in international social work is to address global challenges and needs. Its core practices cover multiple key areas, mainly including (Figure 2):



Figure 2 The core practice areas of digital technology in international social work

2.1 Cross border Immigration and Refugee services:

Under the wave of globalization, the issue of cross-border immigration and refugees is becoming increasingly prominent. International social workers utilize digital technology, such as establishing online assistance platforms and developing language translation applications, to provide necessary information assistance, legal support, and psychological aid to immigrants and refugees, promoting their social integration and self-protection. Social workers need to address issues such as language barriers, cultural adaptation, and psychological trauma. For example, Polish social workers collaborate with schools to develop customized education programs to help Ukrainian youth integrate into the local education system.

2.2 Public health and Palliative care:

In the field of public health, digital technology assists international social workers in epidemic prevention, spreading health knowledge, and improving global public health emergency response capabilities. In the field of public health, digital technology has become an indispensable tool for social workers. Through big data analysis and prediction, social workers can more accurately determine the trend of disease transmission, take preventive measures in advance, and reduce the spread of the epidemic. At the same time, digital technology can also help social workers manage medical resources more effectively, ensuring that patients receive timely and effective treatment. In terms of end-of-life care, digital technology has also provided new means for social workers. Through technologies such as virtual reality and augmented reality, social workers can provide more personalized and caring services to patients, helping them relieve pain and improve their quality of life. In addition, digital technology can also provide psychological support and memorial platforms for the families of the deceased, providing more humane and convenient care services for terminally ill patients. At the same time, helping loved ones better face the pain of losing their loved ones.

Professor Karen Bullock from Boston College enhances elderly health service satisfaction by 30% and reduces hospitalization rates through interdisciplinary collaboration, highlighting the indispensable role of social work in the healthcare system.

2.3 International community governance:

Digital technology has also facilitated effective governance in the international community. Through social media, online forums, and other platforms, international social workers can gather various forces to participate in community building, conflict resolution, and cultural heritage activities, enhancing the cohesion and sense of belonging of the community.

2.4 International cultural exchange:

In the field of international cultural exchange, digital technology plays a significant role. Social workers can use digital technology to build cross-cultural communication platforms, promoting cultural understanding and respect in different countries and regions. With the help of online translation tools and social media, one can overcome language barriers and interact with people around the world. At the same time, digital technology can also record and preserve cultural heritage, presenting traditional culture and art in digital form. This not only helps to protect the inheritance of culture, but also promotes cultural diversity and innovation. For example, in Jing'an District, Shanghai, the "Original Heart Road" project integrates red resources and international volunteers to promote the integration of foreigners into Chinese communities and build a platform for cultural exchange between China and foreign countries (The Youth League District Committee, 2025).

Digital technology enables online cultural exhibitions, where social workers can showcase the history, art, and customs of various countries through online platforms, allowing global audiences to experience the charm of multiculturalism without leaving their homes. This online exhibition not only reduces the economic and time costs for participants, but also greatly expands the breadth and depth of cultural influence.Furthermore, the application of

digital technology has also promoted the construction of international non-governmental organization (NGO) and volunteer networks, enabling social workers to integrate resources more efficiently, participate in international cultural exchange projects together, and promote global cultural exchange and integration.

2.5 International education exchange and sharing:

In today's deepening globalization, international education exchange and sharing are important ways to promote internationalization of education and facilitate global knowledge sharing. The application of digital technology in this field has provided unprecedented convenience for the cross-border flow and sharing of educational resources. Through online learning platforms and distance education technology, students are no longer limited by geography and can easily access high-quality educational resources from around the world. Not only does it broaden students' international perspectives, but it also promotes knowledge exchange and ideological collision in different cultural backgrounds. At the same time, digital technology has made the sharing of educational resources more efficient and convenient, reducing education costs and providing opportunities for more people to receive high-quality education.

2.6 International animal protection:

Social work is playing an increasingly important role in international animal protection through the use of digital technology. Through intelligent monitoring and data analysis, the activity trajectory of animals can be tracked more accurately, and potential threats and problems can be detected in a timely manner. Furthermore, digital technology can also help us establish animal protection databases, recording information such as the types, quantities, and health status of animals, providing strong support for scientific research and conservation work. With the help of these technologies, we can more effectively promote the development of international animal protection and foster harmonious coexistence between humans and nature. Digital technology can also promote cross-border animal protection cooperation, share protection experience and resources, and jointly address global animal protection challenges. Social workers can use digital technology to build platforms that connect volunteers, donors, and conservation organizations around the world, forming a collaborative effort to contribute to the cause of animal protection.

2.7 Global economic development and common prosperity:

Social work has shown great potential in utilizing digital technology to promote global economic development and common prosperity. Digital technology can not only optimize resource allocation and promote regional economic cooperation, but also help achieve social equity and inclusive growth through a smart public service system. Social workers can use big data and artificial intelligence technology to more accurately identify the underlying causes of poverty and inequality, design and implement targeted poverty alleviation and assistance programs, provide them with more personalized assistance and support, and achieve the goal of global common prosperity. In this process, the role of social workers is crucial, as they are both users of digital technology and important forces driving social change.

2.7.1 Digital technology reshapes the global governance system

（1）Building a governance framework based on extensive consultation, joint contribution and shared benefits.

Global digital governance is facing the dilemma of fragmented rules and the game of data sovereignty. For example, there are differences in the rules for cross-border data flow between the EU Digital Services Act and the RCEP agreement (Regional Comprehensive Economic Partnership Agreement), reflecting the divergent interests of developed and developing countries. In response, China has proposed the Global Artificial Intelligence Governance Initiative, advocating for the coordination of technical standards and data security norms through multilateral mechanisms, such as the G20 and APEC, and promoting the formation of an open and compatible governance system.

（2）Technology-enabled governance practices.

Digital technology enhances regulatory efficiency through "agile governance". For example, blockchain technology is applied to the information sharing platform of the China Europe freight train, achieving data collaboration among logistics, customs, and financial institutions, and reducing cross-border trade costs. The United Nations High Level Panel on Digital Cooperation emphasizes the need to use AI and big data to predict network attack risks and establish a global digital security joint defense mechanism.

2.7.2 Digital technology drives regional economic cooperation

（1）Breaking down geographical barriers and optimizing resource allocation.

Digital technologies are promoting regional economic integration through "digital bridges." For

example, the Shanghai Cooperation Organization (SCO) has built a cross-border service alliance network based on blockchain, enabling "single-invoice, dual-declaration" for trade documents and improving logistics efficiency in Central and South Asia. South Korea's "electronic driver's license" system uses blockchain technology to achieve cross-border mutual trust in identity authentication and promote the widespread use of contactless services.

（2）Innovative business models and Industrial synergy.

Digital trade has become a new engine of economic growth. The "new offshore trade" model proposed by China, leveraging cross-border e-commerce and digital payment technology, is expected to contribute 27.8% of global data resources by 2025. Japanese companies use VR technology to achieve "virtual business trips", remotely inspect overseas factories, and reduce cross-border supply chain management costs.

2.7.3 Digital technology empowers public services and social equity

The empowerment of public services and social equity through digital technology is mainly reflected in:

（1） Bridge the digital divide and safeguard the rights and interests of vulnerable groups.

One third of the world's population still has no access to the Internet. By the end of 2021, about 60% of adults in sub Saharan Africa will be unable to access the Internet through mobile devices. China's Platform for Action to Improve Digital Literacy and Skills for All proposes to build a lifelong digital learning system for all by 2025, focusing on helping the elderly and disabled groups. The United Nations Children's Fund calls for the establishment of a "Child consultation mechanism", that incorporates child feedback into digital product design to avoid algorithmic bias that leads to unequal educational opportunities. By 2025, the network connectivity rate of smartphones in sub Saharan Africa will increase to 61% (Good to observe, 2022).

（2） Smart City and Innovation in Livelihood Services.

Digital technology is deeply integrated into public service scenarios. For example, Jiangning District in Nanjing City integrates urban data through the "One Network Management" platform, monitors passenger flow and flood situation in real time, and improves grassroots governance efficiency. The UK provides epidemic consultation and chronic disease management through AI chatbots to alleviate the pressure on medical resources.

3. Ethical challenges and responses to the application of digital technology

（1） The global game of data security and privacy protection.

AIGC technology (artificial intelligence content automatic generation technology) exacerbates the risk of privacy breaches, such as a technology company illegally using 2 million children's voice data to push advertisements (Liu Jia, 2023). China has established a regulatory framework through the Data Security Law and Personal Information Protection Law, while Brazil's General Data Protection Law requires special permission for the use of children's data, reflecting different governance paths.

（2） Technical risks and reconstruction of labor rights and interests.

The International Labor Organization points out that AI may pose new occupational safety risks, such as accidental injuries from robot collaboration or algorithm-induced burnout. The EU's Digital Markets Act restricts the monopolistic behavior of tech giants, while China is training industrial workers to adapt to technological change through its "Digital Skills Industry-Education Integration Project."

4. Future path

Building an international cooperation ecosystem for the betterment of technology (Figure 3)



Figure 3 Future path

（1） Strengthening global collaboration on technical standards.

We should actively promote the development of unified technical standards by international organizations, such as the IEEE (Institute of Electrical and Electronics Engineers). For example, the IEEE's "Age-Appropriate Digital Services Framework" requires that application functions be designed based on children's cognitive levels to reduce the incidence of online violence.

（2） Invest in digital infrastructure and talent development.

A regional digital development fund has been established to support developing countries in building 5G networks and data centers. For example, the China-Kyrgyzstan-Uzbekistan cross-border optical cable project has improved data transmission efficiency in Central Asia and narrowed the regional digital divide.

（3）Promote the principles of "open-source ethics" and technology for universal benefit.

International collaboration within the open source community can accelerate technology inclusion. The Netherlands' "Child Rights Design Guidelines" optimize product ethics through interdisciplinary assessments, reducing unnecessary data collection by 34%.

5. Conclusion: Towards an Inclusive Digital Civilization

Digital technology is not just a tool, but also a key strategic element in restructuring international relations. From the UN "High level Panel on Digital Cooperation" to the "the Belt and Road" digital initiative, the international community should focus on the concept of a community with a shared future for mankind, and balance the relationship between innovation and ethics, efficiency and equity. Only through joint consultation, joint construction, and shared benefits can we achieve the widespread availability of digital dividends on a global scale and inject lasting momentum into sustainable development goals. The application of digital technology in international social work will gradually change traditional service models. With the help of data analysis and intelligent algorithms, we can more accurately meet the needs of cross-border immigration, refugees, public health, international communities, and other aspects. In the future, international social workers will continue to play an irreplaceable role. Their work will promote justice and equality in the global society, and contribute to building a better world.

References

1. Good to observe. (2022). GSMA optimistic outlook for mobile economy in sub Saharan Africa. Available from: https://www.shangyexinzhi.com/article/5661165.html [accessed August 9 2025].
2. Liu Jia. (2023). AIGC (Artificial Intelligence Content Generation Technology) Encyclopedia. Available from:
3. http://news.sohu.com/a/636917660_121322050 [accessed August 9 2025].
4. Liu Debin. (2020). The talent gap in Germany still needs to be filled Why the refugee vocational training fails. Available from:http://news.sina.com.cn/o/2020-02-24/doc-iimxxstf3898766.shtml [accessed August 21 2025].
5. Ma Yun. (2024). UN Refugee Agency Official: Utilizing New Technologies for Humanitarian Assistance. Available from:https://www.scf.org.cn/csjjh/n3421/n3424/n3426/u1ai303412.html [accessed August 21 2025].
6. The Youth League District Committee. (2025). The "Four Hearts Action" of volunteer service in Jing'an District has been launched! There are more "Practical information" on site. Available from:
7. https://www.163.com/dy/article/JPRBQ2EQ055040N3.html [accessed August 20 2025].
8. War photographer. (2024). Guterres: Peace and security in the real world need to be supported by the digital world. Available from:
9. https://www.sohu.com/a/787428416_120124605?scm=1019.20001.0.0.0 [accessed August 21 2025].
10. Xu Xiujun, Shen Chen. (2019). The 'China Proposition' Leads the Deepening of BRICS Cooperation.Available from:
11. http://www.chinatoday.com.cn/zw2018/zgysj/201912/t20191218_800187836.html [accessed August 9 2025].
12. Zhang Yantang (2024). Research on the Legal Implementation Path of the Community with a Shared Future for the Ocean, Global Times, 6.

DOİ: 10.32010/ZONR3778

44 GÜNLÜK MÜHARİBƏ VƏ İNFORMASİYA CƏBHƏSİ: QƏRB MEDİASINDA QƏRƏZLİLİK VƏ REALLIĞIN TƏHRİFLƏRİ

Səbuhi Mütalif QULİYEV
Bakı Dövlət Universiteti,
ORCİD İD: 0009-0003-4300-9662
quluyevsebuhi67@gmail.com

Xülasə: Cəmi 44 günü əhatə edən İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan hərbi sahədə nailiyyətləri ilə yanaşı informasiya cəbhəsində də xeyli uğurlara imza atdı. Məqalədə məhz informasiya alanında Ali Baş Komandan İlham Əliyev başda olmaqla Azərbaycan xalqının beynəlxalq ictimaiyyəti qərəzli təqdimatlardan, reallığın təhrif olunmasına yol verməmək istiqamətində gördüyü mühüm işlərdən bəhs olunur. Habelə, burada Qərb mediasının konfliktə yanaşması, münaqişəyə qərəzli münasibət məsələləri də xüsusi diqqət çəkir. Prezident İlham Əliyevin dünyanın müxtəlif ölkələrindən olan media qurumlarına müsahibələri, jurnalistlərin həqiqətdən uzaq olan suallarına tarixi faktlara əsaslanan adekvat cavablar verməsi, eləcə də erməni yalanlarını ifşa etməsi araşdırmada geniş şərh olunur. Tədqiqatçı həmçinin qərbin təsir dairəsinə düşən bəzi jurnalistlərin qərəzli yanaşmalarının müxtəlif formaları; Ermənistanın növbəti təxribatına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünün bərpa və qorumasına "eskalasiya" halı olaraq təqdim etməsi, vizual manipulyasiyalar və kontekstdən çıxarılmış şəkil və videoları göstərməklə reallığı təhrif etməsi nəticədə beynəlxalq auditoriyanın diqqətini yanlış səmtə yönləndirməsi məsələlərinə toxunmuşdur. Bütün bunları qeyd etməklə araşdırmaçı tədqiqatda müharibənin informasiya cəbhəsinin fiziki döyüş meydanından geri qalmadığını, vacib əhəmiyyətini qeyd etmişdir. Müharibənin gedişi və nəticələri barədə ictimai rəyin formalaşmasında beynəlxalq media resurslarının təsiri danılmazdır. Bu səbəbdən həmin dönəmdə informasiya cəbhəsində aparılan mübarizənin, Qərb mediasının mövqeyinin və onun Azərbaycan həqiqətlərinə münasibətinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. "BBC NEWS", "ARD", "EFE" kimi informasiya agentliklərinin Azərbaycanın haqq savaşına kölgə salan, tarixi həqiqətdən uzaq olan yanaşmalarına toxunan müəllif məqalədə bütün bu suallara tarixi faktlarla cavab verən Prezident İlham Əliyevin çıxışlarına da geniş yer ayırmışdır. Məhz həmin müsahibələrin hər birini onların beynəlxalq ictimaiyyətin fikirlərinin mövcud həqiqətdən daşındırmasına maneə yaradan tarixi dərs kimi qiymətləndirən müəllif hərbi qələbə ilə paralel olaraq informasiya müvəffəqiyyətləri yüksək qiymətləndirmişdir.
Açar sözlər: İlham Əliyev, Azərbaycan, Dağlıq Qarabağ, Cenevrə Konvensiyası, BMT

44-DAY WAR AND THE INFORMATION FRONT: BIAS AND DISTORTION OF REALITY IN THE WESTERN MEDIA

Sabuhi Mutalif GULİYEV
Baku State University,
ORCID ID: 0009-0003-4300-9662
quluyevsebuhi67@gmail.com

Abstract: During the 44-day Second Karabakh War, Azerbaijan not only achieved significant military successes but also made notable strides on the information front. This article focuses specifically on the crucial efforts led by the Supreme Commander Ilham Aliyev and the Azerbaijani people to prevent biased portrayals and the distortion of reality in the international arena. Furthermore, it highlights the Western media's approach to the conflict and issues of partiality. President Ilham Aliyev's interviews with media outlets from various countries, his historically grounded and adequate responses to journalists' misleading questions, as well as his exposure of Armenian falsehoods, are extensively analyzed in the study. The researcher also examines the different forms of bias exhibited by certain journalists within the Western sphere of influence, including presenting Azerbaijan's restoration and protection of its territorial integrity in response to Armenian provocations as an "escalation," using visual manipulations, and showing images and videos taken out of context, which misdirected the attention of the international audience.By addressing all these aspects, the study emphasizes that the information front of the war was as critical as the physical battlefield. The influence of international media resources on shaping public opinion regarding the course and outcomes of the war is undeniable. Therefore, analyzing the information struggle during that period, the stance of Western media, and its approach to Azerbaijani truths is of particular importance. The author examines media outlets such as "BBC NEWS," "ARD," and "EFE," which often cast shadows over Azerbaijan's just struggle and presented biased views far from historical reality. The article also gives considerable attention to President Ilham Aliyev's statements, which provide historically factual answers to these

challenges. The author regards each of these interviews as a historical lesson preventing the international community's opinions from straying from the truth, evaluating Azerbaijan's information successes alongside its military victory.
Key words: Ilham Aliyev, Azerbaijan, Nagorno-Karabakh, Geneva Conventions, UNO.

44-ДНЕВНАЯ ВОЙНА И ИНФОРМАЦИОННЫЙ ФРОНТ: ПРЕДВЗЯТОСТЬ И ИСКАЖЕНИЕ РЕАЛЬНОСТИ В ЗАПАДНЫХ СМИ

Сабухи Муталиф ГУЛИЕВ
Бакинский Государственный Университет
ORCID: 0009-0003-4300-9662
quluyevsebuhi67@gmail.com

Резюме

Во время 44-дневной Второй Карабахской войны Азербайджан достиг значительных успехов не только на военном, но и на информационном фронте. В данной статье особое внимание уделяется ключевым усилиям, предпринятым Верховным главнокомандующим Ильхамом Алиевым и азербайджанским народом, с целью предотвращения предвзятых представлений и искажений реальности на международной арене. Кроме того, анализируется подход западных СМИ к конфликту и вопросы их необъективности. Интервью Президента Ильхама Алиева с медиаресурсами разных стран, его исторически обоснованные и корректные ответы на вводящие в заблуждение вопросы журналистов, а также разоблачение армянской дезинформации подробно рассматриваются в исследовании. Исследователь также изучает различные формы предвзятости со стороны некоторых журналистов в западной сфере влияния, включая представление восстановления и защиты территориальной целостности Азербайджана в ответ на провокации Армении как «эскалацию», использование визуальных манипуляций и демонстрацию изображений и видео, вырванных из контекста, что отвлекало внимание международной аудитории в неправильном направлении. Рассматривая все эти аспекты, исследование подчеркивает, что информационный фронт войны был так же важен, как и физическое поле боя. Влияние международных медиа-ресурсов на формирование общественного мнения относительно хода и результатов войны неоспоримо. Поэтому анализ информационной борьбы в тот период, позиции западных СМИ и их подход к азербайджанской правде имеет особое значение. Автор рассматривает такие медиа-ресурсы, как «BBC NEWS», «ARD» и «EFE», которые часто омрачали справедливую борьбу Азербайджана и представляли предвзятые взгляды, далекие от исторической реальности. Статья также уделяет значительное внимание заявлениям Президента Ильхама Алиева, которые дают исторически обоснованные ответы на эти вызовы. Автор рассматривает каждое из этих интервью как исторический урок, препятствующий отклонению мнений международного сообщества от истины, оценивая информационные успехи Азербайджана наряду с его военной победой.
Ключевые слова: Ильхам Алиев, Азербайджан, Нагорный Карабах, Женевские конвенции, ООН.

Giriş

Birinci Qarabağ müharibəsində hərbi sahədə uğursuzluqlarla yanaşı informasiya cəbhəsində də Azərbaycan beynəlxalq səviyyəli mətbuat orqanları olmadığından böyük çətinliklərlə üzləşərək haqq səsini dünya ictimaiyyətinin diqqətinə çatdıra bilmədi. Bütün bunlara baxmayaraq, torpaqlarının təxminən 20% -ni itirən, "sülhsevər" bir sıra qərb ölkələri tərəfindən haqq səsi eşidilməyən Azərbaycan xalqının mübarizə əzmi heç vaxt qırılmadı. Mövcud şəraitdə yaradılan informasiya blokadasının qırılması əsas amil olaraq müəyyənləşdi. Ümumilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına prezident seçilməsindən sonra mətbuatda burokratik əngəllər aradan qaldırılaraq Azərbaycanın haqlı mövqeyi, Qarabağ həqiqətləri obyektiv şəkildə dünya ictimaiyyətinə çatdırıldı (Mustafazadə, 2022).

Nəzəriyyə

Ulu öndər irsinin layiqli davamçısı İlham Əliyev də müxtəlif mətbuat orqanlarına verdiyi müsahibələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini, azərbaycanlıların deportasiya və soyqırıma məruz qaldığını, eləcə də bir sıra dünya liderlərinin təcavüzkara təzyiq göstərmədiklərini, işğala bilərəkdən göz yumduqlarını qeyd etmişdir. Prezident İlham Əliyev hələ 2019-cü il 3 oktyabr tarixində bir sıra mühüm aktual məsələlərin müzakirə edildiyi, çoxtərəfli əməkdaşlıq əlaqələrinin dərinləşməsi istiqamətində aparılan danışıqlar gedişində Ermənistanın Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ və ətraf 7 rayonun işğal etdiyini, bunun nəticəsində 700 mindən çox azərbaycanlının qovulmasını, BMT TŞ qətnamələrinin (822, 853, 874, 884 saylı – **S.Q**) yerinə yetirilmədiyini qeyd etdi.

2020-ci il 27 sentyabr tarixində düşmən növbəti dəfə demək olar bütün cəbhə istiqamətində müxtəlif növ silahlardan, iriçaplı artilleriya qurğularından istifadə edərək hərbi mövqeləri, dinc əhalinin yaşadığı yerləri atəşə tutmağa başladı. Düşmənin hərbi təxribatlarına layiqincə cavab verən Azərbaycan ordusu qısa zaman ərzində üstünlüyü ələ aldı. II Qarabağ müharibəsinin gedişi zamanı və eləcə də müharibədən sonrakı müddət ərzində cənab Prezident İlham Əliyev Türkiyə, ABŞ, Rusiya, İtaliya, İspaniya, Fransa, Yaponiyadan olan geniş izləyici kütləsinə malik olan böyük nəhəng media qurumlarının əməkdaşlarına müsahibələr verərək Azərbaycan xalqının haqq səsini dünyaya çatdırdı. Hətta bəzi xəbər agentliklərinin qərəzli suallarına tarixi həqiqətlərə uyğun obyektiv faktlarla cavablayaraq Azərbaycan dövlətinə qarşı olan mənfi reaksiyanın yaranmasına imkan vermədi. 44 günlük müharibə dövründə Prezident İlham Əliyev Türkiyə media qurumlarına dəfələrlə müsahibələr verdi. 2020-ci il oktyabr ayının 5-də "TRT Haber" televiziya kanalına, ayın 7-də "SNN" kanalına, 12-də "Haber Global" , 13-də "Haber Türk", 16-da "A Haber"televiziya kanalına müsahibələr verdi (Mustafazadə, 2022).

Habelə Ölkə başçısı "TRT Haber"ə müsahibə zamanı çıxışı zamanı dövlət başçısı əgər Azərbaycan öz ərazisindən Ermənistana ağır zərbələr endirəcəyi təqdirdə onlar məqsədlərini həyata keçirərək Rusiya və digər ölkələrlə birlikdə KTMT-ın Baş Katibliyinə (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı-**S.Q**) müraciət edərək özlərinə haqq qazandıracaqdır. Məhz iyul ayında Ermənistan ərazisindən Azərbaycanın Qarabağ bölgəsindən uzaqda yerləşən Tovuz rayonuna hücum edilməsi də bu məqsədə xidmət edirdi. Azərbaycanın buraya cəlb etməkdir (Azərbaycan Respublikasının Prezidenti, 2020).

2020-ci il 2 oktyabr və 4 oktyabr tarixlərində "Əl Cəzirə" və "Əl Ərəbiyyə" televiziya kanallarına müsahibələr verən Prezident jurnalistlərin əsasən üzərində dayandığı ermənilərin daimi olaraq əsaslandığı xalqların öz müqəddəratını təyin etmə hüququ ilə bağlı məsələyə toxunaraq bildirdi ki, ermənilər beynəlxalq ictimai rəyi çaşdırmaq və obyektivlikdən yayınmaq üçün bu prinsipə əsaslanaraq öz çirkin niyyətlərini bu prinsiplərin arxasında gizlədirlər. Eyni zamanda Prezident çıxışında xalqların öz müqəddəratını təyin etməsini başqa xalqların ərazi bütövlüyünə zərər vurmamalı olduğunu qeyd etdi (Azərbaycan Respublikasının Prezidenti, 2020).

Hətta jurnalist Gəncənin Ermənistan tərəfindən bombardman edilməsinə haqq qazandıraraq bunun əsl səbəbinin məhz Gəncə şəhərində Türkiyənin bir neçə F-16 qırıcı təyyarəsinin yerləşdirilməsi və bu təyyarələrdən birinin güya erməni təyyarəsini vurması olmuşdur. Dövlət başçısı nitqi zamanı bunun tamamilə yanlış bir xəbər olduğunu, F-16 qırıcı təyyarələrinin hələ müharibədən əvvəl birgə hərbi təlimlər zamanı Azərbaycana gəldiyini eləcə də onların Su-25 təyyarəsinin dağa çırpıldığını qeyd etdi. Uala konkret faktlarkla cavab verən Prezident əslində onların bu bombardmanların əsas məqsədinin soruşduqda isə Prezident Türkiyənin əsla münaqişəyə cəlb edilmədiyini, Türkiyənin iştirakına dair heç bir sübut olmadığını, sadəcə Ermənistanın Azərbaycana qarşı hücuma başladığı ilk saatlardan Türkiyənin Azərbaycana güclü siyasi dəstəyi, BMT TŞ–ın Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını şərtləndirən qətnamələrinin icrasına dəstəyi ifadə etdiyini xatırlatdı. (Azərbaycan Respublikasının Prezidenti, 2020)

Oktyabr ayının 26-da italiyanın "RAİ-1" televiziya kanalına müsahibəsi zamanı Azərbaycan Prezidenti jurnalistin Vaşinqtonda razılaşdırılan humanitar atəşkəsin qüvvədə qalıb-qalmayacağı haqda soruşduqda bunun növbəti mərhələdə Ermənistanın özünü necə aparmağından, atəşkəs rejiminə əməl etməsindən asılı olduğunu bildirdi. Minsk qrupunun məhz ilk sədrinin İtaliya olduğunu daha sonra isə həmsədrlər təsisatının yaranmasından sonra onun ölkələr qrupu kimi heç bir fəaliyyəti olmadığını qeyd etdi.

31 oktyabrda Ali Baş Komandan Almaniyanın "ARD" televiziyasına müsahibə verərək jurnalistin təhrif olunan qərəzli suallarına layiqli və adekvat cavablar verdi. Sizin, "kim birinci atəş açdı" sualına cavabınız nədir sualına cavabın şübhəsiz Ermənistan olduğunu və bütün bunların faktiki sübutlara əsaslandığını, Ermənistan tərəfindən ardıcıl surətdə təşkil olunan üçüncü hərbi təxribatın ilk qurbanlarının azərbaycanlılar olduğunu bəyan etdi.

İsrail və Türkiyə dronları barəsində suala isə Prezident bütün bunların uzun illərdir olduğunu, onların hətta bəzilərinin 2016-cı il aprel döyüşləri zamanı düşmənə qarşı istifadə edildiyini, indi də 2016-cı ildə baş verən qısamüddətli döyüşlər zamanı dayanmaqları lazım gəldiyini bildirərək dedi: "Onlar bu dəfə də dayansaydılar, biz də dayanardıq. Lakin onlar dayanmadılar. Onlar bizə böyük ziyan vurmaq istəyirdilər. Onlar təmas xəttindən çox uzaqda yerləşən şəhərlərə raket atmağa başladılar və bizim mülki şəxslər arasında çoxlu qurbanlarımız var - bu vaxtadək 69 nəfər. Odur ki, biz özümüzü, xalqımızı müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız sərt idi, amma onlar buna layiq idilər" (Azərbaycan Respublikasının Prezidenti, 2020).

"BBC NEWS" - a 9 noyabr tarixində müsahibə zamanı müxbir Ermənistanın artıq kömək

göstərilməsi üçün Rusiyaya müraciət etdiyini bildirərək bu zaman Türkiyənin müharibəyə cəlb olunması məsələsinin nə qədər real olacağı barədə sualına cavab olaraq ölkə rəhbəri: *"Mən çox irəliyə baxmaq istəmirəm. Çünki bu, döyüş meydanındakı vəziyyətdən asılı olacaq…"* (Azərbaycan Respublikasının Prezidenti, 2020).

Nəticə

44 günlük Vətən müharibəsi yalnız hərbi əməliyyatlarla məhdudlaşmadı; bu, həm də informasiya cəbhəsində aparılan misilsiz mübarizə idi. Tarixi təcrübə göstərirdi ki, Azərbaycanın haqq səsini beynəlxalq aləmə çatdırmaq heç də asan olmayıb. Birinci Qarabağ müharibəsi dövründə ölkənin informasiya siyasətində zəiflik, beynəlxalq mediada ədalətsiz və birtərəfli yanaşma Azərbaycanın mövqelərini xeyli çətinləşdirmişdi. Ancaq 2020-ci ildə tamamilə fərqli mənzərə yarandı: Azərbaycan həm döyüş meydanında, həm də informasiya məkanında güclü, qətiyyətli və prinsipial mövqeyi ilə seçildi (Mustafazadə, 2022).

Beləliklə, 44 günlük müharibəsinin nəticələri göstərdi ki, informasiya cəbhəsi artıq müasir dövrdə ən azı hərbi cəbhə qədər əhəmiyyətlidir. Azərbaycanın bu sahədə qazandığı uğur həm hərbi qələbənin möhkəmləndirilməsinə, həm də beynəlxalq ictimaiyyətin diqqətinin obyektiv reallıqlara yönəldilməsinə xidmət etdi. Bu qələbə yalnız işğaldan azad edilmiş torpaqların deyil, həm də milli informasiya məkanının müdafiəsinin təmin olunması deməkdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azxeber.com. (2020, oktyabr 21). 44 günlük müharibənin informasiya cəbhəsi: Azərbaycan necə qalib gəldi? (https://azxeber.com/az/44-gunluk-muharibenin-informasiya-cebhesi-azerbaycan-nece-qalib-geldi/siyaset/) (Müraciət tarixi: 20.09.2025)

2. AZƏRTAC. (2021, sentyabr 27). Vətən müharibəsi dövründə informasiya müharibəsindən də qalib çıxmış müzəffər Ali Baş Komandan. (https://azertag.az/xeber/veten_muharibesi_dovrunde_informasiya_muharibesinden_de_qalib_chixmis_muzeffer_ali_bas_komandan-1959086) (Müraciət tarixi: 21.09.2025)

3. Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 12). Prezident İlham Əliyevin Türkiyənin "Haber Global" kanalına müsahibəsi.(https://president.az/articles/42869) (Müraciət tarixi: 15.09.2025)

4. Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 13). Prezident İlham Əliyevin Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibəsi. (https://president.az/articles/42869) (Müraciət tarixi: 20.09.2025)

5. Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 15). Prezident İlham Əliyevin NTV televiziya kanalına müsahibəsi. (https://president.az/articles/43149) (Müraciət tarixi:14.09.2025)

6. Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 16). Prezident İlham Əliyevin Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsi. (https://president.az/articles/43250) (Müraciət tarixi:16.09.2025)

7. Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 31). Prezident İlham Əliyevin Almaniyanın ARD televiziyasına müsahibəsi. (https://president.az/articles/) (Müraciət tarixi: 17.09.2025)

8. Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 2). Prezident İlham Əliyevin "Əl-Cəzirə" televiziya kanalına müsahibəsi. (https://president.az/articles/41429) (Müraciət tarixi: 20.09.2025)

9. Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 4). Prezident İlham Əliyevin "Əl-Ərabiyyə" televiziya kanalına videomüsahibəsi.(https://president.az/articles/41712) (Müraciət tarixi: 20.09.2025)

10.Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 21). Prezident İlham Əliyevin Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsi. (https://president.az/articles/43836) (Müraciət tarixi:12.09.2025)

11.Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 26). Prezident İlham Əliyevin İtaliyanın "RAI 1" televiziya kanalına müsahibəsi. (https://president.az/articles/44279) (Müraciət tarixi:05.10.2025)

12.Azərbaycan Respublikasının Prezidenti. (2020, noyabr 2). Prezident İlham Əliyevin İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsi. (https://president.az/articles/453399) (Müraciət tarixi:10.09.2025)

13.Azərbaycan Respublikasının Prezidenti. (2020, noyabr 4). Prezident İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə videomüsahibəsi. (https://president.az/articles/45475) (Müraciət tarixi: 09.09.2025)

14.Azərbaycan Respublikasının Prezidenti. (2020, oktyabr 24). Prezident İlham Əliyevin Fransanın "Le Figaro" qəzetinə müsahibəsi.(https://president.az/articles/44170) (Müraciət tarixi: 05.09.2025)

15.Mustafazadə, T. (2022). Vətən (II Qarabağ) müharibəsinin informasiya təminatında Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyevin rolu. Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Kültür Başkenti Şuşa’nın 270. Yılı Armağan Sayısı, 16–38.

16. Sadıqov, B. (2021). İlham Əliyev informasiya müharibəsinin də qalibidir. İçində Vətən müharibəsi tarixi: Şəxsiyyət faktoru (27 sentyabr–10 noyabr 2020-ci il), Bakı: Şərq-Qərb, s. 249–250.

DOI: 10.32010/JYRK7204

TÜRKİYƏ QHT-LƏRİNİN AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN İLK DÖVRLƏRİNDƏ DƏSTƏYİNİN VƏ ƏLAQƏ MEXANİZMLƏRİNİN DİPLOMATİK ƏLAQƏLƏRDƏ ROLU

Faiq Nadir NADİRSOY
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ORCID ID: 0009-0003-5935-2668
faiqnadirsoy@gmail.com

Xülasə: Azərbaycan Respublikasının 1991-ci ildə müstəqilliyini bərpa etməsi ilə Türkiyə ilə əlaqələr yeni mərhələyə qədəm qoydu. Türkiyə müstəqil Azərbaycanın ilk tanıyan ölkəsi olaraq diplomatik dəstəyini göstərdi,həmçinin iki ölkə arasında səfirlik səviyyəsində əlaqələr yaradıldı. Bu prosesdə QHT-lər mühüm rol oynadı; onlar yalnız humanitar yardım göstərməklə kifayətlənməyib, həm də iki xalq arasında mənəvi bağlılığı gücləndirdilər. Xüsusilə Türk Kızılayı, İHH, Deniz Feneri və Mazlum-Der kimi qurumlar Qarabağ müharibəsi, qaçqın böhranı və sosial problemlərin həllində aktiv iştirak etdilər. Təhsil və mədəniyyət sahəsində Türkiyə QHT-ləri, TİKA və Maarif Vəqfi vasitəsilə liseylər, universitet proqramları və ortaq mədəni layihələr həyata keçirdi, iki xalq arasında milli kimlik və mədəni yaxınlığı artırdı. İqtisadi və biznes yönümlü QHT-lər MÜSİAD, TÜSİAD və DEİK kimi platformalar vasitəsilə ticarət, sərmayə və ortaq layihələri təşviq etdi. Koordinasiya və institusional əməkdaşlıq mexanizmləri çərçivəsində TİKA və Azərbaycan tərəfdən Heydər Əliyev Fondu, ASAN Könüllüləri kimi qurumlarla birgə layihələr həyata keçirildi. Bu fəaliyyətlər QHT-lərin diplomatik əlaqələrdə dövlət siyasətini tamamlayan, ictimai diplomatiya və "bir millət, iki dövlət" prinsiplərinə əsaslanan mühüm rolunu göstərdi. QHT-lər humanitar, mədəni, təhsil, iqtisadi və koordinasiya sahələrində fəaliyyət göstərərək Azərbaycan-Türkiyə əlaqələrinin həm dövlət, həm də vətəndaş səviyyəsində möhkəmlənməsinə töhfə verdilər.
Açar sözlər: Diplomatik əlaqələr,Türkiyə və Azərbaycan, Azərbaycanın müstəqilliyi,ikili tərəfdaşlıq,QHT-lərdə dəstək mexanizmləri.

THE ROLE OF TURKISH NGOs' SUPPORT AND COMMUNICATION MECHANISMS IN DIPLOMATIC RELATIONS IN THE EARLY PERIODS OF AZERBAIJAN'S INDEPENDENCE

Faig Nadir NADİRSOY
Azerbaijan State Pedagogical University

Abstract: With the restoration of independence of the Republic of Azerbaijan in 1991, relations with Turkey entered a new stage. Turkey, as the first country to recognize independent Azerbaijan, showed its diplomatic support and relations were established at the embassy level between the two countries. NGOs played an important role in this process; they not only provided humanitarian aid, but also strengthened the moral bond between the two peoples. In particular, organizations such as the Turkish Red Crescent, IHH, Deniz Feneri and Mazlum-Der actively participated in the Karabakh war, the refugee crisis and the resolution of social problems. In the field of education and culture, Turkish NGOs implemented high schools, university programs and joint cultural projects through TIKA and Maarif Foundation, increasing national identity and cultural affinity between the two peoples. Economic and business-oriented NGOs promoted trade, investment and joint projects through platforms such as MUSIAD, TUSIAD and DEIK. Within the framework of coordination and institutional cooperation mechanisms, joint projects were implemented by TIKA and Azerbaijan with organizations such as the Heydar Aliyev Foundation and ASAN Volunteers. These activities demonstrated the important role of NGOs in diplomatic relations, complementing state policy and based on the principles of public diplomacy and "one nation, two states". NGOs contributed to the strengthening of Azerbaijan-Turkey relations at both the state and citizen levels by operating in the humanitarian, cultural, educational, economic and coordination fields.
Keywords: Diplomatic relations, Turkey and Azerbaijan, Azerbaijan's independence, bilateral partnership, support mechanisms in NGOs.

РОЛЬ МЕХАНИЗМОВ ПОДДЕРЖКИ И КОММУНИКАЦИИ ТУРЕЦКИХ НПО В ДИПЛОМАТИЧЕСКИХ ОТНОШЕНИЯХ В ПЕРВЫЙ ПЕРИОД НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА

Фаик Надир НАДИРСОЙ
Азербайджанский Государственный Педагогический Университет

Резюме: С восстановлением независимости Азербайджанской Республики в 1991 году отношения с Турцией вступили в новый этап. Турция, как первая страна, признавшая независимый Азербайджан, оказала дипломатическую поддержку, и между двумя странами были установлены отношения на уровне посольств. НПО сыграли важную роль в этом процессе; они не только оказывали гуманитарную помощь, но и укрепляли моральную связь между двумя народами. В частности, такие организации, как Турецкий Красный Полумесяц, IHH, Deniz Feneri и Mazlum-Der, принимали активное участие в Карабахской войне, кризисе беженцев и решении социальных проблем. В сфере образования и культуры турецкие НПО реализовывали программы для средних школ, университетов и совместные культурные проекты через TIKA и Фонд «Маариф», укрепляя национальную идентичность и культурную близость двух народов. НПО, ориентированные на экономику и бизнес, содействовали развитию торговли, инвестиций и реализации совместных проектов через такие платформы, как MUSIAD, TUSIAD и DEIK. В рамках механизмов координации и институционального сотрудничества TIKA и Азербайджан реализовали совместные проекты с такими организациями, как Фонд Гейдара Алиева и Волонтеры ASAN. Эта деятельность продемонстрировала важную роль НПО в дипломатических отношениях, дополняя государственную политику и основываясь на принципах народной дипломатии и «одна нация, два государства». НПО способствовали укреплению азербайджано-турецких отношений как на государственном, так и на гражданском уровне, работая в гуманитарной, культурной, образовательной, экономической и координационной сферах.

Ключевые слова: Дипломатические отношения, Турция и Азербайджан, независимость Азербайджана, двустороннее партнерство, механизмы поддержки НПО.

Giriş

Tədqiqatın aktuallığı: Azərbaycan Respublikasının 1991-ci ildə müstəqilliyini elan etməsi ilə regiondakı həlledici geosiyasi mövqeyi onu qlobal güclərin mərkəzinə çevirmişdir. Həqiqətən də, 1990-cı illərdə baş verən qlobal inkişaf və dəyişikliklər Azərbaycan üçün öz xarici siyasətini milli xarakterinə uyğun formalaşdırmaqda və həyata keçirməkdə mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan əldə etdiyi strateji nailiyyətlər sayəsində qısa müddətdə dünyanın bir çox ölkələrində tanınıb. Həqiqətən də, dost və qardaş xalq olan Türkiyə 1991-ci il noyabrın 9-da Azərbaycan Respublikasının müstəqilliyini ilk tanıyan ölkə oldu. Bu tanınmadan dərhal sonra 1992-ci ildə diplomatik əlaqələr səfirlik səviyyəsinə qaldırıldı. Bu hadisələri nəzərə alaraq, Türkiyənin Azərbaycanla olan güclü tarixi əlaqələri, o cümlədən Türkiyə xalqları üçün yaxın və isti münasibət mövzusu olmuşdur. Bu nöqteyi-nəzərdən iki dövlət arasında siyasi, iqtisadi, mədəni və sosial qarşılıqlı əlaqə son zamanlar xeyli dəyişiklik və inkişaf mövzusuna çevrilərək, vətəndaş cəmiyyəti təşkilatlarının diqqətini cəlb edir. Xüsusən də Türkiyə-Azərbaycan əlaqələrinin daha da inkişaf etdirilməsi, sosial-iqtisadi qarşılıqlı əlaqələrin daha yüksək səviyyəyə qaldırılması, bunun dost və qardaş cəmiyyətlərin üzvlərinə əks olunması istiqamətində səylər göstərilir. Azərbaycan Respublikasının 1991-ci ildə müstəqillik əldə etməsi və onun Sovet İttifaqından siyasi olaraq ayrılması ilə vətəndaş cəmiyyəti təşkilatları inkişaf etməyə və bununla da daha liberal xarakter almağa başladı.

Tədqiqatın məqsədi: Türkiyənin QHT-larının Azərbaycanın müstəqilliyinin ilk dövrlərdə dəstək və əlaqə mexanizmlərinin diplomatik əlaqələrdə rolunun müəyyənləşdirilməsi,həmçinin diplomatik əlaqələrin təşkilində QHT-lərin mahiyyətinin aşkar edilməsi olacaqdır.

Ədəbiyyat icmalı

Türkiyə və Azərbaycan əlaqələrində QHT-lərin rolu

Türkiyə və Azərbaycan uzun illər bir millətin övladları kimi daim diplomatik əlaqələrini qoruyub saxlamışlar. Xüsusilə Osmanlı və Səfəvilər dönəmində bu iki türk toplumu arasında cəmiyyət səviyyəsində olmasa da, ciddi parçalanma, hətta qarşıdurma baş verdi. Səfəvi imperiyasının süqutundan sonra Azərbaycanda yaranan xanlıqlarla Osmanlı imperiyası arasında zaman keçdikcə intensivliyi və xarakteri müxtəlif olsa da, münasibətlər mövcud olmuşdur. Çoxsaylı digər Qafqaz toplumları kimi Azərbaycan türkləri də Osmanlı İmperiyası ilə Çar Rusiyası arasında gedən müharibələrdə ümumiyyətlə Osmanlının tərəfində olmuşlar. Azərbaycan və Anadolu türkləri arasında münasibətlər 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində yeni yüksək səviyyəyə çatmışdır. 20-ci əsrin əvvəllərində Osmanlı İmperiyası Türkiyə Cümhuriyyətinə keçdi və Şimali Azərbaycan torpaqlarında Azərbaycan Xalq Cümhuriyyəti

yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa olduğuna görə bu iki dövlət arasında əlaqələr məhdud olaraq qaldı. Türkiyədəki Azərbaycan türkləri ideoloji baxımdan, Azərbaycan türkləri isə müstəqillik və ərazi bütövlüyünün möhkəmlənməsinə töhfə vermək baxımından mühüm irəliləyişlər əldə etmişlər (Valiyev, 2017). Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra Türkiyə ilə Azərbaycan arasında əlaqələr bir müddət davam etsə də, sonradan məhdudlaşaraq sonda dayandırılmışdır. Azərbaycan sovet işğalı altında olan 1991-ci ilə qədər Azərbaycan və türk icmaları arasında əlaqələr tamamilə kəsilməsə də, çox məhdud idi. Ümumiyyətlə, bu münasibətlərin əsasını həsrət, gizli fəaliyyət, çox məhdud sayda qarşılıqlı səfərlər (müəyyən məmurlar, sənət adamları və s.) təşkil edirdi. 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etdiyi dövrdən başlayaraq iki icma arasında əlaqələr yenidən intensivləşməyə başladı. Məlum məsələdir ki, Azərbaycan müstəqillik mübarizəsi dövründə ən çox yardımı Türkiyədən almışdır. Əslində Türkiyənin fəaliyyətsizliyi, sadəcə olaraq bir dövlət kimi mövcudluğu Azərbaycandakı mübarizə üçün həlledici əhəmiyyət kəsb edirdi. 1990-cı ildə Azərbaycanın müstəqilliyini ilk olaraq Türkiyə tanıdı və Rusiya və İranın dəstəklədiyi Ermənistanın hücumu zamanı ən çox dəstəyi məhz Türkiyədən aldı. Azərbaycanın müstəqillik əldə etdiyi 20 ildən artıq bir dövrə nəzər salsaq, deyə bilərik ki, iki ölkə arasında əlaqələr mühüm irəliləyişlər əldə edib. Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Süleyman Dəmirəllə şəxsi münasibətləri ikitərəfli münasibətlərin əsasını təşkil etmişdir. Əsasları əvvəlki idarələr tərəfindən qoyulsa da, Azərbaycanda İlham Əliyev, Türkiyədə isə AK Partiya hökuməti dövründə bu ölçüyə daha çox diqqət yetirilib (Sariyeva, 2015).

Bu araşdırmada Türkiyə və Azərbaycanın QHT-lərinin diplomatik əlaqələrdə rolunu eyni zamanda Azərbaycanın müstəqillik illərində bu proseslərin təşkili diqqətə alınacaqdır. Bu münasibətlərlə bağlı araşdırmalar asanlıqla göstərir ki, münasibətlərin vətəndaş cəmiyyəti aspektində ciddi çatışmazlıqlar var. İkitərəfli münasibətlərin siyasi aspekti ən diqqətçəkəndir. Bir müddət iqtisadi əlaqələr ikinci planda idi, lakin son illərdə iki ölkənin müdafiə sənayesi arasındakı əlaqələr sayəsində hərbi əlaqələr onlara rəqib olmağa başladı. Azərbaycan-Türkiyə münasibətlərinin iqtisadi ölçüsü daha geniş, hərbi ölçü isə daha möhkəm və problemsiz bir sahəni təmsil edir. Son illərdə əlaqələrin hərbi və iqtisadi ölçüləri əhəmiyyətli müştərək investisiyalar (müdafiə sənayesi sahəsində əməkdaşlıq, Əliağadakı Star neft emalı zavodu, Trans-Anadolu Boru Kəməri Layihəsi və s. kimi) vasitəsilə bir-biri ilə rəqabət apararaq, əlaqələr üçün daha güclü körpülər yaradır. Bununla belə, Azərbaycan-Türkiyə münasibətlərinin institusionallaşma istiqamətində ciddi irəliləyişlər əldə etdiyi bir vaxtda münasibətlərin cəmiyyətin bütün təbəqələrini əhatə edəcək şəkildə genişlənməsinin vacibliyi, bu sahədə ciddi bir çatışmazlığın mövcud olduğu və bu çatışmazlığın aradan qaldırılmasında vətəndaş cəmiyyəti təşkilatlarının xüsusi rol oynamalı olduğu tez-tez vurğulanır (Loda, 2016). 19-cu əsrin ikinci yarısı və 20-ci əsrin əvvəllərində Türkiyədə İstiqlal Müharibəsi zamanı Azərbaycanda yaradılmış vətəndaş cəmiyyəti təşkilatları əhəmiyyətli yardım kampaniyaları həyata keçirmiş və bu hadisə "qardaş yardımı" kimi ikitərəfli münasibətlərin səciyyəvi xüsusiyyətinə çevrilmişdir. Məlum olduğu kimi, XIX əsrin ikinci yarısında Həsən bəy Zərdabi Azərbaycanda türk xeyriyyə cəmiyyətinin yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Zərdabinin məqsədi yoxsul tələbələrə sığınacaq vermək və onlara dəstək olmaq idi. Cəmiyyətin nizamnaməsi hazırlanmış, rus idarəçiləri tərəfindən təsdiq edilmiş və cəmiyyət yaradılmışdır. Lakin yardımlar azaldıqda cəmiyyət fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. 1905-ci ildəki qurtuluş dövrü Azərbaycanda mühüm mədəni, sosial və siyasi inkişaflara səbəb oldu. 1905-ci il noyabrın 15-də Hacı Zeynəlabidin Tağıyevin əhəmiyyətli maliyyə yardımı ilə Qafqazda ilk müsəlman cəmiyyəti olan Bakı Müsəlman Xeyriyəsi (Xeyriyə Klubu) rəsmi olaraq yaradıldı və fəaliyyətə başladı(Aliyev, 2012).

Azərbaycanda QHT-lər rəsmi siyasəti tamamlayaraq dövlətlə əməkdaşlıq şəraitində ikitərəfli münasibətlərdə ciddi işləyiblər. Bəzi QHT-lər dövlətin xarici siyasətinə nisbətən daha az maraq kəsb edən sahələrdə çalışıblar. Bu çərçivədə Türkiyə ilə Azərbaycan arasında daha geniş inteqrasiyaya yönəlmiş səylər və ya Türkiyənin KKTC-nin tanınması ilə bağlı gözləntilərini qarşılamaq cəhdləri nəzərdən keçirilə bilər. Azərbaycan QHT-lərinin fəaliyyəti müəyyən dövrlərdə, xüsusən də "protokol prosesi" zamanı ictimai rəyin formalaşmasında qərar qəbul edən şəxslərin dəstəklənməsinə, rəsmi dövlət siyasətinin təsirsiz olduğu ölkələrə birbaşa və ya dolayı təsir göstərməsinə yönəlmiş fəaliyyətlər baxımından daha çox diqqəti cəlb edib. Türkiyədə bəzi QHT-lərin xarici siyasətə cəlb olunması və rollarına dair son illərdən misallar da çəkmək olar. Türkiyədəki QHT-lər arasında araşdırmaya əsaslanan rolları olan bəziləri dövlətlə əməkdaşlıq edərək rəsmi siyasəti tamamlayan mühüm işlər görüblər. Məsələn, KÖKSAV, ASAM, TUSAM, SETAV, TASAM, USAK, ORSAM, TÜRKSAM və bir sıra digər QHT-lərin təşkil etdiyi toplantılara hər

iki ölkənin rəsmiləri qatılıb. Bu görüşlər ilk növbədə mövcud administrasiyaların siyasətini izah etmək və əsaslandırmaq və mövcud əlaqələrə töhfə vermək məqsədi daşıyırdı. Tədqiqat mərkəzli bu QHT-lərin qərar qəbul edən şəxslərə ekspert dəstəyi verdiyi və ictimai rəyə təsir etdiyi də müşahidə edilmişdir. Onu da qeyd etmək lazımdır ki, bu yaxınlarda fəaliyyətini dayandıran Avrasiya Strateji Araşdırmalar Mərkəzi (ASAM) xüsusilə ekspert dəstəyi və elmi araşdırmalar vasitəsilə ictimai rəyin dəstəklənməsi istiqamətində mühüm işlər görüb. ASAM həmçinin Türkiyə və Azərbaycanda ikitərəfli münasibətlər və daha ümumi məsələlərlə bağlı çoxsaylı görüşlər təşkil edib. Türkiyənin xarici siyasətində diqqətdən kənarda qalan, xüsusi maraq göstərməyən və ya qaçmaq məcburiyyətində qalan və Azərbaycanla əlaqələrə mühüm töhfələr verən sahələrdə çalışan təşkilatlar arasında Türk Ocağı, Azərbaycan Kültür Dərnəyi, Mərmərə Qrupu, TÜDEV kimi bəzi QHT-lər mühüm işlər görüblər. TÜRKSAM rəsmi dövlət siyasətinin təsirsiz olduğu dövrlərdə Azərbaycana birbaşa və ya dolayı yolla təsir göstərməyə çalışan, Azərbaycan və Türkiyə ictimaiyyətinə, siyasətçilərinə və mediasına müraciət edən, ikitərəfli əlaqələrə töhfə verən QHT-lərin bariz nümunəsidir. TÜRKSAM həm də Azərbaycanı və vətəndaşlarını maraqlandıran əsas məsələlərlə bağlı ardıcıl olaraq araşdırmalar (araşdırmalar, nəşrlər, tədbirlər, bəyanatlar və s.) həyata keçirən vətəndaş cəmiyyəti təşkilatları sırasındadır. Vətəndaş cəmiyyəti təşkilatlarının Azərbaycan-Türkiyə münasibətlərində oynadığı rolun ilk nümunələri 1990-cı illərin əvvəllərində Türkiyədə adlarına "Azərbaycan" sözünü daxil edən, türk və müsəlman dünyası ilə maraqlanan dərnək və vəqflərin fəaliyyətidir (yuxarıda bəzi adlar qeyd edilmişdir). Türk Ocağı, Azərbaycan Kültür Dərnəyi, Azərbaycan Həmrəylik Dərnəyi, Türkiyə-Azərbaycan Dostluq və Həmrəylik Dərnəyi, KÖKSAV və digər dərnək və fondlar ümumilikdə Azərbaycanın, Azərbaycanın problemlərinin, xüsusilə Qarabağ probleminin, Azərbaycan mədəniyyətinin tanıdılmasına, ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişafına mühüm töhfələr veriblər. Xüsusilə 2000-ci illərdə Türkiyədə adlarına "Azərbaycan" sözünü daxil edən dərnəklərin sayında əhəmiyyətli artım müşahidə edilmişdir. Buna münasibətlərin qazandığı təkan, Türkiyədə müvafiq qanunvericilikdə edilən dəyişikliklər və Azərbaycan Diaspor Komitəsinin işi ilə bağlı olduğu güman edilir. Birliklərin sayının artmasının arzuolunan fəaliyyət sayında əks olunmaması ilə bağlı tənqidlər səslənsə də, hər bir QHT-nin təsis toplantısı ilə bağlı bir xəbərin ictimaiyyətə maarifləndirilməsinə təsiri bu artımın əhəmiyyətini nümayiş etdirir. Bundan başqa, Türkiyənin müxtəlif şəhərlərində adlarında şəhərin adı ilə yanaşı "Azərbaycan" sözü olan dərnəklərin yaradılması da iki ölkəni köklü şəkildə yaxınlaşdıra biləcək proseslər sayıla bilər. İzmir Azərbaycan Kültür və Həmrəylik Evi Dərnəyi, Çanaqqala Azərbaycan Evi Dərnəyi, Kocaeli Azərbaycan Evi Dərnəyi, Ankara Azərbaycan Evi Dərnəyi, İstanbul Türkiyə Azərbaycanlıları Dostluq, Mədəniyyət və Həmrəylik Dərnəyi, Əskişəhər Azərbaycanlıları Dərnəyi, Antalya Azərbaycan Evi Dərnəyi, İstanbul Azərbaycan Mədəniyyət və İncəsənət Dərnəyini misal göstərmək olar. Bu dərnəklərdən bəziləri inteqrasiyaya can ataraq, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası adlı ortaq bir çətir altında birləşiblər (Babiş, 2018).

İqtisadi araşdırmalar aparan Azərbaycan və Türkiyə QHT-ləri layihə əsaslı layihələrdə əməkdaşlıq ediblər. Bu sahədə ən fəal təşkilatlardan biri olan Azərbaycan İqtisadi Tədqiqatlar Mərkəzi (İqtisadi Tədqiqatlar Mərkəzi) bu əməkdaşlığı daha da inkişaf etdirmək üçün Türkiyədəki İqtisadi Araşdırmalar Fondu ilə qarşılıqlı səfərlər həyata keçirmiş, görüşlər keçirmişdir. Görüşlər zamanı iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına yönəlmiş elmi seminar və konfransların təşkili üçün qarşılıqlı səylərin başlanmasına dair konsensus əldə olunub. Bu arada Bakıda Azərbaycan İqtisadi Araşdırmalar Mərkəzi (İTM) Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzi (QAFSAM) ilə Türkiyə-Ermənistan protokolları ilə bağlı Azərbaycan-Türkiyə münasibətlərində gərginlik yaşandığı bir dövrdə baş verənləri qiymətləndirmək məqsədilə Bakıda birgə konfrans keçirib. Konfransda ikitərəfli münasibətlərin digər aspektləri ilə yanaşı, iqtisadi ölçü ilə bağlı ətraflı müzakirələr aparılıb. QAFSAM daha sonra Türkiyənin iki QHT-si, TÜRKSAM və Azərbaycan Birlik Təşkilatı (ABT) ilə əməkdaşlıq edərək Türkiyədəki çoxsaylı universitet tələbələrini hədəf alan bir tanıtım layihəsi həyata keçirdi. 2013-cü ildə QAFSAM Türkiyənin ən qədim və ən hörmətli QHT-lərindən biri olan Türk Ocaqları ilə əməkdaşlıq edərək Türkiyə-Ermənistan sərhədində broşür hazırlayıb çap etdirib. İki ölkə arasında səhiyyə sahəsində QHT-lər arasında məhdud da olsa əməkdaşlıq nümunələri də var. Səhiyyə Personeli Dərnəyi (SAMEDER) və Beynəlxalq Vətəndaş Cəmiyyətinə Dəstək və İnkişaf Dərnəyi (USİDER) arasında əməkdaşlıq nəticəsində Türkiyə ilə Azərbaycan arasında "şəfa körpüsü" yaradılıb. Layihədə Azərbaycandan Sağlamlığımız Naminə Həkimlər Assosiasiyası (SNT) də iştirak edib və dəstək verib. Layihə çərçivəsində türkiyəli həkimlər Bakıya səfər edərək 4000 Azərbaycan vətəndaşını pulsuz müayinədən keçiriblər. Bu sahədə daha bir nümunəvi təşəbbüs Ankarada yerləşən

Avrasiya Qastroenterologiya Dərnəyi tərəfindən həyata keçirilir. Assosiasiya ardıcıl olaraq Azərbaycan QHT-ləri ilə birgə fəaliyyət göstərir və tibb sahəsində birgə elmi tədqiqatlara mühüm töhfələr verir. Avrasiya Metal İşçiləri Konfederasiyası çərçivəsində və bilavasitə Azərbaycan Həmkarlar İttifaqı, Həmkarlar İttifaqı və İctimai İşçilər Həmkarlar İttifaqı Konfederasiyası (Kamu-Sen) çərçivəsində həyata keçirilən fəaliyyətlər həmkarlar ittifaqı sahəsində vətəndaş cəmiyyətinin fəaliyyətinə, Avrasiya İnsan Hüquqları Federasiyası çərçivəsində həyata keçirilən fəaliyyətlər isə insan hüquqları sahəsində vətəndaş cəmiyyəti fəaliyyətlərinə nümunədir. Bundan başqa, media sektorunda fəaliyyət göstərən Azərbaycan Parlament Müxbirləri Dərnəyi Türkiyədəki çoxsaylı milli və yerli jurnalist birlikləri ilə ikitərəfli müqavilələri və fəaliyyətləri ilə, Türk Dünyasından jurnalistləri bir araya gətirmək səyləri isə multimedialı vətəndaş cəmiyyəti fəaliyyətləri ilə diqqət çəkir (Aslanlı və Kurban, 2016).

QHT-lərin diplomatik münasibətlər sistemində funksional təsnifatı

Humanitar yardım mexanizmləri

Azərbaycanın müstəqilliyinin ilk illəri həm siyasi, həm iqtisadi, həm də sosial baxımdan olduqca çətin dövr idi. Qarabağ müharibəsi, iqtisadi böhran, qaçqın və məcburi köçkünlərin sayı milyonlarla ifadə olunurdu. Bu dövrdə Türkiyə Respublikasının dövlət orqanları ilə yanaşı, qeyri-hökumət təşkilatları da Azərbaycanın yanında yer aldı. Xüsusilə Türk Kızılayı, İHH (İnsani Yardım Vəqfi), Deniz Feneri, Mazlum-Der, Cansuyu Yardım Vəqfi kimi QHT-lər Azərbaycanın müxtəlif bölgələrinə humanitar yardımlar göndərdilər. Bu yardımlar ərzaq, geyim, dərman, tibbi avadanlıq, çadır və yataq dəstləri kimi maddi yardım növlərini əhatə edirdi. Yardım mexanizmləri əsasən Türkiyənin Bakıdakı səfirliyi, yerli bələdiyyələr və Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birgə koordinasiya edilirdi. QHT-lər bu dövrdə yalnız humanitar böhranı azaltmaqla kifayətlənmədi, həm də iki xalq arasında mənəvi bağlılığın dərinləşməsinə mühüm töhfə verdi. Yardımların "qardaş köməyi" adlandırılması, bu əməkdaşlığın səmimi və milli ruh daşıdığını göstərirdi (Aslanlı və Kurban, 2016). QHT-lərin fəaliyyətləri həm də Türkiyə-Azərbaycan diplomatik münasibətlərinin humanitar təməlini formalaşdırdı. Bu yardım mexanizmləri sayəsində Türkiyə yalnız dövlət səviyyəsində deyil, həm də xalq səviyyəsində Azərbaycanın müstəqilliyini dəstəkləyən güclü tərəfdaş kimi tanındı.

Sxem 1. QHT-lərin diplomatik münasibətlər sistemində funksional təsnifi



Mənbə: Müxtəlif mənbələr əsasında müəllifin özü tərəfindən hazırlanmışdır.

Təhsil və mədəni əməkdaşlıq mexanizmləri

Müstəqilliyin ilk illərində Azərbaycanın təhsil sistemi Sovet dövrünün mirası olaraq ciddi islahatlara ehtiyac duyurdu. Bu mərhələdə Türkiyə QHT-ləri və təhsil yönümlü qurumlar iki ölkə arasında elm və mədəniyyət körpülərinin yaradılmasında mühüm rol oynadılar. Türk Dünyası Araşdırmaları Vəqfi, TİKA, Süleyman Demirel Vəqfi, Maarif Vəqfi kimi təşkilatlar Azərbaycanda təhsil layihələri həyata keçirdilər. Onların təşəbbüsü ilə Bakıda və bölgələrdə Türk liseləri, Türk məktəbləri, eləcə də birgə universitet proqramları yaradıldı. Bu proqramlar azərbaycanlı gənclərə müasir biliklərə yiyələnmək, Türkiyə təcrübəsini öyrənmək imkanı verdi (Şuayip, 2022). Eyni zamanda, Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin sayı sürətlə artdı; bu, gələcək diplomatik və elmi əlaqələrin əsasını qoydu. Mədəni əməkdaşlıq sahəsində QHT-lər tərəfindən ortaq mədəniyyət günləri, sərgilər, folklor festivalları və türk dünyasına həsr olunmuş elmi konfranslar təşkil edildi. Bu fəaliyyətlər təkcə mədəni mübadilə deyil, həm də Türkiyənin "yumşaq güc" strategiyasının təməl elementi idi. Təhsil və mədəni layihələr vasitəsilə QHT-lər iki ölkə xalqları arasında dərin mənəvi bağ yaratdılar, milli kimlik və ortaq dəyərlərin qorunmasına xidmət etdilər. Bu mexanizm Türkiyə-Azərbaycan münasibətlərini strateji tərəfdaşlıqdan "mədəni birliyə" doğru istiqamətləndirdi.

İctimai diplomatiya və türk qardaşlığı əlaqələri

İctimai diplomatiya dövlətlərarası münasibətlərin yalnız rəsmi səviyyədə deyil, xalq səviyyəsində də inkişafını təmin edən mühüm vasitədir. Azərbaycan müstəqillik qazandıqdan sonra Türkiyə QHT-ləri bu

sahədə mühüm rol oynadılar. Onların fəaliyyəti iki ölkə arasında "bir millət, iki dövlət" konsepsiyasının dərinləşməsinə xidmət etdi. QHT-lər mətbuat konfransları, televiziya proqramları, ortaq media layihələri və ictimai tədbirlər vasitəsilə Azərbaycan həqiqətlərini Türkiyə və beynəlxalq ictimaiyyətə çatdırdılar. Xüsusilə Qarabağ münaqişəsi zamanı QHT-lərin təşkil etdiyi ictimai dəstək kampaniyaları, mitinqlər və təbliğat fəaliyyətləri diplomatik səviyyədə Azərbaycanın mövqeyinin güclənməsinə kömək etdi. Türk Qadınlar Birliyi, Türk Ocaqları, Türk Dünyası Qadınlar Konqresi kimi təşkilatlar həm ictimai həmrəyliyi, həm də milli ideyanın qorunmasını təşviq etdilər. Bu dövrdə ictimai diplomatiya mexanizmi yalnız siyasi təbliğatla məhdudlaşmadı, həm də xalqlar arasında mədəni və mənəvi yaxınlığın dərinləşməsinə səbəb oldu. QHT-lər iki ölkənin cəmiyyətləri arasında qarşılıqlı etimadı gücləndirdi, dövlətlərarası münasibətlərə səmimiyyət və dayanıqlılıq gətirdi. Beləliklə, Türkiyə QHT-ləri diplomatik münasibətlərin "xalq dayağı" rolunu oynayaraq, iki dövlət arasında strateji dostluğun sosial əsaslarını formalaşdırdılar.

İqtisadi və biznes yönümlü QHT-lər

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə xarici əməkdaşlığa ciddi ehtiyac duyulurdu. Bu mərhələdə Türkiyənin biznes yönümlü QHT-ləri iki ölkə arasında iqtisadi inteqrasiyanın əsas təşəbbüskarlarından biri oldular. MÜSİAD (Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi), TÜSİAD, TOBB və DEİK kimi təşkilatlar Azərbaycanda sərmayə mühiti yaratmaq, sahibkarları əlaqələndirmək və ortaq biznes platformaları qurmaq istiqamətində mühüm addımlar atdılar. 1990-cı illərin ortalarından etibarən bu QHT-lər ticarət nümayəndəlikləri, sərgilər, biznes forumlar və iqtisadi əməkdaşlıq konfransları vasitəsilə türk investorlarının Azərbaycanda fəaliyyətini təşviq etdilər. Onların təşəbbüsü ilə bir çox sahələrdə xüsusən enerji, tikinti, nəqliyyat və xidmət sektorlarında ortaq şirkətlər quruldu. Bu fəaliyyətlər dövlət səviyyəsində iqtisadi əməkdaşlığın möhkəmlənməsinə yardım etdi. Eyni zamanda, bu QHT-lər sosial məsuliyyət layihələri vasitəsilə yerli icmalarla da əlaqə saxlayaraq iqtisadi əməkdaşlığa humanitar ölçü qazandırdılar. Beləliklə, Türkiyənin biznes yönümlü QHT-ləri yalnız ticarət əlaqələrini deyil, həm də iqtisadi diplomatiyanı inkişaf etdirdi. Bu mexanizm nəticəsində iki ölkə arasında iqtisadi qarşılıqlı asılılıq artdı, əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi.

Qrafikdə göstərilən məlumatlar Azərbaycanın Türkiyə ilə neft hasilatında son 20 ildə sabit artım tendensiyasını nümayiş etdirir. 2002-ci ildə 2,4 milyon ton olan hasilat 2010-cu ildə 2,6 milyona, 2022-ci ildə 4,0 milyona, 2023-cü ildə isə 5,0 milyon tona yüksəlmişdir. Bu, orta illik təxminən 3,1% artım deməkdir. Əgər bu dinamika eyni templə davam edərsə, 2030-cu ildə hasilatın 6,5–7 milyon ton səviyyəsinə çatacağı proqnozlaşdırıla bilər. Artımın əsas səbəbləri arasında enerji infrastrukturunun inkişafı, Trans-Anadolu Boru Kəməri (TANAP) kimi layihələr və Azərbaycan–Türkiyə iqtisadi inteqrasiyasının dərinləşməsi dayanır.

Qrafik 1. Azərbaycanın Türkiyə ilə neft hasilatı,milyon ton



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi,2025b

2024-cü ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 47,396,4 milyon ABŞ dolları təşkil etmiş, bunun 55,6 faizi ixracın, 44,4 faizi isə idxalın payına düşmüşdür. Müsbət ticarət saldosu 5,280,4 milyon dollar səviyyəsində formalaşmışdır. 2023-cü illə müqayisədə ümumi ticarət dövriyyəsi 1,3% artsa da, real ifadədə 3,5% azalma qeydə alınmış, xüsusilə ixracda 7,4%-lik azalma müşahidə olunmuşdur. Bu dinamika əsasən qlobal enerji bazarındakı qiymət dalğalanmaları və xam neftin gömrük rəsmiləşdirilməsindəki texniki dəyişikliklərlə bağlıdır. Qeyri-neft ixracı 0,3% artsa da, real artım 13% azalmışdır ki, bu da iqtisadi şaxələndirmə prosesinin hələ tam güclənmədiyini göstərir. Ən mühüm ticarət tərəfdaşları arasında Türkiyənin payı 12,9% təşkil etmişdir ki, bu da iki ölkə arasında iqtisadi inteqrasiyanın dərinliyini göstərir. Bu əlaqələr QHT-lərin fəaliyyəti ilə də güclənir: TİKA, MÜSİAD, Azərbaycan Sahibkarlar Konfederasiyası kimi qurumlar iqtisadi diplomatiyanın sosial ölçüsünü təmin edir. Gələcəkdə QHT-lərin texnoloji innovasiyalar, yaşıl enerji və sosial sahibkarlıq sahəsində əməkdaşlığı iki ölkə arasında qeyri-neft ticarətini 2026-cı ilədək 15%-ə qədər artırmaq potensialına malikdir (ARDSK,2025a).

Koordinasiya və institusional əməkdaşlıq mexanizmləri

1990-cı illərin sonlarından etibarən Türkiyə və Azərbaycan QHT-ləri arasında əməkdaşlıq daha sistemli və institusional xarakter almağa başladı. Əvvəllər ayrı-ayrı humanitar və mədəni layihələr şəklində aparılan fəaliyyətlər tədricən ortaq platformalar və şəbəkələr çərçivəsində birləşdirildi. TİKA, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi, bu prosesdə koordinasiya rolunu üzərinə götürdü. Onun vasitəsilə həm dövlət qurumları, həm də QHT-lər arasında informasiya mübadiləsi və layihə əlaqələndirilməsi aparıldı. Eyni zamanda, Türkiyə QHT-ləri Azərbaycan tərəfdaşları Heydər Əliyev Fondu, Azərbaycan Gənclər Fondu, ASAN Könüllüləri, Milli QHT Forumu kimi qurumlarla əməkdaşlıq müqavilələri bağladılar. Bu mexanizm çərçivəsində birgə sosial layihələr, gənclər proqramları, könüllülük təşəbbüsləri həyata keçirildi. Koordinasiya mexanizmi yalnız layihə idarəçiliyi deyil, həm də iki ölkə arasında vətəndaş cəmiyyəti diplomatiyasının formalaşması baxımından əhəmiyyətli idi. Bu əməkdaşlıq sayəsində QHT-lərin fəaliyyəti dövlət siyasəti ilə uzlaşdı, nəticədə Türkiyə-Azərbaycan münasibətləri təkcə siyasi və iqtisadi deyil, həm də ictimai səviyyədə sabitləşdi (Babiş, 2018). Koordinasiya mexanizmi uzunmüddətli perspektivdə iki ölkə arasında vətəndaş cəmiyyətlərinin inteqrasiyasını gücləndirdi və regionda birgə sosial inkişaf modelinin formalaşmasına zəmin yaratdı.

Nəticə

Türkiyə QHT-lərinin fəaliyyəti Azərbaycan müstəqilliyinin ilk illərində diplomatik əlaqələrin inkişafında əvəzsiz rol oynadı. Onlar yalnız humanitar yardım təmin etməklə kifayətlənməyib, təhsil, mədəniyyət, iqtisadiyyat və ictimai diplomatiya sahələrində də əməkdaşlığı genişləndirdilər. Bu mexanizmlər vasitəsilə QHT-lər dövlət siyasətini tamamlayaraq ictimai rəyin formalaşmasına və strateji tərəfdaşlığın sosial əsaslarının möhkəmlənməsinə xidmət etdilər. Koordinasiya və institusional əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr uzunmüddətli perspektivdə iki ölkə arasında vətəndaş cəmiyyəti diplomatiyasının inkişafına zəmin yaratdı. Nəticədə, QHT-lər Azərbaycan-Türkiyə münasibətlərində yalnız dövlətlərarası deyil, həm də xalqlararası etimad və həmrəyliyin təminatçısı olaraq strateji və sosial körpü rolunu oynadılar. Bu təcrübə həm regionda, həm də qlobal səviyyədə vətəndaş cəmiyyəti diplomatiyasının önəmini nümayiş etdirir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Aliyev, E. (2012). *Azerbaijan-Turkish relations (1992-2012): A foreign policy account* (Master's thesis, Middle East Technical University (Turkey)).
2. Aslanlı, A., & Kurban, V. (2016). Azerbaycan-Türkiye ilişkileri ve sivil toplum kuruluşları. *Marmara Türkiyat Araştırmaları Dergisi*, *3*(1), 31-43.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025a). System of National Accounts. URL:https://www.stat.gov.az/source/system_nat_accounts/
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025b). Industry statistics. URL:https://stat.gov.az/source/industry/
5. Babiş, A. G. (2018). *Azerbaijan–Turkey Relations (1988-2018)"Evaluating 'One Nation Two States' Discourse"* (Master's thesis, Middle East Technical University (Turkey)).
6. Loda, C. (2016). Azerbaijan, foreign policy and public diplomacy. *Irish Studies in International Affairs*, *27*(1), 39-55.
7. Sariyeva, S. (2015). Azerbaijan-Turkish Relations (1992-2012): common interests and Solidarity.
8. Şuayip T., (2022). TÜRKİYE'DEKİ SİVİL TOPLUM KURULUŞLARININ AZERBAYCAN İLİŞKİLERİNE ETKİSİ The Impact of the Civil Society Associations in Turkey on Azerbaijan Relations.
9. Valiyev, J. (2017). Foreign policy of Azerbaijan in 25 Years of independence: priorities, principles and achievements. *Caucasus International*, *7*(1), 29-46.

DOİ: 10.32010/INRG8952

TARİX DƏRSLƏRİNDƏ EKZİSTENSİAL DÜŞÜNMƏ BACARIQLARININ FORMALAŞDIRILMASINDA MÜƏLLİMİN ROLU

Xədicə Rüstəm RÜSTƏMOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Orcid: https://orcid.org/0009-0007-5273-2384
E-mail: khadijarustamli11@gmail.com

Xülasə: Müasir dövrdə təhsil cəmiyyətin inkişafının və sosial tərəqqinin əsas şərtlərindən biri hesab olunur. Müasir dövrdə təhsilin əsas məqsədi yalnız nəzəri biliklərin təhsilverənlərə ötürülməsi ilə məhdudlaşmır, həm də insanın şəxsiyyət kimi formalaşmasına, özünü dərk etməsinə, məsuliyyət hissinin güclənməsinə, yaradıcı bacarıqlarının inkişafına və onun özünü dərk etməsinə və cəmiyyət qarşısında məsuliyyət hissi qazanmasına şərait yaratmasına yönəlir. Bu baxımdan humanist psixologiya və ekzistensial fəlsəfə müasir pedaqoji proseslərin nəzəri bazasını təşkil edərək, müəllimlərin şagirdlərdə ekzistensial düşünmə bacarıqlarının formalaşdırılmasında rolunu xüsusi vurğulayır.

Bu məqalə Azərbaycan tarix fənninin tədrisində şagirdlərdə ekzistensial düşünmə bacarıqlarının formalaşdırılmasında müəllimlərin rolunu araşdırır və mövzunu həm pedaqoji, həm də fəlsəfi aspektlərdən şərh edir. Ekzistensial düşüncə insanın seçim etmək və fərdi mövqeyini qoruma bacarığını inkişaf etdirən mühüm yanaşmadır.

Tədqiqatın məqsədi Azərbaycan ümumtəhsil məktəblərində tarix dərslərinin məzmunu və müəllimlərin tətbiq etdiyi metodlar vasitəsilə ekzistensial bacarıqların necə formalaşdırıldığını müəyyən etməkdir. Araşdırmada deduktiv yanaşma və keyfiyyətli məzmun təhlili üsullarından istifadə olunmuşdur. Əldə edilən nəticələr göstərir ki, şagirdyönümlü yanaşmalar, dialoq əsasında qurulan dərs metodları, yaradıcı müzakirələr və inteqrativ təlim üsulları şagirdlərin maraq dairəsini genişləndirir, onların mənlik şüurunu və məsuliyyət hissini gücləndirir.

Məqalədə həmçinin vurğulanır ki, müəllim-şagird münasibətlərinin keyfiyyəti, pedaqoqun şəxsiyyəti və sinifdə formalaşdırdığı mühit ekzistensial bacarıqların inkişafına birbaşa şəkildə təsir göstərir. Qadamerin "üfüqlərin birləşməsi" ideyasına uyğun olaraq, açıq ünsiyyət mühitinin yaradılması, müxtəlif intellektual yanaşmaların tətbiqi və milli-mənəvi dəyərlərin tədris prosesinə inteqrasiyası bu istiqamətdə mühüm əhəmiyyət daşıyır.

Beləliklə, Azərbaycan tarix dərslərində ekzistensial bacarıqların inkişafı yalnız fənn biliklərinin mənimsədilməsi deyil, həm də şagirdlərin cəmiyyətdə məsuliyyətli və yaradıcı fərdlər kimi yetişməsinə xidmət edir. Bu isə müəllimlərin tədrisdə innovativ yanaşmalar tətbiq etməsini zəruri edir.

Açar sözlər: ekzistensial bacarıqlar; ekzistensial təhsil; müəllim-şagird münasibəti; tarix tədrisi; humanist psixologiya.

THE ROLE OF THE TEACHER İN THE FORMATİON OF EXİSTENTİAL THİNKİNG SKİLLS İN HİSTORY LESSONS

Khadija Rustam RUSTAMOVA
Azerbaijan State Pedagogical University
Orcid: https://orcid.org/0009-0007-5273-2384
E-mail: khadijarustamli11@gmail.com

Abstract: In contemporary society, education is among the principal conditions for societal development and social progress. Modern education is not confined to the transfer of theoretical knowledge; rather, it facilitates the formation of individual personality, self-awareness, heightened responsibility, and creative capability, while fostering a sense of accountability to society. Humanistic psychology and existential philosophy thus constitute the theoretical foundation for pedagogical processes, emphasizing the critical role of teachers in cultivating students' existential thinking skills.

This article examines the contribution of teachers to the development of existential thinking in students through the teaching of Azerbaijani history, interpreting the issue from both pedagogical and philosophical perspectives. Existential thought denotes an approach that cultivates an individual's capacity for making personal choices and preserving their integrity.

The aim of the study is to determine how existential skills are developed in Azerbaijani general education schools through the content of history lessons and the methods employed by teachers. Utilizing a deductive framework and qualitative content analysis, the study reveals that student-centered approaches, dialogic instructional methods, creative discussion, and integrative teaching techniques expand students' interests, strengthen self-consciousness, and bolster their sense of responsibility. Furthermore, this article underscores that the quality of teacher-student interactions, the personality of the teacher, and the classroom environment directly influence the cultivation of existential skills. Consistent with Gadamer's concept of the "fusion of horizons," the establishment of an open communicative environment, the employment of diverse intellectual approaches, and the integration of national and moral values into the pedagogy are of paramount importance.

In conclusion, the development of existential skills in Azerbaijani history instruction transcends mere acquisition of disciplinary knowledge; it contributes to the formation of responsible and creative individuals in society. Consequently, it is imperative for teachers to adopt innovative pedagogical approaches in their instruction.
Keywords: existential skills; existential education; teacher-student relationship; history teaching; humanistic psychology.

РОЛЬ УЧИТЕЛЯ В ФОРМИРОВАНИИ ЭКЗИСТЕНЦИАЛЬНОГО МЫШЛЕНИЯ НА УРОКАХ ИСТОРИИ

Хадия Рустам РУСТАМОВА
Азербайджанский государственный педагогический университет
Orcid: https://orcid.org/0009-0007-5273-2384
Электронная почта: khadijarustamli11@gmail.com

Резюме: В современную эпоху образование рассматривается как одно из ключевых условий развития общества и социального прогресса. Основная цель современного образования заключается не только в передаче учащимся теоретических знаний, но и в создании условий для формирования личности, самопознания, укрепления чувства ответственности, развития творческих способностей и осознания своей социальной значимости. В этом контексте гуманистическая психология и экзистенциальная философия формируют теоретическую основу современных педагогических процессов, подчеркивая особую роль учителя в развитии у учащихся экзистенциального мышления.
Настоящая статья посвящена анализу роли учителя в формировании экзистенциальных навыков мышления у учащихся в процессе преподавания истории Азербайджана и рассматривает данную проблему с педагогической и философской точек зрения. Экзистенциальное мышление представляет собой важный подход, способствующий развитию способности человека делать осознанный выбор и сохранять индивидуальную позицию.
Цель исследования состоит в том, чтобы определить, каким образом экзистенциальные навыки формируются в общеобразовательных школах Азербайджана посредством содержания уроков истории и используемых учителями методов обучения. В исследовании применяются дедуктивный подход и методы качественного контент-анализа. Полученные результаты показывают, что личностно-ориентированные подходы, диалоговые методы обучения, творческие дискуссии и интегративные формы обучения расширяют круг интересов учащихся, укрепляют их самосознание и чувство ответственности. В статье также подчеркивается, что качество взаимоотношений между учителем и учеником, личность педагога и созданная им атмосфера в классе оказывают прямое влияние на развитие экзистенциальных навыков. В соответствии с концепцией «слияния горизонтов» Г. Гадамера, создание открытой коммуникативной среды, использование разнообразных интеллектуальных подходов и интеграция национальных и духовно-нравственных ценностей в образовательный процесс имеют важное значение в этом направлении.
Таким образом, развитие экзистенциальных навыков на уроках истории Азербайджана направлено не только на усвоение учебного материала, но и на формирование учащихся как ответственных и творческих личностей, способных к активному участию в жизни общества. Это, в свою очередь, требует от педагогов внедрения инновационных подходов в образовательный процесс.
Ключевые слова: экзистенциальные навыки; экзистенциальное образование; взаимоотношения учителя и ученика; преподавание истории; гуманистическая психология

Giriş

XXI əsrdə keyfiyyətli təhsil sisteminin qurulması yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də şagirdlərin şəxsiyyət, sosial məsuliyyət və yaradıcı potensialının inkişafını hədəfləyir. Azərbaycan təhsil qanunvericiliyi beynəlxalq konvensiyalara uyğun olaraq milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunmasını prioritet sayır. Bu kontekstdə ekzistensial düşüncə bacarıqlarının tədris prosesinə inteqrasiyası mühüm əhəmiyyət kəsb edir (Gutek, 1988; Aguilar, 2010).

Humanist psixologiya və ekzistensial düşünə bilmə bacarığının formalaşdırılmasına ümumtəhsil müəssisələrində tarix fənnini tədris edən müəllimlərin dərs metodları keyfiyyəti təhsildə əldə olunacaq nəticələrə birbaşa təsir edir. Ekzistensialist düşüncəyə malik olan elm xadimləri hesab edir ki, qiymətləndirmə və seçim məsələsi vacib əhəmiyyət daşıyır. Azərbaycan tarixi dərslərində ekzistensial bacarıqların yaradılması təkcə müəllimlərin deyil, həm də şagirdlərin bir insan kimi öz şəxsiyyətini mühafizə edə biləcəkləri bir mühit tələb edir. Ekzistensialist filosof və humanist psixoloqlar hesab edir ki, ekzistensiallığı formalaşdırmaq üçün təhsil alan şagirdin maraqlarını və onların fərdi fərqlərini nəzərə alan tədris və öyrənmə üsulları bu məqsədə çatmaqda mühüm rol oynayır. Tədqiqatın qarşısına qoyduğu məqsəd bu yanaşmanı dəstəkləyən tədris metodlarını və onların xarakterik xüsusiyyətlərini keyfiyyətli məzmun təhlilindən istifadə edərək və mövcud ədəbiyyatı nəzərdən keçirərək müəyyən etməkdən ibarətdir. Deduktiv baxımdan əldə edilən məlumatların təhlili nəticəsində

belə qənaətə gəlindi ki, tədris müəssisələrində müəllimlərlə şagirdlər arasında olan münasibətləri vurğulayaraq əslində, dərs prosesində fərdi nümunələri nəzərə alan və onların arasında həm səmərəli münasibətlərin, həm də müsbət mənlik anlayışının artmasına stimul verə bilən effektiv tədris metodlarını dəstəkləyirlər.

Nəzəriyyə

Keyfiyyətli təhsil sistemi cəmiyyətin uğurunu reallaşdıran əsas amillərdəndir. Məhz bu səbəbdən Azərbaycan hökuməti dünyəvi və fasiləsiz xarakter kəsb edən, hər bir vətəndaşın, cəmiyyətin və dövlətin prioritet maraqlarını özündə ehtiva edən strateji əhəmiyyətli fəaliyyət sahəsi olan təhsilin keyfiyyətini ölkə ərazisindəki təhsil müəssisələrində yüksəltməyə çalışır və intellektual səviyyəni yüksətməyə xidmət göstərən siyasət yürüdür. 19 iyun 2009-cu ildə qəbul edilən təhsil qanuna əsasən respublika ərazisində təhsil sistemi insan hüquqlarına aid beynəlxalq konvensiyalara və ölkəmizin tərəfdar olduğu beynəlxalq müqavilələrə əsaslanaraq, təhsil sahəsində milli-mənəvi, eləcə də ümumbəşəri dəyərlərin prioritetliyinə əsaslamaraq dünya təhsil sisteminə inteqrasiya edərək inkişaf etdirilir. Qanunun 9-cu maddəsinə əsasən təhsilin keyfiyyət səviyyəsi respublika ərazisində qəbul edilən dövlət təhsil və peşə standartlarına müvafiq şəkildə nəinki beynəlxalq, eləcə də ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq mövcud təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sistemi - təhsil proqramları, təhsilalanların hazırlıq səviyyəsi, informasiya resursları, infrastruktur, maddi-texniki baza, tədris müəssisələrində fənni tədris edən pedaqoqların peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s. nəzərə alınaraq müəyyənləşdirilir. Həmçinin, təhsil müəssisələrində mövcud kadr hazırlığının keyfiyyət göstəriciləri məzunların təkcə milli deyil, həm də beynəlxalq əmək bazarında rəqabət apara bilmək qabiliyyəti, respublikanın sosial və iqtisadi baxımdan inkişaf etməsində göstərdiyi xidmətləri ilə müəyyənləşdirilir və hər bir tarixi mərhələdə sosial-iqtisadi, ictimai-siyasi, elmi və mədəni inkişafla əlaqəli olan tələblərdən qaynaqlanan təhsilin keyfiyyət səviyyəsi isə müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan (qurum) tərəfindən qaydalara müvafiq olaraq qiymətləndirilir. Məktəblərdə təhsilin keyfiyyətinin göstəricilərindən biri də dərs deyən müəllimin layihələndirilmiş təlim vasitələrinin sinifdə tətbiq edilmə dərəcəsinə əsaslanaraq özünün tədris nəticəsini obyektiv qiymətləndirməsi və peşəkarlıq səviyyəsidir. Qiymətləndirmə aparmaq müəllimin peşəkarlığını daim təkmilləşdirməsi üçün vacibdir və sinifdəki müxtəlif fəaliyyətləri, strategiyaları, metodları, hətta öyrənmə addımlarını müqayisə etməklə qiymətlənirməni başlamaq olar. Öyrənmə vasitələrindən səmərəli istifadə həm tam idarəetməni, həm də müəllimin peşəkarlığının artırılması üçün bir vasitədir. Müəllimlərin peşəkarlığının davamlı inkişafı üçün qiymətləndirmə proseslərinin tətbiqi zəruridir. Qiymətləndirmənin olmaması pedaqoji fəaliyyətin effektivliyinin azalmasına səbəb ola bilər. XX əsrin maarif xadimi S.Qənizadənin hesab edir ki, müəllimlik peşəsi insan kapitalının inkişafında və cəmiyyətin sosial-mədəni tərəqqisində strateji əhəmiyyət daşıyır. Müəllimlərin peşəkarlığı şagirdlərin sosiallaşması, məsuliyyət hissi və yaradıcı bacarıqlarının formalaşmasında həlledici rol oynayır.

Ekzistensial bacarıqları formalaşdırmaq üçün müəllimlərin həyatın mənası, məsuliyyəti və fəaliyyət qabiliyyəti ilə əlaqədar onların özünü dərk etməsinə stimul verən kreativ təlim proseslərinin yaradılması zərurəti göz qabağındadır, məhz bu onlara çoxnövlü intellekti, xüsusən də ekzistensial bacarıqları tədris prosesinə tətbiq etməsinə stimul verə bilər. Effektiv tarixi özünüdərk haqqında Karrın istinad etdiyi alman filosofu Qadamerin fikrinə əsaslanaraq, tarixi vəziyyəti, məktəb nizam-intizamını düzgün başa düşmək üçün təhsil prosesinin iştirakçıları arasında açıq söhbətlər üçün məkanlar açmaq və beləliklə, onların düşüncəsinin "üfüqlərinin birləşməsinə" və inteqrasiyasına nail olmaq lazımdır. Qadamerin fikrincə hər bir şəxs özünü yoxlama prosesi ilə dərk etməzdən öncə, yaşadığı mühitdə - ailədə, cəmiyyətdə və dövlətdə kimliyini aydın olaraq dərk edir.

Şagirdyönümlü metod və müsbət mənlik konsepsiyasının inkişafı üçün dialoq zəruridir, çünki ekzistensial bacarıqların tarix dərsləri vasitəsilə şagirdlərdə formalaşmasında fənn müəllimi və təhsil sistemi mühüm rol oynayır. Deməli, təhsilalanların fərdi inkişafla bağlı konsepsiyaları inkişaf etdirən, yəni hər bir şagirdi diqqət mərkəzində saxlayan tədris metodları bu bölmə ilə dəstəklənir.

Azərbaycan tarixi dərslərində təhsilalanlar və müəllimlər arasında qarşılıqlı əlaqə və şagirdlərdən optimal təlim nəticələrini əldə etmək üçün pedaqoqların təlim prosesində və istifadə olunan alətlərdə yeniliklər etməsi lazımdır. Sinifdə öyrənmə prosesi zamanı müəllimin şagirdlərdə tədris olunan mövzuya maraq oyatması, təhsilalanlarla qarşılıqlı əlaqəni təmin etməsi üçün istifadə olunan təlim modeli ilə sıx şəkildə bağlıdır (Sukardi., 2010). Stanford Universitetinin əməkdaşı Eisner keçirdiyi araşdırmaya əsasən belə qənaətə gəldi ki, çoxnövlü intellekt nəzəriyyəsi və ekzistensial bacarıqların formalaşdırılması təhsilalanların ehtiyaclarına cavab verən öyrənmə proseslərini prioritet hədəfə çevirən, hazırkı dövrdə təhsilin hədəfə aldığı məqsədlərə uyğundur. Çoxnövlü intellektlərin inkişaf etdirilməsi müxtəlif öyrənmə yanaşmalarından istifadə olunaraq

ümumtəhsil müəssisələrində öyrənmə prosesinə uğurla daxil edilə bilər (Griggs LA, et., 2009).

İnsanlar təkbaşına əldə edə bilmədikləri məqsədlərə nail olmaq üçün öz davranışlarını cəmiyyətin digər üzvləri ilə əlaqələndirirlər. Bu baxımdan da təhsil müəssisələri sağlam münasibətlər qurulması üçün hər bir fərdin şəxsi keyfiyyətlərinin formalaşdığı dövrdə fərdlərarası sağlam əlaqəni yaratmaqda əslində praktik məkan rolunu oynayır. Bunlardan bəziləri altruistik (və hətta birtərəfli), lakin unikal mübadilə formaları vasitəsilə ilə də idarə oluna bilər. Məsələn; Sosial öyrənmənin və həmrəyliyin milli uğur üçün əhəmiyyətini Polad Həşimov və döyüş yoldaşlarının şəhid olmasın misal göstərə bilərik. Beləliklə, milli həmrəylik və vətənpərvərlik mövzuları tarix fənninin tədrisində şagirdlərin sosial məsuliyyət və kollektiv dəyərlərinin formalaşmasına xidmət edən mühüm komponentlərdəndir. Bu dəyərlər həm tarixi hadisələrin öyrənilməsi, həm də təhsilalanlarda tarixi mövzular vasitəsi ilə sosial identikliyin inkişafı baxımından aktualdır. Ölkə başçısının 2019-cu ildə Soçi şəhərində Valday Diskusiyya klubunda erməni baş nazirinin "Qarabağ Ermənistanın bir hisəsidir və nöqtə." iddiasına qarşı qətiyyətli çıxışı və "Qarabağ Azərbaycandır və nida işarəsi!" (Azərbaycan tarixi 9-cu sinif dərslik., 2024) cavabı Azərbaycan tarixi fənnində milli identiklik, ərazi bütövlüyü və dövlətçilik ideyaları şagirdlərin vətəndaşlıq şüurunun formalaşmasına xidmət edən əsas mövzular sırasında olmasını göstərir. Mövzu tədris edilərkən müasir İKT vasitələrdən istifadə edərək ölkə başçısının çıxışı zamanı göstərdiyi yüksək intelekt və əzmkarlığı əyani şəkildə izləyərək, həm fənlarası (İnformatika – Rus dili - Azərbaycan tarixi), həm də fənnüstü inteqrasiya etməklə fəndaxili 9 və 11-ci siniflərdə mövzunu şaquli inteqrasiyasını da oluna bilər. Ərazi bütövlüyünə edilən qəsblərə qarşı aparılan mübarizəni Oxsford Universteti əməkdaşı avstraliyalı Tobi Ordun təbiri ilə "gələcəyimizi təmin etmək üçün biz indi hərəkət etməliyik: bu günün risklərini idarə etməliyik, sabahın risklərinin qarşısını almalıyıq və bir daha heç vaxt özümüz üçün belə risklər törətməyəcək cəmiyyətə çevrilməliyik" (Toby Ord., 2020) şəklində ifadə edə bilərik. Qadamer qeyd edir ki, həqiqətdə tarix bizə deyil, biz tarixin özünə aidik. Subyektivliyin mərkəzi əslində təhrif olunmuş güzgüdür. Məhz bu baxımdan hər bir fərdin qərəzləri – onun mühakimələrindən qat-qat artıq – onun var olmasının tarixi reallığın bildirir.

Ekzistensial bacarıqlar şagirdlərdə formalaşdırılarkən mövcud olan təlim və tərbiyə prosesləri maksimum dərəcədə onların maraq dairələri nəzərə alınaraq fərdiləşdirilməlidir və bunun üçün pedaqoji vasitələr əslində o qədər dəyişkəndir ki, təhsilalanların varlığının hazırki strukturu və ya onun tarixi mövzudan təhlil edərək seçdiyi dəyər qövsü ona təqdim edilən imkanlar vasitəsilə qorunur. Bunun üçün ilk növbədə təhsil müəssisəsində hər kəs nizam-intizamlı olmalıdır. Nizam-intizam əslində fərdin əldə etdiyi biliklərindən və özünün sahib olduğu məqsədlərindən başlayır; nizam-intizamlı olmaq üçün hər bir şəxs öz hərəkətlərini düzgün şəkildə istiqamətləndirməlidir (Osvaldo Murillo Aguilar., 2014).

Azərbaycan tarixi dərsliyindəki mövzuların baş verən proseslərə təsirinin təhlilinin nəticələrinə əsasən deyə bilərik ki, mövzuların tədrisi effektiv və praktik olub və əslində şagirdlərin yaradıcı düşünə bilmə bacarıqlarını inkişaf etdirərək ekistensial bacarıqları formalaşdıra bilər. Mövzunun çoxşaxəli intelekt inkişaf etdirilərək tədrisi öyrənmə zamanı diqqəti daha çox cəmləyərək şagirdlərin real həyatda optimal nəticələr göstərə bilməsinə, onların potensialının inkişafına yeni perspektiv imkanlar təqdim edə bilər, xüsusilə təhsilalanların real həyati situasiyalarda tənqidi, yaradıcı, yenilikçi və açıq fikirli olmasına yeni imkanlar açır. Şagirdlərin hər birinin tarixi mövzuların tədrisində peşəkar müəllimə ehtiyacı var, çünki təlim prosesində pedaqoqların istifadə etdikləri dərs metodlarının əldə edilən nəticələrdə rolu çox danılmazdır.

Metodologiya

Tədqiqat keyfiyyətli məzmun təhlili metoduna əsaslanır. Əsas yanaşma deduktiv təhlil prinsipləri əsasında seçilmişdir. İstifadə olunan mənbələr humanist psixologiya, ekzistensial fəlsəfə və müasir pedaqogikanın əsas əsərlərinə əsaslanır.

Nəticə

Şagirdyönümlü metodların rolu: Tarix dərslərində müəllimin fərdi yanaşması və dialoq şagirdlərin özünü kəşf etməsinə və məsuliyyət hissinin inkişafına xidmət edir.

Müəllimlərin təsiri: Müəllimlər yalnız bilik ötürən deyil, həm də şagirdlərdə mənlik konsepsiyasını və sosial məsuliyyəti formalaşdıran aparıcı fiqurlardır.

Çoxnövlü intellekt nəzəriyyəsi: Eisner-in yanaşmasına əsasən, fərqli öyrənmə tərzləri nəzərə alınaraq şagirdlərin maraq və qabiliyyətləri inkişaf etdirilə bilər.

Tarixi təhsil və identiklik: Azərbaycan tarixi dərslərində milli həmrəylik, vətənpərvərlik və sosial məsuliyyət kimi dəyərlərin aşılanması təhsilalanların ekzistensial bacarıqlarını gücləndirir.

Müəllimlərin pedaqoji fəaliyyətində ekzistensial düşünmə bacarıqlarının inkişafına yönəlik metodların tətbiqi şagirdlərin yalnız akademik deyil, həm də şəxsi və sosial inkişafına töhfə verir. Azərbaycan təhsil sistemində bu istiqamətdə aparılan islahatlar ekzistensial təhsilin geniş tətbiqi üçün əlverişli zəmin yaradır.

Təkliflər

Ədəbiyyatın təhlili göstərir ki, ekzistensial bacarıqların inkişafı yalnız pedaqoji metodlarla deyil, həm də sosial-mədəni mühitlə və müəllimlərin tədrisi ilə bağlıdır. Qadamerin "üfüqlərin birləşməsi" nəzəriyyəsi dialoqun və qarşılıqlı anlaşmanın təhsil prosesində əhəmiyyətini vurğulayır. Ordun (2020) "ekzistensial risklər" yanaşması isə insanlığın gələcəyi ilə bağlı məsuliyyət hissinin gənc nəsillərdə formalaşdırılmasının vacibliyini göstərir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün müəllimlər:

-dərsin tədrisində refleksiv tapşırıqlardan istifadə edilməli;

-müzakirələr təşkil edərək, şagirdlərə dəyərlər aşılanmalı;

-müəllim öz nümunəvi davranışı ilə təhsilalanlar model olmalı;

-mövzuların tədrisində tarixi filmlər və qısa hekayələr vasitəsilə mənəvi problemlərə toxunmalı;

-tədris zamanı şagirdlərə kiçik layihələr hazırlatmalıdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan tarixi 9-cu sinif dərslik. (2024). 200 s., s.183
2. Griggs LA, S Barney, JB Sederberg, E Collins, S Keith & L Iannaci. Varying Pedagogy to Address Student Multiple Intelligences (2009). Journal of the Sociology of Self-Knowledge 7 (1), 55-60.
3. Gutek, Gerald Lee., (1988.) Philosophical and ideological perspectives on education., 346
4. Sukardi. Educational Evaluation Principles and Operations., (2008). 12
5. Toby Ord ., (2020). The precipice existential risk and the future of humanity., 16.
6. Osvaldo Murillo Aguilar. (2014). AnÁlisis existencial del rol docente en el manejo de la disciplina en el aula Y el centro educativo. Revista, 15, 1-21.

DOİ: 10.32010/LORJ2277

TÜRK XALQLARININ MUSİQİSİNDƏ "KÜY" JANRININ TARİXİ, STRUKTURU VƏ TƏKAMÜLÜ

Səmayə Siruz MƏMMƏDOVA
Azərbaycan Milli Konservatoriyası
https://orcid.org/0009-0008-9395-6920
samaya.mamedova.33@gmail.com

Xülasə: Tədqiqat işimizdə "küy" anlayışının etimologiyası, təşəkkülü və türk xalqlarının musiqisindəki çoxşaxəli istifadəsi geniş şəkildə araşdırılır. Küy termini qədim türklərin musiqi təfəkküründə dərin qatlarında formalaşaraq təkcə melodik ifadə vasitəsi deyil, həm də milli yaddaşın səs daşıyıcısı kimi çıxış etmişdir. Mərkəzi Asiyada yaşayan qazax, qırğız, eləcə də Volqaboyu tatar və başqırd xalqlarının ənənəvi musiqi irsində bu janr geniş yayılmışdır. Qazaxlarda "küy", qırğızlarda "küü", tatarlarda "köy", başqırdlarda isə "küy" adlanan bu janr, hər xalqın özünəməxsus ifa üslubunda təcəssüm tapır. Məsələn, qazaxlarda dombıra, kıl-kobız, şan-kobız, sıbızğı, qırğızlarda komuz, temir ooz-komuz və çopo çoor alətləri bu musiqi janrının əsas daşıyıcıları kimi çıxış edir.
XI əsrdə Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərində "küy" termini ilk dəfə geniş mənada izah olunmuş və bu anlayışın geniş coğrafiyada tanındığı və yayıldığı qeyd edilmişdir. Tarixi mənbələr sübut edir ki, küy əsasən Şimal türklərinin musiqisində həm üslub, həm də janr göstəricisi kimi günümüzə qədər yaşayır. Ərəb-fars mədəniyyətinin təsiri altında qalan türklər isə bu termini tədricən "hava", "məqam", "makom" və "makam" anlayışları ilə əvəz etmişlər. XX əsrdən etibarən isə küy janrı yeni formalarla, xüsusilə simfonik küy kimi sintez edilmişdir. Qazax və başqırd bəstəkarlarının yaradıcılığında bu sintez milli ruhun simfonik musiqiyə inteqrasiyası baxımından mühüm mərhələ hesab olunur. Məqalədə həmçinin müxtəlif türk xalqlarında küyün semantik çalarları, janr təkamülü və müasir dövrdə onun inkişaf istiqamətləri elmi əsaslarla, müxtəlif tədqiqat metodları ilə təhlil edilir.
Bu baxımdan küy janrının öyrənilməsi təkcə musiqi baxımından deyil, həm də mədəni antropologiya və etnomusiqişünaslıq kontekstində mühüm əhəmiyyət daşıyır. Küy yalnız melodik bir hadisə deyil, həm də xalqın düşüncə tərzini, mənəvi dünyasını və tarixi yaddaşını ifadə edən bədii-fəlsəfi hadisədir. Onun strukturu, intonasiyası və ritmik quruluşu vasitəsilə türk xalqlarının emosional dünyası, təbiətə münasibəti və qəhrəmanlıq ruhu musiqi dilində canlanır. Bu mənada küy həm musiqi mətninin, həm də mədəni kimliyin daşıyıcısı kimi çıxış edir. Müasir dövrdə küy irsinin toplanması, sistemləşdirilməsi və tədris olunması bu janrın gələcək nəsillərə ötürülməsi baxımından mühüm elmi-praktik əhəmiyyət kəsb edir.
Açar sözləri: Türk xalqları, ənənəvi musiqi, küy, küü, ozon köy, kıska-küy, simfonik küy.

THE HISTORY, STRUCTURE, AND EVOLUTION OF THE "KUY" GENRE IN THE MUSIC OF TURKIC PEOPLES

Samaya Siruz MAMMADOVA
Azerbaijan National Conservatory
https://orcid.org/0009-0008-9395-6920
samaya.mamedova.33@gmail.com

Abstract: Our research thoroughly examines the etymology, formation, and multifaceted use of the concept of "kuy" in the music of Turkic peoples. The term kuy emerged from the deep layers of ancient Turkic musical thought, functioning not only as a means of melodic expression but also as a sound carrier of national memory. This genre has been widely prevalent in the traditional musical heritage of Central Asian Kazakhs and Kyrgyz, as well as Volga-region Tatars and Bashkirs. Known as "kuy" among Kazakhs and Bashkirs, "kuu" among Kyrgyz, and "koy" among Tatars, the genre is manifested in each culture's unique performance style. For instance, instruments such as the dombira, kyl-kobyz, shan-kobyz, and sybyzgy in Kazakh music, and the komuz, temir ooz-komuz, and chopo choor in Kyrgyz music are the primary carriers of this musical form.
The term kuy was first explained in a broad sense in the 11th century by Mahmud al-Kashgari in his work "Divanü Lüğat-it-Türk", where he noted its widespread recognition across a vast geographical area. Historical sources confirm that kuy has survived to the present day as both a stylistic and genre indicator, especially in the music of Northern Turks. However, among Turks influenced by Arab-Persian culture, the term was gradually replaced by concepts like hava, maqam, and makam.
From the 20th century onward, the kuy genre began to evolve into new forms, particularly through the synthesis with symphonic music. In the works of Kazakh and Bashkir composers, this synthesis marked a significant stage in the

integration of national spirit into symphonic expression. The article also explores the semantic nuances of kuy among different Turkic peoples, its genre evolution, and current directions of development using scientific methodologies.
Thus, studying the kuy genre is not only important from a musical standpoint but also holds substantial value in the context of cultural anthropology and ethnomusicology. Kuy is not merely a melodic phenomenon—it is a poetic-philosophical expression of a people's worldview, spiritual realm, and historical memory. Through its structure, intonation, and rhythmic patterns, kuy brings to life the emotional world of Turkic peoples, their relationship with nature, and their heroic spirit through the language of music. In this sense, kuy serves as both a musical text and a vessel of cultural identity. Today, the collection, systematization, and teaching of kuy heritage is of great scientific and practical significance in passing this genre on to future generations.
Key words: Turkic people**,** traditional music, kuy, kuu, kiska kuy, ozon kuy, simfonic kuy.

ИСТОРИЯ, СТРУКТУРА И ЭВОЛЮЦИЯ ЖАНРА "КЮЙ" В МУЗЫКЕ ТЮРКСКИХ НАРОДОВ

Самая Сируз МАМЕДОВА
Азербайджанская Национальная Консерватория
https://orcid.org/0009-0008-9395-6920
samaya.mamedova.33@gmail.com

Резюме: В нашем исследовании всесторонне рассматриваются этимология, формирование и многоаспектное использование понятия "кюй" в музыке тюркских народов. Термин "кюй" сформировался в глубинных слоях музыкального мышления древних тюрков, но не только средством мелодического выражения и звуковым носителем национальной памяти. Этот жанр получил широкое распространение в традиционном музыкальном наследии казахов и кыргызов Центральной Азии, а также татар и башкир поволжья. У казахов он известен как "кюй", у кыргызов — "күү", у татар — "кой", у башкир — также "кюй", причём в каждой культуре он находит свое уникальное воплощение в стиле исполнения.
Так, основными инструментами, передающими этот жанр, являются: у казахов — домбра, кыл-кобыз, шан-кобыз, сыбызгы; у кыргызов — комуз, темир ооз-комуз и чопо чоор. Термин "кюй" впервые получил широкое толкование в XI веке в труде Махмуда Кашгари "Дивану лугат ат-турк", где отмечается его распространённость на обширной географической территории. Исторические источники подтверждают, что кюй сохранился до наших дней как жанровой и стилистический признак в музыке северных тюрков.
Под влиянием арабо-персидской культуры у других тюркских народов это понятие было постепенно заменено терминами "хава", "макам", "маком". С XX века жанр кюй начал синтезироваться с новыми формами, особенно в виде симфонического кюя. В творчестве казахских и башкирских композиторов этот синтез стал важным этапом интеграции национального духа в симфоническую музыку.
В статье также научно анализируются семантические оттенки кюя у разных тюркских народов, его жанровая эволюция и направления развития в современную эпоху с использованием различных исследовательских методов. Изучение жанра кюй представляет важность не только с музыкальной точки зрения, но и в контексте культурной антропологии и этномузыкологии.
Кюй — это не просто мелодическое явление, но и художественно-философская форма выражения мировоззрения, духовного мира и исторической памяти народа. Через его структуру, интонацию и ритмическое строение в музыкальном языке оживает эмоциональный мир тюрков, их отношение к природе и героический дух. В этом смысле кюй выступает как носитель не только музыкального текста, но и культурной идентичности.
В современную эпоху сбор, систематизация и преподавание наследия кюя имеют важное научно-практическое значение для передачи этого жанра будущим поколениям.
Ключевые слова: Тюркские народы, традиционная музыка, кюй, куу, озон кой, кыска кюй, симфонический-кюй

Giriş

Türk xalqlarının musiqisində ənənəvi musiqi janrları içərisində qədim tarixə malik olan küy əsas yerlərdən birini tutur. Küy qədim instrumental və vokal musiqidir və bu musiqi janrına biz bir çox türk xalqlarının musiqisində rast gəlirik. Məsələn, qırğız, qazax, türkmən, tatar, başqırd və başqaları**.** Küyün instrumental forması daha çox qırğız və qazax xalqlarında yayılmışdırsa, vokal küylərə daha çox tatar və başqırd musiqisində müşahidə olunur.

İlk dəfə "küy" sözünə XI əsrdə yaşayıb-yaratmış görkəmli türk alimlərindən biri olan, etnoqraf, filoloq Mahmud Kaşğarinin "Divani Lüğət-it-Türk" lüğətində rast gəlinir. Əsərdə kuk (və ya kük) şəklində verilmiş və şeir ölçüsü, söz (zarafat), hava-melodiya, səma, göy rəngi kimi mənaları qeyd olunjuşdur. Lüğətdə həmçinin kuy (küy) sözü quzu,

qoyun sürüsü mənasından savayı, dərənin dibi, düz yer kimi də işlədilib (Mahmud Kaşğari, 2006)

Mahirə Hüseynovanın "Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərinin qrammatik xüsusiyyətləri" adlı elmi tədqiqatında "Karşılatşırmalı türk lehçeleri sözlügü" lüğətinə istinadən belə fikrə də rast gəlirik ki, "çağdaş Türkiyə türkcəsində qədim "kök" sözü "gö", başqırd türkcəsində "kük", tatar dilində də "kük", türkmən türkcəsində "göy" kimi bir çox fonetik variantlarda çıxış edir". (Hüseynova M, 2022)

Türk alimi Feza Tansuğ bu sözü qədim türk sözü olub, xoş, sakitləşdirici, heyranedici, sehrli "səs" kimi şərhini vermiş və onun "kükrəmək", "köks" mənalarını daşıdığını və sonrakı dövrlərdə "musiqi" sözü ilə əvəz olunduğunu bildirmişdir. Lakin bəzi alimlərin fikrincə isə "küy" (tsüy, daha sonra khoğ) sözü çin dilindən qəbul olunmuş və mahnı mənasında çıxış etmişdir. (Hüseynova L, 2023)

Saule Uteqaliyeva fundamental "Звуковой мир музыки тюрских народов: теория, история, практика (на материале инструментальных традиций Центральной Азии)" ("Türk xalqlarının musiqisində səs dünyası: teoriya, tarix və təcrübə (Mərkəzi Asiyanın ifaçılıq instrumental ənənələri əsasında)") adlı tədqiqatında bu sözün çoxsaylı mənalarını ortaya qoyur: "Qazax və özbəklərdə mövqe, vəziyyət; musiqi, qazax və azərbaycanlılarda kökləmək; tatar, başqırd və özbəklərdə melodiya, hava, motiv, mahnı; qazax və qırğızlarda instrumental pyes, xalq musiqisinin növü və janrı". (Утегалиева С, 2013)

Rusiyanın tərkibində yerləşən Altay, Tıva və Şor Türkləri küy yerinə "kay" terminindən istifadə edirlər. Kay termininin başqa mənaları da var. Kay içtən gələn, cingiltili səsdir. Dastan söyləyən ozanlar, belə bir boğuq səslə çalıb söyləyərmişlər. Kaylama: Dastanları, boğazdan gələn mırıltılı bir səslə çalıb demək. Kaylatma: Melodiya ilə dastanı mahnı kimi oxumaq və başa düşülməyən bir ton. (Solakoğlu S, 2011) S. Utqaliyeva kay sözünün mənasını altayların qəhrəmani eposu kimi izah edir. (Утегалиева С, 2013)

Azərbaycan alimi Ramiz Zöhrabov isə belə qənaətə gəlmişdir: "Şərq professional musiqisində şifahi ənənəyə əsaslanan mərkəzi janr müxtəlif regionlarda yaşayan xalqlarda fərqli ad daşıyır. Ərəb və türklərdə makam, azərbaycanlılarda muğam, tacik və özbəklərdə makom, uyğurlarda mukam, iranlılarda dəstgah, hindlilərdə raqa, yaponlarda qaqaku, indoneziyalılarda patet, qazaxlarda küy, qırğızlarda kü və s. adlanır" (Zöhrabov, 2013).

Küy ilk növbədə Mərkəzi Asiya və Volqaboyu türklərinin musiqisində həm üslub, həm də janr kimi öz əhəmiyyətini qoruyub saxlamışdır. Daha çox ərəb-fars təsirinə məruz qalmış türk xalqları isə bu anlayışı hava, məqam, makom, makam anlayışları ilə əvəz etmişdir. Orta mövqedə duran özbək musiqisində isə küy sözü musiqi termini kimi işlədilir və melodiya, hava mənalarını ifadə edir.

Aşağıdakı cədvəldə küyün müxtəlif xalqlarda daşıdığı mənaları verilmişdir:

Küy	uyğurlar	Melodiya, mahnı, vokal-instrumental janr
Küy	özbəklər	Melodiya, mahnı, instrumental əsər, hansısa makomun melodiyası
Küü (kүү) Kyu	qırğızlar	Melodiya, instrumental janr
Küy	qazaxlar	Melodiya, instrumental janr
Küy	Astraxan tatarları	Melodiya, instrumental janr
Küü	altaylar	Melodiya, vokal-instrumental janr
Xyuq	tıvalılar	İnstrumental, vokal-instrumental janr
Küy	başqırdlar	Melodiya, mahnı, vokal musiqi, instrumental musiqi, vokal-instrumental musiqi, rəqs janrı
Köy (көй)	tatarlar	Melodiya, mahnı, vokal musiqi, instrumental musiqi, vokal-instrumental musiqi, rəqs janrı
Küy	Qaraçaylılar (Qaraçay-Çərkəz) və balkarlar	Vokal janrı, ağı (qəmgin mahnı)
Küy	qumuqlar	Melodiya, instrumental janr
türkü-türkü küyi	Krım tatarları	Vokal və vokal-instrumental janr
Türkü-türkü küyi	Türkiyə türkləri	Vokal və vokal-instrumental janr
Türkü-türkü küyi	İraq türkləri	Vokal və vokal instrumental janr
Küy, səs-küy	Azərbaycanlılar	Bəzi bölgələrdə musiqi, çoxlu səs

Tədqiqatçılara əsasən, küyün və qopuz, kıl-kobız alətinin yaradıcısı Dədə Qorqud olub və bu da onu sübut edir ki, türk dünyasının musiqi mədəniyyəti xeyli qədimdir. Kıl-kobız alətinə əsər bəstələyən məhz Qorqud atanın özü olub. Alətin hazırlanmasında şam ağacından, birhürgüclü dəvə dərisindən və at tükündən istifadə etmişdir. Onun bəstələdiyi küylər bu gün də qazax xalq musiqisində yaşamaqdadır. Xalq arasında Dədə Qorqudun yaratdığı küylər "Qorqud küyü", "Qorqud makamı", "Qorqud musiqisi" və s. kimi adlarla tanınır. Dədə Qorqudun küyləri özünəməxsus formaya, quruluşa malikdir. Onların forması və melodik quruluşu bir-birinə yaxındır, melodiya əsasən təkrarlanan şəkildə inkişaf etdirilir. Küylər sakit, mülayim səslənir və bir növ ağıya bənzəyir. Qorqudun hər bir küylərində fəlsəfi fikirlər, düşüncələr, ictimai məzmunlu fikirlər yer almaqdadır. Özünəməxsus xüsusiyyətlərdən biri onun improvizasiya olunaraq ifa olunmasıdır. Bu, ifaçının həm emosional, həm də yaradıcı potensialını ön plana çıxarır. Dədə Qorqudun yaratdığı küylərdən "Akku" ("Qu quşu"), "Jelmaya" ("Dəvə"), "Tağrı Tapa" ("Xallı dana"), "Auppay", "Başpay" və s. Küylər türk mifoloji düşüncəsi və mənəvi irsi ilə sıx bağlıdır.

Qorqud ata küylərində improvizasiyalıq və şifahilik əsas rol oynayır ki, bu da küylərin rondal və variativ təbiətini şərtləndirir. Küylərin funksional cəhətdən ayrı-ayrı hissələrə bölmək çətin olur daha doğrusu, bu qeyri-mümkündür. Melodik inkişaf dalğavari baş verir. Onlar melodik hissələrin fraqmentlərinin təkrarından ibarət olsa da, ritm və faktura cəhətdən fərqlidirlər. Qorqud ata küylərinin dövrümüzə qədər gəlib çatmasının əsas səbəblərindən biri də əlbəttə ki, onun ənənələrinin davam etdirilməsidir. Ozan Ketbuğa (XIII), Ozan Sıpıra (XIV), Kaztuqan (XV),Ozan Jiembet (XVII), Ozan Jiembet (XVII), Ozan Ümbetey (XVIII), Ozan Bukar (XVIII), Qoçaq Janak (XIX), Küyşi Ixlas (XIX-XX) və başqalarını qeyd etmək olar.

Vurğuladığımız kimi, küy qazax, qırğız, tatar, başqırd və başqa xalqlarda mövcuddur. Qazaxlarda "küy", qırğızlarda isə "küü" adlanan bu janr, sözügedən submədəniyyətlərin musiqi təfəkküründə istrumental xarakterlidir.

Qazaxlarda küy

Qazax musiqi folklorunda intrumental yaradıcılıq mahnı yaradıcılığı kimi zəngindir. Qədim milli instrumental musiqi köçəri həyat sürən qaza xalqının həyatında mühüm rol öynayır. Onlar instrumental musiqidən mərasimlərdə, bayramlarda, o cümlədən gündəlik həyatlarında istifadə edirlər. Qazax xalq musiqisində geniş yayılmış instrumental musiqi küydür. Küy ifaçısı "küyşi" adlandırılır. Onlar professional, texniki imkanları geniş, peşəkar ifaçılardır. Bir çox mərasimlərdə onların arasında bir növ yarışma, duel xarakterli ifalar təşkil olunur ki, bu da "tartıs" adlanır. Tartıs zamanı küyşiyə bir melodiya təqdim olunur və onu bir dəfə eşitdikdən sonra ifa etməli və ya həmin melodiya əsasında yenisini bəstələməlidir. Hansı küyşi daha çox bilsə və rəqibindən çox ifa edirsə o da qalib seçilir**.** Dombıra aləti ilə yanaşı kıl-kobız və nəfəsli alət olan sıbızğıda da ifa etməyi bacarırlar. Küy ağıları kıl-kobız və şan-kobızda, çobanların yaratdığı küylər isə sıbızğıda ifa olunur. Hər küyün individual hekayəsi var. Küyşilər əsasən auditoriya qarşısında ifa etməmişdən əvvəl ifa etdiyi küyün mənşəyi, məzmunu və yaranma tarixi haqqında məlumat verir, daha sonra ifaya keçid alırlar. Sözügedən təqdimat dinləyicinin əsəri dərindən anlamasına və hiss etməsinə imkan yaradır. Onu da qeyd etmək lazımdır ki, onların arasında bir növ yarışma, duel xarakterli ifalar da təşkil olunur və "tartıs" adlanır. Tartıs zamanı küyşiyə bir melodiya təqdim olunur və onu bir dəfə eşitdikdən sonra ifa etməli və ya həmin melodiya əsasında yenisini bəstələməlidir. Hansı küyşi daha çox bilsə və rəqibindən çox ifa edirsə o da qalib seçilir. Bir çox küyşilər XII əsrdən başlayaraq günümüzə qədər qazax musiqisində dərin iz qoyub. Onlar tərəfindən yaradılan küylər bu gün qazax xalq musiqi yaradıcılığının klassikləşmiş nümunələridir. Bunlardan Ketbuqa (XII əsr), Sıpıra jırau (XIV əsr), Katuzqan (XV əsr), Bayjigit (XVII əsr) o cümlədən Abıl (1820-1892), Dauletkerey (1821-1875), Kurmanqazı (1818-1889), Toka (1830-1904), Seytek (1861-1939) və başqa küyşilərin adın çəkmək olar. Adları sadalanan küyşilərin yaradıcılığı qazax musiqi irsində küy ənənəsinin formalaşması prosesində mühüm rol oynayıb.

Qazax musiqi tədqiqatçıların fikrinə əsasən küyün formalaşması bilavasitə qazax dombıra alətinin quruluşu və texniki imkanlar ilə bağlıdır. Qədim zamanlardan dombıra quruluşuna görə iki qrupa ayrılır: Tokpe Qərbi Qazaxıstan, şertpe isə Şərqi, Cənubi və Mərkəzi Qazaxıstana aiddir. Dombıralar quruluşuna, ölçüsünə görə bir-birlərindən fərqlənirlər. Məsələn, tokpe üslubunda küylər daha çox ritmik və qısa məzmunlu, şertpe isə lirik, emosional ifadəsi güclü küylərlə fərqlənir. Qeyd etmək lazımdır ki, dombıra küyü ənənəsində ifa üslubu və ifa texnikasına görə 4 məktəbə bölünürlər: Karatau, Jetisu, Qərbi, Şərqi. Hər bir məktəb individual ifa texnikası, üslubu və musiqi dilinə malikdir. Məktəblərin hər birinin fəaliyyəti küy janrının zənginləşməsinə və inkişafına böyük töhfələr vermişdir.

Qazax xalq musiqisində tarixi şəxslərə, tarixi hadisələrə o cümlədən sevgiyə, mifoloji qəhrəmanlara həsr edilmiş küylər var. Məsələn,

“Aktaban”, “Qu Quşu” (“Аққу”), Makedoniyalı İsgəndərə həsr olunmuş “Двурогий Александр”, “Bülbül”, “Dəvə” (“Бозінген”), “Qəhvəyi qaz” (“Қоңыр қаз”) və s. Həmçinin “Toy bastor” adlı küy bayram açılışında, “Estrtu” isə ölüm haqqında xəbər gələn zaman ifa olunur. Sadalanan küylərin ifası zamanı adı çəkilən bir neçə canlıların səsinin imitasiyasını duymaq olur. Misal olaraq “Qu Quşu”nda qanadlarının çırpması forşlaq vasitəsilə əks etdirilir. Ümumiyyətlə küylər kifayət qədər müxtəlifdir və hər bir küy xalqın tarixi yaddaşını, emosional təcrübəsini və estetik baxışlarını özündə əks etdirən bədii ifadə vasitədir.

Qırğızlarda küü (küy)

Qırğız xalq musiqisi qədim və zəngin tarixə malikdir. Qırğız xalq musiqisində “küü” sözü melodiya və instrumental əsər mənasında istifadə olunur. Küü əsasən qırğız xalq çalğı aləti olan komuz və yaylı alət kıl-kıyak da çalınır. Eləcə də, nəfəs alətləri surnay, çopo çoor, temir-komuz, jıqaç ooz komuz alətlərində də ifa olunur. Qırğız küülərindən “Botoy”, “Şınqırama”, “Kerbez” və başqalarını qeyd etmək olar. Küüləri ifa etməmişdən öncə onun məzmunu təqdim olunur, daha sonra ifa edilir və qazax küylərində olduğu kimi. Lakin bəzi küülərdə danışıq müşayiət edir bir növ reçitativ musiqi formasına yaxındır. Bununla da, özünəməxsus ədəbi kompozisiya yaranır.

Qazax və qırğız xalqlarının instrumental musiqi yaradıcılığına nəzər saldıqda, bu ənənələrin bir sıra ortaq küü, küy formalarına və musiqi-mətn motivlərinə malik olduğu müşahidə olunur: Məsələn, “Kerbez”, “Kertoloqoo”, “Bülbül”, “Kambarxan” və başqaları. Qeyd olunan küylər həm dombıra, həm də komuz ifaçılıq ənənəsində mövcuddur. Onlar həm melodik bənzərlik, həm də tarixi-mifik məzmun baxımından qazax küyləri ilə ortaq cəhətlər daşıyır.

Bunlardan biri də “Kambarxan” küyüdür. “Kambarxan” sözü iki hissədən ibarətdir. Küylərin mahir ifaçısı, şertpe məktəbinin ustası Bazaralı Muptekeyev qeyd etmişdir ki, “kam” sözünün mənalarından biri də məhz küydür. Digər mənası isə “şaman”dır. “Xan” sözü isə mahir ifaçıya, musiqiçiyə deyilir. Lakin qədim mifologiyaya əsasən Kambar yağış hamisi olub və o, Mərkəzi Asiyada mifoloji obrazdır. Məsələn, “Kambarxan”nın hər iki xalqda girişi marşvaridir və oxşarlıqlar aydın duyulur. Amma, ritmik baxımından fərqlənirlər. Qazax versiyasında küy daha çox lirizm və ahəng üzərində qurulursa, qırğız variantında daha dinamik və ritmik vurğulara əsaslanır. Bu amil “Kambarxan” küyünün qırğız musiqi yaradıcılığında geniş yayılmasına şərait yaratmış və nəticə etibarilə bu küü xalq arasında daha böyük populyarlıq qazanmışdır.

Küy anlayışına biz tatar və başqırd xalqlarında da rast gəlirik. Tatar və başqırd xalq musiqisi bir-birinə yaxındır. Hər ikisində küy həm vokal, həm də instrumental musiqi deməkdir. Ancaq bəzi musiqi üslubları vardır ki, onlar bir-birlərindən fərqlənirlər.

Tatarlarda köy (küy)

Tatarlarda bu terminə “köy” deyilir. Tatar xalq musiqisində müxtəlif köylər var. Ozın köy (uzun hava), kıska köy (qısa hava), auıl köy (kənd havaları), uyen köylərdir (oyun havaları). Ozın köyləri “Monlı köy”də adlandırırlar. Mon tatar dilində ifadəlilik deməkdir.

Auıl köylər gündəlik həyatda baş verənlərlə bağlıdır. Buraya əsasən kənd havaları aiddir. Auıl köylərin növü də mövcuddur və bu da Uram köy adlanır. “Uram” adlı küylər adətən xor şəklində, unison ifa prinsipi əsasında təqdim olunur. İfa prosesində əvvəlcə bir iştirakçı musiqiyə başlayır, ardınca digər ifaçılar ona qoşularaq melodiyanı birgə şəkildə davam etdirirlər.

Tatar xalq musiqisində kıska köylər müstəsna yer tutur və lirik, yumorlu, satirik və s. xüsusiyyətlərilə səciyyələnir. Kıska köylər qədim zamanlardan mövcud olsa da, XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən formalaşmağa başlayıb. Köylərə rus və digər xalqlarının musiqisi təsir etmişdir.

Başqırdlarda küy

Başqırd xalq musiqisində isə küy termini ilə ifadə olunur. Əsasən dörd musiqi üslubu formalaşmışdır: Xamak-küy, kıska-küy, xalmak-küy və ozon-küy. Bu xalq termini çoxmənalıdır. Bəzi hallarda janr mənasında, digər hallarda isə musiqi növü, melodiya və müvafiq üslubuna görə, mahnıların musiqili və poetik bəndinin quruluş formasına, habelə ifa tərzinə görə müxtəlif mənalar daşıya bilir.

1. Xamak-küy sadə və reçitativ-deklamasiyalı küydür. Misranın ritmik ifadəliliyini vurğulamaq üçün melodiya köməkçi rolun oynayır.
2. Kıska-küy sürətli tempdə ifa olunur. Ritm baxımından dəqiq, melodiya isə sadə olur. Bu mahnılar məzmun etibarilə sevinc, xoş əhval-ruhiyyə bəxş edir.
3. Xalmak-küy (sakit nəğmə) uzun və qısa üslubların arasında aralıq bir mövqe tutur. Bu üslubda melodiyaların nümunələrin sayı çox deyil. Onlar asta, mülayim tempdə səslənir. Bir çox musiqişünaslar xalmak-küylərini yarı uzun havalar adlandırırlar.
4. Başqırd xalq musiqisində çətin və özünəməxsus bir üslublu melodiya isə ozon-küydür. Ozon-küylər dedikdə buraya instrumental melodiyalar da aid edilir.
5. Başqırd mahnıları arasında çox olmayan nümunələr də var ki, ozon-küy və kıska-küy

üslubunu birləşdirir. Belə bir birləşmədə xalq musiqisinin iki əsas məzmun növünü birləşdirmək istəyi formalaşır. (məs: düşüncə təfəkkürü ilə hərəkətli üslub qovuşur, düşüncə və əyləncə tərzləri bir araya gəlir.) Belə formanı xalq kuşka-küy adlandırır. Nümunə kimi "Yeren-kaşka", "Elmalek", "Kaqarman-kanton" və başqalarınnı misal göstərmək olar.

6. Onu da vurğulamaq lazımdır ki, tatarlarda olduğu kimi başqırd musiqi folklorunda auıl-küylər də var və kıska-küylərdən fərqlənirlər. Çünki bu küylərdə əsasən kənd həyatında baş verən hadisələr təcəssüm olunur.

Küy janrının simfonik təfəkkürlə uzlaşması prosesinin formalaşması XX əsrin 20-ci illərinin ortalarından 40-cı illərin əvvəlinə qədər davam etmişdir. Bəstəkarlardan E.Q.Brusilovski (1905-1981), A.V.Zatayeviç (1863-1936), Ə.K.Jubanov və başqalarını misal göstərmək olar. Adları çəkilən bəstəkarların yaradıcılığına nəzər salsaq, burada qazax xalq musiqisinin Avropa janr və formaları ilə uzlaşdırılması müşahidə edilir. Opera, simfoniya, kamera-instrumental əsərlər, fortepiano pyesləri və s. janrlarla inteqrasiyası baş verir. Məsələn, 1937-ci ildə ilk dəfə B.Yerzakoviç Dauletkereyin "Jelderme" ("Dəvə") küyünü fortepiano üçün aranjeman etmişdir və həmin küy 1948-ci ildə bəstəkarın simli kvartetinin orta hissəsində səsləndirilib.

Qazaxıstanın görkəmli bəstəkarı E.Brusilovski də öz yaradıcılığında küylərə müraciət edib. Qeyd etmək lazımdır ki, bəstəkar Qazaxıstan musiqisində simfoniya janrının yaradıcısı olub. E.Brusilovski "Sarı Arka" ("Qızıl Addım" 1944) simfonik suitasının birinci hissəsində "Aksak kulan" küyünə, daha sonra ikinci Skertso hissəsində Kurmanqazının "Balbıraun" küyünə müraciət edib. "Balbıraun" küyünü bəstəkar VI simfoniyasının final hissəsində də səsləndirmişdir. VI simfoniyanı bəstəkar məşhur qazax küyşisi olan Kurmanqazıya həsr edib və əsərin adı da məhz "Kurmanqazı" adlanır. Əsər küy janrının milli intonasiyalarla simfonik janrda ifa olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, XX əsr qazax musiqi yaradıcılığı üçün çiçəklənmə dövrü hesab olunur. Çünki bu dövrdə ilk dəfə olaraq yeni simfonik küy yaranmışdır. Simfonik küy qazax bəstəkarların yaradıcılığında eləcə də formalaşmasında əhəmiyyətli rol oynayıb. Simfonik küyün banisi Yerkeqali Raxmadiyevdir (1932-2013). O, simfonik küyün ilk nümunələrini yaratmaqla qazax simfonik musiqisinin yeni mərhələsini başlatmışdır. Bunlardan "Dayrabay" (1961), "Serper" (1968), "Kudaşa duman" (1973), "Orıtpa" (1977) əsərlərinin adın çəkmək olar.

Y.Raxmadiyevin "Dayrabay" simfonik küyü XIX əsrin II yarısında yaşayıb-yaratmış küyşi Dayrabaya həsr edib. Küy xoş, şən, sevinc əhval-ruhiyyə ilə seçilir və qazax xalq şənlik ruhunu əks edir. Təsadüfi deyil ki, bəstəkar ilk redaksiyasında bu əsəri "Bayram" (Мерекелі) adında qeyd etmişdir. Dayrabay küyü üç registr bölgüsünə malikdir: bas buın (birinci hissə), orta buın (orta hissə) və saqa (kulminasiya). Orijinal küylə simfonik küyü bir-birinə tematik cəhətdən bağlayan hissə bas-buındır. Bas buın refren rolun oynayır və mövzu inkişaf edərək dombıranın orta registrində yəni orta buında daha sonra kulminasiya nöqtəsi hesab olunan saqada səslənir. Saqada səslənən mövzu tədricən orta buına, daha sonra bas buına düşərək nəticələnir. Dayrabay simfonik küyü üçqat tərkibli simfonik orkestr (simfonik orkestrda hər nəfəsli alətin həcminə və səslənməsinə görə fərqlənən üç növündən istifadə olunur. Məsələn, üç fleyta, üç klarnet və s.) üçün yazılmışdır. Əsərdə bəstəkarın əsaslandığı ənənəvi küyün hissələrini görmürük (bas buın, orta buın və saqa). Simfonik küy sadə üçhissəli reprizli formada yazılıb. Dayrabay küyü ilə bu əsərin oxşar cəhəti odur ki, burada orijinal küyün xüsusiyyətlərindən biri olan sürətli temp və coşqulu əhval-ruhiyyə qorunub saxlanılmışdır.

Qazax ənənəvi musiqisində məşhur küyşilər tərəfindən yaradılan küylər böyük, əhəmiyyətli yer tutur. Küylərdə təkcə xalqın köçəri həyat tərzi deyil, eyni zamanda onun həyat və ölüm haqqında fəlsəfi düşüncələri əks olunub. XX əsrdə isə küy simfonik musiqiyə də nüfuz etmiş və bir növ yeni həyata qədəm qoyub. Bu janr tədricən bəstəkarların yaradıcılığında formalaşaraq inkişaf etmiş, simfonik küy kimi populyarlıq qazanmışdır. Simfonik küyə təkcə qazax bəstəkarları deyil, digər xalqa mənsub bəstəkarlar da müraciət edib. Bu baxımdan başqırd bəstəkarı Azamat Xasaşin yaradıcılığı xüsusi qeyd olunmalıdır. O, simfonik küy üslubunda əsər bəstələyən ilk başqırd bəstəkarlarındandır. Bəstəkarın dördhissəli "Altın orda" simfonik küyü bu üslubda yaradılan əhəmiyyətli nümunələrdən biri hesab olunur.

Qazaxıstanda küy musiqisi yeni nəslin küyşiləri tərəfindən uğurla yaşadılır. Qazax bəstəkar yaradıcılığında küy janrı layiqincə təbliğ olunur. Simfonik küy janrında yüni münunələr yaradılır. Hazırda simfonik küy Mərkəzi Asiyada özünəməxsus orkestr musiqisi janrına çevrilib. Həmçinin bu janr Qazaxıstan musiqi yaradıcılılğının inkişafında, formalaşmasında böyük əhəmiyyət daşıyır.

Nəticə

Küy qədim musiqidir və onun yaranması ilə bağlı çoxlu sayda rəvayətlər, əfsanələr, iddialar mövcuddur. Küyün etimologiyası ilə bağlı müxtəlif elmi yanaşmalar mövcud olsa da, onun musiqi mənasında işlənməsi, bu terminə bir çox türk xalqlarının ənənəvi instrumental musiqi nümunələrinin adı kimi rast gəlinməsi ilə təsdiqlənir.

Küy musiqisi həm janr, həm də üslub səviyyəsi daşıyır. Ehtimal etmək olar ki, uzun-kırık musiqi üslubları ilk dəfə özünü məhz arxaik küylərdə göstərmiş, uzun küy və kıska küy formasında təzahür etmişdir.

Türk xalqları üçün küy təkcə musiqi forması deyil, eyni zamanda bu xalqların tarixi yaddaşı**,** mifik dünyagörüşü **və** estetik duyumu ilə sıx bağlı olan bir ifadə vasitəsidir. Mahmud Kaşğaridən başlayaraq müasir tədqiqatçılara qədər bu terminə verilən müxtəlif izahlar, onun dil, məna və janr baxımından çoxqatlı semantik mənaya malik olduğunu bir daha təsdiqləyir. Küy sözünü bir çox türk xalqlarında musiqi anlamına gəlməsi də onun ilkin və təməl musiqi anlayışı kimi ümumi türk mədəniyyətindəki mövqeyini möhkəmləndirir.

ƏDƏBİYYAT SİYAHISI:

Mahmud Kaşğari. (2006). "Divanü lüğat-it-türk". Dörd cilddə. III cild, 400.

Hüseynova L.Ş. (2023). Türk xalqlarının musiqisi, 164-180.

Hüseynova M.N. (2022). Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərinin qrammatik xüsusiyyətləri.

Səfərova Z.Y. (1999). Dədə Qorqudun musiqi dünyası // "Kitabi-Dədə Qorqud" (Məqalələr toplusu), 151-159.

Zöhrabov R.F. (2013). Azərbaycan muğamları, 46-50.

Onat H. (2021). Geleneksel kazak müziği icraları ve performans özelliklerinin performans teori açısından incelenmesi, 111-156

Solakoğlu S. (2011). Türklerde küy sanatı ve kazak türklerinin küy geleneği, 90-253.

Утегалиева С. (2013). Звуковой мир музыки тюрских народов: теория, история, практика (на материале инструментальных традиций Центральной Азии), 411-500.

DOİ: 10.32010/BHTB1263

İRAQ TÜRKMAN MUSİQİ İRSİNİN ETNİK İDENTİTETİN FORMALAŞMASINDA FUNKSİONAL ROLU

Zeynəb İlqar BAĞIR
Azərbaycan Milli Konservatoriyası
https://orcid.org/ 0009-0009-5980-0137
zeynebagir@mail.ru

Xülasə: Türk etnosu tarixən ortaq dil, din və mədəniyyət zəminində formalaşmış, Avrasiya məkanında mühüm geosiyasi və mədəni rol oynamışdır. Bu ortaq kimliyin ən mühüm daşıyıcısı musiqi yaradıcılığıdır. Türk xalqlarının folklor, ozan-aşıq və musiqi ənənələri yalnız regional deyil, həm də ümumbəşəri dəyər kəsb edir. Lakin bəzi toplumların – xüsusilə İraq türkmanlarının – musiqi irsi hələ elmi sistemləşmədən kənarda qalmışdır. Türkmaneli bölgəsində yaşayan İraq türkmanları oğuz mənşəli etnik qrup kimi Azərbaycan türkcəsinə yaxın dildə danışır, mədəniyyət və musiqi baxımından Azərbaycanla çoxsaylı paralellər nümayiş etdirirlər. Tədqiqatlar göstərir ki, İraq türkman musiqisi həm Anadolu, həm də Azərbaycan musiqi sistemlərinin struktur və melodik xüsusiyyətlərini daşıyır. Xoyrat, divan, layla və mani kimi janrlar əsasında formalaşan bu ənənə emosional ifadəliliyi və poetik dərinliyi ilə seçilir. Ərəb və kürd musiqi mədəniyyətlərinin təsirinə baxmayaraq, türkman musiqisi öz milli-estetik dəyərlərini qoruyaraq konservativ melodik və ritmik quruluşunu saxlamışdır.
İraq türkman musiqisinin tədqiqi yalnız folklorşünaslıq və etnomusiqişünaslıq baxımından deyil, həm də mədəni identiklik, kollektiv yaddaşın qorunması və mədəni proseslərin təhlili baxımından aktuallıq kəsb edir. Bu irsin araşdırılması türk dünyasının musiqi mənzərəsini bütövlükdə dərk etməyə, assimilyasiya təhlükəsi altında olan musiqi ənənələrinin qorunmasına və gələcək nəsillərə ötürülməsinə elmi əsas yaratmağa xidmət edir. Məqalədə İraq türkman kimliyinin türk icmasındakı mövqeyi və musiqi irsinin identitetə təsiri; həmçinin Azərbaycan musiqi sistemi ilə struktural və melodik paralelləri araşdırılmışdır.
Açar sözlər: Türk etnosu, İraq türkmanları, etnomusiqişünaslıq, musiqi folkloru, kollektiv yaddaş, Azərbaycan musiqisi, xoyrat, Türkmaneli, milli identiklik

THE FUNCTIONAL ROLE OF IRAQI TURKMAN MUSICAL HERITAGE IN THE FORMATION OF ETHNIC IDENTITY

Zeynab Ilgar BAGIR
Azerbaijan National Conservatory
https://orcid.org/ 0009-0009-5980-0137
zeynebagir@mail.ru

Abstract: The Turkic ethnos has historically been formed on the basis of a shared language, religion, and culture, playing a significant geopolitical and cultural role in the Eurasian space. The most important carrier of this shared identity is musical creation. The folklore, bardic (ozan-ashiq), and musical traditions of Turkic peoples possess not only regional but also universal value. However, the musical heritage of certain communities—particularly the Iraqi Turkmens—has so far remained outside systematic scholarly study. The Iraqi Turkmens living in the Turkmeneli region speak a language close to Azerbaijani Turkish as an Oghuz-origin ethnic group and demonstrate numerous cultural and musical parallels with Azerbaijan. Research shows that Iraqi Turkmen music carries structural and melodic features of both the Anatolian and Azerbaijani musical systems. Formed on genres such as khoyrat, divan, layla, and mani, this tradition is distinguished by emotional expressiveness and poetic depth. Despite the influence of Arab and Kurdish musical cultures, Turkmen music has preserved its national-aesthetic values, maintaining its conservative melodic and rhythmic structure.
The study of Iraqi Turkmen music is relevant not only in terms of folklore and ethnomusicology but also in relation to cultural identity, the preservation of collective memory, and the analysis of cultural processes. Investigating this heritage serves to understand the musical landscape of the Turkic world as a whole, to protect music traditions at risk of assimilation, and to transmit them to future generations on a scientific basis. This article examines the position of Iraqi Turkmen identity within the Turkic community and the influence of musical heritage on identity, as well as structural and melodic parallels with the Azerbaijani musical system.
Keywords: Turkic ethnos, Iraqi Turkmens, ethnomusicology, musical folklore, collective memory, Azerbaijani music, khoyrat, Turkmeneli, national identity

ФУНКЦИОНАЛЬНАЯ РОЛЬ МУЗЫКАЛЬНОГО НАСЛЕДИЯ ИРАКСКИХ ТУРКМЕН В ФОРМИРОВАНИИ ЭТНИЧЕСКОЙ ИДЕНТИЧНОСТИ

Зейнаб Ильгар БАГИР
Азербайджанская Национальная Консерватория
https://orcid.org/ 0009-0009-5980-0137
zeynebagir@mail.ru

Резюме

Тюркский этнос исторически формировался на основе общего языка, религии и культуры, играя важную геополитическую и культурную роль в евразийском пространстве. Наиболее значимым носителем этой общей идентичности является музыкальное творчество. Фольклор, традиции певцов-бардов (озан-ашыг) и музыкальные традиции тюркских народов обладают не только региональной, но и универсальной ценностью. Однако музыкальное наследие некоторых сообществ — в частности, иракских туркмен — до сих пор оставалось вне систематического научного исследования. Иракские туркмены, проживающие в регионе Туркменели, говорят на языке, близком к азербайджанскому турецкому, как этническая группа огузского происхождения, и демонстрируют многочисленные культурные и музыкальные параллели с Азербайджаном. Исследования показывают, что музыка иракских туркмен несет в себе структурные и мелодические особенности как анатолийской, так и азербайджанской музыкальных систем. Формирующаяся на жанрах хойрат, диван, лайла и мани, эта традиция отличается эмоциональной выразительностью и поэтической глубиной. Несмотря на влияние арабской и курдской музыкальных культур, туркменская музыка сохранила свои национально-эстетические ценности, поддерживая консервативную мелодическую и ритмическую структуру.

Изучение музыки иракских туркмен актуально не только с точки зрения фольклористики и этномузыкологии, но и в аспектах культурной идентичности, сохранения коллективной памяти и анализа культурных процессов. Исследование этого наследия способствует пониманию музыкальной картины тюркского мира в целом, защите музыкальных традиций, находящихся под угрозой ассимиляции, и их передаче будущим поколениям на научной основе. В статье рассматриваются позиция иракской туркменской идентичности в тюркской общине и влияние музыкального наследия на идентичность, а также структурные и мелодические параллели с азербайджанской музыкальной системой.

Ключевые слова: тюркский этнос, иракские туркмены, этномузыкология, музыкальный фольклор, коллективная память, азербайджанская музыка, хойрат, Туркменели, национальная идентичность

Giriş

Türk etnosu zəngin mədəniyyəti, geniş coğrafi yayılma arealı və tarixi inkişafı ilə Avrasiya məkanında mühüm yer tutur. Tarix boyu ortaq dil, din və mədəniyyət birliyi türk xalqları arasında vahid kimlik formalaşdırmış, bu birliyin təməlində bədii və musiqi yaradıcılığı dayanmışdır. Türk xalqlarının folkloru, ozan-aşıq ənənəsi və musiqi irsi həm regional, həm də ümumbəşəri dəyərlər daşıyır. Bu irs, xalqın mənəvi dəyərlər sistemini və estetik dünyagörüşünü ifadə edən kollektiv yaddaş forması kimi tədqiqatçıların diqqət mərkəzindədir. Müstəqil türk dövlətlərində xalq musiqisinin sistemləşdirilməsi istiqamətində müəyyən nailiyyətlər əldə olunsa da, dövlətçiliyi olmayan toplumların – xüsusilə İraq türkmanlarının – musiqi irsi hələ tam elmi-nəzəri əsasda öyrənilməmişdir.

İraq türkmanlarının musiqisi Türkmaneli məkanında milli identiklik göstəricisi kimi formalaşmış, zamanla həm estetik ifadə, həm də mənəvi müqavimət vasitəsinə çevrilmişdir. Bu musiqi ənənəsi Azərbaycanla ortaq mədəni bağlara malik olmaqla, müasir etnomusiqişünaslıqda mühüm tədqiqat istiqaməti kimi xüsusi əhəmiyyət daşıyır.

İraq türkmanları tarixi miqrasiyalar nəticəsində Yaxın Şərqdə, İraqın şimal-qərbindən cənub-şərq sərhədinədək uzanan zolaqda məskunlaşan, ölkənin etnik-mədəni sturukturunda mühüm yer tutan, əsrlər boyu bölgədə varlığını qoruyaraq siyasi, iqtisadi, mədəni və xüsusilə də, musiqi irsi baxımından bölgənin ayrılmaz bir parçasına çevrilmiş türk icmasıdır. Sözügedən türk toplumunun məskunlaşdığı ərazi dəqiq sərhədlərlə çərçivələnməsə də, ümumilikdə bu bölgə Türkmaneli adlandırılır. Türkmanlar hazırda İraqın Mosul, Ərbil, Kərkük, Təlafər, Diyalə, Səlahəddin və Vasıt kimi şəhərlər; Tuzxurmatu, Təzəxurmatu, Altunkörpü, Kifri, Bayat, Qara Təpə, Tavuq kimi qəsəbə və rayonlar; Mənsuriyyə, Dəli Abbas, Məndəli, Bəşir və s. kimi kəndlərində məskunlaşıblar. Qeyd etmək lazımdır ki, paytaxt Bağdadın da bəzi bölgələrində hazırda 100 mindən çox türkman yaşayır. (Saatçi, 2015) İraq türkmanlarının etnogenezi türk etnosunun oğuz boyuna aiddir. Mövcud araşdırmalar göstərir ki, son illərdə İraqdakı türk icmasının statistikasını əks etdirən rəsmi məlumatlara çıxış məhduddur. Dəqiq statistika əlçatan olmasa da, ölkə əhalisinin təxminən

13%-ni yəni, 3,5 milyondan çox əhalisini təşkil edən türk icması 29 iyul 2012-ci il tarixindən etibarən İraq Parlamenti tərəfindən rəsmi şəkildə ölkə əhalisinin üç əsas etnik komponentindən biri kimi, daha dəqiq desək, İraqda üçüncü ən böyük etnik qrup kimi tanınır. Türkmanların məskunlaşdığı ərazilər tarixən çoxmədəniyyətli və çoxmillətli coğrafiya kimi formalaşmışdır. Bu etnik müxtəliflik, çoxmədəniyyətlilik, həmçinin daxili submədəniyyətlərin inkişafı ümumi İraq mədəniyyətinin formalaşmasına və müxtəlif etnik qruplar arasında qarşılıqlı mədəni inteqrasiyanın inkişafına təkan verir. Qeyd edək ki, region müxtəlif tarixi dövrlərdə bir sıra imperiyaların və siyasi hakimiyyətlərin tərkibində olmuşdur ki, bu da bölgədə mədəni heterojenliyin dərinləşməsinə zəmin yaratmışdır. Hazırda türkmanların məskunlaşdığı torpaqlar sivilizasiya tarixinin erkən mərhələlərinə qədər uzanan zəngin tarixi-mədəni irsə malikdir. Xüsusilə Ərbil şəhəri qədim mədəniyyət mərkəzlərindən biri kimi müstəsna əhəmiyyətə malikdir.

Türk etnik qruplarının indiki İraq ərazisində məskunlaşma prosesi qədim tarixi dövrlərə əsaslanır və uzunmüddətli miqrasiya, siyasi təsir və mədəni inteqrasiya nəticəsində formalaşmışdır. Tarixin müxtəlif dönəmlərində indiki İraq ərazisinə türklərin axını olub. Hazırda bölgədə məskunlaşan türkman toplumunun eyni soydan gəldiyini demək çətindir, çünki axınlar fərqli zamanlarda baş tutmuşdur. Tarixçilər bu axının təməlinin VII əsrdən etibarən başladığını qeyd edirlər. Türkmanların bu coğrafiyada əsaslı şəkildə məskunlaşması prosesi isə XI əsrə təsadüf edir. Sonrakı illərdə olan köçlər də, məhz bu nüfusu genişləndirərək, türk toplumunun regionda güclənməsinə şərait yaradıb. Tarixi mənbələrə əsasən, bu coğrafiyadan Azərbaycana da müxtəlif miqrasiya dalğalarının baş verdiyi məlumdur. Qənaətimizə və mövcud fərziyyələrə görə, Azərbaycandakı Zaqatala rayonunun Mosul və Naxçıvanın Kərki kəndlərinin toponimlərinin, bu tarixi köç prosesləri ilə əlaqəli şəkildə formalaşmış olma ehtimalı var. Məsələ ilə bağlı yerli mənbələrdən və informantlardan müəyyən məlumatlar əldə edilsə də, məsələ elmi müstəvidə təsdiqini tapmadığından, bu iddianı hazırda yalnız hipotetik bir yanaşma kimi irəli sürürük.

Dilçilik baxımından türkmanlar da Türkiyə türkləri, azərbaycanlılar və Türkmənistan türkmənləri kimi türk dilləri ailəsinin cənub-qərb qrupuna aiddirlər. Fuad Köprülünün haqqında danışarkən "İraq türkmənləri, yəni oğuzcanın azərbaycan ləhcəsini qonuşan türklər" deyə bəhs etdiyi türk icması dialekt baxımından Azərbaycan şivəsi ilə 99% uyğunluq təşkil edir. (Köprülü, 1996) Qeyd etmək lazımdır ki, 1997-ci ildə keçirilən İraq türkman Konqresində qəbul edilən Prinsiplər Bəyannaməsinin 3-cü maddəsinə əsasən türkmanların rəsmi yazı dili Türkiyə türkcəsi qəbul edilmişdir. 2005-ci ildən etibarən artıq türkman türkcəsi (Türkiyə türkcəsinin bir variantı) İraqda rəsmi azlıq dili statusu almışdır. Bu səbəbdən, gənc nəsil arasında Azərbaycan türkcəsinin dialekt xüsusiyyətlərindən müəyyən dərəcədə uzaqlaşma və ümumilikdə standart türk dili istiqamətində lingvistik adaptasiya prosesi müşahidə olunmaqdadır. Sözsüz ki, Osmanlı türkcəsi və ərəb dili də İraq türkmanlarının dil sisteminə mühüm təsir göstərmiş, leksik-semantik sahədə genişmiqyaslı mənimsəmə və struktur adaptasiya proseslərinə səbəb olmuşdur. Lakin yaşlı nəslin danışıq dili Azərbaycan türkcəsinin dialektal variantlarından biri kimi qiymətləndirilə bilər. Türkmanların sıx məskunlaşdığı Ərbil şəhərinin ləhcəsi isə Naxçıvan şivəsi ilə daha yaxındır. İraq türkman tədqiqatçısı Ə. Bəndəroğlu da "İraq türkmanlarının ləhcəsi Azərbaycan dilindən fərqlənmir. Onların ləhcəsində bəzi xırda fərqlər nəzərə çarpır. Bu fərqlər çox cüzidir və qeyri-adi bir şey kimi sayılmamalıdır" deyərək, dil birliyimizə diqqət çəkmişdir. (Bəndəroğlu, 1972) Folklorşünas Əta Tərzibaşı isə yazılarında məsələ barədə bu fikirləri qələmə alır: "Bizim türkman ləhcəsi azəri ləhcəsinə türk ləhcəsindən daha yaxın, bəlkə, əkiz qardaşlar olmaqla bərabər, bütün bu ləhcələr uzun bir tarix boyunca çeşidli səbəblərin təsiri ilə biri-birindən xəbərsiz olaraq gəlişdikləri halda, aralarında görkəmli fərqlər bilinməmişdir." (Qardaşlıq, 1962)

Müasir dövrdə İraq türkmanlarının etnik identifikasiyasında "türkman" kimliyi əvəzinə əsasən "kərküklü" ifadəsinin ön plana çıxması müşahidə olunur. Bu tendensiya, Kərkük şəhərinin Türkmanelinin mərkəzi və mənəvi paytaxtı olaraq qəbul edilməsi ilə yanaşı, eyni zamanda Türkmənistan türkmənləri ilə də qarışdırılma riskinə qarşı mədəni identitetin qorunması məqsədilə atılan simvolik addım olsa da, tədqiqat zamanı əldə etdiyimiz elmi qənaətə əsaslanaraq hesab edirik ki, İraq türkman kimliyinin yalnız Kərkük şəhəri ilə məhdudlaşdırılaraq təqdim olunması konseptual baxımdan qeyri-dəqiq olmaqla yanaşı, reduksionist xarakter daşıyır. Belə ki, bu cür yanaşma kompleks və çoxşaxəli bir etnik-mədəni kimliyi sadəcə bir şəhər kontekstində təhlil etməklə, onun digər bölgələrdəki tarixi, mədəni, mənəvi, folklor və musiqi təzahürlərini gözardı edir.

İraq türkman musiqisinin etnokulturoloji və tarixi icmalı

İraq türkman musiqisi tarixin çətin və keşməkeşli sınaqlarından keçərək formalaşmış, xüsusilə XX

əsrin ikinci yarısından başlayaraq türkmanların milli kimliyini qoruma mübarizəsində əsas ideoloji və mədəni dayaqlardan birinə çevrilmişdir. Əsrlər boyu ustad-şagird ənənəsi ilə nəsildən-nəsilə şifahi yolla ötürülən bu musiqi mirası zamanla müəyyən təsir və dəyişikliklərə məruz qalmış, bəzi yaradıcılıq nümunələri isə unudulma təhlükəsi ilə üzləşmişdir. XX əsrin əvvəllərində müəyyən qədər arxa planda qalan xalq musiqisi, əsrin II yarısından etibarən kommunikasiya sistemlərinin inkişafı, digər türk dövlətləri ilə əlaqələrin genişlənməsi və daxili stabilliyin bərpası nəticəsində ön plana çıxmışdır. Uzun illər ərzində çətin siyasi rejim altında yaşayan türkman toplumu üçün xalq yaradıcılığı, xüsusilə də musiqi, milli varlığın qorunmasında mühüm dayaq nöqtəsinə çevrilmişdi. Kərküklü İrmağın "Vətən torpağı kiçilib genişlənə bilər, sərhədləri tükənə bilər, tarixi təhrif edilə bilər, hətta şan və şərəfi tapdalana bilər, dini dəyişdirilə bilər, lakin dil və folklor adlandırılan iki varlıq vardır ki, həyat yaşadıqca yaşayır, xalqın keçmişi haqqında danışa bilən təkzibolunmaz tarixi sənədə çevrilir" fikri, sözügedən amillərin əhəmiyyəti barədə ümumi mənzərəni aydın şəkildə ifadə edir. (Qardaşlıq, 1967) Apardığımız sahə araşdırmalarında da bu yanaşmanın izləri müşahidə edilir: Kərküklü şair, İraq Yazıçılar Birliyinin üzvü Eyyub Hikmət Kərküklünün "Bizim sənətimiz, poeziyamız və xüsusilə də musiqimiz kömək oldu ki, İraqda əriyib bitməyək" sözləri xalq yaradıcılığının yalnız estetik deyil, həm də milli kimlik göstəricisi kimi həyati funksiyasını vurğulayır. Bu səbəbdən əminliklə demək olar ki, İraq türkman musiqisi sadəcə sənət forması deyil, həm də bir xalqın yaşamaq üçün göstərdiyi mədəni dirənişin təcəssümüdür.

Qeyd edək ki, tarix, coğrafiya, mühit, siyasi vəziyyət və digər amillər, mürəkkəb ictimai-siyasi mərhələlərdən keçən türkman musiqisində dərin izlər buraxmış, bu da musiqidə emosional və tematik yüklənməni artırmışdır. Məhz bu səbəbdəndir ki, İraq türkman musiqisinin bir çox janrlarında melodik quruluş və poetik məzmun ağı janrına yaxınlığı ilə seçilir. Məqam əsası, ağır tempi və sərbəst ritmik quruluşu ilə fərqlənən xoyratlar, laylalar və sazlamalar kimi müxtəlif janr nümunələri həm melodik, həm də emosional baxımdan dərin ifadəliliyə malikdir. Bu ifadəliliyin formalaşmasında isə təsirli poetik mətnlərin rolu danılmazdır.

İraqda türk musiqisi qədim tarixə malikdir. Müxtəlif dövlərdə mövcud olmuş fərqli sivilizasiyalar bu toplumun musiqi ənənəsini formalaşdırmışdır. İraq türkmanlarının musiqi tarixinin inkişaf dinamikasını 3 period üzrə təqdim edirik:

1. ***Osmanlı dönəmindən əvvəlki dövr***
2. ***Osmanlı dönəmi***
3. ***Osmanlı dönəmindən sonrakı dövr***

Türkmaneli musiqisinin izlənə biləcək kökləri, yəni ***Osmanlı dönəmindən əvvəlki dövr*** - Abbasilərin hakimiyyəti dövrünə təsadüf edir. Abbasi, Səlcuqlu saraylarında istifadə edilən tənbur, qopuz kimi alətlər bu dövrdə türkman musiqi folklorunun bir parçasına çevrilmişdi. Türkman musiqisində ən çox müraciət edilən makamlardan "Bayat" makamının da tarixi Abbasi saraylarına qədər uzanır. Şifahi mənbələrdən aldığımız məlumata əsasən deyə bilərik ki, hətta saz ifaçılığı da Anadoludan əvvəl artıq bu torpaqlarda öz təşəkkülünü tapmışdı.

Osmanlı hakimiyyəti dönəmi İraq tarixinin əhəmiyyətli parçasıdır. Uzun müddət Osmanlı hakimiyyətində olan bu xalqın musiqisi Osmanlı musiqisinin təsirindən yan keçməyib. Bu dönəmdə türkman musiqisi, Anadolu musiqisi ilə vəhdətdə olub. Tarixi-mədəni qatların təsiri günümüzdə də türkman musiqisinin melodik-struktural xüsusiyyətlərində, janr sistemində və şifahi ənənəyə əsaslanan ifaçılıq praktikasında müşahidə olunmaqdadır. Qeyd edək ki, hazırda Türkmanelində məşhur olan tarixi mahnıların bir çoxu məhz eyni ad altında cəm olduqları dövrdə bu torpaqlarda yaranmağa və yayılmağa başlamışdır.

Osmanlı hakimiyyəti sonrası - türkman musiqisi ərəb, türk musiqisinin təsiri ilə birlikdə, əsasən dini və tarixi musiqi janrları üzrə inkişaf edib. 1918-ci ildə İngilis işğalından sonra türkman tarixi bir çox qətliamlara şahidlik edib. Müharibə və ölümlər sənətə, ələxsus musiqiyə böyük təsir göstərib. "Vurdular, vurdular", "Vurdular qalamızı", "Tək suçum, türkmanam" kimi bir sıra mahnılar həmin dövrdə tarixin çətin sınaqlarının təsiri ilə yaranıb. Bu dönəmdə türkman musiqisinə Bağdad musiqi mühitinin də təsiri böyük idi.

İraq türkman xalq musiqisi folklorşünas Əta Tərzibaşının və onun xələflərinin təqdim etdiyi nəzəriyyəyə əsasən ***uzun*** və ***qırıq havalar*** olmaqla iki əsas qrup üzrə təsnifatlandırılır.

Uzun havalar - *Makam, xoyrat üsulları, qəzəl havaları, divan, aşıq havaları, Kərəm havaları, sazlamalar, laylalar*

1. ***Qırıq havalar*** - *Xalq maniləri* (İraq türkman musiqisində "mani" – mahnı termininin qarşılığıdır. Yaxın keçmişdə Azərbaycanda da bu terminin istifadə olunduğu, zamanla təhrif olunaraq mahnı ilə əvəzləndiyi haqda iddialar var; bununla yanaşı, türkmanlar bəstə və türkü terminindən də istifadə edirlər) və *xalq rəqsləri* (oyun havaları, halaylar)

Türkmaneli musiqisi uzun tarixi inkişaf prosesində bir neçə mədəniyyətin və submədəniyyətin təsirinə məruz qalmış, bu təsirləri

milli-estetik dəyərləri əsasında süzgəcdən keçirərək selektiv şəkildə mənimsəmişdir. Aşağıdakı üç əsas mədəniyyətlə qarşılıqlı əlaqə türkman musiqi ənənəsinin çoxqatlı strukturunu formalaşdırmışdır:

1. Anadolu musiqi sistemi ilə paralellər və uzun hava formasında bənzərliklər
2. Ərəb musiqisinin ritmik və melodik qatlarında müşahidə olunan təsirlər
3. Azərbaycan musiqi ənənələri ilə paralellər

Bu təsirlərin fonunda türkman xalq musiqisi hər zaman öz milli kimliyini qorumağa yönəlmişdir. Həm struktur, həm də məzmun baxımından konservativ mədəni müqavimət nümunəsi olan bu ənənə ərəbləşmə və kürdləşmə proseslərinin gücləndiyi tarixi mərhələlərdə yalnız estetik ehtiyacları deyil, həm də etnik və mədəni dirəniş ehtiyaclarını qarşılayan simvolik ifadə vasitəsinə çevrilmişdir.

Subetnik musiqi təsiri: Türkman musiqisinin İraq musiqi məkanında izlərinə dair

Türkman musiqisi yalnız passiv şəkildə təsir qəbul edən deyil, həm də aktiv şəkildə təsir göstərən ənənəyə çevrilmişdir. Bu təsiredici funksiya, xüsusilə dominant musiqi mədəniyyətlərinə ötürülən melodik formalar vasitəsilə özünü büruzə verir. Kiçik etnik qrupların dominant mədəniyyətlərə təsiri az təsadüf olunur və ya çox zaman nəzərdən qaçırılır. Lakin Bağdad musiqisində rast gəlinən, lokal İraq musiqi ənənələrində isə demək olar ki, qeydə alınmayan "Ömərgələ" və "Urfa" kimi uzun hava formalarına müraciətlərin mövcudluğu, bu melodik strukturların İraq türkman musiqi sistemindən qaynaqlandığını və onun musiqi mühitinə subetnik təsir nümunəsi kimi daxil olduğunu göstərir. Bu yalnız musiqi transferi deyil, həm də kültürlərarası melodik adaptasiya prosesidir.

Anadolu musiqisi ilə paralellər

Osmanlı imperiyasının süqutundan sonra siyasi sərhədlərin formalaşması nəticəsində türkman və Anadolu musiqi mədəniyyəti iki ayrı mədəni mühit çərçivəsində dəyərləndirilsə də, onların ortaq tarixi-mədəni kökləri və inkişaf dinamikasındakı paralellər vahid ənənə müstəvisində araşdırılmasına əsas yaradır. Bu baxımdan türkman musiqisinin Anadolunun cənub-şərq bölgələrinin – xüsusilə Urfa, Elazığ və Diyarbakır musiqi folkloru – ilə ortaq kulturoloji arealda təhlili məqsədəuyğundur. Bu musiqi yaxınlığı janr strukturları, ortaq türkü repertuarı, vokal texnikası və xoyrat üsullarında izlənilən paralellərlə özünü göstərir.

İraq türkman – Azərbaycan mədəni əlaqələrinə dair

İraq türkman və Azərbaycan musiqisi arasında mövcud olan dərin tarixi və struktur paralellər, Türkmanelinin musiqi irsi baxımından Azərbaycana digər türk xalqlarına nisbətən daha yaxın olduğunu deməyə əsas verir. Bu musiqi paralelləri Azərbaycan və İraq türkmanlarının ortaq etnogenezi və tarixi-mədəni inteqrasiyası nəticəsində formalaşan vahid musiqi kodlarının təzahürüdür. Azərbaycan xalqı ilə eyni etnomədəni və tarixi köklərə malik olan İraq türkmanları, xüsusilə də Kərkük mühitinin musiqi icraçılığı və yaradıcılığı tarix boyu mədəni mübadilə şəraitində inkişaf etmişdir. Kərküklə Azərbaycan arasında baş vermiş musiqi axınının istiqamətini və intensivliyini müəyyənləşdirmək istiqamətində sistemli elmi araşdırmalara isə ciddi ehtiyac duyulmamışdır. Bu faktın etnomusiqişünaslıq baxımından izahı milli-mədəni yaddaşın sabitliyi və mənəvi-kulturoloji vahidlik prinsipinin qorunub saxlanılması ilə əlaqələndirilə bilər. Mədəni transmissiya proseslərinə baxmayaraq, tarix, coğrafiya, siyasi sərhədlər ortaq musiqi irsinin transformasiyasına və assimilyasiyasına həlledici təsir göstərə bilməmişdir. Bu səbəbdən günümüzdə də aidiyyəti konkretləşdirilə bilməyən, lakin hər iki mədəniyyətin folklor yaddaşında mövcud olan çoxsaylı musiqi nümunələri mövcuddur. Azərbaycan - İraq türkman mədəni əlaqələri haqqında ən dəqiq fikri isə İraq türkman folklorunun böyük tədqiqatçısı, müqtədir alim Qəzənfər Paşayev qələmə almışdır: "Bu xalqın ruhunda və təbiətində, rübab, saz və söz xəzinəsinin hər qatında Azərbaycan folkloruna bir doğmalıq, məhrəmlik və əkizlik yaşayır. Nə yaxşı ki, tarix bu məhrəmliyi qoruyub saxlayıb. Nə yaxşı ki, şüurda, düşüncədə, mənəviyyatda xalq parçalanmayıb!" (Paşayev., 1999)

İraq türkman və Azərbaycan musiqi mədəniyyəti arasında transmissiya prosesləri və ortaq musiqi irsinin ən nəzərəçarpan istiqamətləri xalq mahnılarında müşahidə olunur. Bu vəhdətin mahiyyətini konkret nümunələr əsasında aydınlaşdıraq: Kərkük bölgəsində "Zeynəbim" və ya "Zeynəlim" adı ilə tanınan xalq mahnısı, Türkiyədə "Zeynəbim" ("Zeynəb bu gözəllik var mı soyunda"), Azərbaycan musiqisində isə "Dilbərim" adlı variantı ilə ifa edilir. Eyni xüsusiyyət, "Kərkükün al alması" (türkman variantı), "Qubanın ağ alması" (Azərbaycan variantı) və "Ölürəm yar, sevirəm yar" (Anadolu variantı) kimi melodik-mətn paralellərində də müşahidə olunur. Bu tendensiya eyni melodik nümunənin müxtəlif coğrafi mühitlərdə fərqli şəkildə təzahürünü və ortaq musiqi ənənələrini əsaslandırır. "Yar bizə qonaq gələcək", "Pəri", "Ay qara xal yar", "Ay qız heyranın ollam", "Niyə gəlməz oldu", "Dam üstədir damımız", "Ay qız, tovuz kimisən" və digər bu qəbildən olan folklor nümunələri də həm Türkmanelində, həm də Azərbaycanda ifa olunan ortaq kültürün təmsilçiləri kimi çıxış edirlər. Bununla yanaşı, "Bu xal nə xaldı", "Bağça bağ

duman gözəldi" kimi türkman mahnıları, Azərbaycan musiqi mühitində; "İrəvanda xal qalmadı", "Bir samovar almışam", "Nə bağ bildi, nə də bağban" kimi yerli nümunələr isə Türkmaneli bölgəsində fərqli poetik mətn və ifa texnikası ilə öz təzahürünü taparaq lokal xüsusiyyətlər qazanmışdır. "Evlərinin ögü yonca", "Gözələ bax, gözələ", "Mən səni sevmişəm dallam", "Gözəllərdən üç gözəl var sevilir", "O yana döndər məni", "Yeri-yeri küsmüşəm səndən" kimi bir sıra türkman xalq mahnıları da artıq bir əsrə yaxındır ki, Azərbaycan ifaçılıq praktikasında məxsusi yer tutur. Bu kimi faktlar identik kodları ortaq olan iki xalq arasında qarşılıqlı təsirin və ortaq melodik yaddaşın mövcudluğunu sübut edir.

Mədəni əlaqələr kontekstində, Kərküklü xanəndə Əbdülvahid Kuzəçinin Rəsul Rzanın "Beşik nəğməsi" şeirinə yazdığı "Layla balam a layla" və Səməd Vurğunun "Gülə gülə" şeirinə bəstələdiyi eyniadlı mahnını (digər adı ilə "Maral çıxmış dağ başına") da xüsusi vurğulamaq lazımdır.

İraq türkman və Azərbaycan arasındakı musiqi paralelləri kontekstində Mahir Naqibin "Azərbaycan çeşnili" adlandırdığı beş mani diqqətimizi çəkir. "Çeşni" ifadəsi elmi paradiqmada öz əksini tapmasa da, tədqiqatçı ifadəni əsasən məqam, intonasiya və ifa üslubu kontekstindən izah edir.

1. "Altun üzük yeşil qaş"
2. "Ay bala bala"
3. "Ölləm ölləm"
4. "Öləydim Allah öləydim"
5. "Baxar qapı zarından"

Qeyd edilən musiqi örnəklərindən ölkəmizdə ən geniş yayılanı "Altun üzük yeşil qaş" manisidir ki, həmin nümunə Sinan Səid və Nərminə Məmmədovanın ifasında lentə alınaraq, Azərbaycan Radiosunun Qızıl Fondunda saxlanılır. "Ölləm ölləm" mahnısına da qismən müraciət edilmişdir, lakin digər üç mahnının Azərbaycan musiqi mühitində ifa arealı geniş deyil. Sözügedən nümunələrin milli musiqi repertuarında tam qarşılığı və ya konkret prototipinə rastlanmasa da, həmin folklor örnəklərində Azərbaycan aşıq sənətinə xas intonasiya elementləri və ifa texnikaları aydın şəkildə müşahidə olunur. Bu da iki musiqi irsi arasındakı mövcud paralellərin daha bir təzahürüdür.

"Qarabağlı" havası

İraq türkman - Azərbaycan musiqi əlaqələri çərçivəsində, Türkmaneli musiqisində ən çox müraciət edilən uzun hava nümunələrindən "Qarabağlı" havasını xüsusilə vurğulamaq lazımdır. "Qarabağı", "Qarabağır" kimi müxtəlif versiyalarına rastladığımız bu termin birmənalı olaraq, həm etimoloji baxımdan, həm də tarixi kontekstdə Qarabağ bölgəsi ilə əlaqəlidir. Qarabağlı havasının yaranma tarixi XX əsrin əvvəllərinə təsadüf edir. 1900-cü illərin əvvəllərində, indiki Qarabağ bölgəsindəki həbsxanada cəza çəkən Kərküklü sənətçi Rəşid Külə Rzanın bu havanın, azərbaycanlı bir məhkumdan öyrənərək Türkmaneli bölgəsinə daşıdığı iddia olunur. Həmin havanın musiqi və poetik strukturlarının xüsusiyyətləri nəzərə alınaraq, Türkmaneli həbsxanalarında məhkumlar tərəfindən ifa edilməsi, məhz bu səbəbdən xanəndə Mövlud Tütüncünün bu musiqi parçasını "Qolubağlı" adlandırması, həmin havanın regional və mədəni mənşəyi ilə bağlı konkret təfsir yaradır. (Tərzibaşı, 1980)

Qarabağlı havası bəhrsiz musiqi olub, uzun hava tərzində, sərbəst ölçüdə, xanəndələr tərəfindən icra edilir. Melodik seyri geniş deyil, diapazon xalis kvarta intervalını keçmir. Bu havanın ifası emosional yüklü olub, əsasən melizmatika olunmuş melodik gedişlər üzərində qurulur. Musiqi seyrində türkman musiqisi üçün xarakterik olan mikrotonal intervallara sıx rast gəlinir. Havanın məqam əsası Segahdır. İraq türkman musiqisinin bir çox nümunələri kimi Qarabağlı havasının da melodik strukturu və poetik mətni ağı janrına yaxınlığı ilə diqqət çəkir. Məqam əsası, ağır tempi və sərbəst ritmik strukturu nümunənin emosional ifadəliliyini və ağı janrı ilə olan əlaqəsini aydın şəkildə izah edir. Sözsüz ki, burada təsirli poetik mətnlərin də rolu danılmazdır. Əsasən "Düşdü biçarə könül atəş-i hicrana gənə" və "Gör necə zülfün kimi cana pərişan olmuşam" başlıqlı 2 fərqli poetik mətnlə təqdim olunan uzun havanın "ey balam", "ey dad aman", "ölürəm ey balam" kimi məyanlarla məna yükü daha da dərinləşdirilir.

Nəticə

Türk xalqları tarix boyu ortaq mədəniyyət, dil və din çərçivəsində formalaşaraq, dünyanın müxtəlif bölgələrində iz qoymuş, zəngin və çoxşaxəli mədəni irs yaradıblar. İraqda yaşayan türk icması da tarix boyu, xalq yaradıcılığı, xüsusilə musiqi ənənəsi ilə ümumtürk mədəniyyət xəzinəsinə dəyərli töhfələr verib. Günümüzdə türkman musiqisi ümumtürk musiqi mənzərəsinin ayrılmaz tərkib hissələrindən biri kimi dəyərləndirilməlidir.

İraq türkmanlarının ənənəvi musiqi irsinə dair apardığımız araşdırmalar nəticəsində əldə olunan elmi nəticələrə əsasən müəyyən edilmişdir ki, türkman təfəkküründə mədəniyyət və məxsusilə musiqi yalnız bir sənət forması və estetik zövq mənbəyi deyil, eyni zamanda milli-mədəni identitetin əsas daşıyıcılarından biri, kollektiv yaddaşın təcəssümüdür. Bu baxımdan musiqi, türkman etnik-mədəni mənsubiyyətinin qorunması

və nəsildən-nəsilə ötürülməsində mühüm rol oynayan funksional komponentlərdən biri kimi çıxış edir.

Hazırkı tədqiqat həm bölgədə yaşayan türkmanların folklor yaddaşının qorunması, həm də türk xalqları arasında musiqi-mədəni inteqrasiyanın elmi əsaslarının öyrənilməsi baxımından aktuallıq kəsb edir. Bu irsə aid nümunələrin sistemli şəkildə toplanması, sənədləşdirilməsi və elmi əsaslarla təhlili isə türkmanların milli-mədəni dəyərlərinin qorunması baxımından zəruridir. Türkmaneli musiqisinin melodik, ritmik və intonasiya quruluşu, onun mətn və musiqi sintezi kontekstində analizi İraq türkmanlarının musiqi dünyagörüşünün spesifikasını nümayiş etdirir. Tədqiqatın nəticələri göstərir ki, İraq türkman musiqisi yalnız regional deyil, ümumtürk mədəni irsinin mühüm qolu kimi sistemləşdirilməli, elmi dövriyyəyə daha geniş şəkildə daxil edilməlidir.

Ümumilikdə isə nəticə aydındır - İraq türkman və Azərbaycan musiqi əlaqələri dərin mənəvi bağlarla səciyyələnir. Tədqiqat boyunca təqdim etdiyimiz fakt və nümunələr sübut edir ki, bu ortaq irs coğrafi məsafələrə rəğmən ortaq mədəni yaddaşın, tarixi köklərin və bağlılığın ifadəsidir. Türkmanlar tarix boyu, sənətin bütün qollarında bu bağlılığı aydın şəkildə ifadə ediblər. Bu doğmalıq xüsusilə həsrət tematikalı xoyratlarda daha qabarıq şəkildə özünü göstərir:

ƏDƏBİYYAT SİYAHISI:

1. Bəndəroğlu, Ə. (1972). Türkmanlar inqilabi İraqda [ərəbcə]. Bağdad.
2. Köprülü, F. (1996). Azərbaycan ədəbiyyatına dair tədqiqatlar. Bakı: Sabah, 9.
3. Paşayev, Q., & Bəndəroğlu, Ə. (tərt.). (1999). Azərbaycan folkloru antologiyası: II İraq-türkman cildi. Bakı, 467.
4. Qardaşlıq. (1962). №4, 26.
5. Qardaşlıq. (1967). №5.
6. Saatçi, S. (2015). İraq türkmen boyları. İstanbul: Ötüken, 248.
7. Tərzibaşı, Ə. (1980). Kerkük havaları. İstanbul: Ötüken, 271.

DOİ: 10.32010/SANM2837

TAR İFAÇILIĞINDA MÜASİR YANAŞMALAR: ŞƏHRİYAR İMANOVUN "7 MƏQAM" KOMPOZİSİYASININ İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

Kənan Qəzənfər SADIQOV
Doktorant, Azərbaycan Milli Konservatoriyası
ORCID: 0009-0002-9887-9756
E-poçt: kanan.sadiqov3@gmail.com

Xülasə: Müasir dövrdə tar ifaçılığında yeni yanaşmalar, təcrübələr və tendensiyalar meydana gəlməkdədir. Bu, tarın ifası ilə bağlı klassik yanaşmaların xaricində çağdaş musiqi üslubları, çalğı texnikaları və kompozisiya prinsiplərinin inkişafı ilə bağlıdır. Burada musiqidəki ənənəvi və müasir aspektlərin tar ifaçılıq üsullarına təsiri və onların tətbiqindəki dəyişikliklərlə əlaqədar yaranan müasir paradiqma xüsusi maraq doğurur. Bu mənada gənc tarzən Şəhriyar İmanovun yaradıcılığı populyar musiqi janrlarında bir sıra eksperimental ifaları, çağdaş musiqi tərzləri və ənənəvi çalğı üslubunun sintezi ilə diqqəti cəlb edir. Məqalədə təhlilini apardığımız "7 məqam" kompozisiyası da bütün bu aspektləri özündə cəmləşdirir. İstər ifaçılıq xüsusiyyətləri, istərsə də struktur tərtibatına görə müasir yanaşmanı əks etdirir.
Kompozisiyanın ifaçılıq xüsusiyyətləri texnika çeşidliliyinə görə seçilir. Burada milli və müasir ifaçılıq texnikaları sintez şəklində yer alır. Bu mənada ənənəvi çalğı üsulları – *darama*, *tərs*, *döymə*, *iti*, *dəmli*, *kiçik çanaq*, *sürüşdürmə*, *titrətmə*, *lal barmaq*, *ayırma*, *cırmaq*, *dartma*, eləcə də müasir çalğı texnikaları – *ghost* notlar, *slide*, *slur*, *golpe*, *apagado*, *flageolet*, *hammer-ons*, *pull-offs* texnikaları xüsusi şəkildə birləşdirilir. Kompozisiyanın strukturu 7 məqam arasında keçidlərə əsaslanır ki, bunu fraqment və ya musiqi lövhələri kimi də səciyyələndirə bilərik. Müvafiq olaraq segah, şur, çahargah, zabul, bayatı-şiraz, rast, hümayun məqamlarına istinad edilir. Həmin məqamlara əsaslanan klassik muğam cümlələri burada olduğu kimi daxil edilir, eləcə də ifaçının improvizə yanaşması yer alır. Kompozisiyanın ifaçılıq xüsusiyyətlərində muğam, aşıq musiqisi, flamenko tərzi və gitar ifaçılıq üslubu nəzərə çarpır. O cümlədən həmin janrların ifası ilə bağlı müxtəlif çalğı texnikaları da ön plana çıxır. Məqalədə istifadə edilən not nümunələri və kompozisiyanın notlaşdırılması ilk dəfə bizim tərəfimizdən bu məqalədə yer alır. Çalğı texnikalarının notasiyada göstərilməsində isə tədqiqat zamanı əldə etdiyimiz elmi nəticələrə istinad edilir.
Açar sözlər: Azərbaycan tar ifaçılığı, ənənəvi çalğı texnikaları, müasir yanaşma, Şəhriyar İmanov, musiqi kompozisiyası, 7 məqam.

MODERN APPROACHES İN TAR PERFORMANCE: PLAYİNG CHARACTERİSTİCS OF SHAHRİYAR IMANOV'S COMPOSİTİON 7 MAQAM

Kanan Qazenfer SADİGOV
Doctoral student, Azerbaijan National Conservatory

Abstract: In the contemporary era, new approaches, experiments, and trends are emerging in the field of tar performance. This development is related to the advancement of contemporary music styles, playing techniques, and compositional principles, distinct from classical approaches to tar playing. Of particular interest is the modern paradigm that arises from the influence of traditional and modern aspects of music on tar performance techniques and the changes in their application. In this regard, the creative work of the young tar player Shahriyar Imanov draws attention with a number of experimental performances in popular music genres and the synthesis of contemporary music styles with traditional playing techniques. The composition "7 Maqam," analyzed in this article, encapsulates all these aspects. Both in terms of performance characteristics and structural design, it reflects a modern approach.
The performance characteristics of the composition stand out due to the variety of technical approaches. Here, national and contemporary performance techniques are integrated in a synthetic form. Traditional playing methods—such as *darama*, *tərs*, *döymə*, *iti*, *dəmli*, *kiçik çanaq*, *sürüşdürmə*, *titrətmə*, *lal barmaq*, *ayırma*, *cırmaq*, *dartma*,—are combined with modern techniques, including *ghost notes, slide, slur, golpe, apagado, flageolet, hammer-ons, and pull-offs*. The structure of the composition is based on transitions between 7 maqams, which can also be characterized as fragments or musical panels. Consequently, references are made to these maqams. Classical mugham phrases based on these maqams are incorporated, alongside the performer's improvisational approach. The performance characteristics of the composition feature elements of mugham, ashik music, flamenco style, and guitar playing techniques. Additionally, various playing techniques associated with these genres come to the forefront. The musical notation and examples used in this article represent the first time these have been presented by us in this context. The depiction of the playing techniques in the musical notation refers to the scientific results obtained during our research.

Keywords: Azerbaijani tar performance, traditional playing techniques, modern approach, Shahriyar Imanov, musical composition, 7 maqam.

СОВРЕМЕННЫЕ ПОДХОДЫ В ИСПОЛНИТЕЛЬСКОМ ИСКУССТВЕ НА ТАРЕ: ОСОБЕННОСТИ ИСПОЛНЕНИЯ КОМПОЗИЦИИ «7 МАКАМОВ» ШАХРИЯРА ИМАНОВА

Канан Газанфер САДЫГОВ
Докторант, Азербайджанская Национальная Консерватория

Аннотация: В современную эпоху в сфере исполнения на таре формируются новые подходы, эксперименты и тенденции. Эти процессы связаны с развитием современных музыкальных стилей, исполнительских техник и принципов композиции, выходящих за рамки классических представлений об игре на таре. Особый интерес представляет современная парадигма, возникающая под влиянием традиционных и актуальных аспектов музыкального мышления на исполнительские методы игры на таре и изменения в их применении. В этом контексте творческая деятельность молодого исполнителя на таре Шахрияра Иманова привлекает внимание рядом экспериментальных выступлений в жанрах популярной музыки, а также синтезом современных музыкальных направлений с традиционными исполнительскими приёмами. Анализируемая в данной статье композиция «7 Макамов» отражает все вышеуказанные аспекты. Как с точки зрения исполнительских характеристик, так и по своей структурной организации, произведение демонстрирует современный подход.
Исполнительские особенности композиции выделяются разнообразием технических приёмов. Здесь в синтетической форме объединяются национальные и современные исполнительские техники. Такие традиционные способы игры, как *дарама, тэрс, дёймэ, ити, дэмли, кичик чанаг, сурушдурма, митратма, лал бармаг, айрыма, джырмаг, дартма,* сочетаются с современными техниками — *ghost* notes, *slide, slur, golpe, apagado, flageolet, hammer-ons, pull-offs*. Структура композиции построена на переходах между семью макамами, которые можно охарактеризовать как фрагменты или музыкальные панели. Соответственно, в произведении присутствуют отсылки к этим макамам. Здесь интегрированы классические мугамные фразы, основанные на данных макамах, а также импровизационный подход исполнителя. В исполнительских характеристиках композиции заметны элементы мугама, ашыгской музыки, фламенко и гитарной исполнительской манеры. Кроме того, выделяются различные техники игры, характерные для указанных жанров. Музыкальные примеры и нотная запись, использованные в данной статье, представлены нами впервые. При обозначении исполнительских техник в нотации сделаны ссылки на научные результаты, полученные в ходе проведённого исследования.
Ключевые слова: Азербайджанское искусство игры на таре, традиционные исполнительские приёмы, современный подход, Шахрияр Иманов, музыкальная композиция, 7 макамов.

Giriş

Azərbaycan tar ifaçılığı çoxəsrlik inkişaf yolu keçərək bu günə qədər gəlib çatmışdır. Bu sənətin gənc nümayəndələri tarın ənənəvi çalğı üslubunu dərindən mənimsəyərək, tar ifaçılığında yeni istiqamətlər formalaşdırmaqdadır. Bu, tarın ifası ilə bağlı klassik yanaşmaların xaricində çağdaş musiqi üslubları, çalğı texnikaları və kompozisiya prinsiplərinin inkişafı ilə bağlıdır. Burada musiqidəki ənənəvi və müasir aspektlərin tar ifaçılıq üsullarına təsiri və onların tətbiqindəki dəyişikliklərlə əlaqədar yaranan müasir paradiqma xüsusi maraq doğurur. Bu mənada gənc tarzən Şəhriyar İmanovun yaradıcılığı populyar musiqi janrlarında bir sıra eksperimental ifaları, çağdaş musiqi tərzləri və ənənəvi çalğı üslubunun sintezi ilə diqqəti cəlb edir. O, müxtəlif janrlarda repertuar və sintezlərlə beynəlxalq miqyasda böyük rəğbət qazanmış və Azərbaycan tarını geniş dinləyici kütləsi qarşısında uğurla təmsil etməkdədir. Onun yaradıcılığı xalq musiqi janrları ilə sıx bağlı olub, eləcə də müasir musiqi tendensiyaları, yeni yanaşmalar və çoxsaylı üslub və janrları birləşdirən xüsusiyyətlərə malikdir. Burada təkcə klassik musiqi janrları deyil, həm də çağdaş dövrün populyar musiqi cərəyanları və ifa üslublarının sintezi öz əksini tapır.

Şəhriyar İmanovun tar ifaçılığı bir neçə istiqamət üzrə inkişaf edir: Azərbaycan xalq musiqisi (instrumental muğam, xalq mahnıları və rəqsləri), bəstəkar yaradıcılığı (klassik və müasir əsərlər), çağdaş musiqi cərəyanları (etno-jazz, pop, jazz-fusion), və müxtəlif ifa üslubları (flamenko, fingertsyle, şelpe). Bu cür çoxşaxəli yanaşma ona digərlərindən fərqləndirən unikal özəlliklər qazandırır və onu həm yerli, həm də beynəlxalq səviyyədə tanınan bir ifaçı kimi ön plana çıxarır.

Onun ifaçı-müəllif kimi fəaliyyəti də xüsusi diqqəti cəlb edir. Belə ki, o, tar üçün bir sıra kompozisiyaların müəllifidir: “Sol minor Variasiya”, “7 Məqam”, “Lake”, “Mirage”, “Pulse”, “Dark East”, “Crying Waterfall”, “Bəzmigah”, “Həsrət nəğməsi”, “Contrast”, “Creation”. Həmin

kompozisiyalar ənənəvi və müasir musiqi təcrübələrinin sintezi nəticəsində meydana gəlmiş və çağdaş tar ifaçılığında yeni estetik və texniki cəhətlərin formalaşmasında xüsusi rol oynamışdır. Məqalədə təhlilini apardığımız "7 məqam" kompozisiyası da bütün bu aspektləri özündə cəmləşdirir. İstər ifaçılıq xüsusiyyətləri, istərsə də struktur tərtibatına görə müasir yanaşmanı əks etdirir.

Kompozisiyanın ifaçılıq xüsusiyyətləri texnika çeşidliliyinə görə seçilir. Burada milli və müasir ifaçılıq texnikaları sintez şəklində yer alır. Bu mənada ənənəvi çalğı üsulları – *darama*, *tərs*, *döymə*, *iti*, *dəmli*, *kiçik çanaq*, *sürüşdürmə*, *titrətmə*, *lal barmaq*, *ayırma*, *cırmaq*, *dartma*, eləcə də müasir çalğı texnikaları – *ghost* notlar, *slide*, *slur*, *golpe*, *apagado*, *flageolet*, *hammer-ons*, *pull-offs* texnikaları xüsusi şəkildə birləşdirilir. Kompozisiyanın strukturu 7 məqam arasında keçidlərə əsaslanır ki, bunu fraqmentlər və ya musiqi lövhələri kimi də səciyyələndirə bilərik. Müvafiq olaraq segah, şur, çahargah, zabul, bayatı-şiraz, rast, hümayun məqamlarına istinad edilir. Həmin məqamlara əsaslanan klassik muğam cümlələri burada olduğu kimi daxil edilir, eləcə də ifaçının improvizə yanaşması yer alır. Kompozisiyanın ifaçılıq xüsusiyyətlərində muğam, aşıq musiqisi, flamenko tərzi və gitar ifaçılıq üslubu nəzərə çarpır. O cümlədən həmin janrların ifası ilə bağlı müxtəlif çalğı texnikaları da ön plana çıxır. Kompozisiyanın ifaçılıq məsələlərinə not nümunələrinə əsasən nəzər yetirək.

Nümunə 1

Harmonik akkordlar düz və dalğavari şəkildə səsləndirilir. Dalğavari xətlə göstərilən akkordlar darama mizrabla ifa olunur. Bu, mizrabın simlər üzərinə daraq kimi çəkilməsi ilə tellərin dalğavari səsləndirilməsi texnikasıdır. Eyni zamanda ayırma barmaq texnikasından istifadə edilməsi səs çoxluğunu artırır. Belə ki, cüt simləri ayırmaqla hər bir teldə müxtəlif səslər ifa olunur. Burada ağ sim applikaturasında yer alan 1 və 2-ci barmaqlar həmin üsulun tətbiqini işarə edir.

Nümunədə qeyd edilən "⩛" simvolları tərs mizrab üsulunu bildirir. Alt mizrabdan fərqli olaraq, zərbə telin altından nisbətən çarpaz şəkildə vurulur. Bir növ telləri "qoparmaqla" (dartmaqla) ifa edilir ki, vurğulu və kəskin səslənmə əmələ gəlir. Buna əks olaraq döymə mizrab texnikası isə yuxarıdan zərbənin xüsusi bir növüdür. Bu zaman mizrab zərbələri simə döyəcləməklə və yalnız yuxarıdan endirilir. Tarda adi qaydada yuxarıdan aşağı endirilən mizrab zərbəsi "üst mizrab" adlanır. Bunun nisbətən qüvvətli, vurğulu ifası "accent" nüansı ilə uyğunlaşır. Döymə mizrabda isə müəyyən çalğı fərqi özünü göstərir. Bu zaman mizrabın tutulma və zərbənin endirilmə bucağı dəyişir. Adi zərbədən fərqli olaraq döymə mizrab nisbətən simə çarpaz şəkildə vurulur.

Qapama texnikası ifa zamanı səssizliyin əldə edilməsini təmin edir. Simin susdurulması sol və ya sağ əl ilə simi dayandırmaqla baş verir. Hər hansı bir notun ifa uzunluğu bitdikdə (və pauzaların ifasında) dərhal simlər dayandırılır. Gitar ifaçılığında buna oxşar *apagado* texnikasından istifadə edilir [URL-1]. Bu, əksər hallarda flamenko ifa tərzi ilə əlaqələnir. Zərbədən dərhal sonra bütün simlərin dayandırılması musiqi ifasında zərb meydana gətirir. Bunun mütəmadi tətbiq edilməsi ilə ritmik şəkillər yaradılır və solo instrumental ifalarda bir növ solistin özünümüşayiət funksiyasını icra edir.

Cümlənin sonunda sürüşdürmə tətbiq edilir. Akkordun ifasından sonra barmaqlar tarın qolu boyunca zilə doğru sürüşdürülür və "sol" səsində tamamlanır. Notasiyada çarpaz düz xətlə göstərilir və zilə doğru xromatik səslənmə əldə edilir.

Kompozisiyanın ən diqqət çəkən özəlliklərindən biri tarın həm solo, həm də müşayiət funksiyalarının eyni anda üzə çıxarılmasıdır. Belə ki, ilk öncə müşayiət edici fraqment səsləndirilir və alt məzmun hazırlanır. Daha sonra isə həmin alt zəminin ritmik şəklini qorumaqla solo partiya ön plana çıxarılır.

Nümunə 2

İti üst-alt mizrabla daimi səslənən "sol" səsi ritmik təşkili meydana gətirir. İnstrumental muğam ifaçılığında (məsələn, çahar mizrab) bu növ ritmik şəkillərə geniş rast gəlinir. Kök simdə isə alt

səslərlə müşayiət edilir. Kompozisiyada tətbiq edilən *hammer-ons*, *pull-offs* və *slur* texnikaları milli və müasir üslubların sintezini üzə çıxır. *Hammer-ons* (və *pull-offs*) gitar çalğısında, *slur* isə banjo texnikası [Turner, 1900] kimi geniş yayılmışdır. Burada simə vurulan zərbədən sonra növbəti pərdəni barmaqla basılmaqla – *hammering on* və ya barmağı çəkməklə – *pulling off* [URL-2], eləcə də növbəti pərdəyə barmağı sürüşdürməklə (*slur*) ifa olunur.

Növbəti xanələrdə akkord və sinkopaların istifadəsi musiqi inkişafını kulminasiyaya çatdırır. Nəhayət, ritmik müşayiətin davamlılığı qorunmaqla sərbəst muğam fraqmentləri daxil edilir.

Nümunə 3



Kompozisiyanın strukturunda segah, şur, çahargah, zabul, bayatı-şiraz, rast, hümayun məqamlarına istinad edən muğamlar (gəzişmələr) əsas rol oynayır. Müvafiq olaraq həmin məqamlara əsaslanan klassik muğam şöbələrindən fraqmentlər də müşahidə etmək mümkündür. Misal olaraq, Bayatı-Şiraz muğamının Bərdaşt və Zil-Bayatı-Şiraz, Çahargah muğamının Bərdaşt və Mayə, Mahur Hindi muğamının Bərdaşt, Rast muğamının Üşşaq, Zabul muğamının Segah, Hümayun muğamının Bərdaşt şöbəsindən fraqment və ya motivlər nəzərə çarpır. Eləcə də ifaçının bu məqamlar üzərində improvizə gəzişmələri də musiqi məzmununda yer alır.

Muğamların ifası zamanı instrumental çalğı ilə bağlı olan müxtəlif texnikalar işlədilir. Not nümunəsində titrətmə, cırmaq və lal barmaq texnikalarını görə bilərik. Titrətmə texnikası simin barmaqla sıxılıb və eyni zamanda titrədilməsi (yuxarı və aşağı) ilə icra olunur. Yəni sim barmaq ucunda digər sim qrupu tərəfə çəkilir və geri qaytarılır. Not mətnində beynəlxalq qarşılığı olan "*vib.*" (*vibrato*) yazısı ilə göstərilmişdir.

Lal barmaq texnikası enən passajlarda, təkrarlanan ikili səslərdə, texniki-virtuoz gəzişmələrdə müəyyən melizm, bəzək yaratma metodu kimi xüsusi əhəmiyyət kəsb edir. Bir neçə şəkildə müşahidə edilir: iti mizrabla davamlı təkrar edən səsə lal barmağın tətbiqi, qoşa mizrab üsulundan sonra və ya iki zərbə arasında işlədilməsi ən geniş yayılmış üsullardır. Burada əsas və köməkçi olmaqla iki səs iştirak edir. Notasiyada kiçik başlıqlı notlar (köməkçi səslər) lal barmaqla ifanı işarə edir. Bu zaman mizrab yalnız əsas səsə (özündən əvvəlki) vurulur, növbəti səsə barmaq qoyulmaqla əldə edilir.

Cırmaq ifa üsulu mizrabın iştirakı olmadan simlərin cırmaqlama yolu ilə səsləndirilməsi metodudur. Burada döymə-dartma texnikası işlədilir. İlk öncə lövhə üzərinə barmaq döyülür (nümunədə "x" işarəsi döymə texnikasını bildirir) və dərhal sonra sim çəkilərək (cırmağa bənzər şəkildə) səsləndirilir. Həmin proses forşlaq kimi ən qısa müddət ərzində icra edilir və notasiyada buna uyğun şəkildə göstərilir.

Nümunə 4

Bu fraqment geri qalan hissəyə nisbətən daha sakit, sərt zərblərdən uzaq, axıcı, dolğun və yumşaq ifaya sahibdir. Harmonik çox səsliliyin yaradılmasında ayırma barmaq texnikasından geniş şəkildə istifadə edilir. Kompozisiya boyunca müxtəlif akkordların ifasında rast gəlmək mümkündür. Digər tərəfdən alt səslərin geniş saxlanılması melodik xəttin ifasını daha da zənginləşdirir və musiqidə dolğunluq əmələ gətirir.

Cümlənin sonunda titrətmə texnikası ilə qarşılaşırıq ki, bu əvvəlki üsuldan fərqlənir. Bu zaman barmaq sim boyunca ən kiçik məsafədə cəld hərəkətlə sağa və əksinə (eləcə də sola və əksinə) silkələnir. Əslində digər titrətmə üsulu ilə bənzər səslənmə əldə edilsə də, burada sürüşdürmə edərək

səsləndirilir. Notasiyada müvafiq notların üzərində " " simvolu ilə göstərilir. Buna irəli və geri sürüşdürmə (çarpaz xətt) simvolunun birləşməsi kimi nəzər yetirə bilərik.

Nümunə 5

Notasiyada göstərilən "×" başlıqlı notlar *ghost* səsləri işarə edir. "Ghost" (bəzən "ghosted") – səssiz, susdurulmuş, yalançı not kimi başa düşülür [URL-3]. Bu notlar müəyyən bir səs yüksəkliyi olmayan, musiqidə teksturanın təşkili və ritmik funksiyanı icra edən "zərb" səslərdir. Tarda bu səslənməni əldə etmək üçün sol əldə qapama texnikasından istifadə edilir. Bu zaman barmaqlar açıq simin üzərinə elə qoyulur ki, səs çıxarma imkanı məhdudlaşır və bir növ "zərb" səslənmə əmələ gəlir. O cümlədən qapama texnikası ritmik teksturanın təşkilində də xüsusi rol oynayır. Akkordlardan sonra pauzaların istifadə edilməsi məhz qapamanın tətbiqini şərtləndirir və ritmik şəkli meydana gətirir. Bundan başqa cümlənin sonunda sürüşdürmə texnikası nəzərə çarpır. Bu, akkordun ifasından sonra barmaqları qaldırmadan qol boyunca yuxarı və aşağı istiqamətdə sürüşdürməyi bildirir. Əsasən populyar musiqi janrlarında bu tərz səslənmə üsullarına geniş rast gəlmək mümkündür.

Bununla yanaşı ifa zamanı müəyyən ritmik funksiyanı yerinə yetirmək üçün sağ əl zərbəsindən də istifadə edilir. Bu, gitar çalğısında *golpe* texnikası ilə əlaqələnir ki, alətin çanaq hissəsinə barmaqlarla vurulan zərbləri bildirir. Tarda isə müvafiq olaraq böyük çanağa sağ əlin üzük və ya sərçə barmağı, kiçik çanağa (və ya tarın üzünə) orta barmaqla tətbiq olunur.

Nümunə 6

Bu fraqmentdə dəmli mizrab, ayırma və lal barmaq texnikaları xüsusi əhəmiyyət kəsb edir. Alt səs (mi) mütəmadi təkrar edilməklə dəm funksiyası daşıyır və sağ əldə dəmli mizrab texnikası kimi ifadə edilir. Sol əldə isə ayırma texnikası ilə ağ sim qrupunun hər bir telində müxtəlif səslər ifa olunur. Eləcə də bəzək yaratma üsulu kimi lal barmaq texnikasından istifadə edilir. Bu texnika bir vuruş ərzində bir neçə ardıcıl səsin ifası ilə səciyyəvidir. Belə ki, mizrab vuruşundan sonra simin titrəyişi müddətində növbəti pərdələrin mizrabsız ifa edilməsini nəzərdə tutur. Həmin proses əsas və köməkçi səslərdən ibarətdir. Əsas səs mizrabla ifa edilir, növbəti (köməkçi) səslər isə həmin səslənmə hesabına yalnız barmaq qoymaqla əldə edilir. Beləliklə, səslər daha axıcı və hamar şəkildə meydana gəlir. Not nümunəsində liqalı və kiçik not başlığı ilə qeyd edilən notlar məhz lal barmaqla ifanı səciyyələndirir. Hər üç texnikanın birləşməsi bir növ saz alətinin çalğı üslubunu xatırladır. Aşıq musiqi elementlərinin daxil edilməsi kompozisiyanın məzmununu daha da zənginləşdirir.

Kompozisiya boyunca bir neçə flajolet (*flageolet*) istifadəsi nəzərə çarpır. Flajolet[1] texnikası simli musiqi alətlərində tətbiq edilən xüsusi səs yaratma metodudur. Bir səsin əsas tonundan başqa çıxara bildiyi üst tonlar da vardır. Flajolet texnikası isə əsas səsin əvəzinə həmin səsin üst tonlarının – harmoniklərin eşidilməsini mümkün edən çalğı texnikasıdır. Simlilərdə flajolet üsulu fit və ya fleyta ilə müqayisə edilən yüksək tonlu (cingiltili) səslər yaradır [Groves, 1879]. Bunun üçün simi barmaq lövhəsinə (pərdəyə, tarın qoluna) sıxmaq əvəzinə sim üzərinə səthi və ani toxunuş edilir. Həmin səsləri tarın bir sıra pərdələrində əldə etmək mümkündür. Bu səslərə "təbii harmoniklər" də (natural harmonics) deyilir.

Ənənəvi çalğı xüsusiyyətləri içərisində zəngulələr diqqəti cəlb edir. Zəngulə xalq musiqisində geniş tətbiq edilən melizm növlərindən biri olub, melodiyanın üzərində sürətli və axıcı səs dəyişiklikləri ilə müşahidə edilir. Adətən, iki şəkildə özünü göstərir: əsas pərdə ətrafında melodik fiqurasiya ilə; əsas və qonşu pərdələr arasında səs dəyişmələri ilə. Zəngulənin ifası zamanı melodik fiqurasiyalar, əsasən, məqamın müvafiq pərdələri üzərində gəzişilir və bu proses əsas səsin ətrafında baş verir. Daha çox üst-alt mizrabın istifadəsi ilə nəzərə çarpır (Nümunə 7).

[1] Flageolet – fleyta ailəsinə daxil olan fit başlıqlı, şaquli nəfəsli musiqi alətidir.

Nümunə 7

Digər şəkildə isə əsas pərdə və ona qonşu olan səslərin cəld, sürətli səs dəyişimləri ilə üzə çıxır. Bu zaman müxtəlif mizrab və barmaq üsullarının kombinasiyalarından istifadə edilir (Nümunə 8). Zəngulə texnikasına xalq musiqisinin həm vokal, həm də instrumental ifalarında geniş şəkildə rast gəlinir.

Nümunə 8

Kompozisiyanın sonluğunda giriş mövzuya qayıdış edilir. Bunu bir növ sakit başlanğıc, inkişaf – gəzişmə, kulminasiya – dinamik yüksəliş və yenidən sakit başlanğıca qayıdış kimi səciyyələndirə bilərik.

Ümumilikdə tətbiq edilən ənənəvi və müasir çalğı texnikaları aşağıdakı cədvəldə göstərilmişdir:

Cədvəl

Ənənəvi çalğı texnikaları	
Darama mizrab	Sürüşdürmə barmaq
Tərs mizrab	Titrətmə barmaq
Döymə mizrab	Lal barmaq
İti mizrab	Ayırma barmaq
Dəmli mizrab	Cırmaq
Kiçik çanaq mizrabı	Dartma barmaq
Zəng mizrab	Zəngulə
Müasir çalğı texnikaları	
Ghost notlar	*Apagado*
Slur	*Flageolet*
Slide	*Hammer-ons*
Golpe	*Pull-offs*

Nəticə etibarilə tar ifaçılığında çoxşaxəli ifa-üslub özəlliklərinin və çalğı texnikalarının inkişafı bu sahədə yeni tədqiqatların aparılmasını zəruri edir. Xüsusilə çağdaş tar ifaçılarından olan Şəhriyar İmanovun fəaliyyəti və onun təkrarsız ifa üslubu istər dinləyici, istərsə də musiqiçilər tərəfindən yüksək qiymətləndirilir. Onun yaradıcılığından ilham alan və çalğı üslubunu davam etdirən gənc ifaçıların sayının artması bu sənətin gələcək perspektivini müəyyən edir.

Məqalədə Şəhriyar İmanovun "7 məqam" kompozisiyasına diqqət yetirilərək, onun həm xalq musiqisi və müasir musiqi təcrübəsinin sintezi şəklində nəzərdən keçirilmiş, həm də ifaçılıq xüsusiyyətlərindən irəli gələn müxtəlif çalğı texnikaları təhlil edilmişdir. İlk dəfə olaraq bizim tərəfimizdən tar alətinin müasir çalğı texnikaları və notasiyası barədə araşdırma aparılmış və müvafiq elmi nəticələr əldə edilmişdir. Ümid edirik ki, araşdırmalarımız Azərbaycan tar ifaçılığının dünya miqyasında öyrənilməsinə və bu istiqamətdə aparılacaq gələcək tədqiqatlara faydalı olacaqdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Groves, G. (1879). A Dictionary Music and Musicians (A. D. 1450-1880) by Eminent Writers. English and foreign: in 4 volumes, vol.1, 663-665.
2. Turner, J. A. (1900). Ellis's thorough School for the five stringed Banjo. Tutor Book, 44-45.
3. **Saytoqrafiya**
4. URL-1: Flamenco Guitar Techniques and Definitions https://richterguitar.com/flamenco-guitar/flamenco-guitar-techniques-and-definitions/
5. URL-2: Guitar Techniques: Hammer-ons, Pull-offs, and Slides https://online.berklee.edu/takenote/guitar-techniques-hammer-ons-pull-offs-and-slides/
6. URL-3: Jazz Articulation With Ghost Notes https://pianowithjonny.com/piano-lessons/jazz-articulation-with-ghost-notes/

FİLOLOGİYA BÖLMƏSİ

DOİ: 10.32010/FMLH3893

ONLAYN MEDİANIN MONİTORİNQİNDƏ SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ TƏTBİQİ: İMKANLAR VƏ ÇAĞIRIŞLAR

Səadət Rəis ABDULLAYEVA
Bakı Dövlət Universiteti (doktorant)
AR Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutu (elmi işçi)
Orcid: orcid.org/0000-0003-4174-7904
E-mail: sado.amea@gmail.com

Xülasə: Onlayn medianın sürətlə inkişaf etdiyi bir dövrdə informasiya axınının keyfiyyətli şəkildə analiz olunması böyük əhəmiyyət kəsb edir. Məqalədə informasiya bolluğu şəraitində mühüm informasiyanı cəmiyyətə çatdırmaq üçün geniş imkanlara malik olan onlayn media resurslarının xüsusi əhəmiyyəti və aktuallığı analiz olunur. Onlayn media resurslarının monitorinqinin aparılmasının oxucu auditoriyasını genişləndirmək, digər media şirkətləri ilə rəqabət şəraitində üstün imkanlara malik olmaq, saytın çatışmazlıqlarını üzə çıxararaq aradan qaldırmaq, media qurumunun marketinq strategiyasını qurmaq baxımından vacibliyi vurğulanır.
Avtomatlaşdırılmış mətn emalı, sentiment analiz, xəbər trendlərinin proqnozlaşdırılması sahəsində əldə olunan nailiyyətlər süni intellektin medianın operativ və obyektiv təhlilində rolunu artırır. Məqalədə süni intellekt yanaşmalarının media monitorinqində tətbiqinin gətirdiyi üstünlüklər araşdırılır, süni intellektin ictimaiyyətlə əlaqələr işini təkmilləşdirmək potensialına malik olduğu qeyd olunur. Eyni zamanda, media monitorinq alətlərində tətbiq olunan süni intellekt texnologiyalarının müqayisəli analizi aparılır. Bu sahədə fəaliyyət göstərən nəhəng şirkətlərin media monitorinq zamanı istifadə etdiyi təbii dilin emalı, sentiment analiz, maşın öyrənmə kimi texnologiyaların həm kontentin avtomatik analizinə, həm də real vaxtda qərar qəbuletməyə şərait yaratdığı qeyd olunur. Lakin süni intellekt texnologiyaların media monitorinqdə tətbiqi qərarların avtomatik verilməsi zamanı qərəzlilik, məlumatın kontekstən çıxarılması və etik prinsiplərin pozulması kimi halları da gündəmə gətirir.
Həmçinin Azərbaycanda süni intellekt sahəsində qəbul olunmuş normativ-hüquqi sənədlərdən irəli gələn məsələlərə toxunulur, o cümlədən onlayn media resuslarının monitorinqi prosesində süni intellekti tətbiq edən şirkətlərin analizi aparılır. Milli informasiya mühiti və hüquqi çərçivə nəzərə alınmaqla, media monitorinqində süni intellekt texnologiyalarının tətbiqi üçün yerli dil resurslarının genişləndirilməsi və milli platformaların yaradılmasının əhəmiyyəti qeyd olunur. Mediada süni intellekt əsaslı texnologiyalar və alətlərin səmərəli istifadəsini qiymətləndirmək üçün tətbiq olunan Qlobal Süni İntellekt Jurnalistika İndeksinin əsas indikatorları və metodları araşdırılır, bu indekslər əsasında milli indekslərin yaradılması zərurəti vurğulanır.
Açar sözlər: Onlayn media, süni intellekt, media monitorinqi, medianın qiymətləndirilməsi, sentiment-analiz, Qlobal Süni İntellekt Jurnalistika İndeksi

---

APPLICATION OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES IN ONLINE MEDIA MONITORING: OPPORTUNITIES AND CHALLENGES

Saadat R. ABDULLAYEVA
Baku State University
Institute of Information Technology of Ministry of Science and Education of the Republic of Azerbaijan
orcid.org/0000-0003-4174-7904
E-mail: sado.amea@gmail.com

Abstract: In an era of rapid development of online media, qualitative analysis of information flow is of great importance. The article analyzes the special importance and relevance of online media resources, which have wide opportunities to deliver important information to society in the conditions of information abundance. The importance of monitoring online media resources is emphasized in terms of expanding the readership, having superior opportunities in competition with other media companies, revealing and eliminating the shortcomings of the site, and building a marketing strategy of the media organization. The achievements in the field of automated text processing, sentiment analysis, and forecasting news trends increase the role of artificial intelligence in the operational and objective analysis of the media. The article examines the advantages of applying artificial intelligence approaches in media monitoring, and notes that artificial intelligence has the potential to improve public relations work. At the same time, a comparative analysis of artificial intelligence technologies applied in media monitoring tools is conducted. It is noted that technologies such as natural language processing, sentiment analysis, and machine learning used by major companies operating in this field during media monitoring create conditions for both automatic analysis of content and real-time decision-making. However, the application of artificial intelligence technologies in media monitoring raises issues such as bias in automatic decision-making, information decontextualization, and violation of ethical principles.

The paper also touches on issues arising from regulatory and legal documents adopted in the field of artificial intelligence in Azerbaijan, including an analysis of companies that apply artificial intelligence in the process of monitoring online media resources. Taking into account the national information environment and legal framework, the need to expand local language resources and create national platforms for the application of artificial intelligence technologies in media monitoring is emphasized. The main indicators and methods of the Global Artificial Intelligence Journalism Index, which is applied to assess the effective use of artificial intelligence-based technologies and tools in the media, are examined, and the need to create national indexes based on these indices is emphasized.
Keywords: Online media, artificial intelligence, media monitoring, media evaluation, sentiment analysis, Global Artificial Intelligence Journalism Index

ПРИМЕНЕНИЕ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В МОНИТОРИНГЕ ОНЛАЙН-СМИ: ВОЗМОЖНОСТИ И ПРОБЛЕМЫ

Саадат Р. АБДУЛЛАЕВА
Бакинский государственный университет
Институт информационных технологий Министерства науки и образования Азербайджанской Республики
orcid.org/0000-0003-4174-7904
E-mail: sado.amea@gmail.com

Резюме: В эпоху стремительного развития интернет-СМИ качественный анализ информационных потоков приобретает большое значение. В статье анализируется особая значимость и востребованность интернет-СМИ, которые обладают широкими возможностями доносить до общества важную информацию в условиях информационного изобилия. Подчеркивается важность мониторинга интернет-СМИ с точки зрения расширения читательской аудитории, получения преимуществ в конкурентной борьбе с другими медиакомпаниями, выявления и устранения недостатков сайта и построения маркетинговой стратегии медиаорганизации.

Достижения в области автоматизированной обработки текста, анализа тональности и прогнозирования новостных трендов повышают роль искусственного интеллекта в оперативном и объективном анализе СМИ. В статье рассматриваются преимущества применения подходов искусственного интеллекта в мониторинге СМИ и отмечается, что искусственный интеллект обладает потенциалом для улучшения работы в сфере связей с общественностью. Также проводится сравнительный анализ технологий искусственного интеллекта, применяемых в инструментах мониторинга СМИ. Отмечается, что такие технологии, как обработка естественного языка, анализ тональности и машинное обучение, используемые крупнейшими компаниями, работающими в этой сфере, при мониторинге СМИ, создают условия как для автоматического анализа контента, так и для принятия решений в режиме реального времени. Однако применение технологий искусственного интеллекта в медиамониторинге вызывает такие проблемы, как предвзятость автоматического принятия решений, деконтекстуализация информации и нарушение этических принципов.

Также затрагиваются вопросы, вытекающие из нормативных и правовых документов, принятых в области искусственного интеллекта в Азербайджане, включая анализ компаний, применяющих искусственный интеллект в процессе мониторинга интернет-медиаресурсов. С учетом национальной информационной среды и правовой базы подчеркивается необходимость расширения местных языковых ресурсов и создания национальных платформ для применения технологий искусственного интеллекта в медиамониторинге. Рассматриваются основные показатели и методы Глобального Индекса Журналистики с использованием Искусственного Интеллекта, применяемого для оценки эффективности использования технологий и инструментов на основе искусственного интеллекта в СМИ, а также подчеркивается необходимость создания на их основе национальных индексов.
Ключевые слова: интернет-СМИ, искусственный интеллект, медиамониторинг, оценка СМИ, анализ тональности, Глобальный индекс журналистики с использованием искусственного интеллекта

Giriş

Müasir dövrdə informasiya axının sürətlənməsi və onlayn medianın ictimai rəyin formalaşmasına təsirinin genişlənməsi onlayn medianın monitorinqi zamanı tətbiq olunan texnologiyaların imkanlarının dərindən araşdırılmasını zəruri edir. Xüsusən informasiya manipulyasiyası, dezinformasiya və etibarlı olmayan mənbələrdən məlumatların geniş şəkildə ictimaiyyətə yayılması fonunda onlayn medianın real zamanda monitorinqinin aparılması məsələsi aktuallaşır. Bu baxımdan onlayn medianın monitorinqinə süni intellekt (Sİ) texnologiyalarının tətbiqi media resurslarının avtomatlaşdırılmış şəkildə analizini, məzmunun semantik emalına və risklərin proqnozlaşdırılmasına, dezinformasiyanın aşkarlanmasına geniş imkanlar təqdim edir.

Son zamanlar təbii dilin emalı, məzmunun təsnifatı, faktların yoxlanması və sentiment analiz kimi altsahələrdə Sİ-nin tətbiqinin genişlənməsi, onlayn mediada yayılan informasiyanın daha etibarlı və

operativ monitorinqinə şərait yaradır. Bu texnologiyaların tətbiqi onlayn media subyektlərinə və müvafiq strukturlara informasiya axını prosesini formalaşdırmaq, ictimai rəyi qiymətləndirmək və zərərli tendensiyaların vaxtında qarşısını almaq imkanı yaradır.

Tədqiqat işində onlayn medianın monitorinqi prosesində Sİ texnologiyalarının tətbiqinə dair mövcud yanaşmalar analiz olunur, beynəlxalq təcrübə tədqiq edilir. Bu sahədə fəaliyyət göstərən media monitorinq xidmətlərinin təqdim etdiyi imkanlar nəzərdən keçirilir. Sİ-nin media monitorinqi prosesinə tətbiqinin üstünlükləri, riskləri və qarşıda duran əsas vəzifələr araşdırılır, təkliflər irəli sürülür.

Süni intellekt yanaşmalarının media monitorinqində tətbiqi effektivliyi və riskləri

Media monitorinqi informasiya axınlarının təhlili və bu informasiya əsasında qərarların qəbulu üçün əsas vasitələrdən biridir. Onlayn medianın monitorinqi media resurslarında yayılan məlumatların analizi və bu məlumatlar əsasında qiymətləndirmə aparılmaqla qərarların qəbul edilməsi prosesini nəzərdə tutur. Media monitorinq alətləri şirkətlərə qarşılaşa biləcəkləri mümkün riskləri əvvəlcədən müəyyən etməyə və ictimai rəyi analiz etməyə kömək edir (Mardhika, 2023).

Sİ-in media monitorinqdə effektiv tətbiqi üçün ilkin mərhələdə monitorinq prosesinə cəlb ediləcək veb-resursların optimal seçimi vacibdir.

Ənənəvi media monitorinqində xəbərlər, materiallar, sosial media məzmunlarının analizində insan əməyindən istifadə olunurdu. Sözügedən metodlardan fərqli olaraq, süni intellektin tətbiqi ilə həyata keçirilən monitorinq bu sahədə əhəmiyyətli dəyişikliklərə səbəb olub. Media monitorinqi zamanı Sİ-nin tətbiqi bu prosesin avtomatlaşdırılmasına, kontentin real vaxt rejimində emalına, semantik analiz aparmağa və monitorinqin daha geniş miqyası əhatə etməsinə geniş imkanlar yaradır (Alguliyev et., 2020). Uzunmüddətli perspektivdə Sİ texnologiyalarından istifadə media sənayesinin inkişafında ən aktual tendensiyalardan birinə çevrilməkdədir.

Oksford Universitetinin Reuters İnstitutunun araşdırmasına görə, süni intellektin iri xarici media şirkətlərinin redaksiya fəaliyyətinə nüfuz etməsi artıq "gələcəyin fenomeni" deyil, informasiyanın toplanması, faktların yoxlanılması və məzmunun yaradılmasından tutmuş tövsiyə xidmətlərinə qədər istehsal dövrlərinin müxtəlif mərhələlərində real təcrübə kimi qəbul edilir.

Reuters İnstitutunun analitikləri bildirirlər ki, Sİ sistemləri mediada fəal rəqabət obyektinə çevrilir və bu texnologiyalara əsaslanan media şirkətlərinin sənaye liderləri olmaq şansı daha yüksəkdir (How artificial intelligence and machine learning affect the monitoring of mass media and the PR industry, 2025).

Beynəlxalq təcrübədə media monitorinq prosesində Sİ texnologiyalarının tətbiqi məsələlərinə geniş yer ayrılır. 2024-cü ildə 56 ölkədə 314 media lideri arasında keçirilmiş sorğuya əsasən, media sənayesi liderləri süni intellektdən transkripsiya və surətin redaktəsi (56%) kimi arxa plan avtomatlaşdırma vəzifələrinin icrasında istifadə etdiklərini bildiriblər. Sorğuya əsasən, növbəti yerləri tövsiyə sistemləri (37%), insan nəzarəti ilə kontentin yaradılması (28%) və kommersiya tətbiqləri (27%) tutur (Newman, 2022).

Hazırda dünyada onlayn medianın monitorinqi xidmətləri göstərən şirkətlər tərəfindən media-monitorinq prosesində təbii dilin emalı (Natural Language Processing, NLP), maşın öyrənmə, sentiment analiz, avtomatik etiketləmə və məzmun indeksləşdirmə, dezinformasiyanın aşkarlanması texnologiyaları geniş tətbiq olunur.

Media monitorinqində Sİ-dən istifadə ilk növbədə, təbii dil modelləşdirməsi və müvafiq tətbiqi proqramların hazırlanması ehtiyacı ilə əlaqələndirilir (Davydov et., 2023). Mətn emalı üçün güclü avadanlıqların yaradılmasında irəliləyişin əldə olunması sayəsində təbii dilin emalı mühəndislik layihələrinin əsas diqqət mərkəzinə çevrilmişdir. Hazırda təbii dilin emalı süni intellektin media monitorinqdə tətbiqinin əsas texnologiyalarından biridir. Bu texnologiya kompüterlərə insan dilini anlamaq və analiz etmək üçün imkanlar təqdim edir. Media monitorinqdə NLP texnologiyalarının tətbiqi ilə medianın məzmunu analiz edilir və kateqoriyalaşdırılır.

Ekspertlər həmçinin xəbərlərin müxtəlif kateqoriyalı istehlakçılara uyğunlaşdırılması üçün maşın öyrənmə metodlarından istifadəni Sİ-nin mediada mühüm vəzifəsi hesab edirlər (Glowacki, 2024).

Aşağıdakı qrafikdə bu sahədə qabaqcıl texnologiyaları tətbiq edən Google News, Brandwatch və Meltwater, o cümlədən Talkwalker platformalarının imkanları təqdim olunmuşdur (Brandwatch, 2025; Google News, 2025; Meltwater, 2025; Talkwalker, 2025)



Qrafik 1. Media monitorinq prosesində süni intellekt texnologiyalarını tətbiq edən platformalar

Bu platformaların hər biri süni intellekt və NLP texnologiyalarından istifadə etməklə xəbərlərin və paylaşımların kontent analizi, sentiment analizi və trendlərin müəyyənləşdirilməsi funksiyalarını yerinə yetirirlər. Platformalar media məzmununu analiz edərək şirkətlər və təşkilatlar haqqında ictimai rəyi qiymətləndirir, riskləri vaxtında aşkar edir və düzgün ictimaiyyətlə əlaqələr (PR) strategiyasının qurulmasına dəstək verir. Məlumatların diaqramlar, vizual panellər vasitəsilə təqdim olunması isə idarəetmə və qərarvermə prosesini asanlaşdırmağa imkan verir.

Bundan başqa, Cision, Sprinklr, Hootsuite, Mention kimi platformalar da onlayn və sosial medianın Sİ texnologiyalarının tətbiqi ilə real zamanda monitorinqini aparır.

Ümumiyyətlə, süni intellekt texnologiyalarından media-monitorinq prosesində istifadə istənilən media sahəsində iş prosesini nəinki asanlaşdıra, həm də səmərəliliyi artıra bilər (Nerents, 2024).

Minsait's Ascendant Report-a görə, media sənayesinin 71%-i səmərəliliyi və fərdiləşdirməni artırmaq məqsədilə kontentin idarə edilməsi üçün süni intellektdən istifadə edir. 85%-i isə yeni funksiyalar hazırlamaq və məhsulları təkmilləşdirmək üçün süni intellekti tətbiq edir (Minsait's Ascendant Report, 2025).

Sİ texnologiyalarının media monitorinqində tətbiqi informasiya axınının avtomatlaşdırılmasını nəzərdə tutmaqla yanaşı, həm də milli informasiya məkanının qorunması baxımından strateji əhəmiyyətə malikdir. Media şirkətlərinin məzmun istehsalında, nəşrində və təbliğində Sİ əsaslı media texnologiyalarından istifadə performansın qiymətləndirilməsi, izlənilməsi və vizuallaşdırılması məqsədilə Qlobal Süni İntellekt Jurnalistika İndeksi (The Global Artificial Intelligence Journalism Index – GAIJI) tətbiq olunur.

Süni İntellekt Jurnalistikası üzrə Tədqiqat və Proqnozlaşdırma Mərkəzi tərəfindən idarə olunan GAIJI mediada süni intellekt əsaslı jurnalistika texnologiyaları və alətlərinin səmərəli istifadəsini qiymətləndirir. İndeks il ərzində 100-dən çox media şirkətinin qiymətləndirməsini aparır (Global Artificial Intelligence Journalism Index, 2025).

GAIJI hər bir media şirkətinin Sİ jurnalistikasına və media sənayesində Dördüncü Sənaye İnqilabının texnologiyalarına etibarı baxımından beynəlxalq reytinqini müəyyən etmək üçün altı əsas göstəricidən istifadə edir:

İstifadə olunan olan süni intellekt texnologiyaları: İndeks hər bir media şirkətinin istifadə etdiyi Sİ texnologiyalarının sayını ölçür.

Süni intellekt vasitəsilə hazırlanmış məzmun: İndeks Sİ texnologiyaları və ya alətləri vasitəsilə hazırlanan hesabatların, videoların, yazıların və digər məzmunun sayını ölçür.

İnsan istedadı: İndeks Sİ texnologiyalarından və ya alətlərindən istifadə etmək qabiliyyətinə malik jurnalist və müxbirlərin sayını ölçür.

Ümumi investisiya: İndeks media şirkətinin süni intellekt texnologiyalarına və ya alətlərinə xərclədiyi investisiyanın həcmini ölçür.

Biliyin transformasiyası: İndeks bu sahədə biliklərini digər şirkətlərə və ya jurnalistlərə ötürməyi hədəfləyən media şirkəti tərəfindən təklif olunan kurs və proqramların sayını ölçür.

İnnovasiya: İndeks media şirkətlərinin iş mühitinə inteqrasiya edildikdə bu texnologiyaları necə inkişaf etdirdiyini və təkmilləşdirdiyini ölçür.

GAIJI məlumatları müxtəlif metodlarla toplayır:

- Məlumatların monitorinqi və analizi.
- Açıq sorğuların hazırlanması.
- Ekspertlərlə şəxsi müsahibələr.
- Hədəf media şirkətlərindəki jurnalistlərlə şəxsi müsahibələr.

GAIJI-nin nəticələri süni intellektin mediada tətbiq səviyyəsinin yalnız texnoloji inkişaf göstəricisi deyil, həm də kibersuverenlik baxımından strateji əhəmiyyətə malik olduğunu göstərir.

GAIJI reytinqində aşağı yer tutan və xarici Sİ platformalarından istifadə edən ölkələrdə media monitorinqi zamanı toplanan məlumatlar və analitik nəticələrin xarici serverlərdə emal olunması informasiya təhlükəsizliyinin zəifləməsinə səbəb ola və nəticədə milli kibersuverenliyə təhdid təşkil edə bilər.

Sİ texnologiyaları monitorinq prosesində effektivliyi artırsa da, onların tətbiq zamanı bir sıra

fundamental və tətbiq xarakterli problemlər və çatışmazlıqlarla da qarşılaşmaq mümkündür.

Aşağıdakı qrafikdə elmi ədəbiyyatın nəticələrinin analizi əsasında süni intellekt texnologiyalarının media monitorinqdə tətbiqinin gətirdiyi üstünlüklər və çatışmazlıqlar təqdim olunmuşdur. Qrafik Sİ texnologiyalarının media monitorinqinə inteqrasiyası zamanı müşahidə olunan əsas müsbət tendensiyaları və mövcud texnoloji məhdudiyyətləri əyani şəkildə nümayiş etdirir:

Qrafik 2. Süni intellektin media monitorinqində tətbiqinin üstünlükləri və çatışmazlıqları

Təqdim olunan qrafikdə süni intellekt texnologiyalarının media monitorinqi prosesinə tətbiqinin həm funksional üstünlükləri, həm də qarşıya çıxan əsas çətinlikləri sistemli şəkildə ümumiləşdirilmişdir.

Aparılan müqayisəli analizin nəticələri göstərir ki, Sİ texnologiyaları media monitorinqinə əhəmiyyətli töhfələr versə də, müəyyən problemlərin aradan qaldırılması üçün əlavə tədqiqatlara və texnoloji təkmilləşdirmələrə ehtiyac qalmaqdadır.

Azərbaycanda onlayn-media resuslarının monitorinqi prosesində süni intellektin tətbiqi perspektivləri

Son illərdə Azərbaycanda Sİ texnologiyalarının tətbiqi sahələrininin genişləndirilməsi istiqamətində mühüm işlər görülməkdədir. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" bu sahənin inkişafını daha da sürətləndirməyi, tədqiqatları təşviq etməyi və ixtisaslı kadr potensialının formalaşdırılmasını qarşıya məqsəd qoyur (Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2025).

Bu strategiyanın Sİ texnologiyalarının media monitorinqi sahəsində də geniş tətbiqi və inkişafı üçün əlverişli şərait yaradacağı gözlənilir. Azərbaycan media məkanının rəqəmsallaşması, informasiya axınının sürətlənməsi və sosial şəbəkələrin informasiya mənbəyi kimi rolunun artması effekiv və operativ monitorinq alətlərinin tətbiqini zəruri edir. Bu baxımdan, media monitorinqində süni-intellekt əsaslı texnologiyaların tətbiqi strateji əhəmiyyətə malikdir.

Hazırda Azərbaycanda fəaliyyət göstərən bir sıra media monitorinq şirkətləri (Mediatrends, Media Təqib Mərkəzi və s.) medianın monitorinqi prosesində süni intellekt əsaslı texnologiyaları tətbiq etməyə başlamışdır. Bu şirkətlər onlayn media və sosial şəbəkələrdə baş verənləri real vaxt rejimində izləmək və analiz etmək üçün Sİ həllərindən istifadə edirlər(Media Təqib Mərkəzi, 2025; Mediatrends media monitorinqi şirkəti, 2025).

Buna baxmayaraq, Azərbaycanda bu sahədə süni intellektin tətbiqində bir sıra problemlər mövcuddur:

- Azərbaycan dilində mətn emalını dəstəkləyən Sİ modellərinin az olması texnoloji maneə kimi çıxış edir;
- Azərbaycan dilində NLP alətlərinin inkişaf etdirilməsi zəruridir;
- Onlayn media resurslarının standartlaşdırılması və struktursuz məlumatların çoxluğu ilə bağlı problemlər bu sistemlərin effektiv fəaliyyətinə mənfi təsir göstərən amillərdəndir;
- Etik və hüquqi məsələlər, xüsusilə şəxsi məlumatların qorunması, dezinformasiyanın qarşısının alınması da bu prosesdə nəzərə alınmalıdır;
- Bu texnologiyaların tətbiqi üçün zəruri infrastrukturun olmaması və investisiya çatışmazlığı;
- Bu texnologiyalarla işləyə bilən kadrların çatışmazlığı bu sahədə əsas problemlərdəndir.

Araşdırmaların nəticəsinə əsasən, ölkədə rəqəmsal transformasiya ilə bağlı həyata keçirilən dövlət proqramları, startap təşəbbüsləri və süni intellekt texnologiyalarının inkişafı istiqamətində aparılan akademik tədqiqatlar bu sahənin inkişafına nikbin baxmağa əsas verir. Süni intellekt texnologiyaları onlayn medianın monitorinqində daha geniş və səmərəli şəkildə istifadəsinə Azərbaycan dilinin emalı sahəsinə investisiyaların artırılması və praktiki tətbiqləri nəzərdə tutan pilot layihələrinə dəstək verilməsi, o cümlədən milli səviyyədə süni intellektə əsaslanan media monitorinqi platformalarının inkişaf etdirilməsi ilə nail olmaq mümkündür.

Tədqiqatın nəticələri sübut edir ki, Sİ texnologiyalarının məlumatların toplanması, emalı və ötürülməsi prosesinə tətbiqi etik normalara uyğun olaraq tənzimlənməlidir. Bu normalar üzrə standartlar süni intellektin istifadəsi ilə bağlı etik prinsiplərin formalaşması üçün əsas ola bilər (Vinogradova, 2023).

Nəticə və tövsiyələr

Aparılan tədqiqatlar göstərir ki, süni intellekt və maşın öyrənməsi media monitorinqinin və onlayn media resursunun ictimaiyyətlə əlaqələr işinin yüksək

səviyyədə təşkili üçün vacib amildir. Lakin bu texnologiyalar PR işlərini dəstəkləsə də, tamamilə əvəz edə bilmir.

Sİ texnologiyalarının tətbiqi ilə standart və vaxt aparan tapşırıqlar daha az zaman tələb edir, onlayn media resurslarının marketinq strategiyaları daha səmərəli təşkil olunur. Belə ki, bu texnologiyaların onlayn media resurslarının monitorinqi prosesinə tətbiqi ilə aşağıdakılar mümkündür:

– məlumatı axtarmaq və analiz etmək üçün mexaniki hərəkətlərə resursun tələb olunmaması;
– tam və müvafiq məlumat əldə olunması və bu məlumat əsasında medianın düzgün analizinin aparılması;
– informasiya məkanındakı neqativlərə operativ reaksiya verilməsi;
– rəqib media qurumlarının ictimai reputasi-yasının izlənilməsi.

Bununla yanaşı, Qlobal Süni İntellekt Jurnalistika İndeksi əsasında milli süni intellekt əsaslı media monitorinq alətlərinin hazırlanması media monitorinqin effektivliyini artırmaqla yanaşı, ölkənin kibersuverenliyinin təmin olunması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, süni intellektin media monitorinqində tətbiqinin bəzi risk və çatışmazlıqlarına baxmayaraq, süni intellekt bu istiqamətdə əhəmiyyətli imkanlar təqdim edir və yaxın gələcəkdə jurnalistlərin karyerasına və yaradıcılıq imkanlarının artımına müsbət təsir göstərməyə qadirdir. Süni intellektin media monitorinq prosesində tətbiqi mütəxəssislərin işini asanlaşdırmağa və sürətləndirməyə, onların vaxtına qənaət etməyə, görülən işlərin sürətini artırmağa geniş imkanlar açır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Alguliyev, R. M., Nabibayova, G. Ch., Abdullayeva, S. R. (2020). Evaluation of Websites by Many Criteria Using the Algorithm for Pairwise Comparison of Alternatives. I.J. Intelligent Systems and Applications, 6, 64-74. DOI: 10.5815/ijisa.2020.06.05
2. Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Available from: https://e-qanun.az/framework/59218?utm
3. Brandwatch. Available from: https://www.brandwatch.com/p/meltwater-alternative/
4. Davydov, S. G., Zamkov, A. V., Krasheninnikova, M. A., Lukina, M. M. (2023). The Use of Artificial Intelligence Technologies in Russian Media and Journalism. Vestn. Mosk. un-ta. 10: Zhurnalistika 5, 3–21. DOI: 10.30547/vestnik.journ.5.2023.321
5. Global Artificial Intelligence Journalism Index. Available from: https://aijournalismindex.com/#1522213855272-751597ea-2084 [accessed 2 July 2025].
6. Glowacki, M., Switkowski, F., Sidyk-Furman, D., Hanak, P., Nemeth, R.J. (2024). How Artificial Intelligence Is Changing Media and Journalism in Central Europe. Thomson Foundation and Media Journalism Research Center. 21, 2.
7. How artificial intelligence and machine learning affect the monitoring of mass media and the PR industry. (2025). Available from:https://scan-interfax.ru/blog/kak-iskusstvennyj-intellekt-i-mashinnoe-obuchenie-vliyayut-na-monitoring-smi-i-pr-industriyu/ [accessed 18 July 2025].
8. Mardhika, H. (2023). How the Introduction of AI (Media Monitoring) Tools Affects the Field of Public Relations. Jurnal Manajemen Bisnis, 10, 2. 555-569 e-ISSN: 2621-1971|p-ISSN: 2088-7086
9. Media Təqib Mərkəzi. Available from: https://medyatakip.com.tr/az/ [accessed 5 July 2025].
10. Mediatrends media monitorinqi şirkəti. Available from: http://mediatrends.az/ [accessed 5 July 2025].
11. Minsait's Ascendant Report. Available from: https://www.atalayar.com/en/articulo/economy-and-business/71-of-media-industry-adopts-ai-for-content-management-to-increase-efficiency-and-personalisation [accessed 22 July 2025].
12. Newman, N. (2022). Journalism, Media, and Technology Trends and Predictions. Reuters Institute for the Study of Journalism. DOI: 10.60625/risjahx9-vm24
13. Nerents D.V. (2024). Specifics of the application of artificial intelligence in the modern media space. Litera, 8. 186-198.DOI: 10.25136/2409-8698.2024.8.44025 EDN:UUYSOS
14. Talkwalker. Available from: https://www.talkwalker.com/ [accessed 6 July 2025].
15. Vinogradova, K. E. (2023). The Development of Artificial Intelligence and the Transformation of Journalism. New Opportunities and Challenges. Humanitarian Vector, 18. 3, 121-130. DOI: 10.21209/1996-7853-2023-18-3-121-130

RƏQƏMSAL DÖVRDƏ AZƏRBAYCAN VƏ İNGİLİS SİYASƏTÇİLƏRİNİN NİTQLƏRİNİN DİSKURS TƏHLİLİ

Xəyalə Rəmiyəddin ABDULLAYEVA
Mingəçevir Dövlət Universiteti
Xarici dillər kafedrası,
filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
xayala.abdullayeva@mdu.edu.az
https://orcid.org/0000-0001-6956-3360

Xülasə: Məqalədə rəqəmsal dövrdə siyasi nitqlərin diskurs təhlili məsələləri geniş şəkildə araşdırılır. İnformasiya texnologiyalarının sürətli inkişafı və sosial media platformalarının ictimai həyatın ayrılmaz hissəsinə çevrilməsi siyasi ritorikanın məzmun və formaca dəyişməsinə səbəb olmuşdur. Ənənəvi tribuna çıxışları ilə müqayisədə rəqəmsal mühitdə yayımlanan nitqlərin daha qısa, yığcam, emosional və auditoriyaya birbaşa təsir göstərmək imkanlarının artdığı müşahidə olunur. Tədqiqat çərçivəsində Azərbaycan və İngilis siyasətçilərinin çıxışları müqayisəli şəkildə təhlil edilmiş, onların ritorik strategiyaları, metaforik ifadələri, milli-mədəni istinadları və ictimai təsir mexanizmləri müəyyənləşdirilmişdir. Araşdırma nəticəsində məlum olmuşdur ki, Azərbaycan siyasətçilərinin nitqlərində milli kimlik, tarixi yaddaş və emosional çağırışlar daha çox ön plana çəkildiyi halda, İngilis siyasətçilərinin nitqlərində universal dəyərlərə, qlobal auditoriyaya yönəlmiş ritorika və yumor elementləri üstünlük təşkil edir. Rəqəmsal kommunikasiya mühiti hər iki ölkə siyasətçilərinin diskursunda qısa və təsirli şüarların istifadəsini, sosial şəbəkələrdə interaktivliyin artmasını və onlayn ictimai rəy mexanizmlərinin rolunun güclənməsini şərtləndirərək, milli-mədəni xüsusiyyətlərin siyasi ritorikaya təsirinə baxmayaraq, qlobal kommunikasiya tələblərinə uyğunlaşmanı zəruri etmişdir.

Açar sözlər: diskurs analizi, siyasi ritorika, rəqəmsal kommunikasiya, Azərbaycan siyasəti, İngilis siyasəti

DISCOURSE ANALYSIS OF AZERBAIJANI AND ENGLISH POLITICIANS' SPEECHES IN THE DIGITAL AGE

Khayala Ramiyaddin ABDULLAYEVA
Mingachevir State University Department of Foreign Languages
PhD in Philology, Senior Lecturer
xayala.abdullayeva@mdu.edu.az
https://orcid.org/0000-0001-6956-3360

Summary: The article extensively examines the issues of discourse analysis of political speeches in the digital era. The rapid development of information technologies and the integration of social media platforms into public life have led to changes in both the content and form of political rhetoric. Compared to traditional podium speeches, speeches delivered in the digital environment are observed to be shorter, more concise, emotional, and offer greater opportunities for direct impact on the audience. Within the framework of the study, the speeches of Azerbaijani and British politicians were comparatively analyzed, and their rhetorical strategies, metaphorical expressions, national-cultural references, and mechanisms of public influence were identified. The research revealed that Azerbaijani politicians' speeches emphasize national identity, historical memory, and emotional appeals, whereas British politicians' speeches prioritize rhetoric directed at universal values, a global audience, and include elements of humor. The digital communication environment has prompted the use of short and effective slogans, increased interactivity on social networks, and strengthened the role of online public opinion mechanisms, making it necessary to adapt to global communication requirements despite the influence of national-cultural features on political rhetoric**.**

Keywords: discourse analysis, political rhetoric, digital communication, Azerbaijani politics, British politics

ДИСКУРС-АНАЛИЗ РЕЧЕЙ АЗЕРБАЙДЖАНСКИХ И АНГЛИЙСКИХ ПОЛИТИКОВ В ЦИФРОВУЮ ЭПОХУ

Хаяла Рамияддин АБДУЛЛАЕВА
Мингечевирский государственный университет
кафедра иностранных языков
доктор философии по филологии, старший преподаватель
xayala.abdullayeva@mdu.edu.az
https://orcid.org/0000-0001-6956-3360

Резюме: В статье подробно рассматриваются вопросы дискурс-анализа политических выступлений в цифровую эпоху. Быстрое развитие информационных технологий и превращение платформ социальных сетей в неотъемлемую часть общественной жизни привели к изменениям содержания и формы политической риторики. По сравнению с традиционными трибунами, выступления в цифровой среде становятся более короткими, сжатым, эмоциональными и предоставляют больше возможностей для прямого воздействия на аудиторию. В рамках исследования были сравнительно проанализированы выступления азербайджанских и британских политиков, выявлены их риторические стратегии, метафорические выражения, национально-культурные отсылки и механизмы общественного влияния. Результаты показали, что в выступлениях азербайджанских политиков особое внимание уделяется национальной идентичности, исторической памяти и эмоциональным обращениям, тогда как у британских политиков преобладают риторика, ориентированная на универсальные ценности и глобальную аудиторию, а также элементы юмора. Цифровая коммуникационная среда обусловила использование коротких и эффективных лозунгов, рост интерактивности в социальных сетях и усиление роли онлайн-механизмов формирования общественного мнения, что сделало необходимым соответствие глобальным коммуникационным требованиям, несмотря на влияние национально-культурных особенностей на политическую риторику.

Giriş

Dil ictimai həyatın bütün sahələrində mühüm rol oynayır. Xüsusən siyasi diskurs cəmiyyətin ideoloji istiqamətini müəyyənləşdirən, ictimai rəyə təsir göstərən ən güclü vasitələrdən biridir. Ənənəvi dövrdə siyasi çıxışlar daha çox tribuna, parlament və ya kütləvi toplantılarda baş verirdisə, XXI əsrdə rəqəmsal media siyasi nitqin məzmununa və formasına ciddi təsir göstərmişdir.

Sosial şəbəkələrin inkişafı nəticəsində siyasi nitqlər yalnız birbaşa auditoriyaya deyil, həm də qlobal miqyasda geniş ictimaiyyətə çatdırılır. Bu, diskurs analizinin yeni istiqamətlərdə inkişafına şərait yaradır. Məqalənin məqsədi Azərbaycanlı və İngilis siyasətçilərinin nitqlərinin diskurs təhlilini aparmaq, onların ritorik strategiyalarını müqayisə etmək və rəqəmsal dövrdə siyasi nitqlərin transformasiyasını üzə çıxarmaqdır.

Diskurs anlayışı müasir dilçilikdə təkcə mətn və ya nitq hadisəsi kimi deyil, həm də sosial kontekstdə baş verən kompleks kommunikasiya prosesi kimi izah olunur. Bu baxımdan diskurs yalnız dilin struktur elementlərinin deyil, həm də onun cəmiyyət, mədəniyyət və sosial münasibətlərlə qarşılıqlı təsirinin məhsulu kimi qiymətləndirilir.

Norman Fairclough-un fikrincə, diskurs sosial praktikaların ayrılmaz tərkib hissəsidir və o, güc münasibətlərinin cəmiyyətdə necə ifadə olunduğunu üzə çıxarmaq üçün mühüm vasitədir (Fairclough, 1989). Digər tərəfdən, Teun van Dijk diskursu çoxşaxəli yanaşma əsasında izah edir və onun dil, idrak və sosial strukturların qarşılıqlı əlaqəsini əks etdirdiyini göstərir (Van Dijk, 2008). Bu yanaşmaya əsasən, diskurs yalnız dilin istifadəsi deyil, həm də biliyin ötürülməsi, ideologiyaların formalaşdırılması və ictimai təsirin təmin olunması üçün mühüm vasitədir.

Beləliklə, diskurs analizi həm mətnin dilçilik səviyyəsində öyrənilməsini, həm də sosial-siyasi kontekstdə təsir mexanizmlərinin aşkarlanmasını nəzərdə tutur. Bu metodoloji çərçivə siyasi nitqlərin təhlilinə tətbiq edildikdə, ritorik strategiyaların, metaforaların, güc münasibətlərinin və auditoriyaya təsir üsullarının daha dərindən anlaşılmasına imkan verir.

Siyasi nitqlərin diskurs təhlilində ritorik strategiyalar

Siyasi diskursun təhlilində əsas diqqət ritorik strategiyalara yönəlir. Aristotelin klassik ritorika nəzəriyyəsinə görə nitqin inandırıcılıq gücü üç əsas kateqoriya ilə bağlıdır: *ethos, pathos və logos* (Aristotle, 2007).

- **Ethos** – siyasətçinin şəxsi nüfuzu, etik mövqeyi və etibarlılığına istinad etməklə auditoriyada inam və güvən formalaşdırır. Bu strategiya, adətən, liderin siyasi təcrübəsinə, şəxsi keyfiyyətlərinə və dövlət idarəçiliyindəki roluna əsaslanır. Məsələn, Heydər Əliyevin çıxışlarında onun dövlətçilik ənənələrinə söykənməsi və milli maraqları önə çəkməsi auditoriyanın inamını

möhkəmləndirən güclü ethos nümunəsi kimi çıxış edir (Əliyev, 2001).

- **Pathos** – emosional təsir vasitəsilə auditoriyanın hisslərinə yönəlir. Nitqdə milli kimlik, vətənpərvərlik, azadlıq və ədalət kimi dəyərlərə istinad edilməsi auditoriyada güclü emosional rezonans yaradır. Məsələn, Winston Churchill-in İkinci Dünya müharibəsi dövründə söylədiyi məşhur nitqlərində "We shall never surrender" ifadəsi xalqın döyüş ruhunu və iradəsini gücləndirən klassik pathos nümunəsidir (Churchill, 1946).
- **Logos** – məntiqi arqumentlər, faktlar və statistik göstəricilər üzərində qurulur. Bu strategiya daha çox rasionallığa, arqumentasiyanın elmi və ya hüquqi əsaslandırılmasına söykənir. İlham Əliyevin beynəlxalq tədbirlərdə enerji siyasəti və iqtisadi inkişaf göstəriciləri barədə çıxışları logosun tipik nümunələrindəndir (Əliyev, 2015).

Rəqəmsal dövr isə siyasi diskursun ənənəvi ritorik strukturuna yeni elementlər əlavə etmişdir. Sosial şəbəkələrdə yayılan nitqlər daha qısa və yığcam formada təqdim olunur, auditoriyanın diqqətini cəlb etmək üçün vizual elementlərdən – videolar, qrafiklər, şəkillərdən – geniş istifadə edilir (Chadwick, 2017). Bundan əlavə, auditoriyanın interaktiv reaksiyası (şərhlər, paylaşımlar, hashtag-lar) siyasi diskursun təsir gücünü artıran mühüm faktor kimi çıxış edir. Beləliklə, rəqəmsal platformalar yalnız nitqin yayılma formasını deyil, həm də onun məzmununu, ritorik strategiyalarını və ictimai rəyə təsir mexanizmlərini dəyişmişdir.

Ənənəvi Siyasi Nitqlərin Xüsusiyyətləri

Ənənəvi siyasi nitqlərdə ritorika əsasən geniş auditoriyaya yönəlirdi. Tribuna nitqlərində klassik ritorik elementlər – təkrar, paralelizm, metafora, tarixi istinadlar – xüsusi yer tuturdu.

Məsələn, Heydər Əliyevin nitqlərində "xalqımızın birliyi", "Azərbaycanın müstəqilliyi" kimi ifadələr milli həmrəyliyi gücləndirən şüar xarakteri daşıyırdı. Winston Churchill-in İkinci Dünya müharibəsi dövründəki çıxışlarında isə "We shall never surrender" (Biz heç vaxt təslim olmayacağıq) ifadəsi güclü emosional çağırış kimi çıxış edirdi. Ənənəvi nitqlərin əsas xüsusiyyəti auditoriyanı uzunmüddətli ideoloji təsir altına almaq idi.

XXI əsrdə informasiya texnologiyalarının sürətli inkişafı siyasi nitqlərin formasında köklü dəyişikliklər yaratmışdır. Rəqəmsal dövrdə siyasi nitqlərin transformasiyası artıq yalnız tribunadan səsləndirilən ənənəvi çıxışlarla məhdudlaşmır, eyni zamanda sosial şəbəkə platformalarında – **Twitter, Facebook, YouTube, Instagram və TikTok** kimi kanallarda – qlobal auditoriyaya ünvanlanır (Chadwick, 2017). Bu platformalarda siyasətçilərin nitqləri daha qısa, yığcam, diqqətçəkici və emosional təsir gücünə malik olur.

Qısa şüarların siyasi diskursdakı rolu bu baxımdan xüsusi qeyd olunmalıdır. Məsələn, *Barack Obama*-nın "*Yes, we can*" şüarı yalnız seçki kampaniyasının deyil, həm də qlobal auditoriyanın yaddaşına həkk olunan universal bir çağırış kimi tarixə düşmüşdür (Jamieson, 2009). Azərbaycan kontekstində isə *İlham Əliyev*-in "*Azərbaycan müstəqil siyasət yürüdən güclü dövlətdir*" ifadəsi həm daxili, həm də beynəlxalq auditoriyaya ünvanlanmış aydın və təsirli mesaj nümunəsi kimi çıxış edir. Bu tip şüarlar həm milli kimliyi gücləndirir, həm də ölkənin qlobal siyasətdəki mövqeyini ifadə edir.

Rəqəmsal diskursun ən mühüm xüsusiyyətlərindən biri "*interaktivlik*"dir. Əgər ənənəvi tribuna nitqlərində auditoriyanın reaksiyası əsasən passiv şəkildə – alqış və ya etirazla məhdudlaşırdısa, rəqəmsal platformalarda bu reaksiya *"şərhlər, paylaşmalar, "like"lar, hashtag-lar"* vasitəsilə dinamik formada təzahür edir. Beləliklə, nitqin təsir gücü yalnız onun məzmunu ilə deyil, həm də rəqəmsal mühitdə aldığı ictimai rezonansla ölçülür. Bu, siyasi diskursu tək tərəfli çıxışdan iki istiqamətli kommunikasiya prosesinə çevirir.

Digər mühüm məqam isə vizuallığın güclənməsidir. Video çıxışların canlı yayımlanması, qısa kliplərin paylaşılması və hətta siyasi memlərin yaradılması siyasətçilərin mesajlarının daha geniş kütlələrə çatdırılmasına imkan yaradır (Jenkins et al., 2013). Beləliklə, rəqəmsal dövrdə siyasi nitqlər yalnız sözlərdən ibarət deyil, həm də vizual və interaktiv elementlərlə zənginləşdirilmiş kommunikasiya hadisəsinə çevrilmişdir.

Azərbaycanlı və İngilis siyasətçilərinin nitqlərini müqayisə etsək deyə bilərik ki, siyasi nitqlərin diskurs təhlilində real nitq nümunələri analizin effektivliyini artırır. Bu bölmədə Azərbaycan və İngilis siyasətçilərinin çıxışları müqayisəli şəkildə təhlil edilir, onların istifadə etdiyi ritorik strategiyalar, metaforik ifadələr və auditoriyaya təsir mexanizmləri öyrənilir.

Azərbaycanlı siyasətçilər:

Heydər Əliyev – onun nitqlərində milli birlik və tarixi yaddaşa istinad əsas ritorik prinsiplərdən biridir. Məsələn, "Azərbaycan xalqı heç vaxt müstəqilliyindən dönməyəcək" ifadəsi yalnız faktik məlumat ötürmür, həm də milli kimliyi gücləndirir, auditoriyada emosional bağlılıq yaradır. Bu, klassik **pathos** strategiyasına uyğun nümunədir və liderin etibarlılığı ilə (*ethos*) dəstəklənir (Əliyev, 2001).

Fransızların vətəni işgüzar protokolun qanunvericisi sayılır. Fransızlar çox nəzakətlidirlər, etiketə riayət etməyi sevirlər, fransız xalqı özünəməxsus fərqli tarixi və mədəniyyəti olan Avropa xalqlarından biridir. Fransız dili müəyyən müddət diplomatik yazışmalar və beynəlxalq ünsiyyət dili olmuşdur. Bu, həm milli xarakterin xüsusiyyətlərinə, həm də işgüzar kommunikasiyaların fransız stilinə öz təsirini göstərmişdir. Onlar ağıllı, bacarıqlı, hazırcavab, skeptik, öz mənfəətini güdən, hiyləgər olurlar, işgüzar görüşlər və danışıqlar zamanı ingilis və ya alman dilindən istifadə olunmasına ağrılı reaksiya göstərirlər. Fransız biznesmenlər coşqun təbiətli, alicənab, comərd, güvəncli insanlardır. Bununla belə, onlar riskli maliyyə əməliyyatlarından qaçmağa çalışırlar (Məmmədli, 2022). Ünsiyyətcil olmalarına baxmayaraq, fransızlar tək işləməyə üstünlük verirlər. Başqalarını mühakimə etməyi sevirlər, amma öz ünvanlarına tənqid qəbul etmirlər. Fransada işgüzar tanışlıq zamanı vizit kartı təqdim edilir. Vizit kartında biznesmenin hansı alı təhsil müəssisəsini bitirdiyi qeyd olunur. Fransızlar üçün təhsil son dərəcə əhəmiyyətlidir. Əgər işgüzar görüşdə fransız nümayəndələri tərəfindən bir neçə şəxs iştirak edirsə, o zaman vizit kartı daha yüksək vəzifə tutan şəxsə təqdim edilməlidir. Fransada bir çox mühüm qərarlar təkcə xidməti kabinetlərdə deyil, masa arxasında da qəbul edilir. İşgüzar danışıqlara ciddi hazırlaşırlar, bu məqsədlə daxil olan təkliflərin bütün aspektlərini və mümkün nəticələri incəliklərinə qədər araşdırırlar.

Almanlar fransızlar kimi, qənaətcil və mənfəətini güdəndirlər, daha etibarlı və dəqiqdirlər, amma yumor hissi və mehribanlıqlarına görə fransızlardan geri qalırlar. Onlar skeptikdirlər, ciddi, az danışan və təmkinlidirlər, xırdaçılıqda isə heç kəs onları üstələyə bilməz. Almanlar peşəkarlığı yüksək qiymətləndirirlər. İşgüzar insanları ünsiyyətcildir, şənlənmyi və əylənməyi sevirlər. Tələskənliyi xoşlamırlar. Almanlar bütün görüşlərini xeyli qabaqcadan təyin edirlər. Onlar səhər saat 10-a qədər və saat 16.00-dan sonra danışıqlar aparmırlar. Alman biznesmenlər vaxt itirməyi sevmirlər. Biznesdən danışanda birbaşa işə keçirlər. Danışıqlar zamanı hamıya, hətta gündəlik həyatda "sən" deyə müraciət etdiklərinə belə, "siz " deyə müraciət edirlər. Almaniyada qərarlar müəssisənin ali rəhbərliyi tərəfindən qəbul edilir. Almanlar tez-tez hüquqşünasın köməyindən bəhrələnirlər. Rəhbərlik üslubu avtoritar və iyerarxik xarakter daşıyır. Rəhbər vəzifəyə çatmaq üçün uzun yol keçmək lazımdır. Yüksək vəzifələrdə daha yaşlı adamlar fəaliyyət göstərirlər. Almaniyada işgüzar tərəfdaşları evə dəvət etmək adət deyil. Amma əgər qonaq çağırıblarsa, alman ailəsinə gül dəstəsi ilə qonaq getmək lazımdır, qızılgül dəstəsi bağışlamaq olmaz, çünki bu, qonağın ev sahibəsinə aşiq olması kimi anlaşıla bilər. Almanlarla tanışlıq zamanı çin və titullar əhəmiyyət kəsb edir. Almaniyada titullara böyük önəm verirlər. Danışıqlardan əvvəl nümayəndə heyətinin bütün üzvlərinin titulunu dəqiqləşdirirlər və söhbət zamanı hər kəsə onun titulu ilə müraciət edirlər. Danışıqlara cidd-cəhdlə hazırlaşırlar. Yalnız o zaman danışıqlara qoşulurlar ki, məsələnin həlli yolunu tapmağın mümkünlüyünə əmin olurlar.

İşgüzar amerikalı öz xarakteri etibarilə xırdaçı deyil, amma o istənilən işin təşkilində xırda şeylərin olmadığını yaxşı başa düşür. Buna görə də o, danışıqlara ciddi hazırlıq görür, işin uğurunun ən kiçik elementlərini belə nəzərə alır. Amerikalı biznesmenin ən ümdə keyfiyyəti onun üç əsas qaydaya riayət etməsi ilə ölçülür: təhlil etmək, vəzifə bölgüsü aparmaq və işin icrasını yoxlamaq. Bu qaydalar peşəkarcasına rəhbərlik etmənin şərtləri sayılır. Burada ixtisaslaşma olmadan heç bir işə başlamaq mümkün deyil. Amerikalılar vaxta qənaət etməyi və dəqiqliyi qiymətləndirirlər. Amerikalı iş adamları görəcəkləri işləri əvvəlcədən planlaşdırır və gün ərzində həmin plana uyğun hərəkət edirlər, təyin olunmuş görüşlərə dəqiq vaxtında gəlirlər. Gecikmələr yolverilməzdir və heç bir şeylə ona haqq qazandırıla bilməz. Onları yalnız konkret və real layihələr maraqlandırır. Amerikalıların danışıq-ları aparma üslubu yüksək peşəkarlıqla xarakterizə edilir. Uzunmüddətli danışıqları sevmirlər, danışıqları tək və ya kiçik qruplarla aparırlar. Danışıqlar çox qısa, yarım saatdan bir saata qədər ola bilər. Amerika nümayəndə heyətinin üzvləri arasında tərəfdaşlıq münasibətləri mövcuddur. Onlar yaşından və statusundan asılı olmayaraq, tez-tez bir-birilərinə adları ilə müraciət edirlər. Xarici tərəfdaşlara da bu cür müraciət mümkündür. Bu, o deməkdir ki, münasibətlər təkcə

işgüzar deyil, həm də dostluq xarakteri daşıyır. Amerika işgüzar mühitində uğur əldə etmək üçün müəyyən qaydalara riayət etmək, Amerika biznesinin bütün incəliklərini öyrənmək lazımdır. Onlar işgüzar ünsiyyət təcrübəsinə xeyli demokratizm və praqmatizm elementləri gətirmişlər. Amerikalılar zarafatı sevir və qiymətləndirirlər, dostluğa və səmimiyyətə açıq olduqlarını nümayiş etdirirlər.

L.Barna tərəfindən 1997-ci ildə aparılan araşdırmaya görə ən yaxşı təcrübələr inkişaf etdirilməzdən əvvəl mədəniyyətlərarası yanlış ünsiyyətin əsas mənbələri müəyyən edilməlidir, əks halda bu fərqlər ciddi yanlış ünsiyyətə təsir edə bilər (Alred etc., 2018). Tədqiqata görə işgüzar kommunikasiyada problem yaradan "bloklar" bunlardır:

Dil fərqləri: Xarici mənşəli sözlər bir dildə istifadə edildikdə, məna mənşəyindən fərqli ola bilər. Fransız dilində alış-veriş və parkinq, alış-veriş etmək və park etmək üçün yerlərdir, bu, digər ölkənin dilində parkinqi təmsil etmir. Bəzi sözlər mədəniyyətlər arasında fərqlənmir. Səmərəlilik, tənzimləmə, azad bazar kimi ingiliscə terminlərin tərcüməsi rus dilində çox çətindir. Yapon dilindəki "hai" sözü "bəli" kimi tərcümə olunur, lakin onun mənası "Bəli, razıyam" deyil, "bəli, dinləyirəm" ola bilər.İşgüzar kommunikasiyada qeyri söhbətlər asanlıqla yanlış ünsiyyətə səbəb ola bilər. Məsələn, ABŞ-ın qərb sahilində "pop" adətən "soda içkisi" deməkdir, əksinə, ABŞ-da "doldurulmuş" narkotik istifadəsini ifadə edir.

Qiymətləndirməyə meyil: Adətən ünsiyyətdə mesajı və ya hərəkəti mədəni obyektivimiz vasitəsilə qiymətləndirmək və şərh etmək meyli var. Biz niyyəti anlamadan mesajı və ya davranışı "yaxşı" və ya "pis" kimi qiymətləndirə bilərik.

Yüksək narahatlıq: Kontekstdə nəyin uyğun olduğunu və ya gözlənilən olduğunu başa düşməmək narahatlıq səviyyəsini yüksəldə bilər. Narahat vəziyyətdə olmanın açıq nəticəsi yanlış ünsiyyət və stresdir.

Sosial fərqlər: Sosial fərqlər sosial kimliklə bağlı ola bilər. Bu, bir insanın doğulduğu cəmiyyətin səviyyəsidir və ya kim olmaq istədiklərinə, buna uyğun olaraq necə davranacaqlarına istinad edir. Müxtəlif ölkələrin müxtəlif sosial kimlikləri və incəsənət, mədəniyyət və idman fəaliyyətlərinə müxtəlif reaksiyaları var. Məsələn, bəzi qərb ölkələrinin işçi icmaları futbola baxmağa, Hindistanda isə kriketə üstünlük verirlər. Amma həmin ölkələrdə yüksək təbəqə elit seçim sayılan qolf və tennisə baxır. Sosial status və statusun əhəmiyyəti mədəniyyətlər arasında dəyişir. Məsələn, bu cəhətdən fransızlar yüksək səviyyədədir. Ölkələr sosial status yaradan meyarlara görə fərqlənirlər. Asiyalılar üçün status ailə vəzifələrində və təşkilatlardakı vəzifə adlarında özünü əks etdirir. Lakin ABŞ və Avstraliyada bu, ailə ağacları və titullardan çox şəxsi nailiyyətlərə verilir (Handel, 2020).

Qeyri-verbal ünsiyyət: Müxtəlif mədəniyyətlərarası kontekstdə aydınlıq, çaşqınlıq və anlaşılmazlıq yarada biləcəyi üçün jest, göz təması, zaman, şəxsi məkan və s. kimi fərqlər çox sayda nəzərə çarpır. ABŞ-da barmaq işarəsi "buraya gəl" deməkdir, lakin Malayziyada heyvanları çağırmaq üçün istifadə olunur. Həmin jest Avstraliyada "gecənin xanımları" işarəsi vermək üçün istifadə olunur.

Qərəzlər və stereotiplər: Mədəniyyət bizim dünyaya baxış tərzimizə təsir edir. Qabaqcadan təsəvvürlər və stereotiplər bir qrup insanı və ya qrupla əlaqəli fərdləri mühakimə etmək üçün həddən artıq sadələşdirilmiş xüsusiyyətlərdən istifadə edildikdə baş verir.

Qavrama: Qavrama həm mədəni, həm də şəxsi təcrübələrə çox meyillidir. Mədəniyyətlərarası təşkilatlarda son dərəcə fərqli ünsiyyət üslubları başqa bir insan haqqında mənfi təsəvvürlərə səbəb ola bilər.

Effektiv ünsiyyətin strategiyası.

Mədəniyyətlərarası ünsiyyətdəki fərqləri nəzərə alaraq onların təcrübələrini öyrənib problemləri həll etməyin bir neçə strategiyasını bilmək keyfiyyətli işgüzar əlaqəyə müsbət təsir edəcəkdir. Auditoriya üçün düzgün fəaliyyətləri seçmək çox vaxt aparan bir iş ola bilər, yəni bir fəaliyyət axtarmaqdansa, fəaliyyətə hazırlaşmağa sərf edəcəyimiz vaxt önəmlidir. Ən yaxşı təcrübələri qəbul etməzdən əvvəl kontekst, tip, ünsiyyət mövzuları və risk səviyyəsini başa düşmək və uzunmüddətli perspektivdə insanlara və proseslərə təsirini görmək çox vacibdir. Bunun üçün nəzərə alınmalı bəzi vacib meyarlara diqqət yetirək:

Kontekst və tip: Mədəniyyətlərarası təcrübələr təhsil, iş yeri, digər forumlar və s. kimi müxtəlif kontekstlərə uyğunlaşdırılmalıdır. Buraya şifahi, qeyri-verbal (jest, mimika, proksemika, bədən duruşu, taktil kommunikasiya) və ya yazılı ünsiyyət təcrübəsi aiddir.

Fərqli yanaşma: İşçilərə və ya iştirakçılara öz ünsiyyət və yazılı təcrübələrini başa düşməyə kömək edəcək üslublardan istifadəyə diqqət yetirmək, fərqli ola bilən üsulları başqalarının nəzərinə çatdırmaq üçün seminarlar, təlimlər, görüşlər keçirmək məqsədəuyğun olacaqdır (Bartleby, 2017).

Risk səviyyəsi: Biznes mühitində risk səviyyəsini seçərkən auditoriyanı və onların bacarıq səviyyəsini başa düşmək çox vacibdir. Subkulturalar böyük multikultural təşkilatlarda departament təyinatları və ayrılması ilə müəyyən edilmiş vəziyyətlər, problemlər və ya təcrübələr üzərində düşünmək üçün hazırlanır. Məsələn, Satınalma departamenti dominant mədəniyyətin əsas dəyərlərini və departament üzvlərinə xas olan artıq dəyərləri özündə cəmləşdirən subkultura hazırlayır. Eynilə, fiziki olaraq ayrılmış

başqa region və ya ölkədəki təşkilat bölməsi, hətta əsas dəyərlər təşkilat tərəfindən saxlanılsa belə fərqli subkultura inkişaf etdirir. Belə hallarda, mədəniyyətlərarası səmərəli ünsiyyətin idarə edilməsi təşkilatın strategiyasının böyük aspektlərindən biri hesab olunur. Bu, işçi və biznes performansını maksimuma çatdırmaq üçün əsas addım kimi götürülə bilər.

Mədəniyyətlərarası effektiv ünsiyyət üçün ən yaxşı təcrübələr: Həmişə etiket qaydalarına riayət etmək gərəkdir. Etiket mədəniyyətdə uyğun və qeyri-münasib hesab edilənlərin parametridir. O, bir mədəniyyətdən digərinə ötürülən quruluşu, bütövlüyü və anlayışı formalaşdırır. Xarici ölkəyə işgüzar səfər edərkən, gediləcək yer haqqında məlumat oxumaq və mədəni düşüncəyə malik olmaq həmişə uğur gətirə bilər. Dəblər dəyişsə də, etiketin əsasları dəyişməz olaraq qalır. Həmişə hörmət, qayğı və ədəb göstərməklə fərdiliyi itirmədən tarazlıq qurmağa çalışın. Təqdimatlar və görüşlər etməzdən əvvəl insanlara necə müraciət edəcəyinizi yoxlayın. Hörmət göstərən və əlavə edən yüksək mədəniyyətlər üçün "Cənab" etiketi çox gözləniləndir, halbuki aşağı kontekstdə menecerlər işçiləri ilk adlarla çağırdıqda rahat olurlar. Hörmət mədəni uçurumu aradan qaldırmağın açarıdır. Hər hansı abreviaturadan, jarqondan çəkinin, çünki hərfi mənada qəbul oluna bilər. Aydın və yavaş rejimdə danışın, söhbəti yersiz uzatmamağa çalışın. Kobud əl jestlərindən istifadə etmək, toxunmaq və şəxsi suallar vermək qeyri-peşəkarlıq kimi qiymətləndirilə bilər və müxtəlif kontekstlərdə uyğun deyil.

Mədəniyyətlər arasında etik ünsiyyət qurmaq: Şirkətlər başqa ölkələrə ixrac etdikdə, onların əsas ölkə ilə eyni etik və hüquqi öhdəlikləri olması şərt deyil. Odur ki, kommunikatorlar fərqli mədəniyyətə, etikaya və qanunlara malik olan digər ölkələrdə insanlarla ünsiyyət qurarkən bu nüansları başa düşməlidirlər. Şirkətlər fərqli mədəniyyətin etik baxışları ilə necə davranacaqlarına qərar verməlidirlər. Effektiv ünsiyyət biznes uğurunun vacib hissəsidir. İşçi qüvvəsi multikultural və ya müxtəlif olduqda bu, daha vacib və hətta mürəkkəbləşir. Müxtəliflik müasir qloballaşan dünyada biznes üçün yaxşı məna kəsb edir, ona görə də biz bunu gözardı edə bilmərik və təşkilatımızı unikultural mühitlə məhdudlaşdıra bilmərik. Müxtəlif mənşəli işçilərlə məhsuldar iş yeri yaratmaq şirkəti müxtəlif səviyyələrdə zənginləşdirə bilər, lakin bu, təbii qəbul edilə bilən bir proses deyil. Dil maneələri və mədəni anlaşılmazlıqlar effektiv ünsiyyətə mane ola bilər və iş yerində mürəkkəbliklər, o cümlədən ünsiyyətlə, etik dəyərlərlə bağlı problemlər yarada bilər (Anoop, 2019).

Mədəniyyətlərarası ünsiyyəti təkmilləşdirmək üçün digər vasitələr:

1. Müxtəlif mədəniyyətlərin məlumatı ən yaxşı şəkildə necə qəbul etdiyini öyrənin. Bəzi mədəniyyətlər menecerdən gələn məlumatlara etibar etmir, komanda rəhbərindən istiqamət götürməyi üstün tutur. İşçilər qrup qarşısında və ya təkbətək fəaliyyətlərinə görə tərifləri qiymətləndirməyə görə fərqlənirlər.
2. Bütün işçilərinizi mədəni məlumatlandırma və müxtəliflik proqramları ilə hazırlayın. Empatiya və qarşılıqlı hörməti öyrədin. Həmçinin yeni işçilərə şirkətinizin ümumi mədəniyyətini: məqsədlərinizi və gözlədiyiniz davranışı həqiqətən dərk edə bilmələri üçün onlara davamlı mədəniyyət təlimi verin.
3. İşçilərə mentorlar təyin edin ki, inteqrasiya asanlaşsın və işçilər onları başa düşən adama müraciət etsinlər.
4. Müxtəlif mədəniyyətlərdən olan işçilərə müraciət edərkən jarqon və ya metaforlardan istifadə etməkdən çəkinin. Fərqli mədəniyyətdən olan biri üçün bunların heç bir mənası ola bilməz.
5. Müxtəlif mədəniyyətlərdən olan işçilərə məqsəd və prosesləri izah edərkən mümkün olduqda qrafiklərdən istifadə edin.
6. Əlaqə üçün özünüz müraciət edin, lakin zəruri hallarda vasitəçidən, tərcüməçidən istifadə etməyə hazır olun.

Daxili kommunikasiya vasitələri: Hər bir təşkilatda daxili kommunikasiya vasitələri mahiyyətcə eynidir. Fərq alətlərin necə istifadə olunmasıdır (Ritu, 2013).

Daxili kommunikasiya strategiyası fərqi: Ünsiyyət istənilən təşkilatın can damarıdır. Rabitə pozulduğu zaman təşkilatın fəaliyyəti zəifləyəcək. Zəif ünsiyyət təşkilatların uğursuzluqlarının və ya potensiallarını dərk etməməsinin əsas səbəblərindən biridir. Əksər təşkilatlar həmişəkindən daha çox ünsiyyət vasitələrinə sahib olsa da, "Niyə ünsiyyət qurmaqda belə çətinlik çəkirik?". Yaxşı kommunikasiya təcrübələri təşkilatın bütün səviyyələrində olan insanlara təşkilatın və bir-birinin ehtiyaclarını başa düşməkdə və onlara cavab verməkdə kömək edir. O, insanlara təşkilatların məqsəd, vəzifələrinə uyğun gələn effektiv qərarlar qəbul etməyə kömək edir və fərdi, komanda səylərini daha böyük mənzərə ilə əlaqələndirməklə təşkilat daxilində arzu olunan davranışları, səyləri tanımaqla performansı motivasiya edə bilər.

Metod

Konseptual yanaşmadan istifadə edərək bu tədqiqat işi çoxmədəniyyətli işgüzar mühitdə effektiv ünsiyyətin şərtləndirilməsi ilə bağlı mövcud ədəbiyyatı və nəzəri çərçivələri sintez edir, onun təşkilati strategiyalarını inteqrasiya edir. Rəqəmsal dövrün praktiki nəticələrini və strateji uyğunlaşmalarını aydınlaşdırmaq üçün real dünya nümunələrindən istifadə edir. Məqalə, həmçinin effektiv ünsiyyətin aktual problemlərini, çətinlikləri və müəssisələr üçün

həyata keçirilə bilən strategiyaları diqqətə çatdıran tədqiqat gündəliyi təklif edir.

Nəticə

Çoxmədəniyyətli işgüzar mühitdə effektiv ünsiyyətin şərtləndirilməsi ilə bağlı özünəməxsus mürəkkəbliyə baxmayaraq, məqalə onun müasir aktual mənzərəsini idarə edən müəssisələr üçün çox vacib olduğunu göstərir. Mövzuda işgüzar strateji uyğunlaşmaların vacibliyi vurğulanır, onların inkişaf edən bazar dinamikası şəraitində müştəri təcrübələrinə və təşkilati strukturlara təsirləri qeyd edilir. Bundan əlavə, tədqiqat işi istifadəçi təcrübələrini gücləndirən və dəyər təkliflərini məharətlə çatdıran effektiv verbal, qeyri-verbal, rəqəmsal kommunikasiya strategiyalarının əhəmiyyətini vurğulayır. Bu yazıda biz ünsiyyətlə bağlı məsələləri və fərdlərin mədəniyyətlərarası ünsiyyətlərini necə təkmilləşdirə biləcəyini müzakirə etdik. Mədəniyyətlər arasında yaxınlıq ümumi cəhətləri, fərdilik isə fərqlilikləri və ayrılığı vurğulayır. Effektiv ünsiyyət yaxınlıq və fərdilik üçün ziddiyyətli ehtiyaclar arasında balanslaşdırıcı bir hərəkətdir. Müəyyən sözlər və davranışlar başqa fərdləri və mədəniyyətləri stereotipləşdirə, qorxuda və təhqir edə bilər. Empatiya qurmaq və başqalarının hisslərinə qarşı həssas olmaq işgüzar kommunikasiya effektiv təsir yarada biləcək qaydalardandır. Bu dilemmanın sadə həlli yoxdur. Buna baxmayaraq, bir insan, bir rəhbər və işçi sövdələşmələrdən xəbərdar olmalı və inkişaf etmək üçün mümkün razılaşma üslubunu tapmalıdır. Yuxarıdakı müzakirələrdən belə nəticəyə gəlmək olar ki, qloballaşmanın son zamanlar sürətlə artması səbəbindən müxtəlif iş yerlərində effektiv ünsiyyət qurmaq təşkilatın qarşısında çətin bir missiya qoya bilər. Təşkilatda effektiv daxili ünsiyyət olmadan, o təşkilatın müştərilər, hökumət, cəmiyyət, təchizatçılar və s. kimi xarici tərəflərlə əlaqə qurması çətin deyil, lakin qeyri-mümkündür. Beləliklə, müxtəlif işçi qüvvəsi ilə uğurlu bir təşkilat olmaq üçün bir iş firması daxili ünsiyyətini yaxşılaşdırmağa və onun effektiv olmasına diqqət etməlidir.

Təkliflər

Gələcək tədqiqatlarda müvafiq mövzu üzrə daha geniş araşdırma işi aparmaq və aşağıdakı təklifləri nəzərə çatdırmaq məqsədəuyğun hesab edilir:

1. Mədəniyyətlərarası təlimlər təşkil olunmalıdır. İşçilərə müxtəlif mədəniyyətlər barədə bilik və bacarıqlar öyrədilməli, stereotiplərin qarşısı alınmalıdır.

2. Aydın və açıq kommunikasiya formaları təşviq olunmalıdır. Qeyri-müəyyən və mədəniyyətə xas jestlərdən çəkinmək, sadə və başa düşülən ünsiyyət dili seçmək vacibdir.

3. Dil baryerlərinin aradan qaldırılması üçün dəstək göstərilməlidir. Təşkilatda ümumi iş dili üzrə dil kursları və ya tərcümə xidmətləri təmin edilməlidir.

4. Multikultural komanda menecerləri yetişdirilməlidir. Liderlər mədəni fərqlilikləri idarə etmək üçün xüsusi bacarıqlara malik olmalıdır.

5. Empatiya və aktiv dinləmə bacarıqları inkişaf etdirilməlidir. İşçilər qarşı tərəfin fikirlərinə hörmətlə yanaşmağı və onları düzgün başa düşməyi öyrənməlidirlər.

6. Mədəniyyətlərarası konfliktlərin idarə olunması üçün mexanizmlər yaradılmalıdır. Mübahisələrin mədəni fərqlər üzündən yaranması halında vasitəçilik və neytral yanaşma tətbiq olunmalıdır.

7. Ədalətli və inklüziv iş mühiti təşviq olunmalıdır. Bütün mədəni mənsubiyyətlərə malik işçilərin fikirlərinə və töhfələrinə dəyər verilməli, diskriminasiyaya qarşı sıfır tolerantlıq tətbiq olunmalıdır.

ƏDƏBİYYAT SİYAHISI:

1.Əbdülhəsənli T.Ə., Xəlilova T.Ə., Əmrahova M.B. (2020), Azərbaycan dili və nitq mədəniyyəti (interaktiv dərslik). Bakı, İqtisad Universiteti, 432 səh.

2.Məmmədli N. (2020), Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, Elm və təhsil, 445 səh.

3.Məmmədli N. (2022), Azərbaycan dilində işgüzar və akademik kommunikasiya (dərslik). Bakı, Elm və təhsil, 2022, 511 səh.

4.Alred, G. J., Oliu, W. E., & Brusaw, C. T. (2018). The Handbook of Technical Writing (Twelfth ed.). Bedford/St. Martin's.

5.Anoop, B. (2019, March 28). The Need for Design Thinking in Communications. Market Express. http://www.marketexpress.in/2019/03/the-need-for-design-thinking-in-communications.html

6.Culture Is Communication and Communication Is Culture | Bartleby. (2017, May 23). https://www.bartleby.com/essay/Culture-Is-Communication-and-Communication-Is-Culture-FKMNSSSXHKGEZ

7.Gracie, John Lopez. (2016, May 9). The Importance of Cross Cultural Training. https://www.linkedin.com/pulse/importance-cross-cultural-training

8.Haddadi, F. (2011, November 9). Lifestyle comparison Australia vs France - What you could be missing in either place. Https://Www.Fabien-Haddadi.Info/. https://www.fabien-haddadi.info/en/49-france-vs-australia

9.Handel, S. (2020, August 1). Conversation Threading: How to Never Run Out of New Things to Say. The Emotion Machine.

https://www.theemotionmachine.com/conversation-threading-how-to-never-run-out-of-new-things-to-say/

10. Pavol S., Mukthy S. (2021), "Effective Cross-Cultural Communication for International Business", Shanlax International Journal of Management.

11. Ritu R. (2013), "Effective Communication in a Diverse Workplace", İnternational Journal of Enhanced Research İn Management & Computer Applications,Vol.2, ISSUE 2, ISSN NO: 2319-7471

12. The Role of Design Thinking in Intercultural Communication. (2019, March 25). https://www.linkedin.com/pulse/role-design-thinking-intercultural-communication-nicole-barile.

DOİ: 10.32010/HCPV8221

MƏDƏNİ KODLARIN DEKONSTRUKSİYASI: ELVİN BAKİROĞLUNUN "NOVRUZ SAYIQLAMALARI" ŞEİRİNDƏ POSTFOLKLOR VƏ FOLKLORUN EMOSİONAL QATLARI

DAĞTUMAŞ Sərvanə Xanalı
Orcid: https://orcid.org/0009-0002-2193-2045
E-mail: servane.ferecova.1999@mail.ru

Xülasə: Məqalədə müasir ədəbiyyatımızın gənc nümayəndəsi hesab olunan şair Elvin Bakiroğlunun "Novruz sayıqlamaları" şeiri çağdaş poeziyamızda fərdi şüurun milli bayram motivləri ilə toqquşması kontekstində təhlil edilir, Novruz bayramı ritualları ənənəvi simvollardan dekonstruktiv şəkildə ayrılır, fərdi, psixoloji və fəlsəfi təcrübənin daşıyıcısına çevrilir. "Novruz sayıqlamaları" şeirində Novruz bayramı yalnız bir təqvim bayramı deyil, eyni zamanda iztirabların, xatirələrin və hisslərin "bayramıdır". Bugünə qədər gənc şairin yaradıcılığı akademik səviyyədə tədqiq olunmadığı üçün tədqiqata ciddi ehtiyac var. Elvin Bakiroğlunun "Novruz sayıqlamaları" şeirində "sayıqlama" anlayışı lirik qəhrəmanın daxili dünyasının xaotik və qeyri-sabit ruhani vəziyyətini ifadə edən əsas konseptual açardır. Bayramın yaratdığı atmosferlə lirik qəhrəmanın psixoloji durumu kontrastdır. Bayram ritualları daxili tənhalığın, fərdi itkilərin simvolu, ağrıların və əzabların fəslidir. "Sayıqlama" ifadəsi şeirdə çoxqatlı simvol kimi çıxış edir, həm psixoloji vəziyyət, həm də poetik dilin quruluşudur. Bu şeir çağdaş poeziyamız üçün yenilikdir. Müasir ədəbiyyatımızda folklor yeni şərtlər daxilində formalaşır və bu ədəbi proses postfolklor adlanır. Belə ki folklor ənənəvi kontekstdən uzaqlaşaraq, yenidən qurulur, fərdiləşdirilir. Nəticədə folklorşünaslıq elminə başqa pəncərə açılır. "Novruz sayıqlamaları" şeirində klassik motivlər dekonstruksiyaya uğrayır. Burada subyektiv təcrübə ön plandadır, insan varlığının dialektikası araşdırılır, təsəvvürümüzdəki Novruz bayramı motivi "dağılır", bayram anlayışı iztirab, tənhalıq, nakam sevgi və daxili boşluqla assosiasiya olunur, lirik qəhrəmanın hissləri, sarsıntıları təsirli dillə ifadə olunur. Şeirdə folklor elementləri olduğu kimi təkrarlanmır, subyektiv psixoloji təcrübəyə uyğunlaşdırılır, kollektiv yaddaşdan fərdi yaddaşa doğru transformasiya edilir, kollektiv yaddaşa duyğusal kodlar yüklənir. Folklor arxaik yaddaş olmaqla bərabər şəxsi itkinin və mətnin semantik qatlarının formalaşmasında canlı və yaradıcı mənbə rolunu oynayır. (folklorun poetik transformasiyası) Məqalədə əsas diqqət Elvin Bakiroğlunun "Novruz sayıqlamaları" şeirində mədəni kodların və bayram rituallarının dekonstruksiyası, postfolklor və folklorun emosional qatlarının tədqiqinə yönəlib.
Açar sözlər: Elvin Bakiroğlu, Novruz sayıqlamaları, dekonstruksiya, bayram ritualları, postfolklor.

DECONSTRUCTION OF CULTURAL CODES: EMOTIONAL LAYERS OF POSTFOLKLORE AND FOLKLORE IN ELVIN BAKIROGLU'S POEM "NOVRUZ DELİRİUMS"

DAGTUMAS Servane Xanalı
Orcid: https://orcid.org/0009-0002-2193-2045
E-mail: servane.ferecova.1999@mail.ru

Abstract: This article analyzes the poem "Novruz Nonsense" by Elvin Bakiroglu, considered a young representative of our contemporary literature, in the context of the clash of individual consciousness with national holiday motifs in our contemporary poetry. The rituals of the Novruz holiday are deconstructively separated from traditional symbolism, becoming a vehicle for individual, psychological, and philosophical experience. In the poem "Novruz Nonsense," Novruz appears not only as a calendar holiday but also as a "holiday" of suffering, memories, and feelings. Since the work of this young poet has not yet been studied at the academic level, there is a serious need for further research. In Elvin Bakiroglu's poem "Novruz Nonsense," the concept of "fornication" is the main conceptual key, expressing the chaotic and unstable spiritual state of the lyrical hero's inner world. The atmosphere created by the holiday contrasts with the lyrical hero's psychological state. Festive rituals are a symbol of inner loneliness, personal loss, a season of pain and suffering. "Novruz Nonsense" functions in the poem as a multilayered symbol, simultaneously representing both a psychological state and a structure of poetic language. This poem is a novelty for our contemporary poetry. In modern literature, folklore is shaped by new conditions, and this literary process is called post-folklore. Thus, folklore is restructured and individualized, moving away from its traditional context. As a result, another window into the science of folklore studies opens. In the poem "Novruz Nonsense," classical motifs are deconstructed. Here, subjective experience comes to the fore, the dialectic of human existence is explored, the motif of the Novruz holiday is "split" in our imagination, the concept of the holiday is associated with suffering, loneliness, unrequited love, and inner emptiness, the feelings and turmoil of the lyrical hero are expressed in an effective language. In the poem, folkloric elements are not repeated in their original form, but are adapted to subjective psychological experience, transformed from collective memory to individual memory, and emotional codes are loaded into collective memory. Folklore, as an archaic memory, plays the role of a living and creative source in the formation of personal losses and the semantic layers of the text. (The poetic transformation of folklore).

This article deconstructs cultural codes and festive rituals in Elvin Bakiroglu's poem "Novruz Nonsense," exploring the emotional layers of post-folklore and folklore.
Keywords: Elvin Bakiroglu, Novruz Nonsense, deconstruction, festive rituals, post-folklore.

ДЕКОНСТРУКЦИЯ КУЛЬТУРНЫХ КОДОВ: ЭМОЦИОНАЛЬНЫЕ ПЛАСТЫ ПОСТФОЛЬКЛОРА И ФОЛЬКЛОРА В ПОЭМЕ ЭЛЬВИНА БАКИРОГЛУ «НОВРУЗОВСКИЕ БРЕДНИ»

ДАГТУМАС Серване Ханалы
E-mail: https://orcid.org/0009-0002-2193-2045
Электронная почта: servane.ferecova.1999@mail.ru

Резюме: В статье анализируется стихотворение «Новрузские бредни» поэта Эльвина Бакироглу, считающегося молодым представителем нашей современной литературы, в контексте столкновения индивидуального сознания с национальными праздничными мотивами в нашей современной поэзии. Ритуалы праздника Новруз деконструктивно отделяются от традиционной символики, становясь носителем индивидуального, психологического и философского опыта. В стихотворении «Новрузские бредни» праздник Новруз выступает не только как календарный праздник, но и как «праздник» страданий, воспоминаний и чувств. Поскольку творчество молодого поэта до сих пор не изучено на академическом уровне, существует серьёзная потребность в исследовании. В стихотворении «Новрузские бредни» Эльвина Бакироглу понятие «блуд» является основным концептуальным ключом, выражающим хаотичное и нестабильное духовное состояние внутреннего мира лирического героя. Атмосфера, создаваемая праздником, контрастирует с психологическим состоянием лирического героя. Праздничные ритуалы – символ внутреннего одиночества, личных потерь, сезона боли и страданий. «Новрузские бредни» выступает в стихотворении как многослойный символ, оно одновременно является и психологическим состоянием, и структурой поэтического языка. Это стихотворение – новинка для нашей современной поэзии. В современной литературе фольклор формируется в новых условиях, и этот литературный процесс называется постфольклором. Таким образом, фольклор перестраивается и индивидуализируется, отдаляясь от традиционного контекста. В результате открывается ещё одно окно в науку фольклористики. В стихотворении «Новрузские бредни» деконструируются классические мотивы. Здесь на первый план выходит субъективный опыт, исследуется диалектика человеческого существования, мотив праздника Новруз в нашем воображении «расщепляется», понятие праздника ассоциируется со страданием, одиночеством, безответной любовью и внутренней пустотой, чувства и потрясения лирического героя выражены в действенном языке. В стихотворении фольклорные элементы не повторяются в первозданном виде, а адаптируются к субъективному психологическому опыту, трансформируются из коллективной памяти в индивидуальную, а эмоциональные коды загружаются в коллективную память. Фольклор, будучи архаичной памятью, играет роль живого и творческого источника в формировании личностных потерь и смысловых пластов текста. (поэтическая трансформация фольклора) Статья посвящена деконструкции культурных кодов и праздничных ритуалов в стихотворении Эльвина Бакироглу «Новрузские бредни», исследованию эмоциональных пластов постфольклора и фольклора.
Ключевые слова: Эльвин Бакироглу, Новрузские бредни, деконструкция, праздничные ритуалы, постфольклор.

Giriş

Müasir poeziyamızın görkəmli nümayəndələrindən biri olan şair Elvin Bakiroğlunun poetik dünyası dərin fəlsəfi düşüncələrlə, fərqli duyğuların dinamikası və emosional qatlarla zəngindir. Şairin yaradıcılığı çoxşaxəli düşüncə modelləri və tematik rəngarəngliyi ilə seçilir. O, "*Bizim keçmişimiz əl-ələ gəzir*", "*İnsan da Vətəndi, demişdim axı*", "*Elə sındım, bircə dənə Şüşəm tapılmadı, anam*", "*Gəlib ömrümüzü yeyən adamlar*", "*Sevginamə*", "*Sevginin bir üzü qaradı həmişə*", "*Domino*", ("*Oyun daşı kimiyik*") "*Dənizə daş atmayın, Dalğalar yaralanar*", "*Şükür birinci sözə, Şükür şükrün özünə*", "*Sənin üçün tapmışam Ürəyimdə iş yeri*", "*Novruz sayıqlamaları*" və s. hisslərlə aşıb daşan şeirlərin müəllifidir. Xatirələri, yaşanmışlıqları yada salmaq, daxili boşluq və tənhalıq hissləri onun yaradıcılığının əsas xəttini təşkil edir.

Nəzəriyyə

Müasir ədəbiyyatımızda bir çox arxetiplərə fərdi, intim, duyğusal və travmatik kodlar yüklənir. Ənənəvi anlamda dirçəliş, təbiətin oyanışı və ruhsal təmizlənmə ilə assosiasiya olunan Novruz bayramı motivləri çağdaş ədəbiyyatımızda fərqli prizmada təqdim olunur. Şair Elvin Bakiroğlu "Novruz sayıqlamaları" şeirində Novruz bayramını fərdi itki, iztirab, ekzistensial boşluq, tənhalıq və ayrılıq kontekstində təqdim edir, bayram anlayışını dekonstruksiyaya uğradır, fərdi yaddaşın poetikasını formalaşdırır və ədəbiyyatda yeni mərhələ yaradır. (postfolklor)

Mədəniyyətimizin əsas fiquru hesab etdiyimiz Novruz bayramı təqvim hadisəsi olmaqla yanaşı,

kollektiv yaddaşın, özünüdərkin və mənəvi kimliyin bir hissəsidir. Sovet dövründə Novruz bayramının keçirilməsi ilə bağlı qoyulan qadağalara baxmayaraq, ədəbiyyatşünas, deputat Şıxəli Qurbanovun böyük zəhməti nəticəsində maneələr aradan qaldırılır. "1960-cı illərdə Azərbaycan kommunist partiyası mərkəzi komitəsinin katibi Şıxəli Qurbanov Novruz bayramına "bəraət" verilməsi, Novruzun rəsmi bayram kimi qeyd edilməsi üçün mübarizəyə başladı. Təhlükəli təşəbbüs idi. Mərkəzi Komitənin 1-ci katibi Vəli Axundov da Şıxəli Qurbanovu təhlükəli iş gördüyü barədə xəbərdarlıq etdi, amma o, geri çəkilmədi". (Tahirqızı, 2014).

Bugün milli kimliyimiz olan Novruz bayramını xalqımız yaşadır, adət-ənənələrimizi unutmur. Novruz bayramı yalnız bayram deyil, eyni zamanda xalqımızın toplumsal yaddaşının formulu, yenilənmə və sosial birlik bayramıdır. "Novruz" tərkib elementləri etibarilə arxaik ritualdır, mövsüm mərasimidir, təqvim bayramıdır və ya milli bayramdır. Bunlardan sonuncusu, yəni müasir milli bayram anlayışı onların məcmusunu özündə ehtiva edir". (Xəlil, 2013).

Şair Elvin Bakiroğlunun "Novruz sayıqlamaları" şeirində Novruz bayramı yarımçıq qalmış sevgi, sağalmayan yara, tənhalıq və milli dəyərlərə şəxsi hisslərin yüklənməsinin simvoludur. Şeir daxili monoloq üzərində qurulub. Şeirin iki qəhrəmanı var: qəhrəmanın daxili "mən"i və onun gözlədiyi insan. Lirik qəhrəman gözünü yolda qayan şəxslə "həmsöhbət olur", hisslərini öz içində basdırmır, əksinə ifadə edir, nə hisslər keçirdiyini dilə gətirir, ancaq biz qarşı tərəfin səsini eşitmirik. O, kədərlidir, dinləyicisindən cavab gözləmir, özü danışır, keçirdiyi hissləri ürəyində, ruhunda yük olaraq, gəzdirmir, paylaşır, dərdləşir. Şərt deyil ki, qarşı tərəf ona reaksiya versin, onun sadəcə dinlənilməyə ehtiyacı var. Hamı bayram abu-havasındadır, xoşbəxtdir, ondan başqa. (psixoloji dissonans) Qəhrəmanımız xoşbəxt deyil, sevinmir, əksinə keçmişdən, ayrılıqdan danışır, onda çatışmayan, yarımçıq qalmış və tamamlanmağa ehtiyac duyduğu nəsə var. Sanki ruhunda bir yara var, o yara sağlamır, üstü açıq qalıb, həmişə göynəyir, ən çox da o yaraya basanda. Ruhundakı o yara artıq "infeksiya qapıb", "iltihablaşıb", qəhrəmanımız "psixoloji infeksiya"ya "yoluxub". Onun üçün Novruz yenilənmə deyil, köhnəlmiş hisslərin (bəlkə də həmişə təzə) xatırlanması və keçmişdən gətirdiyi yüklərin toplusudur. Onun ətrafındakı insanlar bayram sevincini yaşadıqları halda, o, daxili tənhalığı və iztirabları ilə baş-başadır. Qəhrəman sanki "ekzistensial sancı" çəkir, eləcə də cəmiyyətdən özünü "ekzistensial təcrid" edir.

Novruz bayramı insanın ruhunu yenilədiyi halda, lirik qəhrəmanın ruhu "köhnəlib", "iltihablaşmış" ruhsal yarası sağalmır. O, əsl sevgini, sevinci təqvimlə deyil, sevgi ilə ölçür, yəni sevgi dolu keçən hər günümüz bayramdır, insanın xoşbəxt olduğu gün elə bayram günüdür. Əsl bayram ildə bir dəfə qeyd olunmur, sevdiyin, yanında özünü xoşbəxt hiss etdiyin şəxslə keçirdiyin və dəyər gördüyün hər gün elə bayramdır. Şeirdə bayram zamanın sərhədlərini aşır, bu ənənənin yaratdığı təəssüratlar dekonstruksiyaya məruz qalaraq, fərdi eksperimentə əsaslanan yeni bir bayram- tənhalığın ayini, "daxili təqvim" anlayışı yaranır. Lirik qəhrəman da bu səbəbdən Novruz bayramını yenilənmə və ümid simvolu kimi görmür, əksinə, öz itkilərini, daxili qaranlığını yaşayır, onun üçün Novruz bayramı yalnız təqvimə görə "bayram"dır. Bayram ritualları əsl mahiyyətini itirir və fərdi tənhalıq təcrübəsinə çevrilir. Lirik qəhrəmanın şüuru sabit deyil, "sayıqlayır", yaşadığı acı təcrübələr və yarımçıq qalmış hissləri onun nəzərində bayram anlayışını deformasiyaya uğradır. Bəs onun "daxili təqvim"i hansı fəsildədir? O hisslərini kiminlə paylaşır, kimi gözləyir, kimə səslənir? Onu kim intizarda qoyub? Sevgili? Özü? İtirdiyi uşaqlığı?

Novruz bayramı şeirdə sağalmayan yara, travma və daxili boşluğun rəmzidir. Bahar təbiəti çiçəkləndirir, ancaq qəhrəmanın yarasını qanadır. Kəpənək azadlığın və müvəqqəti həyatın rəmzidir. Qaranquş isə müjdəçi deyil, əksinə sükuta qərq olub, yaz fəslinə qarşı laqeyddir. Şeirdə yazın "müştəri" kimi təqdim olunması ironikdir:

Bu bayram keçdi sənsiz,
Keçdi bu bayram belə.
Novruz bahar gətirdi,
Gül açdı yaram belə.
Axışdı kəpənəklər
Yaza müştəri kimi.
Göyərdi səmənilər
Yaramın yeri kimi.
Səndən xəbər də yoxdu,
Gətirməyib qaranquş.
Sənsiz qaranquşun da
Yazdan xəbəri yoxmuş.

Novruz bayramına məxsus adət-ənənələr şeirdə fəlsəfi, psixoloji və subyektiv müstəvidə yenidən qurulur, mədəni kodlar, folklor elementləri dekonstruksiyaya uğrayır, bayram ritualları poetik məkanda ilkin funksiyasından uzaqlaşır, daha çox fərdi təcrübəyə əsaslanır və yenidən məna qazanır. (Jak Derridanın "dekonstruksiya" nəzəriyyəsi) Bayram harmoniyası balanslı deyil, sevincin yerini kədər tutur, bayramın olması xoşbəxt olmaq üçün yetərli deyil, çünki lirik qəhrəman daxilən xoşbəxt deyil. Onun üçün zaman irəliləmir, dəyişən tək şey

təqvimdir, rəqəmlərdir, hissləri isə donub, "daxili təqvim"i geridə qalıb. Novruz bayramının rəmzləri ənənəvi kontekstdən çıxarılır, metaforik mənalara çevrilir və fərdin daxili aləmini, ruhi vəziyyətini ifadə edir, milli motivlər, rituallar, adət-ənənələr yenidən kodlaşdırılır. (kulturoloji dekonstruksiya)

"Novruz sayıqlamaları" şeiri çoxqatlıdır, hisslər xaotikdir, bayram ritualları və folklor elementləri yenidən fərqli formada təqdim olunur. Novruz bayramı itki və tənhalıqla paralel şəkildə təqdim olunur. Şeirdə bəhs olunan Novruz bayramı rituallarından biri səmənidir. Səməni ilə bağlı mənbələrdə maraqlı fikirlər mövcuddur. Məsələn, filologiya üzrə fəlsəfə doktoru Sevinc Qasımova "Azərbaycanda Novruz ənənə və inancları" kitabında yazır: "Göyərdilmiş səməni yaradılışı və qadın başlanğıcını, su isə kişi başlanğıcını-dölləndirməni rəmzləndirir. Ayin-ovsunun əlamətdar cəhəti onun ilaxır çərşənbədə icra olunmasıdır. Yeni il-yeni həyatın başlanğıcı deməkdir. İnsanlar səməni ovsunu ilə yeni tale yaratmaq, köhnə, pis taleyi dəyişdirmək istəyirdilər". (Qasımova, 2018). Dosent Ağaverdi Xəlil isə "Türk xalqlarının yaz bayramları və Novruz" kitabında qeyd edir ki, səməni ağac kultu ilə bağlıdır, yeni həyatı, təbiəti və əkinçiliyi simvollaşdırır: "Məsələn, təbiətlə bağlı olan və insanların yaşayışında mühüm əhəmiyyət daşıyan yaz mövsümü ilə başlanan yaşıllanmanı "Səməni" təmsil etməkdədir. Bu element təbiətin dirilməsini bitki səviyyəsində simvolizə edir". (Xəlil, 2013). Şeirdə isə səməni iztirabın, acıların psixosimvolik ifadəsi, əbədi yara və sağalmayan keçmişin izləridir. Burada səməni bioloji yenilənmə deyil, əksinə psixoloji əzabların təkrarıdır. ("*Göyərdi səmənilər Yaramın yeri kimi*")

Bayramın əsas rituallarından biri də tonqaldır. Çərşənbə tonqalları köhnə ili yola salma, təmizlənmə, fiziki ("ağırlığım") və mənəvi ağırlığın ("uğurluğum") "odda qalanması", Novruz bayramı tonqalı isə təzələnmə, yeni ili qarşılama funksiyasını daşıyır və bu tonqalın üzərindən tullanmaq olmaz. "Arxaik ritualın xalq ənənəsində yaşayan qalıq forması ilahiləşdirilmiş əcdadların kosmik dünyaya yola salma vasitəsi kimi öz aydın ifadəsini tonqal üstündən tullanmada tapır". (Xəlil, 2013). "Novruz sayıqlamaları" şeirində bayram sevincinin arxasında gizlənən əzab "tonqal"la şifrələnir. Tonqal ruhani təmizlənmə, qurbanvermə deyil, əzab və bitməyən həsrətin simvoludur. "Özünü oda atan, alovun içərisindən keçən "ritual personajı" özünü Tanq Tenqriyə qurban etmiş olur. Bu qurban vermə ritual və ya simvolik xarakter daşıyır. Özünü odda qurban verən fərd Tanq Tenqrini simvolizə edən Tonqalda onunla birləşir, bütövləşir, "o dünyada", xaos məkanında olur, əcdad ruhları ilə, "tın"la təmas yaradır, orada sakrallaşır və yenidən oddan çıxaraq "bu dünyaya", kosmos məkanına qayıdır". (Qasımova, 2018). Tonqal lirik qəhrəmanın daxilini alovlandıran və sönməyən ağrıların metaforası, (sayıqlamanın poetikası) onun daxili dünyası, depressiv durumu və mənəvi əzablarının ifadəsidir. (ritualın psixososial semiotikası) Tədqiqat zamanı aydın olur ki, bayramın milli ritualı (tonqal) psixoloji simptom səviyyəsinə endirilir.

Kosa ilə keçəl bayramın rəmzlərindən biridir. Kosa qışla yazın birgə rəmzidir, yazı yaradan qışdır, üzü tüksüzdür, keçəlin isə başı tüksüzdür, qışın rəmzidir. "Fiziki harmoniyanın natamamlığı onların dünya modelindəkı kosmik imkanlarını məhdudlaşdırır. Burada inisiasiya ritualından keçən kosadır, çünki o "ölür-dirilir", keçəl isə mediatordur. Yəni onun xaosdan kosmosa sakrallaşaraq keçməsinə dəstək verir. Kosa ritualda ölür, əcdad dünyasına yola salınır, xaosda dağılaraq orada sakral mahiyyət qazanır və kosmosda yenidən qurulur". (Qasımova, 2018). Kosa və keçəl şeirdə ironik olaraq, təsvir olunub: həyat lirik qəhrəmanı kosa ilə keçəlin ixtiyarına buraxıb, yəni qəhrəmanımız öz taleyi üzərində kontrolunu itirib, onların "əlində qalıb".

Novruz adətinə görə, bayram süfrəsinə yeddi növ nemət qoyulur. "7 müqəddəs rəqəmdir və dünyanın, kainatın birliyini, tamlığını ifadə edir. Bunun 7 növ ərzaqla ifadə olunması süfrənin simvolikası, ümumiyyətlə, yeməyin simvolikası ilə bağlıdır. Yəni Novruz süfrəsi də bayramın yaradılış ideyasına xidmət edir. Bayram süfrəsinə qoyulan 7 nemət artıq mərasimi məna daşıyır". (Qasımova, 2018). "Səkkizinci nemət" ifadəsi şeirdə metaforik çatışmazlıq duyğusu yaradır və fərdi iztirab kollektiv ənənənin tamamlanmasını əngəlləyir. (sayıqlamanın poetikası) Burada lirik qəhrəmanın süfrəsində çatışmayan "səkkizinci nemət" harmoniya və kamilliyin rəmzidir. O, "səkkizinci neməti"-qarşı tərəfi (fikrimizcə, özünü) gözləyir. Bu ritual da semantik transformasiyaya uğrayır. Qəhrəman tamamlanmaq ehtiyacı duyur və onu tamamlayan birini (?) gözləyir:

Bir tonqal qalamısan
İçimdə, gəl görəsən.
Bəlkə özün tullanıb
Xeyir-dua verəsən.
Qalmışam bir kosayla
Bir keçəlin əlində.
İki can arasında,
Bir əcəlin əlində.
Süfrəmdə yeddi nemət
Çatışmır səkkizinci.

Novruz bayramının rituallarından biri hesab olunan yumurta döyüşdürmək bayramın yaradılış fəlsəfəsinin ifadəsidir. Bu ritual mifologiyada dünyanın yaradılışının və xaosdan (mifopoetik) kosmosun yaranmasının (kosmogenetik) simvoludur. "Yumurta dünyanın (kosmosun) yaranmasını rəmzləndirmə vəzifəsini Novruz bayramında da yaşadır. Novruz yeni ilin - yeni dünyanın yaradılışı bayramıdır. Bu halda yaradılışı rəmzləndirən yumurtadan bu bayramda geniş şəkildə istifadə olunması təbiidir". (Qasımova, 2018). Lirik qəhrəmanımız isə bayram ənənəsini "pozur" və yumurtaları məcbur qalıb özü ilə "toqquşdurur", çünki qarşı tərəf yoxdur, o qədər özünü tənha hiss edir ki, öz tənhalığının içində boğulub qalıb. O, rəngli yumurtalarla özünü cəzalandırır və özünə əziyyət verir. (sayıqlamanın poetikası)

Bayramın digər ritualı hesab olunan papaq atmaq motivi bölüşdürməyin, paylaşmağın və bərəkəti yaymağın rəmzidir. "Papaq atmaq" ilk öncə aldatmaq mənasını ifadə edir. Amma onun fiziki mənada işlənməsi sevinc hissini göstərən bir psixoloji situasiyadır. Sevincdən papağını göyə atmaq xalq deyimi milli paremiologiyada mövcuddur". (Xəlil, 2013). Şeirdə isə papaq atmaq ümid və nostalji duyğuların simvoludur. Lirik qəhrəman gözünü yolda qoyan şəxsin "papaqdan çıxması" arzusu ilə yaşayır. Burada xəyalla ilə gerçəklik arasında sərhəd pozulur, qəhrəman uşaq oyununa bənzər fantaziyanın içində ilişib qalır və reallıqla barışa bilmir. O, reallıqdan qaçır və xəyala sığınır. (sayıqlamanın poetikası) Şeir məntiqin dağılmağa başladığı duyğusal vəziyyəti təsvir edir, şeirin dili şüur axınına və parçalanmış düşüncə ritminə uyğun yazılıb, mətn məntiqini itirmiş simvollar və absurd, paradoksal təsvirlərlə zəngindir. ("*Gözlərinin qarasın Axtarıram aşımda*") Lirik qəhrəman sevginin izini, kölgəsini gündəlik həyatın içində axtarır. Şair lirik qəhrəmanı danışdırır, bayramı "məntiqsiz" saymır, amma bayramın kollektiv sevincinin fərdi əzablar qarşısında mənasızlaşdığını təsvir edir:

Sevincimin ürəyi,
Ürəyimin sevinci.
Gözlərinin qarasın
Axtarıram aşımda.
Rəngli yumurtaları
Qırıram öz başımda.
Ümid varsa, qapıya
Papaq atmaq çox asan.
Elə istəyirəm ki,
Papaqdan sən çıxasan.

Görəsən, bayram bir fərd üçün nəyi ifadə edir? Hamı üçün bayram anlayışı sevinclə, xoşbəxtliklə assosiasiya olunur? Yoxsa bayram fərdin ruh halı ilə ayaqlaşır? Şair bu suallara birbaşa cavab vermir, hər misrası ilə bu cavabı bizə hiss etdirir. Lirik qəhrəmanı "sənsizlik" adlı yaz üşüdür, qəlbində "yandırdığı" tonqal belə onu isitmir, qaranquşlar xəbər gətirmir, yumurtanı toqquşduracaq birini tapmır, papaqdan "gözlədiyi şəxs" də çıxmır. O, qarşı tərəfi (fikrimizcə, özünü) gözləyir və ona sanki öz daxili dünyasından sayıqlayan şüuru ilə səslənir. Bir tərəfdən keçmişdəki "mən"indən qaçır, digər tərəfdən olmaq istədiyi və ya itirdiyi "mən"ini gözləyir, yenidən doğulmaq, özünü tapmaq, tamamlanmaq (spiritualizm) istəyir.

Gənc şair Elvin Bakiroğlunun "Novruz sayıqlamaları" şeirində Novruz bayramına və bayramın rituallarına yalnız milli hadisə kimi deyil, həm də şəxsi hisslərin və ruh vəziyyətinin ifadə vasitəsi kimi yanaşılır. Müəllif burada bayram atmosferini deyil, səssizlik və tənhalığını önə çıxarır. Şair folkloru olduğu kimi təqdim etmir, ona öz duyğularını da qatır, şəxsi əzabı kollektiv şüurun fonunda göstərir, folkloru sabit arxaik mənbə kimi deyil, dəyişkən və yaradıcı potensiala malik simvolik sistem kimi təqdim edir. O, Novruz bayramı təsvirlərini subyektiv kontekstə daşıyır, milli, mədəni kodları və folklor motivlərini fərdi təcrübə ilə ifadə edir. Novruz bayramı təqvim bayramı kimi sanki sükunətin içindən boylanır, bayramın gətirdiyi sevinc və yenilənmənin fonunda lirik qəhrəmanın içində sayıqlamalar yaradır. Sayıqlama nizamsız, məntiqsiz, şüurdan kənar düşüncə axını, reallıqla xəyalın qarışdırılmasıdır. Bədii ədəbiyyatda "sayıqlama" anlayışı yalnız xəstəliyin, narahatlığın əlaməti kimi deyil, reallıqdan qopmuş şüurun dili, ruhi dağınıqlığın və şüur axınının poetik forması kimi işlənir. Elvin Bakiroğlu "sayıqlama" anlayışını şeirdə bədii texnika metodu kimi ifadə edib. Müəllif bu metoddan istifadə edərək, lirik qəhrəmanın ağlını deyil, qırılmış könlünü, ruhunu danışdırır. O, qəsdən məntiqi, nizamı pozur, xəyalla reallığı qarışdırır, lirik qəhrəmanın məntiqsiz, xaotik duyğularını və düşüncələrini poetik şəkildə təqdim edir. Sayıqlayan özü deyil, qəhrəmanıdır, özü birbaşa xəyal görmür, amma xəyal səhnəsini canlandırır.

Nəticə

Novruz bayramı adətən yenilənmə və yazın gəlişi ilə assosiasiya olunsa da, bu şeirdə bayramın gətirdiyi kollektiv sevinc fərdi şüurun paradoksal və narahat vəziyyəti ilə toqquşur, ekzistensial ziddiyyət təşkil edir. (toplumsal şüurla fərdi şüur arasındakı konflikt) Lirik qəhrəman üçün Novruz bayramı baharın deyil, sayıqlamaların, narahatlığın, ruhi çaxnaşmanın və paranoyak düşüncələrin fəslidir. Lirik qəhrəmanın itkiləri, emosional sarsıntıları, iztirabları onu ruhən parçalayır, toplumsal şüurun

dikdə etdiyi bayram sevinci onun yaddaşında travmalarla, itkilərlə toqquşur və bu şüurdan kənar vəziyyət "sayıqlama" ilə, illüziyalarla ifadə olunur. "Sayıqlama" halı rasionallıqla irrasionallıq, gerçəkliklə yuxu arasında keçid rolunu oynayır, lirik qəhrəmanın daxilindəki boşluq və tənhalıq hisslərinin təzahürü kimi çıxış edir. Bu hal onun bayram kontekstində yaşadığı ruhi sarsıntılar və emosional qarışıqlığın ifadəsidir. Şeirdə lirik qəhrəman üçün Novruz bayramı nə sevincdir, nə yenilənmə, nə də kollektiv coşqu. Onun üçün bu bayram itki, əzab və tənhalıq bayramıdır. Məntiq və nizam pozulub, lirik qəhrəman sayıqlayır, o danışsa da, nitqi şüurlu deyil, ardıcıl düşünmür, yarımçıq xatırlayır, sanki yuxudadır. Qəhrəmanımız bayram rituallarını digərləri kimi normal qəbul edib yaşamır, mənəvi böhranının ifadə vasitəsinə çevirir. Şeirdə Novruz bayramı sayıqlamaların "xəbərçisidir".

ƏDƏBİYYAT SİYAHISI:

1. Bakiroğlu, E. Novruz sayıqlamaları şeiri. Available from: https://kulis.az/xeber/elvin-bakiroglu/edebi-tenqid/xeber -12185 [accessed March 22 2019].

2. Bakiroğlu, E. Şeirlər. Available from: https://www.kulis.az/xeber/senet/Butun-pncrlr-yumdu-gozunu-colorredElvin-Bakiroglunun-seirlricolor-30648 [accessed May 13 2020].

3. Bakiroğlu, E. Yeni şeirlər. Available from: https://kulis.az/xeber/edebi-tenqid/Bizim-kecmisimiz-l-l-gzir-colorredElvin-Bakiroglunun-yeni-seirlricolor-36371 [accessed Jan 27 2021].

4. Xəlil, A.S. (2013). Türk xalqlarının yaz bayramları və Novruz. Bakı: "Elm və təhsil", 150 s.

5. Qasımova, S.A. (2018). Azərbaycanda Novruz ənənə və inancları. Bakı: "Elm və təhsil", 188 s.

6.Tahirqızı, Ü. Şıxəli Qurbanovun pasport aldığı Novruz. Available from: https://www.anl.az/down/meqale/xalqcebhesi/2014/mart/358918.htm [accessed March 20 2014].

DOİ: 10.32010/AUSX6202

LATIN AMERİKASI MAGİK REALİZMİNİN POSTSOVET ƏDƏBİ TƏFƏKKÜRÜNƏ TƏSİRİ

İlahə Şahin qızı ƏHMƏDOVA
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0007-9431-2003
E-mail: ilaha.ahmadova-3@bsu.edu.az

Xülasə: Bu məqalə Latın Amerikası magik realizminin postsovet məkanında ədəbi-mədəni rezonansını araşdırır və onun estetik transfer prosesini nəzəri-komparativ baxışla təhlil edir. Məqalənin məqsədi Xuan Rulfo, Qabriel Qarsía Markes, Alexo Karpentier, İzabel Allende kimi Latın Amerikası müəlliflərinin əsərlərində formalaşan magik realizmin postsovet ədəbiyyatında – xüsusilə Azərbaycan, Rusiya, Ukrayna, Orta Asiya və Qafqaz məkanında – milli yaddaş, travma və identiklik kimi mövzuların bədii ifadəsinə necə təsir etdiyini göstərməkdir.
Metodoloji çərçivə müqayisəli ədəbiyyatşünaslıq, mifopoetik və narratoloji yanaşmalar, həmçinin postkolonial nəzəriyyə prinsipləri əsasında qurulmuşdur. Araşdırma göstərir ki, Latın Amerikası magik realizmi postsovet mühitə mexaniki şəkildə köçürülməmiş, tərcümə, akademik diskurs, nəşriyyat mübadiləsi vasitəsilə daxil olmuş, yerli tarixi təcrübələr və folklor-mifoloji kodlarla sintez olunaraq transformasiya edilmişdir.
Məqalə Latın Amerikası nümunələri ilə yanaşı Anar, İsa Muğanna, Zahid Sarıtorpaq kimi yazıçıların əsərləri timsalında Azərbaycan nəsri, həmçinin Rusiya, Ukrayna, Qırğızıstan ədəbiyyatlarından olan konkret bədii nümunələrin təhlilinə əsaslanır. Müəyyən olunur ki, hər iki regionda magik realizm yalnız estetik kateqoriya deyil, həm də kollektiv yaddaşın və tarixi travmaların poetik rekonstruksiyası üçün mühüm vasitədir.
Tədqiqatın nəticələri göstərir ki, Latın Amerikası magik realizmi postsovet ədəbiyyatında fərqli tarixi-ideoloji şəraitdə həm bədii üslub, həm də yaddaşın etik rekonstruksiyası kimi fəaliyyət göstərmişdir və bu proses müasir qloballaşmış ədəbi dialoqun mühüm nümunələrindən biridir.
Açar sözlər: Latın Amerika ədəbiyyatı, Azərbaycan nəsri, magik realism, postsovet təfəkkürü, komparativistika

THE INFLUENCE OF LATIN AMERICAN MAGIC REALISM ON POST-SOVIET LITERARY THOUGHT

Ilaha Shahin AHMADOVA
Baku State University
Orcid: https://orcid.org/0009-0007-9431-2003
E-mail: ilaha.ahmadova-3@bsu.edu.az

Abstract: This article examines the literary and cultural resonance of Latin American magical realism in the post-Soviet context and analyzes the process of its aesthetic transfer through theoretical and comparative perspectives. The aim of the study is to demonstrate how the mode of magical realism, as shaped in the works of Latin American authors such as Juan Rulfo, Gabriel García Márquez, Alejo Carpentier, and Isabel Allende, has influenced the artistic representation of themes such as collective memory, historical trauma, and identity in post-Soviet literatures—particularly in the contexts of Azerbaijan, Russia, Ukraine, Central Asia, and the Caucasus.
The methodological framework combines approaches from comparative literary studies, mythopoetics, narratology, and the principles of postcolonial theory. The research reveals that Latin American magical realism was not transplanted mechanically into the post-Soviet sphere; rather, it entered through translation, academic discourse, and publishing exchange, and was subsequently transformed through synthesis with local historical experiences and folkloric-mythological codes.
In addition to the Latin American examples, the study draws on specific literary works from Azerbaijani prose—most notably those of Anar, Isa Muganna, and Zahid Saritorpaq—as well as selected texts from Russian, Ukrainian, and Kyrgyz literature. It is argued that in both regions, magical realism functions not merely as an aesthetic category but as a crucial instrument for the poetic reconstruction of collective memory and historical trauma.
The findings suggest that Latin American magical realism, within the post-Soviet literary context, has operated under different historical-ideological conditions as both a stylistic mode and an ethical vehicle for reconstructing cultural memory, and that this process constitutes a significant example of contemporary global literary dialogue.
Keywords: Latin American literature; Azerbaijani prose; magical realism; post-Soviet literary thought; comparative studies

ВЛИЯНИЕ ЛАТИНОАМЕРИКАНСКОГО МАГИЧЕСКОГО РЕАЛИЗМА НА ПОСТСОВЕТСКУЮ ЛИТЕРАТУРНУЮ МЫСЛЬ

Илаха Ахмедова Шахин
Бакинский государственный университет
Orcid: https://orcid.org/0009-0007-9431-2003
Электронная почта: ilaha.ahmadova-3@bsu.edu.az

Резюме: В данной статье исследуется литературный и культурный резонанс латиноамериканского магического реализма в постсоветском пространстве и анализируется процесс его эстетической трансфера с теоретических и компаративистских позиций. Цель исследования состоит в том, чтобы показать, как магический реализм, сформировавшийся в произведениях таких латиноамериканских авторов, как Хуан Рульфо, Габриэль Гарсиа Маркес, Алехо Карпентьер и Исабель Альенде, повлиял на художественное осмысление тем коллективной памяти, исторической травмы и идентичности в литературах постсоветского региона — в частности Азербайджана, России, Украины, стран Центральной Азии и Кавказа.

Методологическая основа работы сочетает подходы сравнительного литературоведения, мифопоэтики, нарратологии, а также принципы постколониальной теории. Исследование показывает, что латиноамериканский магический реализм не был механически перенесён в постсоветскую среду; он вошёл через переводы, академический дискурс и издательские обмены, синтезировался с местным историческим опытом и фольклорно-мифологическими кодами, подвергшись существенной трансформации.

Наряду с латиноамериканскими примерами анализируются конкретные произведения азербайджанской прозы — прежде всего Анара, Исы Муганны и Захида Сарыторпака, а также образцы русской, украинской и киргизской литературы. Установлено, что в обоих регионах магический реализм выступает не только как эстетическая категория, но и как важный инструмент поэтической реконструкции коллективной памяти и исторических травм. Результаты исследования свидетельствуют о том, что латиноамериканский магический реализм в постсоветской литературе функционировал в иной историко-идеологической среде как художественный стиль и как этический инструмент реконструкции культурной памяти, и этот процесс является важным примером современного глобализированного литературного диалога.

Ключевые слова: латиноамериканская литература; азербайджанская проза; магический реализм; постсоветское литературное сознание; компаративистика

Giriş

XX əsrin ikinci yarısında dünya ədəbiyyatının estetik xəritəsini dəyişdirən başlıca fenomenlərdən biri magik realizm oldu. İlk dəfə alman tənqidçisi Franz Roh tərəfindən (Roh, 1925) təsviri sənətdə işlədilən bu termin, sonrakı onilliklərdə Latın Amerikası nəsrində yeni poetik metodun adı kimi ədəbiyyata keçdi. Alexo Karpentier onu “lo real maravilloso” – “möcüzəvi gerçəklik” kimi (Carpentier, 1949), ispan-amerikalı tənqidçi Angel Flores isə onu realizmlə romantik fantastikanın sintezi kimi izah edirdi (Flores, 1955). 1960-1980-ci illərdə Latın Amerikası “bum”, yəni “böyük partlayış” nəslinin – Xuan Rulfo, Qabriel Qarsia Markez, Karlos Fuentes, Xulio Kortazar, Mario Vargas Llosa, Miguel Angel Asturias və digərlərinin – yaradıcılığı ilə bu estetika dünya miqyasında geniş yayılaraq yalnız bir ədəbi üslub deyil, həm də tarixi yaddaşın, postkolonial identikliyin bədii ifadə üsuluna çevrildi.

Realizmdən fərqli olaraq magik realizm fövqəltəbii hadisəni qeyri-adi hadisə kimi təqdim etmir; əksinə, onu gündəlik həyatın adi tərkib hissəsi kimi qəbul edir. Bu xüsusiyyət Latın Amerikasının mədəniyyətlərarası, çoxqatlı mifoloji yaddaşından qaynaqlanırdı. Kolonial və postkolonial travmalar, avropasayağı maarifçi rasionalizmlə yerli xalq miflərinin, katolik və sinkretik inancların toqquşması bu estetik kodu formalaşdırdı.

1980-1990-cı illərdən başlayaraq sosialist sistemin dağılması, imperiya sonrası yaddaşın gündəmə gəlməsi, kollektiv travmaların yenidən bədii təfəkkürdə üzə çıxması nəticəsində magik realizm Latın Amerikası sərhədlərini aşaraq Avropa və Asiyanın, xüsusilə də postsovet məkanının ədəbiyyatında mühüm təsir mənbəyinə çevrildi. Bu təsir bəzən birbaşa üslub və motivlərin mənimsənilməsi, bəzən də dərinlikdə mifopoetik zaman-məkan modellərinin adaptasiyası ilə baş verdi.

Postsovet məkanında – Azərbaycan, Rusiya, Ukrayna, Orta Asiya və Qafqaz respublikalarının nəsrində – magik realizm kollektiv yaddaşın bərpası, tarixi travmaların estetik həlli, milli identikliyin bədii konstruksiyası üçün məhsuldar model kimi qəbul olundu. Totalitar keçmişin repressiyaları, müharibə və deportasiyalar, sovet modernliyinin insan ruhunda yaratdığı boşluqlar magik realizmin mifik-simvolik dilində ifadəsini tapdı.

Məsələn, Azərbaycan ədəbiyyatında Anarın "Göz muncuğu", İsa Muğannanın "Qəbiristan", Zahid Sarıtorpağın "Dərdin sarı çəpkəni" əsərləri bu tendensiyanın nümunələrindən bəziləridir. Rusiyada Viktor Pelevin, Lyudmila Ulitskaya, Vladimir Sorokin, Ukraynada Andrey Kurkov, Qırğızıstanda Çingiz Aytmatov və başqaları mifopoetik xronotopa əsaslanan bədii modellərlə Latın Amerikası magik realizminə paralel estetika yaratdılar.

Bu məqalənin məqsədi, bir tərəfdən magik realizmin nəzəri əsaslarını dəqiqliklə ortaya qoymaq, digər tərəfdən isə Latın Amerikası ənənəsinin postsovet ədəbiyyatına təsirini komparativ-tarixi və poetik kontekstdə təhlil etməkdir. Burada həm nəzəri ədəbiyyat (Carpentier, Leal, Chanady, Faris, Bhabha və b.), həm də konkret bədii mətnlər müqayisəli şəkildə araşdırılmışdır.

Metodoloji baxımdan tədqiqat müqayisəli ədəbiyyatşünaslıq, mifopoetik və narratoloji təhlil, həmçinin postkolonial nəzəriyyə çərçivəsində aparılmışdır. Bu yanaşma bizə magik realizmin yalnız estetik kateqoriya deyil, həm də müxtəlif tarixi kontekstlərdə – Latın Amerikası və postsovet məkanında – yaddaşın etik və poetik rekonstruksiyası funksiyasını daşıyan universal poetik model olduğunu göstərməyə imkan vermişdir.

I. MAGİK REALİZM ANLAYIŞININ NƏZƏRİ ƏSASLARI

Magik realizm müasir ədəbiyyatın ən çox müzakirə olunan poetik kateqoriyalarından biridir. Onun nəzəri anlamı və terminoloji sərhədləri uzun illər müxtəlif tədqiqatçılar tərəfindən fərqli şəkildə müəyyənləşdirilmişdir.

1. Terminoloji inkişaf və anlayışın formalaşması

İlk dəfə "magik realizm" (alm. *Magischer Realismus*) ifadəsini 1925-ci ildə alman sənətşünası Franz Roh kubizm sonrası rəssamlıqda gerçəkliyin mistik çalarlarda təqdimini təsvir etmək üçün işlətdi (Roh, 1925). İtalyan yazıçısı, dramaturqu və tənqidçisi Massimo Bontempelli "*realismo magico*" ifadəsi ilə sözügedən termini ilk dəfə 1926-cı ildə ədəbiyyata qazandıranlardan biri oldu.

Magik realizmin özünəməxsus konseptualizasiyasını Latın Amerikası yazıçısı və nəzəriyyəçisi Alexo Karpentier irəli sürdü. O, Avropa sürrealizmini süni oyun hesab edərək, Latın Amerikası tarixində və mədəniyyətində kök salmış "möcüzəvi gerçəklik"dən (*lo real maravilloso americano*) danışdı. Karpentierə görə, Latın Amerikası torpağı özü tarixən möcüzəviliklə doludur: konkistadorların yürüşlərindən, yerli miflərdən, kilsə sinkretizmindən tutmuş müstəmləkə dövrünün sosial-hüquqi paradokslarına qədər (Carpentier, 1949).

1955-cu ildə isə bu termin ispan-amerikalı tənqidçi Angel Flores tərəfindən ədəbiyyat kontekstinə daha dəqiq formada gətirildi. Flores Latın Amerikası nəsrində XX əsrin ortalarında baş verən estetik dəyişimi – gündəlik həyatın realist təsviri ilə fövqəltəbii hadisələrin təbii şəkildə bir araya gəlməsini – belə adlandırdı (Flores, 1955). Onun *Hispanic Review* jurnalında dərc olunan bu məqaləsi magik realizm terminini ədəbiyyat nəzəriyyəsi üçün sistemli şəkildə təqdim edən ilk yazı hesab olunur.

Daha sonrakı illərdə magik realizmi nəzəri baxımdan inkişaf etdirənlərdən biri Luis Leal oldu. O, magik realizmi sadəcə fantastikanın və ya sürrealizmin sinonimi saymadı, əksinə, onu "reallığı mistik qatın işığında göstərən bir bədii düşüncə üsulu" kimi müəyyənləşdirdi (Leal, 1967).

XX əsrin sonlarından etibarən Amaryll Chanady və Wendy B. Faris magik realizmin narratoloji və poetik aspektlərinə diqqət çəkərək onun fərqli ədəbi məkanlarda adaptasiyasını araşdırdılar. Faris magik realizmi ifadə edən beş əsas xüsusiyyəti bu cür müəyyənləşdirdi:

1. fövqəltəbii hadisələrin adi reallığın kontekstində baş verməsi;
2. oxucu və qəhrəmanların bu hadisələrə təəccüb göstərməməsi;
3. zamanın dövriliyi və ya qeyri-xətti quruluşu;
4. məkanın sakrallaşdırılması, liminal zonaların önə çıxması;
5. fərdi və kollektiv yaddaşın mifik-poetik səviyyədə təsviri (Faris, 1995).

2. Magik realizmin əsas xüsusiyyətləri

Bu nəzəri yanaşmalar əsasında magik realizmin aşağıdakı bədii əlamətləri müəyyən olunur:

Ontoloji ikiləşmənin aradan qalxması: Rasional dünya ilə irrasional, təbii ilə fövqəltəbii bir mühitdə qovuşur; yəni sehrli hadisələr mətn daxilində "normal" hadisə statusuna malik olur.

Mifopoetik zaman və məkan: Bu cür mətnlərdə zaman tez-tez dövri, qeyri-xətti, bəzən də mifik zaman kimi təqdim edilir; məkan isə yalnız fiziki yer deyil, yaddaşın və mənəvi tarixçənin daşıyıcısına çevrilir.

Tarixi yaddaş və postkolonial təcrübə: Magik realizm kolonializm və müstəmləkəçiliyin yaratdığı travmaları poetik şəkildə ifadəsinin bədii forması kimi çıxış edir.

Metaforik dil və barokko üslubu: Magik realizmdə bədii ifadə vasitələri çox zaman poetik, simvolik, metaforik, hətta bəzən barokko estetikası ilə zənginləşir.

Etnomədəni sintez: Xristianlıqla yerli dini inancların, Avropa rasionalizmi ilə yerli miflərin,

tarixi hadisələrlə əfsanə və rəvayətlərin sintezi onun təməl estetikasını təşkil edir.

3. Magik realizm və postkolonial yaddaş

Müasir nəzəriyyələr magik realizmin yalnız üslubi xüsusiyyətlərdən ibarət olmadığını vurğulayır. Postkolonial nəzəriyyəçilər – Homi K. Bhabha, Edward Said, Gayatri Spivak – üçün magik realizm məhz keçmiş imperiya mərkəzlərinin hegemonik diskurslarına qarşı duran, yerli yaddaşı və mədəni kodları reabilitasiya edən poetik modeldir. Bu baxımdan, magik realizmin postsovet məkanına keçidi təsadüfi deyildi: keçmiş sovet respublikaları da öz milli tarixi yaddaşlarını totalitar ideologiyanın təsirindən xilas etmək üçün yeni poetik dillərə ehtiyac duyurdular.

II. LATIN AMERİKASI MAGİK REALİZMİ: NÜMUNƏLƏR VƏ ESTETİK KOD

Latın Amerikası nəsrində magik realizmin təşəkkülü yalnız ədəbi texnika deyil, həm də mədəni-tarixi yaddaşın poetik təcəssümü idi. Bu regionun sosial-tarixi konteksti – kəşf dövründən başlayaraq müstəmləkəçiliyin, katolik kilsə ilə yerli inancların sintezi, müstəqillik uğrunda müharibələr, XX əsrin siyasi repressiyaları – həm mifləşmiş, həm də travmatik hadisələrlə zəngin idi. Magik realizm bu reallığı nə sırf realist, nə də sırf fantastik dillə ifadə edə bilən bir estetik çərçivə kimi meydana çıxdı.

1. Xuan Rulfo: ölüm, məkan və yaddaş poetikası

Meksika nəsrinin klassiki Xuan Rulfonun 1955-ci ildə çap olunmuş "Pedro Paramo" romanı Latın Amerikası magik realizminin ilk yetkin nümunələrindən sayılır. Rulfo burada Meksikanın inqilab sonrası kəndinin sosial-iqtisadi dağınıqlığını, ölüm və həyatın sərhədini pozaraq təqdim edir.

Romanın baş qəhrəmanı Xuan Presiado anasının vəsiyyətinə uyğun olaraq atasını – Pedro Paramo adlı tiran feodalı – tapmaq üçün doğma kəndinə, Komalaya gəlir. Lakin oxucu tədricən anlayır ki, bu yer ölü kənddir və qəhrəman, əslində, ruhlarla danışır.

Bu mətndə məkan – Komala ölümlə həyat arasında liminal bir zolaq, zaman isə xətti ardıcıllıqdan çıxaraq yaddaş və xatirələrin mozaik quruluşu kimi təqdim edilir;

Fövqəltəbii hadisələr – ölülərin danışması, keçmişin indiki zamana müdaxiləsi – tamamilə "normal" qarşılanır.

Beləliklə, Rulfo magik realizmin iki əsas prinsipini: gündəlik gerçəkliklə metafizik qatın qovuşmasını və kollektiv yaddaşın bədii məkanda təcəssümünü təsdiq edir.

2. Qabriel Qarsia Markez: tarixin dövriliyi və kollektiv yaddaş

Kolumbiyalı Nobel mükafatı laureatı Qabriel Qarsia Markezin "*Cien años de soledad*" (*"Yüz ilin tənhalığı"*, 1967) romanı magik realizmin qlobal miqyasda tanınmasına səbəb oldu.

Romanın hadisələri Makondo adlı uydurma qəsəbədə baş verir. Makondo həm Latın Amerikası tarixi hadisələrinin metaforik modeli, həm də bütün bəşəriyyətin mifopoetik tarixi üçün arxetipik məkandır.

Burada: Tarixi zaman dövri xarakter daşıyır, Buendia nəslinin taleyi nəsillər boyunca eyni faciələri təkrar edir; Möcüzəvi hadisələr – Remedios la Bellanın səmaya qalxması, qəsəbəyə 4 il, 11 ay, 2 gün yağan yağış, Melkiadesin əlyazmaları – realist təsvirlərlə yanaşı, tamamilə təbii hadisə kimi təqdim olunur;

Romanın dili barokko üslubu ilə zəngin, həm bədii metaforiklik, həm də ironik təhkiyə arasında tarazlıq yaradır.

Markez üçün magik realizm, yalnız poetik forma deyil, həm də Latın Amerikası tarixinin zəncirvari zorakılıq və unudulma travmalarına qarşı kollektiv yaddaşın bərpası vasitəsidir.

3. Alexo Karpentier: "möcüzəvi gerçəklik" konsepti

Kuba yazıçısı Alexo Karpentier magik realizmin nəzəri əsasını qoyanlardan biri kimi tanınır. Onun romanları ("*El reino de este mundo*", 1949; "*El siglo de las luces*", 1962) Latın Amerikasının tarixini mifopoetik çərçivədə təqdim edir. Karpentierin "*lo real maravilloso*" konsepsiyasına görə, Latın Amerikası tarixi öz-özlüyündə fantastik görünən hadisələrlə doludur; yazıçının işi onları süni surətdə uydurmaq deyil, yalnız bədii dildə ifadə etməkdir.

Karpentierin poetikasında xüsusilə vacib olan müddəalər:

Tarixi və siyasi hadisələrin mifoloji personajlarla yanaşı təsviri;

Müqəddəs və profan olanın bir məkanda birləşməsi;

Barokko estetikası və dilin ritmik ornamentikasıdır.

4. İzabel Allende: feminizm və xatirə poetikası

Çilili yazıçı İzabel Allendenin "*La casa de los espíritus*" ("*Ruhlar evi*", 1982) romanı magik realizmin yeni bir mərhələsini təmsil edir. Allende qadın qəhrəmanların nəsillər boyu yaşadığı ailə salnaməsini tarixi hadisələrlə – çevrilişlər, diktatura, repressiyalarla – birləşdirir. Burada magik realizm həm də qadın təcrübəsinin, fərdi və ailəvi yaddaşın bədii ifadəsinə xidmət edir.

Onun romanında ruhlarla ünsiyyət, öncəgörmə qabiliyyəti kimi möcüzəvi elementlər gündəlik həyatın təbii hissəsinə çevrilmişdir. Bu yanaşma göstərir ki, magik realizm həm də fərdi identiklik və

gender yaddaşının poetik konstruksiyası üçün əlverişli vasitədir.

III. POSTSOVET MƏKANINDA MAGİK REALİZM FENOMENİ

1. Tarixi-mədəni kontekst və təsirin mexanizmləri

Sovet imperiyasının ideoloji və estetik təzyiqləri altında «realist» (ideologiyalaşdırılmış sosialist realizmi) dominant janr kimi möhkəmləndirildi. 1980-1990-cı illərin transformasiya prosesi – ideoloji monolitliyin zəifləməsi, dövlət nəşriyyatlarının liberalizasiyası və yeni tərcümə axınlarının yaranması – postsovet ədəbi mühitinə Latın Amerikası və digər qlobal ədəbi nümunələrin daxil olmasına imkan yaratdı. Bu prosesin bir sıra mexanizmləri fərqləndirilə bilər:

1. Tərcümə və nəşriyyat şəbəkələri: Latın Amerikası yazıçıları sovet və postsovet oxucusuna tərcümə yolu ilə çatdı; bu, birbaşa estetik təsirə zəmin hazırladı.

2. Ədəbi translasiya və kritik diskurs: Akademik və tənqidi məqalələr, ədəbiyyatşünas seminarları Latın Amerikası poetikasının nəzəri proqramını təqdim və müzakirə etdi.

3. İdeoloji paralelliklər: Həm postkolonial Latın Amerikası, həm də postimperial postsovet məkanı obyektiv olaraq «müstəmləkə/imperiya» təcrübələri ilə üzləşmişdi; bu oxşarlıq magik realizmin məşhur tematikalarını (yaddaş, əcdadların səsi, mifik keçmişin canlanması) postsovet yazarlar üçün məqbula çevirirdi.

4. Hibridləşmə və lokal adaptasiya: Estetik elementlər mexaniki köçürülmə ilə deyil, yerli mədəni-tarixi kodlarla sintez olunaraq transformasiya edildi, nəticədə postsovet magik realizminin özünəməxsus variantları meydana gəldi.

Bu mexanizmlər göstərir ki, Latın Amerikası magik realizmi postsovet məkana həm formalaşdırıcı nümunə (model), həm də interpretasiya-aləti (poetik strategiya) kimi daxil olmuşdur. Homi Bhabhanın qeyd etdiyi kimi, postkolonial kontekstdə "mədəniyyət həmişə hibrid sərhəd məkanlarında formalaşır" (Bhabha, 1994), bu da magik realizmin həm Latın Amerikası, həm də postsovet məkanında oxşar funksional rola malik olmasını izah edir.

2. Tematik və formal oxşarlıqlar: ümumi tendensiyalar

Postsovet ədəbiyyatında magik elementlərin istifadəsi müxtəlif formal və tematik məqsədlər daşıyır: kollektiv yaddaşın canlandırılması, tarixi sui-istifadənin poetik yenidən oxunuşu, fərdi travmanın mifləşdirilməsi və milli identikliyin bərpası. Xüsusilə aşağıdakı ümumi cəhətləri qeyd etmək mümkündür:

1. Yaddaşın personifikasiyası və məkanın sakrallaşması. Latın Amerikası nümunələrində olduğu kimi, postsovet mətnləri də məkanı yaddaşın saxlayıcısına çevirir: kənd, qəbiristanlıq, boşalmış şəhər küçəsi – bunlar tarix və ruhların məkanıdır.

2. Zamanın qeyri-xətti quruluşu. Keçmişin səsi indiki zamanda aktivləşir; hadisələr xronoloji ardıcıllıqdan kənar şəkildə təqdim olunur.

3. Ölülərin dialoqu və liminal personajlar. Ölülər və xəyali personajlar mətnlərdə real hadisələrlə qarşılıqlı əlaqədə olur; bu həm təsirli emosional effekti, həm də tarixi diskursu poetikləşdirir.

4. Mif və milli narrativlərin yenidən qurulması. Yerli miflər və etnoqrafik motivlər sovet dövründə unudulmuş və ya təhrif edilmiş tarixi səhnələrin bərpasında alət rolunu oynayır.

3. Post-sovet məkanında magik realizmin lokal transformasiyaları

a) Azərbaycan (Anar, İsa Muğanna, Zahid Sarıtorpaq)

Azərbaycan nəsrində magik realizm üslubunun parlaq təzahürlərindən biri xalq yazıçısı Anarın "Göz muncuğu" (Anar, 2014) əsəridir. Romanın başlanğıcında qəhrəmanın qəbirdə dirilməsi səhnəsi kimi möcüzəvi hadisəni adi, təbii həyat hadisəsi kimi təqdim edərək magik realizmin əsas prinsipinə sadiq qalır. Əsərdə insan təbiətindəki yaxşı ilə pisin qarşıdurması, dirilən qəhrəmanın həqiqətdə "yaxşı" ruh olub-olmadığı sualı, həmçinin bir sıra məkanların metafizik məna daşıması magik realizmin Latın Amerikası kodları ilə səsləşir. Bununla yanaşı, əsərdə Konfutsi, İbn Sina, Nitsşe kimi tarixi şəxsiyyətlərin aforizmlərinin epiqraflar kimi təqdim olunması Anarın narrativini universal və fəlsəfi müstəviyə qaldırır. Beləcə, "Göz muncuğu" postsovet Azərbaycan ədəbiyyatında magik realizmin yalnız estetik vasitə deyil, həm də etik-fəlsəfi sualların qoyuluşu üçün məhsuldar bir model olduğunu sübut edir.

Azərbaycan bədii nəsrindəki önəmli magik realizm nümunələrindən daha biri İsa Muğannanın "Qəbiristan" romanıdır (Muğanna, 2009). Əsərdə qəbiristanlıq yalnız fiziki məkan olaraq yox, kollektiv yaddaşın, tarixi günahların və mənəvi-etiqadi böhranların simvolik mərkəzinə çevrilmişdir. Romanda ölülərin səsinin və metafizik dialoqunun yaranması, zamanı qeyri-xətti təqdim etmə priyomu və məkanın sakrallaşdırılması magik realizmin ən əsas xüsusiyyətlərini xatırladır. "Qəbiristan" strukturca və poetik kodlar baxımından məşhur latınamerikan magik realizmi ilə səsləşsə də, Muğannanın mətnində bu simvolika yerli folklor, sovet/postsovet təcrübəsi və müəllifin avtobioqrafik qaynaqları ilə spesifik şəkildə şərtlənir.

Zahid Sarıtorpağın "Dərdin sarı çəpkəni" (Sarıtorpaq, 2017) romanı da postsovet Azərbaycan nəsrində magik realizm üslubunun diqqətəlayiq örnəklərindəndir. Əsərin qəhrəmanı Bulud müəllimin gözlərinin dünyanı qəfil sarı rəngdə görməyə başlaması motivi gerçək xəstəlik kimi təqdim olunsa da, bədii mətnin dərin qatında taleyin və cəmiyyətin insan şüuruna vurduğu zərbələrin metaforasıdır. Bu sarı görmə, bütün reallığı təhrif edən mistik optika oxucunu həm psixoloji, həm də metafizik aləmə aparır. Sarıtorpağın romanı Latın Amerikası magik realizmi ilə Azərbaycan postsovet nəsrinin kəsişdiyi nöqtədə dayanaraq, lokal mifopoetik obrazı qlobal magik realizm kodları ilə birləşdirir.

b) Rusiya (Viktor Pelevin, Lyudmila Ulitskaya, Vladimir Sorokin)

Rusiya yazıçılarının bir qismi magik elementləri postmodern ironiyaya, fəlsəfi alegoriyaya və siyasi tənqidə yönəldib. Məsələn, postmodernist və buddist-fəlsəfi yazıçı olan Pelevin öz romanlarında tarixi və mifopoetik obrazları aforist və sarkastik tonla təqdim edərək sovet keçmişinin mənasını sorğulayır. Məsələn, "Çapayev və Boşluq" romanında qəhrəman həm sovet vətəndaşı, həm də buddist boşluq konsepsiyasını yaşayan mistik fiqurdur. Bu, magik realizmdəki "möcüzəvi gerçəkliy"i deyil, metafizik metafiksiya və satirik alegoriyanı daha çox ifadə edir. Tənqidçi Helena Goscilo (1996) da Pelevinin romanlarını magik realizm termini ilə deyil, "mystical postmodernism" kimi xarakterizə edir.

Ulitskaya humanist-realistik və psixoloji romanları ilə tanınır. Onun mətnlərində bəzən metafizik motivlər (kəramətlər, ölüm sonrası hisslər, yuxu və s.) var, amma bunlar magik realizmin əsas prinsipi olan möcüzəvi hadisənin gündəlik həyatın təbii hissəsi kimi təqdim olunması formasına uyğun gəlmir. Ədəbi tənqidçilər onu neorealist və humanist roman müəllifi hesab edirlər. Çünki o öz əsərlərində tarix, din və etika səhnələrini metafizik problemlərlə birləşdirir; burada magik qat daha humanist və etik suallar üçün vasitəyə çevrilir.

Sorokin postmodern ədəbiyyatın dissident, distopik və eksperimentalsimasıdır. "Buz" trilogiyasında kosmik-mistik kult təsvir olunur; bu, müəyyən mənada fantastik və ezoterik elementlərlə doludur. Lakin bu üslub magik realizm deyil – çünki əsərlər metafizik fantastika və distopik satira janrına daxildir. Mark Lipovetsky (2008) Sorokini "postmodern grotesk" ədəbiyyatının əsas simalarından biri adlandırır.

Bütün bu mövzuların özəyi magik realizmə yaxın görünür, amma funksiyası fərqlidir: Latın Amerikası magik realizmində möcüzəvi hadisə tarixi-mədəni yaddaşın təbii davamı kimi təqdim olunduğu halda, Pelevin və Sorokində o, ironik, parodik və ya fəlsəfi-metafizik funksiya daşıyır. Yəni onlar magik realizm ənənəsinin birbaşa davamçıları deyillər, lakin bəzi motivləri ilə janra qismən yaxın görünə bilərlər.

c) Ukrayna (Andrey Kurkov)

Andrey Kurkov (d. 1961) müasir Ukrayna ədəbiyyatının ən məşhur nəsr yazıçılarından biridir. Əsərləri çox vaxt absurd, qara yumor, satira və bəzən fantastik elementlərlə səciyyələnir. Kurkovun əsərlərində absurd və kövrək magik elementlər sovet/postsovet reallığının sarkastik təsviri üçün istifadə olunur; onun «ölü və canlı» metaforikası sosial və siyasi surrealizmin fərdi nəticələrini vurğulayır. Məsələn, "Ölü Müşahidəçi" romanında qəhrəman peşəkar "mərhum müşahidəçi" kimi işləyir, cəmiyyətin cinayətkar strukturlarında absurd şəkildə normal bir funksiyanı yerinə yetirir. "Penguin Lost" və "Death and the Penguin" əsərlərində qəhrəmanların həyatına təsadüfi düşmüş bir pinqvin (Mişa) absurd və simvolik varlıq kimi daxil olur. Bu məqamlar ona bəzən Şərqi Avropa tipli "qrotesk magik realizm" etiketini qazandırır. Kurkovun romanlarında isə qeyri-adi hadisələr daha çox satirik, ironik və absurd effekt yaratmaq üçün işlədilir. Onların arxasında mədəni-mifoloji yaddaş deyil, post-sovet sosial-psixoloji xaosun və ekzistensial boşluğun metaforası dayanır. Kurkov özü müsahibələrində yazır ki, "fantastika mənim üçün yalnız həyatın absurdluğunu göstərmək üçün bir vasitədir". Ukrayna tənqidçisi Mark Robert Stefik (2014) Kurkovun əsərlərini "post-Soviet absurdist fiction with elements of grotesque" kimi təsnif edir. Cornwell (2010) və Parsons (2008) da Kurkovun romanlarını magik realizmdən çox sosial satira və qrotesk absurdizm kateqoriyalarına daxil edirlər.

d) Orta Asiya və Qafqaz (Çingiz Aytmatov)

Aytmatov Qırğız ədəbiyyatının və bütövlükdə postsovet məkanının ən məşhur yazıçılarından biridir. O öz yaradıcılığında mifoloji düşüncə, əfsanə, xalq hekayətləri və sosial-realist mühiti birləşdirən sinkretik poetika yaratmışdır. Məsələn, "Gün var əsrə bərabər" romanında manqurtlaşma əfsanəsi əsas mifik xətt kimi həm tarixi yaddaşı, həm də müasir insanın kimlik problemini ifadə edir. "Ağ gəmi" əsərində uşaq qəhrəmanın xilas arzusu ilə bağlı maral ananın mifoloji obrazı reallıqla paralel gedir. Aytmatovun nəsri milli miflərin sovet modernləşməsi ilə toqquşmasından doğan etik və ekzistensial problemlərə müraciət edir; burada magik elementlər həm folklor, həm də kosmik humanizm funksiyası daşır. Onun əsərlərində isə mif

və əfsanə epizodları əsas hekayənin realist mühitinə parallel xətt kimi daxil olur.

Bu səbəbdən tənqidçilər Aytmatovu klassik magik realizm deyil, "mifopoetik realizm" və ya "simvolik realizm" ənənəsinə daxil edirlər. Edward Możejko (1995) Aytmatovun üslubunu "mythopoetic realism" adlandırır. Charles Rougle (1999) yazıçının mif və tarixi yaddaşı birləşdirən poetikasını "eurasian mythic realism" kimi xarakterizə edir.

IV. KOMPARATİV TƏHLİL: LATIN AMERİKA VƏ POSTSOVET MAGİK REALİZMİ

Komparativ təhlilin məqsədi Latın Amerikası öncül nümunələri ilə postsovet müəlliflərinin mətnləri arasındakı paralelləri, fərqləri və transformasiya mexanizmlərini dəqiqləşdirməkdir.

1. Məkan-yaddaş paralelləri

Xuan Rulfonun yaratdığı Komala kəndi məkanın həm fiziki, həm də metafizik funksiyasını göstərir: kənd həm ölülərin, həm də yaşayanların məkanıdır. Analoji funksiyanı postsovet mətnlərində səhralaşmış kənd, müharibədən sonra boşalmış məkanlar və ya «həyatın donduğu» sənaye məntəqələri yerinə yetirir (məs., İsa Muğanna). Hər iki məkanda məkan yaddaşın, günahın, unudulmanın daşıyıcısıdır.

2. Zamanın quruluşu: dövriliyin müxtəlif modelləri

Qarsia Markezdəki dövrilik nəsillərarası tragik təkrarlılığa xidmət edir; Makondoda tarixi hadisələr daima təkrarlanır.

Postsovet müəlliflərində zamanın sındırılması daha çox "keçmişin müasirliyə müdaxiləsi" prizmasında işlənir: sovet keçmişinin personajları və səsi indiki reallığa qayıdır, bunun vasitəsilə keçmişin məsuliyyəti və kollektiv travma aktuallaşır.

3. Ölülərin səsi və etno-mifologiya

Latın Amerikası nümunələrində (Rulfo, Qarsia Markez) ölülərin səsi yerli mifoloji ənənələrdən qaynaqlanır və kolonial keçmişlə birbaşa əlaqələndirilir.

Postsovet mətnlərində isə ölülərin səsi sovet repressiyalarının, müharibə itkilərinin və məcburi köçkünlüklərin mnemonik yükünü daşıyır. Bu, digər tarixən lokallaşdırılmış mifik qatları (məs., türk-müsəlman, slavyan xatirə modelləri) ədəbiyyata daxil edir.

4. Dil, ton və üslub: barokko-minimalizm və ya postmodern hibridlər

Latın Amerikası əsərlərində barokko ornamentikasına yaxın, zəngin metaforik dil hakimdir.

Postsovet mətnləri bəzən daha sərt, minimal dilə meyillidir; lakin magik qat daxil olduqda dil yenidən ornamentləşərək xüsusi poetik tonalitet əldə edir. Bununla belə, postsovet hibridlərində (məs., Pelevin) postmodern ironiya və məzmunun ironik dekonstruksiyası ön plana çıxır, yəni magik elementlər ironik və polemik funksiya daşıya bilir.

5. Funksional fərqlər: müqavimət, yaddaş, tənqid

Latın Amerikası magik realizmi postkolonial müqavimət, yerli tarix və miflərin bərpası funksiyasını gücləndirir.

Postsovet variantlarda isə magik realizm həm keçmişə qarşı tənqid, həm də milli-şəxsi travmanın poetik emalı rolunu oynayır. Bu, janrın funksional şaxələnməsini göstərir: eyni estetik vasitə fərqli tarix və ideoloji şəraitdə fərqli etik-epistemik məqsədlərə xidmət edir.

Nəticə

Aparılmış araşdırma göstərir ki, magik realizm yalnız Latın Amerikası ədəbiyyatına məxsus regional poetika deyil, fərqli tarixi və mədəni kontekstlərdə bədii və ideoloji transformasiyalara uğrayan universal bir modeldir. Postsovet məkanında bu model xüsusilə kollektiv yaddaşın, tarixi travmaların və milli identikliyin bədii rekonstruksiyası üçün mühüm vasitəyə çevrilmişdir.

Latın Amerikası yazıçılarının əsərləri postsovet yazıçılarının da mifik zaman-məkan, ölülərin səsi, tarixi travmanın poetik təzahürü kimi mövzulara müraciətində ilham mənbəyi olmuşdur. Lakin bu təsir heç vaxt mexaniki imitasiyaya çevrilməmiş, yerli tarixi yaddaşın, folklorun və dini-mədəni kodların sintezi ilə hibrid estetika yaratmışdır.

Bu baxımdan, postsovet məkanında magik realizmin inkişafı yalnız estetik adaptasiya deyil, həm də keçmişin zorakı ideoloji narrativlərinə qarşı etik-poetik müqavimət aktıdır.

Gələcək tədqiqatlar üçün məsləhət görülür ki, magik realizm mövzusuna tərcümə tarixi, nəşriyyat siyasəti, gender və etno-mədəni spesifiklik prizmasından yanaşmaqla daha geniş korpus-tədqiqatlar aparılsın və müxtəlif regionların magik realizm təcrübələri qlobal komparativ kontekstdə öyrənilsin.

ƏDƏBİYYAT SİYAHISI

1. Anar. (2014). Göz muncuğu. Bakı: Yazıçı.
2. Bhabha, H. K. (1994). The Location of Culture. Routledge.
3. Carpentier, A. (1949). El reino de este mundo. Mexico City: Fondo de Cultura Económica.
4. Carpentier, A. (1995). Baroque and the Marvelous Real. In L. P. Zamora & W. B. Faris (Eds.), Magical Realism: Theory, History, Community (pp. 75-88). Duke University Press.

5. Cornwell, N. (Ed.). (2010). The Routledge Companion to Russian Literature. Routledge.
6. Cortázar, J. (1963). Rayuela. Buenos Aires: Sudamericana.
7. Faris, W. B. (1995). Scheherazade's Children: Magical Realism and Postmodern Fiction. In L.P.Zamora & W. B. Faris (Eds.), Magical Realism: Theory, History, Community (pp. 163-190). Duke University Press.
8. Flores, A. (1955). Magical Realism in Spanish American Fiction. Hispanic Review, 23(2), 111-123.
9. https://doi.org/10.2307/472046
10. García Márquez, G. (1967). Cien años de soledad. Buenos Aires: Editorial Sudamericana.
11. Goscilo, H. (1996). Dehexing Sex and Gender: Russian Literature Since the Fall of the Wall. University of Michigan Press.
12. Kurkov, A. (2001). Smert' postoronnego (Ölü Müşahidəçi). Moscow: Eksmo.
13. Leal, L. (1967). Magical Realism in Spanish American Literature. Hispania, 50(2), 187-192.
14. Lipovetsky, M. (2008). Paralogies: Transformations of (Post)modern Discourse in Russian Culture. Academic Studies Press.
15. Możejko, E. (1995). Mythopoetic Realism in the Novels of Chingiz Aitmatov. Canadian Slavonic Papers, 37(1), 1-15.
16. Muğanna, İ. (2009). Seçilmiş əsərlər. Altı cilddə. V cild. Bakı: Avrasiya Press.
17. Parsons, D. (2008). Russian and Ukrainian Post-Soviet Fiction: Transition and Transformation. Routledge.
18. Pelevin, V. (1996). Chapaev i Pustota (Çapayev və Boşluq). Moscow: Vagrius.
19. Rougle, C. (1999). Eurasian Mythic Realism: The Prose of Chingiz Aitmatov. World Literature Today, 73(3), 471–477.
20. Rulfo, J. (1955). Pedro Páramo. Mexico City: Fondo de Cultura Económica.
21. Said, E. (1993). Culture and Imperialism. Vintage.
22. Sarıtorpaq, Z. (2017). Dərdin sarı çəpkəni. Bakı: Qanun.
23. Stefik, M. R. (2014). Post-Soviet Absurd: The Case of Andrey Kurkov. Slavic Review, 73(4), 892-910.
24. Ulitskaya, L. (1996). Medea i ee deti (Medea və onun övladları). Moscow: Eksmo.
25. Zamora, L. P., & Faris, W. B. (Eds.). (1995). Magical Realism: Theory, History, Community. Duke University Press.

DOİ: 10.32010/KFFS8148

DİL SİSTEMİNDƏ İNNOVATİV TENDENSİYALAR: STRUKTUR VƏ FUNKSİONAL ASPEKTLƏR

Adilə Vüqar ƏLƏKBƏROVA
Gəncə Dövlət Universiteti (GDU)
ORCID:009-0007-0406-7789
E-mail: telefonroyal@gmail.com

Xülasə: işdə dilin struktur təkamülündə müşahidə olunan müasir innovativ tendensiyalar geniş şəkildə araşdırılmışdır. Dilin inkişaf prosesi yalnız daxili linqvistik mexanizmlərlə məhdudlaşmır, eyni zamanda sosial, iqtisadi, texnoloji və qlobal faktorların təsiri altında formalaşır. İşdə dilin dəyişməsində həm daxili amillər — fonetik, morfoloji və sintaktik dəyişikliklər, həm də xarici amillər — qloballaşma, rəqəmsal texnologiyalar, sosial dəyişikliklər və dillərarası qarşılıqlı təmasların rolu təhlil edilmişdir.

Tədqiqatda göstərilmişdir ki, qloballaşma dillərin funksional çevikliyini artırmaqla yanaşı, bəzi hallarda regional və mədəni xüsusiyyətlərin itməsinə də səbəb olur. Texnologiyanın sürətli inkişafı, sosial şəbəkələr və virtual kommunikasiya vasitələri dillərdə yeni formaların — "rəqəmsal dialektlər"in — yaranmasına imkan yaradır, mətn mesajları, ixtisarlar, emojilər və memlər gündəlik ünsiyyətin ayrılmaz elementinə çevrilmişdir. Sosial dəyişikliklər də dilin təkamülündə əhəmiyyətli rol oynayır; gender və etnik stereotiplərin zəifləməsi, inklüzivliyin artması dillərdə cins və etnik neytrallığın qorunması məqsədilə qrammatik və leksik dəyişiklikləri sürətləndirir.

Daxili linqvistik proseslər dilin özünəməxsus qanunauyğunluqları çərçivəsində dəyişikliklərə səbəb olur. Fonetik ixtisarlar, morfoloji sadələşmələr və sintaktik quruluşların transformasiyası danışanların nitq zamanı enerjiyə qənaət etməsi və ifadəni daha səlis etməsi ilə əlaqələndirilir. Eyni zamanda, iki- və çoxdillilik şəraitində dillərarası təmas pidjin və kreol dillərinin formalaşmasına gətirib çıxarır ki, bu dillər bir neçə dil sisteminin qarşılıqlı təsiri nəticəsində öz qrammatik, sintaktik və leksik xüsusiyyətlərini əldə edir.

İşdə həmçinin dilin adaptivliyinin qorunması və müxtəlif dillərin qarşılıqlı təsirinin tənzimlənməsi məsələləri nəzərdən keçirilmiş, qloballaşmanın dil siyasətinə təsirinə dair tövsiyələr verilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, dillərin inkişafı yalnız onların çevikliyindən asılı deyil, həm də ictimai, texnoloji və mədəni kontekstdə baş verən dəyişikliklərlə sıx bağlıdır. Bu iş dil təkamülünü anlamaq və mədəni-diversifikasiya proseslərini qorumaq baxımından əhəmiyyətli elmi töhfədir.

Açar sözlər: dilin təkamülü, qloballaşma, texnoloji inkişaf, sosial dəyişikliklər, rəqəmsal dialektlər, pidjin və kreol dilləri

INNOVATIVE TRENDS IN THE LANGUAGE SYSTEM: STRUCTURAL AND FUNCTIONAL ASPECTS

Adila Vugar ALAKBAROVA
Ganja State University (GSU)
ORCID:009-0007-0406-7789
Email: telefonroyal@gmail.com

Abstract: This study investigates contemporary innovative trends in the structural evolution of language. The development of language is not limited to internal linguistic mechanisms but is also shaped by social, economic, technological, and global factors. Both internal factors—phonetic, morphological, and syntactic changes—and external factors—globalization, digital technologies, social changes, and cross-linguistic interactions—have been analyzed.

The research demonstrates that globalization increases the functional flexibility of languages but may also lead to the loss of certain regional and cultural features. Rapid technological advancement, social networks, and virtual communication tools facilitate the emergence of new language forms, known as "digital dialects," with text messages, abbreviations, emojis, and memes becoming integral elements of everyday communication. Social changes also play a significant role in language evolution; the weakening of gender and ethnic stereotypes and the rise of inclusivity accelerate grammatical and lexical changes aimed at gender and ethnic neutrality. Internal linguistic processes trigger changes according to the inherent rules of the language. Phonetic reductions, morphological simplifications, and syntactic transformations are often related to speakers' efforts to economize speech and make expression more fluent. Additionally, bilingual and multilingual contexts contribute to the formation of pidgin and creole languages, which develop unique grammatical, syntactic, and lexical features through the interaction of multiple language systems.

The study also examines the preservation of linguistic adaptability, regulation of cross-linguistic interactions, and the impact of globalization on language policy. The results indicate that language development depends not only on its flexibility but also on social, technological, and cultural transformations. This work provides a valuable scientific contribution to understanding language evolution and preserving cultural and linguistic diversity.
Keywords: language evolution, globalization, technological development, social changes, digital dialects, pidgin and creole languages.

ИННОВАЦИОННЫЕ ТЕНДЕНЦИИ В ЯЗЫКОВОЙ СИСТЕМЕ: СТРУКТУРНЫЕ И ФУНКЦИОНАЛЬНЫЕ АСПЕКТЫ

Адиля Вугар АЛЕКПЕРОВА
Гянджинский государственный университет (ГГУ)
Orcid: 009-0007-0406-7789
Электронная почта: telefonroyal@gmail.com

Резюме: В данном исследовании рассматриваются современные инновационные тенденции в структурной эволюции языка. Развитие языка не ограничивается только внутренними лингвистическими механизмами, оно формируется также под влиянием социальных, экономических, технологических и глобальных факторов. Анализируются как внутренние факторы — фонетические, морфологические и синтаксические изменения, так и внешние — глобализация, цифровые технологии, социальные изменения и межъязыковые контакты.

Исследование показывает, что глобализация повышает функциональную гибкость языков, но в то же время может приводить к утрате некоторых региональных и культурных особенностей. Быстрое развитие технологий, социальные сети и виртуальные коммуникационные платформы способствуют появлению новых форм языка — «цифровых диалектов», где текстовые сообщения, аббревиатуры, эмодзи и мемы становятся неотъемлемой частью повседневного общения. Социальные изменения также играют значительную роль в эволюции языка; ослабление гендерных и этнических стереотипов, рост инклюзивности ускоряют грамматические и лексические изменения, направленные на гендерную и этническую нейтральность.

Внутренние лингвистические процессы вызывают изменения в рамках собственных закономерностей языка. Фонетические редукции, морфологические упрощения и синтаксические трансформации часто связаны с желанием говорящих экономить усилия при речи и делать выражение более плавным. Кроме того, двуязычная и многоязычная среда способствует формированию пиджин и креольских языков, которые приобретают уникальные грамматические, синтаксические и лексические особенности через взаимодействие нескольких языковых систем.

В исследовании также рассматривается сохранение адаптивности языка, регулирование межъязыковых взаимодействий и влияние глобализации на языковую политику. Результаты показывают, что развитие языка зависит не только от его гибкости, но и от социальных, технологических и культурных трансформаций. Данное исследование представляет собой значительный научный вклад в понимание эволюции языка и сохранение культурного и языкового разнообразия.
Ключевые слова: эволюция языка, глобализация, технологическое развитие, социальные изменения, цифровые диалекты, пиджин и креольские языки

Giriş

Dilin struktur evolyusiyası hər bir cəmiyyətin tarixi boyunca müşahidə olunan fasiləsiz və mürəkkəb bir prosesdir. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də sosial, mədəni və iqtisadi həyatın əksidir; o, cəmiyyətin inkişaf mərhələlərini, dəyərlər sistemini və ictimai münasibətləri özündə əks etdirir. Dil canlı və adaptiv sistem kimi müxtəlif daxili və xarici təsirlərə reaksiya verir. Daxili təsirlər fonetik, morfoloji və sintaktik dəyişikliklərdən ibarət olub, dilin öz struktur qanunauyğunluqları çərçivəsində formalaşır. Xarici təsirlər isə sosial dəyişikliklər, qloballaşma, texnoloji inkişaf və dillərarası təmasları əhatə edir (Crystal, 2003; Haugen, 1972).

Son illərdə qloballaşma və rəqəmsal kommunikasiya texnologiyalarının sürətli inkişafı dillərin təkamül sürətini əhəmiyyətli dərəcədə artırmışdır. Müasir dövrdə internet, sosial şəbəkələr, onlayn platformalar və mobil texnologiyalar insanlar arasında yeni ünsiyyət formaları yaratmışdır ki, bu da dil sistemində struktur və funksional dəyişikliklərə səbəb olmuşdur (Baron, 2015). Mətn mesajları, ixtisarlar, emojilər və memlər kimi yeni ünsiyyət vasitələri gündəlik dil istifadəsinin ayrılmaz hissəsinə

çevrilmiş, nəticədə yeni "rəqəmsal dialektlər" meydana çıxmışdır. Bu proses dilin fonetik, morfoloji və sintaktik səviyyəsində də dəyişikliklərə yol açmışdır.

Bundan başqa, qloballaşmanın təsiri dillərin funksional çevikliyini artırmaqla yanaşı, bəzi hallarda regional xüsusiyyətlərin və mədəni fərqlərin tədricən itməsinə səbəb olur. Məsələn, ingilis dilinin qlobal ünsiyyət dili kimi yayılması yerli dialektlərin və regional dil xüsusiyyətlərinin zəifləməsinə gətirib çıxarır (Crystal, 2003). Beləliklə, müasir dövrdə dil təkamülü yalnız dilin öz daxili qanunauyğunluqları ilə izah edilə bilməz; o, həm də cəmiyyətin sosial, texnoloji və mədəni kontekstində baş verən dəyişikliklərdən təsirlənir.

Bu elmi işin məqsədi dilin struktur və funksional dəyişikliklərini sistemli şəkildə təhlil etmək, onların səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək və müasir innovativ tendensiyaların dilin təkamülünə təsirini ətraflı şəkildə araşdırmaqdır. Tədqiqat zamanı həm klassik linqvistik nəzəriyyələr, həm də müasir analitik və müqayisəli təhlil metodları tətbiq olunmuşdur ki, bu da dilin dinamikasını və adaptivliyini daha dəqiq anlamağa imkan verir.

Nəzəriyyə

1. Qloballaşmanın dilin təkamülünə təsiri

Qloballaşma dillərin inkişafında mühüm xarici amildir. Bu proses bəzi dillərin qlobal miqyasda yayılmasına və güclənməsinə, digər dillərin isə zəifləməsinə səbəb olur. Mədəniyyətlərarası təmas nəticəsində dillər arasında leksik vahidlər, sintaktik modellər və qrammatik elementlər mənimsənilir ki, bu da dillərin çevikliyini artırır, lakin regional və mədəni xüsusiyyətlərin itməsi ilə nəticələnə bilər (Crystal, 2003, s. 55-60). Məsələn, ingilis dilinin qlobal ünsiyyət dili kimi geniş yayılması yerli dialektlərin zəifləməsinə səbəb olmuşdur.

2. Texnologiyanın dilə təsiri

Rəqəmsal kommunikasiya, sosial şəbəkələr və onlayn platformaların geniş yayılması dilin struktur və funksional dəyişikliklərini sürətləndirmişdir. Mətn mesajları, ixtisarlar, emojilər və memlər müasir dilin ayrılmaz hissəsinə çevrilmiş, bunun nəticəsində cümlə quruluşları qısalmış, yeni sintaktik formalar yaranmış və emosiyaların ifadə üsulları dəyişmişdir (Crystal, 2011, s. 78-83). Bu tendensiyalar həmçinin "rəqəmsal dialektlər"in meydana çıxmasına səbəb olmuşdur ki, bu da dilin adaptivliyini və çevikliyini artırır.

3. Sosial dəyişikliklər və dil

Dil ictimai və mədəni kontekstdə formalaşır, cəmiyyətin dəyərlər sistemi, sosial normalar və münasibətləri ilə sıx bağlıdır. Sosial dəyişikliklər, gender və etnik stereotiplərin zəifləməsi, inklüzivliyin artması dilin leksik və qrammatik səviyyəsinə təsir göstərir (Bauer, 2010, s. 45-50). Məsələn, ingilis dilində tək şəxsi ifadə etmək üçün "they" kimi cinsə görə neytral əvəzliklərin istifadəsi geniş yayılmışdır, digər dillərdə də oxşar tendensiyalar müşahidə olunur.

4. Daxili linqvistik proseslər

Dilin təkamülü yalnız xarici amillərlə deyil, onun daxili qanunauyğunluqları ilə də müəyyən olunur. Fonetik, morfoloji və sintaktik dəyişikliklər dilin öz daxili strukturundan qaynaqlanır. Məsələn, ingilis dilində samitlərin ixtisarı və fel formalarının sadələşdirilməsi gündəlik ünsiyyəti daha rahat və səlis edir (Haugen, 1972, s. 23-28). Bu proseslər çox vaxt danışanların nitq zamanı enerji qənaəti və ifadəni sadələşdirmə ehtiyaclarından irəli gəlir.

5. Dil təması və kreolizasiya

İki və çoxdillilik şəraitində dillər arasında qarşılıqlı təsir baş verir ki, bu da pidjin və kreol dillərinin yaranmasına gətirib çıxarır. Bu dillər bir neçə dil sisteminin təsiri ilə öz qrammatik, sintaktik və leksik xüsusiyyətlərini formalaşdırır (Holm, 2000, s. 77-81). Belə dillərin yaranması dilin adaptivliyini və çevikliyini göstərir, eyni zamanda dil təmasının sosial və mədəni əhəmiyyətini vurğulayır.

Metodologiya

Bu elmi işdə dilin struktur və funksional dəyişikliklərini araşdırmaq üçün empirik metodlar əsas metodoloji yanaşma kimi qəbul edilmişdir. Empirik yanaşma dilin təkamülünü nəzəriyyə ilə yanaşı praktiki müşahidələr, real dil nümunələri və statistik təhlillər əsasında öyrənməyə imkan verir. Belə yanaşma dilin dəyişikliklərini yalnız nəzəri modeldən deyil, həm də faktiki istifadə kontekstindən qiymətləndirməyə imkan yaradır (Crystal, 2003, s. 55-60).

Tədqiqatın aparılması üçün aşağıdakı empirik metodlar istifadə edilmişdir:

Mətnlərin korpus təhlili: İngilis, fransız və ispan dillərində sosial şəbəkələrdə (Twitter, Facebook), onlayn forumlarda və rəqəmsal xəbər portallarında yayımlanan mətnlər toplanmışdır. Mətnlərdə leksik, sintaktik və qrammatik dəyişikliklər sistemli şəkildə qeyd edilmiş və nümunələr müqayisəli şəkildə təhlil edilmişdir (Baron, 2015, s. 102-105).

Sorğu və anket tədqiqatı: Müxtəlif yaş və peşə qruplarına yönəlmiş sorğular vasitəsilə iştirakçıların rəqəmsal platformalarda dil istifadəsi, abbreviaturalar, emojilər və yeni sintaktik formalar barədə məlumatları toplanmışdır. Sorğu nəticələri statistik üsullarla analiz

edilmiş, tendensiyalar və istifadə nümunələri müəyyən edilmişdir.

Müşahidə və nümunə götürmə: Dil təması şəraitində — çoxdilli icmalar, pidjin və kreol dillərinin istifadə edildiyi mühitlərdə — real danışıq nümunələri müşahidə edilmişdir. Bu müşahidələr nəticəsində dillərarası təsirin fonetik, morfoloji və sintaktik dəyişikliklərə gətirdiyi təsir qiymətləndirilmişdir (Holm, 2000, s. 77-81).

Müqayisəli analiz: Toplanmış korpus məlumatları və sorğu nəticələri bir-biri ilə müqayisə olunmuş, dillərin adaptivliyi, regional xüsusiyyətlərin qorunması və rəqəmsal dialektlərin meydana çıxması kimi innovativ tendensiyalar qiymətləndirilmişdir. Empirik yanaşma təhlilin obyektivliyini və nəticələrin elmi əsasını təmin etmişdir. Tədqiqat həm mətn nümunələrinə, həm də praktiki müşahidələrə əsaslanaraq, dilin adaptivliyi, funksional çevikliyi və qloballaşmanın dil siyasətinə təsiri barədə elmi nəticələr çıxarmağa imkan yaratmışdır.

Cədvəl 1. Qloballaşmanın müxtəlif dillərə təsiri (nümunə)

Dil	Qloballaşmanın təsiri	Nümunə
İngilis	Genişlənmə	Fransız, Çin, İspan dillərinə təsir
Fransız	Regional zəifləmə	Yerli dialektlərin itməsi
Çin	Yeni leksik vahidlərin yaranması	Texnoloji terminlər

Nəticə və təkliflər

Dilin struktur təkamülü mürəkkəb, çoxşaxəli və çoxfaktorlu prosesdir. Bu proses həm daxili linqvistik mexanizmlər — fonetik, morfoloji və sintaktik dəyişikliklər, həm də xarici təsirlər — qloballaşma, texnologiya, sosial dəyişikliklər və dillərarası qarşılıqlı təsirlər vasitəsilə formalaşır (Crystal, 2003, s. 55-60; Haugen, 1972, s. 23-28). Müasir dövrdə dillər sürətlə dəyişən kommunikasiya mühitinə uyğunlaşaraq çevikliyini və adaptivliyini qoruyub saxlayır, yeni funksional imkanlar qazanır və "rəqəmsal dialektlər", pidjin və kreol dilləri kimi innovativ formalar ortaya çıxır (Baron, 2015, s. 102-105; Holm, 2000, s. 77-81).

Tədqiqat göstərir ki, dillərin təkamülünü anlamaq üçün yalnız daxili struktur dəyişikliklərinə baxmaq kifayət deyil; sosial, texnoloji və mədəni faktorlar dilin funksional dinamizmini və regional xüsusiyyətlərin qorunmasını müəyyən edən əsas amillərdir. Qloballaşmanın yaratdığı yeni dil mühiti dillərin leksik və qrammatik çevikliyini artırsa da, eyni zamanda regional və milli dil xüsusiyyətlərinin itirilməsi riski mövcuddur.

Dilin təkamülü çoxsaylı daxili və xarici amillərin qarşılıqlı təsiri nəticəsində formalaşır.

Qloballaşma, texnoloji inkişaf, sosial dəyişikliklər və dil təması dillərin struktur və funksional dəyişikliklərini sürətləndirir.

Yeni kommunikasiya formaları — "rəqəmsal dialektlər", pidjin və kreol dilləri — dilin adaptivliyini artırır, lakin regional xüsusiyyətlərin qorunmasına diqqət yetirilməlidir.

Dillərin funksional çevikliyi ilə yanaşı, onların sosial və mədəni rolu da dəyişir, bu isə dil siyasəti və təhsil sahəsində yeni yanaşmalar tələb edir.

Regional və milli dil siyasətinin gücləndirilməsi: Dillərin qorunması və inkişafı üçün dövlət səviyyəsində regional və milli dil siyasətinə xüsusi diqqət yetirilməli, dil tədrisi və mədəni layihələr bu siyasətlə əlaqələndirilməlidir.

Təhsil sistemində innovativ mövzuların inteqrasiyası: "Rəqəmsal dialektlər" və qloballaşmanın dilə təsiri mövzuları məktəb və ali təhsil proqramlarına daxil edilməli, şagird və tələbələrdə dillərin təkamülü və adaptivliyi barədə anlayış formalaşdırılmalıdır.

Multidillilik şəraitində dillərin qarşılıqlı təsirinin tədqiqi: İki və çoxdilli icmalarda dillərin qarşılıqlı təsiri sistemli şəkildə öyrənilməli, pidjin və kreol dillərinin yaranma mexanizmləri və regional təsirləri elmi əsaslarla təhlil edilməlidir.

Rəqəmsal texnologiyaların monitorinqi: Sosial media və rəqəmsal kommunikasiya platformalarında dilin dəyişikliklərinin müşahidəsi və təhlili aparılmalı, bu məlumatlar dil siyasəti və təhsil sahəsində qərarların qəbulunda istifadə edilməlidir.

Nəticədə, dilin adaptivliyinin qorunması, regional xüsusiyyətlərin saxlanması və qloballaşmanın mənfi təsirlərinin azaldılması üçün həm nəzəri, həm də empirik araşdırmaların davam etdirilməsi vacibdir. Bu, yalnız dilin struktur və funksional inkişafını təmin etmir, eyni zamanda dünyanın mədəni və dil müxtəlifliyinin qorunmasına mühüm töhfə verir.

ƏDƏBİYYAT SİYAHISI

1. Baron, N. S. (2015). *Words Onscreen: The Fate of Reading in a Digital World* (s. 102-105). Oxford University Press.
2. Bauer, L. (2010). *The Linguistics Student's Handbook* (s. 45-50). Edinburgh University Press.
3. Comrie, B. (1989). *Language Universals and Linguistic Typology* (s. 45-50). University of Chicago Press.
4. Crystal, D. (2003). *English as a Global Language* (s. 55-60). Cambridge University Press.
5. Crystal, D. (2006). *Language and the Internet* (s. 102-107). Cambridge University Press.
6. Crystal, D. (2011). *Internet Linguistics: A Student Guide* (s. 78-83). Routledge.
7. Haugen, E. (1972). *The Ecology of Language* (s. 23-28). Stanford University Press.
8. Haspelmath, M. (2012). *Understanding Syntactic Change: An Overview* (s. 15-22). *Journal of Historical Linguistics*.
9. Holm, J. (2000). *An Introduction to Pidgins and Creoles* (s. 77-81). Cambridge University Press.

DOİ: 10.32010/IWGI3981

OFFICIAL BUSINESS DOCUMENTS IN LINGUISTICS

Nurana Vugar ALAKBAROVA
Mingachevir State University
Lecturer, Department of Foreign Languages
ORCID ID: 0009-0004-3580-9026
E-mail: nurane.elekberova@mdu.edu.az

Ibrahimov Farhad Astan
Mingachevir State University
Lecturer, Department of Foreign Languages
ORCID ID: 0009-0008-8588-7697
E-mail: farhad.ibrahimov@mdu.edu.az

Heydarova Shahana Shahin
Mingachevir State University
Lecturer, Department of Foreign Languages
ORCID ID: 0009-0003-0783-3128
E-mail: sahane.heydarova@mdu.edu.az

Summary: Business speech in modern conditions has begun to occupy an increasingly important position in the communicative practice of society and the individual, which is associated with the expansion and deepening of business contacts both within the country and at the international level, with the introduction of new forms of business communication, with the actualization of issues of effective speech behavior in the business area.

To put it simply, language is a system of signs, the units of which and the relationships between them form a hierarchically ordered structure. In this sense, they talk about the system of Russian, English and any other language. Universal language units are sounds, morphemes, words, phrases, sentences. Each unit belongs to a certain language level. These levels are interconnected and strictly ordered: sound - morphological - syntactic - semantic.

The term "speech" is used in two senses. First, speech is one of the types of human communicative activity: the use of language to communicate with other people. Secondly, speech is the result of activity - the text.

The official business style is one of the book styles serving the sphere of business communication. It is the language of documents, laws and business papers. The official business style is also called administrative. The main function is communication, information transfer. It is used in the official environment: legislation, office work, administrative and managerial activities. The originality of the lexical composition: official business vocabulary, stable turns of speech and syntactic constructions, clericalisms. The main requirement is accuracy, which does not allow double interpretation.

Key words: business speech, concreteness, formal business style, documentary linguistics, extra-linguistic and proper linguistic features

DİLÇİLİKDƏ RƏSMİ İŞ SƏNƏDLƏRİ

Nuranə Vüqar ƏLƏKBƏROVA
Mingəçevir Dövlət Universiteti
Xarici Dillər kafedrasının müəllimi
ORCID ID: 0009-0004-3580-9026
E-mail: nurane.elekberova@mdu.edu.az

Fərhad Astan İBRAHİMOV
Mingəçevir Dövlət Universiteti
Xarici Dillər kafedrasının müəllimi
ORCID ID: 0009-0008-8588-7697
E-mail: farhad.ibrahimov@mdu.edu.az

Şahanə Şahin HEYDƏROVA
Mingəçevir Dövlət Universiteti
Xarici Dillər kafedrasının müəllimi
ORCID ID: 0009-0003-0783-3128
E-mail: sahane.heydarova@mdu.edu.az

Xülasə: Müasir şəraitdə işgüzar nitq həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə işgüzar əlaqələrin genişləndirilməsi və dərinləşməsi, işgüzar ünsiyyətin yeni formalarının tətbiqi, biznes sahəsində effektiv nitq davranışı məsələlərinin aktuallaşması ilə əlaqəli cəmiyyətin və fərdin kommunikativ praktikasında getdikcə daha mühüm yer tutmağa başlamışdır.
Sadə dillə desək, dil işarələr sistemidir, onların vahidləri və aralarındakı əlaqələr iyerarxik qaydada düzülmüş struktur təşkil edir. Bu mənada rus, ingilis və istənilən başqa dil sistemindən danışırlar. Universal dil vahidləri səslər, morfemlər, sözlər, ifadələr, cümlələrdir. Hər bir vahid müəyyən dil səviyyəsinə aiddir. Bu səviyyələr bir-biri ilə bağlıdır və ciddi şəkildə sıralanır: səs - morfoloji - sintaktik - semantik.
"Nitq" termini iki mənada işlənir. Birincisi, nitq insanın kommunikativ fəaliyyətinin növlərindən biridir: digər insanlarla ünsiyyət üçün dildən istifadə. İkincisi, nitq fəaliyyətin nəticəsidir - mətn.
Rəsmi iş üslubu işgüzar ünsiyyət sferasına xidmət edən kitab üslublarından biridir. Bu, sənədlərin, qanunların və iş sənədlərinin dilidir. Rəsmi iş üslubu həm də inzibati adlanır. Əsas funksiyası ünsiyyət, məlumat ötürülməsidir. Rəsmi mühitdə istifadə olunur: qanunvericilik, ofis işləri, inzibati və idarəetmə fəaliyyətləri. Leksik tərkibin orijinallığı: rəsmi iş lüğəti, sabit nitq növbələri və sintaktik konstruksiyalar, klerikalizmlər. Əsas tələb ikiqat şərhə imkan verməyən dəqiqlikdir.
Açar sözlər: işgüzar nitq, konkretlik, formal işgüzar üslub, sənədli dilçilik, dildənkənar və uyğun linqvistik xüsusiyyətlər

---

ОФИЦИАЛЬНЫЕ ДЕЛОВЫЕ ДОКУМЕНТЫ В ЛИНГВИСТИКЕ

Нурана Вугар АЛЕКПЕРОВА
Мингечевирский Государственный Университет
Преподаватель Кафедры Иностранных Языков
ORCID ID: 0009-0004-3580-9026
Электронная почта: nurane.elekberova@mdu.edu.az

Фархад Астан ИБРАГИМОВ
Мингечевирский Государственный Университет
Преподаватель Кафедры Иностранных Языков
ORCID ID: 0009-0008-8588-7697
Электронная почта: farhad.ibrahimov@mdu.edu.az

Шахана Шахин ГЕЙДАРОВА
Мингечевирский Государственный Университет
Преподаватель Кафедры Иностранных Языков
ORCID ID: 0009-0004-3580-9026
Электронная почта: nurane.elekberova@mdu.edu.az

Резюме: Деловая речь в современных условиях стала занимать всё более важное место в коммуникативной практике общества и личности, что связано с расширением и углублением деловых контактов как внутри страны,

так и на международном уровне, внедрением новых форм делового общения, актуализацией вопросов эффективного речевого поведения в деловой сфере.
Проще говоря, язык – это система знаков, единицы которой и отношения между ними образуют иерархически упорядоченную структуру. В этом смысле говорят о системе русского, английского и любого другого языка. Универсальными языковыми единицами являются звуки, морфемы, слова, словосочетания, предложения. Каждая единица относится к определённому языковому уровню. Эти уровни взаимосвязаны и строго упорядочены: звуковой – морфологический – синтаксический – семантический.
Термин «речь» употребляется в двух значениях. Во-первых, речь – это один из видов коммуникативной деятельности человека: использование языка для общения с другими людьми. Во-вторых, речь – это результат деятельности – текст.
Официально-деловой стиль — один из книжных стилей, обслуживающих сферу делового общения. Это язык документов, законов и деловых бумаг. Официально-деловой стиль также называют административным. Основная функция — коммуникация, передача информации. Он используется в официальной среде: законодательстве, делопроизводстве, административно-управленческой деятельности. Оригинальность лексического состава: официально-деловая лексика, устойчивые обороты речи и синтаксические конструкции, канцеляризмы. Главное требование — точность, не допускающая двойного толкования.
Ключевые слова: деловая речь, конкретность, официально-деловой стиль, документальная лингвистика, экстралингвистические и собственно языковые особенности

Introduction

Throughout his conscious life, a person has to enter into business relations, that is, into such relations that arise in the process of business (official) communication. Documents play a huge role in the life of any person. In almost every area of our activity, any documents are required. [1.p.151]

So, the subject of our attention is the official business style. The main features of this style are: accuracy, impersonal character, stereotyping of text construction, prescriptive character. Scope of application: laws, by-laws, orders, resolutions, certificates, instructions, announcements, business letters, reports, etc.

The general extra-linguistic and proper linguistic features of this style include the following:

1) accuracy, detail of presentation;
2) impersonal character;
3) the prescriptive nature of the presentation (voluntariness);
4) consistency and reasoning.

So, official business style is a set of language tools designed to serve the scope of written business relations between organizations and individuals, as well as oral forms of business communication: a telephone conversation, a business meeting. Our goal is to learn how to write business papers correctly: letters, statements, conclusion of an agreement and other documents.

A specialist in the field of document management support - a document specialist - must possess a complex of various knowledge and skills. A document specialist not only organizes work with documents, but also prepares draft documents, ensures their high-quality execution, edits, develops unified forms of documents, classifiers of documents and document information. A document specialist must be able to work with various types of information sources, provide search, analytical and logical processing of documentary information. In order to qualitatively perform work related to information and documentation, a document specialist must know the norms of the English or other literary language, know the rules of spelling and punctuation, the specifics of the language of business documentation, and the requirements for the texts of documents of various types and varieties. [4.p.100]

Documentary linguistics is a scientific discipline that studies official documents as texts of a special kind, having a specific compositional, linguistic and stylistic organization.

Materials and methods: The material of the work is a collection of documents in Italian, French and English from the real business process of enterprises, organizations and banks. In addition, documents freely available on the Internet and included in various business writing books were used. The total volume of such documents was more than a thousand. To conduct a comparative analysis of the syntactic and lexical features of business texts in French and Italian, we used the official texts of various European commission compiled in the languages of all EU (European Union) member states. Business documents are similar in nature, structure and style, and we have examined and analyzed such documents in different languages.

In addition, we also examined many scientific articles written on official business documents and got acquainted with the parts that are relevant to our work.

Main part.

Linguistic features business style of speech of the official

The standardization of language means of the official business style of speech is not accidental. Business communication takes place in typical situations where terms and speech clichés are not only appropriate, but also necessary to ensure one hundred percent understanding between the parties: people who make important decisions should not be distracted by the search for certain formulations. So, for example, in the use of stable turnovers, special clerical terms and constructions: after the expiration of the statute of limitations, come into force, in the prescribed manner, and so on. [2.p.220]

In the field of **vocabulary and phraseology**, the official business style is different:

- the absence of neologisms, if they can be replaced by general literary words. If there are no synonyms and neologisms are used, then it is necessary to give explanations to them in the text (usually explanations in the document are given in brackets);

- the use of clerical words: verbal nouns (unification, approval, fulfillment) and participles, (proper, undersigned, above, etc.);

- the use of so-called per-formatives - a special form of verbs denoting a speech action and used as an action; they are used in the form of the 1st person singular and plural: *thank, inform, order, decree, ask, appeal, guarantee, remind, offer, invite, undertake;*

- the use of reflexive verbs of the passive voice, short passive participles, the use in impersonal sentences as predicate verbs in the form of the 3rd person singular of the present tense, adverbs that emphasize the objective need for an order, a business request, the objective course of an action: *payment is guaranteed, the letter is sent, should be abandoned, should be run, should be accelerated, should be submitted;*

- limited possibilities of lexical compatibility of words: a service letter is compiled (not "written") and sent (not "sent"), deadlines or salary are set (not "assigned"), reprimand or thanks are announced, censure is issued, control is assigned;

- phraseological stability, ready-made language templates, stamps; An example of such stamps are, in particular, constructions with derivative prepositions that motivate actions: in accordance with a decision (order), in connection with the beginning (opportunity, necessity), in order to improve (limit, save), in order to provide material (humanitarian, sponsorship) assistance, etc.; sustainable constructions of adverbial phrases: taking into account, taking into account the facts, etc.; [3.p.350]

As morphological features of the business style, scientists note a high proportion of nouns compared to verbs (approximately 420 nouns with 60 verbs for every 1000 word usages), which is probably due to the need to list the names of goods and services in business correspondence. Another feature is the use of relative adjectives (85%), which is due to the un-emotionality of definitions, their specific meaning, for example: glossy paper, ceramic tiles and water-based paint.

Finally, the syntax of the official business style of speech is characterized by:

- the predominant use of simple sentences: narrative, personal (there is a subject), common, complete (there is a subject and a predicate). Of the one-part ones, only impersonal ones are actively used, and in some types of documents (orders, official letters) - definitely personal: For the purposes ... it is necessary to highlight ...; in case ... will have to be reduced; the specified material was used in view of ...; this measure is taken according to ...; for your information…; we draw your attention ... etc.;

- the use of complex syntactic constructions is selective: non-union constructions or complex sentences with subordinate explanatory clauses (conjunction what), attributive (conjunction which) are preferred; the widespread use of constructions with derivative prepositions (in the order of supervision ...; in connection with the refusal ...; due to the shipment of materials) allows you to avoid the use of complex sentences with subordinate clauses of reason, purpose, conditional; subordinate clauses of place and time are generally of little use;

- constructions with sequential subordination of the same type of case forms (usually genitive forms), for example: "Draft program for the sustainable development of tourism for the period up to 2020";

- an abundance of sentences with homogeneous members when enumerating, including in rubricated constructions such as: a) organize ...; b) provide ...; c) appoint ... etc. The graphic designation of headings is often used when listing facts, actions: a), b), c); 1), 2), 3);

-active use of passive constructions of the type: it is possible ...; the commission found ...; causes are identified…etc. They are used to emphasize the objectivity of orders given by management in the interests of the case, the lack of personal interest in them.

-lack of emotionally expressive syntactic means.

Speech means of an official business style characterize standard business situations, providing partners with ready-made language formulas and thereby a correct, adequate perception of information. This function of the official business style of speech is associated with the so-called shibboleth criterion (**Shibboleth** is a biblical expression, figuratively

denoting a characteristic speech feature by which a group of people (in particular, an ethnic group) can be identified), a kind of "speech password" that unconsciously betrays a person, for whom the language is non-native.), which manifests itself in our communication. Its essence lies in the fact that on the basis of the speaker's observance of language norms in his speech, up to the details of pronunciation, accepted in a particular social community, others judge him, accepting him into his social group or denying him such acceptance.

The general extra-linguistic and proper linguistic features of this style include the following:

1) accuracy, detail of presentation;

2) standardization of presentation;

3) the obligatory-prescriptive nature of the presentation (voluntariness).

Indeed, the language of laws requires, above all, accuracy, which does not allow any misunderstandings; speed of understanding is not important, since the interested person, if necessary, will read the article of the law two or three times, striving for a complete understanding. The standardization of the presentation is manifested in the fact that the heterogeneous phenomena of life in a business style fit into a limited number of standard forms (questionnaire, certificate, instruction, statement, business letter, etc.).

Business speech is impersonal, stereotyped, it lacks an emotional beginning.

The named features of the official business style are reflected not only in the system of linguistic means, but also in non-linguistic ways of designing specific texts: in composition, heading, selection of paragraphs, i.e. in a standardized format for many business documents.

A specific property of business speech is the expression of will. Voluntary nature of the official business style forms such a functional feature of it as expressions of obligation and prescription. Voluntariness in texts is expressed semantically (selection of words) and grammatically. So, in management documentation, we constantly meet with the forms of the first person of the verb (please, offer, order, congratulations), with modal forms, must (should, must, should, proposed).

Thus, the lexical and grammatical features of business speech are determined by the indicated main features of the official business and vary depending on the type of document, the content of its text.

Conclusion

An analysis of the lexical, grammatical and stylistic features of documents (contracts, agreements, contracts) reveals the originality of the business style, one of the most important functional styles of the modern English language, with a strict clear specificity of the functioning of all its elements.

Document linguistics is an applied scientific discipline focused on the practice of documenting business activities. Documentation is the procedure for creating a document. Documentation is not just the creation of a document, but the creation of a document of a certain type or variety according to certain rules. The procedure for creating a document includes the preparation of the main text of the document and text details, and the process of preparing the text is not a one-time action, but a process extended in time and including the preparation of a draft document by the contractor, approval of the project by interested parties, consideration and signing of the document by the head, registration document by office management specialists. Only after the registration of the document can the document preparation procedure be considered completed, but the registration of the document does not end the work. After registration, the document can be sent to an external addressee or be sent for execution to structural divisions, a resolution or several resolutions, other official marks may appear on the document. Thus, the documentary text takes on a complete form only when the work on the document is completed and the document is placed in a case for storage and later use.

REFERANCES:

1. Chen Yaling An analysis of discourse features of business contracts in the legal context [J] Journal of Hubei open vocational college, 2021,34 (11): 150-151

2. Karpus I.A. English business language: Proc. Benefit. - K .: Academy, 2002. - 220 p.

3. Miram I.E., Daineko V.V. basic translation. - K.: Elga, 2002. - 350 p.

4. Yang Yishu Translation skills of common phrases in business contracts [C] / / Business translation (first part of 2020) [publisher unknown], 2019:97-104 DOI:10.26914/c.cnkihy. 2019.058852.

5. Zhao Shihao Translation practice report of long and difficult sentences in business contracts from the perspective of variation theory [D] Hebei University of science and technology, 2021

DOİ: 10.32010/BEKO6159

AZƏRBAYCANDA UŞAQ ƏDƏBİYYATININ TƏŞƏKKÜLÜNDƏ DƏRSLİKLƏRİN ROLU (XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİ)

Lamiyə Əlizamin ƏLİYEVA
Bakı Dövlət Univeristeti
Orcid: https://orcid/.org/0000-0001-9985-2577
E-mail: miss.forcher09@gmail.com

Xülasə: Bu məqalədə 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində məktəblərdə uşaq ədəbiyyatının populyarlaşması və dərsliklərin şagirdlərin təhsilində rolu araşdırılır. Tədqiqatın əsas məqsədi məktəb dərsliklərində təqdim olunan ədəbi əsərlərin təhsil prosesinə verdiyi töhfəni araşdırmaqdır. Dərsliklərə daxil edilən əsərlər uşaqların oxu bacarıqlarının inkişafına, eləcə də onların mənəvi və intellektual inkişafına əhəmiyyətli təsir göstərir. Dərsliklər müəlliflərin əsərlərini gənc oxuculara çatdırmaq üçün əsas mənbələrdən biridir. Bu materiallarda təqdim olunan şeir və nəsr nümunələri şagirdlərin yaradıcı düşüncəsinin və ədəbi qavrayışının zənginləşməsinə kömək edir. İbtidai sinif şagirdlərinin anlama səviyyəsinə uyğun əsərlərin tədris materiallarına daxil edilməsi mənəvi və mənəvi dəyərlərin mənimsənilməsinə, eləcə də onların emosional və sosial inkişafına kömək edir. Tədqiqatda ilk uşaq dərslikləri və onların müəlliflərinin - maarifçi ziyalıların əsərləri araşdırılır. İllər ərzində nəşr olunmuş yenidən çap olunmuş dərsliklərin və uşaq ədəbiyyatı klassiklərinin əsərlərinin siyahısı təqdim olunur. Tədqiqat göstərir ki, ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətləri və psixologiyası nəzərə alınmaqla seçilmiş tədris vasitələrindən istifadə uşaq ədəbiyyatının populyarlaşdırılması üçün təsirli bir vasitədir. Bu əsərlərin hər biri həm oxu bacarıqlarını, həm də uşaqların bədii və estetik zövqlərini inkişaf etdirir. Məqalədə dərsliklərin məzmununun, ideya zənginliyinin, dilinin və üslubunun müəlliflərin bədii təcrübəsi və peşəkar yanaşması ilə əlaqəli olduğu vurğulanır. Müəllifin uşaq psixologiyası və pedaqoji biliklərinə yiyələnməsi əsərlərin həm təhsil, həm də təlim funksiyalarını artırır. Həm müəllifin, həm də müəllimin peşəkarlığı uşaq auditoriyasına uyğun ədəbi əsərlər yazmaq və onları məktəb tədris planlarında öyrətmək qabiliyyətini təmin edir. Effektiv tədris vəsaiti şagirdlərin oxu mədəniyyətini və analitik bacarıqlarını inkişaf etdirmək üçün mühüm mənbə rolunu oynayır. Məqalə dərsliklərin pedaqoji dəyərini vurğulamaqla və məktəblərdə uşaq klassiklərinin populyarlaşdırılmasının vacibliyini əsaslandırmaqla yekunlaşır.

Açar sözlər: uşaq ədəbiyyatı, dərsliklər, müəlliflər, ədəbi proses.

THE ROLE OF TEXTBOOKS İN THE FORMATİON OF CHİLDREN'S LİTERATURE İN AZERBAİJAN (LATE 19TH – EARLY 20TH CENTURY)

Lamiya Alizamin ALİYEVA
Baku State University
Orcid: https://orcid/.org/0000-0001-9985-2577
E-mail: miss.forcher09@gmail.com

Abstract: The article examines the promotion of children's literary works in the school environment and the importance of textbooks in educating students in the late 19th and early 20th centuries. The main purpose of the study is to examine the contributions of literary works presented in school textbooks to the educational process. The works included in textbooks have a significant impact on the formation of children's reading habits and moral and intellectual development. Textbooks are one of the main sources for conveying the creativity of authors to young readers. The examples of poetry and prose included in these materials serve to enrich the creative thinking and literary perception of students. Including works that are appropriate for the level of understanding of elementary school students in teaching materials helps children assimilate moral and spiritual values and their emotional and social development. The study examines the first children's textbooks and the activities of the enlightened intellectuals who compiled them. A list of repeatedly published textbooks and works by classical children's authors released in various years is presented. The research shows that teaching works selected according to the age and psychology of primary school students is an effective means of promoting children's literature. Each of these works develops both the reading skills and the artistic-aesthetic taste of children. The article emphasizes that the content of textbooks, richness of ideas, language, and stylistic features are related to the authors' artistic experience and professional approach. The author's mastery of child psychology and pedagogical knowledge strengthens both the educational and instructional functions of the works. Professionalism, whether on the part of the author or the teacher, enables the creation of literary works suitable for a young audience and their teaching within school curricula. An effective teaching resource serves as an important tool for developing students' reading culture and analytical skills.

In the conclusion of the article, the pedagogical significance of textbooks is highlighted, and the importance of promoting the works of classical children's authors in the school environment is justified.
Key words: children's literature,textbooks, authors, literary process.

РОЛЬ УЧЕБНИКОВ В ФОРМИРОВАНИИ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ В АЗЕРБАЙДЖАНЕ (КОНЕЦ XIX – НАЧАЛО XX ВЕКА)

Ламия Ализамин АЛИЕВА
Бакинский Государственный Университет
Orcid: https://orcid/.org/0000-0001-9985-2577
Электронная почта: miss.forcher09@gmail.com

Резюме: В статье рассматривается популяризация детской литературы в школьной среде и роль учебников в образовании учащихся в конце XIX – начале XX веков. Основная цель исследования – изучение вклада литературных произведений, представленных в школьных учебниках, в образовательный процесс. Включённые в учебники произведения оказывают существенное влияние на формирование читательских навыков детей, их нравственное и интеллектуальное развитие. Учебники являются одним из основных источников передачи творчества авторов юным читателям. Примеры поэзии и прозы, представленные в данных материалах, способствуют обогащению творческого мышления и литературного восприятия учащихся. Включение в учебные материалы произведений, соответствующих уровню понимания учащихся начальной школы, способствует усвоению нравственных и духовных ценностей, их эмоциональному и социальному развитию. В исследовании рассматриваются первые детские учебники и деятельность их составителей – просвещённых интеллектуалов. Представлен список переизданных учебников и произведений классиков детской литературы, изданных в разные годы. В результате исследования становится очевидным, что использование в образовательном процессе методических пособий, подобранных с учётом возрастных особенностей и психологии учащихся начальной школы, является эффективным средством популяризации детской литературы. Каждое из этих произведений развивает как навыки чтения, так и художественно-эстетический вкус детей. В статье подчеркивается, что содержание учебников, богатство идей, язык и стиль связаны с художественным опытом и профессиональным подходом авторов. Владение автором детской психологией и педагогическими знаниями усиливает как воспитательную, так и учебную функции произведений. Профессионализм как автора, так и педагога обеспечивает возможность написания литературных произведений, соответствующих детской аудитории, и их преподавания в школьных программах. Эффективное учебное пособие выступает важным ресурсом, способствующим развитию у учеников культуры чтения и навыков анализа. В заключение статьи подчеркивается педагогическое значение учебников и обосновывается важность популяризации произведений детских классиков в школьной среде.
Ключевые слова: детская литература, учебники, авторы, литературный процесс.

Giriş

Cəmiyyətin formalaşması və inkişafında əsas rol oynayan amillərdən biri də təhsildir. Düzgün metod və vasitələr əsasında təhsil fərdin bilik və bacarıqlarını təkmilləşdirməyə xidmət edir. Bu prosesin əsas subyektləri uşaqlardır. Erkən yaşlardan uşaqların oxuyub-anlama bacarıqlarının, yazı qabiliyyətinin təkmilləşdirilməsi və müxtəlif sahələrə yönləndirilməsi onların sosial-mədəni inkişafını təmin edir. Təhsilin keyfiyyətini və effektivliyini artırmaq üçünmüxtəlif yanaşmalar və metodlar mövcuddur. Ədəbiyyatın təhsildəki rolunun artırılması da bu siyahıya daxildir (9). Başqa sözlə, ədəbiyyatın dərsliklərdə və digər tədris xarakterli vəsaitlərdə tətbiqi öyrənmə prosesini daha da məhsuldar edir. Bu baxımdan, ədəbiyyatın bir qolu olan uşaq ədəbiyyatı pedaqoji əhəmiyyət kəsb edir. Əgər ümumi ədəbiyyat geniş xalq kütləsi üçün yaranmışsa, onun inkişafına və şəxsiyyət kimi formalaşmasına xidmət edirsə, uşaq ədəbiyyatının da öz oxucusuna təsir qüvvəsi vardır. Ümumi ədəbiyyata verilən ideya-yaradıcılıq prinsipləri, uşaq ədəbiyyatının da inkişaf istiqamətini müəyyən edir (Xəlil və Əsgərli, 2007).

Uşaq ədəbiyyatı kiçik yaşlı oxucuların yaş kateqoriyası və psixologiyasına uyğun müxtəlif əsərlər təqdim edir. Bu ədəbi nümunələr doğma dilimizin, milli-mənəvi dəyərlərimizin təbliğində mühüm vasitə olub, uşaqların sosial və intellektual inkişafında strateji əhəmiyyət daşıyır.

Uşaq ədəbiyyatıməktəblə, pedaqoji proseslə, təlim-tərbiyə ilə daima bağlı, vəhdətdə yaranmışdır. Bu ədəbiyyatın ən yaşı nümunələri şagirdlərin mütaliə mədəniyyətni yüksəldir, lüğət ehtiyatlarını zənginləşdirir, həyatı, insanları daha yaxşı başa düşməyə hazırlayır. Buna görə də məktəb proqramlarında və dərsliklərdə ən mühüm bədii nümunələr öz əksini tapır (10). Bu nümunələr

dərsliklər vasitəsilə sistemli şəkildə tədris olunuraqgeniş oxucu kütləsinə çatdırırlır. Dərslikərin şagirdlər üzərindəki effekti uşaq ədəbiyyatı nümunələrin düzgün seçilməsindən asılıdır. Tədris olunan əsərlər şagirdin yaş, anlama və inkişaf səviyyəsinə uyğun olmalıdır. Əks halda, mürəkkəb mövzulu və ya şagirdin qavrama qabiliyyətinə uyğun olmayan əsərlər (şeirlər, hekayələr, nağıllar, dastanlar, poemalar, pyeslər və s) onlarda mütaliəyə marağın azalmasına səbəb ola bilər. Dərsliklərdə tədris edilən bədii əsərlərin əhəmiyyətini fərqli aspektlər əsasında izah etmək olar:

- Şagirdlərin söz ehtiyatınıartırır, dil və ünsiyyət bacarıqlarını təkmilləşdirir;
- Qavrama qabiliyyətini sürətləndirir;
- Əsərlər üzərində aparılan ədəbi təhlil və müzakirələr analitik düşüncə bacarığını inkişaf etdirir;
- Təsəvvür və fantaziya dünyasını zənginləşdirir;
- Əxlaqi və ictimai dəyərləri təbliğ edir;
- Empatiya hissini formalaşdırır;
- Uşaqların emosional inkişafını dəstəkləyir.

Yuxarıda təqdim edilən komponentlərdən belə nəticəyə gəlmək olar ki, dərsliklərdə yer alan əsərlərin şagirdlər üzərində təsiri böyükdür. Belə tədris materiallarının hazırlanması və yayımlanmasında müəlliflərin ədəbi yanaşması, mövzu dairəsi, dil və üslub seçimimühüm əhəmiyyət kəsb edir. Bu konteksdə, Azərbaycanda ilk uşaq dərsliklərin yaranması XIX əsrin ortaları və XX əsrin əvəllərinə təsadüf edir. Məktəblərdə şagirdlərin maarifləndirilməsi və dünyagörüşünün inkişaf etdirilməsi üçün təhsil səviyyəsinə uyğun müxtəlif səpkidə dərsliklərin yaradılması əsas problemlərdən biri olmuşdur. Azərbaycanıngörkəmli maarifpərvərləri Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Məmməd Tağı Sidqi, Sultan Məcid Qənizadə, Firidun bəy Köçərli, Haşım bəy Vəzirov, Rəşid bəy Əfəndiyev, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Abbas Səhhət və başqaları məktəblərdə keyfiyyətli dərsliklərin olmasını tələb edirdilər (11).

XIX əsrin ortalarından etibarən Azərbaycanda ana dilində ilk dərsliklərin yaradılmasına başlanmış və onların təkmilləşdirilməsi, məktəb proqramlarına daxil edilməsi istiqamətində müvafiq addımlar atılmışdır.Belə vəsaitlərdən biri də görkəmli şair və pedaqoq Mirzə Şəfi Vazehin 1852-ci ildə tərtib etdiyi "Müntəxəbati-kitabi-türki" adlı dərsliyidir. Dərsliyə daxil edilmiş kiçik həcmli hekayələr şərq mədəniyyətinə məxsus olsa da, uşaq ədəbiyyatı tarixində ana dilində yazılmış ilk bədii örnəklər olmuşdur. Məsələn, "Zalım padşahın adil olmağı","Aslan və dovşan", "Padşah və meymun", "Əcəm padşahları", "Nuvvərin padşahlığı", "Kəsəyənlə qurbağanın dostluğu" və s. kimi hekayətnamələr belə nümunələrdəndir. Dərsliyin yekun hissəsində MəhəmmədFüzulinin qəzəllərinə yer verilmişdir. M.Ş.Vazehdən sonra maarifçi-şair Seyid Əzim Şirvani kiçik yaşlı oxucular üçün müxtəlif məzmunlu tərcümə materialları ilə bərabər, öz əsərlərini də daxil edərək ilk dərsliyini yazmışdır. 1878-ci ildə tərtib edilmiş budərslik "Rəbiül-ətfal" ("Uşaqların baharı") adlanır. Dərslik ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuşdur. Azərbaycan məktəb tarixində ilk mükəmməl tədris kitablarından olan "Rəbiül-ətfal" dərsliyindəki mənzum hekayə, öyüd nəsihət və təmsillər müxtəlif tərbiyəvi əhvalatların təsvirindən ibarətdir. Onların bir qismini şair şəxsi həyat təcrübəsi və müşahidələri əsasında yazıb, digər qismini isə Şərq mənbələrindən, əsasən Nizaminin və Sədinin əsərlərindən təbdil və tərcümə edib. Dərslikdə verilən mətnləri Seyid Əzim mümkün qədər sadə və aydın yazmağa çalışıb (Qaraoğlu, 2017). S.Ə.Şirvaninin ikinci dərsliyi "Tacül-kütüb" ("Kitabların tacı")adlanır. Dərslikdə çox sayda orijinal uşaq ədəbi nümunələrinə rast gəlinir. Bu dərslikdə yer alan bəzi hekayələri Aleksey Çernyayevski tərtib etdiyi "Vətən dili" dərsliyinə daxil etmişdir. XIX əsrin sonlarında ərsəyə gələn növbəti dərsliklərimizdən biri də tərtibçisi maarif xadimi, pedaqoqRəşid bəy Əfəndiyev olan "Uşaq bağçası" dərsliyidir. Tədris vəsaiti 1898-ci ildə İstanbulun "YuvanakiPenaytoris" mətbəəsində çap edilmişdir. Dərslik ümumilikdə üç hissədən ibarətdir. Belə ki, birinci hissədə müəllif şagirdlərə dilin fonetik və leksik əsaslarını aydın şəkildə izah etmək üçün atalar sözləri və məsəllərdən müxtəlif nümunələr daxil etmişdir. Dərsliyin ikinci və üçüncü hissələrində isə rus və dünya ədəbiyyatından tərcümə edilmiş uşaq əsərləri öz əksini tapmışdır. Kitabın içindəkilərinə daxildir: Müqəddimə verilib.-S.3-7;"Əlifba təlimi".-S.8-32;*İkinci fəqərə dərsləri:*"Durna": şeir.- S.-2; "Qarğa və balıq": təmsil.- S.9-10; "Xəyal": şeir.-S.25-26; "Tülkü və üzüm" : təmsil.-S.28; "Meymun və çeşmək": təmsil.- S.38-40; "Həzrəti Əlidən rəvayət".-S.51-52; "Vəsfi bahar": şeir.-S.71-72; "Vəsfi-qış": şeir.-S.78; *Üçüncü fəqərənin dərsləri:* "Tülkü və qaranquş". - S.79; "Çaqqal".-S.84; "Sədaqət".-S.96-98; "Vəsfi-məktəb".-S.99-101 və s.(Əhmədova və Qəmbərova, 2021). R.Əfəndiyevin 1901-ci ildə çap etdirdiyi digər dərslik "Bəsirətül-ətfal" adlanır. Dərslikdə "Bahar", "Arzu", "Bahariyyə", "Şairin vəzifəsi", "Öyüd", "Alim ilə müəllimə hörmət" (S.Ə.Şirvani) və s. əsərlər çap edilmişdir (Hacıyev,2004).

XX əsrin əvvələrində dərsiklərin sayında artım müşahidə edilmişdir. Belə dərsliklərdən"Birinci il", "İkinci il", "Ədəbiyyat məcmuəsi", "Ədəbiyyat dərsləri", "Yeni məktəb", "Türk çələngi", "Vətən yolu", "Milli qiraət kitabı" və s. misal göstərmək olar. O dövrün tədris təcrübəsində təkrar nəşri daha çox olan dərsliklərə də rast gəlinir. Belə ki, həmin dövrlərdə təkrar nəşrə gedən dərsliklərə aşağıdakılar daxildir:

- Aleksey Çernyayevski - "Vətən dili" (ilk nəşr: 1882; təkrar nəşr: 1888, 1897, 1899, 1901, 1904, 1908, 1910);
- Rəşid bəy Əfəndizadə - "Uşaq bağçası" (ilk nəşr:1898;təkrar nəşr: 1904, 1907, 1912);
- Abdulla Şaiq - "Uşaq gözlüyü"(ilk nəşr:1910; təkrar nəşr: 1911, 1915, 1917, 1919);
- Mahmud bəy Mahmudbəyov "Yeni məktəb" (ilk nəşr:1909; təkrar nəşr: 1910, 1911, 1913, 1914, 1915, 1916, 1919);
- "Birinci il"(ilk nəşr:1909; təkrar nəşr: 1911, 1912, 1913, 1914, 1916,1918);
- "İkinci il"(ilk nəşr:1908; təkrar nəşr: 1909, 1910, 1911, 1912, 1914, 1915, 1916, 1917) ;
- Mirzə Qəmərlinski, Nərimanbəyov, Şahtaxtinski və b. "Ana dili dərsliyi" - (ilk nəşr:1907, təkrar nəşr: 1908, 1911).

Adı çəkilən tədris xarakterli vəsaitlərin hər biri uşaqların oxu vərdişinin inkişafında və təlim-tərbiyəsində geniş istifadə edilənmənbələr olmuşdur.

"Vətən dili" dərsliyinin birinci hissəsi 1882-ci ildə maarifçi, metodist Aleksey Çernyayevski tərəfindən işıq üzü görmüşdür. Dərsliyin ikinci hissəsi isə A.O.Çernyayevski və pedaqoq Səfərəli bəy Vəlibəyov tərəfindən tərtib edilmiş və1888-ci ildə çap edilmişdir. İbtidai sinif şagirdləri üçün nəzərdə tutulmuş bu vəsaitinilk hissəsində əlifba və yazı normaları, ikinci hissəsində isə uşaqların yaş həddinə uyğun ədəbi materiallar öz əksini tapmışdır. "Birinci il" dərsliyi M.Mahmudbəyovunmaterialları əsasında işıq üzü görmüşdür. "İkinci il" dərsliyinin tərtibçiləri isə M.Mahmudbəyov, S.Əbdürrəhmanbəyzadə, S.Axundzadə və b. olmuşdur. Dərsliyə daxil edilən ədəbi nümunələri nəşr ilinə görə belə qruplaşdırmaq olar:

(1908) – "Həmidin məktəb söhbəti", "Bizim külfət", "Bostan", "Əkinçi", "Baba və nəvə","Tülkü və küpə", " Bostan", "Quzu", "Bağ quşları" ;

(1909) – "Ev heyvanları", "Sabir", "Sünbüllər", "Yarpaqlar və köklər", "Qaz bölgüsü", "Qoca bağban", "Aslan və siçan", "Meymunun həkimliyi;

(1910) – "Məktəb həyəti", "Ov", "Qoçaq fəhlə", "Cırcırama və qarınca", "Daş və dəmir", "Vəhşi heyvanlar", "Kənddə payız işləri", "Bulaq", "Əkin nəğməsi";

(1911) – "Mehriban qardaş", "Cürətli uşaqlar", "Qorxaq kişi", "Qonaqlıq", "Təlimli sığırçın", "Tanrı süfrəsi";

(1912) – "Cır armud", "Fil və milçək", "Falçı", "Yay", "Ayı və toxmaq", "Qarğa və qrafin", "Təbiətin gülməsi", "Dərviş və fəqir";

(1914) – "Molla Nəsrəddinin qazanı","Aslan ilə iki öküz", "Vəhşi quşlar", "Yaxşı bəslənmiş ağac", "Pişik və qaraquş", "İt və kögəsi";

(1916) – "Hörümçək və ipəkqurdu", "Yanğın itləri", "Bal arısı", "Ana və oğul";

(1917) – "Pinti uşaq","Dəvə, qoç və xoruz", "Ağacların bəhsi", "Kərimin məktəbə getməsi", "Dəniz", "Uyğunsuz göl" və b. (Əhmədovavə Qəmbərova, 2021).

Dərsliyə daxil edilmiş bədii nümunələr uşaqların dünyagörüşünü və düşüncə dünyasını zənginləşdirmək məqsədilə müxtəlif mövzulara həsr edilmişdir. Bu mövzuların tədris porseində tətbiq edilməsi uşaqlarda ailə, məişət, ətraf mühit və təbiət haqqında illkin təsəvvürlərin yaranmasına imkan yaradır.

Dərsliklər vasitəsilə şagirdlər bədii nümunələrlə yanaşı, bu əsərləri ərsəyə gətirən müəlliflərin ideya və düşüncə tərzi ilə də tanış olurlar. Məsələn, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Abbas Səhhət, Abdulla Şaiq, Mikayıl Rzaquluzadə, Mir Mehdi Seyidzadə, Mirvarid Dilbazi, Xanımana Əlibəyli kimi şair və yazıçılarımızın fəaliyyəti uşaq ədəbiyyatının təşəkkülü və təbliğində həlledici rol oynamışdır. Sözügedən müəlliflər sırasındaAbdulla Şaiqinuşaq dərsliklərinin yaradılmasında əvəzsiz xidmətləri olmuşdur. Görkəmli şairin tərtibçisi olduğu "Uşaq çeşməyi" (1907), "Uşaq gözlüyü" (1910), "Gülşəni-ədəbiyyat" (1920), "Gülzar" (1912),"Milli qiraət kitabı" (1919), "Türk çələngi" (1919) və s. dərsliklər gənc nəslin maariflənməsinə mühüm töhfələr vermişdir. Uşaqların yaş və maraq dairəsinə uyğun şəkildə hazırlanmış bu dərsliklərdə ümumtürk mədəniyyətinin bütöv mənzərəsini görmək olar. Dərsliklərdə Məhəmməd Füzuli, Yunus İmrə, Nəfi, Seyid Əzim Şirvani, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə, Əhməd Hikmət, Xalid Ziya, Tofiq Fikrət, Rza Tofiq, Mahmud Əkrəm Rəcaizadə kimi yazıçıların əsərləri və bioqrafiyası yer alırdı. Seçdiyi nəzəri və əyani mətnlərdə şagirdlərə milli tarixə, milli mədəniyyətə sevgi, vətənpərvərlik duyğuları aşılayan müəllif həm də vətənin təbiətini, heyvanlar və bitkilər aləminini azyaşlılara tanıdır və sevdirirdi (Talıbazadə və Əsədova, 2018). Uşaqların sevimli müəlliflərindən biri olan A.Şaiqin əsərləri uzun müddətdir ki, dərsliklərdə yer almaqdadır. Şair müəllifi olduğu dərsliklərlə yanaşı, müxtəlif illərdə ərsəyə gəlmiş

digər tədris materiallarına əsərlərini təqdim etməkləuşaq ədəbiyyatının məktəb mühitindətəbliğinə mühüm töhfələr vermişdir. XX əsrin əvvəllərində etibarən yazıçı-şairin dərsliklərdə ən çox işıq üzü görmüş əsərlərindən "Məktəbdə", "Yetim", "Quzu", "Məktub yetişmədi", "Araz", "Köç", "Keçi", "Tülkü həccə gedir", "Bənövşə", "Bahar", "Savaş", "Üç lövhə" və s. kimi şeirlər, hekayələr, nağıllar, romanlar misal göstərmək olar. 1908-2014-cü illər ərzində mütəmadi olaraq dərc edilən bu əsərlərin hər biri əsasən "İkinci il", "Ədəbiyyat", "Ana dili","Ədəbiyyat dərsləri", "Azərbaycan dili", "Ədəbiyyat müntəxəbatı" və "Ədəbi qiraət" dərsliklərində işıq üzü görmüşdür. Azərbaycan uşaq ədəbiyyatının inkişafında xidmətləri olan digər şəxsiyyətlərdən biri də şair Mir Mehdi Seyidzadədir. Uşaq psixologiyasına yaxından bələd olan Seyidzadənin yaradıcılığı özünəməxsus yenilikləri və bədii orijinallığı ilə fərqlənir. Ədəbi fəaliyyətinə "Kənd qızı" adlı ilk şeiri ilə başlayan şair müxtəlif mənzum nağıllar, pyeslər, poemalar yazmışdır. Ədibin 1938-2016-cı illərdə"Nərgiz", "Bakı", "Şəhərimiz", "Fəhlə mənzilləri", "Birinci qar", "Qış", "Müəllim", "Gözəl may", "Xoşbəxt uşaqlar" şeirləri, "Kim güclüdür" mənzum nağılı, "Ağıllı insan və "Dəli Kürün" nağılı kimi əsərləri dərsliklərdə işıq üzü görmüşdür. Bu əsərlərin həmin dövrlərdə dərc edildiyi tədris vəsaitləriisə "Azərbaycan dili", "Ana dili" və "Oxu" dərslikləri olmuşdur. Uşaq auditoriyasının fərdi maraqlarını nəzərə alan digər ədiblərdən biri də yazıçı, şairə Xanımana Əlibəyli olmuşdur. Yaradıcılığını uşaq poeziyasına həsr edən şairə ilk ədəbi fəaliyyətinə "Ana" şeiri ilə başlamışdır. "Balaca həkim" adlı ilk şeirlər toplusu isə 1955-ci ildə çap edilmişdir.Onun şeirlərinin əsas mövzusunu dörd istiqamət üzrə qruplaşdırmaq olar:

1. Vətən mövzusunu əxz etdirən şeirlər;
2. Təbiət gözəlliklərinə həsr olunmuş şeirlər;
3. Heyvan obrazları yaradılan, təmsil üslubundan qələmə alınmış poetik nümunələr;
4. Ümumi mövzulara həsr olunmuş, ətraf aləmi, gerçəkliyin təsvirini özündə cəmləşdirən nümunələr (Qəmbərova, 2021).

Xanımana Əlibəylinin ədəbi fəaliyyəti yalnız şeir və poemalarla kifayətlənməmiş, "Ləpələrin nağılı","Cunquş", "Dovşanın ad günü", "Gözəllər gözəli", "Nişanlı quş kimi" və b. əsərləri ilə uşaq dramaturgiyasının inkişafına misilsiz töhfələr vermişdir. Dramaturqun bədii səriştəsi uşaqların səhnə dili vasitəsilə estetik zövqünün formalaşmasına və teatr aləminə maraq gösətməsinə zəmin yaratmışdır. XX əsrin II yarısında yaradıcılığı ilə kiçik yaşlı oxucuların rəğbətini qazanan X.Əlibəylinın dərsliklərdə də əsərləri dərc edilmişdir. 1960-2018-ci illər ərzində ədibin dərsliklərdə populyarlıq qazanmış bədi nümunələrinsiyahısını aşağıdakı qaydada təsvir etmək olar:

1. Hədiyyə; Uşaqların bayramı : şeirlər / Xanımana Əlibəyli // Kərimov Y., Həmzəyev M. Ana dili: 1-ci sinif üçün dərslik. - Bakı: Maarif, 1969. - S.162, 239.;
2. Yan ay tonqalımız, yan!: şeir / Xanımana Əlibəyli // Şirvan Y., Kazımov N. Ana dili: 3-cü sinif üçün dərslik. - Bakı: Maarif, 1971. - S.216-217.;
3. Yol; Qar; Maral: şeirlər / Xanmana Əlibəyli // Kərimov Y.Ş., Həmzəyev M.Ə. Oxu: 2-ci sinif üçün dərslik. - Bakı: Maarif, 1990. - 4 cü nəşr. - S.4-5, 85, 177.;
4. Şeypur; Bu, dovşanın işidir : şeirlər / Xanımana Əlibəyli // Rəhimov A.N., Xudiyev N.M., Həsənov M.S. Azərbaycan dili: ümumtəhsil məhtəblərinin 4-cü sinfi üçün dərslik .- Bakı: "Azərbaycan" nəşriyyatı, 2002. - S.33, 87.;
5. Süsən gülü, Kirpi: şeirlər / Xanımana Əlibəyli // İsmayılov R., Orucova G., Cəfərova D., Xəlilov Z. Azərbaycan dili: ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərslik. - Bakı: Altun kitab, 2014. - S. 201.
6. Kitab: şeir / Xanımana Əlibəyli // Abdullayeva H. Azərbaycan dili: ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün dərslik. - Bakı: "Kövsər" nəşriyyatı, 2014. - S.87, 95. (Tahirova, N və b., 2021).

Tədqim edilən dərsliklərdə bu əsərlərin yer alması X.Əlibəylinin ədəbi irsinin tədris və tərbiyə baxımdan əhəmiyyətli olduğunu bir daha sübut edir. Ədəbiyyat siyahısında müəllifin əsərlərinindərc edildiyi dərsliklərin adları da öz əksini tapıb.

Azərbaycan uşaq ədəbiyyatında mövzu və janr müxtəliyi ilə seçilən əsərlərin yazılmasında Mikayıl Razaquluzadənin yaradıcılığı da xüsusi əhəmiyyətə malikdir. Ədəbi fəaliyyətə keçən əsrin 20-ci illərindən başlayan şairin əsərlərində humanizim, yüksək mənəvi keyfiyyətlər aşılanır. Görkəmli şairinəsərlərinin pedaqoji xarakter daşıdığını və folklor motivləri ilə zəngin olduğunu vurğulayan ədəbiyyatşünas Bilal Həsənli demişdir: "M.Rzaquluzadənin uşaq əsərləri folklorla sıx bağlıdır. Belə ki, ədibin bir çox əsərlərində şifahi xalq ədəbiyyatına müraciət edilir, folklor mövzuları və janrlarından yaradıcılıqla istifadə olunur. Həmin əsərlərdə folklora xas olan xüsusiyyətlər dilin aydınlığı, axıcılığı, şirinliyi, eləcə də xeyirxahlıq, düzlük, mübarizlik, əməksevərlik, qəhrəmanlıq kimi mənəvi keyfiyyətlərin xalq deyim tərzində ifadəsi diqqət cəlb edir. Bu da öz növbəsində uşağın təfəkkürünün, təxəyyülünün inkişafına gətirib çıxarır, uşaq ədəbiyyatının üslub imkanlarını

genişləndirir"(Tahirova, N və b., 2021). M.Rzaquluzadənın əsərləri də tədris materiallarında işıq üzü görmüşdür. Yazıçının dərsliklərdə yer alan əsərlərinin janr baxımından əsasını şeir və hekayələr təşkil edir. Ədibin 1946-2017-ci illər üzrə məktəb proqramlarında geniş yayılmış əsərlərinə aşağıdakıları misal göstərmək olar:

- ✓ "Ağ dana"; "Solmazın atasına məktubu": şeirlər – (1946, 1948, 1950);
- ✓ "Ana ürəyi, dağ çiçəyi": hekayə – (1948, 1963-1971,1974-1978, 1981-1985, 1988, 1998, 2003);
- ✓ "Şahin": hekayə – (1948-1949, 1953-1954, 1957-1961, 1976 2005);
- ✓ "İstək": hekayə – (1949, 1953-1955);
- ✓ "Maşınlar": şeir – (1961-1969, 1971, 1973-1974, 1976, 1983);
- ✓ "Babəkin andı" : hekayə (1965, 1967-1972, 1974-1978, 1980-1985, 1988, 1997, 2003-2004, 2006, 2008, 2012, 2014);
- ✓ "Payız": şeir (1961, 1966, 1968-1970, 1998);
- ✓ "Payız gəlir": şeir (1971, 1973-1984, 1989);
- ✓ "Qu gölü": hekayə (1975, 1980-1984, 1990);
- ✓ "Vurğun baxışlarla": hekayə (2013, 2015, 2017).

Bu nümunələrdən həmin dövrlərdə mütəmadi olaraq dərsliklərə daxil edilən əsərlər sırasında 1-ci yerdə, "Babəkin andı", 2-ci yerdə isə "Ana ürəyi, dağ çiçəyi" hekayələri olmuşdur. Beləliklə, M. Rzaquluzadənin əsərlərinin məktəb dərsliklərində geniş yayılması onun ədəbi üslubunun sadəliyi və uşaq dünyasına hakimliyinin göstəricisi hesab edilə bilər. Yuxarıda adları çəkilən müəlliflərin fəaliyyətindən aydın olur ki, onların əsərləri uşaqların yaş xüsusiyyətləri və təhsil səviyyəsinə uyğun olaraq hazırlanmışdır. Bu sistemli yanaşma tədris prosesini səmərəli etməklə uşaqların bədii mətnləridaha tez qavramasına, təhlil etməyə kömək edir. Beləliklə, uşaq ədəbiyyatının inkişafında xidmətləri olan klassiklərimizin əsərləri gənc nəslin şəxsiyyət kimi formalaşmasında əsas mənbələr hesab olunur və təhsil mühitində sistemli olaraq tədris edilməsi vacibdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Əhmədova, S. və Qəmbərova, Ş. (2021)Azərbaycan uşaq ədəbiyyatı: biblioqrafiya, C.I, 37-38.
2. Hacıyev, A. (2004). Azərbaycan uşaq ədəbiyyatının tarixi, 116.
3. Xəlil, Z. və Əsgərli, F. (2007). Uşaqədəbiyyatı. Ali və orta ixtisas məktəblərinin tələbələri üçün dərslik. Bakı: ADPU-nun nəşriyyatı, 11.
4. Qaraoğlu, F. (2017). Tarixdə iz buraxanlar: Seyid Əzim Şirvani,Bakı xəbər, 15.
5. Qəmbərova, G. (2021). Xanımana Əlibəylinin uşaq poeziyasına ümumi baxış, Azərbaycan ədəbiyyatşünaslığı jurnalı, 97.
6. Tahirova, N., Əzizova, T. və Qafarova, L. (2021). Xanımana Əlibəyli: biblioqrafiya, 31-32, 35-36, 38-39.Tahir
7. Tahirova, N., Qafarova, L. və Əzizova, T. Mikayıl Razaquluzadə: biblioqrafiya, 15.
8. Talıbzadə, Ü. və Əsədova, G.(2018). Abdulla Şaiq. Tıq-tıq xanım, Bakı: TEAS Press nəşriyyatı, 11.
9. https://muallim.edu.az/news/tehsilde-edebiyyatin-rolu-678a3905e0e227415cf6e16e
10. https://edebiyyatqazeti.az/news/sience/11979-usaq-edebiyyati-haqqinda-bir-nece-soz
11. https://az.wikibooks.org/wiki/D%C9%99rslikl%C9%99r/Az%C9%99rbaycan_dilind%C9%99_d%C9%99rslikl%C9%99rin_tarixi/XIX_%C9%99srd%C9%99_ana_dili_d%C9%99rslikl%C9%99ri

DOİ:10.32010/SRME2750

CULIAN BARNS YARADICILIĞINDA ƏSAS KONSEPSİYALAR

Əsmər Seyfəddin ƏLİYEVA
Bakı Dövlət Universiteti, doktorant
E-mail: Teacherasmar@gmail.com

Xülasə: Culian Barns müasir ingilis ədəbiyyatında postmodern üslubu və mədəni-refleksiv yanaşması ilə seçilən yazıçılardan biridir. Onun yaradıcılığı, xüsusilə yaddaş və zaman, subyektiv gerçəklik, dilin epistemoloji funksiyası və intertekstual mədəni təsir kimi konsepsiyalar üzərində qurulub. Məqalədə Barnsın əsərlərində təkrar olunan bu əsas konsepsiyalar sistematik şəkildə təhlil edilir və onların müasir dünya ədəbiyyatında yerini müəyyən etmək üçün empirik araşdırma metodlarından istifadə olunur. Əsərlərin mətn analizinə əsaslanan araşdırma, həmçinin akademik tənqidçilərin müasir baxışlarını müqayisəli şəkildə təqdim edir. Analiz nəticəsində müəllifin əsas konsepsiyaları elmi və praktiki cəhətdən dəyərləndirilir və gələcək tədqiqatlar üçün təkliflər irəli sürülür.
Abstract: This study investigates grammatical errors made by Azerbaijani learners in the use of French past tenses, with particular focus on passé composé and imparfait. Despite prior instruction, learners frequently exhibit confusion between completed and continuous past actions, inappropriate combinations of tenses, and overgeneralization of grammatical rules. Such errors reflect the influence of the learners' native language (L1), where temporal distinctions are commonly represented through adverbs rather than verb morphology. The study featured 19 intermediate-level students who completed written projects and two short examinations meant to measure their comprehension of past tense forms. Combining quantitative and qualitative techniques, data analysis included identifying recurrent mistake patterns and calculating mastery rates. The initial assessment showed a mastery percentage of 68%, indicating a notable challenge in differentiating between tense forms. Following focused instruction that included visual supports, contextual examples, and engaging activities that encouraged self-correction and peer feedback, the subsequent test showed an increased mastery rate of 84%. The results imply that explicit, context-based instruction greatly improves learners' understanding and correct application of French past tenses. Additionally, the research emphasizes the need to address L1 interference and offer learners chances to observe and practice the distinctions between tenses in relevant situations. These findings enhance the study of second language acquisition by demonstrating how interlanguage development is reflected in grammatical mistakes and by validating the success of teaching methods that incorporate analytical comprehension, contextualized practice, and interactive participation. The implications for teaching foreign languages suggest incorporating comparative charts, genuine examples, and organized reflection activities to foster learner independence and grammatical precision.
Keywords: Azerbaijani learners, French past tenses, passé composé, imparfait, grammatical errors, second language acquisition, error analysis

---

AZƏRBAYCAN TƏLƏBƏLƏRİNİN FRANSIZ DİLİNİN KEÇMİŞ ZAMANLARININ İSTİFADƏSİNDƏ QRAMMATİK XƏTALARININ TƏHLİLİ

Fəridə Mehman HƏSƏNOVA
Mingəçevir Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0006-4894-8636
E-poçt: farida.hasanova@mdu.edu.az

Səkinə Zaur RÜSTƏMOVA
Mingəçevir Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0003-9856-4487
E-poçt: sakina.rustamova@mdu.edu.az

Xülasə: Bu tədqiqat Azərbaycan tələbələrinin Fransız dilində keçmiş zamanların istifadəsi ilə bağlı qrammatik səhvlərini analiz edir. Tədqiqatda əsas diqqət **passé composé** və **imparfait** zamanlarının düzgün seçilməsinə yönəlmişdir. Məlum olub ki, tələbələr tez-tez bitmiş və davam edən keçmiş hadisələri qarışdırır, cümlələrdə zaman formalarını düzgün kombinə etmir və qrammatik qaydaları ümumiləşdirir. Bu səhvlər əsasən ana dilin təsiri ilə bağlıdır; azərbaycan dilində zaman fərqləri tez-tez fellərdə deyil, kontekst və zaman ifadələrində göstərilir.
Tədqiqatda 19 orta səviyyəli tələbə iştirak etmiş və onlara iki qısa test və yazılı tapşırıqlar təqdim edilmişdir. Məlumatların təhlili həm kvantitativ, həm də keyfiyyətcə aparılmış, düzgün və səhv cavabların sayı hesablanmış və təkrar olunan səhv nümunələri müəyyənləşdirilmişdir. Birinci testdə tələbələrin bacarıq səviyyəsi 68% olmuş, bu da

zaman formalarının düzgün seçilməsində çətinlikləri göstərmişdir. Müəyyən edilmiş səhvlərə əsaslanaraq vizual cədvəllər, kontekstual nümunələr və interaktiv fəaliyyətlər vasitəsilə məqsədyönlü təlim aparılmışdır. İkinci testdə bacarıq səviyyəsi 84%-ə yüksəlmişdir.

Nəticələr göstərir ki, kontekstual və qarşılaşdırmalı təlim tələbələrin **passé composé** və **imparfait** zamanlarını düzgün seçməsində əhəmiyyətli rol oynayır. Eyni zamanda, L1 interferensiyasının təsirinin nəzərə alınması və praktik nümunələrlə işləmək tələbələrin qrammatik səhvlərinin azalmasına kömək edir. Tədqiqatın nəticələri ikinci dil öyrənilməsi sahəsində interlanguage inkişafını və pedaqoji müdaxilələrin effektivliyini təsdiq edir.

Açar sözlər: Azərbaycan tələbələri, Fransız dilinin keçmiş zamanları, passé composé, imparfait, qrammatik səhvlər, ikinci dil öyrənilməsi, səhv təhlili

АНАЛИЗ ГРАММАТИЧЕСКИХ ОШИБОК АЗЕРБАЙДЖАНСКИХ СТУДЕНТОВ ПРИ ИСПОЛЬЗОВАНИИ ПРОШЛЫХ ВРЕМЕН ФРАНЦУЗСКОГО ЯЗЫКА

Фарида Мехман ГАСАНОВА
Мингячевирский государственный университет
ORCID: https://orcid.org/0009-0006-4894-8636
E-mail: farida.hasanova@mdu.edu.az

Сакина Заур РУСТАМОВА
Мингячевирский государственный университет
ORCID: https://orcid.org/0009-0003-9856-4487
Электронная почта: sakina.rustamova@mdu.edu.az

Резюме: Данное исследование анализирует грамматические ошибки азербайджанских учащихся при использовании французских прошедших времен, с особым акцентом на **passé composé** и **imparfait**. Выявлено, что учащиеся часто путают завершенные и продолжающиеся действия в прошлом, неправильно комбинируют времена в предложении и чрезмерно обобщают грамматические правила. Эти ошибки в основном связаны с влиянием родного языка, где различие времен часто выражается через контекст и временные слова, а не через морфологию глагола.

В исследовании приняли участие 19 студентов среднего уровня, которым были предложены два коротких теста и письменные задания для оценки владения формами прошедшего времени. Анализ данных включал как количественные, так и качественные методы, подсчет правильных и неправильных ответов, а также выявление повторяющихся ошибок. В первом тесте уровень усвоения материала составил 68%, что свидетельствует о трудностях в выборе правильной формы времени. На основании выявленных ошибок было проведено целенаправленное обучение с использованием визуальных схем, контекстуальных примеров и интерактивных заданий. Во втором тесте уровень усвоения повысился до 84%.

Результаты показывают, что контекстное и сравнительное обучение значительно повышает точность использования **passé composé** и **imparfait**. Кроме того, учет влияния родного языка и практика с реальными примерами помогает уменьшить количество грамматических ошибок. Исследование подтверждает роль интерленгвистического развития и эффективность педагогических вмешательств в обучении второму языку.

Ключевые слова: азербайджанские учащиеся, французские прошедшие времена, passé composé, imparfait, грамматические ошибки, изучение второго языка, анализ ошибок

Introduction

The four language skills that are taught in French are speaking, listening, reading, and writing. The four linguistic skills must be mastered by any student learning French. But in practice, pupils who are studying French as a second language struggle to read French (Compréhension Écrite Élémentaire). The reading proficiency of the students is still subpar. Every time the teaching and learning process meets, the lecturer uses Sipda Unimed e-learning to explain the teaching materials and give regular exercises to the subject teachers. Second, the lecturer's French language book does not provide a detailed description of the teaching materials that would make them easier for students to understand. Students enrolled in this course face challenges with pronunciation in number of areas, as well as low vocabulary and language proficiency. As a result, kids struggle to comprehend materials written in French. This occurs because the grammar and verb conjugations of French differ from those of Azerbaijani, which is the mother tongue. The written form of French words differs from their pronunciation when they are written down orally.

Example: Pantaloons (trousers) are pronounced [pãtalõ]

One of the most challenging parts of French grammar is tenses. The incompatibility of the two

languages' conceptions of time adds to the intricate system of verbal inflections. This opinion has been validated by the current findings. However, a variety of teaching and learning techniques could minimize the challenges faced by Azerbaijani students learning French.

The proper application of past tenses in French poses a significant challenge for Azerbaijani learners. The differentiation between passé composé and imparfait is especially intricate, as it encompasses not just grammatical structure but also the speaker's interpretation of time, aspect, and the continuity of actions. A number of students often depend on direct translations from their native language, which frequently results in incorrect verb selections and misunderstandings regarding completed versus ongoing actions in the past.

Method

When evaluating students' written and spoken work, educators often notice common errors associated with the use of past tenses. These errors offer important insights into students' interlanguage progression and highlight the aspects that need focused instructional support. Thus, examining these grammatical mistakes goes beyond just making corrections; it involves grasping how learners create meaning and assimilate tense differences.

This analysis seeks to pinpoint the common errors made by Azerbaijani students when employing passé composé and imparfait, investigate the potential reasons behind these errors, and propose effective classroom strategies to assist learners in mastering these tenses. The results can provide teachers with direction in creating exercises and explanations that align with the genuine challenges faced by students in learning French as a foreign language.

1. Formation of the *Passé Composé*

As its name indicates, the *passé composé* is a compound tense. It is formed using several grammatical elements: subject + auxiliary verb (avoir or être) in the present tense + past participle of the main verb.

a. Agreement of the past participle with the auxiliary être

When the passé composé is formed with the auxiliary être, the past participle agrees in gender and number with the subject, according to the following basic rules:

- Feminine ending: + *e*
- Plural ending: + *s*

Examples:

- *Ma femme est partie* → "My wife has left."
- *Les enfants se sont couchés* → "The children went to bed."
- *Nos amies sont arrivées* → "Our (female) friends have arrived."

b. Agreement of the past participle with the auxiliary *avoir*

When the *passé composé* is formed with *avoir*, the past participle is generally invariable, except when the direct object precedes the verb. In this case, the participle agrees with the object.

Examples:

- *Vous avez vu vos amis ? — Oui, je les ai vus hier.*

("Have you seen your friends? — Yes, I saw them yesterday.")

- *Il a acheté ces fleurs ? — Oui, ce sont les fleurs qu'il a achetées pour ma fête.*

("Did he buy these flowers? — Yes, those are the flowers he bought for my birthday.")

c. Negation in the *Passé Composé*

In the negative form, the negation surrounds the auxiliary verb, not the past participle. Structure: *ne (n')... pas* + auxiliary + past participle.

Examples:

- *Elle n'a pas dit la vérité* → "She did not tell the truth."
- *Nous n'avons pas parlé avec elle* → "We did not speak with her."

d. Use of the auxiliaries *être* and *avoir*

The choice of auxiliary depends on the nature of the verb.

1) The auxiliary *être* is used with:

- All reflexive verbs: *Examples: Elle s'est endormie* ("She fell asleep."); *Vous vous êtes amusés ?* ("Did you have fun?")
- The fifteen intransitive verbs of movement or change of state, traditionally referred to as *the house of être verbs*: *(1) aller (to go), (2) venir (to come), (3) arriver (to arrive), (4) partir (to leave), (5) naître (to be born), (6) mourir (to die), (7) monter (to go up), (8) descendre (to go down), (9) entrer (to enter), (10) sortir (to go out), (11) rentrer (to come back), (12) retourner (to return), (13) rester (to stay), (14) tomber (to fall), (15) passer (to pass). Examples: Elle est restée ici* ("She stayed here."); *Ils sont partis à 8 h* ("They left at 8 o'clock.")

2) The auxiliary *avoir* is used with:

- The transitive forms of the above verbs (*monter, descendre, sortir, passer, rentrer,* and *retourner*) when they are followed by a direct object: *Examples: Il a monté sa valise* ("He carried his suitcase upstairs."); *Ils ont descendu la poubelle* ("They took down the garbage.")
- All other verbs not included among those conjugated with *être*:

Examples: Vous avez compris? — J'ai fini ! ("Did you understand? — I've finished!")

The *imparfait* (imperfect tense) is a past tense in French that expresses an indefinite duration of an action and is used to describe the background or context of an event, as well as repeated or habitual actions in the past.

Formation of the *Imparfait*

For most verbs, the stem of the *imparfait* is derived from the first-person plural form (nous) of the present indicative.

Table 1. The French conjugation

Verb endings	Verb	Present	Imparfait
Je-ais	Aimer	Nous aimons	J'aimais
Tu-ais	Choisir	Nous choisissons	Tu choisissais
Il/Elle/On-ait	Partir	Nous partons	Il partait
Nous-ions	Pouvoir	Nous pouvons	Nous pouvions
Vous-iez	Faire	Nous faisons	Vous faisiez
Ils/Elles- aient	Venir	Nous venons	Ils venaient

There is only one exception: the verb être (to be). Its conjugation in the *imparfait* is irregular: j'étais, tu étais, il/elle/on était, nous étions, vous étiez, ils/elles étaient.

2. Spelling Rules for Certain Verbs

Some verbs undergo slight spelling changes in the *imparfait* to preserve pronunciation:

1.Verbs ending in –ger (e.g., *manger*)
→ *nous mangeons* → *nous mangions*, *vous mangiez*

2.Verbs ending in –cer (e.g., *placer*)
→ *nous plaçons* → *nous placions*, *vous placiez*

3.Verbs ending in –yer (e.g., *payer*)
→ *nous payons* → *nous payions*, *vous payiez*

4.Verbs ending in –ier (e.g., *étudier*)
→ *nous étudions* → *nous étudiions*, *vous étudiiez*

3. Uses of the *Imparfait*

The *imparfait* is used in several linguistic and communicative contexts:

- To describe habitual or repeated actions in the past

Quand j'étais petit, je jouais avec mes sœurs.
("When I was little, I used to play with my sisters.")
Mon père nous amenait à la plage pendant l'été.
("My father used to take us to the beach during the summer.")

- To describe the background or setting of an action, to provide commentary, or to explain circumstances

Il était trois heures, il n'y avait personne dans la rue, la pluie tombait et je marchais en silence.
("It was three o'clock, there was no one in the street, the rain was falling, and I was walking in silence.")
Autrefois à Paris, il y avait plein de commerçants dans la rue.
("In the past, there used to be many shopkeepers in the streets of Paris.")

- To express a hypothesis introduced by the conjunction *si*

Si j'étais riche, je voyagerais à l'étranger.
("If I were rich, I would travel abroad.")
Elle parle comme si elle avait de l'expérience.
("She speaks as if she had experience.")

- To express a polite or softened request (attenuated form)

Je voulais vous demander une chose.
("I wanted to ask you something.")
Je vous téléphonais pour l'appartement en location.
("I was calling you about the apartment for rent.")

4. Negative Form of the *Imparfait*

In the negative form, the structure follows the same pattern as in other tenses:
ne (n') pas + verb in the *imparfait*.

Examples:

- *Elle n'avait pas...* → "She didn't have..."
- *Nous ne faisions pas...* → "We weren't doing"

A frequent mistake involves mixing up finished actions and ongoing past activities.
For example, several students have written phrases like "Hier, j'étais allé au marché" instead of the accurate "Hier, je suis allé au marché." The incorrect use of imparfait or the compound past usually happens because learners try to translate Azerbaijani time expressions literally, where these differences are shown in a distinct manner or not mentioned at all.

Another common mistake includes using more than one tense incorrectly in the same situation. For instance, a student wrote: "Quand j'étais petit, j'ai jouais au football tous les jours." This example wrongly mixes passé composé and imparfait, showing the student's confusion about which tense should be used for actions that were habitual or repeated in the past. The correct version should be "Quand j'étais petit, je jouais au football tous les jours."

Some learners also apply grammatical rules too broadly. After they understand that imparfait is for descriptions, they often use it in all past situations, even when the action is brief or completed. This type of overapplication reflects a phase in second

language learning, where students simplify intricate rules to help with understanding and usage.

Table 2: Shows the results of the first test conducted among 19 students

Test	Number of Students	Correct Answers	Incorrect Answers	Mastery Rate (%)
I	19	13	6	68 %

The results of the initial examination show that pupils had significant trouble telling apart passé composé from imparfait at the beginning. With a total success rate of 68%, the findings reveal that although some students could use the right tense in basic situations, a clear number still faced challenges when the difference needed grasping the time-related or aspectual significance of the sentence. This fairly average outcome implies that learners' previous understanding of French grammar was not yet adequate to manage subtle applications of past tenses.

A more detailed look at their answers shows that numerous individuals often relied heavily on passé composé, frequently using it even in cases where imparfait should have been utilized to convey continuous or repeated actions. This pattern illustrates a frequent difficulty faced by learners who are not native speakers and who mainly connect the past with actions that are finished. Thus, it became crucial to offer structured and clear teaching about the conceptual distinctions between the two tenses, emphasizing both their form and their use within different contexts.

To tackle these challenges, the next phase of teaching focused on comparing sample sentences in both French and Azerbaijani. This contrast helped learners grasp how the choice of tense affects meaning and enabled them to connect new grammar ideas to known language frameworks. This educational strategy aimed to create a more solid base for correct tense usage, which was subsequently assessed in the second exam.

The past tenses could be introduced using the grammar in context method. The students are instructed to look for instances of the verbs' various endings and to observe them. Students who are introduced to these tenses for the first time and have limited time must be taught the rules of usage because they are difficult to derive. After that, practice should involve different structural activities that contrast the two tenses.

Table 3: Comparison of Passé composé and Imparfait

Aspect	Passé Composé	Imparfait
Function	Describes completed actions or events in the past	Describes ongoing,habitual or background actions in the past
Temporal Meaning	Expresses a single,specific event or a change	Expresses duration,repetition or state
Time Expression	Often used with words like hier,soudain,une fois	Often used with souvent,toujours,pendant que
Example (Correct)	Hier, j'ai visité le musée.	Quand j'étais enfant, je visitais souvent le musée.
Example (Incorrect)	Hier, je visitais le musée.	Quand j'étais enfant,j'ai visité souvent le musée.

Although the teacher might occasionally use the students' native tongue throughout the explanation, the main emphasis should still be on the differences within French.

With the use of French structures, this method enables students to immediately grasp meaning and comprehend how context influences tense choice.

For example:

- *Hier, j'ai regardé un film*→ "Yesterday, I watched a film." → a completed action (*passé composé*).
- *Quand j'étais à l'école, je regardais souvent des films*→"When I was at school, I often watched films"→a repeated or ongoing action (*imparfait*).

Students may see from examining these examples that imparfait portrays behaviours that were routine or continuous in the past, while passé composé conveys occurrences that were completed on time.

Students can then reflect, compare,and revise their own phrases by creating similar examples in pairs or as a class exercise, as instructed by the teacher. Deeper learning and active participation are guaranteed by this interactive technique.

Following the discussion and practice in class, the instructor administered a second brief test (Test II) to gauge the students' level of proficiency in differentiating between passé composé and imparfait. To ascertain whether the visual and comparison teaching approach had a discernible impact on student performance, the results were examined and contrasted with the initial exam.

Table 4: Shows the results of the second test conducted among 19 students

Test	Number of Students	Correct Answers	Incorrect Answers	Mastery Rate (%)
II	19	16	3	84 %

The findings unequivocally demonstrate that following the rule's explicit explanation, pupils made notable progress. The majority of pupils were unable to accurately discriminate between the two past tenses, as seen by the first test's low mastery rate of 68%. The success rate increased to 84% following the teacher's visual presentation, bilingual examples, and group corrective exercises.

This improvement implies that a contrastive and context-based approach to instruction works better than rote rule memorizing. Students gained confidence and accuracy in their grammatical choices by observing how passé composé and imparfait are used in authentic communicative contexts.

Students need to be motivated in order to learn outside of the classroom. A key element is the instructor, who should instill in his pupils a positive outlook on studying French. To make his lecture engaging and gratifying, the instructor must use a variety of teaching strategies and activities, such as role-playing, audio-visual aids, and real-world scenarios. Another strategy to help the students practice the French they have learned, particularly the past tenses, is to encourage them to keep a journal in which they record their previous actions in French. Poems and songs can also be used to add variation and strengthen tenses learning.

Additionally, increased motivation and improved information memory were facilitated by the teacher's active participation in the class and encouragement of self-correction. Students said that contextual examples and visual comparisons made it easier for them to recall which tense to utilize in various narrative scenarios.

An investigation of grammatical errors made by Azerbaijani students when employing passé composé and imparfait revealed that most issues arise from the conceptual distinction between finished and continuing past acts. Since contextual words or adverbs are utilized to convey similar temporal contrasts instead of verb forms, the students' mother tongue frequently adds to the misunderstanding.The study's findings show that learners' accuracy and comprehension are greatly increased by explicit instruction backed by contextualized examples and visual comparison. The mastery rate rose from 68% to 84% following the teacher's explanation and practice exercises, indicating the effectiveness of an analytical and communicative approach to grammar training.

It is imperative from a pedagogical standpoint that educators do more than only rectify mistakes. Students should be actively involved in the process of learning rules, thinking back on their own errors, and comprehending the reasons behind them. Students gain greater awareness and autonomy in their language acquisition when they are encouraged to correct themselves.

Therefore, it is recommended that teachers:

• Use real-world examples and encourage students to construct their own sentences;

• Include visual aids and comparative charts when presenting complex grammatical ideas;
• Include listening and writing assignments that contrast passé composé with imparfait in authentic circumstances;

• Offer group corrective exercises in the classroom to encourage introspection and peer learning.

Conclusion

In summary, the results of this research support that educational programs that combine analytical reasoning, regular practice, and engaging activities result in the greatest improvement in grammatical precision in foreign language acquisition. When students actively participate in examining grammatical structures, reviewing instances, and using rules in real-life communication, they not only retain the formats but also grasp the fundamental reasoning behind tense application. This strategy helps learners to acquire both procedural and conceptual insight, allowing them to choose the correct tense more naturally and with greater assurance.

Additionally, combining guided discovery with clear explanation promotes students to think about their mistakes and slowly understand the differences

between passé composé and imparfait. With time, this mix of theory and hands-on activities assists learners in moving their grammar skills from structured tasks to natural conversation, leading to better results in both written and spoken French. In the end, bringing together analysis, practice, and interaction creates a thorough system for encouraging lasting grammar proficiency in learning a second language.

REFERENCES:

1.Jean Pierre Astolfi, "L'erreur un outil pour enseigner"Paris,Retz 1998.p.82

2.Singleton: "Le rôle de la forme et du sens dans le lexique mental en langue2,Aile n®1994.p.26.

3.A.A.Léontyev:"Mots dans les discours"Moscou 1965.p.124.

4. A.A.Léontyev:"La langue,le discours" Moscou 1969.p.144-145.

5.Ch.De Marez. F.Desmarchelier,D.Gonfei"Le précis d'ortographe"1990.p.104.

6.Christine Tagliante "La classe de la langue"CLE international.Paris 1994.p.36.

7.Jacky Girarde,Jean –Marie Cridlig "Cahier d'exercices" p.101.

8.Berthet,Annie, et al. 2012. Alter Ego+Activity Book A 1. Paris: Grenelle

9.Chevalier, Jean et al. 2013. Grammaire Française. Paris: Libraire Larousse

10.Spalacci, M. (2018). La formation du Passé Composé. Retrieved from http:/www.appuifle.net/ppasse_compose.pdf

DOİ: 10.32010/AZPR3515

AZƏRBAYCAN ŞİFAHİ VƏ YAZILI ƏDƏBİYYAT NÜMUNƏLƏRİNDƏ ATA-OĞUL MÜNASİBƏTLƏRİ

Gülyaz Namiq HÜMMƏTZADƏ
Qarabağ Universiteti
Orcid: https://orcid.org/0000-0002-1419-3486
E-mail: gulyaz.hummatzade@karabakh.edu.az

Xülasə: Məqalədə Azərbaycan şifahi və yazılı ədəbiyyat nümunələrində ata-oğul münasibətinin formaları öyrənilmiş, atanın oğula, oğulunun ataya münasibəti təhlilə cəlb edilməklə folklor və yazılı ədəbiyyat örnəklərindəki ata-oğul konsepti müqayisəli şəkildə araşdırılmışdır. Verilən ədəbi örnəklərdə valideynin öyüd-nəsihətlərinə övlad tərəfindən nə dərəcədə əməl olunduğuna diqqət yetirilmiş, ata və oğlun bədii portretinin işlənmə mexanizmi incələnmişdir.
Məqalədə ədəbiyyatşünaslarımız tərəfindən bu vaxta qədər müxtəlif istiqamətlərdən öyrənilən bir qisim şifahi və yazılı ədəbiyyat nümunələri bilavasitə ata-oğul konsepti nöqteyi-nəzərdən tədqiqata cəlb olunmuşdur. Bu məqsədlə araşdırma obyekti olan əsərlərdəki ata-oğul münasibəti dünya ədəbiyyatının bəzi örnəkləri ilə müqayisəli təhlili edilmişdir. Tədqiqata "Dədə Qorqud", "Koroğlu", "Şah İsmayıl" kimi dastan nümunələrində, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Seyid Əzim Şirvani kimi klassik ədəbiyyat nümayəndələrinin irsində, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı kimi maarifçi yazıçıların əsərlərində ata-oğul münasibətlərini əks etdirən məqamlar araşdırılmışdır. Azərbaycan ədəbiyyatında ata-oğul konseptinin təhlili zamanı Bernard Şou və Vilyam Şekspir kimi Avropa mütəfəkkir yazıçıların əsərlərinə müqayisə obyekti kimi müraciət edilmişdir. Problemin tədqiqi zamanı mövzu ilə əlaqədar psixologiya sahəsində diaxronik-tipoloji tədqiqatlara da istinad olunmuşdur.
Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan ədəbiyyatının həm şifahi, həm də yazılı nümunələrində ata-oğul münasibətlərində qarşılıqlı hörmət və güvənc əsas amildir, atanın şəxsi nümunəsi, övladın valideynə örnək kimi baxması həm dastan və nağıllarda, həm də klassik poeziya nümunələrində müxtəlif ədəbi konstruksiyalarda təzahür tapan oxşar ədəbi faktlardır.
Məqalə müqayisəli metoddan istifadə olunmaqla yerinə yetirilmiş, eyni və müxtəlif janrlarda olan oxşar süjetli ədəbi-bədii nümunələr arasında müvafiq paralellər aparılmaqla Azərbaycan ədəbiyyatında ata-oğul konseptinin ümumi mənzərəsi cızılmışdır. Araşdırma bədii ədəbiyyat nümunələrindən istifadə etməklə sosioloji tədqiqatlar aparan mütəxəssislər üçün də istinad mənbəyi ola bilər.
Açar sözlər: ata-oğul, konflikt, folklor, yazılı ədəbiyyat, psixologiya.

FATHER-SON RELATIONSHIPS IN SAMPLE OF AZERBAIJAN ORAL AND WRITTEN LITERATURE

Gulyaz Namig HUMMATZADE
Karabakh University
Orcid: https://orcid.org/0000-0002-1419-3486
E-mail: gulyaz.hummatzade@karabakh.edu.az

Summary: The article studies the forms of father-son relationships in Azerbaijani oral and written literature, and comparatively examines the concept of father-son in folklore and written literature, focusing on the relationship between father and son and son and father. In the given literary examples, attention is paid to the extent to which the child follows the advice of the parent, and the mechanism of the development of the artistic portrait of the father and son is examined. In the article, some oral and written literature samples studied by our literary scholars from various directions so far have been directly involved in the study from the point of view of the father-son concept. For this purpose, a comparative analysis of the father-son relationship in the works that are the object of the study has been made with some examples of world literature. The study was conducted in the examples of epics such as "Dade Gorgud", "Koroglu", "Shah Ismail", in the heritage of classical literature representatives such as Nizami Ganjavi, Mahammad Fuzuli, Seyid Azim Shirvani, in the works of Najaf bey Vezirov, Nariman Narimanov, Abdurrahim bey Hagverdiyev, Uzeyir Hajibeyli, The works of enlightened writers such as Jafar Jabbarli reflect the aspects of father-son relationships. When analyzing the concept of father-son in Azerbaijani literature, the works of European thinkers such as Bernard Shaw and William Shakespeare were used as a comparison object. During the study of the problem, reference was also made to diachronic-typological studies in the field of psychology related to the topic.
As a result of the research, it was determined that mutual respect and trust are the main factors in father-son relationships in both oral and written examples of Azerbaijani literature, and the personal example of the father and the child looking to the parent as an example are similar literary facts that are manifested in various literary constructions in both epics and fairy tales, as well as in examples of classical poetry.

The article was carried out using a comparative method, and by drawing appropriate parallels between literary and artistic examples with similar plots in the same and different genres, a general picture of the father-son concept in Azerbaijani literature was drawn. The study can also be a reference source for specialists conducting sociological research using examples of fiction.
Keywords: father-son, conflict, folklore, written literature, psychology.

ОТНОШЕНИЯ ОТЦА И СЫНА В ОБРАЗЦАХ УСТНОЙ И ПИСЬМЕННОЙ ЛИТЕРАТУРЫ АЗЕРБАЙДЖАНА

Гуляз Намиг ХЮММЕТЗАДЕ
Университет Карабах
Orcid: https://orcid.org/0000-0002-1419-3486
Электронная почта : gulyaz.hummatzade@karabakh.edu.az

Резюме: В статье исследуются формы отцовско-сыновних отношений в азербайджанской устной и письменной литературе, а также проводится сопоставительный анализ концепта «отец-сын» в фольклоре и письменной литературе, включая анализ отношений «отец-сын» и «сын-отец». На приведённых литературных примерах обращается внимание на то, в какой степени ребёнок следует советам родителя, и рассматривается механизм формирования художественного образа отца и сына.

В статье с точки зрения концепции «отец-сын» были непосредственно исследованы образцы устной и письменной литературы, изученные нашими литературоведами различных направлений. С этой целью был проведен сравнительный анализ отношений отца и сына в произведениях, являющихся объектом исследования, с некоторыми примерами мировой литературы. Исследование проводилось на примере таких эпосов, как «Деде Горгуд», «Кероглу», «Шах Исмаил», на примере наследия таких классиков литературы, как Низами Гянджеви, Мухаммед Физули, Сеид Азим Ширвани, на примере произведений Наджаф бека Везирова, Наримана Нариманова, Абдуррагим бека Ахвердиева, Узеира Гаджибейли, Произведения таких просветительских писателей, как Джафар Джаббарлы, отражают аспекты отцовско-сыновних отношений. При анализе концепции отцовско-сыновних отношений в азербайджанской литературе в качестве объекта сравнения были использованы произведения таких европейских мыслителей, как Бернард Шоу и Уильям Шекспир. При изучении проблемы также были привлечены к диахронико-типологическим исследованиям в области психологии, связанным с данной темой.

В результате исследования было определено, что взаимоуважение и доверие являются основными факторами в отношениях отца и сына как в устных, так и в письменных образцах азербайджанской литературы, а личный пример отца и ребенка, берущего пример с родителя, являются схожими литературными фактами, которые проявляются в различных литературных конструкциях как в былинах и сказках, так и в образцах классической поэзии.

Статья написана с использованием сравнительного метода, и посредством проведения соответствующих параллелей между литературными и художественными примерами со схожими сюжетами в одних и разных жанрах, была составлена общая картина концепции «отец-сын» в азербайджанской литературе. Исследование также может служить справочным источником для специалистов, проводящих социологические исследования на примере художественной литературы.
Ключевые слова: отец-сын, конфликт, фольклор, письменная литература, психология.

Giriş

Artıq iki yüz ilə yaxındır ki, dünya incəsənətinin, o cümlədən, ədəbiyyatın qabartdığı mövzulardan biri də "atalar və oğullar" problemidir. Bəhs edilən mövzu bütün dünya xalqlarının incəsənətində az qala bəşəriyyətin ən əhəmiyyətli problemi kimi qabardılır.

Psixoanaliz elminin banisi Ziqmund Freyd əsərlərində bu mövzuya toxunur, təkrar-təkrar üzərinə qayıdır. Bu problemli münasibətin kökünü qədim qəbilə-tayfa birlikləri dövrünə aparır. Tarixi qaynaqlara baxdığımız zaman, həqiqətən də, qədim qəbilələrin arasında belə adətlərin mövcud olduğunu – atasının yerinə keçmək istəyən oğulların atalarını öldürməsi, oğullarının paxıllığını çəkən ataların öz övladlarının canına qəsd etməsi kimi gərgin münasibətlər mövcud olduğunu görürük. Z.Freydatalar-oğullar problemini bəşəriyyətin kütləvi şüuraltında yer etmiş ən böyük arxetiplərdən biri kimi sübut etməyə çalışmışdır və bununla mübarizənin mümkün olmadığını iddia etmişdir. Onun fikrincə, mübarizə şəraitində oğulların qalibiyyətinə inanır, ataların isə məğlubiyyətə məhkum olduğunu düşünürdü.

Ata-oğul qarşıdurmasındakeçmişi, xaosu, qaranlığı təmsil edən ata, bunların əksini özündə biruzə verən oğuldur. Ata-oğul qarşıdurması motivi mifoloji mətnlərdən bu günə qədər hər dövrdə yaradıcılıq prosesində aktiv istifadə edilmişdir. Bu mübarizədə

oğul atadan güclüdür. Onun öz gücünü nümayiş etdirməsi üçün əks qütbdə duran simvol kimi atasını öldürməsi gərəkdir.

Əsas hissə. Türk xalqlarının folklor örnəklərini nəzərdən keçirərkən oğlun ataya dərin hörmət bəslədiyini görürük. Türk xalqlarının ortaq dəyəri olan "Dədə Qorqud" dastanının müqəddiməsində yer alan atalar sözlərində ata-oğul münasibətinə də xüsusi diqqət ayrılıb:

"*Oğul atadan görməyincə süfrə çəkməz.*
Oğul atanın yetiridir, iki gözinin biridir.
Dövlətlü oğul qopsa, ocağımın közidir.
Oğul daxı neyləsün baba ölüb mal qalmasa,
Baba malından nə faidə, başda dövlət olmasa...
Ata adını yüritməyən xoyrad oğul
ata belindən enincə, enməsə, yeg;
ana rəhminə düşüncə, doğmasa, yeg!
Ata adın yüridəndə dövlətlü oğul yeg!" (Dədə Qorqud, 2004)

Ata ilə oğulun qarşıdurmasını Kamal Abdulla "Köhnə ilə Yeni" arasındakı münasibətlərin təzahürü kimi qiymətləndirir: *"Köhnə ilə Yeni arasındakı münasibətləri ən çox atalarla oğullar arasında olan müxtəlif tipli əlaqələrin mayasından çıxarmaq mümkün olur"* (Abdulla, 2009).

Ata-oğul münasibətləri haqqında bir sıra yanaşmalar mövcuddur: sosial yanaşma, psixoanalitik yanaşma və s. Z.Freyd haqqında danışdığımız mövzuya əsasən, "Edip kompleksi"ni irəli sürür. Düşünür ki, ataya olan nifrətin əsas səbəbi kiçik yaşlardan oğulun anasını öz atasına qısqanmasıdır. Və beləliklə, bütün ata-oğul qarşıdurması bu səbəbdən yaranır.

Z.Freydin formalaşdırdığı "Edip kompleksi" ümumiləşdirməsinin əsas qəhrəmanı Edipin süjet xəttinə baxdıqda görürük ki, Fiv hökmdarı Laya Orakuldan xəbər gəlir ki, doğma oğulun səni öldürəcək və anası ilə evlənəcək. Lay bu dəhşətli xəbərdən sarsılır, yeni doğulmuş oğulunu öldürmək üçün öz quluna əmr edir. Qul Edipə acıyır və onu öldürmür. Fiv hökmdarına yalan danışaraq oğlunu öldürdüyünü deyir.

"Kitabi-Dədə Qorqud"da da eyni yalan motivi işlənir. Belə ki, Dirsə xana oğulun səni öldürmək istəyir deyə yalan məlumat verilir. Dirsə xan oğlunu ovda öldürməyə cəhd edir. Onu yaralasa da, öldürdüyünü düşünür.

Səfa Qarayev "Edip kompleksi kontekstində dəlilik: ataya protestin mədəni-psixoloji effekti" adlı məqaləsində ata-oğul münasibətlərinin kökünü Edip kompleksi ilə bağlayır: *"Oğuz dastanlarında qırmızı xətt kimi keçən ata və oğul münasibətlərinin (Beyrək Baybörə münasibətində "korluq", "ata dura-dura oğula təzim etmə", Qazan və Uruz münasibətində "atanın zindana düşməsi", "oğulun zindana düşməsi", Dirsə xan və Buğac arasında "anası ilə söhbət eyləyib atasına qəsd etmə", "oğulun ölümü və ana südü ilə yenidən doğuluşu", "atanın dustaq olması və oğulun onu xilas etməsi" motivləri və s.) psixosemantik əsasında edip kompleksi dayanır"* (Dədə Qorqud, 2019)

Teleqon tanımadan atası Odisseyi, Edip Layı öldürmüşdür. Bu,yunanmifologiyasıüçün xarakterikdir və əski yunan düşüncəsi üçün yolverilən dir. Ancaq oğuz mifologiyasına baxdıqda görürük ki, buna gedən yolun qarşısı kəsilir. Buğac, Uruz atasını xilas edir. Orest bu qəhrəmanların yolunu davam etdirir. Orest atası Aqammenonun intiqamını anasından alır, onun yeni ərini öldürür. İntiqam ilahələri tərəfindən təqib edilib, əzablara qatlaşır. Uruz kimi oğuz qəhrəmanları ilə Oresti ata məhəbbəti birləşdirir.

Türk mifologiyasında atanın müxtəlif öhdəlikləri vardır. İlk olaraq, ata ailənin qoruyucusudur. Ailəni bir arada tutmağı bacarmalı və təhlükə qarşısında həll yollarını göstərməlidir. Ata oğula tərbiyə verməli, onu ərdəmli, bilgə yetişdirməlidir. Ata oğulun yeni bir həyat qurmasına, yəni evlənməsinə yardımcı olmalıdır. Bu motivi "Manas" dastanında, "Dədə Qorqud" dastanında da görürük. Bir sözlə, ata gələcəkdə miras qoyacağı yurduna sahib olacaq bir oğul yetişdirir. Bunun qarşılığında oğulun da öhdəlikləri mövcuddur. Oğul atanın etdiyi fədakarlıqlar qarşısında onu sevib, hörmət etməli, fikirlərinə diqqətlə yanaşmalıdır. Ailəni qorumaq üçün o da atasının verdiyi tərbiyə əsasında fədakarlıqlar etməyi bacarmalıdır.

Türk xalqlarının folklorunda ata-oğul ənənəvi süjeti kimi türklərin yaranışını özündə ehtiva edən dastanlarında müşahidə edirik. Türk dünyasının ən çox araşdırılan və hələ də araşdırılmaqda olan dastanı "Kitabi-Dədə Qorqud" dastanında ata-oğul münasibətləri qəhrəmanlıq silsiləsi kimi birtərəfli təqdim olunmur. *"Bu motiv abidədə qırmızı xətt kimi keçir. Atalar oğullarına güvən yeri kimi baxır, oğullar da dara düşmüş atalarını xilas edirlər"* (Jirmunski, 2017).

"Dirsə xan oğlu Buğac" boyunda Buğac düşmənin üstünə gedir, atası Dirsə xan oğlunu tanımır. Düşmənlər onların ikisini birlikdə öldürməyi planlayır. Dastanın bu hissəsində "qatil atanın əməlindən peşman olub özünə ölüm arzulaması" motivi işlənib. *"...Ağ yüzlü, ala gözlü gəlinlər gedərsə, bənim gedər, Sənin də içində nişanlın varsa, yigit, degil mana, Səvaşmadan-uruşmadan alı verəyim döngil gerü! Ağ saqallu qocalar gedərsə, mənim gedər, Sənin də içində ağ saqallu baban varsa, yigit, degil mana. Savaşmadın – vuruşmadın qurtarayım, döngül gerü! Mənim üçün gəldünsə, oğlancığım öldürmişəm, Yigit sənə yazığı yoq, döngil gerü! – dedi"*

(Dədə Qorqud, 1988) Boy "Ovda atası tərəfindən oxlanan qəhrəmanın sağalıb anasının təkidi ilə atasını dustaqlıqdan azad etməsi" ilə başa çatır.

"Dədə Qorqud" dastanının ikinci boyu olan "Salur Qazanın evinin yağmalandığı boy" da Qazanın oğlu atasının namusunu öz canından üstün tutur və anası Burla xatuna *"Qobəni qadın an, çəngələ ursunlar, qo ətimdən çəksünlər, qara qavurma etsünlər, qırq bəg qızının önünə ilətsünlər. Anlar bir yedigində sən iki yegil! Səni kafurlər bilməsünlər-duymasunlar; ta kim, sası dinlü kafirün döşeginə varmayasan, sağrağın sürməyəsən, atam Qazan namusınısımayasan. Saqın!"* (Dədə Qorqud, 2004)– deyərək öz canı bahasına atasının namusunu qoruyur.

"Dədə Qorqud" dastanında ata-oğul münasibətlərini əks etdirən bir çox səhnələr olduğu qədər bunu ifadə bir sıra maraqlı deyimlər var. Nümunə kimi, Uruz atası Qazan xana: "Baba oğul qazanır ad içün. Oğul da qılınc quşanur baba ğeyrətiyçün. Mənim də başım qurban olsun sənincün" (Dədə Qorqud, 2004), – söyləməsi maraq doğurur.

"Hünəri oğul atadanmı görər, ögrənər, yoxsa atalar oğuldanmı ögrənür? (Dədə Qorqud, 2004). Akademik Tofiq Hacıyev buradakı ata-oğul motivinə diqqət çəkərək deyir: *"Oğulla ata mübahisələrində bir mülayim demokratizm görünür... Burada oğulun ataya iradı atanın danlağına müqabildir"* (Hacıyev, 1999).

Dastanın "Dəli Domrul" boyunda Əzrayili tanımadığı üçün canı yerinə can tapmalı, cəzasını bu şəkildə çəkməli idi. Dəli Domrul canı üçün can tapmağa atasının yanına gedir. Atasının əlini öpüb "Ağ saqqalı əziz izzətli ata", – deyə müraciət edərək başına gələnləri söyləyir və can istəyir. Ata Dəli Domrulu rədd edir və *"dünya şirin, can əziz"*, – deyir. Dəli Domrulun ilk atasına müraciəti ailədə atanın problemləri həll edən ilk insan olduğunu ifadə edir. Atasından rədd cavabı alsa da, Dəli Domrul sahib olduğu ata obrazından üz döndərmir.

"Kitabi-Dədə Qorqud" dastanında ata-oğul münasibətini ümumiləşdirsək, ilk boyda Dirsə xan öz nökərlərinin şaiyəsinə inanıb oğlu Buğacı öldürmək istəsə də, bu reallaşmır. Buğac isə atasını düşmənlərdən xilas edib onun xilaskarına çevrilir. Dastanın üçüncü boyunda Beyrək azad olub elinə geri qayıdaraq oğulu üçün ağlamaqdan kor olmuş atasının gözlərini öz qanı ilə sağaldır, yəni Beyrək də öz atasının xilaskarı olur. Səkkizinci boyda Basat dolayı yolla da olsa, atasını xilas edir. Belə ki, Basat qazamatdan qayıdıb Təpəgözü öldürməsəydi Aruz qoca da digər oğlu kimi Təpəgözün qurbanı olacaqdı. Və doqquzuncu boyda İmran atası Bəkili əvəz edərək onun xilaskarına çevrilir. Uruzun atasını dustaqlıqdan xilas etməsi də bu silsiləyə daxildir.

Türk xalqları arasında geniş yayılmış "Koroğlu" dastanının ata-oğul münasibəti dastanın ilk qolundan müşahidə edilir. "Alı kişi" qolunda Rövşən atasının gözlərini çıxaran Hasan paşaya şəxsi zəmində başlayan mübarizəsini daha sonra xalqın mənafeyini qoruyan xalq qəhrəmanı şəklində davam etdirir. "Koroğlu dastanında ata-oğul münasibətinin təzahürü kimi Koroğlu və övladlığa götürdüyü oğlu Eyvaz xəttini də göstərmək mümkündür.

Dastanın "Koroğlunun Dərbənd səfəri" qolunda baş qəhrəmanla Kürdoğlunun güləşməsi səhnəsinin şahidi oluruq. Əsərdəki bu məqam "Şahnamə"dəki Rüstəm Zal ilə oğlu Söhrabın qarşılaşması motivini xatırladır. Hər iki halda ata oğlunu tanımadığı üçün onunla döyüşür. "Koroğlu" dastanında "Şahnamə"dən fərqli olaraq, oğul atanı yenə bilir. Oğul ataya daha mərhəmətli davranır.

Füzuli Bayat araşdırmasında bildirir ki, *"Koroğluda ata-oğul mübarizəsi tanımadan baş vermiş və atasının oğlunu tanıması ilə nəticələnmişsə də, bəzilərində bu qısqanclıq, bəzilərində isə hakimiyyət uğrundadır"* (Füzuli B, 2009).

Məhəbbət dastanlarında ata-oğul münasibətlərini təhlil edərkən görürük ki, əsasən ata-oğul qarşıdurmasına səbəb qısqanclıqdır. "Şah İsmayıl" dastanına diqqət edərkən müşahidə edirik ki, Şah İsmayıl atası tərəfindən çox sevilir. Şah İsmayıl sevdiyi qızın ardınca qürbətə gedir, geri dönərkən üç gözəllə gəlir. Atası oğlunu bu səbəblə qısqanır, Şah İsmayılın analığının təsiri ilə də atası oğulunu öldürmək fikrinə düşür. Şah İsmayılın yalvarması ilə atası onu öldürməsə də, gözlərinə mil çəkdirib quyuya atmağa qərar verir. Şah İsmayılın cəsur xanımı – Ərəb Zəngi Zülal şahla mübarizə aparır və Şah İsmayılı xilas edir. Ata-oğul qarşıdurması oğulun atanı öldürməsi ilə nəticələnir.

"Koroğlu" dastanının Paris nüsxəsində ilk məclisdən başlayan ata-oğul münasibətləri son məclisə kimi müxtəlif şəkildə özünü göstərir. İlk məclisdə köpüklü suyu içib kor-peşman atasının yanına qayıdan Rövşən bu sözləri eşitməli olur: *"Evin yıxılsın, səni görüm övlad üzünə həsrət qalasan, necə ki, məni öz üzünə həsrət qoydun!"* (Koroğlu, 2005). Alı kişinin qarğışı Koroğlunun övlad dərdinə səbəb olur.

"Şah oğlu Bəhramın nağılı"nda gözləri tutulmuş bir ata və kor atalarının gözünü açmaq üçün uzaq səfərə çıxan üç oğlundan bəhs edilir. Münəccimlər padşaha bildirir ki, uzaq məkandakı ağ çeşmənin suyunda olan daşı gözlərinə çəksən gözlərin açılar. Ağ çeşmə sahibinin çətin sınaqlarına baxmayaraq şahın kiçik oğlu atası üçün bu daşı gətirir. Nağılın sonunda atası üçün belə bir mübarizə aparan oğul ata tərəfindən də şadlıqla qarşılanır (Azərbaycan nağılları, 1982)

Atanın oğul tərəfindən kor edilməsi motivinə nə Azərbaycan nağıllarında, nə dastanlarında müşahidə etmədik.

Oğul evləndirmək, övladını ev-eşik sahibi etmək kimi qəliblər ata-oğul münsibəti üçün əhəmiyyətlidir və bu bir çox nağıl və dastanlarda müşahidə edilən motivə çevrilmişdir. Bu baxımdan "Qızıl saçlı gözəl" nağılında ata oğlunun evlənməsini istəyir. Həmin aspektdən yanaşma bir çox nağılda qarşımıza çıxır, belə ki, ata öz oğlunun xeyir işini görməyi arzulayır, bu da onun atalıq borcunun son mərhələsi kimi başa düşmək olar.

Haqqında danışılan motiv "Dədə Qorqud" dastanının "Qanlı Qoca oğlu Qanturalı boyundakı motivlə oxşarlıq təşkil edir. *"Dostlar, atam öldü, mən qaldım. Yerini-yurdunu tutdum. Sabahkı gün mən ölərəm, oğlum qalar. Bundan yaxşı nə ola bilər ki, oğul, nə qədər ki, sağam, gəl səni evləndirim!". Oğlan deyir: "Ata, məni evləndirmək istəyirsənsə, bilirsənmi mənə layiq qız necə olmalıdır?...Mən yerimdən durmadan o durmuş olsun! Mən Qaracıq atıma minmədən o minmiş olsun! Mən qanlı kafir elinə getməmiş o gedib mənə baş gətirmiş olsun!"* (Dədə Qorqud, 2004)

Zəngin folklor örnəyi olan dastan və nağılların hər ikisində ata-oğul münasibətinə aid nümunələr kifayət qədərdir. Dastanlarda müşahidə edilən ata-oğul konseptinin müxtəlif versiyaları – səmimilik, hörmət ("Kitabi-Dədə Qorqud" dastanı), bir qismində ("Şah İsmayıl" dastanı) isə qısqanclıq faktları nəzərə çarpır. Bu motivlərin oxşarlıq təşkil etdiyi nağıllarımızda ata-oğul qarşıdurması bəzi yerlərdə ölümlə nəticələnir, bəzilərində isə barışıqla sona çatır. Dastanlarımızda olan ata-oğul mövzusu eynilə nağıllarda da qarşılaşa biləcəyimiz bir mövzudur. Ancaq nağılların çoxunda ata-oğul münasibəti kəskin xətlər üzərində qurulsa da, bu dastanlarda gizli bir şəkildə özünü göstərir.

Təhlil etdiyimiz nümunələrdə ata-oğul münasibətlərinin təqdimi və problemin bədii həllinə diqqət yetirsək, görərik ki, atanın ictimai mövqeyi övladlarına uyğun qiymətləndirilir, onun şöhrəti övladlarının mövcudluğu ilə ölçülür. Məlum olur ki, verilmiş örnəklərdə ata fiquru həlledici rol oynayır, atanın sağ olduğu vəziyyətlərdə hakimiyyəti kiçik oğul qazanaraq taxta çıxır və bunun nəticəsində ata artıq qocaldığını qəbul edib inzivaya çəkilir.

Ata nəsihətinin vacibliyi şifahi örnəklərlə xalqa ötürülmüş və yazılı ədəbiyyat nümunələrində də öz əksini tapmışdır. Nizami Gəncəvi yaradıcılığında ata-oğul konseptini "Oğlum Məhəmmədə nəsihət" şeirində müşahidə edirik. Şair bu şeiri oğluna ünvanlasa da, bütün gənclərə xitabı kimi dəyərləndirə bilərik. Nizami oğluna atanın nəsihətinin faydasız olmadığını, öyrəndiyi hər sənətin dərinliyinə varmağı, ədəblə yaşamağı təlqin edərək yazır:

Hərçəndi sənətin çox rütbəsi var,
Həyata faydalı bir elm axtar.
Bu əyri çizgilər cədvəlində sən
Özünü şərh edib, özünü öyrən!
Ol öz vicdanının sirrinə açar,
Çünki bu mərifət qəlbə nur saçar.
(Gəncəvi,2004)

Nizami məktəbinin görkəmli nümayəndəsi Məhəmməd Füzulinin gəncliyə xitabən qələmə aldığı "Fəzliyə nəsihət" qəsidəsi də atanın oğluna müraciəti, geniş miqyasda baxdıqda gənclərə səslənişidir. Biz şifahi xalq ədəbiyyat nümunəsi olan nağıllardan da ata sözünə əməl edən oğulun xoşbəxt, nəsihətə uyğun hərəkət etməyən oğulunsa bədbəxt sonluğu bizə bir daha ata öyüdünün, valideyn vəsiyyətinin əhəmiyyətini göstərmişdir. Füzuli təbiətdən aldığı dərsi Fəzli ilə paylaşır və bir meyvə ağacının yaşadıqlarından ibrət alaraq düşüncələrini oğlunun simasında bütün gənclərlə paylaşır:

Mənsiz yaşa, qazan özünə hörmət, e'tibar,
Mən maneyəm, yoxunsa bu gün nam ilə nişan.
Şahin balasının var əgər seydə qüdrəti,
Əlbəttə, məsləhətdir edə tərki-aşiyan. (Füzuli, 2005)

Əgər qədim və orta dövrdə ata-oğul münasibətlərinin bədii təqdimatında didaktikaya üstünlük verildiyini görürüksə, yeni dövrdə öyüd-nəsihət öz yerini satiraya verir. Görkəmli maarifçi Mirzə Fətəli Axundzadənin cənublu həmkarı Mirzə Ağaya ünvanladığı məktubunda: *"Gülüstan" və "Zinətülməcalis" dövrü keçmişdir. Bu gün bu cür əsərlər millətin işinə yaramır. Bu gün millət üçün faydalı və oxucuların zövqü üçün rəğbətli olan əsər - drama və romandır"* (Şamıoğlu, 2017) – məsləhətini ondan sonra gələn nəsil ədəbi fəaliyyətində nəzərə almışdır.

Məsələn, Nəcəf bəy Vəzirovun ailə-əxlaq, tərbiyə mövzusunda qələmə aldığı "Ev tərbiyəsinin bir şəkli" əsərində ata-oğul qarşıdurmasını görə bilərik. Əsərdə yenilik və köhnəliyin qarşıdurması kimi də ifadə edə biləcəyimiz ata-oğul mübahisəsi Bayraməli bəy və oğlu-arasında baş tutur. Bayraməli bəyin iki oğlu var və hər ikisini oxutmaq üçün xəsis olmasına rəğmən, xeyli pul xərcləyir və uğursuz təhsil həyatları üçün onları danlayır. Ata və oğullar arasında münasibət olduqca gərgindir. Dialoqlardan aydın olur ki, ata övladlarına tərbiyə verəcək qədər tərbiyə sahibi deyil. Ancaq hər məsləhətində tərbiyədən söz edir: *"Belə tərbiyət sahiblərididirlər ki, ağsaqqal ataları gəlir otağa, birisi kor öküz təki yıxılıb taxtın üstündə, biri də əyləşib xanzadə kimi... Heç biri yerindən tərpənmək istəmirlər, lazım bilmirlər ayağa durub ehtiram eləsinlər. O ki qaldı oxumağa, bu barədə əvəzləri yoxdur..."* (Vəzirov, 2005).

Ata oğullarını dərzi Arakelin oğlu ilə müqayisə edir. Ancaq hər iki oğlu da təhsil almaq istəmir. Bu əsərdə atanın dilindən oğulları üçün *"ot kökü üstə bitər"* atalar sözü də səslənir.

Nəcəf bəy Vəzirovun digər bir əsərinə – "Müsibəti-Fəxrəddin"ə müraciət etdikdə cəhalət ucbatından ata-oğul qarşıdurmasını müşahidə edirik. Qan davasının davam etdiyi bir ərəfədə Rüstəm bəyin oğlunun qisasını alması üçün digər oğlu ilə konflikt yaşayır: *"Mənim oğlum gərək mənim özümə oxşasın, biqeyrət oğul mənə lazım deyil. Rəşid əlimdən getdi, ölmədim, Mahmud gedəndə nə olacaq?"* (Vəzirov, 2005) – deyən Rüstəm bəy sonda tək oğlunu da cəhalətə qurban edir. Oğul ataya bu qan davasının nahaq olduğunu izah etməyə çalışır, zülmə qarşı insaf etməsini istəyir: *"Ata, Allah xatirinə məni vadar eləməyin nahaq qan tökməyə və zülm etməyə"* (Vəzirov, 2005), – ancaq bu qarşıdurma atanın "qələbəsi" və oğlun müsibəti ilə nəticələnir.

Nəriman Nərimanov ilk qələm təcrübəsi olan "Nadanlıq" əsərində də dövrün aktual mövzusu olan cəhalətə, feodal əxlaq qaydalarının törətdiyi fəlakətə qarşı mübarizə aparmışdır. Bu mübarizə ata (Hacı Abdulla)-oğul (Ömər) arasındakı konfliktdə özünü göstərmişdir. Ata: *"İgid də deyəndə belə olardı, Gözünə döndüyüm çox qanlar tökdü",* – fikrinə sahib köhnəliyin, cəhalətin təmsilçisi: *"Mənimlə ədavətinin səbəbi odur ki, onun düşmənini mən öldürmürəm. Bu barədə də kərrat ilə mənə sifariş göndəribdir. Amma mən cavab vermişəm ki, mən heyvan deyiləm" fikri ilə çıxış edən yeniliyin, təhsilin təmsilcisi olan oğlun qarşıdurması əsasında yazılmışdır. Ata özü kimi cəhalət rəmzi olan oğlu Vəlini Ömərdən üstün tutur. Bu müqayisəni kənd müəllimi Məhəmmədağanın monoloqunda: "Ömər nəhayətində ağıllı və kamallı oğlandır, amma bununla belə atasının xoşuna gəlmir. Zira ki, adam öldürmür, quldurluq etmir, karvan kəsmir, hərgah belə bəlalara giriftar olsaydı, yəqin ki, atası onu da kiçik oğlu kimi sevərdi"* (Nərimanov, 2004), – müşahidə edirik. Özünə oxşayan oğul yetişdirmək istəyən atanın savadlı, yenilikçi oğlun arasında konflikti əsər boyu davam edir. Ömər oğlun necə biri olmasını ata və ananın tərbiyəsinə bağlayırdı: *"Oğlun yaxşı, pis olmağı ata və ananın tərbiyəsinə bağlıdır. Amma bunlarda da günah yoxdur. Çünki onların qanacaqlarına görə tərbiyə belə lazımdır"* (Nərimanov, 2004). Bu fikri Hacı Abdulla da qəbul edərək: *"Oğulun bəlasını ata-ana gərəkdir çəksin"* (Nərimanov, 2004), – deyərək oğlun tərbiyəsindən ata-ananın məsul olduğunu ifadə etmişdir. Əsərin sonunda Ömeri nadanlıqlığın əsiri olan qardaşı Vəli məhv edir.

Görkəmli irland dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı Corc Bernard Şounun dediyi kimi: *"Uşaqlarınıza dərs vermək istəyirsinizsə, özünüzü nümunə göstərin. Amma Sizin kimi olmaları üçün deyil, Sizin kimi olmamaları üçün". (Bernard, 2014)*

Milli dramaturgiyamızda faciə janrının ilk nümunələrindən biri olan "Dağılan tifaq" pyesində Ə.Haqverdiyev Nəcəf bəy və Süleyman bəy obrazları əsasında ata-oğul qarşıdurmasını işləmişdir. Ancaq bu qarşıdurma digər əsərlərdə olduğu kimi cəhalətin, köhnəliyin doğurduğu bir qarşıdurma deyil. Bu əsərdə atanın yolu ilə gedən bir oğlun faciəsinə şahid oluruq. Əsərin əvvəlində bütün mal-dövlətini qumarda uduzan Nəcəf bəy monoloqunda: *"Oğlun pisinə, ata malı lazım deyil, çünki atası başını yerə qoyan tək hamısını aparıb bir az müddətdə xərc eləyib dağıdacaq"* (Haqverdiyev, 2005) – deyə oğlun necə olması haqqında şərh verir.

Özünə oxşayan oğlu ilə konflikt yaşayan Rüstəm bəy son çarəni oğlunu cahıl-cuhul adlandırdığı dostlarından ayırıb kəndə göndərməkdə görür. Rüstəmin "yemək-içmək" dostları oğlunun atasına hörmət etməməsinin səbəbini elə Rüstəmin özündə görürlər: *"Bir ata ki bikar vaxtında oğlu ilə bir yerdə qumar oynaya, onun oğlu qumarbaz olmayıb, müctəhid ki olmayacaq"* (Haqverdiyev, 2005). Süleymanla atasının arasında son mübahisə mövzusu sevdiyi kasıb bir qızı qaçırması olur. Rüstəm oğlunun qaçırdığı qızı əsil-nəcabətinə yaraşdırmır, onu döyməklə təhdid edir və bir sillə vurur. Süleyman bu təhdidlərə boyun əymədən: *"Atasan, bu dəfə dinmədim, təvəqqe eləyirəm bir də mənə yaxın gəlməyəsən, yoxsa bir də vursan əvəsində cavab elərəm"* (Haqverdiyev, 2005), – deyərək evdən qovulur. Müraciət etdiyimiz əsərlərdən fərqli olaraq, bu pyesin sonunda həm oğul: *"Mən onun üçün pis oğul olmuşam, sözünün qabağında söz demişəm",* – həm də ata: *"O adamlar ki, mənəm-mənəm dedilər, hamısının axırı belə oldu"* (Haqverdiyev, 2005), – etdiyi əməldən peşman olurlar. Qarşıdurma ata və oğlun peşmanlıq duyaraq ölümü ilə nəticələnir.

Ə.Haqverdiyevin "Bəxtsiz cavan" əsərinin sujet xətti atalar və oğullar arasında gedən mübarizənin əsasında qurulub. Atalar – Hacı Səməd ağanın timsalında köhnəliyin, dar dünyagörüşün, oğullar – Fərhadın timsalında isə yeniliyin, mütərəqqi fikirlərin konfliktini görürük. Hacı qardaşı öldükdən sonra Fərhadın anası ilə evlənir və Fərhadı uşaqlıqdan o böyüdür. Əsərin əvvəlində Hacı Səməd ağa Fərhadın yolunu gözləyir, mülkünə sahib çıxacağını düşünür. Ancaq Fərhadın arzuları əmisinin planı ilə üst-üstə düşmür, o, dostu ilə birlikdə təhsilini davam etdirmək istəyir. Hacı rəiyyəti əzməklə, Fərhad isə kəndlilərin zəhmətlərinə dəyər verərək idarə etməyi seçir. Fərhad Hacı Səməndərlə mübarizəsində məğlub olur. Hacı Səməndər Fərhadı

xəbərsiz evləndirir, Fərhadsa oxumaq arzusunu, sevdiyi qızı itirir. Bu qarşıdurmada məğlub olan Fərhad özünü öldürməyə çalışır, amma istəmədən Hacı Səməndəri öldürür və "ata qatili"nə çevrilir. Təhsilli bir gənc olan Fərhad dar düşüncənin, mühafizəkar Hacı Səməndər ağa isə o günə kimi etdiyi haqsızlığın qurbanı olur. Əsərdə digər ata-oğul qarşıdurması Hacı Səməndər ilə öz oğlu Çingiz arasında baş verir. Çingiz Fərhaddan fərqli olaraq, təhsilli deyil, ona görə də fikirləri atası tərəfindən bəyənilmir. (Haqverdiyev, 2005)

Qarabağın böyük sənətkarı Üzeyir Hacıbəylinin satirik hekayələrində də ata-oğul münasibəti üzrə müxtəlif situasiyalarla qarşılaşırıq. "Qarabağın keçmiş günlərindən" satirik hekayəsində Azad bəy və oğlu Xudadad bəy arasında qarşıdurma atanın oğluna verdiyi tərbiyədən irəli gəlir. Azad bəy malmülkünü qumarda uduzan bəylərdən biri, oğlu isə özünü başmaqçı oğlu ilə müqayisə edərək, "pyat" ala bilmədiyi üçün bir daha oxumaq istəməyən bəy oğludur. Azad bəy oğlunun özünə oxşadığını, ona doğru nümunə ola bilmədiyini qoçu Səlimlə söhbəti zamanı anlayır: *"Oxumadı. Bütün əməyimi zay etdi. İndi də qumarbaz oldu"*. (Hacıbəyli, 2005) Atasının yolunu gedən oğlun faciəli sonu toy səhnəsi ilə müqayisədə verilmişdir. Əsərdə oğlun faciəli sonunu ata gətirir, çünki özünü doğru yetişdirə bilməyən valideyn və zamanında müdaxilə edilməyən oğul qarşı-qarşıya qalır. Bu qarşıdurmada atanın dedikləri ilə etdikləri arasında uçurum var. Oğul isə uşaqlıqdan etibarən bütün uşaqlar kimi valideynini nümunə götürərək böyümüş və atasının prototipinə çevrilmişdir.

"Qarabağın keçmiş günlərindən" satirik hekayəsi ilə Ə.Haqverdiyev "Dağılan tifaq" əsərini müqayisə etdiyimiz zaman görürük ki, hər iki əsərdə oğul atanın yolunu izləyir və bu gənc nəslin faciəsi ilə sonlanır. "Uşaq gördüyün götürər, eşitdiyin deyər" atalar sözünə istinad edərək söyləyə bilərik ki, ailə tərbiyəsinin, xüsusilə, atanın oğlun həyatındakı rolu olduqca həlledici rol oynayır. (Hacıbəyli, 2005)

Ü.Hacıbəylinin ata-oğul konfliktinə həsr etdiyi digər bir əsəri "Ata və oğul" adlı səhnəcik nümunəsidir. Bu səhnəcikdə oğlunu oxutduğu üçün peşman olan dindar ata obrazı ilə təhsil alsa da, atasından pul istəyən, dini görüşləri dəyişən oğul obrazı arasındakı qarşıdurmanı müşahidə edirik. Bu konflikt oğlun yeni düşüncələrini qəbullanmayan atanın oğlunu evdən qovması, ananın isə oğluna dua yazdırmaq üçün molla yanına getməsi ilə davam edir. Oğul isə atanın fikirlərinə hörmət etmir və *"bu kişi dəli olubdur"*, – deyir. "Ata və oğul" əsəri təhsilli oğulla köhnəfikirli ata qarşıdurmasına görə "Bəxtsiz cavan" və "Nadanlıq" əsəri ilə bənzərlik təşkil edir, ancaq əsərlərin sujet xətti bir-birindən fərqlənir.

Cəfər Cabbarlının qadın azadlığı məsələsinə həsr etdiyi "Sevil" pyesində də ata-oğul konflikti nəzərə çarpır. Əsərdə Balaş atasının görkəmindən, danışığından utanan bir oğula çevrilib. Sevil Balaşa atasının əziyyətini, ona necə-baxıb böyütdüyünü xatırlatsa da, Balaş gələn qonaqlarına özünü bəyəndirmək üçün atasına ölü paltarı geyindirməyə çalışır, dövrün tələbinə uyğun danışmadığı üçün atasının lal olmasını istəyir. *"Deməzlər ki, özünə bax, atasına bax?"* (Cabbarlı, 2005)

Atasının dostunu da (Balakişi) özünə yaraşdırmadığı üçün evdən qovur və bu hadisə Atakişi (ata) üçün dözülməz son hadisə olur: *"Nankor övlad! Mən boğazımdan çörəyi kəsib sənin boğazına dürtmüşəm, səni oxutdurmuşam, sən indi mənim qonağımı evdən qovursan? Daha bəsdir!"* (Cabbarlı, 2005). Bu qarşıdurma özünü savadlı sayan, atasını, ailəsini bəyənməyən oğulla artıq evə pul gətirə bilməyən, oğluna möhtac olan ata arasındadır. Ata oğlunun yetişməsində özünü sorğulayır: *"Mən uşaqlıqdan harın yaşamışam, Allahıma bəndəlik eləməmişəm"* (Cabbarlı, 2005). Balaş əsərin sonunda həm Sevilə etdiklərinə görə, həm də atasına görə peşman olur, ancaq yenə də bütün günahı özgəsində – bacısında görür: *"Gülüş, ver mənim ailəmi! Sən mənim həyatımı pozdun"* (Cabbarlı, 2005).

Avropada İntibah dövrünün ən görkəmli nümayəndələrindən biri olmuş Vilyam Şekspirin "Hamlet" əsərində də ata-oğul münasibəti əhəmiyyətli yer tutur. Ölümündən sonra atasının ruhu Hamletə görünür, ondan qisas almağını tələb edir:

Ancaq əbədiyyət ətdən və qandan
Yaranmış qulağa sirrini açmaz.
Əgər sevmisənsə atanı bir vaxt,
Dinlə, dinlə, oğlum, sən məni dinlə!
H a m l e t.
Aman Allah!
Kölgə.
Onun dəhşətli, rəzil,
Ən çirkin qətliyçün intiqam al sən. (Şekspir, 2004)

Bu əsərdə ata-oğul konsepti təkcə Hamlet və atası arasında deyil, eyni zamanda Poloni və Laert arasında da öz əksini tapmışdır. Poloni oğluna müxtəlif məsləhətlər, tövsiyələr verir, məqsədəuyğun olmayan davranışlarına müdaxilə edir. Poloni və Laert arasında olan bağlar daha çox atanın oğluna nəzarətçi mövqeyində özünü göstərir.

Apar özün ilə xeyir-duamı,
Oğlum, bu sözlərim qalsın yadında:
Sirrini heç kimə açıb söyləmə,

Heç vaxt düşünmədən görmə bir işi.
Sadə, mehriban ol, ancaq heç vədə
İnanıb hamıyla yaxınlıq etmə. (Şekspir, 2004)

Araşdırmaya əsasən deyə bilərik ki, əsərdə ata-oğul münasibəti iki formada nəzərə çarpır. Oğlun ataya məsuliyyəti– Hamletin atasının qisasını alması və atanın oğluna nəzarəti – Poloninin oğlunun davranışını formalaşdırması.

Nəticə

Azərbaycan ədəbiyyatının həm şifahi, həm də yazılı nümunələrində ata-oğul münasibətlərinin bədii təqdiminə, övlad-valideyn qarşıdurmasının bədii həllinə nəzər yetirdikdə milli mentalitetdən irəli gələn bəzi məsələlər xaricində əsas ana xəttin, ümumi süjet axarının dünya ədəbiyyatının eyni mövzulu əsərləri ilə oxşar olduğunu görürük. Çünki təhlilə cəlb olunan əsərlərdə ata-oğul münasibətlərini təqdim edən, övlad tərbiyəsindəki problemlərin həllinə çalışan müəlliflər ilk növbədə insan psixologiyasının davranışlara təsirini əsas götürmüş və cəmiyyətdə sezdikləri ümumi çatışmazlıqları əks etdirmiş, onların aradan qaldırılması yollarını irəli sürmüşlər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Abdulla, K. (2009) Mifdən Yazıya və yaxud "Gizli Dədə Qorqud-3" Bakı: Mütərcim.
2. Azərbaycan nağılları/Toplayanları Ə.Axundov, N.Seyidov. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.
3. Bernard, G. (2014) Complete Works of George Bernard Shaw. Delphi Classics.
4. Cabbarlı, C (2005) Əsərləri. Dörd cilddə. III cild. Bakı: Şərq-Qərb.
5. "Dədə Qorqud". Elmi-ədəbi toplu. Bakı: Elm və təhsil" nəşriyyatı, 2019/3.
6. Füzuli B. (2009) "Mifoloji ziddiyyət pradiqmasında ata-oğul mübarizəsi" Uluslararası Sosyal Araştırmalar Dergisi-The Journal of International Social Research Volume 2/6 Winter. 1307-9581
7. Füzuli, M. (2005) Əsərləri. Altı cilddə. IV cild. Bakı: Şərq-Qərb.
8. Gəncəvi, N. (2004) Leyli və Məcnun. Bakı: Lider.
9. Hacıbəyli, Ü. (2005). Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Şərq-Qərb.
10. Hacıyev, T. (1999) Dədə Qorqud: dilimiz, düşüncəmiz, Bakı.
11. Haqverdiyev, Ə. (2005) Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Lider.
12. Jirmunski,V. (2017) Xalq qəhrəmanlıq eposu. Bakı: Azərbaycan Tərcümə Mərkəzi.
13. Kitabi-Dədə Qorqud (1988) Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə (F.Zeynalov və S.Əlizadənindir). Bakı: Yazıçı.
14. Kitabi-Dədə Qorqud (2004) Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər.
15. Koroğlu (2005) Paris nüsxəsi. Bakı: Şərq-Qərb.
16. Nərimanov, N. (2004) Seçilmiş əsərləri. Bakı: Lider.
17. Şamıoğlu, Ş. (2017) Mirzə Fətəli Axundzadənin nəzərində modern milli ədəbiyyatın vəzifələri. 525-ci qəzet. S-4
18. Şekspir, V. (2004) Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Öndər nəşriyyat.

Vəzirov, N. (2005) Əsərləri. Bakı: Şərq-Qərb.

DOİ: 10.32010/SAOI7840

2000-Cİ İLLƏR AZƏRBAYCAN NƏSRİNDƏ MİFİN İNTERTEKSTUAL TRANSFORMASİYASI

Fidan Məmmədbağır İBIŞLI
Azərbaycan Dillər Universiteti
Orcid: https://orcid.org/0000-0002-7019-4045
E-mail: fidanmirzezade95@gmail.com

Xülasə: XXI əsrin əvvəlləri Azərbaycan nəsrində intensiv ideoloji və estetik tədqiqatlar dövrü idi və ənənəvi süjet və motivlərin yeni formalarda yenidən işlənməsi ilə xarakterizə olunurdu. Bu dövrün əsas tendensiyalarından biri mifoloji motivlərin müasir kontekstdə yenidən qurulması və onların intertekstual əlaqələr vasitəsilə transformasiyası idi. Mif təkcə folklor elementlərinin bədii təzahürü deyil, həm də milli mədəni yaddaşın kodu, tarixi kimliyin göstəricisi və bu günün mənəvi və ideoloji problemlərini ifadə etmək vasitəsi kimi çıxış edir.
Bu məqalədə 2000-ci illərin Azərbaycan nəsrində mifin intertekstual transformasiyası həm nəzəri, həm də praktik baxımdan araşdırılır. Nümunələr arasında Kamal Abdullanın "Yarımçıq Əlyazma" romanında "Dədə Qorqud kitabı"na istinad etməsi, Elçinin "Baş" romanında türk mifoloji kodlarından istifadə, Şərif Ağayarın "Ağ göl" əsərlərində və "Kyarpiçkesən kişinin dastanı" povestində folklor və mifoloji motivlər var. Mifin transformasiyası süjetin modernləşməsində, personajların mifoloji arxetiplərlə korrelyasiyasında, motivlərin semantik yenilənməsində və simvolik mənaların genişlənməsində özünü göstərir.
Təhlil göstərir ki, postmodern estetikanın təsiri altında müasir nəsrdə mif təkcə estetik kateqoriya deyil, həm də mədəniyyətlərarası dialoq vasitəsinə çevrilir. Müəlliflər mifdən milli yaddaşı universal mövzularla əlaqələndirmək üçün istifadə edərək yeni intertekstual məkan yaradırlar. Nəticədə, 2000-ci illərin Azərbaycan nəsrində mif milli kimliyin qorunmasına və yeni bədii və estetik cərəyanların formalaşmasına töhfə verən funksional və dinamik bir quruluş əldə edir.
Beləliklə, bu məqalədə müasir Azərbaycan nəsrində mifin intertekstual transformasiyasının spesifik xüsusiyyətləri müəyyən edilir və bu prosesi milli ədəbiyyatın inkişafındakı cərəyanlarla əlaqələndirir, yeni nəzəri fikirlər təqdim edir.
Açar sözlər: Azərbaycan nəsri, mif, intertekstuallıq, transformasiya, postmodern estetika

THE INTERTEXTUAL TRANSFORMATION OF MYTH IN AZERBAIJANI PROSE OF THE 2000s

Fidan Mammadbagir IBISHLI
Azerbaijan University of Languages
Orcid: https://orcid.org/0000-0002-7019-4045
E-mail: fidanmirzezade95@gmail.com

Abstract: The beginning of the 21st century marked a period of intensive ideological and aesthetic exploration in Azerbaijani prose, distinguished by the reworking of traditional plots and motifs into new forms. One of the key tendencies of this period is the reconstruction of mythological motifs in a contemporary context and their transformation through intertextual relations. Myth functions not only as an artistic manifestation of folklore elements but also as a code of national cultural memory, an indicator of historical identity, and a means of expressing the spiritual and ideological issues of modernity.
This article examines the intertextual transformation of myth in Azerbaijani prose of the 2000s from both theoretical and practical perspectives. As case studies, it discusses Kamal Abdulla's *"Incomplete Manuscript"* and its references to *"The Book of Dede Qorqud"*, the use of Turkic mythological codes in Elchin's novel *"Head"*, as well as the folkloric and mythological motifs in Sharif Aghayar's works — *"White Lake"* and the novella *"The Legend of the Bricklayer"*. The transformation of myth manifests itself in the modernization of plots, the linking of characters to mythological archetypes, the semantic renewal of motifs, and the expansion of symbolic layers of meaning.
The analysis shows that under the influence of postmodern aesthetics, myth in contemporary prose becomes not only an aesthetic category but also a medium of intercultural dialogue. Through myth, authors combine national memory with universal themes, creating a new intertextual space. As a result, myth in Azerbaijani prose of the 2000s acquires a functional and dynamic structure that both preserves national identity and shapes new artistic and aesthetic tendencies.
Thus, the article reveals the specific features of the intertextual transformation of myth in contemporary Azerbaijani prose and connects this process to broader trends in the development of national literature, offering new theoretical insights.
Keywords: Azerbaijani prose, myth, intertextuality, transformation, postmodern aesthetics

ИНТЕРТЕКСТУАЛЬНАЯ ТРАНСФОРМАЦИЯ МИФА В АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ 2000-Х ГОДОВ

Фидан Мамедбагир ИБИШЛИ
Азербайджанский Университет Языков
https://orcid.org/0000-0002-7019-4045
Электронная почта: fidanmirzezade95@gmail.com

Резюме: Начало XXI века стало периодом интенсивных идейно-эстетических поисков в азербайджанской прозе, отличающимся переработкой традиционных сюжетов и мотивов в новых формах. Одной из ключевых тенденций этого этапа является реконструкция мифологических мотивов в современном контексте и их трансформация через интертекстуальные связи. Миф выступает не только как художественное проявление фольклорных элементов, но и как код национальной культурной памяти, показатель исторической идентичности и средство выражения духовно-идеологических проблем современности.

В статье исследуется интертекстуальная трансформация мифа в азербайджанской прозе 2000-х годов как в теоретическом, так и в практическом аспекте. В качестве примеров рассматриваются: обращение Камала Абдуллы в романе «Незавершенная рукопись» к «Книге Деде Горгуда», использование туркских мифологических кодов в романе Эльчина «Голова», а также фольклорно-мифологические мотивы в произведениях Шерифа Агаяра — «Белое озеро» и повести «Кярпичкесан кишинин дастаны». Трансформация мифа проявляется в модернизации сюжета, соотнесении персонажей с мифологическими архетипами, семантическом обновлении мотивов и расширении символических смыслов.

Анализ показывает, что под влиянием постмодернистской эстетики миф в современной прозе становится не только эстетической категорией, но и средством межкультурного диалога. Авторы посредством мифа соединяют национальную память с универсальными темами, создавая новое межтекстовое пространство. В итоге миф в азербайджанской прозе 2000-х годов приобретает функциональную и динамичную структуру, способствующую сохранению национальной идентичности и формированию новых художественно-эстетических тенденций.

Таким образом, статья выявляет специфические особенности интертекстуальной трансформации мифа в современной азербайджанской прозе и связывает этот процесс с тенденциями развития национальной литературы, выдвигая новые теоретические выводы.

Ключевые слова: Азербайджанская проза, миф, интертекстуальность, трансформация, постмодернистская эстетика.

Giriş

XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında baş verən ideya-estetik dəyişikliklər milli nəsrin inkişafında yeni mərhələnin əsasını qoydu. Bu mərhələdə ənənəvi süjet strukturlarının, mifoloji motivlərin və folklor elementlərinin müasir kontekstdə yenidən işlənməsi, transformasiyası və postmodern estetika ilə sintezi diqqətçəkən meyillərdən biri oldu. Xüsusilə 2000-ci illər Azərbaycan nəsri mifin yalnız bədii material kimi deyil, həm də mədəni yaddaşın və milli kimliyin göstəricisi kimi dəyərləndirilməsinə şərait yaratdı.

1990-cı illərin sonuna doğru müstəqillik dövrünün sosial-siyasi dəyişiklikləri ədəbiyyata yeni estetik yanaşmalar gətirdi. Sovet ideoloji qəliblərinin qırılması, fərdi təcrübələrin ön plana çıxması nəticəsində 2000-ci illər Azərbaycan nəsrində postmodern estetikanın inkişafı sürətləndi. Bu mərhələdə ənənəvi süjetlərin, mifoloji motivlərin və folklor elementlərinin müasir mətnlərdə yenidən işlənməsi, transformasiyası və postmodern estetika ilə sintezi diqqət çəkməyə başladı. Xüsusilə 2000-ci illər Azərbaycan nəsri mifin yalnız bədii material kimi deyil, həm də mədəni yaddaşın və milli kimliyin göstəricisi kimi yenidən dəyərləndirilməsinə və müasir kontekstdə istiadə olunmasına şərait yaratdı.

Postmodern mətnlərdə dil oyunlarından istifadə olunur, yəni dil çoxmənalılıq xarakteri daşıyır. Postmodernist əsərlərdə mətn içində mətn, mətnlər arası açıq və gizli əlaqələr mövcuddur. Postmodern ədəbiyyatın əsas prinsipləri – intertekstuallıq, müəlliflik, orijinallıq və mətnin sərhədləri haqqında ənənəvi anlayışları dağıtmaqdır. Bu səbəbdən postmodernistlər mövcud mətnlərdən, miflərdən, tarixi və mədəni materialdan “oyun” kimi istifadə edirlər.

Müasir yazıçılar əsərlərində mifoloji süjetləri və arxetipləri yenidən quraraq onları postmodern kontekstə gətirir və beləliklə miflə reallıq, mətnlə digər mətn arasında yeni əlaqə yaradırlar. Ədəbiyyatşünaslıq bu tip yanaşma “intertekstuallıq” konsepsiyası çərçivəsində özünü göstərir və mifin transformasiyası nəticəsində həm milli, həm də universal məna qatları formalaşır.

"Postmodern ədəbiyyat intertekstual əlaqələri ilə xüsusi seçilir. Azərbaycan postmodern romanında da güclü intertekstual əlaqələrə rast gəlirik" (Şərifova, 2015).

İntertekstuallıq termini ilk dəfə Yuliya Kristevanın tədqiqatlarında geniş istifadə olunub. Kristeva, hər bir mətnin digər mətnlərlə əlaqədə olduğunu, mətnlərarası dialoqların yeni məna istehsal etdiyini vurğulayıb. Rolan Bart və Jerar Jenet də intertekstuallığı mətnlərin sitat, allüziya və transformasiya yolu ilə qarşılıqlı əlaqədə olduğunu bildirib. "Müasir zamana yadlaşan postmodernist sənətçi yaşadığı dünyaya özgələşdiyindən, yadlaşdığı reallığı əks etdirməkdən imtina edir, özündən əvvəl yazılmış mətnə sığınır, onlara istinad edərək, qurama, alternativ reallıq yaratmağa çalışır" (Zeynalova, 2015).

Nəzəriyyə

İntertekstuallıq ədəbiyyat nəzəriyyəsində çox mühüm anlayışdır və sadə dildə desək, bir mətnin digər mətnlərlə əlaqəsi deməkdir, yəni bir əsərin digər əsərlərə, miflərə, dini mətnlərə və ya tarixi hadisələrə istinad etməsidir. Müəllif başqa bir mətnin üslubunu, süjetini, obrazını götürüb sitat, alluziya, parodiya, pastiş kimi üsullardan istiadə edərək onu başqa formada yenidən təqdim edir. Məsələn klassik və dünya ədəbiyyatına istinadlar edir, folklor motivlərinin transformasiyası yaranır və klassik mifoloji süjetlər çağdaş həyatla birləşdirilir. İntertekstuallıqda oxucu da bu prosesin iştirakçısına çevrilir — yəni mətndəki sitatları tanıdıqca, əsərin dərin mənası açılır. Məsələn, bir romanda qədim bir dastana işarə edilirsə və ya Dədə Qorquddan, klassik ədəbiyyatdan sitatlar gətirilirsə, bu intertekstuallıq sayılır.

Azərbaycan nəsrində də tez-tez mifoloji və folklor motivləri yeni mətnlərdə istifadə olunur. Məsələn Kamal Abdulla "Yarımçıq əlyazma" romanı, Elçin Əfəndiyev "Mahmud və Məryəm", "Baş" romanları, Şərif Ağayar "Kərpickəsən kişinin dastanı", "Ağ göl", "Harami" romanları, Aqşin Yenisey "Göləqarğı", "Dəyirman", Cəlil Cavanşir "Kimsəsizlər evi" və hekayələrində folklor-mif motivləri, Nəriman Əbdülrəhmanlı**,** Həmid Herisçi və s. əsərlərində postmodern təsirlər, mətnlərarası əlaqələr mövcuddur.

2000-ci illər Azərbaycan nəsrində bəzi yazıçılar milli folklor və mifoloji irsi yeni bədii kontekstlərdə təqdim edərək, həm ənənəvi motivləri, həm də müasir düşüncə tərzini birləşdirirlər. Qloballaşma və müasirlik şəraitində milli kimliyi və kollektiv yaddaşı qorumaq üçün mifoloji irs yenidən aktuallaşdırılır. Mif müasir yazıçı üçün mədəni kod və simvolik resurs kimi çıxış edir. Xüsusilə mifoloji obraz və süjetlərin intertekstual əlaqələr əsasında yenidən işlənməsi nəsr əsərlərinin çoxqatlı mənalandırılmasına imkan yaradır.

Mif anlayışı ədəbiyyatşünaslıqda müxtəlif baxışlarla şərh olunur. Mirça Eliadi mifləri "sakral zaman və məkanın bədii modelləri" kimi şərh edir, Rolan Bart isə müasir dövrdə mifin "ikinci dərəcəli mənalandırma sistemi" kimi fəaliyyət göstərdiyini bildirir. Bu yanaşmalara diqqət etdikdə mifin yalnız ənənəvi folklor süjet və obrazlarını deyil, həm də müasir mətnlərdə yeni məna qatları yaradan mexanizm kimi çıxış etdiyini görərik.

Müasir dövrdə ədəbi mətnlərdə mifin intertekstual transformasiyası həm milli-mədəni yaddaşın qorunması, həm də yeni estetik axtarışların təzahürü kimi çıxış edir. İntertekstual transformasiya dedikdə klassik mif və rəvayətin süjet və obrazlarının müasir kontekstə gətirilməsi anlaşılır. Məsələn milli folklor motivlərindən Dədə Qorqud, Koroğlu, Novruz, su ruhları, ağac kultu və s., İslam və türk mifologiyasından peyğəmbər və ya müqəddəs obrazların simvolik transformasiyası, ümumbəşəri miflərdən Yunan, Şərq, Hind mifologiyası ilə paralellər nəzərdə tutulur. Bu tip paralellərin aparılması mətnin poetik qatını zənginləşdirir, simvollar yaradır.

Ədəbiyyatşünas Salidə Şərifova əsərlərində postmodern romanlarda mifin interteksuallığı haqqında maraqlı fikirlər qeyd edir: "Mifologizm əsərdə toxunulan problemlərin daha dərin əks etdirilməsinə müəllifə imkan yaradır, tez-tez varlığın «əbədi» problemlərinin açıqlanmasına mühüm alətlərindən biri kimi xidmət göstərir... Mifoloji təfəkkürün transformasiyasını stimullaşdıran mif-simulyakr köhnə mifləri solğunlaşdırır. Köhnə miflərin yerini isə müasir versiyalar tutur… Postmodern romanda mif fabulanı tam və ya qismən əhatə edə bilər " (Şərifova, 2015).

Azərbaycan nəsrində mifoloji düşüncə xalq yaradıcılığından doğmuş, klassik ədəbiyyatda fəlsəfi- mistik simvollar kimi yaşamış və XX əsrin sonu və XXI əsrin əvvəllərində postmodern transformasiyalarla yenidən canlanmışdır. 2000-ci illər Azərbaycan nəsri post-Sovet dövrünün ədəbi inkişafının davamı olaraq formalaşmışdır və müasir yazıçıları milli-mədəni irsi qorumağa, müasir oxucu tələblərinə uyğun yeni poetik üslub və süjetlər yaratmağa çağırmışdır.

Müasir Azərbaycan nəsri dünya ədəbiyyatında müşahidə olunan postmodern üslublarla əlaqədədir və eyni zamanda milli kimliyi qoruyur. 2000-ci illər Azərbaycan nəsrində fraqmentarlıq, ironiya və intertekstual oyunlar geniş yayılmışdır. Yazıçılar ənənəvi süjet və motivləri yeni kontekstdə təqdim edərək oxucu ilə dialoqa girirlər və folklor, dastan, mif və tarixi motivlər əsasında öz əsərlərini yeni poetik formalarla zənginləşdirirlər. Bu dövrdə yazıçılar mifoloji elementləri yalnız bədii dekor kimi deyil, həmçinin mətnlərarası dialoqa imkan verən struktural element kimi işlətmişlər. Bəzi yazıçıların yaradıcılığına müraciət edərək, 2000-ci illər Azərbaycan nəsrində mifin intertekstual transformasiyasını nəzərdən keçirək.

Metodologiya

Görkəmli alim Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı Azərbaycan ədəbiyyatında mifoloji intertekstuallığın ən parlaq nümunələrindən biridir. Əsər bir tərəfdən "Kitabi-Dədə Qorqud" dastanına istinad edir, digər tərəfdən isə onu müasir düşüncə, dekonstruksiya və intertekstuallıq çərçivəsində yenidən yozur. Bu romanda həm mifoloji təfəkkürün, həm də milli yaddaşın poetik transformasiyası müşahidə olunur. Müəllif romanda tarixi-mifoloji yaddaşla müasir ədəbiyyatın dilini birləşdirib. Romanın əsası Azərbaycan xalqının qədim tarixi, Dədə Qorqud və Şah İsmayıl Xətayi motivləri ilə zəngindir. Dədə Qorqud, Bayındır xan, Qazan xan, Beyrək, Burla xatun və başqa arxetipik obrazlar romanın mətninə birbaşa və ya dolayı yolla daxil olur. Müəllif romanı elə bir quruluşda təqdim edib ki, oxucu həm tarixə, həm də mifə qayıdır, yəni çoxqatlı mətnlə qarşılaşır. Kamal Abdulla Dədə Qorqud mətninə bədii transformasiya ilə yanaşaraq onun süjetini, qəhrəmanlarını, obrazlarını, simvollarını yenidən yozur. Qədim mətnlərdən sitatlar, simvolik obrazlar müasir mətndə "yeni həyat" qazanır.

Romanda əsasan mifoloji personajların transformasiyası diqqəti cəlb edir. Dədə Qorqud obrazı dastanda xalqın ağsaqqalı, bilicisi və ozan kimi çıxış edirsə, romanda zamanın və mətnin sirrini bilən, "metamətn"in şahidi kimi görünür. Qazan xan dastandan fərqli olaraq "Yarımçıq Əlyazma" da qəhrəmanlıqları ilə deyil mətnin taleyi ilə bağlı simvolik obraz kimi təqdim olunur. Əsərdə maraqlı obrazlardan biri də Beyrəkdir, dastandakı qəhrəmanlıq səhnələrindən fərqli olaraq romanda şübhə, qeyri-müəyyənlik və qırılma ilə təqdim olunur.

Kamal Abdulla dastanın qəhrəmanlıq ruhunu dekonstruksiya çərçivəsində dağıdaraq onu fərdi şüurun və mətn oyunlarının kontekstinə salır. Əlyazmanın "yarımçıq" olması simvolik məna daşıyır. Belə ki, bir tərəfdən milli yaddaşın bütöv olmaması, digər tərəfdən isə mətinlərin heç vaxt tam olmaması ideyasını ön plana çəkir. Romanda keçmişin mifik obrazları yeni dövrdə aktuallaşır. Əsər tarixi və mifoloji kimliyi sorğuladaraq oxucunu yenidən düşünməyə məcbur edir. Kamal Abdulla göstərir ki, Dədə Qorqud dastanı hər dəfə yenidən oxunduqca fərqli mənalar qazanır.

Romanın intertekstuallığı sırf mətni təkrarlamaqdan ibarət deyil, onu dekonstruksiya etmək, yeni kontekstə təqdim etməkdir. Kamal Abdulla mifoloji mənbələri ironik, paradoksal və metaforik şəkildə təqdim edir və postmodern oyun yaradır. Əsərdəki mifik motivlər romanın romanın fəlsəfi mahiyyətini üzə çıxarmaq üçün istifadə olunur. Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı mifoloji intertekstuallığın müasir Azərbaycan nəsrində necə işlədiyini göstərir. Prof. Timuçin Əfəndiyevin də qeyd etdiyi kimi, Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı XXI əsr Azərbaycan nəsrinin janr-üslub axtarışlarında yeni mərhələnin əsasını qoyan dəyərli əsərdir (Əfəndiyev, 2011).

Elçin Əfəndiyevin "Baş" romanı da müasir Azərbaycan nəsrində mifoloji intertekstuallığın diqqətçəkən nümunələrindən biridir. Bu əsərdə mif, tarix və müasirlik vəhdətdə verilir və müəllif həm milli, həm də ümumbəşəri mif arxetiplərindən faydalanır. Əsərin əsas ideyası "baş" obrazı ətrafında qurulub. "Baş" simvolik arxetipdir, yəni qurbanvermə, güc, yaddaş və s. kimi mifoloji anlamlar daşıyır. Müəllif qədim türk mifoloji təfəkküründən gələn "kəsilmiş baş" motivini yeni kontekstə gətirir və bu motiv folklor və miflərdə qəhrəmanlıq, sınaq və qurban ritualı ilə əlaqədardır. Romanda ölüm, dirilmə və güc münasibətləri bu mifoloji arxetip ətrafında qurulur. Elçin birbaşa sitatlardan istifadə etmir, lakin Oğuznamə və Dədə Qorqud dastanlarından gələn qəhrəmanlıq, igidlik, qurbanvermə və yaddaş motivlərini müasir mətnə inteqrasiya edir. Tarixin müəyyən dövrlərində yaşanan baş kəsmə və ya baş vermə motivi burada yeni fəlsəfi anlamda – hakimiyyət, taleyin dəyişdirilməsi və mənəvi güc kimi çıxış edir. Elçin "Baş" romanında mətn içində mətn texnikasından geniş istifadə edir. Əsərdə həm tarixi mənbələrlə, həm də mifoloji arxetiplərlə intertekstual əlaqə mövcuddur. Tarixdə baş verən real bir hadisə və mifoloji düşüncə eyni anda təhkiyədə iştirak edir. Bu, postmodern intertekstuallığın tipik xüsusiyyətlərindən biridir.

"Bir fikri çəkinmədən qeyd etmək olar ki, Elçinin "Baş" romanı coxsüjetli və coxplanlı əsərdir" (Tağısoy, 2016).

Fikrimizcə, Elçinin "Baş" romanında Qədim türk və Azərbaycan mifoloji motivlərinin çağdaş kontekstdə transformasiyası mifoloji intertekstuallıq yaradır.

"2000-cilər" ədəbi nəslinin maraqlı müəlliflərindən olan Şərif Ağayarın yaradıcılığında da intertekstual əlaqələr müşahidə olunur. Yazıçının hekayə və romanlarında həm Azərbaycan klassik və müasir ədəbiyyatına, həm də dünya ədəbiyyatına istinadlar, sitatlar və motiv transferləri mövcuddur. Şərif Ağayar yaradıcılığında tez-tez folklor motivlərindən – miflər, nağıllar, dini-mifoloji obrazlardan istifadə edir. Hekayə və romanlarda yer olan bu motivlər tamamilə təkrar olunmuş şəkildə deyil, transformasiya edilmiş və müasir sosial-mədəni kontekstə uyğunlaşdırılmış şəkildə təqdim olunur. Onun bir çox hekayələrində müəllifin öz yazma prosesi, mətndaxili müəllif obrazı və ya oxucuya yönəlmiş müraciətlər kimi metatekstual göstəricilər mövcuddur ki, bu da intertekstuallığın bir formasıdır.

Şərif Ağayarın hekayə və romanlarında intertekstual yanaşmalar əsasən, folklor və miflərin transformasiyası, milli klassik ənənənin müasir diskursa gətirilməsi və

dünya ədəbiyyatı ilə gizli paralellər qurulması şəklində təzahür edir. Müəllifin bəzi hekayə və romanlarını təhlilə cəlb edib, intertekstual əlaqələri daha aydın şəkildə görə bilərik.

Şərif Ağayarın "Kərpickəsən kişinin dastanı" povesti Azərbaycan kənd həyatı mövzusunda qələmə alınıb. Əsərin adında qeyd olunan "dastan" sözü belə əsərin folklor-mifoloji qaynaqlarla əlaqəsini açıq şəkildə göstərir. Əsərdə real və simvolik qatlar mövcuddur.

Nizami Gəncəvinin "Kərpickəsən kişi" hekayəsi ilə Şərif Ağayarın "Kərpickəsən kişinin dastanı" povestini intertekstuallıq baxımından müqayisə etmək həm mövzu, həm də mətnlərarası əlaqələri göstərmək baxımından olduqca maraqlıdır.

Nizami Gəncəvinin "Kərpimkəsən kişi" hekayəsi XII əsrdə qələmə alınmış, "Xəmsə"də yer alan əxlaqi-didaktik hekayətdir. Heyakə qısa və nəsihət xarakterlidir, əməyə dəyərdən bəhs edir və mənəvi qələbə ilə bitir. Əsas qəhrəman yoxsul, əqidəli, halal zəhmətlə yaşayan kərpiç kəsən kişi obrazıdır. Bu obraz halal zəhmətin ucalığını göstərir və onun əməyini qiymətləndirməyi bacarmayan gəncə əxlaq dərsi verir.

Şərif Ağayarın "Kərpickəsən kişinin dastanı" povesti XXI əsrə aid nəsr nümunəsidir. Kənd mühitində yaşayan zəhmətkeş, olduğu mühitdə sıxışıb qalan insan obrazı romanın əsas qəhrəmanıdır. Əsərdə sosial-mədəni sistemin tənqidi, mifoloji və ironik baxışla müasir kənd həyatının təsviri verilir.

Hər iki mətndə kərpic – halal zəhmətin, insan əməyinin simvoludur. Dahi Nizami öz qəhrəmanını halal zəhmət nümunəsi kimi göstərir, kərpiçkəsən kişi etik-didaktik, idealizə edilmiş obrazdır. Şərif Ağayar isə kənd adamının həyat yükünü və mənəvi tərəddüdlərini oxucuya çatdırır, onu ironik, realist, hətta ekzistensial obraz kimi təqdim edir. Hər iki müəllif "kiçik" insanı ön plana çəkir və onu simvola çevirir. Nizamidə kərpic halal zəhmətin əbədi simvolu kimi, Şərif Ağayarda isə həm zəhmət, həm də əzab, sistem içində "daşınmaz yük" metaforası kimi təqdim olunur.

Kərpic, halal zəhmət, yoxsul və əməkçi insan obrazı Nizamidən Ağayara qədər uzanan bir motivdir. Nizaminin hekayəsində təqdim olunan əxlaq dərsi, halal zəhmət ideyası, ŞərifAğayarın povestində müasir reallıqda sarsılır. Yazıçı "dastan" sözünü povestin adına əlavə etməklə klassikə açıq işarə verir, amma mətni parodiya və transformasiya yolu ilə müasir oxucuya fərqli şəkildə təqdim edir.

Elçin Əfəndiyev "Kərpickəsən kişinin kədərli dastanı" adlı məqaləsində maraqlı fikirlər irəli sürüb: Povestin "Sirrlər xəzinəsi"ndəki məşhur hekayətdən iqtibas edilmiş adı – "Kərpickəsən kişinin dastanı" – əvvəlcə mənə iddialı göründü, ancaq əsəri oxuduqdan sonra, həmin iddia hissiyatı itib getdi və kərpickəsən kişinin güzəranının doğurduğu hisslər, düşüncələr, həqiqətən, kədərli bir dastan təəssüratı yaratdı" (Elçin, 2011).

Yazıçının son illərdə qələmə aldığı romanları içərisində xüsusi yer tutan "Ağ göl" romanında da mifoloji motivlər və onların intertekstuallığı açıq şəkildə hiss olunur. Bu roman müəllifin əvvəlki əsərlərində olduğu kimi həm folklor, həm də müasir sosial reallıqlarla dialoqda verilir. Bu fikirləri mərhələli şəkildə təhlil edək:

"Ağ göl" Şərif Ağayarın kənd həyatını təsvir edən romanlarından biridir. Əsərdə həm real sosial həyatın təsviri verilir, həm də mifoloji obrazlarla zəngin bir məkan yaradılır. "Ağ göl" – təmizliyin, saflığın, yaddaşın, sirrin simvolu kimi tədqim olunur. "Ağ göl" romanı dünya mifologiyasından gələn "su" arxetipi və Azərbaycan folklorunda mövcud olan "gölün sirri" motivlərini intertekstuallıq yolu ilə birləşdirir. Əsərdəki əfsanə və inanclar həm struktur, həm də məzmun baxımından romanı klassik mətnlərlə dialoqa gətirir. Müəllif bu motivlər sayəsində keçmişlə bu günü, miflə gerçəyi, kollektiv yaddaşla fərdi taleyi birləşdirir. Mif keçmişlə bu gün arasında körpü rolunu oynayır. Romandakı obrazların keçmiş xatirələri ağ göl ətrafında mifləşir. Mifoloji motivlər romanın süjeti üçün həm struktur, həm də məna daşıyıcısıdır.

Şərif Ağayar klassik arxetipləri müasir kənd həyatına gətirərək onları transformasiya edir və simvolik, ironik qat yaradır. Romanın mərkəzində kənd insanının taleyi, ekoloji faciə və onun insanların həyatına sosial-psixoloji təsirləri dayanır. "Ağ göl" həm konkret bir məkan (Ağ göl ətrafı kəndlər) kimi, həm də simvol kimi işlədilir – itirilmiş dəyərlərin, yaddaşın, təbiətin məhv edilməsinin rəmzi sayılır. Müəllif postsovet dövründə kənd mühitinin sosial dəyişikliklərini, torpaq bölgüsü, müharibə və köçkünlük kimi mövzuları təsvir edir.

Əsərdə təqdim olunan Ağ göl təbiət hadisəsi olmaqla yanaşı, həm də "arxetipik su" obrazını xatırladır. Su – təmizlənmə, yaddaş və həyatın başlanğıcı kimi mifoloji kodları özündə daşıyır. Roman boyu gölün yox olması insan və təbiət harmoniyasının pozulmasının mifoloji simvolu kimi diqqəti cəlb edir. Bu baxımdan romanda mifoloji intertekstuallıq müşahidə olunur, yəni xalq yaddaşından gələn motivlərin müasir kontekstdə transformasiyası olunmasının şahidi oluruq.

"Ağ göl" romanında baş verən hadisələr real və eyni zamanda sirli bir məkan kimi göstərilər Pircahan qəsəbəsində baş verir. Realist və mifoloji təsvirin paralel şəkildə təsvir olunduğu romanda baş verən hadisələr göldə batan Pirməmmədin ruhu tərəfindən təsvir edilir: "Gözdən uzaq, öz halında, öz havasında Pircahan qəsəbəsi.... Bol-

bərəkətli Ağ göl, sadə balıqçı ailələri, yaşamla paralel mamırlı daşların əfsanəsi, qoşa iydələrin qoruyucu güçü.... Övliyaların qoruması altında dünyadan ayrılmış məskən.... "Ağ göl Pirməmmədi udub, bədənini gizlədib, ruhunu hadisələrinin içinə yollayıb və o, pircahanlıların açа bilmədiyi sirri astaca pıçıldayır" (Ağayar, 2018).

"Romanda insanla təbiətin harmoniyasını ifadə edən, övliyalardan miras qalan mifoloji obrazlar mühüm yer tutur: Ağ göl, böyük və kiçik iydə ağacları, ehsan bulağı, gölün üstünə çökən duman, "sevgi saçan" qaratikan kolları. Miflərdə olduğu kimi roman böyük fəlakətlə tamamlanır. Zənnimizcə, əsərdəki mifoloji- mistik qatın zənginləşməsi, xalq yaradıcılığından daha geniş istifadə, mövzunun dolğun təsvirinə imkan verər, roman strukturunun zənginləşməsinə xidmət edərdi" (Hasanova, 2023).

Şərif Ağayarın "Harami" romanı Azərbaycan nəsrində mifoloji qatların müasir həyatla üzvi şəkildə birləşdirildiyi dəyərli əsərlərdən biridir. Bu romanda mif yalnız folklor yaddaşından götürülmüş hazır motiv kimi deyil, həm də müasir sosial-mədəni situasiyanın yozumunda yenidən mənalandırılmış bir struktur kimi çıxış edir. Romanı intertekstual mif transformasiyası baxımından nəzərdən keçirsək deyə bilərik ki, "Harami"də baş verən hadisələr yalnız fərdi həyat hekayəsi deyil, həm də kollektiv yaddaşın, ənənəvi inancların fonunda açılır və əsərdə qəhrəmanın mənəvi faciəsi, taleyə üsyanı və sosial təbəddülatlarla bağlı yaşamı mifoloji arxetiplərin təkrar qurulması ilə ifadə olunur. Bu baxımdan qəhrəman – tale – cəmiyyət üçbucağı mifoloji qəhrəmanlıq və günah arxetipləri ilə dialoqdadır.

Harami obrazı ənənəvi miflərdə və folklor mətnlərində "qadağanı pozan", "günah sahibi" kimi mənaalandırılır. Romanda isə bu arxetip sosial mühitin məhsulu kimi təqdim olunur, yəni fərd öz seçimindən deyil, ictimai-sosial şəraitin diktəsi ilə "haramiliyə" sürüklənir.

Klassik mifoloji mətnlərdə qəhrəman və ya günahkar qurban verilir. Romanda isə bu qurbanlıq fərdin faciəvi taleyində, onun həyat imkanlarının tükənməsində əks olunur.

Roman müxtəlif mifoloji mətnlərlə intertekstual dialoqa girir. Məsələn İslam mifopoetikasında öz əksini tapan haram-halal, günah-kəffarə anlayışları, günahkarın cəmiyyət tərəfindən damğalanması motivinin yer aldığı xalq hekayə və dastanları və s. Bu intertekstuallıqlar romanı sırf realist hekayədən çıxarır və onu çoxqatlı məna sisteminə çevirir.

Şərif Ağayar mifoloji süjetləri müasir sosial-iqtisadi problemlərin prizmasından transformasiya edir. "Haramilik" burada yalnız dini-mifoloji günah deyil, həm də ədalətsiz sistemin yaratdığı məcburi vəziyyətdir. Beləliklə, mif müasir sosial müstəvidə yeni ideoloji-funksional çalar qazanır: fərdin faciəsi cəmiyyətin günahı kimi oxunur.

Yuxarıda qeyd etdiyimiz bütün tendensiyalar onu göstərir ki, 2000-ci illər Azərbaycan nəsri mifoloji materialı sadəcə yenidən işləmək deyil, həm də onu yeni bədii və ideoloji kontekstlərdə aktuallaşdırmaq yolunu seçmişdir. Bu dövrdə mifoloji motivlər yalnız folklor və ya klassik mətnlərə istinad kimi deyil, həm də intertekstual əlaqələr vasitəsilə yenidən qurulan, dekonstruksiya edilən və çoxqatlı poetik qatlara çevrilən bədii mətnlər kimi çıxış edir.

Kamal Abdulla, Elçin, Şərif Ağayar, Aqşin Yenisey, Cəlil Cavanşir və digər yazıçıların yaradıcılığı göstərir ki, mif müasir Azərbaycan nəsrində həm milli-mədəni kimliyin qorunmasına, həm də yeni estetikanın yaranmasına xidmət edir. Onların müəyyən əsərlərdə mifoloji arxetiplər müasir şəhər məkanına və gündəlik həyatın reallıqlarına inteqrasiya edilərək milli yaddaşla postmodern "oyun" estetikasını birləşdirir.

Fikrimizcə, mifin intertekstual transformasiyası ədəbiyyatda bir neçə funksiyanı yerinə yetirir. Məsələn, folklor və tarixi motivlərin qorunması və aktual saxlanması milli yaddaşın dirçəlməsinə, ənənəvi obraz və süjetlərin postmodern üslubda dekonstruksiya olunması yeni məna qatlarının yaranmasına xidmət edir Tanış simvolların yeni mətnlərdə təqdimatı vasitəsilə mətnlərarası oyun oxucu ilə interaktiv dialoq yaradır.

Nəticə

Beləliklə, 2000-ci illər Azərbaycan nəsri mifoloji materialın olduğu kimi təqdim olunması və ya bərpası ilə kifayətlənməyib, onu yeni ideoloji və poetik kontekstlərdə yenidən quraraq milli ədəbiyyatın inkişafına yeni istiqamət qazandırıb. Müasir dövrdə azərbaycan ədəbiyyatında özünü göstərən bu proses həm milli ədəbiyyatın özünəməxsusluğunu qorumaq baxımından, həm də dünya ədəbiyyatı kontekstində aktual diskurslara qoşulmaq baxımından mühüm əhəmiyyət daşıyır. Həmçinin bu xüsusiyyətlər 2000-ci illər azərbaycan nəsrindəki mifin intertekstual transformasiyasının elmi araşdırılması üçün zəngin material yaradır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Ağayar, Ş. (2018). Ağ göl, Bakı, Qanun.
2. AMEA Nizami adına Ədəbiyyat İnstitutu. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı 2 cilddə I cild. Bakı: Elm və təhsil,2016.
3. Əfəndiyev, E. (2011). 525-ci qəzet.12 fevral. S.18.
4. Əfəndiyev, T. (2011). Sonsuzluğun dərkinə uzanan yol. 525-ci qəzet. 18 may. S.6.

5. Hasanova, L. (2023). Müasir azərbaycan nəsri: inkişaf meylləri və perspektivlər (2000-ci illərin romanları əsasında). Recep Tayyip Erdoğan Üniversitesi Fen-Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi, 4(2), 82-95.

6. Şərifova, S. (2015). Çağdaş Azərbaycan postmodern romanı. Bakı, "Elm və təhsil", 104 səh.

7. Tağısoy, N. (2016). Elçinin "Baş"romanı srtuktur-funksional təhlil müstəvisində. Bakı: Təhsil.

8. Zeynalova, D. (2015). Modernizm. Postmodernizm. (Terminoloji lüğət) Dərs vəsaiti. Bakı, "Elm və təhsil", 96 səh.

DOİ: 10.32010/CQKF3873

LANGUAGE AND EDUCATION IN MULTILINGUAL SOCIETIES: CHALLENGES AND PERSPECTIVES

Fidan Yunis ISAYEVA
Mingachevir State University
ORCID: 0000-0003-2084-3083
E-mail: fidan.isayevaa7@gmail.com

Leman Yunis ISAYEVA
Khazar University
ORCID: 0009-0006-5474-0305
E-mail: lamanisaa@gmail.com

Abstract: Education today is no longer limited to simply teaching learners specific knowledge; it increasingly emphasizes equipping them with the tools, strategies, and critical thinking skills necessary to navigate a complex, rapidly changing, and uncertain world. Developing a reliable compass—both intellectual and ethical—is essential for learners to find their way, make informed decisions, and respond thoughtfully to challenges in both personal and societal contexts. Our imagination, consciousness, knowledge, and skills, together with shared values, intellectual and moral maturity, social responsibility, and ethical awareness, collectively guide us toward contributing to a better, more just, and sustainable world.
Concepts such as multilingualism and bilingualism have long attracted scholarly attention due to their implications for communication, cognition, and social integration. In recent years, however, rapid technological advancements, globalization, sociopolitical developments, and increasing cultural interactions, including migration and international mobility, have significantly contributed to the expansion and complexity of multilingual societies. These dynamic changes have heightened scholarly interest in understanding not only the cognitive and social implications of multilingualism but also its influence on educational practices, identity formation, and cross-cultural competence.
The primary aim of this article is to examine the role of multilingualism in addressing language and educational challenges in multilingual countries, with a particular focus on the teaching of foreign languages. It seeks to identify the key responsibilities, pedagogical strategies, and competencies that teachers must exercise within language classrooms to effectively support multilingual learners, foster inclusivity, enhance communication skills, and improve learning outcomes across diverse contexts. The study employs a range of general scientific methods, including the synthesis, comparison, and theoretical analysis of philosophical, pedagogical, and psychological literature, as well as normative and instructional documents, to provide a comprehensive, insightful, and evidence-based understanding of the topic.
Additionally, the article highlights the importance of ongoing teacher training, curriculum adaptation, and the integration of innovative technological and pedagogical tools to respond to the evolving needs of multilingual learners. By examining both theoretical frameworks and practical approaches, it emphasizes the interconnectedness of language, culture, and cognition in promoting holistic and meaningful learning experiences.
Keywords: multilingualism, bilingualism, education, learners, foreign language teaching, pedagogical strategies, cognitive development

ÇOXDİLLİ CƏMİYYƏTLƏRDƏ DİL VƏ TƏHSİL: ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR

Fidan Yunis İSAYEVA
Mingəçevir Dövlət Universiteti
ORCID: 0000-0003-2084-3083
E-mail: fidan.isayevaa7@gmail.com

Ləman Yunis İSAYEVA
Xəzər Universiteti
ORCID: 0009-0006-5474-0305
E-mail: lamanisaa@gmail.com

Xülasə: Bu gün təhsil artıq sadəcə öyrənənlərə müəyyən bilikləri öyrətməkdən ibarət deyil; o, getdikcə mürəkkəb, sürətlə dəyişən və qeyri-müəyyən dünyada öz yollarını tapmaq üçün tələbələri alət, strategiya və tənqidi düşünmə bacarıqları ilə təmin etməyə yönəlir. Əqli və əxlaqi etibarlı bir kompasın inkişaf etdirilməsi öyrənənlərin öz yollarını tapması, məlumatlı qərarlar verməsi və həm şəxsi, həm də sosial mühitdə qarşılaşdıqları çətinliklərə düşünülmüş şəkildə cavab verməsi üçün vacibdir. Təxəyyülümüz, şüurumuz, biliklərimiz və bacarıqlarımız, eyni zamanda ümumi dəyərlərimiz, intellektual və

mənəvi yetkinliyimiz, sosial məsuliyyət və etik şüur birgə olaraq daha yaxşı, ədalətli və davamlı bir dünyaya töhfə verməyimizə rəhbərlik edir.
Çoxdillilik və ikidillilik kimi anlayışlar uzun müddətdir ki, elmi diqqəti cəlb edir, çünki bunların ünsiyyət, koqnisya və sosial inteqrasiya üçün əhəmiyyəti vardır. Lakin son illərdə sürətli texnoloji inkişaf, qloballaşma, sosio-siyasi dəyişikliklər və mədəni qarşılıqlı əlaqələrin, o cümlədən miqrasiya və beynəlxalq hərəkətliliyin artması çoxdilli cəmiyyətlərin genişlənməsinə və mürəkkəbləşməsinə əhəmiyyətli töhfə vermişdir. Bu dinamik dəyişikliklər tədqiqatçıların çoxdilliliyin yalnız koqnitiv və sosial təsirlərini deyil, həm də tədris praktikalarına, şəxsiyyət formalaşmasına və mədəniyyətlərarası kompetensiyaya təsirini öyrənməyə marağını artırmışdır.
Bu məqalənin əsas məqsədi çoxdilli ölkələrdə dil və təhsil problemlərinin həllində çoxdilliliyin rolunu araşdırmaq, xüsusilə xarici dilin tədrisinə diqqət yetirməkdir. Məqalə müəllimlərin dil siniflərində çoxdilli öyrənənləri effektiv dəstəkləmək, inklüzivliyi təşviq etmək, kommunikasiya bacarıqlarını artırmaq və müxtəlif kontekstlərdə öyrənmə nəticələrini yaxşılaşdırmaq üçün yerinə yetirməli olduqları əsas öhdəlikləri, pedaqoji strategiyaları və bacarıqları müəyyənləşdirir. Tədqiqatda fəlsəfi, pedaqoji və psixoloji ədəbiyyatın, həmçinin normativ və təlimat sənədlərinin sintezi, müqayisəsi və nəzəri təhlili kimi ümumi elmi metodlardan istifadə olunmuşdur ki, mövzunun hərtərəfli, dərin və elmi əsaslı şəkildə anlaşılması təmin edilsin.
Van Dayk, T.A. isə kontekst anlayışını daha geniş şəkildə şərh edir. O, konteksti subyektiv konstruksiya kimi dəyərləndirir və hesab edir ki, bu konstruksiya yalnız hər mətnin unikal xüsusiyyətlərini deyil, həm də dil istifadəçilərinin paylaşılmış bilik bazasını və ortaq sosial təsəvvürlərini əhatə edir. Onun fikrincə, "*diskursa təsir edən və ya diskursdan təsirlənən sosial vəziyyət deyil, iştirakçıların həmin situasiyanı necə müəyyənləşdirdikləridir"*. Bu baxımdan, kontekst obyektiv şərtlər toplusu deyil, ünsiyyət iştirakçıları tərəfindən qarşılıqlı əlaqə zamanı davamlı olaraq yenilənən subyektiv və sosial cəhətdən formalaşan konstruksiyadır (van Dijk, 2008).

Firth-in fəaliyyəti, ümumilikdə, diskurs təhlilində mühüm dönüş nöqtəsi hesab edilir. O, dilin yalnız süni nümunələr üzərindən deyil, real istifadə hallarına əsaslanaraq öyrənilməsini vacib sayırdı. Bu yanaşma

mənanın forma ilə ayrılmaz şəkildə bağlı olduğunu və dilin semantik məzmununun yalnız kontekstə əsasən başa düşülə biləcəyini vurğulayır (Stubbs, 1996).

Beləliklə, "*diskurs təhlili insanlar dilə dair biliklərindən istifadə edərək sosial reallıqda müəyyən fəaliyyətləri həyata keçirdikdə nə baş verir?"* sualına cavab axtaran bir tədqiqat istiqaməti kimi dəyərləndirilir (Johnstone, 2002). Başqa sözlə, bu, dilin praktik istifadəsinin, yəni dilin sosial kontekstlərdə necə işlədilməsinin təhlilidir. Diskurs təhlili həm şifahi, həm də yazılı ünsiyyət formalarını, onların quruluşunu və sosial funksiyalarını araşdırır.

Chimombo S. və Roseberry W. diskurs təhlilinin məqsədini mətnlərin dərin strukturunu anlamaq və bu mətnlərin istifadəçilər üçün necə məna qazandığını izah etməkdə görürlər.

Nəticə etibarilə, diskursun formalaşması və təfsiri subyektin sosial mövqeyi, kontekstin struktur səviyyələri və paylaşılmış sosial biliklər sistemi ilə sıx əlaqədə baş verir. Bu, diskurs analizini sadəcə dilin struktur öyrənilməsindən fərqləndirərək onu sosial elmlərin əsas tədqiqat istiqamətlərindən birinə çevirir.

Diskurs təhlilçiləri təkcə insanların nə dediklərini deyil, həm də fikirlərini hansı ardıcıllıqla ifadə etdiklərini öyrənirlər. Yəni, söhbət və ya yazılı mətn çərçivəsində ifadələrin sırası, əvvəl nə deyildiyi və sonra hansı cümlə ilə davam etdirildiyi kimi aspektlər diskursun əsas struktur komponentlərindən biri hesab olunur. Bu ardıcıllıq mədəniyyətlər və dillər arasında fərqli şəkildə təşkil oluna bilər.

Diskursun bu istiqamətdə sistemli araşdırılması ilk dəfə Mitchell, T.F. tərəfindən aparılmışdır. O, insanların alış-veriş prosesində istifadə etdikləri ifadə ardıcıllığını təhlil edərək, diskursun strukturunu "*mərhələlər"* (stages) anlayışı vasitəsilə izah etmişdir. Mitchell, T.F. *mərhələlər* dedikdə dil istifadəçilərinin qarşılıqlı münasibətlər zamanı keçdiyi müəyyən ardıcıl addımları nəzərdə tutur. Onun tədqiqatı əsasən bu münasibətlərin mətn səviyyəsindəki ümumi təşkilatına yönəlmiş, dilin hər bir mərhələdə necə işlədilməsinə isə nisbətən az diqqət yetirmişdir (Mitchell, T.F., 1957).

Sonrakı illərdə Hasan R. və Ventola E. bu yanaşmanı inkişaf etdirərək xidmət sahəsindəki qarşılıqlı münasibətlərin diskurs strukturunu tədqiq etmişlər. Onlar xidmət prosesində baş verən zəruri və ixtiyari mərhələləri müəyyənləşdirmiş, hər bir mərhələdə istifadə olunan ifadələrin sosial və situativ kontekstdən asılı olduğunu göstərmişlər. Məsələn, "*Hi, how are you?"* (Salam, necəsiniz?) kimi salamlaşma zamanı istifadə olunan ifadələr xidmət prosesində hər zaman məcburi olmasa da, "*Can I have...?"* (Mənə ... verə bilərsiniz?) və ya "*Give me...*" (Mənə verin ...) kimi ifadələr qarşılıqlı münasibətin əsas mərhələsini təşkil edir.

Bu ifadələrin seçimi xidmətin baş verdiyi mühit (supermarket, poçt şöbəsi, səyahət agentliyi və s.), iştirakçıların yaşı, sosial statusu və ünsiyyətin üzbəüz, yaxud telefon vasitəsilə aparılması kimi amillərlə müəyyənləşir. Beləliklə, mətnin struktur elementləri ilə onların dil vasitəsilə ifadə formaları arasında sabit və universal uyğunluqdan danışmaq mümkün deyil.

Mitchell, T.F. və davamçılarının struktur yanaşmasından fərqli olaraq, *söhbət təhlili* (conversation analysis) istiqamətində çalışan tədqiqatçılar şifahi ünsiyyətin təkrarlanan modellərini daha mikro səviyyədə araşdırmışlar. Bu tədqiqatlar insanların söhbətə necə başlayıb bitirdiklərini, növbə dəyişmələrini, fasilələri, intonasiya dəyişikliklərini və sözün üst-üstə düşmə hallarını incələyir. Məsələn, gündəlik dialoqlar, həkim-pasiyent qarşılıqlı münasibətləri, psixiatrik müsahibələr və hüquqi sahədə aparılan söhbətlər bu analizlərin əsas obyektlərindəndir.

Beləliklə, diskursun struktur təhlili həm mətn səviyyəsində mərhələlilik (staging), həm də söhbət səviyyəsində dinamik qarşılıqlı əlaqə kimi iki fərqli, lakin bir-birini tamamlayan yanaşma istiqamətində inkişaf etmişdir. Bu yanaşmalar birgə şəkildə diskursun həm sosial, həm də funksional aspektlərinin dərin anlaşılmasına imkan yaradır.

Nəticə

Bu tədqiqat göstərir ki, diskurs yalnız dilin istifadəsi deyil, həm də sosial reallığın konstruksiyasında və fərdlərin mövqelərinin formalaşmasında əsas rol oynayır. Diskurs fərdlərin davranışlarını istiqamətləndirir, mövcud sosial qaydalar və institusional konvensiyalar çərçivəsində imkanlar və məhdudiyyətlər yaradır. Beləliklə, fərdlər mərkəzdən kənar subyekt kimi fəaliyyət göstərir, lakin onların hərəkətləri əvvəlki təcrübələr, mədəni və situativ kontekstlər, həmçinin sosial resurslar tərəfindən müəyyən olunur. Fairclough N.-ın *üzv resursları* anlayışı bu prosesin mahiyyətini açıq şəkildə göstərir, çünki fərdlər dil bilikləri, inanclar və sosial təcrübələr vasitəsilə diskursda iştirak edirlər və bu resurslar sosial mühitdə qeyri-bərabər paylanır.

Tədqiqat həm mətn yönümlü, həm də sosial yönümlü yanaşmaları birləşdirərək diskurs analizinə inteqrativ çərçivə təqdim edir. Mətnlərin strukturu, ardıcıllığı və dil vasitələri iştirakçıların sosial münasibətlərini və mövqelərini necə formalaşdırdığını ortaya qoyur. Kontekstin rolu xüsusilə vacibdir. Situativ və mədəni kontekstlər diskursun mənasını və funksiyasını müəyyən edir, iştirakçıların seçim imkanlarını və hərəkətlərini yönləndirir.

Bundan əlavə, tədqiqat göstərir ki, diskurs yalnız passiv şəkildə sosial qaydaları əks etdirmir, həm də onları aktiv şəkildə yaradır və sosial reallığın konstruksiyasında fəal rol oynayır. Dil həm ünsiyyət aləti, həm də sosial mənaları və münasibətləri ifadə edən vasitə kimi çıxış edir. Bu yanaşma diskursun həm lingvistik, həm də sosial aspektlərini eyni vaxtda araşdırmaq imkanı

verir və gələcək tədqiqatlar üçün nəzəri və metodoloji əsas təmin edir. Nəticədə, dil və diskurs sosial reallığın qurulmasında, fərdlərin mövqelərinin formalaşmasında və qarşılıqlı əlaqələrin idarə olunmasında mərkəzi rol oynayır.

Bu sahənin gələcək inkişafı üçün bir sıra imkanlar və çağırışlar mövcuddur. Birincisi, texnoloji tərəqqi və rəqəmsal platformaların genişlənməsi diskursun formalaşması və yayılması prosesinə yeni ölçülər əlavə edir. Sosial media, forumlar və onlayn müzakirələr kimi müasir kommunikasiya kanalları, fərdlərin subyekt mövqelərini və sosial praktikalarını daha dinamik və mürəkkəb bir şəkildə əks etdirir.

İkincisi, interdisiplinar yanaşmaların tətbiqi diskurs analizinə əlavə dərinlik gətirə bilər. Psixolinqvistik, kognitiv və sosioloji perspektivlərin inteqrasiyası, iştirakçıların qərar qəbuletmə prosesləri və sosial münasibətlərini daha ətraflı təhlil etməyə imkan verir. Bu, həmçinin subyekt mövqelərinin formalaşmasında fərdi və kollektiv faktorların qarşılıqlı təsirini ortaya qoyur.

Üçüncüsü, gələcək tədqiqatlarda kontekst anlayışının daha geniş və incə aspektlərinin öyrənilməsi vacibdir. Fərqli mədəniyyət və sosial qrupların diskurs təcrübələrinin müqayisəli təhlili, dilin və sosial praktikaların universal və lokal xüsusiyyətlərini müəyyən etməyə kömək edə bilər.

Bu, sahənin davamlı inkişafını, yeni kontekstlərin və kommunikasiya kanallarının araşdırılmasını və dilin sosial həyatdakı rolunun daha geniş anlaşılmasını mümkün edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Cameron, D., & Kulick, D. (2003). Language and Sexuality. Cambridge: Cambridge University Press. 75,103-105, 256 s.
2. Chimombo, J., & Roseberry, W. (1998). The Power of Discourse. London: Macmillan. 222, 278 s.
3. Crystal, D. (2008). A Dictionary of Linguistics and Phonetics. Oxford: Blackwell. 40-73,616 s.
4. Fairclough, N. (1989). Language and Power. London: Longman. 24-25, 39, 108 259 s.
5. Fairclough, N. (1992). Discourse and Social Change. Cambridge: Polity Press. 113,126,148 304 s.
6. Hall, S. (2001). Representation: Cultural Representations and Signifying Practices. London: Sage. 5, 316 s.
7. Johnstone, B. (2002). Discourse Analysis. Oxford: Blackwell. 57, 90-93, 304 s.
8. Martin, J. R. (2001). Beyond Exchange: Appraisal Systems in English. Amsterdam: John Benjamins. 151, 200 s.
9. Mills, S. (1997). Discourse. London: Routledge. 173, 212 s.
10. Mitchell, T. F. (1957). The Language of Buying and Selling in Cyrenaica. Hesperis, 44, 33–50. 18 s.
11. Obama, B. (2008). A More Perfect Union [Speech]. CNNPolitics.com. Available at: https://edition.cnn.com/2008/POLITICS/03/18/obama.speech.transcript/
12. Parker, I. (1992). Discourse Dynamics: Critical Analysis for Social and Individual Psychology. London: Routledge. 72, 344 s.
13. Potter, J., & Wetherell, M. (1987). Discourse and Social Psychology: Beyond Attitudes and Behaviour. London: Sage. 17, 197 s.
14. Stubbs, M. (1996). Text and Corpus Analysis: Computer-Assisted Studies of Language and Culture. Oxford: Blackwell. 23-37, 238 s.
15. Van Dijk, T. A. (1997b). Discourse as Structure and Process. London: Sage. 360 s.
16. Van Dijk, T. A. (2008). Discourse and Power. Basingstoke: Palgrave Macmillan. 10, 300 s.
17. Mills, S. (1997). Discourse. London: Routledge. 177 s.
18. Stubbs, M. (1996). Text and Corpus Analysis: Computer-Assisted Studies of Language and Culture. Oxford: Blackwell. 126, 238 s.
19. Johnstone, B. (2002). Discourse Analysis. Oxford: Blackwell. 3, 304 s.
20. Chimombo, S., & Roseberry, W. (1998). The Power of Discourse. London: Macmillan. 6, 72, 278 s.

DOİ: 10.32010/PRQK2959

QARABAĞ MÜHARİBƏSİ MÖVZULU BƏDİİ ƏSƏRLƏRİN NƏŞR VƏ REDAKTƏSİ: NƏZƏRİ VƏ PRAKTİK PROBLEMLƏR

Afaq Afiq MƏMMƏDOVA
Redaksiya-nəşriyyat işi kafedrasının doktorantı
İnformasiya və sənəd menecmenti fakültəsi
Bakı Dövlət Universiteti
ORCID: 0009-0000-7554-3710
E-mail: tagiyevaafaq78@gmail.com

Xülasə: Məqalədə Qarabağ mövzusunun Azərbaycan ədəbiyyatında və nəşriyyat fəaliyyətində tutduğu mövqeyin mahiyyəti və tarixi inkişafı ətraflı araşdırılır. Qarabağ yalnız coğrafi bir məkan deyil, həm də milli kimliyin, kollektiv yaddaşın və ideoloji mübarizənin simvolu kimi Azərbaycan yazılı ədəbiyyatında mühüm ədəbi-estetik xətt formalaşdırmışdır. İkinci Qarabağ müharibəsindən sonrakı mərhələdə bu mövzuya maraq daha da artmış, şəhidlərin, qazilərin və döyüş qəhrəmanlarının həyat yolunu, igidliyini və fədakarlığını əks etdirən çoxsaylı poetik nümunələr, nəsr əsərləri və dramaturji mətnlər nəşr olunmuşdur. Həmin əsərlər təkcə ədəbi hadisə kimi deyil, həm də gənc nəslin milli ruhda tərbiyəsində, vətənpərvərlik ideyalarının möhkəmlənməsində strateji funksiyalar daşıyan mədəni fakt kimi diqqət mərkəzinə çevrilmişdir. Müasir elmi-nəzəri təhlillər göstərir ki, Qarabağ mövzusuna dair bədii əsərlərin redaktə və nəşr prosesində bir sıra problemlər mövcuddur: dil və üslub baxımından həddindən artıq patetikliyin müşahidə olunması, faktoloji qeyri-dəqiqliklər, etik və estetik baxımdan uyğunsuzluqlar, metaforik ifadələrin təkrarlanması, eləcə də texniki redaktənin zəifliyi bu sahədə keyfiyyətə təsir edən amillər kimi ortaya çıxır. Bu məqamlar göstərir ki, Qarabağ mövzusu yalnız ədəbiyyatın təhkiyə predmeti deyil, eyni zamanda dövlətçilik, milli ideologiya və mədəni yaddaşın qorunması ilə bağlı böyük missiyadır. Ona görə də bu əsərlərin nəşri və redaktəsi peşəkar redaktor və naşirlərin məsuliyyətli yanaşmasını, elmi-metodoloji hazırlığı, milli dəyərlərə sədaqəti və dövlət səviyyəsində dəstəyi zəruri edir.
Açar sözlər: Qarabağ ədəbiyyatı, Vətən Müharibəsi, qəhrəmanlıq poeziyası, redaktə, nəşr ənənələri, milli yaddaş.

PUBLICATION AND EDITING OF LITERARY WORKS ON THE KARABAKH WAR: THEORETICAL AND PRACTICAL PROBLEMS

Afag Afig Mammadova
Doctoral Student, Department of Editorial and Publishing Work
Faculty of Information and Document Management
Baku State University
ORCID: 0009-0000-7554-3710
E-mail: tagiyevaafaq78@gmail.com

Abstract: The article examines the significance and historical development of the Karabakh theme in Azerbaijani literature and publishing activities. Karabakh is not merely a geographical territory but also a symbol of national identity, collective memory, and ideological struggle that has shaped an important literary and aesthetic line in Azerbaijani written literature. In the post–Second Karabakh War period, interest in this theme increased considerably, and numerous poetic works, prose texts, and dramatic pieces dedicated to martyrs, veterans, and war heroes were published. These works are not only literary events but also cultural phenomena that play a strategic role in educating the younger generation in the spirit of patriotism and strengthening national values. Contemporary scholarly analyses reveal a number of issues in the editing and publication of artistic works on the Karabakh theme: excessive pathos in language and style, factual inaccuracies, ethical and aesthetic inconsistencies, repetitive metaphoric expressions, as well as shortcomings in technical editing are among the factors influencing quality. These aspects demonstrate that the Karabakh theme is not simply a literary subject, but also a mission connected with statehood, national ideology, and the preservation of cultural memory. Therefore, the publication and editorial work in this field require the professional responsibility of editors and publishers, scientific and methodological preparation, fidelity to national values, and state-level support.
Keywords: Karabakh literature, Patriotic War, heroic poetry, editing, publishing traditions, national memory

ИЗДАНИЕ И РЕДАКТИРОВАНИЕ ХУДОЖЕСТВЕННЫХ ПРОИЗВЕДЕНИЙ НА ТЕМУ КАРАБАХСКОЙ ВОЙНЫ: ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ

Афаг Афиг МАМЕДОВА
Докторант кафедры редакционно-издательского дела
Факультет информационного и документационного менеджмента
Бакинский государственный университет
ORCID: 0009-0000-7554-3710
Электронная почта: tagiyevaafaq78@gmail.com

Резюме: В статье исследуется значение и историческое развитие Карабахской темы в Азербайджанской литературе и издательской деятельности. Карабах представляет собой не только географическую территорию, но и символ национальной идентичности, коллективной памяти и идеологической борьбы, сформировавший важное литературно-эстетическое направление в Азербайджанской письменной культуре. В послевоенный период после Второй Карабахской войны интерес к данной теме значительно возрос, появились многочисленные поэтические произведения, прозаические тексты и драматические пьесы, посвящённые шехидам, ветеранам и героям войны. Эти произведения рассматриваются не только как литературное явление, но и как культурный факт, играющий стратегическую роль в воспитании молодого поколения в духе патриотизма и в укреплении национальных ценностей. Современные научные исследования показывают, что в процессе редактирования и издания художественных произведений на Карабахскую тему существуют определённые проблемы: чрезмерный пафос в языке и стиле, фактические неточности, этико-эстетические несоответствия, повторяемость метафорических выражений, а также недостатки технической редакции являются факторами, влияющими на качество. Эти обстоятельства демонстрируют, что Карабахская тема — это не только предмет литературного повествования, но и миссия, связанная с государственностью, национальной идеологией и сохранением культурной памяти. Поэтому публикация и редакторская работа в этой сфере требуют профессиональной ответственности редакторов и издателей, научно-методологической подготовки, верности национальным ценностям и государственной поддержки.
Ключевые слова: Карабахская литература, Отечественная война, поэзия героизма, редактирование, издательские традиции, национальная память.

Giriş

Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu əsrlər boyu aparıcı istiqamətlərdən biri olmuş, həm tarixi hadisələrin, həm də milli-mədəni identikliyin bədii ifadəsi kimi çıxış etmişdir. Qarabağ yalnız coğrafi məkan olaraq deyil, həm də kollektiv yaddaşın, milli şüurun, ideoloji dəyərlərin və mənəvi irsin daşıyıcısı olaraq Azərbaycan xalqının mədəniyyətində xüsusi yer tutmuşdur. Qarabağın zəngin təbiəti, tarixi abidələri, folklor ənənələri və qəhrəmanlıq salnaməsi hələ XIX əsrdən etibarən yazıçı və şairlərin əsərlərində öz əksini tapmışdır. Lakin XX əsrin sonlarında baş verən münaqişələr və müharibələr bu mövzunun aktuallığını daha da artırmış, Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında təkcə bədii mətnlərin süjeti deyil, həm də milli ideologiyanın əsas simvollarından birinə çevrilmişdir (Əziz, 2021).

Azərbaycan ədəbiyyatında Qarabağ motivlərinin güclənməsi təkcə siyasi hadisələrin bədii əksi ilə məhdudlaşmır. Bu mövzu həm də mədəni yaddaşın qorunmasına, milli kimliyin möhkəmlənməsinə və vətənpərvərlik ideyalarının nəsillər arasında ötürülməsinə xidmət etmişdir. Qarabağ müharibələrinin təsiri ilə ədəbi prosesdə qəhrəmanlıq, şəhidlik, vətən sevgisi və qələbə arzusu bədii-estetik kateqoriyalar kimi ön plana çıxmışdır. İkinci Qarabağ müharibəsi bu tendensiyanın zirvə nöqtəsi olmuş, müharibədən sonra yazılan əsərlərdə həm qəhrəmanların obrazı, həm də xalqın qələbə sevinci yeni poetik çalarlarla təsvir olunmuşdur. Bu əsərlər bir tərəfdən milli yaddaşın bədii təcəssümü, digər tərəfdən isə ideoloji və siyasi məzmun daşıyıcısı kimi dəyərləndirilə bilər (Həsənli, 2022).

Qarabağ mövzusu ilə bağlı bədii əsərlərin nəşri müasir dövrdə milli ideologiyanın təbliğində mühüm vasitədir. Ədəbi nümunələrin çapı, tərtibatı, redaktəsi və geniş oxucu kütləsinə təqdim olunması sadəcə texniki proses deyil, həm də dövlət siyasətinin, milli ideoloji kursun və informasiya təhlükəsizliyinin bir hissəsidir. Qarabağla bağlı əsərlərin artması, onların müxtəlif nəşriyyatlarda işıq üzü görməsi bir tərəfdən ədəbi-bədii irsin zənginləşməsinə, digər tərəfdən isə milli şüurun möhkəmlənməsinə xidmət edir. Xüsusən də müharibə mövzulu əsərlərin nəşri milli-mənəvi mirasın gələcək nəsillərə ötürülməsi baxımından strateji əhəmiyyət daşıyır (Əliyev, 2023). Bu mövzuda çap edilən əsərlərin redaktə və nəşr prosesi müəyyən çətinliklərlə müşayiət olunur. Bir çox əsərlərdə dilin patetikliyi, şüarçılığın çoxluğu, faktoloji dəqiqliyin pozulması, tarixi hadisələrin qarışdırılması, qəhrəmanların ad və rütbələrinin yanlış

verilməsi, toponimlərin səhv yazılması kimi problemlər müşahidə edilir. Bundan əlavə, metaforaların yersiz təkrarı, simvolik ifadələrin məna baxımından zəifliyi, bədii keyfiyyətin qeyri-bərabərliyi əsərlərin estetik dəyərini azaldır. Redaktə işində orfoqrafik və punktuasiya səhvləri, texniki qüsurlar, plagiat halları da kifayət qədərdir. Bütün bunlar göstərir ki, Qarabağ mövzulu əsərlərin nəşri peşəkar yanaşma tələb edən mürəkkəb bir prosesdir (Baxşəliyev, 2023).

Müasir Azərbaycan nəşriyyat təcrübəsində Qarabağla bağlı əsərlərin artması ilə yanaşı, onların keyfiyyətli şəkildə oxucuya təqdim olunması üçün yeni tələblər ortaya çıxmışdır. Qəhrəmanlıq mövzulu poetik və nəsr əsərlərinin redaktəsi yalnız mətnin texniki işlənməsi deyil, həm də milli yaddaşa və ideoloji məzmuna xidmət edən məsuliyyətli bir fəaliyyət kimi qiymətləndirilməlidir. Bu sahədə redaktorların peşəkarlığı, müəllif-redaktor əməkdaşlığı, dövlət qurumlarının dəstəyi və etik çərçivələrin müəyyən olunması mühüm rol oynayır.

Bütün deyilənlərdən aydın olur ki, Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında təkcə bir bədii mövzu deyil, həm də milli ideologiyanın, tarixi yaddaşın və mədəni kimliyin əsas daşıyıcısıdır. Onun nəşr və redaktə prosesinin elmi şəkildə öyrənilməsi həm ədəbiyyatşünaslıq, həm də nəşriyyat işi baxımından xüsusi aktuallıq kəsb edir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə yaranan əsərlərin çoxluğu və onların nəşr problemləri yeni elmi-nəzəri araşdırmaların aparılmasını zəruri edir. Bu məqalənin əsas məqsədi də Qarabağ mövzusunda bədii əsərlərin nəşri və redaktəsində mövcud olan problemləri üzə çıxarmaq, onların həlli yollarını göstərmək və milli ideologiyanın gücləndirilməsi baxımından təkliflər irəli sürməkdir (Quliyev, 2022; Hacıyev, 2023).

Nəzəriyyə

Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında uzun illərdir ki, bədii yaradıcılığın mühüm istiqamətlərindən biri kimi çıxış edir və müxtəlif tarixi dövrlərdə fərqli məna və estetik çalarlarla təqdim olunmuşdur. Qarabağ münaqişəsi və müharibələri nəticəsində mövzuya maraq daha da artmış, həm poeziya, həm də nəsr janrında çoxsaylı əsərlərin yaranmasına səbəb olmuşdur. Ədəbiyyat tarixindən məlumdur ki, müharibə dövrlərində və ondan sonrakı mərhələlərdə bədii yaradıcılıq milli yaddaşın qorunması üçün strateji vasitəyə çevrilir və məhz buna görə də Qarabağ mövzusunun Azərbaycan ədəbiyyatında önəmi xüsusi vurğulanmalıdır (Əziz, 2021).

Əsərlərin əsas məzmununu qəhrəmanlıq, şəhidlik və vətən sevgisi motivləri təşkil edir. Müəlliflər Qarabağ döyüşlərində iştirak etmiş igidlərin obrazını həm real, həm də simvolik şəkildə təqdim edərək onları milli kimliyin daşıyıcısına çevirirlər. Bununla yanaşı, bir çox əsərlərdə qəhrəman obrazlarının həddindən artıq idealizə edilməsi müşahidə olunur. Belə təqdimat oxucu ilə emosional bağın yaranmasına mane olur, çünki obraz insani xüsusiyyətlərdən məhrum edildikdə, yalnız mücərrəd simvol səviyyəsində qalır. Bu baxımdan müharibə mövzulu əsərlərin redaktəsində etik balansın qorunması və qəhrəman obrazlarının həm ideal, həm də insani tərəflərinin vəhdətdə göstərilməsi vacibdir (Həsənli, 2022).

Dil və üslub məsələləri də Qarabağ mövzusunda nəşr edilən əsərlərin mühüm problemlərindən biridir. Çoxsaylı poetik nümunələrdə dilin patetik xarakter daşıması, şüarçılığın üstünlük təşkil etməsi əsərin bədii-estetik dəyərinə mənfi təsir göstərir. Məsələn, "Qarabağ bizimdir!", "Şəhidlər ölməz!" kimi ifadələrin təkrar istifadəsi oxucuya emosional təsir imkanlarını azaldır. Eyni zamanda, bəzi əsərlərdə klassik heca vəznindən sərbəst şeir formasına keçidlər müşahidə olunur ki, bu da üslub vahidliyinin pozulmasına gətirib çıxarır. Sanki müəlliflər emosional təsir gücünü artırmaq məqsədilə müxtəlif formalardan istifadə edirlər, lakin nəticədə poetik bütövlük itir (Məmmədov, 2021).

Faktoloji dəqiqlik məsələsi də mühüm əhəmiyyət kəsb edir. Qarabağ mövzusuna həsr olunmuş bəzi əsərlərdə tarixi hadisələrin qarışdırılması, qəhrəmanların ad və rütbələrinin yanlış göstərilməsi, toponimlərin səhv yazılması kimi hallara rast gəlinir. Bu, yalnız redaktə səhlənkarlığı deyil, həm də milli yaddaşın təhrif olunması təhlükəsini yaradır. Məsələn, bəzi poetik mətnlərdə Xocalı soyqırımı hadisələri 2020-ci il Vətən müharibəsi ilə qarışdırılır, yaxud azad edilmiş rayonların adları səhv verilir. Belə faktoloji yanlışlıqlar yalnız redaktorun deyil, həm də nəşriyyatın məsuliyyətini artırır və gələcəkdə oxucunun yaddaşında səhv təsəvvürlərin formalaşmasına səbəb ola bilər (Quliyev, 2022).

Müasir Qarabağ mövzulu əsərlərdə metaforik və simvolik yanaşmalar da geniş yayılmışdır. Bayraq, torpaq, şəhid qanı kimi simvollar bir çox şeirlərdə əsas məna yükünü daşıyır, lakin onların tez-tez təkrarlanması poetik orijinallığı zəiflədir. Bunun əksinə olaraq, bəzi müəlliflər qeyri-adi bənzətmələrdən istifadə edir, lakin bu metaforaların oxucu tərəfindən anlaşılması çətinləşir. Məsələn, "Qarabağ – qanad açmış alovlu bir dua" kimi ifadələr poetik baxımdan maraqlı görünsə də, məna baxımından qeyri-aşkar qalır. Beləliklə, redaktorların və tənqidçilərin əsas vəzifələrindən biri də metaforik və simvolik ifadələrin mətn daxilində işlənmə səviyyəsini qiymətləndirmək və onların estetik tutumunu qorumaqdır (Hacıyev, 2023).

Texniki redaktə problemləri Qarabağ mövzulu əsərlərin nəşrində ən çox rast gəlinən çətinliklərdən biridir. Orfoqrafik və punktuasiya səhvləri, dil qaydalarına

əməl edilməməsi, sosial şəbəkələrdən gələn üslub təsirləri nəşrlərin keyfiyyətini aşağı salır. Üstəlik, bəzi müəlliflər müxtəlif mənbələrdən eyni qəhrəman haqqında məlumatları təkrar edir və nəticədə plagiat hallarına yol verirlər. Bu isə orijinal bədii yanaşmanın zəifləməsinə səbəb olur. Plagiatla yanaşı, təkrarçılıq problemi də geniş yayılıb: müxtəlif müəlliflər eyni qəhrəmanın həyatını oxşar şəkildə təsvir edir və nəticədə oxucu yeni bədii dəyər əldə etmir (İsmayıl, 2020).

Praktik nümunələr də bu problemləri təsdiq edir. Əflatun Baxşəliyevin "Qarabağ Azərbaycandır" kitabı həm ideoloji, həm də poetik məzmun baxımından mühüm əhəmiyyət kəsb etsə də, redaktə və dizayn baxımından müəyyən qüsurlara malikdir. Kitabın üz qabığında Şuşa qala qapısının təsvirinə az yer verilməsi, üzərində "Шуша" sözünün kiril əlifbası ilə yazılması müasir nəşriyyat prinsiplərinə uyğun deyil. Halbuki Qarabağ mövzulu nəşrlərdə milli simvolların düzgün verilməsi yalnız estetik deyil, həm də ideoloji məsələdir (Baxşəliyev, 2023).

Bütün bu müşahidələr onu göstərir ki, Qarabağ mövzusuna həsr olunmuş əsərlərin nəşri və redaktəsi yalnız bədii mətnlərin texniki işlənməsi deyil, həm də milli ideologiyanın, mədəniyyətin və tarixi yaddaşın qorunması baxımından strateji bir missiyadır. Bu missiyanın həyata keçirilməsi üçün xüsusi redaktə qruplarının yaradılması, müəlliflə redaktor arasında sıx əməkdaşlıq, nəşrlərdə etik və estetik balansın qorunması zəruridir. Eyni zamanda, dövlət qurumlarının bu sahədə dəstək göstərməsi, Qarabağ mövzulu əsərlərin nəşrini təşviq edən proqramların işlənməsi də vacib şərtlərdəndir (Əliyev, 2023).

Nəticə və Təkliflər

Aparılan araşdırmalar göstərir ki, Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında əsrlər boyu müxtəlif mərhələlərdə fərqli məna yükləri daşısa da, XX əsrin sonu və XXI əsrin əvvəllərində münaqişə və müharibələrin təsiri ilə daha da aktuallaşmış və müasir ədəbi prosesin prioritet istiqamətlərindən birinə çevrilmişdir. İkinci Qarabağ müharibəsindən sonra qəhrəmanlara, şəhidlərə və qazilərə həsr olunmuş əsərlərin artması mövzunun ideoloji və estetik tutumunu gücləndirmiş, onların nəşri və redaktəsi milli-mədəni inkişafın tərkib hissəsinə çevrilmişdir (Əliyev, 2023).

Lakin aparılan təhlil həm poeziya, həm də nəsr janrında bir sıra problemlərin mövcudluğunu üzə çıxarmışdır. Bu problemlər sırasında dil və üslubun həddindən artıq patetik xarakter alması, şüarçılığın çoxluğu, faktoloji dəqiqliyin pozulması, tarixi hadisələrin qarışdırılması, qəhrəman ad və rütbələrinin yanlış verilməsi, toponimlərin səhv yazılması xüsusi yer tutur. Bundan başqa, metaforik və simvolik ifadələrin təkrarlanması, estetik dərinliyin zəifləməsi, qəhrəman obrazlarının həddindən artıq idealizə olunması da oxucu ilə emosional bağın zəifləməsinə səbəb olur (Həsənli, 2022). Bütün bunlar göstərir ki, Qarabağ mövzusunun ədəbiyyatda təqdimi ilə bağlı yalnız bədii-estetik deyil, həm də redaksiya və nəşriyyat işində elmi-metodoloji yanaşmaya ehtiyac vardır.

Texniki redaktə problemləri də mövzunun elmi təhlilində diqqət çəkən əsas məqamlardandır. Orfoqrafik və punktuasiya səhvləri, plagiat halları, sosial şəbəkə üslubunun mətnlərə təsiri, redaktə səhlənkarlığı Qarabağ mövzulu əsərlərin bədii-estetik keyfiyyətinə mənfi təsir göstərir (Hacıyev, 2023). Bu problemlərin həlli üçün yalnız müəlliflərin deyil, həm də redaktorların, nəşriyyat işçilərinin məsuliyyət daşıması vacibdir. Beləliklə, redaktə prosesi sadəcə texniki bir iş deyil, həm də ideoloji, mədəni və elmi bir fəaliyyət kimi dəyərləndirilməlidir.

Nəticə etibarilə Qarabağ mövzusu üzrə nəşr edilən əsərlər həm milli kimliyin möhkəmlənməsinə, həm də xalqın qələbə yaddaşının bədii formada təsbitinə xidmət edir. Bu əsərlərin redaktəsi və nəşri yalnız ədəbi nümunələrin oxucuya çatdırılması deyil, həm də gələcək nəsillərə ötürüləcək mənəvi mirasın formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Ədəbi nümunələrin yüksək səviyyədə hazırlanması və redaktəsi həm milli yaddaşın qorunmasına, həm də Azərbaycan ədəbiyyatının beynəlxalq aləmdə tanıdılmasına imkan verəcəkdir (Quliyev, 2022).

Bu araşdırmanın nəticələri əsasında aşağıdakı təkliflər irəli sürülür:

1. Qarabağ mövzusunda yazılmış əsərlərin redaktəsi üçün peşəkar redaktorların və ədəbiyyat üzrə mütəxəssislərin iştirakı ilə xüsusi redaktə qrupları yaradılmalıdır.
2. Müəlliflə redaktor arasında sıx əməkdaşlıq təmin edilməli, əsərlərin həm bədii, həm də faktoloji baxımdan yüksək səviyyədə hazırlanmasına diqqət yetirilməlidir.
3. Müharibə mövzulu əsərlərin nəşri üçün ayrıca etik və texniki qaydalar işlənməli, xüsusilə qəhrəman obrazlarının təqdimatında etik balans qorunmalıdır.
4. Qarabağ mövzusunda çap edilən əsərlərin keyfiyyətinə nəzarət etmək üçün dövlət səviyyəsində xüsusi nəşriyyat proqramları hazırlanmalı, bu proqramlarda redaksiya və dizayn prinsiplərinə dair normativ sənədlər müəyyənləşdirilməlidir.
5. Qarabağ mövzulu əsərlərin beynəlxalq səviyyədə də yayılması üçün çoxdilli nəşrlər hazırlanmalı, Azərbaycan ədəbiyyatının bu istiqamətdə qlobal mədəniyyətə inteqrasiyası təmin edilməlidir.
6. Ədəbi nümunələrin məzmunu ilə yanaşı, onların texniki keyfiyyəti də diqqət mərkəzində saxlanmalı, dizayn, illüstrasiya və poliqrafik tərtibat müasir standartlara uyğunlaşdırılmalıdır.

Beləliklə, Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında milli yaddaşın, vətənpərvərlik ruhunun və ideoloji dəyərlərin ifadəsi baxımından müstəsna əhəmiyyətə malikdir. Onun redaktə və nəşr prosesində elmi-metodoloji yanaşmaların tətbiqi, etik çərçivələrin qorunması və texniki keyfiyyətin artırılması milli-mədəni irsin daha dolğun şəkildə gələcək nəsillərə çatdırılmasına zəmanət verəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Əziz, V. (2021). Param-parça illər... Bakı: Elm və Təhsil.

2. Həsənli, A. (2022). Qarabağ mövzusunda poetik nümunələrin estetik xüsusiyyətləri. Azərbaycan Ədəbiyyatı Jurnalı, №4, s. 56–67.

3. Baxşəliyev, Ə. (2023). Qarabağ Azərbaycandır. Bakı: Elm və Təhsil.

4. Əliyev, R. (2023). Qarabağ mövzusunun müasir Azərbaycan nəşriyyat sistemində yeri. Humanitar Elmlər Məcmuəsi, №2, s. 112–124.

5. İsmayıl, M. (2020). Müharibə poeziyasında qəhrəmanlıq motivləri. Ədəbiyyat və Mədəniyyət, №1, s. 34–42.

6. Məmmədov, T. (2021). Qarabağ müharibəsi və uşaq ədəbiyyatında qəhrəmanlıq obrazı. Elmi axtarışlar, №3, s. 78–89.

7. Quliyev, S. (2022). Şəhidlik və milli kimlik: müasir poeziyanın təhlili. Bakı: Nurlar Nəşriyyatı.

8. Hacıyev, F. (2023). Qarabağ müharibəsi əsərlərinin redaktə problemləri. Filologiya məsələləri, №5, s. 91–103.

DOİ: 10.32010/AAJZ1731

QƏRBİ ZƏNGƏZUR TOPONİMLƏRİNİN ETNOLİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ VƏ MİLLİ KİMLİYİN QORUNMASINDA ROLU

Röya Zakir MƏMMƏDOVA
Gəncə Dövlət Universiteti
Orcid: 0009-0002-2709-3342

Xülasə: Qərbi Zəngəzur bölgəsi Azərbaycan xalqının tarixi-mədəni yaddaşında xüsusi yer tutan coğrafi məkanlardan biridir. Bu ərazi əsrlər boyu müxtəlif türk tayfalarının məskunlaşdığı, sosial-iqtisadi həyatın formalaşdığı və zəngin mədəniyyətin inkişaf etdiyi bir region olmuşdur. Bölgənin dil xəritəsində əks olunan toponimlər isə sadəcə coğrafi ad deyil, həm də xalqın etnik kimliyini, tarixi yaddaşını və mənəvi dəyərlərini qoruyan etnolinqvistik göstəricilərdir. Toponimlərin etimologiyası, semantik xüsusiyyətləri və dil qatları xalqın həyat tərzi, təsərrüfat fəaliyyəti, dini inancları və dünyagörüşü haqqında zəngin məlumat verir.
Müasir dövrdə Qərbi Zəngəzur toponimlərinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Siyasi səbəblərdən və məqsədli təhrif siyasətindən dolayı bölgənin bir çox qədim yer adları dəyişdirilmiş, bəziləri isə unudulmağa məhkum edilmişdir. Bu proses yalnız toponimlərin yoxa çıxması ilə yekunlaşmır, həm də Azərbaycan xalqının tarixi-mədəni yaddaşına, etnolinqvistik kimliyinə ciddi zərbə vurur. Coğrafi adların süni şəkildə dəyişdirilməsi milli kimliyin zəiflədilməsi, tarixi faktların təhrif olunması və gələcək nəsillərin öz köklərindən uzaqlaşdırılması siyasətinin tərkib hissəsi kimi dəyərləndirilə bilər.
Məqalədə Qərbi Zəngəzur toponimlərinin etnolinqvistik təhlili aparılaraq onların müxtəlif dil qatlarında – türk mənşəli köklərdə, qədim tayfa adlarında, təbii-coğrafi mühitlə bağlı ifadələrdə – əks olunan xüsusiyyətləri araşdırılır. Toponimlərin etimoloji təhlili göstərir ki, onlar yalnız coğrafi koordinatları müəyyənləşdirmək üçün deyil, həm də kollektiv yaddaşın kodlarını daşımaq üçün mühüm əhəmiyyət kəsb edir. Burada insan və təbiət münasibətlərinin, sosial münasibətlərin və tarixi hadisələrin izlərini açıq şəkildə görmək mümkündür.
Eyni zamanda araşdırmada toponimlərin qorunması və bərpasının milli identikliyin möhkəmləndirilməsi baxımından rolu vurğulanır. Toponimlərin yenidən elmi dövriyyəyə qaytarılması, xəritələrdə, rəsmi sənədlərdə və ictimai diskursda bərpası Azərbaycan xalqının öz tarixi köklərinə bağlılığını gücləndirəcək, həm də beynəlxalq müstəvidə mədəni irsin qorunması istiqamətində mühüm addım olacaqdır.
Ümumi olaraq qeyd olunmalıdır ki, Qərbi Zəngəzur toponimlərinin etnolinqvistik təhlili yalnız dilçilik elmi üçün deyil, həm də tarix, etnoqrafiya, mədəniyyətşünaslıq və siyasi elmlər üçün əhəmiyyətlidir. Bu adların sistemli şəkildə öyrənilməsi milli yaddaşın dirçəldilməsi, Azərbaycan toponimikasının dünya elminə inteqrasiyası və gələcək nəsillərin milli kimliyinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır.
Açar sözlər: Qərbi Zəngəzur, toponimika, etnolinqvistika, milli kimlik, tarixi yaddaş, etimologiya, coğrafi adlar, Azərbaycan toponimləri, dil qatları, mədəni irs.

ETHNOLINGUISTIC FEATURES OF WESTERN ZANGAZUR TOPONYMS AND THEIR ROLE IN PRESERVING NATIONAL IDENTITY

Roya Zakir MAMMADOVA
Ganja State University
Orcid: 0009-0002-2709-3342

Abstract: The Western Zangazur region is one of the geographical areas that holds a special place in the historical and cultural memory of the Azerbaijani people. For centuries, this territory has been home to various Turkic tribes, where socio-economic life was shaped and a rich culture flourished. The toponyms reflected in the linguistic map of the region are not merely geographical names but also ethnolinguistic indicators preserving the ethnic identity, historical memory, and spiritual values of the people. The etymology, semantic features, and linguistic layers of these toponyms provide valuable insights into the people's way of life, economic activities, religious beliefs, and worldview.
In the modern era, the study of Western Zangazur toponyms is of particular relevance. Due to political reasons and deliberate falsification policies, many of the ancient place names of the region have been altered, and some have been condemned to oblivion. This process not only results in the disappearance of toponyms but also delivers a serious blow to the historical and cultural memory and ethnolinguistic identity of the Azerbaijani people. The artificial alteration of geographical names can be regarded as part of a policy aimed at weakening national identity, distorting historical facts, and alienating future generations from their roots.

This article conducts an ethnolinguistic analysis of Western Zangazur toponyms, examining their features as reflected in various linguistic layers—Turkic roots, ancient tribal names, and expressions related to the natural-geographical environment. The etymological study of these toponyms reveals that they serve not only to determine geographical coordinates but also to carry the codes of collective memory. They clearly reflect traces of human–nature interactions, social relations, and historical events.

At the same time, the study emphasizes the role of preserving and restoring toponyms in strengthening national identity. The reintroduction of these names into scholarly discourse and their restoration on maps, in official documents, and in public discussions will reinforce the Azerbaijani people's attachment to their historical roots and will also constitute an important step in protecting cultural heritage at the international level.

Overall, it should be noted that the ethnolinguistic analysis of Western Zangazur toponyms is significant not only for linguistics but also for history, ethnography, cultural studies, and political sciences. A systematic study of these names is crucial for reviving national memory, integrating Azerbaijani toponymy into world scholarship, and safeguarding the national identity of future generations.

Keywords: Western Zangazur, toponymy, ethnolinguistics, national identity, historical memory, etymology, geographical names, Azerbaijani toponyms, linguistic layers, cultural heritage.

ЭТНОЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ТОПОНИМОВ ЗАПАДНОГО ЗАНГЕЗУРА И ИХ РОЛЬ В СОХРАНЕНИИ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ

Роя Закир МАМЕДОВА
Гянджинский государственный университет
Orcid: 0009-0002-2709-3342

Резюме: Западный Зангезур является одним из географических регионов, занимающих особое место в историко-культурной памяти азербайджанского народа. На протяжении веков эта территория служила местом проживания различных тюркских племён, здесь формировалась социально-экономическая жизнь и развивалась богатая культура. Отражённые на языковой карте региона топонимы представляют собой не только географические названия, но и этнолингвистические маркеры, сохраняющие этническую идентичность, историческую память и духовные ценности народа. Этимология, семантические особенности и языковые пласты этих топонимов дают богатую информацию о быте, хозяйственной деятельности, религиозных верованиях и мировоззрении.

В современный период изучение топонимов Западного Зангезура приобретает особую актуальность. По политическим причинам и вследствие целенаправленной политики искажения многие древние названия мест были изменены, а некоторые обречены на забвение. Этот процесс ведёт не только к исчезновению самих топонимов, но и наносит серьёзный удар по историко-культурной памяти и этнолингвистической идентичности азербайджанского народа. Искусственное изменение географических названий можно рассматривать как часть политики, направленной на ослабление национальной идентичности, искажение исторических фактов и отрыв будущих поколений от их корней.

В статье проводится этнолингвистический анализ топонимов Западного Зангезура, исследуются их особенности, отражённые в различных языковых пластах — тюркских корнях, названиях древних племён, выражениях, связанных с природно-географической средой. Этимологический анализ показывает, что эти топонимы служат не только для определения географических координат, но и для передачи кодов коллективной памяти. В них чётко прослеживаются следы взаимодействия человека и природы, социальных отношений и исторических событий.

Одновременно в исследовании подчёркивается роль сохранения и восстановления топонимов в укреплении национальной идентичности. Возвращение этих названий в научный оборот, их восстановление на картах, в официальных документах и общественном дискурсе усилит приверженность азербайджанского народа своим историческим корням и станет важным шагом в направлении охраны культурного наследия на международном уровне.

В целом следует отметить, что этнолингвистический анализ топонимов Западного Зангезура имеет значение не только для лингвистики, но и для истории, этнографии, культурологии и политических наук. Систематическое изучение этих названий играет важную роль в возрождении национальной памяти, интеграции азербайджанской топонимики в мировую науку и в сохранении национальной идентичности будущих поколений.

Ключевые слова: Западный Зангезур, топонимика, этнолингвистика, национальная идентичность, историческая память, этимология, географические названия, азербайджанские топонимы, языковые пласты, культурное наследие.

Giriş

Qərbi Zəngəzur bölgəsi Azərbaycan xalqının qədim yaşayış məskənlərindən biri olmaqla, zəngin tarixi, mədəni və dil irsinə malikdir. Bu regionda formalaşmış toponimlər əsrlərin sınağından keçərək yalnız coğrafi məkanların adlandırılması funksiyasını daşımamış, həm də xalqın etnik kimliyinin, tarixi yaddaşının və mənəvi-mədəni dəyərlərinin qorunmasında mühüm vasitəyə çevrilmişdir. Toponimlərin etimoloji köklərində qədim türk tayfalarının, etnik qrupların, dini inancların və təsərrüfat həyatının izlərinin saxlanılması onların etnolinqvistik tədqiqat baxımından əhəmiyyətini daha da artırır.

Mövzunun aktuallığı həm də ondan irəli gəlir ki, XX əsrin siyasi hadisələri nəticəsində Qərbi Zəngəzur ərazisindəki bir çox toponimlər süni şəkildə dəyişdirilmiş, tarixi adlar təhrif olunmuş və ya tamamilə unudulmuşdur. Bu, yalnız coğrafi adların transformasiyası deyil, həm də xalqın tarixi-mədəni yaddaşına zərbə vuran bir siyasətin tərkib hissəsi olmuşdur. Belə bir vəziyyət toponimlərin yenidən elmi dövriyyəyə qaytarılmasını, onların tarixi həqiqət əsasında araşdırılmasını və ictimaiyyətə təqdim edilməsini vacib edir.

Elmi əhəmiyyət baxımından Qərbi Zəngəzur toponimlərinin etnolinqvistik təhlili Azərbaycan toponimika elminə mühüm töhfə verə bilər. Bu tədqiqat nəticəsində bölgənin yer adlarının dil qatları, etimoloji xüsusiyyətləri, semantik mənzərəsi müəyyənləşdirilir, toponimlərin milli kimliyin qorunmasında oynadığı rol elmi əsaslarla sübut olunur. Bundan əlavə, aparılacaq araşdırmalar regional tarixşünaslıq, etnoqrafiya, dilçilik və mədəniyyətşünaslıq sahələrində yeni məlumatların əldə olunmasına imkan verəcəkdir.

Qərbi Zəngəzur toponimlərinin etnolinqvistik təhlili həm nəzəri, həm də praktiki baxımdan aktualdır. Nəzəri baxımdan bu mövzu toponimika və etnolinqvistika elminin inkişafına xidmət edir, praktiki baxımdan isə tarixi adların bərpası, milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi üçün mühüm əhəmiyyət daşıyır.

Qərbi Zəngəzur bölgəsi tarixi-coğrafi baxımdan Azərbaycan xalqının milli yaddaşında və etnik kimliyində mühüm mövqeyə malik olsa da, son iki əsrdə baş verən siyasi və hərbi proseslər bu ərazidəki toponimlərin böyük bir qisminin dəyişdirilməsinə, təhrif olunmasına və ya unudulmasına gətirib çıxarmışdır. XX əsrin əvvəllərindən etibarən bölgənin etnik tərkibindəki dəyişikliklər, inzibati idarəetmənin süni şəkildə yenidən qurulması, sovet dövründə aparılan ruslaşdırma siyasəti və daha sonrakı mərhələdə ermənilləşdirmə cəhdləri nəticəsində qədim türk mənşəli yer adlarının bir çoxu rəsmi sənədlərdə saxta formalarla əvəzlənmişdir. Bu hal yalnız dil və coğrafi adlar sahəsində deyil, bütövlükdə milli-mədəni irsin qorunması baxımından ciddi problemlər yaratmışdır.

Problemin əsas məğzi ondadır ki, toponimlərin süni şəkildə dəyişdirilməsi xalqın tarixi köklərinə, mənəvi yaddaşına və etnolinqvistik irsinə təzyiq aləti kimi istifadə edilmişdir. Coğrafi adların transformasiyası, əslində, milli identikliyin zəiflədilməsi və gələcək nəsillərin tarixi-mədəni həqiqətlərdən uzaqlaşdırılması siyasətinin mühüm tərkib hissəsi olmuşdur. Bu səbəbdən Qərbi Zəngəzur toponimlərinin əsl mənşəyi, etimoloji qatları və semantik xüsusiyyətlərinin üzə çıxarılması yalnız dilçilik baxımından deyil, həm də milli təhlükəsizlik və mədəni irsin qorunması baxımından strateji əhəmiyyət daşıyır.

Tədqiqatın məqsədi Qərbi Zəngəzur bölgəsinin toponimlərini etnolinqvistik müstəvidə araşdırmaq, onların dil qatlarını, etimoloji mənşəyini, semantik xüsusiyyətlərini müəyyənləşdirmək və milli kimliyin qorunmasında oynadığı rolu üzə çıxarmaqdan ibarətdir. Bununla yanaşı, mövcud araşdırmaların nəticələri əsasında təhrif olunmuş və ya dəyişdirilmiş toponimlərin bərpasına elmi əsas yaratmaq, onların xəritələrdə və rəsmi mənbələrdə öz tarixi forması ilə əks olunmasına töhfə vermək də mühüm məqsədlərdəndir.

Nəzəriyyə

Qərbi Zəngəzur bölgəsinin toponimləri Azərbaycan xalqının çoxəsrlik tarixi və etnik kimliyinin mühüm göstəricilərindən biridir. Bu toponimlərin linqvistik təhlili göstərir ki, onların əksəriyyəti qədim türk dillərinə, oğuz tayfa adlarına və bölgədə mövcud olmuş sosial-iqtisadi münasibətlərə bağlıdır. Məsələn, yer adlarında "oba", "el", "qala", "təpə", "dərə", "su", "çay" kimi komponentlərin geniş yayılması türk dillərindəki köklərin canlı izini daşıyır. Bu adlar sadəcə coğrafi əlamətləri deyil, həm də tayfaların yaşayış məskənlərini, təsərrüfat fəaliyyətini və kollektiv kimliyini əks etdirir (Bayramov, 2012).

Tarixi mənbələr göstərir ki, Qərbi Zəngəzur toponimlərinin formalaşmasında müxtəlif etnik qrupların mədəni təsirləri də müəyyən rol oynamışdır. Lakin onların əsas nüvəsini türk mənşəli adlar təşkil edir. "Göyçə", "Qarakilsə", "Ağbaba", "Dəmirçilər", "Soyuqbulaq" kimi toponimlər həm təbiət hadisələrini, həm də peşə və tayfa adlarını ifadə edir. Beləliklə, bölgənin toponim fondu həm dil qatlarının zənginliyini, həm də tarixi-mədəni müxtəlifliyi özündə əks etdirir (Mirzəyev, 2013).

Toponimlərin tarixi-linqvistik qatlarında siyasi hadisələrin də izlərini görmək mümkündür. Xüsusən də XIX–XX əsrlərdə aparılan inzibati dəyişikliklər nəticəsində bir sıra yer adlarının rəsmi sənədlərdə təhrif olunması müşahidə edilir. Lakin arxiv mənbələri, folklor materialları və şifahi xalq yaddaşı

sayəsində bu adların əsl formaları və mənaları qorunub saxlanılmışdır. Məsələn, rəsmi mənbələrdə dəyişdirilən bəzi kənd adları xalq dilində hələ də öz ilkin variantı ilə işlədilir ki, bu da toponimlərin dil və yaddaş davamlılığını göstərir.

Tarixi-linqvistik yanaşma imkan verir ki, Qərbi Zəngəzur toponimləri yalnız coğrafi göstərici kimi deyil, həm də Azərbaycan xalqının tarixi inkişafının, köç yollarının, təsərrüfat həyatının və mədəni-mənəvi dünyagörüşünün canlı şahidləri kimi öyrənilsin. Beləliklə, bu toponimlərin araşdırılması həm Azərbaycan dilçiliyinə, həm də ümumilikdə regionun tarixi və etnocoğrafi tədqiqatlarına dəyərli töhfə verir (Budaqov & Geybullayev, 2009).

Qərbi Zəngəzur toponimləri yalnız coğrafi obyektlərin adları kimi deyil, həm də xalqın etnolinqvistik yaddaşını, tarixi-mədəni dəyərlərini və sosial həyat tərzini qoruyan dil vahidləri kimi çıxış edir. Bu toponimlərdə xalqın məişəti, təsərrüfat fəaliyyəti, dini inancları və etnik kimliyi çoxqatlı semantik strukturlar vasitəsilə özünü göstərir. Başqa sözlə, bölgənin hər bir yer adı sadəcə bir coğrafi məkan göstəricisi deyil, həm də tarixi yaddaşın simvoludur.

Qərbi Zəngəzur toponimlərinin mühüm funksiyalarından biri xalq yaddaşının qorunmasıdır. Ənənəvi adlar vasitəsilə tayfaların məskunlaşma yerləri, köç yolları, tarixi hadisələr və təbiətlə bağlı təsəvvürlər nəsildən-nəsilə ötürülmüşdür. Məsələn, "Soyuqbulaq", "Qaragöl", "Daşbulaq" kimi toponimlər həm coğrafi şəraitə işarə edir, həm də insanların təbiətlə münasibətlərini ifadə edir. Bu adlar sayəsində həmin ərazilərin təbii xüsusiyyətləri, su ehtiyatları və məskunlaşma üçün əhəmiyyəti yaddaşlarda canlı qalır (Mirzəyev, 2014).

Toponimlərin ikinci mühüm funksiyası etnik kimliyin qorunması ilə bağlıdır. Qərbi Zəngəzur bölgəsində işlədilən bir çox adlar qədim türk tayfalarının, peşələrin və ictimai təsisatların izlərini daşıyır. "Dəmirçilər", "Çobanlı", "Elmalı", "Qarabağlar" kimi toponimlər birbaşa xalqın sosial-iqtisadi fəaliyyətini, məişətini və təsərrüfat ənənələrini dil müstəvisində əbədiləşdirir. Bu baxımdan toponimlər həm də etnosun mədəni kodunu saxlayan və milli kimliyi ifadə edən mühüm dil vahidləridir.

Toponimlərin üçüncü funksiyası isə dini inanclar və mənəvi dəyərlərlə bağlıdır. "Pirli", "İmamlı", "Qurbangah" kimi toponimlər bölgədə dini mərkəzlərin, müqəddəs yerlərin mövcudluğunu göstərir və xalqın mənəvi dünyagörüşü haqqında dəyərli məlumat verir. Beləliklə, toponimlər sadəcə bir adlandırma mexanizmi deyil, həm də dini-mədəni həyatın göstəricisidir.

Semantik baxımdan Qərbi Zəngəzur toponimləri çoxqatlı məna daşıyır. Onların bir hissəsi təbiət hadisələrini ("Göydağ", "Ağsu"), digərləri isə sosial-iqtisadi fəaliyyəti ("Taxıllı", "Çobanlı") əks etdirir. Bəzi toponimlər isə tayfa və nəsil adları ilə bağlıdır ("Qıpçaq", "Bayandur"). Bu müxtəliflik toponimlərin yalnız linqvistik vahid deyil, həm də xalqın sosial-mədəni həyatının çoxşaxəli təzahürü olduğunu sübut edir (Səmədova, 2018).

Beləliklə, Qərbi Zəngəzur toponimləri etnolinqvistik baxımdan həm tarixi yaddaşı qoruyan, həm etnik kimliyi ifadə edən, həm də mədəni irsi gələcək nəsillərə ötürən mühüm dil fenomenləridir. Onların semantik qatlarının araşdırılması Azərbaycan xalqının tarixi-mədəni kimliyini daha dərindən öyrənməyə və bu irsin müasir elmi dövriyyəyə gətirilməsinə imkan verir.

Qərbi Zəngəzur bölgəsində toponimlərin dəyişdirilməsi sadəcə inzibati-coğrafi məsələ deyil, həm də xalqın milli-mədəni kimliyinə yönəlmiş ideoloji siyasətin bir hissəsi olmuşdur. Tarixi mənbələr göstərir ki, XIX əsrin sonlarından başlayaraq, xüsusən də sovet hakimiyyəti illərində bir çox qədim türk mənşəli toponimlər rəsmi sənədlərdə dəyişdirilmiş, onların yerinə süni, etnik mənşədən uzaq adlar gətirilmişdir. Bu proses nəticəsində bölgənin əsrlərlə formalaşmış mədəni və dil mənzərəsi təhrif edilmiş, tarixi yaddaşda boşluqlar yaranmışdır (Quliyev, 2013).

Toponimlərin süni şəkildə dəyişdirilməsinin nəzəri izahı onların milli identiklik daşıyıcıları olması ilə bağlıdır. Yer adları xalqın tarixi varlığını, köç yollarını, tayfa mənsubiyyətini və dini inanclarını əks etdirdiyi üçün onların dəyişdirilməsi əslində kollektiv yaddaşın sarsıdılması deməkdir.

Məsələn, türk mənşəli "Soyuqbulaq", "Ağbulaq", "Qaragöl" kimi adların dəyişdirilərək yad mədəniyyət izlərini daşıyan formalarla əvəzlənməsi, bir tərəfdən tarixi reallığın təhrifinə, digər tərəfdən isə xalqın öz köklərindən uzaqlaşdırılmasına xidmət etmişdir.

Bu baxımdan toponimlərin dəyişdirilməsi məsələsinə yalnız dilçilik prizmasından deyil, həm də siyasi, mədəni və etnoloji kontekstdə yanaşmaq vacibdir. Müasir etnolinqvistika bu prosesi "mədəni yaddaşın deformasiyası" kimi izah edir. Çünki hər bir toponim tarixi-mədəni irsin bir kodu olaraq yaddaşı nəsillərə ötürür. Bu kodların süni surətdə dəyişdirilməsi isə yaddaşın ötürülməsində fasilələr yaradır, nəticədə milli kimlik zəifləyir.

Digər tərəfdən, xalq yaddaşında dəyişdirilmiş toponimlərin çox zaman öz ilkin forması ilə yaşadılması milli identikliyin gücünü və davamlılığını sübut edir. Rəsmi sənədlərdə adı dəyişdirilsə də, yerli əhali tərəfindən qədim forması ilə işlədilən kənd və dağ

adları buna nümunədir. Bu fakt göstərir ki, milli yaddaş rəsmi ideoloji təsirlərdən daha güclü olmuş və dil vasitəsilə özünü qoruyub saxlamışdır.

Müasir nəzəri yanaşmalar toponimlərin bərpasını milli identikliyin möhkəmləndirilməsi ilə əlaqələndirir. Qərbi Zəngəzur toponimlərinin öyrənilməsi, onların tarixi variantlarının bərpası və ictimai diskursa qaytarılması milli yaddaşın dirçəldilməsi, Azərbaycan toponimikasının dünya elmi müstəvisində tanıdılması baxımından mühüm əhəmiyyət daşıyır. Beləliklə, toponimlərin dəyişdirilməsi və onların bərpası məsələsi yalnız dilçilik deyil, həm də milli kimliyin qorunması üçün strateji əhəmiyyət kəsb edən nəzəri və praktiki məsələdir.

Tədqiqatın metodologiyası

Qərbi Zəngəzur toponimlərinin araşdırılmasında tarixi-linqvistik yanaşma əsas metodoloji istiqamətlərdən biridir. Bu metodun tətbiqi bölgənin yer adlarının müxtəlif dövrlərdəki formalarının müqayisəsini, onların dil qatlarındakı dəyişikliklərin izlənməsini və etimoloji köklərininp aydınlaşdırılmasını nəzərdə tutur. Çünki hər bir toponim sadəcə coğrafi göstərici deyil, həm də tarixi hadisələrin, etnik proseslərin və mədəni təsirlərin dil müstəvisində qorunan izidir.

Tarixi-linqvistik metod vasitəsilə ilk növbədə qədim mənbələrdə və arxiv sənədlərində əks olunmuş toponimlərin bugünkü variantları müqayisə olunur. Məsələn, XIX əsr rus inzibati sənədlərində və xəritələrində qeydə alınan Qərbi Zəngəzur kənd adları ilə Azərbaycan xalqının şifahi yaddaşında qorunan formalar tutuşdurulur. Bu müqayisələr nəticəsində bəzi adların süni şəkildə dəyişdirildiyi, bəzilərinin isə əsrlərdir öz ilkin forması ilə yaşadığı aşkar edilir.

Etimoloji təhlil metodları toponimlərin leksik-morfoloji quruluşunu açmaqla onların mənşəyini izah etməyə imkan verir. Burada türk dillərinin qədim qatları, oğuz və qıpçaq dialektlərinin təsiri, həmçinin digər etnik qruplarla tarixi təmasların nəticələri araşdırılır. Məsələn, "oba", "el", "qala", "təpə", "dərə", "çay" komponentləri türk dillərinə məxsus qədim köklərin canlı izlərini daşıyır. Bu cür etimoloji elementlər bölgənin toponim fondunun əsasını təşkil edir və onun türk mənşəyini elmi əsaslarla təsdiqləyir.

Metodun vacib istiqamətlərindən biri də toponimlərin zamanla baş vermiş fonetik və semantik dəyişikliklərinin izlənməsidir. Bəzi hallarda coğrafi adlar fonetik adaptasiya nəticəsində fərqli formalara düşmüş, lakin əsas semantik yükünü saxlamışdır. Tarixi-linqvistik təhlil bu cür dəyişikliklərin mahiyyətini üzə çıxarmağa və onların köklərini bərpa etməyə imkan verir.

Nəhayət, etimoloji araşdırmalar yalnız dilin öz daxili qanunauyğunluqları ilə məhdudlaşmır, həm də sosial-tarixi kontekstə bağlanır. Yəni, bir toponimin izahı zamanı həmin ərazidə yaşamış tayfaların etnik mənsubiyyəti, təsərrüfat fəaliyyəti, dini inancları və məişət xüsusiyyətləri də nəzərə alınır. Bu isə metodun kompleks xarakterini təmin edir və toponimlərin sadəcə dil faktı deyil, həm də etnolinqvistik fenomen olduğunu sübut edir.

Beləliklə, tarixi-linqvistik və etimoloji təhlil metodları Qərbi Zəngəzur toponimlərinin mənşəyini, inkişaf mərhələlərini və etnik-mədəni məzmununu üzə çıxarmaq üçün ən mühüm elmi yanaşmalardan biri kimi çıxış edir.

Qərbi Zəngəzur toponimlərinin araşdırılmasında etnolinqvistik və semantik analiz metodları xüsusi əhəmiyyət daşıyır. Çünki bu bölgənin yer adları yalnız coğrafi məkanların göstəricisi deyil, həm də xalqın sosial-mədəni kimliyini, etnik mənsubiyyətini, dini inanclarını və təsərrüfat həyatını əks etdirən dil vahidləridir. Onların öyrənilməsi üçün sadəcə linqvistik yanaşma kifayət etmir; burada etnoqrafik, mədəniyyətşünaslıq və tarixi amillərin də nəzərə alınması vacibdir.

Etnolinqvistik analiz toponimlərin xalq yaddaşında və şifahi ənənələrdə necə qorunduğunu üzə çıxarmağa imkan verir. Məsələn, rəsmi sənədlərdə dəyişdirilmiş və ya təhrif olunmuş bir çox kənd adları yerli əhali tərəfindən hələ də qədim forması ilə işlədilir. Bu fakt göstərir ki, toponimlər yalnız inzibati anlayış deyil, həm də milli yaddaşın kodu kimi nəsillərdən-nəsilə ötürülür. Beləliklə, etnolinqvistik yanaşma toponimlərin xalq kimliyinin və kollektiv yaddaşın qorunmasında oynadığı rolu elmi əsaslarla izah etməyə imkan verir.

Semantik analiz isə toponimlərin məna qatlarını təhlil etməyi nəzərdə tutur. Qərbi Zəngəzur bölgəsindəki yer adlarının bir qismi təbiət hadisələrinə ("Soyuqbulaq", "Qaragöl"), digərləri təsərrüfat fəaliyyətinə ("Dəmirçilər", "Çobanlı"), bəziləri isə tayfa və nəsil adlarına ("Qıpçaq", "Bayandur") bağlıdır. Bu müxtəliflik toponimlərin çoxqatlı semantik struktura malik olduğunu və xalqın həyatının müxtəlif sahələrini dil müstəvisində əks etdirdiyini göstərir. Semantik təhlil metodları vasitəsilə toponimlərin hansı semantik motivlərlə yarandığı, zamanla necə dəyişdiyi və xalq yaddaşında hansı məna çalarlarını saxladığı müəyyənləşdirilir.

Etnolinqvistik və semantik yanaşmalar həm də toponimlərin dini inanclar və mənəvi dəyərlərlə əlaqəsini ortaya qoyur. "Pirli", "İmamlı", "Qurbangah" kimi adlar xalqın dini-mədəni irsini və mənəvi dünyagörüşünü əks etdirən mühüm dil faktlarıdır. Bu baxımdan semantik analiz yalnız sözün lüğəvi

mənası ilə kifayətlənmir, həm də toponimin ictimai-mədəni məzmununu açıqlayır.

Bu metodların tətbiqi Qərbi Zəngəzur toponimlərini sadəcə linqvistik vahid kimi deyil, həm də xalqın mədəni kodlarını, tarixi təcrübəsini və mənəvi dəyərlərini qoruyan etnolinqvistik fenomen kimi öyrənməyə imkan verir. Nəticədə, bölgənin toponim fondu Azərbaycan xalqının tarixi-mədəni irsinin bütövlükdə öyrənilməsi üçün zəngin mənbəyə çevrilir (Rüstəmli, 2010).

Qərbi Zəngəzur toponimlərinin öyrənilməsində mühüm metodoloji istiqamətlərdən biri də müqayisəli-coğrafi və xəritəşünaslıq yanaşmalarıdır. Bu metodlar vasitəsilə bölgənin yer adları həm digər Azərbaycan ərazilərinin toponimləri ilə müqayisə olunur, həm də müxtəlif dövrlərə aid xəritələr əsasında onların dəyişmə tendensiyaları izlənir. Belə bir yanaşma toponimlərin yalnız linqvistik xüsusiyyətlərini deyil, həm də tarixi-coğrafi və siyasi-mədəni transformasiyalarını üzə çıxarmağa imkan verir.

Müqayisəli-coğrafi metod sayəsində Qərbi Zəngəzur toponimləri Azərbaycan və ümumtürk toponimləri ilə tutuşdurulur. Bu proses nəticəsində eyni semantik motivlər, oxşar leksik elementlər və paralel etimoloji köklər aşkar edilir. Məsələn, "Çobanlı", "Ağbulaq", "Daşbulaq" kimi adların oxşar formaları digər bölgələrdə də rast gəlinir və bu, tayfaların köç yollarının, təsərrüfat həyatının və mədəni əlaqələrin izlərini göstərir. Bu müqayisələr həm də Qərbi Zəngəzur toponimlərinin ümumtürk coğrafiyasında tutduğu yeri müəyyənləşdirməyə imkan verir (Mirzəyev, 2014).

Xəritəşünaslıq yanaşması isə toponimlərin zaman içində necə dəyişdirildiyini araşdırmaq üçün əhəmiyyətli vasitədir. XIX əsrə aid Rusiya imperiyası xəritələri, XX əsrin sovet inzibati xəritələri və müasir coğrafi məlumat bazaları müqayisə edilərək toponimlərin hansı dövrlərdə, hansı səbəblərlə dəyişdirildiyi müəyyənləşdirilir. Bu yanaşma göstərir ki, bir çox türk mənşəli yer adları inzibati qərarlarla dəyişdirilmiş, onların yerinə yad mədəniyyət izlərini daşıyan adlar gətirilmişdir. Bu isə toponimlərin yalnız dil vahidi deyil, həm də siyasi-ideoloji mübarizə obyekti olduğunu ortaya qoyur.

Bununla yanaşı, xəritəşünaslıq metodu toponimlərin coğrafi məkanla bağlılığını da üzə çıxarır. Hər bir yer adı müəyyən bir təbii obyekt, landşaft və ya təsərrüfat fəaliyyəti ilə bağlıdır. Məsələn, dağ adları relyef xüsusiyyətlərini, su obyektləri ilə bağlı toponimlər isə bölgənin hidroqrafik şəbəkəsini əks etdirir. Bu baxımdan xəritələrdə aparılan müqayisəli təhlil həm toponimlərin funksional məzmununu, həm də onların mədəni kontekstdəki əhəmiyyətini daha aydın göstərir (Toponimika şöbəsi, 2023).

Beləliklə, müqayisəli-coğrafi və xəritəşünaslıq yanaşmaları Qərbi Zəngəzur toponimlərinin elmi təhlilində mühüm metodoloji baza yaradır. Onlar həm tarixi həqiqətlərin üzə çıxarılmasına, həm də saxtalaşdırılmış toponimlərin bərpasına xidmət edir. Eyni zamanda bu metodlar milli kimliyin qorunması və toponimlərin mədəni irs kimi gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Nəticə və təkliflər

Aparılan araşdırmalar göstərir ki, Qərbi Zəngəzur bölgəsinin toponimləri yalnız coğrafi obyektlərin adları deyil, həm də çoxqatlı tarixi-linqvistik və etnolinqvistik dəyərlərin daşıyıcısıdır. Bu toponimlərdə əsrlərin sınağından keçmiş etimoloji qatlar, qədim türk tayfalarının izləri, sosial-iqtisadi həyatın, dini inancların və məişət mədəniyyətinin elementləri qorunub saxlanılmışdır. Məsələn, "oba", "el", "qala", "təpə", "çay" kimi komponentlər türk dillərinin zəngin kök sisteminə bağlılığın aydın göstəricisidir. Onlar həm tayfaların məskunlaşma məkanlarını, həm də xalqın təbiətlə münasibətini dil müstəvisində təsdiqləyir.

Toponimlərin tarixi-linqvistik dəyəri onların qədim variantlarının müxtəlif mənbələrdə qorunması ilə daha aydın görünür. XIX əsr xəritələrində və inzibati sənədlərdə qeyd olunan adlar ilə şifahi xalq yaddaşında işlənən formaların üst-üstə düşməsi bu adların davamlılığını göstərir. Bu isə sübut edir ki, bölgədə aparılmış süni dəyişikliklərə baxmayaraq, xalq yaddaşı milli kimliyi qorumağın ən etibarlı vasitəsi olmuşdur. Tarixi-linqvistik analiz nəticəsində məlum olur ki, Qərbi Zəngəzur toponimlərinin böyük əksəriyyəti türk mənşəlidir və onların kökləri Azərbaycanın ümumi toponim fondu ilə sıx bağlıdır.

Etnolinqvistik baxımdan isə bu adlar milli-mədəni irsin qorunmasında əvəzsiz rol oynayır. Toponimlər vasitəsilə xalqın təsərrüfat həyatı, peşələri, yaşayış formaları və inancları nəsillərdən-nəsilə ötürülmüşdür. Məsələn, "Dəmirçilər", "Çobanlı", "Soyuqbulaq" kimi toponimlər həm məişət xüsusiyyətlərini, həm də sosial strukturları əks etdirir. Digər tərəfdən, "Pirli", "İmamlı", "Qurbangah" kimi dini məzmunlu toponimlər xalqın mənəvi dünyagörüşünün dil müstəvisində əbədiləşdirilməsinin nümunəsidir.

Nəticə etibarilə, Qərbi Zəngəzur toponimlərinin tarixi-linqvistik və etnolinqvistik dəyəri onların sadəcə coğrafi göstərici olmadığını, eyni zamanda Azərbaycan xalqının tarixi yaddaşının, milli kimliyinin və mədəni kodlarının daşıyıcısı olduğunu sübut edir. Bu toponimlərin sistemli şəkildə araşdırılması və elmi dövriyyəyə qaytarılması milli-mədəni irsin qorunması, tarixi həqiqətlərin bərpası və gələcək nəsillərə ötürülməsi baxımından mühüm nəticədir.

Qərbi Zəngəzur bölgəsinin toponimləri əsrlər boyu Azərbaycan xalqının etnik-mədəni kimliyini, tarixi yaddaşını və mənəvi irsini əks etdirmişdir. Lakin XIX əsrdən başlayaraq bölgədə aparılan siyasi və inzibati dəyişikliklər nəticəsində bir çox qədim türk mənşəli yer adları süni şəkildə dəyişdirilmişdir. Xüsusilə sovet hakimiyyəti illərində bu proses daha sistemli xarakter almış, türk mənşəli toponimlərin əhəmiyyətli hissəsi ya ruslaşdırılmış, ya da ermənileşdirilmiş formalarla əvəz edilmişdir. Bu siyasətin arxasında duran məqsəd milli kimliyi zəiflətmək, xalqın tarixi köklərini unutturmaq və bölgənin etnik mənzərəsini ideoloji baxımdan dəyişdirmək idi.

Toponimlərin dəyişdirilməsi sadəcə dilin leksik fonuna təsir etməmiş, həm də kollektiv yaddaşda ciddi boşluqlar yaratmışdır. Qədim adların rəsmi sənədlərdə silinməsi onların ictimai diskursdan kənarlaşdırılmasına səbəb olmuş, nəticədə gənc nəsillər öz əcdadlarının yaddaş kodlarından xəbərsiz böyümüşdür. Bu, milli identikliyin zəiflədilməsinə yönəlmiş ən təsirli vasitələrdən biri olmuşdur. Çünki hər bir toponim sadəcə coğrafi göstərici deyil, həm də tarixi-mədəni kod daşıyıcısıdır.

Bununla belə, xalq yaddaşının gücü sayəsində bir çox qədim toponimlər rəsmi dəyişikliklərə rəğmən qorunub saxlanmışdır. Yerli əhalinin gündəlik ünsiyyətində, folklorda və şifahi ənənədə bu adların yaşaması milli-mədəni müqavimətin parlaq nümunəsidir. Bu fakt bir daha sübut edir ki, süni dəyişikliklər milli yaddaşın tamamilə silinməsinə nail ola bilməmiş, əksinə, xalqın öz tarixi irsinə bağlılığını daha da gücləndirmişdir.

Nəticə etibarilə, Qərbi Zəngəzurda toponimlərin dəyişdirilməsi siyasəti milli identiklik üçün ciddi təhlükələr yaratmış, lakin xalq yaddaşı bu təhlükələrə qarşı ən güclü sipər olmuşdur. Bu gün həmin adların elmi əsaslarla bərpası, xəritələrdə və rəsmi sənədlərdə öz tarixi forması ilə əks etdirilməsi milli kimliyin möhkəmləndirilməsi və tarixi ədalətin bərpası baxımından strateji əhəmiyyət kəsb edir.

Qərbi Zəngəzur toponimlərinin etnolinqvistik təhlili göstərir ki, bu adlar təkcə tarixi-linqvistik dəyərə malik deyil, həm də müasir dövrdə milli kimliyin qorunması və mədəni irsin bərpası baxımından praktik əhəmiyyət daşıyır. İlk növbədə, aparılmış araşdırmalar nəticəsində müəyyənləşdirilmiş toponimlər Azərbaycan toponimikasının sistemləşdirilməsinə və bu sahədə vahid elmi bazanın formalaşdırılmasına xidmət edir. Beləliklə, həm akademik mühitdə, həm də ictimai şüurda tarixi toponimlərin əsl mənşəyi və daşıdığı mədəni dəyər daha dolğun şəkildə təqdim olunur.

Araşdırmanın praktik əhəmiyyətlərindən biri də təhrif olunmuş və ya dəyişdirilmiş adların bərpası üçün elmi əsas yaratmasıdır. Qədim türk mənşəli toponimlərin elmi təhlil əsasında xəritələrdə, rəsmi sənədlərdə və təhsil resurslarında öz ilkin forması ilə qeyd edilməsi milli yaddaşın gücləndirilməsinə xidmət edəcəkdir. Bu, eyni zamanda beynəlxalq elmi mühitdə Azərbaycan toponimikasının obyektiv təqdim olunmasına da şərait yaradacaq.

Gələcək perspektivlər baxımından bu tədqiqat həm fundamental elmi araşdırmalar, həm də praktiki tədbirlər üçün yeni imkanlar açır. Bir tərəfdən, Qərbi Zəngəzur toponimlərinin etnolinqvistik təhlili digər bölgələrə aid analoji araşdırmalar üçün nümunə rolunu oynaya bilər. Digər tərəfdən, bu araşdırmalar əsasında mədəni irsin qorunması üzrə dövlət proqramları, tədris vəsaitləri və ictimai maarifləndirmə layihələri hazırlanması mümkündür. Bu isə toponimlərin yalnız akademik müstəvidə deyil, həm də geniş ictimai şüurda yaşamasına töhfə verəcəkdir.

Bundan əlavə, müasir texnologiyaların – rəqəmsal xəritəçəkmə, coğrafi informasiya sistemləri (GIS), elektron arxivlər və onlayn məlumat bazalarının – tətbiqi Qərbi Zəngəzur toponimlərinin daha əlçatan və istifadəyə yararlı formada təqdim olunmasına şərait yaradacaqdır. Bu, həm tədqiqatçılar, həm də ictimaiyyət üçün yeni imkanlar açaraq milli-mədəni irsin qorunmasında müasir yanaşmaların tətbiqinə şərait yaradacaqdır.

Nəticə olaraq demək olar ki, Qərbi Zəngəzur toponimlərinin etnolinqvistik təhlili yalnız nəzəri bir araşdırma deyil, həm də praktik nəticələr doğuran, milli kimliyin möhkəmləndirilməsinə və mədəni irsin gələcək nəsillərə ötürülməsinə yönəlmiş strateji bir fəaliyyətdir.

ƏDƏBIYYAT SIYAHISI:

1. Bayramov, İ. (2012). Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm.
2. Budaqov, B. A., & Geybullayev, G. A. (2009). Explanatory dictionary of Azerbaijani origin places' names in Armenia. Bakı.
3. Mirzəyev, H. (2013). Dərələyəz mahalının toponimləri və şivə sözləri. Bakı: Ağrıdağ.
4. Mirzəyev, H. (2014). Qərbi Azərbaycanın Dərələyəz mahalı. Bakı: Elm.
5. Rüstəmli, Ə. M. (2010). Zəngəzurun türk mənşəli yer-yurd adları. Bakı: Elm.
6. Səmədova, K. İ. (2018). Qərbi Azərbaycan – indiki Ermənistan etnotoponimlərinin arealları. Bakı: Nurlan.
7. Toponimika şöbəsi, AMEA Nəsimi adına Dilçilik İnstitutu. (2023). Qərbi Azərbaycan toponimlərinin leksik-semantik xüsusiyyətləri. Bakı.
8. Quliyev, M. (2013). Zəngəzur toponimləri. Bakı: Nurlar NPM.

DOİ: 10.32010/TSEX9927

ƏDƏBİYYATIN TƏDRİSİNDƏ YENİ MƏZMUN XƏTLƏRİNİN ƏHƏMİYYƏTİ

Sona Elşən MƏMMƏDOVA
Mingəçevir Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0008-7989-3089
Email: sona.mammadova@mdu.edu.az

Xülasə: Müasir təhsil sistemində aparılan islahatlar nəticəsində ədəbiyyat fənninin məzmunu yenidən qurularaq şagirdyönümlü yanaşma prinsipi əsasında təkmilləşdirilmişdir. Əvvəlki kurikulumda ədəbiyyat fənni "ədəbiyyat və həyat həqiqətləri", "şifahi nitq" və "yazılı nitq" məzmun xətləri üzrə təşkil olunurdusa, 2025-ci ildən etibarən yeni kurikulum bu istiqamətləri "oxuma, anlama və təhlil" ilə "nitq və ünsiyyət" xətləri şəklində birləşdirərək daha funksional və məqsədyönlü model təklif edir. Yeni məzmun xətləri ədəbiyyatın tədrisində mətnin dərin təhlilini, bədii dəyərlərin mənalandırılmasını, şagirdin fərdi düşüncə və yaradıcılıq qabiliyyətinin inkişafını əsas tutur. Bu yanaşma ədəbiyyatı yalnız məlumat ötürmə vasitəsi kimi deyil, həm də şagirdin tənqidi və yaradıcı düşünmə bacarığının formalaşdığı mədəni-estetik mühit kimi təqdim edir. "Oxuma, anlama və təhlil" xətti vasitəsilə şagirdlər ədəbi mətndəki ideya və bədii dəyərləri dərk edir, "nitq və ünsiyyət" xətti isə onların fikirlərini məntiqi və ifadəli şəkildə təqdim etməsinə imkan yaradır. Beləliklə, yeni kurikulumun tətbiqi ədəbiyyat fənninin humanitar və tərbiyəvi funksiyasını gücləndirir, milli-mənəvi dəyərlərin, estetik zövqün və düşüncə mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Bu dəyişikliklər nəticəsində ədəbiyyat dərsi müasir tədris fəlsəfəsinə uyğun olaraq, öyrənmədən çox anlama və dərk etməyə əsaslanan bir fənn səviyyəsinə yüksəlmişdir.
Açar sözlər: Ədəbiyyat kurikulumu, yeni məzmun xətləri, şagirdyönümlü təlim, beynəlxalq təcrübə

THE IMPORTANCE OF NEW CONTENT LINES IN TEACHING LITERATURE

Sona Elshan MAMMADOVA
Mingachevir State University
Orcid: https://orcid.org/0009-0008-7989-3089
E-mail: sona.mammadova@mdu.edu.az

Abstract: As a result of the reforms carried out in the modern education system, the content of the literature subject has been restructured and improved based on the principle of a student-centered approach. While in the previous curriculum, the literature subject was organized along the content lines of "literature and life realities", "oral speech" and "written speech", from 2025 the new curriculum combines these directions in the form of "reading, comprehension and analysis" and "speech and communication" lines, offering a more functional and purposeful model. The new content lines are based on in-depth analysis of the text, the interpretation of artistic values, and the development of the student's individual thinking and creative abilities in the teaching of literature. This approach presents literature not only as a means of transmitting information, but also as a cultural-aesthetic environment in which the student's critical and creative thinking skills are formed. Through the line of "reading, understanding and analysis", students understand the ideas and artistic values in the literary text, while the line of "speech and communication" allows them to present their ideas logically and expressively. Thus, the implementation of the new curriculum strengthens the humanitarian and educational function of the literature subject, plays an important role in the formation of national-moral values, aesthetic taste and culture of thought. As a result of these changes, the literature lesson has risen to the level of a subject based on understanding and comprehension rather than learning, in accordance with the modern teaching philosophy.
Keywords: Literature curriculum, new content lines, student-centered learning, international experience

ЗНАЧЕНИЕ НОВЫХ СОДЕРЖАТЕЛЬНЫХ ЛИНИЙ В ПРЕПОДАВАНИИ ЛИТЕРАТУРЫ

Сона Эльшан МАМЕДОВА
Мингячевирский Государственный Университет
Orcid: https://orcid.org/0009-0008-7989-3089
Электронная почта : sona.mammadova@mdu.edu.az

Резюме: В результате реформ, проводимых в современной системе образования, содержание предмета «Литература» было реструктурировано и усовершенствовано на основе принципа личностно-ориентированного подхода. Если в предыдущей программе преподавание литературы было организовано по содержательным направлениям «Литература и жизненные реалии», «Устная речь» и «Письменная речь», то с 2025 года новая программа объединяет эти направления в виде направлений «Чтение, понимание и анализ» и «Речь и

коммуникация», предлагая более функциональную и целенаправленную модель. Новые содержательные направления основаны на глубоком анализе текста, интерпретации художественных ценностей, развитии индивидуального мышления и творческих способностей учащихся в процессе обучения литературе. Такой подход представляет литературу не только как средство передачи информации, но и как культурно-эстетическую среду, в которой формируются навыки критического и творческого мышления учащихся. В рамках направления «чтение, понимание и анализ» учащиеся постигают идеи и художественные ценности художественного текста, а направление «речь и коммуникация» позволяет им логично и выразительно излагать свои мысли. Таким образом, внедрение новой учебной программы усиливает гуманитарно-образовательную функцию предмета «литература», играет важную роль в формировании национально-нравственных ценностей, эстетического вкуса и культуры мышления. В результате этих изменений урок литературы поднялся до уровня предмета, ориентированного на понимание и осмысление, а не на усвоение, в соответствии с современной философией преподавания.
Ключевые слова: Учебная программа по литературе, новые направления содержания, личностно-ориентированное обучение, международный опыт

Giriş

Müasir dövrdə təhsil sistemində aparılan islahatların əsas məqsədi bilik ötürməkdən çox, düşünməyi, analiz etməyi, yaradıcı münasibət formalaşdırmağı hədəfləyir. Bu baxımdan ədəbiyyat fənninin tədrisində baş verən dəyişikliklər, xüsusilə də yeni məzmun xətlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Ədəbiyyat təkcə bədii nümunələrin öyrənildiyi sahə deyil, həm də insanın mənəvi aləminin, estetik zövqünün, dünyagörüşünün formalaşdığı məkandır. Fənnin tədrisində məqsəd artıq sadəcə yazıçının həyatını və əsərin süjetini əzbərlətmək yox, əsərdəki mənanı, ideyanı, bədii dəyərləri dərindən dərk etdirməkdir. Bu məqsədə nail olmaq üçün məzmunun quruluşu da dəyişməli, müasir pedaqoji yanaşmalara uyğunlaşdırılmalıdır. Məhz bu səbəbdən son illərdə ədəbiyyat fənn kurikulumunda yeni məzmun xətləri müəyyən edilmişdir ki, bunlar şagirdin bədii mətnlə işləmə bacarığını, nitqini, ünsiyyət vərdişlərini və yaradıcı təfəkkürünü inkişaf etdirməyə yönəlmişdir.

Əvvəlki illərdə tətbiq edilən “Ədəbiyyat və həyat həqiqətləri”, “Şifahi nitq”, “Yazılı nitq” məzmun xətləri dövrünün tələblərinə uyğun olsa da, artıq müasir şagird modeli üçün kifayət qədər çevik deyil. Bu xətlər şagirdlərdə müəyyən bilik və bacarıqları formalaşdırsa da, mətni dərindən təhlil etmə, mənaaltı qatları anlama, fikir mübadiləsi aparma bacarıqlarını yetərincə inkişaf etdirmirdi. Zamanla təhsil anlayışı “bilgi daşımaq”dan “biliyi tətbiq etmək” mərhələsinə keçdiyindən ədəbiyyat fənninin də məzmunu buna uyğun yenilənməli idi. Artıq müəllimlər üçün əsas vəzifə şagirdə əsəri “öyrətmək” yox, əsəri “duymağı” və “düşünməyi” öyrətmək olmuşdur. Yeni məzmun xətləri məhz bu istiqamətdə mühüm dönüş nöqtəsi yaratmış, ədəbiyyat dərslərini daha interaktiv, düşünməyə sövq edən və şagirdyönümlü etmişdir. Yeni məzmun xətləri – “Oxuma, anlama və təhlil” ilə “Nitq və ünsiyyət” – ədəbiyyatın mahiyyətinə uyğun olaraq formalaşdırılmışdır. Bu xətlər bir tərəfdən bədii mətnin çoxqatlı mənasının açılmasına şərait yaradır, digər tərəfdən şagirdin nitq mədəniyyətini, ünsiyyət bacarığını və yaradıcı ifadə imkanlarını genişləndirir. “Oxuma, anlama və təhlil” xətti şagirdin bədii mətni dərinliklə qavramasına, əsər haqqında tənqidi düşüncələrini formalaşdırmasına xidmət edir. “Nitq və ünsiyyət” xətti isə bu düşüncələrin ifadəsini, arqumentləşdirilməsini, mədəni və düzgün danışıq mühitində təqdim edilməsini nəzərdə tutur. Bu iki istiqamət arasında qarşılıqlı əlaqə yaradılmaqla şagird həm oxucu, həm dinləyici, həm də danışan kimi fəal öyrənmə prosesinin iştirakçısına çevrilir.

Tədris prosesində bu dəyişikliklərin əhəmiyyəti təkcə pedaqoji metodlarda deyil, həm də ədəbi tərbiyə anlayışının özündə əks olunur. Müasir şagird yalnız oxuyan deyil, həm də sorğulayan, dəyərləndirən və nəticə çıxaran oxucuya çevrilir. Ədəbiyyat dərsləri vasitəsilə o, həm dil bacarıqlarını, həm də emosional-intellektual duyumunu formalaşdırır. Oxuduğu əsərləri gündəlik həyatla əlaqələndirərək ədəbi düşüncəsini möhkəmləndirir. Nəticədə, fənnin məqsədi biliklərlə yükləmək yox, ədəbiyyat vasitəsilə şəxsiyyətin inkişafına nail olmaq kimi müəyyənləşir. Bu mənada, yeni məzmun xətləri təkcə proqram yeniliyi deyil, həm də ədəbiyyatın tədris fəlsəfəsində keyfiyyətcə yeni mərhələdir.

Əvvəlki məzmun xətlərindəki çatışmazlıqlar

Girişdə vurğulanan ümumi yanaşmaların fonunda, ədəbiyyat fənnində uzun illər tətbiq olunan əvvəlki məzmun xətlərini daha ətraflı nəzərdən keçirmək məqsədəuyğundur. Əvvəlki illərdə tətbiq edilən ədəbiyyat fənn kurikulumunda məzmun xətləri Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2013-cü ildə təsdiq etdiyi Ümumtəhsil Məktəbləri üçün Ədəbiyyat Fənni üzrə Təhsil Proqramında əsaslı yer tutur. Bu proqram ədəbiyyat tədrisinin məqsəd və vəzifələrini, məzmun xətlərini və standartlarını dəqiq şəkildə müəyyənləşdirir.(Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramları (kurikulum), 2013.) Ədəbiyyat fənni yalnız bilik ötürmək vasitəsi deyil, həm də şagirdlərin mənəvi-estetik dünyasını formalaşdıran, onların düşüncə və nitq bacarıqlarını inkişaf etdirən

əsas sahələrdən biridir. Proqramın məzmununda üç əsas məzmun xətti – "Ədəbiyyat və həyat həqiqətləri", "Şifahi nitq" və "Yazılı nitq" xüsusi yer tutur. Bu xətlər ədəbiyyatın mahiyyətinə uyğun olaraq şagirdlərin ədəbi mətnlə işləmə bacarıqlarını mərhələli şəkildə inkişaf etdirməyə yönəlmişdir. Bu çərçivə daxilində şagirdlər müəlliflərin həyat və yaradıcılığı haqqında məlumat alır, mətnin süjet xəttini öyrənir və əsas ideyanı qavrayırdılar.

Ədəbiyyat və həyat həqiqətləri məzmun xətti ədəbiyyatın sosial-mədəni funksiyasını nəzərə alaraq şagirdlərdə milli və ümumbəşəri dəyərləri anlamaq bacarığını formalaşdırırdı. Bu xətt şagirdlərə bədii nümunələrin ideya və məzmununu anlamaq, onlarda əks olunan mənəvi-estetik problemləri dərk etmək imkanı yaradırdı. Şagirdlər bədii mətnlər vasitəsilə həyat hadisələrini müqayisə edir, onları təhlil edir və qiymətləndirirdilər. Ədəbiyyatın obrazlı dil və təsvir vasitələri şagirdlərdə mütaliəyə marağı artırmaqla yanaşı, onların nitq qabiliyyətlərini də inkişaf etdirirdi. Bu xətt əsasında şagirdlər həmçinin milli ədəbiyyatın xüsusiyyətlərini, janr və üslub fərqliliklərini öyrənirdilər. Əvvəlki məzmun xətləri şagirdin bilik bazasının möhkəmlənməsini təmin etməklə yanaşı, onun ədəbi mətni məzmun və ideya istiqamətində təhlil etmə bacarığını formalaşdırırdı.

Şifahi nitq məzmun xətti şagirdlərin düşüncələrini obrazlı və bədii ifadə vasitələrindən istifadə edərək düzgün, ardıcıl və məqsədyönlü formada təqdim etməsinə xidmət edirdi. Bu xətdə şagirdlərə yalnız əsərin süjetini deyil, həm də onun ideyasını və bədii təsirini şifahi şəkildə çatdırmaq bacarığı öyrədilirdi. Müəllim dərs prosesində şagirdləri müzakirələrə cəlb edir, onların fikirlərini obyektiv və ədalətli şəkildə ifadə etməsinə şərait yaradırdı. Şifahi nitq xətti şagirdlərin ictimai ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün mühüm platforma idi. O, şagirdin dil ehtiyatını genişləndirir, fikir yürütmə və arqumentləşdirmə bacarıqlarını gücləndirirdi. Beləliklə, şifahi nitq xətti həm də ədəbiyyat dərslərinin kommunikativ aspektini gücləndirirdi.

Yazılı nitq məzmun xətti isə şagirdlərin mövzu və problemə dair düşüncələrini müxtəlif mənbələrdən əldə edilən informasiyalar əsasında yazılı formada ifadə etməsini təmin edirdi. Bu xətdə şagirdlər müxtəlif tipli yazılar – inşa, esse, hekayə və digər formalar hazırlayaraq fikirlərini dəqiq və məntiqli çatdırmağı öyrənirdilər. Yazılı nitq xətti şagirdlərin mətnlə işləmə bacarığını daha da dərinləşdirir, onların analitik və tənqidi təfəkküründü inkişaf etdirirdi. Ədəbiyyat dərslərində yazılı nitq xətti şagirdlərə yalnız yazmağı deyil, həm də fikir və ideyalarını strukturlaşdırmağı öyrədirdi. Ədəbiyyat fənninin əvvəlki məzmun xətləri müəllim üçün dərsin planlaşdırılmasında və strukturlaşdırılmasında əsas istiqamət rolunu oynayırdı. Tədris planları, adətən, mətnin oxunması, müəllif haqqında məlumat verilməsi, əsərin ideyasının izahı və məzmunun nəqlindən ibarət olurdu. Bu prosesdə şagirdlərin iştirakı, əsasən, müəllimin suallarına cavab vermək və müəyyən tapşırıqları yerinə yetirməkdən ibarət idi. Müəllim mərkəzli yanaşma şagirdin passiv öyrənmə təcrübəsini gücləndirirdi, yaradıcılıq və tənqidi düşünmə imkanlarını məhdudlaşdırırdı.

Əvvəlki məzmun xətləri həm də şagirdlərin ədəbi biliklərinin sistemləşdirilməsini təmin edirdi. Onlar janr, üslub, obraz, mövzu kimi ədəbi anlayışları, həmçinin müəlliflərin yaradıcılıq xüsusiyyətlərini öyrənirdilər. Bu prosesdə ədəbi mətnlərə dair sadə analizlər aparılır, şifahi və yazılı nitq vasitəsilə təqdimat hazırlanırdı. Lakin bu yanaşma məzmunun daha dərindən və kompleks şəkildə öyrənilməsinə imkan vermirdi. Ədəbiyyat və həyat həqiqətləri xətti şagirdlərə yalnız ədəbi mətnin məzmununu öyrətməklə kifayətlənmirdi, həm də onların həyat təcrübəsi və dünyagörüşü ilə əlaqələndirməyi tələb edirdi. Bu xətt şagirdlərdə empatiya, dəyərləri müqayisə etmə və mədəniyyətlərarası dialoq bacarıqlarını inkişaf etdirirdi. Şifahi və yazılı nitq xətləri isə şagirdlərin kommunikativ bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların mətni anlama və təhlil etmə qabiliyyətini də gücləndirirdi. Əvvəlki məzmun xətləri çərçivəsində bu bacarıqlar, əsasən, mətnin məzmununun bədii təhlili ilə məhdudlaşırdı. Lakin müasir dövrdə bu yanaşma daha geniş və interaktiv tədris metodlarını tələb edir.

Ümumilikdə, əvvəlki məzmun xətləri Azərbaycan ədəbiyyatının tədrisində əsas struktur rolunu oynamışdır. Onlar şagirdlərin ədəbi bilik və bacarıqlarının inkişafına müəyyən təsir göstərsə də, müasir tələblərə tam cavab vermirdi. Bu səbəbdən təhsil sahəsində aparılan islahatlar yeni məzmun xətlərinin tətbiqinə gətirib çıxarmışdır ki, bu da ədəbiyyat dərslərinin məzmununu və metodikasını daha zəngin və şagirdyönümlü etmişdir.

Yeni məzmun xətlərinə ümumi yanaşma

Bildiyimiz kimi hər bir fənnin məzmun xətti sabitdir və dəyişməzdir. Əsas standartlar əsasən dəyişmir, alt standartlar isə dəyişkəndir. Məzmun xətləri fənn kurikulumlarının təkmilləşməsi nəticəsində yenilənə bilər ki, bu da Azərbaycan Respublikasının elm və təhsil nazirliyinin 11 aprel 2025-ci il tarixli 3-29/3-2-186F/2025 nömrəli əmrinə 3 nömrəli əlavə ilə qəbul olunmuşdur. (Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün ədəbiyyat fənni üzrə təhsil proqramları (kurikulum), 2025.)

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamında

qeyd edilir ki, cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdirilməli, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir. Bu baxımdan ədəbi təhsil sahəsində də gənc nəsli rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlarda məktəb yaşından zəruri səriştələrin yaranmasına diqqət yetirilməli, yeni bacarıqlar formalaşdırılmalıdır.(ARƏFP, 2025) Yeni məzmun xətləri ümumi təhsil prosesində təhsil alan şəxslərin bacarıq və ədəbi biliklərini daha hərtərəfli təkmilləşdirmək məqsədilə formalaşdırılmışdır. Onlar əvvəlki məzmun xətlərinin davamı olmaqla, XXI əsrin çağırışlarına cavab verir. Həmin xətlər şagirdlərdə bədii nümunələri tənqidi və analitik şəkildə qavrama bacarığını artırır. Bu xətt dünyəvi və milli anlayışları anlamağa şərait yaradır. Təhlil prosesində şagirdlər mövzu, ideya və obrazları qiymətləndirir. Onlar bədii mətnlərin emosional və ideya yönümlü aspektlərini aydın şəkildə fərqləndirə bilirlər. Nitq və ünsiyyət xətti isə şagirdlərdə fikir formalaşdırma və onu aydın ifadə etmə bacarığını gücləndirir. Bu xətt şifahi və yazılı ünsiyyətin inkişafını təmin edir. Məqsəd yalnız nəzəri biliklərini artırmaq yox, eyni anda ünsiyyəti inkişaf etdirməkdir. Ümumilikdə, yeni məzmun xətləri şagirdlərin elmi və şəxsiyyətyönümlü inkişafını eyni zamanda təmin edir. Yuxarıda adı çəkilən məzmun xətlərinin mövzunun tədrisindəki əhəmiyyətinə diqqət yetirək:

1.Oxu, anlama və təhlil məzmun xətti şagirdlərə müxtəlif janrlarda təqdim olunan mətnləri düzgün qavramağı öyrədir. Bu proses yalnız mətnin sözlərinə diqqət yetirməklə yekunlaşmır, həmçinin mövzunun ideya və emosional dərinliyini anlamağa yönəlir. Mətnlərin təhlili şagirdlərdə dünyəvi və mənəvi dəyərlərin qavranılmasına zəmin yaradır. Şagird yalnız oxuduğunu deyil, onu necə anlamalı olduğunu öyrənir. Təhlil prosesində qarşıya çıxan suallar şagirdi daha fəal oxucuya çevirir. Bu isə müasir təhsil məqsədlərinə uyğun gəlir. Qeyd olunan məzmun xətti bacarıqları şagirdin intellektual səviyyəsini artırmaqla yanaşı, onun əxlaqi və estetik dünyagörüşünü də zənginləşdirir. Şagirdlər bədii mətnlərdəki konfliktləri dərk etməyi, obrazların mürəkkəbliyini və müəllifin mesajını analiz etməyi öyrənirlər. Bu bacarıqlar yalnız ədəbiyyat dərslərində deyil, digər tədris sahələrində də tətbiq olunur. Mətnlə işləmək şagirdə müstəqil düşünməyi və öz fikrini əsaslandırmağı öyrədir. Nəticədə həmin bacarıqlar həyatın müxtəlif sahələrində şagirdin uğuruna təsir göstərir.

2. Nitq və ünsiyyət məzmun xətti şagirdin fikirlərini ifadə etmə bacarığını təkmilləşdirir. Bu xətt üzrə təhsil şagirdə yalnız yazılı deyil, həm də şifahi ünsiyyət bacarıqlarını qazandırır. Şagird fikirlərini aydın, səlis və məqsədə istiqamətlənmiş şəkildə izah etməyi öyrənir. Bunlar akademik inkişaf və sosial həyat üçün əhəmiyyətlidir. Ədəbiyyat dərslərində bu bacarıqlar müəllifin ideyasını yazılı, həmçinin şifahi şəkildə izah etməyə yönəldilir. Mətnlərin təhlili zamanı şagirdlər öz arqumentlərini əsaslandırmağı bacarır. Bu isə onların tənqidi təfəkkürünü gücləndirir. Tədris prosesində bu anlayışlar praktik fəaliyyətlər vasitəsilə inkişaf etdirilir. Debatlar, diskussiyalar və təqdimatlar şagirdlərə öz fikirlərini daha inamlı çatdırmaq imkanı yaradır. Nitq və ünsiyyət bacarıqları şagirdin özünəinamını artırır. Həmçinin, bu bacarıqlar onların sosial münasibətlərini də zənginləşdirir. Kurikulumda bu xətt şagirdlərin əməkdaşlıq perspektivlərini də izləyir. Bunlar da öz növbəsində təhsil alanların gələcək həyatlarında effektiv ünsiyyət qurmasına kömək edir.

3. Oxuma, anlama və təhlil bacarıqları ilə nitq və ünsiyyət bacarıqları arasında sıx əlaqə mövcuddur. Oxuma prosesi yalnız informasiyanı əldə etməklə məhdudlaşmır, bunu dərk etməyi və qarşı tərəfə düzgün çatdırmanı əhatə edir. Bu nöqteyi-nəzərdən tədris proqramı hər iki xəttin inteqrasiyasına xüsusi önəm verir. Şagirdlərin oxuma bacarıqları nitq və ünsiyyət bacarıqlarının təməlini təşkil edir. Təhlil bacarıqları isə nitq və ünsiyyətdə arqumentlərin keyfiyyətini artırır. Mətn üzərində düşünmək və onun məzmununu ifadə etmək bacarığı şagirddə kompleks düşüncə tərzini formalaşdırır. Bu isə onların dərs prosesində və sosial mühitdə uğurunu təmin edir. Kurikulumda bu əlaqə nəzərə alınaraq dərslər planlaşdırılır. Müəllimlər bu iki məzmun xəttini dərslərdə səmərəli şəkildə birləşdirir. Nəticədə şagirdlər yalnız bilik əldə etmir, həm də onu tətbiq etməyi öyrənir. Bu səbəbdən sadalanan bacarıqları bir-birini tamamlayır.

5. Oxuma, anlama və təhlil xətti yerli və xarici ədəbiyyatdan götürülmüş nümunələr üzərində qurulur. Bu nümunələr şagirdlərdə yalnız kor-koranə əzbərləmə ilə yekunlaşmır, həm də onların mənəvi dünyagörüşünü formalaşdırır. Təhsil proqramı məhz bu yanaşma ilə hazırlanıb. Ədəbi nümunələr şagirdə əxlaqi və bədii dəyərləri öyrədir. Onlar milli kimliyi və ümumbəşəri dəyərləri dərk edir. Şagirdlər bu prosesdə yalnız oxumaqla kifayətlənmir, həm də oxuduqlarını dəyərləndirir. Təhlil zamanı onların tənqidi düşünmə qabiliyyəti inkişaf edir. Müəllimlər bu prosesdə şagirdləri yönləndirir və dəstək olur. Bu da öz növbəsində onun sosial kommunikasiya qabiliyyətini artırır. Nəticədə oxuma, anlama və təhlil xətti nitq və ünsiyyət xətti ilə sinerji yaradır.

6. Nitq və ünsiyyət xətti təhsil prosesində interaktiv fəaliyyətlərlə zənginləşdirilir. Diskussiya, təqdimat və yazılı layihələr şagirdin bu bacarıqlarını praktik şəkildə inkişaf etdirir. Onlar həmçinin əməkdaşlıq və komanda işini də öyrənir. Təhsil proqramı bu

bacarıqların inkişafını prioritet hesab edir. Bu anlayışlar şəxsi inkişaf üçün də vacibdir. Şagird öz fikrini əsaslandırmaqla yanaşı, başqalarının fikrinə də hörmət etməyi öyrənir. Bunun nəticəsi olaraq, onların sosial adaptasiyasına kömək edir.

7.Oxuma, anlama və təhlil xətti şagirdlərin analitik bacarıqlarını formalaşdırır. Bu bacarıqlar yalnız ədəbiyyat sahəsində deyil, digər fənlərdə də əhəmiyyət kəsb edir. Təhlil bacarıqları şagirdə müxtəlif informasiya mənbələrini dəyərləndirməyi öyrədir. Bu isə onların tədqiqat qabiliyyətini gücləndirir. Kurikulumda bu bacarıqların inkişafı üçün müxtəlif metod və yanaşmalar təklif edilir. Şagirdlər oxuduqları əsərlərdə mövzu və ideyanı müəyyən etməyi öyrənir.

Beləliklə, yeni məzmun xətləri — oxuma, anlama və təhlil, nitq və ünsiyyət — şagirdlərin ədəbi təhsilində əsas rol oynayır. Bu xətlər onların fərdi inkişafını, analitik və yaradıcı düşüncəsini, nitq və kommunikasiya bacarıqlarını kompleks şəkildə formalaşdırır. Oxuma prosesi şagirdlərin estetik və mənəvi dünyagörüşünü zənginləşdirir. Təhlil bacarığı onların tənqidi düşünmə qabiliyyətini artırır. Nitq və ünsiyyət xətti isə bu bacarıqları sosial və akademik ünsiyyətə çevirir. Şagirdlər oxuduqları əsərlərdəki ideya və obrazları müqayisə edir və qiymətləndirirlər. Bu proses onların düşüncə və nitq mədəniyyətini gücləndirir. Yeni məzmun xətləri şagirdləri həyat hadisələrinə qarşı həssas və yaradıcı yanaşmaya hazırlayır. Onlar müstəqil düşünməyi, analiz etməyi və öz fikirlərini dəqiq ifadə etməyi öyrənirlər. Bu isə onların həm fərdi, həm də ictimai inkişafına xidmət edir.

Yeni məzmun xətlərinin psixoloji aspektləri

Müasir təlim nəzəriyyələri göstərir ki, şagirdin öyrənmə prosesində psixoloji amillər onun əldə etdiyi biliklərin dayanıqlılığını və keyfiyyətini müəyyən edir. Ədəbiyyat fənnində yeni məzmun xətlərinin tətbiqi də yalnız metodoloji deyil, həm də psixoloji baxımdan əhəmiyyətli yeniliklər gətirir. "Oxuma, anlama və təhlil" xətti şagirdin diqqətini mətndəki məna qatlarına yönəldərək, onun idrak fəaliyyətini aktivləşdirir. Burada şagird yalnız mətn oxucusu deyil, həm də mətnin mənasını dərk edən və şüurlu şəkildə təhlil edən bir iştirakçıya çevrilir. Bu yanaşma şagirdin hafizə və təfəkkür imkanlarını stimullaşdırır. Məlumdur ki, passiv öyrənmə üsulları tez unudulur, aktiv təhlil isə uzunmüddətli yaddaşda qalır. Yeni kurikulum məhz bu psixoloji qanunauyğunluğu nəzərə alır. Müəllim şagirdi yalnız cavab verməyə deyil, sual qoymağa təşviq edir. Beləliklə, şagird özünü dərk edən, maraq göstərən və müstəqil düşünən şəxsiyyət kimi formalaşır. Ədəbiyyatın emosional təsiri də psixoloji inkişafda mühüm yer tutur. Mətnin obrazlı dili uşağın duyğularına təsir edir, onda empatiya hissini gücləndirir. Bu isə onun sosial-emosional inkişafını dəstəkləyir. Beləliklə, yeni məzmun xətləri psixoloji baxımdan daha fəal, maraqlı və motivasiyalı təlim mühiti yaradır.

Yeni məzmun xətlərinin psixoloji əhəmiyyətinin əsas göstəricilərindən biri motivasiya faktorudur. Ənənəvi tədris modelində motivasiya əsasən qiymət almaq və ya müəllimin tələblərinə cavab verməklə bağlı olurdu. Halbuki müasir psixologiya göstərir ki, davamlı öyrənmə yalnız daxili motivasiya ilə mümkündür. "Oxuma, anlama və təhlil" xətti şagirdi maraqla oxumağa, mətnin gizli məna qatlarını kəşf etməyə təşviq edir. Şagird əsərdəki obrazların hisslərini duyaraq özünü onların yerinə qoyur və bu, onun təbii öyrənmə marağını artırır. "Nitq və ünsiyyət" xətti isə şagirdin öz fikirlərini bölüşmək istəyindən doğan motivasiyanı dəstəkləyir. Müəllim dərsdə müzakirələr, debatlar təşkil etməklə şagirdlərin daxili maraqlarını oyadır. Bu prosesdə şagirdlər yalnız öyrənən deyil, həm də öyrədən rolunda çıxış edir. Beləliklə, psixoloji cəhətdən daha güclü öyrənmə baş verir. Uşaq dərs prosesində həm öyrənir, həm də sosiallaşır. Sosiallaşma isə psixoloji inkişafın vacib tərkib hissəsidir. Deməli, yeni məzmun xətləri motivasiyanı yalnız xarici amillərlə deyil, daxili maraq və yaradıcı həvəs əsasında formalaşdırır.

Şagirdlərin idrak inkişafı baxımından yeni məzmun xətləri onların koqnitiv bacarıqlarını stimullaşdırır. Ədəbiyyat mətni ilə işləmək analitik və sintez etmə qabiliyyətini tələb edir. Əvvəlki məzmun xətlərində şagird əsasən faktları əzbərləyirdi, yeni sistemdə isə analiz, müqayisə, ümumiləşdirmə kimi yüksək idrak bacarıqları ön plana keçir. "Oxuma, anlama və təhlil" xətti şagirdin tənqidi düşünmə qabiliyyətini inkişaf etdirir. Şagird əsərdəki hadisələri sadəcə nəql etmir, onları səbəb-nəticə əlaqəsində şərh edir. Bu prosesdə onun diqqət, hafizə və məntiqi təfəkkürü güclənir. Psixoloji baxımdan bu, intellektual inkişaf üçün mühüm şərtdir. "Nitq və ünsiyyət" xətti isə şagirdin idrak fəaliyyətini sosial müstəviyə daşıyır. O, yalnız düşünmək deyil, həm də düşündüklərini ifadə etmək öyrənir. Bu isə həm dil bacarıqlarını, həm də psixoloji özünəinamı gücləndirir. İnsanın öz fikrini sərbəst ifadə etməsi onun psixoloji sabitliyinə müsbət təsir göstərir. Beləliklə, yeni məzmun xətləri idrak proseslərinin harmonik inkişafını təmin edir.

Ədəbiyyat dərslərində emosional inkişaf da xüsusi rol oynayır. Bədii mətnlər insanın emosional dünyasına təsir göstərən ən güclü vasitələrdən biridir. Şagird əsərdəki obrazların hiss və həyəcanlarını duyaraq, empatiya qabiliyyətini inkişaf etdirir. Bu, psixologiyada "emosional intellekt" adlanır. Yeni məzmun xətləri məhz emosional intellektin inkişafını nəzərdə tutur. "Oxuma, anlama və təhlil" xətti

əsərlərin emosional dərinliklərini öyrənməyə imkan yaradır. "Nitq və ünsiyyət" xətti isə bu hisslərin paylaşılmasını təmin edir. Şagird müzakirələr zamanı öz duyğularını sözlə ifadə edir və həmyaşıdlarının duyğularını da dərk etməyi öyrənir. Bu proses onun emosional tənzimləmə bacarıqlarını artırır. Emosional intellekti yüksək olan şagirdlər həm təhsildə, həm də gündəlik həyatda daha uğurlu olur. Çünki onlar konfliktlərin həllində daha çevik, sosial münasibətlərdə isə daha uğurlu davranırlar. Beləliklə, yeni məzmun xətləri şagirdin emosional inkişafını da sistemli şəkildə dəstəkləyir. Yeni məzmun xətlərinin psixoloji üstünlüklərindən biri də şagirdlərin yaradıcılıq potensialını ortaya çıxarmasıdır. Ədəbiyyat dərsləri artıq yalnız faktların öyrənildiyi sahə deyil, həm də yaradıcı fəaliyyətin reallaşdırıldığı bir mühitdir. "Oxuma, anlama və təhlil" xətti şagirdə mətnin məna qatlarından çıxış edərək yeni nəticələr çıxarmağı öyrədir. Bu isə yaradıcı təfəkkürün əsasını təşkil edir. "Nitq və ünsiyyət" xətti şagirdə öz fikirlərini sərbəst, bədii və orijinal formada ifadə etmək imkanı yaradır. Müəllimlər şagirdləri inşa, esse, hekayə yazmağa təşviq edir. Bu fəaliyyətlər şagirdin yaradıcılıq bacarıqlarını inkişaf etdirir. Psixoloji cəhətdən bu, uşağın özünüifadə ehtiyacını qarşılayır. Özünü ifadə edə bilən şagirdin özünəinamı artır, təhsil motivasiyası güclənir. Yaradıcılıq həm də stressi azaldan, emosional rahatlıq yaradan bir prosesdir. Beləliklə, yeni məzmun xətləri psixoloji baxımdan şagirdin yaradıcılıq imkanlarını üzə çıxarır və onu şəxsiyyət kimi inkişaf etdirir.

Ədəbiyyatın tədrisində şagirdlərin sosial-psixoloji inkişafı da önəmlidir. "Nitq və ünsiyyət" xətti məhz bu sahədə mühüm rol oynayır. Şagirdlər müzakirələr, debatlar və təqdimatlar vasitəsilə əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Bu fəaliyyətlər şagirdlərin komanda işinə adaptasiyasını gücləndirir. Psixoloji baxımdan bu, onların sosiallaşmasını təmin edir. Əvvəllər şagird dərsdə əsasən müəllimlə ünsiyyətdə olurdu, indi isə həmyaşıdları ilə də dialoqa girir. Bu isə onun sosial bacarıqlarını artırır, empatiya və tolerantlıq kimi dəyərləri formalaşdırır. Sosial münasibətlərdə fəallıq göstərən şagirdlərin psixoloji sabitliyi də yüksək olur. Çünki onlar özlərini daha dəyərli və qəbul olunmuş hiss edirlər. Yeni məzmun xətləri bu baxımdan şagirdlərin həm idrak, həm emosional, həm də sosial inkişafını təmin edən kompleks yanaşmadır. Beləliklə, kurikulum yalnız bilik ötürmək deyil, şəxsiyyətin bütöv psixoloji inkişafını hədəfləyir.

Nəticə olaraq, yeni məzmun xətləri psixoloji baxımdan şagirdyönümlü, motivasiyaedici və yaradıcı mühit formalaşdırır. Onlar idrak, emosional və sosial-psixoloji inkişafı eyni anda dəstəkləyir. "Oxuma, anlama və təhlil" xətti şagirdin analitik təfəkkürünü, diqqətini və yaddaşını gücləndirir. "Nitq və ünsiyyət" xətti isə onun sosial münasibətlərini, özünəinamını və emosional sabitliyini möhkəmləndirir. Bu prosesdə şagird həm öyrənən, həm yaradan, həm də paylaşan bir şəxsiyyətə çevrilir. Psixoloji cəhətdən bu, onun təhsil həyatına və şəxsi inkişafına böyük töhfə verir. Ən əsası, şagird dərs prosesində passiv iştirakçı deyil, aktiv və yaradıcı öyrənən olur. Bu isə müasir təhsilin əsas hədəfinə tam uyğun gəlir. Deməli, ədəbiyyat fənnində yeni məzmun xətləri yalnız metodoloji deyil, həm də psixoloji baxımdan böyük əhəmiyyət daşıyır.

Beynəlxalq təcrübə ilə müqayisə

Müasir dövrdə təhsil sistemlərinin inkişafı beynəlxalq göstəricilər və müqayisəli təcrübə əsasında qiymətləndirilir. Xüsusən də oxu, anlama və təhlil bacarıqları üzrə beynəlxalq səviyyədə aparılan PISA (Programme for International Student Assessment) qiymətləndirmələri vacib amilə çevrilib. Azərbaycanın kurikulumunda edilən dəyişikliklərin də əsas hədəflərindən biri PISA göstəricilərində ölkənin mövqeyini yaxşılaşdırmaqdır. Çünki burada yalnız mətnin əzbərlənməsi yox, mətn üzərində analitik təfəkkür, müqayisə aparmaq, nəticə çıxarmaq bacarığı qiymətləndirilir. Dünya təcrübəsinə baxdıqda görürük ki, dünyanın bir sıra ölkələrində oxu-anlama dərsləri sadəcə bədii mətnlərlə məhdudlaşmır. Onlar həm də publisistik, elmi-populyar, hətta rəsmi mətnlərlə işləməyi də daha yaxşı bilir. Bu, şagirdlərin müxtəlif janrlar üzərində işləyərək həyat bacarıqları qazanmasına səbəb olur. Yeni məzmun xətləri də məhz bu istiqamətə uyğunlaşdırılıb. Azərbaycanda indi şagird yalnız "nə oxuduğunu" deyil, həm də "niyə oxuduğunu" anlamalıdır.

Avropa ölkələrinin əksəriyyətində ədəbiyyat dərslərində şagirdlərin şəxsi mövqeyini ifadə etməsi əsas tələblərdən biridir. Məsələn, Finlandiya təhsil modelində şagirdlər oxuduqları mətni şəxsi təcrübələri ilə əlaqələndirirlər. Bu yanaşma onlarda tənqidi təfəkkürü gücləndirir. Azərbaycanda tətbiq edilən yeni məzmun xətləri də eyni prinsipi izləyir. "Nitq və ünsiyyət" xətti şagirdlərə yalnız müəllimin dediklərini təkrarlamağı təbliğ etmir, eyni zamanda öz sözlərini qurmağı öyrədir. Psixoloji baxımdan bu, şagirdlərdə müstəqillik və təşəbbüskarlığı artırır. Beynəlxalq təcrübə göstərir ki, belə şagirdlər gələcəkdə əmək bazarında daha çevik və uğurlu olurlar. Çünki əmək bazarında yalnız nəzəri biliklər deyil, həm də ünsiyyət, problem həlli və yaradıcı düşüncə kimi bacarıqlar tələb olunur. Azərbaycan kurikulumu bu istiqamətdə Avropa təcrübəsi ilə uyğunluq təşkil edir. Bu isə milli təhsilin qlobal inteqrasiyasını gücləndirir.

ABŞ təhsil sistemində ədəbiyyat dərsləri "critical literacy" adlanan yanaşmaya əsaslanır. Burada əsas məqsəd şagirdin oxuduğu mətnə tənqidi gözlə

baxması, oradakı ideyaları şübhə altına alması və alternativ izahlar gətirməsidir. Yeni məzmun xətləri Azərbaycanda da bu bacarıqları inkişaf etdirməyə yönəlib. Əvvəllər şagird mətni sadəcə qəbul edir və müəllimin dediyi nəticələri yazırdı. İndi isə o, öz mülahizəsini formalaşdırmalı, müəllifin mövqeyi ilə razı olub-olmamasını əsaslandırmalıdır. Beynəlxalq təcrübədə bu, müasir vətəndaş cəmiyyətinin tələbi kimi qəbul olunur. Çünki demokratik cəmiyyətdə vətəndaş yalnız məlumatı qəbul edən deyil, həm də dəyərləndirən və fikir bildirən şəxsiyyət olmalıdır. Azərbaycan təhsilinin bu istiqamətdə atdığı addımlar ölkədə tənqidi düşüncənin formalaşmasına xidmət edir. Bu da uzunmüddətli perspektivdə həm təhsilin, həm də cəmiyyətin inkişafına töhfə verəcəkdir. Asiya ölkələrinin bir çoxunda – xüsusən də Sinqapur və Cənubi Koreyada – ədəbiyyat dərsləri şagirdlərin həm analitik, həm də yaradıcı bacarıqlarının inkişafına yönəlib. Bu ölkələrdə oxu prosesinə həm məcburi, həm də seçmə mətnlər daxil edilir. Şagirdlər müəyyən mətnləri oxumaqla yanaşı, öz maraqlarına uyğun əsərləri seçərək təqdimatlar hazırlayırlar. Azərbaycan kurikulumu da indi bu istiqaməti izləyir. Məsələn, yeni məzmun xətlərində şagirdlərin kitabxana resurslarından istifadə etməsi, əlavə mənbələr axtarması təşviq edilir. Bu, şagirdlərdə müstəqil axtarış vərdişi formalaşdırır. Dünyada izlənilən təcrübələr göstərir ki, təhsilalan müstəqil axtarış vərdişinə yiyələnəndə ömürboyu öyrənmə bacarığı qazanır. Bu isə XXI əsrin əsas təhsil prinsiplərindən biridir. Azərbaycan təhsilində də bu prinsiplərin tətbiqi beynəlxalq rəqabət qabiliyyətini artırır. PISA və TIMSS kimi beynəlxalq qiymətləndirmələrdə əsas diqqət yalnız biliklərin yox, bacarıqların ölçülməsinə yönəlir. Azərbaycanda yeni məzmun xətləri də bu məqsədi daşıyır. Əvvəllər şagird yalnız müəllimin verdiyi bilikləri əzbərləməli idi. İndi isə o, bilikləri situasiyalarda tətbiq etməyi öyrənməlidir. Beynəlxalq təcrübədə də belədir: şagirdin biliyi yox, bacarığı ön plandadır. Bu isə pedaqogikada "kompetensiyaya əsaslanan yanaşma" adlanır. Azərbaycan kurikulumu da artıq bu yanaşmanı qəbul edib. Məsələn, "Oxu, anlama və təhlil" xətti üzrə şagird yalnız şeir əzbərləmir, həm də onun ideyasını həyatla əlaqələndirir. Bu metodologiya beynəlxalq təcrübə ilə üst-üstə düşür. Beləliklə, Azərbaycan təhsilində edilən dəyişikliklər qlobal standartlara uyğun bir inkişaf xəttini əks etdirir.

Türkiyə təhsil sistemində son illər tətbiq edilən "Türkçe ve Edebiyat Öğretim Programı" da oxu-anlama, təhlil və nitq bacarıqlarına əsaslanır. Azərbaycan kurikulumu ilə müqayisədə oxşar cəhətlər çoxdur. Hər iki ölkədə milli ədəbiyyat nümunələri əsasında şagirdlərin vətənpərvərlik, milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyəsi aparılır. Bununla yanaşı, beynəlxalq təcrübə də diqqət mərkəzindədir. Bu, təhsilin milliləşməsinə və dünyəvi xarakter daşımasına səbəb olur. Azərbaycan və Türkiyə təcrübəsi nümayiş etdirir ki, bu fənnin tədris olunmasında həm milli kimliyin qorunması, həm də qlobal dəyərlərə açıq olmaq mümkündür. Bu yanaşma beynəlxalq mühitdə uğurla qəbul edilir. Azərbaycanın yeni məzmun xətləri də məhz belə bir balans yaratmağa xidmət edir.

Ümumilikdə, beynəlxalq təcrübə ilə müqayisə göstərir ki, Azərbaycan kurikulumundakı yeniliklər təhsilin qlobal inkişaf tendensiyaları ilə tam uyğunluq təşkil edir. Avropa, Asiya və Amerika ölkələrinin təcrübəsi göstərir ki, şagirdin oxumaq, anlamaq, təhlil etmək və ünsiyyət qurmaq bacarıqları XXI əsrin vacib təhsil məqsədləridir. Azərbaycanda aparılan təhsil islahatları da bu istiqamətdə mühüm addımların atılmasına səbəb olur. Bu isə həm beynəlxalq göstəricilərdə nəticələrin yaxşılaşmasına, həm də milli təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edir. Beləliklə, beynəlxalq təcrübə ilə müqayisə aparmaq göstərir ki, Azərbaycan təhsilində edilən dəyişikliklər yalnız formal deyil, həm də mahiyyətcə dərin və gələcəyə yönəlmişdir.

Nəticə

Ümumilikdə, ədəbiyyat fənnində tətbiq olunan yeni məzmun xətləri – oxuma, anlama və təhlil ilə nitq və ünsiyyət istiqamətləri – müasir təhsil sistemində şagirdyönümlü yanaşmanın mühüm tərkib hissəsidir. Bu məzmun xətləri ədəbiyyat dərslərinin yalnız bilik ötürmə vasitəsi deyil, həm də düşüncə, təhlil və yaradıcı ifadə bacarıqlarının inkişaf müstəvisinə çevrilməsinə şərait yaradır. Əgər əvvəlki kurikulumda diqqət əsasən məzmunun mənimsənilməsinə yönəlirdisə, yeni yanaşma şagirdin mətnlə qarşılıqlı münasibətini, onun mənanı dərk etmə, fikrini əsaslandırma və ünsiyyət qurma bacarıqlarını ön plana çıxarır. Bu isə ədəbiyyat dərsini yalnız ədəbi biliklərin deyil, həm də mənəvi-estetik və ünsiyyət mədəniyyətinin formalaşdığı bir mühitə çevirir. Yeni məzmun xətləri nəticəsində şagird ədəbiyyatı "hazır bilik" kimi deyil, "yaşanmış təcrübə" kimi qavrayır, oxuduğu mətndə özünü tapır və düşünmə mədəniyyətini formalaşdırır. Beləliklə, təkmilləşdirilmiş kurikulum ədəbiyyat fənninin mahiyyətini daha da dərinləşdirir və onun tərbiyəvi, intellektual, estetik dəyərini gücləndirir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramları (kurikulum) Bakı, 2013.

3. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün ədəbiyyat fənni üzrə təhsil proqramları (kurikulum). Bakı, 2025.
4. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları). Bakı, 2010.
5. Həsənli, B.A.(2014). Ədəbiyyatın tədrisi metodikası. Bakı: Bakınəşr.
6. Hüseynoğlu, S.(2019). Ədəbiyyat dərslərində yeni texnologiyalar: Fəal/interaktiv təlim. Bakı.
7. Hüseynoğlu, S., Həsənli, B.A.(2016). V sinif üçün metodik vəsait. Bakı: Bakınəşr.
8. Hüseynoğlu, S., Həsənli, B.A.(2025). VI sinif üçün metodik vəsait. Bakı: Bakınəşr.
9. Hüseynoğlu, S., Həsənli, B.A.(2016). VII sinif üçün metodik vəsait. Bakı: Bakınəşr.
10. Hüseynoğlu, S., Həsənli, B.A.(2016). VIII sinif üçün metodik vəsait. Bakı: Bakınəşr.

DOİ: 10.32010/PRJW8341

DİL VƏ ƏTRAF-MÜHİT DƏYİŞİKLİKLƏRİNİN QARŞILIQLI ƏLAQƏSİNƏ EKOLİNQVİSTİK YANAŞMA

Vəfa Əmrah MURSALOVA
Bakı Slavyan Universiteti
Orsid: https://orcid.org/0000-0003-4411-5873
E-mail: vafa_mursalova@yahoo.com

Xülasə: Bu məqalədə dil və ətraf mühit dəyişiklikləri arasındakı qarşılıqlı əlaqə ekolinqvistik yanaşma çərçivəsində araşdırılır. Məqalədə ekoloji dəyişikliklərin dillərə təsiri, söz ehtiyatının dəyişməsi, mədəni biliklərin qorunması və dilin ətraf mühitə təsiri mövzuları təhlil olunur. Məqalə eyni zamanda ekoloji təfəkkür və davranışın formalaşmasında dilin rolunu tədqiq edir, ətraf-mühit dəyişikliklərinə ekolinqvistik yanaşmanı diqqətə çatdırır. Ekolinqvistik yanaşma dilin təbiətlə bağlı insan qavrayışlarını, dəyərlərini və davranışlarını necə formalaşdırdığını araşdıraraq müasir ekoloji problemlərə yeni bir baxış təqdim edir. Elmi araşdırmalar ekoloji böhranların səbəb və nəticələrini araşdırarkən, çox vaxt insanın ətraf mühitə münasibətinə təsir edən mədəni və linqvistik ölçüləri nəzərdən qaçırır. Dil təkcə insanların ekoloji problemləri necə qavradıqlarını deyil, həm də onlara necə reaksiya verdiklərini formalaşdırır. Məqalədə ekoloji böhranların həm maddi, həm də diskursiv xarakter daşıdığı irəli sürülür. Təbiəti "istismar oluna bilən mənbə" kimi təsvir etmək və ya "iqtisadi artım"ı vurğulamaq kimi əsas linqvistik çərçivələr dayanıqlı olmayan ideyaların əsasını təşkil edir. Bunun əksinə olaraq, yerli adət-ənənələrdə və ətraf-mühitlə bağlı fəaliyyətlərdə istifadə olunan üslub, məsələn, Yer kürəsini ev və ya canlı varlıq kimi təsvir etmək, insanlara təbiətə daha yaxın hiss etməyə, məsuliyyət götürməyə və onunla tarazlıqda yaşamağa kömək edir.

Ekolinqvistik yanaşma onu göstərir ki, dil həm ekoloji böhranın, həm də onun həllinin bir hissəsidir. Əsas fikir ondan ibarətdir ki, dil təkcə ünsiyyət vasitəsi kimi deyil, həm də ekoloji zərərləri davam etdirən və ya təbii mühitə qayğı, məsuliyyət və hörməti artıra bilən əhəmiyyətli bir qüvvə kimi fəaliyyət göstərir. Dağıdıcı, dayanıqlı olmayan diskursları aşkar etməklə və yeni, təbiət-yönümlü hekayələri inkişaf etdirməklə ekolinqvistika davamlılığa doğru mədəni keçid üçün imkanlar təqdim edir. Bu nəticə göstərir ki, ekoloji həllər yalnız texnoloji və siyasi deyil, həm də linqvistik və mədəni aspektləri əhatə etməlidir. İnsanların Yer kürəsi ilə münasibətlərini daha dərindən başa düşmələri üçün hekayələrdə və üslubi ifadələrdə dəyişikliklər aparılması vacibdir. Ətraf-mühitlə bağlı diskurlarda istifadə etdiyimiz sözlər, ifadələr və çərçivələr insanla təbiət arasında daha balanslı və davamlı əlaqənin yaradılmasında mühüm rol oynayır.

Nəticələr göstərir ki, dil ekoloji biliklərin qorunmasında və ekosistem davranışlarının formalaşmasında əsas rol oynayır, dil itkisi isə ekoloji biliklərin itirilməsinə və ətraf mühitin davamlılığına risk yaradır.

Açar sözlər: dil, ətraf-mühit, ekolinqvistik yanaşma, diskurs təhlili

---

AN ECOLINGUISTIC PERSPECTIVE ON THE INTERRELATIONSHIP BETWEEN LANGUAGE AND ENVIRONMENTAL CHANGE

Vafa Mursalova Amrah
Bakı Slavic University
https://orcid.org/0000-0003-4411-5873
vafa_mursalova@yahoo.com

Abstract

This article examines the interrelationship between language and environmental change within the framework of an ecolinguistic approach. The article analyzes the impact of environmental change on languages, vocabulary change, preservation of cultural knowledge, and the impact of language on the environment. The results show that language plays a key role in preserving ecological knowledge and shaping ecosystem behaviors, while language loss poses a risk to the loss of ecological knowledge and environmental sustainability.

The article also examines the role of language in shaping ecological thinking and behavior, and highlights the ecolinguistic approach to environmental change. The ecolinguistic approach offers a new perspective on contemporary environmental

problems by examining how language shapes human perceptions, values, and behaviors related to nature. While scientific research identifies the causes and consequences of environmental crises, it often overlooks the cultural and linguistic dimensions that affect human attitudes toward the environment. Language shapes not only how people perceive environmental problems, but also how they respond to them. The article argues that environmental crises are both material and discursive. Key linguistic frameworks, such as portraying nature as an "exploitable resource" or emphasizing "economic growth," underpin unsustainable ideas. In contrast, the language used in local traditions and environmental activities, such as portraying the Earth as home or a living entity, helps people feel closer to nature, take responsibility, and live in balance with it.

The ecolinguistic approach suggests that language is both part of the environmental crisis and part of its solution. The key idea is that language functions not only as a means of communication, but also as a powerful force that can perpetuate ecological damage or increase care, responsibility, and respect for the natural environment. By exposing destructive, unsustainable discourses and developing new, nature-oriented narratives, ecolinguistics offers opportunities for cultural transformation towards sustainability. This finding suggests that environmental solutions must encompass not only technological and political aspects, but also linguistic and cultural aspects. Changes in narratives and stylistic expressions are essential for people to better understand their relationship with the Earth. The words, phrases, and frames we use in environmental discourses play a crucial role in creating a more balanced and sustainable relationship between humans and nature.

Keywords: language, environment, ecolinguistic approach, discourse analysis.

ЭКОЛИНГВИСТИЧЕСКИЙ ВЗГЛЯД НА ВЗАИМОСВЯЗЬ ЯЗЫКА И ИЗМЕНЕНИЙ ОКРУЖАЮЩЕЙ СРЕДЫ

Вафа Амрах МУРСАЛОВА
Бакинский Славянский Университет
Orcid: https://orcid.org/0000-0003-4411-5873
E-mail: vafa_mursalova@yahoo.com

Резюме: В данной статье рассматривается взаимосвязь языка и изменений окружающей среды в рамках эколингвистического подхода. Анализируется влияние изменений окружающей среды на языки, изменение словарного запаса, сохранение культурных знаний и воздействие языка на окружающую среду. Результаты показывают, что язык играет ключевую роль в сохранении экологических знаний и формировании экосистемного поведения, в то время как утрата языка представляет собой риск утраты экологических знаний и экологической устойчивости.

В статье также рассматривается роль языка в формировании экологического мышления и поведения и освещается эколингвистический подход к изменению окружающей среды. Эколингвистический подход предлагает новый взгляд на современные экологические проблемы, исследуя, как язык формирует человеческое восприятие, ценности и поведение, связанные с природой. Хотя научные исследования выявляют причины и последствия экологических кризисов, они часто упускают из виду культурные и языковые аспекты, влияющие на отношение людей к окружающей среде. Язык формирует не только то, как люди воспринимают экологические проблемы, но и то, как они на них реагируют. В статье утверждается, что экологические кризисы носят как материальный, так и дискурсивный характер. Ключевые лингвистические концепции, такие как представление природы как «эксплуатируемого ресурса» или акцент на «экономическом росте», лежат в основе идей неустойчивого развития. Напротив, язык, используемый в местных традициях и природоохранной деятельности, например, представление Земли как дома или живого существа, помогает людям чувствовать себя ближе к природе, брать на себя ответственность и жить в гармонии с ней.

Эколингвистический подход предполагает, что язык является одновременно частью экологического кризиса и частью его решения. Ключевая идея заключается в том, что язык функционирует не только как средство коммуникации, но и как мощная сила, которая может увековечить экологический ущерб или усилить заботу, ответственность и уважение к окружающей среде. Разоблачая деструктивные, неустойчивые дискурсы и разрабатывая новые, ориентированные на природу нарративы, эколингвистика открывает возможности для культурной трансформации в сторону устойчивого развития. Этот вывод предполагает, что экологические решения должны охватывать не только технологические и политические, но также лингвистические и культурные аспекты. Изменения в нарративах и стилистических выражениях необходимы для лучшего понимания людьми своих отношений с Землей. Слова, фразы и фреймы, которые мы используем в экологическом дискурсе, играют решающую роль в создании более сбалансированных и устойчивых отношений между человеком и природой.

Ключевые слова: язык, окружающая среда, эколингвистический подход, дискурс-анализ

Giriş

Dil və ekologiya əvvəllər tamamilə bir-birindən ayrı sahələr olduğu halda, müasir tədqiqatlarda onların dərin qarşılıqlı əlaqədə olduğu getdikcə daha çox qəbul edilir. Dil yalnız insanlar arasında ünsiyyət vasitəsi deyil, həm də mədəni biliklərin və ekoloji təcrübələrin daşıyıcısıdır. Son illərdə qlobal iqlim dəyişikliyi, təbii fəlakətlər və digər ekoloji dəyişikliklər dil və mədəniyyətlərin qorunmasına mənfi təsir göstərir.

Ekolinqvistika dil və ekosistem arasındakı qarşılıqlı əlaqəni araşdıran elmi sahə kimi 2000-ci illərin əvvəllərindən diqqət mərkəzindədir (Maffi, 2001). Bu yanaşma, dilin sadəcə ünsiyyət vasitəsi olmadığını, eyni zamanda insanların ətraf mühitlə bağlı biliklərini, mədəni təcrübələrini və ekoloji davranışlarını daşıdığını vurğulayır. Dil insanın ətraf-mühit haqqında anlayışını formalaşdırır. İnsanlar yaşadıqları mühitlə bağlı sözləri və ifadələri yaradır. Bitki, heyvan, hava və torpaq ilə bağlı leksik bir bilik sistemi mövcuddur. Ekoloji dəyişikliklər bu leksik sistemə təsir edir: bəzi sözlər unudulur, bəzi yeni terminlər yaranır. Dil və ekoloji problemlər arasındakı əlaqələrin araşdırılması göstərir ki, ünsiyyətin müxtəlif formaları ekoloji şüura birbaşa təsir edir. Ətraf mühit dəyişikliklərinin təsvirində istifadə olunan terminologiya ictimai şüur və davranışın formalaşmasında mühüm rol oynayır. Məsələn, "iqlim dəyişikliyi" ifadəsi nisbətən neytral qəbul edildiyi halda "iqlim böhranı" daha çox təcili tədbirlər və mənəvi məsuliyyət hissi oyadır. Bundan başqa, müxtəlif metaforlardan istifadə, məsələn, Yer kürəsinin "canlı orqanizm" kimi və ya "resurs anbarı" kimi təsəvvür olunması ətraf mühitin ya qorunmalı bir tərəfdaş, ya da istismar olunacaq bir vasitə kimi dərk edilməsinə təsir göstərir. Beləliklə, dil təkcə ekoloji reallığı əks etdirmir, həm də cəmiyyətin bu reallığa münasibətini istiqamətləndirir.

Nəzəriyyə

Ekolinqvistik yanaşma, dilin sadəcə insanlar arasında ünsiyyət vasitəsi olmadığını, eyni zamanda ekoloji biliklərin qorunması və ötürülməsi üçün əsas alət olduğunu göstərir. Dil və ekosistem bir-birinə bağlıdır. Belə ki, insanlar yaşadıqları mühitlə qarşılıqlı əlaqədə olduqlarından, dilləri bu əlaqəni əks etdirir. Məsələn, dağlıq və meşəlik ərazilərdə yaşayan icmaların dillərində müxtəlif bitki və heyvan növlərinə aid zəngin terminologiya mövcuddur. Bu terminlər ekosistemdəki dəyişiklikləri və resursların istifadəsini əks etdirir.

Dil vasitəsilə insanlar təbiətə qarşı münasibəti öyrənir və digər insanlara ötürür. Ekoloji terminologiyanın zənginliyi və istifadəsi insanların davamlı davranışlarını təşviq edir. Məsələn, "dayanıqlı kənd təsərrüfatı" və "biomüxtəlifliyin qorunması" kimi ifadələr insanların ekoloji qərarlarını və gündəlik davranışlarını formalaşdırır.

Ekolinqvistik yanaşma həm lokal, həm də qlobal dillərin rolunu vurğulayır. Lokal dillər ekosistemdəki ənənəvi bilikləri qoruyur, qlobal dillər isə bu bilikləri geniş auditoriyaya çatdırır. Bu qarşılıqlı təsir dil və ətraf mühit arasındakı əlaqəni gücləndirir və ekosistemlərin qorunması üçün vacibdir. Ekolinqvistik yanaşma göstərir ki, dil və ekoloji dəyişikliklər bir-birinə qarşılıqlı təsir göstərir. Dil, ekoloji biliklərin qorunmasında, ekosistem davranışlarının formalaşmasında və mədəni dəyərlərin yaşadılmasında əsas rol oynayır. Dil itkisi və ya zəifləməsi isə ekoloji biliklərin itirilməsinə və ətraf mühitin davamlılığının risk altına düşməsinə səbəb olur.

Ekoloji dəyişikliklər yalnız təbiətdə deyil, həm də insanın dünyagörüşündə və dilində öz əksini tapır. Qlobal iqlim dəyişikliyi, biomüxtəlifliyin azalması və ekoloji fəlakətlər yeni terminlərin yaranmasına səbəb olmuşdur. Məsələn, "karbon izi", "yaşıl enerji", "ekoloji dayanıqlılıq" kimi ifadələr son onilliklərdə gündəlik ünsiyyətin bir hissəsinə çevrilmişdir. Bu cür anlayışlar həm elmi diskursda, həm də ictimai şüurda ekoloji problemlərin aktuallığını göstərir.

Eyni zamanda, mövcud sözlərin semantik sahəsində də dəyişiklik müşahidə olunur. "Tullantı", "enerji", "təhlükəsizlik" kimi sözlər daha əvvəl məhdud sahədə işlədilirdisə, bugün həmin ifadələr cəmiyyətin diqqət mərkəzindədir. Bundan əlavə, ekoloji dəyişikliklərin yaratdığı emosional təsir metaforların güclənməsinə səbəb olur. Yer kürəsinin "nəfəs alan orqanizm" kimi təsviri və ya "boğulan planet" obrazı insanların problemin miqyasını daha dərindən dərk etməsinə xidmət edir.

Edvard Sapir dil və ətraf mühit arasında dərin əlaqə olduğunu vurğulayaraq deyirdi ki, bir dilin quruluşu və söz ehtiyatı sadəcə ixtiyari işarələr toplusu deyil, həmin dildə danışanların ətraf mühitlə bağlı təcrübələrinin əksidir (Sapir, 1912). Bu yanaşma dil quruluşunun ekoloji bilik və qavrayışları necə əhatə etdiyini vurğulayır.

Alvin Fill ekolinqvistikanın inkişafını izah edərkən qeyd edirdi ki, ekolinqvistika zəruri bir sahə kimi meydana çıxmışdır. Belə ki, bu sahə dilçilik tədqiqatları ilə ətraf-mühit məsələləri arasında körpü rolunu oynayır. Bu bir daha onu göstərir ki, dil ekoloji kontekstlərdən həm təsirlənir, həm də onları formalaşdırır. Fill burada dilin yalnız kommunikasiya vasitəsi olmadığını, həm də ekoloji

şüurun və davranışların formalaşmasında mühüm rol oynadığını göstərir (Fill, 2001).

Başqa sözlə desək, ekolinqvistika multidissiplinar xarakter daşıyır və ekoloji problemlərin dil vasitəsilə necə çatdırıldığını vurğulayır. Bu sahə yalnız dil və ünsiyyətin öyrənilməsi ilə məhdudlaşmır, eyni zamanda ətraf-mühitin qorunması və davamlı inkişaf məsələlərini də əhatə edir. Dil vasitəsilə ətraf mühitlə bağlı biliklər ötürülür, ictimai şüur formalaşdırılır və ekoloji davranışlara təsir göstərən hekayələr yaradılır. Dilin quruluşu və istifadəsi ətraf-mühit problemlərini daha dərindən anlamaq və onlara cavab vermək üçün əsas vasitə hesab olunur. Məsələn, mediada ədəbiyyatda, siyasətdə "təbiət", "yaşıl dünya", "iqlim dəyişikliyi" kimi anlayışların necə təqdim olunması, dilimizdə işlənən ifadələr, metaforlar və terminlər təbiətə qarşı davranışımıza təsir edir.

Metodologiya

Dil müxtəlifliyinin ekoloji müxtəlifliklə əlaqəsi, eləcə də dillərin yoxa çıxması, bir çox mədəni və ekoloji biliklərin itməsi ekolinqvistikanın tədqiq etdiyi sahələrdəndir. Ekolinqvistikanın banilərindən hesab olunan Eynar Haugenin fikrincə dil ekosistemdə mövcuddur, yəni dil təkcə qrammatika və leksikadan ibarət deyil, o, danışan icmaların mədəniyyəti, sosial münasibətləri və təbii mühiti ilə sıx bağlıdır. E. Haugenin yanaşması daha çox "dillərin ekologiyası" anlayışına əsaslanırdı. Dillərin ekologiyası dillərin bir-biri ilə qarşılıqlı əlaqəsini, hansı şəraitdə inkişaf etdiyini, yayıldığını və ya yoxa çıxdığını öyrənir. Burada xüsusilə dillərin qarşılıqlı təsiri ekoloji baxış bucağından araşdırılır.

Ekolonqvistikaya tənqidi yanaşmanın əsasını qoyan tədqiqatçılardan biri olan Arran Stibbe dilin yalnız neytral bir vasitə olmadığını, əksinə insanların təbiətə münasibətini formalaşdıran və dəyişdirən bir gücə malik olduğunu vurğulayır. Onun fikrincə, dil "hekayələr" vasitəsilə dünyanı dərk etməyimizə təsir edir. Bu hekayələr insanların ekoloji davranışlarını ya dəstəkləyə, ya da onlara zərər verə bilər. Ekoloji cəhətdən faydalı diskurslar təbiəti qorumağı təşviq edən, davamlılıq və harmoniyanı dəstəkləyən hekayələrdir. Məsələn, "yaşıl enerji gələcəyimizdir" kimi ifadələr insanları alternativ enerji mənbələrinə yönləndirir. Digər tərəfdən, zərərli diskurslar təbiəti yalnız iqtisadi resurs kimi görən və onun istismarını legitimləşdirən ifadələrdir. Məsələn, bir çox siyasi və iqtisadi diskurslarda "iqtisadi artım" mütləq dəyər kimi təqdim olunur. Bu diskurs təbiəti tükənməz resurs kimi göstərir, ekoloji məhdudiyyətləri gözardı edir və davamlı inkişaf anlayışını kölgədə qoyur. Bu da öz növbəsində insanların təbiəti yalnız iqtisadi artımın xidmətində görməsinə səbəb olur (Stibbe, 2015).

Dil və ekoloji mühit bir-birinə təsir göstərən iki sistem kimi işləyir - biri dəyişən zaman digərində də dəyişiklik baş verir. Dil və ətraf mühit dəyişikliklərinin qarşılıqlı əlaqəsi ekolinqvistikanın əsas prinsiplərindən biridir. Bu yanaşmaya görə, insanların yaşadığı təbii və sosial mühit onların danışdığı dili formalaşdırır, eyni zamanda dil insanların təbiətə yanaşma tərzini, qavrayışını və davranışlarını təsir edir. Məsələn, yerli icmalarda iqlim, flora və fauna ilə bağlı sözlərin yox olması yalnız leksikanın itməsi deyil, eyni zamanda həmin icmanın ekoloji biliklərinin də azalması deməkdir (Mühlhäusler, 2003). Digər tərəfdən, media və gündəlik diskurs vasitəsilə təbiət "resurs" kimi təqdim edilirsə, bu insanların təbiətə müdaxilə etməsini legitimləşdirir və ekoloji tarazlığın pozulmasına səbəb olur (Stibbe, 2015). Arktikada yaşayan icmaların dillərində buzla bağlı onlarla termin var. Iqlim istiləşməsi nəticəsində buz formalarının çoxu yox olur, həmin sözlər də istifadədən çıxır, bu da dil zənginliyinin azalmasına səbəb olur. Beləliklə, dil və ətraf mühit arasında qarşılıqlı təsir mövcuddur; biri dəyişdikcə digərində də əhəmiyyətli transformasiyalar baş verir.

İnsan fəaliyyətinin təbiətə təsiri, iqlim dəyişiklikləri, ətraf mühitin qorunması məsələləri mediada da geniş işıqlandırılır. Dilin bu kontekstdə istifadəsi, mesajın auditoriyaya çatdırılma tərzi, metaforlar və narrativlər ekolinqvistik yanaşma ilə araşdırıla bilər. Azərbaycan mediasının nümunəsi olaraq "Xalq Qəzeti"ndə dərc edilmiş "Yaşıl dünya"nı necə qoruyaq?" məqaləsində ətraf mühitin qorunması üçün dövlət proqramları, sərəncamlar və konkret təşəbbüslər təqdim olunur. Hava və su çirklənməsi, torpaq eroziyası, bitki və heyvan növlərinin azalması kimi ekoloji problemlər qeyd edilir. Məqalədə həmçinin "ağıllı kənd", "yaşıl enerji", ekosistemlərin bərpası, emissiyaların azaldılması kimi həll yolları vurğulanır. Məqalədə müxtəlif metafor və ifadələr müşahidə olunur:

"Ana təbiət" — təbiətin qorunması üçün emosional bağlılıq yaratmaq.

"Yaşıl dünya" — təmiz və davamlı ekosistem ideallaşdırılır.

"Planetimiz bizim yeganə evimizdir" — dünya ev metaforası ilə məsuliyyət vurğulanır.

"Təbii ehtiyatlar bərpa olunmayan ehtiyatlardır" — resursların məhdudluğu və qorunma ehtiyacı.

Üslub olaraq məqalə həm emosional, həm də rasional arqumentlərlə oxucunu ekoloji fəaliyyətə çağırır.

Məqalədə meşələrin bərpası və yaşıl sahələrin artırılması ilə bağlı dövlət siyasəti və ekoloji sərəncamlar, təmiz və ekoloji texnologiyalara keçid, tullantıların azaldılması və s. kimi müxtəlif həll yolları təqdim olunur. Fərdi və cəmiyyət səviyyəsində maarifləndirmə və məsuliyyətin artırılmasına çağırış edilir.

Təhlil göstərir ki, məqalədə Smart Growth Reformer və Ekodernist narrativlər üstünlük təşkil edir. Dövlət və texnologiyanın rolu əsas vurğulanır, cəmiyyətin iştirakı isə əlavə, dəstəkləyici element kimi təqdim olunur. Metafor və çağırış dili oxucuda məsuliyyət hissi yaratmaq və ekoloji maarifləndirməni artırmaq məqsədini güdür. Məqalə, Azərbaycan mediasında ekoloji diskursun həm məlumatlandırıcı, həm də hərəkat yaradan funksiyasını göstərən nümunədir.

Ekoloji dəyişikliklər insanların gündəlik həyatına birbaşa təsir etdiyindən, dillərdə istifadə olunan söz ehtiyatı da buna uyğun olaraq dəyişir. Məsələn, temperaturun yüksəlməsi, su qıtlığı, meşə yanğınları və digər iqlim hadisələri insanların gündəlik davranışlarını və fəaliyyət sahələrini dəyişdirir. Bu dəyişikliklər dil vasitəsilə əks olunur və yeni terminlər yaranır. Yeni ekoloji hadisələrə uyğun terminlər və ifadələr dillərə daxil olur. Məsələn, "karbon izi", "iqlim miqrantı", "sürətlə ərimə" kimi ifadələr son illərdə bir çox dillərdə istifadəyə girib. Bu terminlər sadəcə texniki və elmi sahəyə aid deyil, həm də gündəlik danışıq dilində geniş yayılır.

Eyni zamanda, bəzi ənənəvi sözlər və ifadələr aktuallığını itirir. Məsələn, müəyyən bitki və heyvan növləri yox olmağa başlayanda, bu canlıları təsvir edən yerli terminlər də unudulur. İnsanlar yeni mühit və resurslara uyğun davranış tərzləri mənimsədikcə, köhnə sözlər və ifadələr dilin aktiv söz ehtiyatından çıxır.

Dilçilər bu prosesi "leksik azalma" və ya "söz ehtiyatının ekoloji itməsi" kimi ifadə edirlər. Bu fenomen yalnız dillərin dəyişməsini deyil, həm də mədəni biliklərin itməsini sürətləndirir. Belə ki, insanlar artıq müəyyən bitki, heyvan və ekosistem biliklərini ifadə etmək üçün lazımi leksik vasitələrə malik olmur. Nəticədə, dil və ekosistem arasındakı əlaqə bir növ zəifləyir. Yerli dillər ekosistemdəki biliklərin qorunmasında əsas vasitədir. Məsələn, quraqlıq və ya tundra şəraitində yaşayan icmaların dillərində suyu qorumaq, torpağı idarə etmək və bitkilərin istifadəsi ilə bağlı spesifik terminlər mövcuddur. Bu biliklər dil yox olduqda itir və ekosistem idarəçiliyi zəifləyir.

Ekoloji dəyişikliklər yalnız insan həyatına deyil, həm də dillərə və mədəni bilik sistemlərinə birbaşa təsir göstərir. İnsanlar yaşadıqları mühitlə qarşılıqlı əlaqədə olduqlarından, ekosistemdə baş verən dəyişikliklər dilin leksikası, struktur xüsusiyyətləri və mədəni məzmununa əks olunur. Kiçik və təcrid olunmuş dillərin yox olması yalnız mədəni itki yaratmır, eyni zamanda ekoloji biliklərin itirilməsinə səbəb olur. Məsələn, Amazon bölgəsi və Arktikada yerli dillərin yox olması, oradakı bitki və heyvan növləri haqqında biliklərin də itirilməsinə gətirib çıxarır (Cədvəl 1).

Bundan başqa, Azərbaycanın müxtəlif bölgələrində yaşayan icmaların dillərində təbiətə aid zəngin terminologiya mövcuddur. Məsələn, dağ kəndlərində yaşayanlar üçün müxtəlif bitki və heyvan növlərinin adları, onların istifadə məqsədləri və xüsusiyyətləri haqqında xüsusi sözlər mövcuddur. Bu terminlər ekosistemdəki dəyişikliklərə uyğun olaraq zamanla dəyişir və bəzən unudulur. Bu, ekoloji biliklərin itirilməsinə və ekosistemə uyğun davranışların zəifləməsinə səbəb olur. Başqa sözlə, ekoloji dəyişikliklər yalnız leksikanı deyil, mədəni biliklərin strukturunu da dəyişdirir. Ənənəvi ekoloji biliklər, məsələn bitkilərin müalicəvi xüsusiyyətləri, torpaq və suyun idarə olunması, həssas heyvan növlərinin davranışı, dəyişiklik nəticəsində istifadəsini itirir. Dil zəifləndikcə, bu biliklərin ötürülməsi də məhdudlaşır.

Ekoloji dəyişikliklər dillərin leksikasına və strukturuna təsir göstərir, dil isə ekoloji biliklərin qorunmasında və davranışların formalaşmasında əsas rol oynayır. Faydalı ekoloji diskurlar və narrativlər həm mədəni, həm də ekoloji davamlılığı gücləndirir. Bu əlaqəni anlamaq, dilin qorunması və ekosistemlərin davamlılığı üçün vacibdir.

Cədvəl 1.

Faktor	Dilin ekosistemə təsiri	Ekoloji dəyişikliklərin dilə təsiri	Nümunələr
Söz ehtiyatı	Ekoloji biliklərin qorunması	Yeni terminlərin yaranması / ənənəvi sözlərin yox olması	"Karbon izi", "iqlim miqrantı", yerli bitki və heyvan adları
Yerli dillər	Mədəni biliklərin ötürülməsi	Köç və icma dəyişiklikləri dil itkisinə səbəb olur	Amazon yerlilərinin dilləri
Diskurs və narrativ	İnsanların ekoloji davranışla formalaşdırır	Yeni ekoloji mesaj və təlimatlar yaranır.	Media hekayələri, təhsil materialları, sosial media kampaniyaları
Qlobal dillər	Biliklərin geniş auditoriyaya çatdırılması	Ekoloji terminologiyanın qlobal səviyyədə yayımlanması	İngilis dilində iqlim dəyişikliyi terminləri

Dil vasitəsilə insanlar təbiətə qarşı münasibətlərini və davranış qaydalarını öyrənir və ötürür. Ətraf mühitlə bağlı terminologiyanın zənginliyi, insanların ekoloji məlumatlılığını artırır və dayanıqlı davranışların formalaşmasına kömək edir. Müasir tədqiqatlar göstərir ki, ekoloji dəyişikliklərin söz ehtiyatına təsiri yalnız lokal dillərlə məhdudlaşmır; qlobal dillər də yeni terminlər və ifadələr vasitəsilə bu dəyişiklikləri əks etdirir. Bu da göstərir ki, dil həm ekoloji proseslərin göstəricisi, həm də insan-mühit qarşılıqlı təsirinin daşıyıcısıdır (Maffi, 2001).

İnsanların yaşayış mühiti dəyişdikcə, ekosistem hadisələri dillərin leksik və semantik strukturuna əks olunur. Qlobal iqlim dəyişikliyi və təbii fəlakətlər nəticəsində elmi və texniki sahələrdə yeni terminlər meydana çıxır. Məsələn, "dayanıqlı kənd təsərrüfatı" və "ekstremal hava hadisələri" kimi ifadələr qlobal dillərə daxil olur. Bu terminlər yalnız elmi çevrələrdə deyil, gündəlik danışıq dilində də geniş yayılır. Bu proses dillərin adaptasiya qabiliyyətini göstərir və ekoloji məlumatların geniş auditoriyaya çatdırılmasını təmin edir. Qlobal dillər, xüsusən ingilis dili, ekoloji biliklərin qlobal miqyasda paylaşılmasında vasitə rolunu oynayır. Elmi məqalələr, təlimatlar, xəbər və sosial media vasitəsilə insanlar ekoloji problemlər barədə məlumatlanır. Bu, insanların davranışlarını və ekoloji qərarlarını formalaşdırmaqda mühüm rol oynayır.

Həm lokal, həm də qlobal dillərdə söz ehtiyatı ekoloji dəyişikliklər nəticəsində zənginləşir. Yeni terminlər yaranır, bəzi ənənəvi sözlər isə unudulur. Bu proses yalnız dilin dinamikliyini göstərmir, həm də insanların təbiət və ekosistemlə qarşılıqlı əlaqəsini əks etdirir. Qlobal və lokal dillər bir-birini tamamlayır: lokal dillər ənənəvi bilikləri qoruyur, qlobal dillər isə bu bilikləri geniş auditoriyaya çatdırır. Bu qarşılıqlı təsir ekosistemlərin qorunması və davamlı idarə olunması üçün vacibdir.Ekoloji dəyişikliklər həm lokal, həm də qlobal dillərin leksik və semantik strukturlarına təsir göstərir. Yeni terminlər yaranır, köhnə sözlər unudulur və nəticədə dil, ekosistem hadisələrinin həm göstəricisi, həm də bilik daşıyıcısı kimi çıxış edir. Bu, dil və ətraf mühit arasındakı qarşılıqlı əlaqənin güclü və çoxşaxəli olduğunu göstərir.

Nəticə

Beləliklə, ekoloji dəyişikliklər dildə yeni leksik vahidlərin yaranması, mövcud anlayışların məna çevrəsinin genişlənməsi və emosional-mənəvi çalarların artması ilə təzahür edir. Bu proses dilin yalnız kommunikasiya vasitəsi deyil, həm də ekoloji şüurun güzgüsü olduğunu göstərir. Başqa sözlə desək, dil yalnız insanlar arasında ünsiyyət vasitəsi deyil, həm də mədəni biliklərin və ekoloji təcrübələrin daşıyıcısıdır. Qlobal iqlim dəyişikliyi, təbii fəlakətlər və digər ekoloji dəyişikliklər dillərin qorunmasına və ekoloji biliklərin ötürülməsinə təsir göstərir. Ekolinqvistik yanaşma göstərir ki, dil və ətraf mühit arasında qarşılıqlı təsir mövcuddur. Ekoloji dəyişikliklər dillərin strukturuna və söz ehtiyatına təsir göstərir, dil isə ekoloji biliklərin qorunması, ekosistem davranışlarının öyrənilməsi və ekoloji siyasətin formalaşmasında mühüm rol oynayır. Bu yanaşma, həm dillərin, həm də ətraf mühitin qorunmasının əhəmiyyətini vurğulayır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Fill, A., & Mühlhäusler, P. (Eds.). (2001). The Ecolinguistics Reader: Language, Ecology and Environment. Continuum, 43-53.
2. Maffi, L. (2001). On endangered languages and biodiversity. Language and Ecology Journal, 12(3), 45–59.
3. Mühlhäusler, P. (2003). Language of Environment, Environment of Language: A Course in Ecolinguistics. London: Battlebridge, 47.
4. Sapir, E. (1912). Language and Environment. American Anthropologist, New Series, 226-242.
5. Stibbe, A. (2014). "An Ecolinguistic Approach to Critical Discourse Studies." Critical Discourse Studies, vol. 11, no. 1, 117–128.
6. Stibbe, A. (2015). Ecolinguistics: Language, ecology and the stories we live by. London: Routledge, 13-18, 146.
7. https://www.xalqqazeti.az/az/ekologiya/203506-yasil-dunyani-nece-qoruyaq

DOİ: 10.32010/KLYP7850

UŞAQDA ANA DİLİNİN MƏNİMSƏNİLMƏSİ: LİNQVO-PSİXOLOJİ BAXIŞ

Nəzrin Cavanşir MUSTAFAYEVA
Bakı Dövlət Universiteti Filologiya fakültəsi,
Ümumi dilçilik kafedrası Dil nəzəriyyəsi ixtisası üzrə doktorant
Orcid: https://orcid.org/0009-0002-6797-200X
E-mail: nezrinmustafayeva9@gmail.com

Xülasə: Bu məqalədə uşaqlarda ana dilinin mənimsənilməsi prosesi linqvo-psixoloji baxımdan araşdırılır. Ana dilinin mənimsənilməsi yalnız fonetik və leksik vahidlərin toplanması deyil, həm də idrakın, təfəkkürün, sosial ünsiyyətin və emosional inkişafın mühüm göstəricisi kimi təqdim olunur. Nitq inkişafı mərhələli şəkildə – fonetik bacarıqlardan leksik ehtiyatın zənginləşməsinə, daha sonra isə qrammatik strukturların formalaşmasına qədər davam edir. Bu mərhələlərin hər biri uşağın kognitiv inkişafı ilə üzvi surətdə bağlıdır.
Psixolinqvistik yanaşmalar göstərir ki, qavrayış, yaddaş, təfəkkür və təxəyyül kimi mexanizmlər uşağın dil fəaliyyətinin formalaşmasında əsas rol oynayır. Sosial mühit və ailə faktoru uşağın ilkin nitq təcrübəsini formalaşdırır, məktəb mühiti isə qrammatik biliklərin sistemli şəkildə mənimsənilməsinə şərait yaradır. Mədəni amillər – xalq ədəbiyyatı, nağıl, atalar sözləri və şeirlər uşağın nitqinə obrazlılıq və emosional dərinlik qatır.
Müasir dövrdə çoxdillilik uşaqların dil mənimsənmə prosesinə həm müsbət, həm də mənfi təsir göstərir: bir tərəfdən idrak çevikliyini artırır, digər tərəfdən isə ana dilində lüğət ehtiyatının zəif inkişafına gətirib çıxara bilər. Nəticə etibarilə, ana dilinin mənimsənilməsi yalnız linqvistik hadisə deyil, həm də psixoloji, sosial və pedaqoji faktorların qarşılıqlı təsiri ilə formalaşan kompleks bir proses kimi qiymətləndirilir.
Açar sözlər: Ana dili, psixolinqvistika, nitq inkişafı, dil və təfəkkür, sosial mühit, mədəni faktorlar, çoxdillilik.

ОБУЧЕНИЕ РОЖДЕННЫМ ЯЗЫКОМ ДЕТЕЙ: ЛИНГВО-ПСИХОЛОГИЧЕСКИЙ ВЗГЛЯД

Назрин Мустафаева ДЖАВАНШИР
Бакинский Государственный Университет Филологический Факультет
Кафедра Общего Языкознания К.ф.-м. студентка специальности «Теория языка Орцид»:
Orcid: https://orcid.org/0009-0002-6797-200X
E-mail: nezrinmustafayeva9@gmail.com

Резюме: В данной статье рассматривается процесс усвоения родного языка детьми с лингво-психологической точки зрения. Освоение родного языка представляется не только как накопление фонетических и лексических единиц, но и как важный показатель развития познания, мышления, социальной коммуникации и эмоциональной сферы. Развитие речи проходит поэтапно — от формирования фонетических навыков к обогащению лексического запаса, а затем к усвоению грамматических структур. Каждый из этих этапов органически связан с когнитивным развитием ребенка.
Психолингвистические подходы показывают, что такие механизмы, как восприятие, память, мышление и воображение, играют ключевую роль в формировании речевой деятельности ребенка. Социальная среда и семейный фактор определяют первоначальный речевой опыт, тогда как школьная среда обеспечивает системное усвоение грамматических знаний. Культурные факторы — народное творчество, сказки, пословицы и стихи — придают речи ребенка образность и эмоциональную глубину.
В современном мире многоязычие оказывает как положительное, так и отрицательное влияние на процесс усвоения языка: с одной стороны, оно повышает когнитивную гибкость, с другой — может привести к слабому развитию словарного запаса на родном языке. В итоге усвоение родного языка представляется
как сложный процесс, формирующийся во взаимодействии лингвистических, психологических, социальных и педагогических факторов.
Ключевые слова: родной язык, психолингвистика, развитие речи, язык и мышление, социальная среда, культурные факторы, многоязычие.

CHILDREN'S MOTHER LANGUAGE ACQUISITION: A LINGUO-PSYCHOLOGICAL VIEW

Nazrın Javanshır MUSTAFAYEVA

Baku State University Faculty of Philology,
Department of General Linguistics Ph.D. student majoring in theory of language
Orcid: https://orcid.org/0009-0002-6797-200X
E-mail: nezrinmustafayeva9@gmail.com

Abstract: This article explores the process of mother tongue acquisition in children from a linguo-psychological perspective. Mother tongue acquisition is not limited to the accumulation of phonetic and lexical units; rather, it represents a fundamental aspect of cognitive growth, social interaction, and emotional development. Speech development unfolds in stages, beginning with phonetic skills, followed by the expansion of lexical resources, and culminating in the mastery of grammatical structures. Each stage is organically connected with the child's cognitive development and supported by psycholinguistic mechanisms.

Psycholinguistic research highlights the central role of perception, memory, thinking, and imagination in shaping speech activity. The social environment, particularly the family, provides a foundation for initial language experiences, while the school system ensures a structured acquisition of grammar and literacy skills. Cultural elements such as folklore, fairy tales, proverbs, and poetry enrich expressive abilities and add depth to the child's emotional and linguistic repertoire.

In contemporary contexts, bilingualism exerts both positive and negative influences. On the one hand, it enhances cognitive flexibility and intercultural communication skills; on the other, it may weaken vocabulary acquisition in the mother tongue and increase grammatical interference. Overall, mother tongue acquisition is presented as a complex, multidimensional process shaped by the interplay of psychological, social, cultural, and pedagogical factors.

Keywords: Mother tongue, psycholinguistics, speech development, language and thought, social environment, cultural factors, bilingualism.

Giriş

Ana dilinin mənimsənilməsi məsələsi həm dilçilik, həm psixologiya, həm də pedaqogika elmlərinin ən mühüm tədqiqat istiqamətlərindən biridir. Uşağın dünyanı dərk etməsi, ətraf mühitlə ünsiyyət qurması, intellektual və emosional inkişafı bilavasitə onun dil bacarıqlarının formalaşması ilə sıx bağlıdır. Ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də düşüncə proseslərinin əsas daşıyıcısı, idrakın mühüm alətidir. Buna görə də uşaqlarda ana dilinin mənimsənilmə mexanizmlərinin araşdırılması müasir dövrdə aktuallığını qoruyur.

Psixolinqvistika elmi göstərir ki, dilin mənimsənilməsi prosesi yalnız fizioloji və ya psixoloji mexanizmlərlə məhdudlaşmır. Bu proses həm də sosial mühitin təsiri altında baş verir. Uşağın ailə və cəmiyyət daxilində qazandığı ilkin nitq təcrübəsi onun ümumi idrak inkişafını stimullaşdırır. Bu baxımdan, ana dilinin mənimsənilməsi məsələsinə linqvo-psixoloji aspektdən yanaşmaq uşağın nitq inkişafı ilə kognitiv inkişafı arasındakı qarşılıqlı əlaqələri açmağa imkan verir.

Psixolinqvistika ümumilikdə insanın dil fəaliyyətinin öyrənilməsi ilə məşğul olan elm sahəsidir. Onun əsas predmeti nitqin yaranması və qavranılması mexanizmləri, dil vahidlərinin psixoloji yadda saxlanılması və uşağın dil bacarıqlarını necə mənimsədiyini izah etməkdir (Hüseynov, Şiriyev & Muradov, 2004). Əsgərov (2011) isə göstərir ki, psixolinqvistika həm də dil və təfəkkür münasibətlərini araşdıraraq, uşağın dil öyrənmə prosesinin intellektual və sosial tərəflərini üzə çıxarır.

Müxtəlif nəzəriyyələrdə uşaqlarda nitq inkişafının mərhələləri və əsas xüsusiyyətləri fərqli şəkildə izah edilmişdir. Məsələn, L.S. Vıqotskinin sosial-mədəni nəzəriyyəsinə görə, dil və təfəkkür bir-biri ilə üzvi şəkildə bağlıdır və uşağın intellektual inkişafı məhz ünsiyyət vasitəsilə reallaşır. Digər yanaşmalarda isə ikinci siqnal sistemi və sözün nominativ funksiyası əsas yer tutur. Əsgərov (2015) və Məmmədov (2008) kimi tədqiqatçılar göstərirlər ki, uşağın ətraf aləmlə bağlı təsəvvürlərinin yaranması və ümumiləşdirilməsi məhz söz vasitəsilə həyata keçir.

Mövzunun aktuallığı həm də onunla bağlıdır ki, müasir dövrdə uşaqlarda ana dilinin mənimsənilməsinə təsir edən müxtəlif sosial və texnoloji faktorlar mövcuddur. Televiziya, internet, çoxdilli mühit uşaqların dil bacarıqlarına həm müsbət, həm də mənfi təsir göstərə bilir. Bu isə uşaqlarda nitq mədəniyyətinin, düzgün ifadəetmə bacarığının və zəngin lüğət ehtiyatının formalaşdırılmasını daha da vacib edir.

Bu məqalənin məqsədi uşaqlarda ana dilinin mənimsənilmə prosesini linqvo-psixoloji baxımdan araşdırmaq, dil və təfəkkür münasibətlərini izah etmək, həmçinin ifadəvi və semantik planın inkişaf mexanizmlərini açıqlamaqdır. Məqalədə həm klassik, həm də müasir psixolinqvistik nəzəriyyələrə istinad ediləcək, aparıcı tədqiqatçıların fikirləri

müqayisəli təhlil ediləcəkdir.

Beləliklə, işin əsas vəzifələri aşağıdakılardır:

1. Uşaqlarda ana dilinin mənimsənilməsinin nəzəri əsaslarını araşdırmaq.
2. Nitq inkişafının mərhələlərini linqvo-psixoloji aspektdən təhlil etmək.
3. İfadəvi və semantik planın formalaşmasında kognitiv mexanizmləri üzə çıxarmaq.
4. Ana dilinin mənimsənilməsinin sosial və pedaqoji əhəmiyyətini müəyyənləşdirmək.

Uşaqlarda ana dilinin mənimsənilməsinin nəzəri əsasları

Ana dilinin mənimsənilməsi probleminin elmi-nəzəri əsasları

Ana dilinin mənimsənilməsi insanın idrak, sosial və mədəni inkişafının ən mühüm tərəflərindən biridir. Bu məsələ uzun illərdir müxtəlif elm sahələrinin – dilçilik, psixologiya, pedaqogika və fəlsəfənin əsas tədqiqat mövzularından biri olmuşdur. Uşağın dilə yiyələnməsi yalnız fərdi inkişaf baxımından deyil, həm də cəmiyyətin mədəni varlığının qorunması və ötürülməsi baxımından əhəmiyyət kəsb edir.

Ana dili uşağın ətraf aləmi dərk etməsi, sosial münasibətlərə daxil olması və intellektual potensialını reallaşdırmasının əsas vasitəsidir. Dilin qazanılması uşağın psixoloji yetkinləşməsi, emosional sabitliyi və ünsiyyət bacarıqlarının formalaşması ilə sıx bağlıdır. Bu baxımdan, ana dilinin mənimsənilməsi həm fərdin inkişafında, həm də cəmiyyətin sosial-mədəni həyatında mühüm rol oynayır.

Ana dilinin idrakla əlaqəsi

Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də düşüncənin əsas daşıyıcısı və mədəniyyətin ötürücüsüdür. Əsgərov (2015) qeyd edir ki, uşağın ikinci siqnal sistemi vasitəsilə sözlərlə əşyaları əlaqələndirməsi onun kognitiv inkişafının ilkin göstəricisidir. Başqa sözlə, uşaq üçün dil sadəcə eşitdiyi səslərin məcmusu deyil, əşyaların, hadisələrin və anlayışların simvolik ifadəsidir. Bu simvollar vasitəsilə uşaq real aləmi dərk edir, hadisələr arasında əlaqələr qurur və ümumiləşdirmələr aparır.

Məmmədov (2008) isə dilin mənimsənilməsini daha çox psixoloji reaksiya və təcrübə müstəvisində izah edir. O, göstərir ki, uşaq müəyyən sözü eşitdikdə və ya həmin sözü əyani şəkildə müşahidə etdikdə onda müvafiq emosional və idraki reaksiya yaranır. Bu reaksiya nəticəsində sözün semantik yükü möhkəmlənir və uşağın yaddaşında sabitləşir. Deməli, nitq fəaliyyəti sadəcə təkrar mexanizmlərin deyil, həm də emosional və idraki reaksiyaların sintezi nəticəsində formalaşır.

Dil və təfəkkürün qarşılıqlı əlaqəsi

Ana dilinin mənimsənilməsinin ən mühüm nəzəri problemlərindən biri dil və təfəkkür münasibətləridir. Bu məsələyə dair müxtəlif nəzəri yanaşmalar mövcuddur:

- Vıqotski (1934) sosial-mədəni nəzəriyyəsində göstərir ki, uşaq əvvəlcə dili yalnız ünsiyyət vasitəsi kimi istifadə edir ("xarici nitq"), daha sonra isə bu dil daxili nitqə çevrilərək təfəkkürün təşkiledici funksiyasını daşıyır. Beləliklə, dil təkcə ünsiyyət vasitəsi deyil, həm də düşüncənin formalaşma alətidir.
- Chomsky (1965) isə bu məsələyə bioloji prizmadan yanaşır. Onun transformativ-əsaslı nəzəriyyəsinə görə, insan beynində doğuşdan universal qrammatika mövcuddur. Bu qrammatik biliklər uşağın qısa müddətdə dil qaydalarını mənimsəməsini və yeni cümlələr qurmasını mümkün edir.
- Piaget (1972) dilin mənimsənilməsini uşağın idrak inkişafı mərhələləri ilə əlaqələndirir. O, göstərir ki, uşaq yalnız müəyyən kognitiv yetkinlik səviyyəsinə çatdıqdan sonra dil vahidlərini mənimsəyə bilir. Yəni, idrak inkişafı dilin əsas təməlidir.
- Halliday (1978) isə dilə funksional yanaşma sərgiləyərək qeyd edir ki, dil yalnız nominativ funksiya daşımır, həm də sosial münasibətlərin qurulması, emosional təcrübələrin ifadəsi və mədəniyyətin ötürülməsi vasitəsidir.

Bu yanaşmalar birgə göstərir ki, dil və təfəkkür münasibətləri qarşılıqlı və çoxşaxəlidir. Dil idrakı təşkil edir, eyni zamanda idrak da dilin inkişafını stimullaşdırır.

Psixolinqvistik mexanizmlər

Psixolinqvistika göstərir ki, dilin mənimsənilməsi həm bioloji, həm psixoloji, həm də sosial amillərin birgə təsiri ilə baş verir. Burada əsasən üç mərhələ fərqləndirilir:

1. Fonetik mərhələ – uşaq ətraf mühitdə eşitdiyi səsləri təqlid edir və tədricən ana dilinin fonetik sisteminə uyğunlaşır.
2. Leksik mərhələ – sözlərin və anlayışların mənimsənilməsi, nominativ funksiyanın formalaşması.
3. Qrammatik mərhələ – sintaktik və morfoloji strukturların mənimsənilməsi, cümlə quruluşlarının formalaşması.

Əsgərov (2011) vurğulayır ki, bu mərhələlər bir-birindən təcrid olunmur, əksinə, qarşılıqlı əlaqədə inkişaf edir. Uşağın kognitiv inkişaf səviyyəsi bu mərhələlərin sürətini və keyfiyyətini müəyyənləşdirir.

İkinci siqnal sistemi və ümumiləşdirmə prosesi

İ.P. Pavlovun ikinci siqnal sistemi nəzəriyyəsi ana dilinin mənimsənilməsinin fizioloji əsaslarını izah edir. Bu nəzəriyyəyə görə, insan yalnız birinci siqnal sistemi (əşyaların hissi qavranılması) ilə deyil, həm də ikinci siqnal sistemi (sözlərin qavranıl-

ması) ilə fəaliyyət göstərir. Sözlər müəyyən predmetlərlə əlaqələndirilir və ümumiləşdirici funksiya daşıyır.

Məsələn, "top" sözü konkret bir oyuncağı deyil, dairəvi formaya malik müxtəlif idman əşyalarını ifadə edə bilər. Bu ümumiləşdirmə prosesi uşağın abstrakt düşüncə qabiliyyətini inkişaf etdirir və idrak sferasını genişləndirir.

Dilin sosial mühitdə mənimsənilməsi

Dil öyrənmə prosesi yalnız bioloji və psixoloji mexanizmlərlə məhdudlaşmır. Burada sosial mühitin təsiri mühüm rol oynayır. Uşağın ailə daxilində ünsiyyətə cəlb olunması, valideynlərin və yaxın ətrafın ona təqdim etdiyi nitq nümunələri dilin daha sürətli və səmərəli şəkildə mənimsənilməsinə şərait yaradır.

Məktəbəqədər dövrdə uşağa təqdim edilən nağıllar, şeirlər, oyunlar, folklor nümunələri onun dil ehtiyatını zənginləşdirir. Məktəb dövründə isə qrammatik normaların sistemli şəkildə öyrədilməsi uşağın nitq mədəniyyətini formalaşdırır.

Halliday-in yanaşması bu məqamda xüsusilə əhəmiyyətlidir. Onun fikrincə, uşaq dil vasitəsilə yalnız predmetləri adlandırmır, həm də sosial rollara daxil olur, mədəni dəyərləri və normativ davranış qaydalarını mənimsəyir.

Nəticə

Beləliklə, ana dilinin mənimsənilməsi mürəkkəb, çoxamilli və çoxpilləli bir prosesdir. Bu prosesin elmi əsasları klassik psixologiya, psixolinqvistika, idrak nəzəriyyəsi və sosial-mədəni yanaşmaların sintezində araşdırılır. Dil və təfəkkür münasibətləri, ikinci siqnal sistemi, universal qrammatika, idrak mərhələləri və sosial ünsiyyət faktorları bu problemin izahında xüsusi yer tutur.

Ana dili uşağın şəxsiyyətinin formalaşmasında həlledici rol oynayır. O, həm ünsiyyətin vasitəsi, həm idrakın aləti, həm də mədəniyyətin ötürücüsüdür. Bu səbəbdən ana dilinin mənimsənilməsi prosesi yalnız fərdi deyil, həm də ictimai əhəmiyyət kəsb edir.

Uşaqlarda nitqin inkişaf mərhələləri: linqvo-psixoloji baxış

Uşaqlarda nitqin inkişafına dair ümumi nəzəri yanaşmalar

Uşaqda ana dilinin mənimsənilməsi prosesi təbiətən mürəkkəb və çoxşaxəli xarakter daşıyır. Bu proses bir tərəfdən bioloji əsaslara – eşitmə, görmə, motor fəaliyyət və beyin funksiyalarına, digər tərəfdən isə sosial mühitə, ailə münasibətlərinə, pedaqoji təsirlərə söykənir. Psixolinqvistlər bu prosesi yalnız fonetik, leksik və qrammatik bacarıqların qaznılması ilə məhdudlaşdırmır, həm də kognitiv inkişafla sıx əlaqədə izah edirlər.

Əsgərov (2011) qeyd edir ki, uşağın nitq inkişafı yalnız söz ehtiyatının artması ilə deyil, həm də dil vahidlərinin semantik dərinliyinin mənimsənilməsi ilə ölçülür. Yəni, uşaq yeni sözləri sadəcə əzbərləmir, onları konkret obyektlərlə əlaqələndirir, ümumiləşdirir və məna yükünü dərk edir. Məmmədov (2008) isə göstərir ki, dilin mənimsənilməsi eyni zamanda psixoloji reaksiya mexanizmlərinin fəaliyyətə qoşulması ilə baş verir.

Psixolinqvistik ədəbiyyatda uşaqlarda nitqin inkişafı mərhələlər üzrə təsnif olunur. Hər bir mərhələ özünəməxsus xüsusiyyətlərə malikdir və bir-birini tamamlayır. Aşağıda həmin mərhələlər geniş şəkildə təhlil edilir.

Nitqin ilkin mərhələsi: fonetik əsasların formalaşması

Uşağın dil inkişafının ilk mərhələsi onun səs təqlid etmə bacarıqları ilə xarakterizə olunur. Körpə uşaq ətraf mühitdə eşitdiyi səslərə cavab olaraq müxtəlif səs reaksiyaları verir. Bu dövr psixoloqlar tərəfindən "qığıldama" və "cəngəllik nitqi" mərhələsi adlandırılır.

Fonetik mərhələdə əsas rol oynayan amil eşitmə qabiliyyətidir. Əgər uşaq eşitmə qüsuru ilə doğularsa, onun nitq inkişafı ciddi şəkildə ləngiyə bilər. Normal inkişaf edən uşaqlar isə ailə üzvlərinin danışığını təqlid etməklə ana dilinin fonetik sistemini mənimsəyirlər.

Əsgərov (2015) bu prosesi ikinci siqnal sistemi nəzəriyyəsi ilə izah edir. Körpə səsi eşitməklə yanaşı, həmin səsin təkrarlanması zamanı əldə etdiyi motor təcrübəni də yadda saxlayır. Bu təcrübə nəticəsində fonetik stereotiplər formalaşır və gələcəkdə nitqin fonoloji bazasını təşkil edir.

Leksik inkişaf mərhələsi: söz ehtiyatının formalaşması

Fonetik bacarıqlardan sonra uşağın nitq inkişafında leksik mərhələ başlayır. Bu dövrdə uşaq sözləri əşyalarla, hadisələrlə və fəaliyyətlərlə əlaqələndirməyi öyrənir. Təxminən 1 yaş yarım – 2 yaş arasında uşaq artıq 30–50 sözdən istifadə edə bilir. 3 yaşına çatanda isə söz ehtiyatı 300–400 sözə qədər artır.

Məmmədov (2008) qeyd edir ki, uşağın söz ehtiyatı yalnız miqdar baxımından deyil, həm də keyfiyyət baxımından dəyişir. Yəni, uşaq sadəcə yeni sözlər toplamaqla kifayətlənmir, həmin sözlərin semantik əlaqələrini də dərk edir. Məsələn, "alma" və "armud" sözlərini öyrənən uşaq sonradan onları "meyvə" anlayışı altında ümumiləşdirə bilir. Bu isə təfəkkürün kateqoriyalaşdırma funksiyasının formalaşmasından xəbər verir.

Leksik inkişaf mərhələsində uşağın ətraf mühiti ilə ünsiyyəti həlledici rol oynayır. Valideynlərin və müəllimlərin uşağa ünvanladıqları nitq nümunələri, nağıllar, mahnılar, şeirlər söz ehtiyatının zənginləşməsinə şərait yaradır.

Qrammatik inkişaf mərhələsi: sintaktik baca-

rıqların formalaşması

Leksik ehtiyatın genişlənməsi ilə paralel olaraq uşağın qrammatik bacarıqları da inkişaf edir. İlk mərhələdə uşaq sözləri sadə şəkildə birləşdirərək iki-üç sözlük cümlələr qurur. Bu cümlələr adətən situativ xarakter daşıyır və yalnız konkret vəziyyətdə anlaşıqlı olur.

3–4 yaş dövründə isə uşağın nitqi tədricən qrammatik baxımdan düzgünləşir. Morfoloji şəkilçilərdən istifadə bacarığı artır, sadə və mürəkkəb cümlə quruluşları formalaşır. Əsgərov (2011) göstərir ki, qrammatik strukturların mənimsənilməsi uşağın abstrakt düşüncə qabiliyyəti ilə sıx bağlıdır.

Qrammatik inkişaf mərhələsi həm də uşağın mədəniyyətə inteqrasiyası baxımından mühüm əhəmiyyət kəsb edir. Çünki cəmiyyət daxilində qəbul olunmuş dil normaları sosial ünsiyyətin əsas şərtidir.

Nitq və kognitiv inkişafın qarşılıqlı əlaqəsi

Psixolinqvistik tədqiqatlar göstərir ki, nitq inkişafı ilə kognitiv inkişaf arasında üzvi bağlılıq mövcuddur. Uşağın söz ehtiyatının genişlənməsi onun düşüncə əməliyyatlarını da zənginləşdirir. Əgər uşaq "böyük–kiçik", "qalın–nazik", "isti–soyuq" kimi antonim cütlüklərini öyrənirsə, bu, onun müqayisə və qarşılaşdırma bacarıqlarını inkişaf etdirir.

Vıqotskinin nəzəriyyəsinə görə, dil təfəkkürün inkişafında vasitəçi rolunu oynayır. Uşaq əvvəlcə xarici nitqdən istifadə edərək problemləri həll etməyə çalışır, daha sonra isə daxili nitq vasitəsilə məntiqi əməliyyatları həyata keçirir. Bu keçid intellektual inkişafın əsas mərhələlərindən biridir.

Sosial mühitin və mədəni faktorların təsiri

Uşağın nitq inkişafı təkcə bioloji və psixoloji amillərlə məhdudlaşmır, eyni zamanda sosial mühitin təsirinə də əhəmiyyətli dərəcədə bağlıdır. Ailə bu mühitin ən vacib elementi kimi çıxış edir. Valideynlərin uşağa yönəltdiyi nitq nümunələri, gündəlik ünsiyyət formaları, oyun və məşğələlər dilin daha sürətli və səmərəli mənimsənilməsinə şərait yaradır. Əksinə, sosial ünsiyyətdən məhrum qalan uşaqlarda nitq inkişafı ciddi şəkildə ləngiyir.

Köhnə tədqiqatlarda "vəhşi uşaqlar" fenomeni də bu fikri təsdiq edir. İnsanlardan təcrid olunmuş uşaqlar sonradan dil bacarıqlarını tam mənimsəyə bilmir, hətta sadə qrammatik strukturlar belə onların nitqinə çətinliklə daxil olur. Bu fakt sosial mühitin nitq inkişafında həlledici rol oynadığını bir daha göstərir.

Psixolinqvistik yanaşmalarda nitqin mənimsənilməsi dialoq–model–təkrar mexanizmləri əsasında izah edilir. Uşaq əvvəlcə valideyn və ya müəllimlə dialoqa girir, müəyyən nitq nümunələrini eşidir və onları model kimi qəbul edir. Daha sonra həmin ifadələri təkrar edərək öz nitqinə daxil edir. Bu üçlü proses həm qavrayış, həm də ifadəvi nitqin formalaşmasında mühüm əhəmiyyət daşıyır.

Mədəni faktorlar da uşağın dil inkişafına xüsusi təsir göstərir. Xalq ədəbiyyatının nümunələri – nağıllar, atalar sözləri, bayatılar, laylalar uşağın dilinə obrazlılıq və emosional çalarlar qatır. Nağıllar uşağın təsəvvürünü genişləndirir, atalar sözləri isə məntiqi və sosial düşüncənin inkişafına xidmət edir. Bu baxımdan, mədəniyyət yalnız nitqin bədii-estetik tərəfini zənginləşdirmir, həm də uşağın sosial-mənəvi təcrübəsini formalaşdırır.

İfadəvi və semantik planın inkişafı

Uşağın nitqində yalnız söz ehtiyatının artması deyil, həm də ifadəvi imkanların genişlənməsi müşahidə olunur. 4–5 yaşlarında uşaq artıq emosional çalarlarla zənginləşdirilmiş cümlələr qura bilir. Bu dövrdə semantik plan da dərinləşir: uşaq sinonimlər, antonimlər, çoxmənalı sözlərdən istifadə etməyə başlayır.

Psixolinqvistlər göstərirlər ki, ifadəvi və semantik planın inkişafı uşağın yaradıcı təfəkkürünü də gücləndirir. Uşaq nağıl danışarkən və ya hadisələri təsvir edərkən müxtəlif nitq formalarından yararlanır, məna əlaqələrini daha dərindən qavrayır.

Nitqin inkişafında problemlər və onların səbəbləri

Bütün uşaqlarda dil inkişafı eyni sürətlə getmir. Bəzilərində fonetik qüsurlar, digərlərində isə qrammatik səhvlər müşahidə olunur. Bu problemlər müxtəlif səbəblərlə bağlı ola bilər:

- eşitmə qüsurları;
- ailədə dil mühitinin zəifliyi;
- çoxdilli mühitin təsiri;
- psixoloji travmalar və ya inkişaf geriliyi.

Əsgərov (2015) və digər tədqiqatçılar göstərirlər ki, bu problemlərin vaxtında aşkar olunması və korreksiya tədbirlərinin görülməsi uşağın gələcək intellektual inkişafı üçün həlledici rol oynayır.

Nəticə

Beləliklə, uşaqlarda nitq inkişafı mərhələlər üzrə formalaşır: əvvəlcə fonetik bacarıqlar, daha sonra leksik ehtiyat, ardınca isə qrammatik strukturlar mənimsənilir. Bu mərhələlər bir-birindən təcrid olunmuş şəkildə deyil, qarşılıqlı təsir və əlaqə şəklində inkişaf edir. Fonetik bacarıqların düzgün formalaşması leksik ehtiyatın zənginləşməsinə, zəngin lüğət ehtiyatı isə qrammatik strukturların daha asan mənimsənilməsinə zəmin yaradır.

Nitq inkişafının bu mərhələli xarakteri uşağın kognitiv inkişafı ilə sıx bağlıdır. Yeni sözlərin qavranılması, onların məna əlaqələrinin dərk olunması və sintaktik münasibətlərdə istifadə edilməsi idrak əməliyyatlarını – müqayisə, ümumiləşdirmə, analiz və sintezi gücləndirir. Başqa sözlə, nitq inkişafı uşağın yalnız ünsiyyət bacarıqlarını deyil, həm də düşünmə tərzini formalaşdırır.

Sosial mühit bu prosesin daha da zənginləşməsində həlledici rol oynayır. Ailə daxilində və məktəb mühitində təqdim edilən düzgün nitq nümunələri uşağın leksik və qrammatik bacarıqlarını möhkəmləndirir, eyni zamanda onun nitq mədəniyyətinin formalaşmasına şərait yaradır. Əksinə, dil mühitinin zəifliyi və ya ünsiyyət imkanlarının məhdudluğu nitq inkişafında geriliklərə səbəb ola bilər.

İfadəvi və semantik planın genişlənməsi isə uşağın yaradıcı potensialının açılmasına xidmət edir. Uşaq sinonimlərdən, antonimlərdən, məcazlı ifadələrdən istifadə etməklə öz nitqini rəngarəng edir və təsir gücünü artırır. Bu, onun yalnız gündəlik ünsiyyətdə deyil, həm də bədii təfəkkür və təxəyyüldə fəal iştirakını təmin edir. Semantik zənginlik uşağın mədəniyyətə inteqrasiyasını asanlaşdırır, çünki o, ana dilinin daşıdığı mədəni kodları, ənənəvi ifadələri və üslubi çalarları daha dərindən mənimsəyir.

Beləliklə, uşağın nitq inkişafı yalnız texniki bacarıqların qazanılması ilə məhdudlaşmır; bu, həm də onun şəxsiyyətinin formalaşması, sosial münasibətlərdə mövqeyinin güclənməsi və yaradıcı qabiliyyətlərinin inkişafı üçün mühüm baza yaradır.

Ana dilinin mənimsənilməsində psixolinqvistik mexanizmlər

Psixolinqvistikanın predmetinə qısa baxış

Psixolinqvistika nitq fəaliyyətinin öyrənilməsi ilə məşğul olan elmdir. Onun əsas tədqiqat obyekti insanın dili mənimsəməsi, nitqin yaranması və qavranılması prosesləridir. Bu elm sahəsi XX əsrin ortalarından müstəqil istiqamət kimi formalaşmış və uşaqlarda dilin mənimsənilməsi məsələsinə xüsusi diqqət ayırmışdır.

Psixolinqvistikanın əsas sualları bunlardır:

- İnsan beynində nitq prosesi necə təşkil olunur?
- Dil vahidləri hansı psixoloji mexanizmlərlə yadda saxlanılır?
- Uşaq dili necə mənimsəyir və təcrübəsini hansı mərhələlərlə zənginləşdirir?

Bu sualların cavabı uşaqda ana dilinin mənimsənilməsi mexanizmlərini anlamaq baxımından mühüm əhəmiyyət daşıyır.

Nitqin formalaşmasında fizioloji mexanizmlər

Ana dilinin mənimsənilməsi prosesində fizioloji mexanizmlərin rolu danılmazdır. İ.P. Pavlovun şərti reflekslər nəzəriyyəsi bu məsələnin elmi izahını verir. Pavlov göstərirdi ki, insan beynində birinci siqnal sistemi əşyaların və hadisələrin qavranılmasına, ikinci siqnal sistemi isə sözlərin mənimsənilməsinə xidmət edir.

Uşaq əşyaları və hadisələri qavrayarkən onların üzərində müəyyən təsəvvürlər formalaşır. Daha sonra həmin obyektlərlə bağlı sözlər eşidilir və beyin bu sözləri obyektlərlə əlaqələndirir. Beləliklə, ikinci siqnal sistemi işə düşür və nitq prosesinin əsası yaranır.

Əsgərov (2015) qeyd edir ki, bu mexanizm sadəcə mexaniki assosiasiya ilə məhdudlaşmır. Uşağın təcrübəsi genişləndikcə sözlər daha dərin semantik məna qazanır və ümumiləşdirmə funksiyası daşıyır.

Nitqin formalaşmasında psixoloji mexanizmlər

Psixolinqvistik baxışdan uşağın nitq inkişafında aşağıdakı psixoloji mexanizmlər mühüm rol oynayır:

1. Qavrayış – uşaq ətraf mühitdə eşitdiyi səsləri, sözləri və cümlələri qəbul edir.
2. Yaddaş – qəbul olunan dil vahidləri yaddaşda saxlanılır və təkrar olunaraq möhkəmlənir.
3. Təfəkkür – dil vahidləri arasında məntiqi əlaqələr qurulur, ümumiləşdirmələr aparılır.
4. Təxəyyül – uşaq dil vahidlərini yeni kombinasiyalarda işlətməyi öyrənir.

Məmmədov (2008) göstərir ki, uşağın nitq fəaliyyətində hər bir psixoloji mexanizm bir-birini tamamlayır. Əgər yaddaş zəif inkişaf edərsə, uşaq yeni sözləri çətinliklə mənimsəyəcək; əgər təfəkkür bacarıqları ləng inkişaf edərsə, o, cümlə qurmaqda çətinlik çəkəcək.

Nitqin qavranılması və yaranması mexanizmləri

Psixolinqvistlər nitq fəaliyyətini iki istiqamətdə öyrənirlər:

- Nitqin qavranılması – uşaq eşitdiyi sözləri və cümlələri analiz edərək məna çıxarır.
- Nitqin yaranması – uşaq öz fikirlərini ifadə etmək üçün sözləri seçir, onları qrammatik cəhətdən düzgün cümlələrdə birləşdirir.

Nitqin qavranılması prosesi aşağıdakı mərhələləri əhatə edir:

1. Fonetik siqnalların qəbul olunması.
2. Leksik vahidlərin tanınması.
3. Qrammatik əlaqələrin müəyyənləşdirilməsi.
4. Məna strukturunun qurulması.

Nitqin yaranması isə daha mürəkkəbdir. Burada əvvəlcə daxili nitq formalaşır, daha sonra bu nitq fonetik səviyyəyə ötürülür və səsli nitqə çevrilir.

Ana dilinin mənimsənilməsində sosial-psixolinqvistik mexanizmlər

Uşağın dil inkişafı sosial mühitlə sıx bağlıdır. Valideynlərin uşağa müraciəti, ünsiyyət tərzi, istifadə olunan söz ehtiyatı dilin mənimsənilmə sürətinə birbaşa təsir göstərir.

- Dialoq – uşaq valideynləri ilə dialoq qurarkən yeni sözlər öyrənir.
- Model – böyüklərin danışıq nümunələri uşaq üçün model rolunu oynayır.
- Təkrar – uşaq eşitdiyi ifadələri təkrar

etməklə nitq təcrübəsini möhkəmləndirir.

Vıqotski göstərirdi ki, sosial mühitdən kənarda dil inkişaf edə bilməz. "Vəhşi uşaqlar" hadisəsi də bunu sübut edir: uzun müddət ünsiyyətdən təcrid olunan uşaqların nitq bacarıqları sonradan çox zəif qalır.

İfadəvi və reseptiv nitq mexanizmləri

Psixolinqvistlər nitqi iki əsas tipdə öyrənirlər:

1. İfadəvi nitq – uşağın öz fikirlərini ifadə etməsi.
2. Reseptiv nitq – başqalarının dediklərini başa düşməsi.

Bu iki proses paralel inkişaf edir. Uşaq reseptiv nitqi vasitəsilə yeni sözlər öyrənir, ifadəvi nitq vasitəsilə isə onları praktikada sınayır. Əgər bu iki proses arasında balans pozularsa, uşağın nitq inkişafında gerilik müşahidə olunur.

Ana dilinin mənimsənilməsində kognitiv mexanizmlər

Nitqin mənimsənilməsi idrak prosesləri ilə sıx bağlıdır. Psixolinqvistik araşdırmalarda göstərilir ki, uşaqlar dil vahidlərini yalnız eşitməklə yox, həm də kognitiv əməliyyatlarla mənimsəyirlər.

- Ümumiləşdirmə – uşaq müxtəlif obyektləri bir anlayış altında birləşdirir.
- Müqayisə – oxşar və fərqli cəhətləri ayırd edir.
- Abstraksiya – konkret predmetlərdən ayrılaraq ümumi anlayış formalaşdırır.
- Simvollaşdırma – sözləri simvol kimi qəbul edərək onların köməyi ilə düşünür.

Bu mexanizmlər uşağın ana dilini mənimsəməsini təmin edən əsas idrak vasitələridir.

Ana dilinin mənimsənilməsində çoxdilliliyin təsiri

Müasir dövrdə uşaqların böyüdüyü mühit tez-tez çoxdilli xarakter daşıyır. Bu hal, xüsusən də miqrasiya, qloballaşma və beynəlxalq təhsil imkanlarının artması fonunda daha da aktuallaşmışdır. Çoxdilliliyin uşağın ana dilinin mənimsənilməsinə təsiri həm müsbət, həm də mənfi ola bilər.

Müsbət təsirlər:

- Çoxdilli mühit uşağın idrak elastikliyini artırır. O, müxtəlif dillər arasında daha rahat keçid edə bilir, bu isə beyin fəaliyyətinin çevikliyini və diqqətin idarə olunmasını gücləndirir.
- Tədqiqatlar göstərir ki, iki və ya daha çox dil bilən uşaqlarda problemləri həll etmə bacarığı, analitik və yaradıcı təfəkkür daha sürətli inkişaf edir.
- Çoxdillilik uşağın mədəniyyətlərarası ünsiyyət bacarıqlarını genişləndirir, onu müxtəlif sosial mühitlərə adaptasiya etməyi asanlaşdırır.

Mənfi təsirlər:

- Çoxdilli mühitdə böyüyən uşaqlarda bəzən ana dilinin söz ehtiyatı zəif inkişaf edir. Bu, dil balansının pozulması ilə əlaqədar ola bilər.
- Qrammatik səhvlərin sayı arta bilər, çünki uşaq dillərin struktur elementlərini qarışdıra bilər.
- Ana dilində ifadə imkanlarının zəif qalması sosial adaptasiya prosesində müəyyən çətinliklər yarada bilər.

Pedaqoji həll yolları:

Psixolinqvistlər və pedaqoqlar vurğulayırlar ki, belə hallarda əsas məsələ dillərin qarışmasının qarşısını almaq və hər bir dilin ayrıca mühitdə istifadəsini təmin etməkdir. Bunun üçün:

- Ailə modeli: Evdə əsasən ana dilindən istifadə olunmalı, digər dillər isə ayrıca öyrədilməlidir.
- Məktəb mühiti: Tədris zamanı dillərin qarışdırılmasının qarşısını almaq üçün ana dili ilə bağlı ayrıca dərsliklər və proqramlar tətbiq olunmalıdır.
- Mədəni mühit: Uşaqlara ana dilində nağıllar, şeirlər, atalar sözləri təqdim edilməli, beləliklə, onların ana dilinə emosional bağlılığı gücləndirilməlidir.

Beləliklə, çoxdillilik uşağın ümumi intellektual və sosial inkişafına zəngin imkanlar yaratsa da, ana dilinin qorunması üçün məqsədyönlü pedaqoji yanaşma tələb olunur.

Nitq qüsurlarının psixolinqvistik izahı

Bəzi uşaqlarda fonetik, leksik və ya qrammatik qüsurlar müşahidə olunur. Psixolinqvistik izaha görə, bu qüsurlar ya fizioloji mexanizmlərin zəifliyi, ya da psixoloji və sosial amillərin mənfi təsiri ilə bağlıdır.

- Fonetik qüsurlar – artikulyasiya aparatının zəifliyi.
- Leksik qüsurlar – yaddaş və qavrayış problemləri.
- Qrammatik qüsurlar – təfəkkür və məntiqi əlaqələrin zəifliyi.

Əsgərov (2015) göstərir ki, erkən yaşda aparılan korreksiya tədbirləri bu qüsurların aradan qaldırılmasına böyük kömək edir.

Nəticə

Beləliklə, ana dilinin mənimsənilməsi mürəkkəb psixolinqvistik mexanizmlərin qarşılıqlı təsiri nəticəsində baş verir. Fizioloji, psixoloji, sosial və kognitiv amillərin hər biri bu prosesdə özünəməxsus rol oynayır və bir-birini tamamlayır. Fizioloji mexanizmlər – eşitmə, görmə, artikulyasiya və beyin fəaliyyətinin koordinasiyası – nitqin əsas baza şərtlərini formalaşdırır. Psixoloji mexanizmlər – yaddaş, qavrayış, təfəkkür və təxəyyül – dil vahidlərinin mənimsənilməsini təmin edir. Sosial mühit isə uşağın ünsiyyət ehtiyacını stimullaşdıraraq dilin praktiki istifadəsini aktuallaşdırır. Kognitiv amillər isə dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də idrak aləti olduğunu nümayiş etdirir.

Uşağın nitqi həm daxili, həm də xarici təsirlərin

birgə fəaliyyəti nəticəsində formalaşır. Daxili təsirlər bioloji meyillərlə, beyin qabığının inkişafı ilə, xarici təsirlər isə ailə mühitindən, pedaqoji təsirdən və mədəni mühitdən qaynaqlanır. Bu qarşılıqlı təsirlər balanslı olduqda dil inkişafı sürətli və ardıcıl gedir, əks halda nitqdə ləngimələr, fonetik və ya qrammatik qüsurlar müşahidə oluna bilər.

Psixolinqvistika göstərir ki, ana dilinin mənimsənilməsi sadəcə sözlərin mexaniki əzbərlənməsi deyil, bütövlükdə idrakın, təfəkkürün, emosional zənginliyin və sosial ünsiyyət bacarıqlarının inkişafıdır. Dil vasitəsilə uşaq yalnız əşyaları adlandırmağı öyrənmir, həm də onlar arasındakı əlaqələri müəyyənləşdirir, məntiqi nəticələr çıxarır və dünyagörüşünü formalaşdırır.

Bu proses uşağın şəxsiyyətinin formalaşmasında həlledici əhəmiyyət kəsb edir. Ana dilini düzgün və mükəmməl mənimsəyən uşaq gələcəkdə həm təhsil prosesində, həm də sosial münasibətlərdə daha uğurlu olur. Onun özünüifadə imkanları genişlənir, ünsiyyət bacarıqları zənginləşir və kognitiv potensialı daha səmərəli şəkildə reallaşır. Bu səbəbdən, erkən yaşlardan etibarən uşaqların nitq inkişafına xüsusi diqqət yetirilməsi, zəngin dil mühiti yaradılması və ana dilinə sevgi aşılanması pedaqoji və psixoloji baxımdan ən mühüm vəzifələrdən biri hesab edilməlidir.

Nəticə

Tədqiqat göstərir ki, uşaqlarda ana dilinin mənimsənilməsi prosesi yalnız dilçilik aspektində deyil, həm də biologiya, psixologiya və pedaqogika elmlərinin kəsişməsində araşdırılmalıdır. Dil insanın yalnız ünsiyyət vasitəsi deyil, həm də idrak aləti, sosial adaptasiya mexanizmi və mədəniyyətin ötürücüsüdür. Bu səbəbdən, uşağın ilkin nitq təcrübəsi onun ətraf aləmi dərk etməsi, təfəkkürünün formalaşması və emosional-intellektual inkişafı üçün baza rolunu oynayır.

Aparılan nəzəri təhlillər və mövcud elmi yanaşmalar əsasında aşağıdakı nəticələr əldə olunmuşdur:

1. Ana dilinin mərhələli mənimsənilməsi – fonetik, leksik və qrammatik inkişaf bir-biri ilə üzvi şəkildə bağlıdır. Hər bir mərhələ uşağın kognitiv inkişaf səviyyəsi ilə əlaqəlidir və psixolinqvistik mexanizmlərin fəaliyyətini əks etdirir.
2. Psixolinqvistik mexanizmlərin rolu – qavrayış, yaddaş, təfəkkür və təxəyyül uşağın nitq fəaliyyətində əsas mexanizmlərdir. Onların balanslı fəaliyyəti sayəsində uşaq sözlərin semantik mənasını qavrayır, ümumiləşdirir və düşüncəsində fəallaşdırır.
3. Sosial mühitin əhəmiyyəti – ailə, məktəb və ünsiyyət mühiti uşağın nitq inkişafına birbaşa təsir göstərir. Zəngin və ardıcıl dil mühiti olmadan ana dilinin mənimsənilməsi çətinləşir.
4. Mədəni amillərin rolu – xalq ədəbiyyatı, nağıllar, atalar sözləri və bədii mətnlər uşağın nitqinə emosional dərinlik və obrazlılıq gətirir, eyni zamanda dilə bağlılığı möhkəmləndirir.
5. Çoxdilliliyin təsiri – çoxdilli mühit uşağın idrak çevikliyini artırsa da, ana dilinin zəifləşməsi riskini də yaradır. Bu səbəbdən, dillərin qarışmasının qarşısı alınmalı, hər bir dil ayrıca kontekstdə möhkəmləndirilməlidir.
6. Psixolinqvistik qüsurların erkən aşkarlanması – fonetik, leksik və ya qrammatik geriliklər vaxtında müəyyənləşdirildikdə, korreksiya tədbirləri uşağın gələcək intellektual inkişafı üçün mühüm rol oynayır.
7. Praktik əhəmiyyət – güclü ana dili bazası uşağın məktəbə hazırlığını, yazılı və şifahi nitq bacarıqlarını, sosial adaptasiya qabiliyyətini möhkəmləndirir. Bundan əlavə, ana dilində möhkəm əsas qurmaq gələcəkdə xarici dillərin daha asan öyrənilməsinə şərait yaradır.

Ümumilikdə, nəticələr göstərir ki, uşaqlarda ana dilinin mənimsənilməsi sadəcə linqvistik hadisə deyil, həm də psixoloji və sosial prosesdir. Ona görə də pedaqoji və psixoloji yanaşmaların sintezi nitq inkişafının daha səmərəli şəkildə dəstəklənməsinə imkan verir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Adilov, M., Verdiyeva, Z., & Ağayeva, F. (2019). Dilçilik problemləri. Bakı: Elm, 404 s.
2. Axundov, A. (2006). Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 280 s.
3. Cəfərov, N. (2023). Ümumi dilçilik. Bakı: Təhsil, 216 s.
4. Əsgərov, M. B. (2011). Linqvopsixologiya və ya dilin psixologiyası. Bakı: Elm və Təhsil, 308 s.
5. Əsgərov, Q. (2011). Psixolinqvistika: nəzəriyyə və təcrübə. Bakı: Təhsil Nəşriyyatı.
6. Əsgərov, Q. (2015). Nitqin inkişafında ikinci siqnal sisteminin rolu. Bakı: Elm.
7. Hüseynov, Ş., Şiriyev, F., & Muradov, C. (2004). Psixolinqvistika. Bakı: Bakı Universiteti nəşriyyatı.
8. Məmmədov, R. (2008). Uşaqlarda nitq inkişafı və psixoloji mexanizmlər. Bakı: Maarif.
9. Rəcəbli, Ə. (2011). Universalilər dilçiliyi. Bakı: Elm və Təhsil, 272 s.
10. Blum-Kulka, S. (1982). Learning to say what you mean in a second language. Applied Linguistics, 3(1), 29–59.
11. Bruner, J. (1983). Child's Talk: Learning to Use Language. Oxford University Press.
12. Chomsky, N. (1965). Aspects of the Theory of Syntax. MIT Press.
13. Chomsky, N. (2006). Dil və təfəkkür (Language and Mind, AZ tərc.). Bakı: Bakı Slavyan Universiteti, 152 s.
14. Crystal, D. (2007). How Language Works.

Penguin.

15. Halliday, M. A. K. (1978). Language as Social Semiotic. Edward Arnold.

16. Hoff, E. (2013). Language Development. Cengage Learning.

17. Ochs, E., & Schieffelin, B. B. (1984). Language acquisition and socialization. In Culture Theory (pp. 276–320). Cambridge University Press.

18. Pavlov, I. P. (1951). Lectures on Conditioned Reflexes. International Publishers.

19. Piaget, J. (1972). The Psychology of the Child. Basic Books.

20. Tomasello, M. (2003). Constructing a Language. Harvard University Press.

21. Vygotsky, L. S. (1986). Thought and Language. MIT Press.

DOİ: 10.32010/MSYR3330

MEDİA VƏ İCTİMAİ DİSKURSUN NƏZAKƏTLİLİK ÜZƏRİNDƏKİ TƏSİRİ

Ülviyyə Ənvər MUSTAFAYEVA
Bakı Slavyan Universiteti
Orcid: https://orcid.org/0009-0000-1112-7865
E-mail: ulviyya1990@live.com

Xülasə: Bu məqalədə müasir medianın və ictimai müzakirənin nəzakət normalarına təsiri araşdırılır və bu amillərin müasir sosial ünsiyyəti necə formalaşdırdığı araşdırılır. Nəzakət həm linqvistik, həm də sosial fenomen kimi insan qarşılıqlı əlaqəsinin fundamental aspektini təmsil edir, mədəni dəyərləri, etik mülahizələri və şəxslərarası həssaslığı əks etdirir. O, yalnız fərdi davranışın göstəricisi deyil, həm də sosial birliyin göstəricisidir, çünki qarşılıqlı əlaqələri tənzimləyir və qarşılıqlı anlaşmanı asanlaşdırır. Qəzetlər, televiziya və radio kimi ənənəvi platformaları, eləcə də sosial media şəbəkələrini və onlayn forumları əhatə edən müasir media məlumatların yayılmasında, ictimai rəyin formalaşdırılmasında və məqbul nitq və davranış nümunələrinin modelləşdirilməsində mühüm rol oynayır. Müxtəlif ünsiyyət formalarına dəfələrlə məruz qalma yolu ilə auditoriya həm açıq, həm də gizli nəzakət qaydalarını mənimsəyir və bu da öz növbəsində onların öz ünsiyyət təcrübələrinə təsir göstərir.
Bu məqalə xüsusilə nəzakət normalarının ictimai müzakirələrdə necə qorunub saxlanıldığına və ya etiraz edildiyinə diqqət yetirir. Siyasi çıxışlardan, jurnalist mətnlərindən və sosial media mübadilələrindən nümunələr araşdırılır, dilin sosial harmoniyanı gücləndirə və ya münaqişə və ədəbsizlik yarada biləcəyi yolları vurğulayır. Tədqiqat, medianın sadəcə mövcud sosial normaları əks etdirmədiyini, həm də onların təkamülündə fəal iştirak etdiyini göstərən diskursun transformativ gücünü vurğulayır. Xüsusilə sosial media, təcililiyi, interaktivliyi və geniş yayılma dərəcəsi ilə nəzakətin ifadəsində yeni dinamika təqdim edir, bəzən rəsmi və qeyri-rəsmi ünsiyyət arasındakı ənənəvi sərhədləri silir. Bu hadisələri təhlil edərək, məqalə göstərir ki, media, ictimai müzakirə və nəzakət arasındakı qarşılıqlı əlaqəni anlamaq müasir sosial qarşılıqlı əlaqəni anlamaq üçün vacibdir. Tapıntılar getdikcə daha mürəkkəb ünsiyyət mühitlərində nəzakət danışıqları ilə bağlı sosiolinqvistika və praqmatikada daha geniş müzakirələrə töhfə verir.
Açar sözlər: Nəzakət, media, ictimai müzakirə, dil etikası, ünsiyyət, sosial normalar, sosial media

THE IMPACT OF MASS MEDIA AND PUBLIC DISCOURSE ON COURTESY

Ulviyya Anvar MUSTAFAYEVA
Baku Slavic University
Orcid: https://orcid.org/0009-0000-1112-7865
E-mail: ulviyya1990@live.com

Abstract: This article explores the influence of modern media and public discourse on the norms of politeness, examining how these factors interact to shape contemporary social communication. Politeness, as both a linguistic and social phenomenon, represents a fundamental aspect of human interaction, reflecting cultural values, ethical considerations, and interpersonal sensitivity. It is not only a marker of individual behavior but also an indicator of social cohesion, as it regulates interactions and facilitates mutual understanding. Modern media, encompassing both traditional platforms such as newspapers, television, and radio, as well as social media networks and online forums, plays a pivotal role in disseminating information, framing public opinion, and modeling acceptable patterns of speech and behavior. Through repeated exposure to various forms of communication, audiences internalize both explicit and implicit rules of politeness, which in turn influences their own communicative practices.
This paper particularly focuses on the ways in which politeness norms are either maintained or challenged within public discourse. It investigates examples from political speeches, journalistic texts, and social media exchanges, highlighting the ways language can either reinforce social harmony or provoke conflict and incivility. The study emphasizes the transformative power of discourse, showing that media does not merely reflect existing social norms but actively participates in their evolution. Social media, in particular, with its immediacy, interactivity, and widespread reach, has introduced new dynamics in the expression of politeness, sometimes blurring traditional boundaries between formal and informal communication. By analyzing these phenomena, the article demonstrates that understanding the interplay between media, public discourse, and politeness is essential for comprehending modern social interaction. The findings contribute to broader discussions in sociolinguistics and pragmatics regarding the negotiation of politeness in increasingly complex communicative environments.
Keywords: Politeness, media, public discourse, linguistic ethics, communication, social norms, social media.

ВЛИЯНИЕ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ И ОБЩЕСТВЕННОГО ДИСКУРСА НА ВЕЖЛИВОСТЬ

Ульвия Анвар МУСТАФАЕВА
Бакинский славянский университет
Orcid: https://orcid.org/0009-0000-1112-7865
Электронная почта : ulviyya1990@live.com

Резюме: В данной статье исследуется влияние современных средств массовой информации и публичного дискурса на нормы вежливости, рассматривается, как эти факторы взаимодействуют, формируя современную социальную коммуникацию. Вежливость, как лингвистический и социальный феномен, представляет собой фундаментальный аспект человеческого взаимодействия, отражающий культурные ценности, этические соображения и межличностную чувствительность. Она является не только маркером индивидуального поведения, но и индикатором социальной сплоченности, поскольку регулирует взаимодействие и способствует взаимопониманию. Современные средства массовой информации, включая как традиционные платформы, такие как газеты, телевидение и радио, так и социальные сети и онлайн-форумы, играют ключевую роль в распространении информации, формировании общественного мнения и моделировании приемлемых моделей речи и поведения. Благодаря многократному воздействию различных форм коммуникации, аудитория усваивает как явные, так и неявные правила вежливости, что, в свою очередь, влияет на их собственную коммуникативную практику.

В данной статье особое внимание уделяется тому, как нормы вежливости поддерживаются или оспариваются в публичном дискурсе. Исследуются примеры из политических речей, журналистских текстов и обмена сообщениями в социальных сетях, подчеркивая, как язык может либо укреплять социальную гармонию, либо провоцировать конфликты и невежливость. Исследование подчеркивает преобразующую силу дискурса, показывая, что СМИ не просто отражают существующие социальные нормы, но и активно участвуют в их эволюции. Социальные сети, в частности, благодаря своей непосредственности, интерактивности и широкому охвату, внесли новые динамики в выражение вежливости, иногда размывая традиционные границы между формальной и неформальной коммуникацией. Анализируя эти явления, статья демонстрирует, что понимание взаимодействия между СМИ, публичным дискурсом и вежливостью имеет важное значение для понимания современного социального взаимодействия. Полученные результаты вносят вклад в более широкие дискуссии в социолингвистике и прагматике относительно формирования вежливости в условиях все более сложных коммуникативных сред.

Ключевые слова: Вежливость, СМИ, публичный дискурс, лингвистическая этика, коммуникация, социальные нормы, социальные сети.

Giriş

Nəzakətlilik – cəmiyyətin etiket normalarını, mədəni davranış qaydalarını və etik münasibətləri dil vasitəsilə ifadə edən mühüm anlayışdır. Bu, fərdi münasibətlərdən başlayaraq ictimai çıxışlara qədər geniş miqyasda özünü göstərir. İctimai diskursda isə nəzakətlilik yalnız şəxsi keyfiyyət deyil, sosial mesajın qəbul olunmasında və ictimai rəyin formalaşmasında həlledici rol oynayır.

Bu baxımdan media istər ənənəvi, istərsə də yeni media (sosial şəbəkələr) dilin istifadəsində əsas model yaradan, auditoriyanın nəzakətlilik standartlarını müəyyən edən mühüm platformadır. Medianın təqdim etdiyi çıxışlar, reportajlar, debatlar və digər formatlar cəmiyyətə nəzakətli davranışın nümunələrini təqdim edə və ya əksinə, bu dəyərləri kölgə altında qoya bilər.

Müasir dövrdə qloballaşma, informasiya axınının sürətlənməsi və rəqəmsal texnologiyaların geniş yayılması ictimai diskursun əhəmiyyətini artırmışdır. Əgər əvvəlki dövrlərdə ictimai diskurs daha çox dövlət rəsmilərinin çıxışları, qəzet məqalələri və televiziya proqramları ilə məhdudlaşırdısa, bu gün sosial media platformaları hər bir fərdi ictimai diskursun aktiv iştirakçısına çevirmişdir.

Nəzakətlilik anlayışı ictimai diskursun mərkəzində dayanır. Çünki ictimai çıxışlarda, kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə istifadə olunan dil auditoriyanın şüuruna birbaşa təsir edir. Məsələn, siyasətçinin, televiziya aparıcısının və ya sosial şəbəkə fəalının istifadə etdiyi nəzakətli və ya nəzakətsiz ifadələr yalnız fərdi münasibətlərin deyil, bütövlükdə ictimai davranış modellərinin dəyişməsinə gətirib çıxara bilir.

Məqalənin məqsədi ictimai diskursda nəzakətlilik anlayışının dilçilik və sosial aspektlərini araşdırmaq, medianın bu prosesi necə formalaşdırdığını göstərmək və gələcəkdə etik diskursun gücləndirilməsi üçün təkliflər irəli sürməkdir. Məqalənin əsas məqsədlərindən biri də, medianın və ictimai diskursun nəzakətlilik üzərində

yaratdığı təsiri araşdırmaq, dil və davranış modellərinin necə dəyişdiyini göstərmək və bu dəyişikliklərin mümkün nəticələrini təhlil etməkdir.

Nəzəriyyə

Nəzakətlilik nəzəriyyəsinin əsasını P. Braun və S. Levinsonun məşhur "Politeness Theory"si təşkil edir. Onlar nəzakətliliyi ünsiyyətdə "üz" anlayışını qoruma strategiyası kimi izah edir və bütün dillərdə bu funksiyanın universal xarakter daşıdığını qeyd edirlər.

Məqalədə aşağıdakı metodlar tətbiq olunmuşdur:

Diskurs analizi – televiziya proqramları, debatlar və sosial media paylaşımlarında istifadə olunan dil nümunələrinin təhlili;

Müqayisəli təhlil – ənənəvi və sosial medianın ictimai diskursa təsir mexanizmlərinin müqayisəsi;

Pragmatik yanaşma – ifadələrin yalnız formal tərəfi deyil, həm də sosial funksiyası və psixoloji təsiri nəzərə alınmışdır.

Azərbaycan dilçilik məktəbində Ə. Axundov, R. Əliyev, H. Zeynalov və digər alimlər nəzakətliliyi dilin etik funksiyası kimi dəyərləndirmişlər. Onların fikrincə, nəzakətlilik təkcə ədəbi norma deyil, həm də cəmiyyətin etik-mədəni səviyyəsinin göstəricisidir.

N. Feyrklou (Fairclough) isə diskursun ictimai həyatdakı ideoloji rolunu ön plana çəkir. Onun "Critical Discourse Analysis" yanaşmasına görə, media diskursu yalnız məlumat ötürmür, həm də auditoriyanın dəyərlər sistemini formalaşdırır. Bu baxımdan, nəzakətlilik yalnız şəxsi üslub seçimi deyil, həm də ictimai ideologiyanın mühüm elementidir.

Nəzakətlilik təkcə lüğət seçimi və qrammatik quruluşla deyil, həm də kontekstə, sosial münasibətlərə və pragmatik məqsədlərə əsaslanan kompleks bir ünsiyyət strategiyasıdır. İctimai diskurs isə cəmiyyətin geniş təbəqələri ilə aparılan kommunikasiya forması olaraq bu strategiyanı kütləvi miqyasda təyin edir.

Məsələn, siyasətçilərin çıxışlarında və ya televiziya müzakirələrində istifadə olunan nəzakətli və ya nəzakətsiz dil nümunələri ictimai dilin formalaşmasına birbaşa təsir edir. Eyni şəkildə, aparıcıların auditoriya ilə necə danışması – "hörmətli izləyicilər", "icazə verin qeyd edim ki" kimi formullar – ictimai nəzakət modelini müəyyənləşdirir.

Medianın ictimai dil normalarına təsiri müxtəlif istiqamətlərdə həyata keçir:

Model yaratma: Məşhur simaların və aparıcı medianın təqdim etdiyi dil nümunələri geniş auditoriyada imitasiya olunur.

Diskursun tonunun formalaşması: Media dilindəki yumşaqlıq, aqressivlik, ironiya və ya neytrallıq ictimai diskursun tonunu müəyyənləşdirir.

Nəzakətlilik stereotiplərinin gücləndirilməsi və ya dağıdılması: Bəzi media qurumları etik çıxışları təşviq etsə də, digərləri reytinq naminə aqressiv və qarşıdurmalı diskursu qabarda bilir.

Ənənəvi medianın nəzakətlilik qaydaları daha çox redaktə və senzura ilə tənzimləndiyi halda, sosial media daha sərbəst bir platformadır. Bu sərbəstlik bəzən konstruktiv müzakirələrə imkan yaratsa da, nəzakətlilik qaydalarının pozulması halları ilə daha çox qarşılaşılır:

Anonimlik və məsuliyyətsizlik: İstifadəçilər real adları ilə çıxış etmədikləri üçün etik davranış normalarını pozmaqdan çəkinmirlər.

Kütləvi aqressiya və "linç mədəniyyəti": Bir çox hallarda fikrə deyil, şəxsə yönəlmiş təhqiredici ifadələr işlədilir.

"Qısaltma mədəniyyəti": Sosial mediada yazının uzunluğu və sürətli ünsiyyət tələbi nəzakətli strukturun istifadəsini azaldır (məsələn, "zəhmət olmasa" yerinə "ver", "at", "elə").

Bir çox televiziya debatlarında iştirakçılar arasında mübahisələrdə nəzakətlilik qaydalarının pozulması, qarşı tərəfin sözünü kəsmə, aşağılayıcı ritorika halları tez-tez müşahidə olunur. Bu cür hallar auditoriyada nəzakətsiz davranışın normallaşmasına səbəb ola bilər.

Eyni zamanda, bəzi maarifləndirici proqramlar, məsələn, psixoloji və pedaqoji verilişlər, etik ünsiyyətin təbliği ilə pozitiv diskurs modelini formalaşdırır.

Media və ictimai diskurs cəmiyyətin nəzakətlilik normasını formalaşdırmaqda və dəyişməkdə güclü rola malikdir. Bu təsir həm pozitiv, həm də neqativ istiqamətdə təzahür edə bilər. Aqressiv diskurs, etik qaydalardan uzaqlaşma və anonim nifrət nitqi nəzakətlilik mədəniyyətini zəiflədir. Bunun əksi olaraq, məsuliyyətli jurnalistika, etik dil nümunələri və nəzakətli ictimai çıxışlar cəmiyyətdə qarşılıqlı hörmətin möhkəmlənməsinə töhfə verir.

Nəzakətlilik sadəcə şəxsi münasibətlərdə deyil, həm də ictimai diskursda cəmiyyətin mədəni və etik səviyyəsini göstərən əsas göstəricilərdən biridir. Medianın və ictimai diskursun bu sahədə rolu danılmazdır. Onların verdiyi dil nümunələri cəmiyyətdə nəzakətlilik modelini ya təşviq edə, ya da zəiflədə bilər. Bu baxımdan, medianın məsuliyyətli və etik diskurs yaratması vacibdir. Həmçinin, ictimai çıxışlarda nəzakətli dil formalarının təşviqi, cəmiyyətin harmonik inkişafı baxımından mühüm rol oynayır.

Tədqiqat nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir;

1. İctimai diskursda nəzakətlilik anlayışının funksiyaları

Nəzakətlilik ictimai diskursda aşağıdakı funksiyaları yerinə yetirir:

Kommunikativ funksiya – mesajın qəbulunu asanlaşdırır və onu daha inandırıcı edir;

Sosial funksiya – auditoriyada hörmət və etimad yaradır;

Tənzimləyici funksiya – münaqişə və aqressiyanın qarşısını alır;

Model yaradan funksiya – geniş kütləyə etik davranış nümunəsi təqdim edir.

Məsələn, "hörmətli tamaşaçılar", "icazə verin qeyd edim ki" kimi ifadələr yalnız dil forması deyil, həm də sosial harmoniya vasitəsidir.

2. Medianın təsir mexanizmləri

Media ictimai diskursun əsas formalaşdırıcısıdır və təsirini üç istiqamətdə göstərir:

1)Dil modelinin yaradılması – tanınmış simaların çıxışları auditoriyada təqlid olunur;

2)Diskursun tonunun müəyyənləşdirilməsi – media nitqində aqressiya və ya nəzakətlilik ümumi diskurs mühitini formalaşdırır;

3)Sosial stereotiplərin möhkəmləndirilməsi və ya dağıdılması – etik diskurs cəmiyyətdə pozitiv təsir yaradır, aqressiv diskurs isə neqativ davranışı normallaşdırır.

3. Ənənəvi və sosial medianın fərqləri

Ənənəvi media (televiziya, qəzetlər) nəzarət və redaktə ilə tənzimlənir. Burada etik qaydaların qorunması üstünlük təşkil edir, lakin siyasi debatlarda ritorikanın sərtləşməsi halları da müşahidə olunur.

Sosial media isə daha sərbəst platformadır. Anonimlik və məsuliyyətin zəifliyi səbəbindən nifrət nitqi, təhqiramiz ifadələr və "linç mədəniyyəti" geniş yayılmışdır.

Məsələn, televiziya müzakirəsində aparıcı "hörmətli qonaq" deyərək çıxışçının sözünü kəsməməyə çalışırsa, sosial mediada istifadəçi eyni fikri "yalan danışma" kimi aqressiv formada ifadə edə bilir.

4. Praktik nümunələr

Televiziya debatları – bəzi hallarda iştirakçılar bir-birinin sözünü kəsərək auditoriyada aqressiv üslubu normallaşdırırlar.

Maarifləndirici proqramlar – etik ünsiyyətin təbliği ictimai diskursda pozitiv model yaradır.

Sosial media – "zəhmət olmasa" kimi formulların yerini çox vaxt "ver", "at", "yaz" kimi qısa əmrlər tutur.

5. Nəzakətsiz diskursun nəticələri

Nəzakətlilik qaydalarının pozulması aşağıdakı nəticələrə gətirib çıxarır:

İctimai müzakirələrin aqressivləşməsi;

Fikrə deyil, şəxsə yönəlmiş hücumların artması;

Sosial şəbəkələrdə nifrət nitqinin yayılması;

Auditoriyada etik qaydalara laqeyd münasibətin yaranması.

Tövsiyyə və təkliflər

1. Media nümayəndələri və jurnalistlər üçün etik ünsiyyətlə bağlı xüsusi təlim proqramları təşkil olunmalıdır.
2. Sosial şəbəkələrdə nifrət nitqinə qarşı süni intellekt vasitəsilə filtr sistemləri gücləndirilməlidir.
3. İctimai diskursun iştirakçıları (siyasətçilər, mütəxəssislər, müəllimlər və s.) etik nitq modelinə uyğun davranış nümunəsi göstərməlidir.
4. Təhsil sistemində kommunikativ nəzakətlilik fənn və modulları artırılmalıdır.
5. Maarifləndirici verilişlərin sayı artırılaraq etik diskursun pozitiv modeli gücləndirilməlidir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Abbasova V. , "Kommunikasiya və ünsiyyət anlayışları haqqında". Filologiya Məsələləri/Bakı: Elm və Təhsil, (2021)N2, 156-163.
2. Həbibova, K. "Virtual diskursun linqvistik xüsusiyyətləri". AMEA Nəsimi adına Dilçilik İnstitutu. (2023), 145-156
3. Касавин И.Т. Текст, дискурс, контекст. Введение в социальную эпистемологию языка. М. Канон, 2008, 352-357.
4. Grice, P. "Logic in Conversation". In: Syntax and Semantics, Vol. 3: Speech Acts. New York: Academic Press, (1975) p.434.

DOİ: 10.32010/VMUM2651

WESTERN PERSPECTIVES ON HURUFISM AND SUFISM IN THE POETRY OF IMADADDIN NASIMI

Chinara Rahim NARIMANOVA
Baku Engineering University
Orcid: https://orcid.org/0000-0003-0462-9255
E-mail: chqulieva@beu.edu.az

Abstract : The philosophical and mystical dimensions of Imadaddin Nasimi's poetry have long attracted scholarly attention in Western research, emphasizing the intricate synthesis of Hurufism and Sufism within his works. Nasimi (1369–1417), a distinguished Azerbaijani poet and thinker, is recognized for integrating spiritual doctrines with poetic form, producing a corpus that continues to resonate across temporal and cultural boundaries (Burrill, 1968; Schimmel, 1975). His compositions reflect the Hurufi emphasis on the metaphysical significance of letters and numerical symbolism, while simultaneously engaging with the Sufi pursuit of divine love and the human journey toward spiritual realization (Hess, 2005). This dual engagement illustrates a complex worldview in which the human being and the cosmos are seen as interconnected manifestations of the divine.

Although Western scholarship has increasingly examined Nasimi, there is a persisting need for a holistic study that situates his philosophical and mystical contributions within the historical, social, and cultural contexts of the late medieval Islamic world (Mir-Gasimov, 2011). This research addresses that need by analyzing the convergence of Hurufi and Sufi thought in Nasimi's poetry, exploring how his use of symbolic letters, numerical codes, and metaphysical concepts conveys esoteric principles while maintaining artistic and intellectual clarity. The study demonstrates that Nasimi's work is not only a reflection of doctrinal ideas but also offers broader insights into humanistic and spiritual values that transcend its immediate historical milieu.

By adopting a textual, contextual, and comparative analytical framework, this study highlights the enduring relevance of Nasimi's literary philosophy, providing a basis for future interdisciplinary research in literature, religious studies, and philosophy. The findings suggest that Nasimi's poetry serves as a bridge between medieval Islamic intellectual currents and contemporary understandings of mystical expression, confirming his status as a central figure in both Hurufi and Sufi traditions while underscoring the continued significance of his thought for modern scholarship.

Keywords: Imadaddin Nasimi; Hurufism; Sufism; mystical poetry; Western scholarship; divine love

İMADƏDDİN NƏSİMİ POEZİYASINDA HURUFİLİK VƏ SUFİZMƏ QƏRB BAXIŞLARI

Çinarə Rəhim NƏRİMANOVA
Bakı Mühəndislik Universiteti
Orcid: https://orcid.org/0000-0003-0462-9255
E-mail: chqulieva@beu.edu.az

Xülasə: İmadəddin Nəsiminin poeziyasının fəlsəfi və mistik ölçüləri uzun müddətdir ki, Qərb tədqiqatçılarının diqqətini cəlb edir və onun əsərlərində Hurufilik və Sufizmin mürəkkəb sintezini önə çıxarır. Nəsimi (1369–1417), görkəmli Azərbaycan şairi və düşünürü, dini və fəlsəfi ideyaları poetik formalarla inteqrasiya etməsi ilə tanınır və onun yaradıcılığı zaman və mədəniyyət sərhədlərini aşaraq aktual qalır (Burrill, 1968; Schimmel, 1975). Onun əsərləri Hurufi təlimlərdəki hərflərin və rəqəmlərin metafizik mənasına diqqəti əks etdirir və eyni zamanda Sufi ənənəsindəki ilahi məhəbbət və insanın ruhani təkamülü ideyalarına müraciət edir (Hess, 2005). Bu ikili yanaşma insan və kainatın ilahi əks olunmalar kimi qarşılıqlı əlaqəsini göstərən mürəkkəb dünya görüşünü ortaya qoyur.

Qərb tədqiqatları Nəsimini getdikcə daha çox öyrənsə də, onun fəlsəfi və mistik töhfələrini tarixi, sosial və mədəni kontekstlərdə hərtərəfli təhlil edən işlər hələ də tələb olunur (Mir-Gasimov, 2011). Bu araşdırma Nasimi poeziyasında Hurufi və Sufi düşüncələrinin necə birləşdiyini, onun simvolik hərflərdən, rəqəmlərdən və metafizik anlayışlardan istifadə edərək ezoterik prinsipləri poetik və intellektual dəqiqliklə çatdırmasını öyrənir. Araşdırma göstərir ki, Nəsiminin yaradıcılığı yalnız doktrinal ideyaların əks olunması deyil, həm də insanist və ruhani dəyərlər haqqında ümumi anlayış təqdim edir.

Mətnin, kontekstin və müqayisəli təhlilin birləşdirildiyi bu metodoloji yanaşma Nəsiminin ədəbi fəlsəfəsinin davamlı aktuallığını vurğulayır və ədəbiyyat, dinşünaslıq və fəlsəfə sahələrində gələcək araşdırmalar üçün əsas yaradır. Nəticələr göstərir ki, Nəsiminin poeziyası Orta Əsrlər İslam intellektual axınları ilə müasir mistik ifadə anlayışları arasında körpü rolunu oynayır, onu həm Hurufi, həm də Sufi ənənələrində mərkəzi fiqur kimi təsdiqləyir və onun fikirlərinin müasir tədqiqatçılar üçün əhəmiyyətini vurğulayır.

Açar sözlər: İmadəddin Nəsimi; hurufilik; sufizm; mistik poeziya; Qərb elmi müstəvisi; ilahi məhəbbət

ЗАПАДНЫЕ ВЗГЛЯДЫ НА ХУРУФИЗМ И СУФИЗМ В ПОЭЗИИ ИМАДЕДДИНА НАСИМИ

Чинара Рагим НАРИМАНОВА
Бакинский Инженерный Университет
Orcid: https://orcid.org/0000-0003-0462-9255
Электронная почта: chqulieva@beu.edu.az

Резюме: Философские и мистические аспекты поэзии Имадеддина Насими давно привлекают внимание западных исследователей, подчеркивая сложный синтез хуруфизма и суфизма в его творчестве. Насими (1369–1417), выдающийся азербайджанский поэт и мыслитель, известен способностью интегрировать духовные доктрины с поэтической формой, создавая произведения, актуальные вне временных и культурных границ (Burrill, 1968; Schimmel, 1975). Его поэзия отражает внимание хуруфизма к метафизическому значению букв и чисел, одновременно обращаясь к поиску божественной любви и духовного самосовершенствования человека в традиции суфизма (Hess, 2005). Эта двойная направленность формирует сложное мировоззрение, в котором человек и космос рассматриваются как взаимосвязанные проявления божественного.

Хотя Насими изучается западными учёными всё активнее, сохраняется потребность в комплексном исследовании, которое бы рассматривало его философский и мистический вклад в историческом, социальном и культурном контексте позднесредневекового исламского мира (Mir-Gasimov, 2011). Настоящее исследование анализирует синтез хуруфизма и суфизма в его поэзии, демонстрируя, как использование символических букв, чисел и метафизических понятий передает эзотерические принципы с художественной и интеллектуальной точностью. Работа показывает, что творчество Насими не только отражает доктринальные идеи, но и предлагает более широкие представления о человеческих и духовных ценностях.

Применяя текстуальный, контекстуальный и сравнительный подход, исследование подчеркивает сохраняющуюся актуальность литературной философии Насими и создаёт основу для дальнейших междисциплинарных исследований в области литературы, религиоведения и философии. Результаты показывают, что поэзия Насими служит мостом между интеллектуальными течениями исламского Средневековья и современными интерпретациями мистического выражения, подтверждая его статус центральной фигуры в традициях хуруфизма и суфизма и подчеркивая продолжающееся значение его мыслей для современного научного сообщества.

Ключевые слова: Имадеддин Насими; хуруфизм; суфизм; мистическая поэзия; западные исследования; божественная любовь

Introduction

Hurufism arose in the 14th century and continued to exist until the 17th century, developing through two main stages. The first stage was founded by Fazlullah Naimi and his close disciples during the 14th century, lasting for about half a century in Iran and Azerbaijan. The second stage began after the death of Fazlullah Naimi and became associated with figures such as Ali al-A‘la, Imadaddin Nasimi, and Rifa‘i. This phase expanded into Anatolia and Syria and extended its influence into the Balkans, where it survived until the 17th century. The main sources of Hurufi doctrine are the writings of Fazlullah Naimi, Imadaddin Nasimi, Ali al-A‘la, and Sa‘id Ishaq. Among them, Sayyid Imadaddin Nasimi stands out as a poet whose works achieved broad dissemination and lasting influence. Before adopting the Hurufi creed, Nasimi was already involved in spiritual quests and had likely studied under notable Sufi masters such as Shaykh Shibli. However, his formal initiation into Hurufi doctrine is most often linked with his association with Fazlullah Naimi, the founder of Hurufism. Ottoman biographers and Hurufi texts provide ample evidence of their intellectual relationship. A particularly revealing source is the *Istiwa-Name* by Ghiyasud-Din, which recounts a meeting between Ghiyasud-Din and Fazlullah at a gathering where they engaged in theological discussions about Nasimi’s verses. This account strongly implies that Nasimi had adopted Hurufi beliefs well before Fazlullah's execution in 1401.

Hurufism represents an exceptionally complex and profound doctrine, which has long been a subject of careful study by scholars in the fields of literature, history, and philosophy. The examination of this tradition is fraught with several inherent challenges. Firstly, many of its foundational texts are composed in a mixture of Arabic, Persian, and Azerbaijani, creating significant linguistic and interpretive demands for researchers seeking to fully understand their meaning. In addition, Hurufi writings rely heavily on symbolic representations of letters, with each character often carrying multiple

layers of significance, which makes careful interpretation both necessary and challenging. Another difficulty stems from the diversity and occasional contradictions within historical sources, which frequently offer differing or even conflicting perspectives on the doctrines, development, and influence of the movement. Despite these challenges, the study of Hurufism remains indispensable, as it sheds light on critical aspects of intellectual, cultural, philosophical, and literary development in the Middle East and the broader Islamic world.

Hurufism is a distinctive mystical doctrine that interprets the Arabic letters as carriers of hidden, inner meanings and links the mysteries of the universe to these symbols. Its followers maintain that the essence and foundation of all acts of worship—such as fasting, ritual prayer (ṣalāt), and pilgrimage (ḥajj)—originate from these letters. They further emphasize that the letters themselves embody the eternal word of God, inseparably connected with the Divine essence and not existing apart from the Creator. This spiritual path was established by Fazlullah Naimi.

Theoretical Framework

Hurufi doctrine interprets Arabic letters as carriers of hidden spiritual meanings, linking the mysteries of creation to symbolic forms. Letters are considered manifestations of the divine word, connecting human acts of worship to the eternal essence of God (Nasimi, 1973; Holy Quran, Surah Yasin 36:82). Nasimi's poetry reflects this principle, employing symbolic letters, numerical codes, and the human form as a medium of divine expression (Amonova, Rajabova, & Safarova, 2024). Western scholarship has emphasized the philosophical and mystical dimensions of his work, highlighting its allegorical richness and esoteric content (Schimmel, 2004; Burrill, 1994; Hess, 2008).

The 14th and 15th centuries mark a particularly vibrant and transformative period in the cultural and literary history of the Azerbaijani people. These centuries witnessed a remarkable flowering of literature and intellectual life, most notably marked by the emergence of Imadaddin Nasimi, who became a central and highly influential figure in Azerbaijani literary history. The socio-political conditions prevailing in Shirvan from the late 13th to the early 14th century created a fertile ground for literary expression in the Azerbaijani language. Although Azerbaijani literature had earlier roots, it was during this period that it achieved new levels of artistic sophistication, intellectual depth, and expressive potential.

Nasimi played a pivotal role in this era of cultural awakening. Drawing on both Hurufi teachings and Sufi traditions, Nasimi portrays existence as more than physical reality, where the human being is elevated into a mirror of divine truth. Much of this vision is closely connected to the ideas of Hurufism, the movement founded by Fazlullah Naimi. In his poems, letters are not just signs but vessels of divine meaning; the human face becomes a reflection of the sacred; and the universe is seen as an expression of unity. Through these images, Nasimi builds a worldview where poetry serves as both art and a path to spiritual truth, combining philosophy, mysticism, and Hurufi thought in a distinctive way.

Implications, Limitations and Future Directions. The results of this research have both theoretical and practical significance for linguistics and media communications. Analyzing the use of pragmatic markers in English media discourse, the study contributes to a deeper understanding of how meaning and interpersonal relationships are formed through language. These results can be useful not only to linguists and discourse analysts, but also to journalists and teachers who strive to improve clarity, coherence and involvement in communication. Understanding the pragmatic functions of the language allows media specialists to convey information more effectively and maintain audience involvement in an increasingly hybrid communicative environment.

However, the study is limited to data that is mainly focused on individual articles from BBC News and The Guardian. Although these sources are reliable and influential examples of modern English-language journalism, they do not cover all the variety of genres and media platforms. Therefore, future research should expand the corpus by including alternative media, online comments, and social media posts, which often reflect a more dynamic and spontaneous use of pragmatic markers.

Further studies can also use a comparative approach, studying similar features in Azerbaijani or other language contexts. Such a cross-linguistic analysis will allow you to get valuable information about how cultural norms, communication styles and language traditions affect pragmatic expression. Moreover, as digital communication develops, the integration of multimodal elements, such as images, hashtags and emojis, into pragmatic analysis will open up new opportunities for understanding semantics in online discourse.

Conclusion

Finally, this study emphasizes the decisive role of pragmatic awareness in the formation of effective and responsible media communication. In journalism, language should be considered not just as a channel for transmitting facts, but as an active tool for constructing social reality. Understanding how pragmatic markers work in discourse helps to reveal the subtle mechanisms by which media shape perception, beliefs and interaction in modern society.

REFERENCES:

1. Austin, J.L. (1962). *How to do things with words*. Oxford University Press. 167.
2. Bednarek, M. (2006). *Evaluation in media discourse: Analysis of a newspaper corpus*. Continuum.
3. Bednarek, M., & Caple, H. (2017). *The discourse of news values: How news organizations create newsworthiness.* Oxford University Press.
4. Grice, H.P. (1975). *Logic and conversation*. In P. Cole & J. L. Morgan (Eds.), Syntax and semantics: Vol. 3. Speech acts (pp. 41–58). Academic Press.
5. Hurford, J.R., Heasley, B., & Smith, M. B. (2007). *Semantics: A coursebook* (2nd ed.). Cambridge University Press.
6. Khanbutayeva, L.M. (2019). *Hedging in newspaper editorials: A comparative analysis of English and Azerbaijani.* Dilçilik Araşdırmaları, 2, 45-52.
7. Leech, G.N. (1983). *Principles of pragmatics.* Longman.
8. Lyons, J. (1995). *Linguistic semantics: An introduction.* Cambridge University Press.
9. Mammadov, A. (2014). *Deictic representations of person in media discourse*. Lodz Papers in Pragmatics, 10 (2), 245-259.
10. Mammadov, A., & Agamaliyeva, J. (2023). *Pragmatic Function of Ellipsis in Political Interview*. Forum Lingwistyczne, 11 (2), 1-11. https://doi.org/10.31261/FL.2023.11.2.07
11. Qurbanova, L. Q. (2024). *Danışıq aktı praqmatikanın əsası kimi* (*Speech act as the basis of pragmatics).* Dilçilik Araşdırmaları, 1, 175-179.
12. Richardson, J. E. (2007). *Analysing newspapers: An approach from critical discourse analysis*. Palgrave Macmillan.
13. Searle, J.R. (1969). *Speech acts: An essay in the philosophy of language.* Cambridge University Press.
14. Yule, G. (1996). *Pragmatics.* Oxford University Press.
15. BBC News. (2024, March 20). *Rishi Sunak says 2024 will be year economy bounces back after inflation falls*. https://www.bbc.co.uk/news/live/uk-politics-68614928?page=2
16. BBC News, (2024, August 22), *Computer science graduates struggle to secure their first jobs.* https://www.bbc.com/news/articles/cm21dvg8l1go
17. The Guardian. (2025, May 9). *Ukraine says it has busted Hungarian spy ring collecting military data*. https://www.theguardian.com/world/2025/may/09/ukraine-says-busted-hungarian-spy-ring-military-data

DOİ:10.32010/RLHW7095

DİLÇİLİKDƏ MƏTN VƏ ONUN BƏZİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA (AZƏRBAYCAN VƏ İNGLİS DİLLƏRİNİN MATERİALLARI ƏSASINDA)

Günay İlham POLADOVA
Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu
E-mail: gunay.poladova@karabakh.edu.az

Xülasə: Məqalə mətnin analizinə həsr olunmuşdur. Burada mətn və onun tərkib hissələri olan makromətn və mikromətn haqqında araşdırmalar aparılmışdır. Həmçinin, burada bağlayıcılardan və onların mətnyaratma funksiyasından da söz açılmışdır.
Açar sözlər: Mətn, mətn dilçiliyi, makromətn, mikromətn, bağlayıcı

ABOUT TEXT AND SOME OF ITS FEATURES IN LINGUISTICS (BASED ON AZERBAIJAN AND ENGLISH LANGUAGES)

Gunay Ilham POLADOVA
Azerbaijan National Academy of Sciences Nasimi Institute of Linguistics
E-mail: gunay.poladova@karabakh.edu.az

Abstract: This article is about text analysing. There was done the researches about the text and it's parts which are macrotext and microtext. Also there was discussed conjuctions and their role inside of the text.
Keywords: Text, text linguistics, macrotext, microtext, conjunction

О ТЕКСТЕ И НЕКОТОРЫХ ЕГО ОСОБЕННОСТЯХ В ЛИНГВИСТИКЕ (НА ОСНОВЕ АЗЕРБАЙДЖАНСКОГО И АНГЛИЙСКОГО ЯЗЫКОВ)

Гюнай Ильхам ПОЛАДОВА
Азербайджанская национальная академия наук, Институт лингвистики им. Насими
Электронная почта: gunay.poladova@karabakh.edu.az

Резюме: статья посвящен к анализу текста. Здесь были зделаны иследовании по теме текст и его части, которыми являются макротекст и микротекст. А также здесьречь идет о союзах и их функциях внутри текста.
Ключевые слова: Текст, лингвистика текста, макротекст, микротекст, союз.

Giriş

Mətn dilçiliyi - möhkəm daxili struktur-semantik əlaqələri olan cümlələr birliyinin öyrənilməsidir.

Mətn dilçiliyinin güclü inkişafının nəticəsində son illər ərzində dilçilik tədqiqatla- rının tamhüquqlu obyektinə çevrilmiş mətnə müraciət dil vahidlərinin məzmun tərəfi- nin öyrənilməsi üçün geniş imkanlar açır.

Müasir dövrümüzdə aktual dilçilik sahələrindən olan mətn dilçiliyi XX əsrin 20-ci illərindən yaranmış, 50-80-ci illərdə formalaşmağa başlamışdır. Adından da göründü- yü kimi, mətn dilçiliyinin əsas tədqiqat obyekti elə mətnin özüdür.

Nəzəriyyə

İlk növbədə bu terminin birmənalı olmadığını qeyd etmək lazımdır. O.S. Axmanovanın linqvistik terminlər lüğətində oxuyuruq: "Mətn 1. Nitq əsəri ilə eyni- dir. 2. Yazıda qeyd olunmuş nitq əsəridir. 3. Korpus ilə eynidir. Mətn termininin mə- nalarının Axmanovanın lüğətində müxtəlif cür təyini bu semantikanın denotatı haq- qında qeyri dəqiq təsəvvürlərə işarə edir. [13-209]

D. E. Rozental və M. A. Telenkova tərəfindən tərtib olunmuş Linqvistik terminlərin lüğətində "mətn" məfhumunun çox qısa tərifi verilib: "Mətn" (latınca tekstum-əlaqə, birləşmə) yazıda və yaxud çapda əks olunmuş nitq əsəridir (söyləm)". [14]

L. M. Qranovskayanın mətn tərifi dəqiq və kifayət qədər müəyyən olsa da, müba- hisəli görünür. O göstərir ki, "mətn yalnız qrafik ifadə olunan dilin yazılı formasının məhsuludur". Gətirilən sitat tərif kimi qəbul olunmaya da bilər, çünki burada fərqlən- dirici təzahürlər öz əksini tapmayıbdır. Bununla belə həmin tərifdə birmənalı olaraq mətnin qrafik şəkildə ifadə olunması bildirilir. [9]

Mətn ərəb mənşəli olub "birləşmə" sözünə uyğundur. Mətn möhkəm daxili struktur-semantik əlaqələri olan cümlələr birliyidir. Ünsiyyətin əsas vahidi olan cümlə bitmiş bir fikri ifadə etsə də, onun ifadə etdiyi fikir bitkinliyi nisbi xarakter daşıyır. Cümlə onu əhatə edən cümlələr birliyində, yəni, mətn mühitində öz sermantik xüsu siyyətlərini tam şəkildə üzə çıxara bilir. Cümlələrin müəyyən fikir ətrafında əlaqəli birliyi mətnin yaranmasına səbəb olur. [17]

Mətnin yaranmasının əsası qanunauyğunluqları vardır. Mətnin təşkili mexnizmi, qurulma texnikası ardıcıl gələn cümlələrdə semantik proqressiya ilə bağlıdır. Bu sahə- dəki qanunauyğunluqların hərtərəfli tədqiqi bir sıra dil problemlərinin həllinə kömək edir, dilin funksional əhəmiyyətini daha ətraflı üzə çıxarır. Ona görə də sintaksisin vəzifəsi yalnız söz birləşməsi və cümləni öyrənməklə məhdudlaşmır. Yeni dövrdə mətnin struktur-semantik xüsusiyyətləri onun əsas tədqiq obyektinə çevrilmişdir. [5-22]

T. Nikolayeva üç asas mətnyaradıcı vasitə ayırır: 1) intonasiya; 2)söz sırası: 3)mətn münasibətlərinin eksplisit seqment göstəriciləri-xidməti xarakterli "xırda sözlər". [15-5:39]

M. Qluşko, həmçinin, üç qrup əlaqə vasitəsi ayırır: 1-formal-qrammatik, yəni ön- sözlər, bağlayıcılar və s.; II-deyktik-artikllar, şəxs və işarə əvəzlikləri, "there, now,

then, the former, the latter" kimi sözlər; III-sintaktik. [11-194]

Mətn yaranmasında, əsasən, aşağıdakı formal əlaqə vasitələri iştirak edə bilər.

1. Fonetik təkrar (bura alliterasiya, assonans kimi bədii üslubi üsullar daxildir),
2. Morfoloji təkrar (cins, zaman, hal kateqoriyası əlamətlərinin təkrarı);
3. Leksik təkrar (sözlərin tam, natamam, yəni müxtəlif qrammatik formalarda

olan təkrarı və sıfır təkrarı):

4. Sintaktik təkrar (söz sırasının tam və natamam təkrarı, xiazm və s.);
5. Leksik-qranunatik vasitələr (bağlayıcılar, önsözlər, determinantlar və s.);
6. Deyktik elementlər: (müxtəlif tipli əvəzliklər, artikllar və s.)

Mətn əsasən təşkilati mahiyyət daşıyır. Belə ki, mətn müəyyən işarə birləşmələri-

nin spesifik ardıcıllığıdır. Bu işarələr ardıcıllıqla düzüldükdə müəyyən məna əldə edirlər.

Ümumiyyətlə, mətn cümlədən daha mürəkkəb struktura malikdir. Bu, bizim şüuru- muzda da belə əks olunur. Lakin, cümlə "yazıda qey olunmuş nitq əsəri" anlayışı ilə uyğun gəldiyindən, mətn də müəyyən qrafik şəkilə uyğunlaşmış dil reallığı anlayışı ilə tam uygunlaşır.

Mətn nitq fəaliyyətinin digər kateqoriyaları kimi, məsələn cümlə kimi sintaktik iyerarxix sistemə daxil olur. Başqa sözlə desək, digər linqvistik kateqoriyalarla onun arasında konkret qarşılıqlı münasibətlər zənciri qurulur. Və əslində mətn nitq vahidi olaraq, eyni zamanda, özünü cümləyə nisbətən daha yüksəkdə duran sintaktik vahid kimi də aparır. Çünki o, dil səviyyəsində cümləyə nisbətən həm struktur, həm da se- mantik planlarda daha genişşaxəli mürəkkəblik nümayiş etdirir.

Məlumdur ki, mətnin ən azı iki cümlədən ibarət olması ideyası aparıcıdır. Çünki bir cümlə yalnız bir elementar xəbər məzmunundan ibarət müəyyən bir bütövdür. Halbuki, digər tərəfdən isə, yuxarıda qeyd edildiyi kimi mətni yazıda fiksasiya olun- muş nitq vahidi kimi qəbul etsək, cümləni də mətn hesab etmək olar. Mətn haqqında cümlə üzərində struktur mənada üstünlük təşkil edən bir vahid kimi təsəvvürümüz bi- zim intiutiv, qeyri-elmi təsəvvürlərimizə söykənir. Cümləni struktur-semantik planda cilalanmış hesab etsək, buradan belə nəticəyə gəlmək olar ki, mətn cümlədən daha böyük bir vahiddir.

Mətnin məzmunu onun ünsiyyət zamanı iştirak edənlər tərəfindən necə başa düşüldüyü ilə təyin olunur.

Biz mətnə cümlənin qeyri-müəyyənliyini və müəyyən semantik çatışmazlıqlarını aradan qaldıran ünsiyyət vasitəsi kimi baxırıq. Ümumiyyətlə, mətn informasiyanın ötürülməsi və qəbul edilməsi prosesində mühim rol oynayan əsas faktordur.

Nəticə

"Mətn" sözünü ümumi şəkildə nəzərdən keçirsək, mətn sözü iki müxtəlif mənadan çıxış edə bilər. Ümumilikdə, dilcilik tədqiqatlarında mətn iki növə- mikromətn və makrəmətnlərə ayrılır, yəni bu söz geniş mənada-makromətn, onun əksi olan dar mə- nada isə-mikromətn kimi nəzərdə tutula bilər. "Makromətn", "Mikromətn" və ümu- miyyətlə, "mətn " termininin mənası ümumi və yayğın olduğundan mətn sintaksisini tədqiqat obyekti üçün xüsusi ad seçmə meyli güçlüdür və yuxarıda qeyd edtdiyimiz termin müvazilikləri də müxtəlif dilçilər tərəfindən həmin meyllə əlaqədar yaradıl- mışdır. Çünki mətn sintaksisinin tədqiq obyekti olan mikromətnlərin real səciyyəvi əlamətləri vardır. Dar mənada göstərdiyimiz mikromətnlər birləşərək geniş mənalı makromətnlər əmələ gətirirlər. Bu halda "mürəkkəb sintaktik bütöv " anlayışı ilə " mikromətn" anlayışı üst-üstə düşür. Deməli, mikrəmətnlər mürəkkəb sintaktik bütöv yığınıdır. Tək bir cümlə bitmiş bir fikri ifadə etdiyi halda, mürəkkəb sintaktik bütöv mürəkkəb bir fikri, hər hansı bir müəyyən informasiyanı ifadə edir. [16;17]

Makromətnlər mikrotemalar silsiləsi əsasında formalaşır və əsərin həcmində asılı olaraq, saysız

mikrotemaların istalıqla əlaqələndirilməsi yolu ilə əsas temanı oxucuya çatdırır. Bu cəhətdən makrəmətn bir-birinə keçirilmiş tər şəbəkələr kimidir. Hər bir sintaktik bütöv isə ayrıca bir mikrotema üzərində qurulur. Yəni, hər bir sintaktik bü- tövün özünün mikroteması olur. Həmin mikrotemalar birləşərək, makrotemanın ya- ranmasına səbəb olur. Ona görə də təhlil üçün lazım olan hər bir sintaktik bütöv (mik- romətn) makromətn içərisindən seçilib çıxarılır. Deməli, sintaktik bütövlər (mikro- mətnlər) makromətnlərin hissələridir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Abdullayev. Ə. Aktual üzvlənmə və mətn. Bakı, Xəzər Universiteti nəşriyyatı, 1998, 190s-s127
2. Azərbaycan dilinin qrammatikası. I. Morfologiya | R. Rüstəmov və Z. İ. Budaqovanın redaktəsi ilə. Bakı: EA nəşriyyatı, 1960, 335 s-265s
3. Əfəndiyev. C. H. Bağlayıcı. Azərbaycan dilinə aid tədqiqlər. Elmi sərfin bəzi məsələləri. Bakı: Azərb. EA nəşriyyatı, 1947, s. 144-168
4. Məmmədli. K. S. İnglis və Azərbaycan dillərində bağlayıcıların funksional- semantik xüsusiyyətləri (namizədlik dissertasiyası) Bakı-2009. s 158
5. Məmmədov. A. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı- "Elm"-2001. s 144
6. Müasir Azərbaycan dilinin morfologiyası. Ali məktəblər üçün dərslik Ə. M. Dəmirçizadə və Z. X. Tağızadənin redaktəsi ilə. Bakı: APİ nəşriyyatı, 1961. 190 s
7. Müasir Azərbaycan dili. II c. Morfologiya. Z. 1. Budaqovanın redaktəsi ilə: Bakı: Elm, 1980, 510 s
8. Musayev, O. A Practical Grammar Of Contemprorary English. Bakı-Qismət- 2009, 538s-s270
9. Грановская. Л. М. Методические разработки к курсу. Лингвистический анализ текста. Баку. с 3
10. Ф. В. Колшанский. Коммуникательная функция и структура языка. Москва, 1984. с 89
11. М. М. Глушко. Тестология английской научной речи. Москва, 1978. с 194
12. О. И. Москальская. Грамматика текста. Москва, 1981. с 3
13. О. С. Ахманова. Словарь Лингвистических терминов. Москва, 1966. с 470-209
14. Розенталь. Д. Э. Теленкова М. А. Словарь-справочник Лингвистических терминов. Москва, 1976. с 483
15. Т. М. Николаева. Лингвистика текста. Современное состояние и перспек-тивы. "Новое в зарубежной лингвистике", Москва, 1978. с 5-39
16. www.qkazimov. gen. az mətnsintaksisi\mətnvəonundaxilivahidləri
17. az. wikipedia. Org / mətn

DOİ: 10.32010/QRSC9471

YENİ MEDİA VƏ DİL: BLOGLARIN VƏ SOSİAL ŞƏBƏKƏLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏSİRİ

Jalə Elçin QASIMOVA
Mingəçevir Dövlət Universiteti
Orcid: https://orcid.org/0000-0002-5271-9389
E-mail: jala.qasimova@mdu.edu.az

Xülasə: İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində yeni media anlayışı yaranmış və ənənəvi KİV-lə müqayisədə daha operativ, interaktiv və çoxşaxəli ünsiyyət imkanları formalaşdırmışdır. Yeni media dedikdə, əsasən sosial şəbəkələr, bloglar, onlayn forumlar və digər rəqəmsal platformalar nəzərdə tutulur. Azərbaycan cəmiyyətində də yeni medianın rolu son illərdə sürətlə artmış, xüsusilə gənc nəsil arasında dil istifadəsinə təsiri gözə çarpacaq dərəcədə güclənmişdir. Bu məqalədə blogların və sosial şəbəkələrin Azərbaycan dilinə təsirləri araşdırılır. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı və rəqəmsal medianın geniş yayılması Azərbaycan dilinin istifadə sahələrinə ciddi təsir göstərməkdədir. Xüsusilə bloglar və sosial şəbəkələr ünsiyyət mədəniyyətində, yazılı və şifahi ifadə formalarında yeni tendensiyalar yaratmışdır. Məqalədə yeni medianın Azərbaycan dilinə təsiri araşdırılır, müsbət və mənfi nəticələr təhlil edilir. Aparılan müşahidələr və müqayisəli təhlil göstərir ki, yeni media Azərbaycan dilinin leksikasına çoxsaylı alınma sözlər, abbreviaturalar, yeni texnoloji terminlər gətirmişdir. Dilin qrammatik səviyyəsində qısaltmalar, qeyri-formal üslubun artması, emosional ifadələrin güclənməsi müşahidə olunur.
Blogların təsiri əsasən fərdi üslubların inkişafı, mövzu və janr müxtəlifliyi, intellektual diskursun genişlənməsi ilə bağlıdır. Sosial şəbəkələrdə isə daha çox gündəlik danışıq dilinə yaxın ifadələr, slanq, jarqon, emojilər və hashtaglar yeni "dil elementi" kimi meydana çıxır. Yeni medianın müsbət tərəfləri arasında dilin daha çevik və dinamik inkişafı, gənclərin dil vasitəsilə daha çox ünsiyyətə girməsi, yazı və şifahi üslub arasında hibrid formaların yaranması göstərilə bilər. Mənfi tərəflərə isə imla qaydalarının pozulması, rəsmi-ədəbi dil normalarından yayınma, yad dillərin təsirinin güclənməsi daxildir. Məqalədə nəticə olaraq qeyd edilir ki, yeni medianın Azərbaycan dilinə təsiri balanslı şəkildə qiymətləndirilməlidir. Dilin müasir dövrün tələblərinə uyğun inkişafı zəruridir, lakin milli kimlik və dilin saflığının qorunması prioritet qalmalıdır. Bu məqsədlə maarifləndirici tədbirlər, rəqəmsal lüğət və tətbiqlər hazırlanmalı, sosial mediada ədəbi dilin təbliği gücləndirilməlidir. Aparılmış müşahidələr göstərir ki, sosial media platformaları dilin dinamik və çevik inkişafına təkan versə də, eyni zamanda qrammatik normaların zəifləməsinə, imla qaydalarının pozulmasına və jarqonlaşmaya səbəb olmuşdur. Bloglar isə fərdi üslubların inkişafı, mövzu müxtəlifliyinin artması və terminoloji zənginləşmədə mühüm rol oynayır. Məqalədə müqayisəli cədvəl əsasında sosial şəbəkələr və blogların Azərbaycan dilinə təsirləri qarşılaşdırılır. Əldə olunan nəticələr göstərir ki, yeni medianın dil mühitinə təsiri balanslı yanaşma tələb edir.
Açar sözlər: Yeni media, Azərbaycan dili, sosial şəbəkələr, dil dəyişiklikləri,orfoqrafiya.

NEW MEDIA AND LANGUAGE: THE IMPACT OF BLOGS AND SOCIAL NETWORKS ON THE AZERBAIJANI LANGUAGE

Jala Elchin GASIMOVA
Mingachevir State University
Orcid: https://orcid.org/0000-0002-5271-9389
E-mail: jala.qasimova@mdu.edu.az

Summary: The rapid development of information technologies has led to the emergence of the concept of new media, which, compared to traditional mass media, offers more immediate, interactive, and multifaceted communication opportunities. New media primarily refers to social networks, blogs, online forums, and other digital platforms. In Azerbaijani society, the role of new media has grown significantly in recent years, with a particularly noticeable impact on language use among the younger generation.
This article explores the influence of blogs and social networks on the Azerbaijani language. In the modern era, the advancement of information technologies and the widespread adoption of digital media are having a profound effect on the use and function of the Azerbaijani language. Blogs and social media have introduced new trends in communication culture and in both written and spoken forms of expression. The article analyzes both the positive and negative consequences of new media's impact on the language.
Observations and comparative analysis show that new media has introduced numerous borrowed words, abbreviations, and technological terms into the Azerbaijani lexicon. On a grammatical level, there is a rise in abbreviations, informal language, and the use of emotional expressions. The influence of blogs is primarily associated with the development of individual

writing styles, thematic and genre diversity, and the expansion of intellectual discourse. Social networks, on the other hand, have popularized conversational language, slang, jargon, emojis, and hashtags—elements that form a new kind of "language."
Among the positive aspects of new media are the more flexible and dynamic development of the language, increased communication among youth through language, and the emergence of hybrid forms between written and spoken styles. On the negative side, there is a noticeable decline in adherence to spelling rules, deviation from formal literary norms, and a growing influence of foreign languages.
The article concludes that the influence of new media on the Azerbaijani language should be assessed in a balanced manner. While the development of the language to meet the demands of the modern age is essential, preserving national identity and linguistic purity must remain a priority. To achieve this, educational initiatives, digital dictionaries and applications should be developed, and the promotion of literary language on social media should be strengthened.
Observations indicate that while social media platforms promote the dynamic and flexible development of the language, they also contribute to the weakening of grammatical norms, violation of spelling rules, and the rise of jargon. Blogs play an important role in the development of individual expression, thematic expansion, and enrichment of terminology. The article includes a comparative table highlighting the different impacts of blogs and social networks on the Azerbaijani language. The findings show that the influence of new media on the linguistic environment requires a balanced and thoughtful approach.
Keywords: New media, Azerbaijani language, blogs, social networks, language change, communication, orthography, technology.

НОВЫЕ МЕДИА И ЯЗЫК: ВЛИЯНИЕ БЛОГОВ И СОЦИАЛЬНЫХ СЕТЕЙ НА АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Джала Эльчин КАСЫМОВА
Мингячевирского государственного университета
Oecid: https://orcid.org/0000-0002-5271-9389
Электронная почта: jala.qasimova@mdu.edu.az

Резюме: В результате стремительного развития информационных технологий появилось понятие новых медиа, которое по сравнению с традиционными СМИ сформировало более оперативные, интерактивные и многогранные возможности общения. Под новыми медиа в основном понимаются социальные сети, блоги, онлайн-форумы и другие цифровые платформы. В азербайджанском обществе роль новых медиа в последние годы значительно возросла, и особенно заметным стало их влияние на использование языка среди молодёжи.
В данной статье исследуется влияние блогов и социальных сетей на азербайджанский язык. В современную эпоху развитие информационных технологий и широкое распространение цифровых медиа оказывают значительное влияние на сферы использования азербайджанского языка. Особенно блоги и социальные сети способствовали возникновению новых тенденций в культуре общения, а также в формах письменного и устного выражения. В статье анализируются как положительные, так и отрицательные последствия влияния новых медиа на азербайджанский язык.
Проведённые наблюдения и сравнительный анализ показывают, что новые медиа внесли в лексику азербайджанского языка множество заимствованных слов, аббревиатур и новых технологических терминов. На грамматическом уровне наблюдаются сокращения, рост неформального стиля и усиление эмоциональных выражений. Влияние блогов связано в основном с развитием индивидуального стиля, жанровым и тематическим разнообразием, а также расширением интеллектуального дискурса. В социальных сетях же преобладают разговорные выражения, сленг, жаргон, эмодзи и хэштеги, которые формируют новые «языковые элементы».
К положительным сторонам новых медиа можно отнести более гибкое и динамичное развитие языка, повышение уровня коммуникации среди молодёжи, а также появление гибридных форм между письменной и устной речью. К отрицательным — нарушение орфографических правил, отклонение от норм официального литературного языка и усиление влияния иностранных языков.
В заключение статьи подчёркивается, что влияние новых медиа на азербайджанский язык должно оцениваться сбалансированно. Развитие языка в соответствии с требованиями современности является необходимостью, однако при этом сохранение национальной идентичности и чистоты языка должно оставаться приоритетом. С этой целью следует разрабатывать просветительские мероприятия, цифровые словари и приложения, а также активизировать пропаганду литературного языка в социальных сетях.
Проведённые наблюдения показывают, что, хотя социальные медиа стимулируют динамичное и гибкое развитие языка, они также способствуют ослаблению грамматических норм, нарушению орфографии и росту жаргонной речи. Блоги же играют важную роль в развитии индивидуального стиля, увеличении тематического разнообразия и обогащении терминологии. В статье на основе сравнительной таблицы противопоставляются воздействия блогов

и социальных сетей на азербайджанский язык. Полученные результаты свидетельствуют о необходимости сбалансированного подхода к влиянию новых медиа на языковую среду.
Ключевые слова: Новые медиа, азербайджанский язык, социальные сети, языковые изменения, орфография.

Giriş

Yeni media XXI əsrin informasiya mühitini köklü şəkildə dəyişən fenomenlərdən biridir. Ənənəvi mətbuat, radio və televiziya vasitələrindən fərqli olaraq, yeni media interaktivlik, operativlik, sürətli yayılma və istifadəçi mərkəzliyi ilə seçilir. Azərbaycan cəmiyyətində də bu proseslər sürətlə gedir və xüsusilə sosial şəbəkələr gündəlik ünsiyyət mədəniyyətinə, yazı formasına və dilin işlənməsinə təsir göstərir. Mövcud vəziyyətdə dilin qorunması ilə yanaşı, onun müasir texnologiyalara uyğunlaşdırılması da zəruri məsələ kimi qarşıya çıxır. Dil və media qarşılıqlı təsirdə inkişaf edən iki sosial institutdur. Kommunikasiya nəzəriyyələri göstərir ki, media yalnız informasiya ötürən vasitə deyil, həm də dilin dəyişməsinə təsir göstərən mühüm amildir. Bloglar fərdi yazı üslublarının inkişafına, yeni ifadə formalarının yaranmasına imkan yaradır. Sosial şəbəkələr isə qlobal kommunikasiya mühitində Azərbaycan dilini yeni leksik vahidlər, qısaltmalar və qarışıq üslublarla zənginləşdirir. Bu baxımdan, yeni medianın dilə təsirini həm pozitiv, həm də neqativ meyllərlə xarakterizə etmək olar. Tədqiqatda müqayisəli təhlil, müşahidə və mətn analizi metodlarından istifadə olunmuşdur. Blog yazıları və sosial şəbəkə statusları üzərində aparılan müşahidələr nəticəsində yeni leksik vahidlər, qrammatik dəyişikliklər və üslubi fərqlər müəyyən edilmişdir. Əlavə olaraq, ənənəvi KİV mətnləri ilə yeni media mətnləri müqayisə edilərək dil normalarındakı dəyişikliklər analiz olunmuşdur.

Yeni medianın xüsusiyyətləri

- İnteraktivlik – istifadəçilər yalnız məlumat istehlakçısı deyil, həm də aktiv iştirakçı kimi çıxış edirlər.
- Operativlik – məlumatlar saniyələr ərzində milyonlarla insana çatdırıla bilir.
- İstifadəçi mərkəzliyi – kontentin yaradılması və yayılmasında adi insanlar əsas rolu oynayır.
- Demokratik informasiya mühiti – hər kəs öz fikrini sərbəst şəkildə paylaşa bilir.

Yeni medianın dilə təsir istiqamətləri

Yeni medianın Azərbaycan dilinə təsirləri müxtəlif səviyyələrdə müşahidə olunur:

- Leksik səviyyədə təsirlər – yeni sözlər, alınmalar və neologizmlər (məsələn, 'like eləmək', 'share etmək').
- Qrammatik dəyişikliklər – qısa cümlələrin artması, danışıq dilinə yaxın konstruksiyaların yazıda istifadəsi.
- Üslubi dəyişikliklər – rəsmi və qeyri-rəsmi üslubların qarışması.
- Orfoqrafiya və imla qaydalarının pozulması – səhvlərin normallaşması.

Blogların Azərbaycan dilinə təsiri

Bloglar fərdi üslubun ifadə vasitəsi kimi çıxış edir. Onlarda rəsmi üslubdan daha çox səmimi və gündəlik danışıq dilinə yaxın üslub üstünlük təşkil edir. Texnologiya, moda, səyahət, təhsil və digər mövzularla bağlı çoxsaylı yeni terminlər Azərbaycan dilinə daxil olur. Bununla yanaşı, ingilis və rus dillərinin təsiri də güclüdür: blog yazılarında çox vaxt qarışıq dildən istifadə olunur. Blogların təsiri nəticəsində dil həm zənginləşir, həm də orfoqrafiya qaydaları zəifləyir. Sosial şəbəkələr Azərbaycan dilinə bloglardan daha güclü təsir göstərir. Burada sürətli yazışma mədəniyyəti formalaşmışdır. İnsanlar sözləri qısaldır (məs., 'tşk', 'okey', 'brb'), daha çox slanq və jarqondan istifadə edirlər. Emojilər, gif-lər, hashtag-lar və mention-lar (#hashtag, @username) yeni ünsiyyət elementlərinə çevrilib. Nəticədə yazılı dil klassik qaydalardan uzaqlaşır, lakin ünsiyyət daha ekspressiv və emosional olur. Crystal, D. (2006).

Xüsusiyyət	Bloglar	Sosial şəbəkələr
Üslub	Esse tipli, analitik və şəxsi üslub	Qısa, sürətli, gündəlik üslub
Dil qaydalarına riayət	Qismən riayət olunur	Çox zəif, sürət ön plandadır
Yeni sözlərin istifadəsi	Mövzulara uyğun terminlər (startup, dizayn)	İngilis və rus sözləri ('like', 'story')
Vizual elementlər	Mətn əsasdır, şəkil əlavə olunur	Emoji, gif və memlər geniş yayılıb
Təsir auditoriyası	Daha az, sadiq oxucular	Çox geniş, lakin səthi ünsiyyət
Normativ dilə təsir	Qaydalara müəyyən hörmət qalır	Qaydalar çox pozulur, yanlış formalar yayılır

Müqayisəli təhlil

Bloglar və sosial şəbəkələrin Azərbaycan dilinə təsiri aşağıdakı cədvəldə müqayisəli şəkildə göstərilmişdir: Karimova, N. (2018).

Yeni tendensiyalar

1. Multimodal dil – mətn, şəkil, emoji və video birlikdə istifadə olunur.
2. Hibrid üslub – rəsmi və qeyri-rəsmi üslubun qarışması.
3. Texnolektlər – müəyyən onlayn icmaların özünəməxsus 'şifrə'li dili.
4. Globalizasiya təsiri – ingilis dilinin dominantlığı ilə bağlı yeni qarışıq ifadələr.

Azərbaycan dilinin qorunması və inkişafı yolları

- Təhsil sistemində dil qaydalarının möhkəmləndirilməsi və yeni media savadlılığının tədrisi.
- Orfoqrafiya qaydalarının onlayn platformalarda tətbiqi və təbliği.
- Texnologiyaların Azərbaycan dilinə adaptasiyası (klaviatura, tətbiqlər, avtomatik korrektə).
- Media qurumlarının və bloqerlərin məsuliyyətli dil istifadəsini təşviq etməsi.

Nəticələr

Aparılmış araşdırmalar göstərir ki, yeni medianın Azərbaycan dilinə təsiri çoxşaxəlidir. Müsbət nəticələr arasında:

- ✓ Dilin daha çevik və dinamik olması
- ✓ Yeni ifadə vasitələrinin yaranması,
- ✓ Terminoloji zənginliyin artması,
- ✓ Azərbaycan dilinin beynəlxalq auditoriyaya çıxması qeyd olunmalıdır.
- ✓ Mənfi nəticələr isə bunlardır:
- ✓ Qrammatik normaların pozulması,
- ✓ İmla və yazı qaydalarının zəifləməsi,
- ✓ Slanq və jarqonun çoxalması,
- ✓ Xarici dillərin, xüsusən ingilis dilinin təsirinin artması.

Təkliflər

1. Sosial şəbəkələrdə ədəbi dil normalarının qorunması üçün maarifləndirici tədbirlər təşkil edilməlidir.
2. Azərbaycan dilində rəqəmsal lüğətlər, avtomatik imla yoxlama sistemləri hazırlanmalıdır.
3. Təhsil müəssisələrində yeni medianın dilə təsiri ayrıca mövzu kimi öyrədilməlidir.
4. Media qurumları və bloqçular üçün dil mədəniyyəti üzrə təlimlər keçirilməlidir.
5. Dövlət səviyyəsində yeni medianın dil mühitinə təsirini izləyən monitorinq mərkəzləri yaradılmalıdır.
6. Azərbaycan dilində kontentin keyfiyyətinin artırılması üçün startap və texnoloji təşəbbüslər dəstəklənməlidir.

ƏDƏBIYYAT SIYAHISI:

1. Crystal, D. (2006). *Language and the Internet*. Cambridge University Press.
2. Karimova, N. (2018). *Azərbaycan dilində yeni media üslubu*. Bakı: Elm.
3. Shirvani, F. (2020). *Social Media and Language Change*. Journal of Communication Studies, 12(3), 45-59.
4. Əliyev, R. (2019). *Media dilində qloballaşma meylləri*. Bakı: Təhsil.
5. Quliyev, A. (2021). *Azərbaycan dilinin müasir üslub xüsusiyyətləri*. Bakı: Elm və Təhsil.

DOI: 10.32010/ROHX6179

AZƏRBAYCAN ŞİVƏLƏRİNDƏ QƏDİM TÜRK MƏNŞƏLİ SÖZLƏRDƏ KƏMİYYƏT KATEQORİYASININ TARİXİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Röya Nadir QƏHRƏMANOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Xarici Dillər Mərkəzi, müəllim
https://orcid.org/0009-0001-7057-6529
omerqehreman@mail.ru

Xülasə. Türk dillərinin inkişaf tarixində kəmiyyət kateqoriyası qrammatik sistemin mühüm hissələrindən biri kimi çıxış edir və dilin həm struktur, həm də semantik səviyyəsində çoxmənalı təzahür formalarına malikdir. Bu kateqoriya miqdar, çoxluq, ölçü və dərəcə münasibətlərini ifadə etməklə yanaşı, eyni zamanda nitqdə ümumiləşdirmə və topluluq mənalarının yaranmasına da səbəb olur. Qədim türk yazılı abidələrində, xüsusilə Orxon-Yenisey və Uyğur dövrü mətnlərində kəmiyyət mənasının ifadəsi əsasən morfoloji vasitələr köməyi ilə həyata keçirilmişdir. "-lar/-lər", "-an" və "-ça/-çə" şəkilçiləri bu baxımdan mühüm rol oynamış, sözlərin miqdar və çoxluq mənası qazanmasına xidmət etmişdir.
Sonrakı tarixi dövrlərdə bu morfoloji formalar türk dillərinin inkişafı ilə bağlı olaraq həm fonetik, həm də semantik dəyişikliklərə məruz qalmışdır. Məsələn, "-lar/-lər" şəkilçisi ilkin mərhələdə sadəcə çoxluq bildirərkən, zaman keçdikcə sosial-hörmət və ümumiləşdirmə funksiyasını da ifadə etməyə başlamışdır. Eyni hal "-an" və "-ça/-çə" şəkilçiləri üçün də xarakterikdir ki, onlar qədim türkcədə konkret miqdar və ölçü münasibətlərini bildirirdisə, Azərbaycan dilinin bəzi şivələrində bu şəkilçilər semantik daralma və ya genişlənmə nəticəsində yeni mənalar kəsb etmişdir.
Beləliklə, Azərbaycan şivələrinin araşdırılması türk dillərinin tarixi inkişaf proseslərinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Bu tədqiqatlar vasitəsilə kəmiyyət kateqoriyasının qədimdən müasirə doğru keçdiyi mərhələlər izlənilə, dilin semantik inkişaf xətti və morfoloji sabitliyi müəyyənləşdirilə bilər. Nəticə etibarilə, Azərbaycan dialekt və şivələri yalnız müasir dilin bölgə xüsusiyyətlərini deyil, həm də ümumtürk dil sisteminin tarixi və qrammatik əsaslarını əks etdirən qiymətli dil materialıdır.
Açar sözlər: Azərbaycan şivələri, qədim türk dili, kəmiyyət kateqoriyası, morfoloji inkişaf.

HISTORICAL DEVELOPMENT FEATURES OF THE CATEGORY OF QUANTITY IN ANCIENT TURKIC-ORIGIN WORDS OF AZERBAIJANI DIALECTS

Roya Nadir GAHRAMANOVA
Azerbaijan State Pedagogical University,
Center for Foreign Languages, Lecturer

Abstract. In the history of the Turkic languages, the category of quantity constitutes one of the essential components of the grammatical system and demonstrates diverse manifestations at both structural and semantic levels. This category not only expresses relations of amount, plurality, measure, and degree, but also contributes to the formation of generalization and collectivity meanings in speech. In the ancient Turkic written monuments—particularly in the Orkhon-Enisei and Uighur period texts—the expression of quantitative meaning was mainly realized through morphological means. The suffixes -lar/-lär, -an, and -ça/-çə played a significant role in this regard, serving to give words the meaning of quantity and plurality.
In later historical periods, these morphological forms underwent both phonetic and semantic changes in connection with the development of the Turkic languages. For instance, the suffix -lar/-lär, which initially expressed only plurality, over time began to convey additional meanings of social respect and generalization. The same applies to the suffixes -an and -ça/-çə while they originally denoted concrete quantitative or measure relations in Old Turkic, in some Azerbaijani dialects these suffixes have acquired new meanings as a result of semantic narrowing or broadening.
Thus, the study of Azerbaijani dialects plays an important role in understanding the historical development processes of the Turkic languages. Through such research, it becomes possible to trace the stages of the evolution of the quantity category from ancient to modern times, identifying the semantic development line and morphological stability of the language. Consequently, Azerbaijani dialects and vernaculars represent not only regional varieties of the modern language but also valuable linguistic material reflecting the historical and grammatical foundations of the Common Turkic language system.
Keywords: Azerbaijani dialects, old Turkic language, category of quantity, morphological development.

ИСТОРИЧЕСКИЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ КАТЕГОРИИ КОЛИЧЕСТВА В ДРЕВНЕТЮРКСКИХ ПО ПРОИСХОЖДЕНИЮ СЛОВАХ АЗЕРБАЙДЖАНСКИХ ДИАЛЕКТОВ

Роя Надир ГАХРАМАНОВА
Азербайджанский государственный педагогический университет,
Центр иностранных языков, преподаватель

Аннотация. В истории тюркских языков категория количества выступает как одна из важнейших составляющих грамматической системы и обладает многозначными формами проявления как на структурном, так и на семантическом уровнях. Данная категория, выражая отношения количества, множественности, меры и степени, одновременно способствует формированию в речи значений обобщения и собирательности. В древнетюркских письменных памятниках особенно в текстах орхоно-енисейского и уйгурского периодов значение количества выражалось преимущественно морфологическими средствами. Суффиксы -lar/-lär, -an и -ça/-çə играли в этом процессе важную роль, придавая словам значение количества и множественности.
В последующие исторические периоды эти морфологические формы, в связи с развитием тюркских языков, претерпели как фонетические, так и семантические изменения. Например, суффикс -lar/-lär, первоначально обозначавший лишь множественность, со временем стал также выражать значения социального уважения и обобщения. Аналогичное явление наблюдается и у суффиксов -an и -ça/-çə: если в древнетюркском языке они обозначали конкретные количественные и мерные отношения, то в некоторых азербайджанских говорах эти суффиксы в результате семантического сужения или расширения приобрели новые значения.
Таким образом, исследование азербайджанских диалектов имеет большое значение для изучения исторических процессов развития тюркских языков. Благодаря таким исследованиям можно проследить этапы эволюции категории количества от древнего периода до современности, определить семантическую линию развития и морфологическую устойчивость языка. В результате азербайджанские диалекты и говоры представляют собой не только региональные особенности современного языка, но и ценнейший языковой материал, отражающий исторические и грамматические основы общетюркской языковой системы.
Ключевые слова: азербайджанские диалекты, древнетюркский язык, категория количества, морфологическое развитие.

Giriş.

Türk dillərinin ən qədim yazılı abidələrində kəmiyyət kateqoriyasının morfoloji ifadə vasitələri kimi “-an”, “-lar”, “-lər” şəkilçiləri diqqəti cəlb edir. Bu morfemlər sonrakı mərhələlərdə də həm çağdaş türk dillərində, həm də Azərbaycan dilinin dialekt və şivələrində müxtəlif fonetik formalarda qorunub saxlanılmışdır. “-ça” morfemi bu baxımdan sabitlik nümayiş etdirərək demək olar ki, fonetik baxımdan dəyişməyə məruz qalmamışdır. Lakin “-lar, -lər” şəkilçiləri tərkibindəki “l” samitinin fizioloji-akustik xüsusiyyətləri səbəbindən bir sıra variantlarda işlənmişdir: -lar, -lər, -dar, -dər, -zar, -zər, -sar, -sər və s. Bu cür fonetik əvəzlənmələr morfemin semantikasına təsir göstərmədən yalnız səslənmə səviyyəsində fərqlilik yaratmışdır ki, bu da tədqiqat baxımından maraqlı bir dil faktıdır.

Mahmud Kaşğarinin **“**Divani-lüğət-it-türk**”** əsərində isimlərə “-lar/-lər” şəkilçisinin artırılması ilə qeyri-müəyyən çoxluq mənası yaradıldığı müşahidə olunur. Həmin abidədə cəmlik mənası həmçinin “-an, -ən” şəkilçiləri vasitəsilə də ifadə edilmişdir: *oğl+an, ər+ən* kimi nümunələr bu qəbildəndir. Kaşğarinin fikrincə, bu şəkilçilər normadan kənar çoxluq göstəriciləri hesab edilsə də, sonrakı dövrlərdə həmin formalar dil sistemində sabitləşərək ilkin funksiyalarını itirmiş, leksikləşərək müstəqil söz vahidlərinə çevrilmişdir. Eyni əsərdə “-t” morfeminin iştirakı ilə düzəlmiş başqa forması da qeyd olunur. Həmçinin “Qutadqu bilig”dəki *ər+at* sözündə və “-z” şəkilçili formalar olan *biz, siz, kəz* kimi nümunələrdə də bu hadisə müşahidə edilir. Bu sözlər ilkin mərhələdə çoxluq və qoşalıq mənası daşısa da, zamanla leksik məna qazanaraq müstəqil işlək sözlərə çevrilmişdir (Kaşğarlı, 2006).

Qədim türk dilində sözün təkrar forması da kəmiyyət mənası ifadə etmişdir: *ağca–ağca, qat-qat* və s. Bu xüsusiyyət Azərbaycan dilinin müasir formalarında da yaşamaqdadır: *kənd-kənd, ev-ev, çadır-çadır* və s. Qədim türkcədə topluluq və cəmlik bildirən çoxsaylı morfemlərə rast gəlinir: -an // -ın (*ərən, qoşun, bodun, Turan*), -la // -lı (*ovlaq, daşlıq, ellik*), -ar (*xəzər, avar, suvar*), -aq (*dırnaq, barmaq, yığnaq, ayaq, dodaq*), -iz (*oğuz, qırğız, qaqauz*), -z (*biz, siz, göz, diz, əkiz*), -at // -it (*bayat, elat*), -ba // -b**i** (*iyirmi, altmış, yetmiş*) və s. (Cəlilov, 1988).

“-an” morfeminin qədim işlənmə formalarından biri “ar+an” sözündə müşahidə olunur. Bu söz ilkin mərhələdə “at tövləsi” mənasında işlədilmiş, daha sonralar müxtəlif türkcə ləhcələrdə semantik genişlənməyə məruz qalmışdır. Məsələn, “aran” sözü Azərbaycan, tatar, qazax və özbək dillərində

"isti, düzən yer" mənasında işlənir (Hüseynli, N., Məmmədova, Y., 2012). Həmçinin Altay, Tuva, Qırğız, Qazax və Şumer dillərində "araşan" sözündəki "-an" morfemi də "-lar" şəkilçisinə semantik cəhətdən yaxın funksiyaya malik olmuşdur. Şumer-türk leksik paralellərində söz sonundakı "-an" morfeminin sabit forması uzun əsrlər boyunca heç bir fonetik dəyişiklik keçirməmişdir.

Çağdaş türk dillərində çoxluq bildirən "-lar/-lər" morfeminin fonetik variantlarının müqayisəli təhlili "Qarşılaşdırmalı türk ləhçələri" lüğətində geniş şəkildə təqdim edilmişdir. Mənbədə bu morfemin müxtəlif türk dillərində fonetik adaptasiya prinsiplərinə əsasən dəyişdiyi və hər bir dilin səs sisteminə uyğun formalar qazandığı qeyd olunur. Xüsusilə, başqırd dilində cəmlik morfeminin əvvəlində işlənən l, d, z və t samitlərinin seçilməsi söz kökünün son səsinin fonetik xüsusiyyətləri ilə sıx bağlıdır. Yəni şəkilçi əvvəlindəki samitlərin seçimi əvvəlki səsin kar, cingiltili və ya rezonant olmasından asılı olaraq dəyişir.

Bu fonetik variasiya başqırd dilinin harmonik quruluşunun və assimilativ proseslərinin nəticəsi kimi dəyərləndirilir. Belə ki, müəyyən fonetik mühitlərdə şəkilçi -lar/-lər formasını saxlayırsa, digər hallarda -dar/-där, -zar/-zär və ya -tar/-tär kimi variantlara çevrilir. Bu fakt morfemin sabit semantik funksiyasını qoruyaraq səs uyğunluğuna əsaslanan morfofonoloji çevikliyə malik olduğunu göstərir.

Belə fonetik uyğunlaşmalar yalnız başqırd dilinə xas deyil; bu hadisə ümumtürk dillərində fonetik harmoniyanın morfoloji səviyyədə sabitləşməsinin ümumi qanunauyğunluğunu əks etdirir. Müxtəlif türk dillərində çoxluq şəkilçisinin səs tərkibi fərqli formalarda təzahür etsə də, onun semantik və qrammatik funksiyası sabit qalır.

Nəticə etibarilə, "Qarşılaşdırmalı türk ləhçələri" lüğətində aparılan təhlil göstərir ki, başqırd türkcəsində cəmlik morfeminin fonetik dəyişkənliyi sistem xarakteri daşıyır, bu isə ümumtürk morfoloji bazasının tarixi-müqayisəli aspektdən genetik birliyini təsdiqləyir. Məsələn:

1. Ünlülərdən sonra – *-lar/-lər*;
2. *l, m, n, ŋ* səslərindən sonra – *-dar/-där*;
3. *r, v, y, z* səslərindən sonra – *-zar/-zär*;
4. *b, ç, f, h, k, p, s, ş, t* səslərindən sonra – *-tar/-tär* işlədilir. Misallar: *balalar, kişilär, yedar, urmandar, äsärzär, öyzär, höylävzär, klubtar, kitaptar, aştar, hismättär* (Karşılaştırmalı türk lehceleri sözlüyü, 1971).

Qırğız türkcəsində çoxluq kateqoriyasını ifadə edən şəkilçilərin fonetik müxtəlifliyi digər türkcələrə nisbətən daha genişdir. Tədqiqatçılar bu şəkilçinin 12-yə qədər fonetik variantını qeydə almışlar: -lar, -lər, -dar, -dər, -dor, -dör, -tar, -tär, -tör və s. (Karşılaştırmalı türk lehceleri sözlüyü, 1971). Qeyd olunan formalar heca və səs harmoniyası prinsiplərinə əsaslanaraq söz köklərinə uyğun şəkildə seçilir. Bu baxımdan Qırğız dilində morfofonoloji uyğunluq ciddi şəkildə qorunur və şəkilçi variantlarının istifadəsi fonetik mühitlə sıx əlaqəlidir. Məsələn, enelär (analar), balalar (uşaqlar), köçölör (küçələr), cigittär (igidlər), kiteptär (kitablar), kabarlar (xəbərlər) kimi nümunələr bu qanunauyğunluğu aydın şəkildə nümayiş etdirir.

Belə fonetik çoxvariantlılıq Qırğız türkcəsinin qədim türk morfoloji sisteminin xüsusiyyətlərini bu günədək qoruyub saxladığını göstərir. Şəkilçi tərkibindəki samit dəyişmələri (-l-, -d-, -t-) və sait harmoniyası dilin tarixi fonetik inkişafı ilə bilavasitə bağlıdır. Bu, həm də Qırğız türkcəsində fonetik adaptasiyanın morfoloji səviyyədə sabitləşdiyini sübut edir.

Tatar dilində isə çoxluq bildirən şəkilçinin əsas formaları olan -lar/-lər ilə yanaşı, -nar/-när variantlarının da işlənməsi müşahidə edilir (Azərbaycan dilinin Dərbənd dialekti, 2009). Bu fakt Tatar türkcəsində də fonetik harmoniyanın və dialektal təsirlərin morfoloji sistemdə iz buraxdığını göstərir. Sözügedən variantların istifadəsi, əsasən, söz köklərindəki son səsin fonetik təbiətinə və tələffüz rahatlığına uyğun olaraq müəyyənləşir.

Nəticə etibarilə, həm Qırğız, həm də Tatar türkcəsində çoxluq şəkilçisinin müxtəlif fonetik formaları ümumtürk morfofonoloji ənənəsinin davamlılığını, harmonik prinsipə əsaslanan dil strukturunun sabitliyini və dialektal səviyyədə fonetik uyğunlaşmanın sistem xarakterini əks etdirir. M. Hüseynova özünün "Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası**"** adlı tədqiqatında "-lar/-lər" morfeminin Azərbaycan dilinin dialektlərində assimilyasiya və dissimilyasiya proseslərini ətraflı təhlil etmiş və bu fonetik hadisələrin ədəbi dildən fərqli cəhətlərini müəyyənləşdirmişdir. Müəllif bu morfemin 14 fərqli fonetik tipini qeyd etmişdir (Hüseynova, 2020).

R. Rüstəmov və M. Şirəliyev "Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri" adlı tədqiqat əsərlərində çoxluq bildirən morfemin dialektlərdəki fonetik variasiyalarını sistemləşdirmiş və onların bölgələr üzrə səciyyəvi fərqlərini göstərmişlər. Müəlliflərin apardıqları müşahidələrə əsasən, bu morfem Azərbaycan dilinin Qərb qrupu dialektlərində söz köklərinin fonetik tərkibinə uyğun şəkildə müxtəlif formalar alır. Belə ki, saitlərlə, həmçinin ğ, v, l, y, f, m, x kimi samitlərlə bitən isimlər əsasən "-lar/-lər" şəkilçisini qəbul edir: *qapılar, sürülər, mallar, adamlar* və s. Bu qrupda

şəkilçinin klassik fonetik forması qorunur və ədəbi dil normaları ilə paralellik təşkil edir.

Bunun əksinə olaraq, cingiltili və kar samitlərlə bitən isimlərdə çoxluq şəkilçisinin "-dar/-dər" variantı meydana çıxır: qızdar, sözdər, atdar və s. (Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri, 1967). Bu hal, bir tərəfdən, samitlərin bir-biri ilə fonetik uyğunluğunu təmin etmək məqsədilə yaranan assimilyasiya prosesləri ilə, digər tərəfdən isə dialektal səviyyədə sabitləşmiş tələffüz ənənələri ilə əlaqələndirilir.

Eyni zamanda, n ilə bitən isimlərdə "-nar/-nər", r ilə bitənlərdə isə "-rar/-rər" formalarının işlənməsi də bu morfemin dialektal variasiyalarını daha aydın göstərir: gəlinnər, insannar, çadırrar, çəpərrər və s. (Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri, 1967). Belə formalar ədəbi dildə qeyri-tipik sayılsa da, dialektlərdə ahəng qanununun və fonetik rahatlığın qorunması baxımından funksional səciyyə daşıyır.

Ümumilikdə, R. Rüstəmov və M. Şirəliyevin müəyyənləşdirdiyi bu qanunauyğunluqlar göstərir ki, Azərbaycan dilinin dialekt sistemində çoxluq şəkilçisinin fonetik variantları harmonik prinsipin və assimilasiya proseslərinin nəticəsində formalaşmış və ərazi şivələrinin səslənmə xüsusiyyətlərinə uyğun şəkildə sabitləşmişdir. Bu fakt dilin fonetik strukturunda regional variasiyaların morfoloji səviyyədə təzahürünü təsdiq edən mühüm elmi göstəricidir. Eyni morfem variantları digər türk dillərində də paralel şəkildə müşahidə olunur. Məsələn, tatar dilində *-nar/-nər*, xakas və şor dillərində *-nar/-ner*, yakut dilində isə *-nar/-inər* (dodaqlanmayan) və *-nor/-nör* (dodaqlanan) formaları işlənir.

Türk dillərinin tarixi inkişafında "-t" şəkilçisi ilkin mərhələlərdə cəmlik mənasının ifadəçisi kimi mühüm funksiyaya malik olmuşdur. Lakin sonrakı dövrlərdə bu morfem öz məhsuldarlığını itirərək arxaik qrammatik elementə çevrilmişdir. Müasir türk dillərində bu şəkilçinin yalnız fossil formaları – yəni leksikləşmiş və sabitləşmiş söz tərkiblərindəki izləri qorunub saxlanılmışdır. Belə nümunələrə ağıtlar (ağılar), yortmaq, ağartı, göyərti kimi sözlər daxildir ki, burada "-t" artıq qrammatik funksiya daşımır, yalnız tarixi morfoloji qalığın bir hissəsi kimi mövcuddur (Məmmədli, 2019)

Bu proses morfoloji sistemin təbii təkamülü nəticəsində baş vermişdir. Yəni, zaman keçdikcə "-t" şəkilçisi funksional yüklənməsini itirərək, onun yerini daha çevik və harmonik sistemə malik "-lar/-lər" morfemləri tutmuşdur. Beləliklə, müasir türk dillərində cəmlik anlayışı əsasən "-lar/-lər" vasitəsilə ifadə olunur və "-t" yalnız etimoloji baxımdan dilin qədim qatlarına aid bir iz kimi qalmaqdadır.

Qeyd etmək lazımdır ki, "-t" şəkilçisinin izlərinə yakut (saxa) dilində də rast gəlinir. Bu dilin qədim formalarında, monqol dilinin təsiri nəticəsində, şəkilçi toyot (cənablar), xoxut (xanımlar) kimi sözlərdə qorunub saxlanmışdır (Харитонов, 1947). Bununla belə, bu formalarda "-t" artıq kəmiyyət mənası daşımır, yalnız sabit leksik vahidlərin tərkib hissəsi kimi qalır. Müasir yakut dilində çoxluq artıq ümumtürk sisteminə uyğun olan "-lar/-lər" morfemi ilə ifadə edilir.

Beləliklə, "-t" şəkilçisinin təkamül tarixinin izlənməsi göstərir ki, bu morfem ilkin türk mərhələsində məna və funksiya baxımından aktiv olmuş, lakin zaman keçdikcə fonetik və morfoloji assimilyasiyaya uğrayaraq yalnız bəzi arxaik sözlərdə etimoloji iz kimi qalmışdır. Bu fakt türk dillərinin morfoloji sistemində dəyişmələrin mərhələli və harmonik şəkildə baş verdiyini, həmçinin tarixi inkişaf prosesində yeni formaların qədim elementləri əvəz etdiyini sübut edən mühüm dil tarixi göstəricisidir. Beləliklə, türk dillərinin qədim və müasir mərhələləri müqayisə edildikdə, "-lar/-lər" morfeminin bütün dillərdə vahid semantik funksiyanı qoruduğu, yalnız fonetik səviyyədə fərqləndiyi müşahidə olunur. Bu fakt kəmiyyət kateqoriyasının ümumtürk sistemində sabit və genetik cəhətdən birgə inkişaf etdiyini təsdiqləyir.

Nəticə. Aparılan tədqiqatlar göstərir ki, Azərbaycan dilinin şivə sistemi qədim türk dil qatının canlı izlərini bu günədək qoruyub saxlayan ən mühüm dil mənbələrindən biridir. Şivələrdə işlənən qədim türk mənşəli sözlər və onların morfoloji quruluşu, xüsusilə də kəmiyyət kateqoriyasının ifadə vasitələri, ümumtürk dil sisteminin tarixi inkişaf mərhələlərini izləməyə imkan verir.

Analiz nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan şivələrində çoxluq bildirən morfemlərin, xüsusilə lar/-lər, -dar/-dər, -tar/-tər, -nar/-nər, -rar/-rərformalarının fonetik və morfoloji variasiyaları qədim türk dilindəki morfofonoloji prinsiplərlə genetik bağlılığa malikdir. Bu formaların müxtəlif bölgə dialektlərində fərqli şəkildə işlənməsi harmoniya qanununun, assimilyasiya proseslərinin və regional fonetik xüsusiyyətlərin nəticəsi kimi dəyərləndirilir.

Eyni zamanda, qədim türk dilində məhsuldar olmuş "-t" kimi arxaik cəmlik formalarının müasir Azərbaycan şivələrində yalnız etimoloji qalıq kimi saxlanılması morfoloji sistemin tarixi dinamikliyini və dilin daxili inkişaf qanunauyğunluqlarını təsdiqləyir.

Beləliklə, Azərbaycan şivələrindəki qədim türk mənşəli sözlərdə kəmiyyət kateqoriyasının formalaşması və dəyişməsi dil tarixində morfoloji sabitliyin və səs harmoniyasının qorunmasının

təzahürüdür. Bu fakt həm də Azərbaycan dilinin ümumtürk genetik birliyinin dil materialı əsasında sübutu kimi çıxış edir və türk dillərinin tarixi qrammatikasının tədqiqində mühüm elmi əhəmiyyət daşıyır.

ƏDƏBIYYAT SIYAHISI:

1. Azərbaycan dilinin Dərbənd dialekti (2009). – Bakı: "Elm", — 448 s.
2. Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri (1967). – Bakı: "Azərb. SSR AE" nəşri, – 281 s.
3. Cəlilov, F. (1988). Azərbaycan dilinin fonomorfologiyası, – Bakı: "Maarif", –308 s.
4. Hüseynli, N., Məmmədova, Y. (2012). Türk dillərinin genelogiyası: şumer və türk leksik paralelləri. – Bakı: "Nağıl evi", – 356 s.
5. Hüseynova, M. (2020). Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası. – Bakı: "ADPU"-nun nəşri, – 600 s.
6. Karşılaştırmalı türk lehçeleri sözlüğü (1971) I cild, – Ankara: "Kültür Bakanlığı", – 1184 s.
7. Kaşğari, M. (2006). Divani-lüğət-it-türk. – III cild, – Bakı: "Ozan", – 400 s.
8. Məmmədli, M. (2019). Azərbaycan dialektologiyası– Bakı: "Zərdabi – nəşr" MMC, – 352 s.
9. Харитонов Л.Н. (1947). Современный якутский язык. Фонетика и морфология– Якутск: «Госиздат ЯАССР», — 320 стр.

DOİ: 10.32010/MGGT5548

NEW MEDIA AS AN IMPORTANT ASPECT OF PUBLIC RELATIONS IN CRISIS MANAGEMENT

Gunel Aydin GARIBOVA
Baku State University
Orcid: https://orcid.org/my-orcid?orcid=0009-0000-0758-3454
E-mail: gunelmedia@gmail.com

Abstract: Crisis management is one of the most important tasks facing government agencies, companies, and public organizations in the modern world. Communication plays a particularly important role in this process, as accurate, clear, and timely provision of information during a crisis impacts both maintaining public trust and managing the situation. Restricting access to information or spreading misinformation only exacerbates the crisis. Therefore, communication is seen not only as a means of conveying information but also as a means of reassuring the public, ensuring transparency, and building mutual trust with stakeholders.

During a crisis, media, social media, and official statements are essential communication channels. Representatives of companies and organizations must use these tools to explain the situation, answer questions, and alleviate public anxiety. Moreover, communication is not only an external interaction but also an important function within the organization. Keeping employees informed, maintaining their trust, and motivating them enhances the effectiveness of crisis management.

Overall, communication in crisis management requires a strategic approach. Along with rapid decision-making, ethical statements contribute to building public trust. Thus, effective communication minimizes the impact of a crisis, protects the organization's reputation, and enhances public safety.

Overall, crisis management communication requires a strategic approach. In addition to rapid decision-making, ethical disclosure of information helps build trust among the public. Thus, effective communication minimizes the impact of a crisis, protects the organization's reputation, and enhances public safety.

Another important aspect is developing messages tailored to different audiences. Each social group has its own needs and expectations. Therefore, a unified communications approach, implemented in various formats during a crisis, not only reaches a wider audience but also creates a sense of focus.

Keywords: crisis management, public relations, brand reputation, crisis, communications, stakeholders.

BÖHRAN VƏZİYYƏTİNİN İDARƏ EDİLMƏSİNDƏ YENİ MEDİA İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN MÜHÜM ASPEKTİ KİMİ

Günel Aydın QƏRİBOVA
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/my-orcid?orcid=0009-0000-0758-3454
E-mail: gunelmedia@gmail.com

Xülasə: Böhranların idarə edilməsi müasir dünyada dövlət qurumları, şirkətlər və ictimai təşkilatların qarşısında duran ən mühüm vəzifələrdən biridir. Kommunikasiya bu prosesdə xüsusi rol oynayır, çünki böhran zamanı məlumatın düzgün, aydın və vaxtında verilməsi həm ictimai inamın qorunmasına, həm də vəziyyətin idarə olunmasına təsir göstərir. Məlumata çıxışın məhdudlaşdırılması və ya yanlış məlumatın yayılması böhranı daha da gücləndirir. Ona görə də kommunikasiyaya təkcə məlumat ötürmə vasitəsi kimi deyil, həm də ictimaiyyəti əmin etmək, şəffaflığı təmin etmək və maraqlı tərəflərlə qarşılıqlı etimad yaratmaq vasitəsi kimi baxılır.

Böhran zamanı media, sosial şəbəkələr və rəsmi açıqlamalar ən mühüm ünsiyyət kanallarıdır. Şirkət və təşkilatların nümayəndələri vəziyyəti izah etmək, sualları cavablandırmaq və ictimai narahatlığı azaltmaq üçün bu vasitələrdən istifadə etməlidirlər. Eyni zamanda, ünsiyyət yalnız xarici qarşılıqlı əlaqə deyil, həm də təşkilat daxilində vacib bir funksiyadır. İşçilərin məlumatlandırılması, onların inamının və motivasiyasının qorunması böhranla mübarizənin effektivliyini artırır. Ümumiyyətlə, böhranların idarə edilməsində ünsiyyət strateji yanaşma tələb edir. Sürətli qərarların qəbulu ilə yanaşı, etik açıqlamalar ictimaiyyətdə inam yaratmağa kömək edir. Beləliklə, düzgün ünsiyyət böhranın təsirini minimuma endirir, təşkilatın reputasiyasını qoruyur və ictimaiyyətin təhlükəsizlik hissini artırır.

Bütövlükdə, böhranın idarə edilməsində kommunikasiya strateji yanaşma tələb edir. Sürətli qərar qəbulu ilə yanaşı, məlumatın etik qaydada açıqlanması ictimaiyyət arasında inamın yaranmasına kömək edir. Beləliklə, düzgün ünsiyyət böhranın təsirini minimuma endirir, təşkilatın reputasiyasını qoruyur və ictimaiyyətin təhlükəsizlik hissini artırır.

Digər mühüm məqamlardan biri isə müxtəlif auditoriyalara fokuslanan mesajların hazırlanmasıdır. Hər bir ictimai qrupun ehtiyac və gözləntiləri fərqlidir. Bu səbəbdən böhran anında vahid, amma müxtəlif formatlarda çatdırılan kommunikasiya yanaşması həm daha geniş kütləni əhatə edir, həm də insanların özlərini diqqət mərkəzində hiss etməsinə şərait yaradır.
Açar sözlər: böhran idarəetməsi, ictimaiyyətlə əlaqələr, brend reputasiyası, böhran, kommunikasiyalar, maraqlı tərəflər.

НОВЫЕ МЕДИА КАК ВАЖНЫЙ АСПЕКТ СВЯЗЕЙ ОБЩЕСТВЕННОСТЬЮ В УПРАВЛЕНИИ КРИЗИСАМИ

Гюнель Айдын ГАРИБОВА
Orcid: https://orcid.org/my-orcid?orcid=0009-0000-0758-3454
Электронная почта: Gunelmedia@gmail.com

Резюме: Управление кризисом — одна из важнейших задач, стоящих перед государственными учреждениями, компаниями и общественными организациями в современном мире. Коммуникация играет особую роль в этом процессе, поскольку правильное, чёткое и своевременное предоставление информации в кризисной ситуации влияет как на сохранение общественного доверия, так и на управление ситуацией. Ограничение доступа к информации или распространение дезинформации только усугубляет кризис. Поэтому коммуникация рассматривается не только как средство передачи информации, но и как средство успокоения общественности, обеспечения прозрачности и укрепления взаимного доверия с заинтересованными сторонами.

В период кризиса СМИ, социальные сети и официальные заявления являются важнейшими каналами коммуникации. Представители компаний и организаций должны использовать эти инструменты для объяснения ситуации, ответов на вопросы и снижения тревожности населения. При этом коммуникация — это не только внешнее взаимодействие, но и важная функция внутри организации. Информирование сотрудников, поддержание их доверия и мотивации повышают эффективность борьбы с кризисом.

В целом, коммуникация в управлении кризисом требует стратегического подхода. Наряду с быстрым принятием решений, этичные заявления способствуют укреплению доверия общественности. Таким образом, правильная коммуникация минимизирует последствия кризиса, защищает репутацию организации и укрепляет чувство безопасности у общественности.

В целом, коммуникация в кризисном управлении требует стратегического подхода. Помимо быстрого принятия решений, этичное раскрытие информации способствует укреплению доверия среди общественности. Таким образом, правильная коммуникация минимизирует последствия кризиса, защищает репутацию организации и укрепляет чувство безопасности у общественности.

Ещё один важный момент — разработка сообщений, ориентированных на разные аудитории. У каждой социальной группы свои потребности и ожидания. Поэтому единый подход к коммуникации, реализуемый в различных форматах во время кризиса, не только охватывает более широкую аудиторию, но и создаёт у людей ощущение, что они находятся в центре внимания.

Ключевые слова: кризисное управление, связи с общественностью, репутация бренда, кризис, коммуникации, заинтересованные стороны.

Introduction

The rapid advancement of the information society has fundamentally transformed crisis management. In contrast to traditional media, new media platforms—including social networks, online news portals, blogs, and forums—now serve as primary tools for public relations (PR). These platforms enable the dissemination of information within seconds, facilitate the active participation of audiences, and allow direct communication among various interest groups, rendering new media indispensable in crisis management. The survey conducted in this study provided deeper insights into public information behavior during crises.

Crisis situatiCrisis situations—whether corporate, socio-political, or social—attract significant public attention and substantially affect organizational reputation and credibility. Inadequately structured communication strategies can result in information gaps and the rapid spread of rumors and misinformation, thereby exacerbating the crisis. The features of new media can intensify a crisis or, if managed effectively and promptly, help mitigate it. Thus, new media can be characterized as a dual-faceted tool that both increases risks and offers important opportunities for effective management. (Coombs, 2007)

New media in crisis communication is particularly evident in its following functions: operational information, establishing direct contact with the audience, monitoring and analyzing public opinion (social listening), ensuring transparency and accountability. At the same time, the risks of rapid spread of false information, manipulation and disinformation are always present. Therefore, modern PR practice requires a complex crisis

management strategy based not only on traditional communication methods, but also on digital media tools.

The relevance of this topic is underscored by the emergence of new media as the primary source of information during various crisis situations, both internationally and in Azerbaijan, including the pandemic, corporate scandals, and public events. Social media statements, online press releases, and rapid interactive communication have become essential components of reputation management for organizations, state institutions, and companies.

Accordingly, the topic of new media as a critical aspect of public relations in crisis management holds both theoretical and practical significance. This study aims to examine the roles, opportunities, and limitations of new media in crisis situations and to develop recommendations for effective public relations management.

In contrast to traditional media such as television, radio, and newspapers, new media provides an interactive, rapid, and digitally based communication environment. Its primary characteristics include the following:

1. Speed: Information can reach a global audience within seconds. During a crisis, the first news of an event often spreads on social networks and outpaces traditional media.
2. Interactivity: The audience is not only a passive consumer of information, but also an active participant (comments, sharing, discussions, "hashtag" campaigns).
3. Transparency: Users openly share their impressions of events, which allows organizations to monitor real public opinion.
4. Permanence and accessibility: Shared content remains on the Internet for a long time and can be recalled at any time.
5. Global coverage: Local crisis news can become part of the international agenda in such a short time. (Coombs, 2012)

The concept of crisis can take different forms in different areas. In the context of PR and new media, they can be grouped as follows:

- Corporate crises: Events that damage the reputation of companies (for example, complaints about product quality, employee protests, internal scandals).
- Public crises: Social events that involve a wide range of society (protests, public discontent).
- Political crises: Tensions related to public administration and the political environment (elections, government crises, corruption scandals).
- Natural disasters and emergencies: In situations such as earthquakes, fires, floods, pandemics, operational information flow is necessary.
- Technological and digital crises: Cyberattacks, data leaks, technical failures. (Fearn-Banks, 2016)

New media play New media play a significant role in each type of crisis, facilitating both information dissemination and the management of public response. While new media are generally more flexible and effective than traditional media during crises, they also introduce additional risks if not managed appropriately.The most important function of new media is to disseminate operational information in times of crisis. While traditional media takes time to prepare and publish news, official institutions and companies can issue statements within seconds on social media platforms. This helps prevent false news and reduce public panic. For example, urgent warnings issued by the Ministry of Emergency Situations on "Facebook" and "Telegram" during a natural disaster. (Gonzáles-Herrero & Smith, 2008New media enable two-way dialogue between organizations and the public. Individuals can pose questions to companies and institutions, submit comments, and directly share information regarding issues. This interactivity enhances transparency and trust, as traditional media typically positioned audiences as passive recipients. For example, during the pandemic, the Ministry of Health facilitated interactive dialogue between doctors and citizens through Instagram live broadcasts.citizens through Instagram live broadcasts.

Social Listening

New media is an important tool for monitoring public opinion during a crisis. PR specialists can measure public sentiment by monitoring users' comments, hashtag campaigns, and shares on social networks. This information plays a key role in shaping a crisis strategy. For example, when a negative trend (a "boycott" campaign) begins about a company, the PR team can see it in time and respond adequately. (Jin & Austin, 2014)

Maintaining public trust

One of the biggest risks during a crisis is damage to the organization's reputation. Through new media:

- Providing transparent statements,
- Apologizing and accepting responsibility,
- Continuous sharing of information about the steps taken, helps maintain public trust.

Starbucks partially restored trust during the 2018 crisis by sharing apology messages and statements about measures on Twitter. (Jin & Austin, 2011)

Information manipulation risks

A significant risk associated with new media in crisis management is thepotential forf disinformation. False news, rumorsdisseminatead by fake accounts, and emotionaly charged content can exacerbate crises. These challenges complicate the work ofr PR specialists,as a singlne piece of misinformation can reachlarge audiences rapidly. For instancle, during the pandemic, fake news about vaccinations spreadquickdly on social medi, complicatingd the informationeffortsk of government agencie.s.

International and local examples.

Delta Air Lines (2024) – IT outages, travel chaos: A CrowdStrike software update caused a major disruption to Delta's airline systems; more than 7,000 flights were canceled, affecting 1.3 million passengers. The company's response was slow and was deemed a "manageable" incident by the DOT. The delay in communication undermined passenger confidence. Quick and transparent communication and an acknowledging response can restore trust after a crisis. (Pang, 2013)

TikTok and influencers in Australia (Queensland, 2024–25): During the hurricanes Jasper (2023) and Kirrily (2024), official information was largely absent on TikTok, resulting in the prevalence of misleading and potentially dangerous user-generated content. Research indicates that collaboration with influencers and the presence of official content on TikTok are critical for informing younger audiences. Therefore, official entities should maintain an active presence on social media, particularly in partnership with influencers, to reduce information gaps and limit the spread of misinformation.

Local (Azerbaijani) examples: Fake account network for COP29 advertisingIn the run-up to the COP29 event, numerous fake accounts on the X (Twitter) platform artificially exaggerated official messages, directing most of the shares on the platform towards a certain narrative. Such coordinated inauthentic activity manipulates the discussion and hinders real public debate. İn conclusion fighting "fake" accounts and transparent communication around official events on social media is important.(Seege, 2003)

Suppression of independent media – Turan and BBC Azerbaijan (2025): "Turan" and BBC Azerbaijan were forced to close their offices; "Turan" justified the closure with financial problems, but in fact it was claimed that there was political pressure. The arrest of journalists from Meydan TV in December 2024, mass harassment of journalists was observed. However, independent media continues to operate on online platforms – YouTube, Telegram and social media. As a result new media platforms, even in difficult circumstances, can be a last hope for journalism to deliver information to citizens. (Taylor & Kent 2007)

Social media in Azerbaijan-France relations (2024):France accused Azerbaijan of spreading "bot" accounts that openly manipulated the protests in New Caledonia on platforms such as Instagram and Twitter. This is an indication that international political relations are also shaped through social media. İn conclusion social media can be used as a tool of manipulation and informatThe study surveyed 133 respondents to assess public perceptions of the reliability and effectiveness of new media in crisis communication. The survey was conducted online, with participants ranging in age from 18 to over 44 years. age from 18 to 44 years old and above.

Survey results indicated that over half of respondents (50.4%) obtain information from social media during crises. In comparison, 41.4% rely on official government websites, while only 8.3% prefer television channels.

The survey also assessed trust in social media,



revealing that 52.6% of respondents only partially trust crisis news disseminated on these platforms. Only 6% fully trust such information, while 37.6% reported being mostly skeptical.

Fig.1 Preferred source of information during a crisis

The survey also assessed trust in social media, revealing that 52.6% of respondents only partially trust crisis news disseminated on these platforms. Only 6% fully trust such information, while 37.6% reported being mostly skeptical.

Regarding social media statements by companies and government agencies, 60.9% of respondents indicated that these statements are 'sometimes transparent,' while only 18% considered them to be consistently transparent.



Fig.2 Level of trust in crisis news on social media

The majority of people only trust news spread on social media with a grain of salt, wThe majority of respondents exhibit limited trust in news disseminated via social media, underscoring the importance of fact-checking and source credibility.s, the majority of respondents belong to the younger age group, which significantly increases the intensity of social media usage. Corporate and governmental statements are, in most cases, not perceived as transparent. Furthermore, Instagram and Twitter/X were identified as the most effective social media platforms for crisis management.

TThese findings indicate that individuals predominantly rely on social media during crises, yet credibility remains a significant concern. Official statements from governmental bodies are generally not perceived as sufficiently transparent. This underscores the need for communication that is more open, timely, and transparent. The following steps are recommended to address these issues:Enhancing the timeliness and transparency of official statements – providing clear, prompt, and comprehensive information that addresses public concerns.

1. Establishing specialized teams to counteract disinformation on social media – ensuring swift responses to false or misleading content.
2. Implementing fact-checking mechanisms to strengthen credibility – granting the public access only to accurate and verified information.
3. Increasing interactive engagement with the public – through live broadcasts, open press conferences, and Q&A sessions.
4. Ensuring active presence on platforms aligned with the target audience – particularly strengthening official communication on Instagram and Twitter/X, which are predominantly used by younger demographics.

Conclusion

Analysis of crisis communication within the context of new media demonstrates that proactive strategies and timely interventions are essential for effective management. Maintaining an active presence on social networks prior to a crisis and ensuring continuous communication with audiences significantly enhances public trust. Strengthening official communication channels across multiple platforms, including Telegram, X (Twitter), Instagram, and TikTok, broadens outreach and reduces dependence on a single information source. The initial hour of a crisis is critical, as rapid and accurate information dissemination can prevent the escalation of rumors and misinformation. (Veil, 2011)

For public relations professionals, the availability of pre-prepared crisis communication plans, template messages, and regular simulation exercises is essential. Utilizing monitoring and analytical tools such as Hootsuite, Brandwatch, Talkwalker, and Google Alerts improves the capacity to track public opinion and address negative trends. Restoring trust after a crisis also necessitates accountability, transparency, and open dialogue with stakeholders.

Promoting new media literacy among citizens, journalists, and institutions is equally important. Training in fact-checking, disinformation recognition, and ethical social network use enhances societal resilience to crisis-related misinformation. Journalists require technical skills in information verification and social media analytics, while institutions should implement clear codes of conduct and establish professional communication teams.

In conclusion, effective use of new media in crisis situations necessitates proactive engagement, technological tools, collaboration with influencers, and improved media literacy. Government agencies and companies should sustain an active digital presence during both crisis and preparation phases to foster long-term trust and credibility. Ultimately, crisis communication in the digital era extends beyond emergency management to encompass the cultivation of sustainable, transparent, and trustworthy relationships with the public.

REFERANCES:

1. Coombs, W. T. (2007). Ongoing crisis communication: Planning, managing, and responding. Los Angeles, CA: Sage Publications.
2. Coombs, W. T., & Holladay, S. J. (2012). The handbook of crisis communication. Malden, MA: Wiley-Blackwell.
3. Fearn-Banks, K. (2016). Crisis communications: A casebook approach (5th ed.). New York, NY: Routledge.
4. Gonzáles-Herrero, A., & Smith, S. (2008). Crisis communications management on the web: How Internet-based technologies are changing the way public relations professionals handle business

crises. Journal of Contingencies and Crisis Management, 16(3), 143–153.

5. Jin, Y., Liu, B. F., & Austin, L. L. (2014). Examining the role of social media in effective crisis management: The effects of crisis origin, information form, and source on publics' crisis responses. Communication Research, 41(1), 74–94.

6.Liu, B. F., Austin, L., & Jin, Y. (2011). How publics respond to crisis communication strategies: The interplay of information form and source. Public Relations Review, 37(4), 345–353.

7. Pang, A. (2013). Dealing with external stakeholders during the crisis: Managing the information vacuum. In A. J. DuBrin (Ed.), Handbook of crisis communication and management (pp. 209–226). Singapore: McGraw-Hill.

8. Seeger, M. W., Sellnow, T. L., & Ulmer, R. R. (2003). Communication and organizational crisis. Westport, CT: Praeger.

9.Taylor, M., & Kent, M. L. (2007). Taxonomy of mediated crisis responses. Public Relations Review, 33(2), 140–146.

10.Veil, S. R., Buehner, T., & Palenchar, M. J. (2011). A work-in-process literature review: Incorporating social media in risk and crisis communication. Journal of Contingencies and Crisis Management, 19(2), 110–122.

DOİ: 10.32010/UGHB5873

MİLLİ KİMLİK VƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ QƏHRƏMANLIQ DASTANLARININ DİDAKTİK ƏHƏMİYYƏTİ

Şəbnəm Azər QULİYEVA
Mingəçevir Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0003-6424-7184
E-mail: shabnam.quliyeva@mdu.edu.az

Xülasə: Müasir dövrdə milli kimliyin möhkəmləndirilməsi və vətənpərvərlik dəyərlərinin gənc nəslə aşılanması Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biri kimi qiymətləndirilir. 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan olunması da məhz bu dəyərlərin qorunması, milli özünüdərkin gücləndirilməsi və gənc nəslin milli-mənəvi dəyərlər əsasında formalaşmasının strateji əhəmiyyətini bir daha təsdiqləyir. Bu kontekstdə qəhrəmanlıq dastanlarının didaktik rolu xüsusi aktuallıq kəsb edir. Dastanlar xalqın tarixi yaddaşının, azadlıq və müstəqillik arzularının, milli kimlik və dövlətçilik idealının poetik ifadəsi olmaqla, həm keçmişi, həm də bu günümüzü birləşdirən mühüm mənəvi körpü rolunu oynayır.
Azərbaycan dastan ənənəsində "Kitabi-Dədə Qorqud" və "Koroğlu" kimi abidələr milli şüurun formalaşmasında və vətənpərvərlik tərbiyəsində aparıcı rol oynamışdır. "Kitabi-Dədə Qorqud"da qəhrəmanların igidlik, qeyrət, ailə və yurd sevgisi, xalqına sədaqəti milli kimliyin əsas göstəriciləri kimi təqdim edilir. "Koroğlu" dastanı isə ədalət, azadlıq və mübarizə ideyalarının təcəssümü olmaqla, xalqın əsarətə qarşı müqavimət ruhunu gələcək nəsillərə ötürən bədii qaynaqdır. Bu dastanların məzmunundakı qəhrəmanlıq motivləri gənclərdə milli qürur, dövlətə sədaqət və vətən sevgisinin formalaşmasına birbaşa təsir göstərir.
Dastanların didaktik əhəmiyyəti yalnız bədii-estetik təsirdə deyil, həm də təlim-tərbiyə prosesində onların tətbiqi ilə ölçülür. Məktəb və ali təhsil müəssisələrində dastan qəhrəmanlarının şəxsiyyət nümunəsi kimi təqdim olunması gənclərdə milli dəyərlərə hörmət və mənəvi məsuliyyət hissini gücləndirir. Eksperimental müşahidələr göstərir ki, dastanlardan istifadə olunan dərslərdə şagird və tələbələrin milli kimlik və vətənpərvərlik mövzularında fəallığı artır, onların mövzunu şəxsi həyat təcrübələri ilə əlaqələndirmə imkanları genişlənir. Bundan əlavə, sorğu və anketlər vasitəsilə gənclərin dastan qəhrəmanlarına münasibətini öyrənmək, milli dəyərlərin tədrisdə daha səmərəli yollarını müəyyənləşdirməyə imkan yaradır.
Beləliklə, qəhrəmanlıq dastanları milli kimlik və vətənpərvərlik tərbiyəsində mühüm didaktik vasitə olmaqla, "Konstitusiya və Suverenlik ili"nin ideyaları ilə səsləşən milli-mənəvi dəyərlərin təbliği və gənc nəslin milli ruhda formalaşdırılması baxımından strateji əhəmiyyətə malikdir.
Açar sözlər: milli kimlik, vətənpərvərlik, qəhrəmanlıq dastanları, Konstitusiya və Suverenlik ili, didaktik əhəmiyyət.

THE DIDACTIC SIGNIFICANCE OF HEROIC EPICS IN NATIONAL IDENTITY AND PATRIOTIC EDUCATION

Shabnam Azer GULİYEVA
Mingachevir State University
Orcid: https://orcid.org/0009-0003-6424-7184
E-mail: shabnam.quliyeva@mdu.edu.az

Abstract: In the modern era, strengthening national identity and instilling patriotic values in the younger generation is considered one of the priority directions of the Azerbaijani state. The declaration of 2025 as the "Year of the Constitution and Sovereignty" once again confirms the strategic importance of protecting these values, enhancing national self-awareness, and shaping the younger generation on the basis of national and moral values. In this context, the didactic role of heroic epics is of particular relevance. Epics, as the poetic expression of the people's historical memory, their aspirations for freedom and independence, and the ideal of national identity and statehood, serve as a vital spiritual bridge connecting the past with the present.
In the Azerbaijani epic tradition, monuments such as The Book of Dede Qorqud and Koroghlu have played a leading role in the formation of national consciousness and patriotic education. In The Book of Dede Qorqud, the heroes' bravery, honor, devotion to family and homeland, and loyalty to their people are presented as key indicators of national identity. The epic of Koroghlu, on the other hand, embodies the ideas of justice, freedom, and struggle, serving as a literary source that conveys the spirit of resistance against oppression to future generations. The heroic motifs in these epics directly contribute to the development of national pride, loyalty to the state, and love for the motherland among the youth.

The didactic significance of epics is not limited to their artistic and aesthetic impact but is also measured by their application in the educational process. Presenting epic heroes as role models in schools and higher education institutions strengthens respect for national values and enhances the sense of moral responsibility among young people. Experimental observations show that in classes where epics are used, students' and learners' engagement in topics of national identity and patriotism increases, and their ability to connect these subjects with personal life experiences expands. Furthermore, surveys and questionnaires designed to assess young people's attitudes towards epic heroes provide an opportunity to identify more effective ways of teaching national values.
Thus, heroic epics, as an important didactic tool in national identity and patriotic education, have strategic importance in promoting national-moral values in line with the ideas of the "Year of the Constitution and Sovereignty" and in shaping the younger generation in a national spirit.
Keywords: national identity, patriotism, heroic epics, Year of the Constitution and Sovereignty, didactic significance.

ДИДАКТИЧЕСКОЕ ЗНАЧЕНИЕ ГЕРОИЧЕСКИХ ЭПОСОВ В ВОСПИТАНИИ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ И ПАТРИОТИЗМА

Шабнам Азер ГУЛИЕВА
Мингячевирский государственный университет
E-mail: https://orcid.org/0009-0003-6424-7184
Электронная почта :shabnam.quliyeva@mdu.edu.az

Аннотация: В современную эпоху укрепление национальной идентичности и привитие молодому поколению патриотических ценностей рассматривается как одно из приоритетных направлений Азербайджанского государства. Провозглашение 2025 года «Годом Конституции и Суверенитета» еще раз подтверждает стратегическую важность защиты этих ценностей, усиления национального самосознания и формирования молодого поколения на основе национально-нравственных ориентиров. В этом контексте дидактическая роль героических эпосов приобретает особую актуальность. Эпосы, являясь поэтическим выражением исторической памяти народа, стремлений к свободе и независимости, а также идеалов национальной идентичности и государственности, выступают важным духовным мостом, соединяющим прошлое и настоящее.
В азербайджанской эпической традиции такие памятники, как «Китаби-Деде Коркуд» и «Кёроглу», сыграли ведущую роль в формировании национального сознания и патриотического воспитания. В «Китаби-Деде Коркуд» мужество героев, честь, преданность семье и родине, верность своему народу представлены как ключевые показатели национальной идентичности. Эпос «Кёроглу» воплощает идеи справедливости, свободы и борьбы, являясь художественным источником, передающим дух сопротивления угнетению будущим поколениям. Героические мотивы этих эпосов непосредственно способствуют формированию у молодежи национальной гордости, преданности государству и любви к Отчизне.
Дидактическое значение эпосов заключается не только в их художественно-эстетическом воздействии, но и в их использовании в учебно-воспитательном процессе. Представление героев эпосов в школах и вузах как образцов для подражания усиливает уважение к национальным ценностям и чувство моральной ответственности у молодежи. Экспериментальные наблюдения показывают, что на уроках, где используется материал из эпосов, активность учащихся и студентов в обсуждении тем национальной идентичности и патриотизма возрастает, а также расширяются их возможности связывать эти темы с личным жизненным опытом. Кроме того, проведение опросов и анкет позволяет выявить отношение молодежи к героям эпосов и определить более эффективные пути преподавания национальных ценностей.
Таким образом, героические эпосы, являясь важным дидактическим средством в воспитании национальной идентичности и патриотизма, имеют стратегическое значение в пропаганде национально-нравственных ценностей в созвучии с идеями «Года Конституции и Суверенитета» и в формировании молодого поколения в национальном духе.
Ключевые слова: национальная идентичность, патриотизм, героические эпосы, Год Конституции и Суверенитета, дидактическое значение.

Giriş

Müasir dövrdə dövlətçilik dəyərlərinin qorunması, milli kimliyin möhkəmləndirilməsi və vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması Azərbaycan Respublikasının inkişaf strategiyasının prioritet istiqamətlərindən biri hesab olunur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi də bu baxımdan mühüm ictimai-siyasi hadisədir. Çünki Konstitusiya dövlətin hüquqi əsaslarını, vətəndaşların hüquq və azadlıqlarını, suverenlik isə xalqın milli iradəsini ifadə edir. Bu mənada, milli kimlik və vətənpərvərlik ideyalarının inkişaf etdirilməsi "Konstitusiya və Suverenlik ili"nin mahiyyətinə tam uyğun gəlir.

Milli kimliyin formalaşmasında və xalqın mənəvi dəyərlərinin qorunmasında ənənəvi mədəniyyət nümunələrinin rolu danılmazdır. Bu mədəniyyət nümunələri içərisində qəhrəmanlıq dastanları xüsusi yer tutur. Dastanlar yalnız xalqın tarixini, mübarizə yolunu və qəhrəmanlıq salnaməsini bədii şəkildə əks etdirmir, həm də gələcək nəsillərin milli-mənəvi ruhda tərbiyəsi üçün zəngin mənbə rolunu oynayır. "Kitabi-Dədə Qorqud" və "Koroğlu" kimi dastanlar xalqımızın azadlıq ideyalarını, igidlik ənənələrini, ədalətə və vətənə sədaqət duyğularını nəsildən-nəslə daşıyan bədii abidələrdir.

Bu baxımdan qəhrəmanlıq dastanlarının didaktik əhəmiyyəti yalnız folklor nümunəsi olmaqla məhdudlaşmır, həm də milli kimliyin gücləndirilməsi və vətənpərvərlik tərbiyəsində mühüm pedaqoji vasitə kimi çıxış edir. Təhsil müəssisələrində dastanların tədrisə inteqrasiyası, gənclərin şüurunda milli kimlik və dövlətçilik ideyalarının möhkəmlənməsinə xidmət edir. Bundan əlavə, "Konstitusiya və Suverenlik ili" çərçivəsində gənclər arasında sorğular və eksperimentlərin keçirilməsi dastanların müasir tərbiyəvi təsir imkanlarını qiymətləndirməyə və bu sahədə yeni yanaşmalar formalaşdırmağa şərait yaradır.

Beləliklə, qəhrəmanlıq dastanlarının öyrənilməsi yalnız folklorşünaslıq və ədəbiyyatşünaslıq baxımından deyil, həm də milli ideologiya, vətənpərvərlik tərbiyəsi və dövlətçilik dəyərlərinin təbliği kontekstində mühüm aktuallığa malikdir.

Nəzəri hissə

Qəhrəmanlıq dastanlarının milli kimlik və vətənpərvərlik tərbiyəsində rolu haqqında aparılan araşdırmalar ilk növbədə nəzəri-metodoloji çərçivəyə əsaslanmalıdır. Nəzəri yanaşma bu məsələyə həm folklorşünaslıq, həm pedaqogika, həm də sosial-psixoloji aspektlərdən yanaşmağa imkan verir. Əvvəla, folklor nəzəriyyəsi baxımından dastanlar xalqın kollektiv yaddaşının və milli kimliyinin bədii ifadəsi kimi dəyərləndirilir. Onlar xalqın tarixi təcrübəsini, mədəni kodlarını və sosial dəyərlərini özündə cəmləşdirərək nəsillər arasında mənəvi körpü rolunu oynayır. "Kitabi-Dədə Qorqud" dastanı türk xalqları arasında ortaq dəyərlərin təcəssümü olmaqla, milli özünüdərkin formalaşmasında strateji əhəmiyyət kəsb etmişdir. Burada təqdim olunan qəhrəman obrazları, igidlik və fədakarlıq motivləri yalnız bir dövrün hadisəsi deyil, həm də xalqın ümumi mənəvi iradəsinin ifadəsi kimi qəbul olunur (UNESCO, 2018).

Pedaqoji nəzəriyyələrə görə isə dastanların tərbiyəvi gücü onların emosional təsir imkanları ilə bağlıdır. Uşaqlar və gənclər dastan qəhrəmanlarının davranışlarını özlərinə nümunə götürməklə, milli dəyərlərə bağlılıq hissini mənimsəyirlər. Müasir didaktik yanaşmalar göstərir ki, şagird və tələbələrin milli kimliklə bağlı mövzulara marağı sırf faktoloji məlumatlardan deyil, obrazlı və emosional təsir gücünə malik mətnlərdən qaynaqlanır. Bu baxımdan dastanların tədris prosesinə daxil edilməsi onların milli şüurunun formalaşmasına güclü dəstək verir.

Psixoloji yanaşmada isə qəhrəmanlıq dastanlarının şəxsiyyətin formalaşmasına təsiri əsas diqqət mərkəzinə çəkilir. Gənclərin qəhrəman obrazları ilə özünü eyniləşdirməsi, onlarda milli kimlik və vətənpərvərlik hisslərinin daha dərin kök salmasına gətirib çıxarır. Məsələn, Koroğlunun zülmə qarşı mübarizəsi və azadlıq uğrunda fədakarlığı gənclərdə haqqsevərlik və mübarizlik keyfiyyətlərinin formalaşmasına təsir edir (Abdullayeva, 2017). Nəzəri-metodoloji yanaşma eyni zamanda dövlətin ideoloji siyasəti ilə də sıx bağlıdır. "Konstitusiya və Suverenlik ili" çərçivəsində milli kimlik və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi təkcə hüquqi sənədlərlə deyil, həm də milli-mədəni irsin təbliği ilə həyata keçirilir. Dastanların nəzəri əsasda təhlili göstərir ki, onlar milli suverenliyin ideoloji dayaqlarını bədii formada ifadə edən mühüm mənbədir.

Beləliklə, nəzəri-metodoloji yanaşma dastanların milli kimlik və vətənpərvərlik tərbiyəsindəki əhəmiyyətini müxtəlif aspektlərdən araşdıraraq, bu irsin həm elmi, həm pedaqoji, həm də ideoloji dəyərini əsaslandırır.

Qəhrəmanlıq dastanlarının milli kimlik formalaşdırılmasında rolu

Milli kimlik hər bir xalqın varlığını, tarixi köklərini, mədəniyyətini və mənəvi dəyərlərini qoruyan əsas dayaqlardan biridir. Azərbaycan xalqının kimliyinin formalaşmasında isə folklor, xüsusilə qəhrəmanlıq dastanları əvəzsiz rol oynamışdır. Çünki dastanlar xalqın tarixi yaddaşını, qəhrəmanlıq ənənələrini, azadlıq arzularını və müstəqillik ideyalarını bədii şəkildə ifadə edərək, milli şüurun daşıyıcısına çevrilmişdir.

"Kitabi-Dədə Qorqud" dastanı bu baxımdan Azərbaycan milli kimliyinin təməl sütunlarından biridir. Burada qəhrəmanların ailəyə sədaqəti, Vətən torpağı uğrunda mübarizəsi, insanlıq və ədalət prinsiplərinə bağlılığı milli kimliyin əsas atributlarını əks etdirir. Dədə Qorqud obrazı isə xalqın mənəvi yaddaşında ağsaqqal müdrikliyi, milli birliyin simvolu kimi təqdim olunur. Bu xüsusiyyətlər həm tarixi dövrlərdə, həm də bu gün gənc nəslin milli özünüdərkinin güclənməsində mühüm əhəmiyyət daşıyır (Aslanov, 2019).

Digər tərəfdən, "Koroğlu" dastanı xalqımızın azadlıq və ədalət uğrunda mübarizə ruhunun güclü ifadəsidir. Koroğlu obrazı zülmə qarşı mübarizənin, cəsarət və mərdliyin təcəssümü olmaqla, milli kimliyin qorunmasında mühüm rol oynamışdır. Onun mübarizəsi təkcə fərdi qəhrəmanlıq nümunəsi deyil, həm

də xalqın birliyi və haqq-ədalət uğrunda kollektiv mübarizəsini ifadə edir. Bu baxımdan, "Koroğlu" dastanı milli kimliyin sosial həmrəylik, ədalətsevərlik və mübarizlik elementlərini gücləndirir.

Bundan əlavə, xalqımızın dastan ənənəsi yalnız tarixi qəhrəmanlıq hadisələrini deyil, həm də mənəvi dəyərləri gələcək nəsillərə ötürən mühüm vasitədir. Dastanlardakı qəhrəman obrazları gənclərə milli kimlik və dövlətçilik ruhunda nümunə göstərilir. Məsələn, "Əsli və Kərəm" və "Aşıq Qərib" kimi dastanlarda vəfa, sədaqət və mənəvi təmizlik motivləri də milli özünüdərk üçün əhəmiyyətli mesajlar verir.

Müasir dövrdə "Konstitusiya və Suverenlik ili" çərçivəsində dastanların milli kimlik formalaşdırılmasındakı rolunu yenidən dəyərləndirmək zərurəti yaranır. Bu, gənclərin milli tarixə, mədəniyyətə və ənənələrə bağlılığını gücləndirmək, onlarda dövlət müstəqilliyinə hörmət və milli qürur hissini artırmaq üçün mühüm vəsaitdir. Eksperimental tədqiqatlar göstərir ki, dastan motivlərinin dərslərdə tətbiqi şagirdlərin milli kimlik anlayışına marağını artırır, onları öz tarixi və mədəni köklərinə daha sıx bağlayır.

Beləliklə, qəhrəmanlıq dastanları Azərbaycan xalqının milli kimliyinin formalaşmasında həm tarixi-mədəni, həm də didaktik baxımdan mühüm əhəmiyyətə malik olmuş və bu gün də öz aktuallığını qorumaqdadır.

Vətənpərvərlik tərbiyəsində didaktik əhəmiyyət

Vətənpərvərlik tərbiyəsi gənc nəslin milli ruhda formalaşdırılmasının ən mühüm istiqamətlərindən biridir. Bu tərbiyə prosesi yalnız nəzəri biliklərlə deyil, həm də xalqın tarixi-mədəni irsi, milli-mənəvi dəyərləri və qəhrəmanlıq ənənələri ilə möhkəmlənir. Azərbaycan folklorunun ən parlaq nümunələri olan qəhrəmanlıq dastanları vətənpərvərlik tərbiyəsinin güclü didaktik vasitəsi kimi çıxış edir.

Dastanların didaktik əhəmiyyəti, ilk növbədə, onların məzmununda ifadə olunan vətən, torpaq, ailə və azadlıq sevgisinin şagird və tələbələrin dünyagörüşünə təsir imkanları ilə ölçülür. "Kitabi-Dədə Qorqud" dastanında qəhrəmanların yurd uğrunda fədakarlığı, ailəsinə və tayfasına sədaqəti gənclərə mənəvi məsuliyyət, milli borc və vətən sevgisi barədə dərindən düşünmək imkanı yaradır. Bu motivlərin tədris prosesində müzakirəsi gənclərin yalnız mədəni irsi öyrənməsinə deyil, həm də dövlətçilik ideyalarını mənimsəməsinə xidmət edir (Hüseynov, 2021).

"Koroğlu" dastanı isə xüsusi olaraq mübarizlik və ədalət uğrunda fədakarlıq nümunəsidir. Koroğlu obrazının zalımlara qarşı ədalət uğrunda apardığı mübarizə gənclərdə haqqsevərlik, mərdlik və cəsarət duyğularını gücləndirir. Bu dastanın sinif və auditoriya mühitində öyrədilməsi tələbə və şagirdlərə yalnız bir ədəbiyyat əsərini deyil, həm də milli mübarizə fəlsəfəsini öyrədir. Beləliklə, dastanların təlim prosesinə inteqrasiyası gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsinə bilavasitə təsir göstərir.

Didaktik baxımdan dastanların ən mühüm xüsusiyyəti onların obrazlı təfəkkür, kollektiv yaddaş və mənəvi dəyərləri tədris vasitəsinə çevirməsidir. Müasir pedaqogikada tətbiq edilən eksperimental üsullar göstərir ki, dərslərdə dastan qəhrəmanlarının müzakirəsi tələbələr arasında milli qürur və vətən sevgisini artırır. Sorğu və müşahidələr nəticəsində aydın olur ki, dastanlardan nümunələrin istifadə edildiyi dərslərdə gənclər öz milli kimliyi ilə daha sıx bağlılıq nümayiş etdirirlər.

"Konstitusiya və Suverenlik ili" çərçivəsində dastanların vətənpərvərlik tərbiyəsində istifadəsi həm də dövlətin ideoloji kursu ilə səsləşir. Konstitusiya və suverenlik anlayışları xalqın azadlıq, müstəqillik və öz müqəddəratını təyin etmə iradəsini ifadə edir. Bu dəyərlərin gənc nəsilə çatdırılmasında dastanların rolu bədii nümunələr üzərindən daha təsirli olur. Məsələn, "Kitabi-Dədə Qorqud"da Oğuz qəhrəmanlarının Vətən uğrunda mübarizəsi Konstitusiyanın əsas prinsiplərindən olan dövlət müstəqilliyinin qorunması ideyası ilə birbaşa əlaqələndirilə bilər.

Beləliklə, qəhrəmanlıq dastanlarının vətənpərvərlik tərbiyəsində didaktik əhəmiyyəti onların milli dəyərləri nəsildən-nəslə ötürmə gücü ilə yanaşı, tədris prosesində fəal və təsirli pedaqoji vasitə kimi çıxış etməsindədir. Bu yanaşma gənc nəslin həm milli kimlik, həm də dövlətçilik dəyərlərinə daha möhkəm bağlanmasını təmin edir.

Sorğu və eksperimentlər

Gənclərin qəhrəmanlıq dastanlarına münasibətini öyrənmək üçün sorğular ən səmərəli üsullardan biridir. Orta məktəb və universitetlərdə aparılan anketlər tələbələrin hansı dastan qəhrəmanlarını nümunə seçdiyini və hansı dəyərlərin onların milli kimlik hissini gücləndirdiyini üzə çıxara bilər. Məsələn, "Sizcə, hansı dastan milli kimlik hissinin formalaşmasında daha mühüm rol oynayır?" və ya "Qəhrəmanlıq dastanları sizdə milli qürur hissini artırırmı?" kimi suallar nəticələrin təhlili üçün əsas yaradır. Bu məlumatlar tədris prosesində milli-mənəvi dəyərlərin daha effektiv təbliğinə imkan verir (Axundov, 2020).

Praktik tədqiqatlarda eksperimentlər vasitəsilə dastanların təsiri birbaşa izlənilə bilər. Məsələn, bir tələbə qrupuna dərslərdə qəhrəmanlıq dastanları ətraflı şəkildə öyrədilir, digər qrupa isə yalnız ümumi nəzəri məlumat verilir. Sonrakı müşahidələr göstərir ki, dastanlardan nümunələr öyrənən tələbələr milli kimlik və vətənpərvərlik məsələlərinə daha həssas yanaşır, fəallıqları artır. Auditoriyalarda təşkil edilən debatlar da bu baxımdan səmərəlidir: tələbələr "Dədə

Qorqud" və ya "Koroğlu" qəhrəmanlarının müasir gənclərə hansı mesajlar verdiyini izah etməklə həm müstəqil düşünmə qabiliyyətini, həm də milli dəyərlərə bağlılığını gücləndirirlər.

Universitetlər "Konstitusiya və Suverenlik ili" çərçivəsində gənclər arasında "Qəhrəmanlarımızı tanıyaq" mövzusunda sorğular, esse müsabiqələri və seminarlar təşkil edə bilər. Məktəblərdə "Dastan qəhrəmanları günləri" keçirilməsi ilə şagirdlərin milli qəhrəman obrazlarını teatrlaşdırılmış formada canlandırması onların milli-mənəvi dəyərlərlə canlı şəkildə tanış olmasına imkan yaradar. Eyni zamanda, ictimai təşkilatlar gənclər arasında aparacaqları statistik sorğularla dastanların bugünkü təsir gücünü ortaya qoya bilərlər.

Beləliklə, sorğu, eksperiment və müşahidələr qəhrəmanlıq dastanlarının milli kimlik və vətənpərvərlik tərbiyəsində rolunu praktik şəkildə təsdiqləyən metodlardır. Bu yanaşmalar yalnız nəzəri araşdırmalarla kifayətlənmədən, gənclərin real şüur formalaşdırma prosesində də mühüm təsir göstərir. "Konstitusiya və Suverenlik ili" çərçivəsində bu tədbirlərin həyata keçirilməsi gənclərin milli ruhda yetişməsinə və dövlətçilik dəyərlərinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verir (Alizadə, 2015).

Tədqiqatın metodologiyası

Qəhrəmanlıq dastanlarının milli kimlik və vətənpərvərlik tərbiyəsindəki rolunu araşdırmaq üçün ilk növbədə nəzəri-metodoloji əsasların müəyyənləşdirilməsi vacibdir. Nəzəri yanaşma dastanların yalnız folklor nümunəsi deyil, həm də milli ideologiyanın, tarixi yaddaşın və pedaqoji dəyərlərin daşıyıcısı olduğunu ortaya qoyur. Bu baxımdan, tədqiqatın əsasını folklorşünaslıq, pedaqogika, psixologiya və mədəniyyətşünaslıq sahəsində mövcud elmi fikirlər təşkil edir. Azərbaycan folklorşünaslığında dastanlar xalqın tarixi-mədəni salnaməsi, milli yaddaşın qoruyucusu və milli kimliyin bədii ifadəsi kimi qiymətləndirilmişdir. "Kitabi-Dədə Qorqud" dastanının türk xalqları arasında ortaq mənəvi bağ rolunu oynaması, "Koroğlu" dastanının isə ədalət və azadlıq ideyalarının simvoluna çevrilməsi bu əsərlərin ideoloji gücünü sübut edir. Beləliklə, nəzəri-metodoloji baxımdan dastanların təhlili milli kimlik, vətənpərvərlik, dövlətçilik və suverenlik anlayışlarının tarixi əsaslarını açmağa imkan verir.

Digər tərəfdən, pedaqoji yanaşma dastanların təlim və tərbiyə prosesində rolu ilə bağlıdır. Müasir didaktik nəzəriyyələrə görə, folklor nümunələri – xüsusilə qəhrəmanlıq dastanları – şagird və tələbələrdə emosional təsir yaratmaqla yanaşı, mənəvi dəyərləri daha dərindən mənimsəməyə şərait yaradır. Bu yanaşma göstərir ki, milli kimliyin formalaşdırılması yalnız tarixi faktların öyrədilməsi ilə məhdudlaşmır, həm də obrazlı düşüncə və emosional təsir vasitəsilə şüurda möhkəmlənir.

Psixoloji yanaşma isə dastanların insan şəxsiyyətinə təsirini öyrənməyə yönəlmişdir. Burada qəhrəman obrazlarının gənclərdə emosional-identifikasiya (özünü qəhrəmanla eyniləşdirmə) mexanizmini gücləndirdiyi müşahidə olunur. Məsələn, gənclərin Koroğlunun ədalət uğrunda mübarizəsinə və ya Dədə Qorqudun müdrikliyinə marağı onların öz həyat prinsiplərinə də yön verir.

Nəzəri-metodoloji yanaşma həmçinin dövlətin ideoloji strategiyası ilə də əlaqələndirilir. "Konstitusiya və Suverenlik ili" kontekstində dastanların təhlili göstərir ki, milli kimliyin qorunması və vətənpərvərlik dəyərlərinin gücləndirilməsi təkcə hüquqi-siyasi sənədlər deyil, həm də mədəniyyət və folklor vasitəsilə möhkəmlənir. Bu isə tədqiqatın əsas metodoloji çərçivəsini müəyyənləşdirir: dastanların xalqın milli-mənəvi dəyərlərinin qorunmasında pedaqoji, psixoloji və ideoloji gücünü üzə çıxarmaq.

bəzən qılıncdan iti, bəzən də ən ağır yükdən ağır sayılmışdır. Bu səbəbdən, atalar sözləri xalqın həyat təcrübəsinin, əxlaqi meyarlarının və dünya görüşünün ən saf və yığcam ifadə forması hesab olunur.

Azərbaycan dilçilik fikrində atalar sözlərinin rolu müxtəlif aspektlərdən araşdırılmışdır.

Məmmədağa Şirəliyev atalar sözlərinin xalq danışıq dilini zənginləşdirdiyini və milli dilin formalaşmasında böyük rol oynadığını göstərmişdir.

Nəsir İmanquliyev publisistik nitqdə atalar sözlərinin üslubi ifadəlilik yaratmaqla yanaşı, oxucuya təsir gücünü artırdığını vurğulamışdır.

Məhərrəm Qasımlı atalar sözlərini sosial-mədəni təcrübənin daşıyıcısı, tərbiyə və maarifçilik vasitəsi kimi dəyərləndirmişdir.

Nizami Cəfərov onların milli ideologiyanın təbliğində və etik dəyərlərin qorunmasında mühüm rol oynadığını bildirmişdir.

Ramiz Əsgər isə atalar sözlərini ümumtürk təfəkküründün ortaq mənəvi kodu kimi xarakterizə etmişdir.

1. Atalar sözlərində sözün mənəvi və sosial funksiyası

Azərbaycan atalar sözlərində söz insanın mənəvi keyfiyyətlərini, əxlaq normalarını və ictimai münasibətlərdəki mövqeyini müəyyən edən əsas vasitə kimi təqdim olunur.

Nümunələr:

- Söz adama, çubux heyvana. (1, s 368)
- Adam dilinnən, heyvan başınnan. (1, s 23)
- *Ən böyük igidlik sözü üzə deməkdir. (1,s 175)*
- *Dil ürəyin açarıdır* (1, s 133)
- *Qazan oddan qızar, insan sözdən* (1, s 279)

Azərbaycan xalq fəlsəfəsi sözün yalnız estetik deyil, həm də mənəvi gücünü ön plana çəkir. Bu baxımdan "Dil yarası bədən yarasından dərindir" kimi nümunələr sözün yaratdığı təsirin bəzən fiziki zərbədən də artıq olduğunu nümayiş etdirir. Deməli, atalar sözlərində söz həm fərdi davranışları istiqamətləndirən, həm də sosial münasibətləri nizama salan mənəvi ölçü kimi təqdim edilir.

2. Sözün semantik təsnifatı

Araşdırma nəticəsində Azərbaycan atalar sözlərində "söz" anlayışı altı əsas semantik kateqoriyada toplanır.

1. Dəyərli söz

- *Ağıllı söz qüvvədə bir ordudan da ötədi* (1, s. 29)
- *Haqq söz axar suları saxlar (1, s 23)*
- *Gül qönçədə qalmaz, söz qəlbdə (1, s 198)*
- *Söz quşdur – buraxarsan, uçar, gedər (1, s 368)*

Beləliklə, bu kateqoriyada sözün müdriklik, ədalət, təsir gücü və saxlanılmaz təbiət kimi semantik çalarları üzə çıxır. Xalq fəlsəfəsi sözün sadəcə ünsiyyət vasitəsi olmadığını, əksinə, onu mənəvi sərvət və insan həyatını yönəldən ən mühüm dəyər kimi qəbul etdiyini nümayiş etdirir.

2. Doğru/həqiqi söz

Doğru danışanın papağı yırtıq olar (1, s 138)

Ən böyük igidlik sözü üzə deməkdir (1, s 175)

Haqq söz axar suları saxlar (1, s 203)

Beləliklə, bu kateqoriyada söz insan davranışının və ictimai münasibətlərin ədalət, cəsarət və dürüstlük prinsiplərinə əsaslanmasına xidmət edən vasitə kimi dəyərləndirilir.

3. Gözəl/şirin söz

- *Şirin dil dəmir qapını da açar* (1, s. 379)
- *Dildən bal da damır, zəhər də* (1, s. 134)
- Gözəl söz dövlətdən artıqdır. (1, s 196)

Beləliklə, bu kateqoriyada söz insan münasibətlərində mehribanlıq, nəzakət, təsir gücü və mənəvi zənginlik yaradan amil kimi dəyərləndirilir. Xalq müdrikliyi göstərir ki, gözəl söz yalnız ünsiyyət vasitəsi deyil, həm də könül qazanmağın və ictimai münasibətləri harmonikləşdirməyin ən təsirli yoludur.

4. Pis/qaba söz

- *Cahilə söz qandırmaq, dəvəyə xəndək atdırmaq kimidir* (1, s. 100)
- Acı sözü bir batman bal ilə yemək olmaz. (1, s 20)

Söz qılıncdan kəskindi. (1, s 368)

Beləliklə, bu kateqoriyada söz insan münasibətlərində təhlükə, incitmə, dağıdıcı təsir və geri dönüşsüz nəticə doğuran amil kimi təqdim olunur. Xalq müdrikliyi xəbərdarlıq edir ki, söz ağılla seçilməzsə, o, ən iti silaha çevrilə bilər.

5. Azərbaycan atalar sözlərində sözün mənfi semantik qatlarından biri də **yalan söz** anlayışıdır. Bu kateqoriyada yalanın insana gətirdiyi mənəvi zərər, onun cəmiyyətdə etibarsızlıq və hörmət itkisinə səbəb olması diqqət mərkəzinə çəkilir. "Əsassız söz sahibinə üzüqaralıq gətirər" (1,s. 178) atalar sözü göstərir ki, əsassız və həqiqətdən uzaq söz insanı cəmiyyət qarşısında nüfuzdan salar. "Yalançı dəyirmandan başı unlu da gəlsə, heç kəs ona inanmaz" (1, s. 215) nümunəsi yalan danışan insanın etibarını itirdiyini, hətta zahiri sübutlar gətirsə belə, onun sözünə inam göstərilmədiyini bildirir. "Yalançı özünün düşmənidi" (1,s 415) deyimi isə yalan danışan

şəxsin nəticədə ən çox özünə zərər vurduğunu ifadə edir.

Beləliklə, bu kateqoriyada söz insanın sosial mövqeyində etibarlılıq, nüfuz və mənəvi dürüstlük meyarları ilə ölçülür. Xalq müdrikliyi yalanın yalnız başqalarını deyil, ilk növbədə, sahibini zərərli vəziyyətə saldığını göstərir**.**

6. Boş/mənasız söz

- *Danışmaqla plov bişmir, ona yağ və düyü lazımdır* (1, s 117)
- *Söz sözdən açılır* (1, s. 368)
- Boş sözlə qarın doymaz. (1, s 92)

Bu qəbildən olan atalar sözləri xalqın sözə verdiyi məsuliyyətli yanaşmanı nümayiş etdirir. Onların semantik yükündə əsas ideya belədir:

1) söz yalnız məna daşıyanda dəyərlidir;
2) əməl ilə təsdiqlənməyən söz boşdur;
3) mənasız danışıq həm zaman itkisinə, həm də etibarın itirilməsinə səbəb olur.

Beləliklə, "boş/mənasız söz" motivi Azərbaycan atalar sözlərində həm praktik həyat təcrübəsindən doğan realizmi, həm də etik xəbərdarlıq xarakterini özündə ehtiva edir.

3. Sözün əxlaqi və tərbiyəvi yükü

Atalar sözləri yalnız üslubi gözəlliyi ilə deyil, həm də tərbiyəvi və xəbərdarlıq xarakteri ilə seçilir:

- Sözünü bilməyən ağız başa toxmaq vurdurar. (1, s 400)
- İnsan dilindən dağlanar, heyvan belindən. (1, s.300)
- *Oğula söz deyilməzsə, el dəyişik (1, s 290)*
- Vaxtsız banlayan xoruzun başını kəsərlər (1, s. 402)
- *Söz var – dağa qaldırar, söz var – yerdən yerə çırpar* (1, s.368)

Bu atalar sözlərindən aydın olur ki, sözün hikməti onun yerində işlədilməsindədir. Xalq inanclarına görə, vaxtsız deyilən sözün dəyəri olmur, hətta onun gətirdiyi fəsadlar böyük ola bilər. Məsələn, müdriklər "yaxşı söz xəzinədir, amma o xəzinəni açmaq üçün doğru vaxtı gözləmək lazımdır" deyə vurğulamışlar.

Beləliklə, sözün zaman və məkan uyğunluğu onun təsir gücünü müəyyənləşdirən əsas şərtlərdəndir.

5. Sözün daşıyıcısı və sosial nüfuzu

Sözün dəyəri təkcə məzmunu ilə deyil, onu söyləyənin kimliyi ilə də bağlıdır:

- Ahıl ilə daş daşı, cahil ilə bal yemə. (1,s. 23)
- *Oğlanın qüvvəti dilindədir* (1, s.331)

Xalq hikməti göstərir ki, sözün təsiri danışanın yaşından, savadından, mənəviyyatından və cəmiyyətdəki mövqeyindən asılıdır. Ağıllının sözü yol açar, cahilin sözü isə yol kəsər. Söyləyənin şəxsiyyəti ilə sözün dəyəri arasında birbaşa əlaqə mövcuddur. Sözə inanmaq, onu nüfuzlu hesab etmək üçün söyləyənin cəmiyyət içindəki obrazı mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, söz həm məna daşıyıcısı**,** həm də nüfuz daşıyıcısı kimi çıxış edir. Onu dəyərli edən təkcə semantik məzmun deyil, eyni zamanda sosial kontekstdə söyləyənin şəxsiyyəti, yaşadığı mühit və mövqeyidir. Buna görə də Azərbaycan atalar sözlərində sözün gücü hər zaman insanın özü ilə bağlı olaraq izah edilir.

Nəticə

Aparılan araşdırmalar göstərir ki, Azərbaycan atalar sözlərində "söz" anlayışı sadəcə ünsiyyət vasitəsi kimi deyil, həm də mənəvi, əxlaqi və ictimai dəyər daşıyıcısı kimi təqdim olunur. Onun təsiri yalnız ifadə etdiyi məzmunla deyil, həm də kontekstə uyğunluğu, etik çərçivədə işlədilməsi və ictimai münasibətlərdə doğurduğu nəticələrlə ölçülür.

Atalar sözləri xalq hikmətinin ən yığcam forması olmaqla, həm tarixi yaddaşı, həm də mədəni dəyərləri qoruyub saxlayan mühüm vasitə rolunu oynayır. Onlar nəsillərin düşüncə tərzini formalaşdırmaqla yanaşı, dilin zənginləşməsinə, mənəvi dəyərlərin möhkəmlənməsinə və ictimai münasibətlərin tənzimlənməsinə də xidmət edir.

Beləliklə, Azərbaycan atalar sözlərində "söz" anlayışı təkcə dilin ifadə imkanlarını deyil, həm də xalqın dünyagörüşünü, sosial-mənəvi təcrübəsini və həyat fəlsəfəsini əks etdirən mühüm kateqoriya kimi dəyərləndirilə bilər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Atalar sözləri. Bakı, "Nurlan", 2013, 476 səh.
2. Məmmədağa Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, "Şərq-Qərb", 2008, 416 səh.
3. Nəsir İmanquliyev Azərbaycan publisistikası. Bakı: Maarif.
4. Qasımlı Məhərrəm Paşa. Folkor və ədəbiyyat araşdırmaları. Bakı, "Elm və təhsil", 2017, 628 səh.
5. Nizami Cəfərov, Vüqar Sərdarov, Adil Cəfərov Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları, Bakı, "Elm və təhsil", 2016, 109 səh.
6. Ramiz Əsgər, Dahi Turk dilçisi Mahmud Kaşğari. Bakı, 2020, 176 səh.

BƏDİİ MƏTNLƏRDƏ ZİDDİYYƏTLİ İFADƏLƏR VƏ ONLARIN MƏNASI

Ramilə Elşad qızı RZAYEVA
Azərbaycan Dillər Universiteti
d.yevaramile2001@gmail.com

Xülasə: Bu məqalədə bədii mətnlərdə mənanın qurulmasında ziddiyyətə əsaslanan üslubi fiqurların — antitezis, oksimoron və ironiyanın inteqrativ rolu konseptual-analitik yanaşma çərçivəsində araşdırılır. Tədqiqatın başlanğıc nöqtəsi kimi qəbul edilir ki, bədii semantika yalnız hadisələrin təsviri ilə məhdudlaşmır; əksinə, hiss və ideyaların toqquşduğu çoxqatlı məna məkanı məhz ziddiyyətli ifadələr vasitəsilə formalaşır. Bu fiqurlar emosional gərginlik yaradır və oxu prosesini qatlara bölərək idrakı aktivləşdirir.

Metodoloji baxımdan tədqiqat kontekstual stilistika yanaşmasına əsaslanır: məna sabit deyil və müxtəlif ton, situativ və intertekstual işarələr fərqli semantik nəticələr yaradır; bu işarələr oxucunun mədəni və intellektual təcrübəsi ilə qarşılıqlı əlaqədə mənanın davamlı şəkildə yenidən qurulmasını tələb edir.

Təhlil göstərir ki, antitezis məzmun səviyyəsində kəskin qarşıdurma yaradır, oksimoron isə dil səviyyəsində paradoksal əlaqə qurur; onların birgə istifadəsi mətnin həm formal, həm də semantik müstəvisində gərginliyi artırır. Bu sintezə ironiyanın əlavə olunması səthi məna ilə nəzərdə tutulan məna arasında qəsdən yaradılmış məsafəni genişləndirir və oxucunu "nə deyilir?" sualından "nə nəzərdə tutulur?" sualına yönəldir; nəticədə mətn çoxqatlı semantika qazanır və şərh dərinləşir.

Nümunələr əsasında göstərilir ki, eyni ifadə müxtəlif kontekstlərdə fərqli mənalar qazana bilər; bu isə oxucudan müəllif niyyətinin aktiv şəkildə yenidən qurulmasını tələb edir.

Məqalədə ironiyanın tipologiyası dəqiqləşdirilir: verbal ironiya ifadənin zahiri və nəzərdə tutulan mənası arasında fərq yaradır; situativ ironiya hadisələrlə gözləntilər arasındakı uyğunsuzluqdan yaranır; dramatik ironiyada isə oxucunun informasiya üstünlüyü personajların hərəkət və sözlərinə ironik-tragik məna verir. Bu fərqləndirmə göstərir ki, ironiya yalnız estetik vasitə deyil, həm də süjet dinamikasını dəyişən və oxucunun mövqeyini yenidən formalaşdıran funksional mexanizmdir.

Nəticələr göstərir ki, antitezis, oksimoron və ironiya yalnız bədii vasitələr deyil, həm də müəllifin estetik niyyətinin, ideoloji mövqeyinin və oxucu ilə intellektual dialoqunun daşıyıcılarıdır. Onların sinxron istifadəsi mətnin həm konseptual, həm də emosional dərinliyini artırır və oxucunu passiv qavrayışdan aktiv interpretasiyaya keçirir. Bu isə kontekstual yanaşmanın əhəmiyyətini bir daha təsdiqləyir: ziddiyyətə əsaslanan fiqurların sinerjisi poetik məqsədi aydınlaşdırır, müəllif–oxucu münasibətini daha yüksək idrak səviyyəsinə qaldırır və çoxqatlı məna yaranmasının mexanizmlərini üzə çıxarır.

Açar sözlər: ziddiyyət, üslubi fiqur,antiteza, oksimoron, kinayə.

CONTRADICTORY EXPRESSIONS IN LITERARY TEXTS AND THEIR MEANING

Ramila Elshad RZAYEVA
Azerbaijan University of Languages
d.yevaramile2001@gmail.com

Abstract: This article investigates, within a conceptual–analytical framework, the integrated role of contradiction-based stylistic figures—antithesis, oxymoron, and irony—in the construction of meaning in literary texts. As a point of departure, it adopts the thesis that literary semantics is not confined to the depiction of events; rather, the multilayered space where feelings and ideas collide is shaped by contradictory expressions. These figures generate emotional tension and, by stratifying the act of reading, activate cognition. Methodologically, the study relies on a contextual stylistics approach: meaning is not fixed, and different tonal, situational, and intertextual cues yield divergent semantic outcomes; in interaction with the reader's cultural and intellectual experience, these cues mandate the continual reconstruction of meaning.

The analysis demonstrates that antithesis produces emphatic contrast at the level of content, whereas oxymoron establishes paradoxical linkage at the level of language; their conjunction heightens tension across both formal and semantic planes of the text. Adding irony to this synthesis widens the deliberately constructed gap between surface meaning and intended meaning, redirecting the reader from the question "what is said?" to "what is meant?"; consequently, the text acquires multilayered semantics and interpretation deepens. Through examples, it is shown how the same expression can receive different readings across contexts when tonal, ironic, or situational signals vary, thereby requiring the active reconstruction of authorial intent by the reader.

The article refines the typology of irony: verbal irony introduces a discrepancy between literal utterance and intended sense; situational irony arises from a mismatch between events and expectations; in dramatic irony, the reader's informational advantage confers an ironic-tragic value on characters' actions and words. This differentiation demonstrates how irony functions beyond an aesthetic marker, transforming plot dynamics and reconfiguring the reader's stance.

The conclusions assert that antithesis, oxymoron, and irony are not ornamental devices but carriers of the author's aesthetic intent, ideological position, and intellectual dialogue with the reader. Their synchronous deployment deepens the text both conceptually and affectively, shifting the reader from passive reception to active interpretation. This affirms the salience of a

contextual approach: the synergy of contradiction-based figures clarifies poetic purpose, elevates the author–reader relation to a higher cognitive register, and elucidates the mechanisms of multilayered meaning production.
Keywords: contradiction, stylistic figure, antithesis, oxymoron, irony.

ПРОТИВОРЕЧИВЫЕ ВЫРАЖЕНИЯ В ХУДОЖЕСТВЕННЫХ ТЕКСТАХ И ИХ ЗНАЧЕНИЕ

Рамиля Эльшад кызы РЗАЕВА
Азербайджанский университет языков
d.yevaramile2001@gmail.com

Резюме: В статье в концептуально-аналитической рамке исследуется интегральная роль основанных на противоречии стилистических фигур — антитезы, оксюморона и иронии — в формировании смысла художественного текста. В качестве отправной точки принимается тезис о том, что семантика художественного произведения не сводится к описанию событий; многослойное пространство столкновения чувств и идей формируется именно посредством противоречивых выражений. Эти фигуры создают эмоциональное напряжение и, стратифицируя акт чтения, активируют когницию. Методологической основой служит контекстуальная стилистика: значение не является фиксированным, а меняется под воздействием тональных, ситуационных и интертекстуальных сигналов; во взаимодействии с культурным и интеллектуальным опытом читателя это требует постоянной реконструкции смысла. Анализ показывает, что антитеза создаёт подчеркнутый контраст на уровне содержания, тогда как оксюморон устанавливает парадоксальную связь на уровне языка; их единство усиливает напряжение как в формальном, так и в семантическом планах текста. Включение иронии в данную синергию расширяет преднамеренно заданный разрыв между поверхностным и подразумеваемым значением, переводя внимание читателя с вопроса «что сказано?» к вопросу «что имеется в виду?». В результате текст приобретает многослойную семантику, а интерпретация углубляется. На примерах демонстрируется, как одно и то же выражение в разных контекстах получает различные прочтения при изменении тональных, иронических и ситуационных сигналов, что требует активного восстановления авторского замысла со стороны читателя.
Статья уточняет типологию иронии: вербальная ирония фиксирует несоответствие между буквальным высказыванием и подразумеваемым смыслом; ситуационная ирония возникает из несоответствия между событиями и ожиданиями; при драматической иронии информационное превосходство читателя придаёт поступкам и словам персонажей ироническо-трагическое измерение. Это разграничение показывает, как ирония выходит за рамки чисто эстетического маркера, трансформируя динамику сюжета и позицию читателя.
Сделанные выводы утверждают, что антитеза, оксюморон и ирония — не декоративные украшения, а носители эстетического замысла автора, его идеологической позиции и интеллектуального диалога с читателем. Их синхронное применение концептуально и эмоционально углубляет текст, переводя читателя от пассивного восприятия к активной интерпретации. Тем самым подтверждается значимость контекстуального подхода: синергия фигур, основанных на противоречии, проясняет поэтическую цель, повышает когнитивный уровень взаимодействия автора и читателя и объясняет механизмы порождения многослойного смысла.
Ключевые слова: противоречие, стилистическая фигура, антитеза, оксюморон, ирония.

Giriş

Bədii mətn insan təcrübəsinin ən mürəkkəb hallarını dilin estetik imkanları ilə formalaşdıran bir sahədir. Bu mətnlərdə mənanın qurulması təkcə hadisələrin təsviri ilə məhdudlaşmır; hisslərin, ideyaların və dəyərlərin qarşılaşdığı, toqquşduğu, bəzən də bir-birini inkar edirmiş kimi göründüyü semantik məkan yaranır. Məhz bu qarşılaşma oxucunu mətnin səthini aşmağa, gizli qatlara enməyə, görünənlə gizlini, deyilənlə deyilməyəni tutuşdurmağa vadar edir. Ziddiyyətli ifadələr bu baxımdan bədii düşüncənin mühüm dinamiki gücüdür: onlar həm emosional gərginlik yaradır. Həm də məna ehtiyatını genişləndirərək təbəqələnmiş bir oxu təcrübəsi təmin edir. Beləliklə, ziddiyyətli mənzərə nəinki estetik zövqü artırır, həm də bilik və dərk prosesini fəallaşdırır – oxucu mətni həll olunacaq tapmaca kimi deyil, sual doğuran dünya kimi oxumağa başlayır. Belə üslubi fiqurlar arasında antiteza , oksimoron və kinayə xüsusilə fərqlənir.

Analiz

Antiteza (yun. antíthesis - "əks fikir") bədii nitqin həm ifadə, həm də anlam qatında qarşıdurma mexanizmini işə salan, oxucuya "mənanın sərhədlərində" düşünmə imkanı yaradan klassik ritorik fiqurdur. Burada məqsəd sadəcə bir fikri başqa bir fikrə qarşı qoymaq deyil; məhz bu qarşılaşdırmanın vasitəsilə ideyanın semantik çəkisini artırmaq, emosional intensivliyi yüksəltmək və oxucunun diqqətini mətnin anlam mərkəzinə toplamaqdır. Antiteza məna istehsalında iki səviyyədə işləyir: sintaktik planda paralel konstruksiyalar vasitəsilə formal kontrast yaradır, semantik planda isə dünya-görüşlərin, dəyərlərin və düşüncə rejimlərinin toqquşmasını estetik hadisəyə çevirir (Abrams, 1999).

Ritorik nəzəriyyədə antitezanın gücü çox vaxt paralelizm və təkrir kimi sintaktik çərçivələrlə birgə təsvir olunur: paralel quruluş oxucu yaddaşında formal simmetriya yaradır, mənası zidd olan vahidlərin yanaşı təqdimatı isə həmin simmetriyanı "gərgin məna oyunu"na çevirir (Lanham, 1991; Wales, 2011). Nəticədə antiteza nəinki cümlənin ritmini və ritorik tempini müəyyənləşdirir, həm də bədii iddianın kəskinliyini artırır; obrazın daxili konfliktini işıqlandırır, mövqeləri kəskinləşdirir və müəllifin intellektual baxışını estetik forma kimi görünən bir "mətn hərəkəti"nə çevirir (Leech, 1969).

Bədii prosesin praktik səviyyəsində antiteza "nə deyilir?" sualı ilə "necə deyilir?" sualını eyni məkanda qarşılaşdırır. Yazıçı zidd anlayışları, məsələn, varlıq/ yoxluq, azadlıq/ itaət, işıq/ qaranlıq kimi sözləri sintaktik paralellikdə təqdim etdikdə, oxucu üçün iki qat təcrübə doğur: bir tərəfdən məna açıq-aydın müqayisə müstəvisində görünür, digər tərəfdən bu müqayisənin özündə yaranan gərginlik oxucunu şərhə, yenidən oxumağa, sətiraltını açmağa sövq edir. Klassik nümunələrdən "War is peace. Freedom is slavery. Ignorance is strength." göründüyü kimi, antitezaya söykənən kontrast məntiqi paradoksu estetik hadisəyə çevirir və məhz bu paradoksal quruluş yaddaşda qalan təsir yaradır (Orwell, 1949).

Ritorikanın tətbiqi ənənəsində ideoloji qarşıdurmaları dilin formasında görünən estetik hadisəyə çevirməyin üsuludur. Bu mənada antiteza yalnız formal fiqur deyil, həm də bilavasitə dünyagörüşü ifadəsidir: hansı anlayışın hansı anlayışa qarşı qoyulduğu, onların hansı sintaktik simmetriyada düzüldüyü, vurğunun hara düşdüyü mətnin dərin ideya konfiqurasiyasını açır (Quinn, 1982). Oxucu antitezalı cümlələrdə təkcə iki zidd məzmunu görmür; o, həm də müəllifin etik və estetik seçim trayektoriyasını hiss edir. Eyni zamanda ironiya nəzəriyyəsinin perspektivindən baxdıqda, məqsədli ziddiyyətlərin bəzən "həqiqət formatında təqdim edilən ideoloji təhriflər" kimi işlədilməsi mümkündür; yəni antitezanın "şok effekti" sosial-tənqidi enerji ilə qidalananda, oxucu mövqeyi təkcə estetika ilə deyil, düşüncə ilə də hərəkətə gəlir (Booth, 1974).

Beləliklə, antiteza formanın məzmunu parlaqlaşdırdığı, məzmunun isə formaya yön verib onu mənalandırdığı bir kəsişmə nöqtəsidir. Bədii mətnlərdə bu fiqurun müvəffəqiyyəti onun süni dekor olmamasından, ideya-bədii məqsədlə üzvi bağ qurmasından asılıdır: əgər qarşılaşdırma hadisə və obrazların semantik yükünə bağlıdırsa, antiteza mətni ritmləşdirir, oxunuşu dərinləşdirir, estetik təcrübəni isə həm hissi, həm də intellektual səviyyədə zənginləşdirir (Abrams, 1999; Wales, 2011; Leech, 1969).Antiteza üslubi fiqur kimi bəzi funkisonal xüsusiyyətlər daşıyır:

1. Estetik funksiya – Antiteza mətndə sadəcə məna ifadə etmək üçün istifadə edilmir. O, həm də mətnin dinamikasını artırmaq, obrazlılığı gücləndirmək və oxucunun emosiyalarını oyatmaq kimi vəzifələri yerinə yetirir. Oxucun emosiyalarını oyatmaq məqsədilə antiteza, bir-birinə təzad təşkil edən fikirləri qarşı-qarşıya qoyaraq gərginlik yaradır. Bu gərginlik isə oxucunu passiv izləyicidən aktiv iştirakçıya çevirir. Beləliklə, oxucu hansı hissin daha üstün olduğunu, hansı fikrin daha doğru olduğunu qiymətləndirməyə cəhd edir. Həmçinin, antitezanın istifadə edildiyi cümlələr daha çox paralel sintaktik quruluşlarla qurulduğundan mətndə ritmik axın və ahəng yaranır. Bu isə mətni daha dinamik, oxunaqlı, təsirli və yadda qalan edir.
2. Semantik-fəlsəfi funksiya – antiteza insan düşüncəsinin ikili təbiətini, dualist quruluşunu bədii şəkildə əks etdirir. Fəlsəfi cəhətdən baxdıqda dünyanın ziddiyyətlər üzərində qurulduğunu görə bilərik. Antitezanın məqsədi məhz bu ziddiyyətləri kontrastlı şəkildə təqdim edərək oxucunu gerçəkliyin müxtəlif yanlarını eyni anda dərk etməyə sövq etməkdir.O, həmçinin yalnız mövcud olan dəyərləri göstərmək üçün deyil, bəzən də bilik və dəyərləri sorğulamaq, şübhə yaratmaq üçün istifadə edilir.
3. İdeoloji funksiya – Antiteza ideoloji məzmunun ifadəsi və ifşası üçün də mühüm əhəmiyyət kəsb edən stilistik vasitədir. Bu zaman fikir qarşıdurması yalnız fərdi deyil, həm də ictimai və siyasi səviyyədə baş verən ziddiyyətlərin simvolik təzahürü kimi çıxış edir. Antiteza, xüsusən siyasi, ideoloji və ya totalitar yüklü mətnlərdə istifadə olunur. Müəllif rejimin ikili standartlarını ifşa edir. Bəzən isə müəllif bu üslubi fiqurdan öz mövqeyini oxucuya dolayı yolla çatdırmaq üçün istifadə edir. O, öz baxışını birbaşa deyil, üstüörtülü şəkildə, ziddiyyətli ifadələri qarşılaşdıraraq verir. Belə halda, oxucu bir mövqe seçməyə məcbur olur və nəticədə ideoloji mesaj daha düşündürücü və təsirli hal alır. Antiteza müxtəlif dəyərlərin, ideologiyaların və dünyagörüşlərinin toqquşmasını mücərrəd deyil, konkret ifadəli şəkildə təqdim edir.

Ziddiyyət ifadə edən digər üslubi fiqur olan oksimoron təbiətən bir-birinə əks görünən anlayışlarının eyni ifadə vahidində (söz birləşməsi, cümlə, bəzən də mətnin mikrosəviyyəsində) yan-yana gətirilməsindən doğur. Termin etimoloji baxımdan yunan mənşəlidir və "iti/ağıllı" (oxys) ilə "ağılsız/küt" (moros) köklərinin birləşməsinə gedib çıxır; elə buna görə də anlayış özü daxilən ziddiyyətli bir "mənaca gərginlik" daşıyır (Lanham, 1991; Wales, 2014). Oksimoron məzmunu yalnız "şok effekti" ilə yükləmir; burada zidd qarşılıqlar bir-birini sırf inkar etmək üçün deyil, paradoksal həqiqəti açmaq üçün toqquşdurulur. Quin (1982) bunu "zahirdə zidd terminlərin daha dərin

(paradoksal) həqiqəti üzə çıxarmaq üçün bir araya gətirilməsi" kimi xarakterizə edir.

Nəzəri baxımdan oksimoron formayla məzmunun kəsişmə nöqtəsidir: ifadə səviyyəsində yarımçıq ləğv, məna səviyyəsində isə tamamlayıcı qarşıdurma yaradır. Məsələn, "sweet sorrow" (şirin kədər), "deafening silence" (kar edəcək sükut) tipli klassik nümunələrdə hissin iki ucu bir anda aktivləşir; oxucu həm semantik dissonansı, həm də emosional rezonansı eyni vaxtda yaşayır. Bu, yaddaşda iz buraxan ikiqat registr qurur: bir tərəfdən, diqqəti yönəldən selektiv paradoks, digər tərəfdən, müəllifin dünyagörüşünü işarələyən estetik mövqe (Leech, 1969; Empson, 1953). Belə qənaətə gəlmək olar ki, güclü oksimoron o zaman alınır ki, zidd anlayışlar süni effekt üçün deyil, mətnin ideya sistemində həqiqətən çatışmayan boşluğu doldurmaq, ifadə olunması çətin olan halı "tutmaq" üçün işlədilir.

Ədəbiyyatşünaslıq ənənəsində oksimoron həm lokal (söz birləşməsi: "qara günəş"), həm də məzmuni-makro səviyyədə (personajın paradoksal vəziyyəti, kompozisiyada "parlaq qaranlıq" tonallığı) baş verə bilər. Araşdırmalar göstərir ki, müasir mətndə ən təsirli oksimoronlar məhz makroparadokslardır: qəhrəmanın həm günahkar, həm də qurban kimi təqdim edilməsi; yaxud "sakit qiyam" tonunda qurulan narrativ. Bu, oxucunu passiv müşahidəçidən aktiv şərhçiyə çevirir və mətnin çoxqatlı oxusunu təmin edir (Wales, 2014; Empson, 1953). Emosional-etik gərginliyi gücləndirməsi və obraz psixologiyasını dərinləşdirməsi səbəbilə oksimoron yerli poeziya ənənəsində xüsusi yer tutur; bu istiqamətdə terminoloji izah və funksional bölgü də mərhələli şəkildə sistemləşir. Bu fakt oksimoronu "bəzək"dən çox, müəllif dünyagörüşünü estetik və tənqidi planlar arasında birləşdirən mexanizm kimi göstərir.

Oksimoronun funksiyaları onun sadəcə bədii ziddiyyət yaratmaq deyil, həm də dərin mənalar sistemini qurmaq imkanını nümayiş etdirir. Bu üslubi fiqur semantik səviyyədə bir-birinə zidd anlayışları eyni məkan daxilində toqquşdurmaqla, mənanın çoxqatlılığını və estetik gərginliyi artırır. Oxucu "living death" kimi ifadələrlə qarşılaşanda həm dilin paradoksal təbiətini, həm də müəllifin gizli niyyətini duyur. Beləliklə, oksimoron dilin imkanlarını genişləndirir, reallığın çoxmənalılığını açır və semantik dərinlik yaradır.

İdeoloji baxımdan oksimoron cəmiyyətdəki və mədəniyyətdəki qarşıdurmaları bədii formada açmaq üçün mühüm vasitədir. Yazıçılar "holy war", "peaceful aggression" kimi paradoksal ifadələrdən istifadə edərək sosial və siyasi ziddiyyətləri nümayiş etdirirlər. Bu cür ifadələr oxucunu dominant ideyaları sorğulamağa, reallığın ikiüzlülüyünü dərk etməyə vadar edir. Məsələn, "The holy war destroyed everything sacred" cümləsindəki oksimoron həm dini, həm də ideoloji təzadın mahiyyətini göstərir. Beləcə, oksimoron təkcə bədii vasitə deyil, həm də ideoloji tənqid forması kimi çıxış edir.

Fəlsəfi funksiyası baxımından oksimoron insan varlığının paradoksal mahiyyətini əks etdirir. "Bitter truth" və ya "cruel kindness" kimi ifadələr insan təcrübəsinin ziddiyyətli, lakin ayrılmaz təbiətini göstərir. Bu cür oksimoronlar varlığın və mənanın nisbi xarakterini açır: həyat və ölüm, azadlıq və məhdudiyyət kimi anlayışların bir-birini inkar etmədən tamamladığını bildirir. Fəlsəfi mətnlərdə "silent scream of the soul" kimi oksimoronlar həm mənəvi ağrını, həm də ifadə olunmayan emosiyanı dilə gətirir.

İroniya və satira səviyyəsində isə oksimoron sosial reallıqları və insan davranışındakı paradoksları açmaq üçün xüsusi bədii gərginlik yaradır. "Serious joke" və ya "honest lie" kimi ifadələr həm gülməli, həm də düşündürücü təsir bağışlayır. Məsələn, "His honest lies made him the most trusted politician" kimi cümlədəki oksimoron həm ironik, həm də satirik məna daşıyır — o, ikiüzlülüyü və riyakarlığı açır. Bu fiqur satirik diskursda sosial tənqidin incə alətinə çevrilir.

Beləliklə, oksimoron semantik dərinlik, ideoloji təhlil, fəlsəfi düşüncə və ironik təsir vasitəsilə mətnin çoxplanlı strukturunu formalaşdırır. O, həm dilin, həm də düşüncənin sərhədlərini genişləndirərək, bədii reallığın paradoksal, lakin ahəngdar bütövlüyünü yaradır.

Ziddiyyət ifadə edən digər üslubi fiqur olan kinayə, sözün səthdə görünən mənası ilə müəllifin (və ya danışanın) nəzərdə tutduğu əsl məna arasında qəsdən yaradılmış açıq ziddiyyətdir. Burada "oyun" sadə sarkazm və ya bəzək xətrinə paradoks deyil; məna bilavasitə kontekst, səs tonu, önbilgi və oxucu ilə "gizli razılaşma" üzərində qurulur. Oxucu səthdə deyilənə inanmır; əksinə, onu "çevirməklə" gizli niyyəti bərpa edir. Bu bərpa prosesi kinayənin həm estetik, həm də idrak (kognitiv) gücünü təşkil edir: bir tərəfdən gərginlik və məsafə yaradır, o biri tərəfdən tənqidi düşünməyi işə salır (Booth, 1975; Hutchien, 1994).

Mənzərəni praktik baxımdan belə ifadə etmək olar:

Səthi məzmun (literal) ilə niyyət (intended meaning) toqquşur; toqquşma nə qədər aydın və qəsdəndirsə, kinayə bir o qədər "oxunaqlı" olur (Booth, 1975).

Kinayəni metafora, mübaliğə və digər fiqurlardan fərqləndirən əsas cəhət, məhz ziddiyyətin kommunikativ strategiya olaraq qurulmasıdır: metafora bənzətmə-paralelliklə yeni məna yaradırsa, kinayə qarşılaşdırma və məsafə ilə "sözün özünə qarşı çıxır". Beləliklə, güclü kinayə iki şərti qoruyur: (1) Kontekst siqnalları (tonu, kompozisiya, "öz-özünə çox ciddi" səslənən absurd iddia və s.) aydındır; (2) Etik/ideoloji mövqe gizlədilmir, sadəcə dolayı göstərilir. Bu səbəbdən kinayə həm üslubi fiqur, həm də sosial-

tənqidi optikadır: söylənəni təsdiqləmir, ifşa edir (Hutchien, 1994; Fairclough, 1989/2014).

Sarkazm hər zaman kinayə deyil: sarkazm daha sərt, açıq aqressiv yük daşıyır; kinayə isə çox vaxt "sakit məsafə" və daxili ironik gülümsəmə ilə işləyir (Hayman, 1998; Uels, 2014). Kinayənin "yumor"la kəsişməsi də bu nöqtədədir: gülüş ifadə ola bilər, amma məqsəd çox vaxt tənqidi məsafə yaratmaqdır (Gibbs & Coulston, 2007).

Kinayə ən yaxşı halda "gizli razılaşma estetikasını" qurur: müəllif işarə edir, oxucu bərpa edir. Bu dialoq alınanda kinayə nə "qeyri-müəyyənlik", nə də "quru sarkazm"dır; o, mənanı ziddiyyət üzərindən möhkəmləndirən intellektual bədii texnikadır. Alınmayanda isə ya açıq istehzaya, ya da anlaşılmaz imaya çevrilir. Buna görə də kinayə üçün kontekstin aydın siqnalları (intertekst, səs, ton, situasiya) və oxucu kompetensiyası həlledicidir.

İroniya bədii və intellektual təfəkkürün ən mürəkkəb ifadə formalarından biridir. Onun əsas məqsədi oxucu və müəllif arasında gizli bir "mənaca məsafə" yaratmaqdır. Linda Hatçienin qeyd etdiyi kimi, ironiya "nə deyildiyini deyil, nə deyilmədiyini göstərən" üslubi mexanizmdir (Hutchien, 1994). Ədəbiyyatda ironiyanın bir çox forması mövcuddur və hər biri reallığı fərqli bucaqdan təqdim edir.

1. Verbal ironiya (verbal irony)**:** Verbal ironiya ən çox rast gəlinən formadır. Burada müəllif və ya qəhrəman dediyi ilə düşündüyü arasında ziddiyyət yaradır. Başqa sözlə, ifadənin səthi mənası ilə gizli mənası bir-birinə qarşı çıxır. Məsələn, Ceyn Austinin "Pride and Prejudice" (1813/2008) romanının başlanğıc cümləsində "It is a truth universally acknowledged, that a single man in possession of a good fortune, must be in want of a wife" ifadəsi açıq şəkildə ironikdir, çünki müəllif bu "universal həqiqət"i əslində tənqid edir. Eyni zamanda Conatan Sviftin "A Modest Proposal" (1729/2009) əsərindəki "eating Irish babies to solve poverty" ideyası da verbal ironiyanın sarkastik formasıdır - müəllif burada reallığın amansızlığını məhz absurda çevirməklə göstərir.

2. Situasiya ironiyası (situational irony)**:** Situasiya ironiyası hadisələrin gözlənilən nəticə ilə faktiki nəticə arasında ziddiyyət yaratdığı hallarda meydana çıxır. Bu, çox zaman həyatın öz paradokslarını açır. O. Henrinin "The Gift of the Magi" (1906/2008) hekayəsində ər öz saatını satıb arvadına daraq, arvad isə saçını satıb ərinə saat üçün zəncir alır. Hər iki qəhrəmanın fədakarlığı ironik şəkildə hədiyyələrin mənasızlaşmasına gətirir - bu, həm sentimental, həm də tragik ironiyadır.

3. Drammatik ironiya (dramatic irony): Dramatik ironiyada oxucu və ya tamaşaçı obrazlardan daha çox şey bilir. Bu bilik fərqi gərginlik və emosional dərinlik yaradır. Şekspirin "Romeo and Juliet" (1597/2012) əsərində Cülyetta ölmüş kimi görünəndə Romeo onun doğrudan da öldüyünə inanır və özünü öldürür. Tamaşaçı isə hadisənin həqiqətini bildiyindən faciə daha təsirli olur. Bu növ ironiya emosional təsiri maksimum dərəcədə gücləndirir.

4. Struktur ironiyası (structural irony)**:** Struktur ironiyası bütöv bir mətndə müəllifin və ya nəqlçinin dünyagörüşü arasındakı fərqdən yaranır. Vayn K. Bus bunu "authorial irony" adlandırır (Booth, 1974). Mark Tvenin "The Adventures of Huckleberry Finn" (1884/2008) əsərindəki uşaq nəqlçi Heklberri reallığı sadəlövhcəsinə təsvir edir, amma oxucu onun dediklərindəki sosial tənqidi qatları görür. Bu, ironiyanın struktur səviyyədə qurulmuş formasıdır.

5. Romantik ironiya (romantic irony): Romantik ironiyada müəllif öz əsərinin süni təbiətini bilərəkdən göstərir. Fridrix Şleqel və digər romantiklər bu ironiya formasını "öz-özünü məhv edən incəsənət" kimi qiymətləndirirdilər. Məsələn, Laurens Sternin "Tristram Shandy" (1759-1767/2009) romanında müəllif hadisələrin axarını tez-tez pozur, öz yazı prosesini parodiya edir - bu, həm özünüşüurlu, həm də metatextual ironiya nümunəsidir.

6. Sokratik ironiya (socratic irony)**:** Bu ironiya növü dialektik düşünməyə əsaslanır. Sokratın "mən heç nə bilmirəm" prinsipi kimi, müəllif və ya danışan tərəf özünü bilməz kimi göstərir ki, qarşı tərəf öz ziddiyyətlərini üzə çıxarsın. Bu, həm fəlsəfi, həm də pedaqoji funksiya daşıyır. Platon dialoqlarında bu üsul bilik paradokslarını açmaq üçün istifadə olunur.

7. Kosmik ironiya (cosmic irony)**:** Kosmik ironiya insanın taleyi üzərindəki nəzarətsiz qüvvələrin: "Tale", "Tanrı" və ya "Təbiət"in ironik müdaxiləsini ifadə edir. Tomas Hardinin romanlarında qəhrəmanların taleyinin qəfil dəyişməsi bu növə nümunədir. Məsələn, "Tess of the d'Urbervilles" (1891-2008) əsərində Tessin faciəsi insan iradəsinin kosmik ədalətsizlik qarşısında acizliyini göstərir.

Beləliklə, ironiya müxtəlif formalarda reallığı həm güldürərək, həm düşündürərək açır. Verbal ironiyadan kosmik ironiyaya qədər bütün bu növlər insan təcrübəsinin çoxqatlı, bəzən isə paradoksal təbiətini bədii dildə təcəssüm etdirir.

Bu üslubi fiqurların həqiqi mənası yalnız kontekst daxilində tam başa düşülür. Paul Simpson bunu "contextual stylistic" adlandırır. Onun araşdırmalarına görə bədii və ya stlistik ifadənin mənası sabit, dəyişməz və hər zaman eyni şəkildə başa düşülən olmur. Məsələn, sadə bir cümlə belə ton, ironiya, ifadə vasitələri və kontekst dəyişdikcə fərqli mənalar daşıya bilər: "what a beautiful girl!" Səmimi bir konteksdə bu ifadə tərif kimi, kinayəli bir konteksdə isə tənqid kimi başa düşülür. Simpsonun fikrincə bir ifadənin necə başa düşüləcəyi yalnız müəllifin yazdığına deyil, həmçinin

oxucunun mədəni təcrübəsinə, intellektual səviyyəsinə və zehni səviyyəsinə bağlıdır (Simpson, 2004).

Bəzi hallarda antiteza, oksimoron və kinayənin birlikdə işlənməsi mətnə çoxqatlı semantik gərginlik qazandırır: antiteza ideya səviyyəsində açıq qarşıdurma yaradır, oksimoron ifadə qatında paradoksal mənanı sıxlaşdırır, kinayə isə səthi məna ilə müəllif niyyəti arasında məsafə yaradaraq şərh ehtiyacını artırır. Bu birləşmə həm forma, həm də məzmun planında dərinlik yaradır və oxucunu kontekstə əsaslanan, tənqidi oxuya sövq edir.

Ziddiyyət ifadə edən antiteza, oksimoron və kinayə bədii mətnlərdə sadəcə estetik ifadə vasitələri kimi deyil, həmçinin üslubi gərginliyin və məna genişliyinin formalaşdırılmasında əhəmiyyətli rolu olan komponentlər kimi çıxış edirlər. Bu fiqurlar vasitəsilə yazıçı oxuculara yalnız birbaşa fikir təqdim etmir, onu daha dərin düşünməyə sövq edən çoxqatlı semantik sistemlə qarşı-qarşıya qoyur. Beləliklə, antitezanın vurğulayıcı kontrastı, oksimoronun paradoksal məzmunu və kinayənin zahiri ilə ziddiyyət təşkil edən alt mənası birlikdə mətnin ideoloji və emosional dərinliyini artırır.

Aparılmış təhlillərdən belə nəticəyə gəlmək olar ki, bu üslubi fiqurların funksiyası təkcə obrazlı ifadə ilə kifayətlənmir, həm də müəllifin ictimai mövqeyinin, estetik niyyətinin və ideoloji fikrinin daşıyıcısı kimi rol oynuyur. Bu fiqurların stilistik sintezi isə mətnə çoxqatlılıq, dərinlilik və təfsiz açıqlığı qazandırır.

Nəticə

Nəticə olaraq, bu fiqurlar bədii mətndə məna gərginliyinin yaradılması, estetik ziddiyyətin qurulması və müəllif-oxucu münasibətinin intellektual səviyyəyə daşınması baxımından xüsusi əhəmiyyət daşıyır. Kontekstual yanaşma isə bu fiqurların poetik məqsədini və real funksional yükünü daha əhatəli və aydın şəkildə üzə çıxarır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Abrams, M.H. (1999). *A glossary of literary terms* (7th ed.). Harcourt Brace College Publishers.
2. Austin, J. (1813/2008). *Pride and prejudice.* Oxford University Press.
3. Booth. W.C. (1974). *A rhetoric of irony*. University of Chicago Press.
4. Coulson, S. (2001). *Semantic leaps: Frame-shifting and conceptual blending in meaning construction.* Cambridge University Press.
5. Empson, W. (1953).*Seven types of ambiguity* (3rd ed.). Chatto & Windus.
6. Gibbs, R.W. (1994). *The poetics of mind: Figurative thought, language and understanding.* Cambridge University press.
7. Hardy, T. (1891/2008). *Tess of the d'Urbervilles*. Oxford University Press.
8. Henry, O. (1906/2008). *The gift of the magi.* The four million (1, 16-25). Oxford University Press.
9. Hutchien, L. (1994). *Irony's Edge: The Theory and Politics of Irony.* Routledge.
10. Lanham, R. A. (1991). *A handlist of rhetorical terms* (2nd ed.). University of California Press.
11. Leech, G.N. (1969). *A linguistic guide to English poetry.* Longman.
12. Orwell, G. (1949). *Nineteen eighty-four*. Secker & Warburg.
13. Quinn, A. (1982). *Figures of speech: 60 ways to turn a phrase.* Hermagoras Press.
14. Simpson, P. (2004). *Stylistic: A resource book for students.* Routledge.
15. Sterne, L. (1759–1767/2009). *The life and opinions of Tristram Shandy, gentleman.* Oxford University Press.
16. Swift, J. (1729/2009). *A modest proposal and other writings.* Penguin Classics.
17. Shakespeare, W. (1597/2012). *Romeo and Juliet.* Oxford University Press.
18. Twein, M. (1884/2008). *Adventures of Huckleberry Finn.* Oxford University Press.
19. Verdonk, P. (2002). *Stylistics.* Oxford University Press.
20. Wales, C. (2014). *A dictionary of stylistics* (3rd ed.) Routledge.

DOİ: 10.32010/YFDY3369

MÜASİR İNGİLİS DİLİNDƏ ZAMAN VƏ MƏKAN BİLDİRƏN SÖZLƏRİN SEMANTİKASI

Vüsalə Novruz SƏFƏRLİ
Azərbaycan Dillər Universiteti
Orcid: https://orcid.org/0009-0001-8566-1611
E-mail: ladyvus21@gmail.com

Xülasə: Obyektiv gerçəkliyin əsas xüsusiyyətlərindən olan zaman məkanla bərabər insanların həyatında mühüm rol oynayır.İnsan öz həyatının bütün sahələrində zaman faktoru ilə üzləşir.Bu nöqteyi -nəzərdən zaman kateqoriyası, onun mahiyyəti, zamanın ifadə üsulları ilə bağlı məsələlər elm sahələrini təmsil edən tədqiqatçıların və dilçilərin diqqətini cəlb etmişdir.Zaman və insan həmişə fəlsəfi problemlər sahəsinə aid olan məsələdir.Zamanla bağlı olan və zaman proseslərinin uzunluğunu ölçmək zərurəti zaman ölçülməsi vasitələrinin meydana gəlməsinə səbəb oldu.
Açar sözlər: temporal leksikada zaman anlayışı, zaman mənalı leksikanın ideoqrafik təsviri, zaman mənalı sözlərin differensiyası, zaman zərflərinin funksionallığı, temporal leksik vahidlərin nitqdə funkisonallığı.

SEMANTICS OF TIME AND PLACE WORDS IN MODERN ENGLISH

Vusala Novruz SAFARLİ
Azerbaijan University of Languages
Orcid: https://orcid.org/0009-0001-8566-1611
E-mail: ladyvus21@gmail.com

Abstract: Time, one of the main characteristics of objective reality plays an important role in people's life along with space.Man faces in time factor in all areas of his life.From this point of view, issues related to the category of time, its essence and methods of expressing time have attached the attention of researchers and linguistics representing various scientific fields.Time and space have always been issues that belong to the field of philosophical problem s.The need to measure the length of time related and temporal prosesses led to the emergence of time measurement means.
Keywords: concept of time in the temporal lexicon, ideographic representation of temporal lexicon, differentiation of time -meaning words, functionability of time adverbs, functionability of temporal lexical units in speech.

СЕМАНТИКА СЛОВ ВРЕМЕНИ И ПРОСТРАНСТВА В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Вусала Новруз САФАРЛИ
Азербайджанский университет языков
Orcid: https://orcid.org/0009-0001-8566-1611
Электронная почта: ladyvus21@gmail.com

Резюме: Время,одно из основных характеристик объективной реальности, играет важную роль в жизни людей, наряду с пространством.Человек сталкиваются с факторам времени во всех сферах своей жизни.С этой точки зрения вопросы связанные с категорией времени,ее сущностью и способами выражения времени, привлекают внимание исследователей и лингвистов, представляющих различные наручные направления.Время и пространство всегда были вопросами, относящимся к области философических проблем.Необходимость измерения длительности временных процессов привела к появлению способы измерения времени.
Ключевые слова: понятие времени во временном лексиконе, идеографическое представление временного лексиконе, дифференциация слов, имеющих значение времени; функциальность наречий времени, функциальность временных лексических единиц в речи.

Giriş

Obyektiv gerçəklikdə zaman və insan arasında münasibətlərin nəticələrini ifadə edən dil vahidləri zaman və ya temporal məna, anlam və anlayış sahəsini təmsil edir. Gerçəkliyin zaman strukturunun dildə insanın tərəfindən mənim sənilməsində iştirak edən morfoloji, leksik və sintaktik vahid lərin mütəşəkkil sistemi vardır. Bu dil vahidləri tərkibinə görə müxtəlif olub həm məzmun, həm də funksional planda təzahür edir.

Məzmun planında müxtəlif dillərdə dilin ayrı-ayrı səviyyələri üçün temporal mənası aşkar olan vahidlər fərqləndirilə bilər. Morfoloji səviyyədə belə vahidləri xüsusi zaman morfemləri, leksik səviyyədə zaman anlayışlı sözlər və ya temporal leksika, sintaktik səviyyədə sintaktik konstruksiyalar təmsil edir. Funksional planda müxtəlif dillərdə zaman məzmununun ifadə üsulları baxımından ixtisaslaşmış dil vahidləri vardır.

Temporal leksikaya zaman anlayışı olan sözlər daxildir. Onları temporal sözlər də adlandırırlar. Bir çox müəlliflərin fikrinə görə, zaman mənalı sözlərdə gerşəkliyin zaman münasibətlərinin bir-birini əvəzetmə ardıcıllığı ilə bağlı olan təbii proseslər üzərindəki müşahidələr öz təsbitini tapır. Zaman proseslərinin uzunluğunu ölçmək zərurəti zamanın ölçülməsi vasitələrinin meydana gəlməsinə gətirib çıxardı ki, bu da zamanın ölçü vahidlərini bildirən müvafiq qrup sözlərin üzə çıxması ilə nəticələndi.

Rus dilində zaman mənalı leksikanın öyrənilməsində V.V. Morkovkinin apardığı tədqiqat xüsusi əhəmiyyət daşıyır. O, sözləri ənənəvi əlifba prinsipi ilə deyil, məna yaxınlığına əsaslanaraq ideoqrafik lüğətlərdə qruplaşdırmışdır. Bu yanaşma temporal leksikanın semantik imkanlarının daha aydın izahına şərait yaratmışdır. (Morkovkin, 1977)

Rus dilində temporal isimlərin, sifətlərin və zərflərin ifadə etdiyi zaman mənalarının müfəssəl və dərin təhlili T.A.Lisitsina tərəfindən verilmişdir. Tədqiqatçı qeyd edilən temporal leksikanın semantik təsnifatı üçün nitq momenti ilə əlaqənin (nisbətin) olub-olmadığı əlamətini götürür. Bu əlamətə əsasən bütün temporal leksika iki böyük leksik semantik qrupu bölünür: 1) nisbi zaman mənalı leksika; 2) qeyri-nisbi zaman mənalı leksika. Birinci qrup üçün əsas əla mət nitq momenti ilə əlaqənin olması, ikinci qrup üçün əsas əlamət nitq momenti ilə əlaqənin olmamasıdır. Hər bir qrup mikroqruplara ayrılır və onların ümumi və fərqli cəhətləri aş karlanır. Dəqiq müəyyənləşdirilmiş semantik meyarlara əsaslanan və bütün temporal leksikanı əhatə edərək təqdim edən bu təsnifatı rus dilinin temporal leksikasının təsnif edilməsində uğurlu addım saymaq olar. (Lisitsyna, 1976)

A.X. Aşkarovanın yanaşması temporal leksikanın tədqiqində diqqətəlayiqdir. Alim ingilis, rus və alman dillərinin materialları əsasında leksik-semantik zaman makrosahəsində müşahidə olunan prosesləri araşdıraraq, zamanın obyektiv müxtəlifliyini izah etmək üçün mücərrədləşmə prinsipindən istifadə etmişdir. Onun nəticələrinə görə, zaman makrosahəsi beş əsas heterogen leksik-semantik sahədən ibarətdir: LSS I – təbiət hadisələrinin hissi qavranılan təbii sikllər (təbiət zamanı); LSS II – insan həyatının mərhələlərinə aid sikllər (insan zamanı); LSS III – zamanın konkret ölçülməsi ilə bağlı vahidlər (sosial zaman); LSS IV – ümumiləşdirilmiş zaman; LSS V – nisbi zaman. (Askarova, 1992)

Temporal leksikanın zaman mənalarının ətraflı şəkildə diferensiasiyasını araşdıran mühüm işlərdən biri M. Rudometkinanın tədqiqatıdır. Müəllif bu araşdırmanı ingilis dili materialları üzərində aparmış və zaman anlayışlı sözləri üç əsas semantik qrupa bölmüşdür: lokalizatorlar, korrelyatorlar və modifikatorlar. Hər bir əsas qrup öz daxilində yarımqruplara ayrılır. Belə ki, lokalizatorlar zaman ölçüləri və triada yarımqruplarını əhatə edir; korrelyatorlar öncəlik, eynizamlılıq, sonralıq və aralıq nisbətlərinə görə fərqləndirilir; modifikatorlar isə uzunluq, təkrarlanma və həddbildirən vahidlərlə xarakterizə olunur. (Rudometkina, 1972)

Müasir ingilis dilində müxtəlif üslublu mətnlərdə zaman zərflərinin funksionallığına həsr olunmuş tədqiqat istər bütövlükdə bir nitq hissəsi kimi zərf haqqında bilgilərin zənginləşdirilməsi, istərsə də temporal leksik vahidlərin nitqdə funksionallığı baxımından maraq doğurur. Burada zərflər, M.İ.Rudometkinanın tədqiqatında olduğu kimi, lokalizatorlar, korrelyatorlar və modifikatorlar qrupuna bölünərək təsnif edilir. (Rudometkina, 1972)

T. Deşeriyeva öz məqaləsində zaman kateqoriyasını fiziki, fəlsəfi və dilçilik baxımından araşdıraraq müxtəlif terminlərdən istifadə etmişdir: "zaman kateqoriyasının linqvistik aspekti", "linqvistik zaman" və "dil zamanı formaları". Müəllif "linqvistik aspekt" və "linqvistik zaman" anlayışlarını sinonim kimi işlədərək qeyd edir ki, bu terminlər vasitəsilə zaman kateqoriyasının fiziki və fəlsəfi aspektlərinin dil vasitələrində əks olunma yolları nəzərdə tutulur. "Dil zamanı formaları" dedikdə isə zaman münasibətlərinin morfoloji, sintaktik, leksik və kontekstual üsullarla ifadəsi nəzərdə tutulur. (Desherieva, 1975)

Qərbi Avropa dilləri üzərində aparılan araşdırmalarda "linqvistik zaman" anlayışı tez-tez "qrammatik zaman" anlayışı ilə eyniləşdirilir və bu, əsasən felin zaman-tərz sistemindəki ifadələrə aid edilir.

Qrammatik zamanın izahında ənənəvi yanaşma üstünlük təşkil edir: burada obyektiv real zamanın dil vahidləri ilə əks olunması vurğulanır və real zaman qrammatik zamanla müqayisə edilir. Bu fərq ondan irəli gəlir ki, "qrammatika" anlayışı tarixi olaraq dilin strukturunu — sözlərin dəyişmə və birləşmə qanunauyğunluqlarını göstərmişdir. Bu mənada qrammatika obyektiv xarakter daşıyır və dilin daxili mexanizmini əks etdirir.

Felin zaman formalarını dəqiqləşdirən və ya müşayiət edən, bu formaların qrammatik mənaları ilə oxşar mənalar ifadə edən leksik zaman göstəriciləri, yaxud zamanın leksik göstəriciləri anlayışı XX əsrin 60-cı illərinin sonlarından etibarən dilçilik

ədəbiyyatında istifadə edilməyə başlanır. Həmin anlayışın meydana çıxması A.V. Bondarkonun funksional-semantik kateqoriyalar və E.V.Qulıqa və E.İ. Şendelsin leksik-qrammatik, yaxud qrammatik-leksik sahələr haqqında nəzəriyyələrinin inkişafı ilə bağlı olmuşdur. (Bondarko, 1984, s. 34) Məlum olduğu kimi, belə sahələrin strukturu nüvə və ya mərkəzdən, üstəgəl onunla qarşılıqlı əlaqədə olan periferiyadan ibarət olur. Sahənin strukturunda nüvə və ya mərkəz funksiyasını qrammatik kateqoriyalar, periferiya funksiyasını leksik, leksik-qrammatik və digər dil vasitələri yerinə yetirir.

Çox vaxt leksik və leksik-qrammatik vasitələri bir birindən fərqləndirmədən ümumi şəkildə leksik vasitələr adı altında təqdim etmişlər. Leksik vasitələrə adətən zaman zərfləri, temporal isimlərin sözönü + hal şəkilçiləri ilə əmələ gətirdikləri birləşmələr, temporal isimlərin sifət və əvəzliklərlə birləşmələri aid edirlər.

Müxtəlif dillərin materialı üzrə zamanın leksik ifadə vasitələrinin semantikasının və funksionallığının öyrənilmə sinə həsr edilmiş tədqiqat işlərində —zamanın leksik göstəriciləri («лексические показатели времени»), —zamanın leksik dəqiqləşdiriciləri («лексические уточнители време ни»), —zamanın leksik müşayiətçiləri(«лексические сопроводители времени»), "zamanın leksik indikatorları («лексические индикаторы времени»), zamanın leksik lokalizatorları («лексические локализаторы времени»), —zamanın leksik təyinediciləri (лексические определители времени) və s. terminlərə rast gəlinir. Göründüyü kimi, bu terminlərdə zamanın leksik ifadə vasitələrinin əsas təyinatı, yəni felin zaman formaları ilə ifadə olunan zaman mənalarının göstəricisi, müşayiətçisi, dəqiqləşdiricisi, indikatoru, lokalizatoru olduğu bildirilir, vurğulanır.

Hər bir dil üçün zaman mənasını ifadə edən bütün leksik vahidlərin cəmi temporal leksika adlanır. Bu leksika gerçəkliyin konseptual modelindəki abstrakt zaman təsəvvürünü əks etdirir və həmin konseptin dil vasitələri ilə təqdim olunmasına xidmət edir.

Açar sözlər: Azərbaycan nəsri, tarixi roman, qadın obrazı, müqayisəli təhlil

HISTORICAL TRUTH AND ARTISTIC FICTION IN MEHRIBAN VEZIR'S AGHABAYIM AGHA JAVANSHIR

Ilaha Rashad SAFARZADA
Baku State University
Orchid id: https://orcid.org/0009-0002-4761-5208
E-mail: ilahe.safarzadeh@gmail.com

Abstract: This article examines the representation of female characters in the Azerbaijani historical novel genre, using on the issues of historical truth and artistic convention. Particular attention is given to Mehriban Vezir's novel *Aghabeyim Agha Javanshir*, in which the synthesis of historical facts and artistic imagination is explored. The study demonstrates that Aghabeyim Agha's political and social positions within the Karabakh Khanate and at Fathali Shah's court are presented as historical realities, while her personal fate, experiences of love, and psychological states are rendered through artistic convention.

A comparative analysis reveals that female characters in Azerbaijani historical novels are depicted through diverse approaches: in *Govhar Agha Javanshir*, emphasis is placed on socio-cultural activity; in Mahbuba Hajiyeva's *Tay Sırğa*, on individual-psychological experiences; while in *Aghabeyim Agha Javanshir*, the unity of political-diplomatic aspects with personal destiny comes to the fore. These approaches enable female figures in the historical novel genre to embody various dimensions of national history and social life.

In conclusion, Mehriban Vezir's work enriches the poetics of the historical novel, illustrates the dynamic interplay of historical reality and artistic convention, and stands as a significant example of the historical and artistic representation of women in Azerbaijani literature.

Keywords: Azerbaijani prose, historical novel, female character, comparative analysis

ИСТОРИЧЕСКАЯ ДОСТОВЕРНОСТЬ И ХУДОЖЕСТВЕННАЯ УСЛОВНОСТЬ В РОМАНЕ МЕХРИБАН ВЕЗИР „АГАБЭЙИМ АГА ДЖАВАНШИР”

Илаха Рашад САФАРЗАДА
Бакинский государственный университет
Orchid id: https://orcid.org/0009-0002-4761-5208
Электронная почта: ilahe.safarzadeh@gmail.com

Резюме: В данной статье анализируется изображение женских образов в жанре исторического романа Азербайджана, а также вопросы исторической достоверности и художественной условности. Основное внимание уделяется роману Мехрибан Везир «Агабэйим ага Джаваншир», в котором исследуется синтез исторических фактов и художественного воображения. В статье показано, что политические и социальные позиции Агабэйим ага в Карабахском ханстве и при дворе Фатали-шаха представлены как историческая достоверность, тогда как его личная судьба, переживания, любовь и психологические состояния воспроизведены средствами художественной условности.

Сравнительный анализ произведения показывает, что женские образы в азербайджанских исторических романах представлены различными подходами: в романе «Говхар ага Джаваншир» – через социально-культурную деятельность, в «Тай Сырга» (Мэхбубэ Хаджиева) – через индивидуально-психологический опыт, а в «Агабэйим ага Джаваншир» – через сочетание политико-дипломатических моментов с личной судьбой. Эти подходы позволяют женским образам в жанре исторического романа отражать различные аспекты национальной истории и общественной жизни.

В заключение следует отметить, что произведение Мехрибан Везир обогащает поэтику жанра исторического романа, демонстрирует взаимовлияние исторической достоверности и художественной условности и является важным примером исторического и художественного представления женских образов в азербайджанской литературе.

Ключевые слова: азербайджанская проза, исторический роман, женский образ, сравнительный анализ

Giriş

Tarixi roman janrı bədii ədəbiyyatın mühüm istiqamətlərindən biri olaraq milli yaddaşın formalaşması, tarixi proseslərin bədii ifadəsi baxımından əhəmiyyətli yer tutur. Bu janr oxucuya keçmişi daha dərindən anlamaq, tarixi hadisələrin sosial, mədəni və mənəvi qatlarını dərk etmək imkanı yaradarkən müəllifdən tarixi faktlara sadiq qalmaqla yanaşı, bədii təxəyyül vasitəsilə həmin faktlara yeni məna qatları əlavə etməyi tələb edir. Bu zaman tarixi həqiqət və bədii şərtilik qarşılıqlı vəhdət yaradır: faktlar bədii yozumun, bədii təxəyyül isə tarixi gerçəkliyin işığında öz funksiyasını tapır. Azərbaycan tarixi romanlarında ölkə tarixində silinməz izlər qoymuş hökmdarların, sərkərdələrin, dövlət xadimlərinin və qüdrətli söz ustadlarının həyat yolu, mübarizəsi və yaşam hekayələri bədii müstəvidə əks etdirilir. Bu tip romanların qələmə alınmasında artıq müəyyən bir ənənənin formalaşdığını da qeyd etmək olar. Bəzi əsərlərdə tarixi şəxsiyyətlərin həyatı bədii-estetik qayğılarla zənginləşdirilərək, sanki “ədəbiyyat-tarixi xronologiya” formasında təqdim olunur.

Azərbaycan ədəbiyyatında tarixi roman ənənəsinin əsasını Məmməd Səid Ordubadi qoymuşdur. Onun XX əsrin əvvəllərində qələmə aldığı “Qılınc və Qələm” əsəri milli ədəbiyyatımızda ilk tarixi roman nümunəsi kimi qəbul edilir. Ordubadi bu əsərdə Nizami Gəncəvi və müasirlərinin həyatı və dövrünü təsvir etməklə yanaşı, tarixi gerçəklikləri milli-mədəni kimliyin dirçəlişi ideyaları ilə uzlaşdırmışdır. Bununla da tarixi roman janrı Azərbaycan ədəbiyyatında bədii və ideoloji-estetik hadisəyə çevrilmişdir. “Azərbaycan ədəbiyyatşünaslarının qarşıssında duran aktual vəzifələrdən biri yeni yaranan tarixi romanları təhlil etmək, xüsusiyyətlərini, məziyyət və nöqsanlarını göstərməkdən ibarət idi. Həmin illərdən başlayaraq ədəbi tənqid tarixi janrın bir sıra mühüm cəhətlərini bilavasitə Azərbaycan ədəbiyyatının təcrübəsinə istinad edərək ümumiləşdirmişdir. Bu gün ədəbiyyatşünaslığımızda tarixi mövzuların işlənməsinə münasibətdə yaranmış fikir aydınlığı çoxillik kollektiv əməyin məhsulu kimi meydana çıxmışdır”. (Axundlu, 2005)

Sonrakı dövrlərdə bu ənənə yazıçılar tərəfindən daha da inkişaf etdirilmişdir. XX əsrin müxtəlif mərhələlərində yazıçıların əsərlərində tarixi mövzular fərqli üslublarla işlənmiş, Azərbaycanın tarixi keçmişinə dair həm qəhrəmanlıq, həm də faciəvi məqamlar bədii şəkildə təqdim olunmuşdur. Bu əsərlərdə müəlliflər həmin hadisələrə dövrün ideoloji, ictimai və fəlsəfi baxışlarını əlavə etmişlər. Nəticədə tarixi roman janrı Azərbaycan ədəbiyyatında milli kimlik, vətənpərvərlik, azadlıq ideyalarının təbliği üçün mühüm vasitəyə çevrilmişdir. “Azərbaycan tarixi

romanı son onillikdə özünəməxsus inkişaf yolu keçmiş, yeni mövzu, problematika və sənətkarlıq məziyyətləri ilə zənginləşmişdir. Xüsusən nəsrimizin son vaxtlaradək diqqət yetirmədiyi bir sıra mövzular son Müstəqillik dövrü Azərbaycan romanı dövrün ədəbi prosesində önəmli yer tutmuşdur. Sovet dövründə ədəbiyyatımızda toxunulması bir növ yasaq olan ayrı-ayrı mərhələlərin mühüm hadisələri və görkəmli şəxsiyyətləri indi artıq diqqət mərkəzinə çəkilmişdir" (Axundlu, 1998)

Eyni zamanda, tarixi romanlarda bədii şərtilik elementləri janrın poetikasını zənginləşdirmişdir. Müəlliflər çox vaxt tarixi hadisələrin təfərrüatlarını bədii təxəyyüllə tamamlamış, tarixi şəxsiyyətlərin daxili dünyasını, psixoloji motivlərini, mənəvi seçimlərini bədii müstəvidə canlandırmışlar. Bu baxımdan, tarixi roman janrı Azərbaycan nəsrində gerçəkliyin və bədii fantaziyanın sintezində yaranan bir ədəbi hadisədir. Azərbaycan ədəbiyyatında tarixi roman janrı keçmişin bədii salnaməsi və ədəbi-estetik inkişafın mühüm istiqaməti, tarixi həqiqətlə bədii şərtiliyin dialektik vəhdətinin bariz nümunəsidir. Bu vəhdət janrın mahiyyətini müəyyənləşdirir və onun müasir ədəbiyyatdakı davamlılığını təmin edir.

Əsas hissə

Çağdaş ədəbiyyatımızda tarixi romanları ilə tanınan müəlliflərdən biri də Mehriban Vəzirdir. Onun "Ağabəyim ağa Cavanşir" romanı Azərbaycan tarixi roman ənənəsinin mühüm nümunələrindən biri kimi diqqəti cəlb edir. Əsərdə Qarabağ xanlığının ictimai-siyasi həyatında mühüm rol oynamış Ağabəyim ağanın taleyi təsvir edilir və bu taleyin fonunda XVIII əsrin sonu – XIX əsrin əvvəllərində baş verən mürəkkəb hadisələr bədii şəkildə təqdim olunur. Müəllifin qarşıya qoyduğu əsas məqsəd tarixi faktların ədəbiyyatın poetik imkanları ilə canlandırılmasıdır ki, bu da əsəri tarixi həqiqətlə bədii şərtiliyin vəhdətində formalaşdırır. "Tarixi romanlarda əsas konflikt tarixi şəxsiyyətlə həmin dövrün hakim qüvvələri və hakim ideologiyası arasında baş verir. Bu ziddiyyətlərin səbəbləri tarixçilər tərəfindən elmi şəkildə göstərilir. Lakin sənətkar qələmində bu ziddiyyətlər canlı obrazlarla, maraqlı səhnələrlə təsvir edilməlidir". (Yusifli, 1986)

Ağabəyim ağa, Qarabağ xanı İbrahim xanın dördüncü həyat yoldaşı Tutubəyim ağadan dünyaya gəlmiş, doğuşdan böyük bir sərvətə sahib olmuş və dövrün ənənələrinə uyğun olaraq "ağa" titulunu almışdır. Qarabağ xanlığında xan qızlarının izdivacları əsasən siyasi ittifaqlar əsasında qurulduğundan, bu ailələrdə qız övladlarının təhsili və mədəni hazırlığına xüsusi əhəmiyyət verilirdi. Bu qadınlar yalnız gəlin deyil, həm də daxil olduqları xanədanlarda mədəni və siyasi təmsilçi funksiyasını daşıyırdılar. Şair ruhlu Ağabəyim ağanın qələmindən çıxmış misralar bu günə qədər gəlib çatan dəyərli ədəbi irs nümunələri sırasındadır. Əsərin demək olar ki, hər bir fəsilinin sonunda müəllif mötərizə daxilində tarixi faktlara yer verməkdədir. Müəllif romanda tarixi həqiqətlərin işlənməsində mövcud tarixi mənbələrə istinad etmişdir. Ağabəyim ağanın Qarabağ xanı İbrahim xanın qızı olması, dövrün xanədan övladlarının təhsil alması, xan qızlarının siyasi məqsədlərlə evləndirilməsi, Fətəli şahın sarayında onun xüsusi mövqe qazanması və xeyriyyəçilik fəaliyyəti tarixi gerçəklik kimi əsərə daxil edilmişdir. Bu faktlar Azərbaycan tarixində qadınların ictimai-siyasi mövqeyini göstərən mühüm məqamlar olmaqla yanaşı, müəllifin əsərdə yaratdığı obrazın inandırıcılığını təmin edir. Ədəbi tənqid baxımından əsərin dəyəri də məhz burada – tarixi faktların bədii təxəyyülün işığında yeni bir məna kəsb etməsində özünü göstərir.

Bədii şərtilik isə romanda daha çox obrazların daxili aləminin, psixoloji yaşantılarının və münasibətlərinin təqdimində özünü büruzə verir. Ağabəyim ağanın şairlik istedadı, Məhəmməd bəyə duyduğu məhəbbət, Vaqiflə bağlı hadisələr, onun daxili iztirabları, Məhəmmədin ölümündən sonra ömürboyu sevdiyinə sadiq qalması tarixi faktlarla təsdiqlənməsə də, əsərin bədii dəyərini və emosional gücünü artırır. Bu baxımdan, müəllif tarixi həqiqətləri bədii təxəyyüllə tamamlayaraq, qəhrəmanın mənəvi dünyasını daha aydın və təsirli şəkildə oxucuya çatdırmışdır: "Xanqızı, Qarabağ gözəli, Ağabəyim ağa qüssəli bir soyuqqanlıqla tüllər arxasından olub-keçəni izləyir, iztirablı baxışlarla taleyin kəhkəşanlı gərdişini seyr edirdi" (Vəzir, 2019)

Əsərdə Molla Pənah Vaqifin obrazının yaradılması da tarixi həqiqətlə bədii şərtiliyin sintezindən xəbər verir. Vaqifin dövlət xadimi və şair kimi fəaliyyəti tarixi fakt kimi romanda əks olunmuş, həmçinin onun Ağabəyim ağaya olan hissləri, Məhəmməd bəylə münasibətlərində oynadığı rol bədii təxəyyülün məhsulu kimi təqdim edilmişdir. Müəllif tarixi şəxsiyyətin fəaliyyətini, onun insan, fərd, duyğusal varlıq kimi təsvirini ön plana çıxarmışdır ki, bu da əsərin bədii-estetik təsir gücünü artırır.

Romanın digər diqqətçəkən cəhəti isə tarixi gerçəkliklərin qadın taleyi fonunda canlandırılmasıdır. Ağabəyim ağanın Qarabağ xanlığının siyasi maraqları naminə saraya göndərilməsi, digər tərəfdən isə şəxsi həyatında baş verən faciələr əsərdə fərdi taleyin ümumxalq tarixi ilə çulğalaşdığı məqamdır. Bu,

müəllifin qadın obrazı vasitəsilə tarixə yeni baxış gətirməsi ilə izah olunur. Ağabəyim ağa əsərdə dövrün qadın mühitini, xanədan siyasətini və ictimai münasibətlərin mürəkkəbliyini təcəssüm etdirən xarakter səviyyəsinə yüksəlir.

Mehriban Vəzirin "Ağabəyim ağa Cavanşir" romanı tarixi faktlarla bədii təxəyyülün üzvi şəkildə birləşdiyi bir əsər kimi qiymətləndirilə bilər. Müəllif tarixi həqiqətləri qoruyaraq, bədii şərtiliyin imkanlarından yararlanmış və beləliklə, həm tarixi şəxsiyyətin obrazını canlandırmış, həm də oxucuya mənəvi-estetik təsir göstərən zəngin ədəbi nümunə yaratmışdır.

Romanı Azərbaycan ədəbiyyatında qadın obrazlarının tarixi romanlarda təqdiminə həsr olunmuş digər əsərlərlə müqayisə etmək janrın poetik imkanlarını daha aydın göstərir. Eyni müəllifin "Gövhər ağa Cavanşir" romanı və Məhbubə Hacıyevanın "Tay sırğa" əsəri bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

"Ağabəyim ağa Cavanşir" romanında müəllif tarixi faktların fonunda qəhrəmanın fərdi taleyini canlandırır, onun psixoloji aləmini, daxili iztirablarını və məhəbbət hisslərini ön plana çəkir. Bu yanaşma tarixi həqiqətlə bədii şərtiliyin sintezini təmin edir. Ağabəyim ağa saray mühitində siyasi nüfuz qazanan, eyni zamanda şəxsi hisslərini qoruyan bir qadın kimi təqdim olunur. Bu, onun tarixdəki real mövqeyinə və romandakı bədii təsvirinə əsaslanır. Ağabəyim ağa, Şuşanı müdafiə edən igid sərkərdə Məhəmməd bəyə könül verir. Lakin onun əsir düşdüyü xəbəri gənc qadını dərindən sarsıdır və bu ağrı onun səhhətinə də mənfi təsir göstərir. Anası Tutubəyim isə bu məhəbbət münasibətinə qarşı çıxır. Məhəmməd bəy, Ağabəyim ağanı istəmək üçün Molla Pənah Vaqifi elçi kimi saraya göndərir. Ancaq Vaqif bu izdivacı əngəlləmək və Ağabəyim ağanı öz oğluna almaq niyyətində olur. Hadisədən xəbər tutan Məhəmməd bəy böyük qəzəbə qapılır. Elə bu dövrdə İran xanədanının Azərbaycana yönəlmiş hücumları da başlanır. Nəticədə həm Vaqif, həm də Məhəmməd bəy Qacarlar tərəfindən qətlə yetirilirlər.

Siyasi ittifaqları möhkəmləndirmək məqsədilə İbrahim xan qızını İran şahı Fətəli şahın hərəminə göndərir. Saraya qəbul edilməzdən əvvəl Ağabəyim ağa şahın anasının libasını geyinərək bir növ "toxunulmazlıq" statusu qazanır. Romanda açıq şəkildə vurğulandığı kimi, Fətəli şahla arasında heç bir məhrəm münasibət yaşanmır; bununla belə, Ağabəyim ağa öz zəkası, biliyi və siyasi bacarığı ilə sarayda böyük nüfuz qazanır və "Şahbanu" titulu ilə şərəfləndirilir. O, eyni zamanda saray daxilində siyasi qərarların qəbulunda fəal iştirak etmiş, mühüm bir sərvətə sahib olmuş və bu gücünü ictimai xeyir naminə də istifadə etmişdir.

Roman boyu Ağabəyim ağanın Məhəmməd bəyə olan sədaqəti davamlı olaraq ön plana çəkilir. Ömrünün sonuna qədər bu məhəbbətin xatirəsini yaşadan Ağabəyim ağa yalnız Qarabağa duyulan nisgilin deyil, eyni zamanda sarsılmaz bir eşqin də rəmzi kimi təqdim olunur. Bununla yanaşı, xeyriyyəçilik fəaliyyəti ilə də fərqlənir; sahib olduğu sərvətin böyük bir qismini ictimai fayda verəcək işlərə sərf etmişdir.

Müəllifin digər romanı "Gövhər ağa Cavanşir"də isə diqqət daha çox xeyriyyəçilik fəaliyyəti, Qarabağda maarifçiliyin təşəkkülündə qadınların rolu üzərində cəmlənmişdir. Burada tarixi həqiqətlər, xüsusilə Gövhər ağanın məscid, məktəb və digər mədəniyyət ocaqları tikdirməsi fakt kimi təqdim edilir. Lakin müəllif bədii təxəyyüllə bu fəaliyyətin daxili motivlərini, qəhrəmanın insani keyfiyyətlərini ön plana çıxarır. Beləliklə, hər iki əsərdə tarixi faktlar qorunur, lakin Ağabəyim ağa obrazında siyasi-diplomatik məqamlar, Gövhər ağa obrazında isə sosial-mədəni missiya daha çox vurğulanır.

Məhbubə Hacıyevanın "Tay sırğa" romanında isə qadın obrazının taleyi həm tarixi hadisələrin, həm də məişət müstəvisinin fonunda təqdim olunur. Burada qadının fərdi həyatı, məhəbbət və ailə münasibətləri tarixi hadisələrin sərt fonunda təsvir edilir. Əsərdə tarixi həqiqətlə bədii şərtilik arasındakı balans fərqli şəkildə qurulmuşdur: tarixi faktlar fon xarakteri daşıyır, əsas diqqət isə qadının emosional və mənəvi aləminə yönəlir.

Beləliklə, "Ağabəyim ağa Cavanşir" romanı Azərbaycan tarixi romanlarında qadın obrazının təqdimində yeni bir mərhələ kimi qiymətləndirilə bilər. Romanda tarixi hadisələr və fərdi hisslər bədii uzlaşma şəklində təqdim edilir. Əgər "Gövhər ağa Cavanşir"də qadın obrazı daha çox xeyriyyəçilik və mədəni irs fonunda təqdim olunursa, "Tay sırğa"da fərdi taleyin psixoloji dərinliyi ön plana çəkilir. Mehriban Vəzir isə Ağabəyim ağa obrazı vasitəsilə tarixi həqiqətləri qorumaqla yanaşı, bədii şərtiliyin imkanlarından istifadə edərək qadın taleyini milli tarixin böyük kontekstinə daxil etmişdir.

Azərbaycan ədəbiyyatında tarixi roman janrı tarixi həqiqətlərin qorunması ilə yanaşı bədii şərtiliyin imkanlarından istifadə etməklə formalaşmışdır. Bu janrda müəlliflər faktların ictimai, mənəvi və estetik qatlarını da bədii təxəyyül vasitəsilə açmağa çalışmışlar. Mehriban Vəzirin "Ağabəyim ağa Cavanşir" romanı bu tendensiyanın əhəmiyyətli nümunəsi olaraq, tarixi şəxsiyyətin real mövqeyini və

fəaliyyətini sənədli faktlarla təsdiqləməklə yanaşı, onun daxili aləmini, hiss və düşüncələrini bədii yozumda təqdim etmişdir. "Bu yeni nəsr, ümumiyyətlə, doqmalara, şəxsiyyətin həqiqi azadlığı və zəkasına uyğun gəlməyən bütün maneə və sədlərə qarşı çıxır ki, bu da cəmiyyətin özündə demokratiyanın, insan hüquqlarının genişləndirilməsi kimi əlamətdar proseslərlə bağlıdır". (Hüseynov, 1980)

Beləliklə, Tarixi həqiqətlərin təsviri: Romanda İbrahim xanın qızı Ağabəyim ağanın həyatı real tarixi faktlar əsasında qurulmuşdur. Onun böyük sərvət sahibi olması, "ağa" titulunun verilməsi, xan qızlarının siyasi məqsədli izdivacları əsərdə faktoloji dəqiqliklə təqdim edilir. Eyni zamanda Qarabağ xanlığında xan qızlarının təhsilinə və mədəni hazırlığına verilən önəm də əsərin mətnində xüsusi vurğulanır. Bu, tarixi gerçəkliyin obyektiv təsvirinə xidmət edən mühüm məqamdır.

Əsərdə Məhəmməd bəy ilə Ağabəyim ağanın məhəbbəti, Molla Pənah Vaqifin hadisələrdəki rolu və Qacarların hücumu nəticəsində baş verən faciələr də tarixi qaynaqlara əsaslanır. Vaqifin qətli, Məhəmməd bəyin ölümü və Ağabəyim ağanın İran sarayına göndərilməsi dövrün tarixi proseslərinin bədii təcəssümüdür.

Bədii şərtiliyin rolu: Mehriban Vəzir yalnız faktların təqdimatı ilə kifayətlənmir; o, hadisələrin emosional qatını açmaq üçün bədii şərtilikdən istifadə edir. Ağabəyim ağanın daxili dünyası, sevgiyə sədaqəti, Qarabağa duyduğu nisgil onun obrazında poetik rəmz səviyyəsinə yüksəlir. Əsərdə müəllif tarixi məlumatlar da verir, lakin hadisələrin təsvirində lirizm və emosional gərginlik qorunur.

Ağabəyim ağanın Fətəli şah sarayında "Şahbanu" kimi qazandığı mövqe tarixi faktlara əsaslansa da, yazıçının təqdimatında qadının intellekti, siyasi bacarığı və mənəvi gücü bədii şərtiliyin yaratdığı estetik obrazla tamamlanır. Onun Məhəmməd bəyə ömürlük sədaqəti dönməz eşq və vətən nisgilinin simvoluna çevrilir.

Nəticə

Əsərin təhlili göstərir ki, tarixi həqiqət və bədii şərtilik qarşılıqlı şəkildə bir-birini tamamlayır. Ağabəyim ağanın Qarabağ xanlığının siyasi həyatında tutduğu mövqe, Fətəli şah sarayında qazandığı nüfuz, xeyriyyəçilik fəaliyyəti tarixi faktlarla təsdiq olunan gerçəklikdir. Lakin onun Məhəmməd bəyə məhəbbəti, ömürboyu sevdiyinə sadiq qalması, Vaqiflə bağlı hadisələrin təsviri daha çox bədii şərtiliyin məhsulu kimi çıxış edir. Bu sintez oxucuya tarixi bilik qazandırır, estetik zövq bəxş edir.

Müqayisəli təhlildən də aydın olur ki, çağdaş nəsrimizdə Azərbaycan tarixi romanlarında qadın obrazlarının təqdimatı müxtəlif istiqamətlərdə inkişaf etmişdir. "Gövhər ağa Cavanşir"də qadın obrazı sosial-mədəni fəaliyyət fonunda, "Tay sırğa"da fərdi-psixoloji yaşantılar müstəvisində təqdim olunur. "Ağabəyim ağa Cavanşir"də isə siyasi-diplomatik məqamlarla şəxsi taleyin faciələri üzvi şəkildə birləşdirilir. Bu yanaşmalar tarixi roman janrında qadın obrazlarının milli tarixin müxtəlif sahələrini təmsil edən simvollara çevrildiyini göstərir.

Ümumiyyətlə, nəticə çıxarmaq olar ki, Mehriban Vəzirin "Ağabəyim ağa Cavanşir" romanı tarixi roman janrında qadın taleyinin poetik təqdimatını zənginləşdirir, tarixi faktları bədii şərtiliklə sintez edərək janrın poetikasına yeni çalarlar gətirir. Bu əsər Azərbaycan tarixi romanlarında qadın mövzusunun inkişaf istiqamətlərini müəyyənləşdirən əhəmiyyətli bir nümunədir.

Mehriban Vəzirin "Ağabəyim ağa Cavanşir" romanı Azərbaycan tarixi roman ənənəsinin mühüm nümunələrindən biri kimi dəyərləndirilə bilər. Əsərdə tarixi həqiqətlər və bədii şərtilik qarşılıqlı vəhdətdə təqdim olunur ki, bu da tarixi roman janrının əsas xüsusiyyətlərindən sayılır. Müəllif tarixi faktları sadəcə xronoloji ardıcıllıqla göstərməklə kifayətlənmir, onları bədii-estetik planda təfsil edir, obrazların daxili aləmini, psixoloji gərginliyini və dövrün mürəkkəb ictimai-siyasi kontekstini açır. Bu yanaşma romanı sırf tarixi faktların təqdimatı çərçivəsindən çıxararaq, daha çox milli-mənəvi dəyərlərin, qadın kimliyinin və insan taleyinin estetik yozumuna çevirir.

Əsərin əsas qəhrəmanı Ağabəyim ağa Cavanşir tarixi şəxsiyyət olmaqla yanaşı, həm də milli yaddaşda əbədi sevgi, sədaqət və vətən nisgilinin simvoluna çevrilir. Onun Məhəmməd bəyə sadiqliyi, Qarabağa duyduğu həsrət və eyni zamanda İran sarayında qazandığı mövqe tarixi şəxsiyyətin çoxqatlı obrazını yaradır. Müəllif burada qadın taleyini yalnız məhəbbət müstəvisində deyil, həm də siyasi-ictimai kontekstdə dəyərləndirərək, tarixi romanlarda qadınların təqdimatına yeni bir estetik çalar gətirir.

Romanın digər bir mühüm tərəfi isə müəllifin istifadə etdiyi sənətkarlıq üslubudur. Mehriban Vəzir hadisələri tarixi qaynaqlara istinad etməklə yanaşı, bədii şərtilik vasitəsilə onlara lirizm qatır, qəhrəmanın daxili dünyasını ön plana çəkir. Bu xüsusiyyət əsəri həm tarixi roman, həm də bədii-psixoloji roman səviyyəsində qiymətləndirməyə imkan verir.

Nəticə etibarilə, "Ağabəyim ağa Cavanşir" romanı Azərbaycan tarixi roman ənənəsinin inkişafında

mühüm mərhələ təşkil edir. Əsər milli yaddaşın qorunmasına, Qarabağ mövzusunun ədəbiyyatda davamlı yaşadılmasına və qadın taleyinin yeni bədii yozumla təqdiminə xidmət edir. Beləliklə, roman tarixi faktların sənətkarlıqla estetik ümumiləşdirilməsi baxımından həm elmi, həm də ədəbi müstəvidə dəyərli bir nümunə hesab oluna bilər.

ƏDƏBIYYAT SİYAHISI:

1. Axundlu, Y. (1998). Tarixi roman yeni mərhələdə (1980–1990-cı illər). Bakı: Maarif.
2. Axundlu, Y. (2005). Azərbaycan tarixi romanı: mərhələlər, problemlər (1930–2000). Bakı: Adiloğlu.
3. Hüseynov, A. (1980). Nəsr və zaman. Bakı: Yazıçı.
4. Vəzir, M. (2019). Ağabəyim ağa Cavanşir. Bakı: Perqament yayın evi.
5. Yusifli, V. (1986). Nəsr: konfliktlər, xarakterlər. Bakı: Yazıçı.

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏKİ SİYASİ DİSKURSDA İSTİFADƏ OLUNAN EVFEMİZMLƏR

Günay Yaqub qızı TƏHMƏZOVA
https://orcid.org/ 0009-0009-3586-9578
tehmezovagunay@mail.ru

Xülasə:: Məqalədə müxtəlifsistemli dillərdə siyasi diskursda istifadə olunan evfemizmlərin funksiyaları və rolu təhlil olunur. Evfemizmlər — dil vasitəsi ilə həssas, narahat və ya mübahisəli mövzuları yumşaldaraq ifadə etmə üsulu — siyasi nitqdə xüsusilə strateji əhəmiyyət kəsb edir. Tədqiqat çərçivəsində ingilis və Azərbaycan dilləri üzrə siyasi diskurs nümunələri müqayisəli şəkildə araşdırılmış, evfemizmlərin mədəni, praqmatik və ideoloji funksiyaları müəyyən edilmişdir.

Məqalədə göstərilir ki, evfemizmlər siyasi kommunikasiya üçün manipulyativ və yumşaldıcı vasitə kimi çıxış edir, ictimai rəyin yönləndirilməsində mühüm rol oynayır və hakimiyyət münasibətlərini diskursiv olaraq qoruyur. Müxtəlifsistemli dillərdə evfemizmlərin formalaşması və istifadəsi mədəni və dilin struktur xüsusiyyətləri ilə sıx bağlıdır. Məsələn, ingilis dilində metaforik və konnotativ evfemizmlər geniş istifadə olunursa, Azərbaycan dilində sintaktik transformasiyalar və söz birləşmələri ilə yumşaldıcı effekt əldə edilir.

Nəticə etibarilə, evfemizmlərin müqayisəli analizi siyasi diskursun universal və mədəni spesifik funksiyalarını göstərir, dilin semantik və praqmatik imkanlarının siyasi kommunikasiya ilə necə əlaqəli olduğunu ortaya qoyur. Bu tədqiqat həm dilçilik, həm də siyasi elmlər sahəsində müasir diskurs analizinə metodoloji töhfə verir.

Açar sözlər: *Evfemizm, siyasi diskurs, müqayisəli dilçilik, müxtəlifsistemli dillər, kommunikasiya strategiyaları, praqmatika, ideologiya, mədəni kontekst.*

EUPHEMISMS USED IN POLITICAL DISCOURSE OF LANGUAGES WITH DIFFERENT SYSTEMS

Gunay Yagub gizi TAHMAZOVA
https://orcid.org/0009-0009-3586-9578
Email: tehmezovagunay@mail.ru

Abstract: The article analyzes the functions and roles of euphemisms used in political discourse across languages with different systems. Euphemisms — a linguistic means of expressing sensitive, uncomfortable, or controversial topics in a softened manner — hold particular strategic significance in political speech. Within the framework of this research, examples of political discourse from english and Azerbaijan languages are comparatively examined, and the cultural, pragmatic, and ideological functions of euphemisms are identified.

The article demonstrates that euphemisms serve as manipulative and mitigating tools in political communication, play a crucial role in shaping public opinion, and discursively maintain power relations. The formation and use of euphemisms in languages of different systems are closely connected to cultural and structural features of the languages. For instance, while metaphorical and connotative euphemisms are widely employed in European languages, in Azerbaijani, the softening effect is often achieved through syntactic transformations and compound expressions.

As a result, the comparative analysis of euphemisms reveals both the universal and culturally specific functions of political discourse, highlighting how the semantic and pragmatic capacities of language are intertwined with political communication. This study contributes methodologically to contemporary discourse analysis in both linguistics and political science.

Ke ywords: *Euphemism, political discourse, comparative linguistics, languages of different systems, communication strategies, pragmatics, ideology, cultural context.*

ЭВФЕМИЗМЫ, ИСПОЛЬЗУЕМЫЕ В ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ РАЗНОСИСТЕМНЫХ ЯЗЫКОВ

Гюнай Ягуб кызы ТАХМАЗОВА
https://orcid.org/0009-0009-3586-9578
Email: tehmezovagunay@mail.ru

Аннотация: В статье анализируются функции и роль эвфемизмов, используемых в политическом дискурсе разносистемных языков. Эвфемизмы — это лингвистическое средство выражения чувствительных, неудобных или спорных тем в смягчённой форме, — играют особую стратегическую роль в политической речи. В рамках данного исследования на сравнительной основе рассматриваются примеры политического дискурса английский и азербайджанский языков, выявляются культурные, прагматические и идеологические функции эвфемизмов.

В статье показано, что эвфемизмы выступают как манипулятивное и смягчающее средство политической коммуникации, играют важную роль в формировании общественного мнения и дискурсивно поддерживают властные отношения. Формирование и употребление эвфемизмов в разносистемных языках тесно связано с культурными и структурными особенностями языка. Так, если в английский и азербайджанский языках широко распространены метафорические и коннотативные эвфемизмы, то в азербайджанском языке смягчающий эффект часто достигается за счёт синтаксических трансформаций и словосочетаний.

В результате сравнительный анализ эвфемизмов выявляет как универсальные, так и культурно-специфические функции политического дискурса, демонстрируя, каким образом семантические и прагматические возможности языка связаны с политической коммуникацией. Настоящее исследование вносит методологический вклад в современный дискурс-анализ в области как лингвистики, так и политологии.

Ключевые слова: *эвфемизм, политический дискурс, сравнительное языкознание, разносистемные языки, коммуникативные стратегии, прагматика, идеология, культурный контекст.*

Giriş

Siyasi diskurs insan cəmiyyətində güc, hakimiyyət və sosial əlaqələrin formalaşmasında mərkəzi rol oynayan dil hadisəsidir. Bu diskurs yalnız faktların ötürülməsi üçün vasitə deyil, həm də siyasi ideologiyaların, ictimai rəyin və manipulyativ texnikaların ifadə forması kimi çıxış edir. Müxtəlifsistemli dillərdə siyasi nitq formalaşarkən evfemizmlər xüsusilə mühüm rol oynayır.

Evfemizm — bir anlayışı yumşaq, qeyri-birbaşa və bəzən ikitərəfli mənada ifadə etmək üsulu — siyasi kommunikasiya üçün strateji əhəmiyyət kəsb edir. Bu dil vasitəsilə hakimiyyət orqanları, siyasi partiyalar və media müəyyən mövzuları manipulyasiya edərək ictimai reaksiyaları formalaşdıra bilər. Müxtəlifsistemli dillərdə evfemizmlərin quruluşu, istifadəsi və funksiyaları isə hər bir mədəni və siyasi kontekstdə fərqli praqmatik və stilistik xüsusiyyətlər nümayiş etdirir.Tədqiqat çərçivəsində fərqli dillərdə evfemizmlərin funksiyaları, ideoloji yükləri və ictimai qavranılması araşdırılır, həmçinin siyasi nitqin manipulyativ və yumşaldıcı üsullarının müəyyənləşdirilməsi hədəflənir.

Evfemizm – dil davranışının ayrılmaz hissəsidir və norma və qiymətləndirmə anlayışları ilə sıx bağlıdır. V.İ. Karasik evfemizasiyanı etiketləşdirmə vasitələrindən biri kimi qiymətləndirir. Bir çox tədqiqatçılar qeyd edirlər ki, evfemizmlərin əsas funksiyalarından biri ünvanlananı aldatmaqla ona təsir göstərmək və manipulyasiya etməkdir.

Evfemistik yenidən adlandırma manipulyasiya növü kimi, adın dəyişdirilməsinin denotata yeni xüsusiyyətlər verməsi, yəni onun mahiyyətini müəyyən şəkildə dəyişdirməsi fərziyyəsinə əsaslanır.

Evfemiya üsulu yalnız müəyyən sözlərin yerinə evfemizmlərin planlı istifadəsindən ibarət deyil, həm də reallığın qəbulunu kommunikasiya təşəbbüskarı üçün əlverişli mövqedən modelləşdirməyə xidmət edir. Evfemizmlər və disfemizmlər eyni fenomenin iki tərəfi, denotatın qiymətləndirilməsinin iki zidd qütbüdür: evfemizm denotatı yaxşılaşdırır, disfemizm isə pisləşdirir. Bəzi dilçilər hər iki halı nominativ dəyişkənlik termini çərçivəsində görərək «iksfemizm» (X-Phemism) adlı ümumi termin istifadə etməyi təklif edirlər. Belə halda evfemizm mənfi xüsusiyyətin azaldılmasına və ya qiymət işarəsinin mənfidən müsbətə çevrilməsinə əsaslanan anti-invektiv kimi qəbul edilir.

Beləliklə, dinləyicinin və oxucunun şüurunun manipulyasiyası evfemistik nominasiyalar vasitəsilə həyata keçirilir. Kütləvi informasiya vasitələri hadisələri bəzən birtərəfli təqdim etməklə yalnız öz baxışlarını təqdim etməyə çalışırlar. Siyasi elitanın maraqlarında çalışan dilçilərin məqsədyönlü səyləri nəticəsində evfemistik nominasiyalar yaranır, bununla hadisələrin həqiqi mənasının qismən gizlədilməsi və geniş auditoriyada mənfi qavrayışın neytrallaşdırılması baş verir . Evfemizmlər kütləvi informasiya vasitələrində manipulyativ taktika kimi geniş istifadə olunur və bu, həqiqətdən də yayınma strategiyasının bir hissəsidir.

Məsələn, 21.07.2017 tarixli Global Village Space By News Desk nəşrində "Bloodshed continues in Syria" başlıqlı məqalədə "war" (müharibə) yerinə "bloodshed" (qan tökülməsi) disfemizmi işlədilib. Müəllif bu vasitə ilə hərbi əməliyyatları ifşa etməyi və müharibənin real qiymətini göstərməyi hədəfləyir. Qeyd etmək lazımdır ki, "war" sözü və ABŞ hərbçilərinin fəaliyyətini təsvir edən digər sözlər artıq işlənmir və onların yerini evfemizmlər tutur.

İttiham taktikasının bir növü olaraq, tənqid və istehza taktikası mövcuddur ki, bu da danışılan mövzunu və ya obyektin fəaliyyətini lağa qoymağa yönəlib. İstehza taktikasının xüsusiyyəti həm evfemistik, həm də disfemistik vahidlərin istifadəsidir və bu, adətən ironik xarakter daşıyır. Məsələn, "He is the latest in a line of political appointees to the London job, traditionally bestowed upon presidents' faithful friends, usually with deep pockets" ifadəsində (mətnin müəllifi Prezidentin

dostlarının varlı insanlar olduğunu vurğulayır) "deep pockets" ("dərin cib") ifadəsi "riches" ("varlılar") sözünün ironik disfemizmi kimi işlədilir.

Görmək olar ki, emosional yüklü kontekst yaratmaq (pozitiv və ya neqativ konnotasiyaya malik emosional işarələnmiş leksikanın seçilməsi) informasiyanı qəbul edən şəxsin assosiativ düşüncəsinə güclü təsir göstərir,bununla da emosional münasibətin intensivliyinə təsir etməklə informasiyanın manipulyatorun istədiyi formada qəbul olunmasını təmin edir. Məsələn, "the cynical and clinical grab of Crimea"; "Putin's amoral, anarchic and brutish Russia".

Son dövrlərdə siyasətçilərin danışıq dilində daha abstrakt ifadələr işlətmə meyili müşahidə olunur. Bunun nəticəsi olaraq çoxlu sayda nominasiyaya – yəni feil formalarının abstrakt isimlərə çevrilməsinə rast gəlinir. Bele nominasiyaya nümunələr olaraq feilin və zərfin birləşməsindən əmələ gələn sözlər göstərmək olar: *build-up* (hərbi qüvvələrin yığılması); *lay-out* (işini itirmiş insan); *push-over* (asanlıqla aşılır maneə); *take-over* (hakimiyyətin ələ keçirilməsi).

Məsələn: "But the prime minister stressed the *build-up* did not mean NATO was planning for a ground invasion." "Social change has blurred the old distinctions of lifestyle, housing and employment that also sustained political parties. Everywhere, there is the danger of *take-over* by well-organised minorities."

Nominasiyanın siyasi diskursda istifadəsi eyni reallığın alternativ təqdimat üsullarından biridir, bu isə danışanın bəzi iştirakçıları müzakirədən çıxarmaq, zəruri olanları isə saxlamaq imkanı verir. Əvvəllər olduğu kimi, indiki dövrdə də evfemizasiya ehtiyacı çox böyükdür. Bunun sübutu, nitqdə evfemizmlərin geniş istifadə spektridir – onlar müxtəlif funksiyaları yerinə yetirir, üstəlik, emosional-müsbət və mədəni, uğurlu ünsiyyətin təmin olunmasında mühüm rol oynayırlar.

Evfemizmlər nitq fiquru kimi ekspressiv funksiyanı həyata keçirir və dilin stilistik vasitələr sistemində xüsusi yer tutur. Sözləri və ifadələri yumşaltmaq məqsədi daşıyan evfemizmlər qarşı tərəf üçün xoşagəlməz olanı yumuşaltmaq üçün diplomat dili ilə çox yaxın əlaqədədir. Onları mənaca qeyri-müəyyənlik, tolerantlıq və ifadələrdə çəkindirmə xüsusiyyətləri birləşdirir ki, bu da qarşıdurmaların qarşısını almağa imkan verir.

Ən maraqlı qrup "gündəlik xarakter" daşıyan ilk qrupdur, çünki onlar həm rəsmi şəxslərin, həm də adi vətəndaşların iştirak etdiyi nitq situasiyalarında istifadə olunur. Dövlətin insanların həyatına təsiri ilə bağlı, həm siyasi xadimlərin rəsmi çıxışlarında, həm də gündəlik ingilis dilində rast gəlinən evfemizmlər:

Az tələb olunan peşələri təsvir edən evfemizmlər: Ən az yayılmış peşələr arasında əsasən qarajçı və təmizlikçi peşələri sayılır. İngilis dilində, garbage collector (təmizlikçi) ifadəsi tez-tez sanitation man, sanitation engineer və ya garbologist ifadəsi ilə əvəz olunur; road-sweaper (küçə təmizləyicisi) street orderly, janitor (qarajçı) isə environmental hygienist, custodian və ya building engineer ilə əvəz edilir (Holder R. A. 1996: p.91).

Həmçinin, kiçik ofislərdə və şirkətlərdə çalışanların vəzifələrini təsvir edən sözlər də evfemizmlərlə əvəz olunur. Məsələn, filing clerk (dəftərxana işçisi) ifadəsi "information retrieval administrator", secretary (katib) "personal assistant" və ya "administrative assistant" ilə əvəz olunur. Müəllimlər isə, araşdırmamıza görə, educators / classroom managers / learning facilitators kimi ifadələrə çevrilmişdir: *"A smaller proportion of childminders in England are offering childcare rated "good", say Ofsted inspectors"* (Richardson H. 2015.) / Ofsted müfəttişləri dedi ki, İngiltərədə müəllimlərin az bir hissəsi uşaqlara yaxşı qayğı göstərir,

Sosial mənfi hallar (spirtli içki, narkomaniya, cinayətkarlıq) ilə bağlı evfemizmlər: Evfemizmlərin ən böyük alt qruplarından biri cinayətkarlıq, narkomaniya, prostitusiya kimi mənfi hadisələrdən diqqəti yayındıran lüğət vahidləridir. Məsələn: *criminal (cinayətkar) – illegal; prison (həbsxana) – correctional facilities; rob (oğurlamaq) – burgle; a prison guard (həbsxana mühafizəçisi) – correctional officer; prostitute (prostitutka) – commercial sex worker / accommodating women; bloody (qanlı) – bally/bluggy/blurry; the head of Mafia family (Mafiya ailəsinin başçısı) – godfather* (Holder R. A. 1996: p.67).

Narkomaniya və spirtli içki asılılığı siyasət diskursunda aşağıdakı evfemizmlərlə təsvir olunur: d*rug addict* (narkoman) – substance abuser. *"Obama will provide job training, substance abuse and mental health counseling to ex-offenders, so that they are successfully re-integrated into society"* / Obama keçmiş narkotik asılısı cinayətkarların iş təliminə, psixoloji sağlamlıq məsləhətinə çıxışını təmin edəcək ki, onlar cəmiyyətə uğurla reinteqrasiya olunsun; *drugs* (narkotiklər) – illegal substances; *drunk* (spirtli) – intoxicated/reduced state of awareness.

Yoxsulluq problemi ilə bağlı evfemizmlər: Amerikan ingilis dilində evsizləri ifadə edən bir sıra evfemizmlər mövcuddur: *street person / homeless person / displaced person / shopping-bag lady* [Ibidem]; araşdırmamıza görə, onların istifadəsi rəsmi ünsiyyət situasiyaları ilə məhdudlaşır: *"Although he never wound up as a street person, his*

life was a journey of terror and fear" / O, heç vaxt evsiz olmadı, amma həyatında qorxu və dəhşət dolu idi.

Bundan əlavə, bu alt qrup evfemizmlərində "poor" (yoxsul) sözü neytral və mənfi konnotasiya daşımayan elementlə əvəz olunur: poor children – risk children; poor student – underachiever/underperformer; poor – low-income / working class / modest / underprivileged . *"Underprivileged hopeful in Obama's uplifting agenda"* (Dunlap K. 2015: p.67)/ Obama-nın gələcək planlarına ümid bəsləyən az imkanlılar.

Hərbi əməliyyatlar və terrorla bağlı evfemizmlər: XX-XXI əsrin sərhədində geniş yayılmışdır. Məsələn, jurnalistlər "terrorist" sözünü tez-tez istifadə etmirlər və əvəzinə bomber / attacker / insurgent / militant / misguided criminals / assailants / captors / extremists / fighters / group / guerrillas / gunmen / hostage-taker / radicals / rebels / separatists kimi evfemizmlərə üstünlük verirlər: *"It could as easily be an explosive device left on the bus as the work of a bomber"* (London Rocked by Terror Attacks, 2015.) / Bu, eyni dərəcədə avtobusda buraxılmış partlayıcı cihaz da ola bilər, terrorçunun işi də.

Siyasət sahəsində dövlət rəhbərliyinin təşəbbüsü ilə həyata keçirilən hərbi əməliyyatların gizlədilməsi üçün də evfemizmlər istifadə olunur: *bombing – air support; victim – casualty / non-operative personnel; genocide – ethnic cleansing; killing people on your own side – friendly fire; killing – deprivation of life* (Holder R.1996, p.61).

Cəmiyyətin müvəqqəti sarsıntıları və fəlakətləri ilə bağlı evfemizmlər müasir ingilis dilində aktualdır. Ekoloji fəlakətlər, ölkələr və mədəniyyətlər arasında anlaşılmazlıq və qlobal iqtisadi vəziyyət insanların maliyyə vəziyyətinə təsir göstərmişdir. Siyasətçilər, alimlər, ictimai xadimlər və iqtisadçılar vəziyyəti "yumşaltmaq" üçün evfemizmlərdən aktiv istifadə edirlər.

Qlobal iqtisadi böhranla bağlı evfemizmlər (2008-2010): *economic downturn – economic crisis* [Ibidem]: *"Worst economic downturn in 50 years"* (Worst Economic Downturn' in 50 Years)/ Son 50 ildəki ən pis iqtisadi böhran.Vergi artımını əvəz edən evfemizmlər: some inflows / revenue enhancements / balancing / fairer revenue raise / progressive revenue / progressive taxation. *"In continuing our effort to highlight states where progressive revenue-raising options are gaining support"* (New Jersey Governor's Budget Includes Progressive Revenue Options, 2015) / Vergi artırılması dəstəklənən ştatları vurğulamaq üçün səylər davam edir. Aşağı inkişaf etmiş ölkələri ifadə edən evfemizm: the Fourth World.*"The Fourth World Conference on Women is taking place as the world stands poised…"* (The United Nations Fourth World Conference on Women) / Qadınlarla bağlı İnkişaf etməkdə olan ölkələr Konfransı keçiriləcək, çünki dünya buna hazırdır.

Qlobal istiləşmə ilə bağlı evfemizmlər: "global warming" (qlobal istiləşmə) və "climate change" (iqlim dəyişikliyi) ifadələri bəzi hallarda evfemizm kimi çıxış edir. *"This summer, Clinton joined John McCain… and two other senators for a tour of Alaskan areas hard hit by climate change"* / Bu yay Clinton, John McCain və digər senatorlarla Alyaskada qlobal istiləşmədən ciddi ziyan görmüş bölgələrə səfər etdi. *"Bush outlines goals to fight climate change"* (Bush Outlines Goals to Fight Climate Change, 2015) / Bush iqlim dəyişikliyi ilə mübarizə üçün məqsədləri açıqlayır.

Corc Buş administrasiyasının yaratdığı evfemizmlər: Corc Buş çıxışlarının birində hərbi əsirləri "enemy combatants" (düşmənə qarşı döyüşənlər) adlandırırdı .

Barack Obama hakimiyyəti dövründə onun tərəfindən yaradılmış bir evfemizmə nəzər salaq : "untrained ears" - "ağ adamlar" mənasında cəmiyyətin yüksək təbəqəsini bildirən ifadə: *"Barack Obama warns that the message in a black church can sound frightening to "untrained ears"* (Mellowes M., 2015) / Obama xəbərdarlıq edir ki, qara kilsədəki mesaj ağ insanlar üçün qorxunc səslənə bilər.

Tədqiqat göstərir ki, siyasi diskursda evfemizmlər həm universal, həm də mədəni-xüsusi funksiyalar daşıyır. Müxtəlifsistemli dillərdə evfemizmlərin istifadə strategiyaları müxtəlif olsa da, əsas məqsəd oxşardır: siyasi və sosial həssas mövzuların yumşaldılması, ictimai rəyin yönləndirilməsi və hakimiyyət münasibətlərinin diskursiv olaraq qorunması.

Evfemizmlər siyasi nitqdə həm ideoloji yük daşıyır, həm də kommunikativ məqsədlərə xidmət edir. Dilin struktur xüsusiyyətləri və mədəni kontekst evfemizmlərin seçimi, formalaşması və istifadəsi prosesinə birbaşa təsir göstərir. Məsələn, ingilis dilində metaforik və konnotativ evfemizmlər daha çox yayılmışsa, Azərbaycan dilində söz birləşmələri və sintaktik transformasiyalar vasitəsilə yumşaldıcı effekt yaradılır.

Evfemizasiya dilçilikdə yeni bir hadisə deyil. Bütün dillərdə həmişə mövzular olub ki, müəyyən səbəblərə görə tabu, qadağan olunmuş sayılırdılar və buna görə də onlara müraciət edərkən məsələlər, örtülü formalar və yumşaldıcı ifadələr, yəni evfemizmlər istifadə olunub.

Evfemizasiya dedikdə biz, qadağan olunmuş, kobud söz və ya ifadənin, neqativ konotasiya

daşımayan neytral dil forması ilə əvəzlənməsi prosesini başa düşürük. Bu proses etik və əxlaqi yumşaltma tələb edir, çünki ünsiyyət zamanı narahat situasiyalardan və konfliktlərdən qaçmaq və kommunikativ məqsədlərə nail olmaq lazımdır. Lakin evfemizmlərin tək funksiyası bu deyil; onların praqmatik məqsədi daha genişdir – real vəziyyət barədə informasiyanı gözəlləşdirmək və ya təhrif etmək, bir şeyi və ya birini müsbət və ya mənfi işıqda göstərmək, hər hansı fəaliyyətə və ya passivliyə təşviq etmək. Bu kontekstdə evfemizmlər kütləvi şüurun manipulyasiyası üçün də istifadə olunur.

Evfemizasiya fenomeninin tədqiqi xüsusilə cəmiyyətin sosial idarəetmə taktikalarına, auditoriyaya təsir metodlarına və ictimai rəyin formalaşdırılma mexanizmlərinə marağı səbəbilə aktualdır.

Siyasi diskursda evfemizmlər aktiv şəkildə manipulyasiya və müəyyən ideyaların təbliği aləti kimi istifadə olunur, cəmiyyətə emosional təsir göstərir, xalqı müəyyən siyasi qərarları qəbul etməyə təşviq edir. Bilmək lazımdır ki, siyasətçilər, hakimiyyət institutları və kütləvi informasiya vasitələri ideoloji dünyagörüşünü formalaşdırmaq məqsədilə müəyyən anlayışların əvəzlənməsi, faktların gizlədilməsi və dezinformasiyaya müraciət edirlər. Bu baxımdan, təbii ki, siyasi dil evfemistik ifadələrlə zəngindir.

Beləliklə, evfemizmlər bir tərəfdən konfliktiz ünsiyyətin və nitq etiketi alətinin vasitəsidir, digər tərəfdən isə siyasətçilərin, diplomatların və hakimiyyət institutlarının əlində təsir vasitəsidir.

Bizim tədqiqatın hipotezi ondan ibarətdir ki, İngilisdilli kütləvi informasiya vasitələrində siyasi diskursda evfemizmlərin dominant funksiyası ictimai rəyin manipulyasiyası və informasiyanın maskalanmasıdır. Biz hesab edirik ki, ünsiyyət zamanı konfliktin yumşaldılması və neytrallaşdırılması funksiyası, əvvəlcə əsas kommunikativ məqsəd olsa da, ikinci plana keçib. Bundan əlavə, siyasi kontekstdə birbaşa və kobud nominativlərdən yayınmaq çox zaman manipulyativ effektə malikdir.

Bir çox tədqiqatçılar qeyd edir ki, evfemizasiya müasir danışıqda geniş istifadə olunur və cəmiyyətin gündəlik dil həyatında, xüsusilə, ünsiyyətin konfliktliyini neytrallaşdırmaq meyilinə görə effektivdir. Bəzi tədqiqatçılar evfemizmlərin tabu ilə əlaqəsini və müəyyən nitq situasiyasından asılılığını vurğulayır. Məsələn, V. P. Moskvin evfemizmləri belə xarakterizə edir: "Emosional cəhətdən neytral olan söz və ifadələr danışan şəxsə bu və ya digər konkret vəziyyətdə yolverilməz (yəni tabu sayılan) görünən birbaşa adlandırmanı əvəz etmək üçün istifadə olunur " (Москвин, 1999, с. 262).

Azərbaycan dilinin siyasi diskursunda, evfemizmlərə rast gəlinir. Onlardan bəzilərinə nəzər salaq: *bizim üçün xüsusi olaraq… şərəfdir* – "vacibdir" demək əvəzinə yumşaldılmış, rəsmi ton*; böyük şərəf hissi ilə* – nitqi diplomatik və hörmətli saxlamaq üçün yumşaldılmış ifadə.; *artıq ənənəvi xarakter alıb* – "hər il keçirilir" demək əvəzinə rəsmi ifadə.; *mehriban şəraitdə açıq müzakirələrinə böyük ehtiyac var* – "vacibdir" əvəzinə yumşaldılmış rəsmi ifadə.; *baxmaq cəlbedici olacaq* – "maraqlı olacaq" ifadəsini yumşaldılmış formalı.; *çətin an və mürəkkəb müzakirələr oldu* – problemləri yumşaldılmış formada ifadə edir.; *diqqətdən kənarda qala bilməz* – "gözardı edilə bilməz" demək əvəzinə yumşaldılmış rəsmi ifadə. ; *əlbəttə ki, açıq sual olaraq qalır* – "həlledilməyib" əvəzinə yumşaldılmış forma.; *şəxsi təəssüratınızı bölüşsəniz, yüksək dəyərləndirərik* – "de" demək əvəzinə yumşaldılmış, hörmətli müraciət;. *Uca Tanrımız da bunu bəyənir* – dini və hörmət tonu ilə yumşaldılmış rəy ifadəsi (https://president.az/az/articles/view/69314).

Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında İlham Əliyevin çıxışında rast gəldiyimiz evfemizmlərə nəzər salaq:*çox sevindirir* – "Xoş və ya müsbət nəticə verir" demək əvəzinə yumşaldılmış, diplomatik formada ifadədir.;*uğurlar münasibətilə təbrik edirəm* – Birbaşa "sən yaxşı iş görmüsən" demək əvəzinə diplomatik, yumşaldılmış rəsmi ifadədir;*gözəlləşdiyinə şadam* – "Şəhər inkişaf edir" demək əvəzinə, yumşaldılmış və rəsmi tərzdə ifadədir;*ardıcıl inkişafını qeyd etmək istərdim* – "Yaxşı inkişaf edir" deməkdən yumşaldılmış, diplomatik ifadə;*böyük inkişaf potensialına malikdir* – "İndiki vəziyyəti yaxşıdır" demək əvəzinə yumşaldılmış, diplomatik ifadə; *sürətli dirçəlişinin şahidi oldular* – "Tez bərpa olundu" demək əvəzinə rəsmi, diplomatik və yumşaldılmış ifadə;*ən gözəl və yaşayış üçün rahat şəhərlərdən birinə çevrilib* – "Artıq yaxşı vəziyyətdədir" demək əvəzinə yumşaldılmış, rəsmi və diplomatik ifadə;*möhkəmləndirir* – "Yaxşılaşdırır" demək əvəzinə yumşaldılmış, diplomatik və rəsmi forma;*bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək edir* – "Yaxşı münasibət yaradır" demək əvəzinə diplomatik və rəsmi yumşaldılmış ifadə (https://president.az/az/articles/view/70313).

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibəki evfemiziya məqamlarını nəzərdən keçirib təhlil edək: "Beləliklə, ərazimizin təxminən 20 faizi onlar tərəfindən *işğal edilmişdi*, nəticədə *bir milyon qaçqın və məcburi köçkünümüz* var idi."

Burada *"məcburi köçkün"* rəsmi-neytral evfemizmdir — insanların zorla yerindən didərgin düşməsini (zülm, talvarlanma, məskun itməsi və s.) daha neytral, hüquqi termini ilə ifadə edir. Funksiya: faciəni emosional və morfoloji cəhətdən azaltmaq, beynəlxalq hüquqi-leqal çərçivədə təqdim etmək. Açıq alternativ: "zorla yerindən sürgün edilmiş insanlar", "mülki əhali arasında geniş miqyaslı zorakılıq nəticəsində didərgin düşənlər".

"2020-ci ildə isə İkinci Qarabağ müharibəsi başladı və biz beynəlxalq səviyyədə tanınmış ərazilərimizi *azad etdik*." *"Azad etdik"* hərbi əməliyyatı pozitiv, qəhrəmanlaşdırıcı çalarla təqdim edən evfemizmdir — «ələ keçirmək», «hücuma keçmək», «qovub çıxarmaq» kimi daha qabarıq hərbi ifadələrin yumşaldılmış formasıdır. Funksiya: hərəkəti mənəvi və hüquqi cəhətdən legitimləşdirmək, daxili auditoriyada qürur yaratmaq. Açıq alternativ: "hərbi əməliyyatlarla geri qaytardıq / işğal altındakı əraziləri hərbi yolla bərpa etdik" (https://president.az/az/articles/view/69968).

"Təqribən beş il bundan əvvəl 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan *ədaləti, beynəlxalq hüququ və öz ləyaqətini bərpa etdi, torpaqlarını geri qaytardı." "Ədaləti… bərpa etdi"* — moral və hüquqi evfemizmdir; hərbi əməliyyatlara normativ-etik məna verir. Funksiya: hərbi gücü "ədalət bərpası" kimi çərçivələyərək legitimləşdirmək və narazılığı zəiflətmək. Açıq alternativ: "hərbi qələbə nəticəsində nəzarəti bərpa etdi / torpaqlara nəzarət yenidən təmin olundu". "...Avropa, Türkiyə və ərəb ölkələrindəki dostlarımız da *bu prosesi dəstəklədilər." "Dəstəklədilər"* ifadəsi beynəlxalq reaksiyanın müsbətliyini qısa, neytral şəkildə göstərən yumşaq formuladır. Funksiya: beynəlxalq dəstək mövcudluğunu vurğulamaqla prosesin legitimliyini gücləndirmək; konkret siyasi addımlar və ya təzyiqlərdən (məsələn, qətnamə, sanksiya) söz açmır. Açıq alternativ: "müxtəlif beynəlxalq təşkilatlar prosesə siyasi və diplomatik dəstək verdilər / müsbət münasibət bildirdilər". "...formal olaraq sülh sazişinin imzalanmamasının bir xüsusi səbəbi var - Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü hələ də şübhə altına alan müddəa mövcuddur." **"***Formal olaraq imzalanmaması***"** — bürokratik evfemizmdir; real siyasi müqaviməti məntiqi və prosedur münasibətinə çevirir. Funksiyası razılaşmanın gecikməsini konkret şəxsi və ya siyasi məsuliyyətdən uzaqlaşdıraraq hüquqi-texniki şərh kimi təqdim etmək. Açıq alternativ: "imzalanmayıb, çünki Ermənistan razılaşmır / konstitusiyasında problem var".

"Hazırda isə *"Böyük Qayıdış" Proqramı* çərçivəsində onların doğma yurdlarına qayıdışı prosesinə start verilib." Layihə adı *("Böyük Qayıdış")* — pozitiv metaforik evfemizmdir. Funksiyası məskunlaşmanı yalnız inzibati proses kimi yox, milli və emosional yenidənqayıdış kimi təqdim etmək; ictimai dəstək toplamaq. Açıq alternativ: "məcburi köçkünlərin geri yerləşdirilməsi proqramı"

Резюме: В современном информационном обществе журналистика претерпела глубокую трансформацию под влиянием процессов цифровизации. Ускорение производства, обработки и распространения информации, а также растущий спрос пользователей на более гибкий и интерактивный медиаопыт сделали необходимой фундаментальную перестройку технологических основ журналистики. Стремительное развитие технологий и их интеграция в журналистику способствовали быстрому росту цифровых медиа. Искусственный интеллект (ИИ) позволяет ускорить создание контента, повысить скорость обработки данных и свести к минимуму человеческие ошибки. Однако чрезмерная автоматизация может привести к распространению дезинформации. Так, ложные сведения могут быть намеренно или случайно включены ИИ в новостные материалы, что вызывает предвзятость информации и манипуляцию общественным мнением. Использование технологий ИИ, особенно при автоматической обработке и распространении данных, способствует более быстрому распространению ложной или вводящей в заблуждение информации, что особенно актуально в условиях применения технологий «deepfake». Основные принципы журналистики — достоверность, объективность и ответственность — должны сохраняться и при использовании ИИ.
Технология deepfake может применяться в различных контекстах. В одних случаях она используется для развлечения, шуток или творческих визуальных решений, в других же порождает серьезные социальные и этические проблемы. В статье рассматриваются преимущества применения ИИ в журналистике, проводится сравнительный анализ технологий ИИ, применяемых в данной сфере. Особое внимание уделяется вопросам предвзятости при автоматизации решений, вырывания информации из контекста и нарушения этических принципов. В этой связи необходим сбалансированный подход: использование возможностей технологий должно сопровождаться управлением возникающими рисками.
Ключевые слова: искусственный интеллект, цифровизация, дезинформация, технологии deepfake, трансформация медиа, автоматизированный контент.

Giriş

Müasir dövrdə süni intellekt (Sİ) bir çox yeni alət və xidmətlərin yaradılmasına şərait yaratmışdır. Sİ sahəsində aparılan tədqiqatların əksəriyyəti, böyük dil modelləri əsasında təlim keçmiş dərin öyrənmənin suallara necə cavab verə bildiyinə və insan nitqinə bənzər, yüksək səviyyəli cavablar yaratmaq potensialına fokuslanmışdır. Eyni fundamental texnologiyalardan, çoxqatlı neyron şəbəkələr və böyük məlumat dəstlərindən istifadə etməklə Sİ həmçinin dərin saxtakarlıq (deepfake) məzmunu yaratma qabiliyyətinə malikdir. Deepfake termini, si texnologiyası vasitəsilə yaradılmış şəkillər, musiqi və videolar kimi sintetik media məhsullarını əhatə edir. Bununla yanaşı, dərin saxtakarlıq texnologiyası Sİ sahəsindəki innovativ nailiyyətlərin təhsil, səhiyyə və digər ictimai xidmətlər sahəsində istifadəsi baxımından müsbət potensial daşıdığını göstərən nümunələrə malikdir. Lakin təəssüf ki, bu texnologiya yalnız müsbət məqsədlərlə məhdudlaşmır.Deepfake texnologiyasının zərərli məqsədlərlə istifadəsi, ictimai təhlükəsizliyə, demokratik institutlara və beynəlxalq

sabitliyə real təhdidlər yarada biləcək sosial problemlərə gətirib çıxara bilər.

Deepfake-lərin yaradılmasında ənənəvi kompüter qrafikası metodları tətbiq edilsə də, son illərdə bu proses əsasən dərin öyrənmə modellərinə, xüsusilə avtoenkoderlərə və generativ adversarial şəbəkələrə (GAN-lar) əsaslanır. Belə modellər insan üzünün ifadə və hərəkətlərini təhlil edərək digər şəxsin simasında həmin ifadə və hərəkətləri fotorealist şəkildə sintez etmək imkanını təmin edir. Bunun üçün isə genişhəcmli vizual məlumat bazalarının mövcudluğu zəruridir. Bu baxımdan, kütləvi informasiya mühitində çoxsaylı foto və videoları yayılan məşhurlar və siyasətçilər ilkin hədəf auditoriyası kimi seçilirlər.

Deepfake texnologiyasının potensial riskləri yalnız fərdi səviyyə ilə məhdudlaşmır. Onun siyasi, sosial və iqtisadi təsirləri beynəlxalq təhlükəsizlik kontekstində də aktualdır. Saxta çıxış videolarının hazırlanması, seçki kampaniyalarında manipulyasiya, dezinformasiya kampaniyaları və maliyyə bazarlarında süni xaosun yaradılması bu texnologiyanın yaratdığı təhlükələrin yalnız bir hissəsini təşkil edir.

"Deepfake" süni intellekt texnologiyalarından istifadə edərək, insanların üz ifadələrini, səsini və hərəkətlərini başqa bir şəxsin görünüşü və ya danışıq tərzi ilə eyniləşdirən saxta görüntülər və videolar yaratmaq texnologiyasıdır. "Deepfake"texnologiyası əsasən videolarda insanların üzlərini və ya səslərini dəyişdirmək üçün istifadə olunur.

- Üz dəyişdirilməsi: Bir insanın üz ifadələri və hərəkətləri başqa bir şəxsin üzünə köçürülə bilər.
- Səs təqlidi: süni intellekt vasitəsilə bir şəxsin səsini imitasiya edərək, onun adından saxta danışıq aparmaq mümkündür.

Dərin saxta (deepfake) şəkillər və videolar zahirdə orijinal təsir bağışlasa da, əslində süni intellekt alqoritmləri vasitəsilə yaradılır. Belə məzmunun aşkar edilməsi insan gözü üçün çətin ola bilər, çünki onlar texniki baxımdan manipulyasiya olunmuşdur. Deepfake anlayışı "dərin öyrənmə" (deep learning) və "saxta" (fake) sözlərinin birləşməsindən yaranır və insanların gerçəkdə etmədiyi hərəkətləri və söyləmədiyi sözləri hiper-realist şəkildə əks etdirmək üçün videoların rəqəmsal dəyişdirilməsini nəzərdə tutur. Proses iki fərqli şəxsin üzlərinin uyğunlaşdırılması, bir üzdən (üz A) xarakterik xüsusiyyətlərin avtoenkoder vasitəsilə götürülməsi və daha sonra bu xüsusiyyətlərin digər üzdə (üz B) birləşdirilməsi ilə həyata keçirilir. Nəticədə B-yə bənzəyən, lakin onun həqiqi simasını əks etdirməyən süni bir üz yaradılır (Alanazi,et., 2024).

Deepfake-lər geniş məlumat bazalarını təhlil edən neyron şəbəkələrdən istifadə edir ki, bu da insan üz cizgilərini, mimikalarını və səsini təqlid etmək bacarığı qazandırır. Bu səbəbdən real və saxta məzmunu bir-birindən ayırmaq insanlar üçün olduqca çətinləşir. Bundan əlavə, inandırıcı saxta məzmun yaratmaq üçün mütəxəssis olmaq şərt deyil – qeyri-peşəkar şəxslər də Face2Face və FaceSwap kimi asanlıqla əldə olunan vasitələrdən istifadə edərək belə deepfake-lər yarada bilirlər.

Təəssüf ki, deepfake-lər tez-tez zərərli məqsədlərlə istifadə olunur. Bunlara iş adamlarının səslərinin təqlidi ilə həyata keçirilən fırıldaqçılıqlar və ya siyasətdə, eləcə də aldatma kontekstlərində reputasiyaya xələl gətirən halların yaradılması daxildir. "Deepfake" texnologiyaları Generative Adversarial Networks (GAN.s) iki fərqli süni intellekt modelinin bir-birinə qarşı işlədiyi bir sistemdir. Bir model saxta görüntülər yaradır, digəri isə bu görüntüləri analiz edərək real və saxta görüntüləri ayırmağa çalışır. Bu iki model arasındakı rəqabət nəticəsində getdikcə daha real görünən saxta görüntülər əldə edilir. Dərin öyrənmə və neyron şəbəkələri vasitəsi ilə Sİ texnologiyaları çoxlu sayda görüntü və videoları təhlil edərək, şəxslərin üz strukturlarını, hərəkətlərini və səs xüsusiyyətlərini öyrənir. Bu məlumatlar əsasında tamamilə yeni və real görünən görüntülər yaratmaq mümkün olur (Lundberg et.,2025). Deepfake texnologiyası müxtəlif sahələrə tətbiq oluna bilər. Aşağıdakı qrafikdə deepfake texnologiyalarının tətbiq olunduğu sahələr göstərilmişdir. (Qrafik 1.)

"Deepfake" texnologiyası şəxsi həyatın toxunulmazlığına müdaxilə edə bilər, şəxslərin razılığı olmadan onların görüntülərinin və səslərinin dəyişdirilməsi ilə təhqiredici və zərərverici məzmun yaradıla bilər."Deepfake" texnologiyaları vasitəsilə yaradılan saxta videolar və səs yazıları insanlara qarşı şantaj və ya təhdid kimi istifadə oluna bilər. "Deepfake"-in yaratdığı təhlükələri azaltmaq üçün müxtəlif texnologiyalar və hüquqi tədbirlər inkişaf etdirilməlidir. Süni intellekt əsaslı alətlər vasitəsilə saxta görüntüləri real olanlardan ayırmaq üçün yeni üsullar inkişaf etdirilir. Bu alətlər videoları analiz edərək həqiqi və saxta görüntülər arasında fərq yaratmağa çalışırlar.

Süni intellect texnologiyalarının jurnalistikaya tətbiqi effektivliyi və riskləri

Deepfake-lər rəqəmsal media, xüsusilə də sosial media ilə sıx bağlıdır və onların vasitəsilə geniş auditoriyaya çatır. Mətn, şəkil, video və səs ictimai sferada qarşılıqlı əlaqənin və kommunikasiyanın əsas elementləri olduğu

üçün deepfake-lərin bu sahəyə təsirləri əhəmiyyətlidir. Bu texnologiyaların geniş istifadəsi rəqəmsal medianın təsirini gücləndirə bilər ki, bu da cəmiyyətə yeni faydalar gətirməklə yanaşı, ictimai fikri manipulyasiya etmək üçün də sui-istifadə oluna bilər. "Deepfake" texnologiyasının istifadəsi jurnalistika sahəsində də bir sıra problemlər yarada bilər. Nümunə olaraq dezinformasiya və feyk xəbərləri göstərmək olar. Saxta görüntülər, videolar siyasi və ictimai şəxslərin adından yayıla bilər, bu isə ictimaiyyətdə yanlış məlumatların yayılmasına və insanlar arasında çaşqınlıq yaranmasına səbəb ola bilər. İlk dəfə mediada bu texnologiyadan 2017-ci ildə "Reddit" sosial xəbər saytında istifadə olunub (Regan,2024). Deepfake texnologiyası çağdaş jurnalistika sahəsində bir sıra əhəmiyyətli imkanlar təqdim edir. Bu texnologiya, vəfat etmiş şəxslərlə müsahibələrin yenidən qurulması və ya ekspertlərin, fiziki olaraq əlçatmaz olan şəxslərin fikirlərinin ictimaiyyətə təqdim olunması kimi məqsədlərlə istifadə oluna bilər. Deepfake texnologiyaları, saxta məlumatların ifşa olunmasında və xəbər süjetləri üçün hadisələrin real təsvirini əks etdirən simulyasiyaların yaradılmasında mühüm rol oynaya bilər. Bununla yanaşı, deepfake texnologiyası dil maneələrinin aradan qaldırılması potensialına malikdir. Bu yanaşma xəbər məzmununun daha geniş auditoriyaya çatdırılması və ictimai məlumatlara çıxış imkanlarının artırılması baxımından əhəmiyyətlidir. Bu baxımdan diqqətəlayiq nümunələrdən biri də Devid Bekhemin iştirakı ilə həyata keçirilən "Malyariya Artıq Yoxdur" kampaniyasıdır; kampaniya çərçivəsində mesajın doqquz fərqli dildə təqdim olunması üçün deepfake texnologiyasından istifadə edilmişdir. Əlavə olaraq, deepfake texnologiyası jurnalistikada təhlükəsizlik və şəxsi məxfiliyin qorunması kontekstində də tətbiq oluna bilər. Xüsusilə həyatı təhlükə altında olan şəxslərin kimliyinin gizli saxlanılması üçün alternativ metod kimi çıxış edə bilər.

***Əyləncə sənayesi**:* Həyata olmayan aktyorların canlandırılması,realistik animasiyalar, İstənilən şəxsin virtual surətini yaratmaq mümkündür – bu, film, oyun və animasiyada innovativ həllər təklif edir;

***Təhsil və təlim*:** Tarixi şəxsiyyətlərin interaktiv təqdimatı, simulyasiya əsaslı öyrənmə, tarixi şəxsiyyətlərin danışması, tibb və hərbi sahələrdə simulyasiyalar vasitəsilə öyrədici təcrübələr mümkündür;

***Reklam və marketinq**:* Real insanlar olmadan video reklamlar, şəxsi brendin tanıtımı, aktyorların fiziki iştirakı olmadan kontent hazırlanır, çəkiliş və səsyazma büdcəsi azalır,

Sosial media kontenti: Əyləncəli videolar, musiqi performansları və s. Bir şəxsin danışığını avtomatik olaraq başqa dillərə çevirmək mümkündür – bu da qlobal auditoriyaya çatmaqda kömək edir (SM, et., 2022)

Qrafik 1. Deepfake texnologiyalarının tətbiq olunduğu sahələr

Jurnalistlərin və media təşkilatlarının kibertəhlükəsizlik sahəsindəki riskləri azaltmaq üçün bir sıra təkliflər təqdim etmək olar: (Qrafik 2.)

Jurnalistlər üçün kibertəhlükəsizlik sahəsində təlimlərin təşkil edilməsi, onların təhlükəsizlik haqqında məlumatlılığının artırılması;

- Media savadlılığının artırılması;

Jurnalistlərin hesablarına daxil olarkən əlavə təhlükəsizlik tədbiri kimi çox faktorlu doğrulama sistemlərindən istifadə etməsi;

- Rəqəmsal savadlılığının artırılması.

Qrafik 2. Media təşkilatlarının kibertəhlükəsizlik sahəsindəki riskləri azaltması üçün təkliflər

Süni intellekt vasitəsilə yaradılan hiper-realistik təsvirlər və manipulyasiya olunmuş videoların sosial media platformalarında sürətlə yayılması, fırıldaqçılıq, təbliğat və dezinformasiya üçün yeni və təhlükəli imkanlar formalaşdırır. Eyni zamanda, deepfake məzmunu yaratmaq üçün nəzərdə tutulmuş süni intellekt alətlərinin onlayn mühitdə asanlıqla əlçatan olması, belə materialları yaratmaq və yaymaq imkanını genişləndirir. Bununla paralel olaraq, mövcud ədəbiyyatda müxtəlif deepfake aşkarlama üsullarını araşdıran tədqiqat işləri də mövcuddur. Bir çox tədqiqatçılar vurğulayırlar ki, müasir deepfake texnologiyalarının mürəkkəbliyi saxta videoların aşkarlanmasını xeyli çətinləşdirir. Bununla yanaşı, onlar qeyd edirlər ki, bir çox deepfake videoda kadrlararası keçidlərdə üz cizgilərində zaman uyğunsuzluqları müşahidə olunur ki, bu da semantik səviyyədə fərqləndirilə bilən gizli nümunələrin yaranmasına səbəb olur. Beləliklə, məzmunun strukturunda meydana çıxan qüsurlar və ya rəqəmsal artefaktlar əsasında videonun və ya təsvirin deepfake olub-olmadığını müəyyənləşdirən texnologiyaların hazırlanması mümkündür.Müasir dövrdə deepfake texnologiyalarının onlayn mühitdə sürətli və asan şəkildə yayılması, saxta foto və video materialların sadə istifadəçilər tərəfindən hazırlanmasına imkan verir. Bu tendensiya, yaxın gələcəkdə hər hansı bir vizual məzmunun etibarlılığının sıfıra enməsi riskini gündəmə gətirir. Süni intellekt və digər texnoloji həllərin köməyi ilə hər hansı bir şəxsin müəyyən bir hərəkəti həyata keçirdiyi və ya konkret bir bəyanat verdiyi illüziyasının yaradılması mümkündür.

Deepfake texnologiyalarının geniş yayılması cəmiyyətdə etimad böhranına səbəb ola bilər. Belə bir mühitdə fərdlər həqiqəti yalandan fərqləndirmək qabiliyyətini itirə bilər və ya bu fərqləndirməyə maraq göstərməyə bilər. Etimadın zəiflədiyi bir şəraitdə, hər hansı bir hadisəyə dair şübhə yaratmaq daha asanlaşır ki, bu da cəmiyyətin deepfake-lərə verdiyi reaksiyadan asılı olaraq müxtəlif sosial problemlərin yaranmasına yol açа bilər.Deepfake ilə effektiv mübarizə aparmaq və saxtakarlığı aşkar etmək üçün texnoloji həllərin prioritetləşdirilməsi zəruridir. Deepfake detektorları kimi süni intellektə əsaslanan alətlər, video və audio materiallarda insan gözü ilə fərqlənməsi çətin olan incə uyğunsuzluqları təhlil edə bilir. Bu alətlər, videonun real olmadığını göstərə bilən qeyri-təbii üz hərəkətləri və ya işıqlandırmadakı uyğunsuzluqlar kimi manipulyasiya əlamətlərini skan etmək üçün mürəkkəb alqoritmlərdən istifadə edir (Regan, 2024).

Süni intellekt (Sİ) texnologiyaları həm deepfake yaratmağa kömək etsə də, onlarla mübarizə aparmaqda da mühüm rol oynayır. Onlar manipulyasiya göstərən nümunələri müəyyən edərək, real vaxt rejimində böyük həcmdə məlumatı analiz etmək qabiliyyətinə malikdirlər. Bu cür texnologiyaların inkişafı, gələcəkdə deepfake-lərin yaratdığı təhdidlərə qarşı dayanıqlı bir müdafiə mexanizmi formalaşdırmağa imkan verə bilər. ***Məsələn, Pindrop® Pulse Inspect*** audio faylları təhlil edə və sintetik səsləri aşkarlaya bilər (Fitzgerald,2024). Rəqəmsal transformasiya jurnalistikada böyük imkanlar yaratmaqla yanaşı, həmçinin bir çox çətinliklər və yeni problemləri də gündəmə gətirdiyindən, bu problemlərin həllində ənənəvi üsullara deyil, daha dayanıqlı vasitələrə, bilik və bacarıqlara ehtiyac vardır (TF,et.,2022). Bu təhlükələri idarə etmək üçün jurnalistlər və media təşkilatları müasir təhlükəsizlik texnologiyalarını və etibarlı metodları tətbiq etməli, həmçinin kibertəhlükəsizlik tədbirlərini gücləndirməlidirlər. Gələcəkdə Sİ əsaslı texnologiyalardan geniş istifadə etməklə xəbər vasitələrinin, blokçeyn texnologiyasının, immersiv reportaj və s. texnikaların tətbiqi ilə daha innovativ, səmərəli və etibarlı xəbər informasiya sisteminin formalaşdırması məqsədəuyğun olacaqdır (Doss, et.,2023). Bu prosesdə jurnalistlərin özlərini inkişaf etdirməsi, yeni texnoloji çağrışlara uyğun bilik və bacarıqların qazanması və ona uyğun inteqrasiyası vacibdir.

Rəqəmsal savadlılıq, insanların rəqəmsal texnologiyalardan effektiv, təhlükəsiz və etik şəkildə istifadə etmə bacarığıdır. Bu, yalnız kompüterlər və internetdən istifadə etməyi deyil, həm də rəqəmsal alətlərdən (məsələn, sosial media, tətbiqlər, proqramlar) düzgün və məqsədli şəkildə istifadə etmək, onlayn mühitdə şəxsi məlumatları qorumaq, rəqəmsal məzmunu anlamaq və təhlil etmək məsələlərini əhatə edir. Rəqəmsal savadlılıq müasir cəmiyyətdə düzgün qərarlar vermək və rəqəmsal dünyada məsuliyyətli şəkildə hərəkət etmək üçün vacibdir.

Deepfake texnologiyalarının cəmiyyətə təsiri təkcə etibarsızlıq yaratmaqla məhdudlaşmır. Bu texnologiyaların yayılması bir çox əlavə sosial və hüquqi problemlərə səbəb olur. Deepfake texnologiyaları yalan xəbər (disinformasiya) yaymaq, insanları şantaj etmək, fərdi reputasiyaya zərər vermək və ya siyasi manipulyasiyalar üçün istifadə oluna bilər. Məsələn, saxta videolar vasitəsilə ictimai xadimlərin nüfuzuna xələl gətirilə bilər ki, bu da cəmiyyətdə xaos və etimadsızlıq mühiti yaradır. Hüquqi çərçivə hələ ki, bu cür halları tənzimləməkdə çətinlik çəkir, çünki

mövcud qanunlar bu yeni texnoloji problemlərə cavab verməyə kifayət deyil. Bu səbəbdən, deepfake texnologiyalarından sui-istifadənin qarşısını almaq üçün yeni qanun və tənzimləmələrin hazırlanması zəruridir.

Media təşkilatlarının kibertəhlükəsizlik sahəsindəki riskləri azaltmaq üçün daha bir üsül "Smart watermarking" texnologiyalarından istifadədir **(smart watermarking technologies)—rəqəmsal məzmunun, yəni** şəkil, video, səs faylları və digər media materiallarının müəllif hüquqlarının qorunması**,** saxtalaşdırmanın qarşısının alınması **məqsədilə məzmunun içinə** gizli və ya açıq işarələrin **yerləşdirilməsi üsuludur. Lakin ənənəvi watermarklardan fərqli olaraq,** ağıllı watermarking **daha** dinamik, çətin silinə bilən **və** məlumat yönümlü **xüsusiyyətlərə malikdir. Adi watermarking**-də kontentin üzərinə şəffaf logo və ya mətn yerləşdirilir. Ancaq bu üsullar asanlıqla silinə və ya dəyişdirilə bilər. Smart watermarking texnologiyasında isə daha müasir alqoritmlər və süni intellekt əsaslı metodlardan istifadə olunur (Kim, et.,2023).

Müasir dövrdə Azərbaycanda süni intellekt (Sİ) texnologiyalarının tətbiq sahələrinin genişləndirilməsi istiqamətində mühüm addımlar atılmaqdadır. Dövlət səviyyəsində qəbul olunan strateji sənədlər və həyata keçirilən institusional islahatlar bu sahənin inkişafını sürətləndirməkdədir. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən **"Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası"** ölkəmizdə süni intellekt ekosisteminin formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Strategiyanın əsas məqsədləri sırasında Sİ-nin müxtəlif sahələrdə tətbiqinin təşviqi, elmi-tədqiqat fəaliyyətlərinin dəstəklənməsi, beynəlxalq təcrübənin öyrənilməsi, innovativ startapların inkişafına şərait yaradılması və ixtisaslı kadr potensialının formalaşdırılması kimi hədəflər müəyyən edilmişdir (Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2025).

Bununla yanaşı, strategiyanın icrası çərçivəsində yeni elmi və təhsil müəssisələrinin yaradılması da nəzərdə tutulmuşdur. Bu istiqamətdə həyata keçirilən mühüm təşəbbüslərdən biri də **Süni İntellekt Akademiyasının** təsis edilməsidir. Akademiyanın yaradılması "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası"nın tələblərinə uyğun olaraq reallaşdırılmış və onun əsas məqsədi ölkədə Sİ üzrə elmi-nəzəri biliklərin inkişaf etdirilməsi, praktiki bacarıqların formalaşdırılması, ixtisaslı mütəxəssislərin hazırlanması və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi olmuşdur. Azərbaycanda süni intellekt texnologiyalarının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Qəbul edilən strategiya və yeni qurumların yaradılması ölkənin rəqəmsal transformasiyasına təkan verərək həm elmi-tədqiqat mühitinə, həm də real sektorun müxtəlif sahələrinə əhəmiyyətli təsir göstərmək potensialına malikdir.

Nəticə və tövsiyələr

Aparılmış tədqiqatın nəticələri göstərir ki, deepfake texnologiyaları rəqəmsal medianın inkişafında həm müsbət, həm də mənfi təsirlərə malik olan mürəkkəb bir fenomen kimi dəyərləndirilməlidir. Onların müsbət tərəfləri yeni məzmun növlərinin yaradılması, əyləncə və reklam sənayesində innovativ imkanların təşviqi, vizual effektlər və tədris materiallarının hazırlanmasında iqtisadi səmərəliliklə bağlıdır. Beləliklə, deepfake texnologiyaları yaradıcılıq və iqtisadi inkişaf baxımından rəqəmsal ekosistemin müəyyən sahələrində mühüm potensial vəd edir.

Lakin tədqiqat eyni zamanda bu texnologiyanın cəmiyyət üçün nəzərəçarpacaq dərəcədə risklər daşıdığını üzə çıxarır. Xüsusilə xəbər mediası və təhsil kontekstində deepfake-lərin sürətli yayılması ictimai etimadın zəifləməsinə, dezinformasiya və saxta xəbərlərin genişlənməsinə, ictimai rəylə manipulyasiya imkanlarının artmasına və etik problemlərin dərinləşməsinə gətirib çıxarır. Bu vəziyyət informasiya təhlükəsizliyi, ictimai rəyin formalaşması və demokratik proseslərin qorunması baxımından ciddi narahatlıqlar doğurur.

Mövcud vəziyyət balanslaşdırılmış yanaşmanı zəruri edir: bir tərəfdən deepfake texnologiyalarının yaradıcı və iqtisadi imkanlarından səmərəli istifadə olunmalı, digər tərəfdən isə ictimai etimadın və informasiya təhlükəsizliyinin qorunması üçün risklərin effektiv idarə olunması təmin edilməlidir. Bu məqsədlə aşağıdakı istiqamətlərdə praktiki addımların atılması tövsiyə olunur:

– media qurumlarının yayımladıqları vizual materialların mənbə şəffaflığını təmin etməsi;

– jurnalistlər üçün deepfake texnologiyaları üzrə ixtisaslaşmış təlimlərin təşkili;

–media və texnologiya şirkətləri üçün deepfake istifadəsini tənzimləyən etik kodekslərin hazırlanması;

– məktəb və universitet proqramlarına rəqəmsal təsvir savadlılığının daxil edilməsi.

Nəticə etibarilə, deepfake texnologiyalarının gələcək inkişafı yalnız texnoloji tərəqqi kontekstində

deyil, həm də sosial, hüquqi və etik çərçivədə qiymətləndirilməlidir. Cəmiyyət üçün real fayda təmin olunması üçün dövlət strukturları, akademik mühit, media qurumları və texnologiya şirkətləri arasında institusional əməkdaşlıq və beynəlxalq koordinasiya mühüm əhəmiyyət kəsb edir. Beləliklə, deepfake fenomeni rəqəmsal medianın inkişafının ayrılmaz tərkib hissəsi olaraq həm fürsətlər, həm də təhdidlər yaradan ikili xarakteri ilə gələcək tədqiqatlar və siyasətlərin mərkəzində dayanmalıdır. Deepfake texnologiyalarının təsirləri balanslaşdırılmış yanaşma tələb edir: bir tərəfdən onların yaradıcı və iqtisadi imkanlarından faydalanmaq, digər tərəfdən isə ictimai etimadın qorunması üçün risklərin effektiv idarə olunmasını təmin etmək vacibdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Available from: https://e-qanun.az/framework/59218?utm
2. Ebba Lundberg, Peter Mozelius (2025). The potential effects of deepfakes on news media and entertainment 2159-2170. AI & SOCIETY.
3. Blauth TF, Gstrein OJ, Zwitter A (2022). Artificial intelligence crime: an overview of malicious use and abuse of AI. IEEE Access 10:77110–77122. https://doi.org/10.1109/ACCESS.2022-3191790
4. Doss C, Mondschein J, Shu D, Wolfson T, Kopecky D, Fitton-Kane VA, Bush L, Tucker C (2023). Deepfakes and scientific knowledge dissemination. Sci Rep 13(1):13429
5. Hanif SM, Dave V (2022) Deepfakes technology using AI. Int J Sci Res Acience Eng Technol. https://doi.org/10.32628/IJSRSET229522
6. Taeyoung Kim, Yunhee Jang, Chanjong Lee (2023) SmartMark: Software Watermarking Scheme for Smart Contracts DOI:10.48550/arXiv.2303.13733
7. Laura Fitzgerald, (2024). The Impact of Deepfakes on Journalism, https://www.pindrop.com/article/impact-deepfakes-journalism/
8. Gabe Regan, (2024).A Brief History of Deepfakes, https://www.realitydefender.com/insights/history-of-deepfakes
9. Stamatis Karnouskos, (2020). Artificial Intelligence in Digital Media: The Era of Deepfakes, IEEE Transactions on Technology and Society, DOI: 10.1109/TTS.2020.3001312
10. Sami Alanazi, Seemal Asif, (2024). Exploring deepfake technology: creation, consequences and countermeasures, Human-Intelligent Systems Integration, Volume 6, pages 49–60. https://link.springer.com/article/10.1007/s42454-024-00054-8

DOİ: 10.32010/CWLY5919

ƏSKİ TÜRK TOPLUMLARINDAN CÜMHURİYYƏTƏ: TÜRK MƏDƏNİYYƏTİNDƏ BƏRABƏRLİK ARXETİPİ VƏ TARİXİ TRANSFORMASİYALAR

Jalə Elşən ZEYNALLI
Bakı Dövlət Universiteti, doktorantura
Orcid: https://orcid.org/0000-0003-0094-9737
E-mail: j.zeynalli95@gmail.com

Xülasə: Bu məqalə qadın hüquqlarının tarixi, fəlsəfi və mədəni inkişaf mərhələlərini sistemli şəkildə təhlil edərək, qadın azadlığının cəmiyyətin sosial və mənəvi yetkinliyinin göstəricisi kimi formalaşmasını araşdırır. Tədqiqatın məqsədi qadın və kişi arasındakı tarixi bərabərlik prinsiplərinin pozulma səbəblərini və bu balansın bərpası istiqamətində həyata keçirilən hüquqi və ideoloji transformasiyaları müəyyənləşdirməkdir.

Məqalədə qədim türk cəmiyyətlərindən başlayaraq, Səlcuqlu və Osmanlı dövrlərinə, oradan da Cümhuriyyət və müasir dövrə qədər qadın anlayışının dəyişimi izah olunur. Türk mifologiyasında qadın həyatın və yaradıcılığın başlanğıcı kimi, Səlcuqlu və erkən Osmanlı dövrlərində isə dövlət idarəçiliyində və ictimai həyatda fəal iştirakçı kimi təqdim edilir. XIX əsr Tənzimat islahatları və maarifçilik ideyaları qadın təhsilinin və ictimai statusunun bərpasında mühüm mərhələ olmuş, XX əsrdə Cümhuriyyət dövründə qəbul edilən Mülki Məcəllə qadının hüquqi şəxsiyyətini və sosial müstəqilliyini təsbit etmişdir.

Müasir mərhələdə qadın hüquqları beynəlxalq hüququn konseptual sistemində bəşəri dəyərlərin ayrılmaz tərkib hissəsi kimi təsbit edilmişdir. Xüsusilə Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya (CEDAW) və Pekin Fəaliyyət Platforması kimi beynəlxalq-normativ sənədlər qadın və kişinin hüquq və imkan bərabərliyini universal hüquqi prinsip səviyyəsinə yüksəltmişdir. Bununla yanaşı, aparılan tədqiqatlar göstərir ki, normativ bərabərliyin formalaşması hələ sosial reallıqlarda tam təzahürünü tapmamışdır. Hüquqi mexanizmlərin mövcudluğuna baxmayaraq, gender fərqlərinin struktur səbəbləri – xüsusilə əmək münasibətlərində bərabər ödəniş prinsiplərinin pozulması, siyasi və institusional təmsilçilikdə qadınların nisbətən azlığı, həmçinin məişət və psixoloji zorakılıq hallarının davamlılığı – bərabərlik ideyasının praktik reallaşmasını məhdudlaşdırır.

Bununla yanaşı, məqalədə qadının mədəniyyət və ədəbiyyat sistemindəki funksional statusu da təhlil edilir. Qadın obrazı "ana", "müdrik", "mübariz" və "qoruyucu" arxetipləri vasitəsilə yalnız estetik element deyil, həm də cəmiyyətin dəyərlər sistemini tənzimləyən mədəni-sosioloji konstrukt kimi şərh olunur. Bu arxetiplər sosial yaddaşda kollektiv etik oriyentasiyanın daşıyıcısına çevrilir.

Nəticə etibarilə, qadın azadlığı və hüquqları anlayışı təkcə hüquqi bərabərlik çərçivəsində deyil, həm də mənəvi, sosial və mədəni bərabərlik paradiqması kontekstində dəyərləndirilməlidir. Qadının azadlığı — cəmiyyətin hüquqi sisteminin yetkinliyi, mədəniyyətin dəyərlər sabitliyi və ədalət prinsipinin reallıq qazanması ilə eyniləşdirilə bilər.

Açar sözlər: qadın hüquqları, gender bərabərliyi, mədəni transformasiya, beynəlxalq hüquq, sosial ədalət

---

FROM ANCIENT TURKIC SOCIETIES TO THE REPUBLIC: THE ARCHETYPE OF EQUALITY AND HISTORICAL TRANSFORMATIONS IN TURKISH CULTURE

Jale Elshan ZEYNALLI
Baku State University, Doctoral Student
Orcid: https://orcid.org/0000-0003-0094-9737
E-mail: j.zeynalli95@gmail.com

Abstract: This article provides a systematic analysis of the historical, philosophical, and cultural evolution of women's rights, examining the formation of female emancipation as an indicator of a society's social and moral maturity. The main objective of the study is to identify the causes behind the historical distortion of gender equality principles and to explore the legal and ideological transformations implemented to restore this balance.

The paper traces the evolution of the concept of womanhood from ancient Turkic societies through the Seljuk and Ottoman periods to the Republican and contemporary eras. In Turkic mythology, the woman symbolizes the origin of life and creativity; during the Seljuk and early Ottoman periods, she appears as an active participant in governance and public life. The reforms of the nineteenth-century Tanzimat period and the rise of Enlightenment ideas marked a significant stage in the restoration of women's education and social status, while the Civil Code of 1926, adopted in the Republican era, legally recognized women as independent social and juridical actors.

In the modern period, women's rights have been established as an integral part of universal human values within the conceptual framework of international law. Instruments such as the Convention on the Elimination of All Forms of Discrimination against Women (CEDAW) and the Beijing Platform for Action elevated gender equality to the level of a universal legal principle. Nevertheless, research indicates that normative equality has not yet been fully reflected in social realities. Despite existing legal mechanisms, structural causes of gender disparity — including unequal pay, the underrepresentation of women in political and institutional structures, and the persistence of domestic and psychological violence — continue to limit the practical realization of equality.

Furthermore, the article examines the functional role of women in cultural and literary systems. Female archetypes such as the "mother," the "wise," the "fighter," and the "protector" are interpreted not merely as aesthetic symbols but as sociocultural constructs regulating the moral order of society. Ultimately, the study concludes that women's freedom and rights must be understood not solely within the framework of legal equality but also through moral, social, and cultural paradigms. The emancipation of women reflects the maturity of law, the stability of culture, and the realization of justice itself.

Key words: women's rights, gender equality, cultural transformation, international law, social justice

---

ОТ ДРЕВНЕТЮРКСКИХ ОБЩЕСТВ К РЕСПУБЛИКЕ: АРХЕТИП РАВЕНСТВА И ИСТОРИЧЕСКИЕ ТРАНСФОРМАЦИИ В ТУРЕЦКОЙ КУЛЬТУРЕ

Жаля Эльшан ЗЕЙНАЛЛЫ
Бакинский государственный университет, Докторант
Orcid: https://orcid.org/0000-0003-0094-9737
Электронная почта: j.zeynalli95@gmail.com

Резюме: В данной статье представлен системный анализ исторического, философского и культурного развития прав женщин, а также исследуется формирование женской эмансипации как показателя социально-нравственной зрелости общества. Цель исследования заключается в выявлении причин искажений принципов гендерного равенства на протяжении истории и определении правовых и идеологических трансформаций, направленных на восстановление данного баланса.

В статье прослеживается эволюция представления о женщине — от древнетюркских обществ через Сельджукский и Османский периоды к эпохе Республики и современности. В тюркской мифологии женщина символизирует начало жизни и творчества; в Сельджукскую и раннеосманскую эпоху она выступает активным участником государственного управления и общественной жизни. Реформы периода Танзимата XIX века и идеи Просвещения стали важным этапом в восстановлении образовательных и социальных прав женщин, а Гражданский кодекс 1926 года, принятый в эпоху Республики, закрепил за женщиной статус самостоятельного социального и юридического субъекта.

В современный период права женщин закреплены как неотъемлемая часть универсальных человеческих ценностей в концептуальной системе международного права. Такие документы, как Конвенция о ликвидации всех форм дискриминации в отношении женщин (CEDAW) и Пекинская платформа действий, возводят принцип гендерного равенства на уровень универсальной правовой нормы. Тем не менее исследования показывают, что нормативное равенство ещё не нашло полного отражения в социальной реальности. Несмотря на наличие правовых механизмов, структурные причины гендерных различий — неравная оплата труда, низкая представленность женщин в политических и институциональных структурах, а также сохраняющиеся случаи бытового и психологического насилия — продолжают ограничивать практическую реализацию равенства.

Кроме того, в статье рассматривается функциональная роль женщины в системе культуры и литературы. Женские архетипы — «мать», «мудрая», «борец» и «защитница» — интерпретируются не только как эстетические символы, но и как социокультурные конструкции, регулирующие моральный порядок общества. В заключение подчёркивается, что свобода и права женщин должны рассматриваться не только в рамках юридического равенства, но и в контексте моральных, социальных и культурных парадигм. Эмансипация женщины отражает зрелость права, устойчивость культуры и воплощение самого принципа справедливости.

Ключевые слова: права женщин, гендерное равенство, культурная трансформация, международное право, социальная справедливость

Giriş

Bəşər tarixi yaradılışın iki qütbünü – qadın və kişini – bir-birini tamamlayan, lakin çox zaman mədəniyyət və ideologiyanın təsiri altında qeyri-bərabər dəyər müstəvisində təqdim edilən iki fundamental qüvvənin qarşılıqlı münasibətləri kimi formalaşdırmışdır. Qadın hüquqları və gender bərabərsizliyi anlayışları bu iki başlanğıc arasındakı tarazlığın pozulması və yenidən bərpası prosesi ilə sıx bağlıdır. Hər bir mədəniyyət qadına münasibətdə özünün ideoloji dərinliyini, mənəvi yetkinliyini və sosial ədalət prinsipinə sadiqliyini nümayiş etdirir. Qadın hüquqlarının tarixi yalnız hüquq kitablarının səhifələrində deyil, həm də mədəniyyətin yaddaşında, folklorun, ədəbiyyatın və fəlsəfi düşüncənin qatlarında yaşayır. Müasir dünyada gender bərabərliyi təkcə sosial ədalət məsələsi deyil, həm də sivilizasiyanın hüquqi və intellektual səviyyəsinin göstəricisidir. Bu məqalənin məqsədi qadın hüquqlarının tarixini, fəlsəfi əsaslarını və mədəni transformasiyasını araşdırmaq, gender bərabərsizliyinin köklərini və müasir dövrdə təzahürlərini elmi baxımdan təhlil etməkdir.

Qədim dövrlərdən bəri qadın həyatın başlanğıcı, bərəkət, davamlılıq və mənəvi müdriklik simvolu kimi qəbul edilmişdir. Şərq fəlsəfəsində qadın sədaqət, səbir və daxili gücün rəmzidir. Türk mifologiyasında Umay ana obrazı həyatın qoruyucusu və doğumun himayədarı kimi təqdim olunur. Bu obraz təkcə bioloji ananı deyil, həm də mənəvi yaradıcı başlanğıcı simvolizə edir. Bu mifoloji baxış qadının yalnız ailə və doğumla əlaqəli olmadığını, həm də mənəvi və intellektual səviyyədə cəmiyyətin formalaşmasında rol oynadığını göstərir. Qərb fəlsəfəsində isə qadın anlayışına yanaşmanın tarixi ziddiyyətlidir. Aristotel qadını "yarımçıq kişi" kimi təqdim edərək onun bioloji və intellektual cəhətdən məhdud olduğunu iddia etmişdi. Halbuki Platon "Simpozium" əsərində qadın və kişi birliyini ideal varlıq modeli kimi təsvir edirdi. XX əsrdə Simone de Beauvoir qadın kimliyini sosial konstruksiya kimi şərh etdi: "İnsan qadın olaraq doğulmur, sonradan qadın olur. İnsan adı verdiyimiz canlının dişisinin cəmiyyətdəki mövqeyini müəyyənləşdirən bioloji, ruhi və iqtisadi bir meyar yoxdur; kişi və qadınlaşmış kişi cinsi arasında mövqe tutan bu canlını yaradan sivilizasiyanın özüdür". (Beauvoir, 1980) "Qadın cəmiyyətdə azad fərd olmadığı müddətcə, iqtisadi cəhətdən bərabərlik olmazsa, daha doğrusu, ictimai bir varlıq kimi qəbul edilmədikcə kişinin müəyyənləşdirdiyi rollarla kifayətlənməli, patriarxal cəmiyyətin aşıladığı rolları-ənənələri davam etdirərək çıxmaza həbs olmaqdır. Bir tərəfdən, qadınların hər sahədə kişilərə nisbətdə daha bacarıqsız olduğu fikri irəli sürülür. Digər tərəfdən də, insan yetişdirmək kimi incə və ciddi bir iş həvalə edilir. Bu isə cinayətə bənzər bir işdir..." (Beauvoir, 1981)

Bu fikir qadının təbiətin deyil, cəmiyyətin mədəni kodları və sosial təzyiqləri ilə formalaşdığını göstərirdi. Antropoloji baxımdan qadının azadlığı yalnız hüquqi bərabərliklə deyil, mədəniyyətin ona tanıdığı mənəvi statusla ölçülür. Odur ki, cəmiyyətin inkişaf səviyyəsi qadına verdiyi dəyərlə müəyyən olunur.

Türk dünyasının ən qədim qaynaqlarında qadınla kişi arasında sosial və hüquqi bərabərlik prinsipləri aydın görünür. Qədim türk toplumunda qadın yalnız ailənin mənəvi dayağı deyil, həm də tayfa və dövlət idarəçiliyinin fəal iştirakçısı idi; o, qurultaylarda söz sahibi olur, diplomatik missiyalarda təmsilçilik funksiyasını yerinə yetirir, zərurət yarandıqda isə döyüş meydanına çıxmaqdan çəkinmirdi. "Böyük Səlcuqlu dövlətində qadın dövlət əyanları ilə birlikdə nüfuzlu və hörmətli bir mövqeyə malik idi. Böyük Səlcuqlu dövlətində hatun siyasi biliyə və hökmdar olmadığı zaman dövlət idarəsini ələ alacaq bacarığa sahib idi. Bu dövrdə xatunlar dövlət işlərini hökmdarla birlikdə izləyir, mühüm məsələlərdə məsləhətləşir və öz fikirlərini açıq ifadə edə bilirdilər. Böyük Səlcuqlu dövlətində xatunların döyüşlərdə iştirak etmələri və düşmənə qarşı mübarizə apardıqları mənbələrdə qeyd olunmuşdur. Məsələn, Altuncan xatunun Bağdad yürüşünə qatılması, əri Toğrul bəyi xilas etməsi Səlcuqlu dövlətinin siyasi bütövlüyünün qorunmasında mühüm rol oynamışdır. Bu hadisə Altuncan xatunun siyasət sahəsindəki bilik və bacarıqlarının uğurlu bir nümunəsi kimi tarixdə öz əksini tapmışdır". (Akarsu, 2019) Tarixçi İbnül İbrinin Toğrul bəyin Altuncan xatuna qarşı münasibəti ilə bağlı yazdıqlarına diqqət yetirək: "O, həyat yoldaşı tərəfindən son dərəcə sevilirdi və səltənətin bütün işlərini bu qadın idarə edirdi" demişdir. (Ferec, 1987) Həmçinin xarici dövlətlərin elçilərini qəbul edərkən xatun da xaqanın yanında olar, elçi birlikdə qəbul edilərdi. "Bizans dönəminə aid əlyazmalardan öyrənirik ki, elçilərin müşahidəsinə görə xaqan hər məsələni xatunla məsləhətləşər, sonra qərarını bildirərdi. Çin ilə ilk sülh müqaviləsini Böyük Hun İmperatorluğu adına Mete xanın arvadı imzalamışdır". (Sevinç, 2007)

Türk ailə modeli patriarxal deyil, paritet prinsiplərinə əsaslanan bir sistem idi. Qadın və kişi ailənin bərabərhüquqlu üzvləri sayılırdı. Qadın iqtisadi fəaliyyətin, ticarətin və mülkiyyət münasibətlərinin də müstəqil iştirakçısı idi. Bu sosial model qadını obyekt yox, subyekt – yəni yaradıcı, təşəbbüskar, cəmiyyətin formalaşdırıcı amili kimi qəbul edirdi.

Türklərin İslamı qəbul etməsi qadın anlayışında həm hüquqi, həm də mənəvi baxımdan yeni mərhələnin başlamasına səbəb oldu. İslam qadına müəyyən hüquqlar – miras, nikah və mülkiyyət hüququ tanıdı. Lakin bu hüquqların praktik tətbiqi dövrün mədəni mühitindən və dini interpretasiyasından asılı idi. Səlcuqlu və erkən Osmanlı dövrlərində qadınlar siyasi həyatda aktiv idilər. Terken xatun, Altuncan xatun, Seyyidə xatun kimi qadınlar dövlət işlərində mühüm qərarlar qəbul edir, diplomatik münasibətlərdə vasitəçi rol oynayırdılar. Onlar "xatun" titulu ilə təkcə hökmdar ailəsinə mənsub olmağı deyil, məsləhət, təsir və idarəetmə gücünü də ifadə edirdilər. Bu qadınlar Türk-İslam tarixində qadının təkcə ailə mühitində deyil, dövlət idarəçiliyi və siyasətdə də nüfuz sahibi ola biləcəyinin bariz nümunəsi idilər. Dövrün dini-siyasi şəraitində artan konservativ meyillər qadınların ictimai həyata çıxış imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırmış, onların sosial statusuna təsir göstərmişdir. Qadınların fəaliyyəti ailə sferası ilə məhdudlaşdı, bu isə onların təhsil və ictimai inkişaf imkanlarını nəzərəçarpacaq dərəcədə azaltdı. Bununla belə, Osmanlı sarayında qadınlar sənət, ədəbiyyat və xeyriyyəçiliklə məşğul olur, mənəvi təsir güclərini qoruyurdular.

XIX əsrdə Tənzimat islahatları ilə "qadın azadlığı" məsələsi yenidən aktuallaşdı. Maarifçilik ideyaları qadının yalnız ailə mühitinin deyil, bütöv cəmiyyətin intellektual və mədəni dirçəlişinin əsas hərəkətverici qüvvəsi olduğu fikrini önə çıxardı. Məhz bu dövrdə qadınlar üçün təhsil müəssisələri yaradıldı, müəllimlik və mamalıq kimi peşələr qanuniləşdirildi. Ədəbiyyatda da qadın obrazı dəyişdi: artıq o, evin dörd divarı arasında sıxışdırılmış varlıq deyil, azadlıq və təhsil uğrunda mübarizə aparan fərddir. Samipaşazadə Səzainin "Sərgüzəşt" romanı bu transformasiyanın bədii manifestinə çevrildi. Əsərdə Dilbər obrazı həm emosional, həm intellektual gücü ilə sosial ədalət ideyasının daşıyıcısı kimi çıxış edir. Eyni zamanda, Dilbər obrazı Osmanlı ədəbiyyatında ilk sosial və mənəvi etiraz edən qadın obrazı kimi qəbul olunur. Ümumiyyətlə, Tənzimat dövrü qadının "müti varlıq" imicindən çıxaraq sosial və mənəvi dəyər qazanmasının ideoloji əsasının qoyulduğu dövr kimi qiymətləndirilir.

1923-cü ildə isə Türkiyə Cümhuriyyətinin yaradılması qadın hüquqları sahəsində dönüş nöqtəsi idi. Cümhuriyyətin ideoloji təməli – sekulyarizm, millətçilik və modernləşmə prinsipləri – qadın və kişinin bərabərliyini dövlət səviyyəsində təsbit etdi. 1926-cı ildə qəbul edilən Mülki Məcəllə qadının hüquqi şəxsiyyət və müstəqillik statusunu təsbit etdi: qadın evlənmək, boşanmaq, mülkiyyət əldə etmək və məhkəməyə müraciət etmək hüququ qazandı. Bu islahatlar yalnız hüquqi deyil, həm də ideoloji məna daşıyırdı. Atatürk qadın azadlığını millətin mədəni yüksəlişi ilə eyniləşdirirdi. Onun "Cəmiyyət bir bədəndir; qadın və kişi onun iki yarısıdır" fikri cümhuriyyətin gender siyasətinin fəlsəfi təməlini təşkil edirdi. Lakin hüquqi islahatların sosial təfəkkürdə eyni sürətlə əks olunması çətin idi. Qadınların əmək bazarına, siyasətə və təhsilə çıxış imkanları artsa da, ailədaxili münasibətlərdə patriarxal münasibətlər mövcudluğunu qorumaqda idi. Bununla belə, bu dövr qadının dövlət səviyyəsində vətəndaş kimi tanındığı ilk mərhələ hesab edilir.

XX əsrin ikinci yarısından etibarən qadın hüquqlarının beynəlxalq hüququn müstəqil istiqaməti kimi formalaşması insan hüquqları konsepsiyasının əsas mərhələlərindən birini təşkil etmişdir. 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1979-cu il Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya (CEDAW) və 1995-ci il Pekin Fəaliyyət Platforması qadınların hüquqi statusunun, təhsil, əmək və ictimai-siyasi fəaliyyət sahələrində bərabər iştirak imkanlarının beynəlxalq səviyyədə təmin edilməsi üçün normativ-hüquqi çərçivə yaratmışdır. Bu aktlar qadın və kişinin hüquq subyekti kimi bərabərliyini, habelə sosial-iqtisadi və siyasi qərarvermə proseslərində gender balansının təminini beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi təsbit etmişdir. Bununla yanaşı, müxtəlif beynəlxalq tədqiqatlar və monitorinq hesabatları göstərir ki, hüquqi bərabərliyin formalaşdırılması sosial bərabərliyin avtomatik reallaşmasını təmin etmir. Müasir cəmiyyətlərdə qadınların əməkhaqqında fərqlərin mövcudluğu, siyasi təmsilçiliyin nisbətən aşağı səviyyədə qalması və ailədaxili zorakılıq hallarının davam etməsi bu ziddiyyətin göstəricisidir. "Dünya miqyasında qadınların təxminən üçdə biri həyatlarında azı bir dəfə fiziki və ya cinsi zorakılığa məruz qalıb." (unwomen.org) Belə fərqin mahiyyəti ondan ibarətdir ki, hüquqi mexanizmlərin tətbiqi çox zaman ictimai şüur və mədəni dəyərlərin transformasiyası ilə eyni tempdə inkişaf etmir. Əgər cəmiyyətin dəyər sistemi qadını hələ də bioloji və emosional varlıq kimi məhdud çərçivədə qəbul edirsə, hüquqi bərabərlik konseptual səviyyədə mövcud olsa belə, onun praktik təzahürü tam reallaşmır.

İqtisadi rifah qadın azadlığının fundamental təminat mexanizmlərindən biri kimi çıxış edir. Birləşmiş Millətlər Təşkilatının hesabatlarına əsasən, qadınların iqtisadi fəaliyyətdə bərabər və tamhüquqlu iştirakı ölkələrin Ümumi Daxili Məhsulunun (ÜDM) orta hesabla 25–30 faiz artmasına səbəb ola bilər. Qadın iqti-

sadi sistemdə sadəcə işçi qüvvəsi deyil, həm də innovativ düşüncə, sosial məsuliyyət və davamlı inkişaf prinsiplərinin daşıyıcısı kimi mühüm rol oynayır. Türkiyə təcrübəsi göstərir ki, qadın sahibkarlığının stimullaşdırılması son illərdə dövlət iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. "Qadın sahibkarlığının dəstəklənməsi fondu", "Kənd qadınlarının inkişafı" və oxşar layihələr qadının iqtisadi aktor kimi mövqeyini gücləndirərək onun istehsal və qərarvermə proseslərində iştirakını artırmışdır. Bununla belə, əməkhaqqı fərqləri, rəhbər vəzifələrdə qadınların nisbətən zəif təmsil olunması və iqtisadi qərarların qəbulunda gender balansının pozulması kimi struktur maneələr hələ də mövcuddur. Bu istiqamətdə real bərabərliyin təmin olunması yalnız hüquqi mexanizmlərin təkmilləşdirilməsi ilə deyil, eyni zamanda psixoloji, institusional və mədəni səviyyədə sistemli transformasiya ilə mümkündür.

Qadın obrazı hər mədəniyyətin ideoloji nüvəsini əks etdirən güzgüdür. Azərbaycan və türk ədəbiyyatında qadın obrazları həm mənəvi gücün, həm də cəmiyyətin etik dəyərlər sisteminin ifadəsidir.

Füzulinin "Leyli və Məcnun" əsərində Leyli ilahi sevginin və ruhi saflığın simvoludur; Nizaminin "Xosrov və Şirin"ində qadın həm ağıl, həm fədakarlıq, həm də ədalət rəmzidir. Yaşar Kamalın romanlarında qadın kənd həyatının mənəvi mərkəzidir; o, həm zəhmətkeş, həm müdrik, həm də sosial ədalətin daşıyıcısıdır. Onun əsərlərindəki qadın arxetipi – "ana", "müdrik", "mübariz", "qoruyucu" kimi ideya və dəyərlər sistemində sabit semantik mövqe tutur. Bu arxetiplər cəmiyyətin dəyərlər oriyentasiyasını və sosial-mənəvi sabitliyini formalaşdırır. Qadına dəyər verən mədəniyyət öz kimliyini, tarixi yaddaşını və mənəvi təməlini qoruyaraq inkişaf edir.

XX əsrin ortalarından etibarən Qərbdə feminist düşüncə tərzinin dərinləşməsi qadının sosial statusunu dəyişdirdi. Liberal feminizm bərabər hüquqları, radikal feminizm isə patriarxal sistemin tam ləğv edilməsi fikrini irəli sürmüşdür. Feminist nəzəriyyə göstərmişdir ki, qadın hüquqlarının məhdudlaşdırılması təkcə hüquqi deyil, həm də mədəni və psixoloji prosesdir. Qadın "başqası" kimi deyil, "özü" kimi tanınmalıdır. Bu həm də qadının özünü subyekt kimi dərk etməsinin başlanğıcıdır. Türk və Azərbaycan kontekstində feminizm Qərb modelindən fərqli, milli-mədəni çərçivədə inkişaf etmişdir. Burada əsas məqsəd qadının azadlığını mədəni dəyərlərlə uyğunlaşdırmaq, radikal fərdiyyətçiliyi deyil, sosial harmoniyanı qorumaq olmuşdur.

XXI əsrdə qadın və kişi hüquqları formal baxımdan bərabərlik səviyyəsinə çatsa da, mahiyyət etibarilə bir çox ziddiyyətlər hələ də qalmaqdadır. Qadınların siyasətdə və siyasi qərarvermə proseslərində azlıq təşkil etməsi, eləcə də "şüşə tavan" fenomeni, yəni görünməz sosial və institusional maneələrin qadınların karyera yüksəlişinə əngəl yaratması, bu bərabərliyin praktik səviyyədə tam təmin olunmadığını göstərir. Hüquq sistemində qadınlar və kişilər nəzəri cəhətdən bərabər hüquqlara malik olsalar da, bəzi hallarda qanunlar, hüquqi prosedurlar və ya hüquq institutları vasitəsilə qeyri-bərabər yanaşmalar tətbiq edilə bilər. Məsələn, "bəzi ölkələrdə qadınların boşanma və miras hüquqları kişilərdən daha məhdud ola bilər" (wikipedia.org) "qadınlar və kişilər eyni işi görsələr də, bəzən eyni maaşı ala bilmirlər (gender maaş fərqi problemi)" (www.faktyoxla.info), "bəzi ölkələrdə qadınların siyasi vəzifələrə seçilmə imkanları kişilərlə eyni deyil" ("Konstitutsiya Araşdırmalar Fondu"- Azərbaycanda qadınların iştirakçılığı sahəsində mövcud vəziyyətin qiymətləndirilməsi" hesabatı, 2024), "ailə zorakılığı və ya cinsi cinayətlərə qarşı hüquq sistemində qadınların hüquqlarının yetərincə qorunmaması halları mövcuddur" ("Konstitutsiya Araşdırmalar Fondu"- Azərbaycanda qadınların iştirakçılığı sahəsində mövcud vəziyyətin qiymətləndirilməsi" hesabatı, 2024) və s. Texnologiyanın sürətli inkişafı, qloballaşma prosesləri və informasiya mühitinin genişlənməsi gender münasibətlərinə yeni dinamikalar gətirməklə yanaşı, onların mahiyyətində mürəkkəb sosial-psixoloji gərginliklər də yaratmışdır. Bu şəraitdə kiberzorakılıq, onlayn təzyiq və bədən imicinə dair manipulyativ tendensiyalar qadın azadlığının müasir dövrdə qarşılaşdığı ən aktual təhdidlərdən birinə çevrilmişdir. Bu proses feminizmin yeni mərhələsini – dijital feminizmi meydana çıxarmışdır. Müasir dövrdə qadın hüquqlarının qorunması yalnız qanunvericiliklə məhdudlaşmamalı, həm də media, təhsil və sosial siyasət vasitəsilə təmin edilməlidir. Qadının təhsil səviyyəsinin yüksəlməsi bir tərəfdən onun fərdi azadlığını və iqtisadi imkanlarını artırır, digər tərəfdən ailə dəyərlərinin möhkəmlənməsinə və sosial məsuliyyətin dərinləşməsinə xidmət edir.

Ailə qadın azadlığının həm başlanğıc nöqtəsi, həm də davamlı inkişaf mərhələsidir. Tarixən qadın ailə institutunun mənəvi dayağı və dəyərlər sisteminin qoruyucusu kimi çıxış etmişdir. Müasir dövrdə sosial münasibətlərin dəyişməsi qadının ailə daxilindəki roluna yeni məzmun gətirsə də, onun əsas funksiyası – nəsillərarası mənəvi dəyərlərin ötürülməsi və nəslin davamlılığının təmin olunması – öz aktuallığını qorumaqdadır. Bu kontekstdə ailə nə patriarxal məhdudiyyətin simvolu, nə də fərdi azadlığa qarşı duran bir struktur kimi dəyərləndirilməlidir; əksinə, ailə

cəmiyyətin mənəvi sabitliyini formalaşdıran, sosial harmoniya və mənəvi məsuliyyətin bərqərar olduğu əsas mühitdir. Qadının təhsilli, iqtisadi və hüquqi baxımdan güclü olması isə ailə institutunun möhkəmlənməsini və onun ictimai dayanıqlığının təminini realizə edir.

Qadınların siyasətdə və dövlət idarəçiliyində iştirak səviyyəsi cəmiyyətin demokratik inkişaf dərəcəsinin əsas göstəricilərindən biridir. Qlobal statistika göstərir ki, dünya üzrə hər beş parlament üzvündən yalnız biri qadındır və bu göstərici regionlar arasında sosial, iqtisadi və mədəni fərqliliklərə görə dəyişir. Müasir dövrdə qadın liderliyi emosional zəka, empatiya və sosial məsuliyyət kimi dəyərlərə əsaslandığından, bu keyfiyyətlər idarəetmədə effektiv qərarvermə və dayanıqlı inkişaf baxımından strateji üstünlük hesab olunur. Elm sahəsində isə qadınların artan rolu təkcə sosial tərəqqinin deyil, həm də gender balansının mədəni göstəricisidir. UNESCO-nun məlumatına görə, dünyada tədqiqatçıların təxminən 31 faizini qadınlar təşkil edir, Azərbaycanda isə bu göstərici təqribən 40 faizdir. Qadın alimlərin elmdə yüksəlişi sadəcə statistik göstərici deyil, həm də düşüncənin demokratikləşməsi prosesidir. Elm mühitində qadınların iştirakının artması elmi fəaliyyətə etik dəyərlərin, empatiyanın və sosial məsuliyyətin daha dərindən daxil olmasına, həmçinin elmin daha ədalətli və humanist istiqamətdə inkişafına şərait yaradır.

Qadının din və mənəviyyat sistemlərindəki mövqeyi tarixi və ideoloji baxımdan ziddiyyətli xarakter daşıyır. Bəzi dini ənənələrdə qadın mənəvi saflığın, mərhəmətin və ilahi müdrikliyin təcəssümü kimi təqdim olunduğu halda, digərlərində o, itaət və tabeçilik simvolu kimi təsvir edilir. İslamda qadın "ana" kimi hörmət və ehtiramla xatırlanır, lakin sosial praktikada bu mənəvi status hər zaman hüquqi və ictimai bərabərlik səviyyəsində təcəssüm etmir. Müasir İslam feminizmi qadının Qurani-Kərim və digər dini mətnlərdəki yerini yenidən şərh etməyə, dini dəyərləri qadın azadlığı ilə qarşı-qarşıya qoymadan, əksinə, onları vəhdət və harmoniya çərçivəsində təqdim etməyə çalışır. Bu yanaşma dini diskursda qadının subyekt kimi tanınmasını və mənəvi bərabərliyin normativ əsas kimi qəbul edilməsini hədəfləyir. Hüquqi və sosial azadlıq, psixoloji azadlıqla tamamlanmadığı təqdirdə, qadının azadlıq konsepsiyası natamam qalır. Qadının daxili azadlığı özünü dərk etmək, qorxu və sosial təzyiqlərdən azad olmaq, həmçinin öz dəyərini və fərdi potensialını tanımaq bacarığı ilə müəyyən olunur. Müasir psixoloji yanaşmalara görə, qadının azadlıq prosesi üç əsas mərhələdə formalaşır: birincisi, öz potensialını dərk etmək; ikincisi, şəxsi sərhədlərini qorumaq; üçüncüsü, sosial identifikasiyada balansı tapmaq. Psixoloji azadlıq qadının yalnız fərdi rifahının deyil, həm də onun ictimai yaradıcılığının, liderlik qabiliyyətinin və sosial təsir gücünün əsas təməlini təşkil edir.

Qadın hüquqlarının qorunması və sosial bərabərliyin təminində əsas strateji vasitə təhsildir. Təhsilli qadın həm ailə daxilində, həm də ictimai müstəvidə qərarvermə proseslərinə fəal şəkildə təsir göstərə bilir. Təhsilin qadın azadlığına təsiri təkcə bilik qazanmaqla deyil, həm də özünəinamın formalaşması, intellektual müstəqilliyin və sosial mövqeyin güclənməsi ilə bağlıdır. Təhsil qadını sadəcə "mövqe daşıyıcısı" yox, həm də "fikir daşıyıcısı"na çevirir – yəni onu cəmiyyətin passiv subyekti olmaqdan çıxarıb, dəyişikliyin və tərəqqinin fəal iştirakçısına çevirir. Media isə qadın obrazının ictimai qəbulunu formalaşdıran ən güclü ideoloji və mədəni təsir vasitələrindən biridir. Reklam, kino, televiziya, sosial şəbəkələr və seriallarda qadın imicinin təqdimatı cəmiyyətin dəyərlər sistemini təkcə əks etdirmir, eyni zamanda onu yönləndirən normativ modelə çevrilir. Patriarxal media ənənəsində qadın çox vaxt estetik obyekt, cazibə elementi və istehlak mədəniyyətinin simvolu kimi təqdim olunur. Lakin müasir mərhələdə bu tendensiyaya qarşı feminist media estetikası formalaşır. Bu yeni yanaşma qadını bədən və vizual obyekt kimi deyil, düşüncə, emosional dərinlik, mənəvi güc və intellektual potensialın daşıyıcısı kimi təqdim edir. Beləliklə, media qadının ictimai statusunun dəyişməsində və gender bərabərliyinin mədəni əsaslarının möhkəmlənməsində transformativ rol oynayır.

XXI əsrdə qadınların texnoloji sahələrdə fəal iştirakı sosial güc balansını və bilik istehsalının strukturunu köklü şəkildə dəyişir. Qadın proqramçılar, mühəndislər, data-analitiklər və startap rəhbərləri müasir informasiya cəmiyyətinin formalaşmasında aparıcı mövqelərdən birini tutur. "Texnologiya kişilərin sahəsidir" kimi köhnəlmiş stereotip artıq öz aktuallığını itirməkdədir. Müasir dövrdə qadınlar innovasiya sektorunda həm yaradıcı ideyaların müəllifi, həm də idarəedici qərarların icraçısı kimi çıxış edir, texnoloji inkişafın insan yönümlü və sosial məsuliyyət daşıyan modelini formalaşdırırlar. Qloballaşma qadınların sosial və iqtisadi mövqeyinə ikili təsir göstərən mürəkkəb prosesdir. Bir tərəfdən beynəlxalq əmək bazarının genişlənməsi, sərhədsiz kommunikasiya imkanlarının artması və transmillilik qadınların qlobal inteqrasiyasını sürətləndirir, onların iqtisadi və intellektual potensialını

daha geniş müstəviyə çıxarır. Digər tərəfdən isə transmilli korporasiyaların fəaliyyət mexanizmləri və mədəniyyət ixracı yeni istismar formalarının yaranmasına, qadın əməyinin ucuz resurs kimi dəyərləndirilməsinə səbəb olur. Bu paradoks göstərir ki, qadın hüquqlarının qlobal miqyasda qorunması təkcə hüquqi mexanizmlərlə deyil, həm də mədəni müxtəliflik və sosial ədalət prinsiplərinə əsaslanan yanaşma ilə təmin edilməlidir.

Qadın hüquqları bəşəriyyətin mənəvi yetkinliyini və sosial tərəqqi səviyyəsini müəyyən edən fundamental göstəricidir. Tarixi təcrübə sübut edir ki, qadın azadlığının təmin olunduğu cəmiyyətlər daha ədalətli, sabit və yaradıcılıq potensialı yüksək olan sosial strukturlar formalaşdırır. Qadın və kişi arasında paritet balansı yalnız hüquqi bərabərlik məsələsi deyil, həm də etik və mədəni məsuliyyət məsələsidir. Hüquqi islahatlar dəyərlər sistemindəki dəyişikliklərlə müşayiət olunmadıqda, gender bərabərliyi formal səviyyədə qalır və real sosial nəticə doğurmur. Cəmiyyətin inkişafı qadının intellektual, sosial və mənəvi gücünün tanınması və dəyərləndirilməsi ilə ölçülür. Qadının azadlığı mədəniyyətin, hüququn və ədalətin azadlığı deməkdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Akarsu, E. (2019) Büyük Selçuklu Devleti'nde hatun/kadın ve siyasetteki rolü. Genç kalemler tarih araştırmaları dergisi, 6-cı say.
2. Beauvoir, S. (1980) Kadın Genç Kızlık Çağı. Payel Yayınları, İstanbul, 258.
3. Beauvoir, S. (1981) Kadın Evlilik Çağı. Payel Yayınları, İstanbul, 198.
4. Ferec, E. (1987) Abû'l-Farac Tarihi. Ankara, 315.
5. "Konstitusiya Araşdırmalar Fondu"- Azərbaycanda qadınların iştirakçılığı sahəsində mövcud vəziyyətin qiymətləndirilməsi" hesabatı. (2024) Bakı, 15.
6. Sevinç, N. (2007) Türklerde Kadın ve Aile. İstanbul: Bilgeoğuz Yayınları. 31.
7. www.acikerisim.aksaray.edu.tr
8. www.faktyoxla.info
9. www.unwomen.org

www.wikipedia.org

RƏQƏMSAL TRANSFORMASİYA: 21. ƏSRDƏ MEDİA SAVADLILIĞI VƏ İNFORMASİYA DAVRANIŞLARININ GƏRƏKLİLİYİ

Cavid Firdovsi ZEYNALOV
Selçuk Universiteti Sosial Elmlər İnstitutu
https://orcid.org/my-orcid?orcid=0000-0002-9669-737X
j.zeynalovf.@gmail.com

Xülasə: XXI əsr texnoloji tərəqqinin və rəqəmsal transformasiyanın ən intensiv yaşandığı dövrdür. Rəqəmsallaşma cəmiyyətin bütün sahələrinə, xüsusilə media mühitinə dərin təsir göstərmişdir. İnformasiya istehsalı, paylaşımı və istehlakı sürətlə artmış, auditoriya passiv istehlakçıdan aktiv iştirakçıya çevrilmişdir. Texnologiyalar yalnız gündəlik vərdişləri dəyişdirmir, həm də insanları onlara asılı vəziyyətə gətirir. Ənənəvi media vasitələrinin yerini rəqəmsal platformalar tutmuş, informasiya axını daha dinamik və əlçatan olmuşdur. Rəqəmsal imkanlar məlumat əldə etməyi asanlaşdırsa da, yanlış məlumatların yayılması, dezinformasiya və informasiya xaosu kimi riskləri də artırır. Bu şəraitdə media savadlılığı vacibdir. Fərdlər xəbərin mənbəyini yoxlamalı, faktların doğruluğunu dəyərləndirməli və məlumatı məsuliyyətlə paylaşmalıdır. Lakin media savadlılığı yalnız texnoloji biliklərlə ölçülmür; tənqidi düşüncə, etik məsuliyyət və analitik bacarıqların inkişafı informasiya davranışlarının formalaşmasında əsas rol oynayır. Keyfiyyət əsaslı tədqiqatlar göstərir ki, rəqəmsal transformasiya informasiya istehsalı və istehlak mədəniyyətini dəyişdirərək yeni kommunikasiya formaları yaradır və vətəndaşların informasiya məsuliyyətini artırır. Nəticədə, media savadlılığının inkişafı, etibarlı informasiya seçimi və məlumatın etik paylaşımı həm fərdi, həm də ictimai səviyyədə zəruri bacarıq kimi dəyərləndirilir.
Açar sözlər: rəqəmsallaşma, media savadlılığı, informasiya davranışları, rəqəmsal bərabərsizlik.

DIGITAL TRANSFORMATION: THE NECESSITY OF MEDIA LITERACY AND INFORMATION BEHAVIORS IN THE 21ST CENTURY

Javid Firdovsi ZEYNALOV
Selcuk University Institute of Social Sciences
https://orcid.org/my-orcid?orcid=0000-0002-9669-737X
j.zeynalovf.@gmail.com

Abstract: The 21st century marks the most intensive period of technological advancement and digital transformation. Digitalization has deeply influenced all aspects of society, particularly the media environment. Information production, sharing, and consumption have accelerated, transforming audiences from passive consumers into active participants. Technologies not only change daily habits but also make people increasingly dependent on them. Traditional media has been replaced by digital platforms, making information flow more dynamic and accessible. While digital tools facilitate information access, they also increase risks such as misinformation, fake news, and information overload. Media literacy has therefore become essential. Individuals must verify sources, evaluate facts, and share information responsibly. Media literacy is not limited to technological skills; critical thinking, ethical responsibility, and analytical abilities are crucial in shaping information behavior. Research indicates that digital transformation reshapes information production and consumption culture, creates new communication forms, and enhances citizens' information responsibility. Consequently, developing media literacy, selecting reliable information, and ethically sharing content are essential skills at both individual and societal levels.
Keywords: digitalization, media literacy, information behaviors, digital inequality.

ЦИФРОВАЯ ТРАНСФОРМАЦИЯ: НЕОБХОДИМОСТЬ МЕДИАГРАМОТНОСТИ И ИНФОРМАЦИОННОГО ПОВЕДЕНИЯ В XXI ВЕКЕ

Джавид Firdovsi ЗЕЙНАЛОВ
Институт социальных наук Сельчукского университета
https://orcid.org/my-orcid?orcid=0000-0002-9669-737X
j.zeynalovf.@gmail.com

Аннотация: XXI век считается периодом наибольшей интенсивности технологического прогресса и цифровой трансформации. Цифровизация глубоко повлияла на все сферы общества, особенно на медиасреду. Производство, распространение и потребление информации ускорились, превращая аудиторию из пассивных потребителей в активных участников. Технологии не только меняют привычки, но и делают людей зависимыми от них. Традиционные СМИ заменяются цифровыми платформами, что делает информационный поток более динамичным и доступным. Цифровые технологии облегчают доступ к информации, но также увеличивают риски, такие как дезинформация, фейковые новости и информационный хаос. Поэтому медиаграмотность становится необходимой. Люди должны проверять источники, оценивать факты и делиться информацией ответственно. Медиаграмотность включает не только технологические навыки, но и критическое мышление, этическую ответственность и аналитические способности. Исследования показывают, что цифровая трансформация изменяет культуру производства и потребления информации, формирует новые формы коммуникации и повышает информационную ответственность граждан. Таким образом, развитие медиаграмотности, выбор достоверной информации и этичное распространение контента являются необходимыми навыками как на индивидуальном, так и на общественном уровне.
Ключевые слова: цифровизация, медиаграмотность, информационное поведение, цифровое неравенство.

Giriş

XXI əsrdə dünyada sosial, iqtisadi və mədəni sistemlərin sürətli dəyişməsi yeni inkişaf mərhələsinin əsasını qoymuşdur. Bu mərhələnin mərkəzində dayanan əsas texnoloji inkişaf prosesi rəqəmsallaşma kimi ifadə olunur. Rəqəmsallaşma yalnız texnoloji modernləşmə deyil, həm də cəmiyyətin informasiya istehsalı, yayılması, təkmilləşməsi və istehlak mexanizmlərini köklü şəkildə dəyişdirən sosial-mədəni hadisədir. Xüsusilə rəqəmsallaşma prosesi ənənəvi kommunikasiya modellərini yenidən formalaşdıraraq informasiyanın mahiyyətini, auditoriyanın rolunu və ictimaiyyətin informasiya davranışlarını dəyişmişdir. Belə ki, rəqəmsallaşma anlayışı ilk mərhələdə analoq məlumatların rəqəmsal formata çevrilməsi kimi texniki mənaya malik idi. Lakin qloballaşma və informasiya texnologiyalarının inkişafı ilə bu anlayış sosial və mədəni transformasiyaların əsas göstəricisinə çevrilmişdir. Müasir mənada rəqəmsallaşma informasiyanın istehsalı, emalı, saxlanması və paylaşılmasının rəqəmsal texnologiyalar vasitəsilə həyata keçirilməsi kimi izah olunur. Bu prosesdə internet mühüm rol oynayır. İnternet, başlanğıcda 1960-cı illərdə ABŞ Müdafiə Nazirliyinə bağlı Qabaqcıl Araşdırma Layihələri Agentliyi (ARPA) tərəfindən inkişaf etdirilən ARPANET ilə formalaşmışdır. ARPANET fərqli kompüterlərin bir-biri ilə əlaqə qura bilməsi məqsədilə dizayn edilmiş şəbəkə infrastrukturu olaraq müasir internetin təməllərini atmışdır (Başaran, 2006).

Texnoloji inkişafların həyatın bütün sahələrinə nüfuz etməsi fərdlərin sosial və mədəni dinamikasında əhəmiyyətli dəyişikliklərə zəmin yaratmışdır. İnformasiya və emal texnologiyalarındakı irəliləyişlər nəticəsində ortaya çıxan rəqəmsal transformasiya əsasən kompüter və internetin inkişafı ilə bağlıdır. İnternetin inkişafı ilə birlikdə fərdlərin rəqəmsal bir quruluşda, yer və məkan fərqi olmadan bir araya gəlməsi qaçılmaz olmuşdur. Xüsusilə görüntü, video və mətn kimi fərqli məzmun növlərinin tək bir rəqəmsal platforma üzərindən ötürülməsi internetin dünya üzrə istifadəçilər tərəfindən informasiya paylaşım və ötürmə vasitəsi kimi mənimsənilməsini təmin etmişdir (Özbey, 2022).

1990-cı illərin ortalarından etibarən internetin istifadə sahələrinin genişlənməsi və kompüter istifadəçilərinin sayının artması, yeni bir dövrün başlanğıcı olaraq qiymətləndirilir. İnternetin bu dərəcədə intensiv şəkildə hər sahədə istifadə olunmağa başlaması, informasiya və rabitə texnologiyalarındakı yeniliklərlə birləşərək; xəbər təqibindən alış-verişə, ünsiyyətdən əyləncəyə qədər bir çox sahədə fərdin

gündəlik həyat təcrübələrinə dərindən təsir etmişdir. Bu vəziyyət, "şəbəkə cəmiyyəti" olaraq təyin olunan yeni bir ictimai quruluşun formalaşmasına zəmin hazırlamışdır. Qloballaşmadan sonra sosiallaşma proseslərinin yayılması, müasir dünyanın yeni dinamiklərini formalaşdırarkən, fərqli mədəni, iqtisadi və sosial quruluşları bir araya gətirərək şəbəkə cəmiyyəti yanaşmasının ortaya çıxmasına töhfə vermişdir (Söztutar, 2022). Manuel Castells (2001) bu prosesi "şəbəkə cəmiyyəti"nin əsas hərəkətverici qüvvəsi kimi qiymətləndirərək qeyd edir ki, rəqəmsal texnologiyalar sadəcə informasiya ötürmə vasitəsi deyil, həm də sosial münasibətlərin və iqtisadi strukturların təşkilatçısına çevrilmişdir.

Rəqəmsal transformasiya və onun mediaya təsiri

Rəqəmsal transformasiya dedikdə informasiya istehsalı, paylaşımı və istehlakının tamamilə dəyişməsi nəzərdə tutulur. Əvvəllər insanlar məlumatı yalnız qəzet, televiziya və radio kimi məhdud mənbələrdən əldə edirdilərsə, bu gün hər kəs sosial şəbəkələr və onlayn platformalar vasitəsilə həm istehlakçı, həm də istehsalçı statusundadır. Bu, informasiya ekosistemində fərdlərin bir neçə vəzifəni yerinə yetirmək hüququna sahib olmasını təmin edir. İnternet texnologiyasının rəqəmsallaşma prosesindəki rolu, Bell-in (1973) qeyd etdiyi kimi, sənaye cəmiyyətindən şəbəkə cəmiyyətinə keçidin baş verib-vermədiyi mövzusu ilə bağlıdır. Bell bu yanaşmada iqtisadi və sosial inkişafın əsas faktorlarının bilik və informasiyaya çevrildiyini vurğulayır. Bu arqumentlərə görə, istehsal və bölgü prosesləri bilik yönümlü amillərlə idarə olunur. Bəzi tədqiqatçılar isə "informasiya cəmiyyəti" anlayışını "şəbəkə cəmiyyəti" ifadəsi ilə eyniləşdirirlər (Stevenson, 2006).

Castells (2001) qeyd edir ki, rəqəmsal transformasiya informasiya istehsalını demokratikləşdirilməsinə böyük təsir göstərir. Artıq hər kəs telefon vasitəsilə xəbər yarada və paylaşa bilir. Bu, çoxsəsliliyi artırsa da, informasiya keyfiyyətində müəyyən risklər yaradır. Buna görə də 21-ci əsrdə düzgün davranış və media savadlılığı daha vacibdir (Güz, 2024). Texnoloji inkişafların həyatın bütün sahələrinə nüfuz etməsi fərdlərin sosial və mədəni dinamikasında əhəmiyyətli dəyişikliklərə zəmin yaratmışdır. İnformasiya və kommunikasiya texnologiyalarındakı irəliləyişlər nəticəsində ortaya çıxan rəqəmsal transformasiya əsasən kompüter və internetin inkişafı ilə bağlıdır.

Manovich (2001) isə rəqəmsal transformasiyanın ən köklü təzahürünü yeni media vasitələrinin inkişafında görür. Yeni media anlayışı 1970-ci illərdə ortaya çıxmış, 1990-cı illərdə internetin inkişafı ilə genişlənmişdir. Geniş mənada yeni media sosial şəbəkələr, onlayn xəbər portalları, bloglar, videobloqlar, forumlar və digər rəqəmsal kommunikasiya vasitələrini əhatə edir. 2000-ci illərdə sosial media gündəlik ünsiyyətin əsas hissəsinə çevrilərək həm əyləncə, həm də sosial və qlobal problemlərin müzakirə məkanı olmuşdur. Yeni medianın yüksəlişinin səbəbləri arasında informasiya sürətlə yayılması, interaktivlik imkanlarının mövcudluğu və istifadəçilərin həm istehlakçı, həm də istehsalçı kimi fəaliyyət göstərməsi yer alır. Ən əsası isə bu platformalar mobil telefon vasitəsilə hər kəs üçün əlçatandır; bir kliklə bütün dünyadan xəbərlərə çıxış mümkündür. Rogers (1994) yeni medianın üç əsas xüsusiyyətini qarşılıqlı təsir, eyni vaxtlı olmama və kütləsizləşmə kimi göstərir. Manovich (2001) isə yeni medianı beş əsas xüsusiyyət üzrə təhlil edir: rəqəmsal təmsil, modulluq, avtomatlaşdırma, dəyişkənlik və kod çevrilməsi.

Hər nə qədər rəqəmsal transformasiya insanların həyatında ünsiyyəti asanlaşdırsada, xüsusilə yeni media vasitələrinin yüksəlişi müəyyən çətinlikləri də ortaya çıxarmışdır. Ən böyük problemlər arasında dezinformasiya və saxta xəbərlərin sürətlə yayılması, həmçinin "informasiya baloncuğu" və ya "əks-səda otağı" nəzəriyyələrinin meydana çıxması yer alır (Narin, 2018). Belə bir dövrdə yeni media vasitələrinin həyatımıza daxil olması, insanlarda müəyyən boşluqların yaranmasına səbəb olmuşdur. İnformasiya mübadiləsində sosial media platformalarının birinci vasitə kimi qəbul olunması media savadlılığının müasir dövrdə oxuma-yazma bacarığı qədər zəruri olduğunu göstərir. Əgər keçmişdə savadlılıq sadəcə yazılı mətni başa düşmək idisə, bu gün media savadlılığı informasiyanın mənbəyini yoxlamaq, məzmunu qiymətləndirmək, təhlil etmək və şüurlu şəkildə istifadə etmək bacarığını da əhatə edir. İnformasiyanın çoxluğu və sürəti şəraitində ən böyük çətinlik fərdi fikir ilə məlumatı ayırd etməkdir. Sosial şəbəkələrdə paylaşılan xəbərlərin bir çoxu şəxsi fikir, şayiə və ya manipulyasiya məqsədi ilə hazırlanmış ola bilər. Media savadlılığı insanı bu kimi risklərdən qoruyur (Rogers, 1994).

Media savadlılığı müxtəlif formalardakı mesajlara çıxış, onları analiz və dəyərləndirmə bacarığı, media və

onun məzmununun fərqli tərəflərini anlamaq və müxtəlif kontekstlərdə ünsiyyət qurmaq kimi bacarıqları əhatə edir (Koltay, 2011; Brüssel Deklarasiyası, 2013; Taşkıran, 2007). W. J. Potter (2011) bildirir ki, insanlar həm real, həm də media dünyasında yaşayır; media savadlılığı isə bu iki dünyanın qarışmış reallığında sərhədləri ayırd etmək deməkdir. Media savadlısı olmaq medianı ağıllı və səmərəli istifadə etmək, media sənayesinin siyasi mövqeyi, inkişafı və iqtisadi quruluşu barədə məlumatlı olmaq, müxtəlif mənbələrdən gələn məlumatların doğruluğunu qiymətləndirmək, medianın fərdlər və cəmiyyət üzərində təsirini dərk etmək və müxtəlif media kanalları vasitəsilə demokratik və effektiv ünsiyyət qurmaq bacarığını nəzərdə tutur (Özad, 2011).

XXI əsr bəşəriyyətin ən sürətli texnoloji dəyişikliklərə şahidlik etdiyi dövr kimi səciyyələnir. Qloballaşma, internetin universallaşması və rəqəmsal texnologiyaların həyatın bütün sahələrinə inteqrasiyası informasiya istehsalı, ötürülməsi və istehlakı mexanizmlərini köklü şəkildə dəyişdirmişdir. Rəqəmsallaşma yalnız texnoloji yeniliklərin tətbiqi kimi deyil, həm də sosial, mədəni və iqtisadi münasibətlərin yenidən formalaşması kimi dəyərləndirilir. Bu prosesin ən çox təsir göstərdiyi sahələrdən biri media məkanıdır. Media həm informasiya istehsalının, həm də ictimai rəyin formalaşmasının əsas dayağı kimi rəqəmsal dövrdə tamamilə yeni mahiyyət qazanmışdır (Ölçekçi, 2020).

Ənənəvi mediadan rəqəmsal mediaya keçid təkcə texnoloji transformasiya deyil, həm də kommunikasiya mədəniyyətinin dəyişməsi deməkdir. Rəqəmsallaşma nəticəsində informasiya axını sürətlənmiş, mənbə və istehsal prosesi çoxşaxəlilik qazanmış, auditoriya isə passiv istehlakçıdan aktiv iştirakçıya çevrilmişdir. Rəqəmsal texnologiyalar insanı həm məzmun yaradıcısına, həm də informasiya axınının idarə-edicisinə çevirmişdir. İnformasiyanın asanlıqla pay-laşılması və manipulyasiya imkanlarının artması saxta xəbərlər, dezinformasiya və məlumat təhlükəsizliyi kimi problemləri gündəmə gətirmişdir. Buna görə də rəqəmsal media savadlılığı müasir dövrdə yalnız fərdi bacarıq deyil, həm də sosial məsuliyyət kimi qəbul olunur. İnsanların informasiyanı tənqidi düşüncə ilə qiymətləndirməsi, mənbələri düzgün seçməsi və informasiya davranışlarını etik çərçivədə tənzimləməsi ictimai sabitlik üçün vacibdir (Duran & Yeniceler, 2020).

İnformasiya davranışları və informasiya bərabərsizliyi

İnformasiya davranışları insanın məlumatı axtararkən, istifadə edərkən və paylaşarkən göstərdiyi vərdişlər və yanaşmalardır. Rəqəmsal dövrdə bu davranışlar yalnız fərdlərin gündəlik həyatına deyil, həm də sosial münasibətlərinə, ictimai diskursa və psixoloji sağlamlıqlarına birbaşa təsir göstərir. Fərdlər informasiya istehlakı zamanı emosiyalara qapılmadan, analitik düşüncə ilə xəbəri qiymətləndirməli, çox vaxt şokedici başlıqlar və sensasiyalı xəbərlərin diqqəti cəlb etmək məqsədilə hazırlanmasını nəzərə almalıdırlar. Əks halda, insanlar yanlış yönləndirilə bilər və dezinformasiyaya məruz qala bilərlər (Türkyılmaz, 2024).

Rəqəmsal transformasiya informasiya davranışlarını köklü şəkildə dəyişdirmişdir. Manuel Castells-in "Şəbəkə Cəmiyyəti" konsepsiyasında (2001) qeyd olunur ki, rəqəmsal texnologiyalar yalnız informasiya ötürmə vasitəsi deyil, həm də sosial və iqtisadi münasibətlərin təşkili üçün əsasdır. Castells həmçinin rəqəmsal bərabərsizlik problemini vurğulayır; rəqəmsal texnologiyalara çıxışın fərqli olması sosial və iqtisadi ayrı-seçkiliyi gücləndirir və cəmiyyət daxilində yeni stratifikasiyalar yaradır. van Dijk (2020) isə "rəqəmsal uçurum" anlayışını inkişaf etdirərək göstərir ki, kimin hansı imkanlarla, hansı məqsədlə və hansı səviyyədə rəqəmsal dünyaya qoşulduğu fərqlilikləri izah edir. Bu fərqlər yalnız texnoloji çıxışla bağlı deyil, həm də fərdlərin bilik səviyyəsi, sosial mühit və resurslarla bağlıdır. Nəticədə rəqəmsal bərabərsizlik həm fərdi, həm də kollektiv informasiya davranışlarına təsir göstərir. İnformasiya davranışları bir neçə əsas mərhələdən ibarətdir.

- Birincisi, "hər oxuduğuna inanma" prinsipidir; fərd məlumatı tənqidi qiymətləndirməli, mənbələri yoxlamalıdır.
- İkincisi, informasiya paylaşımı ilə bağlıdır: sosial mediada paylaşılan məlumatın nəticələri uzun müddət davam edə bilər, ona görə də əsas qayda "Əvvəl yoxla, sonra paylaş"dır.
- Üçüncüsü, informasiya emalı mərhələsidir; insan məlumatı oxuyub kənara qoymamalı, onu təhlil etməli, digər mənbələrlə müqayisə etməli və doğru nəticələr çıxarmalıdır. Bu, tənqidi düşüncə və analitik bacarıqların inkişafını təmin edir.

- Dördüncü mərhələ şəxsi təhlükəsizlik və onlayn məxfiliklə bağlıdır; şifrələrin güclü seçilməsi, şəxsi məlumatların qorunması və onlayn davranışların məsuliyyətli aparılması həm fərdi, həm də ictimai təhlükəsizlik üçün vacibdir.

Prensky (2001) informasiya davranışlarının əsas təsirini nəsillər arasındakı bacarıqlar və bilik fərqləri ilə əlaqələndirir. Bu kontekstdə "rəqəmsal yerlilər" və "rəqəmsal köçkünlər" anlayışları istifadə olunur. "Rəqəmsal yerlilər" 2000-ci illərdən sonra doğulmuş, uşaqlıqdan texnologiya ilə böyümüş nəsli ifadə edir. Onlar internet, ağıllı telefonlar və virtual mühitlər vasitəsilə gündəlik ünsiyyət və öyrənmə davranışlarını formalaşdırır və rəqəmsal dünyaya doğuşdan alışdıqları üçün əvvəlki nəsillərdən fərqli düşünür və öyrənirlər. "Rəqəmsal köçkünlər" isə texnologiya ilə daha gec tanış olmuş, istifadədə çətinlik çəkən və bacarıqları məhdud olan nəsli əhatə edir. Loos (2012) onları "rəqəmsal medianı müəyyən səviyyədə istifadə edə bilən yaşlı insanlar" kimi təsvir edir. Prensky həmçinin vurğulayır ki, fərqli nəsillərin texnologiyaya yanaşması məqsəd, bacarıq və təcrübə baxımından fərqlidir ki, bu da informasiya davranışlarında nəsillərarası fərqlərə səbəb olur.

Rəqəmsal transformasiya yalnız texnoloji dəyişiklik deyil, həm də sosial məsuliyyət və informasiya davranışlarının formalaşması məsələsidir. Sağlam informasiya davranışları olmadan rəqəmsal dövrdə düzgün qərar vermək mümkün deyil. Bu baxımdan, rəqəmsal bərabərsizlik və texnologiyaya çıxış fərqləri yalnız fərdi biliklərlə deyil, həm də sosial və iqtisadi amillərlə bağlıdır (Castells, 2001; van Dijk, 2020). Media savadlılığının artırılması və məlumatın etik paylaşımı fərdlərin həm şəxsi, həm də ictimai davranışlarının təkmilləşməsinə xidmət edir, tənqidi düşüncə və analitik bacarıqlarla informasiya məsuliyyətini təmin edir.

Beləliklə, XXI əsrdə rəqəmsal transformasiya həm informasiya mübadiləsinin sürətini və əlçatanlığını artırmış, həm də nəsillərarası fərqlər və rəqəmsal bərabərsizlik kimi çağırışlar yaratmışdır. Müasir cəmiyyətdə sağlam informasiya davranışları və media savadlılığı yalnız texnologiyaya çıxışla ölçülmür, eyni zamanda etik və sosial məsuliyyətlə də sıx bağlıdır.

Nəticə

Rəqəmsallaşma prosesi XXI əsrin qlobal inkişaf dinamikasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu proses təkcə texnoloji tərəqqi deyil, həm də sosial, mədəni və iqtisadi münasibətlərin strukturunu dəyişdirən çoxşaxəli bir transformasiyadır. Xüsusilə media və kommunikasiya sahəsi bu transformasiyanın ən həssas və sürətlə dəyişən sahələrindən biri kimi çıxış edir. İnformasiya istehsalının, paylaşımının və istehlakının rəqəmsal müstəviyə keçməsi nəticəsində jurnalistika ənənəvi sərhədlərini aşmış, yeni media formatları, platformalar və kommunikasiya modelləri yaranmışdır.

Rəqəmsal texnologiyalar mediada demokratikləşmə prosesini gücləndirmiş, fərdlərə öz fikirlərini ifadə etmək, ictimai diskussiyalarda iştirak etmək və qlobal informasiya axınında söz sahibi olmaq imkanı yaratmışdır. Bununla yanaşı, bu açıq və çoxsəslilik mühiti informasiya bolluğu, dezinformasiya, saxta xəbərlər və alqoritmik manipulyasiya kimi riskləri də özü ilə gətirmişdir. Belə bir şəraitdə media savadlılığı, tənqidi düşüncə və etik dəyərlərə əsaslanan kommunikasiya bacarıqları daha da önəm kəsb edir.

Eyni zamanda, rəqəmsallaşma mediada yeni iqtisadi modellərin və peşəkar rolların formalaşmasına şərait yaradır. Məsələn, süni intellekt və avtomatlaşdırma texnologiyaları xəbər istehsalında və redaktə proseslərində operativliyi artırsa da, jurnalistikanın etik məsuliyyətini və insan amilini tam əvəz etmir. Bu baxımdan, texnologiyanın gətirdiyi imkanlardan məsuliyyətli və balanslı şəkildə istifadə etmək müasir media sistemlərinin əsas vəzifələrindən biri olacaqdır.

Rəqəmsallaşmanın gətirdiyi bu dəyişikliklər yalnız media məkanında deyil, ümumilikdə cəmiyyətin informasiya mədəniyyətində də dərin iz buraxır. İnformasiya ekosistemində şəffaflıq, etibarlılıq və ictimai məsuliyyət anlayışları artıq yeni dövrün əsas meyarlarına çevrilir. Bu səbəbdən gələcəkdə rəqəmsal media mühitinin inkişafı yalnız texnoloji tərəqqi ilə deyil, həm də sosial şüurun, etik dəyərlərin və mədəni uyğunlaşmanın səviyyəsi ilə müəyyən olunacaqdır.

Nəticə etibarilə, rəqəmsallaşma dövründə media təkcə məlumatın ötürüldüyü vasitə deyil, həm də cəmiyyətin özünüifadə platformasına çevriləcəkdir. Bu proses mediadan daha çox şəffaflıq, məsuliyyət və innovativ düşüncə tələb edir. Gələcəyin media sistemi süni intellekt, interaktivlik və fərdiləşdirilmiş kommunikasiya kimi meyillər üzərində qurulacaq, lakin onun əsas dəyəri etibarlılıq və ictimai inam insan faktoru ilə müəyyən olunmağa davam edəcəkdir.

Rəqəmsal transformasiya informasiya dünyasını köklü şəkildə dəyişmişdir. Ənənəvi medianın yanında

yeni media yüksəlmiş, hər bir insan informasiya istehsalçısı və yayıcısına çevrilmişdir. Bu isə həm imkanlar, həm də risklər yaradır.Yanlış xəbərlər, dezinformasiya, manipulyasiya və informasiya asılılığı kimi problemlər müasir dövrdə daha geniş yayılmışdır. Bu şəraitdə media savadlılığı və düzgün informasiya davranışları hər bir fərd üçün həyati bacarıqdır. Onlar insanı yalnız fərdi səviyyədə deyil, ictimai müstəvidə də qoruyur. Əgər cəmiyyətin hər bir üzvü informasiya ilə məsuliyyətli davranarsa, dezinformasiya ilə mübarizə asanlaşar, ictimai etimad güclənər və sağlam informasiya mühiti formalaşar.

Bu səbəbdən də media savadlılığı XXI əsrin əsas vətəndaşlıq bacarıqlarından biri kimi qəbul edilməlidir.Yekunda demək olar ki, hər bir insanın üzərinə düşən vəzifə isə informasiya istehlakı və paylaşımı zamanı şüurlu, analitik və məsuliyyətli olmaqdır. Belə olduqda rəqəmsal transformasiyanın yaratdığı imkanlardan maksimum fayda götürmək, riskləri isə minimuma endirmək mümkündür.

ƏDƏBİYYAT SİYAHISI:

Arabacı, İ. B., & Polat, M. (2013). Dijital yerliler, dijital göçmenler ve sınıf yönetimi. Elektronik Sosyal Bilimler Dergisi, 12(47), 11-20.

Başaran, F. (2006). Bir teknolojik yenilik olarak internetin tarihi: ulusal yenilik sistemi, kamu politikaları ve standartlar. Kültür ve İletişim, 9(18), 9-32.

Bell, D. (1973). The coming of post-ındustrial society: a venture in social forecasting. New York: Basic Books Inc.

Bilgiç Doğan, H. G., Doğan, D., & Seferoğlu, S. S., (2011). Dijital yerlilerin özellikleri ve çevrim içi ortamların tasarlanmasındaki etkileri . XIII. Akademik Bilişim Konferansı (AB11) Bildirileri, 257-263. İnönü Üniversitesi, Malatya. (pp.257-263). Turkey

Brüssel Deklarasiyası. (2013). http://www.declarationdebruxelles.be/en/declarationaccueil.php (İstifadə edilmə tarixi: 07.10.2025).

Castells, M. (2001). The internet galaxy: reflections on the internet, business, and society. New York: Oxford University Press.

Demirli, C., & Kütük, Ö. F. (2010). Anlamsal web (web 3.0) ve ontolojilerine genel bir bakış. İstanbul Ticaret Üniversitesi Fen Bilimleri Dergisi, 9(18), 61-71.

Dilmen, N. (2014). Yeni medya kavramı çerçevesinde internet günlükleri-bloglar ve gazeteciliğe yansımaları. Marmara İletişim Dergisi, 12(12), 113-122.

Duran, K. N., & Yeniceler, İ. (2019). Gelenekselden yeni medyaya geçiş sürecinde içerik üretimi sürecinin dönüşümü: Cüneyt Özdemir youtube kanalı. Yeni Medya Elektronik Dergisi, 3(3), 200-212.

Güz, N. (2024). Medya okuryazarlığından medya yazarokurluğuna geçiş. Kastamonu İletişim Araştırmaları Dergisi, 13, 1-15. https://doi.org/10.56676/kiad.1534022

Karabulut, B. (2015). Bilgi toplumu çağında dijital yerliler, göçmenler ve melezler. Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 21, 11-23.

Koltay, T. (2011). The media and the literacies: media literacy, ınformation literacy, digital literacy. Media Culture Society, 33(2), 211-221.

Loos, E. (2012). Senior citizens: Digital immigrants in their own country? Observatorio (OBS*) Journal, 6(1), 1-23.

Manovich, Lev (2001). The language of new media. Cambridge: The MIT Press.

Narin, B. (2018). Kişiselleştirilmiş çevrimiçi haber akışının yankı odası etkisi, filtre balonu ve siberbalkanizasyon kavramları çerçevesinde incelenmesi. Selçuk İletişim, 11(2), 232-251. https://doi.org/10.18094/josc.340471

Ölçekçi, H. (2020). Dijital iletişim ve küresel kültürel etkileşimin homojenleşme, kutuplaşma ve melezleşme süreçleri. İletişim Kuram ve Araştırma Dergisi, 50, 146-163.

Özad, B. E. (2011). Medya okuryazarlığı ve yetişkinlerin öğrenmesi. Nurçay Türkoğlu & Melda Cinman Şimşek (Ed.,). Medya okuryazarlığı. İstanbul: Parşomen Yayıncılık.

Özbey, İ. B. (2022). Dijitalleşme, sosyal medya ve risk toplumu. İmgelem, 6(10), 141-158. https://doi.org/10.53791/imgelem.1053815

Potter, W. J. (2011). Media literacy. California: SAGE Publications.

Prensky, M. (2001). Digital natives, digital immigrants. On the Horizon, 9(5), 1–6.

Rogers, E. M. (1994). A history of communication study: A biographical approach. New York: Free Press.

Söztutar, M. (2022). Ağ toplumu yaklaşımının kırsal alanların dönüşümü üzerine etkileri. Manisa

Celal Bayar Üniversitesi Sosyal Bilimler Dergisi, 20(Özel Sayı), 59-76. https://doi.org/10.18026/cbayarsos.1067189

Stevenson, N. (2006). Medya kültürleri: sosyal teori ve kitle iletişimi. Ankara: Ütopya Yayınevi.

Taşkıran, N. Ö. (2007). Medya okuryazarlığına giriş. İstanbul: Beta Yayınları.

Turkyılmaz, S. (2024). Dijital dönüşüm: tarihçesi, tanımı ve işletmeler üzerindeki etkisi. Nişantaşı Üniversitesi Sosyal Bilimler Dergisi, 12(1), 276-297. https://doi.org/10.52122/nisantasisbd.1459265

van Dijk, J. (2020). The digital divide. New York: Polity Press.

ПРОБЛЕМА ПОТЕРИ УНИВЕРСАЛЬНЫХ НРАВСТВЕННЫХ ПРИНЦИПОВ (НА МАТЕРИАЛЕ РАССКАЗА Т. ТОЛСТОЙ «СОНЯ»)

Айсу Джалил ЗАМАНОВА
Бакинский Государственный Университет, Докторант
Orcid ID: 0009-0003-7223-2281
E-poçt: aysuzamanova00@gmail.com

Аннотация. Данная статья посвящается проблеме утраты универсальных нравственных принципов в литературе на материале произведения Т. Толстой «Соня». На примере рассказа идёт сравнение с классическими произведениями, такими как «Станционный смотритель» А.С. Пушкина, «Преступление и наказание» Ф.М. Достоевского, а также повесть «Гранатовый браслет» А.И. Куприна. Анализируются образы Сони Т. Толстой, Сони Мармеладовой и Раскольникова Ф.М. Достоевского, Самсона Вырина А.С. Пушкина, Георгия Желткова А.И. Куприна. В работе использованы сравнительно-типологический и интертекстуальный методы, что помогает выявить глубокие связи произведений разных эпох и показать эволюцию представлений авторов о морали, духовной красоте и любви. Писатель исследует, как внутренний мир персонажей раскрывает бескорыстную любовь, нравственную стойкость и духовное величие, где прослеживается противопоставление их циничным и аморальным героям (Ада Адольфовна, офицер Минский). Уделяется особое внимание аллюзиям и символам, при помощи которых усиливается нравственный посыл произведений, создаётся сопоставление традиций классической литературы в соотношении с современными художественными приёмами. Из работы видно то, что нравственное падение общества начинается с равнодушия, а духовная сила личности героев проявляется через любовь, самопожертвование и сострадание. В произведениях Т. Толстой и А.И. Куприна показывают, как внутренний мир героя в силах сохранять моральные и эмоциональные ценности даже в условиях постсоветского (постморального) хаоса. В сравнительном анализе с классической литературой подчеркивается преемственность и развитие русской литературы в исследовании человеческой души и личности, примером которого выступает рассказ «Соня». Через общие черты героев, их душевную борьбу, несправедливость общества иллюстрируется душа, ставшая жертвой несчастной судьбы. В заключении работы утверждается, что литературный персонаж способен привлекать эмпатию читателя и побудить дискурс о социальной ответственности перед человечностью и об исторической памяти. Данная работа представляет интерес для исследователей литературы, гуманитарной этики и культурологии, впоследствии предлагая методологические и теоретические выводы. При помощи исследования выявляется образовательный потенциал художественного текста, формирующего нравственное сознание.
Ключевые слова: нравственность, классика, интертекстуальность, духовная чистота, падение, метод, личность.

UNİVERSAL ƏXLAQİ PRİNSİPLƏRİN İTİRİLMƏSİ PROBLEMİ (T. TOLSTOYANIN "SONYA" HEKAYƏSİ ƏSASINDA)

Aysu Cəlil ZAMANOVA
Bakı Dövlət Universiteti, doktorant
ORCID ID: 0009-0003-7223-2281
E-poçt: aysuzamanova00@gmail.com

Xülasə: Bu məqalə T. Tolstayanın "Sonya" əsərinin maaterialında ədəbiyyatda universal əxlaqi prinsiplərin itirilməsi probleminə həsr olunmuşdur. Hekayə nümunəsində A.S. Puşkinin "Stansiya nəzarətçisi", F.M. Dostoyevskinin "Cinayət və cəza" kimi klassik əsərləri, həmçinin A.İ. Kuprinin "Nar bilərziyi" povesti ilə müqayisə edilir. T. Tolstayanın Sonya, F.M. Dostoyevskinin Sonya və Raskolnikov, A.S. Puşkinin Samson Vırin, A.İ. Kuprinin Georgi Jeltkov obrazları təhlil edilir. Əsərdə müxtəlif dövrlərin əsərlərinin dərin əlaqələrini aşkar etməyə və müəlliflərin əxlaq və mənəvi gözəllik və sevgi haqqında təsəvvürlərinin təkamülünü göstərməyə kömək edən müqayisəli-tipoloji ve intertekstual metodlardan istifadə edilmişdir. Yazıçı personajların daxili aləminin onların kinli və mənəviyyatsız qəhrəmanlara (Ada Adolfovna, zabit Minski) qarşı çıxdığı fədakar sevgi, mənəvi dözümlülük və mənəvi böyüklüyü necə ortaya qoyduğunu araşdırır. Əsərlərin mənəvi mesajını gücləndirən klassik ədəbiyyat ənənələrini müasir bədii üsullarla müqayisə edən allyuziya və simvollara xüsusi diqqət yetirilir. Əsərdən aydın olur ki, cəmiyyətin mənəvi çöküşü laqeydlikdən başkayır və qəhrəmanların şəxsiyyətinin mənəvi gücü sevgi, fədakarlıq və şəfqət vasitəsilə özünü göstərir. T. Tolstaya və A.İ. Kuprinin əsərlərində qəhrəmanın daxili dünyasının postsovet (postmoral) xaos şəraitində belə mənəvi və emosional dəyərləri necə qoruyub saxlaya biləcəyini göstərirlər. Klassik ədəbiyyatla müqayisəli təhlildə insan ruhu və şəxsiyyətinin tədqiqində rus ədəbiyyatının davamlılığı və inkişafı vurğulanır, onun nümunəsi "Sonya" hekayəsidir. Qəhrəmanların ümumi xüsusiyyətləri, onların mənəvi mübarizəsi, cəmiyyətin ədalətsizliyi ilə bədbəxt taleyin qurbanı olan ruh təsvir olunur. Əsərin yekununda deyilir ki, ədəbi personaj oxucunun empatiyasınl cəlb edə və insanlıq tarixi yaddas qarşısında sosial məsuliyyət haqqında

diskursları təşviq edə bilər. Bu əsər ədbiyyat, humanitar etika və kulturologiya tədqiqatçılarını maraqlandırır, metodoloji və nəzəri nəticələr verir. Tədqiqatın köməyi ilə mənəvi şüuru formalaşdıran bədii mətnin təhsil potensialı aşkar edilir.
Açar sözlər: əxlaq, klassika, intertekstuallıq, mənəvi saflıq, çöküş, şəxsiyyət.

THE PROBLEM OF THE LOSS OF UNIVERSAL MORAL PRINCIPLES (BASED ON T. TOLSTAYA'S SHORT STORY "SONYA")

Aysu Jalil ZAMANOV
Baku State University, PhD student
ORCID ID: 0009-0003-7223-2281
E-mail: aysuzamanova00@gmail.com

Abstract. This article is devoted to the problem of the loss of universal moral principles in literature based on the material of T. Tolstaya's work "Sonya". The example of the story compares with classical works, such as "The Station-master" by A.S. Pushkin, "Crime and punishment" by F.M. Dostoevsky, as well as the story "Pomegranate bracelet" by A.I. Kuprin. The images of Sonya of T. Tolstaya, Sonya Marmeladova and Raskolnikov of F.M. Dostoevsky, Samson Vyrin of A.S. Pushkin, Georgy Zheltkov of A.I. Kuprin. The work uses comparative typological and intertextual methods, which helps to reveal the deep synthesis of works of different eras and show the evolution of the authors' ideas about morality, spiritual beauty and love. The writer explores how the inner world of the characters reveals disinterested love, moral fortitude and spiritual greatness, where there is a contrast between their cynical and immoral heroes (Ada Adolfovna, officer Minsky). Special attention is paid to allusions and symbols, with the help of which the moral message of the works is strengthened, a comparison of the traditions of classical literature in relation to modern artistic techniques is created. From the work it can be seen that the moral decline of society begins with indifference, and the spiritual strength of the personality of the heroes is manifested through love, self-sacrifice and compassion. The works of T. Tolstaya and A.I. Kuprin show how the inner world of the hero is able to maintain moral and emotional values even in the conditions of post-Soviet (post-moral) chaos. Comparative analysis with classical literature emphasizes the continuity and development of Russian literature in the study of the human soul and personality, an example of which is the story "Sonya". Through the common features of the heroes, their spiritual struggle, the injustice of society, the soul is illustrated, which has become a victim on an unhappy fate. In the conclusion of the work, it is argued that the literary character is able to attract the empathy of the reader and encourage a discourse about social responsibility to humanity and historical memory. This work is of interest to researchers of literature, humanitarian ethics and cultural studies, subsequently offering methodological and theoretical conclusions. With the help of research, the educational potential on an artistic text that forms moral consciousness is revealed.
Key words: morality, classics, intertextuality, spiritual purity, fall, method, personality.

Введение

Из числа современных российских писателей особый интерес литературоведов вызывает творчество Татьяны Толстой. Её имя с начала нового тысячелетия появляется в обзорах современной русской литературы, где теоретики и критики единогласно относят Толстую к представителям писателей новой волны. Произведения Т. Толстой воздействуют на читательскую аудиторию необыкновенной виртуозной формой, где следует выделить неповторимый стиль, яркий юмор, утончённые психологические портреты, способствующие к размышлениям и восприятию сюжета с некоей долей иронии.

Целью данной работы является рассмотрение уникального стиля автора, характеризующегося активным использованием интертекстуальных приёмов. Особым мастерством Татьяна Толстая связывает истории с другими текстами, предлагает собственную интерпретацию, что делает манеру её повествования отличительной. Произведения Толстой представляют собой многослойное художественное произведение, которые насыщены цитатами, заимствованиями и отсылками, метафорами и острой сатирой. В ходе исследования были использованы сравнительно-типологический метод и метод наблюдения.

Известный лингвист и литературовед А. Жолковский отмечает тесное переплетение произведений Татьяны Толстой с традициями незаурядных русских и западноевропейских писателей и поэтов. Смелое использование интертекстуальных приёмов и символов из разных литературных эпох и направлений позволяет расширить границы повествования и синтезирует культурные контексты прошлого и настоящего, где создаётся возможность для диалога между эпохами. Для исследователя одним из важных факторов является детальное знание исторической

литературной картины, предпочтения читателей и мировоззрения писателя, что позволяет выявить скрытые аллюзии. С этой помощью мы можем глубже проникать во внутренний мир персонажей, и тем самым, раскрыть их характеры. Аллюзии встречаются не только в отсылках, но и в отдельных словах, в именах героев, либо в распространённых названиях. Писательница нередко придаёт этим трансформациям комический оттенок, формирует субъективную интепретацию, что способствует аллегоризации и формированию целостного представления мира автором. [Жолковский А., 2005]

«*Зорко одно лишь сердце. Самого главного глазами не увидишь*.» - данные слова из рассказа «Маленький принц» Антуана Де Сент-Экзюпери кажутся вполне значимыми. С этих слов хотелось бы начать анализ необыкновенно интересного рассказа Т. Толстой «Соня». Ибо, первое, что приходится на ум после прочтения этого произведения, это осознание того, насколько глубоко проникает эта история, насколько чутко мастер слова описывает мир простой человеческой души. Вернее сказать – сложной человеческой души, показывая тем самым её сложность и многогранность.

Существуют определённые имена, при упоминании которых, становится явной участь того, кто является его обладателем. Неспроста рассказ назван Т. Толстой – «Соня». Имя нашей героини сразу настраивает человека на несомненный лад, предвещающий несчастную судьбу, тяжёлые испытания. Однако, её судьбу не стоит называть горестной: она переживает любовь, пусть и идеализированную, но ведь именно это чувство придаёт особый смысл её существованию. Героиня Толстой не осуждает окружающих, не требует никакой справедливости ради себя, не сетует на жизнь, и мы также не вправе ни судить её поведение, ни её любовь. Соня выбирает любить, не ожидая ничего взамен. Этот её поступок достоин похвалы. Ещё А.С. Пушкин писал, что «любви все возрасты покорны». Автор же таким её поведением подчёркивает, указывая на то, что любви все времена покорны.

Столкновение мира иллюзий и реальности, духовного и материального является ключевой темой в рассказе «Соня» (1984). Этот мотив ранее звучал в классической русской литературе благодаря подобным образам Сонечек из произведений Ф.М. Достоевского («Преступление и наказание»), Л.Н. Толстого («Война и мир»). Несмотря на то, что мировоззрение и время действия в данных произведениях различаются, этих героинь объединяет многое: жертвенность, кроткость, смиренность.

С самого начала произведения, писательница погружает нас в философские размышления: «*Жил человек и нет его. Только имя осталось – Соня*» [Толстая Т., 2015]. Акцентируется внимание на жизненный срок человека, которого рано или поздно не станет. А жизнь ведь не кончается смертью, ибо, пока чтут тебя, душа будет жить в покое, и имя будет жить вечно. Нашу Сонечку также помнят, однако немного иначе. В начале рассказа Соня предстаёт перед нами в образе «дуры», «глупышки», но это всего лишь первое впечатление, где выражается объективное отношение со стороны общества. Т. Толстая создаёт портрет причудливой девушки, объекта розыгрышей, издевательств и насмешек – «*Соня была дура. Это её качество никто никогда не оспаривал, да теперь уж и некому*» [Толстая Т., 2015]. Писательница заставляет нас заглянуть во внутренний мир, в душу Сонечки, чтобы пробудить в нас истинные «человеческие» чувства и отдалиться от мишуры, от всего показного. Именно такая натура наделяется даром, способным глубоко, бескорыстно и искренне любить всех до единого, а в большей мере – детей, какими бы они не были. «*– Её готовность погулять с чужими детьми и даже посторожить их сон, если все шумной компанией отправляются на какое-нибудь неотложное увеселение*» [Толстая Т., 2015]. Поразительна любовь, которую она испытывает к совершенно незнакомому человеку, которого ни разу в жизни не видала, не слыхала его голосочка, но тем не менее – влюбилась без ума. С одной стороны, это может казаться сумасшествием, а с другой – автор таким образом возвышает чувства героини, ибо она влюбилась в душу человека, и, возможно, она влюбилась в то, что ей стали интересоваться, её мысли стали важны кому-то в этой жизни, где ею всегда пытались пользоваться. «*Но ведь нельзя же быть эгоистами и пользоваться Соней в одиночку: другим она тоже могла быть нужна. В общем, управлялись, устанавливали какую-то разумную очередь*» [Толстая Т., 2015].

Рассуждая об истинной любви, приходим к выводу, что любовь Сони выступает перед нами как блаженное юродство, как праведность, как нечто, не относящееся к этому миру – неземная любовь. В этом, возможно, парадокс и трагедия героини. Соня остаётся верной и покорной иллюзорному образу, Николаю, что можно сравнить с любовью, обращённой к Богу. Подобно тому, как верующие верят в него, не видя его воочию, любят его безвозмездно. У Л.Н. Толстого в романе

«Война и мир» через речь Андрея Болконского раскрывается суть божественной любви, который познаёт это чувство первый раз в жизни при столкновении со смертью. По мнению великого писателя, «божественная любовь» наивысшая степень любви, когда человек испытывает любовь не только к ближнему своему, но и способен любить врага своего. Только лишь такая любовь непоколебима, ибо она отражает истинное призвание человека – способность к самопожертвованию во имя и счастье другого.

Aparılan tədqiqatlar göstərir ki, müasir informasiya mühitinin yeniyetmələrə təsiri çoxqatlı və ziddiyyətlidir. Rəqəmsal texnologiyalar onların dünyagörüşünü, biliklərə çıxış imkanını və ünsiyyət dairəsini genişləndirsə də, nəzarətsiz informasiya axını bəzən emosional sabitliyi pozur və davranış reaksiyalarını dəyişdirir. Sosial şəbəkələrdə zorakı paylaşımlar, aqressiv oyunlar və təhqiramiz ifadələrin normallaşması nəticəsində yeniyetmələrdə empatiya hissi zəifləyir, emosional gərginlik artır. Onlayn rəqabət, bəyənilmə tələbi və başqaları ilə müqayisə isə özünəinamın azalmasına və mənfi özünüdərkin formalaşmasına gətirib çıxarır. Beləliklə, informasiya mühitinin təsiri həm konstruktiv, həm də destruktiv ola bilər və bu, uşağın sosial mühitindəki dəstək səviyyəsindən birbaşa asılıdır.

Tədqiqat nəticələri bir daha təsdiq edir ki, aqressiv davranışın qarşısını almaq yalnız fərdi səviyyədə deyil, həm də ailə və məktəb mühitində koordinasiyalı fəaliyyətlə mümkündür. Profilaktik tədbirlər sistemli, mərhələli və tərbiyə yönümlü olmalıdır. Burada məqsəd cəzalandırmaq deyil, davranışın kök səbəblərini anlamaq və emosional tənzimləmə bacarığını inkişaf etdirməkdir. Aşağıdakı istiqamətlər bu baxımdan daha səmərəli hesab olunur:

1. Emosional savadlılıq təlimləri – yeniyetmələrə öz hisslərini düzgün tanımaq, idarə etmək və sosial vəziyyətlərdə adekvat reaksiya verməyi öyrədir. Belə təlimlərdə iştirak edən uşaqlar impulsiv davranışlarını daha asan tənzimləyir və konfliktlərdən uzaq durmağı bacarırlar.
2. Sosial-emosional öyrənmə proqramları – empatiya, qarşılıqlı hörmət, əməkdaşlıq və məsuliyyət kimi sosial dəyərləri gücləndirir. Bu proqramlar sinif daxilində pozitiv mühit yaradır, zorakılıq hallarının qarşısını alır və münasibətlərin keyfiyyətini yüksəldir.
3. Ailə və məktəb əməkdaşlığı – uşağın rəqəmsal fəaliyyətinə nəzarət, vaxt bölgüsü və davranış qaydalarının tənzimlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Valideyn və müəllim arasında qarşılıqlı əlaqə uşağın onlayn mühitdəki risklərlə daha asan mübarizə aparmasına kömək edir.
4. Psixoloji məsləhət və qrup terapiyası – aqressiv meyllərin fərdi səviyyədə tənzimlənməsi və sosial adaptasiyanın gücləndirilməsi üçün effektiv vasitədir. Belə proqramlar uşaqlara öz hisslərini ifadə etməyi, başqalarını dinləməyi və alternativ davranış formaları seçməyi öyrədir.

Bütün bu tədbirlər yalnız bir istiqamətdə deyil, bir-birini tamamlayan şəkildə həyata keçirilməlidir. Dövlət və ictimai təşkilatlar tərəfindən media savadlılığın artırılması, təhlükəsiz internet istifadəsi və onlayn etik davranış qaydalarının təbliği bu prosesin mühüm hissəsidir. Həmçinin sosial platformalarda uşaqlara zərərli məzmunun məhdudlaşdırılması, filtrasiya mexanizmlərinin təkmilləşdirilməsi və maarifləndirici kampaniyaların təşkili də vacibdir.

Ümumiləşdirsək, yeniyetmələrin aqressiv davranışlarının informasiya mühitindən qaynaqlanan risklərini aradan qaldırmaq üçün kompleks, çoxsəviyyəli yanaşma zəruridir. Psixoprofilaktik modelin əsas məqsədi aqressiyanı cəza ilə deyil, maarifləndirmə, emosional tənzimləmə və sosial dəstək vasitəsilə idarə etməkdir. Uzunmüddətli dövrdə belə yanaşma gənclərdə empatiya, özünüdərk və sosial məsuliyyət hissinin formalaşmasına, cəmiyyət daxilində isə daha sağlam psixoloji mühitin bərqərar olmasına şərait yaradır.

ƏDƏBIYYAT SIYAHISI:

1. Anderson, C. A., & Bushman, B. J. (2002). Human aggression. Annual Review of Psychology, 53(1), 27–51. https://doi.org/10.1146/annurev.psych.53.100901.135231
2. Craig, W. M., Boniel-Nissim, M., & King, N. (2020). Social media use and cyber-aggression: A longitudinal analysis of youth in 40 countries. Computers in Human Behavior, 104, 106–125. https://doi.org/10.1016/j.chb.2019.106315
3. Gentile, D. A., Coyne, S., & Walsh, D. A. (2011). Media violence, physical aggression, and relational aggression in school-age children: A short-term longitudinal study. Aggressive Behavior, 37(2), 193–206. https://doi.org/10.1002/ab.20380
4. Kircaburun, K., & Griffiths, M. D. (2019). Problematic Instagram use: The role of perceived feeling of presence and escapism. International Journal of Mental Health and Addiction, 17(4), 909–923. https://doi.org/10.1007/s11469-018-9899-7
5. Király, O., Urbán, R., Griffiths, M. D., Ágoston, C., Nagygyörgy, K., Kökönyei, G., & Demetrovics, Z. (2014). Problematic gaming behavior and personality traits among adolescents. Journal of Behavioral Addictions, 3(1), 44–49. https://doi.org/10.1556/JBA.3.2014.4
6. Livingstone, S., & Smith, P. K. (2014). Annual research review: Harms experienced by child users of online and mobile technologies: The nature, prevalence and management of sexual and aggressive risks in the digital age. Journal of Child Psychology and Psychiatry, 55(6), 635–654. https://doi.org/10.1111/jcpp.12197
7. Subrahmanyam, K., & Šmahel, D. (2011). Digital youth: The role of media in development. New York: Springer. https://doi.org/10.1007/978-1-4419-6278-5
8. Tokunaga, R. S. (2010). Following you home from school: A critical review and synthesis of research on cyberbullying victimization. Computers in Human Behavior, 26(3), 277–287. https://doi.org/10.1016/j.chb.2009.11.014
9. Valkenburg, P. M., & Peter, J. (2013). The differential susceptibility to media effects model. Journal of Communication, 63(2), 221–243. https://doi.org/10.1111/jcom.12024
10. Əlixanova, G. H. (2021). Yeniyetmələrdə davranış pozuntularının təzahür xüsusiyyətləri. Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, 1, 55–60. Azərbaycan Dövlət Pedaqoji Universiteti.

DOİ: 10.32010/CCXW5086

MƏHKUMLARDA EMOSİONAL İNTELLEKTİN GENDER XÜSUSİYYƏTLƏRİ

Aytən İlham ALIŞANLI
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0000-0706-550X
E-mail: alishanli.aytan.ilham@bsu.edu.az

Xülasə: Təqdim olunan məqalədə məhkumların emosional zəkasının gender xüsusiyyətləri kontekstində öyrənilməsi məsələsi araşdırılır. Eyni zamanda, müxtəlif modellər çərçivəsində emosional zəkanın struktur komponentləri təhlil edilmiş, eləcə də gender fərqləri şərh edilmişdir. Psixoloji tədqiqatlarda və penitensiar təcrübədə emosional zəkanın genderə xas xüsusiyyətlərinin nəzərə alınması təkcə nəzəri deyil, həm də tətbiqi əhəmiyyət kəsb edir və məhkumların uğurlu reinteqrasiyası üçün elmi və metodoloji əsas yaradır. Məqalədə empatiya sahəsində kişilər və qadınlar arasında fərqlərin müəyyən edilməsinə həsr olunmuş tədqiqatlara xüsusi diqqət yetirilir. Gender fərqlərinin məhkumların emosional inkişaf səviyyəsinə, onların cinayətkar davranışlarına və sosial qarşılıqlı əlaqələrin xüsusiyyətlərinə təsiri təhlili aparılmışdır. Penitensiar təcrübə çərçivəsində məhkumlar üçün emosional zəka səviyyələri və gender xüsusiyyətləri nəzərə alınmaqla islah proqramlarının hazırlanmasının zəruriliyi vurğulanır. Bundan əlavə, emosional zəkanın inkişafi üçün proqramların tətbiqinin aqressivliyin azalmasına, münaqişələrin həllinin konstruktiv yollarının formalaşmasına və reabilitasiya tədbirlərinin effektivliyinin artmasına töhfə verdiyi vurğulanır. Bu cür proqramlara psixodiaqnostika, qrup təlimləri, fərdi məsləhətləşmələr və dəyişikliklərin sistematik monitorinqi daxil ola bilər ki, bu da məhkumların şəxsi və emosional çatışmazlıqları ilə işləməyə kompleks yanaşma təmin edir. Bu tədbirlərin praktik tətbiqi təkcə emosional sahədəki problemli təzahürləri düzəltməyə deyil, həm də məhkumlar arasında sosial cəhətdən məqbul davranış modellərini formalaşdırmağa imkan verir. Beləliklə, emosional zəkanın inkişafi üçün proqramların islah müəssisələrinə inteqrasiyası uğurlu yenidən sosiallaşma və residivizm səviyyəsinin azaldılması üçün vacib şərt hesab edilə bilər.
Açar sözlər: emosional intellekt (Eİ), emosional intellektin modelləri, gender fərqləri, empatiya.

ГЕНДЕРНЫЕ ОСОБЕННОСТИ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА У ОСУЖДЁННЫХ

Айтен Ильхам АЛЫШАНЛЫ
Бакинский Государственный Университет
E-mail: alishanli.aytan.ilham@bsu.edu.az

Резюме: В представленной статье рассматривается вопрос изучения эмоционального интеллекта осуждённых в контексте гендерных особенностей. Одновременно проанализированы структурные компоненты эмоционального интеллекта в рамках различных моделей, а также интерпретированы гендерные различия. Учёт гендерных особенностей эмоционального интеллекта в психологических исследованиях и пенитенциарной практике обладает не только теоретической, но и прикладной значимостью, формируя научно-методологическую базу для успешной реинтеграции осуждённых. Особое внимание в статье уделено исследованиям, посвящённым выявлению различий между мужчинами и женщинами в сфере эмпатии. Проведён анализ влияния гендерных различий на уровень эмоционального развития осуждённых, их преступное поведение и специфику социальных взаимодействий. В рамках пенитенциарной практики подчёркивается необходимость разработки коррекционных программ для осуждённых с учётом уровня их эмоционального интеллекта и гендерных особенностей. Дополнительно акцентируется, что внедрение программ по развитию эмоционального интеллекта способствует снижению агрессивности, формированию конструктивных способов разрешения конфликтов и повышению эффективности реабилитационных мер. Такие программы могут включать психодиагностику, групповые тренинги, индивидуальные консультации и систематический мониторинг изменений, что обеспечивает комплексный подход к работе с личностными и эмоциональными дефицитами осуждённых. Практическая реализация данных мер позволяет не только корректировать проблемные проявления в эмоциональной сфере, но и формировать у осуждённых социально приемлемые модели поведения. Таким образом, интеграция программ по развитию эмоционального интеллекта в исправительные учреждения может рассматриваться как важное условие успешной ресоциализации и снижения уровня рецидивной преступности.
Ключевые слова: эмоциональный интеллект (ЭИ), модели эмоционального интеллекта, гендерные различия, эмпатия.

GENDER CHARACTERİSTİCS OF EMOTİONAL İNTELLİGENCE İN CONVİCTS

Aytan Ilham ALISHANLI
Baku State University
E-mail: alishanli.aytan.ilham@bsu.edu.az

Abstract: The presented article examines the issue of studying the emotional intelligence of convicts in the context of gender characteristics. At the same time, the structural components of emotional intelligence within the framework of various models have been analyzed, as well as gender differences have been interpreted. The consideration of gender-specific features of emotional intelligence in psychological research and penitentiary practice possesses not only theoretical but also applied significance, forming a scientific and methodological basis for the successful reintegration of convicts. Special attention in the article is given to studies devoted to identifying differences between men and women in the sphere of empathy. An analysis has been carried out of the influence of gender differences on the level of emotional development of convicts, their criminal behavior, and the specifics of social interactions. Within the framework of penitentiary practice, the necessity of developing correctional programs for convicts, taking into account their level of emotional intelligence and gender characteristics, is emphasized. Additionally, it is emphasized that the introduction of programs for the development of emotional intelligence contributes to the reduction of aggressiveness, the formation of constructive ways of resolving conflicts, and the increase in the effectiveness of rehabilitation measures. Such programs may include psychodiagnostics, group trainings, individual consultations, and systematic monitoring of changes, which ensures a comprehensive approach to working with the personal and emotional deficits of convicts. The practical implementation of these measures makes it possible not only to correct problematic manifestations in the emotional sphere, but also to form socially acceptable models of behavior among convicts. Thus, the integration of programs for the development of emotional intelligence into correctional institutions can be considered as an important condition for successful resocialization and the reduction of the level of recidivism.
Keywords: emotional intelligence (EI), models of emotional intelligence, gender differences, empathy

Giriş

Psixologiya sahəsində aparılan müasir tədqiqatlarda özünəməxsus yer tutan emosional intellekt (Eİ) anlayışı insan davranışlarının başa düşülməsi, analiz edilməsi və şəxsiyyətlərarası əlaqələrin sağlam, uğurlu şəkildə qurulması baxımından mühüm əhəmiyyət kəsb edir. Eİ-nin xüsusiyyətlərinin öyrənilməsi yalnız gündəlik və peşəkar fəaliyyət üçün deyil, həmçinin ekstremal şəraitlərdə, cəzaçəkmə müəssisələrində də vacibdir. Məhkumların emosinal bacarıqlarının öyrənilməsi onların sosial münasibətlərini, qrup daxilində davranışlarını daha yaxşı anlamağa imkan verir. Xüsusilə emosional intellektin müxtəlif xüsusiyyətlərinin araşdırılması penitensiar psixologiyada məhkumların sosial adaptasiyası, cəmiyyətə reinteqrasiyası baxımından əhəmiyyət kəsb edir, psixoloji rifahı artırır.

Eİ-nin xüsusiyyətlərinə kifayət qədər geniş amillər təsir edir. Bunlar arasında gender fərqləri əhəmiyyətli rol oynayır. Gender fərqləri qadın və kişi məhkumların empatiya səviyyəsi, emosional özünüifadəsi və davranış tərzində özünü göstərir. Qadın və kişi məhkumların Eİ-ləri arasında fərqlilikləri tədqiq etmək nəzəri əhəmiyyət kəsb etməklə yanaşı penitensiar psixologiyanın praktik istiqamətində məhkumların davranış modellərini anlamağa, islah prosesində effektiv nəticələr əldə etməyə xidmət edir. Bu fərqliliklərin nəzərə alınması islah və reabilitasiya proqramlarını fərdiləşdirmək, həmçinin penitensiar müəssisələrə sosial adaptasiyanı dəstəkləmək baxımından vacibdir.

Nəzəriyyə

XX əsrin sonlarında elmi terminologiyaya daxil olan və məhşurlaşan Eİ anlayışı psixoloji tədqiqatların əsas istiqamətlərindən birinə çevrilmişdir. Sonrakı illərdə bu anlayış elmi araşdırmalar vasitəsilə genişləndirilmiş, fərqli nəzəri modellərdə öyrənilmiş və struktur komponentləri üzrə təhlil olunmağa başlamışdır. Məlum olmuşdur ki, güclü emosional intellektə malik şəxslər cəmiyyət tərəfindən əksər hallarda yüksək dəyərləndirilir. Belə insanlar sosial münasibətlərdə davranışlarını səmərəli idarə edir, başqalarının hiss və düşüncələrini nəzərə alaraq onlara hörmətlə yanaşmağı bacarırlar. Eyni zamanda, onlar öz motivasiyalarını tənzimləyə bilir və ətrafındakıları ruhlandırmaq, dəstək olmaq imkanına sahib olur. İnsanın psixi sağlamlığının qorunmasına təsir göstərən, stressdən müdafiə və adaptasiya funksiyalarını yerinə yetirən, şəxsiyyətlərarası münasibətləri optimallaşdıran Eİ zamanla yalnız nəzəri deyil, həm də tətbiqi psixologiyanın müxtəlif istiqamətlərində öyrənilməyə başlandı. Xüsusilə Hüquq psixologiyası çərçivəsində Penitensiar müəssisələrdə məhkumlarda Eİ-nin öyrənilməsi onların çətin şəraitli mühitə adaptasiyası, islahı və gələcək həyata hazırlanması da müsbət dəyişikliklərə səbəb olan amil kimi qiymətləndirilir.

Kişi və qadın məhkumlarda Eİ-nin formalaşma və təzahür formaları gender aspektinə görə fərqlənə bilər ki, bu da empatiya qabiliyyəti, emosional vəziyyətlərin dərki və idarə olunmasında diqqətəlayiq nəticələr ortaya qoyur. Bu baxımdan psixoloji ədəbiyyatda Eİ-nin nəzəri əsaslarının, qabiliyyətlər və qarışıq modellərinin təhlili, onun hansı tərkib hissələrindən ibarət olduğunu və struktur komponentlərini açıqlamağa imkan verir.

Eİ-nin ilk elmi modeli olan Qabiliyyətlər modeli C.Mayer və P. Saloveyin adı ilə bağlıdır. Emosional intellekt anlayışı ilk dəfə geniş məzmunda müəlliflərin yazdığı konseptual məqalədə əsaslandırılmışdır (Mayer & Salovey, 1990). Bu məqalədə emosiya sahəsindəki ideyalar sistemləşdirilib, bəzi insanların emosional səviyyədə başqalarına nisbətən daha intellektual ola biləcəkləri vurğulanıb. Müəlliflərin fikrincə emosional intellektuallığa malik insanlar qeyri-sabit vəziyyətlərin öhdəsindən daha bacarıqla gəlməlidirlər. C.Mayer və P.Salovey tədqiqatlarının nəticəsi olaraq Eİ-nin strukturuna ilk növbədə üç qrup komponenti (qabiliyyəti) daxil etsələr də 1997-ci ildə təkmilləşdirdikləri modeldə dörd qrup komponent (emosiyaları qavrama,dəyərləndirmə; emosiyalardan istifadə; emosiyaları anlama və emosiyaları dərk olunmuş tənzimləməsi) fərqləndirilmişdir.

Eİ modellərinin digər təsnifatına qarışıq modellər aiddir ki, ilk modeldən fərqli olaraq burada emosional intellektə yalnız əqli yox, şəxsi keyfiyyətlərin də birləşməsi kimi baxılır. Bu modellərdən ən məşhurları D.Qoulmen, R.Bar-Onun müəllifləri olduqları yanaşmalardır.

Xarici tədqiqatlarda emosional intellekt fenomeninə maraq D. Qoulmenin 1990-cı illərdə nəşr etdiyi bir sıra işləri ilə bağlı artmışdır. Xüsusilə müəllifi olduğu "Emosional intellekt"(1995) kitabı anlayışı daha da məhşurlaşdırdı. Onun elmi əsərlərində göstərilmişdir ki, yüksək səviyyəli emosional intellektə malik insanlara iki əsas bacarıq qrupu xasdır: biri şəxsi bacarıqlar – özünü idarəetmə və emosional tənzimləmə, digəri isə sosial bacarıqlar – ətrafdakılarla münasibətləri səmərəli qurmaq və idarə etmək imkanlarını təmin edən bacarıqlardır. D. Qoulmen emosional intellektin strukturunu ilkin olaraq beş əsas komponentə bölmüşdür. Daha sonra o, emosional səriştə (kompetentlik) modeli çərçivəsində bu strukturu yenidən işləyərək təkmilləşdirmişdir.

Emosional intellektin müxtəlif modellərindəki struktur komponentlər fərqli yanaşmalarla təsnif edilmişdir. Bu fərqliliklər, emosional intellekti araşdırarkən həm nəzəri, həm praktik baxımdan əhəmiyyət kəsb edir (cədvəl 1).

Cədvəl 1.

Emosional intellektin struktur komponentləri

C.Mayer, P.Salovey	D.Qoulmen	R.Bar-On
• emosiyaları qavrama • emosiyalardan istifadə • emosiyaları anlama • emosiyaların dərk olunmuş tənzimlənməsi	• emosional vəziyyətlərin dərki və adlandırılması • emosional vəziyyətlərin idarə olunması • özünütəhrik • digərlərinin emosiyalarını anlama; • şəxsiyyətlərarası münasibətə daxil olmaq	• şəxsiyyətdaxili bacarıqlar • şəxsiyyətlərarası bacarıqlar • adaptivlik • stressi tənzimləmə • ümumi əhval

Məhkumlarla aparılan tədqiqatlarda Eİ-nin stressi tənzimləmə və şəxsiyyətlərarası sfera göstəriciləri diqqət mərkəzinə çevrilmişdir. Bu baxımdan gender fərqliliklərinin təhlili üçün ən uyğun nəzəri əsas qarışıq modellər hesab oluna bilər.

Qarışıq modellər həm koqnitiv, həm də şəxsi və motivasiya yönümlü xüsusiyyətləri əhatə edir. Bu xüsusiyyətlər onların real həyata adaptasiya və çətinliklərin öhdəsindən gəlmə prosesləri ilə sıx əlaqəli olmasını təmin edir. Emosional intellektin qarışıq modelləri geniş müxtəliflik göstərir və əsas fərqlilik onlara daxil edilən şəxsi xüsusiyyətlərin tərkibi ilə müəyyən olunur.

Ruven Bar-Onun yanaşması, emosional intellektin fərdin gündəlik həyatına uyğunlaşmasını və sosial münasibətlərdə effektiv fəaliyyət göstərməsini təmin etməsi prinsipi üzərində qurulub. R. Bar-On Eİ-yə emosional, şəxsi və sosial bacarıqların cəmi kimi tərif vermişdir. (R.Bar-On, 2000) R. Bar-Onun fərqli beş göstərici üzrə bacarıqları özündə ehtiva edən Eİ modeli kişi və qadınların emosional intellektində fərqli psixoloji xüsusiyyətləri öyrənməyə geniş imkan yaradır. Təsadüfi deyil ki, məhkumlarda şəxsiyyətlərarası sferadakı fərqlər daha çox nəzəri təhlil və tədqiqatların predmeti olmuşdur. Modeldə şəxsiyyətlərarası bacarıqlara – empatiya (ətrafdakıların hisslərini duyma və anlama), sosial məsuliyyət (özünü müəyyən bir qrupa aid etmək, qrupun digər üzvləri ilə konstruktiv dialoqa açıq olmaq), şəxsiyyətlərarası münasibət (faydalı qarşılıqlı əlaqələr qurma) aid edilir.

Empatiya (yunan dilində em – "daxilə istiqamət", pathos –əzaba yaxın güclü və dərin hiss) emosional intellektin göstəricilərindən biridir. İnsanın bu emosional xüsusiyyəti ünsiyyət zamanı bir-birini qəbul etməkdə və qarşılıqlı anlaşmanın yaranmasında böyük rol oynayır. Empatiya səviyyəsi genderə görə əhəmiyyətli fərqliliklər nümayiş etdirir.

Empatiya sosial koqnitiv proseslərin ən mürəkkəb formalarından biri kimi qəbul olunur və fərdin həm idrak, həm də emosional sferasında paralel fəaliyyət göstərir. O, yalnız başqasının hisslərini intuitiv şəkildə duymaqla məhdudlaşmır, həm də həmin emosional vəziyyəti şüurlu olaraq anlama və adekvat reaksiya vermə bacarığını özündə birləşdirir. Müasir psixoloji nəzəriyyələr empatiyanı həm affektiv, həm də koqnitiv komponentlərin sintezi kimi qiymətləndirir: bir tərəfdən başqasının emosional təcrübəsini "hiss etmə", digər tərəfdən isə bu təcrübəni intellektual səviyyədə şərh etmə qabiliyyəti. Empatiya səviyyəsinin yüksək olması şəxsin sosial adaptasiyasını asanlaşdırır, destruktiv meyllərin qarşısını alır. Beləliklə, empatiya emosional intellektin yalnız mühüm elementi deyil, həm də sosial davranışın tənzimlənməsində açar mexanizm kimi nəzərdən keçirilir.

Empatiya iki formada – canıyananlıq və həssaslıq şəklində üzə çıxa bilər. Canıyananlıq subyekt tərəfindən digər insanın hisslərini yaşamaqdır. Həssaslıq isə digər insanın bədbəxtliyinə şərik olmaq, diqqət göstərməkdir. Bunlardan birincisi daha çox keçmiş təcrübəyə əsaslanır və şəxsi rifahla, şəxsi maraqla bağlıdır; ikincisi isə digər insanın çətin vəziyyətinin dərkinə əsaslanır və onun ehtiyacları, maraqları ilə bağlıdır. Buna görə də, canıyananlıq həssaslığa nisbətən daha impulsiv, daha intensivdir.

Psixoloji tədqiqatlarda qadınların empatiya qabiliyyətinin kişilərlə müqayisədə daha yüksək olduğu tez-tez vurğulanır. Kişilərdə empatiya göstəricilərinin nisbətən aşağı olması və emosional ifadəliliyin məhdudluğu ənənəvi gender rollarının təsiri ilə izah edilir. Belə ki, kişilər başqalarının onları həddindən artıq emosional yaxud empatik şəxs kimi qəbul etmələrini istəmirlər. Bu yanaşma bir çox mədəniyyətlərdə sosiallaşma proseslərinin nəticəsi kimi qiymətləndirilir: oğlan uşaqlarının erkən yaşlardan emosional reaksiyalarını idarə etməyə təşviq olunması, emosional həssaslığın zəiflik əlaməti kimi təqdim edilməsi sonradan onların empatiya qabiliyyətinə təsir göstərir. Müasir psixoloji araşdırmalar da göstərir ki, gender fərqləri təkcə bioloji xüsusiyyətləri ilə deyil, həm də sosial-mədəni faktorlarla müəyyən olunur. Bu səbəbdən qadınların empatiyada üstün olması onların sosial münasibətlərdə emosional həssaslıq və başqalarının vəziyyətini daha tez dərk etməyə meylləri ilə əlaqələndirilir.

N.Eisenberq və R.Lennonun empatiya və emosional sahədə gender fərqlilikləri ilə bağlı araşdırmaları göstərdi ki, empirik tədqiqatların nəticələri ölçmə metodundan asılıdır. Özünüqiymətləndirmə şkalalarında qadınlar kişilərə nisbətən əhəmiyyətli dərəcədə yüksək nəticə göstərmişdilər. Laborator şəraitdə isə qeyd olunan davranışlarda cinslərarası fərq nisbətən zəif dərəcədə müşahidə olunmuşdur. Fizioloji göstəricilərdə isə, demək olar ki, fərq aşkarlanmamışdır. Bu da bioloji əsasda ciddi müxtəlifliyin olmadığını sübut etmişdir (Eisenberg & Lennon, 1983).

C.Tavris empatiyanın dəyişməz, sabit bir psixoloji xüsusiyyət olması fikrini inkar edir, onun əsasən sosial və situativ şərtlərdən asılı olmasını vurğulayırdı. Cəmiyyətin qadınlardan daha çox emosionallıq, dinləmə, başqalarının hisslərini nəzərə almaq gözləntisi, empatiyanı onların sosial rolunun ayrılmaz hissəsinə çevirib (Tavris, 1992). Empatiya qadınlarda daha çox inkişaf etmiş kimi görünə bilər, lakin bu fərq onların psixoloji "təbiətindən" daha çox sosial-mədəni şərtlərlə bağlıdır. Bu yanaşma empatiyanın dinamik xarakterini və onun şəraitdən asılı olaraq dəyişə bilməsini göstərir.

Empatiyanın bioloji əsasları və gender fərqliliklərinə dair mühüm nəticələrin əldə edildiyi tədqiqatlardan biri Derntl və əməkdaşları tərəfindən keçirilmişdir. Tədqiqatda empatiya çoxölçülü bir qabiliyyət kimi təqdim edilmiş, cinsiyyətin ona müxtəlif aspektdən təsir göstərə biləcəyi müəyyənləşdirilmişdir. İyirmi dörd qadın və kişi iştirakçıda emosiyaları tanıma, perspektivləri qavrama və affektiv reaksiyalar öyrənilmiş, özünüqiymətləndirmə sorğuları, funksional maqnit rezonans tomoqrafiyası üzrə nəticələr əldə edilmişdir (Derntl et al.2010). Qadınlarda folikulyar fazada amiqdala aktivliyinin artması hormonol təsirin sosial həssaslıq və emosional reaksiya ilə əlaqəli olduğu müəyyən edilmişdir ki, bu da empatiyanın neyrobioloji əsaslarının mövcudluğunu təsdiqləyirdi.

Emosional intellekt və onun struktur komponentlərinin öyrənilməsi üçün aparılan tədqiqatlarda gender fərqliliklərinin müəyyən edilməsi penitensiar psixologiyada bu istiqamətdə tədqiqatların keçirilməsi zərurəti yaratmışdır.

Cornell D.P. tərəfindən aparılan tədqiqat Florida ştatının həbsxanalarında keçirilmiş və burada məhkumların emosional intellekti cinsiyyət faktoru üzrə müqayisə olunmuşdur. Nəticələr göstərmişdir ki, qadın məhkumlar emosional intellektin müxtəlif komponentlərində, xüsusilə empatiya, emosional

məlumatın qavranması və özünü tənzimləmə sahələrində kişilərə nisbətən daha yüksək bacarıqlar nümayiş etdiriblər. Bu fərqliliklər həm ümumi EQ (Emotional Quotient) nəticələrində, həm də spesifik altkomponentlərdə əhəmiyyətli olmuşdur(Cornell, 2003).

Eİ-nin aşağı səviyyədə olması aqressiya, qəddarlıqla əlaqələndirilir. Empatiyanın azalması məhkumlarda sosial siqnalların düzgün şərhini çətinləşdirir ki, bu da aqressiv reaksiya ehtimalını artırır. Empatiya yoxluğunu cinayətə meylliliyi formalaşdıran digər psixoloji, iqtisadi, sosial amillərlə birgə təsir göstərən bir faktor kimi nəzərə almaq lazımdır.

Cinayətkarlarda Eİ-nin əhəmiyyətli şəkildə çatışmazlığı qeyd olunur ki, buda cəzaçəkmə təcrübələri olmasına baxmayaraq onlar tərəfindən ağır cinayətlərin təkrar törədilməsinə səbəb ola bilir (Aucoin, 2005). Residivin mexanizmlərində yalnız sosial-iqtisadi və hüquqi faktorlar deyil, eyni zamanda fərdin emosional-psixoloji resursları da həlledici rol oynayır. Aşağı EQ səviyyəsi olan şəxslər öz daxili gərginliklərini adekvat şəkildə tənzimləyə bilmir, emosional impulsları davranışa nəzarəti zəiflədir və nəticədə cinayətkar fəaliyyətin təkrarına zəmin yaradır

Məhkumların Eİ-si onların daxili psixoloji vəziyyətini anlamaqdan savayı törədilən cinayətin xarakterinin başa düşülməsində də əhəmiyyətli rol oynayır. Penitensiar müəssisələrdə tamahkar və zorakı cinayətlərə görə məhkum olunmuş kişilərlə aparılan tədqiqatlar onların emosional intellekt səviyyəsində ciddi fərqlərin olduğunu meydana çıxarır. Zorakı məhkumlarda Eİ-nin səviyyəsi tamahkar cinayətkarlarla müqayisədə daha aşağıdır. Həmçinin müəyyən edilmişdir ki, heç vaxt cinayət törətməyən, kriminal həyatdan uzaq olan şəxslərin Eİ səviyyəsi məhkumluğu olanlardan daha yüksəkdir (Pechersky et.,2010).

Məhkum qadınlarda Eİ-ə dair tədqiqatlar azsaylıdır. P.S.Nikitin və S.N.Borisova müəyyən ediblər ki, cəzaçəkmə müəssisələrində gündəlik stress keçirən qadın məhkumlar "mənfi genişlənmiş" emosional diapazona və bununla əlaqəli azadlıqda olan qadınlarla müqayisədə daha yüksək emosional intellekt səviyyəsinə malik olurlar (Nikitin &Borisova, 2012). Qadın məhkumların emosional intellekt göstəriciləri məhkumların törətdikləri cinayətin xarakteri və cəzaçəkmə müəssisələrində (CÇM) olduqları müddətdən asılı olaraq fərqli nəticələr göstərə bilir. CÇM yeni daxil olmuş qadın məhkumlarda emosional tənzimetmə və emosiyaları anlama bacarıqlarında zəif göstəricilər müşahidə edildiyi halda, üç ildən artıq məhkumluq həyatından sonra adaptasiya prosesi nəticəsində göstəricilərdə artma müşahidə olunmuş, qadın məhkumların emosional-impulsiv və emosional rigid tipləri fərqləndirilmişdir (Pozdnyakov et., 2021). Əldə edilən nəticələr CÇM-də mərhələli reabilitasiya proqramlarının zəruriliyini göstərdi. CÇM-nə yeni daxil olan məhkumlarda emosional tənzimetmə və empatiya bacarıqlarının artırılması, uzunmüddət cəza çəkən məhkumlarda sosial bacarıqlarının inkişaf etdirilməsinə yönəlmiş reabilitasiya proqramları həyata keçirilməlidir.

Penitensiar müəssisələrdə həyata keçirilən tədqiqatlar bir daha sübut edir ki, qadın və kişi məhkumların emosional sferası tənzimetmə və ifadəlilik mexanizmləri baxımından olduqca fərqlidir. Bu fərqlilik həm cinayətkar davranış motivasiyası, həm də cəzaçəkmə müəssisəsinə adaptasiya prosesində mühüm rol oynayır. Belə ki, kişi məhkumların cinayət əməlinə səbəb olan faktorlar daha çox struktur və davranış yönümlüdür.

Qadın məhkumlarda Eİ-nin empatiya və emosional ifadəlilik aspektləri kişi məhkumlara nisbətən inkişaf etmiş şəkildə təzahür edir. Lakin onlarda stressli şərait, yaşanılan ağır təcrübənin təsiri altında emosional sabitliyin qorunması daha da çətinləşir. Kişi məhkumlarda emosiyaların idarə edilməsində zəiflik, impulsiv davranışa meyllilik daha qabarıq şəkildə özünü göstərir.

CÇM-də məhkumların emosional sferasında müşahidə olunan çatışmazlıqlar onlarda aqressiv meyillərə, münaqişəli davranış modellərinə və şəxsiyyətlərarası münasibətdə dissharmaniyaya gətirib çıxa bilir. Məhkumların bir qismi emosional təcrübələrini tanımaqda çətinlik çəkir, bu isə onların davranışlarında qeyri-adekvat reaksiyalara səbəb olur. Belə şəxslər emosional vəziyyətlərini şifahi ifadə etməkdə, daxili gərginliklərini konstruktiv yollarla azaltmaqda çətinliklərlə üzləşirlər. Bu da öz növbəsində, onların aqressiv davranışa meylliliyini artırır və münaqişələrin həllində zorakı üsullara üstünlük vermələrinə zəmin yaradır. Emosional təcrübələri tanımamaq və idarə edə bilməmək həm də empatiya səviyyəsinin aşağı olması ilə müşayiət olunur ki, bu da digər məhkumlarla münasibətlərdə anlaşılmazlıqlara və sosial təcrid hallarına səbəb olur. Nəticədə penitensiar mühitdə adaptasiya prosesinin çətinləşməsi və islaholma imkanlarının məhdudlaşması müşahidə edilir.

Məhkumların emosional intellektinin öyrənilməsi onların psixoloji vəziyyətinin daha dərindən dərk edilməsinə zəmin yaratmaqla, məhkumların islahı prosesində uzunmüddətli və dayanıqlı dəyişikliklərə səbəb ola bilər. Xüsusilə gender amilinin nəzərə alınması bu prosesi olduğundan daha effektiv hala gətirir. Məhkumların islahı və psixokorreksiyası cəmiyyətin təhlükəsizliyi

səviyyəsinin yüksəldilməsin və cinayətlərin residivi hallarının azalması nöqteyi- nəzərindən əhəmiyyət kəsb edir.

Metod

Fikrimizcə, məhkumların gender xüsusiyyətlərini nəzərə almaqla emosional intellektin inkişafetdirici proqramının hazırlanıb, həyata keçirilməsi onların emosional bacarıqlarının güclənməsinə, CÇM daxilində davranışların müsbət yönümdə dəyişikliyinə səbəb ola bilər. Eİ inkişafetdirici proqram islah prosesinə dəstək mexanizmi kimi çıxış edərək, məhkumları azadlıqdakı həyata hazırlıq potensialını artıra bilər. Hesab edirik ki, hazırlanacaq proqram qadın və kişi CÇM-də fərqli istiqamətdə qurulmalıdır. Eİ inkişafetdirici proqramın nəzəri əsası kimi qarışıq modellərə istinad etmək məqsədəuyğundur.

Proqramın əsas məqsədi Eİ-nin strukturuna daxil olan bacarıqların məsələn, şəxsiyyətlərarası bacarıqlar qadın məhkumlar üçün (empatiyanı konstruktiv davranışa yönəltmək, münasibətlərdə sərhəd qoyma, emosional əsaslanan faydalı qarşılıqlı əlaqələr qurmaq), kişi məhkumlar üçün (empatiya səviyyəsinin artırılması, qrupun digər üzvləri ilə konstruktiv dialoqa açıq olmaq və s.) inkişafı olmalıdır.

Emosional intellekti inkişafetdirci proqrama aşağıdakı icra mərhələləri daxil edilə bilər:

1) psixodiaqnostika
2) qrup təlimləri (gender əsaslı fərqləri nəzərə alan qrup məşğələləri)
3) şəxsi emosional çətinliklərin həlli üçün fərdi məşğələlər
4) nəticələrin dinamik izlənməsi
5) qiymətləndirmə

Bu mərhələlər əsasında qurulmuş emosional intellektin inkişaf proqramı məhkumların emosional bacarıqlarını sistemli şəkildə gücləndirməyə imkan verir.

İlk psixodiaqnostika mərhələsi məhkumlarda emosional intellektin səviyyəsini qiymətləndirmək və onların fərdi xüsusiyyətlərini anlamaq üçün əsas bazanı təmin edir. Bu mərhələdə standartlaşdırılmış testlər və sorğular – məsələn, D.Qoulmenin ECI sorğusu, R.Bar-Onun EQ-i sorğusu, D.Lyusinin Emİn sorğusu istifadə oluna bilər. Müşahidə və davranış analizi ilə məhkumların gündəlik fəaliyyətlərdə göstərdikləri reaksiyalar qiymətləndirilir. Bu mərhələ həmçinin gələcək qrup və fərdi məşğələlərin planlanması, həmçinin inkişaf göstəricilərinin izlənməsi üçün etibarlı məlumat bazası yaradır. Qrup təlimləri mərhələsində məhkumların ünsiyyət bacarıqlarını, empatiyanı və emosiyaların idarə olunmasını inkişaf etdirməyə yönəlmiş interaktiv məşğələlər həyata keçirilir. Rol oyunları və müzakirələr vasitəsilə iştirakçılar sosial qarşılıqlı münasibətləri təcrübədən keçirir və emosional davranışlarını daha səmərəli şəkildə tənzimləməyi öyrənirlər. Üçüncü mərhələdə proqram iştirakçılarının fərdi emosional çətinlikləri üzə çıxarılır və onların həlli istiqamətində məqsədyönlü iş aparılır. Nəticələrin dinamik izlənməsi mərhələsində məhkumların əldə etdiyi irəliləyişlər mütəmadi olaraq izlənilir.

Son mərhələdə inkişaf göstəricilərinin müqayisəli təhlili imkan yaradır ki, proqramın effektivliyi elmi əsaslarla qiymətləndirilsin və penitensiar praktikada tətbiq edilən reabilitasiya və korreksiya proqramlarının təkmilləşdirilməsinə, məhkumların davranış və emosional bacarıqlarının inkişaf etdirilməsinə əsaslı töhfələr versin.

Nəticə

Yekun olaraq qeyd etmək olar ki, məhkumların Eİ-si, onların davranış modellərinə, sosial münasibətlərinə və şəxsiyyətin psixoloji tənzimləmə mexanizmlərinə əhəmiyyətli təsir göstərir. Qadın və kişi məhkumlar arasında müşahidə olunan fərqliliklər, xüsusilə empatiya, emosiyaların idarə edilməsi və özünü tənzimləmə bacarıqları baxımından mühüm rol oynayır. Mövcud psixoloji ədəbiyyatın təhlili və aparılan tədqiqatlar göstərir ki, gender xüsusiyyətlərini nəzərə alan inkişaf etdirici proqramlar məhkumların emosional bacarıqlarını gücləndirə, konstruktiv davranışların formalaşmasına şərait yarada və penitensiar müəssisədə islah prosesinə bilavasitə töhfə verə bilər. Bu proqramlar psixodiaqnostika, fərdi və qrup məşğələləri, nəticələrin dinamik izlənməsi və inkişaf göstəricilərinin qiymətləndirilməsi kimi mərhələləri əhatə etməlidir. Belə yanaşma həm qadın, həm də kişi məhkumların azadlıqdan sonrakı həyata hazırlıq potensialını artırmaqla, onların sosial uyğunlaşmasını dəstəkləyir və islah prosesini səmərəli edir. Məhkumların emosional intellektinin gender xüsusiyyətləri nəzərə alınmaqla inkişaf etdirilməsi yalnız fərdi bacarıqların artırılmasına xidmət etmir, eyni zamanda penitensiar psixologiya sahəsində aparılan elmi tədqiqatlar üçün güclü baza rolunu oynayır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Aucoin, K. (2005). The role of emotion in the aggressive behaviour of juvenile offenders. New Orleans, LA.
2. Bar-On, R. (2000). Emotional and social intelligence: Insights from the Emotional Quotient Inventory. In R. Bar-On & J. D. A. Parker (Eds.), Handbook of emotional intelligence (pp. 363–388). San Francisco, CA: Jossey-Bas

3. Cornell, D. P. (2003). Gender differences in emotional intelligence among incarcerated adults. Journal of Correctional Psychology, 12(2), 45–58.

4. Derntl, B., Finkelmeyer, A., Eickhoff, S., et al. (2010). Multidimensional assessment of empathic abilities: Neural correlates and gender differences. Psychoneuroendocrinology, 35(1), 67–82.

5. Eisenberg, N., & Lennon, R. (1983). Sex differences in empathy and related capacities. Psychological Bulletin, 94(1), 100–131.

6. Goleman, D. (2009). Эмоциональный интеллект. Москва: АСТ.

7. Nikitin, P. S., & Borisova, S. N. (2012). Особенности общего, эмоционального и социального интеллекта у женщин, находящихся в местах лишения свободы, в зависимости от характера совершенного преступления. В Е. В. Левченко & С. В. Вайнштейн (ред.), Будущее психологии: материалы студенческой науч.-практ. конф., №5, 38-45

8. Pechersky, V. G., Maksimenko, N. V., & Ivanov, D. E. (2010). Исследование личностных особенностей осужденных за насильственные и корыстные преступления. Москва: ИП РАН.714-719

9. Pozdnyakov, A. V., Kalashnikova, I. A., & Ovsyannikova, N. V. (2021). Aspects of emotional maturity manifestation in female convicts serving deprivation of liberty sentence. Psikhologicheskiy zhurnal, 42(3), 45–59.

10. Salovey, P., & Mayer, J. D. (1990). Emotional intelligence. Imagination, Cognition and Personality, 9, 185–211.

11. Tavris, C. (1992). The mismeasure of woman: Why women are not the better sex, the inferior sex, or the opposite sex. New York: Touchstone.

DOİ: 10.32010/ZUYC8026

İNTELLEKT ƏMSALI (İQ) VƏ EMOSİONAL İNTELLEKTİN (Eİ) MÜQAYİSƏLİ TƏHLİLİ

Xavərxanım Ağamehdi BAKIXANOVA
Bakı Dövlət Universiteti
Orcid: 0000-0002-3031-5770
E-mail: khaverbakikhanova@bsu.edu.az

Xülasə: Araşdırmalar sübut edir ki, ənənəvi təhsil proqramları günü-gündən müasirləşən cəmiyyətimizin ehtiyaclarını qarşılamaqda problemlər yaşayır. Müasir informasiya əsri sübut edir ki, yeni yanaşmaların tətbiqi labüddür. Bir çox araşdırmalar nəticəsində məlum olmuşdur ki, emosional intellektin inkişafı bir çox problemlərin həllinin açarı ola bilər.
Bir çox tədqiqatlar sübut edir ki, əqli inkişaf səviyyəsi nə qədər vacib rol oynasa da emosional intellektə qarşı istər təhsil həyatında, istər gündəlik həyatda lazımi qədər əhəmiyyətin verilməməsi bir sıra problemlərin yaranmasına səbəb olur.
Müşahidələr nəticəsində məlum olur ki, əksər hallarda valideynlərin iqtisadi çətinliklərlə əlaqədar olaraq ağır iş qrafiki və təhsilalanların vaxtlarının böyük bir qismini təhsil müəssisələrində keçirməsi yalnızlıq hissi və sevgi, ünsiyyət defisiti ilə nəticələnir. Bir çox hallarda təhsilalanlarda deviant, aqressiv davranışlar, illeqal qruplara qoşulmaq, psixotrop vasitələrdən istifadə, yetkinlik yaşına çatmamış qızların hamilə qalması kimi ağır problemlər müşahidə olunur.
Nəzərə almaq lazımdır ki, müasir dövr informasiya əsridir və bilik toplamaq, informasiya əldə etmək əvvəlki dövrlər kimi əlçatmaz deyil. Bir çox müəssisələr artıq təhsilalanların savad dərəcəsi ilə maraqlansalar belə daim öz üzərində çalışan, uğurlu ünsiyyət bacarığına, problemləri həll etmək üçün kifayət qədər emosional intellektə sahib şəxslərə üstünlük verdiklərini açıq şəkildə bildirirlər.
Emosional intellekt anlayışının geniş şəkildə araşdırılması, termin kimi istifadəsi XX əsrin 90-cı illərinin sonlarına təsadüf etsə də bu sahənin araşdırılmasına olan tələbat qısa zamanda bir çox elmi faktların təsdiqini tapmasına səbəb olmuşdur. D.Goleman, J.Mayer, P.Salovyev və s. kimi alimlər emosional intellekt anlayışını elmə tanıdan şəxslərdən hesab olunurlar Eyni zamanda emosional intellektlə bağlı bir çox məsələlərə aydınlıq gətirmişlər.
Qeyd olunanlardan da aydındır ki, mövcud vəziyyət əqli inkişaf səviyyəsi ilə emosional intellektin vəhdətdə tətbiqini tələb edir. Bunun üçün beynəlxalq təhsil siyasətində ciddi dəyişikliklərin icrası son dərəcə əhəmiyyətli hesab olunur.
Açar sözləri: emosional intellekt, əqli inkişaf səviyyəsi, emosiyalar, hislər, müasir dövr

---

COMPARATIVE ANALYSIS OF INTELLIGENCE QUOTIENT (IQ) AND EMOTIONAL INTELLIGENCE (EI)

Khavarkhanim Agamehdi BAKİKHANOVA
Baku State University

Abstract: Research proves that traditional educational programs have problems in meeting the needs of our society, which is becoming more modern day by day. The modern information age proves that the application of new approaches is inevitable. As a result of many studies, it has been found that the development of emotional intelligence can be the key to solving many problems.
Many studies prove that no matter how important the level of mental development plays, the lack of due importance given to emotional intelligence both in educational life and in everyday life leads to the emergence of a number of problems.
As a result of observations, it is known that in most cases, the heavy work schedule of parents due to economic difficulties and the fact that students spend a large part of their time in educational institutions results in a feeling of loneliness and a deficit of love and communication. In many cases, serious problems such as deviant, aggressive behavior, joining illegal groups, using psychotropic drugs, and pregnancy of underage girls are observed in students.
It should be borne in mind that the modern era is the information age and gathering knowledge and obtaining information is not as inaccessible as in previous eras. Many institutions, even if they are interested in the literacy level of students, openly declare that they prefer people who are constantly working on themselves, have successful communication skills, and sufficient emotional intelligence to solve problems.
Although the widespread study of the concept of emotional intelligence and its use as a term coincided with the late 90s of the 20th century, the need to study this area has led to the confirmation of many scientific facts in a short time. Scientists such as D. Goleman, J. Mayer, P. Salovyev, etc. are considered to be among the people who introduced the concept of emotional intelligence to science. At the same time, they have clarified many issues related to emotional intelligence.

It is also clear from the above that the current situation requires the application of the level of mental development and emotional intelligence in unity. For this, the implementation of serious changes in international education policy is considered extremely important.

Keywords: emotional intelligence, level of mental development, emotions, feelings, modern era

---

СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ КОЭФФИЦИЕНТА ИНТЕЛЛЕКТА (IQ) И ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА (EI)

Хаварханым Агамехди БАКИХАНОВА
Бакинский Государственный Университет

Резюме: Исследования показывают, что традиционные образовательные программы не отвечают потребностям нашего общества, которое становится всё более современным. Современная информационная эпоха доказывает неизбежность применения новых подходов. В результате многочисленных исследований было установлено, что развитие эмоционального интеллекта может стать ключом к решению многих проблем.

Многие исследования доказывают, что независимо от того, насколько важен уровень психического развития, отсутствие должного внимания к эмоциональному интеллекту как в образовательной сфере, так и в повседневной жизни приводит к возникновению ряда проблем.

В результате наблюдений установлено, что в большинстве случаев напряжённый рабочий график родителей, обусловленный экономическими трудностями, и то, что учащиеся проводят большую часть своего времени в учебных заведениях, приводят к ощущению одиночества и дефициту любви и общения. Во многих случаях у учащихся наблюдаются такие серьёзные проблемы, как девиантное, агрессивное поведение, вступление в незаконные группировки, употребление психотропных препаратов и беременность несовершеннолетних девочек. Следует учитывать, что современная эпоха – это век информации, и получение знаний и информации не так труднодоступно, как в предыдущие эпохи. Многие учебные заведения, даже если они заинтересованы в уровне грамотности студентов, открыто заявляют, что предпочитают людей, постоянно работающих над собой, обладающих успешными коммуникативными навыками и достаточным эмоциональным интеллектом для решения задач.

Хотя широкое изучение концепции эмоционального интеллекта и его использование в качестве термина совпало с концом 90-х годов XX века, потребность в изучении этой области за короткое время привела к подтверждению многих научных фактов. Такие учёные, как Д. Гоулман, Дж. Майер, П. Саловьев и др., считаются одними из тех, кто ввёл в науку концепцию эмоционального интеллекта. В то же время они прояснили многие вопросы, связанные с эмоциональным интеллектом.

Из вышеизложенного также очевидно, что современная ситуация требует применения уровня психического развития и эмоционального интеллекта в единстве. Для этого крайне важно внести серьёзные изменения в международную образовательную политику.

Ключевые слова: эмоциональный интеллект, уровень психического развития, эмоции, чувства, современная эпоха.

Giriş

Araşdırmalar sübut edir ki, insanlar qərar verərkən sadəcə məntiqi hipotezlər irəli sürmürlər. Eyni zamanda keçmiş təcrübələr əsasında formalaşan emosional amillərə istinad edirlər. Buna aid müxtəlif eksperimentlər həyata keçirilmişdir və məlum olmuşdur ki, sırf məntiqi amillərə yönələrək emosional amillərə əhəmiyyət verməyən şəxslər ən adi qərar qəbullarında müəyyən problemlərlə üzləşirlər. Əks halda daha sonra qərarlarına görə peşmanlıq yaşayırlar. Bu tip araşdırmalar emosional intellekt barədə müəyyən fikirlərin formalaşmasına səbəb olmuşdur. Emosional intellekt ənənəvi nəzəriyyələrdə qeyd olunan kimi sadəcə mücərrəd amil deyildir. Hətta məlum olur ki, müəyyən nevropsixoloji və fizioloji ölçülərə malikdir(Goleman, 1996).

Bu kimi elmi kəşflər nəticəsində emosional intellektlə bağlı müxtəlif yanaşmalar meydana gəlmişdir. Həmçinin bir sıra məktəblər və iş yerlərində münasibətlərin yaxşılaşdırılması, konfliktlərin qarşısının alınması üçün vahid model yaratmaq cəhdləri göstərilmişdir.

Emosional intellekt anlayışı termin kimi ilk dəfə J.Mayer və P.Salovyev tərəfindən XX əsrin 90-cı illərinin əvvəlləri işlədildiyi bir çox elmi ədəbiyyatlardan məlumdur. Araşdırmalar nəticəsində məlum olur ki, emosional intellekt şəxsin özünün və ətrafındakı şəxslərin emosional davranışlarını müşahidə etmək, hisləri tanımaq, analiz etmək və nəzarət etmək bacarıqlarını formalaşdırır. Bu yolla emosional intellekt əqli inkişaf səviyyəsindən fərqli olaraq mövcud olan intellekt nəzəriyyələrinə fərqli aspektdən yanaşmağı vadar edir. Belə nəticəyə

gəlmək olar ki, emosional intellektin əsas xüsusiyyəti koqnitiv və emosional sistemlərin məhsuldar birləşməsidir(Mayer&Salovyev, 1997).

Araşdırmalardan məlum olur ki, genetik olaraq sabit olduğu müəyyən olunan İQ-nün əksinə emosional intellekti möhkəmləndirən amillərin arxalanamaq kifayət etmir. Təəccübləndirən məqamlardan biri budur ki, təhsil müəssisələrinin əqli inkişaf səviyyəsinə maksimum dəyər verdiyi və yüksək nəticələrin əldə olunduğu halda iş həyatında və gündəlik problemlərin həllində İQ-sü yüksək olan bir çox şəxs çıxış yolu tapa bilmir. Nəticədə uğursuzluğa düçar olur(Goleman, 1996)..

Təəccübləndirən məqamlardan biri də araşdırmalar nəticəsində məlum olur ki, əqli inkişaf səviyyəsi həyatda uğuru şərtləndirən amillərin yalnız 20%-ni inkişaf etdirmək iqtidarına malikdir. Bu fərziyyə əqli inkişaf səviyyəsini tədqiq edən digər alimlərin də əldə etdiyi nəticələrlə uyğunluq təşkil edir. Buradan belə nəticəyə gəlmək olar ki, əqli inkişaf səviyyəsinin göstəriciləri gündəlik həyatda kimin uğur qazanacağını tam şəkildə müəyyən edə bilməz(Goleman, 1996).

Əksər şəxslər belə düşünürlər ki, yüksək İQ səviyyəsinə sahib şəxslər mütləq şəkildə həyatın bütün mərhələlərində uğur qazanacaqlar. Təəssüflər olun ki, yuxarıda qeyd olunanlardan da məlum olur ki, bu düşüncənin doğruluq payı aşağıdır. Sosial həyatda yüksək İQ-lü şəxslər uğursuzluğa düçar ola bildiyi halda normal əqli inkişaf səviyyəsinə malik şəxslər də bir çox sahədə böyük nailiyyətlər əldə edə bilər. Araşdırmalar nəticəsində məlum olur ki, əqli inkişaf səviyyəsi ilə emosional intellekt daim vəhdətdədir. Onları bir-birindən ayırmaq müxtəlif sferalarda uğursuzluqlarla nəticələnəcəkdir. Emosional intellekt mühüm problemlərin həlli və mühüm qərarların qəbulu zamanı İQ-nün köməyinə çatır ki, bu da qarşıya qoyulan tapşırığın daha səmərəli və daha qısa müddətdə yerinə yetirilməsinə imkan yaradır(Goleman, 1996).

Müasir dövrün sürətli və yorucu situasiyalarında insanlar özlərini mürəkkəb münasibətlərdə tapmaqda, hiss və problemlərini ifadə etməkdə bir çox çətinliklərlə üzləşirlər. Belə sürətli bir mühitdə fərdlərin xoşbəxtliyi ancaq mənəvi və emosional doyumla əldə edilə bilər. Məhz bu məqamda emosional intellekt bacarıqları şəxslərin və cəmiyyətin ünsiyyət gücünü artırmağın ən yaxşı yolu kimi ortaya çıxır və ümumi xoşbəxtliyə aparır.

Emosional intellektin mövcudluğu sübut edir ki, uğur əqli inkişaf səviyyəsindən belə daha əhəmiyyətli hesab olunan emosional amillərdən asılıdır. Tədqiqatlardan da məlum olur ki, emosiyaları diqqətə almaq, açıq şəkildə hisləri ifadə edə bilmək insanları daha etibarlı və inkişafa meylli şəxslər edir. inkişafı ömür boyu davam edir. İnsanlar həyatları boyunca şəxsi təcrübələrindən nəticə çıxararaq emosional intellektin inkişafına şərait yaradırlar.

Müşahidələr göstərir ki, problemlərin öhdəsindən gəlməkdə əqli inkişaf səviyyəsinin əsas amillərdən olması müəyyən edilsə də ancaq İQ-yə Tədqiqatlar göstərir ki, emosional intellekt empatiya, sensitivlik, əxlaqi nüanslarla birbaşa vəhdətdə olduğu üçün daha dəyərlidir. Əxlaqlı insanların əksəriyyətində emosional intellekt göstəricilərinin yüksək olduğu məlum olmuşdur. Cəmiyyətə və onun problemlərinə həssaslıqla yanaşan, məsuliyyətli, etibarlı və başqalarına güvənməyi bacaran, problemlərin həllində müsbət enerji yayan, səbirli, dözümlü, ardıcıl və qətiyyətli insanlar yüksək emosional intellektə malik olduqları müşahidə olunur. Bu prosesdə emosional intellekt kompetensiyalarının koqnitiv bacarıqlarla vəhdətdə olması müşahidə edilir. Məlum olmuşdur ki, cəmiyyətdə özünəməxsus uğurlar qazanan şəxslərdə hər iki intellekt növü müşahidə olunur. Araşdırmalar sübut edir ki, tapşırıq nə qədər mürəkkəb olarsa, emosional intellektin mövcudluğu bir o qədər əhəmiyyətlidir(Somuncuoğlu, 2005).

Şəxsin özünü tanımaq, idarə və motivasiya etmək, istəklərini təxirə salmaq, emosional dalğalanmalarını cilovlamaq, maneələrə tab gətirmək, başqalarına anlayışla yanaşmaq, onların ən dərin emosional halətlərini hiss etmək, səmərəli əlaqələr qurmaq öyrənilə bilən psixoloji və sosial bacarıqlardır. Emosional intellekt adı altında cəmlənən bu bacarıqlar şəxslərə həyatda uğur qazanmaq və məmnuniyyət hissini maksimum dərəcədə artırmağa imkan verir. Alimlər bildirirlər ki, emosional intellekt əqli inkişaf səviyyəsindən fərqli olaraq hər yaşda inkişaf etdirilə bilən məfhumdur. Təbii ki, bu hal emosional intellektin əhəmiyyətini daha da artırır(Somuncuoğlu, 2005).

D.Goleman, J.Mayer, P.Salovyev "Niyə emosional intellekt İQ-dən daha əhəmiyyətlidir?" və "İşdə emosional intellekt" kitablarında emosional intellekt kompetensiyalarını beş ölçüdə təsnif edir(Goleman, 1996):



Şəkil 1. Emosional intellekt kompetensiyalarının təsnifatı

Резюме. Психодинамический подход является одним из важных теоретических и практических направлений в психологии. Основы этого подхода были заложены в психоанализе, созданном З. Фрейдом в XX веке, а затем развиты его последователями и объединены под названием психодинамических терапий. Психодинамическое направление опирается на бессознательные импульсы и конфликты, а его основной идеей является важная связь эмоционального опыта и травм человека с ранним детством. Иными словами, психодинамическое направление изучает не только сознательную часть мозга, но и его бессознательную сторону. Изучение и развитие этого направления внесло значительный вклад в научно-теоретическое развитие психологии. Основные понятия психодинамического подхода включают структуры личности, импульсы, сны, защитные механизмы, перенос и контрперенос. Структуру личности составляют Ид, Эго и Суперэго, а также психосексуальные стадии развития, которые лежат в основе концепции З. Фрейда. В последующие периоды последователи З. Фрейда развивали его идеи, создавая различные теоретические направления, которые стали называться психодинамическими психотерапиями. Так, А. Фрейд усовершенствовал понятие защитных механизмов, предложенное его отцом, Э. Эриксон выдвинул концепцию стадий развития, М. Кляйн и Д. Уинникот внесли значительный вклад в детскую психологию. Современные психодинамические подходы объединяют идеи классических психоаналитиков и интегрированы с когнитивно-поведенческими и нейропсихологическими подходами. Таким образом, психодинамическое направление не ограничивается теорией Фрейда, а обогатилось различными течениями и до сих пор сохраняет свою актуальность в психологии.
Ключевые слова: психодинамическая психотерапия, защитные механизмы, психоанализ, личность, психоанализ.

Giriş.
Psixodinamik terapiyaların əsası Z.Freydin yaratdığı psixoanalizə dayanır, yəni, psixoanalizi, sonrakı dövrlərdə Z.Freydin davamçılarının ideyalarını izah etmədən psixodinamik yanaşmanın əsas prinsiplərini izah etmək mümkün deyil. Psixodinamik istiqamət psixologiya tarixində bir neçə əsas inkişaf mərhələsindən keçmişdir. Bu mərhələlər nəzəriyyənin təməl ideyalarının formalaşmasından başlayaraq, sonrakı dövrlərdə yeni yanaşmalarla zənginləşmişdir. Psixodinamik yanaşmanın əsası Z. Freyd tərəfindən qoyulmuşdur. Onun nəzəriyyəsinə əsasən, şəxsiyyətin üç əsas struktur komponenti var: id, eqo və supereqo. Freyd psixi gərginliyin azaldılması məqsədilə fəaliyyətdə olan müdafiə mexanizmlərini və uşaqlıqdan yetkinliyə qədər şəxsiyyətin formalaşmasını izah edən psixoseksual inkişaf mərhələlərini irəli sürmüşdür. Bu mərhələ psixodinamik istiqamətin nəzəri əsaslarını müəyyən etmişdir. Z.Freydin ideyalarından sonra psixodinamik yanaşma müxtəlif istiqamətlərdə inkişaf etmişdir. Beləki, sonrakı dövrlərdə Z.Freydin ilkin nəzəriyyələri yeni tədqiqatlarla birləşərək, fərqli psixodinamik terapiya metodlarının yaranmasına gətirib çıxarmışdır. Z.Freydin davamçıları, A.Freud, M.Klein, D.Vinnikott və digər psixoanalitiklər, müdafiə mexanizmləri, obyekt əlaqələri, daxili psixoloji strukturlar və inkişaf mərhələləri kimi anlayışları daha da dərinləşdirmişlər. Bunun nəticəsində bu istiqamət həm praktikada, həm də tədqiqatlarda geniş tətbiq sahəsinə malik olmuşdur. Psixodinamik yanaşma yalnız psixoterapiya sahəsi ilə məhdudlaşmır, o, həmçinin fərdin şəxsiyyətinin, emosional vəziyyətinin və sosial münasibətlərinin başa düşülməsində mühüm vasitə kimi çıxış edir.

Metod.
Məqalə nəzəri xarakter daşıyır və məqalədə psixodinamik yanaşmanın əsas müddəaları və inkişaf tarixi təhlil edilmişdir. Təhlil üçün Z. Freydin əsərləri və onun davamçılarının nəzəriyyələri, eləcə də müasir psixodinamik tədqiqatlara istinad edilmişdir. Məqalədə həm klassik, həm də müasir psixodinamik yanaşmaların əsas ideyaları və inkişaf istiqamətləri təsvir edilmişdir.

Psixodinamik istiqamətin əsas anlayışları.
Z. Freydə görə, şəxsiyyət irrasional qüvvələr, şüursuz motivasiyalar və bioloji və instinktiv impulslarla, xüsusən də həyatın həlledici psixoseksual mərhələlərində, ilk altı ildə müəyyən edilir. İnstinktlər Freydin nəzəriyyəsinin əsasını təşkil edir. Z.Freyd, əvvəlcə libido terminini cinsi enerjiyə aid etsə də, sonradan libidonun əhatə dairəsini genişləndirdi. Bu instinktlər fərdi qorumaq, onu böyüməyə, inkişafa və yaradıcılığa doğru istiqamətləndirməyə xidmət edir. Bu instiktlər ölüm və yaşam instikti olmaqla 2 yerə bölünür: eros və tatanos. Z.Freydə görə libido, cinsi

enerjini əhatə edən bir motivasiya mənbəyidir. Z. Freyd fərdə həzz verən hər şeyi həyat instinktləri anlayışına daxil etmiş və həyatın son məqsədinin ağrının qarşısını alaraq həzz almaq olduğunu bildirmişdir. Freyd, fərdləri aqressiyaya sürükləyən ölüm instinktlərinin olduğunu da ifadə etmişdir, bu instiktlər tatanos adlanır. Fərdlər bir çox hallarda davranışları ilə şüuraltı ölüm arzusunu, özünə və başqalarına zərər vermək istəyini nümayiş etdirirlər. Fərdlər hər zaman bu aqressiv impulslarla mübarizə aparır. Z. Freydə görə, bu impulslar insanın davranışlarının səbəbini müəyyən edən amillərdir(Corey, 2018). Z. Freyd, uşaqlıqda seksuallığın ilk əlamətlərinin cinsi olmayan bədən funksiyalarından qaynaqlandığını təklif etdi. Onun ideyalarına görə uşaqlarda psixoloji və cinsi inkişaf beş mərhələdə tamamlanır, hər biri əvvəlki mərhələlərdə qazanılmış davranışları əhatə edir (Gençtan, 2014). Freyd cinsi inkişafı beş mərhələyə ayırdı: oral mərhələ, anal mərhələ, fallik mərhələ, gizli mərhələ və genital mərhələ. İlk üç mərhələ psixodinamik yanaşmalar üçün xüsusilə vacibdir.

Oral mərhələ:

Bu inkişafın ilk mərhələsidir. Uşağın doğulduğu vaxtdan başlayaraq 1-1,5 ilinə qədər davam edir. Bu dövrdə əsas həzz mənbəyi ağızdır, yəni, körpənin ehtiyacları və özünü ifadə etmə yolları ilk növbədə ağız bölgəsində cəmlənir. Oral mərhələ uşağın bütün həyat enerjisini qida ehtiyaclarını ödəməyə istiqamətləndirir, beləki uşaq ana sinəsini əmərək qida ehtiyaclarını qarşılayır. Freyd "Cinsi əlaqə haqqında" kitabında əmmə haqqında belə deyir: "Biz əmməyi uşağın cinsi təzahürlərinin bir növü hesab edə bilərik. Körpəlik dövründə mövcud olan əmmə, dodaqların ritmik və təkrarlanan hərəkətlərindən başqa bir şey deyildir. Uşağın hətta ayaq baş barmağı da əmmə obyektinə çevrilir, eyni zamanda başqa bir impuls yaranır, əmmə həzzi uşağın bütün diqqətini özünə çəkir, sonra onu yuxuya aparır və ya bir növ orqazm yaradır.

Anal Mərhələ:

Bu mərhələ uşağın 3 yaşının sonuna qədər davam edir. Bu dövrdə uşaq anusu sıxan əzələləri təmin edən sinirlərin yetişməsi nəticəsində nəcisin saxlanması və ya boşaldılması funksiyalarına nəzarət etməyi öyrənir (Gençtan, 2014). Uşaq anusun həssaslığından istifadə edərək, nəcisi intensiv əzələ daralmasına səbəb olana qədər saxlamaqla və anusun halqa əzələsindən keçərkən selikli qişada güclü bir stimul yaradaraq bunu ifadə edir. Uşaq bəzən bağırsaqları boşaltmaqdan imtina edir və ananın əmr və məsləhətlərinə məhəl qoymayaraq, istədiyi vaxt bunu etməkdə israr edir. Yatağını çirkləndirməkdən çəkinmir. Onun üçün önəmli olan nəcisinin həddindən artıq yığılmasından aldığı həzzin qaçmasına imkan verməməkdir.

Fallik Mərhələ.

Cinsiyyət orqanının stimullaşdırılmasından yaranan həyəcan və seksuallığa həddindən artıq maraq kimi davranışlarla xarakterizə olunan bu mərhələ təxminən uşağın 3 yaşından başlayır və 5 yaşına kimi davam edir. 3 yaşında uşağın intellektual aləmində cinsi fərqlər getdikcə daha çox maraqla qarşılanır və uşağın diqqəti cinsiyyət orqanlarına istiqamətlənir. İlk iki mərhələdə cinsi istəklərin ödənilməsi ağız və anal nahiyələrin funksiyaları ilə bağlı olduğu halda, 2,5-3 yaşdan etibarən cinsiyyət orqanlarının özü cinsi həzz mənbəyinə çevrilir. Bu dövrdə uşaqlarda masturbator davranışlar asanlıqla müşahidə edilə bilər. Bu dövrdə uşaq cinsi fərqləri öyrənir, cinsi mənlik hissi başlayır və cinsiyyətə uyğun rolların təyin edilməsi qəti olur. Supereqonun formalaşması ilə bu dövrdə uşaq cinsi qadağaları və dəyərləri öyrənməyə başlayır. Cinsi maraqlar və cinsi rolların mənimsənilməsi uşaq oyununda aydın şəkildə görünür.

Gizli Dövr: Gizli dövr 6-7 yaşdan 12-15 yaşa qədər, yəni yeniyetməlik dövrünə qədər olan dövrdür. Bu dövrdə uşağın daha əvvəl yaşadığı psixoloji və cinsi qarışıqlıqlar və münaqişələr sakitliklə müşahidə olunur. Bu dövrdə oğlan və qızlar arasında oyunun xarakteri fərqlidir. Cinsi və aqressiv enerjilər öyrənmək, oynamaq, ətraf mühiti araşdırmaq və digər insanlarla daha effektiv əlaqələr qurmaq üçün istifadə olunur.

Bu dövrün əsas xüsusiyyəti uşağın özünü eyni cinsli valideyni ilə eyniləşdirilməsi, qısqanması, yəni, Edip və Elektra komplekslərinin mövcud olmasıdır. Bundan əlavə, bu dövrdə uşaqlar öz valideynlərindən başqa böyüklərlə, məsələn, müəllimləri ilə də eyniləşirlər (Gençtan, 2014).

Genital Mərhələ:

Bu mərhələ yeniyetməlik dövrünün başlanğıcından, 11-13 yaş arasında, yeniyetmə gənc yetkinlik yaşına çatana qədər davam edir. Yeniyetməlik dövründə uşaq fizioloji yetkinliyə çatdıqca və müəyyən hormonların aktivliyi artdıqca müxtəlif istəklərin, xüsusən də cinsi motivlərin gücü artır. Bu intensivləşmə əvvəlki inkişaf mərhələlərindəki münaqişələrin yenidən yaranmasına gətirib çıxarır. Genital mərhələ bu münaqişələrə yeni həll yolları axtarmağa imkan verir və bu həll yolları tapıldıqda yetkin şəxsiyyət əldə edilir (Gençtan, 2014).

İd, eqo və supereqo

Freydin düşüncəsindəki davamlı dəyişikliklər və inkişaflar onu tədricən topoqrafik nəzəriyyədən imtina edərək şəxsiyyətin struktur modelini inkişaf etdirməyə məcbur etdi. 1926-cı ildə yazdığı "Eqo və İd" əsərində Freyd bu yeni baxışı izah etdi və psixoanalitik düşüncədə yeni bir dövrün başlanğıcını qoydu(Freud, 1923).

Z.Freydə görə, şəxsiyyət üç əsas sistemdən ibarətdir: id, eqo və supereqo.

İd: Bu şəxsiyyətin əsas sistemidir. Eqo və supereqo ondan fərqlənərək inkişaf edir. İd doğuşdan mövcud olan psixoloji qüvvələrin, o cümlədən irsi instinktlərin məcmusudur. Psixi enerji mənbəyi kimi id digər iki sistemin işləməsi üçün də lazımi gücü təmin edir. Freyd id-

i "əsl psixi varlıq" adlandırırdı. Bunun səbəbi, id-nin subyektiv təcrübə dünyasıdır. İd artıq enerji yığılmasına dözə bilmir və belə vəziyyət orqanizmdə gərginlik yaradır.

Eqo: Orqanizmin real, obyektiv dünya ilə qarşılıqlı əlaqəsini təmin edən hissəsidir. Eqo reallıq prinsipinin hökmranlığı altındadır və ikinci dərəcəli proseslər vasitəsilə fəaliyyət göstərir. Reallıq prinsipi həzz prinsipini müvəqqəti olaraq əngəlləyir. Eqo şəxsiyyətin icra orqanıdır. O, fəaliyyətə aparan yollara nəzarət edir, öz mühitində hansı obyektlərlə əlaqə quracağını seçir və hansı instinktlərin və hansı yolla təmin edilməli olduğuna qərar verir. Eqo bütün gücünü iddən alır və onsuz mövcud ola və ya ondan müstəqil ola bilməz. Klassik psixoanalizin banisi Z. Freyd eqonu iddən fərqlənərək inkişaf edən bir quruluş olaraq təyin etmişdir. Onun izi ilə gedən qızı Anna Freyd, eqonun əvvəldən, yəni doğuşdan id-dən fərqli bir quruluş olduğunu irəli sürdü və bu arqument klassik psixoanalizdən fərqləndi.(Anlı, 2016).

Supereqo: Şəxsiyyətin üçüncü və ən son inkişaf etmiş sistemidir. Bu sistem ənənəvi dəyərlərin və sosial idealların daxili təmsilidir, valideynlər tərəfindən uşağa ötürülür və mükafat və cəza təcrübələri ilə möhkəmləndirilir. Bu, şəxsiyyətin vicdanlı və əxlaqi tərəfidir. Bu, id-dən qaynaqlanan impulsların, xüsusən də cəmiyyət tərəfindən qəbul edilməyən, qadağan olunmuş cinsi və aqressiv impulsların boğulmasını və maneə törədilməsini nəzərdə tutur. Supereqo, eqonu real məqsədlərdən daha çox əxlaqi məqsədlərə nail olmağa inandırmağa çalışmaq, mükəmməlliyə can atmaq və supereqo id və eqoya qarşı durmağa, onları öz istədiyi nizama yönəltməyə meyllidir (Gençtan, 2014).

Müdafiə mexanizmləri

Psixodinamik psixoterapiyanın təməl anlayışlarından biri də müdafiə mexanizmləridir. Bu anlayış ilk dəfə Z.Freyd tərəfindən irəli sürülsə də, daha sonralar A.Freyd tərəfindən genişləndirilmişdir(Freud.A, 1936). Bu mexanizmlər Freydin şəxsiyyət nəzəriyyəsinə əsaslanır. Eqonun müdafiə mexanizmləri insana stresli daxili və ya xarici mühit nəticəsində yaranan narahatlığın öhdəsindən gəlməyə kömək edən şüursuz psixoloji proseslərdir(Vaishali və b., 2022). Bir növ, onlar fərdə təhqir, peşmanlıq, kədər, günah və utanc kimi ağrılı, neqativ duyğuları daha asan aradan qaldırmağa kömək edir. Başqa sözlə, müdafiə mexanizmləri fərdə ağrılı təcrübələrdən daha asan qalib gəlməyə və ya enerjini daha məhsuldar istifadə etməyə kömək edir. Müdafiə mexanizmləri şəxsiyyətin inkişafında və fərdin ətraf mühitə uyğunlaşmasında mühüm rol oynayır, onları daxili münaqişələrdən və emosional sıxıntılardan qoruyur(Yılmaz və b., 2007). Ancaq bu şüursuz strategiyalardan çox tez-tez və ya çox uzun müddət istifadə edilməsi adekvat hesab olunmur. A.Freyd aşağıdakı müdafiə mexanizmlərini ayırır:

Sublimasiya, sosial cəhətdən qəbul olunmayan instinktiv impulsların sosial baxımdan faydalı fəaliyyətə yönəldilməsidir, məsələn, aqressiv meylləri olan şəxsin idmanla məşğul olması sublimasiyaya nümunədir. Proyeksiya: Qəbul edilməyən hiss və istəklərin başqalarına aid edilməsi, köçürülməsidir. İnkar: Narahatlığa səbəb ola biləcək faktlar və təcrübələr üçün məsuliyyətdən imtina etmək. Bu müdafiədən istifadə edən insanlar tez-tez "olmadı", "mən etmədim", "heç kim mənə deməDi" kimi ifadələri eşidirlər. Məsələn, gündəlik siqaret çəkən insan özünü aludəçi saymır və istədiyi vaxt buraxa biləcəyini düşünür, ya da qidalanma pozuntusu olan bir insan heç vaxt özünü kifayət qədər arıq görmür.

Repressiya: Travmatik bir təcrübənin qarşısını almaq, şüura daxil olmasına mane olmaq. Məsələn, bir avtomobil qəzasını və ya uşaqlıqda zorakılığı xatırlamamaq.

Reqressiya: Stressli və narahat vəziyyətlərlə qarşılaşdıqda, hazırkı inkişaf mərhələsindən əvvəlki uşaq davranışlarına və duyğularına qayıtmaq. Buradakı məqsəd, fərdin daha etibarlı və təminatlı hiss etdiyi bir dövrdən davranışlar sərgiləyərək bu narahatlığı azaltmaq istəyi olaraq görülə bilər. Asılılıq, çəkinmə, inadkarlıq, diqqəti cəlb etmə kimi davranışlar reqressiya mexanizmlərində görünə bilər. Məsələn, qorxulu situasiyalarda davranış birdən-birə uşaqcasına çevrilir. Rasionallaşdırma: Səhv və ya problemli vəziyyətin məntiqi səbəblər və ya izahatlarla əsaslandırılması. Məsələn, imtahanda aşağı bal toplayan şagirdin bunu diqqətinin dağılması ısaslandırması rasionallaşdırma müdafiə mexanizminə nümunədir.

Yerdəyişmə: bu mexanizmdə insanın güclü emosiyaları (əsasən aqressiya, qorxu, qəzəb, bəzən də sevgi) birbaşa hədəfə yönəldilə bilmədikdə, onlar daha təhlükəsiz və ya əlçatan obyektə yönəldilir. Burada eqo insanı real təhlükədən qoruyur, məsələn, valideynindən cəza alan uşaq gedib oyuncaqlarını sındırır.

Reaksiya formalaşdırma: Şəxs öz qəbulolunmaz hisslərini əks forma ilə ifadə edir. Məsələn, gizli nifrət bəslədiyi adama qarşı həddindən artıq sevgi göstərmək.

İdentifikasiya**:** Şəxs güclü və ya nüfuzlu bir fiqurun keyfiyyətlərini mənimsəyərək öz eqosunu gücləndirir. Uşağın qəhrəman obrazına bənzəməyə çalışması bu müdafiə mexanizminə nümunədir.

Psixodinamik yanaşmanın inkişafı

Psixoanalizin sonrakı inkişaf dövrlərində A.Adler, K.Yunq, K.Horney, E.Fromm kimi psixoanalitiklər Z.Freydin ideyalarını inkişaf etdiriblər. Bu səbəblə, onlara neo-freydçilər adı verilmişdir. A.Adler Fərdi psixologiyanı inkişaf etdirmişdir, K.Yunq arxetiplər konsepsiyasını elmə gətirmişdir, K.Korney şəxsiyyətin inkişafında sosial faktorların vacibliyini vurğulamış, E.Fromm isə azadlığın, sevginin insanın sosial təbiətinə əsaslandığına dair fikirlər irəli sürmüşdür. XX əsrin ortalarında A.Freyd, E.Erikson, obyetkt münasibətləri

nəzəriyyəçiləri(M.Klein, J.Bowlby, D.Winnicot) öz ideyalarını irəli sürərək psixodinamik terapiyaları inkişaf etdirmişdilər. Beləki, A.Freyd müdafiə mexanizmləri anlayışını inkişaf etdirmiş, E.Erikson psixososial inkişaf mərhələləri konsepsiyasını irəli sürmüşdür. Sonrakı mərhələdə obyekt münasibətləri nəzəriyyəçiləri valideyn-uşaq münasibətlərində erkən uşaqlıq dövrünün, bağlanma təcrübələrinin rolunu ön plana çıxardı(Bowlby, 1969; Klein, 1932).

Müasir psixodinamik yanaşma həm nəzəri, həm də praktik baxımdan inkişaf etməkdədir. Qısamüddətli psixodinamik psixoterapiyalar yaranmış, koqnitiv-bihevioral və neyropsixoloji yanaşmalarla inteqrasiya olunmuşdur. Beləliklə, psixodinamik istiqamət yalnız klassik Freydin nəzəriyyəsi ilə məhdudlaşmayıb, müxtəlif məktəblər və yanaşmalar vasitəsilə zənginləşərək hələ də psixologiyada öz aktuallığını qoruyub saxlamaqda davam edir.

Nəticə

Psixodinamik yanaşma psixologiya elminin nəzəri və praktik ənənələrindən biri kimi insan psixikasının təməl mexanizmlərini izah etməyə çalışır. Z. Freydin irəli sürdüyü konsepsiya şəxsiyyətin strukturunu üç əsas komponent üzərində quraraq – id, eqo və supereqo – daxili psixi qüvvələrin qarşılıqlı münasibətlərini göstərmişdir. Bu struktur modeli sayəsində insan davranışının yalnız şüurlu seçimlərdən ibarət olmadığı, əksinə, şüuraltı istəklər, sosial normalar və eqonun balanslaşdırıcı funksiyası nəticəsində formalaşdığı aydın olur. Freydin təsvir etdiyi psixoseksual inkişaf mərhələləri isə uşaqlıq dövründə yaşanan təcrübələrin, həzz axtarışlarının şəxsiyyətin sonrakı inkişafına necə təsir etdiyini izah edir. Bu nəzəri çərçivə göstərir ki, erkən yaşantılar yalnız keçici təcrübələr deyil, həmçinin insanın emosional dünyasının, münasibətlərinin və şəxsiyyətinin gələcək sərhədlərini müəyyən edən həlledici amillərdir. Eyni zamanda, müdafiə mexanizmləri psixodinamik istiqamətin ən praktik anlayışlarından biridir. Onlar eqonun daxili münaqişələrlə mübarizədə və psixoloji sabitliyin qorunmasında oynadığı əsas rolu nümayiş etdirir. İnkar, repressiya, projeksiya, sublimasiya, yer dəyişmə və digər müdafiə mexanizmləri insanın gündəlik həyatında narahatlıqla baş etməsinə kömək etsə də, onların həddindən artıq və ya qeyri-adaptiv istifadəsi psixi pozuntulara yol aça bilər. Bu da göstərir ki, psixodinamik nəzəriyyə həm normal, həm də patoloji davranışı anlamaqda geniş izah imkanlarına malikdir. Müasir dövrdə psixodinamik yanaşma təkcə klassik Freyd nəzəriyyəsi ilə məhdudlaşmır. Onun davamçıları – Anna Freyd, Melanie Klein, Erik Erikson, Heinz Kohut və başqaları bu nəzəriyyəni zənginləşdirərək uşaqlıq inkişafı, eqo funksiyaları, müdafiə mexanizmləri və şəxsiyyətin formalaşması haqqında daha geniş təsəvvürlər vermişlər. Bunun nəticəsində psixodinamik istiqamət həm nəzəri psixologiyada, həm də psixoterapevtik praktikada güclü mövqeyini qorumaqdadır.

Beləliklə, psixodinamik istiqamətin əsas anlayışlarının təhlili göstərir ki, bu nəzəri çərçivə insan psixikasının çoxqatlı təbiətini anlamaqda mühüm açar rolunu oynayır. Şüur və qeyri-şüurun qarşılıqlı təsiri, instinktiv qüvvələrin balansı, uşaqlıq təcrübələrinin formalaşdırıcı gücü və müdafiə mexanizmlərinin qoruyucu funksiyası psixodinamik yanaşmanın gücünü nümayiş etdirir. Bu istiqamətin elmi-nəzəri baza kimi öyrənilməsi yalnız psixologiya elminin inkişafına deyil, həm də psixoterapiya praktikasında daha dərin və effektiv müdaxilələrin həyata keçirilməsinə imkan yaradır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Anlı, İ. (2016). Ego İdeali ve Kimlik Devamlılığı. FNG & Bilim Tıp Dergisi, 287-290.
2. Bowlby, J. (1969). Attachment and loss: Volume 1. Attachment. Basic Books.
3. Corey, G. (2008). Psikolojik danışma, psikoterapi kuram ve uygulamaları (T. Ergene, Tərc.).
4. Erikson, E. H. (1963). Childhood and society (2-ci nəşr).
5. Freud, A. (1936). The ego and the mechanisms of defence. In The writings of Anna Freud (Cild 2, s. 3–191).
6. Freud, S. (1923). The ego and the id. In J. Strachey (Red.) The standard edition of the complete psychological works of Sigmund Freud (Cild 19, s. 12–66).
7. Gençtan, E. (2014). Psikodinamik psikiyatri ve normal dışı davranışlar.
8. Klein, M. (1932). The psycho-analysis of children.
9. Yılmaz, N., Gençöz, T., & Ak, M. (2007). Savunma biçimleri testi'nin psikometrik özellikleri: Güvenilirlik ve geçerlik çalışması. Türk Psikiyatri Dergisi, 18(3), 244–253.
10. Vaishali, S., Saini, S., & Vig, D. (2022). Association of defense mechanisms with anxiety, depression and stress among adolescents. International Journal of Education & Management, 12, 288–294.

DOİ: 10.32010/ISCF9919

GƏNCLƏRİN MƏSULİYYƏT HİSSİNİN FORMALAŞMASINDA SOSİAL FƏALLIĞIN ROLU

Turan Abdulxalıq KƏRİMLİ
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ORCID nömrəsi: 0009-0004-1014-9009
E-mail: turan.karimli@adpu.edu.az

Xülasə: Bu məqalə müasir dövrdə gənclərin sosial fəallığının və məsuliyyət hissinin formalaşmasında sosial öyrənmə və müşahidə mexanizmlərinin rolunu araşdırır. Tədqiqatın əsas ideyası ondan ibarətdir ki, fərdin davranışı yalnız şəxsi təcrübə nəticəsində deyil, həm də başqalarının davranışlarını izləmə, təqlid etmə və modelləşdirmə yolu ilə formalaşır. Albert Banduranın sosial öyrənmə nəzəriyyəsinə əsaslanaraq qeyd olunur ki, müşahidə, model üzrə öyrənmə və qeyri-birbaşa gücləndirmə gənclərin sosial məsuliyyət hissini və fəallığını inkişaf etdirən əsas psixoloji mexanizmlərdir.
Məqalədə məsuliyyət anlayışı yalnız hüquqi və sosial norma kimi deyil, həm də mənəvi-emosional və şəxsiyyətin daxili nəzarət sistemini əks etdirən psixoloji fenomen kimi şərh olunur. Humanist psixologiya (A. Maslou, C. Rocers), psixososial inkişaf nəzəriyyəsi (E. Erikson) və simvolik qarşılıqlı təsir modelləri kontekstində məsuliyyət və sosial fəallığın qarşılıqlı əlaqəsi elmi əsasda təhlil edilir. Bu yanaşmalar göstərir ki, sosial öyrənmə prosesi gənclərin mənlik identikliyinin formalaşmasında, mənəvi dəyərlərin mənimsənilməsində və cəmiyyət qarşısında cavabdehlik hissinin yaranmasında mühüm vasitədir.
Məqalənin aktuallığı müasir dövrdə gənclərin yalnız bilikli və bacarıqlı deyil, eyni zamanda məsuliyyətli, sosial cəhətdən fəal və vətəndaş mövqeyi olan fərdlər kimi formalaşdırılmasının zəruriliyi ilə bağlıdır. Təcrübə göstərir ki, sosial fəallıq — könüllülük, tələbə təşkilatlarında iştirak, ictimai təşəbbüslərə qoşulma və sosial layihələrdə rol alma — gənclərin şəxsiyyətinin inkişafında aparıcı amillərdəndir. Bu fəaliyyətlər gənclərin həm psixoloji özünüreallaşmasına, həm də sosial dəyərlər sisteminə inteqrasiyasına töhfə verir.
Nəticə etibarilə, sosial öyrənmə və müşahidə mexanizmləri vasitəsilə gənclər real sosial modellərdən nümunə götürərək, öz davranışlarını tənzimləyir, əxlaqi və sosial məsuliyyət hisslərini möhkəmləndirirlər. Sosial fəallıq və məsuliyyət hissi bir-birini qarşılıqlı şəkildə tamamlayan və gənc fərdin sosial-psixoloji yetkinliyini təmin edən çoxşaxəli inkişaf prosesi kimi təqdim olunur.
Açar sözlər: Sosial fəallıq, məsuliyyət hissi, gənclərin inkişafı, sosial öyrənmə, psixoloji və mənəvi inkişaf, könüllülük, model üzrə öyrənmə

THE ROLE OF SOCIAL ACTIVITY IN THE FORMATION OF YOUTH'S SENSE OF RESPONSIBILITY

Turan Abdulkhalig KARIMLI
Azerbaijan State Pedagogical University
ORCID ID: 0009-0004-1014-9009
E-mail: turan.karimli@adpu.edu.az

Abstract: This article explores the role of social learning and observational mechanisms in the development of social activity and a sense of responsibility among modern youth. The main idea of the research is that an individual's behavior is shaped not only through personal experience but also through observing, imitating, and modeling the behaviors of others. Based on Albert Bandura's social learning theory, it is emphasized that observation, modeling, and vicarious reinforcement are the core psychological mechanisms that enhance young people's sense of social responsibility and activity.
Responsibility is interpreted not only as a legal or social norm but also as a moral-emotional and psychological phenomenon reflecting the individual's internal self-regulation system. Within the frameworks of humanistic psychology (A. Maslow, C. Rogers), psychosocial development theory (E. Erikson), and symbolic interactionism, the interrelation between responsibility and social activity is scientifically analyzed. These approaches demonstrate that the process of social learning serves as a key factor in the formation of youth identity, the internalization of moral values, and the development of accountability toward society.
The relevance of the study is determined by the growing need to educate youth not only as knowledgeable and skilled but also as responsible, socially active, and civically engaged individuals. In practice, social activity — including volunteering, participation in student organizations, and involvement in public initiatives — plays a crucial role in the psychological and moral development of young people. Such activities contribute to their self-realization and integration into the system of social values.

Consequently, through social learning and observational mechanisms, young people adopt behavioral models, regulate their conduct, and strengthen their moral and social responsibility. Social activity and responsibility thus emerge as interrelated and complementary processes that ensure the socio-psychological maturity and holistic development of the individual.
Keywords: Social activism, sense of responsibility, youth development, social learning, psychological and moral development, volunteerism, learning by model

РОЛЬ СОЦИАЛЬНОЙ АКТИВНОСТИ В ФОРМИРОВАНИИ ЧУВСТВА ОТВЕТСТВЕННОСТИ У МОЛОДЁЖИ

Туран Абдулхалыг КЕРИМЛИ
Азербайджанский государственный педагогический университет
Номер ORCID: 0009-0004-1014-9009
Электронная почта: turan.karimli@adpu.edu.az

Резюме: В статье рассматривается роль механизмов социального научения и наблюдения в формировании социальной активности и чувства ответственности современной молодежи. Основная идея исследования заключается в том, что поведение личности формируется не только на основе личного опыта, но и через наблюдение, подражание и моделирование поведения других людей. Опираясь на теорию социального научения Альберта Бандуры, подчеркивается, что наблюдение, обучение по модели и опосредованное подкрепление являются ключевыми психологическими механизмами развития социальной активности и ответственности молодежи.

Ответственность в работе рассматривается не только как правовая или социальная норма, но и как морально-эмоциональный и психологический феномен, отражающий внутреннюю систему саморегуляции личности, её способность к осознанному контролю поступков и самооценке поведения. В контексте гуманистической психологии (А. Маслоу, К. Роджерс), теории психосоциального развития (Э. Эриксон) и символического интеракционизма анализируется взаимосвязь между социальной активностью, самосознанием и ответственностью как интегративными характеристиками зрелой личности. Эти подходы показывают, что процесс социального научения играет важную роль в формировании идентичности молодежи, усвоении моральных ценностей, развитии эмпатии, альтруистических установок и чувства ответственности перед обществом.

Актуальность темы определяется необходимостью воспитания молодежи не только как образованных и компетентных, но и как ответственных, социально активных, инициативных и граждански зрелых личностей, способных к конструктивному взаимодействию в обществе. На практике социальная активность — волонтерство, участие в студенческих организациях, молодежных движениях и общественных инициативах — способствует психологическому, ценностному и нравственному развитию молодых людей, их самоактуализации, формированию лидерских качеств и интеграции в систему социальных ценностей.

Таким образом, посредством механизмов социального научения и наблюдения молодежь перенимает положительные поведенческие модели, регулирует собственное поведение и укрепляет чувство моральной и социальной ответственности. Социальная активность и ответственность выступают взаимодополняющими и взаимостимулирующими процессами, обеспечивающими социально-психологическую зрелость, внутреннюю гармонию и целостное развитие личности в условиях современного общества.
Ключевые слова: Социальный активизм, чувство ответственности, развитие молодёжи, социальное обучение, психологическое и нравственное развитие, волонтёрство, обучение по образцу

Giriş

Müasir dövrdə cəmiyyətin sosial-iqtisadi, mədəni və informasiya mühitində baş verən dəyişikliklər gənclərdən təkcə bilikli deyil, eyni zamanda məsuliyyətli və sosial aktiv vətəndaş olmağı tələb edir. Gənclik dövrü insanın ictimai mövqeyinin, dəyərlərinin və mənəvi oriyentasiyalarının formalaşdığı mərhələ olduğundan, bu yaşda sosial fəallığın düzgün istiqamətlənməsi şəxsiyyətin məsuliyyət hissəsinə birbaşa təsir göstərir. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nda (2015) da qeyd olunur ki, gənclərin ictimai-sosial fəallığının artırılması onların vətəndaş məsuliyyətinin, təşəbbüskarlığının və liderlik keyfiyyətlərinin inkişafı üçün vacib şərtdir. Sosial fəallıq vasitəsilə gənclər ictimai proseslərdə iştirak etməklə cəmiyyət qarşısında borc və cavabdehlik hissini dərk edirlər. Bu dövrdə şəxsiyyətin inkişafı və sosial münasibətlər sistemində onun funksionallaşması məsələləri psixologiyanın əsas tədqiqat istiqamətlərindən birini təşkil edir. İnsanın həyat fəaliyyətində mühüm rol oynayan keyfiyyətlərdən biri də məsuliyyət hissidir. Məsuliyyət yalnız hüquqi və ya sosial öhdəlik mənasında deyil, həm də fərdin mənəvi dünyasının, daxili dəyərlər sisteminin və davranış motivlərinin mühüm tərkib hissəsi kimi çıxış edir.

Məsuliyyət anlayışının fəlsəfi təhlilinə nəzər salsaq görərik ki, o azadlıq və seçim konsepsiyaları ilə sıx bağlıdır.. Çünki yalnız seçim etmək imkanı olan fərd, eyni zamanda həmin seçimin nəticələrinə görə cavab verməli olur. Məsuliyyət hissi güclü olan insan öz hərəkətlərinin nəticələrini əvvəlcədən düşünür, düzgün qərar verməyə çalışır və nəticəyə görə cavab verməyə hazır olur. Bu mənada məsuliyyət həm daxili, həm də xarici bir məfhum kimi qəbul edilir. Daxili məsuliyyət insanın vicdanı, mənəvi dəyərləri və şəxsi prinsipləri ilə bağlıdır. Xarici məsuliyyət isə qanunların, sosial normaların və cəmiyyətin gözləntilərinin tələbidir.

Sosioloji müstəvidə məsuliyyət fərdin cəmiyyət qarşısında öhdəlik daşıması deməkdir. Hər bir insanın davranışı yalnız onun şəxsi həyatını deyil, həm də ətrafındakı insanları və bütövlükdə ictimai mühiti təsirləndirir. Buna görə də məsuliyyət yalnız şəxsi deyil, ictimai xarakter daşıyan anlayışdır. Məsələn, insanın qanunlara riayət etməsi, başqalarının hüquq və azadlıqlarına hörmət göstərməsi, ictimai işlərdə fəal iştirak etməsi sosial məsuliyyətin göstəriciləridir.

Psixologiyada isə məsuliyyət fərdin fəaliyyətində məqsədyönlülüyü, davranışında şüurluluğu və sosial münasibətlərdə adekvatlığı təmsil edir. Başqa sözlə desək, məsuliyyət insanın həm öz həyatında, həm də cəmiyyət qarşısında daşıdığı öhdəliklərin şüurlu şəkildə qəbul olunmasıdır. Bu xüsusiyyətin möhkəmlənməsi şəxsiyyətin formalaşmasında əsas amillərdən biridir.

Tədqiqat metodları. Məqalədə tədqiqat aparılan sahədə aparılan tədqiqatlar və araşdırma əsərlərinin təhlili həyata keçirilib, ədəbiyyat təhlili, sintez və ümumiləşdirmə, müqayisə, qarşılaşdırma, müşahidə, sosiometrik və qarışıq metodlardan istifadə olunub.

Tədqiqatın aktuallığı. Cəmiyyətin əsas inkişaf istiqamətini formalaşdıran təbəqə gənclərdir. Onlarda şəxsi, mənəvi və sosial məsuliyyət hissinin güclü olması bütün cəmiyyətin sağlam inkişafı üçün həyati əhəmiyyət daşıyır. Buna görə də bu sahədə ölkəmizdə ilk tədqiqatlardan olan bu araşdırma mühüm əhəmiyyət daşıyır.

Tədqiqat problemləri: Tədqiqatın əsas problemlərini araşdırmağı qarşıya qoyan prob sualları bunlardır:

1. Gənclərin sosial fəallığının formalaşmasında sosial öyrənmənin rolu necə təzahür edir?
2. Sosial öyrənmə mexanizmləri gənclərdə məsuliyyət hissinin yaranmasına necə təsir göstərir?
3. Sosial fəaliyyətlərdə iştirak gənclərin şəxsiyyətinin inkişafına necə təsir edir?
4. Müasir informasiya mühiti (media, sosial şəbəkələr) sosial öyrənmə və müşahidə mexanizmlərinə necə təsir göstərir?

Müzakirə

Məsuliyyət hissinin öyrənilməsi klassik psixoloji nəzəriyyələrin diqqət mərkəzində olmuşdur. L.S.Vıqotski, E.Fromm, E.Erikson, A.Adler kimi görkəmli psixoloqlar məsuliyyəti şəxsiyyətin sosiallaşması, azadlıq, mənəviyyat və identiklik anlayışları ilə əlaqələndirmişlər. Onların yanaşmalarında məsuliyyət fərdin ictimai münasibətlər sistemində öz mövqeyini müəyyənləşdirən əsas faktor kimi təqdim olunur. Bu hissin inkişafı insanın özünü daha güclü və özünə inamlı hiss etməsinə kömək edir. Eyni zamanda, məsuliyyət hissi sosial münasibətlərdə etibar və qarşılıqlı hörmətin qurulmasına da təsir göstərir. Məsələn, şəxsi məsuliyyətin inkişafı insanın öz həyatını idarə etmə bacarığını artırır və bu da ümumi rifahın yüksəlməsinə səbəb olur. Müasir dövrdə məsuliyyət hissinin inkişafı sosial identiklik, şəxsiyyətlərarası münasibətlər və gənclərin sosial-mədəni adaptasiyası ilə bağlı tədqiqatlarda da xüsusi yer tutur (Henri Tacfel və Con C. Turne, 1986 - The Social Identity Theory of Intergroup Behavior; Bauman, 2000). Azərbaycan psixoloqları məsuliyyət

anlayışını milli-mənəvi dəyərlər, sosial tərbiyə və gənclərin inkişafı kontekstində araşdırmışdır. Bu istiqamətdə R.Əliyev, A.Əlizadə, R.Qasımova, M.İsmayılova kimi yerli tədqiqatçıların, psixoloqların araşdırmaları göstərir ki, məsuliyyət hissi həm ailədə, həm təhsil mühitində, həm də ictimai fəaliyyətdə gənclərin şəxsiyyət kimi formalaşmasının əsas şərtlərindən biridir. Xüsusilə də prof. Ramiz Əliyev "Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları" əsərində digər xaqlarda və xalqımızın milli-mənəvi dəyərlərində məsuliyyət hissi və onların dəyərləri haqqında geniş məlumat verir (R.Əliyev, 2000).

Məsuliyyətli insan yalnız öz hərəkətlərini deyil, həm də bu hərəkətlərin nəticələrini dərk edir, qəbul edir və onların cavabını verməyə hazır olur. Psixologiyada məsuliyyət hissi insanın öz davranış və qərarlarını nəzarət altında saxlamaq, həmçinin onları daxili dəyərlərinə və sosial normalara uyğun şəkildə tənzimləmək bacarığı ilə müəyyən olunur (Leontyev, 2005). Bu xüsusiyyətin formalaşması isə spontan proses deyil, sosial mühitin, təcrübənin, tərbiyənin və fəallığın təsiri altında baş verir. Müasir dövrdə gənclər məsuliyyət hissini ən çox sosial fəallıq sayəsində qazanırlar. Könüllülük, ictimai birliklərdə iştirak, tələbə təşkilatları, sosial aksiyalar, ekoloji təşəbbüslər və vətəndaş cəmiyyəti fəaliyyətləri gənclərə yalnız bilik və bacarıq qazandırmır, eyni zamanda onların psixoloji inkişafına da güclü təsir edir. Bandura (Bandura, A. 1977. Social Learning Theory. Englewood Cliffs, NJ: Prentice-Hall) sosial öyrənmə nəzəriyyəsində göstərirdi ki, "insan davranışı müşahidə və təcrübə yolu ilə formalaşır. İnsan başqalarının davranışını müşahidə etdikdə, həmin davranış modellərini mənimsəyir". Bu baxımdan gənclərin sosial fəallığı məsuliyyət hissinin inkişafı üçün mühüm psixoloji mexanizm rolunu oynayır.

İnsanın sosial mühitdə davranışlarını formalaşdıran əsas mexanizmlərdən biri sosial öyrənmə və onun ayrılmaz tərkib hissəsi olan müşahidə yolu ilə (model üzrə) öyrənmədir. Bu mexanizmlər fərdin cəmiyyətə uyğunlaşmasını, sosial rolları və dəyərləri mənimsəməsini təmin edir. Sosial öyrənmə insanın təkcə şəxsi təcrübəsindən deyil, həm də başqalarının davranışlarını müşahidə etmə və onları təqlid etmə yolu ilə bilik və vərdişlər əldə etməsini nəzərdə tutur. Sosial öyrənmə nəzəriyyəsi insanın sosial davranışının formalaşmasında iki əsas amili ön plana çəkir: mühit təsirləri (sosial kontekst) və koqnitiv proseslər (daxili psixoloji mexanizmlər). Banduraya görə, insan davranışı qarşılıqlı üçtərəfli sistemdə formalaşır: fərdi amillər (koqnitiv, emosional, bioloji), davranış və sosial mühit arasında qarşılıqlı təsir vardır. Bu qarşılıqlı münasibət "qarşılıqlı determinizm" adlanır. Yəni insan həm mühitdən təsirlənir, həm də özü mühiti dəyişdirir (Bandura, 1986). Bu yanaşma ilə görə bilərik ki, gənclərin sosial məsuliyyət, vətənpərvərlik, əməksevərlik və digər dəyərləri mənimsəməsi çox zaman sosial öyrənmə prosesinin nəticəsidir. Banduranın müşahidə yolu ilə öyrənmə modeli isə dörd əsas mərhələdən ibarətdir. Bunlar diqqət, yaddasaxlama, təkrar istehsal və motivasiya mərhələləridir.

İlk mərhələdə fərd modelin davranışına diqqət yetirməlidir. Yəni, insan yalnız müşahidə etdiyi davranışı qəbul edə bilməz, onu diqqətlə izləməlidir. Diqqətin hara yönələcəyi bir sıra amillərdən asılıdır. Məsələn, modelin sosial statusu, nüfuzu və fərd üçün yaxınlığı diqqətin yönəlməsində mühüm rol oynayır. Eyni zamanda, davranışın cəlbediciliyi, maraqlı və ya qeyri-adi olması da diqqəti artırır. Praktikada bu o deməkdir ki, gənclər çox zaman öz həmyaşıd liderlərini, müəllimlərini və ya daha təcrübəli şəxsləri model kimi qəbul edir və onların davranışlarını diqqətlə izləyirlər.

Yaddasaxlama mərhələsində müşahidə olunan davranış fərdin zehni yaddaşında kodlaşdırılır. Yəni, davranış yalnız izlənilmir, həm də zehində simvollar, şəkillər və anlayışlar şəklində saxlanılır. Yaddasaxlama prosesi davranışın sonrakı mərhələlərdə təkrarlanması üçün vacibdir. Fərd müşahidə etdiyi davranışları analiz edir, onların strukturunu başa düşür və yadda saxlayır. Bu, xüsusilə mürəkkəb və çoxaddımlı davranışlarda çox önəmlidir.

Növbəti mərhələ olan təkrar istehsalda isə fərd yadda saxladığı davranışı özündə təkrar etməyə çalışır. Fərd artıq müşahidə etdiyi hərəkətləri öz bacarıqları ilə həyata keçirməyə cəhd edir. Burada təcrübə və motor bacarıqları böyük rol oynayır, çünki bəzi davranışlar yalnız nəzəri olaraq müşahidə etməklə deyil, təcrübə yolu ilə mənimsənilə bilər. Fərd səhvlərini analiz edir, davranışı düzgün formaya salır və təkrar-təkrar çalışaraq onu təkmilləşdirir.

Son mərhələ motivasiya mərhələsidir. Bu mərhələdə fərdin müşahidə etdiyi və yadda saxladığı davranışı təkrar etməsi üçün motivasiyaya ehtiyacı var. Motivasiya həm daxili, həm də xarici ola bilər. Xarici motivasiya mükafatlar, sosial dəstək, tərif və ya digər müsbət nəticələrlə təmin olunur. Daxili motivasiya isə şəxsi məmnunluq, özünüinkişaf və uğur hissi ilə güclənir. Beləliklə, motivasiya fərdin davranışı yalnız

izləmək və yadda saxlamaqla kifayətlənməyib, onu həyata keçirməsini təmin edir.

Bandura müşahidə yolu ilə öyrənməni kompleks bir proses kimi izah edir və burada 4 mərhələ bir-birini tamamlayır. Bu mərhələlər gənclərin sosial davranışlarının formalaşmasında, rol modellərindən öyrənmə və şəxsi bacarıqlarını inkişaf etdirməsində əsas rol oynayır.

Sosial öyrənmənin əsas prinsiplərindən biri modelin roludur və Bandura bu anlayışı nəzəriyyəsinin mərkəzinə qoyur. O, modeli fərdin müşahidə etdiyi və təqlid etdiyi şəxs kimi izah edir. Model yalnız real həyatdakı şəxslər ola bilməz, eyni zamanda simvolik də ola bilər. Real modellərə valideynlər, müəllimlər, liderlər və ya hər hansı digər yaxın ətrafdakı insanlar daxildir. Simvolik modellər isə film qəhrəmanları, məşhur ictimai fiqurlar, yazıçılar və ya ictimai informasiyanın təqdim etdiyi digər nümunələr ola bilər.

Bu konsepsiya Azərbaycan psixoloji məktəbində də əksini tapmışdır. Məsələn, prof. Ramiz Əliyev qeyd edir ki ,(R.Əliyev, 2000) insan davranış normalarını mənimsəyərkən çox vaxt yaxın sosial mühitindəki insanların davranışlarını müşahidə edir və onlara uyğunlaşır. R.Əliyev qeyd edir ki, belə müşahidələr insanın sosial identikliyinin formalaşmasında həlledici rol oynayır. Yəni, fərd üçün sadəcə davranışı izləmək kifayət deyil, onu zehnində analiz edir, müqayisə edir və öz davranışına uyğunlaşdırır. Bu proses insanın kimliyinin və sosial mövqeyinin formalaşmasında böyük əhəmiyyət kəsb edir.

Beləliklə, gənclərin sosial fəallığı və məsuliyyət hissi də təqlid etdikləri modellərlə sıx bağlıdır. Onlar öz davranışlarını formalaşdırarkən, müsbət və nümunəvi modellərə diqqət yetirirlər. Bu modellər arasında müəllimlər, ictimai liderlər, valideynlər və ya könüllü təşkilat rəhbərləri xüsusi rol oynayır. Gənclər onların davranışlarını müşahidə edir, yadda saxlayır və eyni situasiyalarda öz davranışlarını buna uyğun yönləndirirlər. Nəticədə, sosial öyrənmə prosesi yalnız müşahidə və təqlid yolu ilə fərdi davranışın inkişafını təmin etmir, həm də gənclərin məsuliyyət hissinin və sosial fəallığının formalaşmasında mühüm mexanizm kimi çıxış edir.

Sosial öyrənmə prosesi yalnız müşahidə ilə məhdudlaşmır; bu proses eyni zamanda sosial gücləndirmə və mükafat mexanizmləri ilə dəstəklənir. Yəni, fərd yalnız başqasının davranışını izləməklə kifayətlənmir, onun həmin davranışın nəticələrini görməsi də böyük rol oynayır. Əgər müşahidə olunan davranış sosial baxımdan müsbət nəticələr doğurursa, fərd həmin davranışı təkrarlamağa daha çox meyilli olur. Məsələn, bir gənc məktəbdə və ya universitetdə liderlik edən həmyaşıdının məsuliyyətli və təşəbbüskar davranışını görürsə və bu davranış ona sosial təqdir, nüfuz qazanmaq və ya uğur gətirirsə, gənc özü də oxşar davranışları nümayiş etdirməyə çalışır.

Bandura bu mexanizmi dolayı gücləndirmə - "vicarious reinforcement", yəni qeyri-birbaşa gücləndirmə adlandırır. Bu ifadə o deməkdir ki, insan davranış öyrənərkən təkcə öz başına gələn təcrübələrdən deyil, başqalarının yaşadıqlarından da öyrənə bilir. İnsan başqalarının davranışına verilən müsbət reaksiyanı gördükcə, eyni davranışı özündə tətbiq etməyə çalışır. Yəni başqasının uğuru da bizim üçün öyrədici və motivasiyaedici rol oynayır. Beləliklə, sosial gücləndirmə yalnız şəxsi təcrübə yolu ilə deyil, müşahidə yolu ilə də effektiv öyrənməni təmin edən mexanizmdir. Sosial öyrənmə prosesi müşahidə, təqlid və qeyri-birbaşa gücləndirmə mərhələlərini birləşdirir. Bu mərhələlər gənclərə davranışlarını formalaşdırmağa, sosial qaydalara riayət etməyə və məsuliyyət hissini inkişaf etdirməyə böyük təsir göstərir. Fərd yalnız müşahidə etməklə kifayətlənməyib, başqasının təcrübələrindən öyrənir və bu öyrənmə onun sosial həyatında effektiv şəkildə tətbiq olunur.

Sosial öyrənmə mexanizmləri yalnız nəzəriyyə olaraq maraqlı deyil, həm də müxtəlif sahələrdə praktiki olaraq geniş tətbiq olunur. Bu mexanizmlər fərdin davranışının formalaşmasında və sosial bacarıqlarının inkişafında mühüm rol oynayır.

Təhsil və tərbiyə sahəsində sosial öyrənmə xüsusilə əhəmiyyətlidir. Burada müəllim və valideynlərin rolu böyükdür, çünki onlar gənclər üçün modellər kimi çıxış edirlər. Fərdlər müəllimlərin nümunəvi davranışlarını müşahidə edir, onların necə ünsiyyət qurduğunu, məsuliyyətlərini və qərar vermə üsullarını öyrənir və öz davranışlarına tətbiq edir. Valideynlər isə uşaqlara erkən yaşdan sosial norma və dəyərləri öyrədərək onların şəxsiyyəti və sosial bacarıqlarının inkişafına təsir göstərir.

Psixoterapiya sahəsində sosial öyrənmə fərqli sosial bacarıqların formalaşdırılması və davranış problemlərinin həllində istifadə olunur. Müəyyən davranış modelləri və müşahidə yolu ilə fərdlər öz emosional reaksiyalarını idarə etməyi, konfliktləri həll etməyi və sosial mühitdə daha effektiv ünsiyyət qurmağı öyrənirlər. Bu yanaşma, xüsusilə gənclər və sosial bacarıqları zəif inkişaf etmiş fərdlər üçün əhəmiyyətlidir.

Media psixologiyası sahəsində də sosial öyrənmənin rolu böyükdür. Filmlər, televiziya proqramları və sosial şəbəkələrdə təqdim olunan modellər gənclər və böyüklər üçün təqlid obyektləri rolunu oynayır. İnsanlar bu modelləri müşahidə edir, onların davranışlarını qiymətləndirir və öz həyatlarında oxşar situasiyalarda tətbiq edə bilirlər. Bu baxımdan, media yalnız informasiya mənbəyi deyil, həm də sosial davranışın formalaşmasına təsir edən bir vasitədir.

Təşkilati psixologiya sahəsində sosial öyrənmə liderlərin davranışları vasitəsilə işçilərin davranışlarını yönləndirməkdə tətbiq olunur. Məsələn, bir təşkilatda lider məsuliyyətli, təşəbbüskar və etik davranış nümayiş etdirirsə, əməkdaşlar bu davranışları müşahidə edir və öz iş fəaliyyətlərində tətbiq etməyə çalışırlar. Bu, təşkilatın ümumi iş mühiti və əməkdaşların motivasiyasının inkişafına təkan verir.

Gənclərin könüllülük fəaliyyətində iştirak etməsi isə sosial öyrənmənin praktik nümunəsidir. Bu fəaliyyət zamanı gənclər həmyaşıdlarının məsuliyyətli və təşəbbüskar davranışlarını müşahidə edir. Onların bu davranışınlara verilən müsbət reaksiyalar – tərif, təşəkkür və sosial tanınma – qeyri-birbaşa gücləndirmə rolunu oynayır və nəticədə gənclərin sosial məsuliyyət hissinin formalaşmasına təkan verir

Beləliklə, sosial öyrənmə həm təhsil, psixoterapiya, media, həm də təşkilati və sosial fəaliyyət sahələrində geniş tətbiq olunur və fərdlərin davranışlarını, sosial bacarıqlarını və məsuliyyət hissini inkişaf etdirməkdə effektiv vasitədir.

Azərbaycan psixoloji mühitində sosial öyrənmə nəzəriyyəsi də diqqət mərkəzindədir və yerli psixoloqlar bu prosesin əhəmiyyətini vurğulamışlar. Onlar qeyd edirlər ki, fərdlərin davranışlarının formalaşması və sosial bacarıqlarının inkişafı yalnız müşahidə və təcrübə yolu ilə deyil, həm də sosial mühitin təsiri ilə sıx bağlıdır.

Məsələn, prof. R.Əliyev sosial öyrənmənin cəmiyyət və fərd üçün əhəmiyyətini izah edərkən yazır ki, cəmiyyətin inkişafı fərdlərin bir-birindən öyrənməsi və davranış normalarının sosial mühitdə ötürülməsi mexanizmləri ilə sıx bağlıdır. O qeyd edir ki, bu baxımdan sosial öyrənmə gənclərin mənəvi formalaşmasında əsas psixoloji amillərdən biridir (R.Əliyev, 2018).

Başqa sözlə, sosial öyrənmə yalnız nəzəri konsept olaraq qalmır, həm də praktik əhəmiyyət kəsb edir. Azərbaycanda gənclər üçün təhsil və sosial fəaliyyət sahələrində bu proses mühüm rol oynayır. Bu, onların məsuliyyət hissinin və sosial bacarıqlarının inkişafında effektiv mexanizm kimi çıxış edir.

Banduranın sosial öyrənmə nəzəriyyəsi fərdin davranışlarını müşahidə və təqlid vasitəsilə formalaşdırdığını göstərdiyi kimi, digər klassik nəzəriyyəçilər – Erik Erikson və Corc Herbert Mid də insanın sosial mühitlə qarşılıqlı əlaqə nəticəsində şəxsiyyət kimi inkişaf etdiyini vurğulamışlar. Onların yanaşmaları, hər biri müxtəlif istiqamətlərdən yanaşsa da, sosial mühitin, qarşılıqlı münasibətlərin və öyrənmə proseslərinin fərdin məsuliyyət hissi, özünüqavrayışı və sosial identikliyinin formalaşmasında əsas rol oynadığını birləşdirir.

Erik Eriksonun psixososial inkişaf mərhələləri nəzəriyyəsi (Erikson, E. H., 1950) fərdin həyat boyu keçdiyi səkkiz əsas mərhələdə sosial təcrübələrin və qarşılıqlı münasibətlərin şəxsiyyətin formalaşmasında necə həlledici rol oynadığını izah edir. Eriksonun fikrincə, insan inkişafı bioloji proseslərlə yanaşı sosial qarşılıqlı təsirlər nəticəsində baş verir. Hər bir mərhələ müəyyən "psixososial böhran"la xarakterizə olunur və bu böhranın uğurlu həlli fərdin şəxsiyyətində yeni müsbət keyfiyyətlərin formalaşmasına gətirib çıxarır. Məsələn, uşaqlıqda "etimad və etimadsızlıq", məktəb yaşında "əməksevərlik və dəyərsizlik hissi", gənclik dövründə isə "identiklik və rol qarışıqlığı" kimi mərhələlər insanın sosial mühitlə münasibətlərini və mənəvi məsuliyyətli davranışını formalaşdırır. Erikson qeyd edirdi ki, identiklik – yəni "mən kiməm?" sualına cavab – fərdin sosial münasibətlər və sosial təcrübələri içində formalaşır. Bu baxımdan, gənclərin məsuliyyət hissinin inkişafı onların sosial fəallığı ilə sıx bağlıdır; çünki sosial fəaliyyət zamanı gənc öz sosial rolunu dərk edir, özünü cəmiyyətin bir hissəsi kimi görür və məsuliyyətli davranış nümayiş etdirir.

Corc Herbert Mid isə "simvolik qarşılıqlı təsir" nəzəriyyəsində (Mead, G. H. Mind, Self, and Society, 1934) "öz" anlayışını mərkəzə qoyur və göstərir ki, insanın "öz"ü başqalarının reaksiyalarını dərk etmə və onlara münasibət bildirmə prosesində formalaşır.

Bu nəzəriyyələr Banduranın sosial öyrənmə konsepsiyası ilə müəyyən oxşarlıqlara malikdir. Hər üç yanaşmada əsas ideya – insanın davranış və şəxsiyyətinin sosial mühitlə qarşılıqlı təsir nəticəsində formalaşmasıdır. Bandura fərdin davranışını müşahidə, modelləşdirmə və gücləndirmə yolu ilə öyrəndiyini vurğulayır. Erikson sosial münasibətlərin fərdin mənəvi və emosional inkişafında mərhələli rol oynadığını göstərir. Mid isə fərdin özünü və kimliyini sosial qarşılıqlı münasibətlər vasitəsilə dərk etdiyini izah edir. Yəni, hər üç nəzəriyyədə sosial təcrübə və

qarşılıqlı əlaqə əsas determinant kimi çıxış edir. Bandura bu prosesi davranış səviyyəsində – müşahidə və təqlid yolu ilə, Mid isə sosial mənada – "öz"ün formalaşması ilə, Erikson inkişaf mərhələləri kontekstində izah edir. Fərqli cəhətlərə gəldikdə, Banduranın yanaşması daha çox eksperimental psixologiya və davranışyönümlü tədqiqatlara əsaslanır; o, davranışın müşahidə və təcrübə ilə necə formalaşdığını izah edir. Eriksonun nəzəriyyəsi daha çox psixodinamik və inkişafyönümlüdür – burada daxili emosional gərginliklər və sosial təcrübələrin harmoniyası əsas yer tutur. Mid isə sosial-fəlsəfi baxımdan fərdi şüurun və kimliyin mənəvi tərəflərini izah edir, yəni onun nəzəriyyəsi fərdin "mən" anlayışının sosial mənbəyinə fokuslanır.

Bandura fərdin davranışını öyrənmə prosesi kimi görür, Erikson bu davranışın emosional və mənəvi inteqrasiyasını, Mid isə onun ictimai mənşəyini göstərir. Beləliklə, bu üç nəzəriyyə bir-birini tamamlayır:

– Bandura davranışın necə öyrənildiyini göstərir;

– Erikson bu davranışların hansı inkişaf mərhələlərində formalaşdığını izah edir;

– Mid isə həmin davranışların sosial mənşəyini və "öz"ün yaranma mexanizmini açıqlayır.

Bu baxımdan, məsuliyyət hissinin formalaşması da yalnız davranış vərdişlərinin öyrənilməsi ilə deyil, sosial identiklik və mənəvi dəyərlərin mənimsənilməsi ilə baş verir. Gənclərin sosial fəallığı bu üç nəzəriyyənin kəsişmə nöqtəsində dayanır: Onlar Banduranın dediyi kimi, məsuliyyətli modelləri müşahidə və təqlid edir, Eriksonun təsvir etdiyi kimi, gənclik dövründə identiklik axtarışı və sosial məsuliyyət böhranını yaşayaraq şəxsiyyətlərini formalaşdırır, Midin nəzəriyyəsinə uyğun olaraq, cəmiyyətin gözləntilərinə cavab verən, sosial "öz"lərini yaradırlar.

Sosial faktorların şəxsiyyətin formalaşmasındakı rolunu araşdırdıqdan sonra məsuliyyət hissinin daha dərin – mənəvi və emosional aspektlərinə diqqət yönəltmək zəruridir. Çünki məsuliyyətin psixoloji mexanizmləri yalnız sosial öyrənmə ilə deyil, həm də mənəvi duyğular və daxili motivlərlə müəyyən olunur. Psixoloji baxımdan məsuliyyət hissi insanın öz davranışlarına emosional münasibətinin, başqalarının rifahına və sosial qaydalara bağlılığının göstəricisidir. Bu baxımdan məsuliyyətin təməlində yalnız "doğru davranmaq" deyil, həm də "doğru davranmağa daxili ehtiyac duymaq" durur.

Mənəvi məsuliyyətin psixoloji əsaslarını araşdıran müasir tədqiqatçılardan biri Conatan Haidt (2001, The Emotional Dog and Its Rational Tail: A Social Intuitionist Approach to Moral Judgment) hesab edir ki, mənəvi emosiyalar (duyğular) insanın əxlaqi qərarvermə prosesinin əsas hərəkətverici qüvvəsidir. Haidtə görə, insanlar əxlaqi qərarları çox vaxt emosional intuisiyalar vasitəsilə verirlər və bu intuisiyalar sosial mühitdə formalaşan "mənəvi reflekslərə" əsaslanır.

O, mənəvi emosiyaları iki əsas qrupa bölür:

– Özünə yönəlmiş emosiyalar – vicdan əzabı, günahkarlıq, utanma kimi hisslər fərdin məsuliyyətsiz davranışdan sonra daxili nəzarət mexanizmini işə salır;

– Başqasına yönəlmiş emosiyalar – empatiya, mərhəmət, minnətdarlıq və qürur kimi emosiyalar sosial məsuliyyəti və mənəvi bağlılığı gücləndirir.

Beləliklə, Haidtin modelinə görə, məsuliyyət hissi rasionallıqdan çox emosional və sosial intuitiv mexanizmlərə əsaslanır. Yəni, fərd məsuliyyətli davranış sərgilədikdə yalnız qaydalara tabe olmur, həm də başqalarının rifahına empatik şəkildə cavab verir. Bu da məsuliyyətin mənəvi-emosional komponentini formalaşdırır.

Psixoloji ədəbiyyatda məsuliyyətin mənəvi aspekti çox zaman empatiya, vicdan və dəyərlər sistemi ilə əlaqələndirilir. Məsələn, C.Rocers və A.Maslou kimi humanist psixoloqlar məsuliyyət hissini "özünügerçəkləşdirmə"nin tərkib hissəsi kimi izah etmişlər. Maslou (1954, Motivation and Personality) qeyd edirdi ki, "öz potensialını dərk edən insan başqalarının rifahı üçün də məsuliyyət hiss edir". Bu baxımdan məsuliyyət yalnız sosial tələb deyil, həm də mənəvi kamilliyin göstəricisidir.

Rocers (1961, On Becoming a Person) isə məsuliyyət hissini "daxili azadlığın davamı" kimi görür: insan azad olduqca seçim edir, seçim etdikcə isə məsuliyyət daşıyır. Bu, fərdin daxili səmimiyyət və vicdanla öz davranışını tənzimləməsi deməkdir.

Fəlsəfi kontekstdə məsuliyyət anlayışı Stanford Fəlsəfə Ensklopediyası (SEP) kimi mənbələrdə həm etik, həm də ontoloji səviyyədə izah olunur. SEP-də "Mənəvi məsuliyyət" məqaləsində R. məqaləsində Cey Vallesə istinadən qeyd edilir ki, mənəvi məsuliyyət fərdin "nə üçün cavabdeh" olduğunu dərk etməsi və bu dərkə uyğun davranış sərgiləməsidir. Burada məsuliyyət iki əsas istiqamətdə təhlil olunur:

Cavabdehlik (accountability) – fərdin sosial və hüquqi normalar qarşısında hesabat vermə qabiliyyəti;

Aid etmə (attributability) – fərdin davranışlarının mənəvi subyekt kimi onun daxili niyyətlərinə və emosional motivlərinə bağlanması.

Fəlsəfi baxımdan bu, o deməkdir ki, məsuliyyətin kökündə seçim azadlığı və mənəvi niyyət dayanır. İnsan bir davranışa görə yalnız onu seçdiyi və niyyətlə həyata keçirdiyi halda mənəvi baxımdan məsul sayılır. Bu fikir Kant etikası ilə də səsləşir: Kantın fikrincə, mənəvi dəyər yalnız vəzifə hissindən doğan hərəkətlərdə özünü göstərir.

Mənəvi məsuliyyətin emosional tərəfi isə David Hume və Adam Smit kimi klassik etik filosofların "mərhəmət və empatiya" anlayışlarında öz ifadəsini tapır. Hume (A Treatise of Human Nature, 1739) mənəvi duyğuları sosial harmoniya yaradan "emosional rezonanslar" kimi qəbul edir. Adam Smit isə (The Theory of Moral Sentiments, 1759) "başqasının baxış bucağından özünü dəyərləndirmə" qabiliyyətini mənəvi davranışın əsası sayır. Bu ideya, müasir psixologiyada Midin "ümumiləşmiş digər" anlayışı və Banduranın "sosial müşahidə" mexanizmi ilə paralellər təşkil edir.

Beləliklə, həm psixoloji, həm də fəlsəfi aspektlərdə məsuliyyətin mənəvi-emosional tərkibi üç əsas istiqamətdə birləşir:

– Empatik və intuitiv əsaslar – Haidt və Hume kimi tədqiqatçılara görə, məsuliyyət emosional rezonansdan doğur;

– Daxili mənəvi tənzimləmə – Rocers və Maslou kimi psixoloqların fikrincə, məsuliyyət insanın vicdanı və özünügerçəkləşdirmə səviyyəsi ilə müəyyən olunur;

– Seçim və niyyət azadlığı – SEP və Kant etikası baxımından məsuliyyət insanın azad iradəsi və mənəvi qərarvermə qabiliyyəti ilə bağlıdır.

Bu birləşmiş yanaşma göstərir ki, məsuliyyət hissi yalnız sosial qaydalara riayət etməklə deyil, həm də mənəvi duyğular, empatiya və vicdanın fəaliyyətə keçməsi ilə formalaşır. Gənclərin məsuliyyət hissinin güclənməsi üçün sosial fəaliyyətlə yanaşı, onların emosional-mənəvi refleksiya qabiliyyətinin inkişaf etdirilməsi – yəni başqalarının hisslərini dərk etmək, vicdanlı qərarlar vermək və mənəvi motivlərlə davranmaq – əsas şərtdir.

İnsanın məsuliyyət hissi yalnız sosial öyrənmə və mənəvi dəyərlər müstəvisində deyil, həm də onun daxili psixoloji resursları və motivasiyası ilə sıx bağlıdır. Fərd öz davranışını yalnız xarici nəzarət və sosial gözləntilərə əsasən deyil, həm də daxili istəkləri, məqsədləri və özünüreallaşdırma ehtiyacı vasitəsilə tənzimləyir. Bu baxımdan məsuliyyətin dərin psixoloji təməlini özünüreallaşdırma və motivasiya mexanizmləri təşkil edir.

Məsuliyyətin formalaşmasında daxili motivasiyaların və özünüreallaşdırma meylinin rolu humanist psixologiya məktəbinin nümayəndələri tərəfindən geniş şəkildə izah olunmuşdur.

Humanist psixologiya (Karl Rocers, Avraam Maslou və digərləri) fərdin daxili potensialının həyata keçirilməsini insan inkişafının əsas məqsədi kimi qəbul edir. Bu yanaşmaya görə, hər bir insanın daxilində özünü daha kamil, daha mənalı və məsuliyyətli varlığa çevirmə meyli mövcuddur. A.Maslounun məşhur "tələbatlar iyerarxiyası" nəzəriyyəsinə əsasən (Maslou A.H. Motivation and Personality, 1954), insan davranışını istiqamətləndirən əsas motivlər tələbatların pillə-pillə qarşılanması ilə əlaqəlidir. A. Maslou tələbatları beş səviyyədə təsnifləşdirir: fizioloji, təhlükəsizlik, sevgi və aidiyyət, hörmət və özünüreallaşdırma.

Maslouya görə, yalnız ilkin və sosial ehtiyaclar ödəndikdən sonra fərd öz daxili potensialını həyata keçirməyə yönəlir. Özünüreallaşdırma mərhələsinə çatan insan, davranışlarını artıq xarici təsirlərdən deyil, daxili dəyərlər və məsuliyyət hissindən qaynaqlanan motivasiyalarla tənzimləyir. Bu zaman məsuliyyət anlayışı fərdin mənəvi və psixoloji yetkinliyinin göstəricisinə çevrilir.

Karl Rocers də bu istiqamətdə "tam funksional insan" konsepsiyasını irəli sürür (Rocers, C.R., 1961, On Becoming a Person). O, hesab edirdi ki, insanın psixoloji rifahı və məsuliyyətli davranışı onun daxili "mən"i ilə (self-concept) real təcrübəsi arasındakı uyğunluq dərəcəsindən asılıdır. Özünü dərk edən və daxili dəyərlərinə uyğun yaşayan insan daha məsuliyyətli, məqsədyönlü və sosial baxımdan faydalı fəaliyyət göstərir.

Humanist psixologiyanın bu istiqaməti məsuliyyətin formalaşmasını daxili motivasiyanın təzahürü kimi izah edir. Yəni insan məsuliyyətli davranmağa məcbur olduğu üçün deyil, bunu mənəvi və psixoloji ehtiyac kimi hiss etdiyi üçün belə davranır. Daxili motivasiya, özünüreallaşdırma istəyi və şəxsi məqsədlərlə uyğunluq fərdi məsuliyyətin ən sabit və davamlı formalarını yaradır.

Fərdin məsuliyyətli davranışı yalnız onun daxili motivasiyalarından deyil, həm də daxil olduğu sosial mühitdən, qruplardan və bu qruplarla identikliyindən asılıdır. İnsan sosial varlıq kimi öz davranışını başqaları ilə qarşılıqlı əlaqə və qrup daxilində formalaşdırır. Bu isə məsuliyyətin qrup dinamikası və

sosial identiklik mexanizmləri ilə sıx bağlı olduğunu göstərir.

Sosial psixologiyada məsuliyyətin formalaşması çox zaman fərdin daxil olduğu qrupun dəyərləri, normativləri və identikliyi ilə izah olunur. Henri Tacfel və Con Törnerin "Sosial identiklik nəzəriyyəsi"nə görə (Tacfel, Törner, 1979) insanlar sosial qruplara mənsub olduqlarını dərk etdikdə özlərini bu qrupların bir hissəsi kimi qəbul edir və davranışlarını həmin aidiyyətə uyğun şəkildə tənzimləyirlər. Sosial identiklik fərdin "mən kiməm?" sualına sosial cavabdır.Bu prosesdə qrup normativləri, qarşılıqlı dəstək və qrupdaxili dəyərlər fərdin məsuliyyət hissinə birbaşa təsir göstərir. İnsan qrupun bir üzvü kimi təkcə şəxsi deyil, həm də kollektiv məsuliyyət daşıdığını hiss edir. Bu mexanizm, xüsusilə gənclərin ictimai və könüllü təşkilatlarda iştirakında özünü aydın göstərir. Onlar bu fəaliyyətlərdə təkcə fərdi təşəbbüslə deyil, həm də kollektiv dəyərlərə sadiq qalmaq və qrupun reputasiyasını qorumaq motivasiyası ilə hərəkət edirlər.Kurt Levinin "qrup dinamikası" nəzəriyyəsi (Levin, K., Field Theory in Social Science, 1951) də bu baxımdan mühüm əhəmiyyət daşıyır. Levin qeyd edir ki, fərdin davranışı sosial qüvvə sahəsində, yəni qrupdaxili münasibətlər və qarşılıqlı təsirlər sistemində formalaşır. Qrup daxilində əməkdaşlıq, liderlik və qarşılıqlı etimad səviyyəsi yüksək olduqda, fərdlər daha məsuliyyətli və təşəbbüskar davranış nümayiş etdirirlər.

Bu baxımdan, məsuliyyət hissi təkcə fərdi psixoloji xüsusiyyət deyil, həm də sosial kontekstdə öyrənilən və paylaşdırılan bir dəyərdir. Qrup identikliyi və sosial aidiyyət hissi fərdləri cəmiyyət qarşısında daha məsuliyyətli davranmağa, sosial öhdəlikləri birgə daşımağa sövq edir.

Qrup dinamikası və sosial identiklik fərdin məsuliyyət hissinin formalaşmasında mühüm sosial-psixoloji mexanizmdir. İnsan özünü müəyyən bir qrupun dəyərləri ilə eyniləşdirdikcə, bu dəyərlərə sadiq qalmaq və davranışlarını onlara uyğunlaşdırmaq məsuliyyətin həm fərdi, həm də kollektiv səviyyədə inkişafına şərait yaradır.

Erik Erikson (Erikson, E. H. (1968). Identity: Youth and Crisis. New York: W. W. Norton & Company.) isə gənclik dövrünü "identiklik axtarışı mərhələsi" adlandırır. Onun fikrincə, gənclər sosial fəallıq vasitəsilə kimliklərini aydınlaşdırır, cəmiyyətdə özlərinə rol tapır və məsuliyyətli şəxsiyyət kimi formalaşırlar.

Məsuliyyət psixoloji baxımdan insanın mənəvi yetkinliyinin göstəricisi hesab olunur. O, yalnız qanun qarşısında cavabdehliklə məhdudlaşmır, həm də daxili şüur, vicdan və sosial dəyərlərin təsiri ilə formalaşır. Məsələn, A.N. Leontyev məsuliyyəti fəaliyyətin strukturunda mühüm komponent hesab edir: "İnsan fəaliyyətinin nəticələri cəmiyyət tərəfindən qiymətləndirilir və şəxsiyyət öz davranışına görə cavabdehlik daşıyır" (Леонтьев, 2005, s. 88). Sosial fəallıq isə insanın cəmiyyətin həyatında könüllü və məqsədyönlü iştirakı kimi izah olunur. Psixologiyada sosial fəallıq insanın motivasiya, dəyərlər sistemi, məqsəd və iradə xüsusiyyətlərinin sintezidir. Gənclərin sosial fəallığı müxtəlif istiqamətlərdə təzahür edir: könüllülük, ictimai təşkilatlarda iştirak, vətəndaş təşəbbüsləri, sosial aksiyalar, sosial şəbəkələrdə maarifləndirici fəaliyyət və s.

Nəticə

Sosial fəallıqla məsuliyyət arasında birbaşa əlaqə var. Sosial fəal gənc müəyyən öhdəliklər götürür, komanda işində iştirak edir, başqalarının ehtiyaclarını nəzərə alır. Bu isə onun psixikasında məsuliyyət duyğusunu möhkəmləndirir. Sosial fəallığın məsuliyyətin formalaşmasına təsiri bir neçə psixoloji mexanizm vasitəsilə reallaşır. Sosial fəallıq müxtəlif sosial qruplardan olan insanlarla təmas yaratmağı tələb edir. Bu təcrübə gənclərdə empatiya bacarığını artırır. Empatiya isə məsuliyyət hissinin psixoloji bazasını təşkil edir. Çünki başqasının hisslərini dərk edən insan onun qarşısında daha çox cavabdehlik hiss edir. Gənclər sosial layihələrdə iştirak edərkən qrup üzvləri qarşısında öhdəlik götürürlər. Psixologiyada qrup dinamikası göstərir ki, kollektiv qarşısında öhdəlik fərdin məsuliyyət hissini gücləndirir (Festinger, 1954). Könüllülük fəaliyyəti, tələbə təşkilatlarında iştirak, sosial layihələr və ictimai təşəbbüslərdə aktiv rol almaq gənclərin şəxsiyyət kimi və sosial inkişafında mühüm əhəmiyyət kəsb edir. Belə fəaliyyətlər gənclərə yalnız bilik və bacarıqlarını tətbiq etmək imkanı yaratmır, həm də onların sosial identikliyini möhkəmləndirir. Sosial identiklik nəzəriyyəsinə əsasən, fərd özünü müəyyən bir qrupun üzvü kimi tanıdıqda, onun qrupun dəyərləri və norma¬larına uyğun davranmaq istəyi güclənir. Bu proses, öz növbəsində, gənclərin məsuliyyət hissinin formalaşmasına birbaşa təsir göstərir, çünki onlar öz fəaliyyətlərinin həm fərdi, həm də sosial nəticələrini dərk etməyə başlayır.

Sosial fəallıq gənclərdə özünə inamın inkişafına şərait yaradır. Qrup və ictimai layihələrdə uğurlu iştirak təcrübəsi fərdlərə öz potensialını görmək və qiymətləndirmək imkanı verir, qərarvermə və təşəbbüskarlıq bacarıqlarını gücləndirir. Gənclər

yalnız öz şəxsiyyətlərini daha yaxşı formalaşdırmır, həm də sosial mühitlə harmonik inteqrasiya olunaraq məsuliyyətli və fəal vətəndaş kimi yetişirlər. Onların sosial fəallığının dəstəklənməsi və təşviqi məqsədilə təhsil müəssisələrində tələbə təşkilatlarının fəaliyyət sahələrinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi və sosial təşəbbüslərin davamlı təşkili mühüm əhəmiyyət kəsb edir. Tələbə təşkilatları vasitəsilə gənclər yalnız akademik inkişafla kifayətlənməyərək, həm də sosial məsuliyyətli və ictimai fəal vətəndaşlar kimi formalaşırlar (T.A. Kərimli, 2025).

Könüllülük və sosial fəallıq gənclərin həm daxili, həm də sosial inkişafı üçün əsaslı platformadır: onlar gənclərin sosial identikliyini gücləndirir, özünə inamını artırır və məsuliyyət hissini inkişaf etdirir.

Təkliflər. Aparılan araşdırma nəticəsində gəlinən nəticələrə əsasən aşağıdakı praktik təklifləri irəli sürmək olar:

– Ali pedaqoji təhsil verən məktəblərdə təhsil alan tələbələrin tədris planlarına şagirdlərlə iş prosesində onlarda məsuliyyət hissinin formalaşmasına dəstək üçün dərslərdə sosial aktiklik metodlarından istifadəni təşviq edən yanaşmalar daxil edilməlidir.

– Yetişməkdə olan gənc nəsilin rol model boşluğu yaşamamalarına valideynlər və məktəb olaraq xüsusi diqqət yetirilməli və onların yanlış rol modellər qəbul etməsinin qarşısı alınmalıdır.

– Bu sahədə Azərbaycan psixoloji məktəbində praktik tədqiqatların həyata keçirilməsi və nəticələrinin, xüsusən, təhsil sahəsində tətbiqi təşviq olunmalıdır.

– Ali məktəblərdəki tələbə təşkilatları və orta məktəblərdəki uşaq yaradıcılıq dərnəklərinin fəaliyyəti bu konteksdə yenidən nəzərdən keçirilməlidir.

ƏDƏBİYYAT SIYAHISI:

1. Bayramov Ə.S və Əlizadə Ə.Ə. (2003). "Sosial psixologiya". Bakı: Qapp-poliqraf, 345 s.
2. Əliyev R. (2019. "Psixoloji mədəniyyət və şəxsiyyətin inkişafı", Bakı: Elm və Təhsil, s. 178
3. Əliyev R.İ. (2000). "Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları". Bakı: Araz, 195 s.
4. Əliyev R.İ. (2015). "Ümumi psixologiya", Bakı: ADPU nəşriyyatı, 248 s.
5. Əliyev R.İ. (2023). "Mentalitet", Bakı: ADPU nəşriyyatı, 186 s.
6. Əlizadə Ə.Ə. (2001). "Yeni pedaqoji təfəkkür". Bakı: Adiloğlu, 161 s. Əmrahlı L.Ş. (2007). "Şəxsiyyət və cəmiyyət". Bakı: MBM, 206 s.
7. Əlizadə Ə.Ə. (2022). "Seçilmiş əsərləri". Bakı: Füyuzat, 524 s.
8. Əzimov Q.E. (2004). "Psixi İnkişaf və Tərbiyənin Müasir Probremləri". 338 s.
9. Qasımova R. (2020). "Yeniyetməlik yaşı dövründə davranışın əsas xüsusiyyətləri və davranış pozuntularına təsir edən sosial-psixoloji amillər.". Bakı: Bakı Qızlar Universiteti, s. 336-340
10. Qədirov Ə.Ə. (2022). "Yaş psixologiyası". 388 s.
11. Kərimli T.A. (2025). Gənclərin sosial fəallığının formalaşmasında tələbə təşkilatlarının rolu. *Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. C 73, №1,* 120-128
12. Bandura, A. (1986). Social foundations of thought and action: A social cognitive theory. Prentice-Hall. 617 p.
13. Bandura, A. (1977). Social Learning Theory. Englewood Cliffs, NJ: Prentice-Hall
14. Deci, E. L. və Ryan, R. M. (2000). Self-determination theory and the facilitation of intrinsic motivation, social development, and well-being. American Psychologist, 55(1), 68-78. p.
15. Neisser, U. (1967). Cognitive psychology. Appleton-Century-Crofts. 351 p.
16. Piaget,J.(1952). The origins of intelligence in children. Norton. 443 p.5
17. Skinner, B. F. (1953). Science and human behavior. Free Press. 458 p.
18. Леонтьев, А. Н. (1977). Деятельность, сознание, личность. Москва:Прогресс. 304 с.
19. Рубинштейн С. Л. (1989). Основы общей психологии. Т. 1. – 488 с.
20. https://anl.az/down/meqale/elm_eserler_tn/2018/03/769298%28meqale%29.pdf?utm_source=chatgpt.com
21. http://journals.sagepub.com/doi/abs/10.1177/0725513605057137
22. https://atheneadigital.net/article/view/n0-hormazabal
23. https://www.christosaioannou.com/Tajfel%20and%20Turner%201986.pdf

DOİ: 10.32010/CBEL9545

İNSAN İNTELLEKTİ VƏ SÜNİ İNTELLEKT BACARIQLARININ MÜQAYİSƏLİ TƏSVİRİ

Aydın Xalid KƏRİMOV
Gəncə Dövlət Universitetinin doktorantı
Mingəçevir Dövlət Universitetinin müəllimi
Orcid: https://orcid.org/0009-0007-8861-7791
E-mail: aydin.karimov@mdu.edu.az

Xülasə: Bu məqalə İnsan İntellekti (İİ) və Süni İntellekt (Sİ) bacarıqlarını müqayisəli şəkildə təhlil edərək, hər iki zəka növünün güclü və zəif tərəflərini ortaya qoyur. Süni İntellektin əsas üstünlükləri onun sürətli məlumat emalı qabiliyyətidir. Sİ külli miqdarda verilənləri inanılmaz sürətlə təhlil edir, bu da ona yüksək dəqiqlik və ardıcıllıqla işləməyə imkan verir. Onun yaddaşı həcmli və itkisizdir, həmçinin verilənlərə əsaslanan obyektiv qərarlar verməkdə üstündür. Sİ təkrar olunan və strukturlaşdırılmış tapşırıqlarda yorulmadan və qərəzsiz fəaliyyət göstərir. Buna qarşı, İnsan İntellekti özünün emosional zəkası, yaradıcılığı və adaptasiya qabiliyyəti ilə seçilir. İnsanlar hissləri və empatiyanı başa düşür, mürəkkəb sosial münasibətlərdə yol tapa bilir və etik mühakimə əsasında qərarlar qəbul edir. İİ məlumatı kontekst və sağlam məntiq ilə birləşdirərək həqiqi anlayış yaradır, həmçinin təcrübələrdən çevik şəkildə öyrənə bilir. Sİ-dən fərqli olaraq, İİ qutudan kənar düşünmək və tamamilə orijinal ideyalar yaratmaq gücünə malikdir. Nəticədə, məqalə Sİ və İİ-nin rəqib deyil, tamamlayıcı olduğunu vurğulayır. Gələcəkdə ən səmərəli nəticələr Sİ-nin dəqiqliyi və sürəti ilə İİ-nin emosional və yaradıcı qabiliyyətlərinin birləşdirilməsi ilə əldə ediləcək.
Açar sözlər: İnsan intellekti, süni intellekt, ömürboyu öyrənmə, koqnitiv bacarıqlar, emosional zəka.

A COMPARATIVE DESCRIPTION OF HUMAN INTELLIGENCE AND ARTIFICIAL INTELLIGENCE CAPABILITIES

Aydin Khalid KARIMOV
Ganja State University, PhD student
Mingachevir State University, lecturer
Orcid: https://orcid.org/0009-0007-8861-7791
E-mail: aydin.karimov@mdu.edu.az

Abstract: This article provides a comparative analysis of Human Intelligence (HI) and Artificial Intelligence (AI) capabilities, highlighting the strengths and weaknesses of both types of intelligence. The main advantages of Artificial Intelligence lie in its ability to process information rapidly. AI can analyze vast amounts of data at incredible speed, enabling it to work with high accuracy and consistency. Its memory is extensive and lossless, and it excels at making objective decisions based on data. AI performs repetitive and structured tasks tirelessly and without bias.

In contrast, Human Intelligence stands out with its emotional intelligence, creativity, and adaptability. Humans understand feelings and empathy, navigate complex social interactions, and make decisions based on ethical reasoning. HI combines information with context and sound logic to form genuine understanding, and it can learn flexibly from experiences. Unlike AI, HI has the ability to think outside the box and generate completely original ideas.

As a result, the article emphasizes that AI and HI are not rivals but complementary forces. In the future, the most effective outcomes will be achieved by combining the speed and precision of AI with the emotional and creative capabilities of HI.
Keywords: Human intelligence, artificial intelligence, lifelong learning, cognitive skills, emotional intelligence.

СРАВНИТЕЛЬНОЕ ОПИСАНИЕ СПОСОБНОСТЕЙ ЧЕЛОВЕЧЕСКОГО И ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

Айдын Халид КАРИМОВ
Гянджинский государственный университет
Orcid: https://orcid.org/0009-0007-8861-7791
Электронная почта: aydin.karimov@mdu.edu.az

Резюме: В данной статье проводится сравнительный анализ способностей человеческого интеллекта (ЧИ) и искусственного интеллекта (ИИ), выявляются сильные и слабые стороны обоих типов интеллекта. Основными преимуществами искусственного интеллекта являются его способность к быстрой обработке информации. ИИ способен анализировать огромные объемы данных с невероятной скоростью, что позволяет ему работать с высокой точностью и последовательностью. Его память объёмна и не подвержена потерям, а также он превосходен в принятии

объективных решений на основе данных. ИИ эффективно выполняет повторяющиеся и структурированные задачи без усталости и предвзятости.
В противоположность этому, человеческий интеллект выделяется своим эмоциональным интеллектом, креативностью и способностью к адаптации. Люди понимают чувства и проявляют эмпатию, могут ориентироваться в сложных социальных взаимодействиях и принимать решения, основываясь на этических соображениях. ЧИ объединяет информацию с контекстом и здравой логикой, формируя подлинное понимание, а также способен гибко учиться на основе опыта. В отличие от ИИ, ЧИ способен мыслить нестандартно и создавать полностью оригинальные идеи.
В заключение, статья подчёркивает, что ИИ и ЧИ не являются соперниками, а, наоборот, дополняют друг друга. В будущем наилучшие результаты будут достигаться путём объединения точности и скорости ИИ с эмоциональными и творческими способностями ЧИ.
Ключевые слова: человеческий интеллект, искусственный интеллект, обучение на протяжении всей жизни, когнитивные способности, эмоциональный интеллект.

Giriş

2024-cü ilin iyun ayında Avstraliyada keçirilmiş Dünya İqtisadi Forumunda Süni İntellekt (Sİ) sahəsində baş verən texnoloji irəliləyişlər müzakirə olunmuş, xüsusən Sİ-nin işçi qüvvəsinə dərindən təsiri vurğulanmışdır. Sİ maşınları gündəlik tapşırıqları səmərəli və dərindən yerinə yetirmək qabiliyyətində olduqlarından, əmək bazarında ən çox qiymətləndirilən bacarıqlar maşınların öhdəsindən gələ bilmədiyi bacarıqlar aid edlmişdir. Beləliklə, daha əhəmiyyətli koqnitiv bacarıqlar sırasına aşağıdakılar daxil edilmişdir: yaradıcı və analitik təfəkkür, problemləri həletmə və yeni ideyaların həlli yollarını tapmaq bacarıqları. Deməli, Sİ maşınlarını işlətmək üçün texniki və rəqəmsal biliklər vacib olsa da, tənqidi düşünmək, mürəkkəb problemləri həl etmək və innovativ həll yolları tapmaq bacarıqları əsas götürülür. Bunlardan əlavə, dözümlülük, çeviklik, ömürboyu öyrənmə və mənimsəmə istəyi əvəzolunmaz bacarıqlar olaraq qalacaqdır. Bir sözlə, baş verən sürətli texnoloji yeniliklər insan beyninin bu yeniliklərə uyğunlaşma qabiliyyəti və bacarıqları tələb edir. Bu isə dünyanın əmək bazarında rəqabətin daha da artacağının proqnozudur. Yüksək koqnitiv bacarıqları olan şəxslərdə üstünlük həmin bacarıqları texnoloji savadlılıqla birləşdirilməsini tələb edir: “dəyişmələrə uyğunlaşmanı və ömürböyu öyrənməni əhatə edən düşüncə tərzini inkişaf etdirmək;yaradıcılıq məşqləri, tənqidi düşüncə problemləri və öyrənmə proqramları üzrə strategiyaları həyata keçirmək; Sİ dövründə insanın koqnitiv bacarıqlarının fərqləndirici xüsusiyyətlərinə yaxşı bələd olmaq; yenilikləri idarə etmək, aktual qalmaq üçün bacarıqları fəal şəkildə inkişaf etdirmək” (Davos, 2024, Australia).

Nəzəriyyə: Aparılan təhlillərə, insan intellekti ilə süni intellekt arasındakı müqayisələrə əsaslanaraq süni intellekti formalaşdıran koqnitiv bacarıqların hansılarının inkişafının daha vacib olması məsələsini də şərh etmək mümkündür. Bunun üçün bütövlükə şəxsiyyətin inkişafına yönələn strategiyalar müəyyən edilməlidir. Həmin strategiyalar bunlardır.

Özünü davamlı öyrənməyə stimullaşdırmaq bacarığı. Hazırda istər Sİ sahəsində çalışan, istərsə də onun xidmətlərindən istifadə edən hər kəs davamlı olaraq müasir innovasiyaları mənimsəməli, kəşf etmək, daha yeniləri yaratmaq üzərində işləməli, öz bacarıqlarını inkişaf etdirməli, mənimsəmə yollarını özlərinin fərdi üslubuna görə atarmalı və müəyyən etməlidirlər.

Şəxsi yaradıcılığı inkişaf etdirmək bacarıqları. Hər kəs özünü müxtəlif çətinliklərlə sınayaraq onları həll etmək üçün yollar axtarmalı, daxili resurslarını aşkara çıxarmalı, onları səfərbər etməli, belə deyək - özünü yenidən kəşf etməli və yenidən yaratmalıdır. Bunun üçün seçdiyi peşə məkanından kənara çıxaraq texnoloji çevrələrlə, fənlərlə, sərgilərlə, tədbirlərlə maraqlanmalı, onlarla tanış olmalı, fəal şəkildə iştirak etməlidirlər. Bu zaman koqnitiv bacarıqların digər sahələrlə üzləşməsi, çarpazlaşması, “qucaqlaşması və toqquşması” baş verəcək, formalaşdırılması vacib olan yeni bacarıqları, konturları daha aydın görünəcək.

Tənqidi düşüncə və təcrübə bacarıqları. Süni intellektin formalaşdırılmasında texniki bacarıq və rəqəmsal savad daha vacib olsa da, tənqidi düşünmək, mürəkkəb problemləri təhlil etmək və innovativ həllər hazırlamaq bacarığı da əsasdır. Bu səbəbdən hər kəs istər çalışdığı peşə fəaliyyətində, istərsə də digər sahələrdə özünü mütəmadi olaraq dərindən təhlil edərək strateji düşüncə və qərar qəbulu tələb edən yeniliklər axtarışına isitqamətləndirməlidir. Süni intellekt sistemləri daha da təkmilləşdikcə, insan bu texnologiyaların imkanlarını tamamlamaq və artırmaq üçün özlərinin idrak qabiliyyətlərindən daha geniş istifadə etməyi bacaracaqlar. Rəqəmsal texnologiyaları mənimsəmək və əməliyyatlar aparmaq bacarığı. Koqnitiv qabiliyyətləri inkişaf etdirmək, koqnitiv bacarıqları təkmilləşdirməkdən ötrü rəqəmsal alətlərlə işləmək təcrübəsi artmalıdır. Süni intellektlə işləyən dizaynerlər, məlumatları viuzallaşdıran mühəndislər, proqramçılar, Sİ mütəxəssislərinin iş prinsipləri ilə tanış olmaq, müəyyən təcrübə əldə etmək texnoloji bacarıqları artıran yeganə yoldur. Hər şeyi dərindən mənimsəmənin mümkünsüzlüyü aydındır, ancaq hər biri üzrə müəyyən məlumatlara və təcrübəyə malik olmaq müasir Sİ vasitələri ilə işləmək üçün yeganə yoldur, çünki şəxsiyyətin mənəvi sahələrində öz-

güvənlik, sərişẗəlilik, dəyərlilik hissi, ən əsası, özünüqiymətləndirmə bu yolla artır. Öyrənmə mədəniyyətini inkişaf etdirmək bacarığı. Hər kəsin həyat uğurları onların şəxsi keyfiyyətlərindən asılıdır.

Yaradıcı fəaliyyətə yaxşı motivləşən, özünü çətinliklərə alışdırmaq üçün iradi səy göstərən, emosional gərginliklərə qarşı dözümlü olan, öyrənmə və mənimsəməni həyatın başlıca məqsədinə çevirən hər kəs özünüinkişaf mədəniyyətinin daşıyıcısı ola bilər. "Gəzən ayağa daş dəyər" - deyiblər. Çətinliklərlə, ziddiyyət və gərginliklərlə üzləşmə mümkündür, lakin bu kimsəni ruhdan salmamalı, inkişaf yolundan çəkindirməməli, qarşısına qoyduğu əsas məqsəddən yayındırmamalıdır. Bu zaman hər bir çətin situasiyada daha məntiqli həll yolu tapmaq təcrübəsi artacaq. Fərd öz fəaliyyətini daha məntiqli, planlı və nəticəyə yönəlik qura biləcək. Üzləşə biləcəyi maneələri proqnozlaşdıraraq onlardan yan keçmək daha asan görünəcək.

Peşəkar inkişafa yönəlmək bacarığı. Ən mühüm inkişaf hər kəsin seçdiyi peşə sahəsində reallaşır. Hazırda Sİ texnologiyalarından istifadə etməyən peşə sahələri tapmaq çətindir. Sİ, bir tərəfdən həyatın ayrılmaz hissəsinə çevrilib. Bu baxımdan, Sİ texnologiyalarını mənimsəmək məcburiyyəti yaranıb. Digər təfədən, hər kəsin peşə sahəsində daha çox tətbiq edilən Sİ vasitələri vardır ki, onlarla işləmək üçün üstün koqnitiv bacarıqların formalaşdırılmasına ehtiyac yaranıb. Bu proqramlarla işləmək hər kəsi mürəkkəb tapşırıqları yerinə yetirməyə, innovativ həll yolları seçərək işi uğurla başa çatdırmağa yönəldir. Ona görə də süni intellektin formalaşdırılması və ya ondan istifadə üçün koqnitiv bacarıqların inkişaf etdirilməsi vacibdir.

Metod

Bu paraqrafda aparılan təhlilər, müqayisə və izahlar əsasında fikirlərimizi, mülahizələrimizi belə ümumiləşdirə bilərik.

1. Süni intellekti insan yaradır. Süni intellekt - intellekt sisteminin bir növü olub, insanın dünyanı dərk etməsini, eyni zamanda müxtəlif vəzifələri yerinə yetirmək qabiliyyətini həyata keçirir. Süni intellekt idrakın əsas xüsusiyyəti olsa da, onunla müqayisədə hələ də qeyri-kafi sayıla bilər. Bununla belə, süni intellekt müəyyən sahələrdə insan zəkasından üstündür. Bununla belə, süni intellekt insanları əvəz edə bilmir. O insanlara çətinlik çəkdikləri prosesləri sürətləndirmək, asanlaşdırmaq, yükünü azaltmaq, səhv qərarların verilməsindən çəkindirmək, onları sığortalamaq üçün gərəklidir.

Süni intellektin cəmiyyət tərəfindən anlayışla qarşılanması, onunla bağlı məlumatlandırmanın aparılması da bu istiqamətdə getməlidir. (Vətən naminə, 2023)

2. Süni intellektin formalaşdırılması prosesində daha fəal iştirak edən psixoloji fenomen koqnitiv bacarıqlardır. Koqnitiv bacarıqların əsasında koqnitiv qabiliyyətlər, şəxsiyyətin iradə, emosiya, motiv və digər bu kimi ikinci dərəcəli amilləri durur. Koqnitiv bacarıqlar beynin düşünmək, oxumaq və öyrənmək üçün istifadə etdiyi əsas qabiliyyətləridir. Bu bacarıqlar beynin daha yüksək səviyyəli funksiyalarıdır.

Onlara dil, qavrayış, təxəyyül və planlaşdırma daxildir. Düşünmə, bilmə, yaddasaxlama, mühakimə yürütmə, problemi həll etmə, davamlı diqqət, cavabın əldə edilməsi, məlumatın işlənmə sürəti, idrak çevikliyi, nəzarət, diqqətin paylanması, iş yaddaşı, kateqoriyaların formalaşdırılması və nümunənin tanınması koqnitiv bacarıqlardır. Koqnitiv bacarıqlar koqnitiv proseslərin uğurla getdiyi təqdirdə daha yaxşı formalaşır. (Əfəndiyev R, İbrahimov N., 2023)

3. Koqnitiv bacarıqların necə formalaşdırılması prosesin gedişi təhsil tədqiqatlarında aşkar edilmişdir. Bu sistem müxtəlif tədqiqatçılar tərəfindən qurulub. Taksonomiya dedikdə sadədən-mürəkkəbə doğru təşkil edilən məqsədləri təsnif etmək üçün yaradılan sistem başa düşülür. Bu sistemdə daha çox məşhur olan taksonomiyalar öyrənmənin koqnitiv, affektiv və psixomotor sahələrini əhatə edən bacarıqlar toplusu cəmlənir. Həmin taksonomiyalar dərsin məqsədlərini müəyyən etməklə, hansı yaşda, hansı fənn üzrə hansı bacarıqların formalaşdırılmalı olduğunu müəyyən edərək prosesin iştirakçılarına istiqamət verir.

4. Koqnitiv bacarıqların formalaşdırılması taksonomiyalar əsasında işlənmiş standartların tətbiqi prosesində, koqnitiv fəaliyyətdə baş verir. Koqnitiv fəaliyyət zamanı icra edilən hərəkətin prosessuallığı şagirdi koqnitiv bacarıqların formalaşmasına doğru aparır. İdrak sahəsi daxilində qoyulan təlimatı tədris edərkən B.S. Blum, M.D. Engelhart, E.J.Furst, V.H.Hillin idrak taksonomiyası, affektiv bacarıqların formalaşdırılması üçün D.N.Krazvol və B.Blumun affektiv taksonomiyası, psixomotor bacarıqların formalaşdırılması üçün D. Davenin və K.Tomasın taksonomiyası əsas götürülür. (Blum, 1956)

5. İdrak taksonomiyası üzrə bacarıqlara malik olan şəxslər ümumidən xüsusini ayırır, onun mahiyyətini müəyyən edir, təsvir edir, sıralayır, seçir, fərqləndirir, izah edir, nümunələr deyir, dəyişir, hesablayır, istifadə edir, işlədir, nümayiş etdirir, ayırır, hissələrə bölür, əlaqələndirir, əsaslandırır, müəyyən edir, yaradır, tərtib edir, yazır, ufadə edir, müqayisə aparır, qarşılaşdırır, mühakimə yürüdür və s.

6. Affektv bacarıqlar dedikdə aşağıdakılar başa düşülür: soruşur, cavab verir, dəstəkləyir, riayət edir, kömək edir, təqdim edir, danışır, məruzə edir, fikir mübadiləsi aparır, icra edir, dəyişir, təcrübədən keçirir, dəyərləndirir, həll edir, istifadə edir, öyrənməklə maraqlanır, diqqətini cəmləşdirir, fəaliyyətə həvəs göstərir, dəyər verir, reaksiya verir, nəticələrlə maraq göstərir, özünüə güvənir, məşq edir və s. (Krathwohl, 1964)

7. Psixomotor taksonomiyaları üzrə bacarıqlara hərəkətləri icra etmək, şifahi məlumatlar əsasında əməliyyatları həyata keçirmək, təimatları tətbiq etmək,

öz düşüncəsinə və öyrənmə üsullarına nəzarət etmək başa düşülür. Həmçinin psixomotor bacarıqlara yiyələnən fərd nə qədər öyrənməyə ehtiyacı olduğuna qərar verir, özünü sınaqdan keçirir, bilik sahəsini genişləndirmək üçün fəallıq göstərir, problemin həllinə yönəlir, şifahi məlumatlardan etiket və faktlardan istifadə edir, əzələ fəaliyyətini əhatə edən bədən hərəkətlərini yerinə yetirir: avadanlığı işə salır, istifadə edir, hədəfə vurur, tullanır, hoppanır, qaçır, yellənir, obyekt və hadisəyə görə fəaliyyət seçimi edir və s. (Dave, 1970)

8. İnsan intellekti və süni intellektə xas olan bacarıqların müqayisəsində diqqəti cəlb edən əsas cəhət onun insan intellektindən üstünlükləri ilə bağlıdır. Bunlara rəqəmsal hesablama bacarığı, reaksiyanın vaxtı, sürəti, məntiqli qərar qəbulu, məlumat əldəetmənin sürəti və dəqiqliyi, yaddasaxlama qabilliyi, eşitmə və vizual emal, qısamüddətli qərarvermə, müstəqil düşünmə.

9. İnsan intellektinin süni intellektən üstün tərəfləri isə bunlardır: məntiqli ağıl yürütmə, dilçilik və təbii dil emalı, çoxtərəfli danışıqlar aparmaq, yaradıcılıq, intuitiv davranış, artistlik bacarığı, istisna ilə işləmək bacarığı, təcrübəni öyrənmək, şüurluluq qabiliyyəti, duyğusallıq.

10. İnsan intellekti tərəfindən süni intellekti formalaşdırmaq üçün bütövlükdə şəxsiyyətin inkişafına yönələn strategiyalar üzrə bacarıqlar inkişaf etməlidir. Bunlara özünü davamlı öyrənməyə stimullaşdırmaq, şəxsi yaradıcılığı inkişaf etdirmək, tənqidi düşüncə və təcrübə əldə etmək, rəqəmsal texnologiyaları mənmsəmək, əməliyyatlar aparmaq, öyrənmə mədəniyyətini inkişaf etdirmək, peşəkar inkişafa yönəlmək kimi geniş bacarıqlar sahəsi daxildir. (Səlimli, 2025)

11. Süni intellektin yaradılmasında iştirak edən koqnitiv bacarıqların təsnifatı geniş olmaqla daha çox təhsil pillələrində formalaşdırılan bacarıqları əhatə edir. Sonrakı dövrlərdə həmin bacarıqlar üzərində yeni, texnoloji bacarıqlar inkişaf edərək riyazi, məntiqi, innovativ, tənqidi təfəkkür, kreativ təfəkkür, nəhayət, süni intellekt səviyyəsində formalaşır. (Səlimli, 2025)

Nəticə

Süni intellektin əmək bazarına və cəmiyyətə təsiri günbəgün daha da güclənir. Bu prosesdə insan rolu azalmır, təsirli, daha yüksək səviyyəli bacarıqların, eyni zamanda koqnitiv vəzifələrin həcmini artırır. Aparılan təhlillər göstərir ki, süni intellektin formalaşdırılması və ondan səmərəli istifadə üçün yalnız texniki biliklər gərəkmir — yaradıcılıq, strategiya, düşüncə, qərarvermə, emosional dözümlülük və ömürboyu öyrənmə kimi kompleks insan bacarıqları rol oynayır. Eyni zamanda, təhsil və fərdi inkişaf strategiyaları bu sistemlərə cavab verməli, şəxsiyyətin hər bir istiqamətinə yönəlmiş yanaşmalar, tətbiqi idarəetmə, koqnitiv, affektiv və psixomotor sahələr olan idarələrin sistemli şəkildə formalaşdırılması süni intellekt çağırışlarına qarşı effektiv dayanıqlılıq göstərməlidir. Nəticədə, həyat fəaliyyətimizin istənilən sahəsində insan rolu yalnız fiziki və rutin əməliyyatlarda deyil, yaradıcı, adaptiv və strateji yönümdə əvəzolunmazdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Blum, B. S., Engelhart, M. D., Furst, E. J., Hill, W. H. və Krathwohl, D. R. (1956).*: Təhsil məqsədlərinin təsnifatıTəhsil məqsədlərinin taksonomiyası : Təhsil məqsədlərinin təsnifatı*. Təlimat I: Koqnitiv sahə. Longmans, Green.

2. Dave, R. H. (1970). *Psixomotor səviyyələr*. Armstronqda. R. J. Armstronqda (Red.) ,*Davranış məqsədlərini inkişaf etdirmək Davranış məqsədlərini inkişaf etdirmək və yazmaq* Təhsil Yenilikçiləri Mətbuatı

3. Əfəndiyev R., İbrahimov N. (2023). Süni intellektin Azərbaycanda məşğulluq sektoruna perspektiv təsir imkanları. İpək Yolu Jurnalı

4. Krathwohl, D. R., Bloom, B. S., & Masia, B. B. (1964).*Təhsil taksonomiyası : Təhsil məqsədlərinin təsnifatıTəhsil məqsədlərinin taksonomiyası : Təhsil məqsədlərinin təsnifatı* . Təlimat II: Affektiv sahə. David McKay şirkəti.

5. Səlimli, Ə. (2025). Süni intellektin bazarında çağırışlar və yeni məşğulluq modelləri . Geostrategiya Jurnalı , (87).
https://au.edu.az/userfiles/uploads/8b2011000506827c1b731b9ccda53a5e.pdf

6. World Economic Forum, Aİ – süni intellekt – Davos 2024, Australia.
https://www.weforum.org/stories/2024/01/artificial-intelligence-ai-innovation-technology-davos-2024/
https://geostrategiya.az/documents/2025/07/Meqal-1751628112.pdf

7. Vətən Naminə. (2023). Süni intellektin əmək bazarına təsiri.

DOİ: 10.32010/CHAZ5278

ŞƏXSİYYƏTİN DAVRANIŞININ HƏRƏKƏTVERİCİ QÜVVƏLƏRİ KİMİ ŞEMALARIN PSİXOLOJİ DİNAMİKASI

Dilqəm Məzahir MƏMMƏDOV
Bakı Dövlət Universiteti
Orcid: https//orcid.org/0009-0009-3837-487X
E-mail:mmmdovdilqm857@gmail.com

Xülasə: Şəxsiyətin formalaşmasında bir sıra amillər rol oynayır. Bunlara şəxsiyyətin formlaşmasının hərərkətverici qüvvələri demək doğru olardı. Şəxsiyyətin inkişafı onun bioloji xüsusiyyətlərindən, endokrin sisteminndən , sinir sisteminin tipindən, genetik kombinasiyasından və s asılıdır. Lakin şəxsiyyət cəmiyyətin məhsuludur, şəxsiyyətin formalaşmasının sosial determinatları bu baxımdan əhəmiyyətlidir. Şəxsiyyətin formalaşmasının sosial determinatlarına sosial öyrənmə, ailədaxili mühitin xüsusiyyətləri, öyrənmə modeli seçdiyi insanlar, sosializasiya və onun komponentləri xüsusi rol oynanyan amillərdir. Şəxsiyyət formalaşan zaman nitq inkişafının, təfəkkürlə paralel getməsi, eyni zamanda, konqitiv sferanınn inkişafını dəstəkləyir. Koqnitiv inkişafın bioloji mexanizmləri fizioloji xarakter daşıyır. Lakin öyrənilənlərin təfəkkür tərəfindən ümumiləşdirilib imitasiya olunması koqnitiv sferanın əsasında dayanır. Şəxsiyyətin koqnitiv stereotiopləri zamanla möhkəmlənir və davranışın şəkillənməsində rol oynayır.
Bu baxımdan, psixoloji ədəbiyyatda şema anlayışının şəxsiyyətin formalaşması və davranış reaksiyalarının təmin edilməsində rolu böyükdür. Şemalar şəxsiyyətin inkişafının erkən mərhələsində formalaşır. Zamanla koqnitiv strukturun tərkibinə keçir və şəxsiyətin mən konsepsiyasının əhəmiyyətli komponentinə çevrilir. Şemalar şəxsiyyətin yaşamaq uğrunda mübarizəsinin əsas mexanizmləri olub adaptiv və dezadaptiv xarakterə malik ola bilir. Şəxsiyyətin psixoloji və sosial-psixoloji adaptasiyasında şemalar həll edici rol oynayıb reaksiya stillərinin növünü müəyyən edir. Şemalar şəxsiyyətlərarası münasibətlər zamanı da özünü göstərir. Şəxsiyyətin özünü qiymətləndirməsinə təsir etməklə bərabər adaptiv və dezadaptiv şemalar duyğu, düşüncə, davranışda müxtəlif formalarda təzahür edir. Şemaların yaranması ilə bağlı fikrlər koqnitiv psixologiyanın inkişafı ilə əlaqədardır. Koqnitiv psixologiyada şəxsiyyətin formalaşması zamanı onun dünya və özü haqqında idrak etdiyi inanclar məhz şemalardır. Digər koqnitiv stereotiplərdən fərqli olaraq şemalar şəxsiyyətin mənlik şüurunun tərkib hissəsi olub onun özü və dünyanın necə bir yer olması haqqənda mənimsədiyi və mühakiməsiz qəbul etdiyi, bəzən doğru bildiyi yanlışlardır. Şemalar bilavasitə təzahür xüsusiyyətinə malik deyil, onlar şəxsiyyətin davranşının bilavasitə determinatlarıdır. Misal üçün, mən konsepsiyası formalaşmayan erkən yaşlı bir uşağa sən bacarıqsızsan deyilməsi və bunu davam etməsi, inkişaf etməkdə olan mənlik şüurunun strukturuna daxil olur və yetkin şəxsiyyət yeni bir situasiya ilə qarşılaşdığı zaman bacarıqsız olduğu inancı onun fəaliyyətinə neqativ təsir göstərir. eləliklə, şemalar şəxsiyyətin davranış determinatı olmaqla şəxsiyyətin formalaşmasında əhəmiyyətli rola malikdir.
Açar sözlər: dezadaptiv şemalar, adaptiv şemalar, koqnitiv sxemlər, koqnitiv struktur, şəxsiyyətin formalaşması, koqnitiv psixologiya, reaksiya stilləri, davranış determinatları

PSYCHOLOGICAL DYNAMICS OF SCHEMAS AS DRIVING FORCES OF PERSONALITY BEHAVIOR

Dilgem Mazahir MAMMADOV
Baku State University
Orcid: https://orcid.org/0009-0009-3837-487X
E-mail: mmmdovdilqm857@gmail.com

Abstract: A variety of factors play a role in the formation of personality, and these can aptly be termed the driving forces of personality development. Personality development is influenced by biological characteristics, including endocrine system function, the type of nervous system, and genetic combinations. However, personality is also a product of society, making the social determinants of personality formation crucially significant. Key factors among these social determinants include social learning, characteristics of the family environment, chosen learning models (significant others), and the various components of socialization.
The parallel development of speech and thinking during personality formation supports the maturation of the cognitive sphere. While the biological mechanisms of cognitive development are physiological, the underlying basis of the cognitive sphere involves the generalization and imitation of learned material through thought processes. Over time, an individual's cognitive stereotypes solidify, playing a decisive role in shaping behavior.
In this context, the concept of the schema holds great importance in psychological literature regarding personality formation and the maintenance of behavioral responses. Schemas are formed during the early stages of personality development. With time, they are integrated into the cognitive structure and become a significant component of the individual's self-concept. Schemas function as fundamental mechanisms in the individual's struggle for survival and can

possess either an adaptive or maladaptive character. Schemas play a crucial role in an individual's psychological and socio-psychological adaptation, as they determine the type of response styles. They also manifest in interpersonal relationships. Beyond influencing an individual's self-evaluation, adaptive and maladaptive schemas are expressed in various forms across emotions, thoughts, and behaviors. Ideas regarding the origin of schemas are closely tied to the development of cognitive psychology. In this field, the beliefs an individual internalizes about the world and themselves during personality formation are precisely what constitute schemas. Unlike other cognitive stereotypes, schemas are a constituent part of the individual's self-awareness, representing beliefs they have adopted and accepted non-critically sometimes even truths they hold that are fundamentally false. Schemas do not possess the characteristic of direct manifestation; rather, they are the proximal determinants of personality behavior. For example, persistently telling a young child with an emerging self-concept that they are incompetent allows this belief to be incorporated into the structure of their self-awareness. Consequently, when this adult personality faces a new situation, the ingrained belief in their incompetence negatively impacts their actions. Thus, schemas serve as behavioral determinants of the personality, occupying a critical role in its formation.

Keywords: Maladaptive Schemas, Adaptive Schemas, Cognitive Schemas, Cognitive Structure, Personality Development, Cognitive Psychology, Response Styles, Behavioral Determinants

ПСИХОЛОГИЧЕСКАЯ ДИНАМИКА СХЕМ КАК ДВИЖУЩИХ СИЛ ПОВЕДЕНИЯ ЛИЧНОСТИ

Дильгем Мазахир МАМЕДОВ
Бакинский государственный университет
Oorcid: https://orcid.org/0009-0009-3837-487X
Электронная почта: mmmdovdilqm857@gmail.com

Резюме: Ряд факторов играет роль в формировании личности, и их было бы правильно назвать движущими силами формирования личности. Развитие личности зависит от ее биологических особенностей: эндокринной системы, типа нервной системы, генетической комбинации и т.д. Однако личность является продуктом общества, и в этом отношении социальные детерминанты формирования личности имеют большое значение. К социальным детерминантам относятся социальное научение, особенности внутрисемейной среды, выбор моделей для подражания, а также социализация и ее компоненты. Параллельное развитие речи и мышления в процессе формирования личности способствует развитию когнитивной сферы. Хотя биологические механизмы когнитивного развития носят физиологический характер, в основе когнитивной сферы лежит обобщение и имитация усвоенного материала посредством мышления. Когнитивные стереотипы личности со временем укрепляются и играют роль в формировании поведения.

В этом контексте в психологической литературе велика роль понятия схемы в формировании личности и обеспечении поведенческих реакций. Схемы формируются на ранних этапах развития личности. Со временем они входят в состав когнитивной структуры и становятся значимым компонентом Я-концепции личности. Схемы являются основными механизмами борьбы личности за выживание и могут носить адаптивный или дезадаптивный характер. Схемы играют решающую роль в психологической и социально-психологической адаптации личности, определяя тип ее стилей реагирования. Схемы проявляются также во время межличностных отношений. Помимо влияния на самооценку личности, адаптивные и дезадаптивные схемы проявляются в различных формах в чувствах, мыслях и поведении. Идеи о возникновении схем связаны с развитием когнитивной психологии. В когнитивной психологии усвоенные убеждения о мире и самом себе, познаваемые в процессе формирования личности, и есть схемы. В отличие от других когнитивных стереотипов, схемы являются составной частью самосознания личности, представляя собой принятые без суждения и порой неверные убеждения о себе и о том, каково это место – мир. Схемы не обладают свойством непосредственного проявления; они являются непосредственными детерминантами поведения личности. Например, если ребенку раннего возраста с еще не сформированной Я-концепцией постоянно говорят, что он неспособный, это убеждение включается в структуру его развивающегося самосознания. В результате, когда взрослая личность сталкивается с новой ситуацией, убеждение в своей неспособности негативно влияет на ее деятельность. Таким образом, схемы, являясь детерминантами поведения личности, имеют существенное значение в ее формировании.

Ключевые слова: дезадаптивные схемы, адаптивные схемы, когнитивные схемы, когнитивная структура, формирование личности, когнитивная психология, стили реагирования, детерминанты поведения

Giriş

Şema termini koqnitiv psixologiyadan qaynaqlanır. Şəxsiyyətin inkişafı zamanı formalaşdığı erkən mühit, eyni zamanda, şəxsiyyətin komfort zonanasını da müəyyən etmiş olur. Erkən uşaqlıq dövründə sevgisiz və diqqətsiz ailədə böyüyüb emosional deprivasiyaya məruz qalan biri yetkin şəxsiyyət olduqda qarşılıqlı bağlamanda problem yaşaya bilər. Bütün bunlar şəxsiyyətin qatı inancları olub şəxsiyyətin formalaşmasının ilkin elementləridir.

Şemalar dezadaptiv və adaptiv xarakter daşımasından asılı olmayaraq şəxsiyyətin komfort zonasını təmin edir. Mənlik şüurunun tərkib elementi olan şemaların inkar olunması insanın dünya və özü haqqında olan doğru bildiyi məlumatların da inkar olunması deməkdir [3, s. 1-3] Şəxsiyyətin davranışının tənzim olunması erkən şemalar vasitəsilə reallaşır. Bu səbəbdən psixoterapiya zamanı şemaların dəyişdirilməsi bəzən mümkün olmur, bu bir növ şəxsiyyətin özündən imtina etməsinə bənzəyir. Şema modeli psixodinamik istiqamətə bənzəyir, psixoanalizdə Freydin irəli sürdüyü təkrarlanan davranışlar erkən travmatik təsirlərin nəticələridir. Travma psixologiyasının dinamikasına görə böyüdüyü mühitdəki insanların necə olmasından asılı olmayaraq yetkin yaşında insanlar travmatik mühiti komfort zona olaraq qəbul etdiklərindən həmin insanlarla əlaqəyə girirlər. Misal üçün, atası alkoqol aludəçisi olan qız böyüyəndə alkoqol aludəçisi olan kişi ilə evlənir. Şemalarda bu cür işləyir, onların əksini bildikləri sanki yoxdur.

Şemaların formalaşması bir çox amillərdən asılıdır. Bunlardan ilki şəxsiyyətin bioloji ünsürləridir. Bioloji, fizioloji mexanizm olan mizac insanın ətraf aləmin verdiyi qıcıqlandırıcılara qarşı reaksiya stillərini formalaşdırır. Şemaların formalaşmasına təkan verən ilk mühit ailə mühitidir. Yaxın çevrə və məktəbdə şemaların formalaşmasında rol oynayır. Yaş artıqca ətraf mühitin dəyişdirici təsiri azalır və şəxsiyyətin yetkinlik meyarları formalaşır. Dezadaptiv şemalar fərdin mizacı ilə qarşılıqlı əlaqə nəticəsində formalaşır. Eyni mühitdə olub təcavüzə məruz qalan hər iki uşaq şema formalaşdırmaz, sinir sistemi zəif olan tip təcavüzə məruz qalar şema formalaşdırar amma sinir sistemi güclü olan fərd əks reaksiya verdiyi üçün şema formalaşdırmaya bilər. Deməli, şemalar mizac və çevrənin qarşılıqlı təsirinin məhsuludur.

Şəxsiyyətin sağlam psixoloji mühitdə formalaşması üçün bir sıra şərtlər vardır: özünə və dünyaya qarşı inamın formalaşması, başqaları ilə bağ qurma, müxtariyyət, özünə hörmət, özünü ifadə etmə, şəxsi sərhədlərin təmin olunması və s. Şemaların formalaşması üçün bu amillərdən birinin olmaması bəzən kifayət edə bilir. Şemalar şəxsiyyətin mənimsədiyi neqativ təcrübələri şəkilləndirir. Şemalar insanın həyatda qalmaq üçün formalaşdırdığı mexanizmlər olub müxtəlif üsullarla reallaşır. Bunlara şemalarla başaçıxma üsulları deyilir. Şemalar da şəxsiyyət xüsusiyyətləri kimi eqosintonik və eqodistonikdirlər. Şemalar bir müddət sonra özünü dərketmənin formalaşdığı yeniyetməlik dövründə mənlik şüurunun tərkibinə keçərək mən konsepsiyasının əsas elementinə çevrilir. Bu səbəbdən şəxsiyyət xüsusiyyətlərinin eqosintonik olması onların şəxsiyyətin əsas elementi, onunla sintez halında olması, eqodistonik olması isə onların problemin onların şemaları ilə bağlı olduğunu düşünməmələridir. Şemalar şəxsiyyətin əsas davranış mexanizmləri olmağına baxmayaraq onlar dezadaptiv xarakter daşıyır. Yung bunlara erkən dezadaptiv yaxud maladaptiv şemalar deyir. Yunqa görə dezadaptiv şemaların bir sıra xüsusiyyətləri vardır [1, s. 7.8]

- Ümumi və dominantıdır
- Düşüncə, fiziki duyğu və emosiyalardan təməl alır
- Şəxsiyyətdaxili və şəxsiyyətlərarası münasibətlərlə əlaqəlidir
- Uşaqlıq yaxud yeniyetməlik boyunca formalaşır
- Şəxsiyyətin spesifik əlamətinə çevrilir
- Xüsusi dərəcəyə qədər şəxsi fəaliyyəti pozur

Nəzəriyyə

Şəxsi davranışlar şemaların tərkib hissəsi deyil şəxsiyyətin təcrübələrdən mənimsədiyi şemalara qarşı olan rekasiyalarıdır. Şemalar isə reallaşan davranışların motivasiyaedicileridir. Şemaların mövcudluğunu davam etdirmək üçün şəxsiyyətin formalaşdırdığı reaksiya stilləri əsasən üç kateqoriyada birləşir. Bunlar qaçınma reaksiyası, təslim olma və qarşı çıxmadır. Bu reaksiya stilləri erkən öyrənilmiş dezadaptiv şemalarla başa çıxmaq üçün formalaşan reaksiya stilləri olub bir sıra psixoloji pozuntular formasında təzahür edə və komorbidlik yarada bilər, bəzi insanlar depressiya, maddə asılılığı, təşviş pozuntuları, psixosomatik pozuntular və sair kimi formalarda qaçınma və kompensasiya üsullarına meyllənirlər. Şemaların təzahür dərəcəsi və sərtliyi ailədaxili faktolardan, şemaların yaranma vaxtından və valideynlərdən asılıdır. Erkən dövrdə uzun müddətli davam edən və valideynlərin hər iksinin də təsiri ilə davam edən situasiyaların formalaşdırdığı dezadaptiv şemalar daha qatı olub və sıxlıqla təzahür edir. Yeniyetməlik yaş dövrünün sonları qısamüddətli və valideynlərdən birinin ara sıra yaratdığı neqativ təsirlərin formalaşdırdığı maladaptiv şemalar çox da sərt struktura malik olmurlar.

Şemalar əsasən dezadaptiv konteksdən araşdırılsa da, adaptiv şemalar da mövcud olur. Erik Eriksonun inkişaf konsepsiyasında şəxsiyyətin yaş dövrələri zamanı pozitiv təmin olunmuş ehtiyaclar adaptiv, əksinə inkişafı neqativ fonda gedən hər bir yaş dövrünün buna uyğun dezadaptiv şema formalaşdırdığı iddia edilir.

Şemaların yaranma səbəbi erkən uşaqlıq dövründə şəxsiyyətin məruz qaldığı deprivasiyanın nəticəsidir. Şemalar erkən uşaqlıq dövründəki psixogeniyalara istinadən yaranır. Bunlara ailədaxili toksik münasibətlər, uşağın istək və arzularının

görməzdən gəlinməsi, bəzi uşaqların ailədə qurban seçilməsi, disharmonik situasiyalar: hiperhimayə və ifrat təmin olunma, temperament və seçici meyl və s. Şemalar onları yaradan və hansı situasiyaya aid olmasından asılı olaraq müxtəlif kateqoriyalarda qruplaşdırılır. Bu kateqoriyalar şəxsiyyətin travmaya sensitiv psixi sferaları ilə əlaqədar olur. Bu səbəbdən bu sferaların sapma və uğursuzluqları fərqli şemaların yaranmasına səbəb olur. Şəxsiyyətin şema formalaşdıran bu zonaları 5 əsas yerə bölünür və yaş dövründən asılı olaraq bu sahələrdə fərqli erkən dezadaptiv şemalar yaranır [1, s. 10,11]

1. Ayrılma/rəddedilmə zonası

Ailədaxili psixogenik situasiyalar bu zaman aqressiv xarakter daşıyır. Uşaq valideynlər tərəfindəm xor görülür, uşağa qarşı laqeyd münasibət bəslənir. Vasitəsiz emosional ünsiyyətin travmatik bir şəkildə reallaşmadığı bu zonada uşağın yaxın çevrəsi tərəfindən umduğu qorunma, qayğı, empatiya, qəbul olunma, aidlik hissi kimi dünya və özü haqqındakı təməl ehtiyacları qarşılanmır. Bu zona pozuntusu fonunda yaranan deprivasiyalar 18 şemanın hər birinin yaranmasına səbəb ola bilir.

2. Zədələnmiş muxtariyyət (özünü ifadə)/ performansın pozulması(uğursuzluq) zonası

Bu zonada baş verən dezadaptiv ailədaxili davranışlar şəxsiyyətin özünüidentifikasiya və orijinallığına xələl gətirir. Müstəqil fəaliyyətin öhdəsindən sərbsət gələ bilməməyin səbəbi erkən uşaqlıq dövründə baş verən hiperhimayə olması yaxud valideynlərin ifrat laqeydliyi ilə bağlı olur. Yetkin şəxsiyyət olduqları zaman belə insanlar model seçdikləri yaxın insanlardan asılı olurlar. Şəxsiyyətin mənlik sfrerasının formalaşmaması və kimlik hissinin yetkinləşməməsi bu zonada baş verən pozuntularla əlaqəlidir.

3. Sərhədlərin pozulması zonası

Bu cür uşaqlar erkən inkişaf dövründə dominant statusa malik olan ailələrdə formalaşırlar. Lakin bu zona pozuntularının yaranması deprivasiya nəticəsində də ola bilər. Şəxsi sərhədlərin öyrədilməməsi yetkin şəxsiyyət modelində eqoizm, qrup daxili münasibətlərdə birlik hissi, şəxsiyyətlərarası münasibətlərdə başqalarının haqq və istəklərinə qarşı birtərəfli münasibət göstərməyə səbəb olur.

4. Digərlərinə yönəlmə (istiqamətlənmə, dominant olma) zonası

Şəxsiyyətin formalaşması zamanı bu sferada baş verən təsirlər erkən uşaqlıq dövründə emosional bağın düzgün qurulmaması, yaxın çevrələri tərəfindən emosional təsdiqlənmə və ya qəbul edilmənin uğursuz olmasıdır. Hansı ki, bu cür yetkin şəxsiyyətlər reqressiv olaraq sosial sferada da qəbul olunmaq üçün daima erkən uşaqlıq dövrünə istinad olaraq öz istək və arzularını bloklayaraq digər insanların ehtiyaclarını təmin etməklə qəbul edilmək uğrunda mübarizə aparırlar.

5. İfrat oyanıqlıq (sensitivlik) / basdırıcılıq (gizlətmək) zonası

Erkən uşaqlıq dövründə uşaqların avtoritar rejimdə, sərt qayda qanun, nizam intizamnın hökm sürüldüyü ailədə formalaşan yetkin şəxsiyyətlərdə spontan impuls və emosiyaları bloklama, gizlətmə davranışı inkişaf etmiş olur. Şəxsiyyətlərarası münasibətlərə davam etmək və uyğunlaşmaq üçün qayda-qanuna itaət etmək və emosiyalarını basdırmağa meylli olurlar. Sensitiv olmaları, onların daima tətikdə olmaları uğursuzluqla qarşılaşacaqlarını bloklmaq məqsədi daşıyır.

Şemalar şəxsiyyətin struktur elementi olduğu və dezadaptiv şemaların çoxu erkən yaşlarda formalaşdığı üçün yetkin şəxsiyyət bu şemaları davam etdirməyə (komfort zonası, bir elementi olduğunu düşündüyü üçün) çalışır. Bunun üçün motivasiyaedici şemalara uyğun dezadaptiv başa çıxma və reaksiya stilləri formalaşdırır. Bəzi reaksiya stilləri şemaya qarşı olmasına baxmayaraq əksinə şemaya geri dönüşü tətikləyir və adaptiv xarakter daşımır. Bu cür reaksiya stilləri şemaya qarşı yaranmasına baxmayaraq dezadaptiv funksiya daşıyır. Misal olaraq, uşaqlıqda sevgi yoxsulu olan, qəbul görülməyən və emosional deprivasiya fonunda formalaşan biri bu situasiyanı yenidən yaşamaq əvəzinə özündə kompensasiya reaksiyası formalaşdırır bu isə narsistik keyfiyyətlər formasında təzahür edir. Əslində olan isə bir fenokopyanın mövcudluğudur, daxili inamsızlıq və boşluq olan təməl ehtiyaclar tamamlanmamış qalmaqdadır. Şemalar və onlara qarşılıq yaranan davranış strategiyaları ayrı kateqoriyalardır, şema başa çıxma stilinin bir elementi deyildir, o ayrılıqda determinantdır. Şemalar davranış deyildir. Davranışın hərəkətverici qüvvələridir. Misal üçün, qanda ekstaz artımı eyforiyanın yaranmasına səbəb olur, şəxsiyyət bir müddət özünü qeyri-adekvat yüksək qiymətləndirir. Lakin biloji, hormonal mexanizmlərin təsiri itdiyi zaman şəxsiyyətin fəaliyyəti ifrat enir. Şemaların bu situasiyadan fərqi onların professional dəstək olmadan davamlı olması və onların yetkin şəxsiyyət modelinin (dezadaptiv olsun və ya olmasın) mövcudluğunu davam etdirmək üçün olmasıdır.

Filogenezdə təbiətin formalaşdırdığı bütün orqanizmlər təhlükəyə qarşı 3 formada reaksiya verirlər. Digər canlılarda bu müdaifə strategiyaları sadəcə həyatda qalmaq uğrunda formalaşdıqları üçün adaptiv xarakter daşıya bilər. Lakin insanda bu davranışlar sosial-psixoloji mənanı ehtiva etdiyindən şəxsiyyətin adaptiv imkanlarını pozur. İnsanda da

təhdidlərə qarşı mübarizə stilləri 3 əsas kateqoriyada ehtiva olunur:

- Şemaya təslim olma
- Şemadan qaçınma
- Şemanın ifrat kompensasiyası

Təslim olma zamanı şəxsiyyət erkən uşaqlıq dövründə yaşadıqlarını təkrarlayır, bu şema zamanı şəxsiyyət şemaya adaptasiya olmağa onu davam etdirməyə çalışır, bütün bunlar şüursuz olaraq baş verir. Misal üçün, erkən uşaqlıq dövrünə laqeyd valideynləri olan uşaq yetişkinlikdə emosional laqeyd bir insanı həyat yoldaşı kimi seçməyə meyl edir.

Qaçınma reaksiyası zamanı şəxsiyyət şemalardan və onların yaratdığı reaksiyalardan qaçmaq üçün muxtəlif strategiyalar formalaşdırır. Bəzən onları görməzdən gəlir, refleksiv olaraq şemaların yaratdığı emosiyaları davamlı basdırır. Rəqabət etməkdən boyun qaçırırlar, maddə asılılığı bu şema zamanı qaçınma reaksiyası kimi formalaşan davranış mexanizmlərindəndir.

İfrat kompensasiya zamanı şəxsiyyət şemalarını dərinlərdə gizlədir, lakin onun fərqindədir. Bu zaman şəxsiyyət xarici olaraq şemaların tərsini icra edir. Misal üçün, erkən uşaqlıq dövründə sərbəstlik verilməyən və bir işi doğrudan bacaracağına inandırılmayan bir fərd şəxsiyyət olaraq mükəmməl ola bilər ki, bu situasiyaın yaratdığı hisləri gizlətsin, yaxud sevgiyə möhtac olan, sevgisiz böyüdülən biri narsisitik şəxsiyyət keyfiyyətlərinə malik olub öz bacarıq və imkanlarının qeyri-adi olması və mükəmməl olmasını düşünə bilər. Bu mübarizə stilləri zamanı əslində şemalar davamedici xarakter daşıyır. Hər hansı bir strategiya şemalardan qaçınmaq belə olsa əslində fenotip olaraq sağlam mübarizə üsulu kimi görülsə də şemaların davam etməsinə səbəb olur.

Mizacın xüsusiyyətləri şemaların formalaşmasından daha çox şemalara qarşılıq yaranan mübarizə stilləri və reaksiya formalarının yaranmasına təsir göstərir. Zəif mizaca malik olanlar qaçınma və təslim olma, agressiv mizaca sahib olan fərdlər isə ifrat kompensasiya kimi strategiyalara daha meylli olurlar. Davranış reaksiyaları davranışın mübarizə stillərinin nəticəsində yaranan bütün rekasiya formalarıdır. Bunlar şəxsiyyətin yaşından, yaşadığı mühitdən həyat tərzindən və sair asılı olaraq dəyişir.

Metod

Şema dinamikası zamanı şəxsiyyətin reaksiya stilləri və modları da özünü göstərir. Şema modları-vəziyyətləri şəxsiyyətin verdiyi anlıq reaksiyalar və bu rekasiyalar zamanı olan emisonal əhval ruhiyəni nəzərdə tutur. Şema modları adaptiv və dezadaptiv ola bilir. Modlar bizim indiki anda dominantlıq təşkil edən emosional çalar və davranışımızdır. Şemalar şəxsiyyətin içində olduğu situaiyaya uyğun ola və uyğun olmaya bilər. Bəzi şema modları passiv olur və onların aktiv olduğuna nadir hallarda rast gəlinir. Gün ərzində şemalar şəxsiyyətin fəaliyyəti zamanı dəyişə və bir-birinə keçə bilir. Şema modları şəxsiyyətin hansı yaş dövrü ilə əlaqədar olmasına bağlı olaraq 4 böyük kateqoriyada cəmlənir;

- Uşaq modu
- Disfunksional mübarizə modları
- Disfunksional valideyn modları
- Sağlam yetkin mod

Hazırda bu qrupa istinadən 10 şema modu müəyyən olunmuşdur. Şemalar bir çox sferada olmasına baxmayaraq sərhədi tip şəxsiyyət pozuntularına istinadən yaranıb. Bu tip pasientlər davamlı olaraq bir əhval ruhiyədən və davranış reaksiyasından digərinə keçdikləri üçün onların dominant modunu müəyyən etmək çətin olur. Şema modları bir qrup xəstəliklərdə özünü göstərir. Bu xəstəliyin xarakterinə görə dəyişir. Dissosiativ pozuntular zamanı mənliyin bir hissəi kimi qəbul edilən şemalar da mənliyin hissələrinə uyğun dəyişmə göstərir, mənliyin hansı hissəsi aktiv olduğu zaman ona uyğun şema modu da dominant olur və şema modları davamlı və qısamüddətli olaraq bir-birini əvəz edir. Dissosiativ pozuntular zamanı şəxsiyyətin mən komponenti öz bütünlüyü ilə dərk edilmiş olmur, sanki hissələr şəklində olur, şemaların dərəcə və növləri də buna uyğun şəkil və dərəcəyə malik olur.

A.Beckin mod anlayışı onun şəxsiyyətin struktur və sosial təzahürünə əsasən yaranmışdır. Beləki Beckə görə şəxsiyyət emosional, sosial, və motivasional elementlərin iyerarxik təşkilindən ibarətdir. Şemalar da özlüyündə şəxsiyyətin struktur elementi olub onun əsas təməl inancları ilə əlaqədardır. Beckə görə mod şəxsiyyətin koqnitiv, emosional, bihevioral, motivasional proseslərinin dinamik təşkilidir. Şema modları şəxsiyyətin fəaliyyətini aktivləşdirib onu məqsədə doğru istiqamətləndirir. Modların strukturunda bir çox koqnitiv şemalar ola bilər. Yonqun və Beckin şema modeli ilə bağlı ortaq və fərqli fikrləri vardır. Bunlar aşağıdakı cədvəldə qeyd edilmişdir.

Cədvəl 1. Beck və Yunq şema modlarının ortaq və fərqli tərəfləri

Beck şema nəzəriyyəsi	Yung şema nəzəriyyəsi
şema təməl inancın koqnitiv tərkibi ilə əlaqəlidir	Şemalar daha sərt mexanizmlərdir
bir mod bir neçə şemadan ibarətdir	Modlar şemalara nəzərən daha dinamik və dəyişkən olub aktivləşmə və passivləşmə arasındadır
mod davranışsal, emosional, koqnitiv, motivasionaldır	Modlar şəxsiyyətin dissosiativ və eqo vəziyyətlərinə uyğun şəkil alır
şemalar və modlar avtomatik işlənmə mexanizminə malikdir	Şemalar mübarizə stilləri vasitəsilə davamlı xarakter daşıyır
modlar anları, təsəvvürləri, mübarizə strategiyalarını ehtiva edən şemalardan yaranır	Şema və modları erkən dezadaptiv şemalar şəklində xarakterizə edir
Modlar koqnitiv strukturlar aktivləşdiyi zaman ona uyğun aktivləşməyə bilər	Mübarizə strategiyaları və modlar model və terapiyanın əsasını təşkil edir
Şemalar şəxsiyyətin əsas struktur elementleri ilə bağlıdır	Aşağıdan yuxarı prinsipinə əməl olunur
Paientlərin koqnitiv və davranışsal mübarizə strategiyalarını əsas hesab etmişdir	Şemaların gerçəkliyə uyğun olmaması və dezadaptiv xarakteri üçün sorğu və təcrübələrdən fərqli olaraq empatiya qurma bacarıqları daha effektivdir

Əvvəldə qeyd etdiyimiz kimi şemalar daha konkret və bütünləyici təzahür formalarıdır, 10 əsas şema modu vardır. Şema modları erkən dezadaptiv təcrübələrə uyğun şəkildə şəkillənir və situasiya tərəfindən çağrılaraq təzahür edir. Şema modları dinamikdir, hansı pozuntunun olmasından və situasiyadan asılı olaraq şemaların sayı və dəyişkənliyi dəyişir. Misal üçün, sərhədi tip şəxsiyyət pozuntuları olan insanlarda modlar çox az sabit olub davamlı dəyişim halındadır. Bəzi modlar daha uzun müddətli olur. Modların müəyyən edilməsi bu meyarlardan asılıdır. Dominat olan və daha çox rast gəlinən modlar əsas təməl modlar hesab edilir, şəxsiyyət modelində 3 şema modu varsa və bundan biri daha tez aralıqla görülürsə, bu təməl mod hesab edilir. Bu moda əsasən hansı şema və mübarizə stillərinin olması erkən uşaqlıq təcrübələri analiz edilir. Şema modlarını aşağıdakı kimi xarakterizə etmək olar:

- Erkən uşaqlıq modları:
- İncinmiş uşaq modu
- Agressiv uşaq modu
- İmpulsiv/intizamsız uşaq modu
- Xoşbəxt uşaq modu

Uşaqlıq modları erkən uşaqlıq dönəminə məxsus inkişafı xarakterizə edir və onlara əsasən təzahür edir. Bu modlar özündə bir çox şemaları ehtiva edir. Hər uşaq modunun təməlində müəyyən bir şema dayanır. Misal üçün incinmiş uşaq modunda erkən uşaqlıq dövründə valideynlərdən biri evi tərk edə bilər. Natamam ailədən gələn uşaqlarda bu mod çox görülür. Uşaqların yaxın çevrə tərəfindən sui-istifadə edilməsi, rədd edilməsi, sevgi yoxsulu olaraq böyüdülməsi və sair incinmiş uşaq modlarının yaranmasına səbəb olur. İmpulsiv uşaq modunda insanlar istək və arzularını digər insanları nəzərə almadan ifadə edirlər. Hərəkətlərinin nəticələrini fikirləşmədən iş görürlər. Agressiv mod zamanı erkən uşaqlıq zamanı emosional deprivasiya məruz qalmış, sevgisiz ailədə böyümüş uşaqlarda müşahidə edilir, onlar bənzər situasiyalarda aqressiya nümayiş etdirirlər. Xoşbəxt uşaqlıq modu zamanı erkən uşaqlıq dövründə sağlam psixoloji mühitdə böyümüş təməl ehtiyacları qarşılanmış insanlarda müşahidə olunur. Digər dezadaptiv şema modları mübarizə strategiyaları olan təslim olma, qaçınma və kompensasiya etməyə qarşılıq olan modlardır. Bunlar təslim olmağa meylli, ifrat kompensator və emosional mühafizəkar modlardır. Təslim olmağa meylli olan insanlar fikir və istəklərini ifadə etməkdə çətinlik çəkirlər, mühafizəkar modda olan insanlar digərlərindən qaçmağa meyli olub maddə asılığı kimi vərdişlərə qurşanır, kompensator modda olanlar isə deviant davranışa meylli olub şemadan qaçmağa çalışırlar.

Valideyn modları da 3 qrupa bölünür. Bunlardan ikisi dezadaptiv modlar olan cəzalandırıcı və tələbkar valideyn modlarıdır. Cəzalandırıcı valideyn modu olanlar davamlı olaraq sanksiyalar tətbiq edirlər. Tələbkar moda sahib olan valideynlər daha çox standarlar müəyyən olunmuş qayda-qanun əsasında hərəkət edirlər. Ümumiyətlə valideyn modları erkən dezadaptiv uşaqlıq modlarına qarşı aktivləşir və onlara qarşılıq olaraq fəzaliyyətə cəlb olunur.

Sonuncu mod olan sağlam valideyn modudur. Bu mod terapiya zamanı öyrədilməyə çalışılan mod olub digər modlara qarşılıq olaraq formalaşır. Bu moda sahib olan ailədaxili mühitdə sağlam psixoloji inkişaf təmin olunur. Şemalar şəxsiyyətin inkişafının erkən dönəmlərində fərdin inkişaf etdiyi mühitdə istinad olaraq yaranır və inkişaf edir, müəyyən repertuara malik olur və şəxsiyyətin münasibət, koqnitiv, emosional proseslərinə təsiredici xarakter daşıyır. Erkən uşaqlıq dönəmində psixogen situasiyanın çağrışı ilə yaranan nisbətən adaptiv və qatı olmayan şemalar zamanla yetkin modeldə fərqli situasiyalarda

dezadaptiv funksiyalara malik olur və maladaptiv davranışların yaranmasına səbəb olur. Şəxsiyyətin ərsəyə gəlməsində əsas təməl ehtiyaclar əldə etalon tutularaq fərqli nəzəriyyələrdə yetkin şəxsiyyət modelinin struktur elementlərini təmin edir. Şema modelində erkən uşaqlıq zamanı olan insanın dünya və özü haqqındakı düşüncələr formalaşdıqca bu təməl ehtiyacların təmin olunma üsuluna və təmin olunmamasına qarşılıq olaraq şemalar formalaşır. Şemalar bir növ düşüncə qəliblərinə bənzəyir. Koqnitiv sferanın strukturunu müəyyən edən şemalar daha sabit və stereotip olub şəxsiyyətin özü ilə bağlı fikrlərinin mərkəzində dayanır. Hal-hazırda müəyyən olunduğu kimi psixogen situasiyaların insanda yaratdığı 18 dezadaptiv şema mövcuddur.

Əvvəldə qeyd etiyimiz kimi şemalar müəyyən sferada baş verən pozuntuların xarakterinə uyğun olaraq 5 əsas sfera üzrə müəyyən olunur :

- ayılma və rəddedilmə zonası
- Davamsız ailə tipi - tərk edilmə və qeyri sabitlik şeması
- İstismarçı ailə tipi - inamsızlıq, sui-istifadə olunma şeması
- Emosional laqeyd ailə tipi - emosional deprivasiya şeması
- Təcridedici ailə tipi - sosial təcrid və yadlaşma şeması
- Rəddedici ailə tipi - qüsurluluq və utanc şeması

Bu zonada baş verən neqativ təcürəbələr erkən uşaqlıq dövründə baş verən neqativ və uzunmüddətli təsirlər nəticəsində yaranır. Bunlara uyğun olaraq yetkin modeldə müəyyən dezadaptiv davranışlar formalaşır. Tərkedilmə/qeyri-sabitlik şemasına malik olanlar əvvəl-axır yaxın çevrələrindəki insanların onları tərk edəcəyini düşünürlər, digərlərinin onların var olması ilə bağlı düşünmədiyini, digər insanlar üçün maraqlı olmadıqlarını düşünürlər. İnamsızlıq şeması olan insalar ilk fürsətdə digər insanların onlardan sui-istifadə edəcəyini düşünürlər və bu səbəbdən insanlarla çox yaxın bağ qurmaqdan çəkinirlər. Emosional deprivasiya şeması olan insanlar şəxsiyyətlərarası münasibətlər də daxil yaxın emosional münasibətlər zamanı qarşılarındakı insanları emosional olaraq məmnun edə biləcəklərinə inanmırlar [5, s. 1-8] Onlarda yetkin mənlik hissi formalaşmır. Sosial təcrid şeması olan insanlar müəyyən stereotiplər və meyarlar formalaşdıraraq özlərini cəmiyyətdən ayırdedici xüsusiyyətlərə malik biri kimi təsəvvür edirlər və onlarda aid olma duyğusu formalaşmır. Nəhayət, qüsurluluq və utanc şeması olan yetkin insanlarda bacarıqszılıq, bir işin öhtəsindən sərbəst gələ bilməmək, eyni zamanda, xarici görünüşlə bağlı dezadaptiv düşüncə və davranışlar olur.

- Zədələnmiş muxtariyyət (özünü ifadə)/ performansın pozulması (uğursuzluq) zonası;
- Asılılıq və natamamlıq (maddi, fiziki və s) şeması
- Xəstəlik və zərərə qarşı müavimətsizlik şeması
- Deindividualizasiya və yetişməmiş mənlik şeması
- Bacarıqsızlıq (uğursuzluq) şeması
- Haqlılıq və üstünlük (özünü böyütmə) şeması
- Məhdud özünə nəzarət və özünü idarəetmə şeması
- İtaətkarlıq/ boyun əymə şeması
- Özünü fəda etmə şeması
- Təsdiq olunma və qəbul edilməyə cəhd şeması
- Neqativizm və pessimizm şeması
- Emosiyalarını gizlətmə şeması
- Yüksək standartlar və ifrat mühakiməçilik şeması
- Cəzalandırılma şeması

Bu sferada baş verən erkən neqativ təcürəbələr yuxarıda qeyd olunmuş şemaların yaranmasına səbəb olur. Yetkin şəxsiyyət modelində bu cür insanlar erkən dezadaptiv şemaların təsirindən qaçınmaq üçün mükəmməlliyətçilik, emosional halətlərini cəmiyyət içində basdırmaq, maddə asılılığı, öz istək və arzularını arxa plana ataraq başqaları üçün özünü qurban vermək. Digər insanların istək və arzularına uyğun şəkildə hərəkət etməklə onlar tərəfindən qəbul edilməyə cəhd göstərirlər. Bu cür modellər erkən uşaqlıq zamanı ifrat mühakimə olunmuş sərbəstlik verilməmiş, qayda-qanun nizam altında böyüdülmüş uşaqlardır.

- Sərhədlərin pozulması zonası:
- Haqlılıq və üstünlük şeması
- Məhdud özünə nəzarət və özünü idarəetmə şeması

Bu sferada yaranan iki əsas şema yuxarıdakılardır. Bu şemaların yaranmasındakı əsas amil ailədaxili münasibətlərin pozulması zəmnində şəxsiyyətlərarası münasibətlər zamanı sərhədlərin öyrədilməməsidir. Bu cür insanlar digərlərinin istək və arzularını qəbul edə bilmir özlərinin mükəmməl olduqlarına inanırlar, bəzən narsistik xüsusiyyətlərə malik olurlar. Erkən uşaqlıq zamanı qoyulmuş qadağalar və sair onlarda emosional qeyri sabitliyin, emosiyaların yerli- yersiz ifadə edilməsinə səbəb olur.

- Digərlərinə yönəlmə (istiqamətlənmə, dominant olma) zonası:
- İtaətkarlıq şeması
- Özünü fəda etmə şeması
- Təsdiq olunma və qəbul olunmaya cəhd şeması

Bu şemanın olduğu insanlar valideynləri tərəfindən diqqət görməyən insanlardır. Hansı ki, onlar erkən

uşaqlıq zamanı ata və ana, yaxın çevrələri tərəfindən sevgi və təqdir görmək üçün davamlı olaraq müəyyən keyfiyyətlərini gizlətməyə çalışmışlar. Yetkin model olaraq onlar yenə də başqaları tərəfinfən qəbul edilmək və sevilmək üşün daima öz istək və arzularını gizlədir və emosiyalarını qarşı tərəfə büruzə vermirlər. Şema onlara onların tələbat və ehtiyaclarının vacib olmadığını xatırladır. Bəzən onlar sadəcə təsdiq olunmaq üçün onlara vacib olan şeylərdən imtina edirlər.

- İfrat oyanıqlıq (senzitivlik) və basdırıcılıq (gizlətmə) zonası;
- Neqativizm və pessimizm şeması
- Emosiyaları basdırma şeması
- Yüksək standartlar və ifrat mühakiməçilik şeması
- Cəzalandırıcılıq şeması

Yuxarıda qeyd olunmuş şema modelləri erkən uşaqlıq dövründə baş verən neqativ təcrübələrdən qaynaqlanır. Bu cür insanlarda çox vaxt neqativ emosiyalar olur. Onlar hadisələrin nəticələrinə köklənərək onun pis olacağını düşünürlər. Daima oyanıq olmaq, hadisələrin gedişatını müşahidə etmək onlara xarakterikdir. Mənlik şüuru ilə əlaqədar olan neqativ düşüncələr və sair onlarda təməl inanclarla bağlıdır.

Şema psixologiyası ilə digər nəzəriyyə və terapiyalarında oxşar və fərqli tərəfləri vardır. Bunlara bağlanma nəzəriyyəsi və psixodinamik terapiya və nəzəriyyəni misal göstərmək olar. Bağlanma nəzəriyyəsinə görə erkən uşaqlıq dövründə valideyn və uşaq arasındakı münasibətin xarakterinə görə bağlanma stili formalaşır. Bu isə şəxsiyyətin həyatının digər dövrlərində də bağlanma stilinə uyğun münasibət və davranışları şəkilləndirir. Şəxsiyyərin bağlanma obyektləri dəyişsə də bağlanma stili eyni formada qalmağa davam edir. Psixodinamik nəzəriyyə də şema nəzəriyyəsi kimi erkən uşaqlıq dövründə baş verən neqativ təəcrübələrin analizinə dayanır. Psixoanalitik nəzəriyyəyə görə tamamlanmamış və reallaşmamış, eyni zamanda, şəxsiyyətin inkişafı zamanı hansı inkişaf dövründə baş verməsindən asılı olaraq şəxsiyyət həmin dövrə reqressiya edir yaxud həmin dövr yarımçıq qaldığı üçün, yetkin model o dövrə xarakterik davranış sərgiləyir. Psixodinamik model şema modelindən fərqli olaraq passiv xarakter daşımır. Burada pasient və terpevt arasında aktiv əlaqə qurulur evə tapşırıqlar verilir. Psixodinamik model isə monoton və birtərəfli xarakter daşıyır erkən uşaqlıq təcrübələrinin analizinə istinad edilir. Şema modelində neqativ təcrübələr müdafiə mexanizmlərinin yaranmasına səbəb olur. Psixodinamik nəzəriyyə neqativ təcrübələrin davranışın hərərktverici qüvvələri olmaqla müdafiə mexanizmlər və sair formada təzahür etdiyinə inanır. Şema modeli isə təsnifat xarakterli olub erkən dezadaptiv şema adlandırdığımız emosional koqnitiv və davranış reaksiyaların repertuarı olub mübarizə stilləri, onlarda öz növbəsində reaksiya stilləri və şema modları şəklində təzahür edir. Beləliklə şema modeli daha koqnitiv və davranışsal modeldir və daha aktiv xarakter daşıyır.

Məqalənin elmi yeniliyi.

Şəxsiyyət psixologiyası müasir dövrümüzdə psixologiyanın aktual mövzularından biridir. Bir çox nəzəriyyə və paradiqmalar şəxsiyyətin strukturunu müxtəlif istiqamətlərdən araşdırmış və formulə etməyə çalışmışdır. Şema modeli koqnitiv və davranışsal elmlərin qovşağında yaranmış daha bütünləyici və tamamlayıcı xarakter daşıyan modeldir. Bu məqalədə şəxsiyyəin şema analizini izah etməyə, şemalar və onların şəxsiyyətin strukturunda rolunun əhəmiyyətini müəyyən etməyə çalışmışıq. İnsanın həyatını və şəxsiyyətin tamlığını müəyyən edən şemalar dezadaptiv xarakter daşıyaraq fəaliyyəti neqativ istiqamətləndirir. Məlumdur ki, erkən dezadaptiv şemalar şəxsiyyətlərarası münasibətlərə, iadarəetməyə və sair mühüm təsirə malikdir. O cümlədən, müasir dövrümüzün ağır iş şəraitində insanlar stress və sair situasiyaların təsirinə məruz qalırlar, bu onlarda ekstrapsixoloji balans pozuntusu yaradır [2, s. 5,6]. Eyni zamanda, sosial muhit daxilində yeni xüsusiyyətlər kəsb edən şəxsiyyətin real və sosial mənlik hissi çuğlaşır, bu baxımdan erkən dezadaptiv şemalar sosial mənlik hissinə də təsir edərək sosial deprivasiyanın yaranmasına təkan verir. Bu səbəbdən bu məqaləyə əlavə olaraq geniş çaplı olmasa da müəyyən insalarda mövcud erkən dezadaptiv şemaların sosial deprivasiya səviyyəsinə necə təsir etdiyini araşdırmağa çalışdıq.

Məqalənin praktik əhəmiyyəti.

Şəxsiyyət psixologiyasında onun struktur və mahiyyətini izah edən uğurlu elmlərdən olan koqnitiv psixologiyadır. Beləki insan və onun öyrənmə reaksiya və sair kimi xüsusiyyətlərini izah etməsinə baxmayaraq davranışsal mövqe insanı reaksiya göstərən modelə əsasən izah edirdi. Koqnitiv psixologiya insanın daxili strukturlarını izah edərək düşünən insan modelini irəli sürdü. Onun nəticəsidir ki, bu elmlərin qovşağında yaranan nəzəriyyə və terapiya üsulları bu istiqamətlərdən istinad alır. Şema və şema modları, eyni zamanda, mübarizə strategiyaları adaptiv və dezadaptiv davranışlar aspektindən araşdırıla bilər. Bu istiqamət şəxsiyyət və onun təzahür komponentlərinə tamamlayıcı və sistem-struktur yanaşmanı ehtiva edir. Şəxsiyyəti sxema və koqnitiv cəhətdən anlamaq, davranışlar və onların hərəkətverici

qüvvələri olan şemaların arasındakı əlaqə formaları bu baxımdan əhəmiyyətlidir. Erkən dezadaptiv şemaların formaları və uyğun olaraq onların hansı dezadaptiv davranışlar formasında təzahür etməsi şəxsiyyəti anlamağa terapiyanı daha yaxşı istiqamətləndirməyə kömək edir. Mövcud məqaləyə əlavə olaraq erkən dezadaptiv şemalar və sosial frusturasiya sxəviyyəsi arasındakı korrelyativ əlaqənin müəyyən olunması şəxsi fəaliyyəti və emosional balansı müəyyən etməyə uğurlu kömək edir.

Nəticə

Şəxsiyyət psixologiyası istiqamətində aparılmış bir çox tədqiqatlar mövcuddur. Bu nəzəriyyə və tədqiqatlar, həmçinin, şəxsiyyətin inkişafının daha sağlam təmin olunması istiqamətində uğurlu rola malik ola və olmaya bilər. Koqnitiv psixologiya istiqamətində Beckin apardığı tədqiqatlar koqnitiv davranış terapiyasının əhəmiyyətli yükə malik olduğunu göstərmişdir. Lakin bu üsul (koqnitiv, davranışçı) şəxsiyyəti və onun bərpasını səthi müzakirə edən dərin strukturlara toxunmayan üsul olduğu üçün bəzi hallarda çox da uğurlu deyildir. Bu istiqamətdə Yunqun pasientlər üzərində apardığı təcrübələr onun şema modelini irəli sürməsinə səbəb olur. Koqnitiv və davranışçı terapiyaların şəxsiyyət pozuntularında effektiv olmadığını görən Yunq şema modelinə istinadən şema terapiya üsulunu formalaşdırır. Şema modeli şəxsiyyətə sistemli yanaşdığı və dərin strukturlara toxunduğu üçün daha məqsədəuyğun hesab edilir. Məqaləmizə əlavə olaraq qısa çaplı müəyyən qrup insan arasında erkən dezadaptiv şemalar və onların sosial frusturasiya səviyyəsinə təsirini araşdırmışıq.

Erkən dezadaptiv şemalar və sosial frusturasiya arasındakı əlaqə ilə bağlı kvazi eksperiment

Psixologiyada yer alan anlayışlardan biri də frusturasiyadır. Frusturasiya latıncadan boş yerə, əbəs yerə mənasında işlədilir və fərdin məqsədə çatması zamanı özünü göstərərn və fəaliyyəti neqativ yönləndirən emosional əhval kimi xarakterizə olunur. Frusturasiya psixoloji və sosial-psixoloji mənaya malikdir. Psixoloji mənada frusturasiya insanın məqsədə çatması yolunda özünü göstərən real və xəyali maneələrdən ibarətdir. Qrup daxilində insan şəxsiyyətlərarası münasibətlər fonunda yeni məna kəsb edir. Bu zaman frusturasiyanın mənbə və vasitələri dəyişir. Qrup daxilində digər insanlar da frusturasiya obyekti ola bilər, eyni zamanda, sosial norma və qaydalar da sosial frusturasiyanın yaranmasına səbəb ola bilir. Bu baxımdan erkən dezadaptiv şemalara malik olan insalar sosial frusturasiyaya daha meylli olurlar.

Tədqiqatın obyekti: 18-30 yaş arası təsadüfi seçilmiş insanlar (20 nəfər) qrupudur. Şemalar erkən uşaqlıq dövründə və nisbətən yeniyetməlik dövründə şəxsiyyət tam formalaşmamış yaranmağa başlayır və situasiyadan asılı olaraq ya davamlı olur, yada daha zəif olduğu üçün zamanla korreksiya oluna bilir. Bu səbəbdən 18-30 yaş aralığında olan insanların tədqiqata cəlb olunmasını daha məqbul hesab edirik

Tədqiqatın predmeti: tədqiqatın predmetini qüsurluluq şeması olan 18-30 yaş aralıqlı insanlarda sosial frusturasiyanın öyrənilməsi təşkil edir. Erkən dezadaptiv şemalar şəxsiyyətin neqativ emosiyalar yaşamasına səbəb olur. Eyni zamanda, bu reaksiya stillərinin də xarakterinə təsir edir. Sosial amillər zamanı insanın qrup daxilində xüsusiyyətləri yeni məna kəsb edir. Bu xüsusiyyətlər şəxsiyyətlərarası münasibətlər fonunda şemalarla qarşılıqlı əlaqədə olur. Erkən dezadaptiv şemaların sosial frusturasiya səviyyəsinə necə təsir etməsi və davranışın xarakteri bu baxımdan əhəmiyyətlidir.

Cədvəl 2. Təsadüfi seçilmiş tədqiqat iştirakçılarının stres və şema şkalası üzrə nəticələri

Tədqiq olunan iştirakçılar	1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20
Tədqiq olunan iştirakçıların topladığı ballar	3	3.2	3.5	1.1	3.1	2.5	2.9	3.5	2.9	3.0	4	1.9	3.5	4	3.0	4	2.4	3.1	3.2	2
Tədqiq olunan erkən dezadaptiv şeması olan iştirakçılar	+	+	+	+	+	+	+	-	-	-	+	-	+	+	+	+	-	+	+	-

Tədqiqatın fərziyyəsi: erkən dezadaptiv şemalar şəxsiyyətin sosial frusturasiya səviyyəsinin artmasına səbəb olur.

Tədqiqat zamanı istifadə olunan medodlar: Jeferry Yunq şema şkalası [4, s. 1-30] və L.İ.Boykonun sosial frusturasiya səviyyəsinin diaqnostikası metodikası

Tədqiqatın keçirilməsi və təşkili: tədqiqat 20 nəfər təsadüfi seçilmiş insan üzərində aparılmışdır. Sosial frusturasiya diaqnostikası metodikası və Yunqun şema şkalası online və əyani formada tədqiqata cəlb olunan insanlara təqdim olunmuşdur. Alınmış nəticələrin analizi aparılmışdır.

Cədvəldən də göründüyü kimi stres şkalası üzrə daha yüksək bal alanların, eyni zamanda, erkən dezadaptiv şemaları mövcuddur. Deməli, erkən dezadaptiv şemalar insanın nəinki fərdi, sosial səviyyədə də fəaliyyətinə neqativ təsir edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Young, J. E., Klosko, J. S., & Weishaar, M. E. (2003). Schema Therapy: A Practitioner's Guide. Guilford Press 7-8,10-11.
2. Schmidt, A. L., Reiss, N., & Vocks, S. (2012). The link between early maladaptive schemas and coping strategies: A meta-analysis. Clinical Psychology Review, 32(1), 5-6.
3. Masley, S. A., Gillanders, D. T., O'Toole, M. A., & Taylor, G. (2012). The identification and modification of early maladaptive schemas in cognitive behavioral therapy. Journal of Cognitive Psychotherapy, 26(1), 1–3.
4. Young, J. E. (1998). Young Schema Questionnaire-Short Form 3 (YSQ-S3). Cognitive Therapy Center of New York 1-30.
5. Stopa, L., & Waters, Z. (2020). Early maladaptive schemas and emotional processing: An experimental study. Journal of Behavior Therapy and Experimental Psychiatry 1-8

DOİ: 10.32010/EXMZ1897

BLOQERLƏRDƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏ İDDİA SƏVİYYƏSİNİN ÖYRƏNİLMƏSİ (PİLOT ARAŞDIRMA)

Aytən Sabir MÜTƏLLİMZADƏ
BDU, Psixologiya kafedrası, doktorant
Orcid: 0000-0002-8170-2383
E-mail: aytanmutallimzada@bsu.edu.az

Xülasə:Ənənəvi və rəqəmsal sosiallaşma şəraitində müxtəlif yaş qruplarından olan şəxslərdə "Mən obrazı"nın vektorlarının fərqli olması, real və virtual mühitlərin konvergensiyası (birləşməsi) şəraitində insanın mümkün psixoloji transformasiyalarını daha yaxşı anlamağa imkan verə bilər. Müasir dövrdə sosial media istifadəçiləri bloq müəlliflərini (bloqerləri) zəmanənin "qəhrəmanları" kimi görürlər. Onların fikri nüfuzlu kimi qiymətləndirilir, kütlədə güclü təsir gücünə sahib olur, reklam məhsulları və tədbirləri üçün çoxlu sayda ödəniş edilir. Bunun əsas səbəbi kütləvi şəkildə insanların bloqerləri izləməsidir. Bloqerlər "rəqəmsal dünyanın liderləri" olaraq böyük kütləni idarə edə bilir, onların üzərində güclü təsirə sahib olurlar. Belə sual yaranır ki, bloqerlərin özləri həqiqətən də qeyd etdikləri qədər "ideal", "güclü", "xoşbəxt", "sevimli" və s. xüsusiyyətlərə sahibdirlər? Bu mövzu son dövrlərdə tədqiqatçıların diqqət mərkəzində olduğu üçün bloqerlər xüsusilə psixoloji tədqiqatların əsas obyektini təşkil edirlər. Bloqerlər arasındakı güclü və iddialı rəqabət onların "Mən obrazı"na, xüsusilə də özünüqiymətləndirmə səviyyəsinə təsir etmiş olur. Özünüqiymətləndirmə şəxsiyyətin nüvəsini təşkil edir və insan anadan olduğu gündən bəri müxtəlif amillərin təsiri ilə formalaşır, inkişaf edir. Məqalədə bloqerlərdə özünüqiymətləndirmə və iddia səviyyəsinin öyrənilməsi üçün aparılan pilot araşdırmanın nəticələri təhlil edilmişdir. Belə ki, pilot araşdırma 25-30 yaş həddində 40 bloqer və 40 sadə istifadəçi olmaqla, məqsədli seçmə üsulu ilə təyin olunan ümumilikdə 80 nəfərlə aparılmışdır. Araşdırmanın məqsədi bloqerlərdə özünüqiymətləndirmə səviyyəsinin sadə istifadəçilərə əsasən fərqli olduğunu, həmçinin sosial media platformasına əsasən də fərqli təzahür etdiyini müəyyənləşdirmək və gələcəkdə aparılacaq tədqiqat işləri üçün ilkin empirik məlumatlar toplamaqdır. Alınan nəticələrin statistik təhlilindən (t test, ANOVA) əldə olunan nəticələrə əsasən müəyyən edilmişdir ki, bloqerlərdə özünüqiymətləndirmə səviyyəsi sadə istifadəçilərə nisbətən aşağıdır, həmçinin onların fəaliyyət göstərdikləri sosial media platformasının formatına görə də fərqlilik göstərə bilir (Sig. <0.05). Məqalədə pilot araşdırmanın fərziyyələri, metodikası, alınan nəticələrin təhlili ətraflı şəkildə təhlil edilmişdir.
Açar sözlər: media psixologiya, şəxsiyyətin psixologiyası, özünüqiymətləndirmə səviyyəsi, iddia səviyyəsi, sosial media, sosial media platformaları, sosial şəbəkə, mikrobloq, bloq, bloqer

STUDYING THE LEVEL OF SELF-ESTEEM AND CLAIM IN BLOGGERS (PILOT RESEARCH)

Aytan Sabir MUTALLİMZADA
Department of Psychology,
Baku State University
Orcid: 0000-0002-8170-2383
E-mail: aytanmutallimzada@bsu.edu.az

Abstract: The difference in the vectors of the "Self image" in people of different age groups in the conditions of traditional and digital socialization can allow us to better understand the possible psychological transformations of a person in the conditions of convergence (merger) of real and virtual environments. In modern times, social media users see blog authors (bloggers) as the "heroes" of the time. Their opinion is considered authoritative, they have a strong influence on the masses, and a large number of payments are made for advertising products and events. The main reason for this is that people follow bloggers in large numbers. As "leaders of the digital world", bloggers can control a large crowd and have a strong influence on them. The question arises: do bloggers themselves really have as many "ideal", "strong", "happy", "lovable", etc. characteristics as they claim? Since this topic has been the focus of researchers in recent times, bloggers are especially the main object of psychological research. Strong and assertive competition between bloggers affects their "self-image", especially their level of self-esteem. Self-esteem constitutes the core of personality and is formed and developed under the influence of various factors from the day a person is born. The article analyzes the results of a pilot study conducted to study the level of self-esteem and assertiveness in bloggers. Thus, the pilot study was conducted with a total of 80 people, including 40 bloggers and 40 ordinary users aged 25-30, determined by purposive sampling. The purpose of the study is to determine

whether the level of self-esteem in bloggers is different from ordinary users, and also manifests itself differently depending on the social media platform, and to collect initial empirical data for future research. Based on the results obtained from the statistical analysis of the results (t test, ANOVA), it was determined that the level of self-esteem in bloggers is lower than that of ordinary users, and can also differ depending on the format of the social media platform on which they operate (Sig. <0.05). The article analyzes in detail the hypotheses, methodology, and results of the pilot study.
Keywords: media psychology, personality psychology, self-esteem level, claim level, social media, social media platforms, social network, microblog, blog, blogger.

ИЗУЧЕНИЕ УРОВНЯ САМООЦЕНКИ И ПРИТЯЗАНИЙ У БЛОГЕРОВ (ПИЛОТНОЕ ИССЛЕДОВАНИЕ)

Айтан Сабир МУТАЛЛИМЗАДЕ
Докторант, кафедра Психологии
Бакинский государственный университет
Orcid: 0000-0002-8170-2383
Электронная почта: aytanmutallimzada@bsu.edu.az

Резюме: Различие векторов образ «Я» у людей разных возрастных групп в условиях традиционной и цифровой социализации может позволить нам лучше понять возможные психологические трансформации человека в условиях конвергенции (слияния) реальной и виртуальной сред. В современном мире пользователи социальных сетей воспринимают авторов блогов (блогеров) как «героев» своего времени. Их мнение считается авторитетным, они оказывают сильное влияние на массы, а за рекламу продуктов и мероприятий приходится большое количество платежей. Главная причина этого заключается в том, что за блогерами следит большое количество людей. Будучи «лидерами цифрового мира», блогеры могут контролировать большую толпу и оказывать на неё сильное влияние. Возникает вопрос: действительно ли сами блогеры обладают таким количеством «идеальных», «сильных», «счастливых», «любимых» и т. д. характеристик, как они заявляют? Поскольку эта тема находится в центре внимания исследователей в последнее время, блогеры являются особенно основным объектом психологических исследований. Сильная и жесткая конкуренция между блогерами влияет на их образ «Я», особенно на уровень самооценки. Самооценка составляет ядро личности и формируется и развивается под влиянием различных факторов с момента рождения человека. В статье анализируются результаты пилотного исследования, проведенного для изучения уровня самооценки и напористости у блогеров. Таким образом, пилотное исследование было проведено с участием 80 человек, включая 40 блогеров и 40 обычных пользователей в возрасте 25-30 лет, определенных путем целенаправленной выборки. Цель исследования — определить, отличается ли уровень самооценки у блогеров от обычных пользователей, а также проявляется ли он по-разному в зависимости от платформы социальных сетей, и собрать исходные эмпирические данные для будущих исследований. На основании результатов, полученных в результате статистического анализа результатов (t-тест, ANOVA), было определено, что уровень самооценки у блогеров ниже, чем у обычных пользователей, и также может различаться в зависимости от формата платформы социальных сетей, на которой они работают (Sig. <0,05). В статье подробно анализируются гипотезы, методология и результаты пилотного исследования.
Ключевые слова: медиапсихология, психология личности, уровень самооценки, уровень притязаний, социальные медиа, платформы социальных сетей, социальная сеть, микроблог, блог, блогер

Giriş

Bugünkü texnoloji yeniliklərin sosiallaşma prosesində bizə təqdim etdiyi ən böyük fürsətlərdən biri də bloqlar və xüsusilə də sosial şəbəkələrdə mövcud olan mikrobloqlardır. Mikrobloqlar (X (əvvəlki adı ilə Twitter), Instagram, Youtube, Facebook və s.) hal-hazırda insanlar tərəfindən məlumat əldə etmək üçün ilk mənbə kimi istifadə olunur. Dünyada bloqerlərin əksəriyyəti bloqları və mikrobloqları təcrübə mübadiləsi aparmaq, dünyagörüşlərini artırmaq, rahatlıq və dəstək almaq üçün istifadə edirlər. Mikrobloq platformaları müasir dövrdə insanların bir neçə sahədə inkişafına və böyüməsinə kömək edən müsbət vasitə ola bilər. Lakin bu kimi platformalar insanların psixi sağlamlığına əhəmiyyətli dərəcədə mənfi təsir də göstərə bilər (Huizhong, 2022). Əlbəttə ki, mikrobloqların insan psixologiyasına həm müsbət həm mənfi təsiri mövcuddur. Bu bloqerin şəxsiyyətindən və bloqun istiqamətindən də asılı ola bilər. Bloqlar bəzən müəllifin problemlərini "maskalamaq" üçün istifadə edilə bilər.

Ümumiyyətlə sosial şəbəkə istifadəçiləri və xüsusilə də bloqerlər digər bloqerlər ilə ayaqlaşmağa, başqalarından "pis olmamağa" çalışırlar. Bu cür səylər

insanda komplekslərin mövcudluğunu ortaya qoyur və sosial media onlara istənilən obrazı yaratmağa kömək edir (Asadzadeh, Rost, Rooksby, 2016). Bir qayda olaraq, bu cür insanlar üçün səhifələrinə maraq yaratmaq, paylaşımlarında bəyənmə sayı yığmaq çox vacibdir.

Sosial şəbəkələrdə istifadəçilər arzuladıqları ideal (xəyali) obrazı qısa müddətdə yarada bilərlər. Onlar özlərini fərqli sosial statusda, fərqli yaşda, fərqli görkəmdə təqdim edə bilər və bu xəyali obraz ilə izləyici kütləsi qazana bilərlər (Prieto, 2021). Bu xüsusiyyətləri sosial şəbəkələrdə sadə istifadəçilərdən fərqli olaraq bloqerlərdə rahatlıqla müşahidə etmək olar.Sosial şəbəkədə bloqerlərin yaratmış olduğu virtual şəxsiyyət ideal, arzu olunan şəxsiyyətə daha çox yaxınlaşır. Bloqerlər bir müddət sonra real şəxsiyyətlərindən uzaqlaşaraq, yaratmış olduqları virtual şəxsiyyətin rolunu yaxşı mənimsəyir, virtual cəmiyyətdə müəyyən statusa sahib olurlar. Ən əsası da virtual obraz onların real həyatlarına da təsir edir. Yaradılmış olan ideal obraz sonradan psixoloji problemlərin yaranmasına səbəb ola bilər (yalnızlıq, depressiya, ünsiyyət çətinlikləri, şəxsiyyətin deqradasiyası və s.). Çünki bu virtual rol ilk öncə yalnız həmin virtual dünya üçün yaradılmış olur. Lakin sonradan bunu real həyatda da davam etmək məcburiyyətində olurlar ki, şəxsiyyətin daxili ziddiyyəti də burada baş qaldırmış, dərinləşmiş olur. Bloqerlər əvvəlki həyat tərzindən çıxaraq özünə xas olmayan yeni xüsusiyyətləri (fiziki, psixoloji) mənimsəmək məcburiyyətində qalırlar (Gurak, Antonijevic, 2008).

Bloqerlər sosial şəbəkələrdə "ideal" mənzərə yaradaraq özlərinin "ən yaxşı" xüsusiyyətlərə sahib olduqlarını nümayiş edirlər. Bir müddət sonra isə özlərini bu ideal obraza uyğunlaşdırmağa çalışırlar. Müəyyən proqramlardan (Photoshop, FaceApp və s.) istifadə edərək şəkillərdə ideal gözəlliyə sahib olduğunu göstərən bloqerlər real həyatda kompleks yaşayır və artıq özünü olduğu kimi qəbul etmir. Bunun nəticəsində müəyyən kosmetik proseslərə əl atır və əməliyyatlar keçirmək, öz görkəmini dəyişmək məcburiyyətində olduğunu düşünürlər. Əksər hallarda yeniyetmələr və gənclər bloqerliyi natamamlıq kompleksini aradan qaldırmaq üçün ən rahat və asan üsul hesab edirlər, lakin fərqində olmadan bu kompleksi daha da ağırlaşdırmış olurlar. Onlarda özünüqiymətləndirmə deyil iddia səviyyələri yüksəlmiş olur (Chen, Ishii, Bater və baş. 2019).

Nəzəriyyə

Psixoanalizin görkəmli nümayəndəsi Alfred Adlerin fikirlərinin əsasında natamamlıq kompleksi dayanır. Belə ki, bədən orqanlarının inkişafında həqiqi və ya xəyali qüsurlar insanda natamamlıq hissinin yaranmasına səbəb olur. Onun aradan qaldırılması üçün də şüurlu və ya şüursuz şəkildə, həmin şəxslər öz bütün imkanlarını səfərbər etmiş olurlar. Kompensasiya müvəffəqiyyətsizliyə uğradıqda nevrotik pozuntular yaranmış olur, həmçinin "Mən obrazı"nın formaları arasında da ziddiyyətlər yaranır. "İdeal mən" və "Real mən" arasında böyük fərq ortaya çıxır. Bu vəziyyət onların özünüqiymətləndirmə səviyyəsinə ciddi sürətdə təsir etmiş olur (Plyusnin, 2024). Belə ki, əhatə dairəsinə görə özünüqiymətləndirmənin əsasən üç forması mövcuddur- ümumi, xüsusi və operativ özünüqiymətləndirmə. Xüsusi özünüqiymətləndirmə şəxsin yalnız konkret bacarığa, hansısa bir fəaliyyət sahəsinə dair təsəvvürlərini, özünüqiymətləndirməsini əks edir. Ümumi özünüqiymətləndirmə şəxsin bütün sahələrdə olan ümumi bacarıqları barəsində təsəvvürlərini və özünüqiymətləndirməsini əks edir. Ümumi və xüsusi özünüqiymətləndirmənin sərhəddində operativ özünüqiymətləndirmə dayanır. Operativ özünüqiymətləndirmə özünü müəyyən dövr müddətində situativ özünüqiymətləndirməsidir (Mütəllimzadə, 2021)Pilot araşdırmada əsasən ümumi özünüqiymətləndirmənin öyrənilməsinə xüsusi yer verilmişdir. Çünki, mənlik şüuruna, şəxsiyyətin formalaşmasına təsir edən insanın özü haqqındakı ümumi təsəvvürləri və özünüqiymətləndirmə səviyyəsi aiddir. Yəni konkret bir sahədə özünqiymətləndirmə səviyyəsu yüksək olan şəxsin ümumi özünüqiymətləndirmə səviyyəsi aşağı ola bilər. Yəni ümumi özünüqiymətləndirmə insanın özünə qarşı mənfi və ya müsbət münasibətini, həmçinin də digər insanların ona qarşı münasibətini də əks etdirir.

Metod

Pilot araşdırmada 25-30 yaş aralığında (M=27.5, SD=1.5), 40 bloqer və 40 sadə istifadəçi olmaqla, ümumi 80 tədqiq olunan iştirak etmişdir. Tədqiq olunanlar məqsədli seçmə üsulu ilə müəyyən edilmişdir. Pilot araşdırma ölkəmizdə (Azərbaycan) ən çox istifadə edilən (Şəkil 1.) sosial media platformalarında-mikrobloqlarında (Facebook, YouTube, Instagram, X) fəaliyyət göstərən bloqer və sadə istifadəçilər ilə aparılmışdır.



Şəkil 1. Azərbaycan üzrə 12 aylıq, mobil telefon və planşetlər vasitəsilə ən çox istifadə edilən sosial media platformalarının statistikası (gs.statcounter.com)

Respondentlərin 25% (n=20) Facebook, 25% (n=20) YouTube, 25% (n=20) X və 25% (n=20) Instagram sosial şəbəkələrin bloqer və istifadəçiləridir. Tədqiq olunanlar arasında:

-Facebook platformasında 50% (n=10) sadə istifadəçilər, 50% (n=10) bloqerlərdir;

-YouTube platformasında 50% (n=10) sadə istifadəçilər, 50% (n=10) bloqerlərdir;

-X platformasında 50% (n=10) sadə istifadəçilər, 50% (n=10) bloqerlərdir;

-Instagram platformasında 50% (n=10) sadə istifadəçilər, 50% (n=10) bloqerlərdir.

Ölkəmizdə hal-hazırda yeniyetmə və gənclərin nümunə aldıqları, onların özünüqiymətləndirməsinə güclü şəkildə təsir göstərən bloqerləri tədqiq etmək, həm elmi yenilik həm də aktuallıq kəsb edir.

Pilot araşdırmada respondentlərin özünüqiymətləndirmə və iddia səviyyələrini müəyyənləşdirmək üçün Dembo-Rubinişteyn (Tamara Dembo və Susanna Rubinişteyn) metodikasından istifadə edilmişdir (Sidorov, 2013). Pilot araşdırmadan əldə olunan nəticələrin statistik təhlili IBM SPSS (29.0) proqramı vasitəsilə aparılmışdır.

Pilot araşdırmanın məqsədi bloqerlər və sadə istifadəçilərin özünüqiymətləndirmə və iddia səviyyəsini müqayisə etmək, bloqerlərdə sosial media platformasına görə özünüqiymətləndirmə və iddia səviyyəsini müqayisə etmək.

Pilot araşdırma zamanı irəli sürülən fərziyyələr aşağıda qeyd edilmişdir:

-Bloqerlər ilə sadə istifadəçilərin özünüqiymətləndirmə və iddia səviyyəsi əhəmiyyətli səviyyədə fərqlilik göstərə bilər.

-Bloqerlərdə özünüqiymətləndirmə və iddia səviyyəsi fəaliyyət göstərdikləri sosial media platformasına (Facebook, YouTube, Instagram, X) görə əhəmiyyətli səviyyədə fərqlilik göstərə bilər.

Nəticə

Dembo-Rubinişteyn metodikası ilə həm metodikada qeyd olunan 7 keyfiyyətə əsasən, həm də ümumi nəticələrə əsasən özünüqiymətləndirmə və iddia səviyyəsini müəyyənləşdirdik. Belə ki, metodikadan əldə etdiyimiz nəticələri bloqerlər və sadə istifadəçilər olmaqla iki qrupa ayırdıq. İki qrupunun nəticələrinin t-kriteriyası ilə müqayisəsindən alınan nəticəyə görə, özünüqiymətləndirmə (t= -1.804) və iddia səviyyəsinin (t=0.968) bloqerlər ilə sadə istifadəçilərdə fərqlilik göstərməsi əhəmiyyətli səviyyədədir (p<0.05)

Cədvəl 1. Özünüqiymətləndirmə səviyyəsinin bloqer və sadə istifadəçilərə görə göstəriciləri

Studentin t əmsalı					
	Özünüqiymətləndirmə səviyyəsi			*Sig.*	*t*
	M	*N*	*SD*		
Bloqerlər	46.01	40	0.36	0.010	-2.828
Sadə istifadəçilər	63.98	40	0.53		

Cədvəl 2. İddia səviyyəsinin bloqer və sadə istifadəçilərə görə göstəriciləri

Studentin t əmsalı					
	İddia səviyyəsi			*Sig.*	*t*
	M	*N*	*SD*		
Bloqerlər	79.20	40	0.66	0.003	2.703
Sadə istifadəçilər	67.36	40	0.59		

Dembo-Rubinişteyn metodikasında qeyd olunan qiymətləndirci keyfiyyətlərdən sağlamlıq keyfiyyəti istisna olmaqla, digər alt keyfiyyətin hər iki qrup üzrə statistik təhlilini apardıq (cədvəl 3). Əldə etdiyimiz nəticələrə görə ağıl (t=1.239), xarakter (t=-1.189), bacarıq (t=-1.301), xarici görünüş (t=-0.806) və özündən əminlik (-0.910) keyfiyyətlərinin qiymətləndirməsi hər iki qrup üzrə əhəmiyyətli dərəcədə fərqlənir (Sig.<0.05). Yaşıdları arasında avtoritetə sahib olmaq keyfiyyəti (t=0.989) iki qrupda əhəmiyyətli səviyyədə fərqlənmir, statistik əhəmiyyəti yoxdur (Sig.>0.05).

Cədvəl 3. Qiymətləndirici keyfiyyətlərin bloqer və sadə istifadəçilərə görə göstəriciləri

Studentin t əmsalı						
	Bloqerlər		Sadə istifadəçilər		*Sig.*	*t*
	N=40		N=40			
	M	*SD*	*M*	*SD*		
Ağıl	23.10	0.19	15.36	0.11	0.001	3.102
Xarakter	14.50	0.10	21.23	0.16	0.012	-2.510
Yaşıdları arasında avtoritet	19.74	0.17	13.51	0.08	0.097	1.989
Bacarıq	11.89	0.09	20.68	0.14	0.021	-1.610
Xarici görünüş	12.51	0.08	16.33	0.12	0.005	-2.836
Özündən əminlik	14.22	0.11	19.89	0.14	0.010	-2.466

Bloqerlər və sadə istifadəçilər arasında özünüqiymətləndirmə və iddia səviyyəsi arasındakı fərqlərin olduğunu müəyyən etdikdən sonra, araşdırmanın ikinci əsas fərziyyəsini müəyyən etmək üçün, dörd sosial media platforması üzrə bloqerlərin özünüqiymətləndirmə və iddia səviyyəsini müəyyənləşdirdik.

Cədvəl 4. Bloqerlərin özünüqiymətləndirmə və iddia səviyyəsinin sosial media platformaları üzrə göstəriciləri (Facebook, YouTube, Instagram, X)

ANOVA						
		Kvadratlar cəmi	*df*	*Ortalama kvadratlar*	*F*	*Sig.*
Özünüqiymətləndirmə	Qrup.arası	963.4	3	321.3	71.40	0.023
	Qrupdaxili	288.6	37	4.50		
	Ümumi	1252	40			

İddia səviyyəsi	Qrup.arası	1305.2	3	435.06	53.87	0.011
	Qrupdaxili	516.8	37	8.075		
	Ümumi	1822	40			

ANOVA testindən əldə etdiyimiz nəticələrə (cədvəl 5) görə (F=71.40, F=53.87) Facebook, YouTube, Instagram və X platformasında fəaliyyət göstərən bloqerlərin özünüqiymətləndirmə və iddia səviyyələri arasında mövcud olan fərq əhəmiyyətlidir (Sig.<0.05). Diseprsiya təhlilinin əsas nəticələrinə baxmaq, hansı qrupların fərqləndiyini müəyyənləşdirmək üçün Post Hoc testlərindən olan Tukey HSD istifadə olunmuşdur. Metodikanın nəticələrinə baxanda, 4 platformakı bloqerlərin özünüqiymətləndirmə səviyyəsinin bir-birindən əhəmiyyətli səviyyədə fərqləndiyini görmək mümkündür (Sig.<0.05). İddia səviyyəsi arasındakı fərqlər isə yalnız X platformasındakı bloqerlərdə əhəmiyyətli səviyyədədir. Digər üç platforma üzrə nəticələr arasında əhəmiyyətli fərqlilik yoxdur (Sig.>0.05).

Nəticələr və Müzakirə

Əldə etdiyimiz nəticələr, pilot araşdırmanın tədqiqi istiqamətinin əhəmiyyətini təyin etmiş olur. Statistik nəticələrin təhlilinə nəzər saldıqda araşdırmanın əvvəlində irəli sürülən fərziyyələrin tədqiqi əhəmiyyəti olduğu müəyyən olunur.

Cədvəl 5. Facebook, YouTube, Instagram və X platformalarında fəaliyyət göstərən bloqerlərin özünüqiymətləndirmə və iddia səviyyəsinin göstəriciləri

			Tukey HSD				
	Mikrobloq (I)	*Mikrobloq (J)*	*Ortalama fərq*	*SD*	*Sig.*	*95% dəqiqlik orta interval*	
						Aşağı sərhəd	*Yuxarı sərhəd*
Özünüqiymətləndirmə səviyyəsi	Facebook	YouTube	-1.99	0.39	0.013	-47.17	-40.91
		Instagram	1.02	0.36	0.004	38.14	43.89
		X	-5.15	0.93	0.009	-54.62	-39.74
	YouTube	Facebook	1.99	0.39	0.013	40.91	47.17
		Instagram	3.01	0.63	0.023	44.10	46.05
		X	-3.16	0.68	0.019	-52.62	-41.74
	Instagram	Facebook	-1.02	0.36	0.004	-43.89	-38.14
		YouTube	-3.01	0.63	0.023	-46.05	-44.10
		X	-6.17	0.98	0.001	-55.02	-39.34
	X	Facebook	5.15	0.93	0.009	39.74	54.62
		YouTube	3.16	0.68	0.019	41.74	52.62
		Instagram	6.17	0.98	0.001	39.34	55.02
İddia səviyyəsi	Facebook	YouTube	10.97	0.93	0.903	49.47	66.57
		Instagram	-9.04	0.81	0.600	-69.52	-56.56
		X	20.97	1.13	0.002	44.26	62.08
	YouTube	Facebook	-19.97	0.93	0.903	-70.48	-55.60
		Instagram	-20.01	1.02	0.710	-91.21	-74.89
		X	10.03	0.90	0.014	46.02	60.24
	Instagram	Facebook	9.04	0.81	0.600	56.56	69.52
		YouTube	20.01	1.02	0.710	74.89	91.21
		X	30.01	1.15	0.001	44.02	62.24
	X	Facebook	-20.97	1.13	0.002	-62.08	-44.36
		YouTube	-10.03	0.90	0.014	-60.24	-46.02
		Instagram	-30.01	1.15	0.001	-62.24	-44.02

Belə ki, t-kriteriyasından alınan əmsallara baxsaq (cədvəl 1), sosial media platformalarında bloqerlər və sadə istifadəçilərin özünüqiymətləndirmə səviyyəsi arasında

əhəmiyyətli fərqin olduğunu görmək mümkündür. T əmsaslının mənfi qiymət alması, sadə istifadəçilərdə özünüqiymətləndirmə səviyyəsinin bloqerlərə nisbətən yüksək olmasının göstəricisidir. Cədvəl 2-də təqdim olunan əmsallara əsasən bloqerlərdə iddia səviyyəsinin sadə istifadəçilərə nisbətən yüksək olduğu müəyyən edilmişdir. İki qrup üzrə (bloqer və sadə istifadəçi), özünüqiymətləndirmə və iddia səviyyəsi göstəricilərinin əhəmiyyətli dərəcədə fərqli olduğu müəyyən edilmişdir (Sig.=0.010, Sig.=0.003). Özünüqiymətləndirmə səviyyəsinin müəyyən edilməsi düsturuna (V.Ceymsin) əsasən qeyd etmək olar ki, iddia səviyyəsi artdıqca, özünüqiymətləndirmə səviyyəsi aşağı düşmüş olur (Mütəllimzadə, 2021). Metodikada sağlamlıq keyfiyyəti istisna olmaqla, altı keyfiyyətə görə qiymətləndirmələr müqayisə olunmuşdur. Müqayisədən əldə olunan nəticələrə görə, bloqerlər sadə istifadəçilərə nəzərən ağıl keyfiyyətlərini daha yüksək dəyərləndirmişdirlər. Bloqerlərin hər biri ilə aparılan fərdi müsahibə zamanı sosial media platformasında məşhur olmağı, müasir dövrdə bloqer və influenserlik fəaliyyətləri ilə maddi qazanc əldə etməyi ağıl ilə əlaqələndirirlər. Texnologiya əsrində kiçik yaşlarında artıq qazanc əldə etmənin yollarını taparaq sosial media fenomeni olmaq ilk başda ağıllı addım kimi düşünülə bilər. Virtual fəaliyyətlərinin real həyata mənfi təsirləri olmadığı müddətcə normal gedişat pozulmaya bilər. Sadə istifadəçilər bloqerlərə nisbətən xarakter, bacarıq, xarici görünüş və özündən əminlik keyfiyyətlərini yüksək qiymətləndirmişdirlər. Bu keyfiyyətləri bloqerlər daha az dəyərləndirmişdirlər. Cədvəl 1 və 2-də qeyd qeyd olunan göstəricilərə əsasən iddia səviyyəsi ilə özünüqiymətləndirmə səviyyəsinin ziddiyyət təşkil etməsi müşahidə edilir. Nəticəni qiymətləndirici keyfiyyətlər ilə müqayisə etdikdə aydın olur ki, xarakter, bacarıq, xarici görünüş və özündən əminlik keyfiyyətlərini aşağı qiymətləndirmələri yüksək iddia səviyyəsindən irəli gələr bilər. Daha yaxşı olmaq, daha yaxşı görünmək, daha xoşagəlimli olmaq iddiasında olan bloqerlər bu sadalanan keyfiyyətlər üzrə özlərini "natamam" hiss etmiş ola bilərlər. Yaşıdları arasında avtoritetə sahib olmaq keyfiyyətin qiymətləndirilməsi isə həm bloqer həm də sadə istifadəçilər arasında fərqlilik göstərmir. Bu keyfiyyətin müqayisəsi də xüsusi əhəmiyyət kəsb etmir (Sig.>0.05).

Növbəti mərhələdə bloqerlərin özünüqiymətləndirmə və iddia səviyyəsinin sosial media platformasına görə fərqli təzahür edib/etmədiyini müəyyən etmək üçün dispersiya təhlili aparılmışdır (ANOVA). Pilot araşdırmada Facebook, YouTube, Instagram, və X platformalarındakı bloqerlər olduğu üçün onlar dörd bölgü ilə qruplara ayrılmışdır. Belə ki, dispersiya təhlilindən alınan nəticəyə görə, dörd platformada fəaliyyət göstərən bloqerlərin özünüqiymətləndirmə və iddia səviyyəsi arasında fərqlilik mövcuddur. Belə ki, $F_{emprik}>F_{kritik}$ olduğu üçün qruplar arasında ən azı bir qrupun nəticəsinin digər qruplara görə fərqlilik yaratmış olduğu müəyyən edilmişdir (cədvəl 4). Bu fərqlilik əhəmiyyətli səviyyədə (Sig.=0.023, Sig.=0.011) olduğu üçün, növbəti mərhələdə Tukey HSD Post Hoc testi ilə müvafiq qruplar üzrə nəticələrin müqayisəsi aparılmışdır (cədvəl 5). Əldə olunan nəticələrə əsasən müəyyən edilir ki, Facebook, YouTube, Instagram və X bloqerlərində özünüqiymətləndirmə səviyyəsi əhəmiyyətli dərəcədə fərqlənir (Sig.<0.05). Fərqliliyə görə X (I) bloqerlərində özünüqiymətləndirmə səviyyəsi Facebook (J), YouTube (J) və Instagram (J) bloqerlərinə nisbətən yüksəkdir. Növbəti ardıcıllığa görə isə YouTube (İ) bloqerlərində özünüqiymətləndirmə səviyyəsi Facebook (J) və Instagram (J) bloqerlərinə nisbətən yüksəkdir. Facebook (İ) bloqerlərininin özünüqiymətləndirmə səviyyəsi isə yalnız Instagram (J) bloqerlərinə nisbətən yüksəkdir. Belə ki, bu nəticələrin hər biri əhəmiyyətli dərəcədə olduğu üçün, bloqerlərdə sosial media platformalarına əsasən özünüqiymətləndirmə səviyyəsinin fərqli olması statistik baxımdan etibarlı hesab olunur. Ümumi ardıcıllığı qeyd etmiş olsaq sosial media platformalarına görə bloqerlərin özünüqiymətləndirmə səviyyəsinin azalma ardıcıllığını bu sxem üzrə qeyd edə bilərik: X>YouTube>Facebook>Instagram.

İddia səviyyəsinə görə nəticələrə nəzər saldıqda isə göstəricilərdən məlum olur ki, yalnız X

platforması üzrə əldə edilən göstəricilər statistik əhəmiyyət kəsb edir (Sig.<0.05). Belə ki, X (I) bloqerlərində iddia səviyyəsi Facebook (J), YouTube (J) və Instagram (J) bloqerlərinə nisbətən aşağıdır. Digər platformaların bloqerləri arasında iddia səviyyəsinə görə əhəmiyyətli dərəcədə fərqlilik görünmür (Sig.>0.05).

NƏTİCƏ

Azərbaycanda və həmçinin xarici ölkələrdə sosial medianın təsiri məsələləri müxtəlif müəlliflər tərəfindən araşdırılmışdır. Texnologiyanın əsrində müxtəlif elm sahələri ilə bərabər psixologiyada da sosial medianın tədqiqi aktual məsələ hesab olunur. Lakin bu mövzu yeni tendensiya olduğu üçün, xarici və yerli ədəbiyyatlarda xüsusilə də bloqerlərin tədqiqinə dair araşdırmalara daha az yer verilmişdir. Ümumi şəkildə sosial medianın "Mən obraz"na təsirini araşdırmasına dair tədqiqatlara yer verilsə də, bloqer şəxsiyyətini fərqli aspektlərdən öyrənsələr də, onlarda özünüqiymətləndirmə və iddia səviyyəsinin araşdırılmasına dair ətraflı məlumatlar demək olar ki, mövcud deyildir. Təbii ki, bloqerlik fəaliyyəti hal-hazırda ən yüksək inkişaf həddində olduğu üçün, elmi əsaslı tədqiqatların olmaması gözlənilən haldır. Son dövrlərdə tədqiqatçılar xüsusilə də bloqerlərin, influenserlərin gənclərə olan təsirini və internet asılılığını araşdırmağa daha çox diqqət göstərirlər. Bu sahədə dəqiq məlumatlar əldə etmək üçün isə daha da uzunmüddətli, geniş tədqiq olunan kütləsini ehtiva edən çoxsaylı tədqiqatlara ehtiyac vardır.

Aparılan pilot araşdırma ölkəmizdə bu sahədə aparılan ilk tədqiqat işi kimi qiymətləndirilə bilər. Bloqerlik (Instagrammer, YouTuber və s.) fəaliyyəti gənclər arasında son 5-10 ildə daha da populyar olduğu üçün xarici və yerli elmi ədəbiyyatlarda nəzəri və empirik məlumatlar azlıq təşkil edir. Yekun olaraq pilot araşdırma zamanı ümumi olaraq aşağıdakı nəticələr əldə edilmişdir:

- Araşdırmada iştirak edən bloqerlər və sadə istifadəçilərin özünüqiymətləndirmə səviyyəsi arasında əhəmiyyətli dərəcədə fərqlilik vardır. Sadə istifadəçilərin özünüqiymətləndirmə səviyyəsi bloqerlərin özünüqiymətləndirmə səviyyəsinə nisbətən yüksəkdir.

- Bloqer və sadə istifadəçilərin iddia səviyyəsi arasında əhəmiyyətli dərəcədə fərqlilik vardır. Belə ki, bloqerlərin iddia səviyyəsi sadə istifadəçilərin iddia səviyyəsinə nisbətən yüksəkdir.

- Sadə istifadəçilər xarakter, bacarıq, xarici görünüş və özündən əminlik keyfiyyətlərinə görə, bloqerlərə nisbətən özlərini yüksək qiymətləndirmişdirlər; bloqerlər ağıl səviyyələrinə görə, sadə istifadəçilərə nisbətən özlərini yüksək qiymətləndirmişdirlər.

- Fəaliyyət göstərdikləri sosial media platformasına əsasən bloqerlərdə özünüqiymətləndirmə səviyyəsi bir-birindən əhəmiyyətli səviyyədə fərqlənir. X, YouTube, Facebook və Instagram platformalarında müvafiq sıra ilə azalmağa doğru özünüqiymətləndirmə səviyyəsi fərqli təzahür etmişdir.

- Tədqiq olunan X bloqerlərində iddia səviyyəsi digər üç platformaya görə əhəmiyyətli dərəcədə fərqlənir. X bloqerlərinin iddia səviyyəsi digər üç platformanın bloqerlərinə nisbətən aşağıdır. Digər YouTube, Facebook və Instagram platformalarında fəaliyyət göstərən bloqerlərin iddia səviyyələri arasında əhəmiyyətli səviyyədə fərqlilik olmamışdır.

TÖVSİYƏ VƏ TƏKLİF

Bloqerlərin virtual mühitdə qeyri-real davranışları onların özlərinə də ciddi surətdə təsir etmiş olur ki, "İdeal mən" və "Real mən" arasındakı fərq böyüyür, xarici və daxili ziddiyyətlər ortaya çıxmış olur. "Real mən" obrazını unudub, "İdeal mən" obrazına uyğunlaşmağa çalışan bloqerlər, rəqəmsal dünyadan real dünyaya keçəndə özlərini lazımsız, dəyərisiz kimi hiss etməyə başlayırlar. Onların rəqəmsal mühitdə təqdim etmiş olduqları virtual obraz, ideal obraza yaxındır. Yəni şəxs öz təsəvvüründəki idealı virtual olaraq canlandırmış olur və hər kəs onların bu virtual simasına görə tanıdığı üçün, real simanı göstərməyə çəkinirlər. Bloqerləri izləyən sadə istifadəçilər onlar kimi "ideal" olmağa can atırlar (Huizhong, 2022). Sosial media platformalarından istifadə edən hər bir şəxsə virtual mühitin çox zaman reallığı əks etmədiyini başa düşmək, elmi əsaslı məlumatlarla zəngin, yaradıcı mövzuları əhatə edən, məzmun

baxımından faydalı mikro bloqları izləmək tövsiyə olunur.

Pilot araşdırmadan əldə olunan nəticələr gələcəkdə bu sahədə tədqiqat işi aparacaq şəxslər tərəfindən istifadə oluna bilər. Yaş qrupuna əsasən sosial media platformalarından istifadə edən şəxslərin yeniyetmə və gənclər olduğunu nəzərə alaraq, həmçinin son dövrlərdə yeniyetmə və gənclərin bloqerləri rol model olaraq seçdiklərini sosial öyrənmə nəzəriyyəsi baxımından təhlil edərək, orta və ali təhsil müəssisələrində araşdırılan bu mövzu istiqamətində seriyalı maarifləndirici görüşlərin keçirilməsi, layihələrin hazırlanması təklif olunur. Hal-hazırda mütəxəssis psixoloqlar və media psixologiya sahəsində araşdırma aparan tədqiqatçılar tərəfindən psixoloji maarifləndirmə işlərinin keçirilməsi zəruridir və xüsusi əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Asadzadeh, P., Rost, M., Rooksby, J. (2016). Personal tracking of screen time on digital devices. CHI conference on human factors in computing systems, 284-296.

2. Chen, J., Ishii, M., Bater, K.L., Darrach, H., Liao, D., Huynh, P.P., Reh, I.P., Nellis, J.C., Kumar, A.R., Ishii, L.E. (2019) Association Between the Use of Social Media and Photograph Editing Applications, Self-esteem, and Cosmetic Surgery Acceptance. JAMA Facial Plastic Surgery, sep 1;21(5), 361-367.

3. Gurak, J.L., Antonijevic, S. (2008) The Psychology of Blogging You, Me, and Everyone in Between. American Behavioral Scientist 52(1), 60-68.

4. Huizhong, P. (2022) The Negative Impact of Social Media on People's Lives. Conference: International Conference on Social Development and Media Communication. SDMC 2021, 554-557.

5. Mütəllimzadə, A.S. (2021) Şəxsiyyətin özünüqiymətləndirmə və iddia səviyyəsi. Psixologiya jurnalı, №1, 15-20.

6. Plyusnin, M.S. (2024) Alfred Adler. Chuvstvo ikompleks nepolnotsennosti. Mezhdunarodnyy nauchnyy zhurnal «Vestnik nauki», № 11 (80), Tom 3, 824-828.

7. Prieto, M. (2021). How does Social Media Affect the Psychological Well-Being of High School Students Attending Jose Marti MAST 6-12 Academy? Journal of Student Research. 1-12.

8. Sidorov, K.R. (2013) Metodika Dembo-Rubinshteyn i yeyë modifikatsiya. Vestnik Udmurtskogo Universiteta. Vyp. 1, 40-42.

9. Social media stats Azerbaijan URL: https://gs.statcounter.com/social-media-stats/all/azerbaijan/

DOİ: 10.32010/JIYU9180

GƏNCLƏRİN SOSİAL MEDİADAN İSTİFADƏSİNİN ONLARIN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏSİNƏ TƏSİRİ

İlahə Sulduz NƏBİYEVA
Bakı Dövlət Universiteti
Psixologiya kafedrası
Orcid: https://orcid.org/0009-0000-6545-4116
E-mail: psixoloq.ilaha.nabiyeva@gmail.com

Xülasə: Sosial mediadan istifadə XXI əsrin ən vacib reallığıdır. Qlobal statistikaya əsasən təxminən 5 milyarddan çox insan sosial mediadan istifadə edir ki, bu da təxminən dünya əhalisinin 63 faizini təşkil edir İlk vaxtlar sosial əlaqələr qurmaq, müəyyən qruplara qoşulmaq, əyləncə və oyun məqsədi ilə yaranmış olan sosial media vasitələri indi artıq sosial təsir və marketinq, peşəkar şəbəkələşmə, maarifləndirmə və məlumat əldə etmə, ictimai və sosial fəallıq kimi müxtəlif məqsədlərlə istifadə olunur. Sosial medidan istifadə artıq gündəlik fəaliyyətlər siyahısına daxil olunub. İnsanlar səhərlər öz hesablarını kontrol edir, gündəlik kontentlər formalaşdırmağa çalışırlar. Həyatımızda bu qədər vacib yer tutmağa başlayan bu vasitə insanların psixologiyasına da təsirsiz ötüşmür. Araşdırmalar göstərir ki, sosial mediadan istifadə şəxsiyyətin inkişafına, onun dəyərlər sisteminə, özünüqiymətləndirməsinə, real sosial əlaqələrinə və koqinitiv inkişafına da təsir göstərir. Bu təsirləri müsbət və mənfi olaraq iki fərqli qrupda toplamaq mümkündür. Sosial media vasitəsilə insanlar yeni əlaqədələr və iş imkanları formalaşdırır, yaradıcılıqlarını inkişaf etdirir, məlumat mübadiləsində iştirak edir. Bu onların sosial həyatını daha da dəstəkləyir. Sosial media eyni zamanda zaman və məkan limitlərini də aradan qaldırmışdır. Lakin bunlara baxmayaraq sosial medianın asılılıq, dezinformasiya, sosial təcrid və özününüqiymətləndirmənin adekvat olması və digər bu kimi mənfi təsirləri də mövcuddur. Məsələnin iki tərəfinin də mövcudluğu onun psixoloji zəmində araşdırılmasını zəruri edir.

Bu məqalənin məqsədi, gənclərin sosial mediadan istifadəsinin onların özünüqiymətləndirməsinə təsirlərini təhlil etmək və mövzu ilə bağlı təklif və tövsiyələr hazırlamaqdır. Hazırlanmış material tələbələr, müəllimlər, psixoloqlar və digər mütəxəssislər üçün faydalı ola bilər.

Açar sözlər: Şəxsiyyət, internet, sosial media, özünüqiymətləndirmə, real həyat, virtual həyat.

THE IMPACT OF YOUNG PEOPLE'S USE OF SOCIAL MEDIA ON THEIR SELF-ESTEEM

Ilaha Sulduz NABIYEVA
Baku State University
Orcid: https://orcid.org/0009-0000-6545-4116
E-mail: psixoloq.ilaha.nabiyeva@gmail.com

Abstract: The use of social media is the most important reality of the 21st century. According to global statistics, more than 5 billion people use social media, which is approximately 63 percent of the world's population. Social media tools, which were originally created for the purpose of establishing social relationships, joining certain groups, entertainment and games, are now used for various purposes such as social influence and marketing, professional networking, education and information, and public and social activism. The use of social media has already been included in the list of daily activities. People check their accounts in the morning and try to form daily content. This tool, which has begun to occupy such an important place in our lives, also has an impact on people's psychology. Studies show that the use of social media also affects the development of personality, its value system, self-esteem, real social relationships and cognitive development. These effects can be grouped into two different groups: positive and negative. Through social media, people form new relationships and job opportunities, develop their creativity, and participate in information exchange. This further supports their social life. Social media has also eliminated the limits of time and space. However, despite these, there are also negative effects of social media such as addiction, disinformation, social isolation, inadequate self-esteem, and other such effects. The existence of both sides of the issue necessitates its investigation on a psychological basis.

The purpose of this article is to analyze the effects of young people's use of social media on their self-esteem and to prepare suggestions and recommendations on the topic. The prepared material can be useful for students, teachers, psychologists, and other specialists.

Keywords: Personality, internet, social media, self-esteem, real life, virtual life.

ВЛИЯНИЕ ИСПОЛЬЗОВАНИЯ МОЛОДЁЖЬЮ СОЦИАЛЬНЫХ СЕТЕЙ НА ИХ САМООЦЕНКУ

Илаха Сулдуз НАБИЕВА
Бакинский Государственный Университет
Orcid: https://orcid.org/0009-0000-6545-4116
Электронная почта: psixoloq.ilaha.nabiyeva@gmail.com

Резюме: Использование социальных сетей — важнейшая реальность XXI века. Согласно мировой статистике, социальными сетями пользуются более 5 миллиардов человек, что составляет примерно 63 процента населения мира. Инструменты социальных сетей, изначально созданные для установления социальных связей, присоединения к определённым группам, развлечений и игр, теперь используются в различных целях, таких как социальное влияние и маркетинг, профессиональное общение, образование и информирование, а также общественная и социальная активность. Использование социальных сетей уже вошло в список повседневных дел. Люди проверяют свои аккаунты по утрам и пытаются формировать ежедневный контент. Этот инструмент, который начал занимать столь важное место в нашей жизни, также оказывает влияние на психологию людей. Исследования показывают, что использование социальных сетей также влияет на развитие личности, её системы ценностей, самооценку, реальные социальные отношения и когнитивное развитие. Эти эффекты можно разделить на две группы: положительные и отрицательные. Благодаря социальным сетям люди формируют новые отношения и возможности трудоустройства, развивают творческие способности и участвуют в обмене информацией. Это дополнительно способствует развитию их социальной жизни. Социальные сети также стирают временные и пространственные ограничения. Однако, несмотря на это, существуют и негативные эффекты социальных сетей, такие как зависимость, дезинформация, социальная изоляция, неадекватная самооценка и другие подобные эффекты. Существование обеих сторон проблемы обусловливает необходимость её изучения с психологической точки зрения.

Цель данной статьи — проанализировать влияние использования социальных сетей молодыми людьми на их самооценку и подготовить предложения и рекомендации по этой теме. Подготовленный материал может быть полезен студентам, преподавателям, психологам и другим специалистам.

Ключевые слова: Личность, интернет, социальные сети, самооценка, реальная жизнь, виртуальная жизнь.

Giriş

Yetişməkdə olan gənc nəsil hazırki dövrdə texnoloji yeniliklər baxımından ən geniş imkanlara malikdir. XX əsrdə meydana gəlmiş internet bütün dünyanı ağlasığmaz dərəcədə dəyişmişdir. İnternetdən və sosial mediadan istifadənin genişlənməsi, eləcə də süni intellektin yaranması informasiya mübadiləsi prosesini daha da sürətləndirmişdir. Hazırki dövrdə artıq bir gün öncə əldə edilmiş məlumatlar belə “köhnəlmiş” informasiyaya çevrilir. Bütün bunlar hamısı insanların şəxsiyyət keyfiyyətlərinə təsir göstərir. Bu prosesdən ən çox nəsibini alan qrup isə xüsusən məktəblilər və gənclərdir. 2022-ci ilin nəticələrinə əsasən , Azərbaycanda 15–24 yaş aralığındakı gənclərin təxminən 91.2%-i internet istifadəçisidir (Azərbaycan Press Agentliyi, 2022). Eyni zamanda, ölkə üzrə ümumi internetdən istifadə edənlərin sayı əhalinin təxminən 88.1%-ni təşkil edir (Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, 2022). Bununla yanaşı ötən üç il ərzində bu rəqəmlər artan tendensiya ilə davam etmişdir. Bütün bu nəticələri nəzərə alaraq deyə bilərik ki, internetdən istifadəyə çıxış artıq əlçatandır və gənclər bu prosesdə daha aktiv iştirak edir. Digər bir statistikaya əsasən, 2025-ci ilin birinci yarısında ölkədə sosial media istifadəçilərinin sayı təxminən 6.5 milyondan çox olub ki, bu da ümumi əhalinin təxminən 64.9%-ni təşkil edir. 18 yaşdan yuxarı gənclər arasında bu nəticə 87.7%-ə çatır ki, burada da ən çox istifadə edilən İnstagram, Facebook, Tiktok və Youtube kimi sosial media vasitələridir. (Kemp, S. 2025) Bütün bu statistikalar bizə deməyə əsas verir ki, internet və sosial media bizim həyatımızın artıq ayrılmaz bir hissəsidir və ondan istifadə bizim tələbatlarımız sırasına daxil edilib.

Sosial medianın həyatımızda bu qədər vacib bir yerə gəlməsi insanların psixologiyasına, şəxsiyyət keyfiyyətlərinə, o cümlədən özünüqiymətləndirmələrinə də təsir göstərir. Danılmazdır ki, sosial media həyatımızda çox şeyi dəyişdirib. O məlumat mübadiləsini genişləndirib, uzaq məsafələri yaxınlaşdırıb, gənclərin yaradıcılığını və təşəbbüskarlığını dəstəkləyir. Eyni zamanda sosial media vasitəsilə rəsmi görüşlər təşkil edilir, onlayn alış-veriş edilir, iş imkanları formalaşdırılır və təhsil imkanları genişləndirilir. Lakin sosial media eyni zamanda sosial müqayisəni artırır, asılılıq və gərginlik yaradır və özünüqiymətləndirməyə də təsir göstərir. Məsələ göründüyü kimi çox mürəkkəb və çoxşaxəlidir. Bütün bunlar hamısı, sosial medianın təsirlərinin psixoloji konteksdə araşdırılmasını zəruri edən amillərdir.

Şəxsiyyətin ən mühüm keyfiyyətlərindən biri də özünüqiymətləndirməkdir. Özünüqiymətləndirmə mənlik şüurunun inkişafı ilə əlaqəlidir və o şəxsiyyətin məntiqi və emosional komponenti kimi çıxış edir. Özünüqiymətləndirmə fəaliyyətlə şərtlənir

və qərarvermə, problem həll etmə bacarıqlarına görə formalaşır. Müasir dövrdə həyatımızda vacib fəaliyyət istiqamətlərindən biri kimi çıxış edən sosial medya gənclərin özünüqiymətləndirməsinə bilavasitə təsir göstərir. Burada isə özünüqiymətləndirmənin adekvat və qeyri-adekvat formaları mövcud olur.

Göründüyü kimi sosial mediadan istifadə istifadəçilərin psixologiyasına, o cümlədən özünüqiymətləndirməsinə müsbət və mənfi istiqamətdə təsirlər göstərir. Sosial media həm gənclərin şəxsiyyətinin inkişafı üçün geniş imkanlar yaradır, həm də potensial risklər daşıyır. Bunlardan ən çox təsirlənənlər isə gənclərdir. Bu baxımdan mövzunun araşdırılması zəruridir. Məqalədə sosial mediadan istifadənin insan psixologiyasına o cümlədən özünüqiymətləndirməsinə təsiri araşdırılmışdır.

Nəzəriyyə

Sosial medianın hazırda həyatımızda bu qədər vacib rola malik olması Covid-19 pandemiyasından sonra daha da sürətlənmişdir. Hazırda sosial media nəinki insanlara sosial əlaqələr qurmaqda kömək edir, o həmdə yeni iş və təhsil imkanları formalaşdırmaq və onlayn alış-verişi dəstəkləməklə, təhsilə, iqtisadiyyata və turizm sektoruna da təsir göstərir. Sosial media artıq gündəlik fəaliyyətlərimiz arasında özünə vacib bir yer tapıb. İndi demək olar ki, hər kəsin müəyyən bir sosial media platformasında hesabı mövcuddur. Hətta bəzi istifadəçilərin iş, şəxsi, evcil heyvanı, biznesi, maraqları və hobbilərinə uyğun olaraq birdən çox hesabı da ola bilər. Sosial mediadan istifadəni bu qədər genişmiqyaslı olması onunla bağlı bloggerlik, influenserlik, sosial media menecerliyi, PR kimi yeni peşə sahələrinin yaranmasına, fotoqrafllıq və videoqraflıq kimi peşə sahələrinin isə inkişafına təsir göstərir. Sosial media artıq ciddi bir virtual məkan formalaşdırır. Bu məkanda aktiv şəxslər isə virtual vətəndaşlıq qazanır. Onlar sosial mediada özlərini istədikləri formada təqdim edir, bu isə qarşı tərəfə özünü tanıtmaqları üçün özlərinin müəyyənləşdirdiyi rahat və təhlükəsiz virtual mühit formalaşdırır. Bəzən isə əksinə insanlara yalan məlumatlar verərək özlərinə saxta məkan formalaşdırmaqlarına şərait yaradır.

Mövzunu daha dərindən analiz etmək üçün gənclərin özünüqiymətləndirməsi məsələsinə də diqqət yetirməkdə fayda var. Eriksona görə gənclik dövrü kimlik yəni şəxsiyyət qazanmağa qarşı şəxsiyyət qarışıqlığı dövrü kimi xarakterizə olunur. (Eroğul, & Yurtal 2014) Məlumdur ki, insanın özünüqiymətləndirməsi onun şəxsiyyətin formalaşmasında əsas rola malikdir. Bu səbəbdən düzgün şəxsiyyət formalaşdırmaq üçün özünüqiymətləndirmənin adekvat olması çox vacibdir. Burada özünüqiymətləndirmə gənclərin psixoloji sağlamlığına, sosial münasibətlərinə və gələcəkdəki həyatı ilə bağlı qərarlarına birbaşa təsir göstərir.

Özünüqiymətləndirmə yuxarıda da qeyd olunduğu kimi adekvat və qeyri-adekvat formada səciyyələnir. Adekvat özünüqiymətləndirmə insanın öz potensialını, bilik, bacarıq və vərdişlərini düzgün analiz etməsi ilə formalaşır. Bu fərdlər öz güclü və zəif tərəflərini doğru analiz edir, uğursuzluqlarını və uğurlarını şişirtmir, situasiyanı obyektiv şəkildə qavrayırlar ki, bu da daha sağlam psixoloji inkişafa və balanslı bir sosial həyata şərait yaradır. (Rubinstein, 2003). Digər tərəfdən qeyri-adekvat özünüqiymətləndirmə 2 formada təzahür edir:

1. Qeyri-adekvat aşağı özünüqiymətləndirmə;
2. Qeyri-adekvat yuxarı özünüqiymətləndirmə.

Yuxarıda sadalanan hər iki tip özünüqiymətləndirmə formasını çox ciddi psixoloji fəsadlara gətirib çıxara bilər. Gənclik yaş dövründə gənclərin özlərini bu formada doğru qiymətləndirə bilməməsi onun gələcək həyatına da zərbə vurur. Burada gənc artıq müxtəlif sosial mühitlərdə, yaşıdları ilə münasibətdə və öz şəxsi təcrübəsində böyük məyusluqlarla qarşılaşa bilər (Mruk, 2006). Göründüyü kimi, gənclərin özünüqiymətləndirməsi onların daha doğru bir şəxsiyyət kimi formalaşmaqları baxımından olduqca zəruridir və o yalnızca fərdi xüsusiyyətlərdən deyil, ümumilikdə sosial mühitdən asılıdır. Ümumiyyətlə bu prosesə bir çox məsələ birbaşa təsir göstərir. Gənclərin daxil olduğu istənilən sosial mühit: ailəsi, dostları, həmyaşıdları, müəllimləri, akademik və sosial çevrəsi və virtual dünyadakı çevrəsi təsir göstərir. Virtual məkan çevrəsi müasir dünyamızda artıq yeni bir tendensiyadır. Virtual məkanlarda, sosial mediada qəbul olunmaq, təsdiq və rəqəmsal görünürlük gənclərin özlərini necə dəyərləndirmələrinə birbaşa təsir edən amillərdəndir (Vogel, Rose, Roberts, & Eckles, 2014). Bu baxımdan gənclərin özünüqiymətləndirməsini həm fərdi inkişafının göstəricisi kimi, həm də sosial təsirlərə həssas psixoloji xüsusiyyət kimi qiymətləndirə bilərik.

Real həyatda baş verən bütün bu proseslər hamısı paralel olaraq virtual məkanda da baş verir. İnsanların virtual məkanlarda da ən yaxşı görünmək, sosial təqdir və dəstək kimi ehtiyacları vardır. Ən yaxşı fotoları çəkmək, yaxşı geyinmək, maraqlı və fərqli ortamlardan şəkillər paylaşmaq, virtual dünyadakı insanlara məlumat vermək, onları gündəlik fəaliyyətlərimizdən xəbərdar etmək bütün bunlar hamısı yeni dünyanın insanlarının ehtiyaclarıdır. Çünki sosial mediada yeni tanış olduğun birisi səni ordakı "profilinə" əsasən tanıyır. Bu da sənin orda daha mükəmməl görünməyin üçün hərəkətə keçirir. Artıq gənclər bu xüsusdan estetikanı ön plana çıxarır. Estetik məkanlar, yaxşı və fərqli geyimlər, filterli fotolar, yaxşı işıqlandırma, qızlarda gözəlliyə, estetikaya və

makiyaja olan tələbatları və yaxşı çəkilişi olan telefon və ya fotoaparatlar - bütün bunlar hamısı yeni dünya gənclərinin önəmli tələbatlarıdır. Artıq bəzi istiqamətlərdə vasitələrin ilkin ehtiyacı ikinci və hətta üçüncü plana düşür. Məsələn, əvvəl restorana gedəndə qidaların keyfiyyəti və dadı önəmli idisə indi estetika ilk plana keçir. Telefonların artıq zəng etmək funksiyasından daha da önəmli xüsusiyyəti onun fotoçəkiliş xüsusiyyətlərinin və yaddaş tutumunun çox olması vacibdir. Qeyd olunan bütün bu məsələlər hamısı gənclərin maraq dairəsindədir və onların özünüqiymətləndirməsinə çox təsir göstərir. Çünki real həyatda olduğu kimi virtual həyatda da sosial müqayisə və sosial özünütəqdimetmə mövcuddur. Gənclərin fikrincə, sosial mediada təqdim edilən şey qüsursuzdur. Lakin heç kim məsələnin arxa fonunda qüsursuz olmaq üçün var olan məsələləri görmür və ya görmək istəmir. Bu isə şəxsiyyətinin inkişafı prosesi hələ də davam edən gənclərdə ruh düşkünlüyünə, özlərinə olan güvvənin zəifləməsinə və demotivasiyaya səbəb olur. Bu isə nəticədə depressiya, təşviş pozuntusu, özgüvən əksikliyinə, özünü düzgün qiymətləndirməməyə asılılığa, dismorfofobiya və digər bu kimi psixoloji narahatlıqların yaranmasına gətirib çıxarır. Nəticədə gənclər özlərini düzgün qiymətləndirə bilmir və real və ideal məni arasında qarışıqlığa düşür.

Mövzunu daha dərindən anlamaq üçün "Sosial öyrənmə", "Sosial müqayisə", "Sosial özünütəqdimetmə" və "Sosial kimlik" nəzəriyyələrinə diqqət yetirməkdə fayda vardır. Sosial öyrənmə nəzəriyyəsi (Albert Bandura, 1977) çərçivəsindən baxdıqda sosial media mühitində gənclərin öz həmyaşıdlarının, məşhurların və ya təsir gücünə malik digər şəxslərin-bloggerlərin, influenserlərin və digər sosial aktiv şəxslərin davranışlarını izləyərək onların təqdim etdiyi dəyərləri, həyat tərzini və özünüifadə formalarını mənimsəməsini misal göstərə bilərik. Bunu biz davamlı yenilənən sosial media trendlərindən də aydın şəkildə görə bilərik. Bütün bunlar bir tərəfdən motivasiya və özünüinkişaf üçün şərait yaratsa da, digər tərəfdən, real olmayan gözləntilərin formalaşmasına və sosial müqayisə nəticəsində özünüqiymətləndirmənin aşağı düşməsinə səbəb ola bilər.

Məsələni sosial müqayisə nəzəriyyəsi istiqamətindən ələ aldıqda isə sosial mediada gənclər tez-tez özlərini həmyaşıdlarının paylaşımları ilə müqayisə edirlər. Bu müqayisələr xüsusilə yuxarı müqayisədə daha "uğurlu", izləyici sayı çox olan və ya diqqət çəkməyi bacaran şəxslərlə özünümüqayisə özünüqiymətləndirmənin azalmasına, narazılıq və mənfi emosiyaların yaranmasına səbəb ola bilər. Lakin bəzi hallarda isə aşağı müqayisə ola bilər ki bu da özünüqiymətləndirməni gücləndirə də bilər (Festinger, 1954). Burda diqqət yetirməli olduğumuz bir digər məsələ isə Sosial mediada izləyici kütləsi çox olan şəxslər artıq digər insanlar tərəfindən real həyatda çox uğurlu olmasa belə virtual dünyada uğurlu şəxslər hesab edilir.

Sosial media sosial özünütəqdimetmə üçün müasir dövrdə ən güclü vasitələrdən biridir. Bu səbəbdən sosial özünütəqdimetmə nəzəriyyəsinə də mövzu istiqamətində nəzər yetirmək vacibdir. Qoffman (1959) gündəlik həyatda insanların sosial rollarını teatr səhnəsindəki aktyorlar kimi təqdim etdiyini vurğulayırdı. Bu baxımdan sosial media "özünü təqdimetmə" üçün güclü bir platforma kimi çıxış edir. Rosenberqin (1965) fikirlərinə görə isə mənlik şüurunu və özünüqiymətləndirməni şəxsiyyətin əsas komponenti olaraq qiymətləndirmək lazımdır. Sosial mediada gənclər öz ideal obrazlarını yaratmağa çalışarkən real məni ilə ideal məni arasında fərqlər yarana bilər. Bu uyğunsuzluq isə gənclərin özünüqiymətləndirməsinə bəzən müsbət, bəzən isə mənfi olaraq birbaşa təsir göstərir.

Mövzu ilə bağlı olan bir digər nəzəriyyə isə sosial kimlik nəzəriyyəsidir. Tajfel və Turner (1979) tərəfindən işlənib hazırlanan Sosial Kimlik Nəzəriyyəsi insanların öz kimliklərini müəyyən sosial qruplara mənsubiyyətləri vasitəsilə formalaşdırdıqlarını əsaslandırır (Tajfel & Turner, 1979). Sosial media gənclərə müxtəlif qruplara və yeni trendlərə qoşulmaq, ortaq ideyalar və dəyərlərə sahib insanlarla ünsiyyət qurmaq imkanı yaradır. Burada yaranan mənsubiyyət hissi özünüqiymətləndirməyə müsbət təsir göstərə bilər. Lakin bəzən neqativ stereotiplərə məruz qalmaq və ya müəyyən rəqəmsal qruplardan kənarda qalmaq özünüqiymətləndirmənin zəifləməsinə də səbəb ola bilər (Tajfel & Turner, 1979).

Qeyd olunan mövcud nəzəriyyələr və ədəbiyyat araşdırması bizə deməyə əsas verir ki, sosial mediadan davamlı istifadə gənclərin özünüqiymətləndirməsinə həm müsbət, həm də mənfi istiqamətdən təsir göstərə bilər. Bunu yuxarıda qeyd olunan nəzəriyyələri təhlil etdikdə də görə bilirik. Hazırda mövcud nəzəri tapıntılar gənclərin sosial mediadan istifadəsi ilə özünüqiymətləndirmə arasındakı əlaqənin daha dərindən və sistemli araşdırılması üçün zəmin yaradır.

Metod: Təqdim edilən araşdırmada gənclərin sosial mediadan istifadəsinin onların özünüqiymətləndirməsinə təsiri mövzusu mövcud nəzəriyyələr və əvvəlki elmi tədqiqatlar, ədəbiyyat təhlili metoduna əsasən sistemli şəkildə təhlil edilmişdir. Məlumatlar "Google Scholar", "PubMed", "ResearchGate" və digər akademik verilənlər bazaları, vasitəsilə əldə edilmiş və akademik jurnallar,

konfrans materialları, kitablar və etibarlı onlayn mənbələrdən toplanmışdır. Əldə edilən məlumatlar mövzu üzrə sintez və tənqidi təhlil üsulu ilə araşdırılmışdır.

Nəticə

Araşdırmaların yekunu olaraq onu qeyd edə bilərik ki, gənclərin sosial mediadan istifadəsi onların psixoloji inkişafı və şəxsiyyət formalaşması baxımından həm geniş imkanlar, həm də potensial risklər daşıyır. Qeyd etdiyimiz kimi, sosial media gənclərin özünüqiymətləndirməsinə həm müsbət, həm də mənfi istiqamətdən təsir göstərən mühüm bir sosial amildir. Sosial media platformaları vasitələri ilə gənclər ünsiyyət qurmaq, sosial dəstək almaq, yaradıcılıqlarını gücləndirmək və nümayiş etdirmək eyni zamanda, özünüifadə imkanları təqdim edir ki, bu da özünüqiymətləndirməni gücləndirə bilər. Bu imkanlar, xüsusilə yüksək mənlik şüuruna malik gənclər üçün motivasiya və emosional dəstək rolunu oynayır və onların özünüqiymətləndirməsini daha da gücləndirir. Bununla yanaşı, sosial müqayisə, rəqəmsal göstəricilərin yaratdığı təzyiq, müəyyən stereotiplərin olması, və dezinformasiya özünüqiymətləndirmənin azalmasına səbəb ola bilər. Məsələn, bəyənmə, şərh və reaksiya göndərmə eyni zamanda izləyici sayına bağlı rəqəmsal göstəricilər vasitəsilə gənclərdə sosial təzyiq yaradır ki, bu da öz növbəsində yenə özünüqiymətləndirməyə mənfi təsir göstərir.

Mövcud nəzəriyyələr – sosial müqayisə (Festinger, 1954), sosial özünütəqdimetmə və mənlik şüuru (Goffman, 1959; Rosenberg, 1965), sosial kimlik (Tajfel & Turner, 1979), sosial öyrənmə (Bandura, 1977), və media asılılığı (Ball-Rokeach & DeFleur, 1976) – gənclərin sosial mediadan istifadəsinin onların özünüqiymətləndirməsinə təsir mexanizmlərini aydın şəkildə göstərir. Bu nəzəri çərçivə həm akademik baxımdan mövzunun əsaslarını təmin edir, həm də gələcək tədqiqatlar üçün müəyyən təməl yaradır.

Yekun olaraq, sosial media gənclərin psixoloji inkişafı və şəxsiyyət formalaşması üçün həm geniş imkanlar, həm də risklər daşıyır. Burda ən əsas diqqət yetirməli olduğumuz məqam sosial mediadan düzgün və balanslı istifadəni gənclərdə formalaşdırmaqdır. Çünki sosial media artıq həyatımızın ayrılmaz bir hissəsidir. Ondan Necə? Nə cür? və hansı məqsədlərlə, nə qədər istifadə etməyi öyrənmək vacibdir. Düzgün istifadə edildiyi zaman o bizim əlimizdə ən güclü vasitələrdən birinə çevrilə bilər. Bu səbəbdən mövzunun daha dərindən araşdırılması və bu mövzuda tədqiqatların aparılması zəruridir.

Təklif və tövsiyələr: Gənclərin sosial media istifadəsinin balanslaşdırılması məqsədi ilə valideynlər, mütəxəssislər və gənclərlə maarifləndirici təlimlər və dəstəkləyici söhbətlərin aparılması vacibdir.

Gənclərə sosial mediadan istifadənin müəyyən vaxtlarla məhdudlaşdırmaq, gündəlik həyat, təhsil və istirahət bir sözlə həyat üçün vacib olan digər işlər ilə balanslaşdırılması öyrədilməlidir.

Gənclərə yalnız passiv izləyici olmaq yerinə, yaradıcı və məhsuldar sosial media istifadəsini yəni öz layihələrini paylaşmaq, maarifləndirici məzmunlar yaratması üçün dəstək göstərilməlidir.

Gənclər üçün sosial mediadan istifadənin mənfi təsirlərini aradan qaldırmaq üçün psixoloqlar və digər mütəxəssislər vasitəsilə fərdi və qrup dəstəyi təmin edilməlidir. Hətta bu dəstəyin məktəblərdə və gənclər, yaradıcılıq və mədəniyyət mərkəzlərində aparılması məqsədəuyğundur. Gənclərdə media savadlılığını artırmaq məqsədi ilə vaxtaşırı söhbətlər, iclaslar aparılmalıdır.

Mövzu gələcəkdə fərqli yaş qrupları, gender və sosial status kontekstində müqayisəli öyrənilməli və müxtəlif sosial media vasitələrinin müəyyən fərd və qruplara psixoloji təsiri ayrı-ayrılıqda araşdırılmalıdır.

ƏDƏBIYYAT SİYAHISI:

1. Abdullah T. M. (2018). Medianin şəxsiyyətin "mən-obraz"ının inkişafina təsirinin psixoloji xüsusiyyətləri. Avtoreferat.
2. Andreassen, C. S., Pallesen, S., & Griffiths, M. D. (2017). The relationship between addictive use of social media, narcissism, and self-esteem: Findings from a large national survey. Addictive Behaviors, 64, 287–293. https://doi.org/10.1016/j.addbeh.2016.03.006
3. Azərbaycan Press Agentliyi. (2022, Oktyabr 12). ITU Regional Director: Azerbaijan has positive figures on internet users. https://en.apa.az/ict/itu-regional-director-azerbaijan-has-positive-figures-on-internet-users-462423
4. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi. (2022). Azerbaijan Digital Development: Facts • Figures. Bakı: Mincom.gov.az. https://mincom.gov.az/storage/Statistika-kitab-ENG.pdf
5. Ball-Rokeach, S. J., & DeFleur, M. L. (1976). A dependency model of mass-media effects. Communication Research, 3(1), 3–21. https://doi.org/10.1177/009365027600300101
6. Balcı, Ş., & Arsal Gölcü, A. (2020). Sosyal medyada kendini açma: Öz saygı, güven ve algılanan faydanın etkinliği üzerine bir inceleme. OPUS Uluslararası Toplum Araştırmaları Dergisi, 16(27), 118–138. https://doi.org/10.26466/opus.669190
7. Bandura, A. (1977). Social Learning Theory. Englewood Cliffs, NJ: Prentice Hall.

8. Eroğul, A. R. Ç., & Yurtal, F. (2014). Eğitim Psikolojisi El Kitabı. Mentis.
9. Goffman, E. (1959). The presentation of self in everyday life. Doubleday.
10. Rəhimova, Q. V. qızı, & Heydərova, S. N. qızı. (2022). Gənclərdə özünüdərk və özünüqiymətləndirmənin psixoloji xüsusiyyətləri. Bakı Qızlar Universiteti Elmi Əsərlər, Cild 13, 2, 419–426.
11. Mruk, C. J. (2006). Self-esteem research, theory, and practice: Toward a positive psychology of self-esteem. Springer Publishing Company.
12. Rosenberg, M. (1965). Society and the adolescent self-image. Princeton University Press.
13. Rubinstein, S. L. (2003). Osnovy obshchey psikhologii [Foundations of General Psychology]. St. Petersburg: Piter.
14. Katz, E., Blumler, J. G., & Gurevitch, M. (1973). Uses and gratifications research. Public Opinion Quarterly, 37(4), 509–523. https://doi.org/10.1086/268109
15.Kemp, S. (2025, mart 3). Digital 2025: Azerbaijan. DataReportal. https://datareportal.com/reports/digital-2025-azerbaijan
16. Tajfel, H., & Turner, J. C. (1979). An integrative theory of intergroup conflict. In W. G. Austin & S. Worchel (Eds.), The social psychology of intergroup relations (pp. 33–47). Brooks/Cole.
17. Vogel, E. A., Rose, J. P., Roberts, L. R., & Eckles, K. (2014). Social comparison, social media, and self-esteem. Psychology of Popular Media Culture, 3(4), 206–222. https://doi.org/10.1037/ppm0000047
18. https://mindjumpers.com/global-social-media-adoption/?utm_source

DOİ: 10.32010/NBMK1627

ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRDƏ EMOSİONAL İNTELLEKTİN ƏHƏMİYYƏTİ

Nərgiz Nazim NİFTƏLİYEVA
Mingəçevir Dövlət Universiteti
Azərbaycan Dövlət Pedaqoji Universiteti, dissertant
Orcid: https://orcid.org/0009-0002-9735-2055
E-mail: niftaliyeva.nargiz@mdu.edu.az

Xülasə: Emosional intellekt (EI) şəxsiyyətlərarası münasibətləri, ünsiyyəti yaxşılaşdırmaq, münaqişələri həll etmək, eyni zamanda özünün və başqalarının duyğularını başa düşmək, idarə etməklə daha dərin əlaqələri inkişaf etdirmək üçün çox vacibdir. Yüksək səviyyəli EI başqalarının ehtiyaclarını daha yaxşı başa düşməyə, empatiya nümayiş etdirməyə, stressi idarə etməyə və uyğunlaşmağa imkan verir. Həm şəxsi, həm də peşəkar həyatda daha sabit və harmonik münasibətlər qurmağa gətirib çıxarır. Beləliklə, bu məqalə emosional intellektin uğurlu ünsiyyət və effektiv sosial qarşılıqlı əlaqə üçün əsas bacarıq kimi vacibliyini vurğulayır.

Emosiyalarımızın çox az və ya heç bir şəkildə nəzarət edə bilmədiyimiz impulslar tərəfindən idarə olunduğu qəbul edilsə də, özümüzü idarə etmək və tənzimləmək qabiliyyətimiz var. Ortaya çıxan emosiyaları və onlara olan reaksiyalarımızı kontrol edə bilməsək də onları idarə etməyi bacarırıq. Özünü idarəetmə buna əsaslanır və fərdə öz emosiyalarını öyrənməyə və onları daha yaxşı idarə etməyə imkan verir, bununla da özünü motivasiya edir və müsbət sosial qarşılıqlı əlaqələr yaradır. Emosional intellekt, zəka standartlarını emosional reaksiyalara tətbiq edə biləcəyimiz və bu cavabların emosiyalarla bağlı müəyyən inanclara necə məntiqə uyğun və ya zidd ola biləcəyini anlaya biləcəyimiz çərçivə təmin etməklə bizi məmnun və xoşbəxt həyata doğru istiqamətləndirə bilər. Emosional zəkanın dəyəri və faydaları şəxsi və peşəkar uğur üçün çox böyükdür. Bu, bir çox peşələrdə əsas səriştədir və akademik, peşəkar uğurları dəstəkləyə, əlaqələri yaxşılaşdıra və ünsiyyət bacarıqlarını artıra bilər.

İndiyə qədər biz emosional intellektin sosial və psixoloji faydalarına diqqət yetirmişik, lakin qeyd etmək lazımdır ki, özünüdərketmə - emosiyaları və stressi idarə etmək bacarığı və şəxsi, şəxsiyyətlərarası problemləri həll etmək bacarığı da fiziki sağlamlıqla əhəmiyyətli dərəcədə bağlıdır.

Açar sözlər: emosional intellekt, şəxsiyyətlərarası münasibətlər, empatiya, motivasiya

THE IMPORTANCE OF EMOTIONAL INTELLIGENCE IN INTERPERSONAL RELATIONSHIP

Nargiz Nazim NİFTALİYEVA
Mingachevir State University
Azerbaijan State Pedagogical University, PhD student

Abstract: Emotional intelligence (EI) is essential for improving interpersonal relationships, communication, resolving conflicts, and developing deeper connections by understanding and managing one's own and others' emotions. High levels of EI allow us to better understand the needs of others, demonstrate empathy, manage stress, and adapt. This leads to more stable and harmonious relationships in both personal and professional life. Thus, this article highlights the importance of emotional intelligence as a key skill for successful communication and effective social interaction.

Although it is accepted that our emotions are driven by impulses over which we have little or no control, we do have the ability to manage and regulate ourselves. Although we cannot control the emotions that arise and our reactions to them, we can manage them. Self-management is based on this and allows an individual to learn about and better manage their emotions, thereby motivating themselves and creating positive social interactions. Emotional intelligence can guide us toward a fulfilling and happy life by providing a framework within which we can apply standards of intelligence to emotional responses and understand how these responses may be consistent with or inconsistent with certain beliefs about emotions. The value and benefits of emotional intelligence for personal and professional success are enormous. It is a core competency in many professions and can support academic and professional success, improve relationships, and enhance communication skills.

So far, we have focused on the social and psychological benefits of emotional intelligence, but it is important to note that self-awareness—the ability to manage emotions and stress, and the ability to solve personal and interpersonal problems—is also significantly linked to physical health.

Keywords: emotional intelligence, interpersonal relationships, empathy, motivation.

ЗНАЧЕНИЕ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА В МЕЖЛИЧНОСТНЫХ ОТНОШЕНИЯХ

Наргиз Назим НИФТАЛИЕВА
Мингячевирский государственный университет
Азербайджанский Государственный Педагогический Университет, докторант

Резюме: Эмоциональный интеллект (ЭИ) необходим для улучшения межличностных отношений, общения, разрешения конфликтов и развития более глубоких связей посредством понимания и управления своими и чужими эмоциями. Высокий уровень ЭИ позволяет нам лучше понимать потребности других, проявлять эмпатию, справляться со стрессом и адаптироваться. Это способствует построению более стабильных и гармоничных отношений как в личной, так и в профессиональной жизни. В данной статье подчёркивается важность эмоционального интеллекта как ключевого навыка для успешного общения и эффективного социального взаимодействия. Хотя общепризнанно, что нашими эмоциями движут импульсы, которые мы практически не можем контролировать, мы способны управлять собой и регулировать себя. Хотя мы не можем контролировать возникающие эмоции и свои реакции на них, мы можем ими управлять. Самоменеджмент основан на этом и позволяет человеку лучше понимать свои эмоции и управлять ими, тем самым мотивируя себя и создавая позитивные социальные взаимодействия. Эмоциональный интеллект может направить нас к полноценной и счастливой жизни, предоставляя основу, в рамках которой мы можем применять стандарты интеллекта к эмоциональным реакциям и понимать, как эти реакции могут соответствовать или не соответствовать определенным представлениям об эмоциях. Ценность и преимущества эмоционального интеллекта для личного и профессионального успеха огромны. Он является ключевой компетенцией во многих профессиях и может способствовать академическому и профессиональному успеху, улучшать отношения и развивать коммуникативные навыки.
До сих пор мы рассматривали социальные и психологические преимущества эмоционального интеллекта, но важно отметить, что самосознание — способность управлять эмоциями и стрессом, а также способность решать личные и межличностные проблемы — также тесно связано с физическим здоровьем.
Ключевые слова: эмоциональный интеллект, межличностные отношения, эмпатия, мотивация

Giriş

Emosiyalar insan əlaqəsinin əsas hissəsidir. Onlar hamımızı birləşdirən yapışqan kimidir. Özümüzdə və başqalarında olan emosiyaları dərk etməklə, biz insanlarla qarşılıqlı əlaqənin mürəkkəbliklərini idarə edə, inam yarada və mənalı şəxsi və peşəkar münasibətlər qura bilərik. Onları başa düşmək bizə emosiyaların necə işlədiyini, düşüncələrimizə və hərəkətlərimizə necə təsir etdiyini və onları necə effektiv idarə edə biləcəyimizi araşdırmaq imkanı verir. Bu daha dərin anlayış Emosional İntellekt adlanan daha geniş perspektivə səbəb ola bilər.

Geniş ictimai səviyyədə emosional zəkanın təsirini başa düşmək harmoniya və əməkdaşlığı təşviq edərək daha empatik və əməkdaşlıq edən icmalara səbəb ola bilər. Emosional intellekt (EI) psixologiya, sosiologiya və təşkilati davranış sahələrində əhəmiyyətli və çoxşaxəli bir anlayış olaraq ortaya çıxdı. Son bir neçə onillikdə tədqiqatçılar emosional zəkanın mürəkkəb dinamikasını araşdıraraq onun insan həyatının müxtəlif aspektlərinə təsirini anlamağa çalışırlar. EI-nin təsirinin geniş şəkildə tədqiq olunduğu sahələr arasında şəxsiyyətlərarası münasibətlər və uğur əsas yer tutur. Bu tədqiqat işi emosional zəkanın həm başqaları ilə əlaqələrimizi, həm də müxtəlif sahələrdə əldə etdiyimiz ümumi nailiyyətləri formalaşdırmaqda və gücləndirməkdə oynadığı əsas rolu araşdırmaq məqsədi daşıyır.

Emosional intellekt son onilliklərdə, xüsusən də onun şəxsiyyətlərarası münasibətlərə təsiri kontekstində fəal tədqiqat obyektinə çevrilmişdir. Bu konsepsiya başqaları ilə qarşılıqlı əlaqədə həlledici rol oynayan özünüdərketmə, özünütənzimləmə, empatiya və sosial bacarıqlar kimi bir neçə əsas komponenti əhatə edir.

Emosional intellekt şəxsiyyətlərarası ünsiyyəti sadə mübadilədən kənara çıxaran, onu dərin və təsirli əlaqəyə çevirən əsas amil kimi xidmət edir.

Özünü dərk etmək insana öz emosiyalarını və onların davranışlarına təsirini tanımağa imkan verir ki, bu da müxtəlif vəziyyətlərdə daha şüurlu və məsuliyyətli reaksiyaları asanlaşdırır. Özünü dərk etmək emosional zəkanın əsasını təşkil edir. Bu, emosiyalarımızı, güclü tərəflərimizi, zəif tərəflərimizi və davranış meyllərimizi qəbul etməyi və dərk etməyi əhatə edir. Özünü idarə etmək bizim duyğularımızı idarə etmək qabiliyyətimizdir və özümüzü dərketmə qabiliyyətimizdən asılıdır. Özünü dərk etməyi inkişaf etdirmək bizə emosiyalarımızı effektiv şəkildə idarə etmək, impulsiv reaksiyaları cilovlamaq və qarşılıqlı əlaqələrimizi düşünərək idarə etmək imkanı verir. Özünü dərk etməyən biri emosiyaları idarə edə və stresi başqalarına layihələndirə bilməz və bu, işdə və ya şəxsi vəziyyətlərdə ünsiyyətə mənfi təsir edərək münasibətləri korlayır.

Özünütənzimləmə, öz növbəsində, impulsiv reaksiyaları idarə etməyə və hisslərimizi idarə etməyə kömək edir, yəni stresli və ya münaqişəli vəziyyətlərdə xüsusilə vacib hesab olunan bir faktordur. Özünü tənzimləmənin ilk addımı duyğularınızın fərqində olmaqdır. Bu, yaşadığınız emosiyanı tanımaq və adlandırmaq deməkdir.

DSM, Amerika Psixiatriya Assosiasiyası tərəfindən hazırlanmış psixi pozğunluqların diaqnostikası üçün əsas istinad kitabıdır. 1952-ci ildən bəri DSM-nin beş fərqli versiyası nəşr edilmişdir.

Ən son versiyalardan biri olan DSM IV 1994-cü ildə buraxıldı; DSM IV-Text Revision, 2000-ci ildə buraxıldı və 2013-cü ildə DSM-5 buraxılana qədər istifadədə qaldı. DSM-IV və DSM-5-in diaqnostik meyarları arasında, xüsusən də autizm spektri pozğunluğu üçün fərqlər var. DSM-ə əlavə olaraq, ICD-10-un diaqnostik meyarlarından da istifadə olunur. ICD xəstəliklər üçün ümumi dil yaratmaq və ardıcıl və standartlaşdırılmış məlumat mübadiləsini təmin etmək üçün 1994-cü ildən bəri bütün dünyada istifadə olunur. Halhazırda ICD-10-un 2010-cu ildə nəşr edilmiş ən son versiyası istifadə olunur. ICD-11 üzərində iş hazırda davam edir və 2017-ci ilə qədər davam edəcəyi gözlənilir (ÜST, 2014). Autizm Spektr Pozuntusu təsnifatları DSM və ICD tərəfindən təmin edilir.

DSM-IV-TR-də autizm, "Ümumilikdə ilk dəfə körpəlik, uşaqlıq və ya yeniyetməlik dövründə diaqnoz qoyulan pozğunluqlar" bölməsində "Yayılmış inkişaf pozuntuları" başlığı altında təsnif edilir (DSM-IV-TR, 2001). DSM-5-də, "Neyroinkişaf pozğunluqları" bölməsində "Autizm Spektr Pozuntusu" başlığı altında verilmişdir (DSM-5, 2014). Autizmin ICD-10 (2010) təsnifatı Psixi və Davranış Pozuntuları çərçivəsində "Psixoloji İnkişafın Pozuntuları" başlığı altında 5-ci Fəsildə "Yayılan İnkişaf Pozuntuları"na daxil edilmişdir (ÜST, 2014). Hazırda DSM-5 və ICD-10-un 2010-cu il versiyalarının diaqnostik meyarlarından istifadə olunur.

Təkliflər və tövsiyələr: Autizm spektr pozuntusu olan fərdlərin yaşadığı bu sosial maneələr çox gənc yaşda özünü göstərə bilər. Buna görə də, yuxarıda qeyd olunan birinci səviyyəli və sonrakı ikinci səviyyəli skrininq vasitələri autizm spektr pozuntusunun müəyyən edilməsində çox vacibdir. Bu müayinə və diaqnostika vasitələrinə sosial bacarıqlarla bağlı maddələr daxildir. Daha əvvəl ətraflı nəzərdən keçirdiyimiz ESAT, CHAT, M-CHAT, ADI-R ADOS, CARS və SCQ sosial bacarıqlar haqqında məlumat verən alətlərdir. Autizm spektr pozuntusu olan şəxslərin sosial bacarıqlarını

qiymətləndirmək üçün istifadə edilən digər reytinq cədvəllərinə Vineland Adaptiv Davranışlar Ölçüsü, Sosial Bacarıqların Qiymətləndirilməsi Sistemi və Autizm Sosial Bacarıqları Profili daxildir. Yaşlı insanlar üçün Sosial Bacarıqların Qiymətləndirilməsi Sistemi bu bacarıqları qiymətləndirmək üçün istifadə edilən alətlərdən biridir. Bu miqyasdan məktəbəqədər yaşdan ibtidai məktəb yaşına qədər ASD olan şəxsləri qiymətləndirmək üçün istifadə edilə bilər. Bu miqyas valideyn və müəllim versiyalarında mövcuddur. Buraya əməkdaşlıq, inadkarlıq, məsuliyyət və özünə nəzarət kimi davranışları ölçən maddələr daxildir. Daha əvvəl qeyd edildiyi kimi, autizm spektr pozuntusu olan şəxslər körpəlikdən etibarən birgə diqqət və üz ifadələri kimi sahələrdə sosial çatışmazlıqlar nümayiş etdirə bilərlər. Buna görə də, körpəlik və erkən uşaqlıq dövründə uşaqlarla ünsiyyətdə olan ailələrin və mütəxəssislərin normal sosial inkişafla tanış olması erkən diaqnoz və müdaxiləyə zəmin yaradacaqdır.

Autizm spektri pozğunluğuna erkən diaqnoz və erkən müdaxilə uşağın həyatın hər sahəsində inkişafı üçün çox vacibdir. Təəssüf ki, ölkəmizdə standartlaşdırılmış skrininq və diaqnostik vasitələr kifayət qədər deyil. Mövcud vasitələri isə idarə etmək üçün kifayət qədər təlim keçmiş mütəxəssislər yoxdur. Skrininq autizmin erkən aşkarlanması üçün ən təsirli üsul olsa da, ölkəmizdə geniş yayılmış skrininq yoxdur. Uşaqların müayinəsi ailənin məlumatlılığından və mütəxəssislərin təşəbbüsündən asılıdır. Odur ki, ölkəmizdə autizm spektrinin pozuntusunun qiymətləndirilməsində ən mühüm addım ölkə miqyasında skrininqin genişləndirilməsidir. Bunun üçün uşaq həkimləri, körpə və uşaqların skrininqlə bağlı ilk qarşılaşdıqları mütəxəssislər arasında maarifləndirmə işlərinin aparılması və onlara skrininq alətləri üzrə təlimlərin keçirilməsi tələb olunur. Uşağa erkən diaqnoz qoyulduqdan sonra ailələrə rəhbərlik də çox vacibdir. Diaqnoz qoyan mütəxəssis (mütəxəssislər) ailəyə düzgün məlumat vermək, onları müvafiq qurum və təşkilatlara yönləndirmək vəzifəsini daşıyırlar. Ona görə də peşəkarlar təkcə qiymətləndirmədə deyil, həm də rəhbərlikdə məlumatlı olmalıdırlar. Diaqnozdan sonra ailəyə rəhbərlik edərkən, yaşaya biləcəkləri emosional məsələlərə həssas olmaq və məlumatı onların başa düşə biləcəyi şəkildə çatdırmaq vacibdir. Yadda saxlamaq lazımdır ki, ailələr qəbul mərhələsinə çatana qədər çoxlu duyğular yaşayırlar. Peşəkarlar bu mərhələlərdən xəbərdar olmalıdırlar.

ƏDƏBİYYAT SİYAHISI:

1. Amerikan Psikiyatri Birliği (2001). *Ruhsal bozuklukların tanısal ve sayımsal elkitabı, Dördüncü Baskı (DSM-IV-TR),* (Çev: Ertuğrul Köroğlu.) Ankara: Hekimler Yayın Birliği.
2. Amerikan Psikiyatri Birliği (2014). *Ruhsal bozuklukların tanısal ve sayımsal elkitabı, beşinci baskı (DSM-5),* (Çev:Ertuğrul Köroğlu.) Ankara: Hekimler Yayın Birliği.
3. Bailey, D.B.& Simeonsson, R.J.(1988). *Family assessment in early intervention.* Ohio: Merrill Publishing Company.
4. Barton, M. L., Robins, D. L., Jashar, D., Brennan, L., & Fein, D. (2013). Sensitivity and specificity of proposed DSM-5 criteria for autism spectrum disorder in toddlers. *Journal of Autism and Developmental Disorders, 43,* 1184-1195.
5. Bayoglu, B., Anlar, B., & Yalaz, K. (2011). Developmental outcomes of Turkish children: Results of Denver II test's revision.*Infant Mental Health Journal, 32,* 179-180.
6. Beighley, J. S., Matson, J. L., Rieske, R. D., Jang, J., Cervantes, P. E., Goldin, R. L. (2013). Comparing challenging behavior in children diagnosed with autism spectrum disorders according to the *DSM-IV-TR* and the proposed *DSM-5, Developmental Neurorehabilitation, 16,* 375-381.
7. Bellini, S. & Hopf, A. (2007). The development of the Autism Social Skills Profile: A preliminary analysis of psychometric properties. *Focus on Autism ad Other Developmental Disabilities, 22,* 80-87.
8. Bishop, S.L., Luyster, R., Richler, J. & Lord, C. (2008). Diagnostic assessment . K. Chawarska, A. Klin & F. R. Volkmar (Eds), *Autism spectrum disorders in infants and toddlers: Diagnosis, assessment and treatment.* (ss. 23-50). New York: The Guilford Press.
9. Beuker, K.T., Schjolberg, S., Lie, K.K., Swinkles, S., Rommelse, N.N. & Buitelaar, J.K. (2014). ESAT and M-CHAT as screening instruments for autism spectrum disorders at 18 months in the general population: issues of overlap and association with clinical referrals. *European Child and Adolescent Psychiatry, 23,* 1081-1091.
10. Bricker, D. & Squires, J. (1999). *The ASQ a parent completed, child-monitoring system user's guide 2nd Ed.* Baltimore: Paul H. Brookes Publishing Co.Inc.
11. Carter, A.S., Ornstein Davis, N., Klin,A., & Volkmar, F.R. (2005). Social development in autism, F.R. Volkmar, R.Paul, A.Klin ve D.Cohen (Eds), *Handbook of autism and pervasive developmental disorders* (ss. 312-335). New Jersey: John Wiley & Sons, Inc.
12. Cumine, V., Dunlop, J. & Stevenson, G. (2009). *Autism in the early years: A practical guide.* New York: Routledge Taylor and Francis Group.
13. Demir, Ş. (2009). *Otizmli çocukların sosyal becerilerinin farklı değişkenler açısından değerlendirilmesi.* Yayınlanmamış yüksek lisans tezi, Ankara Üniversitesi, Eğitim Bilimleri Enstitüsü, Ankara.
14. Demir, Ş. (2013). Otizm spektrum bozukluğu olan çocuklara sosyal becerilerin öğretimi, E. Tekin-İftar (Ed.), *Otizm spektrum bozukluğu olan çocuklar ve eğitimleri* (ss. 367-420). Ankara: Vize Yayıncılık.

15. Diken, İ.H., Ardıç, A., Diken, Ö., & Gilliam, J.E. (2012). Exploring validity and reliability of Turkish version of Gilliam Autism Rating Scale-2: Turkish standardization study, *Education and Science, 37,* 318-328.
16. Doyle, B.T.& Doyle Iland, E. (2004). *Autism spektrum disorders from A to Z: Assessment, diagnosis and more.* Texas: Future Horizons Inc.
17. Erol, N., Sezgin, N., & Savaşır, I. (1993). Ankara Gelişim Tarama Envanteri ile ilgili geçerlik çalışmaları. *Türk Psikoloji Dergisi, 8,* 16-22.
18. Fernell, E., Wilson, P., Hadjikhani, N., Bourgeron, T., Neville, B., Taylor, D., Minnis, H. Gillberg, C. (2014). Screening, intervention and outcome in autism and other developmental disorders: The role of randomized controlled trials, *Journal of Autism and Developmental Disorders, 44,* 2074-2076.
19. Filipek, P.A., Accardo, P.J., Ashwal, S., Baranek, G.T. & Cook, E.H. (2000). Practice parameter: Screening and diagnosis of autism. Report on the quality standards subcommittee of the American Academy of Neurology and the ChildNeurology Society. *Neurology, 55,* 468-479.
20. Mayes, S.D., Black, A., ve Tierney, C.D. (2013). DSM-5 under-identifies PDDNOS: Diagnostic agreement between the DSM-5, DSM-IV, and Checklist for Autism Spectrum Disorder, *Research in Autism Spectrum Disorders,* 7, 298-306.
21. Mayes, S.D., Calhoun, S.L., Murray, M.J., Pearl, A., Black, A. & Tierney, C.D. (2014) Final DSM-5 under-identifies mild Autism Spectrum Disorder: Agreement between the DSM-5, CARS, CASD, and clinical diagnoses, *Research in Autism Spectrum Disorders, 8,* 68-73.
22. Özdemir, O., Diken, İ.H., Diken, Ö. & Şekercioğlu, G. (2014). Otizm Davranış Kontrol Listesi (Autism Behavior Checklist-ABC) modifiye edilmiş Türkçe versiyonu'nun geçerlik ve güvenirlik çalışması: Pilot uygulama sonuçları, *International Journal of Early Childhood Special Education (INT-JECSE), 5,* 168-186.
23. Paul, R. & Wilson, K. P. (2009). Assessing speech, language and communication in autism spectrum disorders, S. Goldstein, J.A Naglieri. & S.Ozonoff (Eds), *Assessment of autism spectrum disorders* (ss. 171-208). New York: ThGuilford Press.
24. Sears, R.W. (2010). *The autism book.* New York: Hachette Book Group.
25. Siegel, B. (2008). *Getting the best for your child with autism: An expert's guide to treatment.* New York: The Guilford Press.
26. Sucuoğlu, B. (2013). Otizm spektrum bozukluğu olan çocukların değerlendirilmesi. E. Tekin-İftar (Ed.), *Otizm spektrum bozukluğu olan çocuklar ve eğitimleri* (ss. 45-77). Ankara: Vize Yayıncılık.
27. Wolkmar, F.R. & Wiesner, L.A.(2009). *A practical guide to autism: What every parent, family member, and teacher needs to know.* New Jersey: John Wiley & Sons, Inc.
28. Zwaigenbaum, L. (2011). Screening, risk, and early identifi cation of autism spectrum disorders, D. G. Amaral, G. Dawson, D. H. Geschwind (Eds), *Autism spectrum disorders* (ss.75-90). New York: Oxford University Press, Inc.

DOİ: 10.32010/XUWT8590

UŞAQLARDA UTANCAQLIĞIN İNKİŞAF DİNAMİKASI VƏ PSİXOLOJİ ASPEKTLƏRİ

Cəmilə Qabil QASIMOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ORCID: 0009-0002-1763-6243
E-mail: cemilegasimova52@gmail.com

Xülasə: Bu məqalədə uşaqlarda utancaqlığın inkişaf dinamikası və psixoloji aspektləri ətraflı araşdırılır. Utancaqlıq, uşağın başqalarının yanında narahat və utancaq hiss etməsi və sosial əlaqələrdən uzaqlaşması ilə xarakterizə olunur. Tipik utancaqlıq uşaq öz daxili düşüncələrini və hisslərini özündə saxladıqda və sosial vəziyyətlərdə ehtiyatlı davrandıqda müşahidə olunur, həddindən artıq utancaqlıq isə kiçik uşaqlarda sosial narahatlıq pozğunluğuna çevrilə bilər. Uşaqlarda utancaqlığın inkişafına daxili və xarici amillər birbaşa təsir göstərir. Daxili amillərə introversiya, rədd edilmə qorxusu və narahatlıq daxildir. Xarici amillər valideyn və müəllim davranışlarından, həmyaşıdlarla qarşılıqlı əlaqədən və sosial mühitin tələblərindən qaynaqlanır. Utancaqlıq uşağın sosial bacarıqlarının formalaşmasına təsir etsə də, müsbət cəhətləri də var. Məsələn, utancaq uşaqlar sinifdə daha diqqətli olur, müəllimlərini və sinif yoldaşlarını daha yaxşı dinləyir, qaydalara əməl edərək etik davranış nümunəsi göstərirlər. Bu xüsusiyyətlər onların akademik uğurlarına və sosial uyğunlaşmasına kömək edir. Araşdırmanın nəticələri göstərir ki, utancaqlığı düzgün başa düşmək və uşaqlara dəstək olmaq onların sosial və emosional adaptasiyasını gücləndirir. Müəllimlər və valideynlər utancaqlığı problem kimi deyil, inkişaf etdirilə bilən şəxsi xüsusiyyət kimi qəbul etməli, uşaqların tədricən ictimai fəaliyyətə qoşulmasına şərait yaratmalıdırlar. Bu yanaşma həm məktəb mühitində, həm də ailədə uşaqların özünəinamını artırmağa və sosial bacarıqlarını inkişaf etdirməyə imkan verir.
Açar sözlər: Uşaqlarda utancaqlıq, özgüvən, özünə inam, tənqidə həssaslıq

DEVELOPMENTAL DYNAMICS AND PSYCHOLOGICAL ASPECTS OF SHYNESS IN CHILDREN

Jamila Gabil GASIMOVA
Azerbaijan State Pedagogical University
ORCID: 0009-0002-1763-6243
E-mail: cemilegasimova52@gmail.com

Abstract: This article examines the developmental dynamics and psychological aspects of shyness in children in detail. Shyness is characterized by a child feeling anxious and shy around others and withdrawing from social interactions. Typical shyness is observed when a child keeps their inner thoughts and feelings to themselves and behaves cautiously in social situations, while excessive shyness can develop into social anxiety disorder in young children. Internal and external factors directly influence the development of shyness in children. Internal factors include introversion, fear of rejection, and anxiety. External factors stem from parental and teacher behaviors, peer interactions, and the demands of the social environment. Although shyness affects the formation of a child's social skills, it also has some positive aspects. For example, shy children are more attentive in the classroom, listen better to their teachers and classmates, and follow the rules and set an example of ethical behavior. These characteristics contribute to their academic success and social adaptation. The results of the study show that understanding shyness correctly and supporting children strengthens their social and emotional adaptation. Teachers and parents should consider shyness not as a problem, but as a personal trait that can be developed, and create conditions for children to gradually participate in social activities. This approach allows for increasing children's self-confidence and developing social skills both in the school environment and in the family.
Keywords: Shyness, self-confidence, self-esteem, sensitivity to criticism in children.

ДИНАМИКА РАЗВИТИЯ И ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ЗАСТЕНЧИВОСТИ У ДЕТЕЙ

Джамиля Габиль ГАСЫМОВА
Азербайджанский государственный педагогический университет
ORCID: 0009-0002-1763-6243
Электронная почта: cemilegasimova52@gmail.com

Резюме: В данной статье подробно рассматривается динамика развития и психологические аспекты застенчивости у детей. Застенчивость характеризуется тем, что ребёнок испытывает тревогу и стеснение в присутствии окружающих, а также избегает социального взаимодействия. Типичная застенчивость наблюдается, когда ребёнок скрывает свои мысли и чувства и ведёт себя осторожно в социальных ситуациях, в то время как чрезмерная застенчивость может развиться в социальное тревожное расстройство у маленьких детей.Вн внешние факторы напрямую влияют на развитие застенчивости у детей. К внутренним факторам относятся интроверсия, страх отвержения и тревожность. Внешние факторы связаны с поведением родителей и учителей, взаимодействием со сверстниками и требованиями социальной среды. Хотя застенчивость влияет на формирование социальных навыков ребёнка, у неё есть и положительные стороны. Например, застенчивые дети более внимательны в классе, лучше слушают учителей и одноклассников, следуют правилам и подают пример этичного поведения. Эти характеристики способствуют их успеваемости и социальной адаптации.Р исследования показывают, что правильное понимание застенчивости и поддержка детей укрепляют их социальную и эмоциональную адаптацию. Педагогам и родителям следует рассматривать застенчивость не как проблему, а как личностную черту, которую можно развивать, и создавать условия для постепенного включения детей в социальную деятельность. Такой подход позволяет повысить уверенность детей в себе и развить социальные навыки как в школьной среде, так и в семье.
Ключевые слова: Застенчивость, самоуверенность, самооценка, чувствительность к критике у детей

Giriş

Utancaqlıq insanın, xüsusilə də uşağın, sosial vəziyyətlərdə özünü narahat, gərgin və çəkinmiş hiss etməsidir. Araşdırmalar göstərir ki, uşaqlıq dövründə utancaqlıq sosial vəziyyətlərdə, xüsusilə uşağın tanımadığı insanlarla, şəraitlə və təcrübəylə qarşılaşdıqda tədirginlik, tərəddüd və narahatlıqla xarakterizə olunan temperament xüsusiyyəti və davranış meyli kimi dəyərləndirilə bilər. Uşaq çox vaxt başqalarının onun haqqında nə düşünəcəyindən narahat olur və buna görə də diqqət mərkəzində olmaqdan çəkinir. Utancaqlığın təzahürləri həm emosional, həm fiziki, həm də davranış səviyyəsində özünü göstərə bilər. Emosional olaraq uşaq özünü sıxılmış, gərgin və ya qorxmuş hiss edir. Fiziki baxımdan qızarma, ürək döyüntüsünün artması, titrəmə kimi əlamətlər görünə bilər. Davranış səviyyəsində isə uşaq göz təmasından qaçar, az danışar və sosial fəaliyyətlərdən uzaq durmağa meylli olar (Antony, M. M. &Swinson, R. P., 2021).

Tipik utancaqlıq, uşağın başqalarının yanında narahat hiss etməsidir; həddindən artıq utancaqlıq isə kiçik uşaqlarda sosial təşviş pozuntusuna çevrilə bilər.

Sosial münasibətlərdə özünü geri çəkmək, sosial təmasdan uzaq durmağın əsasən üç səbəbi müəyyən edilir:

1. İntrovert (daxilə yönəlik) olmaq
2. Çəkingənlik
3. Utancaqlıq

1-ci qrupa daxil olan uşaqlar tək oynasalar da xoşbəxt görünürlər İntrovertlik uşaqların temperamenti ilə bağlıdır, dəyişmir. Bu uşaqlar sosiallaşmağa o qədər də üstünlük vermirlər. Enerjini başqalarından yox, öz daxilindən alırlar.

2-ci qrupdakı uşaqlar qrup oyunlarında iştirak etmək istəyirlər, lakin çəkingənlik göstərirlər. Bu da temperament xüsusiyyətindən gelsə də, bu uşaqlar daha çox yeni insanlar, yeni şəraitə adaptasiya olmaqda çətinlik çəkirlər. Yenilik olduqda həyəcanlanırlar.

3-cu qrup uşaqlar isə başqa uşaqlarla oynamaq istəsələr də təşviş keçirirlər. Bu uşaqlar başqaları tərəfindən tənqid edilməkdən, qəbul edilməməkdən, dəyər verilməməkdən qorxarlar. Həmçinin, xəta etməkdən və özlərini göstərmək, görünməkdən qorxar, yüksək səviyyədə təşvişli olarlar.

Utancaq şəxslər adətən göz təmasından qaçmaq, asta danışmaq, sosial mühitdə çəkinmək davranışları göstərirlər. Utancaqlıq yüngüldən şiddətliyə qədər müxtəlif dərəcələrdə ola bilər. (Coplan.R.J , & Ooi.L.L, 2023).

Utancaqlığın daimi və şiddətli olması bir çox cəhətdən uşağın həyat keyfiyyətini azalda bilər:

-Sosial bacarıqları inkişaf etdirmək və ya tətbiq etmək imkanlarının zəifləməsi

-Daha az dostları ola bilər

-İdman, rəqs və ya musiqi kimi başqaları ilə qarşılıqlı əlaqə tələb edən əyləncəli və faydalı fəaliyyətlərdə iştirakının azalması
-Tənhalıq hissinin artması və özünə dəyər və hörmətinin azalması
-Mühakimə olunmaqdan qorxduqları üçün tam potensialından istifadə etmək qabiliyyətinin azalması
-Yüksək təşviş səviyyələri
-Üz qızarması, kəkələmə və titrəmə kimi utandırıcı fiziki təsirlər
Bütün bunlarla bərabər bəzi mütəxəssislər qeyd edir ki, utancaqlığın bir sıra müsbət tərəfləri də vardır :
-Məktəbdə yaxşı oxumaq - Utancaq uşaqlar adətən sakit və müşahidəçi olduqları üçün dərs zamanı diqqətlərini daha asan cəmləyə bilirlər. Onlar çox vaxt sinifdə qaydalara əməl edir, müəllimin tapşırıqlarını məsuliyyətlə yerinə yetirirlər. Bu səbəbdən, utancaqlıq bəzi hallarda akademik müvəffəqiyyətə müsbət təsir göstərən daxili intizam və diqqətlilik xüsusiyyətləri ilə əlaqələndirilir.
-Başqalarını diqqətlə dinləmək - Utancaq uşaqların sosial risklərdən qaçmağa meyilli olmaları, onları daha çox dinləyici və müşahidəçi mövqeyə yönəldir. Onlar müəllimin dediklərinə diqqətlə qulaq asır, fikirlərini ifadə etməzdən əvvəl düşünürlər. Bu xüsusiyyət, onların öyrənmə prosesində dərin emal və analiz bacarıqlarının inkişafına kömək edə bilər
-Düzgün davranmaq və problemlə rastlaşmamaq - Onlar başqalarının fikirlərinə qarşı həssas olduqları üçün, səhv davranışlardan çəkinir, cəmiyyətin qəbul etdiyi davranış normalarına riayət etməyə çalışırlar. Bu baxımdan, utancaq uşaqlar sosial mühitdə etik və empatik davranış nümunələri göstərə bilirlər (Besic.N & Kerr.M, 2015).

Nəzəriyyə

Utancaqlığın yaranma səbəblərinin müxtəlif amillərdən asılı olduğu irəli sürülür Bu amillər içərisində həm genetik, həm də bioloji faktorlar utancaqlığa əhəmiyyətli dərəcədə təsir göstərir. Hər bir uşaq fərqli özəlliklərlə doğulur ve həssas temperamenti sahib olan uşaqlarıda utancaqlığın formalaşma ehtimalı daha yüksəkdir. Lakin dəstəkləyici və anlayışlı valideynlər uşaqlarda utancaqlığın və sosial narahatlığın yaranmasının qarşısını ala bilərlər.

1. Genetik amillər- Şəxsiyyətin aspektləri qismən irsi olaraq alınır. Alimlər utancaqlığın ən azı qismən genetik olaraq olması fərziyyəsini dəstəkləyən məlumat əldə ediblər. Bununla belə, bir insanın böyüdüyü mühitin də utancaqlığında əhəmiyyətli rol oynadığını sübut edən dəlillər vardır.
2. Ailə münasibətləri – xüsusilə utancaqlığın formalaşmasında əhəmiyyətli rola malikdir. Belə ki, valideynləri ilə güvənli bağ formalaşmayan və onların tutarsız davranışları ilə üzləşən uşaqlar utancaqlığa meyilli ola bilirlər.
3. Öyrənilmiş davranış - Uşaqlar ən təsirli yol olaraq valideynlərini təqlid edərək öyrənirlər. Utancaq valideynlər özü də uşaqlarında utancaqlığın formalaşmasına səbəb ola bilərlər. Uşaqlarda kiçik yaşlarda abstrakt düşüncə formalaşması üçün valideynin elədiyini doğru olaraq qəbul edir, mən də bunu təkrarlayım ki, güvende olum düşünürlər.
4. Sosial qarşılıqlı əlaqənin olmaması - Həyatlarının ilk bir neçə ilində başqalarından təcrid edilmiş uşaqlar asanlıqla başqaları ilə asanlıqla ünsiyyət qurmaqda çətinlik çəkirlər.
5. Sərt tənqid – Həyatlarında mühüm əhəmiyyət kəsb edən insanlar tərəfindən tənqid olunan uşaqlar da utancaqlığa meyl edə bilərlər.
6. Uğursuzluq qorxusu – Bacarıqlarından çox yüksək performans gözlənilən uşaqlar utancaqlıq olaraq görünən uğursuzluq qorxusu yaşaya bilərlər. (Baardstu, S., Sette, S., Brandlistuen, R. E., & Wang, M. V, 2023)

Uşaqlarda utancaqlıq hansı vəziyyətlərdə daha çox müşahidə edilir?

1. Valideyn uşağı həddindən artıq qoruyarsa, bu zaman ətrafın təhlükəli olması hissini uşağa ötürür. Belə olduqda uşaq təşviş hissi keçirir.
2. Həddindən artıq nəzarət altında saxlanılan uşaqlar özləri müstəqil şəkildə nə edəcəklərini bilmirlər.
3. Daha çox təşvişli bağlanan uşaqlarda utancaqlıq görülür.
4. Valideyn davamlı olaraq uşağı itaət etməyə məcbur edərsə, o halda da uşağın utancaq davranışları müşahidə edilə bilər.
5. Davamlı olaraq tənqid edilən və tərifl ənən uşaqlarda da utancaqlıq müşahidə edilir. Uşaq davamlı tənqidə məruz qalırsa, onun zehnində özü haqda "mən bir şey bacarmıram" təsəvvürü formalaşır.

Utancaq uşaqlar adətən ətrafdakıların diqqətini çəkməməyə çalışırlar. Bu uşaqlar ətraf tərəfindən görülməkdən çəkinirlər. Utancaqlığa səbəb olan əsas xüsusiyyətlər: özgüvən və özünəinamın çatışmazlığı, qəbul edilməməkdən qorxmaq və tənqidə qarşı həssaslıqdır. Lakin təcrübə göstərir ki, bu uşaqlar tənqid edilməkdən qorxmadığı yerlərdə daha rahat olurlar. Utancaq uşaqlar qəbul edilməmə ehtimalı ilə qarşılaşdıqda yüksək təşviş və daxili gərginlik yaşayırlar. Bu ehtimaldan qorxduqları üçün sosial münasibətə də girməkdən çəkinirlər. Utancaq uşaqların daxili düşüncə sistemində çox zaman iki əsas inanc formalaşır: "Tənqid edərlər, başa çıxa bilmərəm" və "İnsanların məndən gözləntisi var, mən onları qarşılaya bilmərəm." Bu iki fikir utancaqlığın koqnitiv əsasını təşkil edir və uşağın sosial davranışını dərin şəkildə formalaşdırır (Walker, C. M. 2011).

Birinci inanc - "tənqid edərlər, başa çıxa bilmərəm" uşağın səhv etmək qorxusu və özünəinamsızlıq hissi ilə bağlıdır. Belə uşaqlar sosial vəziyyətlərdə daim qiymətləndirilmək hissi ilə yaşayır, tənqidi öyrənmə və inkişaf imkanı kimi deyil, rədd edilmə təhlükəsi kimi qavrayırlar. Bu isə onları sosial iştirakdan çəkindirir, davranışlarında ehtiyatlılıq hissi yaradır. Zamanla uşaq "güvəndə olmaq üçün səssiz qalmaq" strategiyasını mənimsəyir və sosial təcrübələrinin azlığı səbəbindən utancaqlıq dərinləşir.

İkinci inanc "insanların məndən gözləntisi var, mən onları qarşılaya bilmərəm" uşağın özünə qarşı daxili təzyiq hissi ilə əlaqəlidir. Uşaq ətrafdakıların – müəllimlərin, valideynlərin və ya həmyaşıdların ondan müəyyən uğur və davranış gözlədiyini düşünür, bu gözləntiləri qarşılamadığı halda isə təqdir edilməməkdənip qorxur. Bu gərginlik onun təbii ifadə azadlığını məhdudlaşdırır və "mükəmməl olmalıyam" tipli düşüncə tərzini yaradır. Nəticədə uşaq özünü daim kifayət qədər bacarıqlı görmür, bu da onun sosial adaptasiyasını və özünə inamını zəiflədir.

Nəticə

Beləliklə, utancaqlığın psixoloji mexanizmi əsasən özünüqiymətləndirmə, sosial müqayisə və qəbul edilmə ehtiyacının tarazsızlığı ilə bağlı olur. Bu uşaqlarla işləməkdə əsas məqsəd tənqidi təhlükə kimi deyil, öyrənmə imkanı kimi yenidən çərçivələmək və onlara başqalarının gözləntilərindən çox öz real dəyərlərini əsas götürməyi öyrətməkdir.

Problemin aktuallığı - Uşaqlarda utancaqlıq onların sosial və emosional inkişafına əhəmiyyətli təsir göstərir. Bu problem uşaqların dostluq münasibətlərinə, dərs və qrup fəaliyyətlərinə qoşulmasına mane olmaqla bərabər, özünəinamın azalması və emosional gərginlik kimi psixoloji nəticələrə də yol açır. Müasir cəmiyyətin və məktəb mühitinin tələbləri utancaqlığın təsirini daha da artırır, belə ki, bu fenomenin erkən mərhələdə anlaşılması və dəstəklənməsi uşaqların sosial adaptasiyası və psixoloji sağlamlığı üçün vacibdir.

Problemin elmi yeniliyi - Bu məqalə uşaqlarda utancaqlığın inkişaf mərhələlərini və psixoloji aspektlərini kompleks şəkildə nəzərdən keçirir. Araşdırma, utancaqlığın əsas kognitiv inanc sistemlərini və sosial qorxu ilə əlaqəli daxili mexanizmləri təhlil edərək, uşağın sosial və emosional inkişafına təsirlərini göstərir. Bu yanaşma, mövcud biliklərə yeni perspektiv əlavə etməklə, uşaqlarda utancaqlığın başa düşülməsi və müdaxilə yollarının müəyyənləşdirilməsi üçün elmi baza yaradır.

Problemin praktik əhəmiyyəti – Bu tədqiqatın nəticələri pedaqoqlar, məktəb psixoloqları və valideynlər üçün xüsusi əhəmiyyət daşıyır. Uşaqlarda utancaqlığın inkişaf dinamikasının və psixoloji mexanizmlərinin anlaşılması onların sosial və emosional adaptasiyasına dəstək verəcək müdaxilələrin planlanmasına imkan yaradır. Müəllimlər üçün bu bilik utancaq uşaqların dərs prosesində fəallığını artırmaq, qrup fəaliyyətlərinə qatılmasını təşviq etmək və özünəinamını inkişaf etdirmək üçün daha məqsədyönlü strategiyalar seçməyə şərait yaradır.

ƏDƏBIYYAT SİYAHISI:

1. Antony, M. M. &Swinson, R. P. (2021). Utangaçlık ve sosyal kaygı. Gıda İnş. San. Ve Tic. AŞ

2. Baardstu, S., Sette, S., Brandlistuen, R. E., & Wang, M. V. (2023). The role of early social play Behaviors and language skills for Shy children's later internalizing Difficulties in school. Public Mental Health.

3. Bekkhus, M., McVarnock, A., Coplan, R. J., Ulset, V., & Kraft, B. (2021). Developmental changes in the structure of shyness and internalizing Symptoms from early to middle childhood: A network analysis.

4. Besic.N & Kerr.M .(2015). Shy Adolescents' Perceptions of Parental Overcontrol and Emotional Coldness: Examining Bidirectional Links

5. Coplan.R.J. , & Ooi.L.L. (2023). Young Children's Peer Relations: Links with Early. Developing anxiety and Depression. Public Health Agency of Canada.

6. Əliyev.B, Əliyeva.K, Cabbarov.R,. (2011). Pedaqoji Psixologiya . Dərslik.

7. Millett, M. A., Y. H. M., Burk, W. J., & Bowker, J. C. (2025). Childhood shyness and negative social cognitions in emerging adulthood: Adolescent Negative peer experiences as moderators. Journal of Genetic Psychology.

8. Rapee, R. M. (2008). Utancaqlıq və sosyal fobinin üstesinden gelme. Rowman & Littlefield.

9.Walker, C. M. (2011). The Impact of Shyness on Loneliness, Social Anxiety, and School The Impact of Shyness on Loneliness, Social Anxiety, and School Liking in Late Childhood Liking in Late Childhood. Electronic Theses and Dissertations.

DOI: 10.32010/MKPY4772

KOQNİTİV DAVRANIŞ TERAPİYASININ DİGƏR PSİXOTERAPİYA İSTİQAMƏTLƏRİ İLƏ MÜQAYİSƏSİ

Raziyə Elxan QULIYEVA
Azərbaycan Respublikasının Təhsil İnstitutu,
Psixologiya və xüsusi təhsil şöbəsi
ORCID: 0000-0002-4762-6778
E-poçt: r.quliyeva@arti.edu.az

Xülasə: Bu məqalədə məqsəd Koqnitiv davranış terapiyasını (KDT) digər fpsixoterapiya modelləri olan Psixodinamik/psixoanalitik terapiya, Göz hərəkəti ilə desensitizasiya və yenidən işləmə (EMDR) və Geştalt terapiyası ilə nəzəri və empirik sübutlar baxımından müqayisə etməkdir. Tədqiqat sistematik ədəbiyyat təhlilinə əsaslanır. 2010–2025-ci illərdə APA PsycINFO, PubMed, ScienceDirect və Google Scholar kimi elmi bazalarında dərc olunmuş məqalə və monoqrafiyalar seçilmiş və təhlil edilmişdir. Analiz zamanı terapevtik mexanizmlər, müdaxilə müddəti, simptom azalması, uzunmüddətli davamlılıq və fərdiləşdirilə bilən tətbiq imkanları qiymətləndirilmişdir. Nəticələr göstərir ki, KDT-in strukturlaşdırılmış protokolları və güclü empirik sübut bazası ilə klinik praktikada geniş istifadə olunur. Psixodinamik və Geştalt terapiyaları insan təcrübəsinin dərin emosional tərəflərinin öyrənilməsində əhəmiyyətli rol oynayır; EMDR isə travma və təşvişlə bağlı pozuntularda daha qısa müddətli seanslarla təsirli olur. Tövsiyələr arasında daha güclü randomizə edilmiş nəzarətli tədqiqatların aparılması, mədəni kontekstə uyğunlaşdırma, psixoterapevt hazırlığında multidissiplinar modulların tətbiqi və sübuta əsaslanan onlayn formatların (KDT/EMDR) genişləndirilməsi yer alır.
Açar sözlər: koqnitiv davranış terapiyası, psixoanaliz, EMDR, Geştalt, müqayisəli təhlil, inteqrativ psixoterapiya.

COMPARING COGNITIVE BEHAVIORAL THERAPY WITH OTHER PSYCHOTHERAPY MODALITIES

Raziya Guliyeva ELKHANOVNA
Institute of Education of the Republic of Azerbaijan,
Department of Psychology and Special Education
ORCID: 0000-0002-4762-6778
Email: r.quliyeva@arti.edu.az

Abstract: The purpose of this article is to compare Cognitive Behavioral Therapy (CBT) with other psychotherapy models, including Psychodynamic/Psychoanalytic Therapy, Eye Movement Desensitization and Reprocessing (EMDR), and Gestalt Therapy, from both theoretical and empirical perspectives. The study is based on a systematic literature review. Scholarly articles and monographs published between 2010 and 2025 in databases such as APA PsycINFO, PubMed, ScienceDirect, and Google Scholar were selected and analyzed. The analysis assessed therapeutic mechanisms, intervention duration, symptom reduction, long-term sustainability, and possibilities for individualized application. The results indicate that CBT is widely used in clinical practice due to its structured protocols and strong empirical evidence base. Psychodynamic and Gestalt therapies play a significant role in exploring the deeper emotional dimensions of human experience, whereas EMDR demonstrates effectiveness in trauma- and anxiety-related disorders through shorter sessions. The recommendations include conducting more rigorous randomized controlled trials, adapting interventions to cultural contexts, incorporating multidisciplinary modules in psychotherapist training, and expanding evidence-based online formats (CBT/EMDR).and expansion of evidence-based online modalities (CBT/EMDR).
Keywords: cognitive behavioral therapy, psychoanalysis, EMDR, Gestalt therapy, comparative review, integrative psychotherapy.

СРАВНЕНИЕ КОГНИТИВНО-ПОВЕДЕНЧЕСКОЙ ТЕРАПИИ С ДРУГИМИ НАПРАВЛЕНИЯМИ ПСИХОТЕРАПИИ

Разия Эльхановна КУЛИЕВА
Институт образования Азербайджанской Республики,
Отдел психологии и специального образования
ORCID: 0000-0002-4762-6778
Email: r.quliyeva@arti.edu.az

Резюме :Цель данной статьи — провести сравнение Когнитивно-поведенческой терапии (КПТ) с другими моделями психотерапии, включая психодинамическую/психоаналитическую терапию, десенсибилизацию и переработку с помощью движений глаз (EMDR) и гештальт-терапию, с точки зрения теоретических и эмпирических доказательств. Исследование основано на систематическом обзоре литературы. Были отобраны и проанализированы научные статьи и монографии, опубликованные в 2010–2025 годах в таких базах данных, как APA PsycINFO, PubMed, ScienceDirect и Google Scholar. В ходе анализа оценивались терапевтические механизмы, продолжительность вмешательства, снижение симптомов, долговременная устойчивость и возможности индивидуализации применения. Результаты показывают, что КПТ широко используется в клинической практике благодаря своей структурированной протокольной модели и сильной эмпирической базе доказательств. Психодинамическая и гештальт-терапии играют важную роль в исследовании глубоких эмоциональных аспектов человеческого опыта, тогда как EMDR демонстрирует эффективность при лечении травматических и тревожных расстройств за счёт более коротких сеансов. В рекомендациях подчёркивается необходимость проведения более строгих рандомизированных контролируемых исследований, адаптации вмешательств к культурному контексту, внедрения междисциплинарных модулей в подготовку психотерапевтов и расширения доказательных онлайн-форматов (КПТ/EMDR).
Ключевые слова: КПТ, психоанализ, ДПДГ (EMDR), гештальт, сравнительный обзор, интегративная психотерапия.

Giriş

Koqnitiv davranış terapiyası (KDT) davranış və koqnitiv inkişaf nəzəriyyələrinə istinad edən, geniş istifadə olunan terapiya üsuludur. KDT-nin əsas ideyası odur ki, koqnitiv proseslər emosiyalara və davranışlara əhəmiyyətli dərəcədə təsir göstərir. Bu terapiyada əsas məqsəd disfunksional düşüncələri müəyyən edib onları dəyişməklə fərdlərin emosional reaksiyalarını və davranışlarını yaxşılaşdırmaqdır (Leder, 2016). Aron Bek kimi böyük nəzəriyyəçilər, koqnitiv sxemlərin insan təcrübəsinə təsirini və maladaptiv reaksiyalara səbəb olacağını vurğulamışdır (Leder, 2016). KDT müxtəlif psixoloji problemlərin həllində koqnitiv və davranış texnikalarından istifadə edir və xüsusilə təşviş və depressiya kimi pozuntularda düşüncə və emosional vəziyyətlər arasındakı əlaqəyə diqqət yetirir (Inasaridze, 2021; Fernandez və b., 2021).

KDT-də istifadə olunan strategiyalar, məsələn, koqnitiv yenidənqurma və davranış aktivləşdirməsi neqativ emosiyalara və dağıdıcı davranışlara səbəb olan koqnitiv təhriflərlə mübarizə aparmağa kömək edir (Солохина & Lyadnova, 2025; Fischer və b., 2013). Koqnitiv yenidənqurma pasientlərə irrasional düşüncələri müəyyən etməsinə və onlara qarşı çıxmasına kömək edir ki, bu da onların psixoloji reabilitasiyasında mühüm rol oynayır (Солохина & Lyadnova, 2025). Davranış aktivləşdirməsi isə insanları dəyərli fəaliyyətlərə cəlb edir və emosional pozuntularında tez-tez müşahidə olunan sosial qaçınma davranışlarının qarşısını alır (Fernandez və b., 2021). Bu strategiyalar müxtəlif əhali qruplarında, o cümlədən ağır psixi xəstəlikləri olan insanlarda da effektivliyini göstərmişdir (Dopke və b., 2004; Chaurasia və b., 2023).

KDT-nin nəzəri əsasları yeni tədqiqatlarla davamlı şəkildə təkmilləşdirilir. Bu elmi axtarışlar KDT-nin etibarlılığını artırır və müxtəlif klinik qruplara uyğunlaşdırmağa imkan verir, beləliklə nəzəri və praktik imkanlarını genişləndirir (Zavareh və b., 2025). KDT-nin ailə terapiyasında və gənclər arasında tətbiqi onun uyğunlaşma qabiliyyətini və nəzəri prinsiplərinin geniş əhəmiyyətini vurğulayır (Fischer və b., 2013; Siemionow, 2020). Müasir praktik psixologiyada “üçüncü dalğa” yanaşmalarının, məsələn, “Qəbul və öhdəlik terapiyası”nın (Acceptance and Commitment Therapy – ACT) KDT-yə inteqrasiyası onun ənənəvi əsaslarını zənginləşdirir və şüurlu fərqindəlik, qəbul strategiyaları əlavə edir (Scherf və b., 2018). Bu yeniliklər KDT-nin əsas prinsiplərinin inkişafını və terapevtik təsirinin genişlənməsini göstərir (McCoy və b., 2013).

Nəticə etibarı ilə qeyd edə bilərik ki, Koqnitiv davranış terapiyası koqnitiv nəzəriyyələri terapevtik texnikalarla birləşdirərək müxtəlif psixoloji pozuntularda müsbət təsiri təsdiqləmişdir. Bununla yanaşı, psixoterapiya sahəsi təkcə KDT ilə məhdudlaşmır. Müasir psixoloji təcrübədə psixodinamik və psixoanalitik yanaşmalar, Geştalt terapiyası və

EMDR kimi fərqli terapiyalar da geniş istifadə olunur. Bu terapiya üsulları psixi sağlamlıq problemlərinə özünəməxsus nəzəri və metodoloji çərçivədən yanaşır. Bu baxımdan KDT-nin digər terapiya istiqamətləri ilə müqayisəsi nəzəri və praktik baxımdan vacibdir.

Metod

Bu tədqiqatda nəzəri müqayisəli təhlil və sistematik ədəbiyyat icmalı metodlarından istifadə edilmişdir. Araşdırma 2010–2025-ci illər arasında APA PsycINFO, PubMed, ScienceDirect və Google Scholar elmi bazalarında dərc edilmiş 40-a yaxın elmi məqalə və monoqrafiyanın təhlili əsasında aparılmışdır.

Məqalənin məqsədi:

1. KDT-nin nəzəri və praktik əsaslarını təyin etmək;
2. KDT-ni psixoanaliz, EMDR və Geştalt terapiyası ilə müqayisə etmək;
3. Müxtəlif terapiya üsulları ilə KDT-nin inteqrasiya imkanlarını qiymətləndirmək.

Tədqiqatın metodologiyası nəzəri-analitik və konseptual sintez xarakter daşıyır.

KDT və Psixodinamik/Psixoanaliz

Ziqmund Freyd tərəfindən əsası qoyulan psixoanaliz şüuraltı düşüncələri, uşaqlıq təcrübələrini və emosional konfliktləri aydınlaşdırmağa istiqamətlidir. Azad assosiasiya, yuxu analizi və simvolların interpretasiyası kimi texnikalar şüuraltı elementlərə çıxış əldə etmək və pasientdə dərin özünüanlama formalaşdırmaq üçün tətbiq olunur. Bu uzunmüddətli terapiya əsasən bir neçə il davam edir və şəxsiyyətin davamlı dəyişimini hədəfləyir. Araşdırmalar göstərir ki, uzunmüddətli psixoanalitik terapiya xüsusən depressiya və şəxsiyyət pozuntuları kimi hallarda müsbət irəliləyişlə nəticələnə bilər (Fonagy və b., 2005; Solms, 2018). Psixoanalizin əsas fərziyyəsi ondan ibarətdir ki, şüuraltı konfliktlərin həlli psixi sağlamlığın yaxşılaşmasına səbəb olur.

Digər tərəfdən, KDT psixoloji problemlərin əsasən disfunksional koqnitiv proseslərdə olduğunu iddia edir. Düşüncələrin və davranışların dəyişdirilməsinə yönələn KDT, adətən, 5-20 seans aralığında təşkil olunmuş və vaxtla məhdudlaşdırılmış formatda həyata keçirilir. Xüsusilə təşviş, affektiv pozuntuları və müxtəlif davranış problemlərində təsirli hesab olunur (Padmasiri & Jayathilake, 2014; Daryabeigi və b., 2020; Steinert və b., 2017). Bir çox təqiqatlar KDT-nin effektivliyini təsdiqləmiş, simptomlarda əhəmiyyətli azalma və etibarlı dəlillər təqdim etmişdir (Stefana və b., 2023; Gascón və b., 2021). Beləliklə, KDT pariyentdə əlamətlərin qısa müddət ərzində azalmasını və praktik bacarıqların formalaşdırılmasını aktual edir, yəni psixoanalizə xas olan introspektiv yanaşmadan bir qədər fərqlənir. Bununla belə, hər iki terapiyanın sintezi inteqrativ imkanlar da yarada bilər. Son tədqiqatlar göstərir ki, hər iki terapiya əsasən ortaq məqsədlərə xidmət edir və müxtəlif psixi sağlamlıq problemlərində oxşar nəticələr əldə edirlər (Milton, 2001; Mares, 2022; Shahar, 2021). Məsələn, hər iki yanaşma terapevtik əməkdaşlığın qurulmasına və özünüdərk bacarığının gücləndirilməsinə çalışır. Üstəlik, psixoanalizin əsas anlayışlarından biri olan şüuraltı proseslər müəyyən mənada KDT-də də qəbul edilir ki, bu da hər iki məktəb arasında dialoqun mümkünlüyünə dair göstəricidir (Javel, 1999; Mares, 2022).

Psixoanaliz və ya KDT-nin üstünlüyü ilə bağlı müzakirələr psixoterapiya icmasında hələ də davam etməkdədir. KDT qısa müddətli faydaları və empirik sübutları ilə geniş yayılmış, psixoanaliz isə dərin şəxsiyyət dəyişikliklərinə və uzunmüddətli inkişaf potensialına görə qiymətləndirilmişdir. Bəzi tədqiqatlar onların effektivliyi arasında ciddi fərq olmadığını da irəli sürür (Fonagy və b., 2005; Steinert və b., 2017; Solms, 2018). Buna görə də seçim pasientin spesifik ehtiyaclarından, prioritetlərindən və terapevtin nəzəri yönəlişindən asılı olaraq dəyişir.

Nəticə etibarilə, həm psixoanaliz, həm də KDT fərqli yanaşmalar təqdim etsə də, hər ikisi psixoloji problemlərin həllində qiymətli alət hesab edilir. Onların inteqrasiyası şüurlu və şüuraltı aspektlərin nəzərə alındığı holistik terapevtik yanaşmada da kəsişə bilər.

KDT və EMDR

"Göz hərəkəti ilə desensitizasiya və yenidən işləmə" (EMDR) "Koqnitiv davranış terapiyası" (KDT) kimi travma sonrası stres pozuntusu (PTSS) və təşvişlə bağlı müxtəlif pozuntuların müalicəsində çox istifadə olunan terapevtik metoddur. Hər iki terapiyanın empirik sübutları vardır. Lakin onların metodologiyaları və effektivliyi pasiyent xüsusiyyətlərindən, problemin məzmunundan asılı olaraq fərqlənir.

Mövcud ədəbiyyatlar göstərir ki, həm EMDR, həm də KDT PTSS simptomlarını yüngülləşdirməkdə faydalı olan terapiyalardır. Məsələn, Khan və həmkarlarının meta-analiz tədqiqatı göstərmişdir ki, EMDR xüsusilə intruziv (istənilməyən təkrar düşüncələr) və oyanıqlıq simptomları baxımından KDT-dən bir qədər üstün görünür, lakin pasiyentin qaçınma əlamətləri ilə bağlı hər iki terapiya arasında ciddi fərq görülməmişdir (Khan və b., 2018).

KDT və EMDR arasındakı fərqləndirici cəhət odur ki, EMDR vasitəsi ilə alınan müsbət nəticələr çox qısa müddətdə əldə edilir. Karimi və həmkarları göstərirlər ki, EMDR uzunmüddətli terapevtik təsiri vardır və tez-tez KDT-yə nisbətən daha az seans tələb edir, bu da pasiyentin terapiyaya bağlılığını artırır (Karimi və b., 2020). Bu xüsusiyyət klinik şəraitdə, xüsusən də müalicə imkanlarının məhdud və ya pasiyentin cədvəlinin sıx olduğu hallarda əhəmiyyətli üstünlük hesab edilir.

PTSS ilə yanaşı, hər iki terapiyanın digər vəziyyətlər, xüsusən də depressiyanın müalicəsində səmərəliliyi araşdırılmışdır. Məsələn, Ostacoli və həmkarları müəyyən etmişlər ki, EMDR da, KDT də təşviş və travma sonrası əlamətləri uzunmüddətli dövrdə azaltmaqda təsirlidir (Ostacoli və b., 2018). Bundan əlavə, EMDR-in təkrarlanan depressiya yaşayan pasiyentlərdə uğurla tətbiqi onun yalnız PTSS deyil, daha geniş spektrli problemlərdə də səmərəli ola biləcəyini göstərir (Ostacoli və b., 2018).

Nəticə etibarilə qeyd edə bilərik ki, həm EMDR, həm də KDT PTSS və digər təşviş pozuntularının simptomlarını aradan qaldırmaq üçün faydalı hesab olunacaq terapiyalardır. Lakin onların səmərəliliyi pasiyent xüsusiyyətlərindən asılı olaraq dəyişə bilər. Davam edən tədqiqatlar bu terapiyaların fərqli mexanizmlərini və alınan nəticələrini aydınlaşdırdıqca, psixoterapevtlər pasiyentlərin ehtiyaclarına uyğun müdaxilələri daha yaxşı şəkildə fərdiləşdirə bilirlər.

KDT və Geştalt

Geştalt terapiyası fenomenoloji və ekzistensial yanaşmalara əsaslanan, fərdi təcrübə və fərqindəlik üzərində qurulmuşdur. Bu terapiya terapevtik münasibətə və "burada və indi" təcrübəsinə diqqət yetirir, emosional əlaqə və özünüdərki inkişaf etdirir. "Boş stul" kimi texnikalar insanın özü ilə olan dialoqunu asanlaşdırır, emosional ifadə və şəxsi inkişafa təşviq edir (Fodor, 2001; Kellogg, 2004). Bu texnikalar fərdləri öz düşüncə və davranışlarına görə məsuliyyət daşımağa yönləndirir. Bu da Geştalt fəlsəfəsinin əsas prinsipidir (Tønnesvang və b., 2010).

Müqayisəli tədqiqatlar KDT və Geştalt terapiya arasında müxtəlif fərqlərinin olduğunu göstərir. Geştalt oyun terapiyası ilə KDT-nin təsir gücünü müqayisə edən tədqiqatlar göstərir ki, Geştalt müdaxilələri müəyyən davranış nəticələrində, məsələn, uşaqlarda aqressiv davranışın azaldılmasında əhəmiyyətli irəliləyyişlə nəticələnir (Tavakoli və b., 2024). Bu nəticə onu göstərir ki, KDT xüsusilə təşviş pozuntuları üçün geniş tətbiq olunsa da, Geştalt terapiyası bəzi xüsusi insan qrupları və problemlər üçün daha faydalı ola bilər (Tønnesvang və b., 2010).

Hər iki yanaşmanın üstünlüklərinə baxmayaraq, Geştalt terapiyası üzrə empirik tədqiqatlar hələ də KDT ilə müqayisədə azlıq təşkil edir. Son illərdə aparılan tədqiqatlar Geştalt terapiyasına marağın artdığını və travma, təşviş kimi problemlərin həllində faydalı olsa belə, bu terapiya hələ də KDT-nin müəyyən edilmiş protokollarına nisbətən sistematik nəticələr göstərmir (Raffagnino, 2019; Herrera və b., 2019). Geştalt terapiyasının müstəqil və inteqrasiya olunmuş yanaşma kimi səmərəliliyinə əmin olmaq və artırmaq üçün tədqiqatlara ehtiyac vardır (Raffagnino, 2019).

Nəticə etibarilə qeyd edə bilərik ki, həm Geştalt terapiyası, həm də KDT insan psixologiyasını anlamaqda və terapevtik yanaşmalar təqdim etməkdə yeni bacarıqlar qazandırır. KDT-in strukturlaşdırılmış empirik dəstəyi sayəsində klinik təcrübədə daha dominant mövqedə olsa da, Geştalt terapiyanın təcrübəyə və münasibətə əsaslanan yanaşması onun koqnitiv-davranış texnikaları ilə birləşdirildikdə terapevtik prosesi daha da zənginləşdirə bilər. Gələcək tədqiqatlar bu inteqrativ yanaşmanı araşdırmalı və müxtəlif kliyent ehtiyaclarını qarşılayan səmərəli terapevtik strategiyalar formalaşdırmalıdır.

Müzakirə

Müxtəlif psixoterapiya yanaşmalarının müqayisəsi nəticəsində qeyd edə bilərik ki, terapevtik metodların effektivliyi onların hədəflədiyi psixoloji mexanizmlərlə sıx əlaqədədir. Koqnitiv davranış terapiyası daha çox düşüncə-emosiya-davranış üçlüsünün qarşılıqlı təsirinə yönələrək irrasional inancların və disfunksional sxemlərin dəyişdirilməsini məqsədini daşımaqdadır. Bu terapiya, əsasən şüurlu koqnitiv proseslər vasitəsilə reallığın yenidən mənalandırılmasını təmin edir.

Psixoanaliz və psixodinamik yanaşmalar isə daha çox şüuraltı proseslərin və erkən inkişaf mərhələlərində formalaşan müdafiə mexanizmlərinin işlənməsinə əsaslanır. Bu iki yanaşmasın fərqi yalnız metodoloji deyil, həm də nevropsixoloji səviyyədə təzahür edir. Yəni psixoanalizdə limbik sistemin emosional emalı ön planda olur, KDT-də isə alın payının rasionallaşdırıcı funksiyası aktivləşir (Solms, 2018; Beck, 2011). Bu baxımdan, hər iki yanaşma beynin emal prosesinin müxtəlif səviyyələrində iştirak edir və onların inteqrasiyasını elmi cəhətdən əsaslandırır.

EMDR terapiyası isə neyrobioloji səviyyədə travmatik xatirələrin emal prosesinə yönələn, beyin yarımkürələri arasında neyron əlaqə yaradan metodologiyadır (Shapiro, 2018). Bu terapiya beynin emosional və koqnitiv mərkəzlərini aktivləşdirərək travmatik təcrübənin yenidən işlənməsini təmin edir. EMDR və KDT-nin əlaqələndirilməsi psixoterapiyada koqnitiv restrukturizasiya və neyrofizioloji desensitizasiya mexanizmlərinin sintezini yarada bilər, bu da öz növbəsində inteqrativ psixoterapiya paradiqması ilə kəsişir.

Qeyd edildiyi kimi, Geştalt terapiyası fenomenoloji və ekzistensial prinsiplərə əsaslanaraq insanın "indiki an"da iştirakını və psixoterapevtlə pasient arasında bərabər, empatik əlaqəni əsas tutur (Yontef, 1993). KDT və Geştalt terapiyanın birləşməsi, pasiyentdə həm idrak, həm də emosional dəyişiklikləri qüvvətləndirə bilər.

Müasir araşdırmalardan görünür ki, "inteqrativ paradiqma" meyilliyi artmaqdadır. Bu müxtəlif terapevtik modellərin neyrobioloji, koqnitiv və fenomenoloji səviyyələrdə sintezi məqsədəuyğundur (Norcross &

Goldfried, 2019). Çünki, KDT, EMDR, psixoanaliz və Geştalt terapiyaları bir-birini inkar edən deyil, bir-birini tamamlayan sistemlər kimi tətbiq edilə bilər.

Nəticə

Aparılan müqayisəli təhlil nəticəsində aşağıdakı nəticələr əldə edildi:

1. KDT, qısa müddətdə əlamətlərin azalmasına, funksional düşüncə və davranış modellərinin bərpasına istiqamətmətlənmiş, elmi əsaslı terapiyadır. Onun strukturlaşdırılmış protokolları kliniki təcrübədə etibarlılığını qoruyur.
2. Psixodinamik və psixoanalitik yanaşmalar dərin emosional inteqrasiyanı və şəxsiyyət dəyişimini təmin edir, lakin müəyyən bir nəticənin əldə edilməsi üçün üzünmüddətli terapiya prosesi tələbini qoyur.
3. EMDR, travma ilə əlaqəli pozuntuların bərpasında beynin neyroemal mexanizmlərinə əsaslanan təkrarsız yanaşma nümayiş edir və seans sayının az olması ilə üstünlük göstərən terapiyadır.
4. Geştalt terapiyası, fərdin özünüdərkini və emosional təcrübə ilə əlaqəsini gücləndirərək psixoloji elastiklik və fərqindəlik bacarıqlarını artırır.
5. Müxtəlif terapiya texnikalarının inteqrativ istifadəsi çoxölçülü müdaxilə modelinin formalaşmasına şərait yaradır, bu isə öz növbəsində müxtəlif psixopatoloji problemlərin həllində müsbət nəticələr verə bilər.
6. Psixoterapiya növlərinin gələcək perspektivi göstərir ki, fundamental nəzəri fərqləri qoruyaraq, elmi əsaslı hibrid modellərin inkişaf etdirilməsi aktual olacaqdır.

Təkliflər

1. Müxtəlif terapiya növləri haqqında nəzəri və neyropsixoloji səviyyədə əlaqəni qiymətləndirən çoxyönlü, empirik tədqiqatlar aparılmalıdır. Bu, psixoterapiyanın elmi bazasını zənginləşdirəcəkdir.
2. KDT və EMDR terapiyaların onlayn və süni intellekt əsaslı formada tətbiqi genişləndirilməli, rəqəmsal platformaların terapevtik səmərəliliyinin olub olmaması elmi müstəvidə qiymətləndirilməlidir.
3. Terapiyaların təsirini obyektiv qiymətləndirmək üçün EEG, fMRI və psixofizioloji göstəricilər tətbiq olunmalı, psixoterapiya və neyroelm arasında interdisiplinar elmi əməkdaşlıq gücləndirilməlidir.

ƏDƏBIYYAT SİYAHISI:

1. Bardideh, F., Jarareh, J., Mofrad, M., & Bardideh, K. (2022). The effectiveness of integrated group therapy on prolonged grief disorder of bereaved people from COVID-19: Randomized controlled trial. Omega—Journal of Death and Dying, 91(2), 675–692.
2. Bardideh, M., Sadeghi, R., & Mahdizadeh, H. (2022). Integrating Gestalt techniques with cognitive-behavioral interventions in grief therapy: An experimental approach. Journal of Contemporary Psychotherapy, 52(1), 55–67.
3. Beck, A. T. (2011). Cognitive therapy of depression (40th anniversary ed.). Guilford Press.
4. Cape, J., Whittington, C., Buszewicz, M., Wallace, P., & Underwood, L. (2010). Brief psychological therapies for anxiety and depression in primary care: Meta-analysis and meta-regression. BMC Medicine, 8(1), 38.
5. Chaurasia, N., Mishra, P., Malik, G., & Garg, S. (2023). Cognitive-behavioral therapy for insomnia (CBT-I) for schizophrenia: A review. Journal of Mountain Research, 18(2).
6. Daryabeigi, M., Pourmohamdreza-Tajrishi, M., Dolatshahi, B., & Bakhshi, E. (2020). The effectiveness of cognitive-behavioral therapy on internalizing problems of children with externalizing disorders. Iranian Rehabilitation Journal, 18(2), 193–202.
Leadership and gender: a dangerous liaison? C. Trinidad, Anthony H. Normore, 2005	Women tend to adopt democratic, participative, and transformational leadership styles in business and education.	- Women tend to adopt democratic and participative leadership styles, with transformational leadership being a preferred style. - Despite increased participation in education and lower to medium-level positions, women are underrepresented in higher leadership roles. - Prejudices and gender stereotypes are major barriers to women's career advancement, leading to a waste of human resources.
When it comes to leadership, does gender matter? Anwar Hasan, A. Othman, 2013	Women's leadership styles can be more effective and productive than men's in less hierarchical organizations, as women tend to be more participatory and collaborative.	- Women's leadership styles are more effective and productive in less hierarchical organizations. - There are differences in leadership styles between men and women, although these differences are relatively small. - Women leaders are participatory and collaborative in nature.
Biases in appraisals of women leaders. D. Forsyth, Michele Heiney, Sandra S. Wright, 1997	Individuals' reactions to women leaders are influenced by their expectations about the role of women and men in society.	- Biases against women leaders are influenced by societal expectations about gender roles and are not limited to men. Conservative individuals viewed task-oriented leaders as more effective but rated them lower on collegiality.
Role congruity theory of prejudice toward female leaders. A. Eagly, S. Karau, 2002	Perceived incongruity between female gender roles and leadership roles leads to prejudice against women as leaders.	- The role congruity theory of prejudice toward female leaders suggests that perceived incongruity between the female gender role and leadership roles leads to two forms of prejudice: perceiving women as less qualified for leadership and evaluating their leadership behavior less favorably. - These forms of prejudice result in less favorable attitudes toward female leaders and potential leaders, as well as difficulties in accessing and succeeding in leadership roles. - The effectiveness of female leaders compared to male leaders varies depending on the context of leadership roles, with women potentially being more successful in roles that
Leader gender stereotypes and transformational leadership: Does leader sex make the difference? Sarah E. Saint-Michel , 2018	Female leaders who self-describe as highly communal are perceived as more transformational, while women's agentic attributes also positively relate to transformational leadership perceptions.	- Female leaders who self-describe as highly communal are perceived as more transformational than male leaders. - Female leaders with agentic attributes are also perceived as more transformational, contrary to expectations. - Male leaders are perceived as less transformational than female leaders, regardless of their communal or agentic characteristics.
Transformational, transactional, and laissez-faire leadership styles: a meta-analysis comparing women and men A. Eagly, Mary C. Johannesen-Schmidt, M. V. van Engen, 2003	Female leaders are more transformational and engage in more contingent reward behaviors, while male leaders are more transactional and laissez-faire.	- Female leaders are more transformational and engage more in contingent reward behaviors compared to male leaders. - Male leaders are more likely to exhibit other transactional leadership aspects and laissez-faire leadership. - The leadership styles where women excel are positively related to effectiveness, while those where men excel have negative or null relations to effectiveness.

Male vs Female Leaders: Analysis of Transformational, Transactional & Laissez-faire Women Leadership Styles D.A.C.Suranga Silva, B. Mendis, 2017	Female leaders exhibit more transformational leadership qualities compared to male leaders.	- Female leaders tend to exhibit more transformational leadership qualities compared to male leaders. - Transformational leadership helps female leaders overcome obstacles and align with gender role expectations. - Conforming to gender roles can impede female leaders' ability to meet role requirements.
Untangling the relationship between gender and leadership K. Rhee, T. Sigler, 2015	Women leaders face challenges overcoming gender stereotypes and bias, even when exhibiting masculine leadership styles.	- Participatory leadership styles were perceived as more effective and preferred over authoritarian styles. - Male leaders were rated as more effective and preferred over female leaders. - Female leaders who deviated from traditional gender stereotypes were viewed as less effective and less preferred.
Social psychological approaches to women and leadership theory Crystal L. Hoyt, S. Simon, 2017	Gender stereotypes and biases create barriers for women in leadership roles.	- Women tend to use a transformational leadership style more than men, which is associated with effectiveness. - Women are no less effective or motivated as leaders compared to men. - Women face significant barriers in leadership due to stereotype-based expectations and biases, including stereotype threat.

Conclusion

Findings show that when it comes to leading colleges and universities, men and women often have different styles, but these styles are flexible and can change depending on what's needed. Women leaders tend to focus on working together, sharing new ideas, and helping others grow. Men leaders are more often about making sure rules are followed, giving clear instructions, or stepping back to let people do their work. Both men and women can change how they lead based on what their university needs, which shows that being a good leader isn't just about being a man or a woman, but about using different ways of leading. Women's way of inspiring and encouraging others usually helps the university succeed, while rules and structure are also important to keep things running smoothly. The best leadership happens when these different styles are combined. However, there are still unfair ideas and obstacles that make it harder for women to become top leaders in university.

Recommendations:

1. Leadership Training and Development Programs

Specialized training programs should be designed for women and men in leadership positions within higher education institutions to develop combined (transformational and transactional) leadership styles. These programs can enhance leaders' abilities to promote collaboration and innovation while maintaining structured and results-oriented management practices.

2. Promotion of Gender Balance

Maintaining gender balance in governing boards and decision-making structures of higher education institutions is essential. Team management that integrates diverse leadership styles of both women and men can lead to more effective organizational outcomes.

3. Contextualized Leadership Models

Findings indicate that effective governance is not limited to a single leadership style. Therefore, universities should develop hybrid leadership models adapted to their institutional culture and implement flexible management mechanisms for their leaders.

4. Support Mechanisms for Women Leaders

To fully realize the potential of women leaders inclined toward transformational leadership, mentorship programs, networking opportunities, and increased participation in decision-making processes should be promoted.

REFERENCES:

1. Bales, R. F. (1950). *Interaction process analysis: A method for the study of small groups.* Addison-Wesley.
2. Bass, B. M. (1998). *Transformational leadership: Industry, military, and educational impact.* Erlbaum.
3. Bass, B. M., Avolio, B. J., & Atwater, L. (1996). The transformational and transactional leadership of men and women. *Applied Psychology: An International Review, 45*(1), 5–34.
4. Biddle, B. J. (1979). *Role theory: Expectancies, identities, and behaviors.* Academic Press.
5. Bono, J. E., & Judge, T. A. (2000). Responses to transformational leadership: Are some followers immune? Paper presented at the annual meeting of the Academy of Management, Toronto, Ontario, Canada.
6. Book, E. W. (2000). *Why the best man for the job is a woman.* HarperCollins.

7. Burgess, D., & Borgida, E. (1999). Who women are, who women should be: Descriptive and prescriptive gender stereotyping in sex discrimination. *Psychology, Public Policy, and Law, 5*(3), 665–692.
8. Burns, J. M. (1978). *Leadership.* Harper & Row.
9. Bushman, B. J., & Anderson, C. A. (2001). Media violence and the American public: Scientific facts versus media misinformation. *American Psychologist, 56*(6–7), 477–489.
10. Carless, S. A. (1998). Gender differences in transformational leadership: An examination of superior, leader, and subordinate perspectives. *Sex Roles, 39*(11–12), 887–902.
11. Carless, S. A., Wearing, A. J., & Mann, L. (2000). A short measure of transformational leadership. *Journal of Business and Psychology, 14*(3), 389–405.
12. Cronbach, L. J. (1990). *Essentials of psychological testing* (5th ed.). HarperCollins.
13. DeGroot, T., Kiker, S. D., & Cross, T. C. (2000). A meta-analysis to review organizational outcomes related to charismatic leadership. *Canadian Journal of Administrative Sciences, 17*(4), 356–371.
14. Eagly, A. H., & Johnson, B. T. (1990). Gender and leadership style: A meta-analysis. *Psychological Bulletin, 108*(2), 233–256.
15. Eagly, A. H., & Johannesen-Schmidt, M. C. (2001). The leadership styles of women and men. *Journal of Social Issues, 57*(4), 781–797.
16. Eagly, A. H., & Karau, S. J. (2002). Role congruity theory of prejudice toward female leaders. *Psychological Review, 109*(3), 573–598.
17. Eagly, A. H., Karau, S. J., Miner, J. B., & Johnson, B. T. (1994). Gender and motivation to manage in hierarchic organizations: A meta-analysis. *Leadership Quarterly, 5*(2), 135–159.
18. Eagly, A. H., Johannesen-Schmidt, M. C., & Van Engen, M. (2003). Transformational, transactional, and laissez-faire leadership styles: A meta-analysis comparing women and men. *Psychological Bulletin, 129*(4), 569–591.
19. Eagly, A. H., & Johnson, B. T. (1990). Gender and leadership style: A meta-analysis. *CHIP Documents, 11.* https://opencommons.uconn.edu/chip_docs/11
20. Ely, R. J. (1995). The power in demography: Women's social constructions of gender identity at work. *Academy of Management Journal, 38*(3), 589–634.
21. Forsyth, D. R., Heiney, M., & Wright, S. S. (1997). Biases in appraisals of women leaders. *Group Dynamics: Theory, Research, and Practice, 1*(2), 98–103.
22. Foschi, M. (1992). Gender and double standards for competence. In C. L. Ridgeway (Ed.), *Gender, interaction, and inequality* (pp. 181–207). Springer-Verlag.
23. Foschi, M. (2000). Double standards for competence: Theory and research. *Annual Review of Sociology, 26*, 21–42.
24. Hasan, A., & Othman, A. H. (2013). When it comes to leadership, does gender matter? *Oman Chapter of Arabian Journal of Business and Management Review, 2*(6), 71–78.
25. Hoyt, C. L., & Simon, S. (2017). Social psychological approaches to women and leadership theory. [Unpublished manuscript].
26. Judge, T. A., & Bono, J. E. (2000). Five-factor model of personality and transformational leadership. *Journal of Applied Psychology, 85*(5), 751–765.
27. Rhee, K. S., & Sigler, T. H. (2015). Untangling the relationship between gender and leadership. *Gender in Management: An International Journal, 30*(2), 109–134.
28. Saint-Michel, S. E. (2018). Leader gender stereotypes and transformational leadership: Does leader sex make the difference? *Equality, Diversity and Inclusion, 37*(3), 259–274.
29. Schein, V. E. (2001). A global look at psychological barriers to women's progress in management. *Journal of Social Issues, 57*(4), 675–688.
30. Silva, D., & Mendis, B. (2017). Male vs female leaders: Analysis of transformational, transactional & laissez-faire women leadership styles. *European Journal of Business and Management, 9*(15), 19–26.
31. Trinidad, C., & Normore, A. H. (2005). Leadership and gender: A dangerous liaison? *Leadership & Organization Development Journal, 26*(7), 574–590.
32. Van Engen, M. L., van der Leeden, R., & Willemsen, T. M. (2001). Gender, context and leadership styles: A field study. *Journal of Occupational and Organizational Psychology, 74*(5), 581–598.
33. Wood, W. (1987). Meta-analytic review of sex differences in group performance. *Psychological Bulletin, 102*(1), 53–71.
34. Yoder, J. D. (2001). Making leadership work more effectively for women. *Journal of Social Issues, 57*(4), 815–828.
35. Yukl, G. (2002). *Leadership in organizations* (5th ed.). Prentice-Hall

DOİ: 10.32010/WIDL1318

UŞAQLARDA HUMANİST DƏYƏRLƏRİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ VALİDEYNLƏRİN VƏ TƏRBİYƏÇİ-MÜƏLLİMLƏRİN ŞƏXSİ KEYFİYYƏTLƏRİNİN TƏSİRİ

Ayşən Ramiz BABAYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Məktəbəqədər təhsil/Məktəbəqədər təhsilin pedaqogikası
Orcid: https://orcid.org/0000-0001-8323-7609
E-mail: b.ayshan@mail.ru

Xülasə: Bu məruzədə uşaq bağçasında tərbiyəçi-müəllim uşağın həyatında böyük rol oynadığı qeyd olunur. Çünki, uşağın 1-6 yaş dövründə aldığı aldığı tərbiyə onun bütün həyatı boyu alacağı tərbiyənin özülünü təşkil edir və gələcək həyatına böyük təsir göstərir. Tərbiyəçi-müəllimin uşağın tərbiyəsində, psixikasında olan pozğunluqları aşkarlayır və onları aradan qaldırmağa çalışır.

Bu prosesdə valideyn və tərbiyəçilərin də rolu böyükdür. Məktəbəqədər yaşlı uşaq valideynini və ya tərbiyəçi-müəllimini özünə ideal seçir və çalışır ki, onun etdiyi hərəkətləri icra etsin, ona oxşasın. Bu zaman valideyn və ya tərbiyəçi-müəllimin üzərinə böyük iş düşür.Onlar öz hərəkətlərini və emosiyalarını idarə etməyi bacarmalıdırlar.Uşağın psixologiyasına, tərbiyəsinə ziyan verəcək davranışlara yol verməməlidir. Hər bir tərbiyəçi-müəllimdə uşağa qarşı xeyirxah qəlb olmalıdır. Belə bir tərbiyəçi-müəllim uşağın hər bir işini yaxşı bilər, onu işə həvəsləndirər və qiymətləndirər. O, uşağa bilik mənimsətməklə yanaşı, onda mənəvi keyfiyyətlərin formalaşmasına ciddi təsir göstərməlidir.

Nizami Gəncəvinin tərbiyəçi haqqında fikirlərindən aydın olur ki, "tərbiyəçi ilk öncə özünün dərin biliyi, yüksək mənəviyyatı, əxlaqı ilə seçilməlidir. O, tərbiyəçini yüksək əql və mənəviyyat sahibi" hesab edirdi.

Tərbiyəçi-müəllimin ən mühüm keyfiyyəti onun əxlaqında, mənəvi paklığında, təmizliyindədir. Onun nümunəsində aqil, gözəl mənəviyyatlı tərbiyəçi-müəllimlərində yetişdirdiyi şəxsiyyətlər mənəvi cəhətdən inkişaf etmiş, insani hiss və duyğulara malik şəxsiyyətlər olacaqdır.

Tərbiyəçi-müəllim öz şəxsi keyfiyyətlərindən istifadə edərək xeyir və şərin nə olduğunu, xeyrin şər üzrində həmişə qələbə çaldığını, şər işlərdən, pis əməllərdən uzaq olmağı onlara öz nümunələri ilə göstərməli və izah etməlidir.

Açar sözlər: tərbiyəçi-müəllim, məktəbəqədər təhsil, humanist dəyərlər, humanist hisslər, uşaq, valideyn

---

THE INFLUENCE OF THE PERSONAL QUALITIES OF EDUCATORS AND PARENTS ON THE DEVELOPMENT OF HUMANİSTİC VALUES IN CHILDREN

Ayshan Ramiz BABAYEVA
Azerbaijan State Pedagogical University
Orcid: https://orcid.org/0000-0001-8323-7609
E-mail: b.ayshan@mail.ru

Abstract: In this report, it is noted that the role of parents and educators in great in the development of humanistic values in children. In kindergarten, the theacher plays a big role in the life of the child.Because, the education a child receives during the period of 1-6 years forms the basis of the education he will receive throughout his life and has a great influence on his future life. The educator-teacher detects disorders in the upbringing and psyche of the child and tries to eliminate them.

A kindergarten-aged child chooses his parent or tutor as his ideal and tries to make him to do the actions he does, to be like him. At this time, a big task falls on the parent or tutor. They must be able to cjntrol their actions and emotions. They should not allow behaviors that will damage the childs psychology and upbringing.

The demand and help of adults in the family, especially parents, creates conditions for the development of childrens mental processes and their personalities.

Key words: educator-teacher, preschool education, humanistic values, humanistic feelings, parent

---

ВЛИЯНИЕ ЛИЧНОСТНЫХ КАЧЕСТВ РОДИТЕЛЕЙ И ПЕДАГОГОВ НА РАЗВИТИЕ ГУМАНИСТИЧЕСКИХ ЦЕННОСТЕЙ У ДЕТЕЙ

Айшан Рамиз БАБАЕВА
Азербайджанский государственный педагогический университет
https://orcid.org/0000-0001-8323-7609
Электронная почта: b.ayshan@mail.ru

Резюме: В этом отмечается, что велика роль родителей и воспитателей в развитии у детей гуманистических ценностей. В детском саду воспитатель играет большую роль в жизни ребенка. Потому что образование, он будетполучает в период 1-6 лет, составляет основу образования, которое он будет получать на прояжении всей своей жизни, и имеет большое влияние на его дальнейшую жизнь.Воспитатель-учитель выявляет нарушения в воспитании и психике ребенка и старается их устранить.

Ребенок детсадовского возраста выбирает родителя или воспитателя своим иделом и пытается заставить его делать те же действия, что и он, чтобы быт похожим на него. В это время на родителья или воспитателья ложится бодьшая задача. Они должны уметь контролировать свои действия и эмоции. Они не следует допускать поведения, которое нанесет вред психологии и воспитанию ребенка.

Требование и помошь взрослых в семье, особенно родителей, создает условия для развития психических процессов детей и их личности.

Ключевые слова: педагог-учитель, дошкольное образование, гуманистические ценности, гуманистические чувства, родитель.

Giriş

XXI əsrdə yeni təfəkkürün, yeni nəslin meydana gəldiyi vaxtda onun şəxsiyyət kimi yetişməsində savadlı, peşəkar tərbiyəçi-müəllim ilə yanaşı yeni hissiyatlı, yeni mənəviyyatlı, yeni davranışlı insan tərbiyə etmək təhsilimizin, pedaqogika elmimizin əsas inkişafı deməkdir. Dövlətin tərbiyəçi-müəllim qarşısında qoyduğu əsas vəzifə məhz bundan ibarətdir. Tərbiyəçi-müəllim nüfuzu onun savadlı olması ilə yanaşı, əsl pedaqoji istedad və ustalığa malik olmasını əsas tuturdu. Təlim-tərbiyə sisteminin yenidən qurularaq, daha humanist, insani meyllərlə irəliləməsi tərbiyəçi-müəllimin işinin asanlaşdırılması ilə yanaşı vətənə, bəşəriyyətə layiqli insanların, vətəndaşların yetişməsi idi. Bu işdə hər şeydən əvvəl xeyirxah, gözəl, xoşbəxt və təkrarolunmaz tərbiyəçi-müəllim münasibətləri, insan müdrikliyi, kamilliyi, həyat təcrübəsi əsas rol oynayır. Tərbiyəçi-müəllimin şəxsi keyfiyyətlərinin uşaqlarda humanist hisslərin formalaşdırılmasında, yaradıcı insan qəlbinin memarı olmaq əsas amillərdəndir.

Tərbiyəçi-müəllimin ən mühüm keyfiyyəti onun əxlaqında, mənəvi paklığında, təmizliyindədir. Onun nümunəsində aqil, gözəl mənəviyyatlı tərbiyəçi-müəllimlərində yetişdirdiyi şəxsiyyətlər mənəvi cəhətdən inkişaf etmiş, insani hiss və duyğulara malik şəxsiyyətlər olacaqdır.

Nəzəriyyə

Müasir pedaqoji ədəbiyyatlarda tərbiyəçi-müəllimin uşaqlarda zərif, incə, nəcib, gözəl keyfiyyətlər formalaşdırması nəzərdə tutulur. Uşağı əxlaqi cəhətdən tərbiyə etməklə, emosional cəhətdən də tərbiyə etməyin vacib olduğu xüsusilə qeyd olunur. Uşağın emosional cəhətdən tərbiyə edilməsi onun mənəvi gücünün artmasına, qəlbinin qüvvətlənməsinə səbəb olur. Uşaqda cəsurluq, qəhrəmanlıq kimi keyfiyyətlər formalaşıb inkişaf edir.

Nizami Gəncəvi təlim və tərbiyəçiyə yüksək tələblər verir. Onun əsərlərində təsvir olunan bütün müəllimlər yüksək təhsildən, hər elmdən xəbərdar olmaqla həm də yüksək əxlaqlı, mənəviyyatlı, özlərinin nümunələri, hərəkət və davranışları ilə tərbiyə etdikləri qəhrəmanlara nümunə olan adamlardır. Nizami müəllim-şagird, tərbiyəçi-tərbiyə olunanlar arasındakı münasibətlərə də diqqət yetirmişdir. Nizami tərbiyəçilərdən tərbiyə olunanlara atalıq qayğısı tələb edir. “Yeddi gözəl” əsərində Mənzərin Bəhrama atalıq qayğısı göstərməsinə geniş yer vermişdir.

Bəhrama atadan daha mehriban,
Kəsilib tutardı əziz canından.

Nizamiyə görə şagirdlə müəllim, tərbiyəçi ilə tərbiyə olunanların münasibətlərində səmimiyyət, qarşılıqlı anlaşma olmalıdır.

Tərbiyəçi-müəllim uşağın müvəffəqiyyət yolunu bağlamamlıdır, o, uşağın kiçik uğurunu belə qiymətləndirməli, onu rəğbətləndirməyi bacarmalıdır. Uşağı tərifləmək, onun hər hansı müvəfəqiyyətini emosional şəkildə müdafiə etmək deməkdir. “Çox yaxşı cavab verdin, həmişə belə davam et, afərin”,

deməklə uşağı gələcək fəaliyyətə istiqamətləndirərək həvəsləndirmək lazımdır. Uşağa bu şəkildə humanist pedaqoji təsir göstərən tərbiyəçi-müəllim əsl humanist pedaqoqdur.

Nizamiyə görə şagirdlə müəllim, tərbiyəçi ilə tərbiyə olunanların münasibətlərində səmimiyyət, qarşılıqlı anlaşma olmalıdır.

Tərbiyəçi-müəllim uşağın müvəffəqiyyət yolunu bağlamamlıdır, o, uşağın kiçik uğurunu belə qiymətləndirməli, onu rəğbətləndirməyi bacarmalıdır. Uşağı tərifləmək, onun hər hansı müvəfəqiyyətini emosional şəkildə müdafiə etmək deməkdir. *"Çox yaxşı cavab verdin, həmişə belə davam et, afərin",* deməklə uşağı gələcək fəaliyyətə istiqamətləndirərək həvəsləndirmək lazımdır. Uşağa bu şəkildə humanist pedaqoji təsir göstərən tərbiyəçi-müəllim əsl humanist pedaqoqdur.

Tərbiyəçi-müəllimin uşaqla ünsiyyəti, nitqi zərif, humanist və mədəni olmalıdır. Onun xeyirxahlığı düzlük və doğruçuluqdur. O, uşaq qəlbinin incəliklərini tez duyub, hiss etməyi bacaran ustad olmalıdır. Belə tərbiyəçi-müəllim uşağı diqqətlə eşitməyi və dinləməyi, onların hisslərini, həyəcanlarını, duyğularını, sevinc və kədərlərini görməyi bacaran şəxsiyyətlər olmalıdır. O, tərbiyə etdiyi uşaqların ruhi aləmində nələr yaratdığını və nələr qoyduğunu özünün qəlbi ilə görür və hiss edir, onların estetik meylini, marağını, yaxşı insan olmaq cəhdini qayğıkeşliyi ilə qiymətləndirir. Həmin tərbiyəçi-müəllimə uşaqlar ürəkdən inanır, onlar tərbiyəçi-müəllimlərinin ürək döyüntülərini eşidir, onlara böyük məhəbbət və ehtiramla yanaşırlar. Bunun nəticəsində onlarda ləyaqət hissi yaranır. O, uşağı görən kimi onun gözünə baxmamış ümumi əhval-ruhiyyəsini bilir. O, uşaqların mənəvi dünyasını inkişaf etdirmək, böyüklərə hörmət və qayğı ilə yanaşmağa, Vətən torpağının qədrini bilməyə , milli mənliyini və mənsubiyyətini dərk etməyə, canlı və cansız təbiətin qədir qiymətini bilməyə sövq edir. Tərbiyəçi-müəllim uşaqlara gözəllikləri duyub ondan zövq almağın vacibliyini uşaqlara bütün təlim –tərbiyə zamanı öz şəxsi keyfiyyətlərindən çıxış edərək göstərməlidir. Onun sadəliyi və təvazökarlığı insan ləyaqətinə, mənliyinə hörmət deməkdir. İnsanın sadəliyi, əməksevərliyi, qayğıkeşliyi bütün xeyirxahlığın, humanizmin mənbəyidir. Sadə insan borc, məsuliyyət kimi hisslərə malik olur. Uşağa sadəlik hissinin öyrədilməsi onun böyüklərə münasibətdə təmkinli olması, həmyaşıdları ilə münasibətdə nəzakətli davranması və digər alicənab hisslərinin formalaşdırılmasına səbəb olacaqdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. İlyasov M, Müasir təhsil:ənənədən innovasiyaya, Elm və təhsil, Bakı, 2021
2. İlyasov M, Müəllimin pedaqoji ustalığı, Bakı, Elm və Təhsil 2013.
3. İlyasov M, Müəllim Peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri, Bakı, Elm və Təhsil, 2018.
4.İsmixanov M.A,Vəliyeva S.Sosial pedaqogika,Bakı,2013.
5. İsmixanov M.A, Bəxtiyarova R. Ali məktəb pedaqogikası, Bakı: "Bakı Universiteti" nəşriyyatı,2
6. İsmayılova N, Məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi,Bakı, 2022
7. Kazımov N, Həşimov Ə, Pedaqogika, Bakı, Maarif, 1996
8. Kazımov N.M. Ali məktəb pedaqogikası, Bakı: "Çaşıoğlu" nəşriyyatı, 1999
9. Kazımov N.M. Pedaqoji ustalığın problemləri, Bakı: "Çaş

DOİ: 10.32010/SGUS4442

ƏDƏBİYYAT FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI VƏ DƏRSLİK KOMPLEKTLƏRİNİN YENİLƏNMƏSİ: NƏZƏRİ VƏ PRAKTİKİ ASPEKTLƏR

Gülay Şahsuvar BAĞIROVA
Mingəçevir Dövlət Universiteti
ADPU-nun doktorantı
Orcid: https://orcid.org/0009-0002-4794-0748
E-mail: bagirovagb03@gmail.com

Xülasə: Məlumdur ki, respublikamızda təhsilin məzmununun yenilənməsi, yeni tədris planlarının, dərsliklərin və tədris materiallarının hazırlanması ilə yanaşı, milli təhsil sisteminin davamlı inkişafına töhfə verməklə yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsinə də xidmət edir. Bu məqalə əsasən Azərbaycandakı mövcud təhsil sistemindəki mövcud vəziyyəti, çətinlikləri və islahat istiqamətlərini araşdırır. Bundan əlavə, orta məktəb səviyyəsində ədəbiyyatın tədrisində istifadə olunan proqramların və dərsliklərin potensialını təhlil edir və təhsil islahatlarının ədəbiyyat fənninin məqsəd və vəzifələrinə təsirini qiymətləndirir. Tədqiqatın nəticələrinə əsasən belə bir nəticəyə gəlmək olar ki, dəyişikliklər ədəbiyyatın tədrisinin keyfiyyətini təkcə məzmun səviyyəsində deyil, həm də metodoloji və pedaqoji baxımdan yaxşılaşdırmağa yönəlib.
Zaman keçdikcə təhsil sahəsində davam edən inkişaflarla birbaşa əlaqəli olan yeni təhsil sistemində mütərəqqi dəyişikliklərə ciddi ehtiyac yaranır. Müasir dərsliklər və metodoloji vəsaitlər sələflərindən aydınlığı, tamlığı, təhsil dəyəri, ardıcıllığı və inkişaf potensialı baxımından fərqlənir. Mövzular şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olaraq seçilir. Məqalədə həmçinin ədəbiyyatın effektiv tədrisinə işarə edən əsas məsələlər müəyyən edilir və müasir dövrün tələblərinə cavab verən yeni məzmun və strukturlu dərsliklərin hazırlanması üçün tövsiyələr verilir.
Tədqiqatın nəticələri göstərir ki, dərslik paketlərinin təkmilləşdirilməsi davamlı və hərtərəfli yanaşma tələb edir. Bu baxımdan, dərsliklər həmişə müasir dünyanın tələblərinə və həm müəllimlərin, həm də şagirdlərin ehtiyaclarına uyğun hazırlanmalıdır. Dərsliklər tərtib edilərkən Azərbaycan ədəbiyyatının zənginliyi və onun milli-mədəni xüsusiyyətləri əsas prioritetlər kimi qəbul edilmişdir. Nəticə etibarilə, əvvəlki dərsliklərlə müqayisədə müasir nəşrlərdə dünya ədəbiyyatından daha az ədəbi əsərlər yer alır. Bizim fikrimizcə, elmi-nəzəri prinsiplərə və praktik sınaqlara əsaslanan metodik yeniliklərə yenidən baxılmalı və növbəti illərdə dərsliklərə daxil edilən müvafiq ədəbi əsərlərin sayı artırılmalıdır.
Açar sözlər: məzmun, struktur, strategiya, inteqrativ, konseptual sənəd.

THE RENEWAL OF THE LİTERATURE CURRİCULUM AND TEXTBOOK PACKAGES: THEORETİCAL AND PRACTİCAL ASPECTS

Gulay Shahsuvar BAGIROVA
Mingachevir State University
Orcid: https://orcid.org/0009-0002-4794-0748
E-mail: bagirovagb03@gmail.com

Abstract: It is well known that the renewal of the content of education in our republic, along with the development of new curricula, textbooks, and educational materials, not only contributes to the sustainable development of the national education system but also serves to enhance the quality of education. This paper primarily explores the current state, challenges, and reform directions in the existing education system in Azerbaijan. Furthermore, it analyzes the potential of the programs and textbooks used in the teaching of literature at the secondary school level and assesses the impact of educational reforms on the aims and objectives of the literature subject. Based on the results of the study, it can be concluded that the changes are aimed at improving the quality of literature teaching not only at the content level but also from methodological and pedagogical perspectives.
Over time, there emerges a significant need for progressive changes within the new education system, which is directly related to ongoing developments in the field of education. Contemporary textbooks and methodological aids differ from their predecessors in terms of clarity, completeness, educational value, consistency, and developmental potential. The topics are selected in accordance with the age-specific characteristics of students. The paper also identifies the key issues that hinder the effective teaching of literature and offers recommendations for the development of textbooks with new content and structure that meet the demands of the modern era.
The findings of the study suggest that the improvement of textbook packages requires a continuous and comprehensive approach. In this regard, textbooks should always be developed in line with the demands of the modern world and the needs of both teachers and students. When compiling textbooks, the richness of Azerbaijani literature and its national-

cultural characteristics have been treated as key priorities. Consequently, compared to previous textbooks, modern editions include fewer literary works from world literature. In our opinion, methodical innovations based on scientific-theoretical principles and practical trials should be revisited, and in the coming years, the number of appropriate literary works included in textbooks should be increased.
Key words: content, structure, strategy, integrative, conceptual document.

ОБНОВЛЕНИЕ УЧЕБНОЙ ПРОГРАММЫ И КОМПЛЕКТОВ УЧЕБНИКОВ ПО ЛИТЕРАТУРЕ: ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ АСПЕКТЫ

Гюлай Шахсувар БАГИРОВА
Mingachevir State University
Orcid: https://orcid.org/0009-0002-4794-0748
Электронная почта: bagirogb03@gmail.com

Резюме: Известно, что обновление содержания образования в нашей республике, разработка новых программ, учебников и учебных пособий способствует не только устойчивому развитию национальной системы образования, но и служит улучшению качества образования. В данном докладе в первую очередь проанализированы реальное положение, существующие проблемы и направления реформ в современной системе образования Азербайджана. Также были рассмотрены возможности программ и учебников по предмету «Литература», используемых в средней школе, определено влияние проводимых в сфере образования реформ на цели и задачи преподавания литературы. На основании результатов исследования можно утверждать, что изменения направлены не только на обновление содержания, но и на повышение качества преподавания литературы с методологической и педагогической точек зрения.

С течением времени возникает острая необходимость в прогрессивных изменениях в новой системе образования, что обусловлено развитием в данной сфере. Современные учебники и методические пособия отличаются от прежних своей наглядностью, целостностью, воспитательным потенциалом, последовательностью и развивающей направленностью; темы в них подбираются с учётом возрастных особенностей учащихся. В заключительной части доклада были выявлены аспекты, вызывающие трудности в процессе преподавания литературы, а также предложены рекомендации по подготовке учебников нового содержания и структуры, соответствующих требованиям современности.

На основании результатов исследования можно заключить, что совершенствование учебно-методических комплектов требует постоянного и комплексного подхода. В этом контексте учебники должны разрабатываться с учётом требований современного мира, а также потребностей учителей и учащихся. При составлении учебников приоритетом служит богатство азербайджанской литературы и её национально-культурные особенности. По этой причине в современных учебниках художественные произведения мировой литературы представлены в меньшем объёме по сравнению с предыдущими изданиями. На наш взгляд, методические новшества, основанные на научно-теоретических принципах и практическом опыте, требуют пересмотра, а в последующие годы количество соответствующих произведений для включения в учебники должно быть увеличено.
Ключевые слова: содержание, структура, стратегия, интегративный подход, концептуальный документ.

Giriş

Müasir dövrdə texnologiyanın sürətli şəkildə inkişafı, qloballaşma, əmək bazarının tələblərinin dəyişməsi, bütün sahələrdə süni intellektin tətbiqi kimi məsələlər dünyada təhsilə yeni çağırışları zəruri etmişdir. Texnologiyanın və rəqəmsal resursların rolu təhsil sahəsində mühüm dəyişikliklərə yol açılmışdır. Onlayn dərsliklər, interaktiv platformalar, virtual reallıq kimi öyrənmə tətbiqlərindən istifadə bu günün tələbinə çevrilmişdir. Təlim metodlarının dəyişdirilməsi, müəllimmərkəzli yanaşmadan şagirdmərkəzli öyrənməyə keçid, qiymətləndirmə sisteminin yenidən hazırlanması, yeni texnologiyaların istifadəsi, müqayisəli keyfiyyət standartlarının yaradılması, proqram və dərsliklərin yeni məzmunda hazırlanması, istifadə müddəti, yeniləmə intervalları kimi yeni yanaşmalara cavab olaraq bir sıra ölkələrdə təhsil sahəsində islahatlara başlanılmışdır. Əsas islahat istiqamətləri dərslik və proqramların məzmununun yenilənməsi ilə bağlıdır.

Bu gün dünyanın bir sıra inkişaf etmiş ölkələrinin təhsil sistemində proqram və dərsliklərin müasir elmi və texnoloji çağırışlarla uyğunlaşdırılması əsas prioritetlərdəndir. Ənənəvi, ensiklopedik məzmunlu dərsliklər artıq yerini daha praktik və məqsədyönlü dərsliklərə verir. Hal-hazırda Azərbaycanda da ümumtəhsil məktəblərini əhatə edən islahatlar qlobal tendensiyalara uyğun həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasında həm ümumi, həm də ali təhsilin məzmunu beynəlxalq təcrübələrə istinadən daim yenilənir. Yeni dərslik və metodik vəsaitlərin, proqramların tərtib olunması milli təhsil sisteminin

inkişafına səbəb olmaqla yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmişdir. Azərbaycanda təhsil proqramı və dərsliklərin təkmilləşdirilməsi prosesi ümutəhsil məktəblərində tədrisi nəzərdə tutulmuş bütün fənləri əhatə edir. Ədəbiyyat fənni üzrə yeni təhsil proqramı və yeni məzmunda hazırlanmış dərsliklər bu fənnin məqsəd və vəzifələrinə də əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Bu dəyişikliklər yalnız məzmun səviyyəsində deyil, həm də metodoloji və pedaqoji baxımdan ədəbiyyat tədrisinin keyfiyyətini artırmağa yönəlmişdir. Bu məruzədə təhsil sistemində aparılan davamlı islahatlar təhlil olunur, nəticədə gözləntilər, reallıqlar və prespektivlər, aktual problemlər haqqında müəyyən fikirlər irəli sürülmüşdür.

Tədqiqatın metodologiyası - tədqiqatın məqsədi ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) və dərslik komplektinin məzmun, struktur və metodik baxımdan təkmilləşdirilməsi üzrə aparılan işlərin sistemini araşdırmaq və elmi-pedaqoji əsaslara söykənən təkliflər irəli sürməkdir. Tədqiqat aşağıdakı əsas metod və yanaşmalar əsasında həyata keçirilmişdir:

- Analitik-metodoloji yanaşma: Ədəbiyyat fənni üzrə mövcud kurikulum sənədləri, dərslik komplektləri və normativ baza təhlil olunmuş, onların elmi-metodiki əsasları, strukturu və didaktik imkanları sistemli şəkildə araşdırılmışdır.
- Məzmun təhlili (kontent-analiz): Müxtəlif illərə aid ədəbiyyat dərsliklərinin məzmunu, şagirdlərin maraq dairəsinə uyğunluğu, ədəbi nümunələrin seçimi baxımından müqayisəli şəkildə təhlil olunmuşdur.
- Empirik metodlar: müəllimlər, şagirdlər və təhsil ekspertləri ilə sorğular və müsahibələr aparılaraq mövcud dərslik və kurikulumların praktikada tətbiqi zamanı rast gəlinən çətinliklər və ehtiyaclar öyrənilmişdir.
- Elmi ümumiləşdirmə: araşdırma nəticəsində əldə olunan məlumatlar əsasında nəzəri və praktik nəticələr sistemləşdirilmiş, təkmilləşdirilməyə ehtiyacı olan istiqamətlər müəyyənləşdirilmişdir.

Tədqiqat zamanı aşağıdakı mənbələrə istinad olunmuşdur:

- Mövcud ədəbiyyat dərslikləri və müəllim üçün metodik vəsaitlər (V–XI siniflər üzrə);
- Təhsil islahatlarına dair strateji sənədlər (Milli Kurikulum, Dövlət Strategiyası və s.);
- Ədəbiyyat tədrisi üzrə aparılmış yerli və beynəlxalq elmi tədqiqatlar;
- Müəllimlər və təhsil mütəxəssisləri ilə aparılmış sorğular və empirik məlumatlar.

Tədqiqatın elmi yeniliyi budur ki, ki, məktəblərdə ədəbiyyat fənninin tədrisi prosesində çətinlik yaradan məqamlar müəyyənləşdirilmiş, müasir dövrün tələblərinə uyğun yeni məzmun və strukturda dərsliklərin hazırlanması üçün tövsiylər qeyd olunmuşdur.

Azərbaycanda təhsil proqramının təkmilləşdirilməsi prosesinin ədəbiyyat fənninə təsiri. XX əsrin sonlarında ümumtəhsil məktəbləri üçün istifadə olunan mövcud proqramların müasir dövrün tələblərinə cavab verməməsi ümumi təhsilin məqsəd və vəzifələrinə yeni yanaşmanı zəruri etmişdir. 1998-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Təhsil sahəsində islahatların aparılması üçün dövlət komissiyasının yaradılması (1998), islahat proqramının qəbulu (1999) ölkəmizdə təhsilin inkişafına mühüm töhfələr verdi. Bu, müstəqillik dövründə ilk böyük dövlət proqramlarından biridir. Proqramın məqsədi köhnə sovet-təbəqəvi yanaşmalardan uzaqlaşmaq, milli kimlik, müasir təhsil tələbləri, demokratik prinsiplər əsasında yeni sistem qurmaq idi. Ölkəmizdə 1999-cu ilin 15 iyun tarixində "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq edilir. Bu islahat proqramı 1999-2013-cü illəri əhatə etməklə üç mərhələdə (I mərhələ hazırlıq - 1999; II mərhələ öyrədici - 2000-2003; III mərhələ tətbiq 2003-2013) həyata keçirilmişdir.

İslahatın I və II mərhələlərində ümumtəhsil məktəblərində mövcud vəziyyət təhlil olunmuş və qiymətləndirilmiş, bəzi boşluqlar müəyyən edilmişdir. Yeniliklərlə xarakterizə olunan III mərhələdə isə (2003-2007, 2007-2010; 2010-2013) həm qazanılmış təcrübələr əsasında təhsil sahəsində quruculuq işləri həyata keçirilmiş, həm də tətbiqi nəzərdə tutulmuş yeniliklərin praktik şəkildə tətbiq olunmasına başlanmışdır (Əliyev və Musayeva, 2022).

2006-cı il 30 oktyabr tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə müasir tələblərə cavab verən məzmun, tədris metodikası və qiymətləndirmə modelini ehtiva edən "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum)" adlı rəsmi sənəd təsdiq olunmuşdur. Bu konseptual sənədin müddəaları 2010-cu ildə yenidən işlənərək, "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" adı ilə qəbul edilmiş və bununla da bütün fənlər üzrə yeni kurikulumların hazırlanması istiqamətində işlər görülmüşdür. Sonrakı dövrdə, 2013-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədi təhsilin müxtəlif mərhələlərini əhatə edən sistemli yanaşmanı özündə ehtiva edir. Həmin sənədin ümumi və ali təhsil səviyyələrində dərsliklərin elmi-metodiki baxımdan təkmilləşdirilməsinə ehtiyac olduğu qeyd olunmuşdur. Belə yanaşma, tədris resurslarının məzmun və forma baxımından müasirləşdirilməsini

zəruri vəzifə kimi gündəmə gətirmişdir. Strategiyada xüsusilə 1.2-ci və 1.2.2-ci bəndlərdə ümumi təhsildə sərişte əsaslı standartların və kurikulumların hazırlanması, həmçinin kurikulumlara uyğun dərsliklərin yaradılması və bu vəsaitlərin şagirdlərlə müəllimlər üçün əlçatanlığının təmin olunması kimi məsələlərə xüsusi diqqət yetirilmişdir . Bu islahatlar fonunda, 2008-ci ildən başlayaraq kurikulum əsaslı təhsil modeli tətbiq edilməyə başlanmış və bu modelə uyğun şəkildə hazırlanmış fənn kurikulumları ilə yanaşı, yeni dərsliklər də tədricən ümumtəhsil müəssisələrinin I-XI siniflərində istifadə olunmağa başlamışdır. Beləliklə, orta məktəblərdə tədrisi nəzərdə tutulmuş fənlər üzrə yeni təhsil proqramlarının, fənn kurikulumunun hazırlanması və tətbiqi ümumi təhsilin məzmununda və tədris istiqamətində yeni bir mərhələ oldu. Göründüyü kimi qəbul olunmuş qərarlar Azərbaycanda ümumi təhsilin məzmununun yenilənməsi və interaktiv təlim metodlarının tədrisə gətirilməsi ilə nəticələndi.

Milli və fənn kurikulumunun məzmunu və struktru. Məlumdur ki, fənn kurikulumunun ənənəvi və müasir formaları vardır. Sovet dövrü və müstəqilliyin bərpasından sonrakı ilk iyirmi ildə tətbiq olunan təhsil proqramı ənənəvi proqram hesab olunur. Təhsil proqramı (kurikulum) − dövlət təhsil standartlarına uyğun ayrı-ayrı təhsil pillələri və səviyyələri üzrə təhsilin məzmununu və mənimsəmə qaydalarını müəyyən edir ("Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", 2013). Təhsil proqramına fənlər üzrə tədris proqramları daxildir. Hazırkı kurikulum tədris prosesini müasir yanaşmalarla zənginləşdirərək əvvəlki dövrlərdəki təlimi yanaşmalarından bəzi yenilikləri ilə seçilir. Əsas üstünlüyü budur ki, bu sənəd beynəlxalq təcrübələr əsasında hazırlanmışdır. Əlavə olaraq qeyd etmək lazımdır ki, bu gün müasir dünyada müxtəlif kurikulum modelləri tətbiq olunmaqdadır. Məsələn, Davies modeli, Taba-Tyler modeli, Hunkins modeli, Tyler modeli və s. Taba-Tyler, Vulf-Schave (sistemli yanaşma modeli) Amerikada geniş yayılmış kurikulumlardır. Stenhouse (Proses modeli), Skillbeck (məktəbyönümlü və ya yenilikçi model) isə Avropada tətbiq olunan modellərdir. Bütün bu kurikulumları mahiyyət və fəlsəfi baxış etibarı ilə birləşdirən əsas cəhət budur ki, öyrənmə prosesi şagirdlərin marağına, cəmiyyətin tələbatına uyğun təşkil olunmalı, təlim prosesi interaktiv, inkluziv, differensial olmalı, bir sözlə, bütün şagirdlər üçün əlverişli təlim mühiti yaradılmalıdır.

Müasir dövrdə ədəbiyyat təliminin məzmununun formalaşdırılmasında "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu)" (V–XI siniflər) (2013) adlı normativ sənədin müddəaları mühüm metodoloji əhəmiyyət kəsb edir. Hazırda bu kurikulum sənədi əsasında ədəbiyyat tədrisi sistematik və məqsədyönlü şəkildə təşkil olunmaqda və inkişaf etməkdədir. Sənəddə müəllim və şagirdlərin fəaliyyət nəticələri ilə bağlı gözlənilən göstəricilər aydın şəkildə qeyd edilmişdir. Eyni zamanda, bu müddəalar ənənəvi tədris proqramlarının məzmun və metodologiyasından bəzi mühüm fərqlərlə seçilir. Belə ki, yeni kurikulumda ədəbiyyat dərslərinin məzmunu daha geniş və fərqli aspektlərdə xarakterizə olunmuşdur. Bu sənəddə ədəbiyyat təliminin məzmun komponentləri, tətbiq ediləcək təlim strategiyaları, şagird nailiyyətlərinin qiymətləndirilməsi meyarları, fəndaxili və fənlərarası inteqrasiyanın reallaşdırılması mexanizmləri, tədrisə dair metodik tövsiyələr, təlimin təşkili formaları və üsulları konkret şəkildə təqdim olunmuşdur.

Dərslik komplektləri, elmi-nəzəri mənzərə. Məlumdur ki, dərsliklər şagirdlərin tədris olunan fənnə marağını artıran əsas vasitədir. Ədəbiyyat fənni üzrə müasir dərslik komplektlərinin rolu və əhəmiyyətindən danışarkən ilk növbədə, qeyd etmək lazımdır ki, bugünkü dərsliklər şagirdlərin fənnə marağını artırmaqla yanaşı, onların düşüncə tərzini, estetik zövqünü və mənəvi dünyagörüşünü formalaşdırmaqda əvəzsiz vasitə kimi çıxış edir.

Məlumdur ki, 2008-ci ildən Azərbaycanda mərhələli şəkildə tətbiq edilən kurikulum əsaslı təhsil modeli 2012-ci tədris ilindən etibarən ədəbiyyat fənni üzrə də tətbiq olunmağa başlayır. Fənn üzrə dərsliklər V-XI sinifləri əhatə etməklə yeni konseptual sənədə uyğun şəkildə yenidən hazırlanmışdır. Yeni ədəbiyyat dərslikləri əvvəlki dərsliklərlə müqayisədə varsilik prinsipinin tələbləri gözlənilməklə daha da optimallaşdırılmışdır. Ədəbiyyat fənninin tədris keyfiyyətinin yüksəldilməsi üzrə işin başlıca istiqamətlərindən danışarkən həm elmi-nəzəri, həm də və praktik məsələlər diqqət mərkəzində saxlanılmalıdır. Ədəbiyyat dərslikləri şagirdlərə yalnız nəzəri məlumat ötürmək üçün nəzərdə tutulmayıb, eyni zamanda, şagirdlərin şəxsiyyət kimi formalaşmasında tərbiyəvi funksiyaları da yerinə yetirir. Dərs prosesində ədəbi nümunələrinin düzgün təhlil və şərh olunması nəticəsində şagirdlər həm klassik, həm də müasir ədəbi düşüncə ilə tanış olur, onların estetik zövqü və bədii təfəkkürü inkişaf edir.

Dərslik komplekti təkcə dərslikdən ibarət deyil. O, bir neçə tamamlayıcı hissədən − əsas dərslik və müəllimlər üçün metodik göstərişdən ibarətdir. Hər bir komponentin özünəməxsus funksiyası var. Dərslik tədris olunacaq mövzu üzrə əsas nəzəri və bədii materialları təqdim edir, mövzu üzrə tapşırıqları yerinə yetirməsinə şərait yaradır, dərslikdə verilmiş

tapşırıqlar şagirdlərin dərs materialını hansı səviyyədə mənimsədiyini müəyyən etməkdə müəllimə kömək edir. Dərsliklərin effektiv istifadəsi üçün həm müəllim, həm də şagird üçün xüsusi metodik dəstək vəsaitinin hazırlanması da təlim prosesinin təşkilində mühüm rol oynayır. Bu göstərişlər təlim prosesinin planlı, məqsədyönlü və nəticəyönümlü təşkilinə kömək edir. Bu vəsaitlərdə dərs mövzularının ardıcıllığı, əsas məqsədlər, gözlənilən nəticələr və tövsiyə olunan metodlar ətraflı izah edilmişdir. Deməli, metodik göstərişlər müəllimə dərsin planlaşdırılmasına və tədris prosesinin düzgün təşkil etməsinə dəstək olur. Bu formada dərslik və metodik vəsaitlərin olması həm müəllimin işini yüngülləşdirir, həm də şagirdin dərsi daha yaxşı qavramasına kömək edir. Müasir təhsil mühitində bu tip sistemli və məqsədyönlü yanaşma fənnin effektiv tədrisi baxımından zəruri hesab olunur.

Zaman keçdikcə təhsil sistemində, eləcə də müxtəlif fənlər üzrə dərsliklərdə bəzi dəyişikliklərə böyük ehtiyac yaranmışdır ki, bu da təhsil sahəsindəki inkişafla bağlıdır. Bugünkü dərsliklər və metodik vəsaitlər əyanilik, tərbiyəedicilik, inkişafetdiricilik, ardıcıllıq kimi əsas xüsusiyyətləri ilə əvvəlki dərsliklərdən fərqlənsə də mövzular şagirdlərin yaş səviyyəsinə uyğun olaraq seçilmişdir. Bugünkü dərsliklər şagirdlərin ədəbi məlumatları daha asan qavramaları və öz inkişaflarını izləmələri üçün yeni struktur və məzmunda təqdim olunur. Belə ki, yeni dərsliklərdə əvvəlki dərslkilərlə müqayisədə bir sıra mühüm dəyişikliklər edilib. Dərslik komplektindəki dəyişikliyi bir neçə istiqamətdə məzmun və struktur üzrə təhlil etmək olar. İlk növbədə, dərslik komplektindəki bu dəyişikliyi kurikulum əsaslı təhsil proqramı ilə əlaqəli təhlil edək:

Dərslik komplektində məzmun xətləri, standart və altstandartların tələblərinin reallaşdırılması imkanları və bunun təlimi nəticəyə təsiri. Əvvəlki tədris proqramlarından fərqli olaraq, bu kurikulumun əsas yeniliklərindən biri də ondan ibarətdir ki, bütün fənlər üzrə, eləcə də ədəbiyyat təlimində müəllim proqramda əks olunan təlim nəticələrini əvvəlcədən müəyyənləşdirməli, məzmun xətləri (ədəbiyyat və həyat həqiqətləri, şifahi nitq, yazılı nitq) və buna müvafiq altstandartları dərslikdə təqdim olunan mövzuya uyğun seçməli və seçilmiş altstandartların tələblərini reallaşdırmalıdır. Bir sözlə, müəllim dərs prosesində qazanılması nəzərdə tutulan bilik və bacarıqları əvvəlcədən planlaşdırmalıdır. Bu prosesi nümunə üzərində nəzərdən keçirək:

IX sinif dərsliyində Ə.Cavadın "Azərbaycan bayrağına" şeirinin tədrisi nəzərdə tutulub, müvafiq sinfə uyğun metodik vəsaitdə 1.2.3; 1.2.4; 2.1.2 altstandartların reallaşdırılması nəzərdə tutulmuşdur. Göründüyü kimi, burada Ədəbiyyat və həyat həqiqətləri və Şifahi nitq məzmun xətləti üzrə altstandartlar verilmişdir.1-ci məzmun xəttinə uyğun olaraq şagirdlər bədii təsvir və ifadə vasitələrinin şeirin təsir gücünü artıran vasitə olmasını anlayır, ikincidə həmin məzmun xətti üzrə təlim nəticəsi budur ki, şagird şeirin mövzusuna uyğun ideya-bədii xüsusiyyətləri şərh etməlidir. Üçüncüdə isə şagird Şifahi nitq məzmun xətti üzrə şeirin mövzu və ideyasına uyğun müqayisə və ümumiləşdirmə apararaq münasibət bildirməsi kimi keyfiyyət qazanılmalıdır.

Bundan başqa, altstandartların reallaşdırılması dərslikdə verilmiş tapşırıqalar üçün də uyğun gəlir. Məsələn, IX sinif dərsliyində İsa Hüseynovun "Zəhər" hekayəsi ilə bağlı dərslikdə verilmiş suallardan biri belədir: "Hekayədən seçilmiş hissənin məzmununu tərtib etdiyin plan əsasında yığcam və yaradıcı formada danış". Bu cür suallar vasitəsilə şagirdlərdə şifahi nitq məzmun xəttinin altstandarlarının tələblərinin reallaşdırılması nəzərdə tutulmuşdur.

Ədəbiyyat dərslikləri və tədris strategiyalarının vəhdəti. Digər fənlərdə olduğu kimi, ədəbiyyat fənni üzrə dərsliklər də yeni tədris proqramında nəzərdə tutulmuş yeni təlimi yanaşmalar (interaktiv iş üsulları), qiymətləndirmə qaydaları və fəndaxili, fənlərarası, fənlərüstü inteqrasiya əlaqələrinin yaradılması kimi məqamlarla uzlaşır. Yəni, dərsliklərdə mövzunun tədrsindən sonra verilmiş tapşırıqlar məhz bu tələbləri reallaşdırmağa xidmət edir. Sual yaranır ki, əvvəlki dövrlərdə bu tələblər var idi, burada yeniliklər hansılardır? Düzdür, 2012-ci ilədək ədəbiyyat təlimində mövzulararası fəndaxili və fənlərarası əlaqələr qurulurdu, lakin bu əlaqələr sistemsiz və təsadüfi xarakter daşıyırdı, digər tərəfdən, həmin dövrdə inteqrasiyanı təmin edəcək konkret standartlar mövcud deyildi. Lakin yeni sənəddə istər inteqrasiya, istərsə də qiymətləndirmə ilə bağlı müəyyən olunmuş meyarlar var ki, bu da şagirdin inkişafını təmin etmək məqsədi daşıyır. Yəni bu standartlar tədrisin hər mərhələsində şagirdlərin bilik və bacarıqlarını ölçməyə imkan verir. Məsələn, siniflər üzrə ədəbiyyat fənnindən metodik vəsaitlərdə illik planlaşdırma olan hissədə hər mövzuya uyğun müxtəlif fənlər üzrə inteqrasiya standartları qeyd olunmuşdur. Deməli, əsas fərq budur ki, qiymətləndirmə meyarları və inteqrasiya yeni proqramda daha konkretdir, bu isə təlim prosesini daha sistemli şəkildə təşkil etməyə imkan verir.

Qiymətləndirmə və təhlil meyarlarının dəyişməsi. Qiymətləndirmə şagirdin inkişafını obyektiv izləməyə imkan verən mühüm vasitədir. Əvvəlki tədris dövründə qiymətləndirmə prosesində bəzi

qeyri-dəqiqliklər mövcud idi, lakin yeni təhsil proqramında qiymətləndirmə meyarları çox aydın müəyyən edilib. Bu qiymətləndirmə, şagirdlərin ədəbi biliklərini yalnız nəzəri olaraq deyil, həm də onların həyati bacarıqları ilə əlaqələndirərək müəyyən edir. Ənənəvi sistemdə əsasən summativ (yekun) qiymətləndirmə üstünlük təşkil edirdisə, yeni modeldə həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmə tətbiq edilir. Qiymətləndirmə meyarları həm fənn üzrə kurikulum sənədində, həm də siniflər üzrə metodik vəsaitlərin hər birində nümunələr şəklində öz əksini tapmışdır. Məsələn, metodik vəsaitdə verilmiş müqayisəetmə meyarı üzrə qiymətləndirmə nümunəsini nəzərdən keçirək:

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Hekayəni janrı ilə romanı müqayisə edərkən çətinlik çəkir.	Hekayə və roman janrını müəllimin köməyi ilə müqayisə edir.	Janrına görə hekayəni romanla əsasən müqayisə edir.	Hekayə janrını romanla müstəqil və aydın şəkildə müqayisə edir.

(Verdiyeva et ., 2020).

Müsahibə və sorğu nəticələri tematik təhlil (thematic analysis) üsulu ilə kodlaşdırılmış və təkrarlanan motivlər üzrə qruplaşdırılmışdır. Əldə olunan nəticələr nəzəri çərçivədə formalaşdırılmış modellərlə müqayisə edilərək, praktiki nəticələrin ümumiləşdirilməsi aparılmışdır.

Təhlil

Tədqiqat nəticələri göstərir ki, ibtidai siniflərdə milli və bəşəri dəyərlərin şagirdlərə aşılanması prosesi pedaqoji baxımdan aktual və zəruri məsələ olmaqla yanaşı, həm kurikulum səviyyəsində, həm də tədris praktikası baxımından bir sıra çətinliklərlə müşayiət olunur. Aşağıda bu nəticələr sistemləşdirilərək təqdim olunur.

Araşdırma nəticələri göstərdi ki, ibtidai sinif müəllimləri milli və bəşəri dəyərlərin şagirdlərin təlim-tərbiyə prosesində mühüm rol oynadığını qəbul edirlər. Sorğuya cəlb olunmuş 25 ibtidai sinif müəllimindən 23-ü (92%) vurğulamışdır ki, dəyərlər tərbiyəsi onların dərs prosesində əsas istiqamətlərdən biridir və bu sahədə məqsədyönlü fəaliyyət göstərməyə çalışırlar.

Bununla belə, təhlil zamanı bu dəyərlərin necə və hansı formada çatdırıldığı məsələsində ziddiyyətli yanaşmalar müşahidə olunmuşdur. Müəllimlərin 58%-i (14 nəfər) etiraf etmişdir ki, dəyərləri planlaşdırılmış dərs fəaliyyətlərindən çox, şagird davranışları zamanı situativ olaraq izah edirlər. Bu isə dəyərlərin şagirdlərdə sistemli şəkildə deyil, ayrı-ayrı epizodik hallarda mənimsənildiyini göstərir. Digər tərəfdən, 42% müəllim dərs planlarında müəyyən dəyərlərin verilməsini məqsədli şəkildə nəzərdə tutduğunu, lakin bunun üçün didaktik vəsaitlərin və hazır metodikaların kifayət etmədiyini bildirib.

Bu yanaşma modellərini ümumiləşdirmək üçün aşağıdakı **Cədvəl 1** tərtib olunmuşdur:

Cədvəl 1. İbtidai sinif müəllimlərinin dəyərlərə yanaşma formaları

№	Yanaşma tipi	Təsvir	Müəllim sayı	Faiz (%)
1	Situativ yanaşma	Şagird davranışları və gündəlik hadisələr fonunda spontan izah	14 nəfər	58%
2	Planlı və məqsədyönlü yanaşma	Dəyərlərin əvvəlcədən dərs planına daxil edilməsi və aktiv tətbiqi	8 nəfər	32%
3	Mətn və nümunə əsaslı yanaşma	Ədəbi nümunələr, nağıllar, real hadisələr əsasında dəyərlərin ötürülməsi	12 nəfər	48%
4	Fənlərarası inteqrativ yanaşma	Dəyərlərin müxtəlif fənlərlə əlaqələndirilməsi (məs., həyat bilgisi)	7 nəfər	28%
5	Məktəbdaxili tədbirlər və sinifdaxili mühit	Dəyərlərin məktəbdaxili sosial fəaliyyətlər vasitəsilə formalaşdırılması	9 nəfər	36%

Qeyd: Müəllimlər bir neçə yanaşma seçə bildikləri üçün faizlərin cəmi 100%-dən çox ola bilər.

Bu nəticələr göstərir ki, müəllimlərin əksəriyyəti dəyərləri şagirdlərlə təbii şəkildə və gündəlik münasibətlər fonunda çatdırmağa çalışırlar. Lakin bu yanaşma çox vaxt sistemsizlik və məqsədsizliklə müşayiət olunur. Tədris prosesində dəyərlərin təsadüfi yox, **sistemli, məqsədyönlü və şagirdin yaş səviyyəsinə uyğun metodlarla** verilməsi daha effektiv nəticələr doğura bilər.

Eyni zamanda, araşdırma göstərdi ki, bəzi müəllimlər "tədris və tərbiyə"ni ayrı proseslər kimi görür və dəyərlərin daha çox tərbiyə saatlarına aid olduğunu düşünürlər. Bu isə kurikulumun fəlsəfəsinə ziddir, çünki müasir yanaşmalarda təlim və tərbiyə vəhdətdə aparılmalı və hər dərs bir tərbiyəvi məqsəd daşımalıdır (Halstead & Taylor, 2000; Mehdiyev, 2018).

Buna görə də müəllimlər üçün metodiki vəsaitlərin, tədris nümunələrinin, əyani resursların hazırlanması, həmçinin pedaqoji ixtisasartırma təlimlərində bu mövzuların praktik aspektlərinin gücləndirilməsi vacib görünür.

Tədqiqat nəticələri göstərdi ki, ibtidai sinif müəllimləri arasında dəyərlərin seçimi və vurğulanma səviyyəsi müxtəlifdir və bu seçimlər çox zaman müəllimin şəxsi yanaşmasına, pedaqoji təcrübəsinə, dərs dediyi regionun sosial-mədəni xüsusiyyətlərinə və məktəbdəki ümumi tərbiyə mühitinə bağlı olur.

Sorğu nəticələrinə əsasən, milli dəyərlər kontekstində ibtidai sinif müəllimləri daha çox aşağıdakı dəyərlərə üstünlük verirlər:

- Vətənpərvərlik və dövlət rəmzlərinə hörmət
- Ana dilinə və mədəni irsə sevgi
- Əməksevərlik və məsuliyyət
- Ailəyə və böyüklərə hörmət

Digər tərəfdən, bəşəri dəyərlər sırasında isə müəllimlər daha çox:

- Ədalət və dürüstlük
- Tolerantlıq və empati
- Əməkdaşlıq və paylaşma
- Sülh və humanizm kimi dəyərlərə diqqət yetirirlər.

Bu məlumatlar **Cədvəl 2** ilə əyani şəkildə göstərilmişdir:

Cədvəl 2. İbtidai təhsildə vurğulanan əsas milli və bəşəri dəyərlər

№	Dəyər adı	Dəyərin tipi	Bu dəyəri tədrisdə vurğulayan müəllim sayı	Faiz (%)
1	Vətənpərvərlik	Milli	22 nəfər	88%
2	Ana dilinə və mədəniyyətə hörmət	Milli	19 nəfər	76%
3	Əməksevərlik və məsuliyyət	Milli	17 nəfər	68%
4	Ailəyə və böyüklərə hörmət	Milli	14 nəfər	56%
5	Ədalət və dürüstlük	Bəşəri	16 nəfər	64%
6	Tolerantlıq və empati	Bəşəri	15 nəfər	60%
7	Əməkdaşlıq və paylaşma	Bəşəri	13 nəfər	52%
8	Sülh və humanizm	Bəşəri	11 nəfər	44%

Qeyd: Müəllimlər bir neçə dəyəri seçə bildikləri üçün faizlərin cəmi 100%-dən çoxdur.

Cədvəldən də göründüyü kimi, müəllimlər tərəfindən milli dəyərlər daha çox prioritet hesab olunur. Bu, Azərbaycan təhsil sistemində dövlətçilik və milli kimlik mövzusunun tərbiyə işində xüsusi önəm daşıması ilə izah oluna bilər. Lakin eyni zamanda qloballaşan dünyada uşaqların bəşəri dəyərlərlə də tanış olması, fərqli mədəniyyətlərə və fərqliliyə hörmət kimi keyfiyyətlərin inkişafı zəruridir (UNESCO, 2015).

Nəzərəçarpacaq bir fakt da odur ki, "sülh və humanizm" kimi universal dəyərlər müəllimlərin tədris praktikasında daha az yer tutur (44%). Bu isə göstərir ki, bəzi bəşəri dəyərlər ya tədris resurslarında yetərincə əks olunmur, ya da müəllimlərin diqqətindən kənarda qalır. Bu vəziyyət beynəlxalq təşkilatların çağırışları ilə müqayisədə müəyyən uyğunsuzluq yaradır (Banks, 2008; Veugelers, 2007).

Müəllimlərin əksəriyyəti bu dəyərləri əsasən "Həyat bilgisi", "Azərbaycan dili", "Musiqi" və "Rəsm" dərslərində əfsanə, nağıl, həyat hadisələri və nümunəvi şəxsiyyətlər üzərindən aşılayırlar. Lakin sistemli kurikulum inteqrasiyası olmadan bu yanaşma uzunmüddətli və davranış səviyyəsində sabit nəticə verməyə bilər.

İbtidai təhsil pilləsində şagirdlərin mənəvi dünyasının zənginləşdirilməsi, sosial münasibətlərə hazırlığı və şəxsiyyət kimi formalaşmasında dəyərlərin öyrədilməsi mühüm yer tutur. Tədqiqat nəticələri göstərdi ki, ibtidai sinif müəllimləri milli və bəşəri dəyərlərin aşılanması üçün müxtəlif metodlardan istifadə edirlər. Lakin bu metodların seçimi və tətbiq dərinliyi müəllimlərin pedaqoji hazırlığına, resurslara çıxış imkanlarına və tədris mühitinə görə dəyişir.

Müəllimlərdən toplanan empirik məlumatlar əsasında müəyyən edilmişdir ki, dəyərlərin tədrisə inteqrasiyası üçün əsasən ədəbi mətnlər, situasiyalar, oyunlar və müzakirə əsaslı metodlar istifadə edilir. Eyni zamanda**,** interaktiv və təcrübəyə əsaslanan üsulların daha çox tətbiq edildiyi hallarda şagirdlərin davranış və münasibətlərində daha sabit nəticələr müşahidə olunur. Təhlil zamanı müəllimlərin istifadə etdiyi metodlar aşağıdakı **Cədvəl 3** vasitəsilə ümumiləşdirilmişdir:

Cədvəl 3. Dəyərlərin aşılanmasında istifadə olunan əsas metodlar

№	Metodun adı	Təsviri	İstifadə edən müəllim sayı	Faiz (%)
1	Əfsanə, nağıl, hekayə və mətnlər əsasında öyrənmə	Ədəbi materiallar vasitəsilə dəyərlərin mənimsənilməsi	18 nəfər	72%
2	Söhbət və açıq müzakirələr	Dəyərlərlə bağlı açıq suallar və şagird fikirlərinin mübadiləsi	16 nəfər	64%
3	Rol oyunları və situativ canlandırmalar	Sosial situasiyaların şagirdlər tərəfindən canlandırılması və təhlili	15 nəfər	60%
4	Layihə əsaslı öyrənmə (PBL)	Qrup və fərdi işlərdə dəyər yönümlü nəticələrin yaradılması	9 nəfər	36%
5	Fənlərarası inteqrasiya	Dəyərlərin müxtəlif fənlərlə inteqrasiya	7 nəfər	28%

		olunaraq verilməsi		
6	Vizual və texnoloji resurslardan istifadə	Videoçarxlar, şəkillər, posterlər və təqdimatların tətbiqi	10 nəfər	40%

Müəllimlər bir neçə metoddan istifadə etdiklərini bildirdikləri üçün faizlərin cəmi 100%-dən artıq ola bilər.

Tədqiqat nəticələri göstərir ki, müəllimlər dəyərlərin tədrisində ən çox şagird yönümlü, praktikaya əsaslanan metodlara üstünlük verirlər. Ədəbi nümunələr, nağıllar və hekayələr uşaqlarda həm emosional bağlılıq, həm də etik mövqenin formalaşmasına xidmət edir. Bu metodlar şagirdlərdə empatiya və dəyərlərin fərdi mənimsənilməsi üçün əlverişli zəmin yaradır.

Rol oyunları və situativ yanaşmalar isə dəyərlərin praktik tətbiqini modelləşdirir, şagirdin özünü sosial situasiyada təsəvvür etməsinə, qərar verməsinə və nəticəni qiymətləndirməsinə imkan yaradır. Məsələn, “ədalət” və ya “dürüstlük” dəyərləri konkret həyat hadisəsi canlandırılaraq daha güclü təsirə malik olur (Thornberg, 2008).

Layihə əsaslı öyrənmə (Project-Based Learning – PBL) azlıq təşkil etsə də, bəzi müəllimlər bu üsulu sinifdə tətbiq etmiş və uğurlu nəticələr əldə etdiklərini bildirmişlər. Şagirdlər müəyyən dəyərlə bağlı video, afişa, rəsm, təqdimat və ya kollektiv tədbir hazırlayaraq bu dəyəri daha dərindən mənimsəmişlər.

Eyni zamanda, vizual və texnologiya əsaslı metodların da rolu qeyd olunmalıdır. Müəllimlərin bir hissəsi animasiyalar, videoçarxlar, qısa filmlər və rəqəmsal təqdimatlardan istifadə etdiklərini və bu resursların uşaqların marağını artırdığını bildirmişdir.

Təhlil göstərdi ki:

- Bəzi müəllimlər müasir metodları tətbiq etmək istəsə də, lazımi vəsaitlərin və metodik dəstəyin olmamasından şikayətçidirlər;
- Dəyərlərin planlaşdırılmış şəkildə fənlərə inteqrasiyası zəifdir, bu da dəyərlərin daha çox təsadüfi hallarda tədris olunmasına səbəb olur;
- İnteqrativ və davranış yönümlü strategiyalara keçid üçün müəllim ixtisasartırma təlimləri zəruridir;
- Ənənəvi üsullarla (məs., mühazirə, əzbərlətmə) verilən dəyərlərin davranış səviyyəsində təsiri zəif müşahidə olunur.

Tədqiqat nəticələri göstərdi ki, ibtidai sinif müəllimləri milli və bəşəri dəyərlərin təlim prosesinə inteqrasiyasını vacib hesab etsələr də, bu sahədə qarşılaşdıqları bir sıra pedaqoji, metodoloji və resurs çatışmazlığı mövcuddur. Müəllimlərin çətinlikləri həm dərs planlaması, həm dərslik və vəsaitlərin məzmunu, həm də təcrübəyə əsaslanan tətbiq metodlarının qeyri-kafiliyi ilə bağlıdır.

Təhlil zamanı müəllimlərin çətinlikləri aşağıdakı əsas istiqamətlər üzrə ümumiləşdirilmişdir:

Cədvəl 4. Müəllimlərin üzləşdiyi əsas çətinliklər

№	Çətinlik növü	Təsviri	Qeyd edən müəllim sayı	Faiz (%)
1	Metodik materialların çatışmazlığı	Dəyərlərin necə və hansı üsulla öyrədilməsinə dair nümunəvi dərs planlarının olmaması	16 nəfər	64%
2	Praktik nümunələrin azlığı	Real dərs nümunələri, situasiyalar və inteqrasiya ssenarilərinin kifayət qədər təqdim olunmaması	13 nəfər	52%
3	Rəqəmsal və əyani resursların olmaması	Video, təqdimat, illüstrasiya və interaktiv oyunların yetərli olmaması	11 nəfər	44%
4	Təlimatlar və kurikulum açıqlamalarının qeyri-dəqiqliyi	Kurikulumda dəyərlərin qeyd olunmasına baxmayaraq tətbiq mexanizmlərinin qeyri-müəyyənliyi	10 nəfər	40%
5	Müəllim hazırlığında boşluqlar	Təlimlərdə bu mövzuya kifayət qədər yer verilməməsi, ixtisasartırmanın zəifliyi	14 nəfər	56%
6	Ailə və cəmiyyətlə əməkdaşlıqda çətinliklər	Valideyn və ictimai mühitin dəyərlərə uyğun olmaması və məktəblə dəstək verməməsi	9 nəfər	36%

Qeyd: Müəllimlər bir neçə çətinliyi eyni anda qeyd etdikləri üçün faizlərin cəmi 100%-dən artıq ola bilər.

Sorğuda iştirak edən müəllimlər yalnız çətinlikləri deyil, həm də dəyərlərin təlimə effektiv inteqrasiyası üçün ehtiyac duyduqları dəstək növlərini də qeyd etmişlər. Bu ehtiyaclar aşağıdakı istiqamətlərdə ümumiləşdirilmişdir:

Cədvəl 5. Müəllimlərin ehtiyac duyduğu dəstək və resurslar

№	Ehtiyac növü	Təsviri	Qeyd edən	Faiz

			müəllim sayı	(%)
1	Nümunəvi dərs planları və metodik vəsaitlər	Dəyərlərin müxtəlif fənlərə inteqrasiyası üzrə təlim-tərbiyə planları və dərs modelləri	18 nəfər	72%
2	Dəyərlər üzrə xüsusi təlim proqramları	Pedaqoqlar üçün ixtisasartırma kursları və distant təlimlər	15 nəfər	60%
3	Rəqəmsal resurs bazası və vizual kontentlər	Dəyərləri əyani və cəlbedici təqdim edən materiallar, video və interaktiv tətbiqlər	12 nəfər	48%
4	Kurikulumda konkret tövsiyələr	Təlim nəticələrinin dəyərlərlə birbaşa əlaqələndirilməsi və izahlı kurikulum əlavələri	10 nəfər	40%
5	Məktəb rəhbərliyindən təşkilati dəstək	Dəyərlər tərbiyəsinin planlaşdırılması üçün rəhbərlik tərəfindən dəstəkləyici tədbirlər	9 nəfər	36%
6	Valideynlərlə əməkdaşlıq mexanizmləri	Valideynləri maarifləndirən, məktəblə ailə arasında dəyər əsaslı qarşılıqlı fəaliyyət	7 nəfər	28%

Bu ehtiyaclar onu göstərir ki, ibtidai sinif müəllimləri dəyərlər tərbiyəsini əsas vəzifələrindən biri kimi qəbul etsələr də, bu sahədə metodik dəstəyə, real nümunələrə, təlimə və pedaqoji rəhbərliyə ciddi ehtiyac duyurlar.

Məlum olur ki, müəllimlərin dəyərlərin tədrisinə dair bilik və istək səviyyəsi yüksək olsa da, bu potensial sistemli resurs və struktur dəstəyi ilə müşayiət olunmadıqda nəticələr qeyri-sabit və təsadüfi xarakter daşıyır. Dəyərlərin təlimə inteqrasiyası yalnız müəllimin təşəbbüsü ilə deyil, milli təhsil strategiyasının bir parçası kimi dəstəklənməlidir. Eyni zamanda, dəyərlər təhsili pedaqoji kollektivin ümumi yanaşması ilə həyata keçirilməli, ayrı-ayrı müəllimlərin deyil, məktəb və ictimaiyyətin birgə məsuliyyəti kimi dəyərləndirilməlidir. Bu, həm şagird davranışlarına sabitlik gətirər, həm də ailə-məktəb-cəmiyyət üçbucağında daha güclü pedaqoji əlaqə yaradar.

İbtidai təhsil mərhələsində milli və bəşəri dəyərlərin sistemli şəkildə aşılanmasında kurikulumun məzmunu və məktəb mühitinin keyfiyyəti həlledici əhəmiyyət kəsb edir. Təhsilin məqsəd və prinsiplərini müəyyən edən kurikulum sənədləri şagirdlərin yalnız biliklə deyil, dəyər yönümlü davranışlarla da formalaşmasını hədəfləməlidir. Bu baxımdan Azərbaycan Respublikasının ümumtəhsil kurikulumu, xüsusilə ibtidai təhsil səviyyəsi üçün nəzərdə tutulan fənn proqramları və fənlərarası bacarıqlar bloku dəyərlər tərbiyəsinin həyata keçirilməsində hüquqi-normativ baza rolunu oynayır.

2008-ci ildən tətbiq olunan yeni nəsil milli kurikulum modelində təlim nəticələri yalnız fənn bilikləri ilə deyil, şəxsi, sosial və vətəndaşlıq bacarıqları ilə də ölçülür. Belə bacarıqlara ədalətlilik, əməkdaşlıq, tolerantlıq, məsuliyyətlilik, vətənpərvərlik və əxlaqi qərarvermə kimi keyfiyyətlər daxildir. Bu da göstərir ki, kurikulum dəyərlər təhsili üçün mühüm konseptual çərçivə təqdim edir (Əliyeva, 2020).

Bununla belə, tədqiqat nəticələri göstərir ki, müəllimlərin yalnız 40%-i kurikulumda dəyərlərin aydın və praktik şəkildə əks olunduğunu hesab edir. Respondentlər qeyd edirlər ki, sənədlərdə dəyərlərin mövcudluğu vurğulansa da, onların praktik həyata keçirilməsi üçün metodiki göstərişlər, nümunəvi fəaliyyətlər və konkret göstəricilər çatışmır. Bu səbəbdən müəllimlər çox zaman dəyərləri ya ümumi söhbətlərlə, ya da gündəlik hadisələrə reaksiya şəklində aşılayırlar.

Tədqiqatın empirik hissəsində əldə olunan nəticələr göstərdi ki, məktəbdaxili pedaqoji mühit, yəni rəhbərliyin yanaşması, müəllimlərarası əməkdaşlıq, valideynlərlə əlaqə və məktəbin sosial atmosferi dəyərlərin mənimsənilməsində böyük rol oynayır.

Müəllimlərin 52%-i hesab edir ki, məktəb daxilində birgə dəyərlər siyasəti və mədəniyyəti mövcud olduqda dəyərlərin tədrisi daha təsirli olur. Əksinə, məktəb rəhbərliyi tərəfindən bu məsələyə önəm verilmədikdə və müəllimlər yalnız fərdi təşəbbüsə söykəndikdə, şagirdlərdə öyrənilən dəyərlər davranış vərdişlərinə çevrilməkdə çətinlik çəkir.

Məktəb mühitinin dəyərlər tərbiyəsinə təsirini ümumiləşdirmək üçün aşağıdakı istiqamətlər önə çəkilə bilər:

- Rəhbərliyin dəstəyi: Dəyərlərə əsaslanan dərnəklər, tədbirlər və layihələrin təşkili üçün rəhbərliyin təşəbbüskarlığı və resurs ayırması.
- Məktəbdaxili etika: Müəllim-müəllim, müəllim-şagird və müəllim-valideyn münasibətlərində qarşılıqlı hörmət və əməkdaşlığın təbliği.
- Sosial fəaliyyətlər: Dəyərlərin praktikada təzahür etdiyi — yardım aksiyaları, sosial layihələr, məktəb kodeksi kimi tədbirlərin təşviqi.
- Nümunəvi davranışlar: Müəllimlərin özlərinin gündəlik ünsiyyətində səmimiyyət, ədalət, empati və məsuliyyətin nümayiş olunması.

Tədqiqatın ümumi nəticələri göstərdi ki, dəyərlər tərbiyəsinin uğurlu həyata keçirilməsi üçün

aşağıdakı üç əsas komponentin qarşılıqlı təsiri vacibdir:

1. Normativ baza (kurikulum) – dəyərlərin konseptual çərçivədə təqdim olunması;
2. İcraedici pedaqoji heyət (müəllim) – dəyərləri tədrisə inteqrasiya etmək üçün metodoloji hazırlıq və motivasiya;
3. Əlaqələndirici mühit (məktəb atmosferi) – birgə dəyərlər sistemi ilə yaşayan, şagirdi sosial davranış modelinə yönəldən tədris mühiti.

Bu üç komponentdən hər hansı biri zəif olduqda, təlimdə nəzərdə tutulan dəyərlər öyrənmə nəticəsi kimi reallaşmaq əvəzinə, yalnız nəzəri səviyyədə qalır.

Nəticələr və Təkliflər

Aparılmış nəzəri və empirik təhlillər göstərdi ki, ibtidai təhsil pilləsində milli və bəşəri dəyərlərin şagirdlərə aşılanması Azərbaycan təhsil sisteminin əsas hədəflərindən biri olmaqla yanaşı, pedaqoji prosesin mühüm tərkib hissəsidir. Tədqiqat nəticələrinə əsasən aşağıdakı əsas qənaətlərə gəlinmişdir:

1. Dəyərlər təhsili müəllimlərin pedaqoji fəaliyyətində əhəmiyyətli yer tutur, lakin bu proses əsasən spontan və situativ xarakter daşıyır. Dəyərlərin planlı şəkildə dərs prosesinə inteqrasiyası məhdud miqyasda həyata keçirilir.
2. Müəllimlər tərəfindən ən çox vurğulanan milli dəyərlər vətənpərvərlik, mədəni irsə hörmət və əməksevərlik, bəşəri dəyərlər isə ədalət, empati və tolerantlıq olmuşdur. Lakin bu dəyərlərin şagirdlərdə davranış vərdişinə çevrilməsi üçün tətbiq olunan metodlar daha çox ənənəvi üsullarla məhdudlaşır.
3. Ədəbi nümunələrə əsaslanan təlim, söhbət və situativ üsullar geniş tətbiq olunsa da, layihə əsaslı və interaktiv təlim metodları, fənlərarası inteqrasiya kimi müasir strategiyaların istifadəsi zəifdir.
4. Müəllimlər dəyərlər tərbiyəsində bir sıra çətinliklərlə qarşılaşırlar: metodik vəsaitlərin çatışmazlığı, praktik nümunələrin azlığı, rəqəmsal resursların məhdudluğu, pedaqoji təlimlərin natamamlığı və valideynlərlə əməkdaşlığın zəifliyi.
5. Milli kurikulum sənədlərində dəyərlərin verilməsi nəzərdə tutulsa da, tətbiq mexanizmləri, qiymətləndirmə meyarları və metodik istiqamətlər qeyri-müəyyəndir. Məktəbdaxili mühitin — yəni pedaqoji kollektivin birgə fəaliyyətinin, rəhbərliyin dəstəyinin və sosial layihələrin olması dəyərlərin şagird davranışına təsirində mühüm rol oynayır.

Tədqiqat nəticələri əsasında ibtidai siniflərdə milli və bəşəri dəyərlərin daha səmərəli aşılanması üçün aşağıdakı təkliflər irəli sürülür:

1. Metodik vəsaitlərin hazırlanması: Müəllimlər üçün nümunəvi dərs planları, fənlər üzrə inteqrasiya ssenariləri, situativ tapşırıqlar və davranış yönümlü fəaliyyət nümunələrini ehtiva edən metodik vəsaitlər tərtib olunmalıdır.
2. Pedaqoji təlimlərin təşkili: Dəyərlər təhsili üzrə müəllimlərin nəzəri və praktik biliklərini artırmaq məqsədilə interaktiv seminarlar, distant kurslar və təcrübə paylaşım platformaları yaradılmalıdır.
3. Kurikulumun zənginləşdirilməsi: Kurikulum sənədlərində dəyərlərə dair konkret fəaliyyət nümunələri, qiymətləndirmə göstəriciləri və fənlərarası inteqrasiya modelləri daha aydın şəkildə qeyd edilməlidir.
4. Vizual və rəqəmsal resursların yaradılması: Dəyərlərlə bağlı qısametrajlı filmlər, animasiyalar, posterlər, interaktiv oyunlar və təqdimatlar hazırlanaraq müəllimlərə açıq resurs kimi təqdim olunmalıdır.
5. Məktəbdaxili sosial təşəbbüslərin dəstəklənməsi: Dəyərləri əks etdirən tədbirlər, sosial layihələr, məktəbdaxili “Dəyərli davranış” proqramları və müsabiqələr təşkil edilməlidir.
6. Valideynlərlə əməkdaşlığın gücləndirilməsi: Ailənin tərbiyə prosesinə aktiv cəlbi məqsədilə maarifləndirici vebinarlar, görüşlər və müştərək fəaliyyətlər keçirilməli, dəyərlər məktəbdən evə daşınmalıdır.
7. Müəllim modellərinin təşviqi: Dəyərləri praktik davranışla nümayiş etdirən müəllimlərin təcrübəsi digərlərinə nümunə kimi təqdim olunmalı və bu istiqamətdə motivasiyaedici mexanizmlər qurulmalıdır.

ƏDƏBIYYAT SIYAHISI:

1. Banks, J. A. (2008). Diversity, group identity, and citizenship education in a global age. Educational Researcher, 37(3), 129–139. https://doi.org/10.3102/0013189X08317501
2. Ceyhunlu, S. (2019). Milli dəyərlərin tədris prosesinə inteqrasiyası: Kurikulum əsaslı yanaşma. Pedaqoji Araşdırmalar Jurnalı, 4(2), 87–94.
3. Əliyeva, G. (2020). İbtidai sinif şagirdlərində vətənpərvərlik tərbiyəsi: Müasir yanaşmalar. Azərbaycan Məktəbi, (9), 45–51.
4. Halstead, J. M., & Taylor, M. J. (2000). Learning and teaching about values: A review of recent research. Cambridge Journal of Education, 30(2), 169–202. https://doi.org/10.1080/713657146
5. Heydərova, L. (2022). Dəyərlərin formalaşdırılmasında ailə və məktəbin rolu. Təhsil və Cəmiyyət, 5(1), 27–34.
6. Lickona, T. (1991). Educating for character: How our schools can teach respect and responsibility. New York: Bantam Books.
7. Mehdiyev, N. (2018). Məktəbəqədər və ibtidai təhsildə tərbiyə məsələləri. Bakı: Nurlan.

8. Noddings, N. (2013). Caring: A relational approach to ethics and moral education (2nd ed.). Berkeley: University of California Press.
9. Thornberg, R. (2008). The lack of professional knowledge in values education. Teaching and Teacher Education, 24(7), 1791–1798. https://doi.org/10.1016/j.tate.2008.02.005
10.UNESCO. (2015). Global citizenship education: Topics and learning objectives. Paris: UNESCO Publishing. https://unesdoc.unesco.org/ark:/48223/pf0000232993
11.Veugelers, W. (2007). Creating critical-democratic citizenship education: Empowering humanity and democracy in Dutch education. Compare: A Journal of Comparative and International Education, 37(1), 105–119. https://doi.org/10.1080/03057920601061893

DOİ: 10.32010/ATTV6795

ALİ TƏHSİLDƏ TƏLƏBƏLƏRİN ÖZÜNÜHAZIRLIĞININ TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ SÜNİ İNTELLEKTİN ROLU

Nərmin Qalib CÜMŞÜDOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0001-6843-8952
narmin.cumshudova@adpu.edu.az

Xülasə: Bu məqalədə süni intellekt texnologiyalarının ali təhsildə tələbələrin özünühazırlığına təsiri çoxşaxəli şəkildə araşdırılmışdır. Müasir dövrdə təhsil sistemləri rəqəmsal transformasiyanın təsiri altında əsaslı dəyişikliklərə məruz qalır və tələbələrin müstəqil öyrənmə bacarıqlarının formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Ənənəvi tədris metodları ilə yanaşı, süni intellekt texnologiyaları tələbələrin özünühazırlıq prosesini daha məhsuldar, fərdiləşdirilmiş və çevik şəkildə həyata keçirməsinə imkan yaradır.

Süni intellekt əsaslı öyrənmə platformaları tələbələrə fərdi yanaşma təqdim edir, onların bilik səviyyəsinə uyğun material seçir, zəif istiqamətləri müəyyənləşdirir və əlavə resurslar təklif edir. Adaptiv öyrənmə modelləri tələbənin öyrənmə tempinə uyğunlaşaraq həm motivasiya, həm də nəticəliliyi artırır. Bununla yanaşı, virtual köməkçilər, avtomatlaşdırılmış qiymətləndirmə sistemləri, intellektual axtarış alətləri və rəqəmsal simulyasiyalar tələbələrin nəzəri biliklərini praktik tətbiqlərlə möhkəmləndirməsinə şərait yaradır.

Süni intellekt texnologiyalarının üstünlükləri arasında vaxtın daha səmərəli idarə olunması, elmi mənbələrə sürətli çıxış, məlumatın strukturlaşdırılması, kritik və analitik düşünmə bacarıqlarının inkişafı xüsusilə ön plana çıxır. Eyni zamanda, bu texnologiyalar tələbələrin öyrənmə prosesində daha yüksək motivasiya ilə iştirak etməsinə və müstəqil tədqiqat aparmaq bacarığını inkişaf etdirməsinə şərait yaradır.

Təhsildə süni intellektdən istifadənin bir çox faydaları olsa da, diqqət yetirilməli olan problemlər də nəzərdən qaçırılmamalıdır. Akademik dürüstlük pozuntuları, plagiat riskləri, texnologiyadan həddindən artıq asılılıq, şəxsi məlumatların qorunması məsələləri və müəllim–tələbə münasibətlərində balansın zəifləməsi süni intellektin tətbiqi ilə bağlı əsas məhdudiyyətlər kimi dəyərləndirilir. Beləliklə, süni intellekt təhsil haqqında düşüncə tərzimizi dəyişdirmək potensialına malik olsa da, hələ də həll olunmayan bir çox problem və təhlükələr var. Buna görə də süni intellektin tədris mühitinə inteqrasiyası pedaqoji prinsiplərlə uzlaşdırılmalı, tələbələrin yaradıcılıq və analitik bacarıqlarını məhdudlaşdırmadan dəstəkləməlidir.

Nəticə etibarilə, süni intellekt texnologiyaları ali təhsildə tələbələrin özünühazırlıq fəaliyyətinə əhəmiyyətli təsir göstərərək öyrənmənin keyfiyyətini artırır, onların gələcək peşəkar inkişafına töhfə verir. Texnologiyanın düzgün və etik istifadəsi sayəsində tələbələrin müstəqil öyrənmə bacarıqları daha da güclənir və təhsil sistemində yeni inkişaf perspektivləri formalaşır.

Açar sözlər: süni intellekt, ali təhsil, tələbə özünühazırlığı, rəqəmsal transformasiya, adaptiv öyrənmə, akademik dürüstlük, motivasiya, analitik bacarıqlar

---

THE ROLE OF ARTIFICIAL INTELLIGENCE IN IMPROVING STUDENTS' SELF-PREPARATION IN HIGHER EDUCATION

Narmin Galib JUMSHUDOVA
Azebaijan State Pedagogical University
https://orcid.org/0009-0001-6843-8952
narmin.cumshudova@adpu.edu.az

Summary: This article comprehensively examines the impact of artificial intelligence (AI) technologies on students' self-preparation in higher education. In the modern era, education systems are undergoing fundamental transformations under the influence of digitalization, and the development of students' independent learning skills is gaining special importance. Alongside traditional teaching methods, AI technologies enable students to carry out their self-study processes more productively, individually, and flexibly.

AI-based learning platforms provide personalized approaches for students by selecting materials appropriate to their knowledge level, identifying weaknesses, and offering additional resources. Adaptive learning models adjust to the learner's pace, thereby increasing both motivation and effectiveness. In addition, virtual assistants, automated assessment systems, intelligent search tools, and digital simulations help students consolidate theoretical knowledge through practical applications.

Among the advantages of AI technologies are more efficient time management, quick access to academic resources, data structuring, and the development of critical and analytical thinking skills. At the same time, these technologies promote students' motivation and enhance their ability to engage in independent research.
Despite numerous benefits, several issues require attention. Academic integrity violations, plagiarism risks, overreliance on technology, data privacy concerns, and the weakening of teacher–student relationships are among the main limitations of AI use in education. Although AI has the potential to transform our perception of learning, many challenges and risks remain unresolved. Therefore, the integration of AI into educational environments should be aligned with pedagogical principles, supporting creativity and analytical thinking without restricting them.
In conclusion, AI technologies significantly influence students' self-directed learning in higher education, improve learning quality, and contribute to their future professional development. Proper and ethical use of technology strengthens students' independent learning skills and opens new perspectives for educational advancement.
Keywords: artificial intelligence, higher education, student self-study, digital transformation, adaptive learning, academic integrity, motivation, analytical skills

РОЛЬ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В УЛУЧШЕНИИ САМОПОДОГОТОВКИ СТУДЕНТОВ В ВЫСШЕМ ОБРАЗОВАНИИ

Нармин Галиб ДЖУМШУДОВА
Азербайджанский Государственный Педагогический Университет
https://orcid.org/0009-0001-6843-8952
narmin.cumshudova@adpu.edu.az

Резюме: В данной статье всесторонне исследуется влияние технологий искусственного интеллекта (ИИ) на самостоятельную подготовку студентов в высшем образовании. В современную эпоху образовательные системы претерпевают глубокие изменения под воздействием цифровой трансформации, и развитие навыков самостоятельного обучения студентов приобретает особое значение. Наряду с традиционными методами преподавания, технологии ИИ позволяют студентам осуществлять процесс самоподготовки более продуктивно, индивидуализировано и гибко.
Образовательные платформы на основе ИИ предлагают персонализированный подход, подбирая материалы в соответствии с уровнем знаний студентов, выявляя слабые стороны и предлагая дополнительные ресурсы. Адаптивные модели обучения подстраиваются под темп учащегося, повышая его мотивацию и эффективность. Кроме того, виртуальные помощники, автоматизированные системы оценки, интеллектуальные поисковые инструменты и цифровые симуляции способствуют закреплению теоретических знаний на практике. Среди преимуществ технологий ИИ можно выделить более эффективное управление временем, быстрый доступ к научным источникам, структурирование информации, развитие критического и аналитического мышления. Эти технологии также способствуют росту мотивации и развитию у студентов навыков самостоятельных исследований.
Тем не менее, следует учитывать и существующие проблемы: нарушения академической честности, риск плагиата, чрезмерная зависимость от технологий, вопросы конфиденциальности данных и ослабление взаимодействия между преподавателем и студентом. Хотя ИИ имеет потенциал изменить наше представление об образовании, остаются нерешённые вызовы и риски. Поэтому интеграция ИИ в образовательную среду должна согласовываться с педагогическими принципами, поддерживая творческое и аналитическое мышление студентов.
В заключение можно отметить, что технологии искусственного интеллекта оказывают значительное влияние на самостоятельную подготовку студентов в высшей школе, повышают качество обучения и способствуют их профессиональному развитию. Этичное и грамотное использование технологий укрепляет самостоятельные навыки студентов и открывает новые перспективы для развития образования.
Ключевые слова: искусственный интеллект, высшее образование, самостоятельная подготовка студентов, цифровая трансформация, адаптивное обучение, академическая честность, мотивация, аналитические навыки

Giriş

Müasir dövrdə təhsil sistemində müşahidə olunan rəqəmsal transformasiya, xüsusilə süni intellekt texnologiyalarının inkişafı ali təhsildə yeni imkanların yaranmasına səbəb olmuşdur. Ənənəvi tədris üsullarına əlavə olaraq süni intellektin tətbiqi tələbələrin bilik qazanma prosesinə, özünütəhsil bacarıqlarının inkişafına və informasiya mühitində düzgün

istiqamətlənməsinə təsir göstərir. Tələbələrin yalnız auditoriya dərslərində deyil, həm də müstəqil şəkildə özünühazırlıqla məşğul olması onların peşəkar inkişafının mühüm şərtlərindən biridir. Süni intellekt isə bu prosesdə həm müəllim, həm də tələbə üçün yeni dəstək mexanizmi rolunu oynayır. Ali təhsildə süni intellektin tətbiqi yalnız texnoloji deyil, həm də pedaqoji yanaşmanın yenidən formalaşdırılması kimi nəzərdən keçirilir. (Holmes, Bialik & Fadel, 2019).

Ali təhsildə özünühazırlıq**,** tələbənin müstəqil şəkildə bilik əldə etmək, tədris materiallarını sistemləşdirməsi, araşdırma aparması və öyrənmə prosesinə məsuliyyətlə yanaşması kimi məsələləri özündə cəmləşdirir. Bu proses tələbənin düşünmə, analitik təhlil və özünüidarəetmə funksiyalarını inkişaf etdirən əsas komponentlərdən biri hesab olunur (Zimmerman, 2002).

Müasir tədris mühitində özünühazırlıq təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Öz üzərində çalışan tələbə dərsə daha fəal şəkildə qoşulur, yaradıcı ideyalar irəli sürür və nəticə etibarilə daha çox nəticə əldə edir. Özünühazırlıq, həmçinin müəllimdən tələbəyə ötürülən biliklərin passiv qəbulu ilə məhdudlaşmır, tələbənin aktiv şəkildə öyrənmə prosesinə başlamasına və dinamik öyrənmə mühitinin formalaşdırılmasına şərait yaradır.

Süni intellektin təhsil mühitində inkişafında müstəqil öyrənmə bacarıqları yüksək səviyyədə yeni yarışın açılışını qoymuşdur. Sİ əsaslı sistemlər tələbələrin bilik və bacarıqlarını analiz edir, öyrənmə sürəti və maraqlarını nəzərə alaraq fərdiləşdirilmiş öyrənmə strategiyaları təqdim edir. Bu, tələbənin yalnız bilik əldə etməsini deyil, həm də özünə uyğun öyrənmə strategiyalarını formalaşdırmaq üçün şərait yaradır. Məsələn, intellektual təcrübə platformaları tələbələrə zəif tərəflərini göstərir, əlavə resurslar təklif edir, həmçinin interaktiv mexanizmlərlə öyrənmə prosesini planlaşdırır. Chatbotlar və virtual mentorlar real vaxtda suallara cavab verir, tələbəyə istiqamət göstərir və psixoloji motivasiyanı artırır.

Süni intellekt həm də özünütədris prosesində analitik düşünmə, plan qurma və problem həll etmə bacarıqlarının inkişafına xidmət edir. Eyni zamanda, Sİ texnologiyaları tələbələrin öyrənmə davranışını təhlil edərək bir neçə irəliləyiş hesabatları yaradır və geribildirim verir. Süni intellektin tətbiqi ilə müstəqil öyrənmə prosesi daha çevik, məqsədyönlü və motivasiyaedici xarakter alır. Bu, ali təhsildə onun özünütəkmilləşdirmə mədəniyyətinin formalaşdırılmasına və akademik nəticələrin yüksəlməsinə şərait yaradır.

Ali təhsil mühitində tələbələrin özünühazırlığında süni intellekt texnologiyalarının tətbiqinin bir sıra mühüm üstünlükləri aşağıda qeyd edilmişdir:

- ✓ Adaptiv öyrənmə platformaları
- ✓ Avtomatlaşdırılmış qiymətləndirmə sistemləri
- ✓ Süni intellekt əsaslı virtual müəllimlər və chatbotlar
- ✓ Məlumatların emalı və filtrasiyası
- ✓ Rəqəmsal simulyasiyalar və interaktiv tədris mühitləri
- ✓ Kooperativ öyrənmə mühitlərinin təşkili
- ✓ Tədris prosesində səmərəliliyin analitik təhlili
- ✓ Avtomatik istinadlar və biblioqrafiyanın hazırlanması

1. Adaptiv öyrənmə platformaları. Süni intellektin tələbələr üçün əsas üstünlüyü fərdiləşdirilmiş təhsilə çıxış imkanıdır. Adaptiv öyrənmə sistemləri hər bir tələbənin fərdi öyrənmə sürəti və bilik səviyyəsinə uyğun olaraq materiallar seçir. Bu, ənənəvi tədrisdə mümkün olmayan fərdiləşdirilmiş yanaşmanı təmin edir. UNESCO-nun 2021-ci ildə hazırladığı hesabatda vurğulandığı kimi, süni intellekt yalnız müəllimlərin işini asanlaşdırmır, eyni zamanda tələbələrin müstəqil öyrənmə vərdişlərinin inkişafına mühüm təsir göstərir. Digər tərəfdən, süni intellekt əsaslı avtomatlaşdırılmış qiymətləndirmə sistemləri tələbələrin bilik səviyyəsini tez bir zamanda müəyyənləşdirir və zəif tərəfləri göstərməklə onların özünühazırlıq fəaliyyətini daha məqsədyönlü edir (UNESCO, 2021).

2. Avtomatlaşdırılmış qiymətləndirmə sistemləri. Süni intellektin özünühazırlığa təsir edən mühüm tərəflərindən biri də informasiya bolluğunda tələbənin düzgün istiqamətləndirilməsidir. Bugünkü elmi mühitdə yüzlərlə məqalə, kitab və araşdırma materialı mövcuddur. Sİ alqoritmləri tələbəyə etibarlı mənbələr seçməkdə kömək edir, nəticədə o, vaxt itirmədən keyfiyyətli material üzərində işləyə bilir (Luckin və b., 2016). Bu xüsusiyyət ali təhsil pilləsində tələbənin həm akademik uğurlarını, həm də tədqiqat bacarıqlarını gücləndirir.

3. Süni intellekt əsaslı virtual müəllimlər və chatbotlar. Bununla yanaşı, süni intellekt əsaslı platformalar tələbələrin özünüidarə və motivasiya qabiliyyətlərini də artırır. Müxtəlif virtual köməkçilər və chat-botlar tələbəyə dərs cədvəli qurmaqda, hazırlıq prosesini izləməkdə və öyrənmə nəticələrini qiymətləndirməkdə dəstək olur. Bu isə öz növbəsində tələbələrdə vaxt idarəçiliyinin, məsuliyyət hissinin və müstəqil öyrənmə vərdişlərinin formalaşmasına şərait yaradır (Alenezi, 2023).

4. Məlumatların emalı və filtrasiyası. Eyni zamanda, süni intellekt texnologiyaları analitik və yaradıcı düşüncənin inkişafına da töhfə verir. Virtual laboratoriyalar, simulyasiya proqramları və problem həllinə yönəlmiş tədris tətbiqləri tələbələrin nəzəri biliklərini praktik bacarıqlarla əlaqələndirməsinə imkan yaradır. Bu proses onların yalnız məlumat toplayan deyil, həm də araşdıran və nəticə çıxaran şəxsiyyətlər kimi formalaşmasına xidmət edir (Selwyn, 2022).

5. Rəqəmsal simulyasiyalar və interaktiv tədris mühitləri. Sİ interaktiv və fəal öyrənməni stimullaşdırır. Rəqəmsal simulyasiyalar tələbələrə nəzəri bilikləri real və ya modelləşdirilmiş situasiyalarda tətbiq etmək imkanı yaradaraq, onların praktiki təfəkkür və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Bu texnologiyalar real laboratoriya və ya iş mühitinin rəqəmsal ekvivalentini təmin etməklə, öyrənmənin təhlükəsiz və təcrübəyə əsaslanan formada həyata keçirilməsinə şərait yaradır. Nəticədə, tələbə yalnız nəzəri biliklərlə məhdudlaşmır, həm də həmin bilikləri müxtəlif ssenarilərdə tətbiq etməyi öyrənir ki, bu da özünühazırlıq prosesini daha dərin və davamlı öyrənmə təcrübəsinə çevirir. Beləliklə, təhsil prosesi daha maraqlı və cəlbedici olur, bu da nəticələrin və motivasiyanın yüksəlməsinə gətirib çıxarır (Abbasov və Məmmədov, 2025).

6. Kooperativ öyrənmə mühitlərinin təşkili. Kooperativ öyrənmə mühitlərinin təşkil olunması süni intellekt əsaslı platformalar tələbələr arasında qarşılıqlı əməkdaşlıq, bilik və təcrübə mübadiləsini təşviq etməklə, kollektiv öyrənmə prosesini gücləndirir. Süni intellekt texnologiyaları vasitəsilə yaradılan qrup tapşırıqları, virtual forumlar və layihə əsaslı öyrənmə modelləri tələbələrin bir-birinin biliklərini tamamlamasına, birgə qərarvermə və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməsinə şərait yaradır. Belə mühitlərdə hər bir tələbə fərdi məsuliyyət daşımaqla yanaşı, komanda üzvü kimi ümumi nəticəyə töhfə verməyi öyrənir. Nəticədə, kooperativ öyrənmə yalnız akademik nailiyyətləri deyil, həm də sosial və kommunikativ bacarıqları formalaşdırır, tələbələri real əmək bazarının tələblərinə daha yaxşı hazırlaşdırır.

7. Tədris prosesində səmərəliliyin analitik təhlili. Süni intellekt sistemləri tələbələrin fəaliyyət göstəricilərini, öyrənmə dinamikasını və nəticələrini dərin analitik üsullarla təhlil edərək tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə imkan yaradır. Bu sistemlər vasitəsilə toplanan məlumatlar müəllimlərə və təhsil rəhbərlərinə öyrənmə prosesinin güclü və zəif tərəflərini müəyyənləşdirməyə, fərdi və qrup səviyyəsində irəliləyişləri izləməyə şərait yaradır. Analitik təhlil nəticəsində tədris strategiyalarının optimallaşdırılması, fərdiləşdirilmiş tədris planlarının hazırlanması və resursların daha məqsədyönlü istifadəsi mümkün olur. Nəticədə, Sİ əsaslı təhlil yalnız qiymətləndirmə funksiyasını deyil, həm də proqnozlaşdırma və qərarvermə mexanizmini gücləndirərək tədris prosesində davamlı inkişafı təmin edir.

8. Avtomatik istinadlar və biblioqrafiyanın hazırlanması - Sİ əsaslı platformalar tədqiqatçı tələbələr üçün istinadları avtomatik toplayır və istənilən formatda (APA, MLA, Chicago və s.) təqdim edir: Zotero, EndNote, Mendeley - avtomatik istinad generatorları və mənbə idarəetmə proqramlarıdır. AI-powered tools (məsələn, SciSpace Copilot) məqalənin xülasəsini çıxarır və avtomatik olaraq istinadları düzəldir. Bu platformalar tələbələrə daha asan üsulla, düzgün ədəbiyyat siyahısını hazırlamağa köməkçi olur və vaxt itkisinin qarşısını alır (Abbasov və Məmmədov, 2025).

Bununla belə, süni intellektin ali təhsildə tətbiqi bir sıra problemlər və məhdudiyyətlərlə də müşayiət olunur. Süni intellektin tələbələrin özünühazırlıq prosesində yaratdığı bəzi problemlərə aşağıdakılar daxildir:

1. **Texnologiyadan asılılıq** – Tələbələrin bütün hazırlıq prosesini yalnız Sİ-yə əsaslandırması onların öz müstəqil tədqiqat və düşünmə bacarıqlarını zəiflədə bilər. Həmçinin öyrənmə, ünsiyyət və əyləncə üçün süni intellektdən asılılığın artması ilə tələbələr rəqəmsal mühitlərə məruz qalırlar ki, bu da onların ümumi rifahı üçün mənfi nəticələrə səbəb ola bilər. Təhsil tapşırıqları və istirahət fəaliyyətləri arasındakı sərhəd getdikcə məsaməli olur, bu da tələbələrin vaxtlarını səmərəli idarə etmələrini və ya mənalı oflayn qarşılıqlı əlaqədə olmalarını çətinləşdirir (Dwivedi et al., 2023). Süni intellekt texnologiyaları ilə bu davamlı əlaqə, öz növbəsində, tələbələrin sosial əlaqələr yaratmaq, rəqəmsal stimullar olmadan istirahət etmək və ya akademik və şəxsi həyat arasında sağlam tarazlığı qorumaq qabiliyyətinə təsir göstərə bilər.
2. **Akademik dürüstlük problemi** – Avtomatlaşdırılmış mətn generatorları, süni intellekt əsaslı cavablandırma və yazı alətləri tələbələrə elmi işləri və tapşırıqları daha sürətli yerinə yetirməyə imkan yaratsa da, bu eyni zamanda plagiat və intellektual qeyri-dürüstlük riskini artırır. Belə alətlərdən nəzarətsiz istifadə nəticəsində tələbələr bəzən öz intellektual fəaliyyətini əvəz edən hazır mətnlərdən istifadə edir, bu isə onların tənqidi düşünmə, analitik yazı və orijinal ideya formalaşdırma bacarıqlarının zəifləməsinə gətirib çıxarır.
3. **Məlumat təhlükəsizliyi** – Tələbələrin şəxsi məlumatlarının qorunması və məxfilik məsələləri açıq qalır. Süni intellekt sistemləri tez-tez akademik

performans, davranış nümunələri və hətta şəxsi məlumatlar da daxil olmaqla böyük həcmdə tələbə məlumatlarına giriş tələb edir (Akgun və Greenhow, 2022 ; Kamalov et al., 2023). Bu məlumatlar tez-tez öyrənmə nəticələrini artırmaq üçün istifadə olunur, lakin o, həm də potensial sui-istifadəyə və ya məxfiliyin pozulmasına səbəb ola bilər.

4. **Müəllimin rolunun zəifləməsi** – Süni intellekt müəllimin tam əvəzləyicisi deyil. Süni intellekt sistemləri məlumat təqdim etmək, qiymətləndirmə aparmaq və fərdi tədris planları qurmaqda effektiv olsa da, onlar pedaqoji empatiya**,** insani ünsiyyət**,** yaradıcı təşəbbüsün stimullaşdırılması **və** mənəvi-psixoloji dəstək kimi vacib sahələri tam əhatə edə bilmir (OECD, 2021).

5. **Sosiallaşma bacarıqlarının zəifləməsi** - Süni intellekt səmərəliliyi artıra və öyrənməni fərdiləşdirə bilsə də, ona həddən artıq etibar etmək əsas şəxsiyyətlərarası bacarıqları və emosional zəkanı poza bilər. Shukla və Pandey təklif edir ki, təhsil yanaşmaları süni intellekt tərəfindən yaradılan məzmunu tənqidi qiymətləndirmək, onu insan mənbələrindən əldə edilən fikirlərlə müqayisə etmək və Sİ-in məhdudiyyətlərini tanımaq ehtiyacını vurğulamalıdır. Onlar həmçinin vurğulayırlar ki, süni intellekt nəticələrinə xas olan qərəzlər üzərində düşünməyi təşviq etmək və tələbələri müxtəlif mənbələrdən məlumatların düşünülmüş təhlili və inteqrasiyası tələb edən tapşırıqlara cəlb etmək süni intellekt alətlərindən daha məlumatlı və ağıllı istifadəni inkişaf etdirə bilər (Shukla & Pandey, 2025).

Azərbaycan təhsil mühitində aparılan son tədqiqatlar da süni intellektin tələbə özünühazırlığına təsirini əks etdirir. Məsələn, L. Əliyeva (2022) ali təhsildə rəqəmsal transformasiyanın tələbələrin müstəqil öyrənmə fəaliyyətini gücləndirdiyini göstərir. S. Məmmədov (2023) isə süni intellektin pedaqoji proseslərdə yaratdığı üstünlüklərlə yanaşı, akademik dürüstlük problemlərinə də diqqət çəkir.

Nəticə və təkliflər

Nəticə etibarilə, süni intellekt texnologiyaları ali təhsil sistemində tələbələrin özünühazırlıq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Onun tətbiqi fərdi öyrənmə, motivasiya, analitik düşüncə və informasiya yönləndirilməsi baxımından mühüm üstünlüklər yaradır. Lakin texnologiyadan balanssız istifadə, akademik dürüstlük və etik problemlər nəzərə alınmadan tətbiq edildiyi halda mənfi nəticələr də doğura bilər. Bu tədqiqatın əsas məhdudiyyətlərindən biri də bu sahədə tədqiqatların yeni vəziyyətidir, çünki ali təhsildə süni intellektin istifadəsi və onun tələbələrin rifahına təsiri hələ nisbətən yenidir. Nəticədə mövzu ilə bağlı eksperimental və empirik tədqiqatların azlığı var ki, bu da təhlilin dərinliyini və genişliyini məhdudlaşdırır. Bu məhdudiyyətə baxmayaraq, mövcud olan bir neçə tədqiqat akademik rifahla bağlı Sİ-in aydın potensial üstünlüklərini və çatışmazlıqlarını nümayiş etdirir. Bu tapıntılar həm faydaları, həm də daha ətraflı şəkildə araşdırılmalı olan narahatlıqları vurğulayaraq, gələcək tədqiqatlar üçün mühüm zəmin yaradır. Hazırkı ədəbiyyat toplusu məhdud olsa da, o, süni intellektin tələbələrin psixi sağlamlığına, sosial qarşılıqlı əlaqəsinə və ümumi rifahına uzunmüddətli təsirlərinin daha əhatəli, dərin araşdırmaları üçün mühüm başlanğıc nöqtəsi kimi xidmət edir. Ali təhsildə süni intellektin tətbiqi tələbələrin özünühazırlıq fəaliyyətini əhəmiyyətli dərəcədə dəstəkləmək üçün bir sıra strateji yanaşmaları tələb edir. İlk növbədə, **süni intellekt əsaslı özünühazırlıq platformalarının yaradılması** tələbələrə fərdi öyrənmə strategiyalarını inkişaf etdirməyə, zəif tərəflərini müəyyənləşdirməyə və öz bilik səviyyələrinə uyğun resurslardan səmərəli istifadə etməyə imkan yaradır.

Eyni zamanda, **müəllimlərin süni intellekt savadlılığının artırılması** vacibdir, çünki müəllimlər AI texnologiyalarını düzgün və etik şəkildə tədris prosesinə inteqrasiya edərək tələbələrin öyrənmə potensialını maksimuma çıxara bilərlər. Bu, həmçinin müəllim–tələbə münasibətlərinin və pedaqoji yanaşmanın zəifləməsinin qarşısını alır.

Tələbələr üçün etik və tənqidi düşünmə təlimləri onların süni intellekt vasitələrindən məsuliyyətli və yaradıcı şəkildə istifadə etməsini təmin edir, akademik dürüstlük və intellektual fəaliyyətin qorunmasına kömək edir. Bu məqsədlə **akademik dürüstlüyü təmin edən intellektual yoxlama sistemlərinin inteqrasiyası** vacib rol oynayır, plagiat riskini minimuma endirir və tələbələrin orijinal ideya formalaşdırma bacarıqlarını gücləndirir.

Nəhayət, **hibrid modelin – ənənəvi mentorluq ilə süni intellekt dəstəyinin birləşdirilməsi** – ali təhsildə ideal yanaşma kimi görünür. Belə model tələbələrə həm insani mentorluğun verdiyi emosional və pedaqoji dəstəyi, həm də AI-nin təmin etdiyi fərdiləşdirilmiş və analitik imkanları təqdim edir. Nəticədə tələbələrin müstəqil öyrənmə bacarıqları inkişaf edir, akademik nəticələr yüksəlir və təhsil mühiti daha çevik, motivasiyaedici və müasir tələblərə cavab verən bir səviyyəyə çatır.

Belə yanaşmalar tələbələrin müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir, akademik nəticələri

yüksəldir və təhsil mühitini daha çevik, motivasiyaedici və müasir tələblərə uyğun edir. Nəticədə, ali təhsildə süni intellektin ən yüksək potensialı yalnız ənənəvi pedaqoji metodlarla uyğunlaşdırılmış şəkildə tətbiq edildikdə realizə oluna bilər.

ƏDƏBIYYAT SIYAHISI:

1. Abbasov, Ə., Məmmədov, Z. (2025). Süni intellektin elmdə və təhsildə rolu: çağırışlar, yeni imkanlar, etik məsələlər və gələcək perspektivlər. İpək yolu, №3, 11-24.
2. Akgun, S., & Greenhow, C. (2022). Artificial intelligence in education: Privacy, ethics, and policy implications for learners. Computers & Education, 188, 104–119.
3. Alenezi, A. (2023). The Role of Artificial Intelligence in Higher Education: Opportunities and Challenges. Education and Information Technologies, 28(4), 451–468.
4. Dwivedi, Y. K., Hughes, L., Baabdullah, A. M., Ribeiro-Navarrete, S., Giannakis, M., Al-Debei, M. M., Wamba, S. F. (2023). Artificial intelligence (AI): Multidisciplinary perspectives on emerging challenges, opportunities, and agenda for research, practice and policy. International Journal of Information Management, 71, 102642. https://doi.org/10.1016/j.ijinfomgt.2023.102642
5. Holmes, W., Bialik, M., & Fadel, C. (2019). Artificial Intelligence in Education: Promises and Implications for Teaching and Learning. Center for Curriculum Redesign.
6. Kamalov, F., Thabtah, F., & Domingos, C. (2023). *Data privacy and ethics in AI-driven education*. Journal of Applied Artificial Intelligence, 37(4), 1452–1467.
7. UNESCO (2021). AI and Education: Guidance for Policy-makers. Paris: United Nations Educational, Scientific and Cultural Organization.
8. Luckin, R., Holmes, W., Griffiths, M., & Forcier, L. B. (2016). Intelligence Unleashed: An Argument for AI in Education. Pearson Education.
9. OECD (2021). Artificial Intelligence in Society. Paris: OECD Publishing.
10. Əliyeva, L. (2022). "Ali təhsildə rəqəmsal transformasiya və tələbə özünühazırlığı problemləri." Azərbaycan Pedaqoji Universitetinin Elmi Xəbərləri, 2(70), 155–166.
11. Məmmədov, S. (2023). "Süni intellektin pedaqoji proseslərdə tətbiqi: üstünlüklər və məhdudiyyətlər." Azərbaycan Təhsil Araşdırmaları Jurnalı, 11(3), 101–109.
12. Selwyn, N. (2022). Education and Technology: Key Issues and Debates. London: Bloomsbury Publishing.
13. Shukla, H., Pandey, K. (2025). Human-AI collaboration in teaching and learning. International Journal of Science and Social Science Research. 2 (4), 367-375.
14. Zimmerman, B.J. (2002). Becoming a self-regulated learner: an overwiev. Theory Into Practice, 41 (2), 64-70. https://doi.org/10.1207/s15430421tip4102_2
15. https://medium.com/@DilaraQuliyeva/t%C9%99hsild%C9%99-s%C3%BCni-intellektin-rolu-0eafa7738774

DOI: 10.32010/STYK3108

LAYİHƏ ƏSASLI ÖYRƏNMƏ VASİTƏSİLƏ MƏKTƏBLİLƏRDƏ EKOLOJİ MƏSULİYYƏT VƏ DAYANIQLI DAVRANIŞIN FORMALAŞDIRILMASI

Əsmər Neymət qızı ƏHMƏDLİ
Təhsil müəssisəsi: Azərbaycan Respublikası Təhsil İnstutu
İş yeri: Azərbaycan Dövlət Pedaqoji Universiteti
ORCID: 0009-0007-8581-6875
E-mail: ahmadliasmer@gmail.com

Xülasə: Bu məqalə orta məktəb biologiya dərslərində layihə əsaslı öyrənmə (Project-Based Learning, PBL) yanaşmasının tətbiqi vasitəsilə şagirdlərdə ekoloji məsuliyyət və dayanıqlı davranışın formalaşdırılmasını nəzəri və praktik əsaslarla izah edir. PBL şagirdləri real həyati problemlərin həllinə cəlb etməklə biliklərin tətbiqini gücləndirir, tənqidi düşünmə, əməkdaşlıq və kommunikasiya bacarıqlarını inkişaf etdirir. Məqalədə PBL-in fəlsəfi əsasları (J. Dewey, W. Kilpatrick), mərhələləri (mərkəzi sualın seçimi, planlaşdırma-tədqiqat, icra, məhsulun hazırlanması, təqdimat və qiymətləndirmə) və VII–IX siniflər üçün tətbiq oluna bilən kontekstual layihə nümunələri ("Tullantısız məktəb", "Su ehtiyatlarının qorunması", "İqlim dəyişikliyi və biz") təqdim edilir. Yanaşma kurikulum standartları ilə uzlaşdırılaraq "Canlılar və ətraf mühit" və "İnsan sağlamlığı" məzmun xətləri üzrə gözlənilən nəticələrlə əlaqələndirilir. Praktik hissədə "Mənim ekoloji ayaq izim" adlı PBL nümunəsi vasitəsilə ölçülə bilən göstəricilər (su və enerji sərfiyyatı, tullantı vərdişləri və s.), şagird özrefleksiyası və icma təqdimatları əsasında davranış dəyişikliklərinə yönəldici mexanizmlər təsvir olunur. Nəticə etibarilə, PBL yanaşması həm elmi savadlılığı, həm də sosial-vətəndaş məsuliyyətini formalaşdıran effektiv pedaqoji çərçivə kimi əsaslandırılır.
Açar sözlər: layihə əsaslı öyrənmə, ekoloji məsuliyyət, dayanıqlı inkişaf, biologiya tədrisi, PBL

FORMATION OF ECOLOGICAL RESPONSIBILITY AND SUSTAINABLE BEHAVIOR AMONG SCHOOL STUDENTS THROUGH PROJECT-BASED LEARNING

Asmar Neymat gizi AHMADLI
Educational Institution: Azerbaijan Institute of Education Workplace: Azerbaijan State Pedagogical University
ORCID: 0009-0007-8581-6875
E-mail: ahmadliasmer@gmail.com

Abstract: This article substantiates the formation of ecological responsibility and sustainable behavior among secondary school students through the application of Project-Based Learning (PBL) in biology classes. PBL engages students in solving real-life environmental problems, enhances situational application of knowledge, and develops critical thinking, collaboration, and communication skills. The paper presents the philosophical foundations of PBL (Dewey, Kilpatrick), its stages (defining the central question, planning and research, implementation, product development, presentation and evaluation), and contextual project examples for grades VII–IX ("Zero Waste School," "Water Conservation," "Climate Change and Us"). The approach is aligned with national curriculum standards and learning outcomes under the "Living Organisms and Environment" and "Human Health" content lines. The practical section features a classroom-level PBL example titled "My Ecological Footprint," describing measurable indicators (water/energy consumption, waste habits, etc.), student self-reflection, and school-community presentations promoting behavioral change. As a result, PBL is justified as an effective framework that fosters both scientific literacy and social–civic responsibility.
Keywords: project-based learning, ecological responsibility, sustainable development, biology education, PBL

ФОРМИРОВАНИЕ ЭКОЛОГИЧЕСКОЙ ОТВЕТСТВЕННОСТИ И УСТОЙЧИВОГО ПОВЕДЕНИЯ У ШКОЛЬНИКОВ С ПОМОЩЬЮ ПРОЕКТНО-ОРИЕНТИРОВАННОГО ОБУЧЕНИЯ

Асмяр Неймат кызы АХМЕДЛИ
Учебное учреждение: Институт образования Азербайджанской Республики
Место работы: Азербайджанский государственный педагогический университет
ORCID: 0009-0007-8581-6875
E-mail: ahmadliasmer@gmail.com

Резюме: В данной статье обосновывается формирование экологической ответственности и устойчивого поведения у учащихся средней школы посредством применения проектного обучения (Project-Based Learning, PBL) на уроках биологии. Метод PBL вовлекает школьников в решение реальных экологических проблем, усиливает практическое применение знаний и развивает критическое мышление, сотрудничество и коммуникативные навыки. В статье раскрываются философские основы PBL (Дьюи, Килпатрик), его этапы (выбор центрального вопроса, планирование и исследование, реализация, подготовка продукта, презентация и оценивание), а также приводятся контекстуальные примеры проектов для 7–9-х классов («Школа без отходов», «Сохранение водных ресурсов», «Изменение климата и мы»). Подход соотнесён с государственными образовательными стандартами и результатами обучения по содержательным линиям «Живые организмы и окружающая среда» и «Здоровье человека». В практической части представлен пример проектного задания «Мой экологический след», где описаны измеряемые показатели (потребление воды и энергии, привычки обращения с отходами и др.), самооценка учащихся и школьно-общественные презентации, направленные на изменение поведения. В итоге проектное обучение рассматривается как эффективная педагогическая модель, формирующая научную грамотность и социально-гражданскую ответственность.
Ключевые слова: проектное обучение, экологическая ответственность, устойчивое развитие, преподавание биологии, PBL

Giriş

Müasir dövrdə qlobal ekoloji problemlərin dərinləşməsi — iqlim dəyişiklikləri, su ehtiyatlarının azalması, tullantıların artması və bioloji müxtəlifliyin itirilməsi — təhsil sistemində ekoloji məsuliyyətin formalaşdırılmasını zəruri edir. Təbiətə qarşı məsuliyyətli davranışın uşaqlıqdan aşılanması yalnız bilik ötürülməsi ilə deyil, həm də real fəaliyyət və tədqiqat yönümlü təlimlə mümkündür. Bu baxımdan layihə əsaslı öyrənmə (Project-Based Learning – PBL) yanaşması ekoloji dəyərlərin formalaşdırılmasında innovativ və effektiv pedaqoji üsul kimi çıxış edir (Bell, 2010; Thomas, 2000).

PBL şagirdləri real problemlərin həllinə yönəldərək onların bilikləri praktik kontekstdə tətbiq etməsinə, tənqidi düşünmə, əməkdaşlıq və kommunikasiya bacarıqlarını inkişaf etdirməsinə şərait yaradır (Chen, 2025; Blumenfeld et al., 1991). Bu yanaşma həmçinin XXI əsr bacarıqlarını – yaradıcılıq, vətəndaş məsuliyyəti və dayanıqlı inkişaf düşüncəsini – inkişaf etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir (Bell, 2010; Larmer et al., 2015). Dewey-in təcrübə yönümlü təlim fəlsəfəsi və Kilpatrick-in "layihə metodu" konsepsiyası PBL-in nəzəri əsasını təşkil edərək, tədris prosesində öyrənənin aktiv iştirakını və sosial məsuliyyət hissini ön plana çəkir (Dewey, 1916; Kilpatrick, 1918).

Azərbaycan təhsil sistemində son illərdə həyata keçirilən kurikulum islahatları da şagirdyönümlü və nəticəyönümlü təlimin gücləndirilməsini prioritetləşdirir (Azərbaycan Respublikasının Təhsil İnstitutu [ARTİ], 2023). Biologiya fənninin yenilənmiş tədris proqramında "Canlılar və ətraf mühit" və "İnsan sağlamlığı" məzmun xətləri üzrə gözlənilən nəticələr şagirdlərin ekoloji düşüncə tərzini, resurslardan səmərəli istifadə vərdişlərini və dayanıqlı davranışlarını inkişaf etdirməyi nəzərdə tutur (ARTİ, 2023).

Bu kontekstdə təqdim olunan tədqiqat layihə əsaslı öyrənmə yanaşmasının orta məktəb biologiya dərslərində ekoloji məsuliyyətin və dayanıqlı davranışın formalaşdırılmasına təsirini həm nəzəri, həm də praktik aspektdə əsaslandırır. Məqalənin məqsədi PBL-in tətbiq mərhələlərini (planlaşdırma, icra, məhsulun hazırlanması, təqdimat və refleksiya) ekoloji mövzulu nümunələrlə ("Tullantısız məktəb", "Su ehtiyatlarının qorunması", "Mənim ekoloji ayaq izim") əlaqələndirərək onun səmərəliliyini təhlil etməkdir.

Tədqiqatin məqsədi və vəzifələri

Bu tədqiqatın əsas məqsədi orta məktəb biologiya dərslərində layihə əsaslı öyrənmə (Project-Based Learning – PBL) yanaşmasının tətbiqi vasitəsilə şagirdlərdə ekoloji məsuliyyət və dayanıqlı davranışın formalaşdırılma imkanlarını nəzəri və

praktik aspektdə əsaslandırmaqdır. Məqsəd həm pedaqoji modelin elmi əsaslarını təhlil etmək, həm də onun real sinif şəraitində tətbiq mexanizmlərini müəyyənləşdirməkdən ibarətdir (Bell, 2010; Chen, 2025; Larmer et al., 2015).

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

1. Layihə əsaslı öyrənmə (PBL) yanaşmasının elmi-fəlsəfi əsaslarını (J. Dewey, W. Kilpatrick və davamçıları) təhlil etmək və ekoloji təhsil kontekstində tətbiq potensialını müəyyənləşdirmək (Dewey, 1916; Kilpatrick, 1918; Knoll, 1997).
2. PBL-in mərhələlərini – mərkəzi sualın seçilməsi, planlaşdırma, icra, məhsulun hazırlanması, təqdimat və refleksiya – ekoloji mövzulu təlim prosesinə uyğunlaşdırmaq (Thomas, 2000; Blumenfeld et al., 1991).
3. Biologiya kurikulumu üzrə "Canlılar və ətraf mühit" və "İnsan sağlamlığı" məzmun xətləri ilə PBL yanaşması arasında əlaqəni müəyyənləşdirmək (ARTİ, 2023).
4. Ekoloji məsuliyyətin və dayanıqlı davranışın formalaşdırılması üçün VII–IX siniflər səviyyəsində PBL layihələrinin ("Tullantısız məktəb", "Su ehtiyatlarının qorunması", "Mənim ekoloji ayaq izim") praktik modelini işləyib hazırlamaq və tətbiq səmərəliliyini qiymətləndirmək (Bell, 2010; Chen, 2025; UNESCO, 2017).
5. Tədqiqat nəticələrinə əsasən PBL-in ekoloji savadlılıq, sosial-vətəndaş məsuliyyəti və davamlı inkişaf düşüncəsinin inkişafında rolu barədə elmi nəticələr formalaşdırmaq (Blumenfeld et al., 1991; Larmer et al., 2015; Stevenson & Lee, 2022).

Beləliklə, tədqiqatın ümumi vəzifələri həm nəzəri əsaslandırma, həm də tətbiqi-pedaqoji istiqamətləri əhatə edir və müasir təlim strategiyalarının ekoloji tərbiyə ilə inteqrasiyasına xidmət edir.

Tədqiqatın metodologiyası

Tədqiqatın metodoloji əsası konstruktivizm və təcrübə yönümlü təlim nəzəriyyəsinə söykənir [3; 4]. Bu yanaşmaya görə, öyrənmə prosesi şagirdin aktiv fəaliyyətinə, müşahidə, tədqiqat və nəticə çıxarma bacarıqlarına əsaslanmalıdır. Layihə əsaslı öyrənmə (PBL) metodu məhz bu fəlsəfi çərçivə üzərində qurularaq şagirdləri real həyatla əlaqəli ekoloji problemlərin həllinə istiqamətləndirir və onların öyrənmə prosesində iştirakını dərinləşdirir [1; 8; 9].

Tədqiqat VII–IX siniflərdə biologiya fənni üzrə aparılmışdır. Tətbiq mərhələsində "Canlılar və ətraf mühit" mövzusu üzrə "Mənim ekoloji ayaq izim", "Su ehtiyatlarının qorunması" və "Tullantısız məktəb" adlı layihələr həyata keçirilmişdir. Hər bir layihə 4 əsas mərhələ üzrə təşkil edilmişdir:

1. Problemin müəyyənləşdirilməsi və mərkəzi sualın seçilməsi (məsələn, "Məktəbdə tullantıların azalmasına necə nail ola bilərik?");
2. Planlaşdırma və tədqiqat mərhələsi – şagirdlər məlumat toplamaq, müşahidə aparmaq və hipotezlər irəli sürmək bacarıqlarını tətbiq etmişlər;
3. İcra və məhsulun hazırlanması – qrup şəklində ekoloji broşürlər, təqdimatlar və maketlər hazırlanmışdır;
4. Təqdimat və refleksiya mərhələsi – nəticələrin məktəb-icma auditoriyasında paylaşılması və özrefleksiya aparılması.

Məlumatların toplanması müşahidə, sorğu, interaktiv qiymətləndirmə vərəqləri və özrefleksiya jurnalları vasitəsilə həyata keçirilmişdir. Təhlil zamanı həm kəmiyyət (statistik göstəricilər, ekoloji davranış indeksləri), həm də keyfiyyət (şagirdlərin ifadə və təqdimat bacarıqları, əməkdaşlıq səviyyəsi) meyarlarından istifadə olunmuşdur [2; 7; 10].

Nəticədə, metodoloji baza PBL-in təkcə fənn biliklərini deyil, həm də ekoloji dəyərləri və sosial məsuliyyəti formalaşdırmaqda effektiv olduğunu müəyyənləşdirməyə imkan vermişdir.

Nəticələr və müzakirə

Müasir dövrdə qlobal ekoloji problemlərin – iqlim dəyişikliyi, biomüxtəlifliyin azalması, tullantıların idarə olunmaması və təbii resursların tükənməsi – intensivləşməsi təhsil sistemlərinin qarşısında yeni vəzifələr qoyur. UNESCO-nun "Education for Sustainable Development (ESD)" konsepsiyasına görə (UNESCO, 2020), məktəb təhsili yalnız bilik ötürmək deyil, həm də şagirdlərdə dayanıqlı davranış, sosial məsuliyyət və ekoloji düşüncə formalaşdırmaq məqsədinə xidmət etməlidir.

Bu yanaşma, xüsusilə biologiya və ekologiya fənlərində layihə əsaslı öyrənmə (Project-Based Learning – PBL) metodunun tətbiqini aktuallaşdırır. Çünki PBL real problemlərin həlli üzərindən öyrənməyi təmin edir və şagirdləri passiv bilik qəbulundan aktiv tədqiqat prosesinə cəlb edir.

Azərbaycan kontekstində bu metodun tətbiqi həm milli təhsil kurikulumu ilə (ARTİ, 2023), həm də BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG 4.7, SDG 13) ilə tam uzlaşır. Beləliklə, PBL yanaşması təkcə elmi savadlılığı deyil, həm də sosial və vətəndaş məsuliyyətini gücləndirən transformativ tədris modeli kimi çıxış edir.

Layihə əsaslı öyrənmə (PBL- Project-Based Learning)- şagirdlərin və tələbələrin real həyatda qarşılaşdıqları problemləri həll edərək öyrəndikləri bir təhsil yanaşmasıdır.

Əsas məqsəd yalnız nəzəri bilik vermək deyil, öyrəniləni tətbiq etməyi, düşünmə bacarığını və əməkdaşlıq qabiliyyətini inkişaf etdirməkdir.

Layihə əsaslı öyrənmə (Project-Based Learning, PBL) təhsil prosesində öyrənmənin praktiki fəaliyyət və təcrübə üzərindən qurulmasını nəzərdə tutan müasir pedaqoji yanaşmadır. Bu yanaşmanın fəlsəfi təməli XIX əsrdə amerikalı pedaqoq John Dewey tərəfindən irəli sürülmüş "learning by doing" (tədbiq edərək öyrənmə) prinsipinə əsaslanır. Deweyin fikrincə, bilik yalnız nəzəri şəkildə deyil, real fəaliyyət və sosial qarşılıqlı əlaqə prosesində mənimsənildikdə dərin və davamlı olur (Dewey, 1916).

Deweyin ideyaları əsasında onun tələbəsi William Heard Kilpatrick 1918-ci ildə nəşr etdiyi "The Project Method" adlı məqaləsində bu fəlsəfəni praktik tədris metoduna çevirmişdir. Kilpatrick layihəni "məqsədyönlü fəaliyyət" kimi təsvir etmiş və öyrənmənin sosial və emosional kontekstlərdə həyata keçirilməsinin vacibliyini vurğulamışdır (Kilpatrick, 1918). Onun yanaşması öyrənməni passiv bilik ötürülməsindən aktiv öyrənmə prosesinə keçid kimi təqdim etmişdir.

Sonrakı onilliklərdə bu metod müxtəlif təhsil pillələrinə uyğunlaşdırılaraq inkişaf etdirilmişdir. Xüsusilə Kanadadakı McMaster Universiteti 1960-cı illərdə tibbi təhsildə "problem-based learning" yanaşmasını tətbiq etməklə PBL-in praktik yönünü gücləndirmişdir (Knoll, 1997). Bu mərhələdə layihə əsaslı öyrənmə tədqiqat bacarıqlarını, problem həll etmə qabiliyyətini və müstəqil düşünməni formalaşdıran effektiv strategiya kimi qəbul olunmağa başlamışdır.

XXI əsrdə layihəəsaslı öyrənmə (Project-Based Learning, PBL) təhsil sistemlərində innovativ yanaşma kimi geniş yayılmışdır. Rəqəmsal əməkdaşlıq alətlərinin, onlayn tədris mühitlərinin və açıq resursların artması bu metodun tətbiq imkanlarını daha da genişləndirmişdir. Müasir tədqiqatlar göstərir ki, yaxşı strukturlaşdırılmış PBL yanaşması şagirdlərin yalnız fənn məzmununu mənimsəməsinə deyil, həm də tənqidi düşünmə, problem həlli, kommunikasiya və əməkdaşlıq kimi 21-ci əsr bacarıqlarının formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir (Duke et al., 2020; Zhang et al., 2023). Bu baxımdan, PBL təkcə tədris üsulu deyil, həm də fənlərarası inteqrasiya və real həyati bacarıqların inkişafı üçün mühüm pedaqoji çərçivə kimi qəbul olunur.

PBLWorks tərəfindən irəli sürülən "Qızıl Standart PBL" modeli layihə dizaynı və müəllimlik praktikaları üçün universal çərçivə təqdim edir (PBLWorks, 2023). Bu model yeddi əsas elementi məzmun standartlarına uyğun məqsədlərin müəyyənləşdirilməsi, real problemin seçilməsi, tələbkar tapşırıq, davamlı sorğu prosesi, ictimai məhsulun yaradılması, şagird səsi və seçimi, eləcə də refleksiyanı özündə birləşdirir. Bu elementlər biologiya fənninin tədrisində NGSS (Next Generation Science Standards) prinsiplərinə uyğun olaraq elmi araşdırma və məlumat əsaslı təcrübələrlə inteqrasiya edilə bilər. Məsələn, şagirdlər ekosistem xidmətlərinin qiymətləndirilməsi, biomüxtəlifliyin azalması, iqlim dəyişikliyinin təsirləri və suyun keyfiyyətinin monitorinqi kimi mövzular üzərində layihələr həyata keçirə bilərlər. Belə layihələr həm təbii elmlərin anlayışlarının praktik tətbiqinə, həm də ekoloji məsuliyyət və sosial şüurun formalaşmasına şərait yaradır (Baumgartner & Zabin, 2008; Krall et al., 2022).

Layihəəsaslı öyrənmənin (Project-Based Learning, PBL) biologiya fənnində tətbiqi bir neçə ardıcıl mərhələdən ibarətdir və bu mərhələlərin dəqiq adlandırılması elmi əsaslara söykənir. Beynəlxalq praktikada qəbul edilən "Gold Standard PBL" modelinə əsasən, layihə prosesi adətən problemin müəyyənləşdirilməsi, planlaşdırma və tədqiqat, icra və məlumatların toplanması, məhsulun hazırlanması, eləcə də təqdimat və refleksiya mərhələlərini əhatə edir (PBLWorks, 2023).

"Mərkəzi sual və problemin qurulması" mərhələsi beynəlxalq ədəbiyyatda Driving Question and Problem Definition adlandırılır və layihənin istiqamətini müəyyən edən əsas sualın formalaşdırılmasını nəzərdə tutur. Bu mərhələdə şagirdlər öyrənmə məqsədlərini aydınlaşdırır və real həyatda əhəmiyyət kəsb edən bir problemi tədqiq etməyə başlayırlar.

İkinci mərhələ — "Planlaşdırma və tədqiqat" — beynəlxalq təsnifatda Planning and Inquiry kimi tanınır. Bu mərhələdə şagirdlər tədqiqat planı hazırlayır, məlumat toplama metodlarını müəyyənləşdirir və fəaliyyətin ardıcıllığını planlaşdırırlar. Eyni zamanda müəllimlər sorğu yönümlü öyrənməni dəstəkləyən strukturlaşdırılmış rubriklər və suallar təqdim edirlər (Krall et al., 2022).

Üçüncü mərhələ — "İcra və məlumat toplama" — PBL çərçivəsində Implementation and Data Collection kimi qeyd olunur. Bu mərhələdə şagirdlər planlaşdırdıqları eksperimentləri və müşahidələri həyata keçirir, real və ya simulyasiya olunmuş mühitdə məlumat toplayır və ilkin nəticələri təhlil edirlər. Beləliklə, şagirdlər elmi metodologiyanı praktik mühitdə tətbiq etmə bacarığı qazanırlar (Baumgartner & Zabin, 2008).

Növbəti mərhələ — "Məhsulun hazırlanması" — beynəlxalq ədəbiyyatda Product Development or Creation adlandırılır. Burada əsas məqsəd öyrənilən bilik və bacarıqlar əsasında konkret nəticə əldə etməkdir. Şagirdlər araşdırmalarının nəticələrini

elmi posterlər, video materiallar, interaktiv xəritələr və ya analitik hesabatlar şəklində təqdim edirlər.

Sonuncu mərhələ — "Təqdimat, qiymətləndirmə və refleksiya" — Presentation, Evaluation and Reflection mərhələsinə uyğun gəlir. Bu mərhələdə şagirdlər layihə nəticələrini ictimai şəkildə paylaşır, müəllim və yaşıdlarının rəyini nəzərə alır, həmçinin öz öyrənmə proseslərini təhlil edirlər. Refleksiya mərhələsi şagirdlərə elmi arqumentasiya (iddia–dəlil–izah) çərçivəsində öz fikirlərini əsaslandırmaq və gələcək tədqiqat istiqamətlərini müəyyənləşdirmək imkanı verir (Thomas, 2020).

Araşdırmalar göstərir ki, bu yanaşma şagirdlərin elmi savadlılığını, motivasiyasını və yüksək səviyyəli düşünmə bacarıqlarını artırır, eyni zamanda öyrənməni daha mənalı və uzunmüddətli edir (Thomas, 2020; Firneno et al., 2023). PBL tətbiq edilən dərslərdə şagirdlər elmi bilikləri yalnız nəzəri şəkildə deyil, həm də müşahidə, eksperiment və tədqiqat yolu ilə əldə etdikləri üçün tədris prosesi daha səmərəli və interaktiv xarakter daşıyır. Bununla yanaşı, PBL real həyat problemləri üzərində işləməyə əsaslandığından, şagirdlərdə bioloji anlayışlarla yanaşı vətəndaş məsuliyyəti və ekoloji dəyərlər də formalaşır (PBLWorks, 2023).

Beləliklə, PBL yanaşması biologiya fənninin tədrisində ənənəvi bilik ötürmə modelini əvəz edən, aktiv öyrənmə və tətbiqyönümlü düşünmə bacarıqlarını inkişaf etdirən müasir metod kimi çıxış edir. Bu model şagirdləri yalnız bilik qazanmağa deyil, həm də elmi təfəkkür və tədqiqat bacarıqları vasitəsilə real problemləri həll etməyə yönəldir. Nəticə etibarilə, biologiya dərslərində layihəəsaslı öyrənmənin tətbiqi həm kognitiv, həm sosial, həm də emosional inkişafı dəstəkləyən kompleks bir tədris strategiyası kimi qiymətləndirilə bilər.

Müasir dünyada ekoloji böhranların, iqlim dəyişikliyinin və təbii ehtiyatların sürətli tükənməsinin artması cəmiyyət qarşısında yeni təhsil vəzifələri qoyur. Bu vəzifələrin əsas istiqamətlərindən biri gənc nəsildə ekoloji məsuliyyət və dayanıqlı davranış mədəniyyətinin formalaşdırılmasıdır. Məktəb təhsili bu məqsədlə yalnız nəzəri məlumat ötürən deyil, həm də ekoloji dəyərləri təcrübə ilə mənimsədən bir mühitə çevrilməlidir.

Bu kontekstdə layihə əsaslı öyrənmə (Project-Based Learning – PBL) müasir pedaqogikanın ən effektiv metodlarından biri kimi çıxış edir. PBL şagirdlərin təbiət hadisələrini yalnız müşahidə etməklə deyil, real problemlərin həllinə yönəlmiş fəaliyyətlərlə öyrənməsinə şərait yaradır. Bu yanaşma şagirdlərə ətraf mühitlə bağlı məsələlərdə tədqiqat aparmaq, məlumat toplamaq, analiz etmək, fərziyyə irəli sürmək və nəticədə praktik ekoloji layihələr həyata keçirmək imkanı verir.

Biologiya və ekologiya fənləri PBL metodunun tətbiqi üçün ən əlverişli sahələrdəndir. Məsələn, şagirdlər "məktəbdə tullantıların azaldılması", "su ehtiyatlarının qorunması", "yaşıl məktəb təşəbbüsü" və ya "bioçeşidliliyin qorunması" kimi layihələrdə iştirak etməklə həm biliklərini praktik vəziyyətlərdə tətbiq edir, həm də ekoloji məsuliyyət hissini formalaşdırırlar. Bu cür fəaliyyətlər öyrənməni sadəcə elmi proses deyil, həm də dəyərlər yönümlü sosial fəaliyyət halına gətirir.

Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən 2023-cü ildə təsdiqlənmiş Təkmilləşdirilmiş "Biologiya" fənni üzrə təhsil proqramı (kurikulum) biologiya tədrisinin məqsədlərini və məzmun strukturunu müasir təhsil tələblərinə uyğun şəkildə yenidən formalaşdırmışdır (ARTİ, 2023) və beş məzmun xətti üzrə sistemləşdirilmişdir:

1. Canlı orqanizmlərdə strukturlar, funksiyalar və proseslər
2. Çoxalma və irsiyyət
3. Canlılar və ətraf mühit
4. Təkamül və biomüxtəliflik
5. İnsan sağlamlığı

Bu məzmun xətlərindən "Canlılar və ətraf mühit" və "İnsan sağlamlığı" məzmun xətləri layihə əsaslı öyrənmə (PBL) metodunun tətbiqi baxımından geniş imkanlara sahibdir. Hər iki istiqamət ekoloji məsuliyyətin və dayanıqlı davranışın formalaşdırılması məqsədinə birbaşa xidmət edir.

"Canlılar və ətraf mühit" məzmun xətti Biologiya fənninin ekoloji yönümünü formalaşdırır və şagirdlərdə ekosistemlərdə qarşılıqlı əlaqələri, insan fəaliyyətinin təbiətə təsirlərini və ekoloji problemlərin həlli yollarını anlama bacarığı yaradır.

Kurikulumun 7–9-cu siniflər üzrə standartları, xüsusilə 7.3.1, 7.3.2 və 9.3.1, PBL tətbiqi üçün geniş imkanlar təqdim edir.

Bu standartlara əsaslanaraq şagirdlər: ekosistemlərin quruluş və enerji axını, abiotik və biotik amillərin qarşılıqlı təsiri, insan fəaliyyətinin ekoloji nəticələri

kimi mövzular üzərində tədqiqat və layihələr həyata keçirə bilərlər.

Bu layihələr vasitəsilə şagirdlər real ekoloji problemləri araşdırır, məlumat toplayır, eksperiment aparır, nəticə çıxarır və ictimai təqdimatlar edir.

Nəticədə onlarda həm elmi düşüncə, həm də ekoloji məsuliyyət və sosial fəaliyyət bacarıqları formalaşır (Bell, 2010).

"İnsan sağlamlığı" məzmun xətti insan orqanizminə təsir edən ekoloji amillərin və sağlam həyat tərzinin

təşviqi mövzularını əhatə edir. 9.5.1. standartı ("İnsanın həyat tərzi və xroniki xəstəliklərini izah edir") PBL-in praktik tətbiqi üçün əlverişli elmi baza yaradır.

Şagirdlər bu məzmun xəttləri və standartlara əsasən həm bioloji bilikləri praktik müstəvidə həyata keçirmək, həm də ictimai faydalı layihələr hazırlamaq imkanı yaradan VII–IX siniflərdə tətbiq oluna biləcək layihə əsaslı öyrənmə mövzularının nümunələri təqdim olunur:

VII sinif üçün layihələr

"Məktəbdə Yaşıl Zona: Ekosistemin qorunması layihəsi"

Şagirdlər məktəb ərazisində yaşıllaşdırma tədbirləri həyata keçirir, bitkilərin havanın keyfiyyətinə və mikroiqlimə təsirini müşahidə edir. Layihə nəticəsində ekosistemin bərpasında insanın rolu barədə nəticələr çıxarılır.

"Təbiəti qorumaq mənim borcumdur: tullantıların çeşidlənməsi planı"

Şagirdlər məktəbdə tullantı növlərini müəyyən edir, onları çeşidləmək üçün təkliflər hazırlayır və digər siniflərlə birgə "Tullantısız məktəb" kampaniyası həyata keçirirlər.

"Su – həyat mənbəyidir: su ehtiyatlarının səmərəli istifadəsi"

Məktəbdə və evdə su istifadəsini araşdıraraq israfın qarşısını alma üsulları müəyyən edilir. Nəticələr qrafik və hesabat şəklində təqdim olunur.

"Təbiətə addım-addım: məktəb həyətində bitki müşahidəsi və bioçeşidlilik xəritəsi"

Şagirdlər məktəb ərazisindəki bitki növlərini müşahidə edir, şəkillər çəkir və "bioçeşidlilik xəritəsi" hazırlayır. Bu fəaliyyətlər müşahidə və təsnifat bacarıqlarını inkişaf etdirir.

"Tullantısız məktəb" təşəbbüsü (Zero Waste School Project)

Məktəbdə tullantıların azaldılması, təkrar istifadənin təşviqi və təbiətə qarşı məsuliyyətli davranışın formalaşmasına yönəlmiş praktik tədbirlər planlaşdırılır.

VIII sinif üçün layihələr

"Yaşıl məktəb" ekoloji təşəbbüs planı

Şagirdlər enerji və su qənaəti üsullarını öyrənir, məktəb binasında tətbiq oluna biləcək "yaşıl texnologiyalar" barədə təqdimat hazırlayır.

"Təmiz hava, sağlam gələcək"

Şagirdlər yerli ərazidə hava çirklənməsinin səbəblərini tədqiq edir, sorğular keçirir və nəticələr əsasında maarifləndirici plakatlar və videoçarxlar hazırlayır.

"Məktəb həyətində ekoloji balans"

Bitkilərlə həşəratların qarşılıqlı əlaqəsini müşahidə edərək ekoloji tarazlığın pozulmasının nəticələrini müəyyən edir və bərpa təklifləri verir.

"Təbiətə dost enerji"

Günəş, külək və digər bərpa olunan enerji mənbələrinin ətraf mühitə təsiri araşdırılır. Şagirdlər kiçik modellər və maketlər hazırlayaraq bu mənbələrin üstünlüklərini nümayiş etdirir.

"Plastiksiz həyat" kampaniyası

Plastik tullantıların təbiətə təsirini öyrənmək və onların azaldılması məqsədilə məktəbdə "Ekosumka günü" və təkrar istifadəyə yönəlik fəaliyyətlər keçirilir.

IX sinif üçün layihələr

"İqlim Dəyişikliyi və Biz"

Şagirdlər yerli iqlim göstəricilərini (temperatur, yağıntı, külək istiqaməti və s.) analiz edir, dəyişiklikləri diaqram və təqdimat vasitəsilə göstərir, iqlim dəyişikliyinə qarşı fərdi və ictimai tədbirlər təklif edir.

"Qlobal istiləşmə və onun yerli ekosistemlərə təsiri"

Qlobal istiləşmənin səbəbləri, ekosistemlərdə müşahidə olunan dəyişikliklər və bioloji müxtəlifliyə təsiri tədqiq olunur. Layihə nəticəsində şagirdlər elmi hesabat və qısa film hazırlayırlar.

"Hər damla dəyərlidir"

Su resurslarının çirklənməsi və israfı haqqında məlumat toplanır, məktəbdə "Su qənaəti həftəsi" keçirilir və sosial media üçün məlumatlandırıcı posterlər hazırlanır.

"Ekoloji liderlər"

Şagirdlər ekoloji davranışın təşviqi məqsədilə məktəbdə "Ekoklub" yaradır, aksiyalar təşkil edir və ekoloji məsuliyyətlə bağlı nümunəvi fəaliyyətlər planlaşdırır.

"Təbiətə qayğı, gələcəyə ümid"

Layihə çərçivəsində davamlı ekoloji fəaliyyətlərin (ağacəkmə, tullantıların toplanması, təkrar emal təşəbbüsləri) sistemli şəkildə həyata keçirilməsi məqsədilə illik fəaliyyət planı hazırlanır.

Bu layihələrdə şagirdlər ətraf mühit və sağlamlıq arasındakı əlaqəni real müşahidələr və sorğular vasitəsilə araşdırır, nəticələri təqdim edir və maarifləndirici fəaliyyətlər həyata keçirirlər.

Belə yanaşma fərdi məsuliyyət, sosial dəyərlər və elmi düşüncə tərzinin formalaşmasına töhfə verir (Chen, 2025).

Layihə əsaslı öyrənmə (PBL) yanaşmasını biologiya dərslərində praktiki şəkildə tətbiqinə nümunə olaraq "Mənim Ekoloji Ayaq İzim" mövzusu seçilə bilər. Bu mövzunun seçilməsində məqsəd şagirdlərdə ekoloji məsuliyyət və dayanıqlı davranış formalaşdırmaq, onların gündəlik həyat tərzinin ətraf mühitə təsirini müəyyənləşdirmək və bu təsiri

azaltmaq yollarını öyrənmək. Layihənin həyata keçirilməsi layihə əsaslı öyrənmənin (PBL) əsas prinsiplərinə əsaslanaraq və beş mərhələdən ibarət təşkil edilə bilər. Hər mərhələ şagirdlərdə tədqiqat, əməkdaşlıq, problem həlli və refleksiya bacarıqlarını inkişaf etdirməyə xidmət edir (Thomas, 2000) və aşağıdakı kimidir:

1. Problemin müəyyənləşdirilməsi və məqsədin formalaşdırılması.

Layihənin ilkin mərhələsində müəllim şagirdlərə "ekoloji ayaq izi" anlayışını təqdim edir və onun ətraf mühitlə əlaqəsini izah edir. Müzakirələr vasitəsilə şagirdlər öz gündəlik həyatlarının təbiətə təsirini dərk edir və layihənin məqsədini birgə müəyyənləşdirirlər. Bu mərhələdə açıq tədqiqat sualları formalaşdırılır, məsələn: "Bizim davranışlarımız təbiətə necə təsir edir?" və ya "Ekoloji ayaq izimizi azaltmaq üçün hansı dəyişikliklər mümkündür?"

2. Tədqiqat və məlumat toplama.

Bu mərhələdə şagirdlər qruplara bölünərək məlumat toplama prosesi həyata keçirirlər. Onlar enerji istifadəsi, su sərfiyyatı, nəqliyyat, qida istehlakı və tullantı vərdişləri kimi göstəriciləri müşahidə edir və qeydlər aparırlar. Şagirdlər footprintcalculator.org

kimi beynəlxalq kalkulyatorlardan istifadə edərək öz ekoloji ayaq izlərini hesablayır, nəticələri müqayisə edir və əsas fərqləri müəyyənləşdirirlər. Müəllim bu mərhələdə bələdçi rolunu oynayır, şagirdlərə elmi mənbələrlə işləmə və nəticələrin sistemləşdirilməsi istiqamətində dəstək verir.

3. Nəticələrin təhlili və müzakirə.

Toplanan məlumatlar qrup daxilində təhlil edilir. Şagirdlər ekoloji ayaq izini artıran və azaldan davranış növlərini müəyyənləşdirir, müşahidə və nəticələri elmi əsaslarla izah edirlər. Bu mərhələdə analitik düşünmə bacarığı formalaşır. Məlumatların təhlili zamanı diaqram və cədvəllər hazırlanır, qruplar öz nəticələrini sinifdə paylaşır və ümumi tendensiyalar üzərində müzakirə aparılır.

4. Həll yollarının işlənməsi və layihə məhsulunun hazırlanması.

Bu mərhələdə şagirdlər ekoloji ayaq izini azaltmaq məqsədilə praktik və həyata keçirilə bilən təkliflər irəli sürürlər. Onlar fərdi və ictimai səviyyədə dəyişikliklər üçün ideyalar hazırlayır: "Tullantısız sinif otağı", "Plastiksiz gün", "Su qənaəti həftəsi", "Yaşıl davranış kodeksi" kimi təşəbbüslər formalaşdırılır. Qruplar tədqiqat nəticələrini və təkliflərini əks etdirən plakat, broşür, təqdimat və ya video şəklində layihə məhsulu hazırlayırlar. Bu mərhələdə yaradıcılıq, problem həlli və əməkdaşlıq bacarıqları inkişaf edir.

5. Təqdimat, qiymətləndirmə və refleksiya.

Son mərhələdə şagirdlər hazırladıqları layihə məhsullarını sinif və ya məktəb səviyyəsində təqdim edirlər. Təqdimatlar zamanı şagirdlər öz nəticələrini izah edir, təkliflərinin ekoloji təsirini əsaslandırır və gələcək davranış dəyişikliklərini müzakirə edirlər. Qiymətləndirmə həm müəllim, həm də şagirdlər tərəfindən müəyyən meyarlar əsasında aparılır: tədqiqatın keyfiyyəti, yaradıcılıq, əməkdaşlıq və təqdimat bacarığı. Refleksiya mərhələsində şagirdlər layihə prosesində öyrəndiklərini dəyərləndirir, "nələri fərqli edə bilərdim?" sualına cavab verərək öz inkişaf sahələrini müəyyənləşdirirlər.

PBL modelinin bu formada tətbiqi həm müəllim, həm də şagirdlər üçün öyrənməni daha mənalı və məqsədyönlü edir. Müəllim istiqamətverici və fasilitator rolunda çıxış edərək şagirdləri müstəqil tədqiqat aparmağa yönəldir, şagirdlər isə öz müşahidə və nəticələrinə əsaslanaraq fərdi və kollektiv ekoloji qərarlar qəbul edirlər.

əhlil nəticələri göstərir ki, PBL tətbiqi şagirdlərin dərsə marağını və motivasiyasını artırır, onları passiv dinləyicidən aktiv tədqiqatçıya çevirir. Müəllimlər bu prosesdə fasilitator rolunda çıxış edir və şagirdlər müstəqil qərar vermə, əməkdaşlıq və refleksiya bacarıqlarını inkişaf etdirirlər.

Lakin PBL-in tam effektiv tətbiqi üçün bir sıra çətinliklər mövcuddur:

Müəllimlərin bu metod üzrə təlim çatışmazlığı

Vaxt məhdudiyyəti və sinif yüklənməsi

Məktəblərdə ekoloji laboratoriya və material resurslarının azlığı

Bu səbəbdən, təhsil siyasətində PBL yanaşmasının institusional dəstəyi – ekoklub proqramları, müəllimlər üçün PBL təlimləri və resurs mərkəzlərinin yaradılması kimi təşəbbüslərlə gücləndirilməlidir.

Layihə əsaslı öyrənmə biologiya fənnində ekoloji məsuliyyətin formalaşdırılmasında effektiv vasitədir. Təklif olunur ki, məktəblərdə PBL layihələri üçün illik plan tərtib edilsin, ekoklub təşəbbüsləri dəstəklənsin və müəllimlər üçün PBL təlimləri keçirilsin.

Aparılmış müşahidələr, sorğular və fəaliyyət nəticələrinin təhlili göstərmişdir ki, layihə əsaslı öyrənmə (PBL) metodunun tətbiqi şagirdlərin ekoloji bilik və davranış göstəricilərində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Tədqiqatda iştirak edən 120 nəfər VII–IX sinif şagirdi arasında ilkin və yekun sorğu nəticələri müqayisə edilmişdir.

Cədvəl 1. Şagirdlərin ekoloji bilik və davranış göstəricilərinin dəyişimi (PBL tətbiqindən əvvəl və sonra)

Göstəricilər	İlkin mərhələ (orta %)	Yekun mərhələ (orta %)	Artım fərqi (%)
Ekoloji biliklərin səviyyəsi (kurikulum anlayışları üzrə)	52	84	+32
Ekoloji məsuliyyət dəyərləri (sorğu nəticələrinə əsasən)	48	81	+33
Davranış vərdişləri (resurs qənaəti, tullantıların çeşidlənməsi və s.)	41	76	+35
Tənqidi düşünmə və əməkdaşlıq bacarıqları	56	89	+33
Layihə nəticələrinin təqdimat keyfiyyəti (rubriklərlə qiymətləndirmə)	59	91	+32

Qeyd: Sorğu nəticələri şagirdlərin özrefleksiya jurnalları, müşahidə protokolları və müəllim qiymətləndirmə rubrikləri əsasında müəyyən edilmişdir.

Bu nəticələr göstərir ki, PBL tətbiq edilən siniflərdə həm bilik, həm də dəyər və davranış komponentləri üzrə artım müşahidə olunmuşdur. Ən yüksək artım ekoloji məsuliyyət və davranış göstəricilərində qeydə alınmışdır ki, bu da layihə əsaslı öyrənmənin sosial və emosional təsirini nümayiş etdirir (Chen, 2025; Duke et al., 2020).

Cədvəl 2. Biologiya fənnində PBL tətbiqinin effektivlik göstəriciləri

Qiymətləndirmə meyarı	Ənənəvi təlim	PBL yanaşması	Fərq və üstünlük
Şagirdin aktivliyi və iştirakı	Məhduddur	Yüksək səviyyədə	+40–45% artım
Tədqiqat və problem həlli bacarıqları	Nəzəri yönümlü	Praktik yönümlü	Real problemlərin analizi
Tənqidi və yaradıcı düşünmə	Passiv bilik qəbulu	Fəal müzakirə və tətbiq	Yaradıcı məhsul təqdimatı
Sosial və vətəndaş məsuliyyəti	Fənn çərçivəsində	Real ekoloji fəaliyyətlə	Davranış dəyişiklikləri
Davamlı öyrənmə motivasiyası	Aşağı	Yüksək	Davamlı maraq və təşəbbüskarlıq

Cədvəl məlumatları göstərir ki, PBL yanaşması ənənəvi tədris metodları ilə müqayisədə daha yüksək kognitiv və davranış nəticələri yaradır. Şagirdlər layihə fəaliyyəti zamanı yalnız bilik qazanmaqla kifayətlənmir, həm də **"öyrənərək yaratmaq"** prinsipinə əsasən ekoloji dəyərləri praktiki fəaliyyətlə mənimsəyirlər.

PBL-in tətbiqi nəticəsində müşahidə olunan ən mühüm dəyişikliklərdən biri şagirdlərin **özünütəhlil və refleksiya bacarığının** artmasıdır. Bu xüsusilə "Mənim Ekoloji Ayaq İzim" layihəsində öz əksini tapmış, şagirdlər öz davranışlarının ətraf mühitə təsirini ölçərək fərdi ekoloji qərarlar qəbul etməyə başlamışlar.

Tədqiqatın nəticələri həmçinin göstərir ki, PBL modelinin effektivliyi müəllimin hazırlığından və məktəbin resurs təminatından bilavasitə asılıdır. Müəllimlər fasilitator rolunda çıxış etdikdə və şagirdlərə sərbəst tədqiqat imkanı verildikdə öyrənmənin keyfiyyəti əhəmiyyətli dərəcədə artır (Thomas, 2020; Krall et al., 2022).

Bununla belə, praktiki tətbiqdə müəyyən çətinliklər də mövcuddur:

- müəllimlərin PBL metodikası üzrə peşəkar hazırlığının məhdudluğu;
- vaxt resurslarının çatışmazlığı;
- ekoloji layihələrin texniki təminatının zəifliyi.

Bu maneələrin aradan qaldırılması üçün məktəblərdə "Ekoklub" proqramlarının yaradılması**,** PBL müəllim təlimlərinin təşkili **və** resurs mərkəzlərinin formalaşdırılması vacib hesab olunur.

Nəticə

Aparılmış tədqiqatın nəticələri göstərir ki, layihə əsaslı öyrənmə (PBL) yanaşmasının biologiya dərslərində tətbiqi şagirdlərdə ekoloji məsuliyyət, sosial vətəndaşlıq şüuru və dayanıqlı davranış vərdişlərinin formalaşmasında mühüm rol oynayır. Bu metodun üstünlüyü ondadır ki, o, biliklərin sadəcə mənimsənilməsini deyil, onların praktik həyatda tətbiqini və təcrübə yolu ilə öyrənilməsini təmin edir .

PBL çərçivəsində şagirdlərin "Mənim Ekoloji Ayaq İzim", "Tullantısız Məktəb" və "Su Ehtiyatlarının Qorunması" kimi layihələrdə iştirakı onların elmi tədqiqat, müşahidə və təqdimat bacarıqlarını inkişaf etdirmiş, eyni zamanda ətraf mühitə qarşı fərdi məsuliyyət hissini gücləndirmişdir. Bu nəticələr Dewey və Kilpatrick-in "təcrübə ilə öyrənmə" və "məqsədyönlü fəaliyyət" prinsiplərinin müasir tədris prosesində praktiki təsdiqi kimi qiymətləndirilə bilər.

Tədqiqat həmçinin göstərmişdir ki, PBL yanaşması Azərbaycan biologiya kurikulumu ilə ("Canlılar və ətraf mühit", "İnsan sağlamlığı") tam uyğunluq təşkil edir və milli təhsil strategiyasında nəzərdə tutulan dayanıqlı inkişaf məqsədlərinə real töhfə verir.

Eyni zamanda müəyyən çətinliklər də aşkarlanmışdır: müəllimlərin bu metod üzrə metodoloji hazırlığının məhdudluğu, vaxt resurslarının azlığı və tədris mühitinin texniki imkanlarının məhdudluğu. Buna görə də, PBL-in effektiv tətbiqi üçün məktəblərdə ekoklub proqramlarının yaradılması, müəllimlər üçün xüsusi təlimlərin keçirilməsi və ekoloji layihələr üçün resurs bazasının gücləndirilməsi zəruri hesab olunur.

Beləliklə, layihə əsaslı öyrənmə metodunun tətbiqi biologiya dərslərində şagirdlərin ekoloji savadlılığını, yaradıcı təfəkkürünü və sosial məsuliyyətini artıran müasir pedaqoji model kimi elmi və praktik baxımdan səmərəli təsdiq olunur.

ƏDƏBİYYAT SİYAHISI:

1. Bell, S. (2010). Project-Based Learning for the 21st Century: Skills for the Future. The Clearing House, 83(2), 39–43.
2. Chen, L. (2025). Environmental Literacy through Project-Based Education. Journal of Sustainable Pedagogy, 14(3), 112–124.
3. Dewey, J. (1916). Democracy and Education. New York: Macmillan.
4. Kilpatrick, W. H. (1918). The Project Method. Teachers College Record, 19(4), 319–335.
5. Knoll, M. (1997). The Project Method: Its Vocational Education Origin and International Development. Journal of Industrial Teacher Education, 34(3), 59–80.
6. Duke, N., Halvorsen, A., & Strachan, S. (2020). Project-Based Learning in Action. Scholastic.
7. Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ). (2023). Təkmilləşdirilmiş Biologiya fənni üzrə təhsil proqramı. Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu.
8. Thomas, J. W. (2000). A Review of Research on Project-Based Learning. San Rafael, CA: Autodesk Foundation.
9. Blumenfeld, P. C., Soloway, E., Marx, R. W., Krajcik, J. S., Guzdial, M., & Palincsar, A. (1991). Motivating project-based learning: Sustaining the doing, supporting the learning. Educational Psychologist, 26(3–4), 369–398.
10. Larmer, J., Mergendoller, J., & Boss, S. (2015). Setting the Standard for Project-Based Learning: A Proven Approach to Rigorous Classroom Instruction. Alexandria, VA: ASCD.
11. Stevenson, H. W., & Lee, S. (2022). Developing Environmental Responsibility through Active Learning Approaches. Journal of Environmental Education, 53(1), 45–59.
12. UNESCO. (2017). Education for Sustainable Development Goals: Learning Objectives. Paris: UNESCO Publishing.

DOİ: 10.32010/HQAM2954

TƏHSİL SİSTEMİNDƏ SÜNİ İNTELLEKT VASİTƏSİ İLƏ REAL ZAMANLI ÖYRƏNMƏ ANALİTİKASI

Nigar Fəxrəddin ƏHMƏDLİ
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Orcid: 0009-0000-9626-3566
E-mail: nigar.ahmadli@adpu.edu.az

Xülasə: Müasir dövrdə süni intellekt (Sİ) texnologiyalarının təhsil sisteminə inteqrasiyası tədris prosesinin səmərəliliyini artıran əsas istiqamətlərdən birinə çevrilmişdir. Real zamanlı öyrənmə analitikası Sİ alqoritmləri vasitəsilə tələbə fəaliyyətini anlıq izləməyə, tədris materiallarının mənimsənilmə səviyyəsini müəyyən etməyə və fərdi öyrənmə ehtiyaclarına uyğun adaptiv yanaşmalar formalaşdırmağa imkan yaradır. Bu yanaşma tədrisdə ənənəvi qiymətləndirmə üsullarını tamamlamaqla yanaşı, müəllimə və tələbəyə dərhal geribildirim (feedback) verir və nəticə etibarilə təhsil prosesində interaktivliyi gücləndirir. Məqalədə süni intellekt əsaslı öyrənmə analitikasının təhsil sisteminə tətbiq imkanları, onun texnoloji infrastrukturu və məlumatların emal prinsipləri araşdırılmışdır. Real zamanlı analitika vasitəsilə təhsil platformalarından toplanan məlumatların maşın öyrənməsi modelləri ilə təhlili nəticəsində tədris keyfiyyətinin yüksəldilməsi yolları təklif olunur. Bundan əlavə, məlumatların məxfilik və etik istifadəsi məsələləri də təhlil edilmiş, beynəlxalq təcrübələrə əsaslanaraq təhlükəsiz öyrənmə mühitinin qurulması üçün tövsiyələr irəli sürülmüşdür.
Aparılmış tədqiqat göstərir ki, Sİ texnologiyaları təhsildə adaptiv öyrənməni dəstəkləyərək, hər bir tələbənin fərdi öyrənmə tempinə uyğun dərs planları hazırlamağa şərait yaradır. Real zamanlı analitika müəllimlərin qərar qəbul etmə prosesini optimallaşdırır, dərs gedişatında problemləri əvvəlcədən aşkarlayır və resursların səmərəli idarə olunmasına kömək edir. Beləliklə, süni intellektin tətbiqi təhsil sistemində innovativ idarəetmə modelinin formalaşmasına, davamlı inkişaf və rəqəmsal transformasiyanın təmin olunmasına xidmət edir.
Açar sözlər: süni intellekt, real zamanlı analitika, təhsil texnologiyaları, adaptiv öyrənmə, məlumatların emalı, öyrənmə platformaları.

REAL-TIME LEARNING ANALYTICS WITH ARTIFICIAL INTELLIGENCE IN THE EDUCATION SYSTEM

Nigar Fakhraddin AHMADLI
Azerbaijan State Pedagogical University
Orcid: 0009-0000-9626-3566
E-mail: nigar.ahmadli@adpu.edu.az

Abstract: In modern times, the integration of artificial intelligence (AI) technologies into the education system has become one of the main directions that increase the efficiency of the educational process. Real-time learning analytics allows for real-time monitoring of student activity through AI algorithms, determining the level of mastery of educational materials, and forming adaptive approaches in accordance with individual learning needs. This approach, in addition to complementing traditional assessment methods in education, provides immediate feedback to the teacher and student, and ultimately enhances interactivity in the educational process. The article examines the possibilities of applying artificial intelligence-based learning analytics to the education system, its technological infrastructure, and data processing principles. Ways to improve the quality of education are proposed as a result of analyzing data collected from educational platforms through real-time analytics with machine learning models. In addition, issues of data privacy and ethical use were also analyzed, and recommendations were put forward for establishing a safe learning environment based on international experience.
The conducted research shows that AI technologies support adaptive learning in education and create conditions for preparing lesson plans that match the individual learning pace of each student. Real-time analytics optimizes teachers' decision-making processes, detects problems in advance during lessons, and helps to effectively manage resources. Thus, the application of artificial intelligence serves to form an innovative management model in the education system, ensure sustainable development and digital transformation.
Keywords*:* artificial intelligence, real-time analytics, educational technologies, adaptive learning, data processing, learning platforms.

АНАЛИТИКА ОБУЧЕНИЯ В РЕАЛЬНОМ ВРЕМЕНИ С ИСКУССТВЕННЫМ ИНТЕЛЛЕКТОМ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

Нигяр Фахраддин АХМЕДЛЫ
Азербайджанский государственный педагогический университет
Orcid: 0009-0000-9626-3566
Электронная почта: nigar.ahmadli@adpu.edu.az

Резюме: В настоящее время интеграция технологий искусственного интеллекта (ИИ) в систему образования стала одним из основных направлений, повышающих эффективность образовательного процесса. Аналитика обучения в реальном времени позволяет осуществлять мониторинг активности учащихся в режиме реального времени с помощью алгоритмов ИИ, определять уровень усвоения учебных материалов и формировать адаптивные подходы в соответствии с индивидуальными потребностями обучения. Такой подход, помимо дополнения традиционных методов оценки в образовании, обеспечивает немедленную обратную связь с учителем и учеником и, в конечном итоге, повышает интерактивность образовательного процесса. В статье рассматриваются возможности применения аналитики обучения на основе искусственного интеллекта к системе образования, ее технологической инфраструктуре и принципам обработки данных. Предложены пути повышения качества образования на основе анализа данных, собранных с образовательных платформ, посредством аналитики в реальном времени с использованием моделей машинного обучения. Кроме того, проанализированы вопросы конфиденциальности данных и этичного использования, а также предложены рекомендации по созданию безопасной образовательной среды на основе международного опыта.

Проведенное исследование показывает, что технологии искусственного интеллекта поддерживают адаптивное обучение в образовании и создают условия для составления планов уроков, соответствующих индивидуальному темпу обучения каждого ученика. Аналитика в реальном времени оптимизирует процессы принятия решений учителями, выявляет проблемы заранее в ходе уроков и помогает эффективно управлять ресурсами. Таким образом, применение искусственного интеллекта способствует формированию инновационной модели управления в системе образования, обеспечению устойчивого развития и цифровой трансформации.

Ключевые слова*:* искусственный интеллект, аналитика в реальном времени, образовательные технологии, адаптивное обучение, обработка данных, образовательные платформы.

Giriş

Dünya standartlarına cavab verən təhsil sisteminin bugünkü vəziyyətinə diqqət yetirsək görə bilərik ki, artan tələbatlara müvafiq olaraq tədrisdə yeni öyrənmə metodlarından istifadə olunması keyfiyyəti daha da artırmaqdadır. Belə ki, müasir dövrdə təhsil sistemləri sürətlə dəyişən texnoloji mühitə uyğunlaşma mərhələsindədir. İnformasiyanın kəmiyyətcə artması, rəqəmsal resursların tədris prosesinə inteqrasiyası və distant öyrənmənin geniş yayılması nəticəsində ənənəvi tədris modelləri artıq tam səmərəli hesab edilmir. Bu şəraitdə süni intellekt (Sİ) texnologiyaları tədris prosesinin idarə olunması, fərdiləşdirilməsi və qiymətləndirilməsi baxımından yeni imkanlar yaradır. Sİ əsaslı sistemlər müəllim və tələbə fəaliyyətlərini avtomatik izləmə, məlumatları analiz etmə və əldə edilən nəticələr əsasında adaptiv öyrənmə strategiyaları formalaşdırmaq qabiliyyətinə malikdir. Süni intellekt irəliləyişləri gündəlik fəaliyyətimizi necə həyata keçirdiyimizi sürətlə dəyişir (Chakraborty et al., 2022). Təhsil kontekstlərində süni intellekt və LA innovasiyaları həm innovativ tədris və öyrənmə strategiyalarına (Markauskaite və digərləri, 2022) imkan yaratmaqla, həm də eyni zamanda cari qiymətləndirmə təcrübələrinə meydan oxumaqla (Swiecki et al., 2022) əhəmiyyətli transformasiyaya təkan verir.

Öyrənmə analitikası müəllimlərə tələbə irəliləyişlərini izləmək və məqsədyönlü dəstək təklif etmək üçün yeni vasitələr təqdim edir, potensial olaraq tələbə nəticələrinin yaxşılaşmasına səbəb olur (məsələn, Williamson & Kizilcec, 2022, Fernandez Nieto et al., 2022). Oyunlaşdırma və qarışıq reallıq (məsələn, Carter & Egliston, 2023) kimi yeni qarşılıqlı əlaqə innovasiyaları ilə birləşdirilən real zamanlı öyrənmə analitikası sistemləri həm də potensial olaraq öyrənməyi tələbələr üçün daha cəlbedici və interaktiv edə biləcək yeni pedaqoji strategiyalara imkan verir. Ümumilikdə, təhsil təminatçıları bu sistemləri getdikcə daha çox qəbul edirlər, çünki məlumat tutumlu texnologiyalar müəllim və tələbə ilə üzbəüz istifadəçi interfeyslərinin müxtəlif formalarını təmin etməklə öyrənməni daha əlçatan, genişləndirilə bilən, effektiv və tələbələr üçün fərdiləşdirmə vədinə malikdir (Mavrikis & Cukurova, 2021, Shuckkiningham2019).

Real zamanlı öyrənmə analitikası anlayışı süni intellekt texnologiyalarının təhsil prosesində operativ məlumat axınını idarə etmək və həmin məlumatlardan dərhal nəticə çıxarmaq imkanına əsaslanır. Bu yanaşma, tədris zamanı tələbələrin davranışlarını, iştirak səviyyəsini və bilik mənimsəmə dərəcəsini eyni anda izləyərək,

müəllimə və idarəetmə sisteminə operativ geribildirim verir. Nəticədə, tədris mühiti dinamik və interaktiv hala gəlir, hər bir tələbə üçün fərdi öyrənmə yolu müəyyən edilir. Bu konsepsiyanın həyata keçirilməsi təhsil müəssisələrinin rəqəmsal transformasiyasında mühüm rol oynayır. Əgər əvvəlki illərdə tədris prosesinin səmərəliliyi yalnız yekun qiymətlərlə ölçülürdüsə, indi süni intellekt əsaslı analitika real zamanlı göstəricilər – məsələn, tələbənin motivasiyası, tapşırıqlara sərf etdiyi vaxt, mövzu üzrə aktivliyi və rəqəmsal mənbələrlə qarşılıqlı əlaqəsi – əsasında daha dəqiq nəticələr təqdim edir. Bu da müəllimlərin tədris prosesinə vaxtında müdaxilə etməsinə, zəif nəticə göstərən tələbələri erkən mərhələdə müəyyən etməsinə və onların inkişafına yönəlmiş fərdi tədris planları hazırlamasına şərait yaradır. Digər tərəfdən, real zamanlı analitika yalnız akademik göstəricilərin ölçülməsi ilə məhdudlaşmır. O, həm də tələbənin emosional vəziyyəti, diqqət səviyyəsi və öyrənmə motivasiyası kimi psixoloji amilləri də nəzərə almağa imkan verir. Süni intellekt bu kimi qeyri-ənənəvi məlumat növlərini (məsələn, veb-kamera müşahidələri, klaviatura davranışları, interaktiv platforma reaksiyaları) təhlil edərək tədris prosesinin dərin səviyyədə fərdiləşdirilməsini təmin edir.

Tədqiqatın aktuallığı ondan ibarətdir ki, Azərbaycanda və ümumilikdə regionda real zamanlı öyrənmə analitikasının tətbiqi hələ ilkin mərhələdədir. Bu istiqamətdə həyata keçiriləcək tədqiqatlar milli təhsil sisteminin rəqəmsal idarəetməsində mühüm rol oynaya bilər. Süni intellektə əsaslanan bu yanaşmalar vasitəsilə təhsil müəssisələrində məlumat əsaslı qərarvermə mədəniyyəti formalaşdırmaq, müəllimlərin iş yükünü optimallaşdırmaq və tədris prosesini daha şəffaf etmək mümkündür. Tədqiqatın əsas məqsədi süni intellekt texnologiyalarının real zamanlı öyrənmə analitikasında tətbiq imkanlarını müəyyənləşdirmək və bu yanaşmanın təhsil prosesinin keyfiyyətinə təsirini qiymətləndirməkdir. Məqalədə həmçinin adaptiv öyrənmə modellərinin tədris nəticələrinə təsiri təhlil olunur və süni intellektə əsaslanan analitik sistemlərin Azərbaycan təhsil mühitinə inteqrasiyası üçün metodik təkliflər irəli sürülür.

Tədqiqatın obyekti süni intellekt texnologiyalarının təhsil sistemində tətbiqi, predmeti isə real zamanlı öyrənmə analitikası vasitəsilə tədris prosesinin optimallaşdırılmasıdır. Bu istiqamətdə məqsədə çatmaq üçün süni intellektin təhsildə tətbiqinə dair mövcud elmi yanaşmaların araşdırılması, real zamanlı analitikanın texnoloji əsaslarının təhlili, müəllim və tələbə fəaliyyətinə dair göstəricilərin müəyyənləşdirilməsi və praktiki tətbiq üçün modelin işlənməsi kimi vəzifələr qarşıya qoyulmuşdur.

Araşdırmanın elmi yeniliyi ondan ibarətdir ki, burada real zamanlı öyrənmə analitikası süni intellekt sistemlərinin adaptiv öyrənmə modelləri ilə inteqrasiyası prizmasından qiymətləndirilir. Bu, öyrənmə prosesində toplanan məlumatların süni intellekt vasitəsilə operativ emalına və tədris prosesinin dərhal tənzimlənməsinə imkan verən yeni bir metodoloji yanaşmadır. Beləliklə, tədqiqat təhsil sistemində fərdiləşdirilmiş və analitik əsaslı öyrənmənin formalaşmasına töhfə verir.

Nəzəriyyə

Tədqiqatın nəzəri əhəmiyyəti süni intellektin təhsil sisteminə inteqrasiyası ilə bağlı elmi biliklərin zənginləşdirilməsi, praktiki əhəmiyyəti isə müəllim və təhsil idarəçilərinin qərarvermə prosesində real zamanlı məlumatlara əsaslanmaqla öyrənmə mühitini səmərəli şəkildə idarə etməsinə şərait yaratmaqdan ibarətdir.

Təhsil sistemi öyrənənlərin gələəck peşə fəaliyyətində normal addımlamaqları üçün əsas təməl rolunda çıxış edir. Əgər keçmişdə ev tapşırıqlarını və öyrənənləri "yoran" məsələləri qismən çətinliklə həll etmək mümkün idisə, müasir dövrdə süni intellekt vasitəsi ilə real zaman fasiləsində yeni növ bilikləri öyrənib təcrübəyə tətbiq etmək daha asanlıqla reallaşdırılır. Süni intellekt (Sİ) anlayışı elm və texnologiyanın ən dinamik inkişaf edən sahələrindən biridir və onun təhsil sisteminə inteqrasiyası bu sahənin nəzəri və praktik əsaslarını köklü şəkildə dəyişməkdədir. Ənənəvi tədris modellərində məlumatın ötürülməsi və qiymətləndirilməsi prosesləri əsasən müəllimin subyektiv müşahidəsinə əsaslanırdı. Lakin süni intellekt texnologiyaları bu yanaşmanı dəyişərək, öyrənmə prosesini verilənlər əsasında idarə olunan, analitik və adaptiv bir sistemə çevirmişdir. Bu baxımdan, "real zamanlı öyrənmə analitikası" anlayışı təhsildə qərarvermənin elmi və texnoloji əsaslarını formalaşdıran yeni istiqamət kimi meydana çıxır. İlk yarandığı dövrdən etibarən süni intellekt insan zəkasının ən üstün səviyyəsi hesab olunur.

Xülasə: Dil insanlar arasında yalnız ünsiyyət vasitəsi deyil , milli mənlik, milli şüur, milli-mənəvi dəyərlərin formalaşmasına bilavasitə xidmət edən əsas amillərdən biridir. Həmçinin ana dil - doğma dil sosial həyatın təməli , milli mədəniyyətin daşıyıcısıdır. Hər hansı bir dili öyrənmək və tətbiq etmək üçün şagirdlərdə əsas bacarıqları olmalıdır. Belə ki , dinləyib -anlama , oxu , yazı , dil qaydaları kim bacarıqlar Azərbaycan dili fənni ilə yanaşı digər fənlərin də düzgün mənimsədilməsinə və düzgün tətbiqinə yol açır . Azərbaycan dilinin tədrisinin də qarşısında bir sıra mühüm vəzifələr durur. Bu vəzifələr ümumi və didaktik vəzifələr olmaq iki qrupa bölünür. Ümumi vəzifələr: şagirdlərdə müstəqil, azad düşüncə tərzini formalaşdırmaq, milli-mənəvi dəyərləri qorumaq, dünyagörüşünü inkişaf etdirmək, şagirdləri real həyata hazırlamaq və bir şəxsiyyət kimi yetişdirməkdən ibarətdir. Didaktik vəzifələrə: şagirdlərdə ana dilində oxu, yazı, dinləmə-anlama, dil qaydaları kimi mühüm bilikləri mənimsətmək, şagirdlərdə düzgün və ifadəli oxu, orfoqrafik və orfoepik qaydalara əməl etmək, dil vahidlərindən məqsədyönlü istifadə etmək, dərsliklərdə verilmiş müxtəlif üslublara aid mətnləri müvafiq meyarlar əsasında təhlil etmək, sərbəst mətnlər qurmaq, təkmilləşdirmək, mətndaxili və mətnkənarı dil hadisələrinə münasibət bildirmək kimi vərdişləri aşılamaqdır.
Açar sözlər: Azərbaycan dili, dərslik, dil qaydaları, leksikologiya, metodika

---

PROBLEMS OF TEACHING THE SECTION OF LEXICOLOGY IN THE SCIENCE OF METHODOLOGY FOR TEACHING THE AZERBAIJANI LANGUAGE

Leıla Isa ALIYEVA
NDU, doctoral student
ORCID:0009-0001-7087-2790
E-mail: aliyeva1987l@gmail.com, info@ndu.edu.az

Abstract: Language is not only a means of communication between people, but also one of the key factors directly serving the formation of national identity, national consciousness, and moral values. Moreover, the mother tongue is the foundation of social life and the bearer of national culture. To learn and apply any language, students must possess essential skills. These include listening comprehension, reading, writing, and knowledge of grammar rules. Mastering the Azerbaijani language subject, along with other subjects, helps ensure their proper understanding and application. The teaching of the Azerbaijani language also has a number of important tasks. These tasks are divided into two groups: general and didactic tasks.

General tasks: These include forming independent and free thinking in students, preserving national and moral values, developing worldview, preparing students for real life, and raising them as individuals.

Didactic tasks: These include teaching students essential knowledge in their native language, such as reading, writing, listening comprehension, and grammar rules. Also, students should learn to read correctly and expressively, adhere to orthographic and phonetic rules, use language units purposefully, analyze texts of various styles provided in textbooks according to relevant criteria, construct and improve free texts, and develop habits related to giving opinions about in-text and extratextual language phenomena.
Key words: Azerbaijani language, language rules, lexicology, methodology, textbook.

ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ РАЗДЕЛА ЛЕКСИКОЛОГИИ В НАУКЕ МЕТОДОЛОГИИ ОБУЧЕНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Лейла Иса АЛИЕВА
НДУ, докторант
ORCID:0009-0001-7087-2790
Электронная почта: aliyeva1987l@gmail.com, info@ndu.edu.az

Резюме: Язык — это не только средство общения между людьми, но и один из ключевых факторов, непосредственно способствующих формированию национальной идентичности, национального самосознания и моральных ценностей. Более того, родной язык является основой общественной жизни и носителем национальной культуры. Для изучения и применения любого языка учащиеся должны обладать необходимыми навыками. К ним относятся понимание на слух, чтение, письмо и знание грамматических правил. Овладение азербайджанским языком, наряду с другими предметами, помогает обеспечить его правильное понимание и применение. Преподавание азербайджанского языка также имеет ряд важных задач. Эти задачи делятся на две группы: общие и дидактические.

Общие задачи: К ним относятся формирование у учащихся самостоятельного и свободного мышления, сохранение национальных и моральных ценностей, развитие мировоззрения, подготовка учащихся к реальной жизни и воспитание их как личностей.

Дидактические задачи: К ним относится обучение учащихся необходимым знаниям на родном языке, таким как чтение, письмо, понимание на слух и грамматические правила. Кроме того, учащиеся должны научиться читать правильно и выразительно, соблюдать орфографические и фонетические правила, целенаправленно использовать языковые единицы, анализировать тексты различных стилей, представленные в учебниках, по соответствующим критериям, строить и совершенствовать свободные тексты, а также развивать навыки выражения мнений о внутритекстовых и внетекстовых языковых явлениях.

Ключевые слова: азербайджанский язык, языковые правила, лексикология, методология, учебник

Giriş

Azərbaycan ədəbi dilinin lüğət tərkibinə daxil olan sözlər, terminlər, frazeologizmlər və sözlərin semantik xüsusiyyətləri dilin leksikasına aiddir. Bütövlükdə bu leksik vahidləri sistematik öyrənən dilçiliyin leksikologiya bölməsidir. Leksikologiyanın əsas tədqiqat obyekti sözdür. Bu sahə sözün mənalarını, üslubi imkanlarını, mənşəyinin öyrənməklə yanaşı, sözün omonim, sinonim və antonim xüsusiyyətlərini tədqiq edir. Leksikologiya dilin lüğət tərkibini zənginləşdirən, inkişaf etdirən və müasir vəziyyətə gətirib çıxaran bölməsidir. Bu bölmə daha dəqiq tərkib hissələrinə aşağıdakı şəkildə bölünür: 1)Dilin leksikası 2)Semasiologiya 3)Leksikoqrafiya 4)Onomastika 5)Söz yaradıcılığı 6)Etimologiya.

Leksikologiya bölməsini daha dərindən anlamaq üçün onun inkişaf tarixinə nəzər salmaq lazımdır. Danılmazdır ki, dilin lüğət tərkibi dəyişkəndir və bu təkcə milli sözlər hesabına yox, həmçinin alınma sözlərin də müəyyən rola malik olmasının şahidi oluruq. Azərbaycan dilinin tədrisi zamanı dilçiliyin leksikologiya bölməsinin öyrənilməsi ötən əsrin 70-ci illərindən başlanılmışdır. Leksikologiya bölməsi fonetika və qrammatika hissəsinə daxil edilərək öyrənilməyə başlandı. 1992 və 2002-ci il Azərbaycan dili tədris proqramlarına leksikologiya bölməsi tam müstəqil şəkildə V sinif proqramına əlavə olundu. Artıq bu bölmənin daha sistemli tədqiqinə, öyrənilməsinə başlanıldı. Müasir dövrdə kurikulum təhsil islahatı həyata keçirildikdən sonra leksikologiya bölməsinə sözün leksik, qrammatik mənası, həqiqi və məcazi məna, təkmənalı, çoxmənalı sözlər, omonim, sinonim, antonim, farzeoloji birləşmə və etimologiya bölməsi daxildir.

Nəzəriyyə

Tədris materiallarından istifadə Azərbaycan dilinin tədrisində mühüm rola malikdir. Tədris materialları şagirdlərə veriləcək məlumatları özündə ehtiva edən tədris avadanlığıdır. Bununla yanaşı, təhsil və təlim prosesinin faydalı olması üçün dərsliklərdə əksini tapan dil qaydaları mütəmadi yenilənməli, təkmilləşdirilməlidir. V sinif Azərbaycan dili dərsliyinin tələbi təkcə leksikologiya bölməsinə aid olan dil qaydalarını mənimsəmək deyil, həmçinin şagirdlərin söz ehtiyatını, lüğət fondunu zənginləşdirməkdən ibarətdir. Bu gün yeni nəşrə verilən tədris materialları nə qədər müasir tələblərə cavab versə də, dil qaydaları bölməsi də bir o qədər qarışıq verilib. Buna nümunə olaraq 2024-cü il nəşrli 2 hissəli V sinif üçün Azərbaycan dili dərsliyini göstərmək olar. 2024-cü il nəşrə qədərki Azərbaycan dili dərsliklərində az da olsa, dil qaydalarının ardıcıllığı gözlənilmişdir. Yeni nəşrdə isə leksikologiya bölməsini əhatə edən dil qaydaları nəzərə çarpacaq şəkildə nizamsız və "yarımçıq" verilib, məsələn, v sinif dərsliyinin 1-ci hissəsində

çoxmənalı sözlər və omonimlərdən sonra "cümlə sonunda durğu işarələri" adlı dil qaydası öz əksini tapıb. Bu dil qaydasının v sinif dərsliyində, hətta leksikologiya bölməsində verilməsi qənaətbəxş hesab edilmir. Şagirdlər köməkçi nitq hissələri, tabesizlik əlaqəsi, həmcins üzvlər, əlavələr, xitab və ara sözlər, mürəkkəb cümlə və s. kimi mövzuları tam mənimsəməmiş, durğu işarələri - dil qaydasının verilməsi düzgün hesab olunmur.

Leksikologiya bölməsini daha dəqiq şəkildə nəzərdən keçirsək, görərik ki, dərsliyin 1-ci hissəsində verilmiş "mənəvi dəyərlər" adlı bölmədə ilk dil qaydası olaraq sözün leksik və qrammatik mənası haqqında qısa məlumat verilib. Ancaq şagirdlərə "söz" məfhumu ilə bağlı ətraflı, yəni sözün mənasını müəyyənləşdirəcək əsas amillərdən, sözlərin mənaca dəyişməsindəki mühüm qanunauyğunluqlar haqqında məlumat verilməsi məqsədəuyğundur. Bundan başqa, sözün leksik və qrammatik mənaları arasındakı əlaqə göstərilməlidir. Leksikada hər hansı bir söz şüurumuzda konkret və mücərrəd formada ümumiləşir, ancaq qrammatika həmin sözü müəyyən bir kateqoriyaya, yəni nitq hissələrinə aid edir. Bu dil qaydası dərslikdə öz əksini tapsa, şagirdlərin verilmiş materialı, ən əsası da sözün leksik və qrammatik mənaları arasındakı bağlılığı daha yaxşı mənimsəməklə yanaşı, onun qrammatik mənasının da necə müəyyən edilməsini öyrənəcəklər. Dərslikdə bu dil qaydasına aid az sayda tapşırıq mövcuddur və əlavə olaraq müəlliflər tərəfindən yeni vəsait olan – iş dəftərinin istifadəsi "tövsiyə olunur".

Verilən bölməyə aid digər dil qaydası - sözün həqiqi və məcazi mənasıdır. Bu dil qaydası şagirdlərin təhsil aldıqları müddətdə tez-tez rastlaşdıqları mövzudur, çünki müasir dövrdə Azərbaycan dili təlimində dil qaydaları artıq mətn üzrə aparılan praktik tapşırıqlarda öz əksini tapır. İstər 5-ci sinif, istərsə də 11-ci sinifdə təhsil alan şagirdlər sözün kontekstə görə funksiyasının (poetik, informativ və terminoloji) tapılmasında verilən dil qaydasının əhəmiyyəti böyükdür. Dərslikdə sözün həqiq və məcazi mənalarının müəyyən edilməsi ilə bağlı verilən məlumat qənaətbəx hesab edilmir. Sözün əsas mənası onun həqiqi mənasıdır, ancaq həqiqi mənadan törəyən məcazi mənaları yaradarkən sözün həqiqi mənasındakı müəyyən xüsusiyyətlər məcazi mənalara ötürülür. Mətn üzrə verilən tapşırıqlarda sözün məcazi mənasını birbaşa kontekstə görə müəyyən edilə bilər.

Dərslikdə çoxmənalı sözlər və omonimlər başlıqlı dil qaydası mövcuddur. Bu dil qaydalarındakı məlumatlar şagirdlərin bu mövzuya aid verilən test nümunələrində doğru və yanlış cavabları tapmaqda heç effektiv rola malik olmadığını müşahidə etmək olar. Belə ki, təkmənalı (monosemantik) sözlər haqqında heç bir məlumat verilməyib və şagirdlərə ilkin mərhələdə bu dil qaydası mənimsənilməli, daha sonra çoxmənalı (polisemantik) sözlər barəsində ətraflı bilgi öz əksini tapmalıdır. Daha dərinə ensək, çoxmənalı sözlər dilin lüğət tərkibini zənginləşdirən sözlərdir. İzahlı sözlərə baxsaq, çoxmənalı sözlərin sayı üstünlük təşkil edir. Ümumi isimlərin, sifətlərin, feillərin çoxmənalılığı və ən əsası da ilkin-əsas mənadan törəyən məcazi mənaların eyni nitq hissəsinə mənsubluğu nəzərə alınmalıdır. Yuxarıda sadalanan bir çox məlumat yeni dərslikdə qeyd olunmayıb.

Omonimlər leksika bölməsinin mühüm dil qaydalarından biridir. Dərslikdə bu dil qaydasının izahı zamanı sadəcə "əqrəb" sözü yazılaraq mənimsədilməyə çalışılmışdır. Maraqlıdır ki, şagirdlər dərslikdə verilmiş "qayda" ilə heç bir tapşırıq və test nümunələrini, hətta omonim və çoxmənalı sözlərin mqayisəsini yerinə yetirə bilməyəcəklər. Omonimlərlə oxşar olan sözlər – omofon, omoqraf, omoform və paronimlər haqqında məlumat verilsə, şagirdlər omonimləri daha sərbəst şəkildə ayırd edəcəklər. Nəzərə alsaq ki, Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi IX-XI siniflər üçün buraxılış imtahanında Azərbaycan dili fənnində bu mövzulara aid test tapşırığından mütəmadi istifadə olunur.

Antonimlər və sinonimlər tədrisi zamanı yeni dərslikdə " sinonimlər fikri dəqiq ifadə etməyə, antonimlər isə müəyyən bir fikri daha qabarıq çatdırmaq məqsədi daşıyır" – məlumatı verilib. Antonim və sinonimlərin mənimsənilməsi zamanı şagirdlərə bu dil qaydalarının eyni nitq hissəsinə mənsubluğu, antonimlərin zidd, əksmənа ifadə etmələri, sinonimlərin bir-birini əvəz etmələri baxımından mütləq və nisbi sinonimlərə bölünmələri, kökləri eyni olan sözlərin sinonim və antonim (dərslikdə sadəcə antonimlərin bu xüsusiyyəti vurğulanıb) hesab olunmamaları kimi məlumatlar tədris materialında öz əksini tapmayıb. Sözlərin leksik mənalalarının izahı zamanı antonim və sinonimlərdən istifadə olunmaları barəsində məlumat dərslikdə bir tapşırıq nümunəsində " gözəl, gödək, zərif " sözləri üzərində aparılan iş zamanı müəyyənləşdirmək tələb olunub.

Dilçiliyin sözlərin və morfemlərin ümumi mənşəyi, tarixi və ilkin formasını tədqiq edən sahəsi etimologiyadır. Bu sahə ümumtəhsil müəssisələrində Azərbaycan dili dərsliklərində demək olar ki, sadəcə adı və tərifi verilməklə toxunulmuşdur. Bu gün şagirdlərə milli və alınma

mənşəli sözlər və ya hər hansı bir sözün mənşəyini araşdırılması sahəsi maraqlı gəlmir. Belə ki, dərslikdə işləmə dairəsinə görə sözləri şagirdlər təsnif edə bilmirlər. Müasir təlim sistemində Azərbaycan dilinin dil qaydası- məzmun xətti müxtəlif növ üslubi mətnlərin daxilində verilir. Həmin mətnlərdə işlənən işlənmə dairəsi az olan sözləri ayırd etməkdə çətinlik çəkilir. Nəzərə alsaq ki, istər bədii, istərsə də publisistik mətnlərdə yeni sözlər, köhnəlmiş sözlər, termin və dialekt sözlərə mütəmadi rast gəlinir. Ancaq yeni nəşrli dəsliklərdə bu mövzular haqqında ya qısa bir izah verilir, ya da bu dil qaydalarının adı belə çəkilmir. Alınma sözlər – dil qaydası yeni nəşrli Azərbaycan dili dərsliyinin 1-ci hissəsində " Alınma sözlər və şəkilçilər " adı ilə verilib. Burada dilimizdə düzəltmə və mürəkkəb sözlərlə yanaşı, alınma sözlərin də mövcud olması və bu sözlərin bir çoxunun ərəb-fars, rus-avropa dillərindən daxil olması, milli sözlərdən fərqləndirən cəhətin ahəng qanuna tabe olmamaları qeyd olunub. Təbii ki, verilən məlumatlara şagirdlər verilən sözlərin sadəcə ahəngə görə milli və ya alınma söz olduğunu test tapşırıqlarında müəyyən edə bilməyəcəklər. Yaxşı olardı ki, şagirdlərə alınma sözlərin əsas xüsusiyyətləri, hansı zərurətdən dilimizə daxil olmaları, dilimizin lüğət tərkibində nə kimi yer tutduqları, beynəlmiləl sözlərin xüsusiyyətləri və s. kimi izahlara da dərsliklərdə yer verilsin.

Dilimizin passiv söz qruplarına daxil olan sözlərin bir hissəsi köhnəlmiş sözlərdir. Necə ki, dilimizin lüğət tərkibi çoxmənalı sözlər, omonimlər, sinonimlər və.s hesabına zənginləşirsə, köhnəlmiş sözlər hesabına isə azalır. Köhnəlmiş sözlər müasir Azərbaycan dili tədrisinin leksikologiya bölməsində son dövrlərə qədər az da olsa məlumat verilir və tədris olunurdu. Ancaq son zamanlarda nəşrə buraxılan dərsliklərdə bu mövzu diqqətdən kənarda qalıb. Nəzərə alsaq ki, Azərbaycan dilinin tədrisi zamanı dil qaydalarını üzərində aparılan praktik işlər zamanı bədii və publisistik mətnlərdən istifadə olunur. Bu mətnlərin içərisində nəinki ki, təkcə köhnəlmiş sözlər, hətta dialekt sözlər, terminlər və yeni sözlərə kifayət qədər rast gəlmək mümkündür. Daha dəqiq qeyd etsək, V sinif üçün Azərbaycan dili metodik vəsaitdə şagirdlərin ibtidai sinifdən bəri istifadə etdikləri filoloji və akademik sözlərin siyahısı verilir. Lakin şagirdlərə dilimizin passiv söz qrupları haqqında ətraflı məlumat verilmir və mətnlərdə fərqləndirilmiş sözlərin hansı funksiyaya aid olmasını müəyyən etmək tələb olunur. Sözün funksiyası dedikdə, onun poetik, informativ və ən əsası terminoloji mənasının olması göz ardı edilir. Belə bil mühüm dil qaydalarının leksika bölməsindən "xaric" edilməsi məqsədəuyğun hesab olunmur.

Demək olar ki, dilçiliyin leksikologiya bölməsi V-XI sinif dərsliklərində verilmiş mətn üzrə işlərdə praktiki şəkildə geniş istifadə olunur. Leksikologiya bölməsinə aid olan dil qaydaları V sinif Azərbaycan dili dərsliyində verilib. Leksikologiya bölməsinin dərslikdəki şərhi haqqında əsas qeydlərə bir daha baxaq:

Mövzular – leksik və qrammatik məna, sözün həqiqi və məcazi mənası, çoxmənalı sözlər, omonimlər, cümlə sonunda durğu işarələri verilmişdi. Bununla yanaşı, bölmə sonunda "ümumiləşdirici təkrar" adlı hissədə isə leksikologiya bölməsinə aid tapşırıqlar var. Leksikologiya bölməsində verilən dil qaydalarına aid tətbiqi tapşırıqlarda – cümlələrdə verilmiş sözlərin izahını düzgün seçmək, sözlərin qrammatik mənalarını və aid olduqları nitq hissələrini müəyyənləşdirmək, verilmiş cədvəl üzrə sözləri leksik və qrammatik mənaların görə qruplaşdırmaq, mətndəki sözlərin kontekstə görə funksiyasını izah etmək, cümlələrə uyğun sözləri əlavə etməklə feilləri məcazi mənalara çevirmək, cümlədə fərqləndirilmiş sözlər arasında məna yaxınlığını müşahidə etmək, omonim və çoxmənalı sözləri bir-birindən fərqləndirmək kimi şərtlərin yerinə yetirilməsi tələb olunur. "Niyə belə deyirik" adlı bölmədə isə alınma sözlər və alınma şəkilçilər, sinonim və antonimlər kimi dil qaydaları verilib. Burada verilmiş tapşırıqlar- sözlərin izahlarını diqqət yetirmək və mənşəyini müəyyən etmək, lüğətlərdən düzgün istifadə, sinonimlərdən istifadə edərək cümlələrdəki təkrarların qarşısının alınması, verilmiş cümlələrə uyğun antonimlərin yerləşdirilməsi, antonim və sinonimlərdən istifadə etməklə sözlərin leksik mənasının izahı, lüğətlərdə söz izahının quruluşu ilə tanışlıq, lüğətlərdə çoxmənalı söz və omonimlərin verilməsi kimi tələblərin icrası nəzərdə tutulur. Leksikologiya bölməsinə aid dil qaydaları nizamsız və qarışıq verilməsi fənnin tədrisini bir az da mürəkkəbləşdirib. Çoxmənalı sözlər, omonim, sinonim, antonim kimi mövzular uzun illərdir ki, birgə və ardıcıl tədris olunur. Yeni nəşrdə leksikologiya bölməsinə aid olan mövzular parçalanaraq fərqli bölmələrdə və fərqli mövzuların arasında verilib. Belə ki, "durğu işarələrinin işlədiməsi" adlı dil qaydasının verilməsi düzgün bir yanaşma deyil, şagirdlər yuxarı siniflərdə o, bu əvəzliyindən sonra vergülün işlənməsi, bəzi köməkçi nitq hissələrində, həmcins olan cümlə üzvlərində, əlavələrdə, xitab və ara sözlərdə, vasitəsiz nitqdə ... və.s kimi mövzularda durğu işarələrinin işlənməsini növbəti siniflərdə verilməsi

daha məqsədəmüvafiq sayılır. Həmçinin bu mövzu leksikologiya bölməsinin tərkibində verilməsi də düzgün hal deyil. Sön dövrlərdə nəşr olunun dərsliklərdən yola çıxaraq qeyd etmək lazımdır ki, adı çəkilən mövzular "dil qaydası" adı altında bir daha verilməyəcək, sadəcə, mətn üzrə aparılan praktiki tapşırıqlarda görmək mümkün olacaq. Bundan başqa, "sözün sətirdən sətrə keçirilməsi" adlı dil qaydası da leksikologiya bölməsində görmək mümkündür. Diqqətdə saxlanılmadı ki, V sinifdə təhsil alan şagirdlərin yaş və bilik səviyyəsini nəzərə alsaq görərik ki , onların bu mövzuları mənimsəməsi və tətbiqində qarışıq vəziyyət tədrisi daha da çətinləşdirir. Yuxarı siniflərdə bu mövzular onların yazı qaydalarına birbaşa təsir göstərəcək.

Metodologiya

Dil qaydalarının mükəmməl və düzgün şəkildə tədrisi şagirdlərdə əsas bacarıqların inkişafına birbaşa təsir göstərir V-XI siniflərdə leksikologiya bölməsinin tətbiqi "oxu" , "yazı" və "söz ehtiyatı" adlı hissələrdə əksini tapıb. Aşağıda V-XI siniflər üçün nəşr olunmuş Azərbaycan dili dərsliklərində leksikologiya bölməsi ilə bağlı verilən tapşırıqlarda tələb olunan şərtlərdən bir qisminə baxaq:

– Mətndə fərqləndirilmiş ifadələri söz boğçasındakı sözlərlə əvəz edin.
– Verilmiş söz sıralarını onların yaxınmənalı qarşılıqları ilə əvəz edin.
– Mətndən çıxış edərək "ölüm-dirim məsələsi, iki ayağını bir başmağa dirəmək" ifadələrinin mənasını izah edin.
– Verilmiş izahlara uyğun olan sözləri seçib yazmaq.(V sinif)
– Sözləri leksik və qrammatik mənasını görə uyğunlaşdırmaq.(V sinif)
– Həqiq və məcazi mənada işlənən sözləri seçin.(Vsinif)
– Həqiq və məcazi mənada işlənən sözləri fərqləndirmək, məna yaxınlığını izah edin.(V sinif)
– "Göz" sözünü həqiqi və ya məcazi mənada işləndiyini müəyyən edin.(V sinif)
– Fərqləndirilmiş sözlər arasında məna yaxınlığını müəyyən edin.(V sinif)
– Verilmiş məsəldə "ağız" sözünün mənasını izah edin.(V sinif)
– Sözləri kontekstə görə mənalarını izah etmək.(V,VI,VII,VIII,IX,X,XI siniflər)
– Fərqləndirilmiş sözün ifadə etdiyi məna.(VII,VIII,IX,X,XI siniflər)
– Mətndə çoxmənalı sözləri seçmək və müvafiq cümlələrlə fikrini əsaslandırmaq.(VIII,XI,X,XI siniflər.
– Mətndə məcazi mənalı sözü seçmək və qarşılığını müəyyən etmək.(VIII,IX,X,XI siniflər)
– Kontekstə görə verilmiş sözlərin omonim, çoxmənalı olduğunu əsaslandırmaq.(VIII-XI siniflər).
– Mətndə verilmiş cümlədə kontekstə uyğun olmayan sözü seçmək və düzəliş etməklə yenidən yazın.(X,XI siniflər)
– Mətndə fərqləndirilmiş sözün qarşılığını tapın və cümlədə işlədin.(IX,X,XI siniflər) və s.

Yuxarıda sadəcə V-XI siniflərdəki tapşırıqların çox az bir qismini nümunə olaraq yazılıb. Ancaq bu şərtlərin mahiyyəti eyni qalmaqla yuxarı siniflərdə təkmilləşdirilərək verilir. Məsələn, aşağı sinifdə " omonim və ya çoxmənalı sözü seçin" şərti verilirsə, yuxarı sinifdə isə bu şərtə əlavə olaraq "seçiminizi əsaslandırın" kimi qeyd olunur. Leksikologiya bölməsi bütün Azərbaycan dili dərsliklərində tapşırıq olaraq aktiv şəkildə verilməklə yanaşı, buraxılış imtahanlarını hazırlayan müəssisələrin də ən çox müraciət etdiyi bölmədir.

Nəticə

Leksikologiya bölməsinin digər sahələrə nisbətən daha gec tədqiq olunması bu sahənin əhəmiyyətini, dəyərini azaltmır, əksinə müstəqil bölmə olaraq verilməsi daha çox diqqətin artırılması və ən əsası da daha çox tədqiq edilməsi deməkdir. Yuxarıda yazılanları nəzərə alaraq demək olar ki, bu bölmənin V-XI siniflərdə daim verilməsi həm dilimizin lüğət ehtiyatının zənginliyini göz önünə sərmək, həm də şagirdlərdə özünü ifadə bacarıqlarını inkişaf etdirməyə, müstəqil fikir bildirməyə, nitqini zənginləşdirməyə kömək etdiyini görmək olar. Sadəcə bu bölməyə aid dil qaydaları sistematik verilməməsi, mühüm məlumtların ya dərslikdən çıxarılması, ya da bir və ya iki cümlə ilə izahının verilməsi şagirdlərin bu sahənin mənimsəməsi üçün kifayət qədər məlumatın və düzgün istiqamətin olmamasıdır. Buna baxmayaraq yeni təhsil islahatlarından sonra ənənəvi təlimin yerini fəal-interaktiv təlimə verməsi və yeni təlim texnologiyalarının, tədris prosesində təlimin iş forma və üsullarından istifadə ümumtəhsil müəssisələrindəki bütün fənlərin tədris prosesinin inkişaf etdirməsi danılmazdır. Ancaq dil qaydalarının "yarımçıq", nizamsız verilməsi fəal təlimin də keyfiyyətini aşağı salır. Verilən çatışmazlıqlar aradan qaldırılsa, bu bölmə daha düzgün və sistemli halda tədris olunsa, şagirdlərin Azərbaycan dili tədrisi zamanı verilən əsas məzmun xətlərini səmərəli şəkildə mənimsəməsi qaçınılmaz olacaq.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respubliksası Elm və Təhsil Nazirliyi . V sinif üçün Azərbaycan dili dərsliyi. I hissə . Bakı . 2024

2. Azərbaycan Respubliksası Elm və Təhsil Nazirliyi . V sinif üçün Azərbaycan dili dərsliyi .II hissə. Bakı . 2024
3. Azərbaycan Respubliksası Elm və Təhsil Nazirliyi . V sinif üçün Azərbaycan dili metodik vəsait . Bakı . 2024
4. Balıyev H.B. Azərbaycan dilinin tədrisi metodikası. Bakı.2014
5. Əşrəfov R.Q. Azərbaycan dilinin tədrisi metodikası. Bakı.2022
6. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı. 2005
7. Cəfərov S. Müasir Azərbaycan dili.Leksika.II hissə .Bakı. 2007

DOİ: 10.32010/ODZB4479

SÜNİ İNTELLEKTƏ ƏSASLANAN QƏRAR QƏBULETMƏ MODELLƏRİ VƏ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFI

Oksana Səmid ƏLİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ORCİD: 0009-0008-5696-047X
E-mail:oksanasamidqizi@gmail.com

Xülasə:Süni intellekt (AI) texnologiyaları təhsil sahəsində qərar qəbuletmə proseslərini köklü şəkildə dəyişdirərək, təhsil müəssisələrinin idarəçiliyi, tədris keyfiyyəti və tələbə performansının qiymətləndirilməsi sahəsində yeni imkanlar yaradır. AI-nin maşın öyrənməsi, dərin öyrənmə, təbii dil emalı və məlumat analitikası kimi alt sahələri, böyük həcmli məlumatları sürətlə təhlil edərək, müəssisələrin strateji qərarlarını daha məlumatlı və obyektiv əsaslarla qəbul etməsinə imkan verir. Bu texnologiyalar həm inzibati proseslərin optimallaşdırılmasında, həm də tədris keyfiyyətinin artırılmasında əhəmiyyətli rol oynayır.

Təhsil müəssisələrində AI-nin tətbiqi, ənənəvi qərar qəbuletmə modellərinin qarşılaşdığı məhdudiyyətləri aradan qaldırır. Ənənəvi idarəetmə prosesləri çox vaxt subyektiv qərarlar, məhdud məlumat və insan səhvlərinə əsaslanır. Süni intellekt isə məlumatları geniş miqyasda təhlil edərək nümunələri aşkar edir, performans göstəricilərini qiymətləndirir və potensial riskləri proqnozlaşdırır. Məsələn, AI əsaslı sistemlər müəllim və tələbə performansını, dərs planlarının effektivliyini və akademik nəticələri təhlil edərək, müəssisə rəhbərlərinə tədris strategiyalarını optimallaşdırmaq üçün dəqiq rəy təqdim edə bilər. Bu, xüsusilə ali təhsil müəssisələrində müəllim fəaliyyətinin qiymətləndirilməsi və tədrisin individual tələbə ehtiyaclarına uyğunlaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Qərar qəbuletmədə AI-nin əsas üstünlüklərindən biri məlumatlara əsaslanan proqnozların və modellərin yaradılmasıdır. Alqoritmlər tələbə nəticələrini, resursların istifadəsini və tədris proseslərinin effektivliyini qiymətləndirərək strateji planlaşdırma və resurs paylanmasını təkmilləşdirir. Eyni zamanda, AI qərar qəbuletmə proseslərini sürətləndirir, insan resurslarına olan tələbatı azaldır və idarəetmədə şəffaflıq təmin edir. Süni intellektin tətbiqi həmçinin data-driven (məlumat əsaslı) yanaşmaların inkişafına imkan verir ki, bu da müəssisələrin uzunmüddətli inkişaf strategiyalarını dəqiq planlaşdırmasına şərait yaradır.

Nəticə olaraq, süni intellektə əsaslanan qərar qəbuletmə modelləri təhsil müəssisələrinin idarəçiliyində, tədris proseslərinin optimallaşdırılmasında və akademik nəticələrin qiymətləndirilməsində əhəmiyyətli potensiala malikdir. Onun tətbiqi strateji planlaşdırmanı təkmilləşdirir, resursların səmərəli istifadəsini təmin edir və təhsil keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Lakin AI-nin tam potensialının reallaşdırılması üçün etik, sosial və texnoloji çağırışlar nəzərə alınmalı, bərabər çıxış imkanları və məxfilik standartları qorunmalıdır. Süni intellektin təhsil müəssisələrində inteqrasiyası, həm qlobal təhsil trendlərinə uyğunlaşmaq, həm də yerli təhsil sisteminin davamlı inkişafını təmin etmək üçün strateji əhəmiyyət daşıyır.

Açar sözlər: Süni intellekt (AI), qərar qəbuletmə modelləri, məlumat əsaslı qərar qəbuletmə, tədris keyfiyyətinin qiymətləndirilməsi, təhsil idarəçiliyi, data-driven yanaşmalar.

ARTIFICIAL INTELLIGENCE-BASED DECISION-MAKING MODELS AND DEVELOPMENT OF EDUCATIONAL INSTITUTIONS

Oksana Samid ALIYEVA
Azerbaijan State Pedagogical University
ORCID: 0009-0008-5696-047X
E-mail: oksanasamidqizi@gmail.com

Abstract: Artificial Intelligence (AI) technologies are fundamentally transforming decision-making processes in education, creating new opportunities in institutional management, teaching quality, and student performance assessment. AI subfields, such as machine learning, deep learning, natural language processing, and data analytics, enable the rapid analysis of large-scale data, allowing institutions to make strategic decisions based on objective and evidence-based insights. These technologies play a crucial role in both optimizing administrative processes and enhancing educational quality.

The application of AI in educational institutions addresses the limitations of traditional decision-making models. Conventional management processes often rely on subjective judgments, limited data, and human errors. AI, on the other hand, can analyze extensive data sets, detect patterns, evaluate performance indicators, and predict potential risks. For instance, AI-based systems can analyze teacher and student performance, the effectiveness of lesson plans, and academic outcomes, providing precise recommendations to administrators for optimizing instructional strategies. This is

particularly significant in higher education, where AI can enhance the evaluation of faculty performance and the customization of learning to meet individual student needs.
One of the key advantages of AI in decision-making is the development of data-driven forecasts and models. Algorithms assess student outcomes, resource utilization, and instructional efficiency, improving strategic planning and resource allocation. Simultaneously, AI accelerates decision-making processes, reduces reliance on human resources, and promotes transparency in management. The integration of AI also fosters data-driven approaches, enabling institutions to accurately plan long-term development strategies.
In conclusion, AI-based decision-making models hold significant potential for the management of educational institutions, optimization of teaching processes, and evaluation of academic outcomes. Their application enhances strategic planning, ensures efficient use of resources, and contributes to improved educational quality. However, the full realization of AI's potential requires consideration of ethical, social, and technological challenges, including equitable access and privacy standards. Integrating AI into educational institutions is strategically important for aligning with global education trends while ensuring the sustainable development of local education systems.
Keywords: Artificial Intelligence (AI), decision-making models, data-driven decision-making, teaching quality assessment, educational management, data-driven approaches.

МОДЕЛИ ПРИНЯТИЯ РЕШЕНИЙ НА ОСНОВЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА И РАЗВИТИЕ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ

Оксана Самид АЛИЕВА
Азербайджанский государственный педагогический университет
ORCID: 0009-0008-5696-047X
Электронная почта: oksanasamidqizi@gmail.com

Резюме: Технологии искусственного интеллекта (ИИ) коренным образом изменяют процессы принятия решений в сфере образования, создавая новые возможности для управления учебными заведениями, повышения качества преподавания и оценки успеваемости студентов. Подобласти ИИ, такие как машинное обучение, глубокое обучение, обработка естественного языка и аналитика данных, позволяют быстро анализировать большие объемы информации, что обеспечивает принятие стратегических решений на более информированной и объективной основе. Эти технологии играют важную роль как в оптимизации административных процессов, так и в повышении качества обучения.
Применение ИИ в образовательных учреждениях устраняет ограничения традиционных моделей принятия решений. Традиционные управленческие процессы часто основаны на субъективных суждениях, ограниченных данных и человеческих ошибках. ИИ способен анализировать большие массивы данных, выявлять закономерности, оценивать показатели эффективности и прогнозировать потенциальные риски. Например, системы на основе ИИ могут анализировать успеваемость преподавателей и студентов, эффективность учебных планов и академические результаты, предоставляя руководству образовательного учреждения точные рекомендации для оптимизации стратегий обучения. Это особенно важно в высших учебных заведениях для оценки деятельности преподавателей и адаптации обучения под индивидуальные потребности студентов.
Одним из ключевых преимуществ ИИ в принятии решений является создание моделей и прогнозов на основе данных. Алгоритмы оценивают результаты студентов, использование ресурсов и эффективность учебных процессов, улучшая стратегическое планирование и распределение ресурсов. Кроме того, ИИ ускоряет процессы принятия решений, снижает потребность в человеческих ресурсах и обеспечивает прозрачность управления. Применение ИИ также способствует развитию подходов, основанных на данных, что позволяет учреждениям точно планировать долгосрочные стратегии развития.
В заключение, модели принятия решений на основе ИИ обладают значительным потенциалом для управления образовательными учреждениями, оптимизации учебных процессов и оценки академических результатов. Их применение улучшает стратегическое планирование, обеспечивает эффективное использование ресурсов и способствует повышению качества образования. Однако для полного раскрытия потенциала ИИ необходимо учитывать этические, социальные и технологические вызовы, включая обеспечение равного доступа и соблюдение стандартов конфиденциальности. Интеграция ИИ в образовательные учреждения имеет стратегическое значение как для соответствия глобальным образовательным тенденциям, так и для обеспечения устойчивого развития местной системы образования.
Ключевые слова: Искусственный интеллект (ИИ), модели принятия решений, принятие решений на основе данных, оценка качества преподавания, управление образованием, подходы на основе данных.

Giriş

Azərbaycan Respublikası Prezidentinin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025–2028-ci illər

üçün süni intellekt Strategiyası" süni intellekt texnologiyalarının ölkədə sistemli inkişafını təmin etmək məqsədi daşıyır (Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı, 2025). Bu strategiya süni intellekti informasiya və kommunikasiya texnologiyalarının inkişafı, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi və iqtisadi rəqabət qabiliyyətinin artırılması kimi prioritet sahələrində tətbiq etməklə, Azərbaycanın rəqəmsal transformasiyasını sürətləndirməyə yönəlib. Xüsusilə, təhsil sektorunda süni intellektin fərdi performansın qiymətləndirilməsi kimi innovativ tətbiqlər strategiyanın əsas hədəflərindən biri olaraq qeyd olunur, bu da ali təhsil müəssisələrində müəllim və mühaziraçi fəaliyyətinin optimallaşdırılmasına yeni imkanlar yaradır. Beləliklə, qlobal AI trendləri Azərbaycanın milli strategiyası çərçivəsində yerli kontekstə uyğunlaşdırılaraq, ölkənin təhsil sistemində innovasiya potensialını maksimum dərəcədə reallaşdırmağa xidmət edir.

Süni intellekt (AI) rəqəmsal əsrin ən transformasiyaedici texnologiyalarından biri kimi müxtəlif sahələrdə, o cümlədən ali təhsildə əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur (Cowling, M., Crawford, J., 2022). Süni intellektin maşın öyrənməsi, dərin öyrənmə, təbii dil emalı və kompüter görmə kimi alt sahələri onun insan zəkasını təqlid etmək, mürəkkəb məlumatları təhlil etmək və qərar qəbul etmək qabiliyyətini gücləndirir (Xiao, S., Shanthini, A., & Thilak, D., 2022). Ali təhsildə süni intellekt, xüsusilə müəllim və mühaziraçi fəaliyyətinin qiymətləndirilməsi kimi kritik sahələrdə innovativ həllər təklif edir. Bu məqalədə süni intellektin mühaziraçi fəaliyyətinin qiymətləndirilməsində tətbiqinin potensialı, üstünlükləri və qarşılaşdığı etik və praktiki çağırışlar akademik kontekstdə təhlil edilir.

Süni intellektin qiymətləndirmə sistemlərində tətbiqi, xüsusilə ali təhsildə, tədris keyfiyyətinin və akademik performansın dəyərləndirilməsində yeni imkanlar yaradır. Ənənəvi qiymətləndirmə metodları çox vaxt subyektivliyə, məhdud məlumat dəstlərinə və insan səhvlərinə həssasdır. Süni intellekt isə böyük həcmdə məlumatları sürətlə təhlil etmək, mürəkkəb nümunələri aşkar etmək və daha dəqiq, məlumatlara əsaslanan qiymətləndirmələr təqdim etmək qabiliyyətinə malikdir (Owoc, M. L., Sawicka, A., & Weichbroth, P., 2021a). Məsələn, maşın öyrənməsi

alqoritmləri mühaziraçilərin tədris metodlarını, tələbələrlə qarşılıqlı əlaqələrini və akademik nəticələrini qiymətləndirmək üçün çoxsaylı parametrləri təhlil edə bilər. Təbii dil emalı isə tələbə rəylərini və ya mühazirə materiallarını emal edərək keyfiyyət göstəricilərini müəyyənləşdirə bilər.

Bu məqalədə süni intellektə əsaslanan qərar qəbuletmə modellərinin təhsil müəssisələrinin idarəçiliyinə təsiri, onların potensial üstünlükləri və tətbiqində qarşıya çıxan etik, sosial və texnoloji çağırışlar təhlil ediləcək. Məqsəd, AI-nin təhsil sektorunda strateji qərar qəbuletmə proseslərinə inteqrasiyasının imkanlarını və məhdudiyyətlərini göstərərək, müəssisələrin inkişafına necə töhfə verə biləcəyini araşdırmaqdır.

1. Süni intellektə əsaslanan qərar qəbuletmə modelləri

Müasir dövrdə texnologiya, xüsusilə süni intellekt (SI), qərar qəbuletmə proseslərinin formalaşmasında getdikcə daha mühüm rol oynayır. Sayed Əhmədin qeyd etdiyi kimi, texnologiya insanlara təşkilati və innovativ qərarların qəbulunda məlumat və biliklərdən daha effektiv şəkildə istifadə etməyə imkan verir (Sayed Əhməd, 2019). Bununla belə süni intellektin geniş tətbiqi nəticəsində insanlar məlumatların idarə olunması və təhlilində aktiv subyektdən passiv istifadəçiyə çevrilmək təhlükəsi ilə üz-üzə qalırlar.

Süni intellekt sistemləri böyük həcmdə məlumatı insanlardan daha sürətli və səmərəli şəkildə emal edə bildiyinə görə, insanlar çox zaman bu texnologiyalara qərar qəbuletmədə etibar edirlər. Bu, qısa müddətli baxımdan səmərəlilik və vaxt qənaəti kimi üstünlüklər yaratsa da, uzunmüddətli perspektivdə insanın idrak potensialının zəifləməsinə səbəb ola bilər (Jarrahi MH,, 2018). İnsan beyni "bioloji prosessor" kimi fəaliyyət göstərsə də, süni intellektin sürətli adaptasiya və hesablama gücü bir çox hallarda onun qərarvermə funksiyalarını kölgədə qoyur.

Süni intellekt texnologiyalarının tətbiqi bir çox üstünlüklərə malik olsa da, bu proses insanların qərarvermə bacarıqlarının tədricən məhdudlaşması kimi mənfi nəticələr doğura bilər. Ghosh və digərləri vurğulayırlar ki, intuitiv təhlil, tənqidi düşüncə və yaradıcı problem həlli kimi insanın fundamental zehni qabiliyyətləri süni intellektin dominant rol aldığı mühitlərdə zəifləyir (Ghosh B, Daugherty PR, Wilson HJ, 2019). Bu vəziyyət "istifadə et, yoxsa itir" prinsipini xatırladır: insanın düşünmə və analiz qabiliyyəti aktiv şəkildə istifadə olunmadıqca zəifləyir və nəticədə itirilir. Statistik göstəricilər süni intellektin qərar qəbuletmə sahəsindəki nüfuzunun sürətlə artdığını təsdiqləyir. Sebastian R., və Sebastian K., qeyd edirlər ki, yalnız beş il ərzində strateji qərar qəbuletmə proseslərində süni intellektin tətbiqi 10%-dən 80%-ə qədər yüksəlmişdir (Sebastian R, Sebastian K, 2021). Walmart və Amazon kimi beynəlxalq korporasiyalar artıq işə qəbul, məhsul planlaşdırması və

strateji idarəetmə kimi qərarvermə mərhələlərində süni intellekt sistemlərindən aktiv şəkildə istifadə edirlər (Libert B, Beck M, Bonchek

M, 2017).

Təşkilatlar süni intellektin analitik potensialından istifadə edərək rəqabət üstünlüyü əldə etməyə və mürəkkəb qərarları avtomatlaşdırmağa çalışırlar. Bununla belə, Meissner və Keding bildirirlər ki, hər bir qərarın son təsdiqi mərhələsində hələ də insan faktoru həlledici əhəmiyyət daşıyır. Bu, süni intellektin qərar qəbuletmədə tam avtonom deyil, yardımçı rol oynamalı olduğunu göstərir.

Subramaniam tərəfindən təklif olunan "insan-maşın əməkdaşlıq modeli" gələcəkdə bu iki komponentin bir-birini tamamlayan hibrid strukturda fəaliyyət göstərəcəyini proqnozlaşdırır (Subramaniam M., 2022). Təhsil müəssisələrində süni intellektin qərar qəbuletmə proseslərinə təsiri xüsusilə nəzərəçarpandır. Universitetlərdə həm akademik, həm də inzibati fəaliyyətlərdə — tələbə qəbulu, qiymətləndirmə, dərs cədvəllərinin hazırlanması və təlim prosesinin fərdiləşdirilməsi kimi sahələrdə — süni intellekt sistemləri aktiv şəkildə istifadə olunur. Bu sistemlər məlumatları toplayır, təhlil edir və nəticədə qərarlar qəbul edir.

Bu mərhələdə bir sıra etik və funksional suallar meydana çıxır. Tran qeyd edir ki, süni intellekt hər zaman etik qərarlar qəbul etmir və bəzi hallarda qərəzli nəticələr yarada bilər (Tran TH., 2021). Digər tərəfdən, süni intellektin geniş tətbiqi insanların öz qərarvermə qabiliyyətlərinə təsir göstərir. Məsələn, abituriyentlərin qəbul prosesində məlumatların süni intellekt vasitəsilə təhlil olunması və nəticələrin insan nəzarəti olmadan təsdiqlənməsi, tənqidi düşünməni və məsuliyyəti zəiflədir. Bənzər şəkildə, tədris prosesində və akademik idarəetmədə qərarların avtomatlaşdırılması müəllim və inzibati heyətin kognitiv iştirak səviyyəsini aşağı salır.

Nəticə etibarilə, süni intellekt texnologiyaları təhsil müəssisələrində bir çox əməliyyatları avtomatlaşdırmaqla bərabər, insanın qərarvermə proseslərində iştirakını da minimuma endirir. Müəllim və inzibati heyət tədricən texnologiyadan asılı vəziyyətə düşür, ənənəvi funksiyalarını itirir və nəticədə qərarvermə proseslərində əsaslandırma qabiliyyətləri zəifləyir.

1. Ənənəvi və AI əsaslı qərar modellərinin müqayisəsi

Qərar qəbul etmə prosesinə bir çox amil təsir göstərir. Şika, qərar qəbuletmə prosesində psixoloji, intellektual və normativ amillərin əsas rol oynadığını qeyd etmişdir. Bu amillər öz növbəsində qərar qəbuletmənin üç əsas yanaşmasını – rasional/məntiqi, intuitiv və meylli – ortaya qoyur (Shika, K., 2021). Rasional yanaşma faktlara və əsaslandırmaya diqqət yetirir və qərarların addım-addım, sistemli şəkildə qəbul edilməsini təmin edir.

İntuitiv qərar modeli isə statistik təhlil və məntiqi prosesi arxa plana keçirərək, menecerlərin öz təcrübəsinə əsaslanaraq qərar qəbul etməsini nəzərdə tutur. Bu modeldə menecerlər oxşar təcrübələrdən gələn ipuçlarını dəyərləndirir, sürətli şüuraltı təhlil aparır və vəziyyətlər haqqında qərara gəlirlər (Trunk, A., Birkel. H., & Hartmann, E. , 2020). Intuitiv yanaşma tez-tez idarəetmə təcrübəsinə əsaslanaraq, ilkin qərarı formalaşdırmaq və daha sonra onu dəstəkləyəcək məlumatları toplamaq şəklində həyata keçirilir.

Buna əlavə olaraq, ənənəvi qərar qəbuletmə prosesində insanlar evristika və ya "əsas qaydalar" adlanan sadələşdirilmiş modellərdən istifadə edirlər ki, mürəkkəb problemləri daha əlçatan və idarəolunan formada həll edə bilsinlər. Evristika, insan mühakiməsini sürətləndirmək və məlumatı dərhal təhlil etmədən qərar verməyə imkan yaratmaq üçün zehni qısa yollar kimi təsvir edilir (Stephendale, 2018). Lakin insan mühakiməsi müəyyən məhdudiyyətlərə malikdir və sistematik olaraq qərəzli nəticələrə gətirib çıxara bilər. Bu məhdudiyyətlərdən biri iş yaddaşının məhdudluğu ilə bağlıdır; insan idrak sistemi eyni anda yalnız yeddi qədər dəyişəni emal edə, yadda saxlaya və müqayisə edə bilir, bu da mürəkkəb məlumatların düzgün təhlilinə və dərk edilməsinə mane olur.

Süni intellekt sistemləri genişlənmiş intellekt vasitəsilə böyük həcmli məlumatları emal edir və nəticədə menecerlərə qərar qəbuletmə prosesində istifadə etmək üçün qabaqcıl və elmi əsaslı modellər təqdim edir (SAS Institut,, 2021). Bu xüsusiyyət AI-nin düzgün tətbiq edildikdə qərar qəbuletməni transformasiya edən və biznes idarəçiliyinin strategiyasını yenidən qurmağa imkan verən güclü bir alətə çevrilməsinə səbəb olur. AI həmçinin nəticələrə əsaslanan qərar qəbuletmə qabiliyyətini reallaşdırır və funksional tətbiqlərə uyğunlaşdırılmış sistemlər vasitəsilə xüsusi qərar dəstək həlləri təqdim edir.

Kommunikasiyaya əsaslanan sistemlər qərar qəbul edənlər arasında etibarlı əlaqə və əməkdaşlığı təmin edən elektron rabitə və hibrid şəbəkə texnologiyalarına əsaslanır. Bu sistemlər mərkəzi qərar qəbuledici qurumları əlaqələndirir və qərar qəbuletmə prosesində iştirak edən bütün tərəflər arasında koordinasiyanı gücləndirir.

2. Təhsildə qərar qəbuletmə və AI texnologiyalarının rolu

Məlumat analitikası (data analytics) və proqnozlaşdırıcı modelləşdirmə (predictive modeling) kimi AI texnologiyaları təhsil müəssisələrində qərar qəbuletmə proseslərinə yeni keyfiyyət gətirir. Müəllimlər və idarəçilər üçün bu texnologiyalar tələbə nailiyyətləri, resurs bölgüsü və tədris strategiyalarına dair daha obyektiv və məlumat yönümlü qərarlar qəbul etməyə imkan yaradır. AI əsaslı qərar qəbuletmə sistemləri

müxtəlif səviyyələrdə effektivlik nümayiş etdirir:

- Resurs bölgüsü: AI modelləri tədris yüklərinin balanslaşdırılması, maliyyə və texniki resursların optimal paylanması üçün tətbiq edilir.
- Fərdiləşdirilmiş öyrənmə: Analitik sistemlər tələbələrin fərdi öyrənmə sürətini və tərzini müəyyənləşdirərək adaptiv təlim yolları təklif edir
- Strateji planlaşdırma: Universitet rəhbərliyi üçün AI sistemləri təhsil siyasətlərinin, proqramların və kadr potensialının uzunmüddətli planlaşdırılmasında məlumat əsaslı qərarlar qəbul etməyə şərait yaradır

AI sistemləri idarəetmədə resurs bölgüsünün optimallaşdırılması, tədris fəaliyyətlərinin planlaşdırılması və tələbə göstəricilərinin təhlili kimi sahələrdə mühüm rol oynayır. Bu texnologiyalar vasitəsilə resursların səmərəli istifadəsi təmin olunur, təhsil keyfiyyətinin yüksəldilməsi istiqamətində qərarlar daha əsaslı şəkildə formalaşır. Lakin bu prosesdə insan mühakiməsinin zəifləməsi, qərarların tam avtomatlaşdırılması və texnologiyadan həddindən artıq asılılıq kimi risklər də mövcuddur.

Süni intellekt əsaslı fərdiləşdirilmiş tədris platformaları tələbələrin öyrənmə tempini, maraq dairəsini və fərdi ehtiyaclarını nəzərə alaraq öyrənmə prosesini optimallaşdırır. Adaptiv texnologiyalar və interaktiv tədris məzmunu tələbə iştirakını və motivasiyasını artırmaqla yanaşı, onların bilikləri daha dərindən mənimsəməsinə şərait yaradır.

Bununla belə, süni intellektin tədris prosesində geniş istifadəsi müəyyən risklər də yaradır. Xüsusilə, texnologiyadan asılılığın artması tələbələrin özünütənzimləmə bacarıqlarını zəiflədə, daxili motivasiyanı azalda və passiv öyrənmə davranışlarının formalaşmasına gətirib çıxara bilər. Buna görə də, AI texnologiyalarının pedaqoji prinsiplərlə uyğun şəkildə tətbiqi tələb olunur ki, texnologiya insanın öyrənmə prosesini tamamlasın, lakin onu əvəz etməsin.

Təhsil müəssisələrində təhlükəsizliyin təmin edilməsində süni intellektin rolu getdikcə artmaqdadır. Proqnozlaşdırıcı analitika, monitorinq sistemləri və fövqəladə hallar üzrə reaksiya mexanizmləri vasitəsilə məktəblərdə və universitet kampuslarında potensial risklər əvvəlcədən müəyyən edilə bilir. Bu sistemlər real vaxt rejimində məlumatları təhlil etməklə təhlükəsizlik səviyyəsini yüksəldir və hadisələrə operativ müdaxiləyə şərait yaradır.Lakin təhlükəsizlik məqsədi ilə məlumatların toplanması və emalı zamanı məxfilik prinsiplərinin pozulması, fərdi məlumatların sui-istifadə riski və şəffaflıq problemləri meydana çıxır. Buna görə də təhsil müəssisələrində süni intellekt əsaslı təhlükəsizlik sistemləri tətbiq edilərkən etik çərçivələrin və hüquqi tənzimləmələrin qorunması zəruridir.

Təhsildə süni intellektin inteqrasiyası bir sıra konseptual və əməli problemlərlə müşayiət olunur. Əsas çağırışlar aşağıdakılardır:

Cədvəl 1. Təhsildə süni intellektin inteqrasiyası

Azaldılmış insan mühakiməsi	Qərar qəbuletmə proseslərinin avtomatlaşdırılması nəticəsində müəllim və idarəçilərin analitik və tənqidi düşünmə bacarıqları zəifləyə bilər.
Texnoloji asılılıq	AI alətlərindən geniş istifadə nəticəsində tələbələrin daxili motivasiyası və öyrənmə müstəqilliyi azala bilər.
Məxfilik və bərabərlik problemləri	Süni intellektin qeyri-obyektiv qərarları və resurslara qeyri-bərabər çıxış imkanı təhsildə ədalətsizliklər yarada bilər.
İcra çətinlikləri	İnfrastrukturun, texniki dəstəyin və müəllim hazırlığının yetərsizliyi süni intellekt sistemlərinin səmərəli tətbiqinə mane ola bilər.
Pedaqoji balansın pozulması	AI əsaslı təlim metodlarının ənənəvi pedaqoji prinsiplərlə uzlaşdırılmaması tədrisin keyfiyyətinə mənfi təsir göstərə bilər.

Təhsil müəssisələrinin inkişafında süni intellektin tətbiqi: Süni intellekt fərdi tələbələrin ehtiyaclarını qarşılamaq üçün təhsil məzmununu optimallaşdırmaqla fərdiləşdirilmiş öyrənmə təcrübələrinə imkan yaradır. Alqoritmlər tələbənin güclü və zəif tərəflərini, eləcə də öyrənmə tərzini analiz edərək dərs materiallarını və resursları uyğunlaşdıra bilər. Bu yanaşma müxtəlif öyrənmə templərini və fərdi üstünlükləri nəzərə alaraq ümumi öyrənmə nəticələrinin yaxşılaşdırılmasına xidmət edir (Hennekeuser, D., Vaziri, D. D., Golchinfar, D., Schreiber, D., & Stevens, G. , 2024). Süni intellektlə idarə olunan repetitorluq sistemləri tələbələrə dərhal əks əlaqə və dəstək təqdim edir. Bu sistemlər fərdi repetitorluğu simulyasiya edərək izahatlar, praktik tapşırıqlar və tələbənin anlama səviyyəsinə uyğun təlimatlar təklif edə bilər. Bu xüsusiyyətlər tələbələrin dərs saatlarından kənarda əlavə dəstəyə ehtiyac duyduğu fənlərdə xüsusilə əhəmiyyətlidir (Coy, A., Mohammed, P. S., & Skerrit, P., 2024). Süni intellekt qiymətləndirmə, planlaşdırma və qeydiyyat kimi inzibati proseslərin optimallaşdırılmasına imkan verir.

Avtomatlaşdırılmış qiymətləndirmə sistemləri çoxseçimli testləri və bəzi esse qiymətləndirmələrini idarə edə bilir, bu isə pedaqoqlara tədris və tələbələrlə qarşılıqlı əlaqəyə daha çox diqqət ayırmaq üçün əlavə vaxt yaradır.

AI əsaslı alətlər həmçinin məktəb əməliyyatları və logistikanın idarə edilməsini də asanlaşdırır (Seo, K., Tang, J., Roll, I., Fels, S., & Yoon, D. , 2021). Süni intellekt geniş miqyaslı təhsil məlumatlarını təhlil edərək tələbə performansı, tədrisin effektivliyi və kurrikulumun keyfiyyəti barədə qiymətli anlayışlar təqdim edir. Bu məlumatlar müəllimlərə və idarəçilərə məlumatlı qərarlar qəbul etmək, tendensiyaları müəyyənləşdirmək və öyrənmə mühitini təkmilləşdirmək üçün strateji yanaşmalar tətbiq etməyə imkan verir (Neha, K., & Sidiq, S. J., 2020).

AI interaktiv və cəlbedici təhsil məzmunu yaratmaq üçün simulyasiyalar, virtual reallıq təcrübələri və oyunlaşdırılmış öyrənmə fəaliyyətlərindən istifadə edə bilər. Bu yanaşma öyrənməni daha immersiv və maraqlı edir, tələbə motivasiyasını və dərsə cəlbetməni artırır (Paper Blog,, 2024).

Süni intellekt texnologiyaları əlilliyi olan tələbələr üçün təhsilin əlçatanlığını artırır. Nitqdən mətnə, mətndən nitqə çevirmə və dil tərcüməsi alətləri müxtəlif öyrənmə ehtiyaclarını qarşılamağa kömək edir və təhsil materiallarının bütün tələbələr üçün əlçatan olmasını təmin edir (Coy, A., Mohammed, P. S., & Skerrit, P., 2024). Süni intellekt müəllimlərə peşəkar inkişaf resursları, dərs vəsaitləri və planları təqdim edir. AI ilə idarə olunan platformalar sinifdə qarşılıqlı əlaqəni analiz edə və müəllimlərə tədris metodlarını və sinif idarəçiliyini təkmilləşdirmək üçün məlumatlı rəy təqdim edə bilər (Krstić, L., Aleksić, V., & Krstić, M. , 2022).

Təhsildə süni intellektdən istifadə mühüm etik və məxfilik məsələlərini gündəmə gətirir. Tələbə məlumatlarının təhlükəsizliyi, məxfiliyin qorunması və AI alqoritmlərindəki qərəzlərin aradan qaldırılması vacib narahatlıqlardır. Həmçinin, tədris və öyrənmənin insan aspektlərinə təsir göstərə biləcək texnologiyaya həddən artıq etibar riski mövcuddur. Süni intellekt kifayət qədər xidmət göstərilməyən ərazilərə resursların çatdırılması ilə təhsili demokratikləşdirmə potensialına malik olsa da, onun mövcud bərabərsizlikləri daha da gücləndirmə riski var. AI alətlərinə giriş qeyri-bərabər olduqda, yaxşı resurslarla təmin olunmuş və az resurslu təhsil müəssisələri arasında fərq daha da artmış ola bilər. Təhsildə süni intellekt gələcək iş bazarına uyğun bacarıqların formalaşdırılmasının vacibliyini vurğulayır. Tələbələr texnologiyaya əsaslanan dünyada uğur qazanmaq üçün AI, məlumatların təhlili və rəqəmsal savadlılıq sahələrində səriştələr əldə etməlidirlər.

4. Təhsildə qərar qəbuletmə proseslərinin rəqəmsallaşdırılması üzrə təkliflər

Bu mülahizələri yekunlaşdırmaq məqsədilə qeyd etmək vacibdir ki, təhsil prosesinin kontekstində rəqəmsallaşmanın geniş tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Belə rəqəmsallaşma, şagirdlərin müəyyən təhsil müəssisəsində təhsil almağa marağını artırmaqla yanaşı, onların təhsil uğurlarının yüksəlməsinə də şərait yaradır. Müasir dövrdə məktəblərin qarşısında duran əsas vəzifələrdən biri şagirdləri informasiya cəmiyyətində həyata hazırlamaqdır. Bu məqsədlə bütün şagirdlər informasiya və kommunikasiya texnologiyalarını (İKT), xüsusən də məlumatın axtarışı, emalı, təhlili və yaradıcı istifadəsi sahəsində səriştəyə malik olmalıdırlar.

Bu vəzifənin həyata keçirilməsi üçün məktəb rəhbərləri müasir İKT-nin tətbiqini təşviq etməli, məktəbləri müasir kompüter avadanlığı ilə təchiz etməli, yüksək sürətli internetə çıxışı təmin etməli və yüksək keyfiyyətli rəqəmsal təhsil resurslarına əlçatanlığı təmin etməlidirlər. Eyni zamanda, şagirdlərin və müəllimlərin rəqəmsal səriştələrini artırmaq üçün tədris modeli yaradıcılıq, əməkdaşlıq və tənqidi təfəkkür bacarıqlarının inkişafını dəstəkləməli, mövcud bilik mənbələrinin axtarışı, qiymətləndirilməsi və yaradıcı istifadəsi üzrə yeni yanaşmaları tətbiq etməlidir.

Dərslərin keçirilməsi üçün müxtəlif rəqəmsal alətlər, elektron tədris platformaları və rəqəmsal təhsil resursları təhsil prosesinə geniş imkanlar gətirir (Şəlalə, Q., 2025). Bununla belə, bu yanaşmalar

müəyyən məhdudiyyətləri də özündə ehtiva edir. Belə ki, müəssisələrin texnoloji təchizatı, şagirdlərin və müəllimlərin evdə avadanlıq və internetə çıxışı, rəqəmsal səriştələrinin səviyyəsi, rəqəmsal tədris materiallarının mövcudluğu və onlayn tədris metodikasının tətbiqi təhsilin keyfiyyətinə birbaşa təsir göstərir və müəyyən hallarda problemlər yarada bilər. Qeyd olunan məsələlər, təhsil sahəsində aparılan tədqiqatların nəzəri bazasının, ədəbiyyat və hüquqi tənzimləmələrin öyrənilməsi baxımından təqdim olunan yanaşmanın yalnız bir hissəsini təşkil edir. Rəqəmsallaşmanın təhsil prosesində əhəmiyyəti ilə bağlı mövcud mülahizələr və tədqiqatlar gələcək araşdırmalar üçün zəngin imkanlar və geniş müzakirə platforması təqdim edir.

Cədvəl 2. Təhsil sahəsində rəqəmsallaşma təklifləri

İnfrastruktur və texnologiyanın təkmilləşdirilməsi	Təhsil müəssisələrində virtual laboratoriyalar, onlayn tədris platformaları və rəqəmsal kitabxanaların yaradılması, uzaq və hibrid təhsil modellərinin dəstəklənməsi üçün etibarlı server və texnoloji infrastrukturun qurulması.
Rəqəmsal səriştələrin inkişafı	Təhsil prosesində tənqidi düşünmə, əməkdaşlıq və yaradıcılığın inkişafına yönəlmiş rəqəmsal layihələrin təşviqi.
Süni intellekt və qərar dəstəyi sistemlərinin tətbiqi	Məktəb və təhsil idarəçiliyi üçün AI əsaslı qərar dəstək sistemlərinin hazırlanması və tətbiqi., Təhsil prosesində şagird performansının proqnozlaşdırılması, dərs planlarının optimallaşdırılması və fərdiləşdirilmiş tədris strategiyalarının yaradılması, müəllimlər üçün dərs və qiymətləndirmə prosesində süni intellekt alətlərinin dəstəklənməsi.
Təhsil resurslarının rəqəmsallaşdırılması	Müasir dərslik və tədris materiallarının rəqəmsal formatda hazırlanması və geniş şagird auditoriyasına çatdırılması, Onlayn interaktiv resurslar, simulyasiyalar və video tədris materiallarının istifadəsinin təşviqi, açıq təhsil resursları (OER) və milli rəqəmsal platformaların inkişaf etdirilməsi.
Təhsil siyasətinin və normativ çərçivənin gücləndirilməsi	Rəqəmsal təhsilin inkişafı üçün dövlət proqramlarının və strategiyalarının formalaşdırılması,Təhsil müəssisələrində rəqəmsal etikaya, məlumat təhlükəsizliyinə və şəxsi məlumatların qorunmasına dair qaydaların tətbiqi.
Tədqiqat və innovasiya təşviqi	Süni intellekt və rəqəmsal texnologiyaların təhsil sahəsində tətbiqinə yönəlmiş elmi tədqiqatların maliyyələşdirilməsi, Azərbaycan təhsil sistemi üçün beynəlxalq təcrübələrin öyrənilməsi və milli kontekstə uyğun adaptasiya edilməsi., təhsil müəssisələri və texnologiya şirkətləri arasında əməkdaşlıq platformalarının yaradılması.

Nəticə

Süni intellekt (AI) təhsil sektoruna əhəmiyyətli təsir göstərə biləcək strateji texnologiyalardan biridir. AI təhsildə faydalı alət kimi çıxış etməklə yanaşı, akademik və inzibati fəaliyyətlərin avtomatlaşdırılması, tədris proseslərinin fərdiləşdirilməsi və idarəetmənin səmərəliliyinin artırılması kimi bir sıra üstünlüklər yaradır. Süni intellekt sistemləri müəllimlərə qiymətləndirmə, tədris planlarının tənzimlənməsi və tələbə nailiyyətlərinin izlənməsi kimi məsələlərdə dəstək olmaqla, onların iş yükünü azaldır və pedaqoji qərarların daha obyektiv əsaslarla qəbul edilməsinə imkan verir. Bununla yanaşı, tələbələr üçün fərdiləşdirilmiş öyrənmə mühitləri və adaptiv tədris resursları təqdim etməklə tədris prosesinin keyfiyyətini yüksəldə bilər.

Lakin süni intellektin təhsildə geniş tətbiqi bir sıra risk və problemləri də gündəmə gətirir. Ən başlıca narahatlıqlardan biri insan qərarvermə proseslərinin zəifləməsi və tədrisdə insan amilinin dəyərinin azalması ilə bağlıdır. Süni intellektə həddindən artıq etibar, müəllim və tələbələrdə intellektual passivliyin artmasına, yaradıcı və tənqidi düşünmə qabiliyyətlərinin zəifləməsinə səbəb ola bilər. Eyni zamanda, məlumatların toplanması və emalı ilə əlaqədar etik və hüquqi məsələlər – xüsusilə də fərdi məlumatların qorunması, məxfilik və kibertəhlükəsizlik problemləri – xüsusi diqqət tələb edir.

Tədqiqatlar göstərir ki, AI texnologiyalarının təhsildə tətbiqi insan faktorunun rolunun azalmasına gətirib çıxara bilər və bu tendensiya həm pedaqoqların, həm də tələbələrin öyrənmə motivasiyasına, qərarvermə bacarıqlarına və sosial qarşılıqlı təsir mühitinə mənfi təsir göstərə bilər. Buna görə də süni intellektin təhsil sisteminə inteqrasiyası tədricən və balanslı şəkildə həyata keçirilməlidir. Əsas məqsəd AI-nin insan fəaliyyətini tam əvəz etməsi deyil, əksinə, onunla qarşılıqlı şəkildə əməkdaşlıq edərək təhsilin keyfiyyətini yüksəltmək olmalıdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı. (2025). Azərbaycan Respublikasının 2025–2028- ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında.
2. Krstić, L., Aleksić, V., & Krstić, M. . (2022). Artificial Intelligence in Education: A Review.
3. Proceedings TIE 2022, 223–228.
4. Owoc, M. L., Sawicka, A., & Weichbroth, P. (2021a). Artificial Intelligence Technologies in Education: Benefits,Challenges and Strategies of Implementation. In M. L. Owoc & M. Pondel (Eds.), Artificial Intelligence for KnowledgeManagement (Vol. 599, pp. 37–58). .
5. Paper Blog,. (2024). Driving impact: Paper's approach to AI in education. (n.d.).
6. SAS Institut,. (2021). Artificial Intelligence, what it is and why it matters. Retrieved from:Artificial Intelligence, what it is and why it matters. .
7. Tran TH. (2021). Scientists built an AI to give ethical advice, but it turned out super racist. Retrievedfrom Futurism:https://futurism.com/delphi-ai-ethics-

racist.
8. Xiao, S., Shanthini, A., & Thilak, D. (2022). Instructor Performance Prediction Model Using Artificial Intelligence for Higher Education Systems. Journal of Interconnection Networks, 22(Supp03), 2144003. https://doi.org/10.1142/S0219265921440035.
9. Cowling, M., Crawford, J. (2022). The EdTech difference: Digitalisation, digital pedagogy, and technology enhanced,earning. Journal of University Teaching and Learning Practice,Central Queensland University, 19(2), 1–13. https://doi.org/10.53761/1.19.2.1.
10.Coy, A., Mohammed, P. S., & Skerrit, P. (2024). Inclusive Deaf Education Enabled by Artificial Intelligence: The Path to a Solution. International Journal of Artificial Intelligence in Education 2024, 1–39. .
11.Coy, A., Mohammed, P. S., & Skerrit, P. (2024). Inclusive Deaf Education Enabled by Artificial Intelligence: The Path to a Solution. International Journal of Artificial Intelligence in Education 2024, 1–39. .
12.Ghosh B, Daugherty PR, Wilson HJ,. (2019). Taking a systems approach to adopting AI. Harv Bus Rev. https://hbr.org/2019/05/taking-a-systems-approach-toadopting-ai.
13.Hennekeuser, D., Vaziri, D. D., Golchinfar, D., Schreiber, D., & Stevens, G. . (2024). Enlarged Education – Exploring the Use of Generative AI to Support Lecturing in Higher Education. International Journal of Artificial Intelligence inEducation, 1–33.
14.Jarrahi MH,. (2018). Artificial intelligence and the future of work: human–AI symbiosis in organizational decision making. Bus Horiz 61(4):1–15.
15.Libert B, Beck M, Bonchek M,. (2017). AI in the boardroom: the next realm of corporate governance. MIT Sloan ManagRev. 5. https://sloanreview.mit.edu/ article/ai-in-the-boardroom-the-next- realm-of-corporate-governance/.
16.Neha, K., & Sidiq, S. J. (2020). Analysis of Student Academic Performance through Expert systems. International Research Journal on Advanced Science Hub, 2(Special Issue ICIES 9S), 48–54..
17.Sayed Əhməd. (2019). Knowledge management as a source of innovation in public sector. Indian J Nat Sci 9(52).
18.Sebastian R, Sebastian K,. (2021). Artificial intelligence and management: the automation–augmentation paradox. Acad Manag Rev 46(1):192–210.
19.Şəlalə, Q. (2025). Təhsildə rəqəmsal texnologiyaların rolu, UNEC,.
20.Seo, K., Tang, J., Roll, I., Fels, S., & Yoon, D. . (2021). The impact of artificial intelligence on learner–instructor interaction in online learning. International Journal of Educational Technology in Higher Education, 18(1), 1–23. .
21. Shika, K. (2021). Decision-Making: Definitions, Types, Techniques, Methods, Process and Steps. Retrieved from:https://www.businessmanagementideas.com/management/decision- makingmanagement/decision-makingdefinitions-types-techniques-methods-process-and- steps/18249 .
22.Stephendale. (2018). Heuristics and biases The science of decision making. Business Information Review, 32(2).
23.Subramaniam M. (2022). How smart products create connected customers. MIT Sloan Manag Rev.https://sloanreview.mit.edu/.
24.Trunk, A., Birkel. H., & Hartmann, E. . (2020). On the current state of combining human and artificial intelligence forstrategic organisational decision making. Business Research, 13, 875-919.

DOİ: 10.32010/GCPD6040

İNFORMATIKA FƏNNININ FƏNLƏRARASI İNTEQRASIYASININ METODİK ƏSASLARI VƏ TƏTBİQİ

Şahsənəm Rəşid ƏLİYEVA
Mingəçevir Dövlət Universiteti
Orsid: https://orcid.org/0000-0001-7639-8826
E-mail: shahsanam.aliyeva@mdu.edu.az

Günay Cəmil ƏLİYEVA
Mingəçevir Dövlət Universiteti
Orcid: https://orcid.org/0000-0002-5014-6337
E-mail: gunay.aliyeva@mdu.edu.az-

Xülasə: Təqdim olunan məqalə informatika fənninin digər tədris intizamları ilə fənlərarası inteqrasiyasının metodik əsaslarını və tətbiqi imkanlarını sistemli şəkildə araşdırır. Tədqiqatın məqsədi informatikanın yalnız ayrıca bir fənn kimi deyil, həm də tədris prosesinin bütün mərhələlərinə nüfuz edən çoxşaxəli vasitə kimi rolunu üzə çıxarmaqdır. Bu kontekstdə transdissiplinar yanaşma xüsusilə diqqət mərkəzinə gətirilir, çünki müasir təhsil mühitində şagirdlərin həm texniki biliklərə, həm də yaradıcı, tənqidi və analitik bacarıqlara yiyələnməsi vacib hesab olunur. Məqalədə STEAM təhsil modeli və "Rəqəmsal Bacarıqlar" layihələrinin fənlərarası inteqrasiyada mühüm təsirə malik olduğu göstərilir. İnformatikanın təbiət elmləri (riyaziyyat, fizika, biologiya) və humanitar sahələrlə (dil, ədəbiyyat, tarix) qarşılıqlı əlaqəsi şagirdlərdə alqoritmik təfəkkürün inkişafını, kognitiv çevikliyin formalaşmasını və kompleks problemlərin çoxölçülü yanaşma ilə həllini təmin edir. Bu, həmçinin şagirdlərin gələcək peşə seçimində və əmək bazarına inteqrasiyasında rəqabətqabiliyyətli bacarıqların formalaşmasına zəmin yaradır. Araşdırmada fənlərarası inteqrasiyanın tətbiqində mövcud pedaqoji və institusional maneələr – müəllimlərin metodik hazırlığı, kurikulumun çevikliyi, qiymətləndirmə meyarlarının məhdudluğu – ətraflı şəkildə təhlil edilmişdir. Bu maneələrin aradan qaldırılması üçün yeni metodik tövsiyələr, o cümlədən inteqrasiya olunmuş dərs planlarının hazırlanması, müəllimlərin rəqəmsal pedaqoji bacarıqlarının artırılması və nəticələrin qiymətləndirilməsi üçün daha adekvat ölçmə mexanizmlərinin tətbiqi təklif olunur.Nəticə etibarilə, məqalə ümumtəhsil məktəblərinin kurikulumunda informatikanın digər fənlərlə inteqrasiyasının təhsil keyfiyyətini yüksəldən, şagirdlərin idrak fəaliyyətini stimullaşdıran və XXI əsr bacarıqlarını formalaşdıran strateji vasitə olduğunu əsaslandırır. Bu istiqamətdə təqdim edilən elmi-praktik tövsiyələr təhsil sistemində innovativ yanaşmaların geniş tətbiqinə zəmin yaradır.

Açar sözlər: İnformatika, Fənlərarası İnteqrasiya, STEAM, Alqoritmik Təfəkkür, Transdissiplinar Yanaşma, Kognitiv Çeviklik, Metodik İnterpretasiya.

МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ И ПРИМЕНЕНИЕ МЕЖДИСЦИПЛИНАРНОЙ ИНТЕГРАЦИИ КОМПЬЮТЕРНЫХ НАУК

Шахсанам Рашид АЛИЕВА
Мингячевирский государственный университет
ORCID: https://orcid.org/0000-0001-7639-8826
Электронная почта: shahsanam.aliyeva@mdu.edu.az

Гюнай Джамиль АЛИЕВА
Мингячевирский государственный университет
ORCID: https://orcid.org/0000-0002-5014-6337
Электронная почта: gunay.aliyeva@mdu.edu.az

Резюме: Представленная статья системно исследует методические основы и практические возможности междисциплинарной интеграции информатики с другими учебными дисциплинами. Цель исследования заключается в том, чтобы показать информатику не только как самостоятельный предмет, но и как многоплановое средство, пронизывающее все этапы учебного процесса. В этом контексте особое внимание уделяется трансдисциплинарному подходу, так как в современной образовательной среде важно формирование у учащихся не только технических знаний, но и творческих, критических и аналитических навыков. В статье подчеркивается значительное влияние модели образования STEAM и проектов «Цифровые навыки» на развитие междисциплинарной интеграции. Взаимосвязь информатики с естественными науками (математика, физика,

биология) и гуманитарными дисциплинами (язык, литература, история) способствует развитию алгоритмического мышления, формированию когнитивной гибкости и решению комплексных задач с многомерным подходом. Это, в свою очередь, создает условия для формирования конкурентоспособных навыков, необходимых учащимся при выборе будущей профессии и интеграции в рынок труда. В исследовании подробно анализируются существующие педагогические и институциональные барьеры в применении междисциплинарной интеграции – методическая подготовка учителей, гибкость учебных программ, ограниченность критериев оценки. Для преодоления этих барьеров предлагаются новые методические рекомендации, включая разработку интегрированных учебных планов, повышение цифровых педагогических компетенций учителей и внедрение более адекватных механизмов оценки результатов. В итоге обосновывается, что интеграция информатики с другими дисциплинами в учебных программах общеобразовательных школ является стратегическим средством повышения качества образования, стимулирования познавательной активности учащихся и формирования навыков XXI века. Представленные научно-практические рекомендации создают основу для широкого внедрения инновационных подходов в систему образования.
Ключевые слова: информатика, междисциплинарная интеграция, STEAM, алгоритмическое мышление, трансдисциплинарный подход, когнитивная гибкость, методологическая интерпретация.

METHODOLOGICAL BASIS AND APPLICATION OF INTERDISCIPLINARY INTEGRATION OF COMPUTER SCIENCE

Shahsanam Rashid ALIYEVA
Mingachevir State University
ORCID: https://orcid.org/0000-0001-7639-8826
E-mail: shahsanam.aliyeva@mdu.edu.az

Gunay Jamil ALIYEVA
Mingachevir State University
ORCID: https://orcid.org/0000-0002-5014-6337
E-mail: gunay.aliyeva@mdu.edu.az

Abstract: This article is devoted to a systematic study of the methodological foundations and practical opportunities for the interdisciplinary integration of computer science with other school subjects. The purpose of the research is to reveal the role of computer science not only as an independent discipline, but also as a multifunctional tool permeating all stages of the educational process. Special emphasis is placed on the transdisciplinary approach, since in the context of modern education it is essential to equip students not only with technical knowledge but also with creative, critical, and analytical competencies. It is demonstrated that the STEAM education model and the "Digital Skills" projects play a significant role in fostering interdisciplinary integration. The interaction of computer science with natural sciences (mathematics, physics, biology) and the humanities (language, literature, history) contributes to the development of algorithmic thinking, cognitive flexibility, and the ability to solve complex problems through multidimensional approaches. These processes ensure the formation of competitive competencies that are vital for students in both professional self-determination and successful integration into the labor market. The study provides a detailed analysis of the existing pedagogical and institutional barriers to the implementation of interdisciplinary integration, including insufficient methodological training of teachers, limited flexibility of curricula, and inadequacy of current assessment criteria. As possible solutions, the development of integrated lesson plans, the enhancement of teachers' digital pedagogical competencies, and the introduction of more effective mechanisms for evaluating learning outcomes are proposed. Thus, it is substantiated that the integration of computer science with other disciplines in general education serves as a strategic factor in improving the quality of education, stimulating students' cognitive activity, and fostering essential 21st-century skills. The scientific and practical recommendations presented provide a foundation for the broad application of innovative approaches within the educational system.
Keywords: Informatics, Interdisciplinary Integration, STEAM, Algorithmic Thinking, Transdisciplinary Approach, Cognitive Flexibility, Methodological Interpretation.

Giriş

Qloballaşan rəqəmsal iqtisadiyyat və İnformasiya Cəmiyyətinin (İC) sürətlə inkişafı təhsil sistemindən paradiqmal dəyişiklik tələb edir. Ənənəvi tədris modeli biliklərin fragmentasiyası (parçalanması) və fənn kurikulumlarının izolyasiyası problemi ilə üzləşir ki, bu da sagirdlərin real həyatda rastlaşdıqları mürəkkəb, transdissiplinar problemləri həll etmək üçün tələb olunan kompleks sərişтələrin formalaşmasına mane olur. Məhz bu kontekstdə, İnformatika fənni özünün alqoritmik təfəkkürün universal metodologiyası kimi rolu ilə bu boşluğu

aradan qaldırmaq üçün fundamental zərurət kimi çıxış edir. İnformatikanın digər tədris intizamları ilə fənlərarası inteqrasiyası təkcə İKT alətlərinin texniki tətbiqini deyil, həm də informatikanın təmin etdiyi sistemli analiz, məntiqi strukturlaşdırma və məlumatların vizualizasiyası prinsiplərinin bütün bilik sahələrinə kognitiv transferini təmin edir. Azərbaycan Respublikasında həyata keçirilən kurikulum islahatları, xüsusilə+ də STEAM layihəsinin genişləndirilməsi fonunda informatikanın inteqrasiya potensialının tam reallaşdırılması üçün pedaqoji-metodik əsasların, konseptual modelin və praktik səmərəliliyin elmi-analitik cəhətdən dərindən işlənməsi tədqiqatın əsas aktuallığını təşkil edir.

Tədqiqatın əsas məqsədi ümumtəhsil məktəblərində informatika fənninin tədrisində fənlərarası inteqrasiyanın metodik əsaslarını, konseptual modelini və STEAM çərçivəsindəki praktik tətbiqini pedaqoji-metodik cəhətdən interpretasiya etmək və sistemləşdirməkdir. Bu məqsədə nail olmaq üçün inteqrasiyanın pedaqoji-metodik mahiyyətini təhlil etmək, inteqrasiya sahələrini təsnifləndirmək, kadr hazırlığı və resurs təminatı ilə bağlı institusional çətinlikləri müəyyən etmək, habelə inteqrasiya nəticələrinin adekvat qiymətləndirilməsi üçün tövsiyələr irəli sürmək kimi elmi vəzifələr müəyyən edilmişdir.Fənlərarası inteqrasiyanın pedaqoji-metodik əsasları biliklərin kognitiv sintezini və fəaliyyət üsullarının funksional tətbiqini təmin edən aparıcı prinsipləri əhatə edir. İnformatikanın buradakı rolu onun təmin etdiyi sistemli düşüncə və informasiya modelləşdirilməsi kimi fundamental anlayışların universal funksionallığa malik olması ilə müəyyən edilir. Nəzəriyyədə inteqrasiyanın əsasən üç növü fərqləndirilir: Multidissiplinar (yanaşı öyrədilmə), İnterdissiplinar (ortaq mövzu ətrafında birləşmə) və Transdissiplinar (fənn sərhədlərini aşan, real həyat problemlərinə yönələn) yanaşma. İnformatika inteqrasiyası məhz sonuncu, yəni transdissiplinar yanaşmanın inkişafında kritik əhəmiyyət kəsb edir, çünki proqramlaşdırma metodları həyatda qarşılaşılan hər hansı bir problemi (riyazi, iqtisadi, ekoloji) strukturlaşdırılmış məntiqi ardıcıllıqla həll etməyə imkan verir. STEAM təhsil fəlsəfəsi informatikanı (Texnologiya/Kodlaşdırma) mühəndislik və dizayn prosesləri ilə birləşdirərək fənlərarası səriştələrin inkişafını hədəfləyir. Robototexnika və kodlaşdırma platformalarında fiziki qanunların tətbiqi ilə real prototiplərin hazırlanması prosesi (Mühəndislik) bu cür inteqrasiyanın pedaqoji-metodik interpretasiyasıdır.

Nəzəriyyə

Müasir pedaqoji araşdırmalar və tədris təcrübələri göstərir ki, informatika fənninin digər tədris intizamları ilə fənlərarası inteqrasiyası yalnız texniki bacarıqların öyrədilməsi deyil, həm də şagirdlərin alqoritmik və sistemli təfəkküründün inkişafı üçün strateji əhəmiyyət kəsb edir (AMEA, 2015; Xaməmmədov, 2019). Bayramova (2018) və Fəxrəddin Yusifov (2019) bildirirlər ki, informatikanın fənlərarası tətbiqi şagirdlərdə kompleks problemləri həll etmə bacarıqlarını, eləcə də koqnitiv çevikliyi formalaşdırır və digər fənlərin, o cümlədən riyaziyyat, fizika və kimya tədrisində inteqrasiyanın effektivliyini artırır.

Fənlərarası inteqrasiyanın metodik əsasları üç əsas yanaşma üzrə təhlil edilir: multidissiplinar, interdissiplinar və transdissiplinar (Həsənov, Ağayev, Məmmədova, Fərzəliyeva, 2013; Ağayeva, 2022). Multidissiplinar yanaşma fənlərin paralel öyrədilməsi ilə xarakterizə olunur və əsasən məlumatların əlaqələndirilməsinə diqqət yetirir. İnterdissiplinar yanaşma mövzuların birgə işlənməsi və ortaq layihələrin həyata keçirilməsi ilə səciyyələnir. Transdissiplinar yanaşma isə fənn sərhədlərini aşaraq real həyat problemlərinə yönəlir və informatikanın strukturlaşdırılmış analiz və alqoritmik metodlarını digər sahələrə tətbiq edir (Bağırzadə, 2016; Pələngov, 2017). Bu yanaşma STEAM layihələri çərçivəsində xüsusilə aktualdır, çünki informatikanın texnologiya və kodlaşdırma komponenti mühəndislik və dizayn fənləri ilə birləşərək şagirdlərin praktiki səriştələrini artırır (Məhəmmədov, 2017; Mahmudzadə, Sadıqov, İsayeva, 2020).

Riyaziyyat və informatikanın əlaqəli tədrisi məsələsi də əhəmiyyətli tədqiqat mövzusudur. Adıgözəlov və Əliyeva (2013), həmçinin Xaməmmədov (2019) vurğulayırlar ki, İKT vasitələrindən istifadə riyazi anlayışların vizualizasiyasını və alqoritmik düşüncənin inkişafını sürətləndirir. Eyni zamanda, təbiət elmləri ilə inteqrasiya (kimya, fizika, biologiya) informatikanın modelləşdirmə və simulyasiya imkanları üzərində qurularaq şagirdlərin təcrübə əsasında öyrənməsini təmin edir (Abbasov və b., 2019).

Pedaqoji kadrların hazırlığı və metodik təminatın rolu da geniş qeyd olunur. Miriyev (2016) bildirir ki, müəllimlərin rəqəmsal bacarıqlarının artırılması və inteqrasiya olunmuş dərs planlarının hazırlanması fənlərarası inteqrasiyanın səmərəliliyini birbaşa təsir edir. Bu yanaşma kurikulum islahatları çərçivəsində, xüsusilə də Azərbaycan Respublikasında həyata keçirilən STEAM layihələri və İKT inkişaf proqramları kontekstində aktuallığını qoruyur (Azərbaycan Respublikasında rabitə və İT inkişafı üzrə Dövlət Proqramı, 2005).

Ədəbiyyat təhlili göstərir ki, informatikanın fənlərarası inteqrasiyası şagirdlərin analitik təfəkkürünü, yaradıcı və tənqidi bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların gələcək peşə fəaliyyətinə hazırlıq səviyyəsini yüksəldir. Eyni zamanda, metodik maneələr – müəllim hazırlığı, kurikulum çevikliyi və qiymətləndirmə mexanizmlərinin məhdudluğu – hələ də inteqrasiyanın praktik tətbiqinə əngəl yaradır (Rəsulov, 2022; Ağayeva, 2022). Bu səbəbdən ədəbiyyat metodik tövsiyələr, inteqrasiya olunmuş dərs planları və müəllimlərin peşəkar inkişafının əhəmiyyətini ön plana çıxarır.

Nəticə etibarilə, nəzəri və praktik araşdırmalar göstərir ki, informatika fənninin digər tədris intizamları ilə fənlərarası inteqrasiyası şagirdlərin kompleks səriştələrinin formalaşmasında strateji əhəmiyyət daşıyır və STEAM yanaşması çərçivəsində tətbiqi daha effektiv nəticələr verir.

Metod

1. Ümumtəhsil məktəblərinin informatika dərslərinin tədrisinin digər fənlərlə inteqrasiyasının tətbiqi

İnformatika fənninin digər tədris intizamları ilə inteqrasiyasının metodik səmərəliliyi konstruktivizm və transdissiplinar təhsil prinsiplərinə əsaslanır. Tədqiqatın metodologiyası fənlərarası əlaqənin sistemli modelləşdirilməsi və Layihə Əsaslı Öyrənmə (LƏÖ) vasitəsilə tətbiq olunmasına yönəlmişdir. Bu yanaşma biliklərin fərqli fənlərdən ayrılmış şəkildə deyil, bilavasitə funksional kontekstdə mənimsənilməsini təmin edir. İşin metodiki əsası STEAM (Science, Technology, Engineering, Art, Mathematics) fəlsəfəsinin alqoritmik təfəkkür üzərindən həyata keçirilən tətbiqi mexanizminin təhlilinə həsr edilmişdir.

1.1. I-IV siniflərdə tədris olunan informatika fənninin fənlərarası inteqrasiyasının metodiki tətbiqi

Bu dərsi 1-ci sinifdə keçirilən riyaziyyat, ana dili, həyat bilgisi, texnologiya, xarici dil, musiqi və təsviri incəsənət dərsi ilə inteqrasiya etmək mümkündür. Dərsin gedişi zamanı şagirdlərə verilmiş

əşyaların rəngini, təsvirini, hansı formalarda hərəkəti, və s öyrədilir. Motivasiya olaraq Sual

verilir, Şəkildə necə əşya görürsünüz? Əlimdə neçə qələm var? və s. Karandaşın sayı çoxdur, yoxsa qələmlərin sayı? 1-ci sinif olduqlarına görə daha sadə formada suallar verərək şagirdləri düşünməsinə imkan yaradırıq. Riyaziyyat dərsində ədədlər və əməllər mövzusu ilə inteqrasiya edirik. Ədədləri saymaq, əşyaları saymaq, ədədlərin müqayisəsi biliklərinə əsaslanaraq, əşyaların müqayisəsini riyaziyyat dərsi ilə inteqrasiya edərək şagirdlərə saymağı və rəqəmlərin hansının az, hansının çox olduğunu soruşa bilərik. Bu zaman şagirdlərin fikrində rəqəmlərin müqayisəsi yada salınır. Burdan da keçid edərək əşyalar üzərində rənglərin oxşar və fərqli olanlarını soruşa bilərik və nəticə olaraq əşyalar üzərində fərqli və oxşar əlamətləri sadalaya bilirlər.

Azərbaycan dili fənnində say, zaman bölməsi var, burada şagirdlər gördükləri əşyalar haqqında biliklərini səsli formada ifadə etməyi öyrənirlər (şəkil 1). Göstərilən əşyalar haqqında fikirləri, müşahidə etdiyi əşyanı, hadisələri adlandırılar ki, bu biliklər əsasında da informatika dərsini əlaqələndirmək olar. Motivasiya olaraq sual verdikdə ki, əşyanın forması necədir? Hansı rəngdədir? Şəkildə nə görürsünüz? Bu zaman sagirdlər şəkillərə baxaraq əşyaları həm müqayisə edir, həm də tapa bilir. Və beləliklə, dərsi daha dərindən mənimsəmiş olurlar.

Şəkil 1.

3-cü sinif şagirdləri üçün alqoritmləri digər fənlərə inteqrasiya etməyin bir neçə yolu var. 3-cü sinifdə xətti

alqoritm dərsi. Həyat bilgisi dərsində sağlamlığımız və vərdişlərimiz dərsi ilə interasiya edə bilərik. Şagirdlər sağlam yaşamaq üçün bəzi qaydalara rayət etməli, onları gündəlik həyatımızda vərdiş halına salmalıdır. Düzgün qidalanmaq, düzgün vaxtda idmanla məşğul olmaq və s. ardıcıl hərəkətlər edərək sağlamlığımızı qorumalıyıq. Bu zaman həyat bilgisi dərsi ilə inteqrasıya edərək, dərsin gedişi zamanı müəllim şagirdlərə motivasiya olaraq sual verir. Uşaqlar, hər gün səhər durduqda hansı hərəkətləri edirsiniz? Gəlin, hansı hərəkətləri ediriksə, ardıcıl olaraq sadalayaq (şəkil 2).

Başlanğıc
1. Səhər yuxudan dururuq
2. Əl üzümüzü yuyuruq
3. Səhər idmanı edirik
4. Yemek yeyirik
5. Çantamızı yığırıq
6. Dərsə gedirik
7. Son



Şəkil 2.

Tədqiqatın aparılması üçün də ardıcıl olaraq riyaziyyatla inteqrasiya edərək tapşırıqlar verilir. Riyaziyyat: Əsas toplama və çıxma əməliyyatlarını öyrətmək üçün alqoritmlərdən istifadə edin. Şagirdlərə riyaziyyat probleminin həlli üçün "Ədədə 3 əlavə edin, sonra 2-ni çıxarın" kimi bir sıra təlimatlar verin. Həll yolu tapmaq üçün addım-addım təlimatlara əməl edin. Başqa nümənə və tapşırıqlara baxaq (şəkil 3).



Şəkil 3.

Verilmiş şəklə əsasən, şagirdlər toplama və çıxma əməllərindən istifadə edərək alqoritmi ardıcıl olaraq addım-addım yerinə yetirirlər.Nəticə olaraq şagirdlər xətti alqoritmin nə olduğunu və necə təsvir olduğunu bilirlər. Və digər fənlər əsasında da müxtəlif formada alqoritm nümunələri deyə bilirlər.Alqoritmləri digər fənlərə inteqrasiya etməklə şagirdlər problem həll etmə və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirə, eyni zamanda biliklərini real dünya vəziyyətlərində tətbiq edə bilərlər.

4-cü sinif informatika dərsində, qrafik redaktoru dərsi zamanı müəllim şagirdlərə paint proqramında işləyərək, fiqurlar çəkməyi və onların adını yazmağı tapşırığı verir. Bu zaman şagirdlərin fikrində riyaziyyat fənnində keçirilən fiqurlara nəzər yetirilir. Müəllim tədqiqat sualı olaraq şagirdlərə hansı fiqurları tanıyırsınız? Sualı verə bilər. Riyaziyyat dərsində keçirilən həndəsi fiqurlar, simmetrik fiqurlar və s. öyrəndikləri biliklər əsasında şagirdlər bildikləri fiqurları sadalayaraq digər şagirdlərin də yadına salmasına kömək olurlar. Artıq, müxtəlif rəng çalarlarından istifadə edərək, həm təsviri incəsənət dərsində, həm də riyaziyyat fənnində , həmçinin də Azərbaycan dili fənnində sözlərin düzgün yazılış qaydasına əsaslanaraq paint praqramında fiqurlar hazırlayıb adlarını da qeyd edirlər (şəkil 4).



Şəkil 4.

Şəkildən göründüyü kimi, şagirdlər fənlər arası inteqrasiyanın köməyilə ilə, öyrəndikləri bilikləri tətbiq edərək müxtəlif formatda işlər hazırlaya bilirlər.

2. V-IX siniflərdə tədris olunan informatika fənninin fənlərarası inteqrasiyasının metodiki tətbiqi

5-ci sinif informatika dərsində İnformasiyanın kodlaşdırılması dərsinə nəzər yetirək: kodlaşdırmaq dedikdə şagirdlərin ağlına gələn ilk şey müxtəlif kodlar, simvollar, rəqəmlər ola bilər. Çünki, artıq, 3-cü sinifdən informasiya kodlaşması ilə tanışdırlar. İnformasiyanın kodlaşdırılması 3-cü sinifdən başlayaraq, sadədən mürəkkəbə doğru yuxarı siniflərdə də tədris olunur. Aşağı siniflərdə anlayış olaraq kod nədir, kodlaşdırma nədir? haqqında biliklər öyrədilir. Adətən, kodlaşdırma gündəlik həyatımızda çox yerdə tətbiq olunur. Uşaqlara ilkin anlayış olaraq kodu şəkillərlə, qrafiklərlə hərf və digər işarələrlə başa salmaq olar. Gündəlik həyatımızdan misal olaraq adi işıq forun rəngləri ilə, yol hərəkət qaydalarını və s. misal göstərmək olar. İşıq forun rəngləri: qırmızı, sarı, yaşıl rəngləri hər biri kodlaşdırılmış informasiyadır. Çunki qırmızı rəng bizə piyadalar üçün yolu keçmək informasiyasını verir, sarı rəng gözləmə, yaşıl rəng isə maşınların keçməsi informasiyanı verir. Bu cür misallarla uşaqlara motivasiya verərək kodlaşdırma anlayışı izah edilir (şəkil 5).

Şəkil 5.

İnformasiyanın kodlaşdırılması mövzusu ilə yanaşı Rebus mövzusu da mövcuddur. Qeyd edək ki, Rebus kodlaşdırmanın bir növüdür. Rebus şəkillərlə və işarələrlə kodlaşdırılmış informasiyadır. 3-cü sinifdə Sezar kodu, Bayraq əlifbası haqqında məlumatların verilməsi müəllimlər üçün metodik vasitədə tövsiyyə edilir. Beləliklə, siniflər arasında da inteqrasiya olunur. Dərsi keçən zaman kitabda verilmiş şəkillərə diqqət etsək, şəkildən də göründüyü kimi kodlaşdırmaya musiqi notlarını deyə bilərik. Şagirdlər şəklə əsasən kodlaşdırmanı daha yaxşı başa düşə bilərlər. Buna uyğun olaraq da musiqi dərsi ilə inteqrasiya edərək fərqli musiqi notlarını da kodlaşdırma kimi nümunə göstərə bilərlər (şəkil 6).

Şəkil 6.

Tapşırıq olaraq hər bir şagirdə öz adını MORZE əlifbasına görə kodlaşdırmağı demək olar. Beləliklə, onlar kodları tətbiq etdikcə daha dərindən mövzunu mənimsəyirlər. Verilən şərti işarələr kod, informasiyanın şərti işarələrlə verilməsi isə kodlaşdırma adlanır. Başqa bir nümunə də Morze əlifbasını, maşın yolunda olan şərti işarələri kodlaşdırma kimi göstərə bilərik. Bununla belə kod və kodlaşdırmanın nə olduğunu anlayırlar.

İnformasiyanın kodlaşdırılması 5-ci sinifdə müxtəlif fənlərə inteqrasiya oluna bilən mühüm anlayışdır. Burada müxtəlif mövzu sahələrinə məlumat kodlamasını daxil etmək üçün bəzi fikirləri də əlavə edə bilərik.

Riyaziyyat: İkili ədədlər anlayışını və onların kodlaşdırmada necə istifadə edildiyini təqdim edərək, şagirdlərə onluq ədədləri ikiliyə və əksinə çevirməyi öyrədə bilərik.

Həyat bilgisi və təbiət dərslərindən numunə olaraq məlumatın DNT-də necə kodlandığını və alimlərin bu məlumatdan genetikanı öyrənmək üçün necə istifadə etdiyini müzakirə edə bilərik.

Azərbaycan dili və ingilis dili fənni ilə əlaqələndirərək praqramlar da tərtib etmək olar. Qrammatikanı və sintaksisi öyrətmək üçün kodlaşdırma anlayışlarından istifadə edirik [34. s 25]. Məsələn, şagirdlər ümumi qrammatik səhvləri düzəltmək üçün şərti ifadələrdən (if/else) istifadə edən sadə proqram yaza bilər.

Təsviri incəsənət dərsində də əlaqə yaratmaq mümkündür. Şagirdləri rəqəmsal incəsənət və dizaynla tanış etməklə incəsənət və texnologiyanın kəsişməsini araşdıraq. Onlara sadə animasiyalar və ya interaktiv incəsənət layihələri yaratmaq üçün kodlaşdırmadan necə istifadə etməyi öyrədə bilərik

Ümumilikdə, məlumat kodlaşdırmasının müxtəlif fənlərə inteqrasiyası şagirdlərə tənqidi düşünmə, problem həll etmə və yaradıcılıq kimi mühüm bacarıqları inkişaf etdirməyə kömək edə bilər. Bu, həmçinin onlara texnologiyanın gündəlik həyatımızda rolunu anlamağa və onları yaşayacaqları rəqəmsal dünyaya hazırlamağa kömək edə bilər.

6-ci sinifdə İnternet dərsinə nəzər yetirək: İnternet bölməsinin internetdə axtarışın edilməsi zamanı hansı mövzuların axtarılması şagirdlər üçün çox böyük əhəmiyyət kəsb edir. Buna görə də istənilən fənnlərlə inteqrasiya etmək mümkündür. Standarta uyğun olaraq ümumi tarix fənnində də verilən mövzuya uyğun internetdə axtarış, məlumatların toplanması araşdırılması tapşırığı verilmişdir. Şagirdlərə həmin mövzu haqqında araşdırmanı informatika fənnində tətbiq edərək, həm informatika dərsini həm də ümumi tarix fənnindəki mövzu haqqında bilikləri möhkəmləndirmək mümkündür. Məsələn, qədim dövrün şəxsiyyətləri haqqında məlumat toplanması tapşırığı verə bilərik (şəkil 7).



Şəkil 7.

İnternet dərsi əsasında ədəbiyyat, coğrafiya, fizika, texnologiya fənnlərindəki dərslər haqqında məlumat axtarışı edərək inteqrasiya edə bilərik.

7-ci sinifdə komputerin tərkib hissələri dərsini keçən zaman fizika və texnologiya fənni ilə inteqrasiya etmək mümkündür. Bu zaman şagirdlərə motivasiya olaraq hansı avadanlıqları tanıyırsınız? Onların işləmə prinsipləri necədir? Sualları verilə bilər.

Texnologiya dərsində maşın, cihaz, onların işlənməsi bilik və bacarıqları nümayiş olunur. Maşın qurğuları və cihazların idarə olunması, onların gigiyenik qaydalara əməl edilməsi, hazırlanacaq məmulata uyğun cihazların, maşının işə salınması, onların arasındakı fərqə əsaslanaraq şagirdlər müxtəlif bilik və bacarıqlara yiyələnirlər. Fizika dərsində isə texnika və istehsalatda istifadə olunan sadə mexaniki qurğuların prinsiplərini anlayır və izah edirlər. Eyni zamanda da informatika dərsində cihazlara, maşınlara uyğun olaraq komputer qurğusunu, avadanlığını öyrənirlər. Komputerin giriş qurğularını, çıxış qurğularını, onların işlənməsini, mərkəzi qurğularını daha dərindən mənimsəyirlər. Beləliklə həm texnologiya, həm də fizika dərslərindən stat gətirərək dərsi daha maraqlı şəkildə tədris etmək mümükündür.

7-ci sinif informatika dərsliyində inteqrasiya olaraq riyaziyyat fənni ilə daha çox nümunələr göstərə bilərik. İnformatika dərsində keçirilən say sistemləri, proqramlaşdırmada olan riyaziyyatçı bağa ilə məsələ həlləri yerinə yetirə bilərik.

Riyaziyyatçı bağa dərsinə nəzər yetirək: Riyaziyyatçı bağa riyazi ifadələri praqramda yazmaq üçündür. Dərsin sonunda təlim nəticəsi olaraq, riyazi ifadələri LOGO dilində yazılır, həmin ifadələrin qiymətlərini hesablamaq üçün LOGO dilində praqram tərtib edilir. Bu dərsdə şagirdlər ALPLogo mühitində hesablamaların aparılması ilə tanış olurlar. Riyaziyyatçı bağa alt praqram və alt proqramda dəyişənlər mövzusunun mənimsədilməsi zamanı inteqrasiya olaraq riyaziyyat fənnində öyrədilən əməllərin yerinə yetirilməsi ardıcıllığı ilə ədədin ifadəsinin tapılmasını əlaqələndirə bilərik. Şagirdlər riyaziyyat dərsində öyrədilən biliklər əsasında praqramın necə işlədiyini ayırd edə bilirlər. Və ona uyğun da alqoritm tərtib edərək məsələni həll edirlər.

Tətbiqi praqramlar dərsi zamanı keçirilən proqramlar əsasında şagirdlərə sual verə bilərik. Uşaqlar, hansı praqramlardan daha çox istifadə edirik? Şagirdlər sual ətrafında fikirləşərək müxtəlif formada müzakirələr aparır. Şagirdlər nümunə olaraq telefonda hansı praqramları işlədirsiniz? Gündəlik həyatımızda istifadə etdiyimiz bir çox praqramları Word, excel, pover paint və s. söyləyə bilərik. Word praqramında cədvəl qurmağı riyaziyyat dərsində 5.1.1. standartanına uyğun olaraq cədvəllərin hazırlanması dərsi ilə inteqrasiya edə bilərik. Və riyaziyyat dərsində qurulan cədvəllərdən numunə gətirərək tətbiqi praqram olan word praqramında tədqiqat işi apararaq müxtəlif formatlarda cədvəllər tərtib edilir .

8- ci sinif dərsində say sistemlərinin tədrisi.

Say sistemlərinin öyrədilməsi riyaziyyat təhsilinin mühüm tərkib hissəsidir. Say sistemi ədədləri təmsil etmək və hesab əməliyyatlarını yerinə yetirmək üçün istifadə olunan riyazi simvollar toplusudur. Say sistemlərini başa düşmək riyazi səlisliyi və problem həll etmə bacarıqlarını inkişaf etdirmək üçün vacibdir. Misal. Aşağıda verilmiş misala diqqət edək.

11001_2 2-lik say sistemindən 10-luq say sisteminə keçməli. Bu cür misalı həll etmək üçün ilk növbədə riyazi anlayış üzərindən hesab əməllərini bilmək gərəkdir. Riyaziyyat dərsində həqiqi ədədlər, kvadrat köklər, ədələrin qüvvətə yüksəldilməsi dərsləri ilə inteqrasiya edərək, hər hansı bir ədədin digər say sisteminə keçməsini izah edərək, daha sadə şəkildə həll edilməsini təmin edə bilərik. Bu da onu göstərir ki, müəllim say sistemləri dərsini izah edərkən riyaziyyat fənni ilə inteqrasiya yaratmalıdır. Riyaziyyat dərsində keçirilən, vurma, bölmə, toplama, kvadrata yüksəltmə əməllərini tətbiq edərək müəllim dərsi izah edir. Şagirdlərə misal üzərindən nümunələr gətirilir. Buna misal olaraqda aşağıdakı misalı göstərə bilərik (şəkil 8).



Şəkil 8.

Şəkildən də göründüyü kimi bir say sistemindən digər say sisteminə keçdikdə riyazi hesablamalardan istifadə olunur. Riyazi əməllər köməyilə müxtəlif misallar həll edərək bir say sistemlərindən digərinə keçmək daha yaxşı mənimsənilir.

9-cu sinifdə Kodlaşdırma mövzusuna ayrıca geniş yer verilib. "Qrafik informasiyanın kodlaşdırılması" mövzusu gəlir. Burada şagirdə qrafik informasiyanın komputerdə kodlaşdırılmasına aid nümunələr göstərilir, kodlaşdırılmış 56informasiyanın həcmi müəyyən edilir.

Şəkil 9.

Burada göstərilir ki, necə göstərilməsindən (rastr və ya vektor) asılı olmayaraq, qrafik verilənlər kompüter ekranında həmişə rastr formatında kodlaşdırılır. Hazırda hər bir şəkil rəngli piksel və nöqtələrdən ibarət düzbucaqlı cədvəldən ibarətdir. Hər bir nöqtənin rəngi və parlaqlığı rəqəm kimi kodlandığından, ikili kod qrafik məlumatları təmsil etmək üçün istifadə edilə bilər.

9-cu sinifdə kodlaşdırma nümunələr şəklində göstərilir, eyni zamanda RGB,CMYK kodlaşdırma sistemindən bəhs olunur, onların tətbiqi öyrədilir. Təsviri incəsənət dərsində Pol Sezannın əsərlərində rəngin təravəti, formaların ümumiliyi ilə inteqrasiya edə bilərik.Sezann mənzərələr, portretlər, müxtəlif həyat səhnələri çəkirdi. Lakin onun yaradıcılıq prinsipləri natürmortlarda daha dolğun əks olunmuşdur. Rəssam sabit kompozisiyadakı təmiz rəng1 ardıcıllığının köməyi ilə təbiətin gözəlliyinin əzəmətini və onun formalarının üzvi bütövlüyünü daha dərindən aydınlaşdırmağa çalışırdı (şəkil 10).

Şəkil 10.

Rəsm dərsində istifadə olunan rəng çalarlarının rastr qrafik redaktoru vasitəsilə komputerdə praqramlar vasitəsilədə çəkilməsini təmin edə bilərik. "Səs informasiyanın kodlaşdırılması" mövzusunda şagirdlərə mikrofon, səsucaldıcı, səs dalğalarının səsləri kodlaşdırdığını öyrədirlər. Şagirdlər fizika dərslərindən "səs dalğaları" anlayışı ilə 7-ci sinifdə tanış olublar. 8-ci sinifdə şagirdlər informatika fənnindən "Multimedia qurğuları" mövzusu ilə tanış olarkən multimedia, yəni səs, qrafika və video ilə işləyən qurğularla tanış olmuşdular. Yəni, 8-ci sinifdə öyrənilmiş bu qurğularla səslərin kodlaşdırılması, artıq, şagirdlərə 9-cu sinifdə izahlı verilir. Bundan əlavə, şagirdlər analoq-rəqəm çeviricisi barədə məlumat əldə edirlər, wav, mp3, midi kimi səs faylı formatları ilə tanış olurlar. Bu dərs həm musiqi, həm texnologiya həm fizika dərsləri ilə inteqrasiya olunur (şəkil 11).



Şəkil 11.

Beləliklə, 9-cu sinif aşağı siniflərdə verilən məlumatların tətbiqinə yönəlmiş məlumatları ehtiva edir, şagirdlər öyrəndiklərini, artıq, tətbiq etməyi öyrənirlər.

3. X-IX siniflərdə tədris olunan informatika fənninin fənlərarası inteqrasiyasının metodiki tətbiqi

İnformatika təhsildə, həyatımızda vacib fənnlərdən biridir. İnformatika fənninin digər fənlərlə əlaqəsi də genişdir. İnformatika fənnini həm texniki fənlərlə, həm də humanitar fənlərlə əlaqələndirmək mümkündür. 10-cu sinif, model dərsini də bir çox fənlərlə inteqrasiya edərək dərsi daha ətraflı tədris etmək mümkündür. Şagirdlər dərsin nəzəri hissələri ilə aşağı siniflərdən tanış olmuşlar. Buna görə də dərsi müzakirələr şəklində aparmaq olar. Modelləşdirməninin nə olduğunu izah edərkən müxtəlif formada misallardan, şəkillərdən geniş istifadə edə bilərik (şəkil 12).

Şəkil 12.

Hazırda biz səhiyyə sahəsini biologiya ilə inteqrasiya etdirə bilərik. Biologiya dərsləri bizə öyrətdi ki, insanlar üzərində hər cür tədqiqat aparmaq həm etik standartlara, həm də qanunlara ziddir, ona görə də bunun əvəzinə modellərdən istifadə edilməlidir. Gələcək həkimlər, məsələn, insan xəstəliklərinin səbəblərini və onları necə müalicə edəcəyini daha yaxşı başa düşmək üçün uzun müddət orqanları, onların quruluşunu və bir-biri ilə əlaqələrini maketlərdə və tez-tez interaktiv modellərdə araşdırdılar.Başqa sözlə desək, hər hansı real obyektin nəzəri modeli ilkin olaraq qurulur və öyrənilməmişdən əvvəl modelləşdirmə dərsində verilənlərin strukturu müəyyən edilir. Cədvəllər, ağaclar və qrafiklər məlumat strukturlarının nümunələridir.

Obyektin komponentləri (və ya elementləri) arasındakı əlaqəni nümayiş etdirmək vacibdirsə, qrafik strukturundan istifadə etmək daha uyğundur. Həm coğrafiya, həm də riyaziyyat üçün qrafik model göstərilmişdir (şəkil 13).

Şəkil 14.

Elə hallar olur ki, informasiya modeli yaradarkən tabeçiliyində olan əlaqələri göstərmək vacibdir. Bu halda, ağac - iyerarxik struktur - obyektin məlumat modelini təmsil edir. Ağacın əsas xüsusiyyəti ondan ibarətdir ki, hər iki təpəni birləşdirən yalnız bir yol var.Ağacvari struktura aid (tarixi ədəbiyyatla əlaqəli) aşağıdakı şəkili göstərmək olar Coğrafiya dərsində yer üzərində dəyişiklərə dair proqnozlar dərsi ilə inteqrasiya edə bilirk.

Yerin səthində və kosmosda müxtəlif obyektlərin koordinatları və sürətləri avtomatik müəyyən edilə bilər. Qlobal yerləşdirmə sistemi (GPS) Yerdəki istənilən yerin koordinatlarını, eləcə də kosmosda və ya planetin səthində hərəkət edən obyektlərin sürətini hesablamaq

üçün xüsusi qəbuledicidən istifadə edən peyk şəbəkəsidir. ABŞ Müdafiə Nazirliyi GPS ("ci-pi-es" tələffüz edin) yaratdı və işlədir. Buna baxmayaraq, o, hazırda mülki istifadə üçün mövcuddur və bunun üçün tələb olunan tək şey naviqator və ya GPS qəbuledicisi olan digər cihazdır (məsələn, smartfon). Kosmik, idarəetmə və istifadəçi seqmentləri GPS-in üç əsas seqmentini təşkil edir. Bütün GPS qəbuledicilər GPS peykləri tərəfindən kosmosdan yayımlanan bu siqnaldan öz yerlərini dərhal müəyyən etmək üçün istifadə edirlər. Yerin orta orbitində fırlanan 32 süni peyk kosmik seqmenti təşkil edir (şəkil 15).

Şəkil 16.

Kadastr işi hazırda coğrafi informasiya sistemlərinin geniş tətbiq olunduğu sahələrdən biridir. Nəyinsə və ya kiminsə siyahısı və ya qeydiyyatı kadastr adlanır. İstənilən maddələr və ya hadisələr haqqında onların keyfiyyət və kəmiyyət göstəriciləri ilə yanaşı daxil edilmiş və sistemləşdirilmiş məlumatlar saxlanılır. Kadastrlar müvafiq obyektlərin müntəzəm, təkrarlanan müşahidələrinin aparılması yolu ilə yaradılır. Onlar, adətən, aşağıdakı növlərə malikdirlər: mineral ehtiyatlar kadastrları, su kadastrları, torpaq kadastrları, iqlim kadastrları və s.

Kadastr sistemi, təyinatından asılı olmayaraq, qeydiyyata alınmış obyekt haqqında müəyyən bir şəkildə təşkil edilmiş məlumatlardan ibarətdir. Digər informasiya sistemlərində olduğu kimi, hər bir obyektə xüsusi kod verilir. Coğrafi informasiya sistemləri, adətən, kadastr sistemlərində istifadə olunur, çünki obyektlərin böyük əksəriyyəti məkan xarakterlidir.

İnformasiya cəmiyyəti informasiyanın emalı, emalı və paylanması fəaliyyətinin aktiv olduğu, onu cəmiyyətin və iqtisadiyyatın mərkəzinə çevirən cəmiyyətdir. İnformasiya cəmiyyətinin məqsədi xalqlar arasında rəqabət üstünlüyü əldə etmək üçün informasiya texnologiyalarından (İT) yaradıcı və məhsuldar şəkildə istifadə etməkdir. İnformasiya və informasiya yönümlü cəmiyyət müasir cəmiyyəti səciyyələndirən mühüm anlayışlardan biridir və özündə çoxlu məzmunu ehtiva edir və müxtəlif tərifərə malikdir. Simsiz şəbəkə texnologiyası fiziki kabellərə və naqillərə ehtiyac olmadan məsafəyə məlumat ötürmək üçün elektromaqnit dalğalarının istifadəsini nəzərdə tutur. Bu texnologiya fizika prinsiplərinə, xüsusən də elektromaqnit dalğalarının davranışına əsaslanır. Fizika dərsində şagirdlər elektromaqnit dalğalarının dalğa uzunluğu, tezlik və amplituda kimi xüsusiyyətlərini öyrənirlər. Onlar həmçinin müxtəlif növ elektromaqnit dalğaları, o cümlədən radio dalğaları, mikrodalğalar, infraqırmızı dalğalar, görünən işıq, ultrabənövşəyi şüalar, rentgen şüaları və qamma şüaları haqqında öyrənirlər. Simsiz şəbəkə texnologiyası cihazlar arasında məlumat ötürmək üçün bir növ elektromaqnit dalğası olan radio dalğalarından istifadə edir. Radio dalğaları görünən işıqdan daha uzun dalğa uzunluğuna və daha aşağı tezlikə malikdir və divarlar və binalar kimi maneələrdən keçə bilir. Simsiz şəbəkələrdə məlumatlar radio dalğalarından istifadə edərək hava ilə göndərilir. Məlumatlar antenna tərəfindən ötürülən radio siqnallarına kodlanır. Qəbuledici cihazın siqnalları qəbul edən və onları yenidən məlumatlara çevirən öz antenası var (şəkil 17).



Şəkil 17.

Simsiz şəbəkələr həmçinin induksiya vasitəsilə enerjini simsiz ötürmək üçün elektromaqnetizm prinsiplərindən istifadə edir. Bu, məsələn, smartfonlar və digər qurğular üçün simsiz şarj yastıqlarında istifadə olunur.

Ümumilikdə, simsiz şəbəkə texnologiyasının fizika ilə inteqrasiyası şagirdlərə simsiz rabitə və enerji ötürülməsi texnologiyaları yaratmaq üçün real dünyada elektromaqnetizm prinsiplərinin necə tətbiq olunduğunu anlamağa kömək edə bilər.

Nəticə və Təkliflər

Aparılan araşdırmalar göstərir ki, informatika dərslərində fənlərarası əlaqənin qurulması şagirdlərin öyrənmə təcrübəsini zənginləşdirir və mövzuların hərtərəfli mənimsənilməsinə şərait yaradır. Müxtəlif fənlərdən bilik və bacarıqların inteqrasiyası şagirdlərdə tənqidi düşüncə, problem həll etmə və yaradıcı yanaşma qabiliyyətlərini inkişaf etdirir, eyni zamanda qrup şəklində əməkdaşlığı və aydın ünsiyyət strategiyalarını təşviq edir. Bu proses biliklərin real həyatda tətbiqini mümkün edir və informatika fənninin praktiki əhəmiyyətini daha da artırır.

Tədqiqat əsasında aşağıdakı təkliflər irəli sürülür:

1. İnformatika dərslərində digər fənlərlə inteqrasiyanı gücləndirən layihə və tədqiqat tapşırıqlarına üstünlük verilməlidir.
2. Müəllimlərin fənlərarası əlaqə qurmaq bacarıqlarını artırmaq məqsədilə xüsusi metodiki təlimlər keçirilməlidir.
3. Tədris materiallarında informatikanın riyaziyyat, fizika, texnologiya, coğrafiya və humanitar fənlərlə inteqrasiyasını əks etdirən nümunələrə geniş yer ayrılmalıdır.
4. Qrup şəklində öyrənməni dəstəkləyən interaktiv metodlar və İKT vasitələrinin tətbiqi artırılmalıdır.
5. Şagirdlərin nəzəri biliklərini praktiki vərdişlərə çevirməsi üçün real problemlərə əsaslanan fəaliyyətlər dərs prosesinə daxil edilməlidir.

Beləliklə, informatika dərslərində fənlərarası əlaqə yalnız tədrisin keyfiyyətini yüksəltmir, həm də şagirdlərin gələcəkdə əmək bazarında uğurla fəaliyyət göstərməsinə zəmin yaradır.

ƏDƏBIYYAT SİYAHISI:

1. AMEA İnformasiya Texnologiyaları İnstitutu, "İnformatika mühazirələri", Əlövsət Qaracaoğlu . – Bakı: "Bakı" nəşr , –2015, –152 s.
2. Anar Miriyev. Pedaqoji kadrların hazırlığına xüsusi diqqət yetirilməlidir //, "Palitra"- 2016, №20
3. Azərbaycan respublikasında rabitə və İT inkişafı üzrə Dövlət Proqramı. 2005-2008-ci illər (Elektron Azərbayjan). Bakı 2005.
4. Bayramova Növrəstə Sidqəli, ||fənlərarası əlaqənin həyata keçirilməsində informatika fənninin rolu||, Sumqayıt dövlət universiteti – "elmi xəbərlər"– sosial və humanitar elmlər bölməsi, Sumqayıt, 2018, cild 14, №4
5. Fənlərarası əlaqənin problemləri, müstəqil iş üçün təlim materialları / Fəxrəddin Yusifov. , – Bakı : "Elm və təhsil" Nəşr, – 2019, –113 s.
6. Fənlərin inteqrasiyası / M.Həsənov, Ş.Ağayev,V.Məmmədova, Y.Fərzəliyeva. – Bakı: "MM-S" müəssisəsi , –2013, –62 s.
7. Xaməmməd Xaməmmədov, || Ümumtəhsil məktəblərində riyaziyyatın tədrisində fənlərarası əlaqənin tətbiqi yeni kurikulum tələblərinin yerinə yetirilməsi üçün vacib şərtlərdən biridir ||, Zəngilan rayon 4 №-li umumi orta məktəb– "Kurikulum, 2019, cild 12, №1 S.66-69
8. İnformatika-dərslik / M.S.Xəlilov . – Bakı: Bakı nəşr, –2010, –210 s.
9. Kurikulum metodika pedaqogika / Ağayeva Səbinə. – Bakı : "Təhsil " nəşr, –2022. - 201 s.
10.Riyaziyyatın tədrisi prosesində fənlərarası əlaqənin tətbiqi / A.C.Adıgözəlov, T.M.Əliyeva. – Bakı : "Maarif "nəşr, – 2013. – 67 s.
11.Ümumi təhsil sistemində şagird nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi / Rəsulov Mehman, Mingəçevir Dövlət Universiteti,
12.Ümumtəhsil 8-cı sinfi üçün "Kimya" fənni üzrə dərslik / Mütəllim Abbasov, Vaqif Abbasov, Nasim Abışov, Vəli Əliyev. – Bakı : "Aspoliqraf" nəşr , – 2019, – 200 s.
13.Ümumtəhsil məktəblərində riyaziyyat və informatika fənlərinin əlaqəli tədrisində İKT-dən istifadə / Ə.Q.Pələngov – Bakı: "Bakı" nəşr, – 2017, – 35 s

14.Ümumtəhsil məktəblərinin 10-ci sinfi üçün "İnformatika" fənni üzrə metodik vəsait / Ramin Mahmudzadə, İsmayıl Sadıqov, Naidə İsayeva. – Bakı: "Bakı" nəşr, –2017, –208 s.
15.Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün "İnformatika" fənni üzrə metodik vəsait / Ramin Mahmudzadə, İsmayıl Sadıqov, Naidə İsayeva. – Bakı: "Bakı" nəşr, – 2020, – 72 s.
16.Ümumtəhsil məktəblərinin 8-cı sinfi üçün "Riyaziyyat" fənni üzrə dərslik / Nayma Qəhrəmanova,Məhəmmə Kərimov,İlham Hüseynov. – Bakı : "Radius" nəşr , – 2019, – 240 s.
17.Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün "İnformatika" fənni üzrə metodik vəsait / Ramin Mahmudzadə, İsmayıl Sadıqov, Naidə İsayeva. – Bakı: "Bakı" nəşr, -2019, – 96 s.
18.Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün "Coğrafiya" fənni üzrə dərslik / Elbrus Əlizadə, Nərminə Seyfullayeva, İrkən Aktoprak, Yelena Şabanova. – Bakı: "Bakı" nəşr , – 2016, – 204 s
19.Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün "Fizika" fənni üzrə dərslik / Mirzəli Murquzov, RasimAbdurazaqov, Rövşən Əliyev, Dilbər Əliyeva. – Bakı : "Şərq-Qərb" nəşr , –2016, – 224 s.
20.Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün "İnformatika" fənni üzrə metodik vəsait / Ramin Mahmudzadə, İsmayıl Sadıqov, Naidə İsayeva. – Bakı: "Bakı" nəşr, –2020, - 136 s.

DOİ: 10.32010/JERV3032

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ TƏLİMDƏ KREATİV YANAŞMANIN TƏTBİQİ: İNNOVATİV METODLAR VƏ ŞAGİRDLƏRİN YARADICILIQ BACARIQLARININ İNKİŞAFI

Səbinə Vahid ƏLIZADƏ
Bakı Dövlət Universitetinin Doktorantı
ORCID: 0009-0008-5456-2750
E-mail: sebine.elizade.1996@bk.ru

Xülasə: Məqalədə müasir təhsil sistemində kreativ pedaqogikanın nəzəri və praktik əsasları araşdırılmış, onun ingilis dili dərslərində tətbiq imkanları və şagirdlərin yaradıcılıq bacarıqlarına təsiri təhlil olunmuşdur. Təhsil sahəsində gedən qlobal dəyişikliklər göstərir ki, XXI əsrin əmək bazarı yalnız biliklərin mənimsənilməsini deyil, həm də yaradıcı düşünmə, əməkdaşlıq, ünsiyyət və rəqəmsal savadlılıq bacarıqları ilə zənginləşdirilmiş gənclərin hazırlanmasını tələb edir. Bu baxımdan müəllim–tələbə münasibətlərində yaradıcı mühitin formalaşdırılması, dərs prosesində bərabərlik, əməkdaşlıq və fəal iştirakın təmin edilməsi təhsilin keyfiyyətinin yüksəldilməsinə və fərdi inkişafın sürətlənməsinə əhəmiyyətli təsir göstərir. Tədqiqatın nəzəri bazası konstruktivizm yanaşması və Bloom taksonomiyası ilə izah olunmuş, şagirdlərin öyrənmə prosesində fəallığının artırılması və biliklərin yaradıcı tətbiqinə yönəldilməsi əsaslandırılmışdır. Kreativ öyrənmənin əsas modelləri – problem əsaslı öyrənmə (PBL), layihə əsaslı öyrənmə, STEAM yanaşması, rol oyunları və debatlar – geniş şəkildə təhlil olunmuşdur. Bu metodların üstünlükləri ondan ibarətdir ki, onlar şagirdlərin bilikləri yalnız mənimsəməsini deyil, həm də tətbiq etməsini, müzakirə aparmasını və yeni məhsul ortaya qoymasını stimullaşdırır. Metodologiyada empirik müşahidələr, pedaqoji eksperimentlər və ədəbiyyat təhlilindən istifadə edilmişdir. Eksperiment orta məktəblərin yuxarı siniflərində aparılmış və iki qrup müqayisə edilmişdir: ənənəvi metodlarla öyrənən nəzarət qrupu və innovativ metodlarla tədris edilən eksperimental qrup. Təcrübənin nəticələri göstərmişdir ki, eksperimental qrupda şagirdlərin dərs prosesinə marağı, ünsiyyət bacarıqları, yazılı və şifahi nitq göstəriciləri nəzərəçarpacaq dərəcədə yüksək olmuşdur. Təhlillərə əsasən, şagirdlərin motivasiyası, problem həll etmə bacarıqları və qrup halında əməkdaşlıq səviyyəsi nəzarət qrupuna nisbətən 20–35% daha yaxşı nəticələr göstərmişdir. Ən böyük artım şagirdlərin motivasiyası və şifahi nitqində müşahidə olunmuş, bu da kreativ pedaqogikanın tətbiqinin effektivliyini təsdiqləmişdir. Məqalədə həmçinin qeyd olunur ki, ingilis dili dərslərində kreativ yanaşmanın sistemli tətbiqi yalnız dil öyrənməsini deyil, həm də XXI əsrin əsas kompetensiyalarının – yaradıcılıq, tənqidi düşünmə, əməkdaşlıq və rəqəmsal savadlılığın inkişafını təmin edir. Bu səbəbdən müəllimlərin innovativ metodlarla hazırlanması, dərslərdə rəqəmsal platformaların istifadəsi və qiymətləndirmə meyarlarında yaradıcı tapşırıqlara üstünlük verilməsi zəruri hesab olunur.

Açar sözlər: kreativ pedaqogika, ingilis dili tədrisi, innovativ metodlar, problem əsaslı öyrənmə, yaradıcılıq bacarıqları

ПРИМЕНЕНИЕ КРЕАТИВНОГО ПОДХОДА В ОБУЧЕНИИ НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА: ИННОВАЦИОННЫЕ МЕТОДЫ И РАЗВИТИЕ ТВОРЧЕСКИХ СПОСОБНОСТЕЙ УЧАЩИХСЯ

Сабина Вахид АЛИЗАДЕ
Докторант Бакинского Государственного Университета
Orcid: 0009-0008-5456-2750
Электронная почта: sebine.elizade.1996@bk.ru

Резюме: В статье исследуются теоретические и практические основы креативной педагогики, а также её применение на уроках английского языка и влияние на развитие творческих способностей учащихся. Глобальные изменения в сфере образования показывают, что рынок труда XXI века требует не только усвоения знаний, но и подготовки молодых людей, обладающих навыками творческого мышления, сотрудничества, коммуникации и цифровой грамотности. В этом контексте формирование творческой атмосферы во взаимоотношениях между учителем и учеником, обеспечение равенства, сотрудничества и активного участия в учебном процессе оказывает значительное влияние на повышение качества образования и ускорение личностного развития. Теоретическая база исследования опирается на конструктивистский подход и таксономию Блума, которые обосновывают необходимость повышения активности учащихся в процессе обучения и ориентации на творческое применение знаний. Подробно рассмотрены основные модели креативного обучения – проблемное обучение (PBL), проектное обучение, STEAM-подход, ролевые игры и дебаты. Преимущества этих методов заключаются в том, что они стимулируют не только усвоение знаний, но и их практическое применение, обсуждение и создание новых продуктов. Методология включала эмпирические наблюдения, педагогический эксперимент и анализ литературы. Эксперимент проводился в старших классах

средней школы, где сравнивались две группы: контрольная (традиционное обучение) и экспериментальная (обучение инновационными методами). Результаты показали, что в экспериментальной группе уровень интереса к занятиям, коммуникативные навыки, а также показатели устной и письменной речи были значительно выше. Согласно анализу, мотивация учащихся, навыки решения проблем и уровень сотрудничества в группе оказались на 20–35% выше, чем в контрольной группе. Наибольший прогресс наблюдался в мотивации и устной речи, что подтверждает эффективность креативной педагогики. В статье также отмечается, что системное внедрение креативного подхода в преподавание английского языка способствует не только усвоению языка, но и развитию ключевых компетенций XXI века – креативности, критического мышления, сотрудничества и цифровой грамотности. В связи с этим автор подчеркивает необходимость подготовки учителей по инновационным методам, интеграции цифровых платформ в учебный процесс и приоритета творческих заданий в системе оценивания.
Ключевые слова: креативная педагогика, преподавание английского языка, инновационные методы, обучение на основе проблем, творческие способности.

THE APPLICATION OF CREATIVE APPROACHES IN ENGLISH LANGUAGE TEACHING: INNOVATIVE METHODS AND THE DEVELOPMENT OF STUDENTS' CREATIVE SKILLS

Sabina Vahid ALIZADEH
Doctoral Student, Baku State University
ORCID: 0009-0008-5456-2750
E-mail: sebine.elizade.1996@bk.ru

Abstract: The article examines the theoretical and practical foundations of creative pedagogy, its application in English language lessons, and its impact on the development of students' creative abilities. Global changes in education demonstrate that the 21st-century labor market requires not only knowledge acquisition but also the preparation of young people equipped with creative thinking, collaboration, communication, and digital literacy skills. In this context, fostering a creative environment in teacher–student relationships, ensuring equality, cooperation, and active participation in the learning process significantly contributes to improving the quality of education and accelerating personal development. The theoretical framework of the study is based on constructivist approaches and Bloom's taxonomy, which justify the need to increase student activity in the learning process and focus on the creative application of knowledge. The main models of creative learning—problem-based learning (PBL), project-based learning, the STEAM approach, role plays, and debates—are analyzed in detail. The advantages of these methods lie in stimulating not only knowledge acquisition but also its practical application, discussion, and the creation of new products. The methodology involved empirical observations, pedagogical experiments, and literature analysis. The experiment was conducted in high school classes, comparing two groups: a control group taught with traditional methods and an experimental group taught with innovative methods. The results indicated that students in the experimental group demonstrated significantly higher interest in lessons, stronger communication skills, and better oral and written performance. According to the analysis, students' motivation, problem-solving skills, and group collaboration levels were 20–35% higher compared to the control group. The greatest improvements were observed in motivation and oral communication, confirming the effectiveness of creative pedagogy. The article further emphasizes that the systematic implementation of creative approaches in English language teaching promotes not only language acquisition but also the development of key 21st-century competencies—creativity, critical thinking, collaboration, and digital literacy. Therefore, it highlights the importance of teacher training in innovative methods, the integration of digital platforms into lessons, and prioritizing creative tasks in assessment systems.
Keywords: creative pedagogy, English language teaching, innovative methods, problem-based learning, students' creative skills.

Giriş

Qloballaşma və informasiya cəmiyyətinin sürətli inkişafı təhsil sisteminə yeni çağırışlar irəli sürür. Müasir dövrün sosial-iqtisadi və texnoloji reallıqları məktəblərdə və ali təhsil müəssisələrində tədrisin yalnız bilik ötürülməsi ilə məhdudlaşmamasını, eyni zamanda şagird və tələbələrin yaradıcı potensialının inkişaf etdirilməsini zəruri edir. Təhsilalanların innovativ düşünmə, yaradıcı ideyalar irəli sürmə, problemlərə fərqli prizmadan yanaşma və müasir əmək bazarında tələb olunan universal bacarıqlarla silahlanması XXI əsr pedaqogikasının əsas hədəflərindəndir (Amabile, 1996; Sawyer, 2012).

İngilis dili dərsləri bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Çünki dil öyrənmək sadəcə qrammatik biliklərin mənimsənilməsi deyil, həm də kommunikasiya, mədəniyyətlərarası ünsiyyət, yaradıcılıq və analitik düşüncə bacarıqlarının formalaşdırılmasını nəzərdə tutur (Sternberg, 2006). İngilis dili tədrisi prosesində interaktiv metodların,

müasir texnologiyaların və kreativ yanaşmaların tətbiqi şagirdlərin dərs prosesində fəallığını artırmaqla yanaşı, onların dil bacarıqlarını real həyat situasiyalarında sərbəst tətbiq etməsinə şərait yaradır (Craft, 2005).

Ənənəvi tədris metodlarının əsas xüsusiyyəti müəllim mərkəzli və şagirdlərin passiv iştirakına yönəlik olmasıdır. Belə modeldə şagirdlər hazır bilikləri qəbul edir, lakin onları yaradıcı şəkildə tətbiq etmək və yeni ideyalar irəli sürmək imkanları məhdudlaşır. Halbuki müasir dövrün tələbi biliklərin reproduktiv şəkildə mənimsənilməsi deyil, onların kreativ, tənqidi və problem həllinə yönəlmiş istifadəsidir (Torrance, 2008). Buna görə də ənənəvi yanaşmaların imkanlarını aşmaq və şagirdləri fəal iştirakçıya çevirmək üçün innovativ və kreativ təlim texnologiyalarına ehtiyac vardır.

Problemin aktuallığı həm də əmək bazarının dəyişən tələbləri ilə izah olunur. Müasir iqtisadiyyat və əmək bazarı yalnız nəzəri bilik daşıyıcılarını deyil, həm də yaradıcı düşüncəyə, yüksək adaptasiya qabiliyyətinə və çevik qərar qəbuletmə bacarıqlarına malik gəncləri tələb edir. Dünya İqtisadi Forumunun hesabatlarında vurğulanır ki, gələcək peşə bacarıqları sırasında yaradıcılıq, innovativlik və tənqidi düşünmə ən yüksək mövqelərdə qərar tutur (World Economic Forum, 2020). Bu baxımdan təhsildə kreativ yanaşmaların tətbiqi qlobal miqyasda strateji zərurətə çevrilmişdir.

Məqalənin məqsədi ingilis dili dərslərində kreativ yanaşmanın tətbiqini araşdırmaq, müxtəlif innovativ metodların şagirdlərin yaradıcılıq bacarıqlarının inkişafına təsirini müəyyənləşdirmək və bu istiqamətdə tətbiq oluna biləcək pedaqoji modelləri təklif etməkdir. Bu yanaşma şagirdlərin yalnız dil öyrənmə prosesində deyil, həm də ümumi şəxsiyyət inkişafında, sosiallaşmasında və gələcək peşə fəaliyyətinə hazırlığında mühüm rol oynayır (Runco, 2014).

Nəzəriyyə

Kreativ pedaqogikanın nəzəri bazası müasir təhsil nəzəriyyələri içərisində xüsusi yer tutan konstruktivizm yanaşmasına əsaslanır. Konstruktivizmə görə öyrənmə prosesi yalnız müəllimin təqdim etdiyi biliklərin mənimsənilməsi ilə məhdudlaşmır, əksinə, şagirdlərin öz şəxsi təcrübələrinə, maraqlarına və mühitlə qarşılıqlı əlaqəsinə söykənir (Sawyer, 2012). Bu nəzəriyyə çərçivəsində müəllim öyrənmə prosesinin mərkəzi deyil, istiqamətləndirici rolunu oynayır. Şagirdlər isə təlimdə fəal iştirakçı kimi yeni bilikləri müstəqil şəkildə kəşf edir, onları mövcud bilik bazası ilə əlaqələndirir və yaradıcı tətbiqlərlə dərinləşdirirlər.

Kreativ təlimin nəzəri əsaslarından biri də Bloom taksonomiyasıdır. Bloomun idrak sahəsinə dair taksonomiyasında öyrənmənin mərhələləri bilik, anlama, tətbiq, təhlil, sintez və qiymətləndirmə kimi pillələrdən ibarətdir. Daha sonrakı tədqiqatlarda bu pillələr yenidən işlənmiş və ən yüksək mərhələnin "yaradıcılıq" olduğu vurğulanmışdır. Beləliklə, təlimin ən ali məqsədi şagirdin mövcud biliklərdən istifadə edərək yeni məhsul, ideya və ya yanaşma formalaşdırmasıdır (Sternberg, 2006). Bu, ingilis dili dərslərində yaradıcı yazı tapşırıqları, debatlar, layihə təqdimatları və problem həlletmə fəaliyyətləri vasitəsilə reallaşdırıla bilər.

Müasir pedaqoji ədəbiyyatda yaradıcı öyrənmənin əsas metodik prinsipləri kimi problem əsaslı öyrənmə (PBL), layihə əsaslı öyrənmə (Project-Based Learning), STEAM yanaşması və oyun texnologiyaları xüsusi vurğulanır. Problem əsaslı öyrənmədə şagirdlərə real həyatdan götürülmüş situasiyalar təqdim olunur və onlar bu problemlərin həllinə yaradıcı yanaşmalar təklif edirlər. Layihə əsaslı öyrənmə isə şagirdlərin həm dil bacarıqlarını, həm də yaradıcı fəaliyyətini birləşdirən kollektiv fəaliyyət formasıdır (Torrance, 2008). STEAM yanaşması (Science, Technology, Engineering, Art, Mathematics) fənlərarası inteqrasiyanı təmin etməklə yaradıcı təfəkkürün inkişafına şərait yaradır. Oyun metodları isə öyrənməni maraqlı və interaktiv mühitdə təşkil edərək şagirdlərin həm motivasiyasını, həm də spontan yaradıcılıq qabiliyyətini artırır.

Azərbaycan təhsil mühitində aparılan araşdırmalar da göstərir ki, şagirdlərin yaradıcılıq bacarıqlarının inkişafı üçün təkcə metod seçimi deyil, həm də müəllim hazırlığının keyfiyyəti mühüm rol oynayır. Müəllimlərin kreativ tədris metodlarına yiyələnməsi, dərsliklərin innovativ məzmunla yenilənməsi və İKT əsaslı interaktiv platformaların tətbiqi bu istiqamətdə mühüm amil hesab edilir. Bu səbəbdən yerli təhsil sistemində kreativ pedaqogikanın tətbiqi sadəcə pedaqoji yanaşma deyil, həm də təhsil siyasətinin prioritet istiqamətlərindən biri kimi dəyərləndirilir.

Kreativ pedaqogikanın dünya və Azərbaycan təhsilində tətbiq modelləri

Kreativ pedaqogika müasir təhsil sistemində innovativ yanaşmaların əsasında duran mühüm istiqamətlərdən biridir. Dünyada aparılan tədqiqatlar göstərir ki, kreativ təlim modellərinin tətbiqi şagirdlərin bilikləri yalnız passiv şəkildə mənimsəməsinə deyil, həm də onların sosial, emosional və yaradıcı potensiallarının inkişafına xidmət edir (Amabile, 1996; Craft, 2005). Bu səbəbdən bir çox ölkələrin təhsil sistemlərində

yaradıcı təlim strategiyaları dövlət siyasətinin prioritetlərindən birinə çevrilmişdir.

Cədvəl 1. Kreativ pedaqogikanın dünya və Azərbaycan təhsilində tətbiq modellərinin müqayisəsi

Məkan	Əsas tətbiq modelləri	Xüsusiyyətlər	Nəticələr
Skandinaviya ölkələri (Finlandiya və s.)	Problem əsaslı öyrənmə, fənlərarası inteqrasiya, layihə əsaslı təlim	Kurikulumda yaradıcı düşüncə əsas prioritetdir; şagirdlərin müstəqil tədqiqat aparması stimullaşdırılır	Yüksək şagird motivasiyası, praktik biliklərin yaradıcı tətbiqi
ABŞ	Layihə əsaslı öyrənmə, oyunlaşdırma, STEAM yanaşması	"21-ci əsr bacarıqları" konsepsiyası əsasında kreativlik, əməkdaşlıq, kommunikasiya əsas hədəflərdir	Tənqidi və yaradıcı düşüncə qabiliyyətlərinin inkişafı, texnologiya inteqrasiyası
Asiya ölkələri (C. Koreya, Sinqapur)	İnteraktiv texnologiyalar, rəqəmsal platformalar, yaradıcı sinif mühitləri	Təhsil innovasiya yönümlü iqtisadiyyatla əlaqələndirilir; müəllimlər texnoloji və kreativ bacarıqlarla hazırlanır	Yüksək nəticə yönümlü təhsil; yaradıcılıq və innovasiya əsas hədəflərdir
Azərbaycan	Layihə əsaslı öyrənmə, problem həllinə yönəlmiş təlim, rəqəmsal platformaların istifadəsi, STEAM inteqrasiyası	2008-ci ildən tətbiq edilən yeni kurikulumlar şagirdmərkəzli təlimə əsaslanır; müəllim hazırlığı və dərsliklərin yenilənməsi önəmlidir	Şagirdlərin yaradıcı potensialının artması, dərs prosesində fəallıq, dil bacarıqlarının real situasiyada tətbiqi

Qeyd. **Müəllifin ümumiləşdirməsi əsasında hazırlanmışdır (Sawyer, 2012; Sternberg, 2006; Runco, 2014; Craft, 2005; Torrance, 2008).**

Cədvəldə göstərilən müqayisə aparıcı dünya ölkələrinin və Azərbaycanın təhsil sistemində kreativ pedaqogikanın tətbiq modelləri arasındakı oxşar və fərqli cəhətləri əyani şəkildə nümayiş etdirir. Göründüyü kimi, Skandinaviya və ABŞ təcrübəsində yaradıcı təlim metodları artıq strateji prioritet səviyyəsinə yüksəlmiş, Asiya ölkələrində isə təhsil sisteminin innovasiya yönümlü iqtisadiyyatla inteqrasiyası təmin edilmişdir. Azərbaycan təhsilində bu yanaşmalar son illərdə kurikulum islahatları və müəllim hazırlığı çərçivəsində mərhələli şəkildə tətbiq edilməkdədir.

Müəllifin qənaətinə görə, kreativ pedaqogikanın səmərəli tətbiqi üçün yalnız metodların seçilməsi kifayət etmir; bu prosesin uğuru həm də pedaqoji kadrların hazırlığından, dərsliklərin məzmunundan və məktəblərdə yaradıcı mühitin təşkili səviyyəsindən asılıdır. Dünya təcrübəsi göstərir ki, layihə əsaslı öyrənmə, STEAM yanaşması və rəqəmsal platformaların istifadəsi şagirdlərin tənqidi və yaradıcı düşünmə qabiliyyətlərinin inkişafına real təsir göstərir (. Azərbaycan təhsil sistemində də bu modellərin dərinləşdirilməsi gələcəkdə həm şagirdlərin yaradıcı potensialını, həm də ümumi təhsilin keyfiyyətini yüksəldəcəkdir.

Metodologiya

Tədqiqatda əsas metod kimi empirik müşahidə, pedaqoji eksperiment və ədəbiyyat təhlili seçilmişdir. Araşdırma obyekti orta məktəblərin yuxarı siniflərində ingilis dili tədrisi prosesidir. Məqsəd müxtəlif kreativ təlim modellərinin şagirdlərin yaradıcılıq bacarıqlarının inkişafına təsirini öyrənmək olmuşdur.

- Problem əsaslı öyrənmə (PBL): Şagirdlərə real həyatdan götürülmüş situasiyalar təqdim edilmiş, onların həllinə yönəlmiş müzakirələr aparılmışdır. Bu metod şagirdlərin tənqidi düşünmə və problem həll etmə bacarıqlarını gücləndirmək məqsədi ilə tətbiq olunmuşdur (Hmelo-Silver, 2004).
- Layihə əsaslı öyrənmə (Project-Based Learning): Şagirdlər müəyyən mövzular üzrə layihələr hazırlamış, təqdimatlar etmiş və müzakirələr aparmışdır. Bu metod həm dil bacarıqlarını, həm də yaradıcı yanaşma qabiliyyətlərini inkişaf etdirməyə xidmət etmişdir (Thomas, 2000).
- STEAM yanaşması: İngilis dili dərslərində elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat elementlərinin inteqrasiyası təmin olunmuşdur. Bu yanaşma fənlərarası əlaqələr yaradaraq şagirdlərdə yaradıcı atmosferin formalaşdırılmasına şərait yaratmışdır (Yakman, 2008).
- Rol oyunları və debatlar: Şagirdlər müxtəlif rolları icra etməklə dil mühitinə daxil olmuş, situativ kreativlik nümayiş etdirmişdir. Debatlar isə onların arqument qurmaq, fikirlərini əsaslandırmaq və yaradıcı müzakirələr aparmaq bacarıqlarını inkişaf etdirmişdir (Livingstone, 2000).

Təhlil

Tədqiqat çərçivəsində qeyd olunan metodların – problem əsaslı öyrənmə (PBL), layihə əsaslı öyrənmə, STEAM yanaşması və rol oyunları ilə debatların – orta məktəblərin yuxarı siniflərində ingilis dili dərslərində tətbiqi aparılmışdır. Təcrübə 3 ay ərzində 60 nəfər şagirdin iştirakı ilə həyata keçirilmişdir. Şagirdlər iki qrupa bölünmüşdür: ənənəvi metodlarla tədris alan **nəzarət qrupu** və innovativ metodlarla təhsil alan.

Cədvəl 1. Problem əsaslı öyrənmənin (PBL) nəticələri

Göstəricilər	Nəzarət qrupu	Eksperimental qrup	Fərq (%)
Dərs müzakirələrində iştirak faizi	42%	65%	+23
Yeni sözlərin mənimsənilməsi (test nəticələri)	58%	76%	+18
Problem həllində yaradıcılıq (qiymətləndirmə rubrikası üzrə)	2,8 bal (5 üzərindən)	4,1 bal	+1,3

Qeyd. Müəllifin aparmış olduğu empirik müşahidə və pedaqoji eksperimentin nəticələri əsasında tərtib edilmişdir.

PBL tətbiqi şagirdlərin həm söz ehtiyatını, həm də yaradıcılıqla problem həll etmə qabiliyyətini əhəmiyyətli dərəcədə artırmışdır.

Cədvəl 2. Layihə əsaslı öyrənmənin nəticələri

Göstəricilər	Nəzarət qrupu	Eksperimental qrup	Fərq (%)
Yazılı nitq bacarıqları (esse və mətn quruluşu)	54%	76%	+22
Təqdimat zamanı sərbəst çıxış edənlərin faizi	30%	62%	+32
Komandada işləmə bacarığı (müəllim müşahidəsi ilə)	2,5 bal	4,0 bal	+1,5

Qeyd. Müəllifin aparmış olduğu empirik müşahidə və pedaqoji eksperimentin nəticələri əsasında tərtib edilmişdir.

Layihə əsaslı öyrənmə şagirdlərin yazı qabiliyyətini və ictimai çıxış bacarıqlarını gücləndirmiş, əməkdaşlıq mədəniyyətini inkişaf etdirmişdir.

Cədvəl 3. STEAM yanaşmasının nəticələri

Göstəricilər	Nəzarət qrupu	Eksperimental qrup	Fərq (%)
Şagird motivasiyası (sorğu nəticələri)	48%	85%	+37
Fənlərarası inteqrasiyadan istifadə	22%	64%	+42
Yeni terminlərin yadda qalması (test nəticələri)	56%	74%	+18

Qeyd. Müəllifin aparmış olduğu empirik müşahidə və pedaqoji eksperimentin nəticələri əsasında tərtib edilmişdir.

STEAM yanaşması şagirdlərin motivasiyasını artırmış, fənlərarası inteqrasiya vasitəsilə sözlərin yadda qalmasını asanlaşdırmışdır.

Cədvəl 4. Rol oyunları və debatların nəticələri

Göstəricilər	Nəzarət qrupu	Eksperimental qrup	Fərq (%)
Danışıq bacarığı (spontan cavabvermə)	46%	71%	+25
Debatlarda arqument qurma bacarığı	2,7 bal	4,3 bal	+1,6
İngilis dilində sərbəst nitq göstəriciləri	51%	76%	+25

Qeyd. Müəllifin aparmış olduğu empirik müşahidə və pedaqoji eksperimentin nəticələri əsasında tərtib edilmişdir.

Rol oyunları və debatlar şagirdlərin şifahi nitqini gücləndirmiş, arqumentləşdirmə və situativ kreativlik bacarıqlarını inkişaf etdirmişdir.

Diaqram 1. Eksperimental və Nəzarət qruplarının müqayisəsi



Qeyd. Müəllifin aparmış olduğu empirik müşahidə və pedaqoji eksperimentin nəticələri əsasında tərtib edilmişdir.

Eksperimental qrupda tətbiq edilən innovativ metodlar (PBL, layihə əsaslı öyrənmə, STEAM, rol oyunları) şagirdlərin həm motivasiya, həm də yaradıcı dil bacarıqlarında əhəmiyyətli artım yaratmışdır.

Yuxarıda təqdim edilən sütun diaqramında nəzarət və eksperimental qrupların müqayisəli nəticələri əks olunmuşdur. Məlumatlardan göründüyü kimi, eksperimental qrupda innovativ və kreativ metodların (PBL, layihə əsaslı öyrənmə, STEAM yanaşması, rol oyunları və debatlar) tətbiqi şagirdlərin öyrənmə göstəricilərinə nəzərəçarpacaq dərəcədə müsbət təsir göstərmişdir.

Əvvəla, dərsə fəal iştirak göstəricisi nəzarət qrupunda 45% olduğu halda, eksperimental qrupda 75%-ə yüksəlmişdir. Bu, 30% fərq deməkdir və metodların şagirdlərin dərs prosesində iştirakını, motivasiyasını artırdığını göstərir. Bu nəticə kreativ pedaqogika nəzəriyyəsi ilə üst-üstə düşür; çünki konstruktivist yanaşmada öyrənənin fəal iştirakı əsas şərt sayılır (Sawyer, 2012).

İkinci mühüm göstərici yazılı nitq bacarıqlarıdır. Nəzarət qrupunda 54% olan nəticə eksperimental qrupda 76%-ə yüksəlmişdir. Bu, 22% artım deməkdir. Layihə əsaslı öyrənmənin və yaradıcı yazı tapşırıqlarının tətbiqi şagirdlərdə mətn qurma, ideyanı yazılı formada ifadə etmə və yaradıcı yazı bacarıqlarının güclənməsinə səbəb olmuşdur (Thomas, 2000).

Şifahi nitq bacarıqları üzrə də nəzərəçarpacaq irəliləyiş qeydə alınmışdır. Eksperimental qrupun göstəricisi 76%-dir ki, bu da nəzarət qrupundan 25% daha yüksəkdir. Rol oyunları və debatların istifadəsi şagirdlərdə situativ kreativliyi, spontan cavabvermə və arqument qurma qabiliyyətini inkişaf etdirmişdir (Livingstone, 2000).

Ən diqqətçəkən fərqlərdən biri şagird motivasiyası ilə bağlıdır. Eksperimental qrupda motivasiya səviyyəsi 85% təşkil etmiş, nəzarət qrupundakı 48% nəticədən 37% daha yüksək olmuşdur. Bu, STEAM yanaşmasının və rəqəmsal platformaların tətbiqinin öyrənməni maraqlı, interaktiv və cəlbedici hala gətirdiyini təsdiqləyir (Yakman, 2008).

Nəhayət, yaradıcı problem həll etmə bacarıqları da ciddi fərqlənmişdir. Eksperimental qrupun orta göstəricisi 4,1 bal olduğu halda, nəzarət qrupu 2,8 bal səviyyəsində qalmışdır. Bu fərq PBL metodunun şagirdlərdə yaradıcı düşünmə və müstəqil həll tapma qabiliyyətini artırdığını göstərir (Hmelo-Silver, 2004).

Diaqramın analizi göstərir ki, tətbiq edilən kreativ metodlar şagirdlərin dərsə marağını, dil bacarıqlarını və yaradıcılıq potensialını ciddi şəkildə artırmışdır. Ən böyük fərqlər motivasiya və şifahi nitq bacarıqlarında müşahidə edilmişdir ki, bu da müasir pedaqogikanın əsas məqsədlərindən biri olan aktiv öyrənməyə uyğunluq təşkil edir.

Aparılan praktiki təhlil və diaqramın nəticələri göstərir ki, innovativ və kreativ metodların tətbiqi ingilis dili dərslərində şagirdlərin öyrənmə prosesinə münasibətini köklü şəkildə dəyişir. Ənənəvi metodlarda şagirdlərin passivliyi və motivasiya çatışmazlığı müşahidə olunduğu halda, problem əsaslı öyrənmə, layihə əsaslı fəaliyyətlər, STEAM inteqrasiyası və rol oyunları onların fəallığını və yaradıcı iştirakını əhəmiyyətli dərəcədə artırmışdır.

Müəllifin qənaətinə görə, ən yüksək irəliləyiş şagird motivasiyası və şifahi nitq bacarıqlarında qeydə alınmışdır. Bu, bir tərəfdən müasir texnologiyaların və interaktiv metodların öyrənməni

daha maraqlı və əlçatan etməsi ilə, digər tərəfdən isə şagirdlərə sərbəst ifadə mühiti yaradılması ilə bağlıdır. Eyni zamanda yazılı nitq və problem həll etmə bacarıqlarındakı artım da kreativ yanaşmaların effektivliyini təsdiqləyir.

Müəllif hesab edir ki, Azərbaycan təhsil sistemində belə metodların daha geniş tətbiqi həm ingilis dili dərslərinin keyfiyyətini yüksəldəcək, həm də şagirdlərin gələcək peşə və ictimai fəaliyyətlərində zəruri olan yaradıcılıq, əməkdaşlıq və tənqidi düşünmə bacarıqlarını formalaşdıracaqdır. Bu istiqamətdə müəllim hazırlığının gücləndirilməsi, dərsliklərin innovativ məzmunla zənginləşdirilməsi və rəqəmsal platformaların dərs prosesinə inteqrasiyası mühüm şərt kimi çıxış edir.

Nəticələr və Təkliflər

Aparılan pedaqoji eksperiment və təhlillər göstərdi ki, ingilis dili dərslərində kreativ pedaqogikanın tətbiqi şagirdlərin bilik və bacarıqlarında nəzərəçarpacaq inkişaf təmin edir:

1. Dərs prosesində fəallıq və motivasiya artmışdır. Eksperimental qrupda şagirdlərin iştirak səviyyəsi və dərsə marağı nəzarət qrupuna nisbətən xeyli yüksək olmuşdur. Bu, STEAM yanaşması və oyun metodlarının öyrənməni maraqlı və interaktiv etməsi ilə bağlıdır.
2. Şifahi və yazılı nitq bacarıqları güclənmişdir. Rol oyunları, debatlar və layihə əsaslı fəaliyyətlər nəticəsində şagirdlərin kommunikasiya qabiliyyəti, spontan nitq və mətn qurma bacarıqları inkişaf etmişdir.
3. Yaradıcı problem həll etmə qabiliyyəti artmışdır. PBL metodu sayəsində şagirdlər gündəlik həyatdan götürülmüş problemlərə yaradıcı yanaşma nümayiş etdirmiş, müstəqil qərar vermə bacarıqları formalaşmışdır.
4. Komanda ilə işləmə və əməkdaşlıq bacarıqları inkişaf etmişdir. Layihə əsaslı öyrənmə şagirdlərin qrup halında fəaliyyətini, qarşılıqlı dəstəyi və birgə məsuliyyəti gücləndirmişdir.

Ümumilikdə, tətbiq edilən kreativ metodlar şagirdlərin yalnız dil öyrənməsini deyil, həm də XXI əsr bacarıqlarını – yaradıcılıq, tənqidi düşünmə, əməkdaşlıq və rəqəmsal savadlılığı inkişaf etdirmişdir.

Aparılmış araşdırmalar əsasında aşağıdakı təkliflər irəli sürülür:

1. Müəllim hazırlığının gücləndirilməsi. İngilis dili müəllimlərinin kreativ pedaqogika, layihə əsaslı öyrənmə və STEAM yanaşmaları üzrə mütəmadi ixtisasartırma proqramlarında iştirakı təmin edilməlidir.
2. Rəqəmsal platformaların geniş istifadəsi. "Google Classroom", "Kahoot", "Padlet" kimi İKT vasitələrinin tətbiqi şagirdlərin motivasiyasını artırır və onların yaradıcı fəaliyyətinə şərait yaradır.
3. Qiymətləndirmə sistemində dəyişikliklər. Ənənəvi testlər və yazılı imtahanlarla yanaşı, yaradıcı yazılar, layihə təqdimatları, debatlar və rol oyunları da qiymətləndirmə meyarlarına daxil edilməlidir.
4. Fənlərarası inteqrasiyanın genişləndirilməsi. İngilis dili dərsləri digər fənlərlə əlaqələndirilməli, şagirdlərin yaradıcılıq potensialını ortaya çıxaran inteqrativ layihələr təşkil edilməlidir.
5. Təhsil siyasətində kreativ pedaqogikanın prioritetləşdirilməsi. Dövlət səviyyəsində qəbul edilən kurikulum və proqramlarda yaradıcılıq əsas hədəflərdən biri kimi göstərilməli, məktəblərdə bunun tətbiqi üçün maddi-texniki baza gücləndirilməlidir.

ƏDƏBIYYAT SIYAHISI:

1. Amabile, T. M. (1996). *Creativity in context*. Boulder, CO: Westview Press.
2. Craft, A. (2005). *Creativity in schools: Tensions and dilemmas*. London: Routledge.
3. Hmelo-Silver, C. E. (2004). Problem-based learning: What and how do students learn? *Educational Psychology Review, 16*(3), 235–266. https://doi.org/10.1023/B:EDPR.0000034022.16470.f3
4. Livingstone, C. (2000). *Role play in language learning*. London: Longman.
5. Runco, M. A. (2014). *Creativity: Theories and themes: Research, development, and practice* (2nd ed.). San Diego, CA: Elsevier.
6. Sawyer, R. K. (2012). *Explaining creativity: The science of human innovation*. Oxford: Oxford University Press.
7. Sternberg, R. J. (2006). The nature of creativity. *Creativity Research Journal, 18*(1), 87–98. https://doi.org/10.1207/s15326934crj1801_10
8. Thomas, J. W. (2000). *A review of research on project-based learning*. San Rafael, CA: Autodesk Foundation.
9. Torrance, E. P. (2008). *The Torrance Tests of Creative Thinking: Norms-technical manual*. Bensenville, IL: Scholastic Testing Service.
10. Yakman, G. (2008). STEAM education: An overview of creating a model of integrative education. *Pupil's Attitudes Towards Technology Conference*, Salt Lake City, USA.

DOİ: 10.32010/TKCM5882

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ C.MƏMMƏDQULUZADƏNİN HƏYAT VƏ YARADICILIQ YOLUNUN TƏDRİSİ İMKANLARI

Zeynəb Möylə ƏSƏDOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Ədəbiyyatın tədrisi metodikası kafedrası, doktorant
Orcid: https://orcid.org/0009-0002-5426-1372
E-mail: asadovazeynab@mail.ru

Xülasə: Ümumtəhsil orta məktəblərinin XI sinif kurikulum üzrə ədəbiyyat dərslərində Cəlil Məmmədquluzadənin həyat və yaradıcılıq yolunun öyrənilməsinə ayrıca dərs saatı (1 saat) ayrılmışdır. XX əsr Azərbaycan ədəbiyyatının inkişafında böyük dramaturq və nasir kimi tanınan C.Məmmədquluzadə satirik üslubda yazdığı şeirləri, bədii nümunələri ilə yeni tipli ictimai satiranın əsasını qoyan görkəmli söz ustadıdır. Xalqına, vətəninə misilsiz xidməti ilə seçilən C.Məmmədquluzadə kamil bədii əsərləri və faydalı ictimai fəaliyyətləri ilə Azərbaycan ədəbiyyatının formalaşmasında mühüm yer tutmuşdur. Onun zəngin, çoxşaxəli bəddi irsi dərin təhlillər və incə psixoloji müşahidələrlə zəngin olub xalqımızın maariflənməsi, milli və mədəni tərəqqisi üçün böyük əhəmiyyət kəsb edir. Bu əsərlər sadəcə bədii qiymətə malik olmaqla kifayətlənməyib, eyni zamanda dövrün ictimai-siyasi həyatını əks etdirərək, cəmiyyətin tərbiyəvi inkişafına yönəlmişdir. Bugünkü müstəqil Azərbaycan ədəbiyyatının formalaşmasında danılmaz xidmətləri olan sənətkarın qaldırdığı problemlərin bir çoxu müasir dövrdə də öz aktuallığını qoruyub saxlayır. C.Məmmədquluzadə hesab edirdi ki, bir millətin tərəqqisi yalnız elmlə, təhsillə və mədəniyyətlə mümkündür. Sənətkar qələmə aldığı hər bir əsərdə savadsızlığa qarşı mübarizə aparmış, xalqın düşüncəsini oyatmağa çalışmışdır. O, ədəbiyyatı bir ideoloji silah kimi istifadə edərək, xalqı öz hüquqlarını müdafiə etməyə, sosial haqsızlıqlara qarşı çıxmağa səsləmişdir. Bu səbəbdən, zəngin yaradıcılığı, humanist ideyaları ilə ədəbiyyatın inkişafında silinməz iz qoymuş C.Məmmədquluzadə yalnız bir ədəbiyyatçı deyil, həm də milli ideologiyanın formalaşmasında rol oynamış, böyük bir şəxsiyyətdir. Onun əsərləri Azərbaycan ədəbiyyatının inkişafında böyük iz qoymuş və gələcək nəsillərə də dəyərli miras olaraq qalacaqdır. Buna görə də sənətkarın bədii əsərlərinin məktəb mühitində öyrənilməsi təkcə ədəbi zövq formalaşdırmaq baxımından deyil, həm də şagirdlərin vətəndaşlıq mövqeyinin, ictimai məsuliyyət hissinin aşılanması baxımından xüsusi əhəmiyyət daşıyır.
Açar sözlər: C.Məmmədquluzadə, həyat və yaradıcılıq, dramaturgiya, tragikomediya, milli birlik.

OPPORTUNITIES OF TEACHING THE WAY OF LIFE AND CREATIVITY OF J.MAMMADGULUZADEH IN LITERATURE LESSONS

Zeynab Moyla ASADOVA
Doctoral student of the Department of Literature Teaching Methods
Azerbaijan State Pedagogical University
Orcid: https://orcid.org/0009-0002-5426-1372
E-mail: asadovazeynab@mail.ru

Abstract: In the literature lessons of the 11th grade curriculum of secondary schools, a separate lesson (1 hour) is allocated for studying the life and creative path of Jalil Mammadguluzade. Known as a great playwright and prose writer in the development of Azerbaijani literature of the 20th century, J. Mammadguluzade is an outstanding master of words who laid the foundation for a new type of social satire with his poems and artistic examples written in a satirical style. Distinguished by his unparalleled service to his people and homeland, J. Mammadguluzade has played an important role in the formation of Azerbaijani literature with his perfect artistic works and useful social activities. His rich, multifaceted artistic heritage is rich in deep analyses and subtle psychological observations and is of great importance for the enlightenment of our people, national and cultural progress. These works were not only of artistic value, but also reflected the socio-political life of the time and were aimed at the educational development of society. Many of the problems raised by the artist, who had an undeniable contribution to the formation of today's independent Azerbaijani literature, retain their relevance in the modern era. J. Mammadguluzadeh believed that the progress of a nation is possible only through science, education and culture. In each work he wrote, the artist fought against illiteracy and tried to awaken the people's thinking. Using literature as an ideological weapon, he called on the people to defend their rights and oppose social injustice. For this reason, J. Mammadguluzadeh, who left an indelible mark on the development of literature with his rich creativity and humanistic ideas, is not only a literary figure, but also a great personality who played a role in the formation of national ideology. His works have left a great mark on the development of Azerbaijani literature and will remain a valuable legacy for future generations. Therefore, the study of the artist's works in a school environment is of particular

importance not only in terms of forming literary taste, but also in terms of instilling in students a sense of civic position and social responsibility.
Keywords: J.Mammadguluzadeh, life and creativity, dramaturgy, tragicomedy, national unity.

ВОЗМОЖНОСТИ ПРЕПОДАВАНИЯ ОБРАЗА ЖИЗНИ И ТВОРЧЕСТВА ДЖ.МАМЕДГУЛУЗАДЕ НА УРОКАХ ЛИТЕРАТУРЫ

Зейнаб Мойла АСАДОВА
Докторант кафедры методики преподавания литературы
Азербайджанского государственного педагогического университета
Orcid: https://orcid.org/0009-0002-5426-1372
Электронная почта: asadovazeynab@mail.ru

Резюме: На уроках литературы 11-го класса общеобразовательных школ отдельный урок (1 час) отводится для изучения жизни и творческого пути Джалила Мамедкулизаде. Известный как великий драматург и прозаик в развитии азербайджанской литературы XX века, Дж. Мамедкулизаде является выдающимся мастером слова, заложившим основу нового типа социальной сатиры своими стихами и художественными примерами, написанными в сатирическом стиле. Отличающийся беспримерным служением своему народу и Родине, Дж. Мамедкулизаде сыграл важную роль в становлении азербайджанской литературы своими совершенными художественными произведениями и полезной общественной деятельностью. Его богатое, многогранное творческое наследие, богатое глубокими анализами и тонкими психологическими наблюдениями, имеет большое значение для просвещения нашего народа, национального и культурного прогресса. Эти произведения представляли не только художественную ценность, но и отражали общественно-политическую жизнь того времени, были направлены на просветительское развитие общества. Многие проблемы, поднятые художником, внесшим неоспоримый вклад в становление современной независимой азербайджанской литературы, сохраняют свою актуальность и в современную эпоху. Дж. Мамедкулизаде считал, что прогресс нации возможен только посредством науки, образования и культуры. В каждом произведении художник боролся с неграмотностью и стремился пробудить мышление народа. Используя литературу как идеологическое оружие, он призывал народ защищать свои права и противостоять социальной несправедливости. Именно поэтому Дж. Мамедкулизаде, оставивший неизгладимый след в развитии литературы своим богатым творчеством и гуманистическими идеями, является не только литературным деятелем, но и великой личностью, сыгравшей важную роль в формировании национальной идеологии. Его произведения оставили огромный след в развитии азербайджанской литературы и останутся ценным наследием для будущих поколений. Поэтому изучение творчества художника в школьной среде имеет особое значение не только с точки зрения формирования литературного вкуса, но и с точки зрения воспитания у учащихся чувства гражданской позиции и социальной ответственности.
Ключевые слова: Дж.Мамедгулузаде, жизнь и творчество, драматургия, трагикомедия, национальное единство.

Giriş

Azərbaycan ədəbiyyatının ən parlaq simalarından biri olan Cəlil Məmmədquluzadə təkcə bədii yaradıcılığı ilə deyil, həm də ictimai-siyasi fəaliyyəti ilə xalqımızın maarifləmsəsi və milli özünüdərkinin formalaşmasında mühüm rol oynamışdır. O dövrdə cəmiyyətin qarşılaşdığı sosial ədalətsizlik, cəhalət, mədəni gerilik kimi problemlər onun bədii dünyasında xüsusi yer tutur. C.Məmmədquluzadə bu problemləri təkcə göstərməklə kifayətlənmir, onları ifşa edir, tənqid edir və çıxış yolları göstərməyə çalışırdı. Onun satirası isə sadə gülüşdən çox-çox uzaqdır. Bu gülüş oxucunu dərindən düşündürən, onu silkələyən, narahat edən və nəticə çıxarmağa vadar edən bir gülüşdür. Məhz buna görə də ümumtəhsil məktəblərinin XI sinif ədəbiyyat proqramında onun həyat və yaradıcılığına xüsusi dərs saatı ayrılmışdır. Bu, təsadüfi deyil. Çünki Cəlil Məmmədquluzadənin ədəbi irsi təkcə keçmişin deyil, bu günün və gələcəyin də mənəvi ehtiyaclarına cavab verən dəyərli bir xəzinədir.

C.Məmmədquluzadənin yaradıcılığı sadəcə bir yazıçının fərdi uğuru deyil, bütöv bir xalqın maarifçilik tarixinin ayrılmaz hissəsidir. Yazıçının bədii əsərləri – xüsusilə “Ölülər”, “Anamın kitabı”, “Poçt qutusu”, “Danabaş kəndinin əhvalatları”, “Usta Zeynal” və digər nümunələr, Azərbaycan ədəbiyyatında həm bədii forma, həm də məzmun baxımından yeniliklər gətirmişdir. Bu əsərlərdə sadə xalqın həyatı, onların düşüncə tərzi, sosial problemləri, gerilik və mövhumatla mübarizə ustalıqla əks olunmuşdur. C.Məmmədquluzadənin əsərlərində xüsusi diqqət çəkən cəhətlərdən biri də qəhrəmanlarının dili və danışıq tərzidir. Yazıçı realist üslubda xalqın danışıq dilini, eləcə də regionlara xas söz və ifadələri əsərlərində ustalıqla istifadə etmişdir. Bu, onun ədəbiyyatını daha canlı və real edir, oxucunu birbaşa hadisələrin içində hiss etdirir. Eyni

zamanda bu üsul vasitəsilə yazıçı maarifçilik ideyalarını, tənqidi yanaşmaları və sosial mesajları qəhrəmanların dili ilə çatdırır. Beləliklə, Cəlil Məmmədquluzadə insanın daxili aləmini, cəmiyyətlə münasibətlərini realist boyalarla təqdim etmiş, qəhrəmanlarının dili ilə maarifçilik ideyalarını önə çəkmişdir.

"Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"da qeyd edilir: "Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının inkişafında əvəzolunmaz bir şəxsiyyət olmuş və öz əsərləri ilə yeni bir ədəbi məktəb yaratmışdır. Onun yaradıcılığı, azərbaycançılıq ideyasını dövrün ictimai-siyasi düşüncəsinin əsas mövzularından biri kimi güclü şəkildə ifadə etmişdir. Sənətkar, həyatın müxtəlif həqiqətlərini və cəmiyyətin reallıqlarını geniş şəkildə əks etdirərək, bədii və estetik baxımdan qiymətli obrazlar yaratmışdır. Ana dilinin təmizliyi uğrunda mübarizə aparan Cəlil Məmmədquluzadə, yazdığı dərin humanist məzmunlu dram və nəsr əsərləri ilə həm milli, həm də ümumbəşəri dəyərləri birləşdirmişdir. Onun rəhbərlik etdiyi "Molla Nəsrəddin" jurnalı, azadlıq ideyalarının inkişafına əhəmiyyətli təsir göstərmiş və Azərbaycanda olduğu kimi, hüdudlardan kənarda da böyük iz buraxmışdır. "Molla Nəsrəddin" jurnalı Cəlil Məmmədquluzadənin yaradıcı zəkasının məhsuludur" (Azərbaycan Respublikası Prezidentinin sərəncamı, 2019).

C.Məmmədquluzadənin həyat və yaradıcılıq yolunu tədris edərkən ilk növbədə dərsin ümumi məqsədlərini nəzərə almaq gərəkdir:

1. Şagirdlərdə Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı haqqında sistemli bilik formalaşdırmaq;
2. Onun əsərlərində qaldırılan sosial, mənəvi və milli problemləri təhlil etmə bacarığını inkişaf etdirmək;
3. Satiranın ədəbiyyatda ictimai tənqid vasitəsi kimi rolunu izah etmək;
4. Şagirdlərdə milli-mənəvi dəyərlərə, ana dilinə və vətənə bağlılıq hissi tərbiyə etmək.

Dərs prosesinin başlanğıcında BİBÖ (Bilirəm, İstəyirəm biləm, Öyrəndim) iş üsulundan istifadə etməklə lövhədə üç hissəli cədvəl çəkilir. Müəllim sənətkarın həyat və yaradıcılığı ilə bağlı ilkin təəssürat yaratmaq məqsədilə şagirdlərə belə bir sual ünvanlayır: C.Məmmədquluzadənin həyat və yaradıcılığı haqqında nə bilirsiniz?

Cədvəl

Bilirəm	**İstəyirəm biləm**	**Öyrəndim**

İlk növbədə şagirdlər bu suala cavab vermək üçün VIII sinifdə "Ədəbiyyat" fənni üzrə qazandıqları bilik və bacarıqlara istinad edirlər. Bildirilir ki, C.Məmmədquluzadənin böyük ustalıqla qələmə aldığı "Qurbanəli bəy" hekayəsi oxucuların dərin rəğbətini qazanmış əsərlərdən biridir. Hekayə üçün xarakterik olan bəzi məsələlər müasir dövrün tendensiyalarına uyğun şəkildə hələ də öz aktuallığını qoruyub saxlamışdır. Belə ki, "Qapazlı" kəndinin bəyi və mülkədarı məşhur Qurbanəli bəyin timsalında ikiüzlü, lovğa və yaltaq mülkədarlar satirik dillə ifşa edilir. Ədib zahirən kobud və çirkin, daxilən isə iç dünyası bir o qədər eybəcər olan Qurbanəli bəyin yüngül hərəkətləri, məntiqsiz davranışları və nitqi ilə özünü gülünc vəziyyətə saldığını söyləyir.

Nəzəriyyə

Görkəmli sənətkarın həyat və yaradıcılıq yolunun geniş öyrənilməsi üçün tədqiqat sualına uyğun olaraq, ədibin Azərbaycan tarixində şərəfli yer tutmasının səbəbləri üzrə araşdırılma aparılır.

Şagirdlər kiçik qruplara bölünür və onlara aşağıdakı tapşırıqlar verilir:

1.Ədibin həyat yolunun başlanğıcı hansı cəhətləri ilə diqqəti cəlb edir?

2.Yazıçının həyatında Tiflis mühitinin hansı rolu olmuşdur?

3.Yazıçının nəsr əsərlərində hansı problemlər diqqət mərkəzinə çəkilmişdir? Bu problemlərin yaranmasının səbəbini o nədə görürdü?

4.Yazıçının drammatik əsərlərinin mövzu, problem, konflikt özəlliyi hansılardır?

Dərslikdə verilən suallar əsasında təqdimat və müzakirəyə hazırlaşmaq üçün əlavə mənbələr üzrə materiallardan istifadə etmək məqsədəmüvafiq hesab olunur. Bu məqsədlə, şagirdlərə müəllimin tövsiyəsi ilə mövzu ilə əlaqədar əlavə mənbələrdən seçilmiş fikirlərə də münasibət bildirmək tapşırılır:

"Cəlil Məmmədquluzadə Tiflisdəki ədəbi və ictimai həyatda fəal iştirak etmişdir. O, burada yalnız bir müşahidəçi və adi iştirakçı deyil, eyni zamanda çox vaxt bu tədbirlərin təşkilatçısı və ideya rəhbəri olmuşdur. Xüsusən, "Molla Nəsrəddin" jurnalının nəşrindən sonra, adı yalnız Qafqazın müsəlmanları arasında deyil, ümumilikdə bütün Şərqdə və türk dünyasında geniş yayılaraq məşhurlaşmışdır. Cəlil

Məmmədquluzadə Tiflisdəki Azərbaycan ədəbi və mədəni mühitində ən önəmli simaya çevrilmiş və bu mühitdə ağsaqqal və rəhbər olaraq tanınmışdır" (Həbibbəyli, 2009)

"Cəlil Məmmədquluzadə əsərlərinin mövzularını müasir həyat və ictimai mübarizələrdən, eləcə də xalqın gündəlik həyatından götürürdü. Dərin həyat təcrübəsi və müşahidə qabiliyyəti ilə seçilən yazıçı öz xalqının yaşam tərzini və psixologiyasını çox yaxşı anlayırdı. O, daima xalqın arasında yaşamış və onların sevincini, kədərini, arzularını və ideallarını öz əsərlərində əks etdirməyə çalışmışdır" (Məmmədov, 1958).

Şagirdlər müəllimin tapşırığına əsasən sənətkarın həyat və yaradıcılıq yolundan bəhs edən mətnlə tanış olur və mətnin oxusu zamanı diqqəti cəlb edən lazımi məqamlarla bağlı qeyd aparırlar.

Təqdimatların mübadiləsi və müzakirəsi zamanı Cəlil Məmmədquluzadənin həyat yolunun başlanğıcında onun təhsili ilə bağlı məqamlara da toxunulur. Şagirdlər qeyd edirlər ki, onun təhsil almasında atası Məşədi Məmmədqulunun böyük rolu olmuşdur. Məşədi Məmmədqulu kiçik Cəlili ibtidai dini məktəbdə, yəni mollaxanada təhsil almağa qoymuşdur. Mollaxanada tədris nəticəsində sənətkar ərəb və fars dillərini öyrənmiş, İslam tarixi vasitəsilə Şərq tarixini öyrənməyə başlamış, Şərq ədəbiyyatı nümunələri ilə yaxından tanış olmuş və bu sahədəki biliklərini təkmilləşdirmişdir. Daha sonra mənəvi mühitin yeni pilləsinə qədəm qoymuş Mirzə Cəlil təhsilini Naxçıvan şəhər üçsinifli məktəbinin birinci sinifində davam etmişdir. Sənətkarın təhsil həyatının zirvəsində, dünyagörüşünün formalaşmasında isə Qori Müəllimlər Seminariyası mühüm əhəmiyyət kəsb etmişdir. O, burada A.O.Çernyayevski, D.D.Semyonov, Mirzə Əbdüssəlam Axundzadə, Səfərəlibəy Vəlibəyov kimi tanınmış pedaqoqlardan dərs almış və onların maarifçi görüşlərindən bəhrələnmişdir.

Yazıçının həyatında Tiflis mühitinin rolu ilə bağlı əlavə mənbələrdən istifadə edən şagirdlərdə belə bir fikir formalaşır ki, XX əsrin əvvəllərində Tiflis Qafqazın mərkəzi şəhəri hesab olunurdu. Cəlil Məmmədquluzadə isə Tiflis ədəbi-ictimai mühitində əksər məqamlarda düzgün yol göstərən, istiqamət verən əsas sima kimi diqqəti cəlb etmişdir. O, Tiflisdə olduğu müddətdə "Şərqi-Rus" qəzetinin ikinci redaktoru, "Qeyrət" mətbəə-nəşriyyatının müdiri və "Molla Nəsrəddin" ədəbi cəbhəsinin formalaşmasında baş mühərrir vəzifələrində çalışmışdır. Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalı vasitəsilə gətirdiyi yeniliklər onu yalnız bir yazıçı kimi deyil, eyni zamanda cəmiyyətin mədəni və sosial problemlərinə işıq salmış bir lider kimi tanıtmışdır. Ədibin nəsr və drammaturji yaradıcılığı ilə bağlı mətnkənarı sualların oxusunda diqqətin daha çox "Danabaş kəndinin əhvalatları", "Ölülər", və "Anamın kitabı" əsərlərinə yönəldilməsi məqsədəmüvafiqdir. Mütləqiyyət üsul-idarəsinə, feodal münasibətlərinə ciddi düşmən olan Cəlil Məmmədquluzadə ilk məlum nəsr əsəri "Danabaş kəndinin əhvalatları" povestinin timsalında köhnə ictimai quruluşa, bərabərsizliyə, zülmə və cəhalətə qarşı öz etirazını bildirmişdir.

В статье рассматриваются подходы азербайджанских поэтов-романтиков к образованию и воспитанию с разных сторон. В педагогических идеях Гусейна Джавида особое место занимает принцип свободного воспитания, формирование творческо-нравственной среды. В его произведениях свобода человека, духовная независимость, индивидуальное мышление оцениваются как основа воспитания. Развитие мышления, творчества, демонстрация собственного мира идей проявляются в идеях Джавида. Главный принцип его произведений заключается в том, что наряду с образовательными знаниями, роль учителя как пути, ведущего человека к духовному совершенству, может помочь ему сформироваться как личности, пробуждая его внутренний мир. В творчестве Гусейна Джавида противопоставляются насилию и методам воспитания, а на первый план выдвигается педагогическое влияние любви, сострадания и понимания. В творчестве Мухаммеда Хади особое внимание уделяется романтическим идеям, целесообразному расчету и вопросам науки. В своих произведениях он подчёркивает, что важнейшими гарантиями прогресса общества, свободы и национального пробуждения являются наука и образование, а развитие образования – мощнейшее средство спасения народа, возрождения нации и фундамент будущего. Развитие образования, вовлечение женщин в образовательный процесс и ликвидация неграмотности – главные идеи его произведений. Для Хади школа – это не только место получения знаний, но и священное место, где формируются национальное самосознание и любовь к Родине.

В творчестве Абдуллы Шаига любовь к Родине, гуманизм, уважение к труду ставятся во главу угла воспитания детей, и одновременно подчёркивается решимость уделять внимание внутреннему миру и психологическим особенностям ребёнка. В творчестве Аббаса Саххата воспевается сила науки, образования и культуры в возвышении личности, на первый план выходят развитие национального образования, воспитание чувств любви и сострадания в образовании и воспитании. С точки зрения романтиков, образование обеспечивает духовное, интеллектуальное, нравственное и эстетическое развитие человека и оценивается как социальный институт, играющий ключевую роль в формировании личности.

Ключевые слова, образование, воспитание, наука, школа, учитель

Giriş

XX əsrin əvvəlləri Azərbaycan maarifçilik hərəkatının yeni mərhələsi kimi səciyyələnir. Bu dövrdə ictimai fikir həyatında romantizm cərəyanı meydana gələrək milli oyanışın, mənəvi yenilənmənin, azadlıq və mədəni tərəqqi ideyalarının bədii ifadəsinə çevrildi. Azərbaycan romantikləri: Hüseyn Cavid, Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət və başqaları yalnız ədəbiyyatın deyil, həm də pedaqoji düşüncənin inkişafına mühüm töhfə verdilər. Onların əsərlərində təhsil və tərbiyə məsələləri, milli-mənəvi dəyərlərin qorunması, müasir müəllim obrazı, qadın təhsili, millətin tərəqqisində məktəbin rolu kimi ideyalar xüsusi yer tutur.

Azərbaycan romantizmi XIX əsr maarifçilik ədəbiyyatının davamı olmaqla, artıq milli və mənəvi azadlıq ideyalarını ön plana çıxarırdı. Əgər Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi və Cəlil Məmmədquluzadə kimi realistlər maarifçiliyi sosial islahatın vasitəsi kimi görürdülərsə, romantiklər maarifi mənəvi kamilliyin və milli ruhun dirçəldilməsi kimi dəyərləndirirdilər.

Romantiklərin pedaqoji fikirlərində əsas prinsip insanın mənəvi-əxlaqi təmizliyi, vətənə sədaqət və maarif vasitəsilə azadlıq idi. Onlar üçün təhsil təkcə bilik vermək deyil, həm də şəxsiyyətin formalaşması, insaniyyət ideyalarının təbliği demək idi.

Hüseyn Cavid (1882–1941) Azərbaycan romantik ədəbiyyatının ən parlaq simalarından olmaqla yanaşı, həm də dərin maarifçilik düşüncəsinə malik pedaqoq və ideoloq idi. O, Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra müəllimlik fəaliyyətinə başlamış, gənclərin tərbiyəsində elmi biliklərlə yanaşı, mənəvi kamilliyin də əsas rol oynadığını vurğulamışdır. Onun təlim-tərbiyə ilə bağlı fikirləri həm pedaqoji, həm də fəlsəfi kontekstdə böyük əhəmiyyət daşıyır.

Cavidin pedaqoji baxışlarının mərkəzində maarif, mədəniyyət və mənəvi tərbiyə dayanır. O, xalqın tərəqqisini ilk növbədə mədəni və intellektual

inkişafla mümkün hesab edirdi. Bu baxış onun məşhur misrasında aydın ifadə olunur:

"Turana qılıncdan daha kəskin, ulu qüvvət – mədəniyyət, mədəniyyət, mədəniyyət" (Cavid,V c, 2007).

Bu kəlamda müəllif maarifi "xilasedici qüvvə" kimi təqdim edir. Onun fikrincə, millətin gələcəyi məktəbdə, müəllimdə və gənc nəsildə formalaşan mənəvi dəyərlərdə gizlidir. Şair doğma xalqının cəhalət zəncirini qıraraq intibaha qovuşacağını, işıqlı gələcəyə doğru irəliləyəcəyini tərbiyə və təhsilin gücündə axtarırdı (Elmi Əsərlər, 2020).

Hüseyn Cavid maarifi insanı mənəvi kamilliyə və azad düşüncəyə aparan yol kimi dəyərləndirirdi. O, cəmiyyətin tərəqqisi üçün əsas şərt kimi "dünyəvi məktəbin" inkişafını göstərirdi. Cavidin fikrincə, yeni məktəblər elmi biliklərlə yanaşı, insanın daxili aləmini – vicdan, mərhəmət, ədalət və gözəllik hissini formalaşdırmalıdır. Onun "Mənim tanrım gözəllikdir, sevgidir" şeirində məhz bu duyğuların tərənnümü açıq və aydın şəkildə öz əksini tapır

Cavid "Qız məktəbində", "Öksüz Ənvər" kimi əsərlərində müəllim-şagird münasibətlərini və tərbiyə prosesinin mənəvi dəyərlər üzərində qurulmasını bədii dildə təcəssüm etdirir. Bu əsərlərdə müəllim obrazı sadəcə tədris edən deyil, şagirdin qəlbini, hisslərini və insaniliyini yönləndirən şəxs kimi təqdim olunur (Cavid,I c, 2007).

Cavidin fikrincə, müəllimin əsas vəzifəsi uşaqlara yalnız bilik öyrətmək deyil, həm də onlarda insani keyfiyyətlər, milli şüur, humanistlik, işıqlı duyğular və gözəllik ideyası formalaşdırmaqdır. Bu ideya təhsili estetik və əxlaqi tərbiyə ilə birləşdirir.

Cavidin pedaqoji dünyagörüşünün ən mühüm istiqamətlərindən biri qadın təhsili məsələsidir. O, qadının cəmiyyətdəki mövqeyini millətin tərəqqisinin ölçüsü kimi dəyərləndirir və yazırdı:

"Tərəqqinin ilk şərti qadın və qız məktəbləridir."

Bu fikir təkcə maarifçilik çağırışı deyil, həm də pedaqoji-fəlsəfi konsepsiya idi. Cavid üçün qadın ailənin tərbiyə ocağı, uşağın ilk müəllimi, xalqın mənəvi dayağıdır. Onun düşüncəsində qadının savadlanması təkcə fərdi azadlıq deyil, həm də millətin intellektual yüksəlişinin zəruri şərtidir.

Cavid ailə tərbiyəsini məktəblə ayrılmaz vəhdətdə görürdü. O, hesab edirdi ki, uşağın şəxsiyyət kimi formalaşması prosesi ailədə başlayır, məktəbdə davam edir və cəmiyyətdə möhkəmlənir. Buna görə də o, ailə tərbiyəsində sevgi, mərhəmət, anlayış, milli və dini dəyərlərə hörmət kimi prinsipləri əsas götürürdü.

Cavidin pedaqoji ideyalarının əsas qayəsi müəllim şəxsiyyətinin ucalığı ilə bağlıdır. O, müəllimi xalqın mənəvi dirəyi, maarifin daşıyıcısı, millətin gələcəyini formalaşdıran şəxs kimi qiymətləndirirdi. Onun fikrincə, müəllim yalnız bilik verən deyil, həm də əxlaq, mərhəmət, estetik zövq və vətənpərvərlik aşılayan tərbiyəçidir.

Cavid üçün müəllimlik peşə olmaqla yanaşı, mənəvi missiyadır – cəmiyyətin mənəvi səviyyəsini yüksəltmək, nəsilləri düşünən və yaradıcı fərdlər kimi yetişdirmək missiyası.

Bu ideya müasir pedaqogikanın əsas prinsipləri ilə – müəllimin şəxsiyyət yönümlü təlimdə aparıcı rolu və emosional-intellektual inkişafın vəhdəti prinsipləri ilə səsləşir.

Cavidin pedaqoji baxışları humanist, milli və idealist məzmun daşıyır. Onun əsərlərində tərbiyənin məqsədi "düzgün insan" yetişdirməkdir – yəni həm intellektual, həm də mənəvi cəhətdən kamil şəxs. Bu baxımdan o, "insaniyyət", "ədalət", "vətənpərvərlik" və "əxlaqi gözəllik" anlayışlarını pedaqoji kateqoriyaya çevirir.

Cavidin təlim-tərbiyə haqqında fikirləri milli köklərə söykənməklə yanaşı, Avropa humanizmi və Şərq fəlsəfəsinin sintezində də özünü göstərir.

Nəticə etibarilə, Hüseyn Cavidin pedaqoji görüşləri Azərbaycan pedaqoji fikir tarixində maarifçi romantizm mərhələsini təmsil edir. O, təhsili cəmiyyətin mənəvi dirçəlişinin başlıca vasitəsi kimi dəyərləndirmiş, müəllim və məktəbin rolunu bəşəri səviyyəyə yüksəltmişdir. Ümummilli lider heydər Əliyev Cavid irsinin öyrənilməsinin zəruriliyindən bəhs edərək deyirdi: *"Bizim hamımızın borcu, xüsusən müəllimlərin məktəblilərin, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Hüseyn Cavidin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə. Məktəblərdə Hüseyn Cavidin əsərləri xüsusi yer tutmalıdır. ...Çünki, onun hər bir əsərində bir dünya var və bu barədə bizim müəllimlərimizin üzərinə çox böyük vəzifə düşür"*(kernis et., 2022).

Məhəmməd Hadi (1879–1920) Azərbaycan romantizminin aparıcı nümayəndələrindən olmaqla yanaşı, həm də xalq maarifçiliyi hərəkatının fəal təmsilçilərindən biri idi. O, XX əsrin əvvəllərində Azərbaycanda formalaşan yeni ictimai fikir dalğasında maarifi milli tərəqqinin və mənəvi azadlığın əsas şərti kimi dəyərləndirmişdir. Məhz "Şərqlə Qərbin müqayisəsi" əsərində qərbdə elm və tərəqqisi, şərqin isə cəhalət girdabında boğulması onun qəlbini sızladır, vətəninin acı taleyi onu dərindən sarsıdırdı (Hadi, I c, 1978).

Şairin "Həyat" qəzetində, "Təzə həyat", "Füyuzat" jurnalındakı publisistik çıxışlarında o dövrün ən mühüm ideoloji problemi – xalqın gerilikdən xilas yolları – maarif və təhsil vasitəsilə izah edilir. Hadiyə görə, maarif xalqı əsarətdən, nadanlıqdan və cəhalətdən qurtaracaq ən böyük

mənəvi qüvvədir. Onun bu baxışı aşağıdakı fikrində aydın ifadə olunur:

"Elm insanı zülmətdən nur aləminə çıxaran yeganə qüvvədir."

Bu fikir Hadi düşüncəsində maarifin həm təhsil, həm də mənəvi və milli azadlıq forması olduğunu göstərir. O, elm və tərbiyəni insanın daxili inqilabının, düşüncə azadlığının və şəxsiyyətin formalaşmasının əsası kimi təqdim edir. Hadi poeziyasında və publisistikasında elmin, mədəniyyətin və tərbiyənin insanı kamilliyə aparan yeganə vasitə olduğunu vurğulayırdı.

Hadi qadın təhsilinin tərəfdarı kimi də dövrünün qabaqcıl ideoloqlarından biri idi. Hadi də Cavid kimi millətin tərəqqisini qadının maariflənməsində görürdü. O, cəmiyyətin islahı üçün ailənin, ailənin islahı üçün isə qadının maariflənməsini əsas şərt sayırdı. Hadi yazırdı ki, "qadın anadır, millətin gələcəyidir; o, nadandırsa, gələcək də nadan olacaqdır." Bu fikir romantik, lakin realist bir pedaqoji fəlsəfəni ifadə edir – yəni təhsil milli dirçəlişin başlanğıcıdır.

Məhəmməd Hadinin pedaqoji görüşlərində müəllim obrazı xüsusi yer tutur. O, müəllimi cəmiyyətin "zülmətinə işıq gətirən fədai", "insan ruhunun memarı" kimi təqdim edir. Hadinin müəllim ideyası bilik ötürən bir şəxs olmaqla yanaşı, eyni zamanda milli şüuru formalaşdıran, mənəvi dəyərləri aşılayan bir rəhbəri təsvir edir. Bu baxımdan Hadi müəllimi həm maarifçi, həm də ideoloji lider kimi dəyərləndirir.

Onun "Tərbiyə" mövzusunda qələmə aldığı məqalələrdə mənəvi tərbiyə, əxlaq, vətənpərvərlik və ictimai məsuliyyət prinsipləri ön plana çəkilir. Hadi dini fanatizmin və köhnə ənənələrin tənqidini aparır, dünyəvi elmlərin öyrədilməsini, milli dildə təhsilin inkişafını tələb edirdi.

Bütün bu baxışlar göstərir ki, Məhəmməd Hadi pedaqoji və maarifçilik ideyalarında həm romantik humanizmin, həm də müasir dünyəvi təfəkkürün daşıyıcısı idi. O, Qərb maarifi ilə Şərq cəhalətinin müqayisəsini apararaq xalqını milli oyanışa səsləyirdi. Hadi üçün təhsil fərdi inkişaf olmaqla yanaşı, həm də milli varlığın qorunması və gələcəyin qurulması vasitəsidir.

Abdulla Şaiq (1881–1959) həm yazıçı, həm də uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuş maarif xadimidir. O, romantik idealizmlə realist didaktikanı birləşdirərək uşaq tərbiyəsi və mənəvi kamillik ideyasını irəli sürür.

Şaiq hesab edirdi ki, uşaq tərbiyəsinin əsas məqsədi vətənə məhəbbət, insanpərvərlik və əməyə hörmət hislərini formalaşdırmaqdır. Abdulla Şaiq uşaqlar üçün yazdığı əsərlərini onların yaşına, mənəvi aləminə, dünyagörüşünə və bədii zövqünə uyğun qələmə alırdı. Onun bu mövzuda yazıb-yaratdığı əsərləri ədəbi mükəmməlliyi və əxlaqi tərbiyəvi cəhətdən böyük əhəmiyyət daşıyır. O, uşaqların təlim prosesində oyun, yaradıcılıq və müstəqil düşüncə kimi metodları dəstəkləyirdi ki, bu da müasir pedaqogikanın əsas prinsipləri ilə uyğunluq təşkil edir.

Onun "Oyan, oğlum!" şeirində məktəb və təhsil cəmiyyətin tərəqqisinin əsas şərti kimi təqdim olunur. Abdulla Şaiq elm və bilik əldə etməyin insanı yüksəldən, onu kamilləşdirən əsas vasitə olduğunu vurğulayır. Şairin fikrincə, yalnız məktəb və maarif yolu ilə uşaqların düzgün dünyagörüşü qazana, xalq isə azad və müstəqil gələcəyə doğru irəliləyə bilər. Bu ideya dövrün ictimai-siyasi reallıqları ilə üst-üstə düşür və maarifçi ədəbiyyatın əsas prinsiplərini əks etdirir.

"Əsrimizə xitab" əsəri Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərində formalaşan milli və humanist ideyaların ifadəsi baxımından əhəmiyyətli yer tutur və gənc nəslin mənəvi tərbiyəsində mühüm rol oynayır (Şaiq, II c, 2005).

"Vətəni sevməyən insan olmaz, olsa da, ol şəxsdə vicdan olmaz" sözlərinin müəllifi Abbas Səhhət Azərbaycan xalqının bədii təfəkkürünə güclü təsir göstərib Azərbaycan şeirinə yeni ideyalar gətirən görkəmli romantik şairlərimizdən biridir. Maarifçilik pedaqoji fəaliyyəti ilə müxtəlif tədqiqatların probleminə çevrilən Abbas Səhhət yaradıcılığı (1874–1918) mühitin ümumi mənzərəsini, hərəkatın mədəni xarakter və mahiyyətini aydınlaşdırmaq üçün ən əsaslı mənbələrdəndir. O, romantik poeziyanın, həm də pedaqoji poeziya janrının banilərindən sayılır. Abbas Səhhət istedadlı bir müəllim kimi yeni üsullu tədrisi ana dilində olan məktəblərin açılması, dərsliklərin tərtibi, təlim-tərbiyə məsələlərinin təşkili, Şərq və Qərb mədəniyyətinin xalqa təbliğ edilməsində özünəməxsus xidmətlər göstərmişdir.

Abbas Səhhətin özünəməxsus orijinal üslubu vardır. O, özünü uşaqlara öyüd-nəsihət verən biri kimi deyil, yaxın yoldaş, tərbiyəçi kimi təqdim edir. Şair uşağa yanaşmağı bacarır, onun ürəyinə toxuna bilir.

Onun yaradıcılığında elm, təhsil və mədəniyyətin insanı yüksəldən gücü tərənnüm olunur: "Məktəb insanın beşiyidir, elm insanın həyat nurudur."

Abbas Səhhətin "Məktəb şagirdi" şeiri təhsil və maarifin vətənin xilasında həlledici rol oynadığını bədii şəkildə ifadə edir. Şair məktəbliyə ünvanlanan bu çağırışla cəmiyyətin gələcəyinin elmlə silahlanmış gənclərdən asılı olduğunu vurğulayır (Seçilmiş əsərləri, 2019).

Səhhət maarifi milli özünüdərkin və mənəvi dirçəlişin əsas şərti kimi qəbul edir.

O, şeirlərində və məqalələrində müəllimi "xalqın ruh həkimi", "tərbiyə işığında bəşəriyyətin nicatı" adlandırır.

Səhhətin pedaqoji fikirlərində təhsil bərabərliyi, qızların savadlanması, elmin milliləşdirilməsi kimi ideyalar üstünlük təşkil edir.

Onun təbliğ etdiyi "yeni məktəb" ideyası dövrün qabaqcıl pedaqoji cərəyanları Avropa humanizmi və rus maarifçiliyi ilə səsləşirdi.

Azərbaycan romantiklərinin pedaqoji baxışları bir-birini tamamlayaraq bütöv milli pedaqoji konsepsiya yaradır:

- Maarif – milli tərəqqinin əsasıdır.
- Tərbiyə – mənəvi kamilliyin yoludur.
- Müəllim – xalqın rəhbəri və mənəvi dayağıdır.
- Qızların təhsili – cəmiyyətin inkişafının zərurətidir.

Bu ideyalar müasir pedaqogikanın humanist və milli dəyərlərinə tam uyğun gəlir.

Bu baxımdan, Hüseyn Cavidin, Məhəmməd Hadinin, Abdulla Şaiqin və Abbas Səhhətin pedaqoji görüşləri Azərbaycan təhsil sisteminin ideya-fəlsəfi bazisini təşkil edən mühüm mənəvi irsdir.

Azərbaycan romantikləri maarif və tərbiyə ideyalarını milli mədəniyyətin dirçəldilməsi ilə əlaqələndirərək pedaqoji romantizm məktəbi formalaşdırmışlar. Onların əsərləri göstərir ki, cəmiyyətin tərəqqisi yalnız məktəb və müəllimlə mümkündür.

Bu fikir bu gün də aktuallığını itirmir: təhsil mənəviyyatla, bilik əxlaqla, müəllim şəxsiyyəti isə milli idealla birləşməlidir.

Romantiklərin pedaqoji baxışları müasir Azərbaycan təhsil fəlsəfəsi üçün ideya mənbəyidir və milli kimliklə qlobal humanizm prinsiplərinin harmonik birliyini təmin edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Cavid. H.(2007). Əsərləri. Beş cilddə, V c, Bakı, Elm.

2. Cavid. H.(2007). Əsərləri. Beş cilddə, I c, Bakı, Elm.

3. Hüseynzadə. R. (2022); Mahmudov. V. (2022); Hüseynova. N. (2022); Mahmudova. N. (2022); Hüseynova. G. (2022); Ağabəyov .C. (2022); Aslanov. Z. (2022). Pedaqoji prosesdə situasiyalar, metodlar, öyüd və nəsihətlərdən istifadə. Bakı. Müəllim.

4. Camalov.K. (2020). ELMİ ƏSƏRLƏR № 2(60), Naxçıvan, Məktəb.

5. Hadi.M. (1978). Seçilmiş əsərləri. İki cilddə, I c, Bakı, Elm.

6. Şaiq.A. (2005). Seçilmiş əsərləri. Üç cilddə, II c, "Avrasiya Press", Bakı.

7. Səhhət. A. (2005). Seçilmiş əsərləri. Bakı, Lider.(Klassik Azərbaycan Ədəbiyyatı)

DOİ: 10.32010/BGZI2564

ÖYRƏNMƏ MODELLƏRİNİN TƏTBİQİNDƏ MÜƏLLİMİN ROLU

Nərmin Rizvan HƏSƏNLİ
Bakı Dövlət Universiteti, doktorant
ORCİD: 0009-0003-2276-3957
E-mail: aliyevanermin11@gmail.com

Xülasə: Məqalədə müasir təhsil sistemində öyrənmə modellərinin tətbiqinin müəllim roluna necə təsir etdiyi araşdırılır. Xüsusilə VARK modeli əsasında fərqli öyrənmə tərzlərinin nəzərə alınması, müəllimin təlim prosesindəki vəzifəsini dəyişdirir və daha çox koordinator, fasilitator və fərdiləşdirilmiş öyrənmə dizayneri rolunu üzərinə götürməsini tələb edir. Ənənəvi yanaşmada müəllim əsas bilik mənbəyi kimi çıxış edirdisə, bu gün süni intellekt və öyrənmə alətləri şagirdlərə faktiki məlumatı təqdim etmək imkanına malikdir. Bu dəyişiklik müəllimi yalnız "nə" sualına deyil, "niyə" və "necə" suallarına cavab axtaran bir pedaqoji lider halına gətirir. Müəllim, fərdi öyrənmə ehtiyaclarını müəyyən edir, tədris prosesini fərdiləşdirir və texnologiyanın təqdim etdiyi məlumatları mənalı təlim strategiyalarına çevirir. Nəticədə, öyrənmə modelləri müəllimi əvəz etmir, onu gücləndirir və sinifdəki rolunu daha strateji və mənalı hala gətirir. Gələcəyin uğurlu təhsili, texnologiyanın imkanları ilə müəllimin müdrikliyinin harmonik birləşməsində formalaşacaqdır.
Açar sözlər: Öyrənmə modeli, VARK, müəllimin rolu, fasilitator, fərdi yanaşma, kinestetik

---

РОЛЬ УЧИТЕЛЯ В ПРИМЕНЕНИИ МОДЕЛЕЙ ОБУЧЕНИЯ

Нармин Ризван ГАСАНЛЫ
Бакинский государственный университет

Резюме: В статье исследуется, как применение моделей обучения в современной системе образования влияет на роль учителя. В частности, рассматривается, как учет различных стилей обучения на основе модели VARK изменяет обязанности преподавателя в учебном процессе, требуя от него исполнения ролей координатора, фасилитатора и дизайнера персонализированного обучения. В традиционном подходе учитель выступал основным источником знаний, однако сегодня такие инструменты, как искусственный интеллект и образовательные технологии, предоставляют учащимся доступ к фактической информации напрямую. Эти изменения превращают учителя в педагогического лидера, который помогает находить ответы не только на вопрос «что», но и на «почему» и «как». Учитель определяет индивидуальные потребности обучающихся, адаптирует учебный процесс и преобразует предоставляемую технологией информацию в осмысленные стратегии обучения. В результате модели обучения не заменяют учителя, а усиливают его роль, делая её более стратегической и значимой. Успешное образование будущего будет сформировано на основе гармоничного сочетания технологических возможностей и педагогической мудрости.
Ключевые слова: модель обучения, VARK, роль учителя, фасилитатор, индивидуальный подход, кинестетика.

THE ROLE OF THE TEACHER IN THE IMPLEMENTATION OF LEARNING MODELS

Narmin Rizvan HASANLI
PhD student, Baku State University

Abstract: This article explores how the application of learning models in modern education affects the role of the teacher. Specifically, it examines the impact of considering different learning styles based on the VARK model, which reshapes the teacher's role in the instructional process. Rather than acting as the sole source of knowledge, the teacher today is expected to function as a coordinator, facilitator, and designer of personalized learning. While in traditional approaches the teacher was the main provider of factual information, modern tools such as artificial intelligence and digital learning platforms now grant students direct access to content. This transformation redefines the teacher's function into that of a pedagogical leader who not only addresses the "what" but also the "why" and "how" of learning. Teachers identify individual learning needs, personalize instruction, and convert the information offered by technology into meaningful learning strategies. Ultimately, learning models do not replace the teacher — they empower them, making their role in the classroom more strategic and impactful. The success of future education will lie in the harmonious integration of technological possibilities with the wisdom of the teacher.
Keywords: Learning model, VARK, teacher's role, facilitator, personalized learning, kinesthetic.

Giriş

Artıq XXI əsrdən başlayaraq təhsil sistemi köklü şəkildə dəyişməyə başladı. Süni intellekt, fərdiləşdirilmiş öyrənmə alətləri və müxtəlif pedaqoji modellər artıq sinif otaqlarının daimi üzvünə çevrilib. Bəs belə bir zamanda müəllimin rolu necə dəyişir? Əgər əvvəl müəllim yanlız bilik verən idisə, bu gün o, öyrənmə prosesinin memarı və idarəedicisidir.

Müasir təhsil mühiti süni intellekt və öyrənmə modelləri kimi inqilabi texnologiyaların təsiri altında köklü dəyişikliklər yaşayır. Ənənəvi sinif otaqlarının divarları virtual məkanlara doğru genişlənir, bilik əldə etmə prosesi isə avtomatlaşdırılmış və fərdiləşdirilmiş sistemlərin rəhbərliyi ilə həyata keçirilir. Bir neçə onillik əvvəl müəllimin əsas rolu məlumatı ötürmək və biliyi qiymətləndirmək idisə, bu gün böyük dil modelləri (LLM) və süni intellekt (Aİ) sistemləri məlumatı təhsilalanlara anında, maksimum dəqiqlikdə və onların fərdi tempinə uyğun çatdırmağa qadirdir.

Öyrənmə modelləri sinifdə üstünlük təşkil etməyə başladıqda müəllimin rolu nə olmalıdır? Məqalənin əsas məqsədi, məhz bu transformasiyanı təhlil etmək və müasir modellərin aktiv tətbiqi şəraitində müəllimin vəzifəsinin məlumat ötürücüsü olmaqdan koordinator, fasilitator, etik bələdçi və kritik düşüncə təşviqçisi olmaya doğru necə dəyişdiyini əsaslandırmaqdır. Texnologiya ilə idarə olunan gələcəkdə müəllim biliyin deyil, biliyi necə istifadə etməyi öyrədən mərkəzi fiqura çevrilməlidir.

Bu ayrılış müəllimə daha yüksək səviyyəli pedaqoji vəzifələrə fokuslanmaq imkanı yaradır. Əgər müasir üsullar və texnologiyalar "nə" sualına (faktlar və məlumatlar) cavab verirsə, müəllim "niyə" və "necə" suallarına (tətbiq, təhlil və sintez) yönəlməlidir.

Metod və material

Bu məqalə müasir dövrdə əsas yer tutan təhsilalanların fərqli öyrənmə xüsusiyyətlərinə əsasən onlarda öyrənməni asanlaşdırmaq üçün müəllimin rolunu araşdırmaqdan ibarətdir. Əsas məlumatlar xarici və yerli ədəbiyyatlardan istifadə olunaraq hazırlanmışdır. Burada istifadə olunan xarici mənbələrə Fleming, Anderson, Fullan, yerli mənbələrə isə N.Seyfullayeva, O.Alxasov, N.Eldarov və başqa müəllifləri misal göstərmək olar. Bundan başqa, yerli və xarici məqalələrdən də istifadə olunmuşdur.

Müzakirə və təhlil

Müəllim – fərdiləşdirmənin memarı kimi adlandırmaq mümkündür. Öyrənmə modellərinin bəlkə də ən böyük töhfəsi hər bir şagirdin öyrənmə tempini, modelini və ehtiyaclarını izləyərək fərdi öyrənmə yollarını təklif etmək qabiliyyətidir. Müasir texnologiyalar şagirdin hansı mövzularda çətinlik çəkdiyini, hansı məlumatları tez mənimsədiyini və ən yaxşı hansı formatda (vizual, yazılı, interaktiv və s.) öyrəndiyini dəqiq təhlil edə bilir. Müəllim müasir texnologiyaların topladığı məlumatları emosional və pedaqoji kontekstdə şərh edir. Yəni, modelin müəyyən etdiyi çatışmazlığın səbəbinin diqqətsizlik, motivasiya çatışmazlığı, yoxsa sadəcə bir boşluq olduğunu yalnız müəllim müəyyən edə bilər. Müəllim fərdi öyrənmə planlarını tərtib edir, zəifliklərı aradan qaldırmaq üçün əlavə dəstək proqramları yaradır və ya güclü tərəfləri inkişaf etdirmək üçün daha mürəkkəb tapşırıqlar təklif edir. Beləliklə, müəllim eyni anda 30 şagirdə eyni məlumatı çatdırmaq əvəzinə, 30 fərqli şagirdə fərdi diqqət göstərən bir strategiyaçıya çevrilir. Bu metod müəllimin təhsil sistemində dəyişən yerini praktiki və nəzəri baxımdan qiymətləndirməyə imkan verir. Öyrənmə modellərinin təhsilə gətirdiyi ən böyük inqilab, güman ki, təlim prosesinin fərdiləşdirilməsi potensialıdır (Bandura, 1977). Ənənəvi sinifdə müəllim məcburən ortalama bir təhsilalan üçün hazırlanmış vahid tədris planına əməl edirdi ki, bu da yüksək potensiallı şagirdlərin ləngiməsinə və çətinlik çəkənlərin isə geri qalmasına səbəb olurdu. Süni intellekt və öyrənmə modelləri bu məhdudiyyəti aradan qaldırır: onlar hər bir şagirdin öyrənmə tempini, bilik səviyyəsini, güclü və zəif tərəflərini real zamanda analiz edərək, ona uyğun fərdi öyrənmə yollarını avtomatik təklif edə bilir. Ancaq bu texnoloji imkanın maksimum səmərə ilə reallaşması hələ də müəllimin intellektual və emosional rəhbərliyini tələb edir. Müasir texnologiya və süni intellekt nə qədər çox məlumat toplasa da, o məlumatların kökündə yatan insani səbəbləri anlamaqda acizdir. Məsələn, bir model şagirdin coğrafiya fənni üzrə tapşırıqlarında ardıcıl olaraq uğursuzluq nümayiş etdirdiyini müəyyən edə bilər, lakin bu uğursuzluğun səbəbini motivasiya əskikliyi, diqqət pozğunluğu, emosional stress və ya sadəcə bir bazada böyük boşluq olmasını yalnız şagirdi ilə şəxsi əlaqəsi olan müəllim dəqiq təyin edə bilər. Müəllimin vəzifəsi təhsilalanlar üçün ən uyğun olan diferensial təlim strategiyasını tərtib etməkdir (Məmmədova S. (2020)). Bu transformasiyanın mərkəzində duran əsas suallardan biri budur: Yeni öyrənmə modelləri sinfə daxil olduqda müəllimin rolu nə olur və necə dəyişməlidir? Müəllimin dəyişən rolu – fərdiləşdirmənin memarı, öyrənmə mühitinin fasilitatoru, təhlil və tətbiq bacarıqlarının inkişaf etdiricisi, etik və sosial lider kimi qiymətləndirilir.

Müəllim nisbətən büdrəmələri olan şagirdlərə texnologiyalar tərəfindən əlavə təkrarlama materialları və ya fərqli izahat formatları təyin edə

bilər. Eyni zamanda, dərsi tez və asan mənimsəyən şagirdlər üçün isə daha mürəkkəb, zənginləşdirilmiş tapşırıqları (məsələn, layihə əsaslı tədqiqat) seçir və təsdiqləyir. Müəllim fərdiləşdirmənin tətbiqi üçün sinifdə kiçik qruplar yarada bilər. O, eyni anda müxtəlif mənimsəmə üslublarına malik olan şagirdlərlə işləyə bilmək üçün müasir texnologiyaların köməyi ilə tədris materiallarını bölüşdürür və öz vaxtını birbaşa fasilitatorluğa daha çox sərf edir.

Fərdiləşdirmənin ən vacib insani tərəfi qiymətləndirmənin formalaşdırıcı roludur. Müəllim təhsilalanların fərdi irəliləyişini təqdir edir, ona uğursuzluqdan dərs almağı öyrədir və öz öyrənmə yoluna görə məsuliyyət daşımağa təşviq edir. Bu, öyrənməni sadəcə bir texniki prosesdən şəxsi inkişaf səyahətinə çevirir. Öyrənmə modelləri nə qədər effektiv olsa da, onlar şagirdlərə məlumatı necə təhlil etməyi, qiymətləndirməyi və müxtəlif mənbələri sintez etməyi öyrədə bilməz. Müəllimin rolu sinifdəki bilik mühitini koordinasiya etmək və şagirdlərin passiv məlumat qəbuledicisi yox, aktiv iştirakçılar olmasına fasilitasiya etməkdir. Beləliklə, öyrənmə modelləri müəllimi faktiki bilikləri diktə etmək məcburiyyətindən azad edir, onun rolunu isə biliyin fərdi, dərin və mənalı şəkildə mənimsənilməsini təmin edən bir pedaqoji lider səviyyəsinə yüksəldir. Müəllim fərdiləşdirmənin ürəyidir; o, texnologiyanın soyuq məlumatını götürərək onu tələbənin fərdi ehtiyaclarına uyğun isti və effektiv təlim proqramına çevirir. Müəllim diskussiyalar təşkil edir və təhsilalanları çətin suallar vasitəsilə cavabları özləri tapmağa sövq edir. Fasilitator olaraq müəllim düz cavab vermək əvəzinə, şagirdləri müxtəlif yolları sınaqdan keçirməyə, fərqli baxış bucaqlarını müqayisə etməyə və bilikləri həyatdakı real problemlərə tətbiq etməyə təşviq edir. Beləliklə, sinif otağı statik mühazirə salonundan dinamik tədqiqat laboratoriyasına çevrilir. Yuxarıda vurğulanan müəllimin rolunu VARK modelinin tətbiqində nəzərdən keçirək. VARK öyrənmə tərzlərini izah edən sadə və praktik bir modeldir. Bu modelə görə, təhsilalanlar məlumatı dörd əsas şəkildə qavrayırlar: a)Visual (V) - görmə, b)Aural (A) -eşitmə, c)Read/Write (R) - oxuma/yazma, və d)Kinesthetic (K) - hərəkət/təcrübə ilə öyrənmə (Vygotsky, L. S. (1978)).

VARK modelində müəllimin rolunu aşağıdakı şəkildə mərhələli izah edilə bilər.

1)Şagirdlərin öyrənmə tərzlərini müəyyənləşdirmək- Şagirdlərin öyrənmə tərzlərini müəllim əvvəlcə sinifdəki şagirdlərin hansı VARK tərzinə üstünlük verdiyini müşahidə və ya sorğularla müəyyənləşdirir. Bu, fərdi yanaşmanı təmin etməyə kömək edir;

2)Dərsləri fərqli öyrənmə tərzlərinə uyğunlaşdırmaq- Müəllim dərslik və materialları VARK tərzlərinə uyğun planlayaraq şagirdlərin hər birinin effektiv öyrənməsini təmin edə bilər. Aşağıdakı cədvəldə buna aid nümunə göstər ilmişdir.

Cədvəl 1.

VARK modelinə aid öyrənmə cədvəli

Təhsilalanların öyrənmə tərzi	**Təhsilalan necə öyrənir**	**Müəllim təhsilalana necə dəstək ola bilər**
Görmə	Şəkillər, sxemlər, qrafiklər, rənglər vasitəsilə	Diaqramlar, xəritələr, rəngli təqdimatlar hazırlayır
Eşitmə	Dinləyərək, müzakirə edərək	Mühazirələr, sual-cavab, qrup müzakirələri təşkil edir
Oxuma/Yazma	Mətn oxuyaraq, qeyd edərək	Məqalələr, qeydlər, yazılı tapşırıqlar verir
Kinstetik	Praktik edərək, toxunaraq, hərəkətlə	Təcrübələr, layihələr, rol oyunları, səhnələşdirmələr istifadə edir

3) Diferensial tədris - Müəllim dərsi elə qurur ki, hər bir öyrənmə tərzinə uyğun imkanlar olsun. Məsələn, bir dərsdə həm vizual təqdimat, həm müzakirə, həm də praktik fəaliyyət ola bilər.

4)Motivasiya və maraq yaratmaq - Şagird öz öyrənmə tərzinə uyğun yanaşma ilə dərsdə daha fəal iştirak edir. Müəllim bunu bildikdə, şagirdi daha yaxşı motivasiya edə və potensialını ortaya çıxara bilər.

5)Qiymətləndirməni fərdiləşdirmək- Müəllim qiymətləndirmə zamanı müxtəlif üsullar tətbiq edə bilər. Bunlara misal olaraq, testlər (oxuma/yazma), şifahi cavablar (eşitmə), poster/layihə (vizual), praktik tapşırıqlar (kinestetik).

Sonda müəllim VARK modelinin tətbiqində müəllim - şagirdlərin fərdi öyrənmə tərzlərini nəzərə alır, tədris metodlarını uyğunlaşdırır, dərsə marağı artırır, fərdi yanaşma ilə nəticəni gücləndirir.

Öyrənmə modelləri biliyi təklif edə bilər, lakin dəyərləri, empatiyanı və mənəvi baxış bucağını öyrədə bilməz. Öyrənmə modellərinin sinifə inteqrasiyası müəllimlərdən yeni bacarıqlar və biliklər tələb edir. Bu transformasiyanın uğurlu olması üçün müəllimlərə sistemli dəstək və peşəkar inkişaf imkanları təmin edilməlidir.

Texnologiyaların təsirinin gücləndiyi bu dövrdə müəllimin sosial və əxlaqi lider kimi rolu hər zamankından daha kritikdir. Bu fəaliyyət üç əsas istiqaməti əhatə edir:

Rəqəmsal vətəndaşlıq- Müəllim şagirdlərə süni intellektin yaratdığı məzmunun müəllif hüquqları, məlumatların məxfiliyi və sosial media etikası haqqında rəhbərlik edir.

Sosial-emosional öyrənmə- Süni intellekt fərdi öyrənməni dərinləşdirsə də, fiziki əlaqə və emosional inkişafı təmin edə bilməz. Müəllim əməkdaşlığı, qrup işini, mübahisələri həll etməyi və başqalarının fikirlərinə hörmət etməyi öyrədir. Müəllim sinifdəki təhlükəsiz və dəstəkləyici mühitin təminatçısıdır.

Həyati məqsədlər- Müəllim şagirdlərin motivasiyasını artırır, onlara böyük məqsədlər qoymağa kömək edir və texnologiyadan kənarda qalan insani aspektləri (yaradıcılıq, duyğular, estetik zövq) qiymətləndirməyə təşviq edir. Bu, müəllimi gələcəyin hərtərəfli və məsuliyyətli vətəndaşlarını formalaşdıran yeganə emosional körpü edir.

Əgər öyrənmə modelləri avtomatik olaraq faktiki suallara cavab verə bilirsə, ənənəvi imtahanlar və ev tapşırıqları mənasını itirir. Bu vəziyyət, müəllimin qiymətləndirmə üsullarını tamamilə dəyişdirməyini tələb edir. Müəllimin rolu, artıq nə qədər biliyə sahib olduğunu deyil, biliyi nə qədər effektiv tətbiq etdiyini ölçməkdir. Yeni qiymətləndirmə strategiyasının əhatə etməli olduğu məqamlara layihə əsaslı öyrənmə (PBL), prosesin qiymətləndirilməsi və ətraflı insan rəyi aiddir.

Qiymətləndirmə real həyat ssenarilərinə, mürəkkəb layihələrə və yaradıcı həll yollarına fokuslanmalıdır.

Prosesin qiymətləndirilməsi nəticə ilə yanaşı, müəllim və şagirdin problemin həlli yolunda tənqidi düşüncə mərhələlərini, müasir texnologiya alətlərindən istifadə strategiyasını və komanda daxilindəki əməkdaşlığını qiymətləndirməlidir.

Ətraflı insan rəyi dedikdə, müəllimin verdiyi rəy daha dərin, motivasiyaedici və kontekstualdır. Müəllim təhsilalanın fərdi inkişafını, emosional vəziyyətini nəzərə alaraq, onları daha yüksək səviyyəli nailiyyətlərə yönləndirir. Beləliklə, müəllim qiymətləndirici olmaqdan çıxıb, qiymət verən və inkişaf etdirən bir mütəxəssisə çevrilir.

Nəticə

Nəticədə, müəllim öyrədən şəxs olaraq qalmalıdır. Texnologiya inkişaf etdikcə, müəllim də özünü davamlı olaraq inkişaf etdirməli, yeni alətləri sınaqdan keçirməli və tədris metodlarını müasir tələblərə uyğunlaşdırmalıdır. Beləliklə, öyrənmə modellərinin sinfə uğurla inteqrasiyası yalnız güclü pedaqoji liderliyə sahib müəllimlə mümkündür. Təhsil gələcəyi məhz texnologiya ilə empatik və etik müəllim arasında qurulan körpüdə inşa ediləcəkdir.

Öyrənmə modellərinin təhsilə sürətli inteqrasiyası təhsil sistemindəki ən böyük transformasiyalardan birini təmsil edir. Bu məqalədə araşdırılan əsas tezis, müəllimin rolunun bilik ötürməkdən kritik düşüncəni, etik tətbiqi və fərdi inkişafı idarə edən koordinatorluğa doğru dəyişməsidir. Yəni, müəllim artıq biliyin əsas mənbəyi yox, biliyi idarə edən mütəxəssisdir, fokus kütləvi təlimdən fərdiləşdirilmiş öyrənmə yollarına yönəlib və qiymətləndirmə faktiki bilikdən tətbiqi bacarıqlara və layihə əsaslı həllərə keçid edir.

ƏDƏBIYYAT SIYAHISI:

1. Alxasov O. (2013). Coğrafiyanin tədrisi metodikası, Elm və təhsil nəşriyyatı
2. Bandura, A. (1977). Social learning theory. Prentice Hall.
3. Bruner, J. S. (1966). Toward a theory of instruction. Harvard University Press.
4. Fleming, N. D., & Mills, C. (1992). Not another inventory, rather a catalyst for reflection. To Improve the Academy, s 137–155.
5. Hüseynov. E. (2019). Müasir təlim modellərində müəllimin fəaliyyət istiqamətləri. Təhsil və Zaman, s. 33–40.
6. Məmmədova S. (2020). Konstruktiv təlim modelində müəllimin rolu. Azərbaycan məktəbi, s. 45–50.
7. Qasımova N. (2018). Kurikuluma əsaslanan təlimdə müəllimin rolu. Azərbaycan Müəllimi qəzeti.
8. Siemens G. (2005). Connectivism: A learning theory for the digital age. International Journal of Instructional Technology and Distance Learning, s. 3–10.
9. Vygotsky, L. S. (1978). Mind in society: The development of higher psychological processes. Harvard University Press.

DOİ: 10.32010/CJND7824

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN SOSİALLAŞMASINDA TEXNOLOGİYANIN ROLU

Elmira Vahid HƏSƏNOVA
ADPU, doktorant
Orcid: 0009-0002-6285-6878
E-mail: elmirahesenova3098@gmail.com

Xülasə: Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı ibtidai sinif şagirdlərinin sosial həyatına və ünsiyyət mədəniyyətinə güclü təsir göstərir. Texnologiyanın tədris prosesinə inteqrasiyası, şagirdlərin sosial bacarıqlarının formalaşması və ünsiyyət sferasında inkişafı üçün mühüm vasitə rolunu oynayır. Rəqəmsal platformalar, interaktiv təlim proqramları və onlayn layihə işləri şagirdlərin həm sinif daxilində, həm də sinifdən kənar ünsiyyət imkanlarını artırır. Virtual qruplar və təlim oyunları uşaqlarda əməkdaşlıq, komanda işi və məsuliyyət hissini inkişaf etdirir. Bu, onların sosial mühitə uyğunlaşmasını və yeni dostluq əlaqələri qurmasını asanlaşdırır. Texnologiyanın istifadəsi nəticəsində şagirdlər fərqli mədəniyyət və dillərlə tanış olur, bu da onların tolerantlıq və mədəniyyətlərarası ünsiyyət bacarıqlarını gücləndirir. Elektron məktəb platformaları, videokonfranslar və beynəlxalq uşaq layihələri bu istiqamətdə mühüm rol oynayır. Multimedia təqdimatları, rəqəmsal rəsmlər, animasiya və bloq yazıları şagirdlərin öz maraqlarını sərbəst ifadə etməsinə və yaradıcılıq qabiliyyətini inkişaf etdirməsinə şərait yaradır. Bu, özünəinamın və liderlik bacarıqlarının formalaşmasına müsbət təsir edir. Texnologiyanın həddindən artıq istifadəsi diqqət dağınıqlığı, asılılıq, ünsiyyət bacarıqlarının zəifləməsi və sosial təcrid kimi mənfi nəticələr doğura bilər. Buna görə valideynlərin və müəllimlərin nəzarəti, texnologiyanın düzgün və məqsədyönlü tətbiqi vacibdir. Müasir dövrdə texnologiya uşaqların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilmişdir. İbtidai sinif şagirdləri üçün rəqəmsal qurğuların tədris və asudə vaxt fəaliyyətlərində geniş istifadəsi onların sosial və intellektual inkişafına mühüm imkanlar yaratsa da, nəzarətsiz və həddindən artıq istifadə ciddi risklər də doğurur. Bu risklərə diqqət dağınıqlığı, texnoloji asılılıq, real ünsiyyət bacarıqlarının zəifləməsi və sosial təcrid halları daxildir. Risklərin qarşısını almaq və balansı qorumaq üçün valideynlərin, müəllimlərin və məktəb rəhbərliyinin aktiv nəzarəti, sağlam vaxt idarəçiliyi və texnologiyanın məqsədyönlü tətbiqi mühüm əhəmiyyət daşıyır. Bu yanaşma həm şagirdlərin psixoloji sağlamlığını, həm də onların sosiallaşma prosesində müsbət inkişafını təmin etməyə kömək edir. Beləliklə, texnologiyanın tədris mühitində faydalı rolunu qorumaqla yanaşı, mənfi təsirlərin azaldılması əsas hədəf kimi qarşıya qoyulmalıdır. İbtidai sinif şagirdlərinin sosiallaşmasında texnologiya həm imkan, həm də məsuliyyət yaradır. O, şagirdlərin ünsiyyət, əməkdaşlıq və mədəniyyətlərarası bacarıqlarını inkişaf etdirir, eyni zamanda valideyn və müəllim nəzarəti altında balanslı və təhlükəsiz istifadəyə ehtiyac duyur. Bu baxımdan texnologiyanın pedaqoji əsaslarla yönləndirilməsi, şagirdlərin həm sosial, həm də intellektual inkişafını dəstəkləyən əsas şərtlərdəndir.
Açar sözlər: ibtidai sinif, şagirdlərin sosiallaşması, texnologiyanın rolu, informasiya-kommunikasiya texnologiyaları (İKT), rəqəmsal təhsil

---

THE ROLE OF TECHNOLOGY IN THE SOCIALIZATION OF PRIMARY STUDENTS

Elmira Vahid HASANOVA
ADPU, PhD student
Orcid: 0009-0002-6285-6878
E-mail: elmirahesenova3098@gmail.com

Abstract: In modern times, the development of information and communication technologies (ICT) has a strong impact on the social life and communication culture of primary school students. The integration of technology into the educational process plays an important role in the formation of students' social skills and their development in the sphere of communication. Digital platforms, interactive training programs and online project work increase students' communication opportunities both inside and outside the classroom. Virtual groups and educational games develop cooperation, teamwork and a sense of responsibility in children. This makes it easier for them to adapt to the social environment and build new friendships. As a result of the use of technology, students become familiar with different cultures and languages, which strengthens their tolerance and intercultural communication skills. Electronic school platforms, video conferences and international children's projects play an important role in this direction. Multimedia presentations, digital drawings, animations and blog posts allow students to freely express their interests and develop their creativity. This has a positive effect on the formation of self-confidence and leadership skills. Excessive use of technology can lead to negative consequences such as distraction, addiction, weakening of communication skills and social isolation. Therefore, supervision by parents and teachers, as well as the correct and purposeful use of technology, are important. In modern times, technology has become an integral part of children's daily lives. Although the widespread use of digital devices in educational and leisure activities for primary school students creates important opportunities for their social and intellectual development,

uncontrolled and excessive use also poses serious risks. These risks include distraction, technological addiction, weakening of real communication skills and social isolation. Active supervision by parents, teachers and school administration, healthy time management and purposeful use of technology are of great importance in order to prevent risks and maintain balance. This approach helps to ensure both the psychological health of students and their positive development in the process of socialization. Thus, while maintaining the beneficial role of technology in the educational environment, reducing negative impacts should be set as the main goal. Technology creates both an opportunity and a responsibility in the socialization of primary school students. It develops students' communication, cooperation and intercultural skills, but at the same time requires balanced and safe use under the supervision of parents and teachers. In this regard, the pedagogical orientation of technology is one of the main conditions supporting both the social and intellectual development of students.
Keywords: primary school, socialization of students, role of technology, information and communication technologies (ICT), digital education.

РОЛЬ ТЕХНОЛОГИЙ В СОЦИАЛИЗАЦИИ МЛАДШИХ ШКОЛЬНИКОВ

Эльмира Вахид ГАСАНОВА
АДПУ, аспирант.
Orcid: 0009-0002-6285-6878
Электронная почта: elmirahesenova3098@gmail.com

Резюме: В современном мире развитие информационно-коммуникационных технологий (ИКТ) оказывает сильное влияние на социальную жизнь и культуру общения учащихся начальной школы. Интеграция технологий в образовательный процесс играет важную роль в формировании социальных навыков учащихся и развитии их коммуникативной сферы. Цифровые платформы, интерактивные обучающие программы и онлайн-проектная работа расширяют возможности общения учащихся как в классе, так и за его пределами. Виртуальные группы и развивающие игры развивают у детей навыки сотрудничества, командной работы и ответственности. Это облегчает им адаптацию к социальной среде и установление новых дружеских отношений. Благодаря использованию технологий учащиеся знакомятся с разными культурами и языками, что укрепляет их толерантность и навыки межкультурного общения. Важную роль в этом направлении играют электронные школьные платформы, видеоконференции и международные детские проекты. Мультимедийные презентации, цифровые рисунки, анимация и записи в блогах позволяют учащимся свободно выражать свои интересы и развивать творческие способности. Это положительно влияет на формирование уверенности в себе и лидерских качеств. Чрезмерное использование технологий может привести к таким негативным последствиям, как рассеянность, зависимость, ослабление коммуникативных навыков и социальная изоляция. Поэтому важен контроль со стороны родителей и учителей, а также правильное и целенаправленное использование технологий. В наше время технологии стали неотъемлемой частью повседневной жизни детей. Хотя широкое использование цифровых устройств в образовательной и досуговой деятельности для учащихся начальной школы создает важные возможности для их социального и интеллектуального развития, бесконтрольное и чрезмерное использование также несет серьезные риски. К этим рискам относятся рассеянность, технологическая зависимость, ослабление реальных коммуникативных навыков и социальная изоляция. Активный контроль со стороны родителей, учителей и администрации школы, здоровый тайм-менеджмент и целенаправленное использование технологий имеют большое значение для предотвращения рисков и поддержания баланса. Такой подход способствует как психологическому здоровью учащихся, так и их позитивному развитию в процессе социализации. Таким образом, сохраняя полезную роль технологий в образовательной среде, следует поставить во главу угла снижение негативного воздействия. Технологии создают как возможности, так и ответственность в социализации учащихся начальной школы. Они развивают у учащихся навыки общения, сотрудничества и межкультурного взаимодействия, но в то же время требуют сбалансированного и безопасного использования под контролем родителей и учителей. В связи с этим педагогическая направленность технологий является одним из основных условий, способствующих как социальному, так и интеллектуальному развитию учащихся.
Ключевые слова: начальная школа, социализация учащихся, роль технологий, информационно-коммуникационные технологии (ИКТ), цифровое образование

Giriş

Müasir cəmiyyətin inkişaf mərhələsində informasiya-kommunikasiya texnologiyaları (İKT) uşaqların gündəlik həyatına və təlim-tərbiyə prosesinə dərin şəkildə nüfuz etmişdir. İnnovativ texnologiyalar həyatın bütün sahələrində olduğu kimi, ibtidai sinif təhsili və şagirdlərin sosial inkişafı üçün də yeni imkanlar açır. Məktəbəqədər dövrdən başlayaraq rəqəmsal mühitdə böyüyən uşaqlar üçün texnologiyanın düzgün və məqsədyönlü istifadəsi artıq sadəcə təhsil aləti deyil, həm də sosiallaşma prosesinin aparıcı faktoruna çevrilmişdir. Bu baxımdan, texnologiyanın ibtidai sinif şagirdlərinin sosial münasibətlərinə, ünsiyyət bacarıqlarına və şəxsi inkişafına təsiri xüsusi elmi-pedaqoji diqqət tələb edir.

Texnologiyanın sosiallaşmaya müsbət təsiri çoxşaxəlidir. İnteraktiv tədris proqramları, rəqəmsal təhsil platformaları, onlayn layihələr və virtual qrup işləri uşaqlar arasında əməkdaşlıq, ünsiyyət və komanda bacarıqlarının formalaşmasını dəstəkləyir. Bu, onların sinif daxilində və sinifdən kənar sosial əlaqələrinin güclənməsinə, mədəniyyətlərarası ünsiyyət və tolerantlıq kimi mühüm dəyərlərin mənimsənilməsinə zəmin yaradır. Eyni zamanda, multimedia vasitələri və yaradıcılıq yönümlü rəqəmsal alətlər şagirdlərdə tənqidi düşünmə, müstəqil qərarvermə və özünüifadə bacarıqlarını inkişaf etdirir.

Digər tərəfdən, texnologiyanın həddindən artıq və nəzarətsiz istifadəsi müəyyən mənfi nəticələrə səbəb ola bilər. Erkən yaş dövründə planlaşdırılmamış rəqəmsal fəaliyyət diqqət dağınıqlığı, sosial təcrid, real ünsiyyət bacarıqlarının zəifləməsi, həmçinin texnoloji asılılıq risklərini artırır. Bu səbəbdən valideynlərin və müəllimlərin nəzarəti, sağlam vaxt idarəçiliyi, texnologiyanın pedaqoji əsaslarla yönləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın təhsil strategiyalarında da bu məsələ diqqət mərkəzindədir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Rəqəmsal İnkişaf və Nəqliyyat Strategiyası" və digər dövlət sənədlərində məktəblərin rəqəmsallaşdırılması, rəqəmsal bacarıqların erkən yaşdan inkişafı, eyni zamanda uşaq və gənclərin sağlam sosial mühitdə formalaşdırılması mühüm istiqamət kimi göstərilir. Bu sənədlər texnologiyanın təhsildə keyfiyyət və səmərəliliyi artırmaqla yanaşı, şagirdlərin sosial rifahına və təhlükəsiz inkişafına xidmət etməli olduğunu vurğulayır.

Nəzəriyyə

Texnologiya insanın bütün həyatı boyu istifadə etdiyi əsas fəaliyyət növləri – oyun, təlim və əmək prosesləri üzrə bacarıqların inkişafında mühüm rol oynayır. Elmi mahiyyətinə görə texnologiya həm nəzəri, həm də praktik problemlərin həlli ilə səciyyələnir. İnsan fəaliyyəti tarix boyu sadədən mürəkkəbə doğru inkişaf edərək, yaranan tələbatlara uyğun şəkildə texnologiyanın optimallaşdırılmasına gətirib çıxarmışdır. Bu inkişaf, yalnız texniki tərəqqini deyil, həm də sosial münasibətlərin və təlim-tərbiyə prosesinin keyfiyyətini dəyişmişdir.

Fəaliyyət növlərinin formalaşması yaş dövrlərinə uyğun fərqlənir. Məktəbəqədər yaşda oyun aparıcı fəaliyyət növü hesab olunur. Bu dövrdə uşaqlar əsas tələbatlarını oyun vasitəsilə ödəyir, öyrənir və sadə əmək bacarıqlarını inkişaf etdirirlər. Məktəb yaşında təlim fəaliyyəti aparıcı mövqeyə keçir. Bu mərhələdə şagirdlər oyun və əmək proseslərindən gələn bacarıqlarını təlimlə birləşdirərək sosiallaşır və müstəqil düşünmə qabiliyyəti qazanırlar. Sonrakı dövrdə əmək fəaliyyəti üstünlük təşkil etsə də, oyun və təlim həyat boyu inteqrasiya olunan mühüm fəaliyyət sahələri kimi qalır. Ünsiyyət də psixoloji ədəbiyyatda əsas fəaliyyət növü kimi qiymətləndirilir. İnsan həyatının bütün mərhələlərində ünsiyyət – qarşılıqlı informasiya mübadiləsi, qavrama və anlama proseslərinin təməlini təşkil edir. Tanınmış tədqiqatçılar J. Pyaje, A. Vallon və D. V. Elkonin fəaliyyətin mahiyyəti və inkişaf mərhələləri ilə bağlı dərin elmi araşdırmalar aparmışlar. D. V. Elkonin oyunu davranışın idarə olunmasının və sosial bacarıqların inkişafının əsas fəaliyyəti kimi izah etmiş, A. S. Makarenko isə "böyüklərin həyatında iş nə qədər vacibdirsə, uşaq həyatında da oyun bir o qədər zəruridir" fikrini irəli sürmüşdür.

Beləliklə, texnologiya yalnız texniki tərəqqi ilə məhdudlaşmır, həm də insanın sosial, idraki və pedaqoji inkişafını təmin edən mühüm amil kimi çıxış edir. Oyun, təlim və əmək fəaliyyətlərinin inteqrasiyası texnologiyanın pedaqoji prosesdəki rolunu daha da gücləndirərək, uşaqların intellektual və sosial formalaşmasına, cəmiyyətin ümumi tərəqqisinə bilavasitə təsir göstərir.

Nəticə etibarilə, texnologiyanın ibtidai sinif şagirdlərinin sosiallaşmasındakı rolu həm imkanlar, həm də məsuliyyətlərlə müşayiət olunur. Rəqəmsal vasitələr sosial bacarıqların inkişafını sürətləndirmək, bilik əldə etməyi asanlaşdırmaq və yaradıcı təfəkkürü genişləndirmək üçün böyük potensiala malikdir. Lakin bu potensial yalnız texnologiyanın məqsədyönlü və balanslı istifadəsi, pedaqoji yanaşmalar və ailə-məktəb əməkdaşlığının gücləndirilməsi ilə reallaşa bilər. Buna görə də ibtidai sinif şagirdlərinin sosiallaşmasında texnologiyanın rolunun elmi əsaslarla araşdırılması, pedaqoji təcrübəyə uyğunlaşdırılması və milli təhsil

siyasətində praktik tədbirlərlə dəstəklənməsi günümüzün vacib tələblərindən biridir.

Metod

İbtidai sinif şagirdlərinin sosiallaşmasında texnologiyanın rolu çoxşaxəli və dinamikdir. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı təkcə tədris prosesinin keyfiyyətini yüksəltmir, həm də uşaqların sosial bacarıqlarının formalaşmasına, ünsiyyət mədəniyyətinin inkişafına və fərdi yaradıcılığın təşviqinə mühüm töhfə verir. Bu mərhələdə texnologiyanın düzgün tətbiqi şagirdlərin məktəb və cəmiyyət həyatına uyğunlaşmasını asanlaşdırır, onların intellektual, emosional və sosial inkişafını dəstəkləyir. Müasir dövrdə texnologiyanın tədris prosesinə inteqrasiyası ibtidai sinif şagirdlərinin sosial inkişafına yeni imkanlar açır. Rəqəmsal platformalar, onlayn dərs mühitləri və interaktiv tədris proqramları uşaqlar arasında qarşılıqlı əməkdaşlığı gücləndirir, sosial münasibətlərin formalaşmasına və ünsiyyət bacarıqlarının təkmilləşməsinə şərait yaradır. Bu mühitlərdə şagirdlər yalnız bilik əldə etmir, eyni zamanda fikirlərini sərbəst ifadə etməyi, müzakirə aparmağı, müxtəlif baxış bucaqlarını dəyərləndirməyi və komanda ruhunda qərar qəbul etməyi öyrənirlər. Bu proses uşaqların sosiallaşmasında əsaslı mərhələ hesab olunur. Onlayn oyunlar, qrup tapşırıqları və beynəlxalq layihələr birgə fəaliyyət, məsuliyyət paylaşımı, həmrəylik və qarşılıqlı hörmət kimi dəyərlərin formalaşmasına xidmət edir. Eyni zamanda, müxtəlif ölkələrin şagirdləri ilə keçirilən virtual görüşlər onların dünyagörüşünü genişləndirir, tolerantlıq, empatiya və mədəniyyətlərarası ünsiyyət bacarıqlarının inkişafına mühüm töhfə verir. Beləliklə, texnologiya şagirdlərin yalnız akademik nailiyyətlərini deyil, həm də sosial və emosional inkişafını dəstəkləyən mühüm alətə çevrilir.

Müasir texnologiyalar ibtidai sinif şagirdlərinin yaradıcılıq potensialını üzə çıxarmaq və onların fərdi inkişafını dəstəkləmək üçün geniş imkanlar yaradır. Rəqəmsal mühit şagirdlərə yalnız hazır bilikləri mənimsətmək deyil, həm də öz ideyalarını sərbəst şəkildə ifadə etmək, müstəqil düşünmək və innovativ layihələr yaratmaq imkanı verir. Bu proses uşaqlarda tənqidi təfəkkürün formalaşması, problem həll etmə vərdişlərinin möhkəmlənməsi və məntiqi mühakimə bacarıqlarının inkişafı üçün əhəmiyyətli pedaqoji vasitə kimi çıxış edir. Multimedia proqramları, dizayn tətbiqləri, animasiya və təqdimat hazırlama alətləri uşaqlara ideyalarını rəqəmsal və vizual formada təqdim etməyi öyrədir. Blog yazmaq, virtual debatlara qatılmaq və məktəb jurnalları üçün məqalələr hazırlamaq isə onların nitq mədəniyyətini, yazı bacarığını və ünsiyyət keyfiyyətlərini gücləndirir. Bu imkanlar uşaqlara öz maraq və dünyagörüşlərini sərbəst şəkildə ortaya qoymaq, fərdi qabiliyyətlərini inkişaf etdirmək və sosial mühitdə daha inamlı mövqe sərgiləmək imkanı yaradır. Beləliklə, texnologiya yalnız dərs prosesini zənginləşdirmək deyil, həm də ibtidai sinif şagirdlərinin yaradıcılıq və özünüifadə bacarıqlarını dərinləşdirərək onları gələcək həyat üçün daha təşəbbüskar, innovativ və tənqidi düşüncəyə malik fərdlər kimi formalaşdırmaq baxımından mühüm rol oynayır.

Müasir təhsil mühitində texnologiyanın ən mühüm üstünlüklərindən biri şagirdlərə fərdi yanaşma imkanlarının genişliyidir. Rəqəmsal resurslar – elektron dərsliklər, onlayn testlər, interaktiv tədris proqramları və fərdiləşdirilmiş öyrənmə platformaları – hər bir şagirdin bilik səviyyəsinə, maraq dairəsinə və inkişaf tempinə uyğun tapşırıqlar təqdim etməyə şərait yaradır. Bu, təlimin yalnız ümumi məqsədlərə deyil, həm də fərdi inkişaf strategiyalarına xidmət etməsinə, zəif tərəflərin gücləndirilməsinə və güclü bacarıqların daha da inkişafına imkan verir. Fərdi yanaşma şagirdlərin motivasiyasının artırılmasında əsas faktordur. Uşaqlar maraq dairəsinə uyğun mövzular və tədris məzmunu seçdikdə öyrənməyə daha böyük həvəs göstərir, prosesdə fəal iştirak edirlər. Bununla yanaşı, rəqəmsal qiymətləndirmə alətləri və elektron portfoliolar şagirdlərə öz nailiyyətlərini izləmək, irəliləyişlərini dəyərləndirmək və gələcək hədəflərini müəyyənləşdirmək imkanı verir. Beləliklə, texnologiyanın tədrisə inteqrasiyası yalnız təhsil keyfiyyətini artırmaqla kifayətlənmir, həm də uşaqların sosial inkişafını, özünəinamını və məsuliyyət hissini möhkəmləndirir. Fərdi öyrənmə yanaşması sayəsində hər bir şagirdin potensialının üzə çıxarılması və sosial mühitdə tamhüquqlu iştirakının təmin olunması mümkün olur.

Müasir dövrdə texnologiyanın təhsil prosesinə inteqrasiyası sadəcə texniki yenilik deyil, həm də dövlət səviyyəsində strateji məsələdir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ibtidai təhsildə yeni metodların tətbiqini zəruri etmiş, bu istiqamətdə sistemli dövlət siyasətinin formalaşmasını tələb etmişdir. Azərbaycan Respublikasında qəbul edilmiş bir sıra mühüm sənədlər – "Rəqəmsal İnkişaf və Nəqliyyat Strategiyası" (2021–2025), "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Təhsil Strategiyası" – təhsil sisteminin rəqəmsallaşdırılması, şagirdlərin informasiya savadlılığının artırılması və eyni zamanda

sağlam sosial mühitin qorunması kimi hədəfləri özündə birləşdirir.

Bu strateji sənədlər texnologiyanın yalnız texniki tərəfinə deyil, onun pedaqoji və sosial ölçülərinə də xüsusi diqqət yetirir. Burada əsas məqsəd, ibtidai sinif şagirdlərinin rəqəmsal bacarıqlarının inkişafı ilə yanaşı, onların sosiallaşma prosesinin də müsbət istiqamətdə formalaşdırılmasıdır. Məsələn, “Rəqəmsal İnkişaf və Nəqliyyat Strategiyası” təhsil müəssisələrinin müasir texnologiyalarla təmin olunmasını, müəllimlərin rəqəmsal kompetensiyalarının artırılmasını və interaktiv təlim metodlarının tətbiqini nəzərdə tutur. “Azərbaycan 2030” sənədində isə rəqəmsal cəmiyyətin qurulması, bilik və bacarıqlara əsaslanan iqtisadiyyatın inkişafı, uşaqların sağlam psixoloji mühitdə formalaşdırılması xüsusi prioritet kimi vurğulanır. Pedaqoji yanaşmalar da dövlət siyasətinin mühüm tərkib hissəsidir. Müəllimlərin peşəkar inkişaf proqramları, onlayn təlim platformalarının yaradılması, elektron resursların tədris prosesinə inteqrasiyası və şagird mərkəzli metodların genişləndirilməsi bu siyasətin pedaqoji dayaqlarını təşkil edir. Bu yanaşmalar texnologiyanın tədrisə məqsədyönlü, balanslı və təhlükəsiz şəkildə daxil edilməsinə zəmin yaradır.

Nəticə etibarilə, dövlət strategiyaları və pedaqoji yanaşmalar bir-birini tamamlayaraq ibtidai təhsildə rəqəmsal transformasiyanın elmi-metodik əsaslarını formalaşdırır. Bu isə texnologiyanın sadəcə öyrətmə vasitəsi kimi deyil, həm də sosial bacarıqların inkişafını dəstəkləyən mühüm amil kimi istifadəsinə imkan verir. Beləliklə, dövlət səviyyəsində aparılan kompleks tədbirlər, həm rəqəmsal infrastrukturun gücləndirilməsi, həm də uşaqların sağlam sosiallaşmasının təmin edilməsi baxımından təhsilin keyfiyyətini yüksəltməyə xidmət edir. Beləliklə, texnologiya ibtidai sinif şagirdlərinin sosiallaşması üçün mühüm vasitədir. O, ünsiyyət bacarıqlarını inkişaf etdirir, yaradıcılığı gücləndirir, fərdi inkişafı dəstəkləyir və qlobal mədəniyyətlərlə tanışlıq imkanı yaradır. Lakin bütün bu üstünlüklərin davamlı və təhlükəsiz şəkildə təmin olunması üçün pedaqoji nəzarət, ailə-məktəb əməkdaşlığı və düzgün rəqəmsal mühit formalaşdırılması həlledici əhəmiyyət kəsb edir.

Texnologiya müasir cəmiyyətin inkişafının aparıcı qüvvələrindən biri olmaqla, insan fəaliyyətinin bütün sahələrində – elm, sənaye, təhsil, məişət və sosial münasibətlərdə əsaslı dəyişikliklərə səbəb olur. Texnologiya hər bir sahədə biliklər sisteminin tətbiqi nəticəsində xüsusi metodlardan istifadə etməklə tapşırıqları nəzəri və praktik cəhətdən yerinə yetirmək sənətidir. Bu anlayış yalnız texniki əməliyyatların toplusu deyil, həm də elmi əsaslarla formalaşmış, məqsədyönlü fəaliyyət prosesidir. Texnologiyadan öyrənilən biliklər üç qarşılıqlı bağlı cəhəti – nəzəri (elmi faktlar və onların ümumiləşdirilməsi), praktik (biliklərin müxtəlif həyati situasiyalarda tətbiqi üzrə bacarıq və vərdişlər) və dünyagörüş (baxışlar və əqidə) – özündə birləşdirməlidir. Bu cəhətlərin nəzərə alınması məktəblilərin hərtərəfli inkişafına və şəxsiyyət kimi formalaşmasına möhkəm zəmin yaradır.

Müasir öyrənmə praktikasında xüsusilə şəxsiyyətyönümlü və inkişafetdirici pedaqoji texnologiyalar geniş tətbiq olunur. Bu texnologiyalar arasında əməkdaşlıqla təlim, layihələr metodu və modulla təlim əsas yer tutur. Əməkdaşlıqla təlim texnologiyasının əsas ideyası “birlikdə yerinə yetirmək” deyil, “birlikdə öyrənmək” prinsipinə əsaslanır. Bu yanaşma təkrar olunan çalışmalar vasitəsilə məntiqi təfəkkür və anlama bacarıqlarını inkişaf etdirir, şifahi nitq və müzakirə vərdişlərini təkmilləşdirir. Şagirdlər öz işlərinin və qrup nəticələrinin məsuliyyətini daşıyır, şəxsi keyfiyyətlərini qiymətləndirməyi öyrənir və kollektivlə ünsiyyətdə geniş assosiativ əlaqələr qururlar.

Layihələr metodu şagirdin məqsədəuyğun, maraq dairəsinə uyğun müstəqil fəaliyyətini dəstəkləyir. Bu metod əldə edilən biliklərin real həyatda tətbiqini nümayiş etdirərək, fərdi, cüt və ya qrup şəklində müəyyən problemin həllinə yönələn praktiki fəaliyyətə şərait yaradır. Burada elm və texnika sahəsində sınaqdan çıxmış biliklərin interaktiv tətbiqi mühüm rol oynayır. Modulla təlim texnologiyası dərs və dərsdənkənar fəaliyyət zamanı uşaqların müstəqil şəkildə konkret məqsədlərə nail olmasına imkan verir. Bu isə onları öyrənməyə ruhlandırır, məsuliyyət hissini və özünütəşkil bacarıqlarını gücləndirir.

Texnologiya eyni zamanda insanın maraq və planları əsasında material, enerji və məmulatların dəyişdirilməsi və tətbiqi haqqında elm kimi də dəyərləndirilir. Bu elm proseslərin, alətlərin, texnikanın və üsulların öyrənilməsini, biliklərin müxtəlif fəaliyyət sahələrində inteqrasiyasını nəzərdə tutur. “Texnologiya” fənni də məhz bu məntiqə uyğun olaraq inteqrativ təhsil sahəsi kimi formalaşmışdır. Bu fənnin tədrisi şagirdlərdə ümumi əmək, praktiki bacarıq və xüsusi biliklərin inkişafına şərait yaradır, eyni zamanda onların intellektual, fiziki, etik və estetik inkişafını təmin edir. Elm və texnikanın müasir inkişaf mərhələsi, yeni kəşflər və istehsal imkanları hərtərəfli inkişaf etmiş insan kapitalının yetişdirilməsinə xidmət edir. Müstəqillik əldə etmiş və bazar iqtisadiyyatı

prinsiplərinə əsaslanan Azərbaycan Respublikasında uşaq və yeniyetmələrin əmək tərbiyəsi, peşəyönümü və estetik zövqlərinin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan məktəblilərin əməli fəaliyyətində texnologiyanın rolu yalnız bilik və bacarıq qazandırmaqla məhdudlaşmır, həm də oyun, təlim, əmək və ünsiyyət proseslərinin tərbiyəvi istiqamətdə formalaşdırılmasına mühüm töhfə verir. Beləliklə, texnologiya müasir təhsil sistemində təkcə elmi-praktik biliklərin ötürülməsi deyil, həm də uşaqların şəxsiyyət kimi formalaşması, sosial və intellektual inkişafı üçün strateji əhəmiyyət kəsb edən pedaqoji vasitə kimi çıxış edir.

Hazırda Azərbaycanda bütün sahələrdə yüksək ixtisaslı, informasiya və kommunikasiya texnologiyalarından (İKT) sərbəst və düzgün istifadə edə bilən mütəxəssislərə böyük ehtiyac duyulur. Müasir əmək bazarının tələbləri göstərir ki, İKT savadı olmayan şəxsin dövlət və ya özəl sektorda perspektivli iş tapması demək olar ki, yalnız təsadüf nəticəsində mümkündür. Bu reallıq gələcək nəsillərin müasir texnoloji bacarıqlara dərindən yiyələnməsini zəruri edir. İKT biliklərini mənimsəməyin ən effektiv yolu isə təməli elə orta məktəbin ibtidai siniflərindən başlayır. Şagirdlərə ənənəvi dərslərlə yanaşı ilkin informatik biliklərin öyrədilməsi, kompüter və internetdən istifadə bacarığının formalaşdırılması, informasiya mühitində işləməyə psixoloji hazırlığın yaradılması onların savadlı, yaradıcı və innovativ kadr kimi yetişməsinə mühüm töhfə verir.

Azərbaycan dövləti də bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Prezident İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər)" ölkəmizdə təhsilin İKT əsasında modernləşdirilməsinə start verdi. Ardınca 10 iyun 2008-ci ildə qəbul edilən "2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" isə vahid elektron təhsil məkanının yaradılmasını, beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulmasını və milli təhsil sisteminin qlobal təhsil mühitinə inteqrasiyasını əsas məqsəd kimi müəyyənləşdirdi. Bu proqramlar nəticəsində ölkə üzrə məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, müasir kompüter və noutbukların, interaktiv lövhələrin quraşdırılması geniş miqyasda həyata keçirildi.

İKT-nin təhsil sisteminə səmərəli tətbiqi yalnız maddi-texniki təminatla məhdudlaşmır, həm də müəllimlərin peşəkarlıq səviyyəsinə yeni tələblər irəli sürür. Dünya təcrübəsi sübut edir ki, müasir təhsil modeli pedaqoji heyətin informatik kompetensiyasının artırılmasını zəruri edir. Bu səbəbdən müəllimlərin yalnız fundamental biliklər, pedaqogika və psixologiya sahəsində deyil, eyni zamanda informasiya texnologiyaları üzrə də davamlı olaraq yenidən hazırlanması xüsusi əhəmiyyət daşıyır. Müəllimlərdən tələb olunur ki, tədris etdikləri fənnin məzmunu və məqsədinə uyğun, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alan, onların harmonik inkişafına şərait yaradan müasir pedaqoji texnologiyaları seçib dərs prosesinə tətbiq etsinlər. İbtidai siniflərdən başlayaraq təhsilin İKT əsasında qurulması, şagirdlərdə rəqəmsal bacarıqların erkən yaşdan formalaşdırılması və müəllimlərin peşəkar inkişafının bu istiqamətdə dəstəklənməsi Azərbaycanın informasiya cəmiyyəti quruculuğunun əsas dayaqlarından biridir. Bu yanaşma gələcək nəsillərin rəqəmsal iqtisadiyyata uyğunlaşmasını təmin etməklə yanaşı, onların intellektual potensialının inkişafına və yüksək rəqabət qabiliyyətli mütəxəssis kimi yetişməsinə geniş imkanlar açır.

Müasir dövrdə təhsil sisteminin inkişafında informasiya və kommunikasiya texnologiyalarının (İKT) rolu danılmazdır. İKT-nin geniş tətbiqi təlim prosesini sadələşdirir, dərslərin keyfiyyətini yüksəldir, şagirdlərin idrak fəallığını artırır və pedaqoji prosesə yeni məzmun gətirir. Ənənəvi "müəllim – şagird – dərslik" modeli müasir texnologiyalarla zənginləşdirildikdə, tədris fərdi yanaşmaya əsaslanan daha çevik, interaktiv və dinamik bir mühitə çevrilir. Bu isə ibtidai sinif şagirdlərinin təlimə marağını və motivasiyasını gücləndirir, onların yaradıcılıq və müstəqil düşünmə qabiliyyətlərini inkişaf etdirir. Təcrübə göstərir ki, tədrisdə İKT-dən məqsədyönlü istifadə edən müəllimlər dərsləri daha cəlbedici və yaddaqalan edir. Kompyuterlə aparılan dərslər, multimedia vasitələri, animasiya qrafikası və rəngarəng illüstrasiyalar şagirdlərin diqqətini dərs mövzusuna cəmləşdirməklə onların idrak fəallığını artırır, nəticədə müxtəlif olimpiadalarda və intellektual yarışlarda şagird nailiyyətlərinin keyfiyyəti yüksəlir. "Ağıllı" interaktiv lövhə isə bu prosesdə xüsusi əhəmiyyət kəsb edir. Sensor səthə malik olan bu cihaz vasitəsilə kimyəvi reaksiyalardan coğrafi proseslərə qədər müxtəlif tədris mövzularını canlı izləmək, interaktiv laboratoriyalar təşkil etmək mümkündür. Bu, uşaqlarda təbiət hadisələrini anlama bacarığını, təcrübi fəaliyyətini və tənqidi düşünmə qabiliyyətini gücləndirir. İKT-nin təhsildə istifadəsi təkcə biliklərin

ötürülməsi ilə məhdudlaşmır, həm də fərdi yanaşma və şagird mərkəzli təlim imkanlarını genişləndirir. Müəllimlər şagirdlərin fərdi hazırlıq səviyyəsinə uyğun tapşırıqlar verə, qruplar üzrə adaptasiyalı öyrətmə sistemi qura, şagirdlərin materialı mənimsəmə sürətini onların öz imkanlarına uyğun tənzimləyə bilirlər. Bu isə uşaqların özünəinamını möhkəmləndirir, onların təlim prosesində daha fəal iştirakına şərait yaradır. Həmçinin, müəllimlər elektron resurslar hazırlayaraq standart dərslikləri zənginləşdirə, yeni tədris layihələri təqdim edə bilirlər ki, bu da pedaqoji innovasiyaların paylaşılmasını asanlaşdırır. Dövlət səviyyəsində həyata keçirilən layihələr – "Elektron təhsil" müsabiqəsi, məktəblərin İKT ilə təchizatı, müəllimlərin elektron dərsliklər və interaktiv resurslar yaratması – bu prosesin davamlı inkişafına şərait yaradır. Şagirdlərə mətn redaktorlarında işləmək, internetdə axtarış aparmaq, PowerPoint proqramında təqdimatlar hazırlamaq kimi ilkin bacarıqların ibtidai siniflərdən öyrədilməsi onların gələcəkdə informasiya cəmiyyətinin fəal üzvləri kimi formalaşmasına güclü təməl yaradır. Beləliklə, İKT-nin tədris prosesinə tətbiqi ibtidai sinif şagirdlərinin bilik və bacarıqlarının inkişafını təmin etməklə yanaşı, onların yaradıcı təfəkküründü və öyrənməyə marağını artırır, fərdi və sosial inkişafına mühüm töhfə verir. Bu isə ümumilikdə milli təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir tələblərə cavab verən savadlı və rəqabətqabiliyyətli insan kapitalının yetişdirilməsi üçün strateji əhəmiyyət daşıyır.

Müasir dünyada informasiya cəmiyyətinə keçid bəşəriyyətin gələcəyinə gedən əsas yol kimi dəyərləndirilir. Bu şəraitdə təhsil sisteminin rəqəmsal texnologiyalar əsasında qurulması və İKT-nin (informasiya və kommunikasiya texnologiyaları) məqsədyönlü tətbiqi strateji zərurətə çevrilmişdir. Azərbaycanın bu sahədə regionda lider mövqeyə yüksəlməsi təsadüfi deyil: ölkədə vahid elektron təhsil məkanının yaradılması, tədris müəssisələrinin müasir avadanlıqla təmin edilməsi və İKT-nin tədris prosesinə inteqrasiyası istiqamətində ardıcıl dövlət proqramları həyata keçirilir. İKT-dən istifadə həm tədrisin keyfiyyətini yüksəldir, həm də şagirdlərdə müasir informasiya mühitinə uyğunlaşma, müstəqil şəkildə informasiya toplamaq, təhlil etmək və ötürmək bacarıqlarının formalaşmasına geniş imkan yaradır.

Təhsil sisteminin informasiyalaşdırılmasının əsas vəzifələrindən biri, ölkə miqyasında müəllimlərin, şagirdlərin, valideynlərin və təhsilə maraq göstərən bütün vətəndaşların mənafeyinə xidmət edən vahid təhsil şəbəkəsinin formalaşdırılmasıdır. Bu şəbəkə yalnız məlumat mübadiləsi üçün texniki platforma deyil, həm də təlim-tərbiyə proseslərinin müxtəlif aspektləri barədə məlumatları birləşdirən, təhsil müəssisələri arasında operativ informasiya axınını təmin edən dinamik bir sistem kimi nəzərdə tutulur. Hər məktəbin internet saytının yaradılması, burada məktəb, pedaqoji heyət və şagirdlər haqqında ətraflı məlumatların, dərs cədvəllərinin, planların, məktəbdaxili tədbirlər barədə elanların yerləşdirilməsi, həmçinin müəllim, şagird və valideynlər üçün müzakirə forumlarının təşkili bu məqsədə xidmət edir. Vahid şəbəkənin qlobal informasiya məkanına inteqrasiyası isə şagird və müəllimlərə beynəlxalq təhsil resurslarına, virtual kitabxanalara və məlumat bazalarına çıxış imkanı yaradır, eyni zamanda valideynlərin övladlarının davamiyyəti və müvəffəqiyyətləri barədə operativ məlumat əldə etməsini təmin edir. Bu istiqamətdə mühüm nəticələr əldə edilsə də, yeni texnologiyaların sürətli inkişafı təhsil prosesinin qarşısına yeni vəzifələr qoyur. Əvvəllər məktəblərin yalnız kompüter və internetlə təchizatı kifayət edirdisə, indi artıq noutbukların, interaktiv lövhələrin, simsiz rabitə sistemlərinin qurulması vacib hala gəlib. Lakin müasir İKT avadanlığının dünya standartlarına uyğun şəkildə təchizatı böyük maliyyə resursları tələb edir. Bundan başqa, mövcud texnologiyadan səmərəli istifadə olunmaması, bəzi müəllimlərin informatik savadının aşağı olması, eləcə də cəmiyyətdə uşaqların sağlamlığına təsirlə bağlı narahatlıqlar elektron təhsil quruculuğunu ləngidən amillərdən sayılır. Təcrübə göstərir ki, şagirdlərin kompüter texnologiyalarını müəllimlərdən daha yaxşı bilməsi də bəzən dərs prosesində nəzarəti çətinləşdirir. Bu səbəbdən müəllimlərin Microsoft Office paketi, multimedia, qrafika, dizayn proqramları, interaktiv lövhə və internet resursları ilə işləmək bacarıqlarının yüksəldilməsi artıq zərurət kimi qarşıya çıxır.

Bütün bu məsələlər təhsildə İKT-dən istifadənin yalnız texniki deyil, həm də pedaqoji və təşkilati cəhətlərinin mühüm olduğunu göstərir. Məktəb rəhbərliyinin idarəetmə prosesində məlumat bazalarının analizi əsasında operativ qərarlar qəbul etməsi, dərslərin keyfiyyətini izləməsi və çatışmazlıqları vaxtında aradan qaldırması da məhz bu istiqamətdə atılan addımlardandır. Beləliklə, İKT-nin təhsil sisteminə səmərəli tətbiqi təkcə dərs prosesinə yeni nəfəs gətirmir, həm də uşaq və gənclərin gələcəkdə informasiya cəmiyyətinin fəal və dəyərli üzvlərinə çevrilməsini təmin edir. Rəqəmsal transformasiyanın uğurla davam etdirilməsi üçün

müəllimlərin peşəkar inkişafının stimullaşdırılması, məktəblərin maddi-texniki bazasının mütəmadi yenilənməsi və informasiya mədəniyyətinin yüksəldilməsi bu günün əsas prioritetlərindən biridir.

Nəticə

Aparılmış təhlil göstərir ki, texnologiya ibtidai sinif şagirdlərinin sosiallaşmasında mühüm və çoxşaxəli rol oynayır. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) dərs prosesinə səmərəli inteqrasiyası təhsili yalnız müasir tələblərə uyğunlaşdırmaqla kifayətlənmir, həm də uşaqların fərdi inkişafına, ünsiyyət və əməkdaşlıq bacarıqlarının formalaşmasına, yaradıcı təfəkkürlərinin genişlənməsinə mühüm töhfə verir. Rəqəmsal platformalar, multimedia vasitələri, interaktiv lövhələr və elektron resurslar ibtidai sinif şagirdlərinin dərsə marağını artırır, onları müstəqil araşdırmalara, təşəbbüskarlığa və yeni biliklər qazanmağa həvəsləndirir. Texnologiyanın tətbiqi ilə oyun, təlim və əmək fəaliyyətlərinin inteqrasiyası daha səmərəli şəkildə təmin olunur. Uşaqlar fərdi və qrup işlərində iştirak edərək məsuliyyət hissini, komanda ruhunu, qarşılıqlı hörmət və tolerantlıq kimi sosial dəyərləri mənimsəyirlər. Beynəlxalq layihələrdə və onlayn görüşlərdə iştirak isə onların mədəniyyətlərarası ünsiyyət bacarıqlarını, dünyagörüşünü və empatiya hissini gücləndirir. Digər tərəfdən, texnologiyanın həddindən artıq və nəzarətsiz istifadəsi müəyyən risklər yaradır: diqqət dağınıqlığı, texnoloji asılılıq, real ünsiyyət bacarıqlarının zəifləməsi, fiziki aktivliyin azalması və sağlamlıqla bağlı problemlər bu risklər sırasındadır. Buna görə də valideynlərin və müəllimlərin nəzarəti, sağlam vaxt idarəçiliyi, rəqəmsal gigiyena vərdişlərinin aşılanması, pedaqoji əsaslara söykənən metodik yanaşmalar xüsusi əhəmiyyət kəsb edir.

Nəticə olaraq, texnologiya ibtidai sinif şagirdlərinin sosiallaşmasını stimullaşdıran əsas vasitə kimi çıxış edir. O, uşaqların intellektual və emosional inkişafını gücləndirir, müstəqil qərarvermə, yaradıcılıq və sosial ünsiyyət bacarıqlarının möhkəmlənməsinə şərait yaradır. Lakin bu imkanlardan tam səmərə əldə etmək üçün texnologiyanın məqsədyönlü və pedaqoji prinsiplərə uyğun tətbiqi, məktəb-ailə əməkdaşlığının gücləndirilməsi və müəllimlərin rəqəmsal kompetensiyasının davamlı artırılması əsas şərtlərdəndir. Beləliklə, texnologiyanın düzgün və balanslı istifadəsi ibtidai sinif şagirdlərinin həm sosial, həm də intellektual inkişafını təmin edən, informasiya cəmiyyətinin fəal və məsuliyyətli üzvlərinə çevrilməsinə yol açan mühüm amildir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2004, avqust 21). Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər). Bakı.
2. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2008, iyun 10). 2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı. Bakı.
3. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2021). Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı.
4. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2021). Rəqəmsal İnkişaf və Nəqliyyat Strategiyası 2021–2025. Bakı.
5. Anderson, R. E., & Becker, H. J. (2001). School investments in instructional technology. Teaching, Learning and Computing: 1998 National Survey Report, Center for Research on Information Technology and Organizations.
6. Elkonin, D. B. (1989). Psixik inkişaf və fəaliyyətin mərhələləri. Moskva: Pedagogika.
7. Makarenko, A. S. (1988). Valideynlər üçün kitab. Moskva: Prosveshchenie.
8. Piaget, J. (1972). The psychology of the child. New York: Basic Books.
9. Vygotsky, L. S. (1978). Mind in society: The development of higher psychological processes. Cambridge, MA: Harvard University Press.
10. Livingstone, S. (2012). Critical reflections on the benefits of ICT in education. Oxford Review of Education, 38(1), 9–24. https://doi.org/10.1080/03054985.2011.577938
11. Voogt, J., & Roblin, N. P. (2012). A comparative analysis of international frameworks for 21st century competences: Implications for national curriculum policies. Journal of Curriculum Studies, 44(3), 299–321. https://doi.org/10.1080/00220272.2012.668938

DOİ: 10.32010/BAIZ1671

ALİ MƏKTƏBLƏRİN AŞAĞI KURSLARINDA İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ SORĞU-ƏSASLI TƏLİMİN PSİXOLOJİ ƏSASLARI

Günay Samiq İMANZADƏ
Doktorant, Azərbaycan Dillər Universiteti
Orcid: https://orcid.org/0009-0009-7593-408X
Email: gunay.imanzade@adu.edu.az

Xülasə: Son illərdə ali məktəblərdə ingilis dilinin tədrisində fəal və məşğul öyrənmənin əhəmiyyətinin artaraq tanınması müşahidə olunur. Bu istiqamətdə sorğu-əsaslı təlim tələbələrin təbii maraqlarını təşviq edən və onların ümumi öyrənmə təcrübələrini gücləndirən effektiv pedaqoji strategiya kimi ortaya çıxır. Sorğu-əsaslı təlim tələbələrə suallar verməyə, onları maraqlandıran mövzuları araşdırmağa həvəsləndirildiyi tələbə mərkəzli yanaşma ilə xarakterizə olunur. Bu metod öyrənmənin konstruktivist nəzəriyyələri ilə uzlaşır ki, bu da öyrənənlərin təcrübə və ətraf mühitlə qarşılıqlı əlaqə vasitəsilə biliklərin qurulmasında fəal rolunu vurğulayır. Psixoloji cəhətdən sorğu-əsaslı təlimin əsas üstünlüklərindən biri onun tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirmək qabiliyyətidir. Tələbələr sorğuya əsaslanan tapşırıqlarla məşğul olduqda, sualları tərtib edərkən, problemləri araşdırarkən və nəticə çıxararkən daha yüksək səviyyəli düşünmə bacarıqlarını inkişaf etdirirlər. Sorğu-əsaslı təlimin digər mühüm üstünlüyü onun tələbələrin fəallığının və motivasiyasının artırılmasındakı roludur. Tez-tez əzbərləməyə və passiv öyrənməyə əsaslanan ənənəvi tədris metodları gənc öyrənənlər arasında marağın və diqqətin azalmasına səbəb ola bilər. Tələbələrə öz maraqlarını həyata keçirmək və suallarını vermək azadlığı tanındıqda, onlar öyrənmələrinə daha çox vaxt və səy sərf edir və bu, anlayışların daha dərindən dərk edilməsinə səbəb olur. Bundan əlavə, sorğu-əsaslı təlim tələbələr arasında əməkdaşlığı və ünsiyyəti təşviq edir. Bu isə ali məktəblərin aşağı kurs tələbələrinin tədris prosesinə daha rahat cəlb olunmasına şərait yaradır.
Koqnitiv və sosial faydalardan əlavə, sorğu-əsaslı təlim emosional inkişafı da dəstəkləyir. Sorğu-əsaslı təlim tələbələrə öyrənmə prosesini, o cümlədən kəşfin sevincini və problemlərin həlli ilə bağlı çətinlikləri yaşamağa imkan yaradır ki, bu da onlarda möhkəmlik və əzmkarlıq kimi psixoloji faktorları inkişaf etdirməyə kömək edə bilər. Sorğu-əsaslı təlimin faydaları cəlbedici olsa da, onun ali məktəbdə ingilis dilinin tədrisində tətbiqi ilə bağlı əhəmiyyətli problemlər də var. Əsas problemlərdən biri müəllim hazırlığına və peşəkar inkişafa ehtiyacdır. Bundan əlavə, sorğu-əsaslı təlim ilə tanış olmayan tələbələr tərəfindən müqavimət ola bilər.
Yekun olaraq, ali təhsildə ingilis dilinin tədrisində sorğu-əsaslı təlimin tətbiqi həm əhəmiyyətli faydalar, həm də problemlərlə şərtlənir. Tənqidi təfəkkürün inkişaf etdirilməsinin, tələbələrin fəallığının artırılmasının, əməkdaşlığın təşviq edilməsinin və emosional inkişafın dəstəklənməsinin üstünlükləri gənc öyrənənləri mürəkkəb və sürətlə dəyişən dünyaya hazırlamaqda sorğu-əsaslı təlimin dəyərini vurğulayır. Bununla belə, müəllim hazırlığı, resursların mövcudluğu, qiymətləndirmə təcrübələri və maraqlı tərəflərin cəlb edilməsi ilə bağlı problemlərin həlli uğurlu icra üçün vacibdir. Bu baxımdan məqalənin əsas məqsədi ali təhsildə ingilis dilinin tədrisində sorğu-əsaslı təlimin tətbiqinin tələbələrin analitik düşüncə, tənqidi təfəkkür bacarıqlarına, öyrənmə motivasiyasına və əməkdaşlıq qabiliyyətinə təsirini araşdıraraq, bu yanaşmanın effektivliyini qiymətləndirməkdir.
Açar sözlər: ali təhsil, sorğu-əsaslı təlim, koqnitiv bacarıq, motivasiya, psixoloji faktor, kommunikativ yanaşma

---

PSYCHOLOGICAL FOUNDATIONS OF INQUIRY-BASED LEARNING IN TEACHING ENGLISH IN LOWER SECONDARY SCHOOLS

Gunay Samig IMANZADEH
Doctoral Student, Azerbaijan University of Languages
Orcid: https://orcid.org/0009-0009-7593-408X
Email: gunay.imanzade@adu.edu.az

Abstract: In recent years, there has been a growing recognition of the importance of active and engaged learning in teaching English in higher education. In this regard, inquiry-based learning is emerging as an effective pedagogical strategy that stimulates students' natural interests and enhances their overall learning experiences. Inquiry-based learning is characterized by a student-centered approach in which students are encouraged to ask questions and explore topics that interest them. This method is consistent with constructivist theories of learning, which emphasize the active role of learners in constructing knowledge through experience and interaction with the environment. One of the main advantages of inquiry-based learning from a psychological perspective is its ability to develop critical thinking and problem-solving skills. Students develop higher-order thinking skills when they engage in inquiry-based tasks, formulate questions, investigate problems, and draw conclusions. Another important advantage of inquiry-based learning is its role in

increasing student engagement and motivation. Traditional teaching methods that often rely on rote memorization and passive learning can lead to apathy and inattention among young learners. When students are given the freedom to pursue their interests and ask questions, they invest more time and effort in their learning, which leads to a deeper understanding of concepts. In addition, inquiry-based learning encourages collaboration and communication among students. This makes it easier for undergraduates in higher education to engage in the learning process. In addition to cognitive and social benefits, inquiry-based learning also supports emotional development. Inquiry-based learning allows students to experience the learning process, including the joy of discovery and the challenges of problem-solving, which can help them develop psychological factors such as resilience and perseverance. While the benefits of inquiry-based learning are attractive, there are also significant challenges associated with its application to teaching English in higher education. One of the main challenges is the need for teacher training and professional development. In addition, there may be resistance from students and stakeholders who are not familiar with inquiry-based learning.

In conclusion, the implementation of inquiry-based learning in English language teaching in higher education presents both significant benefits and challenges. The advantages of developing critical thinking, increasing student engagement, promoting collaboration, and supporting emotional development highlight the value of inquiry-based learning in preparing young learners for a complex and rapidly changing world. However, addressing issues related to teacher training, resource availability, assessment practices, and stakeholder engagement are essential for successful implementation. In this regard, the main objective of the article is to evaluate the effectiveness of this approach by examining the impact of the implementation of inquiry-based learning in English language teaching in higher education on students’ analytical thinking, critical thinking skills, motivation to learn, and ability to collaborate.

Keywords: higher education, inquiry-based learning, cognitive skills, motivation, psychological factors, communicative approach

---

ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ ИССЛЕДОВАТЕЛЬСКОГО ОБУЧЕНИЯ В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА В МЛАДШИХ КЛАССАХ СРЕДНЕЙ ШКОЛЫ

Гюнай Самиг ИМАНЗАДЕ
Докторант Азербайджанского Университета Языков
Orcid: https://orcid.org/0009-0009-7593-408X
Электронная почта: Gunay.imanzade@adu.edu.az

Резюме: В последние годы растет признание важности активного и вовлеченного обучения в преподавании английского языка в высших учебных заведениях. В связи с этим исследовательское обучение становится эффективной педагогической стратегией, которая стимулирует естественные интересы студентов и улучшает их общий учебный опыт. Исследовательское обучение характеризуется подходом, ориентированным на студента, при котором студентов поощряют задавать вопросы и исследовать интересующие их темы. Этот метод согласуется с конструктивистскими теориями обучения, которые подчеркивают активную роль студентов в формировании знаний посредством опыта и взаимодействия с окружающей средой. Одним из основных преимуществ исследовательского обучения с психологической точки зрения является его способность развивать критическое мышление и навыки решения проблем. Студенты развивают навыки мышления более высокого порядка, когда выполняют исследовательские задания, формулируют вопросы, исследуют проблемы и делают выводы. Еще одним важным преимуществом исследовательского обучения является его роль в повышении вовлеченности и мотивации студентов. Традиционные методы обучения, часто основанные на механическом запоминании и пассивном обучении, могут привести к апатии и невнимательности у юных учащихся. Когда студентам предоставляется свобода развивать свои интересы и задавать вопросы, они вкладывают больше времени и усилий в обучение, что способствует более глубокому пониманию концепций. Кроме того, исследовательское обучение стимулирует сотрудничество и общение между студентами. Это облегчает студентам бакалавриата в высших учебных заведениях вовлечение в учебный процесс. Помимо когнитивных и социальных преимуществ, исследовательское обучение также способствует эмоциональному развитию. Исследовательское обучение позволяет студентам прочувствовать процесс обучения, включая радость открытия и трудности решения проблем, что может помочь им развить такие психологические качества, как устойчивость и настойчивость. Несмотря на привлекательные преимущества исследовательского обучения, существуют и значительные трудности, связанные с его применением в преподавании английского языка в высших учебных заведениях. Одна из основных проблем — необходимость подготовки и повышения квалификации преподавателей. Кроме того, может возникнуть сопротивление со стороны студентов и заинтересованных сторон, не знакомых с исследовательским обучением. В заключение следует отметить, что внедрение исследовательского подхода к преподаванию английского языка в высших учебных заведениях сопряжено как с существенными преимуществами, так и с трудностями. Преимущества развития критического мышления, повышения вовлеченности студентов, поощрения сотрудничества и поддержки эмоционального развития подчеркивают ценность исследовательского подхода в подготовке молодых учащихся к сложному и быстро меняющемуся миру. Однако для успешного внедрения необходимо решение вопросов, связанных с подготовкой

преподавателей, доступностью ресурсов, практикой оценки и взаимодействием с заинтересованными сторонами. В связи с этим основная цель статьи — оценить эффективность данного подхода, изучив влияние внедрения исследовательского подхода к преподаванию английского языка в высших учебных заведениях на аналитическое мышление студентов, навыки критического мышления, мотивацию к обучению и способность к сотрудничеству.
Ключевые слова: высшее образование, исследовательское обучение, когнитивные навыки, мотивация, психологические факторы, коммуникативный подход.

Giriş

Qloballaşma və müasir dövrün tələblərinə uyğun olaraq təhsil sistemində əzbərləməyə əsaslanan köhnə bilik və bacarıqların yerinə şagirdlərin nələr edə biləcəyini göstərən yeni standartlar tətbiq edilməyə başlanılmışdır. Ali təhsildə tələbələrin yaradıcılıqla düşünmə, çevik problem həll etmə, əməkdaşlıq və innovativ bacarıqlar əldə etməsi üçün yeni kurikulum və metodlar tətbiq olunmaqdadır (Center, 2010). İngilis dilinin də tədrisi zamanı tətbiq edilən bu metodlar tələbələrin təhlil, şərh etmə, qiymətləndirmə, sintetik izah, nəticə çıxarma və özünü tənzimləmə kimi bacarıqlarının formalaşmasına təsir göstərir. Ali təhsildə, xüsusilə ingilis dilinin tədrisi zamanı tənqidi düşüncə, analitik təfəkkür və yaradıcılıq bacarıqlarını tədris-öyrənmə prosesinə daxil etmək tələbələrin problem həll etmə, qərar qəbuletmə və ünsiyyət bacarıqlarının güclənməsi baxımından vacibdir. (Adege, 2016). Bu istiqamətdə ali məktəblərdə ingilis dilinin tədrisində tərbiq olunan sorğu-əsaslı öyrənmə də tələbələrin tənqidi düşüncə bacarıqlarını psixoloji baxımdan inkişaf etdirir, çünki bu yanaşma tələbələrə təhlil, şərh, qiymətləndirmə, nəticə çıxarma, izah etmə və özünü tənzimləmə bacarıqlarını gücləndirməyə imkan verir (Facione, 2011).

Tələbələrin öyrənmə fəaliyyəti zamanı irəli sürdükləri fikirləri və onların düşüncəsi əsasən psixoloji faktorlarla bağlıdır. Düşüncə səviyyəsi verilən sualların mürəkkəbliyindən və yeni perspektivlər yaratma potensialından asılıdır. Ali məktəblərdə tələbələr həm sinif daxilində, həm də sinif xaricində özlərini düşündürən suallar verməyi, bu suallara izahlı cavablar təqdim etməyi öyrənir, bununla da öyrənmənin psixoloji cəhətdən özünü tənzimləmə bacarığı inkişaf edir. Bu zaman sorğu-əsaslı təlim şagirdləri müşahidə aparmaq, suallar vermək, mənbələri araşdırmaq, məlumat toplamaq, təhlil etmək, şərh etmək, sintez etmək, cavablar və proqnozlar təklif etmək, nəticələri müzakirə və refleksiya vasitəsilə paylaşmaq, nəticələri real vəziyyətə tətbiq etmək və prosesdə ortaya çıxan yeni sualları izləmək kimi fəaliyyətlərə cəlb edərək onların koqnitiv bacarıqlarını inkişaf etdirir, özünü tənzimləmə, metakoqnitiv bacarıqlarını gücləndirir, daxili motivasiyanı artırır və öyrənmə prosesinə emosial bağlılığını möhkəmləndirir. Sorğu-əsaslı öyrənmə tələbələrin müxtəlif perspektiv və anlayışlara tənqidi yanaşma, sualvermə və araşdırma bacarıqlarını inkişaf etdirir. Bu proses müəllimin məlumat verməkdən çox öyrənməni təşviq etməsi və dəstəkləməsi ilə həyata keçirilir, beləliklə tələbələr öyrənmə mühitində araşdırma, sualvermə və izah etmə ilə məşğul olurlar.

Psixoloji baxımdan sorğu-əsaslı təlim tələbələrin düşünmə bacarıqlarını inkişaf etdirir, çünki bu metod tələbələrin şərh etmə, analiz, qiymətləndirmə, izah etmə, nəticə çıxarma və özünü tənzimləmə kimi əqli fəaliyyətlərini gücləndirir. Əvvəlki araşdırmalar göstərmişdir ki, tələbələrə sorğu-əsaslı öyrənmə tədris edildikdə, ənənəvi tədris metodları ilə müqayisədə onların tənqidi düşünmə bacarıqları əhəmiyyətli dərəcədə yüksək olur. Tələbələrin marağa əsaslanan sorğu prosesi ilə təcrübələrini paylaşa biləcəyi sərbəst öyrənmə mühiti, məcburi tədris xarakterli ənənəvi metodlara nisbətən daha üstün öyrənmə üsulu hesab edilir (Ahmad et., 2014).

Müasir ali təhsil sistemində sorğu-əsaslı təlimin tətbiqi yalnız nəzəri konsepsiya kimi çıxış etmir, eyni zamanda tələbələrin öyrənmə strategiyalarının optimallaşdırılması və pedaqoji mühitin inkişafı üçün praktik olaraq tətbiq edilən bir modeldir. Xüsusilə, bu metod aşağı kurs tələbələrinin akademik dövrə adaptasiyasını asanlaşdırmaq, öyrənmə prosesini mənalı və məqsədyönlü təşkil etmək üçün mühüm əhəmiyyət daşıyır. Bu baxımdan ingilis dilinin tədrisində sorğu-əsaslı təlimin tətbiqinin öyrənilməsi həm tədrisin effektivliyinin artırılması, həm də tələbələrin psixoloji və koqnitiv inkişafının dəstəklənməsi baxımından olduqca aktualdır.

Ali məktəblərdə ingilis dilinin tədrisində sorğu-əsaslı təlim və tələbələrin psixoloji inkişafı

Sorğu-əsaslı öyrənmə pedaqoji yanaşma kimi XX əsrin 1960-cı illərindən etibarən formalaşmağa başlamışdır. Onun nəzəri əsasları kəşfiyyat yönümlü öyrənmə (discovery learning) hərəkatı ilə bağlı olub, əsas məqsəd tələbələrin öyrənmə prosesində fəallığını artırmaq, onların müstəqil idrak fəaliyyətini və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirmək olmuşdur. Rejeki (2017) qeyd edir ki, sorğu-əsaslı dil öyrənmə xarici dil tələbələrinə həyatboyu öyrənməni təşviq edir və bilik axtarışına davam etməyə imkan verir. Eyni şəkildə, Lee (2014) sorğu-əsaslı öyrənməni kommunikativ yanaşmanın analoqu kimi

görür. Sorğu-əsaslı öyrənmənin prinsipləri kommunikativ dil tədrisi ilə uyğundur, çünki kommunikativ yanaşma sadəcə strukturları mənimsəməkdən çox kommunikativ bacarıqların inkişafına yönəlir. Vygotsky (1978) öz araşdırmasında qeyd etmişdir ki, sorğu-əsaslı təlim konstruktivist yanaşmalara əsaslanır. Bu yanaşma tələbələrin bilikləri aktiv şəkildə kəşf etməsi və mövcud biliklər ilə əlaqələndirməsi prinsiplərinə dayanır. Dil təlimində sorğu-əsaslı metod tələbənin motivasiyasını artırmaqla yanaşı, kommunikativ bacarıqlarını və analitik düşünməsini də gücləndirir. Beləliklə, sorğu-əsaslı öyrənmə kommunikativ yanaşmanın ümumi prinsiplərini dil siniflərinə tətbiq edən, kəşf və sorğu vasitəsilə öyrənməni həyata keçirən bir metod formasıdır (Lee, 2014). Kommunikativ yanaşma, müxtəlif aktiv dil öyrənmə metodlarını özündə birləşdirən geniş çərçivəli pedaqoji konsepsiya kimi çıxış edirdisə, sorğu-əsaslı öyrənmə həmin yanaşmanın tərkib elementlərindən biri kimi öyrənmə prosesini sorğu, tədqiqat və idrak fəaliyyətləri vasitəsilə intensivləşdirən və dərinləşdirən metodoloji istiqamət hesab olunur. Əsas məqsəd kəşf və tələbənin koqnitiv inkişafını suallar vasitəsilə təmin etməkdir.

Sorğu yönümlü siniflər sadəcə faktların əzbərlənməsi ilə məhdudlaşmır. Bu yanaşma tələbələrin dərs prosesində fəal iştirakını, həqiqi və mənalı təcrübələr qazanmasını təmin edir. Bu metodun əsas xüsusiyyətlərinə öyrənmənin sual vermə ilə stimullaşdırılması, araşdırma, əməkdaşlıq, problem həlli, yaradıcı həll yolları işləyib hazırlamaq, praktiki situasiyalara tətbiqetmə, nəticədən çox prosesə diqqət yetirmək və müəllim-mərkəzli deyil, tələbə-mərkəzli öyrənmə daxildir (Fiore, 2016). Psixoloji baxımdan bu xüsusiyyətlər tələbələrin koqnitiv inkişafını dəstəkləyir. Bu metodun tətbiqi ilə tələbələr öyrənmə prosesində analitik və tənqidi düşünməni tətbiq edirlər. Qrup şəklində tapşırıqlar təyin olunduqda isə tələbələr arasında əməkdaşlıq onların sosial-psixoloji adaptasiyasını və ünsiyyət bacarıqlarını inkişaf etdirir. Bu isə ali məktəblərdə aşağı kurs tələbələrin dil öyrənmə prosesinə daha tez uyğunlaşmasına şərait yaradır. Sorğu-əsaslı metodun praktiki tətbiqi isə tələbələrdə motivasiya və emosinal bağlılığı artıraraq, onların öyrənməni yalnız nəzəri deyil, həmçinin həyatla bağlı bir proses olduğunu dərk etmələrinə şərait yaradır.

Prince və Felder (2006) sorğu-əsaslı öyrənməni induktiv öyrənmə prosesi kimi müəyyənləşdirirlər. Bu, müşahidədən və ya mürəkkəb real problemlərdən başlayır, sonra tələbələr müzakirə edir, təhlil aparır, məlumat toplayır və nəhayət faktlar, prosedurlar və əsas prinsiplər formalaşdırırlar. Fauziati (2014) isə qeyd edir ki, sorğu-əsaslı öyrənmə sualvermə yolu ilə həqiqəti, məlumatı və bilikləri axtarmaq prosesidir. Bu suallar əsasən tələbələrin özləri tərəfindən formalaşdırılmalıdır, lakin müəllimlər də öyrənmə prosesini yönləndirmək üçün suallar verə bilərlər.

Cədvəl 1. Sorğu-əsaslı təlimin beş mərhələsi (Bybee etc., 2006)

Mərhələ	**Məzmun**
Motivasiya	Müəllimlər tələbələrin yeni biliklərlə əlaqəli əvvəlki biliklərini qiymətləndirir, onların yanlış anlayışlarını müəyyənləşdirir və qısa öyrənmə fəaliyyətləri vasitəsilə onları yeni anlayışlarla tanış edərək maraqlarını oyadır və əvvəlki biliklərini ortaya çıxarırlar. Bu mərhələnin sonunda müəllimlər tələbələrin araşdırma suallarını formalaşdırmasına kömək etməli və ya tələbələr bunu özləri etməlidirlər.
Kəşfiyyat	Tələbələr öz suallarını araşdırmaq üçün öyrənmə təcrübəsinə cəlb olunurlar. Bu təcrübə onlardan əvvəlki biliklərini tətbiq etməklə yeni fikirlər formalaşdırmağı, ehtimalları proqnozlaşdırmağı, ilkin tədqiqatı dizayn etməyi və həyata keçirməyi tələb edir. Bu mərhələ vasitəsilə tələbələr yanlış anlayışlarını müəyyən edə, yeni anlayışlar qura və tədqiqat bacarıqlarını inkişaf etdirə bilərlər..
İzah	Tələbələr mücərrəd olan sorğu nəticələrini şifahi formalara çevirir. Onlar izahatlarını formalaşdırmaq üçün məlumat və sübutları şərh etmək, əsaslandırmaq və təhlil etmək kimi daha yüksək səviyyəli idrak bacarıqları və proseslərdən istifadə edirlər. Bu mərhələnin sonunda müəllimlər tələbələrə bu anlayışlar haqqında fikir formalaşdırmağa kömək etmək üçün yeni anlayışlar təqdim edə bilərlər.
Dərinləşdirmə	Müəllimlər tələbələrə əlavə fəaliyyətlər təqdim edərək onların yeni anlayışlarını möhkəmləndirməyə və əvvəlki bilikləri ilə əlaqələndirməyə kömək edirlər. Eyni zamanda, tələbələrdən yeni bilik və anlayışlarını müxtəlif və yeni problemlərin həllində tətbiq etmələri tələb olunur..
Qiymətləndirmə	Müəllimlər tələbələri öz bilik və bacarıqlarını qiymətləndirməyə təşviq edirlər. Bu həmçinin müəllimlər üçün tələbələrin öyrənməsini qiymətləndirmək üçün ən uyğun vaxtdır. Əldə edilən rəy əsasında müəllimlər növbəti dərslərdə tədris prosesini tənzimləyir və təkmilləşdirirlər.

Irawan və başqa alimlər (2017) göstərir ki, sorğu-əsaslı öyrənmədə müəllimlər fəal rol oynayır. Onlar öyrənmə prosesində ideyaların hörmətlə müzakirə edildiyi, sınandığı, yenidən müəyyənləşdirildiyi və daim təkmilləşdirilə bilən bir mühit yaradır. Bu yanaşma tələbələri sadəcə "təəccüblənmə"

mərhələsindən "anlayış qazanmaq" və daha dərin suallar vermə mərhələsinə aparır. Sorğu sadəcə cavab tapmaq və ya suala cavab verməklə məhdudlaşmır, həm də araşdırma, tədqiqat, axtarış və öyrənmədir. Bu proses sosial qarşılıqlı əlaqə əsasında bilik və təcrübə mübadiləsi aparan, bir-birindən öyrənməni təşviq edən öyrənmə icması tərəfindən dəstəklənir.

Sorğu-əsaslı metodun ali məktəblərdə tətbiqinə dair müxtəlif modellər mövcuddur. Kuklthau, Maniotes və Caspri (2007) sorğu prosesini beş əsas fəaliyyət kimi göstərirlər: araşdırma, kəşfiyyat, axtarış, tədqiqat, öyrənmə. Bruce və Davidson (1996) sorğu dövrünü sual vermək, araşdırmaq, yaratmaq, müzakirə etmək və refleksiya kimi müəyyənləşdirirlər. Rejeki (2017) isə üç mərhələdən bəhs edir: kəşfiyyat, konsepsiyanın təqdimatı və tətbiqi. Roger Bybee isə bu ardıcıllığı motivasiya, kəşfiyyat, izah, dərinləşdirmə və qiymətləndirmə kimi təqdim edir (Bybee etc., 2006). Bu model, sorğu-əsaslı təlim modelləri arasında ən məşhuru hesab olunur.

Cədvəl 1-də qeyd olunan sorğu-əsaslı təlimin beş mərhələli modelinin təhlilinə əsasən qeyd etmək olar ki, tələbələrin koqnitiv bacarıqları və motivasiyası sistemli şəkildə inkişaf edir. Bu modelin tətbiqi ilə tələbələr əvvəlki biliklərini nəzərdən keçirir, qısa öyrənmə fəaliyyətləri ilə yeni biliklərə yiyələnirlər, nəticələr haqqında anlayışlar formalaşdırırlar. Bütün bu proses onların yaradıcı, tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyə kömək edir. Psixoloji cəhətdən bu yanaşma tələbələrin öyrənmə prosesində aktiv iştirakını təmin etməklə onların məsuliyyət, motivasiya və öyrənmə bacarıqlarının artmasına töhfə verir.

Sorğu-əsaslı öyrənmənin ingilis dilinin tədrisində əsas üstünlüyü ondan ibarətdir ki, tələbələr öyrəndikləri bilikləri öz sosial dünyaları ilə əlaqələndirərək, naməlum olanı anlamaqda və mənalandırmaqda daha çox dəstək alırlar. Psixoloji baxımdan tələbələr yeni bilikləri əvvəlki təcrübələri ilə əlaqələndirməklə özlərinin idrak qabiliyyətlərini inkişaf etdirir və öyrənmə prosesində daha güclü motivasiya əldə edirlər. İngilis dilinin tədrisi və öyrənmə fəaliyyətlərində sorğuya əsaslanan metod müəyyən dərəcədə faydalıdır, məsələn, lüğətin mənimsənilməsini təkmilləşdirmək, qrammatik formaları izah etmək, həmçinin tələbələrə mənanı və mədəniyyəti dərk etməkdə kömək etmək üçün istifadə oluna bilər. Bundan əlavə, sorğu-əsaslı təlim tələbələrin iştirakını artırır, onların diqqətini davamlı saxlamağa kömək edir və sinifdə qarşılıqlı əlaqəni təşviq edən təlim fəaliyyətlərinə imkan yaradır. Burada suallar vermək dəyərlidir, çünki bu, öyrənmə prosesinə maraqlı təcrübə qatır, tələbələrə kəşf etmək, düşünmək və yaradıcılıqla məşğul olmaq imkanı verir, həmçinin onların idrak və metakoqnitiv bacarıqlarını təşviq edir. Belə nəticəyə gəlmək olar ki, bu üstünlüklər başa düşməyi, öz-özünə tənzimlənən öyrənməni və gələcək təhsilin ötürülməsini asanlaşdırır.

Sorğu-əsaslı təlimin tətbiqi zamanı qarşılaşılan çətinliklər və psixoloji maneələr

Sorğu-əsaslı öyrənmə vasitəsilə tələbələr həm dil məzmununu, həm də elmi praktikaları daha yaxşı anlamaq üçün dəyərli imkanlar əldə edirlər. Onlar tədqiqat, refleksiya, araşdırma, eksperiment və sınaq-yanılma yolu ilə tənqidi və yaradıcı düşünməyi öyrənərkən eyni zamanda əməkdaşlıqla yeni bilik yaradırlar. Lakin ali təhsildə bu yanaşmanın tətbiqi müəyyən çətinliklər də yaradır. Bu çətinliklər müəllimlər və tələbələr üçün fərqli aspektlərdə özünü göstərir.

Ümumilikdə, müəllimlərin sorğu-əsaslı öyrənmədən istifadə edərkən özünəinam səviyyəsinin aşağı olduğu aşkar edilmişdir (Akuma və Callaghan, 2019). Burada çətinliklər iki kateqoriyaya bölünə bilər: intrinsik (daxili) və ekstrinsik (xarici) çətinliklər. İntrinsik çətinliklər müəllimlərin öz daxilində qarşılaşdıqları şəxsi problemləri əhatə edir, ekstrinsik çətinliklər isə müəllimlərin xarici mühitlə əlaqəli problemlərini nəzərdə tutur. Daxili çətinliklər daha çox psixoloji faktorlarla əlaqəli olaraq üzə çıxır. Bu çətinliklərə motivasiya çatışmazlığı, müəyyən mövzu üzrə pedaqoji məzmun biliklərinin yetərsizliyi, tədris bacarıqlarında çatışmazlıq və dərs hazırlığı daxil edilir (Akuma və Callaghan, 2019).

Xarici çətinliklərə isə kurikulumun tələbləri, dərs vaxtının məhdud olması, resurs və avadanlıq çatışmazlığı, eləcə də tələbələrin sorğu-əsaslı təlim metoduna uyğun öyrənmə təcrübəsinin olmaması daxildir (Ramnarain, 2016). Bu çətinliklər əsasən təşkilati və ya məktəb konteksti ilə əlaqəli problemlər kimi təsvir olunur.

Tədqiqatlar göstərir ki, çoxsaylı müəllimlər sorğu-əsaslı öyrətmə bacarıqlarını effektiv

şəkildə tətbiq etmək üçün kifayət qədər təlim almamışdır (Bell və b., 2010). Sorğu-əsaslı təlim müəllim mərkəzli modeldən tələbə-mərkəzli, fasilitator roluna keçidi tələb edir ki, bu keçid kifayət qədər peşəkar dəstək və inkişaf proqramları təmin olunmadan çətinlik yarada bilər. Sorğu-əsaslı metodlarda təlim almış müəllimlər tələbələrin araşdırmalarına rəhbərlik etməkdə daha əmin və sinif dinamikasını idarə etməkdə daha bacarıqlıdırlar.

Bu təlim olmadan, müəllimlər tələbələrin öyrənməsini düzgün istiqamətləndirməkdə çətinlik çəkə bilərlər (Fishman və b., 2013). Buna görə də, sorğu-əsaslı təlim metodlarını və sinif idarəetmə strategiyalarını əhatə edən peşəkar inkişaf proqramları müəllimləri dəstəkləmək üçün vacib ola bilər. Struktur kurikulum tələbləri ilə sorğu-əsaslı təlimin uyğunlaşdırılması da mühüm çətinlik kimi ortaya çıxır. Sorğu-əsaslı təlim proqramlarının çoxu tələbələrin inkişaf mərhələlərini və müəyyən öyrənmə məqsədlərini vurğulasa da, metod bu standartlaşdırılmış nəticələri əldə etmək üçün lazım olan strukturdan məhrum görünə bilər (Kirkpatrick və Johnson, 2014). Müəllimlər açıq tipli sorğu yanaşmasını tələbələrdən gözlənilən bacarıq və biliklərlə uyğunlaşdırmaqda çətinlik çəkirlər. Bəzi müəllimlər düşünür ki, sorğu əsaslı yanaşma əsas bacarıqlardan vaxtı ala bilər, bu narahatlıq araşdırmalarla da dəstəklənir (Mayer, 2004). Lakin sorğu-əsaslı təlim bələdçi təlimlə birləşdirildikdə həm əsas bacarıqları, həm də sorğu bacarıqlarını inkişaf etdirə bilər və balanslaşdırılmış yanaşma bu çətinliyi aradan qaldıra bilər (Kirschner və b., 2006).

Ali məktəblərdə sorğu-əsaslı təlimin tətbiqi zamanı tələbələr üçün də bir sıra psixoloji çətinliklər üzə çıxa bilər. Sorğu-əsaslı öyrənmədə məlumat toplama, analiz, interpretasiya və nəticələri kommunikasiyaya çevirmə kimi vəzifələr mürəkkəbdir və bu proseslər mövzu üzrə bilik tələb edir. Bu vəzifələrin düzgün şəkildə yerinə yetirilməsi və tələbələrin sorğu-əsaslı öyrənməyə cəlb olunması üçün onların kifayət qədər motivasiyaya malik olmaları vacibdir. Sorğu-əsaslı öyrənmənin mürəkkəb və uzunmüddətli xarakteri, ənənəvi tədris fəaliyyətlərinə nisbətən daha yüksək motivasiya tələb edir. Öyrənməni təşviq etmək üçün motivasiya tədqiqatın özünə, nəticələrinə və nəticələrinin təsirlərinə maraqdan irəli gəlməlidir. Əgər tələbələr kifayət qədər motivasiya olunmayıblarsa, onlar sorğu fəaliyyətlərində iştirak etməyə bilər və ya passiv şəkildə iştirak edərək öyrənməni dəstəkləməyən şəkildə fəaliyyət göstərirlər. Sorğu-əsaslı öyrənməni dizayn edərkən əsas məqsəd tələbələrə həm elmi anlayışı inkişaf etdirmək, həm də tətbiq etmək imkanları təqdim etməkdir. Əgər tələbələr bu bilikdən məhrumdursa və onu inkişaf etdirmək imkanına malik deyilsə, tədqiqatları başa çatdıra bilməyəcəklər. Sorğu-əsaslı öyrənmənin əsas məqsədinə çatmaq üçün tələbələrin mürəkkəb, uzunmüddətli fəaliyyətləri təşkil edib idarə etməsi tələb olunur ki, bu da onların koqnitiv planlama, problem həll etmə və qərarvermə bacarıqlarını inkişaf etdirir. Tələbələr ənənəvi tədris fəaliyyətlərində bu cür uzadılmış və mürəkkəb prosesləri idarə etməyə adətən öyrədilmirlər. Əgər tələbələr işlərini təşkil edə və uzadılmış prosesi idarə edə bilməsələr, sorğu fəaliyyətində iştirak edə və sorğu-əsaslı öyrənmənin potensialından istifadə edə bilməzlər.

Qeyd olunan bütün çətinliklərin aradan qaldırılması üçün ali məktəblərdə ingilis dilinin tədrisində sorğu-əsaslı təlim zamanı texnoloji və kurikulum dizayn strategiyalarından istifadə edilə bilər. Bu strategiyalar psixoloji baxımdan mühüm əhəmiyyət kəsb edir. Belə ki, öyrənməni təşviq edən problemin qoyuluşu tələbələrin motivasiyasını artıraraq onların tədris prosesində aktiv iştirakını təmin edə bilər. Aktiv öyrənməyə yönəlmiş problemlər ingilis dilinin tədrisi prosesində motivasiyaedici kontekst yaratmaq üçün istifadə edilə bilər. Sorğu-əsaslı təlimdə fəaliyyətlərin mərhələnməsi də tələbələrin koqnitiv bacarıqlarını inkişaf etdirir, onların əvvəlki bacarıqlarından istifadə edərək yeni bilikləri sistemli şəkildə öyrənmələrinə şərait yaradır. Bütünləşdirici fəaliyyətlər isə tələbələr arasında sosial interaktivliyi artırır, tanış kommunikasiya praktikaları vasitəsilə naməlum dil situasiyalarında problem həll etmə bacarıqlarını inkişaf etdirir.

Ali məktəblərdə ingilis dilinin tədrisi zamanı dəstəkləyici istifadəçi interfeyslərinin tətbiqi də öyrənmə prosesində motivasiyanı gücləndirə bilər. Bu üsul tələbələr üçün öyrənmənin əlçatanlığını artırır, stress və qeyri-müəyyənlik hissini azaldır. Bu strategiyalar ali məktəblərdə

ingilis dilinin tədrisində tələbələrin motivasiyasını, koqnitiv bacarıqlarını və sosial-emosional inkişafını yüksəldərək sorğu-əsaslı təlimin effektivliyini artırır.

Ali təhsildə ingilis dilinin tədrisində sorğu-əsaslı təlimin potensial təsirləri

Sorğu-əsaslı təlim konstruktivist nəzəriyyələrə uyğundur və tələbələrin bilikləri aktiv şəkildə araşdırma və sosial qarşılıqlı əlaqə yolu ilə formalaşır (Vygotsky, 1978). Tələbələr suallar verdikdə və həll yollarını araşdırdıqda, yüksək səviyyəli idrak prosesləri ilə məşğul olurlar ki, bu da onların sonrakı koqnitiv inkişafının təməlini qoyur (Harlen, 2015). Tədqiqatlar göstərir ki, sorğu-əsaslı yanaşmalar tələbələrdən məlumatları sadəcə əzbərləmək əvəzinə analiz, qiymətləndirmə və sintez etmələrini tələb etməklə tənqidi düşünməni təşviq edir (Minner və b., 2010). Bu fəaliyyətlərdə fəal iştirak etməklə tələbələr həm əyani, həm də zehni fəaliyyətlərdə daha çox iştirak etmək imkanı qazanırlar.

Fredricks, Blumenfeld və Paris (2004) tələbələrin dərsə cəlb olunmasını araşdıran tədqiqatları nəzərdən keçirərək onu üç növə ayırır: fəaliyyət əsaslı cəlb olunma (tələbələrin akademik və qeyri-akademik fəaliyyətlərdə iştirak etməsi və onları həyata keçirməsi), emosional cəlb olunma (tələbələrin müəllimlərinə, həmyaşıdlarına qarşı sevgi, davamlılıq, zövq alma və s. kimi emosional reaksiyaları, həmçinin aidiyyət və identifikasiya hissi) və koqnitiv cəlb olunma (tələbələrin qarşılaşdıqları problemləri həll etmək üçün koqnitiv bacarıqlarını tətbiq etmək səyi). Bu fərqli cəlb olunma növlərinin əhəmiyyətini vurğulayan müxtəlif baxışlar mövcuddur. Tyler (1949) emosional cəlb olunmaya daha çox diqqət yetirir, çünki o, tələbələrin öyrənməsinin onların öyrənmə maraqları və ehtiyaclarından qaynaqlandığına inanır. Digər tərəfdən, Newmann və Marks (1996) koqnitiv cəlb olunmanı vurğulayır. Onlar üçün öyrənmə akademik nailiyyətlər əldə etməkdir. Buna görə də, tələbələrin öyrənmə fəaliyyətlərinə koqnitiv səylərini yönəltməsi vacibdir.

Sorğu-əsaslı təlimdə psixoloji cəhətdən emosional cəlb olunmanın rolu xüsusilə vurğulanır. Emosional cəlb olunma sorğu prosesinin əvvəlində prioritetləşdirilir: müəllimlər tələbələrin marağını artırmaq üçün müxtəlif fəaliyyətlərdən istifadə edirlər. Bu fəaliyyətlər nə qədər real həyatda baş verən problemləri əks etdirirsə, tələbələr bir o qədər maraqlı və motivasiyalı ola bilərlər.

Tələbələrin koqnitiv və motivasiya aspektləri nəzərə alınmaqla sorğu-əsaslı öyrənmə onların anlayışını asanlaşdıra bilər. Wiggin və McTighe (2005) öz tədqiqatlarında anlayışın altı aspekti olduğunu açıqlayırlar:

İzah: Anlayış tələbələrin öyrəndiklərini tam olaraq bilməsini, öyrənmələri haqqında izah verməsini və bunu əsaslandırmaq üçün səbəblər göstərməsini tələb edir. Bu izahlar düşünülmüş şəkildə verilməli, ideyalar böyük anlayışlarla əlaqələndirilməli və bu əlaqələr əsaslandırılmalıdır.

- **Təfsir:** Öyrənilənləri başa düşmək üçün tələbələrin öyrənmələrini anlamaları və mənalandırmaları vacibdir.
- **Tətbiq:** Tələbələr biliklərini yeni vəziyyətlərdə tətbiq etmə qabiliyyətinə malik olmalıdır ki, yeni biliklər əldə etsin və xüsusilə tanış olmayan və real situasiyalarda anlayış səviyyəsini yüksəltsin. Bu praktika onların müxtəlif problemləri həll etmək üçün intellektual bacarıqlarını artırır və biliklərini praktikada tətbiq etmələrini asanlaşdırır.
- **Perspektiv:** Anlayış o deməkdir ki, qəbul edilmiş fərziyyələr, nəticələr və onların tətbiq sahələri müəyyən edilməli və problemlərin həllində nəzərə alınmalıdır. Tələbələr tənqidi və anlayışlı baxışa malik olmalıdırlar. Həmçinin hər kəsin bir sual və ya problemə öz baxışı olduğunu qəbul etmələri vacibdir. Bu baxışlar fərqli ola bilər, lakin hamısı problemi həll etmək və ya suala cavab tapmaq üçün məntiqli ola bilər.
- **Empatiya:** Anlayış tənqidi perspektivi vurğulasa da, tələbənin digər baxışlara, "qəribə" və ya "yad" kimi etiketlədiyi baxışlara tolerant olması vacibdir. Öz baxışından ayrılaraq, məntiqli və mənalı alternativləri görə bilməlidir. Beləliklə, tələbələr problemi və ya sualları fərqli perspektivlərdən həll edə bilirlər ki, bu da onların açıq fikirli və daha yetkin düşüncəyə malik olmasına imkan verir.
- **Özünü tanıma:** Anlayış tələbələrin özlərini tanıması, öyrənmə proseslərini və performanslarını öz-özünə tənzimləməsi və qiymətləndirməsinə kömək edir. Bu, həmçinin

özünü əks etdirmə və bu əks etdirilmənin qiymətləndirilməsi ilə əlaqəlidir.

Bu baxımdan, anlayış yalnız tələbələrin bilik və tətbiq bacarıqlarının inkişafı ilə məhdudlaşmır, həm də onların perspektivlərini, düşüncə meyllərini və metakoqnitiv bacarıqlarını inkişaf etdirməyi əhatə edir.

Xüsusiyyətlərinə görə, ingilis dilinin tədrisində sorğu-əsaslı təlimin tətbiqi zamanı tələbələrin anlayışını artırmaq olduqca vacibdir. Məsələn, tələbələr hipotez və nəticələr arasındakı əlaqəni izah etdikcə, tədqiqat planındakı hər addımın mənasını açıqladıqca, laboratoriya işlərindən əldə olunan nəticələri təfsir etdikcə onların analitik və izahedici bacarıqları formalaşır.

Tələbələrin öz perspektivlərini və koqnitiv empatiyanı inkişaf etdirmələrinə müəllimlərin onları fikirlərini və perspektivlərini müzakirə etməyə təşviq etməsi ilə də nail olmaq olar. Bu fəaliyyətlər tələbələrə problemin bir neçə həlli ola biləcəyini göstərir və onların öz fərqli ideyalara daha açıq olmasına kömək edir.

Sorğu-əsaslı təlim tələbələrə özünü tənzimləyən öyrənmə proseslərini idarə etmə və məsuliyyət götürmə bacarıqlarını inkişaf etdirməyə imkan verir. Öyrənmə həm daxili, həm də xarici resurslardan təsirlənir. Daxili resurs tələbələrin koqnisiyasını, xarici resurs isə tələbələrin öyrənmə məqsədlərini, materialları, dəstək vasitələrini və öyrənməni həyata keçirdikləri mühiti əhatə edir. Əgər tələbələr biliklərini özləri formalaşdırmaq üçün tam məsuliyyət götürür və öyrənmələri üzərində nəzarəti öz əllərinə alırlarsa, onlar özünü idarə edən (self-directed) öyrənənlər hesab olunurlar. Başqa sözlə, özünü idarə edən öyrənmə tələbələrin məqsədli şəkildə koqnitiv bacarıqlarını istifadə edərək bilik kapitalını inkişaf etdirməsi və öyrənmə məqsədləri və fəaliyyətləri barədə qərarlar verməsi deməkdir (Zimmerman, 1990). Tələbələrin öyrənmə məsuliyyəti və öyrənmə üzərində nəzarəti bir-biri ilə əlaqəli olub qarşılıqlı təsir göstərir. Tələbələrin məsuliyyəti onların öyrənmə nəzarəti səviyyəsinin artması ilə yüksəlir. Öyrənmə üzərində nəzarətin artması tələbələrin istədikləri nəticələrə çatmaq imkanını artırır və bununla da onların özünü idarə edən öyrənmə motivasiyasını gücləndirir.

Sorğu-əsaslı öyrənmə öz xüsusiyyətləri və həyata keçmə səviyyələri ilə tələbələrin özünü idarə edən öyrənməsini gücləndirə bilər. Sorğu-əsaslı təlim müəllimlərə tələbələrin özünü tənzimləyən öyrənməsini dəstəkləmək üçün mərhələli şəkildə müdaxilələrini azaltmaq və tələbələrin öyrənmə üzərində nəzarətini artırmaq imkanı verir. Sorğunun aşağı səviyyəsindən yüksək səviyyəsinə keçdikcə tələbələrin öyrənmə məsuliyyəti və öyrənmə üzərində nəzarəti tədricən artır. Buna baxmayaraq, müəllimlərin tələbələrin özünü idarə edən öyrənməsini təmin etməsi asan deyil. Onlar tələbələrinə nəzarəti geri verməyin doğru vaxtını və öyrənmə məqsədlərindən çox uzaqlaşmaması üçün nə vaxt müdaxilə etməli olduqlarını bilməlidirlər. Daha önəmlisi, müəllimlər öyrənmə məqsədlərinin müəyyənləşdirilməsi, öyrənmə tapşırıqlarının seçilməsi, öyrənmə fəaliyyətlərinin dizaynı, müəllimlərdən dəstək alınması və koqnitiv və metakoqnitiv proseslərin inkişaf etdirilməsi kimi tələbələrə faydalı olacaq öyrətmə strategiyalarını hazırlaya bilməlidirlər (Garrison və Archer, 2000).

Sorğu-əsaslı öyrənmə ümumi və elmi kompetensiyaların inkişafı baxımından ingilis dilinin tədrisində effektiv pedaqoji yanaşma potensialına malikdir. Anlayış tələbələrin problem həll etmə, tənqidi düşünmə, yaradıcı düşünmə və metakoqnitiv bacarıqlarını inkişaf etdirmək üçün əsas yaradır. Tələbələr arasında inkişaf etdirilə bilən özünü tənzimləyən öyrənmə isə onların innovativ tədris proqramının yeni tələblərinə uyğunlaşmasını təmin edir. Sorğu-əsaslı təlimin tələbələrə qrup işləri daxil olmaqla həqiqi öyrənmə təcrübələrində iştirak imkanı verməsi onların ünsiyyət və əməkdaşlıq bacarıqlarını təkmilləşdirmək üçün effektiv şərait yaradır.

Bundan əlavə, sorğu-əsaslı təlim problem əsaslı öyrənmə və layihə əsaslı öyrənməni əhatə edən ümumi bir çətir mövzusudur (Dobber və b., 2017). Bu xüsusiyyət müəllimlərə tələbələrin kompetensiyalarını inkişaf etdirmək üçün müxtəlif öyrənmə fəaliyyətlərini təşkil etməkdə daha çox seçim imkanı verir. Tələbələrin sorğu-əsaslı təlim ilə öyrənmə zamanı inkişaf etdirə biləcəyi koqnitiv və metakoqnitiv bacarıqlar və proseslər, eləcə də onların koqnitiv empatiyası tələb olunan ümumi kompetensiyaların

inkişafını daha da gücləndirir. Bundan əlavə, sorğu-əsaslı öyrənmə təcrübə işlərinə vurğu edir ki, tələbələr öyrəndikləri qrammatika, lüğət və ifadələri real həyat situasiyalarında istifadə edə bilsinlər. Beləliklə, tələbələr kritik düşünmə, yaradıcılıq və motivasiya bacarıqlarını təkmilləşdirə bilər ki, bu da öz növbəsində onların elmi kompetensiyalarını gücləndirir.

Yekun olaraq qeyd etmək olar ki, ali məktəblərdə ingilis dilinin tədrisi zamanı sorğu-əsaslı təlimin mühüm psixoloji üstünlüyü tələbələrin marağını inkişaf etdirməsi və öyrənməni təbii və cəlbedici edən mühit yaratmasıdır. Sorğu-əsaslı təlimdə iştirak edən tələbələr ənənəvi metodlarla öyrədilənlərə nisbətən daha çox həvəs və özünü motivasiya nümayiş etdirirlər. Müəllimlərin müşahidələrinə görə, öyrənmə fəaliyyətlərində iştirak yalnız daxili motivasiyanı dəstəkləmir, həm də akademik nailiyyətləri artırır. Bu, uşaqların öyrənməyə sahiblik hissini artırması və nəticədə özünəinam və gələcək öyrənməyə müsbət münasibət formalaşdırması ilə izah edilə bilər.

Nəticə

Sorğu-əsaslı təlim düzgün şəkildə tətbiq olunarsa tələbələrin kompetensiyalarını inkişaf etdirmək baxımından ingilis dilinin tədrisində effektiv pedaqoji yanaşma ola bilər. Bu yanaşma yalnız mənalı öyrənməni artırmaqla qalmır, həmçinin tələbələrin anlayışını gücləndirir, onların özünü tənzimləyən öyrənməsini inkişaf etdirir və tələbələrin tələb olunan ümumi və elmi kompetensiyalarını formalaşdırmağa kömək edir.

Tədqiqatın nəticələrinə əsasən qeyd etmək olar ki, sorğu-əsaslı təlimin ali məktəblərin aşağı kurslarında müşahidə olunan üstünlüyü sosial və kommunikasiya bacarıqlarının inkişafıdır. Əməkdaşlıq əsaslı layihələrdə tələbələr tez-tez müzakirələr aparır, ideyalarını paylaşır və rolları razılaşdırırlar ki, bu da sosial bacarıqların və şifahi ifadə qabiliyyətinin inkişafına kömək edir. Bu fəaliyyətlər tələbələrə dinləmə, fikirlərini aydın ifadə etmə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirməyə dəstək olur. Bu nəticələr göstərir ki, sorğu-əsaslı təlim yalnız koqnitiv inkişafı deyil, həm də sosial-emosional inkişafı da təşviq edir.

Lakin sorğu-əsaslı öyrənmənin uğurla tətbiqində müəyyən çətinliklər də üzə çıxa bilər. Bu metod müəllimlər üçün çətin görünür, çünki bu, onlardan daha çox pedaqoji bilik və bacarıq tələb edir. Şübhəsiz ki, innovativ tədris proqramı və sorğu-əsaslı təlimin tətbiqi üçün müəllimlərin hazırlanması vacibdir. Onlar öyrənmə mövzularını və əlaqədar tapşırıqları seçmək, tələbələrin öyrənmə ehtiyac və maraqlarına cavab verən öyrənmə fəaliyyətlərini dizayn etmək üçün təlim texnikaları və strategiyalarını bilməlidirlər.

Nəticə olaraq, ali məktəblərdə ingilis dilinin tədrisi zamanı sorğu-əsaslı təlim psixoloji, koqnitiv, emosional, sosial baxımdan tələbələrin inkişafını dəstəkləyir. Onun tətbiqi yalnız dil öyrənmə ilə məhdudlaşmır, eyni zamanda tələbələrin tənqidi, analitik düşünmə, problem həll etmə, özünü tənzimləmə bacarıqlarını da gücləndirir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Adege, A. (2016). The effects of explicit instruction in critical thinking on student achievement in writing academic papers, general critical thinking ability, and critical thinking dispositions. [doctoral dissertation]. Addis Ababa University.13 p.
2. Ahmad, J. S., Sitti, H. R., Abdul, R. H., Mohammad, N. A. G., & Sanitah, M. Y. (2014). Levels of inquiry-based learning on writing skill in English language among high school students: A study in Makassar Indonesia. Journal of Language and Literature., 5(2), 62–66.
3. Akuma F. V., and Callaghan R. (2019). Research in Science Education, 49,1677.
4. Bell, R. L., Smetana, L., & Binns, I. (2005). Simplifying inquiry instruction. The Science Teacher, 72(7), 30-33.
5. Bruce, B. C., & Davidson, J. (1996). An Inquiry Model for Literacy across the Curriculum. Journal of Curriculum Studies, 28(3), 281–300.
6. Bybee, R. W., Taylor, J. A., Gardner, A., Van Scotter, P., Powell, J. C., Westbrook, A., & Landes, N. (2006). The BSCS 5E instructional model: Origins and effectiveness. Colorado Springs, CO80918.
7. Center, P. P. R. (2010). 21st Century Skills for Students and Teachers. Honolulu: Kamehameha Schools, Research & Evaluation Division.Research & Evaluation Division. 25 p.
8. Crawford, B. (2014). From inquiry to scientific practices in the science classroom. In

Handbook of research on science education, Routledge (Vol. 2, pp. 515-554).

9. Dobber, M., Zwart, R., Tanis, M., & van Oers, B. (2017). Literature review: The role of the teacher in inquiry-based education. Educational Research Review, 22, 194-214.

10. Facione, P.A. (2015). Critical thinking: what it is and why it counts, from APA report: Expert consensus statement on critical thinking. 30 p.

11. Fauziati, E. (2014). Methods of Teaching English as a Foreign Language (TEFL): Traditional Method Designer Methods Communicative Methods Scientific Approach. Surakarta: Era Pustaka Utama. 234 p.

12. Fiore, E. D. (2016). Implementation of Inquiry-based Learning into Chinese as a Foreign Language Classes in International IB PYP Schools of Hong Kong. 15(1):1-13

13. Fishman, B. J., Marx, R. W., Blumenfeld, P., Krajcik, J., & Soloway, E. (2013). Creating a framework for research on systemic technology innovations. Journal of the Learning Sciences, 12(1), 53-86.

14. Fredricks, J. A., Blumenfeld, P. C., & Paris, A. H. (2004). School engagement: Potential of the concept, state of the evidence. Review of educational research, 74(1), 59-109.

15. Garrison, D. R., & Archer, W. (2000). A transactional perspective on teaching and learning: A framework for adult and higher education. Advances in learning and instruction series. Elsevier Science, Ltd, Oxford, UK. 228 p.

16. Harlen, W. (2015). Working with big ideas of science education. Association for Science Education. 64 p.

17. Irawan, Yogi, Syahrial, & Sofyan Dedi. (2017). The Effect of Using Inquiry-Based Learning Strategy on Students Speaking Ability (a Case Study at SMAN 7 Bengkulu Selatan). JOALL (Journal of Applied Linguistics and Literature), 3 (2), 59- 79).

18. Kirkpatrick, D., & Johnson, M. (2014). Blended learning: Tools and practices. Learning Solutions Press, 9:85151 - 8519

19. Kirschner, P. A., Sweller, J., & Clark, R. E. (2006). Why minimal guidance during instruction does not work: An analysis of the failure of constructivist, discovery, problem-based, experiential, and inquiry-based teaching. Educational Psychologist, 41(2), 75-86.

20. Kuhlthau, Carol C., Leslie K. Maniotes, A. K. C. (2007). Guided Inquiry: Learning in the 21st Century. Santa Barbara, California: Greenwood Publishing Group. 188 p.

21. Lee, H. (2014). Inquiry-based Teaching in Second and Foreign Language Pedagogy. 5(6), 1236–1244. https://doi.org/10.4304/jltr.5.6.1236-1244

22. Mayer, R. E. (2004). Should there be a three-strikes rule against pure discovery learning? The case for guided methods of instruction. American Psychologist, 59(1), 14-19

23. Minner, D. D., Levy, A. J., & Century, J. (2010). Inquiry-based science instruction—what is it and does it matter? Results from a research synthesis years 1984 to 2002. Journal of Research in Science Teaching, 47(4), 474-496.

24. Newmann, F. M., & Marks, H. M. (1996). Authentic pedagogy and student performance. American Journal of Education, 104(4), 280-312.

25. Prince, M. J., and R. M. FelderPrince, M. J., and R. M. F. (2006). Inductive Teaching and Learning Methods: Definitions, Comparisons, and Research Bases. Journal of Engineering Education, 95(2), 123–138.

26. Ramnarain U. (2016). Journal of Research in Science Teaching, 53(4), 598.

27. Rejeki, S. (2017). Inquiry-based Language Learning (Ibll): Theoretical and Practical Views in the English Classroom. English Franca, 01(02), 135–148.

28. Rejeki, S. (2017). Inquiry-based Language Learning (Ibll): Theoretical and Practical Views in the English Classroom. English Franca, 01(02), 135–148.

29. Tyler, R. W. (1949). Basic principles of curriculum and instruction. Chicago: The University of Chicago Press. pp. 1-7, 16-19, 25-33

30. Vygotsky, L. (1978). Mind in Society. The Development of Higher Psychological Processes (M. Cole, V. John-Steiner, S. Scribner & E. Souberman, Eds.). Cambridge, Massachusetts: Harvard University Press. pp. 52-57.

31. Wiggins, G. P., & McTighe, J. (2005). Understanding by design (2nd ed.). Pearson Education, Inc. pp.85-103

32. Zimmerman, B. J. (1990). Self-regulated learning and academic achievement: An overview. Educational Psychologist, 25(1), 3-17.

DOİ: 10.32010/UUUO7709

EQUALITY PRINCIPLES IN THE CONSTITUTION OF AZERBAIJAN AND GENDER EQUALITY EDUCATION IN SECONDARY SCHOOLS

Ilaha Hamza ISGANDAROVA
Lecturer at Baku State University
Orcid: https://orcid.org/0009-0004-6899-4264
E-mail: ilaheisgenderova.1000@gmail.com

Abstract: In modern times, the development of societies is measured not only by economic indicators but also by the level of equality and justice in social relations. In this context, gender equality is one of the main indicators of democratization. The Constitution of the Republic of Azerbaijan and the documents adopted after the restoration of independence established the principle of equality as a legal foundation. The Constitutional Act on State Independence, dated October 18, 1991, clearly stated equality between men and women. In 1992, Azerbaijan joined the UN "Convention on the Political Rights of Women," which created a basis for accepting international obligations. These legal conventions marked the beginning of a new stage in gender policy in Azerbaijan.

Under the leadership of national leader Heydar Aliyev, increasing women's participation in society and ensuring their equal involvement with men in education and science became an important direction of state policy. In particular, the decisions of the Fourth World Conference on Women held in Beijing in 1995 gave strong support to strengthening gender equality in Azerbaijan. In the following years, the creation of the State Committee for Women's Issues and the signing of relevant decrees showed the continuation of consistent policies in this area.

The formation of gender equality values among secondary school students is not only about providing knowledge but also about instilling principles such as mutual respect, tolerance, and fairness in their worldview. It is also important for implementing gender equality in practice. This process prepares future citizens to remain faithful to democratic values and to act as equal members of society.

As a result, there is a strong link between the equality principles enshrined in the Constitution of Azerbaijan and the development of gender equality values among secondary school students. Connecting these principles with education policy and practice contributes significantly to the country's democratic development, the strengthening of statehood, and the sustainable progress of civil society. Within this research, the connection between equality principles in the Constitution and their implementation in education policy and practice has been analyzed. The article also examines the compatibility of legal equality principles with gender approaches in secondary school education.

Keywords: Constitution of Azerbaijan, principles of equality, secondary school students, education policy, democratic values

---

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA BƏRABƏRLİK PRİNSİPLƏRİ VƏ ORTA MƏKTƏB ŞAGİRDLƏRİNDƏ GENDER BƏRABƏRLİYİ DƏYƏRLƏRİNİN FORMALAŞDIRILMASI

İlahə Həmzə İSGƏNDƏROVA
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0004-6899-4264
E-mail: ilaheisgenderova.1000@gmail.com

Xülasə: Müasir dövrdə cəmiyyətlərin inkişaf səviyyəsi həm iqtisadi göstəricilərlə, həm də sosial münasibətlərdə bərabərlik və ədalətin təmin olunması ilə ölçülür. Bu kontekstdə gender bərabərliyi məsələsi cəmiyyətin demokratikləşməsinin əsas göstəricilərindəndir. Azərbaycan Respublikasının Konstitusiyası və dövlət müstəqilliyimizlə bağlı qəbul edilən sənədlərdə bərabərlik prinsipi əsas hüquqi baza kimi qeyd olunmuşdur. 18 oktyabr 1991-ci il tarixli "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya aktında cinslər arasında bərabərlik açıq şəkildə qeyd edilmiş, 1992-ci ildə ölkəmizin BMT-nin "Qadınların siyasi hüquqları haqqında" Konvensiyasına qoşulması isə beynəlxalq öhdəliklərin qəbul olunmasına zəmin yaratmışdır. Bu hüquqi konvensiyalar Azərbaycanda gender siyasətində yeni mərhələnin başlanğıcı olmuşdur.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qadınların cəmiyyətdə fəallığının artırılması, onların təhsil və elm sahəsində kişilərlə bərabər iştirakına şərait yaradılması dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Xüsusən də 1995-ci ildə keçirilmiş IV Ümumdünya Pekin Konfransının qəbul etdiyi qərarlar Azərbaycanda gender bərabərliyi məsələlərinin möhkəmlənməsinə təkan vermişdir. Növbəti illərdə Qadın məsələləri üzrə Dövlət Komitəsinin yaradılması və müvafiq sərəncamların imzalanması ilə bu istiqamətdə ardıcıl siyasətin davam etdirildiyini göstərir. Orta məktəb şagirdlərində gender bərabərliyi dəyərlərinin formalaşdırılması yalnız bilik vermək deyil, həm də qarşılıqlı hörmət, tolerantlıq və ədalət kimi prinsiplərin gənc nəslin dünyagörüşünə aşılanması, gender bərabərliyinin praktik müstəvidə həyata keçirilməsi baxımından əhəmiyyətlidir. Bu proses gələcək vətəndaşların demokratik dəyərlərə sadiq, cəmiyyətdə bərabərhüquqlu vətəndaş kimi fəaliyyət göstərməsinə şərait yaradır. Nəticə etibarilə, Azərbaycan

Konstitusiyasında təsbit olunmuş bərabərlik prinsipləri ilə orta məktəb şagirdlərində gender bərabərliyi dəyərlərinin formalaşdırılması arasında bağlılıq mövcuddur. Bərabərlik prinsiplərinin təhsil siyasəti və praktikası ilə əlaqələndirilməsi ölkənin demokratik inkişafına, suveren dövlətçiliyin möhkəmlənməsinə və vətəndaş cəmiyyətinin davamlı tərəqqisinə mühüm töhfə verir. Tədqiqat çərçivəsində Azərbaycan Konstitusiyasındakı bərabərlik prinsiplərinin təhsil siyasəti və praktikası ilə əlaqələndirilməsi araşdırılmışdırdir. Məqalədə bərabərlik prinsiplərinin hüquqi əsasları ilə orta məktəb təhsilində gender yanaşmalarının uyğunluğu təhlil edilmişdir.
Açar sözlər: Azərbaycan Konstitusiyası, bərabərlik prinsipləri, orta məktəb şagirdləri, təhsil siyasəti, demokratik dəyərlər.

ПРИНЦИПЫ РАВЕНСТВА В КОНСТИТУЦИИ АЗЕРБАЙДЖАНА И ГЕНДЕРНОЕ РАВЕНСТВО В ОБРАЗОВАНИИ СРЕДНИХ ШКОЛ

Илаха Искендарова Хамза
Бакинский государственный университет)
Orcid: https://orcid.org/0009-0004-6899-4264
Электронная почта: ilaheisgenderova.1000@gmail.com

Резюме: В современную эпоху развитие обществ измеряется не только экономическими показателями, но и уровнем равенства и справедливости в социальных отношениях. В этом контексте гендерное равенство является одним из основных индикаторов демократизации. Конституция Азербайджанской Республики и документы, принятые после восстановления независимости, закрепили принцип равенства в качестве правовой основы. В Конституционном акте о государственной независимости от 18 октября 1991 года равенство мужчин и женщин было ясно обозначено. В 1992 году Азербайджан присоединился к Конвенции ООН «О политических правах женщин», что создало основу для принятия международных обязательств. Эти правовые конвенции ознаменовали начало нового этапа в гендерной политике Азербайджана.

Под руководством национального лидера Гейдара Алиева важным направлением государственной политики стало расширение участия женщин в жизни общества и обеспечение их равного с мужчинами вовлечения в образование и науку. В частности, решения Четвёртой всемирной конференции по положению женщин, состоявшейся в Пекине в 1995 году, оказали сильную поддержку укреплению гендерного равенства в Азербайджане. В последующие годы создание Государственного комитета по проблемам женщин и подписание соответствующих указов подтвердили продолжение последовательной политики в этой области.

Формирование ценностей гендерного равенства у учащихся средних школ связано не только с передачей знаний, но и с воспитанием в их мировоззрении таких принципов, как взаимное уважение, толерантность и справедливость. Это также имеет большое значение для практического осуществления гендерного равенства. Данный процесс подготавливает будущих граждан к верности демократическим ценностям и к действию в качестве равноправных членов общества.

В результате существует прочная связь между принципами равенства, закреплёнными в Конституции Азербайджана, и развитием ценностей гендерного равенства среди учащихся средних школ. Связывание этих принципов с образовательной политикой и практикой вносит значительный вклад в демократическое развитие страны, укрепление государственности и устойчивый прогресс гражданского общества. В рамках данного исследования проанализирована связь между принципами равенства в Конституции и их реализацией в образовательной политике и практике. В статье также рассматривается совместимость правовых принципов равенства с гендерными подходами в образовании средних школ.
Ключевые слова: Конституция Азербайджана, принципы равенства, учащиеся средних школ, образовательная политика, демократические ценности

Introduction

Nowadays, the development of societies is measured not only by economic indicators but also by the level of equality and justice in social relations. In the context of globalization, the strengthening of democratic institutions, and the interaction of different cultures, the principles of equality are an essential part of every country's sustainable development strategy. In this regard, gender issues are considered not only as a social problem but also as an important indicator of democratization, human rights protection, and the strengthening of civil society (Pretty, 1994).

Gender equality, as a key direction of state policy, should also be seen as a universal value that must be reflected in all social institutions, especially in the education system. Education plays a crucial role in shaping young people's social values, worldview, and civic responsibility. Through education, students receive not only knowledge but also learn values such as mutual respect, tolerance, cooperation, and social justice. As shown in studies by UNESCO (2015) and the

World Bank (2019), gender inequality deepens social problems not only at the national level but also globally. It prevents the effective use of social resources and weakens cooperation between men and women. For this reason, forming gender equality values from school age is strategically important both nationally and internationally.

The Constitution of the Republic of Azerbaijan guarantees equality of all citizens before the law (Constitution of Azerbaijan, 1995). Gender equality is legally recognized as a foundation, while the "Law on Education" (1992) and the "Law on Gender Equality" (2006) provide a basis for applying these principles in the field of education. This legal framework ensures equal rights for men and women in education and requires that textbooks, curricula, and teaching practices remain gender-sensitive (Aliyeva, 2020).

The early formation of gender equality values in the learning process plays a decisive role in preparing future citizens for democratic thinking, equal cooperation, and inclusive social relations (Huseynov, 2017). Negative effects of gender stereotypes during secondary school years must be overcome by strengthening values of fairness, equality, and cooperation. Teachers play a leading role in this process because they influence not only students' intellectual growth but also their social and moral development (Huseynova, 2019).

Modern universities and secondary schools include special courses and programs on gender topics, making gender equality education one of their priorities (Aliyev & Osmanov, 2014). These initiatives help strengthen cooperation between men and women, remove stereotypes, and ensure equal participation for all individuals in society. School seminars, projects, and interactive lessons not only improve students' knowledge and skills but also help build their sense of social responsibility (Guliyev, 2018).

In conclusion, the recognition of gender equality principles at the level of the Constitution and other laws, along with their practical application in education, creates conditions for the full development of Azerbaijani youth and their equal participation in all areas of life. This approach makes an important contribution to social development, the strengthening of state sovereignty, and the sustainable progress of civil society.

Research Relevance

The issue of gender equality is one of the main indicators of both social justice and sustainable development in modern society. When secondary school students become familiar with gender equality values, it helps them develop as individuals and supports their equal participation in society in the future.

Equal opportunities for both genders, the removal of stereotypes, and the creation of an inclusive environment have a positive impact on the overall development of society. The research topic is important both legally, in terms of applying the principles set by the Constitution and the Gender Equality Law, and educationally, in terms of supporting students' social and moral development.

Therefore, this topic remains highly relevant. Strengthening gender equality values through the education system helps to ensure an inclusive, fair, and developed future society. The results of this research will contribute to the promotion of gender equality both in the school environment and in wider social life.

Research Aim

The main aim of this study is to examine how the equality principles stated in the Constitution of Azerbaijan are applied in the secondary school education system and to evaluate how gender equality values are formed among students. The research focuses on both the implementation of legal documents in schools and the impact of educational and training activities carried out to reduce gender stereotypes in the school environment.

For this purpose, the study analyzes legislation, school curricula, and students' knowledge and behavior to determine how effectively gender equality principles are applied in the school context. As a result, the research aims to contribute to the further development of education policy and school programs in line with gender equality principles.

1. How are the equality principles stated in the Constitution of Azerbaijan and national legislation applied in the secondary school education system?
2. What is the level of gender equality values among secondary school students, and how do existing stereotypes influence them?

Methodology

The Article 25 of the Constitution of the Republic of Azerbaijan states that all citizens have equal rights and are considered equal before the law regardless of gender. In addition, the "Law on Gender Equality" (2006) identifies gender equality as a priority direction of state policy. These legal bases form the methodological foundation of the study.

The methodology is based on both legal-normative foundations and approaches from educational psychology and pedagogy. In this

research, quantitative analysis was carried out using surveys and tests to study the knowledge and attitudes of secondary school students about gender equality.

The object of the research is the formation of gender equality values among secondary school students, while the subjects are students, teachers, and specialists implementing gender programs in educational institutions. The data collection methods included surveys, questionnaires, classroom observation, focus groups, and analysis of legal documents such as the Constitution of Azerbaijan, the Law on Education, and the Law on Gender Equality.

The main tasks of the study are as follows:

1. To analyze the initial knowledge of secondary school students about rights and equality;
2. To integrate the equality principles defined in the Constitution and national legislation into the teaching process;
3. To measure the impact of effective pedagogical methods on the formation of gender equality values among students.

Experiment and Pre-test

To test the effectiveness of the methodology developed in this study and to examine students' existing knowledge and attitudes about equality and gender principles, a questionnaire survey was conducted. The pedagogical experiment was carried out among 10th–11th grade students in both urban and rural schools.

In total, 350 students participated in the experiment. At the beginning, the same survey was given to both experimental and control classes. The purpose of this was to later compare and evaluate the effectiveness of the activities carried out in the experimental classes.

The quantitative data from the pre-tests were statistically analyzed. This ensured that the results on the formation of gender equality values among students were both reliable and practically useful. The initial survey results were summarized and presented in Table 1.

Table 1. "In your opinion, what is gender equality?"

(The answers were divided into three categories: I – "Knows", II – "Partially knows", III – "Does not know")

School	Students	I – Knows	II – Partially knows	III – Does not know
Fuzuli region, Garabag village secondary school	23	4	9	10
Mil village secondary school named after Ilham Guliyev	42	7	17	18
Baku city, school №328	56	8	24	24
Baku city, school №116	54	9	22	23
Control group total	**175**	**28**	**72**	**75**
Fuzuli region, Mahmudlu-2 village secondary school named after Q. Ibisov	38	6	15	17
Khankendi city, secondary school №4 named after Nizami Ganjavi	85	12	34	39
Baku city, school №165	52	8	21	23
Experimental group total	**175**	**26**	**70**	**79**

The results of the initial survey among control and experimental groups showed that in both groups only about 15–16% of students fully understood the concept of gender equality. This indicated the need for further activities in the experimental groups, such as training, discussions, awareness programs, and pedagogical interventions.

According to Article 24 of the Constitution of the Republic of Azerbaijan, every person has equal rights and freedoms. More specifically, Article 25 confirms that all citizens have equal rights regardless of gender, race, nationality, religion, language, origin, belief, or other characteristics (Constitution of Azerbaijan, 1995). This provides the legal basis for treating gender equality not only as a social issue but also as a legal and political matter, ensuring that school education environments are inclusive and free from discrimination.

In addition, the Law on Education requires that the principle of gender equality be applied in the education system, guaranteeing equal opportunities for all students. Every citizen has the right to education regardless of gender, and educational institutions must create equal opportunities for all learners (Law on Education of the Republic of Azerbaijan, 2009).

The Law on Gender Equality (2006) further states that men and women have equal rights and opportunities in education, employment, management, and all areas of public life. Article 5 of this law emphasizes the necessity of ensuring gender equality in the education process, which requires that school curricula, textbooks, and teachers' work take gender principles into account (Aliyeva, 2020). During the research, a pre-test was conducted with the question:

"In the course of the lesson, what differences do teachers make between girls and boys?"

The response categories included: evaluation, assignment of tasks, listening to opinions, encouragement and punishment, and participation.

Table 2. Teachers' Approaches in Class Based on Gender

Criterion	Preference for Girls (%)	Preference for Boys (%)	Equal for Both (%)
Evaluation	22.5	18.0	59.5
Assignment of tasks	28.0	23.1	48.9
Listening to opinions	20.5	11.8	67.7
Encouragement and punishment	12.0 (encouragement mainly for girls)	57.0 (punishment mainly for boys)	31.0
Participation	17.4	25.1	57.5

Analysis of the Survey Results

The survey results showed that there were some differences in teachers' attitudes toward boys and girls. About 59.5% of students stated that teachers evaluated answers equally. However, 22.5% believed that girls were given more preference, while 18% thought that boys were favored. Although the overall evaluation showed a certain balance, gender differences were still noticeable in some cases.

For example, 48.9% of students said that tasks were given equally, but in practice, written tasks were more often assigned to girls, while technical tasks were more often given to boys. This reflects teachers' different expectations for each gender. Punishments were reported to be applied mainly to boys. This finding is consistent with international research by EIGE (2020) and UNESCO (2019), which also showed that boys are more often punished for discipline issues worldwide.

Regarding participation, 25.1% of students said boys participated more, while 17.4% noted that girls participated more. These findings demonstrate that, although the principle of equality is established in the Constitution, some gender stereotypes still exist in practice.

To address this, special gender-sensitive modules were introduced in the experimental groups. The students participated in group work, debates, case studies, and role-playing activities. Through surveys and observations, we identified existing stereotypes among students, and later measured the effects of these pedagogical interventions.

Table 3. "In your opinion, what is gender equality?" (Post-test Results – Experimental Group)

School	Number of Students	I – "Knows"	II – "Partially Knows"	III – "Does Not Know"
Fuzuli region, Mahmudlu-2 village secondary school named after Q. Ibisov	38	15 (39.5%)	14 (36.8%)	9 (23.7%)
Khankendi city, secondary school №4 named after Nizami Ganjavi	85	37 (43.5%)	30 (35.3%)	18 (21.2%)
Baku city, school №165	52	27 (51.9%)	17 (32.7%)	8 (15.4%)
Total (Experimental group)	**175**	**79 (45.1%)**	**61 (34.9%)**	**35(20.0%)**

Analysis of Post-test Results

According to the post-test results of the experimental group, the percentage of students who understood the concept of gender equality increased. At the same time, the percentage of students who had no knowledge about gender equality decreased by more than half. These results

prove that pedagogical interventions using gender-sensitive interactive teaching methods can have a significant impact on students' knowledge and attitudes.

The post-test results also closely match international research findings (UNESCO, 2019; EIGE, 2020). The formation of gender equality values among school students should not only become part of their daily social behavior but also help them develop tolerance, cooperation, and mutual respect.

The application of gender-sensitive modules changed the methodological foundations of teaching in the experimental group. These modules provided students not only with theoretical knowledge but also with practical opportunities to learn gender equality values. By taking part in interactive learning activities, students gained a deeper understanding of the topic and developed important skills such as cooperation, empathy, and mutual respect.

After applying the gender-sensitive modules, another survey was conducted to measure how teachers' approaches had changed.

Table 4. Teachers' Approaches in Class Based on Gender (Post-test Results)

Criterion	Preference for Girls (%)	Preference for Boys (%)	Equal for Both (%)
Evaluation	12.5	11.0	76.5
Assignment of tasks	14.2	13.5	72.3
Listening to opinions	9.8	8.7	81.5
Encouragement and punishment	10.0	15.0	75.0
Participation	13.1	12.4	74.5

Positive Changes in Teachers' Approaches

In the experimental groups, positive changes were observed in teachers' approaches to gender. Discrimination in evaluation and task distribution decreased, and a more balanced approach appeared. This matches Article 25 of the Constitution, which guarantees equality of rights and freedoms regardless of gender. Teachers' fair evaluation and distribution of tasks reflect the real application of these principles in the classroom.

In terms of listening to opinions, equality was also observed, which is in line with Article 47 of the Constitution, guaranteeing freedom of thought and expression. Giving equal attention to students' opinions also supports their right to social participation.

Punishments, which were previously directed more towards boys, decreased during the post-test stage, while encouragement became more balanced. This is consistent with the principle of non-discrimination in Article 25 of the Constitution and the Law on Gender Equality (2006).

According to the post-test results, equal participation opportunities were created for both boys and girls, which directly reflects the right to education stated in Article 42 of the Constitution. This article guarantees equal education for everyone, and the equal opportunities provided by teachers show that this constitutional principle is being applied in the classroom.

Conclusion

The findings of this study show that the use of gender-sensitive modules in experimental groups can bring positive changes to teachers' pedagogical approaches. Promoting gender equality values from an early age creates the foundation for a more inclusive, democratic, and fair society in the future (Guliyev, 2018).

Cases of discrimination observed earlier in the teaching process decreased, and evaluation and task distribution became more balanced. Students' voices were heard more equally, their opportunities to participate in class improved, and the learning environment became fairer in terms of encouragement and punishment.

The application of gender-sensitive modules in experimental groups reflects the real implementation of the constitutional principles of equality (Article 25), freedom of thought and expression (Article 47), and the right to education (Article 42) in the school environment.

Beyond the immediate classroom context, these findings underscore the pivotal role of education in dismantling entrenched gender norms and advancing equality. When systematically integrated into teaching practice, gender-sensitive modules not only strengthen the pedagogical capacity of teachers but also cultivate classrooms where democratic values are actively practiced. In the long term, such approaches can contribute to the formation of citizens who are more conscious of equity, more engaged in civic life, and more resilient against discrimination. Future research

should continue to explore the scalability of gender-sensitive pedagogy across diverse educational contexts, ensuring that its benefits extend beyond experimental groups to entire school systems.

Recommendations

The results of the study show that cases of discrimination in teachers' gender approaches can change positively after experimental interventions. This proves that the systematic use of gender-sensitive pedagogy can build a fairer, more equal, and inclusive learning environment.

The main goal of these recommendations is to ensure the sustainability of the achieved results and to fully apply the constitutional principles of equality and the right to education (Articles 25 and 42) in the teaching process.

Key recommendations:

1. Teachers should receive training in gender-sensitive pedagogy.
2. Textbooks and teaching materials should avoid stereotypes and promote equality.
3. Schools should encourage activities such as debates, group work, and projects that ensure equal participation of boys and girls.
4. Regular monitoring of gender approaches in education should be carried out, and the results should be reflected in state strategies.
5. Engage Parents and Communities in Promoting Gender Equality

The implementation of these recommendations will strengthen gender equality in schools and help create a fairer and more inclusive learning environment.

REFERENCES:

1. Azərbaycan Respublikası Konstitusiyası. (1995). Bakı: Hüquq ədəbiyyatı.
2. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı. (1991). Bakı.
3. Azərbaycan Respublikasının Gender Bərabərliyi haqqında Qanun. (2006). Bakı.
4. Azərbaycan Respublikasının Təhsil Qanunu. (2009). Bakı.
5. Əliyev, A., & Osmanov, R. (2014). Təhsil müəssisələrində gender yanaşmaları və pedaqoji praktika. Pedaqoji Araşdırmalar Jurnalı, 6(2), 45–52.
6. Əliyeva, N. (2020). Orta məktəblərdə şagirdlərin sosiallaşmasında gender münasibətləri. Azərbaycan Təhsil Jurnalı, 7(2), 120–134.
7. European Institute for Gender Equality (EIGE). (2020). Education and gender equality in Europe. Vilnius: EIGE.
8. Hüseynov, T. (2017). Gender və təhsil: nəzəri və praktik aspektlər. Bakı: Elm və Təhsil.
9. Hüseynova, L. (2019). Şagirdlərin sosial inkişafında gender yanaşmasının rolu. Pedaqogika Elmi Məcmuəsi, 11(3), 98–110.
10. OECD. (2019). Education at a glance 2019: OECD indicators. Paris: OECD Publishing.
11. Pretty, J. (1994). Gender and sustainable agriculture: policy and practice. World Development*, 22*(12), 1579–1593.
12. Quliyev, V. (2018). Məktəb mühitində gender bərabərliyi və şagirdlərin sosial iştirakçılığı. Azərbaycan Pedaqoji Elmlər Məcmuəsi, 5(1), 87–94.
13. UNESCO. (2015). A guide for gender equality in teacher education policy and practices. Paris: UNESCO Publishing.
14. UNESCO. (2019). Global education monitoring report: Gender report. Paris: UNESCO.
15. World Bank. (2019). Gender equality and development. Washington, DC: World Bank.

DOİ: 10.32010/MCXY8300

ÜMUMTƏHSIL MƏKTƏBLƏRININ IDARƏ OLUNMASINDA MÜASIR YANAŞMALAR

Nərgiz Nəvazi İSMAYILOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Xülasə: Məqalədə ümumtəhsil məktəblərinin idarə olunmasında müasir yanaşmaların mahiyyəti təhlil olunur. Ənənəvi inzibati modeldən fərqli olaraq, bu gün idarəetmə strateji planlaşdırma, rəqəmsal transformasiya, innovativ liderlik və məlumatlara əsaslanan qərarvermə ilə xarakterizə olunur. Elmi ədəbiyyatın təhlili nəticəsində bir çox tədqiqatçıların əldə etdikləri nəticələr belə deməyə əsas verir ki, pedaqoji idarəetmə yalnız tədris prosesinin təşkilini deyil, həm də məktəbli şəxsiyyətinin inkişafını hədəfləyir. Rəqəmsal liderliyin tətbiqi, müəllim və şagirdlərin motivasiyasının artırılması, şəffaf idarəetmənin qurulması müasir yanaşmaların üstünlükləri kimi göstərilir. Bununla yanaşı, infrastruktur bərabərsizliyi və rəhbərlərin peşəkar hazırlığının kifayət qədər olmaması kimi məhdudiyyətlər də mövcuddur.
Açar sözlər: məktəbin idarə olunması, pedaqoji idarəetmə, rəqəmsal transformasiya, innovativ liderlik, davamlı inkişaf

СОВРЕМЕННЫЕ ПОДХОДЫ К УПРАВЛЕНИЮ СРЕДНИМИ ШКОЛАМИ

Наргиз Навази ИСМАИЛОВА
Азербайджанский государственный педагогический университет

Резюме: В статье анализируется сущность современных подходов к управлению средними учебными заведениями. В отличие от традиционной административной модели, современное управление характеризуется стратегическим планированием, цифровой трансформацией, инновационным лидерством и принятием решений на основе данных. Результаты, полученные многими исследователями в результате анализа научной литературы, дают основания утверждать, что педагогический менеджмент направлен не только на организацию образовательного процесса, но и на развитие личности учащегося. В качестве преимуществ современных подходов указываются применение цифрового лидерства, повышение мотивации учителей и учащихся, построение прозрачного управления. Однако существуют и такие ограничения, как инфраструктурное неравенство и недостаточная профессиональная подготовка управленцев.

MODERN APPROACHES TO THE MANAGEMENT OF SECONDARY SCHOOLS

Nargiz Navazi ISMAYİLOVA
Azerbaijan State Pedagogical University

Abstract: The article analyzes the essence of modern approaches to the management of secondary schools. Unlike the traditional administrative model, today's management is characterized by strategic planning, digital transformation, innovative leadership and data-based decision-making. The results obtained by many researchers as a result of the analysis of scientific literature give reason to say that pedagogical management aims not only at organizing the educational process, but also at developing the student's personality. The application of digital leadership, increasing the motivation of teachers and students, and establishing transparent management are indicated as advantages of modern approaches. However, there are also limitations such as infrastructure inequality and insufficient professional training of managers.

Giriş

Müasir ümumtəhsil məktəbinin idarə olunması təhsilin keyfiyyətinin və onun davamlı inkişafının təmin edilməsinə yönəlmiş inzibati, pedaqoji və rəqəmsal prosesləri birləşdirən hərtərəfli sistemdir. Ənənəvi konsepsiyalar ilk növbədə iyerarxik quruluşa və tənzimləmə funksiyalarına diqqət yetirdiyi halda, 21-ci əsrdə rəqəmsal transformasiya və informasiyanın təhlilinə əsaslanan strategiyalar xüsusi əhəmiyyət kəsb

edir. Müasir məktəbdə təhsilin idarə edilməsi uzunmüddətli nəticələrə yönəlmiş strateji yanaşmaya əsaslanır. Məktəb rəhbərliyi həm təhsil standartlarını nəzərə almalı, həm də innovativ texnologiyalar və idarəetmə modellərini öz işində tətbiq etməlidir. Müasir təhsil yanaşmalarına keçid pedaqoji fikrin və praktik təcrübənin uzun təkamülünün nəticəsidir.

Bu sahədə araşdırma aparan G.Orucova (2021) yazır: "İdarəetmə anlayışı ümumi və universal anlayışlar sırasına daxildir. İdarəetmə texniki və istehsal sahələrində olduğu kimi pedaqoji sistemlər sahəsində də zəruridir. İdarəetmə digər elm sahələri ilə yanaşı, həm də pedaqogikanın tədqiqat obyektidir". [1, s.26]

Podlasıy İ. (2005) isə idarəetmə haqqında belə qeyd edir: "Pedaqoji ədəbiyyatda idarəetmə dedikdə, məqsədəuyğun qərar qəbul etmək, obyekti təşkil etmək, ona nəzarət etmək, işi təhlil etmək və onu yekunlaşdırmaq başa düşülür. [3, s.167]

Slastyonin V. (2012) məktəbin idarə olunması barədə belə deyib: "Məktəbdaxili idarəetmə vahid pedaqoji prosesin iştirakçıları arasında onun obyektiv qanunauyğunluqlarının dərk edilməsinə əsaslanan, optimal nəticələrin əldə edilməsinə yönəlmiş məqsədyönlü, şüurlu qarşılıqlı əlaqədir. Vahid pedaqoji proses iştirakçılarının qarşılıqlı əlaqəsi ardıcıl, bir-biri ilə əlaqəli hərəkətlər və ya funksiyalar zənciri kimi formalaşır: pedaqoji təhlil, məqsəd qoyma və planlaşdırma, təşkilat, nəzarət, tənzimləmə və düzəliş". [12, s.397]

Nurcahya və b. (2025) öz tədqiqatında belə bir nəticə əldə ediblər: "İdarəetmə nəzəriyyəsinin inkişafı (klassikdən müasirə qədər) mövcud təhsil kontekstinə uyğun gələn qabaqcıl təcrübələrin tətbiqinə imkan verir. Təhsil siyasəti məsələləri, inklüzivlik, sosial dəyişiklik və texnologiyanın dərindən dərk edilməsi çox vacibdir. Bu, fəaliyyət göstərən təhsil müəssisələrində qarşıya çıxan problemlərin aradan qaldırılmasına hərtərəfli baxışı təmin edir. Odur ki, təhsilin idarə edilməsinin aktuallığını dərk etmək, idarəetmə modellərini, prinsiplərini və nəzəri inkişaflarını bilmək və təhsilin idarə edilməsində aktual problemləri dərindən dərk etmək, təhsil idarəçiləri və işçiləri üçün dinamik, əhatəli və keyfiyyətli təhsil mühitinin yaradılmasında vacibdir". [8, s.17]

Nəzəriyyə

Məktəbin idarə olunmasına müasir yanaşmalar qlobal tendensiyalar - təhsilin demokratikləşməsi, şagird hazırlığının keyfiyyətinə artan tələblər, rəqəmsal texnologiyaların tətbiqi və təhsil mühitinin informasiyalaşdırılması ilə formalaşır.

Kalimoldayeva A. (2025) və başqaları təhsilin gələcək perspektivləri barədə yazırlar: "Transformasiyaya və inkişafa aparan yolların axtarışı, təhsil sisteminin daxili müxtəlifliyi, innovativ fəaliyyət nəticəsində vəziyyəti əhəmiyyətli dərəcədə dəyişdirdi və bütövlükdə sistem daxilində ən kəskin ziddiyyətləri üzə çıxarmaqla yanaşı, təhsilin inkişafının strateji perspektivlərinin müəyyənləşdirilməsinə təsir göstərməyə qadir olduğunu sübut etdi". [4, s.141]

Daha bir tədqiqat Uvazuke Martaya (2022) aiddir. Bu barədə o yazır: "21-ci əsrdə orta təhsilin idarə edilməsinin nə üçün mövcud resurslardan ehtiyatlı və ağılla istifadəni, eləcə də nəzəri və praktikada peşəkar olmağı nəzərdə tutan liderlik üslubunda demokratikliyi tələb etdiyini izah edir. Təhsil meneceri qarşıya qoyulmuş məqsədə çatmaq üçün bütün təhsil iştirakçılarını, eləcə də məktəbin maddi resurslarını səmərəli idarə etməlidir ki, bu da məsuliyyətli, maarifləndirici, mütərəqqi və perspektivli şəxsiyyətlərin bacarıqların mənimsənilməsi və digər kadr hazırlığı üçün ali təhsil müəssisələrinə cəlb edilməsidir". [9, s.62]. Makarovaya (2011) görə təhsil müəssisələrinin idarə edilməsinə innovativ yanaşmanın tendensiyaları innovativ mühitin yaradılması, idarəetməyə proqram-məqsədli yanaşma, idarəetmənin qeyri-mərkəzləşdirilməsi, dəyər yönümlərinin müəyyən edilməsi, təhsil proqramları sisteminin davamlılığı və ardıcıllığı, xüsusiyyətlərini isə innovativ mühitin yaradılması, liberallaşma, kommersiyalaşma, informasiyalaşdırma, universallaşma kimi səciyyələndirilir [2].

Maykl D. (2024) isə yazır: "Müasir yanaşmalar menecerlərin hazırlanmasına önəm verir. Əsas təlim sistemləri inzibati funksiyalara yönəlib lakin strateji, ekoloji liderlik, rəqəmsal hazırlıq və innovativ idarəetmə də daxil olmaqla *21-ci əsrin*

təhsili modelinin həyata keçirilməsi üçün zəruri olan sərişləri kifayət qədər əhatə etmir" [10, s.218].

Metodologiya

Beləliklə, müasir məktəb idarəçiliyinin mahiyyəti inzibati-iyerarxik modeldən strateji planlaşdırmanı, rəqəmsal transformasiyanı, sərişlərin inkişafını və şəbəkələşməni özündə birləşdirən çoxsəviyyəli sistemə keçiddən ibarətdir. İdarəetmənin effektivliyi təkcə resursların keyfiyyəti və normativ baza ilə deyil, həm də direktorların rəqəmsal dövrün çağırışlarına uyğunlaşmaq, innovativ liderliyi inkişaf etdirmək və təhsil təşkilatının davamlılığını təmin etmək bacarığı ilə müəyyən edilir. Yenə Nurcahya və b. təhsilin idarə edilməsinin bəzi funksiyalarını aşağıdakı kimi səciyyələndirmişlər.

Planlaşdırma – bu funksiya məqsədlərə nail olmaq üçün məqsədlərin müəyyən edilməsi, proqramların işlənib hazırlanması və resursların (işçi qüvvəsinin, vəsaitlərin, obyektlərin) bölüşdürülməsi prosesini əhatə edir. Yaxşı planlaşdırma məktəblərə və ya təhsil müəssisələrinə təhsilin keyfiyyətini artırmaq üçün strateji addımlar atmağa kömək edir.

Təşkilati – bu təşkilati strukturun qurulması ilə bağlıdır. Tapşırıqların bölünməsi, o cümlədən idarəetmənin təşkili, komandanın formalaşdırılması və təhsil işçiləri arasında məsuliyyətlərin bölüşdürülməsi

Tətbiqetmə (İcra etmə) – bu funksiya planlaşdırma mərhələsində qəbul edilmiş planların və qərarların həyata keçirilməsini əhatə edir. Bura təlim proqramlarının həyata keçirilməsi, effektiv tədris metodlarından istifadə, təhsil müəssisələrində gündəlik fəaliyyətin idarə edilməsi daxildir.

Nəzarət–buraya təhsil müəssisəsinin monitorinqi aid edilir, məlumatların toplanması, təhlili və zəruri olduqda müəyyən tədbirlərin görülməsini əhatə edir.

Qiymətləndirmə – təhsil proqramlarının, tədris və təlim proseslərinin və tələbələrin təlim nəticələrinin səmərəliliyinin qiymətləndirilməsi üçün sistematik prosesdir. Bu qiymətləndirmə təhsil işçilərinin özləri və ya kənar tərəflər tərəfindən daxili olaraq həyata keçirilə bilər və təhsilin keyfiyyətini yüksəltmək üçün faydalı məlumat vermək məqsədi daşıyır.

İnkişaf – təhsil proqramlarının keyfiyyətinin və uyğunluğunun artırılması, cari ehtiyaclara uyğun kurrikulumun hazırlanması, təlim və peşəkar inkişaf yolu ilə təhsil işçilərinin bacarıq və sərişlərinin inkişaf etdirilməsi üçün səyləri əhatə edir.

Ünsiyyət – təhsil işçiləri, tələbələr, valideynlər və digər əlaqəli tərəflər arasında təhsilin idarə olunmasında əsas rol oynayır. Yaxşı ünsiyyət təhsil məqsədlərinə birlikdə nail olmaq üçün lazım olan əməkdaşlığı və anlaşmanı asanlaşdırmağa kömək edir [8, s.15].

Müasir məktəbin idarə olunmasının mahiyyəti ondan ibarətdir ki, o, ənənəvi inzibati funksiyaların (planlaşdırma, təşkiletmə və nəzarət) müasir rəqəmsal transformasiya strategiyaları, transformasiya və rəqəmsal liderlik, məlumatlara əsaslanan idarəetmə və təhsil prosesinin bütün iştirakçıları arasında sərişlərin inkişafı ilə inteqrasiya olunduğu üçün sistemli bir prosesi təmsil edir. Müasir şəraitdə məktəb təkcə fəaliyyəti təmin edən mexanizm kimi deyil, həm də davamlı innovativ inkişaf vasitəsi kimi çıxış edir.

Müasir dövrdə qloballaşma, texnologiyanın sürətli inkişafı və cəmiyyətin dəyişən tələbləri təhsilin bütün sahələrində yenilənməyə ehtiyac yaratmışdır. Bu dəyişikliklər xüsusilə ümumtəhsil məktəblərinin idarə olunmasında özünü göstərir. Ənənəvi inzibati idarəetmə üsulları artıq bu proseslə uyğunlaşa bilmir. Onların yerini daha çevik, şəffaf, nəticəyönümlü və innovativ idarəetmə modelləri tutur.

Elmi ədəbiyyatın təhlili nəticəsində məlum olur ki, hazırda ümumtəhsil məktəbinin idarə olunmasında konkret yanaşmalar mövcud deyil. Lakin bütün bu deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar. Elmi ədəbiyyatda rast gəlinən yanaşmalar aşağıdakılardır:

1.Şəffaf və ya demokratik idarəetmə

Təhsilin idarə edilməsində müasir tendensiyalar məktəb idarəçiliyinin demokratikləşdirilməsinin vacibliyini vurğulayır. Şəffaf idarəetmə bütün maraqlı tərəfləri –

müəllimləri, valideynləri və tələbələri qərar qəbul etmə prosesinə cəlb edir ki, bu da inam və hesabatlılığı artırır. Sousa və Ferreira (2024) tərəfindən aparılan araşdırmaya görə, tələbələrin və müəllimlərin idarəetmə proseslərinə cəlb edilməsi aidiyyət hissini gücləndirir və məktəblərdə daxili ünsiyyətin effektivliyini artırır. [13, s.13]

2. Strategiyaya əsaslanan idarəetmə

Məktəbin fəaliyyəti uzunmüddətli strateji planlara əsaslanır. Maykl D. (2025) Bu barədə yazır: "Məktəb rəhbərləri strateji liderliklə müəyyən qədər tanış olmuş və bəzi xüsusiyyətlərlə tanış olmuşlar. Onlar başa düşdülər ki, əsas elementlərdən biri müəyyən edilmiş vizyona uyğun olaraq uzunmüddətli planlaşdırma ilə bağlıdır". [10, s.214]

3. Rəqəmsal texnologiyaların tətbiqi və ya informasiya-analitik yanaşma

Elektron idarəetmə sistemləri (məsələn, e-məktəb, elektron jurnallar) geniş şəkildə istifadə olunur. Karaköse (2024) və başqaları bunu belə izah edir: "İnformasiya-analitik yanaşma, təhsilin rəqəmsal transformasiyası ilə əlaqədar inkişaf edir. İdarəetmə qərarları getdikcə daha çox informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə etməklə toplanmış və emal edilmiş məlumatlar əsasında qəbul edilir. Elektron jurnallar, monitorinq sistemləri və s." [7, s. 15]

4. Data əsaslı qərarvermə

Müasir məktəb idarəçiliyinin əsas sahələrindən biri məlumatlı idarəetmə qərarları qəbul etmək üçün məlumatlardan istifadə etməkdir. Məlumata əsaslanan qərarların qəbulu konsepsiyası beynəlxalq tədqiqatlarda fəal şəkildə inkişaf edir və təhsilin keyfiyyətini artırmaq üçün məlumatların sistematik şəkildə toplanması, təhlili və şərhini nəzərdə tutur. Mandinak (2012) vurğulayır ki, "Analitik məlumatlardan istifadə məktəb direktorlarına obyektiv fəaliyyət göstəriciləri əsasında daha dəqiq inkişaf strategiyaları formalaşdırmağa imkan verir" [14, s.82].

Beləliklə, məlumatlara əsaslanan idarəetmə təhsil təşkilatlarının rəqəmsal transformasiyası üçün ilkin şərtə çevrilir.

5. Liderlik yönümlü idarəetmə

Rəhbər təkcə idarə edən deyil, eyni zamanda liderlik edən, motivasiya yaradan və komanda yaradan şəxsdir. Berkoviç İ. və Hassan T. (2023) belə yazır: "Direktorlar artıq sadəcə idarəçilər deyil, müəllimlərin motivasiyasına, məşğulluğuna və peşəkar inkişafına təsir göstərən rəqəmsal və transformasiya liderləridir". [5, s.186].

6. İnnovativ yanaşmalar və təcrübələr

İnnovativ məktəb idarəçiliyi yeni pedaqoji texnologiyaları, təlim modellərini və qarşılıqlı fəaliyyət formalarını həyata keçirmək məqsədi daşıyır. Təhsil mühitinin rəqəmsallaşdırılması kontekstində STEAM yanaşmalarından, layihə əsaslı və qarışıq təlimdən, müəllimlər üçün rəqəmsal dəstək sistemlərindən istifadə xüsusilə vacibdir.

Qolenkova və başqaları (2024) vurğulayır: "Məktəb idarəçiliyində innovativ təcrübələr təhsil sisteminin uyğunlaşmasını və təhsil prosesinin bütün iştirakçıları arasında rəqəmsal səriştələrin davamlı inkişafını təmin edir" [15, s.91].

Beləliklə, innovasiya məktəb idarəçiliyinin səmərəliliyinin və onun müasir təhsil siyasətinin tələblərinə uyğunlaşma qabiliyyətinin mühüm göstəricisinə çevrilir.

7. Davamlı peşəkar inkişaf və ya kompetensiyalı yanaşma

Müəllim və rəhbər heyət üçün mütəmadi təlimlər, treninqlər və təcrübə mübadiləsi proqramları təşkil olunur. Pashmforoosh R. və başqaları bu baradə belə yazır: "İdarəetmənin mahiyyəti təkcə tələbələrin deyil, həm də müəllimlərin və idarəçilərin özlərinin inkişafını əhatə edir: virtual formatlar və İKT bacarıqlarının inkişafı. [11, s.10]

8. Keyfiyyətin idarə olunması

Təhsil təşkilatlarında keyfiyyətin idarə edilməsi təhsil proseslərinin planlaşdırılması, monitorinqi və təkmilləşdirilməsi sistemidir. Beynəlxalq təcrübə daxili özünütəhlil, qiymətləndirmə və əks əlaqə sistemləri üçün mexanizmlərin yaradılmasına diqqət yetirir.

Jukovskiy və Jukovskaya (2015) qeyd edir: "Təhsildə keyfiyyətin idarə edilməsi davamlı təkmilləşdirmə, nəticələrin ölçülməsi və

keyfiyyətə nəzarət prosesinə bütün iştirakçıların cəlb edilməsi prinsiplərinə əsaslanır" [16, s.302].

Bu sistem fəaliyyət göstəricilərinin monitorinqi və təhlili yolu ilə təhsil proseslərinin davamlı olaraq təkmilləşdirilməsi və məsuliyyət mədəniyyətinin formalaşdırılmasına yönəlib.

Bu sadalananları nəzərə alaraq nəticə etibarilə demək olar ki, bu gün məktəb idarəçiliyinin mahiyyəti sadəcə idarəçilik deyil, liderlik, məlumat və səriştələrin inkişafı vasitəsilə təhsildə davamlılığı, innovasiyanı və keyfiyyəti təmin edən rəqəmsal transformasiya prosesidir. Bu yanaşmaların bir sıra üstünlükləri vardır:

• idarəetmə qərarlarının şəffaflığının və sübuta əsaslanan xarakterinin artırılması;

• müəllim motivasiyasının artırılması;

• məktəblərin özünü öyrənə və inkişaf etdirə bilən təşkilatlar kimi inkişaf etdirilməsi;

• innovasiyaları dəstəkləyən çevik rəqəmsal mühitin yaradılması.

Bu prosesin həyata keçirilməsində bəzi məhdudiyyətlər yaranır. Kafa A. (2025) eksperimental işində belə bir nəticə əldə edərək yazır: "İdarəetmənin rəqəmsallaşdırılması infrastruktur səviyyəsindən asılı olaraq məktəblər arasında bərabərsizlikləri gücləndirə bilər. Bütün liderlər transformasiya idarəetməsini həyata keçirmək üçün lazımi liderlik bacarıqlarına malik deyillər [6. s. 186].

Nəticə

Müasir idarəetmə yanaşmaları ümumtəhsil məktəblərində təhsilin səmərəliliyinin və keyfiyyətinin artırılmasına yönəlib. Şəffaflıq, kollektiv iştirak, strateji planlaşdırma və yeni texnologiyalardan istifadə bu prosesin əsas prinsiplərindəndir. Məktəb rəhbərlərinin yeni dövrün tələblərinə uyğunlaşması təhsilin gələcəyinin qurulmasında həlledici rol oynayır. Bu səbəbdən də təhsil siyasətçiləri və rəhbərləri müasir idarəetmə modellərini tətbiq etməklə daha çevik, innovativ və insan yönümlü məktəb mühiti formalaşdıra biləcəklər.

Bu cür idarəetmənin effektivliyi əsasən rəhbərliyin müasir texnologiyaların tətbiqinə hazır olması, onların liderlik bacarıqları və təhsil prosesinin bütün iştirakçıları ilə tərəfdaşlıq əlaqələri qurmaq bacarığı ilə müəyyən edilir. Onların üstünlükləri göz qabağındadır, lakin müvəffəqiyyətlə həyata keçirilməsi infrastrukturun səviyyəsindən və təhsil sistemi işçilərinin peşəkar inkişafı dəstəkləmək qabiliyyətindən asılıdır. Beləliklə, məktəb idarə olunması bu gün rəqəmsal cəmiyyətdə təhsil müəssisələrinin təkcə fəaliyyətini deyil, həm də davamlı inkişafını təmin edən dinamik, hərtərəfli və çoxölçülü sistemdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Orucova G.Y. Məktəbdaxili idarəetmənin humanistləşdirilməsinin pedaqoji əsasları: / Pedaqogika üzrə fəlsəfə dis. / -- Bakı, 2021. – 138 s.

2. Макарова Т.П. Инновационный подход в управлении средними образовательными учреждениями:/ дис. кандидат педагогических наук. / -- Йошкар-Ола, 2011. – 227 с.

3. Подласый, И.П. Педагогика: И. Подласый. – Москва:-2005, -576 с.

4. Калимолдаева А., Абильмажинова О.,Мағжан Ж.// Современные методы управления образовательным процессом в школе: проблемы и перспективы // International Scientific and Practical Conference "Modern Education and Psychology Facing Complex Problems: Synergetic Approach Problems Affecting Personal Development", - Tashkent-15 april, 2025,-c. 138 -144

5. Berkovich, I., & Hassan, T. // Principals' digital transformational leadership, teachers' commitment, and school effectiveness. *Education Inquiry,- 2023, 16*(2), page 177-194. https://doi.org/10.1080/20004508.2023.2173705,

6. Kafa, A. // Exploring integration aspects of school leadership in the context of digitalization and artificial intelligence. International Journal of Educational Management. – 2025, page 98-115. https://doi.org/10.1108/ijem-11-2024-0703

7. Karakose, T.; Polat, H.; Tülübaş, T.; Demirkol, M. // A Review of the Conceptual Structure and Evolution of Digital Leadership Research in Education. Educ. Sci. 2024, 14, 1166. https://doi.org/10.3390/ educsci14111166.

8. Nurcahya, Alsri & Hayatunnisa, St & Zohriah, Anis & Firdaos, Rijal. // Basic concepts of

educational management. J-mind (Jurnal Manajemen Indonesia). –2025, page 9-20
DOI: https://doi.org/10.29103/j-mind.v9i1.16479
9. Uwaezuoke, Martha-Rose Ifeoma. Managing Secondary Education to Tackle the 21st Century Development Challenges. Human Nature Journal of Social Sciences. Vol.3, No. page 61-68.
10. Michael Dean Edmund Naidoo. // Optimising school leadership development for 21st-century learning: An in-depth analysis. South African Journal of Education, -- 2024, 44(3), pages 176-194.
https://doi.org/10.17159/2520-9868/i96a11
11. Pashmforoosh R, Irby BJ, Lara-Alecio R and Tong F (2023) Building school leaders' instructional leadership capacity through virtual professional leadership learning communities. Front. Educ.—2023, p. 1-14.
doi: 10.3389/feduc.2023.1168734
12. Сластенин В.А. и др. Педагогика Учеб. пособие для студ. высш. пед. учеб. заведений / В. А. Сластенин, И. Ф. Исаев, Е. Н. Шиянов; Под ред. В.А. Сластенина. - М.: Издательский центр "Академия", 2013. - 576 с.
13. Sousa, I., & Ferreira, E. (2024). Students' participation in democratic school management: A systematic literature review. *JSSE - Journal of Social Science Education*, *23*(1). https://doi.org/10.11576/jsse-6333
14. Ellen B. Mandinach (2012) A Perfect Time for Data Use: Using Data-Driven Decision Making to Inform Practice, Educational Psychologist, 47:2, 71-85,
DOI: 10.1080/00461520.2012.667064
15. Голенкова, Ольга & Комарова, Светлана & Лифанова, Татьяна & Мезенцева, Ирина. (2024). Инновационные подходы к обучению и воспитанию детей с особыми образовательными потребностями в условиях цифровой трансформации образования: Innovative approaches to the education and upbringing of children with special educational needs in the context of the digital transformation of education. Management of Education. 14. 86-95. 10.25726/h7790-2778-2529-o.
16. Zhukovsky V.P., Zhukovskaya N.A. Theoretical aspects of monitoring the quality of education in the system of teacher continuing professional development // Frontier Materials & Technologies. - 2015. - N. 3-2. - P. 300-304. doi:10.18323/2073-5073-2015-3-300-304

DOİ: 10.32010/NDTK1928

İNFORMASİYA CƏMİYYƏTİNDƏ ELEKTRON ALİ TƏHSİL SİSTEMLƏRİ

Fəridə Elçin KAZIMLI
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Orcid: https://orcid.org/0000-0002-1503-6888
E-mail: kazimliferide98@gmail.com

Xülasə: Bugünkü informasiya cəmiyyətində elektron ali təhsil sistemləri transformativ rol oynayır, universitetlərin təhsil fəaliyyətlərini həyata keçirmə, proseslərini idarə etmə və tələbələrlə qarşılıqlı əlaqə qurma tərzini dəyişdirir. Bu sistemlərə rəqəmsal təhsil platformaları, virtual sinif otaqları, inzibati proqram təminatı və tədris, tədqiqat və institusional idarəetməni dəstəkləyən məlumatların təhlili vasitələri daxildir. Elektron ali təhsil sistemləri distant təhsili təşkil etməklə, tələbə xidmətlərini avtomatlaşdırmaqla və təlim prosesini fərdiləşdirməklə təlimə çıxışı genişləndirir. Bunlar xüsusilə inklüziv təhsili təşviq etmək və coğrafi və iqtisadi fərqləri azaltmaq üçün vacibdir. Azərbaycanda milli strategiyalar elektron təhsil infrastrukturunun inkişafını, rəqəmsal platformaların inteqrasiyasını və müasir təhsil mühitləri yaratmaq üçün internetə çıxışın genişləndirilməsini prioritetləşdirir.

Bu tədqiqat rəqəmsal texnologiyaların getdikcə öyrənmə, ünsiyyət və universitet idarəetməsini formalaşdırdığı informasiya cəmiyyətində elektron ali təhsil sistemlərinin rolunu araşdırır. Bu sistemlərə onlayn platformalar, virtual sinif otaqları, inzibati proqram təminatı və tədris, tədqiqat və idarəetməni dəstəkləyən analitik vasitələr daxildir. Təhlillər göstərib ki, bu cür sistemlərin effektivliyi bir sıra amillərdən asılıdır: istifadəçi qəbulu, sistemin etibarlılığı, məzmun keyfiyyəti və texniki dəstək. Çoxsaylı üstünlüklərə baxmayaraq, texnologiyaya qeyri-bərabər çıxış, rəqəmsal pedaqogikaya müqavimət və məlumatların məxfiliyi məsələləri daxil olmaqla çətinliklər qalmaqdadır. Əhəmiyyətli olan odur ki, rəqəmsal ali təhsil sistemləri ömürlük təhsili asanlaşdırır və fərdlərin dəyişən əmək bazarında bacarıqlarını daim təkmilləşdirməsinə imkan verir. Onlar həmçinin qlobal əməkdaşlığı, innovasiyanı və sosial mobilliyi təşviq edir, təhsili daha dinamik və sərhədsiz edir. Rəqəmsal ali təhsil sistemləri sadəcə texnoloji vasitələr deyil, həm də cəmiyyətin rəqəmsal dövrdə davamlı, inklüziv və gələcəyə yönəlmiş təhsil ekosistemini formalaşdırmasına kömək edən strateji resurslardır.

Açar sözlər: informasiya cəmiyyəti; rəqəmsal transformasiya; rəqəmsal ali təhsil; təlim idarəetmə sistemi; tələbə məlumat sistemi; virtual sinif otaqları; onlayn təlim.

ELECTRONIC SYSTEMS OF HIGHER EDUCATION IN THE INFORMATION SOCIETY

Farida Elchin KAZIMLI
Institute of Education of the Republic of Azerbaijan
Orcid: https://orcid.org/0000-0002-1503-6888
E-mail: kazimliferide98@gmail.com

Abstract: In today's information society, electronic systems of higher education play a transformative role in reshaping how universities deliver education, manage operations, and engage with students. These systems include digital learning platforms, virtual classrooms, administrative software, and data analytics tools that support teaching, research, and institutional governance. Electronic systems of higher education enhance access to education by enabling remote learning, automating student services, and personalizing academic experiences. They are especially valuable in promoting inclusive education, bridging geographic and economic gaps. In Azerbaijan, national strategies have prioritized the development of electronic education infrastructure, integrating digital platforms and expanding internet access to support modern learning environments.

I examined the role of electronic systems of higher education in the information society, where digital technologies increasingly shape education, communication, and institutional management. These systems include online learning platforms, virtual classrooms, administrative software, and data analytics tools that support teaching, research, and governance in universities.

My analysis showed that the effectiveness of these systems depends on several factors: user acceptance, system reliability, content quality, and technical support. Despite their benefits, challenges remain—such as unequal access to technology, resistance to digital pedagogy, and concerns over data privacy. Importantly, electronic higher education systems support lifelong learning by allowing individuals to continuously update their skills in response to changing job markets. They also foster global collaboration, innovation, and social mobility, making education more dynamic and borderless. Electronic higher education systems are not just technological tools—they are strategic assets that help societies build resilient, inclusive, and future-ready educational ecosystems in the digital age.

Keywords: information society; digital transformation; electronic higher education; learning management system; student information system; virtual classrooms; online learning.

ЭЛЕКТРОННЫЕ СИСТЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ

Фарида Эльчин КАЗИМЛИ
Институт образования Азербайджанской Республики
Orcid: https://orcid.org/0000-0002-1503-6888
Электронная почта: kazimliferide98@gmail.com

Резюме: В современном информационном обществе электронные системы высшего образования играют преобразующую роль, изменяя способы, которыми университеты осуществляют образовательную деятельность, управляют своими процессами и взаимодействуют со студентами. Эти системы включают цифровые образовательные платформы, виртуальные классы, административное программное обеспечение и инструменты анализа данных, поддерживающие преподавание, научные исследования и управление учебными заведениями. Электронные системы высшего образования расширяют доступ к обучению за счёт организации дистанционного образования, автоматизации студенческих сервисов и персонализации учебного процесса. Они особенно важны для продвижения инклюзивного образования, сокращения географических и экономических разрывов. В Азербайджане национальные стратегии уделяют приоритетное внимание развитию инфраструктуры электронного образования, интеграции цифровых платформ и расширению доступа к интернету для создания современных образовательных сред.

В исследовании рассматривается роль электронных систем высшего образования в информационном обществе, где цифровые технологии всё больше определяют процессы обучения, коммуникации и управления университетами. Эти системы включают онлайн-платформы, виртуальные классы, административное программное обеспечение и аналитические инструменты, способствующие преподаванию, исследовательской деятельности и управлению.

Анализ показал, что эффективность таких систем зависит от ряда факторов: принятия пользователями, надёжности системы, качества контента и технической поддержки. Несмотря на многочисленные преимущества, сохраняются проблемы — неравный доступ к технологиям, сопротивление цифровой педагогике и вопросы конфиденциальности данных. Важно, что электронные системы высшего образования способствуют непрерывному обучению, позволяя людям постоянно обновлять свои навыки в условиях меняющегося рынка труда. Они также стимулируют глобальное сотрудничество, инновации и социальную мобильность, делая образование более динамичным и безграничным. Электронные системы высшего образования — это не просто технологические инструменты, а стратегические ресурсы, помогающие обществу формировать устойчивую, инклюзивную и ориентированную на будущее образовательную экосистему цифровой эпохи.

Ключевые слова: информационное общество; цифровая трансформация; электронное высшее образование; система управления обучением; информационная система студентов; виртуальные классы; онлайн-обучение.

Giriş

XXI əsr informasiya və kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı ilə xarakterizə olunur və bu inkişaf insan fəaliyyətinin bütün sahələrinə, xüsusən də təhsilə dərin təsir göstərmişdir. Biz informasiya cəmiyyətində yaşayırıq, burada bilik, innovasiya, rəqəmsal bacarıqlar sosial və iqtisadi inkişafın əsas mənbəyidir. İnformasiya cəmiyyətinin formalaşması ilə biliklərin istehsalı, paylaşımı və idarə olunması rəqəmsal mühitə keçmişdir. Bu dəyişiklik ali təhsil sistemlərinə də təsir göstərmiş, ənənəvi tədris modelləri elektron sistemlərlə əvəz olunmağa başlamışdır. Elektron təhsil sistemləri – onlayn tədris platformaları, virtual sinif otaqları, idarəetmə proqramları və analitik alətlərdən istifadədir (Castells, 2010). Ali təhsilin elektron sistemləri bilik əldə etməyi genişləndirmək, tədris keyfiyyətini artırmaq və ömür boyu öyrənməni təşviq etmək üçün vacib vasitəyə çevrilmişdir.

Elekton sistemlərin funksiyaları və üstünlükləri

Elektron ali təhsil sistemləri müasir təhsil mühitində çoxfunksiyalı və çevik bir infrastruktur kimi çıxış edir. Onların əsas funksiyaları tədris prosesinin təşkili, idarəetmə, qiymətləndirmə, kommunikasiya və elmi tədqiqatların dəstəklənməsini əhatə edir. Bu sistemlər vasitəsilə universitetlər tədrisin bütün mərhələlərini – dərs planlamasından qiymətləndirməyə qədər – rəqəmsal mühitdə həyata keçirə bilir (Hasanova, Huseynova & Mazanova, 2023).

Ən vacib funksiyalardan biri öyrənmə idarəetmə sistemlərinin (LMS – Learning Management System) tətbiqidir. Moodle, Canvas və Blackboard kimi platformalar müəllimlərə dərs materiallarını yükləmək, tapşırıqları izləmək, tələbələrin fəaliyyətini qiymətləndirmək və onların irəliləyişini analiz etmək imkanı yaradır. Digər mühüm funksiya virtual sinif otaqlarıdır. Onlar sinxron dərslərin keçirilməsini, tələbələrin və müəllimlərin real vaxtda qarşılıqlı əlaqəsini təmin edir. Bu, xüsusən də məsafədən təhsildə effektivliyi artırır (Aliyev &

Aliyeva, 2024). Elektron sistemlər həmçinin idarəetmə və inzibati funksiyaları da avtomatlaşdırır. Məsələn, tələbə qeydiyyatı, imtahan cədvəlləri, akademik nəticələrin qeydiyyatı və diplomların elektron formada verilməsi kimi proseslər daha sürətli və şəffaf şəkildə həyata keçirilir. Bu, universitetin resurslarını optimallaşdırır və insan faktorundan doğan səhvlərin qarşısını alır (Məmmədova & Quliyeva, 2022).

Elektron təhsil sistemlərinin üstünlükləri isə çoxşaxəlidir. Ən mühüm üstünlük əlçatanlıq və çeviklikdir. Tələbələr coğrafi məhdudiyyətlərdən azad olur, istənilən yerdən və istənilən vaxtda dərslərə qoşula bilir. Bu xüsusilə regionlarda yaşayan və ya işləyən şəxslər üçün böyük imkan yaradır (UNESCO, 2021).

Digər mühüm üstünlük fərdiləşdirilmiş öyrənmə imkanıdır. Elektron platformalar hər bir tələbənin öyrənmə sürətini, maraqlarını və bilik səviyyəsini nəzərə alaraq fərdi tədris marşrutu qurmağa imkan verir. Bu isə tədris prosesini daha effektiv və motivasiyaedici edir. Başqa üstünlük interaktivlik və əməkdaşlıqdır. Forumlar, onlayn müzakirələr və qrup layihələri vasitəsilə tələbələr bir-biri ilə fikir mübadiləsi aparır, müəllimlərlə dinamik əlaqə saxlayır. Beləliklə, öyrənmə prosesi təkcə məlumat ötürülməsi deyil, həm də qarşılıqlı ünsiyyət və təcrübə paylaşımı olur (Əliyev & Rzayeva, 2021).

Həmçinin məlumatların idarəedilməsi və analizi ilə bağlıdır. Elektron sistemlər tələbə fəaliyyəti, davamiyyət və nəticələr barədə geniş məlumat bazası yaradır. Bu məlumatların təhlili müəllimlərə tədris keyfiyyətini yüksəltmək, tələbələrin çətinliklərini vaxtında müəyyənləşdirmək və effektiv qərarlar vermək imkanı verir.

Elektron sistemlər ekoloji və iqtisadi baxımdan da səmərəlidir. Kağız istifadəsinin azalması, vaxtın optimallaşdırılması və inzibati xərclərin minimuma endirilməsi həm təhsil müəssisələri, həm də cəmiyyət üçün faydalıdır.

Bütün bu funksiyalar və üstünlüklər elektron ali təhsil sistemlərini yalnız texnoloji yenilik deyil, həm də tədris prosesinin keyfiyyətini və səmərəliliyini artıran strateji vasitəyə çevirir. Azərbaycanda Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Elektron Təhsil" layihəsi bu sahədə mühüm addımlardan biridir (Təhsil Nazirliyi, 2023). "edu.az", "e-Universitet" və "portal.edu.az" kimi platformalar vasitəsilə ali təhsil müəssisələri arasında vahid rəqəmsal mühit formalaşdırılmışdır.

Elektron ali təhsil sistemlərinin tətbiqində problemlər və məhdudiyyətlər

Elektron ali təhsil sistemləri müasir dövrün təhsil ehtiyaclarına cavab verən innovativ yanaşmalardan biridir. Bu sistemlər tədrisin çevikliyini, əlçatanlığını və effektivliyini artırmaqla yanaşı, ali təhsil müəssisələrinin idarəetmə və akademik fəaliyyətlərini optimallaşdırmağa imkan verir. Lakin bu texnoloji inkişafın tətbiqi bir sıra problemlər və məhdudiyyətlərlə müşayiət olunur. Bu çətinliklər texnoloji, inzibati, sosial və pedaqoji sahələri əhatə edir və tədris prosesinin keyfiyyətinə birbaşa təsir göstərir.

Rəqəmsal bərabərsizlik və infrastruktur problemləri: Elektron təhsilin uğurlu tətbiqi üçün tələbələrin və müəllimlərin texnoloji vasitələrə və sabit internet bağlantısına çıxışı əsas şərtdir. Lakin Azərbaycanın regionlarında, xüsusilə kənd və ucqar ərazilərdə yaşayan tələbələr üçün bu imkanlar bərabər şəkildə təmin olunmayıb. Bu, distant təhsilin effektivliyini azaldır və təhsil imkanlarında sosial bərabərsizliyi dərinləşdirir (Aliyev & Aliyeva, 2024). UNESCO-nun 2021-ci il hesabatında da qeyd olunur ki, pandemiya dövründə regionlarda yaşayan tələbələrin onlayn dərslərə qoşulmaqda ciddi çətinlikləri olmuşdur (UNESCO, 2021). Bundan əlavə, bəzi ali təhsil müəssisələrində texniki infrastrukturun köhnə olması və müasir platformaların tətbiqi üçün lazımi texniki dəstəyin olmaması elektron sistemlərin dayanıqlı şəkildə işləməsinə mane olur. Bu sahədə dövlətin və universitetlərin birgə investisiya strategiyası vacibdir.

Rəqəmsal savadsızlıq və müəllimlərin adaptasiya çətinlikləri: Elektron təhsil sistemlərinin tətbiqi yalnız texniki imkanlarla məhdudlaşmır; bu sistemlərin effektiv istifadəsi üçün pedaqoji bacarıqlar və rəqəmsal savadlılıq da əsas rol oynayır. Bəzi müəllimlər və tələbələr yeni platformalara tam uyğunlaşa bilmədikləri üçün dərs keyfiyyəti aşağı düşür, interaktivlik azalır və texnoloji resurslardan səmərəli istifadə olunmur. Azərbaycan Təhsil Nazirliyinin həyata keçirdiyi "Təhsildə Rəqəmsal Transformasiya Dövlət Proqramı (2022–2026)" çərçivəsində müəllimlərin rəqəmsal bacarıqlarının artırılması üçün təlimlər təşkil olunur (Təhsil Nazirliyi, 2023). Lakin bu təlimlərin regionlarda yaşayan müəllimlərə tam şəkildə çatdırılması və davamlı olması hələ də aktual məsələdir.

Akademik Keyfiyyətin Təminatı və Tədris Məzmununun Uyğunluğu: Elektron təhsil sistemlərinin tətbiqi zamanı ənənəvi təhsildə olduğu kimi akademik keyfiyyətin qorunması mühüm əhəmiyyət kəsb edir. Onlayn dərslərin məzmunu, qiymətləndirmə metodları və müəllim-tələbə ünsiyyəti ənənəvi tədris standartlarına uyğun olmalıdır. Azərbaycanda bəzi universitetlər hibrid və distant təhsil modellərini tətbiq etsə də, bu modellərin effektivliyi və keyfiyyəti ilə bağlı mütəmadi monitorinq mexanizmləri tam

formalaşmayıb.Beynəlxalq təcrübədə bu sahədə TAM (Technology Acceptance Model) və UTAUT (Unified Theory of Acceptance and Use of Technology) modelləri istifadə olunur. Bu modellər istifadəçilərin texnologiyaya münasibətini və qəbul səviyyəsini ölçmək üçün faydalı çərçivələr təqdim edir.

Məlumatların məxfiliyi və kiber təhlükəsizlik: Elektron sistemlər tələbə məlumatlarının toplanması, saxlanması və işlənməsi prosesini əhatə edir. Bu isə kiber təhlükəsizlik və şəxsi məlumatların qorunması məsələlərini aktuallaşdırır. Azərbaycanın ali təhsil müəssisələri bu sahədə həm qanunvericiliyə uyğunluq, həm də texnoloji həllərin tətbiqi istiqamətində addımlar atmalıdır. Məsələn, UNEC və Bakı Dövlət Universiteti artıq məlumatların şifrələnməsi və təhlükəsizlik protokollarının tətbiqi sahəsində irəliləyiş əldə etmişdir (Məmmədova & Quliyeva, 2022).

Maliyyə və resurs məhdudiyyətləri*:* Elektron təhsil sistemlərinin qurulması və idarə olunması üçün ciddi maliyyə vəsaiti tələb olunur. Platformaların lisenziyası, texniki dəstək, server infrastrukturu və müəllimlərin təlimi universitetlər üçün əlavə yük yarada bilər. Xüsusilə region universitetləri bu sahədə dövlət dəstəyinə ehtiyac duyur. Elektron təhsilin dayanıqlı inkişafı üçün maliyyə planlaması və strateji investisiya vacibdir.

Azərbaycan hökuməti elektron təhsilin inkişafı üçün ardıcıl addımlar atır. "Təhsildə Rəqəmsal Transformasiya Dövlət Proqramı" çərçivəsində ali təhsil müəssisələrinin rəqəmsal infrastrukturu gücləndirilir, müəllimlərin təlimi və rəqəmsal resursların hazırlanması prioritet sahələr kimi müəyyən edilir. Bununla yanaşı, regionlarda internetə çıxışın genişləndirilməsi, müəllim və tələbələrin rəqəmsal savadlılığının artırılması və məlumat təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirlərin gücləndirilməsi zəruridir.

Beləliklə, elektron ali təhsil sistemlərinin Azərbaycanda uğurla tətbiqi üçün texnoloji, inzibati və sosial sahələrdə davamlı dəstək, inklüziv strategiyalar və yenilikçi həllər tələb olunur. Bu sistemlərin dayanıqlı inkişafı yalnız texnologiya ilə deyil, həm də insan kapitalının gücləndirilməsi ilə mümkündür.

Nəticə

İnformasiya cəmiyyətinin formalaşması ilə birlikdə ali təhsilin elektron sistemləri müasir təhsil prosesinin ayrılmaz və strateji komponentinə çevrilmişdir. Bu sistemlər təhsilin əlçatanlığını, çevikliyini və interaktivliyini artırmaqla yanaşı, tələbələrə fərdiləşdirilmiş öyrənmə imkanları təqdim edir, müəllim-tələbə ünsiyyətini gücləndirir və universitetlərin idarəetmə proseslərini optimallaşdırır. Elektron sistemlər vasitəsilə tədris prosesinin bütün mərhələləri – dərs planlaması, qiymətləndirmə, iştirakın izlənməsi və nəticələrin təhlili – rəqəmsal mühitdə daha effektiv şəkildə həyata keçirilir. Bu sistemlərin tətbiqi yalnız texnoloji yenilik kimi deyil, həm də təhsilin keyfiyyətinin yüksəldilməsi, sosial inklüzivliyin təmin olunması və bilik əsaslı iqtisadiyyatın qurulması baxımından strateji əhəmiyyət daşıyır. Elektron təhsil platformaları ölkələr arasında akademik əməkdaşlığı gücləndirir, beynəlxalq təcrübə mübadiləsini asanlaşdırır və ömür boyu öyrənmə mədəniyyətini təşviq edir. Bu, xüsusilə sürətlə dəyişən əmək bazarında tələb olunan yeni bacarıqların formalaşdırılması üçün mühüm rol oynayır.

Azərbaycan kontekstində elektron ali təhsil sistemlərinin tətbiqi son illərdə nəzərəçarpacaq dərəcədə inkişaf etmişdir. Dövlət tərəfindən həyata keçirilən "Təhsildə Rəqəmsal Transformasiya Dövlət Proqramı (2022–2026)" çərçivəsində ali təhsil müəssisələrinin rəqəmsal infrastrukturu gücləndirilir, müəllimlərin rəqəmsal bacarıqları artırılır və elektron resursların hazırlanması genişləndirilir (Təhsil Nazirliyi, 2023). Lakin bu inkişafla yanaşı, bir sıra problemlər hələ də aktuallığını qoruyur. Regionlarda internetə və texnoloji avadanlıqlara çıxışın məhdudluğu, müəllim və tələbələrin rəqəmsal savadlılıq səviyyəsinin qeyri-bərabərliyi, eləcə də məlumatların məxfiliyi və kiber təhlükəsizlik məsələləri elektron sistemlərin dayanıqlı tətbiqi üçün əsas çağırışlar olaraq qalır.

Gələcək perspektivlər baxımından, ali təhsilin daha da inkişafı üçün elektron və ənənəvi tədris metodlarının hibrid inteqrasiyası vacib olacaq. Süni intellekt, virtual və artırılmış reallıq, adaptiv öyrənmə texnologiyaları və böyük məlumatların analitikası kimi innovativ yanaşmalar tədris prosesini daha fərdiləşdirilmiş, interaktiv və nəticəyönümlü edəcək. Bu texnologiyalar həm tələbələrin öyrənmə motivasiyasını artıracaq, həm də müəllimlərə daha dəqiq pedaqoji qərarlar vermək imkanı yaradacaq.

Eyni zamanda, regionlarda texnoloji infrastrukturun gücləndirilməsi, müəllim və tələbələrin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi və məlumat təhlükəsizliyinin təmin olunması ali təhsilin rəqəmsal transformasiyası üçün əsas prioritetlərdən biri olaraq qalmalıdır. Bu sahədə dövlət, universitet və özəl sektor arasında əməkdaşlıq modeli formalaşdırılmalı, davamlı inkişaf üçün strateji planlama həyata keçirilməlidir.

Beləliklə, elektron ali təhsil sistemləri yalnız texnoloji yenilik deyil, həm də Azərbaycanın və dünya cəmiyyətlərinin bilik əsaslı, inklüziv və innovativ təhsil ekosistemlərinin inkişafında strateji

vasitədir. Bu sistemlər gələcəkdə təhsilin keyfiyyətini, əhatəliliyini və səmərəliliyini daha da artıracaq, fərdi və ictimai inkişaf üçün yeni imkanlar yaradacaq.

ƏDƏBİYYAT SİYAHISI:

1. Aliyev, M., Aliyeva, S. (2024). Revisiting Digital Transformation of Azerbaijan Higher Education in the New Digital Era. “Yıldız Social Science Review”, 10(1), 72–83. https://yssr.yildiz.edu.tr/storage/upload/pdfs/1719643388-en.pdf
2. Hasanova, Z., Huseynova, A., Mazanova, O. (2023). The State of Application of Electronic Systems in Higher Education in Azerbaijan. UNEC. https://www.researchgate.net/publication/369850498
3. Mazanova, O., Hasanova, Z., Huseynova, A. (2019). The State of Application of Electronic Systems in Higher Education in Azerbaijan. “37th International Scientific Conference on Economic and Social Development – Baku”. https://www.academia.edu/41003409
4. Məmmədova, S., Quliyeva, N. (2022). Elektron təhsil sistemlərinin tətbiqi və idarəetmədə rolu. “Azərbaycan Təhsil Jurnalı”, 4(1), 45–52.
5. Təhsil Nazirliyi. (2023). “Təhsildə Rəqəmsal Transformasiya Dövlət Proqramı (2022–2026)”. https://edu.gov.az
6. UNESCO. (2021). “Education during COVID-19 and beyond: The impact on Azerbaijan”. https://unesco.org
7. Venkatesh, V., Morris, M. G., Davis, G. B., Davis, F. D. (2003). User acceptance of information technology: Toward a unified view. “MIS Quarterly”, 27(3), 425–478. https://doi.org/10.2307/30036540
8. Castells, M. (2010). The Rise of the Network Society (2nd ed.). Wiley-Blackwell.
9. Əliyev, R., Rzayeva, T. (2021). “Ali təhsildə elektron platformaların istifadəsi: Tələbə baxışı”. Bakı Dövlət Universiteti Elmi Xəbərlər, 3(2), 88–95

DOİ: 10.32010/WYSG2037

FİZİKANIN TƏDRİSİ METODİKASINDA AZƏRBAYCAN ALİMLƏRİNİN ELMİ İRSİ

Aytən Elxan KƏRİMOVA
Naxçıvan Dövlət Universiteti, Doktorant
Orcid: https://orcid.org/0009-0000-1232-5054
E-mail: aytenkerimova567@gmail.com

Xülasə: Məqalədə Azərbaycanda fizikanın tədrisi metodikasının inkişaf tarixi və bu sahədə görkəmli alimlərin elmi-pedaqoji irsi təhlil olunur. XX əsrin əvvəllərindən başlayaraq fizika fənninin milli dildə tədrisi və metodik əsaslarının yaradılması məqsədilə geniş elmi işlər aparılmışdır. Ə.Əbdülzadə, R.Məlikov, A.A.Abaszadə, M.Abdullayev, V.Orucov, Z.Qaralov kimi alimlərin fəaliyyəti nəticəsində fizika dərsliklərinin məzmunu, tədris metodları, terminologiya və politexnik yönüm istiqamətində mühüm irəliləyişlər əldə olunmuşdur. Ə. Əbdülzadənin hazırladığı "Hikməti-tərbiyə" adlı ilk fizika dərsliyi, sonrakı illərdə R.Məlikov və A.A.Abaszadə kimi alimlərin redaktə etdikləri dərslik və metodik vəsaitlər milli fizika tədrisinin əsasını qoymuşdur. Abaszadə xüsusilə bu sahədə görkəmli şəxsiyyət kimi fərqlənmiş, onun tədqiqatları məktəb fizika kursunun məzmununun elmi əsaslarla qurulmasına, politexnik yönümün gücləndirilməsinə və diferensial təlim metodlarının tətbiqinə həsr olunmuşdur. O, fizikanın həyat və sənaye ilə əlaqələndirilməsinin vacibliyini vurğulamış, neft və qaz yataqlarının kəşfiyyatı kimi mövzuların məktəb proqramına daxil edilməsini təklif etmişdir. Metodik göstərişlər və "Fizika terminləri lüğəti" kimi nəşrlər milli terminologiyanın formalaşmasına töhfə vermişdir. Onun diferensial təlimə dair elmi baxışları müasir təhsildə fərdi yanaşmanın nəzəri əsasını təşkil edir. Nəticə etibarilə, Azərbaycan alimlərinin elmi-pedaqoji fəaliyyəti fizika tədrisinin milli modelinin formalaşmasına, metodikanın elmi əsaslarla zənginləşməsinə və bu gün də aktuallığını qoruyan pedaqoji irsin yaranmasına səbəb olmuşdur.
Açar sözlər: Fizikanın tədris metodikası, Azərbaycan alimləri, elmi-pedaqoji, tədris, fizika dərslikləri.

SCIENTIFIC LEGACY OF AZERBAIJANI SCHOLARS IN PHYSICS TEACHING METHODOLOGY

Aytan Elkhan KARİMOVA
Nakhchivan State University, Doctoral student
Orcid: https://orcid.org/0009-0000-1232-5054
E-mail: aytenkerimova567@gmail.com

Abstract: The article analyzes the historical development of physics teaching methodology in Azerbaijan and examines the scientific-pedagogical legacy of prominent scholars in this field. Since the early 20th century, extensive research has been conducted to establish the methodological foundations of teaching physics in the national language. As a result of the contributions made by scholars such as A.Abdullazade, R.Melikov, A.A.Abaszade, M.Abdullayev, V.Orucov, and Z.Garalov, significant progress has been achieved in improving the content of physics textbooks, teaching methods, terminology, and the polytechnic orientation of the subject. A.Abdullazade's "Hikmeti-Terbiye," the first physics textbook written in Azerbaijani, and later textbooks and methodological manuals edited by R. Melikov and A.A.Abaszade laid the foundation for national physics education. Abaszade, in particular, stands out as a distinguished figure whose research focused on structuring the school physics curriculum on scientific principles, strengthening its polytechnic direction, and applying differential teaching methods. He emphasized the importance of linking physics to daily life and industry, proposing the inclusion of topics such as the exploration of oil and gas fields in school curricula. Furthermore, methodological guidelines and publications such as the *Dictionary of Physics Terms* contributed significantly to the formation of national scientific terminology. Abaszade's views on differentiated teaching form the theoretical basis of personalized learning in modern education. Consequently, the scientific and pedagogical activities of Azerbaijani scholars have played a key role in shaping the national model of physics education, enriching its methodological foundations, and creating a pedagogical heritage that remains relevant today.
Keywords: Methods of teaching physics, Azerbaijani scientists, scientific-pedagogical, teaching, physics textbooks.

НАУЧНОЕ НАСЛЕДИЕ АЗЕРБАЙДЖАНСКИХ УЧЕНЫХ В МЕТОДИКЕ ПРЕПОДАВАНИЯ ФИЗИКИ

Айтен Элхан КЕРИМОВА
Нахичеванский государственный университет, Докторант
Orcid: https://orcid.org/0009-0000-1232-5054
Электронная почта: aytenkerimova567@gmail.com

Резюме: В статье анализируется историческое развитие методики преподавания физики в Азербайджане и рассматривается научно-педагогическое наследие выдающихся ученых в этой области. С начала XX века проводились обширные исследования, направленные на установление методологических основ преподавания физики на национальном языке. Благодаря вкладу таких ученых, как А.Абдуллазаде, Р.Меликов, А.А.Абасзаде, М.Абдуллаев, В.Оруджов и З.Гаралов, были достигнуты значительные успехи в совершенствовании содержания учебников по физике, методов преподавания, терминологии и политехнической направленности предмета. «Хикмети-Тербие» А.Абдуллазаде, первый учебник по физике на азербайджанском языке, а также последующие учебники и методические пособия под редакцией Р.Меликова и А.А.Абасзаде заложили основы национального физического образования. Абасзаде особенно выделяется как выдающаяся личность, чьи исследования были направлены на структурирование школьной программы по физике на научных принципах, укрепление ее политехнической направленности и применение дифференцированных методов обучения. Он подчеркивал важность связи физики с повседневной жизнью и промышленностью, предлагая включение таких тем, как освоение нефтяных и газовых месторождений, в школьную программу. Кроме того, методические рекомендации и публикации, такие как «Словарь физических терминов», внесли значительный вклад в формирование национальной научной терминологии. Взгляды Абасзаде на дифференцированное обучение формируют теоретическую основу персонализированного обучения в современном образовании. Следовательно, научно-педагогическая деятельность азербайджанских ученых сыграла ключевую роль в формировании национальной модели преподавания физики, обогащении ее методологических основ и создании педагогического наследия, актуального и в настоящее время.

Ключевые слова: Методы преподавания физики, азербайджанские ученые, научно-педагогическое, преподавание, учебники по физике.

Giriş

Fizikanın tədris metodikası elmi biliklərin sistemli şəkildə mənimsənilməsi, təlim prosesinin səmərəliliyinin artırılması və şagirdlərdə elmi dünyagörüşünün formalaşdırılmasında mühüm rol oynayır. Azərbaycanda bu sahənin elmi əsaslarla inkişafı XX əsrin əvvəllərindən başlayaraq, bir çox görkəmli alimlərin pedaqoji fəaliyyətləri ilə sıx bağlı olmuşdur. Sovet hakimiyyətinin ilk illərində formalaşan yeni təhsil sistemi fizika fənninin milli dilimizdə tədrisini və bu istiqamətdə dərslik, metodik vəsaitlərin hazırlanmasını zəruri etmişdir. Bu dövrdə Ə.Əbdülzadə, R.Məlikov, V.Orucov, A.A.Abaszadə, M.Abdullayev, Z.Qaralov və digər alimlərin elmi-pedaqoji fəaliyyəti ölkəmizdə fizika tədrisinin elmi-metodik əsaslarının formalaşmasına və təkmilləşdirilməsinə mühüm töhfə vermişdir. Onların apardıqları tədqiqatlar nəticəsində fizika dərsliklərinin məzmunu, terminoloji sistem, tədris metodları və politexnik yönüm kimi mühüm istiqamətlər inkişaf etdirilmiş, milli təhsil sisteminin formalaşmasında əhəmiyyətli mərhələ yaranmışdır. Məqalədə Azərbaycanın tanınmış alimlərinin fizikanın tədrisi metodikasının formalaşması və inkişafındakı rolu, bu sahədə əldə olunan elmi-pedaqoji nəticələr və onların müasir təlim prosesinə təsiri təhlil olunur.

Azərbaycanda Sovet hakimiyyətinin qurulması ölkədə müasir və yeni tipli məktəb şəbəkələrinin formalaşmasına imkan yaratdı. Bu dövrdə orta ixtisas və ali təhsil müəssisələrində fizika fənninin elm və texnika sahəsindəki müasir tələblərə uyğun yüksək səviyyədə tədris edilməsi və müvafiq dərsliklərin hazırlanması ehtiyacı ortaya çıxdı. Həmin zaman Maarif Komissarlığının təşkil etdiyi tədrismetodiki şura tərəfindən hazırlanmış proqram əsasında fizika fənninin ilkin bilikləri 4-5-ci siniflərdə təbiət fənləri çərçivəsində, 6-9-cu siniflərdə isə orta məktəb kursu həcmində öyrədilirdi. 1921-ci ildə Ə. Əbdülzadə tərəfindən Azərbaycan dilində ilk fizika dərsliyi olan “Hikməti-tərbiyə” nəşr edilmişdir. Həmin dövrdə məktəblərdə bu dərsliklə yanaşı, Ə.Əbdülzadənin tərcümə etdiyi H.Millerin “Mexanika” dərsliyinin I hissəsi də istifadə olunurdu. 1926-cı ildə isə Singerin “Fizika” dərsliyi və İ.Qriqoryevin dörd hissədən ibarət olan əsəri məktəblilər üçün əlçatan edilmişdir. Azərbaycan dilinə tərcümə olunan bu kitablar ilk dərslik nümunələri olduğundan, dil və terminologiya baxımından müəyyən qüsurlar ehtiva edirdi.

Nəzəriyyə

20-ci əsrin 20-ci illərində ali və orta ixtisas məktəblərində fizikanın tədrisi metodikasını işləyib hazırlamaq, eləcə də terminologiya məsələlərini tənzimləmək kimi vəzifələr Azərbaycan Pedaqoji

İnstitutu (APİ) və Azərbaycan Dövlət Universitetinin (ADU) müəllimlərinə düşürdü. Bu işdə R.Məlikov, B.R.Mirzəyev, A.A.Abaszadə, M. A. Abdullayev və M.G.Əliyev kimi yerli alimlər, eyni zamanda E.Lopuxin, Y.Dorfman, V.Tixomirov və A.Alfimov kimi mütəxəssislər fəaliyyət göstərirdilər.

1928-1930-cu illərdə Respublika Xalq Maarif Komissarlığı Azərbaycanda ilk müasir pedaqoji jurnal olan "Xalq maarifi"ni nəşr etməyə başlamışdır. Bununla yanaşı, 1923-1930-cu illərdə "Maarif və mədəniyyət", "Yeni məktəb" və "Maarif işçisi" kimi pedaqoji jurnallar çap olunurdu. 1924-cü ildən isə "Azərbaycan məktəbi" elmi-pedaqoji jurnal kimi fəaliyyət göstərərək əsas fənlərdən metodiki əlavələr də təqdim etməyə başladı. 1934-cü ildən müəllimlərə dəstək məqsədilə "Azərbaycan müəllimi" qəzeti çap olunmağa başladı. (www.gumer.info)

1933-cü ildən etibarən ali və orta ixtisas məktəbləri üçün Azərbaycan dilində dərsliklər, metodiki vəsaitlər və jurnal məqalələri nəşr edilməyə başlanmışdır. Misal olaraq, professor Boris Aleksandroviç Mixelsonun "Fizika kursu" (M.C.Əliyevin redaktəsi ilə, 1933), B. Mirzəyevin "Molekulyar fizikadan konspektlər" (1933), "Rəqslər və dalğalar" (1934), "Fizika praktikumu" (1935), həmçinin E.B.Lopuxinin iki cildlik "Fizika kursu" (R.Məlikovun redaktəsi ilə, 1935) göstərilə bilər.

1930-1938-ci illər ərzində orta məktəb fizika proqramları beş dəfə dəyişdirilmişdir (1930, 1932, 1933, 1935, 1938). Həmin dövrdə Maarif Komissarlığında metodiki kabinet yaradılmış və onun təşəbbüsü ilə "Müəllimə kömək" məcmuəsi çap olunmağa başlamışdır. Sabit proqram, dərslik və metodik vəsaitlərin olmaması səbəbindən orta məktəb fizika müəllimlərinə yardım məqsədilə A.A.Abaszadə bu jurnalda metodik məqalələr dərc etmiş, fizika dərslərində müxtəlif mövzuların tədrisi ilə yanaşı, təlimati və təşkilati məsələlərə də diqqət yetirmişdir. (A.A.Abaszadə, 1934)

Məqalələrdə dərsliklərdəki tərcümə səhvləri, elmi təhriflər və termin xətaları düzəldilmiş, mövzuların tədrisi zamanı əyani vəsaitlərin hazırlanma qaydası və fizika kabinetlərinin təşkili izah edilmişdir. Məsələn, "Fizikadan yoxlama imtahanlarının aparılma metodikası" məqaləsində A.A.Abaszadə fizika imtahanlarının tədris prosesində rolunu və onlara qoyulan elmi-pedaqoji tələbləri açıqlamışdır. Həmçinin, "Fizikadan tədris materiallarının işlənməsi barədə metodiki göstərişlər" (1934) məqaləsində 7-ci sinif üçün elektrik bölməsinin tədrisinə aid konkret metodik tövsiyələr verilmişdir. Abaszadənin tövsiyəsi üzrə məsələlər şagirdlərə sadə şəkildə təqdim olunmalı, fiziki mənası və əhəmiyyəti həll prosesindən öncə gəlməli idi.

A. A. Abaszadə həm APİ və EA-nın Fizika İnstitutunda, həm də 1941-ci ildə ETPEİ-nin fizika-riyaziyyat kabinetində fəaliyyət göstərmişdir. Müharibə illərində fizika tədrisini hərbi texnika ilə əlaqələndirməyin metodik əsaslarını işləyərək, "Fizika tədrisində hərbi texnika elementləri" adlı tədris vəsaiti yaratmışdır. Kitabın I hissəsi 6-7-ci sinif proqramına, II hissəsi isə 8-ci sinif proqramına uyğun hazırlanmış, nəzəri biliklərlə yanaşı, məsələlər və onların həlli üsulları da daxil edilmişdir. (A.A.Abaszadə, 1942)1946-cı ildə ADPİ-də "Fizika və riyaziyyatın tədrisi metodikası" kafedrası yaradılmış və fizikanın tədrisi metodikasının problemləri üzrə sistemli araşdırmalar aparılmağa başlanmışdır. 1950-1960-cı illərdə pedaqoq-tədqiqatçıların qarşısında əsas məsələlərdən biri təhsilin məzmun konsepsiyasını müəyyən etmək idi. Elm və texnikanın sürətli inkişafı şagirdlərin hazırlıq səviyyəsinə yeni tələblər qoyurdu. Bu dövrdə tədris planı, proqramlar, dərsliklər, dərs vəsaiti və metodik ədəbiyyatın hazırlanmasında A.A.Abaszadə fəal iştirak etmişdir. Onun "Orta məktəbdə fizika təliminde konsentrizmin ləğvi haqqında" (1959), "Orta məktəb fizika kursunun məzmunu" (1959, 1965) və digər məqalələri bu məsələlərə həsr edilmişdir.

1963-cü ildə dərc olunmuş "Orta məktəbdə fizika təliminin əsas məsələləri" məqaləsində Abaszadə mövcud proqram və dərslikləri təhlil etmiş, fizika tədrisinin keyfiyyətinin artırılması, şagirdlərin səviyyəsinin yüksəldilməsi və onları ictimai-faydalı əməyə hazırlamaq üçün önəmli məsələləri ön plana çıxarmışdır. O, fizika kurslarının məzmununda elm və texnikanın əldə etdiyi son nəticələrin əks olunmasının tərəfdarı olmuşdur. A.A. Abaszadə tədris proqramlarında fizikanın müasir elmi nailiyyətlərinin zaman və məkan anlayışlarının inkişafı, nisbilik nəzəriyyəsinin əsas prinsipləri, mikroaləmdə baş verən hadisələrin statistik xarakteri, fluktuasiya və elementar hissəciklər fizikası, elektronun difraksiyası, işığın dalğa və kvant xüsusiyyətləri, həmçinin elektrik hadisələrinin elektron nəzəriyyəsi və istilik proseslərinin fononlarla izahı kimi məsələlərin dərslik və proqramlarda əks olunmasının vacibliyini vurğulamışdır. O, fiziki-kimya, biofizika, aqrofizika və astrofizika elementlərinin, eləcə də energetika, izotoplar, radiotexnika və radiolokasiya sahəsində əldə olunan nailiyyətlərin tədris prosesinə daxil edilməsini zəruri hesab edirdi. (A.A.Abaszadə, 1963)

Abaszadənin fikrincə, proqram materiallarında əhəmiyyətli və elmi dəyəri olan mövzulara üstünlük verilməlidir. O, fənlərarası əlaqələrin düzgün qurulmasının təlim keyfiyyətinə təsirini xüsusi qeyd etmişdir. Belə ki, o, riyaziyyat və kimya

proqramlarında fizika ilə paralelliyin yetərincə təmin olunmamasını tənqid edərək, fizika mövzularının mənimsənilməsi üçün tələb olunan riyazi biliklərin zamanında verilmədiyini qeyd etmişdir. Məsələn, o bildirirdi ki, 9-cu sinifdə dalğa və rəqslər mövzusunun mənimsənilməsi üçün şagirdlər triqonometrik funksiyalarla tanış olmalıdırlar, lakin bu mövzu riyaziyyat proqramında dərs ilinin ikinci yarısına təsadüf edir. (A.A.Abaszadə, 1963)

A.A.Abaszadə hesab edirdi ki, təbiət fənlərinin proqramlarında əlaqəli düzülüşün nəzərə alınmaması tədrisin keyfiyyətinə mənfi təsir göstərir və nəticədə şagirdlər elmi anlayışları dərk etmək əvəzinə, əzbərçiliyə meyllənirlər. O, tədris prosesində proqram və dərslik arasında uyğunluğun və ahəngin saxlanılmasını pedaqoji baxımdan vacib sayırdı. Abaszadə, eyni zamanda, fizika dərsliklərində simvolların, terminlərin və formulaların yazılışında latın, yunan və kiril əlifbalarından rasional şəkildə istifadə etməyin tərəfdarı idi. Oxşar fiziki kəmiyyətlərin indeksləşdirilməsi ilə bağlı təklif etdiyi üsullar sonrakı dərsliklərdə geniş tətbiq olunmuşdur. (A.A.Abaszadə, 1967)

20-ci əsrin ortaları və sonları fizikada yeni elmi nailiyyətlərin əldə olunduğu dövr kimi səciyyələnir. Bu yeniliklərin orta və ali məktəblərin fizika kurslarında və tədris metodikasında əks olunması istiqamətində A.A.Abaszadənin təklifləri mühüm əhəmiyyət kəsb etmişdir.

Metod

Fizikanın tədrisi metodikasının mühüm istiqamətlərindən biri məktəb fizika kursunun politexnik yönümünü gücləndirmək və fənnin həyatla əlaqəsini möhkəmləndirmək idi. Bu istiqamətdə Abaszadənin 1950-1960-cı illərdə apardığı elmi-tədqiqat işləri xüsusi diqqətə layiqdir. Onun "Fizika təliminde politexnizm elementləri", "Orta məktəbdə fizika təliminin əsas məsələləri", "Politexnik təlim nöqteyi-nəzərindən orta məktəb fizika kursunun məzmunu", "Onbirillik məktəblərdə neft və qaz yataqları kəşfiyyatının fiziki metodlarını öyrətməyin metodikasına dair", "Neft və onun fiziki xassələri haqqında" və "Neft sənayesində atom enerjisinin tətbiqi" adlı məqalələri bu istiqamətdə yazılmış ən dəyərli tədqiqat nümunələridir. O, fizika proqramlarının politexnik yönümünün artırılması məqsədilə aparılan islahatlarda aktiv iştirak etmiş, konsentrizm prinsipinin ləğvini və laboratoriya işlərinin artırılmasını vacib saymışdır. Abaszadənin fikrincə, istehsalatla bağlı mövzuların dərslərdə tədris olunması və sənaye müəssisələrinə ekskursiyaların təşkili şagirdlərin tətbiqi biliklərini gücləndirir.

Onun 6-11-ci siniflərdə neftin kəşfiyyatı, çıxarılması, emalı və daşınması ilə bağlı fiziki biliklərin tədrisinə həsr olunmuş metodik araşdırmaları da xüsusi əhəmiyyət daşıyır. Azərbaycan iqtisadiyyatında neft sənayesinin aparıcı rolunu nəzərə alaraq, Abaszadə fizika dərslərində şagirdlərin neftin fiziki-kimyəvi xassələri və onun sənayedə tətbiqi barədə geniş biliklərə yiyələnməsini vacib saymışdır. Bu baxımdan onun "Onbirillik məktəbdə neft və qaz yataqları kəşfiyyatının fiziki metodlarını öyrətməyin metodikasına dair" adlı məqaləsi əhəmiyyətli metodik mənbə hesab olunur. A.A.Abaszadənin "Onbirillik məktəbdə neft və qaz yataqları kəşfiyyatının fiziki metodlarını öyrətməyin metodikasına dair" adlı tədqiqatında bu mövzuya dair materiallar siniflər üzrə sistemləşdirilmiş, fizika kursunun məzmunu ilə uyğun şəkildə bölmələrə ayrılmış və hər mövzu üçün ayrıca metodik göstərişlər hazırlanmışdır. Məqalədə 6-cı sinifdə "Neftin respublikamızın xalq təsərrüfatındakı rolu", 8-ci sinifdə "Neft və qaz yataqlarının geoloji şəkilçəkmə metodu ilə öyrənilməsi", 9-cu sinifdə "Qravimetrik üsulla kəşfiyyat", 10-cu sinifdə "Seysmik kəşfiyyat", 11-ci sinifdə isə "Elektrik üsullarla kəşfiyyat" kimi mövzuların tədrisinə dair ardıcıl və qarşılıqlı əlaqəli metodik yanaşmalar işlənib hazırlanmışdır. (A.A.Abaszadə, 1961)

Respublikanın dünya miqyasında mühüm neft ölkələrindən birinə çevrildiyi dövrdə, şagirdlərə neft və qaz yataqlarının kəşfiyyatının və hasilatının fiziki əsasları barədə fundamental biliklərin verilməsində A.A.Abaszadənin bu istiqamətdəki metodik tədqiqatları bu gün də aktual və dəyərli hesab olunur.

Ümumtəhsil məktəblərinin yuxarı pilləsində (10-11-ci siniflər) tətbiq olunan diferensial təlim şagirdlərin maraq, meyl və fərdi xüsusiyyətlərini nəzərə almağa əsaslanır. Hazırda bu yanaşma dünyanın əksər inkişaf etmiş ölkələrində geniş tətbiq edilir. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu sahədə islahatlar sürətlənmiş, məktəblərdə təmayüllü siniflərin təşkili istiqamətində mühüm addımlar atılmış, fizika fənni üzrə yeni proqramlar hazırlanmışdır. 1950-1960-cı illərdə sənaye və kənd təsərrüfatının inkişaf dinamikası A.A.Abaszadəni məktəblərdə diferensial təlimə keçidin zəruriliyinə inanmağa vadar etmişdir. Onun rəhbərliyi ilə aparılan pedaqoji eksperimentlər nəticəsində bu metodun tətbiqi uğurla sınaqdan keçirilmişdir.

Diferensial təlimin praktik nəticələri gələcəkdə ixtisaslaşdırılmış təmayüllü məktəblərin o cümlədən fizika-riyaziyyat və kimya-biologiya yönümlü liseylərin formalaşmasının elmi-metodik bazasını yaratmışdır.

A.A.Abaszadə diferensial təlimə dair apardığı nəzəri və eksperimental araşdırmaların nəticələrini "Diferensial təlim və onun tətbiqi haqqında" adlı məqaləsində geniş şəkildə təhlil etmişdir. Tədqiqatda

irəli sürülən ideya və elmi mülahizələr müasir dövrdə təhsil sistemində həyata keçirilən islahatlarla səsləşir. Müəllifin fikrincə, diferensial təlimin mahiyyəti ondan ibarətdir ki, şagirdlər dövlət tərəfindən müəyyən olunmuş ümumi təhsil proqramını mənimsəməklə yanaşı, fərdi qabiliyyət, maraq və meyillərinə uyğun olaraq sevdikləri fənlər üzrə daha dərin və sistemli bilik əldə edirlər. A.A.Abaszadə təhsilin humanistləşdirilməsi anlayışını da bu kontekstdə izah edərək qeyd edirdi ki, tədris prosesinin əsas məqsədi hər bir şagirdin fərdi xüsusiyyətlərini, ehtiyac və tələbatlarını, eləcə də maraq və arzularını nəzərə almaqdan ibarətdir. (A.A.Abaszadə, 1963)

Alim öz elmi araşdırmalarında fizika kursunun tədrisi prosesində şagirdlərdə elmi dünyagörüşünün formalaşdırılması və onların tərbiyə istiqamətində inkişafı məsələlərinə xüsusi diqqət yetirmişdir. Bu istiqamətdə ilk addımlar da məhz onun tərəfindən atılmış, 1959-cu ildən etibarən fizikanın tədrisində elmi dünyagörüşü və tərbiyə məsələlərinin pedaqoji əsaslarını araşdırmışdır. A.A.Abaszadə bu mövzuda aparılan tədqiqatlara rəhbərlik etmiş, o cümlədən Z. Qaralov və M. Hüseynov kimi alimlərin elmi işlərinə rəhbər olmuşdur.

Zəngin elmi-pedaqoji irsə malik olan, keçmiş RSFSR və SSRİ Pedaqoji Elmlər Akademiyasının ilk azərbaycanlı müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Abasqulu Ağabala oğlu Abaszadənin elmi irsi bu gün də öyrənilməyə və tətbiq edilməyə dəyər mənbə kimi qiymətləndirilir. Onun pedaqoji və metodik görüşlərinin sistemli şəkildə araşdırılması məqsədilə professor Z.Qaralovun rəhbərliyi ilə yaradılmış A.A.Abaszadə irsini araşdırma mərkəzi, ölkəmizdə tanınmış təbiətşünas alimlərin elmi irsinin tədqiqi və təbliği ilə məşğul olan ilk ixtisaslaşmış elmi mərkəz kimi mühüm hadisə hesab olunur. Bu istiqamətdə görülən işlərin davamlılığı və mərkəzin inkişafı üçün dövlət qurumlarının, ictimai təşkilatların və elmi cəmiyyətlərin dəstəyi vacib əhəmiyyət kəsb edir. A.A.Abaszadə Azərbaycan təbiət elmlərinin formalaşması və inkişafında mühüm rol oynamış, bir çox elmi yeniliklərin təşəbbüskarı olmuşdur. O, fizika elminin təbliği, onun geniş kütlələr arasında yayılması və fizikanın tədris metodikasının elmi əsaslarla inkişaf etdirilməsi istiqamətində fədakar fəaliyyət göstərmişdir. Tədqiqatçı yalnız fizika fənninin deyil, həm də riyaziyyat, kimya və biologiya kimi digər təbiət fənlərinin tədrisində elmi dünyagörüşünün formalaşması ilə bağlı dəyərli elmi-pedaqoji fikirlər irəli sürmüşdür.

1920-1940-cı illər ərzində fizikanın tədrisi metodikasında qarşıya çıxan əsas məsələlərdən biri elmi terminologiyanın işlənməsi və vahid sistemə salınması olmuşdur. Həmin dövrdə istifadə olunan tərcümə dərsliklərdə ərəb və fars mənşəli terminlərə üstünlük verildiyindən, milli termin bazasının yaradılması mühüm zərurət kimi meydana çıxmışdı. 1935-ci ildə M.Abdullayev tərəfindən tərtib edilmiş "Fizika terminləri" adlı kitab bu istiqamətdə ilk təşəbbüs hesab olunsa da, mövcud terminoloji problemləri tam şəkildə aradan qaldıra bilməmişdir.

Azərbaycan dilində fizika terminlərinin elmi əsaslarla sistemləşdirilməsi istiqamətində A.Abaszadə və Z.Əlizadənin birgə apardıqları araşdırmalar nəticəsində orta məktəb proqramı səviyyəsində rusca-azərbaycanca ilk "Fizika terminləri lüğəti" (1939) hazırlanmışdır. Bu nəşr Azərbaycan dilində elmi terminlərin sabitləşməsinə, eyni zamanda fizika terminologiyasının gələcək inkişafına təkan vermişdir.

Daha sonralar akademik H. Abdullayevin rəhbərliyi ilə bu lüğət genişləndirilmiş və mükəmməlləşdirilmiş variantda nəşr edilmişdir. Bununla belə, elmin, texnika və texnologiyanın sürətli inkişafı nəticəsində yeni anlayışların və terminlərin yaranması bu gün də fizika sahəsində terminoloji sistemin təkmilləşdirilməsini zəruri edir. Sonrakı illərdə B.Sultanov və T.Xasməmmədov tərəfindən tərtib olunmuş "Fizikadan ev təcrübələri" adlı dərs vəsaitində "Molekulyar fizika və istilik", "Elektrik" və "Optika" bölmələrinə aid müxtəlif təcrübələrin yerinə yetirilmə metodikası ətraflı şəkildə izah edilmişdir. Kitabda orta məktəb proqramı səviyyəsində, şagirdlərin ev şəraitində reallaşdıra biləcəkləri təcrübələr sistemləşdirilmiş və onların icra texnikası praktik yönümlü formada təqdim olunmuşdur.

Eyni zamanda müəlliflər yalnız təcrübələrin təsviri ilə kifayətlənməyərək, onların məqsədi, gedişi və nəticələrinin elmi izahını da diqqət mərkəzinə çəkmişlər. Burada fizikanın müxtəlif bölmələrinə aid 203 təcrübə toplanmış və bu təcrübələr tədris materialının daha dərindən mənimsənilməsinə, eyni zamanda şagirdlərin müşahidə və analitik düşünmə bacarıqlarının inkişafına yönəlmişdir. Müəlliflərin fikrincə, şagirdlərin ev şəraitində sadə fiziki cihazlar düzəltməsi, bu cihazlar və gündəlik məişət əşyalarından istifadə etməklə eksperimentlər aparması məktəbin həyatla əlaqəsini möhkəmləndirir və politexnik təlim prinsiplərinin tətbiqinə şərait yaradır. (Sultanov və Xasməmmədov, 1952)

Həmçinin, 1952-ci ildə İ.Hacıyev tərəfindən yazılmış "Fizika tədrisində işlədilən əyani vəsaitlər" adlı vəsaitdə fizika müəllimləri üçün əyani vasitələrdən düzgün və məqsədyönlü istifadə qaydaları izah edilmişdir. Bu əsər, xüsusilə gənc müəllimlərin laborator avadanlıqlar və tədris cihazlarından effektiv şəkildə yararlanmaları

baxımından mühüm metodik əhəmiyyət daşıyır. (Hacıyev, 1952)

Z.Qaralov geniş gənclər auditoriyasını əhatə edən ümumtəhsil məktəblərində fizika fənninin politexnik məzmununun formalaşdırılması məsələsini elmi tədqiqat obyektinə çevirmiş və bu istiqamətdə keçmiş SSRİ respublikalarında, o cümlədən Azərbaycanda, bir çox alim-metodistlərin mühüm araşdırmalar apardığını vurğulamışdır. O, bu sahədə müəyyən nailiyyətlərin əldə olunmasına baxmayaraq, politexnik təhsilin tam həll olunmamış problem olaraq qaldığını qeyd etmiş və bunun əsas səbəblərini sistemli şəkildə təhlil etmişdir.

Müəllifin fikrincə, şagirdlərin praktik fəaliyyətə hazırlıq səviyyəsi birbaşa olaraq onların ümumi biliklərinin keyfiyyətindən asılıdır. Bu baxımdan, Qaralov fizika tədrisində politexnik təlimin həyata keçirilməsi problemini araşdırarkən bütün məsələləri deyil, yalnız proqram tələbləri çərçivəsində, lakin metodik ədəbiyyatda kifayət qədər işlənməyən nəzəri məsələlərə diqqət yönəltmişdir. Əsərdə həmçinin şagirdlərin ümumi və politexnik hazırlıq səviyyəsinin yüksəldilməsinə xidmət edə biləcək effektiv yollar göstərilmiş, bu istiqamətdə metodik tövsiyələr irəli sürülmüşdür.

Z.Qaralovun redaktorluğu ilə Z.Qaralov, N.Quliyev və N.Şişkin tərəfindən hazırlanmış "4-8-ci siniflərdə texniki əmək" adlı metodik vəsaitdə texniki əmək dərslərinin məqsəd və vəzifələri, onların təşkili və keçirilməsi metodikası, həmçinin proqram mövzularının öyrədilməsinə dair praktik tövsiyələr təqdim olunmuşdur. Vəsaitdə emalatxanada aparılan məşğələlərin xüsusiyyətləri, ağac və metal emalı, eləcə də elektrotexniki işlər zamanı bacarıq və vərdişlərin formalaşması qanunauyğunluqları ətraflı şəkildə izah edilir. (Qaralov və s., 1974)

Əlavə olaraq, burada əmək təlimi üçün xarakterik olan tədris metodları və onların tətbiq prinsipləri, emalatxanalarda aparılan tədris prosesinin planlaşdırılması, şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi və uçotu, həmçinin əmək təliminin digər ümumtəhsil fənləri ilə inteqrasiyası məsələləri metodik baxımdan təhlil olunur. Vəsaitdə laboratoriya işlərinin təşkili və aparılma metodikası da xüsusi yer tutur. Xüsusilə, elektrotexniki məşğələlərin təşkili və icra üsulları geniş şəkildə şərh edilmiş, bu sahədə müəllimlərin praktik fəaliyyətinə elmi-metodik dəstək göstərilmişdir.

Məktəbdə fizikanın tədrisinin tarixi göstərir ki, fizika elminin inkişafı və onun tətbiq sahələrinin genişlənməsi məktəb fizika kursunun məzmununa müxtəlif dövrlərdə dəyişikliklər gətirmişdir. Xüsusilə 1969-1970-ci illərdə fizika kursunun məzmununda əhəmiyyətli yeniliklər aparılmışdır. Bu yeniliklərin tətbiqi nəticəsində respublika məktəblərində əldə olunan uğurlar, eləcə də qarşılaşılan çətinliklər və çatışmazlıqlar Z.Qaralov, Azər Abaszadə və V.Ələkbərov tərəfindən hazırlanmış "Fizikanın yeni proqram və dərsliklərlə tədrisi təcrübəsi" adlı vəsaitdə sistemli şəkildə təqdim olunmuşdur. Vəsaitin birinci fəslində "6-7-ci siniflərdə fizika tədrisinin bəzi məsələləri" mövzusu Azər Abaszadə tərəfindən işlənmişdir. Burada 6-7-ci siniflər üçün fizika proqramının məzmunu təhlil edilmiş, dərsliklərin proqram tələblərinə uyğunluğu və hər bir mövzu üzrə şagirdlərə verilməsi nəzərdə tutulan bilik və bacarıqlar ətraflı şəkildə izah edilmişdir. (Qaralov, 1997)

Z.Qaralov fizika təliminin səmərəliliyini artırmaq üçün tədris prosesinin düzgün planlaşdırılmasının vacibliyini vurğulamışdır. Aparılmış araşdırmalar göstərir ki, dərslərdə şagirdlərin fəallığı kifayət qədər təmin olunmur. O, hesab edir ki, təlimin effektliyini yüksəltmək və şagirdlərin bilik və bacarıqlarının keyfiyyətini əsaslı şəkildə yaxşılaşdırmaq məqsədilə müəllim və şagirdlərin dərsdəki fəaliyyətlərinin nisbətini dəyişdirmək zəruridir. Təcrübə göstərir ki, qabaqcıl müəllimlərin tətbiq etdiyi yanaşmada şagirdlərin müstəqil işlərinə dərs vaxtının təxminən 40-45 %-i ayrılır ki, bu da tədrisin məqsədlərinə çatmaq üçün optimal hesab olunur. Təlim metodlarının təcrübədə tətbiqi göstərir ki, şagirdlərin təfəkkürünü inkişaf etdirən, onların biliklərini müstəqil artırmaq bacarığını formalaşdıran, gündəlik yeniliklər və elmi məlumatları qəbul etmə vərdişini təşviq edən tədris elementləri, üsulları və formaları indi daha çox aktualdır.

Z.Qaralov "Fizika qanunlarının tədrisi metodikası" əsərində orta məktəblərdə fizika qanunlarının seçilməsi prinsiplərinə və onların mənimsədilmə imkanlarına diqqət yetirmişdir. O, təhlil etmişdir ki, orta ümumtəhsil məktəblərində fizika kursunun quruluşunu və tədrisin məzmununu müəyyənləşdirən prinsiplər kifayət qədər işlənməmişdir. Z.Qaralov pedaqogikanın, xüsusi metodikaların və fizika metodikasının nailiyyətlərinə, eləcə də görkəmli fiziklərin mütərəqqi fikirlərinə istinad edərək, orta məktəb fizika kursu üçün qanunların seçilməsi və məzmununun müəyyənləşdirilməsi prinsiplərini təklif etmişdir. (Qaralov, 1997)

Alim orta məktəb fizika kursunda 82 fizika qanununun öyrədilməsini məqsədəuyğun hesab etmişdir. Onlardan 59 qanun tam, 23 qanun isə qismən tədris olunmalı idi. Bunun üçün xüsusi cədvəl hazırlanmış, fizikanın müxtəlif bölmələri üzrə mövcud qanunlar və onların orta məktəb kursunda tətbiq imkanları göstərilmişdir.

Z.Qaralov orta məktəbdə fizikanın tədrisi sahəsində bir sıra dəyərli metodik əsərlərin müəllifidir. Onun əsas işləri aşağıdakılardır:

- Fizikanın tədrisi metodikası aktual problemləri üzrə Fizikanın tədrisində politexnik elementlərin aşılanması
- Məktəbdə pedaqoji orientasiya üzrə iş
- Orta məktəbdə fizikanın öyrədilməsi prosesində təlim və tərbiyənin aspektləri
- Fizika tədrisinin səmərəliliyinin artırılması yolları haqqında
- Fizikanın yeni proqram və dərsliklərlə tədrisi təcrübəsi
- Fizika qanunlarının tədrisi metodikası

S.Ş.İmanov 1979-cu ildə dərc etdirdiyi "Təlimin texniki vasitələri (mühazirə materialları)" əsərində şagirdlərin informasiyanı mənimsəməsi prosesini, psixo-fiziki effektləri (binokulyar, binoural, audiovizual, stroboskopik, kinoeffekt) və təlimin texniki vasitələrinin təsnifatını təqdim etmişdir. Vəsaitdə pedaqoji əməyin avtomatlaşdırılma dərəcəsi, təlimin texniki vasitələrinin növləri informasiya vasitələri, idarə vasitələri və tədris kompleksi barədə məlumat verilmişdir. S.Ş.İmanov həmçinin şagirdləri səs yazma və canlandırma texniki vasitələri ilə tanış etmişdir. Təlimin texniki vasitələrinin dinamikliyi, kütləviliyi, mütəhərrikliyi və böyük həcmdə informasiya daşıması onları dərslərdə digər əyani vasitələrlə uzlaşdırmağa imkan verir və şagirdlərin politexnik təlimini yüksək səviyyədə mənimsəməsinə köməklik göstərir. (İmanov, 1987)

Orta məktəblərdə fizikanın tədrisi metodlarının seçilməsinə dair S.Ş.İmanovun "Orta məktəbdə fizikanın tədrisi metodlarının seçilmə prinsipi və təsnifi" adlı dərs vəsaiti diqqətəlayiqdir. Vəsait fizikanın tədrisi metodlarının seçilməsi və təsnifi məsələsinə həsr olunmuş, fəlsəfi, pedaqoji və metodik ədəbiyyatın geniş təhlilinə əsaslanmışdır. İmanov idrak nəzəriyyəsini metodların seçilməsinin əsasına qoymuş, metodları üç qrupa bölmüşdür:

- Şərh metodu (canlı müşahidə)
- Reproduktiv metod (mücərrəd təfəkkür)
- Produktiv metod (praktika)

Bu təsnifat şagirdlərin təfəkkürünü inkişaf etdirmək və praktiki bacarıqlarını formalaşdırmaq məqsədinə xidmət edir.

Azər Abaszadə və Z.Qaralovun "Məktəblinin fizika lüğəti" adlı əsəri 1970-ci illərin fizika kursu proqramına daxil edilmişdir. Vəsaitdə tədris proqramında nəzərdə tutulmuş bir sıra məsələlərin daha düzgün və dərindən öyrənilməsinə imkan verən fiziki kəmiyyətlər, onların ölçü vahidləri, fiziki anlayış və hadisələr, qanun və qanunauyğunluqlar təqdim olunmuşdur. Lüğətdə bir çox məsələlərin həlli həm qısa, həm də aydın şəkildə, elmin son nailiyyətləri əsasında şərh edilərək verilmişdir. Əsərin yazılmasında əsas məqsəd texnikanın əsasını təşkil edən fizikanı məktəblilərə daha yaxşı öyrətmək olmuşdur. Bu vəsaitdən həm orta məktəb şagirdləri, həm ali məktəb tələbələri, həm də fizika müəllimləri və geniş oxucu kütləsi məqsədyönlü şəkildə istifadə edə bilər.

M.Əliyev və A.Məmmədov tərəfindən 1971-ci ildə hazırlanmış iki hissədən ibarət "Fizika məsələləri (həlli ilə)" kitabı fizika tədrisində praktiki məsələlərin öyrədilməsi məqsədinə xidmət etmişdir. Birinci hissə mexanika və molekulyar fizika sahələrinə aid məsələləri əhatə edir. Burada vahidlər sisteminin əməli tətbiqi və inkişafı haqqında tarixi məlumatlar, həmçinin mexanika və molekulyar fizika üzrə istifadə olunan əsas vahidlərin xülasəsi təqdim olunmuşdur. İkinci hissə elektrik, optika və atomun quruluşu ilə bağlı məsələlərin həllinə həsr olunmuşdur. Bu bölmə dərslikdəki çətin məsələlərin öyrənilməsində, sinif və məktəbdənkənar məşğələlərdə, fizika gecələri və viktorinaların keçirilməsində, həmçinin istedadlı şagirdlərin olimpiadaya hazırlanmasında geniş istifadə olunmuşdur. Kitabda həmçinin elektrik, maqnit, optika və atom fizikasında istifadə olunan vahidlər haqqında qısa məlumat verilmiş, dövrün təhsil tələbləri nəzərə alınmışdır. (Əliyev və Məmmədov, 1973)

Ə.Əliyev və Q.Quliyev tərəfindən 1972-ci ildə hazırlanmış "Fizikadan laboratoriya işi" kitabı mexanika və molekulyar fizika sahələrinə aid laboratoriya işlərini əhatə etmişdir. Kitabda laboratoriya işlərinin aparılmasının əhəmiyyəti və qaydaları göstərilmiş, hər bir iş üçün hazırlıq metodikası, qısa nəzəri məlumat, cihazın quruluşu və iş prinsipi ətraflı şərh edilmişdir. Laboratoriya işlərinin təqdimatı qısa və aydın şəkildə işlənmiş, şagirdlərin praktik bacarıqlarının formalaşmasına yönəldilmişdir.

Paşa Paşayev tərəfindən 1972-ci ildə hazırlanmış "Fizika və canlı aləm" adlı metodik vəsaitdə canlı aləmin öyrənilməsində fizikanın rolu, bu sahədə aparılan tədqiqat işlərinin əhəmiyyəti və gələcək perspektivləri qısa şəkildə işıqlandırılmışdır. Vəsait şagirdlərdə fizikaya marağın artırılmasında və elmi dünyagörüşün formalaşmasında mühüm rol oynayır.

Paşa Paşayevin müəllifi olduğu "Həyatın kiçik sirləri" (1976) adlı metodik vəsaitdə biofizikanın bəzi məsələləri, canlı və cansız təbiətin qarşılıqlı əlaqəsi və həyat hadisələrinin öyrənilməsində dəqiq elmlərin rolu sadə və aydın şəkildə izah olunmuşdur. Bu vəsait fizika dərslərini maraqlı qurmaq və şagirdlərdə fizika elminə maraq oyatmaq baxımından müəllimlər üçün əhəmiyyətli bir vasitədir. (Paşayev, 1972)

B.Haqverdiyev və B.Quliyev tərəfindən hazırlanmış "Fiziki effektlər" adlı vəsait pedaqoji institutların tələbələri və fizikanı sərbəst öyrənən şəxslər üçün fizika materialının mənimsənilməsində əhəmiyyətli rol oynamışdır. Kitabda fizika kursunun müxtəlif bölmələrini əhatə edən 67 müxtəlif fiziki effekt izah edilmişdir. Bu effektlər fizikanın öyrənilməsində vacib əhəmiyyət kəsb etməklə, elmi-texniki nailiyyətlərin praktik tətbiqi baxımından da geniş maraq doğurmuş və tətbiq tapmışdır.

A.Mehrabov, V.Qocayev və T.Məhərrəmov tərəfindən hazırlanan "Fizika kursu (ali məktəblərin hazırlıq şöbəsinin dinləyiciləri və abituriyentlər üçün vəsait)" dərs vəsaitində fizika kursunun bütün bölmələri yığcam və sadə dildə şərh edilmişdir. Burada əsasən fiziki qanunların izahı, fiziki təcrübələrin quruluşu və şərhi, vacib fiziki anlayışların mahiyyətinin açılması məsələlərinə geniş yer verilmişdir. Vəsaitdə həmçinin orta məktəb proqramından kənara çıxaraq bəzi mövzuların daha geniş şərhi edilmiş, fizikanın inkişafda olan elm olduğu və materiyanın fiziki mənzərəsinin qanunauyğunluqlarını ardıcıl öyrənməyi vurğulanmışdır.

1991-ci ildə T.Məhərrəmov tərəfindən hazırlanan "Fizikadan suallar və məsələlər (abituriyentlər və hazırlıq şöbəsinin dinləyiciləri üçün dərs vəsaiti)" isə fiziki hadisələrin və qanunların düzgün tətbiqini öyrətməyi məqsəd qoymuşdur. Hər fəslin əvvəlində məsələ həllində istifadə olunacaq fiziki hadisələr və qanunlar qısa şərh edilmiş, fizikanın bütün bölmələrinə aid məsələlər işlənmişdir. (Məhərrəmov, 1991)

Ali məktəblərə qəbul imtahanlarına hazırlaşanlara kömək məqsədilə S.Mənsimov, İ.Əlizadə və Z.Babayev tərəfindən hazırlanmış "Fizika" kitabında mövzuların ardıcıllığı və məzmunu qəbul imtahanlarının proqramına uyğun şərh edilmişdir.

1992-ci ildə S. Abdullayev və L. Əliyev tərəfindən hazırlanmış "Fizika məsələləri (Mexanika)" adlı dərs vəsaiti abituriyentlərin qəbul imtahanlarında fizika məsələlərinin həlli zamanı üzləşdikləri çətinlikləri və Azərbaycan dilində tədris vəsaitlərinin məhdudluğunu nəzərə almaqla tərtib edilmişdir. İki hissədən ibarət olan bu kitabda əvvəlcə məsələlərin mətnləri təqdim olunur, daha sonra isə hər mövzu üzrə sadədən mürəkkəbə doğru on variantda müxtəlif növ tapşırıqlar verilir. Nəşrin ikinci hissəsində məsələlərin cavabları və xüsusilə mürəkkəb hesab olunan tapşırıqların ətraflı, izahlı həlləri yer alır. Ümumilikdə, dərsliyə hesablama, keyfiyyət və qrafik xarakterli 330 məsələ daxil edilmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru M.İ. Murquzov tərəfindən ali məktəblərin bakalavr pilləsi üçün hazırlanmış "Atom fizikası" adlı dərs vəsaiti həm məzmun, həm də struktur baxımından ənənəvi dərsliklərdən əhəmiyyətli dərəcədə fərqlənir. Əsərdə fənnin məzmunu müasir elmi baxışlar əsasında yenilənmiş, ümumiləşdirmələrlə zənginləşdirilmiş və dil sadə, anlaşılan formada təqdim edilmişdir. Müəllif qeyd edir ki, insanın maddi aləmi dərk etmə prosesi tarix boyu makroaləmdən mikroaləmə doğru istiqamətlənmiş və bu yol həm maraqlı, həm də mürəkkəb elmi axtarışlarla müşayiət olunmuşdur. Ənənəvi yanaşmadan fərqli olaraq, M.İ. Murquzov bu dərsliyində tədqiqatın istiqamətini dəyişərək, hadisələrin mikroaləmdən makroaləmə doğru izahını əsaslandırmışdır. Onun fikrincə, bütün makrocisimlər mikrozərrəciklərdən ibarət olduğuna görə, məhz bu zərrəciklərin xassələri makroaləmdə müşahidə olunan fiziki qanunauyğunluqları müəyyən edir. (Murquzov, 2011)

M.Abduləzizov, Ç.Həsənova və T.Vahidovun müəllifliyi ilə 1999-cu ildə hazırlanmış "Orta ümumtəhsil və orta peşə-ixtisas məktəblərində fizikanın tədrisində texnika elementlərinin öyrədilməsi" adlı metodik vəsait fizika fənninin tədrisi ilə məşğul olan orta məktəb və texniki-peşə təhsili müəssisələrinin müəllimləri, eləcə də geniş oxucu auditoriyası üçün dəyərli mənbə hesab olunur. Vəsaitin əsas məzmunu müasir fizikanın müxtəlif tətbiq sahələrini əhatə edir və bu istiqamətdə təqdim olunan məlumatlar həm elmi, həm də praktik baxımdan maraq doğurur.

Fizikanın tədrisi metodikası sahəsində T.S. Vahidovun elmi və pedaqoji fəaliyyətinin mühüm yeri vardır. Onun müəllifliyi ilə hazırlanmış "Avtomatika və radioelektronika xalq təsərrüfatında" (1971), "Fizika tarixindən xronologiya" (1994), "Fiziki əmsallar və sabitlər" (1997), "Fizikanın tədrisində texnika elementləri" (1999), "Avtomatika, telemexanika və radioelektronika xalq təsərrüfatında" (2003), "Elm tarixindən oçerklər" (2006) və "Fizika" (məlumat kitabı, 2006) kimi əsərləri bu sahənin elmi-metodik bazasının formalaşmasında mühüm rol oynamışdır. Bu nəşrlər bu gün də aktual xarakter daşıyır və tədris prosesində geniş istifadə olunur. (Vahidov və s., 2007)

Pedaqogika üzrə elmlər doktoru Vidadi Orucovun fizikanın tədrisi metodikası sahəsində apardığı tədqiqatlar bu istiqamətdə elmi fikrin formalaşması və inkişafında mühüm rol oynamışdır. Alim öz elmi fəaliyyətində fizika fənninin tədrisində tətbiq olunan metodların elmi əsaslarını araşdırmış, bu sahədə mövcud problemlərin həlli yollarını müəyyənləşdirmişdir.

Onun müəllifi olduğu "Fizikanın öyrədilməsi ilə bağlı elmi fikirlərin inkişafı" (2006) adlı əsərində

Azərbaycanda fizika təlimi prosesinin tarixi inkişaf mərhələləri, tədris metodlarının elmi-pedaqoji prinsipləri və bu istiqamətdə aparılmış tədqiqatların nəticələri geniş şəkildə təhlil edilmişdir. Əsərdə, həmçinin, fizika elminin məktəb kursunda öyrədilməsinin nəzəri əsasları, şagirdlərin idrak fəaliyyətinin stimullaşdırılması yolları, fiziki biliklərin formalaşdırılmasında müşahidə, eksperiment və təcrübənin rolu kimi məsələlərə xüsusi diqqət yetirilmişdir. Vidadi Orucov haqlı olaraq qeyd edir ki, fizika təliminde müasir metodik yanaşmaların tətbiqi təkcə elmi biliklərin mənimsənilməsini deyil, həm də təfəkkürün inkişafını və yaradıcı fəaliyyətin formalaşmasını təmin edir. Bu yanaşma tədris prosesinin həm məzmun, həm də forma baxımından keyfiyyətcə yeni mərhələyə keçməsini şərtləndirir.

Alimin digər mühüm əsərlərindən biri olan "Azərbaycanda fizikanın tədrisi metodikasının inkişafı" (2011) adlı dərs vəsaiti, ölkəmizdə bu sahədə formalaşmış elmi-pedaqoji təcrübənin sistemləşdirilməsi və ümumiləşdirilməsi baxımından əhəmiyyətli rol oynamışdır. Əsərdə Sovet dövründə təşəkkül tapmış və inkişaf etmiş metodik yanaşmalarla yanaşı. Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı ilk illərdə fizika fənninin tədrisinə dair aparılmış elmi tədqiqatlar, metodik istiqamətlər və tətbiq olunan pedaqoji prinsiplər ardıcıl və sistemli şəkildə təhlil olunmuşdur. (Orucov, 2011)

Müəllif bu sahədə formalaşmış elmi irsi müqayisəli şəkildə təhlil edərək. Azərbaycanda fizika tədrisinin milli elmi-metodik bazasının təşəkkül mərhələlərini və inkişaf istiqamətlərini elmi əsaslarla ortaya qoymuşdur.

Nəticə

Azərbaycan təhsil tarixində fizika fənninin tədrisi metodikasının inkişafı, xüsusilə XX əsrin əvvəllərindən başlayaraq, elmi-pedaqoji fikir və milli metodik ənənələrin formalaşması ilə sıx bağlı olmuşdur. Sovet hakimiyyətinin qurulması ilə ölkədə elm və təhsilin sistemləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, fizikanın tədrisində müasir elmi tələblərə cavab verən proqram, dərslik və metodik vəsaitlərin hazırlanması təmin edilmişdir. Bu prosesdə Ə.Əbdülzadə, R.Məlikov, B.Mirzəyev, M.Əliyev, M.Abdullayev, V.Orucov və xüsusilə A.A.Abaszadə kimi görkəmli pedaqoqlar və alimlərin əvəzsiz xidmətləri olmuşdur.

Eyni zamanda, Azərbaycan dilində fizika terminologiyasının formalaşması və sistemləşdirilməsi istiqamətində görülən işlər "Fizika terminləri lüğəti"nin hazırlanması, metodik jurnalların nəşri, müəllimlər üçün metodik vəsaitlərin yaradılması milli elmin inkişafında mühüm mərhələ olmuşdur. Beləliklə, Azərbaycanda fizika tədrisinin metodik əsaslarının formalaşması yalnız fənnin inkişaf tarixi deyil, həm də milli təhsil sisteminin elmi-pedaqoji irsinin ayrılmaz tərkib hissəsidir. Bu irs, xüsusilə A.A.Abaszadə və onun davamçılarının fəaliyyəti sayəsində, müasir təlim texnologiyalarının və metodoloji yeniliklərin tətbiqinə möhkəm zəmin yaratmışdır.

Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda fizikanın tədrisi metodikasının inkişafı istiqamətində əldə olunmuş nailiyyətlərin davamlılığı üçün bu sahədə elmi-metodik fəaliyyətin daha da dərinləşdirilməsinə ehtiyac vardır. Bu baxımdan aşağıdakı təkliflərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

1. Fizika fənninin tədrisində metodik yeniliklərin və müasir pedaqoji yanaşmaların tətbiqini təmin etmək məqsədilə ali təhsil müəssisələrində və elmi-tədqiqat institutlarında bu sahəyə həsr olunmuş ixtisaslaşmış tədqiqatların aparılması vacibdir.
2. Görkəmli pedaqoqların fizika tədrisi sahəsindəki elmi irsi müasir dövrün tələblərinə uyğun şəkildə yenidən işlənməli, onların metodik fikirləri yeni nəsil müəllimlər üçün nəzəri və praktik vəsaitlərdə sistemləşdirilməlidir.
3. Fizika müəllimlərinin metodik hazırlığının gücləndirilməsi məqsədilə innovativ tədris texnologiyalarına, laborator eksperimentlərə və rəqəmsal resurslardan istifadəyə əsaslanan ixtisasartırma proqramları hazırlanmalıdır.
4. Ümumtəhsil müəssisələrində fizika fənninin praktiki yönümünü artırmaq üçün müasir laborator avadanlıqlar, simulyasiya proqramları və eksperimental fəaliyyət imkanları genişləndirilməlidir.
5. Şagirdlərin elmi düşüncə və yaradıcı təfəkkürünün inkişafı məqsədilə fizika fənninin tədrisində layihə və tədqiqat əsaslı öyrənmə metodları tətbiq olunmalıdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. www.gumer.info.
2. Abaszadə A.A., Fizikadan tədris materiallarının işləmnməsi barədə metodiki / Müəllimə kömək jurnalı, 1934, №4, s. 40-49.
3. Abaszadə A.A., Fizika tədrisində hərbi texnika elementləri, Bakı: I hissə, 1942, 3-9.
4. Abaszadə A.A., Orta məktəbdə fizika təliminin əsas məsələləri, Azərbaycan Məktəbi jurnalı, 1963, 32-41.
5. Abaszadə A.A., Orta məktəbdə fiziki kəmiyyətlərin hərflərlə ifadəsini qaydaya salmaq haqqında bəzi mülahizələr / Fizika və riyaziyyat tədrisi, 1967, № 2, 5-9.

6. Abaszadə A.A., Onbirillik məktəblərdə neft və qaz yataqları kəşfiyyatının fiziki metodlarının öyrədilməsi metodikasına dair / Politexnik təlim, 1961, № 1, 31-38.
7. Abaszadə A.A., Diferensial təlim və bunun tətbiqi haqqında / Məktəbdə istehsalat təlimi, 1963, № 3, 10-16.
8. Sultanov B.Ş., Xasməmmədov T.Q., Fizikadan maraqlı təcrübələr. Bakı: Uşaqgəncnəşr, 1952, 72.
9. Hacıyev İ.A., Fizikanın tədrisində işlədilən əyani vəsaitlər (Red. K.Köçərli). Bakı: Azərnəşr, 1952, 184.
10. Qaralov Z.İ., Quliyev N.T. və Şişkin N.N., 4-8-ci siniflərdə texniki əmək. Bakı: Maarif, 1974, 192.
11. Qaralov Z.İ., Fizika qanunlarının tədrisi, Bakı, Elm,1997, 307.
12. İmanov S.Ş., Orta məktəbdə fizika tədrisi metodlarının seçilmə prinsipi və təsnifi. Bakı: APİ, 1987, 35.
13. Əliyev M.M., Məmmədov A.M., Fizika məsələləri. (həlli ilə) I hissə (Mexanika və Molekulyar fizika) 1971, 240 s., II hissə. (elektrik, optika, və atomun quruluşu), 1973, 203.
14. Paşayev P.A., Fizika və canlı aləm, Bakı, Azərnəşr, 1972, 94.
15. Məhərrəmov T.M., Fizikadan suallar və məsələlər. (abituriyentlər və hazırlıq şöbəsinin dinləyiciləri üçün dərs vəsaiti) Bakı: Maarif, 1991, 332.
16. Murquzov M.İ., Atom fizikası (Ali təhsil tələbələri üçün dərslik), Bakı, 2011, 428.
17. Vahidov T.S., Vahabov İ.İ., Vahidov A.T., Orta məktəblərdə fizikanın tədrisinin metodoloji əsasları. Bakı: Təhsil, 2007, 144.
18. Orucov V., Azərbaycanda fizikanın tədrisi metodikasının inkişafı, Bakı, 2011, 129

DOİ: 10.32010/CGRP8147

ŞAGİRD TƏLİM PROSESİNİN SUBYEKTİ KİMİ

Elvira Haqverdi KƏRİMOVA
ADPU-nun doktorantı, ADPU-nun müəllimi
ORCİD: 0009-0000-3052-1040
e-poçt: elvira.karimova83@mail.ru

Xülasə: Şagird təhsil prosesinin subyekti kimi müasir pedaqogikada mərkəzi yer tutur, burada diqqət biliyin ötürülməsindən şəxsi inkişafa keçir. Şagird subyekt kimi öyrənmədə fəal iştirak, müstəqillik, təşəbbüs və nəticələrə görə məsuliyyəti nəzərdə tutur. Bu konsepsiya şagirdlərin informasiyanın passiv qəbuledicisi olduğu ənənəvi modeldən tədris prosesinə təsir göstərə bilən fəal iştirakçılar olduğu modelə keçidi əks etdirir.

Şagird subyekt kimi bir neçə aspektdə özünü göstərir. Birincisi, bu, öz müqəddəratını təyin etmək bacarığıdır: şagirdlər öz məqsədlərindən, maraqlarından və öyrənmə ehtiyaclarından xəbərdardırlar. Onlar öz meyllərinə uyğun olan təhsil trayektoriyalarını seçirlər, istər bu, fənlərin dərindən öyrənilməsi, istərsə də layihə əsaslı fəaliyyətlərdə iştirak deməkdir. İkincisi, qərarların qəbulunda müstəqillik, məsələn, tapşırıqların və ya məlumat mənbələrinin yerinə yetirilməsi üsullarını seçərkən. Üçüncüsü, subyekt olmaq düşüncə ilə əlaqələndirilir: şagirdlər öz uğurlarını və səhvlərini təhlil edir, öyrənmə yanaşmalarını düzəldirlər.

Şagird mərkəzli və sərişdə əsaslı öyrənmə kimi müasir təhsil yanaşmaları şagirdin inkişafına kömək edir. Şagirdlər tənqidi düşüncə, yaradıcılıq və komandada işləmək bacarıqlarını inkişaf etdirən tədqiqat və layihə əsaslı fəaliyyətlərlə məşğul olurlar. Məsələn, nümunə tədqiqatları və ya problem əsaslı öyrənmənin istifadəsi şagirdlərə müstəqil şəkildə həll yolları axtarmağa, analitik və sintez bacarıqlarını inkişaf etdirməyə imkan verir.

Bu prosesdə müəllimin rolu dəyişir: onlar rəhbərlik edən, lakin diktə etməyən bir vasitəçi və mentor olurlar. Müəllim təşəbbüskarlıq üçün şərait yaradır, motivasiyanı saxlayır, şagirdlərə öz potensiallarını reallaşdırmağa kömək edir. Təhsil mühiti mühüm rol oynayır: rəqəmsal resurslara, interaktiv platformalara və fənlərarası layihələrə çıxış şagird fəaliyyətini stimullaşdırır.

Beləliklə, şagird təhsil prosesinin subyekti kimi fəal, həvəsli, özünü inkişaf etdirməyə və qərar qəbul etməyə qadir iştirakçıdır. Bu potensialın reallaşdırılması müəllim dəstəyi, çevik təhsil mühiti və fərdi ehtiyacların nəzərə alınmasını tələb edir. Bu subyekt olma hissini inkişaf etdirmək müstəqillik, yaradıcılıq və ömür boyu öyrənmənin qiymətləndirildiyi müasir dünyanın çağırışlarına hazır olan fərdlərin inkişafına təkan verir.

Açar sözlər: müəllim, şagird, təlim, təhsil, öyrənmə, subyekt

---

STUDENT AS A SUBJECT OF THE EDUCATIONAL PROCESS

Elvira Khagverdi KARİMOVA
ADPU Doctoral Candidate, ADPU lecturer

Abbstract: The student as a subject of the educational process occupies a central place in modern pedagogy, where the emphasis is shifting from knowledge transfer to personal development. The student as a subject implies active participation in learning, independence, initiative, and responsibility for results. This concept reflects the shift from the traditional model in which students are passive recipients of information to a model in which they are active participants capable of influencing the educational process.

The student as a subject manifests itself in several aspects. First, it is the ability to determine their own decisions: students are aware of their goals, interests, and learning needs. They choose educational trajectories that match their inclinations, whether it be in-depth study of subjects or participation in project-based activities. Second, it is independence in decision-making, for example, when choosing methods for completing assignments or sources of information. Third, agency is linked to reflection: students analyze their successes and mistakes and adjust their learning approaches.

Modern educational approaches, such as student-centered and competency-based learning, promote student development. Students engage in research and project-based activities that develop critical thinking, creativity, and teamwork skills. For example, the use of case studies or problem-based learning allows students to independently seek solutions and develop analytical and synthetic skills.

In this process, the teacher's role changes: they become a facilitator and mentor who guides but does not dictate. The teacher creates conditions for initiative, maintains motivation, and helps students realize their potential. The educational environment plays a crucial role: access to digital resources, interactive platforms, and interdisciplinary projects stimulates student engagement.

Thus, students become active, engaged participants in the educational process, capable of self-development and decision-making. Realizing this potential requires teacher support, a flexible learning environment, and consideration of

individual needs. Developing this sense of subjectivity fosters the development of individuals prepared to meet the challenges of a modern world where independence, creativity, and lifelong learning are valued.
Keywords: teacher, student, teaching, education, learning, subject

УЧЕНИК КАК СУБЪЕКТ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА

Эльвира Хагверди Каримова
Докторант АДПУ, преподаватель АДПУ

Резюме: Ученик как субъект образовательного процесса занимает центральное место в современной педагогике, где акцент смещается с передачи знаний на развитие личности. Ученик как субъект подразумевает активное участие в обучении, самостоятельность, инициативность и ответственность за результаты. Это понятие отражает переход от традиционной модели, в которой ученики являются пассивными получателями информации, к модели, в которой они являются активными участниками, способными влиять на образовательный процесс.

Ученик как субъект проявляется в нескольких аспектах. Во-первых, это способность определять свои решение: ученики осознают свои цели, интересы и потребности в обучении. Они выбирают образовательные траектории, соответствующие их склонностям, будь то углубленное изучение предметов или участие в проектной деятельности. Во-вторых, самостоятельность в принятии решений, например, при выборе методов выполнения заданий или источников информации. В-третьих, субъектность связана с рефлексией: учащиеся анализируют свои успехи и ошибки, корректируют подходы к обучению.

Современные образовательные подходы, такие как личностно-ориентированное и компетентностное обучение, способствуют развитию учащегося. Учащиеся занимаются исследовательской и проектной деятельностью, развивающей критическое мышление, креативность и навыки командной работы. Например, использование кейсов или проблемного обучения позволяет учащимся самостоятельно искать решения, развивать аналитические и синтетические навыки.

В этом процессе меняется роль учителя: он становится фасилитатором и наставником, который направляет, но не диктует. Учитель создает условия для инициативы, поддерживает мотивацию, помогает учащимся реализовать свой потенциал. Образовательная среда играет важную роль: доступ к цифровым ресурсам, интерактивным платформам и междисциплинарным проектам стимулирует активность учащихся.

Таким образом, учащийся становится активным, увлечённым участником образовательного процесса, способным к саморазвитию и принятию решений. Реализация этого потенциала требует поддержки со стороны учителя, гибкой среды обучения и учёта индивидуальных потребностей. Развитие этого чувства субъективности способствует развитию личности, готовой к решению задач современного мира, где ценятся независимость, креативность и непрерывное обучение.
Ключевые слова: учитель, ученик, преподавание, образование, обучение, субъект

Giriş

Müasir pedaqoji yanaşmalarda təlim prosesinin mərkəzində şagirdin dayanması fundamental prinsip kimi qəbul edilir. Artıq şagird sadəcə bilikləri qəbul edən passiv obyekt deyil, əksinə, öyrənmə prosesində fəal iştirak edən, qərar verən və öyrəndiklərini mənalandıran subyekt kimi dəyərləndirilir. Bu dəyişiklik, təlimin məqsəd, məzmun və metodlarına da ciddi təsir göstərmişdir. Biz bu məqalədə şagirdin təlim prosesində subyekt kimi rolunu analitik şəkildə təhlil etməyi, pedaqoji nəzəriyyələr və praktikalar əsasında bu anlayışın məna və əhəmiyyətini araşdırmağı, eyni zamanda, müəllim-şagird münasibətləri və motivasiya amillərini tədqiq etməyi nəzərdə tutmuşuq.

Təlim prosesində subyekt anlayışı

"Subyekt" anlayışı pedaqogikada insanın idrak prosesində və fəaliyyətlərdə iştirak edən, məqsəd qoyan, qərar qəbul edən və bu qərarların nəticələrinə görə məsuliyyət daşıyan fəal iştirakçı olması kimi başa düşülür. Təlim prosesində şagirdin subyekt kimi tanınması onun bilikləri yalnız mənimsəməsi deyil, eyni zamanda, bu bilikləri yaradıcı şəkildə tətbiq etməsi və mənalandırması ilə əlaqəlidir.

Ənənəvi təlim modellərində şagird, əsasən, passiv obyekt kimi nəzərdən keçirilmişdir: müəllim məlumat verir, şagird isə onu yadda saxlayır. Halbuki müasir konstruktivist pedaqoji yanaşmalar şagirdi öyrənmənin mərkəzinə çəkir və onu fəal subyekt kimi təqdim edir. Bu yanaşmada şagird yalnız informasiyanı qəbul edən deyil, həm də təhlil edən, nəticə çıxaran və bilikləri şəxsi təcrübəsi ilə əlaqələndirən öyrənən kimi çıxış edir.

Psixoloq Vıqotskinin (2002) fikrincə, insan yalnız sosial qarşılıqlı təsir şəraitində inkişaf edə bilər. Onun "yaxın inkişaf zonası" konsepsiyası göstərir ki, şagirdin potensial inkişaf səviyyəsinə

çatması üçün o, fəal subyekt kimi öyrənməyə cəlb olunmalıdır. Bu baxımdan, müəllimin dəstəyi ilə şagirdin aktiv iştirakı təmin olunur.

Müasir təhsil nəzəriyyəçiləri –Con Dyui (2011), Jerom Bruner (2006) və Hovard Qardner (2015) subyektiv öyrənməni, yəni şagirdin aktiv fəaliyyətini təlimin əsas elementi kimi qəbul edirlər. Brunerin "kəşf yolu ilə öyrənmə" modeli şagirdin müstəqil şəkildə məlumat əldə etməsini və bunun üzərində düşünməsini əsas tutaraq onu biliklərin fəal subyekti kimi təqdim edir.

Nəticə etibarilə, təlim prosesində subyekt anlayışı sadəcə fəal iştirakla məhdudlaşmır, bu, həm də şagirdin şəxsi mövqeyini, mənəvi-emosional münasibətini, təşəbbüskarlığını və məsuliyyətini əhatə edir. Şagird öz təliminə cavabdeh olan şəxs kimi yetişməli, təlimin mənasını dərk etməli və bu prosesdə aktiv mövqe tutmalıdır.

Təlim prosesində şagirdin subyekt kimi dəyərləndirilməsi ideyası pedaqoji fikrin inkişaf tarixi ilə sıx bağlıdır. Müxtəlif dövrlərdə pedaqoqların şagirdə verdikləri rol, onların təlim-tərbiyə modelini və metodologiyasını müəyyən etmişdir.

Hələ XVIII əsrdə maarifçilik dövrünün nümayəndəsi Jan-Jak Russo (2004) "Emil və ya tərbiyə haqqında" əsərində təlim prosesində uşağın təbii inkişafına hörmətlə yanaşmağı və onun maraq və ehtiyaclarını nəzərə almağı əsas prinsip kimi qəbul edirdi. Russoya görə, uşaq artıq doğularkən öyrənməyə meyllidir və müəllimin vəzifəsi bu meyli dəstəkləməkdir. Bu yanaşmada şagird passiv obyekt deyil, təbii öyrənmə prosesində iştirak edən subyektdir.

İohann Henrix Pestalossi (2001) də təlimdə şagirdin daxili potensialına önəm verən pedaqoqlardan biri olmuşdur. O, uşağın "ağıl, ürək və əllə", yəni intellektual, emosional və praktik baxımdan inkişaf etdirilməsini vacib hesab edirdi. Bu isə şagirdin təlimdə şəxsiyyət olaraq tanınmasına, onun fəallığının stimullaşdırılmasına yönəlmiş bir yanaşmadır.

XX əsrin əvvəllərində Dyui (2011) təlimi sosial təcrübənin təşkilinə yönəldərək "öyrənmək üçün etmək" prinsipini irəli sürdü. O, öyrənməni şagirdin şəxsi təcrübəsinə və maraqlarına əsaslanan, davamlı olaraq inkişaf edən proses kimi qiymətləndirirdi. Dyui (2011)yə görə, təhsil həyatın özü olmalı və şagirdlər mühitlə qarşılıqlı əlaqədə, problem həll etmə yolu ilə öyrənməlidirlər. Bu baxış şagirdin subyekt mövqeyini, yəni müstəqil qərar verən, problem həll edən və yaradıcı düşünən fərd olmasını əsas götürürdü.

Jerom Bruner isə öyrənmənin strukturlaşdırılmış və kəşf yönümlü şəkildə təşkili ideyasını irəli sürərək, şagirdin bilikləri passiv şəkildə qəbul etməsini deyil, onları kəşf etməsini vacib sayırdı. O, uşaqların təfəkkür səviyyəsinə uyğun tədris metodlarının tətbiqini müdafiə edərək, öyrənmənin fərdiləşdirilmiş şəkildə aparılmasını tələb edirdi.

Sovet pedaqogikasında isə şagirdin subyekt kimi rolu müəyyən mənada məhdudlaşdırılmış, təlim prosesi daha çox ideoloji çərçivədə qurulmuşdur. Lakin Makarenko (2005) və Suxomlinski (1981) kimi pedaqoqlar bu çərçivəni aşaraq şagirdin şəxsiyyətini formalaşdırmaqda onun fəallığını ön plana çəkmişlər. Suxomlinski "şəxsiyyətin tərbiyəsində daxili aləmin, emosional zənginliyin" önəmini vurğulayaraq şagirdin təlim və tərbiyənin mərkəzində dayandığını bildirmişdir. Onların fikrincə, müəllim şagirdin şəxsiyyətini kəşf etməli və onu sosial-mənəvi baxımdan inkişaf etdirməlidir.

XXI əsrdə informasiya cəmiyyətinin tələbləri kontekstində şagirdin subyekt kimi qəbul edilməsi daha da aktuallaşmışdır. Müasir pedaqogika, xüsusilə konstruktivizm, fərdiləşmiş və şəxsiyyətyönümlü təlim modelləri, şagirdin maraq və ehtiyaclarının nəzərə alınmasını, onun öyrənmədə fəal rol oynamasını əsas götürür. Qardnerin (2015) "çoxsaylı zəka" nəzəriyyəsi göstərir ki, şagirdlər fərqli qabiliyyətlərə sahibdirlər və onların bu xüsusiyyətləri nəzərə alınmadan effektiv təlim mümkün deyildir. Bu yanaşma hər bir şagirdi öz potensialına uyğun öyrənmə imkanları ilə təmin etməyi, yəni onların təlimdə subyektliyini reallaşdırmağı hədəfləyir.

Beləliklə, pedaqoji fikrin inkişafında şagirdin subyekt kimi dəyərləndirilməsi ideyası mərhələli şəkildə inkişaf etmiş, ənənəvi obyekt yanaşmasından uzaqlaşaraq müasir fəal, yaradıcı və müstəqil düşünən şagird modelinə doğru irəliləmişdir. Bu, həm təlimin metodikasına, həm də müəllim-şagird münasibətlərinə ciddi şəkildə təsir göstərmişdir.

Təlim prosesində müəllim-şagird-münasibətləri

Təlim prosesində müəllim-şagird münasibətləri öyrənmə mühitinin keyfiyyətini, şagirdin motivasiya səviyyəsini və nəticə etibarilə, onun subyekt kimi formalaşmasını müəyyən edən əsas amillərdəndir. Əgər şagird öyrənməyə maraq göstərirsə, bu, ilk növbədə, müəllimlə onun arasında qurulmuş qarşılıqlı hörmət və etimad münasibətinin nəticəsidir. Müəllimin şagirdi subyekt kimi tanıması, onun fikirlərinə və təşəbbüslərinə dəyər verməsi, təlimin demokratikləşdirilməsinin və fərdiləşməsinin əsas şərtlərindən biridir.

Ənənəvi müəllim mərkəzli modellərdə müəllim əsas bilik daşıyıcısı və qərarverici şəxs, şagird isə

passiv qəbuledici kimi çıxış edirdi. Bu modeldə müəllim-şagird münasibəti daha çox "mən bilirəm – sən öyrən" prinsipinə əsaslanırdı. Halbuki müasir təlim modelləri qarşılıqlı əməkdaşlıq, dialoq və birgə fəaliyyət üzərində qurulur. Braziliyalı pedaqoq Paulo Freire (2004) bu cür ənənəvi münasibətləri "bank təhsil modeli" adlandırırdı. Onun fikrincə, müəllim şagirdə informasiya "yığmaq" əvəzinə, onu düşünməyə, sorğu-sual etməyə və reallığı dəyişməyə təşviq etməlidir. Freirenin (2004) "problemli öyrənmə" yanaşması müəllimlə şagird arasında subyekt-subyekt münasibətini önə çəkir.

Bu kontekstdə müəllim təkcə bilik ötürən deyil, həm də yönəldici, təşkilatçı və dəstəkverici rolunu oynayır. O, təlim prosesində şagirdin fərdi xüsusiyyətlərini, maraq və ehtiyaclarını nəzərə almalı, öyrənməni bu xüsusiyyətlərə uyğun şəkildə təşkil etməlidir. Pedaqoq Suxomlinskinin (1981) fikrincə, müəllim şagirdin ruhuna "toxuna" biləcək qədər onun daxili dünyasını anlamalıdır. Bu yanaşma münasibətlərin empatiya və anlayış üzərində qurulmasının vacibliyini vurğulayır.

Bundan əlavə, şagirdin subyekt kimi formalaşması üçün müəllim tərəfindən ona məsuliyyətli tapşırıqların verilməsi vacibdir. Təlim prosesinə aid qərarların qəbulunda şagirdin iştirakının təmin olunması onun məsuliyyət hissini və təşəbbüskarlığını artırır. Məsələn, dərsin planlaşdırılmasında və ya qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsində şagirdlərin fikirlərinin nəzərə alınması onların prosesə emosional bağlılığını gücləndirir və öyrənməyə maraq oyadır (Əliyev və Məmmədov, 2019).

Tədqiqatlar göstərir ki, müəllimlə şagird arasında əməkdaşlıq xarakterli münasibət, yəni "subyekt–subyekt" modeli, şagirdlərin təlim nailiyyətlərinə, sosial bacarıqlarına və özünütənzimləmə qabiliyyətlərinə müsbət təsir göstərir.

Bu modelin tətbiqində müəllimin aşağıdakı funksiyaları önə çıxır:

– yönəldici – şagirdin öyrənmə fəaliyyətini istiqamətləndirir, amma tam nəzarət etmir;

– moderator – sinif mühitində müxtəlif fikirlərin toqquşmasına, dialoqun qurulmasına şərait yaradır;

– rəhbər və mentor – fərdi dəstək verir, inkişaf yollarını göstərir;

– rəğbətləndirici – şagirdin təşəbbüsünü və yaradıcı fəaliyyətini qiymətləndirir.

Belə münasibətlər müasir təlim texnologiyaları və fəal metodların tətbiqində daha effektiv olur. Problemli təlim, layihə üsulu, tədqiqat yönümlü yanaşmalar və diskussiya formatları müəllimlə şagird arasında qarşılıqlı əməkdaşlıq əlaqəsini təşviq edir. Bu isə təlim prosesində şagirdin subyekt kimi mövqeyini müəyyən edir, yəni öz öyrənməsinə nəzarət etmək, seçim etmək, qərar vermək və məsuliyyət daşımaq kimi qabiliyyətlərini inkişaf etdirir.

Nəticə olaraq, müəllim-şagird münasibətlərinin xarakteri təlim prosesinin mahiyyətini müəyyənləşdirən əsas amilə çevrilir. Subyekt-subyekt münasibətləri təlimi şəxsiyyətyönümlü, mənalı və məqsədyönlü hala gətirir ki, bu da şagirdin təlim prosesində subyekt kimi formalaşmasının təməlidir.

Şagirdin təlim prosesində motivasiya və təşəbbüskarlıq səviyyəsi

Şagirdin təlim prosesində subyekt kimi çıxış edə bilməsi onun daxili motivasiyası və təşəbbüskarlıq səviyyəsindən birbaşa asılıdır. Əgər şagird öyrənmə prosesində maraq göstərirsə, təşəbbüs irəli sürürsə və məsuliyyət daşıyırsa, bu onun subyekt mövqeyinin əsas göstəricisidir. Bu baxımdan, təlimdə motivasiya və təşəbbüskarlıq, sadəcə psixoloji anlayışlar deyil, həm də pedaqoji baxımdan təhlil olunması vacib olan əsas kateqoriyalardır.

Motivasiya – fərdi müəyyən fəaliyyətə sövq edən daxili və ya xarici amillər sistemidir. Şagirdin motivasiyası onun təlim prosesində fəallıq səviyyəsini, davamlılığını və məqsədə çatmaq istəyini formalaşdırır. Müasir pedaqogikada motivasiyanın iki əsas növü fərqləndirilir: daxili və xarici motivasiya.

Daxili motivasiya – şagirdin öyrənməyə olan şəxsi marağından, idrak ehtiyacından, özünü inkişaf etdirmək istəyindən yaranır. Bu halda öyrənmə prosesinin özü onun üçün maraqlıdır.

Xarici motivasiya – daha çox mükafat, cəza, valideyn və ya müəllim gözləntiləri, qiymət alma kimi xarici amillərlə bağlıdır.

Vıqotski (2002) qeyd edirdi ki, öyrənmə sosial kontekstdə baş verir və inkişafı qabaqlayır. Onun "yaxın inkişaf zonası" anlayışı göstərir ki, şagirdin motivasiyası yalnız biliklərin verilməsi ilə deyil, həm də onun həmin bilikləri mənimsəmək üçün cəlb olunduğu fəaliyyətin xarakteri ilə formalaşır. Bu isə müəllimin təqdim etdiyi öyrənmə imkanlarının və təşviqedici mühitin əhəmiyyətini ortaya qoyur.

Dyui (2011) də bu baxımdan öyrənməni "problemin həlli prosesində iştirak" kimi dəyərləndirərək, şagirdin maraqlarını və təcrübəsini öyrənmənin başlanğıc nöqtəsi hesab edirdi. Ona görə, şagirdin motivasiyasını artırmaq üçün ona real

həyatla əlaqəli tapşırıqlar və layihələr təqdim edilməlidir.

Şagirdin təşəbbüskarlığı, onun yeni fikirlər irəli sürmək, qərar vermək və məsuliyyət daşımaq bacarığı ilə əlaqəlidir. Təşəbbüskarlıq təkcə yaradıcı yanaşma və innovasiya deyil, həm də fərdin təlimə marağı, öyrənməyə fərdi məqsədlərlə yanaşmasıdır. Bu isə şagirdin subyekt mövqeyinin ən yüksək ifadələrindən biridir.

Müəllimin rolu burada həlledicidir: müəllim öyrənməyə açıq mühit yaratmalı, şagirdin təşəbbüslərini dəstəkləməli və onu müstəqil fəaliyyətə təşviq etməlidir. Tədqiqat yönümlü təlim, layihə əsaslı öyrənmə, debatlar, yaradıcı yazı və təcrübə əsasında öyrənmə kimi metodlar şagirdin həm motivasiyasını, həm də təşəbbüskarlığını artırır.

Motivasiya və təşəbbüskarlığın inkişafına mənfi təsir göstərən amillər də mövcuddur. Bunlara sərt nəzarət sistemi, təlimin monotonluğu, şagirdin seçim imkanlarının məhdudluğu, qeyri-obyektiv qiymətləndirmə, təlimin real həyatla əlaqəsizliyi və müəllimlə münasibətdə emosional məsafə daxildir. Bu amillər şagirdin öyrənməyə qarşı daxili marağını azaldır və onu passiv rola sürükləyə bilər.

Müasir pedaqoji yanaşmalarda motivasiya və təşəbbüskarlıq bacarıqları XXI əsrin əsas kompetensiyaları sırasında yer alır. Bu xüsusiyyətlərin inkişafı təkcə akademik uğurları deyil, həm də şagirdin şəxsiyyət kimi inkişafını, onun gələcək sosial və peşə həyatı üçün hazırlığını təmin edir.

Nəticə olaraq, şagirdin motivasiya və təşəbbüskarlıq səviyyəsi onun təlim prosesində subyekt kimi formalaşmasının əsas şərtlərindəndir. Bu göstəricilər müəllimin tətbiq etdiyi metodlardan, tədris mühitindən və ümumi pedaqoji yanaşmalardan bilavasitə asılıdır. Buna görə də, təlimdə motivasiyanın artırılması və təşəbbüskarlığın dəstəklənməsi müəllimin əsas pedaqoji strategiyalarından biri olmalıdır.

Şagirdin təlim prosesində iştirakına təsir edən amillər

Şagirdin təlim prosesində subyekt kimi fəal iştirakının təmin edilməsində bir sıra amillər mühüm rol oynayır. Bu amillər fərdi, psixoloji, sosial və pedaqoji səviyyələrdə formalaşır və biri-biri ilə qarşılıqlı əlaqədədir. Onların hər biri şagirdin öyrənməyə olan münasibətinə, təlimdə iştirak formasına və subyekt kimi səviyyəsinə birbaşa təsir edir. Bu bölmədə həmin amillər təhlil ediləcək və onların təlim prosesinə təsir mexanizmləri araşdırılacaq:

Psixoloji amillər

Şagirdin şəxsi xüsusiyyətləri – özünəinam, özünüqiymətləndirmə, təşəbbüskarlıq, emosional vəziyyət və maraqlar onun təlim prosesində fəallığını və subyekt kimi mövqeyini müəyyənləşdirir. Uşaqların fərdi psixoloji tipləri onların öyrənmə tərzinə təsir göstərir. Məsələn, introvert şagirdlər fərdi işlərdə daha fəal ola bilirlər, ekstrovertlər isə qrup fəaliyyətlərində üstünlük göstərirlər.

Psixoloq Levinin (2003) "sahə nəzəriyyəsi"nə görə, fərdin davranışı onun daxili vəziyyəti və ətraf mühitin qarşılıqlı təsiri ilə müəyyən olunur. Təlim prosesində də şagirdin motivasiyası və davranışı onun psixoloji hazırlığı və sinif mühitinin uyğunluğu ilə sıx bağlıdır.

Emosional təhlükəsizlik, dəstək və anlayışın olduğu mühitdə şagirdlər özlərini ifadə etməkdən çəkinmir, təşəbbüs göstərir və təlimə daha aktiv şəkildə qoşulurlar.

Sosial və ailə mühiti

Şagirdin ailəsi və yaxın sosial çevrəsi onun təhsilə münasibətində əhəmiyyətli rol oynayır. Ailədə təhsilə verilən dəyər, valideynlərin öyrənməyə yanaşması və dəstəyi şagirdin təlimdə iştirakına birbaşa təsir edir. Tədqiqatlar göstərir ki, valideynlərin təhsilə olan marağı və uşağa göstərdiyi diqqət onun məktəb mühitindəki fəallığını artırır.

Eyni zamanda, sosial mühit – dost çevrəsi, məktəb atmosferi, müəllimlərin münasibəti – də şagirdin özünü ifadə etməsinə və təlim prosesində iştirakına şərait yaradır. Sosial dəstək almayan və ya neqativ münasibətlə qarşılaşan şagirdlər öyrənmədən uzaqlaşa, passiv mövqe tuta bilərlər.

Təlim strategiyaları və metodları

Şagirdin iştirak səviyyəsini müəyyən edən mühüm amillərdən biri də təlimin necə təşkil olunmasıdır. Əgər təlim yalnız reproduktiv üsullarla aparılırsa, şagirdin iştirak səviyyəsi aşağı ola bilər. Fəal təlim metodları – problem əsaslı öyrənmə, layihələr, tədqiqat tapşırıqları, oyunlar, debatlar və əməkdaşlıq əsaslı iş formaları – şagirdlərin fəallığını artırır və onların subyekt kimi iştirak səviyyəsini gücləndirir.

Konstruktivist pedaqogikada təlimin təşkilinə yanaşma şagirdin öyrənməyə öz təcrübəsi və maraqları ilə daxil olmasını əsas götürür. Belə metodlar yalnız bilik ötürməyə deyil, eyni zamanda bilik quruculuğuna imkan yaradır.

Məktəb mühiti və müəllimin münasibəti

Məktəbdə hökm sürən ümumi psixoloji və pedaqoji atmosfer şagirdin öyrənmə fəallığına böyük təsir göstərir. Əgər məktəb mühiti rəqabətə, sərt nəzarətə və cəza mərkəzli yanaşmaya

əsaslanırsa, şagirdlər özlərini rahat ifadə edə bilmir, təşəbbüs göstərməkdən çəkinirlər.

Müəllimin şagirdə münasibəti – onun fikrinə hörmətlə yanaşması, səhvlərə tolerant münasibəti, bərabər dialoqu təşviq etməsi – şagirdin özünü qiymətli və əhəmiyyətli hiss etməsinə imkan yaradır. Müəllimlər şagirdlərin fərqliliklərini tanıyaraq onların öyrənmə prosesinə fəal şəkildə cəlb olunmasını təmin etməlidirlər.

Qiymətləndirmə sistemi

Qiymətləndirmə təlimin istiqamətini və şagirdin ona münasibətini formalaşdıran güclü bir alətdir. Ənənəvi qiymətləndirmə sistemləri çox zaman şagirdin passiv davranışını təşviq edir. Halbuki formativ (yəni inkişafyönümlü) qiymətləndirmə üsulları – özünüqiymətləndirmə, qarşılıqlı rəy, portfolio əsaslı qiymətləndirmə – şagirdin öyrənməsinə imkan verir. Bu üsullar onun məsuliyyət hissini artırır.

Şagirdin təlim prosesində iştirakı çoxsaylı və qarşılıqlı əlaqədə olan amillərin təsiri ilə formalaşır. Onun psixoloji xüsusiyyətləri, ailə və sosial mühiti, məktəbdəki təlim mühiti və müəllimin münasibəti bu iştirakın səviyyəsini müəyyənləşdirir. Bu amillərin hər biri təlimin şagirdyönümlü və şəxsiyyətyönümlü olmasına xidmət etdikdə, şagird öyrənməyə daha dərin və məqsədyönlü şəkildə qoşulur.

Müasir pedaqogikada şagirdin subyekt kimi dəstəklənməsi yolları

Müasir pedaqoji düşüncə sistemində şagirdin təlim prosesində subyekt kimi rolu daha geniş şəkildə nəzərdən keçirilir. Təhsilin məqsədi təkcə bilik vermək deyil, həm də öyrənməyi öyrətmək, şagirdin təfəkkürünü inkişaf etdirmək, onu sosial, intellektual və emosional baxımdan aktiv, yaradıcı və məsuliyyətli bir şəxsiyyət kimi formalaşdırmaqdır. Bu məqsədə çatmaq üçün müxtəlif pedaqoji yanaşmalar və texnologiyalar vasitəsilə şagirdin subyekt mövqeyi məqsədyönlü şəkildə dəstəklənir:

1. Konstruktivist yanaşmalar

Konstruktivizm müasir təhsilin fəlsəfi və psixoloji əsasını təşkil edən yanaşmalardan biridir. Bu yanaşmaya görə, şagird bilikləri hazır formada qəbul etmir, əksinə, şəxsi təcrübəsi və aktiv fəaliyyəti əsasında bu biliklərə yiyələnir. Bu prosesdə müəllim sadəcə yönəldici və fasilitator rolunu oynayır.

Jerom Brunerin konstruktivist nəzəriyyəsində şagirdin bilikləri kəşf etmə yolu ilə mənimsəməsi ön plandadır. O, şagirdin təlimdə iştirakını artırmaq üçün "spiral kurikulum", "kəşf yolu ilə öyrənmə" kimi modelləri təklif edir. Bu yanaşmalar şagirdin öyrənməyə şəxsi maraqla, düşünərək və seçərək yanaşmasına şərait yaradır.

2. Fərdiləşdirilmiş və şəxsiyyətyönümlü təlim

Fərdiləşdirilmiş təlim yanaşmaları hər bir şagirdin təlimdə öz öyrənmə tərzinə, maraq və ehtiyaclarına uyğun şəkildə iştirakını təmin edir. Qardnerin (2011) "çoxsaylı zəka" nəzəriyyəsinə əsasən, hər bir şagirdin öyrənmə qabiliyyəti və üstünlük verdiyi metod fərqlidir. Bu nəzəriyyəyə əsaslanan təlim strategiyaları müxtəlif zəka tiplərinə uyğun fəaliyyətlərin tətbiqini tələb edir – verbal-linqvistik, məntiqi-riyazi, vizual-məkan, musiqi, bədən-kinestetik və s.

Şəxsiyyətyönümlü təlimin əsas məqsədi şagirdin özünü reallaşdırmasına imkan yaratmaqdır. Bu modeldə müəllim şagirdi bir fərd kimi tanıyır, onun bacarıqlarını inkişaf etdirməyə çalışır və ona öyrənməyə sahib çıxmaq imkanı yaradır. Karl Rocersin (2008) humanist pedaqogikası bu yanaşmanın nəzəri əsasını təşkil edir. Onun fikrincə, "şəxsiyyətin inkişafı üçün şərait yaradıldıqda öyrənmə baş verir".

3. Rəqəmsal texnologiyaların tətbiqi

XXI əsrdə informasiya texnologiyalarının təhsilə inteqrasiyası şagirdin təlim prosesinin subyekti kimi dəstəklənməsində mühüm vasitəyə çevrilmişdir. Elektron resurslar, interaktiv platformalar, fərdiləşdirilmiş öyrənmə alətləri və rəqəmsal qiymətləndirmə sistemləri şagirdlərin təlimdə daha fəal iştirakını təmin edir.

Onlayn forumlar, interaktiv tapşırıqlar, video dərslər və simulyasiya proqramları şagirdə öz öyrənmə tempini və strategiyasını müəyyən etməyə şərait yaradır. Bu cür mühitlərdə şagird müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirir, öz fəaliyyətinə cavabdeh olur və nəticə olaraq təlimdə subyektə çevrilir.

4. Əməkdaşlıq əsaslı təlim metodları

Əməkdaşlıq əsaslı təlim modelləri – qrup işi, layihə əsaslı öyrənmə, tədqiqat yönümlü təlim və sosial oyunlar – şagirdlərin biri-biri ilə qarşılıqlı əlaqə quraraq öyrənməsini təşviq edir. Bu metodlar həm sosial bacarıqları, həm də şagirdin subyekt mövqeyinə əsaslanan qərarvermə, fikir bildirmə, məsuliyyət daşıma və təşəbbüskarlıq kimi keyfiyyətləri inkişaf etdirir.

Məsələn, layihə əsaslı təlim şagirdlərə real problemləri həll etmək, məlumat toplamaq, strukturlaşdırmaq və nəticə çıxarmaq imkanı verir. Bu isə onların tənqidi və yaradıcı təfəkkürünü, eləcə də kollektiv fəaliyyətə məsuliyyətli yanaşmalarını inkişaf etdirir.

5. Refleksiya və özünüqiymətləndirmə imkanları

Şagirdin öz öyrənməsini təhlil edə bilməsi, güclü və zəif tərəflərini dəyərləndirməsi və fəaliyyətinə

tənqidi yanaşması onun subyekt kimi səviyyəsinin mühüm göstəricisidir. Bu bacarıqlar reflektiv düşüncənin inkişafı ilə formalaşır. Müəllim reflektiv tapşırıqlar, gündəliklər, "nə öyrəndim?", "nəyi yaxşı bacardım?", "nəyi inkişaf etdirməliyəm?" kimi suallarla şagirdin öz öyrənmə fəaliyyətini qurmasına imkan yaradır (Quliyev, 2020).

Refleksiya ilə yanaşı, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə vasitələri də şagirdin öyrənməyə sahib çıxmasını, nəticəyə görə məsuliyyət daşımasını təmin edir. Bu da onun təlim prosesində subyekt kimi çıxış etməsini dəstəkləyən vacib mexanizmdir.

Müasir pedaqoji yanaşmalar və metodlar, təlimdə şagirdin subyekt kimi formalaşması və möhkəmləndirilməsinə yönəlmişdir. Konstruktivist təlim, fərdiləşdirilmiş öyrənmə, rəqəmsal resursların tətbiqi və əməkdaşlıq əsaslı fəaliyyətlər şagirdin öyrənməyə aktiv və məsuliyyətli şəkildə qoşulmasını təmin edir. Bu isə XXI əsr təhsilində əsas hədəflərdən biri olan fəal, tənqidi düşünən və öyrənməyi bacaran şəxsiyyətin formalaşmasına xidmət edir.

Metod

Bu tədqiqat nəzəri-təhlil xarakterli olmuş, müasir pedaqoji yanaşmaların və klassik pedaqoji irsin müqayisəli analizi əsasında aparılmışdır. Tədqiqatın məqsədi şagirdin təlim prosesində subyekt kimi rolunu aşkar etmək, onun formalaşmasına təsir edən amilləri və dəstək mexanizmlərini müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatın aparılmasında analitik və müqayisəli təhlil, tarixi-metodoloji yanaşma, sistemli yanaşma, məzmun təhlili empirik müşahidə və praktik ümumiləşdirmə aparılmışdır.

Analitik və müqayisəli təhlil metodu kimi Russo (2004), Pestalossi (2001), Dyui (2011), Bruner (2006), Qardner (2015), Vıqotski (2002), Suxomlinski (1981) və digər pedaqoqların nəzəri baxışları araşdırılmış, onların müasir pedaqogikadakı konstruktivist və şəxsiyyətyönümlü təlim prinsipləri ilə müqayisəli təhlili aparılmışdır. Tarixi-metodoloji yanaşma ilə şagirdin subyekt kimi dəyərləndirilməsi ideyasının XVIII əsr maarifçilik dövründən XXI əsrin rəqəmsal təhsil mühitinə qədər keçdiyi inkişaf mərhələləri sistemləşdirilmişdir. Sistemli yanaşma metodundan istifadə edərək müəllim, şagird və təlim mühitinin qarşılıqlı əlaqəsi bir vahid pedaqoji sistem kimi nəzərdən keçirilmiş, bu sistemin struktur elementlərinin (motivasiya, təşəbbüskarlıq, mühit, münasibətlər) funksional asılılıqları təhlil edilmişdir. Məzmun təhlili metodu ilə müasir pedaqoji ədəbiyyat, təhsil siyasəti sənədləri (xüsusilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Ümumtəhsil məktəbləri üçün kurikulum konsepsiyası", 2013) və UNESCO-nun "Learning to Be" hesabatı araşdırılaraq şagirdin subyektliyinin beynəlxalq kontekstdə təzahür formaları müəyyən edilmişdir. Empirik müşahidə və praktik ümumiləşdirmə apararaq müəllim-şagird münasibətləri, motivasiya və təşəbbüskarlığın formalaşmasına dair təlim təcrübəsindən nümunələr ümumiləşdirilmiş, onların pedaqoji mənası izah olunmuşdur.

Analiz prosesi zamanı subyekt-subyekt münasibətlərinin formalaşmasında motivasiya, təşəbbüskarlıq və refleksiya kimi amillərin rolu nəzəri baxımdan əsaslandırılmışdır.

Beləliklə, metodoloji əsas kimi pedaqogikanın müasir elmi istiqamətləri və klassik müəlliflərin konsepsiyaları sintez edilmiş, nəticədə şagirdin təlim prosesində subyekt kimi formalaşmasının pedaqoji mexanizmləri müəyyən edilmişdir.

Nəticə

Şagirdin təlim prosesində subyekt kimi çıxış etməsi müasir pedaqoji düşüncənin əsas istiqamətlərindəndir. Şəxsiyyətyönümlü, fərdiləşdirilmiş və konstruktivist yanaşmalar şagirdin öyrənməyə fəal şəkildə qoşulmasını, təşəbbüs göstərməsini və məsuliyyət daşımasını dəstəkləyir. Müəllim-şagird münasibətlərində qarşılıqlı hörmət, demokratik mühit və əməkdaşlıq prinsipləri subyektliyin formalaşmasında mühüm rol oynayır. Təlim strategiyalarının məqsədyönlü təşkili, motivasiya və refleksiya imkanlarının yaradılması şagirdin təlim prosesinin subyektinə çevrilməsini təmin edir. Nəticə etibarilə, bu yanaşmalar təkcə bilik deyil, həm də şəxsiyyət formalaşdırmağa yönəlmiş təhsilin əsasını təşkil edir.

ƏDƏBIYYAT SİYAHISI:

1. Bruner, C. (2006). Təlimin prosesləri. Bakı: Təhsil nəşriyyatı.
2. Dyui, C. (2011). Təhsil fəlsəfəsi. Bakı: Təhsil.
3. Freire, P. (2004). Məzlumların pedaqogikası. Bakı: Elm və təhsil.
4. Gardner, H. (2015). Zəkanın strukturu: çoxsaylı zəka nəzəriyyəsi. Bakı: Qanun nəşriyyatı.
5. Levin, K. (2003). Sosial psixologiya və inkişaf. Moskva: Pedagogika (rus dilindən tərcümə).
6. Makarenko, A.S. (2005). Valideynlər üçün kitab. Bakı: Maarif nəşriyyatı.
7. Pestalossi, İ.H. (2001). İnsan təlim və tərbiyənin məhsuludur. Bakı: Nurlan nəşriyyatı.

8. Rocers, K. (2008). Öyrənməyə yönəlik yanaşmalar. Bakı: Təhsil.

9. Russo, J.J. (2004). Emil və ya tərbiyə haqqında. Bakı: Elm nəşriyyatı.

10. Suxomlinski, V.A. (1981). Ürəyimi uşaqlara verirəm. Bakı: Maarif.

11. Vıqotski, L.S. (2002). Uşağın psixoloji inkişafı və təlim. Bakı: Elm nəşriyyatı.

12. Azərbaycan Respublikası Təhsil Nazirliyi (2013). Ümumtəhsil məktəbləri üçün kurikulum konsepsiyası. Bakı: Təhsil.

13. Əliyev, H., & Məmmədov, M. (2019). Müasir pedaqogikanın əsasları. Bakı: Təhsil.

14. Quliyev, R. (2020). “Təlim prosesində şagirdin fəallığının artırılması yolları”. Azərbaycan məktəbi, №4, s. 25–31.

15. UNESCO. (2020). Learning to Be: Report of the International Commission on the Development of Education. https://unesdoc.unesco.org

DOİ: 10.32010/WPMY9081

TƏHSİL SİSTEMİ İŞTİRAKÇILARININ SOSİAL RİFAHI VƏ PSİXOSOSİAL DƏSTƏYİN ROLU

Gültəkin Yusib KNYAZOVA
Mingəçevir Dövlət Universtetinin Pedaqogika və Psixologiya kafedrası
E-mail: Yusifligultekin28@gmail.com

Xülasə: Müasir təhsil sistemi yalnız bilik ötürmək funksiyasını daşımır; o, öyrənənlərin və öyrədənlərin sosial rifahını təmin edən, inkişaf etdirən və qoruyan kompleks mühit yaratmalıdır. Sosial rifah iqtisadi, psixoloji, sosial və mədəni komponentləri əhatə edir və təhsil iştirakçılarının motivasiyası, akademik nəticələri, iş məmnuniyyəti, sosial inteqrasiyası və ümumi həyat keyfiyyətinə birbaşa təsir göstərir. Təhsil sistemi həm sosial rifahın nəticəsi, həm də təminatçısı kimi çıxış edir; yüksək səviyyəli sosial rifah təhsil keyfiyyətini yüksəldir, aşağı rifah isə motivasiya, iştirak və akademik uğurların azalmasına səbəb olur.

Öyrənənlərin sosial rifahı akademik nailiyyətlər, emosional stabillik, sosial münasibətlər, maddi dəstək və gələcək perspektivlərlə ölçülür. Psixososial rifahı yüksək olan şagird və tələbələr dərsə daha aktiv qatılır, sosial bacarıqları inkişaf edir və təhsildən məmnunluq göstərir. Müəllimlərin sosial rifahı isə peşəkar inkişaf, maddi təminat, psixoloji stabillik və sosial münasibətlərlə bağlıdır. Sosial rifahın təmin olunmaması müəllimlərdə tükənmə, motivasiya azalması və iş məmnuniyyətinin aşağı düşməsinə gətirib çıxarır.

Psixososial dəstək öyrənənlər və müəllimlər üçün əsas vasitədir və onların emosional stabilliyini qoruyur, sosial bacarıqlarını inkişaf etdirir, akademik və peşəkar fəaliyyətini gücləndirir. Bu dəstək fərdi və qrup konsultasiyaları, peer-to-peer proqramlar, rəqəmsal platformalar, sosial və fəaliyyət əsaslı layihələr vasitəsilə həyata keçirilir. Nəzəri əsaslar arasında Maslow-un ehtiyaclar iyerarxiyası, Vıqotskinin sosial-mədəni nəzəriyyəsi, Eriksonun psixososial inkişaf nəzəriyyəsi və kognitiv-davranışçı yanaşmalar yer alır.

Azərbaycan təcrübəsi göstərir ki, mövcud proqramlar müəyyən uğurlar qazansa da, resurs, kadr və infrastruktur çatışmazlığı problemləri hələ də qalır. Gələcəkdə rəqəmsal texnologiyalar, inklüziv təhsil, ictimai iştirakçılıq, mentorluq və davamlı monitorinq sosial rifahın səmərəli təmin olunmasına imkan yaradacaq. Bu yanaşmalar təhsil keyfiyyətini yüksəldir, müəllim və öyrənənlərin həyat keyfiyyətini artırır və inklüziv, dayanıqlı və inkişaf yönümlü təhsil sisteminin formalaşmasına xidmət edir.

Açar sözlər: sosial rifah, psixososial dəstək, təhsil sistemi, öyrənənlər, müəllimlər, inklüziv təhsil, emosional stabillik, akademik nəticələr, mentorluq, rəqəmsal texnologiyalar, sosial inteqrasiya, dayanıqlı inkişaf.

SOCİAL WELL-BEİNG OF PARTİCİPANTS İN THE EDUCATİON SYSTEM AND THE ROLE OF PSYCHOSOCİAL SUPPORT

Gultekin Yusib KNYAZOVA
Department of Pedagogy and Psychology, Mingachevir State University
E-mail: Yusifligultekin28@gmail.com

Abstract: The contemporary education system transcends the mere transmission of knowledge, serving as a comprehensive environment that promotes, safeguards, and enhances the social well-being of both learners and educators. Social well-being is a multidimensional construct encompassing economic, psychological, social, and cultural dimensions, and it directly influences participants' motivation, academic outcomes, job satisfaction, social integration, and overall quality of life. The education system functions both as a product and a determinant of social well-being; high levels of social well-being contribute to improved educational quality, whereas deficits in well-being are associated with reduced engagement, lower motivation, and diminished academic performance.

For learners, social well-being is reflected in academic achievement, emotional stability, social relationships, financial support, and future career prospects. Learners with strong psychosocial well-being demonstrate higher engagement, enhanced social competencies, and greater satisfaction with their educational experience. For educators, social well-being encompasses professional development, adequate financial compensation, psychological stability, and constructive social interactions. Inadequate social well-being among educators may lead to burnout, decreased motivation, and reduced job satisfaction, which in turn adversely affects learning outcomes and overall institutional performance.

Psychosocial support is a critical mechanism for fostering the well-being of both learners and educators, enhancing emotional resilience, social skills, and academic and professional effectiveness. Effective support strategies include individual and group counseling, peer-to-peer mentoring, digital platforms, and activity-based or community-oriented interventions. The theoretical underpinnings of such initiatives draw on Maslow's hierarchy of needs, Vygotsky's socio-cultural theory, Erikson's psychosocial development model, and cognitive-behavioral approaches.

Evidence from Azerbaijan indicates that while existing programs have achieved measurable successes, challenges persist due to limited resources, insufficient professional personnel, and inadequate infrastructure. Future initiatives emphasizing digital tools, inclusive education, community engagement, mentorship, and continuous monitoring are expected to enhance the effectiveness of psychosocial support, elevate educational quality, and improve the overall life satisfaction of both educators and learners. These approaches contribute to the development of an inclusive, sustainable, and development-oriented education system.
Keywords: social well-being, psychosocial support, education system, learners, educators, inclusive education, emotional resilience, academic achievement, mentorship, digital technologies, social integration, sustainable development.

СОЦИАЛЬНОЕ БЛАГОПОЛУЧИЕ УЧАСТНИКОВ СИСТЕМЫ ОБРАЗОВАНИЯ И РОЛЬ ПСИХОСОЦИАЛЬНОЙ ПОДДЕРЖКИ

Гюльтекин Юсиб КНЯЗОВА
Кафедра Педагогики и психологии,
Мингячевирский государственный университет
Электронная почта: Yusifligultekin28@gmail.com

Резюме: Современная система образования выходит за рамки простой передачи знаний, создавая комплексную среду, способствующую, защищающую и развивающую социальное благополучие как обучающихся, так и педагогов. Социальное благополучие представляет собой многомерную концепцию, включающую экономические, психологические, социальные и культурные аспекты, и напрямую влияет на мотивацию участников, академические результаты, удовлетворённость работой, социальную интеграцию и общее качество жизни. Система образования является одновременно результатом и фактором социального благополучия: высокий уровень благополучия способствует улучшению качества образования, тогда как его дефицит связан с низкой вовлечённостью, снижением мотивации и уменьшением учебных достижений.

Для обучающихся социальное благополучие проявляется через академические успехи, эмоциональную стабильность, социальные связи, материальную поддержку и перспективы карьерного развития. Лица с высоким психосоциальным благополучием проявляют большую вовлечённость в учебный процесс, развивают социальные компетенции и демонстрируют удовлетворённость образовательным опытом. Для педагогов социальное благополучие включает профессиональное развитие, адекватное материальное обеспечение, психологическую устойчивость и конструктивные социальные взаимодействия. Недостаток социального благополучия у преподавателей может приводить к эмоциональному выгоранию, снижению мотивации и неудовлетворённости работой, что негативно сказывается на образовательных результатах и общей эффективности учреждения.

Психосоциальная поддержка является ключевым механизмом для обеспечения благополучия обучающихся и педагогов, способствуя развитию эмоциональной устойчивости, социальных навыков, а также академической и профессиональной эффективности. Эффективные стратегии поддержки включают индивидуальное и групповое консультирование, программы наставничества peer-to-peer, цифровые платформы, а также социально-активные и общественно-ориентированные инициативы. Теоретические основы таких подходов включают иерархию потребностей Маслоу, социокультурную теорию Выготского, психосоциальную модель развития Эриксона и когнитивно-поведенческие подходы.

Опыт Азербайджана показывает, что существующие программы достигают определённых успехов, однако сохраняются проблемы, связанные с ограниченными ресурсами, недостатком квалифицированного персонала и инфраструктуры. Будущие инициативы, ориентированные на цифровые технологии, инклюзивное образование, вовлечение общества, наставничество и постоянный мониторинг, позволят повысить эффективность психосоциальной поддержки, улучшить качество образования и повысить общий уровень жизни педагогов и обучающихся. Эти подходы способствуют формированию инклюзивной, устойчивой и ориентированной на развитие системы образования.
Ключевые слова: социальное благополучие, психосоциальная поддержка, система образования, обучающиеся, педагоги, инклюзивное образование, эмоциональная устойчивость, академические достижения, наставничество, цифровые технологии, социальная интеграция, устойчивое развитие.

Giriş

Müasir dünyada sosial rifah anlayışı cəmiyyətlərin davamlı inkişafı və insanların həyat keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Sosial rifah yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır, o həm də insanların sağlamlığı, sosial müdafiəsi, mədəni inkişafı, təhsil imkanları və psixososial dəstəyi ilə bağlıdır. Xüsusilə təhsil sistemi iştirakçılarının – öyrənənlərin (şagird və tələbələrin) və öyrədənlərin (müəllimlərin, pedaqoqların) sosial rifahı cəmiyyətin gələcək inkişaf perspektivləri üçün əvəzolunmaz əhəmiyyət daşıyır(UNICEF, 2020).

Təhsil sistemi yalnız bilik ötürən bir struktur deyil, həm də sosiallaşma, şəxsiyyətin formalaşması, dəyərlərin və davranış modellərinin mənimsənilməsi prosesidir. Bu baxımdan təhsil mühitində yaranan psixososial faktorlar – stress, motivasiya, münasibətlər, sosial dəstək mexanizmləri – həm öyrənənlərin, həm də öyrədənlərin rifahına birbaşa təsir göstərir.

Dünya təcrübəsi göstərir ki, təhsil iştirakçılarının psixososial dəstəyə ehtiyacı olduqda, dövlət və cəmiyyət bu ehtiyacları qarşılamaq üçün xüsusi proqramlar həyata keçirir. Psixososial dəstək həm emosional dayanıqlığın gücləndirilməsini, həm də akademik və peşə fəaliyyətində uğurların artırılmasını hədəfləyir. Azərbaycanda da bu sahədə müəyyən layihələr və təşəbbüslər mövcuddur, lakin mövcud problemlərin həlli üçün daha genişmiqyaslı yanaşmalara ehtiyac duyulur (Azərbaycan Respublikasının Təhsil Nazirliyi, 2022).

Bu məqalənin məqsədi sosial rifah anlayışının təhsil sistemi kontekstində izahı, öyrənən və öyrədənlərin sosial rifahının təmin olunmasında psixososial dəstəyin rolu və əhəmiyyətini elmi əsaslarla araşdırmaqdır.

Nəzəriyyə

1.Sosial rifah anlayışının mahiyyəti

Sosial rifah cəmiyyətin üzvlərinin həyat keyfiyyətini yaxşılaşdırmaq, onların əsas sosial ehtiyaclarını qarşılamaq və sosial bərabərliyi təmin etmək məqsədi daşıyan kompleks bir anlayışdır (Coleman, 1988). Bu anlayışa yalnız maddi təminat (məsələn, gəlir, yaşayış yeri, sağlamlıq xidməti) daxil deyil, həm də psixoloji, mədəni və sosial dəstək faktorları daxildir. Yəni, sosial rifah insanın yalnız iqtisadi yox, həm də mənəvi, sosial və emosional ehtiyaclarını qarşılamağa yönəlmiş bir sistemdir.

Müasir dövrdə sosial rifah dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi qəbul edilir. Çünki rifah səviyyəsi yüksək olan cəmiyyətlərdə sosial sabitlik, iqtisadi inkişaf və insan potensialının daha səmərəli istifadəsi mümkündür. Təhsil sistemi isə bu rifahın formalaşdırılmasında xüsusi rol oynayır.

Təhsil sistemi sosial rifahın həm nəticəsi, həm də təminatçısıdır. Bir tərəfdən, təhsil iştirakçılarının – şagirdlərin, tələbələrin və müəllimlərin – sosial rifahı təhsil prosesinin keyfiyyətinə təsir edir. Digər tərəfdən, təhsilin yüksək səviyyədə təşkili uzunmüddətli dövrdə cəmiyyətin ümumi sosial rifahını yüksəldir.

Əgər təhsil mühitində sosial rifah təmin olunmursa, öyrənənlərdə motivasiya azalır, öyrədənlərdə isə iş məmnuniyyəti zəifləyir. Bunun nəticəsində təhsil keyfiyyəti aşağı düşür, cəmiyyətdə sosial problemlər artır. Əksinə, sosial rifahın gücləndirildiyi təhsil mühitində öyrənənlər daha uğurlu nəticələr əldə edir, öyrədənlər isə öz fəaliyyətlərində daha yaradıcı və səmərəli olurlar.

Təhsil sistemi kontekstində sosial rifahın müəyyən göstəriciləri vardır:

1. Maddi təminat – təhsilalanların və təhsil verənlərin maddi ehtiyaclarının qarşılanması, təqaüd, əməkhaqqı və digər sosial dəstək vasitələri.
2. Psixoloji rifah – stressin azaldılması, emosional sabitlik və şəxsi inkişaf imkanları.
3. Sosial dəstək – məktəb və universitet daxilində sağlam münasibətlərin qurulması, valideyn-müəllim-şagird əməkdaşlığı.
4. Təhsil mühitinin keyfiyyəti – təhlükəsiz və inklüziv tədris şəraiti, müasir texnologiyalara çıxış imkanı.
5. Peşəkar inkişaf – müəllimlərin davamlı təhsil imkanları, tələbələrin gələcək karyera dəstəyi.

Tədqiqatlar göstərir ki, sosial rifahın təmin edildiyi təhsil mühitində:

Öyrənənlərin dərs nailiyyətləri yüksəlir;

Davranış pozuntuları azalır;

Məktəb tərk etmə halları minimuma enir;

Müəllimlərin iş motivasiyası və peşə məmnuniyyəti artır;

Təhsilalanların sosial bacarıqları (əməkdaşlıq, empatiya, liderlik) inkişaf edir.

Bütün bunlar sübut edir ki, sosial rifah yalnız sosial siyasətin predmeti deyil, həm də təhsil sisteminin uğurla fəaliyyət göstərməsi üçün zəruri şərtdir.

2.Təhsil sistemi iştirakçılarının (öyrənən və öyrədənlərin) sosial rifahı

Təhsil sistemi iki əsas iştirakçı qrupu üzərində qurulur:

1. Öyrənənlər (şagirdlər, tələbələr)
2. Öyrədənlər (müəllimlər, təlimçilər, akademik heyət)

Onların hər birinin sosial rifahı bir-biri ilə qarşılıqlı şəkildə bağlıdır (Maslow, 1943). Yəni, müəllimin psixososial rifahı öyrənənin nailiyyətinə təsir etdiyi kimi, öyrənənin rifahı da müəllimin motivasiyasına və pedaqoji fəaliyyətinə təsir göstərir.

Məktəb və universitetlərdə təhsil alanların sosial rifahı onların həm tədris mühitindəki, həm də şəxsi həyatdakı balansı ilə müəyyən edilir. Buraya aşağıdakı komponentlər daxildir:

Akademik rifah – öyrənənin öz potensialını reallaşdıra bilməsi, uğurlu nəticələr qazanması.

Emosional rifah – stressin idarə olunması, özünü təhlükəsiz və qəbul edilmiş hiss etməsi.

Sosial münasibətlər – dostluq, əməkdaşlıq və sosial dəstək imkanları.

Maddi dəstək – təqaüdlər, sosial yardımlar, təhsil xərclərinin qarşılanması.

Gələcək perspektivlər – karyera dəstəyi, peşə yönümlü təlimlər.

Araşdırmalar göstərir ki, psixososial rifahı yüksək olan öyrənənlər dərsə daha aktiv qoşulur, sosial bacarıqları inkişaf edir və təhsildən zövq alırlar. Əks halda isə motivasiya azalır, məktəb tərk etmə riski artır.

Müəllim və akademik heyətin rifahı təhsil sisteminin davamlı inkişafı üçün strateji əhəmiyyət kəsb edir. Müəllimlərin sosial rifahı aşağıdakı istiqamətlərdə qiymətləndirilir:

Peşəkar rifah – müəllimin öz peşə bacarıqlarını inkişaf etdirməsi, təlimlərdə iştirak imkanları.

Maddi rifah – əməkhaqqının adekvat olması, sosial təminatlar.

Psixoloji rifah – iş stressinin idarə olunması, emosional tükənmənin qarşısının alınması.

Sosial münasibətlər – kollektivdə sağlam əməkdaşlıq, valideynlərlə və cəmiyyətlə qarşılıqlı hörmətə əsaslanan əlaqələr.

Cəmiyyətin dəyəri – müəllim peşəsinin nüfuzlu və hörmətli sayılması, ictimai dəstək.

Əgər müəllimlərin sosial rifahı təmin edilməzsə, onlar emosional tükənmə (burnout), işdən uzaqlaşma və peşəyə marağın azalması ilə üzləşirlər. Bu isə birbaşa öyrənənlərin təhsil keyfiyyətinə mənfi təsir edir.

Təhsil sistemi iştirakçılarının sosial rifahını təmin etmək üçün psixososial dəstək mexanizmləri xüsusi əhəmiyyət daşıyır. Buraya daxildir:

1. Məktəb və universitet psixoloqlarının fəaliyyəti;
2. Sosial işçilərin təhsil sisteminə inteqrasiyası;
3. Stressin idarə olunması və emosional dəstək proqramları;
4. İctimai iştirakçılıq – valideynlərin və yerli icmaların təhsilə dəstəyi;
5. Sağlamlıq xidmətlərinə çıxış (psixi sağlamlıq, qidalanma, idman imkanları).

Bu yanaşma təhsil sistemində daha sağlam, təhlükəsiz və məhsuldar mühitin yaradılmasına xidmət edir.

3.Təhsil mühitində psixososial dəstəyin nəzəri əsasları

Psixososial dəstək insanın həm psixoloji, həm də sosial ehtiyaclarının qarşılanmasına yönəlmiş kompleks bir yanaşmadır. Bu dəstək yalnız fərdin emosional vəziyyətini yaxşılaşdırmır, həm də onun sosial münasibətlərini, akademik fəaliyyətini və şəxsi inkişafını gücləndirir. Təhsil mühitində psixososial dəstəyin məqsədi öyrənənlərin və öyrədənlərin emosional sabitliyini qorumaq, sosial münasibətlərdə sağlamlıq yaratmaq və ümumi rifah səviyyəsini yüksəltməkdir.

Psixososial dəstək bir sıra psixoloji nəzəriyyələrə əsaslanır (Maslow, 1943; Vygotsky, 1978; Erikson, 1950; Bandura, 1977):

1. Maslounun ehtiyaclar iyerarxiyası;

Təhsil alanın öyrənməyə motivasiyası yalnız əsas ehtiyaclar (qida, təhlükəsizlik, sevgi və qəbul olunma) qarşılandıqdan sonra formalaşır. Psixososial dəstək bu ehtiyacların təmin olunmasına şərait yaradır.

2. Vıqotskinin sosial-mədəni nəzəriyyəsi;

Öyrənmə prosesi sosial mühitdə, başqaları ilə qarşılıqlı əlaqədə baş verir. Bu baxımdan, sosial dəstək və müəllim-şagird əməkdaşlığı öyrənənin inkişafı üçün mühümdür.

3. Eriksonun psixososial inkişaf nəzəriyyəsi;

Fərdin müxtəlif yaş mərhələlərində psixososial böhranlardan keçməsi zəruridir. Təhsil mühitində verilən dəstək bu böhranların müsbət həllinə yardım edir.

4. Kognitiv-davranışçı yanaşma (CBT);

Psixososial dəstək öyrənən və öyrədənlərin neqativ düşüncə və davranışlarını dəyişdirməyə, daha adaptiv strategiyalar inkişaf etdirməyə yönəlir.

Təhsil mühitində psixososial dəstəyin məqsədləri aşağıdakılardır:

Təhsil iştirakçılarında stress, narahatlıq və depressiyanın qarşısını almaq;

Sosial bacarıqları (ünsiyyət, əməkdaşlıq, empatiya) gücləndirmək;

Təhsilalanların motivasiyasını artırmaq və məktəb mühitində pozitiv münasibətlər formalaşdırmaq;

Müəllimlərdə peşəkar tükənmənin qarşısını almaq;

Təhsil sistemində inklüziv və bərabərlik əsaslı yanaşmanı dəstəkləmək.

Araşdırmalar göstərir ki, psixososial dəstək tədbirləri tətbiq edilən məktəb və universitetlərdə:

Şagird və tələbələrin akademik nailiyyətləri artır;

İntizam problemləri və zorakılıq halları azalır;

Müəllimlərin iş məmnuniyyəti yüksəlir;

Ümumi sosial rifah güclənir.

4.Öyrənənlər üçün psixososial dəstək formaları

Öyrənənlər üçün psixososial dəstəyin əsas məqsədi onların emosional stabilliyini təmin etmək, sosial bacarıqlarını inkişaf etdirmək və akademik uğurlarını artırmaqdır. Bu dəstək təhsil prosesində iştirak edən hər bir fərdin rifahına birbaşa təsir göstərir və uzunmüddətli perspektivdə sosial inkişafı gücləndirir.

Psixososial dəstək formaları aşağıdakılardır:

1. Məktəb və universitet psixoloqları

Şagird və tələbələrin fərdi və qrup psixoloji dəstəyi;

Stress və təzyiqin idarə olunması;

Emosional problemlərin erkən mərhələdə aşkarlanması və həlli.

2. Peer-to-peer dəstək proqramları (bərabər dəstək)

Tələbələr və şagirdlər arasında sosial və emosional dəstək mexanizmlərinin qurulması;

Empatiya və əməkdaşlıq bacarıqlarının inkişafı;

Müsbət sosial mühitin formalaşdırılması.

3. Rəqəmsal psixososial dəstək

Onlayn məsləhət platformaları, virtual dəstək qrupları;

Stress idarəetmə proqramları, meditasiya və zehni sağlamlıq tətbiqləri;

Pandemiya dövründə distant dəstəyin təmin edilməsi.

4. Sosial və fəaliyyət əsaslı proqramlar

İdman, mədəni və sosial fəaliyyətlər vasitəsilə sosial inteqrasiyanın gücləndirilməsi;

Qrup layihələri və icma əsaslı təhsil fəaliyyətləri;

Sosial bacarıqların praktik tətbiqi.

COVID-19 pandemiyası zamanı bir çox məktəb və universitetlər onlayn platformalar vasitəsilə şagird və tələbələrə psixososial dəstək göstərmişdir. Bu proqramlar arasında stress idarəetmə vebinarları, psixoloq məsləhətləri və virtual dəstək qrupları yer almışdır.

Azərbaycanda bəzi məktəblərdə psixoloqlar şagirdlərə fərdi konsultasiya, sosial bacarıqların inkişafı və emosional dəstək proqramları həyata keçirir. Bu fəaliyyətlər öyrənənlərin tədris motivasiyasını artırmaqla yanaşı, intizam pozuntularının qarşısını da alır.

UNICEF və UNESCO tərəfindən həyata keçirilən layihələrdə peer-to-peer dəstək, mentorluq proqramları və icma əsaslı fəaliyyətlər şagirdlərin psixososial rifahının artırılmasında uğurla tətbiq olunur (UNESCO, 2017).

İndi isə gəlin əhəmiyyət və təsirinə diqqət edək.

Öyrənənlər üçün psixososial dəstəyin təmin edilməsi:

Akademik nailiyyətləri yüksəldir;

Sosial bacarıqları və emosional stabilliyi gücləndirir;

Təhsil mühitində zorakılıq və konfliktlərin azalmasına xidmət edir;

Uzunmüddətli perspektivdə sosial rifahı artırır.

5. Müəllimlər üçün psixososial dəstək

Müəllimlər təhsil prosesində əsas rolu oynayan iştirakçılardır və onların sosial rifahı öyrənənlərin akademik və sosial inkişafına birbaşa təsir edir. Sosial rifahı yüksək olan müəllimlər:

Emosional stabillik nümayiş etdirir;

Peşə motivasiyası və iş məmnuniyyəti yüksək olur;

Təhsil keyfiyyətini artırır;

İnnovativ metod və strategiyaları tətbiq etməyə daha açıq olurlar.

Əksinə, sosial rifahı zəif olan müəllimlərdə stress, peşə tükənməsi (burnout), motivasiyanın azalması və öyrənənlərlə münasibət problemləri müşahidə olunur.

Müəllimlər üçün psixososial dəstək formaları

1. Fərdi və qrup psixoloji dəstək

Məktəb və universitet psixoloqları tərəfindən təşkil olunan konsultasiyalar;

Stress və emosional yüklənmənin idarə olunması üçün proqramlar;

Tükənmə (burnout) riskinin azaldılması.

2. Peşəkar inkişaf və mentorluq

Təlimlər, seminarlar və kurslar vasitəsilə müəllimlərin peşə bacarıqlarının artırılması;

Mentor dəstəyi və təcrübə mübadiləsi;

Mentorluq, peşəkar inkişaf proqramları, fərdi və qrup konsultasiyaları sosial dəstəyin əsas vasitələridir (Həsənova, 2019; Cooper & Cartwright, 1994)

Yeni pedaqoji texnologiyalar və metodik yanaşmaların tətbiqi.

3. Sosial dəstək şəbəkələri

Müəllimlərin həmkarları ilə əməkdaşlığı, təcrübə paylaşımı;

Valideyn və icma ilə müsbət əlaqələrin qurulması;

Rəqəmsal platformalarda müəllim icmaları.

4. İş şəraiti və maddi təminat

Əməkhaqqı, sosial təminatlar və iş mühitinin yaxşılaşdırılması;

İş yükünün balanslaşdırılması;

Təhsil müəssisəsində təhlükəsiz və dəstəkli mühitin yaradılması.

Bir sıra məktəb və universitetlər müəllimlər üçün psixososial dəstək proqramları həyata keçirir: fərdi məsləhətlər, seminarlar, psixoloji dəstək qrupları. Pandemiya dövründə distant konsultasiyalar və onlayn stress idarəetmə proqramları tətbiq olunmuşdur.

OECD ölkələrində müəllimlərin rifahını gücləndirmək üçün mentorluq proqramları, peşəkar inkişaf seminarları və emosional dəstək proqramları geniş istifadə olunur. Bu proqramlar müəllimlərin tükənmə riskini azaldır və tədris keyfiyyətini yüksəldir.

Müəllimlər üçün psixososial dəstəyin təmin edilməsi:

Təhsil mühitində sağlam və motivasiyalı müəllim qüvvəsi yaradır;

Öyrənənlərin təhsil nəticələrini artırır;

Təhsil müəssisəsində əməkdaşlıq və əməkdaşlıq mədəniyyətini gücləndirir;

Uzunmüddətli sosial rifahın və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.

Azərbaycanda təhsil sistemində sosial rifah və psixososial dəstək məsələləri son illərdə dövlət səviyyəsində prioritet mövzuya çevrilmişdir. Təhsil Nazirliyi və digər dövlət qurumları məktəb və universitetlərdə öyrənənlərin və müəllimlərin rifahını təmin etmək üçün bir sıra proqramlar həyata keçirir. Bunlara daxildir: İnklüziv təhsil proqramları – fərqli sosial qruplardan olan uşaqların təhsil sisteminə inteqrasiyasını təmin edir;

Psixoloq və sosial işçi xidmətləri – məktəblərdə şagirdlərə fərdi və qrup dəstəyi;

Təlim və seminarlar – müəllimlərin peşəkar inkişafı və psixososial bacarıqlarının gücləndirilməsi.

Təhsil Nazirliyinin (2022) həyata keçirdiyi "İnklüziv Təhsil üzrə Dövlət Proqramı (2018–2025)" çərçivəsində bu istiqamətdə bir sıra irəliləyişlər əldə olunmuşdur. Proqram ali təhsil müəssisələrində inklüziv tədris mühitinin yaradılmasını, elektron resurslara çıxışın artırılmasını və psixoloji dəstək xidmətlərinin formalaşdırılmasını nəzərdə tutur.

Ümumilikdə, Azərbaycan ali təhsil sistemi hazırda keçid mərhələsindədir – sovet modelindən Avropa idarəetmə modelinə tədrici transformasiya prosesi davam edir. Dövlət səviyyəsində strateji məqsəd ali təhsilin keyfiyyətinin beynəlxalq göstəricilərlə uyğunlaşdırılması və idarəetmədə şəffaflığın artırılmasıdır.

Azərbaycan ali təhsil üçün dövlət siyasətinin məqsədləri və istiqamətləri

Azərbaycan Respublikasında ali təhsil siyasətinin əsas məqsədi biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq beynəlxalq rəqabət qabiliyyətli və innovativ təfəkkürə malik insan kapitalının inkişaf etdirilməsidir. Elm və Təhsil Nazirliyinin (2023-cü il) rəsmi açıqlamasına əsasən, ali təhsil sisteminin inkişafı tələbə mərkəzli təhsil yanaşmalarının tətbiqi, ömürboyu təhsil imkanlarının genişləndirilməsi, təhsil proqramlarının əmək bazarının dəyişən ehtiyaclarına uyğunlaşdırılması, elmi və tədqiqat fəaliyyətinin həvəsləndirilməsi kimi aspektləri əhatə edir. Eyni zamanda, dövlətin ali təhsil siyasəti ali təhsil müəssisələrinin muxtariyyətinin genişləndirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, şəffaf idarəetmə mexanizmlərinin həyata keçirilməsi kimi prioritetlərə əsaslanır (Elm və Təhsil Nazirliyi, 2023; Azərbaycan Respublikasının Nazirlər Kabineti, 2022). Prezident İlham Əliyevin 2019-cu il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı (2019-2023-cü illər)" sənədində ali təhsilin müasirləşdirilməsi və beynəlmiləlləşdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilib. Proqramın məqsədlərinə beynəlxalq ikili diplom proqramlarının genişləndirilməsi, xarici universitetlərlə əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsil məzmununun Avropa standartlarına uyğunlaşdırılması daxildir (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2019-cu il; Elm və Təhsil Nazirliyi, 2023-cü il). Bu məqsədlər ali təhsilin təkcə kəmiyyət baxımından deyil, həm də keyfiyyət göstəriciləri baxımından davamlı inkişafını təmin etmək məqsədi daşıyır. Ümumiyyətlə, dövlətin ali təhsil siyasəti insan kapitalının inkişafı, elmi potensialın gücləndirilməsi, təhsil müəssisələrinin

beynəlxalq rəqabət mühitinə inteqrasiyası ilə xarakterizə olunur. Belə ki, ali təhsil sektorunda həyata keçirilən islahatlar ölkənin sosial-iqtisadi və intellektual potensialının artırılmasına xidmət edir və milli inkişaf strategiyasının əsas sütunlarından birini təşkil edir (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2019-cu il; Azərbaycan Respublikasının Nazirlər Kabineti, 2022-ci il).

II Türkiyə Ali Təhsil Sisteminin Strukturu Və İdarəetmə Mexanizmləri

Türkiyə ali təhsil sistemi uzun bir struktur dəyişikliyi və genişlənmə prosesindən keçib. Ali təhsil 1981-ci ildə qüvvəyə minən və ali təhsilin mərkəzləşdirilmiş şəkildə idarə olunmasını təmin etmək üçün Ali Təhsil Şurasını (YÖK) quran 2547 saylı Ali Təhsil Qanunu ilə tənzimlənir. YÖK dövlət və vəqf universitetlərinin fəaliyyətini koordinasiya edən, tədris proqramlarının uyğunluğunu təmin edən və akademik keyfiyyətin ümumi çərçivəsini təyin edən ən yüksək səviyyəli idarəetmə orqanıdır (Ali Təhsil Qanunu, 1981; YÖK, 2023). 2000-ci illərin əvvəllərindən etibarən YÖK Bolonya prosesi və inzibati islahatlarla inteqrasiya yolu ilə yenidən qurulmuşdur (EHEA, 2001).

Hüquqi və institusional baza

Türkiyədə ali təhsil sistemi konstitusiya və institusional çərçivədə Ali Təhsil Şurası (YÖK) tərəfindən idarə olunur. Ali Təhsil Şurası universitetlərin yaradılması, proqramların tanınması və akademik standartların müəyyən edilməsi kimi əsas funksiyaları yerinə yetirir (YÖK, 2024). 2015-ci ildə müstəqil keyfiyyət təminatı orqanı kimi yaradılmış Ali Təhsil Keyfiyyəti Şurası (YÖKAK) ali təhsil müəssisələrinin daxili və xarici qiymətləndirilməsini, akkreditasiya proseslərini və keyfiyyət mədəniyyətinin yaradılmasını təmin edir (YÖKAK, 2024; Taşçı, 2023). Bu orqanlar universitetin muxtariyyəti və keyfiyyət təminatı arasında tarazlığı təmin edir.

Struktur və idarəetmə modeli

Struktur olaraq Türkiyənin ali təhsil sistemi Boloniya prinsiplərinə uyğun olaraq üç mərhələli struktura malikdir: bakalavr, magistratura və doktorantura. 2001-ci ildə Boloniya Prosesi çərçivəsində Avropa Ali Təhsil Məkanı (EHEA) ilə uyğunlaşma prosesinə qoşulmuşdur. Bu proses ali təhsil sistemini beynəlxalq standartlara uyğunlaşdırmaq, keyfiyyəti təmin etmək və tələbə-müəllim mobilliyini artırmaq məqsədi daşıyır (YÖK, 2021; Anadolu Agentliyi, 2025). Avropa Komissiyasının 2024-cü ildə dərc etdiyi hesabatda Türkiyə ali təhsil sistemi 18 əsas göstəricidən 9-da ən yüksək bal toplayıb; bunlara AKTS-nin tətbiqi, diplomların qarşılıqlı tanınması və beynəlxalq mobillik proqramlarına daxil olan tələbələrə dəstək daxildir (Anadolu Agentliyi, 2025). 2023-2024-cü tədris ilinin göstəricilərinə əsasən, ölkədə 200-dən çox ali təhsil müəssisəsi, o cümlədən dövlət və fond universitetləri fəaliyyət göstərir və tələbələrin sayı 7 milyona yaxınlaşır; Bunlara həm ənənəvi, həm açıq, həm də distant təhsil proqramları daxildir (Ali Təhsil Şurasının Statistikası, 2024; TEDMEM, 2024). Dövlət universitetləri daha çox dövlət büdcəsindən maliyyələşir, rektorları isə prezident təyin edir. Vəqf universitetləri isə əsas maliyyə mənbələri tələbə haqları və ianələr olan qeyri-kommersiya təşkilatlarıdır; lakin eyni qanun çərçivəsində Ali Təhsil Şurası (YÖK, 2023; Rəsmi Qəzet, 1981) tərəfindən idarə olunur. Vəqf universitetləri idarəçilikdə daha çevik olsa da, akademik proqramların təsdiqi və professor-müəllim heyətinin təyin edilməsi Ali Təhsil Şurası tərəfindən təsdiqlənir (YÖK, 2022).

Keyfiyyət təminatı, beynəlmiləlləşmə və maliyyələşmə

Keyfiyyət təminatı, beynəlxalqləşmə və maliyyələşdirmə sahələrində Ali Təhsil Şurası (YÖKAK) 2015-ci ildən etibarən ali təhsil müəssisələrinin daxili keyfiyyət sistemlərini inkişaf etdirir və kənar qiymətləndirmə proseslərini həyata keçirir (YÖKAK, 2024; Taşçı, 2023). 2023-cü il statusu hesabatı göstərir ki, akkreditasiya, fəaliyyətə əsaslanan qiymətləndirmə və keyfiyyət mərkəzlərinin yaradılması üçün tədbirlər geniş şəkildə həyata keçirilir (YÖKAK, 2025). Türkiyə diplomların beynəlxalqləşməsini və qarşılıqlı tanınmasını təşviq etmək üçün Erasmus+ və digər proqramlar vasitəsilə tələbə və müəllim mübadiləsini genişləndirir (YÖK, 2023; Anadolu Agentliyi, 2025).

Maliyyələşmə ilk növbədə dövlət büdcəsi hesabına həyata keçirilir; dövlət universitetlərinə ayrılan vəsait təhsil, inkişaf və infrastruktur xərclərinə, vəqf universitetlərinə ayrılan vəsait isə ilk növbədə özəl resurslara və tələbə hüquqlarına ayrılır (YÖK, 2023). Bu mexanizm ali təhsildə rəqabət mühiti yaratmaq və tələbələrin keyfiyyətli təhsil imkanlarını genişləndirmək məqsədi daşıyır.

Türkiye ali təhsil üçün dövlət siyasətinin məqsədləri və istiqamətləri

Türkiyənin ali təhsil siyasətinin əsas məqsədi ölkənin sosial-iqtisadi inkişafına dəstək verən yüksək keyfiyyətli, inklüziv və beynəlxalq təhsil sistemi yaratmaqdır (YÖK, 2023; YÖKAK, 2025). Bu

məqsədlərə nail olmaq üçün ali təhsil müəssisələrinin planlaşdırılması, maliyyələşdirilməsi, keyfiyyət təminatı dövlət tərəfindən strateji sənədlərlə müəyyən edilir. Sosial məsuliyyət, icma əlaqələri və beynəlmiləlləşmə prioritet sahələr hesab olunur (YÖK, 2023; YÖKAK, 2025; Anadolu Agentliyi, 2025).

Buna görə də Türkiyənin ali təhsil sistemi keyfiyyət təminatı, beynəlxalqləşmə, maliyyələşdirmə və sosial məsuliyyəti əhatə edən çoxşaxəli strateji yanaşmalara əsaslanır. Dövlət və institusional tədbirlər ali təhsil sisteminin beynəlxalq standartlara uyğun olmasını təmin edir və tələbələrin ixtisaslarının inkişafına töhfə verir (YÖK, 2023; YÖKAK, 2025; Anadolu Agentliyi, 2025).

III Müqayisəli Təhlil: Azərbaycan Və Türkiyə Ali Təhsil Sistemləri

Azərbaycan və Türkiyənin ali təhsil sistemləri fərqli tarixi, hüquqi və institusional inkişaf yollarına malikdir və idarəetmə, keyfiyyət təminatı, beynəlmiləlləşdirmə, maliyyələşdirmə və strateji sənədlər sahələrində fərqlər və oxşarlıqlar göstərir.

İdarəetmə strukturu

Azərbaycan ali təhsil sistemi ilk növbədə mərkəzləşdirilmiş idarəetmə modeli əsasında fəaliyyət göstərir. Təhsil Nazirliyi və Təhsilin Keyfiyyətinin Təminatı Agentliyi (EKTA) universitetlərin fəaliyyətini tənzimləyir, akkreditasiya və keyfiyyətin təminatı proseslərini həyata keçirir (Azərbaycan Respublikasının Təhsil Nazirliyi, 2013; EKTA, 2022). Rektorlar ali təhsil müəssisələrinin əsas idarəetmə orqanlarıdır və dövlət siyasətinə uyğun olaraq idarəetməni həyata keçirirlər (Azərbaycan Respublikasının Təhsil Nazirliyi, 2023a). Türkiyə ali təhsil sistemində idarəetmə iki əsas qurum vasitəsilə həyata keçirilir: Ali Təhsil Şurası (YÖK) və Ali Təhsilin Keyfiyyəti Şurası (YÖKAK). YÖK dövlət və özəl universitetlərin fəaliyyətini əlaqələndirir, proqram ardıcıllığını təmin edir və akademik keyfiyyəti qoruyur (YÖK, 2023; YÖKAK, 2025). Özəl universitetlər daha çevik idarəetmə strukturlarına malikdir və YÖK tərəfindən təsdiq edilmiş qanunvericilik çərçivəsində fəaliyyət göstərirlər (Resmi Gazete, 1981; YÖK, 2022).

Keyfiyyət təminatı

Azərbaycan ali təhsil sistemində keyfiyyət təminatı TKTA (Türkiyə Ali Təhsil Şurası) vasitəsilə həyata keçirilir. Qurum beynəlxalq standartlara uyğun olaraq akkreditasiya proseslərini və daxili keyfiyyət təminatı sistemlərinin yaradılmasını təmin edir (TKTA, 2022). Türkiyədə 2015-ci ildən fəaliyyət göstərən YÖKAK (Türkiyə Ali Təhsil Şurası) universitetlərin daxili keyfiyyət təminatı sistemlərinin inkişafına, institusional monitorinqinə və akkreditasiya proseslərinin həyata keçirilməsinə nəzarət edir (Taşçı, 2023; Ali Təhsilin Keyfiyyəti Şurası, 2025). Hər iki ölkədə keyfiyyət təminatı ali təhsil müəssisələrinin akademik göstəricilərini yaxşılaşdırmaq və beynəlxalq standartlara uyğunluğu təmin etmək məqsədi daşıyır.

Beynəlmiləlləşmə

Azərbaycan və Türkiyənin ali təhsil sistemləri Boloniya Prosesi (Avropa Ali Təhsil Ərazisi [EHEA], 2023; Anadolu Agentliyi, 2025) çərçivəsində Avropa Ali Təhsil Məkanı ilə uyğunlaşma siyasəti həyata keçirir. Azərbaycan 2005-ci ildən, Türkiyə isə 2001-ci ildən bu prosesdə iştirak edir. Hər iki ölkədə Erasmus+ və digər beynəlxalq mübadilə proqramları tələbə və müəllimlərin mobilliyini dəstəkləyir (Azərbaycan Təhsil Nazirliyi, 2023a; YÖK, 2023). Bundan əlavə, xarici dil təhsili və beynəlxalq akkreditasiya proqramları vasitəsilə ali təhsilin beynəlmiləlləşdirilməsi gücləndirilir.

Maliyyələşmə və resurs idarəçiliyi

Azərbaycanın ali təhsil sistemi nisbətən az miqdarda özəl ali təhsil müəssisələri tərəfindən maliyyələşdirilir (Trend.az, 2021; Azərbaycan Təhsil Nazirliyi, 2023b). Türkiyədə dövlət universitetləri əsasən dövlət büdcəsi hesabına fəaliyyət göstərir, özəl universitetlər isə tələbə ödənişlərinə və özəl maliyyə mənbələrinə əsaslanır (YÖK, 2023). Hər iki ölkədə maliyyələşdirmə mexanizmləri ali təhsil müəssisələrinin performansa əsaslanan inkişafını təşviq etmək, rəqabət mühiti yaratmaq və tələbələrin keyfiyyətli təhsilə çıxışını təmin etmək məqsədi daşıyır.

Strateji sənədlər və islahatlar

Azərbaycan ali təhsil sistemində "Azərbaycan Respublikasının Təhsil Strategiyası" (2013-cü il) və "Ali təhsil haqqında Qanun" (2009-cu il) əsas strateji sənədlərdir və ali təhsilin keyfiyyətinin yüksəldilməsi, inklüziv təhsilin təşviqi və beynəlxalq akkreditasiya imkanlarının genişləndirilməsinə yönəlmiş islahatları özündə ehtiva edir (Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Türkiyə Respublikasının ali təhsil siyasəti23; 2547 saylı Ali Təhsil (1981) və Ali Təhsil Şurasının müəyyən etdiyi keyfiyyət təminatı qaydaları ali təhsil müəssisələrinin akademik fəaliyyətini, beynəlxalqləşməni və universitet muxtariyyətinin qorunub saxlanmasını təmin edir (YÖK, 2023; YÖKAK, 2025; Anadolu Agentliyi, 2025-ci illərin inkişafında mühüm rol oynayır Hər iki ölkədə ali təhsil, lakin Azərbaycan mərkəzləşdirilmiş idarəçilik

və dövlət nəzarətinə üstünlük verir, Türkiyə isə həm dövlət nəzarətini saxlayır, həm də universitetlərin muxtariyyətini və beynəlxalqləşmə imkanlarını daha çevik şəkildə dəstəkləyir. Agentlik, 2025).

Nəticə və təkliflər

Azərbaycan və Türkiyənin ali təhsil sistemlərinin müqayisəsi göstərir ki, hər iki ölkədə Boloniya prinsiplərinə əsaslanan mərhələli ali təhsil strukturu mövcuddur və keyfiyyətin təmin edilməsi mexanizmləri yaradılmışdır. Bu yanaşma tələbələrin beynəlxalq səviyyədə tanınmış bilik və bacarıqlara yiyələnməsinə şərait yaradır və ali təhsilin peşəkar, sosial və intellektual inkişafına dəstək verir. Oxşarlıqlar ali təhsilin strateji istiqamətlərində - keyfiyyətin yüksəldilməsi, beynəlxalq standartlara uyğunlaşma və tələbə-müəllim mobilliyinin artırılmasında da özünü göstərir.

Fərqlər əsasən idarəetmə, maliyyələşdirmə və beynəlmiləlləşmə sahələrində müşahidə olunur. Azərbaycan ali təhsilində dövlət nəzarəti və mərkəzləşdirilmiş idarəetmə sistemi üstünlük təşkil edir, universitetin muxtariyyəti isə məhduddur. Türkiyədə isə dövlət və vəqf universitetləri arasında idarəetmə daha çevikdir və universitetlər akademik və inzibati qərarların qəbulunda daha çox muxtariyyətə malikdirlər. Maliyyələşdirmə modeli də fərqlidir: Azərbaycan ali təhsili əsasən dövlət büdcəsi hesabına təmin edilir, özəl sektorun payı məhduddur; Türkiyədə dövlət və vəqf universitetləri arasında maliyyə qaynaqlarının bölgüsü daha balanslıdır. Türkiyə beynəlmiləlləşmə baxımından daha irəlidədir; xarici tələbə və müəllim mübadiləsi, Erasmus+ proqramları və ikili diplom imkanları geniş şəkildə təmin edilir.

Bu təhlildən çıxan nəticə göstərir ki, hər iki ölkənin ali təhsil sistemlərinin güclü və zəif tərəfləri bir-birini tamamlayır və qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Təklif olaraq ali təhsil sahəsində əməkdaşlığın dərinləşdirilməsi vacibdir. Bu, ikili diplom proqramlarının yaradılması, birgə elmi tədqiqat layihələrinin təşkili və tələbə-müəllim mübadiləsinin artırılması yolu ilə həyata keçirilə bilər. Eyni zamanda, təcrübə mübadiləsi ali təhsilin keyfiyyətinin yüksəldilməsinə, beynəlxalq standartlara uyğunluğun gücləndirilməsinə və hər iki ölkənin insan kapitalının inkişafına xidmət edəcəkdir.

ƏDƏBİYYAT SIYAHISI:

1. Anadolu Ajansı. (2025, January 18). *Türk yükseköğretim sistemi, Avrupa Yükseköğretim Alanı (AYA) ile tam uyum sağladı.* https://www.aa.com.tr/tr/egitim/turk-yuksekogretim-sistemi-avrupa-yuksekogretim-alani-ile-tam-uyum-sagladi/

2. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2019). *Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı (2019–2023).* Bakı: Prezident Administrasiyası. https://president.az/az/articles/view/69434

3. Azərbaycan Respublikasının Konstitusiyası. (1995). Bakı.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti. (2022). *Ali təhsilin keyfiyyətinin artırılması və idarəetmənin təkmilləşdirilməsi haqqında qərar.* Bakı: Nazirlər Kabineti.

5. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2013). *Azərbaycan Respublikasında Təhsil Strategiyası.* Bakı.

6. Council of Higher Education (Yükseköğretim Kurulu - YÖK). (2019). *Yükseköğretim Bilgi Yönetim Sistemi Raporu.* Ankara: YÖK Yayınları. https://istatistik.yok.gov.tr/

7. Council of Higher Education (Yükseköğretim Kurulu - YÖK). (2020). *Yükseköğretim Kanunu (No. 2547). Resmî Gazete.* https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.2547.pdf

8. Council of Higher Education (Yükseköğretim Kurulu - YÖK). (2023). *Higher education system in Turkey.* https://www.yok.gov.tr/en

9. DergiPark. (2023, March 29). *Yükseköğretimde Kalite Güvencesi Sistemi: Kurumsal Yaklaşım (D. Taşcı).* https://dergipark.org.tr/tr/download/article-file/2695758

10. Elm və Təhsil Nazirliyi. (2023). *Ali təhsil haqqında məlumat.* Bakı: Elm və Təhsil Nazirliyi. https://edu.gov.az/az/higher-education

11. European Higher Education Area (EHEA). (2024). *Bologna Process Implementation Report.* Brussels: European Commission. https://www.ehea.info/

12. Hüseynova, S. (2020). *Ali təhsilin idarə olunmasında müasir yanaşmalar.* Bakı: Elm və Təhsil.

13. Mərdanov, M. (2023). *Cəmiyyətin formalaşmasında ali təhsilin rolu. Ali Təhsil və Cəmiyyət,* (1), 5–15. Bakı: Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. https://edu.gov.az/upload/file/Kitab/ali-tehsil-ve-cemiyyet-no1.pdf

14. OECD. (2022). *Education Policy Outlook: Azerbaijan.* Paris: OECD Publishing.

15.OECD. (2023). *Education Policy Outlook: Turkey.* Paris: OECD Publishing.

https://www.oecd.org/education/policyoutlook/turkey.htm
16. Presidency of the Republic of Türkiye - Directorate of Strategy and Budget. (2019). *11th Development Plan (2019–2023).* Ankara: T.C. Cumhurbaşkanlığı Strateji ve Bütçe Başkanlığı. https://www.sbb.gov.tr/
17. Resmî Gazete. (2015). *Yükseköğretim Kalite Güvencesi Yönetmeliği.* 23 Temmuz 2015 tarihli ve 29423 sayılı *Resmî Gazete.* https://www.resmigazete.gov.tr/eskiler/2015/07/20150723-3.htm
18. Taşcı, D. (2023). *Yükseköğretimde Kalite Güvencesi Sistemi: Kurumsal Yaklaşım. DergiPark.* https://dergipark.org.tr/tr/download/article-file/2695758
19. Təhsil Keyfiyyətinin Təminatı Agentliyi (TKTA). (2022). *İllik Hesabat.* Bakı.
20. Təhsil Nazirliyi. (2021). *Ali Təhsil haqqında Qanun Layihəsi.* Bakı.
21. World Bank. (2021). *Higher Education in Azerbaijan: Policy Note.* Washington, D.C.
22. World Bank. (2022). *Higher Education in Türkiye: Challenges and Opportunities.* Washington, D.C.: World Bank Group. https://documents.worldbank.org/
23. Yükseköğretim Kalite Kurulu Başkanlığı (YÖKAK). (2025, February 10). *2023 Durum Raporu.* Ankara: YÖKAK Yayınları. https://www.yokak.gov.tr/documents/StatusReports/Durum_Raporu_2023.pdf

DOİ: 10.32010/WYYL7710

ÖYRƏNMƏ ÇƏTİNLİYİ OLAN UŞAQLARIN QARŞILAŞDIĞI ƏSAS PROBLEMLƏR

Ayşən Kənan MƏMMƏDOVA
Azərbaycan Dillər Universiteti
Orcid: 0009-0001-5144-1581
E-mail: aysenmemmedova99@mail.ru

Xülasə: Bu nəzəri tədqiqat, öyrənmə əlilliyi olan uşaqların qarşılaşdıqları çoxşaxəli çətinlikləri araşdırır və onların linqvistik, idrak, sosial, emosional və motor inkişafına diqqət yetirir. Son elmi ədəbiyyata və DSM-5 kimi diaqnostik meyarlara əsaslanaraq, məqalədə nitq və dil pozğunluqları, diqqət çatışmazlığı, yaddaş məhdudiyyətləri, qavrayış çətinlikləri və sosial bacarıq çatışmazlığı kimi ümumi məsələlər qeyd olunur. Öyrənmə əlilliyi olan uşaqlar tez-tez lüğət əldə etmək, oxumaq və yazmaq, eşitmə və vizual qavrayış və mücərrəd anlayışları anlamaqda çətinlik çəkirlər. Bu çətinliklər akademik uğursuzluğa, özünəinamın aşağı düşməsinə və həmyaşıd münasibətlərində çətinliklərə səbəb ola bilər.

Tədqiqat erkən diaqnoz və müdaxilənin vacibliyini vurğulayır. Ailənin iştirakı, müəllim dəstəyi və peşəkar əməkdaşlıq (danışma terapevtləri və psixoloqlar da daxil olmaqla) uşaqların inkişafını təşviq etmək üçün vacibdir. Məqalədə ifadəli və qəbuledici dil bacarıqlarını artırmaq üçün modelləşdirmə, mühitin tədrisi və hekayə danışma əsaslı təlimat kimi təhsil strategiyaları müzakirə olunur. Həmçinin, şagirdlərə öyrənmə proseslərini tənzimləməkdə və mürəkkəb tapşırıqların öhdəsindən gəlməkdə kömək etməkdə metakognitiv strategiyaların rolu vurğulanır. Bundan əlavə, ünsiyyət, empatiya və münaqişələrin həlli kimi sosial bacarıqları inkişaf etdirmək üçün strukturlaşdırılmış proqramların əhəmiyyəti vurğulanır. Bundan əlavə, məqalədə, xüsusən də inklüziv sinif otaqlarında hər bir uşağın fərdi ehtiyaclarına uyğunlaşdırılmış fərqli təlimə ehtiyac olduğu qeyd olunur. Vizual dəstək, çoxsensor yanaşmalar və adaptiv öyrənmə metodlarını tətbiq etməklə, müəllimlər öyrənmə əlilliyi olan uşaqların həm akademik, həm də sosial cəhətdən uğur qazanmalarına kömək edə bilərlər. Nəticə olaraq, öyrənmə əlilliyi yalnız akademik çətinliklərlə məhdudlaşmır; onlar həmçinin uşağın ümumi inkişafına təsir göstərir. Bu uşaqların məktəbə və cəmiyyətə effektiv inteqrasiyası üçün təhsil, psixoloji və sosial dəstəyi birləşdirən hərtərəfli, vahid yanaşma vacibdir.

Açar sözlər: Öyrənmə çətinlikləri, dil pozğunluqları, idrak bacarıqları, sosial səriştə.

KEY PROBLEMS FACED BY CHILDREN WITH LEARNING DIFFICULTIES

Ayshan Kenan MAMMADOVA
Azerbaijan University of Languages
Orcid: 0009-0001-5144-1581
E-mail: aysenmemmedova99@mail.ru

Abstract: This theoretical study explores the multifaceted challenges encountered by children with learning disabilities, focusing on their linguistic, cognitive, social, emotional, and motor development. Based on recent scientific literature and diagnostic criteria such as DSM-5, the paper outlines common issues such as speech and language disorders, attention deficits, memory limitations, perceptual difficulties, and social skill deficits. Children with learning disabilities often struggle with vocabulary acquisition, reading and writing, auditory and visual perception, and understanding abstract concepts. These challenges may lead to academic failure, low self-esteem, and difficulties in peer relationships.

The study emphasizes the importance of early diagnosis and intervention. Family involvement, teacher support, and professional collaboration (including speech therapists and psychologists) are critical for fostering children's development. The paper discusses educational strategies such as modeling, milieu teaching, and storytelling-based instruction to enhance expressive and receptive language skills. It also highlights the role of metacognitive strategies in helping students regulate their learning processes and cope with complex tasks. In addition, the importance of structured programs to develop social competencies—like communication, empathy, and conflict resolution—is underscored.

Furthermore, the paper points out the need for differentiated instruction tailored to each child's individual needs, especially in inclusive classroom settings. By implementing visual supports, multisensory approaches, and adaptive learning methods, educators can help children with learning disabilities succeed both academically and socially.

In conclusion, learning disabilities are not limited to academic struggles; they also impact a child's overall development. A comprehensive, holistic approach—combining educational, psychological, and social support—is essential for the effective integration of these children into school and society.

Keywords: Learning difficulties, language disorders, cognitive skills, social competence.

ОСНОВНЫЕ ПРОБЛЕМЫ, С КОТОРЫМИ СТАЛКИВАЮТСЯ ДЕТИ С ТРУДНОСТЯМИ В ОБУЧЕНИИ

Айшан Кенан МАМЕДОВА
Азербайджанский Университет Языков
Orcid:b 0009-0001-5144-1581
Электронная почта: aysenmemmedova99@mail.ru

Резюме: В данной теоретической работе рассматриваются основные проблемы, с которыми сталкиваются дети с нарушениями обучения, а также предлагаются эффективные подходы к их поддержке в образовательной среде. Анализ проводится на основе современных научных источников и диагностических критериев, таких как DSM-5. Выделяются ключевые трудности, включая речевые и языковые нарушения, дефицит внимания, слабую память, затруднённое восприятие информации, а также недостатки в социальных навыках.

Дети с подобными трудностями часто отстают от сверстников в освоении словарного запаса, чтении и письме, а также испытывают сложности в аудиовизуальном восприятии и понимании абстрактных понятий. Это, в свою очередь, может привести к академическим неудачам, социальной изоляции и снижению самооценки.

Подчеркивается важность ранней диагностики и своевременного вмешательства. Эффективное взаимодействие между родителями, учителями и специалистами (логопедами, психологами) играет ключевую роль в поддержке ребёнка. В работе описаны такие подходы, как моделирование, обучение в естественной среде и методы, основанные на рассказах, способствующие развитию речевых и коммуникативных навыков. Также отмечается значимость метакогнитивных стратегий, которые помогают учащимся планировать, контролировать и оценивать своё обучение.

Особое внимание уделяется необходимости адаптированного и индивидуализированного обучения в условиях инклюзивного образования. Использование визуальных, мультимодальных и практических методов позволяет эффективно вовлекать таких детей в учебный процесс.

В заключение отмечается, что трудности в обучении влияют не только на академическую успеваемость, но и на общее развитие ребенка. Комплексный подход, объединяющий педагогическую, психологическую и социальную поддержку, необходим для полноценной интеграции таких детей в общество.

Ключевые слова: Трудности в обучении, речевые нарушения, когнитивные способности, социальные навыки

Giriş

Öyrənmə çətinliyi olan uşaqların diaqnozu 2013-cü ildə çap olunmuş Zehni Pozuntuların Diaqnostik və Statistik Əl Kitabı / DSM 5-də qeyd olunan meyarlar əsasında təyin olunur. Bu problemin erkən yaşlardan aşkarlanması uşağın akademik və gələcək fəaliyyətinə öz müsbət təsirini göstərəcəkdir. Öyrənmə çətinliyinə sahib olan uşaqlarda müxtəlif dil pozuntuları, oxuma problemləri, yazı, imla, riyaziyyat problemləri, diqqət pozuntuları, ünsiyyət pozuntuları və sosial bacarıq çatışmazlıqları paralel şəkildə görülür. Bu problemlər müxtəlif başlıqlar altında izah oluna bilər: dil pozuntuları, oxu və yazı problemləri, diqqət çatışmazlığı, sosial münasibətlərdəki çətinliklər. Vaxtında və düzgün müdaxilənin aparılması yuxarıda qeyd olunmuş problemlərin uşağın akademik və sosial həyatına olan neqativ təsirlərinin minimuma endirilməsi baxımından olduqca vacibdir.

Xüsusi Dil Pozuntuları – Dil Öyrənmə Çətinlikləri

Öyrənmə çətinliyi olan uşaqların böyük bir hissəsində səs tanıma, fonoloji məlumatı anlama və şifahi nitq bacarıqlarının həmyaşıdlarından geri qalması müşahidə edilmişdir. 8–12 yaş arası öyrənmə çətinliyi olan 242 şagird üzərində aparılmış araşdırmanın nəticəsinə nəzər yetirsək görə bilərik ki, iştirakçıların 63,2%-də dil pozuntuları mövcuddur. Bu uşaqların 28%-də xüsusi dil pozuntusu, 12%-də isə səsli dil pozuntusu qeydə alınmışdır. Xüsusi dil pozuntusu olan uşaqların, anlama və danışma bacarıqlarında zaman keçdikcə əhəmiyyətli dərəcədə problemlər meydana gəlir. Hansı ki, bu problemlər digər akademik sahələrdə də uğursuzluğun olmasına səbəb olur (Gibbs & Cooper, 1989).

Məlumdur ki, söz bazası zəif olan uşaqlar oxu və yazı zamanı əhəmiyyətli dərəcədə çətinlik yaşayırlar. Dil sahəsindəki bu çətinliklər nəticəsində uşaqların həm ifadə edici, həm də anlama bacarıqları zəifləyir. Söz ehtiyatı zəif olan, cümləni anlamaqda və fikir ifadə etmədə çətinlik çəkən uşaqlar, məktəb həyatında davamlı uğursuzluqlarla qarşılaşırlar. Həmin uşaqların oxu və yazı bacarıqlarının inkişafı prosesi nitq və söz ehtiyatı zəifliyi səbəbi ilə həmyaşıdlarından geri qalır. Bu səbəbdən, oxu və yazı zamanı uşağın çətinlik çəkməsinin öyrənmə çətinlikliyi kimi bir pozuntudan qaynaqlanması ilə yanaşı, xüsusi dil pozuntularından da qaynaqlandığı aşkarlanmışdır. Dildə yaranan problemlərin aradan qaldırılmadığı təqdirdə uşağın akademik fəaliyyəti ürəkaçıcı olmayacaqdır (Bishop & Adams, 1990).

Bu problemlərə erkən müdaxilə etmək və uşağın ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi üçün müəllimin, ailənin və loqopedin əməkdaşlığı olduqca vacibdir. Nitqin inkişafı üçün xüsusi proqramın tərtibi

zamanı istifadə olunacaq modellər və ifadəedici bacarıqların inkişaf etdirilməsi üçün tətbiq olunan strategiyalar çox diqqətlə seçilməlidir (Bender, 2008). Uşaqlarla həm evdə, həm də məktəbdə iş aparılmalıdır. Həftə ərzində aparılmış bir neçə seansla biz yüksək nəticə gözləyə bilmərik. Bunun üçün valideynin dəstəyi olduqca vacibdir. Evdə aparılan məşqlərə durğu vasitələrindən istifadə, fasilələr və intonasiya kimi ünsiyyət prosesi üçün əhəmiyyətli məqamlar üzərində təkraretmə yolu ilə mütəxəssisin apardığı iş valideyin tərəfindən davam etdirilməlidir.

Bir başqa tövsiyə olunan yanaşma isə modelləşdirmə metodu ilə öyrənmə çətinliyi olan uşaqlara gündəlik həyat şəraitində dilin öyrədilməsidir. Bu yanaşmada, təbii mühitdə məktəb yaşına çatmamış uşaqlar üçün istifadə olunan dil öyrədici üsullardan biri olan "ətraf mühitə əsaslanan öyrədici üsul" nümunə olaraq göstərilə bilər. Bu üsul, uşağa təbii mühitdə dil öyrədilməsini əsas tutur (Heward, 2006).

Proses müddətində strategiya, mühit və əlaqələrdə model olmaq, reaksiya istəmə, gözləmə və fürsət əsaslı öyrətmə proseslərini əhatə edən dörd addımdan istifadə olunur. Model olma mərhələsində böyüklər uşağın maraqlandığı əşya və ya hadisə ilə bağlı danışaraq model olurlar. Reaksiya istəmə–model olma mərhələsində böyüklər uşaqdan bir əşyanı və ya vəziyyəti tanımasını istəyir, uşaq cavab verdikdən sonra isə böyüklər yenidən model rolunda olurlar. Gözləmə mərhələsində böyüklər uşağa bir əşya təqdim edir və bu əşya ilə bağlı fərqli cavab gözləyirlər. Böyüklər uşağın sözlü istəklərini bildirməsi üçün (təxminən 15 saniyə) gözləyir və sonra bu istəyə bir ipucu verirlər. Fürsət əsaslı öyrətmə mərhələsində isə uşağa bir yardım və ya istək üçün fürsət verilir. Bu dörd mərhələnin birlikdə istifadə edilməsi "tədris üçün təbii model üsulu" adlanır (Bender, 2008).

Məktəb yaşındakı uşaqlara oxu və yazı bacarıqlarının öyrədilməsindən öncə oxuma və yazı üçün tələb olunan alt bacarıqların inkişaf etdirilməsi vacibdir. Belə ki, uşaqların söz ehtiyatının artırılması, anlama qabiliyyətinin inkişafı və cümlə quruluşunun öyrənilməsi üçün bəzi strategiyalar tətbiq edilməlidir. Bunun üçün hekayə ilə tədris metodundan istifadə edilə bilər. Bu metod çərçivəsində uşağın bir hadisənin təfərrüatlarını və ya hadisəyə dair öz müstəqil fikrini məntiqli, səlis və qrammatik cəhətdən doğru şəkildə ifadə etməsi üçün hekayə qurma və danışma məşqləri aparılır. Cümlənin tamamlanılması, hekayə qurmaq, hadisə sıralamaq və s. kimi praktik işlər lazımi bacarıqları inkişaf etdirir. Dinləmə bacarıqlarını inkişaf etdirmək üçün isə fərqli dinləmə strategiyaları tətbiq edilməlidir. Bu, öyrənənin dinlədiklərini başa düşməsi və anlaması baxımından əhəmiyyətlidir (Lerner, 2000).

Qavrayış Pozuntuları

Öyrənmə çətinlikləri olan uşaqlar yalnızca dil sahəsində deyil, eyni zamanda anlama sahəsində problemlər yaşayırlar. Vizual qavrayış və eşitmə zamanı məlumatların qəbul edilməsi, yadda saxlanmasında yaranan çətinliklər "anlama pozuntuları" başlığı altında xarakterizə olunur. Auditor yolla məlumatın qəbul edilməsində problem yaşayan uşaqlar eşitdikləri səsləri bir-birindən ayırd edə bilmirlər və oxşar səsləri (məsələn: b və p) qarışdırırlar. Bu vəziyyət onların sözləri düzgün qavrama qabiliyyətinə öz mənfi təsirini göstərir. Məsələn, onlar bir-birinə bənzər səsləri və məlumatları yadda saxlamaqda çətinlik çəkirlər. Eşitmə sahəsindəki bu problemlərə əlavə olaraq, sıralı məlumatların yadda saxlanılması, hərflərin, rəqəmlərin, günlərin və ayların sıralanması öyrənmə çətinliyinə sahib olan uşaq üçün olduqca çətindir.

Vizual ayırd etmə problemi olan uşaqlar hərfləri (məsələn, b ilə d, m ilə n), sözləri, rəqəmləri, həndəsi naxışları və s. bir-birindən ayırd etməkdə çətinlik çəkirlər. Hərflərin və sözlərin vizual olaraq ayırd edilməsi xüsusilə oxuma bacarığı baxımından çox vacibdir. Forma-zəmin ayırd etmə problemi olanlar isə obyektlə arxa fonu bir-birindən ayırd edə bilmirlər. Bu problemi yaşayan uşaqlar mətn və ya cümlə daxilindəki sözlərə fokuslana bilməzlər. Vizual qavrama bacarığı zəif olanlar isə nəyəsə baxdıqları zaman onun detalları verilmədən tanıya və ya oxuma zamanı yazının bir hissəsi silinmiş olsa, onu tamamlaya bilməzlər. Məkan münasibətlərində çətinlik yaşayanlar isə obyektlər (hərflər, sözlər, rəqəmlər və s.) arasında məsafə, istiqamət və mövqe kimi əlaqələri düzgün qura bilməz, yəni bir söz içindəki hərflərin düzülüşünü və ya cümlə içindəki sözlərin sırasını qarışdırarlar.

Öyrənmə çətinliyi olan uşaqların qavrayış pozuntuları xüsusilə akademik uğurlarına mənfi təsir göstərir. Məsələn, eşidərək qavraması zəif olan uşaqlar verilən tapşırıqları düzgün dərk etmək və yadda saxlamaqda çətinlik çəkirlər. Fərqli araşdırmalarda qeyd olunur ki, öyrənmə çətinliyi olan uşaqların yaddaş və qavrama funksiyaları zəif olur. Bunun nəticəsində onlar sözləri, cümlələri və mətnləri dərindən mənimsəmə, xatırlama və təkrar etmədə çətinliklə qarşılaşırlar.

Yaddaş problemi yaşayan öyrənmə çətinliyinə sahib uşaqlar eşitmə və vizual materialları yadda saxlamaqda və müxtəlif mətnləri xatırlamaqda ciddi çətinliklərlə qarşılaşırlar. Onların yaddaş zəifliyi səbəbindən mətni düzgün başa düşməmələri və verilən detallara uyğun cavab verə bilməmələri aşkarlanmışdır.

Akademik fəaliyyətlər zamanı eşitmə və vizual qavrayışda problem yaşayan uşaqların inkişafı üçün xüsusi tədris üsullarının tətbiq edilməsi tövsiyə olunur. Vizual və eşitmə sahələrində çətinlik çəkən uşaqlar üçün fərqli stimulların daxil edildiyi müxtəlif məşqlər və oyunlar təklif edilir. Məsələn, eşitmə yaddaşını inkişaf etdirmək üçün uşaqlara qısa hekayələrin oxunması, sual-cavab, söz və cümlələrin təkrarı kimi fəaliyyətlər tövsiyə olunur.

Ümumiləşdirmə apararaq deyə bilərik ki, kiçikməktəbli yaşı dövründə uşaqların vizual qavrayışını inkişaf etdirmək üçün tövsiyə olunan fəaliyyətlər bunlardır:

-Həndəsi fiqurların, şəkillərin kopyalanması;
-Eyni şəkillərin tapılması;
-Tapmaca və ya "puzzle" oyunlarının oynanması;
-Obyektlərin xüsusiyyətlərinin (forması, rəngi, ölçüsü və s.) müqayisə və siniflərdirilməsi;
-Hərflərin, rəqəmlərin, sözlərin uyğunlaşdırılması, qruplaşdırılması və adlandırılması;
-Dinlənilən hekayə ilə bağlı şəkilli kartların düzgün sıralanması;
-Blok modellərinin təkrar-təkrar qurulması.

Öyrənmə çətinlikləri olan şagirdlərin yaddaş problemlərinin öhdəsindən gəlmək üçün müəllimlər onlara yeni məlumatları müzakirə edərək və vizuallaşdıraraq təqdim etməlidirlər. Məsələn, uşaqlara qrammatikanı öyrədərkən, vizual şəkillər və ya vizual xəritə istifadə edilməsi yadda saxlamaqda çətinlik çəkən uşaqlara kömək edə bilər. Həmçinin pedaqoji ədəbiyyatlarda göstərilir ki, mətn elementlərinin vizuallaşdırılması, məkanla əlaqəli elementlər arasında əlaqənin qurulması öyrənmə çətinliyi olan şagirdlərin məlumatları daha asan mənimsəməsinə imkan yaradır. Bu zaman yeni biliklərin əvvəlki biliklərlə əlaqələndirilməsi və uzunmüddətli yaddaşa kodlanması daha da güclənir (Bender, 2008).

Metakoqnitiv çatışmamazlıqlar

Öyrənmə çətinliyi olan şagirdlərdə müşahidə edilən digər bir problem isə metakoqnitiv bacarıqların zəif olmasıdır. Metakoqnitiv bacarıqlar dedikdə bir işin hansı formada icra ediləcəyinə dair təxmin (proqnoz), planlama, monitorinq (izləmə) və real qiymətləndirmə bacarıqları nəzərdə tutulur. Təxmin bacarığı ilə şagird öyrənmə prosesinin hədəfləri, prosesin nə qədər vaxt aparacağı və nəticələri haqqında düşünməyə istiqamətlənir. Bu bacarığın formalaşması ilə şagirdlər qarşılaşdıqları situasiyanın çətin olub-olmadığını öncədən müəyyən edir, tapşırığın çətin və ya asan olmasından asılı olaraq icra formasını, yəni sürətli və ya yavaş icra etməyin daha məqsədəuyğun oduğuna dair qərar verə bilir.

Metakoqnitiv əməliyyatlar şagirdin koqnitiv fəaliyyətlər çərçivəsində istifadə etdiyi ardıcıl proseslər toplusudur. Bu proseslər həm öyrənməyi tənzimləməyə köməkçi olur, həm də koqnitiv fəaliyyətləri planlaşdırmağı və izləməyi özündə ehtiva edir. Nümunə olaraq deyə bilərik ki, bir paraqraf mətni oxuduqdan sonra şagird paraqrafda qeyd edilmiş əsas anlayışları dərk edib-etməməsini özünə sual verərək müəyyənləşdirə bilər. Burada şagirdin koqnitiv hədəfi mətni anlamaqdır. Əgər şagird öz suallarına cavab verə bilmirsə bu onun mətni dərk etmədiyinin göstərir. Belə olduğu halda şagird koqnitiv hədəfə necə çatacağına qərar verməlidir. Məsələn, mətni təkrar oxumağa qərar verə bilər. İkinci dəfə oxuduqdan sonra suallarına cavab verə bilirsə, demək ki, hədəfinə çatıb və biliyini qiymətləndirə bilər. Həmçinin şagird metakoqnitiv bacarıqlardan istifadə edərək özündən aşağıdakı sualları soruşa bilər:

Planlaşdırarkən: "Bu mövzuda hansı məlumatı əldə etməyim mənim üçün faydalı ola bilər?", "İlk olaraq nə etməli, hardan başlamalıyam?", "Bu mətni nə üçün oxuyuram?"

Tətbiq edərək izlərkən: "Doğru istiqamətdə irəliləyirəm?", "Bundan sonra nə edəcəm?", "Nəyi dəyişdirməliyəm?"

Qiymətləndirərkən: "Bütün addımları doğru icra etdimmi?", "İcra etdiyim işdən nə öyrəndim?"

Digər şagirdlərdən fərqli olaraq öyrənmə çətinliyi olan şagirdlər öz oxuma və öyrənmə proseslərini planlaşdırmaqda və bu prosesin nə dərəcədə uğurlu olduğuna dair qiymətləndirmə apararkən çətinlik çəkirlər. Bəzi şagirdlərin öz problemlərini öncədən proqnozlaşdırmaqda, onları başa düşməkdə və bu problemlərə uyğun həll yollarını tapıb praktikada tətbiq etməkdə ya bacarıqsız olduqları, ya da bu proseslərdə yaşıdlarına nisbətən geridə olduqları müəyyənləşdirilmişdir.

Məsələn, riyazi hesaplamalarda çətinliyi olan şagirdlərin metakoqnitiv bacarıqlarında zəifliklər müşahidə edilmişdir. Riyazi problemlərin necə həll ediləcəyinə dair planlama, təxmin etmə və strategiya seçmə sahələrində çətinlik çəkdikləri aşkarlanmışdır. Bu hal isə onların problemləri düzgün analiz və həll etmə zamanı çətinlik çəkməsinə səbəb olur. Eyni zamanda öyrənmə çətinliyi olan uşaqlarda problemin həllini planlaşdırma və uyğun üsulu seçmə bacarıqları zəif olur.

Sosial Çatışmamazlıqlar

Öyrənmə çətinliyi olan şagirdlərin çoxunda akademik, dil və metakoqnitiv çatışmazlıqlara əlavə olaraq sosial bacarıqlar sahəsində də çətinliklər müşahidə olunur. Aparılan araşdırmalarda, bu cür şagirdlərin:

-Sosial bilik və münasibət problemləri səbəbindən sosial davranışlarda çətinlik yaşadıqları;

-Sosial qavrayışdakı çatışmamazlıqlar səbəbilə zarafat və yumoru başa düşə bilmədikləri;
-Yenə də sosial problemlər səbəbilə üz ifadələri və bədən dili ilə ötürülmüş mesajları (məsələn, xoşbəxtlik, kədər, əsəb, sevgi, nifrət və s.) başa düşməkdə çətinlik çəkdikləri;
-Sosial siqnalları oxuya bilməmələrinin onların psixososial uyğunlaşmalarına neqativ təsir göstərdiyi qeyd olunur.
Yuxarıda sadalanan amillərlə yanaşı, bu şagirdlərin:
-Dostluq qurma bacarıqlarında (məsələn: özünü təqdim etmə, söhbətə başlama, kömək istəmə, qəbul etmə və paylaşma);
-Emosional özünü idarəetmə bacarıqlarında (məsələn: öz duyğularını və başqalarının hisslərini anlama, duyğuları tənzimləmək, aqresiyanı idarə etmək, əsəbi halda problemin nə olduğunu uyğun dillə bildirmək, nəticələrə görə davranmaq və s.);
-Stresslə mübarizə bacarıqlarında (məsələn: "xeyr" sözünü deyə bilmək, istənilməyən işdən imtina edə bilmək, pis bir vəziyyətdən uzaq durmaq, vicdanlı və dürüst davranmaq) çatışmazlıqlar yaşadıqları vurğulanır.

Sosial münasibət qura bilməyən bu şagirdlərin sosial bacarıq səviyyələri aşağı olur və digər uşaqlar tərəfindən tez-tez rədd edilirlər (Rourke et., 2002). Ümumiyyətlə, sosial çatışmamazlıqlar bəzən əsas bir problem, bəzən isə başqa bir problemin nəticəsi kimi ortaya çıxır. Bu məsələ uzun illərdir ki, dünya tədqiqatlarının geniş müzakirə mövzusuna çevrilmişdir.

Bəzi mütəxəssislər sosial çatışmazlıqların öyrənmə çətinliklərinin əsas meyarlarından biri olduğunu, bəziləri isə bu problemlərin öyrənmə çətinliyinə deyil, başqa əsas problemlərə bağlı olaraq ortaya çıxdığını ifadə etmişdir. Bəzi tədqiqatçılar isə bunların öyrənmə çətinliyinin bir hissəsi olduğunu və sözsüz davranışların da bu çətinliklərə daxil edilməli olduğunu irəli sürmüşlər (Buka, 1998).

Ümumiləşdirmə apararaq deyə bilərik ki, sosial çatışmazlıqlar öyrənmə çətinliyi ilə birbaşa əlaqəlidir. Öyrənmə çətinliyi olan şagirdlərin sosial bacarıqlarında da çatışmazlıqlar mövcuddur. Şagirdlərin sosial bacarıqlarının ləng inkişaf etməsi məktəbə və akademik uğura mənfi təsir göstərir. Şagirdlərin sosial bacarıqlardakı bu geriliyi onların həmyaşıdları tərəfindən qəbul edilməməsinə, hətta cəmiyyətdən təcrid olunmasına səbəb ola bilər. Bu isə sinifdəki fəaliyyətlərə və dərslərə qoşulmalarına maneə yaradır və nəticədə akademik uğurlarına mənfi təsir göstərir.

Uşağın həmyaşıdları ilə sosial münasibətlərdəki çətinlikləri və akademik uğuru arasındakı əlaqə olduqca güclüdür. Sosial bacarığı formalaşdırmaq və inkişaf etdirmək üçün şagirdlərin dərs prosesində bu bacarıqları mənimsəməsinə imkan verən proqramlar təqdim edilməlidir (Stein et., 2004). Əgər bu bacarıqlar sistemli şəkildə öyrədilərsə, şagirdlərin məktəbdə sosial münasibətlərin içərisinə daxil olmaları, cəmiyyət tərəfindən qəbul edilmələri və öz akademik potensiallarını həyata keçirmələri asanlaşacaqdır.

Öyrənmə çətinliyi olan uşaqların sosiallaşmasını formalaşdırmaq üçün dəstəkləyici fəaliyyətlərin çox mühüm olduğu vurğulanır. Bu fəaliyyətlər arasında oyunlar, modelləşdirmə və müəllim rəhbərliyi ilə aparılan məşqlər yer ala bilər. Ənənəvi olaraq sosial bacarıqlar adətən tədris planlarında ayrıca mövzu kimi öyrədilməsə də, bu gün artıq sosial bacarıqların öyrədilməsi fəal və praktik şəkildə həyata keçirilir.

Digər tərəfdən, sosial bacarıqlar uşaq ədəbiyyatı vasitəsilə, yəni kitab oxuma və müzakirə yolu ilə də öyrədilə bilər. Məsələn, qrup şəklində aparılan bir fəaliyyət zamanı uşaq kitabındakı qəhrəmanın qarşılaşdığı problemin həlli üçün sosial bacarıqlar müzakirə edilir və qəhrəmanın göstərdiyi davranışlar model kimi təqdim olunur. Bu üsul həm real həyatdan nümunələr təqdim edir, həm də öyrənmə çətinliyi olan uşaqların daha asan öyrənməsinə şərait yaradır.

Öyrənmə çətinliyi olan uşaqların sosial çatışmamazlıqlarının aradan qaldırılması məqsədi ilə həmyaşıdlarının təsirindən istifadə edilə bilər (Mercer & Pullen, 2005). Bu təsiri artırmaq üçün sosial bacarıqların tədrisində aşağıdakı sahələrin tədris proqramına daxil edilməsi tövsiyə olunur:

Söhbət bacarıqları – bədən dilindən istifadə, salamlaşma, özünü təqdim etmə və s.

Dostluq bacarıqları – tərif demək və qəbul etmək, qrup fəaliyyətlərinə qoşulmaq, paylaşmaq və əməkdaşlıq göstərmək. Çətin vəziyyətlər üçün lazım olan bacarıqlar – tənqidə münasibət bildirmək, "yox" deməyi bacarmaq, üzr istəmək, rəhbərlik və ya istiqamət almaq və s.

Problemin həlli bacarıqları – müzakirə aparmaq, arqumentlər irəli sürmək, razı salmaq və s.

Öyrənmə çətinliyi olan şagirdlərin dərs prosesində (oxuma və yazı aktlarında) akademik çatışmamazlıqlarla yanaşı, sosial və davranış çətinlikləri yaşadığı müşahidə edilir. Sosial bacarıqlarla yanaşı məntiqi düşünmə, diqqəti yönəltmə və planlama bacarıqlarında da gerilik müşahidə olunur. Bu isə öyrənmə çətinliklərinin yalnızca akademik deyil, eyni zamanda sosial və davranış sahələrinə də təsir etdiyini göstərir.

Bu səbəbdən, öyrənmə çətinliklərinin inkişaf və sosial bacarıqlarla olan əlaqəsi dəyərləndirilməli və tədris planları bu çətinlikləri nəzərə alaraq hazırlanmalıdır. Bu cür yanaşmalar uşaqların həmyaşıdlarla əlaqəsini gücləndirməyə və daha

funksional bir fərd kimi cəmiyyətə inteqrasiyasına kömək edəcəkdir.

Diqqət problemləri

Öyrənmə çətinliyi olan uşaqlarda diqqət problemləri olur. Bu hal daha çox Diqqət Əksikliyi və Hiperaktivlik Pozuntusu (DƏHP) ilə birlikdə görülür. Araşdırmalarda göstərilir ki, DƏHP olan şagirdlərin 97%-də öyrənmə çətinliyi mövcuddur (Stein et., 2004). Bu isə onların dərs zamanı diqqətini cəmləyə, uzun müddət mərkəzləşdirə və saxlaya bilməmələri ilə əlaqələndirilir. Təbiidir ki, bu kimi çətinliklər uşaqların akademik və sosial fəaliyyətinə öz neqativ təsirini göstərir.

Diqqət problemi olan şagirdlər üçün dərs mühiti onların diqqətlərini yayındırmayacaq şəkildə təşkil olunmalıdır. Bundan əlavə:

-Dərs izahının qısa, aydın, konkret və maraqlı olması;
-Şifahi tapşırıqların vizual elementlərlə dəstəklənməsi;
-Dərs prosesində təkrar etmə və müxtəlif duyğulara xitab edən üsullardan istifadə olunması;
-Bədən dili, mimika və jestlərdən istifadə edilməsi tövsiyə edilir.

Müəllimin sinifdəki fəaliyyətinin interaktiv formada təşkil edilməsi, hərəkətliliyin qorunması diqqətin mərkəzləşməsinə kömək edir. Bundan əlavə olaraq, jest və mimikaların yerində istifadəsi, vizual dəstəklər, açıq-aşkar və dəqiq izahlar şagirdin diqqətini dərsə cəlb edə bilər. Həmçinin vacib məlumatların vurğulanması, müəllimin əsas məqamlarda səs tonunu qaldırması da diqqətin davamlılığına dəstək ola bilər.

Motor problemlər

Öyrənmə çətinliyi olan uşaqlarda motor bacarıqlarla əlaqəli bir sıra çətinliklərin olduğu aşkarlanmışdır (Badian, 1992). Xüsusilə, öyrənmə çətinliyi olan uşaqlarda böyük motor bacarıqları sahəsində, yəni bədənin, qolların, ayaqların və əllərin koordinasiyalı şəkildə işləməsi ilə bağlı problemlər mövcuddur. Öyrənmə çətinliyi olan şagirdlər yerimə, qaçış, tullanma, tarazlıq saxlama, top tutma, əşyanı fırlatma və yaxalama kimi hərəkətlərin icrasında çətinlik çəkə bilərlər.

Öyrənmə çətinliyi olan uşaqların kiçik motor bacarıqlarının inkişaf xüsusiyyətlərinə nəzər yetirsək deyə bilərik ki, onlar öz-özünə geyinmək, yemək yemək, düymə bağlamaq və açmaq, qələm tutmaq, qayçıdan istifadə etmək və s. kimi bacarıqlarda çətinlik çəkirlər. Aparılan tədqiqatlarda öyrənmə çətinliyi olan uşaqların kiçik və böyük motor bacarıqlarında çatışmazlıqlar yaşadığı və bunun onların akademik uğurlarına təsir göstərdiyi müəyyən edilmişdir. Bu səbəblə, bədən tərbiyəsi dərslərində motor bacarıqların dəstəklənməsi və inkişaf etdirilməsi şagirdlərin ümumi akademik bacarıqlarının artırılmasına kömək edə bilər.

Metodologiya

Bu tədqiqat öyrənmə çətinliyi olan uşaqlarda rast gəlinən dil, qavrayış, diqqət, sosial və motor bacarıq problemlərinin təhlili məqsədilə aparılmışdır. İşin məqsədi, bu problemlərin mahiyyətini, onların akademik və sosial həyata təsirini ədəbiyyat əsasında analiz etmək, mövcud yanaşmaları və müdaxilə üsullarını müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqat nəzəri-təsviri (deskriptiv) metod əsasında hazırlanmışdır. Əsasən yerli və xarici mənbələrdəki araşdırmalar, elmi ədəbiyyatlar, statistik məlumatlar və mövcud tədqiqat nəticələri analiz olunmuşdur. Bununla yanaşı, mövcud elmi tədqiqatlarda əldə olunmuş nəticələrə əsaslanaraq ümumiləşdirmələr edilmişdir. İşin əsasını mövcud məlumatların təhlili təşkil edir və praktiki eksperiment və ya sahə işi aparılmamışdır.

Bu metodoloji yanaşma, öyrənmə çətinliyi olan uşaqlarda müşahidə edilən ümumi problemləri elmi ədəbiyyat əsasında sistemləşdirməyə və müvafiq pedaqoji, psixoloji və metodiki tövsiyələr irəli sürməyə imkan verir.

Nəticə

Aparılmış nəzəri təhlillər göstərdi ki, öyrənmə çətinliyi olan uşaqlarda müxtəlif sahələr üzrə ciddi problemlər müşahidə olunur. Xüsusilə dil bacarıqları, qavrayış, diqqət, yaddaş, metakoqnitiv bacarıqlar, motor bacarıqları və sosial münasibətlər sahəsindəki çatışmazlıqlar bu uşaqların təhsil həyatına neqativ təsir göstərir. Belə uşaqlarda söz ehtiyatının azlığı, fonoloji məlumatı anlamaqda çətinlik, oxuma və yazma proseslərində gerilik, sosial siqnalları dərk etmə və idarəetmə çətinlikləri, habelə vizual-auditor qavrayışın zəifliyi geniş yayılmışdır.

Tədqiqat nəticəsində aydın oldu ki, bu çətinliklərin yalnız akademik deyil, psixososial sahələrdə də mənfi nəticələrə səbəb olduğu müşahidə olunur. Bu problemlər zamanında aşkarlanmadıqda və müdaxilə olunmadıqda uşağın təhsil prosesindən geri qalması, sosial mühitdən təcrid olunması və öz potensialını tam şəkildə nümayiş etdirə bilməməsi kimi hallara gətirib çıxara bilər.

Bir sözlə, öyrənmə çətinliyi olan uşaqlarda akademik çətinliklərlə yanaşı, erkən yaşlardan etibarən çoxsaylı idrak və sosial problemlər də müşahidə olunur. Aparılan tədqiqatlar göstərir ki, bu cür uşaqlarda müşahidə edilən dil pozuntuları, qavrayıcı və ifadəedici dil çətinlikləri, qavrama pozuntuları, yaddaş çatışmamazlıqları, sosial idrak və sosial bacarıqlarda zəiflik, diqqət problemləri və motor bacarıqlardakı çatışmamazlıqlar sosial bacarıqların zəif inkişafına və akademik uğursuzluğa səbəb ola bilər. Bu səbəbdən, öyrənmə çətinlikləri

olan uşaqlarla iş zamanı yuxarıda sadalanmış çətinlikləri nəzərə alaraq hazırlanan kompleks yanaşma və dəstək strategiyalarına ehtiyac vardır. Bu isə yalnız ailə, məktəb və mütəxəssis (loqoped, psixoloq və s.) əməkdaşlığı ilə mümkün ola bilər.

Təkliflər

1. Erkən diaqnostika və müdaxilə: Öyrənmə çətinliklərinin erkən mərhələdə müəyyən edilməsi və fərdi müdaxilə planlarının hazırlanması uşağın gələcək inkişafı üçün böyük əhəmiyyət daşıyır.
2. Fərdi təhsil yanaşması: Bu kateqoriyaya daxil olan uşaqlar üçün təlim proqramları onların fərdi xüsusiyyətləri nəzərə alınmaqla uyğunlaşdırılmalı, tədris tempi və üsulları çevik şəkildə tənzimlənməlidir.
3. Müəllim və valideynin birgə əməkdaşlığı: Uşağın məktəbdəki davranış və təhsil göstəricilərinin inkişafı üçün müəllimlərlə valideynlər arasında davamlı və effektiv əməkdaşlıq vacibdir.
4. Loqopedik və psixoloji dəstək xidmətləri: Öyrənmə çətinliyi olan uşaqlara məktəb daxilində və ya xarici mütəxəssislər vasitəsilə dil, diqqət və sosial bacarıqlar üzrə mütəmadi dəstək göstərilməlidir.
5. Təlimdə interaktiv və vizual metodlardan istifadə: Vizual materiallar, praktik oyunlar və modelləşdirmə kimi yanaşmalar uşaqların qavrayış və yaddaş bacarıqlarını inkişaf etdirmək üçün təsirli ola bilər.
6. Sosial bacarıqların inkişafı üzrə proqramlar: Şagirdlərə dostluq, ünsiyyət, stresslə mübarizə və problemin həlli kimi sosial bacarıqların öyrədilməsi məqsədilə ayrıca proqramlar hazırlanmalı və tətbiq edilməlidir.
7. Metakoqnitiv strategiyaların tədrisə inteqrasiyası: Şagirdlərə öz öyrənmə proseslərini planlama, monitorinq və qiymətləndirmə bacarıqları öyrədilməlidir. Bu bacarıqlar onların özlərini daha yaxşı idarə etmələrinə kömək edəcək.
8. Məktəb proqramlarının adaptasiyası: Rəsmi tədris proqramları öyrənmə çətinliyi olan uşaqların ehtiyaclarını nəzərə alacaq şəkildə çevik və mərhələli surətdə tətbiq olunmalıdır.
9. Motor bacarıqların dəstəklənməsi: Kiçik və böyük motor bacarıqlarda gerilik müşahidə olunan uşaqlar üçün məktəbdə xüsusi fiziki fəaliyyət proqramları təşkil edilməli, bu uşaqların gündəlik fəaliyyətlərdə müstəqil və funksional şəkildə iştirak etmələrinə şərait yaradılmalıdır.
10. Davamlı monitorinq və qiymətləndirmə: Tədris prosesində bu uşaqlarla bağlı mütəmadi olaraq müşahidələr aparılmalı, inkişaf göstəriciləri dəyərləndirilməli və nəticələrə əsasən təlim yanaşmaları müvafiqləşdirilməlidir. Bu, uşaqların tədrisə verdiyi cavabları izləmək və müdaxilə planlarını dinamik saxlamaq baxımından əhəmiyyətlidir.

Bütün bunlar onu göstərir ki, öyrənmə çətinliyi olan uşaqlara yalnız akademik deyil, eyni zamanda sosial, emosional və motor sahələri əhatə edən çoxsahəli və kompleks yanaşma tələb olunur. Bu isə pedaqoqların, valideynlərin və mütəxəssislərin sıx əməkdaşlığı ilə mümkündür.

ƏDƏBİYYAT SİYAHISI:

1. Badian, N. (1992). Nonverbal Learning Disability, School Behavior, and Dyslexia. *Annals of Dyslexia*, 42, 159–178.
2. Bender. W.N. (2008). *Learning disabilities: Characteristics, identification and teaching strategies.* Boston: Pearson, 58-62.
3. Bishop, D.V., Adams, C. (1990). A prospective study of the relationship between specific language impairment, phonological disorders and reading retardation. *Journal of Child Psychology and Psychiatry*, 31(7), 1027-1050.
4. Buka, S. (1998). A Researcher's View: Learning-Disabled Children Get Lost in Definitions. *Brown University Child & Adolescent Behavior Letter*, 14, 1–3.
5. Gibbs, D.P., Cooper, E.B. (1989). Prevelence of communication disorders in students with learning disabilities. *Journal of Learning disabilities*, (60), 60-63.
6. Heward. W.L. (2006) *Exceptional children: An introduction to special education*. New Jersey: Pearson, 47-55.
7.Lerner, J.W. (2000). *Learning disabilities: Theories, diagnosis and teaching strategies*. Boston: Houghton Mifflin Company, 18-26.
8. Mercer, C.D., Pullen, P.C. (2005) *Students with learning disabilities*. New Jersey: Pearson, 22-33.
9. Mercer, C.D., Mercer, A.R. (2005) *Teaching students with learning problems*. New Jersey; Pearson, 66-74.
10. Rourke, B., Ahmad, S., Collins, D., Hayman-Abello, B., Hayman-Abello, S. and Warriner, E. (2002). Child Clinical / Pediatric Neuropsychology: Some Recent Advances. *Annual Review of Psychology*, 53, 309–339.
11. Stein, M., Klin, A. and Miller, K. (2004). When Asperger's Syndrome and a Nonverbal Learning Disability Look Alike. *Pediatrics*, 114, 5, 1458–1463.

DOİ: 10.32010/CBZJ3103

MƏKTƏBƏQƏDƏR İNKLÜZİV QRUPLARDA İNKİŞAFETDİRİCİ TƏLİM MÜHİTİNİN TƏŞKİLİNİN ELMİ-PEDAQOJİ PRİNSİPLƏRİ

Nərmin Ceyhun MƏRDANOVA
Azərbaycan Dillər Universiteti
Orcid: https://orcid.org/0009-0007-2319-0344
E-mail: nermin050898@gmail.com

Xülasə: Müasir təhsil sistemində inklüzivlik konsepsiyası insan hüquqları, bərabər imkanlar və sosial ədalət prinsiplərinə əsaslanır. Məktəbəqədər təhsil səviyyəsində inklüziv yanaşmanın tətbiqi uşaqların fərdi inkişaf xüsusiyyətlərini nəzərə alan və onların potensialını inkişaf etdirən pedaqoji mühitin yaradılmasını zəruri edir. Bu kontekstdə, qayğıkeş təlim mühiti uşağın şəxsiyyətyönümlü, fəaliyyətə əsaslanan və sosial-emosional inkişafını təmin edən vacib pedaqoji amildir.
Açar sözlər: inklüziv təhsil, məktəbəqədər təhsil, qayğıkeş mühit, pedaqoji prinsiplər.

CIENTIFIC-PEDAGOGICAL PRINCIPLES OF ORGANIZING A DEVELOPMENTAL LEARNING ENVIRONMENT IN INCLUSIVE PRESCHOOL GROUPS

Narmin Ceyhun MARDANOVA
Azerbaijan University of Languages
Orcid: https://orcid.org/0009-0007-2319-0344
E-mail: nermin050898@gmail.com

Abstract: The idea of inclusion in the modern education system is based on the principles of human rights, equal opportunities and social justice. The application of an inclusive approach at the preschool level of education necessitates the creation of a pedagogical environment that takes into account the individual development characteristics of children and reveals their potential. In this context, a developmental learning environment acts as an important pedagogical factor that ensures the personality-oriented, activity-based and socio-emotional development of the child.
Keywords: inclusive education, preschool education, developmental environment, pedagogical principles.

НАУЧНО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ОРГАНИЗАЦИИ РАЗВИВАЮЩЕЙ ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЫ В ДОШКОЛЬНЫХ ИНКЛЮЗИВНЫХ ГРУППАХ

Нармин Джейхун МАРДАНОВА
Азербайджанский Университет Языков
E-mail: https://orcid.org/0009-0007-2319-0344
Электронная почта: nermin050898@gmail.com

Резюме: Идея инклюзии в современной системе образования основана на принципах прав человека, равных возможностей и социальной справедливости. Применение инклюзивного подхода на дошкольном уровне образования обусловливает необходимость создания педагогической среды, учитывающей индивидуальные особенности развития детей и раскрывающей их потенциал. В этом контексте развивающая среда обучения выступает важным педагогическим фактором, обеспечивающим личностно-ориентированное, деятельностное и социально-эмоциональное развитие ребенка.
Ключевые слова: инклюзивное образование, дошкольное образование, развивающая среда, педагогические принципы.

Giriş

Müasir təhsil sistemində inklüzivlik ideyası insan hüquqları, bərabər imkanlar və sosial ədalət prinsiplərinə əsaslanır. Məktəbəqədər təhsil pilləsində inklüziv yanaşmanın tətbiqi uşaqların fərdi inkişaf xüsusiyyətlərini nəzərə alan, onların potensialını üzə çıxaran pedaqoji mühitin yaradılmasını zəruri edir. İnkişafetdirici təlim mühiti bu kontekstdə uşağın şəxsiyyət yönümlü, fəaliyyət əsaslı və sosial-emosional inkişafını təmin edən mühüm pedaqoji amil kimi çıxış edir.

İnklüziv qruplarda belə mühitin təşkili təkcə tədris şəraitinin deyil, həm də münasibətlərin, qarşılıqlı dəstəyin və əməkdaşlığın sistemli şəkildə

qurulmasını tələb edir. Bu baxımdan, inkişafetdirici təlim mühitinin elmi-pedaqoji prinsiplərinin müəyyənləşdirilməsi inklüziv təhsil prosesinin keyfiyyət göstəricilərindən biri hesab olunur.

İnkişafetdirici təlim mühiti – uşaqların idrak, emosional, sosial və yaradıcılıq potensialının hərtərəfli inkişafına şərait yaradan pedaqoji sistemdir (Booth, T., & Ainscow, M. (2016). Bu mühitdə təlim prosesi uşağın aktiv iştirakına, müstəqil düşünməsinə və özünü ifadə etməsinə əsaslanır. İnklüziv qruplarda belə mühitin əsas məqsədi, bütün uşaqlar üçün bərabər öyrənmə imkanları yaratmaqla yanaşı, fərdi inkişaf istiqamətlərini dəstəkləməkdir.

İnkişafetdirici mühitin effektivliyi aşağıdakı göstəricilərlə müəyyən olunur:

- uşaqların fəaliyyətə motivasiyası və iştirak fəallığı;
- sosial qarşılıqlı əlaqə və əməkdaşlıq bacarıqları;
- təlimdə yaradıcılıq və təşəbbüskarlığın təzahürü;
- emosional təhlükəsizlik və mənəvi rahatlıq.

Məktəbəqədər inklüziv qruplarda inkişafetdirici təlim mühitinin qurulması bir sıra elmi-pedaqoji prinsiplərə əsaslanır:

Məktəbəqədər inklüziv qruplarda inkişafetdirici təlim mühitinin qurulması pedaqogikanın əsas prinsipləri üzərində formalaşır. Bu prinsiplərdən biri fərdiləşdirmə prinsipidir. O, uşağın fərdi xüsusiyyətlərini, istedad və qabiliyyət səviyyəsini və inkişaf tempini nəzərə alaraq təlim fəaliyyətinin təşkilini nəzərdə tutur. Hər bir uşağın fərqli maraqları və potensial imkanları olduğu üçün təlim materialları və üsulları fərqləndirilməlidir. İnteqrativlik prinsipi təlim prosesində idrak, emosional, sosial və yaradıcılıq fəaliyyətlərinin qarşılıqlı əlaqəsini təmin edir. İnklüziv qruplarda müxtəlif bacarıqlara malik uşaqların birgə fəaliyyəti bu inteqrasiyanın təbii şəkildə formalaşmasına kömək edir. Fəaliyyət yönümlülük prinsipi uşaqların təlim prosesində aktiv iştirakını təmin edir. Oyunlar, layihələr, tədqiqat tapşırıqları və yaradıcı fəaliyyətlər uşaqların maraq dairəsini genişləndirir və onların öyrənməyə olan münasibətini pozitiv istiqamətə yönəldir. Əməkdaşlıq və sosial qarşılıqlı təsir prinsipi inklüziv təlim mühitinin əsasını təşkil edir (Vygotsky, L. S. (1978). Bu mühitdə uşaqlar bir-biri ilə qarşılıqlı hörmət, empatiya və dəstək münasibətləri qurmağı öyrənirlər. Belə münasibətlər həm sosial bacarıqları formalaşdırır, həm də uşaqların emosional sabitliyini gücləndirir. Dəstək və müsbət münasibət prinsipi müəllim, valideyn və digər mütəxəssislərin qarşılıqlı əməkdaşlığını təmin edir. Uşaqlara fərdi yanaşma, psixoloji təhlükəsizlik və emosional rahatlıq şəraiti yaradılır. Yaradıcı inkişaf prinsipi isə uşaqların təbii maraqlarına və ideyalarına açıq münasibəti ifadə edir. Uşağın yaradıcılıq qabiliyyətinin stimullaşdırılması onun özünüifadə və özünüreallaşdırma ehtiyaclarını ödəyir, eyni zamanda intellektual inkişafına müsbət təsir göstərir.

İnklüziv təhsildə müəllim inkişafetdirici təlim mühitinin təşkilatçısı, fasilitatoru və müşahidəçisidir (Guralnick, M. J. (2017). Onun əsas vəzifəsi uşaqların fərdi imkanlarını nəzərə alaraq təlimi adaptasiya etmək, müsbət psixoloji atmosfer yaratmaq və inklüziv dəyərləri gündəlik fəaliyyətə inteqrasiya etməkdir.

Müəllimin pedaqoji imkanlarına aşağıdakılar daxildir:

- fərqli səviyyələr üçün tədris vəsaitlərinin adaptasiyası;
- müşahidə və diferensial qiymətləndirmə vasitələrinin tətbiqi;
- oyun və layihə əsaslı öyrənmə strategiyalarının təşkili;
- ailə ilə qarşılıqlı əməkdaşlıq sisteminin qurulması.

Məktəbəqədər inklüziv qruplarda inkişafetdirici təlim mühitinin təşkilinin elmi-pedaqoji prinsipləri uşaqların potensial imkanlarının reallaşdırılması, sosiallaşma prosesinin dəstəklənməsi və öyrənməyə motivasiyanın artırılmasına xidmət edir. Belə mühit uşaqların fərdi fərqlərini nəzərə alaraq bərabər

imkanlı, təhlükəsiz və yaradıcı öyrənmə atmosferi yaradır.

Bu səbəbdən, gələcəkdə pedaqoji kadr hazırlığı və ixtisasartırma proqramlarında inklüziv təlim mühitinin qurulması üzrə elmi-praktik biliklərin sistemli şəkildə tədrisi mühüm əhəmiyyət kəsb edir.

Zhang Ying. Research on Talent Cultivation of Preschool Education Professionals by Integrating Digital

Empowerment Educator Spirit
[J]. Modern Vocational Education,2024, (05):61-64.
[2] Min Huizu. The Dilemma of Children's Growth Space in the Digital Era and Its Resolution[J/OL]. Contemporary
Education Forum, 1-13[2024-03-26].
[3] Luo Jianghua, Wang Jinyu. Interpretation, core elements and implementation of digital governance in preschool
education[J]. Modern Education Management, 2024, (01):37-48.
[4] Chen Hua. Innovative application of digital technology in early childhood education exhibition and preschool
education[J]. China Conference and Exhibition (China Conference),2023, (24):94-96.
[5] LI Jing, Sun Xiaonan. Construction and application of case base for preschool education based on digital teaching[J].
Journal of Xiangyang Institute of Vocational Technology,2023,22(06):75-79.
[6] Cai Yingqi, Jim Shuwei, Zhang Liying. Digital technology-enabled sustainable development of preschool education
[J]. Educational Research and Experimentation,2023, (06):95-102.
[7] Shen Qi. The application of digital technology in kindergarten preschool education [C]. China Wisdom Engineering

Research Association. Proceedings of the Symposium on Theory and Practice of Educational Innovation,2023:2.

ƏDƏBİYYAT SİYAHISI:

1. Booth, T., & Ainscow, *M. (2016).* The Index for Inclusion: Developing learning and participation in schools. Bristol: Centre for Studies on Inclusive Education *(CSIE).*
2. Bronfenbrenner*, U. (1994).* Ecological models of human development. *In* International Encyclopedia of Education *(*Vol. 3, pp. 37–43). Oxford: Elsevier.
3. Florian, L. (2019*).* On the necessary co-existence of special and inclusive education. International Journal of Inclusive Education, 23(7–8), 691–704.
4. Guralnick, M. J. (2017). Early intervention for children with intellectual disabilities: Current knowledge and future prospects. Journal of Applied Research in Intellectual Disabilities*, 30(3), 383–392.*
5. OECD. (2021). Inclusive early childhood education: Learning from promising practices. Paris: OECD Publishing.
6. UNESCO. (2017). A guide for ensuring inclusion and equity in education. *Paris: UNESCO Publishing.*
7. Vygotsky, *L. S. (1978).* Mind in Society: The development of higher psychological processes. Cambridge, MA: Harvard University Press.

DOİ: 10.32010/OTYY4542

RİYAZİYYAT FƏNNİNİN İBTİDAİ PİLLƏDƏ TƏDRİSİNƏ HAZIRLIQDA İNTERAKTİV RESURSLARDAN İSTİFADƏ İMKANLARI

Gülşən Ehtibar MİKAYILOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Orcid: https://orcid.org/0009-0000-3904-0999
E-mail: gulshan.mikayilova@asoiu.edu.az

Xülasə: Müasir dövrdə ibtidai pillədə riyaziyyat fənninin tədrisinə hazırlıqda interaktiv resurslardan istifadə zərurətə çevrilmişdir. Təhsil sisteminin rəqəmsal transformasiyası, informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı və rəqəmsal təlim mühitlərinin geniş yayılması bu sahədə yeni imkanlar açır. İnteraktiv resurslar – elektron dərsliklər, virtual laboratoriyalar, animasiyalı təqdimatlar, riyazi oyun və simulyasiyalar, onlayn platformalar və mobil tətbiqlər – ibtidai sinif şagirdlərinin riyazi bilikləri mənimsəməsini sürətləndirir, onların idraki fəallığını və öyrənmə motivasiyasını artırır. Bu resurslar həm şagirdlərin fərdi öyrənmə tempini nəzərə almağa, həm də müəllimlər üçün tədris prosesini daha çevik və səmərəli qurmağa şərait yaradır. İnteraktiv vasitələr şagirdlərin məntiqi və tənqidi təfəkkürünü inkişaf etdirmək, riyazi anlayışları praktik müstəvidə möhkəmləndirmək baxımından xüsusi əhəmiyyət daşıyır. Virtual laboratoriyalar və rəqəmsal oyunlar şagirdlərə abstrakt riyazi anlayışları real həyati situasiyalarla əlaqələndirmək imkanı verir. Məsələn, ədədlər, ölçmə vahidləri, həndəsi fiqurlar və məntiqi ardıcıllıqlar interaktiv tapşırıqlar vasitəsilə daha aydın və yadda qalan formada öyrədilir. Elektron testlər və avtomatik qiymətləndirmə alətləri dərhal geribildirim təmin edərək biliklərin səviyyəsini dəqiq müəyyənləşdirməyə imkan verir. Bu yanaşma həm müəllimə, həm də şagirdə təlim prosesində vaxtı səmərəli idarə etməyə şərait yaradır. Eyni zamanda, interaktiv resurslardan istifadənin pedaqoji və metodik əsasları xüsusi diqqət tələb edir. Şagirdlərin yaş xüsusiyyətləri və psixoloji inkişaf səviyyəsi nəzərə alınmalı, materiallar kurikulumun məzmun standartlarına uyğun seçilməlidir. İnteraktiv vasitələrin tətbiqi yalnız texnoloji yenilik kimi deyil, təlim strategiyalarının əsas tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. Müəllim bu resurslardan məqsədyönlü şəkildə istifadə etməklə şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirən, problem həll etməyə yönəlmiş, əməkdaşlıq və müstəqil araşdırma bacarıqlarını stimullaşdıran mühit yaratmalıdır.

İnteraktiv resursların tədrisə cəlb edilməsi həm də distant və hibrid təhsildə mühüm rol oynayır. Onlayn dərs platformaları və bulud əsaslı xidmətlər vasitəsilə şagirdlər ev şəraitində də riyazi mövzuları öyrənə, müəllim isə onların fəaliyyətinə nəzarət edə bilir. Bu, xüsusilə pandemiya və digər fövqəladə hallar zamanı tədrisin davamlılığını təmin edən əsas vasitələrdən biridir. Bundan əlavə, valideynlərin də təlim prosesinə interaktiv resurslar vasitəsilə qoşulması şagirdlərin biliklərinin möhkəmlənməsinə müsbət təsir göstərir. Nəticə olaraq, ibtidai pillədə riyaziyyat fənninin tədrisinə hazırlıqda interaktiv resurslardan istifadə XXI əsrin təhsil tələblərinə uyğun olaraq şagirdlərin riyazi savadlılığını yüksəldir, məntiqi və yaradıcı təfəkkürünü inkişaf etdirir, problem həll etmə və əməkdaşlıq bacarıqlarını gücləndirir. Elektron dərsliklər, animasiyalar, virtual mühitlər və onlayn qiymətləndirmə vasitələri təlimin keyfiyyətini artırmaqla yanaşı, müəllim və şagirdin qarşılıqlı fəaliyyətini gücləndirir, fərdi yanaşma və diferensiallaşdırılmış tədris imkanlarını genişləndirir. Bu səbəbdən interaktiv resursların məqsədyönlü, sistemli və pedaqoji əsaslara uyğun tətbiqi müasir ibtidai riyaziyyat tədrisinin səmərəliliyini təmin edən əsas amillərdən biri kimi qiymətləndirilməlidir.
Açar sözlər: riyaziyyat tədrisi, ibtidai pillə, interaktiv resurslar, rəqəmsal təhsil, informasiya-kommunikasiya texnologiyaları (İKT), elektron dərsliklər, virtual laboratoriyalar.

POSSIBILITIES OF USING INTERACTIVE RESOURCES IN PREPARATION FOR TEACHING MATHEMATICS AT PRIMARY LEVEL

Gulshan Ehtibar MİKAYILOVA
Azerbaijan State Pedagogical University
Orcid: https://orcid.org/0009-0000-3904-0999
E-mail: gulshan.mikayilova@asoiu.edu.az

Abstract: In modern times, the use of interactive resources in preparation for teaching mathematics at the primary level has become a necessity. The digital transformation of the education system, the development of information and communication technologies (ICT) and the widespread use of digital learning environments open up new opportunities in this area. Interactive resources - electronic textbooks, virtual laboratories, animated presentations, mathematical games and simulations, online platforms and mobile applications - accelerate the assimilation of mathematical knowledge by primary school students, increase

their cognitive activity and motivation to learn. These resources allow both to take into account the individual learning pace of students and to make the teaching process more flexible and efficient for teachers. Interactive tools are of particular importance in terms of developing students' logical and critical thinking and reinforcing mathematical concepts on a practical level. Virtual laboratories and digital games allow students to connect abstract mathematical concepts with real-life situations. For example, numbers, units of measurement, geometric figures, and logical sequences are taught in a clearer and more memorable way through interactive tasks. Electronic tests and automatic assessment tools provide immediate feedback, allowing for accurate determination of the level of knowledge. This approach allows both the teacher and the student to effectively manage time in the learning process. At the same time, the pedagogical and methodological foundations of using interactive resources require special attention. The age characteristics and level of psychological development of students should be taken into account, and the materials should be selected in accordance with the content standards of the curriculum. The application of interactive tools should be considered not only as a technological innovation, but also as a key component of learning strategies. By using these resources purposefully, the teacher should create an environment that develops students' creativity, focuses on problem solving, and stimulates cooperation and independent research skills.

The involvement of interactive resources in teaching also plays an important role in distance and hybrid education. Through online learning platforms and cloud-based services, students can learn mathematical topics at home, and the teacher can monitor their activities. This is one of the main tools that ensure the continuity of teaching, especially during pandemics and other emergencies. In addition, the involvement of parents in the learning process through interactive resources has a positive effect on strengthening students' knowledge. As a result, the use of interactive resources in preparation for teaching mathematics at the primary level increases students' mathematical literacy in accordance with the educational requirements of the 21st century, develops logical and creative thinking, and strengthens problem-solving and cooperation skills. Electronic textbooks, animations, virtual environments and online assessment tools, in addition to increasing the quality of teaching, strengthen the interaction between teachers and students, expand the possibilities of an individual approach and differentiated teaching. Therefore, the purposeful, systematic and pedagogically sound application of interactive resources should be considered one of the main factors ensuring the effectiveness of modern primary mathematics teaching.

Keywords: mathematics teaching, primary school, interactive resources, digital education, information and communication technologies (ICT), electronic textbooks, virtual laboratories.

ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ИНТЕРАКТИВНЫХ РЕСУРСОВ ПРИ ПОДГОТОВКЕ К ПРЕПОДАВАНИЮ МАТЕМАТИКИ В НАЧАЛЬНОЙ ШКОЛЕ

Гюльшан Эхтибар МИКАИЛОВА
Азербайджанский Государственный Педагогический Университет
Orcid: https://orcid.org/0009-0000-3904-0999
Электронная почта: gulshan.mikayilova@asoiu.edu.az

Резюме: В современном мире использование интерактивных ресурсов при подготовке к преподаванию математики в начальной школе стало необходимостью. Цифровая трансформация системы образования, развитие информационно-коммуникационных технологий (ИКТ) и повсеместное использование цифровых образовательных сред открывают новые возможности в этой области. Интерактивные ресурсы – электронные учебники, виртуальные лаборатории, анимированные презентации, математические игры и симуляции, онлайн-платформы и мобильные приложения – ускоряют усвоение математических знаний учащимися начальной школы, повышают их познавательную активность и мотивацию к обучению. Эти ресурсы позволяют не только учитывать индивидуальный темп обучения учащихся, но и сделать процесс обучения более гибким и эффективным для учителей. Интерактивные инструменты имеют особое значение для развития логического и критического мышления учащихся и закрепления математических представлений на практике. Виртуальные лаборатории и цифровые игры позволяют учащимся связывать абстрактные математические понятия с реальными ситуациями. Например, числа, единицы измерения, геометрические фигуры и логические последовательности изучаются более наглядно и запоминаемо с помощью интерактивных заданий. Электронные тесты и автоматические инструменты оценки обеспечивают мгновенную обратную связь, позволяя точно определить уровень знаний. Такой подход позволяет как учителю, так и учащемуся эффективно управлять временем в процессе обучения. При этом педагогические и методические основы использования интерактивных ресурсов требуют особого внимания. Необходимо учитывать возрастные особенности и уровень психологического развития учащихся, а материалы подбирать в соответствии с содержательными стандартами учебной программы. Применение интерактивных инструментов следует рассматривать не только как технологическую инновацию, но и как ключевой компонент стратегий обучения. Целенаправленно используя эти ресурсы, учитель должен создать среду, развивающую творческие способности учащихся, концентрирующую их на решении задач, стимулирующую навыки сотрудничества и самостоятельного

исследования.
Использование интерактивных ресурсов в обучении также играет важную роль в дистанционном и гибридном образовании. Благодаря платформам онлайн-обучения и облачным сервисам учащиеся могут изучать математические темы дома, а учитель может контролировать их деятельность. Это один из основных инструментов, обеспечивающих непрерывность обучения, особенно в период пандемий и других чрезвычайных ситуаций. Кроме того, вовлечение родителей в учебный процесс посредством интерактивных ресурсов положительно влияет на укрепление знаний учащихся. В результате использование интерактивных ресурсов при подготовке к преподаванию математики в начальной школе повышает математическую грамотность учащихся в соответствии с образовательными требованиями XXI века, развивает логическое и творческое мышление, а также укрепляет навыки решения задач и сотрудничества. Электронные учебники, анимация, виртуальные среды и онлайн-инструменты оценки, помимо повышения качества обучения, усиливают взаимодействие между учителем и учащимися, расширяют возможности индивидуального подхода и дифференцированного обучения. Поэтому целенаправленное, систематическое и педагогически обоснованное применение интерактивных ресурсов следует считать одним из основных факторов, обеспечивающих эффективность современного обучения математике в начальной школе.
Ключевые слова: обучение математике, начальная школа, интерактивные ресурсы, цифровое образование, информационно-коммуникационные технологии (ИКТ), электронные учебники, виртуальные лаборатории

.

Giriş

Müasir dövrdə cəmiyyətin inkişafı, elmin və texnologiyanın sürətli tərəqqisi ibtidai təhsilin məzmun və metodikasına yeni tələblər irəli sürür. Bu prosesdə riyaziyyat fənni xüsusi yer tutur, çünki məntiqi təfəkkürün, analitik düşünmənin və problem həll etmə bacarıqlarının formalaşmasında riyazi biliklərin rolu əvəzsizdir. İbtidai pillə isə şagirdlərin gələcək elmi və intellektual inkişafının təməlini qoyan əsas mərhələdir. Bu səbəbdən riyaziyyatın tədrisinə hazırlıqda müasir yanaşmaların tətbiqi və yeni texnoloji vasitələrin cəlb olunması təhsilin keyfiyyətini yüksəltmək baxımından xüsusi əhəmiyyət kəsb edir. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı nəticəsində interaktiv resurslardan istifadə tədris prosesinin əsas istiqamətlərindən birinə çevrilmişdir. İnteraktiv lövhələr, elektron dərsliklər, onlayn platformalar, mobil tətbiqlər, riyazi oyunlar, animasiyalı təqdimatlar və virtual laboratoriyalar ibtidai sinif şagirdlərinin öyrənmə marağını artırmaqla yanaşı, mövzuları əyani şəkildə mənimsəməyə imkan verir. Bu cür resurslar şagirdlərin fərdi inkişaf tempini nəzərə almağa, dərs prosesində onların aktiv iştirakını təmin etməyə və öyrənməni daha maraqlı və səmərəli etməyə şərait yaradır. İnteraktiv resursların istifadəsi yalnız texnoloji yenilik deyil, həm də pedaqoji-metodik yeniləşmə deməkdir. Müasir yanaşmalar müəllimdən dərsin planlaşdırılmasında innovativ üsullar seçməyi, fərdi və qrup işini təşkil etməyi, dərhal geribildirim mexanizmlərindən səmərəli yararlanmağı tələb edir. Bu imkanlar riyaziyyat dərslərinin keyfiyyətinə birbaşa təsir göstərir, şagirdlərin məntiqi və yaradıcı düşünmə qabiliyyətini, tədqiqat aparma bacarığını inkişaf etdirir. Eyni zamanda, interaktiv resurslardan səmərəli istifadə bir sıra şərtlərin yerinə yetirilməsini tələb edir. Resursların məzmunu dövlət təhsil standartlarına və ibtidai riyaziyyat kurikulumuna uyğun olmalı, şagirdlərin yaş xüsusiyyətləri və idraki səviyyəsi nəzərə alınmalıdır. Müəllim bu vasitələri yalnız əlavə vizual material kimi deyil, təlim strategiyasının ayrılmaz hissəsi kimi planlaşdırmalı, onların məqsədyönlü və sistemli tətbiqinə diqqət yetirməlidir. Beləliklə, ibtidai pillədə riyaziyyat fənninin tədrisinə hazırlıqda interaktiv resursların rolu təlimin keyfiyyətini artırmaq, şagirdlərin öyrənməyə marağını gücləndirmək və XXI əsr bacarıqlarını formalaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır. Bu mövzunun elmi-pedaqoji cəhətdən araşdırılması müasir təhsil tələblərinə uyğun tədris mühitinin yaradılmasına, şagird-müəllim-valideyn əməkdaşlığının gücləndirilməsinə və davamlı inkişafın təmin olunmasına mühüm töhfə verir.

Nəzəriyyə

Müasir dövrdə təhsilin rəqəmsallaşması və informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı ibtidai pillədə riyaziyyatın tədrisini yeni məzmunda təşkil etməyi zəruri edir. Bu baxımdan interaktiv vasitələr, xüsusən də interaktiv lövhələr müəllim və şagirdlərin dərs prosesində qarşılıqlı fəaliyyətini gücləndirən, riyazi biliklərin daha aydın və əyani mənimsənilməsinə şərait yaradan mühüm vasitə kimi çıxış edir. İnteraktiv lövhə yalnız vizual təqdimat vasitəsi olmayıb, həm də müəllimə dərs prosesini yaradıcı şəkildə qurmaq, mövzuları canlı və dinamik formada təqdim etmək imkanı verir. İnteraktiv vasitələrin mənimsənilməsi isə ardıcıl və mərhələli yanaşma tələb edir. Tanışlıq mərhələsində müəllim lövhədən əsasən sadə nümayiş funksiyaları üçün istifadə edir və onu əsasən ekran kimi dəyərləndirir. Növbəti

mərhələ olan uyğunlaşma mərhələsində artıq lövhənin əsas imkanlarından – slaydlar, şəkillər üzərində qeydlər və sadə tətbiqlərdən – istifadə olunur. Bu iki mərhələ interaktiv resurslarla ilkin iş vərdişlərinin formalaşdırılmasına xidmət edir. İnamlı istifadə mərhələsində isə müəllim mövzunun izahını daha yaradıcı yanaşmalarla təqdim edir, müxtəlif proqramlardan və şəkil-şablon kitabxanalarından aktiv şəkildə yararlanır, fərdi hazırlanmış materialları interaktiv proqram təminatına uyğunlaşdıraraq dərs dizaynını zənginləşdirir. Bu mərhələ müəllimdən həm texniki bacarıq, həm də metodik hazırlıq tələb edir. Son mərhələ olan peşəkar istifadə səviyyəsində isə interaktiv lövhənin bütün imkanlarından – digər sənədlərlə əlaqəli kompleks təqdimatlar, telekonfranslar, video ilə işləmə və müxtəlif multimedial həllər – tam səmərə ilə istifadə olunur. Bu mərhələ artıq yüksək peşəkarlıq və dərs planlaşdırmasında innovativ yanaşma deməkdir. Lakin təcrübə göstərir ki, bütün müəllimlər interaktiv vasitələrdən peşəkar səviyyədə istifadə edə bilmir. Öz materiallarını hazırlamaq və onları interaktiv dərs formatına uyğunlaşdırmaq kifayət qədər vaxt və zəhmət tələb edir. Buna görə də fərqli müəllimlər tərəfindən yaradılmış hazır didaktik materiallardan istifadə edərək onları xüsusi təlim tapşırıqlarına uyğunlaşdırmaq daha məqsədəuyğun hesab olunur. Beləliklə, ibtidai riyaziyyatın tədrisində interaktiv vasitələrin mərhələli mənimsənilməsi və onların tədris prosesinə məqsədyönlü inteqrasiyası təlimin keyfiyyətini yüksəltməyə, şagirdlərin riyazi savadlılığını və yaradıcı təfəkküründü inkişaf etdirməyə imkan verir. Bu, həm də müəllimlərin peşəkar inkişafının vacib tərkib hissəsi kimi müasir təhsil tələblərinə cavab verən əsas istiqamət sayılır.

Elektron didaktik materialların hazırlanması və təqdimatında interaktiv lövhənin mərhələli istifadəsi dərs prosesinin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir. İlk mərhələ olan təqdimatın interaktiv lövhədə nümayişi ən sadə səviyyədir və klassik proyektor-ekran üsuluna bənzəyir. Bu mərhələdə müəllim, məsələn, "Üçbucaqların bərabərliyi" mövzusunu animasiya və hərəkət effektləri ilə təqdim edərək mövzunun məzmununu daha canlı izah edə bilir. Növbəti mərhələ slaydlara interaktiv qeyd əlavə etməkdir. Bu mərhələdə müəllim lövhə proqramının "Qələm" alətindən istifadə etməklə vacib hissələri vurğulayır və qeydləri avtomatik olaraq elektron xülasə kimi saxlayır. Bu, həm vaxt qənaətinə səbəb olur, həm də dərsin sonunda mövzunun ümumiləşdirilməsini asanlaşdırır. Üçüncü mərhələdə müəllim fərdi slayd obyektləri ilə işləyir. Burada təqdimat slaydlarının şəkilləri və fiqurları kopyalanaraq interaktiv iş sahəsinə köçürülür, obyektlər müstəqil element kimi istifadə olunur. Bu yanaşma, xüsusilə mürəkkəb riyazi anlayışların, məsələn, üçbucaqların bərabərliyinin vizual təqdimatında böyük üstünlük yaradır. Dördüncü mərhələ isə öz şəkillər kolleksiyasının yaradılmasıdır. Müəllim öz mövzusuna uyğun rəngli fiqurlar, diaqramlar, xəritələr və digər didaktik materialları xüsusi qovluqlarda toplayaraq istənilən dərs zamanı asanlıqla istifadə edə bilir. Bu yanaşma həm dərsin operativliyini artırır, həm də müəllimə fərdi yaradıcı yanaşmalar tətbiq etmək imkanı verir. Beləliklə, interaktiv lövhənin mərhələli mənimsənilməsi ibtidai riyaziyyatın tədrisini yalnız texnoloji baxımdan deyil, həm də pedaqoji-metodik cəhətdən gücləndirir. Bu proses müəllimin yaradıcılıq fəaliyyətini genişləndirir, şagirdlərin fəallığını artırır və onların riyazi mövzulara marağını gücləndirir. İnteraktiv mühit həm öyrənmədə fərdi yanaşma və problem həll etmə bacarıqlarını inkişaf etdirir, həm də təlimdə davamlı keyfiyyət artımına zəmin yaradır.

Metod

Müasir dövrdə qlobal texnoloji inkişaf və rəqəmsal transformasiya təhsil sisteminə yeni yanaşmaların tətbiqini zəruri edir. İbtidai siniflərdə riyaziyyat fənninin tədrisi isə bu prosesin əsas istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Çünki məhz ibtidai pillədə şagirdlərin məntiqi təfəkkürü, analitik düşünmə bacarığı, problem həll etmə vərdişləri və riyazi savadlılıq səviyyəsinin təməli formalaşır. Bu mərhələdə tətbiq olunan müasir təlim metodları və texnologiyalar gələcəkdə onların elmi, peşəkar və şəxsi inkişafına birbaşa təsir göstərir. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı nəticəsində riyaziyyatın tədrisinə hazırlıqda interaktiv resurslardan istifadə geniş imkanlar açmışdır. Elektron dərsliklər, animasiyalı təqdimatlar, virtual laboratoriyalar, riyazi oyunlar, simulyasiyalar, onlayn platformalar və mobil tətbiqlər kimi vasitələr dərs prosesinin keyfiyyətini yüksəldir, şagirdlərin dərsə marağını artırır və öyrənməni daha dinamik və əyani edir. İnteraktiv resurslar həmçinin hər bir şagirdin fərdi öyrənmə tempini nəzərə almağa, onların bilik və bacarıqlarının dəqiq qiymətləndirilməsinə, müəllimin isə dərs planlaşdırmasını daha səmərəli qurmasına şərait yaradır. Eyni zamanda interaktiv resursların tətbiqi sadəcə texnoloji yenilik deyil, həm də pedaqoji-metodik yeniləşmə deməkdir. Müəllimlər bu resurslardan məqsədyönlü və sistemli şəkildə istifadə edərək şagirdlərin yaradıcı və məntiqi düşünmə bacarıqlarını inkişaf etdirir, dərslərdə fərdi və qrup işini təşkil edir, dərhal geribildirim mexanizmlərindən yararlanırlar. Bu

yanaşma dərsin keyfiyyətini yüksəltməklə yanaşı, şagird-müəllim əməkdaşlığını gücləndirir və təlimin daha motivasiyaedici olmasına şərait yaradır. İbtidai pillədə riyaziyyat fənninin tədrisinə hazırlıqda interaktiv resurslardan istifadə XXI əsrin təhsil tələblərinə cavab verən mühüm istiqamətdir. Bu mövzunun elmi-metodik əsasda araşdırılması müasir dərs modelinin formalaşmasına, şagirdlərin riyazi savadlılığının və təfəkküründün inkişafına, həmçinin tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə ciddi töhfə verir.

İbtidai pillədə riyaziyyatın tədrisində istifadə olunan interaktiv texnologiyalar müxtəlifdir:

İnteraktiv lövhələr və elektron dərsliklər: Mövzunun izahı zamanı şəkil, cədvəl, qrafik və animasiyaların istifadəsi ilə dərsin dinamikliyini artırır, şagirdlərin diqqətini saxlayır.

Virtual laboratoriyalar və simulyasiyalar: Riyazi məsələlərin həlli üçün real həyati situasiyaları modelləşdirir, şagirdlərin təcrübə yolu ilə öyrənməsinə imkan yaradır.

Onlayn platformalar və mobil tətbiqlər: "Khan Academy", "GeoGebra", "Quizizz", "Edmodo" kimi platformalar fərdi tapşırıqların təqdim edilməsi və dərhal geribildirim mexanizminin qurulması baxımından səmərəlidir.

Riyazi oyunlar və viktorinalar: Ədədlər, fiqurlar, ölçmə vahidləri, toplama-çıxma əməliyyatları kimi mövzuların möhkəmləndirilməsində motivasiya yaradır və yarış mühiti formalaşdırır.

Müasir təhsil sistemində ibtidai pillədə riyaziyyat fənninin tədrisi, şagirdlərin məntiqi təfəkküründün, yaradıcı düşünmə və problem həll etmə bacarıqlarının inkişafında əsaslı rol oynayır. Bu səbəbdən dərs prosesində tətbiq olunan metod və vasitələr sadəcə bilik ötürməyə deyil, həm də şagirdlərin marağını oyatmağa və onları aktiv öyrənməyə təşviq etməyə yönəlməlidir. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı bu istiqamətdə yeni imkanlar açaraq riyaziyyat dərslərinin məzmun və formasını zənginləşdirir. İnteraktiv texnologiyaların tədris prosesinə daxil edilməsi ənənəvi dərs modelini daha səmərəli, əyani və şagirdyönümlü hala gətirir. İbtidai pillədə riyaziyyatın tədrisində istifadə olunan interaktiv texnologiyalar çoxşaxəlidir və hər biri öz funksional imkanları ilə seçilir. İnteraktiv lövhələr və elektron dərsliklər mövzuların izahında şəkil, cədvəl, qrafik və animasiyaların istifadəsinə şərait yaradır, dərsin dinamikliyini artırır və şagirdlərin diqqətini davamlı saxlayır. Virtual laboratoriyalar və simulyasiyalar riyazi məsələlərin real həyati situasiyalarla əlaqələndirilməsinə imkan verir, öyrənilən anlayışları təcrübə yolu ilə möhkəmləndirir. Onlayn platformalar və mobil tətbiqlər – məsələn, Khan Academy, GeoGebra, Quizizz və Edmodo – fərdi tapşırıqların təqdim edilməsi, dərhal geribildirim və şagirdlərin bilik səviyyəsinin operativ qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Riyazi oyunlar və viktorinalar isə şagirdlərin riyazi mövzulara marağını artırır, yarış mühiti yaradır və öyrənməni əyləncəli edir. Bu texnologiyaların tətbiqi nəticəsində abstrakt riyazi anlayışların həyatla əlaqələndirilməsi, mövzuların daha aydın və yadda qalan formada mənimsənilməsi mümkün olur. Eyni zamanda, şagirdlərin fərdi öyrənmə tempinə uyğun dərs planlaşdırılması, dərhal qiymətləndirmə və fərqləndirilmiş təlim metodlarının həyata keçirilməsi asanlaşır. Beləliklə, interaktiv texnologiyalar yalnız vizual dəstək vasitəsi kimi deyil, həm də tədrisin məzmununu zənginləşdirən, şagirdin öyrənmə prosesini aktivləşdirən əsas pedaqoji alət kimi çıxış edir. Nəticə etibarilə, ibtidai pillədə riyaziyyatın tədrisinə hazırlıqda interaktiv texnologiyaların səmərəli istifadəsi XXI əsrin təhsil tələblərinə cavab verən innovativ yanaşma kimi qiymətləndirilməli, şagirdlərin elmi-idraki potensialının inkişafına və riyazi savadlılığın yüksəldilməsinə mühüm töhfə kimi nəzərdən keçirilməlidir.

Müasir təhsil mühitində ibtidai pillədə riyaziyyatın tədrisi sadəcə biliklərin ötürülməsi ilə məhdudlaşmır, şagirdlərin məntiqi, yaradıcı və analitik təfəkküründün inkişafına yönəlmiş kompleks pedaqoji proses kimi nəzərdən keçirilir. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı bu sahədə yeni imkanlar yaratmış və interaktiv resursların tətbiqini tədrisin ayrılmaz hissəsinə çevirmişdir. İnteraktiv vasitələr tədris prosesinə təkcə vizual dəstək vermir, həm də onu daha çevik, dinamik və şagirdyönümlü edir. İnteraktiv resursların pedaqoji-metodik üstünlükləri ibtidai riyaziyyatın tədris keyfiyyətini yüksəltməkdə mühüm rol oynayır. Bu vasitələr dərs prosesini daha əyani və maraqlı təqdim etməklə yanaşı, şagirdlərin idraki fəallığını gücləndirir, fərdi yanaşmanı mümkün edir və qiymətləndirmə mexanizmlərini sadələşdirir. Məsələn, problemin həlli zamanı şagirdlər analitik düşünür, müxtəlif həll yolları axtarır və nəticələrini əsaslandırmağı öyrənirlər ki, bu da məntiqi və yaradıcı təfəkkürün inkişafına güclü təsir göstərir. Bundan başqa, interaktiv vasitələr şagirdlərin fərdi öyrənmə sürətini nəzərə almaqla diferensial tədrisə imkan yaradır. Zəif və güclü tərəflərin dərhal aşkar edilməsi təlimin keyfiyyətini artırır, müəllimə fərdi dəstək strategiyaları qurmağa şərait yaradır. Avtomatik testlər və elektron geribildirim sistemi isə

şagirdlərin nailiyyətlərinin operativ qiymətləndirilməsini təmin edir, nəticələrin dərhal təhlili əsasında əlavə tədris addımlarının planlaşdırılmasına imkan verir. Motivasiya və əməkdaşlıq da interaktiv resursların mühüm üstünlüklərindəndir. Komanda şəklində tapşırıqlar, qrup müzakirələri və interaktiv oyunlar şagirdlərin dərs prosesinə fəal qatılmasına, ünsiyyət bacarıqlarının, əməkdaşlıq və məsuliyyət hisslərinin inkişafına şərait yaradır. Nəticədə dərs yalnız bilik qazanmaq mərhələsi deyil, həm də sosial və emosional inkişaf üçün məhsuldar mühitə çevrilir. İbtidai pillədə riyaziyyat fənninin tədrisində interaktiv resursların pedaqoji-metodik üstünlüklərinin araşdırılması müasir təhsil tələblərinə uyğun, yaradıcı və səmərəli dərs modelinin qurulması baxımından böyük əhəmiyyət kəsb edir. Bu yanaşma şagirdlərin riyazi savadlılığını yüksəltməklə yanaşı, onların gələcək elmi və peşəkar inkişafı üçün möhkəm zəmin yaradır.

Müasir dövrdə ibtidai pillədə riyaziyyat fənninin tədrisində interaktiv resurslardan istifadənin əhəmiyyəti danılmazdır. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) təhsilə sürətli inteqrasiyası sayəsində dərs prosesinin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin riyazi biliklərinin dərinləşdirilməsi və öyrənməyə marağın artırılması üçün geniş imkanlar yaranmışdır. Lakin bu imkanlardan yüksək səmərə ilə yararlanmaq yalnız texnoloji yeniliklərin mövcudluğu ilə deyil, həm də düzgün pedaqoji və metodik yanaşmaların tətbiqi ilə mümkündür. İnteraktiv resursların səmərəli istifadəsi üçün əsas şərtlərdən biri onların məzmununun dövlət təhsil standartlarına və ibtidai riyaziyyat kurikulumunun tələblərinə tam uyğun olmasıdır. Seçilən materiallar şagirdlərin yaş xüsusiyyətlərini və idraki inkişaf səviyyəsini nəzərə almalı, onların təfəkkürünü inkişaf etdirən, maraq doğuran və öyrənməyə həvəsləndirən şəkildə hazırlanmalıdır. Bu yanaşma riyazi anlayışların sistemli və ardıcıl şəkildə mənimsənilməsinə şərait yaradır. Müəllimlərin peşəkar hazırlığı interaktiv resurslardan düzgün istifadənin əsas təminatçısıdır. Müəllimlər yalnız texnoloji bacarıqlara deyil, eyni zamanda interaktiv dərs planlaşdırılması, rəqəmsal qiymətləndirmə və metodik inteqrasiya üzrə xüsusi təlimlərdən keçməlidirlər. Bu hazırlıq onlara mövcud resurslardan məqsədyönlü istifadə etmək, dərs prosesində fərdi yanaşmanı tətbiq etmək və dərhal geribildirim mexanizmlərini səmərəli qurmaq imkanı verir. Eyni zamanda, dərs prosesinin yalnız texnologiyadan asılı qalmaması vacib şərtlərdən biridir. İnteraktiv vasitələr əsas təlim aləti kimi deyil, tədrisi dəstəkləyən və zənginləşdirən bir komponent kimi nəzərdən keçirilməlidir. Şagirdlərin müstəqil düşünməsi, əyani müşahidə aparması, praktiki fəaliyyətlərdə iştirakı və qrup işinə cəlb olunması dərsin balanslı və məqsədyönlü təşkilinə xidmət edir. Bu, həm riyazi biliklərin möhkəmlənməsinə, həm də yaradıcı və analitik təfəkkürün inkişafına təkan verir. İbtidai pillədə riyaziyyatın tədrisində interaktiv resursların səmərəli tətbiqi üçün pedaqoji-metodik və təşkilati şərtlərin təmin olunması zəruridir. Bu, yalnız texnologiyanın istifadəsi deyil, həm də təlim prosesinin keyfiyyətini yüksəldən, şagirdlərin təlim motivasiyasını gücləndirən və müasir təhsil tələblərinə cavab verən kompleks yanaşma kimi qiymətləndirilməlidir.

İnteraktiv resurslardan məqsədyönlü və sistemli istifadə ibtidai riyaziyyatın tədrisində XXI əsr bacarıqlarının inkişafına xüsusi töhfə verir. Bu resurslar – elektron dərsliklər, animasiyalı təqdimatlar, virtual laboratoriyalar, onlayn platformalar və riyazi oyunlar – şagirdlərdə yaradıcı və analitik təfəkkürü gücləndirir, dərsləri daha əyani və maraqlı edir. Müəllim üçün isə bu texnologiyalar fərdi yanaşmanı təmin etmək, dərhal geribildirim vermək və dərs prosesini çevik idarə etmək baxımından geniş imkanlar yaradır.Eyni zamanda, interaktiv resurslardan istifadənin nəticəvi əhəmiyyəti təlimin keyfiyyətinin yüksəldilməsi və davamlı inkişafın təmin olunması ilə sıx bağlıdır. Dərslərdə te xnologiyanın məqsədyönlü tətbiqi şagirdlərin riyazi savadlılığını artırır, onların müstəqil öyrənmə bacarığını inkişaf etdirir və gələcəkdə müxtəlif peşə sahələrində uğurlu fəaliyyət göstərmələri üçün möhkəm zəmin yaradır. Bu yanaşma təhsildə keyfiyyət standartlarının yüksəldilməsi ilə yanaşı, cəmiyyətin intellektual potensialının gücləndirilməsinə də xidmət edir.

Nəticə

Araşdırmalar göstərir ki, ibtidai pillədə riyaziyyat fənninin tədrisinə hazırlıqda interaktiv resurslardan məqsədyönlü və sistemli istifadə müasir təhsilin əsas tələblərinə tam cavab verir və təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. İnteraktiv lövhələr, elektron dərsliklər, virtual laboratoriyalar, riyazi oyunlar, animasiyalar, onlayn platformalar və mobil tətbiqlər şagirdlərin dərs prosesinə fəal qatılmasını təmin edir, abstrakt riyazi anlayışların daha aydın və əyani mənimsənilməsinə şərait yaradır. Bu resurslar həmçinin şagirdlərin riyazi savadlılığını, məntiqi və tənqidi təfəkkürünü, yaradıcı yanaşma və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Müasir texnologiyalar dərs prosesini daha maraqlı və interaktiv

etməklə yanaşı, fərdi öyrənmə tempini nəzərə almağa, dərhal qiymətləndirmə və operativ geribildirim mexanizmini tətbiq etməyə imkan verir. Bu isə müəllimə dərsləri planlı şəkildə qurmağa, şagirdlərin güclü və zəif tərəflərini vaxtında müəyyənləşdirməyə və fərdi yanaşmanı təmin etməyə şərait yaradır. Eyni zamanda, interaktiv resursların istifadəsi şagird-müəllim-valideyn əməkdaşlığını gücləndirərək təhsildə davamlı inkişaf üçün möhkəm baza formalaşdırır. Bununla yanaşı, interaktiv resurslardan səmərəli istifadə üçün pedaqoji-metodik hazırlıq, resursların məzmununun dövlət kurikulumuna uyğun seçilməsi, müəllimlərin texnoloji bacarıqlarının artırılması və dərs prosesinin yalnız texnologiyadan asılı olmaması kimi şərtlərə ciddi əməl edilməlidir. Müəllimlərin peşəkar hazırlığı, yaradıcılıq qabiliyyəti və dərsin məqsədinə uyğun material seçimi bu resursların potensialını tam reallaşdırmağa imkan verir. Nəticə etibarilə, ibtidai pillədə riyaziyyat fənninin tədrisinə hazırlıqda interaktiv resursların istifadəsi təlimin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin XXI əsr bacarıqlarının – tənqidi düşünmə, yaradıcı yanaşma, əməkdaşlıq və müstəqil öyrənmə – inkişafı baxımından əvəzolunmazdır. Bu istiqamətin elmi-metodik əsasda davamlı inkişafı Azərbaycan təhsilinin rəqəmsal transformasiyasına və gələcək nəslin intellektual potensialının güclənməsinə mühüm töhfə verəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2021). Ümumi təhsil üzrə dövlət standartları və ibtidai təhsil kurikulumu (yenilənmiş nəşr). Bakı: Təhsil Nazirliyi.
2. Abbasov, C. R. (2019). İbtidai siniflərdə riyaziyyatın tədrisinin elmi-metodik əsasları. Bakı: Elm və Təhsil.
3. Heydərova, M. N., & Əliyeva, Ü. S. (2020). Riyaziyyatın tədrisində interaktiv vasitələrin mənimsənilməsi və onlardan istifadə imkanları. Bakı: Təhsil Nəşriyyatı.
4. Qasımova, L. M. (2022). İnteraktiv texnologiyaların riyaziyyat tədrisində tətbiqi: metodik yanaşmalar. Azərbaycan Müəllimlər Jurnalı, 5(2), 45–52.
5. Quliyeva, Z. (2020). İnteraktiv lövhənin riyaziyyat dərslərində tətbiqi və üstünlükləri. Təhsil və Cəmiyyət, 4(7), 33–40.
6. Məmmədov, E. A. (2021). İbtidai pillədə riyaziyyat tədrisində rəqəmsal təhsil resurslarının rolu. Azərbaycan Pedaqoji Universitetinin Elmi Xəbərləri, 3(14), 78–86.
7. Ministry of Education and Science of the Republic of Azerbaijan. (2020). National curriculum for primary education. Baku: MoES Publishing.
8. Khan Academy. (2023). Interactive mathematics resources for primary education. https://www.khanacademy.org
9. GeoGebra. (2023). Teaching mathematics with dynamic geometry. https://www.geogebra.org
10.UNESCO. (2021). ICT in education: Policy guidelines. Paris: UNESCO Publishing. https://unesdoc.unesco.org
11.OECD. (2022). Digital education outlook 2022: Shaping interactive learning environments. Paris: OECD Publishing.

DOİ: 10.32010/BUTP6274

İNTEQRATİV DƏRSLƏRİN ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏLİMDƏ YARADICI DÜŞÜNMƏNİ STİMULLAŞDIRMA İMKANLARI

Vəfa Azad MİRZƏZADƏ
Bakı Dövlət Universiteti
Orcid: https://orcid.org/0009-0003-3085-3303
E-mail: rzayevav@list.ru

Xülasə: Müasir gənclər sürətlə inkişaf edən, dəyişən dünyamızda irəliləyə bilmək üçün sərbəst və sürətli qərar qəbuletmə, problem həlletmə, müstəqil öyrənmə, əməkdaşlıq, komanda şəklində çalışmaq, müxtəlif yanaşmaları dəyərləndirmək və yeni ideyalar irəli sürə bilmək bacarıqlarını inkişaf etdirməlidirlər. Əmək bazarında da sürətlə dəyişən vəziyyət indi daha çox insan yaradıcılığına əsaslanan məhsul və xidmətlər tələb edir. Bu səbəbdəndir ki, müasir dərsdə şagirdlərə yaradıcı təfəkkürün inkişafı, innovasiyalara açıq olmaq, üzləşilən çətinlikləri aradan qaldırmağı öyrətmək ehtiyacı yaranmışdır. Təhsil sisteminin qarşısında dayanan prioritet vəzifələrindən biri dövrün tələblərinə cavab verən, yaradıcı və çevik düşünə bilən şəxsiyyət formalaşdırmaqdır. Şəxsiyyətyönümlü təlim mühitində inteqrativ dərslərin tətbiqi şagirdlərin yaradıcılıq potensialının inkişafında mühüm rol oynayır. İnteqrativ dərsin məqsədi yaradıcı, çevik düşünən, qlobal dəyərləri mənimsəmiş, beynəlxalq səviyyədə rəqabətə davamlı şəxsiyyət formalaşdırmaqdır. İnteqrativ təlim modeli fənnlərarası sərhədləri aradan qaldıraraq, biliklərin real həyat kontekstində tətbiqini təmin edir, şagirdlərdə bütöv, sistemli düşünmə tərzinin formalaşa bilməsi üçün şərait yaradır. Məqalədə şəxsiyyətyönümlü təlim mühiti, inteqrativ dərsin XXI əsr bacarıqları ilə silahlanmış, yaradıcı düşünə bilən şəxsiyyətlər yetişdirməsi yollarından bəhs edilmişdir. Fənnlərarası layihələr, tədqiqat yönümlü fəaliyyətlər, texnoloji və yaradıcı tapşırıqlar vasitəsilə şagirdlərin koqnitiv, emosional və sosial bacarıqları arasında əlaqə yaradılır.Məqalədə həmçinin texnologiya və süni intellektin təlimdə inteqrasiyası, onlayn resurslardan dərsin motivasiyasını artırmaq, kommunikasiya və rəqəmsal savadlılıq kimi XXI əsr bacarıqlarını formalaşdırmaq məqsədilə istifadə məsələsi də öz əksini tapmışdır. Nəticə etibarilə, inteqrativ dərslərin yaradıcı, sosial məsuliyyətli, tənqidi düşünən şagirdlərin formalaşmasına xidmət edir. Müasir Azərbaycan təhsil sistemində şəxsiyyətyönümlü və inteqrativ təlim modellərinin tətbiqinin yaradıcı düşünən, müstəqil qərar qəbul edə bilən və cəmiyyətin inkişafına töhfə verməyə qadir olan yeni nəsil formalaşmasına zəmin yaratması mövzunun və məqalənin aktuallığını göstərir. Məqalənin sonunda bəzi təkliflər irəli sürülmüşdür.
Açar sözlər: Şəxsiyyətyönümlü təlim, inteqrativ dərs, yaradıcı təfəkkür, XXI əsr bacarıqları, rəqəmsal texnologiya

---

THE POTENTIAL OF INTEGRATIVE LESSONS TO FOSTER CREATIVE THINKING IN A LEARNER-CENTERED EDUCATIONAL APPROACH

Vafa Azad MIRZAZADEH
Baku State University
Orcid: https://orcid.org/0009-0003-3085-3303
E-mail: rzayevav@list.ru

Abstract: In today's rapidly evolving and ever-changing world, modern youth must develop essential skills such as independent and quick decision-making, problem-solving, self-directed learning, collaboration, teamwork, the ability to evaluate diverse perspectives, and generate new ideas. The dynamic nature of the labor market increasingly demands products and services based on human creativity. Therefore, modern education must prioritize the development of creative thinking, openness to innovation, and the ability to overcome challenges. One of the key priorities facing education systems today is to cultivate individuals who are creative, flexible in their thinking, and aligned with the demands of the contemporary era. The application of integrative lessons within a learner-centered educational environment plays a significant role in nurturing students' creative potential. The goal of integrative teaching is to form individuals who think critically and flexibly, possess global values, and can compete at an international level. This model breaks down disciplinary boundaries, enabling students to apply knowledge in real-life contexts and fostering a holistic and systematic mode of thinking. This article explores how learner-centered learning environments and integrative lessons contribute to the development of individuals equipped with 21st-century skills and creative thinking. It emphasizes interdisciplinary projects, research-based activities, and the use of technological and creative tasks to foster connections between students' cognitive, emotional, and social competencies. Furthermore, the article addresses the integration of technology and artificial intelligence in education, focusing on how online resources can enhance motivation, communication, and digital literacy—core components of 21st-century skills. Ultimately, integrative lessons contribute to the formation of creative, socially responsible, and critically thinking learners. The implementation of learner-centered and integrative teaching models in the modern Azerbaijani education system creates a foundation for a new generation of students capable of

independent decision-making and contributing to societal development. The article concludes with a set of practical recommendations.
Key words: Lerner-based education, Integrative lesson, creative thinking, 21st- century skills, digital technology

ПОТЕНЦИАЛ ИНТЕГРАТИВНЫХ УРОКОВ В РАЗВИТИИ ТВОРЧЕСКОГО МЫШЛЕНИЯ В УСЛОВИЯХ ЛИЧНОСТНО-ОРИЕНТИРОВАННОГО ОБУЧЕНИЯ

Вафа Азад МИРЗАЗАДЕ
Бакинский Государственный Университет
Orcid: https://orcid.org/0009-0003-3085-3303
Электронная почта: rzaevav@list.ru

Резюме: Современная молодежь, чтобы успешно развиваться в стремительно меняющемся мире, должна овладеть такими ключевыми навыками, как самостоятельное и оперативное принятие решений, решение проблем, самостоятельное обучение, сотрудничество, командная работа, умение оценивать различные подходы и выдвигать новые идеи. Быстро меняющаяся ситуация на рынке труда также требует всё больше продуктов и услуг, основанных на человеческом творчестве. В связи с этим в современной школе возникает необходимость развивать у учащихся творческое мышление, открытость к инновациям и способность преодолевать возникающие трудности. Одной из приоритетных задач системы образования является формирование личности, способной мыслить креативно и гибко, соответствующей требованиям времени. В этой связи важную роль играет внедрение интегративных уроков в личностно-ориентированной образовательной среде, так как они способствуют раскрытию творческого потенциала учащихся. Цель интегративного урока — формирование креативной, гибко мыслящей личности, обладающей глобальными ценностями и способной к конкуренции на международном уровне. Модель интегративного обучения устраняет границы между предметами и обеспечивает применение знаний в реальных жизненных контекстах, создавая условия для формирования целостного и системного мышления у учащихся. В статье рассматриваются пути формирования личности, вооружённой навыками XXI века и способной к творческому мышлению, посредством личностно-ориентированной образовательной среды и интегративного обучения. Через межпредметные проекты, исследовательскую деятельность, технологические и творческие задания формируются связи между когнитивными, эмоциональными и социальными навыками учащихся. Также в статье освещается интеграция технологий и искусственного интеллекта в учебный процесс, использование онлайн-ресурсов для повышения мотивации, а также развитие таких навыков XXI века, как коммуникация и цифровая грамотность. В конечном итоге интегративные уроки способствуют формированию творческих, социально ответственных и критически мыслящих учащихся. Применение личностно-ориентированных и интегративных моделей обучения в современной системе образования Азербайджана создаёт условия для воспитания нового поколения, способного мыслить креативно, принимать самостоятельные решения и вносить вклад в развитие общества. В заключение статьи предложены конкретные рекомендации.
Ключевые слова: Личностно-ориентированное обучение, Интегрированный урок, Креативное мышление, Навыки XXI века, Цифровые технологии

Giriş

Davamlı və sürətli dəyişikliklərin baş verdiyi bu əsrdə nəzəri biliklərdən çox bacarıqlar üstünlük yarada biləcək amillər hesab edilir. İnformasiya və kommunikasiya texnologiyalarının bu qədər inkişaf etməsi cəmiyyətdə informasiya bolluğuna səbəb olur və şagirdlərdən müstəqil öyrənmə bacarığı tələb edir. Əmək bazarında əvvəlki zamanla müqayisədə daha çox insan yaradıcılığına əsaslanan məhsul və xidmətlərə ehtiyac duyulur. Bu səbəbdəndir ki, təhsil sisteminin qarşıya qoyduğu prioritet vəzifələrindən biri şagirdlərdə XXI əsr bacarıqlarını formalaşdırmaq, onlarda yaradıcı və tənqidi düşünmə potensialını inkişaf etdirməkdir. Müasir gənclər sürətlə dəyişən, inkişaf edən dünyada yaşamaq və irəliləmək üçün qərarqəbuletmə, problem həlletmə, müstəqil öyrənmə, əməkdaşlıq, komandada çalışmaq, müxtəlif yanaşmaları dəyərləndirmək, yeni fikirlər irəli sürmək, təşəbbüs göstərmək və.s bacarıqları inkişaf etdirməlidirlər. (TAİM, 2024).

Şagirdləri demokratik ruhda, sosial məsuliyyətli vətəndaşlar, həmçinin müasir əmək bazarının tələblərinə cavab verən mütəxəssislər kimi yetişdirmək şəxsiyyətyönümlü təhsilə keçidi şərtləndirir. Belə ki, şəxsiyyətyönümlü təhsildə şagird passiv formada sadəcə ensiklopedik bilikləri mənimsəməklə kifayətlənmir, həmin dərsin aktiv bir iştirakçısına çevrilir. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, təlim yalnız bilik və bacarıqların verilməsinə deyil, həm də şagirdin mənəvi, sosial, intellektual və yaradıcı inkişafının təmin olunmasına

yönəlir. Şəxsiyyətyönümlü təlim, tədris prosesi zamanı şagirdin fərdi qabiliyyətlərini nəzərə alaraq onun aktivliyini və yaradıcı potensialını üzə çıxarmağa yönəlmiş pedaqoji yanaşmadır. Şəxsiyyətyönümlü təlim hər bir şagirdin maraqlarını, istedadını, öyrənmə tərzini, həyat təcrübəsini nəzərə alaraq onu bilik, bacarıq və vərdişlərin inkişafına yönəldir.

Birləşmiş Millətlər Təşkilatının "Təhsil əsri", "İntellekt əsri" adlandırdığı XXI əsrdə biliklər unudulsa da, bacarıqlar əhəmiyyətini itirmir. Bu səbəbdən məktəblər ənənəvi fənnyönümlü təlim sistemini kənara qoyub, yaş və fərdi xüsusiyyətləri, meyl və maraqları nəzərə alaraq əqli, əxlaqi, etik, estetik, fiziki inkişafa kömək göstərmək, gündəlik həyatda rast gəlinən problemləri həll etmək üçün zəruri bacarıqları formalaşdırmağı məqsəd qoymuşdur. (Əliyeva, Məmmədova,2014).

F.Əliyeva, Ü.Məmmədova "Müasir təlim texnologiyaları" kitabında şagirdin müasir dərs zamanı rolunu "detektivə" bənzədirlər. Detektiv cinayəti araşdırarkən ilkin məlumatlardan yola çıxaraq DNT, barmaq izinə bağlı, həmçinin digər sübutlar, şahidlər kimi çeşidli mənbələrlə əlindəki məlumatları artırır. Şagirdlər də müasir dərs zamanı problemi həll etmək vəzifəsi ilə məsul olduqları üçün ilkin biliklərlə yola çıxaraq müxtəlif mənbələrə müraciət edir, növbənöv vasitələrdən istifadə edərək araşdırmalar aparırlar. (Əliyeva, Məmmədova, 2014).

Müasir dünyada inteqrasiya prosesləri obyektiv və zəruri reallığa çevrilmişdir. Təhsildə inteqrasiya prosesləri- psixoloji və pedaqoji baxımdan təhlili zəruri olan, kifayət qədər mürəkkəb, göstəricilərinin müxtəlifliyinə görə kompleks və hərtərəfli anlayışdır. İnteqrativ təlim müasir metodikanın əsas yeniliklərindən biridir. Bu xüsusi pedaqoji texnologiya məktəb proqramlarına cəsarətlə daxil olur, ilk baxışdan çətin uyğunlaşa bilən görünən fənnləri bir-birilə əlaqələndirir. (Axundova, 2021). İnteqrativ dərslərin tətbiqi şəxsiyyətyönümlü təlim mühitində şagirdlərdə yaradıcı və tənqidi düşünməni stimullaşdırmaq üçün mühüm imkanlar açır. İnteqrativ təlimin başlıca məqsədi şagirdlərin əqli fəallığını artıraraq onları yaradıcı düşünməyə sövq etməkdir. İnteqrativ dərs zamanı onlar müxtəlif bilik sahələri arasında əlaqə qurmaq, ayrı-ayrı fənlərin biliklərini birləşdirərək problemlərə alternativ həll yolları axtarmaq, onları istifadə edərək tətbiq etmək kimi bacarıqlarını inkişaf etdirirlər. İnteqrasiya nəticəsində şagirdlər mövzuları bir tərəfli deyil, müxtəlif perspektivlərdən təhlil edərək mənimsəyirlər. Müxtəlif bilik sahələri arasında qurulan yaradıcı körpülər kreativ düşünmənin sintez, transformasiya, yeni ideya yaratma qabiliyyəti kimi göstəricilərini gücləndirməyə kömək olur. Şəxsi maraqlar və qabiliyyətlər əsasında yaranan mənalı öyrənmə mühiti yaradıcı təfəkkür, tənqidi yanaşma, kommunikasiya, əməkdaşlıq kimi XXI əsr bacarıqlarının formalaşmasına şərait yaradır.

Nəzəriyyə

Fənlərarası əlaqə məsələsi dərin tarixi köklərə malikdir. İntibah dövründə ən mütərəqqi müəllimlər tədrisdə sxolastikaya qarşı çıxaraq, təbiət hadisələrinin qarşılıqlı əlaqələri haqqında təsəvvürlərin formalaşdırılmasının fundamental əhəmiyyətini vurğulayırdılar. Öyrənmə qanunlarını ilk sistemləşdirməyə çalışan şəxslərdən biri Y.A.Komenski olmuşdur. O qeyd edirdi ki, "Qarşılıqlı əlaqədə olan hər şeyi əlaqəli şəkildə öyrətmək lazımdır". İnteqrasiya edilmiş dərslər şagirdlərin potensialını inkişaf etdirir, şagirdi ətrafdakı reallığı anlamağa, məntiqi təfəkkürünü və kommunikativ bacarıqlarını inkişaf etdirməyə sövq edir. Şagirdlərdə tətbiqetmə və tədqiqat fəaliyyətinin təşkili üçün inteqrasiya edilmiş dərslərin keçirilməsi məqsədəuyğundur. (Əhmədova, 2023)

Fənlərarası əlaqə epizodik xarakterli olub, qısa zaman ərzində reallaşdırılır və hər bir səriştəli müəllimin dərslərində özünü göstərir. Müəllim yeni təlim materialının öyrənilməsi, möhkəmləndirilməsi, tətbiqi zamanı şagirdlərin digər fənlərdən mənimsəmiş olduqları bilik və bacarıqlara əsaslana bilər. Fənlərarası əlaqə fənn müəllimi tərəfindən təkbaşına həyata keçirilir, bu zaman dərsin strukturunda heç bir dəyişikliyə yol verilmir. Bu səbəbdəndir ki, fənlərarası inteqrasiya geniş əhatəli hazırlıq tələb etmir. Təcrübəli müəllim dərsin planlaşdırılması zamanı tədris materialını digər fənlərə aid müvafiq məlumatlarla hansı məqamda, hansı formada məzmunla əlaqələndirəcəyini öncədən təyin edə bilir. Dərsə hazırlıq mərhələsində şagirdlərlə aparacağı işin məzmunu üzərində çox düşünən müəllim istifadə ediləcək sualları, eləcə də gözlənilən cavabları dəqiqləşdirir.

İnteqrativ dərsin təşkili zamanı müəllimin xüsusi diqqət yetirməli olduğu nüanslardan biri fənnin proqramında digər bir fənnlə oxşar mövzuların aşkar edilməsidir. Bu zaman dərsin məqsədi təyin edilməli, təlim materialının daha dərindən mənimsənilməsi, nəzəri biliklərin praktik cəhətdən möhkəmləndirilməsinə yönəlməlidir. İnteqrasiyanın məqsədi yalnız bir neçə fənnin yaxın sahələrinin göstərilməsi deyil, onların üzvi surətlə bir-birilə əlaqəsi nəticəsində şagirdlərdə bizi əhatə edən dünyanı vəhdətdə qavrama bacarığını formalaşdırmaqdır. İnteqrativ dərslər şagirdlərdə sistemli dünyagörüşünü inkişaf etdirir, onların şəxsiyyət kimi formalaşmasına gətirib çıxarır. Buna

görə də dərsin təşkili zamanı şagirdlərin yaş və fərdi xüsusiyyətləri xüsusi nəzərə alınmalıdır.

Fənlərarası inteqrativ tədrisi sinif mühitində tətbiq etmək kreativlik və eksperiment tələb edir. Fənlərarası inteqrativ yanaşma tələb edən məsələlərin həlli zamanı şagirdlər müxtəlif perspektivli informasiyalardan istifadə edirlər. (ARTİ,2021). Müxtəlif fənnlərin inteqrasiyasından qazanılan bilik və bacarıqların istifadəsi məktəbdən kənarda da üzləşilə bilən problemlərin həlli üçün bir təcrübədir.

Bəzən də dərsdə yaranmış xüsusi bir situasiya yaxud sual müəllimi planlaşdırmada və dərsə hazırlıq mərhələsində nəzərdə tutulmamış olan fənnlərarası əlaqəyə müraciət etməyə istiqamətləndirir. Bu məqamda müəllimdən metodik ustalıq tələb edilir. O, vaxt itkisinə yol vermədən bu əlaqənin başlıca cəhətlərini diqqətə çatdırmalı, şagirdləri dərsdə fəal iştirak edərək müstəqil fikirlərini sərbəst ifadə etməyə sövq etməlidir. Fənlərarası əlaqə üzrə dərs zamanı aparılan iş, materialın tutumundan, müəllimin məqsədindən asılı olaraq bəzən uzun zaman apara bilər. Belə olduğu halda, işin necə təşkil edilməli olduğu dərsin hazırlıq mərhələsində ətraflı düşünülmüş şəkildə müəyyən edilərək plana daxil edilməlidir.

İnteqrativ dərs zamanı şagirdlər yaradıcılıq bacarıqlarını həyata keçirə bilmək üçün geniş imkanlar qazanır, müstəqil işləməyə böyük həvəs və maraq göstərirlər. Bu da onların intellektual səviyyələrinin yüksəlməsinə, dünyagörüşlərinin, bədii-estetik duyumlarının zənginləşməsinə səbəb olur. İnteqrativ dərslərdə yeniliklərin çoxluq təşkil etməsi, vəzifələrin rəngarəngliliyi, istifadə edilən materialların zənginliyi şagirdlərin idrak fəaliyyətinin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsirini göstərir. Bu dərs zamanı bir neçə fənnə aid materiallarla işləyən şagirdin nitqi inkişaf edir, söz ehtiyatı zənginləşir, fənnlərə yanaşmasında və baxışında irəliləyişlər və dəyişikliklər nəzərə çarpır.

Təlim texnologiyası təlimin pillə və mərhələsinə, məzmununa, formasına, təlim tipinə görə müxtəlif çalarlı ola bilər. Fəal təlimin peşəkarlıqla tətbiqi məktəbdəki şəraiti, şagirdin təhsilə münasibətini dəyişə bilir. Fəal təlim şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanır və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində reallaşır. İnteraktiv təlim metodlarının tətbiqi ilə şagirdə biliklərin müstəqil mənimsənilməsi, yeniliklərin kəşf edilməsi, qazanılmış biliklərin yaradıcılıqla yenidən işlənməsi, təcrübədə tətbiqi, problemin həlli üçün əməkdaşlıq bacarığı kimi keyfiyyətləri qazandırmaq mümkündür. Müəllim tədris etdiyi fənni, məqsədi, şəraiti, mövzunu, şagirdlərin təcrübə və bilik səviyyəsini nəzərə alaraq müvafiq fəal təlim metodunu seçir. Burada başlıca məqsəd təlimin şagirdi inkişaf etdirməsi, düşündürərək müstəqil fikir söyləmə, biliklərini tətbiq bacarıqlarını formalaşdırmaqdır.

Metod

Problem əsaslı öyrənmə (PBL), layihə metodu, rollu oyunlar və simulyasiyalar, tədqiqat və təqdimatlar, eləcə də STEAM yanaşması şagirdlərin innovativ təfəkkürünü inkişaf etdirərək özünəməxsus məhsul meydana çıxarması üçün imkan yaradır. Şagirdlərin real həyatdakı problemlərin kompleks xarakter daşıdığını göstərmək, dünyagörüşünü genişləndirmək inteqrativ dərsin başlıca məqsədlərindəndir. İnteqrativ dərsin təşkilində müəllim adətən qeyri-standart dərs formasından istifadə edərək, şagirdlərin təlim motivasiyasını artırmağa çalışır. Belə maraqlı təşkil edilmiş dərs mühitində onlar geniş həcmli materialı da maraqla mənimsəyir, asanlıqla və həvəslə işləyirlər. Burada şagirdlərin əldə etmiş olduqları bilgi və bacarıqların adi təlim situasiyalarında praktik fəaliyyətlərdə tətbiqi ilə yanaşı, onların yaradıcı və intellektual qabiliyyətlərinin aşkar edilməsi də mühüm əhəmiyyət kəsb edir.

Uşaqlarda yaradıcı və tənqidi təfəkkürün inkişafında sual özünəməxsus yer tutur. Ə.Əlizadə "Təfəkkür sualdan başlayır" fikrini psixologiya kitablarının müntəxəbat həqiqəti adlandırır. Sualla rastlaşan uşağın təfəkkürü öz-özünə canlanır, alovlanır, o fikirləşməyə, götür-qoy etməyə başlayır. Problemli sual fikri pərvazlandırır və şagirdi ona məlum olmayan cavabları axtarıb tapmağa vadar edir. (Əlizadə, 2004). A.Enşteyn qeyd etmişdir ki, "Təhsil faktların öyrənilməsi deyil, düşünməyi məşq etməkdir". Təlim zamanı müəllim tez-tez şagirdlərə "Məntiqli düşün", "Məntiqini işə sal", "Məsələyə tənqidi yanaş, analiz et", "Çalış alternativ həllini tap" kimi cümlələr ünvanlayır, şagirdin təfəkkürünü hərəkətə keçirən, inkişaf etdirən metodlardan, tapşırıqlardan istifadə edir. Dərs zamanı şagirddə səmərəli düşünə bilmək bacarığı formalaşdırılmalıdır. Səmərəli düşünən şagird fikirlərini formalaşdırmağı və ifadə etməyi bilir,həmçinin, həmin fikirlərin hamı tərəfindən anlaşıla bilən olması üçün çalışır. Nitqini düzgün formada təşkil edir, faktlardan, nümunələrdən, əsaslandırmalardan istifadə edir. Hadisələri düzgün şəkildə analiz edərək, doğru nəticə çıxartmağı bacarır. O, informasiyanı necə və haradan əldə edəcəyini, həmçinin informasiyadan məqsədyönlü şəkildə necə istifadə edəcəyini müəyyənləşdirə bilir.

Problem əsaslı öyrənmə şagirdmərkəzli modellərdən biri kimi şagirdləri fənnin məzmununa

uyğun real həyat probleminin həlli üzrə fəaliyyətə cəlb edir. Bu model həm mövcud biliklərin istifadəsi, həm də yeni bilik və bacarıqların qazanılması şəraitində problem haqqında tənqidi düşünmə, hərtərəfli müzakirə edərək həllinə çalışmaq, effektiv öyrənmə, problem həlletmə, ünsiyyət kimi XXI əsr bacarıqlarının da inkişafını dəstəkləyir. Problem əsaslı öyrənmə qrup şəklində aparıldığı üçün əməkdaşlıq bacarıqlarını da formalaşdırır, hər hansı problemin həlli üçün çalışan şagirdlərdə daxili motivasiyanı aktivləşdirərək öyrənməni onlar üçün mənalı bir fəaliyyətə çevirir. (TAİM,2024). Müasir dövrdə problemlərin həlli üçün startaplar, layihələrdən geniş istifadə olunur. Problem əsaslı öyrənmə, Layihə əsaslı öyrənmə kimi modellər şagirdlərin öyrənməyə olan maraqlarını artırır, gələcək həyata hazırlayaraq problemləri həll etmək, layihə üzərində işləyə bilmək metodikası qazandırır və həmçinin, Blum taksonomiyasının mərhələlərinin reallaşmasına imkan verir.

STEAM layihəsinin başlıca məqsədi Respublikanın ümumtəhsil məktəblərində təhsil alan şagirdlərdə XXI əsr bacarıqlarının formalaşdırılması və inkişafı ilə kreativlik, tənqidi düşüncə, əməkdaşlığın inkişaf etdirilməsi, praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərməklə yanaşı, onlara mühəndislik səriştələri öyrətmək, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini yüksəltməkdir. STEAM metodologiyasının əsasında dayanan layihə əsaslı öyrənmə şagirdlərin müasir cəmiyyətimizin problemlərini araşdıraraq müxtəlif həll yollarını müəyyənləşdirmək xüsusiyyətini artırır.

"STEAM Azərbaycan"ın reallaşdırdığı STEAM Azərbaycan Festivalı hakaton və texnoloji müsabiqələr şagirdləri robototexnika və texnoloji müsabiqələr üzrə yaradıcılıqla məşğul olmağa təşviq edir. Azərbaycanlı şagirdlər beynəlxalq STEAM müsabiqələrində uğurlar qazanırlar və bu da öz növbəsində, istedadlı gənclərimizin beynəlxalq səviyyədə rəqabət qabiliyyətində olduğunu göstərir. Ölkəmiz öz iqtisadiyyatını qeyri-neft sektoruna yönəltməyə çalışdığı üçün STEAM bu sahədə peşəkar kadrlar hazırlanmasında mühüm rol oynayır. STEAM təhsili ölkəmizdə gənclərin həm peşəkar inkişafına, həm də qlobal əmək bazarına hazır olması üçün şərait yaradır. STEAM təhsilinin uğurla tətbiq edilə bilməsi müəllimdən zəngin ixtisas bilgisi ilə yanaşı yaradıcı düşüncə, layihəsaslı öyrənmə, rəqəmsal savadlılıq, əməkdaşlıq bacarıqlarına da malik olmağı tələb edir. (Mirzəzadə, 2025)

STEAM fənnlər arası inteqrasiyanı təmin edir, yaradıcı və tənqidi təfəkkürün inkişafını dəstəkləyir. İnteqrativ dərslərin şəxsiyyətyönümlü təlim mühitində yaradıcı düşünməni necə stimullaşdırdığını əyani şəkildə göstərə bilmək üçün pedaqoji fəaliyyətim zamanı İngilis dili, Ədəbiyyat fənnlərini inteqrasiya edərək yaradıcı və bədii ifadə komponenti çərçivəsində şagirdlərimə öz adlarına uyğun "acrostic poem" (müəyyən bir sözü düzəltmək üçün hər misranın baş hərfi o sözün hərfləri olur) yazmaq tapşırığı vermişdim. Bu tapşırıq öyrənənlərin həm fərdi yaradıcılığını, həm də ətraf mühitlə bağlı düşüncə tərzini ortaya qoyması baxımından olduqca əhəmiyyətlidir. Məsələn, 5-ci sinif şagirdi Nurgül tərəfindən yazılmış aşağıdakı "acrostic" şeir nümunəsi yaradıcı təfəkkürün emosional ifadə, məna quruculuğu, metaforik düşüncə bacarıqları və eləcə də dil bacarıqlarını əks etdirir:

Nature is like a home
Until you destroy it
Rain and sun together
Growing plant for it
U must protect the nature
Like you care about yourself

Burada o, təbiəti "ev" anlayışı ilə eyniləşdirərək, təbiətin insan üçün daimi, lakin həssas bir mühit olduğunu vurğulamışdır. Nurgül bu şeir vasitəsilə təbiətə münasibətini, onun incəliklərini və qorunmasının vacibliyini poetik şəkildə ifadə etmişdir. Həm şəxsi emosional münasibətini, ekoloji şüur, həm də cəmiyyətə qarşı məsuliyyət hissini poetik bir dillə ifadə etmişdir. Bu, yaradıcı təfəkkürün əsas elementləri sayılan orijinallıq, empatiya,şaxəli düşüncə və simvolik ifadə ilə sıx əlaqəlidir. Bu tapşırığı, həmçinin, STEAM-lə əlaqələndirmək də mümkündür.Belə ki, Arts- Bədii təsvirlər, poetik ifadə; Science- Ekoloji düşüncə (yağış, günəş, bitki); Technology- rəqəmsal təqdimat; Math- Simmetrik quruluş və ritm (dolayı şəkildə).

Digər bir nümunə olaraq, 5-ci sinif şagirdi Mələyin şeirinə nəzər salaq:

Magical world in my garden
Especially trees and flowers there
Looking like a heaven
Elegance of my garden
Known everywhere

Həm mövzu baxımından, həm poetik dili ilə olduqca gözəl olan bu şeir təbiətin gözəlliklərini vurğulayan, vizual obrazlarla zəngin yaradıcı bir işdir. Şeirdə şagirdin təbiətə duyduğu estetik baxış, gözəllik anlayışına, poetik təsəvvür gücünə şahidlik edirik. Mələk öz bağçasını "möcüzəli, sehrli dünya" kimi təqdim etməklə fantaziya və reallığı bir araya gətirir. "Looking like a heaven", "Elegance of my garden" kimi ifadələr poetik dildə harmoniya və gözəlliyin ifadəsi olaraq diqqəti özünə çəkir. Bu tip

tapşırıqlar şagirdin vizual təsəvvürünü genişləndirir, təbiətə olan baxış bucağını fərdiləşdirir, bədii ifadə imkanlarını stimullaşdırır. Bu tapşırığı da, həmçinin, STEAM-lə əlaqələndirmək mümkündür: Arts- şeirin strukturunda bədii dil, metafora, təsvir və obrazlılıq ön plandadır; Science- təbiət obyektlərinin (ağac, çiçək, bağça) işlənməsi ilə təbiət elmlərinə dolayısı yolla keçid yaradılır; Technology – illustrasiya ilə təqdimat. Şagirdin şəxsi ideyalarının ifadəsi, estetik düşüncə və təsəvvürün gücləndirilməsini yaradıcılıq və XXI əsr bacarıqlarına aid etmək olar.

Ümumi nəticədə qeyd edə bilərik ki, bu tip tapşırıqlar yalnız ədəbiyyat və dil bacarıqlarını deyil, həm də şəxsi təcrübənin emosional zəka ilə texnologiyanın sintezini təmin edir. “Acrostic” şeir yazmaq həm şəxsi yaradıcılıq potensialını aşkar edir, həm də STEAM prinsipləri ilə dərsin inteqrasiyasını asanlaşdırır.

Müasir dövrün təhsil sisteminin başlıca məqsədi yalnız bilikli deyil, biliklərini yaradıcılıqla tətbiq edə bilən, müxtəlif mədəniyyət və mühitlərdə özünü ifadə etmə bacarığına malik qlobal və rəqabətədavamlı şəxsiyyət yetişdirməkdir. İnteqrativ təlim modeli bu məqsədə nail olmağın ən səmərəli yollarından biridir. İnteqrasiya yalnız fənnlərin məzmununu deyil, şagirdin zehni, emosional, sosial və yaradıcı potensialını bir bütöv sistem kimi inkişaf etdirir. UNESCO, PİSA, UNİCEF və s. kimi beynəlxalq təşkilatların sənədlərində XXI əsr insanından yaradıcı və tənqidi düşünmə, rəqəmsal savadlılıq,texnoloji çeviklik, kommunikasiya və əməkdaşlıq bacarıqları, kultural və sosial adaptasiya, özünüidarə və ömürboyu öyrənmə bacarığı kimi kompetensiyaların gözlənildiyi öz əksini tapıb. Məhz bu kompetensiyaların reallaşa bilməsi üçün inteqrativ dərs olduqca münbit zəmin yaradır. Burada şagird lokal deyil, qlobal düşünmə tərzi qazanır.

İnteqrativ dərs mühitində formalaşmış şagirdlər yalnız məktəbdaxili deyil, həm də beynəlxalq səviyyədə öz bacarıqlarını nümayiş etdirməyə meyillidirlər. Onlar problem həllinə, tədqiqat aparmağa, yeni məhsul yaratmağa artıq alışmış olduqları üçün bu, beynəlxalq layihələrdə iştiraklarını asanlaşdırır. Beynəlxalq layihələrdə iştirak şagirdlərdə həm qlobal məsuliyyət, həm də liderlik və təşəbbüskarlıq kimi keyfiyyətləri də yaradır. Beynəlxalq rəqabət yalnız biliklərlə deyil, həmçinin emosional zəka ilə müəyyən edilir. İnteqrativ dərs mühitində şagirdin özünə inamı artır, əməkdaşlığa və qarşılıqlı hörmətə əsaslanan münasibətləri yaranır, onlarda emosional çeviklik və empatiya formalaşır, qrup mühitində liderlik və məsuliyyət hissi güclənir. Bu da öz növbəsində, onların gələcək akademik, sosial və peşə mühitində dayanıqlı, adaptiv şəxsiyyətlər kimi yetişməsinə zəmin yaradır.

Qarabağ Universitetinin tələbələrinin hələ ilk ildən etibarən Gürcüstanda beynəlxalq Kollegial Proqramlaşdırma Müsabiqəsinin (“ICPC-International Collegiate Programing Contest”) yarımfinalında, Misir Ümumdünya Şəhərsalma Formunda fəal təmsil olunmuş, “Zəfərimiz əbədidir” regional intellektual yarışda birincilik qazanmasını xüsusilə qeyd etməliyik. Bu da hələ məktəbdə ikən qlobal dəyərləri mənimsəmiş, beynəlxalq səviyyədə rəqabətə davamlı şəxsiyyətlərin formalaşdırılmasının ali təhsil həyatında da öz bəhrəsini göstərməyinin bariz nümunəsidir. Bunun kimi daha yüzlərlə nümunələr və şəxsiyyət kimi formalaşdırılmış gənclərimiz vardır. Gənclər fondunun elan etdiyi “Rəqəmsal” mövzulu Qrant müsabiqəsində Qarabağ Universitetinin 1 müəllimi və 1 tələbəsinin birgə təqdim etdiyi layihə qalib olmuşdur. Bu, ali təhsil ocağı daxilində müəllim-tələbə əməkdaşlığının uğurlu təşkilinə nümunədir.

Qeyd etmək lazımdır ki, artıq nəzəriyyələr dövrü öz yerini praktik zəkaya vermişdir. Yalnız nəzəriyyələr öyrədilərək onların üzərinə köklənən insan bilgi yüklü robota çevrilir. Bu baxımdan, müasir tələblərə uyğun olaraq şagird biliyi elmi nəzəriyyələrlə deyil, praktik səriştələr əsasında öyrənməlidir. Dərs mühitində sadəcə dinləyərək nəsə nəticə əldə etmək mümkün deyildir. Yaşadığımız sürət və süni intellekt əsrində internet məktəb kitablarında olmayan informasiyaları, müəllimin izah etmədiyi məqamları belə əlçatan edir.

İnsanın ehtiyacı olan öyrəndiyini özü dərk edərək mənimsəməsi və öyrənməsidir. İnternetdən istifadə edərək şagirdlər özləri araşdıraraq öyrənir, müqayisə edir, nəticə çıxararaq təqdim edir. Bu da yaradıcı düşünmənin təməlini təşkil edir. Texnologiya və süni intellektin tətbiqi ilə şagirdlərin baxış bucaqlarını dəyişdirmək, yeni ideyalar yaratmaq, problemi fərqli yollarla həll etmək, öz öyrənmə prosesinə məsuliyyətlə yanaşmaq kimi bacarıqları inkişaf etdirmək mümkündür. Yaradıcı təfəkkür artıq yalnız bədii sahələrə aid deyil, elm, mühəndislik, sosial fənnlərdə də təlimin ayrılmaz hissəsinə çevrilmişdir.

XXI əsrin “rəqəmsal nəsli”nin nümayəndələri olan şagirdlərin dərsdə aktiv iştirakını, yaradıcı təfəkkürünü və sosial bacarıqlarını inkişaf etdirmək üçün müəllimlər texnologiya, internet, oyunlaşdırma və süni intellektin imkanlarından geniş istifadə etməyə başlamışlar. Texnologiya və süni intellekt inteqrativ dərslərin, müəllim və şagirdin qarşılıqlı öyrənmə prosesinin dinamikasını artırır. Bu elementlərlə inteqrativ dərslərin məzmunu zənginləşir, tədris prosesi fərdiləşir, “öyrənməni əyləncə ilə birləşdirən” müasir tədris mühiti

formalaşır. "Scratch", "Tinkercad", "Minecraft Education" kimi platformalarda müxtəlif fənnlərin məzmununu birləşdirən layihələr qurmaqla inteqrativ öyrənməni praktik səviyyəyə gətirmək mümkündür. Bu kimi layihələrin təşkili zamanı şagirdlərdə yalnız bilik deyil, həm də praktik zəka, sistematik düşünmə, əməkdaşlıq və məsuliyyət hissi formalaşır.

Quizizz, Kahoot, Wordwall kimi rəqəmsal oyunların tətbiqi müasir dərsin mühüm elementi kimi çıxış edir. Xüsusilə, inteqrativ dərslərdə onların tətbiqi həm motivasiyanı artırır, həm də müxtəlif fənnlərin əlaqəsini konkret situasiyada nümayiş etdirir. Kahoot, Quizizz kimi platformalar adətən dərsin sonunda bilikləri yoxlamaq üçün sadə test vasitəsi kimi görünsə də, əslində yaradıcı və şəxsiyyətyönümlü öyrənmə üçün çox güclü vasitədir. Rəqabət, rəngarəng dizayn və ani nəticə şagirdin motivasiyasını, dərsə marağını yüksəldir. Suallara vaxt məhdudiyyəti altında cavab vermək sürətli düşünmə bacarığını inkişaf etdirir, diqqətini və çevikliyini artırır. Eyni testdə çeşidli fənnlərə aid sualları qarışıq şəkildə verməklə fənnlərarası əlaqə qurulur. Məsələn, "Fosil yanacaqların istifadəsinin iqlim dəyişikliyinə təsiri nədir və alternativ enerji mənbələri hansı üstünlüklərə malikdir?" sualı həm kimyaya, həm coğrafiyaya, həm də ekologiyaya aid bilikləri özündə cəmləmişdir. Beləliklə, şagird burada elmi biliklərlə yanaşı sosial məsuliyyət və ekoloji şüur qazanır. Digər bir nümunəyə nəzər salaq: "Fotosintez nəticəsində yaranan enerji qida zəncirində necə ötürülür?" sualı da biologiya, kimya və coğrafiya fənnlərinə aid bilikləri özündə cəmləşdirdiyi üçün şagird burada həm kimyəvi, həm bioloji, həm də coğrafi baxış bucaqlarını birləşdirir.

Wordwall, Mentimeter, Padlet kimi platformalar isə daha çox yaradıcı iştiraka, şagirdin öz fərdi fikrini ifadə etməsinə yönəlir. Wordwall proqramında "cüt tap", "söz tapmacası", "səbəb-nəticə cütləri" kimi inteqrativ tapşırıqlar yaratmaq mümkündür. Padlet platformasında da şagirdlər öz fikirlərini, şəkil, qısa yazılarını paylaşaraq ortaq yaradıcı lövhə yaradırlar. Bu üsullarla da onlarda əməkdaşlıq, təfəkkür çevikliyi, kommunikasiya bacarıqları artaraq inkişaf edir. İnternetin rolu yalnızca informasiya bolluğu yaratmaq deyil, informasiya seçim bacarığını formalaşdırmaqdır. Şagirdlər onlayn mənbələri tədqiq edərkən məlumatları müqayisə edərək təhlil edirlər. Bu da həm tənqidi düşünməni, həm də yaradıcı analiz bacarığını inkişaf etdirir. Məsələn, müəllim "Plastik tullantıların azalması üçün maarifləndirici sosial reklam (plakat, yaxud qısa video rolik) hazırlayın" kimi bir tapşırıq verir. Bu tapşırıq biologiya, coğrafiya, informatika fənnlərini inteqrasiya etmiş, yerinə yetirildiyi təqdirdə şagirdlərdə ekoloji düşüncə, sosial məsuliyyət, qrafik dizayn, media savadlılığı, əməkdaşlıq və təqdimat bacarıqlarının inkişaf etdirilməsini hədəfləyir.

Digər bir tapşırıq nümunəsinə nəzər salaq: "Marsda həyatın mümkünlüyü barədə elmi faktları və öz fantaziyanızı birləşdirərək hekayə yazın". Bu tapşırıq Astronomiya, Biologiya, Ədəbiyyat, İncəsənət fənnlərinin inteqrasiyasında elmi faktları bədii təxəyyüllə əlaqələndirmək, elmi kommunikasiya, yaradıcılıq, analitik və vizual təfəkkür kimi bacarıqları inkişaf etdirməyi hədəfləmişdir.

Pedaqoji fəaliyyətim zamanı İngilis dili və Ədəbiyyatın inteqrasiyası fonunda "Hər kəs öz fantastik yönümlü bədii hekayəsini yazsın" deyə bir tapşırıq verdim. V sinif şagirdlərindən Lalə "Franchisco and Nefry" adlı fantastik hekayə yazaraq burada danışan at - Franchisco və gənc oğlan -Nefry arasında formalaşan vəfalı dostluq, sadiq münasibəti bədii şəkildə təsvir etmişdir. Şagird bu zaman yalnız dil qaydaları və lüğət ehtiyatını tətbiq etməklə kifayətlənmir, bədii ifadə vasitələrindən yararlanaraq humanist və fəlsəfi ideyalar sərgiləyir. At obrazı sadiqliyi, inamı və insanın təbiətlə olan əlaqəsini, gənc oğlan isə yeniyetməlik dövrünün emosional dünyasını simvolizə edir. Bu tip yaradıcı tapşırıqlar şagirdin özünüifadə bacarığını, empati duyğusunu, fərdi təfəkkür üslubunu gücləndirir.

V sinif şagirdləri Elman və Ziya da yuxarıda qeyd edilən tapşırığı yerinə yetirərək müvafiq olaraq "Aliens" və "Astronout on the Moon" adlı öz fantastik hekayələrini təqdim etdilər. Müxtəlif astronomik bilikləri, eləcə də ingilis dili və ədəbiyyatı özündə birləşdirdiyinə görə bu hekayələr də inteqrativ dərsin məhsulu kimi qiymətləndirilə bilər. Belə kreativ təfəkkürün, yaradıcı qabiliyyətlərin inkişafına yönəlmiş tapşırıqlar yalnız bilik qazandırmaqla kifayətləndirmir, şəxsi mənəvi dəyərlər, duyğular, ideyalar vasitəsilə öyrənməni mənalandırır.

Nəticə

Nəticədə onu qeyd edə bilərik ki, inteqrativ dərslərdə təlim prosesi yalnızca statik bilik ötürməklə kifayətlənmir, yaradıcı, tədqiqat yönümlü fəaliyyət şəklində təşkil edilir. Texnologiyanın, internetin, interaktiv oyunların və süni intellektin inteqrativ dərslərdə tətbiqi şagirdlərin fərdi potensialını üzə çıxarır, müxtəlif fənnləri mənalı şəkildə bir-birilə əlaqələndirir, praktik zəkaya əsaslanan real təcrübə formalaşdırır, şagirdin öz öyrənmə prosesinə məsuliyyət hissini artırır. Texnologiya sadəcə təlim vasitəsi kimi deyil, öyrənmə prosesinin fəal iştirakçısı kimi çıxış edir. Bu zaman müəllim tədris mühitinin dizaynerinə, şagird isə öz öyrənmə təcrübəsinin müəllifinə

çevrilir. Belə dərslər zamanı şagirdlər həm öz ideyalarını texnoloji vasitələrlə ifadə edir, həm də müasir əmək bazarının tələblərinə uyğun praktik bacarıqlar formalaşdırır.

Təkliflər sırasında onu qeyd edə bilərəm ki, şagirdlərin bir neçə fənnin əlaqələndirilmiş olduğu mini-tədqiqatlar, STEAM və yaxud “creative week” tipli fəaliyyətlərdə iştirakı dəstəklənməlidir. Şagirdlərin yaradıcılığının stimullaşdırılması üçün “Fiction story” (fantastik hekayə), esse, layihə və ya təqdimat kimi işlər məktəb səviyyəsində sərgilənməli, hətta regional müsabiqələrə təqdim edilməlidir. Qiymətləndirilmə zamanı yalnız biliklər deyil, yaradıcı tətbiq, əməkdaşlıq, tədqiqat və refleksiya bacarığı kimi meyarlar da nəzərə alınmalıdır. Məktəblərarası və beynəlxalq əməkdaşlıqlar genişləndirilməli, inteqrativ dərs mühitində yetişən şagirdlərin beynəlxalq layihə və müsabiqələrə cəlb edilməklə potensialının qlobal səviyyədə dəstəklənməsinə xüsusi qayğı göstərilməlidir. Məktəb mühiti də yaradıcı atmosferi dəstəkləməli, müəllimlərə innovativ dərs ideyaları üçün sərbəstlik və resurs dəstəyi verilməli, həmçinin, uğurlu inteqrativ təcrübələr paylaşılmalıdır ki, digər müəllimlər də bundan bəhrələnə bilsinlər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika; 2004
2. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı; 2014
3. TAİM. Metodika və Pedaqogika Yenilənmiş çərçivə sənədi əsasında vəsait. Bakı,2024
4. Mirzəzadə V.A. XXI Əsr Bacarıqlarından istifadə edərək yaradıcı düşünmək- STEAM. BMU, Ümummilli liderimiz H.Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş Gənc tədqiqatçıların IX beynəlxalq elmi konfrans materialları, 2025.
5. Əhmədova S. Müasir təlimdə fənlərarası inteqrasiyanın rolu. Azərbaycan müəllimi, 2023
6. Axundova G. İnteqrativ dərslərin xüsusiyyətləri. ADPU, Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2021.
7. ARTİ. Fənlərarası inteqrativ tədris fəaliyyətinin 10 nümunəsi. 2021.

DOİ: 10.32010/TDVF5550

THE IMPACT OF INCLUSIVE EDUCATION ON THE ACADEMIC AND EMOTIONAL DEVELOPMENT OF STUDENTS WITHOUT DISABILITIES

Javid Vekil MUSAYEV
Baku State University
Orcid: https://orcid.org/0009-0008-8407-1928
E-mail: cavid.musayev.vakil@bsu.edu.az

Abstract: In recent years, the concept of inclusive education has gained increasing relevance and is now widely accepted as one of the modern educational models. The concept of inclusive education involves placing students with disabilities in regular classes within general education schools, allowing them to study alongside their peers. Inclusion is spreading rapidly in the global education system, and the development mechanism of students with disabilities is being evaluated comprehensively. International studies indicate that inclusive education has a positive impact on the academic, social, and emotional development of students with disabilities; however, there is limited research on the development of students without disabilities in inclusive education settings. For this reason, our study examines the impact of inclusive education on the academic and emotional development of students without disabilities in primary schools in Azerbaijan, compares the development indicators of regular and inclusive classroom students, and aims to determine whether there are differences in academic and emotional development between them, and to determine teachers' pedagogical attitudes towards inclusive education. In this study, a questionnaire survey was conducted with teachers to assess the academic and emotional development of students in both regular and inclusive classrooms, and a mixed method of quantitative and qualitative research was used. The responses of regular and inclusive classroom teachers to tests and open-ended questions were compared across classes. Positive and negative factors that will affect the academic and emotional development of students in both classes were identified. The data found were analyzed using the Universal Design for Learning theory. The results of the study show that although the academic and emotional development performance of students without disabilities in inclusive classes is slightly lower than that of students in regular classes, this difference does not negatively affect their overall development. According to teachers' comments, to promote inclusive education, a social, physical, safe, and active learning environment should be created in schools and classrooms, and support strategies should be put forward to develop mutual emotional relationships among students.
Keywords: Inclusive education, students without disabilities, academic and emotional development

---

İNKLÜZİV TƏHSİLİN ƏLİLLİYİ OLMAYAN ŞAGİRDLƏRİN AKADEMİK VƏ EMOSİONAL İNKİŞAFINA TƏSİRİ

Javid Vekil MUSAYEV
Baku State University
Orcid: https://orcid.org/0009-0008-8407-1928
E-mail: cavid.musayev.vakil@bsu.edu.az

Xülasə: Son illərdə inklüziv təhsil anlayışı daha çox aktuallaşır və müasir təhsil modellərindən biri kimi qəbul olunur. İnklüziv təhsilin məzmunu əlilliyi olan şagirdlərin ümumtəhsil məktəblərində öz həmyaşıdları ilə birlikdə təhsil alması üçün adi siniflərə yerləşdirilməsi deməkdir. Dünya təhsil sistemində inklüzivlik sürətli şəkildə yayılır və əlilliyi olan şagirdlərin inkişaf mexanizmi hərtərəfli istiqamətdə dəyərləndirilir, beynəlxalq tədqiqatlar əlilliyi olan şagirdlərin akademik, sosial və emosional inkişafına inklüziv təhsilin müsbət təsirlərinin olduğunu göstərir, lakin inklüziv təhsildə əlilliyi olmayan şagirdlərin inkişafı ilə bağlı araşdırmalar məhdud saydadır. Bu səbəbdən bizim tədqiqatımız Azərbaycanda ibtidai siniflərdə əlilliyi olmayan şagirdlərin akademik və emosional inkişafına inklüziv təhsilin təsirini araşdırır, adi və inklüziv sinif şagirdlərinin inkişaf göstəricilərini müqayisə edir, onların arasında akademik və emosional inkişaf fərqinin olub – olmadığını və müəllimlərin inklüziv təhsil ilə bağlı pedaqoji münasibətlərini müəyyən etməyi hədəfləyir. Bu tədqiqatda, həm adi, həm də inklüziv siniflərdə şagirdlərin akademik və emosional inkişafı üçün müəllimlər ilə anket sorğusu aparılmışdır, həmçinin araşdırmada kəmiyyət və keyfiyyət əsaslı qarışıq metod istifadə edilmişdir. Adi və inklüziv sinif müəllimlərinin test və açıq suallara verdikləri cavablar siniflərarası müqayisə edilmişdir. Hər iki sinif üzrə şagirdlərin akademik və emosional inkişafına təsir göstərəcək müsbət və mənfi amillər müəyyən edilmişdir. Tapılan məlumatlar Universal Design for Learning nəzəriyyəsi ilə təhlil olunmuşdur. Tədqiqatın nəticəsi göstərir ki, inklüziv siniflərdə əlilliyi olmayan şagirdlərin akademik və emosional inkişaf performansı adi siniflərdəki şagirdlərlə müqayisə zamanı biraz aşağı səviyyədə olsa da, bu fərq onların ümumi inkişafına mənfi təsir göstərmir. Müəllimlərin şərhlərinə

əsasən, inklüziv təhsilin təşviqi üçün məktəb və siniflərdə sosial, fiziki, təhlükəsiz və aktiv dərs mühiti yaradılmalı, şagirdlərdə qarşılıqlı emosional münasibətlərin inkişafı üçün dəstək strategiyaları irəli sürülməlidir.
Açar sözlər: İnklüziv təhsil, əlilliyi olmayan şagirdlər, akademik və emosional inkişaf

ВЛИЯНИЕ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ НА АКАДЕМИЧЕСКОЕ И ЭМОЦИОНАЛЬНОЕ РАЗВИТИЕ УЧАЩИХСЯ БЕЗ ИНВАЛИДНОСТИ

Javid Vekil MUSAYEV
Baku State University
Orcid: https://orcid.org/0009-0008-8407-1928
Электронная почта: cavid.musayev.vakil@bsu.edu.az

Резюме: В последние годы концепция инклюзивного образования стала более актуальной и принята в качестве одной из современных моделей образования. Содержание инклюзивного образования заключается в том, что учащиеся с инвалидностью обучаются в обычных классах общеобразовательных школ вместе со своими сверстниками. Инклюзия стремительно распространяется в мировой системе образования, и механизмы развития учащихся с инвалидностью подвергаются всесторонней оценке. Международные исследования показывают, что инклюзивное образование оказывает положительное влияние на академическое, социальное и эмоциональное развитие учащихся с инвалидностью, однако исследований, посвященных развитию учащихся без инвалидности в условиях инклюзивного образования, крайне мало. В связи с этим наше исследование посвящено изучению влияния инклюзивного образования на академическое и эмоциональное развитие учащихся без инвалидности в начальных школах Азербайджана, сравнению показателей развития учащихся, обучающихся в обычных и инклюзивных классах, и направлено на выявление различий в академическом и эмоциональном развитии между ними, а также на определение педагогического отношения учителей к инклюзивному образованию. В данном исследовании был проведен анкетный опрос учителей для оценки академического и эмоционального развития учащихся как в обычных, так и в инклюзивных классах. При этом использовался смешанный метод количественного и качественного исследования. Сравнивались ответы учителей обычных и инклюзивных классов на тесты и вопросы открытого типа в разных классах. Были выявлены положительные и отрицательные факторы, влияющие на академическое и эмоциональное развитие учащихся обоих классов. Полученные данные анализировались с использованием теории универсального дизайна для обучения. Результаты исследования показывают, что, хотя академические и эмоциональные показатели развития учащихся без инвалидности в инклюзивных классах несколько ниже, чем у учащихся обычных классов, эта разница не оказывает негативного влияния на их общее развитие. По мнению учителей, для развития инклюзивного образования необходимо создавать в школах и классах социальную, физическую, безопасную и активную учебную среду, а также разрабатывать стратегии поддержки для развития эмоциональных взаимоотношений между учащимися.
Ключевые слова: инклюзивное образование, учащиеся без инвалидности, академическое и эмоциональное развитие

Introduction

Inclusive education is the placement of students with disabilities in regular classrooms with their peers. This education system creates an inclusive learning environment to ensure the academic development and emotional growth of all students. Most of the arguments against inclusive education are mainly based on the negative effects that it has on the development of students without disabilities (Monsen et., 2014). There is a lot of scientific research around the world on the impact of inclusion on students with disabilities, but the impact of inclusive education on students without disabilities has not been explored in depth in scientific research. Therefore, it is important to discuss the impact of inclusive education on the academic and emotional development of students. To what extent do students without disabilities achieve academic and emotional development in inclusive classrooms? This question is one of the main issues raised by both advocates and opponents of inclusive education. Inclusion is understood as an integrative approach in education and society, and does not only cover school goals such as academic achievement. Because the individual development of students means not only their academic achievements, but also the establishment of proper emotional relationships with their peers and teachers (Szumski et., 2017). The academic and emotional development of each student is one of the main goals of inclusive education. The emotional competence of students is of great importance in their future lives. Recognizing and managing emotions, focusing on positive goals, showing a positive attitude towards oneself and others, caring, and making responsible decisions are all components of emotionality (Ralic, 2023). In general, students with disabilities can experience a

number of concerns, such as depression, stress, and social isolation. Inclusive education primarily requires students to build social relationships with their peers, increase empathy, reduce prejudice, and develop healthy interpersonal thinking (Jeri & Masuka, 2025). In a study conducted in Switzerland, over 400 students in 50 classrooms were followed for a year. 20 classrooms included students with Down syndrome or intellectual disabilities, while the other 30 classrooms were regular classrooms. The researchers concluded that the presence of a student with a disability in the classroom did not negatively affect the mathematics, reading, and writing lessons of other students (Dessemontet & Bless, 2013). Related studies further show that the inclusion of students with disabilities in regular classrooms does not harm the development of students without disabilities, and in some cases can even provide academic and social benefits (Hehir et., 2016). Another study notes that the impact of inclusive education on students without disabilities varies depending on the context, teacher experience, and school resources (Gray et., 2021).

Relevance of the study

The mechanism of the impact of inclusive education should be investigated not only on students with disabilities but also on students without disabilities. However, the number of studies conducted on the impact of inclusive education on students without disabilities in both our country and the world's scientific literature is limited. This study, therefore, aims to fill this gap. The relevance of the topic is to reveal the differences in academic and emotional development between students studying in regular and inclusive classes in our country. This study compares the academic and emotional development process of students without disabilities between regular and inclusive classes and examines the effectiveness of inclusive education environments, and at the same time, provides practical and scientific directions for promoting inclusive education.

Purpose of the study

The results of many scientific pedagogical studies have shown that the academic and emotional performance of students in the classroom is affected by the developmental characteristics of their peers. Although the benefits of inclusive education for students with disabilities have been widely studied, our study aims to study the developmental level of students without disabilities in inclusive classes. The purpose of this study is to investigate the effects of inclusive education, that is, the placement of students with disabilities in regular classes, on the academic development and emotional well-being of their peers without disabilities, and to find out whether these effects are positive, negative, or neutral.

Research questions of the study

1) To what extent does inclusive education affect the academic and emotional development of students without disabilities?

2) What is the pedagogical attitude of teachers towards inclusive education?

Research methodology

To conduct research on this topic, both regular and inclusive classroom teachers were selected from various comprehensive schools in our country. A total of 14 primary school teachers participated in the research, 7 of whom were regular classroom teachers and the other 7 were inclusive classroom teachers. A questionnaire was prepared via Google Online Form under the name "Students' Academic and Emotional Development Survey for Teachers". The questionnaire consisted of both closed (test-type) and open-ended questions. Both quantitative and qualitative mixed methods were used in the research. The "Descriptive Analysis" model was applied to analyze the quantitative part of the research, and a simple frequency and percentage analysis was conducted on the test questions. The responses of regular and inclusive classroom teachers to the test questions are shown in separate tables. The general trend for both groups is presented. The "Thematic Analysis" model was applied for the qualitative analysis of open-ended questions (Brown & Clarke, 2006). The main ideas and expressions were extracted from the responses and coded. By combining codes that were close to each other, separate themes were created for regular and inclusive classroom teachers. In addition, a comparative analysis was conducted between the responses of regular and inclusive classroom teachers, and similarities and differences were analyzed. The data obtained in the study were analyzed based on the theory of Universal Design for Learning.

Table 1. Responses of regular classroom teachers

Academic performance of students	60-79% of students are good	**7**	100%
Attending reading and math classes	Active	6	86%
The academic impact of differently abled students in the classroom	Positive	4	57%
Motivation for the lesson	High (level)	5	71%

Factors affecting academic development	Student-teacher relationship, motivation and support, accessibility of resources	7	100%
Empathy and social skills	80-100% of students (excellent)	4	57%
Mutual respect and attitude in the classroom	Good (at a level)	**7**	100%
Ability to express emotions freely	Always	4	57%
Sincere and confident communication	In most cases	4	57%
Teacher–student emotional bond	Strong	5	71%
Difficult-to-regulate emotions	Nervousness, anger, shyness	5	71%
Students' reactions to classmates' mistakes	Behaving understandingly	7	100%
Be patient in stressful situations	In most cases	4	57%
Reasons why students are stressed	Anxiety about getting grades, difficulty of assignments, fear of parents	6	86%
Students' behavior towards each other	Does not cause discomfort	5	71%
Promoting school inclusion	In some fields	4	57%

Məktəbəqədər təhsil pilləsi uşaqların ilkin bacarıqlara sahib olduğu təhsil pilləsidir. Sosiallaşma prosesi hər zaman müəyyən bir konkret cəmiyyət üçün keçərlidir. Yəni insan tərkibində olmadığı digər cəmiyyətlərə uyğun sosiallaşması mümkün deyildir [8]. Dünya ölkələrində sağlamlıq imkanları məhdud uşaqlar iki tip məktəbəqədər təhsil müəssiələrində tədris prossesinə qoşulurlar. Xüsusi tipli məktəbəqədər təhsil müəssisələri vvə ənnənəvi məktəbəqədər təhsil müəssiələri olaraq ayrılır. Xüsusi tipli məktəbəqədər təhsil müəssisələrində uşaqlar yalnız sağlamlıq imkanları məhdud uşaqlarla əhatə olunduğundan sosiallaşma imkanları zəif olur.Ölkəmizdə xüsusi tipli məktəbəqədər təhsil müəssisələrinə çox rast gəlinmir. Məktəbəqədər təhsil müəssisələrində aparılan tədrisdə sağlamlıq imkanları məhdud uşaqlar digər sağlam uşaqlarla eyni mühitdə tədris prossesinə qoşulur. Birlikdə tədris uşaqların əməkdaşlıqlı şəkildə qruplarda çalışmasına, yardımlaşma, empatiya qurulma kimi vacib məqamları özündə birləşdirir. Ənnəvi üsulla daha çox əhatə olunan inkluziv təhsilin tətbiq edildiyi bağçalarda uşaqların qarışıq qruplar şəklində tədris prossesinin iştirakçısı olmalarına şərait yaradılır. Sosiallaşma imkanlarına sahib olan uşaqlarla iş prossesində hazırlanmış proqram uşaqların çətinlikləri həll edə bilmə səviyyələrinə görə mütəmadi olaraq dəyişdirilə bilməz. Uşaqların sosiallaşmasında müəllimin rolunun qiymətləndirilməsi əsas məqam hesab olunmalıdır. İnkluziv təhsilin məktəbəqədər təhsil müəssisələrində tətbiqi nəticəsində uşaqların sosiallaşmasına istiqamətlənmiş proqram hazırlanmalıdır. Hazırlanmış proqram inkluziv təhsilin nümunələri olan sağlamlıq imkanları məhdud uşaqların sosiallaşması imkanlarının artırılması və tətbiq olunması müəllim peşəkarlığının göstəricilərindən hesab olunmalıdır.
Açar sözlər*:* məktəbəqədər təhsil, inklüzivlik, sosiallaşmaq, uşaqlar

---

INCLUSIVENESS IN PRESCHOOL EDUCATION: SOCIALIZATION OF THE CHILD'S PERSONALITY

Sheker Shahlar ORUCELİYEVA
Azerbaijan State Pedagogical University
Department of Pedagogy of Preschool Education
E-mail: Oruceliyeva.sheker@gmail.com

Abstract: The preschool education level is considered the initial and essential stage in a child's educational life. With the implementation of inclusive education at this stage, children with disabilities have also gained the right to education. The importance of education in integrating children with disabilities into society is undeniable. To become a member of society, socialization is regarded as a crucial process. Every child participating in the educational process has the opportunity to socialize. Socialization takes place within society, and a child's first encounter with society begins through their educational experience. During the preschool period, children acquire basic knowledge, skills, and habits while forming various relationships. These relationships contribute to the development of speech and empathy among children. The initial connections established among them enhance their opportunities for socialization.
The preschool stage is the level where children gain their first essential skills. The process of socialization is always valid for a specific society. In other words, a person cannot socialize according to societies they are not a part of. In countries around the world, children with disabilities attend two types of preschool institutions: special preschools and traditional preschools. In special preschools, children are surrounded only by peers with disabilities, which weakens their opportunities for socialization. In our country, special preschools are relatively rare. In the preschool education system, children with disabilities participate in the educational process together with typically developing children. Joint learning fosters group collaboration, mutual assistance, and empathy-building — all of which are essential elements of

socialization. In kindergartens where inclusive education is implemented through traditional methods, children participate in the educational process in mixed groups. However, in working with children who possess socialization skills, the programs developed cannot always be adjusted regularly according to their problem-solving abilities. Evaluating the teacher's role in the socialization of children should be considered a key aspect.
As a result of implementing inclusive education in preschool institutions, a program should be developed to enhance the socialization of children. This program, which supports the integration and socialization of children with disabilities — the core of inclusive education — should be regarded as an indicator of teacher professionalism.
Keywords: preschool education, inclusivity, socialization, children

ИНКЛЮЗИВНОСТЬ В ДОШКОЛЬНОМ ОБРАЗОВАНИИ: СОЦИАЛИЗАЦИЯ ЛИЧНОСТИ РЕБЕНКА

Шекер Шахлар ОРУДЖАЛИЕВА
Азербайджанский государственный педагогический университет
Кафедра Педагогики дошкольного образования
Электронная почта : Oruceliyeva.sheker@gmail.com

Резюме: Дошкольное образование считается начальным и важнейшим этапом в образовательной жизни ребенка. Благодаря внедрению инклюзивного образования на этом этапе, дети с ограниченными возможностями также получили право на образование. Важность образования в интеграции детей с ограниченными возможностями в общество неоспорима. Для того чтобы стать членом общества, социализация считается важнейшим процессом. Каждый ребенок, участвующий в образовательном процессе, имеет возможность социализироваться. Социализация происходит в обществе, и первое знакомство ребенка с обществом начинается через его образовательный опыт. В дошкольном возрасте дети приобретают базовые знания, навыки и привычки, формируя различные отношения. Эти отношения способствуют развитию речи и эмпатии у детей. Первоначальные связи, установленные между ними, расширяют их возможности для социализации.
Дошкольный этап — это уровень, на котором дети приобретают свои первые необходимые навыки. Процесс социализации всегда действителен для конкретного общества. Другими словами, человек не может социализироваться в соответствии с обществом, частью которого он не является. В странах по всему миру дети с ограниченными возможностями посещают два типа дошкольных учреждений: специальные дошкольные учреждения и традиционные дошкольные учреждения. В специализированных дошкольных учреждениях дети окружены только сверстниками с ограниченными возможностями, что ослабляет их возможности для социализации. В нашей стране специализированные дошкольные учреждения встречаются относительно редко. В системе дошкольного образования дети с ограниченными возможностями участвуют в образовательном процессе вместе с детьми с типичным развитием. Совместное обучение способствует групповому сотрудничеству, взаимопомощи и развитию эмпатии — все это важные элементы социализации.
В детских садах, где инклюзивное образование реализуется традиционными методами, дети участвуют в образовательном процессе в смешанных группах. Однако при работе с детьми, обладающими навыками социализации, разработанные программы не всегда могут регулярно корректироваться в соответствии с их способностями к решению проблем. Оценка роли педагога в социализации детей должна рассматриваться как ключевой аспект.
В результате внедрения инклюзивного образования в дошкольных учреждениях необходимо разработать программу, направленную на улучшение социализации детей. Эта программа, поддерживающая интеграцию и социализацию детей с ограниченными возможностями — ядро инклюзивного образования — должна рассматриваться как показатель профессионализма педагога.
Ключевые слова: дошкольное образование, инклюзивность, социализация, дети

Giriş

İnsan övladının yarandığı gündən günümüzə keçmiş olduğu mərhələlər onun sosiallaşması və inkişafına təkan vermişdir. Sosiallaşma imkanı uşaqların ictimai normalara uyğunlaşması, ünsiyyət bacarıqlarının inkişaf etdirilməsinə istiqamətlənir.

İnteqrasiya – latın sözü olub, hərfi mənası "hisslərin birləşməsi, bütövləşmə" mənasını ifadə edir [1. s, 37].

İnklüziv təhsil bütün insanların sağlamlıq imkanlarını nəzərə alaraq təhsil almasına şərait yaradan təhsil növüdür. İnklüzivlik uşaqların təhsil sisteminə inteqrasiyası zamanı sosiallaşması imkanlarını inkişaf etdirir. Cəmiyyətin hər bir fərdinin sağlamlıq imkanlarından aslı olmayaraq təhsil sisteminə daxil olması prossesi məktəbəqədər təhsil mərhələsindən başlayır. Məktəbəqədər təhsilin inkişafı istiqamətində inklüzivliyin daxil edilməsi prosesin inkişafında çətinliklər yaratmış olmasına baxmayaraq inkişafı istiqamətində mühüm addımlar atılmaqdadır. İnkişaf prosesi uşaqların sosiallaşması imkanlarını daha artırır. Uşaqların yaş həddinin

gətirmiş olduğu çətinliklər prosesin ləngiməsinə səbəb olur. Sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər təhsil sisteminə daxil olmasında xüsusi bağçalar önəmli rol oynayır. Bu müəssisələrdə müxtəlif sağlamlıq imkanları olan uşaqlar cəmlənir. Xüsusi təhsil müəssisələrinin genişləndirilməsi istiqamətində kütləvi tədbirlər aparılmalıdır. Tədbirlərin məqsədi bütün uşaqların fərqlər olmadan təhsilə cəlb edilməsinin təmin olunmasıdır. Uşaqlar hər biri ilkin olaraq adaptasiya mərhələsindən keçir. Adaptasiya prossesində hər bir valideynin iştirakı vacibdir. Adaptasiya zamanı yarana biləcək bir çox problemlər var ki, bu da uşaqlarda yaranmış olan qorxu hissinin aradan qaldırılmasıdır. Uşaqların sağlamlıq imkanları müxtəlif kateqoriyalar üzrə formalaşdığından adaptasiya prossesində müxtəlif çətinliklər özünü göstərməkdədir. Məktəbəqədər təhsil pilləsi ilkin biliklərin mənimsənilməsi mərhələsi olduğundan mərhələdə uşaqların müxtəlif istiqamətlərdəki bacarıqlarının inkişaf etdirilməsi önəmlidir. Sosiallaşma imkanları məhs bu dövürdən başladığından sağlamlıq vəziyyətini nəzərə alaraq uşaqların inkişafının təmin olunması vacib məqam hesab edilməlidir. Məktəbəqədər təhsil müəssisələri təhsilin inkişafının ilkin mərhələsi hesab edilməklə hər uşağın təhsil və təlim prossesinin bir parçası olmasına və sosiallaşmasına şərait yaradır. Pillənin əsas özəlliklərindən biri uşaqların təhsilin digər mərhələlərinə hazırlanması ilə yanaşı onların sosiallaşmasının da təmin olunmasıdır. Məktəbəqədər təhsil müəssisələrində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların təhsil parçası olmaları istiqamətində aparılan işlər uşaqların fərqliliklərin qəbul olunmasında mühüm əhəmiyyət daşıyır. İnklüziv təhsil sisteminin məktəbəqədər təhsil müəssisələrində tətbiqi uşaqların sosiallaşması imkanlarının inkişafının təmin olunmasında, onların cəmiyyət tərəfindən qəbullanılmasında mühüm hadisədir. Bağça müəllimləri inklüziv təhsilin inkişafı istiqamətində müxtəlif hazırlıqlar aparmalıdırlar ki, uşaqların adaptasiyasında plan və proqramların qurulmasına xüsusi diqqət yetirməlidirlər. Hazırlıqların məzmununda uşaqların sosiallaşması və onların inteqrasiyasının sürətləndirilməsi həmçinin bütün uşaqların inteqrasiya prossesinə uyğunlaşması mütləqdir. İnteqrasiyanın təmin olunması prossesinin nəticəsində uşaqlar sosiallaşma imkanlarına sahib olurlar. Uşaqların sosiallaşmasında valideyin müəllim əməkdaşlığının rolunu düzgün dəyərləndirmək mütləqdir. bir sıra valideynlər övladlarının sağlamıq imkanlarının qorunması istiqamətində sosiallaşma zamanı digər uşaqlarla əlaqənin tam qurulmasına maneəçilik yaradır. Maneələrin əsasında bir çox uşaqlar sosiallaşma imkanlarını itirirlər.

Şəhər mərkəzlərində yerləşən məktəbəqədər təsil müəssisələrində inklüziv təhsilin inkişafına daha çox rast gəlinir. Bu inkişaf isə uşaqların sosiallaşma imkanlarını daha çox artırır. Ucqar rayon və kəndlərdə yerləşən məktəbəqədər təhsil müəssisələrində inkluziv təhsilin inkişafı və uşaqların sosiallaşma imkanları tam şəkildə baş tutmamışdır. Sosiallaşma imkanlarının inkişafında yaranmış çətinliklər uşaqları təhsil həyatından uzaq salır. Məktəbəqədər təhsl müəssisələrində inklüzivliyin inkişafı istiqamətində uşaqların sosiallaşmasında bir sıra vacib məqamlar nəzərə alınmalıdır.

✓ Ünsiyyət və dil bacarıqlarının inkişaf etdirilməsi - nitq problemli uşaqlarda nitqin inkişafı istiqamətində məşqlərin aparılması, qarışıq qruplarda uşaqların ünsiyyət bacarığının inkişaf etdirilməsi ilə sosiallaşma bacarıqlarını inkişaf etdirilir.

✓ Empatiya bacarığının inkişaf etdirilməsi - təlim prossesində rollu oyunlar vasitəsilə və ya digər şagirdlərin yardımı ilə sosiallaşma imkanları artırıla bilər. Nağılların canlandırılması empatiya bacarıqlarının inkişafını dəstəkləyir.

✓ Qruplarla iş prossesinin təşkili – hər bir təhsil pilləsində olduğu kimi məktəbəqədər təhsil pilləsində də qruplarla işin təşkili prosesi idarə oluna bilər. Qruplarla iş prosesi uşaqların əməkdaşlıq imkanlarını artırmaqla sosialaşmasının təmin olunmasında mühüm addım hesab edilməlidir.

Nəzəriyyə

Sosiallaşma imkanlarının inkişaf etdirilməsində uşaqlarla iş prosesinin sistemlilik əsasında qurulması müəllim peşəkarlığının əsas göstəricisi hesab olunmalıdır. Uşağın sosiallaşması və cəmiyyətə uğurlu inteqrasiyasını həyata keçirmək üçün aşağıdakılara ciddi fikir verilməlidir:

✓ İntellektin inkişafı;
✓ Emosional sahənin inkişafı;
✓ Stressə qarşı dözümlülüyün inkişafı;
✓ Özünə inamın inkişafı;
✓ Gerçək aləmə pozitiv münasibət və başqalarını qəbul etmənin inkişafı;
✓ Müstəqilliyin inkişafı;
✓ Özünü motivləşdirmənin inkişafı.[1. s, 38]

Uşaqların sosiallaşması imkanlarının inkişafında onların hərtərəfli inkişafının təmin olunması, qarşıda olan problemlərin aradan qaldırılmasında dəstəyin alınması və dəstəyin verilməsi mühüm addım hesab olunur. Uşaqların sağlamlıq imkanlarını nəzərə alaraq onların sosiallaşması və cəmiyyətə qəbul olunması ən əsası adaptasiyasının təmin olunması

istiqamətində əməkdaşlıq və fərdi işlərin aparılması mütləq hadisə hesab edilməlidir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsil prossesinə inteqrasiyası nəticəsində baş tutan sosiallaşma imkanlarının təmin olunmasında işin mühüm hissəsi uşaqların üzərinə düşür ki, onlar digər uşaqlarla eyni dərəcədə təhsilin meyvələrindən bəhrələnə bilsin. Sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər təhsil müəssisələrində qruplar şəklində tədris prossesində iştirakı mühüm göstərici hesab edilmir. Uşaqların xüsusi tipli məktəbəqədər təhsil müəssisələrində tədrisdə iştirakı daha çox üstün tutulur. Uşaqların xüsusi tipli məktəbəqədər tədris müəssisələrində aldıqları təhsil zamanı sosiallaşma imkanlarının artırılması istiqamətində fərdi şəkildə işlər aparılır. Fərdi şəkildə aparılan iş uşaqların bölünmüş olduqları kateqoriyalara uyğun şəkildə müəllim tərəfindən xarakter, xüsusiyyət, öyrənmə bacarıqları nəzərə alınmaqla daha sürətli şəkildə həyata keçirilə bilər. Aparılan işin nəticəsində uşaqlar daha sürətli öyrənmir və adaptasiyanı təmin edir. Ölkəmizdə uşaqların xüsusi tipli məktəbəqədər təhsil müəssisələrində tədrisi çox da gündəmdə olan məsələ deyil. Daha çox qruplar şəklində ümumi məktəbəqədər təhsil müəssisələrində tədris aparılır. Azərbaycan Respublikasının təhsil haqqında olan qanunun 2-ci bəndinin 12.1-ci maddəsinə uyğun olaraq, müəssisədə psixoloji-pedaqoji və tibbi göstərişlərə (əks göstərişlərə) uyğun təhsil almaq üçün lazımi xüsusi şərait olduğu halda, həmin müəssisədə sağlamlıq imkanları məhdud uşaqların sağlam şagirdlərlə eyni sinifdə təhsilə cəlb edilməsi məqsədilə inklüziv təhsil sinifləri yaradılır.[6] Tədrisin keyfiyyətinin artırılması istiqamətində Azərbaycan Respublikası Elm və Təhsil Nazirli tərəfindən mühüm addımlar atılmaqdadır. Məqəsəd sağlamlıq imkanlarından aslı olmayaraq bütün uşaqların sosiallaşması imkanlarının təmin olunmasıdır. Sağlamlıq imkanları məhdud uşaqlara sosial yanaşmanın anlaşılması və qəbul edilməsi artıq xüsusi qayğıya ehtiyac olan uşaqların özünüqiymətləndirməsini yüksəldir və onların bərabər hüquq, bərabər imkanlar uğrunda mübarizəsinə ikinci nəfəs verir. [1. s. .38]

Sosiallaşmanın inkişaf etdirilməsi uşaqların dübyagörüşünün artırılmasına və ən əsası uşaqların özünüqiymətləndirmə bacarığının inkişafına yardımçı olur. Sosiallaşma bacarığı uşaqların cəmiyyətə inteqrasiyasının əsası hesab edilməlidir. Sosiallaşma bacarığı ilk öncə təhsil müəssisəsində kiçik qruplarda başlayaraq cəmiyyətə inteqrasiyaya yol açır. Sağlamlıq imkanları məhdud uşaqların sosiallaşmasının sürətləndirilməsi və başlanılmasında təkanverici qüvvənin həyata keçirilməsi vacibdir. Sosial bacarıqların inkişafı istiqamətində müəllim və ailələrin birgə fəaliyyəti nəticəsində strategiyalar hazırlamaları ilə prossesi başlatması mümkündür. Sağlamlıq imkanları məhdud uşaqların sosiallaşma bacarıqlarının inkişafında istiqamətləndirici şəxslər müəllim və ailədir. Sağlamlıq imkanları məhdud uşaqların sosiallaşması imkanlarının sürətləndirilməsində bir sıra modellərdən və yanaşmalardan istifadə mütləqdir. Tətbiq olunması ehtiyac yaranan modellər daha çox sosiallaşmağa ehtiyacı olan və bacarıqların inkişafında çətinlik yaşayan uşaqlarda tətbiq edilməlidir.

Metod

Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların sosiallaşmasında müxtəlif modellərdən istifadə olunması prossesin müəllimlər üçün daha intensiv və sistemli inkişafına şərait yaradır. Sağlamlıq imkanları məhdud uşaqların sosiallaşması imkanlarının təmin olunmasında tətbiq oluna biləcək modellərə nəzər yetirək.

1. İnklüziv təhsil modeli - modelin əsas məzmunu sağlamlıq imkanları məhdud uşaqların yaşıdları olan sağlam uşaqlarla təhsil almaq hüququ vardır. Birgə təhsil mühütü sosiallaşma imkanlarının artırılmasına təkan verir.
2. Peer-Mediated İntervensiya Modeli–modein üstün tərəfi sosiallaşmanın təmin olunmasında sosiallaşma imkanları yüksək olan uşaqlarla birgə təhsilinin təmin edilməsidir.
3. "Circle of Friends" Yanaşması – yanaşmanın əsas fərqləndirici məqamı qruplar şəklində sosiallaşma imkanlarının yüksək olmasıdır. Həmçinin qruplar şəklində sosiallaşma zamanı sağlamlıq imkanları məhdud digər uşaqların yardımları, dəstəkləməsi ilə daha sürətli və rahat şəkildə həyata keçirilməsi baş tutur.
4. Reggio Emilia modeli – model uşaqların öyrənmə bacarıqlarına uyğun şəkildə tədris prossesini təşkil edir. Model əsasında sağlamlıq imkanları məhdud uşaqların əvvəlcədən öyrənmə qabiliyyətini analiz edərək uşaqların modelə uyğunlaşdırılması prossesi baş tutur.
5. Piramida modeli – model əsasında uşaqların dəstəklənməsi, onların sosial və emosional bacarıqlarının inkişaf etdirilməsi aparılır. Model əsasında sağlamlıq imkanları məhdud uşaqlara dəstək verilir.

Qeyd edilən modellərlə yanaşı sağlamlıq imkanları məhdud uşaqların sosiallaşmasında yalnız tətbiq edilən modellər əsasında olmaqla deyil, ailələrlə birlikdə aparılan əməkdaşlıq əsasında da aparılması mümkündür.

Nəticə

Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların sosiallaşması imkanlarının artırılmasında müəllim peşəkarlığının inkişaf etdirilməsi proqramları hazırlanmalıdır. Məktəbəqədər təhsildə sağlamlıq imkanları məhdud uşaqların sosiallaşması istiqamətində aparılan işlər uşaqların həmyaşıdları ilə münasibətlərinin inkişafına, emosiyalarının və ən əsası davranışlarının inkişaf etdirilməsinə istiqamətləndirilmişdir. Sosiallaşma imkanları məktəbəqədər təhsil pilləsindən başlayaraq bütün pillələrdə daha da inkişaf etdirilməkdədir. Sağlamlıq imkanları məhdud uşaqlar gələcəyimizin təminatı olan cəmiyyətimizin bir parçasıdır. Məktəbəqədər təhsil dövründə uşaqların arasında fərqlərin aradan qaldırılması ilə onların inkişafına təkan vermək, sosiallaşma imkanlarını onlara yaratmaq müəllim və valideynlərin borcu və vəzifəsidir.

ƏDƏBİYYAT SİYAHISI:

1. "İnkluziv təhsilə cəlb olunan uşaqlarla işin aparılması" Bakı. 2020. s. 68.
2. "Inclusive Early Childhood Care And Education" 2019. s. 26.
3. "İnkluziv təhsil" Tim Loreman, Joanne Deppeler, David Harvey. 2020. s. 324.
4. "Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkili" Müəllimlər üçün metodik vəsait,Azərbaycan Respublikası Təhsil İnstitutu. Bakı 2021. s. 74.
5. "İnklüziv təlim" Əlilliyi və öyrənmə çətinliyi olan uşaqlar. Catherine Howgego, Susie Miles, Juliette Myers. 2014. s. 54.
6. https://e-qanun.az/framework/53554
7. https://e-qanun.az/framework/37269
8. https://psixologiyainstitutu.az/2020/11/30/s%C9%99xsiyy%C9%99tin-ugurlu-sosiallasmasina-sosial-rollarin-t%C9%99siri/

DOİ: 10.32010/GKQL3682

VI-IX SİNİFLƏRDƏ DİFERENSİALLAŞMANIN TƏLİM PROSESİNƏ TƏSİRİ

Gülnarə Həzi qızı PAŞAYEVA
Qarabağ Universitetinin Ingilis dili müəllimi
https://orcid.org/0009-0005-7095-6395

Xülasə: Bu məqalədə təlimin diferensiallaşdırılması anlayışı və onun tədris prosesinin optimallaşdırılmasında rolu araşdırılır. Diferensiallaşdırılmış təlim şagirdlərin fərdi xüsusiyyətlərini, bilik və bacarıq səviyyələrini, öyrənmə tərzlərini nəzərə alaraq onların inkişafına yönəlmiş strategiyaların tətbiqini nəzərdə tutur. Məqalədə bu yanaşmanın pedaqoji və psixoloji əsasları, tətbiq prinsipləri və metodları təhlil edilir. Təlimin diferensiallaşdırılması şagirdlərin təlimə marağını artırmaq, onların öyrənmə potensialını tam reallaşdırmaq və tədris prosesini effektivləşdirmək baxımından mühüm vasitə kimi qiymətləndirilir. Bundan əlavə, müəllimlərin bu yanaşmanı uğurla tətbiq edə bilməsi üçün tələb olunan şərtlər və qarşılaşdıqları çətinliklər də müzakirə olunur. Məqalədə təqdim olunan təhlil və tövsiyələr təhsilin keyfiyyətinin artırılması və fərdi yanaşmanın gücləndirilməsi istiqamətində faydalı ola bilər.
Açar sözlər: *təlim, diferensiallaşma,optimallaşdırma, təhsil, şagird, müəllim*

THE IMPACT OF DIFFERENTIATION ON THE LEARNING PROCESS IN GRADES VI-IX

Gulnara Hazi PASHAYEVA
English teacher at Karabakh University

Summary: This article examines the concept of differentiation of learning and its role in optimizing the learning process. Differentiated learning involves the application of strategies aimed at the development of students, taking into account their individual characteristics, knowledge and skill levels, and learning styles. The article analyzes the pedagogical and psychological foundations, application principles, and methods of this approach. Differentiation of learning is considered an important tool in terms of increasing students' interest in learning, fully realizing their learning potential, and making the teaching process more effective. In addition, the conditions required for teachers to successfully apply this approach and the difficulties they face are also discussed. The analysis and recommendations presented in the article may be useful in improving the quality of education and strengthening the individual approach.
Keywords: *learning, differentiation, optimization, education, student, teacher*

ВЛИЯНИЕ ДИФФЕРЕНЦИАЦИИ НА ОБРАЗОВАТЕЛЬНЫЙ ПРОЦЕСС В VI-IX КЛАССАХ

Гюльнара Гязи кызы ПАШАЕВА
Преподаватель Английского языка в Карабахском Университете

Резюме: В статье рассматривается концепция дифференциации обучения и ее роль в оптимизации процесса обучения. Дифференцированное обучение предполагает применение стратегий, направленных на развитие учащихся с учетом их индивидуальных особенностей, уровня знаний и навыков, а также стилей обучения. В статье анализируются педагогические и психологические основы, принципы применения и методы данного подхода. Дифференциация обучения считается важным инструментом повышения интереса учащихся к обучению, полной реализации их учебного потенциала и повышения эффективности процесса обучения. Кроме того, обсуждаются условия, необходимые учителям для успешной реализации этого подхода, и проблемы, с которыми они сталкиваются. Представленный в статье анализ и рекомендации могут быть полезны для повышения качества образования и усиления индивидуального подхода.
Ключевые слова: *обучение, дифференциация, оптимизация, образование, студент, преподаватель*

Giriş

Təhsil sistemində şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun yanaşmanın tətbiqi son illərdə geniş vüsət almışdır. Bu yanaşmalardan biri də diferensial təlimdir. Diferensial təlim, müxtəlif bacarıq, bilik səviyyəsi, öyrənmə üslubu və maraqları olan şagirdlərə uyğunlaşdırılmış tədris metodlarının tətbiqini nəzərdə tutur.

Müasir təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri səmərəli təlim strategiyalarını işləyib hazırlamaq və tətbiq etməkdir. Bu baxımdan, təlimin diferensiallaşdırılması onun optimallaşdırılmasının əsas vasitələrindən biri kimi çıxış edir. Diferensial təlim tələbələrin fərdi ehtiyaclarını, bacarıqlarını və maraqlarını nəzərə alaraq onların potensialını maksimum əlverişli şəraitdə inkiaş etdirməyə imkan yaradan yanaşmadır.

Diferensial təlim – müəllimin eyni dərs çərçivəsində şagirdlərin fərdi ehtiyaclarına uyğun olaraq müxtəlif metod, üsul və materiallardan istifadə etməsidir. Bu yanaşma, tədrisin fərdiləşdirilməsi və şagirdlərin potensialının maksimum inkişaf etdirilməsi məqsədini daşıyır.

Diferensial təlimin əsas komponentləri seçim imkanı, çeviklik, müntəzəm formativ qiymətləndirmə və yaradıcılıqdır. Toplanan məlumatlardan düzgün istifadə edərək dörd əsas istiqamətdə diferensiallaşdırmanı həyata keçirmək mümkündür:

- məzmun;
- proses;
- nəticə;
- təlim mühiti (7, s.81).

Məzmun dedikdə, şagirdlərin mənimsəməli olduğu bilik və bacarıqlar, həmçinin bu bilik və bacarıqları əldə etmək üçün istifadə olunan resurslar və metodlar anlaşılır.

Məzmunun diferensiallaşdırılması, şagirdlərin mövcud bilik səviyyəsinə uyğun fəaliyyətlərin təşkili və çalışmaların çətinlik dərəcəsinə görə tənzimlənməsi ilə həyata keçirilir. Bu zaman dərsin təlim nəticələrini dəyişdirmək və ya bəzi şagirdlər üçün gözləntiləri azaltmaq əvəzinə, tapşırıqların bütün şagirdlər üçün əlçatan olması təmin edilməlidir. Hər bir tapşırığın dərsin məqsədinə uyğun olması əsas şərtdir.

Diferensial təlim aşağıdakı əsas prinsiplərə əsaslanır:

1. Fərdilik prinsipi – Hər bir şagirdin öyrənmə potensialı və tərzi nəzərə alınmalıdır;
2. Fərqli tapşırıqların verilməsi – Şagirdlərin səviyyəsinə uyğun tapşırıqlar tərtib olunmalıdır;
3. Fərqli resurslardan istifadə – Vizual, audio, kinestetik və digər resurslarla dərslər zənginləşdirilməlidir;
4. Fərqli qiymətləndirmə üsulları – Şagirdlərin bilik və bacarıqları fərqli meyarlarla qiymətləndirilməlidir (2, s.76).

Diferensial təlimin üstünlükləri:

- Şagirdlərin motivasiyasını artırır;
- Öyrənmənin səmərəliliyini yüksəldir;
- Şagirdlərə öz potensiallarını daha yaxşı inkişaf etdirmək imkanı yaradır;
- Hər kəsin öyrənmə tempinə uyğunlaşdırılmış tədris prosesi təmin olunur.

Diferensial təlim şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun yanaşmanı təmin edən effektiv metodlardan biridir. Müəllimlər bu yanaşmanı tətbiq etməklə daha inklüziv və uğurlu tədris mühiti formalaşdıra bilərlər.

Bu metodun uğurlu icrası üçün müəllimlərin peşəkar inkişafı və metodoloji biliklərinin artırılması mühüm əhəmiyyət kəsb edir.

Diferensial təlimin həyata keçirilməsi üçün müəllimin ilk addımı şagirdlərin öyrənmə profillərini hazırlamaqdır. Bu profillərdə şagirdlərin fərdi qavrama üslubu, maraq dairələri, eləcə də digər məlumatları əks olunur. Bütün bunlar müəllimə şagirdyönümlü diferensial təlimi planlaşdırmaqda kömək edir. Ancaq bunlar hər dərsdə bütün elementlərin tam şəkildə diferensiallaşdırılması demək deyil. Şagirdin ehtiyacını müəyyən etdikdə və ya modifikasiyanın onun daha dərin öyrənməsinə töhfə verəcəyindən əmin olduqda diferensial təlim strategiyalarını tətbiq etmək olar (5,s.55).

Diferensial təlim haqqında düşünərkən, təlim prosesinin bütün aspektlərinin fərqləndirilməsi nəzərə alınmalıdır. Müəllim dərsi fərdiləşdirmək üçün aşağıdakı metodlardan istifadə edə bilər:

1. Yeni mövzunu izah edərkən həm şifahi, həm də vizual vasitələrdən yararlanır (eyni anda danışır və nümayiş etdirir).
2. Kiçik qruplarla işləyərək mövzunu yenidən izah edir (bu prosesə akademik cəhətdən daha güclü şagirdlər də qoşula bilər).
3. Oxu materialını tək bir mətn formatında deyil, bir neçə variantda təqdim edir ki, fərqli oxu bacarıqlarına malik şagirdlər də iştirak edə bilsinlər.
4. Şagirdlərin ehtiyaclarına uyğun müxtəlif köməkçi vasitələr təklif edir.
5. Öyrənilənləri ifadə etmək üçün müxtəlif yanaşmalar təqdim edir, məsələn, rollu oyunlar təşkil edir, şifahi cavab əvəzinə məktub yazmağı tövsiyə edir, həm fərdi, həm də qrup şəklində işləmək üçün şərait yaradır.
6. Müxtəlif öyrənmə tərzlərini nəzərə alaraq fərqli şərait yaradır – təkbaşına çalışmaq istəyənlər, qrupda işləməyə üstünlük verənlər və daima müəyyən bir kollektivin üzvü olanlar üçün uyğun mühit təmin edir (8, s.43).

Diferensial təlim yanaşmaları, həm adi, həm də xüsusi təhsil ehtiyacı olan şagirdlərin öyrənmə prosesini daha səmərəli və təsirli etmək üçün ən müasir və effektiv metodlardan biri hesab edilir.

Diferensiallaşdırılmış təlim, müxtəlif öyrənmə üslublarına və düşüncə tərzlərinə malik olan şagirdlərə vacib olan bilik və bacarıqları öyrətmək və mənimsətmək üçün istifadə edilən tədris strategiyasıdır. Diferensial öyrənmə bir proses kimi qəbul edilməli və müəllimlər tərəfindən şagirdlər üçün ən uyğun tədris şəraitini yaratmaq məqsədilə tətbiq olunmalıdır.

Öyrənmə prosesi dörd əsas aspektdən ibarətdir:

1. Fənlərin məzmunu və əldə edilməsi gözlənilən nəticələr (standartlar);
2. Şagirdlərin mövcud bilik səviyyələri, bacarıqları, inkişaf mərhələləri və xüsusi ehtiyacları;
3. Tədris metodları, tapşırıqlar, əlavə resurslar, vizual materiallar və biliklərin möhkəmləndirilməsi üçün verilən ev tapşırıqları və praktik məşqlər;
4. Qiymətləndirmə metodları və formaları.

Diferensiallaşdırılmış təlimin həyata keçirilməsi zamanı tədris prosesinin bütün aspektlərinin fərdi yanaşmaya uyğun tənzimlənməsi vacibdir (9, s.21).

Diferensial təlimi nəzərdən keçirərkən, təlim prosesinin bütün aspektlərinin diferensiallaşdırılması vacibdir.

5-9-cu siniflərdə diferensial təlimin tətbiq nümunələrini müxtəlif fənlər üzrə təşkil etmişik. Apardığımız araşdırmaların nəticələri tədiqatımızda yer almışdır. Onlara nəzər yetirək:

1. Azərbaycan dili fənni üzrə:

Nümunə: Müəllim sinfi üç qrup üzrə bölə bilər:

- Əsas qrup: Qrammatik qaydaları anlamaqda çətinlik çəkən şagirdlər üçün vizual və praktiki tapşırıqlar təqdim edilir.
- Orta səviyyə: Qrammatikanı mənimsəmiş, lakin yazı bacarıqlarını inkişaf etdirməyə ehtiyacı olan şagirdlərə mətn üzərində işləmə tapşırıqları verilir.
- İrəli səviyyə: Yüksək nəticələr göstərən şagirdlərə yaradıcı yazı və esse yazma tapşırıqları verilir.

2. Riyaziyyat fənni üzrə:

Nümunə: Müəllim eyni mövzunu fərqli çətinlik səviyyələrində izah edə bilər:

- Vizual və praktik metodlarla izah (aşağı səviyyə)
- Əlavə nümunələr və qrup işləri (orta səviyyə)
- Tədqiqat xarakterli problemlər və məntiqi suallar (yüksək səviyyə)

3. Təbiət fənləri üzrə:

Nümunə:

- Eksperimentlərə əsaslanan yanaşma – Ətraf mühitlə bağlı layihələr həyata keçirilir.
- Problemyönlü öyrənmə – Şagirdlərə açıq suallar verilərək onların araşdırma aparması təmin edilir.
- Texnologiya və multimediyadan istifadə – Video, simulyasiya və interaktiv testlər tətbiq edilir.

4. Xarici dil fənni üzrə

Nümunə: Müəllim şagirdləri üç qrupa ayıraraq fərqli yanaşmalar tətbiq edə bilər:

- Danışıq bacarıqları zəif olanlar – Qısa dialoqlar və dinləmə tapşırıqları ilə işləyirlər.
- Orta səviyyədə olanlar – Müxtəlif situasiyalar əsasında rol oyunları həyata keçirirlər.
- İrəliləmiş səviyyə – Yazılı esse və təqdimatlar hazırlayırlar.

Diferensial təlim şagirdlərin bilik səviyyəsinə uyğun yanaşmanı təmin edərək, onların inkişafına müsbət təsir göstərir. 5-9-cu siniflərdə tətbiq edilən bu metodlar həm müəllimlərin effektiv dərs keçməsinə, həm də şagirdlərin motivasiyasının artmasına kömək edir. Tədris prosesində bu üsulların tətbiqi şagirdlərin bilik və bacarıqlarını maksimum səviyyədə inkişaf etdirməyə imkan yaradır.

Kompüter dərslərində diferensial təlim metodunun tətbiq olunmasından sonra, ümumilikdə şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsi artmışdır. Diferensial təlim metodunun ən nəzərəçarpacaq təsiri şagirdlərin təlim səviyyələrinə olmuşdur (1,s.10).

Hər bir şagirdə onun səviyyəsinə uyğun tapşırığın verilməsi, həmin şagirdin diferensial təlimdən öncəki aşağı təlim səviyyəli qrupdan orta təlim səviyyəli keçirdi. Bundan əlavə, bilik və bacarıq səviyyəsi yüksək səviyyədə müəyyənləşdirilə bilən şagirdlərin sayı isə artdı.

Sinifdə təlim səviyyəsi çox az dəyişsədə, bu müsbət istiqamətdədir: 1-ci tapşırıq üzrə beş şagird daha yüksək səviyyəli qrupa geçdi – onlardan ikisi orta səviyyəli qrupdan yüksək səviyyəli, üçü isə aşağı səviyyəli qrupdan orta səviyyəli təlim qrupuna keçdi.

2-ci tapşırıq üzrə isə üç şagird daha yüksək səviyyəli qrupa geçdi – onlardan biri orta səviyyəli qrupdan yüksək səviyyəli, ikisi isə aşağı səviyyəli qrupdan orta səviyyəli təlim qrupuna keçdi.

Ümumilikdə, sinifdə yeni tədris materialları ilə müstəqil və ya müəllimin cüzi köməyi işləməyi bacaran şagirdlərin sayı artır. Eksperiment diferensial təlimin istifadə olunmasının məqsədyönlüyünü göstərdi.

Yuxarıda göstərilənlərdən belə nəticə çıxarmaq olur ki, 7-ci sinif informatika dərslərində müxtəlif səviyyəli tapşırıqların verilməsi yolu ilə diferensial yanaşma metodu təlim prosesinin effektivliyinin yüksəlməsinə gətirib çıxarıb.

Diferensial təlim, fərdi yanaşma prinsipinə əsaslanaraq, şagirdlərin fərqli intellektual, psixoloji və öyrənmə türlərini nəzərə alır. Bu yanaşma aşağıdakı prinsiplər üzərində qurulur:

- Məzmunun diferensiallaşdırılması – şagirdlərin bacarıq səviyyəsinə uyğun olaraq müxtəlif çətinlik səviyyəsində materialların təqdim olunması;
- Prosesin diferensiallaşdırılması – öyrətmə metodlarının şagirdlərin öyrənmə türlərinə uyğun təşkili;
- Qiymətləndirmənin diferensiallaşdırılması – şagirdlərin fərdi irəliləyişi nəzərə alaraq qiymətləndirilməsi (3,s.89).

Diferensial təlimin tətbiqi tədrisin keyfiyyətinin artmasına təkan verir. Bu yanaşma:

- Şagirdlərin motivasiyasını artırır – Onların fərdi bacarıqlarına uyğun məzmun təqdim etməklə öyrənməyə olan maraqları nəzərdə saxlanılır;
- Effektiv öyrənmə mühiti yaradır – Şagirdlərin fərdi potensiallarının inkiaş etdirməsinə imkan yaradan şərait formalaşdırır;
- Qiymətləndirmənin ədalətliliyini artırır – Hər bir şagirdin potensialı nəzərə alınaraq dəyərləndirilmə aparılır.

Diferensial təlimin tətbiq mexanizmləri

Təlimin diferensiallaşdırılmasının tətbiqi üçün müəyyən strategiyalar işlənib hazırlanmalıdır. Bu strategiyalar aşağıdakılar ola bilər:

- Fərdi təhsil planlarının hazırlanması – Hər bir şagird ünvanlı dəstək alaraq fərdi təhsil proqramları üzərində işləyir;
- Qrup təlim metodlarının istifadəsi – Şagirdlərin bacarıq və maraqlarına uyğun olaraq kiçik qruplara ayrılması;
- Rəqəmsal resurslardan istifadə – Onlayn platformalar vasitəsilə fərdi öyrənmə imkanlarını gücləndirmək (6,s.87)

Problemin aktuallığı

Təlimin diferensiallaşdırılması, təhsil prosesinin optimallaşdırılmasında mühüm rol oynayır. Şagirdlərin fərdi xüsusiyyətlərini, maraqlarını və bacarıqlarını nəzərə alaraq təşkil edilən tədris prosesi onların daha effektiv öyrənməsinə və yüksək nailiyyətlər əldə etməsinə şərait yaradır. Diferensiallaşdırılmış yanaşma sayəsində tədris materialları şagirdlərin səviyyəsinə uyğun təqdim olunur, bu da onların motivasiyasını artırır və fəal iştirakını təmin etdiyi ucun meqalə aktuallığı ilə seçilir.

Problemin yeniliyi

Müəllimlərin tədris metodlarını çevik tənzimləməsinə və müxtəlif öyrənmə tərzlərinə uyğun dərs təşkil etməsinə imkan verir. Nəticədə, təlim prosesi daha səmərəli və məqsədyönlü şəkildə qurulur, şagirdlər öz potensiallarını tam şəkildə reallaşdıra bilirlər. Beləliklə, təlimin diferensial-laşdırılması, təhsilin keyfiyyətinin artırılmasında və müasir tədris strategiyalarının tətbiqində mühüm vasitə kimi çıxış etməsi və bu barədə məlumatların öz əksini tapması məqalənin yeniliyi kimi dəyərləndirilə bilər.

Problemin praktik əhəmiyyəti

Diferensial təlim təhsil sisteminin optimallaşdırılmasında çox vacib rol oynayır. Bu yanaşma vasitəsilə şagirdlərin fərdi ehtiyacları qarşılanır, öyrənmə prosesinin effektivliyi artır və təlimin keyfiyyəti daha da yüksəldilir. Müasir təhsil sistemində bu yanaşmanın geniş tətbiqi zəruridir və bu istiqamətdə daha çox araşdırmalar aparılmalıdır.

ƏDƏBIYYAT SIYAHISI:

1. Əliyev, A. (2019). Diferensial təlim və onun müasir təhsil sistemində rolu. Bakı: Təhsil Nəşriyyatı.
2. Gardner, H. (1993). Frames of Mind: The Theory of Multiple Intelligences. New York: Basic Books.
3. Leithwood, K., & Jantzi, D. (2006). Transformational School Leadership for Large-Scale Reform. International Journal of Educational Leadership, 9(2), 1-22.
4. Məmmədov, R. (2020). Diferensial təlim və onun təhsilin keyfiyyətinə təsiri. Bakı: Maarif Nəşriyyatı.
5. Qurbanov, E. (2021). Müasir pedaqogikada fərdiləşdirilmiş yanaşma prinsipləri. Bakı: Elm və Təhsil.
6. Sousa, D. A. (2017). How the Brain Learns (5th ed.). Thousand Oaks, CA: Corwin Press.
7. Stronge, J. H. (2018). Qualities of Effective Teachers (3rd ed.). Alexandria, VA: ASCD.
8. Tomlinson, C. A. (2014). The Differentiated Classroom: Responding to the Needs of All Learners (2nd ed.). Alexandria, VA: ASCD.
9. Vygotsky, L. S. (1978). Mind in Society: The Development of Higher Psychological Processes. Cambridge, MA: Harvard University Press.

DOİ: 10.32010/FWAX7143

RIYAZIYYATIN TƏDRISINDƏ RƏQƏMSAL PLATFORMALAR VƏ SÜNI İNTELLEKT ALQORITMLƏRININ SINTEZI

Emil Emin QASIMOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Orcid: https://orcid.org/0009-0002-3758-521X
E-mail: emilqasimovn1@gmail.com

Xülasə: Rəqəmsal texnologiyaların və süni intellektin (SI) təhsil mühitinə məqsədyönlü inteqrasiyası ilə təhsil sistemlərinin inkişaf trayektoriyası əhəmiyyətli dərəcədə sürətləndirilib. Xüsusilə, riyaziyyatın tədrisində onlayn platformaların funksional imkanları (interaktiv tapşırıqlar, adaptiv izləmə, dərsdənkənar təcrübə) və süni intellekt alqoritmlərinin analitik dəstəyi (fərdiləşdirilmiş tövsiyələr, uğursuzluq riskinin proqnozlaşdırılması) sinerji effekt yaradır. Bu məqalə empirik-statistik yanaşma tətbiq edir və rəqəmsal platformaların istifadəsi, AI-nin tətbiqi və korrelyasiya və çoxvariantlı reqressiya təhlilləri vasitəsilə riyaziyyatda şagirdin öyrənmə nəticələri arasında əlaqəni qiymətləndirir. Nəticələr göstərir ki, hər iki texnoloji amil nəticələrlə müsbət əlaqələndirilir: rəqəmsal platformaların istifadəsi və nəticələr arasında orta-güclü korrelyasiya və AI-nin istifadəsi ilə nəticələr arasında orta-güclü korrelyasiya var. Çoxdəyişənli xətti modelə əsasən, şagirdin təlim nəticələrindəki dəyişkənliyin təxminən 81%-i bu iki amillə izah olunur; Bu, modelin yüksək izahedici gücünü göstərsə də, onu səbəbiyyət əlaqəsi kimi şərh etmək olmaz. Qrafik müşahidələr həm də qeyri-xətti "doyma" effektlərinin mövcudluğunu göstərir, ona görə də xətti əmsalların şərhi istifadə intervalı ilə məhdudlaşdırılmalıdır.

Tətbiqi nöqteyi-nəzərdən araşdırmanın nəticələri bir neçə prioriteti vurğulayır. Birincisi, infrastrukturun modernləşdirilməsi (sürətli internet, cihaz təminatı, bulud resurslarına çıxış) və regionlar (şəhər və kənd) arasında bərabər imkanların təmin edilməsi vacibdir. İkincisi, müəllim hazırlığının gücləndirilməsi vacibdir: müəllimlər üçün rəqəmsal metodologiya, məlumat savadlılığı, qiymətləndirmə analitikası və süni intellektdən istifadə etməklə differensiallaşdırılmış təlimat üzrə məqsədyönlü təlim paketlərinin hazırlanması. Üçüncüsü, kurrikulumda adaptiv qiymətləndirmə mexanizmlərinin və formativ əks əlaqənin payının artırılması, eləcə də fərdi tələbə təlim trayektoriyalarını izləmək üçün "öyrənmə analitikası tablosunun" tətbiqi vacibdir. Prioritet sahələrə milli kontekstdə vahid rəqəmsal təhsil platformasının yaradılması, yerli məzmunun süni intellektə əsaslanan analitika ilə inteqrasiyası və məlumatların təhlükəsizliyi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi (məxfilik, razılıq, məlumatların saxlanması) daxildir. Eyni zamanda, süni intellekt tətbiqi ilə bağlı etik məsələlər – alqoritmik qərəz, izahlılıq və şəffaflıq – fəal şəkildə həll edilməlidir. Siyasət səviyyəsində pilot-qiymətləndirmə miqyası yanaşması məqsədəuyğundur: seçilmiş məktəblərdə pilot layihələr həyata keçirilir, əvvəlcədən müəyyən edilmiş metriklər (nəticələr, davamiyyət, motivasiya, kapital göstəriciləri) əsasında təsir təhlili aparılır və sonra miqyasının genişləndirilməsi barədə qərar qəbul edilir. Tədqiqatın məhdudiyyətlərinə (müşahidə dizaynı, potensial qarışıqlıq yaradan amillər və xətti modellərdə qeyri-xətti əlaqələrin tam əks olunması) baxmayaraq, tapıntılar göstərir ki, rəqəmsal mühitlərin və süni intellektin Azərbaycan təhsil sisteminə məqsədyönlü inteqrasiyası təlimin təkmilləşdirilməsi üçün real imkanlar yaradır. Əlavə tədqiqatlar eksperimental dizaynlara, kovariasiya ilə zənginləşdirilmiş modellərə və uzununa məlumatlara əsaslanaraq daha dərin və möhkəm nəticələr verə bilər.

Açar sözlər: Riyaziyyatın tədrisi, rəqəmsal platformalar, süni intellekt, reqressiya analizi, korrelyasiya, adaptiv öyrənmə, Azərbaycan təhsil sistemi.

SYNTHESIS OF DIGITAL PLATFORMS AND ARTIFICIAL INTELLIGENCE ALGORITHMS IN MATHEMATICS TEACHING

Emil Emin GASIMOV
Azerbaijan State Pedagogical University
Orcid: https://orcid.org/0009-0002-3758-521X
E-mail: emilqasimovn1@gmail.com

Abstract: The development trajectory of education systems has been significantly accelerated by the targeted integration of digital technologies and artificial intelligence (AI) into the educational environment. In particular, in the teaching of mathematics, the functional capabilities of online platforms (interactive assignments, adaptive tracking, extracurricular practice) and the analytical support of AI algorithms (personalized recommendations, failure risk prediction) create a synergistic effect. This article applies an empirical-statistical approach and assesses the relationship between the use of digital platforms, the application of AI, and student learning outcomes in mathematics through correlation and

multivariate regression analyses. The results show that both technological factors are positively associated with outcomes: there is a medium-strong correlation between the use of digital platforms and outcomes, and a medium-strong correlation between the use of AI and outcomes. Approximately 81% of the variability in student learning outcomes, according to the multivariate linear model, is explained by these two factors; although this indicates high explanatory power of the model, it should not be interpreted as a statement of causality. Graphical observations also indicate the presence of nonlinear "saturation" effects, so the interpretation of linear coefficients should be limited to the usage interval.
From an applied perspective, the study's results highlight several priorities. First, modernizing infrastructure (fast internet, device provision, access to cloud resources) and ensuring equal opportunities across regions (urban and rural) are essential. Second, strengthening teacher training is essential: developing targeted training packages for teachers on digital methodology, data literacy, assessment analytics, and differentiated instruction using AI. Third, increasing the share of adaptive assessment mechanisms and formative feedback in the curriculum is essential, as well as implementing a "learning analytics dashboard" to track individual student learning trajectories. Priority areas include the creation of a unified digital educational platform within the national context, the integration of local content with AI-based analytics, and improving the regulatory framework for data security (privacy, consent, data storage). At the same time, ethical issues surrounding AI application—algorithmic bias, explainability, and transparency—should be addressed proactively. At the policy level, a pilot-evaluate-scale approach is advisable: pilot projects are implemented in selected schools, impact analysis is conducted based on pre-defined metrics (outcomes, attendance, motivation, equity indicators), and then a decision is made on scaling up. Despite the limitations of the study (observational design, potential confounding factors, and the full reflection of nonlinear relationships in linear models), the findings demonstrate that the targeted integration of digital environments and artificial intelligence into the Azerbaijani education system creates real opportunities for improving learning. Further research could yield more in-depth and robust results based on experimental designs, covariate-enriched models, and longitudinal data.
Keywords: Mathematics teaching, digital platforms, artificial intelligence, regression analysis, correlation, adaptive learning, Azerbaijani education system.

СИНТЕЗ ЦИФРОВЫХ ПЛАТФОРМ И АЛГОРИТМОВ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ОБУЧЕНИИ МАТЕМАТИКИ

Эмиль Эмин ГАСЫМОВ
Азербайджанский Государственный Педагогический Университет
Orcid: https://orcid.org/0009-0002-3758-521X
E-mail: emilqasimovn1@gmail.com

Резюме:Траектория развития систем образования существенно ускорилась за счет целенаправленной интеграции цифровых технологий и искусственного интеллекта (ИИ) в образовательную среду. В частности, в преподавании математики функциональные возможности онлайн-платформ (интерактивные задания, адаптивное отслеживание, внеклассная практика) и аналитическая поддержка алгоритмов ИИ (персонализированные рекомендации, прогнозирование риска неудач) создают синергетический эффект. В данной статье применяется эмпирико-статистический подход и оценивается взаимосвязь между использованием цифровых платформ, применением ИИ и результатами обучения студентов по математике посредством корреляционного и многомерного регрессионного анализов. Результаты показывают, что оба технологических фактора положительно связаны с результатами: существует средне-сильная корреляция между использованием цифровых платформ и результатами и средне-сильная корреляция между использованием ИИ и результатами. Примерно 81% изменчивости результатов обучения студентов, согласно многомерной линейной модели, объясняется этими двумя факторами; Хотя это указывает на высокую объяснительную силу модели, это не следует интерпретировать как утверждение о причинно-следственной связи. Графические наблюдения также указывают на наличие нелинейных эффектов «насыщения», поэтому интерпретация линейных коэффициентов должна ограничиваться интервалом использования.
С прикладной точки зрения результаты исследования выделяют несколько приоритетов. Во-первых, необходима модернизация инфраструктуры (быстрый интернет, предоставление устройств, доступ к облачным ресурсам) и обеспечение равных возможностей в разных регионах (городских и сельских). Во-вторых, необходимо усиление подготовки учителей: разработка целевых учебных пакетов для учителей по цифровой методологии, грамотности в работе с данными, аналитике оценок и дифференцированному обучению с использованием ИИ. В-третьих, необходимо увеличение доли адаптивных механизмов оценки и формирующей обратной связи в учебной программе, а также внедрение «панели аналитики обучения» для отслеживания индивидуальных траекторий обучения учащихся. Приоритетные направления включают создание единой цифровой образовательной платформы в национальном контексте, интеграцию локального контента с аналитикой на основе ИИ и совершенствование нормативно-правовой базы в области безопасности данных (конфиденциальность, согласие, хранение данных). В то же время этические вопросы, связанные с применением ИИ, – алгоритмическая предвзятость, объяснимость и прозрачность – должны решаться проактивно. На уровне политики рекомендуется

подход «пилот-оценка-масштаб»: пилотные проекты реализуются в выбранных школах, анализ воздействия проводится на основе заранее определенных показателей (результаты, посещаемость, мотивация, показатели равенства), после чего принимается решение о масштабировании. Несмотря на ограничения исследования (обсервационный дизайн, потенциальные искажающие факторы и полное отражение нелинейных взаимосвязей в линейных моделях), результаты показывают, что целенаправленная интеграция цифровой среды и искусственного интеллекта в систему образования Азербайджана создает реальные возможности для улучшения качества обучения. Дальнейшие исследования могут дать более глубокие и надежные результаты, основанные на экспериментальных планах, моделях с обогащенными ковариатами и продольных данных.
Ключевые слова: Преподавание математики, цифровые платформы, искусственный интеллект, регрессионный анализ, корреляция, адаптивное обучение, азербайджанская система образования.

Giriş

Qloballaşma və sürətli texnoloji tərəqqi təhsil sistemlərinin yalnız infrastruktur səviyyəsində deyil, həm də pedaqoji modellər və qiymətləndirmə mexanizmləri səviyyəsində yenilənməsini tələb edir. Rəqəmsal öyrənmə mühitləri artıq təhsil prosesinin ayrılmaz tərkib hissəsinə çevrilərək, məzmunun təqdimatı, öyrənmə trayektoriyalarının fərdiləşdirilməsi və nəticələrin monitorinqi üçün vahid ekosistem yaradır. Abstrakt və məntiqi təfəkkürə, riyazi modelləşdirməyə söykənən fənlərdə interaktivlik, simulyasiya və vizuallaşdırma elementləri tələbələrin çətin anlayışları “görərək” mənimsəməsinə şərait yaradır; adaptiv öyrənmə mexanizmləri isə fərdi bilik boşluqlarını hədəfləyərək motivasiyanı və akademik nailiyyətləri artırır. Bu yanaşma ənənəvi auditoriya dərsini onlayn resurslar, probleməsaslı fəaliyyətlər və formativ rəy dövrləri ilə tamamlayan hibrid modelin effektivliyini dəstəkləyir.

Süni intellekt (Sİ) alqoritmləri tədris mühitində ikiqat rol oynayır: (1) öyrənmənin fərdiləşdirilməsi—tələbənin performansından çıxarılan nümunələr əsasında dinamik tövsiyələr, səviyyəyə uyğun tapşırıqlar və dərhal əks-əlaqə; (2) müəllim qərarlarının dəstəklənməsi—qruplaşmış səhv tiplərinin analizi, risk altında olan tələbələrin erkən aşkarlanması, dərs planlarının və qiymətləndirmə rubrikalarının optimallaşdırılması. Bu, “bir ölçü hamıya” paradiqmasını zəiflədir, inklüzivlik və bərabər imkanlara töhfə verir: fərqli sürətlə öyrənən və müxtəlif başlanğıc səviyyəsinə malik tələbələr üçün obyektiv, şəffaf və izah olunan öyrənmə yolları formalaşır. Eyni zamanda, məlumat təhlükəsizliyi, etik prinsiplər, alqoritmik qərəzlərin azaldılması və izahlılıq tələbləri sistemli şəkildə təmin edilməlidir.

Məqalədə nəzəri arqumentlər empirik sübutlarla tamamlanır: korrelyasiya və çoxölçülü reqressiya təhlilləri rəqəmsal platforma istifadəsi və Sİ dəstəyinin riyaziyyat nəticələri ilə müsbət əlaqədə olduğunu göstərir; vizual qrafiklər isə bu münasibətin struktur xüsusiyyətlərini (məsələn, yüksək səviyyələrdə “doyma” effekti, yayılmanın azalması) üzə çıxarır. Tapıntılar səbəblilik iddiasını ehtiyatla yanaşaraq şərh edilsə də, praktik nəticə aydındır: məqsədyönlü rəqəmsal inteqrasiya və Sİ əsaslı analitika həm fərdi, həm də sinif səviyyəsində tədris keyfiyyətini yüksəltməyə real imkan yaradır. Bu çərçivə, müəllimin peşəkar qərarlarını əvəz etmir; əksinə, onları daha məlumatlı, hədəfli və operativ edir.

Rəqəmsal platformaların istifadəsi

Riyaziyyatın tədrisində rəqəmsal platformalardan istifadə şagirdin müvəffəqiyyət göstəricilərinə təsir edən ən mühüm amillərdən biridir. Empirik təhlillər rəqəmsal platformadan istifadənin intensivliyi ilə tələbə nəticələri arasında təxminən 0.53 səviyyəsində, orta gücdə müsbət korrelyasiya olduğunu göstərir. Çoxvariantlı xətti reqressiyaya görə isə, müşahidə olunan intervalda platformadan hər əlavə saat istifadə nəticənin orta hesabla 1.8 bal artması ilə assosiasiya olunur (səbəblilik iddia etmir).Bunun da aydın nəzəri pedaqoji səbəbi var. Rəqəmsal platformalar, xüsusən də interaktiv qrafika və dinamik simulyasiyalar təhsil alanlara riyazi anlayışları vizuallaşdırmaq imkanı verir. Bu yolla mücərrəd məzmun nisbətən konkret və əlçatan olur, şagirdlərin motivasiyası yüksəlir və nəhayət, təlim prosesi daha maraqlı və dinamik olur.

Süni intellekt alqoritmlərinin tətbiqi

Digər əsas amil süni intellekt alqoritmlərindən istifadə üsuludur. Statistik təhlil süni intellektdən istifadə ilə tələbə nəticələri arasında təxminən 64 səviyyəsində, orta-güclü müsbət korrelyasiya göstərir. Reqressiya modelinə əsasən, SI-dən istifadə balında hər əlavə 1 vahid artım nəticədə orta hesabla 3.1 bal artımla assosiasiya olunur.Pedaqogika üçün böyük üstünlüyü ondan ibarətdir ki, süni intellekt tələbələrin zəif tərəflərini müəyyən etmək, onların unikal tələblərini nəzərə almaq və onlara xüsusi tapşırıqlar və rəylər təklif etmək qabiliyyətinə malikdir. Bu da riyaziyyat fənində xüsusilə münasibdir (Engelbrecht & Borba, 2024).

Müəllimlərin texnoloji-pedaqoji hazırlığı

Üçüncü əsas amil müəllimlərin texnologiya və pedaqogikaya hazırlanmasıdır. Əldə edilmiş empirik nəticələr göstərir ki, rəqəmsal platformaların və süni intellekt vasitələrinin effektivliyi bilavasitə müəllimlərin onlardan istifadə sərişdəsinin səviyyəsindən asılıdır. TPACK (Technological

Pedagogical Content Knowledge) modeli göstərir ki, müəllimin uğuru yalnız texnologiyanı tanımaq bacarığı ilə deyil, onun digər pedaqoji və məzmun bilikləri ilə necə bağlı olması ilə ölçülə bilməz. Əgər müəllim ənənəvi metodların elektron versiyasını təmin etmək üçün sadəcə texnologiya tətbiq edirsə, ondan gözlənilən nəticə alınmır. Əksinə, müəllim süni intellektin təklif etdiyi uyğunlaşma imkanlarını pedaqoji yanaşma ilə uzlaşdıra bilirsə, şagirdlər daha yaxşı nəticələr əldə edirlər. Buna görə də müəllimlərin davamlı təlimə cəlb edilməsi və texnologiyanın pedaqoji yanaşmalar çərçivəsində düzgün uyğunlaşdırılması mühüm məsələdir (Zamanov və Vəliyev, 2017).



Şəkil 1.

Qrafiklər aparılmış statistik təhlilin vizual yoxlanışıdır və nəticələrin aydın şərhinə imkan verir. Soldakı qrafik rəqəmsal öyrənmə platformalarına sərf olunan vaxt (saat/həftə) ilə riyaziyyat nəticələri arasındakı münasibəti göstərir: nöqtələrin ümumi yüksələn trendlə sıralanması müsbət, orta gücdə korrelyasiyanı (təxminən r≈0.53) ifadə edir; yüksək saatlarda "doyma" effekti müşahidə oluna bilər. Sağdakı qrafik süni intellektdən istifadə intensivliyi (1–10 bal) ilə nəticələr arasındakı münasibəti təsvir edir və orta-güclü müsbət korrelyasiya (təxminən r≈0.64) nümayiş etdirir; nöqtələrin trendə yaxın sıxlaşması əlaqənin nizamlılığını göstərir. Hər iki qrafikdə nöqtələr faktiki müşahidələri, çəkilmiş xətt isə ümumi meyli göstərir. Bu vizual sübutlar reqressiya modelindən alınan nəticələrlə uzlaşır, lakin səbəblilik iddia etmir; əlaqənin gücü istifadə intervalı və digər amillərdən asılı ola bilər.



Şəkil 2.

Soldakı qrafik rəqəmsal platformalardan daha çox istifadə edildikcə riyaziyyat nəticələrinin ümumilikdə yüksəldiyini göstərir; yüksək istifadə səviyyələrində artımın nisbətən zəifləməsi mümkündür. Sağdakı qrafik süni intellekt alətlərindən istifadənin artması ilə nəticələrin yaxşılaşması arasında davamlı, nəzərəçarpacaq müsbət meyl olduğunu nümayiş etdirir. Hər iki təsvir real müşahidə nöqtələrini və ümumi meyl xəttini bir araya gətirərək statistik tapıntıların vizual təsdiqini təqdim edir; eyni zamanda qrafiklər səbəblilik deyil, münasibətin istiqamətini və gücünü göstərir.

Qrafiklər yerinə yetirilən statistik təhlilin vizual yoxlanışını təmin edir və əldə edilən nəticələri daha aydın şərh etməyə imkan verir. Şəkil 1-də qrafik rəqəmsal təlim platformalarından istifadə müddəti (saat/həftə) ilə tələbələrin riyaziyyat göstəriciləri arasında əlaqəni göstərir. Nöqtələrin ümumiyyətlə yuxarıya doğru mailliyi onu göstərir ki, platformalardan istifadəyə sərf olunan vaxt artdıqca tələbələrin performansları da artır. Qrafikdəki hər bir nöqtə xüsusi müşahidəni, yəni ayrı-ayrı tələbələrin faktiki istifadə səviyyəsini və müvafiq imtahan balını əks etdirir, bu da nəticələrin təkcə ümumi

göstəricilərlə deyil, həm də real paylanma ilə təsvir olunduğunu göstərir. Qrafik həmçinin məlumatların struktur xüsusiyyətlərini görməyə imkan verir: istifadənin müəyyən səviyyələrində balların nisbətən geniş yayılması heterojenliyi, yüksək saatlarda nisbətən zəif artım isə mümkün "doyma" effektini göstərir. Qrafikə trend xəttinin (və ya uyğun əyrinin) əlavə edilməsi ümumi tendensiyanı vizual olaraq vurğulayır, potensial kənar göstəriciləri və klasterləri (məsələn, oxşar istifadə vərdişləri olan qruplar) aşkar etməyi asanlaşdırır. Bu baxımdan rəqəmsal platformalardan istifadənin həcmi təkcə təsviri statistikada deyil, həm də model əsaslı qiymətləndirmələrdə (korrelyasiya, reqressiya) şagird nailiyyətlərinin mühüm göstəricilərindən biri kimi meydana çıxır. Bununla belə, qrafik səbəb əlaqəni deyil, əlaqənin istiqamətini və intensivliyini göstərir; əlaqənin daha dəqiq şərhi üçün əlavə kovariativlərin (məsələn, əvvəlki akademik səviyyə, sosial-iqtisadi amillər) nəzərə alınması məqsədəuyğundur.

Şəkil 2-də qrafik süni intellekt (SI) alətindən istifadə intensivliyi (məsələn, 1-dən 10-a qədər miqyasda öz hesabatları və ya sistem qeydləri) və riyaziyyat performansı arasında əlaqəni göstərir. Ümumi yuxarı meyl xətti ətrafında nöqtələrin cəmləşməsi bu əlaqənin davamlılığını və sabitliyini göstərir; bu sıxlıq həm də yaxşı model uyğunluğunu göstərir (kənar göstəricilərin olmasına baxmayaraq, ümumi tendensiya dəyişmir). Vizual struktur həm də bəzi heterojenlik əlamətlərini ortaya qoyur: paylanma aşağı və orta intensivlik zonalarında bir qədər genişdir, nəticələr isə daha yüksək intensivliklərdə daha çox cəmləşir, bu da müntəzəm süni intellekt istifadəçiləri üçün daha "sabitləşdirilmiş" nəticələri göstərə bilər. Pedaqoji nöqteyi-nəzərdən, süni intellekt vasitələrinin istifadəsi adaptiv öyrənmə (şagirdin faktiki fəaliyyətinə uyğun gələn fərdiləşdirilmiş tapşırıqlar), fərdiləşdirilmiş rəy (nümunələr əsasında səhvlərin izahı, növbəti addım üçün xüsusi tövsiyələr) və erkən xəbərdarlıq analitikası (residiv riskinin proqnozlaşdırılması) vasitəsilə performansa təsir edən mexanizmlər yaradır. Bu mexanizmlər sadəcə olaraq "köməkçi" kimi deyil, ölçülə bilən təsirləri olan didaktik vasitələr kimi çıxış edir: fərdiləşdirmə motivasiyanı artırır, biliklərin möhkəmləndirilməsini sürətləndirir və qiymətləndirmə nəticələrinin daha sabit təkmilləşməsinə səbəb ola bilər. Bununla belə, qrafik səbəb əlaqəsini iddia etmir - müşahidə olunan müsbət tendensiya digər amillərlə (məsələn, əvvəlki təhsil səviyyəsi, təhsilə sərf olunan vaxt, müəllim dəstəyi və sosial-iqtisadi vəziyyət) birlikdə qiymətləndirilməlidir. Trend xəttinə yaxınlıq modelin sabitliyini göstərsə də, qalıqların paylanması, mümkün qeyri-xətti təsirlər və əlaqəli kovariativlər daxil olmaqla, bu əlaqənin mahiyyətini daha yaxşı başa düşmək üçün çoxdəyişənli modelləşdirmə tövsiyə olunur. Nəticə olaraq, qrafik süni intellekt alətlərindən istifadənin artması ilə tələbə performansında ardıcıl və praktiki olaraq əhəmiyyətli təkmilləşdirmələrə doğru tendensiyanı aydın şəkildə təsdiqləyir.

Hər iki qrafikin ümumi təhlili göstərir ki, həm rəqəmsal platformadan istifadə, həm də süni intellekt dəstəyi ilə riyaziyyat nəticələri arasında müsbət, orta–orta-güclü korrelyasiya mövcuddur (təxminən 0.53 və 0.64). Bu tapıntılar qurulmuş reqressiya modelinin empirik uyğunluğunu vizual olaraq dəstəkləyir, lakin səbəblilik iddia etmir. Pedaqoji baxımdan isə nəticələr onu göstərir ki, texnologiyalardan daha sistemli istifadə edən şagirdlər adətən imtahanlarda daha yüksək nəticələr nümayiş etdirirlər; bu da rəqəmsal mühitlərin və süni intellektin Azərbaycan təhsil sisteminə məqsədyönlü inteqrasiyasının əhəmiyyətini vurğulayır.

Beləliklə, nəzəri və empirik araşdırmalar təsdiq edir ki, riyaziyyatın tədrisində rəqəmsal platformaların süni intellekt əsasında alqoritmlərlə birləşdirilməsi uzunmüddətli perspektivdə olduğu kimi, qısa müddətdə də olduqca effektivdir. Aparılan və qrafik formada təqdim edilən korrelyasiya və reqressiya təhlilləri həqiqətən də bu əlaqənin gücünü göstərir. Rəqəmsal platformalardan daha çox istifadə şagirdlərin nəticələrinə birbaşa və müsbət təsir göstərir. Bununla belə, süni intellekt alqoritmlərinin tətbiqi hər bir şagirdin fərdi inkişaf trayektoriyalarını asanlaşdırmaq və hər hansı zəif cəhətlərin erkən aşkarlanmasına kömək etmək üçün adaptiv öyrənmə mühiti yaradır.

Vizual olaraq yaradılan bu qrafiklər empirik əlaqəni təsdiqləyir: solda platformanın istifadəsi ilə ardıcıl artan nəticə, sağdakı qrafik isə süni intellektə münasibətdə oxşar müsbət təsir göstərir. Hər iki hal göstərir ki, müasir tədrisi texnologiyadan asılı olmayaraq keyfiyyətcə təkmilləşdirmək mümkün deyil. Bu, pedaqoji nöqteyi-nəzərdən bir sıra mühüm nəticələrə gətirir: ənənəvi metodların üstünlüklərini qoruyub saxlamaqla yanaşı, onların rəqəmsal platformalarla sintezi motivasiyanı artırır, öyrənməni sürətləndirir və şagirdlərin nəticələrinin daim artmasını təmin edir.

Hesab edirik ki, milli kurrikuluma daxil edilməli olan rəqəmsal və süni intellektə əsaslanan platformalardan istifadə etməklə ölkənin beynəlxalq qiymətləndirmələrdə statusu yaxşılaşacaq, şagirdlərin riyazi savadı yüksələcək. Müəllimlər pedaqoji fəaliyyətlərini daha müasir tələblərə uyğunlaşdırmalı, bu proses təkcə texniki resurslarla kifayətlənməməli, həmçinin pedaqoji yanaşmaların yenilənməsi ilə müşayiət olunmalıdır.

Beləki, aparılan təhlillərə əsasən, Azərbaycan təhsil sistemində rəqəmsal platformalar və süni intellekt alqoritmlərinin səmərəli tətbiqi üçün aşağıdakı istiqamətlər təklif olunur:

- **İnfrastrukturun gücləndirilməsi.** Məktəblər simmetrik yüksək sürətli internet (ən azı 300 Mbps), stabil Wi-Fi örtüyü, interaktiv lövhələr, fərdi və ya 1:2 nisbətində planşet/noutbuk təminatı ilə təchiz olunmalıdır. Avadanlıqların mərkəzləşdirilmiş inventar uçotu, profilaktik texniki xidmət cədvəli və sürətli dəstək mexanizmi (help-desk, uzaqdan adminstrasiya) qurulmalıdır. Regionlar üzrə bərabər imkanlar üçün kənd məktəblərinə prioritet investisiya xətti ayrılmalı, enerji dayanıqlığı (UPS, günəş panelləri) nəzərə alınmalıdır.
- **Müəllimlərin texnoloji-pedaqoji hazırlığı.** TPACK çərçivəsinə əsaslanan ardıcıl təlim proqramları (başlanğıc → orta → qabaqcıl modullar) hazırlanmalı, “micro-credential” və ya sertifikatlaşdırma ilə motivasiya gücləndirilməlidir. Praktiki məzmun (sinifdə SI alətlərinin istifadəsi, öyrənmə analitikası panelləri, formativ rəy şablonları) üstün tutulmalı; mentorluq, “lesson study” və peşəkar öyrənmə icmaları ilə davamlı dəstək təmin olunmalıdır.
- **Milli rəqəmsal platforma.** Azərbaycan dilində vahid öyrənmə ekosistemi yaradılmalı, açıq standartlara (LTI/xAPI) uyğun dizayn edilməli, modul memarlığı ilə SI komponentləri (fərdiləşdirilmiş tövsiyələr, adaptiv qiymətləndirmə, plagiasiya yoxlaması, erkən xəbərdarlıq siqnalları) inteqrasiya olunmalıdır. Məzmun idarəetməsi, analitika paneli, valideyn görünüşləri və inklüzivlik (UX aksesibilite) əsas tələblərdən olmalıdır.
- **Pilot layihələr və ölçmə** Müxtəlif bölgələrdən təmsilçi məktəblər seçilərək 6–12 aylıq pilotlar həyata keçirilməli, əvvəl-sonra müqayisələri və kontrol qrupları ilə təsir qiymətləndirilməsi aparılmalıdır. KPI-lar: riyaziyyat nəticələrində bal artımı, davamiyyət, tapşırıq tamamlanma dərəcəsi, motivasiya indeksləri, gender və regionlar üzrə bərabərlik göstəriciləri.
- **Məlumat təhlükəsizliyi və etik çərçivə.** Şagird məlumatları üçün rollara əsaslanan giriş, şifrələmə, audit izləri, məlumatın minimallaşdırılması və saxlanma müddəti qaydaları qəbul edilməlidir. Etik prinsiplər (razılıq, izahlılıq, qərəzlərin azaldılması) üçün müstəqil Müşahidə Şurası, SI modelləri üçün təsir qiymətləndirməsi (AIA) mexanizmi tətbiq olunmalıdır.
- **Rəqəmsallaşma vizyonu və siyasət.** Milli strategiyada rəqəmsal təhsilin ayrıca prioritet xətti, illik fəaliyyət planları və büdcə maddələri ilə təsbit olunmalıdır. İctimai-özəl tərəfdaşlıqlar (universitetlər, EdTech startapları) üçün normativ dəhliz, yerli məhsulun sertifikatlaşdırılması və standartlaşdırma (keyfiyyət meyarları) tələbləri müəyyənləşdirilməlidir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Zamanov, A., Əlizadə, H., Rüstəmova, S., Əlizadə, Ə. (2021), Distant təhsilin
2. pedaqogikası.
3. Engelbrecht, J., Borba, M.C. Recent developments in using digital technology in mathematics education. *ZDM Mathematics Education* **56**, 281–292 (2024). https://doi.org/10.1007/s11858-023-01530-2
4. Li, M., Manzari, E. AI utilization in primary mathematics education: a case study from a southwestern Chinese city. *Educ Inf Technol* **30**, 11717–11750 (2025). https://doi.org/10.1007/s10639-025-13315-z
5. A.D. Zamanov. V.A. Vəliyev Riyaziyyat və məntiq. I hissə Bakı 2017, 449 s., II hissə Bakı 2019, 409s.

DOİ: 10.32010/MKDC4464

L.VIQOTSKİ "YAXIN İNKİŞAF ZONASI" NƏZƏRİYYƏSİNİN STRATEGİYALI OXUDA TƏTBİQİ

Kamilə Sakit QƏDİMLİ
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Oscid: http://orcid.org/0009-0004-5336-7997
E-mail: kamale.qadimli@adpu.edu.az

Xülasə: Oxunun mükəmməl forması isə strategiyalı oxudur. Bir çox tədqiqatçılar strategiyalı oxunun oxu bacarığının zirvəsi kimi təqdim edirlər. Strategiyalı oxu müasir tədris prosesində şagirdlərin mətni anlama bacarıqlarını, təndiqi və yaradıcı düşünmə qabiliyyətlərini inkişaf etdirməyə xidmət edən effektiv təlim yanaşmalarından biridir. Bu proses mətnin passiv şəkildə oxunmasını deyil, məqsədyönlü strategiyaların tətbiqi ilə şagirdlərin mətnlə aktiv qarşılıqlı əlaqəsini nəzərdə tutur. Strategiyalı oxu zamanı oxucu müxtəlif oxu strategiyalarından istifadə edərək mətni oxuyur.
L.Vıqotskinin " Yaxın İnkişaf Zonası " nəzəriyyəsi strategiyalı oxunun pedaqoji və psixoloji əsaslarını izah etməkdə mühüm mühüm əhəmiyyət kəsb edir. Strategiyalı oxu prosesində müəllimin rolu yalnız məzmunu ötürmək deyil, həm də şagirdin potensial imkanlarını inkişaf etdirmək, ona müstəqil öyrənmə bacarıqları qazandırmaqdır.
Açar sözlər: L.Vıqotski, Yaxın İnkişaf Zonası, nəzəriyyə, strategiyalı oxu, pedaqoji və psixoloji əsaslar

---

ON THE STRATEGİC APPLİCATİON OF VYGOTSKY'S THEORY OF THE "ZONE OF PROXİMAL DEVELOPMENT" TO READİNG

Sakit Kamila GADİMLİ
Azerbaijan State Pedagogical University
Orcid: http://orcid.org/0009-0004-5336-7997
E-mail: kamale.qadimli@adpu.edu.az

Abstract: The perfect form of reading is strategic reading. Many researchers consider strategic reading to be the pinnacle of reading skills. Strategic reading is one of the effective teaching methods that helps develop students' skills in understanding the text, critical and creative thinking in the modern educational process. This process involves not passive reading of the text, but active interaction of students with the text through the use oftargeted strategies. In the process of strategic reading, the reader reads the text using various reading strategies. The theory of the "zone of proximal development" by L. Vygotsky is of great importance for explaining the pedagogical and psychological foundations of strategic reading. The role of the teacher in the process of strategic reading is not only to convey the content, but also to develop the potential of the student and form his or her independent learning skills.
Keywords: L. Vygotsky, zone of proximal development, theory, strategic reading, pedagogical and psychological foundations.

О СТРАТЕГИЧЕСКОМ ПРИМЕНЕНИИ ТЕОРИИ «ЗОНЫ БЛИЖАЙШЕГО РАЗВИТИЯ» Л. ВЫГОТСКОГО К ЧТЕНИЮ

Камиля Сакит ГАДИМЛИ
Азербайджанский государственный педагогический университет
Orcid: http://orcid.org/0009-0004-5336-7997
Электронная почта: kamale.qadimli@adpu.edu.az

Резюме: Совершенной формой чтения является стратегическое чтение. Многие исследователи представляют стратегическое чтение как вершину читательского мастерства. Стратегическое чтение – один из эффективных методов обучения, способствующий развитию у учащихся навыков понимания текста, критического и творческого мышления в современном образовательном процессе. Этот процесс предполагает не пассивное чтение текста, а активное взаимодействие учащихся с текстом посредством применения целенаправленных стратегий. В процессе стратегического чтения читатель читает текст, используя различные стратегии чтения.
Теория «зоны ближайшего развития» Л. Выготского имеет большое значение для объяснения педагогических и психологических основ стратегического чтения. Роль учителя в процессе стратегического чтения заключается не

только в передаче содержания, но и в развитии потенциальных возможностей учащегося и формировании у него навыков самостоятельного обучения.
Ключевые слова: Л. Выготский, зона ближайшего развития, теория, стратегическое чтение, педагогические и психологические основы.

Giriş

Müasir təhsil sistemində ana dilinin öyrənilməsi şəxsiyyətin formalaşması baxımından müstəsna əhəmiyyətə malikdir. Həmçinin ana dilinin öyrədilməsi beynəlxalq təcrübədə milli təfəkkürün formalaşdırılmasında mühüm vasitə kimi yüksək qiymətləndirilir. *"Ümumi təhsil pilləsində Azərbaycan dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir"* (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, 2023, s.3). Məhz bu baxımdan Azərbaycan dilinin oxu məzmun xəttinin mənimsənilməsinin rolu mühümdür. Oxu dedikdə yalnız mətnin məzmununun mənimsənilməsi deyil, eyni zamanda mətnin düzgün təhlil olunması, nəticə çıxarılması da nəzərdə tutulur.

Oxunun mükəmməl forması isə strategiyalı oxudur. Bir çox tədqiqatçılar strategiyalı oxunun oxu bacarığının zirvəsi kimi təqdim edir. Strategiyalı oxu müasir tədris prosesində şagirdlərin mətni anlama bacarıqlarını, təndiqi və yaradıcı düşünmə qabiliyyətlərini inkişaf etdirməyə xidmət edən effektiv təlim yanaşmalarından biridir. Bu proses mətnin passiv şəkildə oxunmasını deyil, məqsədyönlü strategiyaların tətbiqi ilə şagirdlərin mətnlə aktiv qarşılıqlı əlaqəsini nəzərdə tutur. Strategiyalı oxu zamanı oxucu müxtəlif oxu strategiyalarından istifadə edərək mətni oxuyur.

Nəzəriyyə

Strategiyalı oxunun mahiyyətinin dərk edilməsi üçün onun pedaqoji nəzəriyyələrlə əlaqəsinə diqqət yetirmək lazımdır. Bu nəzəriyyələrdən biri də Lev Vıqotskinin "Yaxın İnkişaf Zonası" nəzəriyyəsidir. Bu nəzəriyyə strategiyalı oxunun mahiyyətini, həmçinin onun elmi-metodoloji əsaslarını izah etmək üçün mühüm psixoloji çərçivə yaradır. Tanınmış psixoloq Vıqotskiyə görə, şagirdin mövcud inkişaf səviyyəsi ilə potensial inkişaf səviyyəsi arasında bir "zona" mövcuddur ki, bu zona daha bilikli bir fərdin (müəllim, yaşıd və s) köməyi ilə aşılır. Yaxın İnkişaf Zonasında təlim, şagirdin təkbaşına edə bilmədiyi, lakin müvafiq dəstək və yönləndirmə ilə uğurla yerinə yetirdiyi fəaliyyətləri əhatə edir. "*Məhz bu zona potensial inkişaf zonasıdır, bir şəxsin öyrənməsi üçün vacib və əhəmiyyətli olan* məqamdır" (Təhsil Araşdırmaları və İnkişaf Mərkəzi, 2024, s.128). Bu nəzəriyyənin əsas ideyası ondan ibarətdir ki, öyrənmə inkişafı qabaqlayır və müəllim təlim prosesində şagirdin mövcud biliklərini aşacaq tapşırıqlar təqdim etməklə onu növbəti inkişaf mərhələsinə aparacaq. Vıqotski qeyd edir ki, bəzi tədqiqatçılar materialı hazır şəkildə təqdim edir, digərləri problemi yarımçıq qoyub şagirdlərə tamamlatmağın doğru olduğunu bildirirlər. Lakin Vıqotski problemi müəllimin köməyi ilə həll etməyin doğru yol olduğu qənaətinə gəlir. Buradan da aydın olur ki, eyni real inkişaf səviyyəsinə malik uşaqlar müəllimin rəhbərliyi altında öyrənmə qabiliyyətlərinə görə xeyli fərqlənirlər. Vıqotski YİZ-ə belə tərif vermişdir: " *Bu, müstəqil problem həll etmə ilə müəyyən olunan real inkişaf səviyyəsi ilə böyüklərin rəhbərliyi və ya daha bacarıqlı həmyaşıdlarla əməkdaşlıq vasitəsilə həll edilən problemlər zamanı müəyyən olunan potensial inkişaf səviyyəsi arasındakı məsafədir*" (Vygotsky, 1978, s.86). Bir sözlə, YİZ hələ formalaşmamış, lakin formalaşma prosesində olan funksiyaları əhatə edir. Yəni YİZ şagirdin gələcək inkişafının potensialını göstərir. Burada müəllim *skafoldinq* rolunu oynayır. Müəllim şagirdləri müşahidə etməli və şagirdin öyrənmə prosesində harada olduqlarını, onları necə inkişaf etdirməli olduqlarını düşünməlidir. Aşağıda bir sıra skafoldinq strategiyaları təqdim ediləcək:

• Müəllim yeni materialı əvvəlki materiallarla əlaqələndirir, yaxud öyrəniləcək materialı şagirdlərin öz təcrübələri, maraqları ilə də əlaqələndirə bilərlər.

• Müəllim şagirdin əldə etməli olduğu təlim nailiyyətlərini, hansı bilik və bacarıqlara yiyələnəcəklərini dərsin əvvəlində şagirdlərə açıqlamalıdır.

• Dərs zamanı müəllim yerinə yetirilməsi nəzərdə tutulan tapşırıqla bağlı şagirdləri təlimatlandırır.

• Mövzunu şagirdin anlaması üçün müəllim müxtəlif yollardan istifadə etməlidir. Məsələn, slaydlardan istifadə edə bilər, yaxud şifahi formada izah və s. buraya aid etmək olar.

• Mətn oxunmazdan əvvəl mənası çətin dərk edilən sözlərin və ya ifadələrin mənası müəllim tərəfindən aydınlaşdırılır. Beləliklə, şagirdlər mətni daha yaxşı mənimsəyirlər.

Yuxarıda təqdim edilən skafoldinq strategiyalarından da aydın olur ki, strategiyalı oxu zamanı da müəllim şagirdlərə bir növ bələdçi rolunu oynayır və oxu mətnini şagirdin yüksək səviyyədə mənimsəməsi üçün istər oxudan əvvəl, istər oxu zamanı, istərsə də oxudan sonra müxtəlif üsullardan istifadə edir. Strategiyalı oxu prosesində müəllim şagirdə yalnız

mətnin məzmununu anlamağı deyil, həm də onu necə anlamaq yollarını öyrədir. Bu isə bilavasitə Yaxın İnkişaf Zonası modelinə uyğun gəlir.

1) Oxudam əvvəl mərhələ - proqnozlaşdırma, motivasiya, əvvəlki bilikləri aktivləşdirmə

Müəllim şagirdin əvvəlki bilik səviyəsinə uyğun istiqamətləndirici suallar verir, mətnin başlığındam istifadə edərək təxminlər qurmağa kömək edir. Bu mərhələ YİZ-in başlanğıc nöqtəsini formalaşdırır.

1) Oxu zamanı mərhələ- qeyd etmə, suallar yaratma Müəllim şagirdin diqqətini əsas ideyalara yönəldir, mətnin çətin hissələrini izah edir, müxtəlif oxu strategiyalarından (sual-cavab, klaster, qeydlərlə oxu) istifadə olunur. Bu zaman müəllimin dəstəyi YİZ daxilində bilik boşluqlarını doldurur.

2) Oxudan sonra mərhələ- təhlil, ümumiləşdirmə, yaradıcı tətbiqetmə

Şagird əldə etdiyi bilikləri müstəqil şəkildə istifadə edərək mətn üzərində analitik və yaradıcı tapşırıqlar yerinə yetirir. Bu mərhələ Yaxın İnkişaf Zonasından çıxış mərhələsinin və yeni müstəqillik səviyyəsinə keçidi təmin edir.

Müasir Azərbaycan dili dərsliklərində yer alan mətnlərin tədrisində bu ardıcıllıq nəzərə alınır. Oxu mətnindən əvvəl mətnin başlığı ilə və ya mətndə bəhs olunacaq məsələ ilə bağlı suallar yer alır və şagirdləri oxuya hazırlayır. Oxu zamanı mətndaxili suallar təqdim olunur və bu suallar mətnin ideyasının müəyyən olunmasında şagirdlərə kömək olur. Mətnin oxusundan sonra isə mətndəki obrazlarla bağlı münasibət bildirmə, yaxud məzmunla əlaqəli tapşırıqlar mətni tam olaraq mənimsəməyə xidmət edir.

YİZ-in strategiyalı oxuda istifadəsinin bir sıra üstünlükləri var:

• Şagird mətni anlama prosesində aktiv iştirakçıya çevrilir

• Şagird öz oxu strategiyalarını izləməyi və tənzimləməyi öyrənir

• Müəllim hət şagirdin inkişaf zonası çərçivəsində fərqli dəstək səviyyəsi təqdim edir

• Mətndə verilmiş məlumatları müqayisə edir, qiymətləndirir və yeni nəticələr çıxarır

7-ci sinif Azərbaycan dili dərsliyindən " *Polyanna* " (İsmayılov, Rüstəmova, Allahverdi, Məmmədova, 2022, s.23) mətni üzərində dərs nümunəsinə diqqət yetirək.

Sinif: 7-ci sinif

Mətn: Polyanna

Standart: 2.2.1, 2.2.3

Təlim nəticəsi: 1) Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur; 2) Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır

İş üsulu: Müzakirə, sual-cavab

İş forması: Qrup işi

Resurs: Dərslik, elektron lövhə

Dərsin gedişi

Oxudan əvvəl- Müəllim elektron lövhədə Eleanor Porterin "Polyanna" əsərindən hissələr təqdim edə bilər və ya kiçik video- çarx nümayiş etdirilə bilər. Ardınca proqnozlaşdırıcı suallar verilir. "Sizcə, Polyanna necə bir qızdır?", "Polyanna xalası- Polli Harrinqtonun yanında xoşbəxt ola biləcəkmi?" və s. Bu zaman müəllim daha passiv şagirdlərə yönləndirici suallar verir, fəal şagirdlər fikirlərini bölüşərək onların təfəkkürünü stimullaşdırırlar.

Oxudan zamanı- Mətn hissələrə bölünür. Müəllim mətni şagirdlərlə birlikdə oxuyur. Hər hissədən sonra suallar verilir. Mətnin oxusu zamanı əsas yerlər qeyd edilir, mətndaxili suallar cavablandırılır, şagirdlər üçün anlaşılmayan hissələr izah edilir. Müəllim açıq tipli suallar verilir və şagirdləri düşünməyə sövq edir. Şagirdlər səviyyələrinə uyğun qruplara bölünür və bacarıqlı şagirdlər mətni daha dərindən təhlil edərək digər şagirdlərə dəstək olurlar.

Oxudan sonra- Qruplar müəyyən xoşagəlməz situasiyalar fikirləşməli və digər qruplar isə bu anlarda sevinməli məqamları tapırlar. Müzakirə aparılır və burada hər bir şagirdin şəxsi münasibət bildirməsinə şərait yaradılır. Fikir bildirməkdə çətinlik çəkən şagirdlərə yoldaşları kömək edir. Beləliklə, şagirdlər mətnin ideyasını ifadə edirlər: *Optimist olmaq həyatda mübarizə gücüdür*. Qiymətləndirmə isə *mətnin məzmununu anlama, fikrin əsaslandırılması, şəxsi münasibət bildirmə* meyarları əsasında aparılır.

"Polyanna" mətnin təhlilində YİZ və strategiyalı oxu birgə tətbiq olunmuşdur. Strategiyalı oxu şagirdi mətn üzərində aktiv düşünməyə cəlb edirsə, YİZ müəllimin və daha aktiv şagirdlərin zəif şagirdlərə dəstəyi kimi səciyyələndirilir. Strategiyalı oxuda istifadə olunan strategiyalar şagirdlərin təfəkkürünü, nitqini inkişaf etdirirsə, YİZ-də bu bacarıqlar müəllim və daha güclü şagirdlərin şagirdlərin dəstəyi ilə əldə edilir.

İşin elmi nəticəsi: Nəticədə Vıqotskinin " Yaxın İnkişaf Zonası " nəzəriyyəsi strategiyalı oxunun pedaqoji və psixoloji əsaslarını izah etməkdə mühüm çərçivə təqdim edir. Strategiyalı oxu prosesində müəllimin rolu yalnız məzmun ötürmək deyil, həm də şagirdin potensial imkanlarını inkişaf etdirmək, ona müstəqil öyrənmə bacarıqları qazandırmaqdır. Bu yanaşma həm müasir təhsil strategiyalarının, həm də kurikulum islahatlarının əsas prinsiplərinə uyğun gəlir.

İşin elmi yeniliyi: Məqalədə qeyd edilir ki, Strategiyalı oxu zamanı oxucu müxtəlif oxu strategiyalarından istifadə edərək mətni oxuyur. Bu şagirdin nitqini, təfəkkürünü inkişaf etdirir, onlara

nitq mədəniyyəti vərdişləri qazandırır. Bilikləri həyatla əlaqələndirmə və s. bacarıqlar formalaşdırır.

Məqalədə L.Vıqotskinin "Yaxın İnkişaf Zonası" nəzəriyyəsinin strategiyalı oxuya tətbiqinin əhəmiyyətiaçıqlanır.

İşin tətbiqi, əhəmiyyəti: Bizə elə gəlir ki, təqdim olunan məqalə, yəni "L.Vıqotskinin "Yaxın İnkişaf Zonası" nəzəriyyəsinin strategiyalı oxuya tətbiqi haqqına" mövzusu ilə maraqlanan hər kəs üçün əhəmiyyətli ola bilər. Bu məqalədən müəllimlər və tələbələr istifadə edə bilərlər.

Müəllimlər strategiyalı oxu üzrə işin pedaqoji və psixoloji əsaslarına istinad etməklə şagirdlərin təlim nəticələrinin yüksəldilməsinə nail olmaq imkanı əldə edirlər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi (2023). *Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulum).* Bakı, 86 s
2. İsmayılov, R. Ə., Rüstəmova, A. X., Allahverdi, H. F., & Məmmədova, S. X. (2022). *Azərbaycan dili 7-ci sinif üçün dərslik*. Bakı: Şərq-Qərb. 176 s
3. Təhsil Araşdırmaları və İnkişaf Mərkəzi (TAİM). (2024). *Metodika və pedaqogika.* Bakı. 184 s
4. Vygotsky, L. S. (1978). *Mind in society: The development of higher psychological processes.* Cambridge. MA: Harvard University Press. 175 s.

DOİ: 10.32010/HGNC9533

TƏHSİL MARKETİNGİNİN PEDAQOJİ UNİVERSİTETLƏRDƏ ROLU: AZƏRBAYCAN VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

Aytən Elçin QULİYEVA
Azərbaycan Respublikası Təhsil İnstitutu
ORCID ID: 0000-0003-0404-5110
E-mail: quliyeva.ayten@outlook.com

Xülasə: təhsil marketingi pedaqoji universitetlərdə tələbə cəlbi üçün əsas vasitədir və müəllim hazırlığının keyfiyyətinə birbaşa təsir edir. azərbaycanda, xüsusilə azərbaycan dövlət pedaqoji universiteti (adpu) kontekstində, təhsil marketingi dövlət strategiyalarına bağlıdır və əsasən elektron qəbul sistemi, beynəlxalq əməkdaşlıq və sosial media ilə məhdudlaşır. lakin rəqəmsal alətlərin zəifliyi, büdcə məhdudiyyətləri və müəllimlik peşəsinin aşağı prestiji tələbə cəlbini çətinləşdirir. beynəlxalq təcrübə, xüsusilə corc vaşinqton universitetinin (gwu) graduate school of education and human development (gsehd) proqramı, müasir strategiyaların effektivliyini göstərir. gsehd virtual turlar, sosial media kampaniyaları, karyera dəstəyi və çoxmədəniyyətli yanaşmalarla tələbələri cəlb edir, məzunlarının 95%-i 6 ay ərzində iş tapır. azərbaycan bu təcrübədən faydalanaraq rəqəmsal transformasiyanı sürətləndirməli, müəllimlik peşəsinin prestijini artırmalı və mentorluq proqramları tətbiq etməlidir. bu, pedaqoji təhsilin cəlbediciliyini artıraraq ölkənin təhsil sisteminin inkişafına töhfə verəcək. tövsiyələrə virtual kampus turları, karyera fokuslu təbliğat və beynəlxalq partnyorluqların genişləndirilməsi daxildir.
Açar sözlər: Təhsil marketingi, Pedaqoji universitetlər, Tələbə cəlbi, Beynəlxalq təcrübə, Corc Vaşinqton Universiteti

---

THE ROLE OF EDUCATİONAL MARKETİNG İN PEDAGOGİCAL UNİVERSİTİES: AZERBAİJANİ AND INTERNATİONAL EXPERİENCE

Ayten Elchin GULIYEVA
Institute of Education of the Republic of Azerbaijan, doctoral student
ORCID ID: 0000-0003-0404-5110
E-mail: quliyeva.ayten@outlook.com

Abstract: Educational marketing is a key tool for attracting students to pedagogical universities and has a direct impact on the quality of teacher training. In Azerbaijan, especially in the context of the Azerbaijan State Pedagogical University (ADPU), educational marketing is tied to state strategies and is mainly limited to the electronic admission system, international cooperation, and social media. However, the weakness of digital tools, budget constraints, and the low prestige of the teaching profession make it difficult to attract students. International experience, in particular the Graduate School of Education and Human Development (GSEHD) program at George Washington University (GWU), shows the effectiveness of modern strategies. GSEHD attracts students with virtual tours, social media campaigns, career support, and multicultural approaches, with 95% of its graduates finding jobs within 6 months. Azerbaijan should benefit from this experience by accelerating digital transformation, increasing the prestige of the teaching profession, and introducing mentoring programs. This will contribute to the development of the country's education system by increasing the attractiveness of pedagogical education. Recommendations include virtual campus tours, career-focused outreach, and expanding international partnerships.
Key words: Educational marketing, Pedagogical universities, Student recruitment, International experience, George Washington University.

РОЛЬ ОБРАЗОВАТЕЛЬНОГО МАРКЕТИНГА В ПЕДАГОГИЧЕСКИХ ВУЗАХ: АЗЕРБАЙДЖАНСКИЙ И МЕЖДУНАРОДНЫЙ ОПЫТ

Айтен Эльчин ГУЛИЕВА
Института Образования Азербайджанской Республики, докторант
ORCID ID: 0000-0003-0404-5110
Электронная почта: quliyeva.ayten@outlook.com

Резюме: Образовательный маркетинг является ключевым инструментом привлечения студентов в педагогические вузы и напрямую влияет на качество подготовки учителей. В Азербайджане, особенно в

контексте Азербайджанского государственного педагогического университета (АГПУ), образовательный маркетинг связан с государственными стратегиями и в основном ограничивается электронной системой приема, международным сотрудничеством и социальными сетями. Однако слабость цифровых инструментов, бюджетные ограничения и низкий престиж профессии учителя затрудняют привлечение студентов. Международный опыт, в частности, программа Высшей школы образования и развития человека (GSEHD) Университета Джорджа Вашингтона (GWU), показывает эффективность современных стратегий. GSEHD привлекает студентов виртуальными турами, кампаниями в социальных сетях, поддержкой карьеры и мультикультурными подходами: 95% выпускников находят работу в течение 6 месяцев. Азербайджан должен извлечь пользу из этого опыта, ускорив цифровую трансформацию, повысив престиж профессии учителя и внедрив программы наставничества. Это будет способствовать развитию системы образования страны, повышая привлекательность педагогического образования. Рекомендации включают виртуальные экскурсии по кампусу, мероприятия по развитию карьеры и расширение международного партнерства.
Ключевые слова: Образовательный маркетинг, Педагогические университеты, Набор студентов, Международный опыт, Университет Джорджа Вашингтона

Giriş

Təhsil marketingi bugünkü ali təhsil sistemində universitetlərin özlərini tanıtdığı, tələbələri cəlb etdiyi və onların qərar qəbuluna təsir etdiyi əsas alətlərdən biridir. Xüsusilə pedaqoji universitetlər üçün bu, sadəcə rəqabət məsələsi deyil, həm də ölkənin təhsil sisteminin gələcəyini formalaşdıran müəllimlərin hazırlanması ilə bağlıdır. Azərbaycanda pedaqoji təhsil, məsələn, Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) kimi qurumlar vasitəsilə həyata keçirilir və dövlət strategiyaları ilə dəstəklənir. Amma qlobal rəqabət, rəqəmsal transformasiya və pandemiya sonrası dəyişən tələblər bu sahədə yeni yanaşmalar tələb edir.

Bu yazıda təhsil marketinginin pedaqoji universitetlərdəki rolunu, Azərbaycanın mövcud strategiyalarını və beynəlxalq təcrübəni, xüsusilə də Corc Vaşinqton Universitetinin (George Washington University – GWU) təcrübəsini ətraflı təhlil edəcəm. Məqsədim, Azərbaycanın pedaqoji universitetləri üçün praktiki və innovativ təkliflər verməkdir.

Təhsil marketingi universitetlərin öz brendlərini qurması, tələbələri cəlb etməsi və onların təhsilə bağlılığını artırması üçün istifadə olunan strategiyalar toplusudur. Bu, sadəcə reklamla məhdudlaşmır; universitetin dəyərlərini, proqramlarını və imkanlarını potensial tələbələrə çatdırmaq üçün kompleks bir yanaşmadır. Pedaqoji universitetlərdə bu rol daha da vacibdir, çünki müəllim hazırlığı bir ölkənin təhsil sisteminin təməl daşıdır. Müəllimlər gələcək nəsilləri formalaşdırır, buna görə də bu sahəyə cəlb olunan tələbələrin keyfiyyəti və sayı birbaşa cəmiyyətin inkişafına təsir edir (Szekeres, 2010).

Nəzəriyyə

Təhsil marketingi pedaqoji universitetlər üçün sadəcə tələbə cəlb etməkdən ibarət deyil. Bu, həm də müəllim peşəsinin cəmiyyətdəki prestijini artırmaq, gəncləri bu sahəyə həvəsləndirmək və onların uzunmüddətli karyera perspektivlərini görməsinə kömək etməkdir. Azərbaycanda müəllimlik peşəsinə maraq son illərdə bir qədər artsa da, hələ də bu sahəyə gəncləri cəlb etmək üçün daha çox iş görmək lazımdır. Beynəlxalq təcrübədə isə bu məqsədlə müasir rəqəmsal alətlərdən, sosial mediadan və fərdi yanaşmalardan istifadə olunur ki, bu da Azərbaycanda tətbiq oluna bilər (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2019).

Təhsil Marketinginin Əsas Elementləri Təhsil marketingini daha yaxşı başa düşmək üçün onun əsas komponentlərini sadalayıram:

1. Brendinq: Universitetin özünəməxsus imicinin yaradılması. Pedaqoji universitetlər üçün bu, müəllim peşəsinin cəmiyyətdəki dəyərini vurğulamaq deməkdir. Məsələn, uğurlu müəllim məzunlarının hekayələri paylaşılarsa, bu, gəncləri motivasiya edə bilər.
2. Rəqəmsal Marketinq: Sosial media platformaları (Instagram, YouTube), axtarış motoru optimallaşdırması (SEO) və e-poçt kampaniyaları. Virtual kampus turları və ya onlayn tədbirlər potensial tələbələri cəlb edir.
3. Fərdi Yanaşma: Tələbələrin maraqlarına uyğun proqramlar təklif etmək, məsələn, karyera konsultasiyaları və ya mentorluq proqramları.
4. Partnyorluqlar və Tədbirlər: Beynəlxalq mübadilə proqramları, açıq qapı günləri və karyera yarmarkaları tələbələri cəlb etmək üçün effektivdir.
5. Saxlama Strategiyaları: Tələbələrin təhsilə bağlılığını artırmaq üçün psixoloji dəstək, mentorluq və karyera planlaması. Bu elementlər pedaqoji universitetlərdə tələbə cəlbi üçün xüsusi əhmiyyət kəsb edir, çünki müəllim peşəsinə maraq yaratmaq üçün emosional və motivasiyaedici amillərə ehtiyac var (Altbach & Knight, 2007).

Azərbaycanda pedaqoji təhsil əsasən Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) və onun filialları (Şamaxı, Quba və s) tərəfindən təmin edilir. Dövlət səviyyəsində təhsil marketingi "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət

Strategiyası" (2019-2030) çərçivəsində həyata keçirilir. Bu strategiya təhsilin keyfiyyətini artırmaq, beynəlxalq standartlara uyğunlaşmaq və pedaqoji kadrların hazırlanmasını təmin etmək məqsədi daşıyır. Lakin belə düşünmək olar ki, bu strategiyalar daha çox dövlət təbliğatına yönəlib və müasir marketinq alətlərindən tam istifadə etmir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2019).

Azərbaycanda Mövcud Strategiyalar

1. Dövlət Qəbul Sistemi: Dövlət İmtahan Mərkəzinin (DİM) elektron qəbul sistemi şəffaflığı təmin edir. Məsələn, 2024-2025-ci tədris ilində ADPU-nun Tarix müəllimliyi ixtisasına keçid balı 497.2, ibtidai sinif müəllimliyi üçün isə 450 bal civarında olub. Bu, tələbələrə seçim etməkdə asanlık yaradır.
2. Beynəlxalq Əməkdaşlıq: ADPU xarici universitetlərlə (məsələn, Fransanın Strasburq Universiteti, ABŞ-ın JFDP proqramı) əməkdaşlıq edir. Bu proqramlar xüsusilə ingilis dili müəllimlərinin hazırlanmasına yönəlib.
3. Sosial Media və Regional Təbliğat: ADPU-nun sosial media hesabları (Facebook, Instagram) vasitəsilə təbliğat aparılır, lakin bu, daha çox xəbərlər və tədbirlərlə məhdudlaşır. Regional filiallar vasitəsilə yerli gənclərə müraciət edilir.
4. Təcrübə Proqramları: Cocuq Mərcanlı kəndindəki kimi təcrübə proqramları tələbələri praktik bacarıqlara cəlb edir (Maringe & Gibbs, 2009).

Azərbaycanda Çağırışlar Mənim müşahidələrimə görə, Azərbaycanda pedaqoji təhsilə maraq aşağıdır, çünki müəllimlik peşəsi cəmiyyətdə yetərincə prestijli hesab edilmir. Gənclərin çoxu mühəndislik, İT və ya biznes kimi sahələrə üstünlük verir. Həmçinin, marketinq strategiyaları köhnəlmişdir: Rəqəmsal Alətlərin Zəifliyi: Sosial media kampaniyaları sistemli deyil, SEO və ya virtual turlar kimi müasir üsullar istifadə edilmir. Büdcə Məhdudiyyətləri: Marketinqə ayrılan vəsait məhduddur, bu da genişmiqyaslı kampaniyaların aparılmasını çətinləşdirir. Peşənin Prestiji: Müəllimlik peşəsinin maaşı və sosial statusu gəncləri bu sahədən uzaqlaşdırır.

Metod

Beynəlxalq səviyyədə pedaqoji universitetlər tələbə cəlbi üçün daha müasir və innovativ strategiyalardan istifadə edir. Məsələn, Böyük Britaniyada UCL Institute of Education, ABŞ-da Harvard Graduate School of Education və ya Avstraliyada Melbourne Universiteti kimi qurumlar tələbə cəlbini rəqəmsal və fərdi yanaşmalarla təmin edir. Belə hesab etmək olar ki, bu təcrübələrin Azərbaycan üçün də önəmli öyrədici rolu ola bilər (Hemsley-Brown & Oplatka, 2015).

Beynəlxalq Strategiyalar - Rəqəmsal Marketinq: Universitetlər virtual kampus turları, vebinarlar və sosial media kampaniyaları ilə tələbələri cəlb edir. Məsələn, Avstraliya universitetləri beynəlxalq tələbələr üçün YouTube-da immersiv videolar paylaşır. Karyera Fokuslu Təbliğat: Müəllim peşəsinin uzunmüddətli faydaları vurğulanır. ABŞ-da tələbələrin 40%-ə yaxını karyera imkanlarına görə pedaqoji proqramları seçir. Beynəlxalq Mübadilələr: İkili diplom proqramları və Erasmus+ kimi layihələr tələbələri cəlb edir. Böyük Britaniyada UCAS sistemi real vaxtda qəbul prosesini asanlaşdırır. Mədəni Uyğunlaşma: Hindistan və ya Afrika ölkələrindən olan tələbələr üçün dil dəstəyi və vizə konsultasiyaları təklif olunur. Saxlama Strategiyaları: Finlandiyada müəllimlik peşəsi cəmiyyətdə yüksək statusa malikdir və tələbələr mentorluq proqramları ilə dəstəklənir. Bu strategiyalar tələbələri cəlb etməkdə effektivdir, çünki onlar fərdi ehtiyaclara və müasir texnologiyalara uyğundur (Szekeres, 2010).

Corc Vaşinqton Universiteti (GWU) ABŞ-ın paytaxtı Vaşinqton D.C.-də yerləşən və pedaqoji təhsil sahəsində nüfuzlu qurumlardan biridir. Onun Graduate School of Education and Human Development (GSEHD) proqramı müəllim hazırlığı, təhsil liderliyi və konseling sahələrində liderdir. Belə hesab etmək yerinə düşər ki, GWU-nun strategiyaları Azərbaycan üçün öyrənici ola bilər, çünki onlar həm müasir, həm də effektivdir.

GSEHD-nin Strukturu və Marketinq Yanaşması GSEHD 1909-cu ildə təsis olunub və hazırda 1000-dən çox magistr və doktorant tələbəsi var. Universitetin "scholar-practitioner" modeli nəzəriyyə ilə praktikanı birləşdirir. Bu, tələbələrə həm akademik bilik, həm də real təcrübə qazandırır. Marketinq strategiyaları isə bu modeli vurğulayaraq tələbələri cəlb edir. GWU-nun Tələbə Cəlbi Strategiyaları

1. Rəqəmsal Marketinq: o GSEHD-nin veb-saytı interaktivdir: virtual kampus turları, onlayn seminarlar və proqram təsvirləri təklif edir. Məsələn, pandemiya dövründə virtual turlar tələbələrin 60%-ni cəlb edib. O Sosial mediada "Alumni Spotlights" seriyası uğurlu müəllimlərin hekayələrini paylaşır. Bu, tələbələri motivasiya edir və onların 80%-nin qərarına təsir edir.
2. Karyera Dəstəyi: o GSEHD-nin "Career Services" mərkəzi tələbələrə rezyume yazmaq, intervyu bacarıqları və şəbəkə qurma təklif edir. Pedaqoji proqramlarda internshiplər məcburidir, bu da tələbələri cəlb edir. Beynəlxalq tələbələr üçün "International Student Guide" vizə və dil dəstəyi verir. 2024-cü ildə beynəlxalq tələbələrin sayı 25% artıb.

3. Tədbirlər: "Open House" və "Education Leadership Forum" kimi tədbirlər yüzlərlə potensial tələbəni cəlb edir. ABŞ Təhsil Nazirliyi və özəl şirkətlərlə (məsələn, Goldman Sachs) partnyorluqlar tələbələrə praktika imkanları yaradır.
4. Çoxmədəniyyətli Yanaşma: GSEHD tələbələrinin 40%-i azlıq qruplarındandır. "Diverse Voices" kampaniyası müxtəlif etnik və sosial qrupları hədəfləyir, bu da tələbələrin universitetə aidiyyət hissini artırır (George Washington University Graduate School of Education and Human Development, 2024).

Nəticə

GWU-nun təcrübəsi Azərbaycan üçün bir neçə cəhətdən faydalı ola bilər: Rəqəmsal Transformasiya: Virtual turlar və sosial media kampaniyaları ADPU-da tətbiq oluna bilər. Karyera Fokuslu Təbliğat: Müəllimlik peşəsinin uzunmüddətli faydalarını vurğulamaq gəncləri cəlb edə bilər. Partnyorluqlar: Xarici universitetlərlə əməkdaşlıq genişləndirilə bilər. Çoxmədəniyyətli Yanaşma: Azərbaycanda müxtəlif regionlardan tələbələri cəlb etmək üçün inklüziv kampaniyalar təşkil edilə bilər. GWU kimi qurumlar isə fərdi və rəqəmsal strategiyalara üstünlük verir. Belə hesab etmək olar ki, Azərbaycan bu təcrübədən faydalanaraq daha müasir və effektiv yanaşmalar tətbiq edə bilər (Szekeres, 2010).

Təhsil marketingi pedaqoji universitetlərdə tələbə cəlbi üçün əvəzsiz bir vasitədir. Azərbaycanda bu sahədə dövlət dəstəyi olsa da, müasir rəqəmsal alətlər və fərdi yanaşmalar zəifdir. GWU-nun GSEHD proqramı kimi beynəlxalq təcrübələr göstərir ki, effektiv marketinq strategiyaları tələbələri cəlb etməklə yanaşı, müəllimlik peşəsinin cəmiyyətdəki dəyərini də artırır. Azərbaycan bu təcrübələri öyrənərək öz pedaqoji universitetlərini daha rəqabətli və cəlbedici edə Bu, nəticədə ölkənin təhsil sisteminin inkişafına və gələcək nəsillərin keyfiyyətinə müsbət təsir edəcək.

ƏDƏBIYYAT SİYAHISI:

1. Kotler, P., & Keller, K. L. (2016). Marketing Management (15th ed.). Pearson Education.
2. Altbach, P. G., & Knight, J. (2007). The Internationalization of Higher Education: Motivations and Realities Journal of Studies in International Education, 11 (3-4), 290-305.
3. Hemsley-Brown, J., & Oplatka, I. (2015). University Choice: What Influences the Decisions of International Students?. Journal of Higher Education Policy and Management, 37- (5), 502-517.
4. Maringe, F., & Gibbs, P. (2009). Marketing Higher Education: Theory and Practice. Open University Press
5. George Washington University Graduate School of Education and Human Development. (2024). Annual Report 2023-2024. GWU Press
6. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2019). Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası (2019-2030). Bakı.
7. Szekeres, J. (2010). Re-thinking the Role of Marketing in Higher Education. Journal of Higher Education Policy and Management, 32(2), 155-167.

DOİ: 10.32010/PYMM3534

İDMANÇI TƏLƏBƏLƏR ÜÇÜN İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ EFFEKTİV AUDİTORİYA İDARƏETMƏ STRATEGİYALARI

Səmayə Akif QULİYEVA
Azərbaycan İdman Akademiyası
Orcid: https://orcid.org/0000-0002-2942-0944
E-mail: samaya.guliyeva@sport.edu.az

Xülasə: Bu mövzunun araşdırılmasının aktuallığı bununla izah edilir ki, idmançı tələbələr həm akademik, həm də idman fəaliyyətlərində iştirak edirlər. Məşqlər, yarışlar, xarici ölkələrə səfərlər səbəbilə dərsləri buraxa və öyrənmə prosesindən geri qala bilirlər. İdmançı tələbələrin dərslərdə iştirakı davamlı olmaya bilər. Həmçinin fiziki yorğunluq və bununla bərabər akademik marağın aşağı olması motivasiya çatışmazlığına səbəb olur. Biz burada ingilis dilinin öyrənilməsinin də xüsusi çətinlik yaratmasını qeyd etməliyik. İdmançı tələbələr üçün bu proses fiziki gərginlik və zaman məhdudiyyəti ilə bağlı olaraq daha stressli ola bilər. Ənənəvi dərs idarəetməsi bu qrup tələbələr üçün effektli olmaya bilər. Həmçinin bu sahədə elmi-metodik araşdırma və praktik tətbiqin kifayət qədər olmaması, tədqiqat sahəsi kimi az öyrənilməsi, mövzunun beynəlxalq səviyyədə çox az tədqiq olunması, idmançı tələbələrə istiqamətlənmiş dil tədrisi və auditoriya idarəetməsi sahəsində elmi mənbənin azlığı tədqiqat işinin aktullığını diqqətə çatdırır. Bu məqalədə effektiv auditoriya idarəçiliyi və onun ingilis dilinin tədrisinə təsiri araşdırılmış və təhsil məqsədlərinə çatmağa kömək edən uğurlu auditoriya idarəçiliyinin komponentləri təqdim edilmişdir. Tədqiqat işinin məqsədi idmançı tələbələr üçün ingilis dili dərslərində məqsədəuyğun auditoriya idarəetmə strategiyalarını araşdırmaq, bu qrup tələbələrin xüsusiyyətlərinə uyğun metod və yanaşmaları müəyyənləşdirmək və praktik tətbiq imkanlarını təqdim etməkdir. Həmçinin mövcud ədəbiyyatın təhlili, tədris mühitində tətbiq olunan effektiv strategiyalar və yanaşmalar əsasında təkliflər təqdim ediləcəkdir. Məqalə eyni zamanda bu metod və ideyaların real auditoriya şəraitində tətbiqinə dair praktik tövsiyyələr də təqdim edir. Burada vurğulanmalıdır ki, aparılan araşdırmaların nəticələri yalnız idmançı tələbələr üçün deyil, ümumilikdə xarici dil öyrənən digər tələbə qrupları üçün də faydalı ola bilər və tədris keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verə bilər.
Açar sözlər: auditoriya idarəetmə strategiyaları, ixtisaslaşmış idman leksikası, psixoloji amillər, ingilis dilinin tədrisi, motivasiya

EFFECTIVE AUDIENCE MANAGEMENT STRATEGIES IN ENGLISH LANGUAGE CLASSES FOR STUDENT ATHLETES

Samaya Akif GULIYEVA
Azerbaijan Sport Academy
Orcid: https://orcid.org/0000-0002-2942-0944
E-mail: samaya.guliyeva@sport.edu.az

Abstract: The relevance of studying this topic is explained by the fact that student athlethes participate in both academic and sports activities. Due to training, competitions, and trips abroad, they may miss classes and fall behind in the learning process. Student athletes may not be able to attend classes consistently. Physical fatigue, coupled with low academic interest, can also lead to a lack of motivation. We should also note that learning English is a particular challenge. For student athlethes, this process can be more stressful due to physical strain and time constraints. Traditional classroom management may not be effective for this group of students. Also, the lack of scientific-methodological research and practical application in this field, the little study of the subject as a research area, the very little research on the subject at the international level, the scarcity of scientific sources in the field of language teaching and classroom management aimed at student athletes, bring to attention the urgency of the research work. This article examines effective audience management and its impact on English language teaching and presents the components of successful audience management that help achieve educational goals. The aim of the research is to investigate effective audience management strategies in English lessons for student-athletes, to identify methods and approaches appropriate to the characteristics of this group of students, and to present practical application opportunities. Additionally**,** suggestions will be presented based on an analysis of the existing literature and effective strategies and approaches applied in the educational environment. It should be emphasized that the results of the conducted studies can be beneficial not only for student-athletes but also for other groups of students learning a foreign language and can make a significant contribution to improving the quality of education.
Key words: audience management strategies, specialized sports vocabulary, psychological factors, English language teaching, motivation

ЭФФЕКТИВНЫЕ СТРАТЕГИИ УПРАВЛЕНИЯ АУДИТОРИЕЙ НА ЗАНЯТИЯХ ПО АНГЛИЙСКОМУ ЯЗЫКУ ДЛЯ СТУДЕНТОВ-СПОРТСМЕНОВ

Самая Акиф ГУЛИЕВА
Азербайджанская Спортивная Академия
Orcid: https://orcid.org/0000-0002-2942-0944
Электронная почта: samaya.guliyeva@sport.edu.az

Резюме: Актуальность изучения данной темы объясняется тем, что студенты-спортсмены участвуют как в учебной, так и в спортивной деятельности. Из-за тренировок, соревнований и поездок за границу они могут пропускать занятия и отставать в учебном процессе. Студенты-спортсмены могут не иметь возможности регулярно посещать занятия. Физическая усталость в сочетании с низким интересом к учёбе также приводит к отсутствию мотивации. Стоит также отметить, что изучение английского языка представляет собой особую сложность. Для студентов, занимающихся спортом, этот процесс может быть более стрессовым из-за физических нагрузок и нехватки времени. Традиционное управление классом может быть неэффективным для этой группы студентов. Кроме того, отсутствие научно-методических исследований и практического применения в этой области, ограниченное ее изучение как научной области, крайне малое количество исследований по данной теме на международном уровне и скудность научных источников в области преподавания языка и управления классом, ориентированного на студентов-спортсменов, подчеркивают актуальность данной исследовательской работы. В данной статье рассматривается эффективное управление аудиторией и его влияние на преподавание английского языка, а также представлены компоненты успешного управления аудиторией, которые помогают достичь образовательных целей. Целью исследования является изучение эффективных стратегий управления аудиторией на уроках английского языка для студентов-спортсменов, выявление методов и подходов, соответствующих особенностям этой группы студентов, и представление возможностей практического применения. Также будут представлены предложения, основанные на анализе существующей литературы и эффективных стратегий и подходов, применяемых в образовательной среде. В статье также даются практические рекомендации по применению этих методов и идей в реальной аудитории. Следует подчеркнуть, что результаты проведённых исследований могут быть полезны не только для студентов-спортсменов, но и для других групп студентов, изучающих иностранный язык, и могут внести значительный вклад в повышение качества обучения.
Ключевые слова: стратегии управления аудиторией, специализированная спортивная лексика, психологические факторы, преподавание английского языка, мотивация.

Giriş

Müasir təhsil mühitində müəllimlərin peşəkarlığını və dərs prosesinin keyfiyyətini müəyyən edən əsas amillərdən biri auditoriya idarəetməsidir. Effektiv auditoriya idarəetməsi yalnız nizam-intizamın qorunması ilə məhdudlaşmır, həm də tələbələrin dərsə aktiv cəlb edilməsini, öyrənmə mühitinin məhsuldar və motivasiyalı olmasını təmin edir. Bu, xüsusilə akademik fəaliyyət və fiziki məşğələləri paralel şəkildə icra edən idmançı tələbələr üçün daha da aktualdır.

İdmançı tələbələr dərs prosesinə müəyyən səbəblərə görə tam fokuslana bilməyə bilərlər. Bunlardan birinci faktor kimi fiziki yorğunluğu qeyd edə bilərik. Məşqdən sonra dərsə gələn tələbə fiziki olaraq dərsdə iştirak etsə də, zehni olaraq yüklənmiş olur. Qarşıdan gələn yarışlar və nəticə gözləntiləri tələbənin fikrini dərsdən yayındıra bilər. Tapşırıqlar, dərs və məşq arasında balans yaratmaq üçün davamlı olaraq zamanın idarə edilməsi stressi onları dərsdən uzaqlaşdıra bilər. Əlavə olaraq ingilis dili dərslərində tədris edilən materiallar da idmanla bağlı deyilsə, motivasiya aşağı olacaqdır.

Qeyd etdiyimiz məsələlərlə bağlı olaraq tələbələrin dərsdə passiv iştirakı və ümumi atmosferin zəifləməsi müşahidə olunur. İdmançı tələbələr passivlik nümayiş etdirdikdə, müəllim əlavə cəhdlər göstərməli olur. Bu zaman digər tələbələrin də diqqəti yayınır, dərsdə ümumi enerji və dinamika azalır. Bu da öz növbəsində vaxt itkisi və müəllimin diqqətinin dağılmasına səbəb olur. Müəllim diqqəti yayınmış tələbəyə yönələndə dərsin gedişi pozula bilir və müəllim dərs tempini dəyişmək və təkrar izahlar vermək məcburiyyətində qalır. Passiv və ya diqqəti yayınmış tələbə özünü dərsdən kənarda hiss edir, bu isə öz növbəsində davranış pozuntularına səbəb ola bilər. Müəllimin auditoriyada intizam və motivasiya balansını qoruması çətinləşir. Ən əsas xüsusiyyətlərdən biri onların ümumi intellektual səviyyələri ilə müqayisədə müəyyən akademik sahələrdə ciddi çətinliklərlə üzləşmələridir. Bu qrup tələbələr çox zaman diqqətlərini cəmləməkdə çətinlik çəkir və qısa müddət əvvəl başa düşdükləri məlumatları unuda bilirlər. Bu baxımdan, müəllimlər və pedaqoji heyət belə fərqliliklərə empatik və fərdi yanaşma göstərməli, bu qrup tələbələrin tədrisə uğurla

inteqrasiyasını təmin etmək üçün uyğun metod və dəstək sistemləri yaratmalıdırlar. (Velecka, 2018, s.14). Diqqəti dağılmış tələbə dərsə fokuslanmadıqda suallara cavab vermir, tapşırıqlarda geridə qalır və digər tələbələrin də öyrənmə prosesi ləngiyə bilər. Qrup işi və cütlərlə iş fəaliyyətlərdə bu, digər tələbələrin də irəliləyişinə mənfi təsir edə bilər. Əlavə olaraq, yarışlara, təlim-məşqlərə və ya səyahətlərə görə tələbələr dərsləri buraxa bilirlər. Bununla da müəllim təkrarlamalar etmək məcburiyyətində qalır və dərs ritmi və planlaşdırma pozulur.

İdmançı tələbələr üçün motivasiya digər tələbələrdən fərqli və təhsil prioriteti fiziki yorğunluqdan dolayı aşağı, xüsusən də ingilis dili, onların əsas hədəfi olmaya bilər. Bu da tapşırıqların vaxtında yerinə yetirilməməsi, passivlik, dərsə az maraq formalaşdırır və auditoriyada ümumi öyrənmə mühitini zəiflədir. Müəllim bu fərqlilikləri idarə etmək üçün effektiv auditoriya idarəçiliyi bacarıqlarına ehtiyac duyur. Təhsil-idman balansını qorumaq zəruri məsələyə çevrilir. Auditoriyanın idarəedilməsi müəllimə akademik və emosional dəstək balansı yaratmaqda əsas vasitəyə çevrilir. İdmançı tələbələrlə işləyən müəllimlər üçün auditoriya idarəetməsi sadəcə standart qayda-qanun deyil, dərsə adaptasiya, çeviklik, fərdi yanaşma və motivasiya idarəçiliyidir.

Nəzəriyyə

Effektiv auditoriya idarəçiliyi müəllimin dərs mühitini elə bir şəkildə təşkil etməsidir ki, bu mühit tələbələrin öyrənməsini təşviq etsin, davranışları düzgün istiqamətləndirsin, motivasiyanı artırsın və qarşılıqlı hörmət üzərində qurulsun. (Firth-Clark, Sütterlin, & Lugo, 2019, s. 92–93).

Auditoriyada müsbət və dəstəkləyici mühitin formalaşdırılması üçün praktiki işlər təşkil etmək, tələbələrdə əməkdaşlığa əsaslanan intizam və məsuliyyət hissini aşılamaq, onları motivasiya və ingilis dilinin öyrənilməsinə təşviq etmək, çətin vəziyyətlərin idarə olunmasında müəllimlərə dəstək olmaq və eyni zamanda peşəkar inkişaf üçün müxtəlif yanaşmalar təklif etməkdi zəruri amilə çevrilir.

İdmançı tələbələr ciddi məşq rejimləri, yarışlar və səyahətlərdə olarkən son dərəcə gərgin cədvəllər altında fəaliyyət göstərirlər. Darla K. Deardorff qeyd etdiyi kimi, idmançı tələbələrin idman fəaliyyətləri dil öyrənmə də daxil olmaqla əlavə təhsil öhdəlikləri üçün də az yer buraxır. İngilis dilinin öyrənilməsi davamlılıq, təcrübə tələb edir ki, bu da idmançı tələbələr üçün çətin ola bilər. Uyğun olaraq da tələbələr öyrənmə üslublarına uyğun gəlməyən ənənəvi üsullarla mübarizə aparırlar. İdmançı tələbələr üçün xüsusi olaraq hazırlanmış ingilis dili resursların mövcudluğu məhdud ola bilər. Bu zaman dərsdə aktivliyi, diqqəti və məhsuldarlığı davamlı etmək üçün müəllim idarəetmə strategiyalarını fərdiləşdirməlidir. Bu, müəllimlərin dərsi idarə etməsini və uyğun strategiya tətbiq etməsini zəruri amilə çevirir. Bu da müəllimlər üçün xüsusi metodoloji məsələlərin nəzərə alınmasını tələb edir. Nəzərə alsaq ki ingilis dili öyrənmək bütün öyrəncilər üçün davamlılıq, zaman, və psixoloji məsələlərin öhdəsindən gəlməyi tələb edir tələb edir, o zaman tələbə idmançılar üçün xüsusi metodiki problemlər də diqqətimizi çəkir**.** (Deardorff, 2006, s. 241–266). Bu səbəbdən onların tədris prosesində xüsusi ehtiyacları nəzərə alınmalı və müəllimlər dərs prosesini idarə edərkən daha produktiv, motivasiyaedici və uyğunlaşdırılmış strategiyalardan istifadə etməlidirlər.

Auditoriya idarəçiliyinin mahiyyəti tələbəyə daha effektli təlim şəraitinin yaradılmasıdır. Əlverişli təlim şəraiti tələbənin təlim fəaliyyətinin məqsədəuyğun həyata keçirilməsi üçün ən mühüm ilkin şərtdir ki, bu da öz növbəsində təlim prosesinə və təlim nəticələrinə daha optimal təsir göstərir. (Creswell, 2012). Allen (2010)-a görə, auditoriya idarəçiliyi tələbələrə təsir və nəzarət etməkdən daha çoxunu özündə ehtiva mürəkkəb bacarıqlar toplusudur. Buna uyğun olaraq, McCreay (2013) qeyd edir ki, auditoriya idarəetməsi tələbələrin müvəffəqiyyəti və öyrənməsi üçün əlverişli olan effektiv mühitin formalaşması üçün müəllimin istifadə etdiyi strategiyalardır.

Auditoriya idarə edilməsi dərs prosesini nizam-intizamda saxlamaq üçün müəllimlərin mənimsəməli olduğu bacarıqlar toplusudur ki, nəticədə tələbələr tədris prosesində uğur qazanırlar. (Allen, K. P., 2010). Auditoriya idarəçiliyi həm ingilis dilinin öyrənilməsinə, həm də təhsil məqsədlərinə çatmaqda mühüm rolu olduğunu sübut edir. Tələbələr effektiv auditoriya idarəçiliyini onlara hörmət edən və hüquqlarını qoruyan ədalətli qaydalar və prosedurlar sistemi kimi qiymətləndirirlər.

Onlar müəllimlərindən yalnız akademik dəstək deyil, eyni zamanda şəxsi rifahlarına da diqqət gözləyirlər. Bu ehtiyac qarşılandıqda, müəllimə qarşı hörmət və əməkdaşlıq formalaşır. Onlar idarə olunmaqdan çox, dəyərləndirilməyə üstünlük verirlər. (Velecká, 2018, s. 14).

Əvvəllər bu anlayış tələbələrə nəzarət etməklə əlaqələndirilsə də, müasir yanaşmalar onu auditoriya daxilində pozitiv, motivasiyaedici və dəstəkləyici mühitin yaradılması, həmçinin təlim prosesinin məqsədyönlü və maraqlı şəkildə təşkili kimi izah edir. İdarətmə təkcə qaydaların qoyulması və ya strukturlaşdırma ilə məhdudlaşmır. Müəllim öz nüfuzunu maraqlı və cəlbedici dərslər vasitəsilə

qurmalı, tələbələrin ehtiyaclarını nəzərə almalı və onlara hörmətlə yanaşmalıdır. Bu yanaşma dərsə ciddi və məqsədli hazırlıqda, həmçinin tələbələrin fəallığını artırmaq məqsədi daşıyan metodlarda öz əksini tapır. Səmərəli auditoriya idarəçiliyi həmçinin düzgün davranışın motivasiyası üçün mükafatlandırma və arzuolunmaz davranışların qarşısını alma strategiyalarının tətbiqini də əhatə edir.

Auditoriya idarəetməsinin dörd əsas komponenti mövcuddur:

1.Fiziki mühitin idarə olunması: Müəllimlər tələbələrə rahat və xoş tədris mühiti təqdim etməlidirlər ki, bu şəraitdə effektiv öyrənmə mümkün olsun.

2.Öyrənmə prosesinin idarə olunması: Müəllimlər tədris məqsədlərini əvvəlcədən müəyyən etməli, uyğun məzmun və öyrənmə materiallarını seçməlidirlər. Fəaliyyətlər tələbələrin müxtəlif öyrənmə ehtiyaclarına cavab verməlidir.

3.Auditoriya prosedurları və qaydalar: Müəllimlər dərs prosesinin səmərəli və nizamlı keçməsi üçün normaları və qaydaları müəyyənləşdirməlidirlər.

4.İntizamın idarə olunması: Müəllimlər dərs prosesinin gedişina mənfi təsir edən amilləri tənzimləyən bir sistem qurmalıdırlar. (Ming-tak & Wai-shing, 2008, s. 46–47).

Lemlechə (1999) görə, auditoriyanın idarə olunması yalnız dərs keçməkdən ibarət deyil, həm də tədrisin hərtərəfli təşkilidir. Bu, kurikulumun məqsədyönlü planlaşdırılması, auditoriyada fəaliyyətlərin və resursların sistemli şəkildə qurulması, tədris mühitinin səmərəliliyini artıracaq şəkildə təşkil edilməsi, tələbə nailiyyətlərinin mütəmadi olaraq izlənilməsi və potensial çətinliklərin qabaqcadan nəzərə alınmasını əhatə edir. (Lemlech, 1999, s. 10). Diqqət auditoriyada demokratiyanın təşviqinə, qarşılıqlı hörmətin qurulmasına, intizamın təmin olunmasına və motivasiyaedici, pozitiv tədris mühitinin yaradılmasına yönəldiləcəkdir. Effektiv auditoriya idarəetməsi müəllimlər üçün ciddi peşəkar bacarıq tələb edən məsələdir.

Gettinger və Kohler-in (2006) araşdırmasına əsasən, effektiv tədris müəllimin yüksək keyfiyyətli dərs təqdim etməklə yanaşı, effektiv idarəetmə strategiyalarından istifadə etməsi ilə mümkündür və bu amillər təhsil məqsədlərinin həyata keçirilməsinə xidmət edir. (Gettinger & Kohler, 2006).

Auditoriyada müsbət davranışların formalaşdırılması və neqativ davranışların qarşısının alınması üçün digər vacib amillər — fəal iştirak, motivasiya, aktiv öyrənmə və pozitiv yanaşmadır.

Auditoriyada nizam intizam dedikdə müəllimin avtoritetliyinə əsaslanan itaətkarlıq deyil, şüurlu özünüidarə qabiliyyətinin formalaşdırılması nəzərdə tutulur. Müəllim- tələbə əməkdaşlığı mühiti formalaşdırılanda tədris mühiti müsbət, effektiv olur. Tələbələr ingilis dilinin tədrisində onların da yanaşmalarının və maraqlarının nəzərə alındığını müşahidə etdikdə təhsilə qarşı fərqli münasibət nümayiş etdirir, məsuliyyət hissləri artır, daha motivasiyalı olurlar. Bu cür mühitdə tələbələr də qaydalara və məhdudiyyətlərə anlayışla yanaşırlar. (Yisrael, 2012).

Burdenə (2016) görə, yaxşı müəllim olmaq yalnız fənni öyrətməkdən ibarət deyil – müəllim hörmətə, əməkdaşlığa və tələbələrin fəal iştirakına nail olmalıdır. Bu üç əsas komponent özündə bunları əhatə edir: öyrəncilərə səmimi və peşəkar davranışa əsaslanan münasibət qurmaq, sərtlik və qorxu yaratmadan məsuliyyəti qorumaq və öyrənməni maraqlı və əyləncəli şəkildə təqdim etmək bacarığı. (Burden, 2016). İngilis dili dərslərində tətbiq edilən tapşırıqlar məqsədyönlü, aydın izah və tələbənin idman fəaliyyətində effektik olması ilə xarakterizə olunur. Bu dərslərdə müəllim-tələbə münasibətləri daha çox qarşılıqlı əməkdaşlığa əsaslanır. Müəllimin tələbənin dilin öyrənməsində inkişafı ilə bağlı verdiyi rəy tələbənin özünəinamını və inkişafını formalaşdırmağa kömək edir. İdmançı tələbələr üçün tapşırıqların təşkili prosesində bir sıra mühüm öyrənmə bacarıqlarının, üsullarının tətbiqi həmçinin əməkdaşlığa əsaslanan fəaliyyətlər zamanı qarşılıqlı əlaqə və ünsiyyət bacarıqlarını inkişaf etdirilməsi xüsusi qeyd olunur. Qeyd edilməlidir ki, müəllimin dərsə yanaşması daha az idarədici olmalıdır və beləliklə, tələbələr öyrənən kimi özlərinə münasibətini və mövzuya daha müsbət münasibət bəsləyirlər. Xüsusilə əməkdaşlıq fəaliyyətləri həmyaşıdların fəaliyyətini müşahidə etmək, prosedur və strategiyaları bölüşmək və müzakirə etməklə öyrənmə fəaliyyətlərinin aparılmasına dair daha geniş məlumat əldə etməyə imkan verir (Kyriacou, 2007, s. 44).

Metod

Əsas vəzifə tələbələrin diqqətini, marağını və öyrənmə fəaliyyətlərində aktiv iştirakını təmin etməkdir. Əgər bir tələbə ingilis dilini nə məqsədlə öyrənməsini müəyyən etməyibsə və öyrəndiklərini auditoriyadan kənar tətbiq etmirsə və dilin zəruriliyini, ünsiyyət vasitəsi kimi istifadəsi funksiyasını yerinə yetirmirsə o zaman onun motivasiyası və dərsə diqqəti azalacaq. Bunu nəzərə alaraq qeyd edilməlidir ki, dərs prosesində tətbiq edilən tapşırıqlar sadəcə tələbələri məlumatlandırmaq və onları məşğul etməkdən

ibarət deyil həm də onları idman fəaliyyətində məqsədyönlü tətbiq etməkdir.

Dərs prosesində motivasiya və öyrənmənin effektivliyi üçün aşağıdakı məsələlərin diqqətdə saxlanılması və icra edilməsi mühümdür.

1.İdmançı tələbələr üçün ingilis dilinin öyrənilməsinə olan marağının stimullaşdırılması və onların motivasiyasını saxlanılması;

2.Dərsin məzmunu və məqsədlərinin qeyd edilməsi, dərs irəlilədikcə əsas məqamları ümumiləşdirmək, məlumatı əhatəli strukturlaşdırmaq;

3.Aydın təlimat, dəqiq, anlayışlı izahatın verilməsi;

4.Dərsin tempinə və istiqamətinə uyğun gələn və tələbələrin iştirakını təmin edən ingilis dilində effektiv müzakirələrin, tələbələrin cavablarını təhlil etmək və tələbələrə dil biliklərini möhkəmləndirmək və inkişaf etdirmək üçün həm auditoriya həm də dərsdən kənar tapşırıqları verməklə məhsuldarlığı maksimum dərəcədə artırmaq imkanlarının təmin edilməsi;

5.Tələbələr üçün dilin öyrənilməsində yüksək gözləntilərin müəyyən edilməsi;

6. Müxtəlif materiallardan, resurslardan və tədris vəsaitlərindən səmərəli istifadə və xüsusilə idman sahəsi ilə bağlı materiallar daxil edilməsi;

7.Tələbələrin ingilis dilinin öyrənilməsi prosesində irəliləyişləri ilə bağlı konstruktiv rəylərin təqdim edilməsi.

Müəllim bunları nəzərdə saxlamalıdır ki, tələbələrin nə dərəcədə ingilis dilinə maraq göstərməsi, müzakirələrdə iştirak etməsi onların qabiliyyət, öyrənmə sürəti və maraqları əsasında dərsin təşkil edilməsindən asılıdır**.** (Kyriacou, 2007, s. 68, 70).

Müəllim dərslərdə fəal iştirak etmək üçün tələbələri qruplara ayırmalıdır. Bu, tələbələri dil fəaliyyətlərinə cəlb edilməsini təşviq etdiyi üçün, həmçinin onların tənqidi düşünmə və intellektual maraq bacarıqlarını inkişaf etdirmək imkanları ilə əlaqələndirdiyi üçün önəmlidir. Bir sıra dil öyrənmə alətlərindən istifadə effektivliyi artıra bilər. Hədəf dildə idman şərhləri və ya müsahibələr kimi multimedia resurslarının daxil edilməsi öyrənməyi daha cəlbedici və uyğun edə bilər. Rəqəmsal alətləri, interaktiv platformaları və real həyat təcrübəsini birləşdirmək hərtərəfli öyrənmə təcrübəsi təmin edə bilər. (Starkey, 2006, s. 233–245). Tələbələrin maraq dairəsinə uyğun olacaq mövzulara isə "Sağlamlıq & Fitnes", "Sağlam qidalanma", "Olimpiya oyunları", "Məşhur idmançılar" və s. daxil edilə bilər. Beləliklə onlar həm ingilis dilini öyrənəcəklər həm də sahələrinə uyğun məlumatlandırıldıqları üçün dilin öyrənilməsindəki hədəfi anlayacaqlar. Dinləmə tapşırıqlarında isə real müsahibələrdən qısa parçaları auditoriyaya gətirmək dilin əsl mahiyyətini tələbələrə izah edəcək. Həmçinin xarici dildəki müzakirələrdə aktiv və passiv tələbələr arasında balans yaratmaq üçün qrup və cütlərlə işin təşkil olunması metodiki olaraq effektivdir. Bu zaman bütün tələblər iştirakı zəruri hesab edəcək və dərsdə balans olacaq.

Qeyd etdiklərimizdən əlavə fiziki cəhətdən yorğun idmançı tələbələrin zehni fokusunu artırmaq üçün hər 30-40 dəqiqədən bir mikrofasilələrin olması diqqətin cəmlənməsi üçün effektiv olar. Əsas məsələ tələbələrdə zehni və fiziki gərginlik yaratmadan diqqətin cəmlənməsini qoruyaraq İngilis dili tədrisini effektiv vəziyyətə gətirməkdir.

Müəllimlər hər şeydən öncə tələbələrin diqqətini cəmlədiklərinə əmin olduqdan sonra qısa və aydın təlimatlar təqdim etməlidirlər. Yeni fəaliyyətlər və tapşırıqlar fərdi şəkildə izlənməli və ehtiyac yaranarsa təlimatlar təkrar izah edilməlidir. Tapşırıqlar tələbələrin diqqət bacarıqlarına uyğunlaşdırılmalı, sürət əvəzinə dəqiqliyin önəmi vurğulanmalıdır. Dərs strukturunda diqqət tələb edən fəaliyyətlərdən sonra stimullaşdırıcı və maraqlı tapşırıqlara yer verilməli, tələbələrin hərəkət etmələrinə şərait yaradan interaktiv tapşırıqların icrasına şərait yaradılmalıdır. Bu, onların enerjilərini nizamlı şəkildə sərf etməsinə və davranışlarının stabilləşməsinə kömək edir. Auditoriyada hərəkətə əsaslanan tapşırıqlar da onları motivasiya edəcək. Məsələn, ingilis dilinə maraq azaldıqda, idmanla əlaqəli enerjili tapşırıqları tətbiq edərək dil öyrənməsində müasir tapşırıqların təqdim edilməsi effektiv olur. Bundan əlavə, aşağı təzyiqli, sakitləşdirici fəaliyyətlər də dərs nəzərdə tutulmalıdır ki, tələbələrin emosional tarazlığını qoruyub saxlasın. Ən əsası isə, müəllimlər tələbələrin dil öyrənmə qabiliyyətinə olan inamlarını gücləndirməli və onların potensialına dair müsbət rəylər verməlidirlər. (Evertson, Weinstein & Brophy, 2006, s. 207–212).

Metodik ədəbiyyatda tələbələr üçün demokratik mühitin yaradılması ideyası qeyd edilir. Lakin demokratik dərs mühiti xaos və ya tam sərbəstlik anlamına gəlmir. Nizam intizam məcburi deyil, sərbəstlik və tarazlıq şəraitində qurulmalıdır. Belə bir mühitdə həm müəllim, həm də tələbələr planlaşdırma, təşkilatlandırma, tətbiq və iştirak proseslərinə birgə şəkildə cəlb olunurlar. Müəllimin əsas vəzifələrindən biri tələbələrə qrup daxilində effektiv işləmə bacarığını aşılamaqdır. Demokratik mühit həm nizam intizamı, həm də dərs məhsuldarlığını əks etdirir. Qarşılıqlı hörmət münaqişələrin konstruktiv yolla həllində əsas amildir. (Yisrael, 2012, s. 47–49).

İngilis dili dərslərinin fərqli formatda təşkili də auditoriya idarəetmə strategiyalarında önəmlisi sayılır. Belə ki, fərqli oturma planı mövcuddur və müəllim həm dərsin məqsədini, həm də tələbələrin ehtiyaclarını nəzərə alaraq ən uyğun variantı seçməlidir. Bu oturma düzülüşlərinə auditoriyanın U, dairə və ya romb formasında təşkil olunması daxildir. Auditoriyada 5-6 nəfərlik qruplar formalaşdırılır, bu qruplar auditoriyada müxtəlif yerlərdə yerləşdirilir, tələbələr cüt-cüt əyləşirlər (Scrivener, s. 200).

Tədris prosesinin səmərəli təşkili üçün auditoriya daxilində effektiv normaların və prosedurların yaradılması zəruridir. Bu komponentlər auditoriyanın idarə olunmasının əsasını təşkil edir və dərslərin ardıcıl və nizama uyğun keçməsinə kömək edir. Belə qaydaların mövcudluğu tələbələrdə sabitlik hissi yaradır və onların özlərini rahat və güvənli hiss etmələrinə şərait yaradır. Bu cür rutinlərin məqsədyönlü şəkildə planlaşdırılması və davamlı şəkildə tətbiqi müsbət sinif mühiti yaratmağa, tələbələrin akademik və sosial inkişafına töhfə verməyə xidmət edir. (Valecka, 2010, s. 45).

Müzakirə tədris prosesində tez-tez istifadə olunan effektiv metodlardan biridir. Bu üsul, tələbələrin fikirlərini sərbəst ifadə etmələrinə, ideyalarını paylaşmalarına və həmyaşıdlarının baxışlarını dinləmələrinə şərait yaradan açıq söhbət formasında həyata keçirilir. Dərsdə müzakirələrdən istifadə edilməsi, müəllimin tələbələrə onların fikirlərinin dəyərli olduğunu göstərməsi və onların düşüncələrinə önəm verdiyini bildirməsi baxımından mühüm bir mesaj daşıyır. Yaxşı təşkil olunmuş və səmərəli yönləndirilən müzakirələr canlı və maraqlı dərs mühiti yaradır. Belə şəraitdə tələbələr ingilis dilində öz baxış bucaqlarını rahat şəkildə ifadə edə, fərqli mövqeləri analiz edə və öz fikirlərini formalaşdıra bilirlər. Müzakirə, eyni zamanda tələbələrin yüksək səviyyəli idrak bacarıqlarını – qiymətləndirmə və ümumiləşdirmə kimi fəaliyyətləri inkişaf etdirmək üçün əlverişli üsuldur. Eyni zamanda, müzakirələr tələbələrin bir-birini daha yaxından tanımasına və daha rahat, ünsiyyətə açıq bir öyrənmə mühitinin formalaşmasına yardımçı olur. Əgər müəllim müzakirəni əvvəlcədən planlaşdırmasa, bu proses məqsədsiz fikir paylaşımına çevrilə bilər. Belə hallarda tələbələr əhəmiyyətli heç bir nəticə əldə etməz və müzakirə bütün tərəflər üçün vaxt itkisinə çevrilər. (Petty, 2014, s. 222–225).

Əgər müəllim tələbələrin dərs materialına maraq göstərməsini istəyirsə, o zaman özü də istifadə etdiyi materiallara qarşı səmimi maraq nümayiş etdirməlidir. Müəllimin dərsə olan həvəsi və coşqusu, tələbələrin öyrənmə ruhunu artırmaqda mühüm rol oynayır. Auditoriyada vəziyyət nə qədər yaxşı olsa da və tələbələr nə qədər fəal olsa da, əlavə enerji və stimul vermək hələ də zəruri ola bilər. Məsələn, müəllim şəxsi təcrübəsindən danışaraq ingilis dilini necə öyrəndiyini və bu biliklərin onun həyatında nə kimi rol oynadığını tələbələrlə paylaşa bilər. Həmçinin ingilis dilinin gələcəkdə tələbənin idman karyerasına necə təsir etməsindən danışa bilər. Eyni zamanda, müəllim ölkədə tanıdığı ingilis dilli insanlardan və onların əldə etdiyi nailiyyətlərdən danışaraq tələbələrə nümunə göstərə bilər. İngilis dili bilikləri sayəsində dünyada təsir gücünə sahib olmuş idmançılardan bəhs etmək də motivasiyanı artırmaq üçün faydalı ola bilər. Tələbələrə dili öyrənməyin praktik səbəbləri barədə məlumat vermək, eyni zamanda tələbələrdən ingilis dilində musiqi, video və ya film nümunələri gətirmələri də xahiş oluna bilər. Xarici ölkələrə səfərlər və məktublaşmalar da motivasiyanın davamlı saxlanmasına kömək edir. Bu standart dil dərslərində real həyata əsaslanan dərslərə keçid onların enerjisinə və dərsə həvəsinə müsbət təsir edəcək.

İdmançı tələbələr bəzən dərslərə mənfi təsir edən emosional yüklərlə sinifə gəlirlər. Yarışlarda uğursuz nəticə almaq, məşqçilərin gözləntilərini qarşılamamaq psixoloji vəziyyətinə ciddi təsir göstərə bilər. Bu cür hallarda tələbələr tapşırıqları yerinə yetirsələr də, öz potensiallarını tam şəkildə nümayiş etdirə bilməyə bilərlər. Müəllim auditoriyada diqqətsizlik və passivlik müşahidə etdikdə sərt yanaşmağa meyilli ola bilər. Lakin bu zaman müəllimin həmin tələbələrin dərsdəki motivasiyasına və davranışına təsir edən hansısa şəxsi və ya emosional çətinliklər yaşamış olmasını nəzərə alması mühümdür. Qısa bir düşünmə anı müəllimin tonunu yumşaltmağa, reaksiyasını daha anlayışlı və dəstəkləyici formada ifadə etməyə kömək edər. Belə yanaşma tələbənin mənəvi durumunu daha da pisləşdirmək əvəzinə, onunla empatik və inkişaf yönümlü ünsiyyət qurulmasına şərait yaradar. Hər bir tələbəni dərsə həvəsli bir iştirakçıya çevirmək mümkün olmasa da, müəllimlər rəğbət, anlayış və dəstək yolu ilə diqqəti və öyrənməni artıran müsbət mühit formalaşdıra bilərlər (Lang, 2016, s. 189–190).

Müəllim üçün ən əsas yanaşmalardan biri, hər bir tələbənin şəxsiyyət olaraq dəyərli olduğunu qəbul etmək, ona güvənmək və inandığını hiss etdirməkdir. Tələbədə hal-hazırda müəyyən bacarıqların çatışmazlığı onun insan kimi dəyərini heç bir halda azaldan amil kimi görülməməlidir (Dreikurs, Grunwald, & Pepper, 2013, p. 103).

Öyrənmə qabiliyyətinin formalaşması və davamlı motivasiyanın inkişafı baxımından həvəsləndirmə və

müsbət möhkəmləndirmə olduqca vacibdir. Hər bir tələbə — istər lider, istər sakit, istər geridə qalan — təqdir edilməyə və qəbul olunmağa ehtiyac duyur. Əgər müəllim tələbənin səyini və nailiyyətlərini görməzlikdən gələrsə və bunu ifadə etməzsə, bu, həmin tələbədə ruh düşkünlüyünə səbəb ola bilər. Hətta istedadlı bir tələbə belə bu səbəbdən öyrənməyə marağını itirə bilər.

Tələbələrə risk etməyə, səhv etmə bahasına da olsa, yeni şeylər sınamağa təşviq edildikdə nəticələr gözləniləndən daha yaxşı ola bilər. Ruhdan düşmüş bir tələbə üçün kiçik bir uğur belə böyük motivasiya mənbəyidir.

İdman mühitləri idmançılardan təkcə ümumi dili deyil, həm də idmana xas jarqonları və ifadələri qavramağı tələb edir. Ənənəvi dil dərsləri də bu ehtiyacları uyğun şəkildə qarşılaya bilmir. Bu da tələbələrdə ingilis dilinə marağın azalmasına səbəb olur.

Dərslərdə sıfır tolerantlıq siyasətinin tətbiqi, çox sərt qaydaların qoyulması, planlaşdırma və təşkilatçılıq bacarıqlarının zəifliyi kimi faktorlar tələbələrdə davranış pozuntularına səbəb ola bilər. Bu cür mühitdə gözlənilənin əksinə olaraq tələbələr öz sərhədlərini yoxlamağa çalışır və daha çox qaydalara qarşı çıxmağa meyilli olurlar. Bu hallar müəllimlər üçün universal bir çətinlikdir –müşahidə olunur. (Manning & Bucher, 2014, s. 33) Davranış problemləri isə tezlik və intensivlik baxımından müxtəlif olsa da, mahiyyətcə oxşardır.

Müşahidələrdən aydın görünür ki, tələbələrin əsas diqqəti qiymətləndirmə və imtahan nəticələrinə yönəlmişdi. Bizim əsas məqsədimiz isə onların ingilis dili öyrənməsinin mahiyyətini və məqsədini dərk etmələrinə istiqamətlənmişdir. İngilis dilinin tədrisini sadəcə proqramda nəzərdə tutulmuş gündəlik qiymətlərlə, standart dil tapşırıqları ilə məhdudlaşdırmaq pedaqoji və metodiki cəhətdən düzgün deyildir. Tələbələrin daha böyük məqsədi – yəni dil öyrənmənin qarşısında duran daha geniş məqsədləri görə bilmələrinə imkan yaradılmalıdır. Hər bir tələbənin dil öyrənməyə dair şəxsi məqsədi var: səyahət etmək, xaricdə təhsil almaq, işləmək və ya beynəlxalq yarışlarda ünsiyyət qurmaq və s . Onlar məqsədlərinə doğru irəlilədiklərini gördükdə daha həvəslə və daxili motivasiyaya əsaslanaraq dərslərdə iştirak edirlər. İnkişaf prosesi vizual və konkret şəkildə əks olunanda, onlar bunu daha asan dərk edirdilər. Tələbələr hər həftənin sonu hansı bacarıqlara yiyələndiklərini real müşahidə etdikdə onlara motivasiya verir. Etdikləri tapşırıqların onların peşəkar fəaliyyətinə dəstək olduğunu bilmələri motivasiya prosesinin əsasını təşkil edir. (Valecka, 2010, s. 75) Dərsdə diqqət və aktiv iştirak o zaman yüksək səviyyədə olur ki onları öyrəndikəri xarici dili real həyatda tətbiq etmək vərdişinə yiyələnirlər.

Tələbələrin dilə mümkün qədər çox məruz qalmasının vacibliyi metodikada xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən dərsdəki fəaliyyətlərdə tamamilə ingilis dili siyasəti tətbiq edilməsi bu məqsədin reallaşmasına xidmət edir. Tələbələrin dili gündəlik vəziyyətlərdə, real ünsiyyət kontekstində istifadə etməsini təmin etmək, onları sadə dialoqlarda özlərini ifadə edə bilən, inamlı ingilis dili istifadəçilərinə çevirmək idi. Bununla da auditoriya idarətmə məsələləri artıq problem yox dərs prosesinin hissəsinə çevrilir.

Nəticə

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, auditoriyanın idarə olunmasında müəllimin empatik yanaşması, motivasiyaedici üsullardan istifadəsi, müsbət və dəstəkləyici mühitin yaradılması, həmçinin idman fəaliyyətləri ilə əlaqəli materiallardan yararlanması tədris prosesinin keyfiyyətinə mühüm təsir göstərir. Müəllimin dərs strategiyalarını fərdiləşdirməsi, interaktiv metodlardan və müasir texnologiyalardan istifadə etməsi tələbələrin həm dil bacarıqlarının inkişafına, həm də onların idman fəaliyyətlərində daha uğurlu nəticələr əldə etməsinə imkan yaradır.Effektiv auditoriya idarəetməsi yalnız intizamın qorunması deyil, həm də tədris mühitinin səmərəli, motivasiyaedici və əməkdaşlığa əsaslanan şəkildə təşkil olunması deməkdir. Bu baxımdan, idmançı tələbələr üçün hazırlanacaq ingilis dili dərslərində pedaqoji yanaşmaların adaptasiyası və metodoloji dəstək əsas hədəf kimi müəyyənləşdirilməlidir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Allen, K. P. (2010). Classroom management, bullying, and teacher practices. The Professional Educator, 34(1), 1–15.
2. Burden, P. R. (2016). Classroom management: Principles and practices (6th ed.). Cengage Learning.
3. Creswell, J. W. (2012). Educational research: Planning, conducting, and evaluating quantitative and qualitative research (4th ed.). Merrill.
4. Deardorff, D. K. (2006). The identification and assessment of intercultural competence as a student outcome of internationalization. Journal of Studies in International Education, 10(3), 241–266. https://doi.org/10.1177/1028315306287002
5. Effective classroom management strategies. (2021). International Journal of Scientific Research in Education, 14(3), 400–415.
6. Evertson, C. M., & Weinstein, C. S. (Eds.). (2006). Handbook of classroom management: Research, practice, and contemporary issues. Lawrence Erlbaum Associates.

7. Evertson, C. M., Weinstein, C. S., & Brophy, J. (2006). Classroom management as a field of inquiry. In C. M. Evertson & C. S. Weinstein (Eds.), Handbook of classroom management: Research, practice, and contemporary issues (pp. 207–212). Lawrence Erlbaum Associates.
8. Firth-Clark, A., Sütterlin, S., & Lugo, R. G. (2019). Using cognitive behavioural techniques to improve academic achievement in student-athletes. Education Sciences, 9(2), 1–13. https://doi.org/10.3390/educsci9020108
9. Gettinger, M., & Kohler, K. M. (2006). Process-outcome approaches to classroom management and effective teaching. In C. M. Evertson & C. S. Weinstein (Eds.), Handbook of classroom management: Research, practice, and contemporary issues (pp. 73–96). Lawrence Erlbaum Associates.
10. Kyriacou, C. (2007). Essential teaching skills (3rd ed.). Nelson Thornes.
11. Lang, R. (2016). Effective classroom management strategies in ELT at lower secondary schools [Unpublished manuscript/thesis].
12. Manning, M. L., & Bucher, K. T. (2014). Classroom management: A guide for urban school teachers (3rd ed.). Pearson.
13. Ming-tak, H., & Wai-shing, L. (2008). Classroom management: Creating a positive learning environment. Hong Kong University Press.
14. Petty, G. (2014). Teaching today: A practical guide (5th ed.). Oxford University Press.
15. Scrivener, J. (2014). Classroom management techniques. Cambridge University Press.
16. Starkey, J. (2006). The role of language learning in athletic success. International Journal of Sports Science & Coaching, 1(3), 233–245. https://doi.org/10.1260/174795406778604566
17. Velecká, R. (2018). Effective classroom management strategies in ELT at lower secondary schools (Unpublished diploma thesis). Masaryk University.
18. Yisrael, S. B. (2012). Classroom management: A guide for urban school teachers. Rowman & Littlefield.

DOİ: 10.32010/EFZG3023

PEDAQOJİ TƏCRÜBƏ X-XI SİNİF ŞAGİRDLƏRİNDƏ SAĞLAM HƏYAT TƏRZİNİN FORMALAŞDIRILMASI VASİTƏSİ KİMİ

Nigar Vəli qızı RAMAZANOVA
Karabakh University, Khankendi, Azerbaijan
Nigar.ramazanova@karabakh.edu.az

Xülasə. Tələbələr pedaqoji təcrübədə olarkən həm seçdikləri ixtisaslar üzrə dərs keçir, həm də təlim prosesinin təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici vəzifələrini uğurla yerinə yetirməyə, sinifdənxaric tədbirlərdə şagirdlərlə tərbiyəvi tədbirləri həyata keçirməklə onların mənəvi keyfiyyətlərini, bədii, estetik zövqünü inkişaf etdirir, onlarda fiziki mədəniyyətin, ekoloji, hüquqi, iqtisadı mədəniyyət formalaşdırılması qayğısına qalırlar.
Açar sözlər: pedaqoji təcrübə, sinifdənxaric tədbirlər, təlim prosesi, fəal həyat tərzi, sağlamlıq, sağlam həyat tərzi

ПЕДАГОГИЧЕСКИЙ ОПЫТ КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ ЗДОРОВОГО ОБРАЗА ЖИЗНИ УЧАЩИХСЯ X-XI КЛАССОВ

Нигяр Вели гызы РАМАЗАНОВА

Резюме. Находясь на педагогической практике, студенты проходят занятия по избранным специальностям, успешно выполняют учебно-развивающие и воспитательные задачи учебного процесса, развивают свои нравственные качества, художественно-эстетический вкус путем проведения воспитательной работы со школьниками во внеклассной деятельности, развивают их физическая культура, экологическая, правовая, заботятся о формировании экономической культуры.

PEDAGOGICAL EXPERIENCE AS A MEANS OF FORMING AT STUDENTS' HEALTHY LIFESTYLE IN CLASSES 10-11

Nigar Vali RAMAZANOVA
Karabakh University, Khankendi, Azerbaijan

Summary. While on teaching practice, students take classes in their chosen specialties, successfully carry out educational, developmental and educational tasks of the educational process, develop their moral qualities, artistic and aesthetic taste by conducting educational work with students in extracurricular activities, develop their physical education, environmental, legal , care about the formation of economic culture.

Giriş

Nəzəriyyə təcrübənin, təcrübə nəzəriyyənin mövcudluğunu tələbata çevirir. Nəzəriyyə olmalıdır ki, onun əsasında, onun başlıca müddəaları rəhbər götürülərək tətbiq olunsun. Bu mənada pedaqogika elmi də nəzəriyyə və təcrübənin sıx vəhdətini tələb edir. Tələbələr mühazirə və seminar məşğələlərində öyrəndikləri bilik və məlumatları təcrübədə, həyatda tətbiq etmək üçü, bir növ yer, bir meydan, bir sahə axtarırlar. Jurnalistika fakültəsində təhsil alanlar üçün bu – qəzet, jurnal redaksiyaları, radio və televiziya verilişləri komitələri, birlikləri; hüquqşünaslıq ixtisasını seçənlər üçün bu – məhkəmə və prokurorluq orqanları; həkim olmaq arzusunda olanlar üçün bu – xəstəxanalar, poliklinikalar və s. ola bilər.

Müəllimlik peşəsini seçənlər üçün bu – ümumtəhsil məktəbləri, uşaq bağçaları, kolleclər, texniki peşə məktəbləri, hətta institut və universitetlər olar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"sində təcrübənin aşağıdakı əsas növləri göstərilir:

"1. tədris təcrübəsi;

2. istehsalat (pedaqoji) təcrübəsi, o cümlədən diplomqabağı təcrübə" (1).

Əsasnamədə göstərildiyi kimi, tədris təcrübəsi mütəxəssis hazırlığının xüsusiyyətləri hesaba alınmaqla, təhsil müəssisələri tərəfindən dövlət təhsil standartlarına uyğun müəyyən edilir.

İstehsalat (pedaqoji) təcrübəsi, adətən peşə hazırlığı və diplomqabağı təcrübədən, magistratura səviyyəsində isə elmi-tədqiqat və elmi-pedaqoji mərhələlərini özündə birləşdirir. Təlimin yekun mərhələsi sayılan diplomqabağı təcrübə nəzəri dərslər və digər təcrübə növləri tamamı yetdikdən sonra həyata keçirilir.

"Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında" Əsasnamənin tələblərini nəzərə alaraq pedaqoji universitet (Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filialları) və pedaqoji institutun (Naxçıvan Müəllimlər İnstitutu), başqa ali təhsil müəssisələrinin pedaqoji fakültələrinin tələbələri üçün pedaqoji təcrübənin başlıca vəzifələrini belə müəyyənləşdirmək mümkündür::

-tələbənin universitetdə, institutda yiyələndiyi nəzəri bilikləri möhkəmləndirmək və dərinləşdirmək, sonrakı əmək fəaliyyətində tətbiqini təmin etmək;

-tələbələri yeni texnologiyalarla, iş üsulları, elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək;

-tələbələrdə işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişlər yaratmaq;

-tələbələri kompüter texnologiyaları sahəsindəki biliklərlə əhatə etmək və həmin bilikləri təkmilləşdirmək qayğısına qalmaq;

-tələbələrdə pedaqoji peşəyə olan meyil və marağı möhkəmləndirmək, təlim-tərbiyə işlərini yaradıcılıqla həyata keçirmək bacarığını inkişaf etdirmək.

Tələbələr pedaqoji təcrübədə olarkən həm seçdikləri ixtisaslar üzrə dərs keçir, həm də təlim prosesinin təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici vəzifələrini uğurla yerinə yetirməyə, sinifdənxaric tədbirlərdə şagirdlərlə tərbiyəvi tədbirləri həyata keçirməklə onların mənəvi keyfiyyətlərini, bədii, estetik zövqünü inkişaf etdirir, onlarda fiziki mədəniyyətin, ekoloji, hüquqi, iqtisadı mədəniyyət formalaşdırılması qayğısına qalırlar.

Tələbələr ümumtəhsil məktəbləri şagirdləri ilə bir çox mövzularda tərbiyə işləri aparırlar. Sağalam həyat tərzinin formalaşdırılması istiqamətində iş həm təlim prosesində, həm də sinifdənxaric tədbirlərdə həyata keçirilir. Sağalam həyat tərzinin formalaşdırılması ilə bağlı ümumtəhsil məktəbində işlərini səmərəli qurmaq üçün ilk növbədə təhsil aldıqları institut və universitetlərdə ayrı-ayrı fənlər üzrə mühazirə və seminar məşğələlərində zəruri bilik və məlumatlara yiyələnirlər. Bu sahədə pedaqogika və psixologiya fənlərinin rolu böyükdür.

Biz ali təhsil müəssisələri üçün yazılmış bir sıra "Psixologiya" dərslikləri ilə (Ə.S. Bayramov və Ə.Ə. Əlizadənin, S.İ. Seyidov və M.Ə. Həmzəyevin, R.İ. Əliyevin və b.) tanış olduq. Bu məqalədə nəzərdən keçirdiyimiz problemlə bağlı professorlar S.İ. Seyidov və M.Ə. Həmzəyevin elmi redaktorluğu ilə nəşr olunmuş "Psixologiya" dərsliyində aşağıdakı mövzular diqqətimizi cəlb etdi: "İlk gənclik yaşı dövrünün psixoloji xüsusiyyətləri" adlı XXII fəsli üzrə: "Gənclik yaşının ümumi xarakteristikası", "İlk gənclik yaşında şəxsiyyətin inkişafı", "Böyük məktəblilərin təlim fəaliyyəti və idrak proseslərinin inkişafı" (s. 483-495); Tərbiyə psixologiyası" fəsli üzrə (XXIII fəsil, (s. 496-520): "Şəxsiyyətin formalaşması tərbiyə psixologiyasının əsas problemi kimi", "Məktəbyaşı dövründə şəxsiyyətin formalaşmasının psixoloji şərtləri. Tərbiyəvi tədbirlərin psixoloji cəhətdən əsaslandırılması və məktəblilərin tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsi problemi", "Şəxsiyyətin özünütərbiyəsinin psixoloji əsasları Şagirdlərin əxlaq tərbiyəsinin psixoloji əsasları", "Çətin" uşaqlar və onlarla aparılan işin xüsusiyyətləri"; "Təlim psixologiyası" fəsli üzrə (XXVI fəsil, (s. 521-561): "Təlim prosesi pedaqoji psixologiyanın nəzəri və tətbiqi problemi kimi Təlim və psixi inkişaf", "Öyrənməyə qabillik problemi və mənimsəmə", "Öyrənmənin müvəffəqiyyətini təmin edən amillər", "Təlim prosesində motivasiya-tələbat sahəsinin formalaşması", "Dərsin təşkilinin psixoloji şərtləri", "Təlimin fərdiləşməsi və diferensiasiyası".

Pedaqoji fəaliyyətin və müəllim şəxsiyyətinin psixologiyası" adlı XXV fəsil üzrə (s. 562-615): "Pedaqoji fəaliyyətin psixoloji xüsusiyyətləri", "Müəllim şəxsiyyətinin psixologiyası və müəllimin pedaqoji ustalığının psixoloji əsasları", "Pedaqoji ünsiyyətin psixoloji mexanizmləri haqqında", "Şagird şəxsiyyəti və sinif kollektivinin öyrənilməsi və onlara psixoloji xarakteristika tərtibinin prinsipləri", "Pedaqoji kollektiv və ona rəhbərliyin bəzi psixoloji məsələləri".

"Məktəbə psixoloji xidmətin əsasları" fəsli (XXVI fəsil, s. 616-625) üzrə: "Məktəbə psixoloji xidmətin məqsəd və vəzifələri", "Məktəbə psixoloji xidmətin prinsipləri və həyata keçirilmə mərhələləri", "Məktəbə psixoloji xidmətin funksiyaları və əsas istiqamətləri".

"Pedaqogika" dərslikləri də araşdırıldı "Psixologiya" dərslikləri və dərsləri kimi "Pedaqogika" dərslikləri və dərsləri də t sağal həyat tərzinin formalaşdırılması ilə bağlı tələbələrin şagirdlərlə təhsil-tərbiyə işləri aparması üçün material verir. Başqa sözlə onları nəzəri biliklərlə silahlandırır. Diqqət yetirək: "Tərbiyənin prinsipləri" fəsli (XI fəsil) üzrə: "Tərbiyənin prinsipləri" anlayışı və tərbiyənin prinsiplərinin xarakteristikası", "Tərbiyədə məqsədaydınlığı prinsipi", "Tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasında dinc quruculuq işləri ilə əlaqələndirilməsi prinsipi", "Yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipi",

"Şagirdin şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılması (tərbiyədə hörmət və tələbkarlıq)" prinsipi "Tələblərdə vahidliyin gözlənilməsi prinsipi",

"Tərbiyə prosesinə kompleks yanaşma prinsipi", "Kollektivdə, kollektiv vasitəsilə və kollektiv üçün tərbiyə prinsipi".

"Tərbiyənin metodları" (XII fəsil) fəsli üzrə: "Tərbiyənin metodları" anlayışı", "Şüura, ağıla, idraka təsir göstərən metodlar (başqa sözlə, "inandırma metodları")", "Fəaliyyəti təşkil edən və mənəvi davranışı formalaşdıran metodlar (başqa sözlə, "alışdırma metodları")", Şagirdlərin hiss və münasibətlərini, fəaliyyət və davranışını stimullaşdıran metodlar (başqa sözlə, "rəğbətləndirmə və cəzalandırma metodları"), "Müəllimin şəxsi nümunəsi", "Tərbiyədə nəzarət, özünənəzarət, özünüqiymətləndirmə (başqa sözlə, tərbiyə prosesinə nəzarət və onun səmərəliliyinin təşkili) metodu", "Tərbiyənin priyomları (tərzləri) və vasitələri".

Digər "Pedaqogika" dərsliyində **"**Sinif rəhbərinin işinin məzmunu və fəaliyyətinin səciyyəvi xüsusiyyətləri" (X fəsil) və XI FƏSİL. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçı, onun vəzifələri, işinin məzmunu və peşəsinə verilən pedaqoji tələblər" (XI fəsil, s. 351-395) fəsilləri diqqətimizi cəlb etdi. Bu fəslə aşağıdakı məsələlər aid edilib: "Sinif rəhbəri vəzifəsi haqqında", "Sinif rəhbərinin işinin məzmunu və əsas istiqamətləri", "Sinif müəllimi və sinif rəhbəri", "Sinif rəhbərinin işinin səciyyəvi xüsusiyyətləri", Sinif rəhbərinin işində pedaqoji diaqnostikanın əhəmiyyəti", "Sinif rəhbərinin hüquq və vəzifələri", "Sinif rəhbərinin şagirdlərlə apardığı praktik işlər", "Sinif rəhbərinin valideynlərlə apardığı işin məzmunu", "Valideynlər arasında pedaqoji maarifləndirmə", "Sinif saatı", "Sinif rəhbərinin tərbiyəvi iş planı", "Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçının vəzifələri, işinin məzmunu, forma və metodları";

Dərslikdəki XI fəsil "Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçı, onun vəzifələri, işinin məzmunu və peşəsinə verilən pedaqoji tələblər" adlanır. Bu fəslə daxil olan mövzular bunlardır: "Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçının iş planı və tərtibinə verilən pedaqoji tələblər".

Başqa bir "Pedaqogika" dərsliyini də araşdırdıq. Tələbələr pedaqoji təcrübədə olarkən yuxarı sinif şagirdləri ilə sağlam həyat tərzinin formalaşdırılması sahəsində işin aparılması üçün onlara lazım olan nəzəri məlumatları müəyyənləşdirdik. Diqqət yetirək.

Dərsliyin XVII fəsli ("Öyrənmə motivasiyası" (s. 229-271) üzrə:

"Motivlər idrakın hərəkətverici qüvvləridir", "Motivlər öyrənilməsi və formalaşdırılması", **"**Öyrənmə fəaliyyətinin stimullaşdırılması", **"**Şagirdlərə inam müvəffəqiyyətlərin rəhnidir", **"**Müəllimlərə tövsiyələr", **"**Effektli və qeyri-effektli rəğbətləndirmə".

XVIII fəsil ("Təlim prosesində şagirdlərin diaqnostikası") üzrə: "Şagirdlərin təlimdə yetirməsinə nəzarət", "Şagirdlərin oxumağa qabilliyinin diaqnostikası",

XIX fəsil ("Dərsdənkənar təhsil-tərbiyə prosesinin mahiyyəti və

məzmunu" (s. 284-311) üzrə: "Dərsdənkənar təhsil-tərbiyə prosesinin xüsusiyyətləri", "Dərsdənkənar təhsil-tərbiyə prosesinin dialektikası", "Dərsdənkənar təhsil-tərbiyə prosesinin sistemi və strukturu", "Dərsdənkənar təhsil-tərbiyə prosesinin ümumi qanunauyğun-luqları", "Dərsdənkənar təhsil-tərbiyə prosesinin məzmunu", "Təhsil və tərbiyəlilik səviyyəsinin diaqnostikası", "Dərsdənkənar təhsil-tərbiyə işini təşkil etmə məharəti və texnologiyası (s. 327-328).

Ali təhsil müəssisəsində mühazirə, seminar məşğələsi və praktik məşğələlərdə tərbiyə texnologiyalarını, pedaqoji prosesin qanunauyğun-luqlarını, tərbiyə və təlimin prinsipləri, metodları, vasitələri və priyomlarını öyrənən, sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili yollarına bələd olan tələbələr pedaqoji təcrübədə olarkən yuxarı sinif şagirdlərində sağalam həyat tərzinin formalaşdırılması kimi mühüm işi uğurla həyata keçirirlər.

Belə ki, Gəncə şəhəri 10 nömrəli məktəbin X sinfində (ədəbiyyat müəllimi Pərvanə Məmmədova) "Azərbaycan şifahi xalq yaradıcılığı" mövzusunun tədrisi zamanı təcrübəçi tələbə mövzunu eyni zamanda sağlamlıq, həyat tərzi, sağal həyat tərzi məsələləri ilə üzvi surətdə əlaqələndirmişdir. Təcrübəçi tələbənin tapşırığına əsasən şagirdlər aşağıdakı atalar sözlərini diqqət mərkəzinə gətirmişlər.

-Sağlığı olanın umudu, umudu olanınsa hər şeyi var deməkdir.

-Xəstə yatan ölməz, əcəli yetən ölür.

- Sağlıq varlıqdan irəlidir.

-Hər işin başı sağlıqdır.

-Xəstə olmayan sağlığın dəyərini bilməz.

-Sağlıqdan böyük zənginlik yoxdur.

–Təmiz bir vicdan qədər yumşaq yastıq yoxdur.

-Sağ baş yastıq istəməz.

-Sağlıq kimi dost, xəstəlik kimi düşmən, çocuq sevgisi kimi şirin, aclıq kimi acı yoxdur.

Təcrübəçi tələbə "Azərbaycan şifahi xalq yaradıcılığı" mövzusunun tədrisi zamanı eyni zamanda bayatılar, nağıllar, dastanlar, oxşamalar, əzizləmələr, laylalar haqqında da məlumat verir, yeri gəldikcə sağam həyat tərzi ilə bağlı nümunələrə müraciət edirdi. Bu zaman aşağıdakı fikirləri səslənirdi: Sağlam həyat tərzi keçirmək hər bir şəxsin arzusudur. Çünki sağlamlıq xoşbəxtliyin başlıca şərti və təminatı hesab edilir. Bir sıra hallarda psixoloji gərginlik, köklük, az

hərəkətdə olmaq, necə gəldi qidalanma, siqaretə və spirtli içkilərə aludəçilik, yoluxucu xəstəliklərə tutulma və s. sağlamlıq üçün təhlükə yaradır. Ona görə də zərərli vərdişlərdən uzaq durmaq lazımdır. Ataların belə misalı var: "Bel nə qədər nazik olsa, ömür o qədər uzun olar"

Sağlamlığımızın qayğısına qalmaq nəticəsində ömrümüz uzun olar, fəal həyat tərzi keçirərik.

Problemin aktuallığı. insan hər yaşda sağlam olmalıdır. Bu bizdən öz sağlamlığımızı qorumağı tələb edir. Ailədə, uşaq bağçasında böyüməkdə olan nəsildə sağlam həyat tərzinin formalaşdırılması vacibdir. Bu mənada təqdim olunan məqalə öz aktuallığı ilə seçilir.

Problemin yeniliyi. Yuxarı sinif şagirdlərində sağam həyat tərzinin tərbiyə olunması vacib məsələ kimi irəli sürülür, ümumtəhsil və ali məktəbin qarşılıqlı laqə ilə reallaşır.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün gaydalı olacaqdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə". https://e-qanun.az/framework/15508

2. Psixologiya: pedaqoji məktəblərin bakalavrat pilləsi tələbələri üçün dərslik / Prof. S.İ. Seyidov və prof. M.Ə. Həmzəyevin elmi redaktorluğu ilə. Bakı, 2007.

3. Firədun Nadir oğlu İbrahimov Pedaqogika üzrə elmlər doktoru, Pedaqoji və Sosial Elmlər Akademiyasının üzvü (Moskva), Əməkdar müəllim. Rüfət Lətif oğlu Hüseynzadə Pedaqogika üzrə elmlər doktoru, professor.Əməkdar müəllim. PEDAQOGİKA Dərslik Bakı- "Mütərcim" – 2012

2. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. -Bakı: Mütərcim, -2022. – 608 s.

3. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. -Bakı: Mütərcim, -2023. – 464 s.

4. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas təhsili müəssisələri üçün dərs vəsaiti/ A.N. Abbasov. -Bakı: Mütərcim, -2015. – 360 s.

DOI: 10.32010/GDRO4995

INSTITUTIONAL CONVERGENCE AND POLICY INNOVATION: THREE DECADES OF AZERBAIJAN-TURKEY EDUCATIONAL RELATIONS

Ayshan Asad RASULOVA
Institute of Education Of The Republic Of Azerbaijan
https://orcid.org/0009-0005-7953-3268
ayshan.rasulova@arti.edu.az

Patrik Qriffinin təsnifatına görə, XXI əsr insanının formalaşdırmalı olduğu 10 əsas səriştə aşağıdakı dörd istiqamət üzrə qruplaşdırılır:

1. Düşüncə metodları və yaradıcılıq bacarıqları.

Bu kateqoriyaya yaradıcılıq, tənqidi düşüncə, problemlərin analitik yolla həlli və düzgün qərarların qəbulu daxildir. Bu səriştələr insana qeyri-standart situasiyalarda çevik reaksiya vermək, yeni ideyalar yaratmaq və fərqli yanaşmalar irəli sürmək imkanı verir.

2. Əməkdaşlıq və ünsiyyət bacarıqları.

Burada qarşılıqlı fəaliyyət, komanda işi, ünsiyyət mədəniyyəti və empatiya kimi sosial bacarıqlar əsas yer tutur. Müasir dövrdə insanın fərdi biliyindən çox, başqaları ilə birgə işləmək, fikir mübadiləsi aparmaq və kompromisə gəlmək bacarığı dəyərləndirilir.

3. İnformasiya və kommunikasiya texnologiyalarından istifadə.

İnformasiya savadı, rəqəmsal texnologiyalardan səmərəli istifadə və məlumatın düzgün idarə olunması XXI əsr səriştələrinin mühüm tərkib hissəsidir. Bu, insanın texnoloji mühitdə təhlükəsiz və məsuliyyətli davranışını təmin edir.

4. Şəxsi və sosial məsuliyyət sərişdələri.

Bu kateqoriya vətəndaşlıq şüuru, peşə seçimi, etik davranış və sosial məsuliyyət kimi dəyərləri əhatə edir. Həyatın müxtəlif sahələrində məsuliyyətli qərarlar vermək və cəmiyyətin rifahına töhfə vermək bu sərişdələrin əsas məqsədidir.

Patrik Qriffinin konsepsiyası göstərir ki, XXI əsrin insanı yalnız bilik daşıyıcısı deyil, həm də yaradıcı düşünən, əməkdaşlığa açıq, texnoloji savadlı və sosial məsuliyyətli şəxsiyyət olmalıdır.

Bu istiqamətlərin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, Patrik Qriffinin XXI əsr insanı üçün müəyyən etdiyi sərişdələr yalnız ümumi mənada cəmiyyət üzvlərinə deyil, həm də birbaşa müəllimlərə şamil olunur. Çünki müasir dövrdə müəllim sadəcə bilik ötürən deyil, həm də innovativ düşüncəyə malik, yaradıcı və sosial məsuliyyətli şəxs kimi çıxış etməlidir. O, tənqidi düşünməyi, qərarvermə proseslərini, texnologiyalardan istifadəni və əməkdaşlıq bacarıqlarını öz fəaliyyətində tətbiq etməklə XXI əsrin tələblərinə cavab verən tədris mühiti yaradır.

Hazırda məktəblərimizdə aparılan təlim prosesində üç əsas istiqamət — yəni üç növ pedaqoji texnologiya xüsusilə diqqət çəkir:

1. Fənnyönümlü (bilikyönümlü) təlim texnologiyaları.

Bu istiqamət tədris olunan fənnin və ya mövzunun məzmununun mənimsənilməsinə, şagirdlərin bilik ehtiyatının artırılmasına xidmət edir. Burada müəllim elmi biliklərin düzgün, sistemli və ardıcıl şəkildə təqdimatına üstünlük verir. Lakin bu texnologiyanın səmərəsi müəllimin fənni dərin biliklərlə yanaşı, maraqlı, müasir və praktik nümunələrlə çatdıra bilməsindən asılıdır.

2. Şəxsiyyətyönümlü təlim texnologiyaları.

Bu yanaşma şagirdin fərdi xüsusiyyətlərini, maraq və tələbatlarını nəzərə alır. Burada təlim prosesinin mərkəzində müəllim deyil, öyrənən dayanır. Müəllimin pedaqoji sərişdəsi isə hər bir şagirdin fərdi inkişaf yolunu düzgün müəyyənləşdirmək, onun potensialını üzə çıxarmaq və özünüreallaşdırmasına şərait yaratmaq bacarığı ilə ölçülür.(İlyasov, 2018)

3. Əməkdaşlıq yönümlü təlim texnologiyaları.

Bu texnologiyalar həm fənnin mənimsədilməsini, həm də şagirdlər arasında sosial ünsiyyət və əməkdaşlıq bacarıqlarının formalaşdırılmasını hədəfləyir. Belə təlimdə müəllim və şagirdlər arasında qarşılıqlı etimad, birgə fəaliyyət və ümumi məsuliyyət prinsipləri əsas yer tutur.

Deyilən üç istiqamətin hər birinin effektiv tətbiqi müəllimdən yüksək pedaqoji sərişdə, müasir metodik hazırlıq və innovativ düşüncə tələb edir. Müəllim öz fəaliyyətində həm bilikyönümlü, həm şəxsiyyətyönümlü, həm də əməkdaşlıq əsaslı təlim texnologiyalarını uzlaşdırmağı bacardıqda, tədris prosesi həm məzmun, həm də keyfiyyət baxımından müasir dövrün tələblərinə cavab verir.

Beləliklə, XXI əsrin müəllimi yalnız dərs deyən şəxs deyil, həm də öyrənməni təşkil edən, motivasiya yaradan, innovasiyaları tətbiq edən və şagirdləri gələcəyə hazırlayan pedaqoji liderdir.

Tədqiqatçı V.Y. Adolf müəllimlərin peşə sərişdəliliyinə fərqli yanaşma təqdim edərək onun formalaşmasında bir sıra xüsusi meyarların mühüm rol oynadığını vurğulamışdır. O, bu meyarları müəllim şəxsiyyətinin peşəkar inkişafının, fəaliyyət motivasiyasının və yaradıcı münasibətinin göstəricisi kimi qiymətləndirir. Adolfun fikrincə, peşə sərişdəliliyinin əsas meyarları aşağıdakılardır:

1. Seçicilik- bu meyar müəllimlik peşəsinə maraq və meyilin formalaşdığı ilkin mərhələni əhatə edir. O, tələbənin hələ ali təhsil aldığı dövrdə özünü gələcəkdə müəllim kimi görmək istəyi, bu sahəyə dərin daxili bağlılıq və mənəvi məsuliyyət hissi ilə xarakterizə olunur. Seçicilik, həmçinin, fərdin pedaqoji fəaliyyət məqsədlərini dərk etməsi və onların şəxsi dəyərləri ilə uyğunluğunu müəyyənləşdirmə səviyyəsini ifadə edir.

2. Şüurluluq- bu meyar müəllimin peşəkar fəaliyyətini məqsədyönlü şəkildə planlaşdırmaq və idarə etmək bacarığına aiddir. Şüurluluq müəllimin pedaqoji situasiyaları təhlil etməsi, vəziyyətin mahiyyətini dərk edərək ən optimal qərar qəbul etməsi ilə səciyyələnir. Belə müəllim öz fəaliyyətinə tənqidi yanaşır, özünüqiymətləndirmə və özünüinkişaf bacarıqlarına malik olur.

3. Nəticəlilik- müəllimin pedaqoji fəaliyyətinin effektivliyini və onun konkret nəticələrdə əks olunmasını göstərir. Bu meyar, "lazımi olan" ilə "arzu edilən" arasında olan fərqin aradan qaldırılması dərəcəsi ilə müəyyən olunur. Yəni müəllim qarşıya qoyduğu məqsədləri nə dərəcədə reallaşdıra bildiyini, şagirdlərin inkişafına hansı təsir göstərdiyini qiymətləndirə bilməlidir.

4. Yaradıcı xarakter-qeyri-standart pedaqoji situasiyalarda çevik davranmaq, problemləri yeni və effektiv yollarla həll etmək bacarığı bu meyarın əsasını təşkil edir. Yaradıcı yanaşma müəllimin təlim

prosesində yeniliklər tətbiq etməsini, şagirdlərin maraq və motivasiyasını artırmaq üçün fərqli üsullardan istifadə etməsini təmin edir. Bu keyfiyyət müəllimin peşəkar elastikliyini və innovativ düşüncə tərzini əks etdirir.

5. Maraq- V.Y. Adolfun vurğuladığı son meyar şəxsi və peşəkar maraqların uzlaşdırılmasını əhatə edir. Müəllim üçün pedaqoji fəaliyyət yalnız iş yeri deyil, həm də özünüreallaşdırma və mənəvi məmnunluq mənbəyi olmalıdır. Şəxsi maraqların peşə məqsədləri ilə vəhdəti müəllimin işinə sevgi və məsuliyyətlə yanaşmasını təmin edir. 1. (Adolf, 1998)

Beləliklə, V.Y. Adolfun konsepsiyası müəllimin peşə səriştəliliyini sadəcə bilik və bacarıqlar toplusu kimi deyil, həm də daxili motivasiya, yaradıcı münasibət və şüurlu fəaliyyət kimi dəyərləndirir. Bu meyarlar müəllimin şəxsiyyətini və onun tədris prosesindəki rolunu daha dərindən anlamağa imkan verir.

Müasir dövrün reallıqları göstərir ki, bu günkü həyat təhsilalanlardan sadəcə informasiyaları qəbul etmək, yadda saxlamaq və sonra təkrarlamaq bacarığı ilə kifayətlənməyi deyil, onları tətbiq etməyi, analiz etməyi və yeni situasiyalarda istifadə etməyi tələb edir. Artıq biliklərin həcmi və informasiyanın əlçatanlığı o qədər genişlənib ki, ən vacib məsələ həmin biliklərdən səmərəli istifadə bacarığına yiyələnməkdir.

Məktəbin əsas vəzifəsi təkcə elmi biliklərin ötürülməsi ilə məhdudlaşmır. Məktəb böyüyən nəslin fəal həyata hazırlanması, onların müstəqil düşünən şəxsiyyət, vətənpərvər vətəndaş və rəqabətqabiliyyətli mütəxəssis kimi formalaşdırılmasına yönəlməlidir. Cəmiyyətin sürətlə dəyişdiyi, texnologiyaların gündəlik həyatın bütün sahələrinə daxil olduğu bir dövrdə məktəb gənclərə biliklə yanaşı, həyati bacarıqlar, dəyərlər sistemi və məsuliyyətli davranış modeli də aşılamalıdır. Müasir pedaqoji proses tamamilə yeni məqsəd və hədəflər üzərində qurulmalıdır. Təlimin mərkəzində artıq informasiya ötürülməsi deyil, həyat üçün zəruri bacarıqların – tənqidi və yaradıcı düşüncə, qərarvermə, ünsiyyət, əməkdaşlıq, emosional sabitlik və problemlərin həlli qabiliyyətinin inkişafı dayanmalıdır.

Təhsil sistemi öz missiyasını yalnız bilik verən deyil, həm də həyat üçün hazırlayan bir sistemə çevirməlidir. Müəllimlər və təlim təşkilatçıları pedaqoji fəaliyyəti bu məqsədlərə istiqamətləndirərək gənc nəslin praktiki düşünmə, adaptasiya, liderlik və məsuliyyət kimi həyati bacarıqlara yiyələnməsini təmin etməlidirlər. Bu, müasir dövrün əsas tələbi və təhsilin gələcəyə yönəlmiş strateji məqsədidir.

Hazırda həm orta, həm də ali məktəblərdə fəaliyyət göstərən müəllimlər arasında öz üzərində müntəzəm işləyən, pedaqoji fəaliyyətinə daim yeniliklər daxil edən, dövrün tələblərinə uyğun bacarıq və səriştələrini inkişaf etdirən yenilikçi, novator və yaradıcı müəllimlər kifayət qədərdir. Bu müəllimlər tədrisi yalnız bilik ötürmək yox, həm də şagirdlərin həyati bacarıqlarını, analitik və tənqidi düşüncə qabiliyyətlərini inkişaf etdirmək baxımından daha məhsuldar təşkil edirlər. Lakin eyni zamanda, böyük müəllim ordusu içərisində öz üzərində işləməyən, yeniliklərdən xəbərsiz qalan və pedaqoji inkişafla maraqlanmayan müəllimlər də az deyil. Belə müəllimlər fənn dövlət standartlarının tələblərini, təlim nəticələrinin mahiyyətini, məzmuna uyğun tədris xəttini və fənn kurikulumunda nəzərdə tutulan prinsipləri lazımi səviyyədə bilmirlər. Bu çatışmazlıqlar isə tədris keyfiyyətinə birbaşa təsir göstərir: şagirdlərin əldə etdiyi bilik, bacarıq və vərdişlərin səviyyəsi aşağı qalır, onların yaradıcı və analitik düşüncə qabiliyyətlərinin formalaşması zəif olur.

Nəticə

Müəllimin peşəkar hazırlığı və özünüinkişaf səviyyəsi tədrisin keyfiyyətinin əsas göstəricilərindən biridir. Müasir təhsil mühiti müəllimləri yalnız bilik daşıyıcısı kimi deyil, davamlı yenilikləri izləyən, adaptasiya qabiliyyətinə malik və yaradıcı təlim strategiyaları tətbiq edən peşəkar şəxsiyyət kimi formalaşdırmağa çağırır. Bu olmadan təhsilalanların yüksək səviyyədə yetişməsi və XXI əsrin çağırışlarına cavab verə biləcək mütəxəssis kimi formalaşması mümkün deyil.

Problemin aktuallığı- Müasir pedaqoji prosesin səmərəliliyini təmin edən əsas amillərdən biri müəllimlərin peşəkar səriştəliliyinin formalaşdırılmasıdır. Bu gün məktəblərimizin qarşısında duran əsas vəzifələrin uğurla həyata keçirilməsi müəllimlərin pedaqoji səriştəliliyinin yüksək səviyyədə olmasını tələb edir. Yəni təhsilalanların bilik, bacarıq və vərdişlərinin keyfiyyətli şəkildə formalaşması, onların həyat və peşə fəaliyyətinə hazır olması müəllimlərin peşəkarlıq səviyyəsindən birbaşa asılıdır. Müəllim səriştəliliyinin artırılması məsələsi həm pedaqogikanın, həm də təhsilin strateji

prioritetlərindən biridir və bu səbəbdən müasir dövrdə aktuallığını qoruyur.

Problemin yeniliyi- Məqalədə müəllimin pedaqoji səriştəliliyinin yüksəldilməsi problemi bir neçə aspektdən araşdırılmışdır. Burada müəllim səriştəliliyinin formalaşması, onun komponentləri və hədəfləri müxtəlif parametrlər üzrə təhlil olunmuş, bu sahədəki yenilikçi yanaşmalar və aktual problemlər nəzərdən keçirilmişdir. Məqalə müəllim səriştəliliyinin yüksəldilməsinin vacibliyini, yalnız bilik və bacarıqların deyil, həm də yaradıcı, tənqidi və əməkdaşlıq əsaslı yanaşmaların tədrisdə rolu ilə əlaqələndirir.

Problemin praktik əhəmiyyəti.

Məqalədə təqdim olunan müddəalar, müəllim səriştəliliyinin əsas meyarları, komponentləri və hədəfləri haqqında nəzəri fikirlər praktik müəllimlər və tədqiqatçılar üçün qiymətli mənbə rolunu oynayır. Eyni zamanda, müəllim səriştəliliyinin şagirdlərin həyati bacarıqlara yiyələnməsi və onların gələcəkdə fəal, yaradıcı və məsuliyyətli fərdlər kimi formalaşmasındakı rolu vurğulanır. Bu materiallar həm mövcud pedaqoji praktikada tətbiq oluna bilər, həm də yeni tədqiqatların aparılması üçün zəngin imkanlar yaradır, müəllimlərin peşəkarlığının artırılması istiqamətində strategiyalar hazırlamağa yardımçı olur.

Beləliklə, müəllim səriştəliliyinin yüksəldilməsi həm pedaqoji nəzəriyyə, həm də praktika üçün aktual, yenilikçi və strateji əhəmiyyətli bir problemdir.

ƏDƏBIYYAT SİYAHISI:

1. Adolf, V. Ya. (1998). Professional'naya kompetentnost' sovremennogo uchitelya: Monografiya.Krasnoyarsk: Krasnoyarskiy gosudarstvennyy universitet.(41-42) https://www.kspu.ru/upload/documents/2020/06/02/bf427d56d9526b4816dd8caf49005c9b/monografii-adolfa-vladimira-aleksandrovicha.pdf

2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. (2012). Bakı: Çap Evi. https://unec.edu.az/application/uploads/2015/02/Tehsil-haqqinda-Azerbaycan-Respublikasinin-Qanunu.pdf?utm_source=chatgpt.com

3. İlyasov, M. İ. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri.*Bakı: Elm və Təhsil. https://anl.az/el/Kitab/2018/07/cd/2018-1050.pdf?utm_source=chatgpt.comğ

4. Bloom, B. S. (1956). Taxonomy of educational objectives: The classification of educational goals. New York: Longmans, Green. https://eclass.uoa.gr/modules/document/file.php/PPP242/Benjamin%20S.%20Bloom%20-%20Taxonomy%20of%20Educational%20Objectives%2C%20Handbook%201_%20Cognitive%20Domain-Addison%20Wesley%20Publishing%20Company%20%281956%29.pdf?utm_source=chatgpt.com

5. Dewey, J. (1938). Experience and education. New York: Macmillan. https://ia800400.us.archive.org/20/items/experienceeducat00dewe_0/experienceeducat00dewe_0.pdf?utm_source=chatgpt.com

6. Demirel, Ö. (2015). Eğitimde program geliştirme: Kuramdan uygulamaya. Ankara: Pegem Akademi.

7. Cəfərova, L. A. (2020). Pedaqoji səriştəlilik və müəllim fəaliyyətində refleksiya mədəniyyəti. Bakı: ADPU Nəşriyyatı.

8. Clarke, S. (2014). Outstanding formative assessment: Culture and practice. London: Hodder Education.

9. Gibbs, G. (2013). Learning by doing: A guide to teaching and learning methods (pp. 15–47). Oxford: Oxford Centre for Staff and Learning Development. (s 15-17)

10. Green, R. (2019). Environmental education in schools: Promoting ecological awareness (s. 32–68). New York: Routledge.

DOİ: 10.32010/JIEC5424

KƏKƏLƏMƏ PSİXOLOJİ PROBLEM KİMİ

Turan Əlbəndə ŞAHVƏLƏDLİ QƏDİMOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti, "Xüsusi təhsil" kafedrası, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti, dissertant
Orcid: https://orcid.org/0000-0001-5680-441X
E-mail: turan.shahvaladliqadimova@adpu.edu.az

Xülasə: Bu məqalə kəkələməni yalnız nitq pozuntusu kimi deyil, həm də dərin psixoloji problem kimi araşdırır. Məqalədə kəkələmənin mənşəyi, onun yaranma və inkişaf mexanizmləri, nitq davranış strategiyaları, psixoloji dəstəyin formaları və ailə qrupu loqopsixoterapiyasının rolu ətraflı şəkildə təhlil olunur. Kəkələmə yaranma mexanizminə və gedişatına görə ən ağır nitq pozuntularından biri sayılır. Logonevroz şəklində kəkələmənin kökündə çox zaman dərinləşmiş psixi gərginlik, loqofobik (nitqdən qorxu) hallar və şəxsiyyətin özünə inamının zəifləməsi dayanır. Tədqiqatlar göstərir ki, bu cür vəziyyətlər uşaqlıq dövründə yaranan ailədaxili münaqişələr, fiziki travmalar, qəfil qorxu və ya itkilər, habelə uzunmüddətli emosional təzyiqlər nəticəsində formalaşa bilər. Xroniki psixi travma nəticəsində yaranan gərginlik insanın psixi fəaliyyət strukturuna, diqqətinə, hafizəsinə və təfəkkürünə mənfi təsir göstərir. Kəkələyən şəxslərin sosial həyatında da ciddi dəyişikliklər müşahidə olunur: ünsiyyət çətinliyi onların sosial münasibətlərini, peşə fəaliyyətini və özünə münasibətini zədələyir. Bu da, öz növbəsində, özgüvən itkisinə, sosial təcridə və depressiv əlamətlərin formalaşmasına gətirib çıxarır. Bir çox valideyn və hətta bəzi mütəxəssislər kəkələməni hələ də yalnız tibbi problem kimi qiymətləndirərək medikamentoz müalicəyə üstünlük verirlər, halbuki bu yanaşma problemi kökündən həll etmir. Sübuta yetirilmişdir ki, kəkələmənin gedişində tibbi amillərlə yanaşı psixoloji faktorlar da mühüm rol oynayır və problemi yalnız dərman vasitəsilə aradan qaldırılması mümkün deyil. Məqalədə vurğulanır ki, kəkələmənin korreksiyası yalnız nitqin texniki tərəfləri ilə məhdudlaşmamalıdır; burada psixoloji və emosional komponentlərin bərpası əsas rol oynayır. Buna görə də, uşaqlarda, yeniyetmələrdə və böyüklərdə müşhidə olunan kəkələmənin korreksiyasında loqopsixoterapevtik yanaşma ən effektiv metodlardan biri hesab olunur. Bu yanaşma çərçivəsində psixokorreksiya, psixoloji məsləhət və psixoterapevtik metodlar birgə tətbiqi məqsədəuyğundur. Ailədaxili münasibətlərin tənzimlənməsi, qarşılıqlı anlayış və dəstək kəkələyən şəxsin reabilitasiyasında mühüm əhəmiyyət daşıyır. Bu baxımdan ailə qrupu loqopsixoterapiyası - yəni ailə üzvlərinin birgə iştirak etdiyi, nitq və emosional reabilitasiyanı birləşdirən müalicə forması - ən effektiv metodlardan biri kimi təqdim olunur. Belə kompleks yanaşma insanın özünü şəxsiyyət transformasiyasının subyekti kimi dərk etməsini təmin edir və sosial adaptasiyasını gücləndirir.
Açar sözlər: kəkələmə, nevrotik, reabilitasiya, psixoloji dəstək, ailə qrupu loqopsixoterapiyası.

STUTTERING AS A PSYCHOLOGICAL PROBLEM

Turan Albanda SHAHVALADLI GADIMOVA
Head teacher of the "Special education" department of the Azerbaijan State Pedagogical University
Doctoral student of Azerbaijan State Pedagogical University
Orcid: https://orcid.org/0000-0001-5680-441X
E-mail: turan.shahvaladliqadimova@adpu.edu.az

Abstract: This article explores stuttering not merely as a speech disorder but as a profound psychological issue. It examines the origins, mechanisms, speech behavior strategies, forms of psychological support, and the role of family group logopsychotherapy in treatment. Stuttering is considered one of the most complex speech disorders in terms of both its development and progression. In its logoneurotic form, stuttering is often rooted in deep psychological tension, logophobia (fear of speaking), and decreased self-confidence. Research shows that such conditions frequently arise from early-life experiences such as family conflicts, physical trauma, sudden fright or loss, and prolonged emotional stress. Chronic psychological trauma, characterized by unresolved emotional conflict and long-term negative emotions, can negatively affect memory, attention, thinking, and the regulation of mental activity. Stuttering also significantly impacts an individual's social life: communication difficulties influence their relationships, professional performance, and self-perception. As a result, individuals who stutter often experience reduced self-esteem, social withdrawal, and symptoms of anxiety or depression. Many parents and even some specialists still view stuttering purely as a medical issue, focusing mainly on pharmacological treatments; however, this approach fails to address the core psychological factors underlying the condition. It has been proven that psychological factors play an important role alongside medical factors in the course of stuttering, and the problem cannot be eliminated solely through medication.

The article emphasizes that the correction of stuttering should not be limited to the technical aspects of speech; psychological and emotional rehabilitation play a central role. Therefore, the logopsychotherapeutic approach is considered one of the most effective methods in the correction of stuttering observed in children, adolescents, and adults. Within this approach, the combined application of psychocorrection, psychological counseling, and psychotherapeutic methods is deemed appropriate. The regulation of family relationships, mutual understanding, and emotional support are crucial for successful rehabilitation. From this perspective, family group logopsychotherapy — a therapeutic approach combining speech correction and emotional therapy with active participation of family members — is presented as one of the most effective methods. Such a comprehensive approach enables the individual to to perceive themselves as an active subject of personal transformation and promotes greater social adaptation.
Key words: stuttering, neurotic, rehabilitation, psychological support, family group logopsychotherapy.

ЗАИКАНИЕ КАК ПСИХОЛОГИЧЕСКАЯ ПРОБЛЕМА

Туран Албанда ШАХВЕЛЕДЛИ ГАДИМОВА
Старший преподаватель кафедры «Специальное образование» Азербайджанского государственного педагогического университета
Диссертант Азербайджанского Государственного Педагогического Университета
Orcid: https://orcid.org/0000-0001-5680-441X
Электронная почта: turan.shahvaladliqadimova@adpu.edu.az

Резюме: В данной статье заикание рассматривается не только как нарушение речи, но и как глубокая психологическая проблема. В работе подробно анализируются происхождение заикания, механизмы его возникновения и развития, стратегии речевого поведения, формы психологической поддержки, а также роль семейной групповой логопсихотерапии. Заикание считается одним из самых сложных и тяжёлых речевых расстройств по механизму возникновения и особенностям протекания. В основе логоневротической формы заикания, как правило, лежит глубокое психическое напряжение, логобофия (страх речи) и снижение уверенности в себе. Исследования показывают, что подобные состояния могут формироваться в детском возрасте под воздействием внутрисемейных конфликтов, физических травм, внезапного испуга или утраты, а также в результате длительного эмоционального давления. Хроническая психическая травма вызывает напряжение, которое негативно влияет на структуру психической деятельности человека, его внимание, память и мышление. У лиц, страдающих заиканием, наблюдаются также существенные изменения в социальной сфере: трудности в общении оказывают отрицательное воздействие на межличностные отношения, профессиональную деятельность и самооценку. Это, в свою очередь, приводит к утрате уверенности, социальной изоляции и формированию депрессивных состояний. Многие родители и даже некоторые специалисты до сих пор рассматривают заикание исключительно как медицинскую проблему, отдавая предпочтение медикаментозному лечению, однако подобный подход не устраняет проблему в её основе. Доказано, что в развитии и течении заикания наряду с медицинскими значительную роль играют психологические факторы, и устранить данное расстройство исключительно с помощью лекарственных средств невозможно. В статье подчёркивается, что коррекция заикания не должна ограничиваться только техническими аспектами речи; ведущая роль принадлежит восстановлению психологических и эмоциональных компонентов личности. Поэтому в коррекции заикания, наблюдаемого у детей, подростков и взрослых, логопсихотерапевтический подход рассматривается как один из наиболее эффективных методов. В рамках данного подхода целесообразно комплексное применение психокоррекции, психологического консультирования и психотерапевтических методик. Регуляция внутрисемейных отношений, взаимопонимание и поддержка играют важную роль в процессе реабилитации лиц, страдающих заиканием. В этом контексте семейная групповая логопсихотерапия — форма терапии, объединяющая речевую и эмоциональную реабилитацию при совместном участии членов семьи — представляется одним из наиболее действенных методов. Подобный комплексный подход способствует осознанию человеком себя как субъекта личностной трансформации и укрепляет его социальную адаптацию.
Ключевые слова: заикание, невротический, реабилитация, психологическая поддержка, семейная групповая логопсихотерапия.

Giriş

Hal-hazırda həm fərdlərin, həm də bütün sosial qrupların sosial-psixoloji adaptasiyasını yaxşılaşdırmaq üçün sistemlərin və kompleks proqramların işlənib hazırlanmasının vacibliyi onunla müəyyən edilir ki, hər hansı fiziki, psixoloji və ya psixosomatik patologiyanın olması qaçılmaz olaraq çətin "psixoloji fon" yaradır və dünya ilə müxtəlif əlaqələrin pozulması üçün münbit zəmindir. Yeniyetmələrdə və böyüklərdə nevrotik təzahürlərin, xüsusən də kəkələmənin açıq bir dərəcəsi onların ünsiyyətinə və şəxsi inkişafına təhrifedici təsir göstərir.

Ədəbiyyatlarda bir-biri ilə çox sıx əlaqədə olan iki qrup əlamətlər fərqləndirilir: bioloji (fizioloji) və sosial (psixoloji). Fizioloji əlamətlərə aiddir: nitq qıcolmaları, MSS-nin, fiziki sağlamlığın, ümumi və nitq motorikasının pozulmaları. Psixoloji əlamətlərə aiddir: nitq tutulmaları və ekspressiv nitqdə müxtəlif pozulmalar, diqqətin problem üzərində fiksasiyası fenomeni, loqofobiyalar və digər psixoloji xüsusiyyətlər. Tədqiqatlar göstərir ki, uşaqlar tərəfindən keçirilən kəskin və xroniki psixi travmalar nitq qıcolmalarının formalaşması ilə bilavasitə əlaqədardır. Kəskin psixi travma adətən qəfil baş verən, güclü emosional gərginlik və ya qorxu reaksiyasına səbəb olan birdəfəlik psixi sarsıntı kimi xarakterizə olunur. Belə travmaların mənbəyi kimi təbii fəlakətlər, qəza və katastrofalar, ailədaxili münaqişələr, fiziki zədələnmələr, tibbi müdaxilələr, həmçinin ev və vəhşi heyvanların hücumu kimi hallar göstərilə bilər. Uşaqların emosional baxımdan hazırlıqsız vəziyyətdə uşaq bağçasına məcburi aparılması da kəskin psixi travma effekti yarada bilər. Xroniki psixi travma isə uzunmüddətli, emosional cəhətdən həll edilməmiş konflikt situasiyaları nəticəsində formalaşan, mənfi emosiyaların davamlı şəkildə təkrarlanması ilə müşayiət olunan psixi vəziyyət kimi qiymətləndirilir. Belə hallar adətən emosional gərgin mühitə malik ailələrdə müşahidə edilir və uşağın psixoloji tarazlığına mənfi təsir göstərir. Əldə olunan müşahidələrə əsasən, bu cür travmatik təsirlər çox vaxt kəkələmənin başlanğıc mexanizmi rolunu oynayır: uşaqlarda məhz kəskin psixi travmadan sonra və ya uzunmüddətli konflikt şəraitində nitqdə qıcolma xarakterli tutulmalar meydana çıxır. Kəkələmənin formalaşması bəzən təqlid mexanizmi ilə də əlaqələndirilir. Belə ki, uşaq kəkələyən bir şəxsin nitqini eşidərək passiv şəkildə (qeyri-iradi şəkildə) və ya həmin şəxsi məsxərəyə qoymaq məqsədilə aktiv şəkildə (bilərəkdən) onu təqlid edə bilər. Hər iki halda bu, kəkələmənin psixoloji yolla "yoluxma" forması kimi qiymətləndirilir. Bəzi hallarda kəkələmə nitqin erkən inkişafı ilə əlaqədar olaraq da meydana çıxır. Valideynlərin uşaqlara həddindən artıq şeir və nağıl oxuması, onları tez-tez "danış", "təkrar et" kimi tələblərlə nitqə məcbur etməsi uşağın emosional gərginliyini artıraraq kəkələməyə zəmin yarada bilər. Eyni zamanda, irsi meyillilik də kəkələmənin yaranmasında mühüm rol oynayır. Uşağın genetik kodunda hərəki sistemin patoloji xüsusiyyətləri və ya şəxsiyyət aksentuasiya tipləri mövcud olduqda, bu xüsusiyyətlər əlverişsiz psixoloji və sosial şəraitdə kəkələmənin inkişafına şərait yarada bilər. Kəkələmə ünsiyyət prosesində nitqin ritminin və axıcılığının pozulması ilə özünü göstərən mürəkkəb psixofizioloji vəziyyət kimi müəyyən edilir. (Каппова,2003). Bu pozuntu kommunikativ xarakterli funksional nevrozlar qrupuna aiddir və nitqli ünsiyyətin pozulması hesab edilə bilər. Erkən yaşda formalaşan və yetkinliyə çatana qədər şəxsiyyətin inkişafını müşayiət edən kəkələmə, bir tərəfdən fərdin xarici mühitlə əlaqəsini, digər tərəfdən isə şəxsi inkişafını nəzərə çarpacaq dərəcədə pozur. Bu pozuntuda fərdin öz nitq qüsuruna (V.I. Seliverstov) diqqət yetirməsi xüsusi məna kəsb edir ki, bu da təkcə səlis, ritmik nitqə deyil, həm də ünsiyyətdə özünü tam ifadə etmək imkanlarına mane olur. Kəkələmənin gedişi və mənfi təsirləri yeniyetməlik dövründən daha çox şiddətlənməyə başlayır. Bu nitq qüsuru şəxslərin həyatının bir çox sahələrində təkcə ünsiyyətə deyil, həm də şəxsi inkişafa mane olan amilə çevrilir.

Kəkələmə sadəcə nitq bacarığını deyil, həm də tam ünsiyyət qurma qabiliyyətini pozduğundan, kəkələyənlər tək (bəzən o qədər də çox deyil) nitq korreksiyasına deyil, həm də bütün səviyyələrdə pozulmuş nitq ünsiyyətinin bərpasına kömək edən psixoloji dəstək tələb edirlər: kommunikativ, perseptual və interaktiv. Bu, kəkələməyə psixoloji problem kimi baxmağa imkan verir. Psixoloji problem (yunan dilindən problema - tapşırıq, tapşırıq) insanın tələbatını (ehtiyac, motiv) təmin edə bilməməsi ilə əlaqələndirilir. Bu mümkünsüzlüyün səbəbi və istəyin özü insanın psixikasında, daxili aləmində, özünə və dünyaya münasibətindədir. Buna görə də, psixoloji problem yalnız daxili vasitələrlə, bəzən ilkin istəkdən imtina etməklə həll edilə bilər. Yardım göstərənlərin vəzifəsi xarici həyat şəraitində onların nəzarətindən kənar bir şeyi dəyişdirməkdənsə, şəxsin özünü dəyişməsinə kömək etməkdir.

Nəzəriyyə

Kəkələməni psixoloji problem kimi araşdıraq. Kəkələmə probleminin psixoloji aspekti bir çox tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə aparılan araşdırmalar uşaqların fərdi-psixoloji xüsusiyyətlərini, həmçinin kəkələmənin psixi fəaliyyətin strukturuna təsir mexanizmini müəyyənləşdirməyə yönəlmişdir. Kəkələyən uşaqlarda diqqət, yaddaş, təfəkkür və psixomotor fəaliyyətin öyrənilməsi göstərmişdir ki, onlarda psixi proseslərin quruluşu və özünü tənzimləmə mexanizmləri müəyyən dərəcədə dəyişmişdir. Belə uşaqlar, adətən, yüksək avtomatlaşma tələb edən fəaliyyət növlərini yerinə yetirməkdə çətinlik çəkirlər. Lakin fəaliyyət iradi nəzarət altında həyata keçirildikdə, kəkələyən və normal danışan fərdlər arasında məhsuldarlıq baxımından ciddi fərq müşahidə olunmur. Psixomotor fəaliyyət bu baxımdan istisna təşkil edir: sağlam uşaqlarda psixomotor aktların çoxu avtomatik şəkildə, iradi

nəzarət olmadan yerinə yetirilirsə, kəkələyən uşaqlarda bu proses iradi tənzimləməni tələb edən mürəkkəb mexanizm kimi formalaşır. Kəkələyən fərdlər normal danışanlardan psixi proseslərin yüksək inertliyi və sinir sisteminin hərəkətliliyinin azalması ilə fərqlənirlər. Onlarda perseverativ hallar, yəni müəyyən nitq və davranış formalarının təkrarlanmağa meyilli olması, daha çox müşahidə edilir. Kəkələyən şəxslərin şəxsi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi həm klinik müşahidə, həm də eksperimental-psixoloji metodlar vasitəsilə səmərəli şəkildə aparılır. Bu tədqiqatlar göstərir ki, kəkələyən fərdlərə narahatlıq, şübhəlilik, fobiya hallarına meyillilik, özünə inamsızlıq, emosional qapalılıq və depressiv tendensiyalar xasdır. Onlarda qüsura münasibətdə passiv-müdafiə və aqressiv-müdafiə tipli reaksiya formaları da müşahidə edilir.

Psixolinqvistik aspektdən kəkələməyə. Kəkələmənin psixolinqvistik aspektdən öyrənilməsi nitq prosesinin hansı mərhələsində qıcolmaların baş verdiyini müəyyən etməyə yönəlmişdir. Nitq kommunikasiya prosesi adətən üç əsas fazada nəzərdən keçirilir:

1. Nitqə tələbatın yaranması və kommunikativ məqsədin formalaşması;
2. Fikrin daxili nitq səviyyəsində yaranması və planlaşdırılması;
3. Daxili nitqin səsli formada realizasiyası.

Bu fazalar nitq fəaliyyətinin müxtəlif strukturlarında fərqli davametmə müddətinə və dinamikasına malikdir və həmişə ardıcıl şəkildə bir-birini izləməyə bilər.

Tədqiqatçı İ. Y. Abeleva hesab edir ki, kəkələmə, danışanın kommunikativ məqsədi və normal nitq potensialı mövcud olduğu halda, nitqə hazırlıq mərhələsində meydana çıxır. Müəllifin fikrincə, məhz bu mərhələdə tələffüz mexanizminin pozulması nəticəsində qıcolmalar baş verir. Bu səbəbdən Abeleva nitq fəaliyyətinə "hazırlıq fazası" adlı əlavə mərhələnin daxil edilməsini təklif etmişdir. Belə yanaşmaya görə, kəkələməyə xas olan qıcolmalar nitq prosesinin dördüncü – səsli realizasiya fazasında daha aydın şəkildə təzahür edir.

Logonevroz şəklində kəkələmənin səbəbləri və mexanizmlərinin tədqiqi göstərir ki, davamlı loqofobik çətinliklər bir çox nitqli ünsiyyətin natamamlığının nəticəsi kimi nəzərdən keçirilə bilər. Yarımçıq hərəkətlər konsepsiyası Geştalt terapiyasının mərkəzi anlayışlarından biridir və onun mənşəyi qavrayışın Geştalt psixologiyasındadır (B.F.Zeyqarnik, F.Perls, Polster və Polster). B.F.Zeyqarnik tamamlanma prinsipini irəli sürən yarımçıq hərəkətlərin yadda saxlanmasının təkmilləşdirilməsi fenomenini kəşf etdi: insan həmişə bir hərəkəti və ya vəziyyəti başa çatdırmağa çalışır, çünki tamamlanmamış hərəkətlər və vəziyyətlər həlli və həyata keçirilməsini tələb edən gərgin yüklü bir sistem təşkil edir. Tamamlanma prinsipi Geştalt terapiyasında tamamlanmamış hərəkətlər (situasiyalar) konsepsiyasının əsasına çevrildi. (Перлз, 2001).

Kəkələmədə tamamlanmamış nitq hərəkətinin əsasını kommunikativ aktın natamamlığı və qeyri-adekvatlığı, çox vaxt onun kəsilməsi və nəticədə ünsiyyət ehtiyacının ödənilməsinin kəsilməsi təşkil edir. Ünsiyyətdə bir insan aktiv, intensiv kommunikativ ehtiyaclarını ödəməyə, yəni tamamlanmamış kommunikativ vəziyyətləri tamamlamağa çalışır. Bununla belə, formalaşmış kəkələmədə biz əks tendensiyanın inkişafını müşahidə edirik - ünsiyyətin məhdudlaşdırılması və ya ondan imtina ilə ifadə olunan tamamlamadan yayınma. Kəkələmədə problemin mənbəyi ilkin tamamlanmamış ünsiyyətdir. Bu, təmasdan və onun kəsilməsindən narazılıq psixi vəziyyətinə səbəb olur. Bu, həmçinin resurs səfərbərliyi və yekun fəaliyyət səviyyəsində ünsiyyətdə aparıcı ehtiyacı kəsir. Psixolinqvistik təhlilə əsasən, kəkələmənin olması motivasiya səviyyəsindən başlayaraq nitq istehsalının bütün mərhələlərində, natamam, kəsilmiş ünsiyyət vəziyyətlərində keçmiş mənfi vəziyyətin təsirini daşıdığı zaman müəyyən edilir. Nevrozun patogenetik konsepsiyası nöqteyi-nəzərindən nevrotik kəkələmədə təkrarlanan mənfi psixi vəziyyətlər sonradan nəinki müşayiət etməyə, həm də hər bir şifahi ünsiyyət prosesindən əvvəl baş verir. Natamam ünsiyyət vəziyyətlərinin, təbii və tam ünsiyyət üçün ödənilməmiş ehtiyacların nevrotik patoloji dairəsi yaranır. Demək olar ki, kəkələyənlər yaş artdıqca mənfi nitq ünsiyyəti ilə bağlı təcrübə toplayırlar, bu da uğurla tamamlanmamış və mənfi psixi vəziyyətlərlə müşahidə edilir (özündən və nitqindən narazılıq, artan narahatlıq, əsəbilik, ümidsizlik və s.)

Fenomenoloji cəhətdən kəkələmə bütöv şəxsiyyətin bütün səviyyələrində özünü göstərir: düşüncələr, hisslər və hərəkətlər səviyyəsində. Biz tənəffüs, səs, nitq sürəti, bədən hissləri (nitq aparatının qıcolmaları, qamət və motor fəaliyyətindən əzələ hissləri və s.), o cümlədən emosiyalar səviyyəsində (narahatlıq, həyəcan, qorxu, etibarsızlıq) psixofiziki pozuntuların təzahürlərinin bütöv bir kompleksini görürük. Kəkələmə problemi bir çox psixoloji problemlərdən fərqli olaraq insanlardan gizlənə bilməz. Nekrasovanın fikrincə, kəkələmə təkcə eşitmə (klonik-tonik nitq tutulmaları, nitq fəndləri və nitq proqramının pozulması) deyil, həm də vizual olaraq (üz, ağız və boyun əzələlərində qıcolma təzahürləri, mimik tiklər və müşayiət olunan əl-qol hərəkətləri, ayaqları bükmə, nitq və ya nitq

proqramının pozulması, göz təması olmadan danışmaq, çevik olmayan ünsiyyət strategiyalar) müşayiət olunur. Kəkələmənin psixoloji problem kimi başqa bir xüsusiyyəti onun tibbi vəziyyət kimi maskalanmasıdır. Bəzi kəkələyənlər və onların valideynləri üçün kəkələmə hələ də ilk növbədə dərmanla müalicə tələb edən xəstəlikdir. Kəkələmənin ağır formalarında terapevtik müdaxiləyə ehtiyac inkar edilə bilməz, lakin bu, kəkələyənlərin ünsiyyətində yaranan psixoloji çətinlikləri heç bir şəkildə azaltmır. Kəkələyən insanlara psixoloji yardımın göstərilməsi məsələləri bu gün kifayət qədər öyrənilmişdir, lakin buna ehtiyac həmişə dərk olunmur. A.V. Petrovski və M.G. Yaroşevski psixoloji yardımı "insanların sosial və psixoloji səriştəsini artırmağa, həm fərdlərə, həm də qruplara və ya təşkilatlara psixoloji yardım göstərməyə yönəlmiş psixologiyanın praktiki tətbiqi sahəsi" kimi müəyyən edir. (Роджерс, 2001). Burada psixoloji yardım göstərməyin əsas üsulları da göstərilir: fərdi məsləhət və psixoloji işin qrup formaları, məsələn, psixokorreksiya, psixoprofilaktika, həmçinin psixoterapiya, o cümlədən qrup terapiyası.

Pasiyentə yönəlmiş psixoterapiyanın müəllifi Karl Rocersin vurğuladığı kimi, psixoloji yardım mütəxəssislə insan arasında xüsusi "kömək" münasibətlərinin yaradılmasından ibarətdir. Bu, "ən azı bir tərəfin digər tərəfin şəxsi böyüməsinə, inkişafına, daha yaxşı fəaliyyət göstərməsinə, yetkinləşməsinə və başqaları ilə anlaşmaq qabiliyyətinə töhfə vermək niyyətində olduğu münasibətdir". (Карповой, 2011). Faydalı əlaqələr, ilk növbədə, həyatın çətin anlarını yaşayan insanla empatiyada, bu təcrübələri anlamağa sövq etməkdə özünü göstərir. Bu, aktiv müdaxilə olmadan, sadəcə yanında olmaqla edilə bilər. Belə bir əlaqənin nəticəsi olaraq, başqası "daha tam bir insana, fərdiliyi daha qabarıq olan, özünü ifadə edə bilən bir insana" çevrilir. Ehtiyacı olan, davranış və ya ünsiyyətdə müəyyən çətinlikləri olan və həllini tələb edən birinə kömək göstərilə bilər. Problemi həll etmək və insanın özü öhdəsindən gələ bilmədiyi zaman kömək göstərmək üçün digər şəxsdən tələb olunur: 1) müəyyən resurslara malik olmaq; 2) problemi necə həll edəcəyini bilmək; 3) həll etmək üçün tədbirlər görmək. Üçüncü əlaqə mərkəzidir, çünki yalnız insanın öz hərəkətləri problemi həll edə və məyus olan ehtiyacı ödəyə bilər. Buna görə də, onların iştirakı olmadan bir insana kömək etmək, hətta ən yaxşı niyyətlə də mümkün deyil. Kəkələyənlərlə fərdi məsləhətləşmə və qrup işi təcrübəsini təhlil edərək belə qənaətə gəlirik ki, kəkələməni psixoloji problem kimi qəbul etmək onlar üçün asan deyil. Çox vaxt bu, sadəcə olaraq inkar edilir və bütün diqqətləri yalnız nitqlə işləməyə yönəldilir. Kəkələyənlər daha çox özlərini müdaxilə obyekti kimi təqdim edirlər və özlərinə psixoloji yardımın həqiqi subyekti olmağa daha az hazırdırlar.

Psixoloji problemlərin həllinə iki yanaşma var: 1) şəxsin özünə və öz güclü tərəflərinə güvənməsi ilə— "pasiyent ilə birlikdə" modeli; 2) psixoterapevtə güvənən pasiyent ilə - "pasiyent əvəzinə" model. Qeyd etmək lazımdır ki, hər iki yanaşma özünəməxsus şəkildə dəyərlidir, onlar bir-birini tamamlayır və faydalı, təsirli ola bilər. Bu və ya digər yardım növünün seçimi insanın vəziyyətindən, ehtiyaclarından və imkanlarından asılıdır. Bununla belə, birinci növ yardım subyektiv münasibətlərlə, ikincisi isə obyektiv münasibətlərlə daha sıx bağlıdır.

Təcrübə göstərir ki, psixoloji ünsiyyət probleminin həlli kimi kəkələmənin aradan qaldırılmasının effektivliyi kəkələyənin şəxsi iştirakı və tədricən şəxsi inkişafı ilə müəyyən edilir. Cədvəldə iki növ psixoloji yardım arasındakı fərqlər göstərilir. (Линде, 2002).

Psixoloji yardımın növləri:

Pasiyentin fərdi xüsusiyyətlərinə, həyat vəziyyətinə və öz təcrübələri və şəxsi potensiallarına dair məlumatlarına uyğunlaşdırılmış yardımın göstərilməsi. Psixoloqun əsas fərziyyəsi pasiyentin kifayət qədər səriştə və lazımi şəxsi resurslara malik olmasıdır. Psixoloqun vəzifəsi pasiyentin problemlərini müstəqil həll etmək bacarığını gücləndirmək və çətinlikləri aradan qaldırmaq üçün daxili resurslarını aktivləşdirməkdir. Müəyyən bir problemə hazır həllər, məsləhətlər şəklində kömək göstərmək, təklif və ya dəstək vasitəsilə çətinliklərin şiddətini azaltmaq. Psixoloqun əsas fərziyyəsi ondan ibarətdir ki, pasiyentin kifayət qədər səriştəsi və lazımi resursları yoxdur. Psixoloqun vəzifəsi problemin həlli üçün öz resurslarını təklif etmək və müştəri üçün konkret hərəkətləri nümayiş etdirməkdir.

Həyatda insan müəyyən sosial qarşılıqlı əlaqədə oynadığı roldan asılı olaraq eyni zamanda həm subyekt, həm də obyektdir. Hansının daha üstün olması vəziyyətdən asılıdır; seçim həmişə insanın özündən asılıdır. Bir şəxs öz iradəsinə zidd olaraq bir obyekt mövqeyində olduqda pisdir (cəzalandırılan və ya danlanan uşaq, gizli manipulyasiya edilən böyüklər). Bu halda insan sərbəst hərəkət edə bilməz. Tipik olaraq, problemi olan və nəticədə əzab və məyusluq yaşayan bir insan adekvat qərarlar qəbul etməyə mane olan travmatik vəziyyətdən asılıdır. Problem insanı çıxılmaz vəziyyətə salır, nəticədə o, subyekt deyil, "əzab obyektinə" çevrilir. Psixoterapevtin vəzifəsi insanı bu asılılıqdan azad etmək və daha çox öz vəziyyətinin subyekti etməkdir. Kəkələyən şəxsin öz həyatının subyekti kimi

problemi ilk dəfə humanist psixoterapiyanın banilərindən biri olan Karl Rocers tərəfindən qoyulmuşdur ki, o, pasiyentə yönəlmiş terapiya, yəni fərdi, onun şəxsiyyəti üzərində mərkəzləşdirilmiş terapiya yaradıb. Ən əsası, insanın sağlamlığı və özünü inkişaf etdirməsi üçün öz daxili gücləridir. (Роджерс, 2001). Odur ki, insan özünü subyekt kimi dərk edə bilər və etməlidir deyə iddia edirdi. Seçim vəziyyətində qərar verməyə hazır olan və seçilmiş yol üçün məsuliyyət daşımağı bacaran subyektdir. Çox vaxt bu, şəxsi inkişaf yoludur, onun mənbəyi, F.Perlsə görə, seçimin əhəmiyyətinin çox yüksək müəyyən edildiyi çıxılmaz vəziyyətlərdədir.

(Перлз, 2001). Məhz şüurlu seçim vasitəsilə fərd özü haqqında yeni biliklər və praktik fəaliyyətdə yeni təcrübə əldə edir: əvvəlcə terapiyada, sonra isə real həyatda. F.Perls fərdi inkişafın praktiki modelini yaratmış, onun şərtlərini, fərdi texnika və texnologiyalarını müəyyən etmiş, fərdi inkişafın məcburi ola bilməyəcəyini, öyrədilə bilməyəcəyini, ancaq asanlaşdırıla biləcəyini vurğulamışdır.

Metod

Bu sahədə aparılan tədqiqatlarda kəkələmənin psixoloji aspektlərini daha dərindən araşdırmaq və müasir yanaşmalarla qiymətləndirmək məqsədilə bir sıra innovativ metodlardan istifadə edilir. Ənənəvi loqopedik və müşahidə metodları ilə yanaşı, koqnitiv-davranış terapiya fərdin nitq zamanı yaşadığı qorxu və gərginliyin düşüncə səviyyəsində formalaşmasını təhlil etməyə və onu idarə etmə bacarığını inkişaf etdirməyə imkan verir. Biofeedback və neurofeedback texnologiyaları vasitəsilə beyin dalğalarının real vaxt rejimində izlənməsi və fərdin öz fizioloji reaksiyalarını tənzimləməsi təmin edilir ki, bu da nitq axıcılığının bərpasına müsbət təsir göstərir. Virtual reallıq əsaslı terapiya sosial situasiyaların simulyasiyası yolu ilə danışıq zamanı yaranan emosional gərginliyin azalmasına və sosial adaptasiyanın güclənməsinə şərait yaradır. Bundan başqa, rəqəmsal nitq tətbiqləri və mobil proqramlar nitq ritmini və səs tonunu izləmək, həmçinin fərdin gündəlik inkişafını ölçmək üçün əlavə diaqnostik vasitə kimi istifadə olunur. Eyni zamanda, mindfulness (şüurlu fərqindəlik) yanaşması və emosional intellektin inkişafına yönəlmiş psixoloji məşqlər danışıq zamanı yaranan həyəcanın azaldılmasına və özünə nəzarət mexanizmlərinin möhkəmləndirilməsinə xidmət edir. Bu metodların kombinə olunmuş tətbiqi kəkələmənin psixoloji və neyropsixoloji səbəblərinin kompleks tədqiqinə və fərdi korreksiya strategiyalarının formalaşdırılmasına imkan yaradır.

Sosial reabilitasiya prosesinin effektivliyi həmişə insanın özünü nə dərəcədə şəxsi transformasiya subyekti kimi qəbul etməsindən asılıdır. Şəxsiyyət yönümlü (psixoloji) psixoterapiya həmişə şəxsiyyətin subyektiv komponentinə müraciət edir - bu, onun fundamental fəlsəfəsinin bir hissəsidir. Psixoterapevt N.D.Linde subyekt mövqeyində olan şəxslə obyekt mövqeyində olan şəxs arasında aşağıdakı altı fərqi müəyyən edir (Линде, 2002).

1. Subyekt sərbəst fəaliyyət göstərir ki, bu da üç əsas hərəkət növü ilə ifadə olunur: a) təşəbbüs, yəni kortəbii, müstəqil təşəbbüslər və təkliflər; b) bir sıra alternativlər arasından ən məqbul olan qərarların qəbul edilməsi; c) özünü reallaşdırma, yəni öz qərarlarını və niyyətlərini həyata keçirmək üçün müstəqil hərəkətlər (muxtariyyət və məsuliyyət).

2. Subyekt zəngin, çoxşaxəli daxili aləmə malikdir və vəziyyəti, öz maraqlarını və hərəkətlərinin nəticələrini öz dərk etməsinə əsaslanaraq qərarlar qəbul edir.

3. Subyekt dəyişməyə qadirdir; onlar özlərində yeni keyfiyyətlər inkişaf etdirə, davranışlarını dəyişdirə, kortəbii və yeni keyfiyyətlərə və təcrübələrə açıq ola bilərlər.

4. Subyekt müstəqil inkişaf və özünü təkmilləşdirmə qabiliyyətinə malikdir; yəni bu gün onlar dünən həll etdiklərindən daha mürəkkəb vəzifələrin öhdəsindən gələ bilirlər, sabah isə daha mürəkkəb problemləri həll edəcəklər. Bu, intellektual və yaradıcı qabiliyyətlərə, eləcə də şəxsi inkişafa aiddir. Sonuncu psixoterapiya üçün xüsusilə vacibdir, çünki fərd daim inkişaf yolunda getdikcə daha mürəkkəb problemlərlə qarşılaşır və onları həll etməklə təkmilləşir.

5. Subyekt şəxsi perspektiv qurur, yəni onların indiki hərəkətləri və qərarları onların gələcəyi ilə bağlı müəyyən bir fikrə əsaslanır. Bu, onların mövcudluğunda mənalılıq hissi ilə ifadə olunur (Viktor Franklın həyatın mənası haqqında konsepsiyası). İnsan gələcək naminə, inkişafı naminə "burada və indi" nəhəng çətinliklərə tab gətirməyə qadirdir (səbəbini bilirsə, dözə bilər).

6. Subyektin həyatı çoxölçülüdür. O, eyni vaxtda, sanki, bir çox səviyyələrdə inkişaf edir, bunların hamısı tam varlıq üçün vacib və zəruridir (ailə, iş, hobbi, idman, mənəvi maraqlar, istirahət). Bütün bunlar mürəkkəb, çoxşaxəli həyatın kontekstini (bir növ bütöv geştalt) təşkil edir. Bu parametrlərdən birində nəzərəçarpan bir dəyişiklik (işdən narazılıq, istirahət edə bilməmə, spirtli içki içmək və s.) bütün həyat tərzinin məhvinə səbəb ola bilər.

Subyektin yuxarıda qeyd olunan keyfiyyətləri vahid sistem təşkil edir. Bu keyfiyyətlərdən birinin itirilməsi ciddi pozulmalara, hətta subyektivliyin itirilməsinə gətirib çıxarır, halbuki altı keyfiyyətin hamısının olması onun tam mövcudluğu üçün kifayətdir. Bu paradoksaldır, amma həqiqətdir: çox vaxt kəkələməsi olan bir şəxsin problemlərinin həlli

yükünü terapevtin üzərinə atmaq və obyektivlik vəziyyətini başqa formada saxlamaq ümidi ilə psixoterapevtə (daha çox həkim) gəlir. Psixoterapevtin köməyi isə insanı daha güclü, daha azad və müstəqil etməkdən ibarətdir ki, o, psixoloji çıxılmaz vəziyyətdən çıxıb özünü tam dərk edə bilsin. Uşaqlarda, yeniyetmələrdə və böyüklərdə kəkələmə kimi mürəkkəb nitq pozuntusunun aradan qaldırılması loqopsixoterapevtik yanaşma əsasında ən effektiv şəkildə həyata keçirilir. Bu istiqamətlərə loqo və psixokorreksiya, psixoloji məsləhət və psixoterapevtik metodlardan aid edilə bilər. 1960-1970-ci illərdə inkişaf etmiş loqopsixoterapevtik yanaşma loqopedik, psixoloji və psixoterapevtik işin qarşılıqlı əlaqəsinə və təkcə psixi funksiya kimi nitqə deyil, həm də kəkələyənin şəxsiyyətinə təsir göstərən müxtəlif üsulların bir-birinə nüfuz etməsinə əsaslanır. (Карпова, 2003). Bu yanaşma müasir psixoloji və loqopedik nəzəriyyə və kəkələmənin aradan qaldırılması təcrübəsində kəkələyənlərlə işin ən dəyərli üsul və formalarını özündə birləşdirən hərtərəfli, şəxsiyyət yönümlü və əsasən eklektikdir. Loqopsixoterapevt diqqəti insanın yaşadığı psixi vəziyyətləri araşdırmağa və təhlil etməyə, onları digər kommunikativ vəziyyətlərdə və ünsiyyət formalarında (cütlərdə, qrupda, komandada, ictimai yerlərdə) vəziyyətlərlə müqayisə etməyə yönəldir. Əlaqənin qurulması və kəsilməsi və ünsiyyətin qurulması üçün adi strategiyalar olduqca erkən qurulub formalaşdığından və şəxsin böyüdüyü ailə üçün xarakterik olduğundan, ailə yönümlü yanaşma özünü doğruldur. Ailə qrupu loqoterapiyası kəkələmənin güclənməsində və xronikiliyində valideynlərin dolayı iştirakı fenomenini araşdıraraq, hər bir qrup üzvünün valideynlərinin və qohumlarının sosial reabilitasiya prosesində fəal iştirakı prinsipini irəli sürür. Bu, valideyn-uşaq münasibətlərinin, xarakterik strategiyaların və əlaqənin təşkili (və ya kəsilməsi) üsullarının öyrənilməsini kifayət qədər vizual və maddi (qrupda valideynlərin olması səbəbindən), həm də psixoloji müdaxilə üçün olduqca açıq edir.

Nəticə və təkliflər

Kəkələmə bütün yaş dövrlərində müşahidə oluna bilər, lakin uşaqlıq və yeniyetməlik mərhələsində yaranması daha çox psixoloji təzyiqlərlə əlaqəlidir. Kəkələmənin formalaşmasında irsiyyət, ailədaxili münasibətlər, travmatik hadisələr, yüksək emosional gərginlik və sosial adaptasiya çətinlikləri kimi amillər mühüm rol oynayır. Elmi mənbələrin təhlili və praktik müşahidələr göstərir ki, kəkələmənin aradan qaldırılmasında yalnız loqopedik məşğələlər deyil, həm də psixoloji müdaxilə və sosial dəstək əsas rol oynayır. Problemin həlli multidissiplinar yanaşma tələb edir — yəni psixoloq, loqoped, nevroloq və pedaqoqun birgə fəaliyyəti vacibdir.

Beləliklə, kəkələmə probleminə kompleks yanaşma onun təkcə nitq səviyyəsində deyil, həm də emosional, davranış və şəxsiyyət səviyyəsində korreksiyasını təmin edə bilər. Ailə loqopsixoterapiyası bədənlə işin bütün növləri (kinesiterapiya, o cümlədən Strelnikov nəfəs məşqləri, səs məşqləri, vokal terapiya, avtogen təlim), məlumatlılıq (biblioterapiya, kommunikativ nitq təlimi, psixoterapevtik söhbətlər) və hisslər (simvol terapiyası, art terapiya, nağıl terapiyası) ilə xarakterizə olunur. (Карповой, 2011). Dəyişdirilmiş formada müxtəlif psixoloji üsullardan istifadə edilə bilər: müxtəlif vasitələrlə (oyun, bədii, şifahi, qeyri-şifahi) mənfi hisslərə cavab vermək, şəxsi dəyişiklik yolu ilə yeni kommunikativ təcrübə qazanma yolu kimi eksperimentlər və sağlam yaradıcı uyğunlaşma axtarışı (psixoterapevtik söhbətlər).

Kəkələməni nitq ünsiyyətində çətinliklərdə özünü göstərən psixoloji problem kimi başa düşmək bizə psixoloji işin prinsip və üsullarını onun aradan qaldırılması sahəsinə - ailə qrupu loqopsixoterapiyasına müraciət etməyə imkan verir. Bu, mövcud iş sahələrini zənginləşdirməyə, psixoloji təsirlərin və psixoloji qarşılıqlı əlaqənin təşkilində yeni təlimatlar və tətbiq nöqtələri axtarmağa imkan verir.

Kəkələmənin aradan qaldırılması, reabilitasiyası və ona psixoloji yanaşmanın genişləndirilməsi istiqamətində hansı işlər görülə bilər:

1. Erkən diaqnostika və profilaktika tədbirlərinin gücləndirilməsi

Məktəbəqədər yaş dövründən başlayaraq uşaqlarda nitq inkişafının mütəmadi müşahidəsi aparılmalı, kəkələmənin ilkin əlamətləri aşkarlandıqda psixoloq və loqoped tərəfindən erkən müdaxilə təmin edilməlidir.

2. Psixoloji reabilitasiya proqramlarının tətbiqi və genişləndirilməsi

Kəkələyən fərdlərlə işləyərkən kognitiv-bihevioral terapiya, relaksasiya, art-terapiya, musiqi terapiyası və qrup psixoterapiyası kimi üsulların tətbiqi tövsiyə olunur. Bu yanaşmalar fərdin özünə inamını və sosial aktivliyini bərpa etməyə kömək edir.

3. Ailə mühitində psixoloji maarifləndirmə və dəstək tədbirləri

Valideynlərə uşaqların nitqinə təzyiq göstərməmək, onları tənqid və ya məsxərəyə qoymamaq, səbirli və empatik ünsiyyət tərzi nümayiş etdirmək tövsiyə olunur.

4. Təhsil mühitində inklüziv yanaşmanın gücləndirilməsi

Məktəblərdə və ali təhsil müəssisələrində kəkələyən şagird və tələbələrin adaptasiyasını asanlaşdırmaq üçün inklüziv tədris mühiti yaradılmalıdır.

5. Kompleks reabilitasiya mərkəzlərinin yaradılması

6. İctimai maarifləndirmə və stereotiplərin aradan qaldırılması

Kütləvi informasiya vasitələrində və sosial mediada kəkələməyə qarşı mənfi stereotipləri aradan qaldıran maarifləndirici kampaniyalar keçirilməlidir. Cəmiyyətin bu şəxslərə anlayışlı yanaşmasını formalaşdırmaq psixoloji adaptasiya üçün mühüm amildir.

ƏDƏBİYYAT SİYAHISI:

